
AZƏRBAYCAN MİLLİ KİTABXANASI

ƏLAMƏTDAR VƏ TARİXİ GÜNLƏR

Şəhərsalma və Memarlıq İli



Təqvim 2026

Azərbaycan Milli Kitabxanası



Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır. İpək Yolu üzərində yerləşən və mühüm ticarət, sənətkarlıq, mədəniyyət mərkəzləri kimi Şərq ölkələri ilə sıx iqtisadi, siyasi və mədəni əlaqələr quran iri şəhərlərimizin özünəməxsus simasının formalaşmasında qiymətli memarlıq abidələri müstəsna rol oynamışdır.

Azərbaycan şəhərsalma və memarlıq sənətinin bariz nümunələri olub daim yüksək inkişaf səviyyəsinə görə seçilən tarixi şəhərlərimiz ötən dövrlərin memarlıq tendensiyalarına uyğun böyüyüb genişlənməklə bərabər, yerli mədəniyyətin əsas xüsusiyyətlərini qoruyub saxlamışdır.

Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscid, məbəd və türbələr milli memarlığın parlaq ənənələrini əks etdirir. Bədii-memarlıq həllinin kamilliyi baxımından iftixar hissi doğuran dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrindən Möminə xatun türbəsi, Xudafərin körpüsü, “Atəşgah” kompleksi və digər bu kimi misilsiz nümunələr Azərbaycanın memarlığının rəmzlərinə çevrilmişdir.

UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş nadir sərvətlərimiz – qədim və orta əsrlərin şəhər mədəniyyətini özündə təcəssüm etdirən İçərişəhər və Şirvanşahlar sarayı kompleksi, əzəmətli ruhunu indiyədək qoruyan Qız Qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı Azərbaycan şəhərsalma və memarlıq sənətinin dünya inciləri sırasında layiqli yer tutan yadigarlarıdır.

900 illiyi UNESCO çərçivəsində yubileyləri keçirilən böyük şəxsiyyətlər siyahısına daxil olunan qüdrətli sənətkar Əcəmi Naxçıvaninin Azərbaycan və Yaxın Şərq ölkələrinin orta əsrlər memarlığına güclü təsir göstərmiş yaradıcılığı dövrün memarlıq məktəbinin ən yüksək zirvəsidir.

Azərbaycan şəhərlərinin planlaşdırma quruluşunda və memarlıq tərzində artıq XIX əsrin ortalarına doğru müəyyən dəyişikliklər öz əksini tapmışdır. Sürətlə sənayeləşən Bakı şəhəri Şərq və Qərb memarlığının sintezində qədimliklə müasirliyin vəhdətindəki təkrarsız görkəmini məhz həmin vaxtlardan almağa başlamışdır.

Azərbaycan Respublikasında şəhərsalma və memarlıq fəaliyyətində milli ənənələrdən yaradıcı şəkildə istifadə olunmasına XX əsrdə xüsusi diqqət yetirilmişdir. Bu dövrdə bir sıra şəhərlər yenidən qurulmuş və onların əvvəlki siması dəyişmiş, bölgələrdə şəhərlərin planlaşdırılması önə çəkilmişdir. İki görkəmli memarın – Mikayıl Hüseynovun və Sadıq Dadaşovun fəaliyyətinin aparıcı yer tutduğu həmin dövr milli ənənələr zəminində yeni memarlıq üslubunun yaradılması ilə səciyyələnir.

Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər Azərbaycan şəhərsalma və memarlığının inkişafında xüsusi mərhələ təşkil edir. Tarixən təşəkkül tapmış Azərbaycan şəhərlərinin və bütöv şəhərsalma sistemlərinin qorunması ilə bağlı bu illərdə Ulu Öndərin təşəbbüsü əsasında vacib qərarlar qəbul edilmiş, tədbirlər həyata keçirilmiş, şəhərlərdə memarlıq abidələrinin bərpası üzrə planlı iş aparılmış, memarlıq və şəhərsalma fəaliyyətinin davamlılığını təmin edən institusional təsisatlar qurulmuşdur.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra şəhər quruculuğu sahəsindəki yeni təzahürlər ölkədə inşa edilən monumental komplekslərin memarlıq həllində özünü qabarıq büruzə vermişdir. Ötən müddətdə dövrün qabaqcıl yanaşmalarını və milli təcrübələri əks etdirən layihələrin gerçəkləşdirilməsi sayəsində şəhərsalma sənətinin yüksək mənəvi-estetik təsir gücünə malik orijinal nümunələri yaradılmışdır. Mövcud möhtəşəm binalar sırasına daimi yeniləşmə rəmzi olan Heydər Əliyev Mərkəzi, Alov qüllələri kimi modern üslublu unikal memarlıq abidələrinin və Ağ şəhər kompleksinin əlavə edilməsi ilə paytaxtın mənzərəsi daha da zənginləşmiş, regionların memarlıq siması xeyli dəyişərək yeni şəkil almışdır.

Bu gün də Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasında paytaxt və regionların tarazlı inkişafının təmin edilməsi və dayanıqlı məskunlaşmanın təşviqi, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluqlar təsbit edilməklə, memarlıq və şəhərsalma fəaliyyətinin prioritet istiqamətləri olaraq müəyyənləşdirilmişdir.

Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir. Böyük Qayıdışa dair I Dövlət Proqramına müvafiq qaydada “yaşıl enerji” zonası elan edilmiş bu ərazilərdə 2020–2025-ci illərdə – dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanmış və quruculuq işlərinə başlanılmışdır. Azərbaycanın mədəniyyət paytaxtı, xalqımızın qürur mənbəyi Şuşa şəhərinin əvvəlki memarlıq mühiti və əsl tarixi siması bərpa edilməklə dirçəldilməsi isə milli iradənin təzahürüdür.

Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma ilə əlaqədar qlobal çağırışların həllində, innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. BMT-nin Məskunlaşma Proqramı (“UN-Habitat”) ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir. BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın dayanıqlı şəhərsalma proseslərində artan rolunu göstərir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2026-cı il “Şəhərsalma və Memarlıq İli” elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 22 dekabr 2025-ci il

2026

UOT (059)
KBT Я25

Baş redaktor
Kərim Tahirov
Əməkdar mədəniyyət işçisi, professor

Məsul katib
Ədibə İsmayılova
Əməkdar mədəniyyət işçisi, tarix üzrə fəlsəfə doktoru

Redaktor
Xeyransa Abbasova

Təqvimin bu buraxılışı üçün materiallar Milli Kitabxananın Elmi redakdə, nəşriyyat işləri və mətbəə şöbəsinin əməkdaşları tərəfindən hazırlanmışdır.

Əlamətdar və tarixi günlər təqvimi – 2026 / Baş red. K.Tahirov; məsul katib Ə.İsamayılova; red. X.Abbasova. – Bakı: "Zərdabi Nəşr" MMC, 2025. – 1132 s.

ISBN: 978 - 9952 - 611 - 03 - 8

© Azərbaycan Milli Kitabxanası, 2025

ƏZİZ OXUCULAR!

Sizə təqdim etdiyimiz "Əlamətdar və tarixi günlər təqvimi" 1961-ci ildən nəşr edilir. 1970-ci ilin oktyabr ayından "Kitabxana işçisinə kömək" adı ilə çap olunan vəsaitin nəşri 1992-ci ildə dayandırılmış, 2005-ci ildən isə "Əlamətdar və tarixi günlər təqvimi" adı ilə yenidən çap olunmağa başlanmışdır.

Bu illər ərzində təqvim daha da təkmilləşdirilmiş, mövzu üzrə bölmələrin sayı artırılaraq həcmi genişləndirilmiş, əhatəli məlumat mənbəyi kimi formalaşmışdır.

Təqvimin əsas məqsədi geniş oxucu kütləsi və mütəxəssislərə respublikanın ictimai-siyasi, iqtisadi, mədəni, elmi həyatında baş verən ən mühüm hadisələri, Azərbaycanın elm və mədəniyyətininin görkəmli şəxsiyyətlədinin yubileyləri haqqında və digər əlamətdar hadisələr haqqında məlumatları çatdırmaqdır.

2015-ci ildən "Əlamətdar və tarixi günlər təqvimi" Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən nazirliyin aparatının struktur bölmələrinin və bütün mədəniyyət müəssisələrinin rəhbərləri üçün tövsiyə olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin 22 dekabr 2025-ci il tarixli Sərəncamı ilə 2026-cı il Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan olunmuşdur. Mədəniyyət işçiləri, müəllimlər, ziyalılar, kütləvi informasiya vasitələri və əsasən də kitabxana işçiləri üçün nəzərdə tutulan bu vəsaitin builki buraxılışı "Şəhərsalma və Memarlıq İli"-nə həsr olunmuşdur.

Təqvimdə Azərbaycanda formalaşmış şəhərsalma və memarlıq ənənələri, tarixi şəhərlər, ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscid, məbəd və türbələr, habelə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş nadir mədəni irs nümunələri barədə zəngin məlumatlar təqdim edilmişdir.

TƏQVİM 2026

"Əlamətdar və tarixi günlər təqvimi" il ərzində yubileyi qeyd olunacaq müəyyən əlamətdar hadisələr və həmin hadisələrə aid məlumatlarla bağlı günlərin seçmə siyahısından ibarət illik təqvimdir. Təqvimə milli və dünya ədəbiyyatının, incəsənətin, elmin, texnikanın və müxtəlif elm sahələrinin ən görkəmli nümayəndələri, Azərbaycan Respublikasının, keçmiş SSRİ-nin fəxri adlarına layiq görülmüş, həmçinin mədəniyyət, incəsənət, ədəbiyyat və elm sahələrində mühüm xidmətləri olan, elmi və yaradıcılıq fəaliyyəti göstərən insanlar haqqında, mədəniyyətlə bağlı milli və beynəlxalq günlər, peşə bayramları və digər mühüm məlumatlar daxil edilmişdir.

Hər bir məlumatda yubileyi qeyd olunacaq şəxsin doğulduğu gün, ay, il, əlamətdar hadisənin başvermə tarixi göstərilmişdir. Təqvimdə 2026-cı ildə yubileyləri qeyd olunacaq görkəmli şəxsiyyətlər və əlamətdar hadisələr haqqında məlumatlar aşağıdakı bölmələr üzrə verilmişdir:

Milli ədəbiyyat; Folklor; Dünya ədəbiyyatı; Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq; Musiqi. Opera. Balet; Teatr. Kino; Milli Qəhrəmanlar; İkinci Qarabağ Müharibəsi Şəhidləri; Siyasət. Hərbi iş; Tarix; Fəlsəfə. İqtisadiyyat. Hüquq; Mədəniyyət. Maarif. Təhsil; Coğrafiya. Geologiya; Riyaziyyat. Fizika. Astronomiya; Kimya. Biologiya. Tibb; Texnika. Mühəndis işi; Kitabxanaşünaslıq. Biblioqrafiya; İdman; Digər tarixi hadisələr.

Hər bölmədə məlumatlar ilin müvafiq ay və günləri üzrə (1 yanvardan 31 dekabradək) təqdim edilir. Təqvimdə şəxslərlə bağlı mətn-məlumatlar, əsasən onların doğum günləri üzrə təqdim olunur.

Təqvimin "Milli Qəhrəmanlar" bölməsində Birinci Qarabağ Müharibəsində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə Azərbaycanın Milli Qəhrəmanı fəxri adını alan Vətən övladları haqqında məlumat verilir.

2022-ci ildən Təqvim üçün "İkinci Qarabağ Müharibəsi Şəhidləri" adlı yeni bölmə hazırlanmışdır. Buraya 27 sentyabr 2020-ci il tarixindən 10 noyabr 2020-ci il tarixinədək davam edən 44 günlük hərbi əməliyyatlar zamanı Şanlı Qələbimizi tarixə yazdıran, Vətən uğrunda qəhrəmancasına şəhid olmuş igid əsgər və zabitlərimiz haqqında məlumat verilir.

2026-cı ildə qeyd olunacaq, lakin tarixi dəqiq bilinməyən yubileylər haqqında "Əlavələr" bölməsindən məlumat əldə etmək olar. Bu bölmədə Təqvimin mətnləri illər üzrə günbəgün, artan xronologiya üzrə verilib.

Təqvimin hər sayı yubileyi qeyd ediləcək görkəmli bir şəxsiyyətə və ya əlamətdar günə həsr olunur. Vəsaitin tam mətni kitabxananın saytında yerləşdirilir.

Oxucuların təqvimdən istifadəsini asanlaşdırmaq məqsədilə hər ayın ilk səhifəsində mündəricat verilmiş, təqvimin sonunda isə köməkçi əlifba göstəricisi tərtib edilmişdir.

Təqvimin hazırlanmasında Milli Kitabxananın fondunda mühafizə edilən Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti haqqında ensiklopedik toplu və nəşrlərdən, məzmuna uyğun kitablardan, dövri nəşrlərdən, həmçinin, mövzu üzrə müvafiq elektron mənbələrdən istifadə olunub. İstifadə olunmuş ədəbiyyat siyahısı təqvimin sonunda verilib.

Nəşrlə bağlı rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir, təklif və iradlarını Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

Ünvan: AZ-1000 Bakı şəh., Xaqani küç. 57;
E-mail: metodik@anl.az



At ili Türk və Şərq xalqlarının mədəniyyətində xüsusi yer tutan illərdən biridir. Qədim Türk təqviminə və Çin zodiak sisteminə görə At ili gücün, azadlığın, sürətin və iradənin rəmzi sayılır. At insan həyatında həm sədaqətli dost, həm də döyüş və zəhmət yoldaşı kimi mühüm rol oynadığı üçün bu ilin simvolik mənası olduqca dəyərlidir.

At ili adətən fəallıq, hərəkət və yeniliklərlə əlaqələndirilir. Bu ildə doğulan insanların enerjili, cəsarətli, ünsiyyətcil və müstəqil xarakterə malik olduqları düşünülür. Onlar risk etməkdən çəkinməz, yeni ideyalara açıq olar və liderlik xüsusiyyətləri ilə seçilərlər. Eyni zamanda At ilində doğulanlar azadlıqlarını çox sevdikləri üçün məhdudiyyətlərə dözümsüz ola bilərlər.

Tarixi mənbələrdə At ili tez-tez böyük dəyişikliklərin, səfərlərin və ictimai canlanmanın ili kimi qeyd olunur. Qədim dövrlərdə At ili müharibələr, köçlər və yeni torpaqların kəşfi ilə əlaqələndirilmişdir. Bu da atın sürət və güc simvolu olması ilə birbaşa bağlıdır.

Azərbaycan və ümumilikdə Türk mədəniyyətində at müqəddəs sayılmış, dastanlarda və folklorda qəhrəmanların ayrılmaz yoldaşı olmuşdur. “Dədə Qorqud” dastanlarında at igidin qanadı kimi təsvir edilir. Bu baxımdan At ili həm də igidlik, şərəf və sədaqət anlayışlarını özündə birləşdirir.

Nəticə olaraq, At ili dinamika, inkişaf və irəliyə doğru hərəkətin simvoludur. Bu il insanlara cəsarətli olmağı, məqsədlərinə doğru inamla irəliləməyi və azad ruhlarını qorumağı xatırladır. At ili yalnız bir təqvim ili deyil, həm də güclü iradə və həyat enerjisinin təcəssümüdür.

YANVAR



22 dekabr-
20 yanvar
Oğlaq bürcünün ünsürü torpaq, planeti Saturn, düşərli günü çərşənbə axşamı, şənbə, düşərsiz günü bazar ertəsi, cümə axşamı, metalı dəmir, uğurlu rəngi tündyaşıl, qara, göy,
uğursuz rəngi ağ, uğurlu daşı rubin, oniks, enerji verən
çiçəyi ağ qərənfil, qara lalə, uğurlu rəqəmi isə 3 və 5-dir.

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
			1	2	3	4
5	6	7	8	9	10	11
12	13	14	15	16	17	18
19	20	21	22	23	24	25
26	27	28	29	30	31	

- *Yeni il (01.01)*
- *"Azərbaycan Respublikasının dövlət dili haqqında" Qanun qüvvəyə minmişdir (04.01.2003)*
- *Dünya Qoruqları və Milli Parklar Günü (11.01.1997)*
- *Ümumxalq hüzn günü (20.01.1990)*

Şəhərsalma və Memarlıq İli



Azərbaycan Respublikasında 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır. İpək Yolu üzərində yerləşən və mühüm ticarət, sənətkarlıq, mədəniyyət mərkəzləri kimi Şərq ölkələri ilə sıx iqtisadi, siyasi və mədəni əlaqələr quran iri şəhərlərimizin özünəməxsus simasının formalaşmasında qiymətli memarlıq abidələri müstəsna rol oynamışdır.

Azərbaycan şəhərsalma və memarlıq sənətinin bariz nümunələri olub daim yüksək inkişaf səviyyəsinə görə seçilən tarixi şəhərlərimiz ötən dövrlərin memarlıq tendensiyalarına uyğun böyüyüb genişlənməklə bərabər, yerli mədəniyyətin əsas xüsusiyyətlərini qoruyub saxlamışdır.

Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan müdafiə qalaları, karvansaralar, məscid, məbəd və türbələr milli memarlığın parlaq ənənələrini əks etdirir. Bədii-memarlıq həllinin kamilliyi baxımından iftixar hissi doğuran dünya əhəmiyyətli tarix və mədəniyyət abidələrindən Möminə xatun türbəsi, Xudafərin körpüsü, “Atəşgah” kompleksi və digər bu kimi misilsiz nümunələr Azərbaycanın memarlığının rəmzlərinə çevrilmişdir.

UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş nadir sərvətlərimiz – qədim və orta əsrlərin şəhər mədəniyyətini özündə təcəssüm etdirən İçərişəhər və Şirvanşahlar sarayı kompleksi, əzəmətli ruhunu indiyədək qoruyan Qız Qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı Azərbaycan şəhərsalma və memarlıq sənətinin dünya inciləri sırasında layiqli yer tutan yadigarlarıdır.

900 illiyi UNESCO çərçivəsində yubileyləri keçirilən böyük şəxsiyyətlər siyahısına daxil olunan qüdrətli sənətkar Əcəmi Naxçıvaninin Azərbaycan və Yaxın Şərq ölkələrinin orta əsrlər memarlığına güclü təsir göstərmiş yaradıcılığı dövrün memarlıq məktəbinin ən yüksək zirvəsidir.

Azərbaycan şəhərlərinin planlaşdırma quruluşunda və memarlıq tərzində artıq XIX əsrin ortalarına doğru müəyyən dəyişikliklər öz əksini tapmışdır. Sürətlə sənayeləşən Bakı şəhəri Şərq və Qərb memarlığının sintezində qədimliklə müasirliyin vəhdətindəki təkrarsız görkəmini məhz həmin vaxtlardan almağa başlamışdır.

Azərbaycan Respublikasında şəhərsalma və memarlıq fəaliyyətində milli ənənələrdən yaradıcı şəkildə istifadə olunmasına XX əsrdə xüsusi diqqət yetirilmişdir. Bu dövrdə bir sıra şəhərlər yenidən qurulmuş və onların əvvəlki siması dəyişmiş, bölgələrdə şəhərlərin planlaşdırılması önə çəkilmişdir. İki görkəmli memarın – Mikayıl Hüseynovun və Sadıq Dadaşovun fəaliyyətinin aparıcı yer tutduğu həmin dövr milli ənənələr zəminində yeni memarlıq üslubunun yaradılması ilə səciyyələnir.

Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər Azərbaycan şəhərsalma və memarlığının inkişafında xüsusi mərhələ təşkil edir. Tarixən təşəkkül tapmış Azərbaycan şəhərlərinin və bütöv şəhərsalma sistemlərinin qorunması ilə bağlı bu illərdə Ulu Öndərin təşəbbüsü əsasında vacib qərarlar qəbul edilmiş, tədbirlər həyata keçirilmiş, şəhərlərdə memarlıq abidələrinin bərpası üzrə planlı iş aparılmış, memarlıq və şəhərsalma fəaliyyətinin davamlılığını təmin edən institusional təsisatlar qurulmuşdur.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra şəhər quruculuğu sahəsindəki yeni təzahürlər ölkədə inşa edilən monumental komplekslərin memarlıq həllində özünü qabarıq büruzə vermişdir. Ötən müddətdə dövrün qabaqcıl yanaşmalarını və milli təcrübələri əks etdirən layihələrin gerçəkləşdirilməsi sayəsində şəhərsalma sənətinin yüksək mənəvi-estetik təsir gücünə malik orijinal nümunələri yaradılmışdır. Mövcud möhtəşəm binalar sırasına daimi yeniləşmə rəmzi olan Heydər Əliyev Mərkəzi, Alov qüllələri kimi modern üslublu unikal memarlıq abidələrinin və Ağ şəhər kompleksinin əlavə edilməsi ilə paytaxtın mənzərəsi daha da zənginləşmiş, regionların memarlıq siması xeyli dəyişərək yeni şəkil almışdır.

Bu gün də Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasında paytaxt və regionların tarazlı inkişafının təmin edilməsi və dayanıqlı məskunlaşmanın təşviqi, Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluqlar təsbit edilməklə, memarlıq və şəhərsalma fəaliyyətinin prioritet istiqamətləri olaraq müəyyənləşdirilmişdir.

Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir. Böyük Qayıdışa dair I Dövlət Proqramına müvafiq qaydada "yaşıl enerji" zonası elan edilmiş bu ərazilərdə 2020–2025-ci illərdə – dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanmış və quruculuq işlərinə başlanılmışdır. Azərbaycanın mədəniyyət paytaxtı, xalqımızın qürur mənbəyi Şuşa şəhərinin əvvəlki memarlıq mühiti və əsl tarixi siması bərpa edilməklə dirçəldilməsi isə milli iradənin təzahürüdür.

Ölkəmiz iqlim dəyişmələri və şəhərsalma ilə əlaqədar qlobal çağırışların həllində, innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınır. BMT-nin Məskunlaşma Proqramı ("UN-Habitat") ilə birgə təşəbbüslər və bu çərçivədə memarların bir araya gəldiyi milli şəhərsalma forumları Azərbaycanın beynəlxalq tərəfdaşlarla ortaq fəaliyyətinin uğurlu nümunəsidir. BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərarı Azərbaycanın dayanıqlı şəhərsalma proseslərində artan rolunu göstərir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 22 dekabr 2025-ci il

YANVAR 2026



Milli ədəbiyyat

Əməkdar jurnalist, Naxçıvan MR-nın Əməkdar incəsənət xadimi, nasir, ssenarist, publisist İbrahimov Sadıq Qurbanqulu oğlunun (Sadıq Elcanlı) (12.01.1956) anadan olmasının 70 illiyi
Əməkdar incəsənət xadimi, şairə Ələkbərzadə Mədinə Nurulla qızının (Mədinə Gülgün) (17.01.1926-17.02.1991) anadan olmasının 100 illiyi 14
Mühacir şair, dramaturq, publisist Ağayev Cəmil İbrahim oğlunun (Abay Dağlı) (27.011906-1975) anadan olmasının 120 illiyi 15



Dünya ədəbiyyatı

Türk şair, yazıçı Camal Sürəya (09.01.1931-09.01.1990) anadan olmasının 95 illiyi
Amerika yazıçısı Cek Londonun (Con Qriffit Çeyni) (12.01.1876-22.11.1916) anadan olmasının 150 illiyi 16
Qırğızıstan yazıçısı Toloqon Qasımbəyovun (15.01.1931-16.06.2011) anadan olmasının 95 illiyi
Rus yazıçısı Saltıkov-Şedrin Mixail Yevqrafoviçin (27.01.1826-10.05.1889) anadan olmasının 200 illiyi 17



Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq

Əməkdar rəssam Quliyev Asim Rzaqulu oğlunun (09.01.1936-25.05.2012) anadan olmasının 90 illiyi 18
Əməkdar rəssam, heykəltəraş Azad Mikayil oğlu Əliyevin (22.01.1956) anadan olmasının 70 illiyi 18
Xalq rəssamı, xalçaçı-rəssam Mikayılzadə Eldar Hidayət oğlunun (18.01.1956) anadan olmasının 70 illiyi 19
Əməkdar incəsənət xadimi, rəssam Məmmədov Əyyub Əliağa oğlunun (24.01.1921-27.08.1994) anadan olmasının 105 illiyi



Musiqi. Opera. Balet

Əməkdar artist, müğənni Əzimi Səfurə Əli qızının (06.01.1946-27.11.2001) anadan olmasının 80 illiyi
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, musiqişünas İsmayılzadə Rauf Yusif oğlunun (07.01.1936-07.06.2015) anadan olmasının 90 illiyi 20
Əməkdar incəsənət xadimi, bəstəkar Əkbərov Tahir İsmayıl oğlunun (Tahir Əkbər) (20.01.1946-02.03.2018) anadan olmasının 80 illiyi 21
Əməkdar incəsənət xadimi, bəstəkar Adıgözəlzadə Həsənağa Əfrasiyab oğlunun (23.01.1946-29.04.2018) anadan olmasının 80 illiyi 22
Xalq artisti, qarmon ifaçısı İsrafilov Aftandil Eynulla oğlunun (24.01.1941-29.04.2023) anadan olmasının 85 illiyi 23
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, musiqişünas Əliyeva İmina

Hacıyevnanın (25.01.1956) anadan olmasının 70 illiyi
Xalq artisti, müğənni Kazımova Aygün Ələsgər qızının (26.01.1971) anadan olmasının 55 illiyi
Avstriya bəstəkarı Motsart Volfqanq Amadeyin (27.01.1756-05.12.1791) anadan olmasının 270 illiyi 24
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, pianoçu Ziyadlı Aydın Əbülfət oğlunun (29.01.1951) anadan olmasının 75 illiyi 25
Sənətşünaslıq doktoru, professor Abdullayeva Rəna Həbib qızının (30.01.1956) anadan olmasının 70 illiyi



Teatr. Kino

Əməkdar mədəniyyət işçisi, operator Zülalov Rüstəm Qəmbər oğlunun (03.01.1946-15.02.2011) anadan olmasının 80 illiyi
Xalq artisti, aktyor Dadaşov Rafael Məlik oğlunun (04.01.1946-16.03.2020) anadan olmasının 80 illiyi 26
Xalq artisti, kinorejissor Quliyev Eldar Tofiq oğlunun (18.01.1941-16.04.2021) anadan olmasının 85 illiyi 27
Xalq artisti, aktyor Şahsuvarov Aydın Ağa oğlunun (19.01.1931-02.06.1986) anadan olmasının 95 illiyi 28
Əməkdar artist, teatr və kino aktyoru Rəfiyev Elman Məmmədrza oğlunun (19.01.1971) anadan olmasının 55 illiyi
Əməkdar artist, teatr və kino aktyoru Rüstəmov Elşən Mərdan oğlunun (22.01.1971) anadan olmasının 55 illiyi
Əməkdar artist, teatr və kino aktyoru, teatr rejissoru Əliyev Sərvər Bəhlul oğlunun (22.01.1966) anadan olmasının 60 illiyi 29
Xalq artisti, aktyor Məmmədov Sabir Novruz oğlunun (24.01.1961) anadan olmasının 65 illiyi 30
Əməkdar artist, aktyor, rejissor, rəssam Məsimov Qurban Abdulla oğlunun (26.01.1971) anadan olmasının 55 illiyi
Xalq artisti, sirk ustası, jonqlyor Abdullayev Xosrov Abdulla oğlunun (29.01.1926-31.03.1980) anadan olmasının 100 illiyi 31



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Qasımov Natiq Səlim oğlunun (02.01.1971-?.03.1992) anadan olmasının 55 illiyi 32
Azərbaycanın Milli Qəhrəmanı Kərimov Elgiz Kərim oğlunun (05.01.1971-12.03.1992) anadan olmasının 55 illiyi 33
Azərbaycanın Milli Qəhrəmanı Ramazanov Şamil Ağasəf oğlunun (19.01.1976-17.03.1995) anadan olmasının 50 illiyi 34
Azərbaycanın Milli Qəhrəmanı Nəsirov Yalçın Canhəsən oğlunun (23.01.1976-24.03.1995) anadan olmasının 50 illiyi 35



İkinci Qarabağ Müharibəsi Şəhidləri

Əsgər Əlifov Rüfət Sehun oğlunun (01.01.2001-28.09.2020) anadan olmasının 25 illiyi 36
Gizir Məhəmmədli İsmayıl Mahir oğlunun (01.01.1996-27.09.2020) anadan olmasının 30 illiyi 36
Əsgər Həsənov Kənan Zirəddin oğlunun (01.01.2001-12.10.2020) anadan olmasının 25 illiyi 37
Əsgər Alxaslı Rəvan Cəmil oğlunun (01.01.1996-09.10.2020) anadan olmasının 30 illiyi 37
MAHHXHQ əsgər Qurbanov Rəcəb Elşən oğlunun (01.01.2001-06.10.2020) anadan olmasının 25 illiyi 38
Əsgər Səfərov Əfəndi Cahangir oğlunun (01.01.1996-09.11.2020) anadan olmasının 30 illiyi 38
MAHHXHQ əsgər Nağıyev Yusif Bərxudar oğlunun (01.01.1996-21.10.2020) anadan olmasının 30 illiyi 39
Leytenant Həsənov Aqil Nofəl oğlunun (06.01.1996-29.09.2020) anadan olmasının 30 illiyi 39
MAHHXHQ əsgər Səfərov Tamerlan Cavad oğlunun (06.01.2001-01.10.2020) anadan olmasının 25 illiyi 40
MAHHXHQ əsgər İlyasov Şükür Qənbər oğlunun (09.01.1991-27.09.2020) anadan olmasının 35 illiyi 40
Əsgər Əliyev Aydın Nəriman oğlunun (09.01.1991-28.11.2020) anadan olmasının 35 illiyi 41
Əsgər İmamverdiyev Elnur Vəfadar oğlunun (09.01.2001-25.10.2020) anadan olmasının 25 illiyi 41
Baş gizir İsmayılov Nizaməddin İsmayıl oğlunun (10.01.1981-27.09.2020) anadan olmasının 45 illiyi 42
MAHHXHQ əsgər Kəlbiyev Murad Məməziyad oğlunun (11.01.1996-05.10.2020) anadan olmasının 30 illiyi 42
Əsgər Məhərrəmov Niyaməddin Əmiraslan oğlunun (11.01.1986-06.10.2020) anadan olmasının 40 illiyi 43
Gizir Səlimov Cəmil Oqtay oğlunun (15.01.1991-29.09.2020) anadan olmasının 35 illiyi 43
Əsgər Məmmədov Münasib Elman oğlunun (15.01.1996-26.10.2020) anadan olmasının 30 illiyi 44
MAHHXHQ əsgər Cəfərov Vüsal Şəfi oğlunun (16.01.1996-06.11.2020) anadan olmasının 30 illiyi 44
Əsgər Ağayev Əhəd Bilal oğlunun (17.01.1986-01.11.2020) anadan olmasının 40 illiyi 45
Əsgər Hüseynov İlqar Yaşar oğlunun (17.01.2001-28.09.2020) anadan olmasının 25 illiyi 45

Əsgər Mənəfov Nicat Azad oğlunun (18.01.2001-04.11.2020) anadan olmasının 25 illiyi 46
MAHHXHQ əsgər Əliyev Tural Arif oğlunun (18.01.1991-02.11.2020) anadan olmasının 35 illiyi 46
Əsgər Bayramov Əmrah Hüseyn oğlunun (18.01.2001-09.10.2020) anadan olmasının 25 illiyi 47
MAHHXHQ kiçik çavuş Nurullayev Anar Siyavuş oğlunun (19.01.2001-30.09.2020) anadan olmasının 25 illiyi 47
Əsgər Bağırov Nurlan İsmayıl oğlunun (21.01.2001-25.10.2020) anadan olmasının 25 illiyi 48
MAHHXHQ əsgər Əkbərov Mətləb Zülfiqar oğlunun (21.01.2001-09.10.2020) anadan olmasının 25 illiyi 48
Əsgər Həsənli Amid İsaq oğlunun (21.01.1996-01.10.2020) anadan olmasının 30 illiyi 49
Əsgər Qasımov Orxan Rizvan oğlunun (21.01.1996-27.09.2020) anadan olmasının 30 illiyi 49
MAHHXHQ əsgər Tağızadə Dünyamin Ramin oğlunun (21.01.2001-30.09.2020) anadan olmasının 25 illiyi 50
MAHHXHQ əsgər Vəliyev Şəmsəddin Aqil oğlunun (22.01.2001-24.10.2020) anadan olmasının 25 illiyi 50
Əsgər Əliyev Elşən Novruz oğlunun (22.01.1986-14.10.2020) anadan olmasının 40 illiyi 51
MAHHXHQ kiçik çavuş Qarayev Amal Ədalət oğlunun (23.01.2001-04.10.2020) anadan olmasının 25 illiyi 51
Baş leytenant Hümbətov Azad Arif oğlunun (24.01.1996-27.09.2020) anadan olmasının 30 illiyi 52
MAHHXHQ əsgər Beydiyev Nazim Eynulla oğlunun (24.01.1991-02.10.2020) anadan olmasının 25 illiyi 53
MAHHXHQ əsgər Kərəmov Zaməddin Bahadur oğlunun (24.01.2001- 16.12.2020) anadan olmasının 25 illiyi 53
MAHHXHQ kiçik çavuş Bədirov Murad Qismət oğlunun (25.01.2001-18.10.2020) anadan olmasının 25 illiyi 54
Əsgər Məmmədli Murad Teymurşah oğlunun (27.01.1996-21.10.2020) anadan olmasının 30 illiyi 54
Əsgər Qurbanov Vahid Elşad oğlunun (27.01.2001-30.10.2020) anadan olmasının 25 illiyi 55
Baş gizir Hacıyev Teymur Zaur oğlunun (28.01.1991-13.10.2020) anadan olmasının 35 illiyi 55
Çavuş Əhmədli Elməddin Gülverən oğlunun (28.01.1996-03.11.2020) anadan olmasının 30 illiyi 56
Əsgər Həsənov Nemət Süleyman oğlunun (28.01.1996-22.10.2020) anadan olmasının 30 illiyi 56

Baş gizir Məmmədov Mahir Ağasəlim oğlunun (28.01.1981-17 10.2020) anadan olmasının 45 illiyi 57
MAHHXHQ əsgər Orucov Coşqun Oruc oğlunun (28.01.2001-21.10.2020) anadan olmasının 25 illiyi.....57
Baş gizir Quliyev Ramil Nuralı oğlunun (28.01.1981-29.09.2020) anadan olmasının 45 illiyi 58
MAHHXHQ əsgər Qocayev Seymur Mahir oğlunun (29.01.1996-07.11.2020) anadan olmasının 30 illiyi 58
Əsgər Kərimov Sübhan Murtuz oğlunun (29.01.1996-09.11.2020) anadan olmasının 30 illiyi 59
Leytenant Süleymanlı Kənan Sadıq oğlunun (30.01.1991-09.11.2020) anadan olmasının 35 illiyi 59
MAHHXHQ əsgər Hüseynov Vüsal Nadir oğlunun (30.01.1991-20.10.2020) anadan olmasının 35 illiyi 60
Əsgər Mayılov Rüfət Bəhrəm oğlunun (31.01.2001-30.09.2020) anadan olmasının 25 illiyi 60

Siyasət. Hərbi iş

Siyasi xadim, politoloq Musabəyov Rasim Nəsrəddin oğlunun (01.01.1951) anadan olmasının 75 illiyi 61
Dövlət xadimi Cəlilov Afiyəddin Cəlil oğlunun (08.01.1946-29.09.1994) anadan olmasının 80 illiyi 62
I dərəcəli dövlət ədliyyə müşaviri Qaralov Zakir Bəkir oğlunun (13.01.1956) anadan olmasının 70 illiyi
Hüquq elmləri doktoru, professor, biznesmen Rəhimov İlham Məmmədhəsən oğlunun (14.01.1951) anadan olmasının 75 illiyi 63
Hərbi xadim, general-mayor Qutqaşınlı İsmayıl bəy Sultan Nəsrulla oğlunun (27.01.1806/1809-14.08.1861/69) anadan olmasının 220 illiyi 64
Səfəvi imperiyasının hökmdarı Şah Abbasın (27.01.1571-19.01.1629) anadan olmasının 455 illiyi 65



Tarix

Tarix elmləri doktoru, professor İsgəndərov Anar Camal oğlunun (10.01.1956) anadan olmasının 70 illiyi 66
Akademik, tarix elmləri doktoru, şərqşünas Əlizadə Əbdülkərim Əli oğlunun (11.01.1906-03.12.1979) anadan olmasının 120 illiyi 67
Akademik, əməkdar elm xadimi, tarix elmləri doktoru Hacıyev İsmayıl Muxtar oğlunun (21.01.1951) anadan olmasının 75 illiyi 68
Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Aşurbəyli Sara Balabəy qızının (27.01.1906-17.07.2001) anadan olmasının 120 illiyi 69

YANVAR

2026



İqtisadiyyat. Fəlsəfə

AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, iqtisad elmləri doktoru Vəliyev Teymur Süleyman oğlunun (15.01.1926-03.04.2002) anadan olmasının 100 illiyi 70
İqtisad elmləri doktoru, professor Mehdiyev İmran Əzim oğlunun (21.01.1936-10.03.2023) anadan olmasının 90 illiyi 71



Mədəniyyət. Maarif. Təhsil

Əməkdar elm xadimi, pedaqoji elmlər doktoru, professor Rüstəmov Fərrux Abbas oğlunun (01.01.1961) anadan olmasının 65 illiyi 72
Əməkdar elm xadimi, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Qocayev Məmməd Qoca oğlunun (01.01.1941) anadan olmasının 85 illiyi
Əməkdar mədəniyyət işçisi, yazıçısı, ssenarist, dramaturq Rəhimli Rafiq Səfər oğlunun (03.01.1956) anadan olmasının 70 illiyi 73
Filologiya elmləri doktoru, professor Şərifova Salidə Şəmməd qızının (12.01.1971) anadan olmasının 55 illiyi
AMEA-nın müxbir üzvü, kənd təsərrüfatı üzrə elmlər doktoru, professor Cəfərov İbrahim Həsən oğlunun (20.01.1956) anadan olmasının 70 illiyi.....74
Nasir, publisist, tərcüməçi Məmmədrza Afiyət (Mərəndi) Abdulla oğlunun (22.01.1926-24.04.2011) anadan olmasının 100 illiyi 75
Əməkdar incəsənət xadimi, professor Quliyev Elşad Heybət oğlunun (23.01.1941-27.05.2008) anadan olmasının 85 illiyi 76
Publisist, tarixçi, sənətşünaslıq doktoru, professor İbrahimov Rafiq Hüseyn oğlunun (Rafiq İmrani) (23.01.1951) anadan olmasının 75 illiyi 77
Əməkdar elm xadimi, filologiya elmləri doktoru Dadaşzadə Araz Məmməd oğlunun (30.01.1936-02.11.1990) anadan olmasının 90 illiyi 78



Riyaziyyat. Fizika. Astronomiya

AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Qardaşov Rauf Hacı oğlunun (03.01.1956) anadan olmasının 70 illiyi 79
Akademik, riyaziyyatçı-alim Xəlilov Zahid İsmayıl oğlunun (14.01.1911-04.02.1974) anadan olmasının 115 illiyi



Kimya. Biologiya. Tibb

AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor Məmmədov Bəxtiyar Əjdər oğlunun (01.01.1951) anadan olmasının 75 illiyi
AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor

Qurbanov Elşad Məcnun oğlunun (02.01.1951) anadan olmasının 75 illiyi 80
Əməkdar həkim, tibb elmləri doktoru, mikrobioloq-immunoloq Mahmudbəyova Məryəm Fərəməz qızının (02.01.1921-1992) anadan olmasının 105 illiyi
Tibb elmləri doktoru Ağayev Faiq Firidun oğlunun (12.01.1951-03.07.2020) anadan olmasının 75 illiyi
Kimya elmləri doktoru, professor Qəhrəmanov Nəcəf Tofiq oğlunun (25.01.1946) anadan olmasının 80 illiyi 81
Əməkdar həkim, tibb elmləri doktoru, professor, əmək veteran Hüseynova Nəsibə Ağa İsmayıl qızının (25.01.1926--25.06.2025) anadan olmasının 100 illiyi 82
Akademik, biologiya üzrə elmlər doktoru, professor Əlizadə Validə Mövsüm qızının (31.01.1946) anadan olmasının 80 illiyi 83



Digər tarixi hadisələr

Yeni il bayramı (01.01.) 84
“Qarabağ Dirçəliş Fondu” yaradılmışdır (04.01.2021) 85
Azərbaycan İstiqlal Muzeyinin yaradılmasının (09.01.1991) 35 illiyi 86
Dünya Qoruqları və Milli Parklar Günü (11.01.1997) 87
Azərbaycan Respublikası Prezidenti “2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsi haqqında” Sərəncam imzalamışdır (11.01.2016)
Ümumxalq Hüzn Günü (20.01.1990) 88
Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzvlüyə qəbul olunmasının (25.01.2001) 25 ili
Dünya Ekoloji Təhsil Günü (26.01.1972)
Azərbaycan Respublikası Prezidenti Şuşa rayonunda xüsusi nümayəndəsinin təyin edilməsi haqqında Sərəncam imzalamışdır (27.01.2021)
Gömrük əməkdaşlarının peşə bayramı günü (30.01.1997)

Mədinə Gülgün – 100

(1926-1991)

Şair



Ədəbiyyat:

Seçilmiş əsərləri / Mədinə Gülgün; ön söz. müəl. Elçin. - Bakı: Şərq-Qərb, 2004. - 224 s.

Mən bu ömrü yaşadım [Elektron resurs]: [şeirlər] / Mədinə Gülgün; tərt. ed. və red. V. Sultanlı. - Bakı: Nurlan, 2010. - 208 s.

Əliyev, F. Mədinə Gülgün yaradıcılığında vətən / Fuad Əliyev // Kredo. - 2014.- 22 noyabr.- S.15.

Əliyeva, A. Bahar aşiqi olan zərif şairimiz: Mədinə Gülgün / Aynurə Əliyeva // Azad Azərbaycan. - 2017.- 22 dekabr - S. 7.

Azərbaycan: şeir / Mədinə Gülgün // Ədəbiyyat qəzeti. - 2018. - 26 may. - S. 17.

Ölümə qalib gələn qəhrəman: Firudin İbrahimi – 105 /M.Gülgün //Xalq qəzeti.-2023.-21 noyabr, № 253.- S.13.

Nəcəfxanlı, Ə. Gülgün çöhrəli, Təbriz həsrətli şairimiz /Ə.Nəcəfxanlı // Xalq qəzeti .-2023.- 17 yanvar.- S.7.

İnternetdə:

http://www.anl.az/down/meqale/edebiyyat/2018/may/593097.htm

http://www.anl.az/down/meqale/xalqqazeti/2023/

Mədinə Nurulla qızı Ələkbərzadə (Mədinə Gülgün) 1926-cı il yanvar ayının 17-də Bakıda anadan olmuşdur.

1938-ci ildə ailəliklə Cənubi Azərbaycana – Ərdəbil şəhərinə köçmüşlər. Sonra Təbriz şəhərində yaşamış, əmək fəaliyyətinə burada toxuculuq karxanasında başlamışdır. Cənubi Azərbaycanda milli hökumət yarandığı dövrdə Təbriz dram teatrında çalışmış, gənc yaşlarından milli demokratik hərəkata qoşulmuşdur. "Azərbaycan" qəzeti redaksiyasında xüsusi müxbir işləmişdir. 1946-cı ildə Təbriz qadınlar klubunun büro üzvü seçilmişdir.

1948-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) dil və ədəbiyyat fakültəsinə daxil olmuş, 1952-ci ildə həmin fakültəni bitirmişdir.

Sonradan Gülgün kimi şöhrət tapmış Mədinə Ələkbərzadənin ilk qələm təcrübələri 40-cı illərin əvvəllərindən qəzet və jurnal səhifələrində görünməyə başlayıb, şeirlərini 1945-ci ildə Təbrizdə "Vətən yolunda", "Azərbaycan" qəzetlərində çap etdirib. "Vətən yolunda" qəzeti redaksiyasının nəzdindəki "Şairlər məclisi"nin və 1946-cı ildə milli hökumət dövründə Təbrizdə yaranmış "Yazıçılar və şairlər cəmiyyəti"nin üzvü kimi fəaliyyət göstərmişdir.

Mədinə Gülgünün "Təbrizin baharı" adlı ilk şeir kitabı 1950-ci ildə işıq üzü görüb. Bu kitabda onun 1945-49-cu illərdə yazdığı şeirlər toplanıb.

Həyatının ilk illəri Azərbaycan xalqının azadlıq və milli istiqlaliyyət uğrunda apardığı mübarizə illərinə təsadüf etmiş və bu şeirlərində də öz əksini tapmışdır.

Mədinə Gülgünün Bakıda, Təbriz və Moskvada otuzdan artıq kitabı nəşr edilmişdir. "Təbrizin baharı" (1950), "Savalanın ətəklərində" (1950), "Sülhün səsi" (1951), "Yadigar üzük" (1953), "Təbriz qızı" (1956), "Dünyamızın sabahı" (1974), "Durnalar qayıdanda" (1983), "Dünya şirin dünyadır" (1989), "Çinar olaydı", "Arzu bir ömürdür", "Yora bilməz yollar məni" (1978), "Könlümü ümidlər yaşadır" və onlarca digər şeir kitabı dərc olunmuşdur. Bu kitabların başlıca mövzusu insan, azadlıq, Təbriz həsrəti, humanizm, və vətənpərvərlikdir.

Onun bir sıra lirik şeirlərinə mahnılar bəstələnmişdir.

Milli hökumət irtica qüvvələri tərəfindən dağıldıqdan sonra Mədinə Gülgün mühacirətdə yaşamalı olmuş, bədii yaradıcılıqla yanaşı, ictimai-siyasi fəaliyyətini də davam etdirmişdir. Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin üzvlüyünə namizəd, SSRİ-də yaşayan iranlı siyasi mühacirlər cəmiyyəti Azərbaycan şöbəsinin plenum üzvü, eləcə də Asiya və Afrika ölkələri həmrəyliyi Azərbaycan Respublika Komitəsinin üzvü seçilmişdir.

Əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur. Dünya xalqlarının azadlıq və istiqlaliyyət uğrunda mübarizəsini bir humanist şair kimi daim izləmiş, bədii yaradıcılığı ilə onların səsinə səs vermişdir.

1960, 1974, 1986-cı illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanları, 1980-cı ildə "Şərəf Nişanı" ordeni, 1946-cı ildə "21 Azər", 1948-ci ildə "Əmək veteranı" və digər medallarla təltif olunmuşdur. 1987-ci ildə Azərbaycan SSR-nin "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Mədinə Gülgün 1991-ci il fevral ayının 17-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Xalq şairi Rəsul Rza 1978-ci ildə "Azərbaycan qadını" jurnalında dərc olunmuş "Həsrət, ümid, inam nəğmələri" adlı məqaləsində Mədinə Gülgün poeziyasını geniş təhlil edərək şairin poeziyasında Təbriz mövzusunun önəmli yer tutduğunu göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə Mədinə Gülgülün "Seçilmiş əsərləri" çap olunmuşdur.

Abay Dağlı – 120

(1906-1989)

Şair



Ədəbiyyat:

Tahirli, A. Abay Dağlının həyat və yaradıcılığı: "Azərbaycan mühacirət ədəbiyyatı: təşəkkülü, inkişaf mərhələləri və problemləri" layihəsi] / A. Tahirli; elmi red. və ön sözün müəl. Elçin; [məsul red. T. Talıbova]; AMEA, Nizami Gəncəvi ad. Ədəbiyyat İn-tu. - Bakı: Elm və təhsil, 2025. - 167, [1] s.

İsmayılova, E. Mühacirət ədəbiyyatının tədqiqinə töhfə: Abid Tahirlinin "Abay Dağlının həyat və yaradıcılığı" monoqrafiyası haqqında düşüncələr / E.İsmayılova // Xalq qəzeti.-2025.- 2 iyul (№ 132).- S.10.

Yaqublu, N. Q. Unudulmuş Şuşa irsi – mühacir şair və yazıçı Mirzə Abay Dağlı: M.A.Dağlı / Nəsiman Yaqublu // Ədəbiyyat qəzeti.- 2022.- 13 avqust.- S.28.

Əhməd, D. Şuşalı mühacir dramaturq: "Müəllimlərimizdən Şeyx Şamili soruşurdum" D. Əhməd / Türküstan $g 2022.- 24-30 may.- S.4.

İnternetdə:

https://www.anl.az/down/meqale/azerbaycan/2022/oktyabr/818308.htm

Ədəbi aləmdə Mirzə Abay Dağlı kimi tanınan Cəmil İbrahim oğlu Ağayev 1906-cı il yanvarın 27-də Şuşa şəhərində anadan olmuşdur. İlk təhsilini Şuşa realnı məktəbində almışdır. Gənc yaşlarından ictimai və pedaqoji fəaliyyətə cəlb olunmuş, 1925–1927-ci illərdə pioner təşkilatçısı, 1927–1929-cu illərdə isə Azərbaycan Mərkəzi Partiya Məktəbinin müdavimi olmuşdur.1929–1932-ci illərdə Şəmkir rayonunun Zəyəm və Anino kənd məktəblərində müəllimlik etmişdir. 1932-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) filologiya fakültəsinə daxil olmuş, 1936-cı ildə ali təhsilini başa vurduqdan sonra təyinatla Nuxaya (Şəkiyə) göndərilmiş və burada Stalin adına Pedaqoji Texnikumda Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi çalışmışdır. Həmin dövrdə "Gənc işçi", "Kommunist", "Gənc pedaqoq", eləcə də Şəkidə nəşr olunan qəzetlərdə "Şuşalı", "A. Cəmil", "Ağayev Cəmil" və digər imzalarla şeir və məqalələr dərc etdirmişdir.

1940-cı ildə Bakıya köçmüş, Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində kiçik elmi işçi kimi fəaliyyətə başlamış, XI əsr Azərbaycan ədəbiyyatı ilə bağlı araşdırmalar aparmışdır. 1941-ci ildə hərbi xidmətə çağırılmış və İkinci Dünya müharibəsində iştirak etmişdir. Müharibədən sonra Sovet İttifaqı ərazisini tərk etmiş, əvvəl Münhendə, daha sonra Türkiyədə yaşamışdır. 1947-ci ilin sonlarından etibarən Türkiyədə mühacir həyatına başlamış, Sakarya və Adapazarı liseylərində müəllimlik etmişdir. Ömrünün son illərini Ankara və İstanbulda keçirmişdir.

Mirzə Abay Dağlının yaradıcılığı həm mühacirətəqədərki, həm də mühacirət dövrünü əhatə edir. Azərbaycanda yaşadığı illərdə əsasən publisistika və poeziya ilə məşğul olmuş, mühacirətdə isə dramaturgiya onun yaradıcılığında aparıcı yer tutmuşdur. O, müxtəlif dövrlərdə "Şuşalı", "A.Dağlı", "Abay Mirzə", "Rana", "A. Anar", "M.D." və digər təxəllüslərlə yazıb-yaratmışdır.

Mühacirət dövründə yazdığı əsərlərdə sovet totalitar rejiminin mahiyyəti, milli istiqlal ideyası, türkçülük və azərbaycançılıq əsas mövzular kimi çıxış edir. 1951-ci ildə Ankarada "Rana" imzası ilə nəşr edilən "Onlar türklərdi" əsəri Sibirə sürgün edilmiş türklərin taleyindən bəhs edir və müəllifin publisist nəsrinin mühüm nümunəsi hesab olunur. Bu əsər sonradan Azərbaycan dilinə uyğunlaşdırılaraq Bakıda çap edilmişdir.


Abay Dağlı dramaturq kimi əsasən tarixi və milli mövzulara müraciət etmişdir. "Dədə Qorqud", "Füzuli", "Natəvan", "Gənc ata", "Sakarya", "Atatürk", "Sakarya çetəsi", "Malazgirtdən Sakaryaya", "Sakaryada 22-ci gün", "Okullular", "Albay" və digər pyesləri Azərbaycan və Türkiyə tarixinin mühüm mərhələlərini, görkəmli şəxsiyyətlərini və istiqlal mübarizəsini əks etdirir. "Füzuli" pyesi Azərbaycan və Türkiyə ləhcələrində yazılmış, 1961-ci ildə Ankarada, 1968-ci ildə isə İstanbulda nəşr olunmuşdur.

Abay Dağlının yaradıcılığı həm Azərbaycan, həm də Türkiyə ədəbiyyatşünaslığında tədqiqat obyektinə çevrilmişdir. Onun həyat və yaradıcılığına dair sənədlər Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivində saxlanılır. 2000-ci ildə bacısı Xanım Abbasovanın təqdim etdiyi materiallar əsasında arxivdə "Şair, publisist, dramaturq Mirzə Abay Dağlı (Ağayev Cəmil İbrahim oğlu)" fondu yaradılmışdır. Fondda 1924–1997-ci illəri əhatə edən 310-dan artıq sənəd toplanmışdır.

Mirzə Abay Dağlı 1989-cu ildə İstanbulda vəfat etmişdir. Onun ədəbi irsi Azərbaycan mühacirət ədəbiyyatının mühüm tərkib hissəsi kimi milli-mənəvi dəyərlərin, istiqlal ideyalarının və tarixi yaddaşın bədii ifadəsi baxımından əhəmiyyət daşıyır.

Cek London – 150

(1876-1916) *Amerika yazıçısı*



Ədəbiyyat

Seçilmiş hekayələri / Cek London; tərt.-red. Ş.Quliyeva; rəssam E.Cabbarov. - [Bakı]: [Altun kitab], [2013]. - 207 s.

Böyük evin kiçik xanımı: roman / Cek London; tərc. F.İsmayılzadə; red. İ.Musalı. - Bakı: Qanun, 2019. - 351 s.

Martin İden: [roman] / Cek London; tərc. İ.İbrahimov. - Bakı: Qanun, 2019. - 399 s.

Həyat eşqi : hekayələr /Cek London ; tərc.: M. Süleymanov, M. Rzaquluzadə ; [naşir Ş. Xuduoğlu ; qapaq dizaynı R. Qasım].- [Bakı]: Qanun, [2023].-136 s.

Ağdiş : [roman : orijinaldan tərcümə] /Cek London ; ing. dil. tərc. A. Mahmudov ; red. T. Musayev ; tərtibatçı Z. Xəlilov ; cildin dizayneri B. Qafarov.-[-Bakı]: Parlaq imzalar,-[2024].-293, [1] s.

Cəfərli, T. Atası tərəfindən imtina edilən, qəzet satmaqla pul qazanan, təhsilini yarımçıq qoyan, bütün dünyada tanınan məşhur yazıçı – Cek London /T.Cəfərli //Ədəbiyyat qəzeti .-2024.- 6 iyul, №25.- S.26.

https://edebiyyat.ucoz.com/index/0-15

Con Qriffit Çeyni (Cek London) 1876-cı il yanvar ayının 12-də San-Fransisko şəhərində anadan olmuşdur. Cek London atalığının soyadını – Con London soyadını daşımışdır. O, 14 yaşında konserv fabrikində işləmiş, lakin çox ağır olduğundan işi tərk etməli olmuş, qadağan edilməsinə baxmayaraq San-Fransisko limanında dəniz ilbizləri ovu ilə məşğul olmuşdur.

1893-cü ildə Yaponiya sahillərinə və Beringə dəniz pişiyi ovuna çıxan gəmiyə matros düzəlmişdir. İlk dəniz səfəri onda olduqca böyük təəssüratlar oyatmaqla gələcək yaradıcılığına böyük təsir göstərmişdir.

Cek London yaradıcılığa 1893-cü il noyabr ayının 12-də dərc edilən "Yaponiya sahillərində tayfun" adlı oçerki ilə gəlmiş və bu onun ədəbiyyat karyerasının başlanğıcı olmuşdur.

O, 1896-cı ildə Berkeley Universitetinə daxil olmuş, 1897-ci ildə maddi problemlər səbəbindən universiteti tərk edərək, Alyaskaya qızıl axtarışına getmişdir. Bu səfəri 1898-ci ildə San-Fransiskoya qayıdan yazıçıya qızıl əvəzinə gələcək əsərlərinin qəhrəmanlarını bəxş etmişdir.

İlk Şimal hekayələri 1899-cu ildə dərc edilmiş, 1900-cu ildə isə onun ilk kitabı "Canavar oğlu" – hekayələr toplusu nəşr edilmişdir. Sonralar "Atalarının tanrısı" (Çikaqo, 1901), "Şaxtanın övladları" (Nyu-York, 1902), "İnsana inam" (Nyu-York, 1904), "Ayüzlü" (Nyu-York, 1906), "İtirilmiş sima" (Nyu-York, 1910) hekayələrindən ibarət toplu, "Həyat eşqi", "Qarlar qızı" (1902), "Dəniz canavarı" (1904) "Martin İden" (1908/09-cu ildə) yazıçıya böyük şöhrət gətirmişdir.

Cek London XX əsrin ilk onilliyində ən məhsuldar işləyən və ən çox nəşr edilən Amerika yazıçısı olmuşdur. O, dünya ədəbi proseslərini diqqətlə izləmiş, ədəbiyyat sahəsində xidmətləri ilə ən böyük korifeylər cərgəsində dayanmışdır.

Cek London 1916-cı il noyabr ayının 22-də Kaliforniyanın Qlen-Ellen şəhərciyində vəfat etmişdir.

Cek Londonun son romanı "Üç ürək" - 1920-ci ildə ölümündən sonra nəşr olunmuş və böyük maraqla qarşılanmışıdır.

Əsərlərinin motivləri əsasında 50-dən artıq film çəkilmişdir.

Cek Londonun əsərləri bir çox dillərə, o cümlədən Azərbaycan dilinə tərcümə edilmişdir. Onun əsərlərini dilimizə ilk dəfə hələ XIX-XX əsrlərdə X.Əzizbəyli və A.Əliyev tərcümə etmiş, "İtirilmiş səma", "Ağ diş" və "Belyu qoxusu" kitabları ərəb əlifbası ilə çapdan çıxmışdır. XX əsrin altmışıncı illərindən onun yaradıcılığına maraq daha da artmışdır. Xüsusilə "Martin İden" avtobioqrafik romanı tərcümə ədəbiyyatımız tarixində ciddi hadisə sayıla bilər.Onun ən məşhur əsərlərindən olan "Ədcdadların harayı" Seyran Şiriyevin tərcüməsində 2024-cü ildə "Altun kitab" nəşriyyatında və "Ağdiş" Anar Mahmudovun tərcüməsində "Parlaq imzalar" nəşriyyatında çap olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə 2005-ci ildə Cek Londonun "Seçilmiş əsərləri" nəşr edilmişdir.

Mixail Şedrin – 200

(1826-1889)

Rus yazıçısı



Saltıkov-Şedrin Mixail Yevqrafoviç (Nikolay Şedrin) 1826-cı il yanvar ayının 27-də (bəzi mənbələrdə 15-də) Tver quberniyasının Spas-Uqol kəndində anadan olmuşdur.

10 yaşında Moskva Dvoryan İnstitutuna daxil olmuş, 2 ildən sonra isə nümunəvi tələbə kimi Sarkoselski liseyə keçirilmişdir. Elə orada da yazıçılıq fəaliyyətinə başlamışdır. Mixail Şedrin uşaqlıq illərindən mütaliəni çox sevmiş, Moskva Dvoryan İnstitutunda təhsil alarkən V.A.Jukovski, A.S.Qriboyedov, M.Y.Lermontov kimi sənətkarların yaradıcılığından bəhrələnmişdir.

O, yaradıcılığa şeirlə başlamış və ilk yaradıcılıq nümunələri ara-sıra "Библиотека для чтения", "Современник" jurnallarında dərc edil mütləqiyyət üsuli-idarəsinə qarşı yönəldilmişdi ("Quberniya oçerkləri", 1856-1857, "Pompadurlar və pompadurşalar" və s.).

Onun satirik obrazları xalqın ictimai şüuruna daxil olmuşdur. "Bir şəhərin tarixi" (1869-1870) əsərində rəsmi tarixçiliyi təqlid edərək, şəhərin böyüklərinin gülməli satirik obrazlar qalereyasını yaratmışdır. Sosial-psixoloji "Cənab Qolovlyovlar" (1875-1880) romanında zadəganların mənəvi və fiziki iflasını təsvir etmişdir.

1858-1868-ci illərdə dövlət xidmətində çalışan Şedrin sonralar "Современ ник" jurnalının redaksiya heyətinə daxil olmuş, senzura təqiblərinə məruz qalmasına baxmayaraq, redaksiya daxili çəkişmələrdə jurnalın redaktoru N.A.Nekrasovla birlikdə N.Q.Çernışevski və N.A.Dobrolyubov kimi inqilabçı demokratların siyasi baxışlarını müdafiə etmişdir.

Şedrin 1857-1863-cü illərdə yazdığı "Nəsrlə satira", "Günahsız nağıllar" kimi silsilə hekayə və məqalələrində Rusiyada çürüməkdə olan rejimi ilkin göstərənlərdən idi.

"Zamanın xüsusiyyətləri", "Əyalət haqqında məktublar" satirik oçerklər silsiləsində Şedrin Rusiyanın mütərəqqi fikirli adamlarını xalqın siyasi tərbiyəsi ilə məşğul olmağa səsləyirdi.

"Современник" jurnalı bağlandıqdan sonra "Отечественные записки" jurnalına keçərək, taleyini axıra kimi bu jurnala bağlamış, jurnalın redaktoru olmuşdur.

Bədii yaradıcılığının zirvəsi olan "Bir şəhərin tarixi" (1869-1870), "Nəcib nitqlər" (1872-1876), "Müasir idilliya" (1877-1881), "Xalacığaza məktublar" (1881-1882) əsərlərində mütləqiyyət və təhkimçilik quruluşu kəskin satira atəşinə tutulmuş, o dövr rus cəmiyyətinin sosial ziddiyyətləri, kapitalist münasibətlərinin yaranması göstərilmişdir.

Mixail Şedrin ömrünün son illərində "Nağıllar" (1882-1886), "Həyatın təfərrüatı" (1886-1887) və s. kimi bədii sənət inciləri yaratmışdır. Onun bədii və publisistik əsərləri rus ədəbiyyatında tənqidi realizmi daha da inkişaf etdirmişdir.

Mixail Saltıkov Şedrin 1889-cu il may ayının 10-da Sankt-Peterburq şəhərində vəfat etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə 2006-cı ildə Mixail Şedrinin "Seçilmiş əsərləri" çap olunmuşdur.

Ədəbiyyat

Seçilmiş əsərləri /M.Y.Saltıkov-Şedrin; rus dil. tərc. ed.: B.Musayev, İ.Vəliyev, E.Cabbarov; ön sözün müəl. İ.Vəliyev. - Bakı: Şərq-Qərb, 2006. - 240 s.

Qolovlyovolu ağalar: [roman: rus dilindən tərcümə] / M.Y.Saltıkov-Şedrin; tərc. ed. N.Qocabəyli. - Bakı: TEAS Press, 2018.- 304 s.

Seçilmiş hekayələr /M. Y. Saltıkov-Şedrin ; tərc. A. Gündüz ; [red. Q. Nəcəfzadə ; qapaq dizaynı R. Qasım].- [Bakı]: - Qanun,- [2022].-87 s.

Hüseynova, H. Biz kimləri, nələri oxumuşuq / H.Hüseynova //Ulduz.- 2014.- № 2. -S.29.

Господа Головлевы:[сказки]/ М.Салтыков Щедрин. - Москва: АСТ, Транзиткнига, АСТ Москва, 2006. - 412 с

İnternetdə:

https://ek.anl.az/lib/item?id=chamo:903555&fromLocationLink=false&theme=e-kataloq

https://www.anl.az/down/meqale/edebiyyat/2021/fevral/736280.htm

9 YANVAR

Asim Quliyev – 90

(1936-2012)

Rəssam



İnternetdə
https://az.wikipedia.org/wiki/Asim_Quliyev_(r%C9%99ssam)

Asim Rzaqulu oğlu Quliyev 1936-cı il yanvar ayının 9-da Bakı şəhərində anadan olmuşdur.

O, 1957-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq məktəbini, 1964-cü ildə Tbilisi Dövlət Rəssamlıq Akademiyasının heykəltaraşlıq fakültəsini bitirmişdir.

1969-1970-ci illərdə SSRİ Rəssamlıq Akademiyasının yaradıcılıq emalatxanalarında təhsilini davam etdirmişdir.

Asim Quliyev 1967-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü olmuşdur.

O, Beynəlxalq Byennal, Simpoziumlarda qrup sərgilərin iştirakçısıdır.

Asim Quliyev Vaqif Nəzirov ilə birlikdə 1978-ci ildə Sumqayıt şəhərində yerləşən "Sülh göyərçini" monumental abidəsini işləmişdir. Həmin əsər Moskvada nümayiş edilmiş və medala layiq görülmüşdür. İmadəddin Nəsiminin (Sumqayıt, Nəsimi adına parkda), Vaqif Mustafazadənin və qızı Əzizənin Asim Quliyevin heykəltaraşlıq portretlərindəndir.

Asim Quliyevin əsərləri Moskva, Gürcüstan, Almaniya, Çexoslavakiya, Türkiyə və Azərbaycanda nümayiş olunmuşdur.

Görkəmli rəssam Asim Quliyevin yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 2006-cı ildə Azərbaycan Respublikasının Əməkdar rəssamı fəxri adına layiq görülmuşdür.

Asim Rzaqulu oğlu Quliyev 2012-ci il may ayının 25-də vəfat etmişdir.

22

Azad Əliyev – 70

(1956)

Heykəltəraş



İnternetdə:
https://az.wikipedia.org/wiki/Azad_%C6%8Fliyev_(heyk%C9%99ltara%C5%9F)

Azad Mikayil oğlu Əliyev 1956-cı il yanvar ayının 22-də Bakı şəhərində anadan olmuşdur.

1972-ci ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbinin heykəltaraşlıq fakültəsinə qəbul olmuş, 1976-cı ildə həmin fakültəni bitirmişdir. 1977-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə daxil olmuş, 1982-ci ildə Universiteti bitirmişdir.

1983-1986-cı illərdə SSRİ Rəssamlıq Akademiyasının yaradıcılıq emalatxanasına daxil olmuş, Akademik Ömər Eldarovun rəhbərliyi ilə elmi yaradıcılıqla məşğul olmuşdur. 1984-cü ildə Azərbaycan Rəssamlar İttifaqının üzvlüyünə qəbul edilmişdir.

2000-dən artıq əsərin müəllifidir. Əsərləri Azərbaycan, Rusiya, Polşa, Almaniya, Amerika, İtaliya, Fransa, Belçika, Avstriya, Mərkəzi Amerika, İran, Nepal, Türkiyənin şəxsi kolleksiyalarında saxlanılır, muzey və parklarını bəzəyir.

Azad Mikayil oğlu Əliyev 2018-ci il may ayının 27-də Azərbaycanın əməkdar rəssamı fəxri adına layiq görülmüşdür.

Eldar Mikayılzadə – 70

(1956) *Xalçaçı-rəssam*



Eldar Hidayət oğlu Mikayılzadə 1956-cı il yanvar ayının 18-də Bakının Əmircan kəndində anadan olmuşdur.

Eldar Mikayılzadə 1971-1975-ci illərdə Əzim Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinin Rəngkarlıq fakültəsində, 1978-1983-cü illərdə isə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) Dekorativ Tətbiqi Sənət fakültəsini Xalçaçılıq ixtisası üzrə ali təhsil almışdır. Daha sonra təhsilini o vaxtkı Leninqrad Rəssamlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda davam etdirmişdir.

O, 1984-cü ildən xalçaçı-rəssam kimi peşəkar fəaliyyətə başlayıb. 1983-1986-cı illərdə Azərbaycan SSR EA-nın (indiki AMEA) Memarlıq və İncəsənət institutun xalçaçılıq şöbəsində kiçik elmi işçi, 1986-1990-cı illərdə "Azərxalça" Elmi Yaradıcılıq İstehsalat Birliyində baş rəssam kimi çalışıb. Əmək fəaliyyətini həmin birlikdə baş direktorun müavini, baş direktor vəzifələrinin icraçısı olaraq davam etdirib. Sonralar özünün "Xalı" şirkətini yaradıb. 1993-2018-ci illərdə Qafqaz Müsəlmanları İdarəsinin Mədəniyyət işləri üzrə sədr müavini olub. 2005-ci ildən Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında pedaqoji fəaliyyətə başlayıb. Hazırda "Dekorativ-tətbiqi sənət" fakültəsi "Bədii toxuculuq və xalça sənəti" kafedrasının baş müəllimidir.

Eldar Mikayilzadə 1977-ci ildə yaratdığı ilk sənət əsərini doğma kəndinə həsr edib və onu "Yeni Xilə" adlandırıb. Bundan başqa o, "Bütöv Azərbaycan" (1981), "Şəbi-hicran" (1981, 2006), "Azərbaycan nağılları", "114. Bismillah", "Əfşan" (1983, 1995, 1996), "Nağıllar aləmi" (1983), "Rəsul Həmzətov" (1983), "Azərbaycanın musiqi korifeyləri" (1985), "Azərbaycanın poeziya korifeyləri" (1985), "Lətif Kərimov" (1986), "Şam (Füzuli)" (1989), "Xətai" (1990), "Bürclər" (1991, 2000), "Suliddin" (1991), "Xəmsə" (1990), "Sirlər xəzinəsi" (1992), "İslam" (1992), "Təbriznamə" (1993), "Namazlıq" (1993), "Hillari Klinton" (1994), "İthaf" (1995-1997), "Xilaskar" (1995-1997), "Moskvanın və bütün Rusiyanın patriarxı Aleksiyin portreti" (1997), "Üç din" (1998), "Peyğəmbərlərin şəcərəsi" (1998), "Tövrat" (1999), "Bütün Qafqazın şeyxülislamı Hacı Allahşükür Paşazadənin portreti" (1999), "İsanın zühuru" (2000), "Akademik Midhət Abbasovun portreti" (2000), "Bismillahir-rəhmanir-rəhim" (2003), "Üç peyğəmbər" (2004), "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev" (2003, 2008), "Pirəbədil" (2009), "Yaranış" (2010), "Kəhkəşan" (2012) və s. xalçaların müəllifidir. O, müəllimi Səttar Bəhlulzadəyə 4 xalça həsr edib: "Səttar dünyası" (1979), "Səttar Bəhlulzadə və dostları" (1982), "Səttar" (1999) və "Səttarın arzusu" (2012). Sonuncu xalçanın kompozisiyasında dahi rəssamın 36 rəngkarlıq əsərindən istifadə olunub.

Eldar Mikayilzadə 1978-ci ildə "Bakı" adlı xalça ilə ilk dəfə respublika sərgisində iştirak edib. 1983-cü ildə Beynəlxalq Xalça Simpoziumunda ilk dəfə Beynəlxalq sərgidə iştirak edib. Londonda, Moskvada, Parisdə, İstanbulda, Brüsseldə fərdi sərgiləri təşkil olunub. 2010-cu ilin mayında Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyində "Dahilərə ithaf" adlı sərgisi keçirilib. Əsərləri Rusiya, Böyük Britaniya, Fransa, Türkiyə, Səudiyyə Ərəbistanı, Küveytdə şəxsi kolleksiyalarda və muzeylərdə saxlanılır.

Eldar Mikayılzadə xalça motivlərindən istifadə edərək 1992-ci ildə tədavülə buraxılmış milli valyutanın eskizlərinin müəllifidir.

O,1986-cı ildən SSRİ Rəssamlar İttifaqının, 2004-cü ildən Rusiya Rəssamlar İttifaqının və YUNESKO yanında Rəssamlar Birliyinin üzvüdür. "Azərbaycan xalçaçıları" İctimai Birliyi İdarə Heyətinin üzvüdür.

Müəllifi olduğu "Yaranış" xalçası Frankfurtda, "Kəhkəşan" xalçası isə Amerikada keçirilmiş beynəlxalq sərgilərdə qızıl medala layiq görülüb.

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə 27 may 2018-ci ildə Azərbaycanın "Xalq rəssamı" fəxri adına layiq görülmüşdür.

Xalça yaradıçılığı ilə bağlı çoxlu sayda məqalələr, tədqiqat nümunələri var. 2013-cü ildə çap olunan "İlmələrin hikməti" adlı kataloq Xalq rəssamı Eldar Mikayılzadənin yaradıcılığına həsr olunmuş çox qiymətli nəşrdir.

Ədəbiyyat:

Əliyev, Z. "Səttarın arzusu" necə yarandı? / Ziyadxan Əliyev //Mədəniyyət. - 2018. - 15 iyun. - S. 12.

Sarıyeva, İ. Milli pulumuzun 26 yaşı oldu – ilk pulun eskizlərini hazırlayan rəssam... / İ.Sarıyeva // Bakı xəbər. - 2018. – 21 avqust. - S. 13.

Tağıyeva, R. Səmimiyyətin və peşəkarlığın harmoniyası / R.Tağıyeva // Xalq qəzeti. - 2016. - 24 yanvar. - S. 7.

Mükərrəmoğlu, M. Şairin yubileyinə qiymətli töhfə: [rəssamın "Nəsimi" xalçası haqqında] / Mehdi Mükərrəmoğlu // Xalq qəzeti. - 2019. - 11 oktyabr. - S. 11.

Altunbay, O. İlmələrlə tarix yaradan rəssam /O.Altunbay //Respublika .-2024.- 5 mart, № 50.- S.6.

Aslanova, G. Eldar Mikayılzadə yaradıcılığı: milli-ənənəvi sənətə yeni nəfəs /G.Aslanova //525-ci qəzet .-2023.- 28 fevral.- S.15.

İnternetdə:


http://www.anl.az/down/meqale/respublika/2024/mart/886489(meqale).pdf

http://www.anl.az/down/meqale/525/2023/fevral/838216.htm

Rauf İsmayılzadə – 90

(1936-2015)

Musiqişünas



Rauf Yusif oğlu İsmayılzadə 1936-cı il yanvar ayının 7-də Gəncə şəhərində anadan olmuşdur.

1956-cı ildə Gəncə Musiqi Texnikumunun tar sinfini bitirmiş, Xanlar (indiki Göygöl) rayon musiqi məktəbində tar müəllimi kimi fəaliyyətə başlamışdır. 1958-1963-cü illərdə Azərbaycan Dövlət Konservatoriyasının Xalq musiqi nəzəriyyəsi şöbəsində təhsil almışdır.

1963-cü ildə Gəncə Musiqi Texnikumunda musiqi nəzəriyyəsi üzrə müəllim kimi çalışmağa başlamışdır.

1965-ci ildə istehsalatdan ayrılmamaq şərtilə AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun dissertantı olmuşdur. Rauf İsmayılzadə 1972-ci ildə sənətşünaslıq elmləri namizədi adına layiq görülmüşdür. 1976-cı ildə SSRİ Bəstəkarlar İttifaqına üzv seçilmişdir.

1981-ci ildə Gəncədə Azərbaycan Bəstəkarlar İttifaqının Gəncə şöbəsi yaradılmış, bəstəkar Fikrət Əmirov şöbənin sədri, Rauf İsmayılzadə isə məsul katib seçilmişdir.

Musiqiçi alim olan Rauf İsmayılzadə ictimai xadim kimi də fəaliyyət göstərmişdir. O, 1981-1985-ci illər ərzində Gəncə şəhəri, Kəpəz rayon Sovetinin deputatı seçilmişdir.

Rauf İsmayılzadə 1988-ci ildə əmək veteranı olmuşdur. 1994-cü ilin iyun ayının 1-dən Azərbaycan Bəstəkarlar İttifaqının Gəncə şəhər şöbəsinin sədri seçilmişdir.

1996-cı ildən Yeni Azərbaycan Partiyasının üzvü idi.

Bir alim kimi Rauf İsmayılzadə 40 il ərzində müəllimliklə yanaşı yaradıcılıqla da məşğul olmuş, 500-dən artıq elmi və publisistik məqalənin, 20-ə yaxın kitabın müəllifidir. "Nizaminin musiqi dünyası" (2001), "Gəncədə ilk musiqi məktəbi" (2004), "Muğam rəngləri" (2005), "Fikrət Əmirov haqqında xatirələr" (2006), "Ulu Öndər Heydər Əliyevin kəlamları" (2007), "Gəncənin musiqi mədəniyyəti" (2008) və b. kitabları Rauf İsmayılzadənin Gəncənin musiqi tarixinə dair dəyərli töhfələridir.

2008-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Prezident mükafatına layiq görülmüşdür.

Rauf İsmayılzadə 2015-ci il iyun ayının 7-də Gəncədə vəfat etmişdir.

Ədəbiyyat:

Azərbaycan musiqi rəngləri / Rauf İsmayılzadə. - Bakı: İşıq, 1985.- 41, [3] s.

İsayev, Ə. M. Gəncəli tarzən Məşdi Mehdiyev / Ə.M.İsayev ; red. R. İsmayılzadə. - Bakı: Qismət, 2012. - 63 s.

İnternetdə

https://az.wikipedia.org/wiki/Rauf_%C4%B0smay%C4%B1lzad%C9%99

Tahir Əkbər - 80

(1946-2018)

Bəstəkar



Ə d ə b i y y a t:

"Həmrəylik himni" (Dünya Azərbaycanlıların həmrəylik himni) [Notlar]: simfonik orkestr və xor üçün / Tahir Əkpərov (Əkbər); söz. H.Həsənoğlu. - Bakı, 2015.- 15 s.

"Ya Rəbb"(İlahiyyat duaları, təsəvvüf musiqisi) [Notlar]: solistlər, xor, bədii qiraət və simfonik orkestr üçün poema / Tahir Əkbər; söz. C.Novruz.- Bakı, 2006. - 31 s.

Mən sənəti yox, sənət məni seçdi / Tahir Əkbər;müsahibəni apardı:A.Əziz // Kaspi. - 2016.- 19 fevral.- S.12.

Rəis, X. Mahnıları ilə çələng hörən bəstəkar: Əsərləri oxunacaq, dinləniləcək, seviləcək, amma Tahir Əkbər daha olmayacaq... / Xəyalə Rəis // Kaspi. - 2018.- 6 mart.- S.12.

Mədətoğlu, Ə. Tanrıdan gələn nəğmələr / Ə.Mədətoğlu //Ədalət .- 2020.- 15 dekabr.- S.7.

İ n t e r n e t d ə:

https://az.wikipedia.org/wiki/Tahir_%C6%8Fkb%C9%99r

http://www.anl.az/down/meqale/adalet/2020/dekabr/730822.htm

Tahir İsmayıl oğlu Əkbərov (Tahir Əkbər) 1946-cı il yanvar ayının 20-də Bakı şəhərində anadan olmuşdur.

1960-1965-ci illərdə F.Dzerjinski adına musiqi məktəbinin fortepiano şöbəsində, 1965-1969-cu illərdə isə Həmzə Həkimzadə Niyazi adına Daşkənd Musiqi Texnikumunun musiqi nəzəriyyəsi şöbəsində təhsil alıb. 1970-ci ildə Muxtar Əşrəfi adına Daşkənd Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsinə daxil olmuş, burada tanınmış bəstəkar, professor Boris Zeydmanın sonuncu azərbaycanlı tələbəsi olmuşdur.

Tahir Əkbər 1980-ci ildə ailəsi ilə Bakıya köçmüşdür və həmin il Azərbaycan Dövlət Radio və Televiziyasında musiqi redaktoru vəzifəsində işə başlamışdır. O, 1985-ci ildən Azərbaycan Bəstəkarlıq İttifaqının üzvü olmuşdur.

Müxtəlif janrlarda - xor musiqisi, simfonik və kamera əsərləri yaratmışdır. "Simfonik rənglər", ilahiyyat mövzusunda yazdığı "Amin" əsəri Azərbaycan professional musiqisində yeni janrlar hesab olunur.

Tahir Əkbərin yaradıcılığında həm xor musiqisinə, hər simfonik musiqiyə, həm də kamera musiqisinə rast gəlinir. Bəstəkar öz əsərlərində xalq musiqisinə, dini mövzuya, vətənpərvərlik və digər aktual mövzulara müraciət etmişdir. Azərbaycan professional musiqisində bəzi yeni janrların yaranması Tahir Əkbərin adı ilə əlaqələndirilir. Belə ki, "Simfonik rənglər" əsəri, ilahiyyat mövzusunda yazdığı "Amin" əsəri və onun davamı kimi yazdığı "Ya Rəbb" adlı volkal musiqi poemasında o, Üzeyir Hacıbəylinin, Fikrət Əmirovun və Ramiz Mustafayevin əsərləri üçün xarakterik olan din ilə əlaqəli musiqi ənənələrini davam etdirmiş, xüsusi özəlliklə sitat gətirmədən təsəvvüf ayinlərinə xas əhval-ruhiyyəli kompozisiyalar yaratmışdır. Beləliklə, Azərbaycan musiqisində təsəvvüf musiqisi janrının təməli qoyulmuşdur.

Tahir Əkbər əsərlərində Azərbaycan xalq musiqisinin ənənələrini istifadə etmiş və inkişaf etdirmişdir. Onun mürəkkəb formalı musiqi əsəri olan "Simfonik rənglər" əsəri həm də yeni bir simfonik forma kimi dəyərləndirilir.

Bəstəkarın bəstələdiyi onlarca mahnı, o cümlədən "Dərdin alım", "Heç küsməyin yeridirmi?", "Azərbaycan", "Əzizim", "Heyfim gəldi", "Qalardım", "Bir qız bir oğlanındır", "Xəzəllərin rəqsi" və başqa mahnılar görkəmli ifaçılarımız Şövkət Ələkbərova, Mirzə Babayev, Zeynəb Xanlarova və digər müğənnilər tərəfindən uğurla ifa olunmuşdur. Onun mahnıları nəinki Azərbaycan, hətta qardaş Türkiyə müğənnilərinin də ifalarında sevilə-sevilə səslənmişdir. Nəşə Karaböcək bəstəkarın "Heç küsməyin yeridirmi?" mahnısını repertuarına daxil etmiş, müntəzəm olaraq ifa etmişdir.

Tahir Əkbərin "Amin" mahnısı müğənni Brilliant Dadaşovanın ifasında Norveçdə Nobel mükafatının 100 illiyi ilə əlaqədar olaraq diskə salınmış və dünya xalqlarını sülhə çağıran bu disk Avropada geniş yayılmışdır.

Şanxayda keçirilən VIII Beynəlxalq Asiya müsabiqəsində Tahir Əkbərin "El oğlu, hay ver..." əsəri 26 ölkədən finala çıxan qaliblərdən biri olmuşdur. Bu mahnı dünya azərbaycanlılarına ünvanlanan və onları həmrəyliyə çağıran əzəmətli bir əsərdir. Bunun davamı kimi Dünya Azərbaycanlılarının II qurultayı ərəfəsində Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr etdiyi "Həmrəylik" himni xor və simfonik orkestrin ifasında səslənmişdir.


2006-cı il noyabr ayının 9-da Bəstəkarlar Birliyinin təqdimatı və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sərəncamı ilə Tahir Əkbərin 60 illik yubileyi Azərbaycan Dövlət Akademik Filarmoniyasında təntənəli şəkildə qeyd edilmişdir. 2012-ci il 14 sentyabr tarixində Milli Musiqi Günü ilə əlaqədar olaraq dövlət başçısının Sərəncamı ilə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. 2016-cı il aprelin 18-də isə Azərbaycan Bəstəkarlar İttifaqı tərəfindən Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında onun 70 illik yubileyinə həsr olunmuş yaradıcılıq gecəsi keçirilmişdir.

Tahir İsmayıl oğlu Əkbərov 2018-ci il mart ayının 2-də vəfat etmiş və Qurd qapısı qəbiristanlığında dəfn olunmuşdur.

Həsənağa Adıgözəlzadə - 80

(1946-2018)

Bəstəkar



Həsənağa Əfrasiyab oğlu Adıgözəlzadə 1946-cı il yanvar ayının 23-də Bakıda anadan olmuşdur.

O, musiqiylə altı yaşından maraqlanmağa başlamış, Bülbül adına Orta ixtisas musiqi məktəbini və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Bəstəkarlıq fakültəsini bitirmişdir.

Qara Qarayev, Cövdət Hacıyev kimi bəstəkarlarla birlikdə çalışmışdır. Həsən Adıgözəlzadə musiqi məktəbində, universitetdə musiqi nəzəriyyəsindən dərs demişdir. Azərbaycan Dövlət Televiziyası və Radiosunda musiqi verilişləri redaksiyasının redaktoru, Mədəniyyət Nazirliyinə bağlı xalq yaradıcılığı evinin direktor müavini, daha sonra isə Mədəniyyət Nazirliyində çalışmışdır. Beynəlxalq Muğam Mərkəzinə və SSRİ Mədəniyyət Fonduna bağlı Beynəlxalq "Qopuz" Azərbaycan Xalq Sənətləri Mərkəzinə rəhbərlik etmişdir.

Avropa və Asiyanın müxtəlif ölkələrində, Türkiyə, Rusiya, Fransa, Litva, Çexoslovakiya, Gürcüstan, Tacikistanda keçirilən simpoziumlara, konfranslara məruzəçi kimi iştirak etmişdir. Beynəlxalq yarışlarda münsif olmuş və Beynəlxalq tədbirlərdə, festivallarda drijorluq etmişdir. 2001-2002-ci illərdə Bolqarıstanın Plovdiv Musiqi Akademiyasının Uludağ Universiteti ilə birgə təşkil etdiyi "Gənclər Simfonik Orkestrı Bursa və Plovdiv şəhərlərində" festivalda dirijorluq etmişdir. 1991-ci ildən Uludağ Universitetinin Musiqi fakultəsində dərs demişdir.

1993-1994-cü illərdə Həsən Adıgözəlzadə Uludağ Universitetində çoxsəsli qarışıq xorun, 1994-1998-ci illərdə Otaq Orkestrının, 1996-1997-ci illərdə Böyükşəhər Bələdiyyəsində Nəfəsli Alətlər Ansambılının və 1997-1998-ci illərdə Bursa Simfonik Orkestrinin yaradıcısı və drijoru olmuşdur. 1994-2006-cı illərdə "Çizakça Çoxsəsli Xor"unun da dirijoru və 1996-1998 illərdə Bursa Böyükşəhər Bələdiyyəsində musiqi müşaviri vəzifəsində çalışmışdır.

Bəstəkar simfoniya, "Azərbaycan" və "Bursa" kantatası, xor və kamera-instrumental miniatürlər, violino solo və fortepiano üçün sonatalar, nəfəsli alətlər üçün Kvintet və Süita, marşlar, mahnılar, romanslar, teatr tamaşalarına musiqi, xalq çalğı alətlər üçün əsərlərin müəllifidir. Azərbaycan, Türk, Rus şairlərinin şeirlərinə yazılmış romansları və mahnıların, Uludağ Universiteti marşının müəllifidir. "İşıqlar" Hərbi Məktəbinin pop qrupu üçün yazdığı "Bayrağım" mahnısı İstanbul Musiqi Festivalında səsləndirmişdir.

Bursa üçün bəstələdiyi Bursa Kantatası Beynəlxalq Polifonik Xorlar Müsabiqəsində ən yaxşı musiqi mükafatına layiq görülmüşdür. 1998-ci ildə Ney və Simfonik orkestr üçün tarixdə ilk dəfə bəstələnən "İlahilər" kompozisiyası Beynəlxalq Bursa Festivalında ifa olunmuşdur.

O, rejissor Rauf Nağıyev tərəfindən 1988-ci ildə ekranlaşdırılmış satirik şair Mirzə Ələkbər Sabirin yaradıcılığından bəhs edən "Ağlar-güləyən" qısametrajlı sənədli-bədii filmində aktyor kimi də rol almışdır.

2009-cu ildə Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə "Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

2016-cı ildə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında bəstəkar Həsənağa Adıgözəlzadənin 70 illiyinə həsr olunmuş yubiley gecəsi keçirilmişdir.

Həsənağa Əfrasiyab oğlu Adıgözəlzadə 2018-ci il aprel ayının 29-da İstanbulda vəfat etmişdir.

Ədəbiyyat:

Babamın oyandırıcı "Segah" saatı [Notlar] : xalq çalğı alətləri və kamera orkestri üçün / Həsənağa Adıgözəlzadə. - [Bakı]: [n. y.], [2011?]. - 31 s.

Çalışan barmaqlar [Notlar]: uşaqlar üçün : fortepiano şəkili / Həsənağa Adıgözəlzadə. - [Bakı]: [n.y.], [1986?]. - [4] s.

İnternetdə

https://az.wikipedia.org/wiki/H%C9%99s%C9%99n_Ad%C4%B1g%C3%B6z%C9%99lzad%C9%99

https://azertag.az/xeber/bestekar_hesenaga_adigozelzadenin_yubiley_gecesi_kechirilib-1009847

Aftandil İsrafilov – 85

(1941-2023)

Qarmon ifaçısı



Aftandil Eynulla oğlu İsrafilov 1941-ci il yanvar ayının 24-də Bakıda anadan olmuşdur.

O, 1961-ci ildə Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) mülki tikinti fakültəsinə qəbul olmuşdur. Qarmona olan marağına görə təhsilini yarımçıq qoyaraq həyatını musiqiyə həsr etmişdir.

Avtandil İsrafilov "Azkonsert"in tərkibində ansambl yaradaraq bədii rəhbərliyini həyata keçirmişdir. 1970-ci ildə Zeynəb Xanlarova ilə birgə Türkiyədə qastrol səfərindən sonra onun ansamblının tərkibində dünyanın dörd bir yanında Azərbaycan musiqisinin təbliği ilə bağlı silsilə konsertlərdə çıxış etmişdir.

O, dinləyicilərin qəlbində silinməz izlər buraxmış 100-ə qədər musiqi havasının müəllifidir. Sənətkarın Azərbaycan radiosunda "Bəstənigar" muğamı (1968 - ci il), "Elmira" rəqsi, "Şursayağı", "Segah" muğamı, "Nazilə" rəqsi, "Kəmalə" rəqsi, "Zemfira" rəqsi, "Lirik melodiya" (1974 - cü il), "Nazilə" rəqsi, "Laləzər" (1975 - ci il), "Jalə" rəqsi, "Dağlar oğlu" rəqsi, xalq mahnısı "Aman ovçu", "Simrani" rəqsi, "Cəmilə" rəqsi, Ə.Tağıyev "Sədaqətim var", "Azərbaycan təranələri", "Şalaxo" rəqsi, C.Cahangirov "Alagöz", "Tərəkəmə" rəqsi, "Rəqs" (1977 - ci il), "Aynurə" rəqsi (1979 - cu il), "Basqalı" rəqsi (1983 - ci il), "Lirik melodiya", T.Quliyev "Qızıl üzük", "Qarabağ" rəqsi, "Nargilə" rəqsi, "Lirik melodiya", "Şahbuzu" rəqsi, Ə.Tağıyev "Sənsən həyatım mənim", "Zabul - Segah" muğamı, "Məhərrəmkənd" rəqsi, "Ağır rəqs", "Yeni rəqs", "Gülsümü" rəqsi, "Cəlalı" rəqsi, "Türk melodiyası", M.Əhmədova "Körpə balam dil açır" (1984 - cü il), "Naxçıvan" rəqsi, "Mən səni axtarıram" mahnı, "İran melodiyası", E.Sabitoğlu "Payız gəldi", xalq mahnısı "Küçələrə su səpmişəm", Ə.Tağıyev "Külək", "Yallı" rəqsi, mahnı "Bu gözəl zamanda", "Zemfira" rəqsi, "Qafqazı" rəqsi (1996 - ci il), "Ənzəli" rəqsi, "Qafqazı" rəqsi (2005 - ci il) və b. qorunan ifaları qorunub saxlanılır.

Avtandil İsrafilov "Ad günü" (film, 1977), "Məhəllə" (film, 2003), "Məhəllə 2 Moskvada" (film, 2004), "Xalq təranələri" (film) filmlərində musiqilər səsləndirmişdir.

Avtandil İsrafilov 2008-ci ildə Dağıstan Respublikasının Xalq Artisti adına layiq görülmüşdür. Onun Azərbaycan ifaçılıq məktəbinin inkişafındakı müstəsna xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1998-ci ildə Azərbaycan Respublikasının Xalq artisti fəxri adına, 2016-cı ildə "Şöhrət" ordeninə layiq görülmüşdür. O, 2003-cü ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

Aftandil Eynulla oğlu İsrafilov 2023-cü il aprel ayının 29-da vəfat etmiş, İkinci Fəxri Xiyabanda dəfn edilmişdir.

2021-ci ildə Avtandil İsrafilovun 80 illik yubileyi münasibətiylə Türkiyənin Qaziantep universitetinin professoru, sənətşünaslıq doktoru İlqar İmamverdiyev və Əli İmamverdinin müəllifi olduqları "Avtandil İsrafilovun 26 rəqs havaları" adlı kitab İKSAD yayın evi tərəfindən çap edilmişdir. Kitaba ön sözü professor İlqar İmamverdiyev yazıb. O, "80 yaşın mübarək, Avtandil İsrafilov" adlı ön sözdə sənətkarın yaradıcılıq yoluna işıq tutub, onun haqqında yazılmış əsərləri, türk dünyasında A.İsrafilova verilən dəyəri xatırlayıb.

Ədəbiyyat:

Avtandil İsrafilovun 26 rəqs havaları / İ. Cəmiloğlu [ön söz], Ə. İmamverdi. - [Ankara]: İKSAD, [2021].- 94 s.

Milli qarmon ifaçılığını müasirləşdirən və kamilləşdirən sənətkar: Aftandil İsrafilov – 80 /İ. İmamverdiyev //Xalq qəzeti .-2021.- 24 yanvar.- S.7. // Şərq .-2021.- 26 yanvar.- S.13.

Tale ona qarmonla sevilən sənətkar ömrü yazıb: "Müəllimim qulağım, beynim, ürəyim və barmaqlarımdır" / L.Azəri // Mədəniyyət .-2021.- 12 mart.- S.5.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Aftandil_%C4%B0srafilov

http://www.anl.az/down/meqale/xalqqazeti/2021/yanvar/731428(meqale).pdf

http://www.anl.az/down/meqale/medeniyyet/2021/mart/737946.htm

https://qarmon.az/az/azerbaycan-qarmonu/ifacilar/heyat-ve-yaradiciliq/15

Motsart - 270

(1756-1791)

Avstriya bəstəkarı



Volfqanq Amadey Motsart 1756-cı il yanvar ayının 27-də Avstriyanın Zalzburq arxiyepiskopluğunun eyniadlı şəhərində anadan olmuşdur.

Motsartın atası Leopold Motsart Zalzburq arxiyepiskop sarayının kapelmeyster müavini və bəstəkar idi. O, Motsarta mükəmməl musiqi təhsil vermiş, ona klavesin, orqan və skripkada ifa etməyi öyrətmişdir.

Motsartmusiqinin bir çox janrlarında simfoniya, sonata, simli kvartet, serenada və opera əsərləri yazmışdır. 1781-ci ilin yanvarında Motsartın "Idomeneo" operası Münhendə böyük uğurla səhnəyə qoyulmuşdur. Həmin ilin martında isə bəstəkar Vyanaya çağırılmışdır.

Motsartın Vyanaya gəlişi çox uğurlu alınmışdır. O əvvəlcə piano ifaçısı kimi çıxış etmiş və 1781-ci ilin 24 dekabrında İmperator sarayında təşkil olunmuş piano müsabiqəsində Muzio Klementi ilə yarışır və tezliklə özünü mahir piano ifaçısı kimi doğrultmuşdur.

Motsart bəstəkar kimi də böyük nailiyyətlərə imza atmışdır. 1781-1782-ci illər arasında "Die Entgührung aus dem Serai" l operasını yazmışdır. Bu əsər 16 iyul 1782-ci il tarixində səhnəyə qoyulmuş və müəllifə böyük uğur gətirmişdir. Əsər tezliklə Avropanın alman dilli bölgələrində də nümayiş etdirilmiş və bu Motsartın bəstəkarlıq şöhrətini daha da artırmışdır. Vyanaya qayıdışdan bir müddət sonra Motsart Haydnla tanış olur və iki böyük bəstəkar tezliklə dostlaşırlar. Haydn Vyanaya gələndə Motsartla görüşər və onlar birlikdə kvartetdə ifa edərdilər. Motsartın altı kvarteti Haydna həsr olunmuşdur.

1786-ci ildə "Fiqaronun toyu" operası Vyanada uğurla səhnəyə qoyulmuşdur. Əsər Praqada da böyük uğur qazanmışdır. Əsərin Praqa uğuru "Da Ponte" operasının sifarişi ilə nəticələnir və nəticədə "Don Ciovanni" operası yaranır. Praqa opera sevərləri əsərin 1787-ci il premyerasını həddindən çox bəyənirlər və əsər bir il sonra Vyanada da uğurla nümayiş olunur.

Bəstəkarın ömrünün son illərii böyük məhsuldarlıq və şəxsi dirçəlişi ilə yadda qalmışdır. Bu illərdə Motsart çoxlu sayda musiqi əsərləri yaratmışdır: "Sehrli fleyta", sonuncu piano konseri, Klarnet konserti, simli kvartet seriyasından son kvarteti, Ave verum corpus kilsə nəğməsi və bitirə bimədiyi Rekviyemi.

Motsart 1791-ci ildə imperatorun Praqada tacqoyma mərasimi ilə bağlı şənliklərdə nümayiş etdirilən "La clemenze di Tito" operasının 6 sentyabr premyerasında xəstələnir. Volfqanq Amadey Motsar 1791-cil il dekabr ayının 5-də vəfat etmişdir.

Qısa həyat yaşamağına baxmayaraq bəstəkar 48 simfoniya, piano və orkestr üçün 25 konsert, 2 skripka konseeti, çoxlu sayda sonatalar., triolar., kvartetlər, mahnıların və pyeslirin müəllifidir. Motsart həm də konsert janrının yaradıcısı olmuşdur. Onun əsərləri dünyanın ən nüfuzlu orkestrlərinin konsert repertuarlarının ayrılmaz parçasını təşkil edir.

Motsartın əsərləri Köxel kataloqunda toplanmışdır. Xronoloji qaydada tərtib olunmuş bu kataloqda hər bir əsər Köxel kataloq rəqəmi adlı spesifik rəqəmlə təyin edilir. Köxel kataloqunun ilk nəşri 1862-ci ildə Lüdviq fon Köxel tərəfindən tamamlanmışdır. O dövrdən etibarən kataloq ayrı-ayrı əsərlərin tarixi və müəllifə aid olduğunu dəqiq təyin etdikcə, təkrar-təkrar nəşr edilir.

Motsartın 2011-ci ildə Bakı şəhərində heykəli qoyulmuşdur. Abidənin açılışında Azərbaycan prezidenti İlham Əliyev və Avstriya prezidenti Haynts Fişer iştirak etmişdir. Heykəlin müəllifi Xalq rəssamı, heykəltaraş Natiq Əliyev və Əməkdar incəsənət xadimi, memar-rəssam Çingiz Fərzəliyevdir.

Ədəbiyyat

Pərvin. Motsart Opera Teatrımızda... / Pərvin // 525-ci qəzet.-2014.- 4 oktyabr.- S. 21.

Hüseynov, A. Avstriya bəstəkarının «Sehrli fleyta» operası Azərbaycan səhnəsində /Arif Hüseynov //Azərbaycan.-2011.- 26 oktyabr.- S. 12.

Моцарт и австрийский музыкальный театр / Е. Черная. -Москва: Музгиз, - 1963.- 432, [4] с.

Моцарт: биографический этюд /В. КоргановСанкт-Петербург: изд-ие товарищества М. О. Вольф, -1900.- 442, [7] с.

Вольфганг Моцарт: краткий очерк жизни и творчества / Ю. КремлевЛенинград: Тритон, -1935.-56 с.

İnternetdə

http://mk.musigi-dunya.az/composer_mosart.html

https://az.wikipedia.org/wiki/Volfqanq_Amadey_Motsart

Aydın Ziyadlı – 75

(1951) *Sənətşünas, pianoçu*



Aydın Əbülfət oğlu Ziyadlı 1951-ci il yanvar ayının 29-da Bakı şəhərində anadan olmuşdur.

1969-cu ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbini bitirmiş, həmin ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına qəbul olmuşdur. Konservatoriyada Lenin təqaüdü ilə təhsil almış, 1974-cü ildə konservatoriyanı fərqlənmə diplomu ilə tamamlamışdır.

Konservatoriyanı bitirdikdən sonra Aydın Ziyadlı Çerkazov adına Leninqrad Teatr, Musiqi və Kinematoqrafiya institutunun aspiranturasına qəbul olmuşdur. 1985-ci ildə tanınmış musiqişünas İzali İosifoviç Zemtsovskinin rəhbərliyi altında "Müasir Azərbaycan musiqisi" adlı dissertasiyanı uğurla müdafiə edərək sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi adını almışdır.

1991-ci ildən sənətşünas Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür.

Aydın Ziyadlının əsas yaradıcılığı xalq musiqisi ilə bağlıdır. O, xalq musiqisini müxtəlif - tarixi, nəzəri, elmi-məntiqi, ədəbi-poetik aspektlərdən tədqiq edib.

Pedaqoji sahəsi Konservatoriya ilə bağlıdır. Ömrünün təxminən 30 ilini bu musiqi ocağına həsr edib. 1991-ci ildən dosent kimi elmi-pedoqji işlə məşğul olub. O, uzun müddət Dövlət Konservatoriyasının müəllimi kimi çoxlu sayda tələbələr yetişdirib, yeni musiqişünaslar nəslinin hazırlanmasında mühüm xidmətlər göstərib.

Aydın Ziyadlının tədqiqat işlərinin bir qismi Azərbaycan Dövlət Konservatoriyasının elmi məqalələr məcmuələrində dərc olunub. O, musiqi və folklor problemləri ilə bağlı istər respublikada, istərsə də SSRİ miqyasında keçirilən elmi-praktik konfranslarda məruzələr edib.

Dünya Azərbaycanlıları Konqresinin üzvü və Konqresin İsveçdəki Mədəniyyət şöbəsinin müdiridir.

Aydın Ziyadlı 2003-cü ildən İsveçdə, Stokholm şəhərində yaşayır.

Ədəbiyyat

Ziyadoğlu Qacarlar: Ziyadxanovlar /Ə. Çingizoğlu ; elmi red. M. Qacar ; məsləhətçi A. Ziyadlı. - Bakı: Mütərcim, - 2017. - 255, [1] s.

İsmayıl xan Ziyadxanov : [monoqrafiya] /Ə. Çingizoğlu, A. Ziyadlı ; elmi red. Ş. Nurizadə ; red. M. Qaçar ; AMEA, M. Füzuli ad. Əlyazmalar İn-tu.Bakı: Mütərcim, 2021.151, [1] s.

Cavad xanın kötükcəsi:"Hələ də babamın niyə bu addımı atdığını bilmirəm" /A.Ziyadlı; müsahibəni apardı Aytac Sahəd //525-ci qəzet .-2024.- 3 avqust.(№137).- S.9.

İnternetdə

https://az.wikipedia.org/wiki/Ayd%C4%B1n_Ziyadl%C4%B1

http://www.anl.az/down/meqale/525/2024/avqust/908531.htm

Rafael Dadaşov - 80

(1946-2020)

Aktyor



Rafael Məlik oğlu Dadaşov 1946-cı il yanvar ayının 4-də Zaqatala rayonunda anadan olmuşdur.

Rafael Dadaşov Naxçıvan şəhərində orta məktəbi bitirdikdən sonra, 1966-1972-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif işi fakültəsində ali təhsil almışdır.

1967-ci ildən etibarən əmək fəaliyyətinə başlayan Rafael Dadaşov 1974-cü ilədək olan dövr ərzində Bakı Dövlət Sirkində, Naxçıvan Muxtar Respublikası Mahnı və Rəqs Ansamblında və Ümumittifaq Sirkində müxtəlif vəzifələrdə çalışmış, 1974-1976-cı illərdə Naxçıvan Muxtar Respublikasında Xalq Yaradıcılığı Evində təlimatçı olmuş, eyni zamanda, oranın Televiziya və Radio Komitəsində işləmişdir.

Rafael Dadaşov 1976-cı ildən Akademik Milli Dram Teatrının aktyor truppasının üzvü olmuşdur. İlk dəfə Tofiq Kazımovun quruluş verdiyi Maqsud İbrahimbəyovun "Ümid" ("Mezazoy əhvalatı") psixoloji dramının tamaşasında Zaur rolunu oynamışdır. Əsərin ilk tamaşası 27 noyabr 1976-cı ildə göstərilmişdir. Rafael Dadaşov bu möhtəşəm sənət ocağının səhnəsində Don Juan ("Bəşərin komediyası, yaxud Don Juan" M.İbrahimov), Klavdi ("Hamlet" U.Şekspir), Bəhram ("Fitnə" A.Şaiq), S.Rəhman), müstəntiq ("İstintaq" R.İbrahimbəyov), Knyaz Xasay ("Xurşidbanu Natəvan" İ.Əfəndiyev), Qədim ("Büllur sarayda" İ.Əfəndiyev), Mirzə Fətəli ("Mirzə Şəfi" N.Xəzri), Vasif ("İblis" H.Cavid), Qiyas ("Şəhərin yay günləri" Anar), Camal ("Nişanlı qız" S.Rəhman), Həsən Soltan ("Şeyx Xiyabani" İ.Əfəndiyev), Mayis ("Sevgililərin cəhənnəmdə vüsalı" İ.Əfəndiyev), Ədhəm Tağıyev ("Dəlilər və ağıllılar" İ.Əfəndiyev), Tesey ("Fedra" J.Rasin), Şeyx Nəsrullah ("Ölülər" C.Məmmədquluzadə) və s. maraqlı obrazlar yaratmışdır.

Azərbaycan Dövlət Televiziyasında hazırlanmış çoxlu teletamaşaların iştirakçısı olmuşdur. Onlardan: Anarın "Ötən ilin son gecəsi" (Rüstəm), K.Haldoninin "Mehmanxana sahibəsi" (Sinyor Kavaler), A.Qəhrəmanovun "Səni axtarıram" və "Bağışla" (Vasif müəllim), H.Cavidin "Topal Teymur" (Orxan), Ü.Hacıbəylinin felyetonları əsasında "Ordan-burdan" (Həmid), İ.Əfəndiyevin "Mənim günahım" (Sahib), "Sarıköynəklə Valehin nağılı" (Müstəntiq), İ.Səfərlinin "Göz həkimi" (Rauf), A.Laurinçyukasın "Qapalı orbit" (Kostas), Arturo Rafin "İblis qadın" (Şef) pyeslərinin, U.Şekspirin sonetləri əsasında kompozisiyanın (Sevgili qəhrəman) və b. teletamaşalarında oynadığı obrazlar yaddaqalan və uğurludur. Aktyor "Var olun, qızlar", "Yarımçıq qalmış serenada", "Yay vaxtı xəzan yarpaqları", "Bəxt üzüyü", "Mənim ağ şəhərim", "Xüsusi vəziyyət" bədii, "Qaçaq Süleyman" televiziya filmlərinə çəkilmişdir.

Rafael Dadaşov aktyorluq sənətində qazandığı nailiyyətlərə görə 20 mart 1987-ci ildə Azərbaycan Respublikasının "Əməkdar artist", 15 may 2006-cı ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 2019-cu ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Rafael Məlik oğlu Dadaşov 2020-ci il mart ayının 16-da Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Rafael Dadaşovun aktyorluq yaradıcılığı müasir Azərbaycan mədəniyyətində özünəməxsus yer tutur. Ekranda və səhnədə canlandırdığı, təbiiliyi və inandırıcılığı ilə səciyyələnən rəngarəng xarakterli qəhrəmanlar onu sənətin incəliklərini dərindən mənimsəmiş yüksək səhnə mədəniyyətinə malik aktyor olaraq geniş tamaşaçı auditoriyasına sevdirmişdir.

Ədəbiyyat:

"Mən həmişə çalışmışam ki, tərəf-müqabili üçün oynayım"/ Rafael Dadaşov; söhbətləşdi S.Əşrəf // Ədəbiyyat qəzeti. - 2019.- 6 aprel. - S. 29.

Ağayeva, N. "Qanlı qızıl toy"un səhnə elegiyası / N.Ağayeva // Mədəniyyət. - 2017. - 7 aprel. - S. 11.

Rəhimli, İ. Rafael Dadaşov / İlham Rəhimli // Üç əsrin yüz otuz ili (Akademik Milli Dram Teatrı bu gün) / İ.Rəhimli. - Bakı, 2003. - S. 102-104

"Vaxt gələcək, səhnə bizim üçün darıxacaq": Rafael Dadaşov səhnəni gözüyolda qoyub getdi... /X.Rəis //Kaspi .-2020.- 18 mart.- S.12. //Kaspi .-2020.- 18 mart.- S.9.

Rafael Məlik oğlu Dadaşov //Mədəniyyət .-2020.- 19 mart.- S.2. //Azərbaycan .-2020.- 18 mart.- S. 2.

Əmirli, Ş. İstedad nümunəsi /Ş.Əmirli //Mədəniyyət .-2021.- 8 yanvar.- S.7.

İnternetdə:

http://www.anl.az/down/meqale/medeniyyet/2021/yanvar/730607.htm

http://www.anl.az/down/meqale/kaspi_az/2020/mart/708460.htm

Eldar Quliyev – 85

(1941-2021) *Kinorejissor*



Ədəbiyyat:

Məhərrəmova, T. Azərbaycan kinosunun Alen Delonu : "Eldar Quliyev komandasına qarşı çox diqqətli və qayğıkeş olmağa çalışırdı. Xüsusən qadınlara münasibətində qeyri-adi dərəcədə nəzakətli idi". /T.Məhərrəmova //Kaspi .-2025.- 18 yanvar (№ 02).- S.15.

Qəniyev, E. Ürəyi sevgi ilə dolu insan /E.Qəniyev // Azərbaycan .-2024.- 17 yanvar, № 9.- S.11.

Müşfiqə. "Vətən" kinoteatrından dünyaya açılan yol... : Görkəmli bəstəkarın oğlu, babasına ata deyən kinorejissor -Eldar Quliyev /Müşfiqə //Yeni Azərbaycan .-2023.- 18 yanvar.- S.8.

Lalə. Kinostudiyada Eldar Quliyevin yaradıcılıq otağı : "Azərbaycanfilm" görkəmli kino xadimlərinin xatirəsini yaşadır /Lalə // Mədəniyyət .-2023.- 20 yanvar.- S.5.

İnternetdə:

http://www.anl.az/down/meqale/kaspi_az/2025/yanvar/931151(meqale).pdf

http://www.anl.az/down/meqale/azerbaycan/2024/yanvar/887850.htm

Eldar Tofiq oğlu Quliyev 1941-ci il yanvar ayının 18-də Bakıda anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra o, 1958-1959-cu illərdə "Azərbaycanfilm" kinostudiyasında rejissor köməkçisi işləmiş, 1960-1966-cı illərdə Moskvada, Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda kino rejissoru ixtisası üzrə ali təhsil almışdır.

Eldar Quliyev 1967-ci ildən taleyini "Azərbaycanfilm" kinostudiyası ilə bağlayaraq ömrünün sonunadək burada çalışmışdır. O, 1987-ci ildən "Azərbaycanfilm" kinostudiyası nəzdində "Debüt" eksperimental-gənclik yaradıcılıq studiyasının bədii rəhbəri olmuş, 1999-cu ildə Azərbaycan Professional Kinorejissorlar Gildiyasının prezidenti seçilmişdir.

İlk ekran əsəri 1967-ci ildə "Azərbaycanfilm" kinostudiyasında lentə alınan "Biri vardı, biri yoxdu..." adlı ilk qısametrajlı film olmuşdur. 1969-cu ildə ilk böyük ekran əsəri olan "Bir cənub şəhərində" filmi ilə özünü təsdiqləmiş və bu filmlə Azərbaycan kinosunda yeni bir mərhələnin təməli qoyulmuşdur. Bu film dünya ekranlarına çıxandan bir müddət sonra üç Azərbaycan filmi ilə birgə YUNESKO-nun kino şedevri adlandırılmışdır.

Ölkəmizdə tarixi filmlərin yaradıcısı kimi də tanınmış kinorejissorun "Səmt küləyi" (1974), "Sevinc buxtası" (1977), "Babək" (1979), "Nizami" (1982) və "Təxribat" (1989) filmləri ekranlarımızda bu gün də uğurla nümayiş etdirilir. "Babək" filmi 60-a yaxın ölkə tərəfindən satın alınmışdır.

Kinorejissor Eldar Quliyev bədii filmlərə quruluş verməklə yanaşı faşizm üzərində böyük qələbənin 60 illiyinə həsr edilmiş xüsusi layihə üzrə Bakının və bakılıların bu qələbəyə verdiyi töhfələrdən bəhs edən "Unudulmuş qəhrəman" adlı publisistik filmi, "Abşeron ritmləri" filmkonsertini (1970), "Səməd Vurğun" (Y.Əfəndiyevlə birlikdə), "Dostuma məktub" (H.Mehdiyevlə birgə) sənədli filmləri, 2006-cı ildə Ümummilli Lider Heydər Əliyevin dövlət başçısı olduğu vaxtlarda gənclərə qarşı olan yüksək diqqətindən bəhs edilən "Heydər Əliyev. Dünyaya pəncərə" filmlərinin də rejissoru olmuşdur. Onun ssenariləri əsasında "Bizim Nəsibə xanım" və "Özüm və zaman haqqında" (T.İsmayılovla birgə), "Şəhidlik zirvəsi" (X.Muradov və O.Mirqasımovla birgə) sənədli filmləri lentə alınmışdır.

Tanınmış kinorejissor "İstanbul reysi" və bir çox filmin həm də ssenari müəllifi olmuşdur. Çəkdiyi filmlərin bir neçəsi kinofestivallarda mükafatlara layiq görülmüşdür.

Eldar Quliyev Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru kimi uzun illər səmərəli pedaqoji fəaliyyət göstərmiş, rejissorların bir neçə nəslinin yetişdirilməsi işində qüvvəsini, bilik və bacarığını əsirgəməmişdir.

Eldar Quliyev Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 1976-cı ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi", 1982-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 1978-ci ildə Azərbaycan Dövlət mükafatı laureatı olmuş, Qırmızı Əmək Bayrağı ordeni, 2001-ci ildə "Şöhrət", 2011-ci ildə "Şərəf" və 2021-ci ildə "İstiqlal" ordenləri, 2016-cı ildə Azərbaycan mədəniyyətinin tədrisi və təbliğində xidmətlərinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişdir. Həmin ildə 75 illik yubileyi ilə əlaqədar olaraq, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının "Milli kino" mükafatına layiq görülmüşdür.

Eldar Tofiq oğlu Quliyev 2021-ci il aprel ayının 16-da vəfat etmişdir.

Aydın Şahsuvarov - 95

(1931-1986)

Aktyor



Aydın Ağa oğlu Şahsuvarov 1931-ci il yanvar ayının 19-da Naxçıvanda anadan olmuşdur.

O, 1946-1949-cu illərdə Bakıdakı Dəmiryol Texnikumunda təhsil almışdır. Texnikumun dram dərnəyində həvəskar aktyor kimi çıxış etmidir.

Aydın Şahsuvarov 1954-cü ildən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında fəaliyyət göstərmişdi. 1967-1968-ci illərdə Cəfər Cabbarlı adına İrəvan Azərbaycan Teatrının aktyoru olmuşdur. Bir müddət Naxçıvandakı "Cavid poeziya teatrı"nda fəaliyyət göstərmişdir.

Aydın Şahsuvarov əsasən tipik və koloritli rollar oynayırdı. Görkəmli aktyor Vidadi ("Vaqif", Səməd Vurğun), Rəhim xan, Altunbay, İbad, Mazandaranski ("Nəsrəddin şah", "Od gəlini", "Almaz" və "Oqtay Eloğ-lu", Cəfər Cabbarlı), Mirpaşa ("Komsomol poeması", İsgəndər Coşqun), Şeyx Əhməd ("Ölülər", Cəlil Məmmədquluzadə), Qurban ("Nağıl başlananda", İmran Qasımov), Kor padşah ("Kor padşah", Nazim Hikmət və Vera Tulyakova), Naməlum adam ("Onlar dörd nəfər idilər", Konstantin Simonov), Nuru ("Yaşıl qapı arxasında qadın", Rüstəm İbrahimbəyov), İliko ("Mən, nənəm, İliko və İllarion", Nodar Dumbadze), Stepan Sundukov ("Vəhşilər", Sergey Mixalkov), Heydər bəy ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Fənd Fərəc ("Adamın adamı", Anar), Qıdı kirvə ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Fabdo ("Bostan iti", Lope de Veqa), Markiz ("Mehmanxana sahibəsi", Karlo Qoldoni), Qulu müəllim ("Qiymətli qafiyələr", Əkrəm Əylisli), Hambal, Soltan bəy ("Məşədi İbad" və "Arşın mal alan", Üzeyir bəy Hacıbəyli), Rəcəb ("Şirin-bala bal yığır", Salam Qədirzadə) kimi əsas rollar ifa etmişdir.

Görkəmli aktyorun səhnə fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 1974-cü ildə "Əməkdar artist" və 1984-cü ildə "Xalq artisti" fəxri adları ilə təltif edilmişdir.

Aydın Ağa oğlu Şahsuvarov 1986-cı il iyun ayının 2-də Naxçıvanda vəfat etmişdir.

Ədəbiyyat:

Rəhimli, İ. Aydın Şahsuvarov / İlham Rəhimli // Azərbaycan Teatr Ensiklopediyası: 3 cilddə.- Cild 1.-Bakı: Azərnəşr, 2017.- S. 68-69.

Aydın Şahsuvarov / Naxçıvan MSSR, Mədəniyyət Nazirliyi - Bakı: İşıq, 1981.- [4] s.

Hüseynov, R. Naxçıvan teatr məktəbinin Aydını / Rövşən Hüseynov // Mədəniyyət .-2021.- 20 yanvar.- S. 7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Ayd%C4%B1n_%C5%9Eahsuvarov

http://www.anl.az/down/meqale/medeniyyet/2021/yanvar/731356.htm

Sərvər Əliyev - 60

(1966)

Aktyor, rejissor



Sərvər Bəhlul oğlu Əliyev 1966-cı il yanvar ayının 22-də Naxçıvanın Sədərək rayonunun Sədərək kəndində anadan olmuşdur. 1972-ci ildə Sədərək kənd orta məktəbində, 1980-1982-ci illərdə Ordubad internat məktəbində təhsil almışdır. İnternat məktəbində təhsil aldığı illərdə məktəbin nəzdindəki dram dərnəyində çıxış etmişdir.

Sərvər Əliyev 1982-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun "Dram və kino aktyoru" fakültəsinə daxil olmuş, görkəmli rejissor və pedaqoq Nəsir Sadıqzadənin kursunda təhsil almışdır. İkinci kursda oxuyarkən Nazim Hikmətin "Qəribə adam" tamaşasındakı Nəcəf bəy obrazını Sərvər Əliyevə həvalə olunmuşdur. Son kursda oxuyarkən Stratiyevin "Avtobus" tamaşasında baş rolu – Ağıllı obrazını Sərvər Əliyevə verilmişdir

Sərvər Əliyevin İnstitutu bitirdiyi illər müharibə dövrünə təsadüf etmişdir. 1990-1993-cü illərdə döyüşlərdə iştirak etmişdir.

Sərvər Əliyev 1993-cü ilin noyabr ayında rejissor Hüseynağa Atakişiyevin rəhbərlik etdiyi Dövlət Gənclər Teatrında aktyor ştatına qəbul olunmuş və teatrın fəaliyyətinin son gününə qədər bu sənət ocağında çalışmışdır. Burada bir sıra maraqlı və yaddaqalan obrazlar ifa etmişdir. C. Məmmədquluzadənin "Qurbanəli bəy" əsərində Pristav, "Ölülər" əsərində Şeyx Əhməd, V. Şekspirin "Yay gecəsində yuxu" əsərində Oberon, "Hamlet" faciəsində Klavdi, "Makbet" faciəsində Makduf, "Tədbirə qarşı tədbir" komediyasında Lizandr, Əli Əmirlinin "Onun iki qabırğası" komediyasında Cavanşir, "Varlı qadın" komediyasında Pəhlivan, "Kişi və qadın" əsərində Cəmil bəy, B. Vahabzadənin "Atamın kitabı" əsərində İxtiyar, Kamal Abdullanın "Şah İsmayıl" əsərində Şah İsmayıl, Q. Qorinin "IV Kin" əsərində Solomon, "Herostratı unudun" əsərində Tissofern, Mikloş Xubainin "Neron oynayır" əsərində Pallada və başqa obrazlar ifa etmişdir. Sərvər Əliyev aktyorluqla yanaşı rejissor kimi də fəaliyyət göstərir. Meydan teatrında Ş. Qurbanovun "Sənsiz", İrəvan Dram Teatrında Akif Həsənoğlunun "Tənha payız yarpağı", Mitroviçin "Gecə soyğunçuları", Stefan Sveyqin "Yad qadının məktubları", E. Hüseynbəylinin "İmperator", Ü. Hacıbəylinin "Ər və arvad", Əziz Nesinin "Bir az gəlirmisiniz" əsərlərinə quruluş vermişdir. Sərvər Əliyev sonralar Gənc Tamaşaçılar Teatrında fəaliyyətini davam etdirərək orada H. Cavidin "Şeyx Sənan" faciəsində Şeyx Sədra, S. S. Axundov və A. Şaiqin "Qaraca qız" tamaşasında Piri baba, Hamsonun "Viktoriya" əsərində Mülkədar obrazlarını ifa etmişdir. Ayrıca bir sıra tamaşalarda da ikinci rejissor kimi fəaliyyət göstərmişdir.

2014-2017-ci illərdə Ağdam Dövlət Dram Teatrının baş rejissoru olmuşdur. 2017-ci ildə İrəvan Dövlət Azərbaycan Dram Teatrına baş rejissor vəzifəsinə təyin olunmuşdur.

Sərvər Əliyev 30 dekabr 2015-ci ildə "Əməkdar artist" fəxri adına layiq görülmüşdür. 2016-2023-cü illərdə Prezident Mükafatçısı olmuşdur.

Ədəbiyyat

"Dəmirqapı"da sənəd məbədi : Dərbənd Azərbaycan teatrı -120 / Sərdar Əliyev: müsahibəni apardı:K.Hacı //Xalq qəzeti .-2024.- 11 dekabr (№ 273).- S.15.

Dərbənddə yeni "Kral ölür" //Mədəniyyət .-2024.- 3 iyul,№49.- S.5.

"Oğru" Dərbənddə ortaya "çıxdı" //Mədəniyyət .-2024.- 11 oktyabr(№76).- S.4.

İnternetdə

https://az.wikipedia.org/wiki/S%C9%99rv%-C9%99r_%C6%8Fliyev

http://www.anl.az/down/meqale/xalqqazeti/2024/dekabr/924451(meqale).pdf

http://www.anl.az/down/meqale/medeniyyet/2024/iyul/902015.htm

http://www.anl.az/down/meqale/medeniyyet/2024/oktyabr/912949.htm

Sabir Məmmədov – 65

(1961)

Aktyor



Ədəbiyyat:

Aktyor mütləq şəkildə müasir olmalıdı / Sabir Məmmədov; müsah. apardı S.Əfşan // Ədəbiyyat qəzeti. - 2019. - 28 dekabr. - S. 5.

Rəhimli, İ. Sabir Novruz oğlu Məmmədov / İlham Rəhimli // Azərbaycan Teatr Ensiklopediyası: 3 cilddə / İ.Rəhimli. - Cild 3. - Bakı,-2017. - S. 151.

"Heç vaxt bir ampluada çıxış etməmişəm": Sabir Məmmədov: "Aktyor sənəti təkcə istedad məsələsi ilə məhdudlaşmır" /S. Məmmədov; müsahibəni apardı H. Nizamiqızı //Üç nöqtə .-2021.- 4 fevral.- S.12.

Yubiley söhbəti : Sabir Məmmədov: "Benefislə bağlı planlarımı qarşıdakı yubileyimə saxlayıram" /S.Məmmədov:müsahibəni apardı Həmidə Nizamiqızı //Mədəniyyət .-2021.-29 yanvar.- S.5.

İnternetdə:

http://www.anl.az/down/meqale/medeniyyet/2021/yanvar/734813.htm

http://www.anl.az/down/meqale/uc_noqta/2021/fevral/732814(meqale).pdf

Sabir Novruz oğlu Məmmədov 1961-ci il yanvar ayının 24-də Qazax rayonunun Poylu kəndində anadan olmuşdur.

O, 1983-cü ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsini bitirmiş, təyinatla Sumqayıt Dövlət Dram teatrına göndərilmişdir. Teatrın səhnəsində Xoşbəxt adam ("Park", Rüstəm İbrahimbəyov), 1-ci ərizəçi ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Hüseyn ("Bəxt üzüyü", Vaqif Səmədoğlu), Toğrul ("Uca dağ başında", Vaqif Səmədoğlu), Xəlil ("Müvəqqəti ər", Rəşad Nuri Güntəkin) və s. rollarını oynamışdır.

Aktyor 1989-cu ildən Akademik Milli Dram Teatrının səhnəsində Səfər ("Gecə döyülən qapılar", Nəbi Xəzri), Kumar ("Qanqın böyük dalğası", C.Əfruz), Fərman ("Yalan", Sabit Rəhman), Şahmar ("Dəlilər və ağıllılar", İlyas Əfəndiyev), Saday bəy ("Hökmdar və qızı", İlyas Əfəndiyev), Akkanad ("Sokratı anma gecəsi", Çingiz Aytmatov), İlus ("Burla xatun", Nəbi Xəzri), Teymur ağa ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Novruz bəy ("Aydın", Cəfər Cabbarlı), Sarvan ("Bu dünyanın adamları", Hidayət), Şair ("Kəllə", Nazim Hikmət), Horatsio ("Hamlet", Uilyam Şekspir), M.Ə.Sabir ("Hərənin öz payı", X.Qoca), Dulu Xaqan ("Özümüzü kəsən qılınc", Bəxtiyar Vahabzadə), Yavuz ("Afət", Hüseyn Cavid), Oğlan ("Qatil", Elçin), İsgəndər ("Ölülər", Cəlil Məmmədquluzadə), Seyid Hüseyn ("Xurşidbanu Natəvan", İlyas Əfəndiyev), Rəşad ("İkinci səs", Bəxtiyar Vahabzadə), Fərəc ("Boy çiçəyi", İlyas Əfəndiyev), Eddi Karboni ("Körüdən mənzərə ", A.Miller), Şeyda ("Şeyda" H.Cavid). rollarını yaratmışdır.

Aktyor "Kamança" (Əbdül əli), "Qaçaq Süleyman" (Murad), "Yağışdan sonra" (Əmin), "Apardı sellər Saranı" (İgid), "Qırmızı qar" (Əsgər) teletamaşalarına və "Babamın babasının babası" (Tapdıq), "Təzə evlənənlər" (Rüstəm) bədii filmlərinə çəkilmişdir.

Sabir Məmmədovun səhnə fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 2002-ci ildə "Əməkdar artist", 2018-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 2005-ci ildən Prezident mükafatçısıdır. 2010-cu ildə Cəfər Cabbarlı mükafatı ilə təltif edilmişdir. 2025-ci il tarixində Sabir Məmmədova Azərbaycan Respublikasında mədəniyyətin və elmin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilmişdir.

Xosrov Abdullayev – 100

(1926-1980) *Sirk ustası, jonqlyor*



Xosrov Abdulla oğlu Abdullayev 1926-cı il yanvar ayının 29-da Şamaxıda anadan olmuşdur.

O, 1942-ci ildə Moskvadakı Dövlət Sirk Sənəti Məktəbini bitirmişdir.

İlk sərbəst sirk artisti kimi fəaliyyətəbaşlamasında kloun jonqlyor Aleksandr Karaşkeviçlə görüşün böyük rolu olmuşdur. O öz köhnə rekvizitlərini Xosrova hədiyyə edir və bu rekvizitlər ona şəxsi çıxışını hazırlamaqda kömək etmişdir. Xosrov Abdullayevin istedadı tez bir zamanda diqqət çəkib və 1953-cü ildə ən məşhur sirkustalarından bəhs edən "Cəsurlar meydanı" filminə (rejissorlar– S.Qurov, Y.Ozerov) dəvət edilmişdir.

Moskvada yaşamasına baxmayaraq, milli ənənələri unutmamışdır. 1954-cü ildə milli xüsusiyyətləri əks etdirən nömrə ilə çıxış etmiş, tamaşaçılarda böyük maraq yaratmışdır.

Xosrov Abdullayev həyat yoldaşı, Rusiya və Azərbaycanın Əməkd arartisti Lidiya Abdullayeva ilə dünyanın 50-dək ölkəsində çıxış etmişdir. Onların haqqında 1974-cü ildə "Xosrov və Lidiya Abdullayevlər", 1978-ci ildə isə "Sirk mənim həyatımdır" filmləri çəkilmişdir. Onlar 1976-cı ildə "Sirk bugün" kollektivini və "İllüziya revyüsü" adlı attraksionu yaratmışdırlar. Xosrov Abdullayevin yaratdığı sirk kollektivi haqqında SSRİ-nin sirksənətinə dair bir sıra nəşrlərində məlumatlar yer alıb. Onun sənəti və sənətə gətirdiyi yeniliklər geniş təhlil edilərək yüksək qiymətləndirilib.

Görkəmli jonqlyorlardan olan Xosrov Abdullayev 30 ildən artıq bu janrda fəaliyyət göstərmişdir. Abdullayevin jonqlyor sənəti virtuozluğu, orijinallığı, milli özünəməxsusluğu və ekssentrik elementləri ilə fərqlənmişdir. Abdullayev həmçinin kloun və illüzionist kimi də tanınmış (Karandaş və E. Kionun proqramlarında).

Sirk artisti, jonqlyor, illüziyaçı Xosrov Abdullayev "Uşaqlığın son gecəsi", "O qızı tapın", "Xosrov və Lida Abdullayevlər", "Cəsurlar meydanı", "Sirk meydançası" və s. filmlərdə çəkilmişdir.

Xosrov Abdullayevin yaradıcılıq həyatı dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. "Əməkdar artisti", daha sonra isə 1977-ci ildə "Xalq artisti" fəxri adı ilə təltif edilmişdir.

Xosrov Abdulla oğlu Abdullayev 1980-ci il mart ayının 31-də Novosibirskdə vəfat etmişdir. Moskvada dəfn edilmişdir.

Ədəbiyyat:

Azəri, L. Sirk sənətinin parlaq ulduzu / Lalə Azəri // Mədəniyyət. - 2021.- 10 fevral. - S. 6.

Azərbaycan Milli Ensiklopediyası. - I cild. - Bakı, 2009. -S. 32.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Xosrov_Abdullayev

https://shamakhi-encyclopedia.az/abdullayev-xosrov-abdulla-oglu/

http://www.anl.az/down/meqale/medeniyyet/2021/fevral/734303(meqale).pdf

Natiq Qasımov – 55

(1971-1992) *Milli Qəhrəman*



Natiq Səlim oğlu Qasımov 1971-ci il yanvar ayının 2-də, Gədəbəy rayonunun Kiçik Qaramurad kəndində anadan olmuşdur. 1975-ci ildə ailəlikcə Mingəçevirə köçmüş və burada səkkizillik məktəbi bitirdikdən sonra qaynaqçı ixtisası üzrə peşə məktəbində təhsil almışdır.

Rusiyanın Krasnoyarsk vilayətində Daxili Qoşun hissələrində xidməti başa vurduqdan sonra 1991-ci ildə Azərbaycana qayıtmışdır, elə həmin il də könüllü olaraq cəbhəyə getmişdir. Ağdamda Yaqub Rzayevin başçılığı altında "Qarabağ şahinləri" dəstəsində ermənilərə qarşı döyüşmüşdür. 1992-ci ildə Xocalının Xramort (indiki Pirlər) kəndi yaxınlığında yeddi Azərbaycan əsgəri, alban kilsəsinin yerləşdiyi yüksəklik uğrunda döyüşlər getmişdir. Döyüşdə altı yoldaşı həlak olan Natiq son dərəcə əlverişli strateji mövqedə yerləşən alban kilsəsində mübarizəni davam etdirmiş, təkbaşına 5 gün gecə-gündüz vuruşaraq düşmənləri bu posta yaxın buraxmamışdır. Kilsədən əsir alınmışdır. 2019-cu ildə Türkiyədə azərbaycanlılar tərəfindən erməni lobbisinə qarşı informasiya mübarizəsi aparmaq məqsədilə yaradılan "ASASmedya" Natiq Qasımovun sağ olması və Ermənistandakı kimya zavodların birində işlədilməsi barədə məlumat yaymışdır.

Natiq Qasımov güman olunur ki 1992-ci il mart ayında Xocalının Xramort (indiki Pirlər) kəndində şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 25 iyun 2024-cü il tarixli 175 saylı sərəncamı ilə Natiq Səlim oğlu Qasımov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. 2024-cü ildə "Qızıl Ulduz" medalı ilə təltif edilmişdir.

2024-cü ildə Mingəçevir şəhəri 4 nömrəli tam orta ümumtəhsil məktəbinə Azərbaycanın Milli Qəhrəmanı Natiq Səlim oğlu Qasımovun adı verilmişdir.

Milli Qəhrəmanın haqqında Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "Natiq Qasımov" və Böyük Britaniyanın "Broken Pot Media" şirkəti tərəfindən "Oğul" sənədli filmi çəkilmişdir.

Ədəbiyyat:

Natiq Qasımovun cəsurluq yağan məğrur baxışları /V.Məhərrəmov//Azərbaycan .-2025.- 7 yanvar (№ 1).- S.11.

Natiq Qasımov-gerçək Milli Qəhrəman: Tutduğu Bayraq bəlli, öldüyü Torpaq bəlli /M. Bədəlsoy //Hürriyyət .-2023.- 7 noyabr, №41.- S.12.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Natiq_Qas%C4%B1mov_(h%C9%99rb%C3%A7i)

http://www.anl.az/down/meqale/azerbaycan/2025/yanvar/929580(meqale).pdf

http://www.anl.az/down/meqale/hurriyyet/2023/noyabr/875270.htm

Elgiz Kərimov – 55

(1971-1992)

Milli Qəhrəman



Elgiz Kərim oğlu Kərimov 1971-ci il yanvar ayının 5-də Bərdə rayonunda anadan olmuşdur.

1987-ci ildə orta təhsilini başa vurmuş və həmin il hərbi xidmətə çağırılmışdır. Əsgəri borcunu yerinə yetirdikdən sonra doğma yurduna qayıtmışdır. Elgiz Kərimov erməni işğalçılarının vətənimizə hücumu ilə barışa bilməmiş və 1991-ci ildə könüllü özünümüdafiə batalyonlarından birinə yazılmışdır. Əsgəran yaxınlığında gedən şiddətli döyüşlər zamanı xüsusi fəallıq göstərmişdir.

1992-ci il 12 mart tarixində mühasirəyə düşmüş, döyüşçü dostlarını xilas etmək üçün Naxçıvanik kəndinə gəlmiş, bir saata yaxın davam edən döyüş zamanı ermənilərin mühasirəsi yarılmış, döyüşçülər azad edilmişdir. Bu döyüşdə Elgiz Kərimov ağır yaralanmış və 21 yaşında vətən uğrunda qəhrəmancasına şəhid olmuşdur. Bərdə rayonunda dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Kərimov Elgiz Kərim oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bərdə rayon 4 saylı tam orta məktəb Milli Qəhrəman Elgiz Kərimovun adını daşıyır.

Ədəbiyyat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında:[Kərimov Elgiz Kərim oğlu - sıravi - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı. - 1992. - № 13. - S. 25. - (Ölümündən sonra).

Əsgərov, V. Kərimov Elgiz Kərim oğlu // Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları. - Yenidən işlənmiş II nəşr. - Bakı, 2010.- S. 149.

Kərimov Elgiz Kərim oğlu // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova. - Bakı, 2008.- S. 113.

Seyidzadə, M. Kərimov Elgiz Kərim oğlu // Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi. - Bakı, 2010. - S.114.

Zeynalov, R. Kərimov Elgiz Kərim oğlu (1971-1992) /R.Zeynalov // Azərbaycanın Milli Qəhrəmanları / R.Zeynalov. - Bakı, 1996. - S. 53.

İnternetdə

https://az.wikipedia.org/wiki/Elgiz_K%C9%99rimov

https://avciya.az/k%C9%99rimov-elgiz-k%C9%99rim-oglu/

Şamil Ramazanov - 50

(1976-1995) *Milli Qəhrəman*



Şamil Ağasəf oğlu Ramazanov 1976-cı il yanvar ayının 19-da Ağsu rayonunun Rəhimli kəndində anadan olmuşdur. 1983-1993-cü illərdə burada orta məktəbdə təhsil almışdır.

19 mart 1994-cü ildə Ağsu rayonunda hərbi xidmətə çağırılmışdır. Gəncə şəhərindəki "N" saylı hərbi hissədə təlim keçən Şamil Ramazanov komandirlərin verdiyi tapşırıqları layiqincə yerinə yetirmiş, tez bir zamanda bütün silahlardan istifadə etməyi öyrənmişdir.

1995-ci il məlum 13-17 mart hadisələri zamanı silahlı dəstənin zərərsizləşdirilməsi zamanı cəsur əsgər 17 mart tarixində qəhrəmancasına şəhid olmuşdur. Ağsu rayonunun Rəhimli kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Ramazanov Şamil Ağasəf oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Ağsu rayonunun mərkəzi kinoteatrı Milli Qəhrəman Şamil Ramazanovun adını daşıyır.

Ədəbiyyat:

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Ramazanov Şamil Ağasəf oğlu - Müdafiə Nazirliyi, sıravi - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- (Ölümündən sonra).

Əsgərov, V. Ramazanov Şamil Ağasəf oğlu / V.Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları / V.Əsgərov. - Yenidən işlənmiş II nəşr. - Bakı, 2010.- S. 239.

Ramazanov Şamil Ağasəf oğlu // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova. - Bakı, 2008. - S. 173.

Seyidzadə, M. Ramazanov Şamil Ağasəf oğlu / M.Seyidzadə // Milli qəhrəmanlar zirvəsi / M.Seyidzadə. - Bakı, 2010. - S. 185.

İnternetdə:

https://avciya.az/ramazanov-samil-agas%C9%99f-oglu/

chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://anl.az/el/emb/MILLI_QEHREMANLAR/qehremanlarimiz/Ramazanov_Samil.pdf

Yalçın Nəsirov - 50

(1976-1995)

Milli Qəhrəman



Yalçın Canhəsən oğlu Nəsirov 1976-cı il yanvar ayının 23-də Astara rayonunun Sərək kəndində anadan olmuşdur.

1982-1992-ci illərdə Sərək kənd orta məktəbində təhsil almış və 1994-cü il aprel ayının 19-da Milli Orduya çağırılmışdır. İki ay daxili qoşunların tərkibində təlim keçərək, hərbi xidmətini Tərtər və Şamaxı rayonlarında davam etdirmişdir. O, Vətənimizi azad və bütöv, güclü görmək arzusu ilə yaşayırdı.

1995-ci il mart ayının 13-dən 17-nə kimi dövlət çevirilişinə cəhdin qarşısının alınmasında iştirak etmişdir. Martın 17-dən 18-nə keçən gecə dəstənin zərərsizləşdirilməsi zamanı Yalçın Nəsirov ağır yaralanmışdır. Yalçın Nəsirov mart ayının 24-də aldığı yaradan Sabunçu rayon xəstəxanasında vəfat etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Nəsirov Yalçın Canhəsən oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Astara rayonu Sərək kənd orta məktəbi qəhrəmanın adını daşıyır. Rayondakı "Qəhrəmanlar" parkında büstü qoyulmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Nəsirov Yalçın Canhəsən oğlu - Müdafiə Nazirliyi, sıravi - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- (Ölümündən sonra).

İsgəndərova, R. Astaranın ilk Milli Qəhrəmanı / R.İsgəndərova. - Bakı: Mütərcim, 2006. - 60 s.

Əsgərov, V. Nəsirov Yalçın Canhəsən oğlu / V. Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları / V. Əsgərov. - Yenidən işlənmiş II nəşr.-Bakı, 2010. - S. 228.

Nəsirov Yalçın Canhəsən oğlu // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008. - S. 166.

Seyidzadə, M. Nəsirov Yalçın Canhəsən oğlu / M.Seyidzadə // Milli qəhrəmanlar zirvəsi / M.Seyidzadə. - Bakı, 2010. - S. 174.

İnternetdə:

https://avciya.az/n%C6%8Fsirov-yalcin-canh%C9%99s%C9%99n-oglu/

chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://anl.az/el/emb/MILLI_QEHREMANLAR/qehremanlarimiz/Nesirov_Yalcin.pdf

YANVAR

1

Rüfət Əlifov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25 iyun.- S.61-65.

Rüfət Sehun oğlu Əlifov 2001-ci il yanvar ayının 1-də Ağsu rayon Ərəbsarvan kəndində anadan olmuşdur. 2007-2016-cı illərdə Ərəbsarvan kənd orta məktəbində təhsil almışdır. 2016-cı ildə Göyçay Dövlət İdarəetmə və Texnologiya kollecinin Elektrik təchizatı fakültəsinə qəbul olmuşdur. 2-ci kursda təhsilini qiyabi şöbədə alaraq, 2019-cu ildə hərbi xidmətə çağırılmış, "N" saylı hərbi hissənin Xüsusi Təyinatlı Qüvvələrində atıcı vəzifəsində xidmət etmişdir. Xidməti dövründə dəfələrlə təşəkkürnamə məktubları ilə təltif olunmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Rüfət Əlifov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcər rayonunun Koroğlu dağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Sentyabr ayının 27-dən 28-nə keçən gecə Kəlbəcər rayon Murovdağ uğrunda gedən döyüşdə yaralı əsgər yoldaşını təhlükəsiz əraziyə çıxardarkən qəhramancasına şəhid olmuşdur. Oktyabr ayının 2-də Ərəbsarvan kəndində dəfn olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Rüfət Əlifov "Vətən uğrunda" (15.12.2020), "Kəlbəcərin azad olunmasına görə" (29.12.2020), "Hərbi xidmətlərə görə"(30.12.2020) medalları, III dərəcəli "Rəşadət" (25.06.2022) ordeni ilə təltif olunmuşdur.

1

İsmayıl Məhəmmədli - 30

(1996-2020)

Gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İsmayıl Mahir oğlu Məhəmmədli 1996-cı il yanvar ayının 1-də Göygöl rayonunda anadan olmuşdur. Göygöl rayonundakı 58 nömrəli orta məktəbi bitirmişdir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılmış, xidmət müddəti bitdikdən sonra Silahlı Qüvvələrin "N" saylı hərbi hissəsində gizir rütbəsində hərbi xidmətə qəbul olunmuşdur.

Azərbaycan Ordusunun giziri olan İsmayıl Məhəmmədli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmiş, sentyabr ayının 29-da qəhrəmancasına şəhid olmuşdur. Dekabr ayına qədər itkin düşmüş hesab olunan İsmayılın Məhəmmədlinin nəşi tapılaraq, dekabr ayının 14-də Göygöl rayon şəhidlər xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə İsmayıl Mahir oğlu Məhəmmədli ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

YANVAR 1

Kənan Həsənov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25 iyun.- S.61-65.

Kənan Zirəddin oğlu Həsənov 2001-ci il yanvar ayının 1-də Göygöl rayonunun Şəhriyar kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Şəhriyar kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə həqiqi hərbi xidmətə çağırılmış, "N" saylı hərbi hissədə həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri Kənan Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak edib, şücayətlə döyüşmüşdür. Kənan Həsənov oktyabr ayının 12-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Oktyabr ayının 16-da Gəncə Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidentinin İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Kənan Zirəddin oğlu Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə və "Azərbaycan bayrağı" ordeni ilə təltif edilmişdir.

1

Rəvan Alxaslı - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Rəvan Cəmil oğlu Alxaslı 1996-cı il yanvar ayının 1-də Ağsu rayonunun Rəhimli kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılmış, xidmət müddətində 2016-cı ilin Aprel döyüşlərində iştirak etmişdir.

2020-ci ilin iyul ayında səfərbər olunan Rəvan Alxaslı 21 sentyabr tarixindən hərbi təlim toplantılarına çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Rəvan Alxaslı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Laçın, Tərtər, Suqovuşan uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Bir çox hərbi əməliyyatların iştirakçısı Rəvan Alxaslı oktyabr ayının 9-da Suqovuıan istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Rəvan Cəmil oğlu Alxaslı Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidentinin İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

1 YANVAR

Rəcəb Qurbanov - 25

(2001-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25 iyun.- S.61-65.

Rəcəb Elşən oğlu Qurbanov 2001-ci il yanvar ayının 1-də Bərdə rayonunun Kələntərli kəndində anadan olmuşdur. Rəcəb Qurbanov orta məktəbi bitirdikdən sonra 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılmış, xidmət müddəti bitdikdən sonra hərbi xidmətini Xüsusi Təyinatlı Qüvvələrin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rəcəb Qurbanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı kəşfiyyatçı olaraq iştirak etmiş, Murovdağ, Füzuli və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Rəcəb Qurbanov oktyabr ayının 6-da Cəbrayıl rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur.

Rəcəb Elşən oğlu Qurbanov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

1

Əfəndi Səfərov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

Əfəndi Cahangir oğlu Səfərov 1996-cı il yanvar ayının 1-də Qax rayonunun Qaxbaş kəndində anadan olmuşdur.

2002-ci ildə Qax rayon Qaxbaş kənd 2 saylı orta məktəbin 1-ci sinifinə qəbul olmuşdur. 2007-ci ildən təhsilini Respublika Olimpiya İdman Liseyində davam etdirmişdir. Əfəndi Səfərov 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuş, Müdafiə Nazirliyinin Xocavənd rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Əfəndi Səfərov 2020-ci il sentyabr ayının 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Noyabr ayının 9-da Şuşa şəhəri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Əfəndi Cahangir oğlu Səfərov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Cəsur döyüşçü" (18.12.2020) və "Şuşanın azad olunmasına görə" (29.12.2020) medalları ilə təltif edilmişdir.

YANVAR

1

Yusif Nağıyev - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Yusif Bərxudar oğlu Nağıyev 1996-cı il yanvar ayının 1-də Bərdə rayonunun Əyricə kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə E.Abdullayev adına Əyricə kənd tam orta məktəbində təhsil almışdır. 2014-cü ilin yanvar ayında həqiqi hərbi xidmətə çağırılmış, aprel ayından "N" saylı hərbi hissənin xüsusi təyinatlı bölməsində xidmət keçmişdir. 2016-cı ildə Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Yusif Nağıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ və Füzuli rayonu uğrunda gedən döyüşlərdə iştirak etmiş, döyüş meydanından şəhid və yaralıların çıxarılmasında xüsusi şücaət göstərmişdir. Hadrut istiqamətində gedən döyüşlərdə yüksəkliklərin alınmasında və düşmənin əks-həmlələrinin qarşısının alınmasında fəal iştirak etmişdir. 21 oktyabr 2020-ci ildə Hadrut-Şuşa istiqamətində gedən döyüşlərdə xüsusi tapşırığı yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Oktyabr ayının 23-də Əyricə kəndində dəfn edilmişdir.

Yusif Bərxudar oğlu Nağıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" , "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

6

Aqil Həsənov - 30

(1996-2020)

Leytenant



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Aqil Nofəl oğlu Həsənov 1996-cı il yanvar ayının 6-da Şabran rayonunun Pirəmsən kəndində anadan olmuşdur. İbtidai təhsilini Pirəmsən kənd orta məktəbində almışdır. 2011-2014-illərdə Cəmşid Naxçıvanski adına hərbi liseydə, 2014-2018-ci illərdə isə Ali Hərbi məktəbdə təhsil almışdır.

Azərbaycan Ordusunun leytenantı olan Aqil Həsənov 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsində iştirak etmişdir. Aqil Həsənov sentyabr ayının 29-da Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şabran rayonunda dəfn olunmuşdur.

Aqil Nofəl oğlu Həsənov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə "Vətən uğrunda" (15.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020), "Döyüşdə fərqlənməyə görə" (18.12.2020) və "İgidliyə görə"medalları ilə təltif edilmişdir.


2022-ci ildə Şabranın Pirəmsən kəndində Vətən müharibəsi şəhidinin xatirəsinə bulaq inşa edilmişdir.

6 YANVAR

Tamerlan Səfərov - 25

(2001-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Talış kəndi uğrunda şəhidlik zirvəsinə ucalan qorxmaz kəşfiyyatçı // Azərbaycan. –2020.– 30 dekabr.– S.6.

İnternetdə:

https://az.baku-art.com/az/19-yashinda-ehidliye-ucalan-tamerlan-s-f-rov

Tamerlan Cavad oğlu Səfərov 2001-ci il yanvar ayının 6-da Quba şəhərinin Səbətlər kəndində anadan olmuşdur. Orta təhsilini Səbətlər kəndində yerləşən məktəbdə almışdır. Hərbi xidmətini başa vurduqdan sonra, kəşfiyyatçı kimi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Tamerlan Səfərovun 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Gülüstan kəndi, Kəhrillər xarabalığı, Dostagir, Talış və Suqovuşan istiqamətlərində döyüşüb. Tamerlan Səfərov oktyabr ayının 1-də Goranboy rayonu, Gülüstan kəndi istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur.

Tamerlan Səfərov noyabr ayının 29-da Quba rayonunun Səbətlər kənd qəbiristanlığında dəfn olunmuşdur.

Tamerlan Cavad oğlu Səfərov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Suqovuşanın azad olunmasına görə" (24.06.2021) və "Cəsur döyüşçü" (24.06.2021) medalları ilə təltif edilmişdir.

9

Şükür İlyasov - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25 iyun.- S.61-65.

Şükür Qənbər oğlu İlyasov 1991-ci il yanvar ayının 9-da Şabran rayonunun Gülamlı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə çağırılmış, xidməti dövründə dəfələrlə təltifnamələrə layiq görülmüşdür. Xidmət müddəti başa çatdıqdan sonra Şükür İlyasov Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi qulluqçu kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Şükür İlyasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə vuruşmuş, qumbaraatan atıcı kimi düşmənin xeyli sayda canlı qüvvəsi və bir sıra texnikasını məhv etmişdir. Sentyabr ayının 27-də qızğın döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Şükür İlyasov sentyabr ayının 30-da Şabran şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Şükür İlyasov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" (15.12.2020), "Kəlbəcərin azad olunmasına görə" (29.12.2020) medalları ilə təltif edilmişdir.

2022-ci ildə Şükür İlyasovun Şabran rayonu Gülamlı kəndi ərazisində yerləşən evinin divarında inşa edilmiş barelyef abidə kompleksinin açılışı olmuşdur.

9 YANVAR

Aydın Əliyev - 35

(1991-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Aydın Nəriman oğlu Əliyev 1991-ci il yanvar ayının 9-da Sumqayıt şəhərində anadan olmuşdur. 1998-ci ildə Sumqayıt şəhər 9 saylı məktəbin birinci sinfə getmiş, tam orta təhsilini Sumqayıt şəhər 4 saylı Texniki Peşə litseyində elektrik peşəsinə yiyələnməklə başa vurmuşdur. 2010-2011-ci illərdə Həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Aydın Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Zəngilan və Xocavənd rayonlarının işğaldan azad olunmasında fəal iştirak etmişdir. Füzuli rayonu istiqamətində gedən döyüşlərdə ağır yaralanmış, 21 gün komada qalmış, noyabr ayının 28-də şəhid olmuşdur. Sumqayıt Şəhidlər xiyabanında dəfn edilmişdir.

Aydın Nəriman oğlu Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020), "Cəbrayılın azad olunmasına görə" (24.12.2020), "Xocavəndin azad olunmasına görə" (25.12.2020) və "İgidliyə görə" (18.12.2020) medalları ilə təltif edilmişdir.

9

Elnur İmamverdiyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Elnur Vəfadar oğlu İmamverdiyev 2001-ci il yanvar ayının 9-da Kürdəmir rayonunun Carlı kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Carlı kənd orta məktəbində təhsil almış, eyni zamanda idmanla da məşğul olmuşdur. 2019-cu ildə xüsusi təyinatlıların "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Elnur İmamverdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər-Ağdərə, Füzuli, Cəbrayıl rayonları istiqamətlərində gedən ağır döyüşlərdə iştirak etmiş, torpaqlarımızın işğaldan azad olunmasında, düşmənin canlı qüvvəsi və texnikasının məhv edilməsində böyük şücaətlər göstərmişdir. Oktyabr ayının 20-də Cəbrayıl rayonunun Daşkəsən kəndi istiqamətində gedən döyüşdə ağır yaralanmış, 25 oktyabrda şəhid olmuşdur. Oktyabr ayının 26-da Kürdəmir rayonunun Carlı kəndində dəfn olunmuşdur.

Elnur Vəfadar oğlu İmamverdiyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

Carlı kənd tam orta məktəbində siniflərdən birinə Elnur İmamverdiyevin adı verilmişdir.

YANVAR

10

Nizaməddin İsmayılov - 45

(1981-2020)

Baş gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Nizaməddin İsmayıl oğlu İsmayılov 1981-ci il yanvar ayının 10-da Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1999-cu ildə həqiqi hərbi xidmətə çağırılmış, xidmət müddəti bitdikdən sonra, 2002-ci ildə Müdafiə Nazirliyinin Təlim Tədris Mərkəzində Gizirlik Hazırlıq Məktəbində kurs keçmiş, 2003-cü ildən "N" saylı hərbi hissədə sülhməramlı taborda xidmətə başlamışdır.

Nizaməddin İsmayılov 2008-ci ilə kimi İraqda sülhməramlı taborda xidmət etmiş, 2008-ci ildə "N" saylı hərbi hissədə tağım komandiri işləmişdir. 2011-ci ildən ön cəbhədə yerləşən hərbi hissələrdən birində minaatan batareyada xidmət etdirmiş, bir çox medal və fəxri fərmanlarla təltif olunmuşdur. Aprel döyüşlərinində iştirakçısı olmuşdur.

Azərbaycan Ordusunun giziri olan Nizaməddin İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşmış, sentyabr ayının 27-də qəhrəmancasına şəhid olmuşdur.


Nizaməddin İsmayılov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" (15.12.2020), "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" (25.12.2020), "Xocavəndin azad edilməsinə görə" (25.12.2020) medalları ilə təltif edilmişdir.

11

Murad Kəlbiyev - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Murad Məməziyad oğlu Kəlbiyev 1996-cı il yanvar ayının 11-də Qusar rayonunun Cibir kəndində anadan olmuşdur. Orta məktəbi qurtardıqdan sonra həqiqi hərbi xidmətdə olmuş, xidmət müddəti bitdikdən sonra müddətdən artıq həqiqi xidmət qulluqçusu kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Murad Kəlbiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılmışdır. Kəşfiyyatçı olan Murad Kəlbiyev Cəbrayıl və Füzuli rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etymişdir. Oktyabr ayının 5-də Füzuli rayonunun Alxanlı kəndinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur, Qusar rayonunda dəfn olunmuşdur.

Murad Məməziyad oğlu Kəlbiyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda" (15.12.2020) və "Füzulinin azad olunmasına görə"(25.12.2020) medalları ilə təltif edilmişdir.

Murad Kəlbiyevin şəxsi əşyaları Milli Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fondunda qorunub saxlanılır.

YANVAR

11

Niyaməddin Məhərrəmov - 40

(1986-2020)

Əsgər



Ədəbiyyat:

Vətən sizə oğul dedi // Ədalət. –2021.–16 mart.– S.5.

İnternetdə

https://memorial.az/az/qehremanlarimiz/197

https://unudulmazlar.az/az/infom/2988

Niyaməddin Əmiraslan oğlu Məhərrəmov 1986-cı il yanvar ayının 11-də Beyləqan rayonunun Eyvazalılar kəndində anadan olmuşdur. 1992-2003-cü ildə Eyvazalılar kəndində orta məktəbəbində təhsil almışdır.

Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci il iyul ayının 14-də Tovuz döyüşlərindən sonra N. Məhərrəmov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Beyləqan rayon üzrə Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Niyaməddin Məhərrəmov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsində atıcı kimi Cəbrayıl, Xocavənd və Füzuli rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Niyaməddin Məhərrəmov 6 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Beyləqan rayonunda dəfn olunmuşdur.

Niyaməddin Əmiraslan oğlu Məhərrəmov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

15

Cəmil Səlimov - 35

(1991-2020)

Gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Cəmil Oqtay oğlu Səlimov 1991-ci il yanvar ayının 15-də Bakı şəhəri Xəzər rayonunun Binə qəsəbəsində anadan olmuşdur. 2008-ci ildə tam orta məktəbi, 2010-cu ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinin Hərbi Tibb məktəbini bitirmişdir.

Cəmil Səlimova Azərbaycan Respublikası Müdafiə nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "gizir" hərbi rütbəsi verilmiş, "N" saylı hərbi hissədə Motoatıcı taborun qərargah bölüyünün tibb məntəqəsinin feldşeri, motoatıcı taborun tibb məntəqəsinin feldşeri, hərbi hissənin tibb məntəqəsinin feldşeri vəzifələrində xidmət etmişdir. C. Səlimov "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)", "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medallarla təltif edilmişdir.

Azərbaycan Ordusunun giziri olan Cəmil Səlimov Vətən müharibəsində döyüş əməliyyatları zamanı yaralılara ilk tibbi yardım göstərilməsi və onların təxliyə edilməsində xüsusilə fərqlənmişdir. Sentyabr ayının 29-da Goranboy rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, Xəzər rayonunun Binə qəsəbəsində Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Cəmil Səlimov Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

YANVAR

15

Münasib Məmmədov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Münasib Elman oğlu Məmmədov 1996-cı il yanvar ayının 15-də Şəmkir rayonunun Yuxarı Seyfəli kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə Yuxarı Seyfəli kənd orta məktəbindəində təhsil almışdır. 2014-cü ildə Azərbaycan ordusu sıralarına həqiqi hərbi xidmətə çağırılmışdır. 2016-cı ildə baş verən Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Münasib Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli-Qubadlı rayonları istiqmətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 26- da Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, oktyabr ayının 27-də Yuxarı Seyfəli kəndində dəfn edilmişdir.

Münasib Elman oğlu Məmmədov Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqləndiyinə görə" medalları ilə təltif edilmişdir.

16

Vüsal Cəfərov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

Vüsal Şəfi oğlu Cəfərov 1996-cı il yanvar ayının 16-da Salyan rayonunun Yuxarı Xalac kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə Yuxarı Xalac kənd orta məktəbində təhsil almışdır. 2014-2015-ci illərdə Azərbaycan Ordusu sıralarındaa həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci ildən müddətdən artıq hərbçi kimi xidmətini davam etdirmişdir.

Azərbaycan ordusunun Daxili Qoşunlarının əsgəri olan Vüsal Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Cəbrayıl rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Vüsal Cəfərov noyabr ayının 6-də Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Salyan rayonu Xələc kənd qəbristanlığında dəfn olunmuşdur.

Vüsal Şəfi oğlu Cəfərov Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

2021-ci ildə Salyan şəhərində Vüsal Cəfərovun xatirəsinə bulaq tikilmişdir.

YANVAR
17

Əhəd Ağayev - 40

(1986-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Əhəd Bilal oğlu Ağayev 1986-cı il yanvar ayının 17-də Astara rayonunun Motalayataq kəndində anadan olmuşdur. Orta təhsilini Motalayataq kənd tam orta məktəbində almışdır.

Əhəd Ağayev 2005-2006-cı illərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Əhəd Ağayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl istiqamətlərində gedən ağır döyüşlərdə iştirak etmiş, böyük qəhrəmanlıq və şücaətlər göstərmişdir. Əhəd Ağayev noyabr ayının 1-də Xocavənd uğrunda gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Astara rayonunun Motalayataq kənd qəbiristanlığında dəfn edilmişdir.

Əhəd Bilal oğlu Ağayev Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda" (15.12.2020), "Xocavəndin azad olunmasına görə" (25.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020), "Cəbrayılın azad olunmasına görə"(24.12.2020) medalları ilə təltif edilmişdir.

17

İlqar Hüseynov - 25

(2001-2020)

Əsgər



İnternetdə

https://obastan.com/wiki/İlqar_Hüseynov_(əsgər)

https://unudulmazlar.az/az/infom/1653

https://memorial.az/az/qehremanlarimiz/776

İlqar Yaşar oğlu Hüseynov 2001-ci il yanvar ayının 17-də Qazax şəhərində anadan olmuşdur. 2007-2017-ci illərdə Qazax şəhər Qaratel Hacımahmudova adına orta məktəbdə, 2017-2020-ci illərdə Qazax Dövlət Sosial-İqtisadi Kollecinin elektrik təchizatı fakültəsində təhsil almışdır.

2020-ci ildə Azərbaycan Respublikasının Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmət çağırılmış, Ağdam rayonunun Xındırıstan kəndində "N" saylı hərbi hissənin artilleriya batareyasında xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İlqar Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Ağdam rayonu istiqamətində düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. Qazax rayonunun Şəhidlər Xiyabanında dəfn edilmişdir.

İlqar Yaşar oğlu Hüseynov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən müharibəsi iştirakcısı, "Vətən uğrunda" (15.12.2020) və "Ağdamın azad olunmasına görə" (24.06.2021) medalları ilə təltif edilmişdir.

Şəhidin vaxtilə yaşadığı küçədə magistral yolun kənarında adını əbədiləşdirən dayanacaq qoyulmuşdur.

YANVAR

18

Nicat Mənəfov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Nicat Azad oğlu Mənəfov 2001-ci il yanvar ayının 18-də Qax rayonunun Qaradolaq kəndində anadan olmuşdur. 2007-2016-ci illərdə Qaradolaq kənd məktəbində, 2016-2020-ci illərdə Qax Peşə Liseyində meliorasiya ixtisası üzrə təhsil almışdır. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında həqiqi hərbi xidmətə çağrılmışdır.

Azərbaycan ordusunun əsgəri olan Nicat Mənəfov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Şuşa rayonları uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 4 noyabr 2020-ci ildə Şuşanın alınması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Qax rayonunun Qaradolaq kəndində dəfn edilmişdir.

Nicat Azad oğlu Mənəfov Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Qax şəhər Tofiq İsmayılov adına 5 saylı orta məktəbin 7 b sinifi Nicat Mənəfovun adını daşıyır.

18

Tural Əliyev - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Tural Arif oğlu Əliyev 1991-ci il yanvar ayının 18-də Beyləqan rayonunun Təzəkənd kəndində anadan olmuşdur. 1998-2009-cu ildə Ə. Məmmədov adına Təzəkənd kənd tam orta məktəbində təhsil almışdır. 2009-2011-ci illlərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında həqiqi hərbi xidmətdə olmuşdur. 2011-ci ildən Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmətə başlamışdır. Bir müddət sonra Füzuli rayonunun Şükürbəyli kəndində yerləşən "N" saylı hərbi hissədə post komandiri kimi xidmətini davam etdirmişdir. Tural Əliyev 2016-cı il Aprel döyüşlərinin fəal iştirakçısı olmuş, Lələtəpə yüksəkliyinin işgaldan azad olunmasına görə fəxri fərmanla təltif olunmuşdur.

Azərbaycan ordusunun əsgəri olan Tural Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Qubadlı, Hadrut, Xocavənd və Şuşakənd uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabr ayının 2-də Qırmızı Bazar istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş. Tural Əliyevin nəşi ailəsinə 43 gün sonra – dekabr ayının 15-də təhvil verilmiş, Təzəkənd kənd qəbiristanlığında dəfn olunmuşdur.

Tural Arif oğlu Əliyev Azərbaycan Respublikasının Prezdenti İlham Əliyevin müvafiq Sərəncamları ilə "Vətən uğrunda" (15.12.2020), "Füzulinin azad olunmasına görə" (24.06.2021) və "Xocavəndin azad olunmasına görə" (25.12.2020) medalları ilə təltif edilmişdir.


YANVAR

18

Əmrah Bayramov - 25

(2001-2020)

Əsgər



İnternetdə

https://www.wikimedia.az-az.nina.az/Əmrah_Bayramov.html

http://neftchala-ih.gov.az/az/page/79.html

https://www.unudulmazlar.az/az/infom/2693

Əmrah Hüseyn oğlu Bayramov 2001-ci il yanvar ayının 18-də Neftçala rayonunun Bankə qəsəbəsində anadan olmuşdur. 2007-ci ildən Bankə qəsəbə 1 saylı tam orta məktəbində, 2008-ci ildən Neftçala şəhər 1 saylı orta məktəbində təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra 2016-cı ildə Aşpazlıq ixtisası üzrə 3 nömrəli Sumqayıt Peşə liseyinə qəbul olmuşdur.

Əmrah Bayramov 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında həqiqi hərbi xidmətə çağrılmışdır.

Azərbaycan ordusunun əsgəri olan Əmrah Bayramov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Xüsusi Təyinatlı Qüvvələrin tərkibində atıcı vəzifəsində Cəbrayıl, Füzuli rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 9-da Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, oktyabrın 30-da Neftçala rayonunda dəfn olunmuşdur.

Əmrah Hüseyn oğlu Bayramov Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

19

Anar Nurullayev - 25

(2001-2020)

MAHHXHQ kiçik çavuş



Ədəbiyyat

Şahin, Ş. Kimliyi DNT testi ilə müəyyən edilən şəhid Anar Nurullayev / Şahnaz Şahin //Sabirabad şəhidləri /Ş.Şahin.–Bakı, 2021.–S.140-142.

Anar Siyavuş oğlu Nurullayev 2001-ci il yanvar ayının 19-da Sabirabad rayonunun Osmanlı kəndində anadan olmuşdur. 2001-2018-ci illərdə Osmanlı, sonra isə Şıxsalahlı kənd tam orta məktəbində təhsil almış, idmanın ağırlıq qaldırma növü ilə məşğul olmuşdur. "Kompütür mühəndisi" ixtisası üzrə "Kompüter proqramlaşdırması" kursunu bitirmişdir.

Anar Nurullayev 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci ildən MAHHXHQ kimi orduda xidmət etməyə başlamışdır.

Azərbaycan ordusunun kiçik çavuşu olan Anar Nurullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Goranboy rayonunun Gülüstan və Tərtər rayonunun Suqovuşan kəndlərinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 30-da Talış kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Nəşi uzun müddət neytral sahədə qalmış, kimliyi DNT testi ilə müəyyən edilərək, 2021-ci il fevral ayının 17-də Sabirabad rayonunun Osmanlı kəndində dəfn olunmuşdur.

Anar Siyavuş oğlu Nurullayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

YANVAR
21

Nurlan Bağırov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Nurlan İsmayıl oğlu Bağırov 2001-ci il yanvar ayının 21-də Gəncə şəhərində anadan olmuşdur. 2019-cu ildə Kəlbəcər rayonunun Gəncə şəhərində yerləşən 28 nömrəli orta məktəbini bitirmişdir. 2019-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən hərbi xidmətə çağrılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etməyə başlamışdır.

Azərbaycan ordusunun əsgəri olan Nurlan Bağırov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Xocavənd və Füzuli rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 25-də Füzuli rayonu ərazisində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, oktyabr ayının 26-da Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.


Nurlan İsmayıl oğlu Bağırov Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

21

Mətləb Əkbərov - 25

(2001-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat

Nurəddin. Bayrağımızı öpüb dərsə gedərdi.../ Nurəddin //Mədəniyyət.–2021.–25 iyun.–S.6.

Tağıyev, A. Siyəzən şəhidləri / Aydın Tağıyev // Ədalət.– 2021.– 14 yanvar.– S.6.

Mətləb Zülfiqar oğlu Əkbərov 2001-ci il yanvar ayının 21-də Siyəzən rayonunun Yenikənd kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Yenikənd kənd Vüqar Qasımov adına tam orta məktəbdə təhsil almışdır. 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci ildən MAHHXHQ kimi orduda xidmət etməyə başlamışdır.

Azərbaycan ordusunun əsgəri olan Mətləb Əkbərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Xocavənd, Füzuli rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 9-da Füzuli rayonu istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Mətləb Zülfiqar oğlu Əkbərov Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda" (15.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020) və "İgidliyə görə" (24.06.2021) medalları ilə təltif edilmişdir.

YANVAR

21

Amid Həsənli - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Amid İsaq oğlu Həsənli 1996-cı il yanvarın 21-də Saatlı rayonunun Dədə Qorqud kəndində anadan olmuşdur. Dədə Qorqud kənd orta məktəbini bitirmişdir. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Amid Həsənli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlayan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Amid Həsənli oktyabrın 1-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş, Dədə Qorqud kəndində dəfn olunmuşdur.

Amid İsaq oğlu Həsənli Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" (15.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020) və "Döyüşdə fərqlənməyə görə" (24.06.2021) medalları ilə təltif edilmişdir.

Sabirabad rayon regional Mədəniyyət İdarəsi tərəfindən şəhidə həsr olunmuş videoçarx hazırlanmış, Dədə Qorqud kəndində Ev muzeyi yaradılmışdır.

21

Orxan Qasımov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Orxan Rizvan oğlu Qasımov 1996-cı il yanvar ayının 21-də Bakı şəhərində anadan olmuşdur. Orxan Qasımov 2002-2008-ci illərdə Bakı şəhərində yerləşən Ağdam rayon 36 nömrəli tam orta məktəbdə, 2008-2013-cü illərdə Bakı şəhəri Sabunçu rayonunda yerləşən 296 saylı tam orta məktəbdə təhsil almışdır. 2013-2017-ci illərdə Azərbaycan Dövlət Neft və Sənaye universitetinin Qaz-neft-mədən fakültəsində Neft-qaz mühəndisliyi ixtisası üzrə təhsil almışdır.

Orxan Qasımov 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan ordusunun əsgəri olan Orxan Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə xeyli düşməni məhv edərək qəhrəmancasına şəhid olmuşdur.

Orxan Rizvan oğlu Qasımov Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

YANVAR

21

Dünyamin Tağızadə - 25

(2001-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Dünyamin Ramin oğlu Tağızadə 2001-ci il yanvar ayının 21-də Beyləqan rayonunun Günəş qəsəbəsində anadan olmuşdur. Dünyamin Tağızadə 2007-2016-cı illərdə Beyləqan rayon 6 saylı, 2016-2018-ci illərdə Beyləqan rayon 22 saylı tam orta məktəblərdə təhsil almışdır. 4 ay Göyçay rayonunda kollecdə oxuduqdan sonra hərbi xidmətə çağırılmışdır.

Dünyamin Tağızadə 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmət müddətində Tovuz rayonunun Əlibəyli kəndi istiqamətində Ermənistan Silahlı Qüvvələrinin atəşkəsi pozması nəticəsində başlanan əməliyyatda iştirak etmiş, hərbi hissə tərəfindən fəxri fərman ilə təltif olunmuşdur.

Dünyamin Tağızadə 2020-ci ilin 14 iyul tarixində Tovuz döyüşlərindən sonra səfərbər olunaraq hərbi təlim toplantılarına çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Dünyamin Tağızadə Vətən müharibəsində Füzuli və Cəbrayıl rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Sentyabrın 30-da Cəbrayıl rayonu istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş, Beyləqan rayonunda dəfn olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Dünyamin Tağızadə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad edilməsinə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

22

Şəmsəddin Vəliyev - 25

(2001-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Şahin, Ş. Xüsusi təyinatlı MAXE Şəmsəddin Vəliyev /Şahnaz Şahin //Sabirabad şəhidləri /Ş.Şahin.–Bakı, 2021.–S.52-54.

Hüseyn, T. Sən həmişə bizimləsən / Tofiq Hüseyn // Respublika.– 2022.– 25 yanvar.– S.6.

Şəmsəddin Aqil oğlu Vəliyev 2001-ci il yanvar ayının 22-də Sabirabad rayonunun Dadaşbəyli kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Dadaşbəyli kənd tam orta məktəbində təhsil almış, 2018-ci ildə Şirvan şəhər Humanitar kollecinə daxil olmuşdur. Şəmsəddin Vəliyev 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmış, NMR-nın "N" saylı hərbi hissəsində xidmət etmişdir. Xidmət müddəti bitdikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi hərbi xidmətini davam etdirmişdir.

Şəmsəddin Vəliyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsində iştirak etmiş, Füzuli, Xocavənd rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Oktyabrın 24-də Xocavənd rayonunun Tuğ kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Şəmsəddin Aqil oğlu Vəliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

YANVAR

22

Elşən Əliyev - 40

(1986-2020)

Əsgər



Elşən Novruz oğlu Əliyev 1986-cı il yanvar ayının 22-də Beyləqan rayonunun Yuxarı Aran kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Elşən Əliyev 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Elşən Əliyev 14 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Elşən Novruz oğlu Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda" (15.12.2020), "Cəsur döyüşçü" (24.06.2021) və "Füzulinin azad olunmasına görə" (05.11.2021) medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Beyləqan rayonunda şəhid ailələri ziyarət olunub // Azərbaycan.– 2021.– 20 oktyabr.– S.3.

23

Amal Qarayev - 25

(2001-2020)

MAHHXHQ kiçik çavuş



Amal Ədalət oğlu Qarayev 2001-ci il yanvar ayının 23-də Yardımlı rayonun Ərus kəndində anadan olmuşdur. 2007-2015-ci ildə Qusar rayonun Düztahir kənd tam orta məktəbində, 2015-2016-cı illərdə Bakıda Fizika-Kimya təmayüllü liseydə təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmış, Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrində xidmət etmişdir.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin kiçik çavuşu Amal Qarayev 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsində Murovdağ döyüşləri zamanı yaralanmış, lakin döyüşlərdə iştirakını davam etdirmişdir. Cəbrayıl, Kəlbəcər, Füzuli rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 4-də Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, Yardımlı rayonunun Ərus kəndində dəfn olunmuşdur.

Amal Ədalət oğlu Qarayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Amal Qarayev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şücaətə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.


Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Azad Hümbətov - 30

(1996-2020)

Baş leytenant



Azad Arif oğlu Hümbətov 1996-cı il yanvar ayının 24-də Bakı şəhərində anadan olmuşdur.

Əslən Göyçə mahalının Aşağı Şorca kəndindən olan Azad Hümbətov Bakı şəhəri, Nərimanov rayonundakı 291 №-li Ekologiya liseyini bitirmişdir. 2013-2017-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin tank bölüyü fakültəsində ali təhsil almışdır. Təyinatı üzrə həmin ildən Füzuli rayonunun Horadiz şəhərindəki "N" saylı hərbi hissədə xidmətə başlamışdır. 2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi" münasibətilə keçirilən hərbi tədbirdə ön sırada bayraqdar vəzifəsini icra etmişdir. "Azərbaycan Ordusunun 100 illiyi" medalı ilə təltif olunmuşdur.

Azad Hümbətov Bakıda yerləşən Silahlı qüvvələrin təlim və tədris mərkəzində 45 gün müddətində zabit heyətinin təkmilləşdirmə kursunu keçərək baş leytenant rütbəsi almışdır.

Azad Hümbətov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsi zamanı Füzuli, Qubadlı, Cəbrayıl, Zəngilan, Laçın rayonları istiqamətlərində gedən döyüşlərdə iştirak etmiş, düşmən qüvvələrinə sarsıdıcı zərbələr endirmişdir. Döyüşlər zamanı rəhbəri olduğu tank bölüyündən, piyada döyüş bölüyünə rəhbər təyin edilmişdir. Oktyabr ayının 27-də Laçın rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Bakıda İkinci Fəxri Xiyabanda dəfn edilmişdir.

Azad Arif oğlu Hümbətov Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən müharibəsi Qəhrəmanı" adı verilmiş və "Vətən uğrunda" (15.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020), "Xocavəndin azad olunmasına görə" (25.12.2020) medalları ilə təltif edilmişdir.

Şəhid Azad Hümbətova məxsus əşyalar ailəsi tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin İkinci Qarabağ müharibəsi fonduna təhvil verilmişdir.

2021-ci ildə Bakı şəhəri 291 nömrəli Ekologiya liseyinə, Bakıdakı mərkəzi küçələrin birinə Azad Hümbətovun adı verilmişdir.

Ədəbiyyat:

Tarix Muzeyinə şəhid Azad Hümbətova məxsus əşyalar təhvil verilib // Azərbaycan.– 2021.– 7 aprel.– S. 5.

Cəfərov, M. Azad Hümbətov /Müşfiq Cəfərov //Respublika. –2023.– 24 yanvar.– S.13.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

YANVAR

24

Nazim Beydiyev - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Nazim Eynulla oğlu Beydiyev 1991-ci il yanvar ayının 24-də Şamaxı rayonunun Mirikənd kəndində anadan olmuşdur. 1997-2008-ci illərdə Mirikənd kənd tam orta məktəbində təhsil almışdır. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. O, xidmətini bitirdikdən sonra, ordu sıralarına MAHHXHQ kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Nazim Beydiyev 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlayan Vətən müharibəsi zamanı Murovdağ, Ağdərə və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 2-də Madagizin azad edilməsi zamanı qəhrəmancasına şəhid olmuş, Şamaxı Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Nazim Eynulla oğlu Beydiyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

24

Zaməddin Kərəmov - 25

(2001-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25 iyun.- S.61-65.

Zaməddin Bahadur oğlu Kərəmov 2001-ci il yanvar ayının 24-də Oğuz rayonunun Bucaq kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Bucaq kənd orta məktəbində təhsil almışdır. 2019-cu il yanvar ayının 24-də hərbi xidmətə çağırılmış, 2020-ci ildə hərbi xidmətini başa vurduqdan sonra, müddətdən artıq hərbi qulluqçu kimi ordu sıralarında xidmətini davam etdirmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin müddətdən artıq hərbi qulluqçusu Zaməddin Kərəmov İkinci Qarabağ müharibəsində Şəmkir korpusunun "Həmlə 319" batalyonunun tərkibində Suqovuşan kəndinin alınmasında iştirak etmişdir. Kəlbəcər istiqamətində Murovdağ silsiləsində "Canavar qulağı" postunun alınması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Müharibə bitəndən sonra axtarışlar nəticəsində Zaməddin Kərəmovun nəşi tapılmış, dekabr ayının 16- da Bucaq kəndində dəfn olunmuşdur.

Zaməddin Bahadur oğlu Kərəmov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Zaməddin Kərəmov ölümündən sonra "Vətən uğrunda" (24.06.2021), "Kəlbəcərin azad olunmasına görə" (29.12.2020) medalları ilə təltif edilmişdir.


YANVAR

25

Murad Bədirov - 25

(2001-2020)

MAHHXHQ kiçik çavuş



Murad Qismət oğlu Bədirov 2001-ci il yanvar ayının 25-də Cəlilabad rayonunun Kazımabad kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılmış, 2020-ci il iyul ayında hərbi xidmətini başa vurmuşdur. Murad Bədirov həmin il sentyabr ayında müddətdən artıq hərbi qulluqçu kimi ordu sıralarında xidmət etməyə başlamışdır.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Murad Bədirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Murad Bədirov oktyabr ayının 18-də Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Oktyabr ayının 19-da Cəlilabad rayonunun Kazımabad kəndində dəfn edilmişdir.

Murad Qismət oğlu Bədirov Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Vətən sizə oğul dedi: [şəhid Mirağa Qasımov, Qadir Heydərov, Rahib Fətəliyev, Alim Şükürov, Murad Bədirov və Ramil Babayev haqqında]// Ədalət.– 2021.– 2 fevral.– S.5.

27

Murad Məmmədli - 30

(1996-2020)

Əsgər



Murad Teymurşah oğlu Məmmədli 1996-cı il yanvar ayının 27- də Bakı şəhəri, Biləcəri qəsəbəsində anadan olmuşdur. 2002-2011-ci illərdə 144 №-li tam orta məktəbdə, 2011-2014-cü illərdə Azərbaycan Dövlət Dəmir Yolu Liseyinin maşinist fakültəsində təhsil almışdır. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, Goranboy rayonunun Ağca kəndində, Murovda xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Murad Məmmədli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərdə iştirak etmişdir. Döyüş yolu Füzuli-Qubadlı istiqamətində olmuş, torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə oktyabrın 21-də qəhrəmancasına şəhid olmuşdur. Nəşi uzun müddət tapılmamış, dekabrın 5-də tapılaraq ailəsinə təhvil verilmişdir.

Murad Teymurşah oğlu Məmmədli Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

YANVAR

27

Vahid Qurbanov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Bəşirqızı, Z.Kəndin ilk şəhidi: "Əsgər, Vətən əmanəti, yurd əmanəti": [Vahid Elşad oğlu Qurbanov] /Zərifə Bəşirqızı //Xalq qəzeti.-2023.–10 avqust.

Vahid Elşad oğlu Qurbanov 2001-ci il yanvar ayının 27-də Tovuz rayonunun Əyyublu kəndində anadan olmuşdur. 2007-2016-cı illərdə E.Bayramov adına Əyyublu kənd tam orta məktəbində, 2016-2018-ci illərdə K.D.Uşinski adına 29 saylı Gəncə şəhər tam orta məktəbində təhsil almışdır. İdmana da böyük maraq göstərmiş, əlbəyaxa döyüş növləri ilə məşğul olmuşdur. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət çağrılmışdır.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Vahid Qurbanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavənd, xüsusilə də Qırmızı Bazar istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Vahid Qurbanov oktyabrın 30-da Xocavənd döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Noyabrın 4-də Tovuz rayonunun Əyyublu kəndində dəfn olunmuşdur.

Vahid Elşad oğlu Qurbanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

28

Teymur Hacıyev - 35

(1991-2020)

Baş gizir



Ədəbiyyat:

Poladoğlu, V.Şəhid Teymur Hacıyev ildönümündə ehtiramla yad edilib/V.Poladoğlu //Respublika.–2024.–20 oktyabr.–S.6.

Teymur Zaur oğlu Hacıyev 1991-ci il yanvar ayının 28-də Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olmuşdur. 1997-2008-ci illərdə Yuxarı Salahlı kənd tam orta məktəbində təhsil almışdır.

Teymur Hacıyev 2009-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət çağrılmışdır. Həmin il Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində (TTM) gizirlik kursunu keçərək Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində gizir rütbəsində xidmətə başlamış, 2018-ci ildə isə baş gizir vəzifəsinə təyin edilmişdir.

Teymur Hacıyev xidməti dövründə Müdafiə Nazirliyi tərəfindən "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illiyi (1918-2018)", "Qüsürsuz xidmətə görə" 3-cü dərəcəli medalları ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun baş giziri olan Teymur Hacıyev Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 13-də Füzuli rayonu istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş, oktyabr ayının 16-da Qazax rayonunun Yuxarı Salahlı kəndində dəfn olunmuşdur.

Teymur Zaur oğlu Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

YANVAR
28

Elməddin Əhmədli - 30

(1996-2020)

Çavuş



Elməddin Gülverən oğlu Əhmədli 1996-cı il yanvar ayının 28-də Biləsuvar rayonunun Təzəkənd kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə R.Şirinov adına Təzəkənd kənd tam orta məktəbində təhsil almışdır. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Elməddin Əhmədli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərdə iştirak etmişdir. Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə şücaət göstərmiş, noyabrın 3-də Hadrut istiqamətində gedən döyüşlərdə düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuş, noyabrın 19-da Biləsuvar rayonu Təzəkənd kənd qəbiristanlığında dəfn olunmuşdur.

Elməddin Gülverən oğlu Əhmədli Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Abdulov, Ə. Vətən müharibəsinin qəhrəmanları: [şəhid Ziyəddin Xanalıyev, Elməddin Əhmədli haqqında] / Ərəstun Abdulov // Respublika.– 2021.– 25 noyabr.– S.6.

28

Nemət Həsənov - 30

(1996-2020)

Əsgər



Nemət Süleyman oğlu Həsənov 1996-cı il yanvar ayının 28-də Saatlı rayonunun Əbil kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə Əbil kənd orta məktəbdə təhsil almışdır. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Nemət Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərdə iştirak etmişdir. Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl rayonlarının işğaldan azad edilməsi uğrunda aparılan əməliyyatlarda şəxsi igidlik və şücaət göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirmişdir. Nemət Həsənov oktyabrın 22-də Qubadlı rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Nemət Süleyman oğlu Həsənov Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2021-ci ildə Saatlı Dövlət Rəsm Qalereyası Nemət Həsənovun xatirəsinə həsr olunmuş video-çarx təqdim etmişdir.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/2131

https://obastan.com/wiki/Nemət_Həsənov

https://www.wikimedia.az-az.nina.az/Nemət_Həsənov.html

YANVAR
28

Mahir Məmmədov - 45

(1981-2020)

Baş gizir



İnternetdə

https://unudulmazlar.az/az/infom/1032

http://surakhani-ih.gov.az/az/page/134.html

https://bakimektebleri.edu.az/290/az/news/read/1438

Mahir Ağasəlim oğlu Məmmədov 1981-ci il yanvar ayının 28-də Xaçmaz rayonunun Şıxhaput kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. Mahir Məmmədov 2003-cü ildən ordu sıralarında hərbçi kimi xidmət ini davam etdirmişdir. 2016-cı il Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun baş giziri olan Mahir Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsinin ilk günündən döyüşlərə qoşulmuş və şəxsi şücaət nümayiş etdirərək düşmənin hərbi obyektlərinin məhv edilməsində fəallıq göstərmişdir. Mahir Məmmədov oktyabr ayının 7-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə artilleriya mərmisinin partlaması nəticəsində baş nahiyəsindən ağır yaralanmış, 12 gün komada qaldıqdan sonra oktyabr ayının 17-də şəhid olmuşdur. Xaçmaz rayonunun Şıxhaput kəndində dəfn olunmuşdur.

Mahir Ağasəlim oğlu Məmmədov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölmündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

290 №-li tam orta məktəbin V "b" sinfinə şəhidin adı verilmiş, 2022-ci il yanvarın 28-də Suraxanı rayonu, Qaraçuxur qəsəbəsi, Yeni Günəşli "D" yaşayış sahəsində bulaq-abidə kompleksi istifadəyə verillmişdir.

Coşqun Orucov - 25

28

(2001-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Yunisli, F. Coşqun kəşfiyyatçı snayper / Fariz Yunisli // Mədəniyyət.– 2021.–17 fevral.- S.6.

İsaxan, E. Cəsur kəşfiyyatçı / Elnurə İsaxan //Hərbi And.– 2021.– 1 oktyabr.– S.7.

Coşqun Oruc oğlu Orucov 2001-ci il yanvarın 28-də Culfa rayonunun Xoşkeşin kəndində anadan olmuşdur. 2007-ci ildə ailəsi ilə birlikdə Bakıya köçmüş, orta təhsilini Suraxanı rayonundakı 315 №-li tam orta məktəbdə almışdır. Naxçıvan şəhərindəki "N" saylı hərbi hissədə qulluq etmiş, xidmət müddəti başa çatdıqdan sonra Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunda müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu – kəşfiyyatçı snayper kimi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Coşqun Orucov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı snayperçi kimi Füzuli və Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 21-də Hadrud istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olmuş, oktyabrın 25-də Suraxanı rayonunun Dədə Qorqud qəsəbəsində dəfn edilmişdir.

Coşqun Oruc oğlu Orucov Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

YANVAR

28

Ramil Quliyev - 45

(1981-2020)

Baş gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Ramil Nuralı oğlu Quliyev 1981-ci il yanvar ayının 28-də Kürdəmir rayonunun Qarasu kəndində anadan olmuşdur. 1987-1998-ci illərdə Qarasu kəndində Şəhid Elşad Qurbanov adına orta məktəbdə təhsil almışdır. Daha sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2001-ci ildə Gizirlik kursunu bitirmiş, Azərbaycan Silahlı Qüvvələrində 20 il peşəkar hərbçi kimi qüsursuz xidmət etmiş, 1-ci, 2-ci və 3-cü dərəcəli medallarla təltif olunmuşdur.

Azərbaycan Ordusunun baş giziri olan Ramil Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı Füzuli və Qubadlı rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 29-da Füzuli rayonu istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olmuş, oktyabrın 2-də Kürdəmir rayonunun Qarasu kənd qəbiristanlığında dəfn olunmuşdur.

Ramil Nuralı oğlu Quliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda" , "İgidliyə görə" , "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

29

Seymur Qocayev - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

Seymur Mahir oğlu Qocayev 1996-ci il yanvar ayının 29-da Quba rayon Bağbanlı qəsəbəsində anadan olmuşdur. Məktəbi bitirdikdən sonra 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Silahlı Qüvvələrinin XTQ kəşfiyyatçısı Seymur Qocayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı Murovdağ zirvəsi, Cəbrayıl və Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə, eləcə də Hadrut qəsəbəsinin düşməndən azad olunmasında böyük şücaət göstərmişdir. Seymur Qocayev noyabrın 7-də Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, noyabrın 12-də Quba rayon Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Seymur Mahir oğlu Qocayev Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda" (15.12.2020), "Kəlbəcərin azad olunmasına görə" (24.06.2021), "Şuşanın azad olunmasına görə" (29.12.2020), "Hərbi xidmətlərə görə"(30.12.2020) medalları ilə təltif edilmişdir.


YANVAR

29

Sübhan Kərimov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

Sübhan Murtuz oğlu Kərimov 1996-cı il yanvar ayının 29-da Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə X.Mirzəyev adına Qıraq Kəsəmən kənd orta məktəbində təhsil almışdır. Sübhan Kərimov 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Sübhan Kərimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı bir çox hərbi əməliyyat və döyüşlərdə fərqlənmişdir. Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, noyabr ayının 9-da döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, noyabrın 10-da Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində dəfn edilmişdir.

Sübhan Murtuz oğlu Kərimov Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda" (15.12.2020), "Döyüşdə fərqlənməyə görə" (18.12.2020), "Şuşanın azad olunmasına görə" (29.12.2020) və "Füzulinin azad olunmasına görə" (05.11.2021) medalları ilə təltif edilmişdir.

30

Kənan Süleymanlı - 35

(1991-2020)

Leytenant



İnternetdə

https://unudulmazlar.az/az/infom/1620

http://nizami-ih.gov.az/az/news/1042.html

Kənan Sadıq oğlu Süleymanlı 1991-ci il yanvar ayının 30-da Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Bakı şəhər 94 saylı tam orta məktəbində, ali təhsilini Azərbaycan Kooperasiya Universitetində almışdır.

Kənan Süleymanlı Azərbaycan Silahlı Qüvvələrinin Təlim Tədris Mərkəzində zabitlik kursu keçmiş, kursu bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında "leytenant" rütbəsi ilə xidmət etmişdir. Xidmətini başa vurduqdan sonra ehtiyatda olan zabit kimi ordudan tərxis olmuşdur.

Azərbaycan Ordusunun leytenantı olan Kənan Süleymanlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsində ehtiyatda olan zabit kimi iştirak etmişdir. Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Noyabrın 9-da Xocavənd rayonu ərazisində Üçtəpə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Bakıda II Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Kənan Sadıq oğlu Süleymanlı Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

2022-ci il yanvar ayının 30-da Nizami rayonunda Kənan Süleymanlının xatirə kompleksinin açılışı olmuşdur.

YANVAR

30

Vüsal Hüseynov - 35

(1991-2020)

MAHHXHQ əsgər



Vüsal Nadir oğlu Hüseynov 1991-ci il yanvar ayının 30-da Beyləqan rayonunun Qəhramanlı qəsəbəsində anadan olmuşdur. 1997-2008-ci illərdə T.Məhəmmov adına Qəhrəmanlı qəsəbə tam orta məktəbi təhsil almışdır. Vüsal Hüseynov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Beyləqan rayon üzrə Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılmış, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, "N" saylı hərbi hissədə xidmət etmişdir. Hərbi xidmətini başa vurduqdan sonra müddətdən artıq hərbi xidmət qulluqçusu kimi xidmətini davam etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Vüsal Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirmişdir. Vüsal Hüseynov oktyabrın 20-də Xocavənd rayonunda gedən döyüşdə qəhrəmancasına şəhid olmuş, Beyləqan rayonunda dəfn olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Vüsal Nadir oğlu Hüseynov ölümündən sonra III dərəcəli "Vətənə xidmətə görə" (05.11.2022) ordeni, "Vətən uğrunda" (15.12.2020), "Xocavəndin azad olunmasına görə" (24.06.2021) və "Döyüşdə fərqlənməyə görə" (24.06.2021) medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

31

Rüfət Mayılov - 25

(2001-2020)

Əsgər



Rüfət Bəhrəm oğlu Mayılov 2001-ci il yanvar ayının 31-də Göyçay rayonunun Kürdəmiş kəndində anadan olmuşdur. Rüfət Mayılov orta məktəbi bitirdikdən sonra 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Xidmət etdiyi hərbi hissədə idman sahəsində dərəcələri yüksək olmuş, fəxri fərman və təşəkkürnamələrlə təltif edilmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rüfət Mayılov 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda Vətən müharibəsi zamanı Xocavənd və Füzuli rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabr ayının 30-da Füzuli rayonunun Alxanlı kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuş, Göyçay rayonunun Kürdəmiş kəndində dəfn edilmişdir.

Rüfət Bəhrəm oğlu Mayılov Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda" (15.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020) və "Xocavəndin azad olunmasına görə" (25.12.2020) medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.-

Rasim Musabəyov - 75

(1951)

Siyasi xadim, politoloq



Rasim Nəsrəddin oğlu Musabəyov 1951-ci il yanvar ayının 1-də Bakı şəhərində anadan olmuşdur.

Rasim Musabəyov Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) avtomatlaşdırma fakültəsini bitirmişdir. Fəlsəfə üzrə fəlsəfə doktoru, politologiya üzrə dosentdir.

Rasim Musabəyov 1976-1982-ci illərdə ÜİLKGİ MK aparatının məsul işçisi olmuş, sonralar Moskvada Gənclər İnstitutunda baş müəllim, elmi tədqiqat laboratoriyasının "müdiri işləmişdir. 1989-cu ildən Bakı Ali Partiya Məktəbində sosiologiya laboratoriyasının müdiri, 1990-cı ildən Azərbaycan KP Bakı Şəhər Komitəsinin İdeologiya şöbəsinin müdiri, 1991-ci ildən Azərbaycan Respublikası Prezidenti Aparatında millətlərarası münasibətlər üzrə müşavir, 1992-ci ildən Azərbaycan Respublikası Ali Soveti Sədrinin birinci müavininin müşaviri, 1993-cü ildən Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun dosenti vəzifələrində çalışmışdır. 2000-ci ildən müstəqil politoloq kimi fəaliyyət göstərir.

2005-2008-ci illərdə Azərbaycan Mətbuat Şurasının üzvü olunmuşdur. 2006-2010-cu illərdə Açıq Cəmiyyət İnstitutu-Yardım Fondunun İdarə Heyətinin üzvü olmuşdur.

Rasim Musabəyov 30 yanvar 1993-cü ildə Tamerlan Qarayev ilə birgə Doğru Yol Partiyasını təsis etmişdir. Doğru Yol Partiyasının Təsis Konfransı 30 yanvar 1993-cü ildə keçirilmiş, konfransda Tamerlan Qarayev sədr, Rasim Musabəyov sədr müavini seçilmişdir. Rasim Musabəyov 1994-cü ildən etibarən Doğru Yol Partiyası sədrinin vəzifələrinin icraçısı vəzifəsini icra etməyə başlamışdır.

Rasim Musabəyov Azərbaycan Respublikasının Milli Məclisinin IV, V və VI çağırış deputatı seçilmişdir. Hal-hazırda Milli Məclisin VII çağırış deputatıdır. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Əfqanıstan, Gürcüstan, İsrail, Makedoniya, Rusiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür. MDB-nin Parlamentlərarası Assambleyasında və Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətlərinin üzvüdür.

Azərbaycan, ABŞ, Böyük Britaniya, Kanada, İsveç, Almaniya, Rusiya, Türkiyə, Çin, Gürcüstanda və s. çap olunmuş 300-dən çox kitabın, kitabçanın və elmi məqalənin müəllifidir.

Görkəmli siyasi xadim Rasim Musabəyov 1972-ci ildə "Əmək rəşadətinə görə" medal ilə təltif olunmuşdur. "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı və "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalına layiq görülmüşdür.

Ədəbiyyat:

Demokratik seçkilər legitim hakimiyyətin əsasıdır /Rasim Musabəyov; Red.: Əhməd Abbasbəyli; Məsləhətçi: C. Həsənli; "Vətəndaş Cəmiyyəti Uğrunda" Müstəqil Məsləhət və Yardım MərkəziBakı: Adiloğlu. - 2002. - 30 səh.

Etnik azlıqların hüquqlarının təmin olunması və münaqişələrin tənzimlənməsində BMT-in və ATƏT-in rolu /tərt.-müəl. R. Musabəyov, M. İsgəndərzadə ; "İnam" Plüralizm Mərkəzi.Bakı: Azərbaycan. - 2000.- 40 s.

Siyasi liderlik / tərt.-müəl. R. Musabəyov ;"İnam" Plüralizm Mərkəzi.Bakı: Azərbaycan.- 1999.- 28 s.

Lobbizm /Müəlliflər: R.Musabəyov, F.Musayev; "İnam" Plüralizm MərkəziBakı: Azərbaycan.- 1999.- 28 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Rasim_Musab%C9%99yov

https://www.meclis.gov.az/news-dep.php?id=798&lang=az

Afiyəddin Cəlilov – 80

(1946-1994)

Dövlət xadimi



Afiyəddin Cəlil oğlu Cəlilov 1946-cı il yanvar ayının 8-də Naxçıvan şəhərində anadan olmuşdur.

1969-cu ildə Leninqrad (indiki Sankt-Peterburq) Dag-Mədən İnstitutunu bitirmişdir. 1981-ci ildə Moskvada Sov.İKP MK yanında İctimai Elmlər Akademiyasında təhsilini davam etdirmişdir.

1969-1973-cü illərdə Naxçıvan duz mədənlərində mühəndis-mexanik işləmişdir. 1973-1979-cu illərdə məsul komsomol, partiya və dövlət işində çalışmış, Naxçıvan Vilayət Komsomol Komitəsinin 1-ci katibi və Azərbaycan LKGİ MK katibi işləmişdir.

1979-1981-ci illərdə AKP MK-nın təlimatçısı, 1981-1989-cu illərdə Bakı şəhəri Nəsimi rayon partiya komitəsinin 1-ci katibi, 1989-1992-ci illərdə Naxçıvan MR Nazirlər Sovetinin sədri, Vilayət Partiya Komitəsinin 1-ci katibi, Naxçıvan MR Ali Məclisinin sədri, Azərbaycan Respublikası Prezidentinin müşaviri olmuşdur.

O, Naxçıvanda işlədiyi dövrdə Ermənistanın təcavüzü nəticəsində blokada şəraitində yaşayan Naxçıvan MR-in iqtisadi-sosial problemlərinin həlli, muxtar respublikada vətəndaş həmrəyliyinin yaranması və sabitliyin qorunub saxlanması sahəsində önəmli fəaliyyət göstərmişdir.

Afiyəddin Cəlilov 1992-ci ildən Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini olmuş, ölkənin dövlət müstəqilliyinin möhkəmləndirilməsində və onun daxili və xarici siyasətinin formalaşmasında fəal iştirak etmişdir.

1994-cü ildə Qara Dəniz İqtisadi Əmək daşlıq Təşkilatı Parlament Assambleyasının vitse-prezidenti seçilmişdir.

Afiyəddin Cəlilov Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetinin (bir neçə çağırış), Naxçıvan MR Ali Məclisinin deputatı olmuşdur.

İki dəfə "Şərəf nişanı" ordeni və medallarla təltif olunmuşdur.

Afiyəddin Cəlil oğlu Cəlilov 1994-cü il sentyabrın 29-da Bakıda yaşadığı binanın blokunda sui-qəsd nəticəsində qətlə yetirilib. Fəxri Xiyabanda dəfn edilmişdir.

Naxçıvan şəhərində 12 saylı orta məktəb və bir küçə onun adını daşıyır.

2002-ci ildə İsa Nəcəfovun Afiyəddin Cəlilovun və Şəmsi Rəhimovun qətlinə və 1994, 1995-ci il hadisələrinə həsr olunmuş "Gecə yarısı qətl" kitabı nəşr olunmuşdur.

Ədəbiyyat:

Nəcəfov, İ. Gecə yarısı qətl / İsa Nəcəfov; ədəbi red. E.Axundova. - Bakı: Nağıl evi, 2002. - 534 s.

Cəlilov Afiyəddin Cəlil oğlu // Naxçıvan Ensiklopediyası. - Bakı, 2002. - S. 84.

Seyidzadə, T. Yaşasaydı, çox işlər görərdi. Afiyəddin Cəlilovun parlaq gələcəyindən qorxanlar ona atəş açdı, qəddarcasına qətlə yetirdi / Tofiq Seyidzadə // Azad Azərbaycan. - 2015. - 7 yanvar. - S. 7.

"Gecə yarısı qətl" kitabının təqdimat mərasimi: [İsa Nəcəfovun Ali Sovetin sədr müavini Afiyəddin Cəlilovun və Prezident yanında xüsusi idarənin rəisi Şəmsi Rəhimovun qətlinə, 1994, 1995-ci il dövlət çevrilişinə həsr olunmuş kitabı haqqında] // Azərbaycan. - 2002. - 10 iyul. - S. 2.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Afiy%C9%99ddin_C%C9%99lilov

İlham Rəhimov - 75

(1951)

İctimai-siyasi xadim



İlham Məmmədhəsən oğlu Rəhimov 1951-ci il yanvar ayının 14-də Tovuz rayonunda anadan olmuşdur.

1970-1975 illərdə Leninqrad (indiki Sankt-Peterburq) Dövlət Universitetinin hüquq fakültəsində təhsil almış, 1975-1978-ci illərdə həmin universitetin Cinayət hüququ kafedrasının əyani aspirantı olmuşdur. 1978-ci ildə RF-in əməkdar elm xadimi, hüquq elmləri doktoru, professor Nikolay Aleksandroviç Belyayevin elmi rəhbərliyi ilə namizədlik, 1988-ci ildə Leninqrad Dövlət Universitetində doktorluq dissertasiyasını müdafiə etmişdir. 1996-cı ildə professor elmi adı almışdır.

Əmək fəaliyyətinə Azərbaycan EA Fəlsəfə və Hüquq İnstitutunda kiçik elmi işçi kimi başlamış, uzun müddət Azərbaycan Respublikası Ədliyyə Nazirliyində idarə rəisi vəzifəsində çalışmışdır.

1982-1992-ci illərdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik idarəsinin müdiri vəzifəsində işləmiş, Kollegiyanın üzvü olmuşdur. Həmin dövrdə İ.Rəhimov tərəfindən çoxlu sayda normativ aktlar, eləcə də qanunvericilik aktları üzrə nəticələr hazırlanmışdır.

1992-1996-cı illərdə illərdə Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiya problemləri üzrə Elmi-tədqiqat institutunun direktoru vəzifəsində işləmişdir.

1996-2000-ci illərdə müxtəlif ali məktəblərdə hüquqdan dərs demiş, eləcə də Ali Diplomatiya Kollecinin (indiki Avrasiya Universitetində) elmi işlər üzrə prorektoru olmuşdur.

Cinayət və islah-əmək hüququ üzrə 100-ə yaxın elmi məqalənin, eləcə də bir neçə məhkəmə və qanunvericiliyin fundamental problemlərinə həsr olunmuş monoqrafiyanın müəllifidir.

İlham Rəhimov 1992-1993-cü illərdə hazırlanmış məhkəmə sistemində islahatlar Konsepsiyasının ilk müəllifi olmuşdur. 1994-cü ildə isə cinayətkarlıqla mübarizə üzrə dövlət proqramını hazırlamışdır.

O, 18 aprel 2004-cü ildə Rusiya Təhlükəsizlik, Müdafiə, Qanunun aliliyi Akademiyasının akademiki seçilmişdir. İlham Rəhimov bu akademiyanın akademiki adına layiq görülmüş ikinci azərbaycanlıdır.

İlham Rəhimov 2005-ci ildə Azərbaycan və Rusiya arasında dostluq əlaqələrinin və əməkdaşlığın möhkəmləndirilməsi sahəsində gördüyü işlərə görə 2-ci dərəcəli Böyük Pyotr ordeni ilə təltif olunmuşdur.

2011-ci ildə Azərbaycan Respublikasının "Əməkdar hüquqşünas" fəxri adına layiq görülmüşdür. Fransanın "Beynalxalq İnsan hüquqları müdafiə komitəsinin" I dərəcəli (ali) "Aypara və ulduz" ordeni ilə təltif edilmiş, Beynəlxalq "Aypara və ulduz" ordeninin kavaleri fəxri adına, 2015-ci ildə demokratik cəmiyyət quruculuğu və hüquqi dövlət institutlarının inkişafındakı xidmətlərinə görə Femida ali hüquq mükafatına layıq görülmüşdür.

2016-cı ildə Rusiya Federasiyası İstintaq Komitəsinin Akademiyasının Elmi Şurasının qərarı ilə İlham Rəhimov akademiyanın "Fəxri professoru" adına, 2017-ci ilin sentyabr ayında Rusiya-Azərbaycan və Türkiyə-Azərbaycan əlaqələrinin inkişafında göstərdiyi xidmətlərə görə Mahmud Qaşqari adına Beynəlxalq Fondun mükafatına layiq görülmüşdür. 2021-ci ilin sentyabrında Rusiya Federasiyası Hökuməti yanında Qanunvericilik və Müqayisəli Hüquqşünaslıq İnstitutunun fəxri professoru, 2023-cü ildə Rusiya Elmlər Akademiyasının Ümumi yığıncağının qərarı ilə Rusiya Elmlər Akademiyasının akademiki seçilmişdir.

13 yanvar 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən İlham Rəhimov Azərbaycan Respublikasında hüquq sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat

Cəzanın əxlaqiliyi haqqında / İlham Rəhimov; red. koll.: Y. V. Qolik (məsul red.) [və b.]; Hüquq Mərkəzi Assosiasiyası. - Bakı: Şərq-Qərb, 2016. - 215 s.

Cinayətkarlıq və cəza / İlham Rəhimov; [burax. məsul S.İsmayılova; dizayner E.Qurbavov]; Hüquq Mərkəzi Assosiasiyası. - Bakı: Şərq-Qərb, 2015. - 319 s.

Ölməz ölüm cəzası / İlham Rəhimov. - Sankt-Peterburq, 2017. - 380 s.

Hüquq sosiologiyası / A.İ.Quliyev; elmi red. İ.Rəhimov. - Bakı: Qanun, 2012. - 503 s.

Dünya dinlərində cinayət və cəza : Tarixi, dini, hüquqi və fəlsəfi aspektlər /İ. M. Rəhimov ; [tərc. ed. E. Talışinski].- Bakı: [OPTİMİST], - 2024.-302, [2] s.

Hacıyev, D. "Dünya dinlərində cinayət və cəza" /D.Hacıyev //Xalq qəzeti .-2024.- 12 oktyabr, (№ 224). - S.14.

Терроризм в России и мире на современном этапе / И. Рагимов. - Sankt-Peterburq, 2018.- 500 s.

İsmayıl bəy Qutqaşınlı – 220

(1806-1861)

Hərbi xadim



Ədəbiyyat

Əsərləri: [12+] / İsmayıl bəy Qutqaşınlı; naşir M. Xan; dizayner T. Fərzi.- [Bakı]: Mücrü, [2025]. - 92 s.

Rəşid bəy və Səadət xanım: [Azərbaycan və fransız dillərində] / İsmayıl bəy Qutqaşınlı; fransız dilindən tərc. ed. və ön söz. müəl. N. Babaxanova ; [rəssam və bədii tərtibçisi C. Cəfərov].- Bakı: [Elm və təhsil], 2024.- 111, [1] s.

Əliyeva, A. Ədəbiyyat tariximizdə parlaq imza / A.Əliyeva // Mədəniyyət. - 2018. - 18 iyul. - S. 13.

Qaraoğlu, F. Tarixdə iz buraxanlar: İsmayıl bəy Qutqaşınlı / F.Qaraoğlu // Bakı xəbər. - 2018. – 21 sentyabr. - S. 15.

Abbaslı, T. Ədəbiyyatımızın ilk generalı6 İsmayıl bəy Qutqaşınlı - 210 / Tahir Abbaslı // Mədəniyyət.-2016.- 29 yanvar.- S. 22.

İnternetdə:

http://www.anl.az/down/meqale/medeniyyet/2018/iyul/600088.htm

https://gundelik.az/m%C9%99d%C9%99niyy%C9%99t-tarixi-mizin-parlaq-simasi-ismayil-b%C9%99y-qutqasinli/

İsmayıl bəy Nəsrulla Sultan oğlu Qutqaşınlı 1806-cı il (bəzi mənbələrdə 1809) yanvar ayının 27-də (bəzi mənbələrdə 14 iyul) keçmiş Qutqaşın mahalında (indiki Qəbələ) anadan olmuşdur. Dini təhsil almış, ərəb, fars dillərini öyrənmiş, klassik Azərbaycan və Şərq ədəbiyyatı ilə yaxından tanış olmuşdur.

1822-ci ildə rus ordusunda xidmətə başlamış, Peterburqda 4 il kadet məktəbində oxumuşdur. 1822-ci ildə bu məktəbi bitirib Əlahiddə Qafqaz Korpusu tərkibindəki Gürcüstan qrenadyor alayında sıravi əsgər kimi hərbi xidmətə başlamışdır.

1826-1828-ci illərdə Rusiya-İran və 1827-1829-cu illərdə Rusiya Türkiyə müharibələrində iştirak etmişdir. Müharibələr qurtardıqdan sonra o, hərbi xidmətini davam etdirmiş, vəzifəsi ilə əlaqədar bir müddət Varşavada yaşamışdır. Hərbi işi dərindən öyrənmiş, sıravi əsgərlikdən general-mayor rütbəsinə qədər yüksəlmişdir. Çar hökuməti zamanı hərbi qulluqda qüsursuz fəaliyyətinə görə 10-dan yuxarı ən yüksək və müxtəlif dərəcəli ordenlərə, böyük həcmdə pul mükafatlarına, qiymətli hədiyyələrə, fərqlənmə nişanlarına, qızıl və gümüş qılınclara layiq görülmüşdür.

Xidmət illərində bir sıra mütərəqqi rus ziyalıları ilə dostluq əlaqəsi yaratmış, rus və Qərbi Avropa mədəniyyətlərinin nailiyyətlərinə yiyələnmiş, dövrünün ən savadlı Azərbaycan ziyalılarından biri olmuşdur. Eyni zamanda o, Azərbaycanın böyük maarifçi alimləri – M.F.Axundzadə, Q.Zakir, A.Bakıxanov və başqaları ilə yaxından dostluq etmişdir.

1841-ci ildə istefaya çıxaraq Vətənə qayıtmış, Qutqaşın və Şamaxıda müəllimlik etmişdir. Rus ordusunda 25 illik xidmətdən sonra İsmayil bəy 1847-ci ildən Şamaxıda "Bəy komissiyasi"nda işləmişdir.

1852-ci ildə həyat yoldaşı ilə Yaxın Şərq ölkələrinə səyahətə getmiş, 1854-cü ildə Türkiyə Anadolu ordusunun baş komandanlığı ilə əlaqə saxlamaqda günahlandırılaraq həyatının sonuna qədər nəzarət altında qalmışdır.

Böyük ədib iki dəfə həcc ziyarətində olmuş, 1967-ci ildə çap olunmuş "Səfərnamə" adlı yol qeydlərini yazmışdır. Burada, təkcə şəxsi həyatı barədə deyil, Azərbaycan haqqında və Osmanlı imperiyasına daxil olan ərəb ölkələri haqqında orijinal məlumatlar yer almışdır.

İsmayıl bəy Qutqaşınlı Azərbaycan ədəbiyyatına müasir nəsr, hekayə janrını gətirən yazıçıdır. Onun 1835-ci ildə Varşavada hərbi qulluqda olarkən fransız dilində buraxılan "Rəşid bəy və Səadət xanım" hekayəsi, bu dildə nəşr edilmiş ilk Azərbaycan bədii əsəridir.

Yazıçının "Tutu" adlı əsəri də olmuş, ancaq bu əsər günümüzə gəlib çatmamışdır. Uzun illər nasir kimi təhlil edilmiş İsmayıl bəy Qutqaşınlının "İki quşun söhbəti" adlı şeiri onun poetik dünyasından xəbər verir. Qutqaşınlının şeirlərini "Miskin" təxəllüsü ilə yazdığı məlumdur.

İsmayıl bəy haqqında ilk məlumat və ilk yazılar böyük mətnşünas Salman Mümtazın qələmindən çıxmışdır. Onun Əlyazmalar İnstitutunda Qutqaşınlıya dair iki çox dəyərli əlyazması saxlanılır.

İsmayıl bəy Qutqaşınlı 1861-ci ildə (bəzi mənbələrdə 1869) vəfat etmiş, Qəbələdəki Soltanbaba qəbiristanlığında dəfn edilmişdir. Qəbələ də və Bakıda adına küçə vardır. Qəbələdə ədibin heykəli ucaldılmış, ev-muzeyi yaradılmışdır.

Azərbaycan ədəbiyyatında və ictimai fikir tarixində xüsusi yeri olan İsmayıl bəy Qutqaşınlı tarixdə həm yazdığı maraqlı əsərlər, həm də böyük maarifçilik işləri iz qoyub. İ.Qutqaşınlı Azərbaycan ədəbiyyatina müasir nəsr, hekayə janrını gətirən yazıçıdır.

Şah Abbas - 455

(1571-1629) *Səfəvi imperiyasının hökmdarı*



Şah I Abbas 1571-ci il yanvar ayının 27-də Heratda doğulmuşdur. O, Səfəvi şahzadəsi Məhəmməd Xudabəndənin və Mazandaran valisi Mir Abdulla xanın qızı, "Məhd-i Ülya" adı ilə tanınan Xeyrənnisa Bəyimin üçüncü oğlu idi.1573-cü ildə atası şahzadə Məhəmməd Mirzə Şiraza vali təyin edildiyi üçün yaş yarımlıq Abbas Mirzə Herat valisi seçildi və Şahqulu Sultan Ustaclı onun lələsi təyin olunmuşdur. 1578-ci ildə atası Məhəmməd Xudabəndə şah seçilən zaman Abbas Mirzə Herat valisi kimi vəzifəsini davam etdirdi. 1581-ci ildə Xorasanda olan Ustaclı və Şamlı əmirləri Əliqulu xan Şamlını xanlar xanı seçərək Abbas Mirzəni şah elan etdilər. Lakin Məşhəd hakimi Mürşüdqulu xan Ustaclı ilə döyüşdə Əliqulu xan məğlub edildi, Abbas Mirzə isə Mürşüfqulu xan tərəfindən ələ keçirilərək 1587-ci ilin oktyabrında Qəzvinin Cehelsütun sarayında 16 yaşında Səfəvi taxt-tacına əyləşdirildi. Şah I Abbas dövlətin varlığını qorumaq üçün, ilk növbədə, Osmanlı dövləti ilə sülh danışıqlarına başladı. 1590-cı ildə İstanbulda sülh müqaviləsi imzalandı. XVI əsrdə Səfəvi-Osmanlı müharibəsinə son qoyan bu müqavilənin şərtlərinə əsasən, Ərdəbil, Xalxal, Qaradağ, Zəncan, Qəzvin və Lənkərandan başqa bütün Azərbaycan torpaqları osmanlılara verildi.

Şah I Abbas cəsur, müdrik, səbirli, tədbirli, ədalətli bir dövlət xadimi olmaqla yanaşı, savadlı və geniş dünyagörüşünə sahib idi. Ağıllı strateji hədəflər müəyyən edir və müdrik siyasət yürüdürdü. Sülh yolu ilə münaqişəni həll etmək mümkün olduğu halda, müharibəyə üstünlük vermirdi. Müharibə zamanı isə o, mükəmməl bir sərkərdə idi. Hərb meydanında ordusunu məharətlə idarə edir, istedadlı və cəsur bir döyüşçü kimi təhlükələrdən çəkinmirdi. Şah Abbas müharibə üçün çətin olan qış mövsümündə də əməliyyatlar keçirirdi. Şah Abbas alimləri və şairləri himayə edirdi. Xristian və yəhudi təbəqələrə qarşı olduqca tolerant idi.

Şah I Abbas osmanlılarla sülh müqaviləsi bağladıqdan sonra itirilmiş torpaqları geri almaq, dövlətin sarsılmış qüdrətini bərpa etmək məqsədilə islahatlara başladı.

Şah I Abbas Səfəvi ordusunu yenidən qurdu. O, odlu silaha malik nizami ordu yaratdı.

Şah I Abbas inzibati sahədə dəyişikliklər edərək Qızılüzən və Kür çayları arasında yerləşən ərazilər - Ərdəbil, Zəncan, Xalxal, Qaradağ, Lənkəran vilayətləri hesabına Azərbaycan bəylərbəyiliyi yaratdı. Bəylərbəyiliyin "Azərbaycan qoşunu" adlı xüsusi hərbi birləşməsi vardı. Bununla da Şah I Abbas Azərbaycanın dövlətçilik ənənələrini qorudu.

Dövlətin paytaxtı İsfahana köçürüldü. Həmin dövrdə orduda, sarayda və diplomatik sənədlərdə Azərbaycan dilindən yenə də istifadə olunurdu.

Şah I Abbas Azərbaycan türkcəsinə böyük önəm verirdi. Sarayda türk (Azərbaycan) dilində danışmaq məcburi idi.

Şah I Abbasın islahatları mərkəzi hakimiyyətin xeyli qüvvətlənməsinə, Səfəvi dövlətinin öz keçmiş qüdrətini bərpa etməsinə şərait yaratdı.

Şah I Abbasın xarici siyasətinin əsas məqsədi dövlətin ərazi bütövlüyünü təmin etmək idi. Bunun üçün Şeybanilərin tutduğu Xorasanı qaytarmaq, osmanlıların işğal etdikləri torpaqları azad etmək, İran körfəzində mühüm liman olan Hörmüzü portuqaliyalılardan geri almaq, Portuqaliyanın buradakı hegemonluğuna son qoymaq lazım idi.

Şah I Abbas Avropanın qüdrətli dövlətləri — Müqəddəs Roma imperiyası, İngiltərə, Fransa, İspaniya və Rusiya ilə diplomatik əlaqələri genişləndirdi. Bu, Səfəvi dövlətinin beynəlxalq nüfuzunun artmasına təsir göstərdi.

Səfəvi imperiyasının hökmüdarı Şah I Abbas 1629-cu il yanvar ayının 19-da Mazandaranda vəfat etmişdir. Kaşanda I Şah Abbas türbəsində dəfn edilmişdir.

Ədəbiyyat:

Şah Abbas: (roman-xronika) / E. Hüseynbəyli ; [red. D. İbrahimova-Hüseynbəyli ; dizayner Ö. Məmmədov].- [Bakı]: [Qələm].- [2023]. - 383, [1] s.

I Şah Abbas: (Tarixi araşdırma) /C. Qurbanov ; elmi red. S. Məmmədov [ön söz] ; red. D. Əzimli ; dizayn S. Eyyubov. -[Bakı]: Qələm. - [2023]. - 184 s.

Şah Abbas /C. Aydoğmuşoğlu ; tərc. ed. Ə. Oğuz ; red. E. Astanbəyli ; rəssam E. Cabarov ; dizayner S. Vəzirova ; bədii tərtibat R. Nəbiyev. - [Bakı]: Altun Kitab.-[2021]. -176 s.

Səfəvilər /M. Süleymanov ; elmi red.: E. Mədətli, S. Bayramzadə ; Milli Müdafiə Un-ti, Hərbi Elmi Tədqiqat İn-tu ; [Cild] 9 I Şah Abbas. Şah Səfi Bakı: Maarif. - 2024. - 831, [1]

Şahlar / N. Babayeva, E. Raqifoğlu (red.) ; rəssam E. Cabbarov ; ideya müəl. P. Eyyubov ; dizayner Ö. Məmmədov. -[Bakı]: Qələm.- [2023?].- [176] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/I_Abbas

Anar İsgəndərov - 70

(1956)

Tarixçi



Ədəbiyyat:

Tarix və onun metodologiyası : Ali məktəblər üçün dərslik /Anar İsgəndərov, A. B. Məmmədov; elmi red. Ş. M. Qasımov. - Bakı: [ADMİU], 2024.- 309, [3] s.

Azərbaycan həqiqətləri:1917-1920 / Anar İsgəndərli; rəyçi və önsöz müəll. C.Makkarti.- Bakı: Elm və təhsil,2012. - 212 s.

Humanitar dəhlizdəhəyata keçirilən missiya/ baş məsl. E.Mahmudov;məsl.: Ş.Sayılov,F.Sadıqov, A.İsgəndərli;tərt. E.Səmədov; red.heyəti N.Dadaşova [vəb.]. - Bakı: Qismət, 2013.- 445 s.

Azərbaycan Xalq Cümhuriyyəti: 100 sual,100 cavab / [Azərb.Resp. Prezidenti Yanında Bilik Fondu]; tərt.Hacı Abdulla; elmi red.A.İsgəndərli; baş red.O.Səmədov; nəşrə məsul Ə.Ağamirzəyev. - Bakı:-Mütərcim, 2018. - 149 s.

Xalqın qan yaddaşı /Anar İsgəndərov; Ə. Qardaşxanova // Azərbaycan.-2025.-19 yanvar (№ 12).- S.8.

İnternetdə:

https://www.meclis.gov.az/news-dep.php?id=847&lang=az

Anar Camal oğlu İsgəndərov 1956-cı il yanvar ayının 10-da Masallı rayonunun Böyük Kolatan kəndində anadan olmuşdur.

O, 1973-1978-ci illərdə BDU-nun tarix fakültəsində təhsil almışdır. 1989-cu ildə "Azərbaycanda sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsinin tarixşünaslığı" mövzusunda namizədlik dissertasiyasını, 2004-cü ildə "Azərbaycanda 1917-1918-ci illərdə türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Anar İsgəndərov 1978-1981-ci illərdə Masallı rayonunda tarix müəllimi, 1982-1984-cü illərdə Azərbaycan Dövlət Neft Akademiyasında Fəlsəfə kafedrasında kabinet müdiri, 1984-1999-cu illərdə BDU-nun Tarix fakültəsi Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasında baş laborant, müəllim, baş müəllim, dosent olmuş, professor elmi rütbəsini almışdır. 1999-cu ildən indiyə qədər həmin kafedraya rəhbərlik edir. 20 monoqrafiya, 8 dərs vəsaiti və 260-dan çox elmi məqalənin müəllifidir.

Rəhbərliyi altında 20 nəfər namizədlik disserasiyası müdafiə etmiş, 10 əyani aspirant, 8 nəfər dissertant namizədlik dissertasiyası üzərində tədqiqat işlərini davam etdirirlər. O, tarix elmləri proqramı üzrə 6 elmlər doktorunun elmi məsləhətçisidir.

Alim ilk dəfə olaraq 1917-1920-ci illərdə türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımın tarixşünaslığı tədqiq edilərək Azərbaycan ictimaiyyətinə çatdırılmışdır.

1998-ci ildə Ankarada Türkiyə Cümhuriyyətinin 75 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransda maraqlı məruzəyə görə Türkiyə Cümhuriyyətinin baş nazirinin qol saatı və "Altun"qızıl medalı ilə təltif olunmuşdur.

Görkəmli alim Türk dünyasının bir çox görkəmli tarixçiləri ilə, o cümlədən Amerika tarixçisi Castin Makkarti ilə birlikdə türk-müsəlman soyqırımı problemi ilə bağlı əməkdaşlıq edir.

Anar İsgəndərov 2011-2018-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tarix və siyasi elmlər üzrə Ekspert Şurasının sədri olmuşdur. 2020-ci ildən yenidən həmin vəzifəni icra edir. Eyni zamanda o, Universitet və fakültə Elmi Şuralarının, Qafqaz Müsəlmanları İdarəsinin Elmi-Dini Şurasının, Azərbaycan-Türkiyə Tarixinin Araşdırma Fondunun (ATAF) Himayəçilər Şurasının üzvüdür. Anar İsgəndərov "Tarix və onun problemləri", Tarix, insan və cəmiyyət, "Dirçəliş", "Kəlam", "Yaşıl çay", "Metafizika" jurnallarının redaksiya heyətinin üzvüdür. Yeni Azərbaycan Partiyasının VII qurultayında (5 mart 2021-ci il) YAP İdarə Heyətinin üzvü seçilib.

2008-ci ildə "Qızıl döş nişanı", 2009-cu ildə "Tərəqqi" medalı, 2016-cı ildə 3-cü dərəcəli "Vətənə xidmətə görə" orden, 2018-ci ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı, 2019-cu ildə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" və "Bakı Dövlət Universitetinin 100 illiyi" yubiley medalı, 2023-cü ildə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalları ilə təltif olunub.

Anar Camal oğlu İsgəndərov Azərbaycan Respublikası Milli Məclisinin VI, VII çağırış deputatı seçilmişdir. Milli məclisin Elm və təhsil komitəsinin sədridir. Azərbaycan-İordaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İraq, Koreya, Qətər, Özbəkistan, Səudiyyə Ərəbistanı, Türkiyə və Livan parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Əbdülkərim Əlizadə – 120

(1906-1979)

Tarixçi, şərqşünas



Əbdülkərim Əli oğlu Əlizadə 1906-cı il yanvar ayının 11-də Bakıının Bilgəh kəndində anadan olmuşdur.

Onun uşaqlıq illəri Tehranda keçmiş və burada ibtidai təhsil alaraq fars və ərəb dillərini öyrənmişdir. 1918-ci ildə Bakıya qayıtdıqdan sonra əvvəl xüsusi orta məktəbdə oxumuş, 1926-cı ildə isə fəhlə fakültəsini bitirmişdir. 1927-1930-cu illərdə Leninqrad Şərq İnstitutunda təhsil almışdır. Peterburq Maddi-mədəniyyət tarixi Dövlət Akademiyasının aspiranturantı olmuşdur. 1935-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. 1954-cü ildə tarix elmləri doktoru elmi dərəcəsi almışdır.

Ə.Ə.Əlizadə 1941-ci ildən ömrünün sonuna kimi Azərbaycan MEA sistemində işləmişdir. O, əvvəllər SSRİ EA Azərbaycan filialı Tarix İnstitununu baş elmi işçisi, 1950-ci ildən həmin institutun direktoru vəzifəsində çalışmışdır. 1955-ci ildə isə Azərbaycan MEA İctimai Elmlər bölməsinin akademik-katibi, 1958-ci ildən Şərqşünaslıq institutunun ilk direktoru təyin olunmuşdur. O, 1963-cü ildən ömrünün axırına kimi Azərbaycanda şərqşünaslıq elminin mənbəşünaslıq və mətnşünaslıq sahəsinə rəhbərlik etmişdir. Həmin illərdə Şərqşünaslıq institutunun mətnşünaslıq və məxəzlərin çapa hazırlanması şöbəsində akademikin rəhbərliyi altında onlarla mühüm mənbələrin elmi-tənqidi mətnləri hazırlanıb çap edilmişdir.

Akademik Əbdülkərim Əlizadə görkəmli şərqşünas İ.P.Petruşevski ilə birlikdə Azərbaycanın orta əsrlər tarixşünaslığının əsasını qoymuşdur. Azərbaycanın və qonşu Yaxın Şərq ölkələrinin Səlcuqilər və monqollar dövrü tarixinin tədqiqatçısıdır. Alimin 1956-cı ildə nəşr olunmuş "XIII-XIV əsrlərdə Azərbaycanın sosial-iqtisadi və siyasi tarixi" adlı monoqrafiyası (rus dilində) və 60-dan artıq elmi məqaləsi Azərbaycanın və eləcə də qonşu Şərq ölkələrinin orta əsrlər tarixinin öyrənilməsi sahəsində xüsusi əhəmiyyət kəsb edir.

Onun rəhbərliyi ilə onlarla elmlər doktoru və namizədi yetişmişdir.

Nizami Gəncəvinin "İsgəndərnamə" əsərinin "Şərəfnamə" hissəsinin elmi-tənqidi mətnlərini hazırladığı üçün 1948-ci ildə ona SSRİ Dövlət mükafatı verilmişdir. Nizami Gəncəvinin "Sirlər xəzinəsi"ni, Rəşidəddinin "Cami Ət-Təvarix", Məhəmməd ibn Hinduşah Naxçıvaninin "Dəstur Əl katib fı təyin əl məratib", A.A.Bakıxanovun "Gülüstani İrəm" və bir sıra başqa əsərlərin elmi-tənqidi mətnlərini hazırlamışdır.

Şərqşünasların Münhen (1957), Moskva (1960), Tehran (1966, 1969), Ankara (1961, 1970), Varşava (1955), Təbriz (1969) konqreslərinin və digər elmi məclislərinin iştirakçısı olmuş, Azərbaycanın tarix elminin yeniliklərini, nailiyyətlərini dünya alimlərinə çatdırmışdır. Əbdülkərim Əlizadənin 60-a qədər elmi əsəri nəşr olunmuşdur. Əsərləri ingilis, alman, ərəb, türk, fars və bir sıra başqa dillərə tərcümə olunmuşdur.

Akademik 1960-cı ildə "Əməkdar elm xadimi" fəxri adına, 1978-ci ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüş, "Qırmızı Əmək bayrağı", "Qafqazın müdafiəsi", "Böyük Vətən müharibəsində şərəfli əməyə görə" və "Şərəf nişanı" orden və medalları ilə təltif olunmuşdur.

Əbdülkərim Əlizadə 1979-cu il dekabr ayının 3-də Bakıda vəfat etmişdir.

Bakıda şəhərində mərkəzi küçələrdən biri akademikin adını daşıyır.

Ədəbiyyat:

Akademik Əbdülkərim Əlizadə: Azərbaycan şərqşünaslıq elminin banisi: sənədlər, məktublar, xatirələr / Tərt. ed. Z.Əlizadə; red. Y.Mahmudov. - Bakı: Təhsil, 2005. - 196 s.

Fərəcov, S. Görkəmli tarixçi və şərqşünas /S.Fərəcov //Mədəniyyət .-2022.- 22 yanvar.- S.6.

Социально-экономическая и политическая история Азербайджана: XIII-XIV вв.: [монография] / Абдул-Керим Ализаде (предисл.); ред. И.Петрушевский; отв. за вып. З.Али-заде; Ин-т Стратегических Исследований Кавказа (ISSC).- Баку: Кавказ, 2012.-460 с.

К вопросу об освещении ширванско-грузинских отношений в XI-XII веках / Абдул-Керим Али-заде // Изв. АН Азерб. ССР. Сер. истории, философии и права.- 1977.- №4

İnternetdə:

https://science.gov.az/az/forms/skonchavshies-ya-deystvitelnyie-chlen-yi/3265

http://www.anl.az/down/meqale/medeniyyet/2022/yanvar/04.htm

İsmayıl Hacıyev - 75

(1951)

Tarixçi



İsmayıl Muxtar oğlu Hacıyev 1951-ci il yanvar ayının 21-də Naxçıvan MR Culfa rayonunun Xanəgah kəndində anadan olmuşdur. 1968-ci ildə Göydərə kənd orta məktəbini bitirmişdir. 1970-1974-cü illərdə APİ-də təhsil almışdır.

O, 1974-1977-ci illərdə Culfa rayonunun Xoşkeşin kənd məktəbində, 1978-2003-cü illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitutunda (indiki NDU) müəllim işləmişdir. 1992-ci ildə namizədlik, 1999-cu ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1983-1984-cü illərdə NDU-da ictimai peşələr fakültəsinin dekanı, 1984-1985-ci illərdə tarix-filologiya fakültəsinin dekan müavini, 1994-1996-cı illərdə Naxçıvan Özəl Universitetində, 1996-1997-ci illərdə NDU-da elmi işlər üzrə prorektor, 1997-2003-cü illərdə tədris işləri üzrə prorektor vəzifələrində çalışmışdır. 2000-ci ildən NDU-nun professorudur. 2003-cü ilin yanvarında AMEA Naxçıvan bölməsinin sədri, 2007-ci ilin aprelində isə AMEA Rəyasət Heyətinin üzvü seçilmişdir. 2003-cü ildən AMEA-nın akademiki, 2002-ci ildən Nyu-York EA-nın həqiqi üzvüdür.

50-dən artıq monoqrafiya və kitabın elmi redaktorudur. 451 elmi, 280 elmi-kütləvi məqalənin müəllifidir. Elmi əsərlərindən 66-ü xaricdə çap olunmuşdur. Onun rəhbərliyi ilə 20 nəfər tədqiqatçı fəlsəfə doktoru, 9 nəfər elmlər doktoru dissertasiyası müdafiə etmişdir.

Akademik AMEA Naxçıvan Bölməsinin "Xəbərlər" jurnalının baş redaktoru, İxtisaslaşdırılmış Dissertasiya Şurasının sədri, Respublika ET-nin Təşkili və Əlaqələndirmə Şurasının, AMEA nın "Məruzələr"i, "Xəbərlər"i (Tarix, fəlsəfə və hüquq seriyası), "Dialoq Avrasiya" (Türkiyə), "Tarix və onun problemləri" və başqa jurnalların redaksiya heyətinin, Azərbaycan Milli Ensiklopediyasının Redaksiya Heyətinin üzvüdür. Həmçinin 11 aprel 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Dünya dini liderlərinin II Bakı sammiti"nin keçirilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinə üzv seçilmişdir. 2019-cu ildə Naxçıvan Muxtar Respublikası Elmin İnkişafı Fondunun Himayədarlıq Şurasının üzvü təyin edilmişdir. 20 noyabr 2019-cu ildə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının tərkibinə yenidən üzv daxil edilmişdir. 12 fevral 2020-ci ildə Azərbaycan Respublikası Baş nazirinin qərarı ilə Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının yeni tərkibinə daxil edilmişdir. 14 fevral 2020-ci ildə AMEA-nın Rəyasət Heyətinin qərarı ilə "Elm və həyat" jurnalının Redaksiya Heyətinin tərkibinə, 24 fevral 2020-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının üzvü təsdiq edilmişdir.

Akademik ölkənin ictimai-siyasi həyatında da fəal iştirak edir. O, 2000-ci ildə Naxçıvan MR Ali Məclisinə deputat seçilmişdir. III və IV çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı, həmçinin Parlamentin İnsan Hüquqları Komitəsinin üzvü olmuşdur.

İsmayıl Hacıyev 2001-ci ildə ABŞ-ın Bioqrafiya İnstitutunun "İlin adamı" tituluna, 2010-cu ildə isə Qızıl medalına layiq görülmüşdür. 2008-ci ildə Y.Məmmədəliyev mükafatı, 2009-cu ildə Türkiyə Cümhuriyyəti Avrasiya Kültür və Sənət Qurumunun, Hüseyn Qazi Kültür və Sənət Vəqfinin mükafatları ilə təltif edilmişdir. 2009-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə, 2018-ci ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)" yubiley medalı ilə, 2018-ci ildə Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı Xatirə medalı ilə, 2019-cu ildə ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Xatirə qızıl medalı ilə təltif olunmuşdur. 2019-cu ildə Azərbaycan Respublikası Milli Məclisinin 100 illik yubileyi ilə əlaqədar Türkiyə Cümhuriyyətinin "20 Türk lirəsi" mükafatına layiq görülmüşdür. 2019-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik Yubiley medalı ilə təltif olunmuşdur. 2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülmüş və 2024-cü ildə "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri / İsmayıl Hacıyev; red. H.Səfərli.- Naxçıvan: [Əcəmi], 2012.- 191 s.

Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə / İsmayıl Hacıyev; red. Ə.Qasımov. - Naxçıvan: [Əcəmi NP Birliyi], 2013. - 293 s.

Naxçıvan qədim Şərq sivilizasiyaları ilə sıx bağlı olan diyar: [3 cilddə] / İsmayıl Hacıyev. - Naxçıvan: [Əcəmi], 2014.- 119 s.

Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı: 1991-2011-ci illər / İsmayıl Hacıyev; elmi red. E.Cəfərli. - Bakı: [Əcəmi], 2011. - 271 s.

Hacıyev, İ. Naxçıvanın blokadaya düşməsinin tarixi qaynaqları [Mətn] : Zəngəzurun Azərbaycandan qoparılması misilsiz xəyanət idi /İ.Hacıyev // Xalq qəzeti .-2025.- 7 mart, (№ 51).- S.8.

İnternetdə:

http://www.anl.az/down/meqale/xalqqazeti/2025/mart/937841(meqale).pdf

https://az.wikipedia.org/wiki/%C4%B0smay%C4%B1l_Hac%C4%B1yev_(akademik)

Sara Aşurbəyli – 120

(1906-2001)

Tarixçi



Ə d ə b i y y a t:

Bakı şəhərinin tarixi:Orta əsrlər dövrü / Sara Aşurbəyli. - Bakı: Əbilov, Zeynalov və oğulları, 2005. - 696 s.

Şirvanşahlar dövləti / Sara Aşurbəyli. - Bakı, 2009. - 564 s.

Bakı tarixinin ensiklopediyası: Sara Aşurbəyli - 110 il / Azərb. Resp. Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix Memarlıq Qoruğu İdarəsi, "İçərişəhər" tarixi muzeyi; red. N.Quliyev. - Bakı: Elm və təhsil, 2016. - 87 s.

Azəri, L. Milli tarixi yaddaşa işıq salan alim: Sara Aşurbəyli-115 / Lalə Azəri // Mədəniyyət.-2021.-5 mart.- S.6.

Ən sərt zərbələrə belə əyilməmişdi: Tarixçi, alim, rəssam, musiqiçi... /Y.Bayramova //Yeni Azərbaycan .-2024.- 17 iyul, №125.- S.8.

İ n t e r n e t d ə:

https://az.wikipedia.org/wiki/Sara_A%C5%9Furb%C9%99yli

http://www.anl.az/down/meqale/yeni_az/2024/iyul/905216(meqale).pdf

Sara Balabəy qızı Aşurbəyli 1906-cı il yanvar ayının 27-də Bakıda, neft sənayeçisi Bala bəy Aşurbəyovun ailəsində anadan olmuşdur. 1913-cü ildə "Müqəddəs Nina" Bakı qız tədris müəssisəsinin aşağı hazırlıq sinfinə qəbul olunmuş, lakin 1917-1920-ci il inqilabi hadisələri təhsilini bitirməyə mane olmuşdur.

1925-ci ildə İstanbulda Müqəddəs Janna d-Ark adına kolleci bitirmişdir. 1925-1930-cu illərdə ADU-nun şərqşünaslıq fakültəsinin tarix şöbəsində təhsil almışdır. Təhsil illərində BXMŞ məktəblərində müəllimlik etmiş, 1928-ci ildən 1931-ci ilədək Azərbaycan Dövlət Muzeyində, Azərbaycanı Öyrənən Cəmiyyətin tarix-etnoqrafiya şöbəsin də elmi işlə məşğul olmuş, daha sonra Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda elmi katib işləmişdir. 1933-1937-ci illərdə - əvvəlcə SSRİ EA Zaqafqaziya Filialı Azərbaycan Şöbəsinin tarix bölməsində, daha sonra SSRİ EA Azərbaycan Filialının Tarix İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışmışdır.

Sara Aşurbəyli 1937-ci ilin əvvəlində qısa müddət Leninqrad Şərqşünaslıq İnstitutunda işləmişdir. 1941-ci ildə APİ-nin xarici dillər fakültəsini bitirmişdir. Həmin il Ə.Əzimzadə adına Azərbaycan Rəssamlıq Məktəbini də bitirmiş, Azərbaycan Dram Teatrında rəssam-dekorator işləmişdir. Ali təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Universitetində baş müəllim, Azərbaycan Pedaqoji İnstitutunda dekan vəzifəsində çalışmışdır.

Sonralar Azərbaycan Tarixi Muzeyində Orta əsrlər tarixi şöbəsinin müdiri, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda baş elmi işçi, Tarix İnstitutunda elmi katib, baş elmi işçi və aparıcı elmi işçi vəzifəsində işləmiş, 1993-cü ildən ömrünün sonuna qədər Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafi ya İnstitutunun aparıcı elmi işçisi vəzifəsində çalışmışdır.

1949-cu ildə tarix elmləri namizədi, 1965-ci ildə tarix elmləri doktoru elmi dərəcəsini almışdır.

Sara Aşurbəyli Azərbaycan Rəssamlar İttifaqının üzvü idi. Dəfələrlə müxtəlif sərgilərdə iştirak etmişdir. Rus, ingilis, fransız, alman, ərəb, fars və türk dillərini bilirdi.

Sara Aşurbəylinin 8 monoqrafiyası və 100-dən çox elmi məqaləsi nəşr edilmişdir. Eləcə də bir neçə məşhur əsəri rus dilinə tərcümə etmişdir.

Bu böyük alimin fəaliyyəti ictimai xarakter daşımışdır. Ulu öndər Heydər Əliyev 90 illiyi münasibətilə alimə göndərdiyi məktub da onun elmi və ictimai fəaliyyətini belə səciyyələndirmişdir: "...Sizin tarixi həqiqətlərə istinad edən fundamental elmi tədqiqatlarınız Azərbaycan elminə sədaqətlə xidmətin parlaq nümunəsidir".

Azərbaycan tarixşünaslığındakı fundamental və akademik fəaliyyətinə görə alim müxtəlif fəxri adlar, orden və medallarla təltif edilmişdir: 1982-ci ildə Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 1986-cı ildə Azərbaycan SSR Dövlət Mükafatı laureatı olmuşdur. 1986-cı ildə "Xalqlar dostluğu" ordeni ilə, 1996-cı ildə isə "Şöhrət" ordeni ilə təltif edilmişdir. Xəzər Universitetinin Fəxri doktoru adını almışdır.

Sara Aşurbəylinin 90 illiyi Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə 1996-cı ildə Opera və Balet Teatrında təntənəli şəkildə qeyd edilmişdir.

Sara xanım Aşurbəyli 2001-ci il iyul ayının 17-də vəfat etmişdir.

Görkəmli alimin xatirəsi əbədiləşdirilmiş, İçərişəhərdə Sara Aşurbəylinin yaşadığ binada barelyefli xatirə lövhəsi qoyulmuş, Bakı şəhərində küçələrdən birinə onun adı verilmişdir.

Teymur Vəliyev - 100

(1926-2002)

İqtisadçı



Teymur Süleyman oğlu Vəliyev 1926-cı il yanvar ayının 15-də Ağdamda anadan olmuşdur.

Orta təhsilini Ağdamda almış, 1947-1951-ci illərdə K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (indiki ADİU) ali təhsil almış, daha sonra aspiranturada təhsilini davam etdirmiş və namizədlik dissertasiyası müdafiə etmişdir. 1966-cı ildə D. Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitututunda İxtisaslaşdırılmış Müdafiə Şurasında doktorluq dissertasiyası müdafiə edən birinci, respublikada iqtisadiyyat üzrə doktorluq dissertasiyası müdafiə edən ikinci alim olmuşdur. 1983-cü ildə Azərbaycan SSR EA-nın müxbir üzvü seçilmişdir.

Teymur Vəliyev 1953-cü ildən pedaqoji fəaliyyətlə məşğul olmuş, respublikanın ali məktəblərində iqtisadi nəzəriyyədən (siyasi iqtisad) dərs demişdir. 1966-1971-ci illərdə D.Bünyadzadənin Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun tədris işləri üzrə prorektoru; 1971-1976-cı illərdə SSRİ Ali Attestasiya Komissiyasının "Siyasi iqtisad" ixtisası üzrə ekspert komissiyasının üzvü; 1971-1992-ci illərdə ADU-nun siyasi iqtisad kafedrasının müdiri; 1977-1989-cu illər universitetin tədris işləri üzrə prorektoru; 1992-2000-ci illərdə yenidən Azərbaycan İqtisad Universitetinin elmi işlər üzrə prorektoru vəzifələrində çalışmış; 2000-2002-ci illərdə BDU-nun İqtisadiyyat kafedrasının professoru kimi fəaliyyət göstərmişdir.

Onun elmi rəhbərliyi ilə 20 nəfərdən çox elmlər doktoru və namizədi dissertasiya müdafiə etmişdir. Alim respublika, habelə xarici ölkə nəşriyyatlarında çap olunmuş 200-ə yaxın elmi əsərin müəllifi olmuşdur.

Teymur Vəliyevin elmi tədqiqatlarının əsas istiqamətlərindən biri respublikanın sosial-iqtisadi həyatı, ümumi mənafeyi baxımından faydalı və mühüm əhəmiyyət kəsb edən iqisadi inkişafın tarazlaşması problemi olmuşdur.

İqtisadçı alim 1972-1987-ci illərdə "Ekonomiçeskiye nauki" jurnalının redaksiya heyətinin üzvü olmuşdur. SSRİ Ali və Orta ixtisas Təhsili Nazirliyinin Ali Attestasiya Komissiyasının siyasi iqtisad üzrə ekspert komissiyasının üzvü, Respublika Ali və Orta İxtisas Təhsili Nazirliyinin elmi-metodiki şurasının siyasi iqtisad bölməsinin büro sədri, bir neçə namizədlik və doktorluq dissertasiyalarının ixtisaslaşdırılmış müdafiə şurasının sədri, iqtisadiyyat üzrə jurnalların redaksiya heyətinin üzvü, AMEA-nın İqtisadiyyat İnstitutunda doktorluq dissertasiyası üzrə ixtisaslaşdırılmış müdafiə şurasının həmsədri olmuşdur. AzDİU-da nəşr olunan "İqtisad elmləri: nəzəriyyə və praktika" jurnalının baş redaktoru, iqtisadi nəzəriyyə, kommersiya üzrə ixtisaslaşdırılmış müdafiə şurasının sədri olmuşdur.

"Sovet respublikasının iqtisadi inkişaf səviyyələrinin tarazlaşması qanunauyğunluqları (1969), "Sosialist ictimai ərazi əmək bölgüsü (1976), "Yetkin sosializm iqtisadiyyatının dinamik inkişafı" (1983), "Azərbaycan iqtisadi fikir tarixi" (1996), "İqtisad elminin nəzəri əsaslarının tarixi təkamülü" (1999), "İnfrastrukturlar: mahiyyətti, təsnifatı və əhəmiyyəti (2000) fundamental monoqrafiyalarını və yazışdır N.Məmmədovla birgə hazırladığı "İzahlı iqtisadi terminlər" (2000) adlı lüğət kitabının müəllifidir

T.Vəliyev iqtisad elminin inkişafında, yüksək ixtisaslı iqtisadçı kadrların hazırlanmasında, təhsil-təlim sahəsindəki xidmətlərinə görə 1981-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. 1986-cı ildə Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin Fəxri fərmanı ilə təltif olunmuşdur. SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin gümüş medalı, SSRİ-nin və Azərbaycan Respublikasının Ali və Orta İxtisas Təhsil Nazirliyinin, EA-nın fəxri fərmanları ilə təltif olunmuşdur.

Teymur Süleyman oğlu Vəliyev 2002-ci il aprel ayının 3-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Kərimov, Ş. Azərbaycanda iqtisad elminə dəyərli töhfə verən alim / Şöhrət Kərimov // Azərbaycan.-2021.-14 yanvar.- S.6.

İqtisadiyyatın əsasları: IX-XI siniflər üçün dərslik / Teymur Vəliyev, N.Məmmədov.- Bakı: Maarif, 2003.-336 s.

İqtisadi nəzəriyyə: dərslik / Elmi red.: T.Vəliyev, Ş.Qafarov; BDU. - Bakı: Bakı Universiteti nəşriyyatı, 2002. - 516 s.

Vəliyev, D. Beynəlxalq maliyyə: dərslik / D.Vəliyev, M.Rəhimov; rəy.: S.Səfərov, N.Quliyev; red.: T.Vəliyev, A.Kərimov; Azərb. Un-ti. - Bakı: Azərbaycan Universiteti, 2000. - 330 s.

Azərbaycan Demokratik Cümhuriyyəti hansı iqtisadi əsasa söykənmişdi / Teymur Vəliyev // Xalq qəzeti. - 1996. - 3 dekabr.

Real bazara keçidin problemləri: Aktual söhbət / Teymur Vəliyev // Kommunist. - 1991. - 16 aprel.

İnternetdə:

https://science.gov.az/az/forms/skanchavshiesya-chlenyikorrespondentyi/3514

https://www.aii.az/az/pages/23

İmran Mehdiyev – 90

(1936-2023) *İqtisadçı*



İmran Əzim oğlu Mehdiyev 1936-cı il yanvar ayının 21-də Naxçıvanın Ordubad şəhərində anadan olmuşdur.

O, 1967-ci ildə SSRİ Dövlət Tikinti Komitəsinin Beton və Dəmir-Beton Elmi-Tədqiqat İnstitutunun aspiranturasını bitirmişdir. 1989-cu ildə iqtisad elmləri doktoru elmi adı almışdır.

İmran Mehdiyev 1962-1963 və 1968-1971-ci illərdə Azərbaycan SSR Nazirlər Sovetinin tikinti və kommunal təsərrüfatı şöbəsində böyük referent olmuş, 1971-1976-cı illərdə Bakı Mərmər Məmulatları zavodunun direktoru işləmişdir.

İmran Mehdiyev 1976-1979-cu illərdə Naxçıvan MSSR Nazirlər Soveti sədrinin birinci müavini, 1979-1982-ci illərdə isə Naxçıvan MSSR Nazirlər Soveti sədri vəzifəsində çalışmış, 1982-1983-cü illərdə Azərbaycan SSR Dövlət Qiymət Komitəsi sədrinin birinci müavini işləmişdir. 1983-1989-cu illərdə Azərbaycan Kommunist Partiyası İsmayıllı Rayon Komitəsinin birinci katibi olmuşdur.

1991-1999-cu ildən Azərbaycan Respublikası sənaye tikinti materialları nazirinin birinci müavini, "Azərsənayetikinti" Dövlət Konserinin birinci vitse-prezidenti vəzifələrində çalışmışdır. 1998-ci ilin iyun ayından Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyinin direktoru vəzifəsində çalışmışdır.

Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin büro üzvü olmuş, Naxçıvan MSSR Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. İki dəfə Şərəf nişanı ordeni ilə, "Qırmızı əmək bayrağı" ordeni və medallarla təltif olunmuşdur. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanına layiq görülmüşdür.

Beynəlxalq Mühəndislik Akademiyasının, Rusiya Maliyyə və İqtisadiyyat Akademiyasının və Azərbaycan Memarlar İttifaqının üzvü idi.

Professor İmran Mehdiyev idarəçilik və təşkilatçılıq işi ilə yanaşı, elmi-pedoqoji fəaliyyətdə göstərmişdir. Üç monoqrafiyanın, üç dərsliyin, 90-dan çox elmi məqalənin, bir neçə ixtiranın müəlifidir. Bir sıra elmi-tədqiqat və tədris institutları elmi şuralarının üzvü, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetində tikintinin təşkili və idarə olunması kafedrasının professoru olmuşdur. Almaniyanın bir çox universitetlərində məruzələrlə çıxış etmişdir.

Görkəmli alim İmran Əzim oğlu Mehdiyev 2023-cü il mart ayının 10-da vəfat etmişdir.

Ədəbiyyat:

Tikintinin iqtisadiyyatı : ali məktəblər üçün dərslik / İmran Mehdiyev, V. Şirəliyev.-Bakı: Çaşıoğlu, 2005.- 684 s.

Daşınmaz əmlakın iqtisadiyyatı: ali məktəblər üçün dərslik / İmran Mehdiyev, V. M. Şirəliyev, N. N. Məmmədova; rəyçi: Ş. Ə. Səmədzadə, M. Fərzəliyev, M. A. Məmmədov. - Bakı: Çaşıoğlu, 2007. - 454, [2] s.

Daşınmaz əmlak obyektlərinin qiymətləndirilməsi və onların qiymətlərinə təsir edən amillər / İmran Mehdiyev // İqtisadiyyat və Həyat: jurnal..-2006.-№ 12.-S.13-20.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C4%B0mran_Mehdiyev

https://ek.anl.az/search/query?match_1=MUST&field_1&term_1=%C4%B0mran+%C6%8Fzim+o%C4%9Flu+Mehdiyev&facet_format=serial.component.part&sort=relevance&theme=e-kataloq

Fərrux Rüstəmov - 65

(1961)

Alim-pedaqoq



Fərrux Abbas oğlu Rüstəmov 1 yanvar 1961-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Cil kəndində anadan olub. 1968-1978-ci illərdə Cil kənd orta məktəbində, 1978-1982-ci illərdə ADPİ-nin (indiki ADPU) Pedaqoji fakültəsində təhsil alıb. 1982-1985-ci illərdə Quba rayonu Rəngidar kənd səkkizillik məktəbində müəllim və məktəb direktoru işləyib. "Azərbaycanda sovet pedaqoji elminin inkişafı (1961-1981-ci illər)" mövzusunda namizədlik (1989), "Azərbaycanda pedaqoji elmin inkişaf yolları (1920-1991-ci illər) mövzusunda doktorluq (2003) dissertasiyası müdafiə edib. 1988-ci ildə SSRİ Elmlər Akademiyasının Sovet Sosioloqları Assosiasiyasının üzvü seçilib. ADPU-nun Şagirdlərin peşəyönümü elmi-tədqiqat laboratoriyasında kiçik elmi işçi (1990-1991), ümumi pedaqogika kafedrasında müəllim (1992-1995), dosent (1996-2004), professor (2004-2006) vəzifələrində çalışıb. Şagirdlərin peşəyönümü elmi-tədqiqat laboratoriyasına (1996-2000) və Dədə Qorqud elmi-tədqiqat laboratoriyasının pedaqogika, psixologiya, fəlsəfə bölməsinə (2000-2004), Bakı Qızlar Seminariyasının (Bakı Qızlar Universitetinin) Pedaqogika kafedrasına (1998-2006), ADPU-nun İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasına (2007-2011) və Pedaqoji təhsilin problemləri elmi-tədqiqat laboratoriyasına (2008-2011) rəhbərlik edib. 2007-2022-ci illərdə İbtidai təhsil fakültəsinin dekanı olub. 2022-ci ildən ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının müdiridir.

50 monoqrafiya, kitab və kitabçanın, 32 tədris proqramının, 500-dən çox elmi-pedaqoji və publisistik yazının müəllifidir. Sankt-Peterburqda nəşr edilən 4 kollek¬tiv monoqrafiyanın müəlliflərindən biridir. 10-da çox kitabın tərtibçi-müəllifidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Azərbaycan və rus dillərində nəşr olunan "Azərbaycan Milli Ensiklopediyası"na daxil edilən irihəcmli "Pedaqogika" məqaləsinin müəllifidir.

YUNESKO-nun yaşlıların təhsili ilə bağlı nəşr etdirdiyi 10 cildlik monoqrafiyanın ("Образование на протяжении всей жизни: разнообразие идей концепций форм методов технологий". Санкт-Петербург, 2013) redaktorlarından biridir. Əsərləri Bakı, Moskva, Səmərqənd, Ceboksarı, Tehran, Təbriz, İstanbul, Astana, Sankt-Peterburq və Tbilisi şəhərlərinin nüfuzlu jurnallarında və elmi məcmuələrində Azərbaycan, rus, türk, özbək dillərində çap edilmişdir. Rusiya Təhsil Akademiyası onun "Müasir dövrdə Azərbaycanda təhsilin inkişafının əsas istiqamətləri" (Moskva, 2000) əsərini nəşr etmişdir. 2010-cu ildə Tehranın "Xorşidafərin" nəşriyyatı onun "Pedaqoji (təlim və tərbiyə) tarixi Şərqdə" kitabını (377 s.) nəşr etmişdir.

Elmi rəhbərliyi ilə 35 nəfər fəlsəfə doktoru elmi dərəcəsi alıb. 5 nəfər isə müdafiə ərəfəsindədir. Elmi məsləhətçiliyi ilə 4 nəfər elmlər doktoru elmi dərəcəsi almaq üçün doktorluq dissertasiyası müdafiə edib. 30-dan artıq dissertasiya işinin rəsmi opponenti olmuşdur. 1997-ci ildən 2009-cu ilə kimi Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın Təhsil Problemləri İnstitutunda və ADPU-da fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü olmuşdur. 2009-2016-cı illərdə ADPU-da fəaliyyət göstərən ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi ixtisası üzrə Dissertasiya Şurasının sədr müavini olub. Onun sədrliyi ilə 22 nəfər elmlər doktoru, 146 nəfər fəlsəfə doktoru dissertasiyası müdafiə edib.

Türkiyə, Rusiya, Yunanıstan, Albaniya, İtaliya, Finlandiya, İsveç, Norveç, Danimarka, Estoniya, İspaniya və Portuqaliyada keçirilən Beynəlxalq konfranslarda iştirak edib.

Azərbaycan Jurnalistlər Birliyinin üzvü, akademik Mehdi Mehdizadə, "Gənc alimlər" , "Firidun bəy Köçərli" və "Qızıl qələm" mükafatları laureatıdır. "Avropa Nəşr Mətbu evi" komissiyasının qərarı ilə "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalı (2009), Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiyasının qərarı ilə "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" (2010) döş nişanı ilə təltif olunmuşdur. "Vektor" Beynəlxalq Elmi Mərkəzi Mükafat Komissiyasının qərarı ilə "XXI əsr Azərbaycan ziyalıları" ADPU-da "İlin müəllimi" (2007), "İlin alimi" (2011,2013,2015) müsabiqələrinin qaliblərindən biri olmuşdur.

1998-ci ildə Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü, 2010-cu ildə isə Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü (akademiki) seçilmişdir.

2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Tərəqqi medalı"na, 2021-ci ildə 3-cü dərəcəli "Əmək" ordeninə, 2023-cü ildə "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalına layiq görülüb, 2012-ci ildə ona Əməkdar elm xadimi fəxri adı verilib.

Qərbi Azərbaycan İcmasının Ziyalılar Şurasının sədr müavini, Çəmbərək rayonunun Cil kənd icmasının sədridir.

Ədəbiyyat

Qərbi Azərbaycanın Çəmbərək rayonunun Cil kənd orta məktəbi - 100 / Fərrux Rüstəmov; ideya müəl. Ə. Ələkbərov; elmi red. F. Rüstəmli; elmi məsl. Ə. Ələkbərli; [Qərbi Azərbaycan İcması]. - Bakı: [Elm və təhsil], 2025. - 607, [1] s.

Professor Fərrux Rüstəmov və "Pedaqoji tədqiqatlar" məcmuəsi: (Biblioqrafik göstərici) / tərt. ed.: L. Əliyeva, A. Ələsgər; elmi red. R. Əliyev; ön söz. müəl. M. İlyasov. - Bakı: ADPU, 2025. - 71, [1] s.

Professor Fərrux Rüstəmov və Azərbaycan pedaqogikaşünaslığı: [məqalələr] / tərt. ed. S. F. Rüstəmova; elmi red. R. Əliyev; [red.: L. Əliyeva, Aysel Ələsgər]; ön söz. müəl. M. İlyasov. - Bakı: ADPU, 2025. - 207, [1] s.

Milli təhsilimizin 90 illik tarixinin salnaməsi: Azərbaycan müəllimi-90 / Fərrux Rüstəmov // Azərbaycan müəllimi.-2024.- 4 oktyabr (№36).- S.6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/F%C9%99rrux_R%C3%BCst%C9%99mov

http://www.anl.az/down/meqale/palitra/2018/avqust/602227.htm

Rafiq Rəhimli – 70

(1956) *Ssenarist, dramaturq*



Rafiq Səfər oğlu Rəhimli 1956-cı il yanvar ayının 3-də Lənkəran şəhərində anadan olmuşdur.

Rafiq Rəhimli 1978-ci ildə "Leninçi" rayon qəzetinə işə dəvət edilib. 1989-cu ildə Bakı Dövlət Universitetini, 1994-cü ildə isə "Müstəqil. Rs" nəzdində fəaliyyət göstərən ali rejissorluq kursunu bitirmişdir.

O, 1974-cü ildə ilk müxbir vəsiqəsini almış, ilk qələm təcrübələri orta məktəb illərindən başlamışdır. Tələbəlik illərində müxtəlif müsabiqələrin qalibi kimi bir sıra mükafatlara layiq görülmüşdür. 1978-1984-cü illərdə "Leninçi" qəzetində korrektor, 1984-1993-cü illərdə Azərbaycan radiosunda, 1994-2000-ci illərdə Azərbaycan Dövlət Televiziyasında müxbir və redaktor, 2000-2002-ci illərdə İrəvan Dövlət Azərbaycan Dram Teatrında ədəbi-dram hissəsinin rəhbəri vəzifələrində çalışmışdır. 2002-ci ilin dekabr ayından isə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında ədəbi-dram hissəsinin müdiri vəzifəsini icra edir. "Rəfiq" ədəbi məcmuəsinin təsisçisi və baş redaktorudur.

O, Azərbaycan Yazıçılar Birliyi, Azərbaycan Jurnalistlər Birliyi, Teatr Xadimləri İttifaqının üzvüdür.

Rafiq Rəhimli dramaturq kimi İrəvan Dövlət Azərbaycan Dram Teatrında "Yeni il", Şuşa Dövlət Musiqili Dram Teatrında "Sevgi nağılı", Akademik Milli Dram Teatrında "Bahar xoş gəlibdir Azərbaycana", "Novruz sərgüzəştləri", "Gözəllik müsabiqəsi", Lənkəran Dövlət Dram Teatrında "Ağ kəlağayı", Gəncə Dövlət Dram Teatrında "Bir sevginin tarixçəsi", Mingəçevir Dövlət Dram Teatrında "Gizli məhəbbət", Salyan Dövlət Kukla Teatrında "Göyçək Fatma", Dərbənd Azərbaycan Dövlət Dram Teatrında "Sönmüş talelər", Qusar Dövlət Ləzgi Dram Teatrında "İlham ətirli Zəfər", "Sönmüş talelər", "Oğlum oğul olsa…", "Üç gün, üç gecə", Abşeron rayon mədəniyyət sarayında "Namus naminə", Tərtər Uşaq Yaradıcılıq Birliyində "Gözəlçə", "Çarli Çaplin" Teatr qrupunda, "Haray" monoteatrında, "İncəsənət" Teatr studiyasında və bir sıra müstəqil və özəl teatr müəssisələrində çox sayda pyesləri tamaşaya qoyulmuşdur.

Akademik Milli Dram Teatrında Rafiq Rəhimlinin səhnə redaksiyasında Cəfər Cabbarlının "Ədirnə fəthi", Hüseyn Cavidin "Şeyda" dramları, Gənc Tamaşaçılar Teatrında Elçinin "Buzovna kəndinin əhvalatları" tamaşaya qoyulmuşdur. Onun ssenarisi əsasında Azərbaycan Televiziyasında U. Şekspirin sonetləri əsasında "Aylı gecənin nağılı" televiziya filmi çəkilmişdir.

O, Azərbaycanın görkəmli teatr və kino xadimlərinə həsr olunmuş yüzlərlə verilişin, minlərlə mətbuat çıxışının müəllifidir. Eyni zamanda Mədəniyyət Nazirliyinin keçirdiyi Prezident Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinin 30 illiyinə, Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş, həmçinin bir sıra dövlət tədbirlərinin ssenari müəllifidir.

Rafiq Rəhimlinin 1990-cı il yanvar hadisələri zamanı Dövlət televiziyasında baş verən partlayışa həsr olunmuş "Efirin göz yaşları", Azərbaycanın görkəmli teatr və kino xadimləri haqqında "Teatr kraliçası" (Xalq artisti Amaliya Pənahova haqqında), "Həmişə təravətli sənət" (Xalq artisti Səyavuş Aslan haqqında), "Səhnə səadətimdir" (Xalq artisti Rafiq Əzimov haqqında), "Səhnə də bir həyatdır" (Xalq artisti Lətifə Əliyeva haqqında) adlı kitabları işıq üzü görmüşdür.

2013-cü ildə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Fəxri Mədəniyyət İşçisi" döş nişanı ilə təltif edilmişdir. 2018-ci ildə Azərbaycanda teatr sənətinin inkişafında xidmətlərinə görə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat:

Rafiq Rəhimli:"Teatrı dəli kimi sevdim" / Rafiq Rəhimlimüsahibəni apardı:X. Rəis // Kaspi.-2010. - 16 oktyabr. - S.15.

Səhnə də bir həyatdır / R. S. Rəhimli ; red. V. Əliyev ; [dizayner R. Qasımov].- Bakı: Adiloğlu, 2012.- 343, [1] s.

Teatr kraliçası. 40 il səhnədə /R. Rəhimli; red. N. HüseynliBakı: Adiloğlu, 2004. -351, [1] s.

Siz həmişə mənimləsiniz / R.Rəhimli //Azad Azərbaycan .-2021.-10 iyun.- S.10.

Ədalətqızı, S. Sənət dünyasinin Rafiq Rəhimli zirvəsi / Sevinc Ədalətqızı // İki sahil. - 2021. - 14 yanvar.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Rafiq_R%C9%99himli

http://www.anl.az/down/meqale/az_azerbaycan/2021/iyun/747674.htm

https://ikisahil.az/post/190537-senet-dunyasinin-rafiq-rehimli-zirvesi

İbrahim Cəfərov - 70

(1956) *Alim*



İbrahim Həsən oğlu Cəfərov 1956-cı il yanvar ayının 20-də Naxçıvan Muxtar Respublikası Şərur rayonu Düdəngə kəndində anadan olmuşdur. 1974-1976-cı illərdə keçmiş Sovet Ordusu sıralarında hərbi xidmət keçmişdir.

İbrahim Cəfərov 1979-cu ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda dinləyici olmuşdur. 1980-1985-ci illərdə həmin institutda "Bitki mühafizəsi" fakültəsində təhsil almışdır. 1985-1988-ci illərdə K.A.Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyasında "Fitopatologiya" kafedrasının əyani aspirantı olmuşdur. 13 fevral 1989-cu ildə SSRİ Nazirlər Soveti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə kənd təsərrüfatı elmləri namizədi elmi dərəcəsi verilmişdir. AMEA-nın müxbir üzvüdür. 2016-cı ildə Qazaxstan Milli Aqrar Universitetinin fəxri professorudur.

1993-cü ildən 2002-ci ilədək Meyvə-tərəvəzçilik və üzümçülük fakültəsinin, sonra isə Aqronomluq və torpaqşünaslıq fakültəsinin dekanı işləmişdir. 2005-ci ilin iyun ayında doktorluq dissertasiyasını müdafiə etmiş və Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 16 iyun 2006-cı il tarixli qərarı ilə kənd təsərrüfatı elmləri doktoru elmi dərəcəsi almışdır.

İbrahim Cəfərov 2013-2022-ci illərdə Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru olmuşdur. 2022-ci ildən Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktorudur.

2000-2013-cü illərdə 39 saylı Kəpəz birinci (Gəncə) Dairə Seçki Komissiyasının, sonra isə 38 saylı Nizami ikinci (Gəncə) Dairə Seçki Komissiyasının sədri olmuşdur.

İbrahim Cəfərov 3 dərslik, 1 dərs vəsaiti, 100-dən artıq elmi məqalə, 4 metodiki tövsiyə, fənn proqramları və metodik göstərişlərin müəllifidir. Elmi əsərlərindən 43-ü xaricdə, 13-ü Beynəlxalq bazalarda referatlaşdırılan və indeksləşdirilən jurnallarda çap edilmişdir.

Əsas elmi fəaliyyəti bitki mühafizəsi sahəsində, xüsusilə üzüm, çəyirdəkli meyvə bitkiləri və şəkər çuğunduru bitkisinin mikobiotası öyrənilməsi, əsas xəstəliklərə qarşı mübarizə tədbirləri işlənilməsidir.

İbrahim Cəfərov 2008-ci ildən Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitunun nəzdində fəaliyyət göstərən FD 04.012 Müdafiə Şurasının həmsədri və sədr müavini, 2015-ci ildən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 24 fevral 2015-ci il tarixli 46 nömrəli əmri ilə Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.04.131 dissertasiya şurasının sədridir.

Professor İbrahim Cəfərov Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 7 noyabr 2016-cı il tarixli Sərəncamı ilə Kənd təsərrüfatının inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Bitki xəstəlikləri və onların idarə edilməsi : [vəsait] / İbrahim Cəfərov ; [elmi red. İ. M. Hüseynova].Bakı: [n. y.], 2024. - 515, [5] s.

Biz tariximizin ən şərəfli anlarını yaşayırıq! : Xalqımız o günü səbirsizliklə gözləyir: Sonuncu erməni əsgərinin torpağımızdan çıxdığı günü / İbrahim Cəfərov //Xalq qəzeti .-2020.-11 oktyabr.- S.8.

Hüseynova, İ. Şərəfli xidmət nümunəsi: Elm xadimləri / İradə Hüseynova; İ.Cəfərov // Azərbaycan .-2025.- 7 mart (№ 51).- S.11.

İnternetdə:


http://www.anl.az/down/meqale/azerbaycan/2025/mart/937957(-meqale).pdf

https://az.wikipedia.org/wiki/%C4%B0brahim_C%C9%99f%C9%99rov
https://science.gov.az/az/forms/chlenyikorrespondentyi/1267

http://www.anl.az/down/meqale/xalqqazeti/2020/oktyabr/722840(meqale).pdf

Afiyət Məmmədrza – 100

(1926-2011) *Nasir, publisist, tərcüməçi*



Afiyət Abdulla oğlu Məmmədrza 1926-cı il yanvar ayının 22-də Qazax rayonunda anadan olmuşdur.

O, 1932-ci ildə ailəsi ilə birlikdə Təbrizə köçmüşdür. Orta məktəbi Təbrizdə başa vurduqdan sonra, 1946-cı ildə Sovet ordusunun Təbrizdə olan yüksək rütbəli hərbçiləri ilə birgə Azərbaycana qayıtmışdır. Burada hərbi məktəbə daxil olaraq, təhsilini uğurla başa vurmuşdur. Daha sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır.

Afiyət Məmmədrza uzun müddət jurnalistka sahəsi ilə məşğul olmuşdur. 30 ilə yaxın "Azərbaycan" qəzetinin baş redaktoru vəzifəsində çalışmışdır.

Azərbaycan Milli Hökuməti dağıldıqdan sonra Təbrizdə fəaliyyət göstərən "Şairlər və yazıçılar cəmiyyəti" 1947-ci ildən etibarən Bakıda, "Azərbaycan Yazıçılar Cəmiyyəti" adı ilə fəaliyyət göstərməyə başlamışdır. Məmmədrza Afiyət Mərəndi də bu cəmiyyətin üzvü olmuşdur.

O, jurnalistika ilə yanaşı yazıçılıqla da məşğul olmuşdur. Bir müddət Mərənddə yaşadığı üçün özünə "Mərəndi" ləqəbini götürmüşdür. Azərbaycan Yazıçılar İttifaqının üzvü idi. Mətbuatda çalışdığı dövrdə Nəriman Həsənzadə, Tahir Söhrab, Mədinə Gülgün, Balaş Azəroğlu, Bəxtiyar Vahabzadə kimi yazıçı və şairlərlə işləmiş, dostluq və əməkdaşlıq etmişdir.

Fars dilindən Azərbaycan dilinə tərcümələrindən aydın olur ki, Afiyət Məmmədrza bir sıra dilləri mükəmməl bilmiş və ədəbi-bədii fikrin formalaşmasında mühüm rol oynamışdır.

Onun müxtəlif vaxtlarda "Səttərxan", "Ürəkdə işıq", "Atamı istəyirəm" adlı kitabları nəşr edilmişdir. "Alov" (1959), "Atamı istəyirəm" (1961), "Sərdari-milli Səttərxan" (1968), "Məşrutə İnqilabı və Pəhləvi dərbarının xəyanətləri" (1978), "Sərdare-milli Səttərxan" (1980), "Ürəkdə işıq" (1984) və s. əsərlərin müəllifidir.

Səməd Behrənginin "Balaca qara balıq", "Çuğundur satan oğlan", "Məhəbbət nağılı" kimi hekəyləini fars dilindən Azərbaycan dilinə tərcümə edilmişdir.

Afiyət Abdulla oğlu Məmmədrza 2011-ci il aprel ayının 24-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Balaca Qara Balıq: [Nağıl] / Səməd Behrəngi; tərc. ed. Afiyət Məmmədrza; naşir M. Xan. - [Bakı]: Mücrü, [2025]. - 26, [2] s.

Atamı istəyirəm /Afiyət Məmmədrza; [red. R. Salamova]. - Bakı: Uşaqgəncnəşr, 1961. - 74, [2] s. : 16 sm.

Ürəkdə işıq : hekayələr /Afiyət Məmmədrza ; [red. V. Babanlı] - Bakı: Yazıçı, 1984. - 127, [1] s.

Sevgi /Məmməd Rahim; Red.: Afiyət Məmmədrza.- Bakı: Azərnəşr, 1954 .-214 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/M%C9%99mm%C9%99drza_Afiy%C9%99t_M%C9%99r%C9%99ndi

Elşad Quliyev - 85

(1941-2008)

Jurnalist



Elşad Heybət oğlu Quliyev 1941-ci il yanvar ayının 23-də Cəlilabad şəhərində anadan olmuşdur.

O, ADU-nun filologiya fakültəsini və Moskva İctimai Elmlər Akademiyasını bitirmişdir.

Elşad Quliyev Lənkəranda üç il müəllim kimi işləmiş daha sonra Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində fəaliyyətini dava etdirmişdir. Bir müddət tərcüməçi, sonra isə televiziya proqramları baş redaktoru olmuşdur. 1972-ci ildə Komitə sədrinin birinci müavini təyin edilmişdir. 1983-cü ildən 1990-cı ilədək Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri vəzifəsində çalışmışdır.

1991-ci ildə tarix elmləri namizədi adını almış, Beynəlxalq Ekoenergetika Akademiyasının elmlər doktoru, professoru, Beynəlxalq Televiziya Akademiyasının həqiqi üzvü seçilmişdir. 1990-cı ildən həm də "Bilik" Maarifçilik cəmiyyətinin sədri olmuşdur.

Elşad Quliyev 1992-ci ildə yenidən Dövlət Teleradio Şirkətinə sədr təyin olunmuşdur.

Televiziyanın kütləvi informasiya vasitələri sistemindəki rolunun artmasında, mövqeyinin möhkəmlənməsində Elşad Quliyevin xidmətləri danılmazdır. AzTV-yə rəhbərlik etdiyi zamanda sovet dönəminin bütün ideoloji buxovlarına, yuxarıların təzyiqlərinə baxmayaraq, respublikanın yeganə televiziyası xalqın böyük rəğbətini qazanmışdı. AzTV milli şüurun və ana dilinin inkişafı, cəmiyyətdə gedən ictimai prosesləri, xalqın sosial-iqtisadi və mədəni nailiyyətlərini bütün dolğunluğu ilə əks etdirirdi. Texniki və yaradıclıq parametrlərinə görə AzTV ötən əsrin 80-ci illərində SSRİ miqyasında 14-cü yerdən 4-cü yerə çıxmışdı.

Elşad Quliyev 1993-cü ildən 1994-cü ilə qədər Azərbaycanda ilk müstəqil televiziya kanalı - BMTİ-nin baş direktoru işləmişdir.

Elşad Quliyev "Sovet Azərbaycanı" (1977), "Şəki" (1977), "Xuraman (1978), "Muğanda bir kənd var" (1978), "Azərbaycan iri addımlarla addımlayır" (1979), "Qızılı yamaclar" (1982), "Nəbi Xəzri" (1987), "Oxu, tar" (1989) və b. adlı qısametrajlı sənədli televiziya filmlərinin ssenari müllifi olmuşdur.

Televiziya yayımı və jurnalistikası ilə bağlı "Telekamera və mikrofonla" (1985), "Televiziya iki əsrin ayrıcında" (1993) və "Televiziya: nəzəriyyə, inkişaf meyilləri" (2004) adlı kitabın müəllifidir.

O, ayrı-ayrı illərdə kütləvi informasiya vasitələri sahəsində xidmətlərinə görə orden və medallarla təltif edilmişdir. 2006-cı ildə Televiziyanın 50 illik yubileyi münasibətilə Prezident təqaüdünə layiq görülmüş, AzTV-də onun həyat və fəaliyyətinə həsr olunmuş "Ömrün teleformatı" sənədli filmi çəkilmişdi. Həmçinin onun haqqında "Telefenomen Elşad Quliyev ilə 16 saat söhbət" adlı kitab işıq üzü görüb

Ayrı-ayrı illərdə kütləvi informasiya vasitələri sahəsində xidmətlərinə görə orden və medallarla təltif edilib. 1989-cu ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. Akademik Vavilov adına Beynəlxalq medalla təltif olunmuşdur.

Elşad Heybət oğlu Quliyev 2008-ci il may ayının 27-də vəfat etmişdir.

Ədəbiyyat:

Televiziya: İki əsrin ayrıcında / Elşad Quliyev; ön söz müəll. C.Əlibəyov; Red. S.İsmayılova. - Bakı: İşıq, 1993. - 288 s.

Televiziya: nəzəriyyə, inkişaf meyilləri [Elektron resurs] / Elşad Quliyev; elmi red. N.Şəmsizadə; red. İradə Xanım. - Bakı:Şərq-Qərb, 2004. - 366 s.

Kazımzadə, A. Yaxşı əməllər, işıqlı düşüncələr sahibi / Aydın Kazımzadə // Azərbaycan .-2011.-22 yanvar. - S.7.

Cabbarlı, A. O, teleradio məkanında bənzərsiz peşəkar idi: Elşad Quliyev - 75 / A.Cabbarlı // Xalq qəzeti. - 2016. - 23 yanvar. - S. 6.

Mirzəbəyli, İ. O, haqlılara "haqsızsan" deyə bilmirdi: Elşad Quliyev - 80 / İttifaq Mirzəbəyli //Xalq qəzeti.-2021.- 23 yanvar.- S.7.

İnternetdə:

http://www.anl.az/down/meqale/xalqqazeti/2016/yanvar/473978.htm

http://www.anl.az/down/meqale/azerbaycan/2011/yanvar/152340.htm

Rafiq İbrahimov – 75

(1951)

Sənətşünas



Ədəbiyyat:

Azərbaycan xalq musiqisinin nəzəri əsasları : [iki cilddə] /R. H. İmrani, N. R. İmrani ; elmi red. B. Qurbanov ; AMEA, Folklor İn-tu .- I cild. -Bakı: [Nurlan], 2013. -215, [1] s.

Muğam Şumer dövründən başlayır /R. İmrani; red.: T.M.HacıyevBakı: Elm, 1999. - 88 s.

Azərbaycanın musiqi tarixi: ən qədim dövrlərdən bizim eraya qədər / R. İmrani; red. A. C. Ziyadlı.- C. I. - Bakı: Elm, 1999.- 148 s.

İstedadla zəhmətin bəhrəsi: Müsahibimiz sənətşünaslıq doktoru professor Rafiq İMRANİdir / Rafiq İmrani // Respublika. -2021.-21 fevral.- S.3.

Unudulmuş tariximizin yeni səhifəsi /Rafiq İmrani // Respublika. - 2020. - 25 aprel. - S. 6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Rafiq_%C4%B0mrani

https://ek.anl.az/search/query?match_1=MUST&field_1&term_1=Rafiq+H%C3%BCseyn+o%C4%9Flu+%C4%B0brahimov&facet_date=1.202.2020&sort=relevance&theme=e-kataloq

Rafiq Hüseyn oğlu İbrahimov 1951-ci il yanvar ayının 23-də Bakı şəhərində anadan olmuşdur. Bakı şəhər 20 saylı şəhər orta məktəbdə təhsil almışdır.

O, 1968-1972-ci illərdə Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumunda təhsil almışdır. Texnikumu qızıl medalla bitirmişdir. 1972-1977-ci illərdə Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasında təhsil almış və akademiyanı fərqlənmə diplomu ilə bitirmişdir.

Rafiq İbrahimov əmək fəaliyyətinə 1973-cü ildə musiqi məktəbində müəllim kimi başlamışdır. 1977-ci ildən A.Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumunda, 1979-cu ildən isə Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasında dərs demişdir.

Rafiq İbrahimov 1981-ci ildən elmi fəaliyyətlə məşğuldur. 1981-1988-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun dissertantı olmuşdur. 1988-ci ildə Moskvada P.Çaykovski adına Dövlət Konservatoriyasında bəstəkar Fikrət Əmirovun elmi rəhbərliyi ilə "Bəhram Mansurovun Azərbaycan musiqi mədəniyyətinin inkişafında rolu" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1990-cı ildə Bakı Musiqi Akademiyasında müəllim, dosent, 1995-ci ildə professor vəzifələrində işləmişdir. "Azərbaycan muğam sənətinin tarixi və elmi-nəzəri əsaslan" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1998-cui ildə sənətşünaslıq doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

Sənətşünas 2001-ci ildən Azərbaycan Milli Konservatoriyasında tədris işləri üzrə prorektor, 2002-ci ildən eyni zamanda Azərbaycan Milli Musiqisinin tarixi və nəzəriyyəsi kafedrasının müdiri, 2004-cü ildən AMEA Folklor İnstitutu Musiqi şöbəsinin müdiri olmuşdur. 2013-cü ildən Türkiyənin Qars şəhərindəki Qafqaz Universiteti Dövlət Konservatoriyasının professoru və Türk xalq musiqisi kafedrasının müdiridir.


Rafiq İbrahimov 5 doktorluq işinin elmi rəhbəri olmuş, 32 kamança ustasına dərs demişdir. 200-ə qədər elmi-kütləvi və publisistik məqaləsi, 14 tədris-metodik dərs vəsaiti çap olunmuşdur. Beynəlxalq elmi konfrans və simpoziumlarda məruzələrlə çıxış etmişdir.

"Azərbaycan muğam janrının yaranması və inkişaf tarixi" (1994), "Muğam tarixi" (1999) və "Azərbaycanın musiqi tarixi" (ən qədim dövrlərdən bizim eraya qədər) (1999), "Muğam Şumer dövründən başlayır" (1999) "Azərbaycan musiqi tarixi" (2003) və 5 cilddə "Ozan-Aşıq-Baxşı ensiklopediyası" (2024) adlı kitabları kütləvi tirajla çap olmuşdur.

Araz Dadaşzadə - 90

(1936-1990)

Ədəbiyyatşünas



Ədəbiyyat:

Molla Pənah Vaqif: həyat və yaradıcılığı / Araz Dadaşzadə; red. H.Araslı; AzSSR EA Nizami ad. Ədəbiyyat və Dil İns-tu. - Bakı: AzSSR EA, 1966. - 188 s.

XVIII əsr Azərbaycan lirikası: monoqrafiya: məqalələr / Araz Dadaşzadə; tərt.: Z.Dadaşzadə, A. Dadaşzadə; ön söz Elçin; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. - Bakı: Təhsil, 2017. - 421 s.

Əhmədov, T. Araz Dadaşzadə / Teymur Əhmədov // Azərbaycan yazıçıları XX-XXI yüzillikdə: ensiklopedik məlumat kitabı / T.Əhmədov. - Bakı, 2011. - S. 67.

Yusifli, C. Araz Dadaşzadə elm yollarında / C.Yusifli // Ədəbiyyat məcmuəsi: Nizami ad. Ədəbiyyat İn-tunun Əsərləri. - 2013. - C. XXIV. - S. 242-245.

Əsgərzadə, Q. Araztək coşqun... : Görkəmli alim, unudulmaz şəxsiyyət Araz Dadaşzadənin əziz xatirəsinə /Qafar Əsgərzadə // 525-ci qəzet.-2022.- 29 aprel.- S.12;16; Ədəbiyyat qəzeti.-2022.- 14 may.- S.4-5; Yeni Təfəkkür.-2022.- 6 may.- S.4.

İnternetdə:

https://www.shaki.info/wiki/Araz_Dada%C5%9Fzad%C9%99

Araz Məmməd oğlu Dadaşzadə 1936-cı il yanvar ayının 30-da Bakı şəhərində, akademik Məmməd Arif və görkəmli pedaqoq Zümrüd Axundovanın ailəsində anadan olmuşdur.

O, 1952-1957-ci illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində (indiki BDU) təhsil almışdır. 1957-1960-cı illərdə Azərbaycan SSR EA-nın Azərbaycan Tarixi Muzeyində işləmişdir.

1960-1963-cü illərdə Azərbaycan SSR EA-nın Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasında oxumuş, 1963-1966-cı illərdə həmin institutda kiçik elmi işçi, 1968-1976-cı illərdə isə Orta əsrlər şöbəsinin baş elmi işçisi olmuşdur.

Araz Dadaşzadə 1964-cü ildə "M.P. Vaqifin yaradıcılığı" mövzusunda namizədlik, 1977-ci ildə isə "XVIII əsr Azərbaycan lirikası (ideya tematik və sənətkarlıq xüsusiyyətləri)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Ömrünün böyük bir hissəsi Azərbaycan Sovet Ensiklopediyasının nəşrə hazırlanması və nəşri ilə bağlıdır. 1966-1968-ci illərdə ensiklopediyanın Baş redaksiyasında Ədəbiyyat və İncəsənət redaksiyasının müdiri, 1976-1988-ci illərdə isə baş redaktorun birinci müavini işləmişdir. 1988-ci ildən ömrünün sonunadək ASE-nin baş redaktoru vəzifəsində çalışmışdır. ASE Baş redaksiya heyətinin və elmi redaksiya şurasının, 1976-cı ildə Azərbaycan Yazıçılar İttifaqı təftiş komissiyasının, 1977-1982 və 1988-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiya heyətinin üzvü, 1988-ci ildən Azərbaycan Yazıçılar İttifaqı "Xatirə" irs komissiyasının sədr müavini, Azərbaycan EA-nın Terminologiya Komitəsi Rəyasət Heyətinin üzvü olmuşdur.

Elmi fəaliyyəti XVIII əsr Azərbaycan poeziyası və xüsusilə M.P.Vaqifin həyat və yaradıcılığı ilə bağlıdır.

Ədəbi fəaliyyətə 1956-cı ildə "Azərbaycan gəncləri" qəzetində çıxan "Tərli kürəklər" kinofilminə yazdığı eyniadlı resenziya ilə başlamışdır. Müxtəlif vaxtlarda "Kral Lir", "Dədə Qorqud", "Dərviş Parisi Partladır" və sair filmlərə həsr edilmiş məqalələr də yazmışıdır. Ədəbiyyat və incəsənət sahəsində çoxsaylı məqalə və rəylərin müəllifidir. Hekayələri "Azərbaycan", "Kirpi" və bir sıra digər nəşrlərdə çap edilmişdir.

Alim "Molla Pənah Vaqif (həyat və yaradıcılığı)" (1966), "Molla Pənah Vaqif (həyat və yaradıcılığı haqqında oçerk)" (1968), "XVIII əsr Azərbaycan lirikası" (1980), "Həyat müğənnisi" (1968), "Xeyirxahlıq və gözəllik poeziyası" (1986) kitablarının müəllifidir. Onun 1968-ci ildə M.P.Vaqifin anadan olmasının 250 illiyi ilə əlaqədar yazdığı "Molla Pənah Vaqif (həyat və yaradıcılığı haqqında oçerk)" kitabçası Azərbaycan, ingilis, fransız, türk, ərəb, fars, rus dillərində çap edilmişdir.

Araz Dadaşzadə tərcüməçiliklə də məşğul olmuş, R.Taqorun "Bağban" əsərini (1961, Anarla birlikdə) və S.A.Tolstayanın "Mənim həyatım" kitabını (1981) Azərbaycan dilinə tərcümə etmişdir.

Araz Dadaşadənin fəaliyyətində Azərbaycan Milli Televiziya və radiosu xüsusi yer tutur. O, uzun illər Azərbaycan Televiziyasında "Azərbaycan ədəbiyyatı teleantologiyası", "Sovet poeziyasının teleantologiyası" və digər verilişlərin aparıcısı, neçə-neçə televiziya və radio verilişinin müəllifi kimi də yaddaşlarda qalıb. Hazırda bu verilişlər Milli Televiziya və radiomuzun fondunda saxlanılır.

"Odlar yurdu" bədii filminin, diafilm və sənədli filmlərin ssenari müəllifidir. Ssenari müəllifi olduğu "Tülküyə uyduqda" kukla multfilmi (1972, rejissor: M.Rəfiyev) ilk və yeganə genişekranlı Azərbaycan cizgi filmidir.

1989-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Araz Məmməd oğlu Dadaşzadə 1990-cı il noyabr ayının 2-də vəfat etmiş və Bakıda, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Rauf Qardaşov – 70

(1956) *Alim*



Rauf Hacı oğlu Qardaşov 1956-cı il yanvar ayının 3-də Zaqatalada anadan olmuşdur.

O, Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsi bitirmişdir. 1983-cü ildə fizika-riyaziyyat üzrə fəlsəfə doktoru və 2000-ci ildə fizika-riyaziyyat üzrə elmlər doktoru elmi dərəcələrini almışdır. 2014-ci ildə isə AMEA-nın müxbir üzvü seçilmişdir.

Rauf Qardaşov əmək fəaliyyətinə Azərbaycan Elmlər Akademiyasının "Kaspi" elmi mərkəzində baş laborant vəzifəsində başlamış, keçmiş SSRİ EA-nın Okeanologiya İnstitutunda stajor-tədqiqatçı, aspirant, Azərbaycan EA-nın Təbii Sərvətlərin Kosmik Tədqiqi İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, Riyaziyyat və Mexanika İnstitutunda aparıcı elmi işçi, laboratoriya müdiri, şöbə müdiri, 1993-2007-ci illərdə İstanbul Universitetinin mühəndislik fakültəsində professor vəzifəsində işləmişdir. Rauf Qardaşov İstanbul Universitetində işlədiyi müddətdə 2 dəfə İstanbul Universitetinin "Başarılı Araştırıcı Belgesi"ni, 3 dəfə TÜBİTAK-ın mükafatını almışdır.

Rauf Qardaşov 2008-2017-ci illərdə AMEA-nın akademik H. Əliyev adına Coğrafiya İnstitutunda baş elmi işçi vəzifəsində çalışmışdır. 2017-ci ildən həmin İnstitutun Xəzər dənizinin monitorinqi şöbəsinin müdiridir.

Alim çapdan çıxmış 60-dan çox məqalənin müəllifidir, onlardan 18-i SCİ və impakt-faktora sitat verilən jurnallarda nəşr olunmuşdur.

Rauf Qardaşov okean və dənizlərin aerokosmik metodlarla tədqiqi sahəsində tanınmış alimdir. Onun əsas elmi nəticələri dalğalı dəniz səthində Günəş parıltılarının ölçülərinin paylanma qanununun tapılması; dəniz səthinin şüalanma qabiliyyətinin daha dəqiq qiymətinin hesablanması; dəniz səthindən Günəş və lazer şüalarının əks olunması probleminin həlli üçün "güzgü əksi nöqtələr metodu"nun işlənməsi; Günəş parıltılarının statistik xarakteristikalarına görə dalğanın və küləyin xarakteristikalarını təyin edən məsafədən zondlama metodunun yaradılması; geostasionar orbitdən müşahidə zamanı okean üzərində Günəş parıltısının yerinin təyini metodunun işlənməsi; neft təbəqələrinin dənizin radiasion balansına təsirinin hesablanmasıdır.

Rauf Qardaşov SCI-ə daxil olan "international Journal of Remote Sensing" jurnalının resenzentidir. Görkəmli alimin adı Amerikada dərc olunan "Who is Who in World" ("Dünyada kim kimdir") kataloqunun 2010-cu il buraxılışına daxil edilmişdir.

Ədəbiyyat:

Heydər Əliyevin Azərbaycanda elm və təhsilin inkişafında rolu: Respublika elmi-praktiki konfransı : 10 may, 2023 Bakı / Azərbaycan / [təşkilat kom.: R. Qardaşov [və b.]] ; baş red. Z. N. Eminov ; red. Z. T. İmrani. [Bakı]: [Optimist], [2023].- 313, [1] s.

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Coğrafiyanın müasir problemləri: Elm və təhsilin inteqrasiyası": II Beynəlxalq elmi-praktiki konfransı : 22-23 noyabr, 2023 Bakı / Azərbaycan /təşkilat kom.: R. Qardaşov [və b.] ; baş red. Z. N. Eminov ; red. Z. T. İmrani.-Cild 2.-[Bakı]: [Elm və bilik], [2023].-258, [1] s.

"Azərbaycan ərazisində Günəş enerjisinin paylanmasının riyazi modelini yaratmışıq" AMEA-nın müxbir üzvü: "Bu model əsasında seçilmiş məntəqədə illər, aylar, həftələr, günlər üzrə nə qədər Günəş enerjisinin alınacağını hesablamaq mümkündür" /R. Qardaşov //Xalq Cəbhəsi .-2016.- 9 dekabr.- S.7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Rauf_Qarda%C5%9Fov

http://www.anl.az/down/meqale/xalqcebhesi/2016/dekabr/518840.htm

Elşad Qurbanov - 75

(1951)

Alim



Ədəbiyyat:

Qlobal istiləşmə, COP29 və Azərbaycan / Elşad Qurbanov //Azərbaycan .-2024.- 15 noyabr (№ 251).- S.17.

Azərbaycan ekoregionunda biomüxtəlifliyinin qorunmasında ulu öndər Hedər Əliyevin rolu / Elşad Qurbanov // Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu: Elmi-praktiki konfrans .-2024.- S.33-34.

İşğaldan azad olunmuş ərazilərin yay otlaqlarının geobotaniki tədqiqi / Elşad Qurbanov // Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bugünü və gələcəyi: Konfransın proqramı və materialları / Azərbaycan Milli Elmlər Akademiyası.-2021.- 20-21 may.- S.37-38.

Qaraquş dağı ərazisində Orobanchaceae Vent. fəsiləsinin nadir növləri / Elşad Qurbanov; N.Novruzi // Elmi əsərlər: Təbiət və texniki elmlər seriyası / AMEA, Naxçıvan bölməsi .-2021.- №2.- S.62-66.

İnternetdə:

http://www.anl.az/down/meqale/azerbaycan/2024/noyabr/919688(meqale).pdf

Elşad Məcnun oğlu Qurbanov 1951-ci il yanvar ayının 2-də Zəngəzur mahalının Qarakilsə (Sisyan) rayonunun Urud kəndində anadan olmuşdur.

O, 1968-ci ildə Şahbuz rayonunun Aşağı Qışlaq kənd orta məktəbini, 1973-cü ildə isə Bakı şəhəri 8 nömrəli tibb məktəbini fərqlənmə diplomu ilə bitirmişdir. 1979-cu ildə Bakı Dövlət Universitetinin biologiya fakültəsinin botanika ixtisası üzrə, 1979-1982-ci illərdə isə AMEA-nın Botanika İnstitutunun aspiranturasında təhsil almışdır. 1984-cü ildə "Naxçıvançay hövzəsinin florası, bitkiliyi və onun fitomeliorativ əhəmiyyəti" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək elmlər namizədi, 2004-cü ildə isə "Atropatan əyalətinin flora və bitkiliyi (Azərbaycan Respublikası ərazisində)" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək biologiya elmləri doktoru elmi adını almışdır. O, həmin ildən BDU-nun professorudur.

Elşad Qurbanov 1972-1980-ci illərdə Bakının Nərimanov və Yasamal rayonlarının sanitar-epidemioloji stansiyalarında sanitar-həkim köməkçisi, 1982-1992-ci illərdə BDU-da Botanika kafedrasında laborant, müəllim və dosent, 1992-ci ildən BDU-da Biologiya fakültəsinin Botanika kafedrasının müdiri, 2000-2002-ci illərdə Mərkəzi Seçki Komissiyasının üzvü, 2002-ci ildən BDU-nun biologiya fakültəsində "Botanika", "Mikologiya", "Mikrobiologiya" və "Ətraf mühitin idarə edilməsi və bioloji monitorinq" ixtisasları üzrə magistrantların Dissertasiya Müdafiə Şurasının sədri, 2006-2017-ci illərdə AMEA-nın Mərkəzi Nəbatat bağı və Mərdəkan Dendralogiya institutunda elmi şuranın üzvü, 2009-2016-cı illər AZDPU-nin nəzdində fəaliyyət göstərən B/D.02.061 doktorluq müdafiə şurasının üzvü, 2009-cu ildən Azərbaycan Respublikasında "Botanika" ixtisası üzrə AMEAnın Koordinasiya Şurasının katibi, 2011-ci ildən isə sədr müavini, 2009-2012-ci illər Bakı Dövlət Universitetinin İmtahan Qərargahının sədri, 2009-cu ildən Azərbaycan Respublikası Kənd Təsərrufatı Nazirliyinin Agrar Elm Mərkəzi, Elmi-Tədqiqat Əkinçilik İnstitutunda fəaliyyət göstərən fəlsəfə doktoru almaq üçün F/D.04.012 Dissertasiya Şurasının nəzdində seminar şurasının sədr müavini, 2009-2017-ci illərdə AMEA-nın Dendrologiya institutunun 0,5 ştat aparacı elmi işçisi, 2010-2015-ci illər BDU-nun Biologiya fakültəsinin Tədris-metodik Şurasının sədri, 2011-2018-ci illərdə BDU-da dekan və kafedra müdiri vəzifəsini tutmaq üçün yaradılmış seçki komissiyasının katibi, 2013-cü ildən BDU-da Böyük Elmi Şuranın üzvü, 2013-2015-ci illər BDU-nun Elmi Şurasının Elmi katibi vəzifələrində çalışıb.

2014-cü ildə AMEA-nın müxbir üzvü, 2016-cı ildə Azərbaycan Milli Elmlər Akademiyası Biologiya və Tibb Elmləri bölməsinin büro üzvü, 2016- cı ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın Biologiya və Aqrar elmlər üzrə Ekspert Şurasının eksperti, 2017-ci ildən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin Elmi Şurasının üzvü seçilmişdir. 2009, 2010, 2012, 2016, 2017-cı ildə apardığı elmi-tədqiqat işi mühum nəticə kimi AMEA-nın hesabatına daxil olunmuş.

Elşad Qurbanov Azərbaycan ərazisi üçün ilk dəfə olaraq "Psevdomakki" və "Səhra" bitkilik tiplərini müəyyən etmiş, onların fitosenoloji xüsusiyyətlərini araşdırmış, həmçinin ərazi üçün onlarca növün yeni yayılma areallarını elmə gətirmişdir. Atropatan florasına aid olan 2595 bitkinin Azərbaycan və latın dillərində adlarını qeyd edən Elşad Qurbanov 6 mindən çox herbari nümunəsi toplayaraq herbari fonduna vermişdir.

O, 169-u xaricdə dərc edilmiş 447 elmi əsərin (18 kitab, 429 məqalə), 60-dan artıq tədris proqramı və metodik göstərişin, 16 müəlliflik şəhadətnaməsi və patentin müəllifi və 15 kitabın elmi redaktorudur. Dəfələrlə Beynəlxalq və Respublika elmi konfranslarında çıxış etmişdir. Müəlliflifiyi ilə "Azərbaycanın Qırmızı Kitabı"nın (II cildlik) 3-ci nəşri çap olunmuşdur.

Elşad Qurbanov onlarla doktorluq və namizədlik dissertasiyalarının opponenti və ya aparıcı təşkilat kimi rəyçisi olmuş, onun rəhbərliyi altında 60-dan çox magistrant, 16 fəlsəfə doktoru və 3 elmlər doktoru müdafiə etmişdir.

Elşad Qurbanov 2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən "Tərəqqi" medalına, 2019-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Yerinə yetirdiyi elmi işlərin nəticələrinə görə 2009, 2012-ci illərdə "İlin alimi", pedaqoji fəaliyyətinə görə 2010-cu ildə "İlin müəllimi" fəxri adlarını almış, Təhsil Nazirliyinin Fəxri Fərmanları, BDU-nun 75 illiyinə həsr edilmiş xatirə medalı ilə təltif edilmişdir. "Avropa nəşr mətbuat Evi"nin ən yaxşı vətəpərvər tədqiqatçı alim kimi qızıl medalla təltif olunmuşdur.

Nəcəf Qəhrəmanov - 80

(1946) *Kimyaçı alim*



Nəcəf Tofiq oğlu Qəhrəmanov 1946-cı il yanvar ayının 25-də Bakı şəhərində anadan olmuşdur.

O, 1953-1964-cü illərdə Bakı şəhərinin 189 saylı orta məktəbini, 1969-cu ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu "Plastik kütlələrin emalı texnologiyası" ixtisası üzrə bitirmişdir. Ali məktəbi bitirdikdən sonra Elmi-Tədqiqat "Olefinlər" institutunun polimer emalı laboratoriyasına işə qəbul olunmuşdur. Nəcəf Qəhrəmanov həmin institutda "Yüksəkmolekullu birləşmələr kimyası" ixtisası üzrə əyani aspiranturada təhsil almış və 1975-ci ildə Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda elmlər namizədi dissertasiya işini müdafiə etmişdir.

1983-1989-cu illərdə "Kompozisiya materiallarının kimyəvi modifikasiyası" sektoruna, 1989-1994-ci illərdə isə "Polimerlərin kimyəvi modifikasiyası" laboratoriyasına rəhbərlik etmişdir.

Nəcəf Qəhrəmanovun 2007-ci ildə "Старение и стабилизация полимеров" mövzusunda monoqrafiyası çap edilmişdir. 1988-ci ildə N.T.Qəhrəmanov Moskvanın D.İ. Mendeleev adına Kimya-Texnologiya institutunda "Yüksəkmolekullu birləşmələr kimyası" ixtisası üzrə doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. 2005-ci ildə N.T.Qəhrəmanovun "Polimerlərin kimyəvi modifikasityası" mövzusunda monoqrafiyası çap edilmişdir.

Müdafiə Nazirliyinin Elmi-Tədqiqat Mərkəzində yüksək möhkəmliyə və istiliyə davamlı polimer materialların işlənib hazırlanması və onların əsasında xüsusi təyinatlı polimer məmulatların alınması istiqamətində Dövlət əhəmiyyətli geniş elmi tədqiqat işləri aparmışdır.

2007-ci ildə N.T.Qəhrəmanov AAK tərəfindən "Yüksəkmolekullu birləşmələr kimyası" ixtisası üzrə professor adına layıq görülür. Neft-Kimya Prosesləri İnstitutunda Nəcəf Qəhrəmanovun rəhbərliyi ilə aparılan tədqiqat işləri stirol polimerlərin sintezinə yönəlmişdir.

Nəcəf Qəhrəmanov 2014-ci ildən AMEA-nın Polimer Materialları İnstitutunda laboratoriya rəhbəri vəzifəsində çalışır. Onun rəhbərliyi ilə laboratoriyanın elmi-istiqaməti əsaslı genişlənib və sənayenin müxtəlif sahələrində tətbiq etmək üçün yüksək keyfiyyətə malik polimer kompozisiya materialların alınmasına və tətqiqinə yönəlmişdir. Rəhbərlik etdiyi laboratoriya Rusiyanın D.İ.Mendeleyev adına Kimya-Texnologiya Universiteti və Belarusiya Milli Elmlər Akademiyasının Metal-Polimer Sistemləri İnstitutu ilə birgə nanoquruluşlu polimerlərin alınması, emalı, tətqiqi və tətbiqi istiqamətində geniş elmi-tədqiqat işləri aparır.

Professor Nəcəf Qəhrəmanov 380-ə yaxın elmi əsərin, o cümlədən 3 monoqrafiyanın, 47 patent və müəlliflik şəhadətnaməsinin müəllifidir. Onun 77 elmi əsəri xaricdə dərc olunmuşdur. Elmi rəhbərliyi ilə 1 elmlər doktoru və 9 elmlər namizədi dissertasiyalarını uğurla müdafiə etmişlər

Nəcəf Qəhrəmanov 2015-2018-ci illər ərzində Polimer Materialları İnstitutunun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü və Seminarın sədri olmuşdur.

Ədəbiyyat:

Yüksək mexaniki və triboloji xassəyə malik polimer kompozit materiallar /G. Ş. Qasımova, N. T. Qəhrəmanov; tərt. ed. A. L. Tağıyeva; baş red. B. Ə. Məmmədov; [dizayner A. Fərzəliyeva].Sumqayıt: [Azəri Poliqrafiya], 2022. - 239, [1] s.

Polietilen əsasında odadavamlı kompozit materialların alınması, tədqiqi və emalı / F. Ə. Mustafayeva, N. T. Qəhrəmanov; elmi red. B. Ə. Məmmədov. - Bakı: [ADNSU], 2023. - 344, [1] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/N%C9%99c%C9%99f_Q%C9%99hr%C9%99manov

https://science.gov.az/az/institutes/90

Nəsibə Hüseynova – 100

(1926-2025)

Həkim



Nəsibə Ağa İsmayıl qızı Hüseynova 1926-cı il yanvar ayının 25-də Bakıda anadan olmuşdur.

O, 1943-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutuna (indiki ATU) daxil olmuş, 1948-ci ildə Moskvadakı N.İ. Piroqov adına II Tibb İnstitutunu bitirmişdir.

Nəsibə Hüseynova 1948-ci ildən Azərbaycan Dövlət Tibb İnstitutunun uşaq xəstəliklərinin propedevtikası kafedrasının kliniki ordinatoru vəzifəsində çalışmışdır. 1950-1951-ci illərdə Laçın şəhərindəki qadın və uşaq məsləhətxanasının müdiri, 1955-1959-cu illərdə Ana və Uşaqların Mühafizəsi Elmi-Tədqiqat İnstitutunda baş elmi işçi, şöbə müdiri vəzifəsində çalışmışdır.

1959-cu ildən Azərbaycan Dövlət Tibb İnstitutunun Hospital pediatriya kafedrasının dosenti olmuş, 1969-cu ildə tibb elmləri doktoru alimlik dərəcəsi almışdır. 1970-ci ildən isə həmin kafedranın professoru olmuşdur.

1959-1961-ci illərdə İraqda həkim işləmiş, 1971-1976-cı illərdə Bakı şəhərində baş pediatr, 1976-cı ildə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş uşaq qastroenteroloqu olmuşdur.

Nəsibə Hüseynova əsasən uşaqların qidalanması məsələlərinə dair tədqiqatlar aparmışdır. 300-dən artıq elmi məqalənin və metodiki tövsiyələrin müəllifidir. Elmi rəhbər kimi 6 tibb elmləri namizədi hazırlayan Nəsibə Hüseynova 2013-cü ildə "Uşaq qastroenterologiya" dərsliyini, 2014-cü ildə isə "Pediatriyada diyetoterapiya" dərs vəsaitini çap etdirmişdir.

1970-1992-ci illərdə ATİ-nin müalicə-profilaktika fakültəsinin Uşaq xəstəlikləri kafedrasının müdiri, 1992-ci ildən həmin kafedranın professoru vəzifəsində və 2022-ci il 22 sentyabr tarixinədək məsləhətçi professor vəzifəsində çalışmışdır. Nəsibə Hüseynova Azərbaycan Pediatrlar Assosiasiyasının sədri və Türkdilli Ölkələrin Pediatrlar Cəmiyyətinin ilk prezidenti olmuşdur.

Professor Nəsibə Hüseynova 1984-cü ildə "Səhiyyə əlaçısı" nişanı ilə, 1986-cı ildə "Əmək veteranı" medalı ilə təltif olunmuş, 1990-cı ildə Azərbaycanın "Əməkdar həkim" fəxri adına layiq görülmüş, 2010-cu il 20 sentyabr tarixində Azərbaycanda tibb təhsilinin və elminin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Nəsibə Ağa İsmayıl qızı Hüseynova 25 iyun 2025-ci ildə vəfat etmişdir.

Ədəbiyyat:

Hüseynova Nəsibə Ağa İsmayıl qızı // Azərbaycan qadını ensiklopediyası /Red. hey. R.Mehdiyev [və b.]; baş red. İ.Vəliyev; [müəl. X.Abbasov [və b.]. - Bakı, 2002. - S. 182.

İnternetdə:

https://az.wikipedia.org/wiki/N%C9%99sib%C9%99_H%C3%BCseynova

Validə Əlizadə - 80

(1946)

Akademik



Validə Mövsüm qızı Əlizadə 1946-cı il yanvar ayının 31-də Bakıda anadan olmuşdur.

O, 1968-ci ildə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsini bitirmişdir. 1974-cü ildə namizədlik, 1994-cü ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 2014-cü ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə AMEA-nın həqiqi üzvü seçilmişdir.

Validə Əlizadə 1971-1973-cü illərdə Azərbaycan EA Botanika İnstitutunda baş laborant, 1973-1980-ci illərdə kiçik elmi işçi, 1980-1994-cü illərdə böyük elmi işçi, 1994-1995-ci illərdə aparıcı elmi işçi kimi fəaliyyət göstərmişdir. 1980-ci ildə Ali Attestasiya Komissiyası tərəfindən baş elmi işçi, 2012-ci ildə professor elmi adlarına layiq görülmüşdür. 1996-2011-ci illərdə AMEA Botanika İnstitutunun elmi işlər üzrə direktor müavini, 2011-2021-ci illərdə həmin İnstitutun direktoru vəzifəsində çalışmışdır.

O, "Qafqazın endem bitkilərinin Qırmızı Siyahısı" sistematik monoqrafiyanın (ABŞ, 2014), "Qafqazın etnobotanikası" ensiklopediyasının (2017), "Böyük Qafqazın bitkiləri" (2018) fundamental əsərlərin həmmüəllifidir. Validə Əlizadə bir sıra mühüm beynəlxalq layihələrin Azərbaycan üzrə koordinatoru və iştirakçısı olub, inkişaf etmiş Qərb ölkələrinin Qafqaz üzrə bioloji müxtəlifliyin mühafizəsinə yönədilmiş geniş proqramlara rəhbərlik edir.

Professor Validə Əlizadə 1994-cü ildən "AMEA-nın Xəbərləri" jurnalının biologiya və tibb elmləri seriyası redaksiya heyətinin üzvüdür. Eyni zamanda "Botanika İnstitutunun Əsərləri" jurnalının yeni adla nəşr olunan "Plant and Fungi Research" ("Bitki və göbələk tədqiqatları") jurnalının baş redaktoru qismində fəaliyyət göstərir. 2010-cu ildən hazırkı vaxtadək Botanika İnstitutunun Elmi Şurasının sədri və AMEA-nın Biologiya və Tibb Elmləri Bolməsinin üzvüdür. 1994-cü ildən Botanika İnstitutu nəzdində fəaliyyət göstərən Doktorluq Dissertasiya Müdafiə Şurasının üzvü, 2010-cu ildən hal-hazıra qədər sədridir. Həmçinin 1997-2002-ci illərdə o, Azərbaycan Respublikası Prezidenti yanında Ali Atestasiya Komissiyasının Ekspert Şurasının üzvü olmuşdur. 1996-cı ildən Azərbaycan və Rusiya Botanika və Bitki fizioloqları Cəmiyyətlərinin, 2002-ci ildən Avropa Bitki fizioloqları Cəmiyyətinin üzvü, 2009-cu ildən YUNESKO-nun Azərbaycan Milli Komitəsinin bioetika, etika və elmi bilik və texnologiya üzrə üzvüdür, 2019-cu ildə isə Azərbaycan Botaniklər Cəmiyyəti (ABC) İctimai Birliyinin ilk ümumi yığıncağında ABC-nin prezidenti seçilmişdir.

Validə Mövsüm qızı Əlizadə 1993-cü ildə uğurlu elmi-pedaqoji və ictimai-təşkilati fəaliyyətlərinə görə Beynəlxalq Elm Fondunun mükafatı, 2005, 2011, 2016-cı illərdə AMEA Rəyasət Heyətinin Fəxri Fərmanları və Bakı Dövlət Universitetinin "100 illik yubiley medalı" ilə təltif edilmişdir. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə 2015-ci ildə "Şöhrət" ordeninə layiq görülmüşdür.

Validə Əlizadənin çapdan çıxmış 230 elmi məqaləsindən 152-si xaricdə nəşr olunmuşdur. 6 fəlsəfə doktoru, 1 elmlər doktoru yetişdirmişdir.

Ədəbiyyat:

Böyük Qafqazın bitkiləri : Azərbaycan Bakı: Red N Line, 2019.- 351,[1] s.

Botanika institutunun keçdiyi tarixi yol /V.Əlizadə //Respublika .-2014.- 22 iyun.- S.3.

Çoxsaylı tədqiqatları ilə biologiya elminə töhfə verən alim : Validə Tutayuq-100 /V.Əlizadə; E.Novruzov //Azərbaycan .-2014.- 3 oktyabr.- S.14.

Azərbaycan təbiəti çox zəngindir /V. Əlizadə .-2011.- 3 iyun.- S. 20-21.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Valid%C9%99_%C6%8Flizad%C9%99

http://www.anl.az/down/meqale/azerbaycan/2014/oktyabr/394282.htm

Yeni il



Yeni il bayramı ilin sonuncu günündən növbəti təqvim ilinə keçid ilə əlaqədar keçirilən bir bayramdır. Bu günü bayram etməklə insanlar belə hesab edirlər ki, bütün uğursuzluq və kədərli anlar köhnə ildə qalır, yeni il yeni arzular və ümidlər gətirir. Bu bayramın yaranmasının ən azı 25 əsrlik tarixi var. Bəzi fərziyyələrə görə, Yeni ili ilk dəfə qədim çinlilər qeyd ediblər. Digər mənbələrdə bu bayram qədim german və romalılarla bağlanılır. Başqa bir mənbəyə görə isə Yeni ili bayramla qarşılamaq ənənəsinin əsası eramızdan əvvəl üçüncü minillikdə Mesopotamiyada qoyulmuşdur.

Hər bir xalq yeni il üçün tarixi və ya mifik hadisə ilə bağlı öz tarixi günlərindən istifadə edib. Eramızdan əvvəl misirlilər hər bir sülalənin hakimiyyətə gəlməsini ilin başlanğıcı hesab ediblər. Qədim Romada Günəş Tanrısı Mitranın doğum günü kimi qeyd edilən yanvarın 1-i İşığın Qaranlıq üzərində qələbəsi günü kimi səciyyələndirilir. Başqa bir mənbədə romalılar bu günə Yanus allahının adını veriblər. Bizim istifadə etdiyimiz təqvim miladi təqvim adlanır. Bu təqvimə əsasən yeni il yanvarın 1-dən başlanır.

Yeni ilin əsas atributları Şaxta baba və Qar qızı hesab olunur. Yeni il bayramını al-əlvan, bərli-bəzəkli şam ağaclarısız təsəvvür etmək qeyri mümkündür. Çoxları şam ağacları bəzəmək ənənəsini də xristian dini ilə əlaqələndirir. Miladdan çox-çox əvvəl qədim Misirin sakinləri dekabrın ən qısa günlərində yaşıl palma ağaclarını evlərinə gətirirmişlər. Bu, həyatın ölüm üzərində qələbəsinin rəmzi sayılırmış, küknar ağacları rəngli kağızlar, meyvələr və şirniyyatlarla bəzədilirmiş. Yer üzündə ilk olaraq Yeni ili Fici arxipelaqının 160 adasının sakinləri qarşılayır.

Dekabrın 31-i gecəsi insanlar bayram süfrəsi ətrafında toplaşırlar. Artıq həmişəlik vidalaşdıqları ilin son anlarında musiqini dayandıraraq sükut içərisində saat 12.00-u gözləyirlər. Yeni il Yer kürəsinin bütün guşələrin də dini etiqadlarından asılı olmayaraq müxtəlif xalqlar tərəfindən geniş qeyd olunan ən məşhur bayramlardandır. Dünyanın hər yerində bütün insanlar Yeni ili eyni ümidlərlə - xoş möcüzələr, yeni uğurlar, xoşbəxtlik arzusuyla gözləsələr də, bayramı hərə öz adət-ənənəsinə uyğun qarşılayır.

1991-ci ildən Azərbaycanda dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəylik günü kimi qeyd olunduğundan Yeni il bayramı azərbaycanlılar üçün ikiqat bayramdır.

Ədəbiyyat:

Biz düzgün yolla irəliyə gedirik: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti /İ.Əliyev //Azərbaycan .-2025.- 7 yanvar (№1).- S.2.

Azərbaycanda sabitlik hökm sürür, xalqımız təhlükəsiz şəraitdə yaşayır: Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti //Xalq qəzeti .-2025.- 7 yanvar (№ 01). - S.1;2.

Mustafayev, O. Dünya xalqlarının yeni il ənənələri / O.Mustafayev // Azərbaycan müəllimi.- 2012.- 28 dekabr.- S.12.

İnternetdə:

http://www.anl.az/down/meqale/azerbaycan/2025/yanvar/929455(meqale).pdf

http://www.anl.az/down/meqale/xalqqazeti/2025/yanvar/929611(meqale).pdf

Qarabağ Dirçəliş Fondu *(2021)*

Azərbaycan Respublikasının tarixi Zəfərindən sonra işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması dövlət siyasətinin əsas prioritetlərindən birinə çevrilmişdir. Bu strateji məqsədlərin sistemli və səmərəli şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 yanvar tarixli Fərmanı ilə Qarabağ Dirçəliş Fondu yaradılmışdır. Fondun əsas missiyası Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı bərpa, yenidənqurma və inkişaf proseslərinə ictimai dəstəyin təşkil olunmasıdır.

Qarabağ Dirçəliş Fondu fəaliyyətini şəffaflıq, hesabatlılıq və milli maraqlara xidmət prinsipləri əsasında qurur. Fondun əsas məqsədləri sırasında dağıdılmış infrastrukturun bərpasına töhfə vermək, sosial layihələrin icrasını dəstəkləmək, mədəni-tarixi irsin qorunması və yenidən dirçəldilməsi, ekoloji tarazlığın bərpası, həmçinin azad edilmiş ərazilərə Böyük Qayıdış prosesinin sürətləndirilməsi mühüm yer tutur.

Fondun fəaliyyətinin fərqləndirici cəhətlərindən biri onun ictimai həmrəyliyə əsaslanmasıdır. Qarabağ Dirçəliş Fondu dövlət, özəl sektor, vətəndaş cəmiyyəti və diaspor təşkilatları arasında körpü rolunu oynayaraq, hər kəsə Qarabağın dirçəlişinə töhfə vermək imkanı yaradır. Fond vasitəsilə fiziki və hüquqi şəxslərin ianələri, korporativ sosial məsuliyyət layihələri və beynəlxalq əməkdaşlıq mexanizmləri cəlb olunur.

Qarabağ Dirçəliş Fondu yalnız maddi bərpa ilə kifayətlənmir, eyni zamanda mənəvi və ideoloji dirçəlişi də prioritet hesab edir. İşğal dövründə dağıdılmış məscidlərin, tarixi abidələrin, təhsil və mədəniyyət ocaqlarının bərpası xalqın milli kimliyinin və tarixi yaddaşının qorunmasına xidmət edir. Bu baxımdan Fondun fəaliyyəti təkcə bugünü deyil, gələcək nəsillərin rifahını da hədəfləyir.

Nəticə etibarilə, Qarabağ Dirçəliş Fondu müasir Azərbaycanın inkişaf strategiyasında mühüm yer tutan, milli birlik və məsuliyyət nümunəsi olan bir qurumdur. Fondun fəaliyyəti Qarabağın qısa müddətdə abad, yaşanılası və dayanıqlı bir regiona çevrilməsinə xidmət edir və Azərbaycanın gücünü, iradəsini və gələcəyə olan inamını aydın şəkildə nümayiş etdirir.

Ədəbiyyat:

Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 4 yanvar 2021-ci il // Azərbaycan.-2021.- 6 yanvar.- S.4.

Qarabağ Dirçəliş Fondunun fəaliyyətinin təmin edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri 19 yanvar 2021-ci il // Azərbaycan.-2021.- 20 yanvar.- S.2.


Sarıyeva, İ. Qarabağ Dirçəliş Fondu Böyük Qayıdış üçün nə edib? / İradə Sarıyeva // Bakı Xəbər.-2022.- 18-20 iyun.- S.10.

Kamalqızı, R. Qarabağın tarixi qayıdışı: "Qarabağ Dirçəliş Fondu"nun yaradılması bu reallığın təstiqidir / Rəfiqə Kamalqızı // Səs.-2021.- 30 yanvar.- S.6.

Muradlı, A. Qarabağ Dirçəliş Fondu azad edilmiş əraziləri yüksək rifaha malik regiona çevirəcək / Arzuman Muradlı // Xalq qəzeti .-2021.- 26 yanvar.- S.8.

Digər tarixi hadisələr

Azərbaycan İstiqlal Muzeyi - 35 *(1991)*



Azərbaycan İstiqlal Muzeyi — Azərbaycan xalqının milli-azadlıq hərəkatını əks etdirən eksponatların saxlandığı muzeydir. Muzey Mərkəzində yerləşir. Azərbaycan İstiqlal Muzeyi 1991-ci il yanvarın 9-da yaradılıb. O vaxt muzeyin cəmi 7000 eksponatı olub. Hazırda bu göstərici 22000 eksponatdan artıqdır. Muzeyin ekspozisiyası 6 zalda nümayiş etdirilir: Azərbaycan İstiqlal Muzeyində rəsm və heykəltaraşlıq əsərləri, xəritələr, şəkillər, kitablar, pul əskinasları və başqa eksponatlar nümayiş etdirilir. Muzeyin ekspozisiyasında müxtəlif tarixi hadisılırı aid maraqlı tematik sərgilər və tədbirlər keçirilir.

Bu muzeyin tarixi daha uzaq dövrə – 1919-cu ilə gedib çıxır. Çünki Azərbaycanın ilk dövlət muzeyi də məhz İstiqlal Muzeyi olub. 1919-cu il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin qurulşunun birinci ildönümü münasibətilə elə parlamentin binasında təşkil olunan İstiqlal Muzeyi cəmisi bir neçə ay fəaliyyət göstərmişdi. 1920-ci ilin 28 aprelində Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra muzey fəaliyyətini dayandırdı. Muzey öz fəaliyyətini 71 il sonra müstəqilliyimizlə birlikdə bərpa etdi. Beləliklə, 1991-ci il yanvarın 9-da İstiqlal Muzeyi yaradıldı. 1919-cu ildə yaradılan muzeydən heç bir eksponat qalmasa da, yenidən fəaliyyətə başlayan muzey "İstiqlal" adını alaraq, birinci muzeyin mənəvi varisi oldu.

Muzey 6 zaldan ibarətdir. 1-ci zalda Azərbaycanın dövlət rəmzləri – ölkəmizin üçrəngli bayrağı, Dövlət Gerbi, Dövlət himni və Dövlət Konstitusiyasını əks etdirən sənədlər nümayiş olunur. Bu zalda XVIII əsrin ikinci yarısında Azərbaycanın xanlıqlara bölünməsinə, Vətənimizin işğalı uğrunda Rusiya ilə İran arasında gedən müharibələrə (1804-1828), Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinin bağlanmasına dair materiallar da yer alıb. 2-ci zal XIX əsrin ikinci yarısından XX əsrin əvvəlinədək olan dövrü əhatə edir. Muzeyin 3-cü zalında Cənubi Azərbaycanda baş vermiş milli-azadlıq hərəkatlarından – 1905-1911-ci illər Məşrutə hərəkatı, 1917-1920-ci illər Şeyx Məhəmməd Xiyabani hərəkatı, 1941-1945-ci illərdəki "21 Azər" hərəkatından (Seyid Cəfər Pişəvərinin başçılığı ilə) danışılır. 4-cü ekspozisiya zalı iki hissədən ibarətdir. Birinci hissəsi ötən əsrin 20-30-cu illərində Azərbaycanda repressiyaya məruz qalan görkəmli şəxsiyyətlər haqqında məlumat verir. Zalın digər bölməsi isə II Dünya müharibəsində (1939-1945) ölkəmizin qəhrəman oğul və qızlarının ön və arxa cəbhədə göstərdiyi şücaəti əks etdirir. Burada nümayiş olunan silah, partladılmış mərmi, çap maşını, Morze teleqraf aparatı, səhra telefonu xüsusi maraq doğurur. 5-ci zal Qarabağ hadisələrinə həsr olunub.

1993-cü il iyunun 15-də Heydər Əliyev Bakıya dəvət olunur və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil olub. Bu tarixdən başlayaraq ölkəmizin keçdiyi inkişaf yolu haqqında məlumatı muzeyin ziyarətçilərinə 6-cı zalda geniş məlumat verilir. Burada müstəqil Azərbaycanın dövlət və ordu quruculuğunu, xarici siyasətini, iqtisadiyyatını, Azərbaycanın tarixi üçün çox əhəmiyyətli olan "Əsrin müqaviləsi"-nin (1994) bağlanması, ölkəmizin mədəniyyətini, beynəlxalq təşkilatlarda iştirakını əks etdirən fotoxronika nümayiş olunmaqla yanaşı, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan prezident İlham Əliyevin fəaliyyətini əks etdirən materiallar diqqəti cəlb edir. Ekspozisiyada Xalq rəssamı Altay Hacıyevin "Cavad xan", rəssam-heykəltaraş Sabir Çopurovun neftdən istifadə edərək əl ilə çəkdiyi "Qarabağ", Əzim Əzimzadənin II Dünya müharibəsinə həsr olunmuş rəsm əsərləri, keramist-rəssam Məzahir Əfşarın "Dədə Qorqud" maketi və digər eksponatlar nümayiş olunur.

Ədəbiyyat:

Dünyadakı altı istiqlal muzeyindən birincisi // Hərbi And.-2025.- 18 aprel(№13).-S.15.

Əfəndiyev, P. İstiqlal Muzeyi milli məfkurə saxlancıdır: Burada hər bir sənəd və eksponat dövlətçilik yolumuza mənəvi işıq salır / Pünhan Əfəndiyev // Xalq qəzeti.-2025.- 28 may (№110).- S.15.


Əli bəy Hüseynzadənin Azərbaycan İstiqlal Muzeyində qorunan irsi: [kitab-albom] /Azərb. Resp. Mədəniyyət Nazirliyi, Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondu (MİMTA) (layihənin rəhb.), Azərb. İstiqlal Muzeyi ; elmi red. heyəti: G. Məmmədova (ing. dilinə tərc ed.) [və b.] ; ing. dilinə tərc ed.: M. Yunusov ; red.: A. Əziz, Ü. Rəhman, F. Qədimova; [ön söz S. Mirseyibli] ; dizayn və tərtibat M. Əziz. - Bakı: [Nurlar], 2022.- 254, [2] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_%C4%B0stiqlal_Muzeyi

https://www.museumcenter.az/az/pages/museum_of_azerbaijani_independence

Dünya Qoruqları və Milli Parklar Günü *(1997)*



11 yanvar Dünya Qoruqlar və Milli Parklar Günü kimi qeyd olunur. 1917-ci il yanvarın 11-də dünyada ilk dəfə Rusiyada nadir heyvanların qorunması məqsədilə Baykal gölü üzərində Barquzin Dövlət Qoruğu yaradılıb. Həmin təqvim Dünya Vəhşi Təbiət Fondunun təşəbbüsü ilə 1997-ci ildən etibarən qeyd olunur.

Qoruqların yaradılmasında əsas məqsəd sayı azalmaqda olan bitki və heyvan növlərini qorumaqdır. Qoruğun başqa forması isə Milli Parkdır. Milli Parkda ayrı-ayrı növlər yox, bütün təbiət qorunur.

Dünyada yaradılan ilk milli park isə Yellouston milli parkıdır. Bu park Şimali Amerikadadır. Burada min hektar iynə-yarpaqlı meşə qorunur.

Azərbaycanda da ölkənin nadir təbiətinin qorunması məsələlərinə böyük diqqət yetirilir. Ölkəmizdə 10 Milli Park, 11 Dövlət Təbiət Qoruğu və 24 Dövlət Təbiət Yasaqlığı fəaliyyət göstərir. Azərbaycanda ilk qoruq 1925-ci ildə yaradılmış Göygöl Dövlət Təbiət Qoruğudur.

Milli Parklar xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, elmi tədqiqat statusuna malik olan ərazilərdir. Azərbaycanda Milli Park və Qoruqlar ölkə ərazisinin 10,3 faizini təşkil edir.

Bununla yanaşı Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən yeni, xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması istiqamətində işlər davam etdirilir. Digər tərəfdən mövcud qoruqların əraziləri də genişləndirilir. Ümumiyyətlə isə bu qoruqlar, sayı azalmaqda olan bitki və heyvan növlərini qorumağa hesablanıb. Qoruqlar həm də elmi əhəmiyyət daşıyır. Burda alimlər bitki və heyvanlar üzərində müşahidə aparır, nəsli kəsilməkdə olan növlərin sayını artırmaq üçün yollar axtarırlar.

44 gün davam edən Vətən müharibəsində Rəşadətli Ordumuz möhtəşəm Qələbə qazandı. 30 ilə yaxın bir müddətdə işğalda olan torpaqlarımız erməni tapdağından azad olundu. Ermənilər bu illər ərzində həmin torpaqlarda vandalizm aktları törədib, bütün tarixi abidələri, məscidləri, yaşayış binalarının, evlərin əksəriyyətini dağıdıb, meşələri kəsib, qırıb, yandırıblar. Təəssüf ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində həmin torpaqlarda olan böyük əhəmiyyətə malik xüsusi mühafizə olunan təbiət ərazilərində - Bəsitçay və Qaragöl dövlət təbiət qoruqları, Arazboyu, Laçın, Qubadlı və Daşaltı dövlət təbiət yasaqlıqlarının ərazilərində olan qiymətli ağac və digər nadir biomüxtəliflik nümunələri işğalçı ordunun tapdağına məruz qalaraq məhv edilib.

Ədəbiyyat:

Milli parklar, qoruqlar, yasaqlıqlar - canlıların son sığınacağı [Mətn] : 11 yanvar - Dünya Qoruqlar və Milli Parklar Günüdür /Cavid //Xalq Cəbhəsi .-2025.- 9 yanvar(№1).- S.9.

Qoruqlar və Milli Parklar [Mətn] /M.Məmmədova //Səs .-2025.- 11 yanvar (№5).- S.7.

Gələcəyə qoyulan sərmayə... [Mətn] : Dünya Qoruqlar və Milli Parklar Günüdür /Y.Bayramova //Yeni Azərbaycan .-2025.- 11 yanvar (№5).- S.8.

İnternetdə:

http://www.anl.az/down/meqale/xalqcebhesi/2025/yanvar/930120.htm

http://www.anl.az/down/meqale/ses/2025/yanvar/930285(meqale).pdf

http://www.anl.az/down/meqale/yeni_az/2025/yanvar/930224(meqale).pdf

Digər tarixi hadisələr

Ümumxalq hüzn günü *(1990)*



1990-cı il yanvar ayının 20-si Azərbaycan xalqının tarixinə ən faciəli günlərdən biri kimi daxil olmuşdur. 36 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar.

Bədnam M.Qorbaçov başda olmaqla, SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar hərəkətlərinin açıq-aşkar dəstəklənməsinə və o zamankı respublika rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxarmışdı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələnmişdi. Nəticədə 170 nəfər həlak olmuş, 400-ə yaxın insan yaralanmışdı. Bunların arasında gənclər, uşaqlar, qocalar, qadınlar hətta hərbi qulluqçular da var idi.

Buna baxmayaraq, Azərbaycanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin əksinə olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etmiş, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırmışdı. Bununla da Ulu Öndərimiz cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etmişdir.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilmişdir və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırılmışdı. 20 Yanvar Ümumxalq hüzn günü elan edilmişdir.

Bakının ən uca nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. Bu, 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanıdır. Hər il yanvar ayının 20-də minlərlə insan vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad etmək üçün buranı ziyarət edirlər. Nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır.

Ədəbiyyat:

Azərbaycan Prezidenti 20 Yanvar faciəsi ilə bağlı paylaşım edib //Azərbaycan .-2025.- 22 yanvar (№ 13).- S.3.

Milli Kitabxanada 20 Yanvar faciəsi qurbanlarının xatirəsi anılıb //Azərbaycan .-2025.- 18 yanvar (№ 11).- S.10.

20 Yanvar faciəsi dünya mətbuatında //Azərbaycan .-2025.- 22 yanvar (№ 13).- S.13.

Xankəndidə 20 Yanvar faciəsi qurbanları anılıb //Azərbaycan .-2025.- 18 yanvar (№ 11).- S.10.

İnternetdə:

http://www.anl.az/down/meqale/azerbaycan/2025/yanvar/931266(meqale).pdf

http://www.anl.az/down/meqale/azerbaycan/2025/yanvar/931984(meqale).pdf

http://www.anl.az/down/meqale/azerbaycan/2025/yanvar/931345(meqale).pdf

http://www.anl.az/down/meqale/azerbaycan/2025/yanvar/931996(meqale).pdf

FEVRAL

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	20	21	22
23	24	25	26	27	28	

- *Gənclər günü (02.02.1997)*
- *Azərbaycan Hərbi Hava Qüvvələri Günü (14.02.1992)*
- *Azərbaycan Respublikası İqtisadi Əməkdaşlıq təşkilatına üzvlüyə qəbul olunmuşdur (16.02.1992)*
- *Beynəlxalq Ana Dili Günü (21.02.1999)*
- *Xocalı soyqırımı günü (26.02.1992)*

21 yanvar - 18 fevral Dolça - nişanı havadır. Saturn və Uranın himayəsindədir. Günəşin Dolça bürcündən keçdiyi dövrdə doğulanlar xaraktercə emosional, təbiətcə həssas olurlar

Birinci Türkoloji Qurultay



Birinci Türkoloji Qurultay 1926-cı il 26 fevral-5 mart tarixində Bakı şəhərində İsmailiyyə Sarayında (indiki AMEA Rəyasət Heyətinin binası) keçirilmişdir. Qurultayda 131 nəfər nümayəndə iştirak etmiş, 17 iclas keçirilmiş, türklərin, bütövlükdə Türk Dünyasının dili və tarixinə, etnogenezisi və etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə dair 38 məruzə dinlənilmişdi. İclasa Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səməd ağa Ağamalıoğlu sədrlik etmişdir.

Birinci Türkoloji Qurultay ortaq zəngin keçmişə və qədim irsə malik türk xalqlarının mədəni inteqrasiyasında mərhələ yaratmış müstəsna əhəmiyyətli hadisələrdəndir. Beynəlxalq miqyaslı bu unikal elmi forumda türkologiyanın ən aktual məsələləri geniş və sistemli müzakirə obyektinə çevrilmiş, türk dünyasının dili, tarixi, etnoqrafiyası, ədəbiyyatı və mədəniyyətinin gələcəyi ilə bağlı vacib qərarlar qəbul edilmiş, latın qrafikası əsasında vahid ümumtürk əlifbasına keçilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır.

22 oktyabr 2025-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır.

FEVRAL 2026



Milli ədəbiyyat

Şair Yusifzadə Əbdülbaqi Yusif oğlunun (Fövzi) (12.02.1901-07.01.1956) anadan olmasının 125 illiyi
Xalq şairi, əməkdar incəsənət xadimi, filologiya elmləri namizədi Həsənzadə Nəriman Əliməmməd oğlunun (18.02.1931) anadan olmasının 95 illiyi.....98
Əməkdar incəsənət xadimi, tərcüməçi, tənqidçi, ssenarist İbrahimov İshaq İbrahim oğlunun (21.02.1921-05.06.1987) anadan olmasının 105 illiyi 99
Əməkdar incəsənət xadimi, yazıçı, müəllim, tərcüməçi Talıbzadə Abdulla Axund Mustafa oğlunun (Abdulla Şaiq) (24.02.1881-24.07.1959) anadan olmasının 145 illiyi.....100
Uşaq ədəbiyyatı yazarı Amanova Solmaz Bayramqulu qızının (24.02.1956) anadan olmasının 70 illiyi 101
Xalq yazıçısı, nasir Vəliyev Əli Qara oğlunun (27.02.1901-02.02.1983) anadan olmasının 125 illiyi 102



Dünya ədəbiyyatı

Qazax şairi, yazıçı, tərcüməçi Maqatayev Müqağalinin (Məhəmmədəli) (09.02.1931-27.03.1976) anadan olmasının 95 illiyi
Özbək şairi, mütəfəkkiri və dövlət xadimi Nəvai Nizaməddin Mirəlişir oğlunun (Əlişir Nəvai) (09.02.1441- 03.01.1501) anadan olmasının 585 illiyi 103
Tatar şairi Cəlilov Musa Mustafa oğlunun (Musa Cəlil) (15.02.1906-25.08.1944) anadan olmasının 120 illiyi.....104
Rus yazıçısı Leskov Nikolay Semyonoviçin (16.02.1831-05.03.1895) anadan olmasının 195 illiyi
Qazax yazıçısı Zhambyl Zhabaev (28.02.1846-22.06.1945) anadan olmasının 180 illiyi



Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Əliyev Elçin Firdovsi oğlunun (04.02.1961) anadan olmasının 65 illiyi
Xalq rəssamı, əməkdar incəsənət xadimi İbrahimov Ağaəli Müsəllim oğlunun (06.02.1946) anadan olmasının 80 illiyi 105
Rus mənzərə rəssamı, realist mənzərə janrının banilərindən biri Şedrin Silvestr Feodosiyeviçin (13.02.1791-08.11.1830) anadan olmasının 235 illiyi
Əməkdar rəssam Ələkbərov Fikrət Ağazeynal oğlunun (18.02.1946) anadan olmasının 80 illiyi.....106
Xalq rəssamı Heybətov Əşrəf Nəzir oğlunun (18.02.1951) anadan olmasının 75 illiyi.....107
Xalq rəssamı, Əməkdar incəsənət xadimi, boyakar Mirzəzadə Böyükağa Məşədi oğlunun (21.02.1921-03.11.2007) anadan olmasının 105 illiyi.....108

Xalq rəssamı, Əməkdar incəsənət xadimi Sadıqzadə Oqtay Seyid Hüseyn oğlunun (21/24.02.1921-20.12.2014) anadan olmasının 105 illiyi 109



Musiqi. Opera. Balet

Əməkdar incəsənət xadimi, Naxçıvan MR-nın Əməkdar mədəniyyət işçisi, bəstəkar Məmmədov Rəşid Rza oğlunun (02.02.1936-20.06.2006) anadan olmasının 90 illiyi 110
Xalq artisti, instrumental ifaçı (trombonçu) Astaxin Vitali Vladimiroviçin (02.02.1951) anadan olmasının 75 illiyi
Əməkdar müəllim, sənətşünaslıq üzrə fəlsəfə doktoru, fortepiano və orqan ifaçısı, professor Rimazi Nəzakət Hüseyn qızının (02.02.1961) anadan olmasının 65 illiyi
Əməkdar müəllim, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, bəstəkar Məmmədova Arzu Raiz qızının (03.02.1966) anadan olmasının 60 illiyi
Xalq artisti, Əməkdar incəsənət xadimi, hərbi dirijor və pedaqoq, general-mayor Axundzadə Yusif Yevgenyeviçin (06.02.1946) anadan olmasının 80 illiyi 111
Əməkdar incəsənət xadimi, bəstəkar Quliyev Məmməd Mehdi oğlunun (09.02.1936-02.10.2001) anadan olmasının 90 illiyi 112
Müğənni Qəniyev Anatollu Mirzə Heydər oğlunun (10.02.1931-01.10.1985) anadan olmasının 95 illiyi 113
Xalq artisti, ustad tarzən Mansurov Bəhram Məşədi Süleyman bəy oğlunun (12.02.1911-14.05.1985) anadan olmasının 115 illiyi 114
Xalq artisti, Əməkdar incəsənət xadimi, xor dirijoru, professor İmanova Gülbacı Əliəkbər qızının (13.02.1956) anadan olmasının 70 illiyi 115
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, musiqişünas Dadaşova Natalya Konstantinovnanın (14.02.1956) anadan olmasının 70 illiyi
Əməkdar incəsənət xadimi, bəstəkar Nağıyev Faiq Həbib oğlunun (15.02.1946) anadan olmasının 80 illiyi 116
Əməkdar artist, tarzəni Muradov Məmmədağa Məmmədhəsən oğlunun (19.02.1921-14.11.1969) anadan olmasının 105 illiyi 117
Xalq artisti, xanəndə, professor İsmayılova Səkinə Qulu qızının (24.02.1956) anadan olmasının 70 illiyi 118



Teatr. Kino

Əməkdar artist, aktyor Yaqubov Şıxı Miriş oğlunun (03.02.1951) anadan olmasının 75 illiyi 119
Əməkdar artist, aktyor Məmmədoğlu Əsgər (Ələsgər Məmmədoğlu) (09.02.1946-21.12.2015) anadan olmasının 80 illiyi 120
Xalq artisti, aktyor Qədirov Əliabbas Gülabbas oğlunun (13.02.1946-08.03.2006) anadan olmasının 80 illiyi 121

Əməkdar incəsənət xadimi, kinorejissor Fərəcov Cəmil Əliqulu oğlunun (13.02.1946-01.08.2023) anadan olmasının 80 illiyi 122
Xalq artisti, aktrisa Hüseynova Sofiya Həsən qızının (17.02.1926-30.07.2015) anadan olmasının 100 illiyi 123
Əməkdar incəsənət xadimi, kinorejissoru İsmayılov Həbib Ələkbər oğlunun (21.02.1906-31.12.1966) anadan olmasının 120 illiyi 124
Xalq artisti, rejissor Bədəlbəyli Şəmsi Bədəl oğlunun (23.02.1911-23.05.1987) anadan olmasının 115 illiyi 125



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Kərimov Bəşir Bəylər oğlunun (02.02.1976-17.03.1995) anadan olmasının 50 illiyi 126



İkinci Qarabağ Müharibəsi Şəhidləri

Əsgər Kərimov Eltun Zaur oğlunun (01.02.2001-29.09.2020) anadan olmasının 25 illiyi 127
MAHHXHQ kiçik çavuş Teyyublu Çərkəz Vidadi oğlunun (01.02.1996-21.10.2020) anadan olmasının 30 illiyi 127
MAHHXHQ əsgər Kərimov Zaur Saleh oğlunun (02.02.1996-26.10.2020) anadan olmasının 30 illiyi 128
Çavuş Muradov Ziyad Muradxan oğlunun (03.02.1991-20.10.2020) anadan olmasının 35 illiyi 128
Əsgər Şirəliyev Kənan Telman oğlunun (03.02.2001-01.11.2020) anadan olmasının 25 illiyi 129
Əsgər Hacıyev Toğrul Siyavşah oğlunun (04.02.1991-25.10.2020) anadan olmasının 35 illiyi 129
Əsgər İmanov Bayrı Mirzə oğlunun (05.02.1996-10.11.2020) anadan olmasının 30 illiyi 130
MAHHXHQ əsgər Məmmədov Elşən Dağıstan oğlunun (06.02.1996 -19.10.2020) anadan olmasının 30 illiyi 130
MAHHXHQ əsgər Həsənov Etibar Ələddin oğlunun (07.02.1991-09.11.2020) anadan olmasının 35 illiyi 131
MAHHXHQ əsgər İsmayılov Elçin Mikayıl oğlunun (07.02.1991-04.11.2020) anadan olmasının 35 illiyi 131
Gizir Abbasov Ceyhun Natiq oğlunun (08.02.1986-28.09.2020) anadan olmasının 40 illiyi 132
Əsgər Ələsgərov Həsrət Vahid oğlunun (08.02.2001-08.10.2020) anadan olmasının 25 illiyi 132
Kapitan İsmayılov Kamran Vaqif oğlunun (09.02.1991-08.10.2020) anadan olmasının 35 illiyi 133
Əsgər Nefesov Murad Ocaqdurdu oğlunun (09.02.2001-07.11.2020) anadan olmasının 25 illiyi 133

Əsgər Əliyev Ramid Kamal oğlunun (09.02.1996-24.10.2020) anadan olmasının 30 illiyi 134
Əsgər Cəfərov Tacir Fariz oğlunun (09.02.2001-28.10.2020) anadan olmasının 25 illiyi 134
Kiçik çavuş Məmmədov Samir Ramiz oğlunun (10.02.1986-12.10.2020) anadan olmasının 40 illiyi 135
MAHHXHQ əsgər Babayev Babaxan Əlövsət oğlunun (10.02.1996-17.10.2020) anadan olmasının 30 illiyi 135
MAHHXHQ əsgər Bayramlı Tural Ədil oğlunun (10.02.1996-09.11.2020) anadan olmasının 30 illiyi 136
MAHHXHQ əsgər Rzayev Ülfət Novruz oğlunun (11.02.2001-05.11.2020) anadan olmasının 25 illiyi 136
Əsgər Seyidzadə Mirhüseyn Miryunis oğlunun (11.02.1991-09.10.2020) anadan olmasının 35 illiyi 137
Əsgər Əliyev Yusif Asif oğlunun (11.02.2001-05.10.2020) anadan olmasının 25 illiyi 137
MAHHXHQ əsgər Alışanlı Amal Seyfəddin oğlunun (11.02.2001-02.10.2020) anadan olmasının 25 illiyi 138
Əsgər Məmmədov Xəyal Xaliq oğlunun (12.02.2001-15.10.2020) anadan olmasının 25 illiyi 138
Əsgər Sadıxov Rahid Vahid oğlunun (13.02.2001-28.09.2020) anadan olmasının 25 illiyi 139
MAHHXHQ əsgər Həbibov Seymur Feyruz oğlunun (13.02.1986-01.10.2020) anadan olmasının 40 illiyi 139
Əsgər Abdullayev Elməddin Telman oğlunun (13.02.2001-30.09.2020) anadan olmasının 25 illiyi 140
Əsgər Babazadə Xaqani Anar oğlunun (13.02.2001-03.11.2020) anadan olmasının 25 illiyi 140
MAHHXHQ baş əsgər Fərəcov Kamran İlqar oğlunun (14.02.1996-24.10.2020) anadan olmasının 30 illiyi 141
Kiçik çavuş Qurbanov Davud Tariyel oğlunun (15.02.1996-03.10.2020) anadan olmasının 30 illiyi 141
Əsgər Sultanlı Elşən Nazim oğlunun (15.02.2001-16.10.2020) anadan olmasının 25 illiyi 142
Kiçik gizir Şıxəliyev Mehti Yalçın oğlunun (16.02.1996-07.11.2020) anadan olmasının 30 illiyi 142
Gizir Cəfərli Orxan Etibar oğlunun (16.02.1996-27.09.2020) anadan olmasının 30 illiyi 143
Əsgər Cəfərov Surxay Cümşüd oğlunun (17.02.1986-08.11.2020) anadan olmasının 40 illiyi 143
Əsgər Orucov Bayram Çərkəz oğlunun (17.02.2001-24.10.2020) anadan olmaşının 25 illiyi 144

FEVRAL 2026

MAHHXHQ əsgər Qəhrəmanov Gülalı Aydın oğlunun (17.02.1986-28.09.2020) anadan olmasının 40 illiyi 144
Əsgər Süleymanov Asim Məhərrəm oğlunun (18.02.2001-04.11.2020) anadan olmasının 25 illiyi 145
Əsgər Nadirov Siyasət Kamil oğlunun (18.02.2001-16.10.2020) anadan olmasının 25 illiyi 145
Əsgər Quluyev Ramil Elşən oğlunun (18.02.1991-09.10.2020) anadan olmasının 35 illiyi 146
Əsgər Quliyev Natiq Ramiz oğlunun (19.02.2001-06.10.2020) anadan olmasının 25 illliyi 146
Əsgər Vəliyev Sadiq Ayaz oğlunun (19.02.2001-03.10.2020) anadan olmasının 25 illiyi 147
Əsgər Rəhimli Baxış İlqar oğlunun (19.02.1996-09.11.2020) anadan olmasının 30 illiyi 147
Əsgər Qasımov Kamran Fazil oğlunun (20.02.2001-27.10.2020) anadan olmasının 25 illiyi 148
Əsgər Soltanlı Şahmar Qinyaz oğlunun (20.02.1996-17.10.2020) anadan olmasının 30 illiyi 148
MAHHXHQ əsgər Şirbəyli Sirus Hamil oğlunun (20.02.1996-07.11.2020) anadan olmasının 30 illiyi 149
MAHHXHQ əsgər Babazadə Mirşəmsi Elşad oğlunun (20.02.1996-30.09.2020) anadan olmasının 30 illiyi 149
Əsgər Həsənov Novruz Cumalı oğlunun (20.02.1996-09.11.2020) anadan olmasının 30 illiyi 150
Əsgər Səmidov İkram Şirvan oğlunun (21.02.1991-09.11.2020) anadan olmasının 35 illiyi 150
Əsgər Balabəyov Ramil Ruslan oğlunun (21.02.2001-01.10.2020) anadan olmasının 25 illiyi 151
Əsgər İsgəndərov Səməndər Vahid oğlunun (23.02.1996-27.10.2020) anadan olmasının 30 illiyi 151
Əsgər İsmayılov Veyis Əflətun oğlunun (23.02.1996-13.10.2020) anadan olmasının 30 illiyi 152
Əsgər Rüstəmzadə Emin Firqət oğlunun (23.02.1991-12.11.2020) anadan olmasının 35 illiyi 152
MAHHXHQ əsgər İsmayılzadə Şövqi Raqub oğlunun (23.02.1996-07.10.2020) anadan olmasının 30 illiyi 152
Əsgər İsayev Alik Şakir oğlunun (23.02.2001-20.10.2020) andan olmasının 25 illiyi 153
Əsgər Şabanov Rüfət Rauf oğlunun (24.02.2001-03.10.2020) anadan olmasının 25 illiyi 154
Əsgər Şixəliyev Ənvər Vadim oğlunun (24.02.2001-29.10.2020) anadan olmasının 25 illiyi 154

Əsgər İsmayılov Elnur Arif oğlunun (24.02.2001-15.10.2020) anadan olmasının 25 illiyi 155
MAHHXHQ əsgər Həsənov Elməddin Elşən oğlunun (25.02.1996-23.10.2020) anadan olmasının 30 illiyi 155
Leytenant Abbasov Teymur Feyruz oğlunun (25.02.1981-12.10.2020) anadan olmasının 45 illiyi 156
Əsgər Dadaşov Orxan Vaqif oğlunun (25.02.1996-25.10.2020) anadan olmasının 30 illiyi 157
Əsgər Əliyev İlkin Bəxtiyar oğlunun (26.02.2001-14.11.2020) anadan olmasının 25 illiyi 157
Əsgər Eyvazlı Məzdək Əli oğlunun (26.02.1996-29.10.2020) anadan olmasının 30 illiyi 158
Əsgər Məmmədov Elvin Mübariz oğlunun (26.02.1996-30.09.2020) anadan olmasının 30 illiyi 158
MAHHXHQ əsgər Daşdəmirov Orxan Rəfail oğlunun (27.02.2001-28.09.2020) anadan olmasının 25 illiyi 159
Əsgər Məmmədov Vacib Zabit oğlunun (27.02.2001-30.09.2020) anadan olmasının 25 illiyi 159
Əsgər Muradov Emin İbrahimağa oğlunun (27.02.1986-20.10.2020) anadan olmasının 40 illiyi 160
Baş gizir Məmmədov Maarif Məmməd oğlunun (28.02.1986-08.10.2020) anadan olmasının 40 illiyi 160
Əsgər Babayev Elvin Əkbər oğlunun (28.02.2001-02.10.2020) anadan olmasının 25 illiyi 161
Əsgər Babazadə Ülfət Qabil oğlunun (28.02.2001-09.11.2020) anadan olmasının 25 illiyi 161



Siyasət. Hərbi iş

Hərbi xadim, general-mayor Kazımov Əli İmran oğlunun (17.02.1956-26.10.2016) anadan olmasının 70 illiyi
Hərbi xadim Şadlinski Abbasqulu bəy Xanbaba bəy oğlunun (24.02.1886-26.02.1930) anadan olmasının 140 illiyi 162



Fəlsəfə

Əslən azərbaycanlı alim filosof, astronom, riyaziyyatçı, tarixçi, maliyyəçi, ilahiyyatçı və hüquqşünas, dövlət xadimi Xacə Nəsirəddin Əbu Cəfər Məhəmməd ibn Məhəmməd ibn Həsən Tusinin (Nəsirəddin Tusi) (17.02.1201- 25.06.1274) anadan olmasının 825 illiyi 163



Tarix

Tarix elmlər doktoru Bağırova İradə Səid qızının (12.02.1956) anadan

olmasının 70 illiyi
AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, arxeoloq Məmmədov Arif Məhəmməd oğlunun (25.02.1961) anadan olmasının 65 illiyi



Mədəniyyət. Maarif. Təhsil

Yazıçı, salnaməçi, jurnalist, tərcüməçi, etnoqraf Hacıbəyli Ceyhun bəy Əbdül-hüseyn oğlunun (03.02.1891-22.10.1962) anadan olmasının 135 illiyi 164
Maarifçi, pedaqoq Cuvarlı Cavad bəy Nəcəf bəy oğlunun (Cavad Cuvarlinski) (15.02.1886-1963) anadan olmasının 140 illiyi 165
Akademik, Əməkdar inşaatçı, Əməkdar elm xadimi, sənətşünaslıq doktoru, professor Salamzadə Əbdülvahab Rəhim oğlunun (16.02.1916-19.08.1983) anadan olmasının 110 illiyi 166
Gürcüstan Milli Elmlər Akademiyasının həqiqi üzvü, filologiya elmləri doktoru, professor, ədəbiyyatşünas alim, jurnalist, şair Məmmədli Şurəddin Bahəddin oğlunun (28.02.1956) anadan olmasının 70 illiyi 167



Coğrafiya. Geologiya

Geologiya-mineralogiya elmləri doktoru, professor Əlizadə Zəkəriyyə Mabud oğlunun (02.02.1936-23.11.2016) anadan olmasının 90 illiyi 168
Akademik, əməkdar elm xadimi, geoloq Əzizbəyov Şamil Əbdürrəhim oğlunun (16.02.1906-14.05.1976) anadan olmasının 120 illiyi.....169



Fizika. Riyaziyyat. Astronomiya

Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor Yaqubov Məmməd Haqverdi oğlunun (02.02.1941) anadan olmasının 85 illiyi 170



Kimya. Biologiya. Tibb

Əməkdar elm xadimi, Əməkdar həkim, professor Musayev Surxay Novruz oğlunun (01.02.1951-29.04.2023) anadan olmasının 75 illiyi
Əməkdar elm xadimi, oftalmoloq, tibb elmləri doktoru, professor Məlik-Aslanova Püstə Süleyman bəy qızının (02.02.1926-2001) anadan olmasının 100 illiyi 171



Texnika. Mühəndis işi

Dünya şöhrətli alim, qeyri-səlis məntiq nəzəriyyəsinin yaradıcısı, professor Ələsgərzadə Lütfəli Rəhim oğlunun (Lütfi Zadə) (04.02.1921- 06.09.2017) anadan olmasının 105 illiyi 172

FEVRAL 2026



Kitabxanaşünaslıq. Biblioqrafiya

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent İsmayılov Nadir İslam oğlunun (05.02.1956) anadan olmasının 70 illiyi 173
Kitabxanaçı Abbasov Abbas Murtuza oğlunun (26.02.1936-23.05.2012) anadan olmasının 90 illiyi



İdman.

Əməkdar idman ustası, dama üzrə 37 qat Azərbaycan çempionu Abdullayev Üzeyir Ələsgər oğlunun (09.02.1951-20.04.2009) anadan olmasının 75 illiyi
Əməkdar bədən tərbiyəsi və idman xadimi, əməkdar məşqçi, voleybolçu Ağayev Oqtay Mirzəbaba oğlunun (14.02.1936-15.08.2014) anadan olmasının 90 illiyi
Əməkdar məşqçi, əməkdar bədən tərbiyəsi və idman xadimi Abdul-Qədirov İsmayıl Qafar oğlunun (15.02.1936-16.08.2021) anadan 90 illiyi 174
Ukrayna əsilli Azərbaycan futbolçusu və məşqçisi Banişevski Anatoli Andreyeviçinin (23.02.1946-10.12.1997) anadan olmasının 80 illiyi 175



Digər tarixi hadisələr

Gənclərin I Ümumrespublika Forumunun keçirilməsinin (02.02.1996) 30 ili
Gənclər Günü (02.02.1997) 176
Ümumdünya Xərçənglə Mübarizə Günü (04.02.2005)
Azərbaycan SSR Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikası" adı və üçrəngli bayrağı təsdiq edilmişdir (05.02.1991)
Azərbaycan qadınlarının birinci qurultayının keçirilməsinin (08-11.02.1921) 105 illiyi
Beynəlxalq Təhlükəsiz İnternet Günü (09.02.2004)
Vergi Xidməti İşçilərinin Peşə Bayramı Günü (11.02.2005)
Beynəlxalq Radio Günü (13.02.2011)
Azərbaycan Televiziyasının fəaliyyətə başlamasının (14.02.1956) 70 ili 177
Azərbaycan Hərbi Hava Qüvvələri Günü (14.02.1992)
Beynəlxalq Kitab Bağışlama Günü (14.02.2013) 178
Azərbaycanda ilk rəsmi telefon xəttinin ("Nobel qardaşları cəmiyyəti" tərəfindən) çəkilməsinin (18.02.1881) 145 illiyi
Azərbaycanın Elm və Təhsil Nazirliyi ilə Türkiyənin Ali Təhsil Şurası arasında "Türkiyə-Azərbaycan Universiteti"nin yaradılması barədə anlaşma Memorandumu imzalamışdır (19.02.2024)
Ümumdünya Su Məmələlərinin Mühafizəsi Günü (19.02.1986)
Azərbaycan Respublikası Prezidenti Ağdam şəhərində "İmarət" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında Sərəncam imzalamışdır (20.02.2025)
Beynəlxalq Ana Dili Günü (21.02.1999) 179
Avtomobil Yol İşçilərinin Peşə Bayramı Günü (22.02.2008)
Azərbaycan Respublikası Prezidenti Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında Sərəncam imzalamışdır (25.02.2025)
Bakıda I Beynəlxalq Türkoloji Qurultayın keçirilməsinin (26.02-06.03.1926) 100 illiyi.....180
Xocalı soyqırımı günü (26.02.1992) 181

Nəriman Həsənzadə – 95

(1931)

Şair



Ədəbiyyat:

Seçilmiş əsərləri / Nəriman Həsənzadə; ön sözün müəl. N.Cəfərov. - Bakı: Şərq-Qərb, 2004. - 336 s.

Seçilmiş əsərləri: 7 cilddə / Nəriman Həsənzadə; red. G.Əmrullahqızı. - Bakı: Prometey, 2010- 2011. - C. 1. - 811 s.; C. 2. - 736 s.; C. 3. – 354 s.; C. 4. - 260 s.; C. 5. - 606 s.

Azərbaycan dili və nitq mədəniyyəti: dərslik / Nəriman Həsənzadə, G.Pənahova, Ə.Abbasov (tərt.); elmi red. N.Q.Cəfərov; Azərb. Dövlət Neft və Sənaye Un-ti. - Bakı: [Ecoprint], 2016. - 262 s.

Qələmlə, silahla...: (Azərbaycan ordusu - 100): kitab-albom / Layih. ideya müəl., tərt. N.Həsənzadə; red.: N.Cəfərov, L.Hüseynova; işçi qrupu K. Vəliyev [və b.]; red. hey.: Anar [və b.]. - Bakı: [n. y.], 2019. - 198, [1] s.

Cəfərov, N. Xalq şairi Nəriman Həsənzadə / Nizami Cəfərov // Azərbaycan. - 2014. - № 4. - S. 139-148.

Şeirləşən qəhrəmanlıq /N.Həsənzadə //Xalq qəzeti .-2025.- 18 yanvar (№ 11). - S.10.

https://anl.az/el/emb/N.Hesenzade/books/books_hn/index.htm

Nəriman Əliməmməd oğlu Həsənzadə 1931-ci il fevral ayının 18-də Qazax (indiki Ağstafa) rayonunun Poylu qəsəbəsində anadan olmuşdur.

O, 1949-1953-cü illərdə H.Zərdabi adına Kirovabad Dövlət İnstitutunun (indiki Gəncə Dövlət Pedaqoji Universitetinin) filologiya fakültəsində təhsil almışdır. 1961-ci ildə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirərək ikinci ali təhsil almış, ikiillik Ali Ədəbiyyat Kurslarında da oxumuşdur. 1965-ci ildə "Azərbaycan-Ukrayna ədəbi əlaqələri" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsini almışdır. 1954-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Nəriman Həsənzadə 1962-ci ildə Respublika Televiziya və Radio Verilişləri Komitəsində böyük redaktor, sonralar "Uşaq və gənclər ədəbiyyatı nəşriyyatı"nda redaktor, "Azərbaycan gəncləri" qəzetində, "Azərbaycan" jurnalında şöbə müdiri, "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru (1976-1990) vəzifələrində işləmişdir. 1992-ci ildə Türkiyənin Böyük Millət Məclisində və Beynəlxalq konqresində xalq deputatı kimi nümayəndə heyəti adından çıxışlar etmişdir. 1991-2001-ci illərdə Mətbuat və İnformasiya nazirinin birinci müavini vəzifəsində çalışmış, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 221 saylı sərəncamı ilə Mətbuat və İnformasiya nazirini əvəz etmişdir.

Nəriman Həsənzadə 1990-1995-ci illərdə Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. 2002-ci ildə Beynəlxalq Elmlər Akademiyasının (Azərbaycan bölməsi) müxbir üzvü, 2004-cü ildə isə akademiki seçilmişdir. 2004-cü ildə Azərbaycan yazıçıları XI qurultayında katibliyin qərarı ilə Ədəbiyyat Fondu İdarə Heyətinin sədri təyin edilmişdir.

Mətbuatda 1953-cü ildən çıxış edir. Əsərləri keçmiş SSRİ və bir çox xarici ölkə xalqlarının dillərinə tərcümə edilmişdir.

O, 34 bədii – poetik toplunun, "Tariximiz, taleyimiz" adlı irihəcmli elmi-ədəbi-tənqidi məqalələr kitabının müəllifidir. 2004-cü ildə "Seçilmiş əsərləri" dövlət tərəfindən latın qrafikası ilə kütləvi tirajla nəşr edilmişdir. 100-dən artıq şeirinə musiqi bəstələnmişdir. Bəstəkar R.Mustafayevlə "Nəriman" və N.Əliverdibəyovla "Vətən" kantatalarını işləmişdir. "Nəriman", "Kimin sualı var", "Zümrüd quşu", "Poylu – beşiyim mənim", "Nizami", "Nuru Paşa" və s. poemaları, yüzlərlə dərin məzmunlu şeirləri, "Pompeyin Qafqaza yürüşü", "Atabəylər" kimi əsərləri ilə Azərbaycan ədəbi irsini zənginləşdirmişdir.

Nəriman Həsənzadə 1981-ci ildə "Əməkdar incəsənət xadimi" adını almışdır. 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Xalq şairi" fəxri adına layiq görülmüşdür. 2001-ci ildə "Şöhrət", 2011-ci ildə "Şərəf" ordeni ilə təltif edilmişdir. "Uğur – 2009" diplomu ilə mükafatlandırılmışdır. 2017-ci ildə "Heydər Əliyev" mükafatı laureatı olmuşdur. 2002-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür. 2021-ci ildə Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə "İstiqlal" ordeni və 2024-cü ildə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif olunmuşdur.

Xalq şairi Nəriman Həsənzadənin xarici mətbuat səhifələrində "Vətənsiz" (Rumıniya, 2009) və "Nuru Paşa" (Türkiyənin 9 jurnalında) poemaları dərc edilmişdir. Hazırda Azərbaycan Milli Aviasiya Akademiyasının Humanitar fənlər kafedrasının müdiri, professoru, akademiyanın Elmi Şurasının üzvüdür.

2016-cı ildə Milli Kitabxanada Nəriman Həsənzadənin 85 illik yubileyi ilə əlaqədar "Nəriman Həsənzadə-85" adlı kitab sərgisi açılmışdır. Həmçinin 2021-ci ildə Milli Kitabxanada xalq şairinin 90 illik yubileyi münasibətilə "Nəriman Həsənzadə" adlı Elektron məlumat bazası virtual rejimdə istifadəçilərə təqdim edilmişdir.

İshaq İbrahimov – 105

(1921-1987) *Tərcüməçi, ssenarist*



İshaq İbrahim oğlu İbrahimov 1921-ci il fevral ayının 21-də Bakı şəhərində anadan olmuşdur. Burada orta məktəbi bitirmiş, İkinci Dünya müharibəsinin başlanması ona təhsilini davam etdirməyə imkan verməmişdir.

1941-ci ilin sentyabr ayından Sovet Ordusu sıralarında əsgəri borcunu yerinə yetirməyə başlamışdırdər. 1941-1942-ci illərdə ön cəbhədə topçu diviziyasında kəşfiyyat rəisi, ştab rəisi kimi döyüşlərdə iştirak etmişdir. Ağır yaralandığına görə 1942-1944-cü illərdə hərbi xəstəxanada uzun müddət müalicə olunmuşdur.

1944-1945-ci illərdə Ordudan tərxis ediləndən sonra Uşaqgəncnəşrdə tərcüməçi-redaktor işləmişdir. Azərbaycan Dövlət Teatr İnstitutunun teatrşünaslıq fakültəsində təhsilini davam etdirmiş, eyni zamanda 1945-1948-ci illərdə bədii tərcümə ilə məşğul olmuşdur. 1948-1952-ci illərdə "İnqilab və mədəniyyət" jurnalı redaksiyasında ədəbi işçi, məsul katib, 1952-1959-cu illərdə Azərbaycan Radio Verilişləri İdarəsində bədii verilişlər şöbəsinin baş redaktoru, 1959-1962-ci illərdə "Azərbaycan" jurnalı redaksiyasında məsul katib, 1962-1966-cı illərdə C.Cabbarlı adına "Azərbaycanfilm"də ssenari şöbəsinin müdiri, eyni zamanda ssenari-redaksiya heyətinin üzvü, 1962-1975-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində Radio bədii verilişləri şöbəsində tərcüməçi, "Ekran" yaradıcılıq birliyi redaksiya heyətinin üzvü və baş redaktor vəzifələrində çalışmışdır. Azərbaycan Yazıçılar İttifaqında tərcüməçilər bölməsi bürosunun sədri olmuşdur. Həmçinin 1975-1984-cü illərdə Azərbaycan Yazıçılar İttifaqının katibi olmuşdur. Yazıçılar İttifaqı nümayəndələrinin tərkibində İraqda səfərdə olmuşdur.

İşaq İbrahimov "Təsnif" (sənədli film, 1969), "Qəribə görüşlər" (sənədli film, 1969) , "Cücələrim" (sənədli film, 1970), "Oxuyur Şövkət Ələkbərova" (film, 1970), "İlham" (cizgi filmi, 1972), "Gülüstan bayatı-şiraz" (sənədli film, 1972), "Axtaran tapar" (film, 1980), "Təhlükə Astanaları" (film, 1986) və s. filmlərin ssenari müəllifi, "Romeo mənim qonşumdur" (film, 1963), "Arşın mal alan" (film, 1965), "Qaraca qız" (film, 1966) (film, kinoalmanax) və s. filmlərin isə redaktorudur.

Azərbaycan KP 26 Bakı komissarı adına rayon komitəsi plenumunun, SSRİ Yazıçılar İttifaqı idarə heyətinin, Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin üzvü və Bakı şəhər Sovetinin deputatı seçilmişdir.

O, 1979-cu ildə Azərbaycan SSR Əməkdar incəsənət xadimi medalına layiq görülmüşdür. SSRİ döyüş medalları ilə təltif olunmuşdur.

Görkəmli ssenarist İshaq İbrahim oğlu İbrahimov 1987-ci il iyul ayının 5-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Qoqol, N.V. Viy: [hekayə] / N. Qoqol ; tərc. İshaq İbrahimov. - [Bakı]: [Pandora], [2025]. - 85, [1] s.

Min bir gecə /[ümumi red. Z. Bünyadov ; tərc. İshaq İbrahimov ; qapaq dizaynı R. Qasım] - C. 2 39-145-ci gecələr. -[Bakı]: [Qanun], [Əli və Nino], [2021]. -462, [1] s.

Aytmatov, Ç .Gün var əsrə bərabər: [roman] / Çingiz Aytmatov ; tərc. İshaq İbrahimov ; [üz qabığının tərtibatı R. Qasım].- [Bakı]: [Qanun], [Əli və Nino], [2020] -399 s.


İnternetdə:

https://az.wikipedia.org/wiki/%C4%B0shaq_%C4%B0brahimov#T%C9%99rc%C3%BCm%C9%99l%C9%99ri

Abdulla Şaiq – 145

(1881-1959)

Yazıçı, tərcüməçi



Ədəbiyyat:

Seçilmiş əsərləri: üç cilddə / Abdulla Şaiq; rəssamı A.Rəsul. - [Bakı]: Şərq-Qərb, [2013]. - C.1 [Hekayələr; Povest; Romanlar]. - 427, [1] s.; C. 2 [Şeirlər; Qəzəllər; Poemalar; Pyeslər]; C. 3 [Şeirlər; Mənzum hekayələr və poemalar; Hekayələr; Təmsillər; Pyeslər].

Gözəl Bahar: pyeslər / Abdulla Şaiq; tərt. ed.: Ü.Talıbzadə, G.Əsədova; ill.: A.Əmirova; [ön söz A.Hacıyeva]. - [Bakı]: [TEAS Press Nəşriyyat evi], [2018]. - 395, [1] s.

Abdulla Şaiq: biblioqrafiya / Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, F.Köçərli ad. Resp. Uşaq Kitabxanası; tərt.: Nazilə Tahirova, L.Qafarova, T.Əzizova; ixt. red. və burax. məs. Ş.Qəmbərova; ön söz. müəl. A.Bayramoğlu; red. G.Səfərəliyeva. - Bakı, 2016. - 447, [1] s.

Babayev, B.M. Abdulla Şaiqin nəsr yaradıcılığı: / B.M.Babayev; elmi red. İ.Həbibbəyli. - Bakı: [Avropa], 2018. - 151, [1] s.

Bayramova, Y. Uşaq ədəbiyyatının banisi... : Milli düşüncə tarixində Abdulla Şaiq fenomeni / Yeganə Bayramova // Yeni Azərbaycan. - .-2025.- 24 iyul (№127).- S.8.

Abdulla Axund Mustafa oğlu Talıbzadə (Abdulla Şaiq) 1881-ci il fevral ayının 24-də Tiflisdə ruhani ailəsində anadan olmuşdur.

O, Tiflis və Xorasanda təhsil almış, 1901-ci ildə Bakıya gələrək 1934-cü ilədək Sabunçu və Bakı məktəblərində Azərbaycan dili və şəriət fənlərini tədris etmişdir. Rus və fars dillərini mükəmməl bilirdi.

1906-cı ilin avqustunda Bakıda keçirilən I Müəllimlər Qurultayının təşkilində böyük xidmətləri olub. Qurultayda ana dilinin və ədəbiyyatın tədrisinə dair təşəbbüslə çıxış etmişdir.

Abdulla Şaiq "Əlifba", "Uşaq çeşməyi", "İkinci il", "Gülzar", "Milli qiraət", "Müntəxabat", "Türk çələngi", "Ədəbiyyat", "Türk ədəbiyyatı", "Gülşəni ədəbiyyat" adlı dərsliklər və proqramlar hazırlayıb. Bu dərsliklərdə Azərbaycan klassiklərinin həyat və yaradıcılığı haqqında məlumatlar və əsərlərindən parçalar verilib. O, həm də qadınlar üçün jurnal çıxarmaq, uşaq bağçası açmaq, kitabxana yaratmaq, kasıb uşaqları pulsuz oxutmaq kimi xeyirxah təşəbbüslər irəli sürüb, eyni zamanda Azərbaycan ədəbiyyatını tədqiq və təbliğ edib, Xaqani Şirvani, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Qasım bəy Zakir, Mirzə Fətəli Axundov, S. Ə. Şirvani, M. Ə. Sabir, Abbas Səhhət, Məhəmməd Hadi, Hüseyn Cavid kimi şair-yazıçıların yaradıcılıqları araşdırıb.

Abdulla Şaiq yaradıcılığına tərcümə və qəzəllə başlasa da, ilk mətbu əsəri "Laylay" adlı uşaq şeri olub. O, 1906-cı ildən başlayaraq silsilə şeirləri ilə Azərbaycan milli uşaq poeziyasının incilərini yaradıb. Bir sıra şeirləri "Dəbistan" və "Məktəb" uşaq-gənclər toplularında çap olunub. Bu illərdə "Nicat" cəmiyyətinin idarə heyətinə üzv seçilib, ədəbi-bədii problemlərlə, maarif və məktəb işləri ilə məşğul olub.

Xalq ədəbiyyatını toplayıb araşdıran Abdulla Şaiq bu örnəklər əsasında "Tıqtıq xanım", "Tülkü həccə gedir", "Yaxşı arxa" kimi mənzum nağıllar da yazmış, 1910-cu ildə yazdığı "Gözəl bahar" pyesi ilə milli uşaq teatrının əsasını qoymuşdur.

Nəsr yaradıcılığına 1905-ci ildə romantik "İki müztərib və ya əzab və vicdan" yarımçıq romanı ilə başlayan ədib "Məktub yetişmədi", "Köç", "Daşqın", "İntiharmı, yaşamaqmı", "Göbələk", "İblisin huzurunda", "Dursun", "Əsrimizin qəhrəmanlar"ı kimi bir çox hekayə, povest və romanlar yazmışdır. "Köç" və "Məktub yetişmədi" hekayələri və "Əsrimizin qəhrəmanları" romanı ilk milli nəsr örnəkləri kimi dəyərləndirilir.

1919-cu ildə Bakı Dövlət Universitetinin yaranmasından ilhamlanaraq "Tələbə və həyat" pyesini qələmə almışdır.

Abdulla Şaiq V.Şekspirin "Maqbet" pyesini, C.Sviftin "Qulliverin səyahəti" romanını, A.S.Puşkinin, M.Lermontovun, İ.Krılovun, M.Qorkinin, Nekrasovun əsərlərini dilimizə çevirmişdir.

O, SSRİ Ali Sovetinin (2-ci və 4-cü çağırış) deputatı olmuşdur. "Lenin ordeni", "Qırmızı Əmək Bayrağı" ordeni və medallarla təltif edilmiş, 1940-cı ildə Azərbaycan SSR-nin "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Abdulla Şaiq 24 iyul 1959-cu ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur. Hazırda Azərbaycan Dövlət Kukla Teatrı Abdulla Şaiqin adını daşıyır. 1990-cı ildən Bakıda Abdulla Şaiqin ev-muzeyi fəaliyyət göstərir.

2001-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Abdulla Şaiqin 120 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır.

2021-ci ildə Milli Kitabxanada "Abdulla Şaiq – 140" adlı virtual sərgi hazırlanmışdır. Virtual sərgidə Abdulla Şaiqin həyat və yaradıcılığı haqqında materiallar, fotolar, müəllifi olduğu eləcə də, haqqında yazılan kitab və məqalələr təqdim olunmuşdur.

Solmaz Amanova – 70

(1956) *Yazıçı*



Ədəbiyyat:

Al beretli igid əsgər : Vətən müharibəsindəki tarixi Zəfərə həsr olunan nağıl-pyes / Solmaz Amanova; red. A. Cahangirova; rəssam İ. Məmmədov. - Bakı: [Everest NE], 2023. - 63, [1] s.

Narmis və Tacşir / Solmaz Amanova; rəssam.: İ. Məmmədov, A. Məhərrəmova, Ş. İskəndərova; red. A. Cahangirova; [Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi]. - Bakı: [Everest NE], 2023. - 127, [1] s.

Şuşanın sehrli açarları : [nağıl-poema, pyes] / Solmaz Amanova; rəssam.: İ. Məmmədov, M. Novruzova red. A. Cahangirova; [Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi]. - Bakı: [Everest], 2023.- 46, [2] s.

Qız və qızılgül: [şeirlər] /S. B. Amanova ; red. N. MuxtarovaBakı: Gənclik, 2020.- 80 s.

İlmənin macəraları: [köməkçi dərs vəsaiti] /S. Amanova [baş red.] ; rəssam İ.Məmmədov.[Bakı]: Everest NE, [2020]. - 86 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Solmaz_Amanov

Solmaz Bayramqulu qızı Amanova 1956-cı il fevral ayının 24-də Salyan rayonunun Qaraçala kəndində anadan olmuşdur.

O, M.Ə. Sabir adına Bakı Pedaqoji Texnikumunun əmək və rəsmxət fakültəsində, M. F. Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda təhsil almışdır.

Salyan rayon Komsomol Komitəsində katib, Azərbaycan Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutunun kitabxanasında kitabxanaçı, metodist, institutun Siyasi-maarif kabinetinin müdiri, Bakı Şəhər Müəllimləri Təkmilləşdirmə İnstitutunda metodist, Azərbaycan Dövlət Tibb Universitetinin rus dili kafedrasında müəllim işləmişdir. 2006-cı ilin dekabr ayında Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Metodiki Mərkəzində Səbail-Yasamal-Qaradağ bölməsinə ibtidai siniflər üzrə metodist vəzifəsinə, 2012-ci ilin may ayında Metodik Mərkəzin Multimedia bölməsinin müdiri vəzifəsinə təyin edilmişdir.

Bədii yaradıcılığa erkən yaşlarından başlayan Solmaz Amanova əsərlərini Azərbaycan və rus dilində yazır. İlk qələm təcrübələri XX əsrin 70-ci illərində "Ulduz" jurnalında içap olunmuşdur. Dövri mətbuatda şeir, hekayə, elmi-kütləvi məqalələrlə çıxış edir. Onun yazdığı "İnsan iz qoyur", "İrs" əsərləri Təhsil Nazirliyi tərəfindən əlavə dərs vəsaiti kimi təsdiq edilmişdir. Ədibin uşaqlar üçün yazdığı əsərlər şifahi xalq ədəbiyyatına və adət-ənənələrimizə bağlılığı ilə seçilir. "Xanəgah əczaxanası" kitabı əfsanə və əsatirlər əsasında yazılmış nağıl və tamaşalardan ibarətdir. "Gəncə xəzinəsi" kitabı Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan əsərlərin süjet xəttinə əsaslanır və Ziya Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə" kitabında təsvir edilən əfsanənin mahiyyətini açır.

Yazıçının 2009-cu ildə "İrs" və "Anatomik teatr" kitabları Moskvada keçirilən XXII "Kitab sənəti" sərgi-müsabiqəsində ikinci və üçüncü yerləri tutmuşdur. Uşaq tibb ədəbiyyatına verdiyi töhfələrinə görə Avropa Təbii Elmlər Akademiyasının professoru və akademiki fəxri adlarına layiq görülmüş, həmin Akademiyanın "İrs" bölməsinin vitse-prezidentidir.

"Xanəgah əczaxanası" Moldovada Beynəlxalq Kitab Sərgisində 2014-cü ildə I yerə layiq görülmüşdür.


Təhsil Nazirliyi "İlmənin macəraları" kitabı və cizgifilmlərinin kontentini alıb (ibtidai siniflər üçün). "İRS" fənninin müəllifidir. 160 saylı Klassik Gimnaziyada tədris edilir. Respublikanın pilot məktəblərinin kitabxanalarına Solmaz Amanovanın əsərləri daxil edilmişdir. Mədəniyyət Nazirliyi tərəfindən təşkil edilən bütün beynəlxalq kitab sərgilərində "İRS" Mədəni-Təhsil mərkəzi adı ilə iştirak edib və mükafatlandırılıb.

Solmaz Amanova Avropa Təbii Elmlər Akademiyasının tibb və uşaq ədəbiyyatına verdiyi töhfələrinə görə Leonardo da Vinçi medalı, "Robert Kox", Avropanın Şərəf ordeni, Dostluq ordeni, "İohan Voltqanq Gete"nin, "Fridrix Şiller" və "Qrimm Qardaşları" medalları ilə təltif olunub.

Əli Vəliyev – 125

(1901-1983)

Yazıçı



Ədəbiyyat:

Əli Vəliyev (Əli Qara oğlu Vəliyev) : Biblioqrafiya / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası; tərt. ed.: M. Cəfərova, G. Quliyeva; elmi red. K. Tahirov ; red. M. Vəliyeva; ön söz. müəl. Elçin; [dizayner M. Əliqızı]. - Bakı: [Zərdabi Nəşr MMC NPM], 2023. - 247, [1] s.

Kölgə: hekayələr /Əli Vəliyev; naşir M. Xan; dizayner F. İlham. - [Bakı]: Mücrü, [2024]. - 120 s.

Budağın xatirələri / Ə.Vəliyev; red. A.Məsud; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.-Bakı: İrfan, 2012.- K.I.- 445 s.; K.II.- 490 s.

Elçin. "Ən böyük biclik, düzlükdür": Unudulmaz Əli Vəliyev haqqında bir neçə söz / Elçin // Ədəbiyyat qəzeti. -2021.- 28 may.- S.2-3.

Nərimanoğlu, H. Ustad yazıçı və müdrik şəxsiyyət: Xalq yazıçısı Əli Vəliyevin anadan olmasının 120 illiyinə / Hacı Nərimanoğlu. - //525-ci qəzet. - .-2021.- 2 mart.- S.13.

İnternetdə:

https://az.wikipedia.org/

https://www.millikitabxana.az/news/eli-veliyev-120

Əli Qara oğlu Vəliyev 1901-ci il fevral ayının 27-də keçmiş Zəngəzur qəzasının Ağudi kəndində anadan olmuşdur.

İlk təhsilini anadan olduğu kənddə almış, 1917-ci ildə 3 sinifli rus məktəbini bitirmiş, 1923-cü ildə Şuşa firqə məktəbinə daxil olmuş, sonra Bakı mərkəzi firqə məktəbində və mühaziraçilər qrupunda təhsilini davam etdirmişdir. 1928-1931-ci illərdə Azərbaycan Dövlət Darülfünunun (indiki BDU) pedaqoji fakültəsinin tarix-ictimaiyyət şöbəsində təhsil almışdır.

Əli Vəliyev 1933-1934-cü illərdə "Şərq qapısı" qəzetinin redaktoru olmuşdur. 1935-1937-ci illərdə Azərbaycanın bir sıra rayonlarında partiya işində, 1937-1941-ci illərdə Azərbaycan Sovet Yazıçıları İttifaqında, İncə sənət İşçiləri İttifaqında, Voroşilov Rayon İcraiyyə Komitəsində (indiki Səbail rayonu) məsul vəzifələrdə çalışmışdır. 1942-1945-ci illərdə "Kommunist" qəzetində redaktor müavini, 1945-1950-ci illərdə məsul redaktor vəzifəsində, 1950-1954-cü illərdə Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, 1954-1959-cu illərdə "Azərbaycan" jurnalının məsul redaktoru kimi çalışmışdır.

Yaradıcılığa Bakı mərkəzi firqə məktəbində oxuyarkən başlamış, fəal fəhlə-kəndli müxbiri kimi "Kommunist", "Kəndli", "Gənc işçi", "Yeni fikir" qəzetlərinin səhifələrində çıxış etmişdir. 1930-cu ildə "Allahın səyahəti" və "Nənəmin cəhrəsi", 1937-1941-ci illərdə "Qarlı dağlar", "Qəhrəman", "Ordenli çoban" və "Sübut" kitabları çap olunmuşdur. 1941-1942-ci illərdə Böyük Vətən müharibəsi cəbhələrində yazıçı-jurnalist kimi iştirak etmiş, "Cəbhə hekayələri" kitabını yazmışdır. 1954-cü ildə "Gülşən" povesti və "Çiçəkli" romanı M.F.Axundov adına Respublika Dövlət mükafatına layiq görülmüşdür. Rus dilində "Ürək dostları" romanı, "Seçilmiş əsərləri"nin II-VI cildləri, görkəmli söz ustası S.Rəhimovun anadan olmasının 60 illiyinə həsr edilmiş "Xalq yazıçısı" monoqrafiyası, "Turaclıya gedən yol", "Budağın xatirələri" romanları, "Zəngəzur qartalları", "Bir cüt tərlan" povestləri, "Uşaqlara sovqat", "Əziz nəvələrimə", "Anaqız", "Bir cüt ulduz" nağıl və hekayələri, "Samovar tüstülənir", "Gəncliyimi tapdım" (rus dilində), povest və hekayələr kitabları, "Durna qatarı" oçerklər kitabı nəşr edilmişdir. 1974-cü ildə 2 kitabdan ibarət "Budağın xatirələri" romanı, 1975-ci ildə "Yeni həyat" hekayələr kitabı, 1976-cı ildə "Zamanın ulduzları", "İstedad" (rus dilində) povest və hekayələr kitabları, 1977-1980-ci illərdə "Qarabağda qalan izlər", "Narahat adam" romanları, "Qənirsiz gözəl", "Zamanın ulduzları" (rus dilində) povest və hekayələri, "Şamama Həsənova" oçerki çap olunmuşdur.

1945-ci ildə "1941-1945-ci illərdəki Böyük Vətən müharibəsində şərəfli əməyə görə" medalı, 1959-cu ildə "Qırmızı Əmək Bayrağı" ordeni, 1971-ci ildə "Lenin ordeni" və "Əmək veteranı" medalı, "Qızıl qələm" mükafatı və "Xalq maarifi əlaçısı" döş nişanı almış, 1974-cü ildə Azərbaycan SSR-nin "Xalq yazıçısı" fəxri adına layiq görülmüş, 1976-cı ildə SSRİ Ali Sovetinin Rəyasət heyətinin Fəxri fərmanı, 1981-ci ildə Oktyabr İnqilabı ordeni ilə təltif olunmuşdur.

Əli Vəliyev 1983-cü il fevral ayının 2-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Rejissor Vasif Məmmədzadə 2011-ci ildə "Əli Vəliyev" adlı sənədli film çəkmişdir.

2021-ci ildə M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası tərəfindən görkəmli yazıçının 120 illik yubileyi münasibətilə "Əli Vəliyev – 120" adlı virtual sərgi və 2023-cü ildə "Əli Vəliyev (Əli Qara oğlu Vəliyev): Biblioqrafiya" adlı kitabı hazırlanmışdır.

Əlişir Nəvai – 585

(1441-1501) Özbək şairi, dövlət xadimi



Ədəbiyyat:

Seçilmiş əsərləri / Əlişir Nəvai; tərc. ed.: .Vahid, M.Dilbazi, M.Rahim və b.; ön sözün müəl. H.Araslı. - Bakı: Öndər, 2004. - 424 s.

Əlişir Nəvai Azərbaycan ədəbiyyatşünaslığında: məqalələr toplusu /toplayanı, tərt. ed. və nəşrə hazırl. Almaz Ülvi; elmi red. V.Arzumanlı; elmi məsl. C.Nağıyeva; AMEA, Nizami ad. Ədəbiyyat İn-tu. - Bakı: Qartal, 2009. - 359 s.

Quliyev, A. Əlişir Nəvainin ictimai-siyasi görüşləri / Aqşin Quliyev; elmi red. F.Ağazadə. - Bakı: Qanun, 2015. - 176 s.

Əlişir Nəvainin əsri və nəsri: (elmi-filoloji və dini-təsəvvüfi əsərləri) / Almaz Ülvi Binnətova; elmi red. və ön söz. müəl.: İsa Həbibbəyli, Ş. Siracəddinov; məsul red. Ş. Məcidova ; AMEA, N. Gəncəvi ad. Ədəbiyyat İn-tu. - Bakı: Elm və Təhsil, 2023. - 582 s.

Mühakimətül-lüğəteyn - İki dilin mübahisəsi ; Müqayisətül-lüğəteyn - İki dilin müqayisəsi /Ə. Nəvai, C. Heyət ; [çağatay türkcəsindən tərc. Kamil Vəli Nərimanoğlu ; fars dilindən tərc. ed. və elmi red. Ş. Məstəli ; red. Ş. Əhmədova]. -Bakı: [Zərdabi Nəşr], 2024. - 182 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/

Nizaməddin Mir Əlişir oğlu Nəvai (Əlişir Nəvai) 1441-ci il fevral ayının 9-da Heratda anadan olmuşdur.

Təhsilini Herat, Məşhəd və Səmərqənd şəhərlərində almış, şəxsi mütaliəsi nəticəsində dövrünün ən görkəmli alimlərindən biri kimi tanınmışdır. Kiçik yaşlarından özbək və fars dillərində şeirlər yazmış, 15 yaşında şair kimi şöhrət qazanmışdır.

1468-ci ildə məktəb yoldaşı Hüseyn Baykara hakimiyyət başına gəldikdən sonra Nəvai möhürdar təyin olunmuş, 1472-ci ildə vəzir rütbəsinə yüksəlib əmir titulu almışdır. Dövrünün alim, şair, musiqiçi, rəssam və xəttatlarını himayə etmiş, öz hesabına mədrəsə və xəstəxanalar açmış, yollar çəkdirib körpülər saldırmış, kanallar qazdırmış, karvansaralar tikdirmiş, sarayda əməkçi xalqın müdafiəçisi kimi tanınmışdır. Lakin Nəvainin bu nəcib işləri irticaçı dairələrdə narazılıq doğurmuş, şairə böhtan və iftiralar atılmışdır. 1476-cı ildə Nəvai vəzirlikdən imtina etməyə məcbur olmuşdur. Bir müddət Astrabad vilayətinin hakimliyinə göndərilmiş, 1488-ci ildə Herata qayıdaraq, ömrünün axırınadək yaradıcılıqla məşğul olmuşdur.

Əlişir Nəvai 16-sı mənzum, 16-sı mənsur olmaqla bir-birindən dəyərli 32 əsər yazmışdır. "Mühakəmət-ül Lüğəteyn", "Məcalisün-Nəfais", beş məsnəvidən ibarət "Xəmsə" və şeirlərinin topladığı "Divan" onun ən məşhur əsərləridir. "Mühakəmət-ül Lüğəteyn" əsərində türk və fars dilləri müqayisəli şəkildə qarşılaşdırmış, türk dilinin hansı baxımdan üstün olduğunu açıqlamışdır. "Məcalisün-Nəfais" şairlər və ədiblər təzkirəsidir. Bu əsərdə XV əsrdə Türküstan və İranda yetişən şairlərin həyat və yaradıcılıqlarına dair dəyərli məlumatlar verilmişdir. "Xəmsə"sində "Fərhad və Şirin", "Leyli və Məcnun" kimi mənzum romanları, Makedoniyalı İskəndərin həyatından bəhs edən "Səddi-İskəndəri", Sasani hökmdarı Bəhram Gurun həyatından bəhs edən "Səbəy-Səyyarə" adlı tarixi əsərləri, əxlaq və təsəvvüfə dair fikirlərini əks etdirmişdir. Qəzəllər, müxəmməslər, rübailər, müstəzadlar, müfrədlərdən ibarət divanları isə Orta Asiya türk dilinin ən gözəl nümunələridir.

Əlişir Nəvai 6 divan yaratmış, ilk şeirlərini "Bədaye ülbidayə" (1470-ci ilin əvvələri) adlı divanında toplamış, 2-ci divanını "Nəvadir ülnə hayə" (1476-1483) adlandırmışdır. 1498-1499-cu illərdə özbək dilində yazdığı lirik şeirləri "Çahar divan" adlanan 4 cilddə toplanmışdır. Fars dilindəki qəzəlləri isə "Divani-Fani" adı ilə məşhurdur.

Nəvai Azərbaycan ədəbiyyatının klassikləri Xaqani, Nizami və Nəsiminin əsərlərini dərindən öyrənmişdir. Onun əsərləri bir sıra xalqların dillərinə tərcümə olunmuşdur, əlyazmaları dünyanın ən iri kitabxanalarında mühafizə olunur.

Əlişir Nəvai 1501-ci il yanvar ayının 3-də Heratda vəfat etmişdir.

Şairin əsərlərinin süjetləri əsasında çoxlu musiqili əsərlər (opera, balet və s.), həyat və yaradıcılığından bəhs edən bədii əsərlər (Aybəkin "Nəvai" romanı və s.) yaradılmış, haqqında bədii film ("Əlişir Nəvai", 1948) çəkilmişdir. Nəvai şəhəri şairin şərəfinə adlandırılmışdır. Özbəkistanda adına maarif və mədəniyyət müəssisələri, ali məktəb və küçə var. Həmçinin Bakıda küçələrdən biri və park şairin adını daşıyır. Adını daşıyan parkda heykəli ucaldılmışdır.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun himayəsi ilə "Əlişir Nəvai. Əsərləri" kitabı 2022-ci ildə Azərbaycan dilində çap olunub. Kitabın "Ön söz"ünün müəllifi Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyevadır.

Musa Cəlil – 120

(1906-1944)

Tatar şairi



Musa Mustafa oğlu Cəlilov (Musa Cəlil) 1906-cı il fevral ayının 15-də Orenburq vilayətinin Şarlık rayonundakı Mostafa kəndində anadan olmuşdur. İlk təhsilini mollaxanada alan Musa 1914-1917-ci illərdə Orenburqdakı Hüseyniyyə mədrəsəsində oxumuşdur.

9 yaşında şeir yazmağa başlayan şairin ilk şeiri 1919-cu ildə "Qızıl yıldız" qəzetində çap olunmuşdur. 1919-cu ildə komsomola daxil olmuş və bolşeviklərlə ağqvardiyaçılar arasında gedən savaşda bolşeviklərin sıralarında döyüşmüşdür. 1922-ci ildə Tatarıstanın paytaxtı Kazan şəhərinə gəlmiş və qəzetdə işləməyə başlamışdır.

Musa Cəlilin 1925-ci ildə şeirlər toplusu "Biz gedirik" adı altında çap edilmiş, elə həmin il Orenburq komsomol komitəsinə işə göndərilmişdir.

1927-1931-ci illərdə Musa Cəlil Moskva Dövlət Universitetinin ədəbiyyat fakültəsində təhsil almışdır. Moskvada oxuduğu illərdə komsomolun mərkəzi komitəsinin orqanı olan "Kiçik qardaşlar", "Oktyabr balaları" jurnallarına redaktorluq etmişdir. 1929-cu ildə şairin "İptaşka" şeir kitabı çap olunmuşdur.

1933-1934-cü illərdə Moskvadakı "Kommunist" qəzetinin ədəbiyyat və incəsənət şöbəsinə rəhbərlik edən Musa Cəlilin "Ordenli milyonlar" şeir kitabı çap edilmişdir. 1935-ci ildə o, Moskva Dövlət Universitetində açılan Tatar Opera Studiyasına işə dəvət edilmiş, studiya 1938-ci ildə Tatarıstana köçürüləndə Musa Cəlil də Kazana gəlmiş və ədəbi hissə müdiri vəzifəsində işləmişdir. 1935-1941-ci illərdə yazdığı "Altunsaç", 1940-cı ildə tamamladığı "İldar" librettolarını Tatarıstan Dövlət Opera Balet Teatrına səhnələşdirmək üçün təhvil vermişdir.

Musa Cəlilin şairliyi ilə yanaşı, rəssamlıq qabiliyyəti də olmuş, musiqi istedadı libretto yazmasında ona çox kömək etmişdir. O, bəzi şeirlərinə xalq mahnılarının üslubunda mahnılar da yazmışdır.

Musa Cəlil 1939-cu ilin iyulunda Sovetlər Birliyi Yazıçılar İttifaqının Tatarıstan şöbəsinin katibi seçilmişdir.

1941-ci ilin yayından Musa Cəlil "Otvaqa" (İgidlik) cəbhə qəzetində hərbi müxbir kimi fəaliyyətə başlamışdır. Onun tərənnüm etdiyi Sovet Ordusu 1942-ci ildə Voloxov cəbhəsində ağır itki verərək şairi yaralı və hərbi müxbiri də səngərdə qoyub geri çəkilmişdir. Beləcə, Musa Cəlilin əsirlik, ailəsinin və qohumlarının isə işgəncəli həyatı başlamışdır.

1944-cü ildə Moabit düşərgəsindəki antifaşist gizli təşkilatın üzvləri Almaniyanın xüsusi xidmət orqanları tərəfindən yaxalanmış, uzun və ağır işgəncəli dindirmələrdən sonra gizli təşkilatın ideoloqu Musa Cəlilin günahkar olduğu sübut edilmiş, 1944-cü il avqust ayının 25-də Berlin yaxınlığındakı Plyotsenze hərbi həbsxanasında öldürülmüşdür.

1956-cı ildə Musa Cəlilə bəraət verildiyi üçün vətən xaini damğası üzərindən götürülmüş, əsərlərinin çapına, bədii irsinin tədqiqinə qoyulan qadağalar ləğv edilmiş, şeirləri dünya dillərinə tərcümə edilərək yayılmışdır. Musa Cəlilin əsirlik də bir yerdə olduğu həmyerlisi Qimran Təlqətov 1956-cı ildə onun şeirlər kitabını çap etdirmişdir.

Musa Cəlil 1956-cı ildə "Sovet İttifaqı Qəhrəmanı" adına, Moabit zindanxanasında yazdığı şeirlər əsasında 1957-ci ildə çap olunmuş kitabına görə isə "Lenin" mükafatına layiq görülmüşdür.

Kazan şəhərində onun heykəli ucaldılmış, tatar milli dram teatrına onun adı verilmiş, adına ədəbi mükafat təsis olunmuşdur. 1954-cü ildə böyük Azərbaycan şairi Səməd Vurğun Musa Cəlilin xatirəsinə həsr olunmuş "Musa Cəlilə" şeirini yazıb.

Ədəbiyyat

Moabit dəftəri: şeirlər / Musa Cəlil; tərc. ed. X.Rza; ön söz. P.Xəlilov. - Bakı: Yazıçı, 1979. - 275 s.

Mirzəzadə, R. Moabitdə - faşist zindanında ucalan HAQQın səsi: Tatar xalqının qəhrəman övladı Musa Cəlilin anadan olmasının 110 illiyi münasibətilə / R.Mirzəzadə // Həftə içi. - 2016. - 10 fevral. - S. 4-5.

Turan, T. Krım-Tatar ədəbiyyatının barıt qoxulu şairi Musa Cəlil / T.Turan // Türküstan. - 2020. - 6-10 fevral. - S. 23.

Fərəcov, S. "Yetir doğma yurda bu mahnıları..." / Savalan Fərəcov // Mədəniyyət.-2023.- 24 fevral.- S.6.

Quliyev, E. MUSA CƏLİL – XX yüzil tatar ədəbiyyatının tanınmış nümayəndəsi / Elman Quliyev // Xalq Cəbhəsi.-2020.- 12 sentyabr.- S.14.

Избранное / Муса Джалиль; пер. с татар; сост. Ч.Залиловой, Р.Мустафина. - Москва: Художественная литература, 1990. - 461 с

İnternetdə:

https://az.wikipedia.org/wiki/Musa_C%C9%99lil

Ağaəli İbrahimov – 80

(1946)

Rəssam



Ağaəli Müsəllim oğlu İbrahimov 6 fevral 1946-cı ildə Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1960–1966-cı illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində, 1969–1974-cü illərdə isə M. A. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda təhsil almışdır.

Ağaəli İbrahimov 1966-cı ildən etibarən ümumrespublika və beynəlxalq sərgilərdə iştirak etmişdir. Onun əsərləri Rusiya, Türkiyə, ABŞ, Fransa, Almaniya, İtaliya, Böyük Britaniya, Suriya, Bolqarıstan və digər ölkələrdə nümayiş olunmuşdur. 1975-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür və sonrakı dövrlərdə İttifaqın katibi vəzifəsində fəaliyyət göstərmişdir.

Rəssamın yaradıcılığında klassik Azərbaycan təsviri sənət ənənələri mühüm yer tutur. O, yaradıcılığında Abşeron rəngkarlıq məktəbinin estetik prinsiplərinə istinad etmiş, bu məktəbin nümayəndələrinin – Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Mircavad Mircavadov, Əşrəf Murad və digər sənətkarların yaradıcılıq irsi ilə yaxından tanış olmuşdur. Ağaəli İbrahimovun əsərlərində fəlsəfi məzmun, simvolik ifadə vasitələri və obrazlılıq əsas yer tutur.

Rəssamın yaradıcılığında bəşəri mövzulara, insanın daxili aləminə, həyat və həqiqət anlayışlarına müraciət diqqəti cəlb edir. "Əbədiyyət", "Oyanma", "Sonun başlanğıcı", "Çağırış", "Yaradanın rəssamı", "Ruhun vəhdəti", "Həqiqət qarşısında" kimi əsərləri bu istiqamətdə səciyyəvidir. Eyni zamanda onun məişət mövzusunda yaratdığı "Çıraq ilə natürmort", "Nar dənəsi", "Nar şirəsi", "Qoç döyüşü", "Qarabağ çobanları" adlı kompozisiyaları da yaradıcılığında mühüm yer tutur.

Ağaəli İbrahimov yaradıcılığında ictimai mövzulara da müraciət etmiş, tarixi və faciəvi hadisələri əks etdirən əsərlər yaratmışdır. "Soyqırım" adlı böyükölçülü əsəri bu baxımdan diqqətəlayiq nümunələrdəndir.

O, rəssamlıq fəaliyyəti ilə yanaşı, pedaqoji sahədə də çalışmış, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində professor kimi fəaliyyət göstərmişdir. Bundan əlavə, rəssam kolleksiyaçılıq fəaliyyəti ilə də məşğul olmuş, Azərbaycan və xarici rəssamların əsərlərindən ibarət kolleksiya formalaşdırmışdır.

Ağaəli İbrahimovun sənət fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 30 may 2002-ci ildə "Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi", 29 dekabr 2006-cı ildə isə "Azərbaycan Respublikasının xalq rəssamı" fəxri adlarına layiq görülmüşdür.

Ağaəli İbrahimov kino sənətində də fəaliyyət göstərmiş, "Məhəbbətin hökmü" (1998), "Sifarişçi" (2000) və "Sonuncu dərviş" (2009) filmlərində rəssam kimi iştirak etmişdir.

Ədəbiyyat:

Alim sözü, alim fırçası : "Alimlər-rəssamlar" kitab-kataloqu haqqında düşüncələr / Ağaəli İbrahimov // Mədəniyyət. - 2018. – 12 oktyabr. - S. 6.


Ulu öndərin xatirəsinə ithaf : "Təsviri sənətdə Heydər Əliyev obrazı" kitabı haqqında düşüncələr /A.M.İbrahimov //Mədəniyyət .-2024.- 26 yanvar,№7.- S.5.

Ağaəli İbrahimov və Osvald Şpenqler /S.Məmmədova //Qalib ölkə, qəhrəman xalq: Doktorant və gənc tədqiqatçıların Respublika elmi-nəzəri konfransının materialları / Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti .-2022.- S.261-265.

Fikrət Ələkbərov - 80

(1946)

Rəssam



Fikrət Ağazeynal oğlu Ələkbərov 1946-cı il 18 fevral tarixində Bakıda anadan olmuşdur.

1962-1967-ci illərdə Əzim Əzimzadə adına Rəssamlıq məktəbində təhsil almışdır. 1973-cü ildə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Rəssamlıq fakültəsində, təhsil almışdır.

Fikrət Ələkbərov 1974-cü ildən "Azərbaycanfilm" kinostudiyasında fəaliyyət göstərmişdir.

Xarici film istehsalçılarının "Brilliant əl" (1968, rejissor Leonid Qayday / Rusiya) filmində dekorator assistenti, "Meqapolis" (1992 / Ukrayna), "Portağallar" (1994 / Ukrayna) və "Beş nömrəli kameranın məhbusu" (Türkiyə) filmlərində rəssam kimi çalışmışdır. "Sonuncu düym" (1958, rejissorlar Teodor Vulfoviç, Nikita Kurixin / Rusiya) filmində Devinin dublyoru, "Amfibiya adam" (1961, rejissorlar Gennadi Kazanski, Vladimir Çebotaryov / Rusiya) filmində epizodik rolda, "Beş nömrəli kameranın məhbusu" (Türkiyə) filmində isə həbs düşərgəsi rəisinin müavini rolunda çəkilmişdir.

"Dərviş Parisi partladır" filmində (1976, tammetrajlı bədii film) – dekor rəssamı, aktyor, "Tütək səsi" filmində (1976, tammetrajlı bədii film) – rəssam assistenti, "Arxadan vurulan zərbə" filmində (1977, tammetrajlı bədii film) – dekor rəssamı, "Qərib cinlər diyarında" (1977, tammetrajlı bədii film), "Qaynana" (1978, tammetrajlı bədii film), "Onun bəlalı sevgisi" (1980, tammetrajlı bədii film), "Qorxma, mən səninləyəm!" (1981, tammetrajlı bədii film), "Yol əhvalatı" (1980, tammetrajlı bədii film) filmlərində – dekor rəssamı, "Evlənmək istəyirəm" (1983, tammetrajlı bədii film), "Avqust gələndə" (1984, tammetrajlı bədii film), "Köhnə bərə" (1984, tammetrajlı bədii film), "Qara gölün cəngavərləri" (1984, tammetrajlı bədii film), "Sizi dünyalar qədər sevirdim" (1985, tammetrajlı bədii film), "İşarəni dənizdən gözləyin" (1986, tammetrajlı bədii film), "Özgə ömür" (1987, tammetrajlı bədii film), "Hər şey yaxşılığa doğru" (1997, qısametrajlı bədii film) – dekor rəssamı, "Od içində" (1978, tammetrajlı bədii film), "Musiqi müəllimi" (1983, tammetrajlı bədii film), "Girişmə, öldürər" (1991, tammetrajlı bədii film) filmlərində – geyim rəssamı, "Gənc qadının kişisi" (1988, tammetrajlı bədii film), "Murad-sad" (1988, qısametrajlı bədii film), "777 №-li iş" (1992, tammetrajlı bədii film), "Son döyüş" (1996, tammetrajlı bədii film) filmlərində – rəssam kimi fəaliyyət göstərmişdir

Rəssam "Mozalan" satirik kinojurnalının 100-dən artıq süjetinin və bir neçə klipin bədii tərtibatını vermişdir. Bir neçə filmdə quruluşçu rəssam və geyim üzrə rəssam olmuşdur.

Fikrət Ağazeynal oğlu Ələkbərov 2008-ci ildə Azərbaycan Respublikasının Əməkdar rəssamı fəxri adına layiq görülmüşdür.


İnternetdə:

https://az.wikipedia.org/wiki/Fikr%C9%99t_%C6%8Fl%C9%99kb%C9%99rov
https://arki.az/az/news/631/emekdar-ressam-fikret-elekberovun-75-illik-yubileyidir
http://kinobiz.az/celebrity/fikr%C9%99t-%C9%99l%C9%99kb%C9%99rov/
https://525.az/news/52001-kino-ressami-fikret-elekberovun-70-illiyi-qeyd-edildi

Əşrəf Heybətov - 75

(1951)

Rəssam



Əşrəf Nəzir oğlu Heybətov 18 fevral 1951-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1979-cu ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir.

1991-ci ildən UNESCO-nun Beynəlxalq Rəssamlar Federasiyasının üzvüdür. O, Avropada Azərbaycan Mədəni Xadimləri Assosiasiyasının sədri, Beynəlxalq "Sülh səfiri", Azərbaycan Rəssamlar İttifaqının fəxri üzvü, "Dünya xalqları incəsənəti" Beynəlxalq Assosiasiyasının mükafatı laureatıdır. Eyni zamanda Rusiya Federasiyası Rəssamlar İttifaqının, Rusiya Şərqşünaslıq Cəmiyyətinin, Almaniya Rəssamlar Birliyinin, Beynəlxalq PDA ("Platforma, Dialoq, Avrasiya") təşkilatının və Qərbi Avropa Elm və Mədəniyyət Akademiyasının üzvüdür. O, həmçinin "Azərbaycan–Almaniya" Dostluq Cəmiyyətinin İdarə Heyətində təmsil olunur və Çingiz Aytmatov adına Beynəlxalq Fondun Avropa ölkələri üzrə kuratoru kimi fəaliyyət göstərir.

Əşrəf Heybətovun yaradıcılıq və ictimai fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1991-ci ildə "Azərbaycan Respublikasının Əməkdar rəssamı", 27 may 2018-ci ildə isə "Azərbaycan Respublikasının Xalq rəssamı" fəxri adına layiq görülmüşdür. 13 mart 2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə dünya azərbaycanlılarının həmrəyliyi sahəsində fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif olunmuşdur. 2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan vətəndaşlığı almışdır.

Rəssamın yaradıcılığının əsas mövzusu Azərbaycan, onun tarixi, mədəniyyəti və xalqının həyat tərzidir. Əslən İçərişəhər mühitinə bağlı olan Əşrəf Heybətov əsərlərinin böyük hissəsində Bakının qədim İçərişəhər hissəsinin dar küçələrini, Abşeron mühitini və milli tipajları təsvir etmişdir. Son illərdə isə yaradıcılığında ümumtürk miqyaslı mövzulara üstünlük vermişdir.

Əşrəf Heybətovun əsərləri janr və texnika baxımından zəngindir. Onun yaradıcılığında yağlı boya, qrafika, monumental sənət, portret və dizayn nümunələri mühüm yer tutur. Əsərlərində Şərq və Qərb bədii-estetik ənənələrinin sintezi, fəlsəfi və simvolik yanaşma aydın şəkildə müşahidə olunur. Bu xüsusiyyətlər onun yaradıcılığının beynəlxalq miqyasda maraq doğurmasına səbəb olmuşdur.

Rəssamın yaradıcılığına həsr olunmuş bir sıra nəşrlər işıq üzü görmüşdür. "Qarabağa gedən 44 günlük yol", "Xocalı faciəsi" jurnal-kataloqları, "Almaniyadan 100 rəsm" adlı kitab, eləcə də Vətən müharibəsində qazanılmış qələbəni tərənnüm edən genişmiqyaslı panno onun son dövr yaradıcılığının mühüm mərhələsini təşkil edir. 2023-cü ildə "Bizim Şuşa" adlı albomu nəşr olunmuşdur.

Əşrəf Heybətovun əsərləri çoxsaylı beynəlxalq sərgilərdə nümayiş etdirilmiş, müxtəlif ölkələrdə Azərbaycan mədəniyyətinin tanıdılması və təbliği baxımından əhəmiyyətli rol oynamışdır. Hazırda o, Almaniyanın Koblents şəhərində yaşayır və yaradıcılıq fəaliyyətini burada davam etdirir.

Ədəbiyyat:

"Mən vətəni, təbiəti sevməyi böyük Səttardan öyrənmişəm" /Ə. Heybətov; söhbətləşdi: Runa //Hürriyyət .-2021.- 28 dekabr.- S.11.

"Qürbətdə olan yalnız cismimdir, ruhum hər zaman vətənimdədir..." /Ə. Heybətov; söhbətləşdi: Runa //Hürriyyət .-2022.- 18 yanvar.- S.3.


İnternetdə:

https://az.baku-art.com/az/bu-gun-azerbaycanin-xalq-ressam-eshr-f-heyb-tovun-dogum-g-n-d-r

Böyükağa Mirzəzadə – 105

(1921-2007)

Rəssam



Böyükağa Məşədi oğlu Mirzəzadə 1921-ci il fevral ayının 21-də Bakının Fatmayı qəsəbəsində anadan olmuşdur.

Ə.Əzimzadə adına Rəssamlıq məktəbini, Moskva Ali Rəssamlıq məktəbini, 1939-cu ildə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu və 1973-cü ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir.

Əmək fəaliyyətinə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunun müəllimi kimi başlayan Böyükağa Mirzəzadə digər görkəmli sənətkarlarımızla birlikdə Azərbaycan rəssamlıq məktəbinin müasir tələblər səviyyəsində qurulmasında və müvafiq təhsil prosesinin təşkil olunmasında yaxından iştirak etmişdir. Ömrünün son günlərinədək pedaqoji fəaliyyətlə məşğul olan Böyükağa Mirzəzadə Azərbaycan Dövlət İncəsənət İnstitutunda kafedra müdiri və Azərbaycan Rəssamlıq Akademiyasının professoru, yaradıcılıq emalatxanasının rəhbəri vəzifələrində çalışmışdır.

1940-cı ildən etibarən yerli və beynəlxalq sərgilərdə fəal iştirak etmişdir. Rəssamın yaradıcılığı həm çoxşaxəli və həm də məhsuldar olmuşdur. Böyükağa Mirzəzadə rəssamlıq sənətinin bir neçə janrında eyni dərəcədə yüksək sənət meyarlarına uyğun əsərlər yaratmışdır. Rəssamın süjetli tablo, mənzərə, portret, natürmort, teatr-dekorasiya və digərc sahələrdə yaratdığı sənət nümunələrinə nəzər yetirərkən, sənətkarın yaradıcılıq dühasının genişliyi və əhatəliliyinin, cəsarətli rəng çalarlarının, bədii təxəyyülünün və ecazkar fırçasının qüdrətinin bir daha şahidi olmaq olar. Rəssam süjetli tabloların gözəl nümunələrini yaratmışdır. Bunlardan "Pambıq tarlasında", "Pambıq yığımı", "Çimərlikdə", "Günorta", "Bizim Lənkəranda", "Xəzər neftçiləri", "Bizim kəndin insanları", "Səhnə arxasında" və digər əsərlərini qeyd etmək olar.

Böyükağa Mirzəzadənin yaradıcılığında əsas yerlərdən birini də portret janrı tutmuş və onun bu sahədəki fəaliyyəti diqqəti xüsusilə cəlb etmişdir.

O, Azərbaycan mədəniyyətinin, incəsənətinin, musiqisinin inkişafında böyük xidmətləri olan şəxsiyyətlərin Maestro Niyazinin, S.Bəhlulzadənin, Ş.Bədəlbəylinin, L.Kərimovun, M.Seyidzadənin, X.Mirzəzadənin yağlı boya ilə çəkilmiş portretləri işləmişdir.

Rəssam, eyni zamanda, yaddaqalan natürmortlar müəllifi kimi də tanınır. Böyükağa Mirzəzadə güllərlə bağlı xeyli sayda natürmort yaratmışdır. "Sarı güllər", "Tüstü ilə natürmort", "Dolça ilə natürmort", "Qızılgüllər", "Güllərlə natürmort", "Bankalı natürmort" kimi əsərlər rəssamın yaradıcılığında xüsusi yer tutur.

Böyükağa Mirzəzadə həm də İ.Əfəndiyevin "Mənim günahım" pyesinə, Z.Bağırovun "Qayınana", İ.Kalmanın "Bayadera" musiqili komediyalarına bədii tərtibat vermişdir.

Böyükağa Mirzəzadə rəssamlıqla yanaşı, pedaqoji fəaliyyət də göstərmişdir. O, uzun illər Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında müəllim, dosent, professor və kafedra müdiri kimi çalışmışdır.

Böyükağa Mirzəzadə keçmiş Çexoslovakiya, həmçinin Fransa, İtaliya və digər xarici ölkələrdə yaradıcılıq ezamiyyətlərində olmuşdur. Rəssamın xaricdə və ölkəmizdə bir çox fərdi sərgiləri təşkil edilmişdir. Onun əsərləri ölkəmizlə yanaşı, bir çox xarici ölkələrin muzey, qalereya və şəxsi kolleksiyalarında saxlanılır.

Böyükağa Mirzəzadənin yaradıcılığı xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1960-cı ildə Azərbaycan SSR-nin "Əməkdar incəsənət xadimi", 1967-ci ildə isə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüşdür. 1966-cı ildə Üzeyir Hacıbəylı adına Dövlət mükafatını almış, 1998-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən "Şöhrət" ordeni ilə təltif edilmişdir. 2002-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Böyükağa Mirzəzadə 2007-ci il noyabr ayının 3-də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Böyükağa Mirzəzadə, 1921-2007 [İzomaterial]: rəngkarlıq, qrafika, səhnə tərtibatı / Layih. rəhb. Ç.Fərzəliyev; mətnin müəl. G.Quliyeva; ing. dilinə tərc.: İ.Peart, S. İbrahimova, Ə.Məlikova; fotolar Ə.Ağasiyev; baş dizayner İ.Eldarova. - Bakı: Sərvət, [Şərq-Qərb], 2013. - 104 s.

Mirzəzadə, L. Azərbaycan xalq rəssamı Böyükağa Mirzəzadənin yaradıcılığı / L.B.Mirzəzadə; red. Ş.Alıbalıyev. - Bakı: Təknur, 2011. - 159 s.

İslamova, H. "Opera teatrında fasilə" / Humay İslamova müsahibəni apardı: A.Sahəd // 525-ci qəzet .-2022.- 14 dekabr.- S.11.

Əsgərli, F. "Çay yığan qızlar" / Fatma Əsgərli: müsahibəni apardı A.Sahəd // 525-ci qəzet.-2023.- 8 mart.- S.13.

Çərpələng uçuran: [roman] /X. Hüseyni; [ing. tərc. ed. X. İsmayıl; qapaq dizaynı R. Qasım; üz qapağındakı rəsm B. Mirzəzadə].- [Bakı]: [Əli və Nino].- [2024]. -447 s.


İnternetdə:

https://az.wikipedia.org/wiki/B%C3%B6y%C3%BCka%C4%9Fa_Mirz%C9%99zad%C9%99

Oqtay Sadıqzadə - 105

(1921-2014)

Rəssam



Ədəbiyyat:

Rəngkarlıq. Qrafika [İzomaterial] / Oqtay Sadıqzadə. - [Bakı]: [Şərq-Qərb], [2011]. - 32 s.

Qafarzadə, R. Oqtay Sadıqzadə yaradıcılığı Azərbaycan təsviri sənəti kontekstində: sənətşün. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis.: 6215.01 / R.M.Qafarzadə; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dövlət Rəssamlıq Akademiyası. - Bakı: 2013. - 143 s.

Oqtay Sadıqzadə [İzomaterial]: rəngkarlıq, qrafika / Layih. rəhb. Ç.Fərzəliyev; mətnin müəl. G.Qacar; ing. dilinə tərc.: İ. Peart, S.İbrahimova, Ə.Məlikova; fotolar Ə.Ağasiyev; baş dizayner İ.Eldarova. - Bakı: Sərvət, [Şərq-Qərb], 2013. - 104 s.

Cəfərli, T. Oqtay Sadıqzadənin "Göy qurşağında portretlər" qalereyası / Toğrul Cəfərli // Hürriyyət. - 2023. - 14 noyabr, №42.- S.15.

Ağayeva , F. "Nəriman Nərimanov. 20-ci illər" / Firuzə Ağayeva: müsahibəni apardı Aytac Sahəd // 525-ci qəzet. -2024.- 15 may, №84.-S.10.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Oqtay_Sad%C4%B1qzad%C9%99

Oqtay Seyid Hüseyn oğlu Sadıqzadə 1921-ci il fevral ayının 21(24)-də Xızıda, yazıçı Seyid Hüseynin və şairə Ümgülsümün ailəsində anadan olmuşdur. O, 1935-1939-cu illərdə Bakı Rəssamlıq Texnikumunda təhsil almış, ilk əsərləri ilə sənətşünasların diqqətini cəlb etmişdir. 1941-ci ildə repressiyaya məruz qalmış ailənin nümayəndəsi kimi sürgün olunmuş, lakin düşdüyü ağır şəraitə baxmayaraq, yaradıcılığını davam etdirmişdir.

Oqtay Sadıqzadə 1946-cı ildə Bakıya qayıtdıqdan sonra kitab qrafikası ilə məşğul olmağa başlamışdır. Təhsilini davam etdirmək üçün Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna daxil olmuş, 1956-cı ildə oranı qrafika ixtisası üzrə bitirmişdir. Bakıda "Azərnəşr"də bədii redaktor kimi əmək fəaliyyətinə başlayan rəssam çalışdığı ilk illərdən Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinə illüstrasiyalar çəkmişdir. Rəssam 1940-1950-ci illərdə İ.S.Turgenevin "Atalar və oğullar", O.Balzakın "Qorio ata", M.Qorkinin "Artamonovların işi", İ.Qasımov və H.Seyidbəylinin "Uzaq sahillərdə" (1954), V.Hüqonun "Səfillər" (1955-1963), C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" (1958-1959), Xaqaninin "Lirika" (1958), Nizaminin "Fitnə" (1966), R. Nuri Güntəkinin "Çalıquşu" (1963) və başqa əsərlərə maraqlı kitab illüstrasiyaları yaratmışdır.

O.Sadıqzadənin rəngkarlıq sahəsində süjetli tablo və portret janrında bir-birindən maraqlı "Lənkəran qızları" (1965), "Kolxozçu qadınlar" (1972), "Oğullarını itirmiş ananın xatirəsinə" (1985), "Hüseyn Cavid" (triptix), (1997), "Nizami və dünya mədəniyyəti" silsiləsindən (1993-1999) "Nizami və Azərbaycan mədəniyyəti", "Nizaminin sələfləri", "Nizaminin davamçıları", "Qədim Yunan filosofları", "Avropa mədəniyyət xadimləri", "Seyid Hüseyn" (1960), "Tatalovanın portreti" (1963), "Qız portreti" (1966), "Bakılı qız" (1975), "Natəvan" (1983), "Fidan Qasımova" (1988), "Akademik Zərifə xanım Əliyeva" (2000) və s. yadda qalan əsərlər yaratmışdır.

Fırça ustasının qrafika və rəngkarlıq əsərləri hazırda R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət, Nizami adına Ədəbiyyat, Dövlət Tarix, C.Cabbarlı adına teatr, eləcə də Üzeyir Hacıbəyovun, Səməd Vurğunun, Bülbülün, Hüseyn Cavidin ev-muzeylərində, həmçinin, Dövlət Şəkil Qalereyasında və Almaniya, ABŞ, Kanada, İsrail, Belorus və Pakistanda şəxsi kolleksiyalarda saxlanılır. Azərbaycanda müasir rəssamlıq məktəbinin təşəkkülü və inkişafında onun böyük xidmətləri olmuşdur. Pedaqoji sahədə səmərəli fəaliyyət göstərməklə o, özünün zəngin bilik və təcrübəsini gənc rəssamlar nəslinin yetişdirilməsi işinə həsr etmişdir.

Oqtay Sadıqzadənin Azərbaycan təsviri sənətinin inkişafındakı xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmiş, fəxri fərmanlar və mükafatlarla təltif olunmuşdur. O, 1977-ci ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi", 1992-ci ildə isə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüşdür. 1999-cu ildə müstəqil respublikamızın ali mükafatları olan "Şərəf", 2011-ci ildə "Şöhrət" ordenləri ilə, 2014-cü ildə təsviri sənətin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikasının Dövlət mükafatı ilə təltif olunmuşdur.

Oqtay Sadıqzadə 2014-cü il dekabr ayının 20-də Bakı şəhərində vəfat etmişdir.

Rəşid Məmmədov – 90

(1936-2006)

Bəstəkar



Rəşid Rza oğlu Məmmədov 1936-cı il fevral ayının 2-də Naxçıvan şəhərində Sarvanlar məhəlləsində anadan olmuşdur.

Rəşid Məmmədov Naxçıvan şəhərindəki uşaq musiqi məktəbinin tar sinfində təhsil aldıqdan sonra 1953-cü ildə Asəf Zeynallı adına Bakı orta ixtisas musiqi texnikumunun xalq çalğı alətləri şöbəsinin tar sinfinə daxil olmuşdur. O, 1967-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) xalq çalğı alətləri şöbəsini bitirmişdir.

Rəşid Məmmədov 1957-ci ildə Naxçıvan Muxtar Respublikada əmək fəliyyətinə başlamış, 1 saylı Uşaq Musiqi Məktəbində tar müəllimi işləmişdir. 1961-1976-cı illərdə Naxçıvan şəhər 1 №-li Uşaq Musiqi məktəbində direktor, 1976-1979-cu illərdə Naxçıvan Xalq Yaradıcıllıq evinin direktoru, 1979-1982-ci illərdə Şahbuz rayon musiqi məktəbinin direktoru, 1982-ci ildə Naxçıvan Orta İxtisas Musiqi Texnikumunda direktor, 1995-2001-ci illərdə isə Naxçıvan Şəhər Mədəniyyət Şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

Bəstəkar yetişdirdiyi tələbələrdən ibarət Naxçıvanda ilk dəfə olaraq xalq çalğı alətləri orkestri yaratmışdır. 1 nömrəli uşaq musiqi məktəbinin Naxçıvan Muxtar Respublikasının rayonlarında filiallarının açılmasına nail olmuşdur. Beləliklə, 1965-ci ildə Ordubadda, 1966-cı ildə Culfada, 1967-ci ildə Şahbuz rayonunda məktəbin filialları açılmışdır.

1976-1979-cu illərdə Rəşid Məmmədov qədim musiqi alətləri tulum və ya tütək çalanlardan ibarət ansambl yaratmış və bu kollektivlər 1977-ci ildə Moskvada keçirilən "Etnoqrafik rəqslər" festivalında yüksək mükafata layiq görülmüşdür. 1979-1982-ci illərdə Şahbuzda ilk dəfə olaraq Şirzad Fətullayevin iştirakı ilə nəfəsli alətlər orkestri yaratmışdır.

Rəşid Məmmədovun bəstəkarlıq yaradıcılığı da çoxşaxəli olmuşdur. O, bir çox şairlərin sözlərinə mahnılar bəstələmişdir. Ümumilli liderimizə həsr olunan "Sənsən xilaskar", "Sən əbədiliksən", doğma yurdumuza həsr olunan "Doğma Naxçıvan", müxtəlif mövzularda yazdığı "Baxma, oğlan", "Küsmə, ay qız", "Daşlara yazdım", "Qurban gedər eşqimiz", "Ana laylası", "Xoşbəxt ol, ay qız", "Nişanlı qızlar", "Şirin varisim" və başqaları.

Rəşid Məmmədov Naxçıvan Dövlət Musiqili Dram Teatrında səhnəyə qoyulan "Nəsrəddin şah", "Səyavuş", "Zirehli qatar", "Odlu diyar", "İtilənən xəncərlər", "Alınmaz qala" və s. tamaşalara musiqilər bəstələmişdir.

Onun fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 1973-cü ildə Naxçıvan MSSR-in Əməkdar Mədəniyyət işçisi, 1999-cu ildə isə əməkdar incəsənət xadimi fəxri adı ilə təltif edilmişdir. 2006-cı ildə Prezident Mükafatına layiq görülmüşdür.

Rəşid Rza oğlu Məmmədov 2006-cı il iyun ayının 20-də Naxçıvanda vəfat etmişdir.

Ədəbiyyat:

Məmmədov Rəşid Rza oğlu // Naxçıvan ensiklopediyası: NE : 2 cilddə /AMEA, Naxçıvan bölməsi; red. hey. B. Budaqov [və b.]; burax. məsul. V. Talıbov; [məqalələrin müəl. Y. Axundlu [və b.].- Cild 2. - Naxçıvan: 2005.- S. 34.

Kərimov, R. Rəşid Rza oğlu Məmmədov (1936-2006) / Rafiq Kərimov // Naxçıvan musiqi mədəniyyəti tarixindən. Musiqi təhsili / R.Kərimov. - Bakı, 2012. - S. 56-69.

Vəzirov, C. İllərin nəğmə yaddaşı / Cəlil Vəzirov. - Naxçıvan, 2001.

İnternetdə:

https://az.wikipedia.org/wiki/R%C9%99%C5%9Fid_M%C9%99mm%C9%99dov_(b%C9%99st%C9%99kar)

Yusif Axundzadə - 80

(1946)

Hərbi dirijor



Axundzadə Yusif Yevgeniyeviç 1946-cı il fevral ayının 6-da Bakı şəhərində anadan olmuşdur.

O, 1964-1969-cu illərdə Azərbaycan Dövlət Konservatoriyasının fleyta sinfində təhsil almışdır.

Axundzadə Yevgeniyeviç 1969-1970-ci illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının orkestrində musiqiçi vəzifəsində işləmişdir. 1970-ci ildən hərbi xidmətə başlamışdır.

Görkəmli hərbi dirijor müxtəlif vaxtlarda Moskvada Qızıl meydanda keçirilən hərbi paradlarda iştirak etmişdir.

Axundzadə Yevgeniyeviç 1971-1992-ci illərdə Ali Hərbi Dənizçilik məktəbi orkestrinin dirijoru olmuşdur. 1992-ci ildən etibarən Müdafiə Nazirliyinin Hərbi Orkestr xidmətinin rəisidir. 1989-cu ildən "Nəfəs və zərb alətləri" kafedrasında müəllim, 1994-cü ildən dosent, 1999-cu ildən professor vəzifəsində çalışır. 2008-ci ildə Bakı Musiqi Akademiyası nəfəs və zərb alətləri kafedrasının müdiridir.

O, "Azərbaycan himni" (nəfəsli orkestr üçün partitura) (1996), "Azərbaycan bəstəkarlarının (əlyazması) hərbi marşlar" (1996), "Bakalavr" dərəcəsi ilə bitirən üçün dirijorluq etməyə dair proqram (1998), "Magistr" dərəcəsi ilə bitirən üçün dirijorluq etməyə dair proqram (1998), "Azərbaycan bəstəkarlarının əsərləri" (əlyazması) (2000) adlı əlyazma, proqram və kitabların hazırlanmasında və nəşrində redaktor qismində iştirak etmişdir.

Axundzadə Yevgeniyeviçin fəaliyyəti dövlət tərəfindən hər zaman yüksək qiymətləndirilmişdir. 1979-cu ildə Əməkdar Mədəniyyət işçisi, 1988-ci ildə Əməkdar İncəsənət xadimi, 1998-ci ildə Azərbaycan Respublikasının "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 2003-cü ildə "Hərbi xidmətlərə görə" medalı və 2005-ci ildə Azərbaycan Bayrağı Ordeni ilə təltif edilmişdir. 2015-ci ildə General-Mayor rütbəsi almışdır. 2016-cı ildən prezident təqaüdçüsüdür. 2021-ci ildə Azərbaycanda musiqi sənətinin inkişafında xidmətlərinə görə "Şöhrət" ordeninə layiq görülmüşdür.

Ədəbiyyat:

Y.Y.Axundzadəyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 24 iyun 2016-cı il // Azərbaycan. - 2016. - 25 iyun. - S. 2.

Axundzadə, R. General Yusif Axundzadə / Rüfət Axundzadə, P. Səfərli ; xüsusi red. Ç. Məmmədov. -Bakı: Mütərcim -2016. - 191, [1] s.

Pənahov, A. Ömür yolu örnək olan insanlar xalqın sərvətidir /Arif Pənahov // Azərbaycan ordusu. - 2016.- 14 dekabr. - S. 6.

Yusif Axundzadə "Şöhrət" ordeni ilə təltif olunub //Mədəniyyət .-2021.- 10 fevral.- S.2.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Yusif_Axundzad%C9%99


https://musicacademy.edu.az/az/nefes-zerb-muallimler/296-axundzade-yusif.html

http://www.anl.az/down/meqale/medeniyyet/2021/fevral/734125(meqale).pdf

Məmməd Quliyev – 90

(1936-2001)

Bəstəkar



Məmməd Mehdi oğlu Quliyev 1936-cı il fevral ayının 9-da Göyçay rayonunda anadan olmuşdur.

O, 1958-ci ildə Bakı Musiqi Texnikumunu tar sinfi üzrə bitirərək Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına - Qara Qarayevin sinfinə daxil olmuşdur. 1963-cü ildə diplom işi kimi təqdim etdiyi ilk irihəcmli əsəri - I simfoniyası, Dövlət imtahan komissiyası tərəfindən yüksək qiymətləndirilmişdir.

XX əsrin 60-cı illərində yaradıcılığa başlamış bəstəkarın maraqlı, orijinal və yüksək bədiiliyi ilə seçilən əsərləri nəinki respublikamızda, habelə onun hüdudlarından kənarda da musiqi ictimaiyyətinin diqqətini cəlb etmiş, əsərləri Ümumittifaq müsabiqələrdə, qurultay və plenumlarda uğurla səslənmişdir.

Məmməd Quliyev 30 ildən artıq pedaqoji fəaliyyətlə məşğul olmuş, A.Zeynallı adına Bakı Musiqi Kollecində alətşünaslıq, dirijorluq fənlərini tədris etmişdir.

İctimai musiqi xadimi kimi Məmməd Quliyev 1966-cı ildən Azərbaycan Bəstəkarlar İttifaqının, İdarə Heyətinin üzvü, habelə "Simfonik musiqi bölməsi"nin fəal üzvlərindən biri olmuşdur.

Xalq mahnılarının melodiya və formasını götürüb özünəməxsus şəkildə orkestrləşdirən M.Quliyev, ilk dəfə olaraq Azərbaycan bəstəkarları arasında məhz xalq mahnılarından ibarət "7 Azərbaycan xalq mahnısı" ("Dəli ceyran", "Süsən sünbül", "Yaxan düymələ" və s.) adlı irihəcmli silsilə mahnı bəstələmiş və onu, bu əsərin ilk ifaçısı, Əməkdar incəsənət xadimi, müğənni R.Adıgözəlova ithaf etmişdir. M.Quliyevin 20 pyesdən ibarət olan "Fortepiano üçün albom" əsərində bəstəkar hər muğamı bir pyes şəklində təqdim etmişdir.

Məmməd Quliyev "Aldanmış ulduzlar" (M.F.Axundovun povesti əsasında) operasının, 7 simfoniyanın, instrumental konsertlərin, irihəcmli xor əsərlərinin, o cümlədən "Dədə Qorqud diyarı" (Fikrət Qocanın sözlərinə) kantatasının, "Şəbi-hicran" (Füzulinin sözlərinə) lirik poemanın, kamera-instrumental əsərlərin müəllifidir. Xocalı qurbanlarına həsr olunmuş faciəli "Simfoniya-rekviyem" isə yaşanan ağrılı-acılı hisslərin ifadəsi kimi dəyərləndirilir. Bəstəkar, şair F.Qocanın sözlərinə yazdığı 5 solist, qarışıq xor və simfonik orkestr üçün "Azərbaycan" adlı III simfoniyasındakı solo vokal partiyalarda qədim mərasim mahnısı olan ağıdan bacarıqla və yaradıcı şəkildə istifadə etmişdir.

Yaradıcılığında daim muğam ənənələrinə müraciət etmiş bəstəkar xüsusilə simfonik yaradıcılığında bu üsuldan geniş istifadə etmişdir. Onun 4 saylı "Muğam" simfoniyası, Kamera orkestri üçün "Muğamsayağı" əsərini göstərmək olar.

Görkəmli bəstəkar 1992-ci ildə "Azərbaycanın Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Məmməd Mehdi oğlu Quliyev 2001-ci il oktyabr ayının 2-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

"Dədə Qorqud diyarı" -Azərbaycan [Notlar]: bariton, soprano, xor və simfonik orkestr üçün hissəli oratoriya /Məmməd Quliyev. - Bakı, 2002.- 32 s.

Simfoniya-rekviyem (Xocalı şəhidlərinə) [Notlar] /Məmməd Quliyev.- Bakı, 1994.-22 s.

"Şəbi-hicran" [Notlar]: xor və simfonik orkestr üçün romantik poema /Məmməd Quliyev; söz. Füzuli.-Bakı, 2002.-19 s.


Məmməd Quliyevin xor əsərlərinin üslub xüsusiyyətləri: Sənətşünaslıq [üzrə] fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı: 6213.01 /Gülmira Qəhrəmanova. - Bakı: 2024. - 24, [1] s..

Məmməd Quliyevin "Aldanmış ulduzlar" operasının əsas kompozisiya xüsusiyyətləri / Leyla Cumayeva // Elmi əsərlər / Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.-2019.- №27.- S.83-87.

Anatollu Qəniyev - 95

(1931-1985)

Müğənni



Anatollu Mirzə Heydər oğlu Qəniyev 1931-ci il fevral ayının 10-da Neftçala rayonunun Züd-Ost Qoltuq kəndində anadan olmuşdur.

Uşaqlıqdan musiqiyə böyük həvəs göstərmişdir. 1953-cü ildə əsgərlik xidmətini bitirdikdən sonra Bülbülün məsləhətilə Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbinə daxil olmuşdur. Müəllimi F.Mehdiyev olmuşdur. Tələbə vaxtlarında "Araz" kinoteatrında çıxış etmişdir. Peşəkar ifaçılıq fəaliyyətinə Cahangir Cahangirovun rəhbərlik etdiyi Azərbaycan Televiziyasının xorunda başlamışdır.

Anatollu Qəniyev 1959-cu ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti dekadasında iştirak etmiş, 1960-cı illərin əvvəllərində Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuşdur. Tofiq Əhmədovun rəhbərlik etdiyi Azteleradionun estrada orkestrinin solisti kimi Polşada, Almaniyada, Çexoslovakiyada, Kubada uğurlu qastrol səfərlərinə çıxmışdır.

O, "Çıx yaşıl düzə", "Reyhan", "Teymurun mahnısı", "Dəyişmərəm", "Bakının ulduzları", "Şəlalə", "Ay qız", "Qonşular" (E. Rəhimova ilə duet), "Yaşa könül", "İlk görüşdən gəlirəm", "Səni haylaram", "Bu dərə uzun dərə" və s. kimi ifa etdiyi mahnılarla şöhrət qazanmışdır.

Anatollu Qəniyev 1970-ci illərin axırlarında "Azkonsert" kimi tanınan Dövlət Konsert-Qastrol Birliyinin solisti olmuşdur. "Koroğlu", "Möcüzələr adası", "Ulduzlar sönmür", "Qanun naminə", "Alma almaya bənzər", "Azərbaycan elləri" filmlərinə yazılmış mahnıları ifa etməklə kino musiqisində də öz izini qoymuşdur.

Yaradıcılığı boyunca bir çox bəstəkarlarla əməkdaşlıq etmişdir. 1959-cu ildə Şəfiqə Axundova Özbəkistanın birinci katibi Şərəf Rəşidovun librettosu əsasında "Bamburun mahnıları" adlı operetta yazmışdır. Operettanın ilk radiotamaşasında bütün mahnıları Anatollu Qəniyev ifa etmişdir. "Süfrə", "Nuş olsun", "Naznaz", "Badamlı" və s. başqa mahnıların ilk ifaçısı Anatollu Qəniyev olmuşdur. "Yenilməz batalyon" filminin mahnısını da Vasif Adıgözəlov onun üçün yazmışdır.

Anatollu Mirzə Heydər oğlu Qəniyev 1985-ci il oktyabr ayının 1-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Əfşani. N. Məhəbbət harayı: publisist və bədii əsərlər /Nəzakət Əfşani ; red. Ş. Şahməmmədov ; naşir T. Vəlixanlı.-Bakı: Mütərcim, 2002.-440 s.

Kəbutər. Daxilən kədərli-qəmli, zahirən gülərüz: Anatollu Qəniyevin bu gün ad günüdür / Kəbutər // Yeni Azərbaycan. - 2003. - 8 fevral.- S. 8.

Əbilov, İ. Novruzgülü ömrü [müğənni Anatollu Qəniyev haqqında] / İmamverdiƏbilov // Qobustan. - 1989. - №1. - S. 91-93.

İnternetdə:

https://az.baku-art.com/az/bu-gun-taninm-sh-m-genni-anatollu-qeniyevin-ad-g-n-d-r

https://az.wikipedia.org/wiki/Anatollu_Q%C9%99niyev

https://web.archive.org/web/20100731120039/http://www.azeriart.net/musiqi/anatollu.htm

Bəhram Mansurov – 115

(1911-1985)

Tarzən



Bəhram Məşədi Süleyman bəy oğlu Mansurov 1911-ci il fevral ayının 12-də Bakıda, İçərişəhərdə musiqiçi ailəsində anadan olmuşdur. İlk təhsilini mədrəsədə, sonra isə rus-tatar məktəbində almışdır. Tar çalmaq sənətini atasından və əmisi Mansur Mansurovdan öyrənmişdir.

O, 1929-cu ildən Azərbaycan Dövlət Şərq orkestrində, sonralar Azərbaycan Televiziya və Radiosunun Xalq çalğı alətləri orkestrində fəaliyyət göstərmiş, Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuş, C.Qaryağdıoğlu, S.Şuşinski, H.Sarabski, H.Rzayeva, Z.Adıgözəlov və d. görkəmli xanəndələri müşayiət etmişdir. Ustad tarzən kimi tarın bədii-texniki vasitələrindən məharətlə istifadə etmiş, mizrabi – dəstikari üsulunun – tarın qrifində sol əllə çalmaq üsulunun nadir ifaçılarından olmuş, Sadıqcan, Mirzə Mansur, Məşədi Süleymanın tar ifaçılığının davamçısı olaraq, bir çox texniki üsulları, mürəkkəb çalğı texnikasını yaşatmış və davam etdirmişdir.

1931-ci ildə Üzeyir Hacıbəyli və Müslüm Maqomayevin təşəbbüsü ilə xalq musiqi alətlərinin ilk notlu orkestri yaradıldıqda 20 yaşlı Bəhram Mənsurov Müslüm Maqomayev tərəfindən kollektivə dəvət olunmuşdu. Bir müddət keçdikdən sonra Maqomayevin təklifi ilə Bəhramı Mənsurov Radio Komitəsində birinci dərəcəli tar ifaçısı kimi işə götürmüşlər. 1932-ci ildən Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti və konsertmeysteri olmuş, uzun illər boyu muğam operalarını tarda müşayiət etmişdir.

Bəhram Mansurovun muğam operaları üçün müğənnilərin hazırlanmasında xidməti böyükdür. Onun ifasından "Çahargah" (1970) və "Rast" (1978) muğamları nota salınmışdır (bəstəkar Nəriman Məmmədov tərəfindən). "Bayatı-Şiraz", "Hümayun", "Nəva-Nişapur", "Şur", "Bayatı-kürd", "Mahur-Hindi", "Çahargah" muğamları ilk dəfə olaraq, YUNESKO xətti ilə qrammofon valına yazılmışdır.

Bəhram Mansurov 1978-ci ildə musiqişünasların Səmərqənddə keçirilən beynəlxalq simpoziumunun, "Bəstəkar və folklor" Ümumittifaq festivalının iştirakçısı olmuşdur.

1941-ci ildən Azərbaycan Dövlət Musiqi Məktəbində pedaqoji fəaliyyət göstərmişdir. Görkəmli tarzən 54 il Opera və Balet Teatrında çalışmış, muğam operalarında xanəndələri müşayiət etmişdir. Onun ifasında olan bütün muğamlar, dəraməd, diringə, təsnif və rənglər oğlu Eldar Mansurov tərəfindən nota salınmışdır.

1971-ci tarzən Bəhram Mansurova həsr olunmuş "Çalır Bəhram Mansurov" sənədli televiziya filmi çəkilmişdir. 1956-cı ildə "Əməkdar artist", 1978-ci ildə isə "Xalq artisti" fəxri adına layiq görülmüşdür.

Bəhram Məşədi Süleyman bəy oğlu Mansurov 1985-ci il may ayının 14-də Bakıda vəfat etmiş, Yasamal qəbiristanlığında dəfn olunmuşdur.

Azərbaycan Respublikasının Prezident İlham Əliyevin Sərəncamı ilə 2011-ci ildə anadan olmasının 100 illiyi qeyd edilmişdir. Yaradıcılığı bu gün də tədqiq olunur, haqqında bir çox kitab, monoqrafiya və məqalələr çap olunur.

Ədəbiyyat:

Xatirələr / Bəhram Mansurov; tərt. ed.: M.Mansurova, E.Mansurov (ön söz). - Bakı: Ulu, 2016. - 272 s.

Bəhram Mansurov [Elektron resurs]: Bəhram Mansurovun 100 illik yubileyinə həsr olunmuşdur / Heydər Əliyev Fondu. - CD; DVD. - Bakı: Çaşıoğlu, 2011.- 5 CD; 2 DVD: 12 sm. + Qoşma kitab (23 s., şəkilli; 25x13 sm.)

Mansurov, E.Mansurovlar: Azərbaycan Respublikasının Xalq artisti, görkəmli tarzən Bəhram Mansurovun anadan olmasının 100 illiyinə ithaf edilir / Eldar Mansurov; elmi red. İ.Rəhimli. - Bakı: Çaşıoğlu, 2011. - 285 s.

Bəhram Mansurov : xatirələr və müsahibələr /A. Kənan ; red. P. Əlioğlu ; məsləhətçi E. Mansurov ; [kitabın üz qabığını işləyən M. Orucov].Bakı: [Zərdabi]. -2020. - 204, [4] s.

Bayramova, Y. Tarın tellərində köklənən ömür... : Bəhram Mansurovun anadan olmasından 114 il ötür /Y.Bayramova //Yeni Azərbaycan .-2025.- 12 fevral (№25).- S.8.

Gülbacı İmanova – 70

(1956)

Dirijor



Gülbacı Əliəkbər qızı İmanova 1956-cı il fevral ayının 13-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Konservatoriyasının məzunu olmuşdur.

O, 1980-ci ildən Bakı Musiqi Akademiyasında (BMA) xor dirijorluğu ixtisasından və xor fənnlərinin metodikasından fənlərini tədris etmişdir. 1989-cu ildən Şövkət Məmmədova adına Opera studiyasında baş xormeyster kimi fəaliyyət göstərmişdir.

Gülbacı İmanova 1993-cü ildən etibarən Bakı Musiqi Akademiyasının Dirijorluq kafedrasında çalışır. 1996-cı ildə Azərbaycan Dövlət Xor Kapellasına bədii rəhbər və baş dirijor vəzifəsinə təyin edilmişdir. Onun repertuarına Azərbaycan və dünya xalqlarının xor musiqisi, o cümlədən Amerika spiriçuelsi, klassik və müasir musiqi əsərləri, xüsusilə F.Əlizadənin "Journey İmmortalitu" oratoriyası daxil edilmişdir.

Gülbacı İmanovanın rəhbərliyi altında S.Qunonun "Santa Sesiliya" messası və milli kapellanın ilk dəfə ifa etdiyi V.Adıgözəlovun "Təntənəli kontata"sı kimi əsərlər Azərbaycan səhnəsində ilk dəfə ifa olunmuşdur.

Gülbacı İmanova müxtəlif operalara xor partiyaları hazırlamış, "Traviata", "Aida", "Trubadur", "Təlxəklər", "Kənd namusu", "Çar gəlini", "Aleko" və s. tamaşaların xormeysteri olmuşdur.

1999-cu ildən BMA-nın Dirijorluq kafedrasında dosent, sonra professor kimi fəaliyyət göstərmişdir. Müəllimlik etdiyi vaxtdan bir sıra dirijor-xormeyster yetişdirmişdir. Onlar arasında beş magistr, on bakalavr və bir neçə assistent-aspirant var.

1996-cı ildə Gürcüstan respublikasının, 1999-2000-ci illərdə Türkiyə Cümhuriyyətinin fəxri fərmanlarına və mükafatlarına layıq görülmüşdür.

2000-ci ilin oktyabr ayında "Əməkdar incəsənət xadimi", 2007-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Gülbacı İmanova müxtəlif illərdə Azərbaycan Respublikası Prezidentinin mükafatı ilə təltif edilmişdir. 2022-ci ildə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Ədəbiyyat:

Xəyyam Mirzəzadənin xor əsərləri: metodik tövsiyələr /Gülbacı İmanova; [elmi red.: G.İmanova; C.Həsənova; rəy.: C.Mahmudova, L.Məmmədova]; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Resp. Təhsil Prob. İn-tu; Ü.Haqcıbəyli ad. Bakı Musiqi Akad.- Bakı, 2008.- 16 s.

Xor musiqimizin bu günü: Gülbacı İmanova: "Əvvəlki illərlə müqayisədə xora maraq daha yüksəkdir" / Gülbacı İmanova; müsahibəni apardı: H. Nizamiqızı // Mədəniyyət. - 2012. - 10 oktyabr. - S. 7.

Qadın iradəsi və dirijor idarəsi /Gülbacı İmanova, müsahibəni apardı: Ü.Həsənli // BakuPost. - 2013. - 18 sentyabr. - S. 10.

Gülbacı İmanova //Qadınlar Azərbaycanın musiqi həyatında /layih. müəl., tərt. və red. A.Bayramova.- Bakı, 2004.- S.102.

Bu dəfə xorla...: "30-40 nəfərlik kapellanı idarə etmək 80-90 nəfərlik simfonik orkestrlə çalışmaqdan daha çətindir" / Gülbacı İmanova: müsahibəni apardı Həmidə Nizamiqızı // Mədəniyyət.-2021.- 17 mart.- S.5.

İnternetdə:

https://az.wikipedia.org/wiki/G%C3%BClbac%C4%B1_%C4%B0manova

http://www.anl.az/down/meqale/medeniyyet/2021/mart/738610.htm

Faiq Nağıyev - 80

(1946)

Bəstəkar



Ədəbiyyat:

Hüseynova, S. Faiq Nağıyev / Sevda. Hüseynova ; elmi red. L. Hüseynova ; [burax. məsul S. İsmayılova ; dizayner G. Qurbanova] ; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. -Bakı: Şərq-Qərb, 2014. -31, [1] s.: portr., fotoşək., 16 sm.

Arif Babayevin mahnı və təsnifləri [Notlar] : ali və orta ixtisas musiqi məktəbləri üçün dərs vəsaiti /nota köçürən və ansambl üçün işləyənlər : F. H. Nağıyev ; M. B. Quliyev ; red. R. M. Musazadə ; məsləhətçi M. İ. İbrahimov ; ön sözün müəl. M. Çəmənli.-Bakı: Təhsil, 2012. -70, [2] s.

Hüseynova, S. Bəstəkar Faiq Nağıyevin yaradıcılıq portreti /S.Hüseynova // Mədəniyyət .-2021.-19 fevral.- S.5.

İnternetdə:

https://www.anl.az/down/meqale/musiqi_dunyasi/2021/1-86/763130(-meqale).pdf

http://www.anl.az/down/meqale/medeniyyet/2021/fevral/735316.htm

http://www.anl.az/down/meqale/musiqi_dunyasi/2021/1-86/763130(-meqale).pdf

Faiq Həbib oğlu Nağıyev 1946-cı il fevral ayının 13-də Gəncə şəhərində anadan olmuşdur. İlk musiqi təhsilini 1955-1960-cı illərdə Gəncə şəhər 1 saylı uşaq musiqi məktəbinin kamança sinfində almış, daha sonra Qəmbər Hüseynli adına Gəncə Musiqi Texnikumunun kamança sinfində təhsilini davam etdirmişdir. 1964-1969-cu illərdə Azərbaycan Dövlət Konservatoriyasının "musiqişünaslıq", 1969-1975-ci illərdə isə Azərbaycan Dövlət Konservatoriyasının "Bəstəkarlıq" fakultəsində təhsil almışdır. Konservatoriyanı musiqişünaslıq ixtisasını professor Məmmədsaleh İsmayılovun rəhbərliyi ilə yazdığı "Humayun vokal-instrumental muğamı" mövzusunda diplom işini təqdim edərək bitirmişdir. Faiq Nağıyev böyük pedaqoq Qara Qarayevin sinfində kompozisiya, musiqi forması, müasir bəstəkarlıq texnikası sahəsində mükəmməl biliklərə yiyələnmişdir.

1975-ci ildə konservatoriyanı bitirdikdən sonra bəstəkar müxtəlif musiqi janrlarına müraciət edərək öz yaradıcılıq axtarışlarını davam etdirir. Bu dövrdə bəstəkarın yaradıcılığında əsasən xor musiqisi və vokal-simfonik janrlı əsərlər üstünlük təşkil etməyə başlayır. Artıq 1977-ci ildən SSRİ və Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olan Faiq Nağıyevin xor musiqisi nəinki respublikamızda, habelə onun hüdudlarından kənarda da xüsusi rəğbət qazanmışdır.

Xor miniatürü janrı Faiq Nağıyevin yaradıcılığında xüsusi əhəmiyyət daşıyır. Onun 1978-ci ildə yazılmış iki xor miniatürü - Məhsəti Gəncəvinin sözlərinə qarışıq a 'cappella xoru üçün "Şam" və xalq bayatılarına yazılmış "Aşiqəm" Kamera Xorunun daimi repertuarına daxil edilmişdi. Faiq Nağıyev a'cappella uşaq xoru üçün bir sıra mahnılarını – "Əl üstə kimin əli"(söz: X.Rza), "Nərgizin mahnısı" (söz: M.Dilbazi), "Xatırlayarsan məni" (söz: M.Seyid-zadə) və s. yazmışdır. "Əl üstə kimin əli" əsəri 1979-cu ildə Kirov şəhərində keçirilən Ümumittifaq Uşaq Xor Festivalında (tərcümədə) müvəffəqiyyətlə ifa edilmişdir. Bəstəkarın yaradıcılığında xüsusi yer tutan əsərlərdən biri də Xaqani Şirvaninin sözlərinə solist və a'cappella xoru üçün "Qara Qarayevin xatirəsinə Konsert"dir.

Bəstəkarın 1991-ci ildə rejissor Xamiz Muradov tərəfindən "Azərbaycanfilm" kinostudiyası nəzdində "Salnamə" studiyasında çəkilmiş "Şəhidlərdən-şəhidlərə" adlı sənədli filmə yazdığı musiqidə "20 yanvar" faciəsi öz əksini tapmışdır. Bəstəkarın memorial səciyyə daşıyan əsərlərindən biri də 2012-ci ildə Xocalı soyqırımının 20-ci ildönümü münasibəti ilə yazılmış, qarışıq xor və böyük simfonik orkestr üçün Rekviyem – "Xocalı harayı" əsəridir. Bu əsərdə bəstəkar Xocalı faciəsində həlak olmuş insanların o dəhşətli gecədə keçdiyi iztirablı yolların maraqlı ifa üsulları ilə bədii əksini yaratmağa çalışmışdır.

Faiq Nağıyev bəstəkarlıqla yanaşı geniş pedaqoji fəaliyyət göstərir. O, müxtəlif illərdə Gəncə şəhər 2 saylı uşaq musiqi məktəbində, Qəmbər Hüseynli adına Gəncə Musiqi Texnikumunda, Soltan Hacıbəyov adına Sumqayıt Musiqi Texnikumunda, Lənkəran Dövlət Universitetində, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında fəaliyyət göstərmişdir. O, Azərbaycan Milli Konservatoriyasının "Milli musiqinin tarixi və nəzəriyyəsi" kafedrasının professorudur. Faiq Nağıyevin yetirmələri Respublikanın müxtəlif musiqi müəssisələrində çalışaraq musiqi mədəniyyətimizin inkişafına öz töhfələrini verirlər. O, Azərbaycan Bəstəkarlar İttifaqının VIII (2007) və IX (2012) Qurultaylarında ABİ-nın İdarə Heyətinin üzvü seçilmişdir. Azərbaycan Bəstəkarlar İttifaqının "Xor musiqisi" bölməsinin sədridir.

Faiq Nağıyev 2007-ci ildə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Məmmədağa Muradov – 105

(1921-1969)

Tarzən



Məmmədağa Məmmədhəsən oğlu Muradov 1921-ci il fevral ayının 19-da Bakı şəhərində anadan olmuşdur.

O, gənc yaşlarından ifaçılığa başlamış və 1937-ci ildə M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının xalq çalğı alətləri orkestrinə qəbul olunmuşdur. Orkestrin solisti olmuş, daha sonra isə konsertmeyster vəzifəsində çalışmışdır. Məmmədağa Muradov eyni zamanda Bakının bir sıra musiqi məktəblərində, o cümlədən A. Zeynallı adına musiqi məktəbində uzun müddət müəllim işləmiş, istedadlı gənc tar ifaçılarının yetişməsində böyük rolu olmuşdur.

Məmmədağa Muradov özünün incə ifaçılıq texnikası, muğamları özünəməxsus işləməsi, solist müğənnilərin virtuoz müşayiəti ilə dinləyicilərin qəlblərinə yol tapaıb, xalq musiqisi sevərlərin hörmətini qazanmışdır.

Klassik muğamlarımızın sirlərinə dərindən bələd olan tarzən həm solo çalmaqda, həm də xanəndələri müşayiət etməkdə xüsusi istedada malik idi. O, müğənnilik məktəbinin korifeyləri Seyid Şuşinski, Xan Şuşinski, Zülfü Adıgözəlov, habelə Şövkət Ələkbərova, Rübabə Muradova, Əbülfət Əliyev, Sara Qədimova ilə birgə çıxışlar edib, onları müşayiət etmişdir.

Məmmədağa Muradovun ifaçılıq bacarığı xarici ölkə dinləyiciləri tərəfindən də yüksək qiymətləndirilmişdir. Onun sənəti Misirdə, Tunisdə, Almaniyada, Bolqarıstanda, İranda, Çində, Mərakeşdə, Sudanda və digər ölkələrdə özünə pərəstişkarlar qazanmış, alqışlara layiq olmuşdur. Həbəşistanda iki dəfə müvəffəqiyyətli qastrol çıxışlarının yüksək qiyməti olaraq o, bu ölkənin imperatoru Hayle Selasiye tərəfidən iki dəfə qızıl imperator ordeni ilə təltif olunmuş və bu mükafatlar ona ölkənin başçısı tərəfindən şəxsən təqdim olunmuşdur.

Məmmədağa Muradovun milli musiqimizin inkişafı və təbliği sahəsindəki xidmətləri yüksək qiymətləndirilmiş, ona 1959-cu ildə "Əməkdar artist" fəxri adı və bır sıra hökumət mükafatları verilmişdir.

Məmmədağa Məmmədhəsən oğlu Muradov 1969-cu il noyabr ayının 14-də vəfat etmişdir.

19 fevral 2011-ci ildə 90 illik yubileyi qeyd edilmişdir.

Ədəbiyyat:

Savalan. Qısa ömrə sığan sənət şöhrəti /Savalan //Mədəniyyət .-2020.- 21 fevral.- S.6.

Salmanov, R. Ustad tarzənin vəfatından 40 il ötür /Rafiq Salmanov //Xalq qəzeti .-2009.- 15 noyabr.- S. 5.

İnternetdə:

https://az.wikipedia.org/wiki/M%C9%99mm%C9%99da%C4%9Fa_Muradov

http://www.anl.az/down/meqale/medeniyyet/2020/fevral/703678.htm

http://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_noyabr2009/95964.htm

Səkinə İsmayılova - 70

(1956)

Xanəndə



Ədəbiyyat

Səkinə İsmayılova // Qadınlar Azərbaycanın musiqi həyatında / Layih. müəl., tərt. və red. A.Bayramova. - Bakı, 2004. - S. 103.

Muğam mənəvi dünyanın saflığıdır /Səkinə İsmayılova // İki sahil.-2011.- 17 sentyabr.- S. 14.

Səkinə İsmayılova: "Opera səhnəsində hər xanəndə ifa edə bilmir" / Səkinə İsmayılova // Ədalət.-2012.- 17 aprel.- S.8.

Muğam dünyanı heyrətləndirməkdədir / Səkinə İsmayılova; müsahibəni apardı G. Allahverdiyeva //Ekran-efir.-2014.- 28 noyabr. - S. 10.

Səsin də su kimi lətafəti var... : Müsahibimiz Xalq Artisti, "Şöhrət" ordenli, Prezident təqaüdçüsü Səkinə İsmayılovadır // İki sahil.-2016.- 8 iyun.- S.13.

İnsanları səsinin sehrinə salan müğənni /Səkinə İsmayılova; müsahibəni apardı Ş. Hüseynova // Olaylar.-2019.- 8 yanvar.- S.13.

"Muğam" tacının dəyərli Səkinəsi... /Səkinə İsmayılova;müsahibəni apardı:G. Mirməmməd // Mədəniyyət.az.-2016.- № 2.- S.44-47.

İnternetdə:

https://admiu.edu.az/mugam-kafedrasi/

Səkinə Qulu qızı İsmayılova 1956-cı il fevral ayının 24-də Bakıda anadan olmuşdur.

O, 1972-ci ildə ümumrespublika "Oxu tar" müsabiqəsində "Yurdumuz geyib əlvan" mahnısını ifa etmiş, müsabiqənin I dərəcəli diplomuna layiq görülmüş, 1973-cü ildə "İstedadlar axtarırıq" müsabiqəsində "Gəl bizə yar" xalq mahnısının ifasına görə müsabiqənin I dərəcəli diplomu və Mədəniyyət Nazirliyinin fəxri fərmanı ilə təltif olunmuşdur.

Səkinə İsmayılova 1974-cü ildə Asəf Zeynallı adına Musiqi Məktəbinin muğam sinfində ustad xanəndə, pedaqoq Nəriman Əliyevdən dərs almışdır. Burada təhsilini başa vuraraq Opera və Balet teatrının səhnəsində çıxış etməyə başlamışdır. 1990-cı ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirmişdir.

Xalq mahnıları və muğamların əvəzedilməz ifaçısı olan Səkinə İsmayılova Azərbaycan muğam sənətini İran, Türkiyə, İraq, Səudiyyə Ərəbistanı, Vyetnam, Yaponiya, Hindistan, Avstriya, Almaniya, Hollandiya, İsveç, Fransa, Norveç, Danimarka, Macarıstan, Lüksemburq, ABŞ kimi ölkələrdə dəfələrlə yüksək səviyyədə təmsil etmişdir.

Opera və Balet Teatrının səhnəsində əksər muğam operalarında aparıcı partiyaları "Leyli və Məcnun"da Leyli, "Əsli və Kərəm"də Əsli, "Gəlin qayası"nda Gülbahar, "Aşıq Qərib"də Şahsənəm, "Vaqif"də xanəndə qız və bir çox digər rollarda uğurla çıxış etmişdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan Mədəniyyəti Fondunun layihəsi əsasında Mədəniyyət Nazirliyinin yaxından iştirakı və Azərbaycan Televiziyasının təşkilatçılığı ilə keçirilən muğam televiziya müsabiqələrində münsif kimi iştirak etmişdir.

Səkinə İsmayılova müasir Azərbaycan muğam ifaçılığında ilk dəfə olaraq qadın ifaçılardan ibarət olan muğam üçlüyü yaratmışdır. O, muğamı qavalla ifa edən ilk qadın xanəndədir. Bir çox xarici ölkələrdə qastrol səfərlərində olan xanəndə Azərbaycan muğamını beynəlxalq səviyyədə təbliğ etmişdir.

2009-cu ilin martında ölkəmizdə ilk dəfə olaraq keçirilən I Beynəlxalq Muğam Festivalında respublikamızı təmsil etmişdir.

1991-ci ildə rejissor və ssenari müəllifi Ş.Ələkbərovun "Qəzəlxan" filmində mahnı ifaçısı kimi, 1995-ci ildə "Hacı Arif" filmində arxiv kadrlarında, 2005-ci ildə rejissor M.Əjdəroğlunun "Nəriman Əliyev" adlı filmin də, rejissor A.Qazıyev və ssenari müəllifi R.Zöhrabovun "Xalq Təranələri" filmində iştirak etmişdir.

Səkinə İsmayılova Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Milli Konservatoriyasının müəllimidir. Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin Muğam sənəti kafedrasının professorudur.

Azərbaycan muğam sənətinin inkişafında və təbliğində xidmətlərinə görə 1988-ci ildə "Əməkdar artist", 1992-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 2016-cı ildə "Şöhrət" ordeni ilə, 2023-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu ilə və 2024-cü ildə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif olunmuşdur. Prezident mükafatçısıdır.

Şıxı Yaqubov – 75

(1951)

Aktyor



Şıxı Miriş oğlu Yaqubov 1951-ci il fevral ayının 3-də Ağdaş rayonunun Pirəzə kəndində anadan olmuşdur. 1967-ci ildə Pirəzə kənd orta məktəbini bitirmiş.

Şıxı Yaqubov 1972-ci ildə Azərbaycanfilm kinostudiyasının aktyorluq məktəbinə daxil olmuş, elə həmin ilin noyabr ayının 16-da Mingəçevir Dövlət Dram teatrına işə qəbul olunmuşdur. Bu illər ərzində 200-ə yaxın rollar oynamış, bir çox teatr festivallarında iştirak etmişdir.

"Vaqif" tamaşasında Vidadi, "Pul Düşgünü Hacı Fərəc" tamaşasında Mahmud bəy, "Sitarə" tamaşasında Hacı Fikrət, "Zakir" tamaşasında Hüseyin bəy, "Qaynana" tamaşasında Ayaz, "Qisas günü" tamaşasında Müəllif, "Açıq dərs" tamaşasında Direktor, "Müfəttiş" tamaşasında Zemlyanika, "Fərhad və Şirin" tamaşasında Şiruyyə, "Şəhərin yay günləri" tamaşasında Qiyas, "Şeyx Şamil" tamaşasında Hacı Murad, "Son reportaj" tamaşasında Baba, "Xoşbəxt gün" tamaşasında Nümunə, "Eşq və intiqam" tamaşasında Əlimərdan, "Kişi və qadın" tamaşasında Cəmil, "Oyun bitdi" tamaşasında Murquzov, "Toy tamaşası" tamaşasında Mirzəhüseyin, "Ağa Kərim xan Ərdəbilli" tamaşasında Minbaşı, "Bayramın birinci günü" tamaşasında Rüstəm, "Mən nənə ilə evlənirəm" tamaşasında Şalı, "Köhnə mənzil" tamaşasında Kamran, "Yaddaş" tamaşasında Sərdar, "Lənkəran xanın vəziri" tamaşasında Xan, "Mən, nənəm, İliko və İllarion" tamaşasında İllarion, "Qaraca Qız" tamaşasında Bəy və s. rollar ifa etmişdir.

Şıxı Yaqubov 1990-cı ildən Teatr Xadimləri İttifaqının üzvüdür.

Görkəmli aktyorun səhnə fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən 10 mart 2014-cü il tarixində "Fəxri Mədəniyyət İşçisi" döş nişanı ilə təltif edilmişdir. 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Əməkdar Artist" fəxri adına və dəfələrlə Prezident mükafatına layiq görülmüşdür.

Ədəbiyyat:

Yaqubov, Şıxı "Aktyor yaşa dolduqca ciddi əsərlərdə oynamaq istəyir": Şıxı Yaqubov: "Gecə saat 3-də rol verilib, səhər 8-də isə tamaşaya çıxmışam" /Ş.Yaqubov; müsahibəni apardı: K.Oruc //Üç nöqtə .-2020.- 15 fevral.- S.12.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C5%9E%C4%B1x%C4%B1_Yaqubov#Filmoqrafiya

http://www.anl.az/down/meqale/uc_noqta/2020/fevral/15.JPG

Əsgər Məmmədoğlu – 80

(1946-2015)

Aktyor



Əsgər Məmmədoğlu (Ələsgər Məmmədoğlu) 1946-cı il fevral ayının 9-da Bakı şəhərində anadan olmuşdur.

O, 1975-ci ildə M. A. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsini bitirmiş, 1977-ci ildə Akademik Milli Dram Teatrının artist heyətinə qəbul edilmişdir. 1982-ci ildə Sumqayıt Dövlət Dram Teatrında, bir müddət sonra isə Tədris Teatrında çalışmağa başlamışdır. 1987-ci ildən yenidən Akademik Milli Dram Teatrına qayıtmışdır. Akademik Milli Dram Teatrın səhnəsində Ələmdar ("Mirzə Şəfi" Nəbi Xəzri), Qazı ("Sizi deyib gəlmişəm" Anar), Səfər ("Əliqulu evlənir" Sabit Rəhman), Cəllad ("Maqbet" Uilyam Şekspir), Musa ("Bizim qəribə taleyimiz" İlyas Əfəndiyev), Əcəm ("Qanlı Nigar" Sadıq Şəndil), Siyasi icmalçı ("Mənim sevimli dəlim" Elçin), Gözətçi ("Özümüzü kəsən qılınc" Bəxtiyar Vahabzadə), Qaraşoka ("Sokratı anma gecəsi" Çingiz Aytmatov), Səlim ("Aydın" Cəfər Cabbarlı), Qasımlı ("Bu dünyanın adamları" Hidayət), Şou Zəli ("Hələ Sevirəm deməmişdilər" Ramiz Novruz), Məzarçı ("Hamlet" Uilyam Şekspir), Zahir bəy ("Xurşidbanu Natəvan" İlyas Əfəndiyev), Ağadadaş Nəcəfov ("Dəlilər və ağıllılar" İlyas Əfəndiyev), Dilənçi ("Varlı qadın" Əli Əmirli), Kürən ("Xəcalət" Hüseynbala Mirələmov), Loris ("Gəncə qapıları" Hüseynbala Mirələmov), Ceyranzadə ("Mənim günahım", İlyas Əfəndiyev) və s. rollar oynamışdır.

Əsgər Məmmədoğlu bir çox teletamaşalarda Şair ("Evləri köndələn yar" Anar), Milis ("Yaşıl eynəkli adam" V. Səmədoğlu), Nökər ("Mehmanxana sahibəsi" K. Haldoni), Dəmir-qaya "Topal Teymur" H. Cavid), Narsatan ("Qatarda" İ. Məlikzadə), Gümrah ("Alov" M. Hüseyn) kimi obrazlar yaratmışdır. "Ömrün səhifələri" (1974) Ələsgər, Alma almaya bənzər (1975) doğum evində gözləyən adam, Xoşbəxtlik qayğıları (1976) Ələvsət, Qərib cinlər diyarında (1977) Cin Əsra, Şir evdən getdi (1977) Yanğınsöndürən, Mehmanxana sahibəsi (1978) Nökər, Qəribə adam (1979) Xalid, Axtaran tapar (1980), Qızıl uçurum (1980) Neftçi, Sarıköynəklə Valehin nağılı (1980) Musa, Yol əhvalatı (1980) Aeroportdakı adam, Qatarda (1981) Nar satan oğlan, Tehran-43 (1981), Üzeyir ömrü (1981) Jurnalist, Evləri köndələn yar (1982) şair Dağlaraşarlı, Topal Teymur (1983) Dəmirqaya, Musiqili xaş (1984) Məclisdəki adam, 100 (1985) (qısametrajlı bədii süjet – Mozalan № 100), Bəyin oğurlanması (1985) Pirotexnik Ələsgər, Qəm pəncərəsi (1986) Kərbəlayi Zeynal, Yaşıl eynəkli adam (1987) milis bölməsi işçisi, Yaramaz (1988) Ələsgərin işçisi və s. filmlərdə yaddaqalan obrazlar yaratmışdır. Xüsusilə "Bəyin oğurlanması" filmindəki Ələsgər obrazı bu gün də uşaqdan-böyüyə hər kəsin üzündə gülüş yaradır.

Görkəmli aktyorun səhnə fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 2002-ci ildə Əsgər Məmmədoğlu Azərbaycan Respublikasının Əməkdar Artisti fəxri adına layiq görülmüşdür.

Əsgər Məmmədoğlu 2015-ci il dekabr ayının 21-də vəfat etmişdir. "Qurd qapısı" qəbiristanlığında dəfn edilmişdir.

Ədəbiyyat:

Rəhimli, İ. Ələsgər Məmmədoğlu / İlham Rəhimli // Azərbaycan Teatr Ensiklopediyası: 3 cilddə / İ.Rəhimli. - Cild 1. - Bakı,- 2016. - S. 343.

Məmmədli, S. Qoy, elə beləcə də çağırsınlar: Ələsgər... / Səbuhi Məmmədli // 525-ci qəzet.- .-2015.- 26 dekabr .- S. 17.

Rəis, X. Gəldi, iz qoydu, getdi: Kiçik rolların böyük ifaçısı Ələsgər Məmmədoğlu torpağa tapşırıldı / Xəyalə Rəis // Kaspi. - 2015. - 23 dekabr.- S. 12.

Bir Əsgər var idi…: Hamı onu Ələsgər kimi tanıyırdı: [Əməkdar artist, mərhum Əsgər Məmmədoğlu haqqında] // Mədəniyyət.- 2016.- 3 fevral.- S. 13.

Əmirli, Ş. Ələsgər kimi sevilən Əsgər /Ş. Əmirli //Mədəniyyət .-2021.- 10 fevral.- S.1;6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C6%8Fsg%C9%99r_M%C9%99mm%C9%99do%C4%9Flu#M%C9%99nb%C9%99

http://www.anl.az/down/meqale/medeniyyet/2021/fevral/734111(meqale).pdf

Əliabbas Qədirov – 80

(1946-2006)

Aktyor



Əliabbas Gülabbas oğlu Qədirov 1946-cı il fevral ayının 13-də Bakıda anadan olmuşdur.

O, Dəmiryolçular klubunda Xalq artisti Ağadadaş Qurbanovun rəhbərlik etdiyi dram kollektivinin üzvü olmuş, aktyorluq vərdişlərinin ibtidai əsaslarını öyrənmişdir.

Əliabbas Qədirov 1965-ci ildə M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki ADMİU) dram və kino aktyorluğu fakültəsinə daxil olmuşdur. Tələbəlik illərində institutun Tədris teatrının ştatlı aktyoru kimi C.Cabbarlının "Aydın" (Surxay), H.Cavidin "Azər", A.Salinskinin "Təbilçi qız" (Fyodr) əsərlərində maraqlı rollar oynamışdır. Elə buna görə də, Əliabbas Qədirov son kurs da oxuyanda Mehdi Məmmədov onu Akademik teatrda quruluş verdiyi H.Cavidin "Xəyyam" faciəsində Yusif roluna dəvət etmişdir. O gündən etibarən o, Milli Dram Teatrının aktyoru olmuş, 26 dekabr 2001-ci ildə teatrın bədii rəhbəri və direktoru təyin edilmişdir.

Aktyor çox sayda teletamaşalarda oynamış, bu tamaşaların bir qismi televiziyanın "Qızıl fond"una daxil edilmişdir. Onlardan S.S.Axundovun, "Laçın yuvası" (Cahangir), M.Muradın "Təkan" (Dilqəm), İ.Əfəndiyevin "Atayevlər ailəsində" (Cahangir), M.F.Axundzadənin "Hacı Qara" (Heydər bəy), Ə.Haqverdiyevin "Bəxtsiz cavan" (Fərhad), M.Bayciyevin "Duel" (İsgəndər), Dazortsevin "Qəbula gələn sonuncu adam" (Kişi) əsərlərini göstərmək olar.

Uzun illər gənclər üçün "Məşəl", sonralar əyləncə xarakterli "Komediyalar aləminə səyahət" verilişlərinin aparıcısı olmuşdur. On yeddi (bədii-sənədli) filmdə çəkilən aktyorun kinoda debütü "Xatirələr sahili" filmindəki İmran roludur. Kinoda ilk böyük rolu isə rejissor G.Əzimzadənin 1974-cü ildə diplom işi kimi çəkdiyi "Nəğmə dərsi" novellasındakı ("Ömrün səhifələri" kinoalmanaxı) ata obrazı, sonuncu rolu isə "Küçələrə su səpmişəm" (2004) filmində oynadığı Çərkəz dayı obrazıdır.

Milli kinoda yaratdığı Mənsur ("Evin kişisi", 1978), Cəlil ("Qızıl uçurum", 1980), Fəzl ("Babək", 1979), Fərid ("Qocalar, qocalar...", 1982), Sultanov ("İşarəni dənizdən göz ləyin", 1986) və digər obrazları yaddaqalandırlar. İstedadlı aktyor "Sevinc buxtası" filmində yaratdığı (1977) Nazim roluna görə 1978-ci ildə Respublika Dövlət mükafatına layiq görülmüşdür.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyət göstərmişdir. 2000-ci ildən universitetinin professoru olmuşdur.

Sənətdə qazandığı nailiyyətlərə görə 1978-ci ildə Azərbaycan SSR Dövlət mükafatına, 1982-ci ildə "Əməkdar artist", 1989-cu ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüş, 2006-cı ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Əliabbas Gülabbas oğlu Qədirov 2006-cı il mart ayının 8-də vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat:

Rəhimli, İ. Əliabbas Qədirov / İlham Rəhimli // Azərbaycan teatr tarixi / İ.Rəhimli. - Bakı: Çaşıoğlu, 2005. - S. 196.

Nəbioğlu, R. Müqtədir sənətkar: teatr və kino xadimi Əliabbas Qədirov : Əliabbas Qədirov-75 / Rasim Nəbioğlu // Ədalət. - 2021.- 20 noyabr.- S.8.

Qədirov, Ə. Xalq artisti Əliabbas Qədirov: Onların simasında Ərtoğrulu axtarırdı... /Ə. Qədirov; söhbətləşdi: A. Turan // Ədəbiyyat qəzeti .-2024.- 5 oktyabr, №38.- S.14.

Yaddaqalan obrazlar yaradan aktyor //Azərbaycan .-2024.- 14 fevral, № 33.- S.11.

Hacıxanoğlu, İ.Kişinin tələbələri /İ. Hacıxanoğlu //Səs .-2024.- 15 fevral (№29).- S.12.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C6%8Fliabbas_Q%C9%99dirov

http://www.anl.az/down/meqale/edebiyyat/2024/oktyabr/913378.htm

http://www.anl.az/down/meqale/azerbaycan/2024/fevral/891035(meqale).pdf

http://www.anl.az/down/

Cəmil Fərəcov – 80

(1946-2023)

Kinorejissor



Cəmil Əliqulu oğlu Fərəcov 1946-cı il fevral ayının 13-də Bakı şəhərində anadan olmuşdur.

O, 1969-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunu, 1974-cü ildə isə Leninqrad Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsini bitirmişdir.

Cəmil Fərəcov 1970-ci ildən "Azərbaycanfilm" kinostudiyasının rejissoru, 1997-2002-ci illərdə "Yaddaş" sənədli filmlər studiyasının bədii rəhbəri və direktoru, 2002-2006-cı illərdə Mədəniyyət Nazirliyinin Kino İşləri Baş İdarəsinin müdiri, 2006-2012-ci illərdə Mədəniyyət və Turizm Nazirliyinin kinematoqrafiya şöbəsinin sektor müdiri vəzifələrində çalışmışdır.

Arvadım Mənim, Uşaqlarım Mənim (1978), "Azərbaycan" dünyanı gəzir (film, 1984), "Azərbaycan"da dəniz səyahəti (film, 1976), Ağır şkaf (film, 1971), Axırıncı maqın sonu (film, 1974), Ayna və Həmid (film, 1990), Azərbaycan kinosu-80 (film, 1996), Azərbaycan məktəbi yüksəlişdə (film, 1972), Azərbaycan və Nobel qardaşları (film, 1991), Başdan ayağa (film, 1973), Bəhrə (film, 1984), Bir səfərin izilə (film, 1980), Biz qayıdacağıq (veriliş, 2007) (II), Çay daşının göz yaşı... (film, 1971), Cəhcəh həsrətində (film, 1983), Diplomlu mütəxəssis (film, 1974), Ev dirəyi-el dirəyi (film, 1982), Fərhad (film, 1987), Foto həvəskarı (film, 1985), Gecikmiş gündəlik (film, 1986), Gəmiqaya (film, 1981), Həmrəylik günü (film, 1976), İkinci həyat (film, 1984), İnsanlar, atlar, təkərlər (film, 1979), Kimdir müqəssir? (film, 1984), Küləyapardı (film, 1986), Qızıl balıqlar (film, 1975), Mikayıl Abdullayev (film, 1972), Musaküçə kəndinin sakinləri (film, 1973), Nailiyyətlər estafeti (film, 1981), Neft maşınqayırmasının flaqmanı (film, 1992), Neft və qaz çıxarılan rayonlarda qəza-xilasedici və bərpa işləri (film, 1974), Nəticə (film, 1984), Nəzarətin reydi "Mozalan"ın qeydi (film, 1977) və s. filmlərin rejissoru olmuşdur.

Onun rejissorluq fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1989-cu ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Cəmil Əliqulu oğlu Fərəcov 2023-cü il avqust ayının 1-də vəfat etmişdir. "Qurd qapısı" qəbiristanlığında dəfn olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan filmlərinin yaranma tarixindən /U. Qaraqızı; elmi red. H. Ömərova; məsul red. C. Fərəcov; red.: M. Bəyişli.-I kitab.- Bakı: E.L., 2006. - 688 s.

Milli kinomuzun gələcəyinə ümüdlər artır: 2 avqust-Azərbaycan Kinosu Günüdür / Cəmil Fərəcov // Xalq qəzeti.-2006. - 2 avqust. - S.7.

Filmin çəkilişləri başa çatmışdır / Cəmil Fərəcov // Azərbaycan. - 2005. - 25 noyabr. - S. 8.

Sənətə məhəbbət nümunəsi. Unudulmazlar /Ç.Fərəcovhttps://ek.anl.az/search/advanced?theme=e-kataloq

İnternetdə:

https://az.wikipedia.org/wiki/C%C9%99mil_F%C9%99r%C9%99cov

https://kinobox.az/person/cemil-ferecov

https://azvision.az/news/334367/news.html

Sofiya Hüseynova – 100

(1926-2015)

Aktyor



Sofiya Həsən qızı Hüseynova 1926-cı il fevral ayının 17-də Bakıda anadan olmuşdur.

O, orta məktəbi Naxçıvanda bitirmişdir. Məktəbdə oxuyarkən anası, Naxçıvanın ilk aktrisası Xədicə Qazıyeva ilə uşaq rollarında səhnəyə çıxmışdır. Anasının tövsiyəsi ilə 1944-cü ildən teatrın truppasına daxil olmuş, 1945-ci ildə qısa müddət Zaqatala DDT-də işlədikdən sonra yenə Naxçıvana qayıtmışdır.

Sofiya Hüseynova 1942-ci ildən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktrisası olmuşdur. İlk dəfə səhnəyə Səməd Vurğunun "Vaqif" dramındakı gürcü qızı Tamara rolunda gəlmişdir.

1950-ci ilin ortalarından başlayaraq Sofiya Hüseynova bir müddət Naxçıvanın "Araz" Dövlət Mahnı və Rəqs Ansamblında rəqs qrupunun solisti kimi də fəaliyyət göstərmişdir.

1954-cü ildə o, yenidən Naxçıvan Teatrının truppasına qayıtmış, 1955-ci ildə İslam Səfərlinin "Göz həkimi" pyesindəki Nərminə və Nəcəf bəy Vəziro vun "Yağışdan çıxdıq, yağmura düşdük" ("Hacı Qənbər") komediyasındakı Cəvahir obrazları ilə tamaşaçıların dərin rəğbətini qazanmışdır. 1962-ci ildə Naxçıvan Dövlət Dram Teatrında fəaliyyətə başlayan rejissor və aktyor İldırım Cabbarov quruluş verdiyi İskəndər Coşqunun "Komsomol poeması" tamaşasında Humay rolunu ona həvalə etmiş, aktyorluq fəaliyyəti ərzində ilk böyük rolu olan Humayı aktrisa məharətlə ifa etmişdir.

Sofiya xanım müxtəlif səpkili zəngin səhnə obrazları yaratmışdır. Ən yaxşı rolları Gülçöhrə ("Arşın mal alan", Ü.Hacıbəyov), Zalxa ("Toy", S.Rəhman), Ana ("Ana", H.Cavid), Xuraman ("Vaqif", S.Vurğun), Sara ("Solğun çiçəklər", C.Cabbarlı), Kruçinina, Larisa ("Günahsız müqəssirlər", "Cehizsiz qız", A.N.Ostrovski), Xanuma ("Xanuma", A.Saqareli), Tərgül ("Məhsəti", Kəmalə) və s. olmuşdur.

Aktrisa Naxçıvan Teatrında 1966-1986-cı illərdə tamaşaya qoyulmuş rus və Avropa dramaturgiyasının ən gözəl nümunələrində Melita (G.Fiqeryedo "Ezop", 1966), Tatyana (B.Lavrenyov "Hücum", 1967), Nadya (A.Makayonok "Tribunal", 1972), Diana (Lope de Veqa "Nə yardan doyur, nə əldən qoyur", 1974), Kruçinina (A.Ostrovski "Günahsız müqəssirlər", 1984), Klitemnestra (Sofokl "Elektra", 1986) kimi maraqlı və yaddaqalan obrazlar silsiləsi yaratmışdır.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin müvafiq fərmanları ilə 1974-cü il iyun ayının 1-də Azərbaycan SSR-nin "Əməkdar artist", 1982-ci il dekabr ayının 1-də isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. Eyni zamanda "Naxçıvan MSSR əməkdar artisti" idi. Müstəqillik dövründə də daim dövlət qayğısı ilə əhatə olunmuş, 1996-cı ildə "Şöhrət" orden ilə təltif edilmiş, 2006-cı ildə "Teatr xadimi" qızıl medalına layiq görülmüşdür. Prezident təqaüdçüsü idi.

Sofiya Həsən qızı Hüseynova 2015-ci il iyul ayının 30-da vəfat etmiş, Naxçıvan şəhər qəbiristanlığında dəfn edilmişdir.

Ədəbiyyat:

Hüseynova Sofiya Həsən qızı // Naxçıvan ensiklopediyası. - Bakı, 2002. - S. 193.

Rəhimli, İ. Sofya Hüseynova / İlham Rəhimli // Azərbaycan teatr tarixi / İ.Rəhimli. - Bakı, 2005. - S. 233.

Xalq artisti Sofiya Hüseynova vəfat edib // Mədəniyyət.-2015.- 31 iyul.- S. 2.

İnternetdə:


https://az.wikipedia.org/wiki/Sofiya_H%C3%BCseynova

https://az.baku-art.com/az/sehnemizin-sofyasi-xalq-artisti-sofiya-huseynova

Həbib İsmayılov – 120

(1906-1966)

Rejissor



Ədəbiyyat:

Fərəcov, S. İki filmlə əbədiləşən sənət ömrü / S.Fərəcov // Mədəniyyət. - 2018. - 21 fevral. - S. 15.

İsmayılov Həbib Ələkbər oğlu // Naxçıvan ensiklopediyası. - Bakı, 2002. - S. 217.

İsmayılov Həbib Ələkbər oğlu // Azərbaycan sovet ensiklopediyası: 10 cilddə. - Bakı, 1980. - C. 4. - S. 551.

Əmirli,Ş. Kinoya yad deyildi : Həbib İsmayılov-115 /Ş.Əmirli // Mədəniyyət .-2021.- 19 fevral.- S.7.

Mükərrəmoğlu, M. Filmləri ilə qəlbləri fəth edən istedadlı rejissor: Həbib İsmayılov-115 /M. Mükərrəmoğlu //Xalq qəzeti .-2021.- 2 may.- S.7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/H%C9%99bib_%C4%B0smay%C4%B1lov

http://www.anl.az/down/meqale/medeniyyet/2021/fevral/735735.htm

https://azertag.az/xeber/Amekdar_Incesenet_Xadimi_Hebib_Ismayilovun_anadan_olmasinin_110_illiyi_qeyd_olunub-960907f

Həbib Ələkbər oğlu İsmayılov 1906-cı il fevral ayının 21-də Naxçıvan MR-da anadan olmuşdur.

O, orta təhsilinə Tiflis şəhərində başlamış, valideynləri Bakıya köçdükdən sonra təhsilini şəhərdəki fəhlə məktəbində davam etdirmişdir. Erkən çağlardan teatra maraq göstərən Həbib İsmayılov həm də dram dərnəyinə yazılmışdır. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Teatr İnstitutuna (indiki Dövlət Mədəniyyət və İncəsənət Universiteti) qəbul olunmuşdur.

Həbib İsmayılov 1927-ci ildə Xalq Maarif Komissarlığı tərəfindən Moskvada Mərkəzi Teatr Sənəti Texnikumuna oxumağa göndərilmişdir. Orada məşhur rejissor və pedaqoq K.Stanislavski ilə tanış olmuş və ondan aktyorluq və rejissorluq sənətinin incəliklərini öyrənmişdir. 1931-ci ildə institutu bitirərək Bakıya qayıdıb və Türk İşçi Teatrında çalışıb. O, teatrda həm bədii rəhbər, həm də rejissor kimi fəaliyyət göstərib. Bir sıra tamaşalara quruluş verib: "Küləklər şəhəri", "Lənkəran xanının vəziri" (M.F.Axndov), "Gizli əl", "Kölgə", "Yaşar", "Ölülər" (C.Məmmədquluzadə), "Od gəlini" (C.Cabbarlı).

Türk İşçi Teatrı 1933-cü ildə Gəncə şəhərinə köçürülməsi ilə əlaqədar olaraq Həbib İsmayılov da kollektivlə birlikdə Gəncəyə gəlib və fəaliyyətini orada davam etdirib. O, teatrda həm rejissor kimi, həm də aktyor kimi çalışıb. Belə ki, "Yaşar" tamaşasında Toğrul, "Namus"-da Barxudar, "1905-ci ildə" tamaşasında general-qubernator və s. kimi rolları ifa edib.

1938-ci ildə Şıxəli Qurbanov adına Azərbaycan Dövlət Musiqili Teatrının ilk bədii rəhbəri olmuş, teatrda Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" operasına (1939), Boris Aleksandrovun "Malinovkada toy", Məmməd Səid Ordubadi və Səid Rüstəmovun "Beş manatlıq gəlin" (1940) musiqili komediyalarına quruluş vermişdir.

Həbib İsmayılov 1942-cü ildə Mahaçqala şəhərinə gedib. O, 1943-cü ilin əvvəlində isə Dağıstan Dövlət Teatrının direktoru vəzifəsinə təyin olunub. Dağıstan Dövlət Teatrına rəhbərlik etdiyi dövr ərzində "Arşın mal alan" operettasına quruluş verib.

Həbib İsmayılov 1943-cü ildən kinoda fəaliyyət göstərib. O, ilk əvvəl kinoxronika şöbəsində baş redaktor, sonra şöbə rəisi kimi çalışıb. Kinostudiyada xeyli sayda sənədli filmlər lentə almışdır. Bu ekran əsərlərində ölkəmizin real həyat faktları öz dolğun əksini tapmışdır. "Naxçıvan", "Dağıstan MSSR-in 25 illiyi", "Pambıqçılıqda qabaqcıl metodların tətbiqi" və s. sənədli filmlərin, "Ögey ana", (1959), "Böyük Dayaq" (1963) bədii filmlərinin rejissoru olmuşdur. Həmin il Kiyevdə keçirilən Ümumittifaq kinofestivalında mükafata layiq görülmüşdür.

Həbib İsmayılov Azərbaycan kinosunda yaradıcılıq yolu qısa olsa da, çox dəyərli iki bədii film yaratmağa müvəffəq olmuşdur.

O, pedaqoji fəaliyyətlə məşğul olmuş, tələbələrə rejissorluğun sirlərinin öyrətmişdir.

Kino sahəsindəki xidmətləri yüksək qiymətləndirilmiş, 1960-cı ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.


Həbib Ələkbər oğlu İsmayılov 1966-cı il dekabr ayının 31-də Bakıda vəfat etmişdir.

2016-cı ildə Mədəniyyət Nazirliyi, Dövlət Film Fondu və Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının təşkilatçılığı ilə Dövlət Film Fondunda Azərbaycanın görkəmli kinorejissoru, Əməkdar incəsənət xadimi Həbib İsmayılovun anadan olmasının 110 illik yubileyi keçirilmişdir.

Şəmsi Bədəlbəyli – 115

(1911-1987)

Rejissor



Şəmsi Bədəl oğlu Bədəlbəyli 1911-ci il fevral ayının 23-də Şuşada anadan olmuşdur. Bakıda orta məktəbi bitirdikdən sonra Azərbaycan Pedaqoji Texnikumuna daxil olmuş, təhsil illərində özfəaliyyət dərnəyində aktyorluq istedadını sınamışdır.

O, 1927-ci ildə texnikumu bitirmiş, 1927-1932-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır. 1930-1932-ci illərdə "Gənc işçi" qəzeti redaksiyasında "İncəsənət və ədəbiyyat" şöbəsinin müdiri vəzifəsində çalışmış, həmin qəzetin səhifələrində bir sıra tamaşalar haqqında məqalələri dərc olunmuşdur. 1932-ci ildən (may ayından başlayaraq) 1942-ci ilə kimi – Azərbaycan Dövlət Dram Teatrında rejissor assistenti və rejissor kimi fəaliyyət göstərmişdir.

1933-cü ildə Şəmsi Bədəlbəyli Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən Moskvaya rejissorluq üzrə təcrübə işinə göndərilmişdir. Moskvada Malıy Teatrda Şillerin "Don Karlos" əsərinin hazırlığında görkəmli rejissor K. Marcanaşvilinin rəhbərliyi altında rejissor assistenti kimi təcrübə keçmişdir.

Şəmsi Bədəlbəyli 1936-cı ildə Bakıya qayıtdıqdan sonra Azərbaycan Dövlət Dram Teatrında rejissor kimi fəaliyyətini davam etdirmiş, bir sıra səhnə əsərlərinin tamaşalarına quruluş vermişdir. 1938-ci ildən etibarən Azərbaycan Dövlət Dram Teatrında müstəqil surətdə rejissorluq fəaliyyətinə başlamış, ilk yaradıcılıq işi M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyası olmuşdur. İlk işi ona uğur gətirmiş, tamaşa yüksək qiymətləndirilmişdir. 1939-cu ildə "Ölülər" komediyasına və 1941-ci ildə S.Rəhmanın "Xoşbəxtlər" əsərinə verdiyi quruluş da uğurlu alınmışdır. Onun bu teatrda quruluş verdiyi son tamaşa Şekspirin "Kral Lir" pyesi olmuşdur.

İkinci Dünya müharibəsi dövründə Şəmsi Bədəlbəyli hərbi müxbir kimi İrana ezam edilmiş, öz həmkarları ilə birlikdə "Vətən uğrunda" qəzetində ədəbi işçi kimi çalışmış, həm də həvəskar aktyorlarla birlikdə Ü.Hacıbəylinin "Arşın mal alan", Z.Hacıbəylinin "Əlli yaşında cavan", "Evli ikən subay" əsərlərini tamaşaya qoymuşdur.

1943-cü ildə Bakıda Musiqili Komediya Teatrı yaradılımış və Şmsi Bədəlbəyli teatra rejissor təyin edilmişdir. 1942-1949, 1956-1961 və 1963-1974-cü illərdə bu teatrda müəyyən fasilələrlə baş rejissor, bədii rəhbər və direktor vəzifələrində çalışmışdır.

1974-1976-cı illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru və bədii rəhbəri vəzifəsində, 1976-cı ildən isə ömrünün sonuna kimi Teatr Cəmiyyətinin sədri vəzifəsində fəaliyyət göstərmişdir.

1978-ci ildə Şəmsi Bədəlbəylinin təşəbbüsü ilə Bakıda Azərbaycan Teatr Cəmiyyətinin nəzdində "Dostluq" teatrı yaradılmışdır.

Rejissor Opera və Balet Teatrında "Koroğlu", "Əsli və Kərəm", "Sevilya bərbəri" kimi operalara da quruluş vermiş, hətta 1957-ci ildə onu Türkmənistan Opera və Balet Teatrına dəvət etmişlər. O, burada "Koroğlu" operasını tamaşaya qoymuşdur.

Şəmsi Bədəlbəyli kino sənətinin də inkişafında öz əməyini əsirgəməmiş, bir sıra bədii və sənədli filmlərdə ("O qızı tapın", "Axırıncı aşırım", "Xatirələr sahili" və s.) aktyor kimi də iştirak etmişdir.

Teatr sənətinin inkişafında göstərdiyi böyük xidmətlərə görə 1943-cü ildə "Əməkdar incəsənət xadimi", 1964-cü ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. "Qırmızı Əmək Bayrağı" ordeni və bir sıra medallarla təltif edilmişdir.

Şəmsi Bədəl oğlu Bədəlbəyli 1987-cı il may ayının 23-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat:

Rəhimli, İ. Şəmsi Bədəlbəyli / İlham Rəhimli // Azərbaycan teatr tarixi / İ.Rəhimli. – Bakı, 2005. - S. 316.

Rəhmanzadə, F. Bədəlbəylilər / F.Rəhmanzadə; red. İ.Kərimov; məsl. T.Bədəlbəyli-Ağdamski; burax. məsul Ə.Məhərrəmov. - Bakı: Nurlan, 2006. - 244 s.

Fərəcova, Z Bədəlbəylilər /Z.Fərəcova //Azərbaycan. - 2022.- 4 fevral.- S.6.

Şəmsi Bədəl bəy oğlu Bədəlbəyli : Qarabağın görkəmli simaları // İqtisadiyyat .-2022.- 7-13 aprel.- S.6.

Bayramova, Y. Mədəniyyətimizin unudulmaz siması... : Şəmsi Bədəlbəylinin anım günüdür / Yeganə Bayramova // Yeni Azərbaycan.-2024.- 23 may, №91.- S.8.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C5%9E%C9%99msi_B%C9%99d%C9%99lb%C9%99yli

http://www.anl.az/down/meqale/azerbaycan/2022/fevral/781016.htm

Bəşir Kərimov – 50

(1976-1995) *Milli Qəhrəman*



Bəşir Bəylər oğlu Kərimov 1976-cı il fevral ayının 2-də Füzuli rayonunun Qacar kəndində anadan olmuşdur.

O, 1991-ci ildə kənd orta məktəbinin səkkizinci sinfini bitirərək Füzuli şəhərindəki texniki-peşə məktəbində təhsilini davam etdirmişdir.

Erməni qəsbkarları bu illərdə Azərbaycan torpaqlarına - Qarabağa geniş planlı hücumlar edirdilər. 1993-cü ildə ermənilər Qacar kəndinə hücum etdikləri vaxt Bəşir Kərimov erməni yaraqlılarına qarşı igidliklə vuruşmuşdur. Qacar kəndi işğal olunduqdan sonra ailəsi ilə birlikdə Dilağarda kəndində məskunlaşmışdır.

Bəşir Kərimov 1994-cü ildə Beyləqan Rayon Hərbi Komissarlığı tərəfindən Milli Ordu sıralarına çağırılmışdır. Gəncə şəhərində "N" saylı hərbi hissədə qulluq etmişdir.

1995-ci il 13-17 mart hadisələri zamanı, dövlətçiliyimiz uğrunda silahlı dəstənin zərərsizləşdirilməsində iştirak etmiş və bu qarşıdurma zamanı şəhid olmuşdur. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli, 307 saylı Fərmanı ilə Kərimov Bəşir Bəylər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Kərimov Bəşir Bəylər oğlu - Müdafiə Nazirliyi, sıravi - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il // Azərbaycan. - 1995. - 5 aprel. - S. 1. (Ölümündən sonra).

Əsgərov, V. Kərimov Bəşir Bəylər oğlu / Vüqar Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları. - Yenidən işlənmiş II nəşri. - Bakı, 2010. - S. 148.

Kərimov Bəşir Bəylər oğlu // Azərbaycanın Milli Qəhrəmanları / M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova. - Bakı, 2008. - S. 110.

Seyidzadə, M. Kərimov Bəşir Bəylər oğlu / M.Seyidzadə // Milli Qəhrəmanlar zirvəsi. - Bakı, 2010. - S. 113.

Gəfərov, M. Bəşir Kərimov / M.Cəfərov // Respublika.-2023.- 2 fevral.- S.8.

İnternetdə:

http://www.anl.az/down/meqale/az_azerbaycan/2017/iyun/548425.jpg

https://az.wikipedia.org/wiki/B%C9%99%C5%9Fir_K%C9%99rimov

http://www.anl.az/down/meqale/respublika/2023/fevral/834363(meqale).pdf

FEVRAL

1

Eltun Kərimov – 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Eltun Zaur oğlu Kərimov 2001-ci il fevral ayının 1-də Rusiya federasiyasının Sverdlovsk vilayətinin Krasnoturinsk şəhərində anadan olmuşdur. 2008-2015-ci illərdə Krasnoturinsk şəhər 5 saylı beynəlmiləl tam orta məktəbdə təhsil almış, ailəsi Şəki şəhərinə köçdüyündən, təhsilini 2015-ci ildən Şəki şəhər 9 saylı tam orta məktəbin rus bölməsində davam etdirmiş, 2018-ci ildə məktəbin 9-cu sinfini bitirmişdir. Orta məktəbdə oxuyarkən məktəbin voleybol komandasının üzvü olmuş, Şəki şəhərinin yığma komandasının tərkibində dəfələrlə respublika yarışlarında iştirak etmişdir.

2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Eltun Kərimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Eltun Kərimov 15 oktyabr 2020-ci ildə Suqovuşan kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Şəki şəhərində yerləşən "Dovşan düzü" qəbiristanlığında dəfn olunmuşdur.

Eltun Zaur oğlu Kərimov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda","Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

1

Çərkəz Teyyublu – 30

(1996-2020)

MAHHXHQ kiçik çavuş



Ədəbiyyat:

Musayev, V. Şəhid Teyyublu Çərkəzin şəhadətə ucaldığı gündən 3 il ötür / Vüqar Musayev // Azad Azərbaycan.– 2023.– 26 oktyabr, №35.– S.2.

Çərkəz Vidadi oğlu Teyyublu 1996-cı il fevral ayının 1-də Lerik rayonunun Züvüç kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə şəhid Bünyadəli Pələngov adına Züvüç kənd tam orta məktəbində təhsil almışdır. 2014-2016-cı illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətədə olmuş, Murovda "N" saylı hərbi hissədə xidmət etmişdir. 2019-cu ildən kiçik çavuş rütbəsində Bakı şəhəri Müşfiqabad qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə top komandiri vəzifəsində xidmət etməyə başlamışdır.

Azərbaycan Ordusunun kiçik çavuş olan Çərkəz Teyyublu II Qarabağ müharibəsində Cəbrayıl, Hadrut istiqamətində gedən döyüşlərdə düşmənin çoxlu sayda canlı qüvvəsini məhv etmişdir. Füzuli rayonu istiqamətində gedən döyüşlərdə, bir neçə kəndlərimizin azad olunmasında böyük qəhrəmanlıq göstərmiş, erməni postunu ələ keçirərək, üçrəngli Azərbaycan bayrağını həmin posta sancmışdır. Oktyabrın 21-də Füzuli rayonunun Gecəgözlü kəndi uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olmuş, Qaradağ rayonu Şonqar qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilmişdir.

Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Çərkəz Vidadi oğlu Teyyublu ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

2022-ci ildə Qaradağ rayonunun Şonqar qəsəbəsində Çərkəz Teyyublunun xatirəsinə bulaq kompleksi yaradılmışdır.

FEVRAL

2

Zaur Kərimov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

Zaur Saleh oğlu Kərimov 1996-ci il fevral ayının 2-də Kürdəmir rayonunun Atakişili kəndində anadan olmuşdur. Orta təhsilini Atakişili kəndində almış, təhsilini başa vurduqdan sonra Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağrılmışdır, Sərhəd Qoşunlarında xidmət etmişdir. Xidmət müddəti bitdikdən sonra Bərdədə hərbi kurs keçmiş, hərbi xidmət qulluqçusu kimi Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etmişdir.

Zaur Kərimov Vətən müharibəsində kəşfiyyatçı və snayper olaraq Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Xocavənd və Şuşa rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Oktyabrın 26-da Çanaqçı-Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, oktyabrın 28-də Kürdəmir rayon Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Zaur Saleh oğlu Kərimov ölmündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

2021-ci il oktyabrın 28-də Atakişili kənd tam orta məktəbində Kürdəmir rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Zaur Kərimova həsr edilmiş voleybol üzrə xatirə turniri keçirilmişdir.

3

Ziyad Muradov - 35

(1991-2020)

Çavuş



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Ziyad Muradxan oğlu Muradov 1991-ci il fevral ayının 3-də Füzuli rayonu Arış kəndində anadan olmuşdur. Ailəsi 1993-cü ilin avqust ayında düşmənin müqaviməti nəticəsində kəndi tərk etmiş, Beyləqan rayonunda, sonra Bakının Nərimanov rayonunda məskunlaşmışdır.

O, 1997-2008-ci illərdə 73 saylı tam orta məktəbdə təhsil almışdır. 2010-2011-ci illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuş, 2015-2019-cu illərdə Daxili qoşunlarda Çavuş rütbəsində xidmət etmişdir.

Məktəb illərindən ədəbiyyata marağı olmuş, şeirlərini Ziyad Türksoy Qarabağlı imzasıyla yazmış, 2017-ci ildə "İlin gənc yazarı" adına layiq görülmüşdür.

Azərbaycan Ordusunun çavuşu olan Ziyad Muradov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə savaşmış, oktyabrın 20-sin də Füzuli uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş, oktyabrın 23-də Sabunçu rayonunun Zabrat qəsəbəsində dəfn olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2022-ci ildə Ziyad Qarabağlının Gəncliyə Yardım Fondunun "Şəhid Ailələrinə Dəstək" layihələri çərçivəsində hazırlanmış "Vətən məni çağırır"adlı şeirlər kitabı nəşr olunmuş, atası yaşadığı məhəllədə "Şəhid bulağı" çəkdirmişdir.

FEVRAL

3

Kənan Şirəliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Kənan Telman oğlu Şirəliyev 2001-ci il fevral ayının 3-də Salyan rayonunun Qarabağlı kəndində anadan olmuşdur. 2007-2017-ci illərdə Qaradağlı kənd məktəbində, 2018-2019-cu illərdə Şirvan şəhərindəki peşə məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Kənan Şirəliyev 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azad olunmasında mərdliklə vuruşmuş, noyabrın 1-də Xocavənd rayonunda gedən döyüşdə qəhrəmancasına şəhid olmuşdur. Noyabrın 3-də Salyan rayonunun Qarabağlı kəndində dəfn olunmuşdur.

Kənan Telman oğlu Şirəliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Xocavəndin azad olunmasına görə" (25.12.2020) medalları və III dərəcəli "Vətənə xidmətə görə" (25.06.2022) ordeni ilə təltif edilmişdir.

4

Toğrul Hacıyev - 35

(1991-2020)

Əsgər



İnternetdə

https://unudulmazlar.az/az/infom/1273

https://goychay-encyclopedia.az/haciyev-togrul-siyavsah-oglu/

https://memorial.az/az/qehremanlarimiz/251

Toğrul Siyavşah oğlu Hacıyev 1991-ci il fevralın 4-də Göyçay rayonunun Çayarxı kəndində anadan olmuşdur. 1997-2006-cı illərdə Çayarxı kənd ümumi orta məktəbində 9 illik təhsil almışdır. Sonra təhsilini rayondakı 106 saylı Peşə Məktəbində davam etdirmişdir.

Toğrul Hacıyev 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında "N" saylı hərbi hissənin tank taborunda müddətli həqiqi hərbi xidmətdə olmuş, komandanlığın Fəxri fərman, tərifnamələri ilə təltif olunmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Toğrul Hacıyev 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı qismən səfərbərlik üzrə hərbi xidmətə cəlb edilmiş, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, oktyabrın 25-də Xocavənd döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Göyçay rayonunun Çayarxı kəndində dəfn olunmuşdur.


Toğrul Siyavşah oğlu Hacıyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

5 FEVRAL

Bayrı İmanov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

Bayrı Mirzə oğlu İmanov 1996-cı il fevral ayının 5-də Salyan rayonunun Qaraçala qəsəbəsində anadan olmuşdur. 2013-cü ildə Bakı şəhərinin Şüvəlan qəsəbəsində A.S. Makarenko adına gimnaziyanı bitirmiş, 2014-2018-ci illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasında (ADDA) "Elektrik mühəndisliyi" ixtisası üzrə ali təhsil almışdır. 2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağrılmışdır.

Bayrı İmanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı könüllü olaraq ordu sıralarına qoşulmuş, Hadrut, Xocavənd, Füzuli, Cəbrayıl və Şuşa rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 10-da Şuşa qəhrəmancasına şəhid olmuş, Salyan rayonunda dəfn olunmuşdur.

Bayrı Mirzə oğlu İmanov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Şuşanın azad olunmasına görə" (29.12.2020), "Cəsur döyüşçü" (24.06.2021), "Xocavəndin azad olunmasına görə" (24.06.2021) medalları və III dərəcəli "Vətənə xidmətə görə" (05.11.2022) ordeni ilə təltif edilmişdir.

6

Elşən Məmmədov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Elşən Dağıstan oğlu Məmmədov 1996-cı il fevralın 6-da Tərtər rayonunun Hacıqərvənd kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə Tərtər rayon 66 saylı Buruc kənd tam orta məktəbində təhsil almışdır. 2014-2016-cı illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuşdur. 2019-cu ildən müddətdən artıq hərbi qulluqçu kimi Azərbaycan ordusunda xidmətə davam etmişdir.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Elşən Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər-Ağdərə, Suqaovuşan istiqamətində gedən döyüşlərdə igidlik, böyük şücaət göstərmiş, oktyabrın 19-da Ağdərə istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Oktyabrın 20-də Bərdə rayonunun Qazaxlar kəndində dəfn edilmişdir.

Elşən Dağıstan oğlu Məmmədov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Cəsur döyüşçü" (24.06.2021) və "Suqovuşanın azad olunmasına görə" (24.06.2021) medalları ilə təltif edilmişdir.

FEVRAL
7

Etibar Həsənov - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

Etibar Ələddin oğlu Həsənov 1991-ci il fevral ayının 7-də Gədəbəy rayonunun Qarıkənd kəndində anadan olmuşdur. 1997-2006-cı illərdə Qarıkənd orta məktəbində, 2006-2009-cu illərdə Gədəbəy rayon Peşə liseyind təhsil almışdır. 2009-2010-cu illərdə Naxçıvan Muxtar Respublikasının Culfa şəhəri 216 saylı hərbi hissəsində həqiqi hərbi xidmətdə olmuşdur.

2019-cu il may ayının 15-dən "N" saylı hərbi hissədə müddətdən artıq hərbi qulluqçuların hazırlığı kursunda "Əsgər sürücü" ixtisası almış, iyul ayında Gədəbəy rayon "N" saylı hərbi hissəsində müddətdən artıq hərbi qulluqçu kimi işə başlamışdır. Bir il sürücü kimi fəaliyyət göstərmiş, sonra atıcı kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Etibar Həsənov 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli şəhərinin və digər kəndlərin, yüksəkliklərin alınmasında fəal iştirak etmiş, noyabrın 9-da Şuşa şəhəri uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, noyabrın 12-də Gədəbəy rayonunun Qarıkənd kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarınaına əsasən Etibar Ələddin oğlu Həsənov ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Şuşanın azad olunmasına görə" (29.12.2020) və "Hərbi xidmətlərə görə" (30.12.2020) medalları ilə təltif edilmişdir.

7

Elçin İsmayılov - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Şamilova, D.Elçin İsmayılov Dünya Şamilova// Vətən simurqları: II Qarabağ Vətən Müharibəsinin Qəhrəmanları /Almaz Ülvi.–I cild.–2-ci nəşr.–Bakı, 2022.–S.108-111.

Elçin Mikayıl oğlu İsmayılov 1991-ci il fevralın 7-də İmişli şəhərində anadan olmuşdur. 1997-2008-ci illərdə 7 saylı məktəbdə təhsil almışdır. 2009-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağırılmış, Tovuz rayonunun Ağdam kəndində xidmət etmişdir. Xidmət müddətində snayper ixtisasına yiyələnmiş, 2010-cu ilin oktyabr ayında hərbi xidmətdən tərxis olunmuşdur. 2018-ci ilin dekabr ayından yenidən orduya qayıtmış, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi PDM (Piyadanın Döyüş Maşını) tuşlayıcısı olaraq xidmət etmişdir.

Elçin İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Zəngilan, Xocavənd, Laçın, Qubadlı, Şuşa rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuş, noyabrın 4-də Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Elçin Mikayıl oğlu İsmayılov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ceyhun Abbasov - 40

(1986-2020)

Gizir



Ceyhun Natiq oğlu Abbasov 1986-cı il fevral ayının 8-də Bakı şəhərində anadan olmuşdur. Bakı şəhəri 56 saylı tam orta məktəbdə və daha sonra texniki peşə məktəbində təhsil almışdır. 2004-cü ildə həqiqi hərbi xidmətə çağrılmışdır.

Ceyhun Abbasov 2012-ci ildən hərbi qulluqçu kimi Beyləqan, Füzuli, Tərtər, Ağdam, Gədəbəy rayonlarında xidmət etmiş, Şəmkir rayonundakı "N" saylı hərbi hissənin əks-həmlə taborunda Snayper qrupunun komandiri olmuşdur.

Ceyhun Abbasov Türkiyədə komando kursları keçmiş, xüsusi təyinatlı snayperçi olmuşdur. 50-yə yaxın xüsusi döyüş tapşırığını yerinə yetirmiş, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi"(1918-2013) medalı ilə təltif edilmiş, 2016-cı il Aprel döyüşlərində fərqləndiyinə görə "Hərbi xidmətlərə görə" (19.04.2016) medalı ilə, 2020-ci ilin Tovuz döyüşlərində göstərdiyi şücaətə görə Müdafiə naziri general-polkovnik Z. Həsənov tərəfindən qol saatı və başqa mükafatlarla təltif etmişdir.

Ceyhun Abbasov Vətən müharibəsi zamanı Murovdağ istiqamətində döyüşlərdə vuruşmuş, sentyabr ayının 28-də "Elşən zirvəsi" uğrunda gedən döyüşlərdə yaralanmasına baxmayaraq, döyüşə davam etmiş, erməni postuna girərkən şəhid olmuşdur. Dekabr ayının 12-də II Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ceyhun Abbasov ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Kəlbəcərin azad olunmasına görə" (24.06.2021), "Cəsur döyüşçü" (24.06.2021) medalları və 3-cü dərəcəli "Rəşadət ordeni" (05.11.2021) ilə təltif edilmişdir.

Bakı şəhəri E.Yəhyayev adına 56 saylı tam orta məktəbin 1 C sinfinə şəhidin adı verilmişdir.


Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Həsrət Ələsgərov - 25

(2001-2020)

Əsgər



Həsrət Vahid oğlu Ələsgərov 2001-ci il fevral ayının 8-də Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə İ.Mürşüdov adına Aşağı Quşçu kənd tam orta məktəbində təhsil almışdır. Həsrət Ələsgərov 2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağırılmış, Vətən müharibəsinə qədər Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Həsrət Ələsgərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, oktyabrın 8-də qəhrəmancasına şəhid olmuşdur. Tovuz rayonunun Aşağı Quşçu kəndində dəfn olunmuşdur.

Həsrət Vahid oğlu Ələsgərov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Suqovuşanın azad olunmasına görə" (24.06.2021) və "Cəsur döyüşçü" (24.06.2021) medalları ilə təltif edilmişdir.

İnternetdə

https://unudulmazlar.az/az/infom/2790

http://tovuz-ih.gov.az/storage/files/files/Ələsgərov%20Həsrət%20Vahid.pdf

9 FEVRAL

Kamran İsmayılov - 35

(1991-2020) — *Kapitan*



Kamran Vaqif oğlu İsmayılov 1991-ci il fevral ayının 9-da Yevlax şəhərində anadan olmuşdur. 1997-2008-ci illərdə Yevlax şəhərində İ.Nəsimi adına 3 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2008-2012-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi məktəbində təhsil almış və ona zabit rütbəsi verilmişdir. 2012-2013-cü illərdə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində zabit hazırlığı kursunda təhsilini başa vuraraq ordu sıralarında xidmətə başlamışdır. 2013-cü ildə "N" saylı hərbi hissədə taqım komandiri vəzifəsinə təyinat almış, 2017-ci ilə qədər Tovuz rayonunda, 2017-2018-ci illərdə Qazax rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətini davam etdirmişdir. 2016-cı ildə baş leytenant rütbəsi alan K.İsmayılov 2018-ci ildə Yevlax rayonunda yerləşən "N" saylı hərbi hissədə bölük komandiri olaraq xidmətə başlamışdır. 2020-ci ildə kapitan rütbəsinə layiq görülən K.İsmayılov hərbi xidmətinin müxtəlif dövrlərində III dərəcəli "Qüsursuz xidmətə görə" medalına layiq görülmüşdür.

Kamran İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış və Suqovuşan kəndlərinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, oktyabrın 8-də qəhrəmancasına şəhid olmuşdur. Oktyabrın 11-də Yevlax şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Kamran İsmayılov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Ziyəddinoğlu, Q. Suqovuşan uğrunda gedən döyüşlərdə böyük şücaət göstərərək şəhid olan zabitimiz - kapitan Kamran İsmayılov / Qaşqay Ziyəddinoğlu. //Yeni Azərbaycan.– 2021.– 11 fevral.–S.5.

Daş yollarda baş qoyan oğul //Xalq qəzeti.– 2025.– 9 fevral (№ 29).– S.9.

9

Murad Nefesov - 25

(2001-2020) — *Əsgər*



Murad Ocaqdurdu oğlu Nefesov 2001-ci il fevral ayının 9-da Masallı şəhərində anadan olmuşdur. 2008-2019-cu illərdə Rafiq Əlihəsənov adına Masallı şəhər 1 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2019-cu ilin aprel ayında hərbi xidmətə çağırılmış, Azərbaycan Silahlı Qüvvələrinin Bakı şəhərində, "N" saylı hərbi hissəsində tankçı-tuşlayıcı kimi xidmət etmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Murad Nefesov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Xocavənd və Şuşa rayonlarının alınması uğrunda aparılan döyüşlərdə iştirak etmiş, noyabrın 7-də Şuşa şəhərinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, noyabr ayının 9-da Masallı şəhər qəbiristanlığında dəfn edilmişdir.

Murad Ocaqdurdu oğlu Nefesov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda"(15.12.2020) və "Şuşanın azad olunması" (29.12.2020) medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Şükürov, Ə. Onların arzuları yarımçıq qalmadı....:[şəhid Murad Nefesov və Araz Seyfullayev haqqında] / Əlihüseyn Şükürov // Azad Azərbaycan.–2021.– 4 fevral.– S.5.

9 FEVRAL

Ramid Əliyev - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Orucoğlu, Z. Qeyrət zirvəsinə ucalan Ramid /Zəfər Orucoğlu // Hürriyyət.- 2023.- 14 mart.- S.13.

Orucoğlu, Z. Zəfər tarixinin qəhrəmanları /Zəfər Orucoğlu // İki sahil.– 2023.– 4 noyabr.

Ramid Kamal oğlu Əliyev 1996-cı il fevral ayının 9-da Lənkəran rayonunun Şağlaser kəndində anadan olmuşdur. İstisu qəsəbəsi tam orta məktəbini bitirmiş, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olmuş, 2017-ci ildə Akademiyanı bitirmişdir. Həqiqi hərbi xidmətə çağırılmış, Quru Qoşunlarda xidmət etmişdir.

Ramid Əliyev Vətən müharibəsi zamanı qismən səfərbərlik çərçivəsində döyüşlərə qatılmış, Cəbrayıl, Qubadlı rayonları uğrunda gedən döyüşlərdə cəsarətlə döyüşmüş, misilsiz qəhrəmanlıq göstərmişdir. Oktyabr ayının 24-də Qubadlı istiqamətində grdən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Oktyabr ayının 26-da İstisu qəsəbə qəbiristanlığında dəfn edilmişdir.

Ramid Kamal oğlu Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Cəbrayılın azad olunmasına görə" (24.12.2020) və "Qubadlının azad olunmasına görə" (29.12.2020) medalları ilə təltif edilmişdir.

ADBTİA-da R.Əliyevin adına fəxri təqaüd təyin olunmuş, Lənkəran rayonunun Şağlaser kəndindəki küçələrdən biri onun adını daşıyır.

9

Tacir Cəfərov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Quliyeva, Q. Tacir Cəfərov /Qaratel Quliyeva //Vətən simurqları (II Qarabağ Vətən Müharibəsinin Qəhrəmanları) /Toplayıb nəşrə hazırlayan Almaz Ülvi (Binnətova).– I cild, 2-ci kitab. – Bakı, 2022.– S.462.

Tacir Fariz oğlu Cəfərov 2001-ci il fevral ayının 9-da Goranboy rayonunun Qaraçinar kəndində anadan olmuşdur. Qaraçinar kənd orta məktəbidə təhsil almışdır. Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Tacir Cəfərov 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabr ayının 28-də Füzuli-Xocavənd istiqamətində gedən ağır döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Oktyabr ayının 29-da Goranboy şəhər qəbiristanlığında dəfn olunmuşdur.

Tacir Fariz oğlu Cəfərov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Xocavəndin azad olunmasına görə" (25.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020), "Cəsur döyüşçü" (24.06.2021) medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Goranboy şəhərindəki mərkəzi küçələrdən biri şəhisin adını daşıyır.

FEVRAL
10

Samir Məmmədov - 40

(1986-2020)

MAHHXHQ kiçik çavuş



Samir Ramiz oğlu Məmmədov 1986-cı il fevral ayının 10-da Göyçə mahalının Basarkeçər rayonunun Zod kəndində anadan olmuşdur. 1989-cu ildə ailəsi ilə birlikdə Göygöl rayonunun Zurnabad kəndinə köçdüyündən, həmin kənddəki 1 nömrəli orta məktəbdə təhsil almışdır.

Samir Məmmədov 2004-2005-ci illərdə Ağcabədi rayonunda "N" saylı hərbi hissədə həqiqi hərbi xidmətdə olmuşdur. 2012-ci ildə müddətdən artıq hərbi xidmət qulluqçusu kimi Cəlilabad rayonunda "N" saylı hərbi hissədə xidmətə başlamış, 2013-cü ildən döyüş bölgəsi olan Füzuli rayonunda xidmət etmişdir. Samir Məmmədov 2016-cı il "Aprel döyüşləri"ndə fəal iştirak etmiş, medal və fəxri fərmanlarla təltif olunmuşdur. 2018-2020-ci illərdə Murov dağ yüksəkliklərində, 2020-ci ilin aprel ayından Füzuli rayonunda xidmətinə davam etmişdir.

Azərbaycan Ordusun kiçik çavuşu olan Samir Məmmədov Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabr ayının 12-də Füzuli rayonu istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid omuş, Göygöl rayonunun Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Samir Ramiz oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda"(15.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020) və "İgidliyə görə"(24.06.2021) medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Həsənova, Ş. Samir Məmmədov / Şərqiyyə Həsənova //Vətən simurqları (II Qarabağ Vətən Müharibəsinin Qəhrəmanları) / Toplayıb nəşrə hazırlayan Almaz Ülvi (Binnətova).– I cild, 2-ci kitab. – Bakı, 2022.– S.424.

10

Babaxan Babayev - 30

(1996-2020)

MAHHXHQ əsgər



Babaxan Ələvsət oğlu Babayev 1996-cı il fevral ayının 10-da Naxçıvan MR-nın Şərur şəhər Yuxarı Yayçı kəndində anadan olmuşdur. Yuxarı Yayçı kənd orta məktəbində və Baki şəhəri Sabunçu rayonunun Pirşağı qəsəbəsində, 188 nömrəli tam orta məktəbdə təhsil almışdır. Məktəb illərində idmanla məşğul olub, sərbəst güləş üzrə üç dəfə Azərbaycan Çempionu adını qazanmışdır. 2014-2016-cı illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuşdur, 2019-cu ildən Milli Orduda kəşfiyyatçı kimi xidmətə başlamışdır.

Azərbaycan Ordusun MAHHXHQ əsgəri olan Babaxan Babayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Murovdağ, Suqovuşan, Hadrut uğrunda gedən döyüşlərdə və bir sıra strateji yüksəkliklərin alınmasında şücaət göstərərək xeyli düşmən qüvvəsini məhv etmiş, onlarla yaralı yoldaşlarını döyüş bölgəsindən çıxararaq tibb məntəqəsinə çatdırmış, oktyabrın 17-də Hadrut qəsəbəsi uğrunda gedən döyüşdə yaralansa da, yaralı yoldaşını döyüş bölgəsindən çıxararkən qəhrəmancasına şəhid olmuşdur. Oktyabr ayının 24-də Şərur şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Babaxan Ələvsət oğlu Babayev Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Hərbi Xidmətlərə görə" medalları və 3-cü dərəcəli "Vətənə Xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

FEVRAL

10

Tural Bayramlı - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Nəsiboğlu, S. Tural - Vətən / Sevindik Nəsiboğlu // Kredo.–2021.– 22 oktyabr.– S.12.

Tural Ədil oğlu Bayramlı 1996-cı il fevral ayının 10-da Beyləqan rayonunun Şəfəq qəsəbəsində anadan olmuşdur. 2002-2013-cü illərdə Cəbrayıl rayon Dağ Tumas kənd tam orta məktəbində təhsil almışdır. 2014-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə çağırılmış, Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə kəşfiyyatçı olaraq xidmət etmişdir. 2016-cı il aprel döyüşləri zamanı Tərtər rayonunun Çaylı kəndi istiqamətində gedən döyüşlərdə iştirak etmiş, Daxili Qoşunların "Yarasa" xüsusi təyinatlı hərbi birləşməsinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmətinə davam etmişdir.

Tural Bayramlı Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Xocavənd və Şuşa rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, noyabr ayının 9-da Şuşa şəhəri istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Noyabr ayının 11-də Beyləqan rayonunun Şəfəq qəsəbəsində yerləşən Cərcis Peyğəmbər ziyarətgahında dəfn olunmuşdur.


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Tural Ədil oğlu Bayramlı ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və Müdafiə Naziri Zakir Həsənovun 28.12.2020-ci il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

11

Ülfət Rzayev - 25

(2001-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Ülfət Novruz oğlu Rzayev 2001-ci il fevral ayının 11-də Tərtər rayonunun Cəmilli kəndində anadan olmuşdur. Cəmilli kəndində salınmış Kəlbəcər rayon 68 №-li tam orta məktəbi bitirmiş, 2019-cu ilin aprel ayından Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə çağırılmışdır.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Ülfət Rzayev 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli, Şuşa rayonlarının işğaldan azad olunmasında fəal iştirak etmiş, noyabrın 5-də Şuşa döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Noyabrın 13-də Tərtər rayonunda dəfn olunmuşdur.

Ülfət Novruz oğlu Rzayev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Azərbaycan Bayrağı" (05.11.2021) ordeni və "Vətən uğrunda" (15.12.2020), "İgidliyə görə" (18.12.2020), "Şuşanın azad olunmasına görə" (29.12.2020), "Kəlbəcərin azad olunmasına görə" (24.06.2021), "Xocavəndin azad olunmasına görə" (24.06.2021) medalları ilə təltif edilmişdir.

FEVRAL
11

Mirhüseyn Seyidzadə - 35

(1991-2020)

Əsgər



Ədəbiyyat:

Xəlilov, Z. Gəncə şəhidin adını daşıyan küçənin və barelyefin açılışı / Zabit Xəlilov // Respublika.– 2022.– 16 fevral.– S.5.

Mirhüseyn Miryunis oğlu Seyidzadə 1991-ci il fevralın 11-də Rusiya Federasiyasının Moskva şəhərində anadan olmuşdur. 1997-2006-cı illərdə Gəncə şəhər M.Ə.Sabir adına 5 nömrəli məktəbdə, 2007-2010-cu illərdə Gəncə Humanitar Kollecində "Gömrükxana işi" ixtisası üzrə təhsil almışdır. 2010-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağırılmışdır. 2018-ci ildən Azərbaycan Sülhməramlı Qüvvələrinin sıralarına qatılmış, 2020-ci il iyulun 7-dən Bakı şəhərində təlimlərə başlamışdır.

Mirhüseyn Seyidzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Laçın, Füzuli və Cəbrayıl rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 9-da Füzuli rayonu ərazisində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş, oktyabrın 10-da Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Mirhüseyn Seyidzadə Azərbaycan Respublikası Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə III dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2022-ci ildə Gəncədə vaxtilə yaşadığı küçəyə adı verilmiş və barelyefinin açılışı olmuşdur.

11

Yusif Əliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Yusif Asif oğlu Əliyev 2001-ci il fevral ayının 11-də Şamaxı şəhərində anadan olmuşdur. 2007-2018-ci illərdə Şamaxı şəhərində orta təhsil almışdır. 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılmış, Azərbaycan Silahlı Qüvvələrinin Cəbrayıl rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Yusif Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 5-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş, Şamaxı Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Yusif Asif oğlu Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda"(15.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020), "Cəbrayılın azad olunmasına görə" (24.06.2021), "Xocavəndin azad olunmasına görə" (25.12.2020) və "Cəsur döyüşçü" (24.06.2021) medalları ilə təltif edilmişdir.

FEVRAL
11

Amal Alışanlı - 25

(2001-2020)

Əsgər



Amal Seyfəddin oğlu Alışanlı 2001-ci il fevral ayının 11-də Yardımlı rayonunun Qabaqdibi kəndində anadan olmuşdur. Ailəsi ilə birlikdə Şirvan şəhərinə köçmüş, 2018-ci ildə M.Osmanov adına 20 saylı orta məktəbi bitirmişdir.

2019-cu ilin aprel ayında Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağırılmış, Gəncə şəhərindəki "N"saylı hərbi hissədə xidmət etmiş, bir neçə aydan sonra Xüsusi Təyinatlı Dəstədə xidmətə başlamış, Cəlilabad rayonunun Göytəpə sərhəd zastavasına göndərilmişdir.

Azərbaycan ordusunun əsgəri olan Amal Alışanlı 2020-ci il sentyabr ayının 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun işğaldan azad olunmasında fəal iştirak etmiş, düşmənin xeyli sayda texnikasını və canlı qüvvəsini məhv etmiş, oktyabrın 2-də Cəbrayıl rayonunun azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Amal Seyfəddin oğlu Alışanlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda" (15.12.2020), "İgidliyə görə" (18.12.2020), "Kəlbəcərin azad olunmasına görə" (25.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020), "Cəbrayılın azad olunmasına görə" (24.12.2020) medalları və "Azərbaycan Bayrağı" (05.11.2021) ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Orucoğlu, Z. Vətənə bağlı oğul / Zəfər Orucoğlu // Unikal.– 2022.– 24 iyun. – S.13.

12

Xəyal Məmmədov - 25

(2001-2020)

Əsgər



Xəyal Xaliq oğlu Məmmədov 2001-ci il fevral ayının 12-də Sumqayıt şəhərində anadan olmuşdur. Orta təhsinə 2007-ci ildə Qubadlı rayonu C.Həşimov adına orta məktəbdə başlamış, daha sonra Füzuli rayonunun Zobcuq-1 qəsəbəsində yerləşən orta məktəbdə davam etdirmişdir. Məktəbdə oxuyarkən futbol və cüdo idman növləri ilə məşğul olmuş, 2016-cı ildə futbol üzrə keçirilən yarışda II yerin qalibi olmuşdur.

2018-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağırılmış, Cəlilabad rayonu Göytəpə şəhərində yerləşən "N" saylı hərbi hissədə Xüsusi Təyinatlı Qüvvələr sırasında xidmət etmişdir. Xidməti başa vurmasına az qalmış, İkinci Qarabağ müharibəsi başladığından, Murovdağ, Ağdərə, Cəbrayıl, Füzuli rayonları istiqamətində gedən döyüşlərdə pulemyotçu olaraq döyüşmüş. Füzuli rayonunun bir neçə strateji yüksəkliklərinin azad edilməsində şücaət göstərən Xəyal Məmmədov oktyabr ayının 15-də Füzuli rayonu Qarğabazar istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Oktyabr ayının 16-da Füzuli rayonunun Araz Dilağarda kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Xəyal Xaliq oğlu Məmmədov "III dərəcəli Rəşadət" ordeni və "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə","Vətən müharibəsi iştirakçısı", "Şücaətə görə" medalları ilə təltif edilmişdir.

İnternetdə

https://unudulmazlar.az/az/infom/3510

https://memorial.az/az/qehremanlarimiz/2472

FEVRAL

13

Rahid Sadıxov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Rahid Vahid oğlu Sadıxov 2001-ci il fevral ayının 13-də Rusiya Federasiyasının Saratov şəhərində anadan olmuşdur. Ailəsi ilə birlikdə Azərbaycana, Sumqayıt şəhərinin Saray qəsəbəsinə köçmüş, 2007-2016-cı illərdə Saray qəsəbəsinin M.Ələkbərov adına 1 №-li tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Masallı Rayon Hərbi Komisarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmış, Goranboy və Tərtər rayonlarında hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Rahid Sadıxov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovusan və Talış kəndi ətrafında gedən döyüşlərdə iştirak etmiş, sentyabr ayının 28-də qəhrəmancasına şəhid olmuşdur. Oktyabr ayının 29-da Abşeron rayonunun Saray qəsəbəsində dəfn olunmuşdur.

Rahid Vahid oğlu Sadıxov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

13

Seymur Həbibov - 40

(1986-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Seymur Feyruz oğlu Həbibov 1986-cı il fevral ayının 13-də Şəmkir rayonunun Əliyaqublu kəndində anadan olmuşdur. 1992-2003-cü illərdə Şəmkir şəhəri Cahangir Rüstəmov adına tam orta məktəbdə təhsil almışdır. 2003-cü ildə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidməti başa vurduqdan sonra müxtəlif sənət sahələrində çalışmışdır. 2020-ci ilin avqust ayından müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Seymur Həbibov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ, Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 1-də Kəlbəcər rayonunun "Hinal" döyüş mövqeyi istiqamətində hərbi əməliyyatlar nəticəsində qəhrəmancasına şəhid olmuşdur.

Seymur Feyruz oğlu Həbibov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif olunmuşdur.

FEVRAL
13

Elməddin Abdullayev - 25

(2001-2020)

Əsgər



Elməddin Telman oğlu Abdullayev 2001-ci il fevral ayının 13-də Quba rayonun Qam-qam kəndində anadan olmuşdur. 2018-ci ildə M. Abdullayev adına Qam-qam kənd tam orta məktəbini bitirmişdir. 2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Elməddin Abdullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zaman Suqovuşan, Füzuli, Ağdərə və Tərtər döyüşlərinin iştirakçısı olmuş, düşmənin xeyli sayda texnikasının və canlı qüvvəsinin məhv edilməsində fəal iştirak etmişdir. Sentyabr ayının 30-da Talış kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Elməddin Telman oğlu Abdullayev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunması uğrunda", "Suqovuşanın azad olunması uğrunda" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Xəlilova, A. Doğma torpağa sevgisi onu ali məqama ucaltdı / Aydan Xəlilova // Azərbaycan.– 2022.– 2 noyabr.– S.8.

Xaqani Babazadə - 25

13

(2001-2020)

Əsgər



Xaqani Anar oğlu Babazadə 2001-ci il fevral ayının 13-də Astara rayonunun Kijəbə qəsəbəsində anadan olmuşdur. 2007-2018-ci illərdə Nail Həsənov adına Kijəbə qəsəbə tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Xaqani Babazadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı, Xocavənd və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, noyabrın 3-də Şuşa istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Noyabrın 18-də Astara rayonunun Kijəbə qəsəbəsində dəfn olunmuşdur.

Xaqani Anar oğlu Babazadə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", 3-cü dərəcəli "Vətənə Xidmətə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Orucoğlu, Z. Vətən müharibəsinin qalib şəhidi / Zəfər Orucoğlu // Unikal.– 2022.– 11 noyabr. – S.13.

FEVRAL

14

Kamran Fərəcov - 30

(1996-2020)

MAHHXHQ baş əsgər



Kamran İlqar oğlu Fərəcov 1996-cı il fevral ayının 14-də Şirvan şəhərində anadan olmuşdur. Şirvan şəhərindəki 11 saylı məktəbdə orta təhsil almışdır. Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətini başa vurduqdan sonra, DİN-in Daxili Qoşunlarının Quba rayonunda yerləşən Xüsusi Təyinatlı Dəstəsində xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun MAHHXHQ baş əsgəri olan Kamran Fərəcov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Xocavəndin azad olunması uğrunda gedən döyüşlərdə düşmənə sarsıdıcı zərbələr endirmiş, oktyabrın 24-də Şuşa şəhərinin 15 kilometrliyində yerləşən Çanaqçı kəndi ərazisində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Oktyabrın 29-da Şirvan şəhər şəhidlər xiyabanında dəfn edilmişdir.

Kamran İlqar oğlu Fərəcov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Abdulla, N. Qarabağı kamına çatdıran Kamran / Nuray Abdulla // Unikal.– 2024.– 16 fevral. – S.12.

15

Davud Qurbanov - 30

(1996-2020)

Çavuş



Davud Tariyel oğlu Qurbanov 1996-cı il fevral ayının 15-də Bakı şəhərində anadan olmuşdur. 2002-2013-cü illərdə R. Pirnəzərov adına 299 saylı Biləcəri qəsəbə məktəb-liseyində, 2013-2017-ci illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) "İstehsalat proseslərinin avtomatlaşdırılması" fakültəsində təhsil almışdır. 2017-2019-cu illərdə həmin fakültənin magistratura pilləsində təhsilini davam etdirmişdir. 2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmət çağırılmış, Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. Xidmət etdiyi müddətdə kiçik çavuş, sonradan çavuş rütbəsinə yüksəlmişdir.

Azərbaycan Ordusunun çavuşu olan Davud Qurbanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 3-də Suqovuşan döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Qazax rayonunun Birinci Şıxlı kəndində dəfn edilmişdir.

Davud Tariyel oğlu Qurbanov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

FEVRAL
15

Elşən Sultanlı - 25

(2001-2020)

Əsgər



Elşən Nazim oğlu Sultanlı 2001-ci il fevral ayının 15-də Yardımlı rayonunun Teşkan kəndində anadan olmuşdur. 2007-2017-ci illərd Teşkan kənd ibtidai məktəbində, 2017-2018-ci illərdə Separadi kənd orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Elşən Sultanlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Qapanlı, Talış kəndləri, Suqovuşan qəsəbəsinin azad edilməsində iştirak etmiş, oktyabrın 16-da Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmanlıqla döyüşərək şəhid olmuşdur. Yardımlı rayonunun Teşkan kəndində dəfn edilmişdir.

Elşən Nazim oğlu Sultanlı Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medallları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Məlikli, Z. Müharibəni üç gün tezləşdirən şəhid Sultanlı Elşən Nazim oğlu / Zahir Məlikli //Olaylar.– 2020.–11-17 dekabr.– S.22.

Orucoğlu, Z. Vətənə sevdalanan qəhrəman: Elşən Sultanlı / Zəfər Orucoğlu // Azad Azərbaycan.– 2021.– 19 avqust.– S.5; Paralel.– 2021.– 5 avqust.– S.13.

16

Mehti Şıxəliyev - 30

(1996-2020)

Kiçik gizir



Mehdi Yalçın oğlu Şıxəliyev 1996-cı il fevral ayının 16-da Hacıqabul rayonun Meyniman kəndində anadan olmuşdur. 2013-cü ildə Hacıqabul rayonu İ. Həsənov adına Meyniman kənd tam orta məktəbindən məzun olmuşdur. 2014-2016-cı illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuşdur. 2016-cı ildən Xüsusi Təyinatlı Qüvvələrin hərbçisi olmuşdur.

Azərbaycan Ordusunun kiçik gizir i oln Mehdi Şıxəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Şuşa rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, düşmənin xeyli tankını, zirehli maşınını, 70-dən çox canlı qüvvəsini məhv etmişdir. "Mixaylo" ləqəbli döyüşçü Mehti Şıxəliyev noyabr ayının 10-də Daşaltı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, Hacıqabul rayonunun Meyniman kəndində dəfn olunmuşdur.

Mehdi Yalçın oğlu Şıxəliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Qarabağ" ordeni və "Vətən uğrunda","-Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə","Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Şeyx, T. Mehdi Şıxəliyev /Şeyx Teymur // Vətən simurqları (II Qarabağ Vətən Müharibəsinin Qəhrəmanları) /Toplayıb nəşrə hazırlayan Almaz Ülvi (Binnətova).– I cild, 2-ci kitab. – Bakı, 2022. – S.283–285.

FEVRAL

16

Orxan Cəfərli - 30

(1996-2020)

Gizir



Orxan Etibar oglu Cəfərli 1996-cı il fevral ayının 16-da Daşkəsən rayonunda anadan olmuşdur. 2003-2013-cü illərdə A.Mürsəlov adına 2 saylı Daşkəsən şəhər tam orta məktəbində təhsil almışdır. 2013-2015-ci illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuş, xidmətdə fərqləndiyinə görə çavuş rütbəsi almışdır. Orxan Cəfərli 2016-ci ildə Müddətdən artıq Hərbi Xidmətə daxil olaraq, manqa komandiri vəzifəsində çalışmış, 2020-ci ildə gizir kursunu bitirərək gizir rütbəsi almışdır.

Azərbaycan Ordusunun giziri olan Orxan Cəfərli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb, döyüşləri zamanı sağ çiyin nahiyəsindən yaralanmasına baxmayaraq, döyüşçü yoldaşının həyatını xilas etmiş, şəhidlərimizin nəşini götürərkən qəhrəmancasına şəhid olmuşdur.

Orxan Etibar oglu Cəfərli Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

17

Surxay Cəfərov - 40

(1986-2020)

Əsgər



Surxay Cümşüd oğlu Cəfərov 1986-cı il fevral ayının 17-də Göygöl rayonunun Danayeri kəndində anadan olmuşdur. 1992-2001-ci illlərdə Göygöl rayonu, Danayeri kənd orta məktəbində təhsil almışdır. 2004-2005-ci illərdə "N" saylı hərbi hissədə Baş mexanik akumlyatorçu kimi həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Surxay Cümşüd oğlu Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak etmiş, noyabr ayının 8-də Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Noyabr ayının 17-də Gəncə Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Surxay Cümşüd oğlu Cəfərov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

İnternetdə

https://yeniazerbaycan.az/YAPxeber_e63009_az.html


https://vhp.az/şəhid-surxay-cəfərov-anilib/

FEVRAL
17

Bayram Orucov - 25

(2001-2020)

Əsgər



Bayram Çərkəz oğlu Orucov 2001-ci il fevral ayının 17-də Göyçay rayonunun Alpout kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Göyçay rayon Alpout kənd X. Cəfərov adına tam orta məktəbdə təhsil almışdır. 2019-cu ildə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətə çağırılmış, Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Bayram Orucov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı döyüşlərdə iştirak etmiş, oktyabr ayının 24-də Qubadlı rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Göyçay rayonunun Alpout kəndində dəfn olunmuşdur.

Bayram Çərkəz oğlu Orucov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Cəbrayılın azad olunmasına görə" (24.12.2020), "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" (24.6.2021) medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Müşfiq, Ş. Əbədiyyətdəki əziz ünvanlarımız: Şəhidlər ölməz, Vətən bölünməz / Şahanə Müşfiq 525-ci qəzet.– 2021.– 12 avqust.– S.14-15.

17

Gülalı Qəhrəmanov - 40

(1986-2020)

MAHHXHQ əsgər



Gülalı Aydın oğlu Qəhrəmanov 1986-cı il fevral ayının 17-də Ağcabədi rayonunun Minaxorlu kəndində anadan olmuşdur. Minaxorlu kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuşdur. 2020-ci il iyul ayının 8-dən MAHHXHQ kimi ordu sıralarında xidmət etməyə başlamışdır.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Gülalı Qəhrəmanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşmış, sentyabr ayının 28-də Füzuli rayonu istiqamətində gedən qızğın döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Ağcabədi rayonunun Minəxorlu kəndində dəfn olunmuşdur.

Gülalı Aydın oğlu Qəhrəmanov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

İnternetdə

https://yashat.gov.az/hero-birthdays/62

https://unudulmazlar.az/az/infom/1312

https://www.aranqazeti.az/2021/03/01/minəxorlu-şəhidləri/

FEVRAL

18

Asim Süleymanov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Asim Məhərrəm oğlu Süleymanov 2001-ci fevral ayının 18-də Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olmuşdur. 2018-ci ildə Gəncə şəhər 21 nömrəli tam orta məktəbindən məzun olmuşdur. 2018-ci ildə "Vaqon və refrijerator təsərrüfatı" ixtisası üzrə Gəncə Dövlət Regional Kollecinə daxil olmuşdur. 2019-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən həqiqi hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etməyə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Asim Süleymanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan kəndi, Xocavənd rayonunun Ağoğlan (Hadrut) qəsəbəsi, Cəbrayıl və Xocavənd rayonlarının azadlığı uğrunda vuruşmuş, noyabrın 4-də Xocavəndin Zoğalbulaq kəndinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Noyabrın 5-də Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Asim Məhərrəm oğlu Süleymanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə "Vətən uğrunda" və "Xocavəndin işğaldan azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

18

Siyasət Nadirov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Şahin, Ş. Şəhidliyin Siyasət Nadirov məqamı / Şahnaz Şahin //Sabirabad şəhidləri /Ş.Şahin.–Bakı, 2021.–S.94-96.

Siyasət Kamil oğlu Nadirov 2001-ci il fevral ayının 18-də Sabirabad rayonunun Şəhriyar kəndində anadan olmuşdur. 2018-ci ildə Şəhriyar kənd tam orta məktəbini bitirmişdir. 2019-cu ilin aprel ayında Sabirabad rayonunun Hərbi Komissarlığından həqiqi hərbi xidmətə çağırılmış, Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə snayperçi kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Siyasət Nadirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi başladığı gündən döyüş əməliyyatlarına qatılmış, bir neçə istiqamətdə düşmənə qarşı qəhrəmancasına döyüşmüşdür. Siyasət Nadirov oktyabr ayının 16-da Ağdərə-Talış istiqamətində gedən döyüşlərdə yaralansa da, uzun müddət dəqiq məlumat əldə etmək mümkün olmamış, itkin hesab edilmişdir. Siyasət Nadirovun nəşi noyabr ayının 21-də tapılaraq Sabirabad rayonunun Şəhriyar kəndində dəfn olunmuşdur.

Siyasət Kamil oğlu Nadirov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

FEVRAL

18

Ramil Quluyev - 35

(1991-2020)

Əsgər



Ədəbiyyat

Vətən sizə oğul dedi // Ədalət.– 2021.– 22 yanvar.–S.5.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/173

Ramil Elşən oğlu Quluyev 1991-ci il fevral ayının 18-də Qubadlı rayonunda anadan olmuşdur. 1997-2000-ci illərdə Sumqayıt şəhər 14 nömrəli tam orta məktəbdə, 2000-2008-ci illərdə Sumqayıt şəhər 35 saylı tam orta məktəbində, 2011-2015-ci illərdə Kiyevdə Personalın İdarəetməsinin Regionlararası Akademiyası (MAUP)-nın menicment fakültəsində təhsil almışdır. 2015-2016-ci illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələri sırasında həqiqi hərbi xidmətdə olmuş, baş atıcı olaraq Lələtəpə uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ramil Quluyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərdə iştirak etmiş, verilən tapşırıqları uğurla yerinə yetirmişdir. Oktyabrın 9-da Hadrut uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Nəşi 12 gün neytral zonada qaldıqdan sonra oktyabr ayının 22-də Sumqayıt şəhidlər xiyabanında dəfn olunmuşdur.


Ramil Elşən oğlu Quluyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

19

Natiq Quliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Natiq Ramiz oğlu Quliyev 2001-ci il fevral ayının 19-da Sumqayıt şəhəri, H.Z. Tağıyev qəsəbəsində anadan olmuşdur. 2007-ci ildə H.Z.Tağıyev qəsəbəsindəki 19 saylı tam orta məktəbin 1-ci sinfinə getmiş, 2-ci sinifdən təhsilini Corat bağlarında yerləşən 2 saylı tam orta məktəbdə davam etdirmiş, 2018-ci ildə məktəbi bitirmişdir. 2019-cu il aprel ayının 23-dən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, Goranboy rayonunun Yuxarı Ballıqaya kəndindəki, sonra isə Tərtər rayonunun Cəmilli kəndindəki hərbi hissədə xidmət etmişdir. Komandanlıq tərəfindən verilən tapşırıqları vaxtında və düzgün yerinə yetirdiyinə görə, ailəsinin adına 3 dəfə "Təşəkkürnamə" yazılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Natiq Quliyev Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən qızğın döyüşlərdə 2 dəfə yaralanmasına baxmayaraq, yaralı halda döyüşə davam etmiş, oktyabrın 6-da Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, oktyabr ayının 8-də Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Natiq Ramiz oğlu Quliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

FEVRAL

19

Sadiq Vəliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat

Ağdaşda Vətən müharibəsi şəhidinin xatirəsi anılıb // İki sahil.–2022.–5 oktyabr.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/2142

https://obastan.com/wiki/Sadiq_Vəliyev_(əsgər)

Sadiq Ayaz oğlu Vəliyev 2001-ci il fevral ayının 19-da Ağdaş rayonunun Xosrov kəndində anadan olmuşdur. Ağdaş rayonu, İlqar Ələsgərov adına Xosrov kənd orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Sadiq Vəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi başladığı zaman Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunmasında fəal iştirak etmiş, oktyabrın 3-də Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Oktyabr ayının 5-də Ağdaş rayonunun Xosrov kəndində dəfn olunmuşdur.

Sadiq Ayaz oğlu Vəliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə" və "Şücaətə görə" medalları ilə təltif edilmişdir.

19

Baxış Rəhimli - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Qaçayqızı, M. Çinar ömrü /Mənsurə Qaçayqızı; [dizayner K. İbrahimov].– Bakı: Elm və təhsil, 2021.– 96 s.

Baxış İlqar oğlu Rəhimli 1996-cı il fevral ayının 19-da Bərdə rayonunun Bala Qacar kəndində anadan olmuşdur. 2002-2004-cü illərdə Bərdə rayonu H.Xəliloğlu adına Qullar kənd tam orta məktəbində, 2004-2013-cü illərdə Bərdə rayon Akademik Z.Əliyeva adına məktəb-liseydə, 2014-2019-cu ildə Türkiyənin Kastamonu Universitetində "İktisadi və İdari Bilimler" fakultəsində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Baxış Rəhimli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi başladığı zaman bacarıqlı topçu kimi döyüşlərdə böyük şücaət göstərmiş, Laçın, Füzuli, Şuşa rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla döyüşmüşdür. Noyabr ayının 9-da Şuşa uğrunda gedən döyüşlərdə, müharibənin bitməsinə saatlar qalmış qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Baxış İlqar oğlu Rəhimli ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

2021-ci ildə Mənsurə Qaçayqızının şəhidə həsr etdiyi "Çinar ömrü" kitabı "Elm və təhsil" nəşriyyatında nəşr olunmuşdur.

FEVRAL
20

Kamran Qasımov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Kamran Fazil oğlu Qasımov 2001-ci il fevral ayının 20-də Gədəbəy rayonunun Qaravəlilər kəndində anadan olmuşdur. 2007-2016-ci illərdə Bakı şəhəri, Sabunçu rayonu, Zabrat kəndindəki 192 nömrəli orta məktəbdə, 2016-2019-cu illərdə 14 saylı Bakı Peşə Liseyində təhsil almışdır. 2019-cu ilin iyul ayında Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, Füzuli rayonunun Çöcukmərcanlı kəndindəki hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Kamran Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı pulemyotçu kimi Füzuli və Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 27-də Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, noyabrın 26-da Bakı şəhəri, Sabunçu rayonu Zabrat kəndində dəfn edilmişdir.

Kamran Fazil oğlu Qasımov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

20

Şahmar Soltanlı - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Şahmar Qinyaz oğlu Soltanlı 1996-cı il fevral ayının 20-də Şəki şəhərində anadan olmuşdur. 2003-2011-ci illərdə Şəki şəhəri 5 saylı orta məktəbdə, eyni zamanda 2006-2011-ci illərdə Şəki şəhər 3 saylı Uşaq musiqi məktəbinin tar şöbəsində təhsil almışdır. 2011-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində Bakı humanitar kollecinə daxil olmuşdur. 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, Goranboy, Tərtər rayonlarında yerləşən "N" saylı hərbi hissədə qumbaraatan köməkçisi, atıcı kimi xidmət etmişdir.

Şahmar Soltanlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsidə qismən səfərbərliklə əlaqədar oktyabr ayının 5-də orduya çağırılmış, "N" saylı hərbi hissənin tərkibində Tərtər rayonunda gedən döyüşlərdə iştirak etmişdir. Tərtər rayonunun Qafanlı kəndinə düşən qrad mərmisindən yaralansa da, 2 gündən sonra yenidən döyüşlərə qatılmış, oktyabr ayının 17-də Ağdərə rayonu uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Şəki Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Şahmar Qinyaz oğlu Soltanlı ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

FEVRAL

20

Sirus Şirbəyli - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Sirus Hamil oğlu Şirbəyli 1996-cı il fevral ayının 20-də Yardımlı rayonunun Zevin kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə Zevin kənd orta məktəbində təhsil almışdır. 2013-2014-cü illərdə Sərhəd Qoşunlarının "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2018-ci ilin iyul ayından müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi Naxçıvan Muxtar Respublikasında kəşfiyyatçı xüsusi təyinatlısı kimi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Sirus Şirbəyli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zaman Füzuli, Xocavənd, Şuşa rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmiş, noyabrın 6-da Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, noyabrın 11-də Yardımlı rayonunun Zevin kəndində dəfn olunmuşdur.

Sirus Hamil oğlu Şirbəyli Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

20

Mirşəmsi Babazadə - 30

(1996-2020)

MAHHXHQ əsgər



İnternetdə

https://memorial.az/az/qehremanlarimiz/2940

https://unudulmazlar.az/az/infom/2389

Mirşəmsi Elşad oğlu Babazadə 1996-cı il yanvar ayının 20-də Tərtər rayonunun Mamırlı kəndində anadan olmuşdur. Mamırlı kənd orta məktəbini bitirmiş, 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, "N" saylı hərbi hissədə xidmət etmişdir. 2019-cu ildə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin təlim tədris mərkəzin MAHHXHQ kursuna qəbul olunmuş, müddətdən artıq hərbi xidmət qulluqçusu kimi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Mirşəmsi Babazadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zaman Suqovuşan kəndinin azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabr ayının 30-da Tərtər-Ağdərə istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Tərtər rayonunun Mamırlı kənd qəbiristanlığında dəfn olunmuşdur.

Mirşəmsi Elşad oğlu Babazadə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

FEVRAL

20

Novruz Həsənov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Novruz Cumalı oğlu Həsənov 1996-ci il fevral ayının 20-də Gədəbəy rayonunda anadan olmuşdur. 2002-2013-cü illərdə 1 saylı Gədəbəy şəhər tam orta məktəbində, 2013-2018-ci illərdə Bakı Dövlət Universitetinin İqtisadiyyat və Humanitar Kollecinin "Bank işi" fakültəsində təhsil almışdır. N.Həsənov 6 yaşından cüdo və sərbəst güləş ilə məşğul olmuş, bir çox yarışlara qatılaraq 15-dən artıq medal, diplom, fəxri fərmanlara layiq görülmüşdür. 2014-2016-ci illərdə Mingəçevir şəhərində "N" saylı hərbi hissədə "Minaatan" batareyasında həqiqi hərbi xidmətdə olmuşdur.

Novruz Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsidə könüllü kimi qeydiyyatdan keçərək Murovdağ uğrunda, Füzuli rayonunun kəndlərinin alınmasında igidlik göstərmiş, noyabrın 9-da Şuşa şəhəri uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, noyabrın 14-də Gədəbəy rayonundə dəfn edilmişdir.

Novruz Cumalı oğlu Həsənov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

21

İkram Səmidov - 35

(1991-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

İkram Şirvan oğlu Səmidov 1991-ci il fevral ayının 21-də Saatlı rayonunun Əlisoltanlı kəndində anadan olmuşdur. 1998-2008-ci illərdə Saatlı rayon M. Əliyev adına Əlisoltanlı kənd orta məktəbində, 2008-2014-ci illərdə Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kollecində Elektrik stansiyaların elektrik avadanlıqlarının quraşdırılması ixtisası üzrə təhsil almışdır. 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

İkram Səmidov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsidə könüllü kimi qeydiyyatdan keçərək Cəbrayıl, Xocavənd, Hadrut, Füzuli, Qubadlı, Şuşa rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmiş, noyabrın 8-də Şuşa şəhəri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, Saatlı rayonunun Əlisoltanlı kəndində dəfn olunmuşdur.

İkram Şirvan oğlu Səmidov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə","Qubadlının azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

FEVRAL

21

Ramil Balabəyov - 25

(2001-2020)

Əsgər



İnternetdə

https://unudulmazlar.az/az/infom/1932

https://yashat.gov.az/hero-birthdays/274

https://memorial.az/az/qehremanlarimiz/736

Ramil Ruslan oğlu Balabəyov 2001-ci il fevral ayının 21-də Qusar rayonunun Köhnə Xudat kəndində anadan olmuşdur. Köhnə Xudat kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, Tərtər rayonunda xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ramil Balabəyov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zaman cəsarətlə vuruşmuş, okyabr ayının 1-də Tərtər-Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Qusar rayon Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Ramil Ruslan oğlu Balabəyov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra"İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Səməndər İsgəndərov - 30

23

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Şükürov, Ə. Şəhidlik məqamına əbədi ucalanlar: Şəhid əsgər Əli Nəcəfov, Cavad Babayev, Səməndər İsgəndərov / Əlihüseyn Şükürov //Azad Azərbaycan.– 2021.– 26 yanvar.–S. 4.

Səməndər Vahid oğlu İsgəndərov 1996-cı il fevral ayının 23-də Masallı rayonunun Sərçuvar kəndində anadan olmuşdur. Sərçuvar kənd tam orta məktəbində təhsil almışdır. Həmçinin, skripka üzrə musiqi təhsili də almışdır. Səməndər İsgəndərov 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında topçu kimi müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Səməndər İsgəndərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmiş, Cəbrayıl, Füzuli və Şuşa rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə savaşmış, oktyabrın 27-də Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Noyabrın 12-də Masallı rayonunun Sərçuvar kəndində dəfn olmuşdur.

Səməndər Vahid oğlu İsgəndərov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Çıraq medianın istehsal etdiyi "Ölümsüzlər" sənədli filminin 16-cı bölümü Səməndər İsgəndərova həsr olunmuşdur.

FEVRAL
23

Veyis İsmayılov - 30

(1996-2020)

Əsgər



İnternetdə:

https://xalqqazeti.az/az/sosial-heyat/215921-eflatun-kisinin-igid-sonbesiyi

https://memorial.az/az/qehremanlarimiz/235

https://unudulmazlar.az/az/infom/1759

Veyis Əflatun oğlu İsmayılov 1996-ci il fevral ayının 23-də Yevlax rayonunda anadan olmuşdur. 2001-2005-ci illərdə Yevlax rayonundakı 9 saylı orta məktəbdə təhsil almış, 2006-cı ildə ailəsi ilə birlikdə Bakıya gələrək təhsilini Zabrat qəsəbəsi 307 saylı orta məktəbdə davam etdirmişdir. 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmış, Qazax rayonunda xidmət etmişdir.

Veyis İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsidə manqa komandiri kimi iştirak etmiş, Tərtər istiqamətində, Ağdərə uğrunda gedən döyüşlərdə vuruşmuş, oktyabr ayının 13-də Suqovuşan uğrunda gedən gərgin döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Nəşi 35 gündən sonra tapılaraq noyabr ayının 17-də Bakıya gətirilərək Bakıxanov qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Veyis Əflatun oğlu İsmayılov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

23

Emin Rüstəmzadə - 35

(1991-2020)

Əsgər



İnternetdə

https://unudulmazlar.az/az/infom/1255

https://www.manset.az/news/14929/index.html

Emin Firqət oğlu Rüstəmzadə 1991-ci il fevral ayının 23-də Mingəçevir şəhərində anadan olmuşdur. 1997-2008-ci illərdə V. Ağakişiyev adına məktəbdə təhsil almışdır. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Emin Rüstəmzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabr ayının 12-də qəhrəmancasına şəhid olmuşdur. Oktyabr ayının 13-də Mingəçevir Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Emin Firqət oğlu Rüstəmzadə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medallları ilə təltif edilmişdir.

FEVRAL

23

Şövqi İsmayılzadə - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Şövqi Raqub oğlu İsmayılzadə 1996-cı il fevral ayının 23-də Bərdə rayonunun Bəcirəvan kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə B.Əhmədoğlu adına tam orta məktəbdə təhsil almışdır. Eyni zamanda Bərdə şəhər 2 saylı musiqi məktəbində tar ixtisası üzrə təhsil almışdır. 2014-cü ildə Naxçıvan Muxtar Respublikası, DSX-da hərbi xidmətdə olmuş, 2020-ci ilin aprel ayından isə müddətdən artıq hərbi xidmət qulluqçusu kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Şövqi İsmayılzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zaman Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 7-də Suqovuşan döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş, oktyabrın 8-də Bərdə rayonunun Bəcirəvan kəndində dəfn olunmuşdur.

Şövqi Raqub oğlu İsmayılzadə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

23

Alik İsayev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Qəhrəmanlar unudulmur: [Regional Mədəniyyət idarələrində Alik İsayev, Nurlan Dadaşov, Toğrul Hacıyev, Cavid Abdullayev, Niyazi Aslanovun ailələri ilə keçirilən görüşlər haqqında] // Mədəniyyət.– 2021.–26 fevral.– S.3.

Alik Şakir oğlu İsayev 2001-ci il fevral ayının 23-də Xızı rayonunda anadan olmuşdur. Orta məktəbi Xızı rayonunda bitirmişdir. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, hərbi xidməti zamanı Xüsusi Təyinatlı Qüvvələrin sıralarına cəlb olunmuş, kəşfiyyatçı kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Alik İsayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zaman düşmənin xeyli sayda canlı qüvvəsi və hərbi texnikasının məhv edilməsində böyük rol oynamış, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarının və Hadrut qəsəbəsinin işğaldan azad olunmasında fəal iştirak etmiş, oktyabr ayının 20-də Şuşa uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur.

Alik Şakir oğlu İsayev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Azərbaycan bayrağı" ordeni və "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Füzulin azad olunmasına görə", "Vətən uğrunda", "Şücaətə görə" medalları ilə təltif edilmişdir.

FEVRAL

24

Rüfət Şabanov - 25

(2001-2020)

Əsgər



İnternetdə

https://unudulmazlar.az/az/infom/1130

https://memorial.az/az/qehremanlarimiz/3049

https://vetensesi.az/page/6/news/36556

Rüfət Rauf oğlu Şabanov 2001-ci il fevral ayının 24-də Abşeron rayonunun Ceyranbatan qəsəbəsində anadan olmuşdur. 2007-2018-ci illərdə Ceyranbatan qəsəbəsində orta təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri Rüfət Şabanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə mərdliklə vuruşmuş, oktyabr ayının 3-də Murovdağ istiqamətində gedən qanlı döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, Ceyranbatan qəsəbəsində dəfn edilmişdir.

Rüfət Rauf oğlu Şabanov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "Kəlbəcərin azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

24

Ənvər Şixəliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Ənvər Vadim oğlu Şıxəliyev 2001-ci il fevral ayının 24-də Qusar rayonunun Xürəl kəndində anadan olmuşdur. Orta təhsilini Xürəl kəndində almışdır. 2019-cu ilin iyunun 2-də Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, Gəncədə, sonra isə Cəlilabadın Göytəpə şəhərindəki hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri Ənvər Şıxəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli şəhərindən Şuşaya qədər gedən döyüşlərdə iştirak etmişdir. Ənvər Şıxəliyev oktyabr ayının 29-da Şuşa istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Noyabr ayının 1-də Qusar rayonunda dəfn olunmuşdur.

Ənvər Vadim oğlu Şıxəliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Şücaətə görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

FEVRAL

24

Elnur İsmayılov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

İslamov, M. Bir evdən iki qəhrəman: ata qazi, oğul şəhid / Məmməd İslamov //525-ci qəzet.–2021.– 21 sentyabr.– S.13.

Elnur Arif oğlu İsmayılov 2001-ci il fevral ayının 24-də Şəki rayonu Baş Küngüt kəndində anadan olmuşdur. 2007-ci ildən Baş Küngüt kənd tam orta məktəbində, 2008-2011-ci illərdə Şəki şəhər 19 saylı tam orta məktəbində, 2011-2016-cı illərdə Səki şəhər 8 saylı beynəlmiləl tam orta məktəbində təhsil alıb. 5 aprel 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, Cəlilabad, sonra isə Beyləqanda yerləşən "N" saylı hərbi hissələrdə baş atıcı kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elnur İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zaman Füzuli, Cəbrayıl rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 15-də Cəbrayıl rayonu istiqamətində gedən döyüşdə qəhrəmancasına şəhid olmuşdur. Şəki rayonunda Dovşandüzü qəbiristanlığında dəfn edilmişdir.

Elnur Arif oğlu İsmayılov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

25

Elməddin Həsənov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Elməddin Elşən oğlu Həsənov 1996-ci il fevral ayının 25-də Naxçıvan MR Kəngərli rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. 2003-2010-cü illərdə Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbində, 2010-2013-cü illərdə Naxçıvan şəhər Heydər Əliyev adına hərbi liseydə təhsil almışdır. Ailə vəziyyəti ilə əlaqədar təhsilini davam etdirə bilməmiş, 2014-2015-ci illərdə Naxçıvanda "N" saylı hərbi hissədə kəşfiyyatçı snayper vəzifəsində xidmət etmişdir, 2018-ci ildən Xüsusi təyinatlı qüvvələrdə snayper kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Elməddin Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zaman Füzuli, Xocavənd və Qubadlı rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 23-də Qubadlı rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, oktyabrın 26-da Şahtaxtı kəndində dəfn edilmişdir.

Elməddin Elşən oğlu Həsənov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Teymur Abbasov - 45

(1981-2020)

Leytenant



Teymur Feyruz oğlu Abbasov 1981-ci il fevral ayının 25-də Bakı şəhərində anadan olmuşdur. S.C.Pişəvəri adına Humanitar Gimnaziyada və Gəncə Pedaqoji Universitetinin şərqşünaslıq fakültəsində təhsil almışdır. 2002-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, Xüsusi təyinatlı dəstədə qulluq etmişdir. Hərbi xidməti müddətində Silahlı Qüvvələrin təlim-tədris mərkəzində ehtiyat zabit hazırlıq kursu keçərək leytenant rütbəsi almışdır.

Azərbaycan Ordusunun leytenantı olan Teymur Abbasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq döyüşlərə qatılmış, ön cəbhədəki taborların tərkibində düşmənə qarşı vuruşmuş, Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Teymur Abbasov oktyabr ayının 12-də Xocavənd döyüşləri zamanı Hadrut istiqamətində düşmənin əks-hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. II Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Teymur Feyruz oğlu Abbasov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" (15.12.2020), "Füzulinin azad olunmasına görə" (25.12.2020), "Döyüşdə fərqlənməyə görə" (24.06.2021) medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Sumqayıt Dövlət Universitetinin müəllimi, şərqşünas-yazıçı Əli Rzazadə "Cənab leytenant" memuar-romanını leytenant Teymur Abbasovun xatirəsinə həsr etmişdir.

Ədəbiyyat:

Rzazadə, Ə. Cənab leytenant: roman / Əli Rzazadə; red. Ş. Vəli; naşir M. Xan; dizayner T. Fərzi.– [Bakı]: Mücrü, [2024].– 111, [1] s.

Abbasova, B. "Balam ən uca zirvəyə yüksəldi" / Başxanım Abbasova; qələmə aldı:Təranə Məhərrəmova // Kaspi. – 2022. – 29 oktyabr. – S. 5.

Bəyəmmədqızı, F. Məni seçimə məcbur etmə, ana...: Şəhid Teymur Abbasov / Firuzə Bəyəmmədqızı // Türküstan. – 2021. – 28 dekabr – 5 yanvar. – S. 13.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

FEVRAL

25

Orxan Dadaşov - 30

(1996-2020)

Əsgər



İnternetdə

https://memorial.az/az/qehremanlarimiz/1212

https://unudulmazlar.az/az/infom/1751

Orxan Vaqif oğlu Dadaşov 1996-cı il fevral ayının 25-də Ağdam rayonunun Mirəşelli kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə Bənövşələr kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Orxan Dadaşov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsinə könüllü olaraq qoşulmuş, atıcı - sanitar kimi Qubadlı və Şuşa rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabr ayının 25-də Qubadlı rayonu istiqamətində gedən döyüşlərdə düşmən diversiya qrupunu məhv edərkən qəhrəmancasına şəhid olmuşdur. Noyabr ayının 8-də Ağdam şəhidlər xiyabanında dəfn olunmuşdur.

Orxan Vaqif oğlu Dadaşov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

26

İlkin Əliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İlkin Bəxtiyar oğlu Əliyev 2001-ci il fevral ayının 26-da Qazax rayonunun Canalı kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Canalı kənd tam orta məktəbində təhsil almışdır. Uşaqlıqdan yunan-roma güləşi ilə məşğul olmuş, birinci yerə çıxaraq medala layiq görülmüşdür. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İlkin Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Cəbrayıl və Şuşa rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, düşmənin texnikasının, canlı qüvvəsinin məhv edilməsində böyük igidlik və şücaət göstərmiş, noyabrın 14-də Xocavənd rayonunda şəhid olmuş, noyabrın 16-da Qazax rayonunun Canalı kəndində dəfn olunmuşdur.

İlkin Bəxtiyar oğlu Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

FEVRAL

26

Məzdək Eyvazlı - 30

(1996-2020)

Əsgər



İ n t e r n e t d ə

https://unudulmazlar.az/az/infom/6266

https://memorial.az/az/qehremanlarimiz/474

https://az.baku-art.com/az/yaddashlarda-ya-aya-caq-azerbaycan-igidleri-m-zd-k-eyvazli

Məzdək Əli oğlu Eyvazlı 1996-cı il fevral ayının 26-da Bakı şəhərində anadan olmuşdur. 2002-2013-cü illərdə Lökbatan qəsəbəsi 288 saylı məktəbdə, 2013-2017-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində təhsil almışdır. 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, Gədəbəy rayonunda "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri Məzdək Eyvazlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq döyüşlərə qatılmış, Xocavəndin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, oktyabr ayının 29-da Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Məzdək Əli oğlu Eyvazlı Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

26

Elvin Məmmədov - 30

(1996-2020)

Əsgər



İ n t r n e t d ə

https://unudulmazlar.az/az/infom/1292

https://memorial.az/az/qehremanlarimiz/735

Elvin Mübariz oğlu Məmmədov 1996-cı il fevral ayının 26-da Göyçay rayonunun Ləkçıplaq kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə Ləkçıplaq kənd məktəbində təhsil almışdır. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, Bakı şəhərində "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elvin Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq ordu sıralarına qatılmış, Ağdərə və Kəlbəcər rayonları uğrunda gedən döyüşlərdə iştirak etmiş, sentyabrın 30-da Ağdərə uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Oktyabr ayının 1-də Göyçay rayonunun Ləkçıplaq kəndində dəfn olunmuşdur.

Elvin Mübariz oğlu Məmmədov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına" görə medallları ilə təltif olunmuşdur.

FEVRAL
27

Orxan Daşdəmirov - 25

(2001-2020)

MAHHXHQ əsgər



Orxan Rəfail oğlu Daşdəmirov 2001-ci il fevral ayının 27-də Xaçmaz rayonunun Hülövlü kəndində anadan olmuşdur. Hülövlü kəndin tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, Cəlilabad rayonundakı "N" saylı hərbi hissədə xidmət etmişdir. Xidməti zamanı ona verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirdiyinə görə komandir heyətinin rəğbətini qazanmışdır.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Orxan Daşdəmirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağda vacib yüksəkliklərin düşməndən təmizlənməsində və Kəlbəcər istiqamətində gedən hərbi əməliyyatlarda iştirak etmiş, sentyabrın 28-də Kəlbəcərdə "Susuzluq" adlanan yüksəklikdə gedən qızğın döyüşlər zamanı şəhid olmuşdur. Sentyabr ayının 30-da Xaçmaz rayonunun Hülövlü kəndində dəfn olunmuşdur.

Orxan Rəfail oğlu Daşdəmirov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən ölümündən sonra "III dərəcəli Rəşadət" ordeni və "İgidliyə görə", "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Nurəddin. Murovdağ yüksəklikləri uğrunda / Nurəddin // //Mədəniyyət. –2021.–11 iyun.– S.6.

27

Vacib Məmmədov - 25

(2001-2020)

Əsgər



Vacib Zabit oğlu Məmmədov 2001-ci il fevral ayının 27-də Şəmkir rayonunun Morul kəndində anadan olmuşdur. Şəmkir şəhər Morul kənd orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Vacib Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Vacib Məmmədov sentyabr ayının 30-da Talış döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Oktyabr ayının 1-də Şəmkir rayonu Morul kənd qəbiristanlığında dəfn olunmuşdur.

Vacib Zabit oğlu Məmmədov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Rejissor Şamil Muradlı Kənan İbrahimovun ssenarisi əsasında çəkdiyi "Zəfər şəhidləri" filminin 5-ci bölümü Vacib Məmmədova həsr olunmuşdur.

Ədəbiyyat:

Vəliyev, V. Şəmkir: İgidlik və mətnlik nümunəsi: [İsrayıl Hacıyev və Vacib Məmmədov haqqında] / Vəli Vəliyev // Respublika.–2021.–5 oktyabr.

FEVRAL

27

Emin Muradov - 40

(1986-2020)

Əsgər



Ədəbiyyat:

Orucoğlu, Z. Vətənin unudulmaz oğlu Emin Muradov / Zəfər Orucoğlu // Unikal. –2023.– 17 mart. – S.12.

Emin İbrahimağa oğlu Muradov 1986-cı il fevral ayının 27-də Lənkəran rayonunun Biləsər kəndində anadan olmuşdur. Orta təhsilini Biləsər kənd orta məktəbində almışdır. 2004-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, cəbhə bölgəsində yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Emin Muradov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq ordu sıralarına qatılmış, Cəbrayıl, Füzuli, Xocavənd və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 20-də Qubadlı rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Lənkəran rayonunun Biləsər kəndində dəfn olunmuşdur.


Emin İbrahimağa oğlu Muradov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

28

Maarif Məmmədov - 40

(1986-2020)

Baş gizir



İnternetdə

https://unudulmazlar.az/az/infom/2986

https://memorial.az/az/qehremanlarimiz/2810

Maarif Məmməd oğlu Məmmədov 1986-cı il fevral ayının 28-də Beyləqan rayonunun Təzəkənd kəndində anadan olmuşdur. 1993-2004-cü illərdə Təzəkənd kənd Ə.Məmmədov adına tam orta məktəbdə təhsil almışdır. 2004-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissədə artilleriya top komandiri kimi xidmət etmiş, 2006-cı ildə tərxis olunmuşdur. 2012-2013-cü illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində özüyeriyən artilleriya qurğusu komandiri kursunu bitirmişdir. 2013-cü ildə Gəncə rayonundakı "N" saylı hərbi hissədə özüyeriyən top komandiri vəzifəsinə təyin olunmuş, 2015-ci ildə Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir. 2016-cı ildə Aprel döyüşlərində iştirak etmiş, döyüşdə göstərdiyi şücaətə görə fəxri fərmanla təltif edilmişdir. 2019-cu ildə baş gizir rütbəsi almış, rabitə bölüyündə baş texnik vəzifəsinə təyin edilmişdir.

Baş gizir Maarif Məmmədov Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa rayonları uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Oktyabr ayının 8-də Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, Təzəkənd kəndində dəfn edilmişdir.

Maarif Məmməd oğlu Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", III dərəcəli "Qüsursuz xidmətlərə görə" və III dərəcəli "Vətənə xidmətə görə" medalları ilə təltif edilmişdir.

FEVRAL
28

Elvin Babayev - 25

(2001-2020)

Əsgər



İnternetdə:

https://gencesehidleri.az/sehidler/478-babayev-elvin-ekber-oglu.html

https://www.yashat.gov.az/hero-birthdays/311

https://unudulmazlar.az/az/infom/1505

Elvin Əkbər oğlu Babayev 2001-ci il fevral ayının 28-də Gəncə şəhərində anadan olmuşdur. 2008-2019-cu illərdə Bakı şəhəri leytenant K.Kərimov adına 8 nömrəli tam orta məktəbdə təhsil almışdır. Təhsil aldığı müddətdə futbol və qaydasız döyüşlə məşğul olmuş, məktəbin "Gəncə Şahinləri" hərbi komandasının manqa komandiri olmuşdur. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elvin Babayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Ağdam, Xocavənd, Zəngilan rayonları istiqamətində döyüşmüş, oktyabrın 2-də Xocavənd rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Oktyabrın 7-də II Şəhidlər xiyabanında dəfn edilmişdir.

Elvin Babayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" medalları və "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

2025-ci ildə 8 №-li tam orta məktəbdə barelyefinin açılışı olmuş, xatirəsi yad edilmişdir.

28

Ülfət Babazadə - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Orucoğlu, Z. Hünər göstərib şanlı Zəfər tariximizə düşən Ülfət... / Zəfər Orucoğlu // Bakı Xəbər.– 2021.– 7 aprel.- S.14.

Babayev, A. İgidliyi ilə seçilən Vətən oğlu / Ağaddin Babayev// Azərbaycan.– 2024.– 24 noyabr (№ 259).– S.15.

Ülfət Qabil oğlu Babazadə 2001-ci il fevral ayının 28-də Lənkəran rayonunun Daştatük kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, Cəlilabaddakı hərbi hissədə Xüsusi Təyinatlı Qüvvələrin sırasında xidmət etmiş, döyüş bacarığı və qabiliyyəti ilə seçilmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ülfət Babazadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli və Şuşa rayonlarının işğaldan azad olunmasında fəal iştirak etmişdir. Ülfət Babazadə düşmənin çoxlu sayda texnika və canlı qüvvəsini məhv etmiş, Şuşa şəhərinin işğalçılardan azad olunmasında xüsusi hünər göstərmişdir. Noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olmuşdur. Lənkəran rayonunun Daştatük kəndində dəfn olunmuşdur.


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən Ülfət Babazadə "Azərbaycan bayrağı" (05.11.2021) ordeni və "Cəsur döyüşçü" (18.12.2020), "Vətən uğrunda" (15.12.2020), "Kəlbəcərin azad edilməsinə görə" (24.06.2021), "Xocavəndin azad edilməsinə görə" (24.06.2021), "Şuşanın azad olunmasına görə" (29.12.2020) medalları ilə təltif edilmişdir.

Ülfət Babazadənin adı əbədiləşdirilmiş, kəndin mərkəzində xatirə parkı, abidə kompleksi və bulaq inşa edilmişdir.

Abbasqulu bəy Şadlinski - 140

(1886-1930)

Hərbi xadim



Ədəbiyyat:

Ələkbərli, Ə. Abbasqulu bəy Şadlinski / Ə.Ələkbərli; red. V.Şadlinski. - Bakı: Sabah, 1996. - 320 s.

İsrafilqızı, N. Abbasqulu bəy Şadlinski: poema / Nəsibə İsrafilqızı; red. S.İslamoğlu. - Bakı: Nurlar NPM, 2006. - 184 s.

Şadlinski, V.B. Şadlinskilər: Şəddadi, Şad, Şadlılar / V.B.Şadlinski; red. M.Çəmənli. - Bakı: Təhsil, 2011. - 285 s.

Aslan, Q. Abbasqulu bəy Şadlinski daşnaklara ağır zərbələr vurub /Q.Aslan //Respublika .-2025.- 9 yanvar (№ 03).- S.10.

Yaqubqızı, R. Düşmənə gözdağı verən el qəhrəmanı / R.Yaqubqızı // Respublika .-2025.- 23 fevral (№ 41).- S.11.

Calalov, M. Görkəmli ictimai xadimin ömrü nəsillərə nümunədir: Şəxsiyyətlər / M. Calalov //Azərbaycan .-2025.- 17 aprel (№75).- S.9.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Abbasqulu_b%C9%99y_%C5%9Eadlinski

http://www.anl.az/down/meqale/respublika/2025/yanvar/929995(meqale).pdf

Abbasqulu bəy Xanbaba bəy oğlu Şadlinski 1886-cı il fevral ayının 24-də İrəvan quberniyasının Böyük Vedi kəndində anadan olmuşdur.

O, 1894-cü ildə Vedidə ikiillik rus-tatar məktəbində oxumuş, lakin maddi çətinlik üzündən təhsilini davam etdirə bilməmişdir. 1902-ci ildə atasından qalma kiçik torpaq sahəsini əkib-becərməklə məşğul olmuşdur.

Rusiyada 1905-1907, İranda 1905-1911-ci illər inqilabları ictimai-siyasi dünyagörüşünün formalaşmasına mühüm təsir göstərmişdir. Fevral inqilabından (1907) sonra Şadlinski həyatını xalq işi uğrunda mübarizəyə həsr etmiş, kommunistlərə rəğbət bəsləmişdir.

1918-ci ilin əvvəllərində Naxçıvan, İrəvan, Dərələyəz, Zəngəzur və digər ərazilərdə daşnak-erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı soyqırımlarının baş alıb getdiyi bir şəraitdə xalq içərisində böyük nüfuzu olan Şadlinski Vedidə erməni-daşnak quldur dəstələrinə qarşı könüllü xalq birləşməsi – gələcək "Qırmızı tabor"u təşkil etmişdi.

O, 1918-1920-ci illərdə Vedibasarda daşnaklara qarşı döyüşən könüllü birliklərin komandanı olmuşdur. 1920-ci ilin iyulunda Şadlinskinin əmri ilə Vedibasar və Zəngibasar əhalisinin əksər hissəsi ilə İran ərazisinə keçərək, əvvəlcə Xoy şəhəri yaxınlığında, sonra isə Mərənd şəhəri ətrafında mövqe tutmuşdular.

28 iyul 1920-ci ildə Naxçıvanda sovet hakimiyyəti elan olunduqdan sonra Hərbi İnqilab Komitəsinin və Nəriman Nərimanovun dəvətini qəbul edərək, sentyabrın 17-də 200 nəfərlik dəstəsi ilə Naxçıvana gəlmişdi. Buradakı qırmızı qvardiya döyüşçüləri də onun dəstəsi ilə birləşmişdi. Şadlinski ilk vaxtlar Naxçıvan sərhədlərinin qorunmasına, sonra Zəngəzur istiqamətində öz dəstəsinin daşnak hissələri ilə fəal döyüş əməliyyatlarına başçılıq etmişdir. Onlar cəllad Dronun daşnak qüvvələrini darmadağın edərək Naxçıvanda Sovet Hakimiyyətini qurmuş, burada ingilis-daşnak işğalına son qoymuşdur. O, bu xidmətləri müqabilində Nəriman Nərimanov tərəfindən "Qızıl Ulduz" medalı ilə təltif edilmişdir.

Onun başçılıq etdiyi "Qırmızı tabor" dəstəsi 1921-ci ilin fevralından aprelin əvvəllərinə kimi İrəvanda daşnak qiyamının yatırılmasında qəhrəmanlıq göstərmişdi. Daşnaklarla döyüşlərdə göstərdikləri şücaətə görə, Şadlinski başda olmaqla, "Qırmızı tabor"un 19 nəfər üzvü Ermənistan SSR-nın "Qırmızı bayraq" ordeni ilə təltif olunmuşdur.

1921-ci ilin yayında Şadlinskinin döyüşçüləri Dərələyəz və Zəngəzurda daşnak quldurlarının darmadağın edilməsində qəhrəmanlıq göstərmişdilər.

Ermənistanda və Zəngəzurda daşnak fitnəkarlıqlarına son qoyulduqdan sonra Şadlinski 1922-ci ilin sonunadək Naxçıvanda qalmış və buranın sərhədlərinin qorunmasına rəhbərlik etmişdi.

Bundan sonra Vediyə qayıdan Şadlinski 1922-1928-ci illərdə Ermənistanda bir sıra məsul təsərrüfat vəzifələrində çalışmış, sonra isə burada yaradılan Dəvəli sement zavodu tikintisinin rəhbəri təyin olunmuşdur.

Abbasqulu bəy Şadlinski düşmənləri tərəfindən 1930-cu ilin fevralında qətlə yetirilmişdir.

Fərman Kərimzadənin "Qarlı aşırım" romanı və onun süjeti əsasında rejissor Kamil Rüstəmbəyov tərəfindən çəkilən "Axırıncı aşırım" bədii filmi Şadlinskinin həyat və fəaliyyətindən bəhs edir.

Nəsirəddin Tusi – 825

(1201-1274) Alim, filosof, dövlət xadimi



Ədəbiyyat:

Əxlaqi-Nasiri / Nəsirəddin Tusi. - Bakı: Kitab Klubu, 2015. - 335 s.

Təcrid əl-etiqad: kəlam hissəsi / Xacə Nəsirəddin Tusi; ərəb dil. tərc. ed., giriş və şərh. müəl. E.M.Məmmədov; elmi red. H. İsaxanlı; ərəb dil. tərc. red və rəyçi İ.Həmidov. - Bakı: [Araz], 2015. - 205 s.

Dəniz, R. Əsrləri qabaqlamış alim-Nəsirəddin Tusi / Ramiz Dəniz; elmi red. E.Mehrəliyev; ön söz R.Məmmədov. - Bakı: [Nasir], 2014. - 408 s.

Xacə Nəsirəddin Tusi: biblioqrafiya / AMEA, M.Füzuli ad. Əlyazmalar İn-tu; tərt. ed. A.Xəlilov, A.Musayeva; elmi red. A.Ramazanov. - Bakı: XXI-Yeni nəşrlər Evi, 2004. - 167 s.

Yaqubqızı, R. Dünya elminin korifeylərindən biri Nəsirəddin Tusi/ R. Yaqubqızı // Respublika .-2025.- 16 fevral (№ 35). - S.11.

Bayramova, Y. "Şərqin Aristoteli"... /Y.Bayramova //Yeni Azərbaycan .-2025.- 18 fevral (№29).- S.8.

Xacə Nəsirəddin Əbu Cəfər Məhəmməd ibn Məhəmməd ibn Həsən Tusi (Nəsirəddin Tusi) 1201-ci il fevral ayının 17-də Həmədan şəhərində anadan olmuşdur. Mütəfəkkirin əsl adı Məhəmməd olmuş, dövrünün ağıllı, bilikli, görkəmli alimi olduğuna görə xalq ona Nəsirəddin adını vermişdir. İlk təhsilini atası Məhəmməd İbn Həsəndən almış, sonra Tusi şəhərində məktəb və mədrəsədə təhsilini davam etdirmişdir. Təhsil aldığı şəhərə böyük məhəbbətlə əlaqədar "Tusi" təxəllüsünü götürmüşdür.

1259-cu ildə Tusinin təklifi ilə Cənubi Azərbaycanın Marağa şəhəri yaxınlığında rəsədxana inşa olunmuşdur. Rəsədxananın yeri elə dəqiq seçilmişdir ki, orada indi də rəsədxana fəaliyyət göstərir. Sonralar Şərqdə inşa olunan rəsədxanalar məhz Marağa rəsədxanasının planı əsasında tikilmişdir. Dünyanın hər yerindən məşhur alimlər dəvət edilmiş, faktiki olaraq rəsədxana riyaziyyat və astronomiya üzrə böyük elm mərkəzinə çevrilmişdir. Tusi Yaxın və Orta Şərq ölkələrinə səfər edib qiymətli kitablar toplayaraq Marağaya gətirmiş, rəsədxanada böyük bir kitabxana yaratmışdır.

XII əsr elmlərinin bütün sahələrini özündə cəmləşdirən nadir ensiklopedik biliyə mənsub olan alim, bu elm sahələrinə dair "Evklidin şərhi", "Hərəkətdə olan yer kürəsi", "Almacestin təhlili", "Gecə və gündüz", "Teleskop haqqında", "İki göy cismi", "Günəşin çıxması və qürubu", "Kainat cismlərinin zühuru", "Kürə və silindr", "Konuslar" kimi 101 əsəri artıq 750 ildir ki, dünyanın ən böyük alimləri tərəfindən öyrənilmiş, təhlil və tədqiq olunmuşdur. Onun "Evklidin həndəsi üsulları kitabı" ("Kitabe osule Erlides dər həndəsi") uzun müddət tədris vəsaiti kimi istifadə edilmişdir.

Təsadüfi deyil ki, o, Azərbaycanın siyasi fikir tarixində ilk dövlət nəzəriyyəçisi hesab olunur. "Maliyyə haqqında" risaləsində verilən qayda-qanunlar sonralar bir çox orta əsr dövlətlərində qanunlar toplularına daxil edilmişdir.

Nəsirəddin Tusi 1274-cü ildə Bağdada səfəri zamanı vəfat etmiş və Bağdad şəhərinin Kazımiyyə mahalındakı Cəlil məsciddə dəfn olunmuşdur.

1981-ci ildə anadan olmasının 780 illik yubileyi geniş qeyd olunmuş, şərəfinə medal təsis edilmiş, abidələri ucaldılmış, portreti yaradılmışdır. Azərbaycan Respublikasının bir sıra elm, təhsil və mədəni maarif müəssisəsinə, o cümlədən, Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasına, bir sıra küçələrə, Bakı şəhəri Yasamal rayonundakı 173 saylı orta məktəbə Nəsirəddin Tusinin adı verilmişdir. 2000-ci ildə YUNESKO-nun qərarı ilə anadan olmasının 800 illik yubileyi dünya miqyasında qeyd edilmişdir.

2021-ci ildə Milli Kitabxanada dünya şöhrətli alim Nəsirəddin Tusinin anadan olmasının 820 illik yubileyi münasibətilə virtual sərgi hazırlanmışdır. Virtual sərgidə Tusinin həyat və fəaliyyətini əks etdirən materiallar, müəllifi olduğu kitablar, eləcə də haqqında yazılmış kitab və məqalələr nümayiş olunmuşdur.

Ceyhun Hacıbəyli – 135

(1891-1962) *Yazıçı, jurnalist, etnoqraf*



Ceyhun Əbdülhüseyn oğlu Hacıbəyli 1891-ci il fevral ayının 3-də Şuşa şəhərində anadan olmuşdur. Şuşa və Bakı məktəblərində oxumuş, bakılı milyonçu, sahibkar Murtuza Muxtarovun təşəbbüsü və maddi dəstəyi ilə Peterburq Universitetində hüquq fakültəsində bir il təhsil almış və Fransaya gedərək Sorbonna Universitetində siyasi biliklər fakültəsində ali təhsilini davam etdirmiş, ərəb, fars, qədim türk, alman, fransız dillərini və mədəniyyətlərini dərindən öyrənmişdir Gənclik illərindən Qərbi Avropanın bir sıra dövri mətbuatında məqalələrini "Dağıstanlı", "Ceyhun Dağıstanlı", "Azəri" kimi imzalarla dərc etdirmişdir.

Ceyhun Hacıbəyli yaradıcılığının ilk dövründə qələmini felyeton janrında sınamışdır. Onun "Pristav Ağa" felyetonu "Proqres" qəzetinin 1907-ci il 6 və 7-ci saylarında "Daqestanski" imzası ilə çap olunmuşdur.

1910-cu ildə "Hacı Kərim" povestini yazmış və 1911-ci ildə kitab şəklində çap etdirmişdir. Lakin həmin povestdən sonra uzun müddət yaradıcılıqdan uzaqlaşmışdır. 1918-1919-cu illərdə fəal publisist kimi çalışmış, bir müddət Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin redaktoru olmuşdur.

Ceyhun Hacıbəyli S.Ə.Nəbati, M.F.Axundov, M.Ə.Sabir, A.Divanbəyoğlu, H.B.Zərdabi, Ə.B.Haqverdiyev, N.B. Vəzirov kimi Azərbaycan klassiklərinin və onun müasirləri olan türk şairi Tofiq Fikrət, tatar şairi Abdulla Tukay yaradıcılığına həsr etdiyi onlarla elmi-publisistik məqalənin müəllifidir. Mühacirətdən əvvəl "Bakı", "Azərbaycan", "Kaspi", "Proqress", "İrşad", "Tərəqqi", "Russkaya molva" (Peterburq) və başqa qəzetlərdə yüzlərlə publisistik məqalə, hekayə dərc etdirən Ceyhun Hacıbəyli 1917-ci ildə "Известия", "İttihat" və "Azərbaycan" (rus dilində), sonralar "Müsəlman milli komitəsinin əxbarı" qəzetlərinin redaktoru olmuşdur.

1920-ci ildə Azərbaycanda keçmiş Sovet hakimiyyəti qurulandan sonra Fransaya mühacirət etmiş, ömrünün sonlarınadək orada yaşamışdır. Yaradıcılığında tərcüməçiliyə geniş yer verən Ceyhun Hacıbəyli mühacirətdə xeyli gözəl əsərlərimizi fransız, ingilis dillərinə çevirmişdir. Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" komediyası məhz Ceyhun bəyin tərcüməsində 1925-ci il iyun ayının 4-də Parisin "Femino" teatrında səhnəyə qoyulmuşdur. Fransız oxucularına H.Cavid, C.Cabbarlı kimi şair-dramaturqlarımızı da Ceyhun Hacıbəyli tanıtmışdır. Parisdə "Qafqaz", "Azərbaycan", Münhendə "Azərbaycan" jurnallarının təsisində və nəşrində böyük rolu olmuşdur.

Ceyhun Hacıbəyli elmi araşdırmalarla da məşğul idi. Onun "Babək və qədim Arran hökuməti", "Bakı və Bərdə şəhərlərinin tarixi" mövzularında araşdırmaları, Ə.Firdovsi və H.Şirazi yaradıcılığı haqqında maraqlı məqalələri var. "Qarabağın dialekt və folkloru (Qafqaz Azərbaycanı)" əsəri isə Ceyhun Hacıbəylinin bu gün də aktuallığını, dəyərini qoruyan ən qiymətli elmi əsərlərindəndir.

Ceyhun Hacıbəyli "Azadlıq" radiostansiyasının fəaliyyətində yaxından iştirak etmiş, Münhendə SSRİ-ni Öyrənən Universitetin müxbir üzvü seçilmişdir.

Ceyhun Əbdülhüseyn oğlu Hacıbəyli 1962-ci il oktyabr ayının 22-də Parisdə vəfat etmiş və Sen-Kulu qəbiristanlığında dəfn edilmişdir.

Ceyhun Hacıbəylinin irsinin böyük bir qismi Azərbaycana gətirilmiş və hazırda Salman Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində, 649 saylı fondda mühafizə olunur.

2015-ci il noyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ceyhun Hacıbəylinin 125 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb.

Azərbaycan Mətbuat Şurası tərəfindən 2015-ci ildə Ceyhun Hacıbəyli haqqında "Durun gedək evimizə…" adlı sənədli film çəkilib. 2018-ci ildə Ceyhun Hacıbəyli və onun mühacirətdəki çətin həyatı haqqında yazıçı-dramaturq Əli Əmirlinin "Nuri-didə Ceyhun" pyesi Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadənin quruluşunda səhnəyə qoyulub.

Ədəbiyyat:

Seçilmiş əsərləri: mühacirət dövrü / Ceyhun Hacıbəyli; tərc. ed., tərt. ed. və ön sözün müəl. M.Əmrahov. - Bakı: Elm, 2006. - 98 s.

Qürbətdən gələn səslər: Ceyhun bəy Hacıbəylinin mühacirət həyatı / Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi; topl., tərt. ed. və ərəb əlifb. çev. A.Kənan; red. P.Kərimov. - Bakı: Şərq- Qərb, 2016. - 511 s.

Qərib məzarlar: (Fransa): [kitab-albom] / M.Həsənov; [layihənin rəh. A. Əliyeva; ideya müəl. və baş məsl. R. Abutalıbov; burax. məsul O.Əliyev; red. E.Əliyev; fotoqr. V.İbadov]; Heydər Əliyev Fondu, Bakı Media Center. - Bakı: Heydər Əliyev Fondu, 2016. - S. 68-69.

İlkin, L. Qürbət elin doğma torpağı / L.İlkin // 525-ci qəzet .-2024.- 3 avqust. (№137).- S.8.

Həsənova, T. Hacıbəyli qardaşları cümhuriyyət dövründə /T.Həsənova // Azərbaycan .-2024.- 28 may, №111.- S.12.

Alışlı, C. Ev muzeyində dil açan eksponatlar /C.Alışlı //Xalq qəzeti .-2024.- 19 sentyabr (№ 204). - S.10.

Cavad Cuvarlinski – 140

(1886-1963) *Maarifçi, pedaqoq*



Cavad bəy Nəcəf bəy oğlu Cuvarlı (Cuvarlinski) 1886-cı il fevral ayının 15-də Cəbrayıl qəzasının Cuvarlı kəndində anadan olmuşdur. Qarğabazar kənd məktəbini bitirmiş, 1902-ci ildə Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olmuş, 1906-cı ildə seminariyanı Məmməd Qocayev, Pənah Qasımov, Məmməd Qarayev, Əli Mustafayev, İbrahim Səfərov kimi tanınmış şəxslərlə birgə bitirmişdir.

1907-ci ildən 1917-ci ilədək Yelizavetpol quberniyasının Gəncə şəhər altısinifli məktəbində müəllim, 1918-ci ildən Gəncə və Şamaxı qəza xalq məktəblərində, 1921-ci ildən 1929-cu ilədək maarif komissarlığında inspektor vəzifəsində çalışmışdır.

Cavad Cuvarlinski vəzifəsi ilə əlaqədar tez-tez kəndlərə getmiş, mədəni-marif işlərinin təşkilinə, xüsusilə qızların təhsil almasına diqqət yetirmişdir. Maarif komissarlığına verdiyi hesabatında qızların təhsili sahəsində yerli təşkilatların işini tənqid etmiş, əsaslı tədbir görmək barədə məsələ qaldırmışdır.

O, 1931-ci ilə kimi Bakıda texnikumda, 1931-ci ildən 1933-cü ilə kimi fəhlə təhsili kombinatında işləmişdi. 1933-cü ildə zəngin müəllimlik təcrübəsindən istifadə məqsədilə onu Bakıda açılmış Azərbaycan Dövlət Elmi Tədqiqat Pedaqoji İnstitutuna dəvət etmişlər.

O, "XIX əsrdə Azərbaycan pedaqogika tarixi üzrə" biblioqrafiya hazırlamışdır. Yaşlılar üçün "Qırmızı əkinçi" qrammatika kitabını tərtib etmiş, əsgərliyə çağırılan gənclər üçün "Vətən uğrunda" dərsliyini hazırlamışdır. Əlifbayaqədərki dövr üçün leksik dərslər üzrə metodiki vəsait tərtib etmiş, rus dilinin öyrənilməsi metodikasına dair 52 adda 100 çap vərəqi həcmindən çox məqalələr, kitablar yazmışdır. Onun 8-10-cu siniflər üçün "Rus dili" dərsliyi bir neçə illər yenidən nəşr olunmuş və ən yaxşı dərslik kimi istifadə edilmişdir.

Cavad Cuvarlinski 1939-1943-cü illərdə M.F.Axundov adına Müəllimlər İnstitutunda (Bakı Slavyan Universiteti) və 1943-cü ildən ömrünün sonuna kimi V.İ. Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (Azərbaycan Dövlət Pedaqoji Universitetində) rus dili üzrə baş müəllim vəzifəsində çalışmışdır. Cavad bəy Cuvarlı həm də bir sıra elmi və metodiki əsərlərin müəllifidir.

İkinci Dünya müharibəsi dövründə xalq maarifi sahəsindəki fəaliyyəti ilə əlaqədər "1941-1945-ci illərdəki fədakar əməyinə görə" medalı, fəxri fərmanla təltif edilmiş və ona V.İ.Leninin altıcildlik əsəri təqdim edilmişdir.

O, müəllimlik fəaliyyəti ilə yanaşı həm də bir sıra ictimai işlər aparmış, keçmiş Yelizavetpol (Gəncə) qəzasının Maarif İşçiləri İttifaqının katibi, Ağamalıoğlu adına Torpaqşünaslıq, Maarif İşçiləri Həmkarlar Təşkilatının sədri olmuşdur.

Görkəmli maarif xadimi, pedaqoq Cavad bəy Cuvarlı 1963-cü ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Azərbaycan dilində olmayan ibtidai, tam olmayan orta məktəblərdə Azərbaycan dilindən oxu metodikası / Cavad Cuvarlı; red. S. Cəfərov; Azərb. XMK Azərb. Dövlət Elmi-Tədqiqat İn-tu.- Bakı: AzSSR XMK, 1940.- 54 s.

Pedaqojya müsahibələri: 1927-il Quba yay pedaqoji kurslarında oxunan leksiyalar / Cavad Cuvarlı; red.: Ə.Yusifov, M.Ələkbərli, Ə.Cabbarlı.- Bakı: Quba yay pedaqoji kursları nəşriyyatı, 1927.- 15 s.

Çingizoğl, Ə. Məktəb və cocuq. Cuvarlinskilər / Ənvər Çingizoğlu //"Soy" dərgisi.- №5 (25).- 2009.- S.17-21.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Cavad_b%C9%99y_Cuvarl%C4%B1

Əbdülvahab Salamzadə – 110

(1916-1983) *Akademik*



Əbdülvahab Rəhim oğlu Salamzadə 16 fevral 1916-cı ildə Şamaxı şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Azərbaycan Sənaye İnstitutunu bitirdikdən sonra Azdövlətlayihədə memar işləmiş, 1944-1947-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının aspiranturasında təhsil almışdır. 1948-ci ildə namizədlik, 1964-cü ildə doktorluq dissertasiyaları müdafiə etmiş,1967-ci ildə professor elmi adı almışdır. AEA-nın müxbir üzvü (1968), həqiqi üzvü (1983) seçilmişdir. Azərbaycan Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun şöbə müdiri (1951-1957), sonra isə direktor müavini (1957-1983) vəzifələrində çalışmışdır.

Görkəmli alim Azərbaycan memarlığının ilk tədqiqatçılarındandır. Onun elmi fəaliyyəti Azərbaycan memarlıq tarixinin yaradılması, milli mədəni irsimizin qorunması və təbliği, eləcə də müxtəlif sənət növlərinin qarşılıqlı əlaqələri problemlərinə həsr olunmuşdur. Bir çox Azərbaycan abidələrinin və sənətkarlıq nümunələrinin aşkar edilməsi və ilkin tədqiqi, Aran, Təbriz və Naxçıvan memarlıq məktəblərinin elmi cəhətdən müəyyənləşdirilməsi, onların kəşfi bilavasitə Ə.Salamzadənin adı ilə bağlıdır.

Azərbaycan şəhərsalma tarixinin ilk tədqiqatçısı olan Əbdülvahab Salamzadə qədim şəhərlərin və memarlıq abidələrinin bərpası və mühafizəsinin elmi əsaslarını hazırlamışdır.

Alim 130-dan artıq elmi əsərin, o cümlədən 15 monoqrafiyanın müəllifidir. Onun "Azərbaycan memarlıq tarixi" (1963), "XVI-XIX əsrlərdə Azərbaycan memarlığı" (1964), "Əcəmi Naxçıvani" (1976), "Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri" (1985) və başqa əsərləri memarlıq və sənətşünaslıq elminə öz töhfəsini vermişdir.

Əbdülvahab Salamzadə pedaqoji və ictimai fəaliyyətlə məşğul olmuş, 1948-1952-ci illərdə Bakı Dövlət Universitetində ilk Sənətşünaslıq bölməsində dərs demiş, 30-a yaxın doktorluq və namizədlik dissertasiyalarının elmi rəhbəri olmuşdur. 1962-ci ildən ömrünün sonunadək Azərbaycan Tarix və Mədəniyyət Abidələri Mühafizə Cəmiyyətinin sədr müavini, Azərbaycan Mədəniyyət Nazirliyinin kollegiyasının üzvü (1966-1971), SSRİ Memarlar İttifaqının İdarə Heyətinin üzvü, Azərbaycan Elmlər Akademiyası Humanitar və İctimai Elmlər Bölməsinin akademik-katibinin müavini olmuşdur.

Əbdülvahab Salamzadə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmiş, Azərbaycan Respublikasının Əməkdar inşaatçısı (1960) və Əməkdar elm xadimi (1982) fəxri adına layiq görülmüşdür.

Əbdülvahab Rəhim oğlu Salamzadə 1983-cü il avqust ayının 19-da Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Şəki xanlarının sarayı / Əbdülvahab Salamzadə, K.M.Məmmədzadə; red. M.Ə.Üseynov; AzSSR EA, Tarix İn-tu, Arxeologiya və Etnoqrafiya Sektoru; Memarlıq və İncəsənət İn-tu. - Bakı: Elm, 1986. - 133, [1] s.

Şəki: tarixi-memarlıq oçerki / Əbdülvahab Salamzadə, M.Ə.İsmayılov, K.M.Məmmədzadə; red. hey. M.Ə.Üseynov, Q.M.Əhmədov; ing. dil. tərc. ed. L.Qoldenfarb; AzSSR EA, Tarix İn-tu Arxeologiya və Etnoqrafiya Sektoru. - Bakı: Elm, 1988. - 237 s.

Əbdülvahab Rəhim oğlu Salamzadə [Elektron resurs]: biobiblioqrafiya / AMEA, MEK; tərt.-müəl. A.Əliyeva-Kəngərli; red. F.Hüseynova, İ.Səfərov. - Bakı: Elm, 2012. - 167 s.

Mədəni irsimizin əvəzsiz tədqiqatçısı : Akademik Əbdülvahab Salamzadənin 105 illik yubileyinə /Ə.Quliyev //525-ci qəzet .-2021.- 8 dekabr. - S.22.

İnternetdə:

https://science.gov.az/az/forms/skonchavshiesya-deystvitelnyie-chlenyi/3368

Şurəddin Məmmədli – 70

(1956) *Ədəbiyyatşünas, jurnalist, şair*



Ədəbiyyat:

Borçalıda sular axar... : (Seçmə qoşqular) / Şurəddin Məmmədli. -Tbilisi: [Ziya], 1997.- 63, [1] s.

Borçalı-Ahıska- Kars ortaq ədəbi arealı / Şurəddin Məmmədli.- Tbilisi: [Kolori], 2004. -64 s.

Sənət möhürü: Borçalıda ustad aşıq Əmrahın yubileyi keçirildi / Şurəddin Məmmədli // Mədəni-maarif.-2005.-№2. - S.30-31.

Türk ellərinin şirin-şəkər şivələri / Şurəddin Məmmədli // Xalq qəzeti .-2024.- 19 may, № 104.- S.10.

Müqayisəli dialektologiyaya sanballı töhfə / Şurəddin Məmmədli // 525-ci qəzet .-2024.- 16 may,№85.- S.10.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C5%9Eur%C9%99ddin_M%C9%99mm%C9%99dli

http://www.anl.az/down/meqale/525/2024/may/895085.htm

http://www.anl.az/down/meqale/xalqqazeti/2024/may/894791(meqale).pdf

Şurəddin Bahəddin oğlu Məmmədli 1956-cı il fevral ayının 28-də Gürcüstanın Bolnisi rayonunda anadan olmuşdur.

O, 1973-cü ildə daxil olduğu A.S.Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsi Azərbaycan bölməsini üzrə 1978-ci ildə fərqlənmə diplomu ilə bitirmişdir. 1988-ci ildə "19-cu yüzil Gürcü mətbuatında Azərbaycan ədəbiyyatı məsələləri" mövzusunda müdafiə edərək elmlər namizədi olmuşdur. 2004-cü ildə "Borçalı Ədəbi Mühiti (1920-ci ilə qədər)" mövzusunda müdafiə edərək elmlər doktoru adı almışdır.

Şurəddin Məmmədli 1978-1984-cü illərdə Gürcüstan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində tərcüməçi, 1984-2006 "Gürcüstan" ("Sovet Gürcüstanı") qəzetində müxbir və şöbə müdiri, 1994-1997-ci illərdə "Azərbaycan" (Bakı) qəzetinin Gürcüstan təmsilçisi, 1999-2004-cü illərdə Tbilisi Humanitar Universitetində Professor (Dosent), 2004-2006-cı illərdə Tbilisi Dövlət Universiteti Kvemo-Kartli Filialında, 2005-2006-cı illərdə Tbilisi Dövlət Pedaqoji Universitetində, 2007-2010-cu illərdə Kafkas Universitesində (Türkiyə), 2010-cu ildə Heydər Əliyev Gürcüstan Azərbaycan Tədris Universitetində, 2010-cu ildə isə Ardahan Universitesində (Türkiyə) professor vəzifəsində çalışmışdır.

Şurəddin Məmmədli Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Aşıqlar Birliyinin, Gürcüstan Yazıçılar Birliyi Azərbaycanlı Yazarlar Qrupunun, Gürcüstan Jurnalistlər Federasiyasının üzvüdür. Həmçinin 2002-ci ildən Gürcüstan Milli Akademiyasının, 2009-cu ildən Türkiyə Bilim Kurulu üyesi (Elmi Şura üzvü) olmuşdur.


O, 2002-ci ildə Gürcüstanla Azərbaycan arasında elmi-ədəbi əlaqələrin inkişafındakı xidmətlərində görə Gürcüstanın Ləyaqət ordeninə, 2004-cü ildə elmi fəaliyyətindəki uğurlarına görə "Qızıl Kitab" mükafatına, 2004-cü ildə Gürcüstan azərbaycanlılarının ədəbiyyatının, tarixinin tədqiqindəki xidmətlərinə görə "Borçalı" mükafatına, 2019-cu ildə elmi araştırmalarına görə "Türk Dünyasına Hizmet" mükafatına layiq görülmüşdür.

Görkəmli alimin "Paralanmış Borçalı vəya 1918-ci il Ermənistan-Gürcüstan müharibəsinin acı nəticəsi" (Bakı: Azərnəşr, 1991), "Paralanmış Borçalı" (Bakı: Azərnəşr, 1995), "Alın yazımız (Gürcüstan azərbaycanlılarının tarixi, mədəniyyəti) (Tbilisi: Samşoblo, 1997), "Gürcüstanın xalq artisti İbrahim İsfahanlı" (Tbilisi: Ziya, 1997), "Borçalıda sular axar… (şeirlər)" (Tbilisi: Kolori, 1998), "Səhnə ülfətimizdən" (Tbilisi: Qarapapaq, 1998), "Borçalı ədəbi mühiti: qaynaqları, təşəkkülü, inkişafı" (Bakı: Elm, 2000), "Gürcüstan azərbaycanlılarının ədəbi ənənələri" (Tbilisi: Azri, 2001), "Ədəbi Borçalı: Bədii ədəbiyyatda Borçalı mövzusu" (Bakı: Borçalı, 2002), "Azərbaycan ədəbiyyatının Borçalı qolu (1920-ci ilə qədər)" (Tbilisi: Kolori, 2003), "Borçalı-Ahıska-Kars ortaq ədəbi arealı" (Tbilisi: Kolori, 2004), "Borçalı aşıqları" (Bakı: Nurlan, 2005), "Gürcüstan azərbaycanlıları (statistik-bilgi kitabı)" (Tbilisi: Kolori, 2006), "Təcziye-yi Borçalı, Təlu və ətvəl-e Cumhuri Qərəpapaq Paralanmış Borçalı, Qarapapaq Cümhuriyyəti" (İran, Negde, 2008. Farsca), "Gürcistan'da Türkçe aşık şiiri gelenekleri" (Almaniya: LAP, 2016), "Gürcistan'da Türk edebiyatı" (Erzurum: Fenomen, 2018), "Azərbaycan ədəbiyyatı Gürcü mətbuatında (1850-1905)" (Ankara: Sonçağ, 2022), "Türkiye Türkçesi - Azerbaycan Türkçesi farklı sözcükler" (Ankara: Sonçağ, 2023), "Gürcüstan - Azərbaycan teatr dostluğu (XIX yüzil)" (Ankara: Sonçağ, 2024) adlı kitabları çap olunmuşdur.

Zəkəriyyə Əlizadə – 90

(1936-2016)

Alim



Zəkəriyyə Mabud oğlu Əlizadə 1936-cı il fevral ayının 2-də Şəki şəhərində anadan olmuşdur.

O, 1953-cü ildə Şəki şəhər M.Qorki adına 10 №-li orta məktəbində, 1953-1958-ci illərdə Azərbaycan Sənaye İnstitutunun geoloji kəşfiyyat fakültəsində, 1962-1964-cü illərdə isə Azərbaycan SSR EA Geologiya İnstitutun aspiranturasında təhsil almışdır.

Zəkəriyyə Əlizadə 1966-cı ildə namizədlik dissertasiyasını, 1990-cı ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. 80-dən çox elmi məqalənin, o cümlədən 8 kitabın müəllifi olmuşdur. Elmi kadrların hazırlanmasında çox böyük xidmətləri olmuşdur. 8 aspirant və dissertantın elmi işinə rəhbərlik etmişdir.

Əmək fəaliyyətinə 1958-ci ildə Artyom neft mədənləri idarəsində operator kimi başlamışdır. Daha sonralar, 1959-1972-ci illərdə Azərbaycan SSR EA Geologiya İnstitutunda əvvəl baş laborant, sonra kiçik elmi işçi, 1970-ci ildən isə böyük elmi işçi, 1972-1995-ci illərdə Azərbaycan SSR EA/Azərbaycan MEA Fizika İnstitutu nəzdində fəaliyyət göstərən Şəki zona elmi bazasının, 1995-2014-cü illərdə isə AMEA Şəki Regional Elmi Mərkəzinin direktoru vəzifəsində çalışmışdır. 2014-2016-cı illərdə əmək fəaliyyətini Azərbaycan MEA Şəki Regional Elmi Mərkəzində aparıcı elmi işçi kimi davam etdirib. Müxtəlif illərdə Şəki şəhər və Şəki rayon sovetinə deputat seçilmişdir.

Zəkəriyyə Əlizadə 1993-1999 illərdə Bakı Dövlət Universitetinin Şəki filialında diyarşünaslığın əsasları və təbiətşünaslıq fənnindən dərs demişdir.

Qərbi Azərbaycanın ağcaqil çöküntülərində qələvi torpaq elementlərindən Ba və Sr, dəmir qrupu elementlərindən isə Mn, V, Cr, Ni, və Ti-nin ayrı-ayrı litoloji tərkibə malik çöküntülərdə miqdarı spektral analiz üsulu ilə öyrənilməsi, onların yayılma qanunauyğunluqları müəyyənləşdirilməsi, müvafiq geokimyəvi xətlərin tərtib edilməsi, Mürəkkəb dislokasiyaya uğraşma rayonların filizləşən suxurlarının litologiyası və filiz elementlərinin gekimyası Böyük Qafqazın cənub yamacının orta və üst yura çöküntülərini təşkil edən ayrı-ayrı suxur növlərpindən dəmir qrupu elementlər və filiz elementləri hesab edilən qurğuşun, mis və sink polimetal elementlərinin tədqiqi, regional geokimyasının öyrənilməsi, müvafiq geokimyəvi xəritələr tərtib edilməklə filizlilik baxımından yeni perspektivli sahələrin müəyyən edilməsi kimi elmi nailiyyətləri vardır.

Görkəmli alim 2005-ci ildə "Tərəqqi" medalına layiq görülmüşdür.

Zəkəriyyə Mabud oğlu Əlizadə 2016-cı il noyabr ayının 23-də Şəkidə vəfat etmişdir.

Ədəbiyyat:

Yanan şamın nağılı : prof. Zəkəriyyə Əlizadə haqqında düşüncələr /tərt. ed. R. Vəliyev, H. Manaflı, İ. Rövşən ; red. Ə. Tahirzadə.-Bakı: Ləman Nəşriyyat Poliqrafiya, 2011.-208 s.

Həşimov, A. Ömrünü dəyərli işlərə həsr edib : Elm xadimləri /A.Həşimov //Azərbaycan .-2011.-4 fevral. - S. 6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Z%C9%99k%C9%99riyy%C9%99_%C6%8Flizad%C9%99

http://www.anl.az/down/meqale/azerbaycan/2011/fevral/155015.htm

Şamil Əzizbəyov – 120

(1906-1976)

Akademik



Ədəbiyyat:

Petroqrafiya: kristallooptika və süxur törədən minerallar / Şamil Əzizbəyov; [red. A.S.Bayramov]. - Bakı: Azərneftnəşr, 1952. - 378 s.

Əzizbəyov Şamil Əbdürrəhim oğlu // Azərbaycanın geoloq və geofizik alimləri. - Bakı: "Nafta-press", 2004. - S. 136.

Zapletin, G. Akademik Şamil Əzizbəyov: həyatının və elmi fəaliyyətinin səhifələri / G.Zapletin. - Bakı: [Elm], 2015. - 134 s.

Şamil Əzizbəyov // Azərbaycan geologiya elminin korifeyləri: AMEA-nın 70 illiyinə həsr olunur / AMEA, Geologiya və Geofizika İn-tu; tərt. Z.Y.Abbasov [və b.]; baş red. A.Əlizadə; red. hey.: İ.S.Quliyev [və b.]. - Bakı: [Nafta-Press], 2016. - S. 33-56.

Геология и вулканизм Талыша / Ш.Азизбеков. - Баку, 1978.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C5%9Eamil_%C6%8Fzizb%C9%99yov

Şamil Əbdürrəhim oğlu Əzizbəyov 1906-cı il fevral ayının 16-da Aşqabad şəhərində anadan olmuşdur.

O, 1925-ci ildə orta məktəbi bitirmiş və Azərbaycan Politexnik İnstitutuna (hazırda ATU) daxil olmuş, 1930-cu ildə ali təhsilini mühəndis-geoloq ixtisası üzrə tamamlamışdır.

Şamil Əzizbəyov 1934-cü ildə "Gəncəçay və Qoşqarçayın orta və aşağı axım hövzələrinin dağ süxurları və faydalı qazıntıları" mövzusunda dissertasiya işini müdafiə edərək fəlsəfə doktoru, 1943-cü ildə isə "Kiçik Qafqazın şimal-şərq hissəsinin filiz zonasının petrologiyası" mövzusunda dissertasiya işini müdafiə edərək elmlər doktoru elmi dərəcələrini almışdır. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının (AEA) 15 təsisçidən biri olmuş və akademiyanın həqiqi üzvü, Azərbaycan EA-nın vitse-prezidenti seçilmişdir.

Şamil Əzizbəyov əmək fəaliyyətinə Zaqafqaziya geoloji trestində və Zaqafqaziya nadir metal kəşfiyyatı partiyalarında başlamışdır. 1932-ci ildən Azərbaycan Sənaye İnstitutunda (indiki ADNA) pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1936-cı ildən SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialında işləmişdir. 1938-1941-ci illərdə Geologiya İnstitutunda Petroqrafiya şöbəsinə rəhbərlik etmiş və institutun direktor müavini vəzifəsində işləmişdir. 1941-1944-cü illərdə SSRİ EA-nın Azərbaycan Filialının Rəyasət Heyətinin sədr müavini seçilmişdir.

Şamil Əzizbəyov 1944-1945-ci illərdə Azərbaycan KP MK-da neft üzrə katib müavini işləmişdir.

1945-1959-cu illərdə Azərbaycan Sənaye İnstitutunda Kristalloqrafiya, mineralogiya və petroqrafiya kafedrasına rəhbərlik etmiş, 1959-1976-cı illərdə AEA Rəyasət Heyətinin üzvü və Yer haqqında Elmlər Bölməsinin akademik-katibi olmuşdur.

Akademik respublikada petroqrafiya məktəbinin əsasını qoyanlardan biri olmuşdur. O, Qafqazın quruluşu və inkişafının fundamental problemlərilə məşğul olmuş, maqmatik formasiyaların petrologiyası və metallogeniyasını öyrənmiş, həmçinin alp maqmatizmilə filizəmələgəlmə proseslərinin qarşılıqlı qanunauyğunluğunu müəyyən etmiş və vulkanik-tektonik strukturların təkamülünü öyrənmişdir. Alim ilk dəfə olaraq Kiçik Qafqazın orogen qranitoidlərinin pelinq xarakterini, onların vulkanogen komplekslər və metallogenik proseslərlə tamamlanmasını müəyyən etmişdir.

Ş.Əzizbəyov 500-dən artıq elmi əsərin, o cümlədən 8 monoqrafiyanın müəllifi olmuşdur. Onun rəhbərliyilə çoxsaylı elmlər və fəlsəfə doktoru hazırlanmışdır.

Elmi əsərləri əsasən Kiçik Qafqazın geologiya və petroqrafiyasına həsr olunmuş, "Naxçıvan Muxtar Respublikasının geologiyası" adlı sanballı əsəri xüsusi əhəmiyyətə malikdir.

Naxçıvanda və ölkənin cənub bölgəsində apardığı geoloji tədqiqatların nəticəsində bu regionların geoloji, tektonik, struktur-formasion xəritələrini tərtib etmişdir. Onun elmi-tədqiqat işləri müxtəlif faydalı qazıntı yataqlarının axtarışı və kəşfi üçün elmi əsas olmuşdur. Çoxcildli "Azərbaycanın geologiyası" monoqrafiyasının müəlliflərindən biridir.

Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə "Qırmızı Ulduz" ordeni (1944), "1941-1945-ci illərdə Vətən müharibəsində şücaətli əməyə görə", və "Qırmızı Əmək Bayrağı" (1953) medalları ilə təltif olunmuş, 1960-cı ildə Azərbaycan SSR-nin "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Şamil Əbdürrəhim oğlu Əzizbəyov 1976-cı il may ayının 14-də Bakıda vəfat etmişdir.

Məmməd Yaqubov – 85

(1941)

Alim



Məmməd Haqverdi oğlu Yaqubov 1941-ci il fevral ayının 2-də Naxçıvan MR Culfa rayonunun Milax kəndində anadan olmuşdur. 1957-ci ildə Naxçıvan şəhər 1 saylı orta məktəbi bitirmiş, 1957-1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsində təhsil almışdır. 1965-ci ildən Bakı Dövlət Universitetində çalışır.

1966-cı ildə "Bir sinif inteqrodiferensial tənliklərin həllərinin davamı və dayanıqlığı haqqında" mövzusunda fizika-riyaziyyat elmləri üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. 1992-ci ildə isə "Paylanmış parametrli sistemlərdə optimal sürüşgən rejimlər və optimallıq üçün zəruri şərtlər" mövzusunda dissertasiyasını müdafiə etmiş, fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsini almışdır.

Məmməd Yaqubov 1996-cı ildən Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin İdarəetmə nəzəriyyəsinin riyazi üsulları kafedrasının müdiridir. Variasiya hesabı və optimallaşdırma üsulları, dinamik proqramlaşdırma üsulu, optimal idarəetmənin təqribi üsulları fənləri üzrə dərs aparır. "Bir tərtibli adi diferensial tənliklər", "V-VI siniflərdə olimpiada çalışmaları", "Ümumtəhsil məktəblərinin X sinfi üçün riyaziyyatdan tədris materialının tematik planı və yoxlama yazı işi nümunələri", "Необходимые условия оптимальности для систем с импульсными воздействами при нелокальных краевых условиях", "О свойствах скользящих режимов в процессах, описываемых нелинейным уравнением третьего порядка" kimi 100-dən artıq elmi əsərin, 20-dən çox metodik məqalənin müəllifidir. Həmçinin beynəlxalq seminar, simpozium və konfranslarda iştirak etmişdir.

Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 30 oktyabr 2009-cu il tarixli Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir. 2019-cu ildə Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə və Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat:

Riyaziyyat: (qəbul imtahanlarına hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün dərs vəsaiti) / Məmməd Yaqubov və b.; red. hey.: A.Bağırov və b.; elmi red. M.Abbaszadə; rəy.: F.Mustafayeva, M.Ağayarov, K.Şirinov, Ə.Rüstəmov; Tələbə Qəbulu üzrə Dövlət Komissiyası.- Bakı: Şərq-Qərb, 2007.- 855 s.

Riyaziyyat: məsələ və misallar: dərs vəsaiti / Məmməd Yaqubov [red.], T.İsmayılov, İ.Ağakişiyev; rəy.: S.Həsənov, F.Məmmədov, H.Zeynalov.- Bakı: Çaşıoğlu, 2009.-543 s.

Riyaziyyat: qəbul imtahanlarına hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün dərs vəsaiti / Məmməd Yaqubov, İ.Abdullayev, Ə.Yaqubov və b.; elmi red. M.Abbaszadə; Tələbə Qəbulu üzrə Dövlət Komissiyası.- Bakı: [s.n.], 2006.- 856 s.

О корректной разрешимости уравнения с доминирующей производной с нелокальными граничными условиями //Математика, информатика, физика в науке и образовании: Сборник научных трудов к 140 летию МПГУ.-Москва, 2012.- С.95-97.

О свойствах скользящих режимов в процессах, описываемых нелинейным уравнением третьего порядка //Bakı Universitetinin xəbərləri: fizika-riyaziyyat elmlər seriyası.- 2011.- №3.- С.29-36.

İnternetdə:

https://az.wikipedia.org/wiki/M%C9%99mm%C9%99d_Yaqubov

Püstə Məlik-Aslanova – 100

(1926-2001) *Oftalmoloq*



Püstə Süleyman qızı Məlik-Aslanova 1926-cı il fevral ayının 2-də Qaryagin (indiki Füzuli) rayonunda anadan olmuşdur.

1949-cu ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu (indiki Azərbaycan Tibb Universiteti) bitirmiş, 1956-cı ildə "Bəd xassəli yenitörəmələrə qarşı skelet əzələlərinin morfo-fizioloji reaksiyasına dair materiallar" mövzusunda namizədlik dissertasiyasını, 1971-ci ildə isə "Gözün yaşla əlaqədar dəyişiklikləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1957-2001-ci illərdə Azərbaycan Elmi Tədqiqat Oftalmologiya İnstitutunun Patomorfologiya və elektron mikroskopiya laboratoriyasının müdiri vəzifəsində çalışmışdır. O, respublikada yeganə yüksəkixtisaslı oftalmopatomorfoloq olaraq, ölkənin oftalmologiyasına əvəzsiz xidmətlər göstərmiş və 1984-cü ildə professor elmi rütbəsinə layiq görülmüşdür.

Onun fəal iştirakı ilə təşkil olunmuş traxomanın laborator diaqnostikası bu ağır göz xəstəliyinin respublikada tam ləğv olunmasını mümkün etmişdir. Alimin səyləri nəticəsində institutda tətbiq edilmiş histokimyəvi üsullar, elektron, lyuminessent və polyarizasiyon mikroskoplarla aparılan müayinələr görmə üzvünün xəstəliklərinin morfoloji diaqnostika prinsiplərinin işlənməsinə qiymətli töhfə olmuşdur.

Görmə üzvünün yenitörəmələrinin morfoloji diaqnostikası işində böyük xidmətləri olmuşdur.

Professor Püstə Məlik-Aslanova 150-dən artıq elmi əsər, iki monoqrafiya çap etdirmişdir. İki doktorluq və bir çox namizədlik dissertasiyalarının rəhbərliyində iştirak etmişdir.

O, 2000-ci ildə Azərbaycan Respublikasının əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Görkəmli alim, həkim Püstə Süleyman qızı Məlik-Aslanova 2001-ci ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Məlik-Aslanova Püstə Süleyman bəy qızı // Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.-Bakı,1980.- C.VI.- S.489.

Возрастные изменения глаза и зрительно-нервного пути: морфогистохимические исследования /П.С.Мелик-Асланова, З.А.Алиева.- Баку: Азернешр, 1980.- 122 с.

Методическое рекомендации по выявлению ферментов опухолей глаза в свете электронно-микроскопических исследований /П.С.Мелик-Асланова.- Баку, 1981.

Пигментные опухоли сосудистой оболочки глаза / Пюста Мелик-Асланова, С. А. Бадалов, С. И. Магомедова; [ред. Т. Рашевская; худож. Н. Козина]. - Баку: Азернешр, 1990. - 62, [2] с.


İnternetdə:

https://az.wikipedia.org/wiki/P%C3%BCst%C9%99_M%C9%99lik-Aslanova

Lütfi Zadə – 105

(1921- 2017)

Alim



Ə d ə b i y y a t:

Lütfi Zadə: [Ələsgərzadə Lütfəli Rəhim oğlu] : Biblioqrafiya / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. ed. L. Şirinova; elmi red. K. Tahirov; red. E. Nəciyev; ön söz. müəl. M. Mərdanov; [dizayner M. Əliqızı]. - Bakı: [Zərdabi Nəşr MMC], 2022. - 607, [1] s.

Aydınoğlu, T. Dünya şöhrətli iki soydaşımızın birgə kitabı: Professor Rafiq Əliyevin dahi Lütfi Zadə ilə birgə yazdığı və xaricdə çap edilmiş əsər bu yaxınlarda Azərbaycan oxucularına təqdim ediləcək / T.Aydınoğlu // 525-ci qəzet. - 2020. - 25 yanvar. - S. 15.

Əsgərzadə Lütfəli Rəhim oğlu (Lütfi Zadə) // Azərbaycanın tanınmış riyaziyyatçıları: ensiklopedik məlumat / Q.T.Kələşov [və b.]; elmi red. M.B. Rəsulov; Azərb. Resp. Təhsil Nazirliyi, Mingəçevir Dövlət Un-ti.- Mingəçevir: [Mingəçevir Poliqrafiya Müəssisəsi], 2018. - H. 1. - S.10-15.

Yaqubqızı, R. Qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Uzaq və yaxın Lütfi Zadə /R.Yaqubqızı //Respublika .-2025.- 4 fevral (№24).- S.6.

Lütfəli Rəhim oğlu Əsgərzadə (Lütfi Zadə) 1921-ci il fevral ayının 4-də Bakıda anadan olmuşdur. İlk təhsilinə Bakıdakı 16 saylı məktəbdə başlamış, lakin 10 yaşında ikən ailəsi ilə birlikdə Bakını tərk edərək Tehrana köçmüşdür. Təhsilini amerikalıların Albors missioner məktəbində davam etdirmişdir.

O, 1948-ci ildə Massaçusets Texnologiya İnstitutunda (ABŞ) elektron mühəndisliyi üzrə magistr dərəcəsini almışdır. 1959-cu ildən Berkli Universitetində professor kimi çalışmış, 1963-cü ildən isə Elektrik mühəndisliyi və kompüter elmləri kafedrasına rəhbərlik etmişdir. Lütfi Zadə həmin universitetdə ömürlük professor və Soft Computing İnstitutunun direktoru kimi fəaliyyət göstərmişdir.

Lütfi Zadəyə dünya şöhrəti qazandıran, dünya elmində inqilab hesab olunan qeyri-səlis məntiq nəzəriyyəsi riyaziyyatın əsası olan ikili çoxluq anlayışına "qeyri-səlis çoxluq" kimi yeni ifadə vermişdir. Elmdə qeyri-səlis ölçünün daxil edilməsi təbiətdə və cəmiyyətdə gedən proseslərin qeyri-müəyyənliyini daha adekvat nəzərə almağa imkan yaradır.

1989-cu ildə qeyri-səlis məntiq nəzəriyyəsinin sənayedəki uğurlarına görə Yaponiyanın elm adamlarına verdiyi ən yüksək mükafat - "Honda" mükafatı ilə təltif olunmuşdur. Bu gün bu nəzəriyyə Amerikanın "General Motors", "General Electric", "Motorola", "Dupont", "Kodak" və başqa şirkətləri tərəfindən istehsalatda geniş tətbiq olunur. Hazırda bu nəzəriyyədən iqtisadiyyatda, psixologiyada, linqvistikada, siyasətdə, fəlsəfədə, sosiologiyada, dini məsələlərdə, münaqişə problemlərində də istifadə olunur.

Bundan əlavə 5 fundamental elmi nəzəriyyə təklif etmişdir: "təəssüratlar nəzəriyyəsi", "sistemlər", "sözlə işləyən kompyuter", "optimal süzgəclər" və "soft kompyutinq" nəzəriyyəsi.

Onun məşhur vəziyyətlər fəzası, dinamik sistemlərin idarə olunma və müşahidə olunma nəzəriyyələri müasir idarəetmə elminin əsasını təşkil edir. ABŞ-ın Milli Kosmik Tədqiqatlar Mərkəzi (NASA) bu nəzəriyyələr əsasında idarəetmə sistemlərini tədqiq edir, layihələndirir və tətbiq edir.

Çoxlu sayda mötəbər cəmiyyətlərin və fondların mükafatlarına layiq görülmüş, medallarla təltif edilmişdir. Onlarla xarici dövlət və ictimai təşkilatların fəxri doktoru olmuşdur. 54 beynəlxalq jurnalın elmi redaktoru və ya redaksiya heyətinin üzvü olmuş Lütfi Zadə dünyada əsərlərinə ən çox istinad edilən alimlərdən sayılır. Kaliforniyanın Berkli şəhərində "İnformasiya Texnologiyaları üzrə Zadə İnstitutu" yaradılmışdır. Lütfi Zadə AMEA-nın fəxri üzvü seçilmişdir.

Prezident İlham Əliyevin 7 fevral 2011-ci il tarixli Sərəncamı ilə elm və texnologiyaların inkişafında, mədəniyyətlərarası dialoqun qurulmasında xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif olunmuşdur. Alim haqqında "Müasir elmin korifeyi" (F.Tağıyev, Ş.Məmmədov), "Dünya dahilərsiz yaşaya bilmir" (M.Səməd) adlı kitablar yazılmış, "Uzaq və yaxın Lütfi Zadə" (quruluşçu rej. O.Babazadə, ssenari müəl. M.Səməd) sənədli film çəkilmiş, Lütfi Zadə irsi və Süni İntellekt Assosiasiyası, Lütfi Zadə adına Beynəlxalq Müasir EA-sı yaradılmışdır.

2016-cı ildə Azərbaycan Milli Kitabxanasında Lütfi Zadənin anadan olmasının 95 illiyi münasibətilə "Lütfi Zadə-95" adlı ənənəvi sərgi açılmışdır.

Lütfi Zadə 2017-ci il sentyabr ayının 6-da ABŞ-ın Kaliforniya ştatında vəfat etmiş, vəsiyyətinə əsasən Bakıda I Fəxri Xiyabanda dəfn edilmişdir.

2021-ci ildə Azərbaycan Respublikası Prezidenti dünya şöhrətli alim, qeyri-səlis məntiq nəzəriyyəsinin banisi, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü, professor Lütfi Zadənin (Lütfəli Rəhim oğlu Ələsgərzadənin) anadan olmasının 100 illiyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncama uyğun olaraq Azərbaycan Milli Kitabxanası tərəfindən "Lütfi Zadə – 100" adlı virtual sərgi hazırlanmış və 2022-ci ildə "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Lütfi Zadə" biblioqrafiyasını nəşr edilmişdir.

Nadir İsmayılov – 70

(1956) *Biblioqrafiyaşünas alim*



Nadir İslam oğlu İsmayılov 1956-cı il fevral ayının 5-də Beyləqan rayonunun Əmirzeyidli kəndində anadan olmuşdur. 1973-cü ildə Şahsevən kənd 1 saylı orta məktəbi bitirmişdir.

1974-cü ildə indiki BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinə daxil olmuş, əla qiymətlərlə oxuduğuna görə C.Cabbarlı adına təqaüdə layiq görülmüş, 1979-cu ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir.

1979-cu il sentyabr ayının 5-dən dekabr ayının 30-dək M.F. Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanasının (indiki Milli Kitabxana) Elmi-metodiki şöbəsində böyük kitabxanaçı vəzifəsində çalışmışdır.

1979-1982-ci illərdə BDU-nun Biblioqrafiya kafedrasının (indiki Sənəd menecmenti kafedrası) əyani aspirantı olmuşdur. 1982-ci ildən həmin kafedrada müəllim,1988-ci ildən baş müəllim, 1992-ci ildən dosent kimi fəaliyyət göstərmiş, 1994-2003-cü illərdə fakültədə dekan müavini olmuşdur. 2007-ci ildən kafedra müdiri vəzifəsinə təyin edilmişdir. Fakültədə Azərbaycanda təbabətin biblioqrafiyası, biblioqrafiyaşünaslıq, biblioqrafiyaşünaslığın tədrisi metodikası, ixtisasa giriş, arxiv işinin əsasları və s. fənləri tədris edir.

1987-ci ildə Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Təbabət üzrə məhəlli kitabxana-biblioqrafiya ehtiyatlarının inkişafı, müasir vəziyyəti və təkmilləşdirilməsi yolları (Azərbaycan materialları əsasında)" mövzusunda dissertasiya işini Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, professor Zöhrab Əliyevin rəhbərliyi altında müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsini almışdır.

150-dən çox məqalənin, 3 dərslik və dərs vəsaitinin, 34 monoqrafiyanın, 12 kitabın müəllifidir. Bunlardan "Azərbaycan biblioqrafiyasının biblioqrafiyası" (2003), "Xəzər dənizi və neft" (2003), "Kitabxanada biblioqrafik tərtibatın metodikası" (2004), "Heydər Əliyev və Azərbaycan elmi" (2010), "Kitabxanada ölkəşünaslıq üzrə biblioqrafik fəaliyyətin təşkili" (2004), "Kitabxanalarda biblioqrafik işin təşkili və metodikası" (2018), "Azərbaycanda kitabxanaçılıq-biblioqrafiya sahəsində sənəd axınının təşəkkülü, inkişafı və müasir vəziyyəti" (2021), "Rəqəmsal bilik və tədqiqat bacarıqları" (2022), "Sənədşünaslıq" (2025) adlı vəsaitlər xüsusilə əhəmiyyətlidir. 2013-cü ildə Almaniyanın "Lambert" akademik nəşriyyatında "Azərbaycanın kitabxana-biblioqrafiya və informasiya resursları: inkişaf mərhələləri, vəziyyəti və təkmilləşdirilməsi yolları" adlı monoqrafiyası rus dilində çap olunmuşdur. Son 5 ildə onun 50 məqaləsi beynəlxalq xülasələndirmə bazasında indekslənən jurnallarda çap olunmuşdur.Hazırda H-indeksi 22-dir.

Nadir İsmayılov 2015-ci ildə Azərbaycan Kitabxana Ensiklopediyasının hazırlayan işçi qrupunun üzvü olmuşdur.

Bir sıra respublika və beynəlxalq konfranslarda iştirak etmişdir. Elmi məsləhətçiliyi ilə 4 fəlsəfə doktoru hazırlanmış 3 doktorantın dissertasiya işi müzakirəyə təqdim edilmişdir. 4 doktorantın rəsmi opponenti olmuşdur.

Nadir İsmayılov Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Qabaqcıl Təhsil İşçisi" döş nişanı ilə, Fəxri fərmanla, Bakı Dövlət Universitetinin Fəxri fərmanı ilə, 2019-cu ildə "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019) Azərbaycan Respublikasının yubiley medalı" ilə təltif olunmuşdur.

2014-cü ildə BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü seçilmişdir.

2023-cü ildə Bakı Dövlət Universitetində əməkdaşlar arasında 27 Mart – Elm Gününə həsr olunmuş "İlin alimi" müsabiqəsinin nəticələrinə əsasən "Humanitar və ictimai elmlər" nominasiyası üzrə BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin "Sənəd menecmenti" kafedrasının müdiri, dosent Nadir İsmayılov I yerə layiq görülmüşdür.

2021-ci ildə Milli Kitabxana tərəfindən dəyərli biblioqrafiyaşünas alimin həyat və fəaliyyətinə həsr olunmuş "Biblioqrafiyaşünas alim – Nadir İsmayılov" adlı virtual sərgi hazırlanmşdır.

Ə d ə b i y y a t :

Sənədşünaslıq : (Dərs vəsaiti) / Nadir İsmayılov, M. Məmmədov, X. Ağayeva ixtisas red. X. İsmayılov; Azərb. Resp. Elm və Təhsil Nazirliyi, BDU. - Bakı: [BDU], 2025. - 270, [2] s.

"Heydər Əliyev. Elektron sənədlər toplusu" adlı elektron informasiya resursu: Strukturu və axtarış imkanları haqqında / Nadi İsmayılov // Heydər Əliyev və Azərbaycanda kitabxana quruculuğu: (Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunur) / Respublika Elmi Konfransının materialları, Bakı, 12 may 2023-cü il. - 2024.- S.17-20.

Rəqəmsal bilik və tədqiqat bacarıqları: Dərs vəsaiti / N. İsmayılov, V. Xudiyeva; ixtisas red. M. Ə. Alışov; [naşir E. Abbasova; dizayner İ. Əhmədova]. - Bakı: [Füyuzat], 2022. - 142, [2] s.

Azərbaycanda kitabxanaçılıq-biblioqrafiya sahəsində sənəd axınının təşəkkülü, inkişafı və müasir vəziyyəti: [monoqrafiya] / Nadir İsmayılov, Z. Rzayeva; elmi red. X. İsmayılov - Bakı: Mütərcim, 2021. - 247, [1] s.

İsmayıl Abdul-Qədirov – 90

(1936-2021) *İdman xadimi, məşqçi*



İsmayıl Qafar oğlu Abdul-Qədirov 1936-cı il fevral ayının 15-də İsmayıllı rayonunda anadan olmuşdur.

Peşəkar idmana 14 yaşında gəlmiş, 1950-ci ildə "Dinamo" idman cəmiyyətində yunan-roma güləşi ilə məşğul olmağa başlamışdır. 1959-cu ildə Azərbaycan Bədən Tərbiyəsi və İdman İnstitutunu (indiki Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası) bitirdikdən sonra institutun Güləş və onun metodikası kafedrasında işləməyə başlamışdır.

Bir neçə ildən sonra özünü məşqçilik sahəsində sınayaraq 1965-1968-ci illərdə məktəblilərdən ibarət yığma komandanın məşqçisi olmuşdur. Yetirmələri 1967-ci ildə SSRİ məktəblilərinin 10-cu yubiley Spartakiadasında III yerə layiq görülmüşdur.

1961-ci ildə "Bədən tərbiyəsi və idman əlaçısı" adına layiq görülən İsmayıl Abdul-Qədirov, həmin il güləş üzrə respublika hakimi, 5 il sonra isə Ümumittifaq dərəcəli hakimliyə qədər yüksəlmişdir.

1980-1990-cı illərdə onun elmi-pedaqoji fəaliyyəti özünü daha qabarıq büruzə vermiş, neçə-neçə elmi əsərin, 30 dərslik və tədris vəsaitinin müəllifi olmuşdur. Məşqçilik fəaliyyəti dövründə 25-dən artıq idman ustası, 50-dən çox idman ustalığına namizəd hazırlamışdır. 1980-ci ildən başlayaraq, çalışdığı kafedraya rəhbərlik edən İsmayıl Abdul-Qədirov 10 il bu vəzifəni daşıdıqdan sonra, dekan vəzifəsinə təyin edilmişdir.

1991-ci ildə elmi-pedaqoji fəaliyyəti nəzərə alınaraq, ona dosent elmi dərəcəsi verilmiş, 2009-cu ildən isə Bədən tərbiyəsinin nəzəriyyəsi və metodikası kafedrasının professoru olmuşdur.

Azərbaycan idmanı, idmançı kadrların yetişdirilməsi sahəsindəki uzunmüddətli və məhsuldar əməyi dəfələrlə Ümum ittifaq və respublika idman komitələri tərəfindən diplom və fəxri fərmanlarla qiymətləndirilmişdir.

1990-2002-ci illərdə Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü olan görkəmli idman xadimi, 2001-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Tərəqqi" medalı ilə təltif edilmiş, 2006-cı ildə Azərbaycan Respublikasının "Əməkdar bədən tərbiyə si və idman xadimi" fəxri adına, 2010-cu ildə "Şöhrət" ordeninə layiq görülmüşdür.

İsmayıl Qafar oğlu Abdul-Qədirov 2021-ci il avqust ayının 16-da Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Uşaqlarla məktəbdənkənar iş: metodik göstəriş / Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsi, ADBTİ; tərt. D.Quliyev, İ.Abdul-Qədirov, İ.Tereşşenko; rəy.: H.Ağayev, Z.Babayev; elmi red. İ.Bayramov. - Bakı: ADBTİ, 1990. - 47 s.

Abdul Qədirov İsmayıl Qafar oğlu // Azərbaycan Milli Ensiklopediyası: A-Argelander. - Cild 1. - Bakı, 2009. - S. 25.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C4%B0smay%C4%B1l_Abdul-Q%C9%99dirov

https://sport.edu.az/az/news/195/

Anatoli Banişevski - 80

(1946-1997) *Futbolçu, məşqçi*



Anatoli Andreyeviç Banişevski 1946-cı il fevral ayının 23-də Bakıda ukraynalı ailəsində anadan olmuşdur. Futbola 12 yaşından başlamış, 17 yaşında ustalardan ibarət "Neftçi" komandasının futbolçusu olmuş, hücumçu kimi 1963-1978-ci illərdə "Neftçi"nin şərəfini qorumuşdur.

1966-cı ildə "Neftçi"nin heyətində SSRİ çempionatının bürünc medalını qazanmışdır. Həmin il SSRİ yığmasının heyətində İngiltərədə keçirilən dünya, həmçinin 1968 və 1972-ci illərdə Avropa çempionatının iştirakçısı olmuş, qitə birinciliyində gümüş medal qazanmışdır. O, bu uğurlara imza atan yeganə bakılı futbolçudur. 1966-cı ildə "Neftyanik" bürünc medal qazandıqdan sonra Ulu Öndər Heydər Əliyev ona ev vermişdir.

Anatoli Banişevski SSRİ çempionatının güclülər dəstəsində 212 matçda (81 qol), birinci liqada isə 76 qarşılaşmada (40 qol) forma geyinmişdir. SSRİ yığmasının heyətində 50 oyun keçirmiş, 19 qol vurmuşdur. "Neftçi"də isə bu rəqəm uyğun olaraq 288 və 136-dır. SSRİ çempionatı və kuboku, o cümlədən yığmada 100-dən çox qol vurduğuna görə "Qriqori Fedotov klubu"nun üzvü olmuşdur. Onun 100-cü qolunun ötürməsini İsgəndər Cavadov vermişdir. Banişevskinin yığmanın heyətində Yunanıstanla oyunda etdiyi "het-trik" və "Marakana"da Braziliyanın qapısına başla vurduğu qol indi də xatırlanır.

Hələ gənc vaxtlarında SSRİ-nin adlı-sanlı komandalarından dəfələrlə təklif almasına və qeyri-millətin nümayəndəsi olmasına baxmayaraq, Azərbaycana, "Neftçi"yə sadiqliyi ilə yadda qalmışdır.

"Neftçi"nin "9 nömrəli əfsanəsi" futbolçu həyatı ilə vidalaşdıqdan sonra bir müddət məşqçiliklə məşğul olmuş, 1981-1983-cü illərdə "Neftçi"də işləmiş, 1984-cü ildən isə Mingəçevirin "Avtomobilçi" komandasına baş məşqçisi olmuşdur. Bir neçə il Burkino-Fasodan işləmişdir.

Ümummilli lider Heydər Əliyev tərəfindən 1996-cı ildə "Şöhrət ordeni" ilə təltif edilmişdir.

Anatoli Banişevski 1997-ci il dekabr ayının 10-da Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

2004-UEFA versiyasına görə Azərbaycanda son 50 ilin ən yaxşı futbolçusu seçilmişdir. 2007-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə Anatoli Banişevskinin yaşadığı ünvanın qarşısına xatirə lövhəsi vurulmuşdur. Masallıdakı stadion onun adını daşıyır.

Haqqında 2007-ci ildə "9 nömrəli oyunçu", 2012-ci ildə isə "Azərbaycan futbolunun əfsanələri. Anatoli Banişevski" adlı 2 qısametrajlı sənədli film çəkilmişdir.

Ədəbiyyat:

Yaqubov, Ş. Banişevski olduğu kimi / Ş.Yaqubov; red.: A.Qacayoğlu, B.Rövşən; foto. F.Rəcəbli. - Bakı: Nağıl evi, 2002. - 176 s.

Mövsümzadə, R. Bir qolun tarixçəsi / R.Mövsümzadə. - Bakı: [s. n.], 2013. - 84 s.

Şıxalıoğlu, Q. Anatoli Banişevski /Q.Şıxalıoğlu //Ədəbiyyat qəzeti .-2025.- 28 fevral (№8).- S.26-27.

Cəfərov, E. Azərbaycanın Pelesi /E.Cəfərov //Azərbaycan .-2022.- 20 noyabr.- S.15.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Anatoli_Bani%C5%9Fevski

http://www.anl.az/down/meqale/edebiyyat/2025/fevral/908546.htm

http://www.anl.az/down/meqale/azerbaycan/2022/noyabr/825044.htm

Digər tarixi hadisələr

Gənclər Günü
(1997)



2 fevral tarixinin Gənclər Günü kimi qeyd olunması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin 1995-ci ildə irəli sürdüyü Gənclər Forumu ilə bağlı təşəbbüsündən sonra 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilmişdir. 1996-cı il fevralın 2-də keçirilən I Forumda Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoydu: "Hər bir Azərbaycan gənci hər şeydən çox müstəqil Azərbaycanın bugünü, gələcəyi haqqında düşünməlidir". Bu forum Azərbaycanda gənclər hərəkatının vüsət almasına təkan verdi. Ulu öndər gənclərlə aparılan işin nəzərəçarpacaq dərəcədə canlandığını nəzərə alaraq, 1997-ci ildə imzaladığı sərəncamla tədbirin keçirildiyi günü - fevralın 2-ni Azərbaycan Gənclər Günü elan etmişdir.

Ulu Öndərin gənclərlə bağlı imzaladığı bir çox sənədlər isə respublikanın ictimai-siyasi həyatında gənclərin daha da fəal iştirakı üçün şərait yaratmış, gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən etmişdir. Bütün bunlar Heydər Əliyevin gənclərə böyük qayğısının sübutu idi. Azərbaycanda hər il Gənclər Günündə bütün istiqamətlər üzrə fəaliyyət göstərən gənclər yekun hesabat verirlər. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kurs bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynamışdır. Prezident 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" Sərəncam imzaladı. Proqram çərçivəsində görülən işlər gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi yönündə ciddi irəliləyişə gətirib çıxardı. 2011-ci ilin 6 aprel tarixində prezidentin "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı haqqında Sərəncamı ölkəmizdə gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin menecment sahəsində fəal iştirakına şərait yaratmaq, gənc mütəxəssislərin işlə təminatı və digər sosial-iqtisadi problemlərinin həllini təmin etmək idi.

Gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını bir qədər də stimullaşdırmaq məqsədi ilə Prezident İlham Əliyev 19 dekabr 2011-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması barədə sərəncam verdi. Fondun qarşısında gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli, o cümlədən beynəlxalq səviyyədə həyata keçirilən layihə və proqramları qrant şəklində maliyyələşdirmək məqsədi qoyuldu. Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi oldu.

Azərbaycanda həyata keçirilən gənclər siyasəti yeni nəslin intellektual və innovativ potensialının reallaşmasına hərtərəfli imkan yaratmaqla yanaşı, eyni zamanda, onda dərin vətənpərvərlik ruhu formalaşdırmışdır. Azərbaycan gənci məhz qəlbindəki güclü Vətən sevgisi sayəsində döyüşlərin əsas ağırlığını qəhrəmancasına öz üzərinə götürərək xalqımızın qələbə əzmini dünyaya nümayiş etdirmiş Vətən müharibəsində Zəfər salnaməsi yazmışdır.

Ədəbiyyat:

Əliyev, İlham. Prezident İlham Əliyev Azərbaycan gənclərinin təbrik etdi: "Azərbaycan gənci məhz qəlbindəki güclü Vətən sevgisi sayəsində..." / İlham Əliyev // Azərbaycan.- 2023.- 3 fevral.- S.1.

Əliyeva, İ. Gənc nəslin inkişafı dövlətimizin prioritetlərindən biridir: 2 Fevral Azərbaycan Gəncləri Günüdür /İradə Əliyeva // Azərbaycan. - 2024. – 2 fevral, № 22.- S.1, 11.

Xasayeva, S. Azərbaycan gəncliyi dövlətimizin sədaqətli əsgəridir: 2 Fevral Azərbaycan Gəncləri Günüdür /Səbinə Xasayeva //Azərbaycan. - 2024.- 2 fevral, № 22.- S.13

Salmanlı, R. Qürurlu və əzəmətli Azərbaycan gəncliyi: Dövlət qayğısı / Rəhman Salmanlı //Azərbaycan. .-2024.- 3 fevral, № 23.- S.11.

Azərbaycan Gənclər Günü Özbəkistanda qeyd olunub //Azərbaycan .-2025.- 2 fevral (№ 23).- S.6.

Gənclər Günü münasibətilə "Qərbi Azərbaycana qayıdış" mövzusunda tədbir təşkil edilib // Azərbaycan .-2025.- 2 fevral (№ 23).- S.3.

Azərbaycan Televiziyası - 70 *(1956)*



“Diqqət-diqqət, göstərir Bakı” - 1956-cı il fevralın 14-də Azərbaycanın ilk televiziyası bu sözlərlə yayıma başlayıb. Həmin tarix xalqımızın siyasi və mədəni həyatına böyük yenilik gətirib.

Şərqdə ilk televiziyanın ölkəmizdə fəaliyyətə başlamasından ötən 70 il ərzində Azərbaycanda televiziya yayım şəbəkəsi qurulub, ən müasir standartlara əsaslanan rəqəmli televiziya yayımvericiləri istismara verilib.

1996-cı ildə istismara verilən Bakı Teleqüllə Kompleksi bu gün ölkənin əsas yayım mərkəzi hesab olunur. 310 metr hündürlüyü olan və unikal konstruksiyaya malik bu kompleks vasitəsilə yerli və bir çox xarici ölkələrin televiziya proqramları yayımlanır.

Teleradionun uğurlu fəaliyyəti Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Televiziyasını xalqın milli sərvəti adlandıran Ulu Öndər onun cəmiyyət həyatında, dövlət quruculuğunda, ölkəmizdə gedən ictimai-siyasi proseslərdə, milli-mənəvi dəyərlərin təbliğindəki rolunu yüksək qiymətləndirir, siyasətin bu tribunadan xalqa çatdırılmasına böyük əhəmiyyət verirdi. Azərbaycan Teleradiosu bu gün də xalqın əsl tribunasıdır. O, ölkə vətəndaşlarına Azərbaycan həqiqətlərini təqdim edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil dövlət quruculuğu prosesi, davamlı və ardıcıl olaraq həyata keçirilən uğurlu islahatlar, ölkənin dinamik inkişafı, qazanılan nailiyyətlər bu kanalın gündəlik fəaliyyətində öz əksini tapır. Dövlət əhəmiyyətli ictimai-siyasi tədbirlərin operativ işıqlandırılması, dövlətimizin rəsmi mövqeyinin həm ölkə daxilində, həm dünyada tam dəqiqliklə yayımlanması Azərbaycan Teleradiosunun müstəsna xidmətidir. Artıq onun hədəfi təkcə Azərbaycan tamaşaçısı, dünya azərbaycanlıları deyil, dünya ölkələri, dünya tamaşaçısıdır.

Televiziyanın efirində ərsəyə gələn hər bir verilişdə, hər bir videosüjetdə böyük yaradıcı kollektivin əməyi var. Hazırda Azərbaycan Televiziyasında müxtəlif mövzularda tok-şoular, portret və səyahət verilişləri, musiqili-əyləncəli proqramlar, televiziya tamaşaları, sənədli və bədii filmlər nümayiş etdirilir. Televiziyanın analitik proqramları da kifayət qədərdir.

Peşəkarların yetişməsi üçün isə Azərbaycan Teleradiosunun imkanları genişdir: studiyalar, çəkiliş pavilyonları, zəngin maddi-texniki baza, ən müasir texniki imkanlara malik avadanlıqla təchiz olunan montaj otaqları. Ölkə başçısının birbaşa diqqəti və qayğısı ilə həyata keçirilən islahatların məqsədi isə Azərbaycan Teleradiosunun nüfuzunu daha da artırmaq, tamaşaçı və dinləyicilərə yüksək səviyyəli proqramlar təqdim etməkdir.

Dövlət əhəmiyyətli ictimai-siyasi tədbirlərin istər ölkə daxilində, istərsə də xaricdə operativ şəkildə işıqlandırılmasında televiziyamızın müstəsna xidmətləri var.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2009-cu il fevralın 1-də Azərbaycan Televiziyasının nəzdində “İdman Azərbaycan” kanalının yaradılması dövlətimizin idmana, gənclərin sağlam ruhda böyüməsinə verdiyi önəmdir.

2011-ci ildə isə Azərbaycan Televiziyasının nəzdində “Mədəniyyət” kanalı yaradıldı. “Mədəniyyət” kanalı Azərbaycan mədəniyyətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təbliğ edir, dünya mədəniyyətinin incilərini isə Azərbaycan tamaşaçılarına çatdırır.

Bu gün Azərbaycan Televiziyasının maddi-texniki bazası modernləşdirilib, verilişlərinin ideya-bədii məzmunu keyfiyyətcə yenilənməsi dövlətin bu sahəyə qayğısının nəticəsidir.

Ədəbiyyat:

Azərbaycan televiziyası /E. Əlibəyli ; red. A. K. MəmmədovaBakı: MBM, - 2005. -160 s.: 1 portr. - 20 sm.

Bayramova, Z. İnformasiya liderliyini qoruyub-saxlayan Azərbaycan Televiziyası /Z.Bayramova //Səs .-2025.- 14 fevral (№27).- S.6.

Yaqubqızı, R. “Sehrli qutu”nun cazibəsi/R. Yaqubqızı //Respublika .-2025.- 14 fevral (№ 32).- S.11.

Dostəli, Ə. Milli telemə-kanımızın bayraqdarı!: Ölkəmizdə ilk teleya-yımdan 69 il keçir / Ə.Dostəli // Xalq qəzeti. -2025.- 14 fevral (№ 33).- S.16.


Aydınoğlu, T. Qayıdış yollarını işıqlandıran ekran / Tahir Aydınoğlu // Xalq qəzeti..-2025.- 3 avqust (№160).- S.6.

İnternetdə:

http://www.anl.az/down/meqale/ses/2025/fevral/934620(meqale).pdf

http://www.anl.az/down/meqale/respublika/2025/fevral/934768(meqale).pdf

Beynəlxalq Kitab Bağışlama Günü *(2013)*



14 Fevral - Beynəlxalq kitab bağışlama günü (International Book Giving Day) – təqvimdə ən gənc bayramlardandır. Bu gün uşaqlara kitab bağışlayan və onlarda kitaba məhəbbət yaradan bütün insanları birləşdirir.

2012-ci ildə meydana gələn bu bayram ABŞ-da məşhur Delightful Children's Books uşaq kitabı saytının yaradıcısı Emmi Brodmoorun adı ilə bağlıdır. Bu ideyanı ona balaca oğlu vermişdir. O, anasından soruşmuşdur ki, niyə insanların bir-birinə kitab bağışladığı xüsusi gün yoxdur. 2011-ci ildə Amerikanın Minessota əyalətində yaşayan 6 yaşındakı Jack Broadmoore adlı kiçik qız "Kitap Vermə Günü" adlı bir bayram uydurmuşdur. Bütün dostlarını və ailə üzvlərini də bu bayramda bir birləri ilə kitab dəyişdirməyə məcbur etmişdir. Tam bir il sonra 2012-ci ildə Jackin anası Amy Broadmoore, uşaq kitabları bloqunda bütün kitabsevərləri, uşaqlara kitab hədiyyə edərək "Kitab Vermə Günü"nü qeyd etməyə dəvət etmişdir.

2013-cü ildə də Cənubi Afrikadan Braziliyaya, Sinqapurdan İngiltərəyə, Hindistandan Yeni Zellandiyaya qədər çox fərqli ölkədən bloqqerlər birlikdə hərəkət edərək insanları o günü "uşaqlara kitab vermə günü" olaraq qeyd etməyə çağırmışlar. Deməli o gündən bəri dünyanın bir çox ölkəsində 14 fevral "Dövlətlərarası Kitab Vermə Günü" olaraq qeyd olunmağa başlamışdır. Mövcud olduğu ildən bu təşəbbüs bütün dünyada dəstək qazanır və indi də yeni iştirakçılar cəlb etməkdə davam edir. Bu əlamətdar günün yayılmasında məşhur müəlliflərin, bloqqerlərin və uşaq yazıçılarının dəstəyi mühüm rol oynamışdır.

Hər il minlərlə həm oxunmuş, həm də yeni kitablar dünyanın bütün istiqamətlərinə yola düşür və uşaqlarda kitaba məhəbbət, böyüklərdə isə bağışlamaq, hədiyyə etmək sevinci yaradır. İlk olaraq evdə oxuduğumuz və bir daha oxumayacağımızı düşündüyümüz kitablarımızı ayıraq. Ətrafımızdakı kitablarla maraqlanan insanlara bu kitabları verək. Bir uşağa kitab alaq. Dostlarımızla kitablarımızı dəyişək. Kitablarımızı kitabxanaya, uşaq evlərinə, xəstəxanalara və ya kitab kampaniyalarına bağışlayaq. Uzun səyahətlər zamanı oxuyub bitirdiyimiz kitabları avtovağzallara, hava limanlarına və ya başqa yerlərə qoyaq.

Azərbaycan Milli Kitabxanasında hər il "Beynəlxalq kitab bağışlama günü" münasibətilə tədbir keçirilir. Tədbirdə mütaliə mədəniyyətinin formalaşmasında kitabın rolundan, gələcək nəsillərin dünyagörüşünün inkişafında kitab oxumağın nə qədər vacib məsələ olmasından bəhs edilir. Eyni zamanda Milli Kitabxana tərəfindən "14 fevral - Beynəlxalq Kitab Bağışlama Günü" adlı virtual sərgi təqdim edilir. Onlayn sərgidə fotolar, mövzuya dair kitab və dövri mətbuat səhifələrində dərc olunan məqalələr nümayiş olunur.

Gənclərin fəal mütaliəyə cəlb olunması, mütaliə mədəniyyətinin formalaşdırılması məqsədilə Milli Kitabxananın nəzdində həftənin bütün günləri fasiləsiz 24 saat ərzində gənclərin və bütün vətəndaşların sərbəst şəkildə kitab mütaliə etməsinə şərait yaradan "Açıq Kitabxana – sərbəst mütaliə məkanı" fəaliyyət göstərir. Burada "Uşaq guşəsi", "Mən oxudum, sən də oxu", "Dövri mətbuat" və "Milli musiqi" guşələri yaradılıb oxucuların istifadəsinə verilmişdir.

Ədəbiyyat:

"Beynəlxalq Kitab Bağışlama Günü" münasibətilə // Mədəniyyət.- 2024.- 16 fevral, № 13. - S. 4.

Abbas, G. Elm bir nurdur ki, paylaşdıqca çoxalar... :Kitab Bağışlama Gününü necə qeyd etməli? / Günel Abbas // Yeni Azərbaycan. - 2024. - 14 fevral, №28. - S. 8.

Bayramova, Y. Kitab paylaşdıqca fayda verir... : Beynəlxalq Kitab Bağışlama Günüdür /Y.Bayramova //Yeni Azərbaycan .-2025.- 14 fevral (№27).- S.8.

Kitab qiymətli hədiyyədir // Xalq qəzeti. - 2025. - 15 fevral (№ 34).- S.10.

"Sözü oxucuya qovuşduran sənət bayramı" hazırlanıb // 525-ci qəzet.-2025.- 15 fevral(№29).-S.19.

İnternetdə

http://www.anl.az/down/meqale/yeni_az/2025/fevral/934588(meqale).pdf

https://azertag.az/xeber/bu_gun_beynelxalq_kitab_bagislama_gunudur-2488367

Beynəlxalq Ana Dili Günü
(1999)



Hər il fevral ayının 21-i dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd edilir. Birləşmiş Millətlər Təşkilatının 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü əsasında belə bir tarixi qərar qəbul etməsi ötən əsrin ortalarında Pakistanda benqal dilinin sıxışdırılması zəminində baş verən hadisələrlə bağlı olmuşdur.

1952-ci il fevralın 21-22-də Pakistanda benqal dilinin qadağan edilməsinə etiraz əlaməti olaraq keçirilmiş dinc kütləvi aksiyada qətlə yetirilmiş 4 nəfərin xatirəsinə ehtiram olaraq Banqladeş nümayəndələri fevralın 21-i tarixinin Beynəlxalq Ana Dili Günü kimi qeyd olunması barədə məsələ qaldırmışlar. BMT-nin ali mədəniyyət qurumu olan UNESCO-nun 1999-cu ilin noyabrında keçirilmiş baş konfransında fevralın 21-i Beynəlxalq Ana Dili Günü elan olunmuşdur.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dilinin daha da inkişaf etdirilməsi yolunda geniş üfüqlər açılmışdır. Xalqımız 1995-ci il noyabr ayının 12-də referendum yolu ilə mövqeyini nümayiş etdirərək Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması müddəasına tərəfdar çıxmışdır.

Beləliklə, dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırılmış, onun hüquqları qorunmuş, cəmiyyətdəki mövqeləri bərpa edilmişdir. Ana dilinə həmişə xüsusi diqqətlə yanaşan, dilimizin dərin bilicisi olan Heydər Əliyev yeni inkişaf dönəmində yaranmış vəziyyəti nəzərə alaraq 2001-ci il iyun ayının 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman imzalamışdır. Fərmanda dilimizin tarixi inkişafı boyu əldə etdiyi uğurlarla yanaşı, yaşadığımız dövrdə dövlət dili sahəsində mövcud problemlər də geniş təhlil edilmiş, onların həlli yolları göstərilmişdir.

2001-ci ildə latın qrafikalı Azərbaycan əlifbasına keçidin reallaşması Ulu Öndər Heydər Əliyevin dilimizin inkişafı baxımından göstərdiyi misilsiz xidmətlərdəndir. Ümummilli Liderin 2001-ci il 9 avqustda imzaladığı "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmana əsasən, hər il avqust ayının 1-i ölkəmizdə Azərbaycan əlifbası və dili günü kimi geniş qeyd edilir. 2003-cü ilin yanvar ayının 2-də isə Heydər Əliyevin fərmanı ilə "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmiş, qanunda dövlətin ana dilinə qayğısı sahəsindəki əsas vəzifələr dəqiq şəkildə göstərilmişdir. Prezident İlham Əliyevin ana dilinə qayğı siyasətinin yeni mərhələdə uğurla davam etdirilməsi bütövlükdə qloballaşma şəraitində xalqın milli-mənəvi dəyərlərinin qorunmasından xəbər verir.

Prezident İlham Əliyev 2018-ci il noyabr ayının 1-də Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında fərman imzalamışdır. Fərmanda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının dövlət dilinin tətbiqinə nəzarət edən, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin edən, dövlət büdcəsindən maliyyələşən "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi" publik hüquqi şəxs yaratmaq tapşırılmışdır.

M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası tərəfindən "21 fevral Beynəlxalq Ana Dili Günü" adlı virtual sərgi hazırlanaraq istifadəçilərə təqdim olunur. Virtual sərgidə görkəmli şəxslərin ana dili haqqında fikirləri, Ümummilli lider Heydər Əliyevin dil siyasəti, Azərbaycan dilinin tarixi, eləcə də mövzu ilə bağlı kitab və məqalələr nümayiş olunur.

Ədəbiyyat :

Milli kimliyimizin və mədəni irsimizin rəmzi: 21 fevral Beynəlxalq Ana Dili Günüdür // Elm.-2025.- 21 fevral(№7).- S.8.

İsmayıl, Z. Milli varlığımız: 21 fevral Beynəlxalq Ana Dili Günüdür / Zülfiyyə İsmayıl // İki sahil. - 2024. - 21 fevral, №33. - S. 7.

Ana dilimiz milli varlığımız və qürur mənbəyimizdir // Azərbaycan.-2024.- 23 fevral, № 41.- S.9.

UNESCO-nun mənzil-qərargahında Beynəlxalq Ana Dili Günü //525-ci qəzet .-2025.- 25 fevral(№35).- S.9.

Bayramova, Z. Xalqın milli kimliyi-Ana dili: Prezident İlham Əliyev:"Bu gün dünyada 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir / Zümrüd Bayramova // Səs.-2025.- 1 avqust (№135).- S.3.

Fərəcova, Z. Dünyanın ən zəngin dillərindən biri: 21 fevral Beynəlxalq Ana Dili Günüdür / Zöhrə Fərəcova // Azərbaycan.-2025.- 21 fevral (№ 39).- S.16.

İnternetdə :

http://www.anl.az/down/meqale/525/2025/fevral/936326.htm

Digər tarixi hadisələr

Bakıda I Beynəlxalq Türkoloji Qurultayın keçirilməsinin 100 iliyi *(1926)*



Yeni Türk Əlifba Komitəsi, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin birgə qərarı ilə çağırılan Birinci Türkoloji qurultay (sənədlərdə I Ümumittifaq Türkoloji Qurultay) 1926-cı il 26 fevral-5 mart tarixində Bakı şəhərində, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin binasında-tarixi "İsmailiyyə"də (indiki AMEA Rəyasət Heyətinin binası) keçirilmişdir.

Qurultayda 131 nəfər nümayəndə iştirak etmiş, 17 iclas keçirilmiş, türklərin, bütövlükdə Türk Dünyasının dili və tarixinə, etnogenezisi və etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə dair 38 məruzə dinlənilmişdi. İclasa Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səməd ağa Ağamalıoğlu sədrlik etmişdir.

I Bakı Türkoloji Qurultayında türk dillərinin yeddi böyük problemi müzakirə obyekti olmuşdurı: 1. Əlifba məsələsi; 2. İmla-orfoqrafiya problemi; 3. Termin məsələsi; 4. Tədris-metodika məsələsi; 5. Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri; 6. Türk dillərinin ədəbi dil problemləri, o cümlədən, ortaq ədəbi dil məsələsi; 7. Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri.

I Türkoloji Qurultayda türk ədəbi dillərinin norma və üslub xüsusiyyətləri, eləcə də türk xalqlarının ana yurdu məsələsi də müzakirə obyekti olmuşdur. Qurultay nümayəndələri böyük özbək şairi Əlişir Nəvainin 500 illik yubileyində də iştirak etmişdilər. Qurultayın qərarına görə II Türkoloji Qurultayın 1927-ci ildə Səmərqənd şəhərində keçirilməsi nəzərdə tutulsa da, bu qərar məlum səbəblər üzündən baş tutmamışdır.

I Türkoloji Qurultayın qəbul etdiyi qərarlar sırasında ortaq əlifba, ortaq ədəbi dil, ortaq terminologiya kimi məsələlər xüsusilə mühüm yer tutmuşdur. Həmin məsələlər və onlarla bağlı problemlər bu gün də öz aktuallığı ilə seçilir və böyük əhəmiyyət daşıyır.

Azərbaycan XX əsrdə ikinci dəfə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra I Bakı Türkoloji Qurultaya dövlət səviyyəsində hüquqi qiymət verildi və 2005-ci ilin noyabr ayının 5-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin tarixi hadisənin 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzaladı. Həmin sərəncama uyğun olaraq 2006-cı ildə Bakıda I Türkoloji Qurultayın 80 illik yubileyinə həsr olunmuş Beynəlxalq konfrans keçirildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev I Türkoloji Qurultayın 90 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədilə 18 fevral 2016-cı ildə sərəncam imzalamışdır.

XX yüzilliyin sonlarına doğru Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini bərpa etməsi ilə, Azərbaycan dilinin rəsmi dövlət dili statusu qəti surətdə təsbit edildi və Türkoloji Qurultay tərəfindən vaxtilə irəli sürülmüş qərar və tövsiyələrin müasir şəraitdə uğurla həyata keçirilməsi üçün əlverişli zəmin yaranmışdır. Qurultaydan bəri ötən dövr ilk növbədə türkologiyaya dair araşdırmalar sahəsində yeni konsepsiyaların formalaşdırılması, Azərbaycanın dünya miqyasında aparılan türkoloji araşdırmaların nüfuzlu mərkəzlərindən biri kimi tanınması və türk xalqlarının mədəni-mənəvi birliyinin nəzəri-elmi bünövrəsinin yaradılması ilə əlamətdardır. Qazanılan nailiyyətlər eyni zamanda Qurultayın təşkili işinə töhfələr vermiş və az müddət sonra günahsız repressiya qurbanları olmuş görkəmli türkoloq alimlərin xatirəsinə ehtiramın ifadəsidir.

22 oktyabr 2025-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır.

Ədəbiyyat:

Çobanov, M. I Türkoloji qurultay və türk dillərinin müasir problemləri : Ədəbi dilimiz xalqımızın milli sərvətidir /M. N. Çobanov; red. N. Cəfərov; Azərbaycan Atatürk Mərkəzi.-Bakı: AzAtaM, 2006.-C.I.-152 s.

Latın əsaslı yeni türk əlifbası və I Bakı türkoloji qurultayı: Biblioqrafiya / Tərtibçilər: K. V. Nərimanoğlu; Ə. Ağakişiyev; S. Abdullayeva; Red.: M. Vəliyeva.-Bakı: Çinar-Çap, 2006.-40 s.

Birinci Türkoloji Qurultayın tarixi missiyası /N.Cəfərov, M.Hüseynova, A.Qəribli // Ədəbiyyat qəzeti .-2025.- 28 fevral (№8).- S.3-5.

Первый Всесоюзный Тюркологический съезд: 26 февраля-5 марта 1926 г. : стенографический отчет /М-во Культуры и Туризма Азерб. Респ., Нац. Библиотека Азерб. им. М. Ф. Ахундова; отв. за вып. В. Бахманлы ; ред. А. Асадзаде.-Баку: Нагыл Еви, 2011.-550 с.

İnternetdə:

http://www.anl.az/down/meqale/edebiyyat/2025/fevral/937128.htm

Digər tarixi hadisələr

Xocalı soyqırımı günü *(1992)*



Dünya tarixində insanların kütləvi qətliamı ilə bağlı soyqırımlar çox olub. Amma onların içərisində Xocalı soyqırımı xarakteri və qəddarlığı ilə fərqlənir. Azərbaycanlılar tək Xocalıda deyil, 1905-1907, 1918-ci illərdə, soydaşlarımızın Qərbi Azərbaycandan deportasiya edildiyi dövrlərdə, 1988-ci ildə daşnak qəddarlığının qurbanı olublar.... Xocalı soyqırımını tanıyan Pakistan, Kolumbiya, Meksika kimi digər ölkələrdə də ictimaiyyətə çatdırılır ki, 26 fevral 1992-ci ildə yer üzündən silinən bu şəhərin 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri ahıl olmaqla 613 sakini qətlə yetirilmiş, 487 nəfər şikəst olmuş, 1275 nəfər ermənilər tərəfindən əsir götürülmüş, təhqirlərə məruz qalmışdır. Onların 150 nəfərinin taleyi barədə bu günədək xəbər yoxdur. 24 uşaq hər iki valideynini itirmiş, 130 körpə isə bir valideynindən məhrum olmuşdur. Soyqırım qurbanlarından 56 nəfəri amansız vəhşiliklə qətlə yetirilmişlər.

Dəhşətli soyqırımlara imza atan ermənilər, keçmiş sovetlərin 366-cı alayının əsgər və zabitləri Xocalıda qətlə yetirdikləri azərbaycanlıları soyqırım qurbanı kimi görmək istəmirlər. Amma 1915-ci ildə Osmanlı dövründə satqınlığı və dövlətçiliyə qarşı göstərdiyi xəyanətləri üzündən öldürülən daşnakları guya soyqırım qurbanları kimi tanıtmaq üçün min cür hiyləyə əl atırlar. İndi bütün dünya ictimaiyyəti bilir ki, 1992-ci ildə erməni faşizminin azərbaycanlılara qarşı növbəti qətliamı olan Xocalıda görünməmiş dəhşətlər yaşanıb. Ötən əsrdə ermənilərin azərbaycanlılara qarşı yönəlmiş soyqırımına ilk siyasi qiyməti 26 mart 1998-ci ildə (1918-ci il mart hadisələrinin 80-ci ildönümü ərəfəsində) imzaladığı fərmanla verən Ümummilli lider Heydər Əliyev daha bir tarixi missiyanı yerinə yetirdi. Prezident İlham Əliyevin səyi, Azərbaycanın artan nüfuzu, uğurlu diplomatiyası sayəsində dünya ictimaiyyətinə çatdırıldı ki, Ermənistanın idarə olunan siyasətinin əsasında terrorçuluq və işğalçılıq dayanır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə beynəlxalq səviyyədə aparılan ideoloji təbliğatın əsas prioritetləri Dağlıq Qarabağ haqqında həqiqətləri, Xocalı soyqırımını dünya ictimaiyyətinə çatdırmaqdır.

57 ölkənin gənclər təşkilatlarını birləşdirən İƏT-in Gənclər Forumu İdarə Heyətinin sessiyasında qurumun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məsələləri üzrə baş əlaqələndiricisi, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış, bütün dünya birliyi tərəfindən dəstəklənən "Xocalıya ədalət" kampaniyasını genişləndirməkdə də məqsəd ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı barədə həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqdır. "Leyla Əliyeva: Xocalıya ədalət" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model) kitabı da "Xocalıya ədalət" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyasının 5 illiyi münasibətilə nəşr olunmuşdur. Xocalı soyqırımının ildönümü günlərində Avropa və Qərb dövlətlərində keçirilən aksiyalarda iştirak edənlərin sayının artması, Xocalı faciəsinin İsveçdə yaradılmış və virtual aləmdə geniş təbliğ olunan "Beynəlxalq Müharibə Qurbanları Memorialı"na daxil olunması da Azərbaycana dəstək kampaniyasının nümunəsidir.

Xocalı rayonu 19 sentyabr 2023-cü ildə aparılan lokal xarakterli antiterror əməliyyatları nəticəsində azad olunmuşdur. Yevlax rayonunda keçirilən danışıqların nəticəsində Xocalı rayonu 24 sentyabr 2023-cü ildə Azərbaycan Respublikasının nəzarətinə keçmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmışdır.

Hər il Azərbaycan Milli Kitabxanasında "XX əsrin faciəsi – Xocalı soyqırımı" adlı tədbir, virtual və ənənəvi sərgilər təşkil olunub oxuculara təqdim olunur.

Ə d ə b i y y a t

Xocalı soyqırımı bəşər tarixinin qara ləkəsidir / İlham Əliyev // Səs.-2024.- 22 fevral (№34).- S.4-5.

Məhərrəmov, V. Xocalı soyqırımı - tariximizin qanlı və unudulmaz səhifəsi / Vahid Məhərrəmov // Azərbaycan.- 2024. – 27 fevral, № 44. - S. 1, 6.

Turabqızı, S. Əsir Xocalı / Səkinə Turabqızı; red. B. Sadiq.- Bakı: [Gənclik], 2023.- 213, [1] s.

Tapdıqoğlu, N. Azərbaycanın XX əsr faciələri: (Hər bir azərbaycanlı üçün qiymətli yaddaş kitabı) /Nazim Tapdıqoğlu (Vəlişov) [ön söz əvəzi, son söz əvəzi]; red. Ş. Əliyev ; [dizayner S. Hüseynzadə].- Bakı: [İmza], 2023.- 623 s. Turabkızı, S. Hocalı izdırabı: [röportaj] /S.Turabkızı; çeviren O.Hacımusalı; edit. A.Özkan; [önsöz V. Yusifli]; yayın yönetmeni İ.Palalı; kapak S.Satı; fotoğraf. Azerbaycan Devlet Haber Ajansı "Azertac".- [İstanbul]: Akademi titiz yayınları, [2022].- 163 s.

Xocalı soyqırımı beynəlxalq müstəvidə // Respublika .-2025.- 1 mart (№ 46).- S.8.

MART

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	20	21	22
23	24	25	26	27	28	29

- *Azərbaycanın BMT-yə qəbul olunması günü (02.03.1992)*
- *Ümumdünya Yazıçılar günü (03.03.1986)*
- *Milli Teatr Günü (10.03.2013)*
- *Beynəlxalq Novruz Günü (21.03.2010)*
- *Azərbaycanda "Elm günü" (27.03.2018)*
- *Azərbaycanlıların soyqırımı günü (31.03.1998)*

19 fevral - 20 mart Balıq Nişanı sudur. Yupiter və Neptunun himayəsindədir. Günəşin Balıqlar bürcündən keçdiyi dövrdə doğulanlar incə intuisiyalı olmaqla yanaşı, daim bir narahatlıq hissi də keçirirlər

Şəhərsalma və Memarlıq İli



İçərişəhər Bakının tarixi mərkəzi, Azərbaycan tarixinin və mədəniyyətinin nadir nümunəsi olan "şəhər içində şəhər" kimi bu günədək qorunub saxlanmış unikal məkandır. Sahəsi cəmi 22 hektar olsa da, İçərişəhərin hər bir guşəsi yüzilliklərin yaddaşını yaşadır, formalaşmış memarlıq mühiti və özünəməxsus ruhu ilə seçilir. Ərazini hündürlüyü 8–10 metr, qalınlığı 3–5 metr olan möhkəm qala divarları əhatə edir. İçərişəhərin inkişafı 1192-ci ildə Şamaxıda baş vermiş güclü zəlzələ ilə birbaşa bağlıdır. Zəlzələdən sonra Şirvanşahlar dövlətinin paytaxtının Bakıya köçürülməsi şəhərin siyasi və mədəni əhəmiyyətini artırmış, bunun nəticəsində Şirvanşahlar Sarayı inşa edilmişdir. Yaxın Şərq memarlığında analoqu olmayan bu kompleksə saray binası, məhkəmə, XV əsr alimi Seyid Yəhya Bakuvinin türbəsi, saray məscidi, şah ailəsinin dəfn olunduğu qəbiristanlıq, saray hamamı və 34 pilləli yeraltı su anbarı daxildir

İçərişəhərin əsas rəmzlərindən biri olan Qız qalası öz monumental görkəmi və memarlıq xüsusiyyətləri ilə seçilir. Hündürlüyü 28 metr, diametri 16–16,5 metr olan bu silindrik qurğunun aşağı divarları 5 metr, yuxarı hissəsi isə 4 metr qalınlığa malikdir. Qala səkkiz mərtəbədən ibarətdir və mərtəbələr divarın içərisində yerləşən daş pilləkənlərlə birləşdirilmişdir.

İçərişəhər Qız qalası, Şirvanşahlar Sarayı kompleksi, məscidlər, karvansaralar və digər tarixi abidələri ilə orta əsrlər Azərbaycan memarlığının və şəhərsalma mədəniyyətinin parlaq nümunəsidir. Ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı nəticəsində 1977-ci ildə tarix-memarlıq qoruğu statusu almış, 1985-ci ildə isə Dövlət Tarix-Memarlıq Qoruğu elan edilmişdir.

MART 2026



Milli ədəbiyyat

Xalq şairi, Əməkdar incəsənət xadimi Billuri Hökumə İbrahim qızının (03.03.1926-22.11.2000) anadan olmasının 100 illiyi 192
Xalq şairi, dilçi, tərcüməçi, publisist, dramaturq Rüstəmzadə Süleyman Əliabbas oğlunun (Süleyman Rüstəm) (12.03.1906-10.06.1989) anadan olmasının 120 illiyi 193
Nasir Mustafayev Əmir Gülbala oğlunun (12.03.1936-27.07.2007) anadan olmasının 90 illiyi 194
Nasir, dramaturq Hacızadə Nahid Rəhim oğlunun (14.03.1936-18.01.2018) anadan olmasının 90 illiyi 195
Şair, tərcüməçi, publisist İsmayılzadə İsa Mustafa oğlunun (15.03.1941-14.07.1997) anadan olmasının 85 illiyi
Əməkdar incəsənət xadimi, şair, tərcüməçi Məmmədsalahlı Ələkbər Baba oğlunun (Ələkbər Salahzadə) (15.03.1941-01.09.2013) anadan olmasının 85 illiyi 196
Əməkdar incəsənət xadimi, şair, publisist, ictimai xadim Alıyev Barat Alı oğlunun (Barat Vüsal) (18.03.1951) anadan olmasının 75 illiyi 197
Şair, tərcüməçi Qasımov (Qasımzadə) Böyükağa Məmməd oğlunun (18.03.1916-29.08.1957) anadan olmasının 110 illiyi 198
Şair, tərcüməçi Kərimov Əli Paşa oğlunun (Əli Kərim) (18.03.1931-30.06.1969) anadan olmasının 95 illiyi
Xalq şairi, akademik Vəkilov Səməd Yusif oğlunun (Səməd Vurğun) (21.03.1906-27.05.1956) anadan olmasının 120 illiyi 199
Yazıçı, jurnalist Veysəlli Nemət Bayramalı oğlunun (21.03.1941-25.03.2023) anadan olmasının 85 illiyi
Əməkdar incəsənət xadimi, yazıçı, jurnalist Babayev Nurəddin Həsən oğlunun (23.03.1921-25.09.1991) anadan olmasının 105 illiyi 200
Şair, nasir Xanlarov Seyran Əsgər oğlunun (Seyran Səxavət) (23.03.1946) anadan olmasının 80 illiyi 201



Dünya ədəbiyyatı

İranlı şairə Pərvin xanım Ehtisaminin (16.03.1906-05.04.1941) anadan olmasının 120 illiyi 202



Folklor

Əməkdar mədəniyyət işçisi Axundov Umbay Sadıq oğlunun (Aşıq Umbay) (21.03.1941) anadan olmasının 85 illiyi 203
Aşıq Ələsgər Alməmməd oğlunun (Aşıq Ələsgər) (22.03.1821-07.03.1926) anadan olmasının 205 illiyi 204

MART 2026



Rəssamlıq. Memarlıq

Əməkdar rəssam, fotoqraf Məmmədov Tahir Hidayət oğlunun (01.03.1946) anadan olmasının 80 illiyi 205
Xalq rəssamı, fotoqraf və heykəltəraş Haqverdiyev Hüseyn Həsən oğlunun (03.03.1956) anadan olmasının 70 illiyi 205
Xalq rəssamı, boyakar Rüstəmov Cahangir Mahmud oğlunun (05.03.1926-13.02.2007) anadan olmasının 100 illiyi 206



Musiqi. Opera. Balet

Əməkdar incəsənət xadimi, bəstəkar Bağırov Zakir Cavad oğlunun (16.03.1916-08.01.1996) anadan olmasının 110 illiyi 207
Əməkdar incəsənət xadimi, bəstəkarı, kino bəstəkarı Mirməmmədli Hikmət Seyid Hüseyn oğlunun (20.03.1961-22.05.2007) anadan olmasının 65 illiyi
Əməkdar incəsənət xadimi, fəlsəfə elmləri üzrə fəlsəfə doktoru, dosent, bəstəkar, prodüser, pedaqoq Gərayzadə Vaqif Əzizağa oğlunun (27.03.1961) anadan olmasının 65 illiyi 208
Əməkdar incəsənət xadimi, professor, dirijor Əliyev Azad Sabir oğlunun (29.03.1951-30.03.2014) anadan olmasının 75 illiyi 209
Xalq artisti, xanəndə Cabbar Məşədi İsmayıl oğlunun (Cabbar Qaryağdı oğlu) (31.03.1861-20.04.1944) anadan olmasının 165 illiyi 210
Xalq artisti, pianoçu Babayev Rafiq Fərzi oğlunun (31.03.1936-19.03.1994) anadan olmasının 90 illiyi 211



Teatr. Kino

Xalq artisti, aktyor Qurbanov Ağadadaş Gülməmməd oğlunun (08.03.1911-22.06.1965) anadan olmasının 115 illiyi 212
Əməkdar artist, aktrisa Həsənova İradə Aslan qızının (08.03.1956) anadan olmasının 70 illiyi 213
Naxçıvan Muxtar Respublikasının əməkdar artisti, teatr aktyoru Şeyxov Elxan Cəfər oğlunun (11.03.1951) anadan olmasının 75 illiyi 213
Əməkdar artist, aktyor Qafarlı Əlihüseyn Əbdülrəhim oğlunun (15.03.1911-05.10.1961) anadan olmasının 115 illiyi 214
Xalq artisti, aktyor Haqverdiyev Əyyub Məmmədəli oğlunun (15.03.1911-12.06.1996) anadan olmasının 115 illiyi 215
Xalq artisti, teatr aktyoru Seyfi Ələkbər Seyfulla oğlunun (Ələkbər Seyfi) (19.03.1901-08.12.1977) anadan olmasının 125 illiyi 216
Əməkdar artist, kinorejissor, pedaqoq Dadaşov Ağəli Abbasəli oğlunun (20.03.1906-07.12.1973) anadan olmasının 120 illiyi 217
Xalq artisti, aktyor, pedaqoq, tərcüməçi Kazımzadə Kazım Cəfər oğlunun (Kazım Ziya) (21.03.1896-20.11.1956) anadan olmasının 130 illiyi 218

Azərbaycanın müasir illüziya sənətinin banisi İsgəndərli Tofiq Şamxəlil oğlunun (23.03.1961) anadan olmasının 65 illiyi
Azərbaycanın və SSRİ-nin Xalq artisti, teatr rejissoru Axundov Ruhulla Fətulla oğlunun (Sidqi Ruhulla) (28.03.(09.04)1886-05.05.1959) anadan olmasının 140 illiyi 219
Xalq artisti, rejissor Tuqanov Aleksandr Alensandroviçin (31.03.1871-06.03.1960) anadan olmasının 155 illiyi



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Nəzərli Hikmət Baba oğlunun (07.03.1966-26.02.1992) anadan olmasının 60 illiyi 220
Azərbaycanın Milli Qəhrəmanı İbrahimov Nurəddin İslam oğlunun (16.03.1951-10.02.1995) anadan olmasının 75 illiyi 221
Azərbaycanın Milli Qəhrəmanı Nəsrəddinov Rafiq Hüseyn oğlunun (18.03.1961-06.09.1992) anadan olmasının 65 illiyi 222
Azərbaycanın Milli Qəhrəmanı Əsədov Əsəd Soltan oğlunun (22.03.1956-29.10.1991) anadan olmasının 70 illiyi 223
Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı, Xüsusi Təyinatlı Qüvvələrin zabiti Mirzəyev Murad Telman oğlunun (31.03.1976-02.04.2016) anadan olmasının 50 illiyi 224



İkinci Qarabağ Müharibəsi Şəhidləri

MAHHXHQ kiçik çavuş Əkbərov Rahil Canəhməd oğlunun (01.03.1991-26.11.2020) anadan olmasının 35 illiyi 225
Gizir Aslanov Ağasadıq Xəlil oğlunun (01.03.1991-08.11.2020) anadan olmasının 35 illiyi 225
Əsgər Həmizəyev Şəhriyar Elman oğlunun (01.03.2001-29.10.2020) anadan olmasının 25 illiyi 226
Əsgər Qocayev Asif Yolçu oğlunun (01.03.1991-08.11.2020) anadan olmasının 35 illiyi 226
MAHHXHQ əsgər Salahov Sərxan Həsənqulu oğlunun (01.03.1991-02.11.2020) anadan olmasının 35 illiyi 227
Əsgər Quliyev Asim Bəkir oğlunun (02.03.1996-11.10.2020) anadan olmasının 30 illiyi 227
Əsgər Mirzəyev Şamil Afiq oğlunun (02.03.1996-10.11.2020) anadan olmasının 30 illiyi 228
Əsgər Təhməzov Şəmsəddin Sərvər oğlunun (03.03.2001-07.10.2020) anadan olmasının 25 illiyi 228
Əsgər Sadıqov Rəsul Həşim oğlunun (03.03.2001-10.10.2020) anadan olmasının 25 illiyi 229
Əsgər Pənahov Ülvi Nizami oğlunun (04.03.2001-02.10.2020) anadan olmasının 25 illiyi 229

Əsgər Teymurov Vüsal Zakir oğlunun (04.03.1991-08.10.2020) anadan olmasının 35 illiyi 230
MAHHXHQ baş çavuş Hüseyinov Elbrus Nadir oğlunun (04.03.1991-19.10.2020) anadan olmasının 35 illiyi 230
Əsgər Atakişiyev Ramiz Rafiq oğlunun (04.03.1996-08.11.2020) anadan olmasının 30 illiyi 231
Əsgər Bağırov Elnur Zeynal oğlunun (06.03.1996-02.10.2020) anadan olmasının 30 illiyi 231
MAHHXHQ əsgər Bəyişli Elgün Teyuf oğlunun (06.03.1996-10.11.2020) anadan olmasının 30 illiyi 232
Əsgər Qurbanov İsmayıl Yaşar oğlunun (06.03.2001-27.09.2020) anadan olmasının 25 illiyi 232
MAHHXHQ əsgər Məlikov Rəvan Əliabbas oğlunun (06.03.1996-01.10.2020) anadan olmasının 30 illiyi 233
Əsgər Nəcəfov Bəhruz Əli oğlunun (09.03.1996-07.10.2020) anadan olmasının 30 illiyi 233
Əsgər Şahbazov Aqif Hasif oğlunun (10.03.1991-18.10.2020) anadan olmasının 35 illiyi 234
MAHHXHQ əsgər Talıbov Məhəmməd Aydın oğlunun (10.03.1996-03.11.2020) anadan olmasının 30 illiyi 234
Əsgər Məmmədov Bayram Elnur oğlunun (11.03.2001-20.10.2020) anadan olmasının 25 illiyi 235
Əsgər Burcəliyev İlqar Vüqar oğlunun (11.03.2001-28.09.2020) anadan olmasının 25 illiyi 235
Əsgər Mustafayev Rüfət Zöhrab oğlunun (12.03.1996-10.10.2020) anadan olmasının 30 illiyi 236
Əsgər Əhmədli Qardaşxan Elxan oğlunun (12.03.1996-07.11.2020) anadan olmasının 30 illiyi 236
Mayor Budaqov Rəşad Ramiz oğlunun (13.03.1986-28.09.2020) anadan olmasının 40 illiyi 237
Çavuş Orucov Afər Yafət oğlunun (13.03.1996-07.11.2020) anadan olmasının 30 illiyi 237
Əsgər Əliyev Murad Hüseyn oğlunun (13.03.2001-07.11.2020) anadan olmasının 25 illiyi 238
Əsgər Əsgərov Firavan Xanbala oğlunun (14.03.2001-21.10.2020) anadan olmasının 25 illiyi 238
MAHHXHQ əsgər İmanquliyev Ruslan Natiq oğlunun (14.03.1996-02.10.2020) anadan olmasının 30 illiyi 239
Əsgər Hacıyev Sayad Azad oğlunun (14.03.2001-17.10.2020) anadan olmasının 25 illiyi 239
MAHHXHQ çavuş Həsənov Nahid Hökmüran oğlunun (15.03.1996-29.09.2020) anadan olmasının 30 illiyi 240

MART 2026

Əsgər Abdullayev Vüsal Şakir oğlunun (15.03.1986-22.10.2020) anadan olmasının 40 illiyi 240
Baş leytenant Hüseynov Əfşan Əbülfəz oğlunun (16.03.1996-25.10.2020) anadan olmasının 30 illiyi 241
MAHHXHQ əsgər Gözəlov Rüfət Əzim oğlunun (17.03.1996-27.10.2020) anadan olmasının 30 illiyi 242
Əsgər Həsənov Vüsal Bayram oğlunun (17.03.1986-08.11.2020) anadan olmasının 40 illiyi 242
Mayor Qasımov Abbas Rza oğlunun (17.03.1986-27.09.2020) anadan olmasının 40 illiyi 243
Əsgər Rəhimli Bəxtiyar Nəsimi oğlunun (18.03.2001-05.10.2020) anadan olmasının 25 illiyi 244
Əsgər Abbasov Möhlət Eldəniz oğlunun (19.03.2001-07.11.2020) anadan olmasının 25 illiyi 244
Əsgər Abışov Zəka Zakir oğlunun (19.03.2001-21.10.2020) anadan olmasının 25 illiyi 245
Leytenant Əliyev Fərmin Fərman oğlunun (20.03.1996-29.09.2020) anadan olmasının 30 illiyi 246
Əsgər Məlikov Elvin İlham oğlunun (20.03.2001-03.10.2020) anadan olmasının 25 illiyi 247
MAHHXHQ əsgər Məmmədov Novruz İnqilab oğlunun (20.03.1991-24.10.2020) anadan olmasının 35 illiyi 247
Əsgər Musayev Bayram Mehman oğlunun (20.03.2001-07.10.2020) anadan olmasının 25 illiyi 248
MAHHXHQ əsgər Əliyev Şamil Xançoban oğlunun (20.03.1996-16.10.2020) anadan olmasının 30 illiyi 248
MAHHXHQ əsgər Qasımov Bayram Arzu oğlunun (21.03.2001-04.10.2020) anadan olmasının 25 illiyi 249
Əsgər Hüseynov Məhəmməd Qiyas oğlunun (21.03.2001-27.09.2020) anadan olmasının 25 illiyi 249
Əsgər Hüseynov Röyan Sübhan oğlunun (21.03.2001-10.10.2020) anadan olmasının 25 illiyi 250
Əsgər Əliyev Fərid Hamlet oğlunun (22.03.2001-27.09.2020) anadan olmasının 25 illiyi 250
Leytenant Əliyev Ramil Qurban oğlunun (22.03.1996-27.09.2020) anadan olmasının 30 illiyi 251
Əsgər Ağazadə Emin Valik oğlunun (22.03.1991-25.10.2020) anadan olmasının 35 illiyi 252
Əsgər Nəbiyev Elmar Elman oğlunun (22.03.2001-05.10.2020) anadan olmasının 25 illiyi 252
Əsgər Omarov Elmar Elvar oğlunun (23.03.2001-09.11.2020) 0anadan olmasının 25 illiyi 253

Əsgər Qurbanov Murad Asif oğlunun (23.03.1996-12.10.2020) anadan olmasının 30 illiyi 253
MAHHXHQ baş çavuş Cəfərov Vüqar İnşallah oğlunun (23.03.1991-05.10.2020) anadan olmasının 35 illiyi 254
Əsgər Mustafayev Musa Əlövsət oğlunun (23.03.2001-06.10.2020) anadan olmasının 25 illiyi 255
MAHHXHQ Əsgər Məmmədzadə Kamran Füzuli oğlunun (24.03.1996-28.09.2020) anadan olmasının 30 illiyi 255
Baş leytenant Vəliyev İsmayıl Mehman oğlunun (24.03.1996-05.11.2020) anadan olmasının 30 illiyi 256
Əsgər Məmmədov Pərviz Şakir oğlunun (25.03.2001-29.09.2020) anadan olmasının 25 illiyi 257
Əsgər Umudlu Elmir Pərviz oğlunun (25.03.2001-28.10.2020) anadan olmasının 25 illiyi 257
Gizir Əzizov Elvin Əfrail oğlunun (25.03.1986-15.10.2020) anadan olmasının 40 illiyi 258
Əsgər Əhmədov Ehtiram Teyyub oğlunun (26.03.2001-09.11.2020) anadan olmasının 25 illiyi 258
Əsgər Əliyev Teymur İman oğlunun (26.03.1991-07.10.2020) anadan olmasının 35 illiyi 259
MAHHXHQ əsgər Hüseyinov Elbrus Laçın oğlunun (26.03.1996-01.10.2020) anadan olmasının 30 illiyi 259
Əsgər Səmədov Məhərrəm Elxan oğlunun (27.03.2001-15.10.2020) anadan olmasının 25 illiyi 260
Əsgər Xəlilov Gülşad Elşad oğlunun (27.03.2001-15.10.2020) anadan olmasının 25 illiyi 260
Əsgər Məmmədov Vüqar Elxan oğlunun (28.03.1991-04.10.2020) anadan olmasının 35 illiyi 261
Əsgər Qəhrəmanov Orxan Səlvər oğlunun (28.03.1991-21.10.2020) anadan olmasının 35 illiyi 261
Baş leytenant Kərimov Sənan Rəhman oğlunun (29.03.1991-07.10.2020) anadan olmasının 35 illiyi 262
Əsgər Nəsirov Əfqan Ramil oğlunun (29.03.2001-14.10.2020) anadan olmasının 25 illiyi 263
Kiçik gizir Məmmədli Pərviz Həsən oğlunun (30.03.1996-24.10.2020) anadan olmasının 30 illiyi 263
Leytenant Ələkbərov Telman İqdam oğlunun (30.03.1991-07.10.2020) anadan olmasının 35 illiyi 264

Siyasət. Hərbi iş

Dövlət xadimi, texnika elmləri doktoru, SSRİ-nin fəxri neftçisi Baybakov Nikolay Kostantinoviçin (07.03.1911-31.03.2008) anadan

olmasının 115 illiyi
General-mayor Haşımbəyov Əliyar bəy Mehdi oğlunun (08.03.1856-29.05.1920) anadan olmasının 170 illiyi 265
General-polkovnik Eyyubov Bəylər Həsən oğlunun (10.03.1951) anadan olmasının 75 illiyi
Türkçülüyün əsas ideoloqlarından biri, sosioloq, şair və publisist Mehmet Ziya Göyalpın (23.03.1876-25.10.1924) anadan olmasının 150 illiyi 266
Əməkdar hüquqşünas, 3-cü dərəcəli Dövlət ədliyyə müşaviri Rəfiyev Akif Bəşir oğlunun (23.03.1936) anadan olmasının 90 illiyi 267
Dövlət xadimi Heydərov Nəzər Heydər oğlunun (29.03.1896-30.12.1968) anadan olmasının 130 illiyi 268



Tarix

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Əfəndiyev Oqtay Əbdülkərim oğlunun (26.03.1926-26.02.2013) anadan olmasının 100 illiyi 269



Fəlsəfə. İqtisadiyyat. Hüquq

AMEA-nın müxbir üzvü, aqrar elmləri doktoru, professor İsmayılov Amin İsmayıl oğlunun (14.03.1951) anadan olmasının 75 illiyi 270
Beynəlxalq Ekologiya və Təbiətdən İstifadə Akademiyasının həqiqi üzvü, fəlsəfə elmləri doktoru, professor Şükürov Ağayar Məhəmməd oğlunun (25.03.1946-07.11.2008) anadan olmasının 80 illiyi 271



Mədəniyyət. Maarif. Təhsil

AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, tənqidçi, ədəbiyyatşünas Qarayev Yaşar Vahid oğlunun (05.03.1936-25.08.2002) anadan olmasının 90 illiyi 272
AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Hüseynov Böyükağa Murtuza oğlunun (07.03.1926-31.05.1983) anadan olmasının 100 illiyi 273
Yazıçı-publisist, filologiya elmləri doktoru, professor Vəliyev İsmayıl Ömər oğlunun (İsmayıl Vəlibəyli) (18.03.1951-09.12.2017) anadan olmasının 75 illiyi 274
Əməkdar incəsənət xadimi, yazıçı, ssenarist, rejissor, jurnalist Sadıqov Orxan Fikrət oğlunun (Orxan Fikrətoğlu) (21.03.1966) anadan olmasının 60 illiyi 275
Krım-tatar publisisti, pedaqoq, ictimai xadim Qaspralı (Qasprinski) İsmayıl bəy Mustafa ağa oğlunun (21.03.1851-11.09.1914) anadan olmasının 175 illiyi 276

Ədəbiyyatşünas, tənqidçi, filologiya elmləri doktoru, professor
Bəktaşi İnayət Heydər oğlunun (25.03.1931-09.09.1989) anadan olmasının 95 illiyi.
AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor
Araslı Nüşabə Həmid qızının (25.03.1941) anadan olmasının 85 illiyi 277



Coğrafiya. Geologiya

Coğrafiya elmləri doktoru, professor Kərəmov Nurəddin Kərəm oğlunun (20.03.1911-13.08.1981) anadan olmasının 115 illiyi
Akademik, əməkdar elm xadimi, geologiya elmləri doktoru Bağırzadə Faiq Məmməd oğlunun (20.03.1926-30.03.1988) anadan olmasının 100 illiyi 278
Türk səyyahı, coğrafiyaşünası, tarixçisi, etnoqrafı, şair Çələbi Evliyanın (Çələbi ibn Dərviş Muhəmməd Zilli) (25.03.1611-1679/82) anadan olmasının 415 illiyi 279



Kimya. Biologiya. Tibb

Tibb elmləri doktoru, professor Allahverdiyev Adil Məhəmmədəli oğlunun (01.03.1951) anadan olmasının 75 illiyi
AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru Əliyev Tofiq Abbasəli oğlunun (02.03.1951) anadan olmasının 75 illiyi
AMEA-nın müxbir üzvü, tibb elmləri doktoru, professor Məmmədov Yaqub Cavad oğlunun (03.03.1941) anadan olmasının 85 illiyi
Akademik, kimya elmləri doktoru Nağıyev Tofiq Murtuza oğlunun (04.03.1941) anadan olmasının 85 illiyi 280
AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru Qəmbərov Yunis Heydər oğlunun (05.03.1926-07.09.1991) anadan olmasının 100 illiyi 281
AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor, siyasi xadim Əliyev Bəxtiyar Həmzə oğlunun (20.03.1961) anadan olmasının 65 illiyi 282
AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor Litvişkov Yuriy Nikolayeviçin (27.03.1946) anadan olmasının 80 illiyi 283
Əməkdar elm xadimi, akademik, tibb elmləri doktoru, professor Əliyev Cəmil Əziz oğlunun (30.03.1946) anadan olmasının 80 illiyi 284



Texnika. Mühəndis işi

Dövlət xadimi, energetik, texnika elmləri namizədi, professor Bayramzadə Əlirza Baxşəli oğlunun (18.03.1911-01.08.1963) anadan olmasının 115 illiyi
AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Alıquliyev Ramiz Məhəmməd oğlunun (20.03.1961) anadan olmasının 65 illiyi 286

İsveçli ixtiraçı və sənaye sahibkarı Nobel Emmanuelin (24.03.1801-03.09.1872) anadan olmasının 225 illiyi



Kitabxanaşünaslıq. Biblioqrafiya

Əməkdar mədəniyyət işçisi, biblioqraf Qafarova Leyla Yusif qızının (21.03.1936) anadan olmasının 90 illiyi 286



Digər tarixi hadisələr

Ümumdünya Mülki Müdafiə Günü (01.03.1972)
Suraxanı gəmi-muzeyinin yaradılması (01.03.2021)
Azərbaycanın BMT-yə qəbul olunması günü (02.03.1992)
Ümumdünya Yazıçılar Günü (03.03.1986)
Bədən Tərbiyəsi və İdman Günü (05.03.2005)
Beynəlxalq Qadınlar Günü (08.03.1910) 287
"Nicat" maarif cəmiyyətinin yaradılmasının (09.03.1906) 120 illiyi 288
Milli Teatr Günü (10.03.2013) 289
Azərbaycanda Qızıl Aypara Günü (10.03.2008)
Daxili Qoşunlar Günü (12.03.1995)
Ümumdünya İstehlakçılar Günü (15.03.1983)
Miqrasiya Orqanları İşçilərinin Peşə Bayramı Günü (19.03.2010)
Novruz bayramı (20-22.03) 290
İrqi ayrı-seçkiliyin (diskriminasiyanın) ləğv edilməsi uğrunda Beynəlxalq Mübarizə Günü (21.03.1966)
Beynəlxalq Poeziya Günü (21.03.1999) 291
Beynəlxalq Novruz Günü (21.03.2010)
Ümumdünya Meşələr Günü (21.03.2012)
Ümumdünya Su Günü (22.03.1992)
Ümumdünya Meteorologiya Günü (23.03.1961)
Beynəlxalq Teatr Günü (27.03.1961) 292
Olimpiya muzeyinin yaradılmasının (27.03.2001) 25 illiyi
Azərbaycanda "Elm günü" (27.03.2018) 293
Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü (28.03.1997)
Azərbaycanlıların soyqırımı günü (31.03.1918) 294

Hökumə Billuri – 100

(1926-2000)

Şair



Ədəbiyyat:

Cənubi Azərbaycan ədəbiyyatı: araşdırmalar: [toplu] / AMEA, Nizami Gəncəvi ad. Ədəbiyyat İn-tu, Cənubi Azərb. Ədəbiyyatı şöbəsi; tərt. ed. F. Süleymanoğlu; elmi red. R. Əliyev. - [C.] 6. - Bakı: [ULU], 2021.- 161, [1] s.

Fərəcov, S. "Məni Vətənə göndərin...": Hökumə Billurinin yaradıcılığında "Təbriz" və "Araz" ən çox təkrarlanan sözlərdəndir / Savalan Fərəcov // Mədəniyyət. -2024.-1 mart(№17).- S.7.

Aydınoğlu, T. Hökumə Billuri poeziyası "Xalq əmanəti"ndə / Tahir Aydınoğlu // Xalq qəzeti.-2023.- 28 may.- S.15; Mədəniyyət.-2023.- 2 iyun.- S.6.

Hökümə Billuri: (1926-2000): Xalq şairi, Əməkdar incəsənət xadimi: [fotoportret] /Azərb. Resp. Mədəniyyət Nazirliyi.– [Bakı]: [n. y.], [2022].– 1 v.

İnternetdə:

https://az.baku-art.com/az/veten-h-sr-ti-il-q-lbi-doyun-n-shair-h-kum-billuri

chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://anl.az/el/b/bhq_se.pdf

Hökümə İbrahim qızı Billuri 1926-cı il mart ayının 3-də Cənubi Azərbaycanın Zəncan şəhərində anadan olmuşdur.

O, 1933-1943-cü illərdə "Azəri" qız məktəbində təhsil almış və sonra həmin məktəbdə müəllim kimi çalışmağa başlamışdır. 1947-1952-ci illərdə Bakı Dövlət Universitetinin Filologiya fakültəsində ali təhsil almışıdır. Daha sonra Bakı Ali Partiya Məktəbində, 1963-cü ildə isə Moskva İctimai Elmlər Akademiyasında ali təhsilini davam etdirmişdir. "İran Azərbaycanının realist-demokratik ədəbiyyatı" mövzusunda dissertasiya müdafiə edərək, 1963-cü ildə filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

1952-1954-cü illərdə "Azərnəşr"də ədəbi-bədii şöbədə redaktor, 1956-1960-cı illərdə Azərbaycan Demokrat Firqəsi MK orqanı "Azərbaycan" qəzetinin baş redaktoru, 1964-cü ildən Azərbaycan EA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunda baş elmi işçi kimi çalışmışdır.

Hökumə Billuri ictimai-siyasi fəaliyyətə II Dünya müharibəsi dönəmində, Cənubi Azərbaycanda başlayıb, Sovet ordusu burada olanda Zəncan vilayəti üzrə Azərbaycan Demokrat Partiyası Mərkəzi Komitəsinin təbliğat şöbəsi müdirinin müavini və mədəniyyət evi kitabxanasının rəisi vəzifələrində çalışmışdır. Cənubi Azərbaycanda inqilabi hadisələrin fəal iştirakçısı olduğuna görə "21 Azər" medalı ilə təltif edilmişdir. 1946-cı ilin dekabr ayından etibarən Şimali Azərbaycanda mühacirətdə yaşamağa məcbur olmuşdur. Həmin vaxtdan fəal elmi və bədii yaradıcılıqla məşğul olmuş, dövri mətbuatda müntəzəm çıxış etmişdir.

O, ilk şeirlərini orta məktəbdə ikən fars, sonra Azərbaycan dilində yazmışdır. Azərbaycan dilində yazdığı "Fəhlə", "Gözlərim", "Sübh açıldı" və s. şeirləri və məqalələri 1945-ci ildə "Azər", "Vətən yolunda" qəzetlərində, "Azərbaycan" jurnalında dərc edilmişdir.

Hökümə Billuri 20-dən çox şeir kitabının və iki monoqrafiyanın müəllifi olmuşdur. Kitabları həm Azərbaycanda, həm də Rusiyada nəşr edilmişdir. Əsərləri: "Mənim arzum" (1949), "Mübarizə illərində" (1951), "Şairin yadigarı" (1957), "Səndən uzaqlarda" (1961), "Səhər günəşi" (1964), "İstərəm" (1969), "Çinar gözləyir məni" (1975), "Şerlər" (1980), "Bir də bahar gəlsə" (1984) və s. kitabları, "Səriyyə" ("Ölməz qəhrəman"), "Sənin həyatın", "Məhin", "O göylərin altında" poemaları. Məhəmmədhüseyn Şəhriyarın farsca şerlərini Azərbaycan dilinə, Səməd Vurğunun "Zəncinin arzuları" poemasını, Cəfər Cabbarlı, Mirvarid Dilbazi, Nəbi Xəzri və b.-nın şeirlərini isə fars dilinə tərcümə etmişdir. Müasir Cənubi Azərbaycan ədəbiyyatına, o cümlədən M. Şəhriyarın həyat və yaradıcılığına dair tədqiqatların müəllifi olmuşdur.1958-ci ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdir.

Hökumə Billuri 1984-cü ildə "Əməkdar incəsənət xadimi", 1998-ci ildə isə "Azərbaycan Respublikasının Xalq şairi" fəxri adları ilə təltif edilmişdir.


Hökümə İbrahim qızı Billuri 2000-ci il noyabr ayının 22-də Bakıda vəfat etmişdir

2023-cü ildə onun Seçilmiş əsərləri "Xalq Əmanəti" layihəsinin 23-cü nəşrində xüsusi nəşr kimi təqdim olunmuşdur.

Hökumə Billuri təkcə görkəmli şair və ədəbiyyatşünas deyil, həm də Güney və Şimal Azərbaycanın ruh əkssəsi, vətən həsrətinin poetik səsləndiricisidir. Onun çoxşaxəli yaradıcılığı elmi tədqiqatdan tutmuş publisist və tərcümə işlərinə qədər uzanır. Hökumə Billurinin əsərləri həm mənəvi dəyəri, həm də milli-mədəni önəmi ilə bugünkü Azərbaycan ədəbi irsinə dəyərli töhfədir.

Süleyman Rüstəm – 120

(1906-1989) *Şair, dramaturq*



Süleyman Əliabbas oğlu Rüstəmzadə (Süleyman Rüstəm) 1906-cı il mart ayının 12-də Bakının Novxanı kəndində anadan olmuşdur.

O, Rus-tatar məktəbini bitirmiş, N.Nərimanov adına Bakı Sənaye Texnikumunun elektrik mexanikası şöbəsində təhsil almışdır. 1925-ci ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olmuş, 1929-cu ildə oradan Moskva Dövlət Universitetinin ədəbiyyat və incəsənət fakültəsinə köçürülmüşdür.

Süleyman Rüstəm 1926-1934-cü illərdə "Maarif və mədəniyyət" jurnalında məsul katib vəzifəsində çalışmışdır. 1935-ci ildə Zaqafqaziya Mərkəzi İcraiyyə komitəsinə üzv, 1938-ci ildən Azərbaycan SSRİ birinci çağırış Ali Sovetinə deputat seçilmişdir, bundan sonra ömrünün sonuna qədər bütün çağırışlarda deputat olmuşdur.

1937-1938-ci illərdə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının direktoru, "Ədəbiyyat qəzeti"nin baş redaktoru olmuşdur. Azərbaycan Yazıçılar İttifaqının İdarə Heyətinə, "Azərbaycan", "Kirpi" jurnallarının və "Советский писатель" (sovetskiy pisatel)" redaksiya heyətlərinə üzv seçilmişdir.

Yaradıcılığında siyasi lirika və sevgi şeirləri mühüm yer tutmuş, heca və əruz vəznlərində yazmışdır. Ən sevilən əsərlərindən biri Təbrizim əsəridir.

Ədəbi fəaliyyətə 20-ci illərin əvvəllərində başlamış, 1922-ci ildə "Çimnaz xanım yuxudadır" birpərdəli komediyasını yazmışdır. "Unudulmuş gənc" adlı ilk mətbu şeiri 1923 ildə "Maarif və mədəniyyət" (indiki "Azərbaycan") jurnalında dərc olunmuşdur. "Öləmdən nəşəyə" adlı ilk şeir kitabı 1927-ci ildə nəşr edilmişdir. Dövri mətbuatda şeir, hekayə və felyetonlarını "S.R.", "Dəmirçi", "D.oğlu" və başqa imzalarla çap etdirmişdir.

İkinci Dünya müharibəsi illərində o, xalqın qəhrəmanlıq mübarizəsini tərənnüm edən əsərlər yazmışdır. "İldırım" (1942), "Qafurun qəlbi" (1959), "Əzizlərdən əzizlərə" (1965) və s. Müharibə dövrü yaradıcılığında Cənubi Azərbaycan mövzusu xüsusi yer tutmuş: "Təbriz şeirləri silsiləsi", "İki sahil" kitabı (1949). 1960-1980-ci illər yaradıcılığında ictimai-siyasi və məhəbbət lirikası əsas xətti təşkil etmişdir: "Günəşli sahillərdə" (1963), "Keçilməmiş yollarda" (1970), "Ürəyimin gözüylə" (1977), "Mənim günəşim" (1981) və s. kitabların, "Yanğın" (H. Nəzərli ilə birgə, 1930) pyesinin, "Qaçaq Nəbi" (1940) mənzum pyesinin, "Durna" (1948) komediyasının müəllifidir.

1945-ci ilin sentyabrında Səməd Vurğunla birgə Azərbaycan SSR Dövlət himninin sözlərini yazmışdır.

Xidmətlərinə görə 1943-cü ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi", 1960-cı ildə "Xalq şairi" fəxri adlarına layiq görülmüş, 1950-ci ildə SSRİ Dövlət Mükafatı laureatı, 1970-ci ildə Azərbaycan Dövlət Mükafatı laureatı, 1976-cı ildə "Sosialist Əməyi Qəhrəmanı", üç dəfə "Lenin" ordeni, iki dəfə "Qırmızı Əmək Bayrağı"ordeni və bir sıra medallarla təltif olunmuşdur.

Bolqarıstan Xalq Məclisinin rəyasət heyəti tərəfindən "Xalq hakimiyyətinin 25 illiyi", "Georgi Dmitrovun anadan olmasının 90 illiyi" medallarına layiq görülmüşdür.

Süleyman Əliabbas oğlu Rüstəmzadə (Rüstəm) 1989-cu il iyun ayının 10-da Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir. Bakıdakı küçələrindən biri şairin adını daşıyır.

Xalq şairi Süleyman Rüstəmin 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi" haqqında 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən "Seçilmiş əsərləri" kitabı çap olunmuşdur.

Ədəbiyyat:

Şəymən. "Süleyman Rüstəmi unutmaq bizə şərəf gətirməz...": Hər şairin yaradıcılığını öz dövrünün şərtlərinə görə təhlil etmək lazımdır / Şəymən // Şərq.– 2020.– 14 mart.– S.10.

Əsgərzadə, Q. Süleyman Rüstəm misralarında Qarabağ sevgisi / Q.Əsgərzadə // 525-ci qəzet.– 2021.– 12 avqust.– S.10;11.

Əsgərzadə, A. Süleyman Rüstəmin satira-yumor güzgüsü / A.Əsgərzadə // 525-ci qəzet.– 2022.– 31 mart.– S.11.

Təbrizli "inqilabçı" jurnalist / S.Rüstəm // Xalq qəzeti.– 2023.– 28 may.– S.15.

Qurbanqızı, Z. "Oxuyun, bir qızıl kitabam mən..."/ Z.Qurbanqızı // Respublika.– 2024.– 12 mart, № 55.– S.14.

Süleymanova, N. Xalqın səsi, Vətən nəğməsi / N.Süleymanova // Respublika.– 2025.– 12 mart (№ 54).– S.14.


İnternetdə:

https://portal.azertag.az/az/node/16491

Əmir Mustafayev – 90

(1936-2007)

Nasir



Əmir Gülbala oğlu Mustafayev 1936-cı il mart ayının 12-də Qusar rayonunda anadan olmuşdur.

O, Qusarda Maksim Qorki adına 4 saylı beynəlmiləl orta məktəbi bitirib. 1953-1958-ci illərdə Bakı Dövlət Universitetinin (ADU) Filologiya fakültəsində oxuyub. 1958-ci ildən Moskva Mərkəzi Komsomol Məktəbində, sonra Bakı Ali Partiya Məktəbində təhsilini davam etdirib.

Yazıçı-jurnalist Əmir Mustafayev 1957-1969-cu illərdə "Azərbaycan pioneri" qəzetində ədəbi işçi və şöbə müdiri, 1971-1976-cı illərdə "Ədəbiyyat və incəsənət" qəzetində məsul katib, 1976-1979-cu illərdə isə Azərbaycan Yazıçıları İttifaqının orqanı olan "Azərbaycan" jurnalında məsul katib vəzifəsində çalışmışdır. Eyni zamanda bir il Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ssenarist kimi çalışmış, lakin daha sonra yenidən "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasına qayıtmışdır. Əmir Mustafayev 1985-1989-cu illərdə "Azərnəşr"də bədii ədəbiyyat şöbəsində müdir, 1989-1990-cı illərdə "Karvan" kitablar seriyası redaksiyasında məsul katib, 1990-1991-ci illərdə "Respublika" qəzetində baş redaktorun müavini, 1991-1993-cü illərdə "Həyat" qəzetində mədəniyyət şöbəsinin müdiri, 1993-2002-ci illərdə "Azərbaycan" qəzetinin baş redaktoru vəzifələrində çalışmışdır.

Əmir Mustafayevin 1954-cü ildə "Azərbaycan gəncləri" qəzetində "O gəldi" adlı ilk hekayəsi çap olunmuşdur. Həmin vaxtdan mətbuatda müntəzəm çıxış edən yazıçının "Xəcalətli baxışlar", "Qonşu", "Sonuncu kürsü" və başqa hekayələri mətbuatda çap olunmuşdur. Əmir Qaraçəmənli təxəllüsü ilə hekayə, oçerk və publisistik yazıları dövri mətbuatda çap etdirmişdir.

1957-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çap olunan "Zolaqlı adam" hekayəsi Əmir Mustafayevi ədəbi aləmdə daha çox tanınmasına səbəb olmuşdur.

Yazıçı "Qurd ürəyi", "Ürəkdən asılan yük", "Qara zolaq" kimi romanların müəllifidir. "Qurd ürəyi" kitabında eyni adlı roman, povest və hekayələr cəmləşib. Bu hekayələrdə 1937-ci ilin repressiya qurbanlarından, onların taleyindən bəhs olunur.

Yazıçı-jurnalist Əmir Mustafayevin yaradıcılığının ana xətti kənd insanının mənəvi dünyası, repressiyalar və sosial ədalətsizlik mövzuları təşkil edib.

Əmir Mustafayev 20 povestin, 200 hekayənin və 500-dən artıq publisistik yazının və müxtəlif səpkili məqalələrin müəllifidir.

Ədibin povest və hekayələri Türkiyədə, İranda, İraqda və Rusiyada çap edilmişdir. Rəsmi nümayəndə heyəti tərkibində Türkiyədə, Kiprdə, Çində səfərlərdə olmuşdur.

Əmir Mustafayev 1996-cı ildə ədəbiyyatda və jurnalistikada göstərdiyi xidmətlərə görə "Tərəqqi" medalı ilə təltif edilmiş, "Araz" ali ədəbi mükafatına, "Ustad" media mükafatına, "Kamil sənətkar" ali jurnalist mükafatına layiq görülmüşdür. Prezident təqaüdçüsü olmuşdur.

Əmir Gülbala oğlu Mustafayev 2007-ci il iyul ayının 27-də Bakıda vəfat etmiş, Qusar rayonunda dəfn edilmişdir.

Ədəbiyyat:

İçindən asılmış adam / Əmir Mustafayev; Red. V.Quliyev. - Bakı: Şuşa, 2004. - 504 s.

Azadlıqdır mənə məlhəm, sənə dərman, Azərbaycan / Əmir Mustafayev; red. V. Quliyev. - Bakı: Şuşa, 2004. - 416 s.

Manaflı, X. 1960-70-ci illər Azərbaycan nəsrində folklorizm: (Anar, Elçin və Əmir Mustafayevin yaradıcılığı əsasında) / Xanımana Manaflı; elmi red. A. Nəbiyev; AMEA, Folklor İn-tu- Bakı: [Nurlan], 2008. - 199, [1] s.

Salmanlı, R. Əqidə adamı / Rəhman Salmanlı // Azərbaycan.-2021.- 12 mart.- S.9.

Salmanlı, R. Tanınmış yazıçı, peşəkar jurnalist: Əmir Mustafayev - 80 / Rəhman Salmanlı // Azərbaycan. - 2016. - 12 mart. - S. 8.

İnternetdə:

https://anl.az/down/meqale/azerbaycan/2021/mart/737964.htm

https://az.baku-art.com/az/yazich-jurnalist-redactor-emir-mustafayevin-85-illiyidir

MART
14

Nahid Hacızadə – 90

(1936-2018)

Nasir, dramaturq



Nahid Rəhim oğlu Hacızadə 1936-cı il mart ayının 14-də Gədəbəy rayonunun Düzrəsullu kəndində anadan olmuşdur.

O, orta məktəbi Tovuzda bitirmiş, Bakıda Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində (indi BDU) təhsil almışdır. Orada Əli Sultanlı, Cəfər Xəndan, Muxtar Hüseynzadə, Mir Cəlal Paşayev və digər görkəmli ziyalıların tələbəsi olmuşdur.

İlk peşə fəaliyyətinə televiziyada başlamış — burada redaktorluqdan başlayaraq yüksək vəzifələrə qədər yüksəlmiş, Azərbaycan Teleradio şirkətində sədr müavini vəzifəsində çalışmışdır. Orada akademik radio, gənclik və ədəbi dram verilişləri, həmçinin televiziya proqramlarına rəhbərlik etmişdir. Sonralar nəşriyyatda çalışıb və ömrünün son illərində Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru olmuşdur.

Nahid Hacızadə 1969-cu ildə "Ulduz" jurnalında çap etdirdiyi "Lirik miniatürlər" adlı yazıları ilə ədəbiyyata gəlmişdir. İlk kitabı "Bir ana tanıyırdım" adı ilə 1972-ci ildə "Gənclik" nəşriyyatında çap edilmişdir.

Dramaturgiya sahəsində "Ömrün sorağında", "Ömür gözləyir bizi", "Məhəbbət yaşadır", "Köçündən ayrılan durna" pyesləri Şəki, İrəvan və Bakı teatrlarında tamaşaya qoyulmuşdur. "Qisas qiyamətə qalmaz" pyesi isə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının hazırladığı ən uğurlu tamaşalardan biri olmuşdur.

Nahid Hacızadənin ssenariləri əsasında həm də 30-a yaxın sənədli və bədii televiziya filmi çəkilmişdir. Müəllifin "Son qəmin olsun, Vətən!", "Qayalarda qalan səs" və "Yaşa, ey haqq" filmləri Azərbaycan Televiziyasının Qızıl Fonda daxil edilmişdir.

Nahid Hacızadə poeziyaya gənclikdən maraq göstərib, şeirlərinə çoxlu sayda mahnılar bəstələnmişdir. Tanınmış bəstəkarlardan Hacı Xanməmmədov, Adil Bəbirov, Cavanşir Quliyev, Tahir Əkbər, Səyavuş Kərimi onun sözlərinə musiqilər bəstələnmişdir. Bəstəkar Eldar Mansurov Nahid Hacızadənin sözlərinə bəstələdiyi "Qalx, qalx, ulu torpaq!" mahnısı xalq artisti Mübariz Tağıyevin ifasında çox sevilib və Qarabağ müharibəsinin simvolik himninə çevrilmişdir.

Yazıçının müxtəlif illərdə yazdığı hekayə və povestləri təkcə Azərbaycanda deyil, o vaxt Sovet İttifaqının mərkəzi mətbuat orqanı sayılan "Moskovskiy komsomolets" qəzetində, "Nedelya" həftəliyində, "Oqonyok" jurnalında dərc olunmuşdur.

Nahid Rəhim oğlu Hacızadə 2018-ci il yanvar ayının 18-də vəfat etmişdir. Binəqədi qəbiristanlığında dəfn edilmişdir.

Ədəbiyyat:

Mirzəbəyli, İ. Sözün ustadı, insanlığın uzmanı / İ.Mirzəbəyli // Xalq qəzeti.– 2023.– 5 mart.– S.11.

Bəşirli, Ə. Nəcib insan-işıqlı söz sahibi: Nahid Hacızadə-85 / Əlövsət Bəşirli // Ədalət.– 2021.– 13 mart.– S.12.

Bəşirli, Ə. Sözün sönməyən işığı: Həyatı xatirələr xəzinəsinə dönmüş unudulmaz ədibimiz Nahid Hacızadəni ehtiramla anarkən... / Əlövsət Bəşirli // 525-ci qəzet.-2019.- 12 yanvar.- S.16.

Nahid Hacızadənin xatirə günündə // Ədəbiyyat qəzeti.-2018.- 9 iyun.- S.28.

İnternetdə

https://az.wikipedia.org/wiki/Nahid_Hac%C4%B1zad%C9%99

Ələkbər Salahzadə – 85

(1941-2013)

Şair



Ələkbər Baba oğlu Məmmədsalahlı (Salahzadə) 1941-ci il mart ayının 15-də Quba rayonunun Cimi kəndində anadan olmuşdur.

Orta məktəbi Quba rayonunda, 1958-1963-cü illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində (indi BDU) təhsil almışdır.

İlk peşə fəaliyyətinə "Azərbaycan" jurnalında ədəbi işçi kimi başlamış, daha sonralar Ələkbər Salahzadə 1965-1967-illərdə "Tərcürmə saatı" radio jurnalında ştatdankənar redaktor, 1966-1968-ci illərdə Azərbaycan Sovet Ensiklopediyasında elmi redaktor, 1968-1976-cı illərdə "Gənclik" nəşriyyatda tərcüməçi, sonra isə poeziya üzrə redaktor, 1976-1989-cu illərdə Yazıçılar İttifaqında Bədii Ədəbiyyatın Təbliği Bürosunda direktor müavini, 1989-1992-ci illərdə "Ulduz" jurnalında poeziya şöbə müdiri, 1992-2004-cü ilərdə baş redaktor, 2004-2013-cü illərdə "Qobustan" jurnalında baş redaktor vəzifələrində çalışmışdır.

Ədəbi fəaliyyətə 60-cı illərdən başlamışdır. Yaradıcılığı zəngin və müxtəlifdir. 100-dən çox essesi, məqaləsi çap olunmuşdur. Radio-pyesləri, 20-dən artıq uşaq nağılı vardır. "Kölgədən qorxan" (1983) Şəki, "Yayın qış gecələri" (1985) Sumqayıt, "Nağaraçı naxırçı" (1987) pyesləri Ağdam Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur.

"Beş yarpaq" (şeirlər və poema, Bakı: Gənclik, 1968), "Od hevkəli" (şeirlər və poema, Bakı: Gənclik, 1970), "Gözlər baxır dünyaya" (Bakı: Yazıçı, 1979), "Xatirə çiçəyi" (Bakı: Yazıçı, 1982), "Yerimiz bir, göyümüz bir" (Bakı: Yazıçı, 1986), "Od odası" (1989), "Yanıltmaclı əlifba" (Bakı: Gənclik, 1995), "Xocalı xəcilləri" (Şirvannəşr, 2006), "Vaxt vadisi" (Nərgiz, 2007), "Mikayıl Müşfiqin monoloqu" (Nərgiz, 2008) adlı kitabları nəşr olunmuşdur.

"İtən karandaşların nağılı", "Alma gəmirən qurdun nağılı", "Oxatan kirpinin nağılı", "Pələng olmaq istəyən pişik", "Kim nəyə bənzəyir", "Meşədən küsən ayı", "Taladakı tənha ağacın nağılı", "Dost axtaran çəpişin nağılı", "Dağa çıxan buğanın nağılı", "Lovğa xoruz", "Ayının sualı" və s uşaq nağıllarının müəllifi olmuşdur.

Bədii tərcümə ilə də ardıcıl məşğul olmuş, bir çox xarici ölkə xalqlarının əsərlərini dillimizə çevrilmişdir. Pyatras Svirkanın "Tülkünün kələyi"nin, A.Platonovun "Dörd hekayə"sinin, Lorens Sternin "Fransaya və İtaliyaya sentimental səyahət"inin, A.V.Safronovun "Vida poeması"nın və digər əsərlərin Azərbaycan oxucusuna ana dilimizdə çatdırılmasını böyük müvəffəqiyyətlə həyata keçirmişdir.

1968-ci ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdir.

Ələkbər Salahzadə 2002-ci ildə Rəsul Rza adına mükafata və 2005-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Ələkbər Baba oğlu Məmmədsalahlı (Salahzadə) 2013-cü il sentyabrın 1-də vəfat etmişdir.

Ələkbər Salahzadə Azərbaycan ədəbiyyatının formalaşmasında böyük rolu olmuş yaradıcı şəxsiyyətlərdəndir. Onun zəngin bədii irsi, tərcümələri və redaktorluq fəaliyyəti bu gün də dəyərini qoruyub saxlayır.

Ədəbiyyat:

Mürvətqızı, S. Ədəbiyyatda Ad olan Adam / Sevin Mürvətqızı // 525-ci qəzet.– 2025.– 4 mart(№40).– S.11.

Tağısoy, N. Ələkbər Salahzadə poeziyası: şeirdə vizual struktur / Nizami Tağısoy // 525-ci qəzet. -2025.- 12 iyun(№ 100).- S.13.

Tağısoy, N. Ədəbi-estetik cərəyanlar və Ələkbər Salahzadənin poetik formaları / Nizami Tağısoy //Ədalət.-2025.- 16 may(№18).-S.11; Ədəbiyyat qəzeti.-2025.- 16 may (№17).- S.30.

Tağısoy, N. Ələkbər Salahzadənin poetik paradiqması: Ələkbər Salahzadə - 83 / Nizami Tağısoy // Kredo.– 2024.– 26 iyul, (№ 45-46).– S.1;13.

Mədətoğlu, Ə. Ömür küləyi: Ələkbər Salahzadə ilə məni qarşılaşdıran şeir / Ə. Mədətoğlu // Ədalət.– 2022.– 3 sentyabr.– S.6.

ğabalayeva, S. Ələkbər Salahzadə - içində qərib adam / S. Ağabalayeva // 525-ci qəzet.– 2021.– 18 mart.– S.10.

İnternetdə:

https://www.anl.az/down/meqale/525/2013/sentyabr/323978.htm

MART
18

Barat Vüsal – 75

(1951)

Şair, publisist



Barat Alı oğlu Alıyev (Barat Vüsal) 1951-ci il mart ayının 18-də Qazax rayonunun Kosalar kəndində anadan olmuşdur.

O, orta təhsilini Kosalar kəndində almış, 1973-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix fakültəsini bitirmişdir.

Barat Vüsa 1982-ci ildən Gənc Yazıçıların Respublika Ədəbi Birliyinin üzvü olmuşdur. 1988-ci ildən Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvüdür. 1993-cü ildən AYB-nin Qazax bölməsinin sədri kimi bölgənin ədəbi mühitinin təşkilinə, gənc yazarların üzə çıxmasına töhfə verir.

Ədəbiyyata keçən əsrin 70-ci illərində gəlmişdir. 1968-ci ildə "Sarı sünbül" adlı ilk şeirini yazmışdır. İlk şeirlər kitabı "Göz aydınlığı" adlanır və 1986-cı ildə "Yazıçı" nəşriyyatında çapdan çıxmışdır. Daha sonralar "Ürəyimdən bir çay axır" (1991), "Yolumuz eşqə bağlıdır" (1997), "Ömür bitər, yol bitməz" (2004), "Qazaxda yaşadım mən öz ömrümü" (2007), "Ruh gəmisi" (2013), "Kufə əhli" (2014), "Piyada atlı" , "Ayrılmaz yollar" (2023) və s. şeirlər kitabları çap olunmuşdur. Şairin 2016-cı ildə çap olunmuş "İkicildlik" toplusu illərin poeziya məhsulunun ümumiləşdirildiyi yaradıcılıq hesabatıdır. 2018-ci ildə Tehranda "Söz yaşıllığı" adlı şeir kitabı nəşr edilmişdir. 2025-ci ildə "Qələm böyüdəni kiçiltmək olmur" adlı kitabı "Qanun" nəşriyyatında çap olunmuşdur.

Dövrü mətbuatda 200-ə yaxın ədəbi, elmi, tarixi, fəlsəfi və publisistik yazıları, məqalələri, esseləri, araşdırmaları çap olunmuşdur.

Barat Vüsalın AYB-nin Qazax bölməsinə sədrliyi dövründən Qazaxda martın 21-də "Səməd Vurğun poeziya günləri" və 1982-ci ildən keçirilməyə başlanılmış "Vaqif poeziya günləri" əvvəlki səviyyədə davam etdirilmişdir.

Barat Vüsal 1998-ci ildə Xəlil Rza Ulutürk, 2008-ci ildə Səməd Vurğun ədəbi mükafatlarına, 2000-2001-ci illərdə Dünya Gənc Türk Yazarlar Birliyinin 2 ödülünə layiq görülmüşdür. Ordumuzla, əsgərlərimizlə qurduğu sıx əlaqələrə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Respublika Veteranlar Şurasının "Əliağa Şıxlinski" medalı ilə təltif olunmuşdur.

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə 2021-ci ildə Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adı verilmişdir.

Ədəbi yaradıcılığına dair Salatın Əhmədlinin "Ömrünü Qazaxda yaşayan şair" (2008) və Firuzə Abdullayevanın "Barat Vüsalın poeziyası" adlı monoqrafiyaları çap olunub.

Ədəbiyyat:

Teleqram / B.Vüsal // Ədalət.– 2025.– 28 fevral(№8).– S.13.

İçimdəki "Barat Vüsal havası" / Ə.Mədətoğlu // Ədalət.– 2024.– 27 dekabr(№50).– S.9.

Barat Vüsal: Yenə yazmaq yoxsa, yeni nəsə yazmaq?! / B. Vüsal; müsahibəni apardı: Ə. Mədətoğlu // Ədalət.– 2023.– 18 fevral.– S.6.

Dəmir yumruq / B.Vüsal // Azərbaycan: Ədəbi-bədii jurnal.– 2022.– №1.– S.53-62.

Barat Vüsal-70 // Ədəbiyyat qəzeti.– 2021.– 13 mart.– S.18.

Etiraf / B.Vüsal // Türküstan.– 2020.– 9-22 iyun.– S.19.

Əhmədli, S. Ömrünü Qazaxda yaşayan şair: [məqalələr, müsahibələr, məktublar, şeirlər, məqamlar, xatirələr] / Salatın Əhmədli; red. F. Ləman. - Bakı: Qanun, 2008. - 411, [1] s.

Cəlaloğlu, E. Gəl qayıdaq könlümüzə: Barat Vüsalın poeziyası haqqında düşüncələr / Elbəyi Cəlaloğlu // 525-ci qəzet.-2009.- 4 dekabr . - S.7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Barat_V%C3%BCsal

Böyükağa Qasımzadə – 110

(1916-1957)

Şair



Böyükağa Məmməd oğlu Qasımov (Qasımzadə) 1916-cı il mart ayının 18-də Bakının Maştağa kəndində anadan olmuşdur.

O, Bakı yeddiillik məktəbini bitirdikdən sonra, 1932-ci ildə fəhlə fakültəsində, 1937-ci ildə Sənaye İnstitutunda təhsil almışdı. Ardınca Azərbaycan Pedaqoji İnstitutunun (APİ) Dil və Ədəbiyyat fakültəsində (1937-1941) təhsilini davam etdirmişdir.

İkinci Dünya Müharibəsinin ilk günlərində səfərbər edilib və hərbi məktəbdə kursant kimi təlim keçmiş, 1941-ci ilin dekabrında Cənub cəbhəsində atıcı rotasının komandiri və siyasi şöbənin təlimatçısı olaraq xidmət etmiş, 1942-1945 Zaqafqaziya cəbhəsində "Döyüşçü" qəzetinin redaksiyasında məsul katib kimi çalışmış, 1945-1946-cı illərdə İrana xüsusi təyinatla göndərilmişdir. 1947-1948-ci illərdə təyyarəçilik məktəbində siyasi rəhbər və hərbi klubda rəis vəzifələrində fəaliyyət göstərmişdir.

Ordudan tərxis ediləndən sonra 1948-1950-ci illərdə "Ədəbiyyat qəzeti"ndə incəsənət şöbəsinin müdiri, 1951-1952 -ci illərdə Azərbaycan Dövlət Nəşriyyatında bədii ədəbiyyat şöbəsinin müdiri, 1953-1957-ci illərdə "Azərbaycan" jurnalında poeziya şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

Ədəbi yaradıcılığa 30-cu illərdə başlamış, ilk şerlərini məktəblilərə həsr etmişdir. İlk şeiri "Anam üçün" adlanır. Onun ilk kitabı – "Murad" poeması 1937-ci ildə çapdan çıxmışdır. Şeirlərində vətən, azadlıq, müharibə motivləri, sosialist realizminin ruhu və təbiət təsvirləri görünür.

Böyükağa Qasımzadə həm də bir tərcüməçi kimi Füzulinin "Yeddi cam" əsərini, M.F.Axundovun "Puşkinin ölümünə Şərq poeması"nı farscadan, "Sasunlu David" eposunu ermənicədən tərcümə etmişdir. Bundan başqa, o, A.S. Puşkin, N. Nekrasov, N.V. Qoqol, T. Şevçenko, İ. Franko, M. Bajan, P. Tıçina kimi dünya ədəbiyyatının tanınmış müəlliflərinin əsərlərini də Azərbaycan dilinə çevirmişdir.

1939-cu ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

Böyükağa Məmməd oğlu Qasımov 1957-ci il avqust ayının 29-da vəfat etmişdir.

Böyükağa Qasımzadə XX əsr Azərbaycan ədəbiyyatında həm poetik, həm də tərcüməçi kimi önəmli yer tutmuşdur, həm döyüş meydanında, həm də mətbuatda, ədəbi redaksiyalarda dərin izlər qoymuşdur. Xüsusilə onun "Murad", "Yeddi cam", həmçinin digər tərcümə işləri bu gün də qeyd edilir və ədəbiyyat tariximizdə nüfuzlu yer tutur.

Ədəbiyyat:

Rüstəmli, A. Ədəbiyyata xidmətin ləyaqətli nümunəsi / A.Rüstəmli // Ədəbiyyat qəzeti.– 2025.– 18 aprel (№13).– S.22-23.

Ağabalayeva, S."Mən səni sevirəm azadlıq qədər" / S. Ağabalayeva // Ədəbiyyat qəzeti.– 2022.– 25 iyun.– S.12-14.

Qasımzadə, İ. Varislər: İntiqam Qasımzadə: «Atam bütün varlığı ilə ədəbiyyata bağlı adam idi…» / İntqam Qasımzadə; müsahibəni apardı: Ə.Qiyas // Ədəbiyyat qəzeti.– 2020.– 23 may.– S.16-17.

İnternetdə:


https://az.wikipedia.org/wiki/B%C3%B6y%C3%BCka%C4%9Fa_Qas%C4%B1mzad%C9%99

MART
21

Səməd Vurğun – 120

(1906-1956)

Şair



Ədəbiyyat:

Sadıq, İ. Səməd Vurğunun özü və sözü: [məqalələr] / İslam Sadıq. - Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 2025.- 117, [3] s.

Qaragözova, E. Xalqına Vurğun Səməd... / Elnarə Qaragözova // Olaylar.– 2025.– 7-13 mart (№9).– S.15.

Kafkasyalı, A. Səməd Vurğun. Milli Şairə Dair /A. Kafkasyalı; türkcədən çevirən İ. Umudlu ; [ön söz M. S. Kafkasyalı]; üz qabığındakı rəsm N. İsmayılov. - Bakı: Pergament, 2024.- 479 s.

Səmədoğlu, V. Atam Səməd Vurğun haqqında / Vaqif Səmədoğlu // Ədəbiyyat qəzeti: xüsusi buraxılış.– 2024.– 5 iyun, №21.– S.2-3.

Heydər Əliyev və Səməd Vurğun ocağı...: Heydər Əliyev İli / A. Salmansoy // Ədəbiyyat qəzeti.– 2023.– 18 mart.– S.6-7.

Üzeyir bəy və Səməd Vurğun dostluğu xatirələrdə / R. Göylər // Ədalət.– 2022.– 17 sentyabr.– S.7.

Səməd Vurğunun həyat və yaradıcılığında Quba dövrü: Səməd Vurğun-115 / Ş. Seyidməmmədov // Ədalət.– 2021.– 5 iyun.– S.15.

Səməd Yusif oğlu Vəkilov (Səməd Vurğun) 1906-cı il mart ayının 21-də Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olmuşdur.

O, ilk təhsilini kənd məktəbində alıb, sonra Qazax Müəllimlər Seminariyasında oxumuşdur. Seminariyanı bitirdikdən sonra müəllimliklə məşğul olmuş – Qazaxda, Qubada və Gəncədə dili və ədəbiyyatdan dərs demişdir. 1929-1930-cu illərdə Moskva Dövlət Universitetində (Şərq fakültəsi) təhsilini davam etdirmişdir.

Səməd Vurğun 1920-1930-cu illərdə pedaqoji işlə yanaşı, mətbuatla əməkdaşlıq etmiş, ilk şeirlərini "Şərq qadını", "Maarif və mədəniyyət" qəzetlərində çap etdirmişdir.

Şair 1934-cü ildə Moskvada keçirilən SSRİ Yazıçılarının I qurultayında Azərbaycan ədəbiyyatını təmsil etmişdir. 1941-1948-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının sədri, 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü, 1954-1956-cı illərdə Elmlər Akademiyasının vitse-prezidenti, 1940-1950-ci illərdə SSRİ Ali Sovetinin deputatı seçilmişdir. 1956-cı ildə filologiya elmləri doktoru adını almışdır

1930-cu ildə onun "Şairin andı" adlı ilk şeirlər kitabı çapdan çıxmışdır. 1934-cü ildə şairin "Könül dəftəri" və 1935-ci ildə "Şeirlər" adlı kitabları nəşr olunmuşdur. Təkcə 1935-ci ildə Səməd Vurğun 7 poema və 100-ə yaxın şeir yazmışdır. 1934-cü ildə yazılmış "Azərbaycan" şeiri Azərbaycan ədəbiyyatının incilərindəndir. 1938-ci ildə "Vaqif", 1939-cu ildə "Xanlar", 1942-ci ildə "Fərhad və Şirin", 1945-ci ildə yazdığı "İnsan" mənzum pyesləri ölkənin mədəni həyatında böyük hadisəyə çevrilmişdir. "Muğan" (1948), "Aygün" (1950-1951) və "Zamanın bayraqdarı" (1952) poemalarını yazmışdır.

Şairin yaradıcılığında Böyük Vətən müharibəsi dövrü xüsusi yer tutmuş, 60-dan artıq şeir, bir neçə poema, o cümlədən "Bakının dastanı" poemasını yazmışdır. 1943-cü ildə ABŞ-da keçirilən müharibə əleyhinə yazılmış ən dəyərli əsərlər müsabiqəsində şairin yazdığı "Ananın öyüdü" şeiri çox yüksək qiymətləndirilmiş və dünya ədəbiyyatında bu mövzuda yazılan ən qiymətli 20 əsərdən biri kimi Nyu-Yorkda çap etdirilmişdir.

Şair tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuşdur. Puşkinin "Yevgeni Onegin", Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan", Maksim Qorkinin "Qız və ölüm", Nizaminin "Leyli və Məcnun" poemalarını Azərbaycan dilinə tərcümə etmişdir. 1942-ci ildə "Fərhad və Şirin" poemasına görə Stalin mükafatı laureatı olmuşdur.

Müxtəlif beynəlxalq tədbirlərdə Azərbaycan ədəbiyyatını dünyaya tanıtmış, Xarici Ölkələrlə Mədəni Əlaqə Cəmiyyətinin sədri, Sovet Sülhü Müdafiə Komitəsinin üzvü olduğu illərdə sülh uğrunda mübariz kimi SSRİ nümayəndə heyətinin tərkibində beynəlxalq görüşlərdə zülmə, ədalətsizliyə və müstəmləkəçiliyə qarşı etiraz səsini ucaltmışdır.

Əsərləri rus, gürcü, tacik, ukrayna, özbək, çin, ingilis, alman, polyak, bolqar və s. dillərə tərcümə olunmuşdur.

Səməd Vurğun 1941-1942-ci illərdə iki dəfə SSRİ Dövlət mükafatı laureatı olmuş, 1943-cü ildə "Əməkdar incəsənət xadimi", 1956-cı ildə Azərbaycanın ilk "Xalq şairi" fəxri adına layiq görülmüşdür. İki "Lenin" ordeni, iki "Qırmızı Əmək Bayrağı" ordeni, "Şərəf nişanı" ordeni və medallarla təltif edilmişdir.

Səməd Yusif oğlu Vəkilov (Vurğun) 1956-cı il may ayının 27-də vəfat etmiş, Bakı şəhərində, Fəxri Xiyabanda dəfn edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli 211 nömrəli Qərarı ilə Səməd Vurğun Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.


Azərbaycan Milli Kitabxanası tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Səməd Vurğun. Biblioqrafiya" kitabı tərtib olunmuş, "Xalq şairi Səməd Vurğun – 115" adlı virtual sərgi və "Azərbaycanın Xalq şairi Səməd Vurğun" elektron məlumat bazasının hazırlanmışdır.

Xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda heykəli ucaldılmış, meydana və mərkəzi küçələrdən birinə Azərbaycan Dövlət Akademik Rus Dram Teatrına şairin adı verilmiş, ev muzeyi yaradılmışdır.

Nurəddin Babayev – 105

(1921-1991)

Yazıçı, jurnalist



Ədəbiyyat:

Məlikzadə, S. Jurnalistlərin unudulmaz müəllimi: Professor Nurəddin Babayev publisistika nəzəriyyəçisi və parlaq qələm sahibi idi / Səməd Məlikzadə // Xalq qəzeti.– 2025.– 20 mart (№61).– S.18.

Əliyeva, İ. Ürəklərdə sözü var: Qızlara sözü olan, əsl kişilikdən danışan, işıq və məhəbbəti tərənnüm edən Nurəddin Babayev: Azərbaycan Milli Mətbuatı-150 / İradə Əliyeva // Azərbaycan.-2025.- 16 iyul (№ 144).- S.10.

Yazmağı və sevməyi öyrədən adam: Novruz bayramı günlərində jurnalistika fakültəsinin ilk dekanı, yazıçı-jurnalist Nurəddin Babayevin anadan olmasının 100 ili tamam olur / S. Məlikzadə // Kaspi.– 2021.– 20 mart.– S.8.

Salmanlı, R. Görkəmli yazıçı-jurnalist / Rəhman Salmanlı // Azərbaycan. -2021.- 20 mart.- S.9.

İnternetdə:

https://az.baku-art.com/az/silahin-qeleml-v-z-edib-doyush-n-yaz-ch-jurnalist-nur-ddin-babayevin-100-illiyidir

http://mediateka.musigi-dunya.az/biografy/nureddin_babayev.html

Nurəddin Həsən oğlu Babayev 1921-ci il mart ayının 23-də Gəncə şəhərində anadan olmuşdur.

Uşaq yaşlarında ailəsi ilə birlikdə Bakıya köçüb və orta təhsilini paytaxtda tamamlayıb. 1944-1949-cu illərdə Bakı Dövlət Universitetinin (o zaman ADU) Filologiya fakültəsində təhsil alıb. Onun müəllimləri arasında Mir Cəlal Paşayev, Cəfər Xəndan, Həmid Araslı, Muxtar Hüseynzadə, Abbas Zamanov kimi görkəmli ziyalılar olub. 1958-ci ildə "Azərbaycanda bədii oçerkin inkişafı" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi, daha sonra filologiya elmləri doktoru alimlik dərəcəsini, 1981-ci ildə professor elmi rütbəsini almışdır.

Nurəddin Babayev jurnalistlik fəaliyyətinə 1940-1941-ci illərdə "Azərbaycan pioneri" qəzeti redaksiyasında ədəbi işçi kimi başlamışdır. 1941-1943-cü illərdə II Dünya müharibəsi dövründə ön cəbhədə döyüşən orduda olmuş, vuruşlarda yaralanmış və baş leytenant rütbəsi ilə Bakıya qayıtmışdır.

1943-1945-ci illərdə Nurəddin Babayev "Kommunist" qəzeti redaksiyasında şöbə müdiri, 1945-ci ildə "Azərbaycan müəllimi" qəzetində redaktor müavini, 1953-cü ildə "Uşaqgəncnəşr"də baş redaktor vəzifələrində çalışmışdır.

1969-cu ildə tanınmış alim və yazıçılarımız, o cümlədən Nurəddin Babayevin səyləri nəticəsində jurnalistika fakültəsi yaradılmışdır. 50 illik elmi-pedaqoji və ədəbi-jurnalistik fəaliyyəti dövründə indiki BDU-da Jurnalistika kafedrasının müdiri, Jurnalistika şöbəsinin müdiri, fakültənin ilk dekanı kimi vəzifələrdə çalışmışdır. Moskva Dövlət Universitetinin jurnalistika fakültəsində müxtəlif məzmunlu mühazirələrlə çıxış etmişdir. Elmi əsərlərin jurnalistika seriyasının və "Jurnalist" tədris qəzetinin təşkilatçısı olmuşdur. Bundan başqa Jurnalistlər İttifaqının təşkil olunmasında da onun xidmətləri əvəzsizdir.

Ədəbiyyata 1939-cu ildə gəlmiş, müxtəlif qəzetlərdə məqalə, oçerk və hekayələri dərc olunmuşdur. "Əbədi qəhrəmanlıq" adlı ilk kitabı 1945-ci ildə çap olunmuşdur. Ümumi olaraq 20-dən çox kitabı var - "Bacılar", "Bahar övladları", "Ürəklər bir olanda", "Zərif duyğular", "Biz Azərbaycandanıq", "Manolis Qlezos", "Oğluma məktublar", "Qəhrəmanların izi ilə", "Səni unutmuruq", "Qızlar, sözüm sizədir", "Ulduzlar sönmür", "Qızlar söz istəyir", "Ürəyimdə sözüm var", "Açıq söhbət", "Elə yaz ki", "Gəlin kişilikdən danışaq", "Babam-nənəm, atam-anam və biz", "Adamın özü və sözü"və s. Bəziləri bir neçə dəfə çap olunmuş, geniş oxucu kütləsi tərəfindən stolüstü oxu materiallarına çevrilmişdir. "Oğluma məktublar" əsəri "Qızıl qələm" mükafatına layiq görülüb və Bolqarıstanda ədəbiyyat dərsliyinə daxil edilib. 1500-dən çox publisist yazı müəllifidir

1954-cü ildən Azərbaycan Yazıçılar Birliyinin, Sovet Yazıçılar İttifaqının üzvü olub, Publisistika və oçerk şuralarında rəhbər rollar tutub. Jurnalistlər İttifaqı İdarə Heyətində katib kimi fəaliyyət göstərib.

Azərbaycan Respublikasında Ədəbiyyat və İncəsənət Arxivinin formalaşmasında mühüm xidmətlər göstərib və arxivə zəngin materiallar verib və onun fondu ən dəyərli kolleksiyalardan biridir

C.Cabbarlı adına Bakı kinostudiyasında baş redaktor işləmiş, "Bacarıqlı əllər" (1963), "Nizami yurdu" (1968), "Azərbaycan elmi" (1969), "Həyatın mənası" (1979), "Axtaran tapar" və s. elmi-sənədli filmlərin ssenari müəllifi olmuşdur.

Nurəddin Babayev 1982-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Nurəddin Həsən oğlu Babayev 1991-ci il sentyabr ayının 25-də Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Seyran Səxavət – 80

(1946)

Şair, nasir



Seyran Əsgər oğlu Xanlarov (Seyran Səxavət) 1946-cı il mart ayının 23-də Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndində anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra, 1962-1964-cü illərdə Natəvan adına Füzuli şəhər məktəbində direktor köməkçisi işləmişdir. 1964-1970-ci illərdə Azərbaycan Dövlət Universitetinin (BDU) şərqşünaslıq fakültəsini bitirmişdir

Seyran Səxavət 1970-1972-ci illərdə Sovet Ordusu sıralarında SSRİ Müdafiə Nazirliyində tərcüməçi, 1974-1976-cı illərdə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında xüsusi müxbir, ədəbi işçi kimi çalışmışdır. İki il İranda tərcüməçi kimi fəaliyyət göstərmişdir. 1976-1981-ci illərdə yenidən "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi kimi çalışmış, 1981-1991-ci illərdə "Ulduz" jurnalı redaksiyasında Nəsr şöbəsinin müdiri olmuşdur. 1980-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

İlk bədii yazısı 1962-ci ildə "Qızıl Araz" qəzetində çap olunmuşdur. 1962-ci ildən bədii yaradıcılığa dövri mətbuatda çap etdirdiyi şeir, hekayə və publisistik yazıları ilə başlamış, mərkəzi və respublika mətbuatı səhifələrində müntəzəm çıxış etmişdir. "Adalar", "Mənim planetim", "Hamı elə bilirdi...", "Daş evlər", "Dar köynək", "Qızıl teşt", "Nekroloq", "Palıd toxumu", "Bəhanə", "Yəhudi əlifbası", "Qaçhaqaç" kitablarının müəllifidir. Əsərlərində insan və vətən sevgisi, Qarabağ müharibəsi, qaçqınların yaşam tərzi, insan taleləri kimi bəşəri mövzular əsas yer tutur.Əsərləri keçmiş SSRİ xalqları dillərinə və bir sıra xarici dillərə tərcümə olunmuşdur.

1988-ci ildə "Qızıl teşt" pyesi Akademik Dram Teatrında, 1989-cu ildə "Büst" pyesi Lənkəran Dram Teatrında, 1990-cı ildə "Qapıların o üzündə qalan dünya" pyesi Füzuli Dram Teatrında tamaşaya qoyulmuşdur.

A.Ebanoidzedən tərcümə etdiyi "İki ay kənddə və ya imperatorsayağı evlənmə" romanı (A.Xanlarova ilə birlikdə) 1986-cı ildə "Gənclik" nəşriyyatı tərəfindən çap edilmişdir. 2 cildlik "Seçilməmiş əsərləri" 2015-ci ildə çap olunmuşdur.

Seyran Səxavətin "Nekroloq" romanı Azərbaycan Yazıçılar Birliyinin 2002-ci ilin Y.Səmədoğlu adına "İlin ən yaxşı romanı" mükafatına layiq görülmüşdür.

2021-ci ildə Azərbaycan Milli Kitabxanası "Azərbaycan ədibləri" seriyasından tərtib etdiyi "Seyran Səxavət" adlı biblioqrafik kitabını çap etdirmişdir.

Ədəbiyyat:

Seyran Səxavət (Seyran Əsgər oğlu Xanlarov) : biblioqrafiya / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. ed.: X. Abbasova, G. Misirova ; elmi red. Kərim Tahirov; red. E. Nəciyev. - Bakı: [Azərbaycan Milli Kitabxanası], 2021. - 175, [1] s.

Füzuli azad olundu...: "Yerin məlum, doyunca ağlamışam" / S.Səxavət; müsahibəni apardı: M.Rzayeva // Şərq.– 2020.– 29 sentyabr.– S.8.

Seyran Səxavət dünyası / X. Zərrabqızı // Ədalət.– 2021.– 18 fevral.– S.6.

Sözlə musiqinin kəsişmə nöqtəsində...: Ustadım Seyran Səxavətin şeirini dinlədim / Ə. Mədətoğlu // Ədalət.– 2022.– 26 noyabr.– S.6.

Azər Mustafazadənin ölüm xəbəri məni sarsıtdı / S. Səxavət // Ədəbiyyat qəzeti.– 2023.– 4 fevral.– S.23.

O Seyran Səxavət və bu Seyran Səxavət... / B. Həzi // Ədəbiyyat qəzeti.– 2024.– 15 iyun, №22.– S.39.

Seyran Səxavətin romanları ilə bağlı dissertasiya müdafiə edilib // Ədalət.– 2025.– 21 fevral(№7).– S.9.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Seyran_S%C9%99xav%C9%99t

MART
16

Pərvin Etisami – 120

(1906-1941)

İran şairi



Pərvin Etisami 1906-cı il mart ayının 16-da Təbriz şəhərində anadan olmuşdur.

O, əvvəlcə Təbrizdə təhsil almış, sonradan ailəsi Tehrana köçdükdən sonra burada Amerikan qız məktəbində oxumuşdur. Bu illərdə fars dili ilə yanaşı ərəb və ingilis dillərini də öyrənmiş, həm Şərq, həm də Qərb ədəbiyyatından geniş biliklər toplamışdır. Təhsil aldığı müddətdə klassik fars poeziyasını dərindən mənimsəmiş və gənc yaşlarında şeir yazmağa başlamışdır.

Pərvin Etisami həyatının böyük hissəsini ədəbi yaradıcılığa həsr etmişdir. O, müəllimlik etmiş, həmçinin bəzi ədəbi dərgilərdə fəaliyyət göstərmişdir. Onun şeirlərində ictimai motivlər, ədalət, mənəvi saflıq, qadın azadlığı və humanizm ideyaları əsas yer tutur.

Pərvin Etisami ən çox "Divan" adlı şeirlər toplusu ilə məşhurdur. Bu divanda əsasən qəsidə, qəzəl və mənzum hekayətlər toplanmışdır. Onun üslubunda Sədi, Hafiz, Nizami Gəncəvi kimi klassiklərin təsiri görünür. Lakin Pərvin öz əsərlərində yeni, müasir mövzulara da toxunaraq klassik formaya yeni məzmun gətirmişdir.

Onun poeziyası qadınların İranda ədəbi və ictimai sahədə öz sözünü deməsinə yol açan hadisələrdən biri hesab olunur. Pərvin klassik fars poeziyasını müasirliklə sintez edərək İranda yeni ədəbi mərhələ yaratmışdır.

Ədəbiyyata 9 yaşından gəlmişdir. Onun yaradıcılıq tərzi insan duyğularını təbiət hadisələrinə bənzətməsi ilə seçilmişdir. Bu dövrdə İranda baş verən siyasi və mədəni dəyişiklər də Etisami yaradıcılığına təsir göstərmişdir. "Sərxoş lakin agah" adlı romantik şerlər məcmuəsi ona böyük şöhrət qazandırmışdır. Etisami təhna və təcrid olunmuş həyat tərzi sürürdü.

Olduqca həssas xarakterli qadın olmaqla yanaşı şairə qəddarlığa qarşı çıxan ən güclü ədəbi səsə çevirilmişdir. Ümumiyyətlə, Pərvin Etisaminin yazdığı 210 şerinin əksəriyyəti gündəlik problemlər və onların həlli ilə əlaqədardır. Təbriz də doğulmuş, qısa, lakin mənalı bir ömür yaşamış Pərvin Etisami Güney Azərbaycanın görkəmli şairələrindən sayılırdı.

Əsərlərini fars dilində yazsa da, doğma vətəni Azərbaycana bağlı olan Pərvin xanımın İranda qadınların acınacaqlı taleyinə həsr olunmuş təsirli şeirləri var.

O, həm də məşhur təmsil ustası kimi tanınırdı.

Pərvin Etisami 1941-ci ildə İranda vəfat etmiş, Qum şəhərində dəfn edilmişdir.

Vəfatından sonra da onun irsi həm İran, həm də dünya ədəbiyyatı üçün aktual olaraq qalır. Onun şeirləri dəfələrlə Tehranda və digər şəhərlərdə nəşr olunmuş, farsdilli dünyada geniş yayılmışdır. Şeirləri bir çox dillərə, o cümlədən ingilis, türk və azərbaycan dillərinə tərcümə edilmişdir. İranda Pərvin Etisaminin adına küçələr, məktəblər qoyulmuş, onun xatirəsinə heykəllər ucaldılmışdır. 2005-ci ildən etibarən hər il mart ayında İranda "Pərvin Etisami Qadın Filmləri Festivalı" keçirilir. Bu festivalda qadın kino rejissorların çəkdikləri qadın mövzulu filmlər nümayiş etdirilir. 2011-ci ildə Suriyanın Dəməşq şəhərində "Pərvin Etisami nümunəvi ədəbiyyatçı" adlı seminar keçirilmişdir. 2005-ci ildə Tehranda Pərvin Etisaminin yubileyi UNESCO tərəfindən qeyd olunmuşdur. Onun əsərləri müasir dövrdə qadın hüquqları, ədəbiyyat və mədəniyyət mövzularında araşdırmalar üçün mühüm qaynaq hesab olunur.

2012-ci ildə Təbrizdə "Azərbaycan tarixi" adlı xalça toxunmuşdur. Xalçanın üzərində isə Azərbaycanın tarixi abidələri və tanınmış simalarından Şəhriyar, Bağırxan, Səttarxan, Zeynəb Paşa, Pərvin Etisami və digərlərinin şəkillləri toxunmuşdur. Xalçanın toxunulmasına 2 il vaxt sərf olunub və o hazırda Təbriz şəhər muzeyində saxlanılır.

Pərvin Etisami fars poeziyasının ən görkəmli qadın simalarından biridir. O, klassik formaları müasir ideyalarla zənginləşdirərək poeziyada humanizm, azadlıq və ədalət mövzularını ön plana çıxarmışdır.

Ədəbiyyat:

Mehdibəyova, Ma. Pərvin Etisami yaradıcılığı / Mahmizar Mehdibəyova // Respublika.– 2020.– 20 oktyabr.– S.14.

Cənubi Azərbaycanın xatunu... / K.Müslümqızı // Qobustan: Sənət toplusu.– 2022.– №1.– S.21-28.

Güneydən səslər... / E.Fuad // Respublika.– 2023.– 14 may.– S.10.

Cənubi Azərbaycan ədəbiyyatı: elmi tədqiqlər və araşdırmalar: [toplu] / AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İn-tu, Cənubi Azərbaycan ədəbiyyatı şöbəsi; tərt. ed. F. Süleymanoğlu; elmi red. T. Əhmədov; buraxıl. məsul R. Əliyev. - Baku: [Ulu], 2020. - 141, [1] s.:

İnternetdə:

https://butov.az/edebiyyat/26829-prvin-etisami-yaradvlnda-tmsil.html

https://qadinkimi.com/az/pervin-etisami/

Aşıq Umbay – 85

(1941)



Umbay Sadıq oğlu Axundov (Aşıq Umbay) 1941-ci il mart ayının 21-də Laçın rayonunun Qarakeçdi kəndində anadan olmuşdur.

O, 1946-1953-cü illərdə Qarakeçdi kənd yeddiillik məktəbində təhsil almış, daha sonra təhsilini Minkənd orta məktəbində davam etdirmişdir. 1960-cı ildə Şuşa Kənd Təsərrüfatı texnikumunun baytarlıq fakültəsinə daxil olan Umbay Axundov 1964-cü ildə burada təhsilini başa vurmuş, 1968-ci ildə isə Gəncə Dövlət Pedaqoji İnstitutunun Tarix fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur.

Gənc yaşlarından aşıq sənətinə böyük maraq göstərən Umbay Axundov iki il aşıq Mais Gəncəlidən bu sənətin sirlərini öyrənmişdir.

Umbay Axundov 1971-ci ildə Gəncədə keçirilən rayonlararası aşıq festivalında I yerə layiq görülmüşdür. 1976-cı ildə Ümumittifaq festivalının laureatı və qızıl medala layiq görülmüşdür. Azərbaycan aşıqlarının 1984-cü ildə keçirilən IV və 2008-ci ildə keçirilən V qurultaylarının iştirakçısı olmuşdur.

1987-ci ildə şəyirdi Ədalət Axundovla birlikdə dövlət televiziyasında "Şah İsmayıl və Gülzar" dastanını söyləmişdir. 1989-cu ildə böyük tirajla ifalarından ibarət qramafon valı buraxılmışdır. Elə həmin ildən Azərbaycan Aşıqlar Birliyinin üzvüdür.

Aşıq yaradıcılığında əsas mövzular — Vətən, Laçın həsrəti, qəhrəmanlıq, məhəbbət və mənəvi dəyərlərdir. Aşıq Umbay müxtəlif dövlət tədbirlərində, mədəniyyət günlərində, televiziyalarda çıxış edərək aşıq sənətinin təbliğinə xidmət edib

Aşıq Umbay Axundov bədii yaradıcılıqla da məşğul olmuşdur. "Laçında dillənən saz" adlı şeirlər kitabı 1992-ci ildə Zəlimxan Yaqubun redaktorluğu ilə "Yazıçı" nəşriyyatında nəşr olunmuşdur.

Anadan olmasının 70 illik yubileyi münasibətilə Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanı və pul mükafatına layiq görülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 15 iyul 2016-cı ildə Aşıq Umbay "Əməkdar mədəniyyət işçisi" fəxri adı ilə təltif edilmişdir.

Aşıq Umbay saz-söz mühitində tanınan, sənətə bağlı olan ustadlardandır. Onun dastanları, qoşmaları, deyişmələri və şeirləri Azərbaycan aşıq yaradıcılığının canlı xəzinəsidir.

Ədəbiyyat :

Ozan: elm və sənət toplusu / Azərb. Aşıqlar Birliyi; red. hey. M. Qasımlı (baş red.) [və b.].– Bakı: [Zərdabi], 2020.– 135, [1] s.

Şeirlər / Umbay Axundov // Ozan dünyası.-2012.- №1(8).- S.51-52

Mən belə yaşadım / Umbay Axundov ; baş red. M. Qasımlı ; red. E. Sadıq. - Bakı: Adiloğlu, 2012. - 252 s.

Məhərrəm, Q. Dağların Laçın aşığı / Qasımlı Məhərrəm // Ozan dünyası.-2012.- №1(8).- S.47-50.

İnternetdə:

https://intangible.az/front/az/moreCarriers/1179

https://az.wikipedia.org/wiki/A%C5%9F%C4%B1q_Umbay

Aşıq Ələsgər – 205
(1821-1926)

Aşıq



Ədəbiyyat:

Aşıq Ələsgər (Ələsgər Almməməd oğlu): 1821-1926: Biblioqrafiya / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. ed. A. Hüseynova; elmi red. K. Tahirov; red. M. Cəfərova; [dizayner M. Əliqızı]. - Bakı: [Zərdabi-Nəşr], 2021. - 319, [1] s.

Aşıq Ələsgərlə bağlı dastan-rəvayətlər: Aşıq Ələsgər - 200 /[AMEA, N. Gəncəvi ad. Ədəbiyyat İntu, Azərb. Aşıqlar Birliyi]; hazırl. M. Qasımlı [ön söz], M. Allahmanlı [ön söz], A. Xəlilova ; red. A. Məmmədli; elmi məsl. İ. Həbibbəyli.- Bakı: [Azərbaycan Aşıqlar Birliyi], 2021. -399, [1] s.

Aşıq Ələsgər irsinə ehtiram // Xalq qəzeti.-2025.- 24 iyun (№ 128).- S.14.

Aydınoğlu, T. Göyçə soyqırımı Aşıq Ələsgər yaradıcılığında / Tahir Aydınoğlu // Xalq qəzeti.-2025.- 16 avqust (№171).- S.9.

Allahverdiyev, Ə. Aşıq Ələsgər fenomeninə günümüzün poetik baxışı / Ələddin Allahverdiyev //Xalq qəzeti.-2025.- 15 yanvar (№ 08). - S.10.

Aşıq Ələsgər Almməməd oğlu (Aşıq Ələsgər) 1821-ci il mart ayının 22-də Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur.

Aşıq Ələsgər kənd mollaxanasında oxumuş, ərəb əlifbasını, dini bilgiləri öyrənmiş, əsas məktəbi isə saz-söz məclisləri olmuşdur. O, məşhur Aşıq Alının şagirdi kimi sənət dərsi almışdır. Qısa müddətdə saz çalmaqda, şeir qoşmaqda və dastan danışmaqda fərqlənərək ustad aşıq səviyyəsinə yüksəlmişdir.

Aşıq Ələsgər Azərbaycan aşıq ədəbiyyatının ən parlaq nümayəndələrindən biridir. Onun yaradıcılığı həm klassik şeir, həm də aşıq poeziyasının gözəl sintezidir. Ən çox qoşma, gəraylı, təcnis, müxəmməs kimi şeir formalarından istifadə etmiş, məhəbbət, vətən sevgisi, təbiət təsvirləri, fəlsəfi düşüncələr, insan taleyi mövzularında şeirlər yazmışdır. Deyişmə ustası olmuş, Göyçə, Borçalı, Qarabağ və digər bölgələrdə keçirilən el məclislərində iştirak etmişdir. Şeirlərində sadə xalq dili ilə dərin mənalı fikirlər ifadə edilmişdir. Onun ən məşhur qoşmalarından sevgi və gözəllik mövzulu qoşmaları: "Məndən sorar isən", "Ey Səlimi, sən Allah", "Qarşıdan gələndə gördüm naz eylər", "Gözəllikdə tayı-bərabərim yox"; Fəlsəfi və hikmətli qoşmaları: "Dünya bir pəncərədir", "Bəxtəvər olana dünya xoş gələr", "Ömür bir gündür"; Təbiət və vətən sevgisi: "Göyçənin elləri", "Qarşıdan gələndə dağlar göründü", "Axşam oldu, çıxdım dağın başına" və s.

Onun əsərləri ilk dəfə XX əsrin əvvəllərində toplanaraq çap olunmağa başlanılmışdır. Hazırda Aşıq Ələsgərin şeir irsi aşıq ədəbiyyatının zirvəsi sayılır və bir çox tədqiqat əsərlərinin mövzusudur. Şeirləri Azərbaycan və rus dillərində nəşr olunmuşdur. H. Araslı, Ə. Mirəhmədov, O. Sarıvəlli onun haqqında məqalələr, oçerklər yazmışlar. Ələsgər yalnız şair-aşıq kimi deyil, həm də dastan söyləyici və saz ustası kimi də tanınmışdır. Onun adı xüsusən Göyçə aşıq mühitinin formalaşmasında mühüm yer tutur.

Aşıq Ələsgər 1926-cı ildə doğma kəndində vəfat etmiş, Göyçənin Ağkilsə kəndində dəfn edilmişdir.

Məmmədhüseyn Təhmasibin 1961-ci ildə çap olunmuş "Aşıq Ələsgər" kitabı aşığın həyat və yaradıcılığına həsr olunmuş ilk geniş tədqiqat əsərlərindən biridir. 1968 və 1988-ci illərdə qoşmaları, gəraylıları, təcnisləri və dastanlarının toplandığı "Aşıq Ələsgər: Seçilmiş əsərləri" adlı kitab çap olunmuşdur. 1972-ci ildə Məmmədhüseyn Təhmasibin "Aşıq Ələsgər irsi", 1991-ci ildə Bəhlul Abdullanın "Aşıq Ələsgər: Həyatı və yaradıcılığı", 2000-ci ildə "Aşıq Ələsgər irsi" (Toplu məqalələr), Hüseyn İsmayılovun "Göyçə aşıq mühiti və Aşıq Ələsgər", 2010-cu ildə AMEA Folklor İnstitutu tərəfindən "Aşıq Ələsgər: Əsərləri və dastanları", 2012-ci ildə Qəzənfər Paşayevin "Göyçə aşıqları və Ələsgər irsi" adlı kitablar çap olunmuşdur.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli Qərarı ilə Aşıq Ələsgər Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir.

Aşıq Ələsgərin yubileyləri hər dəfə dövlət səviyyəsində yüksək qaydada qeyd edilmişdir. 1972-ci ildə Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Aşıq Ələsgərin anadan olmasının 150 illiyi dövlət səviyyəsində qeyd olunmuşdur. Bu münasibətlə Moskvada geniş tədbir keçirilmiş, Göyçə mahalının Ağkilsə kəndində ustad sənətkarın qəbirüstü abidəsi ucaldılmışdır. 1997-ci ildə Heydər Əliyevin sərəncamı ilə Aşıq Ələsgərin 175 illik yubileyi keçirilmişdir. Bu münasibətlə Azərbaycan Milli Elmlər Akademiyası onun əsərlərini iki cilddə hazırlayaraq çap etdirmişdir. 2011-ci ildə Prezident İlham Əliyevin Sərəncamı ilə Aşıq Ələsgərin 190 illiyi qeyd olunmuş və həmin il ölkədə "Aşıq Ələsgər ili" elan edilmişdir. Bu münasibətlə Heydər Əliyev Sarayında təntənəli yubiley mərasimi keçirilmiş, Gədəbəydə "Aşıq Ələsgər adına Aşıq Məktəbi" fəaliyyətə başlamışdır. 2021-ci ildə Prezident İlham Əliyev "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncam imzalandır.

Milli Kitabxana tərəfindən Prezidentin Sərəncamına müvafiq olaraq "Aşıq Ələsgər – 200" adlı virtual sərgi, "Ustad sənətkar Aşıq Ələsgər" adlı elektron məlumat bazası və "Aşıq Ələsgər: biblioqrafiya"sını hazırlamışdır.


MART

1

Tahir Məmmədov – 80

(1946)

Rəssam



Ədəbiyyat

Bədii ümumiləşdirmələr ustası: Əməkdar rəssam Tahir Məmmədovun yaradıcılıq axtarışları haqqında... / Z.Əliyev // Kaspi.– 2020.– 29 fevral.– 2 mart.– S.23.

İnternet

https://az.wikipedia.org/wiki/Tahir_M%C9%99mm%C9%99dov_(r%C9%99ssam)

Tahir Hidayət oğlu Məmmədov 1946-cı il mart ayının 1-də Bakıda anadan olmuşdur. O, 1967-ci ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini, 1976-cı ildə isə Mirzəağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir. 1979-cu ildən Azərbaycan Rəssamlar İttifaqının üzvüdür. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında dosentidir.

Tahir Məmmədovun ilk fərdi sərgisi 1981-ci ildə Moskva şəhərində "Yunost" jurnalının təşkilatçılığı ilə keçirilmişdir. Onun 1992-ci ildə Parisdə "Cite İnternationale Dez Arts" sərgisində fərdi yaradıcılıq sərgisi açılmışdır.

1992-ci il SSRİ Rəssamlıq Akademiyasının diplomu ilə təltif olunmuşdur. Bundan əlavə, Tahir Məmmədovun 1991-ci ildə ABŞ-də, 1992, 2003 və 2011-ci ildə Parisdə, 2005-ci ildə Belçikada, 2010, 2012, 2013-cü ildə Moskvada fərdi sərgiləri keçirilmişdir. O, həmçinin, "Ənənəvilik və müasirlik" adlı I və II beynəlxalq foto müsabiqələrində birinci yerə çıxmışdır.

Tahir Məmmədov Azərbaycanda ilk bədii fotoqrafiya haqqında kitabın müəllifidir. Onun əsərləri Moskvada Tretyakov qalereyasında, "Şərq Xalqları" muzeyində, Bədii Sərgilər Direktorluğunun Fondunda, Parisdə "Edmon Rozenfeld" qalereyasında, "ARTS Turnelle" sərgi salonunda, ABŞ, Almaniya, Yaponiya və Türkiyədə şəxsi kolleksiyalarda saxlanılır. 2024-cü ildə Azərbaycan Milli İncəsənət Muzeyində onun yaradıcılığına həsr olunmuş sərgi təşkil edilmişdir.

Tahir Məmmədov 2001-ci il "Soltan Məhəmməd" mükafatı, 2002-ci il 30 may tarixində "Azərbaycan Respublikasının əməkdar rəssamı" fəxri adı, 2004-cü il "Humay" milli mükafatı və 2021-ci il 16 oktyabr tarixində 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunmuşdur.

3

Hüseyn Haqverdiyev – 70

(1956)

Rəssam, heykəltəraş



Ədəbiyyat:

Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 16 oktyabr 2021-ci il // Azərbaycan. -2021.-17 oktyabr.- S.2.

İnternetdə:

https://az.wikipedia.org/wiki/H%C3%BCseyn_Haqverdiyev

Hüseyn Həsən oğlu Haqverdiyev 1956-cı il mart ayının 3-də Ucar rayonunda anadan olmuşdur.

O, 1971-1975-ci illərdə Əzim Əzimzadə adına İncəsənət kollecində təhsil almışdır. 1975-ci ildə Vera Muxina adına Leninqrad ali incəsənət akademiyasına daxil olmuş, heykəltaraşlıq fakültəsini 1980-ci ildə bitirmişdir.

Azərbaycan Həvari Prefektinin baş kafedral kilsəsi olan Müqəddəs Bakirə Məryəm kilsəsindəki "Bakirə Məryəm" heykəlinin, Səngəçal terminalının girişindəki "Xəzər dənizi əfsanəsi" əsərinin müəllifidir. İlk simpoziumu 1980-ci ildə nümayiş olunmuşdur.

Hindistan, ABŞ, Almaniya, Gürcüstan, BƏƏ kimi ölkələrdə sərgi və simpoziumları baş tutmuşdur. 2014-cü ildə Özbəkistanda solo sərgisi keçirilmişdir.

Hüseyn Həsən oğlu Haqverdiyev Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə 30 may 2002-ci il tarixində "Azərbaycan Respublikasının əməkdar rəssamı" və 2021-ci il 16 oktyabr tarixində "Azərbaycan Respublikasının xalq rəssamı" fəxri adları ilə təltif olunmuşdur.

Cahangir Rüstəmov – 100

(1926-2007) *Rəssam*



Cahangir Mahmud oğlu Rüstəmov 1926-cı il mart ayının 5-də Şəki şəhərində anadan olmuşdur.

O, 1939-cu ildə 7 illik məktəbi bitirmiş, 1939-1941-ci illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbində təhsil almışdır. Cahangir Rüstəmov Rəssamlıq məktəbini başa vurduqdan sonra, Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna daxil olmuş, lakin ailə durumu səbəbindən təhsilini yarımçıq qoyub Bakıya qayıtmışdır.

Rəssamın yaradıcılığı rəngkarlığın bir çox janrını əhatə edərək, milli ruhu və poetikliyi ilə fərqlənir. Onun yaradıcılığı milli rəngkarlığın inkişafına mühüm töhfələr vermişdir.

C.Rüstəmovun yaradıcılığının əsas janrları tarixi mövzuda çoxfiqurlu lövhələr, həm bayram, zəhmət və istirahət mövzusunda kompozisiyalar, həm də məişət tabloları, epik mənzərələr, portretlər və ifadəli natürmortlardır. Onun əsərləri milli koloriti və emosionallığı ilə seçilir. "Üzümlük", "Çay becərənlər", "Tarla zəhmətkeşləri", "Kolxozçular", "Balaca köməkçi qız", "Dağlarda", "Şahdağ" kimi tabloları məşhurdur.

O, 1955-ci ildə SSRİ Rəssamlar İttifaqı üzvlüyünə qəbul olunmuşdur. Cahangir Rüstəmov 1955-ci ildə "Ən yaxşı uşaq mövzusuna görə" ÜİLKGİ-nin diplom və xüsusi nişanına layiq görülmüşdür.

1953-cü ildə Bakıda fərdi sərgisi açılmış, 1962-ci ildə "Paris-Tunis" adlı sərgisi təşkil olunmuş, 1973-cü ildə Astara rayonundakı Nizami kolxozunda hesabat sərgisi keçirilmiş, 1979-cu ildə onun əsərləri xarici ölkələrdəki sərgilərdə nümayiş olunmuşdur. Rəssamın 2002-ci ildə Bakıda V.Səmədova adına sərgi salonunda fərdi sərgisi açılmışdır.

Azərbaycanın təsviri sənətinin inkişafındakı xidmətlərinə görə Cahangir Rüstəmov 1982-ci ildə Azərbaycan SSR Əməkdar rəssamı, 2002-ci ildə isə Azərbaycan Respublikasının Xalq rəssamı fəxri adlarına layiq görülmüşdür. O, 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Cahangir Mahmud oğlu Rüstəmov 2007-ci il fevral ayının 13-də vəfat etmişdir.

Cahangir Rüstəmovun yaradıcılığı Azərbaycan rəngkarlığının inkişafında əhəmiyyətli rol oynamış və onun əsərləri mədəni irsimizin ayrılmaz hissəsinə çevrilmişdir

Ədəbiyyat:

Quliyeva, S. Azərbaycan təsviri sənətində Cahangir Rüstəmovun yeri və rolu / Sevinc Quliyeva // Mədəniyyət.az. -2019.- Yanvar-Fevral.- S. 61-63.

Cahangir Rüstəmov [İzomaterial]: Azərbaycanın xalq rəssamı / Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli İncəsənət Muzeyi. - Bakı: [n. y.], 2016. - 64 s.

Soltanlı, S. Sənət zamanı geri qaytara bilir: Xalq rəssamı Cahangir Rüstəmovun 90 illik yubiley sərgisi / S.Soltanlı // Mədəniyyət .-2016.- 6 aprel.- S. 8.

İnternetdə:

https://anl.az/down/medeniyyet2007/fevral/medeniyyet2007_fevral_149.htm

https://az.baku-art.com/az/bu-gun-azerbaycan-respublikasin-n-xalq-ressam-cahangir-r-st-movun-dogum-g-n-d-r/

MART
16

Zakir Bağırov – 110

(1916-1996)

Bəstəkar



Zakir Cavad oğlu Bağırov 1916-cı il mart ayının 16-da Şuşada anadan olmuşdur.

Ailə vəziyyəti ilə əlaqədar 1924-cü ildən 1929-cu ilədək Bakıdakı N.Nərimanov adına 8 saylı uşaq evində yaşamışdır. 1929-cu ildən böyük qardaşının himayəsində yaşamış, 16 yaşında musiqi ilə ciddi məşğul olmağa başlamış və Azərbaycan Dövlət Konservatoriyasının nəzdindəki musiqi fəhlə fakültəsində fortepiano sinfinə qəbul olmuşdur. 1934-cü ildə musiqi təhsilini davam etdirmək məqsədilə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasına göndərilmişdir.

1941-1945-ci illərdə Avstriya, Macarıstan, Rumıniya, Finlandiya və Mancuriyada xidmət etmişdir. Ordudan tərxis olunduqdan sonra təhsilini davam etdirmiş, 1949-cu ildə Moskva Dövlət Konservatoriyasını bitirmişdir. Həmin ildən Azərbaycan Dövlət Konservatoriyasının müəllimi, 1950-1958-ci illərdə Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsinin bədii rəhbəri vəzifəsində çalışmışdır.

Bəstəkar bir çox maraqlı əsərlər bəstələmiş, 1950-ci ildə S.Hacıbəyovla birlikdə "30 il" kantatasını yazmışdır.

1951-ci ildə Z.Bağırov, T.Quliyev və M.S.İsmayılovun birlikdə topladıqları "Azərbaycan xalq rəqsləri" məcmuəsində 22 qədim xalq rəqs melodiyaları indiyə qədər də ifa olunur. Azərbaycan musiqisi tarixində muğamın nota köçürülməsi ilk dəfə Z.Bağırov və T.Quliyev tərəfindən 1936-cı ildə böyük ustalıqla həyata keçirilmişdir. 1963-1965-ci illərdə M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında bədii rəhbər vəzifəsində çalışmışdır. 1970-ci ildən Musiqi nəzəriyyəsi kafedrasının müdiri olmuşdur.

1958-ci ildə "Kəndimizin mahnısı", 1964-cü ildə "Qayınana" operettalarını, 1956 və 1969-cu illərdə xalq çalğı alətləri orkestri üçün süitaları, 1970-ci ildə fortepiano ilə orkestr üçün konserti, 1972-ci ildə "Aygün" operasını, 1973-cü ildə orqan üçün improvizasiya və fuqanı, kamera-instrumental əsərlərini, mahnı və romansları yazmış, bir çox dram tamaşası və "Ağ qızıl ustaları", "Aygün", "Bərəkətli torpaq", "Nizami", "Sədaqət yolu ilə", "Təbiətin dostları", "Quba bağlarında", "Bizim Azərbaycan" kimi bədii, sənədli filmlərə musiqi bəstələmişdir.

Ömrünün 45 ilini konservatoriyada tədris işinə sərf edən bəstəkar, bir çox musiqiçilər yetişdirmişdir.

Musiqi mədəniyyətinin inkişafında göstərdiyi xidmətlərə görə 1961-ci ildə Azərbaycanın "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüş, "Şərəf" nişanı ordeni və "Yubiley medalı" ilə təltif edilmişdir.

Zakir Cavad oğlu Bağırov 1996-cı il yanvar ayının 8-də Bakıda vəfat etmişdir.

Azərbaycan Milli Kitabxanası Zakir Bağırovun bəstələdiyi əsərlərin not yazılarını, partituralarını və digər sənədlərini öz fondunda saxlayır. Bu, onun musiqi irsinin qorunması və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Millli kitabxana tərəfindən Milli musiqi xəzinəmizdən (Azərbaycan Milli kitabxanasının fondundan) layihəsnində "Miniatürlər" (2020), "Fortepiano üçün əsərlər" (2020) məcmusi nəşr olunmuşdur.

Ədəbiyyat:

Miniatürlər: fortepiano üçün / Z. Bağırov; tərt. ed. M. İbrahimov; layihənin rəhb. K. Tahirov; red. S. Məlikova; Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası.– Bakı: [n. y.], 2020.– 22, [2] s.

Axundova, G. Zakir Bağırovun arfa üçün "Çahargah" fantaziyasında muğamın təcəssüm xüsusiyyətləri / G.Axundova // Musiqi dünyası.– 2021.– №3/88.– S.62-67.

Azərbaycan bəstəkarlarının seçilmiş pyesləri: Klarnet (yaxud truba) və fortepiano üçün / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası; layihənin rəhb. K. Tahirov; tərt. ed. M. İbrahimov; red. S. Fərəcov.– Bakı: [n. y.], 2023.– 52, [4] s.

İnternetdə:

https://portal.azertag.az/az/node/24474

https://az.baku-art.com/az/gorkemli-best-kar-zakir-bagirovun-do-umgun-d-r

MART
27

Vaqif Gərayzadə – 65

(1961)

Bəstəkar, pedaqoq



Vaqif Əzizağa oğlu Gərayzadə 1961-ci il mart ayının 27-də Bakıda anadan olmuşdur.

O, ilk musiqi təhsilini 1971-1976-cı illərdə Bakının Bakıxanov qəsəbəsindəki 4 saylı 5 illik musiqi məktəbinin fortepiano sinfində almışdır. 1983-1987-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun kütləvi tamaşalar rejissoru fakültəsini bitirərək, 1993-1997-ci llərdə təhsilini bu ali məktəbin aspiranturasında davam etdirmişdir.

Vaqif Gərayzadə Azərbaycan Dövlət Konsert Birliyi və Filarmoniyada çalışmış, daha sonra Mədəniyyət və İncəsənət Universitetində mədəniyyət tarixi və nəzəriyyəsi kafedrasının müəllimi və "Estrada-populyar musiqi" kafedrasının təşəbbüskarı və ilk müdiri olmuşdur. Hal-hazırda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində musiqi redaktoru kimi fəaliyyət göstərir. Burada Vaqif Gərayzadə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin musiqi redaktoru kimi benefisiarların iştirakı ilə keçirilən inklüziv konsert və bayram proqramlarının repertuarını formalaşdırır, musiqi ifalarını yönləndirir və layihələrin yaradıcı məzmununa musiqi töhfəsi verir.

Vaqif Gərayzadə fəlsəfə elmləri üzrə fəlsəfə doktoru, dosentdir.

Bəstəkar müxtəlif janrlarda, o cümlədən caz, pop musiqisində əsərlərin müəllifidir. Bir sıra beynəlxalq festival və müsabiqələrin laureatı, "Aypara", "W-trio", "Şeron", musiqi qruplarının yaradıcısı, "Şərq ulduzları" və "Şərq çırağı" vokal qruplarının rəhbəri olmuşdur. Azərbaycan Bəstəkarlar İttifaqının üzvü kimi müxtəlif musiqi layihələrinin həyata keçirilməsində iştirak etmişdir.

Müxtəlif janrlarda yaradıcılıq fəaliyyəti göstərən sənətkar Gənc Tamaşaçılar Teatrında Qılman İlkinin "Qarışqa şıllaq atdı" (1991), Abdulla Şaiqin "Danışan gə-lincik" (1995), Nəriman Qocaoğlunun "Sarıköynək günəşi necə gətirdi" (1997), Rus Dram Teatrında Mirzə Fətəli Axundzadənin "Müsyö Jordan və dərviş Məstəli şah" (2012), Azərbaycan televiziyasında Füzuli Sərkərovun "Bir məhəbbət gecəsi" (1987) tamaşalarına musiqi bəstələyib.

Onun mahnıları müxtəlif dövrlərdə tanınmış müğənnilərin repertuarına daxil olmuşdur. Aygün Kazımova, Röya Ayxan, Zülfiyyə Xanbabayeva, İradə İbrahimova, Xəyyam Nisanov, Elnarə Xəlilova, Briliant Dadaşova, Almaz Ələsgərli, Manana Caparidze, Azərin, Abbas Bağırov, Yaşar Cəlilov, Murad Arif, Azər Zeynalov və s. məşhur müğənnilər Vaqif Gərayzadə yaradıcılığına müraciət etmişdir.

O, 2018-ci ildə çəkilmiş "Əsgərlər unudulanda ölürlər" adlı sənədli film üçün orijinal musiqi bəstələmişdir. Bu film, Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümünə həsr olunmuşdur və filmə daxil edilən mahnıların mətnləri şəhid əsgərlərin son məktublarındakı şeirlər əsasında tərtib olunmuşdur

1994 və 2000-ci ilin may ayında Heydər Əliyev Sarayında Vaqif Gərayzadənin yaradıcılıq gecəsi keçirilmişdir.

Onun fəaliyyəti dövlət və ictimai qurumlar tərəfindən qiymətləndirilmiş, bir sıra fəxri adlara və mükafatlara layiq görülmüşdür. 15 sentyabr 2011-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən "Əməkdar İncəsənət Xadimi" fəxri adına layiq görülmüşdü.

Vaqif Gərayzadə Azərbaycan estrada musiqisinin inkişafında mühüm xidmətləri ilə seçilən bəstəkarlarımızdan biridir. Onun yaradıcılığında melodik zənginlik, Azərbaycan xalq musiqisi elementləri ilə müasir ritmlərin vəhdəti özünü göstərir.

Ədəbiyyat:

Qloballaşma və Azərbaycan mədəniyyəti / Vaqif Gərayzadə // Mədəniyyət dünyası:Elmi məqalələr toplusu: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.-2003.- № VI.- S.54-55.

Azərbaycan Teatr Ensiklopediyası: üç cilddə / İlham Rəhimli; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. - C. 3: N, O, Ö, P, R, S, Ş, T, U, Ü, V, Y, Z. - Bakl: Azərnəşr. 2017. - S. 353-354.

"Əsgərlər unudulanda ölürlər"// Mədəniyyət.-2018.- 12 oktyabr.- S.3.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Vaqif_G%C9%99rayzad%C9%99

https://artist.az/vaqif-gerayzade/

Azad Əliyev – 75

(1951-2014)

Dirijor



Azad Sabir oğlu Əliyev 1951-ci il mart ayının 29-da Bakı şəhərində anadan olmuşdur.

O, 1974-cü ildə Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) fortepiano ixtisası, 1980-ci ildə isə vokal ixtisası üzrə təhsilini başa vurmuşdur. Musiqi-pedaqoji fəaliyyətinə 1960-cı ildə 6 №-li musiqi məktəbində başlamış, sonralar A. Zeynallı adına Orta ixtisas musiqi məktəbində və Sumqayıt Orta ixtisas musiqi məktəbində dərs demişdir.

1974-1982-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının simli alətlər kafedrasında konsertmeyster vəzifəsində çalışmışdır. Eyni zamanda, 1972-1980-ci illərdə "Respublika" sarayının baş səs rejissoru olmuşdur. 1980-ci ildə Sumqayıt Orta ixtisas musiqi məktəbinin müdir müavini təyin edilmiş, burada şəhərin ilk kamera orkestrini yaratmış və müxtəlif konsert proqramları ilə çıxış etmişdir.

1981-1985-ci illərdə Azərbaycan xalq artisti, skripkaçı Sərvər Qəniyev ilə birgə SSRİ-nin müxtəlif şəhərlərində konsertlərdə pianoçu kimi çıxış etmiş, yüksək peşəkarlığı ilə tanınmışdır.

1992-ci ildən Şövkət Məmmədova adına Opera studiyasının direktoru, həmçinin Bakı Musiqi Akademiyasının "Opera hazırlığı" kafedrasının müəllimi olmuşdur. Pedaqoji fəaliyyətilə yanaşı ifaçı kimi də fəaliyyət göstərmişdir. Eyni zamanda BMA-nin Solo oxuma və opera hazırlığı kafedrasının dosenti olmuşdur. Dirijor kimi o, klassik və milli opera əsərlərinə müraciət etmiş, "Aida", "Traviata", "Gizli nikah", "Sevil", "Arşın mal alan" və digər tamaşaları hazırlamışdır. 1994-cü ildən ömrünün sonuna qədər həmin studiyanın bədii rəhbəri vəzifəsini icra etmişdir.

2001-ci ildən etibarən Niyazi adına Radio və Televiziya Simfonik Orkestrində, həmçinin Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrində ikinci dirijor vəzifəsində çalışmışdır. 2006-cı ildən isə Azteleradio Qapalı Səhmdar Cəmiyyətinin Niyazi adına Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru olmuşdur.

Azad Əliyev "Opera hazırlığı" sinfində 20-dən artıq tələbə yetişdirmişdir. Onlardan bir qismi Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistləri, bir neçəsi isə Azərbaycanın xalq artisti adına layiq görülmüşdür. 1999-cu ildən Bülbül adına Orta ixtisas musiqi məktəbində "Kamera ansamblı" və "Müşayiət" sinfi üzrə pedaqoji fəaliyyət göstərmişdir.

2012-ci ildə Azərbaycan musiqi sənətinin inkişafındakı xidmətlərinə görə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür

Azad Sabir oğlu Əliyev 30 mart 2014-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Tanınmış dirijorun xatirəsinə həsr olunan konsert // Mədəniyyət.– 2024.– 24 aprel, №30.– S.5.

Sənətə həsr olunan ömür / Savalan Fərəcov // Mədəniyyət.-2014.- 2 aprel.- S. 4.

Görkəmli musiqiçinin xatirə gecəsi // Mədəniyyət. - 2015. - 10 aprel. - S. 5.

İnternetdə

https://az.wikipedia.org/wiki/Azad_%C6%8Fliyev_(dirijor)

http://mk.musigi-dunya.az/performer_a_aliyev.html

Cabbar Qaryağdıoğlu – 165

(1861-1944)

Xanəndə



Cabbar Məşədi İsmayıl oğlu (Cabbar Qaryağdıoğlu) 1861-ci il mart ayının 31-də Şuşada anadan olmuşdur.

Uşaqlıqdan musiqiyə, xüsusilə xanəndəlik sənətinə maraq göstərmiş, ilkin təhsilini Şuşada xarrat Qulunun məktəbində almışdır. Muğam, dəsgah, təsnif və el mahnılarını xalq şənliklərində böyük məharətlə ifa etmiş, tezliklə Qarabağ bölgəsində tanınmışdır.

Azərbaycan opera sənətinin formalaşmasında onun rolu əvəzsizdir. O, milli səhnəmizin ilk aktyoru kimi Əbdürrəhim bəy Haqverdiyevin 1887-ci ildə hazırladığı "Məcnun Leylinin məzarı üstündə" musiqili səhnəsində Məcnun rolunu canlandırmışdır.

Bir müddət tarzən Sadıq Əsəd oğlunun (Sadıqcan) sazandalar dəstəsi ilə çıxış etmiş, məşhur xanəndə kimi Bakı, Gəncə şəhərlərinə, Şamaxı, Ağdaş rayonlarına dəvət olunmuşdur.

Cabbar Qaryağdıoğlu bir müddət tarzən Sadıqcanın (Sadıq Əsəd oğlu) sazandalar dəstəsində çıxış etmiş, Bakı, Gəncə, Şamaxı, Ağdaş və digər bölgələrdə konsertlər vermişdir. 1900-1905-ci illərdə tarzən Məşədi Fərzəli Rzayev və kamançaçı Məşədi Qulu ilə Bakıda uğurlu çıxışlar etmiş, 1905-ci ildə isə tarzən Qurban Pirimov və kamançaçı Saşa Oqanezaşvili ilə məşhur xanəndə trio yaratmışdır

1906–1912-ci illərdə onun səsi Kiyevdə "Qrammafon", Moskvada "Sportrekord", Varşavada "Ekstrafon" şirkətləri tərəfindən qrammafon vallarına yazılmışdır. 1912-ci ildə Varşavadan qayıdarkən Moskvada verdiyi "Şərq konsertləri"ndə "Kürd-şahnaz", "Mahur", "Bayatı-Qacar", "Heyratı", xüsusilə isə "Mənsuriyyə" muğamlarını yüksək ustalıqla ifa etmişdir.

Cabbar Qaryağdıoğlu Azərbaycan Dövlət Konservatoriyasının yaradıcılarından biri olmuş, klassik xalq musiqisindən dərs demiş, gənc xanəndələrin yetişdirilməsinə böyük töhfələr vermişdir.

Azərbaycan Dövlət Konservatoriyasının nəzdində Bülbülün rəhbərlik etdiyi Xalq Musiqisini Öyrənən Elmi-Tədqiqat Kabinetində onun ifasında 300-dən çox mahnı və təsnif, təxminən 70 xalq musiqi nümunəsi lentə yazılmış, Səid Rüstəmov isə 50 xalq mahnısını nota köçürmüşdür.

Azərbaycan Dövlət Filarmoniyasının və Azərbaycan Radiosunun solisti olmuş sənətkar 30-dan artıq mahnı bəstələmişdir.

Onun sənəti dünya musiqi aləmində yüksək qiymətləndirilmişdir. Cabbar Qaryağdı oğlunu məşhur italyan tenor Enriko Karuzo ilə müqayisə etmişlər. O, həmçinin Fyodor Şalyapin və Sergey Yeseninlə tanış olmuş, Yesenin onu "Şərq musiqisinin peyğəmbəri" adlandırmışdır.

Onun "Azərbaycan musiqisinin keçmişi haqqında xatirələr" adlı əlyazmasında XIX əsrin xanəndə və musiqiçiləri, muğamların tarixi, təsnif və xalq mahnıları barədə dəyərli məlumatlar toplanmışdır.

1936-cı il martında M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrının binasında Cabbar Qaryağdıoğlunun anadan olmasının 75 illiyi təntənəli surətdə qeyd edildi.1

Xanəndə 1935-ci ildə Azərbaycanın "Xalq artisti" fəxri adına layiq görülmüş, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Cabbar Qaryağdıoğlu 1944-cü il aprel ayının 20-də vəfat etmişdir.

Onun xatirəsini əbədiləşdirmək məqsədilə Bakının Lökbatan qəsəbəsində yerləşən 9 saylı Uşaq Musiqi Məktəbi onun adını daşıyır.

2010-cu ildə Cabbar Qaryağdıoğlunun 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır.

Ədəbiyyat:

Cabbar Qaryağdı oğlunun 150 illik yubileyinin keçirilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 14 may 2010-ci il // Azərbaycan.-2010.-15 may. - S.1.

Cabbar Qaryağdı oğlu.– [Bakı]: [n. y.], [2022].– 1 elektron opt. disk.

Xanəndə Məşədi Qafar Qaryağdı / G. Kazımlı, T. İbrahimov; red. A. Nəcəfzadə; ön söz. müəl. L. Hüseynova; Beynəlxalq Muğam Mərkəzi.– Bakı: [Azərbaycan Nəşriyyatı], 2023.– 156, [4] s.

Məlikova, N. Musiqi folklorunun canlı ensiklopediyası / Nigar Məlikova // Qobustan.. - № 4. - 2007. - S .72-74.

İnternetdə:

https://portal.azertag.az/az/node/24962


https://az.baku-art.com/az/gorkemli-musiqi-xadimi-best-kar-xan-nd-cabbar-qaryagdio-lu

MART
31

Rafiq Babayev – 90

(1936-1994)

Pianoçu



Rafiq Fərzi oğlu Babayev 1936-cı il mart ayının 31-də Bakı şəhərində anadan olmuşdur.

Musiqiyə uşaqlıqdan böyük maraq göstərmiş, 1943-cü ildə musiqi məktəbinə daxil olmuş və burada ilk caz kvartetini yaratmışdır. 1950-ci ildə həmin məktəbi bitirərək A. Zeynallı adına Musiqi Məktəbinin fortepiano sinfinə daxil olmuş, R.S. Levinanın sinfində təhsilini davam etdirmişdir. Təhsil aldığı illərdə Xalq Çalğı Alətləri Ansamblının musiqi rəhbəri vəzifəsində çalışmış, eyni zamanda caz musiqisinə marağını daha da artıraraq improvizasiya bacarığını inkişaf etdirmişdir.

1954-cü ildə buraxılış imtahanında onun ifa etdiyi proqram klassik əsərlərlə yanaşı, amerikalı caz pianoçusu Bill Evensin kompozisiyasını da əhatə etmişdi. Bu hadisədən sonra Babayev özünü bütünlüklə caz musiqisinə həsr etmişdir. 1959-cu ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirən Rafiq Babayev rəhbərlik etdiyi caz-instrumental ansambl ilə SSRİ-nin müxtəlif şəhərlərinə qastrol səfərlərinə çıxmışdır. Görkəmli müğənni Rəşid Behbudovla tanışlığı onun musiqi həyatında mühüm rol oynamışdır.

1967-ci ildə Rəşid Behbudov Mahnı Teatrını yaradarkən, Rafiq Babayev bu teatrın musiqi rəhbəri təyin olunmuş və böyük teatrlaşdırılmış konsert proqramlarının hazırlanmasına başlamışdır. Həmin ildə Tallində keçirilən Beynəlxalq Caz Festivalında Babayevin rəhbərlik etdiyi ansambl laureat adına layiq görülmüş, ifa etdiyi "Bayatı-kürd" kompozisiyası xüsusilə yüksək qiymətləndirilmişdir. Sonrakı illərdə ansamblın tərkibində Gennadi Stepanişşev, Rauf Sultanov, Ələsgər Abbasov, Səyavuş Kərimi, Cəmil Əmirov, Tofiq Cabbarov, Firuz İsmayılov, Ramin Sultanov, Emil Həsənov, Vaqif Əliyev və digər peşəkar musiqiçilər çıxış etmişlər.

1991-ci ildə Rafiq Babayev "Cəngi" folklor-caz kollektivini yaratmışdır. O, həmçinin Səsyazma Studiyasını təşkil etmiş, müxtəlif musiqi layihələrinin həyata keçirilməsinə şərait yaratmışdır. Babayev Azərbaycan xalq musiqisinin elementlərini cazla sintez etmiş, Qərb və Şərq musiqisinin fərqli üslublarını harmonik şəkildə birləşdirərək orijinal kompozisiyalar yaratmışdır.

Musiqi sənətindəki xidmətlərinə görə Rafiq Babayev 1978-ci ildə Əməkdar artist, 1993-cü ildə Xalq artisti fəxri adına layiq görülmüşdür.

1994-cü il martın 19-da Bakı metropoliteninin "20 Yanvar" stansiyasında erməni terrorçuları tərəfindən törədilmiş partlayış nəticəsində Rafiq Babayev faciəli şəkildə həlak olmuşdur.

Onun adı Bakıdakı 25 saylı uşaq musiqi məktəbinə verilmişdir. Görkəmli musiqiçi haqqında "Kədərimiz... Vüqarımız..." (1998) və "Günorta qatarı" (2003) sənədli filmləri çəkilmiş, qızı Fərizə Babayeva və sənətşünas Rauf Fərhadoğlunun müəllifi olduğu "Rafiq Babayev: mövzudan improvizəyə" kitabı hazırlanmışdır.

Ədəbiyyat:

Konsert Rafiq Babayevin xatirəsinə həsr olunub // Azərbaycan.-2025.- 18 may (№ 102).- S.10.

Zamanı qabaqlayan novator bəstəkar / S.Fərəcov // Mədəniyyət.– 2021.– 31 mart.– S.6.

Milli cazın korifeyi / T.Məhərrəmova // Kaspi.– 2024.– 30 mart, № 11.– S.15.

Azərbaycan haqqında etüd [Səsyazma] : kinomusiqi, 1969-1980 /R. F. Babayev. - [Bakı]: Musiqi dünyası, 2014.

Rafiq Babayev [İzomaterial] : [fotoalbom] /Heydər Əliyev Fondu; mətn R. Fərhadov; layihənin koordinatoru P. İsmayılova ; dizayn ALF Design; [Rafiq Babayevin rəhbərliyi ilə instrumental ansambl]. - Bakı: [Çaşıoğlu], 2011. - 94, [2] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Rafiq_Babayev

https://525.az/news/55321-rafiq-babayev-konsertle-anilib

Ağadadaş Qurbanov – 115

(1911-1965) *Aktyor*



Ağadadaş Gülməmməd oğlu Qurbanov 1911-ci il martın 8-də Bakının Saray kəndində anadan olmuşdur. Uşaqlıqda valideynlərini itirmiş, əmisinin himayəsində böyümüşdür. Erkən yaşlarından incəsənətə, xüsusilə teatra böyük maraq göstərmişdir. Onun səhnə fəaliyyəti 1927-ci il martın 15-də "Dənizçilər klubu"nda Lətif Kərimlinin "Fırtına" pyesi əsasında hazırlanan tamaşada başlamışdır. Bu tamaşanı məktəblilər səhnələşdirmiş və onun ifasında ilk teatr təcrübəsi yaranmışdır. Həmin tamaşa ilə Bakıda Fəhlə Uşaqlar Teatrının (sonralar Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı) əsası qoyulmuşdur.

Ağadadaş Qurbanov 1927-1952-ci illərdə Gənc Tamaşaçılar Teatrında fəaliyyət göstərmişdir. Burada o, C. Cabbarlının "Aydın"ında Aydın, M.F. Axundzadənin "Molla İbrahimxəlil kimyagər"ində Molla İbrahimxəlil, N. Vəzirovun "Hacı Qəmbər"ində Hacı Qəmbər, F. Şillerin "Qaçaqlar"ında Karl Moor, N. Qoqolun "Müfəttiş"ində Xlestakov, R. Taqorun "Əfilər" əsərində Qaneş kimi bir sıra obrazları yüksək peşəkarlıqla yaratmışdır.

1952-ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında fəaliyyət göstərmişdir. Bu teatrın səhnəsində onun yaratdığı Mirzə Səməndər, Əbu Übeyd, Ötgün (C. Cabbarlının "Almaz", "Od gəlini", "Dönüş"), Şeyx Mərvan, Şeyx Sənan, Səyavuş (H. Cavidin "Şeyx Sənan", "Səyavuş"), Kamillo (V. Şekspirin "Qış nağılı"), İbrahimxan və Vaqif (S. Vurğunun "Vaqif"), Şults ("Uzaq sahillərdə", İ. Qasımov və H. Seyidbəyli), İvanov ("Göz həkimi", İ. Səfərli), Dəmirçi Musa ("Toy", S. Rəhman), Yəhudi (V. Hüqonun "Mariya Tüdor"), Professor Mudrov ("Şirvan gözəli", Ə. Məmmədxanlı), Akif (M. İbrahimovun "Həyat") və digər onlarca obraz milli teatr sənətinin parlaq səhifələrini təşkil etmişdir.

Ağadadaş Qurbanov kino sahəsində də fəaliyyət göstərmişdir. 1941-ci ildə "Səbuhi", 1956-cı ildə "Şamdan bəy", 1957-ci ildə "Qızmar günəş altında", 1959-cu ildə "Bir qalanın sirri", 1960-cı ildə "Koroğlu", 1961-ci ildə "Bizim küçə", "Kölgələr sürünür", 1965-ci ildə "Arşın mal alan" və digər filmlərdə maraqlı obrazlar yaratmışdır. Xüsusilə Kamil Rüstəmovun O. Draqunun "İtə çevrilən adam" əsəri əsasında ekranlaşdırdığı "Zənçirlənmiş adam" filmindəki Alvardo obrazı tamaşaçı yaddaşında silinməz iz qoymuşdur.

Azərbaycan teatr sənətinin inkişafındakı xidmətlərinə görə Ağadadaş Qurbanov 1943-cü il iyunun 17-də "Əməkdar artist", 1954-cü il fevralın 27-də isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. O, həmçinin "Şərəf nişanı" ordeni və müxtəlif medallarla təltif edilmişdir.

Görkəmli aktyor 1965-ci il iyunun 25-də Salyan rayonunda mehmanxananın eyvanının uçması nəticəsində ağır xəsarət alaraq vəfat etmişdir. Bakı şəhərində Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ağadadaş Qurbanov Azərbaycan aktyor sənətinin inkişafında mühüm rol oynamış, teatr və kino tariximizdə silinməz iz qoymuş sənətkardır. Onun həyat və yaradıcılığı yeni nəsillər üçün həm sənət məktəbi, həm də mədəni irs nümunəsidir.

Ədəbiyyat:

Burcəliyev, A. Bir sənətkar ömrünün elmi araşdırması: İmran Axundovun "Ağadadaş Qurbanov" monoqrafiyası" haqqında düşünərkən / Anar Bürcəliyev // Hürriyyət.– 2022.– 14 iyun.– S.15.

Axundov, İ. Ağadadaş Qurbanovun Bakı Uşaq Teatrının yaranmasında rolu / İmran Axundov // Hürriyyət. - 2022. - 2 avqust.- S.12.

Əmirli, Ş. Kino və şəxsiyyət: Ağadadaş Qurbanov-110 / Şşhla Əmirli // Mədəniyyət.– 2021.– 5 mart.– S.7.

Axundov, İ. Ağadadaş Qurbanov və Cəfər Cabbarlı dramaturgiyası / İmran Axundov // Hürriyyət.– 2020.– 24-25 sentyabr.– S.14.

Axundov, İ Ağadadaş Qurbanov və Abdulla Şaiq dramaturgiyası: Bakı Uşaq Teatrına Azərbaycan Xalq Maarif Komissarlığının əmri ilə 1936-cı il iyun ayının 18-dən etibarən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı adı verildi / İ. Axundov // Hürriyyət.-2020.- 29-31 avqust.- S.13.

İnternetdə:

https://az.wikipedia.org/

MART

8

İradə Həsənova - 70

(1956)

Aktyor



Ədəbiyyat:

İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 7 may 2021-ci il // Azərbaycan.-2021.- 8 may.- S.7.

İradə Aslan qızı Həsənova 1956-cı il mart ayının 8-də Gəncə şəhərində anadan olmuşdur. O, 1977-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram və kino aktyorluğu fakültəsini bitirmişdir.

Yaradıcılıq fəaliyyətinə Sumqayıt Dövlət Musiqili Dram Teatrında başlamış, burada Cəfər Cabbarlının "Almaz" və "Vəfalı Səriyyə" əsərlərində Almaz və Səriyyə, Ə.Əylislinin "Bağdada putyovka var" pyesində Kama, S.S.Axundovun "Tamahkar" əsərində Məryəm, Anarın "Adamın adamı" əsərində isə Balaxanım rolları ilə çıxış etmişdir.

1990-cı ildən İradə Həsənova Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktrisasıdır. Burada müxtəlif üslub və xarakterli obrazlar yaratmışdır. Onun səhnə rolları sırasında Amella (F.Lorka, "Dişi canavar"), Zivər (C.Məmmədquluzadə, "Anamın kitabı"), Qaraqoyunlu bibi və Luiza (Ə.Əmirli, "Ağqoyunlular və Qaraqoyunlular", "Mesenat"), Banuçiçək (B.Vahabzadə, "Özümüzü kəsən qılınc"), İnci (C.Cabbarlı, "Ədirnə fəthi"), Falçı (X.Qoca, "Hərənin öz payı"), Paolina (N.Hikmət, "Kəllə"), Kokola (O.İoseliani, "Kaş araba aşmamayaydım"), Məşədi Zeynəb (C.Məmmədquluzadə, "Dəli yığıncağı") kimi parlaq obrazlar vardır.

İradə Həsənova həmçinin televiziya və kino sahəsində də fəaliyyət göstərmişdir. "Unudulan adam", "Qu quşunun məhəbbəti" televiziya tamaşalarında, eləcə də "Kişi sözü" (1987), "Ah məhəbbət, məhəbbət", "Unudulan adam" (1987), "Yurd yeri" (1997), "Qırmızı qar" (1998), "Nə gözəldir bu dünya…" (1999) filmlərində maraqlı və xarakterik obrazlar yaratmışdır.


Aktrisanın sənət uğurları dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 2002-ci ildə ona Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı verilmişdir. O, həmçinin 2019, 2020 və 2021-ci illərdə Prezident Mükafatına layiq görülmüşdür.

11

Elxan Şeyxov - 75

(1951)

Aktyor



Ədəbiyyat:

İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 10 may 2007-ci il // Mədəniyyət.- 2007.- 18 may.- S. 2.

Elxan Cəfər oğlu Şeyxov 1951-ci il mart ayının 11-də Naxçıvan şəhərində anadan olmuşdur. O, 1974-cü ildən etibarən Naxçıvan Dövlət Musiqili Dram Teatrında aktyor kimi yaradıcılıq fəaliyyətinə başlamışdır.

Elxan Şeyxov teatr səhnəsində müxtəlif janrlı əsərlərdə parlaq obrazlar yaratmışdır. Onun ifa etdiyi rollar sırasında Sadi bəy (Nazim Hikmət, "Bayramın birinci günü"), Məhəmməd xan (N. Nərimanov, "Nadir şah"), Leonardo (P. Messina, "Sükut divarı"), Miri bəy (M. Cəlal, "Dirilən adam"), Möhnət (K. Ağayeva, "Məhsəti"), Sərvər (Ü. Hacıbəyov, "O olmasın, bu olsun") və digər 100-dən artıq obraz vardır.

Onun yaradıcılığı həm tamaşaçılar, həm də teatr ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. Elxan Şeyxov 2007-ci ildə Prezident mükafatçısı olmuş, 2008-ci ildə isə Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşdür.


Elxan Cəfər oğlu Şeyxov Azərbaycan teatr sənətinin inkişafında, xüsusilə Naxçıvan teatr mühitində əvəzsiz xidmətləri olan, çoxşaxəli obrazları ilə tamaşaçı yaddaşında iz qoyan görkəmli aktyordur.

MART
15

Əlihüseyn Qafarlı - 115

(1911-1961)

Aktyor



Əlihüseyn Əbdülrəhim oğlu Qafarlı 1911-ci il mart ayının 15-də Bakıda anadan olmuşdur. O, yeddiillik təhsil aldıqdan sonra, on altı yaşında Bakı Dənizçilər Evinin nəzdində fəaliyyət göstərən dram dərnəyinə üzv olmuşdur. Əlihüseyn Qafarlı 1929-cu ilin payız mövsümündə Bakı Türk İşçi Teatrının truppasına qəbul edilmişdir.

1933-cü ildə teatr kollektivinin Gəncəyə köçürülməsi ilə əlaqədar olaraq o, Gəncə Dövlət Dram Teatrında fəaliyyətini davam etdirmiş və burada on ilə yaxın çalışmışdır. 1942-ci ildən ömrünün sonuna qədər (qısa fasilələrlə) Azərbaycan Dövlət Musiqili Komediya Teatrında aktyor kimi çıxış etmişdir.

Əlihüseyn Qafarlının teatr yaradıcılığı əsasən musiqili komediya janrında zəngin və yaddaqalan obrazlarla səciyyələnir.

Əlihüseyn Qafarlı səhnədə çoxsaylı xarakterik obrazlar yaratmışdır. Onun ifa etdiyi rollar arasında Quluş bəy ("Ürəkçalanlar", M.S.Ordubadi – F.Əmirov), Muradxan bəy ("Əlli yaşında cavan", Z.Hacıbəyov), Mərcan bəy, Soltan bəy, Məşədi İbad ("Ər və arvad", "Arşın mal alan", "Məşədi İbad", Ü.Hacıbəyli), Nadir ("Qızılgül", M.Əlizadə – S.Hacıbəyov), Dursun ("Durna", S.Rüstəm – S.Rüstəmov), Filippo ("Bayadera", İ.Kalman, tərc. S.Rəhman), Əlimərdan ("Gözün aydın", M.Əlizadə – F.Əmirov), Gülümsərov ("Ulduz", S.Rəhman – S.Ələsgərov), Hacı Qara ("Hacı Qara", M.F.Axundzadə əsasında, Ş.Bədəlbəyli, V.Adıgözəlov – R.Mustafayev), Dilavərzadə ("Rəisin arvadı", M.Əlizadə – S.Rüstəmov), Mətləb Talıbov ("Bir dəqiqə", M.Əlizadə – H.Xanməmmədov), Kərbəlayı Hüseynəli ("Beş manatlıq gəlin", M.S.Ordubadi – S.Rüstəmov) və Qasiyana ("Tiflis nəğməsi", L.Cubabiriya – Ş.Milorava, A.Babayev) xüsusilə diqqətəlayiqdir.

Onun yaradıcılığında Məşədi İbad obrazı xüsusi əhəmiyyət kəsb etmiş, bu rol aktyorun səhnə fəaliyyətində ən yaddaqalan nailiyyətlərdən biri olmuşdur.

Aktyorun sənət xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1959-cu ildə "Şərəf nişanı" ordeni və 1960-cı ildə Azərbaycan SSR-in "Əməkdar artist"i fəxri adına layiq görülmüşdür.

Əlihüseyn Əbdülrəhim oğlu Qafarlı 1961-ci il oktyabrın 5-də Bakıda vəfat etmişdir.

Əlihüseyn Qafarlı janr diapazonuna görə çevik aktyor olmuş, dramdan komediyaya, musiqili tamaşadan klassik səhnə əsərlərinə qədər geniş spektrdə uğurlu çıxışlar göstərmişdir. Onun səhnə üslubu xarakterin daxili dünyasını dərinliklə əks etdirməsi, emosional təhlil və tamaşaçı ilə canlı ünsiyyət yaratması ilə seçilmişdir.

Əlihüseyn Qafarlı Azərbaycan musiqili teatr sənətində özünəməxsus yeri olan aktyor olmuş, yaratdığı çoxsaylı xarakterik obrazları ilə tamaşaçı rəğbəti qazanmışdır. Xüsusən də Məşədi İbad rolunun ifası ilə sənət tarixinə düşmüş, Azərbaycan teatrının inkişafına mühüm töhfə vermişdir.

Ədəbiyyat:

Rəhimli, İ. Azərbaycan Teatr Ensiklopediyası: üç cilddə / İlham Rəhimli; layihənin rəhb. Ə. M. Qarayev [ön söz]; red. hey.: T. İ. Əfəndiyev [və b.] ; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. - C. 1 : A, B, C, Ç, D, E, Ə. - Bakı, 2016. - S. 352-353.

İnternetdə:

https://az.baku-art.com/az/komik-obrazlarin-mahir-ifach-s-elihuseyn-qafarl

https://az.wikipedia.org/wiki/%C6%8Flih%C3%BCseyn_Qafarl%C4%B1

MART
15

Əyyub Haqverdiyev – 115

(1911-1996)

Aktyor



Əyyub Məmmədəli oğlu Haqverdiyev 1911-ci il martın 15-də Naxçıvanda anadan olmuşdur. 1930-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirmişdir. Tələbəlik illərindən başlayaraq C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında aktyor kimi fəaliyyət göstərmiş və ömrünün altmış ilə yaxın dövrünü səhnəyə həsr etmişdir.

Əyyub Haqverdiyev müxtəlif səpkili rollarda uğurlar qazanmış, lakin yaradıcılığı xüsusilə komik personajların ifasında daha ifadəli olmuşdur. Onun teatr sahəsindəki yaradıcılığı xarakter əlvanlığı və janr müxtəlifliyi ilə seçilmişdir.

Əyyub Haqverdiyev teatr və musiqili səhnədə Dövlət bəy, İmamverdi, Əmirqulu, Aqşin, Mazandaranski, Şərif, Məmmədəli bəy ("Aydın", "1905-ci ildə", "Yaşar", "Od gəlini", "Oqtay Eloğlu", "Almaz", "Sevil", C.Cabbarlı), Serqo ("Şeyx Sənan", H.Cavid), Kürd Musa, Xosrov ("Vaqif" və "Fərhad və Şirin", S.Vurğun), Mehdi ("Qaçaq Nəbi", S.Rüstəm), Pardon Qurbanəli ("Həyat", M.İbrahimov), Qoca Moor ("Qaçaqlar", F. Şiller), Əhməd İqəm ("Adamın adamı", Anar), Taveriya ("Sevilya ulduzu", Lope de Veqa), Məşədi Oruc ("Ölülər", C.Məmmədquluzadə), Məmiş ("İtirilmiş sağlıq", H.İbrahimov) obrazlarını yaratmış, həmçinin Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" (Məcnunun atası), "Əsli və Kərəm" (Keşiş) operalarında, "Məşədi İbad" (Məşədi İbad) və "Arşın mal alan" (Vəli) operettalarında, Şıxəli Qurbanov və Süleyman Ələsgərovun "Olmadı elə, oldu belə" (Alanzadə), "Özümüz bilərik" (Bəbirli), Məhərrəm Əlizadə və Fikrət Əmirovun "Gözün aydın" (Qəhrəman), Süleyman Rüstəm və Səid Rüstəmovun "Durna" (Dursun) musiqili komediyalarında səhnə obrazlarını yüksək ustalıqla ifa etmişdir.

Əyyub Haqverdiyev Azərbaycan teatrının görkəmli aktyoru olmaqla yanaşı, 1948-1950-ci illərdə Naxçıvan MSSR Ali Sovetinin deputatı olmuşdur.

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə 17 iyun 1943-cü ildə Əyyub Haqverdiyev "Əməkdar artist", 14 oktyabr 1964-cü ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşd, "Əməkdə fərqlənməyə görə", "Əmək igidliyinə görə" medalları və "Mədəniyyət əlaçısı" döş nişanı ilə təltif edilmişdir.

Əyyub Məmmədəli oğlu Haqverdiyev 1996-cı il iyun ayının 12-də Naxçıvanda vəfat etmişdir.

Ədəbiyyat:

Vəzirov, C. Güldürən-ağladan / C. Vəzirov, C. - Naxçıvan, 1998

İnternetdə:


https://az.wikipedia.org/wiki/%C6%8Fyyub_Haqverdiyev

MART
19

Ələkbər Seyfi - 125

(1901-1977)

Aktyor



Ələkbər Seyfulla oğlu Seyfi 1901-ci il martın 19-da Tiflisdə anadan olmuşdur. Teatrla tanışlığı gənc yaşlarından başlamış, 13 yaşında – 1914-cü ilin əvvəllərində – Tiflisdə Hüseyn Ərəblinski və Əbülfət Vəlinin iştirakı ilə səhnəyə qoyulmuş Şəmsəddin Saminin "Dəmirçi Gavə" tamaşasında Bəhram rolunu ifa etmişdir. 1918-ci ilə qədər səhnə fəaliyyəti əsasən dram dərnəklərində çıxış etməklə məhdudlaşmış, Tiflisdə "İbrət" dram cəmiyyətinin yaradılmasında yaxından iştirak etmiş və həvəskar aktyor kimi komik rollarda çıxış etmişdir.

"İttihad" və "İbrət" cəmiyyətlərinin birləşməsindən sonra yeni truppada idarə heyətinə Əlimirzə Nərimanov, İsmayıl Həqqi və Ələkbər Seyfi daxil edilmişdir. 1921-ci ildə Gürcüstanda Sovet hakimiyyəti qurulduqdan sonra Tiflis Dövlət Türk Dram Teatrı açılmış və Ələkbər Seyfi burada fəaliyyətə başlamışdır. 1922-ci ildə Türkiyəyə, 1926-cı ildə isə Orta Asiyaya gastrol səfərlərində iştirak etmişdir. 1922-1929-cu illərdə Tiflis Teatrında müdir müavini vəzifəsində işləmiş, həmçinin "Yeni fikir" qəzetində şöbə müdiri və tərcüməçi, "Dan ulduzu" jurnalında isə tərcüməçi kimi fəaliyyət göstərmişdir. 1928-ci ildə yeni Azərbaycan əlifbası komitəsinə üzv seçildiyi üçün bir müddət teatrdan ayrı qalmışdır.

1929-cu ilin əvvəllərində Məmmədsadıq Əfəndiyev və Mustafa Quliyev tərəfindən Bakı Türk İşçi Teatrına dəvət edilmiş, həmin ilin iyununda Bakıya köçərək aktyor kimi işə başlamış, bir ay sonra ədəbi hissə müdiri, daha sonra bədii hissə üzrə direktor müavini olmuşdur. 1930-1931-ci il mövsümündən başlayaraq teatrın direktoru vəzifəsini icra etmişdir. 1932-ci ildə Bakı İşçi Teatrı Gəncəyə köçürüldükdə Ələkbər Seyfi də truppa ilə birlikdə gedərək yaradıcılığını davam etdirmiş, 1938-ci ilin fevralına qədər bu teatrın direktoru olmuşdur. 1938-ci ilin fevralında həbs edilərək Sibirə sürgün olunmuş, 1956-cı ildə bəraət alaraq yenidən Gəncə Dövlət Dram Teatrına qayıtmışdır. Burada 1956-1962-ci illərdə aktyor, 1962-1965-ci illərdə isə direktor kimi fəaliyyət göstərmişdir.

Ələkbər Seyfi həm aktyor, həm də tərcüməçi kimi teatr üçün əhəmiyyətli işlər görmüşdür. O, Rabindranat Taqorun "Fəlakət" romanı üzrə səhnələşdirilmiş "Qanq qızı", Lope de Veqanın "Kələkbaz sevgili", Gilyerme Fiqeyredonun "Tülkü və üzüm", Fridrix Şillerin "Qaçaqlar" və "Məkr və məhəbbət", Aleksandr Yujinin "Qızıl quş və qarğa", Vasili Şkvarkinin "Özgə uşağı", Arkadi Vasilyevin "Uzadılmış ezamiyyət", Hüseyn Muxtarovun "Şeytan nəsli", Viktor Rozovun "Sabahın xeyir", Bertolt Brextin "Üç qəpiklik opera", Georgi Mdivaninin "Konsulu oğurlayırlar" və digər əsərləri Azərbaycan dilinə tərcümə etmiş və həmin pyeslərin səhnələşdirilməsini həyata keçirmişdir.

O, həmçinin bir neçə ekran obrazını da ifa etmişdir. "Azərbaycanfilm" kinostudiyasında "Səhər" (mürəttib), "Qanun naminə" (qoca kəndli), "Uşaqlığın son gecəsi" (İsmayıl dayı) və "Mən ki gözəl deyildim" (hesabdar) filmlərində çəkilmişdir.

Ələkbər Seyfi Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə 1958-ci il mayın 20-də "Əməkdar artist", 1961-ci il dekabrın 14-də isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Ələkbər Seyfulla oğlu Seyfi 8 dekabr 1977-ci ildə Kirovabadda (indiki Gəncə) vəfat etmiş, Gəncənin Bağbanlar məhəllәsindəki fəxri xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat:

Rəhimli, İ. Azərbaycan Teatr Ensiklopediyası: üç cilddə / İlham Rəhimli; layihənin rəhb. Ə. M. Qarayev [ön söz]; red. hey.: T. İ. Əfəndiyev [və b.] ; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. - C. 1 : A, B, C, Ç, D, E, Ə. - Bakı, 2016. - S. 339-340.

Rəhimli, İ. Azərbaycan teatr tarixi: dərslik / İlham Rəhimli; elmi red. Timuçin Əfəndiyev. - Bakı: Çaşıoğlu, 2005. - S. 362-363.

Sibirdə Cavidlə eyni kamerada qalan aktyor / A.Burcəliyev // Xalq qəzeti.– 2024.– 6 fevral, № 25.– S.10.

Burcəliyev, A. Sənət fədailəri və ya unudulmağa məhkum olanlar: Xalq artisti Ələkbər Seyfi / Anar Bürcəliyev // Ədalət.-2019.- 6 fevral.- S.5.

Bayramov, A. Teatr tariximizdən: Ələkbər Seyfi / AdilxanBayramov // Mədəniyyət.-2012.- 14 dekabr.- S. 12.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C6%8Fl%C9%99kb%C9%99r_Seyfi

Ağəli Dadaşov – 120

(1906-1973)

Kinorejissor



Ağəli Abbasəli oğlu Dadaşov 1906-cı il martın 20-də Bakıda anadan olmuşdur. 1923-cü ildə N. Nərimanov adına Sənaye Texnikumuna daxil olmuş, 1926-1929-cu illərdə Mirzə Fətəli Axundzadə adına Bakı Teatr Məktəbində təhsil almış, 1930-1935-ci illərdə isə Moskvada Lunaçarski adına Ümumittifaq Teatr İnstitutunun rejissorluq fakültəsini bitirmişdir.

1935-ci ildə Akademik Milli Dram Teatrında işləməyə başlayan Ağəli Dadaşov 1936-1938-ci illərdə burada "Almas" və "Vətən namusu" əsərlərinin quruluşunu vermişdir. 1938-ci ildə həbs edilərək ailəsi ilə birlikdə Orta Asiyaya sürgün olunmuş, həmin il yenidən Azərbaycana qayıtmışdır.

1938-1948-ci illərdə Gəncə Dövlət Dram Teatrında, 1948-ci ildə isə Naxçıvan Dövlət Dram Teatrında rejissorluq etmişdir. Bakıya qayıtdıqdan sonra M. Qorki adına Gənc Tamaşaçılar Teatrında 1948-1954-cü illərdə quruluşçu rejissor, 1954-1956-cı illərdə isə baş rejissor vəzifəsində çalışmışdır. 1956-1968-ci illərdə Azərbaycan Dövlət Radio Verilişləri və Televiziya Komitəsində baş rejissor işləmişdir.

Ağəli Dadaşov 1968-1973-cü illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda aktyor və rejissorluq sənətindən dərs demiş, həmçinin Opera və Balet Teatrında, Ağdam Dövlət Dram Teatrında rejissor və bədii rəhbər, Pionerlər Evində bədii rəhbər, İncəsənət İşləri İdarəsində teatr şöbəsinin rəisi kimi fəaliyyət göstərmişdir. Bir müddət Bakı kinostudiyasında rejissor və rejissor assistenti işləmişdir.

Ağəli Dadaşov Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə 1959-cu il iyulun 29-da "Əməkdar artist" fəxri adına layiq görülmüşdür.

Ağəli Abbasəli oğlu Dadaşov 7 dekabr 1973-cü ildə Bakıda vəfat etmişdir.

Ağəli Abbasəli oğlu Dadaşov Azərbaycan teatrının görkəmli rejissoru, aktyoru və pedaqoqu olmuş, ömrünü teatr və mədəniyyət sahəsinin inkişafına həsr etmişdir.

Ədəbiyyat:

Kazımzadə, A. Bizim "Azərbaycanfilm". 1923–2003-cü illər / Aydın Kazımzadə.. Bakı, 2004.- S. 95.

Rəhimli, İ. Azərbaycan Teatr Ensiklopediyası: üç cilddə / İlham Rəhimli; layihənin rəhb. Ə. M. Qarayev [ön söz]; red. hey.: T. İ. Əfəndiyev [və b.] ; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. - C. 1 : A, B, C, Ç, D, E, Ə. - Bakı, 2016. - S. 95.

Azəri, L. O, gənc aktyorlara gələcəyin sənətkarları kimi baxırdı...: Ağəli Dadaşov-115 / Lalə Azəri // Mədəniyyət.– 2021.– 2 aprel.– S.5.

İnternetdə:


https://az.wikipedia.org/wiki/A%C4%9Fa%C9%99li_Dada%C5%9Fov

https://az.baku-art.com/az/o-genc-aktyorlara-gel-c-yin-s-n-tkarlari-kimi-bax-b

Kazım Ziya – 130

(1896-1956)

Aktyor



Kazım Cəfər oğlu Kazımzadə (Kazım Ziya) 1896-cı il martın 21-də Ordubad rayonunun Yuxarı Əylis kəndində anadan olmuşdur. Yeniyetmə yaşlarından ərəb və fars dillərini mənimsəmiş, sonralar isə rus və fransız dillərini öyrənmişdir. 1911-ci ildə əmisi Hüseynin ailəsi ilə Bakıya köçmüş, 1912-ci ilin payızında isə "İttihad" İran gimnaziyasına daxil olmuşdur. Məktəbdə ədəbiyyat dərnəyi yaratmış, 1914-cü ildə Hüseyn Ərəblinski başda olmaqla teatr fədailəri tərəfindən xeyriyyə məqsədilə Ə.Haqverdiyevin "Bəxtsiz cavan" faciəsi tamaşaya qoyulmuş və bu hadisə Kazım Ziyanın teatr sənəti ilə tanışlığına səbəb olmuşdur.

Milli Dram Teatrının tamaşalarında fəal iştirak etsə də, truppanın ştatına yalnız 1922-ci ildə daxil edilmişdir. Bir müddət Naxçıvana gedən Kazım Ziya 1925-ci ildə Bakıya qayıdaraq Bakı Türk İşçi və Kəndli Teatrının truppasına daxil olmuşdur. 1933-cü ildə teatr Gəncəyə köçərkən o da kollektivdən ayrılmamışdır. 1936-1938-ci illərdə Tiflisdə və İrəvandakı dövlət teatrlarında aktyorluq etmiş, 1938-ci ildə Bakıya qayıdaraq Milli Dram Teatrının truppasına daxil olmuşdur.

Kazım Ziya həm faciə, həm də məhəbbət qəhrəmanlarını və xeyirxah insan obrazlarını ifa etmiş, mürəkkəb xarakterli rollarda böyük sənət nailiyyətləri qazanmışdır. Səlis səhnə danışığı, aydın və məftunedici diksiyası, yüksək səhnə mədəniyyəti, geniş dünyagörüşü və zəngin mütaliəsi onun bütün teatrlarda kollektivin rəğbətini qazanmasına səbəb olmuşdur.

Milli Dram Teatrında yaratdığı əsas rollar Arif, Dərviş ("İblis" və "Şeyx Sənan", Hüseyn Cavid), Vaqif Söhbət ("Vaqif" və "Xanlar", Səməd Vurğun), Surxay, Usta Segah ("Toy" və "Xoşbəxtlər", Sabit Rəhman), Piri baba ("Eşq və intiqam", Süleyman Sani Axundov), Şeyx Nəsrulla ("Ölülər", Cəlil Məmmədquluzadə), İmamyar, Xaspolad ("Yaşar" və "Oqtay Eloğlu", Cəfər Cabbarlı), Mirzə Həbib, Xan ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Dmitri Petroviç ("İki qardaş", Mixail Lermontov), General Tomson ("Şərqin səhəri", Ənvər Məmmədxanlı), Sərdar Eldarov ("Son gülən", Kondrat Krapiva), Baturin ("O tayda", Anatoli Boryanov), Kastenov ("Bir evin sirri", Tur qardaşları).

O, həmçinin "Bismillah" və "Səbuhi" filmlərində çəkilmiş, L.Tolstoyun "Canlı meyit", H.İbsenin "Cəmiyyət sütunları", V.Sobkonun "İkinci cəbhə arxasında", A.Dümanın "Qanlı qala" ("Nel qülləsinin sirri") və digər əsərləri Azərbaycan dilinə tərcümə etmişdir.

Kazım Ziya 17 iyun 1943-cü ildə birbaşa Azərbaycan SSR-nin "Xalq artisti" fəxri adına layiq görülmüş, 1948-ci ildə "Şərqin səhəri" tamaşasının yaradıcı heyəti ilə birlikdə Stalin mükafatı laureatı və Lenin ordeni sahibinə çevrilmişdir.

Kazım Cəfər oğlu Kazımzadə 20 noyabr 1956-cı ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ordubad rayonunda yerləşən Xalq teatrına onun adı verilmişdir. 2017-ci ildə professor İlham Rəhimli Xalq artisti Kazım Ziyanın zəngin yaradıcılığından bəhs etdiyi "Kazim Ziya" adlı kitabı çap olunmuşdur.

Ədəbiyyat:

Rəhimli, İ. Kazım Ziya / İlham Rəhimli; [baş red. Ü. Məmmədova; buraxıl. məsul S. İsmayılova; dizayner Z. Abbasov]. - Bakı: Şərq-Qərb, 2017. - 159, [1] s.

Qağayı: [dördpərdəli komediya] / A. Çexov; tərc. K. Ziya; [qapaq dizaynı R. Qasım].– [Bakı]: [Qanun], [2021].– 111, [1] s.

Qasımov, C. Kazımzadə Kazım Ziya, yaxud məhbəsdə oynanılmış rol / Cəlal Qasımov // Kredo. -2019.- 30 oktyabr.- S.7.

Böyük səhnənin unudulmaz adı-Kazım Ziya: Həm gözəl aktyor, həm tərcüməçi // Azadlıq.-2012.- 25 aprel.- S.14.

Qasımlı, C. Kazımzadə Kazım Ziya, yaxud məhbəsdə oynanılmış rol: Kazım Ziyanın ilk tamaşalarından biri "Bəxtsiz cavan" olmuşdur. Maraqlıdır ki, "Bəxtsiz cavan" K.Ziyanın təkcə səhnədə deyil, həm də həyatda yol yoldaşı oldu / Cəlal Qasımov//Ədəbiyyat qəzeti .-2019.- 12 oktyabr.- S.28-29.

İnternetdə:

https://anl.az/el/emb/TEATR/aktyorlar/kazim_ziya.htm

MART

28

Sidqi Ruhulla – 140

(1886-1959) *Aktyor, rejissor*



Ruhulla Fətulla oğlu Axundov 1886-cı il martın 28-də (bəzi mənbələrdə 9 aprel) Bakıda anadan olmuşdur. İlk təhsilini molla məktəbində alan Sidqi Ruhulla sonralar Bakıda tacir şagirdi işləmişdir. Səhnəyə ilk dəfə Hüseyn Ərəblinskinin quruluş verdiyi Nəcəf bəy Vəzirovun "Adı var, özü yox" tamaşasında Telli rolunda çıxış etmişdir. Namiq Kamalın "Vətən" dramındakı Sidqi rolunda böyük uğur qazandığı üçün həmin adı öz təxəllüsü kimi götürmüşdür.

Sidqi Ruhulla "Nicat", "Səfa", "Həmiyyət" cəmiyyətlərinin teatr truppalarında, Abbas Mirzə Şərifzadənin rəhbərlik etdiyi "Müsəlman artistləri ittifaqı"nda, Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli qardaşlarının rəhbərliyi altında və Hüseyn Ərəblinskinin müxtəlif teatr dəstələrində müxtəlif rollarda çıxış etmişdir. 1913-cü ildə Moskva teatrlarında təcrübə keçmiş, İranda və Gəncədə "Ərəbli" və "Ərəblinski" imzaları ilə tamaşalar hazırlamış, baş rollarda çıxış etmişdir.

Sidqi Ruhulla İranın Rəşt, Qəzvin və Xoy şəhərlərində ilk teatr təşkilatçısı olmuş, Təbrizdə isə peşəkar teatrın inkişafı məqsədilə "Xeyriyyə" cəmiyyəti yaratmışdır. Daşkənddə Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" (30 dekabr 1916) və "Əsli və Kərəm" (13 yanvar 1917) operalarını yerli özbək və tatar teatr həvəskarları ilə tamaşaya hazırlamışdır. Tiflisdə məşhur bəstəkar Məşədi Cəmil Əlibəyovun "Seyfəlmülük" operasını səhnəyə qoymuşdur.

O, üç yüzdən çox irili-xırdalı rol oynamış, həm ayrı-ayrı truppalarda, həm də dövlət teatrında rejissorluq etmişdir. Azərbaycan klassiklərinin əksər pyeslərində bir neçə quruluşda əsas rolları yaratmışdır. Akademik Milli Dram Teatrının 1948 və 1959-cu il Moskva qastrolları zamanı Sidqi Ruhullanın oyunları dünya şöhrətli rus teatrşünasları tərəfindən yüksək qiymətləndirilmişdir.

Aktyor "Şərqin səhəri" tamaşasındakı Ağalarov roluna görə 1938-ci ildə bir qrup yaradıcı heyətlə birlikdə Stalin mükafatı ilə təltif olunmuşdur.

Azərbaycan teatrının inkişafındakı xidmətlərinə görə 1931-ci ildə "Əməkdar artist", 1938-ci ildə "Xalq artisti", 1949-cu ildə isə SSRİ Xalq artisti fəxri adlarını almışdır.

Ruhulla Fətulla oğlu Axundov 5 may 1959-cu ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat:

Axundov, İ. Sidqi Ruhulla Nəcəfbəy Vəzirovun dramaturgiyasında / İmran Axundov // Hürriyyət.-2022.- 9 avqust.- S.14.

Axundov, İ. Sidqi Ruhulla və Hüseyn Cavid dramaturgiyası / İmran Axundov // Hürriyyət.– 2020.– 8-9 sentyabr.– S.14.

Azərbaycan teatrının inkişafına öz töhfəsini vermiş müqtədir sənətkar: Bu gün Xalq artisti Sidqi Ruhullanın anadan olmasından 135 il ötür // Hərbi And.-2021.- 16 aprel.- S.23.

Axundov, İ. Sidqi Ruhulla və Mirzə Fətəli Axundov dramaturgiyası / İmran Axundov // Hürriyyət.-2020.- 27-28 avqust.- S.11.

İnternetdə:

https://portal.azertag.az/az/node/19809

Hikmət Nəzərli – 60

(1966-1992) *Milli Qəhrəman*



Hikmət Baba oğlu Nəzərli 1966-cı il martın 7-də Bakı şəhərində anadan olmuşdur. 1973-cü ildə Xətai rayonundakı 27 saylı məktəbdə təhsilə başlamış, sonradan ailəsi ilə Daşkəndə köçərək orta təhsilini orada tamamlamışdır. 1982-ci ildə yenidən Bakıya qayıtmış, 1984-1986-cı illərdə Gürcüstanın Duşeti şəhərində kəşfiyyat məktəbində hərbi xidmət keçmişdir.

Ordu sıralarından tərxis olunduqdan sonra Yanğından Mühafizə İdarəsində işləməyə başlamış və eyni zamanda Azərbaycan Politexnik İnstitutuna (indiki ATU) qəbul olmuşdur. Ermənistanın Azərbaycana qarşı təcavüzünə biganə qalmayan Hikmət Nəzərli könüllü olaraq müdafiə batalyonuna qoşulmuş, 1991-ci ilin dekabrında Ağdam istiqamətində döyüşlərə qatılmışdır.

O, döyüşlərdə böyük şücaət göstərmiş, Umudlu kəndinin sakinlərini təhlükəsiz yerə apararkən ağır yaralansa da, sağaldıqdan sonra yenidən cəbhəyə qayıtmışdır. 1992-ci il fevralın 25-26-da Xocalı soyqırımı zamanı idarə etdiyi maşınla mülki insanların xilas edilməsinə nail olmuş, son anda bir neçə silahdaşı ilə meşəyə çəkilmiş və ondan sonra taleyi haqqında heç bir məlumat olmamışdır.

Azərbaycan Respublikası Prezidentinin 9 sentyabr 1992-ci il tarixli 178 saylı Fərmanı ilə Hikmət Baba oğlu Nəzərliyə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Azərbaycanın Milli Qəhrəmanı Hikmət Nəzərlinin xatirəsi xalqımız tərəfindən daim uca tutulur. Onun doğulduğu və yaşadığı yerlərdə adına küçələr və təhsil ocaqları verilmiş, abidə və xatirə lövhələri qoyulmuşdur.

Ədəbiyyat:

Mirzə, M. Hikmət Nəzərli / M.Mirzə // Respublika.– 2022.– 6 mart.– S.15.

Cəbrayılov, Ü. Qanlı fevral / Üzeyir Cəbrayılov; red. Ə. Kəlbəcərli. - Bakı: [s.n.], 2010. - 159, [1] s., [4] v.

Əsgərov, V. "Azərbaycanın Milli Qəhrəmanları" (Yenidən işlənmiş II nəşr) / Vüqar Əsgərov. - Bakı, 2010. - S. 230.

Məsimoğlu, İ. İlk briqadanin ibrətli döyüş dərsləri [Mətn] / İbrahim Məsimoğlu; red. E. Quliyev; [fotoqr. A. Axundov, Ə. Qafarov]. - Bakı: [Təhsil], 2014. - 462, [2] s.:

İnternetdə:

http://milliqahramanlar.az/heroes/122

https://az.wikipedia.org/wiki/Hikm%C9%99t_N%C9%99z%C9%99rli

https://avciya.az/n%C9%99z%C9%99rli-hikm%C9%99t-baba-oglu/

Nurəddin İbrahimov - 75

(1951-1995) *Milli Qəhrəman*



Nurəddin İslam oğlu İbrahimov 1951-ci il martın 16-da Bakı şəhərində anadan olmuşdur. 1969-cu ildə 125 saylı orta məktəbi bitirmiş, 1970-ci ildə isə hərbi xidmətə çağırılmışdır. Ordudan qayıtdıqdan sonra Bakı Aqreqatlar Zavodunun Texniki Nəzarət şöbəsində əmək fəaliyyətinə başlamışdır.

1975-ci ilin iyulunda Baykal-Amur Magistralının tikintisində çalışmaq üçün Rusiyaya getmiş, 1978-ci ildə İrkutsk şəhər Daxili İşlər İdarəsində işə qəbul olunmuşdur. 1981-ci ildə SSRİ Daxili İşlər Nazirliyinin Xabarovsk şəhərində yerləşən Ali Milis məktəbinə daxil olmuş, 1986-cı ildə oranı müvəffəqiyyətlə bitirərək "Əla xidmətə görə" medalı ilə təltif edilmişdir. 1982-ci ildə İrkutskda baş sahə inspektoru, 1988-ci ildə isə Cinayət Axtarışı Şöbəsinin rəisi vəzifəsində çalışmışdır. 1989-cu ildə İrkutsk Şəhər Sovetinə deputat seçilmişdir.

1990-cı ildə Vətənə qayıdan Nurəddin İbrahimov Laçın Rayon Daxili İşlər Şöbəsinə sahə müvəkkili göndərilmiş, burada gedən döyüşlərdə iştirak etmişdir. Bir döyüşdə yaralanaraq hospitalda müalicə alsa da, yenidən xidmətə qayıtmışdır. 1991-ci ildən Bakıda fəaliyyətini davam etdirmiş, lakin cəbhə bölgələrinə tez-tez səfər edərək döyüşçülərə köməklik göstərmişdir. 1993-cü ildə Kosalar kəndi və Cəbrayıl uğrunda gedən döyüşlərdə göstərdiyi şücaətə görə polis mayoru rütbəsinə yüksəlmişdir.

Nurəddin İbrahimov 1995-ci il fevralın 10-da Binə qəsəbəsində cinayətkar dəstənin zərərsizləşdirilməsi zamanı qəhrəmancasına həlak olmuşdur. Bakı şəhərinin Buzovna qəsəbə qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 1995-ci il tarixli 424 saylı Fərmanı ilə Nurəddin İslam oğlu İbrahimova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Onun adının əbədiləşdirilməsi məqsədilə Bakı şəhərinin Buzovna qəsəbəsində sindəki küçələrdən birinə və Mədəniyyət evinə qəhrəmanın adı verilmişdir. Həmçinin həmin mədəniyyət evinin qarşısında büstü qoyulmuşdur.

Ədəbiyyat:

Əsgərov, V. Azərbaycanın Milli Qəhrəmanları (Yenidən işlənmiş II nəşr) / Vüqar Əsgərov.- Bakı: "Dərələyəz-M", 2010. - S. 136.

İnternetdə:

https://avciya.az/ibrahimov-nur%C9%99ddin-islam-oglu/

https://shexsiheyet.mia.gov.az/?/az/menu/177/

chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://anl.az/el/emb/MILLI_QEHREMANLAR/qehremanlarimiz/Ibrahimov_Nureddin.pdf

Rafiq Nəsrəddinov – 65

(1961-1992) *Milli Qəhrəman*



Rafiq Hüseyn oğlu Nəsrəddinov 1961-ci il martın 18-də Bakı şəhərində anadan olmuşdur. 1968-1978-ci illərdə Nərimanov rayonundakı 39 saylı orta məktəbdə təhsil almışdır. 1979-cu ildə hərbi xidmətə çağırılmış, 1981-ci ildə tank qoşunlarında xidmətini başa vurduqdan sonra Bakı Dövlət Universitetinə daxil olmuşdur. 1987-ci ildə ali təhsilini müvəffəqiyyətlə başa çatdırmışdır.

1992-ci ildə Səbail rayon Hərbi Komissarlığı tərəfindən Milli Orduya çağırılmışdır. Təcrübəli tankçı kimi cəbhədə iştirak edən Rafiq Nəsrəddinov erməni silahlı birləşmələrinə qarşı döyüşlərdə dəfələrlə igidlik göstərmiş, düşmənə ağır itkilər vermişdir. Qısa müddətdə göstərdiyi şücaətlərə görə tank bölüyünün rəisi vəzifəsinə təyin olunmuşdur. 6 sentyabr 1992-ci ildə Ağdərənin Qızılqaya kəndi uğrunda aparılan döyüşdə qəhrəmancasına şəhid olmuşdur. Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli, 203 saylı Fərmanı ilə baş leytenant Rafiq Hüseyn oğlu Nəsrəddinova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir

Onun oxuduğu 39 saylı orta məktəb qəhrəmanın adını daşıyır, məktəbin həyətində büstü ucaldılmış, yaşadığı binanın üzərinə xatirə lövhəsi qoyulmuşdur.

Ədəbiyyat:

Rafiq Nəsrəddinov / M.Mirzə // Respublika.–2022.– 13 mart.– S.7.

Qəhrəmanlıq zirvəsi / Hacı Q. Camalzadə (tərtibatçı), Ə. Məmmədov (tərtibatçı); red. Ə. Səfabəyli; şeir və zəfərnamələr A. Həsənli; esse və elegiyalar İ. Şükürlü; [Azərb. Resp. Milli Qəhrəmanlarını Tanıtma İB, Vətən Qəhrəmanları Cəmiyyəti].– [Bakı]: Qanun, [2023].– 101, [3] s.

Əsgərov, V. Azərbaycanın Milli Qəhrəmanları / Vüqar Əsgərov; red. İ. Əhmədov; baş məsləhətçi. M. Rəhimov, məsləhətçi. T. Rzayev, E. Səmədov. -Sumqayıt: Dərələyəz-M, 2010. - S. 229.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Rafiq_N%C9%99sr%C9%99ddinov

Əsəd Əsədov - 70

(1956-1991)

Milli Qəhrəman



Əsəd Soltan oğlu Əsədov 1956-cı il martın 22-də Zəngilan rayonunun Turabad kəndində anadan olmuşdur. 1975-ci ildə Mincivan qəsəbə orta məktəbini bitirdikdən sonra Sovet Ordusu sıralarında hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətdən sonra Saratov vilayətinin Krasnokutsk şəhərində yerləşən Təyyarəçilik Məktəbinin mülki aviasiya şöbəsində təhsil almışdır. Daha sonra ABŞ-da ingilis dili kurslarında oxumuş və təhsilini başa vurduqdan sonra Yevlax hava limanında 16 il müddətində pilot kimi fəaliyyət göstərmişdir.

1991-ci il oktyabrın 29-da Əsəd Əsədov AN-2 təyyarəsinin komandiri kimi yeddi nəfərlik uçuş və texniki heyətlə birlikdə Xocalı hava limanına yardım məqsədilə uçuş həyata keçirmişdir. Təyyarə Xanabad kəndi üzərində düşmən tərəfindən güclü atəşə tutulmuş və Əsəd Əsədov heyət üzvləri ilə birlikdə qəhrəmancasına şəhid olmuşdur. Əsəd Soltan oğlu Əsədov doğma Zəngilan rayonunda dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 1992-ci il tarixli, 337 saylı Fərmanı ilə ona ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Zəngilan rayonunda Turabad kənd orta məktəbi və Mincivan qəsəbəsindəki mərkəzi küçələrdən biri qəhrəmanın adını daşıyırdı.

Ədəbiyyat:

Aslan, Q. Əsəd Əsədov / Q.Aslan // Respublika.– 2022.– 20 mart.– S.8.

Əsgərov, V. Azərbaycanın Milli Qəhrəmanları / Vüqar Əsgərov; red. İ. Əhmədov; baş məsləhətçi. M. Rəhimov, məsləhətçi. T. Rzayev, E. Səmədov. -Sumqayıt: Dərələyəz-M, 2010.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C6%8Fs%C9%99d_%C6%8Fs%C9%99dov_(h%C9%99rb%C3%A7i)

https://avciya.az/%C9%99s%C9%99dov-%C9%99s%C9%99d-soltan-oglu/

Murad Mirzəyev – 50

(1976-2016) *Milli Qəhrəman*



Murad Telman oğlu Mirzəyev 1976-cı il martın 31-də Sabirabad rayonunun Muğan Gəncəli kəndində anadan olmuşdur. 1991-1994-cü illərdə C.Naxçıvanski adına Hərbi Liseydə, 1994-1998-ci illərdə isə Türkiyə Ali Hərbi Quru Qoşunları Məktəbində təhsil almışdır.

Murad Mirzəyev bir müddət Gəncədəki "N" saylı hərbi hissədə baş leytenant kimi xidmət etdikdən sonra arzusu ilə Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrində (XTQ) xidmətini davam etdirmişdir. Cəsarəti, peşəkarlığı və yüksək bacarığı nəticəsində briqada komandiri vəzifəsinə qədər yüksəlmiş, dəfələrlə mükafatlandırılmışdır.

Xidmətinin 10-cu ildönümündə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918–2008)" və "95 illiyi (1918–2013)" yubiley medalları, eləcə də "Qızıl Ulduz" medalı ilə təltif olunmuşdur. Ana dili ilə yanaşı türk, rus, ingilis və erməni dillərini mükəmməl bilən Murad Mirzəyev Azərbaycan Ordusunu ölkə xaricində də yüksək səviyyədə təmsil etmişdir.

2005-2007-ci illərdə ABŞ-ın Virciniya ştatında ingilis dili və xüsusi təyinatlılar üçün nəzərdə tutulmuş "Ranger" kursunu yüksək səviyyədə tamamlamış, bu kursu bitirən yeganə azərbaycanlı hərbçi olmuşdur. Daha sonra Türkiyə, Ruminiya, Macarıstan, Yunanıstan və İordaniya Krallığında keçirilən kursları üstün nəticələrlə başa vurmuşdur.

2016-cı il Aprel Döyüşlərində komandiri olduğu qrupla Talış kəndi ətrafındakı yüksəklikləri düşməndən azad edərkən qəhrəmancasına şəhid olmuş, 11 aprel 2016-cı ildə II Fəxri Xiyabanda dəfn edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 19 aprel 2016-cı il tarixli sərəncamı ilə Xüsusi Təyinatlı Qüvvələrin polkovnik-leytenantı Murad Telman oğlu Mirzəyev ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Onun xatirəsini əbədiləşdirmək məqsədilə Bakı şəhərində yaşadığı binaya barelyefi vurulmuşdur. Həmçinin, Bəxtiyar Qaracanın "Bitməyən müharibənin qəhrəmanları" silsiləsindən "Muradına çatmayanlar: apreldən əvvəl və sonra" sənədli filmi çəkilmişdir.

Ədəbiyyat:

Adilqızı, G. Murad ömrü: [bədii-sənədli əsər: toplu: 28-ci kitab] / G. Adilqızı; red. S. Orucoğlu.– Bakı: Elm və təhsil, 2021.– 319, [1] s.

Milli Qəhrəman Murad Mirzəyevin xatirəsi yad edilib // Azərbaycan.– 2022.– 1 aprel.– S.3.

Cəfərli, C. Ömür bahar deyil...: Aprel şəhidlərimizin xatirəsinə ehtiramla / C. Cəfərli // Türküstan.– 2023.– 18 aprel-1 may.– S.13.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/3218

https://avciya.az/mirz%C6%8Fyev-murad-telman-oglu/

MART 1

Rahil Əkbərov - 35

(1991-2020) *MAHHXHQ kiçik çavuş*



Rahil Canəhməd oğlu Əkbərov 1991-ci il mart ayının 1-də Sabirabad rayonunun Ətcələr kəndində anadan olmuşdur.

O, 1998-2009-cu illərdə Ətcələr kənd tam orta məktəbində təhsil almışdır. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, Tovuz rayonunun Əlibəyli kəndində yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir. 2017-ci ildə Müşviq qəsəbəsindəki "N" saylı hərbi hissədə xidmət edərək kiçik çavuş rütbəsi almışdır.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Rahil Əkbərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı manqa komandiri kimi Füzuli, Cəbrayıl, Şuşa rayonları uğrunda gedən döyüşlərdə iştirak etmiş, noyabrın 26-da Hadrut qəsəbəsində ərazinində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, Sabirabad rayonunun Ətcələr kəndində dəfn olunmuşdur.

Rahil Canəhməd oğlu Əkbərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Şahin, Ş. Müharibənin damarını qıran kiçik çavuş /Şahnaz Şahin //Sabirabad şəhidləri /Ş.Şahin.–Bakı, 2021.–S.67-69.

1

Ağasadıq Aslanov - 35

(1991-2020) *Gizir*



Ağasadıq Xəlil oğlu Aslanov 1991-ci il martın 1-də Neftçala rayonunun Kür Qarabucaq kəndində anadan olmuşdur. Orta təhsilini də doğulduğu kənddə almışdır.

Təhsilini başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılmışdır. Xidmət müddətini tamamladıqdan sonra yenidən ordu sıralarına qoşulmuşdur. Hərbi xidməti dövründə göstərdiyi cəsarət və fəallığa görə pilotsuz uçuş aparatlarının idarə edilməsi üzrə xüsusi kursa qəbul edilmiş və bu sahədə peşəkarlıq qazanmışdır.

Azərbaycan Ordusunun giziri olan Ağasadıq Aslanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı pilotsuz uçuş aparatlarının idarə olunmasında xüsusi bacarığı ilə seçilmiş, düşmən mövqelərinin, hərbi texnikasının və canlı qüvvəsinin məhv edilməsində mühüm rol oynamışdır. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Xocavənd və Şuşa rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olmuş, Neftçala rayonunun Kür Qarabucaq kəndində dəfn olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ağasadıq Aslanov "Vətən uğrunda","Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə"-medalları, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

2021-ci ildə Neftçala rayon Kürqarabucaq kəndində Ağasadığ Aslanovun ev muzeyinin açılışı olmuşdur.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

1 MART

Şəhriyar Həmizəyev - 25

(2001-2020)

Əsgər



Şəhriyar Elman oğlu Həmizəyev 2001-ci il mart ayının 1-də Yevlax şəhərində anadan olmuşdur.

Orta təhsil 2008-2018-ci illərdə Yevlax şəhərində almışdır. 2019-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon üzrə Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılmış, "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Şəhriyar Həmizəyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı atıcı kimi Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, oktyabrın 29-da Xocavənd rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirən zaman qəhrəmancasına şəhid olmuşdur. Göygöl rayonunun Murovdağ qəsəbəsinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Şəhriyar Elman oğlu Həmizəyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

1

Asif Qocayev - 35

(1991-2020)

Əsgər



Asif Yolçu oğlu Qocayev 1991-ci il mart ayının 1-də Gəncə şəhərində anadan olmuşdur.

O, orta təhsilini Gəncənin 26 nömrəli tam orta məktəbində almışdır. 2009-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. 2012-ci ildən "Azərbaycan Dəmir yolları" QSC-də çalışmışdır.

Asif Qocayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı qismən səfərbərliklə orduya çağırılmış, Xocavəndin Ağoğlan (Hadrut) qəsəbəsi, Füzuli, Qubadlı və Laçın rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmiş, noyabrın 8-də Şuşa döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Noyabrın 17-də Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Asif Yolçu oğlu Qocayev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

İnternetdə

https://gencesehidleri.az/sehidler/535-qocayev-asif-yolcu-oglu.html

https://www.unudulmazlar.az/az/infom/2683

https://vetensesi.az/page/6/news/23323

MART

1

Sərxan Salahov - 35

(1991-2020)

MAHHXHQ əsgər



Sərxan Həsənqulu oğlu Salahov 1991-ci il mart ayının 1-də Şərur rayonunun Ələkli kəndində anadan olmuşdur. Orta təhsilini Ələkli kənd tam orta məktəbində almışdır

2009-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, komandirləri tərəfindən dəfələrlə təşəkkürnamələr almışdır. 2020-ci ildə müddətdən artıq həqiqi xidmət qulluqçusu olaraq orduda xidmətə başlamışdır.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlısı Sərxan Salahov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavənd, Füzuli rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 28-də yaralanaraq hospitala yerləşdirilmiş, müalicəsini yarımçıq qoyaraq yenidən döyüşlərə qatılmış, noyabrın 2-də Xocavənd döyüşlərində qəhrəmancasına şəhid olmuş, noyabrın 6-da Şərur şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Sərxan Həsənqulu oğlu Salahov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra"Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Mirzəli, S. Sərxan Salahov / Məleykə Mirzəli // Vətən simurqları (II Qarabağ Vətən Müharibəsinin Qəhrəmanları) /Toplayıb nəşrə hazırlayan Almaz Ülvi (Binnətova).– I cild, 2-ci kitab. – Bakı, 2022. –S.437-438.

2

Asim Quliyev - 30

(1996-2020)

Əsgər



Asim Bəkir oğlu Quliyev 1996-cı il mart ayının 2-də Bakı şəhərində anadan olmuşdur.

O, 2002-2011-ci illərdə 107 saylı Bakıxanov qəsəbə tam orta məktəbində, 2011-2013-cü illərdə Sumqayıt şəhərində kompüter ixtisası üzrə kollecdə təhsil almışdır. Orta məktəbdə oxuyarkən boksla məşğul olmuş, Bakı üzrə keçirilən yarışlarda 1-ci, Respublika üzrə keçirilən yarışlarda 2-ci yeri tutmuşdur. Asim Quliyev 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, 2016-cı il aprel döyüşlərində iştirak etmişdir.

Asim Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmiş, Füzuli, Cəbrayıl və Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Oktyabrın 11-də Hadrut döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş, Bakıxanov qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilmişdir.

Asim Bəkir oğlu Quliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

MART

2

Şamil Mirzəyev - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Şamil Afiq oğlu Mirzəyev 1996-cı il mart ayının 2-də Yardımlı şəhərində anadan olmuşdur. O, ilk təhsilini V.Məmmədov adına Yardımlı qəsəbə orta məktəbində almış, səkkiz illik təhsilini başa vurduqdan sonra Lənkəran türk litseyində oxumuş, daha sonra isə bir müddət Rusiya Federasiyasında ali təhsil almışdır.

2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə olmuşdur.

Şamil Mirzəyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı qismən səfərbərliklə orduya çağırılmış, Cəbrayıl, Füzuli, Xocavənd və Şuşa rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Noyabrın 10-da Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, noyabrın 11-də Yardımlı şəhərində dəfn olunmuşdur.

Şamil Afiq oğlu Mirzəyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

3

Şəmsəddin Təhməzov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Şükürov, Ə. Əbədiyyətə qovuşan ömür: Masallı şəhidləri /Əlihüseyn Şükürov //Azad Azərbaycan. –2020.– 29 dekabr.– S.4.

Orucoğlu, Z Qanı ilə tarix yazan qəhrəman Şəmsəddin Təhməzov /Zəfər Orucoğlu //Paralel. –2021.– 28 oktyabr.– S.11.

Şəmsəddin Sərvər oğlu Təhməzov 2001-ci il mart ayının 3-də Masallı rayonunun Güllütəpə kəndində anadan olmuşdur. O, ilk təhsilinə 2007-ci ildə Yeni Zuvand kənd orta məktəbin başlamış, daha sonra təhsilini Beyləqan şəhər 1 nömrəli tam orta məktəbdə davam etdirmişdir. 2016-cı ildə IX sinfi bitirərək əmək fəaliyyətinə başlamışdır.

2019-cu ildə həqiqi hərbi xidmətə çağırılan Şəmsəddin Təhməzov Azərbaycan Silahlı Qüvvələrinin Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir.


Azərbaycan Ordusunun əsgəri olan Şəmsəddin Təhməzov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 7-də döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, oktyabrın 8-də Masallı rayonunun Güllütəpə kənd qəbristanlığında dəfn olunmuşdur.

Şəmsəddin Sərvər oğlu Təhməzov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

3 MART

Rəsul Sadıqov - 25

(2001-2020) *Əsgər*



Rəsul Həşim oğlu Sadıqov 2001-ci il mart ayının 3-də Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı qəsəbəsində anadan olmuşdur. O, 9 yaşından güləşlə məşğul olub, yarışlarda birincilik qazanmışdır.

Rəsul Sadıqov 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmış, Goranboy rayonu, 701 saylı hərbi hissədə minamyot tuşlayıcısı kimi xidmət etmiş, atış üzrə birincilik qazanaraq, fəxri fərmanlar almışdır, Tovuz döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rəsul Sadıqov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Ağdərə, Suqovuşan, Murov yüksəkliyi, Kəlbəcər, Cəbrayıl rayonları uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabr ayının 10-da Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Mehdiabadda Şuşa Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Rəsul Həşim oğlu Sadıqov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

İnternetdə


https://memorial.az/az/qehremanlarimiz/2747

https://unudulmazlar.az/az/infom/1002

4

Ülvi Pənahov - 25

(2001-2020) *Əsgər*



Ülvi Nizami oğlu Pənahov 2001-ci il martın 4-də Bakı şəhərinin Nizami rayonunun Keşlə qəsəbəsində anadan olmuşdur.

O, orta təhsilini Keşlə qəsəbəsində yerləşən 201 nömrəli tam orta məktəbdə almışdır. 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Ülvi Pənahov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Ülvi Pənahov oktyabr ayının 2-də Tərtər rayonu istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş, Nizami rayonunun Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Ülvi Nizami oğlu Pənahov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Mirzə,M. Qısa, şərəfli ömür /M.Mirzə //Respublika.–2022.–11 mart.

MART 4

Vüsal Teymurov - 35

(1991-2020)

Əsgər



Ədəbiyyat:

Tağıyev, A. Şuşa döyüşlərinin qəhrəman şəhidi Teymurov Vüsal /Aydın Tağıyev //Hərbi And. –2022.– 16 dekabr.–S.15.

Məhərrəmov, V. "Son dəfə zəng vuranda dedi ki, ana, Şuşanı azad etməyə gedirik" /V.Məhərrəmov // Azərbaycan. –2023.– 16 noyabr, № 249. –S.10.

Vüsal Zakir oğlu Teymurov 1991-ci il martın 4-də Bakı şəhərində anadan olmuşdur. 1997-2008-ci illərdə Bakı şəhərində T. Məmmədov adına 239 nömrəli tam orta məktəbdə təhsil almış, 2008-2012-ci illərdə Azərbaycan Kooperasiya Universitetinin "Gömrük işinin təşkili" fakültəsində ali təhsilini davam etdirmişdir.

2012-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Vüsal Teymurov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, noyabrın 8-də Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, Bakı şəhərində dəfn edilmişdir.

Vüsal Zakir oğlu Teymurov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunmuşdur.

4

Elbrus Hüseyinov - 35

(1991-2020)

MAHHXHQ baş çavuş



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Elbrus Nadir oğlu Hüseyinov 1991-ci il mart ayının 4-də Göygöl rayonunun Çaykənd kəndində anadan olmuşdur. 1998-2007-ci illərdə Çaykənd kənd ümumi orta məktəbində, 2007-2009-cu illərdə 58 saylı Kəlbəcər məktəbində təhsil almışdır. 2009-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir. 2012-ci ildən Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun baş çavuşu olan Elbrus Hüseyinov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı igidlik və mərdlik göstərərək əməliyyatlarda iştirak etmiş, oktyabrın 19-da Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Elbrus Nadir oğlu Hüseyinov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

MART
4

Ramiz Atakişiyev - 30

(1996-2020)

Əsgər



İnternetdə

https://www.unudulmazlar.az/az/infom/2798

https://memorial.az/az/qehremanlarimiz/2325

Ramiz Rafiq oğlu Atakişiyev 1996-ci il mart ayının 4-də Siyəzən şəhərində anadan olmuşdur.

O, 2002-2013-cü illərdə Siyəzən şəhər 6 saylı tam orta məktəbində təhsil almışdır. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, Naxçıvanda "N" saylı hərbi hissədə xidmət etmişdir.

Ramiz Atakişiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı qismən səfərbərliklə orduya çağırılmış, Füzulidən Şuşaya kimi döyüş yolu keçmişdir. Noyabrın 8-də Şuşa şəhəri uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur, noyabrın 14-də Siyəzən rayonunda dəfn edilmişdir.

Ramiz Rafiq oğlu Atakişiyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra"Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

6

Elnur Bağırov - 30

(1996-2020)

Əsgər



İnternetdə

https://memorial.az/az/qehremanlarimiz/503

https://unudulmazlar.az/az/infom/3363

Elnur Zeynal oğlu Bağırov 1996-cı il mart ayının 6-da Cəlilabad rayonunun Privolnoye kəndində anadan olmuşdur.

O, Cəlilabad rayon Privolnoye kənd 1 saylı tam orta məktəbində təhsil almışdır. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, DİN-in Daxili Qoşunlarının xüsusi təyinatlı dəstəsində heyət nəfəri vəzifəsində xidmət etmişdir.

Elnur Bağırov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 2-də Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, Cəlilabad rayonu, Privolnoye kəndində dəfn edilmişdir.


Elnur Zeynal oğlu Bağırov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra 15.12.2020-ci il tarixdə "Vətən uğrunda" və 29.12.2020-ci il tarixdə "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

MART 6

Elgün Bəyişli - 30

(1996-2020)

MAHHXHQ əsgər



İnternetdə

https://unudulmazlar.az/az/infom/3292

https://memorial.az/az/qehremanlarimiz/1947

Elgün Teyuf oğlu Bəyişli 1996-cı il mart ayının 6-də Beyləqan rayonunun Təzəkənd kəndində anadan olmuşdur.

O, 2003-2012-ci illərdə Əliheydər Məmmədov adına Beyləqan rayon Təzəkənd kənd tam orta məktəbində orta təhsil almışdır. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, Qaradağ rayonunun Səngəçal qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir. 2016-cı ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Elgün Bəyişli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Suqovuşan, Xocavənd, Qubadlı və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, noyabrın 10-da Şuşa şəhərində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Elgün Teyuf oğlu Bəyişli Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

MART 6

İsmayıl Qurbanov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

İsmayıl Yaşar oğlu Qurbanov 2001-ci il martın 6-da Qəbələ rayonunun Böyük Pirəli kəndində anadan olmuşdur. Orta təhsilini doğma kənd məktəbində almış, daha sonra Qəbələ Peşə Məktəbinə qəbul olmuşdur. 2019-cu ilin iyul ayında Azərbaycan Silahlı Qüvvələrinin sıralarında hərbi xidmətə çağırılmışdır

Azərbaycan Ordusunun əsgəri olan İsmayıl Qurbanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. 28 sentyabr 2020-ci ildə Qəbələ rayonunun Soltannuxa kəndində dəfn olunmuşdur.

İsmayıl Yaşar oğlu Qurbanov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

MART

6

Rəvan Məlikov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Rəvan Əliabbas oğlu Məlikov 1996-cü il mart ayının 6-da Kürdəmir rayonunun Şahsevən kəndində anadan olmuşdur. 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmışdırr. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Rəvan Məlikov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 1-də Cəbrayıl rayonunun Rüzügar kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, oktyabrın 2-də Kürdəmir rayonunun Şahsevən kəndində dəfn edilmişdir.

Rəvan Əliabbas oğlu Məlikov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra Rəvan Məlikov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

2021-ci ildə Kürdəmirdə R.Məlikovun adını daşıyan bulağının açılışı olmuş, Coşqun Xəliloğlu şəhidə həsr edilmiş "Qorxmaz Rəvan" adlı şeir yazmışdır.

9

Bəhruz Nəcəfov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Bəhruz Əli oğlu Nəcəfov 1996-cı il mart ayının 9-da Neftçala rayonunun İkinci Qaralı kəndində anadan olmuşdur. Erkən yaşlarında ağır itkilərlə üzləşmiş, uşaq ikən atasını, 12 yaşında isə anasını itirmiş və dayısının himayəsində böyümüşdür. 2003-2011-ci illərdə Qaralı kənd məktəbində orta təhsil almış, 2011-2013-cü illərdə isə Oryad qəsəbəsində yerləşən peşə məktəbində təhsilini davam etdirmişdir. 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmış, Daşkəsən rayonunda xidmət etmişdir.

Bəhruz Nəcəfov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Qubadlı, Cəbrayıl rayonları uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 7-də Cəbrayıl rayonunun "Dostlar bulağı" adlanan yerində gedən döyüşdə qəhrəmancasına şəhid olmuşdur. Oktyabr ayının 9-da Neftçala rayon Qaralı kəndində dəfn olunmuşdur.

Bəhruz Əli oğlu Nəcəfov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

10 MART

Aqif Şahbazov - 35

(1991-2020)

Əsgər



Aqif Hasif oğlu Şahbazov 1991-ci il martın 10-da Saatlı rayonunun Soltanabad kəndində anadan olmuşdur. O, ilk təhsilini Soltanabad kənd orta məktəbində almışdır. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

İsmayıl Qurbanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsinə könüllü olaraq qoşulmuş, Cəbrayıl, Füzuli, Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Aqif Şahbazov oktyabrın 18-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, Soltanabad kəndində dəfn olunmuşdur.

Aqif Hasif oğlu Şahbazov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Məhəmməd Talıbov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Məhəmməd Aydın oğlu Talıbov 1996-cı il martın 10-da Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olmuşdur. O, orta təhsilini Böyük Bəhmənli 1 saylı tam orta məktəbində almışdır. Təhsilini başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılmışdır. Xidmət müddətini tamamladıqdan sonra müddətdən artıq hərbi xidmət qulluqçusu kimi Azərbaycan Ordusunda xidmətini davam etdirmişdir.

Məhəmməd Talıbov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavənd, Füzuli, Cəbrayıl, Şuşa rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 3-də Şuşa şəhəri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuş, Füzuli rayonunun Böyük Bəhmənli kəndində dəfn olunmuşdur.

Məhəmməd Aydın oğlu Talıbov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat

Bəhmənli, Z. Yuxuma gəl, şəhid balam / Zeynəb Bəhmənli; red. Q. Qəbələ.– Bakı: [Red N Line] 2023. 107, [1] s.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/2546

MART
11

Bayram Məmmədov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat

İsmayılov, R. Düşmənə qan udduran kəşfiyyatçı əsgər: Ordudan tərxis olunmasına 3 gün qalsa da, Bayram Məmmədov evə dönməyi deyil, döyüşlərə qatılmağı üstün tutub / Rufik İsmayılov //Kaspi.– 2021.– 6 mart.– S.9.

Bayram Elnur oğlu Məmmədov 2001-ci il martın 11-də Samux rayonunun Qarayeri qəsəbəsində anadan olmuşdur. Orta təhsilini Qarayeri qəsəbə tam orta məktəbində almışdır. 2019-cu il aprelin 2-də Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılmışdır. O, Abşeron rayonunun Pirəkəşkül qəsəbəsində yerləşən "N" saylı hərbi hissənin kəşfiyyat bölüyündə xidmət etmişdir. Xidmət müddətində Bayram Məmmədov hərbi hissə və korpus komandanlığının təşəkkürlərinə, eləcə də diplomlarına layiq görülmüşdür.

Bayram Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd rayonları uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 20-də Füzuli rayonunun Gecəgözlü kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, Samux rayonunun Qarayeri qəsəbəsində dəfn edilmişdir.

Bayram Elnur oğlu Məmmədov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra"Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

İlqar Burcəliyev - 25

11

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Həsənova, Ş. İlqar Bürcəliyev / Şərqiyyə Həsənova, Fəridə Qədimova // Vətən simurqları (II Qarabağ Vətən Müharibəsinin Qəhrəmanları) /Toplayıb nəşrə hazırlayan, redaktor və ön sözün müəllifi: Almaz Ülvi (Binnətova).– I cild, 2-ci kitab. – Bakı, 2022. – S.256–259.

İİlqar Vüqar oğlu Bürcəliyev 2001-ci il martın 11-də Rusiya Federasiyasının Moskva şəhərində anadan olmuşdur. 2007–2009-cu illərdə Xırdalan şəhərinin 2 nömrəli, 2009–2016-cı illərdə Bakı şəhəri Yasamal rayonunun 308 nömrəli, 2017–2018-ci illərdə Gəncə şəhərinin 38 nömrəli, 2018-ci ildə isə yenidən 308 nömrəli tam orta məktəblərində təhsil almışdır.

İlqar Bürcəliyev 2014-2016-cı illərdə "Vətən" Futbol Klubunda, 2016-cı ildə "Kəpəz" Peşəkar Futbol Klubunda çıxış etmişdir. 2016-cı ildən "Zirə" PFK-nın heyətində oynayan gənc futbolçu, 2017-ci ildən etibarən 18 yaşadək futbolçulardan ibarət Azərbaycan yığmasının üzvü olmuşdur.

2019-cu il iyulun 22-də Azərbaycan Silahlı Qüvvələrinə hərbi xidmətə çağırılan İlqar Bürcəliyev Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir

2020-ci ildə başlayan Vətən müharibəsində İlqar Bürcəliyev ön cəbhədə şücaətlə döyüşmüşdür. O, Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə düşmənin çoxsaylı canlı qüvvəsini məhv etmişdir. Sentyabrın 28-də Talış yüksəkliyinin alınması uğrunda gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Sentyabrın 29-da isə Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

MART
12

Rüfət Mustafayev - 30

(1996-2020)

Əsgər



Rüfət Zöhrab oğlu Mustafayev 1996-cı il martın 12-də Sumqayıt şəhərində anadan olmuşdur. 2002-2013-cü illərdə Sumqayıt şəhərində yerləşən 18 nömrəli məktəbdə təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Texniki Universitetinin "Maşınqayırma və robototexnika" fakültəsinə daxil olmuş və 2017-ci ildə ali təhsilini müvəffəqiyyətlə bitirmişdir. Rüfət Mustafayev 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılmışdır. O, Goranboy istiqamətində yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Rüfət Mustafayev ilk gündən Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 9-dan 10-a keçən gecə Suqovuşan istiqamətində gedən şiddətli döyüşlər zamanı idarə etdiyi minik avtomobili ilə minaya düşərək qəhrəmancasına şəhid olmuşdur. Oktyabr ayının 13-də Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Rüfət Zöhrab oğlu Mustafayev hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda","Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" və "Vətən müharibəsi" iştirakçısı medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Yəhyayev, E. Evin tək övladının qəhrəmanlıq yolu / Elşən Yəhyayev // Azərbaycan.– 2022.– 27 sentyabr.– S.13.

12

Qardaşxan Əhmədli - 30

(1996-2020)

Əsgər



Qardaşxan Elxan oğlu Əhmədli 1996-cı il martın 12-də Lənkəran rayonunun Osakücə kəndində anadan olmuşdur. Uşaqlıq illərində ailəsi ilə birlikdə Bakının Binə qəsəbəsinə köçmüşdür.

2004-2013-cü illərdə Rəşid Baxışov adına 218 nömrəli tam orta məktəbdə təhsil almışdır. Məktəbi bitirdikdən sonra 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarına həqiqi hərbi xidmətə çağırılmışdır. Əvvəlcə Gəncə şəhərində, daha sonra isə Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir

Qardaşxan Əhmədli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Ağdam, Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir, noyabrın 7-dən 8-nə keçən gecə Xocavənddə yerləşən Nərgiztəpə istiqamətində gedən döyüşlər zamanı itkin düşmüş, dekabr ayının 19-da şəhid olduğu bilinmişdir. Binə qəsəbəsində yerləşən Şəhidlər xiyabanında dəfn edilmişdir.

Qardaşxan Elxan oğlu Əhmədli Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "3-cü dərəcəli Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Xocavəndin azad olumasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Orucoğlu, Z. Vətənin igid oğlu Qardaşxan / Zəfər Orucoğlu // Unikal.– 2023.–29 dekabr, № 48. – S.13.

MART
13

Rəşad Budaqov - 40

(1986-2020)

Mayor



Rəşad Ramiz oğlu Budaqov 1986-cı il martın 13-də Yevlax şəhərində anadan olmuşdur. 1993-2004-cü illərdə Yevlax şəhərində Qənbər Məhərrəmov adına 4 saylı tam orta məktəbdə təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra 2004-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş, 2008-ci ildə isə buranı bitirərək tankçı ixtisası üzrə ali təhsilli zabit kimi Azərbaycan Ordusunda xidmətə başlamışdır.

Hərbi karyerasına leytenant rütbəsi ilə tağım komandiri kimi başlayan Rəşad Budaqov sonrakı illərdə bölük qərargah rəisi, hərbi hissə komandiri vəzifələrində çalışmışdır. O, daha sonra Yevlax rayonunda yerləşən "N" saylı hərbi hissədə briqada komandirinin maddi-texniki təminat üzrə müavini vəzifəsinə qədər yüksəlmiş, mayor rütbəsi almışdır.

Rəşad Budaqov xidməti dövründə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə təltif edilmişdir.

Mmayor Rəşad Budaqov Vətən müharibəsi zamanı Tapqaraqoyunlu kəndindən döyüşlərə başlamış, Talış kəndinin alınmasında iştirak etmişdir. Ağır döyüşlər zamanı yaralanmasına baxmayaraq, yenidən döyüşlərə qatılmış, Suqovuşan istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Ərazidə şiddətli döyüşlər getdiyindən 3 gündən sonra, sentyabr ayının 30-da neytral ərazidən çıxarılmış, oktyabr ayının 1-də Yevlax şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Rəşad Budaqov 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Əlifoğlu, Ş. Rəşadətli Rəşadın dastan ömrü / Şakir Əlifoğlu // Kredo.– 2022.– 27 aprel.– S.14.

Yusifqızı, Ə. "Özündən muğayat ol, ana..." / Əminə Yusifqızı // 525-ci qəzet.– 2025.– 13 mart (№47).– S.13.

MART
13

Afər Orucov - 30

(1996-2020)

Çavuş



Afər Yafət oğlu Orucov 1996-cı il martın 13-də Quba rayonunun Aşağı Atuc kəndində anadan olmuşdur. 2001-2013-cü illərdə Quba rayon Aşağı Atuc kənd tam orta məktəbində təhsil almışdır. 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. Daha sonra müddətdən artıq hərbi qulluqçu kimi Azərbaycan Daxili Qoşunlarının xüsusi təyinatlı dəstəsində "Çavuş" rütbəsində təlimatçı-istehkamçı vəzifəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun çavuşu olan Afər Orucov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Xocavənd və Şuşa rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Noyabrın 7-də Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Noyabrın 12-də Quba rayonunun Aşağı Atuc kəndində dəfn olunmuşdur.

Afər Yafət oğlu Orucov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

İnternetdə

https://unudulmazlar.az/az/infom/1930

https://yashat.gov.az/hero-birthdays/2234

MART
13

Murad Əliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Murad Hüseyn oğlu Əliyev 13 mart 2001-ci ildə Bakı şəhərinin Binə qəsəbəsində anadan olmuşdur. O, 2007-2016-cı illərdə Binə qəsəbəsində yerləşən 136 nömrəli məktəbdə, daha sonra isə 101 nömrəli Peşə-ixtisas məktəbində təhsil almışdır. Burada tam orta təhsilini başa vuraraq sürücülük ixtisasına yiyələnmişdir. 2019-cu ilin aprel ayında həqiqi hərbi xidmətə çağırılan Murad Əliyev əvvəlcə Ağcabədidə, daha sonra isə Beyləqanda yerləşən 702 nömrəli hərbi hissənin həmlə taborunda xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Murad Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Xocavənd və Şuşa rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, noyabrın 7-də Şuşa şəhəri istiqamətində gedən şiddətli döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş, II Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Murad Hüseyn oğlu Əliyev hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra"Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları, III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

14

Firavan Əsgərov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Şahin, Ş. Xüsusi Təyinatlı Qoşunların Firavanı / Şahnaz Şahin //Sabirabad şəhidləri /Ş.Şahin.–Bakı, 2021.–S.115-117.

Vətən müharibəsində çoxlu sayda erməni məhv edən 19 yaşlı Firavan Əsgərovun döyüş yolu // Azərbaycan ordusu.– 2021.–14 iyul.– S.7.

Firavan Xanbala oğlu Əsgərov 14 mart 2001-ci ildə Sabirabad rayonunun Surra kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə Şəfi Babayev adına Surra kənd tam orta məktəbində təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra hərbi xidmətə çağırılan Firavan Əsgərov əvvəlcə Cəlilabad rayonunda, daha sonra isə Bakıda Xüsusi Təyinatlı Qüvvələrdə (XTQ) xidmət etmişdir.

2020-ci ilin iyun ayından etibarən Türkiyə və Pakistan ordularının iştirakı ilə keçirilən beynəlxalq hərbi təlimlərdə iştirak etmişdir. O, Tovuz döyüşlərində iştirak etmiş, Vətən müharibəsi zamanı isə Murov yüksəkliyi, Kəlbəcər istiqaməti, Füzuli, Cəbrayıl, Qubadlı, Hadrut və onun bir sıra qəsəbələri, həmçinin Talış və Suqovuşan yüksəkliklərinin azad olunması uğrunda gedən ağır döyüşlərdə igidlik göstərmişdir. Oktyabrın 21-də Hadrut istiqamətində aparılan kəşfiyyat əməliyyatı zamanı böyük qəhrəmanlıq nümayiş etdirən Firavan Əsgərov düşmənin 10-dan çox əsgər və zabitini məhv edərək şəhidlik zirvəsinə ucalmışdır.

Firavan Xanbala oğlu Əsgərov hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları və III dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

MART
14

Ruslan İmanquliyev - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Zeynalov, M. Füzuli uğrunda döyüşlərdə şəhid oldu / Məşdi Zeynalov // Xalq qəzeti.– 2022.– 12 yanvar.– S.7.

Ruslan Natiq oğlu İmanquliyev 1996-cı il 14 mart tarixində Sumqayıt şəhərində anadan olmuşdur.

O, 2003-2012-ci illərdə H.Aslanov adına 22 nömrəli tam orta məktəbdə, 2012-2015-ci illərdə isə 1 nömrəli Sumqayıt Peşə Liseyində təhsil alaraq "Telekommunikasiyada kompüter texnikasının istismarı üzrə operator" ixtisasına yiyələnmişdir. 2015-ci ildə hərbi xidmətə çağırılan Ruslan İmanquliyev 2017-ci ilə qədər Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. 2019-cu ildən etibarən Pirəkəşkül qəsəbəsindəki "N" saylı hərbi hissədə Tank Əleyhinə Tağımın qumbaraatan komandiri kimi fəaliyyət göstərmişdir.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Ruslan İmanquliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində fəal iştirak etmiş, oktyabrın 2-də Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Ruslan Natiq oğlu İmanquliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

MART
14

Sayad Hacıyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Zaqatalada şəhid Sayad Hacıyevin xatirəsi yad edilib // Azərbaycan.– 2021.– 19 oktyabr.– S.9.

Sayad Azad oğlu Hacıyev 14 mart 2001-ci ildə Zaqatala rayonunun Qımır Bazar kəndində anadan olmuşdur.

O, 2007-ci ildə Bakı şəhərində 90 nömrəli, 2008-ci ildən isə 316 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2015-ci ildə Bakı Şəhər Dövlət Dəmiryolu Liseyinə daxil olmuş, eyni zamanda piano üzrə musiqi təhsili almışdır. 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılmış, Azərbaycan Silahlı Qüvvələrinin Yevlax rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Sayad Hacıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 17-də qəhrəmancasına şəhid olmuş, Zaqatala rayonunun Qımır Bazar kəndində dəfn edilmişdir.

Sayad Azad oğlu Hacıyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

MART
15

Nahid Həsənov - 30

(1996-2020)

MAHHXHQ çavuş



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Nahid Hökmüran oğlu Həsənov 15 mart 1996-cı ildə Saatlı rayonunun Musalı kəndində anadan olmuşdur. O, Saatlı rayon C.Cabbarlı adına 3 nömrəli orta məktəbi bitirmiş, daha sonra Saatlı Peşə Liseyində təhsil almışdır. Həqiqi hərbi xidmətini başa vurduqdan sonra Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Quru Qoşunlarında kəşfiyyatçı kimi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun MAHHXHQ çavuşu olan Nahid Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azad olunması uğrunda döyüşlərdə böyük igidlik göstərmişdir. O, sentyabrın 29-da Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və Saatlı rayonunun Musalı kəndində dəfn edilmişdir.

Nahid Hökmüran oğlu Həsənov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

15

Vüsal Abdullayev - 40

(1986-2020)

Əsgər



İnternetdə

https://unudulmazlar.az/az/infom/5165

https://memorial.az/az/qehremanlarimiz/1777

Vüsal Şakir oğlu Abdullayev 15 mart 1986-cı ildə Beyləqan rayonunun Sarı-su qəsəbəsində anadan olmuşdur. 1991-2000-ci illərdə Sarı-su qəsəbə orta məktəbində təhsil almışdır. 2003-2004-cü illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətdə olmuş, Tərtər rayonunda xidmət keçmişdir. Xidmət dövründə intizamlı və nümunəvi davranışına görə dəfələrlə komandirləri tərəfindən valideynlərinə təşəkkürnamələr göndərilmişdir.

Vüsal Abdullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmiş, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonları uğrunda gedən döyüşlərdə vuruşmuş, oktyabrın 22-də Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Nəşi bir müddət tapılmamış, 4 noyabr 2020-ci ildə Beyləqan rayonunun Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

MART
16

Əfşan Hüseynov - 30

(1996-2020)

Baş leytenant



Əfşan Əbülfəz oğlu Hüseynov 16 mart 1996-cı ildə Tovuz rayonunun Əsrik Cırdaxan kəndində anadan olmuşdur. 2002–2013-cü illərdə Əsrik Cırdaxan kənd tam orta məktəbində, 2013–2017-ci illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) təhsil almışdır.

2017-ci ildə "leytenant" hərbi rütbəsi ilə Azərbaycan Silahlı Qüvvələrində xidmətə başlamışdır. Xidməti müddətində "baş leytenant" rütbəsinə yüksəlmiş və "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" yubiley medalı ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun baş leytenantı olan Əfşan Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Beyləqan həmləsinin bölük komandiri kimi xidmət etmişdir. O, döyüşlərdə düşmənin ön xəttinə ilk daxil olan zabitlərdən biri olmuş, bölüyünün yardığı istiqamətdən irəliləyərək Azərbaycan Ordusunun Şuşaya doğru uğurlu irəliləyişinə töhfə vermişdir.

Əfşan Hüseynov Füzuli, Cəbrayıl, Hadrutun işğaldan azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuş, komandir olaraq bölüyü ilə birlikdə ən çətin tapşırıqları yerinə yetirmişdir. Ermənistan Ordusunun bir neçə postunu və bir neçə tankını, BMP-sini də qənimət olaraq ələ keçirmişdir. Əfşan Hüseynov oktyabr ayının 25-də Füzuli döyüşləri zamanı Alxanlı kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, oktyabr ayının 26-da Tovuz rayonunun Əsrik Cırdaxan kəndində dəfn edilmişdir.

Əfşan Əbülfəz oğlu Hüseynov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/2884


https://memorial.az/az/qehremanlarimiz/775

MART
17

Rüfət Gözəlov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Səxavətqızı, M. Vətənə sevdalı oğul: Şəhid Rüfət / Manya Səxavətqızı // Hürriyyət. –2021.– 16-17 mart.– S.14.

İsaq, B.Ölümsüz qəhrəmanlar /Bilman İsaq // Azad Azərbaycan. –2021.– 25 fevral.– S.5.

Rüfət Əzim oğlu Gözəlov 17 mart 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Dəmirçi kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə Dəmirçi kənd tam orta məktəbində təhsil almış, eyni zamanda güləş idmanı ilə məşğul olmuşdur. 2014-2016-cı illərdə Naxçıvan MR-nın Vayxır qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir. Bir müddət Türkiyənin İstanbul şəhərində yaşamış, Azərbaycana qayıtdıqdan sonra Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) giziri kimi xidmətə başlamışdır. Xidməti dövründə üç medalla təltif edilmişdir.

Rüfət Gözəlov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Hadrut, Xocavənd, Tuğ və daha 39 kəndin azad edilməsində iştirak etmişdir. Oktyabr ayının 27-də Şuşa döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş, Şərur rayonunun Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

17

Vüsal Həsənov - 40

(1986-2020)

Əsgər



İnternetdə

https://unudulmazlar.az/az/infom/463

https://ochagsamara.wordpress.com/2022/03/17/vətən-muharibəsində-həlak-olanlar-vusal-həsənov-2/

Vüsal Bayram oğlu Həsənov 1986-cı il mart ayının 17-də Göygöl rayonunda anadan olmuşdur.

O, 1992-2001-ci illərdə Göygöl şəhər 6 saylı tam orta məktəbində təhsil almışdır. Vüsal Həsənov 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət etmişdir.

Vüsal Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü iştirak etmiş, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Noyabr ayının 8-də Şuşa döyüşləri gedişatında Xankəndi şəhəri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Noyabr ayının 16-da Göygöl şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Vüsal Bayram oğlu Həsənov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

17 MART

Abbas Qasımov - 40

(1986-2020)

Mayor



Abbas Rza oğlu Qasımov 1986-cı il mart ayının 17-də Masis rayonunun (Zəngibasar) Rəhimabad kəndində anadan olmuşdur. 1988-ci ilin noyabr ayında ailəsi ilə birlikdə ermənilər tərəfindən deportasiya edildiklərindən, Bakının Binəqədi rayonuna köçmüşdür. 1993- 2003-cü illərdə Binəqədi rayonunda F. İsgəndərov adına 157 nömrəli tam orta məktəbində, 2003-2007-ci illərdə isə Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasında təhsil almışdır.

Akademiyada "İnzibati idarəetmə, sərhəd qoşunları komanda taktiki" ixtisasına yiyələnən Abbas Qasımov Xudat sərhəd dəstəsində xidmətə başlamış, daim öz bilik və bacarığının artmasına xüsusi fikir vermişdir. Buna görə nümunə göstərilərək, həmişə irəli çəkilmişdir.

Hər zaman pilot olmağı arzulayan Abbas Qasımov 2010- cu ildən xidmət yerini Aviasiya dəstəsinə dəyişmiş, orada da özünü bacarıqlı mütəxəssis kimi göstərə bilmiş, xidmət etdiyi on il ərzində peşəkarlıq səviyyəsini xeyli yüksəldərək, bir sıra döyüş tapşırıqlarını uğurla yerinə yetirmişdir. 2017-ci ildə mayor rütbəsi almışdır.

Abbas Qasımov qüsursuz xidmətlərinə görə "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Sərhəd Mühafizəsinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi", 3-cü dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi", 2-ci dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının mayoru, hərbi pilot Abbas Qasımov Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, idarə etdiyi təyyarə ilə düşmən hədəflərinə zərbə endirərkən təyyarənin vurulmasına baxmayaraq döyüş tapşırığını sona qədər yerinə yetirmiş, müharibənin ilk günündə qəhrəmancasına şəhid olmuşdur. Sentyabr ayının 28-də Bakıda II Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Müharibənin ilk şəhidlərindən olan Abbas Qasımov Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

2021-ci ildə Abbas Qasımovun yaşadığı binanın divarında xatirəsini əbədiləşdirmək üçün xatirə lövhəsi vurulmuş, Bakıdakı küçələrdən birinə adı verilmişdir.

Ə d ə b i y y a t

Babayeva, Ş. Abbas Qasımov / Şəbnəm Babayeva //Vətən simurqları: II Qarabağ Vətən Müharibəsinin Qəhrəmanları /Almaz Ülvi.–I cild.–2-ci nəşr.–Bakı, 2022.–S.18.

Vətən müharibəsinin ilk qurbanı //Xalq qəzeti. –2024.– 27 sentyabr (№ 211). – S.8.

İnternetdə

MART
18

Bəxtiyar Rəhimli - 25

(2001-2020)

Əsgər



İnternetdə

https://unudulmazlar.az/az/infom/2666

https://yashat.gov.az/hero-birthdays?birthDate=2024-3-18

Bəxtiyar Nəsimi oğlu Rəhimli 2001-ci il mart ayının 18-də Tərtər rayonunda anadan olmuşdur. O, Tərtər rayonu 6 saylı kənd orta məktəbində təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan-Bəxtiyar Rəhimli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsinin ilk günlərindən ön cəbhədə olmuş, Füzuli, Cəbrayıl, Ağdam, Tərtər rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 5-də Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid olmuş, oktyabrın 7-də Bərdə rayonunun Qəhrəmanlı kəndində dəfn edilmişdir.


Bəxtiyar Nəsimi oğlu Rəhimli Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

MART
19

Möhlət Abbasov - 25

(2001-2020)

Əsgər



İnternetdə

https://unudulmazlar.az/az/infom/3749

https://www.yashat.gov.az/hero-birthdays?birthDate=2025-3-19

Möhlət Eldəniz oğlu Abbasov 2001-ci il mart ayının 19-da Daşkəsən rayonunda anadan olmuşdur. O, 2007-2018-ci illərdə Gəncə şəhər 21 nömrəli tam orta məktəbində təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra, 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə çağırılmış və "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan-Möhlət Abbasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində döyüşlərə qatılaraq düşmənə qarşı igidliklə, mərdliklə vuruşmuşdur. Möhlət Abbasov Füzuli, Qubadlı, Zəngilan, Xocavənd və Şuşa rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Noyabrın 7-də Şuşa rayonunun Daşaltı kəndi istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş, noyabrın 9-da Daşkəsən rayonunun Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Möhlət Eldəniz oğlu Abbasov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

MART
19

Zəka Abışov - 25

(2001-2020)

Əsgər



Zəka Zakir oğlu Abışov 2001-ci il mart ayının 19-da Bakı şəhərinin Qaradağ rayonunun Qızıldaş qəsəbəsində anadan olmuşdur. O, 2007-2016-cı illərdə A. Namazov adına 180 saylı orta məktəbdə təhsil almışdır. Uşaqlıq illərindən karate idman növü ilə məşğul olmuşdur. 2016-cı ildə orta təhsilini başa vuraraq "İnşaat qəlibçisi" ixtisası üzrə 8 saylı peşə məktəbinə daxil olmuşdur. 2019-cu ildə peşə təhsilini bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılmışdır. Xidmətinin böyük qismini Füzuli rayonu ərazisində, qoşunların ön xətt bölmələrində keçirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Zəka Abışov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində döyüşlərə qatılaraq, Füzuli və Cəbrayıl rayonları uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 21-də düşmənin əks həmləsinin qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. Noyabrın 23-də Qızıldaş qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Zəka Zakir oğlu Abışov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasən ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Əbədiyyətdəki müqəddəs ünvanlarımız: Şəhid Zəka Abışov // Azad Azərbaycan.–2022.– 31 mart.– S.3.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25 iyun.- S.61-65.

MART
20

Fərmin Əliyev - 30

(1996-2020)

Leytenant



Fərmin Fərman oğlu Əliyev 1996-cı il mart ayının 20-də Babək rayonunun Şıxmahmud kəndində anadan olmuşdur. O, 2002-2011-ci illərdə Şıxmahmud kənd tam orta məktəbində təhsil almış, daha sonra 2011-2014-cü illərdə Heydər Əliyev adına Hərbi Liseydə təhsilini davam etdirmişdir. 2014-2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) "Xüsusi təyinatlı texnika və sistemlər" ixtisası üzrə ali təhsil almışdır.

Fərmin Əliyev 2018-ci ildən etibarən Azərbaycan Silahlı Qüvvələrinin Quru Qoşunlarının "N" saylı hərbi hissəsində motoatıcı kimi xidmətə başlamışdır. Qısa müddətdə vətənpərvərliyi, çevikliyi və məsuliyyəti ilə həm hərbi kollektivin rəğbətini, həm də zabit heyətinin hörmətini qazanmışdır. Tapşırıqları yüksək səviyyədə icra etməsi və tələbkarlığı ilə fərqlənmiş, təlimlərdə zabit heyəti ilə birlikdə iştirak etmişdir. Həmlə kəşfiyyat taborunun üzvü kimi işğaldan azad olunmuş kəndlərdə kəşfiyyat tapşırıqlarının yerinə yetirilməsində iştirak etmişdir.

Azərbaycan Ordusunun leytenantı olan Fərmin Əliyevin 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində komandirlik etdiyi 50 nəfərlik dəstə sentyabr ayının 27-də səhər saatlarından başlayaraq Gülüstan və bir neçə kəndi işğaldan azad etmiş, Ballıqaya və Ağcakənd arasında düşmən mühasirəsinə düşsələr də, xüsusi şücaət və taktika ilə günorta saatlarında mühasirədən çıxmağı bacararaq, qalan hərbçiləri də mühasirədən çıxarmağa nail olmuşdur.

Fərmin Əliyevin rəhbərlik etdiyi dəstə sentyabr ayının 29-da Tərtər rayonu istiqamətində qızğın döyüşlərdə bütün çətinliklərə baxmayaraq, bir neçə yüksəkliyi azad etmiş, Talış istiqamətində gedən döyüşlər zamanı şəhid olmuş, oktyabr ayının 1-də Babək rayonunun Şıxmahmud kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Fərmin Əliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları, "Azərbaycan Bayrağı"ordeni ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Rəsulova, R. Üç boyalı sevgi /Ruhiyyə Rəsulova // Hərbi And. –2023.– 17 mart.– S.5.

Əliyeva, L. Şəhidlik ən ülvi arzusu idi... / Leyla Əliyeva // 525-ci qəzet. –2020.– 19 dekabr.– S.24.

MART
20

Elvin Məlikov - 25

(2001-2020)

Əsgər



İnternetdə

https://yashat.gov.az/hero-birthdays/416

https://www.baki-xeber.com/sosial/210338.html

Elvin İlham oğlu Məlikov 2001-ci il mart ayının 20-də Bakı şəhərində anadan olmuşdur. O, Bakı şəhəri Xətai rayonundakı 24 saylı tam orta məktəbdə təhsil almışdır. Daha sonra Gürcüstanda "Beynəlxalq münasibətlər" ixtisası üzrə ali təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılmışdır. O, xidmətini xüsusi təyinatlı qüvvələr (XTQ) sıralarında keçirmiş, Ağcabədi və Cəlilabad rayonlarında yerləşən hərbi hissələrdə xidmət etmişdir. Xidmət dövründə sərrast atıcılığı ilə seçilərək snayper kimi xüsusi hazırlıq qazanmışdır.

Azərbaycan Ordusunun əsgəri Vətən müharibəsi zamanı ön cəbhədə vuruşaraq Füzulinin azad olunması istiqamətində aparılan əməliyyatlarda iştirak etmişdir. O, Qaraxanbəyli kəndi uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıq göstərmişdir. Oktyabrın 3-də Qaraxanbəyli istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş və İkinci Fəxri Xiyabanda dəfn edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Elvin Məlikov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Onun xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhəri Xətai rayonundakı 24 saylı tam orta məktəbin 8 "B" sinfi Elvin Məlikovun adını daşıyır.

20

Novruz Məmmədov - 35

(1991-2020)

MAHHXHQ əsgər



İnternetdə

https://unudulmazlar.az/az/infom/3030

https://memorial.az/az/qehremanlarimiz/2048

Novruz Məmmədov 1991-ci il martın 20-də Sumqayıt şəhərində anadan olmuşdur. 1997-2008-ci illərdə Sumqayıt şəhəri Hacı Zeynalabdin Tağıyev qəsəbəsində yerləşən 6 saylı tam orta məktəbdə təhsil almışdır.

2010-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt şəhər Hərbi Komissarlığı tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. O, Gəncə və Goranboyda yerləşən "N" saylı hərbi hissədə kəşfiyyatçı-snayperçi kimi xidmət etmişd ir. 2014-cü ildə Sumqayıt şəhəri H.Z.Tağıyev qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət keçən (MAHHXQ) hərbi qulluqçu – sürücü kimi fəaliyyət göstərmişdir..

Novruz Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində kəşfiyyatçı və snayper kimi iştirak etmişdir. O, Xocavənd, Füzuli, Cəbrayıl və Qubadlı rayonları istiqamətində gedən döyüşlərdə fəal iştirak etmişdir. oktyabrın 24-də Füzuli rayonu istiqamətində döyüş tapşırığının icrası zamanı qəhrəmancasına şəhid olmuş, 25 oktyabrda 2020-ci ildə Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Novruz Məmmədov "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medaları ilə təltif edilmişdir.

MART
20

Bayram Musayev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Şahin, Ş. Qələbə bayramında payı olan Bayram / Şahnaz Şahin //Sabirabad şəhidləri / Ş. Şahin.– Bakı, 2021.–S.138-139.

Bayram Mehman oğlu Musayev 2001-ci il mart ayının 20-də Sabirabad rayonunun Qasımbəyli kəndində anadan olmuşdur. O, əvvəlcə Hilal Ənnağıyev adına Qasımbəyli kənd tam orta məktəbində, daha sonra isə Sabirabad rayonu Peşə Liseyində təhsil almışdır. Liseyi müvəffəqiyyətlə bitirərək traktorçu ixtisasına yiyələnmişdir. B. Musayev 2019-cu ildə Sabirabad Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmış və Ağdam rayonunun "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Bayram Musayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı, Cəbrayıl rayonu uğrunda gedən ağır döyüşlərdə fəal iştirak etmiş, oktyabrın 7-də qəhrəmancasına şəhid olmuş, oktyabrın 8-də Yuxarı Axtaçı kənd qəbristanlığında dəfn olunmuşdur.

Bayram Mehman oğlu Musayev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilmişdir.

20

Şamil Əliyev - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat

Məmmədova, A. Şamil Əliyev /Aytən Məmmədova // Vətən simurqları: II Qarabağ Vətən Müharibəsinin Qəhrəmanları /Almaz Ülvi.–I cild.–2-ci nəşr.– Bakı, 2022.–S.457-460.

Şamil Xançoban oğlu Əliyev 1996-cı il mart ayının 20-də Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə Böyük Bəhmənli kənd orta məktəbində təhsil almışdır. O, Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra, 2015-ci ildən müddətdən artıq hərbi xidmət qulluqçusu kimi fəaliyyət göstərmişdir. 2016-cı ildə keçirilən təlimlərdə iştirak edərək I yerə layiq görülmüş və fəxri fərmanla təltif olunmuşdur. Aprel döyüşlərinin iştirakçısı olmuşdur.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Şamil Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd və Şuşa rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə cəsarətlə vuruşmuş, oktyabrın 16-da Füzuli rayonunun alınması uğrunda gedən döyüşlərdə yaralanmasına baxmayaraq döyüşü davam etdirmiş, rayonun Musabəyli kəndində qəhrəmancasına şəhid olmuş, Böyük Bəhmənli kəndində dəfn edilmişdir.

Şamil Xançoban oğlu Əliyev hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" , "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

MART
21

Bayram Qasımov - 25

(2001-2020)

MAHHXHQ əsgər



Ə d ə b i y y a t

Barat, E. Şəhid Bayram Qasımov / Elşad Barat // Ölümsüzlər / Elşad Barat .–C 1.–Bakı, 2021.–S.38.

Bayram Arzu oğlu Qasımov 2001-ci il mart ayının 21-də Gədəbəy rayonunun Novoivanovka kəndində anadan olmuşdur. Novoivanovka kənd tam orta məktəbini bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətinə çağırılmış və "N" saylı Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissəsində xidmət etmişdir. Əsgəri xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Bayram Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl və Füzuli rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 4-də Cəbrayıl rayonu istiqamətində gedən ağır döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş, oktyabrın 5-də Gədəbəy rayonunun Novoivanovka kəndində dəfn olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Bayram Qasımov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və "Azərbaycan bayrağı" ordeni ilə təltif edilmişdir.

21

Məhəmməd Hüseynov - 25

(2001-2020)

Əsgər



İ n t e r n e t d ə

https://unudulmazlar.az/az/infom/4372

https://gencesehidleri.az/sehidler/541-huseynov-mehemmed-qiyas-oglu.html

Məhəmməd Qiyas oğlu Hüseynov 2001-ci il martın 21-də Gəncə şəhərinin Kəpəz rayonunda anadan olmuşdur. 2007–2016-cı illərdə Gəncə şəhəri 17 nömrəli tam orta məktəbdə, 2016–2019-cu illərdə isə 1 nömrəli Peşə Liseyində (indiki Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzi) təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Məhəmməd Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı sentyabrın 27-də Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Onun nəşi döyüş mövqelərində qaldığından, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın 8-ci maddəsinə əsasən qarşı tərəfdən təhvil alınmış və noyabrın 17-də Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.


Məhəmməd Qiyas oğlu Hüseynov hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə","Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

MART
21

Röyan Hüseynov - 25

(2001-2020)

Əsgər



İnternetdə

https://memorial.az/az/qehremanlarimiz/513

https://unudulmazlar.az/az/infom/1007

Röyan Sübhan oğlu Hüseynov 2001-ci il martın 21-də Gədəbəy rayonunun Parakənd kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Gəncə şəhərində yerləşən Nigar Rəfibəyli adına 43 nömrəli tam orta məktəbdə təhsil almışdır. Təhsil illərində cüdo idman növü ilə məşğul olmuş, Gəncə İdman Klubunun üzvü kimi dəfələrlə zona və respublika birinciliklərinin qalibi olmuşdur. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Röyan Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zaman Füzuli və Xocavənd rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. O, oktyabrın 10-da Xocavənd rayonunun Hadrut qəsəbəsi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və oktyabrın 11-də Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.

Röyan Sübhan oğlu Hüseynov hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

22

Fərid Əliyev - 25

(2001-2020)

Əsgər



İnternetdə

https://unudulmazlar.az/az/infom/6171

https://memorial.az/az/qehremanlarimiz/1477

Fərid Hamlet oğlu Əliyev 2001-ci il martın 22-də İsmayıllı rayonunun Kürdmaşı kəndində anadan olmuşdur. 2007–2018-ci illərdə C. Həsənov adına Kürdmaşı kənd tam orta məktəbində təhsil almışdır. 2018-ci ildə "Turizm və onun təşkili" ixtisası üzrə İsmayıllı Dövlət Humanitar və Texnologiya Kollecinə qəbul olunmuşdur. 2019-cu ildə təhsilinə fasilə verərək Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri Fərid Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zaman Füzuli uğrunda gedən döyüşlərdə vuruşmuşdur. O, müharibənin ilk günü – 2020-ci il sentyabrın 27-də qəhrəmancasına şəhid olmuş və sentyabrın 28-də İsmayıllı rayonunun Kürdmaşı kəndində dəfn edilmişdir.

Fərid Hamlet oğlu Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

MART
22

Ramil Əliyev - 30

(1996-2020)

Leytenant



Ramil Qurban oğlu Əliyev 1996-cı il martın 22-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Güznüt kəndində anadan olmuşdur. 2003-2011-ci illərdə Güznüt kənd tam orta məktəbində, 2011-2014-cü illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2014-2018-ci illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) təhsil almışdır.

2018-ci ildən leytenant rütbəsi ilə Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir. Ordunun ən gənc BMP komandirlərindən biri olan Ramil Əliyev hərbi xidmət dövründə öz peşəkarlığı və şücaəti ilə seçilmişdir.

Azərbaycan Ordusunun leytenantı olan Ramil Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı təmas xəttini yararaq döyüşlərdə irəliləmiş, Füzuli rayonunun azadlığı uğrunda gedən ağır döyüşlərdə vuruşmuşdur. Leytenant Ramil Əliyev sentyabrın 27-də qəhrəmancasına şəhid olmuşdur. Onun nəşi 48 gün sonra tapılaraq, 2020-ci il noyabrın 17-də doğulduğu Babək rayonunun Güznüt kəndində dəfn edilmişdir.

Ramil Qurban oğlu Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Səxavətqızı, M. Vətən fədailəri: Naxçıvan şəhidləri / Manya Səxavətqızı (red., layihə rəhb.) ; dizayner G. Əliyeva $n H. 1. Bakı: [Orxan], 2021.

Kəngərli, A. "Mutlu komandir": Şəhid Ramil Əliyev /Abutalıb Kəngərli //Azad Azərbaycan. –2021.– 23 fevral.– S.4.

MART
22

Emin Ağazadə - 35

(1991-2020)

Əsgər



İnternetdə

https://memorial.az/az/qehremanlarimiz/700

https://unudulmazlar.az/az/infom/2230

Emin Valik oğlu Ağazadə 1991-ci il martın 22-də İsmayıllı rayonunun Kürdmaşı kəndində anadan olmuşdur. 1997-2008-ci illərdə Ceyhun Həsənov adına Kürdmaşı kənd orta məktəbində təhsil almışdır. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş və "N" saylı hərbi hissədə baş atıcı kimi xidmət etmişdir.

Emin Ağazadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsinə könüllü olaraq qatılmışdır. O, oktyabrın 5-də təlimlərə çağırılmış, iki həftəlik hazırlıqdan sonra Füzuli, Cəbrayıl və Qubadlı rayonları uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 25-də isə Laçın rayonu istiqamətində aparılan ağır döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. O, 2020-ci il oktyabrın 27-də İsmayıllı rayonunun Kürdmaşı kənd qəbiristanlığında dəfn edilmişdir.

Emin Valik oğlu Ağazadə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən uğrunda" medalları, III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

22

Elmar Nəbiyev - 25

(2001-2020)

Əsgər



İnternetdə

https://unudulmazlar.az/az/infom/3762

https://bakimektebleri.edu.az/186/az/

Elmar Elman oğlu Nəbiyev 2001-ci il martın 22-də Bakı şəhərinin Pirallahı rayonunda anadan olmuşdur. 2007-2018-ci illərdə Pirallahı rayonunun 186 nömrəli tam orta məktəbində təhsil almışdır. Təhsil illərində idmanla da məşğul olmuşdur. 2018-ci ildə Odlar Yurdu Kollecinin Bank işi fakültəsinin qiyabi şöbəsinə qəbul olunmuşdur. 2019-cu ildə həqiqi hərbi xidmətə çağırılmış və Azərbaycan Silahlı Qüvvələrinin Ağcabədi və Füzuli rayonlarında yerləşən "N" saylı hərbi hissələrində xidmət etmişdir.

Elmar Nəbiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmiş, Xocavənd və Füzuli rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. O, 2020-ci il oktyabrın 5-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və Bakı şəhərinin Pirallahı rayonunda dəfn edilmişdir.

Elmar Elman oğlu Nəbiyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

MART
23

Elmar Omarov - 25

(2001-2020)

Əsgər



İnternetdə

https://ochagsamara.wordpress.com/tag/elmar-elvar-oglu-omarov/

https://unudulmazlar.az/az/infom/1726

Elmar Elvar oğlu Omarov 2001-ci il martın 23-də Qazax rayonunun İkinci Şıxlı kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə Qazax rayonunun Ş. Nəsibova adına Sarıvəlli kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılmış və Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan ordusunun əsgəri olan Elmar Omarov Vətən 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsində iştirak etmiş, Füzuli, Xocavənd və Şuşa rayonları istiqamətində gedən döyüşlərdə xüsusi şücaət göstərmişdir. O, 2020-ci il noyabrın 9-da Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və Qazax rayonunun İkinci Şıxlı kəndində dəfn edilmişdir.

Elmar Elvar oğlu Omarov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Murad Qurbanov - 30

23

(1996-2020)

Əsgər



Ədəbiyyat

Məhərrəmov, V. Bir evin oğlu idi, bir elin oğlu oldu... / Vahid Məhərrəmov // Azərbaycan.– 2023.– 27 sentyabr.–6 S.7.

Murad Asif oğlu Qurbanov 1996-cı il martın 23-də Salyan rayonunda anadan olmuşdur. 2002-ci ildə Salyan rayon 2 saylı orta məktəbində təhsil almağa başlamış, daha sonra təhsilini Bakının 51 saylı orta məktəbində davam etdirmiş və 2012-ci ildə məktəbi bitirmişdir. Həmin il Maliyyə-İqtisad Kollecinə daxil olmuşdur. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, Tərtər rayonunun Qaradağlı kəndində xidmət etmişdir. Murad Qurbanov 2016-cı ilin Aprel döyüşlərində iştirak edərək Tərtər və Goranboy rayonlarının müdafiəsində dayanmışdır.

Murad Qurbanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmiş, Füzuli, Cəbrayıl rayonları və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. O, 2020-ci il oktyabrın 12-də Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, oktyabrın 13-də Səbail rayonunun Badamdar qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilmişdir.

Murad Asif oğlu Qurbanov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

MART
23

Vüqar Cəfərov - 35

(1991-2020)

MAHHXHQ baş çavuş



Vüqar İnşallah oğlu Cəfərov 1991-ci il martın 23-də Bakı şəhərində anadan olmuşdur. O, təhsilini Bakı şəhərinin Nizami rayonunda yerləşən 70 saylı məktəb-liseydə almışdır.

2009-cu ilin oktyabrından 2011-ci ilin aprel ayınadək Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasında həqiqi hərbi xidmətdə olmuşdur. 2011-ci ilin oktyabr ayından isə Daxili Qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlamış, "Kobra" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda pulemyotçu vəzifəsində fəaliyyət göstərmişdir. Xidmət dövründə 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilmişdir.

Vüqar Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsinin ilk günündən hərbi əməliyyatlarda iştirak etmiş, Murovdağ silsiləsi, Füzuli və Cəbrayıl rayonlarının bir sıra yaşayış məntəqələrinin, eləcə də strateji yüksəkliklərin azad olunması uğrunda döyüşlərdə vuruşmuşdur. O, 2020-ci il oktyabrın 5-də Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, oktyabrın 6-da Bakıda İkinci Fəxri xiyabanda dəfn edilmişdir.

Vüqar İnşallah oğlu Cəfərov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir

Bakının Nizami rayonu, Çobanzadə küçəsində yerləşən yaşadığı binanın qarşısında xatirəsinə abidə ucaldılmışdır.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25 iyun.- S.61-65.

Səmədova, A. Vüqar yüksəkliklərə qalxdı, indi o, sülh göyərçinidir /Aliyə Səmədova //Ülfət.– 2021.–27 may.

Əhmədov, A. Anasına verdiyi vədi yerinə yetirən MƏRD OĞUL.../ Anar Əhmədov // Hərbi And.– 2022.– 22 yanvar.– S.6.

MART
23

Musa Mustafayev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25.

Musa Əlövsət oğlu Mustafayev 2001-ci il martın 23-də Masallı rayonunun Xoşçobanlı kəndində anadan olmuşdur. 2007-2016-cı illərdə M. Qarayev adına Sığıncaq kənd orta məktəbində təhsil almışdır. Həmin il Cəlilabad rayonundakı Göytəpə qəsəbəsində yerləşən texniki liseyə daxil olmuş və 2019-cu ildə geniş profilli traktorçu-maşinist, çilingər-sürücü ixtisası üzrə təhsilini başa vurmuşdur. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, Cəlilabad şəhərində yerləşən "N" saylı sərhəd zastavasında xidmət etmişdir.

Azərbaycan ordusunun əsgəri olan Musa Mustafayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət göstərmiş, düşmənin bir sıra mövqelərinə sarsıdıcı zərbələr endirmişdir. O, 2020-ci il oktyabrın 6-da Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, oktyabrın 7-də Masallı rayonunun Xoşçobanlı kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Musa Mustafayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

24

Kamran Məmmədzadə - 30

(1996-2020)

MAHHXHQ Əsgər



İnternetdə

https://unudulmazlar.az/az/infom/2494

https://obastan.com/wiki/Kamran_Məmmədzadə

Kamran Fizuli oğlu Məmmədzadə 1996-cı il martın 24-də Biləsuvar rayonunun Çaylı kəndində anadan olmuşdur. 2002–2013-cü illərdə Çaylı kənd tam orta məktəbində təhsil almışdır. 2014–2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, 2017-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Kamran Məmmədzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzuli rayonları istiqamətində gedən döyüşlərdə şücaət göstərmişdir. O, 2020-ci il sentyabrın 28-də Füzuli istiqamətində gedən döyüşlərdə düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. Sentyabrın 29-da Biləsuvar rayonunun Çaylı kənd qəbiristanlığında dəfn edilmişdir.

Kamran Fizuli oğlu Məmmədzadə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir. Onun adı əbədiləşdirilərək Çaylı kənd küçələrindən birinə verilmişdir.

MART
24

İsmayıl Vəliyev - 30

(1996-2020)

Baş leytenant



İsmayıl Mehman oğlu Vəliyev 1996-cı il martın 24-də Naxçıvan şəhərində anadan olmuşdur. Təhsilinə Naxçıvan şəhər 12 nömrəli orta məktəbdə başlamış, daha sonra təhsilini 15 nömrəli orta məktəbdə davam etdirmişdir. 2010-cu ildə Heydər Əliyev adına Naxçıvan Hərbi Liseyində hərbi təhsil almağa başlamış və 2013-2017-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) təhsil almışdır. 2017-ci ildə leytenant rütbəsi ilə Qaradağ rayonunda xidmətə başlamışdır. 2020-ci ilin iyul ayında baş vermiş Tovuz döyüşlərində göstərdiyi şücaətlərə görə vaxtından əvvəl baş leytenant rütbəsi almışdır.

Azərbaycan Ordusunun baş leytenantı İsmayıl Vəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Tank taqımının komandiri kimi Beyləqan istiqamətindən döyüşlərə qatılmış, yüzlərlə kilometr məsafə qət edərək düşmən mövqelərinə güclü zərbələr endirmişdir. O, tankla Füzuli, Cəbrayıl və Zəngilan rayonları istiqamətində gedən ağır döyüşlərdə iştirak etmiş, Zəngilanın işğaldan azad edilməsində önəmli rol oynamış, quru qoşunlarının tərkibində Zəngilana daxil olan ilk tankçılardan biri olmuşdur. Döyüşlərin birində tankı vurulmasına baxmayaraq, yaralanmış İsmayıl Vəliyev sağalmağı gözləmədən komandanlığında üç tankla Qubadlı və Laçın rayonlarının bir neçə kəndinin işğaldan azad edilməsinə rəhbərlik etmişdir. O, Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş və 2020-ci il noyabrın 5-də Güləbird kəndi yaxınlığında gedən döyüş zamanı raketlə vurulan tankın içində komanda heyəti ilə birlikdə qəhrəmancasına şəhid olmuşdur. Naxçıvan şəhərində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən İsmayıl Mehman oğlu Vəliyev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Laçının azad olunmasına görə" medalları və "III dərəcəli Rəşadət" ordeni ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Əliyev, B. Üç rəngli bayrağı ovuclarında şəhid olan qəhrəman /Bəxtiyar Əliyev //Hərbi And.– 2022.– 26 avqust.– S.7.

Kamal, Ə. Qəhrəmanlar ölməz, bədən dəyişdirər... / Əfsanə Kamal // Olaylar.–2022.– 22-28 iyul.– S.18.

MART
25

Pərviz Məmmədov - 25

(2001-2020)

Əsgər



İnternetdə

https://unudulmazlar.az/az/infom/3644

https://memorial.az/az/qehremanlarimiz/2684

Pərviz Şakir oğlu Məmmədov 2001-ci il martın 25-də Bərdə rayonunda anadan olmuşdur. Əslən Şuşa rayonunun Turşsu kəndindən olan Pərviz Məmmədov 2007-2018-ci illərdə Laçın rayonu Ağanus kənd tam orta məktəbində təhsil almışdır. Uşaq yaşlarından kikboksinq ilə məşğul olmuş, dəfələrlə müxtəlif yarışların qalibi olmuşdur. 2019-cu il aprel ayının 2-də Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, Azərbaycan Ordusunun Quru Qoşunları sıralarında xidmət etmişdir.

Pərviz Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayıl rayonları uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, 2020-ci il sentyabrın 29-da Füzuli-Cəbrayıl istiqamətində, "Nüzgar postu"nda qəhrəmancasına şəhid olmuş və Bərdə rayonunun Dəymədağıldı kəndində dəfn edilmişdir.


Pərviz Şakir oğlu Məmmədov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

25

Elmir Umudlu - 25

(2001-2020)

Əsgər



İnternetdə

https://unudulmazlar.az/az/infom/2272

https://memorial.az/az/qehremanlarimiz/1370

Elmir Pərviz oğlu Umudlu 2001-ci il 25 mart tarixində Şəki rayonunun İnçə-Zunud kəndində anadan olmuşdur. 2007-2008-ci illərdə İnçə-Zunud kənd orta məktəbində, 2008-2015-ci illərdə Bakı şəhəri Xətai rayonunun 59 nömrəli orta məktəbində, 2015-2018-ci illərdə isə yenidən İnçə-Zunud kənd orta məktəbində təhsil almışdır. 2018-ci ildə Sumqayıt Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Sumqayıt Texniki Kollecinin "Nəqliyyat daşımalarının təşkili" ixtisasına qəbul olunmuşdur. 2019-cu ilin aprel ayında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış, təhsilini yarımçıq qoyaraq Bakıda yerləşən "N" saylı hərbi hissənin Həmlə taborunda xidmət etməyə başlamışdır.

Elmir Umudlu 2020-ci il Vətən müharibəsi zamanı xidmət etdiyi hərbi hissənin tərkibində bir sıra döyüşlərdə iştirak etmiş, Cəbrayıl şəhərinin, Füzuli və Xocavənd rayonlarının azad olunması uğrunda gedən əməliyyatlarda vuruşmuşdur. 2020-ci il 28 oktyabr tarixində Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, 31 oktyabrda Şəki rayonunun Zunud kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Elmir Umudlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

MART
25

Elvin Əzizov - 40

(1986-2020)

Gizir



İnternetdə

https://obastan.com/wiki/Elvin_Əzizov

https://azadmedia.az/gundem/43822-masall-rayonu-qaralq-kndinin-hid-giziri-elvin-zizovun-anm-mrasimi-kecirilib.html

Elvin Əfrayıl oğlu Əzizov 1986-cı il 25 mart tarixində Masallı rayonunun Qarğalıq kəndində anadan olmuşdur.

O, 1992-2003-cü illərdə şəhid Ədalət Vəliyev adına Qarğalıq kənd tam orta məktəbində təhsil almışdır. 2004-2005-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. 2009-cu ildə gizir kursunu bitirərək xidmətini davam etdirmiş, Müdafiə Nazirliyinin 7 mart 2011-ci il tarixli əmrinə əsasən həmin hərbi hissədə tank komandiri vəzifəsinə təyin olunmuşdur.

Elvin Əzizov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayıl rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 2020-ci il 15 oktyabr tarixində Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş, 16 oktyabrda Masallı rayonunun Qarğalıq kəndində dəfn edilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elvin Əzizov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

26

Ehtiram Əhmədov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Malıyev, E. 24 gün komada qalan igidimiz...: Hər birimiz şəhid Ehtiramı daim ehtiramla yad etməliyik... / Elman Maliyev // Hərbi And.– 2021.– 5 fevral.– S.14-15.

Ehtiram Teyyub oğlu Əhmədov 2001-ci il 26 mart tarixində Zaqatala rayonunun Yeni Suvagil kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə M. Nəzirova adına 1 saylı Yeni Suvagil kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılmış, Vətən müharibəsinədək Ağcabədi, Goranboy və Cəlilabad rayonlarında yerləşən Xüsusi Təyinatlı Qüvvələrin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Ehtiram Əhmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan, Xocavənd, Cəbrayıl, Kəlbəcər və Füzuli rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 15 oktyabr tarixində Füzuli rayonu istiqamətində gedən döyüşlərdə ağır yaralanmış, 24 gün Bakı şəhərindəki Mərkəzi Hərbi Hospitalda komada qaldıqdan sonra 9 noyabr 2020-ci ildə şəhid olmuşdur. O, Zaqatala rayonunun Yeni Suvagil kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən Ehtiram Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Şuşanın azad olunmasına görə", "Şücaətə görə", "Hərbi xidmətlərə görə" medalları və III dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

MART
26

Teymur Əliyev - 35

(1991-2020)

Əsgər



Teymur İman oğlu Əliyev 1991-ci il 26 mart tarixində Göygöl rayonunun Göyçəkənd kəndində anadan olmuşdur.

O, 1997-2006-cı illərdə Göygöl rayonu Quşçu kənd tam orta məktəbində, 2006-2008-ci illərdə isə Bənövşəli kənd tam orta məktəbində təhsil almışdır. 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı səfərbər olunaraq Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 7 oktyabr tarixində Hadrut qəsəbəsi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, Göygöl rayonunun Şəhidlər xiyabanında dəfn edilmişdir.

Teymur İman oğlu Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Dünyamalıoğlu, T. Ölməzliyin ən yüksək zirvəsi / Tahir Dünyamalıoğlu, Nizami Bəşiroğlu //Respublika.–2024.– 16 fevral (№35). – S.10.

Elbrus Hüseyinov - 30

26

(1996-2020)

MAHHXHQ əsgər



Elbrus Laçın oğlu Hüseyinov 1996-cı il 26 mart tarixində Şəmkir rayonunun Çaparlı kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə Suliddin Sadıqov adına Çaparlı kənd tam orta məktəbində təhsil almış, 7 yaşından idmanla məşğul olmuş, müxtəlif yarışlarda iştirak edərək diplom və medallarla təltif edilmişdir. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmiş, Aprel döyüşlərində iştirak etmişdir. 2020-ci ildən hərbi qulluqçu kimi xidmətə başlamış, həmin ilin iyulunda baş vermiş Tovuz döyüşlərində də iştirak edərək fərqlənmişdir.

Elbrus Hüseyinov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı kəşfiyyat-diversiya qrupunun tərkibində Murovdağ istiqamətində döyüşlərə qatılmışdır. 1 oktyabr tarixində Kəlbəcər rayonu istiqamətində aparılan döyüş əməliyyatları zamanı qəhrəmancasına şəhid olmuşdur. Onun nəşi uzun müddət sonra ailəsinə təhvil verilmiş və 19 dekabr 2020-ci ildə Şəmkir rayonunun Çaparlı kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən Elbrus Hüseyinov ölümündən sonra "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25 iyun.- S.61-65.

MART
27

Məhərrəm Səmədov - 25

(2001-2020)

Əsgər



Məhərrəm Elxan oğlu Səmədov 2001-ci il mart ayının 27-də Bakının Maştağa qəsəbəsində anadan olmuşdur. 2007-2016-cı illərdə Maştağa qəsəbəsində yerləşən 209 nömrəli məktəbdə, 2016-2019-cu illərdə isə Xəzər rayonunun Binə qəsəbəsində fəaliyyət göstərən 101 nömrəli peşə məktəbində avtoelektrik ixtisası üzrə təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətə çağırılmış, əvvəlcə Goranboy rayonunun Ballıqaya kəndində, daha sonra isə Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Məhərrəm Səmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak edərək Tərtər, Cəbrayıl, Ağdərə rayonlarının, o cümlədən Suqovuşan qəsəbəsinin azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. O, 2020-ci il oktyabrın 15-də Ağdərə istiqamətində gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə Səmədov Məhərrəm Elxan oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2020-ci il noyabrın 16-da təsdiq etdiyi F-512 nömrəli əmrinə əsasən Maştağa qəsəbəsində yerləşən 209 nömrəli məktəbin 8 "b" sinfinə Məhərrəm Səmədovun adı verilmişdir.

Ədəbiyyat:

Xəyal, S. Şəhid Məhərrəm Səmədov / Sona Xəyal // Bakı Xəbər.– 2021.– 26 oktyabr.– S.14.

Əbilova, Z. Pöhrələnən böyük arzu / Zəkiyyə Əbilova // Kredo.– 2021.– 16 dekabr.– S.13.

MART
27

Gülşad Xəlilov - 25

(2001-2020)

Əsgər



Gülşad Elşad oğlu Xəlilov 2001-ci il mart ayının 27-də Masallı rayonunun Kürdəbaz kəndində anadan olmuşdur. Orta təhsilini anadan olduğu kənddə almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətə çağırılmış, Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etməyə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Gülşad Xəlilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak edərək Füzuli istiqamətində gedən döyüşlərdə vuruşmuşdur. O, oktyabrın 15-də Füzuli uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olmuş, oktyabrın 16-da Masallı rayonunun Kürdəbaz kəndində dəfn edilmişdir.

Gülşad Elşad oğlu Xəlilov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Orucoğlu, Z. Gülşadın Vətən sevgisi / Zəfər Orucoğlu // İki sahil.– 2021.– 29 mart.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/2999

https://memorial.az/az/qehremanlarimiz/934

MART
28

Vüqar Məmmədov - 35

(1991-2020)

Əsgər



İnternetdə

https://unudulmazlar.az/az/infom/1520

https://goychay-encyclopedia.az/məmmədov-vuqar-elxan-oglu/

Vüqar Elxan oğlu Məmmədov 1991-ci il mart ayının 28-də Göyçay şəhərində anadan olmuşdur. Orta təhsilini Bakı şəhərindəki 28 nömrəli məktəbdə almışdır. 2008-2009-cu illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Vüqar Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində səfərbərlik üzrə cəlb edilərək döyüşlərə qatılmış, Füzuli rayonunun azad olunması uğrunda gedən ağır döyüşlərdə iştirak etmişdir. O, 2020-ci il oktyabrın 4-də Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və Bakıda II Şəhidlər xiyabanında dəfn edilmişdir.

Vüqar Elxan oğlu Məmmədov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

MART
28

Orxan Qəhrəmanov - 35

(1991-2020)

Əsgər



İnternetdə

https://obastan.com/wiki/Orxan_Qəhrəmanov_(əsgər)

https://bakimektebleri.edu.az/104/az/news/read/122952

Orxan Səlvər oğlu Qəhrəmanov 1991-ci il mart ayının 28-də Bakı şəhəri, Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində anadan olmuşdur. 1997-2006-cı illərdə Suraxanı rayonu N. Rəfiyev adına 104 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2009-cu ildə Suraxanı Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmış, Ağcabədi rayonunun Qiyaməddinli kəndində yerləşən "N" saylı hərbi hissədə xidmət etmiş və 2010-cu ildə hərbi xidmətini başa vurmuşdur.

Orxan Qəhrəmanov 2020-ci ildə baş vermiş Tovuz döyüşlərindən sonra könüllü olaraq hərbi komissarlıqda qeydiyyatdan keçmiş, Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılmışdır. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Xocavənd rayonları uğrunda gedən ağır döyüşlərdə şücaət və qəhrəmanlıq göstərmiş, düşmənə sarsıdıcı zərbələr endirmişdir. Orxan Qəhrəmanov 2020-ci il oktyabrın 21-də Füzuli rayonunun Gecəgözlü kəndi uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid olmuş, oktyabrın 25-də Suraxanı rayonunun Dədə Qorqud qəsəbəsində yerləşən Şəhidlər xiyabanında dəfn edilmişdir.


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Orxan Səlvər oğlu Qəhrəmanov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

MART
29

Sənan Kərimov – 35

(1991-2020)

Baş leytenant



Sənan Rəhman oğlu Kərimov 1991-ci il mart ayının 29-da Ağdam rayonunda anadan olmuşdur. Ağdam rayonunun işğalı ilə əlaqədar ailəsi Bakının Əhmədli qəsəbəsində məskunlaşmışdır.

Sənan Kərimov ibtidai və orta təhsilini əvvəlcə Əhmədli qəsəbəsində yerləşən 264 nömrəli tam orta məktəbdə almış, 9-cu sinifə qədər burada oxumuşdur. 2006-2009-cu illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2009-2013-cü illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirmişdir.

Ali məktəbi bitirdikdən sonra bir il Təlim-tədris mərkəzində kurs keçmiş, daha sonra leytenant rütbəsi ilə Qusarda yerləşən "N" saylı hərbi hissəyə təyinat almışdır. Burada xidmətdən sonra Füzuli rayonunda, ardınca isə Bakıda yerləşən "N" saylı hərbi hissədə bölük komandiri vəzifəsində xidmət etmişdir. 2016-cı ilin Aprel döyüşlərində iştirak edərək torpaqlarımızın azadlığı uğrunda mübarizə əzmini daha da möhkəmləndirmişdir.

Sənan Kərimov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı bölük komandiri kimi Füzuli və Cəbrayıl rayonlarının azadlığı uğrunda döyüşlərdə iştirak etmiş, peşəkar zabit kimi düşmən istehkamlarının dağıdılmasında böyük şücaət göstərmişdir. O, xüsusilə Füzuli istiqamətində düşmənin keçilməz hesab etdiyi müdafiə xəttinin yarılmasında mühüm rol oynamışdır. Sənan Kərimov 2020-ci il oktyabrın 7-də Cəbrayıl istiqamətində gedən döyüşlər zamanı yaxınlıqdakı tankdan atılan mərminin partlaması nəticəsində şəhid olmuş, oktyabrın 8-də Bakının II Fəxri xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Sənan Rəhman oğlu Kərimov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

Xətai rayonundakı 136 nömrəli tam orta məktəbin 2 "a" sinfinə onun adı verilmiş, məktəbin həyətində abidəsi ucaldılmış, həmçinin rayondakı küçələrdən birinə Sənan Kərimovun adı verilmişdir.

Ədəbiyyat

Aydın, X. İki savaş arasında keçən ömür...:Birinci Qarabağ savaşı dönəmində Ağdamdan əlində oyuncaq məcburi köçkün düşən Sənan, İkinci Qarabağ savaşında əlində silah həmin torpaqların geri alınmasında qəhrəmanlıq göstərib / Xanım Aydın // Kaspi.– 2021.– 9 oktyabr.– S.11.

Alıoğlu, S. Rəşadət və şücaət örnəyi / Salman Alıoğlu // Respublika.–2022.– 11yanvar.– S.6.

MART
29

Əfqan Nəsirov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Şəhid qəhrəmanın əşyaları muzeyə verilib: [Əfqan Nəsirova məxsus əşyaların Milli Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fonduna verilməsi haqqında] // Mədəniyyət.– 2023.–29 sentyabr.– S.3.

Əfqan Ramil oğlu Nəsirov 2001-ci il mart ayının 29-da Bakı şəhəri, Sabunçu rayonunun Zabrat-2 qəsəbəsində anadan olmuşdur. 2007-2018-ci illərdə Zabrat qəsəbəsində yerləşən 71 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətə çağırılmış, xidmətini Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Əfqan Nəsirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak edərək Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. O, 2020-ci il oktyabrın 14-də Füzuli rayonu istiqamətində gedən döyüşdə qəhrəmancasına şəhid olmuş və Zabrat qəsəbəsində dəfn edilmişdir

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Əfqan Ramil oğlu Nəsirov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Şəhidə məxsus hərbi köynək, təşəkkürnamə, fəxri fərman, fotoşəkillər, medallarının vəsiqələrinin surətləri və qol saatı Milli Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fonduna daxil edilmişdir.

30

Pərviz Məmmədli - 30

(1996-2020)

Kiçik gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25 iyun.- S.61-65.

Pərviz Həsən oğlu Məmmədli 1996-cı il mart ayının 30-da Neftçala rayonunda anadan olmuş, ibtidai təhsilini Neftçala rayonu E. Həbibov adına 4 saylı orta məktəbdə, 5-ci sinfdən Neftçala rayon Humanitar Təmayüllü Muğan Liseyində, 6-cı sinfdən isə Bakı şəhərində yerləşən Respublika Olimpiya İdman Liseyində almış və boks ilə məşğul olmuşdur.

2014-cü ilin aprel ayında Neftçala rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmış, Sumqayıt şəhərinin Hacı Zeynalabdin qəsəbəsində yerləşən "N" saylı və Qusar rayonundakı 651 saylı hərbi hissələrdə xidmət etmiş, Xüsusi Təyinatlı Qüvvələrin kursuna göndərilmiş və kursu müvəffəqiyyətlə başa vuraraq Türkiyə Özəl Qüvvələri Komandirliyi tərəfindən mükafatlandırılmışdır; daha sonra Cəlilabad rayonunda "N" saylı hərbi hissədə xidmətə başlamış, 2016-cı ilin Aprel döyüşlərində iştirak etmiş və 2020-ci ildə dağçılıq, amfibiya (dənizçilik) təlimlərində nailiyyətlər əldə etmişdir.

Vətən müharibəsi zamanı Pərviz Məmmədli Xüsusi Təyinatlı Qüvvələrin tərkibində Füzuli, Cəbrayıl, Hadrut, Laçın, Xankəndi və Şuşa rayonları uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 24-də Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və oktyabrın 25-də Neftçala rayonunda dəfn edilmişdir.

Azərbaycan Respublikasının müvafiq sərəncamları ilə Pərviz Məmmədli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Hərbi xidmətlərə görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şücaətə görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilmişdir.

MART
30

Telman Ələkbərov - 35

(1991-2020)

Leytenant



Telman İqdam oğlu Ələkbərov 1991-ci il mart ayının 30-da Bakıda anadan olmuşdur. O, 1997-2003-cü illərdə Sabunçu rayonundakı 215 nömrəli tam orta məktəbdə, 2003-2008-ci illərdə isə Azərbaycan Respublikası Olimpiya İdman Liseyində, 2013-2018-ci illərdə isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında qiyabi ali təhsil almışdır.

Telman Ələkbərov 2009-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmişdir. 2019-cu ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin Ehtiyat zabit hazırlığı kursunda "motoatıcı taqım komandiri" ixtisası üzrə təlim keçmiş, kursu bitirdikdən sonra leytenant rütbəsində taqım komandiri kimi əvvəlcə Ağdam rayonunda yerləşən 190 nömrəli hərbi hissənin 1902-ci motoatıcı taboruna təyinat almış, daha sonra 1901-ci motoatıcı taborunun (BMP-1) motoatıcı bölüyünün 1-ci motoatıcı taqım komandiri vəzifəsində xidmət göstərmişdir; xidməti dövründə vəzifə borcunu layiqincə yerinə yetirdiyinə görə hərbi hissə komandiri tərəfindən dəfələrlə "Fəxri fərman"larla təltif olunmuşdur. 2020-ci il avqustun 12-də isə Müqaviləsini uzadaraq "Hərbi xidmət keçmə haqqında" Əsasnamənin 9-cu maddəsinə müvafiq olaraq Azərbaycan Ordusunun zabit heyətinə keçmişdir.

Azərbaycan Ordusunun leytenantı olan Telman Ələkbərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində döyüş əməliyyatlarına qatılmış, hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirmiş, oktyabrın 7-də Ağdam rayonu istiqamətində döyüş tapşırıqlarını icra edərkən qəhrəmancasına şəhid olmuş və Bakı şəhərində II Fəxri Xiyabanda dəfn edilmişdir.

Telman İqdam oğlu Ələkbərov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarıına əsasən ölümündən sonra "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı", "Cəsur döyüşçü" medalları və III dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Şəhid baş leytenant Telman Ələkbərovun xatirəsi anılıb: [H. Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə] // Azərbaycan.– 2021.– 20 oktyabr.– S.7.

Əliyar bəy Haşımbəyov – 170

(1856-1920) *General-mayor*



Əliyar bəy Mehdi oğlu Haşımbəyov 1856-cı il mart ayının 8-də Bakı şəhərində anadan olmuşdur.

O, ilk təhsilini Bakı Real Məktəbində almış, 1871-ci ildə Tiflisdəki hərbi-piyada məktəbinə daxil olmuşdur. Hərbi xidmətə 1873-cü ildə başlamışdır.

Əliyar bəyin hərbi karyerası zəngin və müxtəlif vəzifələrlə doludur. O, 1878-ci ildə ikinci leytenant rütbəsi ilə xidmətə başlamı,1883-cü ildə Qars vilayətinin hərbi rəisi təyin olunmuş, 1908-ci ildə general-mayor rütbəsinə yüksəlmişdir. Birinci Dünya müharibəsində 3-cü Qafqaz araba-kravan briqadasının komandiri olmuşdur.

Ordudakı qüsursuz xidmətinə görə Əliyar bəy Haşımbəyov 1889-cu ildə üçüncü dərəcəli "Müqəddəs Stanislav", 1894-cü ildə üçüncü dərəcəli "Müqəddəs Anna", 1895-ci ildə ikinci dərəcəli "Müqəddəs Stanislav", 1898-ci ildə ikinci dərəcəli "Müqəddəs Anna", 1904-cü ildə isə "Müqəddəs Vladimir" ordenləri ilə təltif edilmişdir.

ADR qurulduqdan sonra, Əliyar bəy 1918-ci ildə Azərbaycan Milli Ordusunda könüllü xidmətə başlamışdır. Bir müddət Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər Nazirinin müavini vəzifəsində çalışmışdır. 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi İntendant İdarəsinin rəisi vəzifəsində xidmət etmiş, eyni ildə Zaqatala qubernatoru təyin olunmuşdur. Sonradan hökumətin fərmanı ilə Cənubi-Qərbi Azərbaycanın general-qubernatoru təyin edilmişdir.

ADR-in süqutundan sonra, Əliyar bəy Haşımbəyov Sovet hakimiyyəti tərəfindən təqib olunmuşdur. 1920-ci ilin mayında, Azərbaycan Xalq Cümhuriyyətinin bir qrup görkəmli xadimi ilə birlikdə, Respublika Ali İnqilabi Tribunalının hökmü ilə Nargin adasında güllələnmişdir.

Əliyar bəy Haşımbəyov, həm Rusiya imperiyasının, həm də Azərbaycan Demokratik Respublikasının yüksək rütbəli zabiti və dövlət xadimi olaraq, hərbi və inzibati sahələrdəki xidmətləri ilə tanınmışdır.

Ədəbiyyat:

Azərbaycan Xalq Cümhuriyyəti-100: biblioqrafiya /Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb Milli Kitabxanası; tərt. ed.: M. Vəliyeva, Z. Əhmədova, A. Hüseynova; elmi red. K. M. Tahirov; red. G. Səfərəliyeva. - Bakı: [Azərbaycan Milli Kitabxanası], 2018. - 558, [2] s.

Əliyarlı-Şahsevənli, İ. Azərbaycan polisinin yaranması və təşəkkülü tarixindən: 1918-1920-ci illər: qısa tarixi tədqiqat / İltifat Əliyarlı-Şahsevənli; elmi red. Ş. Qasımov [ön söz əvəzi]. - Bakı: Mütərcim, 2018. - 126, [2] s.

Şahsevən, İ. Azərbaycan Cümhuriyyətinin daxili işlər nazirləri və silahdaşları: istiqlal fədailəri: 1918-20 / İltifat Şahsevən (Əliyarlı); elmi red. Ş. Qasımov; red. Z. Şahsevənli ; məsləhətçilər: Y. Əliyev, T. Behbudov. - Bakı: Mütərcim, 2017. - 475, [1] s.

İnternetdə:


https://www.azerbaijans.com/content_1636_az.html

https://mod.gov.az/az/pre/55040.html

Ziya Göyalp - 150

(1876-1924)

Sosioloq, şair



Ədəbiyyat:

Türkçülüyün əsasları / Ziya Göyalp; red. C. Abbasova; naşir S. Baba-zadə; üz qabığı, tərtibat S. Amyr.– Bakı: Mayak, 2024.– 175 s.

Türkçülüyün nəzəri yaradıcısı: "Ziya Göyalp olmasa idi, Atatürk də olmazdı" / M.Abdullayev // Xalq qəzeti.– 2025.– 2 aprel (№ 62).– S.15.

Mədətoğlu, A. Turan sevdalısı - Böyük Türk mütəfəkkiri Ziya Göyalp: Vəfatının 95-ci ildönümünə! /Aydın Mədətoğlu //Türküstan.-2019.- 29 oktyabr - 4 noyabr.- S.14.

Zakirqızı, A. Hilmi Ülkən Ziya Göyalp irsi haqqında : Onu türkçü kimi formalaşdıran ikinci şəxs Əli bəy Hüseynzadə olub / Aytək Zakirqızı // Kaspi.-2019.- 15 may.- S.15.

Quliyev, E. Ziya Göyalp: Türkçülüyün milli hərəkat səviyyəsinə yüksəlməsində xidməti olan şəxsiyyətlərdən biri / Elman Quliyev // Xalq Cəbhəsi. .-2019.- 4 yanvar.- S.14.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Ziya_G%C3%B6yalp

Mehmet Ziya Göyalp 1876-cı il mart ayının 23-də Diyarbəkirdə anadan olmuşdur. İlk təhsilini doğma şəhərində almışdır. Rüştiyə məktəbində oxuduğu vaxt atası vəfat etmiş, bundan sonra əmisi Hasib Əfəndinin himayəsində böyümüşdür. Əmisi ona islam fəlsəfəsini, ərəb və fars dillərini öyrətmişdir. 1891-ci ildə Diyarbəkirdəki mülki liseyə daxil olmuş, burada fransız dilini də mənimsəmişdir. Bu dövrdə İbn Sina, İbn Rüşd və İmam Qəzzali kimi islam filosoflarını, həmçinin Qərb düşünürlərinin əsərlərini oxumuş, fəlsəfi dünyagörüşünü zənginləşdirmişdir.

Ziya Göyalp 1890-1894-cü illərdə hərbi xidmətdə olmuş, bu illərdə siyasi fəaliyyətə də başlamışdır. O, Tibb məktəblilərinin qurduğu Qiyam Komitəsinə qoşulmuş, lakin oxuduğu fransızca əsərlərin "zərərli" hesab edilməsi və fəaliyyəti səbəbindən həbs edilmişdir. İstanbuldakı təhsilindən uzaqlaşdırılmış və "zəbtiyə nəzarəti altında saxlanılmaq şərti ilə" yenidən Diyarbəkirə göndərilmişdir.

II Məşrutiyyətin elanından sonra siyasi fəaliyyətini genişləndirən Ziya Göyalp Diyarbəkirdə İttihat və Tərəqqi Cəmiyyətinin şöbəsini qurmuşdur. 1909-cu ildə Selanikdə keçirilən partiya konqresinə el nümayəndəsi kimi qatılmış, "Gənc Qələmlər", "Yeni Fəlsəfə" və "Rumeli" kimi qəzet və jurnallarda yazıları ilə Türkçülük və dilin sadələşdirilməsi hərəkatının öncüllərindən olmuşdur. Milli duyğuları, tarix şüurunu və elmə bağlılığı şeirləri vasitəsilə təbliğ etmişdir.

1912-ci ildə İstanbula köçmüş və Ergani mədənindən millət vəkili seçilmişdir. İstanbulun işğalı illərində (1919-1921) həbs edilərək Maltaya sürgün olunmuşdur. İki illik sürgündən qayıtdıqdan sonra, 1923-cü ildə yenidən Diyarbəkirdən millət vəkili seçilmiş, "Hakimiyyəti Milliyə", "Yeni Gün" və "Cumhuriyet" qəzetlərində müntəzəm məqalələr yazmışdır.

Ziya Göyalp Türkçülük hərəkatının ən mühüm nəzəriyyəçilərindən biri olmuşdur. Türk düşüncə və siyasət həyatına güclü təsir göstərmiş, milli ədəbiyyat axını içində yazdığı əsərlərlə Türk ədəbiyyatının forma və dil baxımından yenilənməsinə təkan vermişdir. Onun əsas əsərləri arasında "Qızıl işıq" (1923), "Türkçülüyün əsasları" (1923), "Türk adəti" (1923) və Respublika Xalq Partiyasının proqramını şərh edən "Doğru Yol" (1923) xüsusi yer tutur. Ölümündən sonra "Türk mədəniyyət tarixi" (1926) çap olunmuşdur. Daha sonrakı illərdə müxtəlif qəzet və jurnallarda dərc olunmuş yazıları və məktubları "Çinaraltı" (1939), "Təriqət nədir?" (1947) və "Ziya Göyalp deyir ki" (1950) kitablarında toplanmışdır. Bundan başqa, onun nəşr edilməmiş yeddi əsəri və ailə məktubları da mövcuddur.

Ziya Göyalp 1924-cü il oktyabrın 25-də İstanbulda vəfat etmiş, Fatih məzarlığında dəfn olunmuşdur.

Onun ideyaları Cümhuriyyətin qurulması illərində Mustafa Kamal Atatürkün milli dövlətçilik konsepsiyasının ideoloji dayaqlarından birinə çevrilmiş, Türk Ocaqları və Türk Yurdu dərgisi ətrafında toplaşan ziyalıların fəaliyyətinə böyük təsir göstərmişdir.

Göyalpın əsərləri və ideyaları yalnız dövründə deyil, sonrakı nəsillərdə də geniş elmi müzakirələrə səbəb olmuşdur. Türkiyənin görkəmli sosioloqu Ziyaəddin Fəxri Fındıkoğlu (1901–1974) Strasburq Universitetində yazdığı doktorluq dissertasiyasını onun irsinə həsr etmiş, bu əsər əsasında "Ziya Göyalp" (Paris, 1935) və "Ziya Göyalp və sosiologiyası" (Paris, 1936) kitablarını çap etdirmişdir. Digər görkəmli alim Hilmi Ziya Ülkən (1901–1974) isə "Ziya Göyalp" adlı əsərində mütəfəkkirin həyat və fəaliyyətini geniş şəkildə işıqlandırmışdır.

Akif Rəfiyev – 90

(1936)

Hüquqşünas



Akif Bəşir oğlu Rəfiyev 1936-cı il mart ayının 23-də Gəncə şəhərində anadan olmuşdur. 1960-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) Hüquq fakültəsini bitirmişdir. Təhsilini başa vurduqdan sonra hüquq mühafizə orqanlarında uzunmüddətli fəaliyyətə başlamışdır.

Akif Rəfiyev 1960-1961-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutunda ekspert-kriminalist, 1961-1964-cü illərdə Şəmkir rayon prokurorunun köməkçisi, 1964-1966-cı illərdə Azərbaycan SSR Prokurorluğunda şöbə prokuroru, 1966-1970-ci illərdə İsmayıllı rayon prokuroru, 1970-1976-cı illərdə Mingəçevir şəhər prokuroru, 1976-1979-cu illərdə Zaqatala rayon prokuroru, 1979-1981-ci illərdə isə Sumqayıt şəhər prokuroru vəzifələrində çalışmışdır.

1982-ci ilin yanvarından 1989-cu ilin avqust ayına qədər Azərbaycan SSR Daxili İşlər Nazirliyinin İstintaq İdarəsinin rəisi olmuşdur. 1989-1991-ci illərdə Azərbaycan Respublikası daxili işlər nazirinin müavini, 1991-2002-ci illərdə isə Azərbaycan Respublikası ədliyyə nazirinin müavini vəzifəsində çalışmışdır. O, hüquq-mühafizə sahəsində ümumilikdə 42 il fasiləsiz fəaliyyət göstərmişdir.

1989-cu ildə Respublikada, xüsusilə Qarabağda cinayətkarlığa qarşı mübarizədə və sabitliyin təmin olunmasında göstərdiyi xidmətlərə görə ona "Əməkdar hüquqşünas" fəxri adı verilmişdir. 1998-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Akif Rəfiyevə 3-cü dərəcəli Dövlət ədliyyə müşaviri (ədliyyə general-mayoru) rütbəsi verilmişdir.

İşlədiyi müddət ərzində hüquq jurnallarında məqalə və müsahibələri, hüququn ayrı-ayrı aktual məsələləri və problemlərinə dair 100-dən artıq çıxışı və məqaləsi olmuşdur. Onun elmi-publisistik fəaliyyəti hüquqi fikrin inkişafında mühüm rol oynamışdır.

2016-cı ildə Akif Rəfiyev Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xidmətlərinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişdir.

Akif Rəfiyev həmçinin ictimai fəaliyyətlə də məşğul olmuşdur. O, Azərbaycan Ağsaqqallar Şurasının Məclis üzvü, Binəqədi rayonu Ağsaqqallar Şurasının sədri və həmçinin kino məsləhətçisi kimi fəaliyyət göstərir.

Ədəbiyyat:

"30 ildə itirdiklərimizi 44 gündə geri almağı bacardıq" / Akif Rəfiyev: müsahibəni apardı Afaq Rza // 525-ci qəzet.– 2020.– 23 dekabr.– S.14.

Qüdrətli ölkənin qalib lideri / Akif Rəfiyev // Respublika.– 2021.– 26 dekabr.– S.4.

Azərbaycan regionun inkişafında sülh çağırışlarına prioritet istiqamət kimi yanaşır / Akif Rəfiyev // Xalq qəzeti.– 2022.– 5 may.– S.10.

Müstəqilliyimizin memarı / Akif Rəfiyev // İki sahil.– 2023.– 10 iyun.– S.14.

15 İyun ölkəmizin taleyində dönüş anıdır: Heydər Əliyevin adı tariximizə həm də böyük xilaskar kimi düşüb / Akif Rəfiyev // Şərq.– 2024.– 14 iyun, № 105.– S.6.

İnkişaf edən Azərbaycan-Almaniya əlaqələri / Akif Rəfiyev // 525-ci qəzet.– 2025.– 4 aprel(№55).– S.7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Akif_R%C9%99fiyev

Nəzər Heydərov - 130

(1896-1968)

Dövlət xadimi



Nəzər Heydər oğlu Heydərov 1896-cı il mart ayının 29-da Zəngəzur qəzasının (indiki Qubadlı rayonu) Gürcülü kəndində anadan olmuşdur. Gorus şəhərindəki beşsinifli məktəbdə oxumuş, məktəbi bitirdikdən sonra əmək fəaliyyətinə başlamışdır. 1913-cü ildə Bakıya gələrək Ramana neft mədənlərində fəhlə kimi işləmiş, 1918-ci ilin sonlarında mədənlərdə çalışmanı dayandıraraq anadan olduğu kəndə qayıtmışdır.

1919-cu ilin mart ayında Nəzər Heydərov bolşeviklər partiyasına daxil olmuş, 1918-1920-ci illərdə Zəngəzurda kəndlilər arasında inqilabi iş aparmışdır. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Qubadlı İnqilab Komitəsinin sədri təyin edilmiş, həmin ilin sonunadək bu vəzifədə çalışmışdır. Sonrakı illərdə Azərbaycan K(b)P Qubadlı Qəza Komitəsinin katibi, Qubadlı Qəza İcraiyyə Komitəsinin sədri və Azərbaycan K(b)P Mərkəzi Komitəsinin məsul təlimatçısı kimi fəaliyyət göstərmişdir.

1924-1926-cı illərdə Ağdaş Qəza İcraiyyə Komitəsinin sədri, ardınca Şuşa İcraiyyə Komitəsinə başçılıq etmiş, Dağlıq Qarabağ Muxtar Vilayəti İcraiyyə Komitəsi sədrinin müavini vəzifəsində işləmişdir. 1927-1928-ci illərdə Azərbaycan SSR Ali Xalq Təsərrüfatı Şurasında çalışmış, 1928-ci ildə Azərbaycan K(b)P MK tərəfindən Moskvaya göndərilərək Stalin adına Sənaye Akademiyasının neft şöbəsini və Moskva Neft İnstitutunu bitirmişdir.

Nəzər Heydərov 1931-ci ildən başlayaraq 18 il Azərbaycan neft sənayesində fəaliyyət göstərmiş, Molotov adına mədənin direktoru, "Əzizbəyovneft" trestinin müdiri, Azərbaycan neft texniki təchizat trestinin müdiri, "Azneft" birliyi rəisinin müavini və rəisi, "Kirovabadneft" trestinin müdiri vəzifələrində çalışmışdır.

1949-cu ilin may ayında Azərbaycan SSR Ali Sovetinin IV sessiyasında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri seçilmiş və bu vəzifədə 1954-cü ilə qədər fəaliyyət göstərmişdir. Eyni zamanda SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin müavini olmuşdur. 1954-1959-cu illərdə "Azərnefttextəchizat" idarəsi rəisinin müavini vəzifəsində çalışmış, 1960-cı ildə fərdi təqaüdə çıxmışdır.

Nəzər Heydərov dəfələrlə Azərbaycan K(b)P Mərkəzi Komitəsinin və Bakı Komitəsinin, Zaqafqaziya və Azərbaycan MİK-lərinin üzvü olmuş, 2-ci və 3-cü çağırış SSRİ Ali Sovetinin, 2-ci və 3-cü çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. O, "Lenin" və "Qırmızı əmək bayrağı" ordenləri, "Qafqazın müdafiəsinə görə" və "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalları ilə təltif edilmişdir.

Nəzər Heydər oğlu Heydərov 30 dekabr 1968-ci ildə Bakıda vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

Onun Zəngəzurda inqilabi hərəkatdan bəhs edən "Zəngəzur dağlarında" adlı kitabı 1972-ci ildə yayımlanmış, rus və erməni dillərinə tərcümə edilmişdir.

Ədəbiyyat:

Zəngəzur dağlarında / N. Heydərov; naşir M. Xan; dizayn F. İlham.– [Bakı]: Mücrü, [2022].– 260 s.

Əliyeva, İ. "Zəngəzur dağlarında"n görünənlər: Yeni nəşrlər / İradə Əliyeva // Azərbaycan.-2016.- 23 iyun.- S.7.

Məmmədov, X. Ağsaqqal sözünün siqləti / Xanış Məmmədov // Xalq qəzeti. -2009.- 23 iyun.- S. 5.

İnternetdə:

https://az.wikipedia.org/wiki/N%C9%99z%C9%99r_Heyd%C9%99rov

https://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_iyun2009/83639.htm

https://m.modern.az/az/news/105164/javascript();

Oqtay Əfəndiyev - 100

(1926-2013) *Tarixçi*



Oqtay Əbdülkərim oğlu Əfəndiyev 1926-cı il mart ayının 26-da Bakı şəhərində anadan olmuşdur. 1945-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərqşünaslıq fakültəsinə daxil olmuş, bir il sonra ali təhsilini Moskvada davam etdirərək 1946-1950-ci illərdə Şərqşünaslıq İnstitutunun İran bölməsində təhsil almışdır.

1951-ci ildə Azərbaycan Elmlər Akademiyası (indiki AMEA) Tarix İnstitutunun aspiranturasına qəbul edilmiş, həmin il Moskvaya ezam edilərək 1955-ci ilədək SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun aspirantı kimi təhsilini davam etdirmişdir.

Oqtay Əfəndiyev əmək fəaliyyətinə 1955-ci ildən Tarix İnstitutunda kiçik elmi işçi kimi başlamış, sonradan baş elmi işçi olmuş və 1975-ci ildən Azərbaycanın Orta Əsrlər Tarixi Şöbəsinin müdiri vəzifəsinində çalışmışdır

Oqtay Əfəndiyev 1955-ci ildə namizədlik, 1969-cu ildə doktorluq dissertasiyasını müdafiə etmiş, 1993-cü ildə professor elmi rütbəsini almışdır. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. O, 2006-2007-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tarix üzrə ekspert şurasının rəhbəri olub

Alim elmi fəaliyyəti ərzində Azərbaycan, türk, rus, ingilis, fransız, fars və digər dillərdə 200-dək elmi və ensiklopedik məqalə, məruzə, tezis, tarixi xəritə və s. nəşr etdirib. Bu əsərlərin 50-dən çoxu respublika hüdudlarından kənarda - Türkiyə, Rusiya, İran, Gürcüstan, Qazaxıstan, Əfqanıstan, Fransa, İngiltərə, ABŞ və s. ölkələrdə çap olunub. Əsas tədqiqat sahəsi Səfəvilər dövləti və onun təşkilati quruluşu olmuşdur. Əfəndiyev həmçinin tarixçi-şərqşünas və mənbəşünas kimi fars dilindən tərcümələr etmişdir.

O, Azərbaycan Sovet Ensiklopediyasının, SSRİ-nin çoxcildli "Tarixi", "Sovet Tarixi Ensiklopediyası"nın və İstanbulda nəşr olunan "İslam Ensiklopediyası"nın müəlliflərindən biri olmuş, həmçinin "Azərbaycan Milli Ensiklopediyası"nın redaksiya heyətinin üzvü kimi fəaliyyət göstərmişdir.

Oqtay Əbdülkərim oğlu Əfəndiyevin əsas elmi əsərləri arasında "Obrazovanie azərbaydzhanskogo gosudarstva Sefevidov v nachale XVI v." (1961), "Azərbaydzhanskoe gosudarstvo Sefevidov v XVI veke" (1981), "Azərbaycan Səfəvilər Dövləti" (1993) və "Azərbaycan Səfəvilər dövləti" (2007) kitabları xüsusi yer tutur.

20-dən artıq kitabın elmi redaktoru olan tarixçi alim Ağqoyunlu dövlətinin saray tarixçisi Fəzlullah ibn Ruzbehan Xuncinin "Tarixi-aləmarayi-Əmini" əsəri, Şah Təhmasibin təzkirəsi və bir sıra çağdaş tarixçilərin əsərləri məhz onun redaktəsi altında elmi ictimaiyyətə təqdim edilmişdir.

Elmi yaradıcılığı ilə yanaşı, Oqtay Əfəndiyev pedaqoji fəaliyyətlə də məşğul olmuş, Bakı Dövlət Universiteti, Xəzər Universiteti və Marmara Universitetində dərs demiş, 1994-2004-cü illərdə Xəzər Universitetində Qafqaz və Mərkəzi Asiya Araşdırmaları İnstitutunun direktoru vəzifəsini icra etmişdir. Onun rəhbərliyi altında 6 elmlər doktoru və 12 fəlsəfə doktoru hazırlanmışdır.

Azərbaycan tarixinə, xüsusən Qarabağ probleminin tarixi aspektinə dair mühazirələri ölkədə və beynəlxalq konfranslarda yüksək qiymətləndirilmişdir. 1982-ci ildə "Şərəfli əməyə görə" medalı, 1986-cı ildə "Şərəf nişanı" ordeni, 2004-cü ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Oqtay Əbdülkərim oğlu Əfəndiyev 2013-cü il fevral ayının 26-da vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Oqtay Əfəndiyev, Azərbaycan tarixinin Səfəvilər dövrü üzrə aparıcı mütəxəssislərindən biri olmuş, onun elmi irsi bu sahədəki tədqiqatlara böyük töhfə vermiş və gələcək nəsillər üçün qiymətli bir qaynaq olaraq qalır.

Ədəbiyyat:

Rumlu, Həsən bəy. Əhsənüt-təvarix: tarixlərin ən yaxşısı : hicri 807-985 / miladi 1404-1578-ci illərin hadisələri haqqında tarixi salnamə / Həsən bəy Rumlu; fars dilindən tərc. və şərh.: O. Əfəndiyev, N. Musalı. - Kastamonu: [Uzanlar], 2017. - 661 s.

Fərəcov, S. Azərbaycan tarixşünaslığında məktəb yaradan alim / Savalan Fərəcov // Mədəniyyət. -2017.- 29 mart.-S.11.

Azərbaycan Səfəvişünaslığında Oqtay Əfəndiyev mərhələsi /Xeyirbəy Qasımov // Kaspi.-2016.- 18 oktyabr.-S. 15.

Azərbaycan Səfəvişünaslığının banisi AMEA-nın müxbir üzvü Oqtay Əbdülkərim oğlu Əfəndiyev : (biblioqrafiya) / tərt. və red. E. Mirzəyeva ; [ön söz. Y. Mahmudov]. - Bakı: Təhsil, 2007. - 107, [1] s.

Səfəvişünas alimin yubileyi // Elm. - 2016.- 21 oktyabr.- S.4.

İnternetdə:

https://science.gov.az/az/forms/skanchavshiesya-chlenyikorrespondentyi/3367

Amin İsmayılov – 75

(1951)

Alim



Amin İsmayıl oğlu İsmayılov 14 mart 1951-ci ildə Kürdəmir rayonunda anadan olmuşdur. 1972-ci ildə Azərbaycan Politexnik İnstitutunun Hidromeliorasiya fakültəsini bitirmişdir.

1981-ci ildə aqrar elmlər üzrə fəlsəfə doktoru, 2003-cü ildə aqrar elmlər doktoru alimlik dərəcələrini almış, 2011-ci ildə professor elmi adına layiq görülmüşdür. 2014-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Amin İsmayılov 1974-1975-ci illərdə Şirvanmeliosutikinti Trestində mühəndis işləmişdir. Daha sonra AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunda baş laborant, kiçik elmi işçi və böyük elmi işçi kimi fəaliyyət göstərmişdir. 1990-cı ildə onun təşəbbüsü ilə institutda "Torpaqşünaslıq və aqrokimya tədqiqatlarında elektron hesablama maşınlarından istifadə" qrupu yaradılmışdır. 1995-ci ildə bu qrupun bazasında "Torpaq informatikası və monitorinqi" laboratoriyası təsis olunmuş və bu günədək həmin laboratoriyaya rəhbərlik edir. 2015-ci ildən laboratoriya "Torpaq-coğrafi informasiya sistemləri laboratoriyası" adlanır.

O, 1997–2009-cu illərdə Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində Dövlət Torpaq Kadastrı və Monitorinqi Elm-İstehsalat Mərkəzinin direktoru vəzifəsində çalışmışdır. Onun rəhbərliyi ilə torpaq islahatlarının elmi-texnoloji əsasları işlənmiş, torpaq kadastrının və sahələrin qeydiyyatının müasir geoinformasiya sistemləri bazasında aparılması, xəritə və kartoqramların avtomatlaşdırılmış informasiya sistemləri əsasında hazırlanması həyata keçirilmişdir. Bu fəaliyyətin nəticəsi olaraq, 2004-cü ildə "Azərbaycan torpaqlarının informasiya sistemi" adlı monoqrafiyası nəşr edilmişdir.

Alim 2004-cü ildən Azərbaycan Memarlıq və İnşaat Universitetinin Geomatika kafedrasının professoru kimi pedaqoji fəaliyyət göstərir. Burada torpaq və şəhər kadastrı, həmçinin CİS üzrə milli kadrların hazırlanmasında mühüm rol oynamışdır.

Onun elmi tədqiqatları əsasən Azərbaycanda torpaq informatikasının və torpaq-ekoloji tədqiqatlarda CİS texnologiyalarında istifadənin elmi əsaslarının yaradılmasına həsr olunub. Tədqiqatlar CİS əsasında torpaq-ekoloji mühit göstəricilərinin Verilənlər Bazasının, torpaqların mövcud vəziyyətinin qiymətləndirilməsi üçün ekspert sistemlərinin, CİS bazasında rəqəmsal torpaq xəritələrinin yaradılması, torpaqların konseptual diaqnostik modellərinin hazırlanması, CİS bazasında rəqəmsal torpaq xəritələrinin tərtibi və s. mövzuları əhatə edir.

Alim Ümumittifaq Torpaqşünaslar və Ümumdünya Torpaqşünaslar Cəmiyyətlərinin, həmçinin Azərbaycan Respublikasının Ali Attestasiya Komissiyasının biologiya və kənd təsərrüfatı sahələri üzrə Ekspert şurasının üzvü olmuşdur. Macarıstanda nəşr olunan impakt faktorlu "Applied Ecology and Environmental Research" beynəlxalq elmi jurnalının redaktorlar şurasının üzvüdür. 2015-ci ildə AMEA Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Torpaq və su ehtiyatlarının idarə edilməsi və ətraf mühitin mühafizəsi problemləri üzrə Elmi Şurasının sədri seçilmişdir.

Azərbaycanda və xaricdə çap olunan 110-a yaxın elmi əsərin, o cümlədən 4 kitab, 4 monoqrafiya və 2 ali məktəb dərsliyinin müəllifidir (bəziləri həmmüəlliflə).

2018-ci ildən Azərbaycan Milli Ensiklopediyası Redaksiya Heyətinin üzvüdür. 2019-cu ildən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Biologiya elmləri və aqrar elmlər üzrə Ekspert şurasının sədridir.

Amin İsmayılov Yeni Azərbaycan Partiyasının 2021-ci il mart ayının 5-də keçirilmiş VII qurultayında partiyanın İdarə Heyətinin üzvü seçilmişdir.

Ədəbiyyat:

GİS və peyk texnologiyalarından istifadə etməklə işğaldan azad edilmiş torpaqların kənd təsərrüfatı bitkilərinə yararlılıq vəziyyətinin elmi təhlili / A.İsmayılov; F.Feyziyev // Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bugünü və gələcəyi: Konfransın proqramı və materialları / Azərbaycan Milli Elmlər Akademiyası.– 2021.– 20-21 may.– S.118.

Heydər Əliyevin elmin inkişafına diqqət və qayğısı / Amin İsmayılov // Xalq qəzeti.– 2022.– 7 may.– S.6.

Milli intibahın formalaşmasında Ulu Öndərin xidmətləri əvəzsizdir / Amin İsmayılov // Respublika.– 2023.– 17 fevral.–S.3.

Şəhər ərazilərinin idarə edilməsi: Ali məktəblər üçün dərs vəsaiti / S. A. Qəniyeva, E. A. Qurbanov; elmi red. Amin İsmayılov.– Bakı: [Class Print], 2024.– 213, [3] s.

İnternetdə:

https://science.gov.az/az/forms/chlenyikorrespondentyi/1218

Ağayar Şükürov - 80

(1946-2008)

Alim



Ağayar Məhəmməd oğlu Şükürov 25 mart 1946-cı ildə Biləsuvar rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1963–1967-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsində təhsil almışdır.

1971–1974-cü illərdə Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir. 1975-ci ildə "Milli və dini ənənələr" mövzusunda dissertasiya müdafiə edərək fəlsəfə elmləri namizədi elmi dərəcəsi almışdır. 1989-cu ildə isə "Müasir qlobalistikada ekoloji problemlərin yeri və rolu" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək fəlsəfə elmləri doktoru alimlik dərəcəsinə yiyələnmişdir.

1975–1976-cı illərdə Bədən Tərbiyəsi İnstitutunun Fəlsəfə kafedrasında baş müəllim işləmiş, daha sonra Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutuna qayıtmışdır.

1990-cı ildən Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunda şöbə müdiri vəzifəsində çalışmış, 1991-ci ildə keçmiş SSRİ məkanında ilk dəfə "Ekologiyanın fəlsəfi problemləri" şöbəsini yaratmışdır. Onun rəhbərliyi ilə şöbə məhsuldar fəaliyyət göstərmiş, 2006-cı ilə qədər "Ekologiya. Fəlsəfə. Mədəniyyət" məcmuəsinin 42 buraxılışı işıq üzü görmüşdür.

A. Şükürovun tədqiqatları əsasən fəlsəfə və din tarixi, mifologiya, mədəniyyət və ekoloji problemlərlə bağlı olmuşdur. 1984-cü ildə "Elm" nəşriyyatında çap etdirdiyi "Müasir dövrün qlobal, ekoloji və demoqrafik problemlərinin sosial-fəlsəfi mahiyyəti" adlı əsəri ilə Azərbaycan fəlsəfəsində yeni – qlobal problemlər istiqamətinin bünövrəsini qoymuşdur.

Onun 30-a qədər kitabı, o cümlədən "Azərbaycan fəlsəfəsi" (qədim dövr), "Fəlsəfə", "Kulturologiya", "Sosial ekologiya" dərslikləri və 330-dan artıq elmi məqaləsi nəşr olunmuşdur. Əsərləri həm Azərbaycanda, həm də Rusiya və Türkiyədə işıq üzü görmüşdür.

Ağayar Şükürov pedaqoji fəaliyyəti ilə də seçilmişdir. O, 2 elmlər doktoru, 25 fəlsəfə doktoru (elmlər namizədi) yetişdirmişdir.

A. Şükürov bir sıra beynəlxalq konfransların iştirakçısı olmuş, elmi məruzələrlə çıxış etmişdir. 2003-cü ildə Beynəlxalq Ekologiya və Təbiətdən İstifadə Akademiyasının həqiqi üzvü – akademiki seçilmişdir.

Ağayar Məhəmməd oğlu Şükürov 7 noyabr 2008-ci ildə vəfat etmişdir.

Onun zəngin elmi irsi bu gün də fəlsəfə və humanitar elmlər sahəsində mühüm əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

Hamı üçün fəlsəfə / Ağayar Şükürov; M. A. Şükürov; elmi red. və ön söz müəllifi. Ə. M. Tağıyev. - Bakı: Mütərcim, 2010. - 133, [1] s.

Azərbaycan mifologiyası: Tədqiqi tarixindən /Ağayar Şükürov; Elmi red.: H. İsmayılov. - Bakı: Çıraq, 2005. - 72 s.

Xoşbəxt görünməyim özümə qaldı / Ağayar Şükürov; Red. və ön sözün müəllifi: İ. Tapdıq; Tərtibçi: A. Əvəzoğlu (Gözəlov). - Bakı: Elm, 2000. - 182 s.

Azərbaycan ədəbiyyatı antologiyası qazax dilində / Ağayar Hüseynov // 525-ci qəzet.-2019.- 22 may.- S.15.

İnternetdə:

https://az.wikipedia.org/wiki/A%C4%9Fayar_%C5%9E%C3%BCk%C3%BCrov

Yaşar Qarayev – 90

(1936-2002)

Ədəbiyyatşünas, tənqidçi



Yaşar Vahid oğlu Qarayev 1936-cı il mart ayının 5-də Şəki şəhərində anadan olmuşdur. 1946-cı ildə ailəsi ilə birlikdə Bakıya köçmüş, burada 31 nömrəli şəhər orta məktəbini bitirmişdir. 1954–1958-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsində təhsil almışdır.

1959-cu ildən Akademiyada əmək fəaliyyətinə başlayan alim Nizami adına Ədəbiyyat Dil İnstitutunun şöbə müdiri (1975-1981), elmi işlər üzrə direktor müavini (1981-1985), daha sonra direktoru vəzifələrində çalışmışdır. 38 monoqrafik tədqiqat əsərinin və ədəbi-tənqidi məqalələr məcmuəsinin, 500-dən artıq məqalənin müəllifidir.

Ədəbi fəaliyyətə 1955-ci ildə "Lenin tərbiyəsi uğrunda" və "Azərbaycan gəncləri" qəzetlərində çıxışlarla başlamışdır. Onun tədqiqat obyekti ədəbiyyatşünaslıq, ədəbi tənqid, ədəbiyyat tarixçiliyi, teatrşünaslıq, estetika və humanitar elmlərin nəzəri-metodoloji problemlərini əhatə edirdi. 1964-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, əsərlərini "Yaşar", "Q. Yaşar", "Y. Qarayev" imzaları ilə dərc etdirmişdir.

1985-ci ildə professor elmi rütbəsini almış, 1990-cı ildə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının həqiqi üzvü, 2002-ci ildə isə AMEA-nın müxbir üzvü seçilmişdir. O, 1990-cı ildən Ali Attestasiya Komissiyasının, Azərbaycan Milli Yaradıcılıq Akademiyası Rəyasət Heyətinin üzvü və humanitar bölməsainin həmsədri, 1991-ci ildən isə Azərbaycan Yazıçılar Birliyinin tənqid və ədəbiyyatşünaslıq üzrə katibi olmuşdur.

1993-cü ildən Azərbaycanda daimi fəaliyyət göstərən Şəhriyar konqresi komitəsinin sədri kimi çıxış etmiş, "Ədəbi proses" adlı illik elmi-tənqidi məcmuənin təşəbbüsçüsü, müəlliflərindən biri və məsul redaktoru olmuşdur. Onun "Şərqin dahisi", "Tənqid: problemlər, portretlər", "Azərbaycan ədəbiyyatında faciə janrı", "Tarix: yaxından və uzaqdan" kimi əsərləri ədəbiyyatşünaslıqda mühüm yer tutur.

Yaşar Qarayev həmçinin respublikanın elmi və ədəbi-mədəni həyatında da fəal iştirak etmişdir. O, "Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları" problemi üzrə əlaqələndirmə şurasının sədri, Ədəbiyyat İnstitutu elmi şurasının, Memarlıq və İncəsənət İnstitutunun, Türkmənistan EA Dil və Ədəbiyyat İnstitutu elmi şurasının üzvü olmuş, Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətində, Mədəniyyət Nazirliyi və "Yazıçı" nəşriyyatının bədii şuralarında fəaliyyət göstərmişdir. O, "Azərbaycan" və "Ulduz" jurnallarının, "Bilik" cəmiyyətinin, eləcə də ensiklopediya elmi redaksiya heyətlərinin üzvü olmuşdur.

SSRİ Yazıçılar İttifaqı Rəyasət Heyəti yanında Tənqid və ədəbiyyatşünaslıq şurasının, Azərbaycan Yazıçılar İttifaqının M.F. Axundov adına mükafat komissiyasının üzvü olmuş, 1994-cü ildən isə "Füzuli vəqfi" fondunun rəyasət heyətində çalışmışdır.

Yaşar Qarayev 1980-ci ildə Azərbaycan Dövlət mükafatı laureatı olmuş, 1982-ci ildə isə "Əməkdar elm xadimi" fəxri adına, "Məmməd Araz", "Həsən Turabov" mükafatlarına, "Əmək rəşadətinə görə" medalı ilə təltif olunmuşdur.

Görkəmli ədəbiyyatşünas və tənqidçi Yaşar Vahid oğlu Qarayev 2002-ci il avqust ayının 25-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat:

Yaşar Qarayev-şəxsiyyət zamanı / E. Akimova // Ədəbiyyat qəzeti.– 2021.– 6 mart.– S.6-7.

Fərəcov, S. Bənzərsiz ədəbiyyatşünas alim / Savalan Fərəcov // Mədəniyyət.– 2022.– 19 avqust.– S.7.

Yaşar Qarayev dərsləri / C.Yusifli // Ədəbiyyat qəzeti.– 2025.– 4 aprel (№11).– S.45.

Yaşar Qarayev: toxunulacaq qədər yaxından / S.A.Xavəri // 525-ci qəzet.– 2025.– 5 mart(№41).– S.14-15.

Müstəqillik dövrünün milli öndəri / Yaşar Qarayev // Ədəbiyyat qəzeti.-2023.- 6 may.- S.2-3.

Alışanlı, Ş. Elmi düşüncənin vüsəti / Şirindil Alışanlı // Ədəbiyyat qəzeti.-2021.- 6 mart.- S.8.

Bağırlı, A. Həyatda və ədəbi tənqiddə sözünü deyən alim / AygünBağırlı // Azərbaycan.-2021.- 12 mart.- S.9.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Ya%C5%9Far_Qarayev

Böyükağa Hüseynov – 100

(1926-1983)

Filoloq



Böyükağa Murtuza oğlu Hüseynov 7 mart 1926-cı ildə Bakıda anadan olmuşdur. Orta təhsilini 150 saylı məktəbdə almış, ali təhsilini isə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində başa vurmuşdur. Daha sonra Moskva Şərqşünaslıq İnstitutunun İran şöbəsində təhsilini davam etdirmişdir.

Bakıya qayıtdıqdan sonra Böyükağa Hüseynov Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Dilçilik İnstitutunda, Kommunist Partiyası MK-nın Təbliğat şöbəsində və SSRİ EA-nın Asiya İnstitutunda məsul vəzifələrdə çalışmışdır. 1962–1981-ci illərdə AMEA-nın Şərqşünaslıq İnstitutunun direktor müavini vəzifəsini icra etmişdir. 1966-cı ildən ömrünün sonuna qədər institutun İran filologiyası şöbəsinə rəhbərlik etmişdir.

1962-ci ildə Moskva şəhərində "Mütərəqqi İran poeziyasında sovet mövzusu" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək fəlsəfə doktoru, 1974-cü ildə doktorluq dissertasiyasını müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsini almışdır. 1980-ci ildə professor elmi adını almış və eyni ildə AMEA-nın müxbir üzvü seçilmişdir. Doktorluq dissertasiyalarının müdafiəsi üzrə Asiya və Afrika xalqları ədəbiyyatı İxtisaslaşdırılmış Müdafiə Şurasının sədri olmuşdur.

Böyükağa Hüseynov Moskvada, Parisdə, Berlində və Praqada keçirilmiş beynəlxalq konqres və simpoziumlarda məruzələr etmişdir. 1970-ci ildə İranda, 1980-ci ildə isə Türkiyədə elmi ezamiyyətdə olmuşdur.

O, bir neçə əsərin tərcüməçisi və 10-dan çox əsərin elmi redaktoru olmuş, 100-ə yaxın elmi və 30 elmi-məlumat xarakterli məqalənin müəllifi kimi tanınmışdır. Onun əsərləri Azərbaycandan başqa İran, Türkiyə, Çexoslovakiya, Rusiya və digər ölkələrdə çap edilmişdir. Böyükağa Hüseynovun rəhbərliyi altında 14 elmi işçi, aspirant və dissertant namizədlik dissertasiyası müdafiə etmişdir. Ömrünün son 5 ilində Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində müəllim kimi fəaliyyət göstərmişdir.

Böyükağa Hüseynov bədii yaradıcılıqla da məşğul olmuş, "Böyükağa Faiq" təxəllüsü ilə şeirlərini və satirik hekayələrini "Ədəbiyyat və incəsənət", "Bakı" qəzetlərində, "Kirpi" jurnalında dərc etdirmişdir.

Alim Şərq dünyasının ədib və şairlərinin, mütəfəkkirlərinin əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. O, Nasir Xosrov, Ömər Xəyyam, Seyidəddin Urfi, Ehsan Təbəri, Nizari, Lahuti, Jalə, Nadir Nadirpur kimi fars-tacik müəlliflərinin yaradıcılığını araşdırmış, eyni zamanda Q. Aristovun "Torpaq və Günəş", D. Sidorovun "Xurafata inanmağın zərəri haqqında" adlı kitablarının müəllifi olmuşdur.

Böyükağa Murtuza oğlu Hüseynov 31 may 1983-cü ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Mütərəqqi fars poeziyasında sovet mövzusu / Böyükağa Hüseynov; red. M. Sultanov. - Bakı: Azərnəşr, 1961. - 154, [2] s.

Şərqşünaslıq İnstitutunda Böyükağa Hüseynovun 90 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirilib / Məhəmməd Nərimanoğlu // Azərbaycan. -2016.- 8 mart.- S.8.

Böyükağa Hüseynovun 90 illiyinə həsr olunan elmi sessiya keçirildi / Vüqar Məmmədov // Azərbaycan şərqşünaslığı / AMEA, Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu.-2016.- №1.- S.112-113.

Şərqşünaslıq elminin inkişafında əvəzsiz xidmətləri olan alim / Savalan Fərəcov // Mədəniyyət.-2017.- 3 mart.- S.15.

Şərqşünaslığın inkişafında xidmətləri olan alim / Vüqar Məmmədov // Elm.- 2016.- 11 mart.- S.7.

İnternetdə:

https://science.gov.az/en/forms/skanchavshiesya-chlenyikorrespondentyi/3400

İsmayıl Vəlibəyli – 75

(1951-2017)

Ədəbiyyatşünas



İsmayıl Ömər oğlu Vəliyev (Vəlibəyli) 18 mart 1951-ci ildə Qərbi Azərbaycanın Allaverdi rayonunun Böyük Ayrım kəndində anadan olmuşdur. 1970–1975-ci illərdə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində ali təhsil almışdır.

Əmək fəaliyyətinə Azərbaycan Dövlət Nəşriyyatında korrektor və redaktor kimi başlamış, 1978-ci ildə "Yazıçı" nəşriyyatına keçərək ədəbiyyatşünaslıq və publisistika redaksiyasında redaktor, daha sonra isə incəsənət, klassik ədəbiyyat və folklor redaksiyasının müdiri vəzifələrində çalışmışdır.

1980–1984-cü illərdə Azərbaycan Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsində nəşriyyatlar idarəsinin rəisi olmuşdur. 1986–1987-ci illərdə Azərbaycan KP Mərkəzi Komitəsində təbliğat və təşviqat şöbəsində təlimatçı, 1987–1989-cu illərdə şöbənin müdirinin mətbuat məsələləri üzrə müavini olmuşdur. 1989–1991-ci illərdə Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyasında Baş redaktorun birinci müavini, 1991–1992-ci illərdə isə Baş redaktor vəzifəsini icra etmişdir. Eyni zamanda Azərbaycan-Türkiyə birgə müəssisəsi "Göytürk" nəşriyyat, poliqrafiya və ticarət şirkətinin baş direktoru və baş redaktoru olmuşdur.

1983-cü ildə "Ədəbi portret: onun funksiyası və tipologiyası" mövzusunda namizədlik dissertasiyasını, 2001-ci ildə isə "Ədəbiyyatda insan konsepsiyası: tarixi təşəkkülü və inkişaf mərhələləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

O, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun Xarici Ölkələr Ədəbiyyatı və Ədəbi Əlaqələr şöbəsində baş elmi işçi vəzifəsində çalışmışdır. 1985-ci ildə Dövlət Dil Komissiyasının Toponimiya Komissiyasının üzvü, 1989-cu ildə isə Azərbaycan Qaçqınlar Cəmiyyətinin yaradıcılarından biri və sədrin birinci müavini olmuşdur.

1971-ci ildən İsmayıl Ömər oğlu Vəliyev Azərbaycan Radio və Televiziyası ilə əməkdaşlıq etmiş, on ilə yaxın müddət ərzində "Bulaq" folklor verilişinin daimi müəlliflərindən biri olmuşdur. Onun hazırladığı verlişlərin bir çoxu radionun "Qızıl fond"unda qorunmaqdadır. Bundan əlavə, "Zəka" radio elmi proqramının uzun illər ssenari müəllifi və aparıcısı olmuşdur. Televiziyanın vaxtilə populyar olan "İdrak" proqramı onun ideyası əsasında yaradılmış, "Ata yurdu" verilişi isə uzun müddət onun müəllifliyi və aparıcılığı ilə efirə getmişdir.

Bədii yaradıcılığa 1965-ci ildə "Azərbaycan pioneri" qəzetində dərc etdiyi sənədli hekayə ilə başlamışdır. Dövri mətbuatda şeir, hekayə, oçerk, ədəbi-tənqidi və publisistik məqalələr dərc etmiş, Azərbaycan teleradiosunda "Ata yurdu", "Bulaq" folklor verilişi, "Zəka" və "İdrak" elmi-kütləvi proqramlarının müəllifi və aparıcısı olmuşdur.

Onun rəhbərliyi, redaktəsi və ön sözü ilə "Dünya xalqları", "Dünya dövlətləri" adlı irihəcmli ensiklopedik məlumat kitabları nəşr olunmuş, "Politologiya ensiklopedik sözlüyü" çapa hazırlanmışdır. İsmayıl Vəliyev 32 kitabın, 400-dən çox elmi-kütləvi və publisistik məqalənin, məruzə və çıxışın müəllifi, 9 kitabın tərcüməçisidir. Əsərləri xarici dillərə də tərcümə edilmişdir.

1991-ci ildən Azərbaycan Yazıçılar Birliyi katibliyinin üzvü olmuş, bir çox qəzet və jurnal redaksiya heyətində fəaliyyət göstərmişdir. Ömrünün sonuna qədər Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsində Kitabşünaslıq və Nəşriyyat işi kafedrasında professor vəzifəsində çalışmışdır.

İsmayıl Ömər oğlu Vəliyev 9 dekabr 2017-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Mif: keçmişdən gələcəyə / İsmayıl Vəliyev; elmi red. K. Mirzəyeva; AMEA, Folklor İn-tu. - Bakı: [Nurlan], 2013. - 307, [1] s.

Zərif və kövrək duyğular / İsmayıl Vəliyev // Təzadlar. - 2010.- 26 iyun.- S. 15.

Taleyimizdə yaşayan Taleh Həmid / İsmayıl Vəliyev //Respublika.-2017.-18 iyun.- S.5.

Yazı və kitabın yaranması tarixindən /İsmayıl Vəliyev // Mədəni həyat

Şərur və Kür sözlərinin kökləri: Naxçıvandakı bəzi yer adları ən qədim dövrlərlə, Şumer mifləri ilə bağlıdır /İsmayıl Vəliyev // Azərbaycan .-2010. - 8 aprel.- S.11.

Həyatda da, yaradıcılığda da səmimi olan insan / Ş. Nasir / /Respublika.-.-2017.- 19 mart.- S.5.

İnternetdə:

.https://www.wikimedia.az-az.nina.az/%C4%B0smay%C4%B1l_V%C9%99lib%C9%99yli.html

MART
21

Orxan Fikrətoğlu – 60

(1966)

Yazıçı, publisist



Orxan Fikrət oğlu Sadıqov (Orxan Fikrətoğlu) 1966-cı il martın 21-də Bakı şəhərində anadan olub. 1983–1991-ci illərdə Moskva şəhərindəki Dünya Ədəbiyyatı İnstitutunu bitirmişdir.

Əmək fəaliyyətinə 1983-cü ildə kinoda işıqçı kimi başlayıb. Daha sonra müxtəlif dövrlərdə C. Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası, Dövlət Kino Komitəsi, AzərTelefilm və "Günay" qəzetində baş redaktor vəzifələrində çalışıb. Eyni zamanda Dövlətlərarası MİR Teleşirkətinin direktor müavini, Mozalan Satirik Kinojurnalının direktoru və ANS Teleşirkətinin baş icmalçısı olub. Bakı Slavyan Universitetinin Jurnalistika və Azərbaycan filologiyası fakültəsinin müəllimi, ATV telekanalında veriliş aparıcısı olmuş, hazırda isə İctimai televiziyada çalışır.

Orxan Fikrətoğlu "Mənə bir məsləhət verin" adlı ilk hekayəsi 1981-ci ildə "Kirpi" jurnalında çap olunub. Sonrakı dövrlərdə "Milad gecəsi", "Borc", "Ögey", "Mixək böcək", "Adsız hekayə", "Təxti-şəcərə və Muradəlinin itmiş eşşəyi", "Çiçəklənən adamın tarixçəsi", "Cangüdən", "Alməmməd kişi", "Axrestomatik əhvalat", "Xrestomatik əhvalat", "İtki", "Xilaskar", "İthaf", "Avara", "Şeytan çərxi", "Səhər", "Albalı ağacı", "Saat birdən reportaj", "Fədai", "Sinqapur şamı" və digər onlarla hekayəsi povest və publisistik yazıları müxtəlif dövri mətbuatda nəşr olunub. Eyni zamanda "Dünya haqqında upuzun ağıl" (1988), "Səhər" (1991), "Şirvan şəşəngisi" (1993), "Ağ-qara hekayələr" (1993), "Şəhidlər" (1994), "Üçüncü günün adamı" (1998), "Köçərgi" (1999), "100 ilin kitabı" (2001), "Vaxt" (2008), "Suçlu Mələk" (2010), "Ölü mətn" (2011), "Tək" (2014), "Kinopovestlər" (2016), "Alternativ kino" (2017), "Tülu" (2019) və "Kinocizgilər" (2024) kimi onlarla bədii və publisistik kitabın müəllifidir

Orxan Fikrətoğlu onlarla bədii filmin ssenarisi hazırlamışdır. Onun ssenariləri əsasında "Ümid", "Solaxay", "Səs", "Ağ kətandakı adam", "Qız qalası", "Ərazi", "Yalan", "Kəpənək", "Borc" adlı bədii və sənədli filmlər çəkilib.

Onun əsərləri İran, Türkiyə, Bolqarıstan, İsveç və digər bir çox ölkələrdə çap edilmişdir. "Yeddi" romanı Almaniyada mükafata layiq görülüb, hekayələri isə OKSFORD Universitetinin dərsliklərinə daxil edilib. Bir sıra Respublika mükafatlarının laureatıdır.

Hekayələri "Dünya Nəsr Antalogiyasına" seçilmişdir. "TAS", "Qıyığın ölümü" və "Şəkilçi və şəkilçi" pyesləri ölkə teatrlarında səhnələşdirilmiş, ssenariləri əsasında çoxsaylı filmlər çəkilmişdir.

2023-cü ilin dekabrından Azərbaycan Respublikası Kino Agentliyinin (ARKA) baş direktorunun vəzifəsini icra etməyə başlayıb. 2025-ci ildə Mədəniyyət nazirinin müşaviridir.

O.Fikrətoğlu 1995-ci ildə "Beynəlxalq Yalta Kinofestivalı"nın birinci mükafatına, 1998-ci ildə Prezident təqaüdünə, 2001-ci ildə "Zirvə" mükafatına, 2003-cü ildə "Çingiz Mustafayev" adına mükafata, 2005-ci ildə UNICEF-in xüsusi mükafatına, 2006-cı ildə Azərbaycan Mətbuat Şurasının "Həqiqətə xidmətə görə" mükafata, 2008-ci ildə "Qızıl Qələm" media mükafatına, IV Türk Dünyası Sinema Günləri təşkilatının "Türk dünyasının kinosunda xidmətinə görə" mükafata, 2013-cü ildə M. Müşviq mükafatına, 2016-cı ildə Əməkdar incəsənət xadimi adına və BMT yanında Beynəlxalq Avrasiya Mətbuat Fondunun fəxri diplomuna, 2018-ci ildə "Qızıl Pəri" mükafatına və 2019-cu ildə "Həsən bəy Zərdabi" adına Jurnalist Mükafatılarına layiq görülmüşdür.

Ədəbiyyat:

Kinocizgilər /Orxan Fikrətoğlu; red. V. Yolçuyev; [rəssam Ə. Məmmədov]- Bakı: [Elm və təhsil], 2024. - 423, [1] s.

Yaddaş / Orxan Fikrətoğlu // Xalq qəzeti.-2025.- 15 yanvar (№ 08). - S.10.

Qısa roman / Orxan Fikrətoğlu // Ədəbiyyat qəzeti .-2025.- 31 yanvar (№4).- S.5.

Bədii nəsrimizdə seçilən imza: Orxan Fikrətoğlu yaradıcılığına bir nəzər / E. Qaragözova // 525-ci qəzet.– 2020.– 3 iyun.– S.21.

Orxan Fikrətoğlu: "Arzularım heç vaxt kiminsə arzularıyla toqquşmayıb" / O.Fikrətoğlu: müsahibəni apardı Şahanə Müşfiq // 525-ci qəzet.– 2021.– 20 mart.– S.14-15.

Yarımçıq süjet / O. Fikrətoğlu // Ədəbiyyat qəzeti.– 2022.– 4 iyun.– S.13.

Milli kinomuzun yönü hayanadır? / O.Fikrətoğlu; müsahibəni apardı:Ə. Nəcəfxanlı // Xalq qəzeti.– 2024.– 21 aprel, № 80.– S.10.

İnternetdə:

https://audiovisual.az/ssenaristlar/orxan-fikrətoglu

İsmayıl bəy Qaspralı – 175

(1851-1914) Krım-tatar publisisti, pedaqoq



İsmayıl bəy Mustafa Ağa oğlu Qaspıralı 1851-ci il martın 21-də (bəzi mənbələrdə mart ayının 8-də) Krımın Baxçasaray yaxınlığında yerləşən Avçıköy kəndində anadan olmuşdur. Atası Qaspıra kəndindən olduğu üçün "Qaspıralı" soyadını qəbul etmişdir. İlk təhsilini Ağməscid (Simferopol) gimnaziyasında almış, daha sonra Voronej şəhərindəki hərbi məktəbə daxil olmuş, ardınca Moskva Hərbi Akademiyasında təhsilini davam etdirmişdir

Moskvada təhsil aldığı dövrdə İsmayıl bəy slavyanofil hərəkatının tanınmış simalarından biri olan Katkovla dostluq münasibətləri qurmuş, bu münasibətlər sayəsində rus millətçiliyi ideyaları ilə, həmçinin liberal və millətçi siyasi cərəyanlarla yaxından tanış olmuşdur. O, eyni zamanda Gertsen, Çernışevski, Belinski, Pisarev kimi dövrün qabaqcıl fikir adamlarının əsərlərini oxuyaraq ciddi şəkildə mənəvi və intellektual inkişaf keçmişdir.

Lakin 1868-ci ildə başlayan Rusiya-Türkiyə müharibəsi səbəbilə təhsilini yarımçıq qoyaraq vətənə qayıtmışdır. Həmin il o, Baxçasarayda yerləşən Zincirli mədrəsədə rus dili müəllimi təyin edilmişdir.

1872-ci ildə Parisə gedərək orada məşhur rus yazıçısı İvan Turgenyevin yanında çalışmış, bu dövrdə fransız dilini öyrənmiş və Avropa mədəniyyəti ilə yaxından tanış olmuşdur. 1874-cü ilin sonlarında İstanbula gəlmiş, burada Osmanlı türkcəsini mükəmməl mənimsəmişdir.

1875-ci ilin qışında Baxçasaraya qayıdan İsmayıl bəy 1878-ci ildə şəhər bələdiyyəsinin sədri seçilmiş və bu vəzifədə 4 il çalışmışdır. 1881-ci ildə "Rusiya müsəlmanları" adlı əsərini "Tavrida" qəzetində dərc etdirmişdir.

1883-cü ildə rus dilində məqalələrin dərc olunması şərti ilə tatar dilində "Tərcüman" qəzetini nəşr etdirməyə nail olmuşdur. Qəzetin ilk sayı 1883-cü il aprelin 22-də Baxçasarayda çıxmış və ilkin mərhələdə həftədə bir dəfə nəşr olunmuşdur.

1903-cü ilin oktyabrından etibarən həftədə iki dəfə, 1912-ci ildən isə gündəlik olaraq nəşr olunan "Tərcüman" Krım tatarlarının türkcə nəşr olunan ilk qəzeti, Rusiya müsəlmanları arasında isə türkcə nəşr edilən üçüncü qəzet idi.

Azərbaycan xalqına xüsusi məhəbbət bəsləyən İsmayıl bəy, o dövrdə Krımda təhsil alan azərbaycanlı tələbələrə hərtərəfli qayğı göstərmiş, onların "Tərcüman" qəzetinin redaksiyasında çalışmaları üçün əlverişli şərait yaratmışdır. Novorossiysk Universitetinin tələbələri Nəsib bəy Yusifbəyli, Nəriman Nərimanov və digərləri onun ətrafında birləşərək türkçülük ideyalarının yayılmasında fəal iştirak etmişlər.

Türklərin hüquqlarını müdafiə etmək məqsədilə 1905-ci il avqustun 28-də İsmayıl bəy "Birinci Rusiya Müsəlmanları Qurultayı"nı çağırmış və qurultayın sədri seçilmişdir.

İsmayıl bəy Qaspıralı publisist, pedaqoq və maarifçi kimi bir çox əsərlərin müəllifidir. Onun ən tanınmış əsərləri bunlardır: "Rusiya müsəlmanlığı" (1881), "İslamlığa dair nizamlar və imtiyazlar" (1885), "Avropa mədəniyyətinə bir nəzəri-müvazinə" (1885), "Rus–Şərq razılaşması" (1886), "Mirat-i Cədid" (1882), "Atlaslı Cahannüma" (1892), "Qiraəti-Türkü" (1894), "Gündoğdu" və s.

İsmayıl bəy Mustafa ağa oğlu Qaspıralı 1914-cü il sentyabrın 24-də Baxçasarayda vəfat etmişdir.

Onun vəfatından sonra Türk dünyasının mətbuat orqanları aylarla bu böyük şəxsiyyətin xidmətlərindən bəhs etmişdir. Beş il sonra — 1919-cu ildə isə "Tərcüman" qəzetinin nəşri dayandırılmışdır.

Ədəbiyyat:

Tahirli, A. İsmayıl Qaspıralı Həsən bəy Zərdabi və "Əkinçi" haqqında / Abid Tahirli // Ədəbiyyat qəzeti.-2025.- 18 iyul (№25).- S.8.

Qasımlı, A. Dildə, fikirdə, İşdə birlik carçısı : İsmayıl Bəy Qaspıralı / Aydın Qasımlı // Türküstan.-2025.- 16-22 sentyabr (№33).- S.16.

Abdullayev, M. Türkçülüyün "dil-fikir-iş birliyi" tərcümanı / Məsaim Abdullayev // Xalq qəzeti.-2025.- 25 fevral (№ 42).- S.15.

Əliyeva, İ. Dövrünün "Tərcüman"ı: Azərbaycan Milli Mətbuatı-150 / İradə Əliyeva // Azərbaycan. -2025.- 10 iyul (№ 139).- S.7.

İsrafiloğlu, M. İsmayıl bəy Qaspıralının "Haqqaniyyət" ideyası: Möhtəşəm ideyanın Rəsulzadəyə dərin təsiri haqqında / Məhəmməd İsrafiloğlu // Türküstan.-2025.- 15-21 aprel (№12).- S.5.

Məmmədov, X. İ.Qaspıralı və Azərbaycan milli azadlıq hərəkatı / Xəqani Məmmədov //Tarix, insan və cəmiyyət: Elmi-nəzəri və elmi-metodik jurnal / Azərbaycan Dövlət Pedaqoji Universiteti.-2024.- №1(42).- S.102-109.

MART
25

Nüşabə Araslı – 85

(1941)

Filoloq



Ədəbiyyat:

Araslı, H. Böyük Azərbaycan şairi Füzuli / Həmid Araslı; tərt. ed. A. Mirzəyev; elmi red. S. Ağayeva; elmi məsl. Nüşabə Araslı; ön sözün müəl. İ. Həbibbəyli; AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İn-tu. - Bakı: Elm, 2024. - 352 s.

Səadət günəşi birlikdən doğar: Nizami Gəncəvi -880 / Nüşabə Araslı // Azərbaycan: Ədəbi-bədii jurnal.– 2021.– №1.– S.5-12.

Nizami Gəncəvi sənətində doğma mühit və təbiət / Nüşabə Araslı // Elmi əsərlər /AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu.– 2022.– №2(15).– S.3-11.

Nizami Gəncəvini tanıyaq / Ə. Nəcəfzadə; topl., nəşrə hazırl. N. Salmanlı; elmi red. və ön söz. müəl. N. Araslı.– Bakı: Elm və təhsil, 2023.– 47, [1] s.

Nizamişünaslıq şöbəsi Azərbaycanın müstəqilliyi dövründə / N. Araslı, Z. Allahverdiyeva // Ədəbiyyat qəzeti: xüsusi buraxılış.– 2024.– 2 mart, №8.– S.16-17.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Nüşabə_Araslı

Nüşabə Həmid qızı Araslı 1941-ci il martın 25-də Bakı şəhərində anadan olmuşdur. İlk təhsilini 1947–1957-ci illərdə almış, 1957–1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinin fars dili ixtisası üzrə fərqlənmə diplomu ilə məzun olmuşdur.

Elmi fəaliyyətinə Azərbaycan Elmlər Akademiyasının (indiki AMEA) Əlyazmalar Fondunda kiçik elmi işçi kimi başlamışdır. 1963-cü ildə keçmiş SSRİ Geologiya Nazirliyinin xətti ilə Əfqanıstana ezam edilərək Məzari-Şərifdə fəaliyyət göstərən neftçilər qrupunda rus-fars dilləri üzrə tərcüməçi kimi çalışmışdır.

1966-cı ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olmuş, 1969-cu ildə "Arif Ərdəbili və onun "Fərhadnamə poeması" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1988-ci ildə "Nizami və türk ədəbiyyatı" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsini almışdır.

Nüşabə Araslı 1969-cu ildən etibarən AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı", "Nizamişünaslıq" və "Qədim dövr Azərbaycan ədəbiyyatı" şöbələrində kiçik, böyük və aparıcı elmi işçi vəzifələrində çalışmışdır. 2014-cü ildən etibarən həmin institutun Nizamişünaslıq şöbəsinə rəhbərlik edir

Alimin elmi fəaliyyətinin əsas istiqamətləri qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının elmi-nəzəri problemləri, klassik poeziyanın Şərq xalqları ədəbiyyatları ilə qarşılıqlı əlaqələri və tipologiyası, "Kitabi-Dədə Qorqud" abidəsi, eləcə də Xaqani, Nizami, Arif Ərdəbili, Nəsimi, Xətai, Füzuli kimi sənətkarların ədəbi irsinin tədqiqini əhatə edir.

Nüşabə Araslı 20 cildlik "Azərbaycan klassik ədəbiyyatı kitabxanası" seriyasından Nizami Gəncəviyə həsr olunmuş IV cildin əsas tərtibçisi və mətnə yazılan şərhlərin müəllifidir. Məhəmməd Füzulinin "Seçilmiş əsərləri"nin II cildinə "İzahlar" yazmış (1988), "Füzulinin lirikası" (1995), "Füzuli əsərləri" (1996) kitablarının tərtibçilərindən biri olmuşdur. Nizaminin "Xəmsə"sini latın qrafikasında tərtib etmiş, "Ön söz" və şərhlər (2002), "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Yeddi gözəl" poemalarına isə müqəddimələr yazmışdır. Xaqani Şirvani və Məhsəti Gəncəvinin "Seçilmiş əsərləri"ni yeni müqəddimə, təshih və izahlarla nəşrə hazırlamışdır. Yevgeni Bertelsin rəhbərliyi ilə Bakıda çap olunmuş Nizami poemalarının tənqidi mətnlərinin Tehran nəşrinə fars dilində müqəddimə yazmışdır (2002). Ümumtəhsil məktəblərinin VII sinfi üçün "Ədəbiyyat" dərsliyinin müəllifi (1998-2004), VIII sinif dərsliyinin isə həmmüəllifidir (2004).

Nüşabə Araslı bir çox xarici ölkələrdə klassik Şərq poeziyasının tanınmış tədqiqatçısı kimi tanınır. 15-ə yaxın elmi məqaləsi xarici nəşrlərdə çap olunmuş, müxtəlif beynəlxalq konfranslarda klassik poeziyanın nəzəri məsələlərinə dair məruzələrlə çıxış etmişdir. Özbəkistan, Türkiyə, İran kimi ölkələrdə klassik ədəbiyyata dair nəşr olunmuş elmi monoqrafiya və məqalələrdə onun araşdırmalarına istinadlar edilmişdir.

Alim 2008-ci ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Həmçinin AMEA-nın Fəxri fərmanı (2013), Xurşidbanu Natəvan mükafatı (2015), Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Fəxri fərmanı (2016) ilə mükafatlandırılmışdır.

2010-cu ildə professor elmi adını almış, 2017-ci il 2 may tarixli AMEA Rəyasət Heyətinin qərarı ilə AMEA-nın müxbir üzvü seçilmişdir.

Nüşabə Araslı 3 monoqrafiya, 23 kitab (onlardan 5-i tərtibat, 18-i dərslik) və 150-dən çox elmi məqalənin müəllifidir.

Faiq Bağırzadə – 100

(1926-1988)

Geoloq



Faiq Məmməd oğlu Bağırzadə 1926-cı il martın 20-də Bakı şəhərində anadan olmuşdur. 132 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki ADNSU) geoloji-kəşfiyyat fakültəsində təhsil almışdır.

Əmək fəaliyyətinə "Qobustanneft-qaz kəşfiyyatı" trestinin kontorunda mühəndis-geoloq kimi başlamış, 1951-ci ildə "Azneft" birliyinin Neft Daşları kontorunda mühəndis vəzifəsində çalışmışdır.

Faiq Bağırzadə 1953-cü ildə "Abşeron yarımadasının sahilboyu və bitişik sahələrində Qala dəstəsinin kəşfiyyatı" mövzusunda geologiya-minerologiya elmləri üzrə namizədlik, 1964-cü ildə isə "Abşeron neft-qazlı sahəsinin şərq hissəsində məhsuldar qatın alt şöbəsində neft və qaz yataqlarının yerləşmə və formalaşmasının qanunauyğunluqları" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1976-cı ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1983-cü ildə isə həqiqi üzvü seçilmişdir.

1962-1970-ci illərdə M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda assistent, baş müəllim, dosent və geoloji-kəşfiyyat fakültəsinin dekanı vəzifələrində çalışmışdır.

1964–1965-ci illərdə keçmiş SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin xətti ilə Myanma Respublikasının Ranqun Texnoloji İnstitutunda məruzələr oxumuş və ingilis dilində "Neft və yeraltı geologiya" adlı mühazirələr məcmuəsini çap etdirmişdir.

1965–1970-ci illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Xarici vətəndaşların təhsili üzrə fakültənin dekanı olmuş, eyni zamanda 1966–1970-ci illərdə Neft və qaz yataqlarının geologiyası kafedrasının professoru və kafedranın müdiri vəzifələrini icra etmişdir.

1970-ci ildə professor Faiq Bağırzadə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) rektoru təyin edilmişdir. Rektor vəzifəsi ilə yanaşı, ADU-nun Elmi Şurasının, Sovet–İraq Dostluğu Cəmiyyətinin Azərbaycan bölməsinin, Azərbaycan Ali Məktəblər Rektorları Şurasının sədri vəzifələrini yerinə yetirmiş, həmçinin Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiya heyətinin üzvü kimi fəaliyyət göstərmişdir.

1971–1975-ci illərdə Azərbaycan Dövlət Universiteti ilə Bəsrə (İraq) və Sarayevo universitetləri, həmçinin Çexoslovakiya ali məktəbləri (Pardulitse, Bratislava, Praqa) arasında əlaqələrin qurulmasında, möhkəmləndirilməsində və inkişafında fəal iştirak etmişdir.

Faiq Bağırzadə Respublika Ali Sovetinin VIII, IX, X və XI çağırışlarında deputat seçilmişdir.

Faiq Bağırzadə 100-dən artıq elmi əsər, 12-ə qədər monoqrafiya, dərslik və dərs vəsaiti çap etdirmişdir. Onun elmi rəhbərliyi altında Azərbaycan, keçmiş SSRİ respublikaları və xarici ölkələrdən xeyli sayda aspirant namizədlik dissertasiyaları müdafiə etmişdir.

Elmin və təhsilin inkişafındakı xidmətlərinə görə S. İ. Vavilov adına medalla, "Oktyabr İnqilabı" və iki dəfə "Qırmızı Əmək Bayrağı" ordenləri ilə təltif edilmiş, 1980-ci ildə "Azərbaycan SSR-in Əməkdar Elm Xadimi" fəxri adına layiq görülmüşdür. O, bir qrup alimlərlə birlikdə "Azərbaycan SSR-in neft və qaz yataqları və perspektivli strukturları xəritəsi"-nin tərtibinə görə Azərbaycan SSR Dövlət Mükafatı laureatı olmuşdur.

Faiq Məmməd oğlu Bağırzadə 1988-ci il martın 24-də Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat:

Bakı Dövlət Universiteti / M. Mərdanov; elmi red. F. Rüstəmov; naşir T. Axundov.– Bakı: Təhsil, 2024.– 670, [2] s.

Dünyaminqızı, Q. 24-lər"dən on yeddincisi: BDU-nun elm ocağı kimi inkişafında onun böyük xidmətləri olub / QərənfilDünyaminqızı // Kaspi.-2018.- 8-10 sentyabr.- S.7.

F. M. Bağırzadə: biblioqrafiya / S. M. Kirov ad. ADU, Elmi kitabxana ; AzSSR EA, Mərkəzi Elmi Kitabxana ; tərt. ed. S. O. İbrahimova, Z. M. Həsənova. - Bakı: Elm, 1986. - 53, [3] s.

İnternetdə:


https://science.gov.az/az/forms/skonchavshiesya-deystvitelnyie-chlenyi/3228

http://bsu.edu.az/az/content/rektorlarmz

https://www.nkpi.az/?page=addread&id=3024

Evliya Çələbi – 415

(1611-1679/82) Türk səyyahı, coğrafiyaşünas



Evliya Çələbi ibn Dərviş Məhəmməd Zilli 1611-ci il mart ayının 25-də İstanbul şəhərində, saray zərgəri Dərviş Məhəmməd Zillinin ailəsində anadan olmuşdur. Mükəmməl təhsil alan Evliya Çələbi gənc yaşlarında sufi təriqətinə qoşulmuşdur. O, bir neçə il Osmanlı sultanı IV Muradın sarayında xidmət etmişdir.

Gənclik illərindən etibarən səyahət etməyə böyük maraq göstərmiş, yeni yerləri görmək, yeni insanlarla tanış olmaq arzusu onun həyatının əsas məqsədinə çevrilmişdir. Bu səbəbdən saray həyatı onu uzun müddət saxlaya bilməmişdir. 1640-cı ildən başlayaraq ömrünün sonuna qədər davam edən səyahətləri ilə tanınmışdır.

Yarım əsrə yaxın səyahət edən Evliya Çələbi təkcə səyyah deyil, həm də ədib, şair, xəttat, nəqqaş və musiqişünas kimi tanınmışdır.

O, bir mədəniyyət tarixçisi və folklor tədqiqatçısı kimi böyük əhəmiyyətə malik bilgilər toplamışdır. Gəzib gördüyü bölgələrin mədəni durumu, adət-ənənələri, ləhcələri, qidaları, ibadət formaları, dini və məzhəbi mənzərələri, memarlıq nümunələri, çarşı-bazarları, kənd və şəhərlərinin adları və fiziki xüsusiyyətləri haqqında dəyərli məlumatlar vermişdir.

Əvvəlcə Osmanlı imperiyasının müxtəlif bölgələrini gəzmiş, daha sonra Qafqaza gəlmişdir. Evliya Çələbi öz təəssüratlarını 10 cildlik "Səyahətnamə" adlı monumental əsərində toplamışdır. Bu əsər, 70 illik ömrünün 40 ilini səyahətlərə həsr etmiş müəllifin zəngin müşahidələrinin məhsuludur.

"Səyahətnamə" əsərində XVII əsr Azərbaycanı ilə bağlı geniş və əhəmiyyətli məlumatlar yer alır. Müəllif 1640–1650-ci illərin İrəvan, Gəncə, Ərəş, Şəki, Niyazabad, Şamaxı, Bakı, Şabran və Dərbənd kimi şəhərləri barədə ətraflı təsvirlər vermişdir. Evliya Çələbi Azərbaycanla bağlı qeydlərində xüsusilə Bakının iqtisadi, sosial və memarlıq vəziyyəti, qala divarları, şəhərin yolları və ümumi görünüşü haqqında məlumatlar təqdim etmişdir. O, Abşeron bölgəsində çıxarılan neftin növləri, kənd təsərrüfatı bitkiləri, ixrac olunan mallar və ticarət fəaliyyəti ilə yanaşı, yerli adət-ənənələr, məişət həyatı, etnoqrafik xüsusiyyətlər və şəhər-kənd münasibətləri barədə də dəyərli müşahidələrini qeyd etmişdir.Bu məlumatlar bu gün də elmi və tarixi baxımdan qiymətli mənbə hesab olunur.

Daha sonrakı səfərlərində o, Avstriya və Macarıstana, 1665-ci ildə isə Volqaboyu bölgəsinə və Krıma səfər etmişdir. Krımda yerli xan IV Mehmed Gireylə dostluq münasibətləri qurmuş, buradan Frakiya, Makedoniya və Krit adasına səyahətlər etmişdir. Həcc ziyarətini yerinə yetirdikdən sonra ömrünün son illərini Misirdə keçirmişdir.

Evliya Çələbinin dəqiq ölüm tarixi məlum deyil. Fərqli mənbələrdə 1679, 1682 və 1685-ci illər onun ölüm ili kimi göstərilir. Ölüm yerinin İstanbul olduğu ehtimal edilir. Qəbri isə hələ də dəqiqliklə müəyyən edilməmişdir. Güman olunur ki, onun dəfn olunduğu yer Lohusa Sultan türbəsi yaxınlığındakı "Meyyit qəbiristanlığı"dır və ailə üzvlərinin məzarları ilə yanaşı yerləşir.

Evliya Çələbinin dünya mədəni irsinə verdiyi töhfəni nəzərə alaraq YUNESKO 2011-ci ili "Evliya Çələbi İli" elan etmişdir. 2013-cü ildə Qafqaz Universitetinin Elmi Şurasının qərarı və Türkiyə Cümhuriyyəti Başbakanlıq Tanıtma Fondunun dəstəyi ilə "Evliya Çələbinin Səyahətnaməsində Azərbaycan" adlı kitab nəşr olunmuşdur.

Evliya Çələbi həm dövrünün, həm də çağdaş dünyanın tarix, coğrafiya, mədəniyyət və folklor sahələrində etibarlı istinad nöqtəsi olaraq qəbul edilən nadir şəxsiyyətlərindən biridir. Onun irsi bu gün də aktualdır və elmi-tarixi tədqiqatlar üçün zəngin və qiymətli qaynaqdır.

Ə d ə b i y y a t :

Evliya Çelebi Seyahatnâmesi İstanbul / hazırlayan S. Ali Kahraman; kapak, tasarım Ç. Yenilmez; İstanbul Ticaret Odası.– İstanbul: [İstanbul Ticaret Odası], 2021.– 416 s.

Evliya Çelebi'nin izinde: Orta zamanın orta dünya atlası / H. Develi [söz başı]; edit. E. Saltık; haritalar O. Halis; tasarım H. Özkan.– [İstanbul]: TTOK, [2022].– 438 s.

Evliya Çələbi səyahətnaməsində Azərbaycan / nəşrə haz. M. Rihtim ; azərb. türkçəsinə uyğunlaşdıran M. Təkləli; elmi red. Y. Mahmudov, C. Qiyası; red.: F. Fərzəli, K. Bəşirov, F. Əliyeva; illustrasiyalar S. Aydüz [və b.]; dizayner F. Vəliyev, F. Məmmədova; Qafqaz Unti, Qafqaz Araşdırmalar İn-tu T. C. Başbakanlık Tanıtma Fondu. - Bakı: Qafqaz Universiteti, Nurlar, 2012. -291, [1] s.

Hacıyev, İ. Naxçıvan Evliya Çələbinin "Səyahətnamə"sində / İsmayıl. Hacıyev //AMEA-nın Naxçıvan bölməsinin xəbərləri:İctimai və humanitar elmlər seriyası.-2013.-C.9, № 3.-S.9-18.

Tofiq Nağıyev – 85

(1941)

Akademik



Tofiq Murtuza oğlu Nağıyev 1941-ci il martın 4-də Bakı şəhərində anadan olmuşdur. 1964-cü ildə Bakı Dövlət Universitetinin kimya fakültəsini bitirmiş, əmək fəaliyyətinə Azərbaycan EA-nın M.F. Nağıyev adına Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutunda (indiki AMEA-nın M. Nağıyev adına Kataliz və Qeyriüzvi Kimya İnstitutu) başlamışdır. 1967-ci ildə "Etilbenzolun stirola əlaqəli dehidrogenləşməsi reaksiyasının öyrənilməsi" mövzusunda namizədlik, 1973-cü ildə isə "Praktiki cəhətdən mühüm karbohidrogenlər sırasının və onların törəmələrinin əlaqəli dehidrogenləşməsi və hidrogenolizi reaksiyalarının kinetikasının və mexanizminin tədqiqi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1976-cı ildən professor elmi dərəcəsini almışdır.

2001-ci ildə AMEA-nın həqiqi üzvü seçilmiş, 2007-ci ildən AMEA Rəyasət Heyətinin üzvü, 2013-cü ildən isə AMEA-nın vitse-prezidentidir. Tofiq Nağıyev 2001–2020-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvü olmuşdur. 2004-cü ildən Azərbaycan Milli Ensiklopediyası Redaksiya Heyətinin məsul katibi və "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin direktoru, həmçinin AMEA-nın akademik M. Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunda Koherent sinxronlaşdırılmış oksidləşmə reaksiyaları şöbəsinin müdiridir.

Tofiq Nağıyev Fransa Neft İnstitutunda təcrübə keçib (1970-1971), Böyük Britaniyada (1974-1975), ABŞ-da (1987, 1990-1991) Virciniya Birlik Universitetinin (Virginia Commonwealth University) Kimya fakültəsində dəvətli professor kimi fəaliyyət göstərib, həmçinin Pensilvaniya, Viskonsin, Corctaun universitetlərində (1991) məruzələrlə çıxış edib, İsveçdə (1989-1990) Lund Universitetinin Kimya Mərkəzində elmi ezamiyyətlərdə olub. O, çoxsaylı beynəlxalq konfrans, simpozium, konqres və forumlarda dəfələrlə moderator olub, plenar məruzələrlə çıxış edib.

Akademik koherent sinxronlaşmış kimyəvi və biokimyəvi reaksiyaların makrokinetik nəzəriyyəsinin müəllifi, 3 monoqrafiya, 550-dən çox elmi əsər, 49 patent və ixtiranın sahibidir. Onun rəhbərliyi altında 24 fəlsəfə doktoru və 2 elmlər doktoru yetişmişdir.

Akademik Tofiq Nağıyev "AMEA-nın Məruzələri"nin, "Azərbaycan Kimya Jurnalı"nın, "Elm"–"Наука" qəzetinin, Rusiya Elmlər Akademiyası Sibir Bölməsinin "Химия в интересах устойчивого развития" jurnalının redaksiya heyətlərinin üzvüdür. "Большая Российская Энциклопедия"da akademik Tofiq Nağıyev haqqında məqalə dərc edilib. Böyük Britaniyada nəşr edilən beynəlxalq "Research Features" jurnalında 2017-ci ildə alimin elmi fəaliyyətinə və tədqiqatlarına həsr olunmuş elmi məqalə işıq üzü görüb.

Akademik Tofiq Nağıyevin rəhbərliyi ilə 2004-2020-ci illərdə "Azərbaycan Milli Ensiklopediyası"nın xüsusi cildi (Azərbaycan və rus dillərində) və çoxcildli universal ensiklopediyanın 9 cildi nəşr edilib.

O, "Rəşadətli əməyə görə" yubiley medalı (1970), Azərbaycan LKGİ Mərkəzi Komitəsinin Fəxri fərmanı (1974), Böyük Oktyabr Sosialist İnqilabının 70 illiyi münasibətilə Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin Fəxri fərmanı (1987), Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı (1996), AMEA-nın 60 illik yubileyi münasibətilə Fəxri fərman (2004), Azərbaycan Respublikasının "Şöhrət" ordeni (2004), Azərbaycan Respublikasının Dövlət mükafatı – elm üzrə (2014), AMEA-nın Fəxri fərmanı (2016), "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918–2018)" yubiley medalı (2019), Azərbaycan Respublikasının "Şərəf" ordeni (2021) və AMEA-nın Fəxri fərmanı (2021) ilə təltif olunmuşazdur.

Ədəbiyyat:

T.M.Nağıyevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 mart 2021-ci il // Azərbaycan . -2021.- 6 mart.- S.6.

Tofiq Murtuza oğlu Nağıyev: biblioqrafik göstərici: 80 illiyinə həsr olunur: [Azərb., rus və ing. dillərində] / AMEA, Mərkəzi Elmi Kitabxana; [tərt.: S. Mehrəliyeva (elmi red.), Z. Zaytseva; red. Ş. Tahirqızı; bədii tərtibat Ş. Məmməd].– Bakı: Elm, 2024.– 430, [2] s.

Azərbaycan elminin baş qərargahı: AMEA- 80 // Xalq qəzeti.– 2025.– 11 yanvar (№ 05).– S.14.

Nağıyev, To. Milli ensiklopediyaya dövlət qayğısı / Tofiq Nağıyev // Respublika.-2018.- 22 mart.- S.3.

Azərbaycanlı alimin tədqiqatları yüksək qiymətləndirilir // Respublika.-2017.- 5 iyul.- S.6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Tofiq_Nağıyev

https://kqki.az/en/news/1816/?utm_source=-chatgpt.com

Yunis Qəmbərov – 100

(1926-1991)

Alim



Yunis Heydər oğlu Qəmbərov 5 mart 1926-cı ildə Füzuli rayonunun Kürdlər kəndində anadan olmuşdur. 1933–1943-cü illərdə orta məktəbdə, 1944–1949-cu illərdə Bakı Dövlət Universitetinin Kimya fakültəsində, 1950–1952-ci illərdə Azərbaycan SSR EA Neft İnstitutunun aspiranturasında təhsil almışdır.

1960-cı ildə "Neft fraksiyalarının və bəzi fərdi karbohidrogenlərin termiki parçalanmasının tədqiqi" mövzusunda namizədlik, 1968-ci ildə "Pirolizin səmərələşdirilmiş şəraitində aşağı molekullu doymamış və aromatik karbohidrogenlərin alınması" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1971-ci ildə professor elmi adına layiq görülmüşdür. 1980-ci ildə Azərbaycan SSR EA-nın müxbir üzvü seçilmiş, 1991-ci ildə isə ölümündən sonra Başqordostan EA-nın həqiqi üzvü olmuşdur.

Əmək fəaliyyətinə 1952–1956-cı illərdə "Azxəzərneft" Birliyinin Antikorroziya xidməti kontorunda istehsalat şöbəsinin rəisi kimi başlamışdır. 1959–1962-ci illərdə Dövlət Kimya Komitəsinin Bakı Təcrübə Zavodunun mərkəzi laboratoriyasının müdiri, 1962-ci ildə həmin zavod əsasında yaradılmış Ümumittifaq Elmi-Tədqiqat Olefinlər İnstitutunda (VNİİOlefin) Piroliz laboratoriyasının müdiri olmuşdur. 1973-cü ildən institutun Karbohidrogen monomerləri şöbəsinə rəhbərlik etmiş, 1976-cı ildən elmi işlər üzrə direktor müavini və 1990-cı illərdə isə institutun direktoru vəzifəsində çalışmışdır.

Yunis Qəmbərov neft kimyası və neft-kimya sintezi sahəsində yüksək erudisiyaya malik tanınmış alim idi. Onun əsas elmi tədqiqatları təbii karbohidrogen xammalının və onların emal məhsullarının yüksək temperaturda termiki və hidrogen iştirakı ilə çevrilmələrinin öyrənilməsinə, həmçinin kiçik molekullu olefin və aromatik karbohidrogenlərin alınması üçün yeni, yüksək effektivliyə malik texnoloji proseslərin yaradılmasına yönəlmişdir. Onun rəhbərliyi ilə hazırlanmış yüksək təmizlikli benzol istehsalı prosesi keçmiş Sovet İttifaqının bir sıra iri neft-kimya komplekslərində tətbiq edilmiş, o cümlədən Sumqayıt EP-300 etilen kompleksində uğurla həyata keçirilmişdir.

Elmi-tədqiqat işləri çərçivəsində olefin və aromatik karbohidrogenlərin alınması üçün müxtəlif fərdi karbohidrogenlərin və pirolizin maye məhsullarının yüksək temperaturlu termiki çevrilmələri geniş öyrənilmişdir. Eyni zamanda, toluol və digər alkilaromatik karbohidrogenlərin termiki və katalitik hidrodealkilləşmə yolu ilə benzola çevrilməsi prosesi işlənib hazırlanmış, benzol ilə yanaşı naftalin, difenil və digər qiymətli aromatik karbohidrogenlərin alınması üçün səmərəli kompleks emal variantları sənayeyə tövsiyə olunmuşdur.

Yunis Qəmbərov 220-dən çox elmi məqalə, 40-dan artıq ixtira və 6 monoqrafiyanın müəllifidir. Onun rəhbərliyi altında 25 fəlsəfə doktoru və 2 elmlər doktoru hazırlanmışdır. O, "Qırmızı Əmək Bayrağı" və "Xalqlar Dostluğu" ordenləri ilə təltif olunmuşdur.

Yunis Heydər oğlu Qəmbərov 7 sentyabr 1991-ci ildə Bakıda vəfat etmişdir.

Onun elmi fəaliyyəti Azərbaycan neft-kimya sənayesinin inkişafında mühüm rol oynamış, rəhbərliyi altında həyata keçirilən tədqiqatlar və tətbiq olunan texnoloji proseslər ölkənin neft-kimya komplekslərinin səmərəliliyinin artırılmasına və beynəlxalq səviyyədə rəqabət qabiliyyətinin yüksəlməsinə əhəmiyyətli töhfə vermişdir.

Ədəbiyyat:

Qəmbərov Yusif Heydər oğlu (1926-1991) // Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri haqqında məlumat kitabı / red. M. Kərimov; red. hey. N. Quliyev, A. Mehdiyev, C. Əliyev və b.; tərt. A. Əsədova. - Cild: I cild. - Bakı, 2005.- S. 231.

Azərbaycan Milli Elmlər Akademiyası simalarda: Azərbaycan Milli Elmlər Akademiyası 75 il: 1945-2020 / red. heyəti: R. Ə. Mehdiyev (baş red.), [ön söz] [və b.]. - [Bakı]: [Elm], [2021]. - 987, [1] s.

İnternetdə:

https://science.gov.az/az/forms/skanchavshiesya-chlenyikorrespondentyi/3451

https://www.nkpi.az/?page=addread&id=858

MART
20

Bəxtiyar Əliyev – 65

(1961)

Alim, ictimai-siyasi xadim



Bəxtiyar Həmzə oğlu Əliyev 1961-ci il martın 20-də Ağdam rayonunun Papravənd kəndində anadan olmuşdur. 1978-ci ildə M. V. Lomonosov adına Moskva Dövlət Universitetinin Psixologiya fakültəsinə daxil olmuş, 1983-cü ildə həmin fakültəni bitirərək Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Psixologiya və Pedaqogika kafedrasında işə başlamışdır.

1989-cu ildə "Millətlərarası ünsiyyət sosial-psixoloji təhlilin obyekti kimi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək fəlsəfə elmləri namizədi alimlik dərəcəsini almış, 1998-ci ildə "Cinayət və mülki prosesdə məhkəmə-psixoloji ekspertizası problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək psixologiya elmləri doktoru adına layiq görülmüşdür. 2000-ci ildən psixologiya üzrə professor fəxri adı verilmişdir.

Bəxtiyar Əliyev keçmiş SSRİ-də məhkəmə-psixoloji ekspertizasının nəzəri əsaslarını işləyib hazırlayan ilk alimlərdən biridir. O, fizioloji affektin müəyyən edilməsinin yeni metodikasını və psixoloji meyarlarını təqdim etmiş, həmçinin məhkəmə-psixoloji ekspertizanı növlərinə dair təsnifat sistemini müəyyənləşdirmişdir. Bu nailiyyətlər hüquq praktikasında cəzanın fərdiləşdirilməsi və obyektiv araşdırılmasında geniş istifadə olunur. Təqdim etdiyi model Türkiyə Respublikasında keçirilən beynəlxalq konfranslarda müzakirə edilərək təsdiq olunmuşdur. Bundan əlavə, onun öyrənmənin dərketmə modeli AMEA-nın hesabatlarında mühüm nəticə kimi yer almışdır.

Alimin elmi fəaliyyətində siyasi psixologiyanın müxtəlif məsələləri də önəmli yer tutur. O, beynəlxalq səviyyədə siyasi psixologiyanın aktual mövzularına dair çoxsaylı məqalələr müəllifidir. 1997-ci ildən Bakı Dövlət Universitetinin Psixologiya kafedrasına rəhbərlik edir.

2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmiş, 2000-ci ildən etibarən psixologiya elmləri üzrə Dissertasiya Şurasının sədri kimi fəaliyyət göstərir. 1999-cu ildə Beynəlxalq Kadrlar Akademiyasının həqiqi üzvü seçilmişdir.

Bakı Dövlət Universitetində "Eksperimental Psixologiya" elmi-tədqiqat laboratoriyasını yaradaraq idrak prosesləri və şəxsiyyət psixologiyası sahəsində elmi araşdırmalara rəhbərlik edir. 2018-ci ildə onun təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda ilk Psixologiya Elmi Tədqiqat İnstitutu yaradılmışdır.

Bəxtiyar Əliyevin rəhbərliyi altında 36 namizədlik və 6 doktorluq dissertasiyası müdafiə olunmuşdur. Ümumilikdə 278 elmi əsəri çap edilmiş, bunlardan 6 monoqrafiya, 15 dərslik və dərs vəsaiti, 29 proqram və metodiki tövsiyə, 228 elmi məqalə və tezis, həmçinin xarici ölkələrdə 55 əsər nəşr olunmuşdur. O, Azərbaycanda ilk dəfə 1999-cu ildə təsis edilən "Psixologiya jurnalı"nın baş redaktorudur.

Bəxtiyar Əliyev 2020-ci ilədən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Avropa Şurası Parlament Assambleyasının üzvü kimi Elm və Təhsil Məsələləri Komitəsi, Monitorinq Komitəsi və Geniş Miqyaslı Miqrantlar və Köçkünlərlə İş üzrə alt komitənin sədri olmuşdur. 2005–2020-ci illərdə Milli Məclisin Elm və Təhsil Komitəsinin sədr müavini, 2020-2024-c illərdə isə həmin komitənin sədri kimi fəaliyyət göstərmişir.

Həmçinin Azərbaycan Respublikası Prezidenti yanında "Əfv məsələləri üzrə komissiya"nın və "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya"nın üzvüdür. BMT-nin "Korrupsiyaya qarşı" konvensiyasının işçi orqanı olan konfransların İndoneziyada və Bakıda keçirilən beynəlxalq tədbirlərində iştirak etmişdir.

Azərbaycan təhsilinin və elminin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir. 2024-cü il oktyabrın 8-də Azərbaycan-İndoneziya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri seçilmişdir.

Ədəbiyyat:

Özünü tanı: Psixoloji testlər / A. Zamanov, H. Əliyeva; elmi red. B. Əliyev; naşir S. Şahmursoy; [ön söz Ə. Əlizadə].– [Bakı]: Xan nəşriyyatı, [Hədəf nəşrləri], [2021].– 331, [5] s.

Azərbaycan təhsil sisteminin inkişaf strategiyasını Heydər Əliyev yaratdı / B. Əliyev // Azərbaycan müəllimi.– 2023.– 10 may.– S.8-9.

Müasir, bütöv Azərbaycanın qurucusu: Möhtəşəm 20 il / B.Əliyev // Azərbaycan.– 2023.– 15 oktyabr, № 225.– S.6.

Əliyev, R. Azərbaycanda psixologiya elminin inkişafında professor Bəxtiyar Əliyevin rolu /Ramiz Əliyev // Azərbaycan müəllimi.-2014.- 28 mart.- S.5.

Əliyev, B. Ənənəvi və müasir öyrənmə modellərinin dərsə tətbiqinin psixopedaqoji əsasları / Bəxtiyar Əliyev, R.Cabbarov // Azərbaycan məktəbi: Elmi-nəzəri, pedaqoji jurnal.-2015.- №5.- S.41-47.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Bəxtiyar_Əliyev

MART
27

Yuriy Litvişkov – 80

(1946)

Kimyaçı alim



Yuriy Nikolayeviç Litvişkov 1946-cı il mart ayının 27-də Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini 85 saylı işçi gənclər gecə məktəbində başa vurduqdan sonra M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Əsas üzvi neft-kimyəvi sintez texnologiyası fakültəsinə daxil olmuş, 1968-ci ildə "Kimyaçı mühəndis-texnoloq" ixtisası üzrə ali təhsilini tamamlamışdır.

1970–1973-cü illərdə Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun aspiranturasında təhsil almışdır. Əmək fəaliyyətinə isə 1968-ci ildə Azərbaycan SSR EA Aşqarlar Kimyası İnstitutunda mühəndis kimi başlamışdır. 1970–1978-ci illərdə Neft-Kimya Prosesləri İnstitutunda aspirant, kiçik və böyük elmi işçi, 1978–1985-ci illərdə Təbii Qazın Nəqlə Hazırlanması və Emalı üzrə Ümumittifaq Elmi Tədqiqat Layihə İnstitutunda laboratoriya rəhbəri vəzifələrində çalışmışdır. Bu dövrdə onun rəhbərliyi ilə: neftin parafinli fraksiyalarının maye fazalı oksidləşdirici ammonolizasiyası ilə alifatik nitrillərin alınması, aromatik aminlərin turşularla katalitik asilləşdirilməsi, izolyasiya olunmuş qazkəmərlərinin mikroorqanizmlərə qarşı qorunması üçün funqisid və bakterisid qatqılarının hazırlanması istiqamətində mühüm nəticələr əldə olunmuşdur.

1985-ci ildən AMEA-nın akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutunda laboratoriya rəhbəri kimi fəaliyyətini davam etdirmişdir. 1973-cü ildə kimya üzrə fəlsəfə doktoru, 1991-ci ildə kimya üzrə elmlər doktoru elmi dərəcələrini almış, 1996-cı ildə professor adına layiq görülmüş, 2001-ci ildə isə AMEA-nın müxbir üzvü seçilmişdir.

Onun rəhbərliyi ilə işlənib hazırlanmış N-asil ilə əvəzlənmiş aromatik aminlər sinfinin sənaye biosidləri Qaradağ-Qazıməmməd (Hacıqabul), Orta Asiya - Mərkəz, Kuşçevskaya - Beysuq yeraltı neft və qaz boru kəmərlərini qorumaq üçün "Aztransgaz", "Sredaztransgaz" və "Kubanmorneftegazprom" kimi müəssisələrdə tətbiq edilib. Y.Litvişkovun təklif etdiyi heterojen katalizatorların mikrodalğalı sintezinin yeni texnologiyası sayəsində ənənəvi istilik müalicəsi mənbələrindən istifadə edərək oxşar xüsusiyyətlərə malik katalizatorların alınması prosesləri ilə müqayisədə əhəmiyyətli dərəcədə enerji qənaətinə nail olunur.

Alimin rəhbərliyi ilə Rusiya Elmlər Akademiyasının Neft-Kimya Sintezi İnstitutu ilə birgə aparılan tədqiqatlar nəticəsində spiral büzməli alüminium konstruksiyaları və dəyişkən valentli aktiv metallar əsasında yeni metal çərçivə katalizatorları hazırlanmışdır.

Y.Litvişkov Rusiya, ABŞ və digər ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə ölkəmizi uğurla təmsil etmiş, "Avtomatik qaz doldurma kompleksi + alternativ yanacaq" beynəlxalq elmi-texniki jurnalının, "Kimya Problemləri" jurnalının redaksiya heyətinin üzvü və "Azərbaycan kimya jurnalının" baş redaktorun müavinidir.

O, 3 monoqrafiyanın, 80 müəlliflik şəhadətnaməsi və patentin, 370 elmi əsərin (o cümlədən 63-ü xaricdə) müəllifidir.Onun rəhbərliyi ilə 10 nəfər kimya üzrə fəlsəfə doktoru hazırlanmışdır.

Ədəbiyyat:

Litvişkov Yuriy Nikolayeviç // Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri haqqında məlumat kitabı / red. M. Kərimov; red. hey. N. Quliyev, A. Mehdiyev, C. Əliyev və b.; tərt. A. Əsədova. - Cild: I cild. - Bakı, 2005.- S. 293

Azərbaycan Milli Elmlər Akademiyası simalarda: Azərbaycan Milli Elmlər Akademiyası 75 il: 1945-2020 / red. heyəti: R. Ə. Mehdiyev (baş red.), [ön söz] [və b.]. - [Bakı]: [Elm], [2021]. - 987, [1] s.

İnternetdə:

https://kqki.az/az/news/185

https://science.gov.az/en/forms/chlenyikorrespondentyi/118?utm_source=chatgpt.com

MART
30

Cəmil Əliyev – 80

(1946)

Akademik



Ədəbiyyat:

Azərbaycan tibbinin korifeyləri: [toplu] / M. Seyidbəyli, D. Vahabova; tərc.-red.: A. X.-P. Nəzərova, R. K. Mirzəbəyova, V. S. Fətəliyev, S. N. Namazova; elmi red. C. Ə. Əliyev; AMEA, Elm Tarixi İn-tu.– Bakı: [Elm və təhsil], 2020.– 599, [1] s.

C.Ə.Əliyevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 30 mart 2021-ci il // Azərbaycan.– 2021.– 31 mart.– S.2.

Akademik R. N. Rəhimovun 100 illik yubileyinə həsr olunmuş elmi-praktiki konfransın materialları: Bakı, 15 mart 2023 / red. heyəti: C. Ə. Əliyev (sədr) [ön söz] [və b.].– Bakı: [n. y.], 2023.– 168 s.

Kliniki onkologiyanın inkişaf problemlərinə müasir baxışlar / C. Ə. Əliyev, İ. H. İsayev.– Bakı: [Zərdabi Nəşr], 2024.– 231, [1] s.

Milli Onkologiya Mərkəzinin Baş direktoru akademik Cəmil Əliyev beynəlxalq simpoziumun iştirakçıları ilə görüşüb // Azərbaycan.– 2025.– 11 aprel (№70).– S.7.

Cəmil Əziz oğlu Əliyev 1946-cı il mart ayının 30-da Bakı şəhərində, görkəmli ictimai-siyasi və dövlət xadimi, məşhur alim Əziz Əliyevin ailəsində anadan olmuşdur.

1968-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş, elə həmin ildən Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Onkologiya kafedrasında baş laborant kimi əmək fəaliyyətinə başlamışdır. 1972-ci ildən həmin kafedrada assistent vəzifəsində çalışmışdır. 1973-cü ildə namizədlik, 1978-ci ildə isə Moskvada SSRİ Tibb Elmləri Akademiyasının Ümumittifaq Onkologiya Elmi Mərkəzində doktorluq dissertasiyasını müdafiə etmiş, 1987-ci ildə professor elmi adını almışdır.

1978-ci ildə Respublika Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Rentgenologiya, Radiologiya və Onkologiya İnstitutunda ikinci cərrahiyyə şöbəsinin müdiri təyin olunmuş, 1980-ci ilin oktyabrından 1990-cı ilin mart ayınadək həmin institutda elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmışdır. 1990-cı ildən Respublika Milli Onkologiya Mərkəzinin direktorudur. 1994-cü ildən Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Onkologiya kafedrasına rəhbərlik edir.

2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Akademik Cəmil Əliyev respublika hüdudlarından kənarda da geniş tanınır. O, Bakı və Moskvada dərc olunmuş 17 monoqrafiyanın (bunlardan biri ingilis dilindədir), tələbələr üçün dərs vəsaitinin, 10 ixtiranın və 600-ə yaxın elmi məqalənin müəllifidir. Onun rəhbərliyi ilə 45 fəlsəfə doktoru və 8 elmlər doktoru yetişmişdir.

Cəmil Əliyev görkəmli səhiyyə təşkilatçısı kimi də fəaliyyət göstərir. O, Respublika Onkoloqlar Cəmiyyətinin sədri, Səhiyyə Nazirliyinin baş onkoloqu, Nazirliyin onkologiya üzrə Attestasiya Komissiyasının sədri, "Azərbaycan tibb jurnalı" redaksiya heyətinin üzvü, "Azərbaycan onkologiya və həmmərz elmlər jurnalı"nın baş redaktorudur. O, həmçinin MDB Dövlətləri Onkoloqları Assosiasiyası idarə heyətinin, Avropa Onkologiya Cəmiyyətinin və Rusiya Elmi-tibbi Onkologiya Cəmiyyəti idarə heyətinin üzvüdür.

Akademik Cəmil Əliyev beynəlxalq miqyasda da yüksək nüfuza malikdir. O, London Universitetinin, İngiltərənin Hammersmit Kral Universitetinin, ABŞ-ın Anderson Xərçəng Əleyhinə Mərkəzinin fəxri professoru, Nyu-York Elmlər Akademiyasının üzvüdür. 2001-ci ildə Rusiya Federasiyası Tibb Elmləri Akademiyasının, 2010-cu ildə Avropa Təbiət Elmləri Akademiyasının, eləcə də Gürcüstan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. 2011-ci ildən Dağıstan Muxtar Respublikasının Əməkdar elm xadimidir. O, həmçinin Rusiya Federasiyasının Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, Beynəlxalq Ekoenergetika Akademiyasının və Avropa Tibb Onkologiya Elmi Cəmiyyətinin üzvüdür.

Görkəmli alim 2015-ci il sentyabrın 28-də Türkiyənin nüfuzlu elm ocağı – Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş və "Türk dünyasına xidmət" Beynəlxalq Qızıl Medalına layiq görülmüşdür. 2018-ci ildə Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Mükafatlar Şurasının qərarı ilə "Elm və Sülh elçisi" fəxri adı verilmişdir.

Akademik Cəmil Əliyev Azərbaycan tibb elminin inkişaafındakı xidmətlərinə görə AMEA-nın Y.Məmmədəliyev adına mükafata layiq görülmüş, 2000-ci ildə "Əməkdar elm xadimi" fəxri adı ilə təltif edilmişdir. O, həmçinin 2006-cı ildə "Şöhrət", 2016-cı ildə isə "Şərəf" ordenləri ilə mükafatlandırılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 mart 2021-ci il tarixli Sərəncamı ilə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Ramiz Alıquliyev – 65

(1961)

Alim



Ədəbiyyat:

Ramiz Məhəmməd oğlu Alıquliyev: Biblioqrafik göstərici: 60 illiyinə həsr olunur / AMEA, Mərkəzi Elmi Kitabxana; tərt. M. Həsənova; elmi red. M. Əliyev; red. X. İsmayılova; [bədii tərtibat Ş. Məmməd].– Bakı: Elm, 2021.– 99, [1] s.

Süni intellekt texnologiyalarının elmi-nəzəri və praktiki problemləri: məqalələrin xülasələri / AMEA, İnformasiya Texnologiyaları İn-tu; elmi red. R. Alıquliyev.– [Bakı], [İnformasiya Texnologiyaları]: [2022].– 95, [1] s.

Plagiatlıqla mübarizə texnologiyaları / Ramiz Əliquliyev, N. B. Ağayev, R. M. Alıquliyev ; elmi red. Y. İmamverdiyev ; AMEA, İnform. Tex. İn-tu. - Bakı: İnformasiya Texnologiyaları, 2015. - 166, [2] s.

Elektron elm: müasir vəziyyəti, problemləri və inkişaf perspektivləri / Ramiz Əliquliyev, R. Ələkbərov, R. Alıquliyev, T. Fətəliyev; elmi red. Y. N. İmamverdiyev ; AMEA, İnformasiya Texnologiyaları İn-tu. - Bakı: İnformasiya Texnologiyaları, 2015. - 129, [1] s.

İnternetdə:

https://ict.az/az/content/39

Ramiz Məhəmməd oğlu Alıquliyev 1961-ci il mart ayının 20-də Bərdə rayonunda anadan olmuşdur.

1983-cü ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Tətbiqi riyaziyyat fakültəsini bitirmişdir. 1983-1987-ci illərdə Azərbaycan Elmlər Akademiyasının (AEA) Kibernetika (indiki İdarəetmə Sistemləri) İnstitutunda mühəndis, 3-cü dərəcə mühəndis-konstruktor vəzifələrində işləmişdir. 1988-2002-ci illərdə AEA Riyaziyyat və Mexanika İnstitutunda aparıcı konstruktor, aparıcı mühəndis, elmi işçi vəzifələrində işləmişdir. 2003-cü ildən Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) İnformasiya Texnologiyaları İnstitutunda şöbə müdiri işləyir. 2023-cü ildən Azərbaycan Texniki Universitetinin Data Elmi və Süni İntellekt İnstitutunun direktorudur.

2002-ci ildə AMEA Riyaziyyat və Mexanika İnstitutunda "Cırlaşan ikinci tərtib elliptik tənliklərin həllərinin keyfiyyət xassələrinin tədqiqi" mövzusunda fizika-riyaziyyat elmləri üzrə namizədlik dissertasiyasını, 2010-cu ildə isə AMEA Kibernetika İnstitutunda "Mətn tipli informasiyanın intellektual analizi üçün metodlar və alqoritmlər" mövzusunda texnika elmləri üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir. 2017-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Alimin 192 elmi əsəri mövcuddur. Onlardan 138-i ABŞ, Almaniya, Böyük Britaniya, Cənubi Koreya, Çin, Fransa, Hindistan, İsveçrə, Latviya, Niderland, Rusiya, Sinqapur, Ukrayna və digər ölkələrdə nəşr olunmuşdur. Əsərlərinin 54-ü Web of Science (Clarivate Analytics), 65-i isə Scopus (Elsevier) bazasında indeksləşən jurnallarda və beynəlxalq konfrans materiallarında çap edilmişdir.

Ramiz Alıquliyev 11 beynəlxalq jurnalın redaksiya heyətinin üzvü, Web of Science və Scopus bazalarında indeksləşən 30-dan çox nüfuzlu jurnalın rəyçisidir. O, həmçinin beynəlxalq və respublika səviyyəli konfransların proqram və təşkilat komitələrinin üzvü olmuşdur. Rəhbərliyi altında 4 fəlsəfə doktoru və 5 magistr hazırlanmış, bir çox fəlsəfə doktoru hazırlığı üzrə doktrantın və dissertantın elmi rəhbəridir. 2019-cu ildə birgə tədqiqatlar aparmaq üçün Avstraliya Federasiya Universitetinə dəvət olunmuşdur.

Ramiz Alıquliyevin əsas tədqiqat istiqamətləri data mining, web mining, text mining, mətnlərin avtomatik referatlaşdırılması (automatic document summarization), klasterləşmə, klassifikasiya, CDN (Content Delivery Networks – kontenti çatdırma şəbəkələri) texnologiyası, paylanmış hesablama, neyron şəbəkələr, genetik alqoritmlər, qarışqa alqoritmləri, diferensial təkamül alqoritmləri, arı alqoritmləri, particle swarm optimization ("sürü" intellekti əsasında optimallaşma) alqoritmləri, veb-də sosial şəbəkələr və elmmetriyadır.

Azərbaycan Elm Fondunun maliyyələşdirdiyi 6, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Elm Fondunun maliyyələşdirdiyi 5, qrantın layihə rəhbəri və ya icraçısı olmuşdur.

2013-cü ildə "İKT ili" çərçivəsində Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birgə keçirdiyi 3-cü birgə İKT üzrə mükafat müsabiqəsində, onun "Mətn tipli sənədlər çoxluğunun referatlaşdırılması üçün öz-özünə adaptiv mutasiya və krossover parametrli diferensial təkamül alqoritmi" adlı məqaləsi İKT sahəsində dərc olunmuş ən yaxşı elmi işlərə görə 1-ci yerə layiq görülmüşdür.

2020-2024-cü illərdə Stenford Universiteti tərəfindən hazırlanmış süni intellekt sahəsində dünyanın ən nüfuzlu 2% alimlərinin reytinq siyahısına seçilib.

Ramiz Alıquliyev 2005-ci ildə AMEA-nın Fəxri Fərmanı ilə təltif edilmiş, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 fevral 2014-cü il tarixli Sərəncamı ilə ölkədə informasiya-kommunikasiya və kosmik sənaye sahələrinin inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə mükafatlandırılmışdır.

Leyla Qafurova – 90

(1936)

Biblioqraf



Leyla Yusif qızı Qafurova 21 mart 1936-cı ildə Zaqatala rayonunun Suvagil kəndində anadan olmuşdur. O, 1954-cü ildə Bakı Kitabxanaçılıq Texnikumunu, 1960-cı ildə isə S.M. Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinin kitabxanaçılıq şöbəsini bitirmişdir.

Leyla Qafurova 1961–2003-cü illərdə M.F. Axundov adına Azərbaycan Dövlət Respublika Kitabxanasında (indiki Azərbaycan Milli Kitabxanası) fəaliyyət göstərmiş, elmi katib vəzifəsindən kitabxananın direktoru vəzifəsinədək yüksəlmişdir. O, bir sıra elmi məqalələrin və biblioqrafik göstəricilərin müəllifidir.

1985-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 6 avqust tarixli Fərmanı ilə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür. 2005-ci ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəxri fərmanı və döş nişanı ilə təltif edilmişdir. Respublika miqyasında kitabxanaçılıq işinin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Prezidentinin 1 aprel 2005-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Ədəbiyyat:

Tanınmış alim, pedaqoq və ictimai xadim / Leyla Qafurova // Kitabxanaşünaslıq və biblioqrafiya.-2006.- № 2.- S.82-90.

Kitabxanalar milli intelektin bünövrəsidir / Leyla Qafurova // Respublika.-2004.- 13 avqust. - S.3.

Beynəlxalq əlaqələrin bəhrəsi / Leyla Qafurova // Ədəbiyyat qəzeti.-2002.- 13 sentyabr. - S.2.

Kitabxanaçı öz işinin fədaisidir / Leyla Qafurova // Xalq qəzeti.-2001.- 26 yanvar.-S.5

Kitabxananın başlıca problemi kitab təhcizatıdır / Leyla Qafurova // Xalq qəzeti.-1997.- 5 mart

Beynəlxalq Qadınlar Günü

(1910)



Dünyanın bir çox ölkəsində 8 Mart – Beynəlxalq Qadınlar Günü kimi qeyd olunur. Tarixə nəzər saldıqda qadın hərəkatının başlanğıcı 1857-ci ildə Nyu-Yorkda çalışan qadınların 12 saatlıq iş gününə qarşı keçirdikləri etiraz aksiyası ilə qoyulmuşdur. 1910-cu ildə alman sosialist qadın Klara Setkinin təşəbbüsü ilə 8 Martın dünya qadınlar günü kimi qeyd olunması təklif edilmiş və bu tarix qadın hüquqları uğrunda mübarizənin simvoluna çevrilmişdir. 1977-ci ildə Birləşmiş Millətlər Təşkilatı bu günü rəsmi şəkildə Qadınlar Günü kimi tanımışdır.

Türk etnoslarında və o cümlədən Azərbaycanda qadın və ana müqəddəs sayılmış, onlara böyük hörmət və ehtiram göstərilmişdir. Ana haqqı Tanrı haqqına bərabər tutulmuşdur. Tarix boyunca Azərbaycan qadını qəhrəmanlıq göstərmiş, dövlət idarəçiliyində, siyasətdə və diplomatiyada fəal iştirak etmişdir. Məsələn, Massaget hökmdarı Tomiris Əhəməni imperatoru II Kirin ölkəmizə olan yürüşünü dəf etmiş və onu məğlub etmişdir. Ağqoyunlu hökmdarı Uzun Həsənin anası Sara xatın isə qonşu dövlətlərlə diplomatik danışıqlar apararaq, bu sahədə mühüm uğurlar əldə etmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra qəbul olunmuş Konstitusiyanın 25-ci maddəsinin ikinci hissəsində kişi və qadınların eyni hüquq və azadlıqlara malik olduqları təsbit olunmuşdur. Azərbaycan Respublikası 1992-ci il avqustun 4-də "Qadınların siyasi hüquqları haqqında" 1952-ci il tarixli BMT Konvensiyasına və 1995-ci il iyunun 30-da "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" 1979-cu il tarixli BMT Konvensiyasına qoşulmuşdur.

2006-cı il oktyabrın 10-da isə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu qanun qadınların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakına hüquqi əsas yaratmışdır. Bu gün Azərbaycan qadınları ölkənin ictimai-siyasi, elmi, təhsil və mədəni həyatında yüksək fəallıqları, bilik və bacarıqları, vətənpərvərlikləri və dövlətçiliyə sədaqətləri ilə seçilirlər.

Ümummilli lider Heydər Əliyev qadınlara daim yüksək qiymət vermiş və demişdir: "Qadınlar cəmiyyətin bəzəyidir, gözəlliyidir. Qadınsız cəmiyyət ola bilməz, qadınsız həyat ola bilməz. Azərbaycan qadınları da öz ağıllarına, zəkalarına, biliklərinə, istedadlarına və gözəlliklərinə görə dünya qadınları arasında özünəməxsus və yüksək yer tutur. Ona görə də biz qadınlarımızla fəxr edirik."

Bu gün dövlət qadın siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla və qətiyyətlə davam etdirilir. Qadınların ictimai-siyasi həyatda fəallığı ildən-ilə artır, onlar ölkəmizi beynəlxalq arenada ləyaqətlə təmsil edir, mötəbər tribunlarda çıxış edirlər.

Azərbaycan qadını artıq cəmiyyətin aparıcı qüvvəsinə çevrilmişdir. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti xüsusi qeyd olunmalıdır. Onun dövlət və xalq naminə gördüyü işlər, həyata keçirdiyi xeyriyyəçilik layihələri Azərbaycan qadınının müasir cəmiyyətdə necə fəal və təsirli bir mövqeyə sahib olduğunu nümayiş etdirir. Qərb dünyası Mehriban xanım Əliyevanın timsalında Şərqin müdrik, intellektual və peşəkar qadın siyasətçisinin obrazını görür.

Bu gün Azərbaycan qadınları dövlət idarəçiliyində, sosial-iqtisadi, elmi-mədəni və idman sahələrində fəal iştirak edərək, ölkəmizin inkişafına mühüm töhfələr verməkdədirlər.

Ədəbiyyat:

Əliyev, İlham. 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik / İlham Əliyev // Azərbaycan.-2025.- 6 mart (№50).- S. 1; İki sahil.-2025.- 6 mart (№41).- S.1; Azərbaycan müəllimi.-2025.- 8 mart (№9).- S.1.

Süleymanova, N. Qadınların beynəlxalq birliyinin simvolu: 8 Mart : 8 Mart Beynəlxalq Qadınlar Günü / NübarSüleymanova // İki sahil.-2025.- 8 mart (№43).- S.8.

Milli Kitabxanada Beynəlxalq Qadınlar Günü münasibətilə sərgi hazırlanıb // Azərbaycan.-2025.- 8 mart (№52).- S.10; 525-ci qəzet.-2025.- 8 mart(№44).- S.19.

Əliyeva, İ. Azərbaycan qadını - milli birliyimizin, mənəvi bütövlüyümüzün dayağı: 8 Mart Beynəlxalq Qadınlar Günüdür / İradə Əliyeva // Azərbaycan.-2025.- 8 mart (№52).- S.5.

Kamal, M. Fədakar, dəyərli, güclü Azərbaycan qadını / Mustafa Kamal // Respublika.-2025.- 8 mart (№ 52).- S.10.

“Nicat” maarif cəmiyyəti – 120

(1906)



Ədəbiyyat:

Əlyeva, İ. Maarifçi xeyriyyə cəmiyyətləri / İradə Əliyeva // Azərbaycan.– 2025.– 10 aprel (№69).– S.11.

Tağıyeva, İ. "Nicat" və "Səadət" xeyriyyə cəmiyyətlərinin Azərbaycan təhsil tarixində yeri / İradə Tağıyeva // Dövlət və Din: İctimai fikir toplusu.-2020.- №1(64).- S.46-54.

Fərəcov, S. “Nicat” xeyriyyə cəmiyyətinin mədəni-maarif fəaliyyəti / Savalan Fərəcov // Mədəniyyət.-2017.- 25 yanvar.- S.15.

Əhmədov, H. Azərbaycanda xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti / Hümeyir Əhmədov; Elmi red.: Ə. Ağayev; Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu. - Bakı: Mütərcim, 1997. - 56 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Nicat_Cəmiyyəti#:~:text=Nicat%20Cəmiyyəti%20—%20Bakı%20qubernatorunun%201906,İmran%20Qasımov%20tərəfindən%20uyğun%20görülmüşdür.

XX əsrin əvvəlləri Azərbaycanda milli şüurun yüksəlişi və ictimai-mədəni dirçəliş dövrü kimi xarakterizə olunur. Bu dövrdə milli mədəniyyətin, maarifin və təhsilin inkişafı istiqamətində müxtəlif ictimai təşəbbüslər meydana gəlmiş, ziyalı təbəqə cəmiyyətin tərəqqisi üçün təşkilatlanmağa başlamışdır. Belə təşəbbüslərdən biri də 1906-cı mart ayının 9-da Bakıda yaradılan “Nicat” maarif cəmiyyətidir. Bu cəmiyyətin əsas hədəfi Azərbaycan əhalisi, xüsusən də müsəlman-türk camaatı arasında maarifçiliyin yayılması, savadsızlığın aradan qaldırılması və milli təhsilin inkişaf etdirilməsi olmuşdur. “Nicat” cəmiyyəti milli intibah dövrünün mühüm təşkilatlarından biri kimi ictimai, mədəni və elmi sahələrdə dərin iz buraxmışdır.

Cəmiyyətin təsis olunması dövrün sosial-siyasi zərurətindən doğmuşdur. 1905–1907-ci illər rus inqilabı və onun təsiri ilə imperiya ərazisində müxtəlif azlıqlar hüquq və azadlıqlar uğrunda çıxış etməyə başlamışdı. Azərbaycanda da ziyalılar bu tarixi fürsətdən istifadə edərək maarif, ana dili və təhsil sahəsində islahatların aparılmasını gündəmə gətirmişdilər. Belə bir şəraitdə “Nicat” maarif cəmiyyətinin yaradılması təsadüfi deyildi. Cəmiyyətin nizamnaməsində onun əsas məqsədləri aşağıdakı şəkildə göstərilmişdi: müsəlman əhalinin maariflənməsinə kömək etmək, məktəblər açmaq və maliyyələşdirmək, təhsil alanlara maddi vəsait və dərs vəsaitləri ilə dəstək göstərmək, qiraətxanalar, kitabxanalar və mühazirə məkanları yaratmaq, eyni zamanda Azərbaycan dilinin tədrisini təşviq etmək.

“Nicat” cəmiyyəti fəaliyyəti dövründə geniş coğrafiyanı əhatə etmişdir. Təkcə Bakıda deyil, Azərbaycanın müxtəlif bölgələrində – Gəncə, Şamaxı, Ağdaş, Şəki, Lənkəran və digər şəhərlərdə məktəblər və maarif müəssisələri təsis edilmişdir. Cəmiyyət tərəfindən açılmış təhsil müəssisələrinin çoxu ibtidai və iki sinifli məktəblər idi və bu məktəblərdə həm dini, həm də dünyəvi biliklərin verilməsi təmin edilirdi. Əlavə olaraq, Bakı şəhərində gecə məktəbləri və savadsızlığın aradan qaldırılmasına yönəlmiş təlim kursları təşkil olunmuşdu. Bu kurslarda həm rus, həm də Azərbaycan dili, riyaziyyat, təbiət elmləri, tarix və digər fənlər tədris olunurdu.

Maarifləndirmə fəaliyyəti ilə yanaşı, “Nicat” cəmiyyəti Azərbaycan milli mədəniyyətinin inkişafında da mühüm rol oynamışdır. Cəmiyyətin dəstəyi ilə teatr tamaşaları təşkil olunmuş, milli opera sənətinin təməli qoyulmuşdur. Xüsusilə 1908-ci ildə Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” operasının səhnələşdirilməsi Şərq dünyasında ilk opera nümunəsi kimi tarixə düşmüşdür. Bu hadisə cəmiyyətin mədəni sahədə fəaliyyətinin zirvəsi kimi qiymətləndirilir.

“Nicat” maarif cəmiyyətinin fəaliyyətində qadın məsələləri də xüsusi yer tuturdu. 1908-ci ildə cəmiyyətin nəzdində qadın şöbəsi yaradılmış və burada tanınmış qadın ziyalılar – Hənifə Məlikova, Xədicə Əlibəyova, Əminə Tanrıquliyeva və başqaları maarifçilik işinə cəlb olunmuşdur. Qadın şöbəsinin təşəbbüsü ilə qız məktəbləri yaradılmış, qadınlar üçün mühazirələr və maarifləndirici tədbirlər keçirilmişdir. Eyni zamanda cəmiyyətin qadınlar üçün nəşr etdirdiyi “İşıq” adlı qəzet milli qadın mətbuatının formalaşmasında önəmli addımlardan biri olmuşdur.

Cəmiyyətin fəaliyyətində dövrün görkəmli ziyalıları yaxından iştirak etmişdir. Məmmədəli bəy Səlimbəyov cəmiyyətin ilk sədri olmuş, sonralar bu vəzifəni Həsən bəy Ağayev və Məhəmməd Əmin Rəsulzadə davam etdirmişdir. Cəmiyyətin üzvləri sırasında Əlimərdan bəy Topçubaşov, İsa bəy Aşurbəyov, Mirzə Bala Məhəmmədzadə, Üzeyir Hacıbəyli kimi tanınmış simalar yer almışdır. Bu ziyalılar vasitəsilə “Nicat” cəmiyyəti ictimai və siyasi dairələrdə də tanınaraq geniş nüfuz qazanmışdı.

Lakin “Nicat” cəmiyyətinin fəaliyyəti uzun sürməmişdir. 1917-ci ildə Rusiya imperiyasında baş verən inqilablar, siyasi sistemin çökməsi və bolşeviklərin hakimiyyətə gəlməsi nəticəsində bir çox milli qurumlar kimi “Nicat” cəmiyyəti də fəaliyyətini dayandırmağa məcbur olmuşdur. Sovet dövründə bu cür milli və qeyri-hökumət təşəbbüslərinə yer verilməmiş, onların fəaliyyəti ya unudulmuş, ya da ideoloji səbəblərlə tənqid edilmişdir.

Bütün çətinlik və maneələrə baxmayaraq, “Nicat” maarif cəmiyyəti Azərbaycan xalqının maariflənməsi, milli kimliyinin formalaşması və ictimai şüurun inkişafı istiqamətində əvəzsiz xidmətlər göstərmişdir.

MART
10

Milli Teatr Günü
(2013)



XIX əsrin 70-ci illərində Azərbaycanda milli teatrın yaranması mədəniyyətimizin tarixində böyük hadisə olmuşdur. 1873-cü il martın 10-da Bakı Realnı Məktəbinin teatr həvəskarları truppası M.F. Axundzadənin "Sərgüzəşti-vəziri-xani Lənkəran" komediyasını tamaşaya qoymuşdur. Bu şərəfli işdə H. Zərdabi və N. Vəzirov mühüm rol oynamışlar. Bu tamaşa ilə Azərbaycanda milli teatrın əsası qoyulmuşdur.

Azərbaycanda teatr sənəti qədim ənənələrə malikdir. Hələ eramızdan əvvəl xalq arasında müxtəlif meydan tamaşaları, kukla teatrları ("Maral oyunu", "Kilimarası"), bayram tamaşaları ("Kos-Kosa"), dini səciyyəli tamaşalar ("Şəbih") və s. geniş yayılmışdır. XVII əsrin ikinci yarısında Azərbaycanda olmuş fransız səyyahı Şarden, Çuxursəd bəylərbəyi İrəvan şəhərindəki iqamətgahında qonaq olarkən ona üç hissəli bir tamaşa göstərmişdir. Bu tamaşa Şardenə o qədər xoş təsir bağışlamışdı ki, onu "Şərqin operası" adlandırmışdır.

Milli teatrın inkişafında məşhur xeyriyyəçi-mesenat H.Z. Tağıyevin böyük xidməti olmuşdur. O, Bakı şəhərində ilk teatr binasını inşa etdirmişdir. Tezliklə Azərbaycan səhnəsində Cahangir bəy Zeynalov, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Hüseyn Ərəblinski, Ülvi Rəcəb, Məmmədrza Şeyxzamanov, Ağasadıq Gəraybəyli, Lütfəli Abdullayev, Nəsibə Zeynalova, Leyla Bədirbəyli, Hökümə Qurbanova kimi yüzlərlə sənətkar yetişmişdir.

Azərbaycanda teatr sənətinin inkişafında Hacıbəyov qardaşlarının da böyük əməyi olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması milli teatrın fəaliyyətində canlanmaya səbəb olmuşdur. Dövlətin fəal dəstəyi və müdaxiləsi nəticəsində Azərbaycan teatrının inkişafında mühüm keyfiyyət dəyişiklikləri baş vermişdir. Teatrın repertuarına Azərbaycan tarixi və milli azadlıq mübarizəsi ilə bağlı yeni əsərlər daxil olmuşdur. Cümhuriyyət hökumətinin bu sahədə məqsədyönlü addımlarından biri Azərbaycan Dövlət Teatrının yaradılması olmuşdur. Bu, Azərbaycan peşəkar teatrının dövlət teatrı statusu alması demək idi. Bu teatrın pərdələri ilk dəfə 1918-ci il noyabrın 4-də N.Nərimanovun "Nadir Şah" faciəsinin tamaşası ilə açılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 1 mart tarixli sərəncamına əsasən, hər il martın 10-u ölkəmizdə "Milli Teatr Günü" kimi qeyd edilir. Azərbaycan dövlətinin teatr sənətinə göstərdiyi qayğının miqyası günü-gündən artır. Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyev 29 dekabr 2006-cı il tarixində "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununu imzalamışdır. 2007-ci ildə isə "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" sərəncam teatr sənətinə böyük təkan vermişdir. Teatrşünaslar bildirirlər ki, dövlət başçısının mədəniyyətimizə qayğısı Azərbaycan incəsənətində yaradıcılıq əhval-ruhiyyəsini yüksəldib. Teatrın inkişafı üçün Dövlət Proqramı uğurla həyata keçirilir.

Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı, Dövlət Rus Dram Teatrı, Dövlət Gənc Tamaşaçılar Teatrı, Dövlət Akademik Milli Dram Teatrı, Dövlət Musiqili Teatrlarının binalarında yüksək səviyyədə təmir-bərpa və yenidənqurma işləri aparılıb və artıq istismara verilib. Azərbaycan teatrı dünya standartlarına uyğun səviyyədə müasir avadanlıqlarla təchiz olunur.

2020-ci ilin 44 günlük Vətən müharibəsində müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı Zəfər sayəsində Qarabağda mədəniyyətimizin dirçəlişi üçün tarixi səhifə açılmışdır. Otuz il əvvəl Qarabağdan — Şuşadan, Ağdamdan, Füzulidən didərgin düşən teatrlarımız tezliklə yenidən qurularaq doğma şəhərlərdə fəaliyyətini davam etdirəcəkdir.

Ədəbiyyat:

Səhnə sənəti: mədəni inkişafın ən parlaq təcəssümü: 10 mart Milli Teatr Günü / L.Təhməz // Respublika.– 2025.– 8 mart (№ 52).– S.13.

Milli teatrın doğuluş günü: Azərbaycan Teatrı – 152 // Xalq qəzeti. -2025.- 11 mart (№ 53).- S.10.

Ələddinqızı, N. Peşəkar milli teatrımız / Nəzakət Ələddinqızı // Səs.-2025.- 8 mart (№43).- S.8.

Dostəli, Ə. Səhnəmizin sənət bayramı tamaşaları : 10 Mart Azərbaycan Milli Teatr Günüdür /Ə.Dostəli //Xalq qəzeti .-2024.- 10 mart, № 54.- S.10.

Həyatdan səhnəyə, səhnədən duyğu və düşüncələrə: Azərbaycanın milli teatr -150 // Xalq qəzeti.-2023.- 10 mart.- S.10.

Yusifoğlu, Q. "Azərbaycan dramaturgiyası və milli teatr" / Qabil Yusifoğlu //Xalq qəzeti.-2023.- 10 iyun.- S.8.

İnternetdə:

https://azertag.az/xeber/10_mart___milli_teatr_gunudur-2945271

Novruz bayramı



Bir sıra xalqlar yaz fəslinin gəlişini təbiətin oyanışı ilə əlaqələndirərək bu münasibətlə şənliklər təşkil etmiş, onu yeni ilin başlanğıcı kimi bayram etmişlər. Qədim zamanlardan etibarən Azərbaycan, İran, Əfqanıstan, Tacikistan, Özbəkistan və digər bir çox Şərq ölkələrində baharın – yeni ilin gəlişi xalq tərəfindən böyük sevinc və təntənə ilə qarşılanır. Martın 21-i İran və Əfqanıstanda rəsmi təqvimin ilk günü kimi qəbul edilir.

2009-cu il sentyabrın 30-da Novruz bayramı YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irsi siyahısına daxil edilmiş, 2010-cu il fevralın 23-də isə BMT Baş Assambleyasının 64-cü sessiyasında martın 21-i "Beynəlxalq Novruz Günü" elan olunmuşdur.

"Novruz" sözü fars dilində "yeni gün" mənasını verir. Novruz bayramının mənşəyi qədim zamanlara, islamdan öncəki dövrlərə dayanır. İslam dininin Yaxın Şərq və Orta Asiya xalqları arasında yayılmasından sonra Ərəb xilafəti bu xalqların İslamla ziddiyyət təşkil edən ənənə və bayramlarını qadağan etməyə çalışsa da, Novruz kimi dərin köklərə malik bayramlar xalqın yaddaşında və həyat tərzində yaşamağa davam etmişdir.

Novruz bayramının kökləri Zərdüştilik və Atəşpərəstlik dövrlərinə gedib çıxır. Bu, xüsusilə bayramda qorunan bəzi ayinlərdə — odun müqəddəs sayılması, tonqal qalanması və ona ibadət elementlərinin qorunub saxlanmasında özünü göstərir.

Qədim inanca görə kainat dörd əsas ünsürdən — su, od, torpaq və küləkdən ibarət olmuşdur. Novruzdan öncəki dörd həftə ərzində bu ünsürlərə həsr olunmuş dörd çərşənbə qeyd olunur. Azərbaycan aşıq poeziyasında da bu inanc öz əksini tapmışdır: "Ab, atəş, xak, baddan yarandım" — deyə insanın təbiətlə bağlılığı vurğulanmışdır.

Azərbaycanda Novruz bayramı zəngin mərasim və adət-ənənələrlə qeyd olunur. Göyərdilən səməni yazın gəlişini, təbiətin oyanmasını və məhsuldarlığı simvolizə edir. Kənd əhalisi səməni göyərtməklə yeni təsərrüfat ilində bərəkət və bolluq arzulayır. Bayrama dörd həftə qalmış çərşənbə axşamlarında və Novruz günü tonqallar qalanır, od ətrafında mahnılar oxunur, xüsusilə "Gün çıx!" nəğməsi səsləndirilir. Bu ayinlərdə oda, atəşə və günəşə olan qədim inam və etiqadlar əks olunur.

Novruz bayramı zamanı yerinə yetirilən adət və mərasimlər — papaq atmaq, qulaq falına çıxmaq, tonqaldan tullanmaq və bu zaman "Ağırlığım–uğurluğum odda yansın" demək, yumurta boyamaq və döyüşdürmək, səməni xonçaları bəzəmək, qohum və qonşulara bayram payı aparmaq, ailə üzvlərinin sayına uyğun şam yandırmaq, ənzəli kimi Novruz oyunları oynamaq və yallı rəqsi ifa etmək xalqın qədim mədəni yaddaşının canlı nümunələridir.

Ümummilli Lider Novruz bayramını xalqımızı tarixən birləşdirən, onun mənəvi varlığını qidalandıran bir fenomen kimi qiymətləndirmişdir:

"Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir."

2020-ci ildə Vətən müharibəsində qazanılan Qələbə nəticəsində Novruz bayramı Azərbaycanın ayrılmaz hissəsi olan doğma Qarabağ torpaqlarına qayıtmışdır. Otuz illik ayrılıqdan sonra Şuşada və digər azad olunmuş ərazilərdə Novruz tonqalları qalanmış, Baharın nəfəsi və xalqımızın bayram sevinci bu torpaqlara yenidən dönmüşdür.

Ədəbiyyat:

Bizi azərbaycançılıq məfkurəsi işığında sıx birləşdirən Novruz bayramı milli həmrəyliyimizi getdikcə daha da möhkəmləndirir : Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik / İlhamƏliyev // Azərbaycan.-2025.-19 mart (№ 60).- S.1.

Novruz bayramı-milli ənənənin simvoludur" / S.Ağazadə // Səs.– 2025.– 5 mart (№40).– S.14.

Novruz bayramı - təbiətin yaradılış qanunu / Ş.Albalıyev // Kredo.–2020.– 11 mart.– S.12;14.

Novruz bayramı / S.Rzasoy // Xalq Cəbhəsi.– 2021.– 20 mart.– S.14.

Vyanada Novruz bayramı münasibətilə konsert // Mədəniyyət.– 2022.– 16 mart.– S.8.

Novruz bayramı - ortaq mənəvi dəyər / Cavid // Xalq Cəbhəsi.– 2023.– 16 mart.– S.9.

Parisdə "Natəvan" məktəbində Novruz bayramı qeyd edilib // Azərbaycan.– 2024.– 19 mart, № 61.– S.15.

İnternetdə:

https://azerbaijan.az/related-information/65

MART
21

Beynəlxalq Poeziya Günü
(1999)



1999-cu ildə YUNESKO-nun Parisdə keçirilən 30-cu sessiyasında martın 21-i "Beynəlxalq Poeziya Günü" elan edilmişdir. Bu günün qeyd olunmasında əsas məqsəd milli, regional və beynəlxalq səviyyədə poetik hərəkatlara yeni impuls vermək, dünya dillərinin zənginliyini təşviq etmək və yox olmaq təhlükəsi ilə üzləşən dilləri poeziya vasitəsilə qorumaq və yaşatmaqdır.

Poeziya bəşəriyyətin mənəvi dünyasının ayrılmaz tərkib hissəsidir. Ən qədim dövrlərdən başlayaraq poeziya insanın düşüncə və hisslərini ifadə etməyin bədii vasitəsi kimi formalaşmış, onun daxili aləminin tərcümanına çevrilmişdir. Bəşəri ədəbiyyatın ayrılmaz tərkib hissəsi olan Azərbaycan poeziyası da xalqımızın zəngin tarixi və mədəni irsini əks etdirən, dərin mənəvi köklərə malik bir sahədir.

Azərbaycan poeziyası, bütövlükdə, Yaxın və Orta Şərq, eləcə də dünya ədəbiyyatının inkişafına mühüm təsir göstərmişdir. Özünəməxsus poetik ənənələrə malik olan bu ədəbiyyat milli ruhun daşıyıcısı və ifadə vasitəsi kimi çıxış edir. Azərbaycan poeziya məktəbinin nümayəndələri sözün poetik imkanlarından yüksək peşəkarlıqla istifadə edərək ədəbi fikrin inkişafında mühüm rol oynamışlar.

Poeziyamızın ilkin qaynaqları xalqın şifahi ədəbiyyatı olmuşdur. Bayatılar, holavarlar, sayaçı sözləri, mövsüm-mərasim nəğmələri Azərbaycan poeziyasının formalaşmasında mühüm rol oynamışdır. Bu poetik nümunələr xalqımızın yaşam tərzini, dünyagörüşünü və mənəvi zənginliyini əks etdirən ilkin bədii təfəkkür formalarıdır.

Azərbaycan şifahi xalq ədəbiyyatı təkcə tarixi yaddaş deyil, həm də milli mədəniyyətin ruhundan doğan bir sərvətdir. Dünya xalqlarının folklor xəzinəsində özünəməxsus yer tutan bu ədəbiyyat zəngin bədii ifadə vasitələri ilə seçilir. Yazılı poeziyanın formalaşması ilə bu ədəbi ənənələr daha da inkişaf etmiş, xüsusilə orta əsrlərdən başlayaraq Azərbaycan poeziyası yüksəliş mərhələsinə qədəm qoymuşdur. Bu dövrdən etibarən insanın daxili aləminə, mənəvi-əxlaqi dəyərlərinə maraq daha da güclənmişdir.

Azərbaycan poeziyası klassik şairlərimizin yaradıcılığında yüksək bədii səviyyəyə çatmışdır. Həsənoğlu, Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi kimi dahilərin yaradıcılığı poeziyamıza dərin fəlsəfi və estetik məzmun qazandırmışdır. XIX əsrdə isə poeziyada müasirlik, realizm və maarifçilik meyilləri güclənmişdir. Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir kimi söz ustalarının əsərlərində xalq həyatının real obrazları və dövrün ictimai-siyasi problemləri poetik dillə əks etdirilmişdir.

Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən ədəbi məclislər – "Gülüstan", "Əncüməni-şüəra", "Fövcül-füsəha", "Beytüs-Səfa", "Məcməüş-şüəra", "Məclisi-üns", "Məclisi-fəramuşan" və digərləri poeziya mühitinin formalaşmasında və ədəbiyyatın inkişafında mühüm rol oynamışdır. Bu məclislər XX əsr Azərbaycan ədəbiyyatının formalaşması üçün zəngin ideya-bədii zəmin yaratmışdır.

XX əsr poeziyası M.Ə.Sabir, Hüseyn Cavid, M.Hadi, Əhməd Cavad, Səməd Vurğun, Mikayıl Müşfiq, Məhəmmədhüseyn Şəhriyar, M.Araz, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk kimi görkəmli ədiblərin yaradıcılığında yeni ideyalar, milli ruh və yüksək estetik dəyərlərlə zənginləşmişdir. Bu şairlər poeziyanın ideoloji və estetik funksiyasını genişləndirərək onu milli birlik və azərbaycançılıq məfkurəsinin ifadə vasitəsinə çevirmişlər.

Müasir dövrdə Azərbaycan dövlətinin və Heydər Əliyev Fondunun çoxşaxəli dəstəyi nəticəsində poeziya və ümumilikdə ədəbi yaradıcılıq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Şair və yazıçılarımızın əsərləri nəinki ölkə daxilində, həm də beynəlxalq səviyyədə yayımlanır və təbliğ olunur.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev poeziyanın təbliğinə xüsusi diqqət göstərmişdir. Onun təşəbbüsü ilə 1982-ci il yanvarın 14-də Şuşa şəhərində Molla Pənah Vaqifin məqbərəsi və Poeziya Evi təntənəli şəkildə açılmışdır. Həmin səfər çərçivəsində Ümummilli Lider "Vaqif Poeziya Günləri"nin keçirilməsi barədə göstəriş vermişdir. 1991-ci ilə qədər hər il keçirilən bu ədəbi bayram Qazaxdan başlayaraq Şuşanın əsrarəngiz Cıdır düzündə başa çatardı.

2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun qazandığı Zəfər sayəsində Şuşa şəhəri erməni işğalından azad edildi. Bununla da Vaqif Poeziya Günləri uzun fasilədən sonra yenidən öz doğma ünvanına – Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya qayıtdı.

Ədəbiyyat:

Vəliyev, V. Vaqif Poeziya Günləri şairin doğulduğu Qazax rayonundan başlayıb /Vəli Vəliyev // Respublika.-2025.- 16 iyul (№ 144).- S.7.

Nəcəfxanlı, Ə. Ruhun, sözün ölməz şeiriyyəti: Şuşada Vaqif Poeziya Günləri / Əli Nəcəfxanlı // Xalq qəzeti.-2025.- 24 iyul (№151).- S.10.

Ədəbi məclislər: Tarixdən gələn səslər // Azərbaycan. -2021.- 24 avqust.- S.7.

Əhmədova, S. Qarabağ ədəbi-mədəni mühiti: (XIX əsrin ikinci yarısı - XX əsrin əvvəlləri) / Səbinə Əhmədova; elmi red. Ə. Nəcəfzadə; elmi məsləhətçi T. Kərimli; ön söz. müəllifi Y. Babayev; AMEA M. Füzuli ad. Əlyazmalar İn-tu. - Bakı: [Ecoprint], 2020. - 218, [2] s.

İncə sənət, həyat, ovqat, təravətli söz / M.Nərimanoğlu // Azərbaycan.– 2021.– 20 mart.– S.9.

Festivallar şəhəri - musiqiylə açılır hər səhəri: Qələbə simvollu "Xarıbülbül" Cıdır düzünə qayıtdı, "Vaqif Poeziya Günləri" bərpa edildi / M.Nərimanoğlu // Azərbaycan– 2021.– 18 sentyabr.– S.5.

Beynəlxalq Teatr Günü
(1961)



Teatr sənətinin vətəni qədim Yunanıstan hesab olunur. Elə "teatr" sözü də yunan mənşəlidir və "tamaşa yeri" mənasını verir. Qədim Yunanıstanda teatrın təşəkkülü, əsasən, şərab tanrısı Dionisin şərəfinə keçirilən mərasim və bayramlarla bağlı olmuşdur. Həmin mərasimlər zamanı şəhər və kənd sakinləri küçələrdə kütləvi gəzintilər təşkil edir, Dionis haqqında əfsanələrdən səhnələr canlandırırdılar.

İlk teatr tamaşaları açıq havada, adətən təpənin yamacında təşkil olunurdu. Tamaşaçılar yamacda oturaraq səhnəni izləyirdilər. Təpənin ətəyində "skena" adlanan çadır qurulurdu; burada aktyorlar geyimlərini dəyişir, tamaşaya hazırlaşırdılar. Sonralar bu çadırın yerində kiçik binalar tikildi və bu binalarda dekorasiyalar qurulmağa başlandı. Aktyorlar və xor üçün səhnə – orchestra meydançası inşa olundu. Beləliklə, e.ə. V əsrdən etibarən Yunanıstanda ilk teatr binaları tikilməyə başladı. Qədim yunanlar teatrı yüksək qiymətləndirir və onu "böyüklər üçün məktəb" adlandırırdılar.

Beynəlxalq Teatr Günü 1961-ci ildə YUNESKO yanında fəaliyyət göstərən Beynəlxalq Teatr İnstitutunun Vyanada keçirilmiş IX konqresində qəbul edilmiş qərara əsasən təsis olunmuşdur. Ənənəyə görə, hər il bu gün münasibətilə tanınmış teatr xadimləri dünya ictimaiyyətinə müraciət ünvanlayırlar. Bu təşəbbüsün əsasını qoyan və ilk dəfə Beynəlxalq Teatr Günü münasibətilə müraciət edən şəxs fransız yazıçı və dramaturq Jan Kokto olmuşdur. Beynəlxalq Teatr İnstitutu bu ənənəni davam etdirərək hər il martın 27-də müxtəlif ölkələrdən seçilən bir teatr xadiminin müraciətini dünya ictimaiyyətinə təqdim edir.

Azərbaycan teatr sənəti qədim və zəngin bir tarixə malikdir. Xalq arasında yayılan mərasim oyunları, xalq dramları və şifahi ənənələr teatr sənətinin ilkin mərhələsini təşkil etmişdir. XIX əsrin ikinci yarısından başlayaraq ölkədə gedən ictimai-siyasi dəyişikliklər və maarifçilik hərəkatı milli teatrın inkişafına mühüm təkan vermişdir.

Bu dövrün ən əlamətdar hadisələrindən biri böyük maarifçi və dramaturq Mirzə Fətəli Axundzadə tərəfindən Azərbaycan ədəbiyyatına dram janrının gətirilməsi olmuşdur. Onun əsərləri xalq teatrının peşəkar teatr sənətinə keçidində əsaslı rol oynamışdır. 1873-cü ildə Həsən bəy Zərdabi və yazıçı Nəcəf bəy Vəzirovun təşəbbüsü ilə Bakıda M.F.Axundzadənin "Lənkəran xanının vəziri" və "Hacı Qara" komediyalarının səhnələşdirilməsi ilə Azərbaycanda, eləcə də bütün müsəlman Şərqində ilk dünyəvi, peşəkar teatrın əsası qoyulmuşdur.

Azərbaycan dövləti teatr sənətinin inkişafına daim xüsusi diqqət yetirmişdir. Teatr binalarının əsaslı təmiri, yaradıcı kollektivlərin sosial rifahının yaxşılaşdırılması istiqamətində atılan addımlar bu sahəyə göstərilən qayğının bariz nümunəsidir.

Prezident İlham Əliyevin 2009-cu il 18 may tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan teatrı 2009–2019-cu illərdə" Dövlət Proqramı bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Onillik dövrü əhatə edən bu proqram çərçivəsində Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı, Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Azərbaycan Dövlət Akademik Musiqili Teatrı, eləcə də Mingəçevir, Şuşa, İrəvan, Ağdam və Füzuli Dövlət Dram Teatrlarının binalarında yüksək səviyyədə təmir-bərpa və yenidənqurma işləri həyata keçirilmişdir.

Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev teatr sənətinə daim böyük önəm vermiş, onun inkişafı üçün hərtərəfli dəstək göstərmişdir. Ulu öndərin mədəniyyət siyasətinin nəticəsi olaraq Azərbaycan teatrı yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və teatr sənətinin tərəqqisinə xidmət edir.

Ədəbiyyat:

Teatr məbəd kimi" / E.Əliyev // Kaspi.– 2020.– 19 mart.– S.12.

"23:59 qatarı"nın premyerası: Ahıllar evi sakinlərinin iştirakı ilə // Mədəniyyət.– 2021.– 1 oktyabr.– S.5.

"Açıq qapı"dan görünənlər: 27 mart – Dünya Teatr Gününün xoşməramlı aksiyasından bol təəssürat / H.Nizamiqızı // Mədəniyyət.– 2022.– 30 mart.– S.1;5.

Beynəlxalq Teatr Günü qeyd edildi // 525-ci qəzet.– 2023.– 28 mart.– S.9.

75-in içində bir 55 də var… / G.Mirməmməd // Mədəniyyət.– 2024.– 19 mart(№21-22).– S.4.

Özbəkistan teatrında Azərbaycanın "Dostluq səhnələri" / Q.Kəngərli // Xalq qəzeti.– 2025.– 2 aprel (№ 62).– S.14.

İnternetdə:

https://azertag.az/xeber/martin_27_si_beynelxalq_teatr_gunudur-166532

MART
27

Elm Günü
(2018)



2018-ci il aprelin 9-da Prezident İlham Əliyev cəmiyyətin inkişafında elmin rolunu nəzərə alaraq Azərbaycanda "Elm günü"nün təsis edilməsi haqqında Sərəncam imzalamışdır. Bu tarixin seçilməsi təsadüfi deyil. Məhz həmin gün Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) yaradıldığı tarixə təsadüf edir və bu baxımdan simvolik və rəmzi məna daşıyır. AMEA-nın fəaliyyət istiqamətləri və keçdiyi inkişaf yolu ölkənin ictimai-siyasi həyatında, milli-mənəvi dəyərlərin qorunmasında, eləcə də dövlət müstəqilliyinin möhkəmləndirilməsində mühüm rol oynamışdır. 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının təsis edilməsi ilə ölkəmizdə elmin institusional əsasları qoyulmuş, elm xalqın tərəqqisinə xidmət edən mühüm ictimai institut kimi formalaşmışdır.

Akademiyanın fəaliyyəti təkcə elmi nailiyyətlərlə deyil, həm də milli-mənəvi dəyərlərin elmi əsaslarla inkişaf etdirilməsi, intellektual potensialın artırılması və maarifçilik ideyalarının yayılması baxımından xüsusi əhəmiyyət kəsb edir. XX əsrdə Azərbaycan elmi özünün mühüm inkişaf mərhələsini keçmişdir. Xüsusilə ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrlərdə elmin inkişafı dövlət siyasətinin mühüm istiqamətinə çevrilmişdir. Alimlərin fəaliyyəti yüksək qiymətləndirilmiş, elmi tədqiqat müəssisələrinin maddi-texniki bazası gücləndirilmişdir. Ulu Öndərin 2001-ci il 15 may tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına Azərbaycan Milli Elmlər Akademiyası statusu verilməsi elmin dövlət səviyyəsində nüfuzunun tanınması baxımından mühüm addım olmuşdur.

Müstəqillik illərində Azərbaycan elminin inkişafı istiqamətində ardıcıl islahatlar həyata keçirilmişdir. AMEA-nın strukturu, idarəetmə mexanizmi, elmi-təşkilati sistemi müasirləşdirilmiş, tədqiqatların koordinasiyası gücləndirilmişdir. Akademiyanın Rəyasət Heyəti bu gün elmi, innovativ və multidissiplinar məsələlərin peşəkar şəkildə müzakirə olunduğu intellektual mərkəzə çevrilmişdir. Eyni zamanda elmi fəaliyyətin hüquqi və institusional bazasının möhkəmləndirilməsi istiqamətində də vacib sənədlər qəbul olunmuşdur. 2009–2015-ci illəri əhatə edən "Elmin inkişafı üzrə Milli Strategiya", onun icrasına dair Dövlət Proqramı, 2016-cı ildə qəbul olunmuş "Elm haqqında" Qanun, "2019–2023-cü illər üçün ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" və digər strateji sənədlər elmin inkişafı üçün geniş imkanlar yaratmışdır.

Prezident İlham Əliyevin 2022-ci il 28 iyul tarixli "Elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanı, eləcə də həmin il oktyabrın 15-də imzalanmış sərəncamla yaradılmış "Azərbaycan Elm Fondu" elmin maliyyələşdirilməsi və idarəedilməsinin səmərəliliyinin artırılmasına yönəlib. Bu sənədlər Azərbaycan elminin dayanıqlı və innovativ inkişafını təmin edən hüquqi baza rolunu oynayır.

Hazırda ölkəmizdə elm sahəsində beynəlxalq əməkdaşlığa və dünya elmi sisteminə inteqrasiyaya xüsusi önəm verilir. Alimlərə, xüsusən gənc tədqiqatçılara beynəlxalq elmi layihələrdə iştirak etmək, xarici elmi mərkəzlərdə tədqiqat aparmaq və ixtisasartırma proqramlarında iştirak üçün geniş imkanlar yaradılır. Bununla yanaşı, elmi-texniki infrastrukturun müasirləşdirilməsi, tədqiqat institutlarının yenidən qurulması, onların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm işlər görülür.

Elmin təhsillə inteqrasiyası, yüksəkixtisaslı elmi kadrların hazırlanması da prioritet istiqamətlər sırasındadır. Doktorantura, dissertantura və magistratura səviyyələrində həyata keçirilən elmi kadr hazırlığı bu gün keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Elmi fəaliyyətin iqtisadiyyatla, sənaye ilə, texnologiya və innovasiya sektorları ilə əlaqələndirilməsi sahəsində də kompleks tədbirlər həyata keçirilir. Bütün bu addımlar sübut edir ki, elm Azərbaycanda cəmiyyətin intellektual inkişafının, iqtisadi və texnoloji tərəqqisinin əsas dayaqlarından biri kimi formalaşıb və dövlət siyasətinin əsas prioritetlərindən biri olaraq diqqət mərkəzində saxlanılır.

Ədəbiyyat:

Azərbaycan Respublikasında "Elm günü"nün təsis edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 9 aprel 2018-ci il // Azərbaycan.-2018.- 10 aprel.- S.2.

Həbibbəyli, İ. Elm günü münasibətilə / İsa Həbibbəyli // Elm.-2025.- 4 aprel(№12).- S.3.

Azərbaycanda elmi ədəbiyyatın nəşr tarixi: Azərbaycan Milli Elmlər Akademiyası-80 // Elm.– 2025.– 4 aprel(№12).– S.6.

Azərbaycanın elm məbədi: AMEA-nın 80 illiyi və Elm gününə həsr olunmuş konfrans: Azərbaycan Milli Elmlər Akademiyası-80 // Elm.-2025.- 4 aprel(№12).- S.6.


Kazımzadə, A. Beynəlxalq və milli səviyyədə qeyd edilən Elm Günü / AydınKazımzadə // 525-ci qəzet.-2024.- 28 mart, №53.- S.12.

Azərbaycan elminin günü... // Mədəniyyət.-2024.- 29 mart(№23-24).-S.3.

İnternetdə:

https://azertag.az/xeber/martin_27_si_azerbaycanda_elm_gunudur-2955763

Azərbaycanlıların soyqırımı günü *(1918)*



1918-ci il martın 30-dan aprelin 3-dək Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, həmçinin Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələri tərəfindən azərbaycanlılara qarşı kütləvi qətliamlar törədilmişdir. Bu qanlı hadisələr Azərbaycan xalqının tarixində dərin izlər buraxan, etnik və dini zəmində həyata keçirilmiş planlı soyqırımı aktları kimi qiymətləndirilməlidir.

Xüsusilə, 31 mart tarixində baş verən hadisələr öz miqyası və qəddarlığı ilə seçilmiş, soyqırımın ən dəhşətli mərhələsinə çevrilmişdir. Ermənilər bolşevik bayrağı altında, "əksinqilabçılara qarşı mübarizə" adı ilə azərbaycanlıları məqsədyönlü şəkildə qətlə yetirmiş, onların yaşadıqları əraziləri viran qoymuşlar. Şamaxıda 8 minədək dinc sakin öldürülmüş, Cümə məscidi də daxil olmaqla, bölgənin əsas mədəniyyət və dini abidələri yandırılmış, yerlə-yeksan edilmişdir. Cavanşir qəzasının 28, Cəbrayıl qəzasının isə 17 kəndi tamamilə məhv edilmişdir. Rəsmi mənbələrə görə, bu qırğınlar nəticəsində 12 minə yaxın azərbaycanlı həyatını itirmiş, on minlərlə insan itkin düşmüşdür.

Bakıda törədilən qətliamlar zamanı xalqın dini-mədəni kimliyinə qarşı hücumlar xüsusilə diqqət çəkir. Tarixi abidələr, ziyarətgahlar, o cümlədən İsmailiyyə binası top atəşinə tutulmuş, Təzəpir və Cümə məscidlərinin minarələri ciddi zərər görmüşdür. Karvansara kimi yerlərdə azərbaycanlıların kütləvi şəkildə qətlə yetirilərək yandırılması erməni daşnaklarının vəhşiliyini əyani şəkildə ortaya qoyur.

Soyqırım hadisələri təkcə Bakı ilə məhdudlaşmamış, Azərbaycanın müxtəlif bölgələrini əhatə etmişdir. Qubada aşkarlanmış kütləvi insan qalıqları 1918-ci ildə burada baş vermiş dəhşətli qırğınların sübutudur. Bu faktlar əsasında Quba Soyqırımı Memorial Kompleksi yaradılmış və xalqımıza qarşı törədilmiş qətliamların unudulmaması, gələcək nəsillərə çatdırılması məqsədilə fəaliyyət göstərməyə başlamışdır. Eyni zamanda Azərbaycan Hərbi Prokurorluğunun nəzdində fəaliyyət göstərən Memorial Soyqırımı Muzeyi erməni vandalizmini sənədlərlə dünya ictimaiyyətinə çatdıran vacib mərkəzlərdən biridir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə – 1919 və 1920-ci illərdə martın 31-i ümummilli matəm günü kimi qeyd edilmişdir. Lakin bu tarixi faciə Sovet hakimiyyəti illərində illərlə gizlədilmiş, xalqın yaddaşından silinməyə çalışılmışdır. Yalnız Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu qətliamlara hüquqi-siyasi qiymət verilməsi mümkün olmuşdur. Ümummilli lider Heydər Əliyevin 26 mart 1998-ci il tarixli "Azərbaycanlıların soyqırımı haqqında" fərmanı ilə bu hadisələrə rəsmi status verilmiş, 31 mart tarixi "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir.

31 Mart – Azərbaycanlıların Soyqırımı Günü bu gün ölkəmizdə dövlət səviyyəsində anılır, faciə qurbanlarının əziz xatirəsi ehtiramla yad edilir. Bu gün təkcə tarixi yaddaşın qorunması baxımından deyil, həm də beynəlxalq ictimaiyyətə ünvanlanan mühüm bir çağırış kimi əhəmiyyət daşıyır. Hələ də 1918-ci il soyqırımı beynəlxalq hüquqi müstəvidə lazımi qiymətini almamışdır. Məhz buna görə də Azərbaycanın qarşısında dayanan əsas vəzifələrdən biri – bu tarixi cinayətlərin dünya ictimaiyyətinə obyektiv şəkildə çatdırılması, erməni millətçiləri tərəfindən həyata keçirilmiş soyqırımı aktlarının beynəlxalq səviyyədə tanıdılmasıdır.

Ədəbiyyat:

Əliyeva, S. 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Bəyanatı / Səbinə Əliyeva // Respublika.-2025.- 2 aprel (№62).- S.16.

Fərəcova, Z. Tariximizin qanlı səhifəsi - 31 Mart Azərbaycanlıların Soyqırımı Günü [Mətn] / Zöhrə Fərəcova // Azərbaycan.-2025.- 20 mart (№61).- S.14.

Quliyev, E. Azərbaycanlılara qarşı qanlı faciə - 31 mart soyqırımı / Elxan Quliyev // 525-ci qəzet.-2025. -19 mart(№51).- S.8.

Müharibə və soyqırımı cinayətləri beynəlxalq hüquq kontekstində // Mədəniyyət.– 2021.– 31 mart.– S.2.

31 mart - Tarixin amansız soyqırımlarından biri: On minlərlə azərbaycanlı məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib / Alim // Olaylar.– 2024.– 29 mart - 4 aprel, №11.– S.9.

İnternetdə:

https://azertag.az/xeber/ermeni_sovinistleri_yuzil-ler_boyu_azerbaycanl

APREL

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
		1	2	3	4	5
6	7	8	9	10	11	12
13	14	15	16	17	18	19
20	21	22	23	24	25	26
27	28	29	30			

21 mart - 20 aprel Qoç bürcünün nişanəsi oddur. Marsın himayəsindədir. Günəşin Qoç bürcündən keçdiyi dövrdə doğulanlar qüvvətli və çevik olurlar.

- *Aprel döyüşləri və ya Dördgünlük müharibə (02-05.04.2016)*
- *Bakıda Hərbi Qənimətlər Parkı açılmışdır (12.04.2021)*
- *Beynəlxalq Ekoloji Bilik Günü (15.04.1992)*
- *Beynəlxalq kitab və müəllif hüquqları günü (23.04.1996)*

Şəhərsalma və Memarlıq İli



Dünya şöhrətli memar, alim, pedaqoq, akademik Mikayıl Hüseynovun Azərbaycan memarlığının inkişaf tapmasında böyük xidmətləri olub. Onun layihələri əsasında Bakıda, Gəncədə, Naxçıvanda, Şəkidə, eləcə də Düşənbədə, Moskvada və s. şəhərlərdə mədəni-məişət binaları tikilmişdir. Şərq və Qərb memarlıq məktəbinin sintezindan yararlanan Mikayıl Hüseynov əzəmətli yaşayış və ictimai binaların lahiyələrini hazırlayıb. Bakıdakı "Alimlər evi" (1946), Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (1937-1939), Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi"nin (1946), Nizami kino mərkəzi (1937-1939), Azərbaycan Politexnik İnstitutu (1931-1933), Bakı Soveti işçiləri üçün yaşayış (hazırda Respublika Nazirlər Kabineti binası, 1938-1941), M.F. Axundov adına Azərbaycan Milli kitabxanası (1960), Azərb. SSR EA şəhərciyi kompleksi (1951-1966), Bakı Metropoliteninin "Nərimanov" (1967), "Nizami" (1976) və "Elmlər Akademiyası" (1985) stansiyaları; "Moskva" (1978) və "Abşeron" (1985) mehmanxanalarının binaları Mikayıl Hüseynovun layihələri əsasında inşa olunmuşdur.

APREL 2026



Milli ədəbiyyat

Şair, ictimai xadim, tərcüməçi Əlibəyli Ənvər Əliverdi oğlunun (01.04.1916-07.05.1968) anadan olmasının 110 illiyi 304
Şair, bəstəkar, publisist, tərcüməçi Qarayeva Xanım İsmayıl qızının (Xanım İsmayılqızı) (10.04.1956) anadan olmasının 70 illiyi 305
Şair, tərcüməçi, publisist Fərəcov Azad İlyas oğlunun (Azad Yaşar) (10.04.1961) anadan olmasının 65 illiyi 306



Dünya ədəbiyyatı

Türk yazıçısı, şair Mehmet Rüfət İlqazın (24.04.(07.05) 1911-07.07.1993) anadan olmasının 115 illiyi 307
Tatar xalq şairi, publisist, ədəbi tənqidçi Tukay Abdulla Məhəmmədarif oğlunun (26.04.1886-15.04.1913) anadan olmasının 140 illiyi 308



Rəssamlıq. Heykəltəraşlıq

Xalq rəssamı, boyakar Hacıyev Altay Əmir oğlunun (02.04.1931-12.02.2019) anadan olmasının 95 illiyi 309
Əməkdar memar, dövlət xadimi, İsmayılov Ənvər Ələkbər oğlunun (10.04.1916-25.04 1988) anadan olmasının 110 illiyi 310
Xalq rəssamı, heykəltəraş və rəngkar İbadullayev Əli Əziz oğlunun (11.04.1951) anadan olmasının 75 illiyi 311
Əməkdar rəssam Şıxəliyev Adil Həmdulla oğlunun (12.04.1946) anadan olmasının 80 illiyi 312
Əməkdar memar Babakişiyev Rasim Calal oğlunun (15.04.1956) anadan olmasının 70 illiyi 313
Əməkdar memar, professoru Axundov Cahangir Rifaətoviçin (15.04.1956) anadan olmasının 70 illiyi 314
Xalq rəssamı Əliyev Hüseyn Əlirza oğlunun (22.04.1911-25.05.1991) anadan olmasının 115 illiyi 314
Əməkdar incəsənət xadimi, teatr rəssamı Abbasov Əsgər Məmmədismayıl oğlunun (28.04.1916-09.02.1970) anadan olmasının 110 illiyi 315



Musiqi. Opera. Balet

Əməkdar incəsənət xadimi, pedaqoji elmlər doktoru, professor, bəstəkar Rəcəbov Oqtay Məmmədağa oğlunun (05.04.1941-15.12.2022) anadan olmasının 85 illiyi 316
Xalq artisti, qoşanağara ustası Zərbəliyev Sadıq Sirac oğlunun (11.04.1951) anadan olmasının 75 illiyi 317
Əməkdar incəsənət xadimi, bəstəkar Hüseynli Qəmbər Muxtar oğlunun (16.04.1916-01.08.1961) anadan olmasının 110 illiyi 318

Xalq artisti, dosent, xanəndə Məmmədova Zümrüd Mövlud qızının (18.04.1956) anadan olmasının 70 iliyi 319
Əməkdar incəsənət xadimi, ilk azərbaycanlı musiqişünas qadın Ağayeva Xurşid Həsən bəy qızının (20.04.1906-03.12.1953) anadan olmasının 120 illiyi 320
Əməkdar artist, tarzən Hüseynov Əlikram Həsən oğlunun (20.04.1926-18.08.2006) anadan olmasının 100 illiyi 320
Xalq artisti, pianoçu Mahmudova Tamilla Zahid qızının (21.04.1931-03.09.2014) anadan olmasının 95 illiyi
Əməkdar artist, kamança ifaçısı Vəzirov Ədalət Səfərəli oğlunun (27.04.1951-05.10.2002) anadan olmasının 75 illiyi 321
Əməkdar incəsənət xadimi, bəstəkar Hüseynzadə Ədilə Hacağa qızının (29.04.1916-20.07.2005) anadan olmasının 110 illiyi 322
Xalq artisti, qarmon ifaçısı Sadıqov Ənvər Hidayət oğlunun (30.04.1966) anadan olmasının 60 illiyi 323



Teatr. Kino.

Aktyor, rejissor Mirzəyev Ceyhun Cəmil oğlunun (09.04.1946-05.03.1993) anadan olmasının 80 illiyi 324
Əməkdar artist, teatr və kino aktyoru Rüstəmov Nazir Mürsəl oğlunun (12.04.1956) anadan olmasının 70 illiyi 325
Xalq artisti, rejissor Mirzəyev Ramiz Həsənağa oğlunun (Ramiz Həsənoğlu) (13.04.1946) anadan olmasının 80 illiyi 326
Xalq artisti, aktrisa Zeynalova Nəsibə Cahangir qızının (20.04.1916-10.03.2004) anadan olmasının 110 illiyi 327
Xalq artisti, aktyor Musayeva Şükufə İmran qızının (23.04.1966) anadan olmasının 60 illiyi 328
Xalq artisti, aktrisa, müğənni Əsədova Məleykə Əlifağa qızının (23.04.1966) anadan olmasının 60 illiyi 329
Əməkdar artist, aktyor Cəlilov Məzahir Həmdulla oğlunun (23.04.1946) anadan olmasının 80 illiyi 330
Əməkdar artist, aktyor İsmayıl Salam Xeyrulla oğlunun (Salam İsmayıl) (23.04.1951) anadan olmasının 75 illiyi 330
Əməkdar artist, aktyor Hüseynov Rafiq Mirzəcan oğlunun (24.04.1941-19.08.2018) anadan olmasının 85 illiyi
Əməkdar mədəniyyət işçisi, aktyor Qasımov Əli Teymur oğlunun (26.04.1956) anadan olmasının 70 illiyi 331
Əməkdar artist, aktrisa Nəsirova Ulduzə Sülüyman qızının (27.04.1956) anadan olmasının 70 illiyi 332
Əməkdar artist, aktyor Muradov Xanlar Yunus oğlunun (30.04.1946-05.02.2005) anadan olmasının 80 illiyi 333

APREL 2026



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Hacıyev Etibar Firudin oğlunun (05.02.1971-15.06.1992) anadan olmasının 55 illiyi 334
Azərbaycanın Milli Qəhrəmanı Edilov Yelmar Şahmar oğlunun (10.04.1946-11.04.1994) anadan olmasının 80 illiyi 335
Azərbaycanın Milli Qəhrəmanı Bağırov Allahverdi Teymur oğlunun (22.04.1946-12.06.1992) anadan olmasının 80 illiyi 336



İkinci Qarabağ Müharibəsi Şəhidləri

MAHHXHQ əsgər İsmayılov Ruslan Eyvaz oğlunun (01.04.1986-27.09.2020) anadan olmasının 40 illiyi 337
Əsgər Hüseynov Sənan Vidadi oğlunun (01.04.1996 – 07.11.2020) anadan olmasının 30 illiyi 337
MAHHXHQ əsgər Mehtizadə Rüfət İsrayıl oğluunun (01.04.1996-29.09.2020) anadan olmasının 30 illiyi 338
Əsgər Baxışov Cahangir Əmrah oğlunun (01.04.2001-09.10.2020) anadan olmasının 25 illiyi 338
Əsgər Səlimov Sənan Nasif oğlunun (01.04.2001-14.10.2020) anadan olmasının 25 illiyi 339
MAHHXHQ kiçik çavuş Bağırov Eşqin Rafiq oğlunun (01.04.1991-27.09.2020) anadan olmasının 35 illiyi 339
Əsgər Kürəbəyov Mayıl Kamran oğlunun (02.04.2001-02.10.2020) anadan olmasının 25 illiyi 340
Əsgər Hüseynov Cavid Natiq oğlunun (03.04.2001-31.10.2020) anadan olmasının 25 illiyi 340
Əsgər Babayev Samsun Şəmsəddin oğlunun (03.04.2001-06.10.2020) anadan olmasının 25 illiyi 341
Əsgər Əhmədov Asif Vasif oğlunun (04.04.2001-21.10.2020) anadan olmasının 25 illiyi 341
Əsgər Ağayev Ağa Əli oğlunun (04.04.2001-22.10.2020) anadan olmasının 25 illiyi 342
MAHHXHQ əsgər Allahverdiyev Turxan Rəsul oğlunun (05.04.1996-12.11.2020) anadan olmasının 30 illiyi 342
Mayor Məlikov Aqil Niyaz oğlunun (06.04.1986-27.09.2020) anadan olmasının 40 illiyi 343
Əsgər Xələfli Mahir Muxtar oğlunun (08.04.2001-27.09.2020) anadan olmasının 25 illiyi 344
Əsgər Əsgərov Taqi Nizami oğlunun (09.04.2001-08.11.2020) anadan olmasının 25 illiyi 344

Kapitan Şirinov Kamil Əliş oğlunun (09.04.1991-29.09.2020) anadan olmasının 35 illiyi 345
Əsgər Süleymanov Əyyub Rasim oğlunun (09.04.2001-01.11.2020) anadan olmasının 25 illiyi 346
Əsgər İbrahimli Məhərrəm Şərif oğlunun (09.04.2001-05.10.2020) anadan olmasının 25 illiyi 346
Əsgər Cəlilov Tural Callad oğlunun (10.04.1996-06.10.2020) anadan olmasının 30 illiyi 347
Əsgər Qasımzadə Ümüd İlqar oğlunun (13.04.2001-13.10.2020) anadan olmasının 25 illiyi 347
Kiçik çavuş Vəliyev Elmir Məmmədqulu oğlunun (13.04.1986-27.10.2020) anadan olmasının 40 illiyi 348
Əsgər Həsənov Hüseyn Vahib oğlunun (13.04.2001-27.09.2020) anadan olmasının 25 illiyi 348
Əsgər Məhərrəmov Əli Kamil oğlunun (15.04.2001-27.09.2020) anadan olmasının 25 illiyi 349
MAHHXHQ çavuş Əsgərov Şəhriyar İsa oğlunun (17.04.1991-18.11.2020) anadan olmasının 35 illiyi 349
Kapitan Əliyev Rəşad Əmiralı oğlunun (17.04.1991-05.10.2020) anadan olmasının 35 illiyi 350
Əsgər Babayev Orxan Sarvan oğlunun (17.04.2001-09.11.2020) anadan olmasının 25 illiyi 351
Əsgər Hüseynli Zahir Mahir oğlunun (17.04.2001-15.10.2020) anadan olmasının 25 illiyi 352
Əsgər Rzaxanov Nihad Natiq oğlunun (18.04.2001-06.10.2020) anadan olmasının 25 illiyi 352
Polkovnik-leytenant İbrahimov Xeyrulla Mais oğlunun (19.04.1971-26.10.2020) anadan olmasının 55 illiyi 353
MAHHXHQ əsgər Əhmədov Tacir Mehdi oğlunun (20.04.2001-20.10.2020) anadan olmasının 25 illiyi 354
Əsgər Allahverdiyev Nazir Xasay oğlunun (20.04.2001-24.10.2020) anadan olmasının 25 illiyi 354
Əsgər Allahverdiyev Tacir Xasay oğluun (20.04.2001-2020) anadan olmasının 25 illiyi 355
Əsgər Həsənov Tacir Elşən oğlunun (21.04.2001-14.10.2020) anadan olmasının 25 illiyi 355
MAHHXHQ əsgər Hüseynov Sərhəd Fərhad oğlunun (21.04.1996-29.09.2020) anadan olmasının 30 illiyi 356
Əsgər Bəndəliyev Əliəkbər Qulu oğlunun (23.04.2001-10.10.2020) anadan olmasının 25 illiyi 356
Kiçik gizir İbrahimov Sultan Mikayıl oğlunun (24.04.1996-21.10.2020) anadan olmasının 30 illiyi 357

Əsgər Mədinov Rəşid Nəzər oğlunun (24.04.1996-14.10.2020) anadan olmasının 30 illiyi 357
Əsgər Cəfərov Yusif Mübariz oğlunun (25.04.1996-04.11.2020) anadan olmasının 30 illiyi 358
Əsgər Daşdəmirov Elfak Eltun oğlunun (26.04.1996-26.10.2020) anadan olmasının 30 illiyi 358
Əsgər Sultanov Hüseyn Fərhad oğlunun (26.04.1996-21.10.2020) anadan olmasının 30 illiyi 359
Əsgər Cəlilov Elcan Famil oğlunun (27.04.1996-07.11.2020) anadan olmasının 30 illiyi 359
Kiçik çavuş Qarayev Tural Şahin oğlunun (29.04.1991-02.10.2020) anadan olmasının 35 illiyi 360
Əsgər Salmanov Azər Vəfadar oğlunun (29.04.1991-30.10.2020) anadan olmasının 35 illiyi 360
Əsgər Sadıqov Vüqar İlqar oğlunun (30.04.2001-13.10.2020) anadan olmasının 25 illiyi 361
Əsgər Cuvarov Tural Zahid oğlunun (30.04.1996-26.10.2020) anadan olmasının 30 illiyi 361



Siyasət. Hərbi iş

Siyasi xadim Nurullayev Razi Qulaməli oğlunun (01.04.1971) anadan olmasının 55 illiyi
Teymurilər imperiyasının banisi, sərkərdə Əmir Teymurun (Teymur ibn Tarağay Barlas) (09.04.1336-18.02.1405) anadan olmasının 690 illiyi
Siyasi xadim, siyasi elmlər doktoru, professor Məmmədov Hikmət Baba oğlunun (17.04.1966) anadan olmasının 60 illiyi 362



İqtisadiyyat. Fəlsəfə

AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor, İspaniya Kral Akademiyasının akademiki İmanov Qorxmaz Cahangir oğlunun (17.04.1941) anadan olmasının 85 illiyi 363



Mədəniyyət. Maarif. Təhsil

AMEA-nın müxbir üzvü, teatrşünas Kərimov İnqilab Saleh oğlunun (04.04.1931-22.07.2011) anadan olmasının 95 illiyi 364
Filologiya üzrə fəlsəfə doktoru, şair Rzayev Yaşar Hüccətulla oğlunun (07.04.1941) anadan olmasının 85 illiyi
Əməkdar incəsənət xadimi, teatrşünas, sənətşünaslıq doktoru, professor Hüseynov Rahib Abuzər oğlunun (09.04.1931-05.05.1994) anadan olmasının 95 illiyi
Əməkdar mədəniyyət işçisi, incəsənət üzrə fəlsəfə doktoru Kaşanlı

Rafiq Rizvan oğlunun (10.04.1941) anadan olmasının 85 illiyi
Filologiya elmləri doktoru, professor, dilçi alim Tağıyev Məmməd Tağı oğlunun (28.04.1921-28.09.1994) anadan olmasının 105 illiyi
Əməkdar elm xadimi, pedaqogika üzrə elmlər doktoru, professor Kazımov Nurəddin Mustafa oğlunun (28.04.1926-06.12.2018) anadan olmasının 100 illiyi 365




Coğrafiya.Geologiya

AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, iqlimşünas alim, coğrafiya elmləri doktoru, professor Ənvər Mamay Şıxlinski (03.04.1911-1992) anadan olmasının 115 illiyi
Akademik, geoloq-alim, geologiya-mineralogiya elmləri doktoru, professor Əlizadə Ələşrəf Əbdülhüseyn oğlunun (24.04.1911-23.03.1985) anadan olmasının 115 illiyi 366
AMEA-nın müxbir üzvü, geologiya-mineralogiya elmləri doktoru Babazadə Baba Qurbanqulu oğlunun (25.04.1911-18.08.1962) anadan olmasının 115 illiyi
Akademik, geologiya-mineralogiya elmləri doktoru, professor Şıxəlibəyli Ədhəm Şahlarbəy oğlunun (30.04.1911-1996) anadan olmasının 115 illiyi 367



Riyaziyyat. Fizika.Astronomiya

Seysmoloq, fizika-riyaziyyat elmləri namizədi Rəhimov Şamo Süleyman oğlunun (02.04.1931-24.07.1964) anadan olmasının 95 illiyi
Fizika-riyaziyyat elmləri doktoru, professor Abaszadə Abasqulu Ağabala oğlunun (10.04.1906-18.02.1969) anadan olmasının 120 illiyib 368
Əməkdar elm xadimi, professor Mirzəyev Bəhram Rüstəm bəy oğlunun (16.04.1891-1974) anadan olmasının 135 illiyi
Fizika-riyaziyyat elmləri doktoru, professor Abdullayev Aydın Həsən oğlunun (25.04.1951-26.07.2005) anadan olmasının 75 illiyi



Kimya.Biologiya.Tibb

Seleksiyaçı alim, Dövlət mükafatı laureatı Vəlizadə İsgəndər Mahmud oğlunun (15.04.1896-11.05.1974) anadan olmasının 130 illiyi



Texnika. Mühəndis işi

Akademik, texnika elmləri doktoru, professor Nağıyev Vaqif Mirəsgər oğlunun (20.04.1941-03.12.1992) anadan olmasının 85 illiyi
Texnika üzrə elmlər doktoru, professor Əbilov Abdülrza Hacıbala oğlunun (23.04.1931-20.05. 2009) anadan olmasının 95 illiyi

APREL 2026



Kitabxanaşünaslıq. Biblioqrafiya

Əməkdar elm xadimi, pedaqoji elmlər doktoru Xavkina Lyubov Borisovnanın (12/24.04.1871-02.06.1949) anadan olmasının 155 illiyi
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, kitabxanaşünas, pedaqoq Əhmədov Elçin Yusif oğlunun (15.04.1961) anadan olmasının 65 illiyi 369
Əməkdar mədəniyyət işçisi Quliyeva Fizurə Müseyib qızının (26.04.1941-07.11.2023) anadan olmasının 85 illiyi 370



İdman

Əməkdar idman ustası, güləşçi Dadaşov İbrahimpaşa Hüseyn oğlunun (10.04.1926-16.07.1990) anadan olmasının 100 illiyi 370
Dünya və Avropa çempionu, Əməkdar idman ustası, Əməkdar bədən tərbiyəsi və idman xadimi Bəşirov Yaşar Eyyub oğlunun (19.04.1956) andan olmasının 70 illiyi



Digər tarixi hadisələr

Ümumdünya Gülüş Günü (01.04.1564)
Beynəlxalq Quşlar Günü (01.04.1906)
Beynəlxalq Uşaq Kitabı günü (02.04.1967)
Dünya Autizm Məlumatlandırma Günü (02.04.2007)
Aprel döyüşləri və ya Dördgünlük müharibədə qazanılmış qələbənin (02-05.04.2016) 10 illiyi 371
ABŞ Dövlət Departamenti Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini rəsmən bəyan edib (03.04.2001)
“Molla Nəsrəddin” jurnalının nəşr olunmasının (07.04.1906) 120 illiyi 372
Ümumdünya Sağlamlıq Günü (07.04.1950)
Kəlbəcər rayonunun Ağdaban kəndində erməni separatçıları tərəfindən soyqırım törədilmişdir (08.04.1992)
Bakı Uşaq Teatrı yaradılmışdır (09.04.2001)
İnşaatçılar Günü (10.04.2009)
Bakıda Hərbi Qənimətlər Parkı açılmışdır (12.04.2021)
Ümumdünya Aviasiya və Kosmonavtika Günü (12.04.1962)
Beynəlxalq Ekoloji Bilik Günü (15.04.1992)
Dünya İncəsənət Günü (15.04.2019)
“Dəbistan” həftəlik uşaq jurnalının (16.04.1906-03.1908) nəşrə başlamasının 120 illiyi 373
Ümumdünya Səs Günü (16.04.2002)
Ümumdünya Hemofiliya Günü (17.04.1989)
Tarixi Abidələrin Mühafizəsi Günü (18.04.1983) 374
Parklara Yürüş Günü (19-24.04.1995)

APREL

2026

"Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında sərəncam imzalanmışdır (19.04.2021)
Ümumdünya Yer Günü (22.04.1970)
Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü (23.04.1996)
Ukraynanın Çernobl şəhərində AESdə baş vermiş qəzanın (26.04.1986) 40-cı ildönümü
Beynəlxalq Əqli Mülkiyyət Günü (26.04.2000)
Ümumdünya Əməyin Mühafizəsi Günü (28.04.2003)
Beynəlxalq Rəqs Günü (29.04.1982)
Beynəlxalq Caz Günü (30.04.2012) 375

Ənvər Əlibəyli – 110

(1916-1968)

Şair, tərcüməçi



Ənvər Əliverdi oğlu Əlibəyli 1916-cı il aprelin 1-də Bakı şəhərində anadan olmuşdur. O, əvvəlcə Tibb Texnikumunda, sonra Azərbaycan Dövlət Universitetinin Fəhlə fakültəsində, daha sonra isə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsində təhsil almışdır.

1939-cu ildən İkinci Dünya müharibəsi başlayana qədər Azərbaycan radiosunda çalışmışdır. Daha sonra Tiflisdə Topçular Hərbi Məktəbini bitirərək leytenant rütbəsi ilə könüllü şəkildə cəbhəyə yollanmışdır. Müharibənin ilk günlərindən ordu sıralarında olan Ənvər Əlibəyli artilleriya batareyasının komandiri kimi xidmət etmiş, 416-cı Taqanroq atıcı diviziyasının tərkibində ağır döyüş yolu keçmişdir. Qafqazın və Ukraynanın azad olunmasında fəal iştirak etmiş, 1944-cü ildə ağır yaralanmışdır.

Müharibədən sonra yazıçı və jurnalist kimi fəaliyyətini davam etdirən Ənvər Əlibəyli bir müddət "Vətən uğrunda" jurnalında məsul katib, Azərbaycan KP MK-da isə təlimatçı vəzifəsində çalışmışdır. 1940-cı illərin sonlarında "İnqilab və mədəniyyət" və "Təbliğatçı" jurnallarının məsul katibi olmuş, 1948–1952-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının orqanı olan "Ədəbiyyat qəzeti"nin redaktoru vəzifəsini icra etmişdir.

1965-ci ildən ömrünün sonunadək Dövlət Radio və Televiziya Verilişləri Komitəsinin sədri kimi çalışmışdır. O, həmçinin SSRİ Ali Sovetinin VII çağırış deputatı olmuşdur. 1939-cu ildən Sovet Yazıçılar İttifaqının üzvü idi.

Ənvər Əlibəylinin şeir və poemaları rus dilinə, eləcə də keçmiş SSRİ xalqlarının dillərinə tərcümə olunmuşdur. Onun ilk şeirlər kitabı – "Qaranquş" 1947-ci ildə işıq üzü görmüşdür. Daha sonrakı illərdə "Sənin adınla", "İlk məhəbbət", "Dostluq körpüsü", "Mingəçevir şeirləri", "Dalğalar arasında", "Elə xoşbəxtəm ki!", "Nəğmələr", "Bir kitab şeir", "Ürəyimdəsən" adlı kitabları nəşr olunmuşdur. 1964-cü ildə onun "Ədəbiyyat" adlı novella-pyesi çap olunmuş, 1975-ci ildə isə "Seçilmiş əsərləri" dərc edilmişdir. 1958-ci ildə rus dilində nəşr olunmuş "За островом Артёма" kitabında müəllifin seçmə şeirləri toplanmışdır. O, həmçinin Puşkin və Nekrasovdan tərcümələr etmişdir.

Ənvər Əlibəyli bir sıra poemaların da müəllifidir. "Samur dastanı" poeması Samur çayının suyunu çəkən inşaatçıların əməyinə həsr olunmuş, lirizm və eposun uğurlu vəhdəti ilə seçilmişdir. "Bacı", "Gözlər, ürəklər, əməllər" poemaları İkinci Dünya müharibəsi illərini, "Dalğalar arasında" poeması dəniz neftçilərinin qəhrəmanlığını, "Polad" və "Dostluq körpüsü" poemaları isə yaxın keçmişin hadisələrini əks etdirir.

Uşaq ədəbiyyatında da Ənvər Əlibəylinin öz yeri var. "Qurd nağılı", "İlan və qurbağa", "Balaca bağbanlar" adlı şeir və təmsilləri indi də məktəb dərsliklərində yer almaqdadır.

Ənvər Əlibəylinin bir sıra şeirlərinə musiqi bəstələnib. Onun "Azərbaycan" şeirinə bəstəkar Rauf Hacıyevin bəstələdiyi mahnı isə dillər əzbəridir. Mahnı görkəmli müğənni, Xalq artisti Rəşid Behbudovun ifasında bir çox ölkələrdə səslənib.

Ənvər Əliverdi oğlu Əlibəyli 1968-ci il mayın 7-də Bakıda vəfat etmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

2016-cı ildə Milli Kitabxanada şair və tərcüməçi Ənvər Əlibəylinin anadan olmasının 100 illiyi münasibətilə sərgi təşkil olunmuşdur. "Ənvər Əlibəyli – 100" adlı kitab sərgisində şairin əsərləri, onun sözlərinə bəstələnmiş mahnıların notları, həmçinin dövri mətbuatda dərc edilmiş materiallar nümayiş etdirilir.

Ədəbiyyat:

Hüseynov, R. Dünya kimə qalacaq? / R.Hüseynov // 525-ci qəzet.– 2024.– 20 yanvar, №11.– S.16;17.

Hüseynov, R. Məşhur nəğmənin oxunmayan üçüncü bəndi / R.Hüseynov // 525-ci qəzet.– 2024.– 17 yanvar, №8.– S.10-11.

O oğlana gül aparmış o qızın etibarı / R.Hüseynov // 525-ci qəzet.– 2024.– 13 yanvar,№6.– S.14-15.

Hüseynov, R. Tarixin poeziyası, poeziyanın tarixi: Qələbə-75 / R. Hüseynov // Azərbaycan ordusu.– 2020.– 6 may.– S.8.

Məktəblinin mahnı kitabı: [məcmuə] / [Azərb. Resp. Təhsil Nazirliyi]; layihənin ideya müəl. və rəhb. A. Səmədzadə; red.: E. Abdullayeva, M. Babayeva; əsərləri səs və fortepiano üçün işləyən F. Məmmədli; Art-dizayn O. Oruclu.– [Bakı]: Kitab çapı, [2021].– 353, [1] s.

İnternetdə6

https://oxu.az/medeniyyet/enver-elibeylinin-100-illik-yubileyi-munasibetile-xatire-gecesi-teskil-edilecek?utm_source=chatgpt.com

Xanım İsmayılqızı – 70

(1956)

Şair, bəstəkar



Xanım İsmayıl qızı Qarayeva (Xanım İsmayılqızı) 1956-cı il aprelin 10-da Bakı şəhərində anadan olmuşdur. 1979-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsini bitirmişdir.

Əmək fəaliyyətinə 1972-ci ildə "Gənclik" Nəşriyyatında başlamış, burada korrektor, kiçik redaktor və mühəndis-texnoloq vəzifələrində çalışmışdır (1972–1984). Bir müddət Efiopiyada yaşadığı üçün nəşriyyat işindən ayrılmış, Azərbaycana qayıtdıqdan sonra bu sahədə fəaliyyətini davam etdirmişdir. 1987–1989-cu illərdə ADU-nun nəşriyyatında şöbə müdiri, 1989–1995-ci illərdə Azərbaycan Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzində şöbə müdiri və sədr müavini, 1995–1998-ci illərdə isə "Bilik" Maarifçilik Cəmiyyətinin "Bayatı" Sifariş Ədəbiyyatı Mərkəzində direktor müavini və direktor olmuşdur. 2014–2016-cı illərdə Nazirlər Kabineti yanında Tərcümə Mərkəzində Nəşriyyat şöbəsinin müdiri işləmiş, daha sonra Azərbaycan Dövlət Tərcümə Mərkəzinin Nəşriyyat şöbəsinə rəhbərlik etmişdir.

Xanım İsmayılqızı gənc yaşlarından bədii yaradıcılıqla məşğul olmuşdur. Onun ilk şeiri 1991-ci ildə "Yol" qəzetində dərc edilmişdir. Poeziya ilə yanaşı publisistika və tərcümə sahəsində də qələmini sınamışdır. 1979-cu ildən jurnalist kimi fəaliyyət göstərmiş, dövri mətbuatda məqalə, oçerk və esseləri dərc olunmuşdur. 1992–1993-cü illərdə AzTV və ilk müstəqil telekanal olan BMTİ-də "Dünyam qəfil işıqlansa" adlı müəllif verilişi ilə çıxış etmişdir. Onun ilk publisistik kitabı "Kimlər keçir bu dünyadan" 1996-cı ildə nəşr olunmuşdur. Vasili Şukşinin "İlan zəhəri" adlı hekayələr toplusunu və "İssumbosi" yapon nağıllarını tərcümə etmişdir.

Müəllifin "Ruhun da gözü var" adlı fəlsəfi-publisistik kitabı isə dünya işığından məhrum insanların — korların daxili aləmini əks etdirir. O, həmçinin "Bir məndim, bir də özüm", "Ağ və qara", "Dua yağışı", "Səni göyə bağışladım", "Adı olmayan fəsil", "İlahi, yerimi demə", "Do və başlanır hər şey" adlı şeir toplularının müəllifidir. Şeirləri rus, belarus, özbək, fars, polyak, türk və holland dillərinə tərcümə olunaraq müxtəlif ölkələrin mətbuatında dərc edilmiş, antologiyalara daxil edilmişdir.

Onun şair kimi ilk əməkdaşlığı bəstəkar Faiq Sücəddinovla olmuşdur. F. Sücəddinovun sözlərinə yazdığı "Harda qaldın" (Kaman) mahnısı şair kimi Xanım İsmayılqızının tanınmasına səbəb olmuşdur. Bəstəkar kimi ilk əsəri isə 1993-cü ildə yazdığı "Sevgimizi qoruyaq" mahnısıdır. Tamara Vəliyevanın "Mənim ağ göyərçinim" pyesinə yazdığı musiqi isə onun ilk irihəcmli əsəri hesab olunur. O, ümumilikdə 400-dən çox mahnının müəllifidir.

Xanım İsmayılqızı həm də klassik və çağdaş şairlərin yaradıcılığından bəhrələnmişdir. O, Nəsimi, Mikayıl Müşfiq, Məmməd Araz, Ramiz Rövşən, İsmayıl Qarayev, Vaqif Bayatlı Ödər, Vahid Əziz, Nüsrət Kəsəmənli və digər şairlərin şeirlərinə musiqi bəstələmişdir. Eyni zamanda onun 500-dən çox şeirinə Polad Bülbüloğlu, Faiq Sücəddinov, Eldar Mansurov, Emin Sabitoğlu, Nadir Əzimov, Səyavuş Kərimi, Aygün Səmədzadə, Nailə Mirməmmədli, Novruz Aslan və digər bəstəkarlar musiqi yazmışdır.

Onun mahnıları İlhamə Quliyeva, Flora Kərimova, Brilliant Dadaşova, Mübariz Tağıyev, Faiq Ağayev, Ağadadaş Ağayev, Mətanət İsgəndərli, Nazpəri Dostəliyeva, Ruhəngiz Allahverdiyeva, Nəzakət Teymurova və başqa məşhur müğənnilər tərəfindən ifa edilmişdir. 1999-cu ildə "Respublika" Sarayında, 2001-ci ildə isə Sumqayıtın "Kimyaçılar" Sarayında onun yaradıcılıq gecələri keçirilmişdir.

2003-cü ildə ABŞ bəstəkarı və söz müəllifi Stan Slaughter ilə birgə "Planet dostları" layihəsi çərçivəsində "Doğma diyar" adlı vətənpərvər mahnılardan ibarət albom hazırlamışdır. O, həmçinin "Dünya quraq", "Unut məni", "Gözlər", "Qəm qalası", "Doğma diyar", "Mənim ağ göyərçinim" və digər musiqi albomlarının müəllifidir.

Ədəbiyyat:

Xanım İsmayılqızı: "Qalmaqalı boş vaxtı çox olan, bekar adamlar yaradırlar" /Xanım İsmayılqızı: müsahibəni apardı Tamilla M-Zadə //525-ci qəzet.-2025.- 5 iyul(№ 115).- S.12-13.

Varislər: Xanım İsmayılqızı: "Atan öz ölümü ilə bizi qovuşdurdu" / X. İsmayılqızı; söhbətləşdi: Əyyub Qiyas // Ədəbiyyat qəzeti.– 2020.– 22 avqust.– S.12-13.

Adı olmayan fəsil: [şeirlər] / X. İsmayılqızı; red. E. Mirzəbəyli.– Bakı: Təhsil, 2021.– 638, [2] s.

Xanım İsmayılqızı: Şuşaya gəldiyimiz gündən çox qəribə hisslər yaşayırıq // Azərbaycan.–2022.– 16 iyul.– S.8.

Yol Adam / X. İsmayılqızı // Xalq Cəbhəsi.– 2023.– 16 noyabr, №39.– S.15.

"Ömrün Xanım fəsli": Xanım İsmayılqızının yaradıcılıq gecəsi // Mədəniyyət.– 2024.– 7 iyun,№42.– S.5.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Xanım_İsmayılqızı

https://www.yenises.az/az/posts/detail/xanim-ismayilqiz-cox-sey-istemirik-ki-1663409556

Azad Yaşar – 65

(1961)

Şair, publisist



Azad İlyas oğlu Fərəcov – ədəbi mühitdə Azad Yaşar imzası ilə tanınır. O, 1961-ci il aprel ayının 10-da Bakı şəhərində anadan olmuşdur. Ali təhsilini Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Memarlıq fakültəsində almışdır.

Əmək fəaliyyətinə Əli Bayramlı şəhərində başlayan Azad Yaşar burada baş memar, baş rəssam və zavodda dizayn qrupunun rəhbəri vəzifələrində çalışmışdır. 1993–2001-ci illərdə Rusiyada fəaliyyət göstərən türk inşaat firmasında memar və müdir müavini kimi işləmişdir. 2002–2004-cü illərdə "Space" telekanalında yayımlanan "Gecə kanalı" proqramında bədii redaktor, 2004–2016-cı illərdə Dövlət Sosial Müdafiə Fondunun mətbu orqanı olan "PENSİYAÇI" qəzetinin baş redaktoru, 2016–2018-ci illərdə isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Sosial həyat" jurnalında məsul katib olmuşdur.

Bədii yaradıcılığa 1976-cı ildən başlamışdır. Onun ilk mətbu əsəri – "Gözlərimin günahı" adlı şeiri 1980-ci ildə Nəcəf Nəcəfovun təşəbbüsü ilə "İnşaatçı" qəzetində dərc edilmişdir. Sonrakı illərdə "Zülmətdən işığa keçid", "Əllərim", "Eynəyin yuxusu", "Dost bildiklərimiz", "Hind bütü", "Tanrı üşüyür", "Sənə doğru", "Qırx yaş", "Birinci Qarabağ savaşı" və digər şeirləri nəşr olunmuşdur. Onun əsərləri ingilis, alman, rus, türk, ukrayna, gürcü, bolqar, özbək, qırğız və rumın dillərinə tərcümə olunmuş, Moskva, İstanbul, Kiyev, Tbilisi və Bişkekdə fəaliyyət göstərən jurnallarda çap edilmişdir.

2001-ci ildən fəaliyyət göstərən Azad Yazarlar Ocağının (AYO) və onun mətbu orqanı "Alatoran" dərgisinin təsisçilərindən biridir. Tərcüməçilik sahəsində məhsuldar fəaliyyət göstərərək dünya ədəbiyyatını təmsil edən 800-dən artıq müəllifin əsərlərini Azərbaycan dilinə çevirmişdir. Onun tərcümə etdiyi əsərlər sırasında Mövlanə Cəlaləddin Rumidən "Məsnəvidən seçmələr", Elias Kanettinin "Korlaşma" romanı, Erik-Emmanüel Şmittin "Müsyö İbrahim və Quran çiçəkləri", Gi de Mopassanın "Sevgi dalanları", "Bitmiş insanlar", "Seçilmiş əsərləri" xüsusi qeyd olunmalıdır. Bundan başqa, "Çin mədəniyyəti", "YAHU – Sufizm, Dao, Dzen hekayətləri", "Əhməd Həmdi Paşa – Missioner" kitablarının tərcüməsi də onun yaradıcılığının nümunələrindəndir.

Azad Yaşarın müəllifi və tərcüməçisi olduğu 10-dan artıq kitab işıq üzü görmüşdür. Onun "Hamı və Heç kim", "Bu da keçər", "KONSEPT" kitablarında şeir, esse və rəsm birləşdirilərək poeziya ilə vizual sənət arasında əlaqə yaradılmışdır. 2023-cü ildən təsis etdiyi "TURKUAZ yayınları" nəşriyyatı vasitəsilə naşirlik fəaliyyəti ilə də məşğul olur.

2014-cü ilin sentyabrında Türkiyənin Tokat şəhərində keçirilən Beynəlxalq Şeir Şölənində Azərbaycanı təmsil etmişdir. 2021-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2022-ci ildə isə Birliyin XIII qurultayında həm İdarə Heyətinin, həm də "Azərbaycan" jurnalının redaksiya heyətinin üzvü seçilmişdir.

Onun fəaliyyəti yalnız ədəbiyyatla məhdudlaşmır. Memarlıq sahəsində Əli Bayramlı şəhərinin giriş meydan-kompleksləri, inzibati binaları və yol qovşaqları onun layihələri əsasında inşa edilmişdir. Həmçinin şəhərdə iki məscidin layihələndirilməsində də iştirak etmişdir. Dizayn sahəsində isə "İşıq" qəzeti, Mədəniyyət Nazirliyinin "Kino+" qəzeti, Azad Yazarlar Ocağı və DSMF üçün loqotiplər tərtib etmişfir

Azad Yaşar karikatura və xəttatlıqla da məşğul olmuşdur. Tələbəlik illərində çəkdiyi karikaturaları "İnşaatçı" qəzetində çap olunmuş, xəttatlıq əsərləri isə üç sərgidə nümayiş etdirilmişdir. "Allahu-əkbər" adlı kufi xətli kompozisiyası uşaqlar üçün "Azərbaycan incəsənəti" ensiklopediyasında təqdim olunmuşdur.

Ədəbiyyat:

Təbiətşünaslıq dərsi / P. Kalders; ispan dilindən tərcümə: A.Yaşar // Kaspi.– 2020.– 18-21 yanvar.– S.12-13.

Azərbaycanla bağlı rəsmləri "Artek"in tarix muzeyinə hədiyyə olunan "pioner" / A.Yaşar; müsahibəni apardı: F.Hüseyn // Kaspi.–2021.– 11 sentyabr.– S.8-9.

Yumurta hekayə / D.Butsati; tərcümə etdi Azad Yaşar // Ədəbiyyat qəzeti.– 2022.– 30 iyul.– S.16; 17.

"Qadınlar" kitabından seçmə esselər / E.Qaleano; tərc.etdi Azad Yaşar // Ədəbiyyat qəzeti.–2023.– 23 dekabr, № 50.– S. 32.

Kolbasa / F. Dürrenmatt; tərc. etdi: Azad Yaşar // Ədəbiyyat qəzeti.– 2024.– 10 fevral, №5.– S.31.


Qoca aşpaz / K.Paustovski; tərc. etdi: A.Yaşar // Ədəbiyyat qəzeti.– 2025.– 7 mart (№9).– S.30-31.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Azad_Yaşar

Mehmet Rüfət İlqaz – 115

(1911-1993) *Türk yazıçısı, şair*



Mehmet Rüfət İlqaz 1911-ci il aprelin 24-də Türkiyənin Kastamonu vilayətinin Cidə bölgəsində anadan olmuşdur. Orta təhsilini Kastamonu Pedaqoji Məktəbində başa vurduqdan sonra Qerede və Akçakoca bölgələrində ibtidai sinif müəllimi kimi çalışmışdır. 1936-cı ildə Ankara Qazi Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsinə daxil olmuş və təhsilini tamamladıqdan sonra Adapazarı vilayətində müəllimlik fəaliyyətinə başlamışdır.

Vərəm xəstəliyinə tutulması səbəbindən işini davam etdirə bilməyən yazıçı müalicə məqsədilə İstanbula getmişdir. İstanbulda Karağıyumruk orta məktəbində türk dili müəllimi işləyərkən eyni zamanda universitetin fəlsəfə fakültəsində təhsil almışdır. Bu dövr onun yaradıcılığında mühüm mərhələ sayılır. İlqazın əsərlərində İkinci Dünya müharibəsinin sosial və mənəvi fonu öz əksini tapmış, xüsusilə "Qaranlıq Gecələr" ("Karartma Geceleri") romanında bu mövzu aydın şəkildə təsvir edilmişdir.

1943-cü ildə Nişantaşı bölgəsinə köçən müəllif, həmin dövrdə Tosya zəlzələsini "Tosya'da Zəlzələ" adlı şeirində bədii şəkildə əks etdirmişdir.

Mehmet Rüfət İlqazın ədəbi fəaliyyəti 1926-cı ildə Kastamonu qəzetinin "Nazikter" səhifəsində dərc olunan "Sevilənin qəbri üstündə" ("Sevgilimin Mezarında") şeiri ilə başlamışdır. İlk illərdə şəxsi və lirik mövzularda yazsa da, sonralar sosial və ictimai motivlər yaradıcılığında əsas istiqamətə çevrilmişdir. Onun şeirləri "Varlık" və "Oluş" jurnallarında dərc olunmuşdur.

İlqaz bir müddət Nazim Hikmətlə əməkdaşlıq etmiş, Hikmətin Bursa həbsxanasından göndərdiyi şeirləri "İbrahim Səbri" təxəllüsü ilə nəşr etdirmişdir.

1944-cü ilin yanvarında "Sinif" ("Sınıf") kitabının çapından sonra yazıçı məhkəməyə verilərək 24 may 1944-cü ildə "Birinci Şöbə"yə təslim olmuşdur. Altı aylıq həbs cəzasını çəkdikdən sonra müəllimlik və tədris fəaliyyətinə qadağa qoyulmuş, sağlamlığını bərpa etmək üçün Heybeliada sanatoriyasında müalicə almışdır.

1946–1947-ci illərdə qısa müddət müəllim kimi çalışsa da, bu fəaliyyət rəsmi şəkildə məhdudlaşdırılmışdır. Bundan sonra yalnız ədəbi yaradıcılıqla – şeir, hekayə və roman yazmaqla məşğul olmuşdur.

Mehmet Rüfət İlqaz türk ədəbiyyatında sosial ədalət, bərabərlik və insan haqları kimi mövzulara toxunan əsərləri ilə tanınır. O, cəmiyyətin müxtəlif təbəqələrinin həyatını, gündəlik məişət və sosial problemlərini bədii realizmlə əks etdirmişdir.

Yazıçı həm də uşaq ədəbiyyatı, satirik hekayə və publisistika sahəsində məhsuldar yaradıcılıq nümayiş etdirmişdir. Onun əsərləri dövrünün ictimai-siyasi reallıqlarına tənqidi münasibət baxımından mühüm əhəmiyyət kəsb edir.

Yazıçı 7 iyul 1993-cü ildə İstanbulda vəfat etmiş və Zəncirlikuyu qəbiristanlığında dəfn olunmuşdur.

Mehmet Rüfət İlqazın ədəbi irsinə "Yarenlik" (1943), "Sınıf" (1944), "Yaşadıkça" (1947), "Devam" (1953), "Üsküdarda Sabah Oldu" (1954), "Soluk Soluğa" (1962), "Karakılçık" (1969), "Uzak Değil" (1971), "Güvercinim Uyur mu" (1974), "Kulağımız Kirişte" (1983), "Ocak Katırı Alagöz" (1987), "Çocuk Bahçesi" (1995) kimi şeir kitabları; "Dəhşətli Sinif" (Hababam Sınıfı, 1957), "Pijamalılar" (Bizim Koğuş, 1959), "Qaranlıq Gecələr" (Karartma Geceleri, 1974), "Sarı Şal" (Sarı Yazma, 1976), "Yıldız Karayel" (1981), "Apartıman Çocukları" (1984), "Hoca Nasrettin ve Çömezleri" (1984) və "Hababam Sınıfı İcraatın İçinde" (1987) kimi romanlar; "Yokuş Yukarı" (1982), "Kırk Yıl Önce Kırk Yıl Sonra" (1986) və "Dördüncü Bölük" (1992) adlı xatirə kitabları, eləcə də "Hababam Sınıfı", "Hababam Sınıfı Uyanıyor", "Hababam Sınıfı Baskında", "Hababam Sınıfı Sınıfta Kaldı", "Türk Çocukları Türk Çocukları", "Çatal Matal Kaç Çatal" və "Abbas Yola Giden" kimi teatr əsərləri və ssenariləri daxildir.

Ədəbiyyat:

Məmmədzadə, İ. "Qalın qar olanda dünyaya gələn" Rüfət İlgaz – türk ədəbiyyatının görkəmli siması / İnci Məmmədzadə // Ədəbiyyat və incəsənət. - 2025. - 7 iyul.

Rıfat Ilgaz. Sevengül. - Sönmez Print Book, Turkish, 2011

İnternetdə:

https://az.wikipedia.org/wiki/R%C3%BCf%C9%99t_%C4%B0lqaz

https://ataturkansiklopedisi.gov.tr/detay/1130/Mehmet-R%C4%B1fat-Ilgaz-(1911-1993)

Abdulla Tukay – 140

(1886-1913)

Tatar xalq şairi



Abdulla Tuqay 1886-cı il aprelin 26-da Kazan quberniyasının Quşlauç kəndində anadan olmuşdur. İlk təhsilini Kırlay kənd mədrəsəsində almış, daha sonra 1895-ci ildən etibarən Uralsk şəhərində bibisinin himayəsində yaşamışdır. O, burada Mutiullah mədrəsəsində təhsilini davam etdirmiş, eyni zamanda mədrəsənin nəzdində fəaliyyət göstərən rus sinfində də oxumuşdur. Bu illərdə Tuqay ərəb, fars, türk, rus və digər xalqların ədəbiyyatları, həmçinin Şərq və Qərb mədəniyyətləri ilə tanış olmuş, tatar xalq ədəbiyyatına dərindən maraq göstərmişdir

Tuqay mədrəsədə oxuyarkən şeir yazmağa başlamış, eyni zamanda mətbuatda çalışmaqla ədəbi fəaliyyətini genişləndirmişdir. O, "Fikir" və "Əl-İslax" qəzetlərində, "Yalt-Yult" ("Şəfəq") və "Əl-Əsr əl-Cədid" ("Yeni əsr") jurnallarında çalışmış, 1908–1909-cu illərdə Kamal Əliəsgərlə birlikdə "Yaşen" ("İldırım") adlı jurnalın nəşrinə rəhbərlik etmişdir.

Tuqay "Əl-İslax" qəzetində işlədiyi dövrdə tatar yazıçısı və publisist Fatih Əmirxanla yaxın dostluq münasibətləri qurmuşdur. Avropada təhsil almış Fatih Əmirxan onun dünyagörüşünün, poetik təfəkkürünün və ədəbi zövqünün formalaşmasında mühüm rol oynamışdır. Həmçinin 1910-cu ildən çap olunan "Yalt-Yult" jurnalında şairin fəaliyyəti də mühüm əhəmiyyət daşıyır.

1905-ci ildə Kazana qayıdan Tuqay burada baş verən ictimai-siyasi hadisələrin, xalq hərəkatlarının fəal iştirakçısı olmuşdur. Onun ədəbi formalaşmasında həmin dövrdəki maarifçilik və mədəni mühit, eləcə də "Molla Nəsrəddin" jurnalının və Mirzə Ələkbər Sabirin satirik yaradıcılığının təsiri böyük olmuşdur. Tuqay həmçinin azərbaycanlı ictimai xadim Nəriman Nərimanovla dostluq münasibətləri qurmuşdur. 1911-ci ildə Həştərxanda Nərimanovla görüşən şair vərəm xəstəliyinə tutulmuş və onun ilk həkimi məhz Nərimanov olmuşdur.

Abdulla Tuqay tatar uşaq ədəbiyyatının və şifahi xalq ədəbiyyatının inkişafında böyük xidmətlər göstərmişdir. O, məktəbyaşlı uşaqlar üçün 30-dan çox kitab, xalq ədəbiyyatı mövzusunda 4 tədqiqat əsəri nəşr etdirmişdir. Tuqay üçün mühüm məsələlərdən biri də tatar milli teatrının təşəkkülü və inkişafı olmuşdur. Onun yaxın dostu, aktyor və rejissor Abdulla Kariyev teatrın formalaşmasında əsas fiqurlardan biri sayılır. Şair bu sahəyə həsr etdiyi "Teatr" adlı şeirində səhnə sənətinin xalqın maariflənməsi və mədəni inkişafındakı rolunu yüksək qiymətləndirmişdir.

1911–1912-ci illərdə Uçildə yaşayan Tuqay yaradıcılığında tatar xalqının ağır həyat şəraitini, sosial ədalətsizliyi əks etdirmişdir. Sağlamlığının pisləşməsinə baxmayaraq, o, 1912-ci ildə Fatih Əmirxanla birlikdə "Anq" ("Şüur") adlı yeni ədəbi-bədii jurnalın nəşrinə hazırlaşırdı. Bu dövrdə yazdığı "Oyanış haqqında ilk iş", "Yubileylə əlaqədar", "İki xatırlatma" kimi publisistik məqalələr, həmçinin "Böyük yubileylə bağlı xalqın ümidləri" və "Şaxta" şeirləri onun milli özünüdərkin, azadlıq və yenilənmə ideyalarının ifadəsidir.

Abdulla Tuqay 1913-cü il aprelin 15-də, 26 yaşında vərəm xəstəliyindən vəfat etmişdir.

Tuqayın şeirləri müxtəlif illərdə dəfələrlə nəşr olunmuş, bir çox dünya dillərinə, o cümlədən Azərbaycan dilinə tərcümə edilmişdir. Hətta Böyük Vətən müharibəsi illərində (1943) onun əsərləri yenidən nəşr edilmişdir. 2011-ci ildə şairin "Millətim" adlı kitabı Bakıda işıq üzü görmüşdür.

Abdulla Tuqayın yaradıcılığı bir çox musiqi, teatr və təsviri sənət əsərlərinə ilham vermişdir. Onun "Şurale" adlı poema-nağılı əsasında bəstəkar Fərid Yarullin eyniadlı baleti yaratmış, R. Qubaydullin "Kisekbaş", A. Bəkirov "Su adamı" baletlərini, N. Jiqanov "Kırlay" simfoniyasını bəstələmişdir. B. Urmanç, İ. Kazakov, B. Almenonov və F. Aminovun heykəltəraşlıq və rəsm əsərləri də şairin obrazına həsr olunmuşdur. Tatarıstanda ədəbiyyat və incəsənət sahəsində ən yüksək mükafat olan Abdulla Tuqay mükafatı təsis edilmişdir. 2011-ci ildə TÜRKSOY-un Nazirlər Şurasının qərarı ilə "Abdulla Tuqay ili" elan olunmuş, Kazan şəhərində şairin adına ədəbiyyat muzeyi, küçələr və mərkəzi meydan adlandırılmışdır.

Ədəbiyyat:

Anar. Əbədi gənc Abdulla Tukay /Anar // Ədəbiyyat qəzeti.– 2023.– 16 sentyabr.– S.5.

Yeni tatar şeiri antologiyası /Dünya Gənc Türk Yazarlar Birliyi (DGTYB) ; nəşrə məsul, tərtib və ümumi red. Ə. Qoşalı ; red.: H. Şəmi, S. Şirvan ; məsləhətçilər: N. Cəfərov, R. Qurban, Y. Oğuz, İ. Orucəliyev.

Bib-ID

vtls000529718

Digər sərlövhə

Yaña tatar şiğere antologiyəse - яңа татар шигыре антологиясе

Buraxılış məlumatları

Bakı: Hədəf Nəşrləri, 2016.

Fiziki xüsusiyyətləri

229, [1] s.


İnternetdə:

https://az.wikipedia.org/wiki/Abdulla_Tuq

Altay Hacıyev – 95

(1931-2019)

Rəssam, boyakar



Altay Əmir oğlu Hacıyev 1931-ci il aprelin 2-də Bakı şəhərində anadan olmuşdur. O, erkən yaşlarından təsviri sənətə maraq göstərmiş və bu sahədə sistemli təhsil almışdır. 1951-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini, 1959-cu ildə isə Kiyev Dövlət Rəssamlıq İnstitutunu bitirmişdir. Ukraynada aldığı ali təhsil ona Avropa rəssamlıq məktəbinin klassik ənənələrini dərindən öyrənmək imkanı vermiş, bu da sonrakı yaradıcılığında milli və Avropa incəsənət üslublarının sintezinə zəmin yaratmışdır.

Ali təhsilini başa vurduqdan sonra Vətənə dönən sənətkar 1959-cu ildən beynəlxalq və respublika əhəmiyyətli sərgilərin iştirakçısı kimi çıxış etmiş, 1960-cı ildə SSRİ Rəssamlar İttifaqına üzv qəbul olunmuşdur. 1962–1967-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Mətbuat Komitəsində baş rəssam vəzifəsində çalışmışdır. O, həmçinin "Azərnəşr"də fəaliyyət göstərdiyi illərdə bir çox tanınmış yazıçı və şairlərlə əməkdaşlıq etmiş, ədəbiyyatla təsviri sənətin qarşılıqlı təsirini yaradıcılığında uğurla əks etdirmişdir.

Altay Hacıyev sənət fəaliyyəti dövründə çoxşaxəli yaradıcılıq nümayiş etdirmişdir. O, qrafika və rəngkarlıq sahələrində məhsuldar işlər görmüş, xüsusilə kitab qrafikasının inkişafına mühüm töhfə vermişdir. Rəssam çoxsaylı kitabların bədii tərtibatını hazırlamış, ədəbi əsərlərə illüstrasiyalar çəkmişdir. Bununla yanaşı, o, müxtəlif tematik silsilələrin müəllifidir. 1960-cı illərdə Bakıda baş verən quruculuq işlərindən ilhamlanaraq "Yeni Bakı" silsiləsini yaratmış, daha sonra "Xəzər", "Dənizin iftixarı" və "Xəzərin sahibi" kimi silsilələr üzərində çalışmışdır.

Onun rəngkarlıq yaradıcılığı əsasən Azərbaycan xalqının tarixi, mənəvi dəyərləri və görkəmli şəxsiyyətlərinin obrazları ilə səciyyələnir. "Xalqımızın ulduzları" silsiləsindən olan "Tomris", "Məhsəti Gəncəvi", "Sara Xatun", "Xurşudbanu Natəvan", "Tuti Bikə", "Aşıq Pəri", "Ağa Bəyim Ağa" kimi əsərləri milli incəsənət tarixinin dəyərli nümunələrindəndir.

Altay Hacıyevin əsərləri Azərbaycan Milli İncəsənət Muzeyində, Dövlət Rəsm Qalereyasında, həmçinin bir çox xarici ölkə muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır. Onun yaradıcılığına həsr olunmuş fərdi sərgilər 1987-ci ildə (qrafika əsərləri), 1991-ci ildə ("Natəvan–Şuşa"), 2001-ci ildə ("Xalqımızın ulduzları") və 2006-cı ildə (75 illik yubiley sərgisi) keçirilmişdir.

Rəssamın yaradıcılıq nailiyyətləri yüksək qiymətləndirilmişdir. O, 1982-ci ildə "Əməkdar rəssam", 2002-ci ildə isə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüş, 1995-ci ildə "Humay" mükafatı ilə təltif edilmiş, 2003-cü ildən Prezident təqaüdçüsü olmuşdur.

Altay Əmir oğlu Hacıyev 2019-cu il fevralın 12-də Bakı şəhərində vəfat etmişdir.

Altay Hacıyev Azərbaycan təsviri sənətində milli və klassik Avropa incəsənət ənənələrinin harmoniyasını yaradan, qrafika və rəngkarlıq sahəsində orijinal üslubu ilə seçilən görkəmli sənətkardır. Onun yaradıcılığı Azərbaycan mədəniyyətinin zənginliyini, milli kimliyimizin mənəvi dəyərlərini və sənətə yüksək estetik münasibəti ifadə edən əvəzsiz bədii irs kimi dəyərləndirilir.

Ədəbiyyat:

Altay Hacıyev yaradıcılığında tarixi obrazlar (ikonoqrafik təhlil kontekstində) / E.R.Ağayev // "3rd international New York conference on evolving trends in interdisciplinary research and practices" USA, Manhattan, New York city / November 13-15, Manhattan, New York City.– 2020.– P. 39-44.

Zərif bənd: Tarixin və günümüzün güzgüsündə QADIN. Məhəbbətdən şiddətə qədər! / T. Paşayeva; [red. R. Gülgün; dizayner M. Əliqızı].– Bakı: [Zərdabi Nəşr], 2022.– 330, [5] s.

Milli ənənələrə bağlı sənətkar: Şuşalı rəssam / Ə.Quliyev // Azərbaycan.– 2023.– 9 aprel.– S.14.

"Xurşidbanu Natəvana ithaf" / E.Ağayev: müsahibəni apardı Aytac Sahəd // 525-ci qəzet.– 2024.– 21 avqust (№149).– S.11.

Onun əsərləri vətənə məhəbbət duyğusu təlqin edir // Xalq Cəbhəsi.– 2025.– 3 aprel(№12).– S.16.

İnternetdə:

https://az.baku-art.com/az/bu-gun-azerbaycanintan-nm-sh-rengkar-xalq-rssam-altay-hac-yevin-anm-g-n-d-r

Ənvər İsmayılov – 110

(1916-1988)

Memar



Ənvər Ələkbər oğlu İsmayılov 1916-cı il aprelin 10-da Tiflis şəhərində anadan olmuşdur. O, 1928–1933-cü illərdə texnikumda təhsil almış, 1933–1939-cu illərdə isə Azərbaycan Sənaye İnstitutunun memarlıq-tikinti fakültəsində ali təhsilini davam etdirmişdir.

Təhsilini başa vurduqdan sonra memar kimi əmək fəaliyyətinə "Azərdövlətlayihə" institutunda başlamışdır. Peşəkar fəaliyyəti dövründə qısa müddət ərzində bu müəssisədə baş mühəndis, daha sonra isə yaşayış və mülki binaların layihələndirilməsi şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

1942–1944-cü illərdə Ənvər İsmayılov Azərbaycan SSR Xalq Kommunal Təsərrüfatı Komissarlığında idarə rəisi, 1944–1945-ci illərdə isə Azərbaycan SSR Xalq Təsərrüfatı Şurası yanında Arxitektura İşləri İdarəsinin yaşayış və mülki tikinti şöbəsinin rəisi olmuşdur. 1945-ci ildə yenidən "Azərdövlətarxitekturalayihə" institutuna qayıtmış və 1951-ci ilədək bu müəssisəyə rəhbərlik etmişdir.

1951–1953-cü illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Arxitektura İşləri İdarəsinin rəisi, 1953-cü ilin iyunundan dekabrınadək isə Azərbaycan SSR Kommunal Təsərrüfatı və Yaşayış-Mülki Tikinti Nazirinin müavini vəzifəsində çalışmışdır. 1955–1957-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Tikinti və Arxitektura Komitəsi sədrinin müavini, 1957–1958-ci illərdə Azərbaycan SSR Tikinti Nazirinin müavini, 1958–1959-cu illərdə isə yenidən Arxitektura İşləri İdarəsinin rəisi olmuşdur. 1959-cu ildən etibarən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Tikinti və Arxitektura İşləri Komitəsi sədrinin birinci müavini kimi fəaliyyət göstərmişdir.

Ənvər İsmayılovun uzunmüddətli və məhsuldar fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, 1962-ci ildə "Azərbaycan SSR əməkdar mühəndisi" fəxri adına, 1966-cı ildə isə "Qırmızı Əmək Bayrağı" ordeninə layiq görülmüş, həmçinin Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanları ilə təltif edilmişdir. O, SSRİ Arxitektorlar İttifaqının İdarə Heyətinin üzvü olmuş və 1941-ci ildən Sovet İttifaqı Kommunist Partiyasının (ÜİK(b)P) üzvü kimi ictimai-siyasi həyatda da fəal iştirak etmişdir.

Ənvər İsmayılovun memarlıq yaradıcılığı Azərbaycanın şəhərsalma və memarlıq tarixində mühüm yer tutur. Onun rəhbərliyi və müəllifliyi ilə 1947–1950-ci illərdə Bakının Moskva (indiki Heydər Əliyev) prospekti və Nizami küçəsində, eləcə də Gəncə və Sumqayıt şəhərlərində yaşayış binaları inşa edilmişdir. O, Naxçıvan şəhərində Dram Teatrı binasının (1949–1952), Azərbaycan Kommunist Partiyası Bakı Şəhər Komitəsinin inzibati binasının (1951–1956), Gəncə Şəhər Partiya və İcraiyyə Komitələrinin inzibati binalarının, Bakı Dövlət Sirki binasının (1958–1960, memar Faina Leontyeva ilə birlikdə), "Neftçilər" metrostansiyasının (1965) memarlıq layihələrinin müəllifidir.

Bundan əlavə, onun layihələri əsasında Naxçıvan şəhərində Cəlil Məmmədquluzadənin (1968), Bakıda Mirzə Ələkbər Sabirin (1958) və Xurşidbanu Natəvanın (1959) heykəlləri ucaldılmışdır.

Ənvər Ələkbər oğlu İsmayılov 25 aprel 1988-ci ildə Bakıda vəfat etmişdir

Ənvər İsmayılovun fəaliyyəti XX əsr Azərbaycan memarlığının formalaşmasında mühüm mərhələ təşkil edir, zəngin yaradıcılıq irsi ilə Azərbaycan memarlıq tarixində dərin iz qoymuşdur.

Ədəbiyyat:

Azərbaycan SSR-də sənaye və mülki tikintilərin inkişafı / Ə. Ə. İsmayılov; tərc. ed. M. Məmmədov; red. M. Mirzəbabalı.– Bakı: Azərnəşr, 1959.– 32 s.

Azərbaycan SSR şəhərlərinin plan quruluşu / Ə. İ. İsmayılov; [red. Ə. Salamzadə; rəssam A. Jarov].– Bakı: Azərnəşr, 1974.– 65, [3] s.

Namazov, M. Ənvər Ələkbər oğlu İsmayılov / Müsəddin Namazov, Elçin Əliyev // Azərdövlətlayihə. - Bakı, 2015. - S. 40–42.

Nurizadə, F. XX əsr memarlığı,dövrün tanınmışmemarları // Elmi iş: Beynəlxalq elmi jurnal. - 2024. - Cild: 18. - S. 54-61

İnternetdə:


https://az.wikipedia.org/wiki/Ənvər_İsmayılov_(memar)

https://www.archive.uaa.az/index.php/az/activity-az/history-architecture/618-lev-vladimirovic-rudnev-1885-1956

Əli İbadullayev – 75

(1951)

Rəssam, heykəltəraş



Əli Əziz oğlu İbadullayev 1951-ci il aprelin 11-də Bakının Əmircan kəndində anadan olmuşdur. O, 1966–1970-ci illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində, 1970–1975-ci illərdə isə Stroqanov adına Moskva Ali Rəssamlıq və Sənaye Məktəbində təhsil almışdır. 1978-ci ildən SSRİ və Azərbaycan Rəssamlar İttifaqının üzvü olmuş, təsviri və heykəltaraşlıq sənətində özünəməxsus üslub formalaşdırmışdır.

Əli İbadullayevin yaradıcılığında heykəltaraşlıq mühüm yer tutur. 2006-cı ildən etibarən əksər heykəltaraşlıq əsərlərini həmkarı Səlhab Məmmədovla birgə işləyərək, "Muğam" (2009, Bakı), "Neftçi Fərman Salmanovun abidəsi" (2009, Yuqra, Rusiya), "Xocalı" (2011, Berlin, Almaniya), "Dərvişlər" (2011, Bakı), "Nizami Gəncəvinin abidəsi" (2012, Roma), "Abşeron işıqları" (2012, Bakı), "Azərbaycan–Polşa dostluğu abidəsi" (2013, Qnezno, Polşa), "Su mühəndisi Stefan Skşıvanın xatirə lövhəsi" (2013, Lodz, Polşa), "Rasim Ocaqovun xatirə lövhəsi" (2013, Bakı), "Neft mühəndisi Pavel Pototskinin abidəsi" (2015, Krakov, Polşa) və "Nar abidəsi" (2015, Göyçay) kimi əsərləri yaratmışdır.

Bakı Müasir İncəsənət Muzeyinin qarşısında yerləşən "Külək" və "Kometa" əsərləri onun müstəqil hazırladığı plastika nümunələridir. Rəssamın mücərrəd tabloları, əsasən iri ölçüdə işlədiyi "Muğam", "Xəzər", "Vulkan", "Abşeron motivi" triptixləri, eləcə də "Hərəkət", "Çəhrayı güllər", "Uçuş", "Nar", "Üzümlük" və digər əsərləri onun rəngkarlıq fəaliyyətinin əsas hissəsini təşkil edir. 2011-ci ildə Berlində fərdi sərgisi keçirilmişdir.

Əli İbadullayevin əsərləri Azərbaycan, Rusiya və Almaniya dövlət muzeylərində, həmçinin Kanada, İspaniya, İtaliya, Fransa, Belçika, Danimarka, İsveç, Niderland, Böyük Britaniya, Türkiyə, İsveçrə, Yaponiya, Əlcəzair, ABŞ, Venesuela və digər ölkələrdəki şəxsi kolleksiyalarda saxlanılır.

Sənətkarın fəaliyyəti beynəlxalq və milli səviyyədə yüksək qiymətləndirilmişdir. O, 1996-cı ildə Beynəlxalq Qırmızı Xaç Komitəsinin mükafatına layiq görülmüş, 2006-cı il dekabrın 29-da "Azərbaycan Respublikasının əməkdar rəssamı", 2012-ci il martın 9-da "Zirvə" mükafatı və 2015-ci il dekabrın 30-da "Azərbaycan Respublikasının xalq rəssamı" fəxri adları ilə təltif olunmuşdur.

Əli İbadullayev həm heykəltaraşlıq, həm də rəngkarlıq sahəsində zəngin yaradıcılığı ilə Azərbaycan müasir incəsənətində özünəməxsus yer tutmuş, əsərləri milli və beynəlxalq mədəniyyət irsinin dəyərli nümunələri kimi qiymətləndirilir.

Ədəbiyyat:

Bakıda xalq artisti Rasim Ocaqovun barelyefi açılmışdır // Azərbaycan.– 2013.– 23 noyabr.– S.7.

Sənətlərin sintezinə yeni töhfə / Z.Əliyev // Mədəniyyət.– 2013.– 14 iyun.– S. 12.

Monumentallığım lirik-poetik çalarları / Z.Əliyev // Kaspi.– 2016.– 20-22 fevral.– S.24.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Əli_İbadullayev

Adil Şıxəliyev - 80

(1946)

Rəssam



Adil Həmdulla oğlu Şıxəliyev 1946-cı il aprelin 12-də Quba şəhərində anadan olmuşdur. 1974-cü ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirmiş, 1981-ci ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü olmuşdur. Rəssamın yaradıcılığı əsasən qobelen sənəti üzərində qurulub; o, xalça, palaz, kilim və zili texnikalarını mənimsəyərək milli ruhlu və orijinal əsərlər yaratmışdır.

Adil Şıxəliyev ənənəvi naxış və ornamentlərdən ustalıqla istifadə edərək müxtəlif mövzu və texnikalarda qobelenlər toxuyub. Onun portret qobelenləri real və cəlbedici olmaqla, əlvan və uzunömürlü təbii boyaqlarla hazırlanmışdır. Rəssam ideyadan icraya qədər olan prosesi özü həyata keçirərək əsərlərinin dəyərini və orijinallığını təmin etmişdir.

Sənətkar əsərlərində xalqın başına gələn faciələri də əks etdirmişdir. Xocalı faciəsinə həsr etdiyi "Fəryad", 20 Yanvar hadisələrinə dair "20 Yanvar" və "Mələklərin fəryadı", eləcə də 1918-ci il Quba qırğınına həsr edilən "Mələklərin fəryadı" əsərlərində dəhşətli hadisələri təsirli şəkildə ifadə etmişdir. "Mələklərin fəryadı"nda alovlardan yüksələn tüstü və bədənləri tərk edən ruhlar vasitəsilə qurbanların obrazı yaradılmışdır.

Adil Şıxəliyevin yaradıcılığında Abşeron, Xəzər və digər mövzular geniş yer tutur. Əsərləri arasında "Məhsul bayramı", "Şahmat aləmi", "Kosmos sülh naminə", "Odlar yurdu", "Şum", "Qobustan ritmləri", "Şuşadan məktub", "Həyat", "Türkün pəncərəsi", "Xarı bülbül", "Xəzərin səsi", "Vətənim mənim", "Qoç", "Günəbaxanlar", "Bakı", "Heyratı döyüşü", "Kəsilmiş həyat", "Bahar", "Zanbaqlar", "Payız incisi" və "Səhər nəğməsi" qobelenləri xüsusilə diqqətəlayiqdir. Məşhur kompozisiyası "Köç"də milli mədəni irsin atributları və elementləri nəsildən-nəslə ötürülür, öküz fiquru, naxışlar, ornamentlər və musiqi alətləri ilə xalqımızın vəsf edilməsi əks olunmuşdur. Təbiət təsvirlərinə malik əsərləri isə əlvan rəng çalarları və lirik duyğularla seçilir.

Adil Şıxəliyev beynəlxalq və milli sərgilərdə uğurla iştirak etmiş, Çində keçirilən "İpək Yolu və dünya sivilizasiyası" adlı VII Beynəlxalq Biennaledə ölkəmizi "İpək Yolu" əsəri ilə təmsil etmişdir. 2016-cı ildə 70 illik yubileyinə həsr olunmuş sərgi onun yaradıcılığının bənzərsiz nümunələrini təqdim etmişdir.

Onun qobelenləri Azərbaycanın bir sıra muzey və qalereyalarında saxlanılır və əsərləri Rusiya, Gürcüstan, Almaniya, Çexoslovakiya, Türkiyə və Azərbaycanda nümayiş etdirilmişdir.

Adil Şıxəliyev 2021-ci il oktyabrın 16-da "Azərbaycan Respublikasının əməkdar rəssamı" fəxri adı ilə təltif olunmuşdur.

Əməkdar rəssam Adil Şıxəliyevin 2024-cü ildə Azərbaycan Milli Xalça Muzeyində onun yaradıcılığının 50 illiyinə həsr olunmuş "Vətənim mənim" adlı fərdi sərgisi keçirilmiş, burada milli ruhlu qobelen nümunələri nümayiş etdirilmişdir. 2024–2025-ci illərdə o, həmçinin YARAT Müasir İncəsənət Mərkəzində təşkil olunan "Monument to Freedom", Zaman Art Gallerydəki "I Am Water" və Azərbaycan Milli İncəsənət Muzeyində keçirilən "Colors of Victory" sərgilərində iştirak etmişdir. Bu sərgilər rəssamın yaradıcılığının müasir bədii-estetik dəyərlər fonunda aktuallığını bir daha nümayiş etdirmişdir.

Adil Şıxəliyev Azərbaycan tətbiqi sənətində, xüsusilə qobelen sahəsində, özünəməxsus yol açmış rəssamdır. O yalnız texniki bacarığı ilə deyil, həm də milli tarix, mədəniyyət və estetika məsələlərini toxumasında ifadə etmişdir. Onun işləri vasitəsilə qobelen yalnız dekorativ sənət forması deyil, həm də ideya-məzmun daşıyıcısı kimi təzahür edir.

Ədəbiyyat:

Azərbaycan qobelen sənətində Adil Şıxəliyev imzası / S.Əzizova // Mədəniyyət.– 2021.– 23 aprel.– S.7.

Adil Şıxəliyev. Vətənim mənim: [Əməkdar rəssam Adil Şıxəliyev sənətində Azərbaycan modeli: 30.01-06.03.2024] / mətnlərin müəl.: Ş. Y. Məlikova, S. Məmmədov, X. Əsədova; tərc. L. Mikayılova; red. Ü. Fərzəliyeva; foto və dizayn S. Mansurov.– Bakı: [Azərbaycan Milli Xalça Muzeyi], 2024.– 53, [2] s.

"Vətənim mənim" / F.Salmanova // Xalq qəzeti.– 2024.– 1 fevral, № 21.– S.10.

"Şuşada toy" / S.Babaxanova: müsahibəni apardı Aytac Sahəd // 525-ci qəzet.– 2024.– 18 sentyabr №(169).– S.10.

"Vətənim mənim" – qobelen ustasının sərgisi // Mədəniyyət.– 2024.– 31 yanvar(№8).– S.1.

İnternetdə:

https://az.baku-art.com/az/xalcha-kosmoqonizmini-milli-qobelenlerimizle-t-qdim-ed-n-taninm-sh-r-ssam-adil-sh-x-liyev

Rasim Babakişiyev – 70

(1956) *Memar*



Rasim Cəlal oğlu Babakişiyev 1956-cı il aprelin 15-də Dərbənd şəhərində anadan olmuşdur. 1979-cu ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsini bitirdikdən sonra Bakı şəhər Xalq Deputatları Sovetinin Xüsusi Layihə-Smeta Bürosunda memar kimi əmək fəaliyyətinə başlamışdır. O, 1983–1988-ci illərdə Ticarət və İctimai İaşə Müəssisələrinin Layihələndirilməsi üzrə Dövlət İnstitutunda qrup rəhbəri, 1988–1989-cu illərdə "Rəvan" kooperativində memar-dizayner, 1989–1991-ci illərdə "AİS Proyekt" Memarlıq-İnşaat Kooperativində memar, 1991–1994-cü illərdə "Gidrospetstroy" şirkətində sahə rəisi kimi fəaliyyət göstərmişdir.

1994–2013-cü illər ərzində Rasim Babakişiyev "Turanlı Co. LTD" birgə şirkətində vitse-prezident, "Jüksəl" firmasının baş direktoru, həmçinin "AzExCo", "Çiraq-M", "İdeal Biznes" və "Yevro Standart" şirkətlərinin rəhbəri vəzifələrində çalışmışdır. 2015-ci ilin iyun ayından "AMİ PROYEKT" yaradıcı memarlıq layihə birliyinin baş direktoru kimi fəaliyyət göstərmişdir.

Rasim Babakişiyev memarlıq sahəsində çoxsaylı irimiqyaslı layihələrin müəllifidir. Onun əsas layihələri sırasında Bakıda yerləşən Beynəlxalq Terminal Kompleksi, "Ramada" mehmanxanası, "Old City" və "Bürc" restoranları, "Şah Palas" mehmanxanası, Gəncədə "Ramada Plaza" oteli, Göygöl şəhər İcra Hakimiyyətinin binası və Şəki şəhərindəki "Şəki Palas" mehmanxanası xüsusi yer tutur. Bu layihələrin tikintisi də birbaşa onun rəhbərliyi altında həyata keçirilmişdir.

Yaradıcılıq fəaliyyəti dövründə o, respublika və beynəlxalq memarlıq müsabiqələrinin qalibi olmuş, 1986-cı ildən Azərbaycan Memarlar İttifaqının üzvü kimi ölkə memarlığının inkişafında fəal iştirak etmişdir. 2008-ci ildə "Ustad Memar" peşəkarlıq dərəcəsinə layiq görülmüş, 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir. 2016-cı il noyabrın 25-də ona "Əməkdar memar" fəxri adı verilmişdir.

Rasim Babakişiyev 2017-ci ildən Beynəlxalq Memarlıq Akademiyasının Moskva bölməsinin professoru, 2022-ci ildən isə müxbir üzvüdür. 2019-cu ildə "Akademik Mikayıl Useynov" xatirə medalı ilə təltif edilmişdir. O, Tokio, Durban və Seul şəhərlərində keçirilən Ümumdünya Memarlıq Konqreslərinin iştirakçısı olmuşdur.

Rasim Babakişiyev müasir Azərbaycan memarlığının inkişafında mühüm rol oynamış, yüksək peşəkarlığı, yenilikçi layihələri və rəhbərlik etdiyi uğurlu tikinti layihələri ilə tanınan görkəmli memarlardan biridir

Ədəbiyyat:

Qasımzadə, E. Memarın məharəti / E.Qasımzadə., F.Miralay // Memar.– 2014.– № 2.– S.68-69.

İnternetdə:

https://uaa.az/structure/rasim-calal-oglu-babakisiyev/

https://uaa.az/en/commissions/babakisiyev-rasim-calal-oglu/

APREL

15

Cahangir Axundov – 70

(1956)

Memar



Ədəbiyyat:

Əliyev, E. Müasir Azərbaycan memarları / Elçin Əliyev; red. S. Abbasbəyli; ing. dilinə tərc. ed. A. Əzimov; rus dilinə tərc. ed. İ. Hümbətov. - Bakı: [s.n.], 2008. - 527, [3] s.

Cahangir Rifaətoviç Axundov 1956-cı il aprelin 15-də Bakı şəhərində anadan olmuşdur. O, 1978-ci ildə Azərbaycan Politexnik İnstitutunu mühəndis ixtisası üzrə bitirmişdir. Cahangir Axundov 1978–2004-cü illərdə "Azdövsutəslayihə" institutunda layihənin baş mühəndisi vəzifəsində çalışmışdır. 2004–2016-cı illərdə "ARCON" MMC-nin direktoru, 2016-cı ildən etibarən isə "AMİ Proyekt" Yaradıcı Memarlıq Layihə Birliyində baş mühəndis kimi fəaliyyət göstərmişdir.

Onun layihə rəhbəri və baş mühəndis kimi iştirak etdiyi bir sıra mühüm memarlıq və inşaat layihələri paytaxtın və regionların urbanizasiyasına mühüm töhfələr vermişdir. Cahangir Axundovun həyata keçirdiyi layihələr sırasında Bakı şəhərindəki Mərdəkan qəsəbəsində yerləşən "Khazar Golden Beach" oteli, "Delfin" otelinin ərazisində yerləşən "Kəhrəba" restoranı, Heydər Əliyev küçəsində "Baghlan Group" şirkətinin ofisi, Bakı Beynəlxalq Avtovağzal Kompleksi, "START" idman kompleksi, Səməd Vurğun küçəsindəki "ARCON" şirkətinin yaşayış kompleksi, Teymur Əliyev küçəsində yerləşən "İngilis həyəti" biznes mərkəzi, "Kapital Bank" binasının bərpası, "Qarant Holding" şirkətinin ofisi, Binə Ticarət Mərkəzi ərazisində salınan yaşayış qəsəbəsi, "Çinar Plaza" biznes mərkəzi binası, Teymur Əliyev küçəsindəki "Ramada" oteli, Həsən bəy Zərdabi prospektində "Glass Plaza" Ticarət Mərkəzi, Füzuli küçəsində yerləşən "Qış bulvarı" park kompleksi və onun yeraltı dayanacağı, eləcə də Ucar şəhərindəki Mərkəzi Rayon Xəstəxanası layihələrini qeyd etmək olar.

Cahangir Axundov 2012-ci ildə "Ustad memar" yüksək peşəkarlıq dərəcəsi sertifikatına layiq görülmüş, 2016-cı ildə Azərbaycan Respublikasının "Tərəqqi" medalı ilə, 2021-ci ildə isə "Əməkdar memar" fəxri adı ilə təltif edilmişdir. O, həmçinin 2020-ci ildə Beynəlxalq Memarlıq Akademiyasının Moskva bölməsinin professoru adına layiq görülmüş, 2022-ci ildə Memarlar İttifaqlarının Beynəlxalq Assosiasiyası tərəfindən Yubiley medalı ilə mükafatlandırılmışdır.


Cahangir Axundov müasir Azərbaycan memarlığında öz dəsti-xətti, fərdi yanaşma tərzi və layihələrindəki funksional-estetik harmoniya ilə seçilən mühəndis-memar kimi tanınır.

22

Hüseyn Əliyev - 115

(1911-1991)

Rəssam



Ədəbiyyat:

Xalq rəssamı Hüseyn Əliyevin yaradıcılığı: sənətşünaslıq [üzrə] fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı: 6215.01 / S. N. Sadıxova.– Bakı: 2021.– 26, [1] s.

https://az.wikipedia.org/wiki/Hüseyn_Əliyev_(rəssam)

Hüseyn Əlirza oğlu Əliyev 1911-ci il aprelin 22-də Zəngəzur mahalının Comərdli kəndində anadan olmuşdur. 1927-1932-ci illərdə Bakıda Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda təhsil almış, daha sonra 1932–1935-ci illərdə Leninqrad Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunu bitirmişdir.

Hüseyn Əliyev yaradıcılıq fəaliyyətinə gənc yaşlarından başlamış, 1922–1931-ci illərdə məşhur "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlıq etmiş, bu müddət ərzində jurnalın səhifələrində bir çox satirik karikaturaları çap olunmuşdur.

Təhsilini başa vurduqdan sonra uzun illər "Kommunist" (indiki "Xalq qəzeti") qəzetində çalışmış, əvvəlcə baş rəssam, daha sonra isə qəzetin bədii tərtibat şöbəsinin müdiri vəzifəsində fəaliyyət göstərmişdir. Böyük Vətən müharibəsi iştirakçısı olan rəssam "Qafqazın müdafiəsinə görə", "1941–1945-ci illərdə arxa cəbhədəki şərəfli əməyinə görə", "Böyük Vətən müharibəsinin 30 illiyi" medalları və "Xalqlar dostluğu" ordeni ilə təltif edilmişdir.

Yaradıcılığı ərzində Hüseyn Əliyev həm Azərbaycan, həm də Ukrayna Ali Sovetlərinin fəxri fərmanlarına layiq görülmüşdür. 1940-cı ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü olan Hüseyn Əliyev 1977-ci ildə "Əməkdar rəssam", 1982-ci ildə isə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüşdür.

Onun yaradıcılığında mənzərə janrı xüsusi yer tutur. Doğulub boya-başa çatdığı yurda dərin bağlılığı "Yəhər Təpə" və "Mahmud bulağı" əsərlərində öz əksini tapmışdır. Rəssamın təbiətə olan bədii münasibətini əks etdirən "Göygöl mənzərələri" adlı albomda 17 mənzərə toplanmışdır.

Hüseyn Əlirza oğlu Əliyev 1991-ci il mayın 25-də vəfat etmişdir.

APREL

28

Əsgər Abbasov – 110

(1916-1970)

Rəssam

Əsgər Məmmədismayıl oğlu Abbasov 1916-cı il aprelin 28-də Bakı şəhərində anadan olmuşdur. Yaradıcılıq fəaliyyətinə erkən yaşlarından başlayan rəssam 1933-cü ildən Azərbaycan Milli Dram Teatrında dekorçu rəssam kimi çalışmağa başlamışdır. Eyni illərdə – 1933–1936-cı illərdə Bakı Rəssamlıq Məktəbində təhsil almış, təhsil aldığı müddətdə əmək fəaliyyətini də davam etdirmişdir.

Əsgər Abbasovun zəngin yaradıcılıq yolu Azərbaycan teatr sənətinin inkişafı ilə sıx bağlı olmuşdur. O, iki dəfə – 1945–1949 və 1956–1969-cu illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında baş rəssam vəzifəsində çalışmış, bu teatrın səhnəsində bir çox məşhur tamaşaların bədii tərtibatını yüksək peşəkarlıqla həyata keçirmişdir.

Azərbaycan Milli Dram Teatrında işlədiyi müddətdə bir sıra səhnə əsərlərinə bədii tərtibat vermişdir. O cümlədən, Mir Cəlalın "Mirzə Xəyal", M. Lermontovun "İki qardaş", K.Simonovun "Bizim şəhərli oğlan", K.Krapivanın "Son gülən", S.Rəhmanın "Toy" pyeslərinin səhnəyə qoyuluşunda quruluşçu rəssam kimi çıxış etmişdir. Bundan əlavə, Səməd Vurğunun "Fərhad və Şirin" pyesində və Sabit Rəhmanın "Xoşbəxtlər" komediyasında geyim eskizlərinin müəllifi olmuşdur.

Əsgər Abbasovun sənətkar kimi fəaliyyətinin zirvə dövrü Azərbaycan Dövlət Musiqili Komediya Teatrında keçmişdir. Burada o, S.Ələsgərovun "Ulduz" (1957), Üzeyir Hacıbəyovun "Arşın mal alan" (1959) və "O olmasın, bu olsun" (1964), Z. Hacıbəyovun "Aşıq Qərib", S.Rüstəmovun "Durna" (1965), Ş.Qurbanov və S.Ələsgərovun "Özümüz bilərik", M.Əlizadə və F.Əmirovun "Gözün aydın", həmçinin İmre Kalmanın "Silva" (1960) və "Bayadera" kimi tanınmış tamaşalarının quruluşçu rəssamı olmuşdur. Onun səhnə tərtibatları yalnız dekorativ baxımdan deyil, həm də musiqili teatrın üslubuna uyğunluğu baxımından yüksək qiymətləndirilmişdir.

Azərbaycan teatr sənətindəki xidmətlərinə görə Əsgər Abbasov 1964-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Əsgər Məmmədismayıl oğlu Abbasov 1970-ci il fevralın 9-da Bakı şəhərində vəfat etmişdir.

Onun zəngin irsi bu gün də Azərbaycan teatr rəssamlığı sənətinin inkişafında mühüm mərhələ kimi dəyərləndirilir.

Ədəbiyyat:

Özümüz bilərik: 3 pərdəli musiqili komediya: mətn. Şıxəli Qurbanov, mus. Süleyman Ələsgərov; quruluş rej. Əliheydər Ələkbərov; dirijorlar Kamal Abbasov, Kamal Məmmədov: M. F. Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binasında / [rəssam Ə. Abbasov]; Azərbaycan Dövlət Musiqili Komediya Teatrı.– Bakı: [n. y.], 1963.– 1 v.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Əsgər_Abbasov#:~:text=

http://ensiklopediya.gov.az/az/terms/227/cild/13

Oqtay Rəcəbov – 85

(1941-2022)

Bəstəkar



Ədəbiyyat:

Məhərrəmova, T. Şərəfli və kədərli həyat hekayəsi / Təranə Məhərrəmova // Kaspi.-2025.- 5 aprel (№ 12).- S.15.

Hümbətova, E. Bəstəkar Oqtay Rəcəbovun kamera-vokal və instrumental musiqisi: Sənətşünaslıq [üzrə] fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis.: 6213.01 / Elmira Hümbətova. - Bakı: 2022. - 157 s.

Sadıxov, F. Görkəmli alim-pedaqoq, bəstəkar, ictimai xadim, Qafqazın Kabalevskisi... / Fərahim Sadıxov // Azad Azərbaycan.-2022.- 12 noyabr. - S.7.

Elm, təhsil, mədəniyyətin inkişafı diqqət və qayğı tələb edir / O.Rəcəbov // Respublika.– 2020.– 9 fevral.– S.3.

Musiqili ömür: Oqtay Rəcəbov-80 / Ş.Əmirli // Mədəniyyət.– 2021.– 7 aprel.– S.7.

Oqtay Rəcəbovun yubileyinə həsr olunmuş konsert // Mədəniyyət.– 2022.– 11 may.– S.3.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Oqtay_Rəcəbov

Oqtay Məmmədağa oğlu Rəcəbov 1941-ci il aprelin 5-də Bakı şəhərində anadan olmuşdur. 1958–1963-cü illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) fizika fakültəsində təhsil almış, 1963-cü ildə Elmi-Tədqiqat Fizika İnstitutunun aspiranturasına qəbul olunmuşdur. Eyni zamanda, A.Zeynallı adına Musiqi Texnikumunda təşkil edilmiş bəstəkarlıq kursunda da təhsilini davam etdirmişdir. Həmin ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsinə daxil olmuş, görkəmli bəstəkar, professor C.Hacıyevin sinfində təhsil almışdır.

1970-ci ildə konservatoriyanı diplom işi kimi təqdim etdiyi simfonik poema ilə bitirmiş, həmin il C.Cabbarlı adına Azərbaycan Kinostudiyasında musiqi redaktoru vəzifəsində fəaliyyətə başlamışdır. Bu dövrdə bəstəkar "Anam Azərbaycanım", "Nəğmələr", "Necə unudum səni?", "Zəfəran", "Daha nə istəyirsən?" və digər yadda qalan mahnılar yaratmışdır.

Oqtay Rəcəbovun yaradıcılığı 1970-ci illərin əvvəllərində başlayıb. O, 1974–1976-cı illərdə I və II simfoniyalar, 1974-cü ildə violençel və simfonik orkestr üçün konsert, 1976-cı ildə isə a capella üçün segah muğamı kimi əsərlər bəstələmişdir. Həmçinin "Kəndimizin qəhrəmanı", "Qız, oğlan və şir", "Şahzadə – qara qızıl", "Toplan və kölgəsi" kimi sənədli filmlərə və 9 cizgi filmə musiqi bəstələmişdir.

Yaradıcılığının mühüm istiqamətlərindən biri pedaqoji fəaliyyətdir. O, eksperimental musiqi proqramlarının müəllifi kimi tanınır və bu istiqamətdə işlərini davam etdirib. Onun rəhbərliyi altında 1996–2010-cu illərdə ümumtəhsil və musiqi məktəbləri üçün 16 adda "Musiqi", "Musiqi ədəbiyyatı" dərslikləri, "Fortepianoda çalmaq üçün müntəxabat" və "Elementar musiqi nəzəriyyəsi" tədris vəsaitləri geniş tirajla nəşr olunmuşdur.

1978-ci ildə onun təşəbbüsü ilə Azərbaycan Televiziyasında "Məktəblilərin musiqi klubu" adlı yeni veriliş yaradılmışdır. Oqtay Rəcəbov həmçinin "Əlin cibində olsun" və "Şeytanın yubileyi" operettaları, "Tıq-tıq xanım" operası, a capella xoru üçün 8 Azərbaycan xalq rəqsi, simfonik orkestr üçün VI Simfoniya, soprano və simli alətlər orkestri üçün konsert, solistlər, xor, qiraətçi və simfonik orkestr üçün "Çingiz" Simfoniya-Rekviyem, xor və simfonik orkestr üçün "Heydər oratoriyası" və "Tərsinə çevrilmiş dünya" bədii filmə musiqi bəstələmişdir.

O, 4 opera, 3 musiqili komediya, 3 simfoniya, 2 oratoriya, 1 kantata və 500-dən çox mahnının müəllifidir. Həmçinin 20-dək filmə musiqi bəstələmişdir. Onun pedaqogika və musiqi sahəsində 10 monoqrafiyası, 70 dərsliyi, dərs vəsaiti və proqramları, 100-dən çox elmi məqaləsi vardır. Oqtay Rəcəbov Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Azərbaycan xalq musiqisi" kafedrasının professoru olmuşdur.

Oqtay Rəcəbov müxtəlif illərdə Respublika Komsomol mükafatının və Yusif Məmmədəliyev adına mükafatın laureatı olmuş, 1987-ci ildə "Əməkdar müəllim" fəxri adına, 2006-cı ildə isə "Tərəqqi" medalına layiq görülmüşdür. 2009-cu ildə Rusiya Pedaqoji və Sosioloji Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Oqtay Məmmədağa oğlu Rəcəbov 15 dekabr 2022-ci ildə vəfat etmişdir.

Oqtay Məmmədağa oğlu Rəcəbov zəngin yaradıcılığı, pedaqoji fəaliyyəti və Azərbaycan musiqi mədəniyyətinə verdiyi misilsiz töhfələrlə həm milli, həm də beynəlxalq səviyyədə tanınmış görkəmli bəstəkar və müəllim olmuşdur.

Sadıq Zərbəliyev – 75

(1951)

Qoşanağara ustası



Sadıq Sirac oğlu Zərbəliyev 1951-ci il aprelin 11-də Kürdəmir rayonunda musiqiçi ailəsində anadan olmuşdur. Atası zurna və balaban ifaçısı, qardaşı Ağabəy isə gözəl səsə malik xanəndə idi. Musiqiyə olan marağı atasından və qardaşından irsən almışdır.

Orta təhsilini Kürdəmir rayon 1 saylı orta məktəbdə tamamlayan Sadıq Zərbəliyev 1969-cu ildə hərbi xidmətə çağrılmışdır. Hərbi xidmətini başa vurduqdan sonra, 1973-cü ildə Bakıya gəlmiş və Respublikanın Əməkdar artisti Baba Salahovun ansamblında, xalq artistləri Vəli Qədimov və Aftandil İsrafilovla birgə fəaliyyətə başlamışdır.

1975-ci ildən etibarən SSRİ Xalq artisti və millət vəkili Zeynəb Xanlarova ilə uzunmüddətli əməkdaşlıq etmişdir. O, ABŞ, İordaniya, Suriya, Yəmən, Türkiyə, Əlcəzair, Tunis və Hollandiya kimi ölkələrdə səfərlər edərək Azərbaycan musiqi mədəniyyətini yüksək səviyyədə təmsil etmişdir.

1998-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycan mədəniyyətinin inkişafındakı böyük xidmətlərinə görə birbaşa Xalq artisti fəxri adına layiq görülmüşdür. Daha sonra, 2006-cı ildə Prezident İlham Əliyevin fərdi təqaüdünə layiq görülmüşdür.

Sadıq Zərbəliyev öz sənətkar istedadı, milli musiqi irsinin təbliğindəki xidmətləri və uzun illər boyu apardığı səmərəli fəaliyyətlə Azərbaycan musiqi mədəniyyətinin inkişafına sanballı töhfələr vermişdir.

Ədəbiyyat:

Ustad sənətkarın yubileyi qeyd olundu / R.Salmanov // Xalq qəzeti.– 2011.– 11 iyun.– S. 11.


İnternetdə:

https://az.wikipedia.org/wiki/Sadıq_Zərbəliyev

Qəmbər Hüseynli – 110

(1916-1961)

Bəstəkar



Qəmbər Muxtar oğlu Hüseynli 1916-cı il aprelin 16-da Gəncə şəhərində anadan olmuşdur. Gənc yaşlarından xalq musiqisinə dərin maraq göstərmiş, klassik muğamların əsaslarını öyrənmiş və bu biliklər sonradan onun bəstəkarlıq fəaliyyətində mühüm rol oynamışdır.

Qəmbər Hüseynli ilk musiqi təhsilini Gəncə Orta İxtisas Musiqi Məktəbində tar ixtisası üzrə almış və bu məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. Eyni zamanda, 1929–1934-cü illərdə Gəncə Pedaqoji Texnikumunda təhsil almışdır. Daha sonra Bakı Musiqi Texnikumunda violonçel (A.S.Şvartsın sinfi) və bəstəkarlıq (Q.Z.Burşteynin sinfi) üzrə təhsilini davam etdirmişdir.

1939-cu ildə Şuşa Musiqi Texnikumuna direktor təyin olunan Qəmbər Hüseynli burada bir il fəaliyyət göstərdikdən sonra Bakıya qayıtmış, Azərbaycan Dövlət Filarmoniyasının nəzdindəki Xalq Çalğı Alətləri Orkestrində dirijor köməkçisi kimi fəaliyyətə başlamışdır. Həmin dövrdə Üzeyir Hacıbəylinin təşəbbüsü ilə yaradılan "Sazçı Qızlar" ansamblının təşkilatçısı və bədii rəhbəri olmuşdur. O, aşıq Teymur Hüseynovun ifasında 55 ənənəvi aşıq havasını nota köçürərək ansambl üçün işləyib hazırlamışdır.

Qəmbər Hüseynli 1951–1954-cü illərdə A.Zeynallı adına Bakı Musiqi Texnikumunda bəstəkarlıq üzrə (B. Zeydmanın sinfi) ikinci dəfə ali musiqi təhsili almışdır.

Onun yaradıcılığı çoxşaxəlidir. Gəncə Dövlət Dram Teatrında səhnəyə qoyulmuş "Şeyx Sənan", "Qatır Məmməd", "Almaz", "Bəxtsiz cavan", "Solğun çiçəklər", "Namus" və digər dramatik əsərlərə musiqi bəstələmişdir. Bəstəkarın yaradıcılığı həmçinin xalq və uşaq mahnıları sahəsində də zəngindir. O, 300-dən artıq mahnı və romansın, eləcə də onlarla uşaq nəğməsinin müəllifidir. Xüsusilə, "Cücələrim" mahnısı dünya miqyasında şöhrət qazanmış, 100-dən artıq dildə ifa olunmuşdur.

"İlk məhəbbət", "Ay işığında", "Tel nazik", "Tellər oynadı", "Çeşmə başında", "Düşər yadıma", "Gecələr uzanaydı", "Dolanım başına" kimi mahnıları bu gün də Azərbaycan musiqisevərləri tərəfindən sevilərək ifa olunur.

Qəmbər Hüseynli 1961-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adına, həmçinin "Şərəf nişanı" ordeninə layiq görülmüşdür.

Qəmbər Muxtar oğlu Hüseynli 1961-ci il avqustun 1-də vəfat etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 2015-ci il tarixli sərəncamı ilə Qəmbər Hüseynlinin anadan olmasının 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunmuş, 2018-ci ilin yanvar ayında isə doğma şəhəri Gəncədə onun xatirəsinə heykəl ucaldılmışdır.

Qəmbər Hüseynli Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrindən biri kimi milli musiqi irsinin qorunub inkişaf etdirilməsində müstəsna xidmətlər göstərmişdir. Onun həm peşəkar musiqiçi, həm də maarifçi kimi fəaliyyəti müasir musiqi mədəniyyətimizin formalaşmasına mühüm töhfələr vermişdir. Xüsusilə "Cücələrim" mahnısı vasitəsilə dünya səviyyəsində tanınan Q.Hüseynli, xalq və klassik musiqi elementlərini sintez edərək zəngin və unikal yaradıcılıq irsi qoymuşdur.

Ə d ə b i y y a t :

Çarli Çaplinin salam göndərdiyi bəxtəvər bəstəkar: Onun romansları hansı qəlbləri titrətməyib ki... / T.Məhərrəmova // Kaspi.– 2020.– 17 aprel.– S.6.

Qəmbər Hüseynlinin vəfatının ildönümündə anım tədbiri // Mədəniyyət.– 2021.– 4 avqust .– S.5.

Qəmbər Hüseynlinin məzarı ətrafında uşaq parkı salınıb / Z.Muradov // 525-ci qəzet.– 2023.– 18 aprel.– S.10.

Qəmbər Hüseynlinin xatirəsinə // Mədəniyyət.– 2024.– 31 may, №40.– S.4.

Eyni gündə anadan oldular...: Qəmbər Hüseynli və Çarli Çaplini nə birləşdirirdi? / Y.Bayramova // Yeni Azərbaycan.– 2025.– 16 aprel (№62).– S.8.

Rəfibəyli, L. Bəstəkar Qəmbər Hüseynlinin yaradıcılığında üslub xüsusiyyətləri: Sənətşünaslıq [üzrə] fəlsəfə d-ru e. dər. al. üçün təq. ol. dis-nın avtoreferatı: 6213.01 /Lalə Rəfibəyli. - Bakı: 2025. - 23, [1] s.:

https://az.baku-art.com/az/bu-gun-emekdar-inces-nt-xadimi-b-st-kar-q-mb-r-huseynlinin-anim-g-n-d-r

Zümrüd Məmmədova – 70

(1956)

Xanəndə



Ədəbiyyat:

Muğam sənətində ifaçılıq ənənələri : dərs vəsaiti / tərt. ed. Zümrüd Məmmədova; elmi red. R. Zöhrabov; Azərb. Resp., Təhsil Nazirliyi, Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyası. - Bakı: Mütərcim, 2017. - 95, [1] s.

Xanəndəlik sənəti dünya musiqisinin incisidi: Mehriban xanım Əliyeva Azərbaycan muğam sənətinin qorunmasına və inkişafına xüsusi diqqət, qayğı göstərir / Z.Məmmədova // Azərbaycan.– 2023.– 7 iyun.– S.9.

Nə qədər ki nəfəsim gəlir, oxuyacağam : Xalq artisti Zümrüd Məmmədova ilə müsahibə / Zümrüd Məmmədova; müsahibəni apardı Ş. Əliqızı, Ş. Dadaşova, R. Şahbazi // İki sahil.-2016.- 28 dekabr.- S.10.

"Mənim silahım nəğmələrimdir" / Zümrüd Məmmədova // Xalq qəzeti.-1998. - 8 oktyabr.- S.5.

İnternetdə:

https://musicacademy.edu.az/az/laboratoriya-elmi-ishchileri2/1511-mamedova-zumrud.html

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000540564

Zümrüd Mövlud qızı Məmmədova 1956-cü il aprelin 18-də Quba rayonunun İkinci Nügədi kəndində ziyalı ailəsində anadan olmuşdur.

Zümrüd Məmmədova 1976-cı ildə Asəf Zeynallı adına Musiqi Kollecinin muğam şöbəsini, 1983-cü ildə isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Musiqili Komediya aktyorluğu fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

Peşəkar səhnə fəaliyyətinə 1978-ci ildə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında solist kimi başlamışdır. Həmin dövrdən etibarən bir çox beynəlxalq və yerli festivallarda iştirak etmiş, müxtəlif müsabiqələrdə laureat adlarına və birinci dərəcəli diplomlara layiq görülmüşdür. 1972-ci ildə "Turac təranələri" radio olimpiadasının qalibi olmuş, 1973-cü ildə isə VLKSM-in 50 illiyinə həsr olunmuş festivalda birinci mükafatla təltif edilmişdir.

Zümrüd Məmmədova Vyetnamda (1982) "Xalqlar Dostluğu" medalı ilə təltif olunmuş, eyni zamanda Xo-Şi-Min şəhərinin fəxri vətəndaşı adına layiq görülmüşdür. 1998-ci ildə Bağdadda keçirilən "Babilistan" festivalında böyük uğur qazanmışdır.

Azərbaycanın bütün bölgələrində, eləcə də Yaponiya ("Min-On" – İpək Yolu festivalı, 1989), Kanada, Fransa, İsrail, İngiltərə, Norveç, İsveç, Hindistan, Qırğızıstan, Almaniya, Hollandiya, Belçika, İtaliya, Şri-Lanka, Əfqanıstan, Əlcəzair və 20-dən artıq ərəb və Afrika ölkəsində Azərbaycan musiqisini, xüsusilə muğam sənətini yüksək səviyyədə təmsil etmiş, ölkəmizin bayrağını beynəlxalq səviyyədə ucaltmışdır.

Zümrüd Məmmədovanın sənətdəki xidmətləri dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. 1998-ci ildə ona "Əməkdar artist", 2003-cü ildə isə "Xalq artisti" fəxri adları verilmişdir. 2006-cı ildə Prezident İlham Əliyevin sərəncamı ilə fərdi təqaüdə layiq görülmüşdür.

1990-cı ildən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "Nümunəvi nəfəs alətləri" orkestrinin solisti kimi fəaliyyət göstərir. Uzunmüddətli və qüsursuz xidmətlərinə görə 10 və 15 illik fəaliyyət dövrlərində medallarla təltif olunmuşdur.

2000-ci ildən etibarən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dosent kimi pedaqoji fəaliyyət göstərmişdir. Eyni zamanda, Azərbaycan Milli Konservatoriyasının nəzdində fəaliyyət göstərən İncəsənət Gimnaziyasında müəllim kimi çalışır.

2014-cü ildən isə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Elmi-Tədqiqat Laboratoriyasında böyük elmi işçi kimi fəaliyyət göstərir. Burada muğam sənətinin elmi əsaslarla sistemləşdirilməsi və tədrisi ilə məşğuldur.

2017-ci ildən "Mədəni Əlaqələrin İnkişafına Dəstək" İctimai Birliyinin təsisçilərindən biri və sədridir. Bu qurumun fəaliyyəti çərçivəsində bir sıra mühüm layihələr həyata keçirilmişdir. 2020-ci ildə Bakı Musiqi Akademiyası ilə birgə təşkil olunmuş "Azərbaycan Musiqisinə qarşı Aparılan İşğalçılıq Siyasətinə Dair" beynəlxalq onlayn konfrans-konsert bu fəaliyyətin bariz nümunəsidir.

2019-cu ilin dekabrında Bakı Musiqi Akademiyası və Estoniya İncəsənət və Musiqi Akademiyasının əməkdaşlığı çərçivəsində bəstəkarın tar və Estoniyanın milli aləti olan kannel üçün yazdığı "Mystic" adlı duetinin beynəlxalq premyerası keçirilmişdir.

2020-ci ilin noyabrında isə Türkiyə Mədəniyyət Nazirliyinin dəstəyi ilə Ankara və Adana şəhərlərində "Kim-lik" adlı pantomim tamaşasına bəstələdiyi musiqilər səhnələşdirilmişdir.

Zümrüd Məmmədova hazırda Bakı Musiqi Akademiyasının doktorantı və Azərbaycan Bəstəkarlar İttifaqının "Gənclərlə iş" şöbəsinin sədridir. Onun elmi fəaliyyəti Azərbaycan muğam sənətinin və milli musiqi ənənələrinin sistemli şəkildə tədqiqinə yönəlmişdir.

Əsas elmi və metodik nəşrləri arasında "Muğam sənətində ifaçılıq ənənələri" dərs vəsaiti (Bakı: Mütərcim, 2017), "Xanəndə yaradıcılığında mahnı janrının əhəmiyyəti" metodik tövsiyə (Bakı, 2010) və "Azərbaycan musiqi mədəniyyətinin inkişafında muğam məclislərinin rolu" metodik tövsiyə (Bakı, 2008) yer alır.

APREL

20

Xurşid Ağayeva – 120

(1906-1953)

Musiqişünas



Ədəbiyyat:

Qadınlar Azərbaycanın musiqi həyatında = Women in Azerbayjan s Muzic / Tərtibçi və red. A.Bayramova. - Bakı: OKA Ofset, 2004. - 115 s.

https://az.wikipedia.org/wiki/Xurşid_Ağayeva

Xurşid Həsən bəy qızı Ağayeva 1906-cı il aprelin 20-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. O, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk sədr müavini, tanınmış dövlət xadimi və maarifçi Həsən bəy Ağayevin qızıdır.

1930-cu ildə musiqi müəllimlərinin peşə hazırlığını artırmaq məqsədilə Moskva İxtisasartırma İnstitutuna göndərilən Xurşid Ağayeva 1935-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını (indiki Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası) müvəffəqiyyətlə bitirmişdir.

Musiqi nəzəriyyəsi və musiqi tarixi sahəsində fəaliyyət göstərən alim, bu sahədə yazılmış bir sıra tədris vəsaitlərinin Azərbaycan dilinə tərcüməsində yaxından iştirak etmişdir. 1940-cı ildən Azərbaycan Dövlət Konservatoriyasında elmi işlər üzrə prorektor, 1944–1946-cı illərdə isə bu ali təhsil müəssisəsində musiqi tarixi fənnindən dərs demişdir.

Xurşid Ağayeva Azərbaycan musiqişünaslığında xüsusi əhəmiyyətə malik olan ilk "Üzeyir Hacıbəyov" monoqrafiyasının müəllifidir. Bununla yanaşı, o, Azərbaycan musiqi tarixinə dair bir sıra elmi məqalələrin və ölümünə görə tamamlanmamış "XIX əsrdə Azərbaycan musiqi mədəniyyəti ocaqları" adlı tədqiqat əsərinin də müəllifidir.

Musiqi elminin inkişafındakı xidmətlərinə görə Xurşid Ağayeva 1943-cü ildə Azərbaycan SSR Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Xurşid Ağayeva 1953-cü il dekabrın 3-də vəfat etmişdir.

20

Əlikram Hüseynov - 100

(1926-2006)

Tarzən



Ədəbiyyat:

Hüseynov, Ə. Oxu tar / Əlikram Hüseynov; Toplayıb tərtib edən: S. Q. Quliyeva.– Bakı: Günəş, 2005.– 112 səh.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Əlikram_Hüseynov

Əlikram Həsən oğlu Hüseynov 1926-cı il aprel ayının 20-də Bakı şəhərində anadan olmuşdur. Musiqi təhsilinə 1942–1946-cı illərdə Asəf Zeynallı adına Musiqi Məktəbində başlamış, burada dövrünün tanınmış sənətkarları — Əhməd Bakıxanov və Adil Gəraydan muğam sənətinin incəliklərini öyrənmişdir.

1947-ci ildə gənc tarzən kimi ilk böyük uğurunu Üzeyir Hacıbəyov və Cəfər Cəfərovun iştirakı ilə keçirilən musiqi müsabiqəsində qazanmış, burada "Orta Mahur" muğamını ifa edərək birinci yerə layiq görülmüşdür. Həmin il beynəlxalq arenada da Azərbaycan musiqisini layiqincə təmsil edərək Praqada keçirilən festivalda eyni muğamı səsləndirmişdir.

Əlikram Hüseynovun ifaçılıq fəaliyyəti bir sıra məşhur sənətkarlarla əməkdaşlıqda öz əksini tapmışdır. 1959, 1960 və 1961-ci illərdə Azərbaycanın görkəmli opera müğənnisi Bülbülü müxtəlif konsert və tədbirlərdə müşayiət etmişdir. Peşəkar fəaliyyətə ilk təyinatla Şəki şəhərində başlamış, 1957-ci ildən isə 2006-cı ilə qədər Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında tarzən kimi çalışmışdır.

Opera səhnəsində onun ifasında "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah İsmayıl" və "Aşıq Qərib" kimi klassik operalardakı muğam parçaları tamaşaçılar tərəfindən yüksək dəyərləndirilmişdir. Rübabə Muradova, Zeynəb Xanlarova, Rəsmiyyə Zeynalova, Arif Babayev, Baba Mahmudoğlu, Mənsum İbrahimov kimi tanınmış sənətkarlarla uzun illər əməkdaşlıq etmişdir.

Milli musiqi mədəniyyətinə verdiyi töhfələrə görə 1991-ci il sentyabrın 19-da Əlikram Hüseynov "Azərbaycan Respublikasının əməkdar artisti" fəxri adına layiq görülmüşdür. Onun 80 illik yubileyi 2006-cı il aprelin 19-da Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında keçirilmişdir.

Əlikram Hüseynov 2006-cı il avqustun 18-də Bakıda vəfat etmiş, köhnə Yasamal qəbiristanlığında dəfn olunmuşdur.

Ədalət Vəzirov – 75

(1951-2002)

Kamança ifaçısı



Ədalət Səfərəli oğlu Vəzirov 1951-ci il aprelin 27-də Xızı rayonunun Dizəvər kəndində musiqiçi ailəsində anadan olmuşdur. Erkən yaşlarından musiqiyə xüsusi maraq göstərmiş və 1963-cü ildə Bülbül adına Orta ixtisas musiqi məktəbinə daxil olaraq burada təhsilini müvəffəqiyyətlə başa vurmuşdur. 1969-cu ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına (indiki Bakı Musiqi Akademiyası) qəbul olunmuş, burada professional kamança ifaçılığı üzrə sənət təhsilini davam etdirmişdir.

1974-cü ildə Moskvada keçirilən V Beynəlxalq Musiqi Müsabiqəsində iştirak etmiş və müsabiqənin qalibləri arasında yer alaraq, yüksək ifaçılıq məharəti ilə tanınmışdır. 1993-cü ildən etibarən konservatoriyaya (BMA) müəllim kimi dəvət olunmuş, kamança ifaçılığının tədrisi sahəsində metodik tövsiyələr hazırlamışdır. O, həmçinin bakalavr dərəcəsi üzrə ixtisas və muğam proqramlarının müəllifi olmuş, bəstəkarlar Z.Bağırov və H.Xanməmmədovun kamança ilə simfonik orkestr üçün yazdığı konsertlərinin ifasına dair metodik göstərişlər tərtib etmişdir.

Ədalət Vəzirovun pedaqoji və metodik fəaliyyəti uşaq musiqi məktəbləri və musiqi texnikumlarında sinif konsertlərinin, solo çıxışların təşkili kimi əyani-praktik təcrübəyə əsaslanmışdır. O, uzun müddət Əməkdar artist Bəhram Salahovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblında, eləcə də SSRİ Xalq artisti Zeynəb Xanlarovanın ansamblında çalışmışdır. ABŞ, Kanada, Misir, İraq, İsrail, Yaponiya və digər ölkələrə qastrol səfərləri çərçivəsində milli musiqimizi və kamança ifaçılığını ustalıqla təqdim etmişdir.

1997-ci ildə Səmərqənddə keçirilən beynəlxalq muğam simpoziumunda iştirak etmiş, burada "Qran Pri" mükafatına layiq görülmüşdür. 1999-cu ildə Türkiyəyə dəvət olunmuş və "Tekfen" Qara Dəniz Solistləri Orkestrində çıxış etmişdir. Bu orkestr Xəzər, Qara və Aralıq dənizləri hövzəsində yerləşən 20-dən artıq ölkənin istedadlı musiqiçilərini bir araya gətirmiş və Ədalət Vəzirov burada Azərbaycanın musiqi sənətini peşəkarcasına təmsil etmişdir. 2001-ci ilin iyun ayında onun iştirakı ilə keçirilən konsertlər İstanbul Beynəlxalq Musiqi Festivalının proqramına daxil edilmişdir.

Azərbaycan musiqi mədəniyyətinə verdiyi töhfələrə görə 1997-ci ildə "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adına layiq görülmüşdür.

Ədalət Vəzirov 2002-ci il oktyabrın 5-də Türkiyənin İstanbul şəhərində vəfat etmişdir.

Onun sənət və həyat yoluna həsr olunmuş "Kamanın Ədalət ucalığı" adlı sənədli film çəkilmişdir.

Ədəbiyyat:

Vəzirova, A. Ədalət Vəzirovun interpretasiyasında muğamların təfsir xüsusiyyətləri / A.Vəzirova // Elmi əsərlər / Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.– 2022.– №31.– S.79-84.

Fərəcov, S. O, böyük kamança ustadının sənət varisi idi...: Ədalət Vəzirov mahir ifası ilə yarıda qalan ömrünə əlavə ömür qatıb / Savalan Fərəcov // Mədəniyyət.-2016.- 5 oktyabr.- S. 14.

İnternetdə

https://az.wikipedia.org/wiki/Ədalət_Vəzirov

https://az.baku-art.com/az/gorkemli-kaman-ustasi-emekdar-artist-dal-t-v-zirovun-70-yash-tamam-olur

Ədilə Hüseynzadə – 110

(1916-2005)

Bəstəkar



Ədilə Hacağa qızı Hüseynzadə 1916-cı il aprelin 29-da Bakıda anadan olmuşdur. Uşaqlıqdan musiqiyə maraq göstərmiş, yeddiillik musiqi məktəbini bitirmişdir. Dəqiq elmlərə böyük həvəsindən ötəri əvvəlcə N.Nərimanov adına Sənaye Texnikumuna, sonra isə Sənaye İnstitutuna (indiki ADNSU) daxil olmuş və hər iki təhsil müəssisəsini yüksək qiymətlərlə başa vuraraq mühəndis-texnoloq ixtisasına yiyələnmişdir.

XX əsrin 40-cı illərində Üzeyir Hacıbəylinin təşəbbüsü ilə musiqi sahəsinə gəlmiş, 1942–1948-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) xalq musiqisi şöbəsində Üzeyir bəyin sinfində təhsil almışdır. Ədilə Hüseynzadə konservatoriyanı bəstəkarlıq ixtisası üzrə bitirmiş ilk azərbaycanlı qadın olmuşdur. 1944-cü ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü idi.

O, müxtəlif janrlarda uğurla fəaliyyət göstərmiş, simfonik poema, simli kvartet, kantata və xor miniatürləri yaratmış, lakin yaradıcılığında romans janrı üstünlük təşkil etmişdir. Milli musiqimizdə romans janrının formalaşmasında onun özünəməxsus yeri vardır. Nizaminin sözlərinə yazılmış "Vəslin həvəsi" romansı, eləcə də Nəsimi, Füzuli, Natəvan, Səməd Vurğun, Nizami Xəzri, Bəxtiyar Vahabzadə, Ramiz Rza və Nəriman Rəfibəyli kimi şairlərin şeirlərinə bəstələdiyi romanslar və xüsusilə "Duyğular" vokal silsiləsi musiqimizin inciləri hesab edilir. Ədilə Hüseynzadənin əsasən vokal əsərlərindən ibarət olan yaradıcılığına kamera musiqisi də daxil olmaqla, bir sıra böyük həcmli əsərlər də daxildir.

Pedaqoji fəaliyyətlə də məşğul olmuş Ədilə Hüseynzadə 1953–1988-ci illərdə Bülbül adına Orta İxtisas Musiqi Məktəbində kompozisiya fənnini tədris etmiş, gənc istedadların üzə çıxarılmasına böyük töhfələr vermişdir.

Bəstəkar həmçinin gözəl vokal ifaçısı kimi də tanınmışdır. 1945-ci ildə Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettası əsasında çəkilmiş bədii filmdə Asya rolunun vokal partiyasını səsləndirmişdir. Onun Səməd Vurğunun sözlərinə bəstələdiyi xor və simfonik orkestr üçün "Gözəl Vətən", Tofiq Mütəllibovun şeirinə yazdığı "Sülhün səsi" kantatası, pambıq ustası Bəsti Bağırovaya həsr etdiyi simfonik poemanı və digər əsərləri yüksək qiymətləndirilmişdir.

1982-ci ildə Azərbaycan SSR-nin "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Ədilə Hacağa qızı Hüseynzadə 2005-ci il iyulun 20-də vəfat etmişdir.

Ədəbiyyat:

Azərbaycan bəstəkarlarının kamera ansamblı əsərlərinin ifaçılıq xüsusiyyətləri: Dərs vəsaiti / X. Əhmədova; elmi red. N. Abbaszadə; Azərb. Resp. Təhsil Nazirliyi, Üzeyir Hacıbəyli ad. Bakı Musiqi Akademiyası.– Bakı: [Mütərcim], 2021.– 141, [2] s.,

Dadaşzadə, Z. Bəstəkar Ədilə Hüseynzadə. Məhəbbətlə doğulmuşam /Zümrüd Dadaşzadə [ön söz əvəzi]. - Bakı: [Maxofset], 2019. - 165, [1] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Ədilə_Hüseynzadə

Ənvər Sadıqov – 60

(1966)

Qarmon ifaçısı



Ənvər Hidayət oğlu Sadıqov 1966-cı il aprelin 30-da Bakı şəhərində anadan olmuşdur. Musiqi fəaliyyətinə 1978-ci ildə "Bakı Fəhləsi" mədəniyyət evində "Azərbaycan qarmonu" sinfinə daxil olaraq başlamışdır. 1983-cü ildə 254 nömrəli orta məktəbi bitirdikdən sonra Hacı Zeynalabdin Tağıyev adına klubda "Azərbaycan qarmonu" dərnəyinin rəhbəri kimi fəaliyyət göstərmişdir. 1984–1986-cı illərdə hərbi xidmətdə olmuş, xidmətini başa vurduqdan sonra yenidən həmin klubda müəllim kimi çalışaraq musiqi fəaliyyətini davam etdirmişdir.

Ənvər Sadıqovun professional səhnə fəaliyyəti 1990-cı ildə Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında başlamışdır. 1994–2006-cı illərdə xalq artisti Brilliant Dadaşovanın ansamblında musiqiçi və aranjimançı kimi fəaliyyət göstərmişdir. 2000-ci ildən özünün rəhbərlik etdiyi "Qaytağı" instrumental ansamblını yaratmışdır.

Bütün bu illər ərzində Ənvər Sadıqov Norveç, Böyük Britaniya, Rusiya, ABŞ, İsrail, Kipr, Fransa, Avstriya, İtaliya, Almaniya, Belçika, Türkiyə, Ukrayna, Mərakeş, Gürcüstan və Çin kimi ölkələrdə müxtəlif konsert salonlarında çıxış etmiş, Heydər Əliyev Fondu, UNESCO və İSESKO-nun təşkil etdiyi musiqi tədbirlərində Azərbaycan musiqisini yüksək səviyyədə təmsil etmişdir.

Təhsilini davam etdirərək 2006-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Musiqi fakültəsinə daxil olmuş, bitirdikdən sonra 2015–2017-ci illərdə Azərbaycan Milli Konservatoriyasının xalq çalğı alətləri fakültəsində magistr təhsili almışdır. 2017-ci ildən konservatoriyada müəllim kimi fəaliyyət göstərir və 2019-cu ildən "İnstrumental-muğam" kafedrasında Azərbaycan qarmonu üzrə baş müəllim vəzifəsində çalışır.

2001-ci ildən başlayaraq Ənvər Sadıqov yeni Azərbaycan qarmonunun üzərində eksperimentlər apararaq 2007-ci ildə "ReneveR" adlı üç oktavalı və yeni registrli qarmonun yaradılmasına nail olmuşdur. Bu alət 2013-cü ildə Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi tərəfindən təsdiqlənmiş, 2018-ci ildə isə Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyində ixtira kimi patentləşdirilmişdir.

Ənvər Sadıqovun solo konsertləri, o cümlədən 2016-cı ildə Bakı Beynəlxalq Muğam Mərkəzində keçirilmiş "Təəssürat" proqramı, həmçinin 2017-ci ildə Qəbələdə H.Əliyev Konqres Mərkəzində və Heydər Əliyev Mərkəzində verdiyi konsertlər musiqisevərlər tərəfindən yüksək qiymətləndirilmişdir. O, 2018-ci ildə X Qəbələ Beynəlxalq Musiqi Festivalında da iştirak etmişdir.

Ənvər Sadıqovun müxtəlif illərdə çıxardığı albomları arasında "Take Five" (1999), "2000-2010 seçmələri", "2010-2015 seçmələri" və "Təəssürat" konserti xüsusi yer tutur. Həmçinin 1997, 2003, 2004, 2005 və 2008-ci illərdə "Take Five", "Tanqo", "Güllərim", "Libertanqo" və "Vals" adlı musiqi klipləri işıq üzü görmüşdür.

Ənvər Sadıqov 2001-ci ildə Azərbaycan Demokratik Tələbə Gənclər Təşkilatının "Zirvə Mükafatı", 2006-cı ildə "Bakılı" Beynəlxalq Mədəniyyət Cəmiyyətinin "HUMAY" mükafatı, 2007-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 2014-cü ildə isə Azərbaycan Respublikasının Xalq artisti fəxri adlarına layiq görülmüşdür

Ədəbiyyat:

Azərbaycan qarmonunun təkmilləşdirilməsinə dair / Ə.Sadıqov // Konservatoriya.– 2020.– № 4(49).– S.8-16.

Musiqiçilərimiz ilk dəfə Vyanada akkordeon festivalında çıxış ediblər // Mədəniyyət.–2023.– 3 mart.– S.8.

Barmaqlarına borclu olan adam: Ənvər Sadıqov-58 / E.Eldaroğlu // Xalq Cəbhəsi.– 2024.– 2 may, №14.– S.15.

Qarmonun şirmayi dillərində süzən barmaqlar...: Ənvər Sadıqov-59 / E.Eldaroğlu // Xalq Cəbhəsi.– 2025.–1 may(№16).– S.15.


İnternetdə:

https://az.wikipedia.org/wiki/Ənvər_Sadıqov

https://qarmon.az/az/azerbaycan-qarmonu/ifacilar/heyat-ve-yaradiciliq/47

Ceyhun Mirzəyev – 80

(1946-1993) *Aktyor, rejissor*



Ceyhun Cəmil oğlu Mirzəyev 1946-cı il aprelin 9-da Ağdam rayonunun Abdal-Gülablı kəndində anadan olmuşdur. O, M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) rejissorluq fakültəsini bitirmiş, daha sonra təhsilini Moskvada davam etdirmişdir.

Ceyhun Mirzəyevin 47 illik ömrünün 35 ili Azərbaycan kinosunun inkişafına həsr olunmuşdur. Kino fəaliyyətinə uşaq yaşlarında başlamışdır. O, doqquz yaşında olarkən "Görüş" (1955) filmində Şıxəlinin oğlu obrazını canlandırmışdır. On iki yaşında isə "Ögey ana" (1958) filmində İsmayıl obrazını peşəkar aktyor səviyyəsində yaratmışdır.

Tələbəlik illərində bir sıra filmlərdə yaddaqalan obrazlar ifa etmişdir. Rejissor Həsən Seyidzadənin "Yenilməz batalyon" filmində Teymur, "Dəli Kür" filmində Osman, Həsən Seyidbəylinin "Cazibə qüvvəsi" novellasında Səməndər, Məmməd Dadaşovun "Qanun naminə" filmində isə Absalam obrazlarını canlandırmışdır.

1971-ci ildən etibarən filmlərdə aktyor kimi çıxış etməklə yanaşı, "Azərbaycanfilm" kinostudiyasında müxtəlif vəzifələrdə, o cümlədən "Mozalan" kino-jurnalında rejissor assistenti və sonradan rejissor kimi çalışmışdır. O, burada 100-ə yaxın bədii və sənədli süjetin müəllifi olmuşdur. "Keyfiyyət nişanı", "Dəyirman bildiyini eyləyir", "Qliserin qıtlığı", "Daş hələ də dözür", "Kəsə cavab", "Qunduzdan söhbət açaq", "İsrafçılar", "Bəxtəvər" və s. süjetlər onun rejissor fəaliyyəti dövründə ərsəyə gəlmişdir.

Ceyhun Mirzəyevin aktyor kimi yaratdığı obrazlar öz orijinallığı, səmimiyyəti, temperamentinə və fərdi üslubuna görə seçilir. O, müxtəlif filmlərdə ərköyün, balaca İsmayıldan başlayaraq, hərbi borcunu vicdanla yerinə yetirən zabit İsmayıl, satqınlıq üstündə atası tərəfindən cəzalandırılan Fortunato, vətənpərvər Manolo, inqilabçılara yardım göstərməyə çalışan Teymur, xalqın maariflənməsi uğrunda çalışan Osman, Böyük Vətən müharibəsinin başlanğıcında ön cəbhəyə yollanan əsgər, fırıldaqçılıqla pul qazanan İbadulla, qaçaqlar tərəfindən malı əlindən alınmış tacir və digər obrazları ustalıqla ifa etmişdir.

Ceyhun Mirzəyevin böyük ekran üçün ilk rejissorluq işi "Bəyin oğurlanması" bədii filmi olmuşdur. O, bu filmi 1985-ci ildə Vaqif Mustafayevlə birlikdə ərsəyə gətirmişdir. Əyləncəli kinokomediya janrında çəkilmiş bu film insan səadəti və bu səadət uğrunda aparılan mübarizə ideyasını ön plana çıxarır.

Onun son rejissorluq işi isə ssenari müəllifi Vaqif Mustafayev olan "Fəryad" (1993) bədii filmidir. Bu ekran əsərində baş rolun ifaçısı kimi çıxış edən Ceyhun Mirzəyev ölümündən sonra "Humay" mükafatına layiq görülmüşdür. Həmçinin, Azərbaycan filmlərinin III festival-müsabiqəsində ekran qəhrəmanlığının bədii həllində göstərdiyi fədakarlığa və yaradıcılıq axtarışlarına görə diplom və mükafatla təltif edilmişdir. Təəssüf ki, o, bu filmin ekranlara çıxmasını görə bilməmişdir.

Ceyhun Cəmil oğlu Mirzəyev 1993-cü il martın 5-də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Sui-qəsddən qurtulub, sevgidən ölən İsmayılın sirri – Şəhid ziyalı / R.Qurbanlı // Unikal.– 2020.– 29 fevral.– S.20.

Ceyhun Mirzəyevin Gülablı "Fəryad"ı / R.Qurbanlı // Azərbaycan.– 2021.– 9 aprel.– S.6.

"Bəyin oğurlandığı" kənd // Mədəniyyət.– 2023.– 2 avqust.– S.4.

"Ögey ana" və "Fəryad"ın İsmayılı...: Ceyhun Mirzəyevin doğum günüdür / Y. Bayramova // Yeni Azərbaycan.– 2024.– 9 aprel, №62.– S.8.

Uşaqlığımızın İsmayılı / F.Bilasuvarlı // 525-ci qəzet.– 2025.– 10 aprel(№59).– S.10.

Qurbanlı, R. İsmayılın "Ögey ana"da başlayan həyat yolu "Fəryad"la bitdi / Ramilə Qurbanlı // Üç nöqtə.-2019.- 4 yanvar.- S.12.

Kinomuzun Ceyhun Mirzəyev məqamı // Bizim yol.-2015.- 9 aprel.- S.15.

"Fəryad" filminin kadrarxası // Azadlıq.-2016.- 9 may.- S.14.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Ceyhun_Mirzəyev

Nazir Rüstəmov – 70

(1956)

Aktyor



Nazir Mürsəl oğlu Rüstəmov 1956-cı il aprelin 12-də Ağcabədi rayonunda anadan olmuşdur. 1976–1980-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino rejissorluğu fakültəsində təhsil almış, 1990–1991-ci illərdə isə Moskvada rejissorluq kurslarını bitirmişdir.

Əmək fəaliyyətinə 1982-ci ildə Ağdam Dövlət Dram Teatrında başlamışdır. 1994-cü ilədək burada aktyor, rejissor, daha sonra isə bədii rəhbər vəzifələrində çalışmışdır. Sonrakı illərdə Sumqayıt Dövlət Musiqili Dram Teatrı, Füzuli Dövlət Dram Teatrı, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Azərbaycan Dövlət Dərbənd Dram Teatrı və Ukraynanın Donetsk Dövlət Dram Teatrında aktyor və rejissor kimi fəaliyyət göstərmişdir.

2003-cü ildən etibarən Şuşa Dövlət Musiqili Dram Teatrında ikinci dərəcəli quruluşçu rejissor vəzifəsində çalışır. Bu illər ərzində Sarı Zakir (Elçin, Şuşa dağlarını duman bürüyüb), Həmzə bəy (Əbdürrəhim bəy Haqverdiyev, Dağılan tifaq), Fətəli şah (Hüseynbala Mirələmov, Güllələnmiş heykəllərin fəryadı), Həsənzadə (İlyas Əfəndiyev, Sən həmişə mənimləsən), Yan (Albert Kamyu, Anlaşılmazlıq) kimi yaddaqalan və xarakterik rollar ifa etmişdir.

Rejissor kimi də zəngin fəaliyyət göstərmiş, bir sıra tamaşalara səhnə quruluşu vermişdir. Onun rejissor kimi səhnələşdirdiyi əsərlər sırasında Cəlil Məmmədquluzadənin "Kamança", Hüseynbala Mirələmovun "Güllələnmiş heykəllərin fəryadı", İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən", Anton Çexovun "Təklif" və "Qu quşunun nəğməsi", A.Kamyunun "Anlaşılmazlıq", Səid Rüstəmov və Süleyman Rüstəmin "Durna", eləcə də Nurəddin Qənbərin "Meymunun dəfni" kimi tamaşaları yer alır.

2005-ci ildə səhnəyə qoyduğu və baş rolda – Vasili Vasilyeviç Svetlovidov obrazında çıxış etdiyi Anton Pavloviç Çexovun Qu quşunun nəğməsi tamaşası, Azərbaycan Teatr Xadimləri İttifaqının keçirdiyi "Boş məkanın dolğunluğu" teatr festivalında "Bədii əsərin ən yaxşı səhnə təcəssümü" nominasiyası üzrə diplomla təltif edilmişdir.

Nazir Rüstəmov 120-dən çox tamaşada müxtəlif rollar ifa etmişdir. O, eyni zamanda şair kimi də fəaliyyət göstərir və poeziya sahəsində yaradıcılıqla məşğuldur.

Nazir Rüstəmov 9 mart 2017-ci ildə "Azərbaycanın Əməkdar artisti" fəxri adına, eləcə də həmin ildə Cəfər Cabbarlı mükafatına layiq görülmüşdür.

Ədəbiyyat:

Nizamiqızı , H. Aktyor əbədiyyətə qovuşanda... / H.Nizamiqızı // Mədəniyyət.– 2023.– 15 dekabr(№93).– S.7.

Aramızda körpü var /Nazir Rüstəm // Azərbaycan.-2013.- №1.- S.42-46.

Aramızda bulud var... /Nazir Rüstəm; red. H. Hüseynova; rəssam R. Rəhimoğlu ; [tərc. ed. A. Talıbova]. - Bakı: Bilik, 2013. - 128, [1]

İnternetdə:

https://az.wikipedia.org/wiki/Nazir_Rüstəmov

Ramiz Həsənoğlu – 80

(1946)

Rejissor



Ramiz Həsənağa oğlu Mirzəyev (Ramiz Həsənoğlu) 1946-cı il aprelin 13-də İrəvan şəhərində anadan olmuşdur. 1948-ci ildə ailəsi ilə birlikdə əvvəlcə Gəncə şəhərinə, 1956-cı ildən isə Bakıya köçmüşdür.

1965-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) mədəni-maarif fakültəsinin qiyabi şöbəsinə daxil olmuş, 1966-cı ildən etibarən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində (indiki Azərbaycan Televiziya və Radio Verilişləri QSC) rejissor köməkçisi kimi fəaliyyətə başlamışdır. O, Ağaəli Dadaşov, Rauf Kazımovski və Arif Babayev kimi tanınmış sənətkarlardan rejissorluq sənətinin incəliklərini öyrənmişdir.

Televiziya rejissoru kimi ilk uğurlarını yazıçı Anarın pyesləri əsasında ekranlaşdırdığı "Mən, sən, o və telefon", "Dindirir əsr bizi", "Ötən ilin son gecəsi" kimi teletamaşalarla qazanmışdır. 1973-cü ildə müsabiqə yolu ilə qəbul olunduğu Sankt-Peterburq Dövlət Teatr, Musiqi və Kinematoqrafiya Akademiyasını 1978-ci ildə müvəffəqiyyətlə başa vurmuşdur.

Televiziya fəaliyyətində dönüş nöqtəsi olan "Qatarda" (rollarda Həsənağa Xanızadə, Həsənağa Əbluc, Yaşar Nuri) tamaşasından sonra onun rejissorluq üslubu geniş auditoriya tərəfindən qəbul edilmiş, Hüseyn Cavidin eyniadlı əsəri əsasında səhnələşdirdiyi "Topal Teymur", ilk Azərbaycan telemüzikli olan "Ordan-burdan", eləcə də "Günahsız Abdulla" tamaşaları ona daha böyük şöhrət gətirmişdir.

Televiziya tamaşaları arasında xüsusi yeri olan "Ac hərifər" layihəsi "Humay" mükafatına layiq görülmüşdür. Ramiz Həsənoğlu, həmçinin Musiqili Komediya Teatrında "Məzəli əhvalat", Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında isə "Brüsseldən məktublar" tamaşalarına səhnə quruluşu vermişdir. O, həmçinin 200-dən çox televiziya verilişinin müəllifidir.

Bədii film sahəsində də mühüm işlərə imza atan Həsənoğlu, Rüstəm İbrahimbəyovun ssenarisi əsasında çəkdiyi "Ailə" filmi ilə 2000-ci ildə Moskvada keçirilən Avrasiya festivalının baş mükafatını qazanmışdır. 2007-ci ildə Anarın ssenarisi ilə "Cavid ömrü", 2012-ci ildə isə Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinə həsr olunmuş "Sübhün səfiri" adlı bədii, tammetrajlı filmləri ekranlaşdırmışdır.

1993-cü ildən bu günə qədər Azərbaycan Televiziyasında "Sabah" eksperimental yaradıcılıq emalatxanasına rəhbərlik edir. Eyni zamanda Azərbaycan Kinematoqrafçılar Birliyinin İdarə Heyətinin, həmçinin Azərbaycan Kinorejissorlar Gildiyası Bürosunun üzvüdür.

Azərbaycan televiziya və radiosunun inkişafındakı xidmətlərinə görə Ramiz Həsənoğlu 1989-cu il mayın 4-də "Azərbaycan SSR əməkdar incəsənət xadimi", 2006-cı il noyabrın 4-də "Azərbaycan Respublikasının xalq artisti" fəxri adlarına layiq görülmüş, 2015-ci ildə "Milli televiziyanın inkişafında verdiyi töhfələrə görə" "Qızıl Pəri" mükafatına, 2020-ci il iyunun 4-də isə "Vaqif Səmədoğlu" medalı ilə təltif edilmişdir.

2019-cu ildən "Azərbaycantelefilm" Yaradıcılıq Birliyinin direktorudur.

Ədəbiyyat:

"Kino sənətində silinməz izlər": Sənədli filmin premyerası // Mədəniyyət.– 2020.– 30 iyul.– S.5.

Ramiz Həsənoğlu - 75 / Pərvin // Qobustan: Sənət toplusu.–2021.– №04.– S.79-85.

Vaxt da gedir, yaş da... / R.Həsənoğlu;müsahibəni apardı:T.Məhərrəmova // Kaspi.– 2023.– 28 oktyabr., № 41.– S.8-9.

Xalq artisti Ramiz Həsənoğlu: "Ac həriflər hər zaman olub, var və olacaq" / R.Həsənoğlu: müsahibəni apardı Tamilla M-zadə // 525-ci qəzet.– 2024.– 28 sentyabr (№177).– S.14;15.

"Bütün çətin vaxtlarda insanların köməyinə gələn sənətdir, musiqidir, teatrdır, ədəbiyyatdır": Rejissor, Xalq artisti Ramiz Həsənoğlu ilə söhbət / R.Həsənoğlu;müsahibəni apardı:L.İlkin // 525-ci qəzet.– 2025.– 19 aprel(№66).– S.17.

İnternetdə:

https://audiovisual.az/kinorejissorlar/ramiz-həsənoglu/

https://anl.az/el/emb/TEATR/aktyorlar/Ramiz_Hesenoglu.htm

Nəsibə Zeynalova – 110

(1916-2004) *Aktyor*



Ədəbiyyat:

"Nəsibə Zeynalova məni təkidlə Bakıya aparmaq istəyirdi" / A. Bürcəliyev // Cümhuriyət.– 2020.– 9 yanvar.– S.14.

Azərbaycanın unudulmaz "qayınanası": Nəsibə Zeynalovanın həyat və yaradıcılığı... / M. Mirzəliyev // Hürriyyət.– 2021.– 5-7 iyun.– S.14.

Azərbaycan səhnəsinin təkrarsız siması / M.Əliyeva // Respublika.– 2022.– 20 aprel.– S.10.

Böyük aktyorluq məktəbinin yaradıcısı / M.Əliyeva // Respublika.– 2023.– 20 aprel.–S.12.

Ekranlarımızın "qayınana"sı...: Nəsibə Zeynalovanın doğum günüdür / Y. Bayramova // Yeni Azərbaycan.– 2024.– 20 aprel, №68.– S.7.

Gülüşlə yoğrulan ömrün akkordları / L.Təhməz // Respublika.– 2025.– 20 aprel (№ 78).– S.11.

İnternetdə:

https://az.baku-art.com/az/xalq-artisti-nesibe-zeynalovanin-anadan-olmas-n-n-105-illiyi-munasib-til-videocharx-haz-rlan-b

Nəsibə Cahangir qızı Zeynalova 1916-cı il aprelin 20-də Bakıda, Azərbaycan milli realist aktyor məktəbinin banisi Cahangir Zeynalovun ailəsində anadan olmuşdur. Bakı Teatr Texnikumunda M.Haşımov, A.Gəraybəyli və A.Tuqanovun dərslərini almışdır. 1932-ci ildə Rza Təhmasibin dram dərnəyinə üzv olmuş, 1934-cü ildə mövsümi fəaliyyət göstərən səyyar Kolxoz və Sovxoz Teatrında aktrisa kimi çalışmışdır. 1941-ci ildə Azərbaycan Musiqili Komediya Teatrına qəbul edilmişdir.

II Dünya Müharibəsi illərində cəbhədə və hospitallarda əsgərlər qarşısında tamaşalar göstərmişdir. S.Rüstəmovun "Beş manatlıq gəlin" tamaşasında Gülnaz, A.Məşədibəyovun "Toy kimindir?" tamaşasında Məsmə, F.Əmirovun "Gözün aydın" tamaşasında Nargilə, S.Ələsgərovun "Ulduz" tamaşasında Züleyxa, V.Dolidzenin "Keto və Kote" tamaşasında Kabato obrazları ilə tamaşaçıların rəğbətini qazanmışdır. XX əsrin 50-ci illərində isə onun ifaçılıq ustalığı daha da inkişaf etmiş, yaratdığı səhnə obrazları Azərbaycan komediya teatrının tarixində mühüm yer tutmuşdur.

T.Quliyevin "Qızılaxtaranlar" tamaşasında Rəxşəndə, S.Rüstəmovun "Rəisin arvadı"nda Afərin, Ş.Miloravanın "Tbilisi nəğməsi"ndə Gesiya, A.Rzayevin "Hacı Kərimin Aya səyahəti"ndə Kəblə Fatma, S.Ələsgərovun "Həmşəxanım"da Həmşəxanım və "Sevindik qız axtarır"da Xeyransa kimi unudulmaz obrazlar yaratmışdır. O, rəqs, mahnı və hərəkətləri ustalıqla birləşdirərək, xalq yumorunun və ənənəvi teatr oyunlarının estetik prinsiplərindən faydalanmış, tipik xarakterlərin məzmun və forma vəhdətini yüksək səviyyədə təsvir etmişdir.

Nəsibə Zeynalova kino sənətində də uğurlar qazanmış, "Ögey ana" (1959), "Böyük dayaq" (1963), "Ulduz" (1964), "Qanun naminə" (1969), "Bizim Cəbiş müəllim" (1970) filmlərində müxtəlif yaddaqalan obrazlar yaratmışdır. Onun kinodakı ən məşhur rolu isə 1979-cu ildə çəkilən "Qaynana" filmində ifa etdiyi Cənnət xala obrazıdır.

Teatr və kino sahəsindəki xidmətlərinə görə Nəsibə Zeynalova 1960-cı ildə Azərbaycan SSR-nin "Əməkdar artisti", 1967-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. "Hicran" tamaşasındakı Qızbacı roluna görə Azərbaycan Dövlət mükafatı laureatı olmuş, 1997-ci ildə "Şöhrət" ordeni və bir sıra medallarla təltif edilmişdir.

Nəsibə Cahangir qızı Zeynalova 2004-cü il martın 10-da Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.


1974-cü ildə onun haqqında "Aktrisanın təbəssümü" adlı televiziya filmi çəkilmişdir. 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nəsibə Zeynalovanın 100 illik yubileyinin keçirilməsi barədə sərəncam imzalamış, 2017-ci ildə Vyanada Azərbaycan Mədəniyyət Mərkəzində ədəbi-bədii gecə təşkil olunmuş və "Qaynana" filmi alman dilində subtitrlərlə nümayiş etdirilmişdir. Tankerin birinə onun adı verilmişdir.

Nəsibə Zeynalova Azərbaycan teatr və kino sənətində özünəməxsus yeri olan, peşəkarlığı və səmimiyyəti ilə yadda qalan, həm səhnədə, həm də ekranda unudulmaz obrazlar yaradan dahi aktrisadır. Onun sənət fəaliyyəti xalq mədəniyyətinə böyük töhfələr vermiş, sənətsevərlərin qəlbində əbədi iz buraxmışdır.

Şükufə Musayeva – 60

(1966)

Aktyor



Şükufə İmran qızı Musayeva 1966-cı il aprelin 23-də Şuşa şəhərində anadan olmuşdur. 1988-ci ildə Şuşa Mədəni-Maarif Məktəbinin Özfəaliyyət Teatr Kollektivinin Rəhbəri fakültəsini, 1995-ci ildə isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Teatr Kollektivinin Rejissoru fakültəsinin qiyabi şöbəsini bitirmişdir. 1990-cı ildən Şuşa Dövlət Musiqili Dram Teatrının aktrisası kimi fəaliyyət göstərir.

1991-1993-cü illərdə Qarabağ uğrunda gedən döyüşlərdə iştirak etmişdir və bu sahədə ilk və son qadın aktrisalarımızdan biridir.

Şükufə Musayeva bir sıra tamaşalarda yaratdığı rollarla tamaşaçıların yaddaşında silinməz izlər buraxmışdır. Onun yaratdığı Telli ("Arşın mal alan", Üzeyir Hacıbəyli), Nailə ("Özümüz bilə-rik", S.Ələsgərov və Ş.Qurbanov), Nisə ("Durna", S.Rüstəmov və S.Rüstəm), Gülcamal ("Ayının min bir oyunu", S.Qənizadə), Marqarita ("Marqaritka", A.Salakru), Məkkə ("Gözəlləri necə qaçırırlar", B.Appayev), Hind şahzadəsi və saray əyanı ("Xəlifə Leylək", V.Qauf), Susanna ("Aydın", C.Cabbarlı), Qadın və dəli ("Ağıllı adam", F.Mustafa), Güləndam nənə ("Şuşa dağlarını duman bürüyüb", Elçin), Berta ("Sehirli kreslo", F.Karinti), Gülzar ("Pənah evi", Ə.Quluzadə), Fəxründə xanım ("Bayramın birinci günü", N.Hikmət), Şərəf xanım ("Tamahkar", S.S.Axundov), Sona xanım ("Dağılan tifaq", Ə. Haqverdiyev), Xurşid Banu Natəvan ("Güllələnmiş heykəllərin fəryadı", H.Mirələmov) obrazları müxtəlif janr və xarakterlərə malik olmaqla, aktrisa tərəfindən ustalıqla ifa olunmuşdur.

Şükufə Musayeva 1998-ci ildə keçirilən II Ümumrespublika Eksperimental Tamaşalar Festivalında "Addım səsləri" (S.Bekket) tamaşasında Ana roluna, 1999-cu ildə keçirilən "Milli klassika" festivalında M.F.Axundzadənin "Hekayəti-Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah caduküni-məşhur" əsərində Şəhrəbanu xanım roluna, 2002-ci ildə keçirilən A.Şərifzadə adına "Üfüq-XXI" Mono Tamaşalar Festivalında "Çiçəklər açılanda" (A.Həsənoğlu) tamaşasında Uşaq roluna, 2005-ci ildə keçirilən "Boş məkanın dolğunluğu" teatr festivalında F.Mustafanın "Musiqili məktublar" tamaşasında Qadın roluna görə Azərbaycan Teatr Xadimləri İttifaqı tərəfindən diplom və mükafatlarla təltif edilmişdir.

25 iyun 2013-cü ildə "Tərəqqi" medalı ilə təltif edilmiş, 2000-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 2018-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüşdür. Bundan əlavə, 2003-cü ildən 2017-ci ilə qədər bir neçə dəfə Prezident Mükafatına layiq görülmüşdür.

Ədəbiyyat:

Bədənində qəlpə gəzdirən aktrisa / Ş.Musayeva; söhbəti apardı:Q.Ramilə // Xalq qəzeti.– 2023.– 4 oktyabr.– S.11.

"Bəla" – maarifləndirici tamaşa // Mədəniyyət.– 2023.– 1 noyabr, №81.– S.4.

İnternetdə:

https://az.baku-art.com/az/bu-gun-xalq-artisti-sh-kufe-musayevanin-dogum-g-n-d-r

https://az.wikipedia.org/wiki/Şükufə_Musayeva

Məleykə Əsədova – 60

(1966)

Aktyor



Məleykə Əlifağa qızı Əsədova 1966-cı il aprelin 23-də Neftçala şəhərində anadan olmuşdur. Teatr sənətinə erkən yaşlarından göstərdiyi maraq onun bu sahədə ixtisaslaşmasına səbəb olmuşdur. 1983–1987-ci illərdə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) ali təhsil almışdır.

Peşəkar fəaliyyətə 1989-cu ildə Dövlət Gənclər Teatrında başlamış, bu teatrın səhnəsində Gültəkin (“Aydın”, C. Cabbarlı), Nəzifə (“Dağ tikirik”, V. Səmədoğlu), Tamara (“Dadaşbala əməliyyatı”, R. Əlizadə), Sədəf (“Sultanqulu körpüsü”, İ. Məlikzadə) və Leyli (“Leyli və Məcnun”, M. Füzuli əsasında) kimi obrazları canlandırmışdır. Həmin dövrə aid səhnə fəaliyyəti onun yaradıcılıq potensialının formalaşmasında mühüm mərhələ təşkil etmişdir.

Aktrisa 1993-cü ildən etibarən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının truppasına daxil olmuş və burada zəngin səhnə fəaliyyəti göstərmişdir. Onun repertuarında müxtəlif tematik və janr xüsusiyyətlərinə malik obrazlar yer alır. Belə ki, Dilarə (“Əcəb işə düşdük”, Ş. Qurbanov), Zərifə (“Nişanlı qız”, S. Rəhman), Nübar (“Məhəbbət yaşadır”, N. Hacızadə), Şahanə (“Ana intiqamı”, V. Babanlı), Kordeliya (“Kral Lir”, V. Şekspir), Şirin (“Fərhad və Şirin”, S. Vurğun), Gültəkin (“Aydın”, C. Cabbarlı), Selcan, Çılğın, Arzu (“Özümüzü kəsən qılınc”, “Dar ağacı”, “İkinci səs”, B. Vahabzadə), Züleyxa və Kleopatra (“Misir gecələri”, M.S. Ordubadi, N. Hikmət, V. Şekspir əsasında) kimi rollar aktrisanın səhnə palitrasının genişliyini nümayiş etdirir.

Televiziya tamaşalarında da fəal iştirak edən aktrisa Jalə (“Yad qızı”, O. Kamal), Əfsanə (“İtkin gəlin”, Ə. Hacızadə), Cavidan (“Dodaqdan qəlbə”, R.N. Güntəkin), Sara (“Apardı sellər Saranı”, K. Ağayeva), Xurşidbanu Natəvan (“Güllələnmiş heykəllər”, H. Mirələmov) kimi rolları ilə ekran sənətində də tanınmışdır.

Aktrisanın sənət fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 1998-ci ildə “Azərbaycan Respublikasının Əməkdar artisti”, 2000-ci ildə isə “Azərbaycan Respublikasının Xalq artisti” fəxri adları ilə təltif olunmuşdur. O, eyni zamanda, bir neçə dəfə Prezident mükafatına layiq görülmüş, müxtəlif festival və müsabiqələrdə diplom və digər mükafatlarla təltif edilmişdir.

Məleykə Əsədova müasir Azərbaycan teatrında klassik aktyorluq məktəbinin davamçılarından biri kimi qəbul olunur. Onun yaratdığı obrazlar aktyor ifaçılığında psixoloji dərinlik, emosional intensivlik və obrazlı ifadə imkanlarının peşəkar sintezini təcəssüm etdirir. Sənətkarın səhnə fəaliyyəti, həmçinin milli teatr estetikasının qorunması və inkişafı baxımından əhəmiyyətli dəyərə malikdir.

Ədəbiyyat:

“Sevgi məktubları həmişə almışam, indi də alıram”: Xalq artisti Məleykə əsədova: “Hamı elə bilirdi ki, müğənni olacağam, amma mən aktrisa oldum” / Məleykə Əsədova; müsahibəni apardı G. Abbas // 525-ci qəzet.– 2020.– 11 aprel.– S.13.

Allah vergisi və tamaşaçı alqışı /M.Əsədova;müsahibəni apardı:X.Rəis //Kaspi.-2015.- 17 aprel.- S.12.

Allah vergisi və tamaşaçı alqışı: “Mən gündəmdə ancaq yaradıcılığımla, obrazlarımla qalmaq istəyirəm”; Müsahibəni apardı: X.Rəis /A.Mustafayeva // Mədəniyyət.-2015.- 17 aprel.- S. 11.

Tahirə. Səhnə sənətimizdə Məleykə Əsədova imzası /Tahirə //525-ci qəzet.-2010.- 21 may . - S.7.

İnternetdə:


https://azdrama.az/?page_id=221

https://kulis.az/index.php/xeber/media/sehere-qeder-toylarda-oxudu-ovladini-itirdi-nisanlisi-onu-aldatdi-meleyke-esedova-haqqinda-maraqli-faktlar-43886

APREL
23

Məzahir Cəlilov – 80

(1946) *Aktyor*



Ədəbiyyat:

Əlibəyli, T. Sözün dan yeri : [publisistika] / T.apdıq Əlibəyli; red. N. Məmmədli. - Bakı: Elm və təhsil, 2014. - 191, [1] s.

https://azdrama.az/?page_id=443

Məzahir Həmdulla oğlu Cəlilov 23 aprel 1946-cı ildə anadan olmuşdur. 1975-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyoru fakültəsini bitirmişdir. Peşəkar teatr fəaliyyətinə 1980-ci ildən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında başlamışdır.

Onun teatr yaradıcılığında ifa etdiyi başlıca obrazlar aşağıdakılardır: Vəkil Vadenbirn (L. Frank, Yad adam), Barmen və IV polis (Anar, Səhra yuxuları), Qasid, Həkim, Keşiş (V. Şekspir, Maqbet, Kral Lir, Hamlet), Sərkis (M. İbrahimov, Közərən ocaqlar), Papas (H. Cavid, İblis), Şeyx Alı (S. Vurğun, Vaqif), Sıldırım (N. Xəzri, Torpağa sancılan qılınc), Sərkərdə (M.S. Ordubadi, Qılınc və qələm), Kəlbəlixan (İ. Əfəndiyev, Hökmdar və qızı), Ergin (B. Vahabzadə, Özümüzü kəsən qılınc), Kərbəlai Muxtar (C. Məmmədquluzadə, Ölülər), Ağsaqqal (B. Vahabzadə, Dar ağacı), Ya O (Ç. Aytmatov, Sokratı anma gecəsi), Hacı Salah (M.F. Axundzadə, Lənkəran xanının vəziri), Məmur (N. Hikmət, Kəllə), Mələküldövlə (İ. Əfəndiyev, Xurşidbanu Natəvan), Xondulu (İ. Şıxlı, Ölüləri qəbiristanlıqda basdırın), Məşədi Cahangir (M. Cəlal, Dirilən adam), Karpe (O. İoseliani, Kaş araba aşmayaydı), Qazi (M.S. Ordubadi, Qətibə İnanc).


Aktyor, həmçinin müxtəlif illərdə çəkilmiş bir sıra bədii və televiziya filmlərində də iştirak etmişdir. Onun film yaradıcılığına aşağıdakı ekran əsərlərindəki rollar daxildir: Əlavə iz (1981), Ömrün yolları (1982), Günahsız Abdulla (1984), Canavar balası (1997), Yurd yeri (1997), Biz qayıdacağıq (2007), Cavad xan (2009), Ölüm növbəsi (2009), Yaddaş (2010), Müdafiə vəkillərinin hekayəti (2011), Həkimlər (Ultionis) və Tək olanda qorxma... (2013) serial və filmlərində müxtəlif xarakterli obrazlar canlandırmışdır.

Məzahir Cəlilovun sənətdəki xidmətləri dövlət tərəfindən də yüksək qiymətləndirilmişdir. 25 iyun 2013-cü il tarixində o, "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adına layiq görülmüşdür.

23

Salam İsmayıl - 75

(1951) *Aktyor*



Ədəbiyyat:

Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 30 dekabr 2015-ci il //Azərbaycan .-2015.- 31 dekabr.- S.3.

https://gencexeber.az/butun-xeberler/em-kdar-artist-salam-ismayilin-73

Salam Xeyrulla oğlu İsmayılov (Salam İsmayıl) 1951-ci il aprelin 23-də Gəncə şəhərində anadan olmuşdur. O, 1974-cü ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsini bitirmişdir. Peşəkar fəaliyyətə "Azərbaycanfilm" kinostudiyasında rejissor assistenti kimi başlamış, 1974–1976-cı illərdə "Azərbaycanfilm" kinostudiyasında rejissor köməkçisi vəzifəsində çalışmışdır. 1977-ci ildən etibarən Gəncə Dövlət Dram Teatrında aktyor kimi fəaliyyət göstərməyə başlamış, teatrın əsas aparıcı aktyorlarından biri olmuşdur.

Teatr səhnəsində müxtəlif dramatik və tarixi janrlarda obrazlar yaradan Salam İsmayılın aktyor portfeli zəngin və çoxşaxəlidir. O, Bəhram (C. Cabbarlı, "Solğun çiçəklər"), Novruz bəy ("Aydın"), Mazadaranski ("Oqtay Eloğlu"), Cəmil (H. Cavid, "Maral"), Abubəkir (N. Həsənzadə, "Atabəylər"), Tərlan (S. Qurbanov, "Sənsiz") və digər obrazları ifa etmişdir.

Salam İsmayıl həmçinin Azərbaycan kino sənətində də bir sıra maraqlı ekran obrazları ilə çıxış etmişdir. Onun filmoqrafiyasına "Bizim küçənin oğlanları" (1973), "Qocalar, qocalar…" (1982), "Yük" (1995), "Bir anın həqiqəti" (2003), "Cavad xan" (2009), "Çölçü" (2012), "Qırmızı bağ" (2016) kimi filmlər daxil olmaqla, müxtəlif illərdə ərsəyə gəlmiş kino və teleseriallar daxildir.

Sənətkarın yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 2015-ci il dekabrın 30-da Azərbaycan Respublikasının "Əməkdar artisti" fəxri adına, "Qızıl Dərviş" mükafatına layiq görülmüşdür. Azərbaycan Teatr Xadimləri İttifaqının üzvüdür.

Əli Qasımov – 70

(1956)

Aktyor



Əli Teymur oğlu Qasımov 1956-cı il aprelin 26-da Qazax rayonunun Dəmirçilər kəndində anadan olmuşdur. 1981-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Dram və kino aktyorluğu" fakültəsini bitirdikdən sonra Gəncə Dövlət Dram Teatrında fəaliyyətə başlamışdır.

Professional səhnədə ilk çıxışını S. Vurğunun "Vaqif" əsərində Vəzir obrazı ilə etmişdir. Sonrakı dövrdə "Odu atma Prometey!" (M. Kərim), "Yad qızı" (O. Kamal), "Gəl qohum olaq" (İ. Məlikzadə), "Doğmalar" (R. Əlizadə) kimi tamaşalarda əsas rollar ifa etmişdir. Yaradıcılığında böyük şair M.Ə. Sabirin həyatına həsr olunmuş Sabir obrazı xüsusilə önəmlidir.

Əli Qasımov 1994–1999-cu illərdə Gəncə Dövlət Dram Teatrında baş inzibatçı, 1999–2001-ci illərdə direktor müavini və 2001-ci ildə Gəncə Dövlət Nizami Poeziya Teatrının direktoru vəzifəsində çalışmışdır. 2008-2021-ci illərdə Gəncə Dövlət Dram Teatrının direktoru kimi fəaliyyət göstərmişdir.

Əli Qasımovun rəhbərliyi altında Gəncə Dövlət Dram Teatrı 2009-cu ildə respublikada ilk dəfə keçirilən "Yeni teatr" festivalına ev sahibliyi etmiş, 2010-cu ildə Bakıda keçirilən "Respublika Teatr Festivalı"nda iştirak etmişdir. 2011-ci ildə Türkiyənin Giresun şəhərində 34-cü "AK SU" teatr festivalında, 2012-ci ildə Türkiyə və Rusiyanın müxtəlif şəhərlərində teatr festivallarında təmsil olunmuşdur. 2013-cü ildə teatr Türkdilli Dövlətlərin "Bin Nefes Bir Ses" və Ukraynanın "Klassiklər bu gün" festivallarında iştirak etmiş, 2014-cü ildə BMT xətti ilə ABŞ-ın Nyu-York şəhərinə qastrol səfəri həyata keçirmişdir. Sonrakı illərdə Türkiyə və Gürcüstan kimi ölkələrdə keçirilən beynəlxalq teatr festivallarında teatrın iştirakı təmin edilmişdir.

Əli Qasımov teatr rəhbərliyi ilə yanaşı, bir sıra ədəbi-bədii kompozisiyaların da müəllifi və ssenaristi olmuşdur. Nizami Gəncəvinin qəzəllərinə əsaslanan "Nizami Gəncəvi-860", Bəxtiyar Vahabzadənin "Şəhidlər", Aydın Qurbanovun "Əbədi məşəl" və Şəfiqə Salehin "Azadlıq atası" əsərləri əsasında hazırlanan kompozisiyalar onun sənətə geniş baxışını nümayiş etdirir.

Pandemiya dövründə və 44 günlük Vətən müharibəsi zamanı Əli Qasımovun rəhbərliyi altında müxtəlif ədəbi-bədii və film layihələri həyata keçirilmişdir. Bunlar arasında Aydın Murovdağlının "Ali Baş Komandanım" poemasına əsaslanan tamaşa, 20 Yanvar faciəsinin 31-ci ildönümünə həsr olunmuş "Vətən Əmanəti" və Xocalı soyqırımının 29-cu ildönümünə həsr olunmuş "Qayıdış" filminin bədii rəhbərliyi yer alır.

Onun teatr sahəsindəki xidmətləri Azərbaycan Respublikası tərəfindən də yüksək qiymətləndirilmiş, 8 may 2012-ci il tarixində Prezident İlham Əliyevin sərəncamı ilə "Respublikanın Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq görülmüşdür.

İnternetdə:

https://haqqinda.az/Aktyorlar/5049-Əli%2BQasımov%2Baktyor.html?utm_source=chatgpt.com

https://gencexeber.az/

Ulduzə Nəsirova – 70

(1956)

Aktyor



Ulduzə Sülüyman qızı Nəsirova 1956-cı il aprelin 27-də anadan olmuşdur. 1974–1978-ci illərdə M.A. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun "Dram və kino aktyorluğu" fakültəsində təhsil almışdır. 1978-ci ildə təyinatla M. Davudova adına Mingəçevir Dövlət Dram Teatrına göndərilmiş və burada qısa müddətdə bir-birindən fərqli obrazlarla tamaşaçıların rəğbətini qazanmışdır.

1984-cü ildən etibarən Ulduzə Nəsirova fəaliyyətini Sumqayıt Dövlət Dram Teatrında davam etdirmişdir. Bu teatrda müxtəlif janrlarda və ziddiyyətli xarakterlərə malik rolları uğurla ifa etmişdir. 1993-cü ildə keçirilən mono-tamaşalar festivalında Çingiz Ələsgərlinin "Etiraf" adlı mono-tragifars əsərindəki çıxışı ilə "Faciə ilahəsi" mükafatına layiq görülmüşdür.

Ulduzə Nəsirova həm Mingəçevir, həm də Sumqayıt teatrlarında geniş spektrli rollar ifa etmişdir. Mingəçevir teatrında S. Rəhmanın "Toy" əsərində Kamilə, S. Salamzadənin "Ən xoşbəxt gün"də Zərqələm, C. Məmmədovun "Qaçırılmış qız"ında Hicran kimi obrazlarda çıxış etmişdir. Sumqayıt Dövlət Dram Teatrında isə Ş. Arifin "Qınamayın məni" əsərində Cahan, A. İvaşenkonun "Uşağa bir üç yazın"da Radayeva, G. Xuqayevin "Varlı ev"ində Mamaça, A. Mirzənin "Məlikməmməd yeni sərgüzəştləri"ndə Tacirin arvadı, C. Yusifzadənin "İtilgetlər"də Qadın, "Dağlar arxasız olmur"da Aypara, V. Səmədoğlunun "Bəxt üzüyü"ndə Sara, R. N. Güntəkinin "Bir gecəlik ər"ində Adilə Dudu, N. Qoqolun "Evlənmə"də Flokeya İvanovna, "Müfəttiş"də Avtodiya, S. Mrojekin "Təxribatçılar"da Serjantın arvadı rollarında çıxış etmişdir.

Həmçinin, N. Hikmətin "Bayramın birinci günü" əsərində Həbibə və Fərxundə, Ə. Əylislənin "Bir cüt bədmüşk ağacı"nda Xatirə, C. Məmmədquluzadənin "Ölülər"ində Ana, Anarın "Təhminə və Zaur"unda Mədinə, İ. Məlikzadənin "Subaylarınızdan görəsiniz"ində Səməni, Ü. Hacıbəyovun "Arşın mal alan"ında Asya və Cahan xala, F. Məhərrəmovun "Oğuzlar"ında Burla xatun, Ə. M. Lələdağın "Qorxaq"ında Sünbül, "Dağlarda tufan"ında Ana, T. Vəliyevanın "Mənim ağ göyərçinim"də Zəhra xanım, G. Xuqayevin "Bir köpək vardı"nda Qarğa və Kvark, K. Kərimovun "Cahargah fantaziyası"nda Bikə xala, Ç. Aytmatovun "Ümid sahili"ndə Şaman, N. Dumbadzenin "Ağ bayraqlar"ında Ana, A. Şaiqin "Qaraca qız"ında Nərgiz, M. Qacarın "Qabanın səfəri"ndə Qarğa, R. Əlizadənin "Dadaşbala əməliyyatı"nda Fatma və digər rollarda uğurla çıxış etmişdir.

Əlavə olaraq, M. F. Axundzadənin "Müsyö Jordan və dərviş Məstəlişah"ında Şəhrəbanu, "Lənkəran xanının vəziri"ndə Pəri xanım, S. S. Axundovun "Tamahkar"ında Nabat və Şərəf xanım, Anarın "Adamın adamı"nda Xəbərçi Xədicə, Ç. Məmmədovun "Kişi"sində Sona, M. Haqverdiyevin "Fədakarlıq"ında Zeynəb, F. Mustafanın "Əqrəb bürcü"ndə Qonşu qadın, A. Babayevin "Xilaskar"ında Qadın, Ç. Ələsgərlinin "Etiraf" monotamaşasında Ana, M. İbrahimovun "Yaxşı adam"ında Sənəm xala, V. Şukşinin "Diribaş adamlar"ında Sonya və Vera Sergeyevna, Ç. Aytmatovun "Əsrə bərabər gün"ündə Əsgər şineli qadın, Ə. Salahzadənin "Yayın qış gecəsi"ndə Xatın, H. Cavidin "Ana"sında Ana, H. Mirələmovun "Vicdanın hökmü"ndə Ana rollarında da ifa etmişdir.

Ulduzə Nəsirova 2003-cü ildən Prezident təqayütçüsüdür. 2008-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat:

Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram Teatrının əməkdaşlarına fəxri adların verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı; 25 sentyabr 2008-ci il // Azərbaycan.-2008.- 26 sentyabr. - S. 6.


İnternetdə:

https://az.wikipedia.org/wiki/Ulduzə_Nəsirova

https://az.baku-art.com/az/azerbaycanin-emekdar-artisti-ulduz-n-sirova

Xanlar Muradov – 80

(1946-2005) *Aktyor*



Xanlar Yunus oğlu Muradov 30 aprel 1946-cı ildə Sumqayıt şəhərində anadan olmuşdur. Sənət fəaliyyətinə H. Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrında başlamış, ilk səhnə debütünü 1973-cü ildə Əbdürrəhim bəy Haqverdiyevin "Müsibəti-Fəxrəddin" əsərində Qurban obrazı ilə etmişdir. O, Sumqayıt teatrında 50-yə yaxın müxtəlif səpgili obraz yaratmışdır.

1970–1975-ci illərdə Sumqayıt Dövlət Dram Teatrında, 1975–2005-ci illərdə isə Azərbaycan Dövlət Musiqili Teatrında aktyor kimi fəaliyyət göstərmişdir.

Sumqayıt teatrında ifa etdiyi əsas rollar sırasında Şeyda (S. Rəhman, "Toy"), Qurban (Ə. Haqverdiyev, "Müsibəti-Fəxrəddin"), Axund (C. Cabbarlı, "Solğun çiçəklər"), Sırodovey (A. Makoyonok, "Tribunal"), Yaqub (A. Məmmədov, "Həmyerlilər"), Silvester (J. B. Molyer, "Skapenin kələkləri"), Bədurəddin (F. Aşurov, "Bu meydan, bu şeytan"), Qələndərov (Ə. Əsgərov, "Gülməyən adam"), Şair (R. Heydər, "Paralelimin nəbzi") kimi obrazlar yer alır.

Azərbaycan Dövlət Musiqili Teatrında isə o, Hilal (S. Rüstəm, S. Rüstəmov, "Durna"), Molla Musa (Ə. Kürçaylı, V. Adıgözəlov, "Boşanaq, evlənərik"), Bəbirli (Ş. Qurbanov, S. Ələsgərov, "Özümüz bilərik"), Qulam (C. Məmmədov, Ə. Abbasov, "Həyətim mənim, həyatım mənim"), Bilal (A. Babayev, T. Bakıxanov, N. Məmmədov, "Qız görüşə tələsir"), Rəhim kişi (R. Heydər, O. Kazimi, "Qızıl toy"), Vəli (R. Qasımova, "Məzəli əhvalat"), Xudayar bəy (C. Məmmədquluzadə, "Danabaş kəndinin əhvalatları"), Mustafa (X. Hasilova, E. Sabitoğlu, "Nəğməli könül"), Cəbrayıl-Arıq (F. Aşurov, V. Adıgözəlov, "Lənət şeytana"), Qoçu Əsgər (Ü. Hacıbəyli, "O olmasın, bu olsun"), Əlimərdan (M. Əlizadə, F. Əmirov, "Gözün aydın"), Məhəmməd (V. Səmədoğlu, A. Əzimov, "Lotereya"), Murtuzov (Ş. Qurbanov, S. Ələsgərov, "Özümüz bilərik"), Milyonçu (Ə. Əmirli, S. Fərəcov, "Səhnədə məhəbbət") kimi rollarla çıxış etmişdir.

28 oktyabr 2000-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşdür.

Xanlar Yunus oğlu Muradov 5 fevral 2005-ci ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Sürücülükdən aktyorluğa gedən yol... / L.Azəri // Mədəniyyət.– 2021.– 23 aprel.– S.5.

Musiqili Teatrda tanınmış aktyorun xatirəsi anılıb // Mədəniyyət.-2016.- 4 may.- S. 4.

Sabit, E. Xanlar Muradovun 70 yaşı onsuz qeyd olundu6 Musiqili Teatrda Əməkdar artist Xanlar Muradovun xatirəsi anılıb / EminSabit // Azad Azərbaycan.-2016.- 4 may.- S. 7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Xanlar_Muradov

https://report.az/incesenet-xeberleri/emekdar-artist-xanlar-muradovun-xatiresi-anilacaq

Etibar Hacıyev – 55

(1971-1992) *Milli Qəhrəman*



Etibar Firudin oğlu Hacıyev 1971-ci il aprel ayının 5-də Qərbi Azərbaycanın Vardenis rayonunun Zod kəndində anadan olmuşdur. Zod kənd orta məktəbini bitirdikdən sonra bir müddət sovxozda işləmişdir.

Erməni millətçiləri və separatçıları tərəfindən oradakı soydaşlarımız qovulan zaman onun ailəsi Kəlbəcər rayonuna köçmüşdür.

Etibar Hacıyev 1989-cu il 13 iyun tarixində hərbi xidmətə çağırılmış və Perm şəhərində hərbi xidmətini başa vurduqdan sonra ailəsinin məskunlaşdığı Göygöl rayonuna gəlmişdir.

1992-ci ildə Etibar Hacıyev könüllü olaraq Milli Orduya yazılmış və torpaqlarımızın müdafiəsinə qalxmışdır. Böyük Canbar, Kiçik Canbar, Buzlaq, Erkəc kəndlərinin düşmən tapdağından azad edilməsində xüsusi fədakarlıq göstərmişdir.

Etibar Hacıyev 1992-ci il iyun ayının 15-də Goranboy rayonunda Ağcakənd kəndinin azad edilməsi uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid olmuşdur. Göygöl rayonunun Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı Fərmanı ilə Hacıyev Etibar Firudin oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Göygöl rayonunun Yeni Zod kəndindəki küçələrdən biri qəhrəmanın adını daşıyır.

Ədəbiyyat:

Azərbaycan Respublikasının Silahlı Qüvvələri hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Hacıyev Etibar Firudin oğlu – sıravi – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 23 iyun 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı. - 1992. - № 12. - S. 35. - (Ölümündən sonra).

Əsgərov, V. Hacıyev Etibar Firidun oğlu / Vüqar Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları. - Yenidən işlənmiş II nəşri. - Bakı, 2010. - S. 104-105.

Məhərrəmov, Q. Hacıyev Etibar Firidun oğlu / Qəşəm Məhərrəmov, İntiqam Məhərrəmov // Başı dumanlı Göyçə / Q.Məhərrəmov, İ.Məhərrəmov. - Gəncə, 2007. - S. 42.

Seyidzadə, M. Hacıyev Etibar Firudin oğlu / M.Seyidzadə // Milli Qəhrəmanlar zirvəsi. - Bakı, 2010. - S. 80.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Etibar_Hac%C4%B1yev

Yelmar Edilov – 80

(1946-1994) *Milli Qəhrəman*



Yelmar Şahmar oğlu Edilov 1946-cı il aprel ayının 10-da Ağdam rayonunda anadan olmuşdur. 1954–1964-cü illərdə Əlimədədli kənd orta məktəbində təhsil almış, daha sonra Ağdam Kənd Təsərrüfatı Texnikumuna daxil olmuşdur. 1964-cü ildə hərbi xidmətə çağırılaraq Minsk şəhərində xidmət etmiş, lakin xidməti zamanı aldığı xəsarət nəticəsində II qrup əlil kimi tərxis olunmuşdur. Hərbi xidmətdən qayıtdıqdan sonra texnikumda yarımçıq qalmış təhsilini davam etdirmişdir.

1988-ci ildə Qərbi Azərbaycandan soydaşlarımızın deportasiyası zamanı Yelmar Edilov könüllü özünümüdafiə batalyonlarının yaradılmasının vacibliyini önə çəkmiş, bu təşəbbüsün həyata keçirilməsinə 1990-cı ildən etibarən başlanılmışdır.

1991-ci ilin əvvəllərindən etibarən Ağdam rayonunun bir çox kəndləri erməni silahlı qüvvələrinin intensiv atəşinə məruz qalırdı. Bu dövrdə Yelmar Edilovun rəhbərliyi ilə Kolanı kəndində özünümüdafiə batalyonu yaradılmış və həmin birləşmə düşmən təxribatlarının qarşısının alınmasında mühüm rol oynamışdır. Onun rəhbərliyi altında batalyon Qazançı, Sırxavənd və Manikli kəndləri uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmişdir. 1993-cü ilin iyun ayında Şahbulaq yüksəkliyi uğrunda gedən döyüşlərdə Yelmar Edilov şəxsi igidlik nümayiş etdirmiş, yüksəkliyi ələ keçirməyə nail olmuş, lakin əlavə qüvvə gəlmədiyinə görə geri çəkilməyə məcbur qalmışdır.

1994-cü il aprelin 11-də "Çərik" istiqamətində gedən ağır döyüşlərdə Yelmar Edilovun rəhbərliyi ilə düşmənin hücumu dəf edilmiş, iki tankı və çoxsaylı canlı qüvvəsi məhv edilmişdir. Həmin döyüşdə komandir Yelmar Edilov qəhrəmancasına həlak olmuş, lakin düşmənin irəliləməsinə imkan verməmişdir.

O, Bakı şəhərindəki II Şəhidlər Xiyabanında dəfn edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli, 203 nömrəli Fərmanı ilə Edilov Yelmar Şahmar oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat:

Yelmar Edilov / M.Mirzə // Respublika.–2022.– 10 aprel.– S.7.

Ağdamda Milli Qəhrəman Yelmar Edilovun xatirəsi anılıb // Azərbaycan.– 2024.– 10 aprel, №74.– S.9.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Yelmar_Edilov

https://avciya.az/edilov-yelmar-sahmar-oglu/

Allahverdi Bağırov – 80

(1946-1992) *Milli Qəhrəman*



Allahverdi Teymur oğlu Bağırov 1946-cı il aprel ayının 22-də Ağdam şəhərində anadan olmuşdur. 1965-ci ildə Ağdam şəhər 1 nömrəli orta məktəbini bitirmişdir. Uşaqlıq illərindən idmana böyük maraq göstərən Allahverdi Bağırov yüngül atletika, voleybol və futbol ilə məşğul olmuş, sonradan bu sahədə böyük nüfuz qazanmışdır.

Qarabağ hadisələrinə qədər o, Ağdamda tanınmış futbolçu kimi şöhrət qazanmış, 1966–1983-cü illərdə Ağdam Uşaq-Gənclər İdman Məktəbində məşqçi işləməklə yanaşı, "Qarabağ" futbol klubunun tərkibində də çıxış etmişdir.

1988-ci ildə ermənilərin Qarabağa təcavüzü başladıqda Allahverdi Bağırov xalq hərəkatına qoşulmuş, onun fəallarından biri kimi könüllü özünümüdafiə dəstələrinin yaradılmasında mühüm rol oynamışdır. Onun rəhbərlik etdiyi batalyon Ağdam rayonunun bir sıra kəndlərinin müdafiəsində igidliklə döyüşmüşdür.

1992-ci ildə Allahverdi Bağırov mühasirədə olan kəndlərə kömək göstərilməsi, ərzaq və ləvazimat çatdırılması, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsi və işğal olunmuş ərazilərin azad edilməsi istiqamətində fədakarcasına fəaliyyət göstərmişdir.

Xocalı faciəsi zamanı – 1992-ci ilin fevralında – onun rəhbərlik etdiyi batalyon Əsgəran yaxınlığında yüzlərlə mülki şəxsin xilas edilməsinə nail olmuşdur. Həmin ilin iyun ayının 12-də isə məhz bu batalyonun səyi nəticəsində Aranzəmin, Naxçıvanik, Dəhraz, Mirkənd və Pircamal kəndləri düşmən işğalından azad edilmişdir.

1992-ci il iyunun 12-də döyüş bölgəsində gözətçi məntəqələrini yoxlayaraq qərargaha qayıdarkən Allahverdi Bağırov sürücüsü ilə birlikdə minaya düşmüş və qəhrəmancasına şəhid olmuşdur. O, Ağdam şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 24 fevral 1993-cü il tarixli, 476 nömrəli Fərmanı ilə Bağırov Allahverdi Teymur oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Ədəbiyyat:

Allahverdi Bağırovun ruhu Xankəndində doğulacaq / A.Bağırov; müsahibəni apardı: S.Əlibəyli // Ədalət.– 2020.– 8 oktyabr.– S.5.

Qarabağın Aslanı: Milli Qəhrəman Allahverdi Bağırovun məzarı qalib Ağdamın yeni ziyarətgahlarından birinə çevrilib / R.Qurbanlı // Azərbaycan.– 2021.– 22 aprel.– S. 6.

Allahverdi Bağırov / Q.Aslan // Respublika.–2022.– 22 aprel.– S.7.

Torpaqların taleyindən nigaran komandir / S.Alıoğlu // Respublika.– 2023.– 4 iyul.– S.9.

Ölümü ilə əfsanələşən igid: Allahverdi Bağırov / Ə.Rəşid // Ədalət.– 2025.– 25 aprel(№15).– S.12.

İnternetdə:

http://milliqahramanlar.az/heroes/25

https://az.wikipedia.org/wiki/Allahverdi_Ba%C4%9F%C4%B1rov

APREL

1

Ruslan İsmayılov – 40

(1986-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25 iyun.- S.61-65.

İsmayılov Ruslan Eyvaz oğlu 1986-cı il aprelin 1-də Gürcüstan Respublikasının Marneuli rayonunun Təzəkənd kəndində anadan olmuşdur. 1992-2001-ci illərdə Göygöl rayonunun Çaykənd kənd ümumi orta məktəbində təhsil almışdır.

2004-2006 cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmət keçmişdir. 2016-cı ildən etibarən eyni hərbi hissədə müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi fəaliyyət göstərmişdir.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinin ilk günlərindən etibarən Ruslan İsmayılov döyüş əməliyyatlarında fəal iştirak etmişdir. O, Kəlbəcər rayonunun Murovdağ istiqamətində aparılan ağır döyüşlərdə igidlik göstərmiş və həmin istiqamətdə gedən döyüşlər zamanı – sentyabrın 27-də qəhrəmancasına şəhid olmuş, Göygöl rayonunun Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi şücaət və döyüş tapşırıqlarını layiqincə yerinə yetirdiyinə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən, İsmayılov Ruslan Eyvaz oğlu ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

1

Sənan Hüseynov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

Hüseynov Sənan Vidadi oğlu 1996-cı il aprelin 1-də Qazaxıstan Respublikasında anadan olmuşdur. Əslən Azərbaycan Respublikasının Füzuli rayonunun Qacar kəndindəndir. 2008-ci ildə ailəsi ilə birlikdə Azərbaycana köçmüşdür.

Sənan Hüseynov 2016-cı ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında həqiqi hərbi xidmət keçmişdir. Hərbi xidməti dövründə o, 2016-cı ilin 2–5 aprel tarixlərində baş vermiş Aprel döyüşlərində iştirak etmiş və göstərdiyi igidliyə görə fərqlənmişdir.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Sənan Hüseynov Azərbaycan Ordusunun tərkibində könüllü olaraq döyüşlərə qatılmışdır. O, Füzuli, Qubadlı, Cəbrayıl, Xocavənd və Şuşa istiqamətlərində gedən döyüş əməliyyatlarında böyük rəşadət göstərmişdir.

7 noyabr 2020-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə verilmiş döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Bakı şəhəri, Binə qəsəbəsində yerləşən Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi igidlik və vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən, Hüseynov Sənan Vidadi oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

APREL
1

Rüfət Mehtizadə - 30

(1996-2020)

MAHHXHQ əsgər



Rüfət İsrayıl oğlu Mehtizadə 1996-cı il aprelin 1-də İmişli rayonunun Qulubəyli kəndində anadan olmuşdur. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətini başa vurmuşdur.

Azərbaycan Ordusunun MAHHXHQəsgəri olan Rüfət Mehtizadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayıl rayonları uğrunda gedən döyüşlərdə xüsusi qəhrəmanlıq nümunələri göstərmiş, düşmənin canlı qüvvəsini və texnikasını məhv edilməsində iştirak etmişdir. O, sentyabrın 29-da Füzuli istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur.

Rüfət İsrayıl oğlu Mehtizadə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

1

Cahangir Baxışov - 25

(2001-2020)

Əsgər



Cahangir Əmrah oğlu Baxışov 2001-ci il aprelin 1-də Qobustan rayonunun Nardaran kəndində anadan olmuşdur. 2019–2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Cahangir Baxışov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl rayonunun azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, oktyabrın 9-da döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Cahangir Əmrah oğlu Baxışov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.45-57.

APREL
1

Sənan Səlimov - 25

(2001-2020)

Əsgər



Səlimov Sənan Nasif oğlu 2001-ci il aprelin 1-də Masallı rayonunun Təzə Alvadı kəndində anadan olmuşdur. 2007–2016-cı illərdə Təzə Alvadı kənd tam orta məktəbində təhsil almışdır.

2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri Sənan Səlimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmiş, Füzuli rayonunun azad olunması uğrunda gedən döyüşlərdə böyük igidlik göstərmişdir. O, 2020-ci il oktyabrın 14-də Füzuli istiqamətində gedən ağır döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Şəhid Masallı rayonunun Təzə Alvadı kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Səlimov Sənan Nasif oğlu ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.78.

1

Eşqin Bağırov - 35

(1991-2020)

MAHHXHQ kiçik çavuş



Eşqin Rafiq oğlu Bağırov 1991-ci il aprelin 1-də Daşkəsən rayonunun Xoşbulaq kəndində anadan olmuşdur. O, orta təhsilini Xoşbulaq kənd tam orta məktəbində almışdır.

2013-cü ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmətə başlamışdır.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Eşqin Bağırov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən ağır döyüşlərdə iştirak etmişdir. O, sentyabrın 27-də Murovdağ uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Eşqin Rafiq oğlu Bağırov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

APREL

2

Mayıl Kürəbəyov - 25

(2001-2020)

Əsgər



Mayıl Kamran oğlu Kürəbəyov 2001-ci il aprelin 2-də Qusar rayonunun Urva kəndində anadan olmuşdur. Orta təhsilini Qusar rayonunun Urva kənd tam orta məktəbində almışdır.

2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrində həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Mayıl Kürəbəyov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Füzuli rayonunun azad olunması uğrunda gedən döyüşlərdə xüsusi igidlik göstərmiş və 2020-ci il oktyabrın 2-də Füzuli istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Mayıl Kamran oğlu Kürəbəyov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təlti edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

3

Cavid Hüseynov - 25

(2001-2020)

Əsgər



Cavid Natiq oğlu Hüseynov 2001-ci il aprelin 3-də Tovuz şəhərində anadan olmuşdur. 2007–2016-cı illərdə Tovuz şəhərində Nəsirəddin Tusi adına Təbiət və Texniki təmayüllü məktəb-liseydə, 2016–2018-ci illərdə isə M.Ələkbərov adına Tovuz şəhər tam orta məktəbində təhsil almışdır. Cavid Hüseynov idmana böyük maraq göstərmiş, taekvondo ilə peşəkar səviyyədə məşğul olmuşdur. 2018-ci ildə taekvondo üzrə gənclər arasında keçirilən Respublika çempionatının qalibi olmuşdur.

2019-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılmış, Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri Cavid Hüseynov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin işğalı altında olan torpaqların azad olunması və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda aparılan döyüşlərdə iştirak etmişdir. O, Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir. O ktyabrın 31-də Xocavənd rayonunun Tuğ kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

APREL 3

Samsun Babayev - 25

(2001-2020) *Əsgər*



Babayev Samsun Şəmsəddin oğlu 2001-ci il aprelin 3-də Qax rayonunun Qapıçay kəndində anadan olmuşdur. Orta təhsilini Qapıçay kənd tam orta məktəbdə almışdır. 2019-cu ilin aprel ayında Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Samsun Babayev 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin işğalı altında olan torpaqların azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, Tərtər rayonu istiqamətində gedən döyüşlərdə oktyabrın 6-da qəhrəmancasına şəhid olmuş, oktyabrın 8-də Qax rayonunun Qapıçay kəndində dəfn edilmişdir.

Babayev Samsun Şəmsəddin oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi igidliyə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirməsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.29-34.

4

Asif Əhmədov - 25

(2001-2020) *Əsgər*



Əhmədov Asif Vasif oğlu 2001-ci il aprelin 4-də Şəki rayonunun Oxud kəndində anadan olmuşdur. 2006–2017-ci illərdə Oxud kənd orta məktəbində təhsil almışdır. 2019-cu ilin aprel ayında Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri Asif Əhmədov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Füzuli və Xocavənd istiqamətlərində gedən döyüşlərdə böyük şücaət göstərmişdir. O, 2020-ci il oktyabrın 21-də Füzulinin Gecəgözlü kəndi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş, oktyabrın 25-də Şəki rayonunun Oxud kənd qəbiristanlığında dəfn edilmişdir.

Asif Vasif oğlu Əhmədov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi igidliyə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirməsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. -2020.- 16 dekabr.- S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il //Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

APREL

4

Ağa Ağayev - 25

(2001-2020)

Əsgər



Ağayev Ağa Əli oğlu 2001-ci il aprelin 4-də Qusar rayonunun Yeni Həyat kəndində anadan olmuşdur. 2007–2016-cı illərdə Yeni Həyat kənd orta məktəbində təhsil almışdır. 2019-cu ilin aprel ayında Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri Ağa Ağayev 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin işğalı altında olan torpaqların azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, 2020-ci il oktyabrın 22-də Tərtərin Suqovuşan qəsəbəsi istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş, oktyabrın 24-də Qusar rayonunda dəfn edilmişdir.

Ağayev Ağa Əli oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən, ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.29-34.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

5

Turxan Allahverdiyev - 30

(1996-2020)

MAHHXHQ əsgər



Turxan Rəsul oğlu Allahverdiyev 1996-cı il aprelin 5-də Gədəbəy rayonunun İnəkboğan kəndində anadan olmuşdur. 2002–2013-cü illərdə Niyaz İsgəndərov adına İnəkboğan kənd tam orta məktəbində təhsil almışdır. 2014-cü il aprelin 8-də Gədəbəy Rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılmış və xidmətini Milli Qvardiyada — Xüsusi Dövlət Mühafizə Xidmətində keçmişdir. 2015-ci ilin oktyabr ayında hərbi xidmətdən tərxis olunmuşdur. 2019-cu ilin iyul ayından etibarən müddətdən artıq xidmət edən (MAXE) hərbi qulluqçu kimi fəaliyyətə başlamışdır.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Turxan Allahverdiyev könüllü olaraq döyüşlərə qatılmışdır. Şuşa istiqamətində gedən ağır döyüşlərdə qəhrəmanlıq göstərmiş, düşmənə sarsıdıcı zərbələr endirmiş, qəhrəmancasına şəhid olmuşdur. Turxan Allahverdiyev noyabrın 12-də Gədəbəy rayonunun İnəkboğan kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqları nümunəvi şəkildə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Turxan Rəsul oğlu Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

6 APREL

Aqil Məlikov – 40

(1986-2020)

Mayor



Aqil Niyaz oğlu Məlikov 1986-cı il aprelin 6-da Quba rayonunun Alpan kəndində anadan olmuşdur. 1993–2004-cü illərdə Alpan kənd tam orta məktəbində təhsil almışdır. 2005–2009-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil almışdır.

Aqil Məlikov 2016-cı ilin 2–5 aprelində baş vermiş döyüşlərdə də iştirak etmiş, xidməti dövründə göstərdiyi peşəkarlıq, intizam və vətənpərvərliyinə görə bir neçə dəfə təltif edilmişdir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov ona şəxsi təşəkkürünü bildirərək qol saatı hədiyyə etmişdir.

Mayor Aqil Məlikov hərbi xidmətdəki nümunəvi fəaliyyətinə və göstərdiyi peşəkarlığa görə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi (1918–2013)" yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" yubiley medalı və III dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun mayor olan Aqil Məlikov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Aqil Məlikov sentyabrın 27-də Füzuli döyüşləri qəhrəmancasın zamanı şəhid olmuşdur. Quba rayonunda dəfn olunub..

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Aqil Məlikov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.79.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. -2020.- 16 dekabr.- S.6-12.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/6139


APREL

8

Mahir Xələfli - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Mahir Muxtar oğlu Xələfli 2001-ci il aprelin 8-də Sumqayıt şəhərində anadan olmuşdur. Əslən Qubadlı rayonunun Qiyaslı kəndindəndir.

O, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu kimi xidmət etmişdir. Hərbi xidmətini Gəncə və Daşkəsən rayonlarında yerləşən "N" saylı hərbi hissələrdə keçmişdir.

Azərbaycan Ordusunun əsgəri Mahir Xələfli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmiş, Murovdağ istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərmişdir. O, eyni gün — 27 sentyabr 2020-ci ildə Murovdağ istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək, hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Mahir Muxtar oğlu Xələfli ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

9

Taqi Əsgərov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Taqi Nizami oğlu Əsgərov 2001-ci il aprelin 9-da Gəncə şəhərində anadan olmuşdur. 2007–2018-ci illərdə Gəncə şəhərinin 6 nömrəli tam orta məktəbində təhsil almışdır. 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri Taqi Əsgərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmiş, Füzuli, Xocavənd və Şuşa istiqamətlərində gedən döyüşlərdə böyük igidlik göstərmişdir. O, 2020-ci il noyabrın 8-də Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək, hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Taqi Nizami oğlu Əsgərov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

9 APREL

Kamil Şirinov - 35

(1991-2020)

Kapitan



Kamil Əliş oğlu Şirinov 1991-ci il aprelin 9-da Salyan rayonunun Çuxanlı kəndində anadan olmuşdur. 1997–2006-cı illərdə Z. Həmidov adına Çuxanlı kənd tam orta məktəbində, 2006–2009-cu illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almışdır. 2009–2013-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil almışdır.

2013-cü ildən etibarən Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrində xidmət etmişdir. Kamil Şirinov 2016-cı ilin Aprel döyüşlərində də iştirak etmiş, göstərdiyi qəhrəmanlıq və şücaəti ilə fərqlənmişdir.

Müxtəlif illərdə müdafiə nazirinin əmrləri ilə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəl və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəl medalları, həmçinin "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" yubiley medalı ilə, habelə fəxri fərmanlarla təltif edilmişdir.

Azərbaycan Ordusunun kapitanı Kamil Şirinov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. O, sentyabrın 29-da Füzuli uğrunda gedən döyüşlərdə snayper gülləsi nəticəsində qəhrəmancasına şəhid olmuşdur.

Kapitan Kamil Şirinov Azərbaycanın ərazi bütövlüyünün bərpasında xüsusi xidmətlərinə, işğal olunmuş torpaqların azad edilməsi zamanı göstərdiyi igidlik və mərdliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları və "Qarabağ" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 9 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 10 dekabr.- S.2.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il // Azərbaycan.- 2021.- 6 noyabr.- S.2-3.

İnternetdə

https://az.wikipedia.org/wiki/Kamil_%C5%9Eirinov

APREL
9

Əyyub Süleymanov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Süleymanov Əyyub Rasim oğlu 2001-ci il aprelin 9-da İmişli rayonunda anadan olmuşdur. Əslən Cəbrayıl rayonunun Qumlaq kəndindəndir.

O, 2007–2016-cı illərdə Biləsuvar rayonunun 7 saylı qəsəbəsində fəaliyyət göstərən İ.Tahirov adına Mehdili kənd tam orta məktəbində təhsil almış. 2016–2018-ci illərdə Cəbrayıl rayon 131 nömrəli Texniki Peşə məktəbində təhsilini davam etdirərək elektrik avadanlıqlarının təmiri üzrə elektrik montyoru ixtisasına yiyələnmişdir.

Əyyub Süleymanov 2019-cu ilin aprel ayında həqiqi hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətdə özünü nizam-intizamlı və vətənpərvər əsgər kimi göstərmişdir.

İkinci Qarabağ müharibəsi zamanı Əyyub Süleymanov Vətənin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak etmiş, 2020-ci il noyabrın 1-də Laçın rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Biləsuvar rayonunun 3 saylı qəsəbəsindəki Şəhidlər məzarlığında dəfn edilmişdir.

Süleymanov Əyyub Rasim oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

9

Məhərrəm İbrahimli - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

Məhərrəm Şərif oğlu İbrahimli 2001-ci il aprelin 9-da Şəki rayonunda anadan olmuşdur. 2007–2018-ci illərdə N.Hümmətov adına Oxud kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu il aprelin 23-də Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə çağırılmış və Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Məhərrəm İbrahimli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin tərkibində döyüş əməliyyatlarında iştirak etmiş, Talış və Madagiz istiqamətlərində gedən döyüşlərdə igidlik göstərmişdir. Məhərrəm İbrahimli oktyabrın 5-də Goranboy rayonunun Tapqaraqoyunlu kəndi yaxınlığında, Kəhrilər xarabalığı istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş, oktyabrın 25-də Oxud kənd qəbiristanlığında dəfn edilmişdir.

İbrahimli Məhərrəm Şərif oğlu Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

APREL
10

Tural Cəlilov - 30

(1996-2020)

Əsgər



Cəlilov Tural Callad oğlu 1996-cı il aprelin 10-da Qəbələ rayonunun Yeni Dizaxlı kəndində anadan olmuşdur. A.Rəhimov adına Yeni Dizaxlı kənd tam orta məktəbində təhsil almışdır.

2014-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılmış və Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsi zamanı Tural Cəlilov könüllü olaraq döyüşlərə qatılmış, Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə böyük şücaət göstərmişdir. O, 2020-ci il oktyabrın 6-da Ağdərə istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olmuş, oktyabrın 7-də doğulduğu Yeni Dizaxlı kənd qəbiristanlığında dəfn edilmişdir.

Cəlilov Tural Callad oğlu Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.29-34.

13

Ümüd Qasımzadə - 25

(2001-2020)

Əsgər



Ümüd İlqar oğlu Qasımzadə 2001-ci il aprelin 13-də Cəlilabad rayonunun Göytəpə qəsəbəsində anadan olmuşdur. 2020-ci ildə Azərbaycanın Milli Qəhrəmanı Vüqar Mürsəlov adına Göytəpə şəhər 1 nömrəli tam orta məktəbi bitirmişdir.

Uşaqlıq illərindən idmanın ağırlıqqaldırma növü ilə məşğul olmuş, Cəlilabad Rayon Gənclər və İdman İdarəsinin nəzdində fəaliyyət göstərən Uşaq-Gənclər İdman Məktəbində (UGİM) beynəlxalq dərəcəli məşqçi Qadir Babayevin rəhbərliyi altında məşq etmişdir. Ümüd Qasımzadə 2019 və 2020-ci illərdə gənclər arasında keçirilən Azərbaycan çempionatlarında gümüş medallara layiq görülmüş, 2020-ci ildə Azərbaycan çempionatında II yerin sahibi olmuşdur.

2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Vətən müharibəsi başlayanda, 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusunun əsgəri kimi Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmiş, torpaqlarımızın azadlığı uğrunda mərdliklə vuruşmuş, oktyabrın 13-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və Cəlilabad rayonunda dəfn edilmişdir.

Qasımzadə Ümüd İlqar oğlu Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

APREL
13

Elmir Vəliyev - 40

(1986-2020)

Kiçik çavuş



Elmir Məmmədqulu oğlu Vəliyev 1986-cı il aprelin 13-də Füzuli rayonunun Kərimbəyli kəndində anadan olmuşdur. 1992–2003-cü illərdə Əkrəm Səlimov adına Kərimbəyli kənd tam orta məktəbində təhsil almışdır.

2004-cü ildə həqiqi hərbi xidmətə çağırılmış, 2006-cı ilin yanvar ayında "N" saylı hərbi hissədə xidmətini başa vurmuşdur. 2008-ci ildə yenidən həmin hərbi hissədə könüllü olaraq müddətdən artıq həqiqi hərbi qulluqçu – tankçı kimi fəaliyyətə başlamışdır. Xidmət dövründə intizamı və peşəkarlığı ilə seçilmiş, iki dəfə fəxri fərmanla təltif edilmişdir.

Elmir Vəliyev 2016-cı ilin Aprel döyüşlərində böyük igidlik göstərmiş, düşmənin bir neçə texnikasının və canlı qüvvəsinin məhv edilməsində xüsusi fərqlənmişdir.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində də iştirak etmiş, işğal altında olan bir sıra yaşayış məntəqələrinin azad olunmasında şücaət göstərmiş, oktyabrın 27-də Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və doğulduğu Kərimbəyli kəndində dəfn edilmişdir.

Vəliyev Elmir Məmmədqulu oğlu Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

13

Hüseyn Həsənov - 25

(2001-2020)

Əsgər



Hüseyn Vahib oğlu Həsənov 2001-ci il aprelin 13-də Ucar rayonunun Çiyni kəndində anadan olmuşdur. Orta təhsilini Çiyni kənd tam orta məktəbində almışdır.

2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarına həqiqi hərbi xidmətə çağırılmış və xidmətini nümunəvi şəkildə davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri Hüseyn Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin tərkibində döyüş əməliyyatlarında, Vətənin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak etmiş, xidməti vəzifəsini şərəflə yerinə yetirərək düşmənə qarşı igidliklə vuruşmuşdur. O, müharibənin ilk günü – 2020-ci il sentyabrın 27-də qəhrəmancasına şəhid olmuş və Ucar rayonunda dəfn edilmişdir.

Hüseyn Vahib oğlu Həsənov Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi şücaət və fədakarlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

APREL
15

Əli Məhərrəmov - 25

(2001-2020)

Əsgər



Əli Kamil oğlu Məhərrəmov 2001-ci il aprelin 15-də Bərdə rayonunun Mirzalıbəyli kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Əli Məhərrəmov 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində iştirak etmiş, Füzuli istiqamətində gedən döyüşlərdə böyük igidlik və şücaət göstərmişdir. O, sentyabrın 27-də Füzuli rayonunun Horadiz qəsəbəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Sentyabrın 28-də Mirzalıbəyli kəndində, kənd qəbiristanlığında dəfn edilmişdir.

Məhərrəmov Əli Kamil oğlu Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi igidlik və vətənpərvərliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

17

Şəhriyar Əsgərov - 35

(1991-2020)

MAHHXHQ çavuş



Əsgərov Şəhriyar İsa oğlu 1991-ci il aprelin 17-də Cəlilabad rayonunun Göytəpə qəsəbəsində anadan olmuşdur.

O, Azərbaycan Ordusunda 9 il müddətində xidmət etmiş, ön xətdə çavuş rütbəsində fəaliyyət göstərmişdir. Peşəkar hərbçi kimi intizamı, cəsarəti və döyüş ruhu ilə seçilən Şəhriyar Əsgərov Vətən müharibəsi başlayandan etibarən Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak etmişdir.

Döyüşlər zamanı ayağından güllə yarası almasına baxmayaraq, o, döyüş meydanını tərk etməmiş, silahdaşlarına "geri çəkilməyəcəyini" bildirərək sona qədər vuruşmuşdur. 2020-ci il oktyabrın 4-də Xocavənd istiqamətində gedən ağır döyüşlər zamanı mühasirəyə düşən Şəhriyar Əsgərov qəhrəmanlıq göstərərək, düşmənin əlinə keçməmək və bir neçə erməni hərbçisini zərərsizləşdirmək məqsədilə əl qumbarası ilə özünü və dörd nəfərdən çox düşməni partladaraq şəhid olmuş, noyabrın 18-də Cəlilabad rayonunun Göytəpə qəsəbəsində dəfn olunmuşdur.

Əsgərov Şəhriyar İsa oğlu Azərbaycanın ərazi bütövlüyü uğrunda göstərdiyi igidlik və fədakarlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

APREL
17

Rəşad Əliyev - 35

(1991-2020)

Kapitan



Əliyev Rəşad Əmiralı oğlu 1991-ci il aprelin 17-də Salyan rayonunun Ərəbqardaşbəyli kəndində anadan olmuşdur. Orta təhsilini kənd məktəbində aldıqdan sonra 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunmuş, hərbi məktəbi bitirdikdən sonra bir il müddətində təlim keçmişdir. Daha sonra Naxçıvan MR-nın Culfa rayonunda N saylı hərbi hissədə xidmət etmişdir.

Kapitan Rəşad Əliyev orduda göstərdiyi nümunəvi xidmətə görə "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" III dərəcəli medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin kapitanı olan Rəşad Əliyev Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə xidməti vəzifəsini yerinə yetirmiş, düşmənə qarşı igidliklə vuruşmuşdur. O, 2020-ci il oktyabrın 5-də Şuşa döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş, oktyabrın 25-də Salyan rayonunun Ərəbqardaşbəyli kənd qəbiristanlığında dəfn edilmişdir

Kapitan Rəşad Əliyev Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan .- 2021.- 25 iyun.- S.32-44.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.45-57.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 30 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 31 dekabr.- S.14-15.

APREL
17

Orxan Babayev - 25

(2001-2020)

Əsgər



Orxan Sarvan oğlu Babayev 2001-ci il aprelin 17-də Ağstafa rayonunun Qarahəsənli kəndində anadan olmuşdur. O, 2019-cu ildən etibarən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri kimi Orxan Babayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavənd rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümayiş etdirmişdir. O, noyabrın 9-da Xocavənd istiqamətində aparılan döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi şücaətə görə Orxan Sarvan oğlu Babayev Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra bir sıra orden və medallarla təltif edilmişdir. O, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Şəhidin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Ağstafa rayonunun Qarahəsənli kəndində "Şəhidlər bulağı" kompleksi inşa edilərək istifadəyə verilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il // Azərbaycan.- 2021.- 6 noyabr.- S.2-3.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.21-31.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/1340?utm_source=chatgpt.com

APREL
17

Zahir Hüseynli - 25

(2001-2020)

Əsgər



Zahir Mahir oğlu Hüseynli 2001-ci il aprelin 17-də Beyləqan rayonunun Yuxarı Aran qəsəbəsində anadan olmuşdur. O, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin əsgəri kimi xidmət etmişdir.

Zahir Hüseynli 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə böyük igidlik və şücaət nümayiş etdirmişdir. O, 2020-ci il oktyabrın 15-də Füzuli istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olmuş və doğulduğu Beyləqan rayonunda dəfn edilmişdir.

Zahir Mahir oğlu Hüseynli Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda döyüş əməliyyatlarında göstərdiyi qəhrəmanlıq və vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra bir sıra dövlət təltiflərinə layiq görülmüşdür. O, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və III dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.45-57.

18

Nihad Rzaxanov - 25

(2001-2020)

Əsgər



Rzaxanov Nihad Natiq oğlu 2001-ci il aprelin 18-də Bakı şəhərinin Biləcəri qəsəbəsində anadan olmuşdur. 2007-ci ildə Biləcəri qəsəbəsində yerləşən 301 nömrəli tam orta məktəbdə getmiş və burada ümumi orta təhsilini başa vurmuşdur. Orta təhsilini tamamladıqdan sonra əmək fəaliyyətinə başlamışdır.

2019-cu ilin aprel ayında Nihad Rzaxanov Azərbaycan Silahlı Qüvvələrinin sıralarında həqiqi hərbi xidmətə çağırılmışdır.

O, 2020-ci il sentyabrın 27-dən etibarən başlanan, Azərbaycanın ərazi bütövlüyünün bərpası və Ermənistanın işğalı altında olan torpaqların azad olunması uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. Nihad Rzaxanov döyüş yolu boyunca Cəbrayıl, Füzuli və Xocavənd istiqamətlərində gedən ağır döyüşlərdə qəhrəmanlıq və igidlik göstərmişdir.

2020-ci il noyabrın 6-da Xocavənd istiqamətində gedən döyüşlər zamanı şəhidlik zirvəsinə ucalmış, noyabrın 7-də Bakı şəhəri Binəqədi rayonu Biləcəri qəsəbəsində yerləşən "Vətən Müharibəsi Şəhidlərinin Xiyaban Kompleksi"ndə dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi qəhrəmanlıq, igidlik və vətənpərvərliyə görə Nihad Natiq oğlu Rzaxanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

APREL
19

Xeyrulla İbrahimov - 55

(1971-2020) *Polkovnik-leytenant*



İbrahimov Xeyrulla Mais oğlu 1971-ci il aprelin 19-da Bakı şəhərində anadan olmuşdur. 1978–1985-ci illərdə Xətai rayonundakı 116 nömrəli tam orta məktəbdə, 1985–1988-ci illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almışdır. 1988–1992-ci illərdə Ukraynanın Xmelnitski şəhərində yerləşən Ali Artilleriya Komandanlıq Məktəbində "Artilleriya" ixtisası üzrə ali hərbi təhsil almışdır.

1992-ci il sentyabrın 28-dən 1993-cü il iyunun 5-dək Azərbaycan Silahlı Qüvvələrinin Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəsində Haubitsalı Artilleriya Divizionunun qərargah rəisi – divizion komandirinin müavini, 1993-cü il iyunun 5-dən noyabrın 1-dək isə Hacı Zeynalabdin qəsəbəsindəki "N" saylı hərbi hissədə Zenit Artilleriya Divizionunun komandiri vəzifəsində xidmət etmişdir.

Xeyrulla İbrahimov 1992–1994-cü illərdə Birinci Qarabağ müharibəsində iştirak edərək Laçın, Tərtər, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan rayonlarının müdafiəsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 1994-cü il martın 22-də Füzuli rayonunun Aşağı Seyidəhmədli istiqamətində gedən döyüşlər zamanı yaralanmışdır.

1993-cü il noyabrın 1-dən 1994-cü il yanvarın 18-dək Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının sərəncamında olmuş, 1994-cü il yanvarın 18-dən 1997-ci il mayın 14-dək Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə Artilleriya divizionunun komandiri, 1997-ci il mayın 14-dən 1998-ci il noyabrın 1-dək isə həmin hərbi hissədə Haubitsalı Artilleriya Divizionunun komandiri vəzifəsində xidmət etmişdir.

Xidmət dövründə 1994-cü il iyunun 24-də "baş leytenant", 1997-ci il iyunun 30-da isə "kapitan" hərbi rütbəsi verilmişdir. 1998-ci il noyabrın 1-dən 1999-cu il iyunun 29-dək Abşeron rayonunda yerləşən 4-cü Ordu Korpusunda Artilleriya rəisi vəzifəsində xidmət etmiş, 1999–2000-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyasında təhsil almış və 2000-ci il iyunun 30-da "mayor" hərbi rütbəsinə layiq görülmüşdür.

2000-ci ildən etibarən müxtəlif rəhbər vəzifələrdə xidmət edən Xeyrulla İbrahimov 2000–2003-cü illərdə Ağcabədi rayonundakı "N" saylı hərbi hissədə komandir müavini, 2003–2004-cü illərdə isə həmin hərbi hissədə komandirin maddi-texniki təminat üzrə müavini – bölmə rəisi vəzifələrində çalışmışdır. 2004-cü il iyunun 30-da ona "polkovnik-leytenant" hərbi rütbəsi verilmişdir.

Xeyrulla İbrahimov 2004–2009-cu illərdə Goranboy rayonunda, 2009–2011-ci illərdə isə Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissələrin komandiri olmuşdur. 2011-ci ildə könüllü surətdə Azərbaycan Silahlı Qüvvələrindən ehtiyata buraxılmışdır. 20 ilə yaxın qüsursuz xidməti ərzində göstərdiyi nizam-intizam, peşəkarlıq və döyüş hazırlığına görə "Kobra" ləqəbini qazanmışdır.

2020-ci il sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribatlarına cavab olaraq başlanan İkinci Qarabağ – Vətən müharibəsi zamanı Xeyrulla İbrahimov könüllü şəkildə Müdafiə Nazirliyinə müraciət etmiş və 4-cü Ordu Korpusunun Artilleriya rəisi kimi döyüşlərə qatılmışdır. O, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Xocavənd istiqamətlərində gedən döyüş əməliyyatlarında fəallıq və peşəkarlıq nümayiş etdirmiş, düşmənin canlı qüvvə və texnikasının məhv edilməsində mühüm rol oynamışdır. 2020-ci il oktyabrın 26-da Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. II Şəhidlər Xiyabanında dəfn edilmişdir

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidlik, fədakarlıq və vətənpərvərliyə görə polkovnik-leytenant Xeyrulla İbrahimov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları, "Azərbaycan Bayrağı" ordeni və 2021-ci il 24 iyun tarixli sərəncama əsasən "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il //Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.5-6.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.1-6.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan .- 2021.- 25 iyun.- S.32-44

APREL
20

Tacir Əhmədov - 25

(2001-2020)

MAHHXHQ əsgər



Əhmədov Tacir Mehdi oğlu 2001-ci il aprelin 20-də Kürdəmir rayonunun Qarabucaq kəndində anadan olmuşdur. Daha sonra ailəsi Binəqədi rayonuna köçmüşdür. O, orta təhsilini Binəqədi rayonu 182 nömrəli tam orta məktəbdə almış və burada təhsilini başa vurmuşdur.

Tacir Əhmədov Azərbaycan Ordusunun əsgəri idi. O, 2020-ci il sentyabrın 27-də düşmən tərəfindən işğal olunmuş torpaqların azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə Azərbaycan Silahlı Qüvvələri tərəfindən başlanan Vətən müharibəsində iştirak etmişdir.

Tacir Əhmədov Füzuli və Xocavənd istiqamətlərində gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və vətənpərvərlik nümayiş etdirmişdir. O, 2020-ci il oktyabrın 20-də Xocavənd istiqamətində gedən döyüşlər zamanı şəhidlik zirvəsinə ucalmış, Binəqədi qəsəbəsində yerləşən "Vətən Müharibəsi Şəhidlərinin Xiyaban Kompleksi"ndə dəfn olunmuşdur.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüş əməliyyatlarında göstərdiyi şəxsi igidlik, şücaət və vətənpərvərliyə görə əsgər Əhmədov Tacir Mehdi oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

20

Nazir Allahverdiyev - 25

(2001-2020)

Əsgər



Allahverdiyev Nazir Xasay oğlu 2001-ci il aprelin 20-də Ağdam rayonunun Çullu kəndində anadan olmuşdur. Onun qardaşı — Tacir Allahverdiyev də Vətən müharibəsində şəhid olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Nazir Allahverdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Nazir Allahverdiyev 24 oktyabr 2020-ci il tarixində Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şəhid Ağdam rayonunda dəfn edilmişdir.

Allahverdiyev Nazir Xasay oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak etmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirmişdir. Göstərdiyi igidlik və şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

APREL
20

Tacir Allahverdiyev - 25

(2001-2020)

Əsgər



Allahverdiyev Nazir Xasay oğlu 2001-ci il aprelin 20-də Ağdam rayonunun Çullu kəndində anadan olmuşdur. Onun qardaşı — Nazir Allahverdiyev də Vətən müharibəsində şəhid olub.

Azərbaycan Ordusunun əsgəri olan Tacir Allahverdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Tacir Allahverdiyev oktyabrın 24-da Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Ağdam rayonunda dəfn olunub.

Allahverdiyev Nazir Xasay oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

21

Tacir Həsənov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Həsənov Tacir Elşən oğlu 2001-ci il aprelin 21-də Bakı şəhərinin Sabunçu rayonunun Pirşağı qəsəbəsində anadan olmuşdur. Ailəsi əslən Ağdam rayonunun Rzalar kəndindəndir. Ermənistanın işğalçılıq siyasəti nəticəsində ailə doğma yurdunu tərk edərək Bakının Pirşağı qəsəbəsində məcburi köçkün kimi məskunlaşmışdır.

2008–2017-ci illərdə Bakı şəhəri Sabunçu rayonu 311 nömrəli tam orta məktəbdə, daha sonra Pirşağı qəsəbəsində yerləşən 10 nömrəli sanatoriya tipli internat məktəbində təhsil almışdır. 2017-ci ildə orta təhsilini başa vuraraq Azərbaycan Respublikasının Silahlı Qüvvələri sıralarına müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

2020-ci il sentyabrın 27-də Ermənistanın törətdiyi növbəti hərbi təxribatlara cavab olaraq Azərbaycan Silahlı Qüvvələri tərəfindən başlanan Vətən müharibəsi zamanı Tacir Həsənov könüllü şəkildə döyüşlərə qatılmışdır. O, Azərbaycan Ordusunun əsgəri kimi işğal altında olan torpaqların azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmişdir.

Tacir Həsənov Göygöl rayonu Toğanalı kəndi istiqamətində gedən döyüşlərdə igidlik göstərmiş, 2020-ci il oktyabrın 14-də Murovdağ istiqamətində aparılan döyüş əməliyyatları zamanı qəhrəmancasına şəhid olmuş, 15 oktyabrda Bakı şəhərinin Sabunçu rayonu Pirşağı qəsəbəsində yerləşən "Şəhidlər Xiyabanı"nda dəfn edilmişdir.

Tacir Elşən oğlu Həsənov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

APREL
21

Sərhəd Hüseynov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Hüseynov Sərhəd Fərhad oğlu 1996-cı il aprelin 21-də Füzuli rayonunun Yağlavənd kəndində anadan olmuşdur.

Həqiqi hərbi xidmətini başa vurduqdan sonra müddətdən artıq hərbi xidmətçi kimi Azərbaycan Silahlı Qüvvələrinin tərkibində fəaliyyət göstərmişdir.

Azərbaycan Ordusunun MAHHXHQ əsgəri olan Sərhəd Hüseynov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsi zamanı Füzuli istiqamətində aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. Üç gün davam edən döyüşlər zamanı döyüşçü yoldaşları ilə birlikdə düşmənin mövqelərinə qarşı əməliyyatlarda fəal iştirak etmiş, 2020-ci il sentyabrın 29-da qəhrəmancasına şəhid olmuşdur.

Hüseynov Sərhəd Fərhad oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi igidlik və vətənpərvərliklərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda", "Cəsur döyüşçü" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

23

Əliəkbər Bəndəliyev - 25

(2001-2020)

Əsgər



Bəndəliyev Əliəkbər Qulu oğlu 2001-ci il aprelin 23-də Salyan rayonu, Çadırlı kəndində anadan olmuşdur. Salyan rayon Çadırlı kənd orta məktəbində təhsil almışdır. 2019-cu ilin aprel ayında Azərbaycan Silahlı Qüvvələri sırasına həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Əliəkbər Bəndəliyev 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsi zamanı Suqovuşan, Hadrut, Tərtər və Laçın istiqamətlərində aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. Döyüş tapşırıqlarını yerinə yetirərkən baş müşahidəçi və baş kəşfiyyatçı kimi fəaliyyət göstərmişdir. 2020-ci il oktyabrın 10-da qəhrəmancasına şəhid olmuş, oktyabrın 11-də dəfn olunmuşdur.

Bəndəliyev Əliəkbər Qulu oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi igidlik və vətənpərvərliklərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

APREL
24

Sultan İbrahimov - 30

(1996-2020)

Kiçik gizir



İbrahimov Sultan Mikayıl oğlu 24 aprel 1996-cı ildə Salyan şəhərində anadan olmuşdur. Salyan şəhəri 1 saylı humanitar təmayüllü məktəb-liseyi bitirdikdən sonra 2013-cü ildə təhsilini Bakı Biznes və Kooperasiya Kollecində davam etdirmişdir.

2016-2018-ci illərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələri sıralarına müddətli həqiqi hərbi xidmətdə olmuş, 2019-cu ildən müddətdən artıq hərbi xidmətçi kimi Dövlət Sərhəd Xidmətində xidmətə qəbul olunmuşdur. Sultan İbrahimov 4 aylıq "Dənizçi mütəxəssislərin hazırlanması kursu"nu müvəffəqiyyətlə başa vurduqdan sonra Sahil Mühafizəsində fəaliyyətə başlamışdır.

Azərbaycan Ordusunun kiçik giziri olan Sultan İbrahimov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad olunması və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsi zamanı Zəngilan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 21-də düşmənin əks-hücumu zamanı qəhrəmancasına şəhid olmuş, oktyabrın 24-də Salyan şəhərində dəfn edilmişdir.

Sultan Mikayıl oğlu İbrahimov Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi igidlik və vətənpərvərliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Zəngilanın azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Rəşid Mədinov - 30

24

(1996-2020)

Əsgər



Mədinov Rəşid Nəzər oğlu 24 aprel 1996-cı ildə Xaçmaz rayonunun Yeni Həyat qəsəbəsində anadan olmuşdur. Əslən Qubanın Qrız kəndindəndir.

2002-2012-ci illərdə Nazim İsayev adına tam orta məktəbdə, 2012-2015-ci illərdə isə Bakı Dövlət Sosial-İqtisadi Kollecində "Bank işi" ixtisası üzrə təhsil almışdır. 2015-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş və Aprel döyüşlərinin iştirakçısı olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Rəşid Mədinov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad olunması və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsi zamanı Murovdağ və Füzuli istiqamətində gedən döyüşlərdə artilleriya bölmələrinin tərkibində iştirak etmişdir. Oktyabrın 13-də Füzuli uğrunda gedən gərgin döyüşlərdə qəhrəmancasına şəhid olmuş, oktyabrın 14-də Xaçmaz rayonunun Yeni Həyat qəsəbəsi qəbiristanlığında dəfn edilmişdir.

Mədinov Rəşid Nəzər oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi igidlik və vətənpərvərliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" və medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

APREL
25

Yusif Cəfərov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

Cəfərov Yusif Mübariz oğlu 25 aprel 1996-cı ildə Şirvan şəhərində anadan olmuşdur.

2002-2013-cü illərdə Şirvan şəhər 2 nömrəli tam orta məktəbdə, 2013-2017-ci illərdə isə Mingəçevir Dövlət Universitetinin İqtisadiyyat fakültəsində təhsil almışdır.

2018-ci ildə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə həqiqi hərbi xidmətə çağırılmışdır. 28 sentyabr 2020-ci il tarixli sərəncama əsasən, sentyabrın 30-da cəbhəyə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Yusif Cəfərov Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlının işğaldan azad olunması uğrunda aparılan döyüşlərdə iştirak etmişdir. O, Xocavənd döyüşlərində qəhrəmancasına şəhid olmuş və 4 noyabr 2020-ci ildə Şirvan Şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Yusif Mübariz oğlu Cəfərov Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi igidlik və vətənpərvərliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

26

Elfak Daşdəmirov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.13-14.

Daşdəmirov Elfak Eltun oğlu 26 aprel 1996-cı ildə Qazax rayonunun Fərəhli kəndində anadan olmuşdur.

2002-2011-ci illərdə K. Kərimov adına Fərəhli kənd orta məktəbində, 2011-2013-cü illərdə isə Qazax şəhərində S. Vurğun adına 2 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2013-2017-ci illərdə Azərbaycan Dövlət Aqrar Universitetində ali təhsil almışdır.

2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elfak Daşdəmirov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Oktyabrın 26-da Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və Qazax rayonunda dəfn edilmişdir.

Elfak Eltun oğlu Daşdəmirov Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi igidlik və vətənpərvərliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

APREL
26

Hüseyn Sultanov - 30

(1996-2020)

Əsgər



Sultanov Hüseyn Fərhad oğlu 1996-ci il aprelin 26-sında Xaçmaz rayonunun Hacıqurbanoba kəndində anadan olmuşdur. O, Sumqayıt Dövlət Universitetinin İqtisadiyyat və İdarəetmə fakültəsində ali təhsil almışdır. 2016-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad olunması və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsi zamanı Hüseyn Sultanov Azərbaycan Silahlı Qüvvələrinin sıralarına könüllü qoşularaq işğal altında olan torpaqların azad olunması istiqamətində aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. O, Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində gedən döyüşlərdə igidlik göstərmişdir. 2020-ci il oktyabrın 21-də Xocavənd rayonunun Düdüklü kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və Xocavənd rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi igidlik və vətənpərvərliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra Sultanov Hüseyn Fərhad oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

27

Elcan Cəlilov - 30

(1996-2020)

Əsgər



Cəlilov Elcan Famil oğlu 1996-cı il aprelin 27-də Tovuz rayonunda anadan olmuşdur. 2003-2014-cü illərdə A. Puşkin adına Tovuz şəhər tam orta məktəbində təhsil almışdır. 2014–2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Elcan Cəlilov Azərbaycan Silahlı Qüvvələrinin sıralarına könüllü qoşularaq işğal altında olan ərazilərin azad olunması istiqamətində gedən döyüş əməliyyatlarında iştirak etmişdir. O, Xocavənd istiqamətində gedən döyüşlərdə fəal xidmət göstərmişdir.

Elcan Cəlilov 2020-ci il noyabrın 7-də Xocavənd döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və Tovuz rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi igidlik və vətənpərvərliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra Cəlilov Elcan Famil oğlu önra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.13-14.

APREL
29

Tural Qarayev - 35

(1991-2020)

Kiçik çavuş



Qarayev Tural Şahin oğlu 1991-ci il aprelin 29-da Qobustan rayonunun Bəklə kəndində anadan olmuşdur. 1997–2008-ci illərdə Bakı şəhəri 274 nömrəli tam orta məktəbdə təhsil almışdır.

2009–2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında həqiqi hərbi xidmət keçmişdir. Hərbi xidmətdə fərqlənən Tural Qarayev 2016-cı ildə müddətdən artıq hərbi qulluqçu kursunu bitirərək kəşfiyyatçı ixtisası üzrə xidmətini davam etdirmişdir. Xidməti dövründə intizamı, peşəkarlığı və vətənə sədaqəti ilə seçilmiş, bir sıra təşəkkürnamə və fəxri fərmanlarla təltif edilmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Tural Qarayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak etmiş, Füzuli istiqamətində gedən döyüşlərdə igidlik və qəhrəmanlıq nümayiş etdirmişdir. O, Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda vuruşaraq 2020-ci il oktyabrın 2-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş, Qobustan rayonunun Bəklə kəndində dəffn olunmuşdur.

Qarayev Tural Şahin oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda göstərdiyi igidlik və vətənpərvərliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

29

Azər Salmanov - 35

(1991-2020)

Əsgər



Salmanov Azər Vəfadar oğlu 1991-ci il aprelin 29-da Abşeron rayonu, Saray qəsəbəsində anadan olmuşdur. Orta təhsilini Saray qəsəbəsi 2 nömrəli tam orta məktəbdə almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Azər Salmanov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanmış Vətən müharibəsində iştirak etmişdir. O, döyüşlərdə böyük igidlik və vətənpərvərlik nümayiş etdirmiş, Qubadlı istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına vuruşmuşdur

Azər Salmanov 2020-ci il oktyabrın 28-də Qubadlı uğrunda gedən döyüşlər zamanı şəhid olmuş, oktyabrın 30-da Saray qəsəbəsində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidlik və vətənpərvərliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Salmanov Azər Vəfadar oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.


Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

APREL
30

Vüqar Sadıqov - 25

(2001-2020) *Əsgər*



Sadıqov Vüqar İlqar oğlu 2001-ci il aprelin 30-da Xaçmaz rayonunun Qusarçay kəndində anadan olmuşdur. Erkən yaşlarından vətənpərvərlik ruhunda böyüyən Vüqar Sadıqov orta təhsilini doğulduğu kənddə almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Vüqar Sadıqov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Füzuli istiqamətində gedən döyüşlərdə böyük igidlik və mərdlik göstərmiş, torpaqlarımızın azadlığı uğrunda fədakarlıqla vuruşmuşdur. Vüqar Sadıqov 2020-ci il oktyabrın 11-də Füzuli rayonu istiqamətində aparılan döyüşlər zamanı düşmən tərəfindən atılan artilleriya atəşi nəticəsində qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Sadıqov Vüqar İlqar oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir. Xaçmaz rayonunda şəhid Vüqar Sadıqovun xatirəsini əbədiləşdirmək məqsədilə onun adına xatirə abidəsi ucaldılmışdır.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

30

Tural Cuvarov - 30

(1996-2020) *Əsgər*



Cuvarov Tural Zahid oğlu 1996-cı il aprelin 30-da Şəmkir rayonunun Ələsgərli kəndində anadan olmuşdur. 2003–2014-cü illərdə Ələsgərli kənd orta məktəbində təhsil almış, 2014–2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Tural Cuvarov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Füzuli və Qubadlı rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə döyüşmüşdür.

Tural Cuvarov 2020-ci il oktyabrın 26-da Qubadlı döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və Şəmkir rayonunda dəfn edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən, Tural Zahid oğlu Cuvarov Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi igidlik və vətənpərvərliklərinə görə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.13-14.

Hikmət Babaoğlu – 60

(1966)

Siyasi xadim



Hikmət Baba oğlu Məmmədov (Hikmət Babaoğlu) 1966-cı il aprelin 17-də Ermənistan Respublikasının Amasiya rayonunun Göllü kəndində ziyalı ailəsində anadan olmuşdur. Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun Politologiya fakültəsini, eləcə də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət və bələdiyyə idarəetməsi fakültəsini bitirmişdir.

Əmək fəaliyyətinə 1986-cı ildə Bakı Soyuducular Zavodunda tornaçı, qaynaqçı və konstruktor kimi başlamışdır. 1993–1995-ci illərdə "Çinar" qəzetində müxbir, baş müxbir, 1995–1999-cu illərdə Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında təlimatçı və baş təlimatçı vəzifələrində çalışmışdır. 1999-cu ildə YAP-ın I qurultayında Partiyanın Siyasi Şurasına üzv seçilmişdir. 1997–2008-ci illərdə Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində Analitik informasiya şöbəsinin rəisi, Mətbuat xidməti və Analitik informasiya mərkəzinin rəhbəri, həmçinin Ümumi şöbə müdirinin müavini vəzifələrində çalışmışdır.

2005-ci ildə "Demokratik cəmiyyətdə insan hüquqları və azadlıqları: Azərbaycan Respublikası təcrübəsinin politoloji təhlili" mövzusunda dissertasiya müdafiə edərək siyasi elmlər üzrə fəlsəfə doktoru, 2013-cü ildə isə "Azərbaycan Respublikası müasir beynəlxalq siyasi proseslərin aktoru kimi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək siyasi elmlər üzrə elmlər doktoru elmi dərəcəsini almışdır.

2003-cü ildən Bakı Dövlət Universitetinin Politologiya və Sosiologiya kafedrasında baş müəllim, dosent və professor kimi fəaliyyət göstərir. 2014-cü ildən Bakı Dövlət Universitetinin professorudur. 2016-cı ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında fəaliyyət göstərən FD 02.101 Dissertasiya Şurasının üzvü və həmin Şura nəzdində yaradılmış Elmi Seminarın sədridir.

2008–2021-ci illərdə "Yeni Azərbaycan" qəzetinin baş redaktoru olmuşdur. 1 noyabr 2015-ci ildə Azərbaycan Respublikasının V çağırış, 9 fevral 2020-ci ildə isə VI çağırış Milli Məclisinin deputatı seçilmişdir. 2024-cü il 8 oktyabr tarixində Azərbaycan–Paraqvay parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, 2025-ci il 3 fevral tarixində isə Milli Məclisin İntizam komissiyasının üzvü olmuşdur. Eyni zamanda Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi sədrinin müavini, YAP Mərkəzi Aparatı ilə Milli Məclisdə təmsil olunan deputat qrupu arasında əlaqələndiricidir.

Hikmət Babaoğlu 70-ə yaxın elmi əsərin, 3 monoqrafiyanın, 4 dərsliyin, 3 kitabın, tədris proqramlarının və metodik vəsaitlərin müəllifidir. Onun rəhbərliyi ilə 20-dən artıq fəlsəfə və elmlər doktoru tədqiqat işi aparıb.

Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının politoloji aspektlərini kompleks şəkildə araşdıran ilk tədqiqatçılardan biridir. Müəlliflik hüququ üzrə 6 şəhadətnaməyə malikdir və 20-dən çox ölkədə keçirilən beynəlxalq elmi konfranslarda Azərbaycanı təmsil etmişdir. Bir neçə yerli və beynəlxalq elmi jurnalların redaksiya heyətinin üzvüdür.

Peşəkar fəaliyyətinə görə "Qızıl Qələm" Media mükafatı (2008), "Əməkdar jurnalist" fəxri adı (2010), Həsən bəy Zərdabi adına "Ali Media" mükafatı (2012), "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı (2018), "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" (2019), "Dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi" (2019), "Heydər Əliyevin 100 illiyi" (2023) yubiley medalları ilə təltif edilmişdir. Bundan əlavə, TÜRKSOY-un Xüsusi Media mükafatı (2016), Mahmud Kaşqari Beynəlxalq mükafatı (2016), Beynəlxalq "Türk Dünyasına Xidmət Onur" medalı (2018), 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur. Qazaxıstan "Ekonomika və Konsaltinq" Universitetinin fəxri professoru (2006), Qırğızıstan "Ç.Aytmatov" Akademiyasının fəxri üzvüdür (2010).

Ədəbiyyat:

Hikmət Babaoğlu: Azərbaycan İnvestisiya Holdinqinin yaradılması milli iqtisadiyyatımızı neft asılılığından tamamılə qurtara bilər // Yeni Azərbaycan.– 2020.–11avqust.– S.4.

Hikmət Babaoğlu: Azərbaycan çox qısa zamanda ərazi bütövlüyünü bərpa etdiyi kimi, böyük qayıdışı da tezliklə təmin edəcək // Yeni Azərbaycan.– 2021.– 16 fevral.– S.4.

Xalqdan güc alan və ona xidmət edən partiya / Hikmət Babaoğlu // Xalq qəzeti.– 2022.– 16 noyabr.– S.7.

İrəvanda Azərbaycan mətbuatı tarixindən / Hikmət Babaoğlu, C. Allahverdiyev // Səs.– 2023.– 11 fevral.– S.11-12.

Qərbi Azərbaycan mətbuatı tarixi / C. Allahverdiyev; elmi red. H. Babaoğlu; [Qərbi Azərbaycan İcması].– Bakı: [Səda], 2024.– 275, [1] s.

Xarici siyasətin prioritetləri / Hikmət Babaoğlu // Xalq qəzeti.– 2025.– 23 aprel (№ 80).– S.7.

İnternetdə:

https://www.meclis.gov.az/news-dep.php?id=532&lang=az&utm_source=chatgpt.com

APREL
17

Qorxmaz İmanov – 85

(1941)

İqtisadçı



Qorxmaz Cahangir oğlu İmanov 1941-ci il aprelin 17-də Bakı şəhərində anadan olmuşdur. 1964-cü ildə Azərbaycan Dövlət Universitetini (indiki Bakı Dövlət Universiteti) bitirmiş, həmin il Moskvada SSRİ Elmlər Akademiyasının Mərkəzi İqtisadi-Riyaziyyat İnstitutunun aspiranturasına daxil olmuş və 1967-ci ildə əyani təhsilini başa vurmuşdur.

1968-ci ildə həmin institutda "iqtisad elmləri namizədi" alimlik dərəcəsini almışdır. 1968–1969-cu illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Kibernetika İnstitutunda kiçik elmi işçi, 1969–1971-ci illərdə isə D. Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda baş müəllim və dosent vəzifələrində çalışmışdır. 1971-ci ildən etibarən yenidən Azərbaycan EA Kibernetika İnstitutuna qayıdaraq baş elmi işçi kimi fəaliyyət göstərmişdir.

1975-ci ildə SSRİ EA-nın Mərkəzi İqtisadi-Riyaziyyat İnstitutunda iqtisad elmləri doktoru elmi dərəcəsini almaq üçün dissertasiya müdafiə etmişdir. 1974–1987-ci illər ərzində Azərbaycan SSR EA Kibernetika İnstitutunda laboratoriya və şöbə müdiri vəzifələrində çalışmış, 1983-cü ildə professor elmi adını almışdır.

1987–1993-cü illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsinin, daha sonra isə İqtisadiyyat Nazirliyinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunun direktoru olmuşdur. 1993–1998-ci illərdə Rusiya Elmlər Akademiyasının Bazar İqtisadiyyatı Problemləri İnstitutunda aparıcı elmi işçi, 1999–2000-ci illərdə isə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyində baş müşavir vəzifəsində fəaliyyət göstərmişdir.

2001-ci ildən bu günədək AMEA Kibernetika İnstitutunda baş elmi işçi və laboratoriya rəhbəri kimi fəaliyyətini davam etdirir. Onun elmi fəaliyyəti iqtisadi-riyazi modellərin və hesablama texnologiyalarının yaradılması, onların xalq təsərrüfatında planlaşdırma və idarəetmə proseslərində tətbiqi ilə sıx bağlıdır. Bu sahədə əldə etdiyi nəticələrə görə 1984-cü ildə Azərbaycan Dövlət Mükafatına layiq görülmüşdür.

Professor Qorxmaz İmanov 10 monoqrafiyanın və 180-dən çox elmi məqalənin müəllifidir. Əsərləri keçmiş SSRİ-nin bir çox respublikalarında, eləcə də ABŞ, Türkiyə, Avstraliya, Polşa, İtaliya, İspaniya və digər ölkələrdə dərc olunmuşdur.

O, Rusiya EA-nın Mərkəzi İqtisadi-Riyaziyyat İnstitutu nəzdində yaradılmış N.P. Fedorenko adına "İqtisadiyyat Elminin İnkişafı" Fondunun təsisçilərindən biri və həmin fondun vitse-prezidentidir. 2012-ci ildə İspaniyanın Kral İqtisadiyyat və Maliyyə Akademiyasının ümumi iclasında gizli səsvermə yolu ilə fəxri xarici üzv seçilmiş, Akademiyanın qızıl nişanı ilə təltif edilmişdir.

2001-ci ildən etibarən Q. İmanovun elmi fəaliyyəti qeyri-səlis çoxluqlar nəzəriyyəsinin və qeyri-səlis məntiqin sosial-iqtisadi sistemlərin təhlili və qiymətləndirilməsində tətbiqi istiqamətində davam edir. O, professor Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsini humanistik sistemlərin, xüsusilə sosial-iqtisadi proseslərin öyrənilməsində tətbiq etməklə, ölçülməsi çətin olan və ya keyfiyyət xarakterli göstəriciləri riyazi hesablama modellərinə daxil edən yeni yanaşmalar təklif etmişdir.

Onun tədqiqatları qeyri-müəyyənlik fenomeni və sosial-iqtisadi sistemlərin modelləşdirilməsi zamanı çoxsaylı qeyri-müəyyənlik faktorlarının azaldılması problemlərinə həsr olunmuşdur. Qorxmaz İmanov Azərbaycanda "Fuzzy iqtisadiyyatı" adlı elmi istiqamətin əsasını qoymuş və bu sahə üzrə fəaliyyət göstərən laboratoriyaya rəhbərlik edir.

2017-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Ədəbiyyat:

İqtisadçı alimin zəngin və mənalı ömür yolu / Q.İmanov; V.Novruzov // Respublika.– 2020.– 19 iyun.– S.5.

Qorxmaz Cahangir oğlu İmanov: Biblioqrafik göstərici: 80 illiyinə həsr olunur / AMEA, Mərkəzi Elmi Kitabxana; tərt.: R. Cavadova, A. Dostəliyeva; red. X. İsmayılova; [bədii tərtibat Ş. Məmməd].– Bakı: Elm, 2021.– 133, [3] s.

İqtisadi tərəqqinin və sosial inkişafın yorulmaz tədqiqatçısı /İsa Həbibbəyli; Qorxmaz İmanov //Azərbaycan.-2025.- 25 iyun (№129).- S.10; İqtisadiyyat .-2025.- 10-16 iyul (№27).- S.3.

İnternetdə:


https://az.wikipedia.org/wiki/Qorxmaz_İmanov

https://www.isi.az/az/news/77

İnqilab Kərimov – 95

(1931-2011)

Teatrşünas



İnqilab Saleh oğlu Kərimov 1931-ci il aprelin 4-də Göyçay şəhərində anadan olmuşdur. Orta təhsilini Göyçay şəhərində almış, 1953-cü ildə Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki ADMİU) Teatrşünaslıq fakültəsini bitirərək ölkəmizin ilk peşəkar teatrşünaslarından biri olmuşdur.

1957-ci ildən Azərbaycan Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda fəaliyyətə başlamış, aspirantlıqdan şöbə müdiri vəzifəsinə qədər yüksəlmişdir. 1985-ci ildən ömrünün sonunadək institutun Teatr, Kino və Televiziya şöbəsinə rəhbərlik etmişdir.

İnqilab Kərimov 1963-cü ildə "Sovet Azərbaycanının gənclər teatrı" adlı namizədlik dissertasiyasını, 1988-ci ildə "Azərbaycan teatrının yaranması, təşəkkülü və inkişafı problemləri (XIX əsrin sonu, XX əsrin əvvəlləri)" adlı doktorluq dissertasiyasını müdafiə etmiş, həmin il professor elmi adına layiq görülmüşdür. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Milli teatrşünaslıq elminin yaradıcılarından olan İnqilab Kərimov Azərbaycan teatrının tarixi, tənqidi və nəzəri problemlərinə dair yüzlərlə elmi məqalənin və təxminən 200 elmi əsərin, o cümlədən 25 monoqrafiya və kitabın müəllifidir. Onun fundamental əsərləri sırasında "Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri", "Azərbaycan teatr tarixi" (I, II cild), "Heydər Əliyev: sənət, sənətkarlar və sənətkarlıq haqqında", "Ə.Haqverdiyev və teatr", "Azərbaycan-Türkiyə teatr əlaqələri", "Azərbaycan teatrı - 125", "Şuşa-Ağdam teatrı", "Azərbaycan teatrı 125", "Gənclik və gözəllik teatrı", "Sənət yolu, dostluq yolu", "Nəriman Nərimanov və teatr" və s. yer alır. Bu əsərlər Azərbaycan teatrşünaslıq elminin inkişafında mühüm rol oynamışdır.

İnqilab Kərimov elmi kadrların hazırlanmasında da böyük əmək sərf etmiş, onun rəhbərliyi altında 15 nəfər fəlsəfə doktoru elmi dərəcəsi almışdır. O, eyni zamanda uzun illər pedaqoji fəaliyyətlə məşğul olmuş, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində professor kimi 40 ildən artıq müddətdə yüksəkixtisaslı mədəniyyət kadrlarının hazırlanmasına töhfə vermişdir.

Görkəmli alim bədii yaradıcılıqla da məşğul olmuşdur. O, "Necə qan ağlamasın" adlı hekayələr kitabının müəllifi olmuş, Bakı Bələdiyyə Teatrında "Xəyanətin müsibəti" faciəsini tamaşaya qoymuş, həmçinin 18 pyesi tərcümə edərək müxtəlif teatr səhnələrində tamaşaya qoyulmuşdur. Bu fəaliyyət Azərbaycan ədəbiyyatını, milli teatr və dramaturgiyanı zənginləşdirmişdir.

İnqilab Kərimov həmçinin beynəlxalq teatr tədbirlərində iştirak etmişdir. 2000-ci ildə Başqırdıstanın paytaxtı Ufa şəhərində Türkdilli xalqların teatr festivalında "Azərbaycan teatrı: dünən, bu gün və sabah" mövzusunda məruzə oxumuşdur. 2002-ci ildə Tatarıstanın paytaxtı Kazan şəhərində keçirilən Türkdilli xalqların teatr festivalında Azərbaycan teatrı barədə məruzə etmişdir.

İnqilab Saleh oğlu Kərimov 2011-ci il iyulun 22-də Bakıda vəfat etmişdir.

Onun xatirəsi Azərbaycan teatrşünaslıq elmi və mədəni həyatında daim yaşayır, əsərləri, elmi araşdırmaları Azərbaycan teatrı və mədəniyyətinin inkişafına böyük töhfə vermişdir.

Ədəbiyyat:

Heydər Əliyev: Sənət, sənətkarlar və sənətkarlıq haqqında / İnqilab Kərimov. - Bakı: ULU İKF, 2005. - 228 s.

Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri / İnqilab Kərimov; elmi red. M. L. Seyidov. - Bakı: Maarif, 2002. - 576 s.

Pyes: Teatr əhvalatları. Hekayələr. Rəvayətlər / İnqilab Kərimov; tərt. ed. G. İnqilabqızı; red. U. Rəhimoğlu ; Azərb. Respub. Mədəniyyət və Turizm Nazirliyi. - Bakı: Avrasiya Press, 2011. - 375, [1] s.

Quba teatrı: Xatirələr məkanından Könüllülər səhnəsinə / R. Ramazanlı // 525-ci qəzet.– 2025.– 12 mart(№46).– S.11; 13 mart(№47).– S.15; 14 mart(№48).– S.13.

İnternetdə:

https://science.gov.az/az/forms/skanchavshiesya-chlenyikorrespondentyi/3426

https://azteatr.musigi-dunya.az/file?id=94&dt=1108

Nurəddin Kazımov – 100

(1926-2018)

Pedaqoq



Nurəddin Mustafa oğlu Kazımov 1926-cı il aprelin 28-də Gəncə şəhərində anadan olmuşdur. 1933–1943-cü illərdə III Beynəlmiləl adına orta məktəbdə təhsil almışdır. 1945-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsinin fəlsəfə şöbəsinə daxil olmuş, 1947-ci ildə təhsilini davam etdirmək məqsədilə Leninqrad (indiki Sankt-Peterburq) Dövlət Universitetinin fəlsəfə fakültəsinin III kursuna köçürülmüş və 1950-ci ildə həmin universiteti müvəffəqiyyətlə bitirmişdir.

1950–1952-ci illərdə Nuxa (indiki Şəki) Müəllimlər İnstitutunun pedaqogika və psixologiya kafedrasında baş müəllim vəzifəsində çalışmışdır. Sonrakı illərdə Bakı şəhərində müxtəlif pedaqoji və inzibati vəzifələrdə fəaliyyət göstərmiş, əvvəlcə Bakı Vilayət Maarif Şöbəsində məktəb inspektoru, sonra Azərbaycan SSR Maarif Nazirliyində Ali və orta pedaqoji təhsil şöbəsində inspektor vəzifəsində çalışmışdır. 1953–1956-cı illərdə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunun (indiki Azərbaycan Respublikası Təhsil İnstitutu) aspiranturasında təhsil almışdır.

1956–1957-ci illərdə yenidən Azərbaycan SSR Maarif Nazirliyinin Ali və orta pedaqoji təhsil şöbəsində inspektor vəzifəsinə dəvət olunmuşdur. Nurəddin Kazımov 1958-ci ildə pedaqoji elmlər namizədi, 1969-cu ildə pedaqoji elmlər doktoru elmi dərəcəsi almış, 1973-cü ildə professor elmi adına layiq görülmüşdür.

O, 1957-ci ildə M.F.Axundov adına Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda baş müəllim, 1957–1973-cü illərdə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda elmi işlər üzrə direktor müavini, 1973–1976-cı illərdə institutun direktoru olmuşdur. 1976–1982-ci illərdə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunda (indiki ADPU) elmi işlər üzrə prorektor vəzifəsində çalışmış, 1984-cü ildən etibarən 30 il müddətində Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrasına rəhbərlik etmişdir. Onun rəhbərliyi altında onlarla gənc tədqiqatçı elmi fəaliyyətə başlamışdır.

Nurəddin Kazımovun əsas elmi və pedaqoji əsərləri arasında "Nurlu yol" (1983), "Tərbiyənin elmi-pedaqoji əsasları" (1983), "Ali məktəb pedaqogikası" (1999), "Milli pedaqogika yollarında" (2001), "Məktəb pedaqogikası" (2002), "Məktəb pedaqogikası sxemlərdə" (2003), "Mərhələli tərbiyə nəzəriyyəsi" (2007), "Pedaqoji ustalığın problemləri" (2009), "Tətbiqi pedaqogika" (2010), on altı cilddən ibarət "Seçilmiş əsərlər" (2011) və digər kitablar yer alır. Onun müəllifi olduğu dərslik və dərs vəsaitləri hələ də ali təhsil müəssisələrində istifadə olunur. Orta ümumtəhsil məktəblərinin III–IV sinifləri üçün yazdığı "Ana dili" (1970–2003) və "Oxu" (1970–2005) dərslikləri isə təlim-tərbiyə sahəsində əhəmiyyətli rol oynamışdır.

Nurəddin Kazımovun fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, "Qabaqcıl maarif xadimi", "SSRİ maarif əlaçısı" döş nişanları, "Şərəf nişanı" ordeni ilə təltif olunmuş, "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş və Prezidentin fərdi təqaüdü ilə mükafatlandırılmışdır. 2012-ci ildə Rusiya Təhsil Akademiyasının xarici üzvü seçilmişdir.

Nurəddin Mustafa oğlu Kazımov 2018-ci il dekabrın 6-da vəfat etmişdir.

Ədəbiyyat:

Tətbiqi pedaqogika: ibtidai təhsilin pedaqogikası ixtisası üzrə: dərslik / Nurəddin Kazımov; elmi red. F. B. Sadıqov; məsl. A. Y. Süleymanova.– Bakı: Çaşıoğlu, 2010.– 327, [1] s.

Milli pedaqogikanın metodoloji əsaslarına dair / Nurəddin Kazımov // Azərbaycan müəllimi.– 2011.– 18 noyabr.– S.5.

Görkəmli alim, böyük vətəndaş / V.Bəşirov // Azərbaycan müəllimi.– 2012.– 6 yanvar.– S. 7.

Azərbaycanlı alim Rusiya Təhsil Akademiyasının üzvü seçilmişdir / V. Bəşirov // Azərbaycan müəllimi.– 2013.– 6 sentyabr.– S.5.

"Azərbaycan məktəbi" respublikamıza nə verir? "Azərbaycan məktəbi"-90 (jurnalımızın arxivindən / NurəddinKazımov. // Azərbaycan məktəbi.– 2014.– № 2.– S.104-107.


Milli pedaqogika elminin memarı / V. Bəşirov // Azərbaycan müəllimi.– 2016.– 21 may.– S.11.

Görkəmli alim, böyük vətəndaş / A. Abbasov, H. Əhmədov, V. Bəşirov // Azərbaycan müəllimi.– 2018.– 7 dekabr.– S.13.

Ələşrəf Əlizadə – 115

(1911-1985)

Geoloq



Ələşrəf Əbdülhüseyn oğlu Əlizadə 1911-ci il aprelin 24-də Şamaxıda anadan olmuşdur. 1930–1935-ci illərdə M.Əzizbəyov adına Azərbaycan Neft İnstitutunun (indiki ADNSU) geoloji-kəşfiyyat fakültəsində təhsil almışdır.

Əmək fəaliyyətinə 1934-cü ildə "Azneftkəşfiyyat" trestinin Geoloji Axtarış Kontorunda geoloq vəzifəsindən başlayaraq böyük geoloq, baş geoloq və direktor vəzifələrinə qədər yüksəlmişdir. 1948–1949-cu illərdə "Azneft" və "Azneftkəşfiyyat" birliklərinin rəisi olmuş, 1949–1954-cü illərdə M.Qorki adına Türkmənistan Dövlət Universitetində geologiya kafedrasının müdiri və Türkmənistan SSR EA-nın Faydalı Qazıntılar bölməsinin müdiri vəzifələrində çalışmışdır. 1954-cü ildə Bakıya qayıdaraq Azərbaycan Neft Sənayesi İnstitutunun "Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı" kafedrasında professor vəzifəsində çalışmış, 1959–1970-ci illərdə institutun direktoru olmuşdur. 1970–1977-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Neft və Qaz İnstitutunun (AzETLİ) direktoru, 1977–1985-ci illərdə Azərbaycan SSR EA İ.M.Qubkin adına Geologiya İnstitutunun "Regional geologiya və tektonika" şöbəsinin müdiri vəzifəsində işləmişdir.

Ələşrəf Əlizadə geologiya sahəsində çöl və mədən geologiyası üzrə Azərbaycan dilində ilk dərs vəsaitlərinin müəllifi olmuşdur. 1937-ci ildə "Çöl geologiyasına dair qısa rəhbərlik", 1938-ci ildə "Çöl və mədən geologiyasına dair qısa rəhbərlik", 1961-ci ildə isə M.Babayevlə birlikdə Azərbaycan dilində "Ümumi geologiya" dərs vəsaitini nəşr etdirmişdir.

ƏləşrəfƏlizadə geologiya və paleocoğrafiya sahəsində 500–600-dən artıq elmi əsərin müəllifidir. Onun əsərləri arasında "Azərbaycanın maykop lay dəstəsi və onun neftliliyi", "Azərbaycanın paleogen çöküntüləri", 2 cildlik "Türkmənistanın ağçaqılı", "Azərbaycan mezozoy çöküntüləri və onların neft-qazlılıq perspektivliyi", "Azərbaycanın Abşeronu", "Yer və zəlzələlər", "Azərbaycanın Sarmatı", "Azərbaycanın paleogen yataqları" və s. yer alır. O, həmçinin bir sıra xəritə və atlasların müəllifi olmuş, Azərbaycan və Türkmənistan SSR-inin əsas neft rayonlarında geoloji-tədqiqat işlərini aparmış, neft və qaz-kondensat yataqlarının açılmasında bilavasitə iştirak etmişdir. Mezozoy çöküntülərinin neftlilik problemlərini öyrənmiş, Pliosen çöküntülərinin stratiqrafik sxemini və Akçaqıl faunasını tədqiq etmişdir.

Ələşrəf Əlizadə həmçinin beynəlxalq və ümumittifaq konqreslərdə, simpoziumlarda və sessiyalarda elmi məruzələrlə çıxış etmiş, bir çox elmi şuraların və komissiyaların üzvü olmuşdur. 1944-cü ildə geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsi almış, 1945-ci ildə Azərbaycan SSR EA-nın həqiqi üzvü seçilmişdir.

Ələşrəf Əlizadə dövlət tərəfindən dəfələrlə təltif edilmişdir. O, 1940-cı ildə Xalq Neft Komissarlığının "Əlaçı" döş nişanı, 1942 və 1946-cı illərdə Lenin ordeni, 1943 və 1946-cı illərdə SSRİ Dövlət mükafatı, 1966-cı ildə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir. 1971-ci ildə "SSRİ-nin fəxri neftçisi" və Türkmənistan SSR-nin "Əməkdar elm və texnika xadimi" fəxri adlarını almış, 1973-cü ildə Qubkin adına mükafatın laureatı, 1976-cı ildə Ümumittifaq Paleontologiya Cəmiyyətinin fəxri üzvü seçilmişdir. O, həmçinin SSRİ Ali Sovetinin (2-ci çağırış, 1946) deputatı olmuşdur.

Ələşrəf Əbdülhüseyn oğlu Əlizadə 1985-ci il martın 23-də Bakıda vəfat etmişdir.

Onun elmi fəaliyyəti, dərs vəsaitləri və nəşr olunmuş əsərləri Azərbaycan və beynəlxalq geologiya elminin inkişafında mühüm rol oynamışdır.

Ədəbiyyat:

Görkəmli akademikin yubikeyinə həsr olunmuş elmi konfrans keçirildi / İ. Məmmədli // İki sahil.– 2011.– 3 may.– S. 13.

Akademik Ələşrəf Əlizadə / A. Əliyev; baş məsl. və elmi red. A. Əlizadə.– Bakı: [Elm], 2015.– 118, [1] s.

Ələşrəf Əbdülhüseyn oğlu əlizadəyə həsr olunmuş konfrans // "Azərbaycan geoloqu" elmi bülleten. - 2022. - № 25.

Həbibbəyli, İ. Elmlər Akademiyasının yaradılması prosesi və ilk tərkibi / İsa Həbibbəyli // 525-ci qəzet.-2015.- 24 oktyabr.- S.10-11-12.

İnternetdə:

https://science.gov.az/az/forms/skonchavshies-ya-deystvitelnyie-chleny-i/3267

https://www.anl.az/down/meqale/525/2015/oktyabr/460327.htm

Ədhəm Şıxəlibəyli – 115

(1911-1996)

Akademik



Ədhəm Şahlarbəy oğlu Şıxəlibəyli 1911-ci il aprelin 30-da Şamaxı qəzasının Bico kəndində (indiki Ağsu rayonu) anadan olmuşdur.

O, 1937-ci ildə Azərbaycan Sənaye İnstitutunun (indiki ADNSU) Geoloji-kəşfiyyat fakültəsini bitirmişdir. 1947-ci ildə "Böyük Qafqazın cənub yamacının Azərbaycan hissəsinin geoloji quruluşu" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək geologiya-mineralogiya üzrə fəlsəfə doktoru, 1965-ci ildə "Kiçik Qafqazın şərq hissəsinin geoloji quruluşu və tektonik inkişaf tarixi (Azərbaycan)" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək geologiya-mineralogiya üzrə elmlər doktoru elmi dərəcələrini almışdır.

1968-ci ildə Azərbaycan EA-nın müxbir üzvü, 1983-cü ildə isə həqiqi üzvü seçilmişdir. 1946-cı ildən Sovet İKP üzvü olmuşdur.

Əmək fəaliyyətinə 1937–1953-cü illərdə Azərbaycan SSR Geologiya İdarəsində geoloji kəşfiyyat və geoloji planlama dəstələrinə rəhbərlik etməklə başlamışdır. 1945–1956-cı illərdə Azərbaycan Sənaye İnstitutunda və Azərbaycan Dövlət Universitetində (indiki BDU) dərs demişdir. 1954–1985-ci illərdə Azərbaycan SSR EA İ.M.Qubkin adına Geologiya İnstitutunda regional geologiya laboratoriyasının rəhbəri olmuşdur. 1969–1971-ci illərdə Əlcəzairdə neft-qaz yataqlarının axtarışını aparan Sovet geoloqlar qrupuna başçılıq etmişdir. 1992-ci ildən ömrünün sonuna qədər Azərbaycan Geoloqlarının Milli Komitəsinin prezidenti vəzifəsində çalışmışdır.

O, SSRİ EA Geologiya, Geofizika, Geokimya və Dağ Elmləri şöbəsinin müəssisələrarası tektonik komissiyasının, BDU-nun Dövlət Geologiya və Mineral Ehtiyatları Komitəsinin elmi-texniki şuralarının üzvü, Azərbaycan Sovet Ensiklopediyası Redaksiya Şurasının üzvü və AMEA "Xəbərlər" jurnalının Yer Elmləri seriyasının baş redaktorunun müavini olmuşdur.

Ədhəm Şıxəlibəyli Şərqi Qafqazın qırışıqlıq sisteminin əmələ gəlməsinin mərhələlərini müəyyən etmiş, onları struktur zonalara bölmüş və şimal-qərbi kembridən qabaq və şimal-şərqi rifey yarıqlarının rolunu elmi əsaslarla təsbit etmişdir. O, şimal-şərq istiqamətdə uzanan Qərbi Xəzər gömülmüş qalxımını aşkar etmiş və bu qalxımın Qafqaz qırışıqlıq sisteminin müsbət strukturlarının Xəzər dənizinə yaxınlaşdıqca birləşmələrinə səbəb olmasını əsaslandırmışdır. İlk dəfə olaraq Balakən-Zaqatala regionunda polimetallik filiz yataqlarının aşkar edilməsi perspektivliyini sübut etmişdir.

Ə.Şıxəlibəyli 250-dən çox elmi əsərin, o cümlədən 15 monoqrafiyanın müəllifi olmuş, Azərbaycanın geoloji, tektonik, paleotektonik, geomorfoloji, neotektonik və metallogenik xəritələrinin, eləcə də Qafqazın və Avropanın tektonik xəritələrinin həmmüəllifidir.

Akademik 1979-cu ildə Azərbaycan SSR-nin "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Ədhəm Şahlarbəy oğlu Şıxəlibəyli 1996-cı ildə Bakı şəhərində vəfat etmişdir.

Onun elmi fəaliyyəti və tədqiqatları Azərbaycan geologiya elminin inkişafında mühüm rol oynamışdır.

Ədəbiyyat:

Azərbaycanın geoloq və geofizik alimləri. - Bakı: Nafta-Press, 2004. - S. 333-334.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Ədhəm_Şıxəlibəyli

Abbasqulu Abbaszadə – 120

(1906-1969)

Fizik



Ədəbiyyat:

Azərbaycan Milli Ensiklopediyası (25 cilddə). -1-ci cild: A – Argelander. - Bakı: "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi. 2009. - S. 10.

Zamanov, A. Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 məşhur məzunu: 100: 1921-2021 / Asəf Zamanov [ön söz]; layihə rəhbəri C. Cəfərov; elmi red. F. Rüstəmov; [dizayner Ə. Zaliyev]. - Bakı: [ADPU], 2021. - S. 69.

Mirzəyev, T. Pedaqoji Universitet. 100 ilin şahidləri: Fotoalbom / Taleh Mirzəyev [tərt.]; layihə rəhbəri C. Cəfərov [ön söz]; elmi red. F. Rzayev; [dizayn: E. Vahidov, T. Kərimli; fotoqraf N. Səmədov]. - Bakı: [ADPU], 2021. - 215, [1] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Abbasqulu_Abbaszadə

chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://adpu.edu.az/images/adpu_files/universitet/haqqimizda/meshur-mezunlarimiz/mezunlarimiz.pdf

Abbasqulu Ağabala oğlu Abbaszadə 1906-cı il aprelin 10-da Cənubi Azərbaycanın Təbriz şəhərində anadan olmuşdur. 1916-cı ildə ailəsi ilə birlikdə Təbrizdən Bakı şəhərinə köçmüşdür. O, əvvəlcə birinci dərəcəli məktəbi, daha sonra N.Nərimanov adına Sənaye Texnikumunu bitirmişdir. 1926-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini, 1930-cu ildə isə Bakı Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Universiteti başa vurduqdan sonra Azərbaycan Təhsil İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir.

Abbasqulu Abbaszadə tələbəlik illərindən pedaqoji fəaliyyətə başlamış, 1923–1933-cü illərdə müxtəlif orta və orta ixtisas təhsili müəssisələrində fizika və riyaziyyat fənlərinin müəllimi kimi çalışmışdır. 1931–1933-cü illərdə Azərbaycan Tibb Universitetinin Fizika kafedrasında assistent, 1938–1969-cu illərdə isə Azərbaycan Dövlət Pedaqoji Universitetində Eksperimental və nəzəri fizika kafedrasının müdiri olmuşdur. O, 1939–1957-ci illərdə Fizika-riyaziyyat fakültəsinin dekanı, 1957–1962-ci illərdə isə elmi işlər üzrə prorektor vəzifəsində fəaliyyət göstərmişdir. 1932–1949-cu illərdə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında və Azərbaycan EA-nın Fizika və Riyaziyyat İnstitutunda elmi işçi kimi fəaliyyət göstərmişdir. 1957–1962-ci illərdə "Politexnik təlim", 1962–1969-cu illərdə isə "Fizika və riyaziyyat tədrisi" jurnallarının baş redaktoru olmuşdur.

Alim 1941-ci ildə namizədlik, 1953-cü ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1957-ci ilin sentyabrında RSFSR Pedaqoji Elmlər Akademiyasının, 1968-ci ildə isə SSRİ Pedaqoji Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Abbasqulu Abbaszadə 1955–1969-cu illərdə Azərbaycan EA-nın Molekulyar Fizika Problemləri üzrə Şurasının sədri, 1957–1969-cu illərdə Azərbaycan SSR Maarif Nazirliyinin Fizikanın tədrisi metodikası bölməsinin sədri, 1958–1969-cu illərdə isə SSRİ Pedaqoji EA-nın Proqram-metodik Komissiyasının üzvü olmuşdur.

Onun elmi fəaliyyətinin əsas istiqamətlərini mayelərin istilik keçirmə xassələrinin tədqiqi, molekulyar fizika, termodinamika və fizikanın orta və ali məktəblərdə tədrisi metodikasının təkmilləşdirilməsi təşkil etmişdir. Abbasqulu Abbaszadə mayelər fizikası sahəsində fundamental tədqiqatlar aparmış, bu istiqamətdə mühüm elmi nəticələr əldə etmiş və Azərbaycan elmi məktəbinin formalaşmasına töhfə vermişdir. O, eyni zamanda görkəmli elm təşkilatçısı, alim-metodist və pedaqoq kimi tanınmışdır.

Professor 200-dən artıq elmi əsərin, o cümlədən 20 kitabın, metodik vəsaitin və monoqrafiyanın müəllifidir. Onun rəhbərliyi ilə 100-ə yaxın elmlər namizədi və doktoru hazırlanmış, onların 60-a yaxını alimin bilavasitə aspirant və dissertantı olmuşdur.

Abbasqulu Abbaszadə elmi-pedaqoji fəaliyyəti və təhsilin inkişafına verdiyi mühüm xidmətlərinə görə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir.

Abbasqulu Ağabala oğlu Abbaszadə 1969-cu il fevral ayının 18-də Bakı şəhərində vəfat etmişdir.

O, Azərbaycan fizika elminin inkişafında, xüsusilə molekulyar fizika və tədris metodikası sahələrinin formalaşmasında mühüm rol oynamış, bir çox görkəmli alimlərin yetişməsinə böyük töhfə vermişdir.

APREL
15

Elçin Əhmədov – 65

(1961)

Kitabxanaşünas alim



Ədəbiyyat:

Dünya milli kitabxanaları:magistrantlar üçün dərs vəsaiti.- Bakı Universiteti nəşriyyatı, 2008.-136 s.

Azərbaycanda kitabxana-informasiya işinin hüquqi bazası: dərs vəsaiti.- Bakı Universiteti nəşriyyatı, 2012.-216 s.

Uşaq və gənclərin kitabxana-informasiya təminatı. Bakı: "Sabah" nəşriyyatı, 2016.-248 s.

Multikulturalizm kitabxana-informasiya fəaliyyətində. Bakı: Elm nəşriyyatı, 2019.- 200 s.

Kitabxana işinin dövlət siyasəti / Elçin Əhmədov // "Azərbaycan Respublikasında kitabxana-informasiya fəaliyyətinin inkişaf meylləri" mövzusunda Respublika elmi konfransının materialları, 7 may 2021-ci il / Bakı Dövlət Universiteti.– 2021.– S.5-9.

Dövlətin kitabxana siyasəti / Elçin Əhmədov // Respublika.– 2022.– 10 mart.– S.5.

Heydər Əliyevin kitabxana doktrinası Milli Kitabxananın strateji inkişaf planıdır / Elçin Əhmədov // Heydər Əliyev və Azərbaycanda kitabxana quruculuğu: (Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunur) / Respublika Elmi Konfransının materialları, Bakı, 12 may 2023-cü il.– 2024.– S.55-56.

İnternetdə:

https://www.millikitabxana.az/news/elcin-ehmedov-60

Elçin Yusif oğlu Əhmədov 1961-ci il aprelin 15-də Qərbi Azərbaycanın Basarkeçər rayonunun Dərə kəndində anadan olmuşdur.

O, 1983–1988-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Kitabxanaçılıq fakültəsində təhsil almış, 1989-cu ildə Moskvada Ümumittifaq Mədəniyyət İşçilərinin Təkmilləşmə İnstitutunda ixtisasartırma kursu keçmiş, 1994–1998-ci illərdə aspiranturada təhsilini davam etdirmişdir. 2000-ci ildə "Azərbaycanda uşaqlara kitabxana xidmətinin təşkili (tarixi inkişafı, müasir vəziyyəti və perspektivləri, 1901–1995)" mövzusunda dissertasiya müdafiə edərək pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

O, "Müstəqillik illərində uşaqlara və gənclərə kitabxana-informasiya xidməti" mövzusunda doktorluq dissertasiyasını başa çatdırmış, eyni adlı monoqrafiyasını çap etdirmişdir.

Əmək fəaliyyətinə 1979-cu ildə başlayan Elçin Əhmədov əvvəlcə Basarkeçər rayonunun Dərə kənd kitabxanasında müdir, 1988–1993-cü illərdə isə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında baş metodist və metodik şöbənin müdiri vəzifələrində çalışmışdır. 1994-cü ildən Bakı Dövlət Universitetində pedaqoji fəaliyyət göstərir və hazırda universitetin İnformasiya və sənəd menecmenti fakültəsinin Kitabxanaşünaslıq kafedrasının müdiri, dosent vəzifəsində fəaliyyətini davam etdirir.

Elçin Əhmədovun elmi fəaliyyəti kitabxanaşünaslıq və informasiya elmlərinin nəzəri və təcrübi problemlərinin tədqiqinə yönəlmişdir. Onun əsas araşdırma istiqamətləri Azərbaycanda uşaqlara və gənclərə kitabxana xidmətinin təşkili, kitabxanaşünaslığın elmi-fəlsəfi və pedaqoji əsaslarının öyrənilməsidir. Alim kitabxana xidmətinin tarixi inkişafını müasir tələblərlə əlaqələndirərək, bu sahədə modern yanaşmaların formalaşmasına töhfə vermişdir.

Elçin Əhmədov "Kitabxanaşünaslığa və informasiya elmlərinə giriş", "Dünya milli kitabxanaları", "Azərbaycanda kitabxana işinin hüquqi təminatı" və digər fənləri tədris edir. O, eyni zamanda gənc tədqiqatçıların elmi rəhbəri olaraq doktorant, dissertant və magistrantların yetişməsində mühüm rol oynayır.

Alimin elmi irsinə 6 kitab və 100-dən çox elmi məqalə daxildir. Onun əsərləri əsasən "Kitabxanaşünaslıq və İnformasiya" jurnalı, müxtəlif ölkələrin yüksək indeksli elmi jurnallarında və digər ixtisas nəşrlərində dərc olunmuşdur. Elmi və pedaqoji fəaliyyətinə görə Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Bakı Dövlət Universitetinin Fəxri fərmanları ilə təltif olunmuşdur.

2021-ci il 27 oktyabr tarixində M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası tərəfindən onun həyat və fəaliyyətinə həsr olunmuş "Kitabxanaşünas alim – Elçin Əhmədov" adlı virtual sərgi hazırlanmışdır.

Elçin Yusif oğlu Əhmədov müasir Azərbaycan və dünya kitabxanaşünaslığının elmi və nəzəri problemlərinin araşdırılmasında, kitabxanaçılıq-informasiya təhsilinin inkişafında mühüm rol oynayır, xüsusilə uşaqlara və gənclərə kitabxana xidmətinin elmi əsaslarının formalaşmasına, tədris və tədqiqat istiqamətlərinin yenilənməsinə dəyərli töhfələr verir.

APREL
26

Fizurə Quliyeva – 85

(1941-2023)

Kitabxanaçı



İnternetdə:

https://medeniyyet.info.az/page/news/70549/Taninmis-kitabxanaci-Fizure-Quliyeva-vefat-edib.html

Fizurə Müseyib qızı Quliyeva 1941-ci il aprelin 26-da Naxçıvan şəhərində anadan olmuşdur. 1962–1968-ci illərdə Azərbaycan Dövlət Universitetinin Kitabxana-biblioqrafiya fakültəsində ali təhsil almışdır.

Əmək fəaliyyəti 1960-cı ildə M.S.Ordubadi adına Naxçıvan Respublika Kitabxanasında başlamışdır. 1962–1975-ci illərdə həmin kitabxananın şöbə müdiri, 1975–1976-cı illərdə elmi işlər üzrə direktor müavini, 1976–1983-cü illərdə isə direktor vəzifəsində çalışmışdır. Peşəkar fəaliyyəti dövründə kitabxana işinin təşkilində təşəbbüskarlığı və idarəçilik bacarığı ilə seçilmişdir.

1984-cü ildən 2013-cü ilə qədər F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru olmuşdur. Onun rəhbərliyi dövründə kitabxana ölkənin aparıcı uşaq kitabxanasına çevrilmiş, beynəlxalq səviyyədə tanınmışdır. Firuzə Quliyeva İFLA və Krım beynəlxalq konfranslarında iştirak etmiş, həmçinin Türkiyə, Ukrayna və Rusiyada elmi ezamiyyətlərdə Azərbaycan kitabxanaçılıq sistemini uğurla təmsil etmişdir.

2006–2013-cü illərdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə təsis etdiyi "Göy qurşağı" uşaq jurnalı onun yaradıcılıq fəaliyyətinin mühüm nəticələrindən biri olmuşdur.

Fizurə Quliyeva kitabxana işinin inkişafında və uşaq auditoriyası üçün mədəni-maarif layihələrinin həyata keçirilməsindəki xidmətlərinə görə dəfələrlə fəxri fərmanlarla təltif olunmuş, 2006-cı ildən "Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq görülmüşdür.

Fizurə Müseyib qızı Quliyeva 2023-cü il noyabrın 7-də vəfat etmişdir.


İdman

10

İbrahimpaşa Dadaşov – 100

(1926-1990)

İdman ustası, güləşçi



İnternetdə:

https://az.wikipedia.org/wiki/%C4%B0brahimpa%C5%9Fa_Dada%C5%9Fov

İbrahimpaşa Hüseyn oğlu Dadaşov 1926-cı il aprelin 10-da Bakı şəhərində anadan olmuşdur. O, gənc yaşlarından güləş idman növünə maraq göstərmiş və bu sahədə böyük uğurlar qazanmışdır.

İdman karyerasında ən mühüm mərhələlərdən biri 1952-ci ildə baş tutmuşdur. Həmin il o, Sovet idmançılarının ilk dəfə iştirak etdiyi Helsinkidə keçirilən Yay Olimpiya Oyunlarında sərbəst güləş yarışlarında çıxış etmiş və yeddinci yeri tutmuşdur. Bu nəticə onun beynəlxalq arenada tanınmasına zəmin yaratmışdır.

İbrahimpaşa Dadaşov SSRİ miqyasında da bir sıra mühüm nailiyyətlər əldə etmişdir. 1949, 1951, 1952 və 1956-cı illərdə SSRİ çempionatlarının qalibi olmuş, 1954 və 1955-ci illərdə gümüş, 1950-ci ildə isə bürünc medallara layiq görülmüşdür. Peşəkar güləşdə qazandığı uğurlarına görə ona SSRİ Əməkdar idman ustası və SSRİ Əməkdar məşqçisi fəxri adları verilmişdir.

Dadaşov uzun illər Bakı "Dinamo" İdman Cəmiyyətinin üzvü kimi fəaliyyət göstərmiş, həmçinin məşqçi kimi də tanınmışdır. O, bir çox güləş ustalarının yetişməsində mühüm rol oynamış, SSRİ səviyyəli yarışlara bir sıra idmançıların hazırlanmasında əvəzsiz xidmətlər göstərmişdir.

İbrahimpaşa Hüseyn oğlu Dadaşov 1990-cı il iyulun 16-da vəfat etmişdir.

Xatirəsinin əbədiləşdirilməsi üçün Bakının Binəqədi və Nərimanov rayonlarında adına küçə verilmişdir. İbrahimpaşa Dadaşov Azərbaycan güləş məktəbinin formalaşmasında, idmanın inkişafında və yeni nəsil güləşçilərin yetişdirilməsində mühüm rol oynamışdır.

Aprel döyüşləri - 10 il *(2016)*



Ədəbiyyat:

Aprel döyüşləri qəhrəmanlarının xatirəsinə // Mədəniyyət.– 2020.– 7 aprel.– S.6.

Aprel döyüşləri – böyük Zəfərin başlanğıcı // Mədəniyyət.– 2021.– 7 aprel.– S.4.

Aprel döyüşləri – tariximizin şanlı səhifəsi // Mədəniyyət.– 2022.– 6 aprel.– S.4.

Aprel döyüşləri: Tarixi Zəfərə aparan yol / S. Azadi // İki sahil.– 2023.– 31 mart.– S.6.

Böyük Zəfərin başlanğıcı: Aprel döyüşləri / N. Ələddinqızı // Səs.– 2024.– 4 aprel, №58.– S.5.

Aprel döyüşləri – Qarabağ Zəfərinin müjdəçisi / İ.Qaçayev // Xalq qəzeti.–2025.– 3 aprel (№63).– S.12.

Milli Kitabxanada Aprel döyüşlərinə həsr edilmiş sərgi hazırlanıb // Xalq Cəbhəsi.-2025.- 3 aprel(№12).- S.16; Azərbaycan.-2025.- 3 aprel (№63).- S.12.

İnternetdə:

https://mod.gov.az/az/pre/47160.html

https://www.anl.az/down/meqale/xalqcebhesi/2025/aprel/940679.htm

Erməni silahlı qüvvələrinin atəşkəs rejimini pozması nəticəsində 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə cəbhəboyu bölgələrdə genişmiqyaslı hərbi toqquşmalar baş vermişdir. Bu hadisə sonradan "Aprel döyüşləri" və ya "Dördgünlük müharibə" adı ilə tarixə düşmüşdür. Həmin gecə Ermənistan ordusu Azərbaycanın Tərtər, Ağdərə, Ağdam, Xocavənd və Füzuli istiqamətlərindəki mövqelərinə, eləcə də yaşayış məntəqələrinə güclü artilleriya zərbələri endirmişdir. Hücum nəticəsində iki dinc sakin həlak olmuş, on nəfər yaralanmış, yaşayış evləri və infrastruktur ciddi zərər görmüşdür.

Azərbaycan Ordusu mülki əhalinin təhlükəsizliyini təmin etmək və təcavüzkarın hücumlarını dəf etmək məqsədilə təxirəsalınmaz əks-hücum əməliyyatlarına başlamışdır. Əməliyyatlar nəticəsində strateji əhəmiyyətə malik Ağdərə–Tərtər–Ağdam və Xocavənd–Füzuli istiqamətlərində düşmən qüvvələrinə ağır zərbələr endirilmiş, Goranboy və Naftalan şəhərlərinə təhlükə yaradan Talış kəndi ətrafındakı yüksəkliklər, Seysulan məntəqəsi və Füzuli rayonundakı Lələtəpə yüksəkliyi azad edilmişdir.

Döyüşlər zamanı Ermənistan ordusuna ciddi itkilər yetirilmiş, onlara məxsus 30 tank, 15-ə yaxın artilleriya qurğusu və möhkəmləndirilmiş hərbi istehkamlar məhv edilmişdir. Rəsmi məlumata görə, 320 erməni döyüşçüsü öldürülmüş, 500-dən artıq yaralanmışdır. Azərbaycan tərəfi isə az itkilərlə torpaqların bir hissəsini nəzarətə götürmüşdür.

Aprel döyüşləri nəticəsində Azərbaycan Ordusu Ağdərə–Madagiz istiqamətində strateji yolların nəzarətdə saxlanılmasını təmin etmişdir. Döyüşlər 5 aprel 2016-cı il tarixində Moskva şəhərində Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisləri arasında əldə olunmuş razılaşma ilə dayandırılmışdır.

Azərbaycan Silahlı Qüvvələrinin bu qələbəsi nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin təhlükəsizliyi bərpa edilmiş, həmin əraziyə sakinlərin qayıtması üçün şərait yaranmışdır. Bu məqsədlə Prezident İlham Əliyev 24 yanvar 2017-ci ildə "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamış, ilkin mərhələdə 50 fərdi evin, məktəbin və infrastrukturun tikintisi üçün 4 milyon manat vəsait ayrılmışdır.

Aprel döyüşləri xalqın orduya inamını, gənclərin hərbi-vətənpərvərlik ruhunu daha da gücləndirmişdir. Azərbaycan əsgəri yüksək peşəkarlıq və döyüş qabiliyyəti nümayiş etdirərək düşməni geri çəkilməyə məcbur etmişdir. Bu qələbə ordumuzun potensialının göstəricisi olmaqla, gələcək böyük zəfərlərin – xüsusilə 2020-ci il Vətən müharibəsindəki qələbənin – başlanğıcı kimi dəyərləndirilir.


Aprel döyüşlərində göstərilən qəhrəmanlığa görə, Prezident İlham Əliyevin 19 aprel 2016-cı il tarixli sərəncamları ilə Azərbaycan Ordusunun bir sıra üzvləri yüksək dövlət təltiflərinə layiq görülmüşdür. Onlardan 3 nəfər "Azərbaycanın Milli Qəhrəmanı", 7 nəfər "Azərbaycan Bayrağı" ordeni, 5 nəfər "Vətənə xidmətə görə" ordeni, 19 nəfər "Vətən uğrunda" medalı, 43 nəfər "İgidliyə görə" medalı, 45 nəfər "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmuş, 2 zabitə "general-mayor" ali hərbi rütbəsi verilmişdir.

Ali Baş Komandanın rəhbərliyi və ordumuzun qəhrəmanlığı nəticəsində 2020-ci ildə əldə olunan Böyük Zəfər məhz 2016-cı ilin Aprel döyüşlərində qazanılan qələbənin məntiqi davamı olmuşdur.

Bu qəhrəmanlıq salnaməsi hər il müxtəlif tədbirlər və sərgilərlə anılır. Azərbaycan Milli Kitabxanasında "Aprel döyüşləri – Böyük Zəfərin başlanğıcı" adlı virtual və ənənəvi sərgilər təşkil edilərək, həmin döyüşlərin tarixi və mənəvi əhəmiyyəti oxuculara təqdim olunur.

Digər tarixi hadisələr

“Molla Nəsrəddin” jurnalı - 120 *(1906)*



Azərbaycan mətbuat tarixində mühüm yer tutan “Molla Nəsrəddin” jurnalı XX əsrin əvvəllərində ölkənin ictimai-siyasi və mədəni həyatında dönüş nöqtəsi yaratmışdır. Jurnal 1906-cı il aprelin 7-də Tiflisdə “Qeyrət” mətbəəsində nəşrə başlamış və müəyyən fasilələrlə iyirmi beş il ərzində fəaliyyət göstərmişdir. Əvvəlcə Tiflisdə (370 nömrə), sonra qısa müddət Təbrizdə (8 nömrə), nəhayət, Bakıda (390 nömrə) çap olunan jurnalın redaktoru görkəmli ədib, publisist və satirik ədəbiyyatın banisi Cəlil Məmmədquluzadə olmuşdur.

Jurnal həftədə bir dəfə, hər sayı 8 səhifə həcmində, rəngli və şəkilli nəşr olunaraq dövrün sosial problemlərini, cəhaləti, haqsızlığı və ictimai bəlaları satirik üslubda işıqlandırırdı. Adını xalq ədəbiyyatının müdrik və zarafatcıl obrazı Molla Nəsrəddindən alan jurnal, gülüş vasitəsilə cəmiyyəti düşündürməyi, ədalətsizliyə qarşı maarifçilik missiyasını həyata keçirməyi məqsəd qoymuşdur. Mirzə Cəlil jurnal vasitəsilə Molla Nəsrəddinin dili ilə xalqın sosial narahatlıqlarını çatdırmaqla yanaşı, onlara çıxış yollarını da göstərirdi.

“Molla Nəsrəddin” jurnalının səhifələrində milli dilin qorunması, maarifçilik və ictimai şüurun yüksəldilməsi əsas prioritet kimi nəzərə alınırdı. Burada atalar sözləri, lətifələr, poçt qutusu yazıları, satirik elanlar, tərcümeyi-hallar, tapmacalar, sual-cavab və digər janrlarda materiallar dərc olunurdu. Jurnalın yaradıcı heyətinə M.Ə.Sabir, Ö.F.Nemanzadə, Ə.Haqverdiyev, Ə.Nəzmi, Ə.Qəmküsar, M.S.Ordubadi və digər ziyalılar daxil olmuş, öz satirik əsərləri ilə jurnalın ideyalarını zənginləşdirmişlər.

Bədii təsvirin inkişafında jurnalın karikatura və illüstrasiyaları mühüm rol oynamışdır. Rəssamlar Rötter, Şmerlinq, Əzim Əzimzadə və Təbrizdə çıxan nömrələrin illüstratoru Əli Behzad realist üslubda çəkdikləri karikaturalarla jurnalın sosial-satirik mesajını vizual olaraq ifadə etmişlər.

Jurnal yalnız Azərbaycanda deyil, həm də Qafqaz, Rusiya, Orta Asiya, Yaxın Şərq və Şimali Afrikanın bir çox şəhərlərində yayılmış, müxtəlif millətlərdən milyonlarla oxucu qazanmışdır. Onun təsiri nəticəsində Azərbaycanda “Bəhlul”, “Kirpi”, “Zənbur”, “Babayi-Əmir”, “Şeypur” və digər satirik nəşrlər meydana çıxmışdır.

“Molla Nəsrəddin” jurnalı təkcə satirik nəşr deyil, eyni zamanda milli oyanış, maarifçilik və ictimai şüurun inkişafında vasitə kimi Azərbaycan mətbuatının tarixi baxımından əhəmiyyətli rol oynamışdır

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” sərəncamı ilə “Molla Nəsrəddin” jurnalı yenidən çap olunmuşdur.

2021-ci il aprelin 7-də Milli Kitabxanada “Molla Nəsrəddin – 115” adlı sərgi virtual rejimdə istifadəçilərə təqdim olunmuşdur.

Ədəbiyyat:

“Molla Nəsrəddin” jurnalı və milli ədəbi dəyərlər” // Mədəniyyət.– 2020.– 18 noyabr.– S.7.

Əsgərova, G. “Şərq qapısı” qəzeti və “Molla Nəsrəddin” jurnalı / G.Əsgərova // Kredo.– 2021.– 29 oktyabr.– S.2;6.

Nurəddin. Ordubadi və “Molla Nəsrəddin” jurnalı / Nurəddin // Mədəniyyət.– 2022.– 8 aprel.– S.3.

Qasımov, R. Vətən, millət, dil mücahid: “Molla Nəsrəddin” jurnalı / R. Qasımov // Olaylar.–2023.– 7-13 aprel.– S.23.

Atalı, İ. “Molla Nəsrəddin”in ulusal dərdçiliyi / İ. Atalı // Türküstan.– 2024.– 2-8 aprel, №12.– S.13.

Hadıyeva, L. “Molla Nəsrəddin” jurnalı və Naxçıvan” / L. Hadıyeva // Xalq qəzeti.– 2025.– 4 aprel (№64).– S.12.

https://az.wikipedia.org/wiki/Molla_Nəsrəddin_(jurnal)

Digər tarixi hadisələr

"Dəbistan" həftəlik uşaq jurnalı - 120 *(1906-1908)*



Azərbaycan mətbuatı tarixində maarifçi "Dəbistan" jurnalı 16 aprel 1906-cı ildə Bakıda Azərbaycan dilində nəşrə başlamışdır. Jurnalın təsisçiləri və ilk illərdə redaktorları Əli İsgəndər Cəfərzadə ilə Məhəmmədhəsən bəy olmuşdur. Azərbaycanda ana dilində müstəqil uşaq mətbuatının yaranması Əli İsgəndər Cəfərzadənin adı ilə bağlıdır. Jurnal 1906-cı ildə 18, 1907-ci ildə 7, 1908-ci ildə isə 2 nömrə çıxarmışdır. Məcmuənin girişində belə bir bəyanat yer almışdır: "Mütəəlimlərə (şagirdlərə) məxsus iki həftədə nəşr olunan və millətimizin tərəqqi və təkamülünə xidmət edən rəsmli (müsəvvi) türk jurnalıdır."

"Dəbistan" jurnalının səhifələrində pedaqoji məsələlər, uşaqların təlim-tərbiyəsi ilə bağlı bədii əsərlər, elm və texnika yenilikləri, həmçinin bir sıra tərcümələr və Osmanlı əsərləri dərc olunurdu. Jurnal həmçinin tarixi, təbiət, elmi, fənni, ədəbi və ictimai məlumatları oxuculara çatdırır, möhtərəm şəxslərin şəkillərinə yer verirdi. "Valideynə məxsus vərəqə" bölməsi də jurnalın fəaliyyətinin vacib hissəsini təşkil edirdi.

Jurnalın səhifələrində dövrün tanınmış ziyalıları – Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Şeyda, Həsən bəy Zərdabi, Firudin bəy Köçərli, R. Əfəndizadə, Musayev, Fərhad Ağazadə, Abbas Səhhət, Abdulla Şaiq, Ə. Əfəndizadə, Fərəcullazadə, Nəriman Nərimanov və başqaları – fəal iştirak etmişdir. Hələ Qori müəllimləri seminariyasında çalışdığı dövrdən mətbuatda çıxış edən Sultan Məcid Qənizadə isə ən çox "Dəbistan" jurnalında çap olunmuş, 1906-cı ildə onun "Allah xofu" hekayəsi dərc edilmişdir ki, bu əsər müəllifin yaradıcılığında xüsusi yer tutur.

Jurnal maddi çətinliklərlə üzləşdiyi dövrlərdə xeyriyyəçi Zəkəriyyə bəy Aslanovun dəstəyi ilə fəaliyyətini davam etdirmişdir. "Dəbistan" 1908-ci ilin mart ayının 1-nə qədər nəşr olunmuş, maddi çatışmazlıqlar səbəbindən bağlanmışdır. Son nömrədə Həsən bəy Zərdabinin şəkli, tərcümeyi-halı, fəaliyyəti və mərasimi-defni yer almışdır.

2019-cu ildə "Dəbistan" jurnalı Ərəb əlifbasından transliterasiya edilərək yenidən çap olunmuşdur.

Ədəbiyyat:

Məlikova, F. Azərbaycan uşaq mətbuatının tarixindən / F.Məlikova // Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal.– 2021.– №3(117).– S. 251-253.

"Dəbistan" jurnalı /ərəb əlifbasından transliterasiya ed. və ön söz müəl. F. Allahverdiyeva ; transliterasiya red. S. Xalidoğlu. - Bakı: Elm və təhsil, 2019. - 239, [1] s.

Allahverdiyeva, F. "Dəbistan" jurnalının əsas yazarları / Firayə Allahverdiyeva // Jurnalistika.-2019.- №10.- S.133-135.

Məlikova, F. "Dəbistan" jurnalının nəşri tarixi / Fərqanə Məlikova // Elmi əsərlər / AMEA, Tarix İnstitutu.-2019.- №78.- S.250-260.

İnternetdə:

https://portal.azertag.az/az/encyclopedia/post/29886

Digər tarixi hadisələr

Tarixi Abidələrin Mühafizəsi Günü *(1983)*



Aprelin 18-i dünyada Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur. Bu gün Tarixi Yerlər və Abidələrin Mühafizəsi üzrə Beynəlxalq Şuranın (ICOMOS) təşəbbüsü ilə UNESCO tərəfindən 1983-cü ildə təsis edilmişdir. Günün əsas məqsədi cəmiyyətin diqqətini maddi mədəni irsin, tarixi abidələrin və tarixi yerlərin qorunmasının əhəmiyyətinə yönəltməkdir.

Azərbaycan ərazisində tarix boyu yaşamış insanların mədəni və ictimai fəaliyyəti qədim yaşayış məskənlərində və müxtəlif tipli abidələrdə əksini tapmışdır. Ölkənin müxtəlif bölgələrində yaşı əsrləri və minillikləri əhatə edən çoxsaylı tarixi abidələr mövcuddur. Azıx mağarasından aşkar edilmiş və "azıxantrop" adı ilə tanınan qədim insanın alt çənə sümüyü Azərbaycanın dünyanın ən qədim ibtidai insan məskənlərindən biri olduğunu elmi baxımdan təsdiqləyir. Qobustan ərazisində aşkar edilmiş yaşayış məskənləri və qayaüstü təsvirlər isə bu ərazidə ən qədim dövrlərdən insanların məskunlaşdığını göstərir.

Azərbaycan ərazisində Manna, daha sonra Atropatena dövlətlərinin təşəkkülü şəhərsalma proseslərinin intensivləşməsinə səbəb olmuş, müdafiə tikililəri və qala divarları inşa edilmişdir. Qafqaz Albaniyası dövründə şəhərsalma və memarlıq sahəsində mühüm inkişaf mərhələsi müşahidə olunur. Qəbələ şəhərinin möhkəm qala divarları, saxsı borularla çəkilmiş su kəməri, Dəmirqapı keçidində daşdan tikilmiş müdafiə sistemi, Çıraqqala və Ləkit kəndində yerləşən dairəvi planlı xristian məbədi həmin dövrün yüksək şəhərsalma və mühəndislik mədəniyyətindən xəbər verir. Ümumilikdə, İslamdan əvvəlki və sonrakı dövrlərdə Azərbaycan ərazisində çoxsaylı memarlıq və mədəniyyət abidələri inşa edilmişdir. Orta əsrlərə aid Möminə Xatun, Qarabağlar, Gülüstan, Bərdə türbələri, Şirvanşahlar saray kompleksi, Şəki xan sarayı, Şuşa şəhərinin memarlıq nümunələri Şərq və dünya memarlığı tarixində mühüm yer tutur.

Azərbaycanın bəzi bölgələrində tarixi abidələr və mədəni irs nümunələri məhv edilmə təhlükəsi ilə üzləşmişdir. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə Ermənistan silahlı qüvvələri tərəfindən milli mədəniyyət abidələri dağıdılmışdır. Dağlıq Qarabağ və ona bitişik rayonlarda çoxsaylı memarlıq, arxeoloji, bağ-park, monumental və xatirə abidələri, dekorativ-tətbiqi sənət nümunələri, muzeylər və mədəni-maarif müəssisələri ciddi zərər görmüşdür.

2025-ci il təqviminə əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2011-ci il tarixli qərarı ilə təsdiq edilmiş dövlət tərəfindən mühafizə olunan daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısında Qobustan, "İçərişəhər" Tarix-Memarlıq Qoruğu, "Qala" Tarix-Etnoqrafiya Qoruğu, "Nardaran" Tarix-Mədəniyyət Qoruğu və "Atəşgah" Tarix-Memarlıq Qoruğunda dünya, ölkə və yerli əhəmiyyətli abidələr qeydə alınmışdır. Bu abidələr turizm baxımından da mühüm əhəmiyyət daşıyır.

Tarixi abidələrin qorunması və gələcək nəsillərə çatdırılması sahəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə ölkə daxilində və beynəlxalq səviyyədə ardıcıl tədbirlər həyata keçirilmişdir. Görülən işlər nəticəsində "İçərişəhər" memarlıq kompleksi və Qobustan Milli Tarix-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmişdir. 2019-cu il iyulun 7-də isə "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESCO-nun Ümumdünya İrs Siyahısına salınmışdır.

Hər il Azərbaycan Milli Kitabxanasında "18 aprel – Tarixi Abidələrin Mühafizəsi Günüdür" mövzusunda virtual və ənənəvi kitab sərgiləri təşkil olunur. Bu sərgilər vasitəsilə ölkədə və dünyada tarixi abidələrin elmi, mədəni və ictimai əhəmiyyəti, eləcə də onların qorunmasının vacibliyi oxuculara təqdim edilir.

Ədəbiyyat:

Zamanların yaddaşından soraq verən sərvət / M.Nərimanoğlu // Azərbaycan.– 2020.– 19 aprel.– S.7.

Ermənistan dağıtdığı tarixi abidələrə görə məsuliyyət daşıyır: 18 aprel Beynəlxalq Abidələrin Mühafizəsi Günüdür / M.Nərimanoğlu // Azərbaycan.– 2021.– 18 aprel.– S. 5.

Abidələr tarixi yaddaşımızı yaşadır / M.Mükərrəmoğlu // Xalq qəzeti.– 2022.– 19 aprel.– S.7.

Azərbaycanın maddi-mədəniyyət abidələrinin zənginliyi daim diqqət çəkir: 18 Aprel Tarixi Abidələrin Mühafizəsi Günüdür Z.Fərəcova // Azərbaycan.– 2023.– 18 aprel.– S.10.

Keçmişdən gələcəyə "körpü"...: Tarixi abidələrin Mühafizəsi Günüdür / Y. Bayramova // Yeni Azərbaycan.– 2024.– 18 aprel, №66.– S.8.

Tariximizin çoxsəhifəli kitabı - Qobustan qayaüstü təsvirləri: 18 Aprel Tarixi Abidələrin Mühafizəsi Günüdür Z.Fərəcova // Azərbaycan.– 2025.– 18 aprel.– S.11.

https://azertag.az/xeber/18_aprel___beynelxalq_abideler_ve_tarixi_yerler_gunudur-1271346

APREL
30

Beynəlxalq Caz Günü *(2012)*



30 aprel Beynəlxalq Caz Günü (International Jazz Day) kimi qeyd olunur. Bu gün 2011-ci ildə UNESCO tərəfindən caz musiqisinin sülh, birlik və dialoqun təşviqi, insanlar arasında ünsiyyətin genişləndirilməsi və qarşılıqlı anlaşmanın gücləndirilməsi məqsədilə təsis edilmişdir. Beynəlxalq Caz Günü UNESCO-nun sülhməramlı səfiri və dünya şöhrətli caz pianoçusu Hörbi Hənkokun təşəbbüsü ilə yaradılmış və 2012-ci ildən etibarən dünyanın bir çox ölkəsində qeyd olunur.

Məşhur müğənni və bəstəkar Nina Simone cazı belə təsvir edir: "Caz yalnız musiqi deyil, həyat, var olma və düşüncə tərzidir." Caz musiqisi insan ləyaqəti, demokratiya və vətəndaş hüquqları uğrunda mübarizədən, ayrı-seçkiliyə və irqçiliyə qarşı mübarizəyə qədər müxtəlif dünyəvi mövzulara bədii təsir göstərmiş, həmçinin insanlar arasında empatiya, dialoq və qarşılıqlı əməkdaşlığın gücləndirilməsinə xidmət etmişdir.

Beynəlxalq Caz Günü 2017-ci ildən etibarən Azərbaycanda da qeyd olunur. Azərbaycan cazı dünya səhnəsində öz unikallığı ilə fərqlənir. Azərbaycan xalq musiqisi və muğam harmoniyasını caz elementləri ilə birləşdirərək ifa edilən yerli cazın ölkə mədəniyyətində özünəməxsus yeri vardır. Bu baxımdan Bakı Beynəlxalq Caz Festivalı ölkədə caz mədəniyyətinin formalaşmasının əyani nümunəsidir. 2005-ci ildən keçirilən festivalda yerli və xarici caz ulduzları iştirak edir, seminarlar, master-klasslar, "Uşaqlar üçün caz günü" tədbirləri, müsabiqələr ("Ən yaxşı caz ifaçısı"), incəsənət və foto sərgiləri, həmçinin dünya caz ifaçılarının konsertləri təşkil olunur. 2016-cı ildə festival Avropa Caz Birliyinə (European Jazz Network, EJN) daxil edilmişdir.

Azərbaycan cazının bünövrəsi 1930-cu illərin sonunda Niyazi və Tofiq Quliyevin yaratdığı "Dövlət Cazı" adlı Dövlət Estrada Orkestri ilə qoyulmuşdur. Estrada və caz musiqisinin ikinci həyatı isə Rafiq Babayevin yaratdığı "Qaya" ansamblı ilə başlamış, bu ansambl keçmiş SSRİ-də geniş şöhrət qazanmışdır. Vaqif Mustafazadə dövrü Azərbaycanda cazın intibah dövrü hesab olunur; o, muğam və caz sintezini yaradaraq ölkə cazının inkişafında əsaslı rol oynamışdır. Öz yolunu qızı Əzizə Mustafazadə uğurla davam etdirir.

Böyük təməllər üzərində qurulmuş Azərbaycan cazı hazırda gənc ifaçıların timsalında daha da inkişaf edir. Beynəlxalq Montre Caz Festivalının qalibi İsfar Sarabski, həmçinin Rain Sultanov, Salman Qənbərov, Emil Əfrasiyaboğlu və Şahin Növrəsli kimi tanınmış ifaçılar bu ənənələri uğurla davam etdirirlər.

Ədəbiyyat:

Beynəlxalq Caz Günü də virtual məkanda qeyd olundu // Mədəniyyət.– 2020.– 1 may.– S.3.

Beynəlxalq Caz Günü münasibətilə silsilə tədbirlər keçiriləcək // Mədəniyyət.– 2022.– 27 aprel.– S.2.

"Caz rəsmlərdə" yaradıcılıq sərgisinə yekun vurulub // Mədəniyyət.– 2024.– 3 may, №33-34.– S.4.

Xaspoladova, Ü. Azadlıq şərqisi: Caz yalnız musiqi deyil, həyat, düşüncə tərzidir: 30 Aprel Beynəlxalq Caz Günüdür / Ü.Xaspoladova // Azərbaycan.– 2025.– 30 aprel (№86).– S.11.

İnternetdə:

https://azertag.az/xeber/30_aprel___beynelxalq_caz_gunudur-2594399

https://az.baku-art.com/az/bakida-beynelxalq-caz-gun-qeyd-edilec-k

MAY

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
				1	2	3
4	5	6	7	8	9	10
11	12	13	14	15	16	17
18	19	20	21	22	23	24
25	26	27	28	29	30	31

- *Şuşa şəhəri "Azərbaycanın Mədəniyyət*
- *paytaxtı"elan edilmişdir (07.05.2021)*
- *Faşizm üzərində Qələbə Günü (09.05.1945)*
- *Ümummilli lider Heydər Əliyevin anadan olması (10.05.1923-12.12.2003)*
- *Beynəlxalq İqlim Günü (15.05.1992)*
- *Müstəqillik Günü (28.05.1990)*

21 aprel - 21 may Buğa bürcünün Nişanı Yerdir. Veneranın himayəsindədir. Günəşin Buğa bürcündən keçdiyi dövrdə doğulanlar təbiətcə emosional olurlar.

Şəhərsalma və Memarlıq İli



Azərbaycanda şəhərsalma fəaliyyəti Prezidentin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də və dövlətin sosial-iqtisadi siyasətində dayanıqlı inkişafın əsas strateji hədəfi kimi müəyyən edilmişdir. Bu istiqamətdə ardıcıl və məqsədyönlü addımlar atılmaqla, şəhərsalma və urbanizasiya sahəsində müasir standartlar tətbiq edilir. Bakıda və respublikanın digər şəhərlərində həyata keçirilən layihələr ölkənin hərtərəfli inkişafında mühüm rol oynayır. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tamamilə dağıdılmış kənd, qəsəbə və şəhərlərin yenidən qurulması planlı şəkildə davam etdirilir.

Azərbaycanın müasir şəhərsalma təcrübəsi 2022–2023-cü illərdə keçirilən milli şəhərsalma forumlarında geniş nümayiş etdirilmiş, regionda ilk dəfə təşkil olunan bu forumlar şəhərsalma ilə bağlı əhatəli müzakirələr üçün platforma yaratmışdır. Şəhərsalma sahəsində əldə edilmiş uğurların tanınması nəticəsində Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) 17-22 may 2026-cı ildə Bakı şəhərində keçirilməsi qərara alınmışdır. Bu mötəbər tədbirin yüksək səviyyədə təşkili ölkənin inkişaf strategiyalarını və dayanıqlı şəhərsalma sahəsindəki nailiyyətlərini beynəlxalq ictimaiyyətə təqdim etmək baxımından əhəmiyyətlidir.

MAY 2026



Milli ədəbiyyat

Yazıçı, publisist Sultanov Eynəli bəy Çölbəyi bəy oğlunun (05.05.1866-06.1935) anadan olmasının 160 illiyi 385
Əməkdar mədəniyyət işçisi, nasir, ssenarist Qurbanov Əhmədağa Əkbər oğlunun (Əhmədağa Muğanlı) (10.05.1926-04.08.2001) anadan olmasının 100 illiyi 386
Yazıçı, kulturoloq Aydın Əhməd oğlu Əbilov (Aydın Xan) (14.05.1971) anadan olmasının 55 illiyi
Xalq şairi, ictimai-siyasi xadim Rüstəmxanlı Sabir Xudu oğlunun (20.05.1946) anadan olmasının 80 illiyi 387
Xalq şairi, nasir, publisist Tahiri Söhrab Əbülfəz oğlunun anadan olmasının (27.05.1926 – 04.05.2016) 100 illiyi 388



Folklor

Aşıq-şair Qarayev Bəhmən İbrahim oğlunun (Aşıq Bəhmən Göyçəli) (01.05.1901-13.11.1976) anadan olmasının 125 illiyi



Dünya ədəbiyyatı

Tacikistanın Xalq şairi Tursunzadə Mirzonun (02.05.1911-24.09.1977) anadan olmasının 115 illiyi 389
Tatarıstan yazıçısı, dramaturq, tərcüməçi, ictimai xadim Quləhmədov Əbdülqafur Yunis oğlunun (04.05.1881-01.04.1918) anadan olmasının 145 illiyi
Hind yazıçısı, ictimai xadim Taqor Rabindranatın (07.05.1861-07.08.1941) anadan olmasının 165 illiyi
Rus yazıçısı Bulqakov Mixail Afanasyeviçin (15.05.1891-10.03.1940) anadan olmasının 135 illiyi
Qazaxıstanın Xalq yazıçısı, şair, ədəbiyyatşünas, ictimai-siyasi xadim Süleymenov Oljas Ömərovičin (18.05.1936) anadan olmasının 90 illiyi 390



Rəssamlıq. Heykəltəraşlıq

Xalq rəssamı, kino rəssamı Ağabəyov Mayis Əlişir oğlunun (01.05.1941-17.06.2020) anadan olmasının 85 illiyi 391
Əməkdar incəsənət xadimi, rəssam Əliyev Ağarəhim Cəbrayıl oğlunun (04.05.1931-24.11.2009) anadan olmasının 95 illiyi
Əməkdar rəssam, kino rəssamı Əzimov Cəbrayıl Əlimuxtar oğlunun (07.05.1926-10.07.1969) anadan olmasının 100 illiyi 392
Əməkdar mədəniyyət işçisi, xəttat-rəssam, ağacoyma ustası Məmmədvəliyev Seyfəddin Mənsim oğlunun (10.05.1936) anadan olmasının 90 illiyi 393

Əməkdar incəsənət xadimi, teatr rəssamı Məmmədov Elçin Mehdi oğlunun (29.05.1946-18.02.2001) anadan olmasının 80 illiyi 394



Musiqi. Opera. Balet

Əməkdar incəsənət xadimi, professor, bəstəkar Əzimov Aydın Kərim oğlunun (Aydın Əzim Kərimoğlu) (01.05.1946) anadan olmasının 80 illiyi 395
Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Həsənova Şəhla Həsən qızının (06.05.1956-31.07.2018) anadan olmasının 70 illiyi
Xalq artisti, müğənni, Azərbaycan Silahlı Qüvvələrinin kapitanı Tağıyeva Anaxanım Etibar qızının (Azərin) (09.05.1971) anadan olmasının 55 illiyi 396
Əməkdar incəsənət xadimi, bəstəkar Mirməmmədli Nailə Ağabala qızının (23.05.1961-04.01.2021) anadan olmasının 65 illiyi 397



Teatr. Kino

Teatr və kino aktyoru Məhərrəmov Kamil Fərman oğlunun (09.05.1941-06.10.1993) anadan olmasının 85 illiyi
Xalq artisti, teatr və televiziya aktyoru, rejissor Qarayev Yasin Mikayıl oğlunun (22.05.1946) anadan olmasının 80 illiyi 398
Əməkdar artist, aktrisa Əliyeva Münəvvər Sabir qızının (25.05.1971) anadan olmasının 55 illiyi
Xalq artisti, televiziya aparıcısı, aktrisa Sənani Ofelya Hacağa qızının (26.05.1941) anadan olmasının 85 illiyi 399
Xalq artisti, rejissor Dadaşov Soltan Baba oğlunun (Zaki) (27.05.1906-07.09.1969) anadan olmasının 120 illiyi 400
Əməkdar artist, aktyor Vəlixanov Aqşin Məmmədəli oğlunun (28.05.1936-21.07.1998) anadan olmasının 90 illiyi



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Paşayev Baxşeyiş Xanəhməd oğlunun (01.05.1936-12.07.1992) anadan olmasının 90 illiyi 401
Azərbaycanın Milli Qəhrəmanı Əliyev İlham Müzəffər oğlunun (05.05.1961-19.08.1990) anadan olmasının 65 illiyi 402
Azərbaycanın Milli Qəhrəmanı Yəhyayev Elşad Məmmədhənifə oğlunun (05.05.1966-20.06.1992) anadan olmasının 60 illiyi 403
Azərbaycanın Milli Qəhrəmanı Həsənov İlham Gülbala oğlunun (06.05.1976-17.03.1995) anadan olmasının 50 illiyi 404

MAY 2026



İkinci Qarabağ Müharibəsi Şəhidləri

Əsgər Fərhadov Cəlaləddin Elxan oğlunun (01.05.2001-08.11.2020) anadan olmasının 25 illiyi 405
Əsgər Məmmədov Vasif Rəfail oğlunun (01.05.2001-06.10.2020) anadan olmasının 25 illiyi 405
Əsgər Mustafayev Elməddin Məhəmməd oğlunun (01.05.2001-10.10.2020) anadan olmasının 25 illiyi 406
Əsgər Nəsibov Xaqani Aydın oğlunun (01.05.1991-16.10.2020) anadan olmasının 35 illiyi 406
Əsgər Orucov Yunis Şaiq oğlunun (01.05.2001-14.10.2020) anadan olmasının 25 illiyi 407
Əsgər İbrəhimov Elmir Akif oğlunun (02.05.1996-2020) anadan olmasının 30 illiyi 407
Mayor Məmmədov Anar Elşad oğlunun (02.05.1986-20.10.2020) anadan olmasının 40 illiyi 408
MAHHXHQ kiçik çavuş Mustafayev Siyasət Akif oğlunun (02.05.1996-27.09.2020) anadan olmasının 30 illiyi 409
Əsgər Quliyev Ağamirzə İlham oğlunun (02.05.2001-06.11.2020) anadan olmasının 25 illiyi 409
Əsgər Novruzov Elvin Ziyafət oğlunun (03.05.2001-23.10.2020) anadan olmasının 25 illiyi 410
Əsgər Əhmədov Amal Rauf oğlunun (03.05.1996-13.10.2020) anadan olmasının 30 illiyi 410
Əsgər İbadov Rauf Məhərrəm oğlunun (04.05.1996-23.10.2020) anadan olmasının 30 illiyi 411
Əsgər Qədirov Elvin Azər oğlunun (05.05.2001-27.09.2020) anadan olmasının 25 illiyi 411
Əsgər Məmmədov Vidadi Etibar oğlunun (06.05.1996-13.10.2020) anadan olmasının 30 illiyi 412
Kiçik gizir Musayev Ramil Aydın oğlunun (06.05.1991-03.10.2020) anadan olmasının 35 illiyi 412
MAHHXHQ əsgər İsmayıllı Məhəmmədəli Elxan oğlunun (06.05.1996-26.10.2020) anadan olmasının 30 illiyi 413
Əsgər Əhmədov Cavanşir Elxan oğlunun (06.05.2001-04.11.2020) anadan olmasının 25 illiyi 413
Əsgər Hüseynov Pencalı Bəhmən oğlunun (07.05.2001-28.09.2020) anadan olmasının 25 illiyi 414
Əsgər Namazov Elməddin Nəsib oğlunun (07.05.1996-26.10.2020) anadan olmasının 30 illiyi 414

MAHHXHQ çavuş Həsənov Orxan Bəkir oğlunun (09.05.1991-16.10.2020) anadan olmasının 35 illiyi 415
Əsgər Vəliyev Tural İlham oğlunun (09.05.2001-27.09.2020) anadan olmasının 25 illiyi 415
Əsgər Yusifov Anar Sərxan oğlunun (09.05.1991-30.10.2020) anadan olmasının 35 illiyi 416
MAHHXHQ əsgər Məmmədov Sərxan Sahil oğlunun (09.05.2001-03.11.2020) anadan olmasının 25 illiyi 416
MAHHXHQ əsgər Nəsibov Nicat Nəriman oğlunun (09.05.1986-30.09.2020) anadan olmasının 40 illiyi 417
Əsgər Sadıqov Elnur Kərim oğlunun (09.05.2001-29.10.2020) anadan olmasının 25 illiyi 417
Əsgər Sadıqov Səbuhi Rövşən oğlunun (09.05.1996-24.10.2020) anadan olmasının 30 illiyi 418
Əsgər Əliyev Cavid Şaban oğlunun (10.05.1996-08.11.2020) anadan olmasının 30 illiyi 418
Əsgər Məhərrəmli Fuad Fizuli oğlunun (10.05.2001-28.09.2020) anadan olmasının 25 illiyi 419
Əsgər Əliyev Fuad Ramin oğlunun (10.05.2001-12.11.2020) anadan olmasının 25 illiyi 419
MAHHXHQ əsgər Həsənov Namiq Rasim oğlunun (10.05.1991-30.09.2020) anadan olmasının 35 illiyi 420
Əsgər Süleymanlı Elmir Aqil oğlunun (11.05.2001-20.10.2020) anadan olmsaının 25 illiyi 420
Gizir Zaməddinov Fərid İmran oğlunun (11.05.1986-10.11.2020) anadan olmasının 40 illiyi 421
Kiçik gizir Umarov Anar Məhəmməd oğlunun (12.05.1991-30.10.2020) anadan olmasının 35 illiyi 421
Əsgər Mikayıllı Elgün Aqil oğlunun (13.05.2001-14.10.2020) anadan olmasının 25 illiyi 422
Əsgər Rzayev Hüseyn Aslan oğlunun (14.05.1996-26.10.2020) anadan olmasının 30 illiyi 422
MAHHXHQ əsgər Əhmədov Mərhəmət Adil oğlunun (14.05.1991-25.10.2020) anadan olmasının 35 illiyi 423
Əsgər Mehdili Niftalı Qnyaz oğlunun (15.05.1996-14.10.2020) anadan olmasının 30 illiyi 423
Əsgər Muradov Elxan Murad oğlunun (15.05.2001-08.10.2020) anadan olmasının 25 illiyi 424
MAHHXHQ əsgər Ələkbərli Kənan Müşfiq oğlunun (15.05.1996-09.10.2020) anadan olmasının 30 illiyi 424
Əsgər Həbibov Murad Asəf oğlunun (15.05.2001-03.10.2020) anadan olmasının 25 illiyi 425

MAY 2026

Əsgər Əliyev Anar Talıb oğlunun (16.05.1991-26.10.2020) anadan olmasının 35 illiyi 425
MAHHXHQ əsgər Abbaslı Elgin Ağayar oğlunun (16.05.1991-10.11.2020) anadan olmasının 35 illiyi 426
Əsgər Babayev Ağaşirin Firuz oğlunun (16.05.2001-03.11.2020) anadan olmasının 25 illiyi 426
Leytenant Əbilov Kamal Vidadi oğunun (17.05.1996-30.09.2020) anadan olmasının 30 illiyi 427
Əsgər Aslanov Röyal Elzar oğlunun (17.05.2001-29.09.2020) anadan olmasının 25 illiyi 428
MAHHXHQ çavuş Qarayev Təhmasib Hikmət oğlunun (18.05.1996-22.10.2020) anadan olmasının 30 illiyi 428
Əsgər Vəliyev İlkin Səfail oğlunun (18.05.1996-05.10.2020) anadan olmasının 30 illiyi 429
MAHHXHQ çavuş Bəkirov Bəxtiyar Yavər oğlunun (18.05.1981-28.09.2020) anadan olmasının 45 illiyi 429
Leytenant Həsənov Nurlan Nadir oğlunun (19.05.1991-01.10.2020) anadan olmasının 35 illiyi 430
Əsgər Qasımov Əli İbrahim oğlunun (20.05.2001-23.10.2020) anadan olmasının 25 illiyi 431
Əsgər Şahbabayev Güləddin Zəfər oğlunun (21.05.2001-16.10.2020) anadan olmasının 25 illiyi 431
Əsgər İsmayılov Emin Tahir oğlunun (21.05.2001-06.10.2020) anadan olmasının 25 illiyi 432
Əsgər Əsgərov Fərid Ərəstun oğlunun (21.05.1996-04.11.2020) anadan olmasının 30 illiyi 432
Əsgər Rzayev Tərlan Rövşad oğlunun (21.05.2001-27.09.2020) anadan olmasının 25 illiyi 433
MAHHXHQ çavuş Namazov Xəyal Xudaverdi oğlunun (23.05.1986-03.10.2020) anadan olmasının 40 illiyi 433
Əsgər Qasımov Tural Yelmar oğlunun (23.05.1991-11.10.2020) anadan olmasının 35 illiyi 434
Əsgər Rzayev Nurlan Yusif oğlunun (23.05.1991-17.10.2020) anadan olmasının 35 illiyi 434
Əsgər Məmmədov Rövlan Qurban oğlunun (24.05.2001-2020) anadan olmasının 25 illiyi 435
MAHHXHQ əsgər Məmmədov Səxavət Adıgözəl oğlunun (24.05.1991-29.09.2020) anadan olmasının 35 illiyi 435
Polkovnik-leytenant Abdurahmanov Əfqan Ağasəf oğlunun (25.05.1976-10.10.2020) anadan olmasının 50 illiyi 436
Əsgər Səttarov Emin Ramin oğlunun (25.05.2001-24.10.2020) anadan olmasının 25 illiyi 437

Kiçik çavuş Bayramov Coşqun Ənvər oğlunun (25.05.1991-06.10.2020) anadan olmasının 35 illiyi 437
Əsgər Dadaşzadə Hüseyn Zülfüqar oğlunun (27.05.1996-05.11.2020) anadan olmasının 30 illiyi 438
Əsgər Babayev Kamal Eynulla oğlunun (27.05.1991-05.11.2020) anadan olmasının 35 illiyi 438
Polkovnik-leytenant Qənbərov Mehman Nərman oğlunun (27.05.1981-30.09.2020) anadan olmasının 45 illiyi 439
Əsgər Əliyev Rəvan Yusif oğlunun (27.05.2001-23.10.2020) anadan olmasının 25 illiyi 440
Əsgər Seyfullayev Araz Elsevər oğlunun (28.05.2001-08.10.2020) anadan olmasının 25 illiyi 440
Əsgər Əliyev Məhəmməd Yaqub oğlunun (28.05.2001-31.10.2020) anadan olmasının 25 illiyi 441
Əsgər Əlimuradov Cumart Şixrəhim oğlunun (31.05.2001-05.10.2020) anadan olmasının 25 illiyi 441



Siyasət. Hərbi iş

Siyasi xadim, diplomat, fizika-riyaziyyat elmləri doktoru Paşayev Hafiz Mir-Cəlal oğlunun (02.05.1941) anadan olmasının 85 illiyi 442
Türkiyə Respublikasının banisi və ilk prezidenti, siyasi və hərbi xadimi Atatürk Mustafa Kamalın (19.05.1881-10.11.1938) anadan olmasının 145 illiyi 443
Hərb və dövlət xadimi, general-mayor Abbasov Akim Əli oğlunun (25.05.1911-27.02.1992) anadan olmasının 115 illiyi 444



Tarix

Tarix elmləri doktoru, professor Şükürov Kərim Kərəm oğlunun (10.05.1956) anadan olmasının 70 illiyi 445
İran tarixçisi Qumi Qazi Əhmədin (18.05.1546-1606)anadan olmasının 480 illiyi



Fəlsəfə. İqtisadiyyat

İqtisad elmləri doktoru, professor Cümşüdov Sabir Qənbər oğlunun (05.05.1936-25.02.2016) anadan olmasının 90 illiyi 446
Əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor, filosof Ağamirov Midhət Mirmusa oğlunun (15.05.1921-01.11.1995) anadan olmasının 105 illiyi
Əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor Qasımov Mehbalı Məhəmməd oğlunun (18.05.1906-07.1963) anadan olmasının 120 illiyi 447

MAY 2026




Mədəniyyət. Maarif. Təhsil

Akademik, türkoloq-alim, filologiya elmləri doktoru Hacıyev Tofiq İsmayıl oğlunun (01.05.1936-27.11.2015) anadan olmasının 90 illiyi 448
Azərbaycanın ilk fizika alimi, publisist və teatrşünas, milli ali təhsil qurucularından biri Məlikov Rəhim bəy Mehrəli bəy oğlunun (02.05.1886-23.02.1936) anadan olmasının 140 illiyi 449
İlk maarifçi qadınlardan biri Məlikova-Abayeva Hənifə xanım Aslanbəy qızının (05.05.1856-02.05.1929) anadan olmasının 170 illiyi 450
Pedaqoji elmlər doktoru, professor Ağayev Bəylər Əbdülrəhim oğlunun (12.05.1906-09.11.1987) anadan olmasının 120 illiyi
Teatrşünas, sənətşünaslıq doktoru, professor Allahverdiyev Mahmud Qara oğlunun (15.05.1931-02.12.1999) anadan olmasının 95 illiyi
Filologiya elmləri doktoru, ədəbiyyatşünas, tənqidçi Hüseynov Akif Məmməd oğlunun (26.05.1941) anadan olmasının 85 illiyi 451




Coğrafiya. Geologiya

Əməkdar mühəndis, SSRİ-nin fəxri neftçisi, geologiya-mineralogiya elmləri doktoru, professor Əliyev Ağa Qurban oğlunun (11.05.1911-28.05.1997) anadan olmasının 115 illiyi



Riyaziyyat. Fizika. Astronomiya

AMEA-nın müxbir üzvü, Fizika-riyaziyyat elmləri doktoru, professor Mehdiyeva Səlimə İbrahim qızının (21.05.1941) anadan olmasının 85 illiyi 452
Fizika-riyaziyyat elmləri doktoru, professor Axundov Məhəmməd Bağır oğlunun (24.05.1951) anadan olmasının 75 illiyi
Akademik, fizika-riyaziyyat elmləri doktoru, professor Hacıyev Asəf Hacı oğlunun (29.05.1951) anadan olmasının 75 illiyi 453



Kimya. Biologiya. Tibb

Akademik, əməkdar elm xadimi, terapevt, kardioloq Abdullayev Cahangir Məmməd oğlunun (01.05.1901-04.01.1973) anadan olmasının 125 illiyi
AMEA-nın müxbir üzvü Qurbanov Maqsud Rüstəm oğlunun (09.05.1941) anadan olmasının 85 illiyi
Akademik, tibb elmləri doktoru, görkəmli ictimai-siyasi xadim Axundov Vəli Yusif oğlunun (14.05.1916-22.08.1986) anadan olmasının 110 illiyi 454
Biologiya elmləri doktoru, professor Allahverdiyev Surxay Rəhim oğlunun (21.05.1941) anadan olmasının 85 illiyi
Əməkdar ixtiraçı, dövlət xadimi, kimyaçı, texnoloq Məmmədov Məmmədağa Əhməd oğlunun (30.05.1926-23.01.1971) anadan olmasının 100 illiyi 455

MAY 2026



Texnika. Mühəndis işi

AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Həsənov Afiq Rəşid oğlunun (07.05.1951) anadan olmasının 75 illiyi 456
AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Əfəndiyev Qalib Məmməd oğlunun (09.05.1946) anadan olmasının 80 illiyi 457



İdman

Basketbolçu, idman ustası Məmmədyarov Əliyar Müslüm oğlunun (11.05.1936-26.02.1970) anadan olmasının 90 illiyi



Kitabxanaşünaslıq. Biblioqrafiya

Kitabxanaşünas Həmidov Ramiz Hacıbala oğlunun (25.05.1951) anadan olmasının 75 illiyi



Digər tarixi hadisələr

Beynəlxalq Günəş Günü (03.05.1978)
Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü (03.05.1993)
Əlillərin Hüquqlarının Müdafiəsi Günü (05.05.1992)
Şuşa şəhəri "Azərbaycanın mədəniyyət paytaxtı" elan edilmişdir (07.05.2021)
"Xalçaçı günü" - xalçaçıların peşə bayramı (05.05.2016) 458
Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Günü (08.05.1953)
Faşizm üzərində Qələbə Günü (09.05.1945) 459
Azərbaycan kinosu tarixində ilk tammetrajlı bədii film – "Neft və milyonlar səltənəti" nümayiş etdirilib (14.05.1916)
Beynəlxalq İqlim Günü (15.05.1992)
Beynəlxalq Ailə Günü (15.05.1994)
Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının (16.05.1931) 95 illiyi ...460
Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü (17.05.2006)
Beynəlxalq Elektronrabitə Günü (17.05.2006)
Beynəlxalq Muzeylər Günü (18.05.1977)
Ümumdünya Metrologiya Günü (20.05.1875)
Dialoq və İnkişaf Naminə Ümumdünya Mədəni Müxtəliflik Günü (21.05.2003)
Beynəlxalq Bioloji Müxtəliflik Günü (22.05.2000)
Ekologiya və Təbii Sərvətlər Nazirliyi Əməkdaşlarının Peşə Bayramı Günü (23.05.2007)
Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndləri işğaldan azad olunmuşdur (24.05.2024)
M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının (25.05.1936) yaradılmasının 90 illiyi 461
Ağdam Sənaye Parkının yaradılması haqqında fərman imzalanmışdır (28.05.2021)
Müstəqillik Günü (28.05.1990) 462
Ümumdünya Tütünlə Mübarizə Günü (31.05.1987)

MAY
5

Eynəli bəy Sultanov – 160

(1866-1935)

Yazıçı



Eynəli bəy Çölbəyi oğlu Sultanov (Eynəli bəy Sultan) 1866-cı il may ayının 5-də Naxçıvan şəhərində anadan olmuşdur. O, ilk təhsilini Naxçıvan Qəza Məktəbində almış, 1880–1886-cı illərdə İrəvan kişi gimnaziyasında oxumuşdur. Gənc yaşlarından rus və Avropa mədəniyyətini dərindən mənimsəmiş, dövrünün maarifçi ideyalarına böyük maraq göstərmişdir.

XIX əsrin 80-ci illərindən etibarən o, Naxçıvanda mədəni-maarif hərəkatının öncüllərindən biri kimi tanınmışdır. Onun təşəbbüsü ilə "Ziyalılar məclisi" adlı bir birlik yaradılmış, burada dövrün qabaqcıl fikirli ziyalıları və gəncləri bir araya gələrək maarif, qadın azadlığı, xalqın tərəqqisi və yeni məktəblərin açılması məsələlərini müzakirə etmişlər.

Eynəli bəy Sultanovun adı həm də Naxçıvanda teatr sənətinin əsasının qoyulması ilə bağlıdır. O, 1883-cü ildə "Müsəlman incəsənəti və dram cəmiyyəti"nin təşkilatçısı olmuş və həmin ilin may ayında M.F.Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasını Hacı Nəcəf Zeynalovun evində tamaşaya hazırlamışdır. Bu hadisə Naxçıvan teatrının yaranma tarixi kimi qəbul edilir. Eynəli bəyin məqsədi xalqı maarifləndirmək, köhnə düşüncələrdən uzaqlaşdırmaq və incəsənət vasitəsilə yeni, azad fikirli nəsil yetişdirmək idi.

Eynəli bəy Sultanov eyni zamanda Azərbaycan publisistikasının ilk nümayəndələrindən biri kimi də tanınır. XIX əsrin 80-ci illərindən başlayaraq o, dövri mətbuatda maarif, ictimai ədalət və qadın hüquqları mövzularında məqalələrlə çıxış etmişdir. 1905–1908-ci illərdə Tiflisdə nəşr olunan "Zakafkazye" qəzetinin Müsəlman həyatı şöbəsinə rəhbərlik etmiş, "Novoye obozreniye", "Kafkaz", "Kaspi" və "Zakafkazskaya reç" qəzetlərinin Naxçıvan və İrəvan üzrə müxbiri olmuşdur. Onun "Naxçıvan məktubları" silsiləsindən olan "Naxçıvanda nə danışırlar", "Naxçıvan xəbərləri", "Dövlət Dumasına seçkilər" kimi yazıları ictimai həyatda baş verən prosesləri tənqidi baxımdan işıqlandırırdı.

1920–1930-cu illərdə Eynəli bəy Tiflisdə mətbuat və maarif sahəsində fəaliyyətini davam etdirmiş, "Kafkazskaya kommuna" qəzetinin redaktoru, "Yeni fikir" qəzetinə əlavə kimi çıxan "İşıq" qəzetinin məsul katibi olmuşdur. O, həmçinin "Dan ulduzu" jurnalının nəşrində yaxından iştirak etmiş, maarif və tərbiyə mövzusunda yazılar yazmışdır.

Eynəli bəyin bədii yaradıcılığı da dövrünün ictimai ziddiyyətlərini əks etdirən realist istiqamətdə formalaşmışdır. Onun "Tatarka" ("Azərbaycan qızı"), "Novruz ağa", "Kiçik sərgüzəşt", "Acı masqara", "Çalma", "Çadra altında", "Dəhşətli intiqam", "Sənəm" kimi hekayə və pyesləri cəmiyyətin mənəvi eybəcərliklərini, dini fanatizmi, qadın hüquqsuzluğunu və məmur özbaşınalığını tənqid edirdi. 1926-cı ildə onun "Seyidlər" adlı hekayələr toplusu Tiflisdə çapdan çıxmış, həmçinin "Səhhət", "Atalıq" və "Verirsən, vermirsən?" kimi səhnəciklərində də xalqın gündəlik həyatına dair aktual mövzular qaldırılmışdır.

Eynəli bəy Sultanov tərcümə fəaliyyəti ilə də məşğul olmuşdur. O, M.F.Axundovun "Molla İbrahim xəlil kimyagər" və "Hacı Qara" komediyalarını rus dilinə çevirmişdir.

Eynəli bəy Sultanov 1935-ci ildə Tiflis şəhərində vəfat etmişdir.

Onun çoxşaxəli fəaliyyəti Azərbaycan maarifçiliyinin, teatr və publisistika tarixinin mühüm mərhələsini təşkil edir. Görkəmli ziyalının 150 illik yubileyi 2016-cı il 15 fevral tarixində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə qeyd edilmişdir. Həmin il "Elm və təhsil" nəşriyyatı tərəfindən "Eynəli bəy Sultanov. Hekayələr" və "Э. Султанов. Публицистика" kitabları nəşr olunmuşdur.

Ədəbiyyat:

Orucova, A. Eynəli Bəy Sultanovun ədəbi və tənqidi görüşləri / A.Orucova // Elmi əsərlər: İctimai və humanitar elmlər seriyası / AMEA, Naxçıvan bölməsi.– 2020.– №3.– S.203-207.

Məmmədov, E. Azərbaycan-rus ədəbi əlaqələrinin inkişafında Eynəli bəy Sultanov faktoru / E.Məmmədov // Elmi əsərlər: İctimai və humanitar elmlər seriyası / AMEA, Naxçıvan bölməsi.– 2021.– №1.– S.177-183.

Həbibbəyli, İ. Eynəli bəy Sultanovun həyatı və yaradıcılığı / İsa Həbibbəyli // Filologiya və sənətşünaslıq / Azərbaycan Milli Elmlər Akademiyası.– 2022.– №1.– S.6-21.

Cəfəroğlu, Ə. Milli Azərbaycan maarifçilərindən: Eynəli Sultan / Əhməd Cəfəroğlu // Ədəbiyyat qəzeti.-2015.- 21 noyabr.- S.9.

Quliyev, M. Cəsur zabit Eynəli Sultan və varisləri: axtarışlar, tapıntılar /Musa Quliyev // 525-ci qəzet .-2020.- 6 mart.- S.12-13.


https://az.baku-art.com/az/taninm-sh-yaz-ch-publisist-ve-marrif-i-eyneli-b-y-sultan-n-155-ya-tamam-olur

MAY
10

Əhmədağa Muğanlı – 100

(1926-2001)

Nasir



Ədəbiyyat:

Fərəcov, S. Əhmədağa Muğanlını yaşadan kino lentləri / Savalan Fərəcov // Mədəniyyət.- 2013.- 2 avqust.- S. 15.

Kazımzadə, A. Ömrünü milli kinomuza həsr edən sənətkar: Əhmədağa Muğanlı - 85 / Aydın Kazımzadə // Mədəniyyət.-2011.- 3 iyun.- S.11.

Ədiloğlu, N. Ustad: Görkəmli nasir və kinodramaturq Əhmədağa Muğanlının xatirəsinə / Nurəddin Ədiloğlu // Palitra.-2015.- 24 noyabr.- S.14.

Ramazanqızı, G. Arzuların sərhəddi olmur / Gülmirə Ramazanqızı // Ədalət.– 2019.– 16 noyabr.– S. 12.

Ustadı yad etmək ibadətdir: Görkəmli nasir və kinodramaturq Əhmədağa Muğanlının 95 illiyinə / N.Muğanlı // İki sahil.– 2021.– 17 avqust.– S.22.

Alarlı, B. Əhmədağa Muğanlının "Şəhriyar əfsanəsi" povesti...: Əsərdə qədim qəhrəmanlıq səhifələrindən söhbət açılır /Bilal Alarlı //Xalq Cəbhəsi.-2015.- 5 may.- S.14.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Əhmədağa_Muğanlı

Əhmədağa Əkbər oğlu Qurbanov (ədəbi təxəllüsü ilə – Əhmədağa Muğanlı) 1926-cı il mayın 10-da Biləsuvar rayonunun Əliabad kəndində dünyaya gəlmişdir. İbtidai təhsilini doğma kəndində, orta təhsilini isə Xırmandalı kənd orta məktəbində almışdır. Böyük Vətən müharibəsi illərində – 1944–1946-cı illərdə hərbi xidmətə çağırılmış, ordu sıralarında xidmətini başa vurduqdan sonra məktəbi gümüş medalla bitirmişdir. 1947-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsinə daxil olmuş, 1952-ci ildə həmin fakültəni müvəffəqiyyətlə başa vurmuşdur.

Əmək fəaliyyətinə Biləsuvar rayonunun Bəyunlu kənd məktəbində müəllim kimi başlayan Əhmədağa Muğanlı sonralar "Bakı kommunisti" qəzetində ədəbi işçi, daha sonra isə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında redaktor və baş redaktor vəzifələrində çalışmışdır. 1953-cü ildən etibarən kinostudiyada sənədli-xronikal və elmi-kütləvi filmlər şöbəsinin baş redaktoru kimi fəaliyyət göstərmiş, ssenari-redaksiya kollegiyasının üzvü olmuşdur. O, 1993-cü ildə təqaüdə çıxanadək kinostudiyada 46 il fəaliyyət göstərmişdir.

Əhmədağa Muğanlı ədəbi yaradıcılığa 1951-ci ildə "İnqilab və mədəniyyət" jurnalında çap olunan "Biz qol çəkirik ki…" adlı hekayəsi ilə başlamışdır. Bundan sonra o, mütəmadi olaraq dövri mətbuatda çıxış etmiş, ədəbi və publisistik yazıları ilə oxucuların diqqətini qazanmışdır. Onun "Vicdan" (1959), "Tikanlı məftillər" (1962), "Şəhriyar əfsanəsi" (1973), "Şikəstə" (1979), "Ömürdən yeddi yarpaq" (1984), "Gecikmiş etiraf" (1991), "Dağ-daşa söykənər" (1996) və digər əsərləri Azərbaycan ədəbiyyatında mühüm yer tutmuşdur. Yazıçının "Tikanlı məftillər" povesti sonradan "Dağlarda döyüş" adlı məşhur bədii filmin ssenarisinə əsas olmuşdur.

Əhmədağa Muğanlı yalnız yazıçı kimi deyil, həm də ssenarist və kino redaktoru kimi tanınmışdır. O, 30-a yaxın sənədli filmin, o cümlədən "Azərbaycan… Azərbaycan…", "Alagöz yaylağında", "Muğanın dastanı", "Çobanbayatı", "Mən sərhədçiyəm", "M.F.Axundov", "Sabir", "Nizami" və digər ekran əsərlərinin ssenari müəllifidir. Bundan əlavə, "Dağlarda döyüş" (1968), "Od içində" (1978), "Qocalar… qocalar…" (1982), "Doğma sahillər" (1988) və Xalq şairi Süleyman Rüstəmlə birgə yazdığı "Atları yəhərləyin" (1983) kimi bədii filmlərin ssenariləri də onun qələmindən çıxmışdır. "Atları yəhərləyin" filmi xalq qəhrəmanı Qaçaq Nəbi haqqında çəkilmiş və həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda böyük maraqla qarşılanmışdır. Bu əsərə görə Əhmədağa Muğanlı 1986-cı ildə Azərbaycan SSR Dövlət Mükafatı laureatı adına layiq görülmüşdür.

Yazıçı ictimai fəaliyyətlə də fəal şəkildə məşğul olmuş, 1969–1971-ci illərdə Bakı şəhəri Oktyabr (indiki Yasamal) rayon Xalq Deputatları Sovetinin deputatı seçilmişdir. Onun səmərəli yaradıcılığı və kino sənətinə verdiyi töhfələr yüksək qiymətləndirilmişdir. Əhmədağa Muğanlı SSRİ Dövlət Kinematoqrafiya Komitəsinin Fəxri fərmanı, "SSRİ-nin əlaçı kinematoqrafçısı", "Sərhəd qoşunları əlaçısı" döş nişanları, Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin Fəxri fərmanı, eləcə də doqquz müxtəlif SSRİ medalı ilə təltif olunmuşdur. 1991-ci ildə ona "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adı verilmişdir.

Əhmədağa Əkbər oğlu Qurbanov (Muğanlı) 2001-ci il avqustun 4-də Bakı şəhərində vəfat etmişdir.

Əhmədağa Muğanlı ömrünün böyük bir hissəsini ədəbiyyata, kinoya və mədəniyyətə həsr etmiş nadir sənətkar idi. O, Azərbaycan nəsrində və kino tarixində ssenaristlik məktəbinin formalaşmasına əhəmiyyətli təsir göstərmiş, milli ekran ədəbiyyatının inkişafında mühüm rol oynamışdır.

MAY
20

Sabir Rüstəmxanlı – 80

(1946)

Şair



Ədəbiyyat:

Sabir Rüstəmxanlı: (Sabir Xudu oğlu Rüstəmxanlı): Biblioqrafiya / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası; tərtib ed.: X. Abbasova, Z. Əhmədova; elmi red. K. Tahirov; red. E. Nəciyev; ön söz. müəl. İ. Həbibbəyli; [dizayner M. Əliqızı]. - Bakı: [Zərdabi Nəşr], 2022. - 543, [1] s.

Sabir Rüstəmxanlı poeziyasında təbiət / M. Xanbabazadə // Ədalət.– 2020.– 23 may.– S.13.

Sabir Rüstəmxanlı bizim... / M. Yaqub // Ədəbiyyat qəzeti: xüsusi buraxılış.– 2021.– 22 may.– S.15.

Sabir Rüstəmxanlı yaradıcılığı: zaman və milli kimlik / O.Aras // 525-ci qəzet.– 2022.– 21 may.– S.12.

Ömür kitabına poeziya yazılan şair-Sabir Rüstəmxanlı / A. Turan // Türküstan.– 2023.– 31 oktyabr-6 noyabr, №39.– S.10.

Sabir Rüstəmxanlı alman ədəbiyyatında / O. Aras // Ədəbiyyat qəzeti.– 2024.– 18 may, №18.– S.20-21.

Ağ yolun işığında: "Sabir Rüstəmxanlı yolu" kitabına Ön söz əvəzi / Ə.R.Xələfli // Kredo.–2025.– 13 fevral (№05).– S.10-11;13.

https://meclis.gov.az/newsdep.php?id=460&lang=az

Sabir Xudu oğlu Rüstəmxanlı 1946-cı il mayın 20-də Yardımlı rayonunun Hamarkənd kəndində anadan olmuşdur. Orta təhsilini doğma kəndində başa vuran Sabir Rüstəmxanlı 1963–1968-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsində təhsil almışdır.

O, uşaqlıq illərindən ədəbiyyata böyük maraq göstərmişdir. On bir yaşında qələmə aldığı "Kəndim" adlı ilk şeiri 1957-ci ildə "Yeni kənd" qəzetində dərc olunmuş, 1964-cü ildə "Azərbaycan gəncləri" qəzetində çap edilən "Kənd yolu" şeiri isə onun ədəbi mühitdə tanınmasına səbəb olmuşdur.

Sabir Rüstəmxanlı əmək fəaliyyətinə 1967-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində kiçik ədəbi işçi kimi başlamış, sonrakı illərdə ədəbi işçi, xüsusi müxbir və şöbə müdiri kimi çalışmışdır. 1976-cı ildə "Molla Nəsrəddin və folklor" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1978–1990-cı illərdə "Yazıçı" nəşriyyatında incəsənət redaksiyasının müdiri, baş redaktorun müavini, daha sonra baş redaktor vəzifələrində fəaliyyət göstərmişdir. 1978-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Sabir Rüstəmxanlının yaradıcılığı milli düşüncəyə, azadlıq ideallarına, insanın mənəvi bütövlüyünə və Vətənə məhəbbətə əsaslanır. Onun "Tanımaq istəsən" (1970), "Sevgim, sevincim" (1974), "Ömür kitabı" (1988), "Atamın ruhu" (2002), "Xətai yurdu" (2003), "Akademikin son əsəri" (2017), "Astar" (2018), "Qarabağa dönüş" (2021), "Atamın ruhu" (2022), "Vətəndaşlığın əlifbası" (2022), "Ölüm son deyil: Tanıdığım Heydər Əliyev" (2023), "Şair və şər" (2024) və digər kitabları Azərbaycan poeziyasının mənəvi və bədii dəyərlər sistemində mühüm yer tutur. 2021-2025-ci illərdə 15 cildlik "Seçilmiş əsərləri" çap olunmuşdur

Yazıçının "Bütövlük", "Didərginlər", "Cavad xan", "Difai fədailəri", "Göy Tanrı", "Sunami" kimi nəsr əsərləri milli mübarizə, vətənpərvərlik və tarixi yaddaş mövzularına həsr olunmuşdur. O, həmçinin "Babadağ" (2006), "Payızın 17 anı" (2007), "Zəlimxan dastanı" (2007), "Cavad xan" (2007) kimi filmlərin ssenari müəllifidir. Əsərləri dünyanın müxtəlif dillərinə tərcümə olunmuş, beynəlxalq ədəbi-mədəni aləmdə geniş tanınmışdır.

Sabir Rüstəmxanlı 1989-cu ildə Azərbaycanda ilk müstəqil demokratik mətbuat orqanlarından biri olan "Azərbaycan" qəzetini təsis etmiş və iki il ərzində onun baş redaktoru olmuşdur. O, 1990-cı ildə Azərbaycan Xalq Cəbhəsindən parlamentə deputat seçilmiş, Qaçqınlarla İş üzrə Komissiyaya rəhbərlik etmişdir. 1991-ci ildə Azərbaycan Respublikasının Mətbuat və İnformasiya naziri təyin olunmuş, 1995-ci il parlament seçkilərindən sonra bu vəzifədən istefa vermişdir.

1992-ci ildə "Vətəndaş Həmrəyliyi" Partiyasını təsis etmiş və bu günədək partiyanın sədri kimi fəaliyyət göstərməkdədir. O, 1995-ci ildən etibarən bir neçə çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuş, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü, Azərbaycan–Kanada parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi fəaliyyət göstərmişdir.

Yazıçı, publisist və ictimai xadim Sabir Rüstəmxanlının çoxşaxəli yaradıcılığı və ictimai fəaliyyəti dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. 1982-ci ildə Azərbaycan komsomolu mükafatına, 1989-cu ildə M.F. Axundzadə adına ədəbi mükafata, 1993-cü ildə "Qızıl qələm" mükafatına layiq görülmüş, 1996 və 2021-ci illərdə "Şöhrət" ordeni ilə təltif edilmişdir. 2005-ci ildə ona "Xalq şairi" fəxri adı verilmiş, 2021-ci ildə "Nizami Gəncəvinin 880 illiyi (1141–2021)" xatirə nişanı ilə təltif edilmişdir.

2022-ci il mayın 19-da Azərbaycan Milli Kitabxanası tərəfindən "Sabir Rüstəmxanlı. Biblioqrafiya"sı çap olunmuşdur. Nəşr "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından hazırlanmış və yazıçının çoxillik yaradıcılığını, elmi-publisistik və ictimai fəaliyyətini əhatə etmişdir.

MAY
27

Söhrab Tahiri – 100

(1926-2016)

Şair, nasir



Ədəbiyyat:

Ələsgərova, S. Cənubi Azərbaycan milli azadlıq hərəkatının tərənnümündə Söhrab Tahirin rolu / Sakibə Ələsgərova // Kredo. - 2024. - 28 mart, № 21-22.- S.7.

Cəbrayılov, Ş . Söhrab Tahirin poeziyasında milli azadlıq ideyaları /Ş.Cəbrayılov // Pedaqoji Universitetin xəbərləri: Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası.-2024.- C. 72, № 2.- S.27-34.

Cəbrayılov, Ş. Söhrab Tahirin poeziyasında Azərbaycançılıq ideyaları / Ş.Cəbrayılov // Pedaqoji Universitetin xəbərləri: Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası.-2023.- C. 71, № 1.- S.40-51.

Cəbrayılov, Ş. Söhrab Tahirin poeziyasında vətənimizin təbii gözəlliklərinin təsviri / Ş.Cəbrayılov // Pedaqoji Universitetin xəbərləri: Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası.-2023.- C.71, №3.- S.18-24.

İnternetdə:

https://az.baku-art.com/az/bu-gun-shair-sohrab-tahirin-95-illiyidir

Tahiri Söhrab Əbülfəz oğlu (Söhrab Tahir) 1926-cı il mayın 27-də Cənubi Azərbaycanın Astara şəhərində anadan olmuşdur. İlk təhsilini "Səadət" və "Şahpur" məktəblərində almış, ailə vəziyyətinin çətinliyi səbəbindən atasının işlədiyi "İran-İngilis neft şirkəti"ndə əmək fəaliyyətinə başlamışdır. Siyasi fəallığına görə atası həbs edilərək Kirmanşah şəhərinə sürgün olunmuşdur. Söhrab Tahir Kirmanşahda orta təhsilini davam etdirmiş, eyni zamanda ictimai-siyasi fəaliyyətlə məşğul olmuşdur.

1946-cı ildə Bakıya hərbi təhsil almaq üçün göndərilən Söhrab Tahir 1947–1950-ci illərdə Bakı Diş və Feldşerlik məktəbində oxumuş, 1952–1957-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1959–1961-ci illərdə Moskvada M.Qorki adına Ali Ədəbiyyat kurslarının müdavimi olmuşdur. 1962–1966-cı illərdə Azərbaycan Demokrat Firqəsinin Bakı komitəsində birinci katib vəzifəsində çalışmış, 1967–1973-cü illərdə "Azərbaycan" jurnalı redaksiyasında məsul katib olmuşdur. 1974–1980-ci illərdə ADF MK-nın orqanı olan "Azərbaycan" qəzeti və "Azərbaycan" jurnalının redaksiyalarında bədii şöbə müdiri, ADF-in nəzdində nəşr edilən "Səhər" ədəbi-tarixi jurnalında baş redaktor müavini, 1981–1984-cü illərdə isə ADF MK-nın siyasi-nəzəri orqanı olan "Azərbaycan" jurnalının redaktoru kimi fəaliyyət göstərmişdir.

Söhrab Tahirin ədəbi fəaliyyəti 1949-cu ildə "Azərbaycan" qəzetində dərc olunmuş şeiri ilə başlamışdır. İlk nəsr kitabı 1981-ci ildə çap olunmuşdur. Onun kitablarından, "Qırılan zəncirlər" (1965), "Mən səni görmüşəm" (1965), "Burdan bir atlı keçdi" (1972), "Azad qardaşım var" (1973), "Mənim yolum (1975)", "Döyüş lövhələri" (1980), "Ölümdən güclü həyatdan uca (1981)", "Qonşu qızın məktubları" (1985), "Vətənlə sevgi arasında" (1986), "İki dəfə yox olmuş adam" (1988), "Əmanət" (1991), "Seçilmiş əsərləri" (2005), "Ata" (2009) çox cildli kitabı və s. nəşr olunmuşdur. Ümumiyyətlə, şairin 50-dən çox kitabı Bakıda, Moskvada, Berlində, Tehranda, Təbrizdə işıq üzü görüb.

Söhrab Tahir Azərbaycan Yazıçılar Birliyinin şeir şurasının sədri, "Azərbaycan" jurnalının redaktoru, "Səhər" ədəbi-tarixi jurnalında baş redaktor müavini kimi də fəaliyyət göstərmişdir. 1993-cü ildən Yeni Azərbaycan Partiyasının üzvü olmuş, 1993–2003-cü illərdə Azərbaycan Elmlər Akademiyasının Milli Münasibətlər İnstitutunda aparıcı elmi işçi, 2003-cü ildən isə Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda böyük elmi işçi vəzifəsində çalışmışdır.

İndiyədək onun 1500-dən çox şeiri, 57 poeması, 18 romanı, 10 povesti, 70-dən artıq hekayəsi və 800-dən çox ədəbi-elmi-publisistik məqaləsi nəşr edilmişdir. 2005-ci ildə əsərləri 20 cilddə çap olunmuşdur. Söhrab Tahir Azərbaycan Yazıçılar Birliyi idarə heyətinin, "Literaturnıy Azerbaydjan" jurnalının redaksiya heyətinin, "Yazıçı" nəşriyyatının bədii şurasının, Azərbaycan Ədəbiyyat Fondunun idarə heyətinin üzvü, SSRİ Ədəbiyyat Fondunun plenum üzvü olmuş, 1986–1991-ci illərdə Azərbaycan Yazıçılar Birliyi şeir şurasına sədrlik etmişdir. 1991-ci ildə Bədii ədəbiyyatı təbliğat bürosunun idarə heyətinin sədri təyin edilmişdir. İnqilabi və ədəbi-ictimai fəaliyyətinə görə Təbrizdə "21 Azər" medalı, bir sıra digər medallar və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Söhrab Tahirin yaradıcılığı və ictimai fəaliyyəti dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. O, 1984-cü ildə "Əməkdar mədəniyyət işçisi", 1998-ci ildə "Xalq şairi" fəxri adlarına layiq görülmüş, 2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir. 2010-cu ildə Beynəlxalq V.V. Mayakovski ordeninə layiq görülmüş, 2002-ci ildən Prezident təqaüdçüsü olmuşdur.

Söhrab Tahir 2016-cı il mayın 4-də vəfat etmiş və II Fəxri xiyabanda dəfn olunmuşdur.

MAY
2

Mirzo Tursunzadə – 115

(1911-1977) *Tacikistan şairi*



Mirzo Tursunzadə 2 may 1911-ci ildə Tacikistan Respublikasının o dövrkü Buxara əmirliyinə daxil olan Qaratağ kəndində anadan olmuşdur. Erkən yaşlarından təhsilə böyük maraq göstərən şair 1925-ci ildə pedaqoji texnikuma daxil olmuş, 1930-cu ildə isə Tacikistan Maarif İnstitutunu bitirərək peşəkar fəaliyyətə başlamışdır. O, əmək fəaliyyətinə "Tacikistan komsomolu" qəzetində başlamış, daha sonra A.S. Puşkin adına Musiqili Dram Teatrında ədəbi hissə müdiri vəzifəsində çalışmışdır.

Tursunzadə yaradıcılığa yeniyetmələk illərindən həvəs göstərmiş, əsərlərini əsasən tacik və rus dillərində qələmə almışdır. Onun 1932-ci ildə nəşr olunan ilk kitabı – "Qələbə bayrağı" adlı məcmuəyə hekayələr, şeirlər və oçerklər toplanmışdır. XX əsrin 1930-cu illərində yazdığı "Hökm", "Xosrov və Şirin" poemaları onun yaradıcılığında mühüm mərhələ təşkil etmişdir. Böyük Vətən müharibəsi dövründə folklor motivləri əsasında yazdığı "Tahir və Zöhrə" poemasında dövrün ictimai-siyasi gərginliyi və insan taleləri öz poeziya dili ilə əks olunmuşdur. Şairin "Şeirlər" (1939) kitabı ideya-bədii cəhətdən ən yetkin əsərlərindən biri kimi qiymətləndirilir; bu topluda müharibənin ağrı-acıları, xalqlar dostluğu və vətənpərvərlik mövzuları xüsusi bədii güclə təsvir edilmişdir.

Müharibədən sonra Tursunzadənin yaradıcılığında tacik xalqının taleyi, onun azadlığı uğrunda mübarizə ideyası əsas xəttə çevrilmişdir. "Hindistan balladası" (1947–1948) və "Mən azad Şərqdənəm" (1950) silsilələri şairin Hindistan və Pakistana səfərləri nəticəsində formalaşmış təəssüvürlərini, həmçinin Şərq xalqlarının azadlıq arzusunu əks etdirir. Bu ideya "Asiyanın səsi" (1956) və "Əbədi nur" (1957) poemalarında da davam etdirilərək sülh uğrunda mübarizənin poetik ifadəsinə çevrilmişdir. Şairin 1954-cü ildə qələmə aldığı "Arabaçı Həsən" epik poemasında adi tacik kəndlisinin həyatı və mübarizəsi geniş bədii lövhələrlə təsvir olunmuşdur. Onun Azərbaycana həsr etdiyi şeirləri də ədəbi əlaqələrin inkişafında maraqlı nümunədir. Şeirlərinin bir qismi Azərbaycan dilinə şair Qasım Qasımzadə tərəfindən tərcümə edilmişdir.

Mirzo Tursunzadə yalnız ədəbiyyat sahəsində deyil, ictimai həyatda da fəal mövqe tutmuşdur. 1946-cı ildən Asiya və Afrika xalqları Həmrəylik Komitəsinin sədri və Tacikistan Yazıçılar İttifaqı İdarə Heyətinin sədri, 1959-cu ildən isə SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi kimi fəaliyyət göstərmişdir. O, eyni zamanda SSRİ Ali Sovetinin 2–9-cu çağırış deputatı olmuşdur. Bu fəaliyyətlər onun beynəlxalq aləmdə də tanınmasına və nüfuz qazanmasına səbəb olmuşdur.

Yaradıcılığı və ictimai fəaliyyəti yüksək qiymətləndirilmiş, SSRİ Dövlət mükafatı, Lenin mükafatı, 1961-ci ildə Tacikistanın "Xalq şairi" adı, 1967-ci ildə "Sosialist Əməyi Qəhramanı" fəxri adı ilə təltif edilmişdir. 1968-ci ildə "Hindistan balladası" kitabına görə ona Cəvahirlal Nehru adına Beynəlxalq mükafat təqdim olunmuşdur.

Mirzo Tursunzadə 24 sentyabr 1977-ci ildə vəfat etmişdir.

Ölümündən sonra onun xatirəsi Tacikistanda və dünyada böyük ehtiramla yad edilmişdir. 1978-ci ildə Reqar şəhərinə onun adı verilmiş, 1981-ci ildə Mirzo Tursunzadə adına Beynəlxalq mükafat təsis edilmiş, Pamir dağ silsiləsinin zirvələrindən birinə onun adı qoyulmuşdur. 2011-ci ildə YUNESKO-nun qərarı ilə şairin 100 illik yubileyi beynəlxalq səviyyədə – həm Tacikistanda, həm də bir çox ölkələrdə təntənəli şəkildə qeyd olunmuşdur.

Ədəbiyyat:

Asiyanın səsi: şeirlər, poemalar / Mirzo Tursunzadə; tərc. ed. Q.Qasımzadə; red. M.İbrahim.– Bakı: Azərnəşr, 1964. - 106 s.

M.Tursunzadə // Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə.– C. 9.– Bakı, 1986.- S. 384-385.

Дорогая моя: Стихи и поэмы / М.Турсун-заде; худож. И.Ганиев.– Душанбе: Адиб, 1991.– 239 с.

Стихотворения и поэмы / М.Турсунзаде; худож. И.Ганиев.– Душанбе: Адиб, 1991.– 320 с.

Махмадшоев, Ш. Традиции классической литературы в творчестве Мирзо Турсун-заде: диссертация кандидата филологических наук: 10.01.03.– Душанбе, 2000.– 158 с.


İnternetdə:

https://az.wikipedia.org/wiki/Mirzo_Tursunzadə

MAY
18

Oljas Süleymanov – 90

(1936) *Qazaxıstan yazıçısı, şair*



Oljas Ömər oğlu Süleymenov 18 may 1936-cı ildə Qazaxıstanın Alma-Ata şəhərində anadan olmuşdur. O, 1954–1959-cu illərdə Qazaxıstan Dövlət Universitetinin Geoloji kəşfiyyat fakültəsində təhsil almış, 1959-cu ildə neft geologiyası üzrə diplom işini müdafiə edərək ixtisası üzrə əmək fəaliyyətinə başlamışdır. Hələ tələbəlik illərindən ədəbiyyata böyük maraq göstərən O.Süleymenovun sənətə gəlişi 1955-ci ildən başlayır.

1961–1962-ci illərdə M. Qorki adına Ədəbiyyat İnstitutunda təhsil alan Süleymenovun dövri mətbuatda ilk çıxışı 1962-ci ildə çap olunan "Köçərilər və Rus" adlı məqaləsi olmuşdur. Şairin mərkəzi mətbuatda ilk böyük təqdimatı isə 1959-cu ilin iyununda "Literaturnaya qazeta"da dərc edilən seçilmiş şeirləri ilə bağlıdır. Elə həmin 1962-ci ildə o, Qazaxıstan Dövlət Universitetinin aspiranturasına daxil olmuş və Yazıçılar İttifaqına üzv seçilmişdir.

1962–1971-ci illərdə "Kazaxskaya pravda" qəzetində ədəbiyyat məsələləri üzrə əməkdaş, "Qazaxfilm" kinostudiyasında baş redaktor vəzifələrində çalışan O.Süleymenov 1972-ci ildən Asiya və Afrika ölkələri yazıçıları ilə Qazaxıstan əlaqə komitəsinə rəhbərlik etmişdir. 1971–1981-ci illərdə Qazaxıstan Yazıçılar İttifaqının katibi, 1981–1983-cü illərdə Qazaxıstan SSR Kinematoqrafiya Komitəsinin sədri olmuşdur. 1983-cü ildə isə Qazaxıstan Yazıçılar İttifaqının birinci katibi seçilmişdir.

Oljas Süleymenov yaradıcılığının mühüm mərhələsi 1975-ci ildə yazdığı "Az-Ya" əsəridir. Filologiya və tarix üzrə aparılan araşdırmaların nəticəsi olan bu kitab ideoloji səbəblərə görə sovet dövründə ciddi müzakirələrə səbəb olmuş, 17 iyul 1976-cı il tarixli Qazaxıstan KP MK qərarında "ideoloji və metodoloji baxımdan qüsurlu" kimi qiymətləndirilmişdir. Bununla belə, əsər təkcə elmi deyil, siyasi düşüncə müstəvisində də böyük rezonans yaratmışdır.

O.Süleymenov 1989-cu ildə nüvə sınaqlarına qarşı beynəlxalq əhəmiyyətli "Nevada–Semipalatinsk" ictimai hərəkatının əsasını qoymuşdur. O, bir neçə çağırış Qazaxıstan və SSRİ Ali Sovetinin deputatı kimi də fəaliyyət göstərmişdir. 1990-cı ilin qanlı 20 Yanvar faciəsi ilə əlaqədar Bakıya gələrək Azərbaycan xalqına həmrəylik nümayiş etdirmiş, Kremlin Qurultaylar Sarayında çıxış edərək Qorbaçov rəhbərliyinin məsuliyyətini ciddi şəkildə tənqid etmişdir.

Qazaxıstan müstəqillik əldə etdikdən sonra Süleymenov ölkənin ictimai-siyasi və mədəni həyatında fəal iştirak etmiş, beynəlxalq səviyyədə Qazaxıstanı təmsil etmişdir. O, YUNESKO yanında Qazaxıstanın səlahiyyətli nümayəndəsi kimi fəaliyyət göstərmişdir. 25 aprel 2016-cı ildə Bakıda AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının qərarı ilə xalqlar arasında dostluğun möhkəmləndirilməsində xidmətlərinə görə Fəxri Doktor adına layiq görülmüşdür. 2019-cu ilin 2 oktyabrında Azərbaycan Milli Kitabxanasında onunla geniş görüş keçirilmişdir.

O.Süleymenov müxtəlif ölkələr tərəfindən yüksək dövlət təltiflərinə layiq görülmüşdür. Onun mükafatları arasında İnquşetiyanın "Xidmətlərinə görə" ordeni (2004), Rusiyanın "Dostluq" ordeni (2007), Ukraynanın V dərəcəli Müdrik Yaroslav ordeni, Azərbaycanın "Şöhrət" (2006) və "Dostluq" (2011) ordenləri, eləcə də 18 may 2020-ci ildə təqdim olunan "Şərəf" ordeni xüsusi yer tutur. O, həmçinin Qazaxıstanın Dövlət mükafatı, Ümumsovet Lenin komsomolu mükafatı laureatı və Türkiyənin "Türk dünyasına qatqılarına görə" beynəlxalq mükafatının sahibidir.

Oljas Süleymenov həm geologiya, həm ictimai fəaliyyət, həm də ədəbiyyat sahələrində geniş yaradıcılıq irsi qoymuş, tədqiqatçı, şair və fikir adamı kimi dünya miqyasında tanınmışdır. Tarix, etimologiya, dilçilik və ədəbiyyata dair "Köçərilər və Rusiya", "Az və Ya", "Yazı dili", "Tanrının gülümsəməsi", "Kəsişən paralellər", "Türklər qədim tarixdə" kimi əsərləri onun elmi dünyagörüşünün əsasını təşkil edir. Süleymenovun əsərləri türk dünyasının ideya-mədəni əsaslarının öyrənilməsi baxımından mühüm dəyər daşıyır və bu gün də geniş şəkildə tədqiq olunur.

Ədəbiyyat:

Prezident İlham Əliyev Oljas Süleymenovu "Şərəf" ordeni ilə təltif etdi // Azərbaycan.–2021.– 13 avqust.– S.1-2.

Azərbaycan Almatıda beynəlxalq konfransda təmsil olunub // Ədəbiyyat qəzeti.– 2025.– 30 may (№19).– S. 8.

Almatıda "Az i Ya"nın 50 illik yubileyi təntənə ilə qeyd olunub: Tədbirdə Azərbaycan nümayəndə heyəti iştirak edib // Ədəbiyyat qəzeti.– 2025.– 6 iyun (№20).– S.13.

Zəfərimizin təməlində dayanan 50 yaşlı "Az i Ya" / A.Turan // Ədəbiyyat qəzeti.– 2025.– 30 may (№19).– S. 8.

Oljas Süleymenov: "Bakı mənə doğmadır" /O. Süleymenov; söhbətləşdi A. Həsənli// Ədəbiyyat qəzeti. -2018.- 9 iyun.- S.24.

İnternetdə:

Tağısoy, Ni. Heydər Əliyev fenomeninə Oljas Süleymenov prizmasında baxı /N.Tağısoy


https://az.baku-art.com/az/oljas-suleymenov-muasir-qazax-edebiyyatin-n-d-nya-shohr-tli-n-may-nd-si

MAY
1

Mayis Ağabəyov – 85

(1941-2020)

Kino rəssamı



Mayis Əlişir oğlu Ağabəyov 1 may 1941-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, 1961-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirdikdən sonra ali təhsilini Moskvada davam etdirmiş və 1969-cu ildə Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun rəssamlıq fakültəsini M.Boqdanovun rəhbərlik etdiyi kurs üzrə tamamlamışdır. Təhsil illərində kino rəssamlığının nəzəri və praktiki əsaslarına dərindən yiyələnmiş Ağabəyov, Azərbaycan kino sənətinə yeni estetik baxışların gətirilməsində mühüm rol oynayan yaradıcı şəxsiyyətlərdən birinə çevrilmişdir.

Təhsilini başa vurduqdan sonra C. Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında quruluşçu rəssam kimi fəaliyyətə başlayan Mayis Ağabəyov milli kinematoqrafiyanın inkişafında xüsusi xidmətlər göstərmişdir. Onun "Babək", "Nəsimi", "Nizami", "Nə gözəldir bu dünya", "Özgə vaxt", "Qətl günü", "Şirbalanın məhəbbəti", "Təkcə adanı özünlə apara bilməzsən", "Həyat bizi sınayır", "Ürək… Ürək…", "Günaydın, mələyim!" kimi filmlər üçün yaratdığı bədii tərtibat monumental və tarixi janrda yüksək peşəkarlığın nümunəsi kimi dəyərləndirilir. O, həmçinin rəngkarlıq, qrafika və kiçik plastika sahələrində də məhsuldar yaradıcılıq nümayiş etdirərək "Ədəbi motiv", "Qızılquş ovu", "Ailə", "Dua", "Rəssam və model", "Novruz", "Lampa işığı", "Şərq qadınları" kimi əsərlərin, eləcə də "Ana", "Atlı qız", "Toreador", "Model" kimi heykəltəraşlıq nümunələrinin müəllifi olmuşdur.

Mayis Ağabəyov 1965-ci ildən etibarən beynəlxalq və respublika sərgilərində iştirak etmiş, 1988-ci ildə Bakıda ilk fərdi sərgisini təqdim etmişdir. Sonrakı illərdə Avinyon (1994), London (2000), Bakı İncəsənət Mərkəzi (2002), Səttar Bəhlulzadə adına sərgi salonu (2005) və 2011-ci ildə 70 illik yubileyi münasibətilə təşkil olunmuş sərgiləri rəssamın yaradıcılığının geniş auditoriya tərəfindən tanınmasına şərait yaratmışdır. O, həmçinin 1996-cı ildə Türkiyədə keçirilmiş sərgidə də uğurla iştirak etmişdir. Sənətkarın əsərləri Azərbaycan Dövlət İncəsənət Muzeyi, Azərbaycan Mədəniyyət Nazirliyi və Rəssamlar İttifaqının fondları, Moskva Dövlət Şərq Muzeyi, eləcə də Fransa, Böyük Britaniya, Türkiyə, Avstriya, Almaniya, Yaponiya, İspaniya və Rusiyada şəxsi kolleksiyalarda qorunur.

1996-cı ildən Mayis Ağabəyov pedaqoji fəaliyyətə başlamış, əvvəlcə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, 2000-ci ildən isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "Rəngkarlıq" kafedrasında müəllim və professor kimi çalışmışdır. O, 2008-ci ildə "Filmdə rəssamın rolu" adlı kitabını yazaraq kino rəssamlığının nəzəri problemlərinin araşdırılmasına mühüm töhfə vermişdir.

Rəssamın yaradıcılığı və sənətə xidmətləri yüksək qiymətləndirilmişdir. O, 1992-ci və 1993-cü illərdə "Azərbaycan Respublikasının əməkdar rəssamı", 2000-ci ildə isə "Azərbaycan Respublikasının xalq rəssamı" fəxri adlarına layiq görülmüş, 26 aprel 2012-ci ildə təsviri sənət nominasiyasında "Humay" milli mükafatı ilə təltif edilmişdir.

Mayis Əlişir oğlu Ağabəyov 17 iyun 2020-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Onun zəngin yaradıcılığı, milli kino və təsviri sənətdə yaratdığı dəyərli nümunələr Azərbaycan mədəniyyətində mühüm yer tutur.

Ədəbiyyat:

Kinoda rəssam işi / Mayis Ağabəyov; [məs.red. C. Quliyev; red. M. Nəsirova; ön söz. əvəzi. A. Kazımzadə]; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Film Fondu; Azərbaycan Dövlət Rəssamlıq Akademiyası. - Bakı: Parni iz Baku, 2008. - 82 s.

Abdullayev, V. Mayis Ağabəyov. Xəyali rənglər işığında / Vüqar Abdullayev; red. G. Zeynalova; tərc. ed. M. Babayeva, S. Əliyeva ; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. - Bakı: Aspoliqraf, 2011. - 137, [3] s.

Xalq rəssamı Mayis Ağabəyov dünyasını dəyişib // Mədəniyyət.– 2020.– 19 iyun.– S.2.

Rənglərin öz dili var / M.Mükərrəmoğlu // Xalq qəzeti.– 2021.– 5 avqust.– S.7.

Bayramov, S. Filmdə rəssam işi - Mayis Ağabəyovun yaradıcılığı / Səyyad Bayramov // Filologiya və sənətşünaslıq / Azərbaycan Milli Elmlər Akademiyası.– 2022.– №2.– S. 298-303.

İnternetdə:


https://az.wikipedia.org/wiki/Mayis_Ağabəyov

MAY
7

Cəbrayıl Əzimov – 100

(1926-1969)

Kino rəssamı



Cəbrayıl Əlimuxtar oğlu Əzimov 7 may 1926-cı ildə Bakı şəhərində anadan olmuşdur. Uşaqlıq illərindən rəssamlığa xüsusi maraq göstərən Əzimov 1946-cı ildə Ə. Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə daxil olmuş, bir il sonra isə təhsilini davam etdirmək məqsədilə Moskva Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun bədii-dekorativ tərtibatçılıq fakültəsinə qəbul edilmişdir. Burada sovet kino rəssamlığının tanınmış nümayəndələri F. Boqorodski, Y. Pimenov və T. Şeqalın rəhbərliyi altında peşəkar kino rəssamlığının nəzəri və praktik əsaslarını öyrənmişdir. Tələbəlik illərində o, həmçinin rəngkarlıqla məşğul olmuş, Moskvada təşkil olunan bir sıra sərgilərdə əsərləri ilə iştirak etmişdir.

1953-cü ildə institutu bitirərək Bakıya qayıdan Cəbrayıl Əzimov həmin ildən "Azərbaycanfilm" kinostudiyasında quruluşçu rəssam kimi fəaliyyətə başlamışdır. Onun kinostudiyadakı ilk işi 1954-cü ildə çəkilmiş "Doğma xalqıma" adlı rəngli bədii-sənədli film olmuşdur. Rəssam dostu E. Rzaquliyevlə birgə hazırladığı bu ekran işi onun kino sənətindəki yaradıcılıq yolunun başlanğıcı olmuşdur. Sonrakı illərdə o, "Bəxtiyar" (1955), "O olmasın, bu olsun" (1956, N. Zeynalovla birgə), "Qızmar günəş altında" (1957), "Uzaq sahillərdə" (1958), "Onu bağışlamaq olarmı?" (1959), "Qəribə əhvalat" (1960), "Leyli və Məcnun" (1961), "Mən rəqs edəcəm" (1962), "Romeo mənim qonşumdur" (1963), "Şahsənəm və Qərib" (1964), "İnsan məskən salır" (1967), "Qanun naminə" (1968) və digər filmlərin bədii tərtibatını hazırlamışdır. O, xüsusilə naturada çəkilmiş filmlərə üstünlük verməsi ilə fərqlənmiş, "Görüş", "Qızmar günəş altında", "O olmasın, bu olsun" və "Uzaq sahillərdə" kimi ekran əsərlərində bu yanaşma özünü qabarıq şəkildə göstərmişdir.

Cəbrayıl Əzimovun yaratdığı eskizlər və onlar əsasında qurulan dekorasiyalar rəssamın güclü təsviri sənət duyumuna, hadisələri bədii yanaşma ilə təqdim etmək bacarığına və kino rəssamlığındakı peşəkarlığına dəlalət edir. Sənətdəki xidmətlərinə görə o, 1964-cü ildə Azərbaycan SSR-in "Əməkdar rəssam" fəxri adına layiq görülmüşdür. 1966-cı ildə "İnsan məskən salır" filminin bədii tərtibatına görə Ümumittifaq Kino və Teatr Rəssamları Sərgisinə daxil edilmiş, "Leyli və Məcnun" filmi üçün çəkdiyi eskizlər isə Azərbaycan teatr və kino rəssamlarının kataloqunda yer almışdır.

Cəbrayıl Əlimuxtar oğlu Əzimov 10 iyul 1969-cu ildə Bakı şəhərində vəfat etmişdir.

Onun Azərbaycan kino sənətinin bədii tərtibat ənənələrinin formalaşmasına verdiyi töhfələr, ekran əsərlərinin vizual quruluşundakı yenilikçi yanaşmaları bu gün də yüksək dəyərləndirilir. Sənətkarın yaradıcılığına həsr olunmuş "Bir ömrün çalarları. Cəbrayıl Əzimov" (2016) adlı sənədli film çəkilişdir

Ədəbiyyat:

Əzimov Cəbrayıl // Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.– C. 4.– Bakı, 1980.– S. 149.

Abdiyeva, T. Sənətinin vurğunu / Tura Abdiyeva // Mədəniyyət.-2010.- 2 iyun.- S.10

Kazımzadə, A. Cəbrayıl Əzimov / Aydın Kazımzadə // Azərbaycan kinematoqrafçıları: portretlər / A.Kazımzadə; burax. məs. C.Quliyev; red. Ş.Bürcəliyeva; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Döv. Film Fondu.– Bakı, 2012.– S. 162-173.

Kazımzadə, A. Qısa ömrün böyük amalı / Aydın Kazımzadə // Mədəniyyət.az.– 2017.– № 3.– S. 22-25.

Rəssam gözü ilə çəkilən kino / Ş.Əmirli // Mədəniyyət.– 2021.– 5 may.– S.7.

Kazımzadə, A. "Uzaq sahillərdə" "Qızmar günəş altında" yaşayan sənətkar: Kino rəssamı Cəbrayıl Əzimovun 85 illiyi münasibətilə / aydın Kazımzadə // Mədəniyyət.- 2011.- 28 oktyabr.- səh. 10


İnternetdə:

https://ulusum.az/edebi-senet/11741-kadrlar-arxasinda-qalan-rengli-dunyalar-cebrayil-ezimov.html

MAY
10

Seyfəddin Məmmədvəliyev – 90

(1936) *Ağac üzərində oyma xəttatlığı ustası*



Ədəbiyyat:

Həbibbəyli, İ. Ağacoyma xəttatlığının ustadı / İsa Həbibbəyli // 525-ci qəzet.– 2021.– 18 dekabr.– S.15;23.

Ağacoyma xəttatlığı örnəkləri / Seyfəddin Mənsimoğlu; red. Z. Əliyev; ön sözün müəl. İ. Həbibbəyli.– Bakı: Elm, 2022.– 148, [4] s.

Xəttin sənət möcüzəsi / Seyfəddin Mənsimoğlu; elmi red. İ. Həbibbəyli; ön sözün müəl. Z. Əliyev; AMEA, M. Füzuli ad. Əlyazmalar İntu. - Bakı: Şərq-Qərb, 2016. - 137, [3] s.

Metafora: Çoban bulağından başlanan yol / S. M. Məmmədvəliyev; Regionların İnkişafı İctimai Birliyi.- Bakı: Şərq-Qərb, 2011.- 336 s.

Cavadova, E. Xətt-oyma sənətinin yaradıcısı: Onun yaradıcılığı gənc istedadlar üçün örnək, məktəbdir / Esmira Cavadova // Kaspi .-2019.- 10 sentyabr.- S.15.

İnternetdə:

https://kaspi.az/az/xett-oyma-senetinin-yaradicisi

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000551602

Seyfəddin Mənsim oğlu Məmmədvəliyev 10 may 1936-cı ildə Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində anadan olmuşdur. Orta təhsilini doğulduğu kənddə tamamlamış, 1960-cı ildə Ə. Əzimzadə adına Rəssamlıq Məktəbini, 1975-ci ildə isə M. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirmişdir.

1960–1963-cü illərdə Böyük Mərcanlı kəndində rəsm və rəsmxət müəllimi kimi fəaliyyət göstərmiş, 1964-cü ildən etibarən Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda çalışmışdır. Uzun illər burada müxtəlif elmi-texniki və yaradıcı vəzifələrdə çalışmışdır.

Seyfəddin Məmmədvəliyev ağac üzərində oyma xəttatlığı sahəsinin müasir inkişaf mərhələsinin yaradıcılarından biri kimi tanınır. O, ənənəvi ağacoyma texnikasını xəttatlıqla sintez edərək bu sahəni dekorativ-tətbiqi sənətin müstəqil bədii istiqamətinə çevirmişdir. Sənətkar dairəvi ağac lövhələr üzərində xətt yazısı ilə rəmzi təsvirləri birləşdirən kompozisiyalar yaratmaqla fərqli üslub formalaşdırmışdır.

Yaradıcılığında həm müstəqil Azərbaycan dövlətçiliyi, həm də klassik Azərbaycan və Şərq mədəniyyəti mövzuları mühüm yer tutur. Dövlətçilik mövzusunda Heydər Əliyev, İlham Əliyev və Mehriban Əliyevanın portretləri milli atributlarla təqdim edilmişdir. Klassik ədəbiyyat və mədəniyyət mövzularına həsr edilmiş əsərlərdə isə Nizami Gəncəvi, Xaqani Şirvani, Məhsəti Gəncəvi, İmadəddin Nəsimi, Əcəmi Naxçıvani, Nəsirəddin Tusi, Sultan Məhəmməd, Aşıq Qurbani, Üzeyir Hacıbəyli və digər görkəmli şəxsiyyətlərin portret və kompozisiyaları yer alır. Bu əsərlərdə qopuz, açıq kitab, qələm, musiqi alətləri, memarlıq elementləri və hürufi işarələr kimi simvolik detallar obrazların bədii və elmi ümumiləşdirilməsini təmin edir.

Məmmədvəliyevin əsərlərində xətt yazısı və təsviri sənət eyni səthdə sintez edilir, miniatür estetikasına uyğun kiçik süjetli təsvirlər medalyon və butalarda yerləşdirilir. Onun yaradıcılığı üçün səciyyəvi xüsusiyyətlərdən biri də elmi bilik və mütaliə mədəniyyətinin izlərinin kompozisiyalarda açıq şəkildə hiss olunmasıdır.

Sənətkarın əsərləri Azərbaycanda və xaricdə sərgilərdə nümayiş etdirilmiş, müxtəlif mədəniyyət müəssisələrinin kolleksiyalarına daxil edilmişdir. "Sultan Məhəmməd" və "Rəhil" əsərləri Berlində İslam Mədəniyyəti Muzeyinin kolleksiyasında saxlanılır. O, 2007-ci ildə Səudiyyə Ərəbistanında, 2008-ci ildə Tunisdə, 2010 və 2012-ci illərdə Türkiyədə keçirilən sərgilərdə iştirak etmişdir. Azərbaycan, Türkiyə, Rusiya və İran telekanalları onun fəaliyyəti barədə "Ağac üzərində oyma ustası" adlı verilişlər hazırlamışdır.

Seyfəddin Məmmədvəliyev 2015-ci ildə Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür

Onun yaradıcılığı ilə bağlı "Çoban bulağından başlanan yol" (2011), "Xəttin sənət möcüzəsi" (2016) və "Ağacoyma xəttatlığı nümunələri" (2022) adlı kitabları nəşr edilmişdir.


Seyfəddin Məmmədvəliyev uzun illər ərzində Azərbaycanın dekorativ-tətbiqi sənətində, xüsusilə ağacoyma xəttatlığı sahəsində yeni bədii-estetik istiqamətlər yaratmış, milli irsin müasir ifadəsini təqdim edən, elmi və bədii yanaşmanı vəhdətində təqdim edən nadir sənətkarlardandır.

MAY
29

Elçin Məmmədov – 80

(1946-2001)

Teatr rəssamı



Ədəbiyyat:

Elçin Məmmədov, 1946-2001 [İzomaterial] : qrafika, rəngkarlıq, teatr sənəti / lay. rəhb. Ç. Fərzəliyev; mətnin müəl. D. Vahabova; ing. dilinə tərc. İ. Peart, S. İbrahimova, Ə. Məlikova; fotolar Ə. Ağasiyev, İ. Kostina, S. Ələsgərov ; dizayn və kompüter yığımı K. Bayramzadə. - Bakı: Sərvət, [Şərq-Qərb], 2013.- 104 s.

Gülcahan. Elçin Məmmədovun 70 illik yubileyi qeyd olundu / Gülcahan // Mədəniyyət.– 2016.– 1 iyun.– S. 3.

Hüseynov, Ə. Mirpaşanın kürlüyü: Elçin Məmmədovun ruhuna / Ə.Hüseynov // Ədəbiyyat qəzeti.– 2018.– 1 dekabr.– S. 26.

Müşfiqə. Sənətkarlar ailəsində göz açan "Qaraca çoban" / Müşfiqə // Yeni Azərbaycan.– 2022.–1 iyun.– S.7.

"Mirpaşa Mehdi oğlu": İstedad ona qanla canla ötürülmüşdü // Şərq.– 2023.– 27 may.– S.5.

Mükərrəmoğlu, M. Rollarını da rəssam kimi yaradardı: Elçin Məmmədov – 65 / Mehdi Mükərrəmoğlu //Xalq qəzeti.-2011.- 19 iyun.- S. 8.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Elçin_Məmmədov_(incə

Elçin Mehdi oğlu Məmmədov 29 may 1946-cı ildə anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) rəssamlıq fakültəsində təhsil almışdır.

Professional səhnədəki ilk işi uşaqlıq dostu, rejissor Azər Paşa Nemətovun Gənc Tamaşaçılar Teatrında rus dilində quruluş verdiyi "Mənim qardaşım klarnetdə çalır" tamaşasında rəssamlıq olmuşdur. Daha sonra Bakıda, Moskva, Arxangelsk və Serebrovski şəhərlərində yüzdən çox tamaşada səhnə tərtibatı vermişdir.

Elçin Məmmədov Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında "Xırs quldurbasan" (M.F. Axundov), "Dəli yığıncağı" (C. Məmmədquluzadə), "İblis" (H. Cavid), "Meşşanlar" (M. Qorki), "İnsan" (S. Vurğun), "Hamlet" (V. Şekspir); Azərbaycan Dövlət Musiqili Teatrında "Danabaş kəndinin əhvalatları" (O. Kazımov və C. Səlimova), "Tülkü Həccə gedir" (R. Şəfəq və A. Şaiq), "Səhranın bəyaz günəşi" (L. Vanşteyn və R. İbrahimbəyov), "Gözün aydın" (F. Əmirov və M. Əlizadə), "Yarasa" (Ştraus); Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında "Danabaş kəndinin məktəbi" (C. Məmmədquluzadə), "Şamdan bəy" (N. Nərimanov), "Keçən ilin son gecəsi" (Anar), "Salam, Hotsi" (R. Vaqner); Azərbaycan Dövlət Rus Dram Teatrında "Həyatın dibində" (M. Qorki), "Mənim məhəbbətim Elektra" (R. Durko), "Qar kraliçası" (H. Andersen), "Şeyx Sənan" (H. Cavid), "Amansız oyunlar" (M. Şatrov) və sair tamaşaların rəssamı olmuşdur.

O, yalnız Bakıda deyil, həmçinin Naxçıvan, Gəncə, Lənkəran, Sumqayıt, Mingəçevir teatrlarında da çoxsaylı əsərlərə səhnə tərtibatı vermişdir. Onun yaradıcılığı Beynəlxalq Teatr Rəssamları sərgilərində nümayiş olunmuş, xarici ölkələrdə yaradıcılıq ezamiyyətlərində iştirak etmişdir. Əsərləri Bakı və Moskva Dövlət muzeylərinin kolleksiyalarına daxil edilmişdir. Həmçinin "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Azərbaycan nağılları", "Xəyyam" kimi nəşrlərin illüstrasiyalarını hazırlamışdır.

Rəssamlıqla yanaşı, Elçin Məmmədov aktyorluqla da məşğul olmuş və müxtəlif kinofilmlərdə mühüm obrazlar yaratmışdır. "Yeddi oğul istərəm" filmindəki Mirpaşa, "Dədə Qorqud"-dakı Qaraca Çoban obrazları tamaşaçılar tərəfindən yüksək qiymətləndirilmişdir. Bundan əlavə "Xəzinə", "Ağır şkaf", "Toya dəvətnamə", "Çətirimiz buludlardır", "Dantenin yubileyi", "Qəribə adam", "Yarımçıq qalmış mahnı", "Bağlı qapı", "Bir dəfə", "Ovsunçu" filmlərində də yadda qalan obrazlar yaratmışdır.

Elçin Məmmədov Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının baş rəssamı olmuşdur. "İblis" tamaşasına verdiyi səhnə tərtibatına görə 1984-cü ildə Azərbaycan Dövlət Mükafatına layiq görülmüş, 1991-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adına nail olmuşdur. Həmçinin 1999 və 2001-ci illərdə Azərbaycan Teatr Xadimləri İttifaqının "Qızıl Dərviş" mükafatına layiq görülmüşdür. Rəssam kimi quruluş verdiyi son tamaşa Azər Paşa Nemətovun "Hamlet" tamaşası olmuşdur.

Elçin Mehdi oğlu Məmmədov 18 fevral 2001-ci ildə Bakı şəhərində vəfat etmişdir.

MAY
1

Aydın Əzim Kərimoğlu – 80

(1946) *Bəstəkar*



Ədəbiyyat:

"Azərbaycan musiqi mədəniyyətinin yeni cığırını açmaq lazımdır" / A.Əzimov: müsahibəni apardı L.Azəri // Mədəniyyət.– 2021.– 26 may.– S.5.

Bəstəkarın portreti / Leyla Həmid Əhməd Xan // Hürriyyət.– 2025.– 4 mart (№9).– S.15.

Azərbaycan musiqisinin dünya mədəniyyətində məxsusi yeri var / Aydın Əzimov; müsahibəni apardı: G.İsmayılova / /Mədəniyyət. az.-2019.- Mart-Aprel.- S. 30-33 .

"Şur" muğamının ifa tərzləri və onların nota alınması [Notlar] / Aydın Əzimov; elmi red. G. Abdullazadə; Tar (in h) üçün Ə. Bakıxanovun, Ə. Dadaşovun, B. Mansurovun ifasından; Kamança (in d) üçün T. Bakıxanovun, Ə. Vəzirovun ifasından; Balaban (in h) üçün B. Zeynalovun, H. Hüseynovun ifasından ; AMEA, Azərb. Resp. Təhsil Nazirliyi, [Heydər Əliyev Fondu, Azərb. Resp., Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Mədəniyyətinin Dostları Fondu, Azərb. Bəstəkarlar İttifaqı, İslamic Culture Capital] -Bakı: Şərq-Qərb, 2009. 111, [1] s.

https://aki.az/aydin-əzim-kərimoglu-75/

Aydın Kərim oğlu Əzimov (Aydın Əzim Kərimoğlu) 1946-cı il mayın 1-də Bakının Əmircan kəndində anadan olmuşdur. 1964-cü ildə A. Zeynallı adına Musiqi Texnikumunun nəzəriyyə fakültəsini bitirdikdən sonra elə həmin il Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsinə daxil olmuş və görkəmli bəstəkar Qara Qarayevin sinfində təhsil almışdır. 1972-ci ildə konservatoriyanı uğurla başa vurmuş, 1976-cı ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olmuşdur.

1968–1996-cı illərdə Azərbaycan Dövlət Teleradio Komitəsində müxtəlif vəzifələrdə çalışmış, radionun Musiqi verilişləri baş redaksiyasında kiçik redaktor, böyük redaktor, şöbə müdiri, səsyazma evində səs rejissoru, baş rejissor vəzifələrini icra etmişdir. Həmçinin Azərbaycan Dövlət Teleradio Komitəsinin bədii kollektivləri və səsyazma evinin müdiri, "Azərbaycantelefilm" yaradıcılıq birliyinin baş məsləhətçisi olmuşdur.

1996-cı ildən 2005-ci ilə qədər Türkiyənin Mersin Universiteti Dövlət Konservatoriyasında çalışmış, burada Bəstəkarlıq şöbəsini təşkil etmişdir. 2005-ci ildən Bakı Musiqi Akademiyasının Bəstəkarlıq kafedrasının professoru və eyni zamanda akademiyanın elmi laboratoriyasının əməkdaşıdır.

Aydın Əzimov Azərbaycan bəstəkarlarının skripka əsərlərindən ibarət "Sonata-poema" əsərini yazmış və bu əsər 11 illik musiqi və incəsənət məktəblərinin tədris proqramına daxil edilmişdir. Müstəqilliyimizin ilk illərində Müdafiə Nazirliyinin orkestrinin təşkilində mühüm rol oynamış, orkestrin tərkibinə milli alət olan on zurnaçını daxil etmişdir. O, həmçinin Üzeyir Hacıbəylinin Azərbaycan Respublikasının Dövlət Himnini bərpa etmiş və onu işlətmişdir.

Bəstəkar "Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Bəstəkarlıq fəaliyyətində vokal, simfonik, instrumental əsərləri ilə yanaşı teatr və kino üçün musiqilər yaratmışdır. Vokal əsərlərinə Üzeyir Hacıbəyovun Azərbaycan himninin bərpası, Nazim Hikmət və Vaqif Səmədoğlunun sözlərinə yazılmış vokal silsilələri daxildir. Simfonik və instrumental yaradıcılığına piano üçün 6 prelüdiya, "Həyatın dibində" simfonik lövhələri, simfonik orkestr üçün "Böyük Romul" süitası, qoboy və vibrafon üçün pyeslər, "Ağılar" simfonik quramalar, simfonik orkestr üçün 10 əsgər marşı və piano üçün variasiyalar daxildir.

Bəstəkarlıq fəaliyyətində musiqili komediyalar və müzikllər də mühüm yer tutur. Onun əsərləri arasında "Əmanət" musiqili komediyası, "Yay gecəsinin yuxusu" və "Karmen" müzikləri yer alır. Teatr tamaşalarına yazdığı musiqilər arasında "Həyatın dibində", "Böyük Romul", "Lənkəran xanının vəziri", "Yayda qartopu oyunu" və "Qətl günü" xüsusi ilə seçilir.

Aydın Əzimov kino sahəsində də fəaliyyət göstərmiş, bir sıra filmlərin musiqisini bəstələmişdir. Onun filmoqrafiyasına "Daş saat" (1975), "Üzeyir ömrü" (1981), "Uşaq və külək" (1982), "Topal Teymur" (1983), "Qətl günü" (1990), "Divar" (1991), "Anamın kitabı" (1994), "Şüalə" (1994), "Ümid" (1995), "Qobustan", "Naməlum səs" (1997), "Bəsdir, ağlama!" (1999), "Mir Teymur" (2003), "Yalan" (2005) və "Sirr" (2012, serial) daxildir.

Aydın Kərim oğlu Əzimov yaradıcılığında milli ənənələr və müasir musiqi texnikalarını uğurla birləşdirmiş, həm peşəkar musiqi təhsili sahəsində, həm də teatr, kino və simfonik musiqi sahələrində mühüm iz qoymuşdur.

9 MAY

Azərin – 55

(1971)

Müğənni



Anaxanım Etibar qızı Tağıyeva (sahnə adı Azərin) 1971-ci il mayın 9-da Bakıda anadan olmuşdur. Musiqi sahəsində fəaliyyətinə çox erkən yaşda başlamış, beş yaşından Azərbaycan Dövlət Televiziya və Radiosunda uşaq mahnılarını solist kimi ifa etmişdir. Daha sonra təhsilini davam etdirərək Azərbaycan Dövlət Konservatoriyasının səs fakültəsini bitirmiş və vokal sənətində peşəkarlığını artırmışdır.

Azərin bir çox dillərdə mahnılar ifa etmişdir; italyan, ispan, rus, fransız, ingilis, özbək, qırğız, qazax və bəzi Balkan dillərində ifaları onun çoxşaxəli repertuarını əks etdirir. İlk solo albomu 2001-ci ildə Qazaxıstanda keçirilən "Asiyanın Səsi" müsabiqəsindən sonra işıq üzü görmüşdür. Bu albomun repertuarına həm Azərbaycan korifeylərinin mahnıları, həm də xarici klassik musiqi nümunələri daxil edilmişdir. 2004-cü ildə çıxan növbəti albomda da bu tendensiya davam etmişdir.

2006-cı ildə Azərin "Azərbaycan Respublikasının əməkdar artisti", 2015-ci ildə isə "Azərbaycan Respublikasının xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

2009-cu ildən TRT Avaz və TRT Musiqi kanallarında proqramlar hazırlayıb təqdim edir. 2015-ci ildə Türkiyədə çıxardığı "Yüreklerde Biriz" albomu onun bu ölkədəki ilk solo işidir. Albomda yer alan "Çırpınırdın Karadeniz" mahnısına hazırlanan remiks həm YouTube, həm də digər rəqəmsal platformalarda geniş dinləyici auditoriyası qazanmışdır.

Azərin sənət fəaliyyətində vətənpərvər mövzulara da xüsusi yer ayırmışdır. İyulun 15-də "On beş iyul gecəsi" əsəri ilə bir çox televiziya verilişlərində çıxış etmiş, "Əsgər duası" mahnısı ilə həm Azərbaycan, həm də Türkiyə əsgərlərinə mənəvi dəstək göstərmişdir. O, həmçinin "Döyüşçü" serialının bir hissəsində rol alaraq aktyorluq bacarığını nümayiş etdirmişdir. Hal-hazırda hər cümə axşamı saat 20:00-da TRT Avaz kanalında canlı yayımlanan "Azərinlə Bir Ürək" verilişini təqdim edir.

Əsas ifa etdiyi mahnılar arasında "Çırpınırdın Qara Dəniz" və "Sevgili Canan" xüsusi populyarlıq qazanmışdır. Azərin həm yerli, həm də beynəlxalq səhnələrdə Azərbaycan musiqisini təmsil edən, zəngin repertuarı və çoxşaxəli fəaliyyəti ilə musiqi mədəniyyətinə əhəmiyyətli töhfələr verən sənətkarlardandır.

Ədəbiyyat:

"Azərbaycanda konsert fəaliyyəti görmək istəyirəm": Sənətçi Bakıda səviyyəli konsertə az-az rast gəlib... / Azərin // Ayna.– 2010.– 26 iyun.– S.24.

"Mənim öz məqsədim, öz yolum var" / Azərin // Şərq.– 2011.– 5 iyul.– S. 14.

Azərin: "Biz hələ də "biz"i görmürük": Düşünür ki, "mən"-bizlərə yaraşmır / Azərin; müsahibəni apardı Xatun // Ayna.– 2013.– 12 yanvar.– S.21.

Azərin: "Azərbaycan adıyla bütünləşmiş bir insanam" / Azərin; müsahibəni apardı X. Xalid // Türküstan.– 2015.– 12-18 aprel.– S.16.

Son hadisələr göstərdi ki, biz çox əzmli və qüdrətli xalqıq / Azərin;müsahibəni apardı:X.Rəis // Kaspi.– 2016.– 6 aprel.– S.12.

"Dildə, fikirdə, işdə birlik" ideyası mədəniyyətlərin qovuşması deməkdir / M.Sultanova // Mədəniyyət.– 2017.– 8 fevral.– S.15.

https://turkic.world/az/articles/who_is_who/110936

MAY
23

Nailə Mirməmmədli – 65

(1961-2021)

Bəstəkar



Nailə Ağabala qızı Mirməmmədli 1961-ci il mayın 23-də Bakı şəhərində anadan olmuşdur. Musiqi təhsilinə 1968–1979-cu illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində Fortepiano ixtisası üzrə başlamışdır. 1981–1985-ci illərdə Tusi adına Pedaqoji Universitetində Musiqişünaslıq, dirijorluq, xormeysterlik, vokal, aranjiman və orkestrovka ixtisasları üzrə təhsil almış və təhsilini Fərqlənmə Diplomu ilə başa vurmuşdur.

Təhsilini davam etdirmək məqsədilə 1994–1997-ci illərdə Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasında Musiqişünaslıq və Bəstəkarlıq ixtisasları üzrə təhsil almış, Tofiq Quliyevin sinfində oxumuş və təhsilini Fərqlənmə Diplomu ilə bitirmişdir. 1994–2004-cü illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində müəllim, "Bənövşə" xorunda Xormeyster və Ansambl rəhbəri vəzifələrində çalışmışdır.

2003-cü ildən həyatının sonuna qədər Azərbaycan Dövlət Pedaqoji Universitetinin Musiqi fakültəsində dosent və baş müəllim vəzifələrində fəaliyyət göstərmişdir. 2020-ci ildə Bakı Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə yeni yaradılan Mədəniyyət-Yaradıcılıq Mərkəzinin direktoru təyin edilmişdir.

2007-ci ildə Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür. Nailə Mirməmmədli həmçinin Azərbaycan Respublikası Müdafiə Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti Mədəniyyət İdarəsi, Azərbaycan Güləş Federasiyası, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və digər dövlət və qeyri-dövlət qurumları tərəfindən müxtəlif diplom və fəxri fərmanlarla təltif olunmuşdur.

Sənətçi Xor Aranjimanı, Alətşünaslıq və Musiqi tədrisi sahəsində 67 elmi məqalə və proqram hazırlamış, həmçinin 30-dan çox xalq və bəstəkar mahnısını xor üçün işləyərək mədəni irsə töhfə vermişdir. Nailə Mirməmmədli 500-dən çox musiqi əsərinin müəllifidir. Onun bəstələrinə "Bir əli torpaqda, bir əli Haqda" (Yunis İmrə dastanına simfonik poema), "Yeni Azərbaycanım" (simfonik orkestr və xor üçün himn), "İstiqlal günü", "Xocalı", "Laçın intizarda, Şuşam dardadır", "Azərbaycan bayrağı", "Zəfər himni", "Ulu Öndər" və digər əsərlər daxildir. Eyni zamanda bəstəkarın müasir Azərbaycan musiqisinin inkişafına töhfə verən çoxsaylı romans, mahnı və himnləri mövcuddur.

"Böyük ömrün davamı" (film, 2007), "Pərvanələrin rəqsi" (serial, 2012), "Sonuncu fəsil" (teleserial, 2013), "Gecə qonağı" (film, 2015), "Qayıdış" (film, 2016) və "Ləkə" (serial) kimi layihələr bəstəkar kimi yer almışdır.

Nailə Mirməmmədli elmi-pedaqoji fəaliyyətini də davam etdirərək Pedaqoji Universitet və digər institutlarda bakalavrların tədris proqramlarının hazırlanmasında iştirak etmişdir. 1980–2021-ci illər ərzində müxtəlif musiqi tədris və rəhbərlik vəzifələrində çalışmışdır.

Nailə Ağabala qızı Mirməmmədli 4 yanvar 2021-ci ildə vəfat etmiş və "Qurd qapısı" məzarlığında dəfn olunmuşdur.

Nailə Mirməmmədli Azərbaycan musiqi mədəniyyətinə verdiyi töhfələr, elmi-pedaqoji fəaliyyəti və geniş bəstəkarlıq irsi ilə tanınmışdır.

Ədəbiyyat:

"Üzeyir Hacıbəyovun əziyyətini necə yerə vura bilərik?! - "Günahdır" / R.Tahir // Ədalət.– 2020.– 19 sentyabr.– S.12.

Bəstəkar Nailə Mirməmmədli yad edilib // Mədəniyyət.– 2021.– 24 dekabr.–S.6.

39-cu pərdə: [məqalə-esselər] / R. Qurbanlı; [red. Q. Abbasoğlu; naşir E. Məmmədov; rəssam V. Zeynallı; dizayner.: S. Quluzadə, M. Sadıqzadə]; Azərb. Resp. Mədəniyyət Nazirliyi.– [Bakı]: Aspoliqraf, [2022].– 285, [3] s.

Şahin, Ş. Mənim tanıdığım Nailə Mirməmmədli / Şahin Şahin // 525-ci qəzet.-2021.- 23 yanvar.- S.22.

Ərəbova, S. Bəxti ilə barışa bilməyən qadın / Samirə Ərəbova //Şərq.-2021.- 6 yanvar.- S.13.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Nailə_Mirməmmədli

https://visiontv.az/article/dogum-gununde-baralye-fi-hazirlanan-merhum-bestekarimiz

Yasin Qarayev – 80

(1946) *Aktyor*



Yasin Mikayıl oğlu Qarayev 1946-cı il mayın 22-də Şəmkir rayonunun Dəllər Cırdaxan kəndində anadan olmuşdur. 1973-cü ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun musiqili komediya fakültəsini bitirmiş, 1974-cü ildən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında fəaliyyətə başlamışdır.

Doğma teatrın səhnəsində o, müxtəlif klassik və müasir Azərbaycan dramaturqları, eləcə də dünya ədəbiyyatının əsərlərində bir çox rollar ifa etmişdir. Onun əsas teatr rolları arasında Aşıq Vəli və Mahmud ("Hacı Qəmbər", Nəcəf Bəy Vəzirov), Cəlal ("Komsomol poeması", İskəndər Coşğun), Volodya Kulikov ("Unutmayın", Yusif Əzimzadə), Elşad ("Şəhərli oğlan", Qeybulla Rəsulov), Əziz ("Sağlıq olsun", İsi Məlikzadə), Qarakişi ("Gəl qohum olaq", İsi Məlikzadə), Qulu ("Tamahkar", Süleyman Sani Axundov), Azər ("Mahmud və Məryəm", Elçin), Əflətun ("Ölüm hökmü", Elçin), Qələndərov ("Olmuş əhvalat", Aqşin Babayev), Qafar ("Çimnaz xanım yuxudadır", Süleyman Rüstəm), Əmi ("Nənənin kələyi", Əhməd Orucoğlu), Kürən ("Yaddaş ağrısı", Hüseynbala Mirələmov), Mister Bambl ("Oliver Tvistin macəraları", Ç. Dikkens), Hacı Qara ("Hacı Qara", M. F. Axundxzadə), Vəzir ("Əlincə qalası", Dilsuz), Balaəmi ("Sarıköynəklə Valehin nağılı", İ. Əfəndiyev) və Bulmaq ("Qohumlar", V. Şuqrayeva, Ə. Əmirli) yer alır.

Yasin Qarayev televiziya tamaşalarında da iştirak etmişdir. O, "Ağ atlar üçün vals", "Bağdada putyovka var…", "Gəl qohum olaq", "Mən sənin dayınam", "Mükafat", "Nigarançılıq" kimi tamaşalarda müxtəlif rolları ifa etmişdir.

Filmoqrafiyasında isə "Şeytan göz qabağında" (1987), "Ömürdən uzun gecə" (1996), "Fatehlərin divanı", "Nigarançılıq" (1998), "Bağdada putyovka var…" (2000), "Gəl qohum olaq" (2001), "Yol yoldaşları" (2003), "Mükafat" (2004), "Ərazi" (2005), "Bəylik dərsi" (2007), "Laplandiyalı qonaq" (2009), "Qaynanamız" (2015), "Bir xalanın sirri" (2018), "Qaragöz" (2018) filmləri yer alır.

Azərbaycan teatr sənətinə verdiyi töhfələrə görə Yasin Qarayev 1991-ci ildə Əməkdar artist, 2006-cı ildə Xalq artisti fəxri adına layiq görülmüşdür. 2012-ci, 2014-cü və 2015-ci illərdə Prezident Mükafatına layiq görülmüş, 2016-cı ildə Azərbaycan Teatr Xadimləri İttifaqının "Sənətkar" medalı ilə təltif edilmiş və eyni ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür. "Qızıl Dərviş" mükafatı laureatıdır.

2023-cü ildə professor İlham Rəhimli tərəfindən Xalq artisti Yasin Qarayevin 75 illiyinə həsr olunmuş "Alın yazısına inam" adlı kitab çap olunmuşdur. Kitabda sənətkarın ömrünün 50 ilini teatr və kino sənətinə həsr etməsi, zəngin həyat və yaradıcılığı geniş şəkildə əks olunmuşdur. Eyni zamanda Yasin Qarayevin gənclik illərindən başlayaraq ifa etdiyi müxtəlif teatr və film rollarına dair ətraflı məlumat verilmişdir.

Ədəbiyyat:

Ömrünün yarım əsrini sənətinə həsr edən aktyor: Yasin Qarayev: "Teatra dəvətnamə apara-apara qızın ağlını başından aldım" / Y. Qarayev; müsahibəni apardı: K.Oruc // Üç nöqtə.– 2020.– 15 oktyabr.– S.12.

Səhnə həsrətli söhbət: "O illər çox məhsuldar və sənət uğurlu idi. Teatra, səhnəyə, sənətə qəribə bir sevgi yaranmışdı" / Y.Qarayev: müsahibəni apardı L.Azəri // Mədəniyyət.–2021.– 21 may.– S.5.

Xalq artisti Yasin Qarayev haqqında kitabın təqdimatı keçirilib / Şahanə // 525-ci qəzet.– 2023.– 14 oktyabr., №186.– S.12.

Yasin Qarayev: uşaqlıq illərimizin qəhrəmanı / E.Mirzəbəyli // Xalq Cəbhəsi.– 2024.– 23 may, №17.– S.15.

Uşaqların sevimli babası / T.Məhərrəmova // Kaspi.– 2025.– 22 fevral (№ 07).– S.15.

MAY
26

Ofeliya Sənani – 85

(1941)

Aparıcı, aktyor



Ofeliya Hacağa qızı Sənani 1941-ci il may ayının 26-da Bakı şəhərində anadan olmuşdur. 1959-cu ildə hələ 10-cu sinifdə oxuyarkən Respublika Radiosunda təcrübəçi diktor kimi fəaliyyətə başlamışdır. Daha sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin axşam şöbəsində ali təhsil almışdır. 1959–1975-ci illərdə radio tamaşalarında baş rolları səsləndirmiş, 1975-ci ildən isə televiziyada diktor kimi fəaliyyət göstərmişdir. 1978-ci ildə ali dərəcəli diktor adına layiq görülmüşdür.

Eyni zamanda 1960–1990-cı illərdə "Azərbaycanfilm" kinostudiyasının dublyaj şöbəsində çalışmış, 100-dən artıq filmin baş qəhrəmanını səsləndirmişdir. Onun səsləndirdiyi əsas filmlər arasında "Yeddi oğul istərəm" (1970, Humay), "Tütək səsi" (1978, İsmət), "Qayınana" (1978, Sevda) və digər film rolları vardır. Ofeliya Sənani həmçinin bir sıra bədii və televiziya filmlərində rol almışdır, bunlara "Dağlarda döyüş" (1967), "O qızı tapın" (1970), "Ulduzlar sönmür" (1971), "Mücrü" (1973) və "Bakı bulvarı" daxildir.

Radiosahədə onun səsləndirdiyi "Biləyən" verilişi uzun illər uşaqlar tərəfindən böyük maraqla dinlənilmiş, eyni zamanda onun ifasında çoxsaylı audio nağıllar hazırlanmışdır. Azərbaycan televiziya və radiosunun Qızıl Fondunda onun səsi ilə yazılan yüzlərlə veriliş saxlanılır. Ofeliya Sənani Azərbaycan efir məkanında diktor məktəbinin aparıcı nümayəndələrindən biri olmuş və yeni diktor nəslinin yetişməsində mühüm rol oynamışdır.

Onun peşəkar fəaliyyətinə görə 1975-ci ildə "Əməkdar artist", 1991-ci ildə "Xalq artisti" fəxri adları verilmiş, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür. 2002-ci ildən prezident təqaüdçüsü olmuşdur.

Ədəbiyyat:

Sənani Ofeliya Hacağa qızı // Azərbaycan qadını ensiklopediyası / Azərbaycan Milli Ensiklopediyası Nəşriyyat-Poliqrafiya birliyi.– Bakı, 2002.– S. 357.

"Səməndər Rzayev dedi ki, vallah, mən dəli oldum". Ofelya Sənani: "Qayınatam Möhsün Sənani mənə kinoya çəkilməyə icazə vermədi"/ Ofeliya Sənani; müsah. apardı Ayxan // Ekspress.– 2013.– 2-4 noyabr.– S. 12.

Qayınatam bunu mənə qadağan etmişdi / Ofeliya Sənani // Xalq Cəbhəsi.– 2016.– 26 fevral.– S. 15.

Etiraf edim ki, heç vaxt televiziya işini sevməmişəm / Ofeliya Sənani; müsah. apardı T.Məmmədqızı // Şərq.– 2017.– 14 fevral.– S. 11.

Əhmədli, Z. Ekran və efirin Ofeliyası / Zərxanım Əhmədli // Ədəbiyyat qəzeti.-2013.- 1 noyabr.- S.6.

İnternetdə:


https://az.baku-art.com/az/bu-gun-xalq-artisti-ofeliya-senaninin-dogum-g-n-d-r

MAY
27

Soltan Dadaşov – 120

(1906-1969)

Rejissor



Soltan Baba oğlu Dadaşov (Zaki) 1906-cı il mayın 27-də Bakı şəhərində anadan olmuşdur. Erkən yaşlarından teatr və aktyorluq sənətinə maraq göstərmiş, 1920–1921-ci illərdə Bakıdakı "Mərkəzi fəhlə klubu"nun dram dərnəyinin fəal üzvü kimi Sovet hökumətinin təşkil etdiyi təbliğat və təşviqat briqadalarında Azərbaycanın müxtəlif rayonlarında çıxış etmişdir. Bu dövrdə o, həm aktyor, həm də müğənni kimi fəaliyyət göstərmişdir.

1923-cü ildə milli səhnə kadrlarını hazırlamaq məqsədilə açılmış Bakı Teatr Məktəbinin ilk məzunlarından olan Soltan Dadaşov, 1924-cü ildə Milli Dram Teatrının yardımçı heyətində çalışmış və epizod rollarda çıxış etmişdir. Məktəbdə oxuduğu illərdə o, həmçinin dram dərnəyində tamaşalar hazırlayaraq teatr sahəsində təcrübəsini zənginləşdirmişdir.

1927-ci ildə Azərbaycan Respublikası Xalq Maarif Komissarlığının sərəncamı ilə Moskvada Mərkəzi Teatr Sənəti Texnikumunda təhsil almış, burada Aleksey Popov, Boris Suşkeviç, Andrey Petrovski və Boris Zaxava kimi məşhur pedaqoqlardan dərs almışdır. 1931-ci ildə Bakıya qayıdan Dadaşov Azərbaycan Dövlət Opera və Balet Teatrına quruluşçu rejissor təyin edilmişdir.

Soltan Dadaşov opera teatrında otuz səkkiz il fəaliyyət göstərmiş, milli muğam operalarını monumental səpkidə səhnələşdirməyə çalışmışdır. Onun rejissorluğu Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu", "Şah İsmayıl", Müslüm Maqomayevin "Nərgiz", Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" və bir sıra digər əsərlərdə tətbiq olunmuşdur. Həmçinin Azərbaycan Musiqili Komediya Teatrında "Arşın mal alan", "O olmasın, bu olsun", "Durna" və Gənc Tamaşaçılar Teatrında "Qaçaq Səməd" tamaşalarını səhnəyə qoymuşdur.

1938-ci ildə Aşqabad Dövlət Azərbaycan Teatrında Müslüm Maqomayevin "Şah İsmayıl" operasının premyerasını hazırlamış və tamaşanı mədəni hadisə kimi təqdim etmişdir. 1941-ci ildə Azərbaycan Dövlət Rəqs Ansamblının ifasında milli etno-mədəni elementləri əks etdirən xalq tamaşasını səhnələşdirmişdir. 1945-ci ildə Bakıda təşkil olunmuş Azərbaycan Dövlət Sirkinin proqramlarını, o cümlədən 1967-ci ildə hazırladığı "Novruz" proqramını rejissor kimi qurmuşdur.

Dadaşov 1934-cü ildən Azərbaycan Dövlət Teatr İnstitutunda (indiki ADMİU) pedaqoji fəaliyyət göstərmiş, aktyor və rejissor sənətinin tədrisində iştirak etmişdir. O, həmçinin Azərbaycan musiqili teatrının inkişafı ilə bağlı bir sıra monoqrafiyalar və kitablar yazmışdır.

Azərbaycan teatr və musiqili teatrının inkişafındakı xidmətlərinə görə 1940-cı ildə Azərbaycan SSR-nin "Əməkdar incəsənət xadimi", 1958-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Soltan Baba oğlu Dadaşov 7 sentyabr 1969-cu ildə Bakıda vəfat etmiş, ikinci Fəxri Xiyabandada dəfn olunmuşdur.

Onun rejissorluq fəaliyyəti Azərbaycan musiqili teatrının inkişafında önəmli mərhələ təşkil etmiş, milli muğam operalarının səhnələşdirilməsində və milli folklor elementlərinin teatr səhnəsində istifadəsində yeni yanaşmaların tətbiqinə şərait yaratmışdır. Soltan Dadaşov həmçinin Azərbaycan teatr sənətində peşəkar kadrların hazırlanmasında, opera və musiqili teatrın estetik əsaslarının formalaşmasında əvəzsiz xidmətlər göstərmişdir.

Ədəbiyyat:

Azərbaycan teatrının "Zaki" təxəllüslü rejissoru: Teatrımızda ilklərə imza atanlardan biri // Azadlıq.– 2012.– 30 mart.– S. 14.

Fərəcov, S. Orta məktəb dərnəyindən başlayan rejissorluq yolu / S.Fərəcov // Mədəniyyət.– 2018.– 23 fevral.– S. 15.

Bakı Teatr Məktəbinin ilk məzunu...: Xalq artisti Soltan Dadaşovun anım günüdür // Yeni Azərbaycan.– 2024.– 7 sentyabr, №163.– S.7.

İnternetdə:

https://portal.azertag.az/az/node/28149

http://www.anl.az/el/Kitab/2016/2015-1968.pdf

MAY
1

Baxşeyiş Paşayev – 90

(1936-1992)

Milli Qəhrəman



Baxşeyiş Xanəhməd oğlu Paşayev 1936-cı il mayın 1-də Ağdam rayonunun Əhmədavar kəndində anadan olmuşdur. Orta təhsilini doğulduğu kənddə tamamladıqdan sonra Ağdam Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş və 1954-cü ildə texnikumu bitirərək Ağdam Atçılıq Sovxozunda əmək fəaliyyətinə başlamışdır. 1965-ci ildən etibarən sürücü kimi çalışmış, uzun illər bu sahədə fəaliyyət göstərmişdir.

1988-ci ildən Qarabağda vəziyyətin gərginləşməsi ilə əlaqədar olaraq o, xalq hərəkatına qoşulmuş və "Qarabağ Müdafiə Şahinləri" dəstəsinin fəal döyüşçülərindən biri kimi hərbi əməliyyatlarda iştirak etmişdir. Həyatını cəbhə ilə bağlayan Paşayev müxtəlif döyüş istiqamətlərində silah-sursatın çatdırılmasına, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsinə və kəşfiyyat fəaliyyətinə cəlb olunmuşdur.

Baxşeyiş Paşayev xüsusilə Ağdam rayonunun Xramort kəndinin erməni silahlı birləşmələrindən təmizlənməsi zamanı fərqlənmişdir. Döyüş yoldaşları arasında "Ağsaqqal" ləqəbi ilə tanınan Paşayev peşəkar atıcı kimi düşmənin canlı qüvvəsinə ağır itkilər yetirmişdir. O, dəfələrlə Fərrux, Xanabad, Naxçıvanlı və Aranzəmin istiqamətlərində kəşfiyyat tapşırıqlarında iştirak etmiş, 1992-ci il Xocalı faciəsi zamanı onlarla dinc sakinin xilas edilməsində mühüm rol oynamışdır.

1992-ci il iyulun 12-də erməni qüvvələrinin Xanabad kəndinə genişmiqyaslı hücumu zamanı Baxşeyiş Paşayev əks-hücum əməliyyatına rəhbərlik edən döyüşçülər arasında olmuşdur. Azərbaycan qüvvələri həmin döyüşdə düşmənin yeddi mövqeyini ələ keçirmiş, lakin əməliyyatın gedişində Baxşeyiş Paşayev qəhrəmancasına şəhid olmuşdur. O, Ağdam rayonunun Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 nömrəli fərmanı ilə Baxşeyiş Xanəhməd oğlu Paşayevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Paşayev Baxşeyiş Xanəhməd oğlu-bölük komandiri- Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 dekabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.– 1992.–№ 24.– S. 50.– (Ölümündən sonra).

Abbasoğlu, B. Ermənilərin qənimi / Baxşeyiş Abbasoğlu // Ölərkən dünyaya gələn oğullar.– Bakı, 2004.– S.95-109.

Paşayev Baxşeyiş Xanəhməd oğlu // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.– Bakı, 2008.– S.170-171.

Əsgərov, V. Paşayev Baxşeyiş Xanəhməd oğlu / Vüqar Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları / V.Əsgərov.– Yenidən işlənmiş II nəşri.– Bakı, 2010.– S.237.

Seyidzadə, M. Paşayev Baxşeyiş Xanəhməd oğlu / Mirbəşir Seyidzadə // Milli qəhrəmanlar zirvəsi / M.Seyidzadə.– Bakı, 2010.– S. 183.

Xıdırlıda qalan günlər / M. Mərzili; red. və ön söz. müəl. R. M. Rzalı.– Bakı: Azərnəşr, 2020.– 205, [3] s.

İnternetdə:

http://milliqahramanlar.az/heroes/125

5 MAY

İlham Əliyev – 65

(1961-1990)

Milli Qəhrəman



İlham Müzəffər oğlu Əliyev 5 may 1961-ci ildə Gədəbəy rayonunda anadan olmuşdur. O, 1978-ci ildə orta məktəbi bitirmiş, 1980-ci ildə isə hərbi xidmətə çağırılmışdır. 1982-ci ildə ordudan tərxis olunduqdan sonra Gədəbəy rayon Kommunal Təsərrüfat İdarəsində, daha sonra isə İsmayıllı rayonunda mexanikləşdirilmiş dəstədə çalışmışdır.

1983-cü ildə Daxili İşlər Nazirliyinin təyinatı ilə İsmayıllı rayon Daxili İşlər Şöbəsinə qəbul olunmuş, bir müddət sonra fəaliyyətini Gədəbəy rayon Daxili İşlər Şöbəsinin mühafizə bölməsində davam etdirmişdir. 1985-ci ildə Bryansk Xüsusi Orta Milis Məktəbinə daxil olmuş və 1987-ci ildə təhsilini uğurla başa vuraraq Gədəbəy rayonunda sahə müvəkkili kimi xidmətə başlamışdır. Sonralar Gəncə şəhər Daxili İşlər Şöbəsində sahə müfəttişi və cinayət-axtarış bölməsinin əməliyyatçı əməkdaşı vəzifələrində çalışmışdır. Xidməti fəaliyyətinə görə dəfələrlə mükafatlandırılmış, "Milis əlaçısı" döş nişanına layiq görülmüşdür.

1988–1990-cı illərdə erməni silahlı dəstələrinin Azərbaycan ərazilərinə intensiv hücumları zamanı leytenant İlham Əliyev müxtəlif istiqamətlərdə təhlükəsizlik tədbirlərinin həyata keçirilməsində fəal iştirak etmişdir. 19 avqust 1990-cı il tarixində Qazax rayonunun Ermənistanla həmsərhəd Aşağı Əskipara kəndinin fasiləsiz atəşə tutulması zamanı o, kəndin müdafiəsinə göndərilmişdir.

Döyüş zamanı İlham Əliyev qəhrəmancasına şəhid olmuş və Gədəbəy rayonunda dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli, 831 saylı Fərmanı ilə İlham Müzəffər oğlu Əliyevə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. O, həmçinin "Qırmızı Ulduz" ordeni ilə təltif edilmişdir.

Hal-hazırda Gədəbəy şəhərindəki 1 saylı orta məktəb qəhrəmanın adını daşıyır və məktəbin önündə onun büstü ucaldılmışdır.

Ədəbiyyat:

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında:[Əliyev İlham Müzəffər oğlu - Gəncə şəhəri PDİŞ Cinayət axtarış bölməsinin əməliyyat müvəkkili, milis leytenantı - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.– 1992.– №13.– S.24.– (Ölümündən sonra).

Əliyev İlham Müzəffər oğlu // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.– Bakı, 2008.– S.60.

Əsgərov, V. Əliyev İlham Müzəffər oğlu / Vüqar Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları / V.Əsgərov.– Yenidən işlənmiş II nəşri.– Bakı, 2010.– S. 84.

Seyidzadə, M. Əliyev İlham Müzəffər oğlu / Mirbəşir Seyidzadə // Milli qəhrəmanlar zirvəsi / M.Seyidzadə.– Bakı, 2010.– S. 59.

İlham Müzəffər oğlu Əliyev / Q.Aslan // Respublika.– 2022.– 6 may.– S.9.

İnternetdə:

https://avciya.az/əliyev-ilham-muzəffər-oglu/

MAY
5

Elşad Yəhyayev – 60

(1966-1992)

Milli Qəhrəman



Elşad Məmmədhənifə oğlu Yəhyayev 5 may 1966-cı ildə Şəki şəhərində anadan olmuşdur. O, 1973-cü ildə Şəki şəhərindəki 12 saylı orta məktəbdə təhsil almağa başlamış, lakin ailəsinin 1977-ci ildə Bakıya köçməsi səbəbindən təhsilini Xətai rayonunun 56 saylı orta məktəbində davam etdirərək burada başa vurmuşdur.

1984–1986-cı illərdə hərbi xidmətdə olmuşdur. 1987-ci ildə Saratov Ali Hərbi Komandirlər Məktəbinə daxil olmuş və 1991-ci ildə məzun olaraq leytenant rütbəsi ilə Azərbaycana qayıtmışdır. Vətənə dönən kimi könüllü olaraq Daxili İşlər Nazirliyinə müraciət etmiş və xidmətə qəbul edilərək N saylı hərbi hissədə taqım komandiri təyin olunmuşdur.

Cəsur zabit kimi Elşad Yəhyayev Sırxavənd, Naxçıvanik və Papravənd kəndləri uğrunda gedən ağır döyüşlərdə fəal iştirak etmiş, erməni silahlı dəstələrinə qarşı xüsusi şücaət göstərmişdir. O, çox sayda düşmən qüvvəsinin zərərsizləşdirilməsində nümunəvi igidlik göstərmişdir.

1992-ci il 20 iyun tarixində Naxçıvanik kəndi uğrunda gedən şiddətli döyüşlər zamanı leytenant Elşad Yəhyayev qəhrəmancasına vuruşmuş, lakin qəfil snayper atəşi nəticəsində şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli, 264 saylı Fərmanı ilə Elşad Məmmədhənifə oğlu Yəhyayev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. O, Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Hazırda Şəki şəhərindəki 12 saylı orta məktəb qəhrəmanın adını daşıyır və Bakı şəhərindəki 56 saylı orta məktəbin həyətində onun büstü ucaldılmışdır.

Ədəbiyyat:

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Yəhyayev Elşad Məmmədhənifə oğlu-daxili qoşunların poçta komandiri-Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorun-masında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il // Azərbaycan.– 1992.– 9 oktyabr.– S. 1.– (Ölümündən sonra).

Yəhyayev Elşad Məmmədhənifə oğlu // Azərbaycanın Milli Qəhrəmanları / M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.– Bakı, 2008.– S. 199.

Əsgərov, V. Yəhyayev Elşad Məmmədhənifə oğlu / Vüqar Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları / V.Əsgərov.– Yenidən işlənmiş II nəşri.– Bakı, 2010.– S. 214.

Seyidzadə, M. Yəhyayev Elşad Məmmədhənifə oğlu / Mirbəşir Seyidzadə // Milli qəhrəmanlar zirvəsi / M.Seyidzadə.– Bakı, 2010.– S. 218.

Şərifli, B. Sonuncu güllə: Milli Qəhrəmanlarımız / Bəşir Şərifli // Azərbaycan.– 2019.– 4 iyul.– S. 7.

Cəfərov, M. Elşad Yəhyayev / M.Cəfərov // Respublika.–2022.– 5 may.– S.11.

İnternetdə:

https://sheki.org/wiki/Elşad_Yəhyayev

İlham Həsənov – 50

(1976-1995) *Milli Qəhrəman*



İlham Gülbala oğlu Həsənov 6 may 1976-cı ildə Ağstafa rayonunun Xətai kəndində anadan olmuşdur. O, 1983-cü ildə Yenigün kənd orta məktəbini bitirdikdən sonra Bakı Yüngül Sənaye Texnikumunun Ağstafa filialına qəbul olunmuşdur.

1994-cü ilin sentyabr ayında Milli Orduya çağırılan İlham Həsənov Bakı şəhərində yerləşən hərbi hissələrdən birində xidmətə başlamışdır. O, altı aylıq hazırlıq kursunu başa vurduqdan sonra cəbhə bölgəsinə yollanmışdır.

1995-ci il mart ayının 13-də Bakıda dövlət çevrilişinə cəhd edən silahlı dəstənin zərərsizləşdirilməsi üzrə aparılan əməliyyatlarda İlham Həsənov xüsusi fədakarlıq göstərmişdir. Martın 17-də qiyamçı dəstə tamamilə tərksilah edilmişdir. Təəssüf ki, baş verən qarşıdurma zamanı İlham Həsənov dövlətçiliyin müdafiəsi uğrunda qəhrəmancasına şəhid olmuşdur. O, Ağstafa rayonunda Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli, 307 saylı Fərmanı ilə İlham Gülbala oğlu Həsənova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Hal-hazırda Ağstafa rayonundakı küçələrdən biri Milli Qəhrəman İlham Həsənovun adını daşıyır.

Ədəbiyyat:

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Həsənov İlham Gülbala oğlu - Müdafiə Nazirliyi, sıravi - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il // Azərbaycan.– 1995.– 5 aprel.– S. 1. (Ölümündən sonra).

Həsənov İlham Gülbala oğlu // Azərbaycanın Milli Qəhrəmanları / M.F.Axundov adına Milli Kitabxana; tərt.ed. H.Həmidova.– Bakı, 2008.– S. 81-82.

Əsgərov, V. Həsənov İlham Gülbala oğlu / Vüqar Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları / V.Əsgərov. - Yenidən işlənmiş II nəşri.– Bakı, 2010.– S. 111.

Seyidzadə, M. Həsənov İlham Gülbala oğlu / Mirbəşir Seyidzadə // Milli qəhrəmanlar zirvəsi / M.Seyidzadə.– Bakı, 2010.– S. 85.

Rzayeva, M. Vətən bölünməz / Məlahət Rzayeva // Azad Azərbaycan.– 2017.– 27 may.– S. 7.

Aslan, Q. İlham Gülbala oğlu Həsənov / Q.Aslan // Respublika.– 2022.– 6 may.– S.9.

İnternetdə:

http://milliqahramanlar.az/heroes/55

MAY
1

Cəlaləddin Fərhadov - 25

(2001-2020)

Baş çavuş



Cəlaləddin Elxan oğlu Fərhadov 1 may 2001-ci ildə Ağdaş rayonunda anadan olmuşdur. O, Ağdaş rayon 1 saylı orta məktəbinə qəbul olunmuş və 2018-ci ildə həmin məktəbi bitirmişdir. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə çağrılmışdır.

Azərbaycan Ordusunun baş çavuşu olan Cəlaləddin Fərhadov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xovavənd və Şuşa rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. O, 2020-ci il noyabrın 8-də Şuşa qələbəsindən 2 saat sonra şəhidlik zirvəsinə yüksəlib.

Cəlaləddin Elxan oğlu Fərhadov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidliyə görə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Prezident İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

1

Vasif Məmmədov - 25

(2001-2020)

Əsgər



Vasif Rəfail oğlu Məmmədov 1 may 2001-ci ildə Mingəçevirdə anadan olmuşdur. O, 2007–2018-ci illərdə orta məktəbdə təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətə çağırılmış və Cəlilabad rayonunda yerləşən N saylı hərbi hissədə qulluğa başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Vasif Məmmədov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) əsgəri və kəşfiyyatçısı kimi döyüşlərdə fəal iştirak etmişdir.

6 oktyabr 2020-ci ildə Füzuli rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. 7 oktyabr 2020-ci ildə Mingəçevir şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Vasif Rəfail oğlu Məmmədov Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda göstərdiyi igidliyə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Prezident İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Vətən uğrunda" medalları və "Azərbaycan bayrağı" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

MAY 1

Elməddin Mustafayev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Elməddin Məhəmməd oğlu Mustafayev 1 may 2001-ci ildə Qəbələ rayonunda anadan olmuşdur. 2007–2017-ci illərdə Qəbələ şəhər 4 saylı tam orta məktəbdə təhsil almışdır. Orta təhsilini bitirdikdən sonra 2017-ci ildə Qəbələ rayonunda yerləşən Peşə Məktəbinə qəbul olmuş və burada aşpazlıq ixtisası üzrə təhsilini başa vurmuşdur.

Elməddin Mustafayev 5 iyul 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətə çağırılmış və xidmətini Füzuli rayonunda davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olaraq Elməddin Mustafayev 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Füzuli rayonunun azad olunması uğrunda gedən döyüşlərdə rəşadətlə vuruşmuşdur. 10 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə şəhid olmuş və Qəbələ şəhər qəbiristanlığında torpağa tapşırılmışdır.

Elməddin Məhəmməd oğlu Mustafayev Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda göstərdiyi igidliyə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

1

Xaqani Nəsibov - 35

(1991-2020)

Əsgər



Xaqani Aydın oğlu Nəsibov 1 may 1991-ci ildə Balakən rayonunun Kortala kəndində anadan olmuşdur. Xaqani Nəsibov 1997–1998-ci illərdə Q. Nağıyev adına Kortala kənd tam orta məktəbində təhsil almışdır.

Xaqani Nəsibov 2011–2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Xaqani Nəsibov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. 16 oktyabr 2020-ci ildə Suqovuşan döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və Balakən rayonunun Kortala kəndində dəfn olunmuşdur.

Xaqani Aydın oğlu Nəsibov Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda göstərdiyi igidliyə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Prezident İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.81-84.

MAY
1

Yunis Orucov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Yunis Şaiq oğlu Orucov 1 may 2001-ci ildə Neftçala rayonunun Aşağı Qaramanlı kəndində anadan olmuşdur. 2007–2016-cı illərdə Neftçala rayonu Aşağı Qaramanlı kənd ümumi orta məktəbində təhsil almışdır. 9-cu sinfi bitirdikdən sonra həmin il Neftçala şəhər Uşaq İncəsənət Məktəbinin tar alətlərinin ifası bölməsinə daxil olmuşdur. Musiqi məktəbini bitirdikdən sonra Yunis təhsilini Salyan Peşə Liseyində davam etdirmiş və Kənd təsərrüfatı, fermerlik ixtisası üzrə diplom və attestatla məzun olmuşdur. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətə çağırılmış və Mingəçevir şəhərində N saylı hərbi hissədə vətənə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Yunis Orucov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində Talış kəndi və Suqovuşan istiqamətində gedən şiddətli döyüşlərdə iştirak etmiş, 14 oktyabr 2020-ci ildə Ağdam–Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və Neftçala rayonunun Aşağı Qaramanlı kəndində dəfn olunmuşdur.

Yunis Şaiq oğlu Orucov Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda göstərdiyi igidliyə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Prezident İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2

Elmir İbrəhimov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

İbrəhimov Elmir Akif oğlu 2 may 1996-cı ildə Saatlı rayonu Mərzəli kəndində anadan olmuşdur.

Elmir İbrəhimov Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Peşəkar sürücü kimi o, idarə etdiyi nəqliyyat vasitəsi ilə ön cəbhədə olan hərbçi yoldaşlarına təminat və silah-sursat çatdırmışdır. Hadrut, Laçın və Şuşa ətrafında gedən döyüşlərdə iştirak etmiş, hərbi qənimətlər ələ keçirmişdir. 8 noyabr 2020-ci ildə Daşaltı kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

İbrəhimov Elmir Akif oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda göstərdiyi igidliyə, hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirməsinə və düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə qoşunlarımızın döyüş qabiliyyətinin qorunmasında fərqlənməsinə görə Prezident İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

2021-ci ilin sentyabr ayında doğulduğu Saatlı rayonunda xatirəsini yaşatmaq məqsədilə bulağın açılışı keçirilmişdir.

MAY
2

Anar Məmmədov - 40

(1986-2020)

Mayor



Anar Elşad oğlu Məmmədov 2 may 1986-cı ildə Sabirabad şəhərində anadan olmuşdur.

Azərbaycan Ordusunun mayoru olan Anar Məmmədov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Döyüşlər zamanı yaralansa da, bir gün hospitalda müalicə aldıqdan sonra döyüş meydanına geri dönmüşdür. 20 oktyabr 2020-ci ildə Xocavənd döyüşləri zamanı 26 əsgərini mühasirədən çıxarıb sona qədər döyüşmüş, sonda tək gülləsi qalanda onu özünə vuraraq qəhrəmancasına şəhid olmuşdur. Sabirabad rayonunun Cavad kəndində dəfn edilmişdir.

Anar Elşad oğlu Məmmədov Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda göstərdiyi igidliyə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Prezident İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları və "III dərəcəli Rəşadət" ordeni ilə təltif edilmişdir.

Şəhid mayorun xatirəsi əbədiləşdirmək üçün abidə-bulaq kompleksi tikilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il // Azərbaycan.- 2021.- 6 noyabr.- S.2-3.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.79.

MAY
2

Siyasət Mustafayev - 30

(1996-2020)

MAHHXHQ kiçik çavuş



Siyasət Akif oğlu Mustafayev 1996-cı il mayın 2-də Ağdaş rayonunun Pirəyir kəndində anadan olmuşdur.

O, 2014-cü ildən Azərbaycan Silahlı Qüvvələrində xidmətə başlamış, əvvəlcə müddətli, sonra isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Siyasət Mustafayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Siyasət Mustafayev sentyabrın 27-də Suqovuşan döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Ağdaş rayonunun Pirəyir kəndində dəfn olunub.

Siyasət Akif oğlu Mustafayev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" vı "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.29-34.

2

Ağamirzə Quliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

Ağamirzə İlham oğlu Quliyev 2 may 2001-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 2007-ci ildə Gəncə şəhər İ.Nəsimi adına 44 nömrəli məktəb-lisey kompleksinə daxil olmuş, daha sonra Gəncə şəhər İsrafil Məmmədov adına 27 saylı məktəb-liseyində təhsilini davam etdirmişdir. Yaşayış yerinin dəyişməsi səbəbi ilə 21 saylı məktəbdə oxumuş və 2018-ci ildə Səməd Vurğun adına 41 saylı tam orta məktəbdən məzun olmuşdur.

2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Ağamirzə Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı 6 noyabr 2020-ci ildə Xocavənd uğrunda gedən döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 19 noyabrda Gəncə Şəhidlər Xiyabanında dəfn edilmişdir.


Ağamirzə İlham oğlu Quliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması uğrunda göstərdiyi şücaət və hərbi vəzifəsini şərəflə yerinə yetirməsi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

3 MAY

Elvin Novruzov - 25

(2001-2020)

Əsgər



Elvin Ziyafət oğlu Novruzov 3 may 2001-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur. O, Sumqayıt şəhəri Tofiq İsmayılov adına 29 nömrəli tam orta məktəbdə təhsil almışdır.

Elvin Novruzov 22 iyun 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Elvin Novruzov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı 23 oktyabr 2020-ci ildə Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. O, Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Elvin Ziyafət oğlu Novruzov Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması uğrunda göstərdiyi şücaət və hərbi vəzifəsini şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

3

Amal Əhmədov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.13-14.

Amal Rauf oğlu Əhmədov 3 may 1996-cı ildə Rusiya Federasiyasının Tver şəhərində anadan olmuşdur. 2002–2013-cü illərdə Gəncə şəhərində C. Cabbarlı adına 6 nömrəli tam orta məktəbdə təhsil almış, 2013-cü ildə Gəncə Texniki Kollecinə daxil olmuşdur.

2014–2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətdə olmuş və Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Amal Əhmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə şücaət göstərmiş, oktyabrın 13-də qəhrəmancasına şəhid olmuş və Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.


Amal Rauf oğlu Əhmədov Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması uğrunda göstərdiyi şücaət və hərbi vəzifəsini şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölmündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

MAY
4

Rauf İbadov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Rauf Məhərrəm oğlu İbadov 4 may 1996-cı ildə Abşeron rayonunun Saray qəsəbəsində anadan olmuşdur. 2002–2013-cü illərdə Saray qəsəbəsindəki 2 nömrəli tam orta məktəbdə təhsil almış, daha sonra 2013–2017-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetinin İnşaat texnologiyası fakültəsində ali təhsil almışdır.

2017–2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətdə olmuş və nümunəvi xidmətinə görə "Fəxri Fərman"la təltif edilmişdir.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi dövründə Rauf İbadov Azərbaycan Silahlı Qüvvələrinin tərkibində könüllü olaraq döyüş əməliyyatlarına qoşulmuşdur. O, Füzuli, Cəbrayıl, Hadrut və Qubadlı istiqamətlərində gedən ağır döyüşlərdə iştirak etmiş, oktyabrın 23-də "Laçın dəhlizi" ərazisində aparılan döyüş əməliyyatı zamanı qəhrəmancasına şəhid olmuşdur. 30 oktyabrda Saray qəsəbəsindəki Şəhidlər Xiyabanında dəfn olunub.

Rauf Məhərrəm oğlu İbadov Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidliyə və hərbi tapşırıqların icrasında fərqləndiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.


Saray qəsəbəsinin girişində Rauf İbadovun adı verilmiş küçədə şəhid bulağı inşa olunmuşdur. Bulağın fonundakı xatirə lövhəsində qəsəbənin şəhidlərinin adları və fotoşəkilləri əks olunmuşdur.

5

Elvin Qədirov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.45-57.

Elvin Azər oğlu Qədirov 5 may 2001-ci ildə Zaqatala rayonunun Yeni Suvagil kəndində anadan olmuşdur. 2007–2018-ci illərdə A. Qədirov adına 2 saylı Yeni Suvagil kənd tam orta məktəbində təhsil almışdır.

2019-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılan Elvin Qədirov Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələri tərəfindən işğal altında saxlanılan Azərbaycan ərazilərinin azad edilməsi məqsədilə başlanan Vətən müharibəsi zamanı Elvin Qədirov Ağdam istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. O, müharibənin ilk günü — sentyabrın 27-də Ağdam döyüşləri zamanı göstərdiyi şücaət nəticəsində qəhrəmancasına şəhid olmuşdur. Sentyabrın 28-də Zaqatala rayonunun Yeni Suvagil kəndində dəfn olunmuşdur.

Elvin Azər oğlu Qədirov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş tapşırıqlarının icrası zamanı göstərdiyi igidlik və vətənə sədaqətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

MAY
6

Vidadi Məmmədov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Vidadi Etibar oğlu Məmmədov 6 may 1996-cı ildə Zaqatala rayonunun Muxax kəndində anadan olmuşdur. 2002–2011-ci illərdə A. Bubuşov adına 1 saylı Muxax kənd tam orta məktəbində təhsil almışdır.

2014–2016-cı illərdə müddətli həqiqi hərbi xidmətdə olmuş və bu müddət ərzində Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Vidadi Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 13-də Suqovuşan döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Zaqatala rayonunun Muxax kəndində dəfn olunmuşdur.

Vidadi Etibar oğlu Məmmədov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad edilməsi uğrunda" medalları ilə ilə təltif edilmişdir.

6

Ramil Musayev - 35

(1991-2020)

Kiçik gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25 iyun.- S.61-65.

Ramil Aydın oğlu Musayev 6 may 1991-ci ildə İsmayıllı şəhərində anadan olmuşdur. O, orta təhsilini İsmayıllı rayon N. Behdiyev adına 6 nömrəli tam orta məktəbdə almış, daha sonra İsmayıllı Peşə Məktəbini tamamlamışdır. 2009-cu ildə İsmayıllı Rayon Hərbi Komissarlığı tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılmış və Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

2011-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində "MAHHXHQ hazırlığı" kursunu müvəffəqiyyətlə başa vuran Ramil Musayev hərbi hazırlığını daha da təkmilləşdirmişdir. 19 fevral 2019-cu il tarixində ona "kiçik gizir" hərbi rütbəsi verilmişdir.

Hərbi xidməti dövründə Ramil Musayev xüsusi təyinatlı hərbi hissələrdə bir sıra məsul və yüksək hazırlıq tələb edən vəzifələrdə xidmət etdirmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın işğal altında saxladığı Azərbaycan torpaqlarının azad olunması məqsədilə başlanan Vətən müharibəsinin fəal iştirakçısı olmuşdur. Murovdağ istiqamətində həyata keçirilən strateji əməliyyatlarda, həmçinin Cəbrayıl və Füzuli rayonlarının azad edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak etmişdir. O, 4 oktyabr 2020-ci il tarixində Füzuli rayonu ərazisində döyüş tapşırığının icrası zamanı qəhrəmancasına şəhid olmuş və İsmayıllı şəhərində dəfn edilmişdir.

Ramil Aydın oğlu Musayevin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə yüksək qiymətləndirilmişdir. O, "Qarabağ" ordeni, həmçinin "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Şücaətə görə" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

MAY
6

Məhəmmədəli İsmayıllı - 30

(1996-2020)

MAHHXHQ əsgər



Mәhәmmәdәli Elxan oğlu İsmayıllı 6 may 1996-cı ildə Füzuli rayonunun Kürdmahmudlu kəndində anadan olmuşdur. O, 2002–2013-cü illərdə Ramil Əkbərov adına Kürdmahmudlu kənd orta məktəbində təhsil almışdır. Məktəb illərində idmanla məşğul olmuş, respublika və beynəlxalq turnirlərdə müxtəlif çəki dərəcələrində birinciliklər qazanmış və 2011-ci ildə karate üzrə dünya çempionu olmuşdur. Nailiyyətlərinə görə fəxri fərmanlarla və qara kəmər (1-ci və 2-ci dan) dərəcələri ilə təltif edilmişdir.

2013-cü ildə Azərbaycan Hərbi Dəniz Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmiş və fərqləndiyinə görə "baş matros" rütbəsi almışdır. Daha sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

2020-ci il sentyabrın 27-də başlanmış Vətən müharibəsində Məhəmmədəli İsmayıllı Füzuli istiqamətində döyüş əməliyyatlarında iştirak etmişdir. O, 26 oktyabr 2020-ci ildə Füzuli şəhəri istiqamətində döyüş tapşırığının icrası zamanı minaya düşərək şəhid olmuş və 27 oktyabr 2020-ci ildə Kürdmahmudlu kəndində dəfn edilmişdir.

Məhəmmədəli Elxan oğlu İsmayıllı göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

6

Cavanşir Əhmədov - 25

(2001-2020)

Əsgər



Cavanşir Elxan oğlu Əhmədov 6 may 2001-ci ildə Xırdalan şəhərində anadan olmuşdur. O, 2007-ci ildə Xırdalan şəhəri 1 nömrəli tam orta məktəbində təhsilə başlamış və məktəb illərində idmana maraq göstərərək ağır atletika ilə məşğul olmuş, müxtəlif yerli yarışlarda nəticələr qazanmışdır. Orta təhsilini başa vurduqdan sonra 2018-ci ildə Bakı şəhərində yerləşən "Odlar Yurdu" Kollecinə daxil olmuşdur.

Cavanşir Əhmədov 8 iyul 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinə müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. O, 27 sentyabr 2020-ci ildə başlayan İkinci Qarabağ müharibəsi zamanı müxtəlif əməliyyat istiqamətlərində döyüşlərdə iştirak etmişdir. Qubadlı, Zəngilan və Laçın rayonları istiqamətlərində gedən döyüş əməliyyatlarında vuruşmuş, 4 noyabr 2020-ci ildə Laçın rayonunun Səfiyan kəndi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. 26 noyabr 2020-ci ildə Bərdə rayonunun Alpout kəndində dəfn edilmişdir.

Cavanşir Elxan oğlu Əhmədovun Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş tapşırıqlarının icrası zamanı göstərdiyi igidlik və vətənə sədaqətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.29-34.

MAY
7

Pencalı Hüseynov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.24-28.

Pencalı Bəhmən oğlu Hüseynov 7 may 2001-ci ildə Neftçala rayonunun Qaralı kəndində anadan olmuşdur. O, 2007–2018-ci illərdə Qaralı kənd məktəbində təhsil almışdır.

Pencalı Hüseynov 2 iyul 2019-cu ildə Neftçala Rayon Hərbi Komissarlığından hərbi xidmətə çağrılmışdır. 2020-ci ilin avqust ayında türkiyəli hərbçilərlə keçirilən təlimlərdə snayperçi olaraq göstərdiyi yüksək nəticəyə görə yenidən hərbi xidmətə dəvət almışdır.

26 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsi zamanı Pencalı Hüseynov Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyat bölməsində snayperçi kimi Murovdağ və Kəlbəcərin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, 28 sentyabr 2020-ci ildə Murovdağ istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və 2 oktyabr 2020-ci ildə Neftçala rayonunun Qaralı kəndində dəfn edilmişdir.

Pencalı Bəhmən oğlu Hüseynov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Kəlbəcərin azad olunmasına görə" medalları və III dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

7

Elməddin Namazov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Elməddin Nəsib oğlu Namazov 7 may 1996-cı ildə Samux rayonunun Qovlarsarı kəndində anadan olmuşdur. Əslən Göyçə mahalının Pəmbək kəndindəndir. O, 2001–2012-ci illərdə Gəncə şəhər 4 saylı tam orta məktəbdə təhsil almışdır.

2014–2016-cı illərdə Naxçıvan Muxtar Respublikasında "N" saylı hərbi hissədə kəşfiyyat taborunda atıcı kimi xidmət etmişdir. 2020-ci il sentyabrın 20-də orduda təkrar təlimlərə cəlb olunmuş, torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. İki dəfə yaralanmasına baxmayaraq, Füzuli-Qubadlı istiqamətində davam edən döyüşlərdə iştirak etmiş və 26 oktyabr 2020-ci ildə Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 27 oktyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Elməddin Nəsib oğlu Namazov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" , "Vətən uğrunda" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə tətif edilmişdir.

MAY
9

Orxan Həsənov - 35

(1991-2020)

MAHHXHQ çavuş



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.13-14.

Həsənov Orxan Bəkir oğlu 9 may 1991-ci ildə Gəncə şəhərində anadan olmuşdur. O, 2009-cu ildə Gəncə şəhəri 30 nömrəli tam orta məktəbi bitirmişdir. Həmin il Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə şəhəri Kəpəz Rayon Şöbəsindən çağırılaraq Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətini yerinə yetirmişdir.

2014–2020-ci illər ərzində MAXE (müqaviləli) hərbi qulluqçu kimi Müdafiə Nazirliyinin müxtəlif hərbi hissələrində çavuş rütbəsində xidmət etmişdir. Xidmət dövründə yüksək intizamı və peşəkarlığı ilə seçilən Orxan Həsənov bir sıra mükafatlara layiq görülmüş, o cümlədən 2019-cu il tarixli Sərəncama əsasən "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 100 illik yubiley medalı" ilə təltif edilmişdir.

2020-ci ildə başlanan Vətən müharibəsinin ilk günündən etibarən o, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda gedən döyüş əməliyyatlarında fəal iştirak etmişdir. Murovdağ istiqamətində, həmçinin Füzuli və Cəbrayıl rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə böyük igidlik göstərmişdir. 16 oktyabr 2020-ci ildə Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda keçirilən döyüş əməliyyatları zamanı qəhrəmancasına şəhid olmuş, 19 oktyabrda Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə Həsənov Orxan Bəkir oğlu ölümündən sonra "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

9

Tural Vəliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 30 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 31 dekabr.- S.14-15.

Vəliyev Tural İlham oğlu 9 may 2001-ci ildə İmişli rayonunun Xəlfəli kəndində anadan olmuşdur. O, 2019-cu ildən etibarən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyət göstərmiş, Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Tural Vəliyev 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsinin ilk günündən etibarən Ermənistan tərəfindən işğal altında saxlanılan Azərbaycan ərazilərinin azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpası uğrunda gedən döyüş əməliyyatlarında iştirak etmişdir. O, xüsusən Murovdağın azad olunması uğrunda aparılan ağır döyüşlərdə böyük rəşadət göstərmişdir. Tural Vəliyev 27 sentyabr 2020-ci ildə Murovdağ istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Vəliyev Tural İlham oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda","Hərbi xidmətlərə görə", "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.

9 MAY

Anar Yusifov - 35

(1991-2020)

Əsgər



Yusifov Anar Sərxan oğlu 9 may 1991-ci ildə Ağdam rayonunun Sarıcalı kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra o, Ağdam Dövlət İqtisad Kollecinin maliyyə-kredit fakültəsinə qəbul olunmuşdur. 2010-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələri tərəfindən işğal altında saxlanılan Azərbaycan ərazilərinin azad edilməsi məqsədilə başlanan Vətən müharibəsi zamanı Anar Yusifov könüllü olaraq döyüş əməliyyatlarına qatılmışdır. O, Füzuli rayonu istiqamətində aparılan hərbi əməliyyatlarda iştirak etmiş və 30 oktyabr 2020-ci ildə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi igidlik, qətiyyət və vəzifə borcuna sadiqliyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Yusifov Anar Sərxan oğlu ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

9

Sərxan Məmmədov - 25

(2001-2020)

Əsgər



Məmmədov Sərxan Sahil oğlu 9 may 2001-ci ildə Daşkəsən rayonunun Qabaqtəpə kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Sərxan Məmmədov 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələri tərəfindən işğal altında saxlanılan Azərbaycan ərazilərinin azad edilməsi məqsədilə başlanan Vətən müharibəsində fəal iştirak etmişdir. O, döyüşlər zamanı böyük qəhrəmanlıq nümunələri göstərmiş, düşmənin canlı qüvvəsinin məhv edilməsində və əməliyyatların uğurla icra olunmasında mühüm rol oynamışdır. Sərxan Məmmədov 3 noyabr 2020-ci ildə Xocavənd rayonunun azad olunması uğrunda gedən ağır döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. O, 4 noyabr 2020-ci ildə Daşkəsən rayonundakı Şəhidlər xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi şücaətə, vəzifə borcuna sədaqətinə və döyüş tapşırıqlarının icrası zamanı nümayiş etdirdiyi igidliyə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Məmmədov Sərxan Sahil oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

MAY
9

Nicat Nəsibov - 40

(1986-2020)

MAHHXHQ əsgər



Nəsibov Nicat Nəriman oğlu 9 may 1986-cı ildə Azərbaycan SSR-in Goranboy rayonunun Borsunlu kəndində anadan olmuşdur. 1993–2003-cü illərdə Goranboy rayonunun Borsunlu kənd orta məktəbində təhsil almışdır.

Azərbaycan Silahlı Qüvvələrində həqiqi hərbi xidmətini başa vurduqdan sonra o, 2016-cı ildə yenidən ordu sıralarına qayıdaraq MAXE hərbi qulluqçu kimi xidmətini davam etdirmişdir.

27 sentyabr 2020-ci ildə başlayan İkinci Qarabağ müharibəsinin ilk günlərindən etibarən döyüş əməliyyatlarında iştirak etmişdir. Nicat Nəsibov Füzuli şəhərinin azad olunması uğrunda aparılan Füzuli əməliyyatında gedən şiddətli döyüşlərdə böyük qəhrəmanlıq göstərmiş və 30 sentyabr 2020-ci ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. O, 1 oktyabr 2020-ci ildə Goranboy rayonunun Borsunlu kənd qəbiristanlığında torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidliyə, döyüş tapşırıqlarını şərəflə icra etməsinə və vəzifə borcuna sadiqliyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Nicat Nəriman oğlu Nəsibov "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

9

Elnur Sadıqov - 25

(2001-2020)

Əsgər



Sadıqov Elnur Kərim oğlu 9 may 2001-ci ildə Cəlilabad rayonunun Təzəkənd kəndində anadan olmuşdur. O, 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış və xidmət dövründə nümunəvi davranışına görə bir neçə dəfə fəxri fərmanlarla təltif edilmişdir.

27 sentyabr 2020-ci ildə başlayan İkinci Qarabağ müharibəsinin ilk günlərindən etibarən döyüş əməliyyatlarında iştirak etmişdir. Cəbhənin şimal istiqamətində gedən ağır döyüşlər zamanı ayağından güllə yarası alaraq hospitala yerləşdirilmiş, lakin cəmi üç günlük müalicədən sonra şəxsi təkidi ilə yenidən döyüş meydanına qayıtmışdır.

Elnur Sadıqov 29 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində gedən şiddətli döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidlik və döyüş tapşırıqlarının icrası zamanı nümayiş etdirdiyi fədakarlığa görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Sadıqov Elnur Kərim oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad edilməsi uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.81-84.

MAY
9

Səbuhi Sadıqov - 30

(1996-2020)

Əsgər



Sadıqov Səbuhi Rövşən oğlu 9 may 1996-cı ildə Biləsuvar rayonunda anadan olmuşdur. Əslən Füzuli rayonundandır. O, Bakı şəhəri Nərimanov rayonu 73 saylı tam orta məktəbdə təhsil almışdır. Uşaqlıq illərindən idmana maraq göstərmiş, müxtəlif döyüş növləri ilə məşğul olmuş və respublika daxili yarışlarda uğurlu nəticələr əldə etmişdir. Sonralar peşəkar səviyyədə MMA ilə məşğul olmuş, həmçinin "Comando Fight Klub"un təsisçisi kimi idmançıların yetişməsinə töhfə vermişdir.

2014-cü ildə Azərbaycan Respublikasının Xüsusi Təyinatlı Qüvvələrində müddətində hərbi xidmət keçmişdir. 2015–2017-ci illər ərzində bir sıra respublika və beynəlxalq turnirlərdə iştirak edərək müxtəlif dərəcəli yerlərə layiq görülmüşdür.

2020-ci il sentyabrın 28-də başlayan Vətən müharibəsi zamanı o, könüllü olaraq Azərbaycan Respublikası Xüsusi Təyinatlı Qüvvələrində kəşfiyyatçı kimi xidmət etmişdir. Füzuli, Xocavənd, Hadrut, Cəbrayıl, Qubadlı və Laçın istiqamətlərində gedən döyüş əməliyyatlarında iştirak etmiş, 24 oktyabr 2020-ci ildə Laçın istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Səbuhi Sadıqov 5 noyabr 2020-ci ildə Füzuli rayonunun Əhmədbəyli kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi igidliyə və döyüş tapşırıqlarını şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Səbuhi Rövşən oğlu Sadıqov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

10

Cavid Əliyev - 30

(1996-2020)

Əsgər



Əliyev Cavid Şaban oğlu 10 may 1996-cı ildə Tovuz rayonunun Almalıtala kəndində anadan olmuşdur. 2002–2013-cü illərdə Almalıtala kənd tam orta məktəbində təhsil almış, 2013-cü ildə Tovuz Dövlət Sosial-İqtisadi Kollecinin "Vergi işi" ixtisasına qəbul olunmuşdur.

2014–2016-cı illərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş, Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Cavid Əliyev könüllü olaraq döyüşlərə qatılmışdır. O, snayperçi kimi iştirak etdiyi döyüş əməliyyatlarında yüksək peşəkarlıq və cəsarət göstərmişdir. 8 noyabr 2020-ci ildə Şuşa şəhərinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Cavid Əliyev 16 noyabr 2020-ci ildə Tovuz rayonunda torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidliyə və döyüş tapşırıqlarını şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə Əliyev Cavid Şaban oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.6-12.

MAY
10

Fuad Məhərrəmli - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Məhərrəmli Fuad Füzuli oğlu 10 may 2001-ci ildə Tərtər şəhərində anadan olmuşdur. 2007–2018-ci illərdə Bakı şəhəri Suraxanı rayonunun Yeni Ramana qəsəbəsində yerləşən Fərrux İsrafil oğlu Mehtiyev adına Qubadlı rayon Qaralar kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra, 2019-cu ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəlbəcər rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Fuad Məhərrəmli 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində fəal iştirak etmişdir. O, Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, eləcə də Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndlərinin azad olunması uğrunda gedən döyüşlərdə böyük şücaət göstərmişdir. 28 sentyabrda Cəbrayıl rayonunun Nüzgar kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. 29 sentyabrda Göygöl rayon Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidliyə və döyüş tapşırıqlarını şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Məhərrəmli Fuad Füzuli oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

MAY
10

Fuad Əliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Əliyev Fuad Ramin oğlu 10 may 2001-ci ildə Tovuz rayonunun Aşağı Öysüzlü kəndində anadan olmuşdur. 2007–2018-ci illərdə M. Ələkbərov adına Tovuz şəhər tam orta məktəbində təhsil almışdır.

Fuad Əliyev 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılmış və Vətən müharibəsinə qədər Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir. O, Xüsusi Təyinatlı Qüvvələrin əsgəri kimi 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsinin ilk günlərindən etibarən döyüş əməliyyatlarında iştirak etmişdir. Fuad Əliyev Murovdağ, Suqovuşan, Hadrut, Füzuli, Zəngilan və Şuşa istiqamətlərində gedən ağır döyüşlərdə böyük igidlik nümayiş etdirmişdir.

O, 8 noyabr 2020-ci ildə Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və 12 noyabr 2020-ci ildə Tovuz rayonunun Aşağı Öysüzlü kəndində torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi zamanı göstərdiyi şücaətə, döyüş tapşırıqlarının icrası zamanı nümayiş etdirdiyi igidliyə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Əliyev Fuad Ramin oğlu ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

MAY
10

Namiq Həsənov - 35

(1991-2020) *MAHHXHQ əsgər*



Həsənov Namiq Rasim oğlu 10 may 1991-ci ildə Cəlilabad rayonunun Göytəpə şəhərində anadan olmuşdur. 1998–2008-ci illərdə Göytəpə şəhər Vüqar Mürsəlov adına 1 saylı tam orta məktəbdə təhsil almışdır. 2008–2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli hərbi xidmət keçmişdir. 2011-ci ildən müddətdən artıq hərbi xidmət qulluqçusu kimi Milli Ordunun N saylı hərbi hissəsində tank sürücü-mexaniki vəzifəsində xidmət etmiş, Aprel döyüşlərində də iştirak etmişdir.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Namiq Həsənov Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuşdur. 30 sentyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. O, 9 dekabr 2020-ci ildə Göytəpə şəhərində dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidliyə və döyüş tapşırıqlarını şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Həsənov Namiq Rasim oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan .- 2021.- 25 iyun.- S.32-44.

11

Elmir Süleymanlı - 25

(2001-2020) *Əsgər*



Süleymanlı Elmir Aqil oğlu 11 may 2001-ci ildə Ağsu rayonunun Gəgəli kəndində anadan olmuşdur. 2007–2018-ci illərdə Sahib Mütəllimov adına Gəgəli kənd tam orta məktəbində təhsil almışdır. Elmir Süleymanlı Azərbaycan Milli Ordusunda Beyləqan korpusunun "N" saylı hərbi hissəsində pulemyotçu ixtisası üzrə həqiqi hərbi xidmət keçmişdir.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Elmir Süleymanlı Füzuli istiqamətindən döyüşlərə qatılmış, Cəbrayıl və Hadrut istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. Döyüşlər zamanı çoxsaylı qəhrəmanlıqlar göstərmiş, Hadrut istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Oktyabrın 20-də Ağsu rayonu, Gəgəli kənd Zeyvənənə qəbristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda gedən döyüş əməliyyatlarında göstərdiyi igidliyə və döyüş tapşırıqlarını şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Süleymanlı Elmir Aqil oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

MAY
11

Fərid Zaməddinov - 40

(1986-2020) *Gizir*



Zaməddinov Fərid İmran oğlu 11 may 1986-cı ildə Oğuz şəhərində anadan olmuşdur. 1992–2003-cü illərdə Oğuz şəhəri E. Abdullayev adına 2 nömrəli tam orta məktəbdə təhsil almışdır.

2003–2005-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, 2012-ci ildən müddətdən artıq hərbi qulluqçu kimi xidmət etmişdir. 2016-cı ilin 2–5 aprelində baş verən Aprel döyüşlərində xüsusi qəhrəmanlığı ilə fərqlənmişdir.

Azərbaycan Ordusunun giziri olan Fərid Zaməddinov 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində Murovdağ döyüşlərində və Talış qəsəbəsinin azadlığı uğrunda gedən əməliyyatlarda iştirak etmiş, düşmənin 30-a yaxın tankını məhv etmişdir. 9 noyabr 2020-ci ildə Talış kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və Oğuz Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidliyə və döyüş tapşırıqlarını şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Zaməddinov Fərid İmran oğlu ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhid Fərid Zaməddinovun əbədi xatirəsinə Oğuz rayonunda bulaq inşa edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

12

Anar Umarov - 35

(1991-2020) *MAHHXHQ kiçik çavuş*



Umarov Anar Məhəmməd oğlu 12 may 1991-ci ildə Yevlax şəhərində anadan olmuşdur. 1998–2009-cu illərdə Ş. Qurbanov adına 8 nömrəli tam orta məktəbdə təhsil almışdır. Anar Umarov 2009–2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Ağstafa rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuş, 2014-cü ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Anar Umarov 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 30 oktyabr 2020-ci ildə Murovdağ döyüşləri zamanı şəhid olmuş və Yevlax şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidliyə və döyüş tapşırıqlarını şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Umarov Anar Məhəmməd oğlu ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.81-84.

MAY
13

Elgün Mikayıllı - 25

(2001-2020)

Əsgər



Mikayıllı Elgün Aqil oğlu 13 may 2001-ci ildə Masallı rayonunun Xıl kəndində anadan olmuşdur. 2007–2018-ci illərdə Ə. Bəylərbəyov adına Xıl kənd tam orta məktəbdə təhsil almışdır. 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elgün Mikayıllı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 14 oktyabr 2020-ci ildə Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və Masallı rayonunda dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidliyə və döyüş tapşırıqlarını şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Mikayıllı Elgün Aqil oğlu ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

14

Hüseyn Rzayev - 30

(1996-2020)

Əsgər



Rzayev Hüseyn Aslan oğlu 1996-cı il mayın 14-də Gədəbəy rayonunun Novo-Saratovka kəndində anadan olmuşdur. 2002–2013-cü illərdə Gədəbəy rayon Novosaratovka kənd orta məktəbində təhsil almışdır. 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə çağrılmışdır, 2016–2020-ci illərdə isə müddətdən artıq hərbi xidmət qulluqçusu kimi Azərbaycan ordusunda xidmət etmişdir.

Hüseyn Rzayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsidə könüllü olaraq iştirak etmiş, Başkənd və Füzuli istiqamətlərində gedən döyüş əməliyyatlarında vuruşmuşdur. 26 oktyabrda döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. 23 noyabrda Nova-Saratovkada dəfn edilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Hüseyn Rzayev ölümündən sonra Azərbaycan Silahlı Qüvvələrinin ərazi bütövlüyünün təmin olunması uğrunda göstərdiyi şücaət və xidmətlərinə görə "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

MAY
14

Mərhəmət Əhmədov - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

Əhmədov Mərhəmət Adil oğlu 14 may 1991-ci ildə Şərur rayonunun Oğuzkənd kəndində anadan olmuşdur. 1997–2008-ci illərdə Şərur rayon Aşağı Daşarx kənd tam orta məktəbində təhsil almış, 2009-cu ildə Hərbi-Komisarlıq hesabına sürücülük məktəbini bitirmişdir.

10 iyul 2009-cu ildə Şərur rayon hərbi komissarlığı tərəfindən müddətli həqiqi hərbi xidmətə çağrılmış, kursu bitirdikdən sonra 1 yanvar 2011-ci ildə əsgərlik xidmətini tamamlamışdır. 2019-cu ilin iyun ayında Azərbaycan Ordusuna daxil olmaq məqsədilə Kəngərli rayon hərbi komissarlığına müraciət etmiş, Naxçıvanda 3 aylıq kursu tamamlayaraq Xüsusi Təyinatlı və müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətə başlamışdır.

2020-ci il sentyabrın 27-də başlayan Vətən Müharibəsində könüllü olaraq iştirak etmiş, Füzuli və Hadrut bölgələrində, həmçinin Tuğ kəndinin azad edilməsində döyüşmüşdür. 25 oktyabrda Şuşa istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. 30 oktyabr da Şərur şəhər Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, ölümündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

15

Niftalı Mehdili - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.7-9.

Mehdili Niftalı Qnyaz oğlu 15 may 1996-cı ildə Ucar rayonunun Bərküşad kəndində anadan olmuşdur. 2002–2011-ci illərdə Bərküşad kəndində Şəhid Ağamusa Mustafayev adına 1 saylı məktəbdə təhsil almış, 2011-ci ildə 9-cu sinfi bitirmişdir.

2014-cü ilin 3 iyulundan 2016-cı ilin 2 yanvarına kimi Azərbaycan Ordusunun Sülhməramlı bölüyündə hərbi xidmət keçmişdir. 2020-ci ilin 2 sentyabrında Ucar rayon hərbi səfərbərlik idarəsindən səfərbərliyə çağrılmış, Beyləqan rayonunda təlimlərdə iştirak etmişdir.

Niftalı Mehdili 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsidə könüllü olaraq iştirak etmiş Vətənin azadlığı uğrunda gedən döyüşlərdə igidlik göstərərək 14 oktyabrda qəhrəmancasına şəhid olmuşdur. 16 oktyabrda Bərküşad kəndində dəfn edilmişdir.

Mehdili Niftalı Qnyaz oğlu Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azadlığına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

MAY
15

Elxan Muradov - 25

(2001-2020)

Əsgər



Muradov Elxan Murad oğlu 15 may 2001-ci ildə Sabirabad rayonu Əhmədabad kəndində anadan olmuşdur. Orta təhsilini 2017-ci ildə Əhmədabad kənd tam orta məktəbində başa vurmuşdur.

2018-ci ildə Sabirabad rayonu Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılmışdır. İlk altı aylıq xidmət müddətini Goranboyda, qalan bir ilini isə Ağdamda yerləşən "N" saylı hərbi hissədə keçirmişdir.

Elxan Muradov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsidə iştirak etmiş, 8 oktyabr 2020-ci ildə qəhrəmancasına şəhid olmuşdur.

Muradov Elxan Murad oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə", " Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

15

Kənan Ələkbərli - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ələkbərli Kənan Müşfiq oğlu 15 may 1996-cı ildə Goranboy rayonunun Qızılhacılı qəsəbəsində anadan olmuşdur.

2020-ci ilin sentyabrın 20-dən Azərbaycan Ordusunda MAHHXHQ kimi xidmət etməyə başlamışdır.

Müşfiq Ələkbərli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsidə iştirak etmiş, Suqovuşan - Ağdərə istiqamətindəgedən döyüşlərdə vuruşmuşdur. 9 oktyabrda həmin istiqamətdə gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Oktyabrın 11-də Qızılhacılı qəbiristanlığında-ikinci Şəhidlər Xiyabanında dəfn olunub.

Kənan Müşfiq oğlu Ələkbərli Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Laçının azad olunmasına görə" , "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

MAY
15

Murad Həbibov - 25

(2001-2020)

Əsgər



Həbibov Murad Asəf oğlu 15 may 2001-ci ildə Quba şəhərində anadan olmuşdur. 2008–2019-cu illərdə Quba şəhər 6 saylı tam orta məktəbdə təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarına müddətli həqiqi hərbi xidmətə çağrılmış, hərbi xidmətinə Goranboy rayonunda başlamış və təlimləri başa vurduqdan sonra Tərtər rayonunda xidmətini davam etdirmişdir.

Azərbaycan ordusunun əsgəri olan Murad Həbibov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsidə iştirak etmiş, 3 oktyabrda Ağdərə uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 5 oktyabrda Quba Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Həbibov Murad Asəf oğlu Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə"medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

2021-ci ilin yanvar ayında Quba şəhərində küçələrin birinə şəhid Həbibov Muradın adı verilib.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.29-34.

16

Anar Əliyev - 35

(1991-2020)

Əsgər



Anar Talıb oğlu Əliyev 16 may 1991-ci ildə Oğuz rayonunda anadan olmuşdur. 1998–2009-cu illərdə Oğuz şəhər şəhid E. Abdullayev adına 2 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2009–2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmişdir.

2020-ci il sentyabrın 27-də başlayan Vətən Müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu kimi Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Anar Əliyev 26 oktyabr 2020-ci ildə Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş, 27 oktyabrda Oğuz Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Anar Talıb oğlu Əliyev Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Anar Əliyev ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

MAY
16

Elgin Abbaslı - 35

(1991-2020)

MAHHXHQ əsgər



Abbaslı Elgin Ağayar oğlu 16 may 1991-ci ildə Laçın rayonunun Dəyhan kəndində anadan olmuşdur. 1992-ci ildə Laçın rayonunun işğal olunması ilə əlaqədar ailəsi ilə birlikdə Sumqayıt şəhərinə köçmüş və Sarıqaya qəsəbəsində məskunlaşmışdır. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə çağrılmışdır.

2014-cü ildə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi Azərbaycan Ordusunda xidmətə başlamış və Pirəkəşkül qəsəbəsində yerləşən hərbi hissənin tibb bölüyündə fəaliyyət göstərmişdir.

Elgin Abbaslı 2020-ci il sentyabrın 27-də başlayan Vətən Müharibəsində iştirak etmiş, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Şuşa istiqamətlərində gedən döyüşlərdə vuruşmuşdur. Noyabr ayının əvvəllərindən Şuşa döyüşlərinə qatılan hərbi qulluqçu 10 noyabr 2020-ci ildə Şuşa istiqamətində hərəkət edən zaman düşmən tərəfindən avtomobilə açılan atəş nəticəsində şəhid olmuşdur. Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Elgin Ağayar oğlu Abbaslı Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

16

Ağaşirin Babayev - 25

(2001-2020)

Əsgər



Babayev Ağaşirin Firuz oğlu 16 may 2001-ci ildə Qəbələ rayonunun Qəmərvan kəndində anadan olmuşdur. O, 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə çağrılmış və Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ağaşirin Babayev 2020-ci il sentyabrın 27-də Ermənistanın uzun illər işğalı altında qalmış Azərbaycan ərazilərinin azad olunması və ölkənin ərazi bütövlüyünün bərpa edilməsi məqsədilə başlanmış Vətən müharibəsində iştirak etmişdir. O, döyüş tapşırıqlarının icrası zamanı yüksək məsuliyyət və şücaət nümayiş etdirmiş, 3 noyabr 2020-ci ildə Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şəhid Ağaşirin Babayev 19 noyabr 2020-ci ildə Qəbələ şəhərində dəfn edilmişdir.

Ağaşirin Firuz oğlu Babayev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan hərbi əməliyyatlarda göstərdiyi igidliyə və xidmətdə fərqləndiyinə görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və III dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

Şəhidin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Qəbələ rayonunda yeni yaşayış massivində yerli sakinlərin təşəbbüsü ilə Ağaşirin Babayevin adı verilmiş bulaq inşa edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

MAY
17

Kamal Əbilov – 30

(1996-2020)

Leytenant



Kamal Vidadi oğlu Əbilov 17 may 1996-cı ildə Şərur rayonunun Oğlanqala kəndində anadan olmuşdur. O, ibtidai və orta təhsilini Oğlanqala kənd tam orta məktəbində almış, 2011–2014-cü illərdə Heydər Əliyev adına Hərbi Liseydə təhsilini davam etdirmişdir. 2014–2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsil almış və 2018-ci il iyunun 21-də məzun olaraq leytenant hərbi rütbəsi ilə "N" saylı hərbi hissədə xidmətə başlamışdır.

Azərbaycan Ordusunun leytenantı olan Kamal Əbilov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi məqsədilə başlanan Vətən müharibəsində iştirak etmiş, Murovdağ istiqamətində gedən döyüşlərdə döyüş tapşırıqlarını böyük peşəkarlıq və cəsarətlə icra etmişdir. O, müdafiə mövqelərinin tutulması və irəliləmə əməliyyatları zamanı düşmənin müxtəlif növ texnikasını və canlı qüvvəsini məhv etməklə xüsusi şücaət nümayiş etdirmişdir.

Leytenant Kamal Əbilov 30 sentyabr 2020-ci ildə Murovdağ istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şəhid zabit Şərur şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Kamal Vidadi oğlu Əbilov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə", "Vətən uğrunda" medalları və III dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.5.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.24-28.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il // Azərbaycan.- 2021.- 6 noyabr.- S.2-3.

MAY
17

Röyal Aslanov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.29-34.

Aslanov Röyal Elzar oğlu 17 may 2001-ci ildə Azərbaycan Respublikasının Tovuz rayonunun Abulbəyli kəndində anadan olmuşdur. 2008–2013-cü illərdə Nəsirəddin Tusi adına Tovuz şəhər tam orta məktəbində təhsil almış, 2013-cü ildə ailəsi ilə birlikdə Rusiya Federasiyasının Tümen vilayətinə köçərək təhsilini Panqodı qəsəbəsindəki 1 nömrəli məktəbdə davam etdirmişdir.

Məktəb illərində idmanla maraqlanmış və yerli yarışlarda müəyyən nailiyyətlər əldə etmişdir.

2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinə müddətli həqiqi hərbi xidmətə çağırılan Röyal Aslanov Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Füzulinin azad olunması uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və sentyabrın 29-da qəhrəmancasına şəhid olmuşdur. O, Tovuz rayonunda dəfn edilmişdir.

Aslanov Röyal Elzar oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

18

Təhmasib Qarayev - 30

(1996-2020)

MAHHXHQ çavuş



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.24-28.

Qarayev Təhmasib Hikmət oğlu 18 may 1996-cı ildə Azərbaycan Respublikasının Ağcabədi rayonunun Kəbirli kəndində anadan olmuşdur. 2003–2013-cü illərdə Mirzə Ələkbər Sabir adına Kəbirli kənd tam orta məktəbində, 2013–2017-ci illərdə Sumqayıt Dövlət Universitetində İqtisadiyyat və İdarəetmə ixtisasında ali təhsil almışdır. 2017-ci ildə Təhmasib Qarayev Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağcabədi rayon üzrə Hərbi Komissarlığı tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılmış və Xüsusi Təyinatlı Qüvvələrdə xidmətə başlamışdır. Daha sonra müddətdən artıq xidmət edərək "çavuş" rütbəsinə yüksəlmişdir.

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin çavuşu olan Təhmasib Qarayev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində iştirak etmiş, Ermənistan işğalı altında olan ərazilərin azad olunması və Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda döyüşlərdə vuruşmuşdur. O, Murovdağ, Cəbrayıl, Füzuli, Qubadlı və Xocavənd istiqamətlərində aparılan əməliyyatlarda iştirak etmişdir. 22 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuş, 23 oktyabrda Ağcabədi rayonunun Kəbirli kəndində dəfn edilmişdir.


Təhmasib Hikmət oğlu Qarayev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

MAY
18

İlkin Vəliyev - 30

(1996-2020)

Əsgər



Vəliyev İlkin Səfail oğlu 1996-cı il mayın 18-də Azərbaycan Respublikasının Goranboy rayonu, Qızılhacılı qəsəbəsində anadan olmuşdur. Təhsilini Dilbazi Qasımov adına 1 nömrəli orta məktəbdə almışdır. Hərbi xidmət zamanı kəşfiyyatçı kimi fəaliyyət göstərmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi məqsədilə başlanan Vətən müharibəsində könülü olaraq iştirak etmiş. O, Suqovuşan-Ağdərə istiqamətində gedən döyüşlərdə vuruşmuş, 29 sentyabrda qəhrəmancasına şəhid olmuşdur. Qəhrəmanın nəşi neytral zonada olduğundan, 26 oktyabrda Goranboy rayonu, Qızılhacılı qəsəbəsinin kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında göstərdiyi qəhrəmanlığa və vəzifə borcunu şərəflə yerinə yetirməsinə görə Vəliyev İlkin Səfail oğlu ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Xatirəsini əbədiləşdirmək məqsədilə doğulduğu adına küçəy verilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

18

Bəxtiyar Bəkirov - 45

(1981-2020)

MAHHXHQ çavuş



Bəkirov Bəxtiyar Yavər oğlu 1981-ci il mayın 18-də Yevlax rayonunun Xaldan kəndində anadan olmuşdur. O, Azərbaycan Ordusunun çavuşu kimi xidmət etmiş və hərbi fəaliyyətində yüksək intizamı və peşəkarlığı ilə seçilmişdir.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlayan Vətən müharibəsində Bəxtiyar Bəkirov fəal iştirak etmişdir. O, Suqovuşan istiqamətində gedən ağır döyüşlərdə qəhrəmanlıq nümayiş etdirmiş, sentyabrın 28-də Suqovuşanın azad edilməsi uğrunda aparılan hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidliyə və qarşıya qoyulan döyüş tapşırıqlarını yüksək məsuliyyətlə yerinə yetirdiyinə görə Bəxtiyar Bəkirov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

MAY
19

Nurlan Həsənov – 35

(1991-2020)

Leytenant



Həsənov Nurlan Nadir oğlu 1991-ci il mayın 19-da Şuşa şəhərində anadan olmuşdur. 1992-ci ildə Birinci Qarabağ müharibəsindən sonra ailəsi ilə birlikdə Bakıda məskunlaşmışdır. O, 1997–2008-ci illərdə Binəqədi rayonunda yerləşən Şuşa şəhərinin 3 nömrəli tam orta məktəbində təhsil almış, 2008–2012-ci illərdə Azərbaycan Texnologiya Universitetində ali təhsilini davam etdirmişdir.

Nurlan Həsənov 2012–2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində leytenant rütbəsində xidmət etmişdir. O, 2014-cü ildə öz istəyi ilə ehtiyatda olan zabit kimi Azərbaycan Ordusundan tərxis olunmuşdur.

2020-ci il sentyabrın 21-də könüllü olaraq yenidən təlim toplanışlarına qoşulan Nurlan Həsənov sentyabrın 27-də başlayan Vətən müharibəsində Azərbaycan Ordusunun leytenantı kimi Cəbrayıl və Füzuli istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. O, oktyabrın 1-də Füzuli uğrunda aparılan hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olmuş və oktyabrın 2-də yaşadığı Biləcəri qəsəbəsində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidliyə, döyüş tapşırıqlarının icrası zamanı nümunəvi xidmətinə görə Nurlan Həsənov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.81-84.

MAY
20

Əli Qasımov - 25

(2001-2020)

Əsgər



Qasımov Əli İbrahim oğlu 20 may 2001-ci ildə Tovuz rayonunun Hacıalılı kəndində anadan olmuşdur. O, ailəsi ilə birlikdə Bakı şəhərinin Nərimanov rayonunda yaşamışdır.

Əli Qasımov 2020-ci ildə Azərbaycan Ordusu sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. O, hərbi xidmətdə olduğu müddətdə intizamı və məsuliyyəti ilə seçilmişdir.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun əsgəri kimi Ermənistanın işğalı altında olan ərazilərin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, Tərtər rayonunun Talış kəndi istiqamətində aparılan əməliyyatlarda döyüşmüş, 23 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində gedən şiddətli döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Şəhid Əli Qasımov 24 oktyabrda doğulduğu Hacıalılı kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan ərazilərinin işğaldan azad olunması uğrunda göstərdiyi igidliyə, döyüş tapşırıqlarının icrası zamanı nümayiş etdirdiyi mərdliyə görə Əli Qasımov Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

21

Güləddin Şahbabayev - 25

(2001-2020)

Əsgər



Şahbabayev Güləddin Zəfər oğlu 21 may 2001-ci ildə Şabran rayonunun Düz Bilici kəndində anadan olmuşdur.

2019-cu ildə o, Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri kimi Güləddin Şahbabayev 2020-ci il 27 sentyabrda Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş ərazilərin azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində fəal iştirak etmişdir. O, Füzuli istiqamətində gedən şiddətli döyüşlərdə böyük igidlik göstərmiş və 16 oktyabr 2020-ci il tarixində Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Şabran rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda göstərdiyi şücaətə və döyüş tapşırıqlarını şərəflə yerinə yetirdiyinə görə Şahbabayev Güləddin Zəfər oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və "Azərbaycan bayrağı" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

MAY
21

Emin İsmayılov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İsmayılov Emin Tahir oğlu 21 may 2001-ci ildə Bakı şəhərinin Nəsimi rayonunda anadan olmuşdur. Əslən Cəbrayıl rayonundandır. Orta təhsilini Nəsimi rayonunda yerləşən 54 nömrəli tam orta məktəbdə almışdır.

2019-cu ildən etibarən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş və Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri kimi Emin İsmayılov 2020-ci il 27 sentyabrda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərin azad edilməsi və ölkənin ərazi bütövlüyünün təmin olunması məqsədilə başlanan Vətən müharibəsində fəal iştirak etmişdir. O, Suqovuşan və Kəlbəcər istiqamətlərində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşmuşdur. 6 oktyabr 2020-ci il tarixində Kəlbəcər istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Şəhid II Şəhidlər Xiyabanında dəfn edilmişdir.

İsmayılov Emin Tahir oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Fərid Əsgərov - 30

21

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

Əsgərov Fərid Ərəstun oğlu 21 may 1996-cı ildə Neftçala rayonunun Qaçaqkənd kəndində hərbçi ailəsində anadan olmuşdur. İlk təhsilini 2002-2007-ci illərdə Şəki şəhər 11 saylı tam orta məktəbdə, 2007-2012-ci illərdə isə Lənkəran şəhər 6 saylı liseyində təhsili almışdır. 2013–2017-ci illərdə Lənkəran Dövlət Universitetində "İngilis dili müəllimliyi" ixtisası üzrə ali təhsil almışdır.

2017–2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrində həqiqi hərbi xidmət keçmiş və xidmətini Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə yerinə yetirmişdir.

Vətən müharibəsi başladıqdan sonra Fərid Əsgərov könüllü olaraq Azərbaycan Ordusunun sıralarına qoşulmuş və 3 oktyabr 2020-ci il tarixindən etibarən döyüş əməliyyatlarında iştirak etmişdir. O, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə böyük şücaət göstərmişdir. 4 noyabr 2020-ci il tarixində Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və doğulduğu Qaçaqkənd kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi igidliyə görə Əsgərov Fərid Ərəstun oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

MAY
21

Tərlan Rzayev - 25

(2001-2020)

Əsgər



Rzayev Tərlan Rövşad oğlu 21 may 2001-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur. Orta təhsilini Sumqayıt şəhərində yerləşən 27 nömrəli tam orta məktəbdə almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri kimi Tərlan Rzayev 2020-ci il 27 sentyabr tarixində Ermənistan silahlı birləşmələri tərəfindən işğal altında saxlanılan Azərbaycan ərazilərinin azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Füzuli istiqamətində gedən döyüşlər zamanı böyük igidlik nümayiş etdirmişdir. Həmin gün – 27 sentyabr 2020-ci il tarixində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Rzayev Tərlan Rövşad oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

23

Xəyal Namazov - 40

(1986-2020)

MAHHXHQ çavuş



Namazov Xəyal Xudaverdi oğlu 23 may 1986-cı ildə Füzuli rayonunda anadan olmuşdur. İlk təhsilinə İsmayıllı rayonunun Aşıqbayramlı kənd orta məktəbində başlamış, sonradan səkkizinci sinfə qədər Tuğ tam orta məktəbində, ümumi orta təhsilini isə Xocavənd rayon 4 saylı tam orta məktəbində tamamlamışdır. 2005-ci ildə Beynəlxalq Universitetin "Neft-qaz mühəndisliyi" fakültəsinə qəbul olunmuşdur. O, 2006-cı ilin iyul ayında ali təhsilini müvəqqəti dayandıraraq Dövlət Sərhəd Xidmətində hərbi xidmətə başlamış və Xudat sərhəd dəstəsinin sərhəd məntəqəsində xidmətini 2008-ci ilin yanvar ayında başa vurmuşdur. 2011-ci ildə ali təhsilini tamamlamışdır.

2014-cü ildə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilmiş və AQS-21 tipli silah üzrə manqa komandiri vəzifəsini icra etmişdir. 2016-cı il Aprel döyüşlərinin iştirakçısıdır.

Xəyal Namazov 2020-ci il 27 sentyabrda başlayan Vətən müharibəsinin ilk günlərindən Füzuli istiqamətində döyüş əməliyyatlarında iştirak etmiş, Qaraxanbəyli və Seyidəhmədli kəndlərinin azad olunmasında şücaət göstərmişdir. O, 3 oktyabr 2020-ci il tarixində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Xəyal Xudaverdi oğlu Namazov ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.45-57.

MAY
23

Tural Qasımov - 35

(1991-2020)

Əsgər



Qasımov Tural Yelmar oğlu 23 may 1991-ci ildə Goranboy rayonunda anadan olmuşdur. O, Z. Məsimov adına Ağamalıoğlu kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Tural Qasımov 2020-ci il 27 sentyabr tarixində Ermənistan silahlı qüvvələrinin işğal altında saxladığı Azərbaycan ərazilərinin azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpası məqsədilə başlayan Vətən müharibəsində iştirak etmişdir. O, 11 oktyabr 2020-ci il tarixində Tərtər–Ağdərə istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yaralarından qəhrəmancasına şəhid olmuşdur.

Qasımov Tural Yelmar oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü "medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

23

Nurlan Rzayev - 35

(1991-2020)

Əsgər



Rzayev Nurlan Yusif oğlu 23 may 1991-ci ildə Füzuli rayonunun Aşağıveysəlli kəndində anadan olmuşdur. 1993-cü ildə ailəsi ilə birlikdə məcburi köçkün kimi Beyləqan rayonuna köçmüşdür.

2016-cı ildə hərbi xidmətdə olduğu müddətdə Aprel döyüşlərində igidliklə iştirak etmiş və döyüşlərdə göstərdiyi şücaətə görə dəfələrlə fəxri fərman və medallarla təltif olunmuşdur.

Azərbaycan Ordusunun əsgəri kimi Nurlan Rzayev 2020-ci il 27 sentyabr tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpası məqsədilə başlayan Vətən müharibəsində fəal iştirak etmişdir. O, Füzuli istiqamətində gedən döyüşlərdə böyük igidlik göstərmiş və 17 oktyabr 2020-ci il tarixində qəhrəmancasına şəhid olmuşdur.

Rzayev Nurlan Yusif oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" , "Cəsur döyüşçü" , "Füzulinin azad olunmasına görə" , "Cəbrayılın azad olunmasına görə" , "Xocavəndin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

MAY
24

Rövlan Məmmədov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.6-12.

Məmmədov Rövlan Qurban oğlu 24 may 2001-ci ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Xətai rayonu 194 saylı tam orta məktəbdə almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Rövlan Məmmədov 2020-ci il 27 sentyabr tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılan Azərbaycan ərazilərinin azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində fəal iştirak etmişdir. O, Kəlbəcər, Cəbrayıl və Füzuli rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir. 15 oktyabrda Cəbrayıl rayonunda, "Vışka" deyilən ərazidə açıq döyüş zamanı yanında partlamış minaatan mərmisinin təsirindən qəhrəmancasına şəhid olmuşdur.

Məmmədov Rövlan Qurban oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Cəsur döyüşçü" , "Vətən uğrunda", "Kəlbəcərin azad edilməsinə görə" medalı, "Füzulinin azad edilməsinə görə" medalları və "Azərbaycan bayrağı" ordeni ilə təltif edilmişdir.

Xatirəsinin əbədiləşdirilməsi məqsədilə Xətai rayonu, NZS qəsəbəsi, Mingəçevir küçəsinə Rövlan Məmmədovun adı verilmişdir.

24

Səxavət Məmmədov - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

Məmmədov Səxavət Adıgözəl oğlu 24 may 1991-ci ildə Ağdam rayonunun Papravənd kəndində anadan olmuşdur. 1998–2009-cu illərdə Xəzər rayonu, Şüvəlan qəsəbəsi, İlqar Muradov adına 237 saylı tam orta məktəbdə təhsil almışdır.

1 iyul 2009-cu ildə İmişli rayonunda yerləşən N saylı hərbi hissədə həqiqi hərbi xidmətə başlamışdır. 2014-cü ildən müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi Goranboyda yerləşən tank taborunda atıcı vəzifəsində xidmət göstərmiş, 2014-cü ilin sonlarında öz istəyi ilə ön cəbhəyə – Tərtər rayonunda N saylı hərbi hissəyə tuşlayıcı vəzifəsində göndərilmişdir. Burada Aprel döyüşlərində və 2020-ci ilin iyulunda Tovuz döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun əsgəri kimi Səxavət Məmmədov 2020-ci il 27 sentyabr tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin azad olunması məqsədilə başlayan Vətən müharibəsində Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 29 sentyabrda tankı düşmən tərəfindən vurulması nəticəsində qəhrəmancasına şəhid olmuşdur. 19 noyabrda Ağdam rayonunun Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda göstərdiyi şücaətə görə Məmmədov Səxavət Adıgözəl oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

MAY
25

Əfqan Abdurahmanov – 50

(1976-2020) *Polkovnik-leytenant*



Abdurahmanov Əfqan Ağasəf oğlu 1976-cı il mayın 25-də anadan olmuşdur. 1982–1993-cü illərdə Binəqədi rayonu, Vahid Əzizov adına 30 nömrəli tam orta məktəbdə təhsil almışdır. 1995–1997-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, 1997–2001-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almışdır. 2001–2002-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzində təcrübə keçdikdən sonra 2002-ci ildən Azərbaycan Silahlı Qüvvələrində xidmətə başlamışdır.

Əfqan Abdurahmanov 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında Tərtər istiqamətində başlanan döyüşlərdə fəal iştirak etmişdir.

Azərbaycan Ordusunun polkovnik-leytenantı olan Əfqan Abdurahmanov 2020-ci il 27 sentyabr tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında olan Azərbaycan ərazilərinin azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası məqsədilə başlayan Vətən müharibəsi zamanı Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir. O, oktyabrın 10-da Suqovuşan döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və Qəbələ rayonunun Əmirvan kəndində dəfn edilmişdir.

Əfqan Abdurahmanov xidmətindəki yüksək nəticələrinə görə "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Qüsursuz xidmətə görə" (3-cü, 2-ci və 1-ci dərəcəli), "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə təltif edilmişdir. Abdurahmanov Əfqan Ağasəf oğlu Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Vətən müharibəsindəki misilsiz xidmətlərinə görə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" medalı, "Vətən uğrunda" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.7-9.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adının verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 9 dekabr 2020-ci il// Azərbaycan.- 2020.- 10 dekabr.- S.3.

İnternetdə:

https://az.wikipedia.org/ wiki/Kateqoriya:"Hərbi_xidmətdə_fərqlənməyə_görə"_3-cü_dərəcəli_medalı_ilə_təltif_edilənlər

MAY
25

Emin Səttarov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.81-84.

Səttarov Emin Ramin oğlu 25 may 2001-ci ildə Bakı şəhərində anadan olmuşdur. 2008–2017-ci illərdə Sabunçu rayonu, Pirşağı qəsəbəsi, 10 saylı sanatoriya tipli internat məktəbində təhsil almış, 2017–2020-ci illərdə Bakı şəhərində 12 nömrəli peşə liseyində aşpazlıq ixtisası üzrə təhsilini davam etdirmişdir.

Emin Səttarov 2020-ci ilin iyun ayında Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış və Füzuli rayonu, Yuxarı Kürdmahmudlu kəndində yerləşən N saylı hərbi hissədə xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri kimi Səttarov Emin 2020-ci il 27 sentyabr tarixindən başlayaraq Vətən müharibəsində Füzuli və Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak etmiş, 24 oktyabr tarixində Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Səttarov Emin Ramin oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

25

Coşqun Bayramov - 35

(1991-2020)

Kiçik çavuş



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.29-34.

Bayramov Coşqun Ənvər oğlu 25 may 1991-ci ildə Qəbələ rayonunun Qəmərvan kəndində anadan olmuşdur. Orta təhsilini Qəbələ rayonu, Kiçik Əmilli kənd məktəbində almışdır.

2009-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında həqiqi hərbi xidmətə çağırılmış və xidmətini Beyləqan rayonundakı hərbi hissədə çavuş rütbəsində başa vurmuşdur. 2020-ci il sentyabrın 21-də başlayan hərbi təlimlərdə iştirak etmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Coşqun Bayramov 2020-ci il 27 sentyabr tarixindən başlayaraq Ermənistan silahlı qüvvələrinin işğal altında saxladığı ərazilərin azad olunması və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. O, oktyabrın 6-da Suqovuşan döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və 8 oktyabrda Qəbələ rayonunun Qəmərvan kəndində dəfn edilmişdir.

Bayramov Coşqun Ənvər oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

25 may 2022-ci ildə 44 günlük Vətən Müharibəsi şəhidi Bayramov Coşqun Ənvər oğlunun xatirəsinə Kiçik Əmilli kəndində abidə kompleksi ucaldılmışdır.

MAY
27

Hüseyn Dadaşzadə - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

Dadaşzadə Hüseyn Zülfüqar oğlu 27 may 1996-cı ildə Ağsu rayonunun Kəndoba kəndində anadan olmuşdur. Orta təhsilini Ağsu şəhərində yerləşən A.Nadirov adına 1 saylı məktəb-liseydə almışdır.

2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmış və 2016-cı ilin Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Hüseyn Dadaşzadə 2020-ci il 27 sentyabr tarixindən başlayaraq Ermənistan silahlı qüvvələrinin işğal altında saxladığı Azərbaycan ərazilərinin azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. O, Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı və Şuşa istiqamətlərində gedən döyüşlərdə xüsusi qəhrəmanlıq göstərmiş, 4 noyabr 2020-ci il tarixində Daşaltı döyüşlərində qəhrəmancasına şəhid olmuş və 5 noyabrda dəfn edilmişdir.

Dadaşzadə Hüseyn Zülfüqar oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları, III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

27

Kamal Babayev - 35

(1991-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Babayev Kamal Eynulla oğlu 27 may 1991-ci ildə İsmayıllı rayonunda anadan olmuşdur. 1997-ci ildə İsmayıllı rayonunun Xanəgah kənd ümumi orta məktəbinin 1-ci sinfinə qəbul olunmuş, daha sonra orta təhsilini İsmayıllı rayon 1 saylı məktəbində tamamlamışdır. 2008-ci ildə 11 illik təhsilini başa vurduqdan sonra Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən Hərbi Vətənpərvərlik və Mütəxəssis Hazırlığı Mərkəzinin təhsil müəssisəsində sürücü ixtisasına yiyələnmişdir.

Kamal Babayev 2009–2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri kimi o, 2020-ci il 27 sentyabr tarixində başlayan Vətən müharibəsində Füzuli, Qubadlı, Cəbrayıl rayonlarının və Şuşa şəhərinin azad olunması uğrunda gedən döyüşlərdə igidlik nümayiş etdirmişdir. Kamal Babayev 5 oktyabr 2020-ci il tarixində Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Babayev Kamal Eynulla oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

MAY
27

Mehman Qənbərov – 45

(1981-2020) *Polkovnik-leytenant*



Qənbərov Mehman Nəriman oğlu 27 may 1981-ci ildə Ağdam rayonunun Maqsudlu kəndində anadan olmuşdur.

1998-ci ildə Bərdə rayonunda yerləşən Ağdam rayonu 132 saylı köçkün tam orta məktəbini bitirmiş, 1998–2002-ci illərdə Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsində təhsil almışdır. Daha sonra Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirmişdir.

Azərbaycan müdafiə naziri, general-polkovnik Səfər Əbiyevin 26 iyul 2002-ci il tarixli əmri ilə ona "leytenant" hərbi rütbəsi verilmişdir.

18 illik hərbi xidməti dövründə Mehman Qənbərov Azərbaycan Silahlı Qüvvələrinin müxtəlif qurumlarında məsul vəzifələrdə xidmət etmişdir. O, Təlim və Tədris Mərkəzinin tədris prosesinin təminatı taborunun təlim piyada döyüş maşınları taqımının komandiri, motoatıcı taborun qərargah bölüyünün komandiri, motoatıcı taborun motoatıcı bölüyünün komandiri, mexanikləşdirilmiş taborun qərargah rəisinin maddi-texniki təminat üzrə köməkçisi və müavini, motoatıcı taborun qərargah rəisi – tabor komandirinin müavini, motoatıcı taborun komandiri, eləcə də briqada komandirinin maddi-texniki təminat üzrə müavini – maddi-texniki təminat bölməsinin rəisi vəzifələrində çalışmışdır.

Xidməti fəaliyyətinə görə o, müxtəlif illərdə müdafiə nazirinin əmrləri ilə I, II və III dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, həmçinin fəxri fərmanlarla təltif edilmişdir.

2020-ci il 27 sentyabr tarixindən başlayaraq Ermənistan silahlı qüvvələrinin işğal altında saxladığı ərazilərin azad olunması və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində Mehman Qənbərov Füzuli rayonunun azad olunması uğrunda gedən döyüş əməliyyatlarında briqadanın təminatının təşkilində xüsusi fərqlənmişdir. O, 30 sentyabr 2020-ci il tarixində Füzuli rayonu ərazisində xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Mehman Nəriman oğlu Qənbərov Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə "Füzulinin azad olunmasına görə"medalları və "Qarabağ" orden i ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 9 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 10 dekabr.- S.2.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

İnternetdə:

https://www.unudulmazlar.az/az/infom/3733

MAY
27

Rəvan Əliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Əliyev Rəvan Yusif oğlu 27 may 2001-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur. Ailəsi ilə birlikdə Quba şəhərində yaşamışdır. 2007-ci ildə Quba şəhər 3 saylı orta məktəbində təhsil almağa başlamış, ikinci sinifdə oxuyarkən musiqi məktəbinə qəbul olunmuş və tar sinfini bitirmişdir. Musiqi ilə yanaşı futbolla da məşğul olmuşdur. 2016-cı ildə Bakı İdarəetmə və Texnologiya Kollecinə qəbul olmuşdur.

5 iyul 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə başlamış və Yevlax şəhərində yerləşən Dövlət Sərhəd Qoşunlarında xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rəvan Əliyev 2020-ci il 27 sentyabr tarixindən başlayaraq Ermənistan silahlı qüvvələrinin işğal altında saxladığı Azərbaycan ərazilərinin azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində iştirak etmiş, Zəngilan rayonunun azad olunması uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir. O, 23 oktyabrda qəhrəmancasına şəhid olmuş və 29 oktyabrda Quba Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Əliyev Rəvan Yusif oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

28

Araz Seyfullayev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Seyfullayev Araz Elsevər oğlu 2001-ci il mayın 28-də Masallı şəhərində anadan olmuşdur. 2018-ci ildə şəhid Sakit Tağıyev adına Masallı şəhər 4 nömrəli tam orta məktəbini bitirmişdir. O, Masallı Rayon Gənclər və İdman İdarəsi nəzdində fəaliyyət göstərən Uşaq-Gənclər İdman Məktəbinin cüdo bölməsinin yetirməsi olmuş, dəfələrlə rayon və zona yarışlarında iştirak edərək mükafata layiq görülmüşdür.

Araz Seyfullayev 2019-cu ilin iyul ayında Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə çağırılmış və Cəlilabad rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Araz Seyfullayev 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Füzuli rayonunun azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. O, 4 oktyabrda Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və 8 oktyabrda Masallı şəhərinin Digah qəbiristanlığında dəfn edilmişdir.

Araz Elsevər oğlu Seyfullayev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi şücaətə görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad edilməsi uğrunda" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

MAY
28

Məhəmməd Əliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

Əliyev Məhəmməd Yaqub oğlu 28 may 2001-ci ildə Şəmkir rayonunun Sabirkənd kəndində anadan olmuşdur. 2007–2018-ci illərdə Z. Rüstəmov adına Sabirkənd tam orta məktəbində təhsil almışdır.

Məhəmməd Əliyev 2019-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəmkir rayon şöbəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. O, hərbi xidmətini Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun Xüsusi Təyinatlı Bölməsində, "N" saylı hərbi hissədə yerinə yetirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Məhəmməd Əliyev 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində atıcı, kəşfiyyatçı və sanitar kimi iştirak etmiş, Xocavənd və Şuşa uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir. Kəşfiyyat əməliyyatlarında fəal iştirak edərək düşmən haqqında mühüm məlumatların əldə olunmasında xüsusi rol oynamışdır. O, 31 oktyabr 2020-ci ildə Şuşa istiqamətində döyüş tapşırığının icrası zamanı qəhrəmancasına şəhid olmuşdur.

Məhəmməd Yaqub oğlu Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

MAY
31

Cumart Əlimuradov - 25

(2001-2020)

Əsgər



Əlimuradov Cumart Şixrəhim oğlu 31 may 2001-ci ildə Qusar rayonunun Urva kəndində anadan olmuşdur. Orta təhsilini Urva kənd tam orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Cumart Əlimuradov 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanılan Azərbaycan ərazilərinin azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə xüsusi igidlik göstərmişdir. O, 5 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində aparılan döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş və Qusar rayonunun Urva kəndində dəfn edilmişdir.

Əlimuradov Cumart Şixrəhim oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il // Azərbaycan.- 2021.- 6 noyabr.- S.2-3.

Hafiz Paşayev – 85

(1941)

Siyasi xadim



Ədəbiyyat:

Bir səfirin manifesti: [Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulması haqqında Azərbaycanın birinci səfirinin hekayəsi] / Hafiz Paşayev; [baş red. N. Cabbarlı; buraxıl. məsul R. Kazımov; üz qabığının dizayneri N. Nəhmətov]. - [Bakı]: [Şərq-Qərb], [2025]. - 46, [1] s.

Tarixi şəxsiyyətə hörmət və ehtiramla: Hafiz Paşayev-80 // Yeni Azərbaycan.– 2021.– 30 aprel.– S.3.

Hafiz Paşayev: "Xəzəryanı dövlətlər birgə enerji layihələri üzərində işləyə bilər" // 525-ci qəzet.– 2022.– 30 iyul.– S.2.

Rektor Hafiz Paşayev: "Məqsədimiz iqtisadiyyatın prioritet sahələri üzrə yüksəkixtisaslı kadrlar hazırlamaqdır" / H.Paşayev // Azərbaycan.– 2023.– 26 yanvar.– S.4.

Dövlət idarəçiliyi haqqında / Si Cinpin; kitabın tərcüməsinin təşəbbüskarı H. Paşayev; tərc. və red. R. Kərimov; [mətnin elmi red. Molla Niyazi Turniyazi].– [Cild 1].– Bakı: Şərq-Qərb, [Xarici dillərdə ədəbiyyat], 2024.– 575 s.

Hafiz Mir Cəlal oğlu Paşayev 1941-ci il 2 may tarixində Bakı şəhərində, görkəmli yazıçı Mir Cəlal Paşayevin ailəsində anadan olmuşdur.

1963-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) fizika fakültəsini bitirmiş, 1964–1967-ci illərdə Azərbaycan Elmlər Akademiyasının (indiki AMEA) Fizika İnstitutunda çalışmışdır. 1971-ci ildə Moskva şəhərində yerləşən Kurçatov adına Atom Enerjisi İnstitutunun aspiranturasını başa vurmuş, elmi fəaliyyətini 1971–1992-ci illərdə AMEA Fizika İnstitutunda elmi işçi və laboratoriya müdiri kimi davam etdirmişdir. 1975–1976-cı illərdə ABŞ-ın Kaliforniya Universitetinin (İrvin kampusu) tədqiqat qrupunda çalışmış, 1984-cü ildə doktorluq dissertasiyasını müdafiə edərək fizika–riyaziyyat elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

1992–2006-cı illərdə Hafiz Paşayev Azərbaycan Respublikasının ABŞ-dakı Fövqəladə və Səlahiyyətli Səfiri (eyni zamanda Meksika və Kanada üzrə səfirlik məsuliyyəti) vəzifəsində çalışmışdır. 14 avqust 2006-cı il tarixli Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə o, Xarici İşlər Nazirinin müavini və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının rektoru təyin olunmuşdur. 2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Diplomatik Akademiyanın və İnformasiya Texnologiyaları Universitetinin bazasında yaradılan ADA Universitetinin rektoru vəzifəsinə təyin olunmuş, universitetin beynəlxalq akademik standartlara uyğun fəaliyyət göstərməsində və ölkənin təhsil sahəsində nüfuzunun yüksəlməsində əsas rol oynamışdır.

Elmi və elmi-pedaqoji fəaliyyəti nəticəsində professor Hafiz Paşayev 100-dən artıq elmi əsərin, iki monoqrafiyanın müəllifidir; həmçinin ictimai-siyasi və elmi mövzularda yerli və xarici mətbuatda onlarla məqaləsi nəşr olunmuş, bir neçə dildə çap edilmiş "Bir səfirin manifesti" adlı kitabın müəllifidir.

Professor Hafiz Paşayevin rəhbərliyi ilə həyata keçirilən iri elmi-mədəni layihələr arasında "Azərbaycan" qəzetinin (1918 və sonrakı illər) arxiv materiallarının transliterasiyası və şərhlərlə yeni nəşri xüsusi yer tutur. Bu layihə qədim ərəb əlifbasında qalmış mətbuat nümunələrini müasir oxucu üçün əlçatan etmək məqsədi daşıyır. Külliyyatın 20 cilddə nəşri planlaşdırılmışdır. Hazırda bu külliyyatın 12 cildi çap olunmuşdur. Professor Hafiz Paşayev bu nəşrlərə ön söz yazaraq layihəni ADA Universitetinin tarixi missiyalarından biri kimi təqdim etmişdir.

Görkəmli xeyriyyəçi alimin rəhbərliyi ilə həyata keçirilən digər mühüm layihə isə Tarixi Qazax Müəllimlər Seminariyasının (Qazax şəhəri) binasının ADA Universiteti tərəfindən əsaslı şəkildə bərpa olunmasıdır. Bərpa nəticəsində binada təhsil və mədəniyyət mərkəzi yaradılmış, seminariyanın milli maarifçilik tarixindəki missiyasını yenidən canlandırmaq məqsədi reallaşdırılmışdır. Bu fəaliyyət ADA Universitetinin "Bir müəllimin manifesti" təşəbbüsü çərçivəsində həyata keçirilmişdir.

Əmək və xidmət fəaliyyətinə görə o, müxtəlif yüksək dövlət və xarici təltiflərlə mükafatlandırılmışdır: 2 may 2011-ci ildə "Şöhrət" ordeni, 2 may 2016-cı ildə "Şərəf" ordeni, 9 iyul 2019-cu ildə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni və 29 aprel 2021-ci ildə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir. Həmçinin o, Macarıstan Respublikasının ali təltifi — "Macarıstanın Xidmətlərinə görə Komandor Xaçı" ordeni ilə mükafatlandırılmışdır.

2021-ci ildə Azərbaycan Milli Kitabxanası tərəfindən professor Hafiz Paşayevin elmi və ictimai fəaliyyətini əks etdirən sərgi virtual formatda təqdim olunmuşdur.

MAY
19

Mustafa Kamal Atatürk–145

(1881-1938) Türkiyə Respublikasının banisi



Ədəbiyyat:

Qazi Mustafa Kamal Paşa-Atatürk / A. Mədətoğlu // Türküstan.–2020.– 28 aprel-4 may.– S.18.

Türkiyə: Mustafa Kamal Atatürk ehtiramla yad edilib / E.Y.Aslanova // Respublika.–2021.– 12 noyabr.– S.6.

Mustafa Kamal Atatürk Türkiyə Cümhuriyyətinin banisi və qurucusu / M. Mustafayev // Respublika.– 2022.– 6 noyabr.– S.15.

"Mustafa Kamal Atatürk – 2023" təliminin məşqlərində xüsusi təyinatlılar yüksək peşəkarlıq nümayiş etdirirlər // Azərbaycan.–2023.– 22 oktyabr, №230.– S.3.

Böyük ATATÜRK: O, ən böyük əsərini – bugünkü Türkiyəni xalqına əmanət qoyub / Z.Qurbanqızı // Respublika.– 2024.– 8 noyabr (№ 247).– S.13.

Türk dünyasının liderləri Mustafa Kamal Atatürk və Heydər Əliyevin tale yollarında kəsişən məqamlar / S.Alıoğlu // Respublika.–2025.– 13 aprel(№72).– S.4.

İnternetdə:

https://tr.wikipedia.org/wiki/Mustafa_Kemal_Atatürk

Mustafa Kamal Atatürk 1881-ci il may ayının 19-da (doğum tarixi məlum olmadığı üçün Samsunda Milli mücadilənin başladıldığı gün simvolik olaraq doğum günü hesab edilir) Osmanlı imperiyasına məxsus Salonikdə (indiki Yunanıstanın Salonika şəhəri) anadan olmuşdur.

Təhsilini ilk olaraq Hafız Mehmet Efendi Məktəbində başlamış, sonra Şemsi Efendi Məktəbinə keçmişdir. 1893-cü ildə Askeri Rüştiyəyə daxil olmuş, 1896–1899-cu illərdə Manastır Askeri İdadi Məktəbini bitirərək İstanbul Harb Məktəbinə qəbul olunmuşdur. 1902-ci ildə teğmen rütbəsi ilə məzun olmuş, Harb Akademiyasını 1905-ci ildə kapitan rütbəsi ilə bitirmişdir.

1905–1907-ci illərdə Dəməşqdə 5-ci Orduda xidmət etmiş, 1907-ci ildə adyutant rütbəsi almışdır. 1909-cu ildə İstanbul Hərəkat Ordusunda qərargah rəisi vəzifəsini icra etmiş, 1910-cu ildə Fransaya göndərilərək Pikardi Manevrlarında iştirak etmişdir. 1911-ci ildə Osmanlı-İtaliya müharibəsi zamanı Tobruk və Dərnə bölgəsində xidmət etmiş, 1912-ci ildə Balkan Savaşında Gelibolu və Bolayırdakı birliklərdə iştirak etmişdir. 1913–1914-cü illərdə Sofya Ateşemiliterliyi və yarbaylıq vəzifələrində çalışmış, I Dünya Müharibəsi zamanı 19-cu Tümen komandanı kimi Çanakkale döyüşlərində iştirak edərək Anafartalar və Conkbayırı uğurlarına imza atmışdır. Bu döyüşlərdə göstərdiyi liderlik nəticəsində albaylığa yüksəlmişdir.

1916–1918-ci illərdə Edirne, Diyarbakır, Muş və Bitlis bölgələrində müdafiə və hücum əməliyyatlarında iştirak etmiş, 1918-ci ildə Yıldırım Orduları Qrupuna komandir təyin edilmişdir. Mondros Mütarekəsi ilə orduların ləğvindən sonra 1919-cu ildə 9. Ordu Müfettişi kimi Samsuna çıxmış və Milli Mücadiləni başlamışdır. Amasya, Erzurum və Sivas Kongresini təşkil edərək Türk xalqının müstəqilliyi uğrunda siyasi və hərbi strategiyanı müəyyən etmişdir.

1920-ci il aprelin 23-də Türkiyə Böyük Millət Məclisi fəaliyyətə başlamış, Mustafa Kamal Meclis və Hökumət başqanlığına seçilmişdir. Qurtuluş Savaşı müddətində TBMM tərəfindən qəbul olunan qanunların tətbiqini təmin etmiş, Sakarya zəfərindən sonra 1921-ci ildə mareşal rütbəsi və "Gazi" titulu ilə təltif olunmuşdur. 24 iyul 1923-cü ildə Lozanna müqaviləsinin imzalanması ilə Sevr müqaviləsi ilə parçalanması nəzərdə tutulan Türkiyə torpaqlarında milli birliyə əsaslanan yeni türk dövləti qurulmuşdur.

1922-ci ildə xilafət və sultanlıq ayrılmış, sultanlıq ləğv edilmiş və Osmanlı imperiyasının mövcudluğuna son qoyulmuşdur. 29 oktyabr 1923-cü ildə Türkiyə Respublikasının elan edilməsi ilə Atatürk oybirliyi ilə ilk prezident seçilmiş, 30 oktyabr 1923-cü ildə İsmet İnönü tərəfindən respublikanın ilk hökuməti qurulmuşdur. 1927, 1931 və 1935-ci illərdə Türkiyə Böyük Millət Məclisi tərəfindən yenidən prezident seçilmişdir.

Atatürk, Türkiyəni çağdaş sivilizasiyanın səviyyəsinə çatdırmaq məqsədilə bir sıra siyasi, sosial, hüquqi, mədəni və iqtisadi islahatlar həyata keçirmişdir. Bunlar arasında saltanatın ləğvi, cümhuriyyətin elan edilməsi, xəlifəliyin aradan qaldırılması, qadınlara hüquqların verilməsi, yeni türk əlifbasının qəbul edilməsi, müasir hüquq sisteminin tətbiqi, təhsil və mədəniyyətin modernləşdirilməsi, iqtisadi planların tətbiqi və sənayenin təşviqi xüsusilə qeyd olunmalıdır.

Mustafa Kamal Atatürk 10 noyabr 1938-ci ildə İstanbul Dolmabahçə Sarayında vəfat etmiş, cənazəsi əvvəlcə Ankara Etnoqrafiya Muzeyinə dəfn edilmiş, Anıtkabir tamamlandıqdan sonra 10 noyabr 1953-cü ildə burada yerləşdirilmişdir.

Atatürk, həm hərbi, həm siyasi, həm də mədəni sahələrdə göstərdiyi fəaliyyətlə yalnız Türkiyə tarixində deyil, dünya miqyasında nüfuz qazanmış milli lider kimi tanınır. Azərbaycanda isə Heydər Əliyev tərəfindən 2001-ci ildə Atatürk irsinin öyrənilməsi və təbliği məqsədilə Atatürk Mərkəzi yaradılmış, Bakıda prospekt və parklar salınmış, abidəsi ucaldılmış və Atatürk adına lisey fəaliyyət göstərmişdir.

MAY
25

Akim Abbasov – 115

(1911-1992)

Hərb və dövlət xadimi



Ədəbiyyat:

Bəktaşi, K. General Akim Abbasov / Kamil Bəktaşi; [red. Ə.Mirzəyev].– Bakı: Azərnəşr, 1976.– 80, [3] s.

Kazımov, İ. General Akim Abbasov / İsmayıl Kazımov; red. Ə.Misiroğlu.– Bakı: Qorqud, 1995.– 24 s.

General ömrü / Tərt. və red.: A. Qurbani.– Bakı: Hərbi nəşriyyat, 1996.– 36 s.

Bəhrəmov, C. Azərbaycan oğulları Qafqaz uğrunda döyüşlərdə / C.Bəhrəmov // Elm. - 2010.– 3 mart.– S. 9

Abbasov, E. General-mayor Akim Abbasovun 100 illik yubileyi keçirildi / E.Abbasov // Xalq qəzeti.– 2011.– 25 may.– S. 6.

Rzalı, R. Generalı xatirəsi ehtiramla yad edildi / R.Rzalı // Azərbaycan.– 2011. - 27 may.– S. 8.

Vətənpərvərlik nümunəsi: Akim Abbasov - 110 / R.Salmanlı // Azərbaycan.– 2021.– 9 may.– S.11.

İnternetdə:

https://az.baku-art.com/az/general-mayor-akim-abbasovun-110-yashi-tamam-olur

Akim Əli oğlu Abbasov 1911-ci il mayın 25-də Zəngəzur qəzasının Ərikli kəndində anadan olmuşdur. Əslən Cəbrayıl rayonunun Mehdili kəndindəndir. 1918-ci ildə anasını, 1920-ci ildə atasını itirdikdən sonra dayısı Ələkbər Ələkbərovun himayəsində böyümüşdür. 1923-cü ildə Naxçıvanda yerləşən 3 saylı Zəhmət məktəbinin uşaq evinə köçürülmüş və burada təhsilini tamamlamışdır.

1927-ci ildə Fəhlə-Kəndli Qızıl Ordusunun Zaqafqaziya Hərbi Hazırlıq Məktəbinə daxil olmuş, məktəbi bitirdikdən sonra 1930-cu ildə Tbilisidə yerləşən Zaqafqaziya quru qoşunlarının hərbi kurslarında təhsilini davam etdirmişdir. Həmin dövrdə Ümumittifaq Kommunist (bolşevik) Partiyasına üzv qəbul olunmuşdur. 1932-ci ildə 77-ci dağ-atıcı taqımının, sonralar isə 4-cü dağ-atıcı alayının komandiri təyin edilmişdir. Ardınca 76-cı atıcı diviziyanın qərargahında əməliyyat şöbəsinin rəisi vəzifəsində xidmət etmişdir.

1938-ci ildə Naxçıvana qayıtmış, 1940-cı ildə yenidən 76-cı atıcı diviziyaya göndərilmişdir. II Dünya müharibəsi başlanandan sonra diviziya Cənub-Qərb cəbhəsində döyüşlərə cəlb olunmuşdur. Şoloxov istiqamətində aparılan əks-hücum əməliyyatlarında 137-ci atıcı alayı mühasirədən çıxarmış, 207-ci alayın komandiri həlak olduqdan sonra alaya rəhbərliyi üzərinə götürmüş və 17 yaşayış məntəqəsinin azad edilməsində mühüm rol oynamışdır. Bu əməliyyatlara görə mayor rütbəsinə layiq görülmüşdür.

1942-ci ilin martında Şimali Qafqaz cəbhəsinə göndərilərək 34-cü kursant briqadasına komandanlıq etmiş, daha sonra Zaqafqaziya cəbhəsində 402-ci Azərbaycan atıcı diviziyasının qərargahında əməliyyat şöbəsinin rəisi təyin edilmişdir. Müharibə illərində göstərdiyi fəaliyyət və idarəçilik bacarığı onun hərbi karyerasının daha da yüksəlməsinə imkan yaratmışdır.

Müharibədən sonra Akim Abbasov müxtəlif komandir vəzifələrində xidmət etmiş, 1948-ci ildə Ali atıcılıq kursunu, 1956-cı ildə isə M.V. Frunze adına Hərbi Akademiyanı fərqlənmə ilə bitirmişdir. 1957-ci ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə ona general-mayor ali hərbi rütbəsi verilmişdir. Sonrakı illərdə 216-cı motoatıcı diviziyanın komandir müavini, 295-ci motoatıcı diviziyanın komandiri olmuşdur.

1967-ci ildən etibarən o, Azərbaycan SSR Avtomobil Sənayesi Nazirinin müavini vəzifəsində işləmiş, sonradan Sülhün Müdafiəsi Komitəsində məsul vəzifə daşımışdır. Peşəkar fəaliyyəti dövründə kadrların seçilməsi, onların hazırlanması və nəzarət mexanizminin təkmilləşdirilməsi onun əsas fəaliyyət istiqamətlərindən biri olmuşdur.

General mayor Akim Abbasov Azərbaycan SSR Ali Sovetinin (4-6-cı çağırış) deputatı olub, Azərbaycan KP-nin 22 və 24-cü qurultaylarında MK-nın üzvü seçilib.

1989-cu ildə Bakı Şəhər Müharibə Veteranları Komitəsinin sədri seçilmiş, həmçinin Sovet Müharibə Veteranları Komitəsinin plenumunun üzvü olmuşdur.

Uzunmüddətli xidmətlərinə görə o, "Qırmızı Bayraq" ordeni (iki dəfə), "Qırmızı Ulduz" ordeni (iki dəfə), "Qafqazın müdafiəsinə görə" medalı, "1941–1945-ci illər Böyük Vətən Müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı, "Döyüş xidmətlərinə görə" medalı, "SSRİ Silahlı Qüvvələri veteranı" medalı və müxtəlif fəxri fərmanlarla təltif edilmişdir.

Azərbaycanın ictimai-siyasi həyatında baş verən gərginliklər və xüsusilə 1992-ci il Xocalı faciəsinin xəbəri onun səhhətinə ciddi təsir göstərmiş və 27 fevral 1992-ci ildə Bakıda vəfat etmişdir. General Akim Abbasov Fəxri xiyabanda dəfn olunmuşdur.

MAY
10

Kərim Şükürov – 70

(1956)

Tarixçi



Ədəbiyyat:

Tarixin ən böyük ədalətsizliyi / Kərim Şükürov; müsahibəni apardı: T.Aydınoğlu // Xalq qəzeti.– 2020.– 2 oktyabr.– S.9.

Tarixi Zəfərdən Böyük Qayıdışa / Kərim Şükürov // Xalq qəzeti.– 2021.– 2 sentyabr.– S.1;2.

Ermənistan dövlətinin tarixi məkanı Azərbaycan torpaqlarıdır / Kərim Şükürov;müsahibəni apardı:T.Şükürov // Xalq qəzeti.– 2022.– 29 dekabr.– S.12.

Kürəkçay müqaviləsi çağdaş təhlil aynasında / Kərim Şükürov // Xalq qəzeti.– 2023.– 9 fevral.– S.10.

Azərbaycan tarixində İlham Əliyev epoxası / Kərim Şükürov // Xalq qəzeti.– 2024.– 1 mart, № 47.– S.5.

Azərbaycan-Gürcüstan münasibətləri: (1918-1922-ci illər): Diplomatik missiyaların fəaliyyəti prizmasından baxış / F. Valehoğlu; elmi red. Kərim Şükürov; Türk Mədəniyyəti və İrsi Fondu, AMEA, A. A. Bakıxanov ad. Tarix və Etnologiya İn-tu.– Bakı: [Zərdabi], 2025.– 561, [7] s.

Kərim Kərəm oğlu Şükürov 1956-cı il may ayının 10-da Bərdə rayonunda anadan olmuşdur. O, orta təhsilini 1972-ci ildə Bərdə şəhər 1 №-li orta məktəbdə tamamlayaraq Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə daxil olmuş, 1977-ci ildə ali təhsilini fərqlənmə diplomu ilə başa vurmuşdur. Universiteti bitirdikdən sonra üç il Bərdə şəhər orta məktəbində müəllim və direktor müavini vəzifələrində çalışmış, eyni zamanda Bərdə rayon komsomol komitəsinin ikinci katibi olmuş, Bərdə Şəhər Sovetinin deputatı seçilmişdir.

1980-ci ildə ADU-nun aspiranturasına qəbul olunan Kərim Şükürov həm də universitetdə pedaqoji fəaliyyətə başlamışdır. 1983-cü ildə aspiranturanı başa vurduqdan sonra müəllim kimi fəaliyyətini davam etdirmiş, əvvəlcə SSRİ tarixi, 1989-cu ildən isə Azərbaycan tarixi kafedrasında dərs demişdir. O, Azərbaycanın tarixi demoqrafiyası üzrə Elmi-Tədqiqat laboratoriyasının yaradıcılarından biri kimi bu sahənin formalaşmasına mühüm töhfələr vermiş, laboratoriyaya rəhbərlik etmişdir.

Kərim Şükürov 1984-cü ildə "Cənubi Azərbaycandan Zaqafqaziyaya köçbkarlıq (XIX əsrin 30-cu illəri – 1905-ci il)" mövzusunda namizədlik, 2007-ci ildə "Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək)" mövzusunda isə doktorluq dissertasiyası müdafiə etmişdir. Onun elmi fəaliyyətinin əsas istiqamətlərini əhalinin tarixi dinamikasının araşdırılması, İran və Rusiya imperiyaları arasında miqrasiya proseslərinin hüquqi-siyasi əsaslarının öyrənilməsi, tarixi demoqrafiyanın mənbəşünaslıq məsələləri təşkil edir. Azərbaycan tarixşünaslığında məhz onun tərəfindən bir sıra istiqamətlər ilk dəfə sistemli şəkildə tədqiq edilmişdir.

Kərim Şükürov 2021-ci ildən AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutunun baş direktoru təyin edilib. Azərbaycan Turizm İnstitutunun professorudur. O, həmçinin "Visions of Azerbaijan" jurnalının məsləhətçi redaktoru, Ali Attestasiya Komissiyasının Tarix və Siyasi Elmlər üzrə Ekspert Şurasının üzvü və AzTV-də "Azərbaycan tarixi" proqramının aparıcısı kimi geniş ictimai fəaliyyət göstərmişdir.

Alimin elmi yaradıcılığı çoxşaxəlidir. Onun 10-dan artıq kitab və monoqrafiyası, həmçinin müxtəlif dillərdə çap edilmiş 200-dən artıq elmi məqaləsi nəşr olunmuşdur. Əsas tədqiqat əsərləri sırasında "Azərbaycan əhalisi haqqında ədəbiyyat. Biblioqrafik göstərici." (Bakı, 1994), "Türk xalqları XVI-XX yüzilliklərdə: say dinamikası (Çar Rusiyası və Sovetlər İttifaqı üzrə)" (Bakı, 1997), "Azərbaycan tarixi. Üç hissədə", I-II hissələr (Bakı, 1994-2004), "Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək)" (Bakı, 2004), "Türkmənçay – 1828. Tarixi xronika" (Bakı, 2006), "Qarabağ: real tarix, faktlar və sənədlər" (Bakı, 2005, Yaqub Mahmudovla birgə), "Naxçıvan: tarixi və abidələri", (Bakı, 2007, Y. Mahmudovla birgə) kitabları və digər irihəcmli tədqiqatlar xüsusi yer tutur. Onun əsərləri Azərbaycan dili ilə yanaşı rus, ingilis, alman, ərəb və fars dillərində nəşr edilmişdir.

Kərim Şükürov həmçinin dərslik və proqramların hazırlanmasında iştirak etmiş, Azərbaycan tarixinin müxtəlif dövrlərinə dair çoxsaylı məqalələr yazmış, yerli və beynəlxalq elmi konfranslarda (Ankara, Lefkoşa, Praqa, Naxçıvan, Bakı, Qars, Berlin və s.) iştirak etmişdir.

Professorun 2012-ci ildə Qarabağ, Naxçıvan və İrəvan xanlıqlarının tarixinə dair əsərlərinə görə elm sahəsində Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülmüşdür. Bundan başqa, o, "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalı, eləcə də müxtəlif nüfuzlu elmi qurumların təltifləri ilə mükafatlandırılmışdır. 2025-ci il 5 noyabr tarixində Azərbaycan elminin inkişafına verdiyi xidmətlərə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Azərbaycan Milli Kitabxanası professor Kərim Şükürovun 65 illiyi münasibətilə "Professor Kərim Şükürov" adlı virtual sərgi hazırlayaraq onun həyat və yaradıcılığına dair materialları ictimaiyyətə təqdim etmişdir.

Sabir Cümşüdov – 90

(1936) *İqtisadçı*



Ədəbiyyat:

Sabir Cümşüd-80 // Ədəbiyyat qəzeti.– 2016.– 2 iyul.– S.32.

İçərişəhər: şeirlər / Sabir Cümşüd // Ədəbiyyat qəzeti.– 2018.– 15 sentyabr.– S.30.

Neftçalada yanan məşəl / Sabir Cümşüd // Ədalət.– 2019.– 21 noyabr.– S.7.

Polad necə bərkidi: [şeirlər, poemalar] / V. Əziz; red. S. Cümşüd; [ön söz N. Cəfərov].– [Bakı]: [n. y.], [2021].– 459, [3] s.

Şuşa fatehi: [poema] / [V. Əziz; red. S. Cümşüd; ön söz N. Cəfərov; dizayner S. Qambayeva].– [Bakı]: [n. y.], [2023].– 509, [3] s.

Azərbaycan - Beynəlxalq Münasibətlərdə Bakı limanının rolu: Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunur / N. Ərəbov, S. Müslümova [ön söz. müəllifləri]; elmi red. S. Cümşüd; [çapa məsul: X. Nəsirov, K. Sultanova, T. Fətullayeva].– Bakı: [Apostrof-A], 2024.– [9] v., 207, [1] s.

İnternetdə:

https://cenublu.az/tarixi-faktlar-v-s-xsl-r/faiq-agayev-ucun-mahni-yazan-astarali-sair-sabir-cumsud/

Cümşüdov Sabir Qənbər oğlu 5 may 1936-cı ildə Astara rayonunun Motlayataq kəndində anadan olmuşdur. O, ibtidai və orta təhsilinin müxtəlif mərhələlərini Astara və Lerik rayonlarının kənd məktəblərində almış, 1953-cü ildə Astaranın M.F.Axundov adına Pensər kənd orta məktəbini fərqlənmə ilə bitirmişdir. Həmin ildə Azərbaycan Politexnik İnstitutunun "Avtomobillər və avtomobil təsərrüfatı" ixtisasına qəbul olunmuş, 1958-ci ildə ali təhsilini fərqlənmə ilə başa çatdırmış və Avtomobillər kafedrasında müəllim kimi saxlanılmışdır.

1958–1962-ci illərdə Azərbaycan SSR "Avtomobil nəqliyyatı" Nazirliyinin Xaçmaz və Bakı avtotəsərrüfatlarında mühəndis və baş mühəndis vəzifələrində çalışmışdır. 1963–1965-ci illərdə Moskva Dövlət Avtomobil-Yol İnstitutunda aspirantura keçmiş, 1965-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. 1971-ci ildə həmin institutda doktorluq işi müzakirədən keçmiş və yüksək qiymətləndirilmiş, iqtisad elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

Sabir Cümşüdov 1965-ci ildən etibarən Azərbaycan Texniki Universitetində pedaqoji fəaliyyət göstərmiş, 1980-ci ildən xidmət sahələrinin iqtisadiyyatı və menecment istiqamətində kafedra müdiri olmuşdur. 1970–1990-cı illərdə SSRİ ali təhsil üzrə Elmi-metodik Şuranın üzvü kimi fəaliyyət göstərmişdir. 1980-ci ildə SSRİ üzrə həyata keçirilən "Elmi-texniki tərəqqinin kompleks proqramı" çərçivəsində Azərbaycanın nəqliyyat və rabitə bölməsinin hazırlanmasını yerinə yetirmiş, bu iş SSRİ Elmlər Akademiyası tərəfindən nəşr olunmuşdur.

2011-ci ildə Azərbaycan Respublikasının "Tərəqqi" medalı ilə, sovet dövründə isə "Şərəfli əməyə görə" və "Rəşadətli əməyə görə" medalları ilə təltif edilmişdir. "Qızıl Qələm" mükafatına layiq görülmüşdür.

Elm və tədris fəaliyyəti boyunca o, 450-dən artıq elmi əsərin, çoxsaylı dərslik və dərs vəsaitlərinin, habelə bir neçə monoqrafiyanın müəllifi olmuş, müxtəlif illərdə dissertasiya şuralarında sədr və üzv qismində çıxış etmiş, namizədlik və doktorluq dissertasiyalarının müdafiəsində rəsmi opponent olmuşdur. AAK-ın qərarı ilə Azərbaycan Texniki Universiteti nəzdində yaradılmış iqtisadiyyat üzrə Dissertasiya Şurasına rəhbərlik etmişdir.

2003-cü ildən Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında professor kimi fəaliyyət göstərir, burada müxtəlif təhsil formalarında mühazirələr oxuyur və doktorantlara elmi rəhbərlik edir. Müəyyən müddətdə Azərbaycan Dövlət İqtisad Universitetində də dərs demişdir.

Sabir Cümşüdov elmi fəaliyyətlə yanaşı bədii yaradıcılıqla da məşğul olmuşdur. Ədəbi fəaliyyətə 1976-cı ildə "Azərbaycan gəncləri" qəzetində dərc olunmuş "Yaylaqlar" şeiri ilə başlamışdır. Bundan sonra onun müxtəlif şeirləri, məqalələri və hekayələri dövrü mətbuatda çap edilmiş Onun "Kamillik zirvəsi" (1980), "Göyün çıraqları" (1981), "Günəş damcıları" (1983), "Bahar nəfəsi" (1989), "Talış dağları" (1997), "Meşəli dağlar" (2005), "Mavi səma" (2018), "Mücrü" (2018) və "Dağlarda yanan işıq" (2016) kimi əsərləri çap olunmuşdur. "Məhəbbət ülviyyəti" kitabı 2025-ci ildə nəşr edilmişdir. Onun bəzi şeirləri əsasında mahnılar bəstələnmişdir.

Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

MAY
18

Mehbalı Qasımov – 120

(1906-1963)

Filosof



Ədəbiyyat:

M. F. Axundov və XIX əsrin rus inqilabı-demokratik estetikası / Mehbalı Qasımov; Azərb. SSR EA Tarix və Fəlsəfə İn-tu; [red. Ə. Əhmədov].– Bakı: Azərb. SSR EA nəşriyyatı, 1954.– 82, [1] s.

Azərbaycanda estetik fikir tarixindən / Mehbalı Qasımov, C.C.Cəfərov; red. S.Tarverdiyev.– Bakı: Azərnəşr, 1964.– 79, [1] s.

Fəlsəfi fikir tariximizdə Qasımov imzası: Ömər Xəyyamın fəlsəfi dünyasını öyrənən alim // Azadlıq.– 2013.– 22 iyul.– S.14.

Fərəcov, S. Fəlsəfi fikir tariximizin görkəmli tədqiqatçısı / S.Fərəcov // Mədəniyyət.– 2020.– 22 may.– S.6.

Ağayev, M. Azərbaycanın müasir fəlsəfə tədqiqatçıları: [Monoqrafiya] / M. Ağayev; elmi red. R. Əhmədli; [Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Sosiologiya İn-tu].– Bakı: Elm və təhsil, 2021.– 413, [3] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Mehbalı_Qasımov

Mehbalı Məhəmməd oğlu Qasımov 1906-cı il may ayının 18-də Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Xoşkeşin kəndində anadan olmuşdur. O, ilk təhsilini doğma kəndində aldıqdan sonra Naxçıvan Kənd Təsərrüfatı Texnikumunda orta ixtisas təhsili almışdır. 1932-ci ildə Moskva Fəlsəfə, Ədəbiyyat və Tarix İnstitutunun fəlsəfə fakültəsinə daxil olaraq 1937-ci ildə buranı müvəffəqiyyətlə bitirmişdir. Ali təhsilini tamamladıqdan sonra respublikanın bir sıra ali məktəblərində dialektik və tarixi materializmdən dərs demişdir.

1940-cı ilin mart ayında ordu sıralarına çağırılan Mehbalı Qasımov İkinci Dünya müharibəsinin sonunadək Sovet ordusunun tərkibində alman faşizminə qarşı döyüşmüş, mayor rütbəsi ilə ordudan tərxis olunmuşdur. Müharibədən sonra, 1945-ci ildən etibarən Azərbaycan SSR Elmlər Akademiyasının Fəlsəfə İnstitutunda elmi əməkdaş kimi fəaliyyət göstərmişdir. 1946-cı ildə "Ömər Xəyyamın fəlsəfi dünyagörüşü" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1950–1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fəlsəfə kafedrasının müdiri vəzifəsində çalışmışdır.

1956-cı ildə "Rusiyanın XIX əsr qabaqcıl ideyalarının Azərbaycanda ictimai fikrin inkişafına təsiri" mövzusunda doktorluq dissertasiyasını Moskva şəhərində müvəffəqiyyətlə müdafiə edərək fəlsəfə elmləri doktoru elmi dərəcəsi almış, 1957-ci ildə professor adına layiq görülmüşdür. O, Azərbaycan fəlsəfi, ictimai-siyasi və estetik fikir tarixi sahələrində genişmiqyaslı tədqiqatlar aparmış, sanballı elmi əsərləri ilə tanınmışdır. Alimin "Ömər Xəyyamın rübailərində materializm" (1947), "V. Q. Belinski XIX əsr rus klassik fəlsəfəsinin görkəmli nümayəndəsidir" (1950), "M. F. Axundov və XIX əsr rus inqilabi-demokratik estetikası" (1954) əsərləri elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmışdır. O, həmçinin altıcildlik "Fəlsəfə tarixi" dərs vəsaitinin müəlliflərindən biri olmuşdur.

Mehbalı Qasımov Azərbaycan ictimai və fəlsəfi fikir tarixinin inkişafında mühüm rol oynamışdır. Onun irəli sürdüyü elmi konsepsiyanın nüvəsini hər bir xalqın ictimai-fəlsəfi fikrinin özünəməxsus və qədim tarixi köklərə malik olması ideyası təşkil edirdi. O, xalqın milli fəlsəfi fikrinin inkişafında digər xalqların mütərəqqi ideyalarının da əhəmiyyətini vurğulayırdı. Bu mövqedən çıxış edərək Azərbaycan fəlsəfi fikrinin Şərq və Qərb fəlsəfəsi arasında mühüm körpü rolunu oynadığını əsaslandırmışdır.

Professor Mehbalı Qasımov elmi kadr hazırlığı sahəsində də böyük xidmətlər göstərmişdir. Onun rəhbərliyi altında qısa müddətdə 40-dan artıq elmlər namizədi və elmlər doktoru yetişmişdir. O, Azərbaycan SSR Nazirlər Soveti yanında Ali və Orta İxtisas Təhsili Komitəsinin ictimai elmlər şöbəsinin müdiri, SSRİ Ali Attestasiya Komissiyasının fəlsəfə elmləri bölməsinin, "Azərbaycan kommunisti" jurnalının və bir sıra elmi nəşrlərin redaksiya heyətlərinin üzvü olmuşdur.

Mehbalı Qasımovun elmi fəaliyyəti və ictimai xidmətləri yüksək qiymətləndirilmiş, o, Azərbaycan SSR-in "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Mehbalı Məhəmməd oğlu Qasımov 1963-cü ilin iyul ayında Bakıda vəfat etmişdir.

Mehbalı Qasımov Azərbaycan fəlsəfəsinin formalaşmasına və inkişafına mühüm töhfələr vermiş, yaratdığı elmi məktəb, yetişdirdiyi alimlər və zəngin elmi irsi ilə milli elmin tarixində əbədi yer qazanmışdır.

MAY
1

Tofiq Hacıyev – 90

(1936-2015)

Akademik



Tofiq İsmayıl oğlu Hacıyev 1936-cı il mayın 1-də Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olmuşdur. Orta təhsilini doğma kəndində tamamladıqdan sonra 1953-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsinə daxil olmuş, 1958-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmişdir. Eyni ildə universitetin aspiranturasına qəbul olunan T.Hacıyev 1962-ci ildə "Azərbaycan dilinin Cəbrayıl şivəsi" mövzusunda namizədlik dissertasiyası, 1969-cu ildə "XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. O, 1972-ci ildə professor elmi adını almış, 2007-ci ildə AMEA-nın müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilmişdir.

Tofiq Hacıyev elmi fəaliyyətinə 1958-ci ildə Azərbaycan Pedaqoji Dillər İnstitutunda başlamış, 1962–1968-ci illərdə həmin institutda müəllim, baş müəllim və dosent vəzifələrində çalışmışdır. 1968-ci ildən etibarən Azərbaycan Dövlət Universitetində (BDU) fəaliyyətini davam etdirmiş, 1969–1970-ci illərdə Azərbaycan dilçiliyi kafedrasının dosenti, 1970–1984-cü illərdə türkologiya kafedrasının professoru olmuşdur. 1984-cü ildən ömrünün sonunadək BDU-nun Türkologiya kafedrasına rəhbərlik etmiş. Onun rəhbərliyi ilə onlarca filoloq alim yetişmiş, 6 nəfər elmlər doktoru, 30-dan çox fəlsəfə doktoru elmi işlərini müdafiə etmişdir.

Akademik Tofiq Hacıyevin elmi yaradıcılığı Azərbaycan dilçiliyi, ədəbi dil tarixi, dialektologiya, üslubiyyat və ümumtürkoloji tədqiqatların geniş spektrini əhatə edir. Alim ədəbi dilin inkişaf mərhələlərinə dair sistemli araşdırmalar aparmış, "Satira dili", "XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili", "Sabir: qaynaqlar və sələflər", "Molla Nəsrəddinin dili və üslubu" kimi fundamental monoqrafiyalar hazırlamış. Onun "Azərbaycan ədəbi dili tarixi (təşəkkül dövrü)" adlı 1976-cı il dərslik-monoqrafiyası ədəbi dilimizin qədim qatlarına dair mühüm konsepsiyaları ilə Azərbaycan dilçilik elminin inkişafına mühüm töhfə vermişdir.

T.Hacıyev sonrakı illərdə də ədəbi dil tarixi istiqamətində araşdırmalarını davam etdirmiş, "Azərbaycan dili tarixi" (K.Vəliyevlə birgə, 1983), "Azərbaycan ədəbi dili tarixi" (II hissə, 1987), "Azərbaycan dili" (Z.Budaqova ilə birgə, 1993) kimi dərslik və monoqrafiyalar hazırlamışdır. Onun ən genişhəcmli tədqiqat işi – 2012-ci ildə nəşr edilmiş "Azərbaycan ədəbi dilinin tarixi" adlı iki cildlik sanballı dərslik-monoqrafiya – Azərbaycan dilçiliyində bu sahənin ən fundamental elmi mənbələrindən biri hesab olunur.

Alimin diqqət yetirdiyi mühüm istiqamətlərdən biri də "Kitabi-Dədə Qorqud" irsinin araşdırılması olmuşdur. 1975–1976-cı illərdə Kamil Vəliyevlə birlikdə universitetdə təşkil etdiyi "Dədə Qorqud" seminarları ölkədə qorqudşünaslıq ənənəsinin elmi əsaslarla inkişafına zəmin yaratmışdır. Onun "Dədə Qorqud: dilimiz, düşüncəmiz" (1999) monoqrafiyası, həmçinin "Azərbaycan ədəbiyyatı tarixi"nin I və II cildlərindəki (2006, 2007) qədim türk abidələrinə həsr olunmuş oçerkləri tədqiqat sahəsində mühüm elmi nəticələrlə səciyyələnir.

Tofiq Hacıyev tərcüməçilik sahəsində də məhsuldar fəaliyyət göstərmiş, Murad Adcinin "Qıpçaq çölünün yovşanı", "Dünya və türk: munis tariximiz", B.Serebrennikov və N.Hacıyevanın "Türk dillərinin müqayisəli qrammatikası", eləcə də İbn Mühənnanın "Hilyətül-insan və həlbətül-lisan" əsərlərini Azərbaycan dilinə çevirmişdir.

Akademik T.Hacıyev 1993-cü ildə Azərbaycan Respublikasının maarif naziri təyin olunmuş, 2013–2015-ci illərdə AMEA Nəsimi adına Dilçilik İnstitutuna rəhbərlik etmişdir.

Görkəmli dilçi alim və türkoloqun elmi və ictimai fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, 1999-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 30 oktyabr 2009-cu ildə Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir. Bundan əlavə, Tofiq Hacıyev Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur. O, həmçinin Azərbaycan Yazıçılar Birliyinin və onun Ağsaqqallar Şurasının üzvü, Türkiyə Cümhuriyyəti Atatürk Dil, Tarix və Kültür Qurumunun fəxri üzvü idi.

Tofiq Hacıyev 27 noyabr 2015-ci ildə Bakıda vəfat etmiş, İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur

Ədəbiyyat:

Klassik ədəbi irsimizdə Tofiq Hacıyev baxışı / S.Zeynal // 525-ci qəzet.– 2021.– 5 may.– S.18.

Türk və dünya: munis tariximiz / M. Adcı; ruscadan tərc. ed. T. Hacıyev.– [Bakı]: [Kitab Klubu], [2022].– 289, [1] s.

Akademik Tofiq Hacıyevin dilçilik məktəbi / S. Zeynal // İki sahil.– 2023.– 28 noyabr, №217.– S.5.

Akademik Tofiq Hacıyevin dilçilik görüşləri: (Monoqrafiya) / Sərdar Zeynal; elmi red. M. Hüseynova.– Bakı: Elm və təhsil, 2024.– 250, [2] s., [4] v.

Türkçülüyü türklüyə şöhrət: akademik Tofiq Hacıyev / S.Zeynal // 525-ci qəzet.– 2025.– 21 may(№87).– S.13.

Əhmədzadə, O. Akademik Tofiq Hacıyevin filoloji görüşləri: Filologiya [üzrə] fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı : 5706.01 /O. A. Əhmədzadə. - Sumqayıt: 2025.-26, [1] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Tofiq_Hacıyev_(akademik)

MAY
2

Rəhim bəy Məlikov – 140

(1886-1936)

Fizik



Rəhim bəy Mehrəli bəy oğlu Məlikov 1886-cı il may ayının 2-də (b.m. 20 aprel) Göyçay qəzasının Zərdab kəndində (indiki Zərdab şəhəri) anadan olmuş. Atasını erkən yaşlarında – səkkiz yaşında ikən itirən Rəhim bəy ailənin yaxın qohumu və görkəmli maarifçi Həsən bəy Zərdabinin himayəsinə verilmişdir. Həsən bəy onu öz ailəsinin bir üzvü kimi tərbiyə etmiş və 1895-ci ildə Hacı Zeynalabdin Tağıyevin dəvəti ilə Bakıya köçərkən Rəhim bəyi də özü ilə aparmışdır.

O, Bakıda real məktəbdə təhsil almış və 1906-cı ildə bu təhsil müəssisəsini müvəffəqiyyətlə bitirərək Rusiya imperiyasının nüfuzlu ali məktəblərindən olan Kazan Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. Universitetdə özünü yüksək istedadlı tələbə kimi göstərmiş, milli maarifçilik hərəkatının ideyaları ilə yaxından tanış olmuşdur. Tələbəlik illərində o, milli ədəbiyyat və teatrla maraqlanmış, publisistik fəaliyyətlə məşğul olmuşdur. Xüsusilə M.F.Axundovun və H.Zərdabinin maarifçilik ideyalarının təsiri altında o, ictimai fikirdə fəal mövqe tutaraq "Molla Nəsrəddin" məktəbinin məfkurəsini dəstəkləmişdir.

1912-ci ildə ali təhsilini yüksək nəticələrlə başa vuran Rəhim bəy Şimali Qafqazın Qroznı, Maykop və Pyatiqorsk şəhərlərində ali kurslarda fizika və riyaziyyatdan dərs demişdir. Onun pedaqoji fəaliyyəti Terek Xalq Maarif Şöbəsi tərəfindən yüksək qiymətləndirilmişdir.

1923-cü ildə Nəriman Nərimanovun təşəbbüsü ilə Azərbaycana dəvət olunan Rəhim bəy milli ali təhsil quruculuğuna cəlb edilmişdir. O, Azərbaycan Pedaqoji İnstitutunda (indiki Azərbaycan Pedaqoji Universiteti) fizika müəllimi kimi fəaliyyətə başlamış, sonralar Azərbaycan Dövlət Universitetində (indiki BDU), Azərbaycan Neft və Kimya İnstitutunda (ADNSU), Sovet Ticarəti İnstitutunda, eləcə də müxtəlif texnikumlarda dərs demişdir. 1930-cu ildən isə ömrünün sonunadək Pedaqoji İnstitutun Fizika kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Rəhim bəy Məlikov Azərbaycan dilində istilik fizikasına dair ilk dərsliyin (əlyazma) müəllifi kimi ölkənin elmi-pedaqoji tarixində xüsusi yer tutur. O, həmçinin fizika və riyaziyyata dair terminoloji lüğətin, elmi proqramların və tədris vəsaitlərinin müəllifidir. Onun elmi fəaliyyəti Azərbaycanda ilk peşəkar fizika məktəbinin formalaşmasına mühüm töhfə vermişdir.

Elm və pedaqoji fəaliyyətlə yanaşı, Rəhim bəy ictimai, ədəbi və mədəni sahələrdə də fəal olmuşdur. Azərbaycan qadınının ictimai azadlığı, maarifin inkişafı, cəmiyyətdə mövcud sosial problemlər haqqında məqalələr yazmış, bu mövzulara dair fikirlərini dövri mətbuatda geniş şəkildə ifadə etmişdir. Onun 1908-ci ildə "Seqodnya" qəzetində dərc etdirdiyi "Teatr oçerki" adlı resenziyası Azərbaycan teatrının vəziyyəti və Hüseynqulu Sarabskinin "Cəhalət" pyesinin səhnə həlli haqqında əhatəli təhlili ilə seçilir. Kəskin tənqidi mövqeyinə görə o, mətbuatda hücumlara məruz qalmış, lakin Nəriman Nərimanov tərəfindən açıq şəkildə müdafiə olunmuşdur. Rəhim bəy realist Azərbaycan ədəbiyyatının bir sıra nümunələrini rus dilinə tərcümə etməklə milli ədəbiyyatın təbliğinə də xidmət etmişdir.

Rəhim bəy Mehrəli bəy oğlu Məlikov 1936-cı il fevralın 23-də Bakıda vəfat etmişdir.

Rəhim bəy Məlikov Azərbaycan elminin, xüsusən fizika sahəsinin milli dildə inkişafında müstəsna rolu olan ziyalı, maarifçi və pedaqoqdur.

Ədəbiyyat:

Azərbaycanda ilk fizika professoru - Rəhim bəy Məlikov / Şamil Qurbanov // Müəllimlər.– Bakı, 2003.– S. 75-108.

Aydınoğlu, T. Rəhim bəy Məlikov - 125. Azərbaycanın ilk fizika alimi / Tahir Aydınoğlu // Xalq qəzeti. - 2011

Həsənov, E. Rəhim bəy əlikov Mehralı bəy oğlu // Həsən bəy Zərdabi irsi: keşməkeşli həyat yolu / Eldəniz Həsənov; elmi red.: J.Əliyeva, İ.Rüstəmov; red. İ.Əliyeva.– Bakı, 2013.– S. 59-61.

Tarix heç nəyi unutmur: [Elmi-publisistik və bədii məqalələr toplusu] / Q. Dünyaminqızı; red. A. Tahirli; [ön söz C. Məmmədli].– Bakı: [Füyuzat], 2022.– 283, [1] s.

İnternetdə:

https://www.zerdab.com/?p=515

https://az.wikipedia.org/wiki/R%C9%99him_b%C9%99y_M%C9%99likov

Hənifə Məlikova-Abayeva – 170

(1856-1929)

Maarifçi



Ədəbiyyat:

Məlikova-Abayeva Hənifə xanım // Azərbaycan qadını ensiklopediyası / Red. hey. R.Mehdiyev [və b.]; baş red. İ.Vəliyev; müəl. X.Abbasov [və b.].– Bakı, 2002.– S. 272

Vəzir, M. Məlikova-Abayeva Hənifə // Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar = Role Models: Women daring to change / Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC); müəllif M.Vəzir.– Bakı, 2008.– S. 63

Tarixə adını yazan Azərbaycan qadınları / Q. Paşayeva; [red.: Ə. Qoşalı, T. Turan Rəhimli, K. Səid; dizayner.: K. Məcidov, Y. Bağırova; Avrasiya Beynəlxalq Araşdırmalar İn-tu İB, Regional Hüquqi və İqtisadi Maarifləndirmə İctimai Birliyi, Gözəl Yaşam Mərkəzi].– Bakı: [CBS], 2023.– 370, [6] s.

Quliyev, V. Yüzlərin, minlərin anası... / Vilayət Quliyev // 525-ci qəzet.– 2024.– 27 aprel,№73.– S.10-11;12.

İnternetdə:

https://visiontv.az/article/adi-kimi-heqiqi-esil-xalis-temiz-henife-xanim-abayeva-melikova

Hənifə xanım Aslanbəy qızı Məlikova-Abayeva 1856-cı il mayın 5-də Şimali Qafqazda, Nalçikdə anadan olmuşdur. O, müsəlman dünyasının ilk maarifçi qadınlarından biri kimi tanınır. Kiçik yaşlarından valideynlərini itirən Hənifə xanım nənəsinin himayəsində böyümüşdür.

Təhsilini Tiflisdəki "Müqəddəs Nina" qız məktəbində almışdır. Burada aldığı dünyəvi və pedaqoji təhsil onun gələcək maarifçilik fəaliyyətinin əsasını təşkil etmişdir. Hənifə xanım 1872-ci ildə məktəbi bitirdikdən sonra bir il pedaqoji kursda qalmış və müəllimlik fəaliyyətinə hazırlanmışdır.

Həyat yoldaşı Həsən bəy Zərdabi ilə tanışlıq və ailə həyatı onun ictimai fəaliyyətini daha da gücləndirmişdir. Hər ikisi Azərbaycanın ilk mətbu orqanı olan "Əkinçi" qəzetinin yaradılması və nəşrində fəal iştirak etmişlər. 1880-ci ildə öz mənzilində açdıqları "Xalq məktəbi" vasitəsilə heç bir təmənna ummadan kimsəsiz uşaqlara təhsil vermiş, onları elm və savadla təmin etmişlər. Hənifə xanım həmçinin 1904-1908-ci illərdə yaşlılara da dərs demişdir.

Bakıya gəldikdən sonra Hənifə xanım Nicat cəmiyyəti qadın bölməsinin yaradıcılarından biri olmuş, türk qadınlarının təhsil səviyyəsini yüksəltmək və onları ziyalı şəxsiyyət kimi yetişdirmək üçün çalışmışdır. Hacı Zeynalabdin Tağıyevin dəstəyi ilə 1901-ci ildə Bakıda açılan ilk qızlar məktəbinin müdiri olmuş, 1901-1905-ci illərdə bu vəzifəni icra etmişdir. 1909-1919-cu illərdə Bakı şəhər Dövlət Birinci Rus-Tatar qız məktəbinin rəhbəri olmuşdur.

Hənifə xanım Məlikova-Abayeva maarifçilik fəaliyyətini təkcə Bakı və Azərbaycanın şəhərləri ilə məhdudlaşdırmayaraq, Cənubi Qafqazda da geniş yaymışdır. 1920-1926-cı illərdə Azərbaycan Xalq Maarif Komissarlığında məsul vəzifələrdə çalışmışdır. Onun təhsilə, qadın maarifçiliyinə və sosial xeyriyyəyə verdiyi töhfələr dövrünün nümunəvi maarifçilik fəaliyyətini əks etdirir.

Hənifə xanım həm də iki türk xalqı – azərbaycanlılarla balkarları yaxınlaşdırmaqda mühüm rol oynamışdır. Misost Abayev və Basiyat Şaxanov kimi balkar ictimai xadimlərinin Bakıda fəaliyyət göstərməsinə dəstək olmuş, onların təhsil və maarif işlərinə köməklik göstərmişdir.

Hənifə xanım Aslanbəy qızı Məlikova-Abayeva 1929-cu ildə Bakıda vəfat etmiş, əvvəlcə şəhər qəbiristanlığında dəfn edilmiş, sonralar həyat yoldaşı Həsən bəy Zərdabinin məzarının yanına, Fəxri Xiyabana köçürülmüşdür.

Onun maarifçilik fəaliyyəti və qadın təhsilinə verdiyi töhfələr Azərbaycan tarixində dəyərli iz buraxmışdır. 2011-ci ildə Həsən bəy Zərdabinin anadan olmasının 155 illiyi ilə əlaqədar AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda Hənifə xanım Məlikova-Abayeva haqqında elmi-nəzəri konfrans keçirilmişdir.

Hənifə xanımın həyatı göstərir ki, maarifçilik və qadın təhsili sahəsində fədakarlıq, nəcib məqsədlər və şəxsiyyətə hörmət ictimai tərəqqinin əsas dayaqlarıdır. O, öz fəaliyyəti ilə Azərbaycan qadınlarının müstəqil, savadlı və cəmiyyət üçün faydalı şəxsiyyət kimi yetişməsinə mühüm töhfə vermişdir.

MAY
26

Akif Hüseynov – 85

(1941) *Filoloq, ədəbiyyatşünas*



Akif Məmməd oğlu Hüseynov 1941-ci il mayın 26-da Gürcüstanın Tbilisi şəhərində anadan olmuşdur. Təhsilini Tbilisidəki 31 saylı şəhər məktəbində başlayıb, Bakıda 132 saylı orta məktəbi bitirmişdir (1948–1958). 1964-cü ildə Azərbaycan Dövlət Universitetinin (ADU) filologiya fakültəsini tamamlamış, 1965–1968-ci illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsil almışdır.

Əmək fəaliyyətinə 1967-ci ildə "Azərbaycan" jurnalında tənqid və ədəbiyyatşünaslıq şöbəsinin müdiri vəzifəsindən başlamış, 1971–1973-cü illərdə "Ulduz" jurnalının baş redaktoru olmuşdur. 1973–1976-cı illərdə Nizami adına Ədəbiyyat İnstitutunda ədəbiyyat nəzəriyyəsi şöbəsinin kiçik elmi işçisi, 1976–1992-ci illərdə müasir ədəbi proses şöbəsində böyük elmi işçi kimi fəaliyyət göstərmiş, 1992-ci ildən həmin institutda şöbə müdiri vəzifəsini icra edir. Bakı Mühəndislik Universitetində pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Ədəbi fəaliyyətə 1966-cı ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunmuş "Ədəbiyyatda milli xüsusiyyətlər" məqaləsi ilə başlamış, dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. Tənqidçi kimi Azərbaycan ədəbiyyatında xüsusi xidmətlər göstərmiş, yeni nəsrin tənqidçisi kimi tanınmışdır. Onun 1980-ci ildə çap olunmuş "Nəsr və zaman", 1983-cü ildə çap olunmuş "Müxtəlifliyin birliyi", 2001-ci ildə çap olunmuş "Həyat və sənət həqiqəti", 2002-ci ildə çap olunmuş "Sevgi nəğmələri" və digər əsərləri Azərbaycan nəsrinin sənətkarlıq məsələləri və nəzəri problemləri ilə bağlı dəyərli tədqiqatlar kimi qiymətləndirilir.

Professor Akif Hüseynli Azərbaycan ədəbiyyatında milli kimlik məsələlərini, milli psixologiyanın bədii nümunələrdə təzahürünü ətraflı tədqiq etmiş, milli-mənəvi və bəşəri prinsiplərin ədəbi təhlildə birgə işlənməsinə diqqət yetirmişdir. O, gənc tədqiqatçılara elmi rəhbərlik etmiş, onların fərdi üslubunun formalaşmasına dəstək olmuşdur.

Akif Hüseynli 1973-cü ildə Azərbaycanfilm Kinostudiyası tərəfindən lentə alınmış "Cəfər Cabbarlı. Səhnə əsərləri" sənədli filmin ssenari müəllifi olmuşdur. Eyni zamanda, Azərbaycan ədəbiyyatının müxtəlif nümayəndələri ilə dəyirmi masalar və görüşlər təşkil etmiş, ədəbi prosesi və ziyalı mühitini zənginləşdirmişdir

Akif Hüseynli elmi və pedaqoji fəaliyyəti ilə Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfələr vermiş, tənqidçilik sahəsində yeni yanaşmalar təqdim etmişdir. Onun əsərləri ədəbi nəzəri təhlilin, milli kimlik və estetik prinsiplərin öyrənilməsi baxımından dəyərli mənbədir.

Ədəbiyyat:

Şərifova, S. Ədəbi prosesə nəzəri baxış: Tənqidi məqalələr 2003-2005-ci illər / Salidə Şərifova; Elmi red.: Akif, Hüseynov; AMEA, Nizami adına Ədəbiyyat İnstitutu.– Bakı: Maarif, 2006.– 210 səh.

Ədəbiyyatşünaslığın əsasları: [filologiya fakültəsinin tələbələri üçün dərslik] / Rafiq Yusifoğlu; elmi red. Yaşar Qarayev; rəyçilər Məhərrəm Qasımlı, Akif Hüseynov; Azərbaycan Respublikası Təhsil Nazirliyi, Sumqayıt Dövlət Universiteti.– Bakı: [ADPU], 2009.– 288, [1] s.

Akif Hüseynov – 70: Azərbaycan Yazıçılar Birliyinin təbriki // Ədəbiyyat qəzeti.– 2011.– 22 iyul.– S. 3.

İnternetdə:

https://literature.az/?page=119215&newsId=119215&lang=aze

Səlimə Mehdiyeva – 85

(1941)

Alim



Səlimə İbrahim qızı Mehdiyeva 1941-ci il may ayının 21-də Naxçıvanda anadan olmuşdur. 1958-ci ildə Bakı şəhəri 114 saylı orta məktəbi bitirərək, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) fizika fakültəsinə daxil olmuş və 1963-cü ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Həmin il Azərbaycan Elmlər Akademiyası Fizika İnstitutunda yarımkeçiricilər fizikası ixtisası üzrə aspiranturaya daxil olmuş, burada akademik Həsən Abdullayevin rəhbərliyi altında selen yarımkeçiricisinin müxtəlif aqreqat hallarının fiziki xassələrinin tədqiqi üzrə elmi-tədqiqat işləri aparmağa başlamışdır.

1967-ci ildə Vilnüs Dövlət Universitetində "Yüksək təmizlikli selenin bəzi fiziki xassələri" mövzusunda dissertasiya müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi dərəcəsi almışdır. 1988-ci ildə "Selen və polietilen əsasında xətti polimer yarımkeçirici və dielektriklərin quruluşu və fiziki xassələri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1993-cü ildə professor elmi adını qazanmışdır. 2017-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Əmək fəaliyyətinə Fizika İnstitutunda başlayan Səlimə Mehdiyeva burada kiçik elmi işçi, böyük elmi işçi, institutun elmi katibi, 1995–2002-ci illərdə elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmışdır. 1976-cı ildə Fizika İnstitutunda "Qeyri-kristallik yarımkeçiricilərin fizikası" laboratoriyasını yaratmış və indiyədək həmin laboratoriyaya rəhbərlik edir.

Professor Mehdiyeva elmi məktəb yaratmış, fundamental və tətbiqi əhəmiyyətli nəticələr əldə etmişdir. Onun müəllif olduğu elmi əsərlər arasında bir monoqrafiya, 224 elmi məqalə (onlardan 61-i beynəlxalq bazalarda indeksləşdirilmiş jurnallarda), 127 xarici nəşr, 14 müəlliflik şəhadətnaməsi və patent vardır. O, 1 elmlər doktoru və 13 fəlsəfə doktoru yetişdirmişdir. Həmçinin, bir sıra beynəlxalq qrant layihələrinin iştirakçısı olmuş və 40-dan çox beynəlxalq və respublika konfranslarında məruzə ilə çıxış etmişdir.

Elmi nailiyyətləri arasında ilk dəfə selenin köçürmə hadisələrinin, tarazlıqda olmayan elektron proseslərin mexanizmlərinin və keçiricilik tipinin mənşəyinin müəyyən edilməsi, amorf və kristal selenin elektrik, optik, istilik və mexaniki xassələrinə xarici faktorların təsir mexanizmlərinin araşdırılması vardır. Selenin xassələrindəki anomaliyaların oksigenin miqdarı və vəziyyəti ilə bağlı olduğu müəyyən edilmiş, seleni oksigendən təmizləmək üçün xüsusi qurğu hazırlanmışdır. Bu nəticələr yüksək səmərəli selen cihazlarının hazırlanmasına və xüsusi istehsal sahəsinin yaradılmasına imkan vermişdir.

Son illərdə selen əsasında şüşəvari xalkogenid yarımkeçirici sistemlərdə elektron proseslər araşdırılmış, kristallaşmaya davamlı, fotohəssas və yüksək müqavimətli binar və üçqat HŞY sistemlərinin alınma texnologiyası işlənmişdir. Nadir torpaq elementləri əlavə olunmaqla bu sistemlərin elektron xassələrinin məqsədyönlü dəyişdirilməsi və tətbiq sahələrinin genişləndirilməsi təmin edilmişdir. Hallogen aşqarlarının HŞY sistemlərin dreyf yürüklüyü, injeksiya cərəyanları, fotokeçiricilik və optik xassələrinə təsirinin kompleks tədqiqi nəticəsində vidikonlar üçün yüksək həssaslığa malik fotohədəf hazırlanmışdır. Bundan əlavə, Raman səpilməsi, rentgen difraksiyası və ellipsometriya üsulları ilə optik parametrlərin tədqiqi nəticəsində yaxın və orta infraqırmızı oblastda həssas fiber-ötürücülər üçün materiallar təklif olunmuşdur.

Səlimə Mehdiyeva elmi fəaliyyətinin yanında geniş elmi-təşkilati və ictimai işlərlə də məşğuldur. O, Respublika Elmi Əlaqələndirmə Şurasının sədr müavini, İnstitut müdafiə şurasının həmsədri olmuş, hazırda Fizika İnstitutu Elmi Şurasının, Dissertasiya şurasının və bir sıra elmi jurnalların redaksiya heyətinin üzvüdür. Həmçinin, İnstitut Qadınlar Təşkilatının sədridir.

Ədəbiyyat:

AMEA-nin fizika üzrə ilk qadın müxbir üzvü // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri / Fizika-texnika və riyaziyyat elmləri seriyası, fizika və astronomiya.– 2021.– №5.– S.183-184.

Nikbin və kübar təbiətli xanım - elmin nüfuzlu hamisi / S.Hüseynova // 525-ci qəzet . -2022.- 23 iyun.- S.13.

Səlimə İbrahim qızı Mehdiyeva: Biblioqrafik göstərici: 80 illiyinə həsr olunur / AMEA, Mərkəzi Elmi Kitabxana; [tərt.-müəl.: S. A. Rzayeva, K. M. Məmmədəlili ; elmi red. C. Ş. Abdinov ; red. X. İ. İsmayılova ; bədii tərtibat Ş. Məmməd] / Salima Ibrahim gizi Mehdiyeva. - Bakı: Elm, 2022.121, [3] s.

Ulu Öndərin elm siyasəti / A.Həşimov,S.Mehdiyeva // Respublika.– 2023.– 5 may.– S.13.

Naxçıvanlı elmlər doktorları: [ensiklopedik kitab] / A. Zamanov; elmi red. İ. Hacıyev; [ön söz İ. Həbibbəyli.– Naxçıvan: [NDU], 2024.– 307 s.

İnternetdə:

https://science.gov.az/az/news/open/16971

MAY
29

Asəf Hacıyev – 75

(1951)

Akademik



Ədəbiyyat:

QDİƏT-nin Mədəniyyət, təhsil və sosial məsələlər komitəsinin 55-ci iclası keçirilib // Azərbaycan.– 2020.– 9 oktyabr.– S.2.

Görkəmli alim, tanınmış ictimai-siyasi xadim / F.Əliyev // Respublika.– 2021.– 28 may.– S.9.

Sığorta riski proseslərinin ehtimal xarakteristikaları: (Monoqrafiya) / R. Əliyev, V. Bayramov; elmi red. A. Hacıyev.– Bakı: [Apostrof-A], 2022.– 335, [5] s.

İntellektin milli idealları / A.Hacıyev // Xalq qəzeti.– 2023.– 10 may.– S.18.

Böyük vətəndaş, parlaq şəxsiyyət / A.Hacıyev // Xalq qəzeti.– 2024.– 12 dekabr (№ 274).– S.6.

Hacıyev, A. Elm və təhsil: gələcəyə aparan yol: İnkişafın yeni hədəfləri / Asəf Hacıyev // Azərbaycan. -2019.-30 may.- S.8.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Asəf_Hacıyev_(deputat)

https://science.gov.az/az/news/open/17028

Asəf Hacı oğlu Hacıyev 1951-ci il mayın 29-da Gəncə şəhərində anadan olmuşdur. 1968-ci ildə Gəncədə 4 saylı orta məktəbi bitirdikdən sonra M. V. Lomonosov adına Moskva Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə daxil olmuş, 1973-cü ildə fərqlənmə diplomu ilə oranı bitirmişdir.

Elmi fəaliyyətinə 1970-ci ildə akademik A.N. Kolmoqorovun rəhbərlik etdiyi Fakültələrarası Statistik Metodlar Laboratoriyasında başlamış, 1973-cü ildən Azərbaycan EA-nın İdarəetmə Sistemləri (Kibernetika) İnstitutunda baş laborant, kiçik və böyük elmi işçi, şöbə müdiri və laboratoriya rəhbəri vəzifələrində çalışmışdır.

1979-cu ildə "Cihazları hərəkətdə olan kütləvi xidmət sistemləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək riyaziyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsi almış, 1992-ci ildə "Cihazları əlaqəli mürəkkəb kütləvi xidmət sistemlərinin analizi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. O, fizika-riyaziyyat elmləri doktoru, professordur. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilmişdir.

1979–2015-ci illərdə Kibernetika İnstitutunda laboratoriya müdiri vəzifəsində çalışmış, 2001–2015-ci illərdə Bakı Dövlət Universitetinin Ehtimal nəzəriyyəsi və Riyazi Statistika kafedrasının müdiri olmuş, 2019-cu ildən universitetin Himayəçilər Şurasının üzvüdür. Onun rəhbərliyi altında 4 elmlər doktoru və 8 fəlsəfə doktoru dissertasiyası müdafiə olunmuşdur.

1984-cü ildə İsveçdə Stokholm Kral Texniki Universitetində, 1992-ci ildə Almaniyada Münhen Universitetində və 1993–1996-cı illərdə Türkiyədə Boğaziçi Universitetində professor kimi çalışmışdır. Dünyanın aparıcı universitetlərində – ABŞ, İsveç, Almaniya, Portuqaliya, Çin və Türkiyədə mühazirələr oxumuş və elmi araşdırmalar aparmışdır.

Asəf Hacıyev 160-dan çox elmi məqalə və bir neçə monoqrafiyanın müəllifidir. Springer nəşriyyatında çap olunmuş 10 kitabın baş redaktorudur. Onun rəhbərliyi altında Azərbaycan dilində "Ehtimal nəzəriyyəsi Ensiklopediyası" və "Azərbaycan-ingilis-rus-türk dilləri: Ehtimal nəzəriyyəsi və Riyazi Statistika terminləri lüğəti" nəşr edilmişdir.

Alim Ümumdünya İntellektual Mülkiyyətin Qorunması Təşkilatı, Ümumdünya Ehtimal Nəzəriyyəsi və Riyazi Statistika Cəmiyyəti, Beynəlxalq Statistika İnstitutu, Üçüncü Dünya Elmlər Akademiyası, Moldova və Monqolustan Milli Elmlər Akademiyalarının üzvüdür və Çinin Çenqdu Universitetində fəxri professor tituluna layiq görülmüşdür.

Elm və texnika sahəsində nailiyyətlərinə görə 1980-ci ildə Azərbaycan Lenin Komsomolunun mükafatına layiq görülmüşdür. Akademik A.Hacıyev Moskva Ehtimal Nəzəriyyəsi məktəbinin yetirməsi kimi Azərbaycanın Ehtimal nəzəriyyəsi məktəbinin yaradılmasında mühüm rol oynamış və ölkəmizdə elmi kadr hazırlığında böyük töhfələr vermişdir. Onun rəhbərliyi altında Azərbaycan hərflərinin kompüter klaviaturasında optimal düzülüşü hazırlanmış və "Microsoft Windows 8.2" və sonrakı versiyalarda "Azerbaijani standart" adı ilə tətbiq olunmuşdur.

Həmçinin ictimai-siyasi fəaliyyətdə iştirak etmişdir. 1995–2015-ci illərdə Azərbaycan Milli Məclisinin deputatı olmuş, Milli Məclisin Elm və Təhsil Komitəsinin üzvü, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasında (QDİƏT PA) nümayəndə heyətinin rəhbəri və 2006–2008, 2011–2013-cü illərdə vitse-prezidenti olmuşdur. 2015-ci ildən təşkilatın baş katibidir. 2008-ci ildən Yeni Azərbaycan Partiyasının üzvü, 2010-cu ildən partiyanın Siyasi Şurasının üzvüdür.

MAY
14

Vəli Axundov – 110

(1916-1986)

Akademik



Vəli Yusif oğlu Axundov 1916-cı il mayın 14-də Bakı quberniyasının Saray kəndində anadan olmuşdur. 1931–1935-ci illərdə Bakı Sənaye Texnikumunda təhsil almış, 1936–1941-ci illərdə isə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində oxumuşdur. İnstitutu bitirdiyi il Böyük Vətən müharibəsi başladığından o, hərbi xidmətə çağırılmış və 1941-ci ilin iyulundan 1945-ci ilin avqustuna qədər hərbi həkim kimi İranda, Polşada, Almaniyada və Çexoslovakiyada sovet ordusu sıralarında xidmət etmişdir.

1946-cı ildə ordudan tərxis olunduqdan sonra Vəli Axundov Tibb İnstitutuna qayıdaraq tibb tarixi kafedrasında assistent kimi fəaliyyətə başlamışdır. Eyni dövrdə Epidemiologiya, Mikrobiologiya və Gigiyena İnstitutunda elmi işçi və direktor, 1946–1949-cu illərdə Azərbaycan Tibb İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri olmuşdur. 1949–1952-ci illərdə Azərbaycan SSR səhiyyə nazirinin müavini, 1952–1953-cü illərdə Bakı Vilayəti Səhiyyə Şöbəsinin müdiri vəzifələrini icra etmişdir. 1953–1954-cü illərdə Azərbaycan KP MK-da inzibati, ticarət-maliyyə və plan orqanları şöbəsi müdirinin müavini, 1954–1958-ci illərdə Azərbaycan SSR səhiyyə naziri kimi çalışmışdır.

1958-ci ilin fevralında Azərbaycan KP MK katibi seçilmiş, həmin ilin iyulundan 1959-cu ilin iyuluna qədər Azərbaycan SSR Nazirlər Sovetinin sədri olmuşdur. 1959–1969-cu illərdə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsini icra etmişdir. Bu dövrdə o, respublikanın ictimai-siyasi və sosial-iqtisadi həyatında mühüm qərarların qəbulunda iştirak etmişdir.

Elmi fəaliyyətini də davam etdirən Vəli Axundov 1956-cı ildə tibb elmləri namizədi, 1964-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1969-cu ildə Azərbaycan EA-nın (indiki AMEA) həqiqi üzvü seçilmiş və 1969–1972-ci illərdə Azərbaycan SSR EA-nın vitse-prezidenti olmuşdur. 1972–1986-cı illərdə Q.M. Musabəyov adına Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun direktoru kimi çalışmışdır.

Alimin elmi fəaliyyətinin əsasını şəhər və rayonların sanitar-epidemioloji vəziyyətinin araşdırılması təşkil edirdi. O, Gəncənin sanitar-gigiyenik durumu və Bakının neftlə çirklənmiş əraziləri üzrə apardığı tədqiqatlarla SSRİ-nin müxtəlif şəhərləri üçün metodik sənədlərin hazırlanmasına töhfə vermişdir. Vəli Axundov həmçinin ölkədə ilk gigiyenik-epidemioloji kibernetik laboratoriyanın yaradıcılarından biri olmuşdur.

Onun araşdırmalarının mühüm istiqamətlərindən biri də su təchizatı sistemlərinin gigiyenik və epidemioloji baxımdan təhlükəsizliyinin təmin edilməsi idi. Alim sututarlarının vəziyyəti, su hövzələrinin sənaye tullantıları ilə çirklənməsi və onların sanitar mühafizəsinin gücləndirilməsi sahəsində geniş tədqiqatlara rəhbərlik etmişdir.

Alimin 300-dən artıq elmi əsəri, o cümlədən 6 monoqrafiyası və 11 elmi-kütləvi kitabçası nəşr olunmuşdur. Onun rəhbərliyi ilə 4 elmlər doktoru və 5 fəlsəfə doktoru yetişmişdir. SSRİ Tibb Elmləri Akademiyasının bir sıra elmi komissiyalarının, beynəlxalq və ittifaq miqyaslı təşkilatların üzvü olmuş, Azərbaycan Gigiyenistlər və Sanitar Həkimlər Cəmiyyətinə rəhbərlik etmişdir.

Vəli Axundovun çoxillik hərbi, elmi və ictimai fəaliyyəti yüksək qiymətləndirilmiş, o, "Lenin", "Vətən Müharibəsi", "Qırmızı Ulduz" ordenləria və müxtəlif medallarla təltif edilmişdir.

1986-cı il avqustun 22-də Bakı şəhərində vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 20 iyun 1996-cı il tarixli Sərəncamı ilə Milli Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutuna akademik Vəli Axundovun adı verilmişdir. Həmin ilin 21 iyununda alimin 80 illik yubileyi AMEA-da qeyd edilmiş, 2016-cı ildə isə Prezident İlham Əliyevin Sərəncamı ilə 100 illik yubileyi ölkə səviyyəsində qeyd olunmuşdur.

Ədəbiyyat:

Qasımlı, M. Vəli Yusif oğlu Axundov // Azərbaycanın baş nazirləri / M.Qasımlı, C.Hüseynov.– Bakı: Adiloğlu, 2005.– S. 40-42.

Zamanın işığında canlanan portret - Vəli Axundov / Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi; tərt. N.Axundova; red. A.Yaşar.–Bakı: Şərq-Qərb, 2016.– 235 s.

Vəli Yusif oğlu Axundov: biobiblioqrafik göstərici: 100 illiyinə həsr olunur / AMEA, Mərkəzi Elmi Kitabxana; Azərb. Resp. Səhiyyə Nazirliyinin V.Axundov ad. ME. TTPİn-tu; tərt.: N.Novruzova [və b.]; elmi red.: N.Əliyev, İ.Əzizov.– Bakı: Elm, 2017.– 139 s.

Məmmədova, N.Vəli Axundovu necə tanıyırıq? / N. Məmmədova // Türküstan.– 2022.– 24-30 may.– S.13.


İnternetdə:

https://science.gov.az/az/forms/skonchavshiesya-deystvitelnyie-chlenyi/3224

MAY
30

Məmmədağa Məmmədov – 100

(1926-1971) *Kimyaçı*



Məmmədağa Əhməd oğlu Məmmədov 1926-cı il mayın 30-da Bakıda anadan olmuşdur. O, 1943-cü ildə orta məktəbi bitirərək M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun texnoloji fakültəsinə daxil olmuş, təhsil aldığı dövrdə paralel olaraq istehsalat sahəsində də çalışmışdır. 1949-cu ildə ali təhsilini başa vurduqdan sonra Sov. İKP XXII qurultayı adına Bakı neftayırma zavodunda operator vəzifəsinə göndərilmiş, burada qurğu rəisi kimi fəaliyyət göstərmişdir. Sonrakı illərdə o, ÜİK(b)P MK-nın partiya təşkilatçısı kimi həmin iri neftayırma müəssisəsinin partiya komitəsinə rəhbərlik etmişdir.

1955–1959-cu illərdə Məmmədağa Məmmədov Azərbaycan KP MK-nın neft sənayesi şöbəsi müdirinin müavini, 1959–1961-ci illərdə Azərbaycan SSR Xalq Təsərrüfatı Şurası Neft Zavodları Birliyinin baş mühəndisi və rəis müavini olmuşdur. 1961–1965-ci illərdə Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının Neft Emalı və Kimya Sənayesi İdarəsinə rəhbərlik etmiş, 1965–1967-ci illərdə neftayırma və neft kimyası sənayesi nazirinin birinci müavini, 1967–1971-ci illərdə isə Azərbaycan SSR neftayırma və neft kimyası sənayesi naziri vəzifəsində çalışmışdır.

Məmmədağa Məmmədov sürtkü yağları üçün aşqarların texnologiyası və onların istehsalının təşkili sahəsində mühüm tədqiqatlar aparmış, bu mövzuda bir sıra elmi əsərlər müəllifi olmuşdur. O, M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun kafedrasında dosent kimi fəaliyyət göstərmiş və 1967-ci ildə texnika elmləri namizədi alimlik dərəcəsini almışdır.

1946-cı ildən Sov.İKP üzvü olan Məmmədağa Məmmədov dəfələrlə Bakı şəhər və Şaumyan rayon partiya komitələrinin üzvü, həmçinin Bakı Sovetinin deputatı seçilmişdir. O, 1961–1963-cü illərdə Azərbaycan KP MK üzvlüyünə namizəd olmuşdur.

Alim və dövlət xadiminin fəaliyyəti müxtəlif mükafatlarla qiymətləndirilmişdir. 1951-ci ildə 3-cü dərəcəli "Stalin" mükafatına, 1960-cı ildə "Azərbaycan SSR əməkdar ixtiraçısı", 1964-cü ildə "Azərbaycan SSR əməkdar mühəndisi" fəxri adlarına layiq görülmüş, həmçinin "Lenin" və "Şərəf" ordenləri ilə təltif edilmişdir.

Məmmədağa Əhməd oğlu Məmmədov 23 yanvar 1971-ci ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat:

Məmmədov Məmmədağa Əhməd oğlu // Azərbaycan Sovet Ensiklopediyası: 10 c. — Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası, 1982. — C. 6: Kuba—Misir. — S. 502.

Mamedov, Mamed Aga Ahkmedogly // Prominent Personalities in the USSR. — Metuchen, NJ: Scarecrow Press, 1968. — P. 384.

Məmmədov Məmmədağa Əhməd oğlu // Fəxri Xiyaban. — Bakı: Heydər Əliyev Fondu, 2007. — S. 152.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Məmmədağa_Məmmədov

MAY
7

Afiq Həsənov – 75

(1951)

Alim



Afiq Rəşid oğlu Həsənov 1951-ci il mayın 7-də Azərbaycan Respublikasının Gədəbəy rayonunun Fərzalı kəndində anadan olmuşdur. 1958–1968-ci illərdə İsalı kənd orta məktəbində təhsil almış, 1968-ci ildə Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur. 1972-ci ildən təhsilini prof. Bonç-Bruyeviç adına Leninqrad Elektrotexnika Rabitə İnstitutunda davam etdirmiş və 1974-cü ildə bu institutu bitirmişdir. Təhsil illərində "Start" və "Pluq" tipli havada hərəkətin idarə edilməsi üzrə avtomatlaşdırılmış sistemlərin yaradılması işlərində iştirak etmişdir.

Afiq Həsənov 1993-cü ildə namizədlik (PhD), 2003-cü ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. Uzun illər Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunda laboratoriya müdiri vəzifəsində çalışmış, paralel olaraq Azərbaycan Texniki Universitetində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Onun elmi fəaliyyəti siqnalların işlənməsi üçün yeni tipli akustooptik metodların və texniki vasitələrin yaradılması problemlərinə həsr olunmuşdur.

Alim 100-ə yaxın elmi əsərin, 7 müəlliflik şəhadətnaməsi, 2 patent, 4 monoqrafiya, 2 dərslik, 3 dərs vəsaiti və 8 tədris-metodik vəsaitin müəllifidir. O, həmçinin Radioelektronika kafedrasının müdiri, kafedra nəzdində fəaliyyət göstərən "Radioelektron sistemlərin işlənməsi və tətbiqi" Problem laboratoriyasının rəhbəri olmuşdur. Bir çox elmi-tədqiqat və təcrübi-konstruktor işlərinə rəhbərlik etmiş, radiotexnika, radiolokasiya, radionaviqasiya və televiziya qurğuları sahələrində gənc mütəxəssislərin hazırlanmasında mühüm rol oynamışdır.

Afiq Həsənov Milli Aviasiya Akademiyasında texnika elmləri üzrə İxtisaslaşdırılmış Dissertasiya Şurasının həmsədri, eyni zamanda Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə həmin şuranın sədr müavini kimi fəaliyyət göstərir. O, 2009-cu ildə Azərbaycan Mühəndislik Akademiyasının, 2014-cü ildə isə AMEA-nın texnika üzrə müxbir üzvü seçilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 31 may 2018-ci il tarixli Sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür. Hazırda Afiq Həsənov Milli Aviasiya Akademiyasında elmi işlər üzrə prorektor vəzifəsində çalışır.

Ədəbiyyat:

Radiotexniki siqnallar və dövrələr: [dərslik] / [A. M. Paşayev, A. R. Həsənov]; "Azərb. Hava Yolları" Dövlət Konserni, Milli Aviasiya Akad.– Bakı: [MAA], [BİRLİK], 2005.– 273, [1] s.

Antena - fider qurğuları: fənni üzrə laboratoriya işlərinin yerinə yetirilməsi üçün dərs vəsaiti / [A. M. Paşayev, A. R. Həsənov]; Azərb. Resp. Təhsil Nazirliyi, Milli Aviasiya Akad.– Bakı: [Milli Aviasiya Akad.], [Mülki Aviasiya redaksiyası], 2010.– 117, [1] s.

Elektron qurğularının əsasları: ali məktəblərin texniki ixtisaslarının tələbələri üçün dərslik / A. M. Paşayev, A. R. Həsənov, İ. Ə. İsgəndərov, F. A. Abdurəhimov; elmi red. M. Ə. Babayev; Azərbaycan Respublikası, Təhsil Nazirliyi, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, Milli Aviasiya Akademiyası.– Bakı: [MAA], 2014.– 335, [1] s.

Radioqəbuledici qurğular: Dərs vəsaiti / [A. R. Həsənov, X. İ. Abdullayev]; elmi red. H. A. Hacıyev; Azərb. Resp. Təhsil Nazirliyi, "Azərb. Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti, Milli Aviasiya Akademiyası.– Bakı: [Mülki Aviasiya redaksiyası], 2016.– 222, [2] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Afiq_Həsənov

Qalib Əfəndiyev – 80

(1946)

Alim



Ədəbiyyat:

Akademik Səftər Quliyev: Azərbaycanın görkəmli elm və təhsil xadimi / tərt. A. Quliyev, A. Quliyev, Q. Quliyev; baş red. Q. Əfəndiyev; red. Ə. Dadaşov.– Bakı: [Nafta-Press], 2012.– 131, [1] s.

Əfəndiyev, Q. Geoloji- texnoloji tədqiqatlar nəticəsində əldə edilən məlumatlara əsasən qəzaların proqnozlaşdırılması, təzyiq düşküsü təsirindən baş verən tutumlar riskinin qiymətləndirilməsinə dair / Qalib Əfəndiyev [və b.] // Azərbaycan Neft Təsərrüfatı.– 2012.– № 2.– S. 25-29.

Эфендиев, Г. Экспериментальное изучение возможности изоляции водопритоков супрамолекулярной каталитической системой на основе металлических и органических кластеров / Галиб Эфендиев, [и д.] // Известия НАН Азербайджана.– Науки о земле.– 2013.– №1.– С. 67-69.

İnternetdə:

https://science.gov.az/ru/news/open/16894

Qalib Məmməd oğlu Əfəndiyev 9 may 1946-cı ildə Bakı şəhərində anadan olmuşdur. O, 1969-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Neft-mexanika fakültəsini "Neft və qaz mədənlərinin maşın və avadanlıqları" ixtisası üzrə bitirərək mühəndis ixtisası qazanmışdır. Peşəkar fəaliyyətinə 1970-ci ildə Azərbaycan Elmlər Akademiyasının Dərin Neft və Qaz Yataqlarının Problemləri İnstitutunda başlamış və 1996-cı ilə qədər burada mühəndis, böyük mühəndis, kiçik elmi işçi, böyük elmi işçi və geoloji-texnoloji proqnozlaşdırma sektorunun rəhbəri vəzifələrində çalışmışdır. 1996-cı ildən institutun Quyuların qazılmasının geoloji şəraiti şöbəsinə rəhbərlik etmişdir.

2003–2016-cı illərdə AMEA-nın Geologiya və Geofizika İnstitutunda Quyuların qazılma texnologiyası şöbəsinə rəhbərlik edən Qalib Əfəndiyev, 2016-cı ildən etibarən AMEA Neft və Qaz İnstitutunda müasir qazmanın nəzəri və tətbiqi problemləri üzrə şöbəyə rəhbərlik edir. Alim eyni zamanda ADNSU, Ş.Yesenov adına Kaspi Dövlət Texnologiyalar və Mühəndislik Universiteti və Atırau Dövlət Neft və Qaz Universitetində professor kimi pedaqoji fəaliyyət göstərir.

Qalib Əfəndiyev 1985-ci ildə texnika üzrə fəlsəfə doktoru, 1997-ci ildə "Dağ süxurlarının qazılması prosesinin səmərəliliyinin artırılması və xassələrinin öyrənilməsi üçün geoloji-texnoloji informasiyanın kompleks istifadəsinin elmi əsasları" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 2010-cu ildə professor elmi adı almış, 2007-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Alimin elmi fəaliyyətinin əsas istiqamətlərini quyuların qazılması zamanı optimal qərar qəbuletmə mexanizmləri, geoloji-texnoloji və geofiziki tədqiqatların kompleks analizi, geoloji kəsilişlərin informativ təhlili, dağ süxurlarının dağıdılması proseslərinin öyrənilməsi və süxurdağıdıcı alətlərin iş rejimlərinin optimallaşdırılması təşkil edir. O, eyni zamanda anomal yüksək lay təzyiqli zonaların, udulma intervallarının və digər mürəkkəbləşmə səbəblərinin proqnozlaşdırılması, qazma prosesində qeyri-müəyyənlik şəraitində səmərəli qərarların qəbul edilməsi, neft hasilatının intensivləşdirilməsi üzrə geoloji-texniki tədbirlərin müqayisəli qiymətləndirilməsi kimi sahələr üzrə də mühüm tədqiqatlar aparmışdır.

Qalib Əfəndiyev 220-dən artıq elmi əsərin müəllifidir; onun əsərləri arasında monoqrafiyalar, broşürlər, elmi məqalələr, həmçinin 6 müəlliflik şəhadətnaməsi və patent yer alır. O, 22 fəlsəfə doktoru və bir elmlər doktorunun hazırlanmasına rəhbərlik edərək elmi kadr hazırlığında mühüm rol oynamışdır.

Alim bir sıra nüfuzlu beynəlxalq və regional elmi jurnalların redaksiya heyətinin üzvüdür. Bunlara "ANAS Transactions. Earth Sciences", "Azərbaycan Neft Təsərrüfatı", "Управление качеством нефтегазового комплекса" (Moskva), "Нефть и Газ" (Almatı), "Вестник Атырауского Университета Нефти и Газа", "Вестник ТарГУ имени М.Х.Дулати" və "Природопользование и проблемы антропосферы" daxildir. Bundan əlavə, o, ADNSU-nun doktorluq dissertasiyalarının müdafiəsi üzrə şuranın üzvü kimi fəaliyyət göstərir. Əfəndiyev həmçinin "Lütfi-Zadə irsi və süni intellekt" Assosiasiyasının, Qazmaçılar Assosiasiyasının və Təbiət və cəmiyyət barədə Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvüdür. Qazaxıstanın Atırau Neft və Qaz İnstitutu ona fəxri professor adı vermişdir

Elmi və təşkilati fəaliyyətinə görə Qalib Əfəndiyev 2017-ci ildə "Tərəqqi" medalı, AMEA-nın Rəyasət Heyətinin Fəxri Fərmanı, Qazaxıstan Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyinin Fəxri Fərmanı və həmin ölkənin Elm və Təhsil Nazirliyinin medalı ilə təltif olunmuşdur. Onun neft və qaz quyularının qazılması texnologiyalarının təkmilləşdirilməsi, geoloji-texnoloji informasiyanın tətbiqi və mürəkkəb geoloji şəraitlərdə optimallaşdırılmış mühəndis qərarlarının işlənməsi sahəsində apardığı tədqiqatlar Azərbaycan və dünya qazma mühəndisliyinin inkişafında mühüm yer tutur.

MAY
5

Xalçaçı Günü
(2016)



2016-cı il 25 noyabr tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən hər il may ayının 5-i "Xalçaçı günü" peşə bayramı kimi qeyd edilməsi haqqında sərəncam imzalanmışdır. Xalçaçılıq Azərbaycan xalq-tətbiqi sənətinin ən önəmli sahələrindən biri olmaqla, milli mədəniyyət tarixində özünəməxsus yer tutur. Arxeoloji və yazılı mənbələrə əsasən, Azərbaycanda xalçaçılıq ənənəsi hələ Tunc dövrünə (e.ə. II minilliyin sonu – I minilliyin əvvəlləri) qədər gedib çıxır.

Azərbaycan xalçaları sənət sahəsi kimi həm coğrafi mövqeyinə, həm də naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə görə yeddi əsas xalçaçılıq məktəbinə bölünür: Quba, Bakı (Abşeron), Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbriz. Xalça sənətinin müasir inkişafı və elmi öyrənilməsi Azərbaycan xalq rəssamı Lətif Kərimovun adı ilə sıx bağlıdır. L.Kərimov uzun illər Azərbaycan xalçalarını tədqiq etmiş, ənənəvi bəzək elementləri əsasında yeni ornament və dekorativ motivlər yaratmışdır. Onun eskizləri əsasında toxunmuş "Əfşan" (1932), "Qonaqkənd" (1939), "Ləçəktürünc" (1952), "Şuşa" (1953), "Göygöl" (1958), "Qarabağ" (1960), "İslimi" (1964), "Butalı" (1965), "Bahar" (1966, 1976), "Heyvanlar aləmində" (1969), "Şəbi-hicran" (1975), "Zərxara" (1977), "Firdovsi" (1934), "Səməd Vurğun" (1956), "Vaqif" (1967), "Füzuli" (1972), "Nəsimi" (1974), "Səfiəddin Urməvi" (1975), "Əcəmi" (1976) xalçaları ornament elementlərinin uyğunluğu, kompozisiya bitkinliyi, zəngin kolorit və ifadəliliyi ilə diqqət çəkir.

L.Kərimovun çoxcildli "Azərbaycan xalçası" əsərində 1300-dən artıq ornament elementinin təhlili verilmişdir. Azərbaycan xalça sənəti 2010-cu ildə UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı"-na daxil edilmiş, həmçinin "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" qanun qəbul edilmişdir. Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün müasir standartlara uyğun bina inşa olunmuşdur. 2014-cü ildən fəaliyyət göstərən muzey Azərbaycan xalçasının dünya miqyasında tanıdılmasına mühüm töhfə verir.

Muzeydə 13 300-dən artıq eksponat və əşya saxlanılır. Buraya Böyük Britaniyanın Viktoriya və Albert Muzeyində saxlanılan məşhur "Şeyx Səfi" xalçasının surəti, eləcə də XVII–XX əsrlərdə toxunmuş məşhur kompozisiyalar daxildir. 2015-ci il iyulun 15-də Kannın Festivallar Sarayında "Azərbaycan xalçaları incəsənətdə" sərgisi təşkil olunmuş, 2016-cı il mayın 5-də isə "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusu torpaqlarımızı Ermənistan silahlı qüvvələrinin işğalından azad etmişdir. İşğal zamanı dağıdılmış mədəniyyət ocaqları da yenidən bərpa olunur. Bunlardan biri XX əsrin sonlarında Şuşada fəaliyyət göstərmiş xalça muzeyidir. Qarabağda toxunan zərif xalçalar indi Şuşadakı Milli Azərbaycan Xalça Muzeyinin filialında sərgilənir. Hər bir xalça Qarabağın qədim torpağının ruhunu, burada yaşamış insanların və sənətkarların həyatını, dünyagörüşünü əks etdirir və Azərbaycan xalça sənətinin davamlı inkişafına xidmət edir.

Ədəbiyyat:

Milli sənətkarlıq üçün əlamətdar tarix: 5 may Azərbaycanda xalçaçı günü qeyd edilir // 525-ci qəzet.– 2020.– 6 may.– S.13.

"Ənənələrimizi yaşadanlar": Milli Xalça Muzeyində Xalçaçı günü münasibətilə tədbir keçirildi / N.Məmmədli // Mədəniyyət.– 2021.– 7 may.– S.1;3.

Xalçaçı günü" Şuşada qeyd olunub // Azərbaycan.– 2022.– 6 may.– S.13.

5 may "Xalçaçı Günü"dür: Milli dəyərlərimizi sirli naxışlarda yaşadan sənət... / Y. Bayramova // Yeni Azərbaycan.– 2023.– 5 may.– S.6.

Xalçalarda yaşayan tariximiz...: 5 may "Xalçaçı Günü"dür / Y. Bayramova // Yeni Azərbaycan.– 2024.– 4 may, №78.– S.8.

Naxışla danışan miras - xalçaçılıq sənəti / R.Rüstəmli // Respublika.– 2025.– 4 may (№90).– S.10.

İnternetdə:

https://azertag.az/xeber/azerbaycanda_5_may__xalchachi_gunudur-2986610

Digər tarixi hadisələr

Faşizm üzərində Qələbə Günü *(1945)*



Qələbə Günü Böyük Vətən Müharibəsinin (1941–1945) başa çatdığı gün kimi qeyd olunur. 1945-ci il mayın 8-dən 9-a keçən gecə Alman generalı Vilhelm Keytel qeydsiz-şərtsiz təslim aktını imzalamış və bununla da faşizm üzərində qələbə təmin edilmişdir. Bu gün postsovet ölkələrində və İkinci Dünya Müharibəsində iştirak etmiş digər dövlətlərdə rəsmi olaraq qeyd olunur.

Böyük Vətən Müharibəsi illərində Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə böyük qəhrəmanlıq nümunələri göstərmişdir. 1941–1945-ci illərdə respublikada 87 qırıcı batalyon və 1124 özünümüdafiə dəstəsi yaradılmış, 700 mindən çox Azərbaycan vətəndaşı cəbhəyə yollanmışdır. Azərbaycan diviziyaları Qafqazdan Berlinə qədər şərəfli döyüş yolu keçmişdir. Təqribən 130 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 30 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilmişdir. Bundan əlavə, 170 min Azərbaycan əsgər və zabiti müxtəlif orden və medallarla mükafatlandırılmışdır. Həzi Aslanov iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, İsrafil Məmmədov, Aslan Vəzirov, Adil Quliyev, Ziya Bünyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə və digər generallar xalqımızın tarixinə yeni səhifələr yazmışdır.

Müharibə illərində Azərbaycanın iqtisadiyyatını cəbhəyə yönəltmək məqsədilə geniş tədbirlər görülmüşdür. Bakı şəhəri döyüş üçün silah-sursat cəbbəxanasına çevrilmiş, neftçilər böyük fədakarlıq göstərərək cəbhəni yanacaqla təmin etmişdir. Akademik Yusif Məmmədəliyevin rəhbərliyi altında aviasiya benzini istehsalının yeni texnologiyası yaradılmışdır. Müharibə dövründə Azərbaycan tarixində neft hasilatı üzrə rekord göstərici əldə edilmişdir: 1941-ci ildə 23,5 milyon ton neft hasil edilmiş, bu SSRİ-də çıxarılan neftin 71,4 faizini təşkil etmişdir. Bütövlükdə müharibə illərində ölkə 75 milyon ton neft, 22 milyon ton benzin və digər neft məhsulları təmin etmişdir. Statistik göstəricilər göstərir ki, hər beş təyyarədən, tankdan və avtomobildən dördü Bakı nefti ilə təmin olunmuşdur ki, bu da faşizm üzərində qələbənin təmin olunmasında Azərbaycanın strateji rolunu təsdiqləyir.

Azərbaycan xalqının kütləvi qəhrəmanlığı və fədakarlığı müharibənin əsas xüsusiyyətlərindən biri olmuşdur. Qələbənin 75 illik yubileyi münasibətilə M.F.Axundov adına Milli Kitabxana "Azərbaycan 1941–1945-ci illər Böyük Vətən müharibəsində" biblioqrafiyasını nəşr etmişdir. Materialların çoxluğu nəzərə alınaraq biblioqrafik göstərici iki kitabda təqdim edilmişdir: birinci kitab Azərbaycan və digər dillərdə, ikinci kitab isə yalnız rus dilində ədəbiyyatı əhatə edir. Azərbaycan dilində biblioqrafiyada 4845 adda, rus dilində isə 3463 adda mənbə toplanmışdır.

2025-ci il may ayının 9-da Azərbaycan Milli Kitabxanasında "Faşizm üzərində Qələbə (1941–1945)" adlı elektron məlumat bazası və "9 May – Faşizm üzərində Qələbə Günüdür" adlı virtual sərgi onlayn rejimdə istifadəçilərin ixtiyarına verilmişdir. Bu resurslar müharibə tarixi və Azərbaycan xalqının qəhrəmanlıq nümunələrinin elmi şəkildə öyrənilməsi və təbliği üçün mühüm əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

Mehriban Əliyeva: Ölkəmiz tarixi qələbəyə mühüm töhfələr verib və bu, hər bir azərbaycanlıya daim qürur və fərəh hissi yaşadıb // Azərbaycan.– 2020.– 13 may.– S.1.

Qəşəmoğlu, Ə. Faşizm üzərində qələbənin iştirakçısı / Ə.Qəşəmoğlu // 525-ci qəzet.– 2021.– 9 may.– S.11.

Sadıqlı, F. Qarabağı düşmən caynağından alan igidlər qəhrəman ata-babaların övladlarıdır: 9 May Faşizm Üzərində Qələbə Günüdür / F.Sadıqlı // Azərbaycan.– 2022.– 8 may.– S.12.

Prezident İlham Əliyev faşizm üzərində qələbə münasibətilə Azərbaycan veteranlarını təbrik edib // Azərbaycan.– 2023.– 10 may.– S.5.

Azərbaycanın cahan savaşında iştirakı bəşəri rəşadətdir: Biz 2020-ci ildə bu qəhrəmanlığı təkrar edərək erməni faşizmini də diz çökdürdük, Faşizm üzərində Qələbə – 80 / İ.Mirzəbəyli // Xalq qəzeti.– 2025.– 9 may (№ 94).– S.10.

İnternetdə:

https://portal.azertag.az/az/node/13550

https://dtx.gov.az/az/news/9-may-fasizm-uzerinde-qelebe-gunu-75-il.html

MAY
16

Azərbaycan Dövlət Kukla Teatrı - 95 *(1931)*



Azərbaycan milli xalq oyun-tamaşalarının tədqiqata möhtac qollarından biri kukla teatrıdır ki, onun da kökləri orta əsrlərdən çox-çox əvvəllərə gedib çıxır və milli mədəniyyətimizin çox qiymətli sərvətlərindən sayılır. Şərq mədəniyyətinin bilici mütəfəkkirləri İbn Əl Əsr, A.Mokovelski, M.Kolankatvatsi, A.Xodzko, Biruni, S.Marr və onlarca bu qəbildən olan alimlər Azərbaycan xalq oyun-tamaşalarından, teatr elementli mərasim şənliklərdən söhbət açanda Kukla teatrı mənşəli və xarakterli göstərmələrdən də bəhs ediblər. İndiki Kukla teatrının kökləri kilimarası və maral oyunlarından qaynaqlanmışdır. Kukla teatrının hal-hazırda yerləşdiyi bina polşalı mülki mühəndis İosif Ploşko tərəfindən inşa edilib, "Fenomen" kinoteatrı kimi istifadəyə verilib (1908-1910). Müxtəlif illərdə bu binada kazino, Satirogit teatrı, Musiqili Komediya teatrı və Kənd Təsərrüfatı nailiyyətləri muzeyi fəaliyyət göstərmişdir.

İndiki Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının əsası 1931-ci il may ayının 16-da Molla Ağa Bəbirli tərəfindən qoyulmuşdur. Teatrın ilk tamaşası 1932-ci ildə – "Sirk" əsəri – nümayiş etdirilmişdir. 1931–1941-ci illərdə və 1946–1950-ci illərdə müstəqil teatr kimi fəaliyyət göstərmiş, müəyyən dövrlərdə isə Azərbaycan Gənc Tamaşaçılar Teatrı (1941–1946) və Azərbaycan Dövlət Filarmoniyasının nəzdində (1950) fəaliyyət göstərmişdir. Teatrın Azərbaycan və rus bölmələri mövcuddur. 1964-cü il aprelin 15-də teatr Dövlət statusu almış, 1975-ci ildən böyüklər üçün də tamaşalar təqdim edilməyə başlanmışdır. Yarandığı gündən bu günədək teatrda yüzlərlə tamaşa hazırlanmışdır.

Teatrın kollektivi müxtəlif illərdə Hindistan, Yəmən, İran, Türkiyə, Hollandiya, Moskva, Sankt-Peterburq, Türkmənistan, Gürcüstan, Arxanqelsk, Krasnodar kimi ölkə və şəhərlərdə, eləcə də Azərbaycanda keçirilən beynəlxalq teatr festivallarında iştirak etmiş, bir çox festivalların qalibi və laureatı olmuşdur. Repertuara Ü.Hacıbəyovun "Məşədi İbad", Anarın "Qaravəlli", H.X.Andersenin "Bülbül", A.Şaiqin "Tıq-tıq xanım" və "Tülkü həccə gedir", M.Seyidzadənin "Cırtdan", M.F.Axundovun "Parisi dağıdanlar" və "Xırs quldurbasan", V.Qaufun "Yalançı şahzadə", E.Şaye'nin "Od oğlan", R.Əlizadənin "Keçəlin toyu", Ş.Perro'nun "Qırmızı papaq", Min bir gecə nağılları əsasında "Ələddin", Ə.Səmədli "Cik-cik xanım", K.Ağayeva "Göyçək Fatma", Ə.Abbasov "Şəngülüm, Şüngülüm" və rus bölməsi üçün R.Moskova "Keçilər", R.Pilo "Qoğal", A.S.Puşkin "Qızıl xoruz", K.Aslanov "Qızıl almalar" kimi əsərlər daxildir.

Müxtəlif illərdə teatrın yaradıcı kollektivinin üzvləri Respublikanın fəxri adları və Prezident mükafatlarına layiq görülmüşdür. Yaradıcı sahədə fərqlənmiş rejissorlardan Tamilla Məhərrəmova, Namiq Ağayev, Rəhman Əlizadə, Ələkbər Hüseynov, Qurban Məsimov, Anar Məmmədov; rəssamlardan Solmaz Haqverdiyeva, Solmaz Musayeva, Lətifə Quluzadə; aktyorlardan Şahmar Hüseynov, Oqtay Dadaşov, Nadir Zamanov, Şəfiqə Axundova, Həsənağa Hüseynov və Rəhman Rəhmanov xüsusi qeyd olunmalıdır.

Hal-hazırda teatrın yaradıcı kollektivinin əksəriyyətini gənc sənətkarlar təşkil edir. Teatrda xalq oyunları, dastanlar, nağıllar, dünya klassikləri və müasir Azərbaycan dramaturgiyasına əsaslanan müasir tamaşalar hazırlanır. "Azərbaycan teatrı 2009–2019-cu illərdə" Dövlət Proqramına əsasən, Kukla Teatrının binası əsaslı şəkildə təmir edilmiş və yaradıcı kollektivin hərtərəfli inkişafı üçün yüksək səviyyəli şərait yaradılmışdır.

Ədəbiyyat:

Uşaq qəlbi uğrunda mübarizə, yaxud uşaq qəlbinə daxil olan kuklalar: Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla teatrından reportaj / R.Əhmədzadə; müsahibəni apardı: F.Nizaməddinqızı // Ədəbiyyat qəzeti.– 2020.– 5 iyun.– S.27.

Uşaq saflığına bürünmüş müdrik: Abdulla Şaiq adına Dövlət Kukla Teatrı 9 yaşını qeyd etdi / Ş.Müşfiq // 525-ci qəzet.2021.– 28 dekabr.– S.16.

Kuklaçılar beynəlxalq festivaldan qayıdıblar // Mədəniyyət.– 2022.– 8 iyun.– S.5.

Dövlət Kukla Teatrı mövsümü başa vurub // Mədəniyyət.– 2023.– 19 iyul.– S.5.

Şahanə. Kukla Teatrı Qazaxıstandakı festivalda iştirak edir / Şahanə // 525-ci qəzet.-2025.- 12 sentyabr (№167).- S.9.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Azərbaycan_Dövlət_Kukla_Teatrı

https://azteatr.musigi-dunya.az/file?dt=33&id=88&utm_source=chatgpt.com

MAY
25

Azərbaycan Dövlət Akademik Filarmoniyası - 90 *(1936)*



Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının binası 1910–1912-ci illərdə "İctimai toplantıların yay binası" layihəsi əsasında memar Qavriil Ter-Mikelov tərəfindən inşa edilmişdir. Layihə hazırlanarkən memar Monte Karloda yerləşən filarmoniya kompleksinin memarlıq xüsusiyyətlərini öyrənmiş, əldə etdiyi təsirləri Bakı şəhərinin memarlıq mühiti ilə sintez edərək yeni binanın memarlıq konsepsiyasını formalaşdırmışdır. Filarmoniya binasının üslubunda klassisizm elementləri, Aralıq dənizi memarlığının təsiri və Qafqaz modernizminə məxsus dekorativ həllər özünü göstərir. Tikili həm geniş şəhər panoramasında, həm də Dağüstü parkdan açılan mənzərədə Bakının memarlıq siluetinin mühüm komponentlərindən biri kimi seçilir. Binanın əsas fasadının Ter-Mikelovun layihəsi əsasında inşa edilmiş Sadıxov qardaşlarının evinə, ümumi memarlıq profilinin isə Tağıyev tərəfindən sifariş edilmiş Mariinski Qadın Gimnaziyasına və De Burun sarayına istiqamətlənməsi bu memarlıq sintezinin davamlılığını ifadə edir. XX əsrin əvvəllərində Bakı sənayeçiləri, neft milyonçuları, tacirlər və məmurlar üçün nəzərdə tutulmuş bu bina şəhərin ictimai-mədəni həyatında xüsusi yer tutmuşdur.

1920-ci illərdə Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra müxtəlif orkestr və ansambl kollektivlərinin fəaliyyəti bu binada cəmlənmişdir. 25 may 1936-cı ildə Simfonik Konsertlər İdarəsinin bazasında Azərbaycan Dövlət Filarmoniyası yaradılmış və tezliklə respublikanın musiqi həyatında aparıcı mədəni quruma çevrilmişdir. 1936–1937-ci illərdə Filarmoniya binasında həyata keçirilən bərpa işləri yeni yaradılmış musiqi müəssisəsinin fəaliyyətini təmin edən mühüm mərhələ olmuşdur. 11 avqust 1937-ci ildə Xalq Komissarları Sovetinin 5021 saylı qərarı ilə filarmoniyaya Əməkdar İncəsənət xadimi, bəstəkar Müslüm Maqomayevin adı verilmişdir.

Müstəqillik dövründə Filarmoniya binasının qorunması və bərpası prioritet məsələlərdən biri kimi qiymətləndirilmişdir. 1996–2004-cü illər arasında aparılan genişmiqyaslı yenidənqurma və konservasiya işləri nəticəsində tikilinin tarixi memarlıq xüsusiyyətləri bərpa edilmiş, akustik imkanlar təkmilləşdirilmiş və beynəlxalq standartlara cavab verən müasir konsert infrastrukturunun yaradılması təmin edilmişdir. 27 yanvar 2004-cü ildə yenilənmiş binanın açılış mərasimi baş tutmuş, mərasimdə dövlət və mədəniyyət xadimlərinin, o cümlədən Mstislav Rostropoviçin və professor Fərhad Bədəlbəylinin iştirakı. 2017-ci ildə Filarmoniyaya "Akademik" statusunun verilməsi onun Azərbaycan musiqi mədəniyyətinin inkişafında strateji rolunu rəsmiləşdirmişdir.

Hazırda Filarmoniyada Azərbaycanın aparıcı musiqi kollektivləri fəaliyyət göstərir: Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestri, Dövlət Xor Kapellası, Qara Qarayev adına Kamera Orkestri, Dövlət Fortepiano Triosu, Dövlət Simli Kvarteti, Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı və onun nəzdində fəaliyyət göstərən Dövlət Xalq Çalğı Alətləri Orkestri. Bu kollektivlər həm respublika daxilində, həm də beynəlxalq səviyyədə Azərbaycan musiqisinin təbliği və təşviqində mühüm rol oynayır. Filarmoniya həmçinin müxtəlif ölkələrdən dəvət olunan tanınmış musiqiçilərin konsertlərini təşkil edərək mədəniyyətlərarası əlaqələrin genişlənməsinə töhfə verir.

Filarmoniya binası təkcə memarlıq abidəsi deyil, həm də Azərbaycan musiqi sənətinin yüz ildən artıq inkişaf prosesinin canlı şahididir. Onun unikal akustik imkanları, estetik dəyəri və funksional üstünlükləri bu tikilini ölkənin milli sərvəti və musiqi mədəniyyətinin əsas mərkəzlərindən biri kimi səciyyələndirir. Musiqi kollektivlərinin fəaliyyəti, binanın tarixi-memarlıq dəyəri və onun üzərində həyata keçirilmiş bərpa prosesləri Filarmoniyanı həm elmi araşdırmaların obyekti, həm də müasir mədəniyyət həyatının dinamik mərkəzi kimi aktuallaşdırır.

Ədəbiyyat:

Azərbaycan Dövlət Akademik Filarmoniyası MDB üzrə ilk beşlikdə // Mədəniyyət.– 2020.– 6 may.– S.8.

Ustadlar ustadının 200 illik yubileyi qeyd olundu: Aşıq Ələsgər yaradıcılığı Azərbaycan dilinin, ruhunun ifadəçisidir / S.Fərəcov // Mədəniyyət.– 2021.– 22 dekabr.– S.1;2.

Azərbaycan və Türkiyə sənətçilərinin "Qardaşlıq salnaməsi" konserti / Nurəddin // Mədəniyyət.– 2022.– 2 noyabr.– S.3.

Filarmoniyada Azərbaycan Dövlət Simfonik Orkestrinin növbəti konserti // Mədəniyyət.–2023.– 14 iyun.– S.3.

Dövlət Simfonik Orkestrinin "Yay axşamı" konserti // Mədəniyyət.– 2024.– 10 iyul,№51.– S.5.

Filarmoniyada görkəmli Azərbaycan bəstəkarlarının əsərləri səslənib // Azərbaycan.– 2025.– 15 aprel (№73).– S.11.

İnternetdə:

https://az.baku-art.com/az/85-il-evvel-bu-gun-m-maqomayev-adina-az-rbaycan-dovl-t-akademik-filarmoniyas-yarad-l-b

MAY
28

Müstəqillik Günü
(1990)



1917-ci ildə Rusiyada baş vermiş Fevral inqilabı nəticəsində çar II Nikolayın taxtdan imtinası ilə monarxiya idarəçiliyi süqut etdi və ölkədə yeni siyasi vəziyyət formalaşdı. Çarizmin uzun müddət milli hüquqlarını məhdudlaşdırdığı xalqlar, o cümlədən azərbaycanlılar üçün milli özünüdərk və siyasi təşkilatlanma prosesi sürətləndi. Bu tarixi şərait 1918-ci il mayın 28-də Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi altında Azərbaycan Xalq Cümhuriyyətinin (1918–1920) yaradılmasına şərait yaratdı. Beləliklə, müsəlman Şərqində ilk dünyəvi, hüquqi və demokratik respublika meydana gəldi və Azərbaycan dövlətçiliyinin müasir siyasi-hüquqi əsasları formalaşdı.

Azərbaycan Xalq Cümhuriyyəti türk və islam dünyasında ilk parlamentli respublika olmaqla yanaşı, bütün vətəndaşlar üçün bərabər siyasi hüquqların təmin edilməsini qarşıya məqsəd qoymuşdu. Azərbaycan Milli Şurası 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlaliyyət Bəyannaməsində dövlətin respublika idarəetmə formasına malik olduğunu, millət, məzhəb, sinif və cins fərqi qoyulmadan vətəndaşların siyasi hüquqlarının təmin ediləcəyini bəyan etmişdi.

Azərbaycan müvəqqəti hökumətinin ilk başçısı Fətəli Xan Xoyski olmuşdur. Milli Şuranın fəaliyyəti ilk günlər Tiflisdə davam etsə də, qısa müddət sonra hökumət Gəncəyə köçürülmüşdür. 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusunun Bakını daşnak-rus silahlı qüvvələrindən azad etməsindən sonra hökumət Gəncədən Bakıya keçmiş və dövlət quruculuğu prosesinin əsas mərhələləri burada həyata keçirilmişdir.

Cümhuriyyət dövründə ölkənin siyasi və hüquqi sisteminin formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Qısa fəaliyyət müddətinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti qadınlara seçki hüququ verən və qadın–kişi bərabərliyini qanuniləşdirən ilk müsəlman dövlətinə çevrilmişdir. Bununla yanaşı, milli ordu quruculuğu, milli pul vahidinin dövriyyəyə buraxılması, bank-maliyyə sisteminin təşkili, demokratik seçkilərin keçirilməsi, iqtisadi islahatların aparılması, parlamentin yaradılması və dövlətin beynəlxalq aləmdə tanıdılması istiqamətində ciddi nailiyyətlər əldə edilmişdir. Azərbaycan Demokratik Respublikasını rəsmi şəkildə tanıyan ilk dövlət 1918-ci il iyunun 4-də Osmanlı dövləti olmuşdur.

1918-ci il noyabrın 9-da Məhəmməd Əmin Rəsulzadənin təklifi ilə üçrəngli – mavi, qırmızı və yaşıl zolaqlardan ibarət Azərbaycan bayrağı qəbul edilmişdir. Bu bayraq müsəlman Şərqində ilk dünyəvi dövlətin siyasi və mədəni identitetinin rəmzinə çevrilmişdir. Ondan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı qırmızı rəngdə olmuşdur.

Azərbaycan Demokratik Respublikası mürəkkəb beynəlxalq və daxili siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərə bilmişdir. 1920-ci il aprelin 28-də bolşevik ordusunun Bakıya daxil olması ilə Cümhuriyyət devrilmiş və Azərbaycan Sovet Rusiyasının tərkibinə məcburi şəkildə qatılmışdır. Lakin bu devrilmə istiqlal ideyasını məhv edə bilməmiş, Məhəmməd Əmin Rəsulzadənin "Bir kərə yüksələn bayraq bir daha enməz" çağırışı milli azadlıq ideologiyasının əsas ifadəsinə çevrilmişdir. 1991-ci ildə Sovet İttifaqının süqutu ilə Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etmiş və özünü 1918-ci il Cümhuriyyətinin hüquqi varisi elan etmişdir.

1990-cı ildən etibarən 28 may tarixi Respublika Günü – dövlət müstəqilliyinin bərpa edilməsi günü kimi qeyd olunmağa başlamışdır. Daha sonra 2021-ci il 15 oktyabr tarixli qərarla bu günün adı "Müstəqillik Günü" kimi dəyişdirilmişdir.

Ədəbiyyat:

28 may-Respublika Günü ilə əlaqədar Türkiyədə silsilə tədbirlər / E.Y.Aslanova // Respublika.– 2020.– 1 iyun.– S.12.

BXA-da Respublika Günü münasibətilə konsert proqramı // Mədəniyyət.– 2021.– 2 iyun.– S.5.

Tariximizin ən şanlı və qürurlu səhifəsi-Respublika Günü / Alim // Olaylar.– 2022.– 27 may-2 iyun.– S.4.

Türkiyə mediası Prezident İlham Əliyevin qardaş ölkənin Respublika Günü münasibətilə təbrikini geniş işıqlandırıb // Azərbaycan.– 2024.– 30 oktyabr, (№ 239).– S.2.

28 May – Müstəqillik Günü və Azərbaycanda "Konstitusiya və Suverenlik İli" münasibətilə Türkiyədə silsilə tədbirlər keçirilib / E.Y.Aslanova // Respublika.– 2025.– 27 may (№109).– S.13.

İnternetdə:

https://dtx.gov.az/az/news/28-may-respublika-gunu-tariximizin-en-sanli-ve-parlaq-sehifelerindendir.html

İYUN

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
1	2	3	4	5	6	7
8	9	10	11	12	13	14
15	16	17	18	19	20	21
22	23	24	25	26	27	28
29	30					

- *Uşaqların beynəlxalq müdafiəsi günü (01.06.1950)*
- *Ətraf Mühitin Mühafizəsi Günü (05.06.1972)*
- *Milli Qurtuluş Günü (15.06.1993)*
- *Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmişdir (15.06.1993)*
- *Milli Silahlı Qüvvələr Günü (26.06.1998)*

Əkizlər bürcünün Nişanı Havadır. Merkurinin himayəsindədir. Günəşin Əkizlər bürcünün keçdiyi dövrdə doğulanlar çox ağıllı olub, hər şeyi bilməyə həvəs göstərir, şəraitə asanlıqla uyğunlaşırlar.

Şəhərsalma və Memarlıq İli



XVIII əsr Azərbaycan memarlığının nadir nümunələrindən biri olan Şəki Xan Sarayı həm inşaat texnikası, həm də dekorativ sənət xüsusiyyətlərinə görə dünya əhəmiyyətli abidə hesab olunur. 1761–1762-ci illərdə Məhəmmədhüseyn xanın dövründə memar Abbasqulu tərəfindən inşa edilən bu tikili Şəki xanlığının siyasi və mədəni qüdrətini əks etdirən yay iqamətgahıdır.

Struktur baxımından bina iki mərtəbədən, altı otaqdan, dörd dəhlizdən və iki güzgülü eyvandan ibarətdir. Sarayın memarlıq kompozisiyasının elmi əhəmiyyəti onun konstruktiv həllində – daş, kərpic və ağacın vəhdətində, xüsusilə də şəbəkə sənətinin tətbiqində özünü göstərir. Pəncərələri bəzəyən şəbəkələr heç bir mismar və ya yapışqan istifadə edilmədən, mürəkkəb həndəsi keçidlərlə bir-birinə bağlanmış minlərlə xırda ağac (palıd və ya çinar) və rəngli şüşə detallarından yığılmışdır.

2019-cu ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən bu abidə İslam Şərqi memarlığı ilə yerli ənənələrin sintezini tədqiq etmək baxımından fundamental elmi baza rolunu oynayır.

İYUN 2026



Milli ədəbiyyat

Uşaq ədəbiyyatının tanınmış simalarından biri, Azərbaycan və İsrail Yazarlar Birliyinin üzvü, şair-dramaturq Simax Şeyda-Yuşbayev Barux oğlunun (Simax Şeyda) (20.06.1936-13.02.2024) anadan olmasının 90 illiyi..... 472
Şair, tərcüməçi Elxan Zal Qaraxanlının (26.06.1961) anadan olmasının 65 illiyi..473



Dünya ədəbiyyatı

Rus yazıçısı, ədəbi tənqidçi, publisist Belinski Vissarion Qriqoryeviçin (11.06.1811-07.06.1848) anadan olmasının 215 illiyi
Türk şairi Əhməd Həmdi Tanpınarın (23.06.1901-24.01.1962) anadan olmasının 125 illiyi.....474



Folklor

Qərbi Azərbaycan aşığı Bayramov Hacı Abbas oğlunun (22.06.1931-22.05.2011) anadan olmasının 95 illiyi 475



Rəssamlıq. Heykəltəraşlıq

Xalq rəssamı, rəssam-heykəltəraş Əhmədov Xanlar Əhməd oğlunun (12.06.1946) anadan olmasının 80 illiyi 476
Xalq rəssamı Rzaquliyev Elbəy Mirzə Həsən oğlunun (17.06.1926-15.09.2007) anadan olmasının 100 illiyi 477
Əməkdar memar Yüzbaşov Faiq Hüseyn oğlunun (25.06.1946) anadan olmasının 80 illiyi 478



Musiqi. Opera. Balet

Xalq artisti, professor, dirijor, bəstəkar Əzimov Nəriman Abbasqulu oğlunun (01.06.1936-19.11.2016) anadan olmasının 90 illiyi 479
Əməkdar artist, xanəndə Orucova Almaz Ədil qızının (02.06.1966) anadan olmasının 60 illiyi 480
Əməkdar artist, xanəndə Mehrəliyeva Fatma Yusif qızının (04.06.1926-04.01.2000) anadan olmasının 100 illiyi 481
Xalq artisti, opera müğənnisi, pedaqoq Qasımova Xuraman Əkrəm qızının (06.06.1951) anadan olmasının 75 illiyi 482
Xalq artisti, tarzən, professor Məmmədəliyev Vamiq Məmmədəli oğlunun (09.06.1946) anadan olmasının 80 illiyi 483

Xalq artisti, tarzən Bayramov Həbib Əbdülhüseyn oğlunun (14.06.1926-15.08.1994) anadan olmasının 100 illiyi 484
Xalq artisti, bəstəkar, pedaqoq, xormeyster Cahangirov Cahangir Şirgəşt oğlunun (20.06.1921-25.03.1992) anadan olmasının 105 illiyi 485



Teatr. Kino

Əməkdar artist, aktyor Xanızadə Hamlet Bəbir oğlunun (05.06.1941-03.02.1990) anadan olmasının 85 illiyi
Xalq artisti, əməkdar incəsənət xadimi, ssenarist, rejissor, kino redaktoru Fətəliyev Ramiz Məmmədəli oğlunun (07.06.1946) anadan olmasının 80 illiyi 486
Əməkdar artist, aktyor Mirzəyev Sucəddin Qiyas oğlunun (09.06.1956) anadan olmasının 70 illiyi.....487
Əməkdar artist, teatr aktyoru Salahlı (Salayev) Əli Məmməd oğlunun (26.06.1946-24.04.2005) anadan olmasının 80 illiyi 488



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Sədiyev Vəzir İsa oğlunun (06.06.1961-19.02.1993) anadan olmasının 65 illiyi 489
Azərbaycanın Milli Qəhrəmanı Salahov Şakir Şamil oğlunun (15.06.1966-28.01.1992) anadan olmasının 60 illiyi 490
Azərbaycanın Milli Qəhrəmanı Məcidov Zakir Nüsrət oğlunun (26.06.1956-06.08.1992) anadan olmasının 70 illiyi 491
Azərbaycanın Milli Qəhrəmanı Əliyev Yavər Yaqub oğlunun (27.06.1956-29.02.1992) anadan olmasının 70 illiyi 492
Azərbaycanın Milli Qəhrəmanı Hüseynov Elşən İbrahim oğlunun (30.06.1976-17.03.1995) anadan olmasının 50 illiyi 493



İkinci Qarabağ Müharibəsi Şəhidləri

Əsgər Dadaşzadə Kənan Elman oğlunun (01.06.2001-29.09.2020) anadan olmasının 25 illiyi 494
Əsgər Məmmədov Əvəz Elnur oğlunun (01.06.2001-07.10.2020) anadan olmasının 25 illiyi 494

Əsgər Rüstəmov Basid İdris oğlunun (02.06.1996-09.11.2020) anadan olmasının 30 illiyi 495
Gizir Ağayev İlkin Tehran oğlunun (02.06.1986-08.11.2020) anadan olmasının 40 illiyi 495
Əsgər Həsənov Həsən Səfər oğlunun (03.06.1996-20.10.2020) anadan olmasının 30 illiyi 496
Əsgər Əhmədov Tural İzətulla oğlunun (05.06.2001-22.10.2020) anadan olmasının 25 illiyi 496
Əsgər Əlizadə Yüksəl İlqar oğlunun (05.06.1996-09.11.2020) anadan olmasının 30 illiyi 497
Əsgər Babayev Rauf Fəxrəddin oğlunun (05.06.2001-01.10.2020) anadan olmasının 25 illiyi 497
Əsgər Adilov Şirəli İlham oğlunun (06.06.1996-24.10.2020) anadan olmasının 30 illiyi 498
Əsgər Şirəlizadə Süleyman İlham oğlunun (06.06.2001-05.10.2020) anadan olmasının 25 illiyi 498
Əsgər Allahverdiyev Samir Elçin oğlunun (07.06.2001-22.10.2020) anadan olmasının 25 illiyi 499
Əsgər Behbudov Nofəl Həmid oğlunun (07.06.2001-08.11.2020) anadan olmasının 25 illiyi 499
Əsgər Qurbanov Mayıl Mayis oğlunun (08.06.1996-03.11.2020) anadan olmasının 30 illiyi 500
Əsgər Xancanov Təbriz Məhəmmədəli oğlunun (09.06.1996-19.10.2020) anadan olmasının 30 illiyi 500
Əsgər Nağıyev Nicat İbrahim oğlunun (09.06.2001-30.09.2020) anadan olmasının 25 illiyi 501
Əsgər Nurizadə Qalib Habil oğlunun (10.06.1996-05.11.2020) anadan olmasının 30 illiyi 501
Əsgər İsmayılzadə Məhəmməd Fizuli oğlunun (10.06.1996-26.10.2020) anadan olmasının 30 illiyi 502
Əsgər Hüseynov Vüsal Yəhya oğlunun (10.06.2001-08.11.2020) anadan olmasının 25 illiyi 502
MAHHXHQ baş çavuş İsrafilov Abdurahman İsrafil oğlunun (11.06.1991-21.10.2020) anadan olmasının 35 illiyi 503
Əsgər Məmmədov Nahid Vahid oğlunun (11.06.1996-14.10.2020) anadan olmasının 30 iliyi 503
Əsgər Hüseynov Həci Kərim oğlunun (12.06.1996-23.10.2020) anadan olmasının 30 illiyi 504
Əsgər Musayev Vüsal Zakir oğlunun (12.06.1996-13.10.2020) anadan olmasının 30 illiyi 504

Əsgər Xankişiyev Fuad Şöhrət oğlunun (12.06.1996-03.11.2020) anadan olmasının 30 illiyi 505
Əsgər Hüseynov Sahil Habil oğlunun (12.06.2001-09.10.2020) anadan olmasının 25 illiyi 505
Mayor Həsənov Elşad Paşa oğlunun (13.06.1981-02.10.2020) anadan olmasının 45 illiyi 506
Əsgər Hümbətov İlqar Vüqar oğlunun (13.06.1996-13.10.2020) anadan olmasının 30 illiyi 507
Əsgər Nuruzadə Elşən Əlisa oğlunun (13.06.1996-04.10.2020) anadan olmasının 30 illiyi 507
Əsgər Səmədov Məhəmməd Niman oğlunun (13.06.2001-07.10.2020) anadan olmasının 25 illiyi 508
Əsgər Qazımətov Rəsul Kamaləddin oğlunun (14.06.2001-14.10.2020) anadan olmasının 25 illiyi 508
Leytenant Əliyev Mirzağa Məmmədbağır oğlunun (15.06.1996-07.10.2020) anadan olmasının 30 illiyi 509
Əsgər Məmmədquliyev Ağabəy Zaur oğlunun (15.06.2001-27.09.2020) anadan olmasının 25 illiyi 510
Əsgər Səttarov Səxavət Qüdrət oğlunun (15.06.2001-06.11.2020) anadan olmasının 25 illiyi 510
Əsgər Bayramov Ruslan Telman oğlunun (15.06.1996-30.09.2020) anadan olmasının 30 illiyi 511
Əsgər Abbasov Nurhan Əlastan oğlunun (17.06.1991-08.11.2020) anadan olmasının 35 illiyi 511
Əsgər Quliyev Rahim Yalçın oğlunun (18.06.2001-02.10.2020) anadan olmasının 25 illiyi 512
Əsgər Həmzəyev Arif Muradcan oğlunun (19.06.2001-05.11.2020) anadan olmasının 25 illiyi 512
Əsgər Fərziyev Saməddin Mehman oğlunun (20.06.2001-21.10.2020) anadan olmasının 25 illiyi 513
Əsgər Həmzəyev Musa Xalid oğlunun (20.06.2001-02.12.2020) anadan olmasının 25 illiyi 513
Əsgər Orucov İsə Razim oğlunun (20.06.2001-27.10.2020) anadan olmasının 25 illiyi 514
Əsgər Şərifov Turan Vidadi oğlunun (20.06.2001-05.11.2020) anadan olmasının 25 illiyi 514
Əsgər Abdullayev Balazadə Rafət oğlunun (22.06.1991-18.10.2020) anadan olmasının 35 illiyi 515
Əsgər Bayramov Həsən Ağaisa oğlunun (22.06.2001-01.10.2020) anadan olmasının 25 illiyi 515

.

Əsgər Şahbazov Şahbaz Mirzə oğlunun (22.06.1996-25.10.2020) anadan olmasının 30 illiyi 516
Əsgər Hacıyusifov Əhməd Teymur oğlunun (23.06.2001-08.11.2020) anadan olmasının 25 illiyi 516
Polkovnik-leytenant Məmmədov Sadiq Sadəddin oğlunun (23.06.1981-26.10.2020) anadan olmasının 45 illiyi 517
Əsgər İbrahimov Hikmət Zaur oğlunun (23.06.2001-20.10.2020) anadan olmasının 25 illiyi 518
Əsgər Abdullazadə Teymur Faiq oğlunun (24.06.2001-08.10.2020) anadan olmasının 25 illiyi 518
MAHHXHQ əsgər Bəylərov Seymur Səlyəddin oğlunun (24.06.1996-28.09.2020) anadan olmasının 30 illiyi 519
Əsgər Məmmədov Elvin Eldəniz oğlunun (25.06.2001-15.10.2020) anadan olmasının 25 illiyi 519
Əsgər Quluzadə Qurbanəli Elşad oğlunun (25.06.2001-21.10.2020) anadan olmasının 25 illiyi 520
Əsgər Zahirov Nazim Həmzə oğlunun (25.06.2001-01.10.2020) anadan olmasının 25 illiyi 520
Əsgər İsgəndərli Səbuhi Yaşar oğlunun (25.06.2001-26.10.2020) anadan olmasının 25 illiyi 521
Əsgər Kərimov Elşən Rövşən oğlunun (26.06.2001-13.10.2020) anadan olmasının 25 illiyi 521
Əsgər Səfərov Cəsarət Xaliq oğlunun (27.06.2001-04.11.2020) anadan olmasının 25 illiyi 522
Əsgər Vəliyev Məhəmməd Nail oğlunun (27.06.1996-23.10.2020) anadan olmasının 30 illiyi 522
Əsgər Zəkiyev Rameş Gülverdi oğlunun (27.06.2001-15.10.2020) anadan olmasının 25 illiyi 523
MAHHXHQ əsgər İsmayılov Hüseyn Fərman oğlunun (29.06.1991-08.11.2020) anadan olmasının 35 illiyi 523
Əsgər Qurbanov Tərxan Zabit oğlunun (29.06.1996-06.11.2020) anadan olmasının 30 illiyi 524
Əsgər Xəlilov Ələddin Əlizaman oğlunun (29.06.2001-01.10.2020) anadan olmasının 25 illiyi 524
Əsgər Həsənov Xətai Xaliq oğlunun (29.06.2001-31.10.2020) anadan olmasının 25 illiyi 525
Əsgər Eyvazov Əli Sehran oğlunun (30.06.2001-14.10.2020) anadan olmasının 25 illiyi 525
Əsgər Yunusov Elgün Yedulla oğlunun (30.06.1986-2020) anadan olmasının 30 illiyi 526

İYUN 2026



Siyasət. Hərbi iş

Siyasi xadim, siyasi elmlər üzrə fəlsəfə doktoru Quliyev Azay Əjdər oğlunun (23.06.1971) anadan olmasının 55 illiyi
Dövlət xadimi, general-leytenant Heydərov Arif Nəzər oğlunun (28.06.1926-29.06.1978) anadan olmasının 100 illiyi 527



Tarix

Tarix elmləri doktoru, professor, şərqşünas alim Tağıyeva Şövkət Əzizağa qızının (11.06.1926-11.06.2015) anadan olmasının 100 illiyi 528



Fəlsəfə. İqtisadiyyat. Hüquq

AMEA-nın müxbir üzvü, professor, kənd təsərrüfatı elmləri doktoru Abdullayev Mahmud Abdulla oğlunun (30.06.1941-06.07.2023) anadan olmasının 85 illiyi 529




Mədəniyyət. Maarif. Təhsil

Əməkdar jurnalist, yazıçı Yolçiyev Varis Musa oğlunun (07.06.1966) anadan olmasının 60 illiyi 530
Əməkdar müəllim, maarif xadimi Məlikova Qəribsoltan Həsən bəy qızının (11.06.1886-09.03.1967) anadan olmasının 140 illiyi 531



Riyaziyyat. Fizika. Astronomiya

Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor Səlimov Arif Ağacan oğlunun (07.06.1956) anadan olmasının 70 illiyi 532
Əməkdar elm xadimi, ictimai-siyasi xadim, professor Əsgərov Şahlar Qaçay oğlunun (15.06.1941) anadan olmasının 85 illiyi 533



Kimya. Biologiya. Tibb

Kimya elmlər doktoru, professor Abasov Səfa İslam oğlunun (10.06.1946) anadan olmasının 80 illiyi 534
Əməkdar elm xadimi, biologiya elmləri doktoru, professor Hacıyeva Nina Alekseyevnanın (14.06.1926-?) anadan olmasının 100 illiyi
Tibb elmləri doktoru, professor Abbasov Namiq Əbdülsəməd oğlunun (17.06.1941) anadan olmasının 85 illiyi

AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor Qasımov Rafiq Yunis-Əli oğlunun (26.06.1931) anadan olmasının 95 illiyi 535



Texnika. Mühəndis işi

Texnika elmləri doktoru, professor Ağayev Nuhəli Hacıbala oğlunun (01.06.1941-26.10.2015) anadan olmasının 85 illiyi
Əməkdar inşaatçı, mühəndis Abdullayev Məzahir Ağaverdi oğlunun (03.06.1911-20.11.1978) anadan olmasının 115 illiyi



Kitabxanaşünaslıq. Biblioqrafiya

Tarix üzrə fəlsəfə doktoru, kitabxanaşünas Əliyev Aşur Müseyib oğlunun (01.06.1946-09.11.2021) anadan olmasının 80 illiyi 536
Gözdən Əlillər üçün Respublika Kitabxanasının (01.06.1981) yaradılmasının 45 illiyi 537
Fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru, dosent Qurbanov Azad İsa oğlunun (26.06.1966) anadan olmasının 60 illiyi 538



Digər tarixi hadisələr

Uşaqların Beynəlxalq Müdafiəsi Günü (01.06.1950) 539
Azərbaycanda Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü (02.06.2006)
Azərbaycan Respublikası YUNESKO-ya üzv qəbul olunmuşdur (03.06.1992)
Təcavüzə Məruz Qalmış Uşaqların Beynəlxalq Müdafiəsi Günü (04.06.1982)
Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü (05.06.1972)
Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günü (05.06.2014)
Ümumdünya Qida Təhlükəsizliyi Günü (07.06.2018)
Ümumdünya Okeanlar Günü (08.06.1992)
Beynəlxalq Qan Donor Günü (14.06.2001)
Milli Qurtuluş Günü (15.06.1997) 540
Azərbaycan Respublikası Tibb İşçilərinin Peşə Bayramı Günü (17.06.2001)
Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında fərman verilmişdir (18.06.2001)
Azərbaycanda İnsan Hüquqları Günü (18.06.2007) 541
Ümumdünya Qaçqınlar Günü (20.06.2000)
Qaz Təsərrüfatı İşçilərinin Peşə Bayramı Günü (20.06.2006)
Ulu öndər Heydər Əliyevin fərmanı ilə Azərbaycanda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır (21.06.2001)
Faşist Almaniyasının SSRİ-yə hücumu ilə sovet tarixinə "Böyük Vətən müharibəsi" adı ilə daxil olmuş müharibənin başlamasının (22.06.1941) 85 ili
"Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" fərman imzalanmışdır (22.06.1996)

İYUN

2026

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında fərman imzalamışdır (22.06.2021) 542
Beynəlxalq Olimpiya Qaçış Günü (23.06.1948)
Dövlət Qulluqçularının Peşə Bayramı Günü (23.06.2006)
Dənizçilərin Peşə Bayramı Günü (25.06.2014)
Birləşmiş Millətlər Təşkilatı yaradılmışdır (26.06.1945)
Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü (26.06.1987)
Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü (26.06.1998) 543

Simax Şeyda – 90

(1936-2024)

Şair



Simax Şeyda 1936-cı il iyunun 20-də Oğuz rayonunda anadan olmuşdur. 1940-cı ildə ailəsi ilə birlikdə Gəncə şəhərinə köçmüş, burada Sabir adına 5 saylı orta məktəbin səkkizinci sinfini bitirdikdən sonra fəhlə-gənclər məktəbində təhsilini davam etdirmişdir. O, sonralar Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakültəsində ali təhsil almışdır. Yaradıcılıq fəaliyyətində istifadə etdiyi "Şeyda" təxəllüsü onun ədəbi imzası kimi formalaşmışdır.

Əmək fəaliyyətinə Gəncə şəhəri Rayonlararası Xalq Yaradıcılığı Evində teatr və təsviri incəsənət üzrə metodist kimi başlayan Simax Şeyda qısa müddətdə həmin müəssisənin baş metodisti və direktoru vəzifələrində çalışmışdır. 1965–1990-cı illər ərzində Bakıda Azərbaycan Teatr Cəmiyyətinin xalq teatrları kabinetinin müdiri kimi fəaliyyət göstərmiş, eyni zamanda "Azərteatr" Yaradıcılıq İstehsalat Birliyində redaktor vəzifəsində çalışaraq ölkənin mədəni-estetik mühitinin təşkilində fəal rol oynamışdır.

Simax Şeyda yaradıcılığa uşaq şairi kimi başlamış, lakin onun poeziyası yalnız uşaqlar üçün deyil, həm də böyüklər üçün nəzərdə tutulmuş bədii-estetik məzmunu ilə seçilmişdir. Şairin əsərlərində vətənə bağlılıq, mənəvi-əxlaqi dəyərlər, milli kimlik, humanizm və uşaqların estetik tərbiyəsi kimi mövzular əsas yer tutur. O, dağ yəhudisi olmasına baxmayaraq, bütün yaradıcılığını Azərbaycan dilində qurmuş, milli ədəbiyyata sonsuz sevgi ilə bağlı qalmışdır. Şairin 30 ildən çox Almaniyada yaşamasına baxmayaraq, Azərbaycan vətəndaşlığından imtina etməməsi də onun milli kimliyə sədaqətinin bariz nümunəsi kimi qiymətləndirilir.

Simax Şeydanın poeziyası 1960–1980-ci illərdən etibarən Azərbaycan uşaq ədəbiyyatında xüsusi mövqeyə malik olmuşdur. "Təyyarə", "Mən balaca kosmonavtam", "Yaxşı qız", "Kimin belə qızı var", "Nəğməli meşə", "Tülkü-tülkü-tünbəki", "Nağıl istəyən qız", "Yoxdur belə nənədən", "Qızım qızlar içində", "Topçu Həsən" və digər kitabları oxucular tərəfindən geniş rəğbətlə qarşılanmışdır. Ümumilikdə 24 kitabı nəşr olunmuş, onların 11-i uşaq ədəbiyyatına həsr edilmişdir. Bu kitabların bir qismi seçilmiş əsərlər seriyası şəklində beş cilddə çap edilmişdir. Simax Şeyda beş mənzum pyesin də müəllifidir ki, bu əsərlər həm uşaq teatrlarının repertuarında, həm də ədəbi tərbiyə prosesində özünəməxsus yer tutmuşdur.

Onun şeirlərinə bəstəkarlar tərəfindən musiqi yazılması da şairin yaradıcılığının təsir gücünü göstərir. Oqtay Zülfüqarov tərəfindən "Təyyarə" və "Mən balaca kosmonavtam", Yusif Əzimzadə tərəfindən "Bir xoruzum var" şeirləri əsasında mahnılar bəstələnmişdir. Quba rayonundan olan həvəskar bəstəkar Qod Mixaylov isə onun iyirmidən artıq şeirinə musiqi yazmış və bu mahnılar həm Azərbaycan, həm də dağ yəhudilərinin dilində ifa olunmuşdur.

Simax Şeydanın fəaliyyət istiqamətlərindən biri də Azərbaycan klassik ədəbiyyatının dağ yəhudilərinin (cuhuri) dilinə tərcüməsi ilə bağlıdır. Şair Nizami Gəncəvidən başlayaraq, Əmirulla Gəncəviyədək 75 Azərbaycan şairinin poeziyasını cuhuri dilinə tərcümə etmiş və bu tərcümələri antologiya şəklində nəşr etdirmişdir. Onun tərcümələri ABŞ və Kanadada çap olunaraq Azərbaycan ədəbiyyatının beynəlxalq mədəni əlaqələr sistemində tanınmasına mühüm töhfə vermişdir. Simax Şeydanın iki dildə – Azərbaycan türkcəsində və cuhuri dilində.

Şairin "Parlaq ulduz", "Qürbət rübailəri", "Yadında saxla", "Yağlı iki", "Uşaqların dostları" kimi poetik topluları onun yaradıcılığında müxtəlif yaş qruplarına ünvanlanan poetik baxışları əks etdirir.

Azərbaycan mədəniyyətinin inkişafına verdiyi töhfələr nəzərə alınaraq 16 iyul 2015-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Simax Şeyda "Fəxri mədəniyyət işçisi" döş nişanı ilə təltif edilmişdir. O, həm Azərbaycan Yazarlar Birliyinin, həm də İsrail Yazarlar Birliyinin üzvü olmuşdur.

Simax Şeyda 13 fevral 2024-cü ildə Almaniyanın Münhen şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Padşah qız: [mənzum nağıllar] Simax Şeyda ; red. G. Babayeva ; naşir Q. İsabəyli. Bakı: Şirvannəşr . - 2021. -135, [1] s.

Yenə o yerləri görməyim gəlir: [Müsahibimiz qürbətdə yaşayıb-yaradan şair Simax Şeydadır] / S.Şeyda; müsahibə apardı Sərvaz // Ədəbiyyat qəzeti.- 2012.- 15 sentyabr.- S.5.

Məmmədli, E. Uşaqların sevimli şairi-Simax Şeyda / E. Məmmədli // Təzadlar.- 2015.- 26 may.- S.16.

Simax Şeyda-80: [Almaniyada yaşayan şairin yubileyi münasibətilə Azərbaycan Yazıçılar Birliyinin təbriki] // Ədəbiyyat qəzeti.- 2016.- 23 aprel.- S.9.

Verdiyev, İ. Dünyadan bir Simax Şeyda keçdi...: Unudulmaz söz adamı, yəhudi əsilli Azərbaycan şairi ömrü boyu vətən məhəbbəti ilə yazıb-yaratdı / İ.Verdiye // 525-ci qəzet.-2025.- 20 iyun (№105).- S.12.

İnternetdə:

https://www.edebiyyatveincesenet.az/edebiyyat/item/17297-yaehudi-aesilli-shairimiz-simakh-sheyda

https://azertag.az/xeber/azerbaycan_usaq_edebiyyatinin_taninmis_simalarindan_biri_sair_dramaturq_simax_seyda

Elxan Zal – 65

(1961)

Şair



Ədəbiyyat:

Azərbaycan lövhələri: Bilsin kafir mərə, bilsin dış aləm, Zəfər çağlarımız hələ öndədir / Elxan Zal // Ədəbiyyat qəzeti.-2025.- 7 noyabr (№41).- S.26.

Su pərili sonata / Elxan Qaraxanlı // Ədəbiyyat qəzeti.-2025.- 31 oktyabr (№40).- S.5.

Loğman Seyfəddin Əsəd - 70 !!!, 70 ??? : [Sənədli povest] / [ön söz əvəzi Elxan Zal Qaraxanlı]- Bakı: [Zərdabi Nəşr], 2024. - 247, [1] s.

Ordu günü : məqalələr, şeirlər, poemalar Elxan Zal Qaraxanlı ; red.: A. Turan, Ə. Nəsirli / Bakı [CBS-PP] 2021.- 215, [1] s.

Şuşa düşüncələri: [Şuşada keçirilən Vaqif Poeziya günləri çərçivəsində] / E.Zal // Ədəbiyyat qəzeti .- 2021.- 4 sentyabr.-S.16.

Qaraxanlı, E.Z. Qarabağda Səlcuq şikəstəsi / Elxan Zal Qaraxanlı // Ədəbiyyat qəzeti.- 2020.- 31 oktyabr.- S.14-15.

İnternetdə:

https://www.turkustan.az/news/daily/71514

https://anl.az/down/meqale/525/2011/iyun/cm108.htm

Elxan Zal Qaraxanlı 26 iyun 1961-ci ildə Tovuz rayonunun Qaraxanlı kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) "Mexanika" fakültəsinə daxil olmuş və 1983-cü ildə ali təhsilini mühəndis ixtisası üzrə tamamlamışdır. Texniki sahə üzrə təhsil almasına baxmayaraq, humanitar düşüncə tərzi və ədəbiyyata marağı onu poeziya və tərcüməçilik istiqamətində peşəkar yaradıcılığa gətirmişdir.

Elxan Zal Qaraxanlının ədəbi fəaliyyətində poeziya, esseistika və tərcümə mühüm yer tutur. O, XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycan poeziyasına milli-tarixi simvolizmin sistemli şəkildə tətbiqi ilə diqqət çəkmişdir. Xüsusilə 2003-cü ildə "Azadlıq" nəşriyyatında çap olunan "Savaş ayələri" kitabı arxaik leksikonun geniş istifadəsi, dialektizmlərlə zəngin "yeni dil", qədim türk mifologiyası və folklorundan qaynaqlanan motivlər, ritmik quruluşda dinamiklik, həmçinin alleterasiya kimi poetexnoloji vasitələrin bərpası baxımından çağdaş poeziyada fərqlənən nümunələrdən biri hesab olunur. Bu əsərdə savaş və mübarizə arxetipləri, epik yaddaşın semantik qatları, qədim türklərin bozqır dünyagörüşünü xatırladan sadəlik və genişlik anlayışları bədii sistem daxilində yeni semantik çalarlarla təqdim edilmişdir.

Şairin "Türk əsrinin türküləri", "Tarqovı peyzajı", "Qurdlar ulaşan gecə" və digər poetik toplularında milli-mənəvi dəyərlər, türk dünyasının mifik kodları, müasir şəhər mühitinin estetikası, insanın daxili psixoloji mənzərəsi və sosial-mədəni transformasiyalar kimi mövzular xüsusi bədii üslubla işlənmişdir. Elxan Zal Qaraxanlının poetik dili ritmik çevikliyi, metaforik zənginliyi və struktur baxımından yığcamlığı ilə seçilir.

Tərcümə sahəsində də geniş fəaliyyət göstərən Elxan Zal Qaraxanlı dünya ədəbiyyatı nümunələrinin Azərbaycan dilinə, Azərbaycan poeziyasının isə müxtəlif dillərə çevrilməsi istiqamətində mühüm işlər görmüşdür. Onun əsərlərinin bir çox xarici dillərə tərcümə edilməsi, eləcə də müxtəlif ölkələrdə nəşr olunması yaradıcılığının beynəlxalq oxucu auditoriyasına çıxmasına şərait yaratmışdır.

Elxan Zal Qaraxanlı Mahmud Kaşqari adına Uluslararası Fondun sədridir və türk xalqları arasında ədəbi-mədəni inteqrasiyanın genişləndirilməsi üzrə layihələrin həyata keçirilməsində fəal iştirak edir. Bundan əlavə, o, Azərbaycan Yazıçılar Birliyi Tərcümə Mərkəzinin nəşri olan "Ulu Çinar" dərgisinin baş redaktorudur.

Yaradıcılığı və ədəbi fəaliyyətinə görə o, bir sıra nüfuzlu mükafatlara layiq görülmüşdür. Qazaxıstan Yazıçılar Birliyinin ədəbiyyat üzrə beynəlxalq "Alaş" mükafatı və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Qızıl Kəlmə" mükafatına layiq görülmüşdür.

Elxan Zal Qaraxanlının yaradıcılığı milli kimlik, türk mədəniyyətinə mənəvi bağlılıq, bəşəri ideyalar və modern poetik estetika çərçivəsində davam edən axtarışları ilə müasir Azərbaycan ədəbiyyatında mühüm yer tutur.

Əhməd Həmdi Tanpınar – 125

(1901-1962) *Türk şairi*



Əhməd Hamdi Tanpınar 23 iyun 1901-ci ildə İstanbulda anadan olmuşdur. O, Türkiyənin müxtəlif şəhərlərində orta təhsil aldıqdan sonra İstanbul Universitetinin Ədəbiyyat Fakültəsinə daxil olmuş və 1923-cü ildə həmin fakültəni bitirmişdir. 1942–1946-cı illərdə Maraşdan Türkiyə Böyük Millət Məclisinə millət vəkili seçilən Tanpınar həm şair, həm romançı, həm də hekayəçi kimi ədəbiyyat tarixində iz qoymuşdur.

Tanpınarın şeir yaradıcılığı bütövlükdə estetik təcrübəyə söykənir. Onun şeirləri yalnız 1961-ci ildə "Şeirlər" adı ilə kitablaşdırılmışdır. Şairə görə, poeziya şair ruhunun əzəli həqiqətlə təması nəticəsində doğan, sözün öz səs və ritmi ilə ifadə etdiyi dərin bir daxili aləmdir. Tanpınar şeiri hər hansı sosial, siyasi və ya pedaqoji vəzifə ilə yükləmir; poeziyanı yalnız poeziya kimi dəyərləndirən saf şairlərdən biridir.

Röya Tanpınar üçün həm azadlıq sahəsi, həm də ölüm qorxusundan qurtuluşun, əbədilik arzusunun simvoludur. Bu əbədilik dini mistisizmdən çox, estetik və ruhi dərinliklə bağlıdır.

O, Şərq və Qərb mədəniyyətlərinin üzvi bir sintezini yaradır; idealist fəlsəfə, spiritualist duyarlıq, bəzən də qərb mənşəli psixoloji izahlar onun yaradıcılığının fəlsəfi qatını təşkil edir.

Ədəbiyyat tarixində o, tarixi və sosial mövzulara geniş yer verməyən bir sənətkar kimi tanınır. "Bursada zaman" şeirində Yəhya Kamal təsiri görünən tarixi motivlər belə estetik planda dəyərləndirilmişdir. Onu keçmişə bağlayan nostalgiyadan çox, sənət əsərlərinin zamanı donduran estetik gücüdür.

Tanpınarın hekayələri arasında "Yaz yağmuru" və "Abdullah Əfəndinin yuxuları" xüsusi yer tutur. Psixoloji dərinlik, zamanın şüurla şüuraltı arasında qırılması, yarımçıq duyğuların bütövlüyü onun prozasının əsas estetikasını təşkil edir. Bir neçə romanı Azərbaycan dilinə tərcümə edilmişdir.

Şair 24 yanvar 1962-ci ildə İstanbulda vəfat etmiş və Aşiyan qəbiristanlığında dəfn olunmuşdur.

2017-ci il iyunun 8-də Bakıda Yunus Əmrə İnstitutunda onun irsinə həsr edilmiş "Tanpınarı kəşf edirəm" müsabiqəsinin qaliblərinin esselərindən ibarət "Əhməd Hamdi Tanpınar – məmləkətdən dünyaya" adlı antologiya təqdim edilmişdir.

Tanpınar 61 illik ömründə Şərq və Qərbin, röya və gerçəyin, zaman və şüurun, estetik duyarlıq və fəlsəfi axtarışların unikal sintezini yaratmış, türk ədəbiyyatının ən böyük sənətkarlarından biri kimi ədəbiyyat tarixində möhkəm yer tutmuşdur.

Ədəbiyyat:

Əbdülrəhmanlı, N. Ahmet Hamdi Tanpınar: Söz və məmləkət sevdası / Nəriman Əbdülrəhmanlı // Türküstan.-2025.- 1-7 iyul(№22).- S.14; 2025.- 8-14 iyul(№23).- S.14.

Hüzur: [roman] Əhməd Həmdi Tanpınar; türkcədən tərcümə H. Nəcəfoğlu Bakı, Qanun.- 2013.- 398, [2] s.

Mahur bəstə: [roman] Ə. H. Tanpınar ; tərc. T. Qaraqaya / Bakı, Qanun.- 2019. - 222 s. Hekayələ:[hekayələr] Ə. H. Tanpınar ; tərc. T. Qaraqaya /Bakı, Qanun.- 2021.- 423, [1] s.

Əliyeva, B. Ahmet Hamdi Tanpınar və Qərb üslubu / Bilqeyis Əliyeva // Heydər Əliyevin Azərbaycançılıq ideologiyası filoloji fikir kontekstində: Respublika elmi konfransının materialları /- 2021.- S.457-461.

İnternetdə:

https://azertag.az/xeber/ehmed_hamdi_tanpinar___memleketden_dunyaya_adli_antologiyanin_teqdimati_kechirilib-1068787

https://az.wikipedia.org/wiki/Əhməd_Həmdi_Tanpınar

Hacı Göyçəli – 95

(1931-2011)

Aşıq



Hacı Abbas oğlu Bayramov (Hacı Göyçəli) 21 iyun 1931-ci ildə Göyçə mahalının Daşkənd kəndinin "Hacı Qurban" yaylağında anadan olmuşdur. Uşaqlıq illərindən saz-söz mühitinə maraq göstərmiş və 1945-ci ildə Daşkəndli Abbasəli Nəzərovun yanında, bir il sonra Bala Məzrəli Aşıq Hüseynin yanında şəyirdlik etmişdir. 1947–1950-ci illərdə Qannılı Aşıq Mehdinin ustadlığı altında sənətin poetik və ifaçılıq prinsiplərini daha dərindən mənimsəmişdir.

1951–1955-ci illərdə sovet ordusunda hərbi xidmətdə olmuş, bu dövrdən sonra peşəkar aşıq kimi fəaliyyətini davam etdirmişdir. O, bir neçə şəyird yetişdirmiş, Qannı kəndindən Balakişi, Qaraqoyunlu kəndindən Aşıq Səlim və Aşağı Şorca kəndindən Aşıq İslam kimi sənətkarların formalaşmasında mühüm rol oynamışdır. Həmin şəyirdlər 1968–1978-ci illər arasında onun rəhbərliyi altında Göyçə aşıq məktəbinin üslub xüsusiyyətlərini öyrənmişlər. 1978-ci ildən o, həmkəndlisi Nuriddin İsgəndərovu da şəyird qəbul etmişdir.

Aşıq Hacının yaradıcılığında dastanların ifası xüsusi yer tutur. 1981-ci ildə "Aşıq Alı", 1985-ci ildə isə "Şəmkirli Aşıq Hüseyn" dastanlarını şəyirdi ilə birlikdə televiziya üçün söyləmiş, bu dastanların lent yazıları Azərbaycan Televiziyasının "Qızıl fondu"na daxil edilmişdir. 1984-cü ildə o, IV Aşıqlar qurultayına nümayəndə seçilmişdir.

1991-ci ildə Almaniyada qastrol səfərində olmuş, müxtəlif şəhərlərdə çıxış etmişdir. 1992-ci ilin 24–30 oktyabr tarixlərində Türkiyənin Konya şəhərində keçirilmiş Ümumtürk aşıqlar müsabiqəsində iştirak edərək qızıl medala layiq görülmüşdür.

1988-ci ildə Qərbi Azərbaycanda baş verən zorakı deportasiya nəticəsində Aşıq Hacı Şəmkir rayonunun Çənlibel kəndində məskunlaşmış və həyatının sonrakı dövrünü burada keçirmişdir. O, 2003-cü ildə "Koroğlu" filminin çəkilişlərində aparıcı aşıq kimi iştirak etmiş, ekran əsərində dastançılıq ənənəsinə xas elementləri təqdim etmişdir.

Aşıq Hacı Göyçəli 2008-ci ildə nəşr olunmuş "Mənim sazlı, sözlü dünyam" adlı kitabında öz yaradıcılıq prinsiplərini və sənət təcrübəsini əks etdirmişdir.

Aşıq Hacı Göyçəli 22 may 2011-ci ildə Şəmkir rayonunun Çənlibel kəndində vəfat etmişdir.

Aşıq Hacı Göyçəli Göyçə aşıq məktəbinin davam etdirilməsi və ustad-şəyird ənənəsinin qorunması sahəsində mühüm fəaliyyət göstərmiş sənətkardır.

Ədəbiyyat:

Mənim sazlı, sözlü dünyam : Bayramov Hacı Abbas oğlu / Bakı, Zərdabi LTD- MMC.- 2008.- 168 s.

Daşkənd aşıqları və şairləri: Göyçə mahalı ; A.Yaquboğlu; red. H. İsmayılov; AMEA, Folklor İnstitutu.- Bakı, Nurlan.- 2008.- 416 s.

Yaquboğlu, A. Aşıq Hacı da köcdü...: [Göycəli Aşıq Hacı Abbas oğlu Bayramovun vəfatı münasibətilə] /Araz Yaquboğlu // Ozan dünyası.- 2011.- №2(5).- S.55-56.

Göyçəli, N. Göyçə ustadları: (Antologiya) / Niftalı Göyçəli; red. Hacı L. Babacanlı; arxiv sənəd. üzrə araşdırıcı jurnalist F. Sabiroğlu. - Cild: H. 1. - Bakı: Elm və təhsil, 2017. - 197, [3] s.


İnternetdə:

https://www.wikimedia.az-az.nina.az/Aşıq_Hacı_Göyçəli.html

Xanlar Əhmədov – 80

(1946)

Rəssam, heykəltəraş



Əhmədov Xanlar Əhməd oğlu 12 iyun 1946-cı ildə Bakıda anadan olmuşdur. O, peşəkar bədii təhsilini 1961–1966-cı illərdə Ə.Əzimzadə adına Rəssamlıq Texnikumunda, 1966–1972-ci illərdə isə Daşkənd Teatral-Bədii İnstitutunda almışdır. Onun yaradıcılığı əsasən dəzgah və monumental heykəltəraşlıq sahələrini əhatə edir.

Xanlar Əhmədovun monumental yaradıcılığında ictimai yaddaşı əks etdirən mövzular, xüsusilə XX əsrin sonlarında baş verən faciəvi hadisələrin bədii təcəssümü mühüm yer tutur. Xocalı faciəsinə həsr etdiyi silsilə əsərlər – "Nalə", "Ana körpəsi ilə", "Yanmış qadın", "Ata fəryadı", "Fikir", "Ana", "Tomris ana", "Soyunan", "Leyli və Məcnun", "Əzmkarlıq" – heykəltəraşın emosional-plastik ifadə imkanlarının genişliyini nümayiş etdirir.

Heykəltəraşın mühüm monumental layihələrindən biri Azadlıq prospekti metrostansiyasının interyerində yerləşən genişhəcmli relyef kompozisiyalarıdır. Həmçinin metronun foyesində Azərbaycan tarixi abidələrini və mədəni irs nümunələrini əks etdirən monumental əsərlərin müəllifi kimi o, şəhər mühitinin bədii-estetik formalaşmasında iştirak etmişdir.

Onun yaradıcılığında görkəmli şəxsiyyətlərin ev muzeyləri üçün hazırlanmış xatirə lövhələrinin də xüsusi yeri vardır. H.Cavidin ev-muzeyinin giriş qapısı önündəki kompozisiyalı qorelyef sənətkarın dahi söz ustasına olan dərin məhəbbətinin ifadəsidir. Bundan əlavə, Ə.Əzimzadə, H.Cavid, C.Cabbarlı, Q.Xalıqov və S.Bəhlulzadə kimi sənət nəhənglərinə həsr edilmiş xatirə lövhələri də X.Əhmədovun əzmkar və gərgin əməyinin bəhrəsidir.

Xanlar Əhmədov 1968-ci ildən beynəlxalq sərgilərin iştirakçısı olmuş, yaradıcılıq fəaliyyəti müxtəlif ölkələrdə təqdim edilmişdir. 1975-ci ildə SSRİ Rəssamlar İttifaqına üzv qəbul olunmuş, 1982-ci ildə Ümumittifaq Kənd Təsərrüfatı Sərgisinin bürünc medalına layiq görülmüşdür. Heykəltəraşlıq sahəsində əldə etdiyi nailiyyətlər 1995 və 1998-ci illərdə Milli "Humay" mükafatı ilə qiymətləndirilmişdir.

Onun bədii yaradıcılığına verilən rəsmi dövlət təltifləri arasında 2002-ci ildə aldığı "Azərbaycan Respublikasının əməkdar rəssamı", 2006-cı ildə isə "Azərbaycan Respublikasının xalq rəssamı" fəxri adları xüsusi qeyd edilməlidir.

Əhmədovun əsərləri Fransa, Almaniya, Polşa, İran, Rusiya, Ukrayna, Özbəkistan və digər ölkələrdə nümayiş etdirilmiş, həmçinin müxtəlif muzey və şəxsi kolleksiyalara daxil edilmişdir.

Xanlar Əhmədovun yaradıcılığı Azərbaycan monumental-plastik sənətinin inkişaf istiqamətlərinin öyrənilməsi baxımından mühüm mənbə kimi qiymətləndirilir. Onun işləri mövzu seçimi, forma-həcm münasibətlərinə yanaşma və bədii ifadə üsullarının müxtəlifliyi ilə seçilərək milli heykəltəraşlıq irsinin vacib nümunələri sırasına daxil olur.

Ədəbiyyat:

Rəngli duyğular: İzomaterial [Kitabda Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin rəssam müəllimlərinin "Rəngli duyğular" adlı sərgidə nümayiş olunan bir-birindən fərqli, nəfis və göz oxşayan əsərləri toplanmışdır] / Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Un-ti ; layihə rəhb.: T. Abbaslı, G. Mədətova .- Bakı, İndigo.-2016.- 56 s.

Əhmədov, X. "Rəssam üçün balaca bir kafedə belə, sərgi keçirmək önəmli bir hadisədir":/ Xanlar Əhmədov // Palitra.- 2010.- 19 mart .- S.10.

İnternetdə:


https://www.wikimedia.az-az.nina.az/Xanlar_Əhmədov.html

https://anl.az/down/meqale/palitra/2010/mart/111812.htm

Elbəy Rzaquliyev – 100

(1926-2007)

Rəssam



Ədəbiyyat:

Elbəy Rzaquliyev, 1926-2007 [İzomaterial]: rəngkarlıq, qrafika, kino rəssamlığı / Layih. rəhb. Ç.Fərzəliyev. - Bakı: Sərvət, [Şərq-Qərb], 2013. - 104 s.

Kazımzadə, A. Azərbaycan kinematoqrafçıları / A.Kazımzadə; burax. məsul R.Salmanov; red.: L.Vəzirzadə, Ş.Əmirli; [üz qabığının dizaynı R.Qasımov]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Dövlət Film Fondu. - Bakı: Tərəqqi MMC, 2017. - 248 s.

Quliyev, Ə. Elbəy Rzaquliyevin sənət dünyası: / Ə.Quliyev // Aydın yol. - 2016. - 5 noyabr. - S. 7. Mirməmməd, G. Kino lentlərində yaşayan rəssam ömrü: Elbəy Rzaquliyevin 90 illiyi qeyd olundu / G. Mirməmməd // Mədəniyyət. - 2016. - 16 dekabr. - S. 11.

Paşayeva, J.Sabirin portreti: "Bir rəsmin dedikləri":[müəllifin Elbəy Rzaquliyevin yaradıcılığı haqqında müsahibəi]/ Jalə Paşayeva. : müsahibəni apardı A.Sahəd // 525-ci qəzet.- 2022.- 27 aprel.- S.20.

Elbəy Mirzə Həsən oğlu Rzaquliyev XX əsr Azərbaycan təsviri sənətinin və kino rəssamlığının formalaşmasında mühüm rol oynamış sənətkarlardandır. O, 17 iyun 1926-cı ildə Bakı şəhərində anadan olmuşdur. İlk peşəkar təhsilini 1946-cı ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində almış, daha sonra 1946–1953-cü illərdə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda təhsilini davam etdirmişdir. Keçmiş ÜDKİ-nin bədii film üzrə quruluşçu rəssamlıq fakültəsini bitirən ilk azərbaycanlı kimi respublikanın incəsənət tarixində xüsusi yer tutmuşdur.

1953-cü ildən etibarən C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında quruluşçu və geyim üzrə rəssam kimi fəaliyyət göstərən Elbəy Rzaquliyev milli kino sənətinin bədii-estetik inkişafına ciddi töhfələr vermişdir. Onun quruluşçu rəssamı olduğu "Bəxtiyar" (1955), "Görüş" (1955), "Ögey ana" (1958), "Uşaqlığın son gecəsi" (1968), "Gün keçdi" (1971), "Tütək səsi" (1975), "Arxadan vurulan zərbə" (1977), "Bəyin oğurlanması" (1986) və digər filmlər ekran estetikasının formalaşmasında əhəmiyyətli rol oynamışdır. Bununla yanaşı, "Əsl dost" (1959), "Torpaq. Dəniz. Od. Səma" (1967) və "Dərviş Parisi partladır" (1976) kimi filmlərdə geyim üzrə rəssam kimi çalışmışdır.

Elbəy Rzaquliyevin bədii yaradıcılığı milli təsviri sənətin inkişafında xüsusi mövqeyə malikdir. Rəssamın tablolarda əks etdirdiyi Azərbaycan təbiətinin poetik və incə təsviri, doğma yurda bağlılıq, insan əməyinin romantikası onun yaradıcılığının aparıcı mövzularını təşkil edir. "Qırmızı və ağ qızılgüllər", "Çiçəklər arasında", "İnsanların torpağı", "Şirvanşahlar sarayı", "İçərişəhər", "Bakı kəndində" və digər əsərləri kompozisiya bütövlüyü, rəng palitrasının zənginliyi və yüksək bədii ifadəliliyi ilə seçilir. Bu əsərlərdə personajların xarakteri, insan mənəvi aləmi və sosial mühitlə bağlılıq dərin psixoloji çalarlarla təqdim olunur.

Rəssamın yaradıcılığının mühüm istiqamətlərindən biri də dünya ölkələrinə etdiyi səfərlər zamanı əldə etdiyi təəssüratların bədii interpretasiyasıdır. O, Meksika, Hindistan, Yaponiya, Yəmən və İsrailə aid silsilə rəsmləri ilə həmin xalqların mədəniyyətini, şəhər mühitini və məişət həyatını obrazlı şəkildə təsvir etmişdir. Rzaquliyevin əsərləri 1951-ci ildən başlayaraq Respublika və Ümumittifaq sərgilərində iştirak etmiş, rəssam 1960-cı ildə Bakıda, 1960–1967-ci illər ərzində isə Moskva və Kaunas şəhərlərində təşkil edilmiş fərdi sərgiləri ilə geniş tanınmışdır. Onun əsərləri dünyanın müxtəlif sərgi salonlarında, rəsm qalereyalarında və muzeylərdə nümayiş etdirilərək Azərbaycan təsviri sənətinin təbliğinə mühüm xidmət göstərmişdir.


Elbəy Rzaquliyevin yaradıcılığı müxtəlif mükafat və fəxri adlarla qiymətləndirilmişdir. İnqilabi və tarixi mövzuda yaratdığı silsilə əsərlərə görə o, 1972-ci ildə SSRİ Rəssamlıq Akademiyasının Fəxri diplomu, 1976-cı ildə Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin qızıl medalı ilə təltif edilmişdir. 1986-cı ildə "Azərbaycan cəbhəyə" və "1945-ci il May. Qələbə bayramı" əsərlərinə görə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür. Sənətkarın Azərbaycan incəsənətinin inkişafındakı xidmətləri 1964-cü ildə "Əməkdar rəssam", 1977-ci ildə isə "Xalq rəssamı" fəxri adları ilə qiymətləndirilmiş, 1998-ci ildə ona "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Elbəy Rzaquliyev uzunmüddətli yaradıcılıq fəaliyyəti boyu Azərbaycan təsviri sənətinin inkişafında mühüm rol oynamış, həm kino rəssamlığı, həm də boyakarlıq sahələrində özünəməxsus sənət məktəbi formalaşdırmışdır. Onun zəngin yaradıcılıq irsi bir neçə nəsil rəssam üçün ilham mənbəyi olmuş və müasir Azərbaycan təsviri sənətinin estetik prinsiplərinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

Elbəy Mirzə Həsən oğlu Rzaquliyev 15 sentyabr 2007-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Faiq Yüzbaşov – 80

(1946) *Memar*



Faiq Hüseyn oğlu Yüzbaşov 25 iyun 1946-cı ildə Bakıda anadan olmuşdur. O, 1969-cu ildə Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini bitirmişdir.

Memarlıq sahəsində uzunmüddətli fəaliyyətə malik olan Faiq Yüzbaşov 1968–1985-ci illərdə Bakı şəhər İcra Hakimiyyətinin Xüsusi layihə-smeta bürosunda memar, daha sonra baş memar kimi çalışmışdır. 1985–1991-ci illərdə "Bakı Dövlətayihə" İnstitutunda 2 saylı emalatxananın rəhbəri vəzifəsində fəaliyyət göstərmişdir. 1992–2002-ci illərdə "Xazar Construction Company" şirkətində baş memar, 1992–2016-cı illərdə "Caspian Service" şirkətində layihənin baş memarı, 2012–2018-ci illərdə Elmi-Tədqiqat İnşaat və Memarlıq İnstitutunda "Bina və tikililərin layihələndirilməsi" sektorunun müdiri, 2018-ci ildən isə "MİDA" MMC-də "Layihələndirmə" sektorunun müdiri vəzifəsində çalışmışdır.

Faiq Yüzbaşovun memarlıq fəaliyyəti çərçivəsində bir sıra əhəmiyyətli layihələr həyata keçirilmişdir. Onun əsas əsərlərinə İdman Oyunları Sarayı (Dənizkənarı bulvar), "İnturist" mehmanxanasının bərpası, Respublika Diaqnostik Mərkəzi, C.Cabbarlı metrosunun yerüstü çıxışı və çoxmərtəbəli inzibati binası, "Qeit-Ust" şirkətinin iş və ticarət mərkəzi, 28 May küçəsində və B.Bağırova küçəsində çoxmərtəbəli yaşayış binaları, Babək prospektində cərrahiyə klinikası, İçərişəhərdə ofis binaları, Nərimanov prospektində yaşayış evləri daxildir.

Memar elmi və peşəkar fəaliyyətində həm yerli, həm də beynəlxalq səviyyədə tanınmışdır. 1993-cü ildən Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü seçilmiş, 2008-ci ildə "Ustad memar" yüksək peşəkarlıq dərəcəsi sertifikatı almışdır. 2021-ci ildən Beynəlxalq Memarlıq Akademiyasının Moskva bölməsində professor kimi fəaliyyət göstərir.

Faiq Yüzbaşovun peşəkar fəaliyyətinə görə bir sıra mükafat və fəxri adlarla təltif edilmişdir. 2016-cı ildə Azərbaycan Memarlar İttifaqının yaranmasının 80 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmiş, 2020-ci il 19 apreldə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əməkdar memar" fəxri adına layiq görülmüşdür.

Faiq Yüzbaşovun memarlıq yaradıcılığı Azərbaycan memarlıq məktəbinin inkişafında mühüm rol oynamış, şəhərsalma və layihələndirmə sahəsində yeni yanaşmaların tətbiqinə töhfə vermişdir. Onun əsərləri həm ictimai, həm də yaşayış sahələrində yüksək funksionallıq və estetik keyfiyyətlərin vəhdətini nümayiş etdirir.

Ədəbiyyat:

Yüzbaşov, F. Naxçıvanda memarlıq yaşayır və inkişaf edir / F.Yüzbaşov // Memar.- 2015.- №7. - S.144-145.

İnternetdə:

https://uaa.az/muasir-memarliq/

https://e-qanun.az/framework/20

https://az.wikipedia.org/wiki/Azərbaycan_Respublikasının_əməkdar_memarlarının_siyahısı

Nəriman Əzimov – 90

(1936-2016)

Dirijor, bəstəkar



Nəriman Abbasqulu oğlu Əzimov 1 iyun 1936-cı ildə Gəncə şəhərində anadan olmuşdur. O, musiqi təhsilini Azərbaycan Dövlət Konservatoriyasının xor dirijorluğu fakültəsində almış və tələbəlik illərindən etibarən Xalq Çalğı Alətləri Orkestrində tarzən kimi fəaliyyət göstərməyə başlamışdır. Yaradıcılıq və peşəkar fəaliyyəti ərzində Azərbaycan musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamış sənətkar ömrünün 60 ildən artıq bir dövrünü Azərbaycan Televiziyası və Radiosuna həsr etmişdir.

Əmək fəaliyyətinin ilk mərhələlərində Nəriman Əzimov AzTR-nin Xor kollektivində xormeyster kimi çalışmışdır. 1974-cü ildən etibarən Səid Rüstəmov adına Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijoru kimi fəaliyyət göstərmişdir. Bununla yanaşı, o, AzTV QSC-də səs rejissoru kimi də çalışmışdır.

Nəriman Əzimovun yaradıcılığı çoxşaxəli olub, yüzlərlə mahnı və instrumental əsəri əhatə edir. Onun tar və xalq çalğı alətləri orkestri üçün yazdığı musiqilər, eləcə də "Xatirə", "Qaynana əməliyyatı Q", "Özəlim – gözəlim", "Gəncəm" kimi əsərləri milli musiqi irsinin dəyərli nümunələri kimi qiymətləndirilir. Bəstəkarın yaradıcılığı həm melodik zənginlik, həm də milli musiqi ünsürlərinin professional səviyyədə işlənməsi ilə səciyyələnir.

Nəriman Əzimovun musiqi mədəniyyətinin inkişafındakı xidmətləri müxtəlif dövrlərdə yüksək mükafatlarla qiymətləndirilmişdir. 1982-ci ildə o, Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif edilmişdir. 1991-ci ildə "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adına layiq görülmüş, 2003-cü ildə professor elmi rütbəsini almışdır. Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2016-cı il tarixli Sərəncamı ilə sənətkar "Şöhrət" ordeni ilə mükafatlandırılmışdır. O, eyni zamanda uzun illər Prezident təqaüdçüsü olmuşdur.

Sənətkarın uzunmüddətli yaradıcılığı həm respublikada, həm də Azərbaycan musiqisinin beynəlxalq aləmdə tanıdılmasında böyük rol oynamışdır. Onun rəhbərlik etdiyi kollektivlər milli musiqi irsinin müxtəlif səhnələrdə təqdimatında mühüm xidmətlər göstərmiş,

Nəriman Əzimov 19 noyabr 2016-cı ildə Bakı şəhərində vəfat etmiş və Gəncənin Səbsikar qəbiristanlığında dəfn olunmuşdur.

Onun yaradıcılığı Azərbaycan musiqi mədəniyyətinin inkişaf tarixində mühüm bir mərhələ kimi dəyərləndirilir və milli musiqi irsinin formalaşmasına verdiyi töhfələr ilə yadda qalır.

Ədəbiyyat:

Azərbaycan Respublikasının televiziya və radio işçilərinin təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 7 noyabr 2016-cı il // Azərbaycan. - 2016. - 8 noyabr. - S. 2.

Tanınmış dirijor və bəstəkar Nəriman Əzimov vəfat edib // Mədəniyyət. - 2016. - 23 noyabr. - S. 14.

İnternetdə

http://www.anl.az/down/meqale/medeniyyet/2016/noyabr/515915.htmhttp://mugam.musigi-dunya.az/ya/azimov_neriman.htm

Almaz Orucova – 60

(1966)

Xanəndə



Almaz Ədil qızı Orucova 2 iyun 1966-cı ildə Zəngilan rayonunda anadan olmuşdur. O, 1983-cü ildə Zəngilan şəhər 1 saylı orta məktəbini bitirmiş, 1985–1990-cı illərdə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunda Azərbaycanın görkəmli xanəndəsi Şövkət Ələkbərovanın sinfində təhsil almışdır. Musiqi təhsili aldığı illərdə Səxavət Məmmədovun rəhbərlik etdiyi Qarabağ ansamblına dəvət olunmuş və ilk dəfə Naxçıvan şəhərində keçirilən konsert proqramında çıxış etmişdir.

1992-ci ildə Almaz Orucova Almaniya Respublikasına qastrol səfərinə dəvət edilmiş, xalq və bəstəkar mahnılarından ibarət ilk audio albomu da həmin ölkədə buraxılmışdır. 1993-cü ildən etibarən Azərbaycan Muğam Teatrında fəaliyyətə başlamışdır.

2005-ci ildə o, Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasına solist kimi dəvət olunmuş, 2006-cı ildə həmin məkanda ilk solo konsertini təqdim etmişdir. Almaz Orucova Azərbaycanın aparıcı musiqi kollektivləri – Dövlət Xalq Çalğı Alətləri Orkestri və Mahnı-Rəqs Ansamblı ilə birlikdə respublikanın müxtəlif dövlət tədbirlərində çıxış etmişdir.

2010-cu ildə Türkmənistanda 21 ölkənin iştirakı ilə keçirilən Beynəlxalq "Avaza" festivalında Azərbaycan musiqi sənətini təmsil edən Almaz Orucova və sənət yoldaşları müsabiqənin ən yüksək mükafatı – I yer Qran-Priyə layiq görülmüşlər.

2011–2012-ci illərdə ATV telekanalında təşkil olunan "Xalq Ulduzu" musiqi yarışmasında münsif qismində çıxış etmişdir.

Almaz Orucovanın yaradıcılıq fəaliyyəti milli musiqi mədəniyyəti müstəvisində yüksək qiymətləndirilmişdir. 2012-ci ildə o, Azərbaycan Respublikasının "Əməkdar artisti" fəxri adına layiq görülmüşdür.

2015-ci ildə Bakı Muğam Mərkəzində keçirilmiş "Muğam aləmi" IV Beynəlxalq Muğam Festivalında iştirak etmişdir. Azərbaycan Dövlət Televiziyasında solist kimi çalışdığı illər ərzində televiziyanın qızıl fondu üçün bir çox muğamların və xalq mahnılarının bədii səviyyəli ifalarını yazdırmışdır.

Almaz Orucova muğam sənətinin istedadlı nümayəndələrindən biri kimi Azərbaycan xalq musiqisini müxtəlif beynəlxalq səhnələrdə uğurla təmsil etmişdir. O, Almaniya, İtaliya, Fransa, Avstriya, Norveç, İran, Türkiyə, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan, Ukrayna və digər ölkələrdə keçirilən qastrol və festivallarda çıxış edərək Azərbaycan musiqi mədəniyyətinin təbliğinə mühüm töhfələr vermişdir.

Sənətkar hazırda Azərbaycan Dövlət Akademik Filarmoniyasının solisti kimi fəaliyyətini davam etdirir və muğam ifaçılığı məktəbinin müasir dövrdə yaşadılması və inkişaf etdirilməsi istiqamətində ardıcıl yaradıcılıq fəaliyyəti göstərir.

Ədəbiyyat:

"Mənim yaradıcılığımda da pasport mahnım məhz həmin mahnıdır..." / Almaz Orucova // Bizim yol. - 2018.- 12 oktyabr.- S.15.

Gözüm Zəngilanı axtarır: [Almaz Orucova ilə müsahibə] / Almaz Orucova; müsahibəni apardı Samirə // Şərq.- 2020.- 10 oktyabr.- S.13.

"Bəzən adam xəcalət çəkir" [Mətn] : Almaz Orucova: "Səhnəyə palatka repertuarı gətiriblər, adam xəcalət çəkir" / Almaz Orucova; müsahibəni apardı: T.Məmmədqızı // Şərq -2020.- 29 fevral.- S. 13.

Məmmədov, B. Onun səsinə göydə quşlar qanad saxlayır / Bayram Məmmədov // 525-ci qəzet.-2020.- 26 avqust.- S.20.

İnternet də:

https://az.wikipedia.org/wiki/Almaz_Orucova

Fatma Mehrəliyeva – 100

(1926-2000)

Xanəndə



Ədəbiyyat:

Abbaslı, T. Yenə "Fatma şikəstə"!...: Təkrar-təkrar, təkrir-təkrir, dönə-dönə... / T. Abbaslı // Mədəniyyət. - 2016. - 3 iyun. - S. 13.

Abbaslı, T. Fatma şikəstə...: Bu sözü mənə diktə edən - "Kəsmə şikəstə" tanrısı Fatma xanımın Səsi!... / T.Abbaslı // Mədəniyyət. - 2015. - 3 iyun. - S. 13.

Fatma Mehrəliva. Kəsmə şikəstə // Musiqi cəvahiratı [Səsyazma]: ["Musiqi dünyası" beynəlxalq, elmi-pedaqoji, tənqidi publisistik və mədəni maarif musiqi jurnalının 1/2014-cü il buraxılışına əlavə].- Bakı: Musiqi dünyası, 2013.- [Album 1].[1]- elektron. opt. disk (CD ROM): 12 sm.

Azəri, L. "Kəsmə şikəstə"-nin bənzərsiz ifaçısı yad olunacaq / L.Azəri

Azəri, Lalə // Mədəniyyət .-2023.- 24 may.- S.6.

Nizamiqızı, H. Demə ki, sənə yadam, sevgilim... / Həmidə Nizamiqızı //Mədəniyyət.-2023.- 2 iyun.- S.7.

İnternetdə:

http://www.anl.az/down/meqale/medeniyyet/2015/iyun/441400.htm

Fatma Yusif qızı Mehrəliyeva 4 iyun 1926-cı ildə Quba şəhərində anadan olmuşdur. Uşaqlıq illərindən musiqiyə xüsusi meyl göstərən F.Mehrəliyeva orta məktəbdə oxuduğu dövrdə nəğmə dərslərində fərqlənmiş, müəllimlərinin təşəbbüsü ilə 11 yaşında Bakı musiqi festivalında iştirak etmişdir. Onun "Qubanın ağ alması" mahnısını özünəməxsus ifası festivalda iştirak edən görkəmli bəstəkar Üzeyir Hacıbəylinin diqqətini cəlb etmişdir. Bu təsadüfi görüş sənətkarın gələcək yaradıcılıq yolunu müəyyənləşdirmiş, 1938-ci ildə Ü.Hacıbəylinin təşəbbüsü ilə Fatma Mehrəliyeva Bakıya dəvət olunmuşdur. Bəstəkar gənc istedadın musiqi təhsili alması üçün xüsusi şərait yaratmış, onu himayəsinə götürərək həm musiqi mədəniyyəti, həm də muğam sənətinin incəliklərini mənimsəməsinə yaxından köməklik etmişdir. Mehrəliyeva Azərbaycan Dövlət Konservatoriyasının fortepiano və vokal siniflərini bitirmişdir.

Fatma Mehrəliyevanın peşəkar səhnə fəaliyyəti 1940-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdindəki "Sazçı qızlar" ansamblında başlamışdır. Qısa müddət ərzində o, Filarmoniyanın solisti kimi geniş konsert proqramları ilə çıxış etmiş və müxtəlif musiqi kollektivləri ilə əməkdaşlıq etmişdir. Böyük Vətən müharibəsi illərində müğənni tez-tez cəbhə bölgələrinə yollanaraq hərbi hissələrdə konsertlər vermiş, Üzeyir Hacıbəylinin vətənpərvərlik ruhlu əsərlərinə repertuarında xüsusi yer ayırmışdır. Onun Səməd Vurğunun sözlərinə Ü. Hacıbəylinin bəstələdiyi "Şəfqət bacısı" mahnısının ilk ifaçısı olması da bu dövrə təsadüf edir.

Lirik soprano tembrinə malik olan Fatma Mehrəliyeva həm muğam, həm xalq mahnıları, həm də bəstəkar yaradıcılığı nümunələrinin ifaçısı kimi şöhrət qazanmışdır. 1945-ci ildə Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında çəkilmiş "Arşın mal alan" bədii filmində Telli obrazını canlandırması onun yaradıcılığında əlamətdar hadisələrdən biri olmuşdur.

Fatma Mehrəliyeva xüsusilə "Kəsmə şikəstə" muğamının mahir ifaçısı kimi məşhurlaşmışdır. Musiqişünas-alim Ramiz Zöhrabov "Zərbi muğamlar" kitabında verdiyi "Kəsmə şikəstə"ni məhz Fatma xanımın ifasında nota köçürüb. Müğənninin repertuarında "Qatar", "Segah-zabul", "Azərbaycan maralı", "Ahu kimi", "Qaragilə", "Muğan qızı", "Lay-lay", "Olmaz-olmaz", "Ceyranım", "Unuda bilmirəm" və digər bir çox xalq və bəstəkar mahnıları mühüm yer tutmuş, bu ifalar Azərbaycan Milli Radiosunun Qızıl fondunda qorunub saxlanılmışdır.

Sənət fəaliyyətinə verdiyi töhfələrə görə Fatma Mehrəliyeva 1956-cı ildə Azərbaycan SSR-in "Əməkdar artist" fəxri adına layiq görülmüşdür.

Xanəndə uzun illər Filarmoniyanın səhnəsində çıxış edərək Azərbaycan vokal sənətinin inkişafında mühüm rol oynamış, həm ifa mədəniyyəti, həm də muğam ənənəsinin yaşadılması baxımından əhəmiyyətli xidmətlər göstərmişdir.

Fatma Yusif qızı Mehrəliyeva 4 yanvar 2000-ci ildə vəfat etmişdir.

Zəngin interpretasiya imkanları, özünəməxsus səs tembri və ifa mədəniyyəti ilə seçilən sənətkar Azərbaycan musiqi tarixində mühüm yer tutur.

Xuraman Qasımova – 75

(1951)

Opera müğənnisi



Ədəbiyyat:

Vətənpərvərlik içdən gələn duyğudur: Bu hisslərin formalaşmasında, maraqların qorunmasında musiqi də kəsərli bir "silah"dır / Xuraman Qasımova // Respublika.-2024.- 16 iyul, (№ 147).- S.8.

"Heydər Əliyev həmişə bizimlə qürur duyurdu": Elmira Axundovanın Azərbaycanın Xalq artisti, professor Xuraman Qasımova ilə söhbəti // 525-ci qəzet. -2025.- 5 aprel(№56).- S.8-10.

Bayramova, Y. Kübarlıq və yüksək mədəniyyət nümunəsi...: Xuraman Qasımovanın doğum günüdür / Yeganə Bayramova // Yeni Azərbaycan.- 2024.- 6 iyun, №100.- S.8.

Musayeva Y. Əfsanə qadın / Y.Musayeva // Azərbaycan. - 2019. - 27 dekabr. - S. 10.

İsmayılzadə, N. Bir çərçivədə iki brilyant N.İsmayılzadə // Xalq qəzeti.-2024.- 17 iyul, (№ 148).- S.10.

İnternetdə:

https://metbuat.az/melumat/taninmis/111/xuraman qasimova.html

https://www.musicacademy.edu.az/az/solo-okhuma-muallimler/106-zhasimova-khuraman.html

Xuraman Əkrəm qızı Qasımova 6 iyun 1951-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, 1975-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmiş və 1976-cı ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti kimi fəaliyyətə başlamışdır.

Xuraman Qasımovanın opera yaradıcılığında geniş və çoxşaxəli repertuarı ilə seçilir. Müğənni Sevil və Dilbər (F. Əmirov, "Sevil"), Nigar (Ü. Hacıbəyli, "Koroğlu"), Mimi və Müzetta (C. Puççini, "Bohema"), Dezdemona və Aida (C. Verdi, "Otello", "Aida"), Tatyana (P. Çaykovski, "Yevgeni Onegin"), Səlma (M. Quliyev, "Aldanmış ulduzlar"), Xurşudbanu Natavan (V. Adıgözəlov, "Natavan") kimi klassik və milli opera obrazlarını yüksək peşəkarlıqla ifa etmişdir. Onun səs tembri, dramatik ifa üslubu və vokal texnikası Azərbaycan opera sənətində xüsusi məktəb formalaşdırmışdır.

Sənətkarın yaradıcılığında beynəlxalq müsabiqələrdə əldə etdiyi nailiyyətlər xüsusi yer tutur. O, 1977-ci ildə İfaçıların 5-ci Zaqafqaziya müsabiqəsinin və M. Qlinka adına 7-ci Ümumittifaq müsabiqəsinin laureatı olmuş, 1981-ci ildə Afinada keçirilən Mariya Kallas adına beynəlxalq müsabiqədə "Qran Pri" qızıl medalına layiq görülmüşdür. 1982-ci ildə Moskvada keçirilən P. Çaykovski adına 8-ci Beynəlxalq müsabiqənin laureatı olmuş, sonrakı illərdə həmin müsabiqənin gümüş medalını qazanmışdır.

Xuraman Qasımova həmçinin kino sahəsində də fəaliyyət göstərmişdir. O, "Liftçi qız" (1966), "Mən ki, gözəl deyildim" (1968), "Həyat bizi sınayır" (1972), "Nəğməkar torpaq" (1981), "Üzeyir ömrü" (1981), "Gələcəyin quruculları" (1982), "Zəng" (1995) və digər ekran əsərlərində çəkilərək Azərbaycan kino incəsənətinə də töhfə vermişdir.

1982-ci ildən etibarən Bakı Musiqi Akademiyasında pedaqoji fəaliyyətlə məşğul olan Xuraman Qasımova 1994-cü ildən "Solo oxuma" kafedrasının müdiri, 1996-cı ildən professor elmi adına layiq görülmüşdür. O, eyni zamanda 1994-cü ildən İstanbul Dövlət Universiteti Konservatoriyasının professoru kimi beynəlxalq miqyasda pedaqoji fəaliyyət göstərir. Onun hazırladığı "Solo oxuma" ixtisası üzrə tədris proqramları (2001, 2016) vokal təhsili sahəsində mühüm metodik vəsaitlərdən hesab olunur.

Xuraman Qasımova Bolqarıstan, Çexoslovakiya, Malta, Fransa, Avstriya, Norveç, Türkiyə, Finlandiya və digər ölkələrdə geniş konsert proqramları ilə çıxış edərək Azərbaycan vokal sənətini layiqincə təmsil etmişdir. 2016-cı ildə Vyana şəhərində bəstəkar Tofiq Quliyevin yaradıcılığına həsr olunmuş bədii axşamda bacısı Fidan Qasımova ilə birgə çıxış etmişdir.

Sənətkarın musiqi mədəniyyətinin inkişafındakı xidmətləri yüksək dövlət mükafatları ilə qiymətləndirilmişdir. O, 1982-ci ildə "Azərbaycan SSR Əməkdar artisti", 1986-cı ildə "Azərbaycan SSR Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 1976-cı ildə Lenin Komsomolu mükafatına, 1984-cü ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür. Müstəqillik dövründə isə "Şöhrət" ordeni (2001), "Şərəf" ordeni (2011) və "İstiqlal" ordeni (2021) ilə təltif edilmişdir. 2024-cü ildə ona "Heydər Əliyevin 100 illiyi" yubiley medalı təqdim olunmuşdur.

Bu gün də Xuraman Qasımova həm ifaçı, həm də pedaqoq kimi fəaliyyətini davam etdirir. Onun yaradıcılığı Azərbaycan vokal məktəbinin inkişafında mühüm mərhələ təşkil edir və milli musiqi mədəniyyətinin dünya miqyasında tanıdılmasına əhəmiyyətli töhfələr verir.

Vamiq Məmmədəliyev – 80

(1946)

Tarzən



Ədəbiyyat:

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin əməkdaşlarının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 13 dekabr 2023-cü il // Azərbaycan.- 2023.- 14 dekabr, № 273.- S.2.

Muğam: [Musiqi təmayüllü ali məktəblər üçün dərs vəsaiti] / A. İ. Nəcəfzadə, V. M. Məmmədəliyev; elmi red. R. A. Məmmədova; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dövlət Mədəniyyət və İncəsənət Un-ti.- Bakı .- Ecoprint.- 2017.- 159, [1] s.

Vamiq Məmmədəliyev: Müşayiətin özü də bir elmdir: Sənətkar / Vamiq Məmmədəliyev; müsahibəni apardı: Q.Məhəbbətoğlu // İki sahil.-2025.- 19 aprel (№65).- S.8.

"Tarın sarı simi...": Müsahibimiz Xalq artisti, tanınmış tarzən Vamiq Məmmədəliyevdir / Vamiq Məmmədəliyev;müsahibəni apardı:R.Qurbanlı // Xalq qəzeti.-2024.- 9 fevral, № 28.- S.12.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Vamiq_Məmmədəliyev

Vamiq Məmmədəli oğlu Məmmədəliyev 1946-cı il 9 iyun tarixində Bakının Kürdəxanı qəsəbəsində ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini 1953–1964-cü illərdə 113 nömrəli Kürdəxanı kənd məktəbində almış, ilkin musiqi hazırlığını isə kənd klubunun tar dərnəyində Dərdayıl Aydəmirovun rəhbərliyi altında keçmişdir. 1963-cü ildə o, həmin klubda tar dərnəyini və sonralar "Bahar" xalq çalğı alətləri ansamblını yaratmış, 1967–1972-ci illərdə klubda təlimatçı, bədii rəhbər və müdir vəzifələrində çalışmışdır. 1965–1967-ci illərdə hərbi xidmətdə olmuşdur.

Vamiq Məmmədəliyev professional musiqi təhsilini Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunda (1972–1976) və Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında (1980–1985) almışdır. O, Bəhram Mansurov, Əhməd Bakıxanov, Hacı Məmmədov, Adil Gəray, Oqtay Quliyev və Sərvər İbrahimov kimi ustadlardan muğam ifaçılığı məktəbinin incəliklərini mənimsəmişdir. Musiqi təhsili ilə yanaşı, Mədəni Maarif Texnikumunda (1971–1993) tar ixtisası üzrə müəllimlik etmiş, daha sonra Bakı Musiqi Akademiyasında baş müəllim və dosent (1988–2001) kimi fəaliyyət göstərmişdir.

2001-ci ildən etibarən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin musiqi sənəti fakültəsinin dekanı kimi çalışaraq fakültənin təşkilində və elmi-pedaqoji fəaliyyətinin inkişafında mühüm rol oynamışdır.

Vamiq Məmmədəliyev Azərbaycan radiosunun "Qızıl fond"una daxil edilən Bayatı-Şiraz, Humayun, Rahab, Xaric Segah, Bayatı-Qacar və Nəva muğamlarının ustad ifaçısıdır. O, Yaqub Məmmədov, Hacıbaba Hüseynov, Əbülfət Əliyev, Arif Babayev, Canəli Əkbərov, Ağaxan Abdullayev, Alim Qasımov, Zahid Quliyev, Səkinə İsmayılova, Mələkxanım Əyyubova, Qəndab Quliyeva, Könül Xasıyeva, Nazpəri Dostəliyeva və digər məşhur xanəndələrlə birgə çıxış edərək Azərbaycan muğam ənənəsinin yaşadılmasına mühüm töhfə vermişdir.

İfaçının yaradıcılıq fəaliyyəti beynəlxalq miqyasda da tanınır. 1985-ci ildə "Melodiya" firması onun ifasında Xaric Segah və Rahab muğamlarını lentə almış, 1989-cu ildə isə İsveçdə keçirilən "Falun Folkmusic Festival"da birinci yerə layiq görülmüşdür. 1994-cü ildə Fransada "Maison De's Cultures Du Monde" şirkəti onun ifasında "Nəva" və "Rahab" muğamlarını, həmçinin Qəndab Quliyeva və Canəli Əkbərovun ifalarını lentə almışdır. 1996–1997-ci illərdə Avropa ölkələrində Vamiq Məmmədəliyevin ifaları yüksək tirajla yayımlanmışdır. O, İran, Türkiyə, İraq, Danimarka, Rusiya, Ukrayna və digər ölkələrdə təşkil olunan festivallarda da Azərbaycan musiqisini layiqincə təmsil etmişdir.

2005-ci ildə Heydər Əliyev Fondunun UNESKO üzrə fəaliyyət proqramı çərçivəsində keçirilən muğam layihəsində iştirak etmiş, "Qarabağ xanəndələri" layihəsinin reallaşmasına öz töhfəsini vermişdir. Respublika müsabiqələrində münsiflər heyətinin üzvü və sədri kimi fəal ictimai mövqe nümayiş etdirmişdir.

Vamiq Məmmədəliyev 2016, 2017 və 2018-ci illərdə Prezident Mükafatına layiq görülmüş, 27 may 2018-ci il tarixli Sərəncamla Azərbaycan Respublikasının Xalq artisti fəxri adına layiq görülmüşdür. 13 dekabr 2023-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyi münasibətilə Prezidentin fərdi təqaüdü ilə mükafatlandırılmışdır.

Həbib Bayramov – 100

(1926-1994)

Tarzən



Həbib (Həbibulla) Əbdülhüseyn oğlu Bayramov 14 iyun 1926-cı ildə Bakı şəhərində anadan olmuşdur. Uşaqlıq illərindən musiqiyə böyük maraq göstərən Həbib Bayramov 13 yaşından tarzən və pedaqoq Əhməd Bakıxanovdan peşəkar musiqinin sirlərini öyrənməyə başlamışdır. Bu proses onun peşəkar musiqi fəaliyyətinin başlanğıcını təşkil etmişdir.

1941-ci ildən o, Əhməd Bakıxanovun rəhbərlik etdiyi Azərbaycan Xalq Çalğı Alətləri Ansamblında fəaliyyətə başlamışdır. 1943-cü ildə Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində təhsil almaqla yanaşı, müəllim çatışmazlığı səbəbindən burada muğamat sinfində dərs demişdir. Bayramov 1949-cu ildən Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının nəzdində Azərbaycan Qastrol-Konsert Birliyi yaradıldıqdan sonra həmin birliyin solisti kimi çıxış etməyə başlamışdır.

İfaçının beynəlxalq səviyyədə tanınması 1951-ci ildə Berlin şəhərində keçirilən tələbələrin III Ümumdünya Festivalında iştirakı ilə bağlıdır. Burada qazandığı laureatlıq ona geniş şöhrət gətirmişdir. Sonrakı illərdə o, Polşa, Kanada, İraq, Suriya, Yəmən, Küveyt, İordaniya, Əfqanıstan, Türkiyə, Danimarka, Avstriya, İngiltərə, Hindistan, Nepal, İtaliya, İspaniya və Fransa kimi ölkələrdə qastrol səfərlərində olmuş, Azərbaycan musiqi mədəniyyətinin və tar ifaçılığının dünyada tanıdılmasında əhəmiyyətli rol oynamışdır.

Repertuarında "Rast", "Şur", "Çahargah", "Segah", "Xaric Segah", "Orta Mahur", "Humayun" və digər muğamlar xüsusi yer tutmuşdur. Sənət aləmində daha çox "Xaric Segah" ifaçısı kimi məşhurlaşmışdır. Həbib Bayramov eyni zamanda gözəl saz ustası olmuş, onun sazda ifa etdiyi "Segah", "Humayun", "Bayatı-Qacar" muğamları radionun qızıl fonduna daxil edilmişdir.

1973-cü ildən ömrünün sonunadək Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Əhməd Bakıxanov adına Xalq Çalğı Alətləri Ansamblının bədii rəhbəri vəzifəsində çalışmışdır. Fəaliyyəti ərzində o, Bülbül, Xan Şuşinski, Zülfü Adıgözəlov, Yavər Kələntərli, Həqiqət Rzayeva, Tükəzban İsmayılova, Şövkət Ələkbərova, Əbülfət Əliyev, Rübabə Muradova, Zeynəb Xanlarova, Sara Qədimova və digər görkəmli sənətkarları tarda peşəkarlıqla müşayiət etmişdir.

Azərbaycan musiqi incəsənətinin inkişafındakı xidmətlərinə görə o, 29 iyun 1964-cü ildə "Azərbaycan SSR əməkdar artisti", 17 may 1989-cu ildə isə "Azərbaycan SSR xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Həbib Əbdülhüseyn oğlu Bayramov 15 avqust 1994-cü ildə Bakı şəhərində vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Onun yaradıcılığı Azərbaycan tar ifaçılığı məktəbinin inkişafında mühüm mərhələ təşkil edir və milli musiqi irsinin qiymətli səhifələrindən biridir.

Ədəbiyyat:

Bayramov Həbib Əbdülhüseyn oğlu // Üzeyir Hacıbəyli ensiklopediyası. - Bakı, 2008. - S. 33.

Fərəcov, S. Görkəmli tarzənin xatirəsi yad edilib / Savalan Fərəcov // Mədəniyyət. - 2016. - 30 noyabr. - S. 4.

Həbib Bayramov // Azərbaycan musiqi dünyası: ensiklopedik albom-kataloq / Layih. rəhb. F.Ramazanov; baş red. S.Firudinlu; red. Ş.Qabulov; tərc. G.Pənahi; dizaynerlər. A. Ramazanov, C.Ağayeva.- Bakı: AİDA, 2001.- S.79-81.

Azəri, L. Tara vurğun sənətkar / Lalə Azəri // Mədəniyyət.-2020.- 20 avqust.- S.5.

Bayramov, V. "Eşqimi sönməyə qoymayın..." / V.aqif Bayramov // Xalq qəzeti.-2012.- 24 oktyabr.- S.6.

İnternetdə:

http://www.anl.az/down/meqale/medeniyyet/2016/noyabr/516916.htm

http://medeniyyet.az/page/news/13763/Tari-dunyaya sevdiren-senetkar:-Hebib Bayramov.html?lang=en

Cahangir Cahangirov – 105

(1921-1992)

Bəstəkar



Cahangir Şirgəşt oğlu Cahangirov 1921-ci il iyunun 20-də Bakının Balaxanı kəndində anadan olmuşdur. Musiqiyə erkən yaşlarından maraq göstərmiş, yeddiillik musiqi məktəbini bitirdikdən sonra 1937-ci ildə Teatr Texnikumuna daxil olmuşdur. Gənc musiqiçinin istedadı Üzeyir Hacıbəylinin diqqətini cəlb etmiş və o, Cahangirovu Azərbaycan Dövlət Filarmoniyasında təşkil etdiyi xor kapellasına dəvət etmişdir. Cahangir Cahangirov daha sonra Azərbaycan Dövlət Konservatoriyasının hazırlıq kursunda təhsil almış, 1940-cı ildə (bəzi mənbələrə görə 1941-ci ildə) Konservatoriyanın Xalq musiqisi şöbəsinə qəbul olunmuşdur. Burada Üzeyir Hacıbəylinin rəhbərliyi ilə xalq musiqisi nəzəriyyəsini, B.İ. Zeydmanın sinfində isə bəstəkarlıq ixtisasını mənimsəmişdir. II Dünya müharibəsi illərində təhsilinə fasilə verməsinə baxmayaraq, 1951-ci ildə Konservatoriyanı tamamlamışdır.

Cahangir Cahangirov Azərbaycan xor mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. O, 1940-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının xor qrupuna, 1942-ci ildə "Sazçı qızlar" ansamblına, 1944–1960-cı illərdə isə Azərbaycan Radio Verilişləri Komitəsi nəzdində fəaliyyət göstərən xor kollektivinə rəhbərlik etmişdir.

Bəstəkarın yaradıcılığında vokal-simfonik nümunələr, kantata və oratoriyalar xüsusi yer tutur. "Arazın o tayında" vokal-simfonik poemasına görə o, 1950-ci ildə SSRİ Dövlət mükafatına layiq görülmüşdür. "Dostluq mahnısı" süitası (1956), "Füzuli" kantatası (1959), "Sabir" oratoriyası (1962), "Nəsimi" kantatası (1973), "Hüseyn Cavid – 59" (1984) və "Böyük qələbə" (1985) kimi əsərlər bəstəkarın vokal-simfonik sahədəki fəaliyyətinin əsas mərhələləridir.

Cahangir Cahangirov 1957-ci ildə M. İbrahimovun "Azad qız" povesti əsasında "Azad" operasını, 1978-ci ildə isə xanəndə Seyid Mirbabayevin həyatına əsaslanan "Xanəndənin taleyi" operasını bəstələmişdir. 1976-cı ildə səhnələşdirilən "Təzə gəlin" operettası isə müəllifin musiqili teatr sahəsində fəaliyyətinin mühüm nümunələrindən biridir.

Bəstəkar instrumental musiqi sahəsində də fəaliyyət göstərmiş, 1951-ci ildə skripka və orkestr üçün konsert, eləcə də xalq çalğı alətləri orkestri üçün "Osetin süitası" və "Misir lövhələri" kimi əsərlər yaratmışdır. Kino və teatr üçün bəstələdiyi musiqilər arasında "Koroğlu" (1960), "Yenilməz batalyon" (1965), "Dağlarda döyüş" (1967), "Dəli Kür" (1969), "Qatır Məmməd", həmçinin "Almas", "Xəyyam", "Od içində" kimi teatr tamaşalarının musiqiləri xüsusi yer tutur.Cahangirovun mahnı yaradıcılığı Azərbaycan peşəkar musiqi repertuarının mühüm tərkib hissəsidir. "Ana", "Aylı gecələr", "Bakı", "Dan ulduzu, bir də mən", "Ay qız", "Ala göz", "Bayatılar", "Ana Kür" kimi mahnılar müəllifin liriko-dramatik üslub xüsusiyyətlərini əks etdirir. O, həmçinin klassik poeziyaya müraciət etmiş, Nizami, Füzuli, Sabir və Nəsimi şeirlərinə romans və vokal miniatürləri yaratmışdır. "Gül camalın", "Eşitməzdim" romansları və Nəsimi sözlərinə yazılmış "Ənəlhəq" mahnı-romansı xüsusilə seçilir.

Cahangir Cahangirov fəaliyyətinə görə 1950-ci ildə SSRİ Dövlət mükafatının laureatı olmuş, 1958-ci ildə Azərbaycan SSR əməkdar incəsənət xadimi, 1963-cü ildə isə Azərbaycan SSR xalq artisti fəxri adı ilə təltif edilmişdir. O, həmçinin Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanına, "Qırmızı Əmək Bayrağı" ordeninə və digər mükafatlara layiq görülmüşdür.

Bəstəkarın fəaliyyətinin Azərbaycan musiqi mədəniyyətinin formalaşmasında əhəmiyyətli rolu vardır. O, vokal-simfonik musiqinin, xor sənətinin, teatr və kino musiqisinin inkişafına töhfə vermiş, musiqi irsinin inkişafında mühüm yer tutmuşdur. Onun həyat və yaradıcılığına həsr olunmuş "Bəstəkar Cahangir Cahangirov" adlı sənədli film çəkilmişdir.

Cahangir Cahangirov 1992-ci il martın 25-də Bakı şəhərində vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

2021-ci ildə Xalq artisti Cahangir Cahangirovun 100 illik yubileyi münasibətilə Azərbaycan Milli Kitabxanası tərəfindən "Cahangir Cahangirov – 100" adlı virtual sərgi hazırlanmışdır.

Ədəbiyyat:

Bayramova, Y. Lirik nəfəsli, şair qəlbli insan...: Cahangir Cahangirovun doğum günüdür / Yeganə Bayramova // Yeni Azərbaycan.-2025.- 20 iyun (№104).- S.8.

Eldarqızı, N. Qəzəl və romans sintezində milli musiqi düşüncəsi / Nəzrin Eldarqızı // Respublika.-2025.- 20 iyun (№125).- S.11.

Azəri, L. Musiqisi Cahangir Cahangirovundur... / Lalə Azəri // Mədəniyyət .-2024.- 6 noyabr,№(82).- S.5.

Yaqubqızı, R. Sevimli mahnılar müəllifi / Ramidə Yaqubqızı // Respublika. -2023.- 20 iyun.- S.12.

Aygün. "Zərif gülüşlüm" : Ermənilər Cahangir Cahangirovun musiqisini mənimsəyib /Aygün // Şərq. -2022.- 12 noyabr.- S.15.


Quliyeva, L. Musiqi xəzinəmizin Cahangir Cahangirov inciləri: Böyük bəstəkarın 100 illiyi tamam olur / L.Quliyeva // 525-ci qəzet. - 2021.- 17 iyun.- S.12.

Əbədi yaşar sənətkar // Hərbi And.-2021.-25 iyun.- S.22.

https://www.anl.az/down/meqale/ses/2011/oktyabr/204220.htm

Ramiz Fətəliyev – 80

(1946) *Kinossenarist, rejissor*



Ədəbiyyat:

R.M.Fətəliyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 6 iyun 2016-ci il // Azərbaycan.-2016.- 7 iyun.- S.2.

Fətəliyev, R. Daha nüfuzlu ola bilərdim / R. Fətəliyev // Ekspress.- 2016.- 8 iyun.- S.13.

Fətəliyev, R. Ramiz Fətəliyev - 70: Yaxud yaxşı ssenari müəllifinin Azərbaycanlı olmasının "qəribəliyi"... / R. Fətəliyev // Mədəniyyət.az.- 2016.- № 11.- S. 52-57.

Heydərova, Ü. Pələng. Birpərdəli monopyes: Ustadım Ramiz Fətəliyevə ithaf edirəm / Ü. Heydərova // Qobustan:Sənət toplusu.- 2019. - №2.- S.92-95.

Hüseynov, F. Kinoya həsr olunan ömrün 70-ci zirvəsi: Tanınmış ssenarist və kinorejissor Ramiz Fətəliyevin yubileyi qeyd olundu / F. Hüseynov // Mədəniyyət.- 2016.- 8 iyun.- S.2.

Ramiz Fətəliyev "Xalq artisti" adına və "Şöhrət" ordeninə layiq görülüb // Mədəniyyət.-2016.- 8 iyun.- S.2.

Ramiz Məmmədəli oğlu Fətəliyev 7 iyun 1946-cı ildə Bakıda anadan olmuşdur. O, Azərbaycan Dövlət Neft-Kimya İnstitutunu (1969) və Moskvada Ali rejissorluq və ssenaristlər kursunu (1972) bitirmişdir.

Yaradıcılıq fəaliyyətinə publisistik məqalələrlə başlayan Ramiz Fətəliyev respublikanın müxtəlif qəzet və jurnallarında bir sıra əsərlərlə çıxış etmişdir.

Ramiz Fətəliyev 1974–1975-ci illərdə "Azərbaycanfilm" kinostudiyasının ssenari-redaksiya kollegiyasının üzvü kimi fəaliyyətə başlamışdır. 1985–1986-cı illərdə kinostudiyanın baş redaktoru, 1987–1995-ci illərdə isə direktoru vəzifəsində çalışmışdır. Həmin illərdə o, ölkədə baş verən siyasi hadisələrin, xüsusilə 20 Yanvar faciəsi və Xocalı soyqırımı ilə bağlı materialların lentə alınması və beynəlxalq ictimaiyyətə çatdırılması işində xüsusi xidmətlər göstərmişdir.

Ramiz Fətəliyev 1987–1991-ci illərdə Siyasi və detektiv romanların Sovet Assosiasiyasının vitse-prezidenti olmuş, 1990–1995-ci illərdə əvvəlcə Azərbaycan Ali Sovetinin deputatı, daha sonra Milli Məclisin üzvü kimi fəaliyyət göstərmişdir.

Onun ssenari müəllifi olduğu bədii filmlər həm "Azərbaycanfilm", həm də SSRİ-nin müxtəlif kinostudiyalarında çəkilmişdir. "Rəqiblər" (kino-novella), "Ömrün ilk saatı", "Dənizə çıxmaq qorxuludur", "Birisigün, gecəyarısı", "Sizi dünyalar qədər sevirdim", "Burulğan", "Xüsusi vəziyyət", "Aşkarsızlıq şəraitində", "Yaramaz" kimi filmlər onun yaradıcılığının mühüm nümunələridir. Bundan başqa, SSRİ-nin bir çox studiyalarında onun ssenariləri əsasında "Öz səadəti", "Köhnə məktublar", "Qraçlar", "Mənasız həyat" (Ukrayna), "Altıncı", "Hər cür risksiz", "Həyatın mənası" (Özbəkistan) və digər bədii filmlər istehsal olunmuşdur.

Ramiz Fətəliyev 2002-ci ildən etibarən rejissor kimi də fəaliyyət göstərmiş, "Bir anın həqiqəti" (12 seriyalı), "Məhəllə", "Qraf Krestovski" və digər televiziya filmlərinə quruluş vermişdir. O, həmçinin "Qraf Krestovski" (2004, Rusiya) serialının rejissoru və ssenari müəllifi kimi tanınmışdır.

Onun yaradıcılığı təkcə Azərbaycan kino sənətinin deyil, ümumilikdə postsovet məkanının kinematoqrafiyasının inkişafında mühüm iz buraxmışdır. "Yolayrıcı" (1974), "Öz bəxtim" (1979), "Həyatın xırdalıqları" (1980), "Biçinçilər" (1982), "Zağcalar" (1982), "Ailə işi" (1982), "Şahidsiz" (1983), "Sövdə" (1985), "İnciklik" (1986), "Şübhəli toy" (1986), "Təzə evlənənlər üçün çətir" (1986), "Ətli-canlı" (1990), "40" (2007), "Ömürdən sonra" (2007), "Paket" (2009) və digər filmlər onun geniş yaradıcılıq diapazonunu nümayiş etdirir.

Kinematoqrafiya sahəsində göstərdiyi böyük xidmətlərə görə Ramiz Fətəliyev yüksək mükafatlara layiq görülmüşdür. O, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, Respublika Dövlət Mükafatı laureatı, 2016-cı ildə isə Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni və "Xalq artisti" fəxri adı ilə təltif edilmişdir. 2019-cu ildə Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının Milli Kino Mükafatına layiq görülmüşdür.

Ramiz Fətəliyev Azərbaycanın kino mədəniyyətinə məxsusi töhfələr vermiş, həm ssenarist, həm redaktor, həm də rejissor kimi milli kinematoqrafiyanın inkişafında mühüm rol oynamış sənətkardır.

Sucəddin Mirzəyev – 70

(1956)

Aktyor



Ədəbiyyat:

İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 7 may 2021-ci il // Azərbaycan.- 2021.- 8 may.- S.7.

Mirzəyev, S."Həyatda ən çox laqeydlikdən qorxuram...": "Teatr adamı qəlbən kövrək olur, sevgi göstərdiyi kimi həm də gözləyir"[Sücəddin Mirzəyevlə müsahibə]/ müsahibəni apardı Həmidə Nizamiqızı // Mədəniyyət.- 2024.- 5 aprel, №25-26.- S.6.

Mirzəyev Sucəddin:"Ömrümün ən gözəl illərini Lənkəran teatrında keçirmişəm" /Sucəddin Mirzəyev;müsahibəni apardı:X. Rəis // Kaspi.-2017.- 30 mart.- S.12.

"Tale insanı dəyişir, insan taleyi yox...": Aktyor Sucəddin Mirzəyev özü və Lənkərandakı teatral mühit barədə / Sucəddin Mirzəyev; müsahibə aparan Cəbrayıloğlu, Etibar // Ədalət.-2012.- 31 mart.- S. 14.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Sucəddin_Mirzəyev#-Tamaşalar

https://president.az/az/articles/view/55974

Mirzəyev Sucəddin Qiyas oğlu 9 iyun 1956-cı ildə Masallı rayonunun İkinci Yeddioymaq kəndində anadan olmuşdur. O, ilk təhsilini anadan olduğu kənddə, hazırda T. Bayraməlibəyovun adını daşıyan orta məktəbdə almışdır. 1973-cü ildə M. A. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) dram və kino aktyorluğu fakültəsinə daxil olmuş və 1977-ci ildə həmin təhsil müəssisəsini bitirmişdir. Həmin ildən etibarən Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında peşəkar fəaliyyətə başlamışdır.

Sənətkarın yaradıcılıq fəaliyyəti həm teatr, həm kino sahəsində geniş və çoxşaxəli olmuşdur. O, Lənkəran Dövlət Dram Teatrının səhnəsində müxtəlif dramaturqların əsərlərində əsas və xarakterik rolların ifaçısı kimi çıxış etmişdir. Sucəddin Mirzəyev Əziz Nesinin "Üç yeriyən bədbəxlik" tamaşasında Fağır, "İntihar" əsərində Müştaq bəy, Eldar İskəndərzadənin "Qalxın, məhkəmə gəlir" əsərində Mətin, Şıxəli Qurbanovun "Özümüz bilərik" əsərində Miriş, Süleyman Rüstəmin "Durna" tamaşasında Murad, Xədicə Muradın "Artan dövlətinin hekayəti" əsərində Elgüc, Əbdürrəhimbəy Haqverdiyevin "Xortdanın cəhənnəm məktubları" əsərində Hacı Kamyab, Fikrət Qocanın "Məhkumlar" tamaşasında Babək, Kamran Nəzirlinin "Şeytan işığı" əsərində Con Şonvis, Moris Meterlinqin "Korlar" tamaşasında ikinci kor, Ramiz Xəlilzadənin "Zulus həmayili" əsərində Tennis Rensburq, Aleksandr Çxaidzenin "Çinari manifesti" əsərində Qoqi, Salam Qədirzadənin "Şirinbala bal yığır" tamaşasında Ağaəmi, Mar Bayciyevin "Toy şənbə günüdür" əsərində Boruş Monkoloyev, Qoqolun "Müfəttiş" əsərində Osip, Əhmədxan Abubakarın "Dulusçu haqqında dastan" əsərində dilənçi, Şillerin "Qaçaqlar" əsərində Şveytser, S. Mixalkovun "Bahalı oğlan" tamaşasında Jora Timoxin, H. Abbaszadənin "General" əsərində Həzi Aslanov, H. İbsenin "Kuklalar evi" tamaşasında Doktor Rank, L. Korsunskinin "Fırıldaqçı" əsərində Ata, Anarın "Şəhərin yay günləri" tamaşasında Namiq obrazlarını yaratmışdır.

O, Azərbaycan klassik dramaturgiyası nümunələrində — C. Cabbarlının "Sevil" tamaşasında Balaş, N. Nərimanovun "Nadir şah" əsərində Şah Təhmasib, Ə. Haqverdiyevin "Bəxtsiz cavan" əsərində Fərhad, S. Vurğunun "Vaqif" əsərində Əli bəy, İlyas Əfəndiyevin "Büllur sarayda" tamaşasında Bayandur, M. F. Axundzadənin "Hacı Qara" və "Hekayəti-xırs-quldurbasan" əsərlərində müvafiq olaraq Hacı Qara və Oruc, "Hekayəti-vəziri-xani-Lənkəran" əsərində isə Teymur ağa rollarını ifa etmişdir. Dünya dramaturgiyasının mühüm nümunələri olan Sofoklun "Şah Edip" tamaşasında Edip, E. L. Voyniçin "Ovod" əsərində Ovod, Qriqori Qorinin "Herostratı unudun" əsərində Herostrat, Vişnevskinin "Nikbin faciə" tamaşasında Odessalı, Beyzainin "İlan sultan" tamaşasında Salnaməçi, K. Abdullanın "Casus" əsərində Qazan xan rolları Mirzəyevin səhnə yaradıcılığının əhəmiyyətli nümunələridir.

Sucəddin Mirzəyev kino sahəsində də fəaliyyət göstərmiş, "Tənha durna uçuşu" (2003), "Durnalar qayıtdı" (2003), "Teatr" (2004), "Susmuş vicdan" (2010), "Sevginin göz yaşları" (2013) və "Günəşim ol" (2016) adlı film və teleseriallarda çəkilmişdir. Onun iştirakı ilə hazırlanan Üzeyir Hacıbəyovun "Olanlardan-keçənlərdən" və Cəlil Məmmədquluzadənin "Ölülər" əsərləri əsasında qurulan tamaşalar Azərbaycan Dövlət Televiziyasının "Qızıl fond"unda saxlanılır.

Sənətkarın fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 25 iyun 2013-cü ildə Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə "Əməkdar artist" fəxri adına, 7 may 2020, 7 may 2021, 10 may 2022 və 8 may 2025-ci il tarixlərində Prezident Mükafatına layiq görülmüşdür.

Əli Salahlı – 80

(1946-2005)

Aktyor



Əli Məmməd oğlu Salahlı 26 iyun 1946-cı ildə Masallı rayonunun Yeddioymaq kəndində anadan olmuşdur. Teatr sənətinə marağı orta məktəb illərində formalaşmış, əvvəlcə mədəni-maarif texnikumunda təhsil almış, sonralar isə Lənkəranda Xalq Teatrının müxtəlif tamaşalarında iştirak etməklə səhnə fəaliyyətinə başlamışdır. Peşəkar ali təhsilini 1977–1982-ci illərdə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) mədəni-maarif fakültəsində qiyabi şəkildə almışdır.

Əli Salahlının professional aktyor fəaliyyəti 1973-cü ildən başlayaraq 2005-ci ilədək Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı ilə bağlı olmuşdur. O, uzun illər ərzində teatrın aparıcı aktyorlarından biri kimi fəaliyyət göstərmiş, səhnədə səksənə yaxın tamaşada müxtəlif xarakterli rollar yaratmışdır. Onun səhnə yaradıcılığı ilə seçilən rolları sırasında Süleyman Sani Axundovun "Tamahkar" əsərində Hacı Murad, Mehdi Hüseynin "Alov" pyesində Cəlal Qaşqay, Səməd Vurğunun "Vaqif" dramında Vidadi, Şıxəli Qurbanovun "Sənsiz" pyesində Tərlan, Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" əsərində, Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" komediyasında, Georgi Xuqayevin "Arvadımın əri" dramında, Zeynal Xəlilin "Qatır Məmməd" əsərində, Baba Rzayevin "Qəhrəmanlıq xronikası", İlyas Əfəndiyevin "Məhv olmuş gündəliklər" və "Mahnı dağlarda qaldı", Sergey Mixalkovun "Bahalı oğlan", Mirzə İbrahimovun "Kəndçi qızı", Əli Səmədlinin "Ölüm hökmü" və digər əsərlərdəki rolları qeyd olunmalıdır.

Əli Salahlı həm də bir çox yubiley tamaşalarının quruluş və bədii tərtibatında iştirak etmiş, 1991-ci ildə 20 Yanvar faciəsinin ildönümünə həsr olunmuş "Şəhidlər" tamaşa-kompozisiyasının ssenari müəllifi olmuşdur.

1993-cü ildə Lənkəranda onun təşəbbüsü ilə "Muğam" teatrının yaradılması bölgənin mədəni həyatında mühüm hadisə olmuşdur. O, aktyorluqla yanaşı, qiraətçi və rəssam kimi də yaradıcılıq imkanlarına malik idi. Teatrda qurulan sərgilərdə Əli Salahlının rəsm əsərləri də nümayiş etdirilmişdir.

Sənətkarın kino yaradıcılığında da fəaliyyəti olmuş, o, ssenari müəllifi H. Mirələmov və rejissor E. Quliyevin iştirakı ilə 2003-cü ildə çəkilmiş altı hissəli "Durnalar qayıtdı" bədii filmində "Qədim kişi" obrazını yaratmışdır.

Azərbaycan mədəniyyətinin inkişafında göstərdiyi xidmətlər nəzərə alınaraq 28 oktyabr 2000-ci ildə Əli Salahlı Azərbaycan Respublikasının "Əməkdar artisti" fəxri adına layiq görülmüşdür.

Sənətkar 24 aprel 2005-ci ildə, Masallıda ilk dəfə səhnəyə çıxdığı eyni məkanda – monoloq ifası zamanı qəfil vəfat etmişdir. Yeddioymaq kəndində dəfn olunmuşdur.

Lənkəran şəhərində yaşadığı binanın üzərinə aktyorun xatirə lövhəsi vurulmuşdur. 2007-ci ildə Lənkəran Dövlət Dram Teatrında ustad aktyorun xatirəsinə həsr olunmuş tədbir keçirilmiş, eləcə də onun sənət yolunu əks etdirən "Sonuncu monoloq" kitabı nəşr edilmişdir.

Əli Salahlının zəngin səhnə irsi, sənətə sədaqəti və yaratdığı çoxsaylı obrazlar Azərbaycan teatr tarixində mühüm yer tutur və onun yaradıcılığı milli səhnə mədəniyyətinin inkişafına dəyərli töhfədir.

Ədəbiyyat:

Azərbaycan Respublikasının Mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Azərbaycan.- 2000.-29 oktyabr.-S.1.

Azərbaycan Teatr Ensiklopediyası : üç cilddə İ. Rəhimli ; layihənin rəhb. Ə. M. Qarayev ; red. hey.: T. İ. Əfəndiyev [və b.] ; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı; [Azərnəşr] .-2017.- 390, [1] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Əli_Salahlı

https://azadmedia.az/kose/41620-l-salahli-75.html

Vəzir Sədiyev – 65

(1961-1993)

Milli Qəhrəman



Vəzir İsa oğlu Sədiyev 1961-ci il iyunun 6-da Gürcüstan Respublikasının Marneuli rayonunun Aşağı Qullar kəndində anadan olmuşdur. O, ibtidai təhsilini doğulduğu kənddə, orta təhsilini isə Qərbi Azərbaycanın Körpülü kəndində almışdır. Orta məktəbi bitirdikdən sonra Tbilisi Ali Hərbi Artilleriya Məktəbinə qəbul olunmuş və hərbi təhsilini müvəffəqiyyətlə başa vurmuşdur.

Hərbi məktəbi bitirdikdən sonra Sədiyev təyinatla Rusiyanın Qorki şəhərində yerləşən hərbi məktəblərdən birinə müəllim göndərilmiş və burada üç il pedaqoji fəaliyyət göstərmişdir. Daha sonra o, könüllü olaraq Əfqanıstan müharibəsinə getmiş, batalyon komandiri kimi döyüş əməliyyatlarında iki il dörd ay iştirak etmişdir. Müharibə zamanı aldığı ağır yara nəticəsində müalicə almış, sonradan Zabaykal hərbi dairəsinə qayıdaraq mayor rütbəsi ilə 122 saylı artilleriya və raket qoşunları məktəbində hərbi hissə komandirinin qərargah üzrə müavini vəzifəsinə təyin edilmişdir. Bu dövrdə o, ikinci dərəcəli "Peşəkar zabit" döş nişanı ilə təltif olunmuşdur.

Xocalı soyqırımı barədə məlumat aldıqdan sonra Vəzir Sədiyev Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə müraciət etmiş və Nazirliyin Artilleriya və Hərbi Hava Qüvvələri İdarəsində Döyüş Hazırlığı Şöbəsinin rəis müavini vəzifəsinə təyin edilmişdir. O, Laçın, Qubadlı, Füzuli və Ağdərə rayonlarında gedən döyüşlərdə fəal iştirak etmiş, Milli Ordunun artilleriya sisteminin formalaşmasında mühüm rol oynamışdır. Xüsusilə Ağdərə istiqamətində aparılan ağır döyüşlərdə qəhrəmanlıq göstərmişdir.

Vəzir Sədiyev 1993-cü il fevralın 19-da Ağdərə rayonunun Aterk kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və Bakı şəhərindəki Şəhidlər xiyabanında dəfn edilmişdir. Hərbi xidməti dövründə o, iki orden və üç medal, habelə keçmiş SSRİ Ali Sovetinin fəxri fərmanları ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə mayor Vəzir İsa oğlu Sədiyev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat:

Azərbaycan Respublikasının bir qrup hərbi qulluqçusuna və polis işçilərinə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Sədiyev Vəzir İsa oğlu-mayor-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunu şərəflə yerinə yetirilməsindəki misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 15 yanvar 1995 ci il //Azərbaycan.- 1995.-17 yanvar.- S.1.(Ölümündən sonra).

Dəmir Mayor - Borçalının igid oğlu...: // Bakı xəbər.- 2019.- 5 iyun.- S.14.

Seyidzadə, T. Şəhidlərimizlə qürur duyuruq / T. Seyidzadə // Azad Azərbaycan.- 2017.- 8 aprel.- S.7.

Hüseynoğlu, T. "Əsərin adına baxan kimi bilinirdi ki, odun biri İrandırsa, digəri Rusiyadır" / T. Hüseynoğlu; müsahibəni apardı: C.Seyidzadə// Kaspi.- 2017.- 1-3 aprel.- S.12-13.

Aslan, Q. Vəzir Sədiyev / Qədir Aslan // Respublika. - 2022. - 7 iyun. - S. 6.

Şakir Salahov – 60

(1966-1992) *Milli Qəhrəman*



Şakir Şamil oğlu Salahov 1966-cı il iyunun 15-də Xocalı rayonunun Cəmilli kəndində anadan olmuşdur. 1981-ci ildə Cəmilli kənd səkkizillik məktəbini bitirmiş və təhsilini həmin kənddəki qiyabi orta məktəbdə davam etdirmişdir. 1984-cü ildə hərbi xidmətə çağırılmış, 1986-cı ildə xidmətini başa vurduqdan sonra Xankəndi şəhər Daxili İşlər İdarəsinin mühafizə şöbəsinə işə qəbul olunmuşdur.

1990-cı ildə Azərbaycan Daxili İşlər Nazirliyi tərəfindən Yuxarı Qarabağda yaşayan azərbaycanlıların təhlükəsizliyinin təmin edilməsi məqsədilə Cəmilli kəndində polis bölməsi yaradılmışdır. Bölmə əsasən Kosalar və Cəmilli kəndlərinin mühafizəsini həyata keçirirdi. Ş. Salahov bölmənin fəaliyyətə başladığı ilk gündən xidmət etmişdir.

1991-ci ildə Şakir Salahov Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa filialının fizika-riyaziyyat fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur. Həmin ilin fevral ayının 26-da erməni silahlı qüvvələri Ballıca, Xənəzək və Xankəndi istiqamətlərindən Cəmilli kəndinə hücum etmişdir. Döyüş zamanı Şakir Salahov erməni silahlı qüvvələrinin qarşısını almaqda iştirak etmişdir.

1991-ci il avqustun 23-də Kosalar–Cəmilli kəndləri arasında "Darlı" adlanan ərazidə içərisində 21 nəfərin olduğu "UAZ" markalı avtomobil erməni silahlı qüvvələri tərəfindən atəşə tutulmuş və nəticədə üç nəfər həlak olmuşdur. Cəmilli kəndinin işğalından sonra Ş. Salahov 1992-ci il yanvarın 28-də Kosalar kəndinin müdafiəsinə qatılmış və Ağdam–Şuşa marşrutu ilə uçan vertolyot ermənilər tərəfindən vurulduğunda həlak olmuşdur.

Şakir Salahov Bərdə şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat:

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Salahov Şakir Samir oğlu - polis nəfəri - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il // Azərbaycan. - 1992. - 9 oktyabr. - S. 1. - (Ölümündən sonra).

Xocalı yaddaşı: [Xocalı soyqırımı qurbanlarının xatərəsinə ithaf olunub] / Azərb. Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası ; ideya müəl. və naşir E. Süleymanov; bədii red. D. Musayev; məsul red. G. Nəsibov.- Bakı: [CBS polygraphic production], 2017.- 336 s.

Vətən sevgisi candan üstündür // Azad Azərbaycan. - 2017. - 2 may. - S. 7

Zakir Məcidov – 70

(1956-1992) *Milli Qəhrəman*



Zakir Nüsrət oğlu Məcidov 1956-cı il iyunun 26-da Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olmuşdur. 1963-cü ildə 17 saylı Bakı şəhəri orta məktəbinə daxil olmuş, təhsilini 70 saylı orta məktəbdə tamamlamışdır. 1974-cü ildə Ryazan vilayətinin Sasovo şəhərində yerləşən Ali Hərbi Aviasiya Məktəbinə daxil olmuş və 1977-ci ildə leytenant rütbəsi ilə məzun olmuşdur.

Hərbi xidmətə başlamasından sonra Yevlax aviadəstəsində AN-2 təyyarəsinin ikinci pilotu kimi fəaliyyət göstərmişdir. 1978-ci ildə Bakı aviabölüyündə mexanik, 1979-cu ildə isə Zabrat aviabölüyündə AN-2 təyyarəsinin uçuşlarında iştirak etmişdir. 1980-ci ildə Zabrat aviadəstəsində AN-2 təyyarəsinin komandiri vəzifəsinə təyin olunmuşdur. 1984-cü ildə Ukraynanın Kremençuk Təyyarəçilər Məktəbində Mİ-2 vertolyotu üzrə 6 aylıq təkmilləşdirmə kursunu başa vurmuşdur. 1985-ci ildən Mİ-2 vertolyotunda heyətin komandiri vəzifəsini icra etmişdir.

1992-ci ilin fevral ayında Milli Ordunun Bakının Qala qəsəbəsində təşkil olunan 843 saylı hərbi hava hissəsində Mİ-24 vertolyotuna komandir təyin edilmişdir. Həmin vertolyotla Ağdərənin Aterk kəndində düşmənin qərargah və texnika obyektlərinə əməliyyatlar həyata keçirmişdir. 1992-ci il avqustun 6-da Kasapet yüksəkliyindəki mövqelərə dörd uçuş həyata keçirmiş, vertolyotuna tuşlanan raket zərbələri nəticəsində o və ekipaj üzvləri həlak olmuşdur. Zakir Məcidov Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1992-ci il tarixli 204 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Neftçala rayon Uşaq Yaradıcılıq Mərkəzi onun adını daşıyır.

Ədəbiyyat:

Azərbaycan Respublikası Hərbi Hava Qüvvələrinin hərbi qulluqçularına "Azərbaycan Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Məcidov Zakir Nüsrət oğlu-baş leytenant xidməti borcunu yerinə yetirərkən şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 14 sentyabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1992.-№ 17.-S.33.-(Ölümündən sonra).

Azərbaycanın Milli Qəhrəmanları: Biblioqrafiya / Tərtib edəni: H.M.Həmidova.- B., 2008.- 238 s.

Hərbi hissədə milli qəhrəmanların xatirəsi anılıb // Azərbaycan.- 2014.- 7 avqust.- S. 6.

"Məğrur şahin" Milli Qəhrəmana həsr olunmuş xatirə gecəsi // Mədəniyyət.- 2016.- 29 iyun.- S. 14.

Seyidzadə, T. Şəhidlər başımızın tacıdır / T.Seyidzadə //Azad Azərbaycan.- 2017.- 1 mart.- S. 7.

Aslan, Q. Zakir Məcidov / Qədir Aslan // Respublika.-2022.- 26 iyun.- S.8.

Yavər Əliyev – 70

(1956-1992)

Milli Qəhrəman



Yavər Yaqub oğlu Əliyev 1956-cı il iyunun 27-də Bakı şəhərində anadan olmuşdur. Pirallahı adasında yerləşən 235 saylı orta məktəbi bitirdikdən sonra Kremençuq Aviasiya Məktəbinə daxil olmuş və 1977-ci ildə məzun olmuşdur.

Hərbi fəaliyyətə Zabrat aviabölüyündə başlamış, müxtəlif tipli vertolyotlarda – Mİ-4, Mİ-2, Mİ-8 – pilot, ikinci pilot və daha sonra komandir vəzifələrində çalışmışdır. Peşəkarlığı və təcrübəsi nəticəsində Zabrat Aviasiya dəstəsinin uçuş heyətinin komandiri vəzifəsinə təyin olunmuşdur.

Yavər Əliyev Azərbaycanın Hərbi Hava Qüvvələrinin formalaşmasında iştirak etmişdir. 1992-ci il fevralın 14-də MDB hərbi hissələrindən Azərbaycana bir neçə Mİ-24 vertolyotunun gətirilməsində iştirak etmişdir. Birinci Qarabağ müharibəsi zamanı Yavər Əliyev və rəhbərlik etdiyi ekipaj müxtəlif əməliyyatlarda iştirak etmiş, dağlıq rayonların əhalisinin təxliyəsi və döyüş tapşırıqlarının icrasını həyata keçirmişdir. O, bir neçə döyüş uçuşu zamanı düşmən mövqelərinə aşağı yüksəklikdən zərbələr endirmişdir.

1992-ci il fevralın 29-da təlim uçuşu zamanı Mİ-24 vertolyotunun qəzası nəticəsində Yavər Əliyev həlak olmuşdur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1992-ci il tarixli 204 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Onun adı 843-cü vertolyot alayına, Hərbi Hava Qüvvələrinin birinci xüsusi vertolyot eskadrilyasına və təhsil aldığı 235 saylı orta məktəbə verilmişdir. Bakıxanov qəsəbəsindəki orta məktəbdə isə Milli Qəhrəmanın adına muzey fəaliyyət göstərir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Hərbi Hava qüvvələrinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Əliyev Yavər Yaqub oğlu-kapitan xidməti borcunu yerinə yetirərkən şəxsi igidlik və şücaət göstərdiyinə görə]:Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 14 sentyabr 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1992. №17.-S.33.- (Ölümündən sonra).

Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, M. F. Axun dov ad. Azərb. Milli Kitabxanası; tərt. ed. H. Həmidova; ixtisas red. K. Tahirov; red. M. Vəliyeva.- Bakı: [M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası], 2008.- 233, [1] s.

Seyidzadə, T. Vətən qəhrəman oqulları ilə fəxr edir / T. Seyidzadə // Azad Azərbaycan.- 2017.- 17 yanvar.- S. 7. Səlimqızı, C. Ölümün fövqündə dayanan insan / C. Səlimqızı // Mərkəz.-2010.- 27 fevral.- S. 4.

Mirzə, M. Yavər Əliyev / Mirzə Mirzə // Respublika.-2022.- 26 iyun.- S.8.

Elşən Hüseynov – 50

(1976-1995) *Milli Qəhrəman*



Elşən İbrahim oğlu Hüseynov 1976-cı il iyunun 30-da Saatlı rayonunun Qıraqlı kəndində anadan olmuşdur. 1983–1993-cü illərdə Qıraqlı kənd orta məktəbində təhsil almış, məzun olduqdan sonra bir il təsərrüfatla məşğul olmuşdur. 1994-cü ildə Saatlı rayon Hərbi Komissarlığı tərəfindən Milli Orduya çağırılmışdır.

Hərbi xidmət zamanı Hüseynov verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirməsi ilə fərqlənmiş, həm əsgər, həm də zabitlərin hörmətini qazanmışdır. 1995-ci ilin mart hadisələri zamanı qeyri-qanuni silahlanmış qiyamçı qrupla qarşıdurmada iştirak etmiş və 17 mart 1995-ci ildə qəhrəmancasına şəhid olmuşdur. Elşən Hüseynov Saatlı rayonunun Qıraqlı kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Elşən Hüseynov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Saatlı rayon Mərkəzi Xəstəxanası onun adını daşıyır.

Ədəbiyyat:

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Hüseynov Elşən İbrahim oğlu-Müdafiə Nazirliyi, sıravi- Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]:Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- (Ölümündən sonra).

Eynullayev, H. "Şəhidlik zirvəsi"nin təqdimatı / H. Eynullayev // Xalq qəzeti. - 2019. - 9 iyun. - S. 7. Seyidzadə, T. Şəhidlər ölməz ruhla üzü Allaha / T. Seyidzadə // Azad Azərbaycan. - 2017. - 2 iyun. - S. 7.

İnternetdə:

http://www.anl.az/down/meqale/xalqqazeti/2019/iyun/656935(meqale).pdf

http://veten-ugrunda.az/milliqehremanlar/87-hseynov-eln-brahm-olu.htm

İYUN
1

Kənan Dadaşzadə - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.29-34.

Dadaşzadə Kənan Elman oğlu 2001-ci il iyunun 1-də Beyləqan rayonunun Örənqala qəsəbəsində anadan olmuşdur. Orta təhsilini doğma qəsəbəsindəki tam orta məktəbdə tamamlamışdır.

Azərbaycan ordusunun əsgəri olan Kənan Dadaşzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunmasında fəal iştirak etmişdir. 29 sentyabr 2020-ci il tarixində Talış kənd istiqamətində baş vermiş döyüş əməliyyatları zamanı qəhrəmancasına şəhid olmuşdur.

Dadaşzadə Kənan Elman oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunmuşdur.

Şəhidin həyatı və qəhrəmanlığına həsr olunmuş Raziyə Rzayevanın müəllifi olduğu "Kənan – Həsrətli Dünyam" adlı kitab çap edilmişdir.

1

Əvəz Məmmədov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Məmmədov Əvəz Elnur oğlu 2001-ci il iyunun 1-də Azərbaycan Respublikasının Qazax rayonunun Bala Çaylı kəndində anadan olmuşdur. Orta təhsilini 2007–2018-ci illərdə Səlamət Həsənov adına Bala Çaylı kənd tam orta məktəbində başa vurmuşdur.

2019-cu ilin 2 iyul tarixində Əvəz Məmmədov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. O, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin 1-ci taborunun 1-ci bölüyündə atıcı-qumbaraatan köməkçisi kimi xidmət etmişdir.

Azərbaycan ordusunun əsgəri olaraq Əvəz Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində fəal iştirak etmişdir. 2020-ci il oktyabrın 7-də Ağdam rayonu istiqamətində baş vermiş döyüşlər zamanı düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. Şəhid Çaylı kəndindəki Şəhidlər xiyabanında dəfn edilmişdir.

Əvəz Məmmədov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında vəzifə borcunu şərəflə yerinə yetdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

İYUN
2

Basid Rüstəmov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Rüstəmov Basid İdris oğlu 1996-cı il iyunun 2-də Kəngərli rayonunun Xok kəndində anadan olmuşdur. Orta təhsilini doğma kənddəki Xok kənd tam orta məktəbində başa vurmuşdur.

2014–2015-ci illərdə Basid Rüstəmov Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş, 2020-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi hərbi xidmətini davam etdirmişdir.

Azərbaycan ordusunun MAHHXHQ əsgəri olaraq Rüstəmov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başladığı Vətən müharibəsində Xüsusi Təyinatlı Qüvvələrin sıralarında döyüşlərdə fəal iştirak etmişdir. 2020-ci il noyabrın 9-da Şuşa uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur.

Rüstəmov Basid İdris oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında vəzifə borcunu şərəflə yerinə yetdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

2

İlkin Ağayev - 40

(1986-2020)

Gizir



Ağayev İlkin Ehran oğlu 1986-cı il iyunun 2-də Azərbaycan Respublikasının Zərdab rayonunun Körpükənd kəndində anadan olmuşdur. Orta təhsilini doğma kənddəki tam orta məktəbdə başa vurmuşdur.

Azərbaycan Ordusunun giziri olan İlkin Ağayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpa olunması məqsədilə başladığı Vətən müharibəsində Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. 2020-ci il noyabrın 8-də Qubadlı döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və doğma kəndi Zərdab rayonunun Körpükənd kəndində dəfn edilmişdir.

İlkin Ehran oğlu Ağayev Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

İYUN
3

Həsən Həsənov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Həsənov Həsən Səfər oğlu 1996-cı il iyunun 3-də Sabirabad rayonunun Qruzma kəndində anadan olmuşdur. 2003–2014-cü illərdə doğma kənddəki tam orta məktəbdə təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Sabirabad rayonu Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Həsən Həsənov 2016-cı ildə baş verən Aprel döyüşlərində də iştirak etmişdir.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başladığı Vətən müharibəsində Həsən Həsənov könüllü olaraq iştirak etmişdir. Kəşfiyyatçı kimi o, Füzuli, Cəbrayıl, Hadrut və Suqovuşan istiqamətlərində gedən döyüşlərdə cəsurluqla mübarizə aparmış, düşmənin yüzdən çox hərbi qüvvəsini zərərsizləşdirmiş və bir neçə düşmən postunun dağıdılmasında və ələ keçirilməsində fəal iştirak etmişdir. Həmçinin yaralı əsgərləri düşmənin əlindən xilas etmişdir. 2020-ci il oktyabrın 20-də Laçın ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Həsən Həsənov Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

5

Tural Əhmədov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Tural İzətulla oğlu Əhmədov 2001-ci il iyunun 5-də Qusar rayonunun Mucuq kəndində anadan olmuşdur. 2016-cı ildə orta məktəbi bitirdikdən sonra təhsilini Quba Peşə Liseyində davam etdirmişdir.

2020-ci il iyulun 2-də Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətə çağırılmış və Cəlilabaddakı "N" saylı hərbi hissədə xidmət edərək təlimlərdə iştirak etmiş, Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) əsgəri kimi peşəkarlığını artırmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Tural Əhmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində Kəlbəcər, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 2020-ci il oktyabrın 22-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və oktyabrın 23-də Qusar rayonunda dəfn olunmuşdur.

Tural İzətulla oğlu Əhmədov Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və "Azərbaycan bayrağı" ordeni ilə təltif edilmişdir.

İYUN
5

Yüksəl Əlizadə - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.13-14.

Əlizadə Yüksəl İlqar oğlu 5 iyun 1996-cı ildə Quba şəhərində anadan olmuşdur. 2002-2006-ci illərdə Bakı şəhərində yerləşən 30 nömrəli tam orta məktəbdə, 2006-2013-cü illərdə Gəncə şəhəri M.Ə.Sabir adına 5 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2018-ci ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsini müvəffəqiyyətlə tamamlamışdır. Eyni ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılmış və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Yüksəl Əlizadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. O, müharibə boyunca müxtəlif istiqamətlərdə gedən döyüşlərdə fəallıq göstərmiş, ərazi bütövlüyü uğrunda aparılan əməliyyatlarda mərdlik nümayiş etdirmişdir. Yüksəl Əlizadə noyabrın 9-da, müharibənin bitməsinə bir neçə saat qalmış Xocavənd istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olmuş, 20 noyabrda Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.

Əlizadə Yüksəl İlqar oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda göstərdiyi şücaət və vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqləndiyinə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

5

Rauf Babayev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.81-84.

Babayev Rauf Fəxrəddin oğlu 2001-ci il iyunun 5-də Xaçmaz şəhərində anadan olmuşdur. O, 2007–2018-ci illərdə Cəfər Cabbarlı adına 6 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2019-cu ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən Azərbaycan Respublikası Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış və Goranboy rayonunda yerləşən hərbi hissədə xidmət etmişdir.

Rauf Babayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir. O, oktyabrın 1-də Tapqaraqoyunlu və Ağdərə istiqamətlərində aparılan döyüş əməliyyatları zamanı qəhrəmancasına şəhid olmuşdur. Şəhid əsgər 6 oktyabr 2020-ci ildə Xaçmaz rayon qəbiristanlığında dəfn edilmişdir.

Babayev Rauf Fəxrəddin oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş tapşırıqlarının icrası zamanı göstərdiyi xidmətlərə görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

İYUN 6

Şirəli Adilov - 30

(1996-2020)

Əsgər



Şirəli İlham oğlu Adilov 6 iyun 1996-cı ildə Göyçay rayonunun Çaxırlı kəndində anadan olmuşdur. O, 2002–2013-cü illərdə orta təhsil almışdır. 2014-cü ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bakı şəhəri Nərimanov rayon şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə çağırılmış və "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət keçmişdir. 2016-cı ildə baş vermiş Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Şirəli Adilov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində könüllü olaraq atıcı kimi iştirak etmişdir. O, Füzuli və Xocavənd rayonlarının işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda döyüşmüşdür. 25 oktyabr 2020-ci ildə döyüş tapşırığının icrası zamanı qəhrəmancasına şəhid olmuş və Bakı şəhəri Nərimanov rayonunda dəfn edilmişdir.

Adilov Şirəli İlham oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi xidmətlərə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

6

Süleyman Şirəlizadə - 25

(2001-2020)

Əsgər



Şirəlizadə Süleyman İlhan oğlu 6 iyun 2001-ci ildə Oğuz rayonunun Padar kəndində anadan olmuşdur. O, 2007–2018-ci illərdə Arzu Əliyev adına Padar kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ilin iyul ayında Azərbaycan Silahlı Qüvvələrinə müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Süleyman Şirəlizadə 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Ağdərə istiqamətində aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. O, Ağdərə istiqamətində "Tülkü dərəsi" adlanan ərazidə 5 oktyabr 2020-ci ildə qəhrəmancasına şəhid olmuş və 6 oktyabr tarixində Oğuz rayonunun Padar kənd Şəhidlər xiyabanında dəfn edilmişdir.

Süleyman İlhan oğlu Şirəlizadə Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi rəşadətə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İYUN
7

Samir Allahverdiyev - 25

(2001-2020)

Əsgər



Samir Elçin oğlu Allahverdiyev 7 iyun 2001-ci ildə Lənkəran şəhərində anadan olmuşdur. O, 2007–2018-ci illərdə R. Məmmədov adına 5 saylı Lənkəran şəhər tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış və Vətən müharibəsinədək Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Samir Allahverdiyev Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğaldan azad olunması uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. O, 22 oktyabr 2020-ci ildə Qubadlı istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş və Lənkəran şəhərində dəfn edilmişdir.

Samir Elçin oğlu Allahverdiyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi xidmətlərə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

7

Nofəl Behbudov - 25

(2001-2020)

Əsgər



Nofəl Həmid oğlu Behbudov 7 iyun 2001-ci ildə Goranboy rayonunun Səfikürd kəndində anadan olmuşdur. O, 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) hərbi qulluqçusu kimi Nofəl Behbudov Nofəl Behbudov 2020-ci il sentyabrın 27-dən Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Murovdağ, Cəbrayıl, Füzuli, Xocavənd və Şuşa istiqamətlərində aparılan döyüş əməliyyatlarında vuruşmuşdur. O, 8 noyabr 2020-ci ildə Şuşa şəhəri istiqamətində döyüş tapşırığının icrası zamanı şəhid olmuş və 12 noyabr tarixində Səfikürd kənd qəbiristanlığında dəfn edilmişdir.

Nofəl Həmid oğlu Behbudov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

İYUN
8

Mayıl Qurbanov - 30

(1996-2020)

Əsgər



Mayıl Mayis oğlu Qurbanov 8 iyun 1996-cı ildə İmişli rayonunun Xoşçobanlı kəndində anadan olmuşdur. 2004-cü ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüş və burada Xanlıq kənd 1 nömrəli tam orta məktəbdə təhsilini başa vurmuşdur.

2014–2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş, Naxçıvan Muxtar Respublikasında "N" saylı hərbi hissədə xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri kimi Mayıl Qurbanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi iştirak etmiş, Cəbrayıl və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə fəal xidmət göstərmişdir. O, 3 noyabr 2020-ci ildə Qubadlı istiqamətində aparılan döyüş əməliyyatları zamanı qəhrəmancasına şəhid olmuş və İmişli rayonunun Xoşçobanlı kəndində dəfn edilmişdir.

Mayıl Mayis oğlu Qurbanov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

9

Təbriz Xancanov - 30

(1996-2020)

Əsgər



Xancanov Təbriz Məhəmmədəli oğlu 9 iyun 1996-cı ildə Göyçay rayonunun Qəbələ-Müsgürlü kəndində anadan olmuşdur. Orta təhsilini Qəbələ-Müsgürlü kənd tam orta məktəbində almışdır.

2014–2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olaraq Təbriz Xancanov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində iştirak etmiş, Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə fəal xidmət göstərmişdir. O, 19 oktyabr 2020-ci ildə Suqovuşan döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və Göyçay rayonunda dəfn edilmişdir.

Xancanov Təbriz Məhəmmədəli oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi şücaətə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

2021-ci ildə Göyçay rayonunun Qəbələ-Müsgürlü kəndində Vətən müharibəsi şəhidi Təbriz Xancanovun xatirəsinə tikilən bulağın açılışı keçirilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İYUN
9

Nicat Nağıyev - 25

(2001-2020)

Əsgər



Nağıyev Nicat İbrahim oğlu 2001-ci il iyunun 9-da Salyan rayonunun Qızılağac kəndində anadan olmuşdur. Orta təhsilini doğulduğu kənddəki Qızılağac kənd orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Nicat Nağıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsi zamanı Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. O, 2020-ci il sentyabrın 30-da qəhrəmancasına şəhid olmuş, dekabrın 7-də Qızılağac kənd qəbiristanlığında dəfn edilmişdir.

Nağıyev Nicat İbrahim oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında göstərdiyi şücaətə görə, hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Şücaətə görə" medalları ilə təltif edilmişdir.

Şəhid Nağıyev Nicat İbrahim oğlunun anım günü ilə əlaqədar doğulub boya-başa çatdığı Qızılağac kəndində onun xatirəsinə bulaq inşa edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

10

Qalib Nurizadə - 30

(1996-2020)

Əsgər



Nurizadə Qalib Habil oğlu 10 iyun 1996-cı ildə Lənkəran şəhərinin Gərgiran kəndində anadan olmuşdur. Orta təhsilini Lənkəran şəhər Gərgiran kənd orta məktəbində almışdır. 2014–2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmişdir.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan İkinci Qarabağ müharibəsi zamanı Qalib Nurizadə Füzuli və Şuşa istiqamətində gedən döyüşlərdə fəal iştirak etmişdir. O, 5 noyabr 2020-ci ildə Şuşa şəhəri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Dekabrın 10-da Lənkəran şəhərində dəfn edilmişdir.

Nurizadə Qalib Habil oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda göstərdiyi şücaətə görə, hərbi tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

İYUN
10

Məhəmməd İsmayılzadə - 30

(1996-2020)

Əsgər



İsmayılzadə Məhəmməd Fizuli oğlu 10 iyun 1996-cı ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Yengicə kəndində anadan olmuşdur. 2014-cü ildə 317 saylı məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələri sırasına müddətli həqiqi hərbi xidmətə çağrılmışdır. Daha sonra Türkiyənin Kütahya Dumlupınar Universitetinə qəbul olmuşdur.

İkinci Qarabağ müharibəsinin başlanması ilə İsmayılzadə ali təhsilini yarımçıq qoyaraq hərbi komissarlığa müraciət etmiş və könüllü olaraq müharibədə iştirak etmişdir. Azərbaycan Ordusunun əsgəri olaraq o, 27 sentyabr 2020-ci ildə Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan döyüşlərdə iştirak etmişdir. Füzuli və Hadrut istiqamətində gedən əməliyyatlarda iştirak edən Məhəmməd İsmayılzadə 26 oktyabr 2020-ci ildə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

İsmayılzadə Məhəmməd Fizuli oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında göstərdiyi şücaətə görə, hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

10

Vüsal Hüseynov - 25

(2001-2020)

Əsgər



Hüseynov Vüsal Yəhya oğlu 10 iyun 2001-ci ildə Lənkəran rayonunun Velədi kəndində anadan olmuşdur. 2007–2016-cı illərdə Lənkəran şəhərinin 8 nömrəli orta məktəbində təhsil almış, 2016–2018-ci illərdə Lənkəran Texniki Kollecində sürücü-mexanik ixtisası üzrə təhsilini davam etdirmişdir. 2019-cu ilin oktyabr ayından Sərhəd Qoşunlarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının əsgəri olaraq Vüsal Hüseynov 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində iştirak etmişdir. Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edən o, 8 noyabr 2020-ci ildə Zəngilan rayonunda yerləşən 811.0 yüksəkliyi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Lənkəran rayonunun Velədi kənd qəbiristanlığında dəfn olunmuşdur.

Hüseynov Vüsal Yəhya oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Zəngilanın azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

İYUN
11

Abdurahman İsrafilov - 35

(1991-2020) *MAHHXHQ baş çavuş*



Abdurahman İsrafilov 11 iyun 1991-ci ildə Zaqatala rayonunun Qımır kəndində anadan olmuşdur. 1997–2008-ci illərdə İ. Məmmədov adına Qımır kənd tam orta məktəbində təhsil almışdır. 2009–2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş, 2011–2016-cı illərdə Sərhəd Qoşunlarında, 2019-cu ildən isə Quru Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun baş çavuşu olaraq Abdurahman İsrafilov 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli və Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. O, 21 oktyabr 2020-ci ildə Qubadlı döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və Zaqatala rayonunda dəfn edilmişdir.

İsrafilov Abdurahman İsrafil oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

11

Nahid Məmmədov - 30

(1996-2020) *Əsgər*



Məmmədov Nahid Vahid oğlu 11 iyun 1996-cı ildə Xəzər rayonunun Binə qəsəbəsində anadan olmuşdur. 2001–2012-ci illərdə R. Sadıqov adına 136 nömrəli tam orta məktəbdə təhsil almış, 2012–2014-cü illərdə isə Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kollecində təhsilini davam etdirmişdir. 2014–2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olaraq Nahid Məmmədov 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsi zamanı Suqovuşan və Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. O, 14 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasınaşəhid olmuş və Xəzər rayonunun Binə qəsəbəsində dəfn edilmişdir.

Məmmədov Nahid Vahid oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.7-9.

İYUN
12

Həci Hüseynov - 30

(1996-2020)

Əsgər



Hüseynov Həci Kərim oğlu 12 iyun 1996-cı ildə Sumqayıt şəhərində anadan olmuşdur. O, 2004–2015-ci illərdə Bakı şəhəri Binəqədi rayonu Zakir Məmmədov adına 103 nömrəli tam orta məktəbdə təhsil almış, burada ibtidai və orta təhsil pillələrini tamamlamışdır. 2015–2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin tərkibində müddətli həqiqi hərbi xidmət keçmiş və Müdafiə Nazirliyinin Naxçıvan Muxtar Respublikasında yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir.

2020-ci il 27 sentyabr tarixində Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsinin ilk günlərindən etibarən Həci Hüseynov könüllü olaraq döyüş əməliyyatlarına qoşulmuşdur. O, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Hadrut istiqamətlərində aparılan hərbi əməliyyatlarda iştirak etmiş, göstərdiyi fədakarlıq, döyüş iradəsi və yüksək məsuliyyət hissi ilə seçilmişdir. Həci Hüseynov 23 oktyabrda Füzuli istiqamətində yerləşən döyüş mövqelərindən birində hərbi qulluqçuların daşındığı yük avtomobilini idarə edərkən düşmən tərəfindən açılan minaatan atəşi nəticəsində qəhrəmancasına şəhid olmuşdur. O, 25 oktyabrda Bakı şəhəri Xocasən qəsəbəsində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi nümunəvi xidmət, qətiyyət və şücaətinə görə Hüseynov Həci Kərim oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunması uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

12

Vüsal Musayev - 30

(1996-2020)

Əsgər



Musayev Vüsal Zakir oğlu 12 iyun 1996-cı ildə Abşeron rayonunun Xırdalan şəhərində anadan olmuşdur. O, 2002–2013-cü illərdə Xırdalan şəhər 1 nömrəli tam orta məktəbdə təhsil almış və ümumi orta təhsil pilləsini müvəffəqiyyətlə başa vurmuşdur.

2014-cü ildə Musayev müddətli həqiqi hərbi xidmətə çağırılmış və Azərbaycan Silahlı Qüvvələrinin tərkibində, Müdafiə Nazirliyinin Naxçıvan Muxtar Respublikasında yerləşən "N" saylı hərbi hissəsində kəşfiyyatçı kimi xidmət etmişdir.

2020-ci ilin iyul ayında Ermənistan tərəfindən Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində törədilən hərbi təxribatlar zamanı Musayev Vüsal Zakir oğlu könüllü olaraq səfərbərlik qeydiyyatına yazılmışdır. O, 21 sentyabr 2020-ci ildə səfərbərliyə çağırılmış və qısa müddətli hərbi təlim toplularını başa vurduqdan sonra Azərbaycan və Ermənistan arasında başlayan İkinci Qarabağ müharibəsində iştirak etmək üçün cəbhəyə yola salınmışdır.

Vüsal Musayev Füzuli istiqamətində aparılan döyüş əməliyyatlarında fəal iştirak etmiş, torpaqların işğaldan azad olunması uğrunda gedən mübarizədə yüksək şücaət nümayiş etdirmişdir. O, döyüş tapşırıqlarının icrası zamanı düşmənin canlı qüvvəsi və hərbi texnikasının məhv edilməsində xüsusi fəallıq göstərmişdir. Musayev 13 oktyabr 2020-ci il tarixində Ərgünəş dağı istiqamətində gedən şiddətli döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. O, Xırdalan şəhərindəki Şəhidlər xiyabanında dəfn edilmişdir.

Musayev Vüsal Zakir oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

İYUN
12

Fuad Xankişiyev - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Xankişiyev Fuad Şöhrət oğlu 12 iyun 1996-cı ildə Mingəçevir şəhərində anadan olmuşdur. O, 2002–2008-ci illərdə Mingəçevir şəhər Mehdi Hüseynzadə adına 3 nömrəli tam orta məktəbdə təhsil almışdır. Orta məktəb dövründən cüdo idman növünə xüsusi maraq göstərmiş və Bakı Olimpiya İdman Liseyində cüdo üzrə, 2011–2014-cü illərdə Mingəçevir Turizm Kollecinin bədən tərbiyəsi fakültəsində təhsil almışdır.

2014–2016-cı illər ərzində o, Azərbaycan Silahlı Qüvvələrinin tərkibində müddətli həqiqi hərbi xidmət keçmişdir.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən ölkənin işğal altında olan ərazilərinin azad edilməsi məqsədilə başlayan Vətən müharibəsinə Xankişiyev Fuad Şöhrət oğlu ehtiyatda olan hərbi qulluqçu kimi cəlb olunmuş və döyüş əməliyyatlarında fəal iştirak etmişdir. O, Şuşa, Füzuli və Xocavənd istiqamətlərində həyata keçirilən strateji əməliyyatlarda böyük fədakarlıq nümayiş etdirmiş, döyüş tapşırıqlarının icrasında yüksək peşəkarlıq göstərmişdir. 3 noyabr 2020-ci il tarixində Şuşa şəhəri yaxınlığında, Daşaltı istiqamətində, 1553 metr yüksəklikdə gedən ağır döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Şəhid hərbi qulluqçu 6 noyabrda Mingəçevir şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Xankişiyev Fuad Şöhrət oğlunun Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi şücaət, fədakarlıq görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Vətən uğrunda" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

12

Sahil Hüseynov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Hüseynov Sahil Habil oğlu 12 iyun 2001-ci ildə Ağcabədi rayonunun Xocavənd kəndində anadan olmuşdur. Əslən Xocavənd rayonundan olan Sahil Hüseynov ilk təhsilini Milli Qəhrəman Sadiq Hüseynov adına 1 nömrəli tam orta məktəbdə almışdır. O, 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmış və hərbi xidmət müddətində yüksək intizamı və hazırlığı ilə fərqlənmişdir.

Sahil Hüseynov 2020-ci il 12 iyul tarixindən etibarən Ermənistan Silahlı Qüvvələrinin Tovuz istiqamətində törətdiyi təxribatlar zamanı başlanan döyüş əməliyyatlarında iştirak etmişdir. Daha sonra 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsinə cəlb olunaraq Azərbaycan Ordusunun tərkibində Füzuli istiqamətində gedən döyüş tapşırıqlarının icrasında fəal iştirak etmişdir. Əsgər Hüseynov Sahil 11 oktyabrda Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndi istiqamətində düşmən tərəfindən atılan minaatan mərmisi nəticəsində qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidlik və döyüş tapşırıqlarının icrasında fərqləndiyinə görə Hüseynov Sahil Habil oğlu Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhidin xatirəsinin əbədiləşdirilməsi məqsədilə adına küçə verilmiş, park salınmış, həmçinin təhsil aldığı orta məktəbdə onun adına xüsusi sinif otağı yaradılmışdır.

İYUN
13

Elşad Həsənov – 45

(1981-2020)

Mayor



Elşad Paşa oğlu Həsənov 1981-ci il iyunun 13-də Qərbi Azərbaycanın Göyçə mahalının Babacan kəndində anadan olmuşdur. 1988-ci ildə Ermənistan dövlətinin həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində ailəsi ilə birlikdə doğma yurdlarından məcburi şəkildə köçürülmüş və Sumqayıt şəhərində məskunlaşmışdır.

O, Sumqayıt şəhər 12 saylı tam orta məktəbdə təhsil almış, 1995-ci ildə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmuşdur. 1998-ci ildə liseyi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olunmuş və 2002-ci ildə həmin müəssisəni motoatıcı qoşunların taktiki komandanlığı ixtisası üzrə bitirmişdir.

Elşad Həsənov zabit kimi xidmətini Azərbaycanın müxtəlif bölgələrində — Gəncə, Gədəbəy, Tovuz, Naxçıvan və Şəmkirdə davam etdirmişdir. Xidməti dövründə səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının 90 illik və 95 illik yubiley medalları, eləcə də "Qüsursuz xidmətə görə" 1-ci və 2-ci dərəcəli medallarla təltif edilmişdir. 2019-cu ilin oktyabr ayından Şəmkir briqadasında tabor komandirinin müavini vəzifəsində xidmət göstərmişdir. Tovuz döyüşlərində göstərdiyi igidliklə də fərqlənmişdir.

2020-ci il 27 sentyabrda Ermənistan Silahlı Qüvvələrinin təxribatlarına cavab olaraq Azərbaycan Ordusu tərəfindən başlanan əks-hücum əməliyyatları çərçivəsində mayor Elşad Həsənov müdafiə zolağının ən çətin istiqamətlərindən biri olan Murovdağ yüksəkliyi istiqamətində döyüşlərə qatılmışdır. Təxminən 2800 metr yüksəklikdə yerləşən sərt qayalıq relyefdə bir neçə strateji yüksəkliyin alınmasında şəxsi heyətlə birlikdə mühüm rol oynamışdır.

Oktyabrın 2-də ona verilmiş növbəti döyüş tapşırığını yerinə yetirərkən artilleriya atəşi nəticəsində aldığı qəlpə yaralarından qəhrəmancasına şəhid olmuşdur. Nəşi uzun müddət tapılmamış, yalnız 16 dekabr 2020-ci ildə müəyyən edilərək ailəsinə təhvil verilmiş və Bakıda İkinci Fəxri Xiyabanda dəfn edilmişdir.

Mayor Elşad Paşa oğlu Həsənov Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda döyüş əməliyyatlarında göstərdiyi şücaət və vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə", "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" medalları və III dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25 iyun.- S.61-65.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.80.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/2518

İYUN
13

İlqar Hümbətov - 30

(1996-2020)

Əsgər



İlqar Vüqar oğlu Hümbətov 1996-cı il iyunun 13-də Bakı şəhərində anadan olmuşdur. O, Bakı şəhəri 116 nömrəli tam orta məktəbdə təhsil almışdır.

2014–2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmişdir. Xidmətini başa vurduqdan sonra ehtiyata buraxılmışdır.

Azərbaycan Ordusunun əsgəri kimi İlqar Hümbətov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərinin azad edilməsi məqsədilə başlanan Vətən müharibəsi əməliyyatlarına cəlb olunmuşdur. O, Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Əsgər İlqar Vüqar oğlu Hümbətov Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda döyüş tapşırıqlarının icrası zamanı fərqləndiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Vətən müharibəsi şəhidi İlqar Hümbətovun xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakının Xətai rayonunda yerləşən küçələrdən birinə onun adı verilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.7-9.

13

Elşən Nuruzadə - 30

(1996-2020)

Əsgər



Elşən Əlisa oğlu Nuruzadə 1996-cı il iyunun 13-də Göyçay şəhərində anadan olmuşdur. O, Göyçay şəhəri 6 nömrəli orta məktəbdə təhsil almışdır.

2014-cü ildə Göyçay Peşə Liseyini bitirdikdən sonra 2015–2016-cı illərdə Naxçıvan Muxtar Respublikasının N saylı hərbi hissəsində rabitəçi ixtisası üzrə müddətli həqiqi hərbi xidmət keçmişdir.

2020-ci il sentyabrın 21-də hərbi təlimlərə çağırılan Elşən Nuruzadə sentyabrın 27-dən etibarən başlanan Vətən müharibəsi əməliyyatlarında iştirak etmişdir. Azərbaycan Ordusunun əsgəri kimi o, Tərtər və Suqovuşan istiqamətlərində gedən döyüşlərdə fəal iştirak etmiş, oktyabrın 4-də qəhrəmancasına şəhid olmuşdur. Göyçay şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş tapşırıqlarının icrası zamanı göstərdiyi şücaət və vəzifə borcuna sədaqətinə görə Elşən Əlisa oğlu Nuruzadə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

İYUN
13

Məhəmməd Səmədov - 25

(2001-2020)

Əsgər



Məhəmməd Niman oğlu Səmədov 2001-ci il iyunun 13-də Bakı şəhərinin Sabunçu rayonunun Pirşağı qəsəbəsində anadan olmuşdur. O, 2007–2016-cı illərdə 10 saylı sanatoriya tipli internat məktəbində təhsil almış və həmin məktəbin 9-cu sinfini bitirmişdir.

2019-cu ilin iyun ayında Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan Azərbaycan torpaqlarının azad edilməsi məqsədilə başlanan Vətən müharibəsində Məhəmməd Səmədov Azərbaycan Ordusunun hərbi qulluqçusu kimi iştirak etmişdir. O, Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində gedən ağır döyüşlərdə şücaət göstərmişdir. 2020-ci il oktyabrın 7-də Füzuli rayonu istiqamətindəki döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Sabunçu rayonunun Pirşağı qəsəbəsində yeni yaradılmış Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş tapşırıqlarının icrası zamanı göstərdiyi igidliyə görə Məhəmməd Niman oğlu Səmədov Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

14

Rəsul Qazımətov - 25

(2001-2020)

Əsgər



Rəsul Kəmaləddin oğlu Qazımətov 2001-ci il iyunun 14-də Qusar rayonunun Qayakənd kəndində anadan olmuşdur. Milliyyətcə ləzgi idi. 2008-2019-cu illərdə Qusar şəhərində yerləşən 6 nömrəli tam orta məktəbdə təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Rəsul Qazımətov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərinin azad edilməsi məqsədilə başlanan Vətən müharibəsi əməliyyatlarında iştirak etmişdir. O, Xocavənd istiqamətində gedən döyüşlərdə fəal iştirak etmiş və oktyabrın 14-də Hadrut döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Şəhidin nəşi bir həftə neytral ərazidə qaldıqdan sonra oktyabrın 21-də Qusar rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi şücaət və vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Rəsul Kəmaləddin oğlu Qazımətov Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

İYUN
15

Mirzağa Əliyev – 30

(1996-2020)

Leytenant



Mirzağa Məmmədbağır oğlu Əliyev 1996-cı il iyunun 15-də Neftçala rayonunun Xıllı qəsəbəsində anadan olmuşdur. 2002–2011-ci illərdə Xıllı qəsəbəsində yerləşən R. Gözəlov adına 1 nömrəli tam orta məktəbdə, 2011–2014-cü illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almışdır. Ali hərbi təhsilini 2014–2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) almışdır.

2018-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə leytenant hərbi rütbəsi ilə Təqdim Komandiri vəzifəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun leytenantı olan Mirzağa Əliyev 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsi əməliyyatlarında iştirak etmişdir. O, Füzuli və Cəbrayıl istiqamətlərində gedən döyüşlərdə fəal iştirak etmiş, oktyabrın 7-də Cəbrayıl rayonunda döyüş tapşırığını yerinə yetirərkən Ermənistan Ordusunun canlı qüvvəsini məhv etmişdir. Geri qayıdarkən onun və döyüş yoldaşlarının olduğu piyadaların döyüş maşını (PDM) ermənilər tərəfindən vurulmuşdur. Mirzağa Əliyev döyüş yoldaşlarını maşından çıxarmağı bacarmış, lakin özü qəhrəmancasına şəhid olmuşdur. 18 oktyabrda şəhid Neftçala rayonu, Xıllı qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi igidliyə və vəzifə borcunu şərəflə yerinə yetirməsinə görə Mirzağa Məmmədbağır oğlu Əliyev Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İYUN
15

Ağabəy Məmmədquliyev - 25

(2001-2020)

Əsgər



Ağabəy Zaur oğlu Məmmədquliyev 2001-ci il iyunun 15-də Bakı şəhərinin Qaradağ rayonunun Korgöz qəsəbəsində anadan olmuşdur. O, Bakı şəhəri 197 nömrəli tam orta məktəbdə təhsil almışdır.

2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Müharibəyə qədərki xidmətinin son dövrlərində Mingəçevirdə yerləşən "N" saylı hərbi hissədə fəaliyyət göstərmişdir.

Azərbaycan Ordusunun əsgəri kimi Ağabəy Məmmədquliyev 2020-ci il sentyabrın 27-dən etibarən Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərinin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsi əməliyyatlarında iştirak etmişdir. O, Suqovuşan istiqamətində gedən döyüşlərdə fəal iştirak etmiş və 27 sentyabr 2020-ci ildə Tərtər rayonunun Talış kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş tapşırıqlarının icrası zamanı göstərdiyi şücaət və vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Ağabəy Zaur oğlu Məmmədquliyev Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.7-9.

15

Səxavət Səttarov - 25

(2001-2020)

Əsgər



Səxavət Qüdrət oğlu Səttarov 2001-ci il iyunun 15-də Astara rayonu Artupa kəndində anadan olmuşdur. 2019-cu ildə orta məktəbi bitirdikdən sonra iyul ayında Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri kimi Səxavət Səttarov 2020-ci il sentyabrın 27-dən etibarən Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərinin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsi əməliyyatlarında iştirak etmişdir. O, Xocavənd istiqamətində gedən döyüşlərdə vuruşmuş və 6 noyabr 2020-ci ildə qəhrəmancasına şəhid olmuşdur. Şəhid 18 noyabr 2020-ci ildə doğulduğu Artupa kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş tapşırıqlarının icrası zamanı göstərdiyi şücaət və vəzifə borcunu şərəflə yerinə yetirməsinə görə Səxavət Qüdrət oğlu Səttarov Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

İYUN
15

Ruslan Bayramov - 30

(1996-2020)

Əsgər



Ruslan Telman oğlu Bayramov 1996-cı il iyunun 15-də Bakı şəhərində anadan olmuşdur. 2002-ci ildə 179 saylı tam orta məktəbi bitirmiş və elə həmin il Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. O, Ağcabədi rayonunda N saylı hərbi hissədə xidmət etmişdir.

2020-ci il sentyabrın 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən səfərbərliyə çağırılmış və hərbi təlimlərdə iştirak etmişdir. Sentyabrın 30-da Füzuli rayonu, Seyidəhmədli kəndi istiqamətində düşmən üzərinə hücuma keçərkən qəhrəmancasına şəhid olmuşdur. Şəhid oktyabrın 1-də Binəqədi qəsəbəsində yerləşən Vətən Müharibəsi Şəhidlərinin Xiyaban kompleksində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş tapşırıqlarının icrası zamanı göstərdiyi şücaət və vəzifə borcunu şərəflə yerinə yetirməsinə görə Ruslan Telman oğlu Bayramov Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

17

Nurhan Abbasov - 35

(1991-2020)

Əsgər



Nurhan Əlastan oğlu Abbasov 1991-ci il iyunun 17-də Gəncə şəhərində anadan olmuşdur. 2008-ci ildə Gəncə şəhər 29 nömrəli tam orta məktəbin 9-cu sinfini bitirmiş, 2008–2011-ci illərdə təhsilini 3 nömrəli Peşə Liseyində (indiki Ticarət və Xidmət üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzi) davam etdirmişdir.

2009-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Kəpəz Rayon Şöbəsindən həqiqi hərbi xidmətə çağırılmış, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Vətən Müharibəsinin başlaması ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə qismən səfərbərlik elan edilməsi haqqında 28 sentyabr 2020-ci il tarixli Sərəncamına uyğun olaraq yenidən hərbi xidmətə çağırılmışdır. O, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Cəbrayıl rayonu və Şuşa şəhəri uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. 8 noyabr 2020-ci ildə Şuşanın azad olunmasından sonra Xankəndi istiqamətində gedən döyüşlər zamanı şəhidlik zirvəsinə ucalmışdır. 11 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş tapşırıqlarının icrası zamanı göstərdiyi şücaət və vəzifə borcunu şərəflə yerinə yetirməsinə görə Nurhan Əlastan oğlu Abbasov Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunması uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.


İYUN

18

Rahim Quliyev - 25

(2001-2020)

Əsgər



Rahim Yalçın oğlu Quliyev 18 iyun 2001-ci ildə Cəlilabad rayonunun Həziabad kəndində anadan olmuşdur. 2007–2016-cı illərdə 23 saylı tam orta məktəbdə təhsil almış, daha sonra peşə məktəbinə daxil olaraq avtomobillərin təmiri üzrə çilingər ixtisasını bitirmişdir. Rahim Quliyev 2019-cu il iyulun 11-də Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə çağrılmışdır.

Azərbaycan Ordusunun əsgəri kimi Rahim Quliyev 2020-ci il sentyabrın 27-dən etibarən Ermənistan işğalı altında olan Azərbaycan ərazilərinin azad edilməsi məqsədilə başlanan Vətən müharibəsi əməliyyatlarında iştirak etmişdir. 2 oktyabrda Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə düşmən hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş tapşırıqlarının icrası zamanı göstərdiyi igidliyə və vəzifə borcunu şərəflə yerinə yetirməsinə görə Rahim Yalçın oğlu Quliyev Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü", "Vətən uğrunda" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25 iyun.- S.61-65.

19

Arif Həmzəyev - 25

(2001-2020)

Əsgər



Arif Muradcan oğlu Həmzəyev 2001-ci il iyunun 19-da Samux rayonu, Lək kəndində anadan olmuşdur. 2018-ci ildə Lək kənd tam orta məktəbini bitirmişdir.

Azərbaycan Ordusunun əsgəri kimi Arif Həmzəyev 27 sentyabr 2020-ci ildə Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsi əməliyyatlarında iştirak etmişdir. O, Cəbrayıl və Qubadlı istiqamətlərində gedən döyüşlərdə vuruşmuş və 5 noyabr 2020-ci il tarixdə Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şəhid Samux rayonu, Lək kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş tapşırıqlarının icrası zamanı göstərdiyi şücaət və vəzifə borcunu şərəflə yerinə yetirməsinə görə Arif Muradcan oğlu Həmzəyev Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

2023-cü ildə qəhrəman şəhidin anım günü münasibətilə Samux rayon Çobanabdallı kənd tam orta məktəbinin 9 v sinif otağı Arif Həmzəyevin adına təsis edilmiş və açılış tədbiri keçirilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

İYUN
20

Saməddin Fərziyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Saməddin Mehman oğlu Fərziyev 20 iyun 2001-ci ildə Lerik rayonunun Xanəgah kəndində anadan olmuşdur. Orta təhsilini şəhid Qiyas Əhmədov adına Xanəgah kənd tam orta məktəbində almışdır. O, qarışıq döyüş sənətləri (MMA) və qaydasız döyüşlə məşğul olmuş, müxtəlif idman yarışlarında dəfələrlə birinciliklər qazanmış, diplom və sertifikatlarla təltif edilmişdir. Orta təhsilini başa vurduqdan sonra Lerik Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. Saməddin Fərziyev xidmətini yüksək səviyyədə yerinə yetirmiş, 2020-ci ilin iyulunda Ermənistanın növbəti təxribatları nəticəsində baş vermiş Tovuz döyüşlərinin iştirakçısı olmuşdur.

2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsinin ilk günündən etibarən o, döyüş əməliyyatlarında fəal iştirak etmiş, böyük rəşadət nümayiş etdirmişdir. Xocavənd rayonu uğrunda gedən ağır döyüşlərdə düşmənin çoxlu sayda canlı qüvvəsini və döyüş texnikasını məhv edərək döyüş tapşırıqlarını layiqincə yerinə yetirmişdir. Saməddin Fərziyev 21 oktyabr 2020-ci ildə qəhrəmancasına şəhid olmuşdur. O, Qaradağ rayonu Lökbatan qəsəbəsində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi şücaətə görə Saməddin Mehman oğlu Fərziyev Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

20

Musa Həmzəyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Həmzəyev Musa Xalid oğlu 20 iyun 2001-ci ildə Şabran rayonunun Rəhimli kəndində anadan olmuşdur. O, orta təhsilini Rəhimli kənd orta məktəbində almışdır. Həmzəyevlər ailəsi 1988-ci ildə Özbəkistandan deportasiya edilən Axısqa türklərindəndir.

2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərinin azad edilməsi məqsədilə başlanan Vətən müharibəsi zamanı Musa Həmzəyev könüllü olaraq döyüş əməliyyatlarına qoşulmuşdur. O, Füzuli istiqamətində aparılan hərbi əməliyyatlarda iştirak etmiş və göstərdiyi döyüş fəaliyyətləri ilə seçilmişdir. 23 oktyabr 2020-ci ildə gedən şiddətli döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Nəşi döyüş bölgəsində 40 gün neytral zonada qaldığından yalnız 2 dekabr 2020-ci ildə ailəsinə təhvil verilmiş və Şabran rayonunun Rəhimli kənd qəbiristanlığında dəfn edilmişdir.

Musa Xalid oğlu Həmzəyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidliyə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların yerinə yetirilməsi zamanı nümayiş etdirdiyi şücaətə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişd

İYUN
20

İsə Orucov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

İsə Razim oğlu Orucov 20 iyun 2001-ci ildə Şəmkir rayonunun Seyfəli kəndində anadan olmuşdur. O, 2007–2018-ci illərdə Şəmkir rayonunun Seyfəli kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə şəhər Kəpəz rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmış və xidməti dövründə Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarında, eləcə də Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İsə Orucov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərinin azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində atıcı kimi iştirak etmişdir. O, Suqovuşan, Xocavənd və Füzuli istiqamətlərində gedən döyüşlərdə fəal vuruşmuşdur. Döyüş tapşırığının icrası zamanı göstərdiyi igidlik nəticəsində 27 oktyabr 2020-ci ildə qəhrəmancasına şəhid olmuş və 29 oktyabr tarixində doğulduğu Şəmkir rayonunun Seyfəli kəndində dəfn edilmişdir.


İsə Razim oğlu Orucovun Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi şücaət dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

20

Turan Şərifov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.29-34.

Turan Vidadi oğlu Şərifov 20 iyun 2001-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, təhsilini Əliağa Şıxlinski adına 135 nömrəli tam orta məktəbdə almış, daha sonra Beynəlxalq Çerkass Dövlət Texnologiya Universitetinə daxil olaraq iqtisadiyyat ixtisası üzrə birinci kurs tələbəsi olmuşdur. Turan Şərifov eyni zamanda musiqi sahəsində istedadı ilə seçilmiş, Füzuli şəhər 2 nömrəli uşaq incəsənət məktəbini bitirmişdir. Xanəndəliklə yanaşı gitara, saz, tar, piano, balaban və qaval kimi musiqi alətlərini yüksək peşəkarlıqla ifa etmişdir.

Hərbi xidmətini Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə əsgər kimi yerinə yetirən Turan Şərifov 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsinin ilk günlərindən döyüş əməliyyatlarında fəal iştirak etmişdir. O, Murovdağ, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan istiqamətlərində gedən şiddətli döyüşlərdə vuruşmuş, 5 noyabr 2020-ci ildə Laçın şəhəri uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 2-ci Fəxri Xiyabanda dəfn edilmişdir.

Turan Vidadi oğlu Şərifovun Vətən uğrunda göstərdiyi şücaət Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilmişdir. O, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

İYUN
22

Balazadə Abdullayev - 35

(1991-2020)

Əsgər



Abdullayev Balazadə Rafət oğlu 22 iyun 1991-ci ildə Salyan rayonunda anadan olmuşdur. O, orta təhsilini Salyan rayonunun Xalac kənd orta məktəbində almışdır. 2009–2011-ci illər ərzində müddətli həqiqi hərbi xidmət keçmiş, hərbi hazırlığını uğurla başa vurmuşdur.

Balazadə Abdullayev 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Azərbaycan Ordusunun əsgəri kimi könüllü olaraq iştirak etmişdir. O, döyüş əməliyyatları zamanı göstərdiyi fədakarlıq və igidliklə fərqlənmişdir. 18 oktyabr 2020-ci ildə Tərtər rayonunda hərbi yoldaşlarına su çatdırdığı zaman düşmən tərəfindən atəşə tutulmuş və qəhrəmancasına şəhid olmuşdur. Şəhid Abdullayev Balazadə Rafət oğlu Qaradağ rayonunun Ələt qəsəbəsində dəfn edilmişdir.

Abdullayev Balazadə Rafət oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidliyə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların yerinə yetirilməsi zamanı nümayiş etdirdiyi şücaətə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.7-9.

22

Həsən Bayramov - 25

(2001-2020)

Əsgər



Həsən Ağaisa oğlu Bayramov 22 iyun 2001-ci ildə Göyçay rayonunun Birinci Ərəbcəbirli kəndində anadan olmuşdur. O, orta təhsilini Göyçay rayon 9 nömrəli məktəbdə almış, təhsilini başa vurduqdan sonra Göyçay Peşə Liseyində ixtisas hazırlığını davam etdirmişdir.

Bayramov 3 iyul 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. Xidmət dövründə hərbi hazırlığı ilə seçilən əsgər Vətən müharibəsi başladıqdan sonra Tərtər–Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 1 oktyabr 2020-ci ildə həmin istiqamətdə həyata keçirilən hərbi əməliyyatlar zamanı düşmən mərmisinin partlaması nəticəsində qəlpə yarası almış və qəhrəmancasına şəhid olmuşdur. O, Göyçay rayonunun Şəhidlər xiyabanında dəfn edilmişdir.

Həsən Ağaisa oğlu Bayramov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidentinin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İYUN
22

Şahbaz Şahbazov - 30

(1996-2020)

Əsgər



Şahbaz Mirzə oğlu Şahbazov 22 iyun 1996-cı ildə Şəmkir rayonunun Qaracəmirli kəndində anadan olmuşdur. O, orta təhsilini Şəmkir şəhəri Cəlil Bayramov adına Qaracəmirli kənd tam orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Şahbaz Şahbazov 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində fəal iştirak etmişdir. O, Ermənistanın işğalı altında olan ərazilərin azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda, xüsusilə Füzuli rayonunun azad edilməsi istiqamətində gedən döyüşlərdə böyük igidlik göstərmişdir. 25 oktyabr 2020-ci ildə Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur.

Şahbazov Şahbaz Mirzə oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

23

Əhməd Hacıyusifov - 25

(2001-2020)

Əsgər



Hacıyusifov Əhməd Teymur oğlu 23 iyun 2001-ci ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Şəki rayon Baş Göynük kənd 2 saylı tam orta məktəbdə təhsil almışdır. 2019-cu ildən Ağcabədi rayonunda yerləşən N saylı hərbi hissədə Azərbaycan Silahlı Qüvvələrində əsgəri xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Əhməd Hacıyusifov 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində iştirak etmişdir. O, Ermənistan işğalı altında olan ərazilərin azad olunması və Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı istiqamətində aparılan döyüşlərdə iştirak etmiş, xüsusilə Cəbrayıl və Füzuli istiqamətindəki əməliyyatlarda qəhrəmanlıq göstərmişdir. 8 noyabr 2020-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuş, 9 noyabr 2020-ci il tarixdə doğulduğu Baş Göynük kəndində dəfn olunmuşdur.

Hacıyusifov Əhməd Teymur oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Sadiq Məmmədov – 45

(1981-2020) *Polkovnik-leytenant*



Məmmədov Sadiq Sadəddin oğlu 1981-ci il iyunun 23-də Qax şəhərində anadan olmuşdur. 1998-ci ildə Heydər Əliyev adına Ali Hərbi Akademiyaya daxil olmuş, 2002-ci ildə leytenant rütbəsi ilə həmin Akademiyanı bitirmişdir. Zabit kimi xidmətinə Salyan rayonundakı "N" saylı hərbi hissədə başlamış, daha sonra müxtəlif hərbi hissələrdə xidmətini davam etdirmişdir.

Sadiq Məmmədov 22 illik xidməti müddətində nizam-intizamı, döyüş təcrübəsi və göstərdiyi mərdlik və igidliyə görə "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı və müxtəlif fəxri fərmanlarla təltif olunmuş, polkovnik-leytenant rütbəsinə yüksəlmişdir.

Azərbaycan Ordusunun polkovnik-leytenantı olan Sadiq Məmmədov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində iştirak etmişdir. O, Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda Füzuli və Xocavənd döyüşlərində mərdliklə vuruşmuşdur. Məmmədov Sadiq Sadəddin oğlu oktyabrın 26-da Xocavənd döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və Qax şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Məmmədov Sadiq Sadəddin oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.21-31.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan .- 2021.- 25 iyun.- S.32-44.

İYUN
23

Hikmət İbrahimov - 25

(2001-2020)

Əsgər



Hikmət Zaur oğlu İbrahimov 23 iyun 2001-ci ildə Ucar rayonunun Qarabörk kəndində anadan olmuşdur. 2007–2016-cı illərdə həmin kəndin tam orta məktəbində təhsil almışdır.

Hikmət İbrahimov 25 may 2020-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ucar rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmış və Azərbaycan Silahlı Qüvvələrində xidmət etməyə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri kimi o, 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində iştirak etmiş, Ermənistanın işğalı altında olan ərazilərin azad olunması və Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda Füzuli istiqamətində gedən döyüşlərdə mərdliklə vuruşmuşdur. Oktyabrın 20-si döyüş tapşırığını yerinə yetirərkən düşmənin artilleriya atəşi nəticəsində qəhrəmancasına şəhid olmuşdur. 21 oktyabrda doğulduğu kənddə dəfn edilmişdir.

Hikmət Zaur oğlu İbrahimov Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında göstərdiyi şücaət və hərbi tapşırıqları şərəflə yerinə yetirməsi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Döyüşdə fərqlənməyə görə", "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

24

Teymur Abdullazadə - 25

(2001-2020)

Əsgər



Teymur Faiq oğlu Abdullazadə 24 iyun 2001-ci ildə Biləsuvar rayonunun Günəşli kəndində anadan olmuşdur. Orta təhsilini Biləsuvar rayon, Fazil Hökməliyev adına Günəşli kənd tam orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri kimi Teymur Abdullazadə 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsində iştirak etmiş, Ermənistan işğalı altında olan ərazilərin azad olunması və Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərmişdir. O, Suqovuşan, Talışkənd və Ağdərə uğrunda aparılan döyüşlərdə fəal iştirak etmiş, oktyabrın 8-də düşmənin hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur. Teymur Abdullazadə 29 oktyabr 2020-ci il tarixində Biləsuvar rayonunun Günəşli kənd məzarlığında dəfn olunmuşdur.

Abdullazadə Teymur Faiq oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi şücaət və hərbi tapşırıqları şərəflə yerinə yetirməsi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İYUN
24

Seymur Bəylərov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Seymur Səlyəddin oğlu Bəylərov 24 iyun 1996-cı ildə Samux rayonunun Qarayeri kəndində anadan olmuşdur. Orta təhsilini Samux rayon, Qarayeri kənd tam orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri kimi Bəylərov Vətən müharibəsi zamanı tuşlayıcı operator vəzifəsində xidmət etmiş, Talış-Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Müharibənin ilk günlərində, 28 sentyabr 2020-ci ildə düşmən tərəfindən vurulmuş zirehli maşından sağ çıxaraq şəhid olmuş döyüş yoldaşlarını xilas etmiş, onların silahlarını götürərək düşmənin üzərinə təkbaşına hücum etmişdir. Döyüş zamanı bir neçə erməni terrorçusunu məhv etmiş, lakin snayper gülləsi ilə qəhrəmancasına şəhid olmuşdur.

Seymur Bəylərov Samux rayonunun Qarayeri kəndində dəfn olunmuşdur.

Seymur Səlyəddin oğlu Bəylərov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi şücaət və hərbi tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

25

Elvin Məmmədov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 19 dekabr.- S.6-12.

Elvin Eldəniz oğlu Məmmədov 25 iyun 2001-ci ildə Ağdaş şəhərində anadan olmuşdur. Orta təhsilini Ağdaş rayonu, S. Vurğun adına 1 saylı orta məktəbdə almışdır.

2019-cu ildə Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə çağrılmış, xidmət müddətində fəal snayperçi kimi çıxış etmiş, xüsusi təyinatlılar kursunu uğurla başa vurmuş və əlavə təhsil almışdır. Hərbidə göstərdiyi nailiyyətlərə görə bir sıra fəxri fərmanlar və təşəkkürnamələrlə təltif edilmişdir.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Elvin Məmmədov ön cəbhədə döyüşlərdə iştirak etmişdir. 15 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində yaralı döyüş yoldaşlarını təhlükəsiz bölgəyə çıxararkən qəhrəmancasına şəhid olmuşdur. 24 oktyabr 2020-ci ildə Ağdaş şəhər qəbiristanlığında dəfn edilmişdir.


Elvin Eldəniz oğlu Məmmədov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi şücaət və hərbi tapşırıqları şərəflə yerinə yetirməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Şücaətə görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir.

İYUN
25

Qurbanəli Quluzadə - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Qurbanəli Elşad oğlu Quluzadə 2001-ci il iyunun 25-də Bakı şəhərinin Xəzər rayonu, Binə qəsəbəsində anadan olmuşdur. O, 2008–2019-cu illərdə əvvəlcə Xəzər rayonu R. M. Sadıqov adına 136 nömrəli tam orta məktəbdə, daha sonra 121 nömrəli tam orta məktəbdə təhsil almışdır.

2019-cu il oktyabrın 21-də Xəzər Rayon Hərbi Komissarlığı tərəfindən Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. Xidməti dövründə Qurbanəli Quluzadə 2020-ci ilin sentyabrında başlayan və 44 gün davam edən Vətən müharibəsi zamanı ölkənin ərazi bütövlüyünün bərpası uğrunda gedən döyüş əməliyyatlarında fəal iştirak etmişdir. O, Füzuli və Cəbrayıl istiqamətlərində aparılan hərbi əməliyyatlarda böyük igidlik və fədakarlıq göstərmiş, düşmənə qarşı aparılan hücum əməliyyatlarında xüsusi şücaət nümayiş etdirmişdir. Daha sonra döyüş yolunu Xocavənd istiqamətində davam etdirərək düşmənə sarsıdıcı zərbələr endirmiş, çoxsaylı canlı qüvvənin məhv edilməsində iştirak etmişdir.

Qurbanəli Quluzadə 2020-ci il oktyabrın 21-də Xocavənd istiqamətində gedən ağır döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. O, oktyabrın 22-də Binə qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilmişdir.

Qurbanəli Elşad oğlu Quluzadə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

25

Nazim Zahirov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.81-84.

Zahirov Nazim Həmzə oğlu 25 iyun 2001-ci ildə Bakı şəhərinin Sabunçu rayonunun Bakıxanov qəsəbəsində anadan olmuşdur. O, 2007–2018-ci illərdə 310 nömrəli orta məktəbdə təhsil almış, 2018-ci ildə Azərbaycan Dövlət Dəmir Yolu Liseyinə daxil olmuş və 2019-cu ildə həmin liseyi bitirmişdir. Həmin ilin 2 iyulunda Azərbaycan Silahlı Qüvvələri sıralarında müddətli həqiqi hərbi xidmətə çağrılmış, Goranboy rayonunda xidmət etmişdir.

Nazim Zahirov 2020-ci il sentyabrın 27-də başlayan və Azərbaycan ərazilərinin Ermənistan işğalından azad olunmasına yönəlmiş Vətən müharibəsində Azərbaycan Ordusunun əsgəri kimi fəal iştirak etmişdir. O, Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə böyük qəhrəmanlıq göstərmişdir. 2020-ci il oktyabrın 1-də Talış–Suqovuşan istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı mərdliklə şəhid olmuşdur.

Şəhid əsgər 2020-ci il noyabrın 29-da Ramana qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirakı və hərbi tapşırıqların icrası zamanı göstərdiyi igidliyə görə Zahirov Nazim Həmzə oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

İYUN
25

Səbuhi İsgəndərli - 25

(2001-2020)

Əsgər



İsgəndərli Səbuhi Yaşar oğlu 25 iyun 2001-ci ildə Tərtər şəhərində anadan olmuşdur. Uşaqlıq illərində ailəsi ilə birlikdə Şəki şəhərinə köçmüşdür. O, 2007–2016-cı illərdə Şəki şəhər 11 nömrəli tam orta məktəbdə, 2016–2017-ci illərdə 12 nömrəli tam orta məktəbdə, 2017–2018-ci illərdə isə 18 nömrəli tam orta məktəbdə təhsil almışdır.

Səbuhi İsgəndərli 2019-cu ilin iyul ayında Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Çevik Hərəkat Dəstəsində müddətli həqiqi hərbi xidmətə başlamışdır. Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının əsgəri kimi o, 2020-ci il sentyabrın 27-də başlanan və ölkənin Ermənistan işğalı altında olan ərazilərinin azad edilməsinə yönəlmiş Vətən müharibəsində fəal iştirak etmişdir. O, Cəbrayıl, Füzuli və Zəngilan rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə böyük şücaət göstərmişdir.Səbuhi İsgəndərli 2020-ci il oktyabrın 26-da Zəngilan döyüşləri zamanı, rayonun Vejnəli kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. O, 29 oktyabr 2020-ci ildə Şəki şəhərində yerləşən "Dovşan düzü" qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda aparılan hərbi əməliyyatlarda göstərdiyi igidliyə görə İsgəndərli Səbuhi Yaşar oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

26

Elşən Kərimov - 25

(2001-2020)

Əsgər



Kərimov Elşən Rövşən oğlu 26 iyun 2001-ci ildə Goranboy rayonunun Qızılhacılı qəsəbəsində anadan olmuşdur. O, 2007–2018-ci illərdə Qızılhacılı qəsəbəsi Dilbazi Qasımov adına 1 nömrəli tam orta məktəbdə təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra müddətli həqiqi hərbi xidmətə çağrılmış və İkinci Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun əsgəri kimi döyüş əməliyyatlarında iştirak etmişdir.

Elşən Kərimov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Füzuli rayonunun azad edilməsi uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. O, 13 oktyabr 2020-ci ildə Füzuli istiqamətində aparılan əməliyyatlar zamanı düşmən tərəfindən açılan artilleriya atəşi nəticəsində qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpası naminə aparılan döyüş əməliyyatlarında göstərdiyi igidliyə və tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Kərimov Elşən Rövşən oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İYUN
27

Cəsarət Səfərov - 25

(2001-2020)

Əsgər



Cəsarət Xaliq oğlu Səfərov 2001-ci il iyunun 27-də Bakı şəhərinin Suraxanı rayonunda anadan olmuşdur. O, Yeni Suraxanı qəsəbəsində yerləşən 89 nömrəli orta məktəbdə təhsil almış, daha sonra Lənkəran Dövlət Universitetində ali təhsilini davam etdirmişdir.

Cəsarət Səfərov Azərbaycan Ordusunun əsgəri kimi 2020-ci il sentyabrın 27-də başlayan və ölkənin Ermənistan işğalı altında olan ərazilərinin azad edilməsinə yönəlmiş Vətən müharibəsində fəal iştirak etmişdir. O, Qubadlı və Laçın rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə şücaət göstərmişdir. 2020-ci il noyabrın 4-də Laçın döyüşləri zamanı Laçın dəhlizi istiqamətində qəhrəmancasına şəhid olmuşdur. Şəhid Cəsarət Səfərov II Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi igidliyə görə Səfərov Cəsarət Xaliq oğlu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan . - 2021.- 25 iyun.- S.58-60.

27

Məhəmməd Vəliyev - 30

(1996-2020)

Əsgər



Vəliyev Məhəmməd Nail oğlu 27 iyun 1996-cı ildə Masallı rayonunun İmanlı kəndində anadan olmuşdur. O, 2003–2014-cü illərdə Binə qəsəbəsində yerləşən Xocavar kənd tam orta məktəbində təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra, 2014–2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə xidmət etmişdir.

Məhəmməd Vəliyev 27 sentyabr 2020-ci ildə başlayan Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun əsgəri kimi Füzuli və Qubadlı rayonları uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, Füzuli istiqamətində aparılan hərbi əməliyyatlar zamanı göstərdiyi igidlik və fədakarlıqla seçilmiş və həmin döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Şəhid Məhəmməd Nail oğlu Vəliyev 23 oktyabr 2020-ci il tarixində Sarıcəfərli kənd qəbiristanlığında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi şücaətə görə Vəliyev Məhəmməd Nail oğlu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // $t Azərbaycan. – 2021.- 25 iyun.- S.21-31.

İYUN
27

Rameş Zəkiyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Zəkiyev Rameş Gülverdi oğlu 27 iyun 2001-ci ildə Astara rayonunun Şahağac kəndində anadan olmuşdur. O, orta təhsilini Şahağac kənd 1 saylı orta məktəbində almışdır. Orta məktəbi bitirdikdən sonra, 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılmış və xidmətini Ağdam rayonunun Baharlı kəndində davam etdirmişdir.

Rameş Zəkiyev Azərbaycan Ordusunun əsgəri kimi 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində minaatan qrupunun heyətində iştirak etmişdir. O, Ağdam istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərmişdir. 15 oktyabr 2020-ci ildə Ağdam rayonunun Hacıməmmədli kəndi istiqamətində minamyot mərmisinin düşməsi nəticəsində iki döyüşçü yoldaşı ilə birlikdə qəhrəmancasına şəhid olmuşdur. Şəhid 20 oktyabr 2020-ci ildə doğulduğu Astara rayonunun Şahağac kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında göstərdiyi igidliyə görə Rameş Gülverdi oğlu Zəkiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhidin xatirəsi doğulduğu Astara rayonunun Şahağac kəndində əbədiləşdirilmiş, kənddə onun adına xatirə plaketi və yeni inşa olunan bulaq kompleksi qoyulmuşdur.

29

Hüseyn İsmayılov - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Hüseyn Fərman oğlu İsmayılov 29 iyun 1991-ci ildə Şəki rayonunun Qayabaşı kəndində anadan olmuşdur. O, 1997–2008-ci illərdə Qayabaşı kənd tam orta məktəbində təhsil almış, 2009–2011-ci illərdə müddətli həqiqi hərbi xidmət keçmişdir. 2012-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu (MAXE) kimi Azərbaycan Ordusunda xidmətə başlamışdır. Aprel döyüşlərinin iştirakçısı olan Hüseyn İsmayılov 2016-cı ildə Lələtəpə uğrunda gedən döyüşlərdə xüsusi mərdlik və şücaət göstərmişdir.

Hüseyn İsmayılov Bakının Pirəkəşkül qəsəbəsində yerləşən hərbi hissədə MAXE vəzifəsində çalışmış, daha sonra Beyləqandakı "N" saylı hərbi hissədə xidmətini davam etdirmişdir. O, Quru Qoşunlarının tərkibində PDM döyüş maşınının mexaniki vəzifəsini icra etmişdir.

Azərbaycan Ordusunun əsgəri kimi Hüseyn İsmayılov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində iştirak etmiş, Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Döyüşlər zamanı aldığı ağır yaraya görə hospitala yerləşdirilsə də, 4 noyabrda yenidən cəbhəyə dönmüş və 8 noyabr 2020-ci ildə Şuşa uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur

Hüseyn Fərman oğlu İsmayılov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

İYUN
29

Tərxan Qurbanov - 30

(1996-2020)

Əsgər



Tərxan Zabit oğlu Qurbanov 29 iyun 1996-cı ildə Şəki rayonunun Kiçik Dəhnə kəndində anadan olmuşdur. O, Mingəçevir şəhər 3 saylı orta məktəbdə təhsil almış və daha sonra Bakı Dövlət Universitetinin Biologiya fakültəsini bitirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Tərxan Qurbanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. O, 6 noyabr 2020-ci ildə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Qurbanov Tərxan Zabit oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və "III dərəcəli Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

29

Ələddin Xəlilov - 25

(2001-2020)

Əsgər



Ələddin Əlizaman oğlu Xəlilov 29 iyun 2001-ci ildə Qobustan qəsəbəsində anadan olmuşdur. O, 321 nömrəli tam orta məktəbdə təhsil almış və 24 iyul 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri kimi Ələddin Xəlilov 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsində Goranboy rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. O, 1 oktyabr 2020-ci ildə Tapqaraqoyunlu kəndi istiqamətində düşmənin odlu silah və digər mərmi növlərindən açdığı atəş nəticəsində qəhrəmancasına şəhid olmuşdur. 12 dekabr 2020-ci ildə Qaradağ rayonu Qobustan qəsəbəsindəki Şamlı qəbiristanlığında dəfn edilmişdir.

Xəlilov Ələddin Əlizaman oğlu Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda qoyulmuş tapşırıqların icrası zamanı verilmiş tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən ölümündən sonra "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

İYUN
29

Xətai Həsənov - 25

(2001-2020)

Əsgər



Xətai Xaliq oğlu Həsənov 29 iyun 2001-ci ildə Tovuz rayonunun Qovlar qəsəbəsində anadan olmuşdur. O, Qovlar şəhəri S. Kazımov adına tam orta məktəbdə təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri kimi Xətai Həsənov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində iştirak etmiş, Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə şücaət göstərmişdir. O, 31 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş və Tovuz rayonunun Qovlar kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi igidliyə və hərbi tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Xətai Xaliq oğlu Həsənov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

30

Əli Eyvazov - 25

(2001-2020)

Əsgər



Əli Sehran oğlu Eyvazov 30 iyun 2001-ci ildə Göyçay şəhərində anadan olmuşdur. O, Göyçay şəhəri 1 saylı orta məktəbdə təhsil almışdır. Məktəbi bitirdikdən sonra 2019-cu ilin iyul ayının 3-də Azərbaycan Silahlı Qüvvələri sırasında müddətli həqiqi hərbi xidmətə çağrılmış və Beyləqan rayonunda xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri kimi Əli Eyvazov 2020-ci il sentyabrın 27-dən başlayan Vətən müharibəsində fəal iştirak etmiş, Füzuli istiqamətində minamyot komandiri olaraq döyüş tapşırıqlarını yerinə yetirmişdir. O, 14 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və Göyçay şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda göstərdiyi igidliyə və hərbi tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Əli Sehran oğlu Eyvazov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Elgün Yunusov – 40

(1986-2020)

Əsgər



Yunusov Elgün 30 iyun 1986-cı ildə Beyləqan rayonunda anadan olmuşdur. O, Beyləqan rayonu, R. Quliyev adına Yeni Mil (Talıbxanlı) qəsəbəsi tam orta məktəbdə təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri kimi Elgün Yunusov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Murovdağ istiqamətində gedən döyüşlərdə fəal iştirak etmişdir. O, sentyabrın 27-də Murovdağ döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Nəşi erməni tərəfində qaldığı üçün 10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli bəyanatın 8-ci maddəsinə əsasən qarşı tərəfdən götürülərək ailəsinə təhvil verilmiş və Beyləqan rayonunda dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi igidliyə və hərbi tapşırıqları şərəflə yerinə yetirdiyinə görə Elgün Yunusov ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 16 dekabr.- S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.79.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.1-6.

Arif Heydərov – 100

(1926-1978)

Dövlət xadimi



Ədəbiyyat:

Hüseynov, R. Ona "Dayağım" deyirdi / Rafael Hüseynov // 525-ci qəzet.-2023.- 26 iyun.- S.4-5.

Hüseynov, R. Sabaha üzən gəmilər / Rafael Hüseynov // 525-ci qəzet.-2023.- 4 iyul.- S.10-12.

Əliyeva, İ. General dəyanəti / İ.radə Əliyeva // Azərbaycan.-2020.- 26 iyun.- S.10.

Məmmədli, Ş. Xalqın qəlbində yaşayan Arif Heydərov / Şirin Məmmədli // Həftə içi. - 2019. - 28 iyun. - S. 7.

General Arif Heydərov / nəşr. təşəbbüs. və xatirələri topla yan E. Şahmar; çapa haz.: S.Bayramov, F.Kərimov; [ön söz: A.Şərif, C.Əlibəyov]. - [Bakı]: [Şərq-Qərb], 2016. - 329 s.

Əliyeva, İ. Kəşfiyyatçı Dip lomat Nazir: Arif Heydərov - 90 / İ.Əliyeva // Azərbaycan. - 2016. - 25 iyun. - S. 7.

Vətən və xalq qarşısında fədakar xidmət nümunəsi: General Arif Heydərovun həyat və fəaliyyəti oxuculara yeni nəşrdə təqdim olunur // Yeni Azərbaycan. - 2016. - 6 iyul. - S. 8.

Arif Nəzər oğlu Heydərov 1926-cı il 28 iyun tarixində Ağdaş rayonunda qulluqçu ailəsində anadan olmuşdur. O, əmək fəaliyyətinə 1942-ci ildə Əzizbəyov adına neft trestində çilingər şagirdi kimi başlamışdır. 1943–1944-cü illərdə SSRİ Xalq Dövlət Təhlükəsizliyi Komissarlığının Moskvada yerləşən xüsusi məktəbində təhsil almış və buranı zabit rütbəsi ilə bitirmişdir. Təhsilini tamamladıqdan sonra könüllü olaraq İkinci Dünya müharibəsi cəbhələrinə göndərilmiş, Birinci Ukrayna Cəbhəsinin kəşfiyyat bölmələrinin tərkibində Polşa və Almaniya istiqamətlərində aparılan döyüş əməliyyatlarında iştirak etmişdir.

Müharibə başa çatdıqdan sonra 1945–1947-ci illər ərzində Polşa və Almaniyada sovet hərbi komandanlığının tabeliyində fəaliyyət göstərmiş, Leypsiq və Saksoniya bölgələrində operativ şöbələrdə xidmət etmişdir. 1947-ci ildə Azərbaycana qayıtdıqdan sonra Dövlət Təhlükəsizlik Komitəsinin mühafizə və kəşfiyyat strukturlarında işə başlamış, 1949–1970-ci illər ərzində DTK-nın kəşfiyyat bölməsində müxtəlif vəzifələrdə çalışmışdır. Bu dövrdə o, əməliyyat tapşırıqları ilə bağlı olaraq Almaniya Demokratik Respublikası və Türkiyədə uzunmüddətli ezamiyyətlərdə olmuşdur.

Arif Heydərov 1951–1957-ci illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində ali təhsil almışdır. Rus, alman, türk və fars dillərini, həmçinin işgüzar səviyyədə ingilis dilini bilməsi ona kəşfiyyat və diplomatik fəaliyyət sahələrində xüsusi üstünlük vermişdir. 1967–1970-ci illər ərzində SSRİ-nin Türkiyədəki konsulu vəzifəsində çalışmış və bu dövrdə iki ölkə arasında əlaqələrin tənzimlənməsi istiqamətində fəaliyyət göstərmişdir.

1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsindən sonra Arif Heydərovun xidməti fəaliyyətində yeni mərhələ başlamış, 1970-ci ilin mart ayında o, Azərbaycan SSR daxili işlər naziri vəzifəsinə təyin edilmişdir. Bu vəzifədə 1978-ci ilədək fəaliyyət göstərmiş, daxili işlər orqanlarında struktur və kadr siyasətinin təkmilləşdirilməsi, təşkilati-əməliyyat işinin gücləndirilməsi və idarəçilik mexanizmlərinin modernləşdirilməsi istiqamətində fəaliyyət göstərmişdir.

Xidməti fəaliyyətinə görə o, SSRİ-nin "Qırmızı Bayraq", "Şərəf nişanı" ordenləri və bir sıra medal və fəxri adlarla təltif edilmişdir. 1967-ci ildə Dövlət Təhlükəsizliyi Orqanlarının fəxri əməkdaşı, 1970-ci ildə SSRİ Daxili İşlər Nazirliyinin "Əməkdar işçisi" adına layiq görülmüş, 1976-cı ildə general-leytenant xüsusi rütbəsi almışdır. O, həmçinin Azərbaycan SSR Ali Sovetinin 8-ci və 9-cu çağırış deputatı olmuşdur.

Arif Heydərov 1978-ci il 29 iyun tarixində Bakı şəhərində xidməti otağında baş vermiş silahlı hücum nəticəsində həlak olmuşdur. Fəxri Xiyabanda dəfn edilmişdir.

Onun fəaliyyəti Azərbaycan dövlət təhlükəsizliyi və daxili işlər orqanlarının formalaşma və inkişaf tarixində mühüm mərhələ kimi qiymətləndirilir. 1996-cı ildə xatirəsinin əbədiləşdirilməsi məqsədilə dövlət səviyyəsində tədbirlər keçirilmiş, Bakı şəhərində küçə, Daxili İşlər Nazirliyinin hospitalı, Dövlət Sərhəd Xidmətinin Astara zastavası və bir sıra digər obyektlərə onun adı verilmişdir.

Şövkət Tağıyeva – 100

(1926-2015)

Tarixçi-şərqşünas



Şövkət Əzizağa qızı Tağıyeva 1926-cı il 11 iyun tarixində Bakı şəhərində anadan olmuşdur. O, 1948–1958-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunda elmi işçi və baş elmi işçi, 1958–1976-cı illərdə Şərqşünaslıq İnstitutunda baş elmi işçi vəzifələrində çalışmışdır. 1976-cı ildən etibarən Azərbaycan EA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunda Azərbaycanın Şərq ölkələri ilə tarixi əlaqələri şöbəsinə, 1981–1992-ci illərdə isə Cənubi Azərbaycan şöbəsinə rəhbərlik etmişdir.

Onun elmi fəaliyyəti əsasən İranın, xüsusilə Cənubi Azərbaycanın yeni və ən yeni dövr tarixinin, milli azadlıq hərəkatlarının, aqrar münasibətlərin və bölgənin ictimai-siyasi proseslərinin tədqiqinə yönəlmişdir. Tədqiqat fəaliyyətinə İranda və Cənubi Azərbaycanda milli azadlıq hərəkatları tarixinin araşdırılması ilə başlamış, Moskvada namizədlik dissertasiyasını müdafiə etmişdir. Sonrakı dövrdə Cənubi Azərbaycan tarixinin ayrı-ayrı mərhələlərinin öyrənilməsi istiqamətində sistemli araşdırmalar aparmışdır.

Şövkət Tağıyeva "1920-ci il Təbriz üsyanı" (1990) monoqrafiyasında üsyanın siyasi mahiyyətini təhlil etmiş və hadisələrin ictimai-siyasi kontekstini geniş şəkildə araşdırmışdır. O, həmçinin "Cənubi Azərbaycan tarixinin oçerki (1828–1917)" kollektiv tədqiqat əsərinin müəlliflərindən biri və elmi redaktoru olmuş, burada bölgədə ədəbi-mədəni inkişaf, satirik mətbuatın – xüsusən Cəlil Məmmədquluzadənin yaradıcılığının – ictimai fikir formalaşmasına təsirini elmi müstəvidə araşdırmışdır.

Onun elmi irsinə 2 monoqrafiya və 50-dən artıq məqalə daxildir. Tədqiqatlarının 16-sı Sovetlər Birliyi, Polşa, Türkiyə, Kanada və İranda dərc olunmuşdur. Şövkət Tağıyeva respublikada və xaricdə keçirilmiş elmi konfrans və simpoziumlarda İran tarixi, xüsusilə Cənubi Azərbaycanla bağlı məruzələrlə çıxış etmişdir.

Elmi fəaliyyətinin əsas istiqamətlərindən biri İranda aqrar münasibətlərin tədqiqi olmuşdur. Bu istiqamətdə apardığı araşdırmalar "XIX əsrin sonu və XX əsrin əvvəllərində İranda aqrar münasibətlər" adlı doktorluq dissertasiyasında ümumiləşdirilmiş və 1967-ci ildə Bakıda müdafiə edilmişdir. Bu sahədə o, iki monoqrafiya və bir sıra məqalələrin müəllifidir.

Tağıyeva Azərbaycanda Güney Azərbaycanşünaslıq elmi məktəbinin formalaşmasında mühüm rol oynamışdır. 1976–1991-ci illərdə AMEA-nın Şərqşünaslıq İnstitutunda Cənubi Azərbaycan tarixi şöbəsinin yaradıcısı və rəhbəri kimi çalışmış, həmin sahə üzrə elmlər namizədlərinin hazırlanmasına rəhbərlik etmişdir.

O, "Cənubi Azərbaycan tarixi məsələləri" (1989–1991) əsərinin də əsas müəllif və redaktorlarından biri olmuşdur. 2000-ci ildə Ə.Bije və S.Bayramzadə ilə birlikdə "Güney Azərbaycan" ensiklopedik-sorğu kitabını nəşr etdirmişdir.

Alimin Cənubi Azərbaycanın XIX–XX əsrlər tarixi ilə bağlı araşdırmalarının nəticələri ali və orta təhsil müəssisələri üçün hazırlanmış "Azərbaycan tarixi" dərsliklərinin müvafiq bölmələrində də öz əksini tapmışdır. Onun tədqiqatları İran və Cənubi Azərbaycan üzrə aparılan elmi işlər üçün mühüm mənbə hesab olunur.

Şövkət Tağıyeva həmçinin ictimai-siyasi fəaliyyətlə də məşğul olmuş, müstəqillik dövründə Milli Azadlıq Hərəkatında iştirak etmiş və Müsavat Partiyasının Məclis və Divan üzvü olmuşdur.

Şövkət Əzizağa qızı Tağıyeva 2015-ci il 11 iyun tarixində Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Böyük Turan xanım Cavid haqqında kövrək xatirələrim: Turan Cavidin vəfatının 16 illiyinə / Şövkət Tağıyeva // Ədəbiyyat qəzeti.-2020.- 12 sentyabr.- S.14.

Bütöv Azərbaycançılıq ideyası: Bu ideya həm Güney, həm də Quzey Azərbaycanda düşüncələrə hakim idi / Şövkət Tağıyeva // Xalq Cəbhəsi.-2013.- 25 dekabr.- S.14.

XIX əsrin sonu və XX əsrin əvvəllərində İran kəndlilərinin vəziyyəti / Ş.Tağıyeva; red. Z.Abdullayev; AzSSR EA, Yaxın və Orta Şərq Xalqları İn-tu. – Bakı: Elm, 1969. – 197 s.

1920-ci il Təbriz üsyanı / Ş.Tağıyeva; red. R.Seyidov; AzSSR EA, Şərqşünaslıq İnstitutu. – Bakı: Elm, 1990. – 147 s. Tağıyeva Şövkət Əzizağa qızı // Cəlil Məmmədquluzadə ensiklopediyası / Red. hey. Anar [və b.]. - Bakı, 2008. - S. 274.

Güney Azərbaycan: [Məlumat kitabı] /Şövkət Tağıyeva [elmi red.], Ə. Rəhimli (Bije), S. Bayramzadə. - Bakı: Orxan, 2000. - 514, [2] s.

Mahmud Abdullayev – 85

(1941-2023)

Alim



Mahmud Abdulla oğlu Abdullayev 1941-ci il iyunun 30-da Gəncə şəhərində anadan olmuşdur. O, 1962-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirdikdən sonra göndərişlə Azərbaycan Elmlər Akademiyasının Bakı Torpaq Ekspedisiyasında əmək fəaliyyətinə başlamış, əvvəlcə texnik-kartoqraf, daha sonra isə mühəndis-torpaqşünas kimi çalışmışdır. 1964-cü ildə Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitutunda aspiranturaya qəbul olunmuş və üçillik təhsilini keçmiş SSRİ Elmlər Akademiyasının Moskvadakı Biofizika İnstitutunda radiobiologiya ixtisası üzrə davam etdirmişdir. Aspiranturanı başa vurduqdan sonra 1967–1971-ci illərdə həmin institutun Cəlilabad Zona Təcrübə Stansiyasında Aqrokimya və Torpaqşünaslıq şöbəsinə rəhbərlik etmişdir.

Mahmud Abdullayev fəaliyyətinin ilk dövrlərindən etibarən respublikanın torpaq-bitki sistemində süni və təbii radionuklidlərin yayılması, miqrasiyası və təsir qanunauyğunluqları üzrə tədqiqatlarla məşğul olmuşdur. Onun elmi axtarışları torpaqların radionuklidlərlə çirklənmə səviyyəsinin müəyyənləşdirilməsi, radionuklidlərin torpaq-profilində hərəkəti, eləcə də bitkilərdə toplanma dinamikasının öyrənilməsi ilə xarakterizə olunur. 1980-ci ildə Moskva Dövlət Universitetində "Torpaqşünaslıq" ixtisası üzrə namizədlik dissertasiyasını müdafiə etmişdir. 1989-cu ildən Azərbaycan Elmi-Tədqiqat Əkinçilik İnstitutunda böyük elmi işçi, qrup rəhbəri və aparıcı elmi işçi kimi çalışmış, tədqiqat fəaliyyətini davam etdirərək 1998-ci ildə AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunda doktorluq dissertasiyasını müdafiə etmiş və kənd təsərrüfatı elmləri doktoru alimlik dərəcəsi almışdır.

Alim 1999-cu ildən Dövlət Torpaq Kadastrı Monitorinqi və Elmi-İstehsalat Mərkəzində elmi-tədqiqat şöbəsinin rəisi vəzifəsində çalışmış, eyni zamanda AMEA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutu və AzET Əkinçilik İnstitutunun nəzdində fəaliyyət göstərən ixtisaslaşdırılmış dissertasiya şuralarının üzvü olmuşdur. 2007-ci ildə "Torpaqşünaslıq" ixtisası üzrə AMEA-nın müxbir üzvü seçilmiş, 2009-cu ildə müsabiqə yolu ilə AMEA Radiasiya Problemləri İnstitutunun Radioekologiya laboratoriyasına rəhbər təyin edilmişdir. 2012-ci ildə AMEA-nın yeni yaradılmış Aqrar Elmlər Bölməsinin akademik-katibinin müavini seçilmişdir.

Abdullayevin tədqiqatları radionuklidlərin torpaq-bitki örtüyündə yayılma və miqrasiya qanunauyğunluqlarının müəyyənləşdirilməsi ilə yanaşı, kənd təsərrüfatında tətbiq olunan mineral gübrələrin radionuklidlərin bitkilərdə toplanmasına təsirinin elmi əsaslandırılması ilə də bağlıdır. Onun tərəfindən Azərbaycanın torpaq-bitki sistemində stronsium-90 və sezium-137 radionuklidlərinin yayılmasını əks etdirən xəritələr hazırlanmış və bu materiallar "Azərbaycanın Ekoloji Atlası"na daxil edilmişdir. Abdullayevin elmi irsinə 100-ə yaxın əsər daxildir; 4 monoqrafiyası Moskva və Bakıda nəşr edilmiş, 26 məqaləsi xarici ölkələrdə çap olunmuşdur.

Alim həmçinin pedaqoji fəaliyyətlə məşğul olmuş, Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Aqrar Universitetində bakalavr və magistr səviyyələrində dövlət imtahanları və diplom müdafiələrinin təşkilində iştirak etmişdir. Onun elmi rəhbərliyi altında torpaqşünaslıq və aqrokimya üzrə mütəxəssislər hazırlanmışdır.

Mahmud Abdulla oğlu Abdullayev Azərbaycan torpaqşünaslıq elminin inkişafında xidmətlərinə görə AMEA Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmişdir. O, 6 iyul 2023-cü ildə vəfat etmişdir.

Ədəbiyyat:

Stronsium - 90 və sezium 137 Azərbaycanın torpaq bitki örtüyündə / Mahmud Abdullayev. - Bakı, "Nauka" nəş., 1983. - 101 s. Azərbaycan SSR-nin torpaq-bitki örtüyündə 90 Sr və 137 Cs radionuklidlərinin miqra siyasının ümumi qanuna uyğunluqları / Mahmud Abdullayev. - Moskva, 1988. - 28 s. Süni və təbii radionuklidlər Azərbaycanın torpaq-bitki örtüyündə / Mahmud Abdullayev. - Moskva, "Aqrarnaya nauka" nəş., 1996. - 159 s. Longliving natural radi onuclides in soil plants of the Azerbaijan SSR. Aka demiai Kiado, Budapesht, 1987, vol. 2.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Sevil_Qazıyeva

http://anaveusaq.az/ qadin-ana/2956-lk qadin-mexanizator-sevil qaziyeva.html

Varis Yolçiyev – 60

(1966)

Yazıçı, jurnalist



Varis Musa oğlu Yolçiyev 7 iyun 1966-cı ildə Sumqayıt şəhərində anadan olmuşdur. O, 1990-cı ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmiş və ali təhsilini başa vurduqdan sonra peşəkar yaradıcılıq və media fəaliyyəti ilə məşğul olmağa başlamışdır. 1991-ci ildə "168 saat" qəzetinin baş redaktoru, 1993-cü ildə "7 gün" qəzetinin redaktoru olmuşdur. 1995-ci ildə Azərbaycan Dövlət Televiziyasında "Gecə kanalı" proqramının yaradıcı kollektivində çalışaraq televiziya sahəsində fəaliyyətini davam etdirmişdir.

2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin "Azərbaycan" nəşriyyatına baş redaktor təyin edilmiş, 2007-ci ildə "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-də Dövri Nəşrlər və Sosioloji Araşdırmalar Departamentinin direktoru vəzifəsinə gətirilmişdir. O, həmçinin Azərbaycanda ilk milli teleradio jurnalı olan "TV plyus" jurnalının təsisçisi və baş redaktorudur. Müxtəlif illərdə Azərbaycan və xarici ölkə mətbuat nümunələrində onun publisistik yazıları dərc edilmişdir.

Varis Yolçiyevin bədii yaradıcılığı 1990-cı illərdən başlanır. Onun ilk hekayələri Xalq yazıçısı İsmayıl Şıxlının təqdimatı ilə "Ulduz" jurnalında dərc olunmuşdur. Sonrakı dövrlərdə "Bir ovuc torpaq", "Tənha yalquzağın nağılı", "Sənə inanıram", "Yol ayrıcında azıb qalanlar" kimi hekayələri nəşr olunmuş və ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. O, roman janrında ardıcıl fəaliyyət göstərmiş və əsərləri Azərbaycanla yanaşı, Rusiya, Türkiyə və Özbəkistanda da nəşr edilmişdir.

Yolçiyevin romanları arasında "Sonuncu ölən ümidlərdir" (2008), "Bir ovuc torpaq" (2009), "Sənə inanıram" (2010), "Yetmiş yeddinci gün" (2012), "Əzilmiş fotoşəkillər" (2012, 2016), "Metamorfoz. Bir gecənin əhvalatı" (2013), "Yol ayrıcında azıb qalanlar" (2013), "Son məktub" (2014), "Bitməyən matç" (2015), "Üçbucaq" (2016), "Uzaqdan gələn yağış" (2017, 2018) və digər əsərlər xüsusilə qeyd olunmalıdır. Bir sıra əsərləri ekranlaşdırılmış, "Bir ovuc torpaq" televiziya filmi Lider TV-də, "Sənə inanıram" isə 2013-cü ildə serial formatında nümayiş etdirilmişdir.

Varis Yolçiyev ədəbiyyat və media sahəsindəki fəaliyyətinə görə müxtəlif yerli və beynəlxalq mükafatlara layiq görülmüşdür. O, Azərbaycan Respublikasının "Əməkdar jurnalisti" fəxri adına layiq görülmüş, həmçinin "Qızıl Kəlmə" ədəbiyyat mükafatı, Avrasiya materikinin III LiFFt festivallar festivalının qızıl medalı, UNESCO-nun Adam Mitskeviç medalı, Moskva Ədəbiyyat Mükafatı, Rusiya Yazıçılar Birliyinin "Puşkin" və "Mayakovski" medalları, "Dan ulduzu" ali jurnalistika mükafatı və Əli bəy Hüseynzadə mükafatı ilə təltif edilmişdir. O, Böyük Britaniya Yazıçılar İttifaqı (APPIA), Beynəlxalq Yazıçılar Gildiyası, PEN Klubu, Rusiya Yazıçılar Birliyi və Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Müxtəlif illərdə "Rossiyskiy kolokol" ədəbi nəşri və Böyük Britaniya Yazıçılar İttifaqının versiyalarında "İlin yazıçısı" elan edilmişdir.

Azərbaycan ədəbiyyatı və mətbuatının inkişafına verdiyi töhfələrə görə, 2023-cü ildə Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü Varis Yolçiyev Azərbaycan Ədəbiyyat Fondunun baş direktoru vəzifəsinə təyin edilmişdir.

Varis Yolçiyevin bədii irsi, publisistik fəaliyyəti və beynəlxalq səviyyədə tanınması çağdaş Azərbaycan ədəbi prosesinin mühüm istiqamətlərindən birini təşkil edir.

Ədəbiyyat:

Sonuncu ölən ümidlərdir: Roman / Varis; [red. N. Cəfərov; üz qabığının tərtibatı R. Qasımov; "Azərkitab" Kitab Təbliğatı Mərkəzi]. - [Bakı]: Azərkitab, [2025].- 359, [1] s.

Yol ayrıcında azıb qalanlar: [Roman] / Varis; Bakı: Xan.- 2024.- 333, [3] s.

Yaşıl üzlü gündəlik: [Roman] / Varis; Bakı: Xan.- 2024.- 384 s.

7 iyunun yazısı: / Varis Yolçiyev // Ədəbiyyat qəzeti.- 2024.- 29 iyun, №23-24.- S.14-15.

Qar yağmasın...: [hekayə] / Varis Yolçiyev // Ədəbiyyat qəzeti .- 2023.- 5 avqust.- S.10;11.

İnternetdə:

https://www.wikimedia.az-az.nina.az/Varis_Yolçiyev.html

https://edebiyyatveincesenet.az/edebiyyat/item/7359-varis-yoldzhiyev-aedaebiyyat-fondunun-bash-direktoru-taeyin-olunub

Qəribsoltan Məlikova – 140

(1886-1967) *Maarif xadimi*



Ədəbiyyat:

Həsənov, E. Zərdabinin müəllim qızı: Görkəmli pedaqoq Qəribsoltan Məlikovanın maarifçilik örnəyi / Eldəniz Həsənov // Xalq qəzeti.-2025.- 6 iyun (№ 117).- S.10.

Fərəcova, Z. Zərdabinin maarifçilik yolunun davamçısı / S.Fərəcov // Mədəniyyət.- 2019.- 24 iyul.- S.6.

Fərəcova, Z. Həsən bəy Zərdabinin qızı da maarifpərvər idi / Zöhrə Fərəcova // Azərbaycan.-2017.- 6 oktyabr.- S.7.

Məlikova Qəribsoltan Həsən bəy qızı // Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə / baş red. C.B.Quliyev; red hey. M.H.Abdullayev, M.T.Abasov [və b.]. - C. 4: Kuba. Misir... - Bakı, 1982. - S. 490.

Fərəcova, Z. Həsən bəy Zərdabinin qızı da maarifpərvər idi / Z.Fərəcova // Azərbaycan. - 2017. - 6 oktyabr. - S. 7. Fərəcov, S. Zərdabinin maarifçilik yolunun davamçısı / S.Fərəcov // Mədəniyyət. - 2019. - 24 iyul. - S. 6.

İnternetdə:

http://www.anl.az/down/meqale/medeniyyet/2019/iyul/665898.htm http://www.zerdab. com/?p=127

Qəribsoltan Həsən bəy qızı Məlikova 1886-cı il (bəzi mənbələrdə 1896) iyunun 11-də Göyçay qəzasının Zərdab kəndində, Azərbaycan mətbuatının banisi Həsən bəy Məlikov-Zərdabi və onun həyat yoldaşı Hənifə xanımın ailəsində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Tiflisdə rus qızlar gimnaziyasında təhsil almışdır. 1901–1905-ci illərdə anası Hənifə xanımın direktoru olduğu qız məktəbində də təhsilini davam etdirmişdir. Atasının vəfatından sonra ailənin Bakıya köçməsi ilə 1910-cu ildən pedaqoji fəaliyyətə başlamışdır. 1914-cü il 10 may tarixində Qəribsoltan Məlikovaya ibtidai sinif müəllimi adı verilməsi haqqında Şəhadətnamə təqdim edilmişdir.

1915–1918-ci illərdə Bakıdakı rus–tatar (rus–Azərbaycan) qız məktəbində, 1918–1920-ci illərdə isə üçüncü və ikinci rus qız gimnaziyalarında Azərbaycan dili müəllimi kimi fəaliyyət göstərmişdir. Bu dövrdə pedaqoji hazırlığını artırmaq məqsədilə ixtisasartırma kurslarında təhsil almışdır. Arxiv sənədlərində 4 noyabr 1938-ci il tarixli Attestata əsasən, Qəribsoltan Məlikovaya SSRİ Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Sovetinin 1936-cı il qərarına uyğun olaraq ibtidai məktəb müəllimi adı verilmişdir. Bəzi mənbələrdə onun İmperator III Aleksandr adına Birinci Bakı kişi gimnaziyasının Pedaqoji Şurasında imtahanları uğurla verərək "xalq məktəblərinin müəllimi" adına layiq görüldüyü qeyd edilir.

1930–1940-cı illərdə ailə üzvlərinin repressiyaya məruz qalması səbəbindən Qəribsoltan Məlikova Gəncədə və Şəmkirdə yaşamış, bu şəhərlərdə müxtəlif məktəblərdə müəllimlik etmişdir. İkinci Dünya müharibəsi illərində əslən Zərdabdan olan Nanə xanımla birlikdə Zərdaba qayıtmış və burada pedaqoji fəaliyyətini davam etdirmişdir. O, ömür boyu ailə üzvlərinin siyasi təqibləri, atasının mətbu irsinin yasaq edilməsi və yaxın qohumlarının ölkədən kənarda yaşamağa məcbur qalması ilə bağlı çətinliklərlə üzləşmişdir. 1937-ci ildə Bakı–Salyan şosse yolunun çəkilişi ilə əlaqədar Bibiheybət ərazisindəki qəbiristanlığın köçürülməsi qərarı nəticəsində atasının məzarının yeri təhlükə altında qaldığından, Qəribsoltan Məlikova Həsən bəyin cənazəsinin qalıqlarını çıxartdıraraq anası Hənifə xanımın məzarının yanında dəfn etdirmişdir. Daha sonra 1957-ci ildə Həsən bəy Məlikov-Zərdabinin məzarı rəsmi qərarla Fəxri xiyabana köçürülmüşdür.

Qəribsoltan Məlikova Sovet hakimiyyətinin ilk illərində yeni məktəblərin və savadlandırma kurslarının təşkili işində yaxından iştirak etmişdir. 1956-cı ilədək Bakının müxtəlif orta məktəblərində Azərbaycan dili və ibtidai sinif müəllimi kimi çalışmış, uzunmüddətli fəaliyyəti ilə respublikada pedaqoji kadr hazırlığına və məktəb təhsilinin inkişafına töhfə vermişdir.

Maarif sahəsində xidmətlərinə görə 1948-ci ildə Azərbaycan SSR-in "Əməkdar müəllim" fəxri adına layiq görülmüş, həmçinin "Lenin" ordeni ilə təltif edilmişdir.

Qəribsoltan Həsən bəy qızı Məlikova 9 mart 1967-ci ildə Bakıda vəfat etmişdir. O, Azərbaycan maarifçilik tarixində XX əsrin əvvəlinin qadın müəllimə nəslinin nümayəndəsidir və Zərdabinin pedaqoji ənənələrinin davamçılarından biri hesab olunur.

Arif Səlimov – 70

(1956)

Alim



Ədəbiyyat:

Квази А-голоморфное сечение гибридного подрасслоения / А.Салимов // Тр.геом. сем.,Казанск.Ун-т.– Вып. 21. - 1991. – С.85-93.

Лифты полиаффинорных структур на чистых сечениях тензорного расслоения / А.Салимов // Изв. Вузов Матем., 1996. - №.10. - С.55-62.

Новый метод в теории лифтов мензорных полей втензорное расслоение /А.Салимов . -Изв.вузов Матем. –1994. – №3. – С.69-75.

Norden struktures of Nessian tupe / A.Salimov,A. Gezer // Turkish J.Math.-Turkey. – 2014. –№3(38). –462-469.

On deformed Riemannian extensions associated with twin Norden metrics / A. Salimov,R.Cakan // Chin. Ann.Math.Ser.B. – China, 2015 . – №3(36). – C.345-354.

Some notes on paracontact struktures / Salimov A.A.,-Cayir H.// Akad. Bulgare Ski.. -Bulgaria, 2013. - №3(66). -C.331-338.

İnternetdə:

www.anl.az

www.az.wikipedia.org

Arif Ağacan oğlu Səlimov 1956-cı il iyunun 7-də Azərbaycanın Ağsu rayonunda anadan olmuşdur. 1973-cü ildə Ağsu şəhər 1 saylı orta məktəbi bitirmiş, 1973–1978-ci illərdə Bakı Dövlət Universitetinin (BDU) Mexanika-Riyaziyyat fakültəsində təhsil almışdır. 1978–1980-ci illərdə Azərbaycan Elmlər Akademiyasının (AMEA) Kibernetika İnstitutunda mühəndis-riyaziyyatçı kimi çalışmış, 1980–1983-cü illərdə isə Rusiyanın Kazan Dövlət Universitetində aspirantura təhsilini "Həndəsə və Topologiya" ixtisası üzrə davam etdirmişdir.

1984-cü ilin yanvar ayında Kazan Dövlət Universitetində alimi V. V. Vişnevskinin elmi rəhbərliyi altında namizədlik (PhD) dissertasiyasını müdafiə etmişdir. 1983–1999-cu illərdə BDU-nun Həndəsə kafedrasında assistent və dosent vəzifələrində çalışmış, 1998-ci ildə Kazan Dövlət Universitetində "Həndəsə və Topologiya" ixtisası üzrə doktorluq (D.Sc.) dissertasiyasını müdafiə etmişdir. Bu sahədə o, Azərbaycanda yeganə elmlər doktorudur. 2017-ci ildən isə BDU-nun "Cəbr və Həndəsə" kafedrasının müdiri və professoru vəzifəsində fəaliyyət göstərir.

Arif Səlimovun tədqiqat sahəsi diferensial həndəsə, çoxobrazlılar üzərində diferensial strukturlar, tenzor laylanmaları və lift nəzəriyyəsini əhatə edir. Norden (anti-Hermit) strukturları və tenzor operatorları nəzəriyyəsində əldə etdiyi fundamental nəticələr və lift nəzəriyyəsində yaratdığı yeni metodlar onu dünyada tanınan mütəxəssisə çevirmişdir. Onun elmi fəaliyyətinə rəhbərlik etdiyi və icra etdiyi elmi layihələr, həmçinin fərdi tədqiqatları daxil olmaqla, riyaziyyat və həndəsə sahəsində mühüm töhfələr verilib.

Arif Səlimovun elmi əsərlərinin sayı 180-dən çoxdur, onlardan 70-dən çoxu Web of Science və Scopus kimi nüfuzlu beynəlxalq bazalara daxil olan jurnallarda çap olunmuşdur. 2012-ci ildə "Tensor operators and their applications" adlı monoqrafiyası ABŞ-ın Nova Science Publishers nəşriyyatında, 2023-cü ildə isə "Applications of holomorphic functions in geometry" adlı monoqrafiyası Springer/Birkhäuser nəşriyyatında çap olunmuşdur. Bundan əlavə, onun "Diferensial həndəsə" adlı dərsliyi 2022-ci ildə BDU-da nəşr edilmişdir.

O, həmçinin bir çox beynəlxalq elmi jurnalların redaksiya heyətinin üzvüdür, o cümlədən American Mathematical Society və European Mathematical Society tərəfindən dəstəklənən "International Electronic Journal of Geometry" və "TWMS Journal of Pure and Applied Mathematics" jurnallarında fəaliyyət göstərir. Səlimov, Kazan Dövlət Universitetində keçirilən Lobaçevski konfranslarında dörd dəfə baş məruzəçi olmuş, həmçinin 2006 və 2011-ci illərdə beynəlxalq həndəsə konfranslarında əsas məruzələr təqdim etmişdir

A. Səlimov rəhbərliyi altında 17 fəlsəfə doktoru dissertasiyası müdafiə olunmuş, doktor və post-doktor tələbələrindən altısı hazırda professor vəzifəsindədir. Türkiyədə rəhbərliyi altında həyata keçirilmiş 4 layihə TÜBİTAK qrantlarına layiq görülmüş və 14 məqaləsi eyni Komitənin təşviq mükafatlarını qazanmışdır.

1995–2017-ci illərdə Türkiyənin Atatürk Universitetində dosent və professor vəzifələrində çalışmışdır. Onun elmi nailiyyətləri müxtəlif mükafatlarla qiymətləndirilmişdir: TÜBİTAK PPÖ-Proje Performans Ödülü (2015), Atatürk Universitetinin Bilimsel Teşvik Ödülü (2016), Azərbaycan Respublikasının "Əməkdar elm xadimi" fəxri adı (2019), Türk Dövlətləri Riyaziyyatçılar Cəmiyyətinin medalı (2023) və Türk Dünyası Elm Mükafatı – Əl-Xarəzmi Mükafatı (2024). 2023-cü ildən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Riyaziyyat və Mexanika" üzrə Ekspert Şurasının sədridir.

Şahlar Əsgərov – 85

(1941)

Fizik



Şahlar Qaçay oğlu Əsgərov 1941-ci il iyunun 15-də Azərbaycan SSR-in Kəlbəcər rayonunun Xallanlı kəndində anadan olmuşdur. Orta təhsilini doğma rayonunda tamamlamış, 1958–1963-cü illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) fizika fakültəsində ali təhsil almışdır. Universiteti bitirdikdən sonra təyinatla burada işə qəbul edilmiş və müəllimlik fəaliyyətinə başlamışdır.

1964–1967-ci illərdə Əsgərov Leninqrad Sabit Cərəyan İnstitutunda əyani aspirantura keçərək fiziki elektronika sahəsində professor L.A. Senanın rəhbərliyi altında tədqiqatlar aparmışdır. Aspiranturanı uğurla başa vurduqdan sonra ömrünü doğma universitetinə bağlayaraq burada müəllim, dosent, dekan müavini və prorektor vəzifələrində çalışmışdır. 1970-ci ildə namizədlik dissertasiyasını müdafiə etmiş, 1992-ci ildə doktorluq dissertasiyasını tamamlayaraq fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsini qazanmış, 1994-cü ildə professor elmi rütbəsi almışdır.

Əsgərovun elmi fəaliyyətinin birinci əsas istiqaməti alçaq enerjili ionlarla tozlanmanın öyrənilməsidir. Bu sahədə əldə etdiyi nəticələr 40 ildən artıqdır ki, ion mühərrikləri və termonüvə reaktorları daxil olmaqla bir sıra iri elmi-texniki layihələrin həyata keçirilməsində tətbiq olunmaqdadır. Xüsusilə ABŞ-ın kosmik tədqiqatlar üzrə baş idarəsi NASA və Amerika Astronavtika İnstitutu (AIAA) onun tədqiqatlarından kosmik gəmilər üçün ion mühərriklərinin hazırlanmasında geniş istifadə edir.

Əsgərovun Azərbaycanda yaratdığı ikinci elmi istiqamət fiziki elektronika və mikroelektronika sahəsində metal-yarımkeçirici kontaktların (MYK) öyrənilməsidir. 1974-cü ildə Danimarkanın Texniki Universitetində staj keçərkən katod tozlanması sahəsində əldə etdiyi nəticələri MYK sistemlərinə tətbiq etmiş və kontaktlar üçün qeyri-bircins model təklif etmişdir. Bu istiqamətdə əldə etdiyi nəticələr çoxsaylı elmi məqalələrdə, ixtiralarda və monoqrafik ədəbiyyatda əks olunmuşdur. 1999-cu ildə Ukrayna və Moldova Elmlər Akademiyasının alimlərinin birgə çap etdikləri monoqrafiyada Şahlar Əsgərovun adı metal-InP və metal-GaAs strukturlarının yaradıcıları və baniləri sırasında çəkilmişdir. O, bir çox beynəlxalq alimlərlə, o cümlədən professor L. Sena (Leninqrad), L. Pranevičius (Kaunas), V. Yurasova (Moskva), V. Strixa (Kiyev), P. Prehn (Kopenhagen), M. Lukkala (Helsinki) və başqaları ilə birgə elmi məqalələr çap etmiş, elmi məktəb yaratmışdır.

Həm alçaq enerjili ionlarla tozlanma, həm də metal-yarımkeçirici kontaktlar istiqamətində Şahlar Əsgərov 20-yə qədər dissertasiya işinə, 100-dən çox diplom işinə rəhbərlik etmişdir. Elmi fəaliyyətinə görə onun bioqrafiyası "Российские научные школы" (t.3, s.32, Moskva, 2010) və "Выдающийся ученые России" ensiklopediyasına daxil edilmişdir.

Əsgərovun elmi yaradıcılığı yalnız fizika və elektronika ilə məhdudlaşmır. O, təhsilin fəlsəfəsi, sosial fəlsəfə və pedaqogika sahəsində də tədqiqatlar aparmışdır. Onun nəzəri yanaşmalarına görə, müasir Azərbaycan təhsili keçmiş sovet təhsil sisteminin davamı olmamalıdır və yeni təhsil sistemi yaratmaq üçün əvvəlcə təhsilin fəlsəfəsi formalaşdırılmalıdır. Bu istiqamətdə aparılan araşdırmaların nəticələri "Biliyin qiymətləndirilməsinin yeni şkalası", "Biliyin qiymətləndirilməsinin yeni kriteriyası", "Pedaqogika üçün yeni paradiqma" və "Biliyin qiymətlənməsinin fəlsəfəsi" adlı məqalələrdə əks olunmuşdur.

Əsgərovun fəlsəfi və ictimai mövzulara həsr olunmuş əsas kitabları "Keçid dövrünə fəlsəfi baxış" (1998), "Milli birlik probleminə fəlsəfi baxış" (2001), "Təhsilimiz dünən, bu gün və sabah" (2003), "Düşüncə tərzi" (2008) və digər nəşrlərdir.

O, 200-dən çox elmi, 700-dən artıq publisistik məqalənin, 11 kitabın və 3 monoqrafiyanın müəllifidir. Əsgərov 1995–2000 və 2000–2005-ci illərdə Azərbaycan Milli Məclisinin deputatı olmuş, 2000–2005-ci illərdə Elm və Təhsil məsələləri daimi komissiyasının sədri vəzifəsini icra etmişdir. O, həmçinin Yeni Azərbaycan Partiyasının Siyasi Şurası və İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin İctimai Nəzarət Şurasının üzvüdür.Dövlət tərəfindən göstərdiyi xidmətlər üçün Şahlar Qaçay oğlu Əsgərov 1999-cu ildə "Şöhrət" ordeni ilə təltif edilmiş, 2001-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş və 2011-ci ildən Prezident təqaüdçüsüdür BDU-nun professorudur və 1990-cı ildə yaratdığı "Amorf təbəqələr" elmi-tədqiqat laboratoriyasının elmi rəhbəridir

Ədəbiyyat:

Heydər Əliyevin həyatının unikal səhifələri: Böyük şəxsiyyət haqqında düşüncələrim / Şahlar Əsgərov; [ön söz Ə. Muradov]. - Bakı: ["UNEC" Rəqəmsal Mətbəə], 2023. - 248, [1] s.

Biliyi qiymətləndirmək üçün yeni meyar təklifi / Şahlar Əsgərov // Azərbaycan məktəbi: Elmi-nəzəri, pedaqoji jurnal.-2022.- №2.- S.49-56.

Kamilləşən düşüncə / Şahlar Əsgərov; red. Ə.Cabbarlı. - Bakı: [E.L], 2013. - 230, [2] s.

Heydər Əliyev irsində ümummilli ideya / Şahlar Əsgərov // Xalq qəzeti. - 2016. - 12 may. - S. 4.

Təhsilin konseptual problemləri / Ş.Əsgərov // 525-ci qəzet. - 2020. - 1 fevral. - S. 8-9.

Universitet yaşa dolduqca cavanlaşmalıdır / Şahlar Əsgərov // 525-ci qəzet. - 2019. - 14 dekabr. - S. 8-9.

İnternetdə:

http://physics.bsu.edu.az/az/content/sgrov__sahlar_qaay_olu__424

http://www.anl.az/ down/meqale/525/2019/ dekabr/690486.ht

Səfa Abasov – 80

(1946)

Alim



Səfa İslam oğlu Abasov 1946-cı il iyunun 10-da Azərbaycan Respublikasının Bakı şəhərində anadan olmuşdur. 1975-ci ildə M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin Kimya fakültəsini bitirmiş, daha sonra Metanın dehidrotsikloheksamerləşməsi və karbohidrogenlərin izomerləşməsi proseslərində istifadə edilən yüksək dispersli Pt və Pt/Re katalizatorlarının xemosorbsiya və katalitik xüsusiyyətlərinin tədqiqinə həsr olunmuş doktorluq dissertasiyasını müdafiə etmişdir. Elmi fəaliyyətinin ilk dövrlərindən başlayaraq karbohidrogenlərin çevrilmə mexanizmlərinin fundamental əsaslarını öyrənməyə yönəlmiş araşdırmaları ilə tanınmışdır.

2004-cü ildən Azərbaycan Milli Elmlər Akademiyasının akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda böyük elmi işçi vəzifəsində fəaliyyət göstərən Səfa Abasov 2013-cü ildən institutun Heterogen kataliz laboratoriyasına rəhbərlik edir. Onun elmi fəaliyyəti katalizatorların quruluşu, metal-daşıyıcı sistemlərin qarşılıqlı təsiri və bu qarşılıqlı təsirlərin katalitik proseslərdə rolu kimi fundamental məsələlərin araşdırılmasına həsr olunmuşdur. Bu dövrdə o, Fransa, Yaponiya, Çin, Rusiya və digər ölkələrdə keçirilən beynəlxalq konqres və simpoziumlarda məruzələrlə çıxış etmiş, 150-dən artıq elmi məqalə və müəlliflik şəhadətnaməsinin müəllifi olmuşdur. Rəhbərliyi altında bir elmlər doktoru və üç elmlər namizədi dissertasiya işini müdafiə etmişdir.

Onun elmi tədqiqatlarının mühüm hissəsi seolit tərkibli daşıyıcıların mikroməsaməli quruluşlarının dəyişilməsi, metal hissəciklərinin dispersliyinin katalitik aktivliklə əlaqələndirilməsi və kiçikmolekullu alkanların aromatikləşməsi kimi fundamental proseslərin öyrənilməsinə həsr olunmuşdur. Araşdırmaları nəticəsində sorbsiya olunmuş oksigenin reaksiyagirmə qabiliyyəti ilə nanoölçülü metal hissəciklərinin dispersliyi arasında funksional asılılıq müəyyən edilmiş, seolit katalizatorlarının mikroməsaməli strukturu ilə karbohidrogenlərin seçici çevrilməsi arasındakı əlaqələr təhlil edilmişdir.

Səfa Abasovun elmi fəaliyyətinin əsas istiqaməti karbohidrogenlərin selektiv çevrilməsi üçün effektiv katalitik sistemlərin sintezi və bu sistemlərin katalitik xassələrini əvvəlcədən proqnozlaşdırmağa imkan verən amillərin müəyyən edilməsidir. O, müasir neft-kimya prosesləri üçün yeni katalizatorların hazırlanması sahəsində nəzəri və praktiki əhəmiyyətə malik bir sıra mühüm elmi müddəalar irəli sürmüş və onların eksperimental əsaslandırılmasına nail olmuşdur.

Abasovun elmi yaradıcılığı həm nəzəri, həm də tətbiqi kimya sahələrinə əhəmiyyətli töhfələr vermişdir. O, kataliz nəzəriyyəsinin inkişafı, alkanların aktivləşdirilməsi və heterogen katalitik proseslərin yeni mexanizmlərinin aşkar edilməsi istiqamətində əldə etdiyi nəticələrlə seçilir.

120-dən çox elmi əsərin müəllifi olan Səfa Abasov, həmçinin sintez qazının konversiyası, oksidləşdirici dehidrogenləşmə və neft-kimya proseslərinin yeni katalitik modellərinin işlənməsi sahəsində geniş tədqiqatlar aparmışdır.

Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə Səfa İslam oğlu Abasov 5 noyabr 2025-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilmişdir. Hazırda o, AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun Heterogen kataliz laboratoriyasının müdiri kimi elmi fəaliyyətini davam etdirir.

Ədəbiyyat:

Сопряженная конверсия метанола и н бутана на цинк-циркониевых катализаторах. Прикладная химия / С.Б.Агаева, Абасов С.И,Тагиев Д.Б,Стариков Р.В.,Иманова А.А. // Издатель. «Наука». – Журнал прикладной химии. – 2013. – т.86, вып.5. – с.786.

Azərbaycan kimyaçıları [Kitabda XX əsr Azərbaycan kimyaçı akademikləri, Akademiyanın müxbir üzvləri, kimya elmləri doktorları, professorları haqqında, onların həyat və fəaliyyətləri, elmi istiqamətləri və xidmətləri barədə yazılmışdır]: A. Məhərrəmmov, M. Allahverdiyev, R. Əliyeva. – Bakı, Azərbaycan. –1998. –590 s.: portr., 21 sm.

İnternetdə:

https://www.wikimedia.az-az.nina.az/Səfa_Abasov.html

Rafiq Qasımov – 95

(1931)

Alim



Rafiq Yunis-Əli oğlu Qasımov 1931-ci il iyunun 26-da İrəvan şəhərində anadan olmuşdur. O, ali təhsilini Bakı Dövlət Universitetində almış və elmi fəaliyyətə 1958-ci ildə SSRİ Elmlər Akademiyasının İ.P. Pavlov adına Fiziologiya İnstitutunda kiçik elmi işçi kimi başlamışdır. Həmin ildə "Nərəkimilərin bəzi növlərində şərti və şərtsiz reflekslər" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş, 1970-ci ildə "Erkən ontogenezdə nərə balıqları davranışının müqayisəli öyrənilməsi" mövzusunda doktorluq dissertasiyasını tamamlayaraq biologiya elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür. 1974-cü ildə professor elmi rütbəsi almış, 1983-cü ildə isə Azərbaycan SSR EA-nın müxbir üzvü seçilmişdir.

Alimin elmi fəaliyyətinin mühüm mərhələsi 1965–1974-cü illərdə Kür Eksperimental Nərə Balıqartırma Zavodunda və Mərkəzi Elmi Tədqiqat Nərə Balıqçılıq Təsərrüfatı İnstitutunun Azərbaycan bölməsində laboratoriya müdiri kimi çalışdığı dövrü əhatə edir. Daha sonra Azərbaycan Milli Elmlər Akademiyasının A.Qarayev adına Fiziologiya İnstitutunda laboratoriya müdiri olmuş və 1974-cü ildən etibarən həmin institutda baş elmi işçi kimi elmi fəaliyyətini davam etdirmişdir.

Rafiq Qasımovun tədqiqatlarının əsas istiqaməti nərəkimilərin müxtəlif yaş qruplarında qida, müdafiə və digər davranış reaksiyalarının formalaşması mexanizmlərinin, həmçinin Kür hövzəsinin dörd nərəkimisi növünün zavod şəraitində çoxaldılması və yetişdirilməsi üçün optimal temperatur, duzluluq, oksigen və işıq rejimlərinin müəyyənləşdirilməsi olmuşdur. Onun rəhbərliyi ilə aparılan çoxillik eksperimental tədqiqatlar nəticəsində ilk dəfə olaraq nərəkimilərin növlərarası resiprok hibridləri yetişdirilmiş, onların ekoloji plastiklik xüsusiyyətləri və mühit dəyişkənliyinə uyğunlaşma qabiliyyətləri müəyyən edilmişdir. Alim nərəkimilərin və digər balıq növlərinin erkən ontogenez mərhələlərində davranış reaksiyalarının genetik determinə olunmasını tədqiq etmiş, müxtəlif populyasiyaların ekoloji adaptasiya strategiyalarını xarakterizə etmişdir.

R.Qasımovun elmi nəticələri keçmiş SSRİ-də nərəkimilərin sənaye üsulu ilə çoxaldılması prosesinin elmi əsaslarının formalaşmasına, reproduktiv göstəricilərin yüksəldilməsi və populyasiyaların bioloji tərəqqisi nəzəriyyəsinin inkişafına əsas vermişdir. Onun tədqiqatlarının mühüm bir hissəsi həmçinin neft və kimyəvi çirklənmənin su orqanizmlərinin fizioloji funksiyalarına təsirinin öyrənilməsinə həsr edilmişdir. Balıqların tənəffüs, qidalanma və davranış sistemlərinin toksik yüklənməyə reaksiyalarının aşkar edilməsi regionun hidroekoloji təhlükəsizliyi baxımından əhəmiyyətli nəticələr vermişdir.

Rafiq Qasımov 300-dən artıq elmi əsərin və 6 monoqrafiyanın müəllifidir. Onun 180-dən çox elmi işi xarici ölkələrin elmi nəşrlərində çap olunmuş, 28 məqaləsi beynəlxalq elmi bazalarda referatlaşdırılan və indeksləşdirilən jurnallarda dərc edilmişdir. Alim uzun illər ərzində elmi kadr hazırlığı ilə məşğul olmuş, rəhbərliyi altında 6 elmlər doktoru və 32 fəlsəfə doktoru hazırlanmışdır.

O, SSRİ EA Fiziologiya Bölməsinin "Ali sinir fəaliyyətinin və davranışın genetikası" üzrə Komissiyasının sədr müavini, İxtioloji Komissiyanın Əlaqələndirmə Şurasının sədr müavini və həmin Komissiyanın Elmi Şurasının üzvü olmuşdur. Bununla yanaşı, "Təkamülün biokimyası və fiziologiyası" jurnalının redaksiya heyətinin üzvü, SSRİ Ali Attestasiya Komissiyasının Fiziologiya üzrə Ekspert Şurasının üzvü, Beynin Öyrənilməsi üzrə Beynəlxalq Təşkilatın (IBRO) üzvü və Xəzər dənizinin problemləri üzrə Elmi Şuranın üzvü kimi fəaliyyət göstərmişdir.

Alimin elmi nailiyyətləri bir sıra mükafatlarla qiymətləndirilmişdir. O, 1982-ci ildə Leypsiq yarmarkasının böyük Qızıl medalı, 1989-cu ildə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin "Bürünc" medalı, 1996-cı ildə isə ekologiya sahəsində xidmətlərinə görə H.Ə.Əliyev adına medal ilə təltif edilmişdir. 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdü

Ədəbiyyat:

Qasımov, R. Azərbaycanda akvakulturanın müasir durumu və inkişafının əsas istiqamətləri (Akvakultura biotexnoloji parkının yaradılmasının elmi əsasları) / Rafiq Qasımov, R.Hacıyev // Elm və həyat: Elmi populyar jurnal. - 2016. - № 4. - S. 76-83.

Влияние нефти и нефтепродуктов на осетровых и других видов рыб. «Осетровые СССР и их воспроизводство». Труди УНИОРХ, Москва, 1971, Т.3, с. 191-195.

Эколого-физиологические особенности развития ценных промысловых рыб Азербайджана: монография. - Баку: Эльм, 1987. - 132 с.

Сравнительная характеристика поведения дикой и заводской молоди осетровых в раннем онтогенезе: монография. - Баку: Эльм, 1980. – 180

İnternetdə:

https://science.gov.az/az/forms/chlenyikorrespondentyi/105

Aşur Əliyev – 80

(1946-2021)

Kitabxanaşünas



Ədəbiyyat:

Məmmədov, A. Hamıya əl tutmağa calışan insan [BDU-nun Kitabxanaçılıq-İnformasiya fakültəsi "Kitabxana resursları və informasiya axtarış sistemləri"kafedrasının dosenti A.Əliyev haqqında] / Anar Məmmədov // Kredo. – 2022.- 6 yanvar.- S.7;13.

Məmmədov, A. Ömrünü nur qaynağına çevirən şəxsiyyət [Aşur Müseyib oğlu Əliyev haqqında] /Anar Məmmədov // /525-ci qəzet . -2021.- 17 dekabr.- S.14.

İnformasiya texnologiyaları / Aşur Əliyev, D.Məmmədli // Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal. - Bakı, 2016. - № 1. - S. 248-251.

Nizami və Xətai rayon MKS-də fondun sənəd-informasiya təminatı / Aşur Əliyev // Kitabxana.az. - 2016. - № 1. - S. 94-100.

Məmmədov, A. Dost kimi bir qohum, qohum kimi dost / Anar Məmmədov // Ədalət. - 2016. - 4 iyun. - S.10.

BDU-nun Elmi Kiatabxanasında elektron kataloqların taşkili və inkişaf perspektivləri / Aşur Əliyev, R.Ə.Qardaşov // Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal. - Bakı, 2015. - № 1 (93). - S. 328-332.

Aşur Müseyib oğlu Əliyev 1946-cı il 1 iyun tarixində Zəngilan rayonunun Baharlı kəndində anadan olmuşdur. O, 1953–1965-ci illərdə təhsilini əvvəlcə Baharlı kənd ibtidai məktəbində, daha sonra Mincivan kənd və Mincivan dəmiryolu məktəblərində davam etdirmişdir. Orta təhsilini yüksək qiymətlərlə başa vurduqdan sonra 1965-ci ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinə daxil olmuş və 1969-cu ildə bu ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdir.

1969–1970-ci illərdə hərbi xidmətdə olmuş Aşur Əliyev ordu sıralarından ayrıldıqdan sonra əmək fəaliyyətinə Abşeron rayonunun Şurabad kənd mədəniyyət evinin müdiri vəzifəsində başlamışdır. 1971–1972-ci illərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 11 və 1 saylı islah-əmək müəssisələrində çalışmışdır.

Aşur Əliyev 1973-cü ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsində baş laborant vəzifəsinə qəbul olunmuş, 1974–1977-ci illərdə fakültənin aspiranturasında təhsil almışdır. Bu dövrdə o, respublikada ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında kitabxana işinin tarixinə dair genişhəcmli araşdırmaya başlamış və uzun illər Azərbaycan və Naxçıvan arxivlərində, mərkəzi kitabxanalarda elmi tədqiqatlar aparmışdır.

Aşur Əliyev 1991-ci il 31 mart tarixində "Naxçıvan Muxtar Respublikasında kitabxana işinin tarixi və müasir vəziyyəti (1920–1985-ci illər)" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. 1992-ci ildə Ali Attestasiya Komissiyasının qərarı ilə ona dosent elmi adı verilmişdir.

1978-ci ildən ömrünün sonunadək Bakı Dövlət Universitetində məşğul olduğu pedaqoji fəaliyyət həm miqyasına, həm də məzmununa görə məhsuldar olmuşdur. O, Kitabxanaçılıq-informasiya fakültəsinin müxtəlif strukturlarında – müəllim, baş müəllim, kafedranın dosenti kimi çalışmış, uzun müddət fakültənin dekan müavini vəzifəsində fəaliyyət göstərmişdir. "Kitabxana resursları və informasiya axtarış sistemləri" kafedrasının dosenti kimi o, kitabxana fondu, müasir təsnifat sistemləri, sənədlərin mühafizəsi və bərpası, Universal Onluq Təsnifat (UOT) və kitabxana informasiya ehtiyatlarının idarə olunması kimi fənləri tədris etmişdir.

Aşur Əliyev elmi yaradıcılığında da məhsuldar olmuşdur. O, "Kitabxanaşünaslıq (Kitabxana kataloqu)" dərs vəsaitinin üçüncü fəslinin müəllifi (1996), "Təbiətşünaslığa dair ədəbiyyatın təsviri və təsnifləşdirilməsi metodikası" (1997), UOT cədvəllərinin tətbiqi və yenilənməsi, kütləvi kitabxanalarda məlumat-axtarış sistemlərinin təşkili və digər istiqamətlərə dair metodik vəsaitlərin, proqramların və elmi məqalələrin müəllifidir. Onun həmmüəllifi olduğu "Kitabxanaşünaslıq: kitabxana kataloqları" dərs vəsaiti bu sahə üzrə əsas nəzəri mənbələrdən biri kimi geniş istifadə olunur.

40 ilə yaxın elmi və pedaqoji fəaliyyəti ərzində o, kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və informasiya elmində mühüm xidmətlər göstərmiş, bir sıra elmi şuraların və redaksiya heyətlərinin üzvü olmuşdur. Bu fəaliyyət paralel olaraq onun gənc kitabxanaçı və alim kadrların hazırlanmasındakı xidmətlərini daha da gücləndirmişdir.

Aşur Müseyib oğlu Əliyev 9 noyabr 2021-ci ildə, 75 yaşında vəfat etmişdir.

Gözdən Əlillər üçün Respublika Kitabxanası – 45 illiyi *(1981)*



Gözdən Əlillər üçün Respublika Kitabxanası Azərbaycan Respublikasında görmə imkanları məhdud şəxslərin informasiya təminatını həyata keçirən ixtisaslaşdırılmış kitabxana-informasiya müəssisəsidir. Bu qurumun əsas fəaliyyəti Brayl yazı sistemi ilə çap olunmuş nəşrlərin, həmçinin audiokassetlər və CD-lər şəklində hazırlanan "danışan kitablar"ın oxuculara çatdırılmasından ibarətdir. Görmə qabiliyyəti məhdud şəxslərin informasiya tələbatının qarşılanması məqsədi ilə XX əsrin sonlarında mövcud olan kitabxana və fonoteka şəbəkəsinin mərkəzləşdirilməsi zərurəti yaranmışdır. Keçmiş müttəfiq respublikaların təcrübəsi nəzərə alınaraq Azərbaycan Respublikası Korlar Cəmiyyəti Mərkəzi İdarəsi Rəyasət Heyətinin 23 may 1980-ci il tarixli, 11 nömrəli qərarı ilə Respublika Mərkəzi Kitabxanasının yaradılması barədə sərəncam qəbul edilmişdir. Kitabxana 1 iyun 1981-ci ildə fəaliyyətə başlamışdır.

Fəaliyyətin ilk illərində kitabxana Azərbaycan Korlar Cəmiyyətinin tabeliyində fəaliyyət göstərmiş, lakin sonralar təşkilatın büdcəsində yaranmış maliyyə çətinlikləri nəticəsində əməkhaqqı fondunun və yeni "danışan kitablar"ın alınmasının təmin edilməsi mümkünsüz hala gəlmişdir. Bu səbəbdən 1 yanvar 1994-cü ildən etibarən kitabxana Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə verilmişdir. Nazirliyin strukturunda fəaliyyət göstərməsi kitabxananın maddi-texniki imkanlarının yaxşılaşdırılmasına, xidmətlərin sistemli şəkildə təşkilinə şərait yaratmışdır.

Kitabxana bütün yaş kateqoriyalarından olan oxuculara xidmət göstərir və xidmət prosesində istifadəçilərin fərdi xüsusiyyətlərinin nəzərə alınması əsas prinsip kimi qəbul olunmuşdur. Oxucuların görmə səviyyəsi, obyektə adaptasiya dərəcəsi və digər xüsusi tələbatları kitabxanaçıların fəaliyyətində mühüm yer tutur. Sərbəst hərəkət edə bilməyən və tənha yaşayan oxucular üçün səyyar kitabxana xidməti təşkil olunur. Sonradan görmə qabiliyyətini itirən şəxslərə kiril və latın qrafikalı Brayl əlifbası tədris edilir, "Caus" ekran oxuma proqramı ilə təchiz edilmiş kompüterlərdən istifadə bacarıqları aşılanır.

Kitabxananın oxucu kontingenti hazırda 1200 nəfərdən ibarətdir. Son beş il ərzində bu oxucular arasından 25 nəfər ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olunmuşdur.

Kitabxana fondunun komplektləşdirilməsi istiqamətində son illərdə nəzərəçarpacaq irəliləyiş əldə edilmiş, xüsusi nəşrlərin sayının artırılması nəticəsində fondun ümumi tutumu 22 min nüsxəyə çatdırılmışdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə nəşr olunmuş 4 min 976 kitabın kitabxanaya hədiyyə edilməsi fondun elmi və bədii ədəbiyyat baxımından daha da zənginləşməsinə xidmət etmişdir.

1981-ci ildən etibarən kitabxana Bakı şəhəri, 2-ci Sülh döngəsi, ev 2 ünvanında yerləşən dördmərtəbəli binanın zirzəmisində 262 m² sahədə fəaliyyət göstərir. Struktur baxımından Abonement şöbəsi, Oxu zalı, Səsyazma studiyası, Fonoteka, Brayl kitabları şöbəsi və Ənənəvi kitablar şöbəsi kitabxananın əsas xidmət sahələrini təşkil edir. Bu bölmələrin fəaliyyəti görmə qabiliyyəti məhdud şəxslərin informasiya əldə etmə imkanlarının genişləndirilməsi, onların sosial adaptasiyasına və maarifləmməsinə dəstək verilməsi məqsədinə xidmət edir.

Beləliklə, Gözdən Əlillər üçün Respublika Kitabxanası uzun illərdir ki, Azərbaycanda görmə imkanları məhdud şəxslərin informasiya təminatının mühüm mərkəzi kimi fəaliyyət göstərir və bu sahədə ixtisaslaşdırılmış xidmətlərin inkişafında əvəzsiz rol oynayır.

Ədəbiyyat:

Əhmədova, F. Dünyanı qəlbi ilə görənlər: 13 noyabr Beynəlxalq Gözdən Əlillər Günüdür / Fərizə Əhmədova // Azərbaycan.- 2018.- 13 noyabr.- S.6.

Məmmədov, M. Gözdən əlillər üçün kitabxana / Məmməd Məmmədov // Ekspress. - 2015.- 20 oktyabr.- S.10.

Mənsimov, E. Əlillərin cəmiyyətə inteqrasiyasında Gözdən Əlillər Kitabxanası mühüm rol oynayır: 3 noyabr Beynəlxalq Əlillər Günüdür / Elgün Mənsimov // Azərbaycan.-2014.- 2 noyabr.- S.7.

Mustafayeva, Z. Əsaslı təmirdən sonra korlar kitabxanasının açılışı / Zemfira Mustafayeva // Mədəni-maarif .-2005.- №7.- S.4.

İnternetdə:

http://www.anl. az/down/meqale/ azerbaycan/2018/noyabr/616827.htm http://gerk.az/index/kitabxana_haqqinda/0-4

https://az.baku-art.com/az/respublika-gozden-eliller-kitabxanasin-n-yarad-lmas-ndan-40-il-tur

Azad Qurbanov – 60

(1966)

Alim



Ədəbiyyat:

Kazimi, P. Kitabxanalarda informasiya texnologiyaları / A.İ.Qurbanov, P.F.Kazimi, O.İ.Quliyev - Bakı.: Mütərcim, 2020. – 229 s.

Kazimi, P. Avtomatlaşmış kitabxana-informasiya prosesləri / A.İ.Qurbanov, P.F.Kazimi, K.Ə.Məmmədova– Bakı.: Mütərcim, 2020. – 229 s.

Kazimi, P. Kitabxana və informasiya fəaliyyətində rəqəmsal marketinq / A.İ.Qurbanov, P.F.Kazimi, O.İ.Quliyev. – Bakı.: Mütərcim, 2021. – 168 s.

Əliyev, A. Müasir informasiya kommunikasiya texnologiyaları və informasiya təhlükəsizliyi: Dərs vəsaiti / A.İ. Qurbanov, A.Ə.Əliyev. – Bakı: Fyuzat, 2024. – 320 s.

Xəlilov, M. Python proqramlaşdırma dili: Dərs vəsaiti / M.S.Xəlilov, A.İ.Qurbanov. – Bakı: Bakı Universiteti, 2025. – 339 s.

Kitabxanaların kompüterləşdirilməsinin əsasları/ A.Xələfov, A. Qurbanov. – Bakı: Bakı Universiteti, 2016. -335 s.

Elektron kitabxanalar / Q.İ. Qurbanov,,P.F Kazimi, O.İ. Quliyev.. – Bakı.: Mütərcim, 2018. – 298 s.

Azad İsa oğlu Qurbanov 26 iyun 1966-cı ildə Qərbi Azərbaycanın Göyçə mahalının Çəmbərəkənd rayonunun Cil kəndində ziyalı ailəsində anadan olmuşdur. 1973–1983-cü illərdə Bakı şəhərində 45 nömrəli orta məktəbdə təhsil almışdır.

1983-cü ildə Azərbaycan Dövlət Universitetinin (ADU) Mexanika-riyaziyyat fakültəsinə daxil olmuşdur. 1984–1986-cı illərdə SSRİ Silahlı Qüvvələrində həqiqi hərbi xidmət keçmişdir. 1991-ci ildə Bakı Dövlət Universitetini riyaziyyatçı, riyaziyyat müəllimi ixtisası üzrə bitirmişdir.

1992–1995-ci illərdə Azərbaycan Dövlət Neft Akademiyasında (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti – ADNSU) aspiranturada əyani təhsil almışdır. 26 fevral 1997-ci ildə professor Telman Ramazanovun elmi rəhbərliyi ilə "Mürəkkəb reoloji mühitin gərginlik–deformasiya halının mayenin süzülməsinə təsirinin tədqiqi" mövzusunda "Maye, qaz və plazma mexanikası" ixtisası üzrə namizədlik dissertasiyasını müdafiə etmişdir. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarları ilə 1997-ci ildə ona fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi, 2004-cü ildə isə dosent elmi adı verilmişdir.

Əmək fəaliyyətinə tələbəlik illərindən başlamış, 1987-ci ildə Azərbaycan Dövlət Universitetinin (ADU) yanında Hesablama Mərkəzində texnik, 1987–1991-ci illərdə isə ADU-nun Kompüter Mərkəzində texnik vəzifəsində çalışmışdır.

1995–1999-cu illərdə Bakı Dövlət Universitetinin (BDU) "Tətbiqi riyaziyyat" Elmi-Tədqiqat İnstitutunda elmi işçi, 1999–2000-ci illərdə BDU-da aparıcı elmi işçi, eyni zamanda Kompüter Mərkəzində şöbə müdiri vəzifələrində fəaliyyət göstərmişdir. 2000–2001-ci illərdə BDU-nun "Ali riyaziyyat" kafedrasında müəllim, 2001–2012-ci illərdə isə BDU-nun Tətbiqi riyaziyyat fakültəsinin "İnformatika" kafedrasında müəllim və dosent vəzifələrində, SOCAR-ın "Dəniz Neft Qaz Layihə" İnstitutunda aparıcı elmi işçi kimi fəaliyyət göstərmişdir.

Azad Qurbanov 2009–2018-ci illərdə Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD.02.016 Dissertasiya Şurasının üzvü, 2021-ci ildə isə BFD2.17/3 Birdəfəlik Dissertasiya Şurasının üzvü olmuşdur. O, həmçinin 3356.01 – "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq" ixtisası üzrə fəlsəfə doktoru elmi dərəcəsinin verilməsi məqsədilə Bakı Dövlət Universiteti nəzdində yaradılmış Birdəfəlik Dissertasiya Şuralarının sədr müavini (2013–2016-cı illər) olmuşdur. 2003-cü ildən Yeni Azərbaycan Partiyasının (YAP) üzvüdür. O, eyni zamanda "İnformasiya istehsalçıları və istehlakçıları" İctimai Birliyinin həmtəsisçisi və İdarə Heyətinin sədridir.

2012–2020-ci illərdə BDU-nun "Kitabxanaçılıq–informasiya" fakültəsinin dekanı, eyni zamanda "Kitabxanaşünaslıq" kafedrasının dosenti vəzifələrində işləmişdir.

2020-ci ildən etibarən bu günədək BDU-nun "Kitabxanaşünaslıq" kafedrasında dosent vəzifəsində çalışır. 2021–2023-cü illərdə isə eyni zamanda Azərbaycan Texniki Universitetinin "Kompüter texnologiyaları və kibertəhlükəsizlik" və "Kompüter texnologiyaları" kafedralarında dosent vəzifəsində fəaliyyət göstərmişdir.

Azad Qurbanov Kitabxanaçılıq–informasiya fakültəsində "Kitabxanaçılıq və informasiya" ixtisası üzrə rus və ingilis bölmələrinin açılmasına nail olmuş, yeni magistr ixtisaslaşmaları üzrə kadr hazırlığını təşkil etmişdir. Eyni zamanda fakültədə elmi dərəcəli kadrların hazırlanmasına xüsusi diqqət yetirilmiş, 2012–2020-ci illərdə 10-dan artıq əməkdaş elmi dərəcə və elmi ad almışdır.

Azad Qurbanov "Bakı Universiteti Xəbərləri" jurnalının humanitar seriyasının redaksiya heyətinin üzvüdür, 2014–2020-ci illərdə isə "Kitabxanaşünaslıq və informasiya" jurnalının baş redaktorunun müavini vəzifəsində çalışmışdır. Fakültədə fəaliyyət göstərən, Əməkdar Elm Xadimi professor Abuzər Xələfovun rəhbərlik etdiyi elmi-tədqiqat laboratoriyası Azərbaycan ali məktəbləri arasında ilk dəfə olaraq BDU-nun Elmi Kitabxanasının avtomatlaşdırılmasını həyata keçirmiş və Elektron Kitabxana İnformasiya Sistemini istifadəyə vermişdir.

Azad Qurbanov informasiya texnologiyaları və sistemləri, kibertəhlükəsizlik, süni intellekt, rəqəmsal kitabxana texnologiyaları, elmi metrik (elmmetriya), riyazi modelləşdirmə və hidrodinamika elmi istiqamətləri üzrə elmi tədqiqat Azad Qurbanov informasiya texnologiyaları və sistemləri, kibertəhlükəsizlik, süni intellekt, rəqəmsal kitabxana texnologiyaları, elmi metrik (elmmetriya), riyazi modelləşdirmə və hidrodinamika elmi istiqamətləri üzrə elmi tədqiqatlar fəaliyyəti ilə məşğuldur.

Azad Qurbanov 60-dan artıq elmi əsərin, o cümlədən ali məktəb tələbələri üçün 21 kitabın və 14 tədris proqramının müəllifidir. Fransa, Kanada, İran, Almaniya, Türkiyə, İordaniya, Rusiya, Qazaxıstan, Özbəkistan və digər ölkələrdə keçirilmiş bir sıra beynəlxalq elmi konfranslarda iştirak etmişdir. 2002-ci ildə Fransa Respublikasının Nitsa şəhərində yerləşən "Sofiya-Antipolis" Universitetində ixtisasartırma kursu keçmişdir. Həmçinin bir sıra xarici şirkətlər tərəfindən təşkil olunan İKT və rəqəmsal menecment üzrə təlimlərdə, seminarlarda və sərgilərdə iştirak etmişdir.

Azad Qurbanov Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə 2019-cu ildə "Tərəqqi" medalı, Azərbaycan Respublikası Təhsil Nazirinin əmri ilə "BDU-100" medalı, həmçinin Bakı Dövlət Universitetinin və bir sıra ictimai təşkilatların fəxri fərmanları ilə təltif edilmişdir.

Azad Qurbanov "Bakı Universiteti Xəbərləri" jurnalının humanitar seriyasının redaksiya heyətinin üzvü, 2014–2020-ci illərdə isə "Kitabxanaşünaslıq və informasiya" jurnalının baş redaktorunun müavini olmuşdur.

İYUN
1

Digər tarixi hadisələr

Uşaqların Beynəlxalq Müdafiəsi Günü *(1950)*



Tarixə nəzər salsaq görərik ki, ilk dəfə olaraq Uşaqların hüquqlarını təmin edən bəyənnamə 1924-cü ildə qəbul edilmişdir. Bu bəyənnamədə deyilirdi ki, "bəşəriyyət məcburdur ki, uşaqları ən yaxşı şeylərlə təmin etsin". Bu bəyənnamənin qəbul edilməsində ilk işlər Eqlantayn Ceb (Eglantyne Djebb) tərəfindən görülmüşdür. E. Ceb bacısı Doroti Bakstonun köməyi ilə 1919-cu ildə uşaqlara yardım göstərmiş, onların müdafiəsini təmin etmək məqsədilə Londonda "uşaqlara yardım fondu"nun əsasını qoymuşdur.

Uşaqların Beynəlxalq Müdafiəsi Günü (ing. International Children's Day) 1950-ci il iyun ayının 1-dən etibarən BMT Baş Assambleyasının qərarı ilə qeyd olunmağa başlanmışdır. Həmin gün təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquq larının təmin edilməsi ilə bağlı təkliflər səslənmiş və elə həmin tədbirdə də 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı verilmişdir. Bundan sonra iyun ayının 1-i Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşmüşdür. Dünyanın əksər ölkələrində olduğu kimi, bu gün Azərbaycanda da qeyd edilir.

Bu bayramla yanaşı BMT-nin Baş Assambleyası tərəfindən 20 noyabr tarixində Ümumdünya Uşaqlar Günü də qeyd olunur. "Ümumdünya Uşaqlar Günü" 1954-cü ildə BMT-nin Baş Assambleyasının № 836 (IX) saylı qətnaməsində 1956-cı ildən bütün dövlətlərdə uşaqların şərəfinə keçirilməsi tövsiyə olunan bayram kimi qeyd olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədilə 22 dekabr 2008-ci il tarixli Sərəncam imzalamışdır. Sərəncama görə 2009-cu il "Uşaq ili" elan olunmuşdur.

Ədəbiyyat:


Bayramova, Z. 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür / Z.Bayramova // Səs. - 2019. - 1 iyun. - S. 11.

Gəray, X. "Yeddi oğlu istərəm, bircə dənə qız...": Sabah 1 iyun Uşaqların Beynəlxalq Müdafiə Günüdür / X. Gəray // Yeni Müsavat. - 2019. - 31 may. - S. 14.

Əmircanov, P. Azərbaycanda uşaqlara sevgi və qayğı həmişə diqqət mərkəzindədir: 1 iyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür / Paşa Əmircanov // Xalq qəzeti.- 2020.- 1 iyun.- S.13.

Bütün uşaqlar xoşbəxt olsun! // Mədəniyyət.- 2024.- 5 iyun,№41.- S.4.

Milli Qurtuluş Günü
(1997)



1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etsə də, Ermənistanın işğalçılıq niyyəti güdən təcavüzü respublikada vəziyyəti gərginləşdirmişdi.

1993-cü il iyunun 4-də Gəncədə polkovnik Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi ölkəni tamamilə xaosa sürükləmişdi. Situasiyanı nəzarətə almaq üçün hakimiyyətin atdığı tələsik addımlar vəziyyəti düzəltməmiş, əksinə, Gəncəyə yola düşən dövlət nümayəndələri girov götürülmüşdür. Qiyamçı hərbi hissənin rəhbərliyi, əvvəlcə Baş nazir və Milli Məclis sədrinin, sonra isə Prezidentin istefasını tələb etmişdir. Vəziyyət nəzarətdən çıxmış, ətraf rayonların icra başçıları zorla dəyişdirilmiş, Surət Hüseynovun qiyamı məhdud Gəncə civarlarından çıxaraq üzü Bakıya doğru geniş miqyas almışdır. Belə böhranlı və ağır vəziyyətdə ölkə vətəndaşları yeganə çıxış yolunu yenə də müdrik rəhbərinin hakimiyyət sükanı arxasına keçməsində görmüşdür. Bu taleyüklü sınaq anında xalqın çağırışına səs verən, dövlətin gələcək taleyinə biganə qalmayan böyük strateq Heydər Əliyev Bakıya dönərək respublikada yaranmış hakimiyyət böhranının aradan qaldırılması istiqamətində əməli fəaliyyətə başlamışdır.

Ümummilli liderin bir qrup ziyalı ilə Gəncəyə səfər etməsi və heç bir riskdən çəkinməyərək silahlanmış qüvvələrlə danışıqlar aparması vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınmasında mühüm addım olmuşdur. Bundan bir neçə gün sonra - iyun ayının 15-də isə Ulu Öndər parlamentdə səslənən təkidli xahişləri, ən əsası xalqın istəyini nəzərə alaraq o zamankı Azərbaycan Respublikası Ali Sovetinin Sədri vəzifəsinə seçilməsinə razılıq vermişdir. Bu tarixi hadisə res publika həyatında xaos və anarxiyadan qurtuluşa doğru yeni mərhələnin başlanğıcına çevrilmişdir. Beləliklə də, 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil olmuşdur.

Ulu Öndərin 1993-cü ilin 15 iyun tarixində Ali Sovetin Sədri seçilməsi Azərbaycanda tərəqqinin eyni zamanda mütərəqqi parlamentarizm ənənələri formalaşmasını təmin etmişdir. Heydər Əliyev bu vəzifədə səylə çalışaraq ilk növbədə parlamentin cəmiyyətdəki nüfuzunun sağlamlaşdırılması tədbirlərinə başlamış, yüksək idarəçilik keyfiyyətləri sayəsində ali qanunverici orqanda xoşagəlməz siyasi çəkişmələrin, qeyri-etik davranışların qarşısını almışdır. Müzakirə və diskussiyaların sivil, demokratik meyarlar çərçivəsində aparılması üçün şəxsi nümunə göstərmiş, parlament idarəçiliyinə yeni ruh və müasirlik gətirmişdir. Milli Məclisin iclasları, mətbuat konfransları, respublika əhəmiyyətli müşavirələr birbaşa yayımla televiziya ekranlarına verilmişdir.

1997-ci ildə millət vəkilləri 15 iyun tarixinin təqvimə Azərbaycanın Qurtuluş Günü kimi salınması təklifi ilə çıxış etmişlər və Milli Məclis bu təklifi bəyənmişdir. O vaxtdan Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı günü Milli Qurtuluş Günü kimi qeyd edilir. Azərbaycan xalqı bu günü Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etməklə anır.

Ədəbiyyat:

Kərimov, Q. Milli qurtuluş və davamlı inkişaf yolunun başlanğıcı: Milli qurtuluş - 26 / Qüdrət Kərimov // Azərbaycan. - 2019. - 14 iyun. - S. 1; 6.

Nəcəfov, E. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi: Milli Qurtuluş Günü / E.Nəcəfov // Xalq qəzeti. - 2018. - 15 iyun. - S. 5.

Şikarov, H. 15 iyun - Azərbaycanın inkişafa gedən təməl yolu / Hikmət Şikarov // Olaylar. - 2019. - 13-14 iyun. - S. 4.

Müasir tariximizin dönüş nöqtəsi – Milli Qurtuluş Günü / Mədəniyyət.- 2022.- 10 iyun.- S.4.

Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib / Azərbaycan.- 2025.- 12 iyun (№ 119).- S.2.

Azərbaycanda İnsan Hüquqları Günü *(2007)*



Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi müasir hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi formalaşmış və müstəqillik dövründə dövlət siyasətinin prioritet sahələrindən birinə çevrilmişdir. İnsan və vətəndaş hüquqlarının təminatı dövlətin ali məqsədi kimi müəyyənləşdirilmiş, bu yanaşma hüquqi sistemin bütün sahələrində dərin islahatları zəruri etmişdir. Müstəqillik illərində insan hüquqları sahəsində həyata keçirilən siyasətin konseptual əsası Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə başlanmış hüquqi-siyasi islahatlara dayanır və Prezident İlham Əliyevin fəaliyyəti dövründə ardıcıl şəkildə inkişaf etdirilir.

1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiya insan hüquqları sisteminin hüquqi əsasını təşkil edən fundamental sənəd kimi çıxış etmişdir. Konstitusiyanın mühüm xüsusiyyəti ondan ibarətdir ki, insan hüquq və azadlıqlarının qorunması dövlətin ali məqsədi kimi təsbit edilmiş və sənədin əhəmiyyətli hissəsi bilavasitə hüquq və azadlıqlara həsr edilmişdir. Bu müddəalar dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının müdafiəsi yönümündə formalaşmasına hüquqi və institusional baza yaratmışdır.

1998-ci il insan hüquqları siyasətinin inkişafında strateji mərhələ kimi qiymətləndirilir. Həmin il qəbul edilmiş "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" ölkədə insan hüquqları üzrə ilk kompleks fəaliyyət sənədləri olmuşdur. Sözügedən Proqram qanunvericilik islahatlarını, dövlət institutlarının modernləşdirilməsini, beynəlxalq mexanizmlərlə inteqrasiyanı əhatə etmiş və Azərbaycanda ölüm cəzasının ləğv edilməsi kimi humanist hüquq siyasətinə yol açmışdır.

Bu dövrdə həyata keçirilən islahatların mühüm istiqamətlərindən biri insan hüquqlarının müdafiəsi üçün yeni institusional mexanizmlərin formalaşdırılması olmuşdur. 2001-ci il dekabrın 28-də qəbul edilmiş "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında" Konstitusiya Qanunu Ombudsman təsisatının yaradılmasına hüquqi əsas yaratmış, 2002-ci ildə onun praktiki fəaliyyətə başlaması ilə insan hüquqlarının müdafiəsi mexanizmi institusional baxımdan gücləndirilmişdir.

Azərbaycanın insan hüquqları sahəsində beynəlxalq inteqrasiyası da müstəqillik dövründə keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Dövlət 300-dən çox beynəlxalq müqaviləyə qoşulmuş, BMT, Avropa Şurası, Beynəlxalq Əmək Təşkilatı və digər qurumlarla əməkdaşlığı genişləndirmişdir. Xüsusilə BƏT-in təxminən 70 konvensiyasına qoşulmaqla Azərbaycan beynəlxalq əmək hüquqları sistemində mühüm tərəfdaş kimi qəbul edilmişdir. 1998-ci ildə BMT ilə imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi" Memorandumu da bu sahədə əməkdaşlığın mühüm elementi olmuşdur.

Prezident İlham Əliyevin rəhbərliyilə insan hüquqlarının müdafiəsi siyasəti ardıcıl şəkildə davam etdirilmiş və normativ-hüquqi baza xeyli gücləndirilmişdir. 2006-cı ildə "İnsan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı", 2011-ci ildə isə insan hüquqlarının müdafiəsinin səmərəliliyinin artırılması məqsədilə yeni Milli Fəaliyyət Proqramı qəbul edilmişdir. 2007-ci il iyunun 18-nin İnsan Hüquqları Günü kimi təsdiq edilməsi dövlətin insan hüquqları sahəsinə verdiyi siyasi əhəmiyyətin göstəricisi olmuşdur.

Son illərdə aparılan hüquqi və institusional islahatlar insan hüquqlarının təminatının praktiki mexanizmlərinin təkmilləşdirilməsinə yönəlmişdir. 2017-ci il fevralın 10-da verilmiş Sərəncam cəza siyasətinin humanistləşdirilməsi, penitensiar sistemdə islahatların aparılması və alternativ cəza tədbirlərinin tətbiqinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Hazırda qanunvericilik beynəlxalq standartlara uyğunlaşdırılır, hüquqi müdafiə mexanizmləri təkmilləşdirilir və vətəndaşların hüquqlarının daha etibarlı müdafiəsi təmin olunur.

Bütün bu islahatlar nəticəsində Azərbaycanda hüquqi mədəniyyətin və vətəndaş cəmiyyətinin inkişafı sürətlənmişdir. İnsan hüquqlarının qorunması sahəsində əldə edilmiş nailiyyətlər Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasına və ölkənin regionda insan hüquqlarına hörmət prinsiplərinin tətbiqi baxımından nümunəvi dövlətlərdən biri kimi tanınmasına şərait yaratmışdır.

Ədəbiyyat:

15 Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti: 2015-ci il üzrə illik məruzənin qısa icmalı / Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman); ön söz E.T.Süleymanova Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman). - Bakı: Qanun, 2016. - 297 s.

Tağıyev, T. 18 iyun Azərbaycanda insan hüquqlarını müdafiə günüdür - 27 illik tarix... / Tahir Tağıyev // Bakı Xəbər.-2025.- 13 iyun (№100).- S.8.


Bayramova,Z. 18 iyun Azərbaycanda İnsan Hüquqları Günüdür / Z. Bayramova // Səs.- 2024.- 15 iyun, №107.- S.4.

Əliyev, Z. Ulu Öndər Heydər Əliyev və Azərbaycanda insan hüquqları elminin inkişafı: 18 İYUN İnsan Hüquqları Günüdür / Z.Əliyev // Respublika.-2023.- 15 iyun.- S.12.

Ələddinqızı, N. 18 iyun Azərbaycanda İnsan Hüquqları Günüdür / Nəzakət Ələddinqızı // Səs.-2022.- 18 iyun.- S.7.

Ömərov. V. Azərbaycanda insan hüquqları / V. Ömərov // Səs. - 2020. - 19 fevral. - S. 15.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi *(2021)*



Ədəbiyyat:

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri 30 mart 2023-cü il // Azərbaycan.- 2023.- 31 mart.- S.3.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 14 mart 2025-ci il // Azərbaycan.-2025.- 16 mart (№ 58).- S.2.

Musayeva, Y Əzəmətli tarixi abidə, qəhrəmanlıq qalası: Şuşa gündən-günə dirçəlir, şöhrətli günlərinə qovuşur / Yasəmən Musayeva // Azərbaycan.-2025.- 22 iyun (№ 127).- S.11.

Bayramov, V. Şuşa hüquqi aktlarla müəyyənləşdirilən tənzimləmə əsasında qurulacaq / V.Bayramov // Xalq qəzeti.-2022.- 15 may.- S.6.

İnternetdə:

https://shusha.gov.az/az

Şuşa şəhəri Azərbaycan xalqının tarixi-mədəni irsinin mühüm daşıyıcısı kimi, özünəməxsus memarlıq ansamblları, urbanistik quruluşu və mədəni dəyərləri ilə seçilir. Bu irsin mühafizəsi məqsədilə 1988-ci ildə Şuşa Dövlət Tarix-Memarlıq Qoruğunun yaradılması şəhərin tarixi-memarlıq abidələrinin sistemli şəkildə qorunması istiqamətində atılan mühüm addım olmuşdur. Şəhərdə mövcud olan yüzlərlə tarixi bina, dini və ictimai tikililər, memarlıq kompleksləri və urbanistik elementlər Şuşanın həm regional, həm də ümumbəşəri mədəniyyət üçün əhəmiyyətini təsdiqləyirdi. Bununla belə, 1992-ci ildə şəhərin işğalı nəticəsində bu irs ciddi zərbə almış və uzun illər boyu dağıntılara məruz qalmışdır. 2020-ci ildə Şuşanın azad olunmasından sonra tarixi irsin bərpası və qorunması dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir.

1988-ci ildə qoruğun təsis edilməsi Şuşanın memarlıq irsinin elmi inventarizasiyasına, memarlıq komplekslərinin pasportlaşdırılmasına və şəhərin tarixi görkəminin qorunması üzrə ilk institusional mexanizmlərin yaradılmasına zəmin yaratdı. İşğaldan əvvəl şəhərdə 549 qədim bina, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansaray, 3 türbə, 2 mədrəsə, qala divarları və digər tarixi tikililər mövcud idi.

1992-ci ildə şəhərin işğalı nəticəsində tarixi abidələrin bir qismi dağıdılmış, bir qismi isə ciddi şəkildə zədələnmişdir. Mədəni irsin sistemli şəkildə məhv edilməsi yalnız şəhərin memarlıq görünüşünə deyil, həm də Azərbaycan xalqının tarixi yaddaşına zərbə vurmuşdur. 8 noyabr 2020-ci ildə Şuşanın işğaldan azad edilməsindən sonra dövlət tərəfindən şəhərin bərpa və yenidənqurma prosesinə başlanılmış, bu məqsədlə hüquqi, təşkilati və institusional mexanizmlər təkmilləşdirilmişdir.

Şuşanın mədəni-siyasi statusunun möhkəmləndirilməsi məqsədilə 31 may 2021-ci il tarixli fərmanla o, Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir. Daha sonra Prezidentin 22 iyun tarixli fərmanı ilə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır. İdarənin yaradılması şəhərin abidələrinin bərpasının mərkəzləşdirilmiş, vahid idarəetmə sistemilə həyata keçirilməsinə şərait yaratdı. Fərmana əsasən, Şuşadakı dövlət mülkiyyətində olan abidələr, yollar, tikililər və digər infrastruktur obyektləri İdarənin balansına verilmişdir.

"Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi" İdarəyə publik hüquqi şəxs statusu verməklə onun fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirdi. Bu istiqamətlərə tarixi-memarlıq abidələrinin bərpası və konservasiyası, onların elmi tədqiqi, mədəniyyət xidmətlərinin təşkili, turizm potensialından səmərəli istifadə edilməsi və şəhərin tarixi simasının qorunması daxildir. Eyni zamanda İdarəyə abidələrin mühafizəsinin təşkili, mühafizə müqavilələrinin bağlanması, konservasiya rejimli abidələrdən istifadəyə nəzarət və mədəni irsin təbliği kimi funksiyalar həvalə edilmişdir.

İdarənin idarəetmə strukturu dəfələrlə təkmilləşdirilmişdir. 2021–2022-ci illərdə İdarə Heyəti sədri və iki müavindən ibarət model fəaliyyət göstərmiş, lakin 2022-ci ilin oktyabrında aparılan struktur islahatlarından sonra İdarə Heyəti ləğv edilərək icraçı direktor institutu yaradılmışdır. Eyni zamanda dövlət başçısının fərmanı ilə sədr də daxil olmaqla beş üzvdən ibarət Müşahidə Şurası təsis olunmuşdur. Müşahidə Şurası İdarənin fəaliyyətinə ümumi nəzarət etmək, strateji qərarların qəbulunu həyata keçirmək və icraçı direktoru təyin etmək səlahiyyətinə malikdir. Bu struktur Şuşanın bərpasında idarəetmə yükünün daha çevik və səmərəli şəkildə bölüşdürülməsini təmin edir.

Şuşanın azad edilməsindən sonra şəhərin tarixi-memarlıq irsinin bərpası və qorunması istiqamətində həyata keçirilən tədbirlər mədəni irsin mühafizəsi üzrə milli siyasətin yeni mərhələsini formalaşdırmışdır. Qoruq İdarəsinin yaradılması, strukturunun yenilənməsi, abidələrin mühafizəsi və bərpası üzrə normativ mexanizmlərin təkmilləşdirilməsi Şuşanı təkcə Azərbaycanın deyil, həm də ümumbəşəri mədəni irsin mühüm mərkəzlərindən birinə çevirməyi hədəfləyir. Bütün bu proseslər Şuşanın tarixi simasının bərpası ilə yanaşı, onun gələcək nəsillər üçün elmi, mədəni və turistik dəyərinin artırılmasına xidmət edir. Dövlət tərəfindən həyata keçirilən ardıcıl siyasət Şuşanın mədəni inkişafın strateji mərkəzi kimi yenidən formalaşmasını təmin edir və onun Azərbaycan milli kimliyində tutduğu xüsusi yeri daha da möhkəmləndirir.

Digər tarixi hadisələr

Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü *(1998)*



Ədəbiyyat:

Cahangiroğlu, Ə. Güclü ordu – Güclü dövlət: Zəfər təyinatlı Silahlı Qüvvələrimiz / Ə.Cahangiroğlu // Xalq qəzeti.-2025.- 25 iyun (№ 129).- S.1;5.

Əliyeva, F. Azərbaycan əsgərinin addımı güvən, baxışı ümid, duruşu qalibiyyətdir / Fidan Əliyeva // Respublika.-2025.- 26 iyun (№ 130).- S.7.

Xəlilov, C. Güclü ordu – Müstəqil Azərbaycanın dayağı / Cəlil Xəlilov // Xalq qəzeti.-2025.- 24 iyun (№ 128).- S.12.

Prezident İlham Əliyev Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım edib // Azərbaycan.- 2024.- 26 iyun, № 131.- S.1.

Baxşəliyev, R. İlham Əliyev güclü və modern Silahlı Qüvvələr yaradıb: Azərbaycan Silahlı Qüvvələri 1918-2023 / R.Baxşəliyev // Azərbaycan.- 2023.- 25 iyun.- S.1; 4.Azərbaycan Ordusu ilə fəxr edirəm": [bu sözləri Əməkdar artisti Teymur Əsgərov deyib] // Mədəniyyət. - 2020. - 14 oktyabr. - S. 8.

Bağırlı, A. Sənə zəfər yaraşır, Azərbaycan Ordusu! / Aygün Bağırlı // Azərbaycan. - 2020. - 7 oktyabr. - S. 11.

Cəfərli, R. Bu gün ordumuz dünyanın ən güclü 50 ordusu sırasındadır / R.Cəfərli // Azərbaycan. - 2019. - 28 iyun. - S. 1; 2.

Azərbaycan Respublikasında milli ordunun formalaşması prosesi XX əsrin əvvəllərində ölkədə gedən siyasi hadisələr və regionun geostrateji şəraiti fonunda zəruri tarixi hadisə kimi meydana çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci il iyun ayının 26-da ilk milli hərbi birləşmənin və Hərbi Nazirliyin yaradılması barədə qərar qəbul etmiş, Əlahiddə Azərbaycan Korpusunun təşkili üçün hüquqi baza yaratmışdır. Qısa müddət ərzində hərbi idarəetmə strukturları formalaşdırılmış, general Səməd bəy Mehmandarov hərbi nazir, general-leytenant Əliağa Şıxlinski nazir müavini, general Süleyman Sulkeviç isə baş qərargah rəisi təyin edilmişdir.

1919-cu il ordu quruculuğunun intensivləşdiyi dövr olmuş, 1920-ci ilin əvvəlinə Azərbaycan Ordusunun şəxsi heyəti 40 min nəfərə çatmış və piyada-süvari qoşun hissələri tam komplektləşdirilmişdir. Lakin 1920-ci ilin aprelində XI Qızıl Ordunun Azərbaycan sərhədlərinə daxil olması hərbi-siyasi vəziyyəti kəskin şəkildə dəyişdirmişdir. Bolşevik müdaxiləsi nəticəsində 27 aprel 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süquta uğramış, milli ordunun fəaliyyəti dayandırılmış və ordunun yüksək rütbəli zabit və komandir heyəti repressiyalara məruz qalmışdır.

Sovet dönəmində Azərbaycan türklərinin döyüş təyinatlı bölmələrdə xidmətinə tətbiq edilən məhdudiyyətlər milli hərbi kadrların sistemli şəkildə formalaşmasını çətinləşdirirdi. Bu baxımdan 1971-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması böyük əhəmiyyət kəsb etmişdir. Həmin məktəb və SSRİ-nin digər hərbi təhsil müəssisələrində yetişən zabit heyəti sonrakı dövrlərdə Azərbaycan Ordusunun formalaşmasında mühüm rol oynamışdır.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra 1991-ci il oktyabrın 9-da Ali Sovetin qərarı ilə Milli Ordunun yaradılması rəsmiləşdirilmişdir. Lakin siyasi qeyri-sabitlik və Ermənistanın genişmiqyaslı hərbi təcavüzü səbəbindən ordu quruculuğu ciddi çətinliklərlə üzləşmişdir. 1993-cü ildən sonra hakimiyyətin mərkəzləşdirilməsi və silahlı birləşmələrin dövlət tabeçiliyinə qaytarılması nəticəsində ordu inkişafın yeni mərhələsinə qədəm qoymuşdur. 1994-cü ildə əldə olunan atəşkəs ordunun strukturlaşması, maddi-texniki təminatı və hərbi təhsil sisteminin təkmilləşdirilməsi üçün mühüm imkan yaratmışdır.

1998-ci il mayın 22-də qəbul edilmiş fərmanla 26 iyun tarixi Azərbaycan Silahlı Qüvvələri Günü elan edilmişdir; bu qərarla milli ordu quruculuğu tarixində varislik prinsipi bərpa olunmuşdur. 1999-cu ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Hərbi Akademiya təsis edilmiş və hərbi təhsil sistemində aparılan islahatlar peşəkar zabit hazırlığının institusional əsaslarını möhkəmləndirmişdir.

1992-ci il oktyabrın 9-da Bakıda keçirilmiş ilk hərbi paraddan başlayaraq, Silahlı Qüvvələr Gününə həsr olunmuş və milli ordunun inkişafını nümayiş etdirən paradlar 2008, 2011, 2013, 2018, 2020, 2025-ci illərdə keçirilmiş; bu paradlar Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordunun inkişaf dinamikasını nümayiş etdirmişdir.

Müstəqil Azərbaycan Ordusu XXI əsrdə regionun ən müasir və hazırlıqlı silahlı qüvvələrindən birinə çevrilmiş, 2020-ci ilin Vətən müharibəsində 44 gün ərzində işğal altında olan ərazilərin azad olunması ilə beynəlxalq miqyasda strateji üstünlük nümayiş etdirmişdir. 26 iyun tarixi Azərbaycan hərb tarixində xüsusi əhəmiyyətə malik olub milli ordunun yaranmasının rəmzi olmaqla yanaşı, ölkənin müdafiə sisteminin inkişaf mərhələlərini, dövlətçilik ənənələrinin möhkəmlənməsini və milli təhlükəsizlik konsepsiyasının formalaşmasını əks etdirir.

İYUL



Xərcəngin Nişanı sudur. Ayın himayəsindədir. Günəşin Xərçəng bürcündən keçdiyi dövrdə doğulanlar daha çox açıq xasiyyətli, xəyalpərəst olurlar.

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
		1	2	3	4	5
6	7	8	9	10	11	12
13	14	15	16	17	18	19
20	21	22	23	24	25	26
27	28	29	30	31		

- *Beynəlxalq İdman Jurnalistləri Günü (02.07.1995)*
- *Azərbaycan Polisi Günü (02.07.1998)*
- *Beynəlxalq Şahmat Günü (20.07.1966)*
- *Milli Mətbuat və Jurnalistika Günü (22.07.1998)*
- *İnsan Alverinə Qarşı Mübarizə Günü (30.07.2009)*

Şəhərsalma və Memarlıq İli



Qloballaşan dünyada şəhərsalma insan həyatının keyfiyyətini artırmaq, ətraf mühiti qorumaq və iqtisadi inkişafı təmin etmək baxımından əsas prioritetlərdən birinə çevrilib. Şəhərlər sürətlə böyüyür, lakin bu prosesin planlı və dayanıqlı olması gələcək nəsillərin rifahı üçün həyati əhəmiyyət daşıyır. Azərbaycan öz inkişaf strategiyalarında şəhərsalmanı insan mərkəzli, ekoloji və iqtisadi cəhətdən dayanıqlı şəkildə formalaşdırmağa xüsusi önəm verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən şəhərsalma proqramları, müasir infrastruktur layihələri və işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri bu sahədə Azərbaycanı regionun qabaqcıl ölkələrindən birinə çevirib.

İYUL

2026



Milli ədəbiyyat

Nasir Azayev Əlisəfa Soltan oğlunun (01.07.1951) anadan olmasının 75 illiyi
Şairi, publisist Əlibəyli Tapdıq Abış oğlunun (01.07.1961) anadan olmasının 65 illiyi
Yazıçı, publisist, geoloq alim Rəhimov Arif Süleyman oğlunun (Şamo Arif) (09.07.1936-16.06.2012) anadan olmasının 90 illiyi 552



Dünya ədəbiyyatı

İngilis dramaturqu, Nobel mükafatı laureatı Şou Corc Bernardın (26.07.1856-02.11.1950) anadan olmasının 170 illiyi 553
Türk yazıçısı, dövlət xadimi Uşaqlıgil Xalid Ziyanın (30.07.1866-27.03.1945) anadan olmasının 160 illiyi 554



Rəssamlıq. Heykəltəraşlıq

Xalq rəssamı Nərimanbəyov Vidadi Yaqub-Fərman oğlunun (13.07.1926-13.12.2001) anadan olmasının 100 illiyi 555
Holland boyakarı və qrafiki Rembrandt Harmens Van Reynin (15.07.1606-04.10.1669) anadan olmasının 420 illiyi 556
Xalq rəssamı, qrafik Rəhmanzadə Maral Yusif qızının (23.07.1916-16.03.2008) anadan olmasının 110 illiyi 557
Əməkdar memar, Beynəlxalq Memarlıq Akademiyasının Moskva bölməsinin müxbir üzvü Musaxanov Kamal Ağa Paşa oğlunun (24.07.1956) anadan olmasının 70 illiyi 558
Əməkdar memarı Bəylərov İlqar Xıdır oğlunun (31.07.1961) anadan olmasının 65 illiyi 559



Musiqi. Opera. Balet

Bəstəkar Rüstəmov Eldar Səid oğlunun (13.07.1946-23.04.2010) anadan olmasının 80 illiyi 560
Xalq artisti, müğənni Kərimova Flora Ələkbər qızının (23.07.1941) anadan olmasının 85 illiyi 561
Əməkdar müəllim, bəstəkar, professor Yusifova Adilə Niyazi qızının (30.07.1956) anadan olmasının 70 illiyi 562



Teatr. Kino

Əməkdar artist Hüseynov Ələkbər Adıgözəl oğlunun (Ələkbər əmi) (07.07.1961-02.08.2007) anadan olmasının 65 illiyi 563
Əməkdar incəsənət xadimi, aktrisa Abbasova Məlahət Elman qızının (08.07.1966) anadan olmasının 60 illiyi 564

Xalq artisti, aktyor Baratzadə Zülfüqar Yaqub oğlunun (08.07.1931-11.02.1991) anadan olmasının 95 illiyi
Əməkdar artist, Əməkdar incəsənət xadimi, aktyor Həmidov Mübariz Şərafət oğlunun (12.07.1956) anadan olmasının 70 illiyi 565
Əməkdar incəsənət xadimi, kinooperator İsmayılov Rasim Rza oğlunun (13.07.1936-05.05.2004) anadan olmasının 90 illiyi 566
Xalq artisti, aktrisa Mustafayeva Sədayə İsmayıl qızının (15.07.1926-13.08.2004) anadan olmasının 100 illiyi 567
Əməkdar artist, aktrisa Orucova Nahidə Mülük qızının (18.07.1961) anadan olmasının 65 illiyi 568
Əməkdar mədəniyyət işçisi, rejissor Dadaşov Rafiq Ağahüseyn oğlunun (20.07.1946-05.02.2017) anadan olmasının 80 illiyi 569
Əməkdar artist, aktrisa Salmanova Gülnar Əlifağa qızının (24.07.1956-24.10.2015) anadan olmasının 70 illiyi 570

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Kərimov Kərim Məhəmməd oğlunun (02.07.1971-05.05.1992) anadan olmasının 55 illiyi 571
Azərbaycanın Milli Qəhrəmanı Zülfüqarov Samir Xəlil oğlunun (03.07.1976-17.03.1995) anadan olmasının 50 illiyi 572
Azərbaycanın Milli Qəhrəmanı Hüseynov Sadıq Dayandur oğlunun (29.07.1961-13.04.1992) anadan olmasının 65 illiyi 573

İkinci Qarabağ Müharibəsi Şəhidləri

Əsgər Babazadə Babazeynal Maqsud oğlunun (01.07.2001-08.10.2020) anadan olmasının 25 illiyi 574
Əsgər Əmiraslanov Amin Vaqif oğlunun (01.07.1991-04.11.2020) anadan olmasının 35 illiyi 574
Əsgər Nəbiyev Zaur Ələddin oğlunun (01.07.2001-04.10.2020) anadan olmasının 25 illiyi 575
Gizir Məcidov Rafiq Rasim oğlunun (02.07.1996-09.11.2020) anadan olmasının 30 illiyi 575
Əsgər Mamedov İlahəddin Dilamuddinoviçin (02.07.2001-15.10.2020) anadan olmasının 25 illiyi 576
Əsgər İslamov Cəlal Ağahüseyn oğlunun (03.07.2001-08.10.2020) anadan olmasının 25 illiyi 576
Əsgər Muradov Elcan Eldəniz oğlunun (03.07.2001-09.11.2020) anadan olmasının 25 illiyi 577
Əsgər Şamilov Emil Rafiq oğlunun (03.07.1996-27.10.2020) anadan olmasının 30 illiyi 577

Əsgər Vəliyev Müslüm Vəliağa oğlunun (03.07.2001-28.09.2020) anadan olmasının 25 illiyi 578
Əsgər Babayev Vüqar İlham oğlunun (04.07.2001-01.10.2020) anadan olmasının 25 illiyi 578
Əsgər Mehdiyev Yasən Alim oğlunun (05.07.2001-24.10.2020) anadan olmasının 25 illiyi 579
Əsgər Rüstəmli Əmrah Natiq oğlunun (05.07.2001-04.10.2020) anadan olmasının 25 illiyi 579
MAHHXHQ baş çavuş Qəsəbov İsmayıl Nəbi oğlunun (06.07.1991-12.11.2020) anadan olmasının 35 illiyi.....580
MAHHXHQ çavuş Rəhimov Ruslan Tanrıvedi oğlunun (07.07.1986-08.10.2020) anadan olmasının 40 illiyi 580
MAHHXHQ kiçik çavuş Əliyev Turan Sulduz oğlunun (07.07.1996-27.11.2020) anadan olmasının 30 illiyi 581
Əsgər Mamedov Elmar Elçin oğlunun (07.07.2001-06.10.2020) anadan olmasının 25 illiyi 581
Əsgər Kərimli Nihat Teymur oğlunun (08.07.1996-08.10.2020) anadan olmasının 30 illiyi 582
Əsgər Qasımzadə Hüseyn Həsənxan oğlunun (08.07.2001-01.11.2020) anadan olmasının 25 illiyi 582
Baş gizir Qafarov Rəvan Elxan oğlunun (08.07.1991-30.10.2020) anadan olmasının 35 illiyi 583
Əsgər Allahverdiyev Allahverdi Əli oğlunun (09.07.2001-28.09.2020) anadan olmasının 25 illiyi 583
Əsgər Hüseynov Xəyyam Hüseyn oğlunun (11.07.1996-28.09.2020) anadan olmasının 30 illiyi 584
Kiçik çavuş Hüseynov Əkbər Bahadur oğlunun (11.07.2001-30.09.2020) anadan olmasının 25 illiyi 584
Əsgər Məmmədov Kamil Mübariz oğlunun (11.07.1996-19.11.2020) anadan olmasının 30 illiyi 585
Gizir Məmmədov Sahil Ədalət oğlunun (12.07.1996-25.10.2020) anadan olmasının 30 illiyi 585
Əsgər Mirzəyev Orxan Əli oğlunun (12.07.2001-02.11.2020) anadan olmasının 25 illiyi 586
Kiçik gizir Qasımov Xalid Rafik oğlunun (12.07.1996-14.10.2020) anadan olmasının 30 illiyi 586
Əsgər Şirinov Eldar Bağır oğlunun (12.07.2001-06.10.2020) anadan olmasının 25 illiyi 587
Əsgər Allahverdiyev Elnur Kamil oğlunun (12.07.2001-10.11.2020) anadan olmasının 25 illiyi 587
MAHHXHQ əsgər Nəsirov Elmir Zülfü oğlunun (13.07.1991-27.09.2020) anadan olmasının 35 illiyi 588

İYUL

2026

Əsgər Ağayev Ağamir Qüdrət oğlunun (14.07.1996-08.10.2020) anadan olmasının 30 illiyi 588
Gizir Şahbazov Ruslan Mahir oğlunun (14.07.1991-10.10.2020) anadan olmasının 35 illiyi 589
MAHHXHQ kiçik çavuş Həsənov Hikmət Fikrət oğlunun (15.07.1986-06.12.2020) anadan olmasının 40 illiyi 589
Əsgər Sadıqov Surac Ədalət oğlunun (15.07.2001-11.10.2020) anadan olmasının 25 illiyi 590
Əsgər Nəbiyev Ruslan Muhuma oğlunun (16.07.1996-08.12.2020) anadan olmasının 30 illiyi 590
Əsgər Ağayev Cavidan Mirzağa oğlunun (16.07.2001-02.10.2020) anadan olmasının 25 illiyi 591
Əsgər Namazov İsmət Nüsrət oğlunun (17.07.1996-27.10.2020) anadan olmasının 30 illiyi 591
Əsgər Quliyev Rəvan Mərdan oğlunun (17.07.2001-25.10.2020) anadan olmasının 25 illiyi 592
Leytenant İsmayılov Aqil Əli oğlunun (18.07.1996-28.09.2020) anadan olmasının 30 illiyi 592
Əsgər Lətifli Orxan Xancan oğlunun (19.07.1996-11.11.2020) anadan olmasının 30 illiyi 593
Əsgər Mirzəyev Hüseyn Elsevər oğlunun (19.07.2001-22.12.2020) anadan olmasının 25 illiyi 593
Əsgər Qasımov Cəbrayıl Baloğlan oğlunun (19.07.1996-09.10.2020) anadan olmasının 30 illiyi 594
Əsgər Xudaverdiyev Mahmud Əhməd oğlunun (19.07.2001-14.10.2020) anadan olmasının 25 illiyi 594
Əsgər Əliyev Tahir Mahir oğlunun (20.07.2001-30.10.2020) anadan olmasının 25 illiyi 595
Polkovnik-leytenant Məmmədov Soltan Akif oğlunun (21.07.1981-10.10.2020) anadan olmasının 45 illiyi 595
Əsgər Tarverdiyev Feyruz İslam oğlunun (22.07.1996-30.11.2020) anadan olmasının 30 illiyi 596
Baş gizir Abdullayev Eldar Firidun oğlunun (23.07.1981-18.10.2020) anadan olmasının 45 illiyi 596
Əsgər Abakarov Nail Müzəffər oğlunun (24.07.2001-04.10.2020) anadan olmasının 25 illiyi 597
Baş leytenant Hüseynov Orxan Bəhmən oğlunun (25.07.1991-05.10.2020) anadan olmasının 35 illiyi 597
Əsgər Qurbanov Qamət Şəmşir oğlunun (25.07.2001-30.09.2020) anadan olmasının 25 illiyi 598
Əsgər Məmmədov Əliağa Eldəniz oğlunun (26.07.2001-07.10.2020) anadan olmasının 25 illiyi 598

Əsgər Həsənov Sübhan Rauf oğlunun (26.07.2001-07.12.2020) anadan olmasının 25 illiyi 598
Kapitan Dursunov Fərid Fazil oğlunun (26.07.1986-29.09.2020) anadan olmasının 40 illiyi 598
Kiçik çavuş Teymurlu Orxan Şaiq oğlunun (27.07.1996-11.10.2020) anadan olmasının 30 illiyi 600
Əsgər Zülfüqarov Məlik Kamran oğlunun (27.07.2001-21.10.2020) anadan olmasının 25 illiyi 600
Əsgər Əliyev Kamran Rasim oğlunun (28.07.2001-12.10.2020) anadan olmasının 25 illiyi 601
Əsgər Məmmədzadə Pərviz Zahid oğlunun (31.07.2001-06.11.2020) anadan olmasının 25 illiyi.....601



Siyasət. Hərbi iş

İctimai-siyasi və dövlət xadimi, publisist Yusifbəyli Nəsib bəy Yusif oğlunun (05.07.1881-31.05.1920) anadan olmasının 145 illiyi 602
Azərbaycan Respublikası Fövqəladə Hallar naziri, general-polkovnik Heydərov Kəmaləddin Fəttah oğlunun (15.07.1961) anadan olmasının 65 illiyi ..603



Tarix

AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Əliyev Vəli Hüseyn oğlunun (20.07.1936-08.01.2020) anadan olmasının 90 illiyi 604



Fəlsəfə. İqtisadiyyat. Hüquq

Fəlsəfə elmləri doktoru, professor Aslanova Rəbiyyət Nurulla qızının (04.07.1951) anadan olmasının 75 illiyi 605
AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Məmmədov Aydın İsrafil oğlunun (14.07.1941-25.02.2003) anadan olmasının 85 illiyi 606
Akademik, kənd təsərrüfatı elmləri doktoru, professor Cəfərov Məmmədtağı İbrahim oğlunun (15.07.1936-17.06.2007) anadan olmasının 90 illiyi 607
İqtisad elmləri doktoru, professor, siyasi xadim Quliyev Eldar Allahyar oğlunun (26.07.1951) anadan olmasının 75 illiyi 608



Mədəniyyət. Maarif. Təhsil

Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Lalayev Əliqismət Hümmət oğlunun (04.07.1956) anadan olmasının 70 illiyi 609
Əslən azərbaycanlı olan İran müəllimi, ruhanisi, siyasətçi və mühərriri Təbrizi Hacı Mirzə Həsən Mehdi oğlunun (Hacı Mirzə

Həsən Rüşdiyyə) (05.07.1851-10.12.1944) anadan olmasının 175 illiyi
Jurnalist, alim və ictimai xadim Şahtaxtinski İsa Sultan Nəcəfqulu oğlunun (05.07.1851-17.10.1894) anadan olmasının 175 illiyi
Əməkdar incəsənət xadimi, şairə, dramaturq Ağayeva Kəmalə Ağa qızının (10.07.1936-18.07.2019) anadan olmasının 90 illiyi 610
Pedaqoji elmlər doktoru, professor Əhmədov Hüseyn Mustafa oğlunun (17.07.1926-04.04.2020) anadan olmasının 100 illiyi 611
Filologiya elmləri doktoru, professor, publisist, dilşünas Xəlilov Buludxan Əziz oğlunun (25.07.1966-27.09.2021) anadan olmasının 60 illiyi 612
Filologiya elmləri doktoru, professor Cəbrayılova Svetlana Əli qızının (28.07.1941) anadan olmasının 85 illiyi




Coğrafiya. Geologiya

Əməkdar mühəndis, texnika elmləri doktoru Abdullayev Mahmud Əli oğlunun (12.07.1911-08.11.1988) anadan olmasının 115 illiyi
AMEA-nın müxbir üzvü, geologiya-minerologiya elmləri doktoru, professor Cavanşir Rəşid Cəmil oğlunun (17.07.1951) anadan olmasının 75 illiyi 613
Geologiya-mineralogiya elmləri doktoru, professor Salmanov Fərman Qurban oğlunun (28.07.1931-31.03.2007) anadan olmasının 95 illiyi



Riyaziyyat. Fizika. Astronomiya

Əməkdar elm xadimi, akademik, fizika-riyaziyyat elmləri doktoru, professor Rəsulov Məcid Lətif oğlunun (01.07.1916-11.02.1993) anadan olmasının 110 illiyi 614



Kimya. Biologiya. Tibb

Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Fərəcov Zülfüqar Həsən oğlunun (07.07.1951) anadan olmasının 75 illiyi 615
Kimya elmlər doktoru, professor Ələkbərov Əliheydər İbad oğlunun (15.07.1926-06.09.1990) anadan olmasının 100 illiyi



Texnika. Mühəndis işi

AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, texnika elmləri doktoru, professor Məmmədov Firudin İbrahim oğlunun (01.07.1936-08.06.2017) anadan olmasının 90 illiyi 616
Əməkdar elm xadimi Məmmədov Əliqulu Məmmədqulu oğlunun (09.07.1906-10.03.1982) anadan olmasının 120 illiyi
İsveçli ixtiraçı, sahibkar, dəzgah konstruktoru Nobel Lüdviqin (27.07.1831-12.04.1888) anadan olmasının 195 illiyi

Əməkdar elm xadimi, akademik, texnika elmləri doktoru, professor Abbasov Midhət Teymur oğlunun (31.07.1926-23.04.2012) anadan olmasının 100 illiyi 617



İdman

Əməkdar idman ustası, SSRİ-nin əməkdar məşqçisi, beynəlxalq dərəcəli hakim, boksçu Ağalarov Abbas Fərhad oğlunun (15.07.1911-05.03.1967) anadan olmasının 115 İlliyi



Digər tarixi hadisələr

Beynəlxalq İdman Jurnalistləri Günü (02.07.1995)
Azərbaycan Polisi Günü (02.07.1998) 618
RK(b)P Qafqaz Bürosu Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması və mərkəzi Şuşa şəhəri olmaqla muxtar vilayətin yaradılması barədə qərar qəbul edilib (05.07.1921)
Bakı-Sabunçu-Suraxanı xəttində SSRİ-də ilk dəfə olaraq elektrik qatarının hərəkət etməsinin (06.07.1926) 100 illiyi 619
Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikasının Prezidenti Fərman imzalamışdır (07.07.2021)
Qarabağ iqtisadi rayonunun (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) yaradılması barədə qərar qəbul edilmişdir (07.07.2021)
Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılmışdır (07.07.2021)
Diplomatik Xidmət Orqanları Əməkdaşlarının Peşə Bayramı Günü (09.07.2007)
Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan (Adana vilayəti) limanında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təntənəli açılışı keçirilib (13.07.2006)
Azərbaycan Dövlət Dəniz Akademiyası yaradılmışdır (15.07.1996) 620
“Torpaq islahatı haqqında” Qanun qəbul edilmişdir (16.07.1996)
Beynəlxalq Şahmat Günü (20.07.1966)
Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasının (20.07.1971) 55 illiyi ...621
Milli Mətbuat və Jurnalistika Günü (22.07.1991) 622
Ümumdünya İnsan Alverinə Qarşı Mübarizə Günü (30.07.2013)

Şamo Arif – 90

(1936-2012)

Yazıçı



Arif Süleyman oğlu Rəhimov (Şamo Arif) 1936-cı il iyulun 9-da Qubadlı rayonunun Əyin kəndində anadan olmuşdur. Orta təhsilini Bakıda 7 saylı orta məktəbdə tamamladıqdan sonra, 1953-cü ildə Moskva Dövlət Universitetinin fizika fakültəsinə daxil olmuş və təhsilini uğurla başa vurmuşdur. 1954-1959-cu illərdə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji kəşfiyyat fakültəsində təhsil almışdır.

1959-2003-cü illərdə Azərbaycan Neft Sənayesi Elmi-Tədqiqat Layihə İnstitutunda fəhlə, texnik, baş texnik, mühəndis, baş mühəndis, kiçik elmi işçi və aparıcı elmi işçi kimi fəaliyyət göstərmiş, eyni zamanda "Azərekspertiza" Birliyinin direktor vəzifəsini icra etmişdir. 1965-ci ildə müdafiə etdiyi "Kiçik Qafqazın şimal-şərq dağətəyinin geotektonik inkişafının riyazi üsulla öyrənilməsi və Mezozoy çöküntülərinin neft-qazlılıq perspektivliyi" mövzusunda namizədlik dissertasiyası ona geologiya-mineralogiya elmləri namizədi dərəcəsi qazandırmışdır.

Şamo Arif seysmologiya sahəsində mühüm tədqiqatlar aparmışdır. O, səthi dalğaların ikinci və üçüncü qruplarını müəyyən etmiş, Yerin yaylı modeli şəraitində bu dalğaların mövcudluğunu təsdiqləmiş və zəlzələnin episentr azimutunun müəyyənləşdirilməsi, habelə Yer qabığında dərinlik qırılmalarının vəziyyətinin öyrənilməsi üçün yeni metod hazırlamışdır. Alim həmçinin Azərbaycanın seysmik rayonlaşdırılmış xəritəsinin hazırlanmasında əsas müəlliflərdən olmuşdur.

Elmi fəaliyyəti ilə yanaşı, Şamo Arif ədəbi yaradıcılıqla da məşğul olmuşdur. Ədəbi fəaliyyətinə 1957-ci ildə "Azərbaycan qadını" jurnalında çap olunan "Qoşa çinar" hekayəsi ilə başlamış, 1964-cü ildə "Göz dağı" povesti və "Anamın yuxusuna girməsi" romanını nəşr etdirmişdir. 1964-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş və "Qızıl qələm" mükafatına layiq görülmüşdür. Onun sonuncu romanı "Qınamayın məni" adlanır. Bundan əlavə, Şamo Arif publisistik və elmi məqalələr dərc etmiş, həmçinin "Dədə Süleyman" adlı xatirələr toplusunu hazırlamışdır.

Şamo Arif 2012-ci il iyun ayının 16-da vəfat etmiş və Bakıda dəfn olunmuşdur.

Onun adı Mərkəzi "Bakı" seysmologiya stansiyasında əbədiləşdirilmişdir. Alimin tədqiqatları yer qabığının quruluşunun öyrənilməsi, zəlzələlərin təhlili və neft-qaz perspektivlərinin müəyyənləşdirilməsi sahəsində elmi metodların inkişafına əhəmiyyətli töhfə vermişdir.

Ədəbiyyat:

Anamın yuxusuna girməsin: Mənim payız çiçəyim / Şamo Arif; red. M.Ələkbərli. – Bakı: Cənclik, 1977.- 303s.

Dədə Süleyman dünyası: xatirələr / tərt.ed. və ixtisas red.Şamo Arif; red.Ə.Sadıqov .-Bakı: Mars Print, 2010.- 500s.

Qınamayın məni: [roman] / Şamo Arif; red. Ə.Sadıqov.- Bakı: Mars-Print .- 2010.- 583s.

Böyük ürəkli-böyük Azərbaycanım! Ziyalı sözü / Şamo Arif // Azərbaycan.- 2011.- 24 iyun.- S.6.

Tarixi yaddaşımıza qayıdaq / Şamo.Arif // İki sahil.- 2011.- S.13.

Əhmədov,T. Şamo Arif // Əhmədov T. Azərbaycan yazıçıları XX-XXI yüzillikdə.- Bakı,2011.- S.892.


İnternetdə:

www/anl/az

www/adam/aza

Corc Bernard Şou – 170

(1856-1950) *İngilis dramaturqu*



Ədəbiyyat:

Əliyev, Y. XX əsr İngilis ədəbiyyatı: ali məktəbin filologiya fakültələrində tədris olunan "XX əsr xarici ölkələr ədəbiyyatı" kursu üzrə dərs vəsaiti / Yusif Əliyev; elmi red. A. Z. Sabitova; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dillər Un-ti. - Bakı: [Ecoprint], 2020. - 83, [1] s.

Seçilmiş əsərləri / B.Şou; ingilis dilindən tərc. ed. V. Ərəbov ; ön sözün müəl. E. Tofiqqızı; red. T.Kazımlı; [burax. məs. S.İsmayılova; baş red. S.Bektaşi]. - Bakı: Şərq Qərb, 2014. - 484 s.

Serenada / B.Şou // Ədəbi Nobel antologiyası / tərt. ed. və nəşrə hazırl. N.Əbdülrəhmanlı (tərc.); red. N.Qoşalı; layih. rəhb. Q.Paşayeva; Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu İB. – Bakı, 2012. – S. 125 – 132.

Sonetlərin Əsmər ledisi / B.Şou // İngilis ədəbiyyatı antologiyası: 2 cilddə / tərt. ed. Z.Ağayev; tərc. ed. Z.Ağayev, E.Şıxlı, V.Musayev [və b.]. – C. 2. – Bakı, 2007. – S.19 – 38.

Elçin. Ölümə hazır olan insan: Bernard Şounun "Milyonçu qadın" pyesini tərcümə edərkən / Elçin // 525-ci qəzet. - 2017. - 22 aprel. - S. 16.

Corc Bernard Şou 1856-cı il iyulun 26-da İrlandiyanın Dublin şəhərində anadan olmuşdur. Mənşəcə irland olan Şou 1871-ci ildə kolleci bitirmiş, lakin maddi çətinliklər səbəbindən universitet təhsilini davam etdirə bilməmişdir. 1876-cı ildə Londona köçərək jurnalist fəaliyyətinə başlamış və qəzetlərdə teatr və musiqi tənqidçisi kimi çalışmışdır.

Corc Bernard Şou yazıçı fəaliyyətinə romanlarla başlamışdır. "Ağılsız kəbin" (1880), "Artistin məhəbbəti" (1881), "Keşel Bayronun sənəti" (1882) və "Həvəskar sosialist" (1883) əsərləri ilə ədəbi ictimaiyyətin diqqətini çəkmişdir. 1884-cü ildə o, İngiltərə sosialistlərinin "Fabian" cəmiyyətinə üzv olmuş və 27 il bu təşkilatın sıralarında fəaliyyət göstərərək sosialist ideyalarını təbliğ etmişdir.

1885–1890-cı illərdə Şou Londonun "World" və "Star" qəzetlərində teatr və musiqi tənqidçisi kimi çıxış etmişdir. Teatr sahəsində yaradıcılığı onun 60-dan çox pyes yazmasına imkan vermişdir. İlk pyesləri arasında "Dul kişinin evləri" (1892), "Arvadbaz" (1893) və "Missis Uorrenin peşəsi" (1894) yer almış, bu əsərlərdə ailə və şəxsi münasibətlər mövzusu işlənmişdir. Sosial və etik problemləri əks etdirən pyeslər isə "Silah və insan" (1894), "Kandida" (1894), "Taleyin sevimlisi" (1895) və "Yaşayarıq, görərik" (1895) əsərləridir. Novator dramaturji yanaşmalarını isə "Şeytanın şagirdi" (1896–1897), "Sezar və Kleopatra" (1898) və "Kapitan Brasbaundun müraciəti" (1899) pyeslərində nümayiş etdirmişdir.

XX əsrin əvvəllərində yazdığı pyeslər, o cümlədən "İnsan və fövqəlbəşər" (1901–1903), "Mayor Barbara" (1905), "Həkimin dilemması" (1906), "Piqmalion" (1913), "Ürək sındırılan evdə" (1913–1919), "Alma arabası" (1929), "Əngəl" (1933), "Milyoner arvadı" (1936) və "Cenevrə" (1938), kapitalist cəmiyyətinin sosial və etik çatışmazlıqlarını tənqid etmişdir. Şounun yeganə faciə əsəri olan "Müqəddəs İoanna" (1923) Fransa milli qəhrəmanı Janna d'Arka həsr olunmuşdur. Ömrünün son illərində isə "Bayantın milyardları" (1948) və "Uydurma təmsillər" (1950) pyeslərini yazmışdır.

Dramaturq kimi tanınması "Şeytanın şagirdi" (1897) pyesi ilə başlamışdır; bu əsər ABŞ-da tamaşaya qoyulmuş və müəllif burada vətəni Britaniyadan əvvəl Amerikada şöhrət qazanmışdır. 1898-ci ildə Şou əsərlərinin iki cildliyini "Xoşa gələn və xoşa gəlməyən pyeslər" adı altında çap etdirmişdir. 1903-cü ildə "Kandida" pyesi ABŞ səhnəsində göstərilmiş, 1904-cü ildə isə Londonun Kort teatrında oynanılan "Con Bullun başqa adası" pyesi tamaşaçılar tərəfindən yüksək qiymətləndirilmişdir.


1925-ci ildə Şou ədəbiyyat üzrə Nobel mükafatına layiq görülmüş, pul mükafatını İsveç ədəbiyyatını ingilis dilinə tərcümə etmək üçün fond yaratmaq məqsədilə ayırmış, medalı qəbul etmişdir. 1938-ci ildə "Piqmalion" pyesinin motivləri əsasında çəkilən filmə görə Oskar mükafatına layiq görülmüşdür. Corc Bernard Şou Uilyam Şekspirdən sonra ingilis teatrının ən tanınmış dramaturqu hesab olunur.

Şou 2 noyabr 1950-ci ildə Eyot-Sent-Lorensdə vəfat etmişdir.

Onun dramaturji irsi həm teatr sahəsində, həm də dünya ədəbiyyatında əhəmiyyətli rol oynamışdır. 250 mindən çox məktubu vasitəsilə Corc Bernard Şou ictimai-siyasi məsələlər, ədəbiyyat, teatr və incəsənət sahəsindəki düşüncələrini yazılı şəkildə qoruyub saxlamışdır. Onun bir sıra əsərləri, o cümlədən "Şeytanın şagirdi" və "Piqmalion", Azərbaycan səhnəsində də tamaşaya qoyulmuşdur.

Xalid Uşaqlıgil – 160

(1866-1945) *Türk yazıçısı*



Xalid Ziya Uşaqlıgil (Halit Ziya Uşaklıgil) 1866-cı il iyulun 30-da İstanbulda anadan olmuşdur (bəzi mənbələrdə 1865 göstərilir). İlk təhsilini orta məktəbdə almış, daha sonra Fatih Hərbi Rüştiyesində oxumuşdur. Müharibənin başlanması ilə əlaqədar ailəsi ilə birlikdə İzmirə köçmüş və təhsilini İzmir Rüştiyəsində davam etdirmişdir. Fransız dilini təkmilləşdirmək məqsədilə internat məktəbinə getmiş, burada həm fransız ədəbiyyatını yaxından öyrənmiş, həm də yazıçı kimi inkişaf etmişdir. İlk yazılarını İstanbulda "Xəzine-i-Evrak" jurnalında "Məhməd Xalid" təxəllüsü ilə dərc etdirmişdir. Sonuncu sinifdə oxuyarkən məktəbdən ayrılmış və atasının katibi kimi iş fəaliyyətinə başlamışdır. Həmin dövrdə "Novruz" adlı jurnal nəşr etmiş, burada tərcümə, şeir, hekayə, mənsur şeir və elmi yazılarını oxuculara təqdim etmişdir.

Fransız ədəbiyyatının tarixi ilə bağlı "Qərbdən Şərqə Səyyale-i Ədəbiyyə: Fransa Ədəbiyyatının nümunə və tarixi" adlı əsəri 1885-ci ildə nəşr olunmuşdur. Həmçinin İzmir Rüştüyəsində fransız dili müəllimi kimi fəaliyyət göstərmiş, eyni zamanda Osmanlı Bankında işləməyə başlamışdır. İzmir məktəbi açıldıqdan sonra müəllimlik fəaliyyətini bu məktəbdə davam etdirmiş, fransız dili ilə yanaşı türk ədəbiyyatından da dərs demişdir.

1886-cı ildə dostu Tevfik Nevzat ilə birlikdə "Hizmet" (Xidmət) adlı qəzet nəşr etmişdir. Bu qəzet Vali Xəlil Rüfət Paşa və hüquq dairəsi rəisinin himayəsində yayımlanmış, şəhərin mədəniyyət həyatına yeni nəfəs gətirmiş, yazıçıya geniş yaradıcılıq imkanları açmışdır. İlk əsərləri, o cümlədən "Ne mide" (1889), "Bir ölünün defteri" (1889), "Ferdi ve Şürekasi" (1894) "Xidmət" qəzetində dərc olunmuşdur. 1885-ci ildə ardıcıl olaraq nəşr edilən "Sefile" adlı ilk romanı qadağan edilmişdir.

Roman janrından əlavə, Xalid Ziya Uşaqlıgil mənsur şeir nümunələri də yaratmışdır; "Mezardan sesler" adlı mənsur şeirləri oxucular tərəfindən maraqla qarşılanmışdır. Həmçinin övladları üçün "Kırık oyuncaq", "Kırık hayatlar" və "Bir acı hikaye" kitablarını yazmışdır.

1893-cü ildə İstanbulda baş katib vəzifəsinə təyin olunmuş və bu vəzifədə 16 il çalışmışdır. Eyni dövrdə yaradıcılığa və mütaliəyə vaxt ayırmışdır. 1897-ci ildə çap olunan "Mavi və siyah" romanında kədərli eşq macərası ikinci plana keçirilmiş, dövrün mətbuat dünyası və "Edebiyyat-e Cedide" ədəbiyyat birliyinin bu dünyaya baxışı əsərdə əks olunmuşdur. İlk böyük türk romanı hesab olunan "Puç olmuş həyatlar" ("Aşk-ı Memnu") romanını 1898–1900-cü illərdə yazmışdır. "Mavi və siyah" əsərinin qazandığı rəğbətdən sonra yazıları əsasən tirajı yüksək olan "İkdam" və "Sabah" qəzetlərində dərc olunmuşdur.

1930-cu ildən etibarən yaradıcılığında yenidən canlanma müşahidə olunmuş, əsərləri "Cümhuriyet" və "Son Posta" qəzetlərində çap edilmişdir.

Xalid Ziya Uşaqlıgil 1945-ci il martın 27-də vəfat etmiş, İstanbulda Bakırköy qəbiristanlığında dəfn olunmuşdur.

Onun yaradıcılığı Türk ədəbiyyatında modern roman və mənsur şeir inkişafında mühüm rol oynamış, həm dövrünün mədəni həyatına, həm də sonrakı nəsillərin ədəbi irsinə əhəmiyyətli təsir göstərmişdir.

Ədəbiyyat:

Aşk-ı memnu / H.Z. Uşaklıgil. – İstanbul: Özgür Yayınları, 2011. – 246 s.

Kırık hayatlar / H.Z.Uşaklıgil. – İstanbul: Özgür yayınları, 2012. – 254 s.

İçməli su / X.Ziya Uşaqlıgil // Türkiyə ədəbiyyatı antologiyası: nəsr / [çevirən.: Q.Alxanova, K.Ələkbərova, S.Nağı]; red.: Y.Əliyev, S.Sarvan; ön sözün müəl. E. Başkeçid; [üz qabığının tərtibatı A.Əmrahov]. - Bakı, 2017. - S. 18-22.

Fərəcov, S. Türk ədəbiyyatının böyük nəsr ustası / Savalan Fərəcov // Mədəniyyət. - 2016. - 22 iyul. - S. 11.


İnternetdə:

http://kayzen1.rssing.com/chan-5724219/all_p307.html az.wikipedia.org › wiki › Halit_Ziya_Uşaklıgil www.anl.az › down › meqale › edebiyyat › iyul

Vidadi Nərimanbəyov – 100

(1926-2001)

Rəssam



Ədəbiyyat:

Fərəcova, Z. Duyğularını əsərlərində canlandıran rəssam / Zöhrə Fərəcova // Azərbaycan.-2024.- 28 iyul (№ 158).- S.10.

Ələddinqızı, N. Sənətkar zamanın güzgüsü, əsərləri cahanın əksidir / Nəzakət Ələddinqızı // Səs.-2024.- 25 iyul, №131.- S.10.

Fərəcov, S. Dünyanı dolaşan rənglər səltənəti / Savalan Fərəcov // Mədəniyyət. - 2021.- 16 iyul.- S. 5.

Pənahova, A. "Zəncirotu": "Bir rəsmin dedikləri" rubrikası / Aybəniz Pənahova: müsahibəni apardı A.Sahəd // 525-ci qəzet.-2021.- 1 sentyabr.- S.12.

Fariz. İllərin rəng və çalarları: Xalq rəssamı Vidadi Nərimanbəyovun 90 illiyinə həsr olunmuş sərgi / Fariz // Mədəniyyət. - 2016. - 20 iyul. - S. 6.

Qaliboğlu, S. Xalq rəssamı Vidadi Nərimanbəyovun sərgisi başa çatdı / S.Qaliboğlu // Mədəniyyət. – 2016. – 22 iyul. – S. 5.

Nərimanbəyov Vidadi Yaqub oğlu // Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə. – C.7. – Bakı, 1983. – S.225.

İnternetdə:

http://www.anl.az/down/meqale/medeniyyet/2016/

Vidadi Yaqub-Fərman oğlu Nərimanbəyov XX əsrin görkəmli Azərbaycan rəssamlarından biri olmuşdur. O, 13 iyul 1926-cı ildə Fransanın Kann şəhərində anadan olmuş, ailəsi ilə birlikdə Bakıya qayıtmışdır. İlk təhsilini 1943–1944-cü illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində almış, 1944–1950-ci illərdə isə Sovet Ordusu sıralarında xidmət etmişdir.

1950–1953-cü illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsilini davam etdirən rəssam, 1953–1956-cı illərdə V.İ. Muxin adına Leninqrad Ali Rəssamlıq-Sənaye Məktəbində, 1957–1960-cı illərdə isə Tbilisi Rəssamlıq Akademiyasında təhsil almışdır. Tələbəlik dövründə "Düşmənin sevinci..." adlı əsəri ilə tanınmışdır.

İkinci Dünya müharibəsi Vidadi Nərimanbəyovun yaradıcılığına mühüm təsir göstərmiş, əsərlərində müharibə və hərbi-vətənpərvərlik mövzusu önəmli yer tutmuşdur. Bu mövzuda yaradılan əsərlər sırasında "Ağır illər" (1960), "Yolda" (1963), "Müharibə yolları" (1965), "Xatirələr" (1967), "And" (1969), "Bakılılar. Qırx birinci il" (1970), "Böyük Vətən müharibəsi" (1971), "Sovet İttifaqına xidmət edirəm!" (1973), "Bayraq" (1975), "Adsız təpədə" (1978), "İthaf" (1980) və "Vidalaşma" (1981) tabloları xüsusi yer tutur. Bu əsərlərdə müharibənin dağıdıcı təsirləri və sovet xalqının faşizmə qarşı qəhrəmanlıq mübarizəsi əks olunmuşdur.

1961-ci ildən SSRİ Rəssamlar İttifaqının üzvü olan Vidadi Nərimanbəyov, 1963-cü ildə "Yolda" adlı monumental və irihəcmli tablosu ilə geniş şöhrət qazanmışdır. Əsər hazırda R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində daimi sərgilənir. Rəssam portret və natürmort janrlarında da yaradıcılıq etmiş, "Nəzifənin portreti" (1965), "Natürmort" (1969), "Oğlumun portreti" (1972), "Tələbə qız" (1977) və "Tələbə Nigar" (1980) kimi əsərləri ilə fərqlənmişdir.

Vidadi Nərimanbəyovun yaradıcılığı yalnız keçmiş SSRİ ölkələri ilə məhdudlaşmamış, Macarıstan, Çexiya, Bolqarıstan, Rumıniya, Almaniya, Əlcəzair, Finlandiya, İtaliya, Avstriya, Türkiyə, Hindistan, İraq və digər ölkələrdə fərdi sərgilər təşkil edilmişdir. 1972–1986-cı illərdə Azərbaycan SSR Rəssamlar İttifaqının İdarə Heyətinin sədr müavini vəzifəsində çalışmışdır. 1992–2000-ci illərdə Fransanın Bordo, Po və Biarritz şəhərlərində "Buskayrol" Qalereyasında fərdi sərgiləri nümayiş etdirilmişdir.

20 Yanvar faciəsinə həsr etdiyi "Qatillər" tablosu dünyanın müxtəlif sərgi salonlarında nümayiş olunmuş, bu əsər rəssamın vətənpərvərlik mövzusuna sadiqliyinin nümunəsi olmuşdur. Onun yaradıcılığı və ictimai fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1977-ci ildə "Əməkdar rəssam", 1982-ci ildə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüş, 2001-ci ildə Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Vidadi Nərimanbəyovun əsərləri Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası, Moskva Dövlət Tretyakov Qalereyası və digər beynəlxalq muzeylərdə qorunur. Onun əsərləri Azərbaycan təsviri sənətində hisslərin dərinliyi, zaman və insan haqqında düşüncələr, vətənpərvərlik və Vətən qarşısında məsuliyyət hissi ilə seçilir.

Vidadi Yaqub oğlu Nərimanbəyov 13 dekabr 2001-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Onun həyat və yaradıcılığı haqqında "Sənətə həsr olunmuş ömür" adlı sənədli film lentə alınmışdır.

Harmens Rembrandt – 420

(1606-1669) *Holland rəssamı*



Harmens van Reyn Rembrandt 1606-cı il iyul ayının 15-də Hollandiyanın Leyden şəhərində anadan olmuşdur. İlk təhsilini latın məktəbində alan Rembrandt 1620-ci ildə Leyden Universitetinə daxil olsa da, rəssamlığa olan dərin marağı səbəbindən ali təhsilini yarımçıq qoymuşdur. O, Leydendə Yakob van Svanenburqdan ilkin rəssamlıq dərsləri almış, 1623-cü ildə Amsterdama gedərək tarixi kompozisiyaların tanınmış ustası Piter Lastmanın emalatxanasında təhsilini davam etdirmişdir.

1625–1631-ci illərdə o, Leyden şəhərində şəxsi emalatxanasını yaradaraq müstəqil fəaliyyətə başlamış və gənc rəssam Yan Livens ilə birgə məhsuldar yaradıcılıq mühiti formalaşdırmışdır. Bu mərhələ sənətşünaslıqda "Leyden dövrü" kimi xarakterizə olunur və Rembrandtın işıq-kölgə kontrastını ifadə vasitəsi kimi sistemli şəkildə tətbiq etdiyi ilk dövr hesab edilir. 1632-ci ildə Amsterdama köçməsi onun yaradıcılığında mühüm dönüş yaratmış, burada rəssam həm portret janrında, həm də tarixi süjetli əsərlərdə geniş tanınmışdır.

1630–1640-cı illər Rembrandt yaradıcılığının yüksəliş mərhələsi kimi dəyərləndirilir. Bu dövrdə işlədiyi "Doktor Tülpün anatomiya dərsi" (1632), "Saskiyanın portreti" (1634) və digər portret kompozisiyaları onun psixoloji təhlil bacarığını nümayiş etdirmişdir. Rəssamın barokko üslubunun təsiri ilə yaratdığı "Çarmıxdan endirilmə" (1634), "İbrahimin qurban verməsi" (1635), "Danaya" (1636) və "Samsonun gözlərinin çıxarılması" (1636) əsərləri isə dini və mifoloji mövzulara realist yanaşmanın klassik nümunələri kimi qəbul olunur.

Rəssamın ən monumental əsərlərindən olan "Gecə gözətçiləri" (1642) Niderland qrup portreti ənənəsinə yeni kompozisiya və işıq həlləri gətirmişdir. Lakin əsərin sifarişçilər tərəfindən birmənalı qarşılanmaması Rembrandtın maddi vəziyyətinə mənfi təsir göstərmiş və sonrakı illərdə onun iqtisadi çətinliklərlə üzləşməsinə səbəb olmuşdur.

1650–1660-cı illər Rembrandt yaradıcılığında psixoloji dərinliyin gücləndiyi mərhələ kimi xarakterizə olunur. Bu illərin "Virsaviya" (1654), "Xendrikye Stoffelsin portreti" (1656–1657) və çoxsaylı avtoportretləri rəssamın insan xarakterini müşahidə və analitik təqdimetmə bacarığını nümayiş etdirir. Onun dini mövzulu əsərləri – "Assur, Aman və Esfir" (1660) və yaradıcılığının zirvələrindən biri hesab edilən "Səfil oğulun qayıtması" (1668–1669) – həm kompozisiya bütövlüyü, həm də mənəvi-etik məzmun baxımından yüksək dəyərləndirilir.

Rembrandt rəngkarlıqla yanaşı, qrafika sahəsində də mühüm irs yaratmışdır. Təxminən 300 ofortdan və minlərlə rəsm işindən ibarət qrafik yaradıcılığı Avropa qrafikasında yeni texniki və üslubi meyllərin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Ümumilikdə onun 800-dən çox yağlı boya əsəri olduğu qəbul edilir.

Rəssamın həyatının son illəri maddi çətinliklərlə müşayiət olunmuş, 1656–1657-ci illərdə müflis elan edildiyi üçün əmlakı satışa çıxarılmışdır. Bununla belə, o, yaradıcılığını davam etdirmiş və dünya təsviri sənət tarixində dərin psixoloji realizmin və işıq dramaturgiyasının əsas nümayəndələrindən biri kimi öz yerini qorumuşdur.

Harmens van Reyn Rembrandt 4 oktyabr 1669-cu ildə Amsterdamda vəfat etmiş və şəhərin yurdsuzlar qəbiristanlığında dəfn olunmuşdur.

Onun yaradıcılığı müasir sənətşünaslıqda həm Niderland rəngkarlığının inkişaf mərhələlərini öyrənmək, həm də realist təsvir prinsiplərinin tədqiqi baxımından mühüm elmi mənbə kimi dəyərləndirilir. Rəssamın əsərləri hazırda dünyanın aparıcı muzey və qalereyalarında qorunur və Rembrandt adı dünya incəsənət irsinin ən mühüm simvollarından biri kimi yaşadılmaqdadır.

Ədəbiyyat:

Dünya təsviri sənət tarixinin tanınmış rəssamı Rembrandt: (Dərs vəsaiti) / E. Ağayev, S. Ələkbərova, R. Mahmudova [və b.] ; red.: S. Q. Sadıqov, X. R. Rüstəmova ; Azərb. Resp. Elm və Təhsil Nazirliyi. - Bakı: [n. y.], 2025. - 109 s.

Aytac S. "Doktor Tulpun anatomiya dərsi" / İlahə Əmirova: müsahibəni apardı Aytac Sahəd // 525-ci qəzet.-2024.- 1 may,№75.-S.12

"Gecə gözətçisi" bərpa olunur // Mədəniyyət. - 2019. - 12 iyul. - S. 8.

Ağaoğlu, M. Rembrandtı kimi ahı tutmuşdu... / Mirmehd Ağaoğlu // Ədəbiyyat qəzeti.-2015.- 15 avqust.- S.7.

Vahid, T. Dəyirmançının dahi oğlu: Dünya rəssamları / Təranə Vahid // Mədəniyyət.-2013.- 12 iyul.- S. 12.

İnternetdə:

http://www.anl.az/down/ meqale/medeniyyet/2019/ iyul/664187.htm

az.wikipedia.org › wiki › Rembrandt

Maral Rəhmanzadə – 110

(1916-2008)

Rəssam



Maral Yusif qızı Rəhmanzadə 1916-cı il iyul ayının 23-də Bakının Mərdəkan qəsəbəsində anadan olmuşdur. İlk təhsilini Hüseyn Cavid adına qız məktəbində alan Maral Rəhmanzadə hələ məktəb illərində çəkdiyi ilk illüstrasiyalarla müəllimlərinin və ailəsinin diqqətini çəkmişdir.

1930–1933-cü illərdə Əzim Əzimzadə adına Rəssamlıq Texnikumunda, 1934–1940-cı illərdə isə Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda təhsil alan Maral Rəhmanzadə dövrünün tanınmış sənətkarlarından dərs almış, illüstrasiya, rəngkarlıq və plakat sənətinin əsaslarını mənimsəmişdir. Moskvada "Xudojestvennaya literatura" nəşriyyatda işə başlamasına baxmayaraq, 1941-ci ildə atasının repressiya qurbanı olması onun həyatını dəyişmiş, sənətkar Bakıya qayıdaraq yaradıcılığını burada davam etdirmişdir. Elə bu dövrdən etibarən "Maral Rəhmanzadə" imzası Azərbaycan təsviri sənətində özünəməxsus yer tutmağa başlamışdır.

Rəssamın yaradıcılığının ilk mərhələsi müharibə illəri ilə üst-üstə düşmüş və o, qadınların cəbhə və arxa cəbhədəki fədakarlığını sənədli lirika ilə əks etdirən silsilə rəsmlər yaratmışdır. "Azərbaycan qadını keçmişdə və indi" və "Qadınlar müharibə illərində" kimi silsilələr, eləcə də "Xalq könüllüləri", "Cəbhədə qadınlar", "Partizan qızı", "Rabitəçi" kimi əsərlər onun realist müşahidə qabiliyyətini və güclü psixoloji ifadəliliyini nümayiş etdirir.

Müharibədən sonraki yaradıcılığının aparıcı mövzularından biri neft sənayesi olmuşdur. Rəhmanzadə Xəzər dənizindəki neft mədənlərində çalışan ilk rəssamlardan biri kimi neftçilərin əmək prosesini birbaşa müşahidə etmiş, 1947-ci ildə "Neft" avtolitoqrafiya silsiləsini, sonrakı illərdə isə "Bizim Xəzərdə", "Sosialist Bakı", "Bakı" kimi silsilələri yaratmışdır. Bu əsərlər sənaye panoramalarının təsviri ilə yanaşı, əmək insanının romantik qəhrəmanlığını da özündə cəmləşdirir.

Maral Rəhmanzadə Azərbaycan qrafikasının klassik simalarından biri kimi xüsusilə rəngli linoqravüra texnikasında böyük nailiyyətlər qazanmışdır. 1960–1980-ci illər ərzində yaratdığı "Bizim qızlar", "Mənim bacılarım", "Azərbaycan", "Doğma vətənim" kimi silsilələrdə milli qadın obrazı, kənd həyatının poetikliyi və təbiət mənzərələrinin lirizmi qrafik dildə yüksək bədii ifadəsini tapmışdır. Onun Xınalıq və digər dağ bölgələrinə həsr etdiyi silsilələr milli kolorit, səmimiyyət və kompozisiya mədəniyyəti ilə seçilir.

Rəssam kitab qrafikasında da böyük uğurlar əldə etmiş, klassik ədəbiyyat nümunələrinə çəkdiyi illüstrasiyalarla Azərbaycan kitab sənətinin inkişafına ciddi töhfə vermişdir. Xətainin "Dəhnamə", Ordubadinin "Qılınc və qələm", Füzulinin "Qəzəllər", Nizaminin "Leyli və Məcnun", həmçinin Puşkin və Lermontovun əsərlərinə illüstrasiyalar onun qrafik yaradıcılığının mühüm səhifələrindəndir.

Maral Rəhmanzadə həm Azərbaycanda, həm də xarici ölkələrdə keçirilən sərgilərdə geniş tanınmış, Londondan Tokioya qədər bir çox şəhərlərdə əsərləri nümayiş etdirilmişdir. Sənətkarın rəngkarlıq və qrafika nümunələri Tretyakov Qalereyası da daxil olmaqla dünyanın müxtəlif muzey və şəxsi kolleksiyalarında qorunur.

Sənətkarın Azərbaycan mədəniyyətinə töhfələri yüksək qiymətləndirilmişdir: 1964-cü ildə Xalq rəssamı adı, 1965-ci ildə Azərbaycan SSR Dövlət mükafatı, "Qırmızı Əmək Bayrağı" və "Şərəf nişanı" ordenləri, müstəqillik illərində isə "Şöhrət" ordeni ilə təltif edilmişdir. O, uzun illər prezident təqaüdçüsü olmuşdur.

Maral Rəhmanzadə 16 mart 2008-ci ildə Bakıda vəfat etmiş və Mərdəkanda dəfn olunmuşdur. Onun yetmiş ildən artıq davam edən yaradıcılığı Azərbaycan təsviri sənətinin inkişafında silinməz iz qoymuş, milli qadın obrazının bədii təcəssümünü zənginləşdirmiş, qrafika sənətimizin üfüqlərini genişləndirmişdir.

Ədəbiyyat:

Professional təhsilli ilk azərbaycanlı qadın rəssam // Hərbi And.-2023.- 28 iyul.- S.13.

Səlimli, N. Rəssam qadınlarımız... / Nuranə Səlimli // Qobustan: Sənət toplusu.-2022.- №1.- S.36-59.

Abiyeva, K. Maral Rəhmanzadə:105 yaşlı ilk profesional azərbaycanlı rəssam qadın / Kəmalə Abiyeva // Ədalət.- 2021.- 24 iyul.- S.14.

Ağayev, E. Maral Rəhmanzadə yaradıcılığında qadın obrazları:Emil Ağayev / Axtarışlar: (ədəbiyyatşünaslıq, folklorşünaslıq, dilçilik və sənətşünaslıq) // AMEA, Naxçıvan bölməsi.- 2021.- №1.- S. 214-217.

Əliyeva, S. Xalq rəssamı Maral Rəhmanzadənin yaradıcılığında qadın obrazı / Sevinc Əliyeva // Elmi əsərlər / Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.-2021.- №30.- S.110-117.

Fərəcova, Z. İlk peşəkar qadın rəssamımız / Z.Fərəcova // Azərbaycan. - 2021.- 25 iyul.- S.5.

Kamal Musaxanov – 70

(1956) *Memar*



Kamal Ağa Paşa oğlu Musaxanov 24 iyul 1956-cı ildə Bakıda anadan olmuşdur. O, 1978-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirərək memarlıq və mühəndislik sahəsində peşəkar fəaliyyətə başlamışdır. Həmin ildən etibarən "Bakı Dövlət Layihə" İnstitutunda memar kimi çalışmış, 1981–1984-cü illərdə Leninqrad vilayətinin Sosnovıy Bor şəhərində fəaliyyət göstərən Bədii-tərtibat emalatxanasında memar-rəssam vəzifəsində işləmişdir.

1984–1987-ci illərdə "Bakıdövlətlayihə" institutunda baş memar kimi fəaliyyətini davam etdirən Kamal Musaxanov, 1987–1991-ci illərdə Kirov rayon İcraiyyə Komitəsinin layihə-smeta bürosuna rəhbərlik etmişdir. 1991–1994-cü illərdə "Memarlıq. İqtisadiyyat. Şəhərsalma" Elmi-layihə kooperativinin baş mühəndisi, 1995–2002-ci illərdə "İnşaat C" MMC-də baş mühəndis olmuş, 2002–2005-ci illərdə isə "Səbail mətbəə-1" ASC-nin direktoru kimi çalışmışdır.

2005-ci ildən etibarən ARCON MMC-də direktor müavini, baş memar və baş mühəndis vəzifələrini icra edən Kamal Musaxanov 2016-cı ildən "AMİ Proyekt" yaradıcı memarlıq layihə birliyində baş memar kimi fəaliyyət göstərir. Onun uzun illər ərzində memarlıq və layihələndirmə sahəsində topladığı təcrübə, həmçinin müxtəlif miqyaslı layihələrdə iştirak və rəhbərliyi peşəkar memarlıq mühitində yüksək qiymətləndirilir.

Kamal Musaxanovun müəllifi olduğu memarlıq layihələri həm funksional həlləri, həm də müasir estetik yanaşması ilə seçilir. Onun ən mühüm layihələrinə Mərdəkandakı "Khazar Golden Beach" oteli, Bakı Beynəlxalq Avtovağzal Kompleksi, T. Əliyev küçəsində yerləşən "İngilis həyatı" biznes mərkəzi, paytaxtın Füzuli küçəsində salınmış "Qış bulvarı" park kompleksi və yeraltı dayanacaq, Ucar Mərkəzi Rayon Xəstəxanası, Bakıda Qarant Holding-in ofis binası, Binə Ticarət Mərkəzinin ərazisində layihələndirilmiş yaşayış qəsəbəsi, eləcə də Bakıda inşa edilən Ramada oteli daxildir. Bu layihələr şəhərsalma prinsiplərinə uyğunluğu, memarlıq-estetik həlləri və funksional planlaşdırılması ilə seçilərək müasir Azərbaycan memarlığının inkişafına töhfə vermişdir.

Memarlıq sahəsində uzun illər göstərdiyi xidmətlərə görə Kamal Musaxanov 25 noyabr 2016-cı ildə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Əməkdar memar" fəxri adına layiq görülmüşdür. 2017-ci ildə ona "Ustad memar" yüksək peşəkarlıq dərəcəsi sertifikatı təqdim edilmişdir. 2022-ci ildə Beynəlxalq Memarlıq Akademiyasının Moskva bölməsinin müxbir üzvü seçilən Kamal Musaxanov həmin ildə Memarlar İttifaqlarının Beynəlxalq Assosiasiyasının Yubiley medalı ilə də təltif olunmuşdur.

Kamal Ağa Paşa oğlu Musaxanov Azərbaycan memarlığının inkişafında özünəməxsus yeri olan, geniş layihə təcrübəsinə malik, peşəkar memar-mühəndis kimi fəaliyyətini bu gün də uğurla davam etdirir. Onun yaradıcılığı funksionallıq, estetik düşüncə və şəhərsalma prinsiplərinin vəhdəti ilə seçilərək müasir memarlıq mühitinin formalaşmasına əhəmiyyətli təsir göstərir.

Ədəbiyyat:

Azərbaycan memarlarına "Əməkdar memar" fəxri adının verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 noyabr 2016-ci il // Azərbaycan.- 2016.- 26 noyabr.- S.2.

Əliyev, E. Müasir Azərbaycan memarları 2010 / Elçin Əliyev(ön söz müəl.); red. P. Əliyeva; ing. dilinə tərc. ed. A. Əzimov; dizayn N. Novruzov. - Türkiyə: spfm publishing house, 2010. - 510 s.

İnternetdə:

https://uaa.az/muasir-memarliq/

https://az.wikipedia.org/wiki/Azərbaycan_Respublikasının_əməkdar_memarlarının_siyahısı

İYUL
31

İlqar Bəylərov – 65

(1961)

Memar



Ədəbiyyat:

Azərbaycanda memarlığın inkişafında xidmətləri olan şəxslərə «Əməkdar memar» fəxri adının verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 1 oktyabr 2012-ci il // Azərbaycan.- 2012.- 2 oktyabr.- S. 2.

Azərbaycan memarlarının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 18 dekabr 2017-ci il // Azərbaycan. - 2017.-20 dekabr.- S.3.

Naxçıvanda memarlıq yaşayır və inkişaf edir / İlqar Bəylərov // Memar.-2015.- №7. - S.154.

İlqar Bəylərov: "Hər dövrə - özünün daş əsəri" / İlqar Bəylərov; Söhbətləşdi M.Şərifov // Memar.-2013.- № 1.- S.86-87.

Alışoğlu, K. Müasir memarlıq layihələri dövrün tələbədir / Kamal Alışoğlu // Respublika.-2011.- 29 yanvar.- S. 6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/İlqar_Bəylərov

https://uaa.az/muasir-memarliq/bəylərov-ilqar-xidir-oglu/

İlqar Xıdır oğlu Bəylərov 31 iyul 1961-ci ildə Laçın şəhərində anadan olmuşdur. O, 1983-cü ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirdikdən sonra əmək fəaliyyətinə Bakı Baş Tikinti İdarəsində başlamış, daha sonra SSRİ Elmlər Akademiyasının Baş Layihə Elmi-Tədqiqat İnstitutunda memar kimi çalışmışdır. 1985-ci ildən Azərbaycan Memarlar İttifaqının üzvü olan İlqar Bəylərov peşəkar fəaliyyətini memarlıq sahəsinin müxtəlif istiqamətlərində davam etdirmişdir. 2012-ci ildən etibarən Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin katibi kimi fəaliyyət göstərir

1992–1995-ci illərdə ASİNAM assosiasiyasında Layihə-Tikinti Şöbəsinin müdiri, 1995–2001-ci illərdə "ASİYA PLUS" firmasının icraçı direktoru, 2002–2014-cü illərdə isə "ATTİLA" KM Memarlıq Qrupunun direktoru vəzifələrində çalışmışdır. Onun rəhbərliyi ilə fəaliyyət göstərən memarlıq qrupları müxtəlif təyinatlı sosial, səhiyyə və yaşayış obyektlərinin layihələndirilməsi və tikintisi istiqamətində mühüm işlər yerinə yetirmişdir. 2014-cü ildən İlqar Bəylərovun təsisçiliyi ilə yaradılmış "IBA GROUP" MMC memarlıq şirkəti fəaliyyət göstərir. Şirkət yaşayış, ictimai və sənaye təyinatlı obyektlərin layihə sənədlərinin hazırlanması üzrə baş layihəçi lisenziyasına malikdir və memarlıq-inşaat sektorunda geniş layihələr icra etmişdir.

Memar İlqar Bəylərovun müəllifi olduğu layihələr sırasında Bakı şəhərində "Debüt Bank"ın inzibati binası, "Altes Park", "Altes Plaza", "Top Town" və "Sun City" hündürmərtəbəli yaşayış kompleksləri, "Palitra" çoxfunksiyalı yaşayış binası, Babək prospektində tikilmiş 28 mərtəbəli yaşayış binası, habelə 18–26 mərtəbəli müxtəlif yaşayış binaları xüsusi yer tutur. Onun memarlıq layihələri həmçinin Azərbaycan bölgələrində geniş şəkildə həyata keçirilmişdir. Qazax, Bərdə, Zaqatala, Xızı, Tovuz, Daşkəsən, Dəvəçi, Gəncə, Yevlax, Ağcabədi, Qəbələ, Şabran, Şəmkir, Sabirabad, Samux, Fizuli, Goranboy və digər rayonlarda müalicə-diaqnostika mərkəzləri və mərkəzi rayon xəstəxanaları, Bakı şəhərində isə 500 çarpayılıq Sağlamlıq Mərkəzi, müxtəlif reabilitasiya və kardioloji mərkəzlər onun layihələri əsasında inşa olunmuşdur. Bundan başqa, memarın müəllifliyi ilə Şirvan şəhərində "Kür" kompüter zavodu, "Qafqaz Plaza" ofis mərkəzi, "Bank of Baku" və "Baku Electronics"in Q.Qarayev filialları, Ak. H.Əliyev küçəsində 1000 şagirdlik Təhsil Kompleksi, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının yeni binası, eləcə də ictimai iaşə və ticarət obyektləri tikilmişdir.

Memar İlqar Bəylərovun fəaliyyəti dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. O, 2008-ci ildə "Ustad memar" yüksək peşəkarlıq dərəcəsi sertifikatına, 2012-ci ildə Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə "Əməkdar memar" fəxri adına layiq görülmüşdür. 20 dekabr 2017-ci il tarixində isə ölkənin memarlıq sahəsinin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir. 22 fevral 2017-ci ildən Beynəlxalq Memarlıq Akademiyasının Moskva bölməsinin professorudur.

İlqar Bəylərovun memarlıq fəaliyyəti müasir Azərbaycan memarlığının formalaşması və şəhərsalma proseslərinin inkişafında mühüm rol oynamışdır. Onun layihələrində funksionallıq, şəhər mühitinə uyğunlaşma, müasir texnoloji həllər və estetik düşüncə xətti aparıcı yer tutur.

Eldar Rüstəmov – 80

(1946-2010)

Bəstəkar



Eldar Səid oğlu Rüstəmov 13 iyul 1946-cı ildə Bakıda anadan olmuş, erkən yaşlarından musiqi təhsili almış və peşəkar yaradıcılıq mühitində formalaşmışdır. Sonrakı illərdə Bakı Musiqi Akademiyasında pedaqoji fəaliyyət göstərmiş, professor elmi adını almış, eyni zamanda dirijor və skripkaçı kimi ifaçılıq təcrübəsi qazanmışdır.

Bəstəkarın yaradıcılığı simfonik, kamera-instrumental, vokal-xor və kino musiqisi kimi müxtəlif janrları əhatə edir. Onun simfonik və instrumental yaradıcılığına aid nümunələr arasında 1990-cı ildə skripka və piano üçün yazdığı sonata, 1991-ci ildə "Sən gedəndən" romansı, solist, xor və simfonik orkestr üçün "Heyranam, Vətən" odası (1992) və 1994-cü ildə solo skripka üçün yazdığı sonata xüsusilə diqqət çəkir.

Eldar Rüstəmovun vokal-xor yaradıcılığı intonasiya dəqiqliyi və faktura səliqəsi ilə seçilir. Bu istiqamətdəki əsas əsərləri arasında "Səadət nəğməsi" və "Bahar" akapella xorları (1996), "Düşdü yada" romansı (1998), "Meşə nağılı" simfonik süitası (1999) və "Bir də baxsan mənə" akapella xoru (2001) yer alır.

Bəstəkarın kino musiqisi sahəsində fəaliyyəti yaradıcılığının mühüm istiqamətlərindən biridir. O, sənədli, bədii və animasiya filmləri üçün musiqilər bəstələmişdir. Onun musiqi yazdığı ekran əsərləri arasında "Yeraltı əhvalat" (1975), "Mən Xəzəri görürəm" (1980), "Özünü onun yerinə qoy" (1983) sənədli filmləri, "Qoca palıdın nağılı" bədii filmi (1984), "Təqib" animasiya filmi (1984) və "Yay gününün xəzan yarpaqları" (1986–1987) bədii ekran əsərləri yer alır. Bundan əlavə, "Подземная история" (1993) və "Haqqın səsi" (1994) sənədli filmləri üçün də musiqi yaratmışdır. 1991-ci ildə çəkilmiş "Bəxt üzüyü" bədii filminin dirijorluğunu həyata keçirməsi onun kino sahəsində həm müəllif, həm də interpretator kimi fəaliyyətini nümayiş etdirir.

Eldar Səid oğlu Rüstəmov 23 aprel 2010-cu ildə vəfat etmişdir.

Ədəbiyyat:

Azərbaycanın görkəmli bəstəkarları [İzomaterial] : [albom] / lay. müəl. və tərt. Ə. Məhəmmədoğlu; dizayn F. Vəliyev. - [Bakı]: [Nurlar], [2014]. - [55] s.

Fəxr edir ellər [Notlar]: bariton, xor və fortepiano üçün / E. Rüstəmov ; sözl. R. Zəka // Əlyazma notlar.- Bakı n. y.- 1988? .- [8] s.

Düşdü yada [Notlar]:romans : səs və fortepiano üçün / E. Rüstəmov ; sözl. X. Mustafayeva // Əlyazma notlar.- Bakı; n. y.-1988?.- 8 s.

İnternetdə:

https://audiovisual.az/bestekar/eldar-rustəmov/

https://az.wikipedia.org/wiki/Eldar_Rüstəmov

Flora Kərimova – 85

(1941)

Müğənni



Ədəbiyyat:

F.Ə.Kərimovanın "Şərəf" ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 31 iyul 2021-ci il // Azərbaycan.-2021.-1 avqust.- S.2.

F.Ə.Kərimovaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 31 iyul 2021-ci il //Azərbaycan.-2021.-1 avqust.- S.2.

Ərəblinski, S. "Belə qəmli dayanma": Flora Kərimova nəğmənin qəmli tarixçəsini danışdı / SamirəƏrəblinski // Şərq.-2021.- 14 sentyabr.- S.7.

Samirə, Bu qatarın dalınca baxma: Flora Kərimova mahnının yaranma hekayəsini danışıb / Samirə //Şərq.- 2021.- 6 avqust.- S.14.

Rzayev, A. Xalq artisti Flora Kərimovaya: Anar Rzayev / Ədəbiyyat qəzeti.-2021.- 14 avqust.- S.4.

İnternetdə:

https://qebulol.az/flora-kerimova-haqqinda/

https://www.anl.az/down/meqale/tezadlar/2015/iyul/448517.htm

Flora Ələkbər qızı Kərimova 1941-ci il iyulun 23-də Bakı şəhərində anadan olmuşdur. Flora Kərimova 13 yaşından etibarən bədii özfəaliyyət kollektivlərində iştirak etməyə başlamış, bu fəaliyyət onun professional musiqi sahəsindəki ilk təcrübəsini təşkil etmişdir.

1964-cü ildə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunu bitirmiş, 1965–1971-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunda həkim ixtisasına yiyələnmiş, 1972–1977-ci illərdə isə Azərbaycan Dövlət Konservatoriyasında vokal təhsili almışdır.

Flora Kərimovanın səhnəyə çıxışı 1956–1957-ci illərdə Azərbaycan gənclərinin festivalında baş vermişdir. Sonrakı illərdə Şmidt zavodunun bədii özfəaliyyət kollektivində, Azərbaycan Dövlət Tibb İnstitutunun "Çinar" ansamblında və Azərbaycan Dövlət Filarmoniyasında çıxış etmişdir. 1983-cü ildən Azərbaycan Teleradio Verilişləri Şirkətinin solisti olmuşdur.

Yaradıcılığında opera, muğam, xalq mahnıları, romans və estrada janrları mühüm yer tutur. 1966-cı ildə Azərbaycan Dövlət Opera və Balet Teatrında "Leyli və Məcnun" operasında Leyli rolunu ifa etmiş, 1968-ci ildə "Qanun naminə" bədii filmində Züleyxa rolunda çəkilmişdir. Bəstəkar Elza İbrahimova Flora Kərimovanın səsi üçün xüsusi olaraq "Afət" operasını bəstələmişdir.

Flora Kərimova dörd oktavanı əhatə edən səs diapazonuna malik olub, muğam ifaçılığında da bacarıq göstərmişdir. Bu xüsusiyyət onu Azərbaycan musiqi mədəniyyətində həm opera, həm də estrada janrlarının inkişafına töhfə vermiş sənətçilərdən biri kimi tanıdır.

Sənətkarın repertuarında Tofiq Quliyev, Şəfiqə Axundova, Taleh Hacıyev, Fikrət Əmirov, Cahangir Cahangirov, Arif Məlikov, Rauf Hacıyev, Emin Sabitoğlu, Elza İbrahimova və digər bəstəkarların əsərləri yer almışdır. O, həmçinin Mikayıl Müşfiq, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Cabir Novruz və digər şairlərin sözlərinə mahnılar ifa etmişdir.

Azərbaycan SSR Nazirlər Soveti yanında Radio və Televiziya Verilişləri Komitəsinin təsis etdiyi "Xoruz Baba" radio-verilişi Flora xanımın səsi ilə başlayırdı

Flora Kərimova 1993–1994-cü illərdə Türkiyədə konsert proqramları ilə çıxış etmiş və beynəlxalq səhnədə Azərbaycan musiqisinin təmsil olunmasına töhfə vermişdir. Onun ifa etdiyi əsərlər Azərbaycan Dövlət Film Fondu və "Qızıl Fond"da saxlanılmışdır.

Flora Kərimova sənət fəaliyyətinə görə bir sıra dövlət və beynəlxalq mükafatlarla təltif edilmişdir. 1990-cı ildə "Əməkdar artist", 1992-ci ildə "Xalq artisti" fəxri adları verilmiş, 2021-ci ildə "Şərəf" ordeni ilə təltif olunmuşdur. Bundan əlavə, ABŞ Sülh və Demokratiya İnstitutu tərəfindən "İnsan haqlarının müdafiəçisi", Borçalı Cəmiyyəti tərəfindən "Şərəf medalı" mükafatlarını almışdır.

Flora Kərimovanın sənət fəaliyyəti Azərbaycan musiqi mədəniyyətində zəngin irs qoymuş, opera və estrada janrlarının inkişafına əhəmiyyətli töhfələr vermişdir. Onun vokal bacarığı, repertuar zənginliyi və peşəkarlığı Azərbaycan mədəniyyət tarixində mühüm yer tutur.

Adilə Yusifova – 70

(1956)

Bəstəkar



Ədəbiyyat:

Adilə Yusifovanın "Uşaqlara məhəbbətlə" uşaq xoru üçün əsərləri [Notlar]: "xor dirijorluğu" ixtisası üzrə təhsil alan tələbələr üçün dərs vəsaiti / Adilə Yusifova, G.İmanova; red. G.Abdullazadə; Azərb. Resp. Təhsil Nazirliyi, Ü. Hacıbəyov ad. Bakı Musiqi Akad. – Bakı: Adiloğlu, 2009. – 100 s.

Azərbaycan bəstəkarlarının işləmələri: ali musiqi məktəbləri üçün: dərs vəsaiti / Adilə Yusifova; elmi red. R.Zöhrabov. – Bakı: Adiloğlu, 2009. – 154 s.

Milli naxışlar [Notlar]: fortepiano üçün 10 konsert pyesi / Adilə Yusifova; red. L.Kazımova; rəssam Ə.Nərimanbəyova; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi. – Bakı: Təhsil, 2012. – 64 s

Paralellər [Notlar] : violino, violonçello, piano və balaban üçün / Adilə Yusifova. – Bakı, 2009. – 58 s.

Yusifova, A. Sənətə və Fikrət Əmirov imzasına ehtiram nümunəsi: Professor Adilə Yusifova: "Təhsildə də, yaradıcılıqda da qazanılmış uğurlarla arxayınlaşmaq olmaz" / Adilə Yusifova // 525-ci qəzet.- 2023.- 18 oktyabr, №188.- S.15.

Adilə Niyazi qızı Yusifova 1956-cı il iyulun 30-da Bakı şəhərində anadan olmuşdur. İlk musiqi təhsilini A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində almış və fortepiano ixtisası üzrə təhsilini fərqlənmə diplomu ilə tamamlamışdır. 1975–1980-ci illərdə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında təhsil almış, professor Cövdət Hacıyevin bəstəkarlıq sinfində və paralel olaraq musiqi nəzəriyyəsi ixtisası üzrə hazırlıq keçmişdir.

1997-ci ildə sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almış, 2006-cı ildə dosent, 2012-ci ildə isə professor elmi adlarına layiq görülmüşdür.

Pedaqoji fəaliyyəti musiqi təhsilinin müxtəlif pillələrini əhatə edir. 1975–1999-cu illərdə A.Zeynallı adına Bakı Musiqi Texnikumunda konsertmeyster və nəzəriyyə fənləri üzrə müəllim kimi çalışmışdır. 1991-ci ildən etibarən Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında əvvəlcə müəllim, daha sonra baş müəllim, dosent və professor kimi fəaliyyət göstərmişdir. 2016–2024-cü illərdə Bakı şəhəri Fikrət Əmirov adına 6 nömrəli Onbirillik İncəsənət Məktəbinin direktoru olmuş, 2024-cü ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "İnstrumental ifaçılıq" kafedrasına rəhbərlik edir.

Bəstəkarlıq yaradıcılığı geniş janr müxtəlifliyi ilə səciyyələnir. Onun ilk iri həcmli əsərlərindən biri fortepianoilə orkestr üçün Konsertdir (1980). Sonrakı illərdə fleyta və fortepiano üçün "Üç miniatür" (1981), qoboy və fortepiano üçün "Triptix" (1981), kamera orkestri üçün beş konsert pyesi (1984) kimi əsərlər yazmışdır. 1990-cı illərdə yaranan "Milli naxışlar" fortepiano üçün 10 konsert pyesindən ibarət silsilə (1993), uşaq xoru, kvartet və fortepiano üçün "Bahar nağılı" - 7 hissəli kantatası (1993), fleyta və fortepiano üçün "Unudulmuş duyğu" (1994) və simli kvartet, səs, klarnet və fortepiano üçün "Biz eyni səma altındayıq" (1997) müəllifin həmin dövrdəki yaradıcılıq istiqamətlərini əks etdirir.

2000-ci illərdə tar və fortepiano üçün "Alov" (2003), R. Mirzəyevanın sözlərinə "Qadın obrazlarının siluetləri" süitası (2003), (2007), fortepiano triosu və balaban üçün "Paralellər" (2007), truba, skripka və fortepiano üçün "Reqtaym ruhunda" (2007), soprano, tenor və fortepiano üçün "Nənə çin sandığında" (2009), fortepiano üçün "İthaf" (2012) və səs, simli kvartet, qoboy, balaban və fortepiano üçün "Xəyallarımdakı şəhər" (2014, 2016) kimi əsərləri yazmışdır. 2019–2021-ci illərdə simfonik orkestr, xor, uşaq xoru və xanəndə üçün "Azərbaycan bayrağı" kantatasını bəstələmişdir.

Elmi-metodiki fəaliyyətində dərslik və tədris vəsaitlərinin hazırlanması xüsusi yer tutur. N.Kərimovla birgə yazdığı "Azərbaycanda peşəkar təhsilin salnaməsi (1985–1995)", "Azərbaycan xalq melodiyalarının işlənməsi və aranjimanı", "Azərbaycan bəstəkarlarının işləmələri" kimi nəşrlər musiqi təhsili üçün metodik material kimi istifadə olunur. "Soltan Hacıbəyov. Azərbaycan xalq melodiyalarının işlənməsi" və "Cövdət Hacıyev. Həyat salnaməsi, məqalələr, mülahizələr" kimi nəşrlər, həmçinin 2012-ci ildə yazdığı "Cövdət Hacıyev" monoqrafiyası Azərbaycan bəstəkarlıq yaradıcılığının tədqiqinə yönəlmişdir. 2023-cü ildə "Şuşa-türk xalqlarının mədəniyyət paytaxtı" adlı rəssamlıq kataloqunu hazırlamışdır.


Yaradıcılığı beynəlxalq səviyyədə də təqdim olunmuşdur. 2003-cü ildə bəstəkarın əsərlərindən ibarət SD və DVD albom buraxılmış, 2017-ci ildə Gürcüstan Bəstəkarlar İttifaqının dəvəti ilə Tbilisidə müəllif konserti və elmi tədbir keçirilmişdir. 2020-ci ildə Türkiyənin Afyon Kocatepe Universitetində müəllif konserti və ustad dərsləri təşkil olunmuşdur.

Adilə Yusifovanın fəaliyyəti Azərbaycan musiqi mədəniyyətinin müxtəlif sahələrində – bəstəkarlıq, tədris və elmi-metodiki istiqamətlərdə aparılan işləri əhatə edir və ölkədə musiqi təhsilinin inkişafında mühüm rol oynayır.

Adilə Yusifova 1992-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür. 2011-ci ildə Azərbaycan Respublikasının Əməkdar müəllimi fəxri adına layiq görülmüşdür.

Ələkbər Hüseynov – 65

(1961-2007) *Aktyor*



Ələkbər Adıgözəl oğlu Hüseynov (Ələkbər əmi) 7 iyul 1961-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, 1978–1982-ci illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun "Dram və kino aktyorluğu" fakültəsində təhsil almışdır. Təyinatla Şəki Dövlət Dram Teatrında fəaliyyət göstərdikdən sonra 1988-ci ildən A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında aktyor kimi işə başlamışdır.

Onun səhnə fəaliyyəti Kukla Teatrının repertuarında yer alan müxtəlif tamaşalarla bağlıdır. Bu teatrda Ə.Haqverdiyevin "Pəri cadu" əsərində Qurban, H.X. Andersenin "Bülbül" nağılında Nağılçı və Çin imperatoru, N. Bədəlovun "Qara rəngin nağılı" əsərində Aydın, R.Əlizadənin "Tıq-tıq xanım" əsərində dirijor, qoca və müğənni, A. Ostrovskinin "Qar qız" əsərində Lel, R.Əlizadənin "Keçəlin toyu" əsərində Keçəl rollarını ifa etmişdir. "Səadət quşu" və "Möcüzəli tamaşa" pyeslərini teatrın rus bölməsində səhnələşdirərək rejissor fəaliyyəti ilə də çıxış etmişdir.

Ələkbər Hüseynov müxtəlif ölkələrdə keçirilmiş beynəlxalq teatr festivallarının iştirakçısı olmuşdur. 1995-ci ildə İstanbulda "Keçəlin toyu" tamaşasındakı Keçəl rolu, 1990 və 1992-ci illərdə İranda, 1993-cü ildə Türkmənistanda nümayiş etdirilən "Bülbül" tamaşası ilə festivalların laureatı adını almışdır. 2007-ci ildə Polşanın "Təbəssüm Ordeni" mükafatı ilə təltif edilmişdir.

Sənət fəaliyyətinə görə bir sıra milli mükafatlara layiq görülmüşdür. O, "Humay" və "Qızıl Dərviş" mükafatlarının laureatı olmuş, 28 oktyabr 2000-ci il tarixli sərəncamla Azərbaycan Respublikasının "Əməkdar artist" fəxri adına layiq görülmüşdür. 2006-cı ildə Azərbaycan Dövlət Kukla Teatrının baş rejissoru vəzifəsinə təyin edilmişdir.

Ələkbər Hüseynov teatr fəaliyyəti ilə yanaşı Azərbaycan kino sənətində də çəkilmişdir. O, "Yaşıl eynəkli adam" (1987), "Analar" (1988), "Etiraf" (1992), "Köpək" (1994), "Bala-başa bəla!" (1995), "Təsadüfi görüş" (1999), "Yaşıl eynəkli adam-2" (1999), "Yaşıl eynəkli adam-3" (2002), "Bir anın həqiqəti" (2003) filmlərində müxtəlif obrazlar yaratmışdır.

Onun yaradıcılıq fəaliyyəti Azərbaycan kukla teatrı sənətinin inkişafında əhəmiyyətli mərhələ kimi dəyərləndirilir. Aktyor və rejissor kimi fəaliyyəti teatrın repertuarının genişlənməsinə və janr imkanlarının zənginləşməsinə töhfə vermişdir.

Ələkbər Adıgözəl oğlu Hüseynov 2 avqust 2007-ci ildə vəfat etmişdir.

Ədəbiyyat:

Müşfiq, Ş. Ələkbər Əminin işıqlı uşaq təbəssümü / Ş.Müşfiq // 525-ci qəzet. – 2018. – 25 avqust. – S.14.

Rəhimli, İ. Ələkbər Hüseynov / İlham Rəhimli // Azərbaycan Teatr En siklopediyası / İ.Rəhimli. – Cild 1 – Bakı, 2016. – S. 337-338.

Müşfiq, Ş. Ələkbər Əminin işıqlı uşaq təbəssümü / Ş.Müşfiq // 525-ci qəzet. - 2018. - 25 avqust. - S. 14.

Məhərrəmova, T. Uşaqların sevimli Ələkbər əmisi / Təranə Məhərrəmova // Kaspi .- 2024.- 6 iyul, (№ 25).- S.15.

Uşaqların sevimlisi "Ələkbər əmi" // Azərbaycan .- 2025.- 8 iyul (№ 137).- S.11.

İnternetdə:

http://anl.az/down/ meqale/525/2018/ avqust/602963.htm

www.anl.az/down/me qale/medeniyyet/2011/ dekabr/216951.htm

Məlahət Abbasova – 60

(1966)

Aktyor



Mələhət Elman qızı Abbasova 8 iyul 1966-cı ildə Bakı şəhərinin Pirşağı qəsəbəsində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram və kino aktyorluğu fakültəsinə daxil olmuş, burada Xalq artistləri Mehdi Məmmədov, Azərpaşa Nemətov və Şəfiqə Məmmədovanın rəhbərlik etdiyi kurslarda təhsil almışdır.

Aktrisanın ilk səhnə işi Mehdi Məmmədovun quruluşunda hazırlanan "Hamlet" tamaşasında Ofeliya obrazının ifası ilə bağlıdır. O, 1987-ci ildə Gülcahan Güləhmədovanın ekranlaşdırdığı "Sən həmişə mənimləsən" film-tamaşasında Nargilə rolunu canlandırmış və bu obraz aktrisanın yaradıcılığında xüsusi əhəmiyyət kəsb etmişdir. Mələhət Abbasova 1991-ci ilə qədər Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında çalışmışdır.

1991-ci ildən etibarən Mələhət Abbasova Türkiyədə fəaliyyətini davam etdirmiş, İstanbul Bələdiyyə Teatrının aktrisası və rejissoru kimi çalışmış, 2016-cı ildən teatrın bədii rəhbər müavini vəzifəsinə təyin olunmuşdur. O, Türkiyə televiziya və kino sənayesində geniş yaradıcılıq fəaliyyəti göstərmiş və müxtəlif seriallarda, bədii filmlərdə çıxış etmişdir. Aktrisa həmçinin Azərbaycan və Türkiyə teatrlarında məsləhətçi və müəllif layihələrinin iştirakçısı olmuşdur.

Aktrisanın ekran yaradıcılığına "Super ata" (1993), "Çiçək taksi" (1995–2003), "Hüzn çiçəyi" (1996), "Qolsuz bəbə" (1997), "Yalan" (1997), "Ayrı dünyalar" (1998), "Qırılmış həyatlar" (1998), "Paşa ata köşkü" (2000), "Derman bəy" (2001), "Yaralı" (2002), "Brindar" (2004), "Gecə yürüşü" (2004), "Əsla unutma" (2005), "Hacı" (2005), "Köpək"(2005), "Min bir gecə" (2006–2008), "Köşk" (2009), "Qız qaçıran" (2009), "Vida" (2010), "Qızım üçün" (2013), "Əmanət" (2014), "Qardaşlıq adası" (2014), "Seddülbahir 32 saat" (2015), "Sevda quşun qanadında" (2016), "Sevdanın bağçası" (2017), "Əsarət" (2022) kimi serial və filmlərdə canlandırdığı rollar daxildir. O, 2019-cu ildən "Kanal 7" televiziya kanalında yayımlanan "Yemin" serialında Münəvvər obrazını ifa etmişdir.

Aktrisa kino sahəsində "İmtahan" (1987), "Sən həmişə mənimləsən" (1987), "Sürəyya" (1987), "Fatimə" (1988), "Bizim qəribə taleyimiz" (2005), "Acılar bitməz" (2009), "Sübhün səfiri" (2012), "Mahmud və Məryəm" (2013), "Brat Li" (2017) kimi filmlərdə çəkilmişdir.

Mələhət Abbasova həmçinin teatr sənətində göstərdiyi fəaliyyətə görə müxtəlif mükafatlara layiq görülmüşdür. "Min bir gecə" serialındakı obrazı və "Ulduzlar altında cinayət" tamaşasındakı roluna görə 2007-ci ildə Burc Kolleclərinin "Özəl jüri mükafatı" ilə təltif edilmişdir. Aktrisanın Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətləri nəzərə alınaraq 18 dekabr 2014-cü il tarixində "Əməkdar İncəsənət Xadimi" fəxri adı verilmişdir.

Mələhət Abbasovanın yaradıcılığı Azərbaycan aktyorluq məktəbinin Türkiyədə təmsil olunması, iki ölkə arasında mədəni əlaqələrin möhkəmlənməsi və teatr-kino fəaliyyətinin qarşılıqlı inteqrasiyası baxımından xüsusi elmi-praktik əhəmiyyət daşıyır.

Ədəbiyyat:

Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında:Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2014-cü il //Azərbaycan.- 2014.- 19 dekabr.- S.2.

Mələhət Abbasova: "Bu Azərbaycan və Türkiyə teatrları arasında bir ilk olacaq" / Mələhət Abbasova // Xalq Cəbhəsi. -2024.-2 may, №14.- S.16.

Türkiyənin Film-San Vəqfi sənətçiləri mükafatlandıracaq: Namizədlər arasında azərbaycanlı aktrisa Mələhət Abbasova da var // Mədəniyyət.-2024.- 6 sentyabr, (№66). - S.8.

Mələhət Abbasova Türkiyədə mükafata layiq görülüb [Azərbaycanlı aktrisanın "Türk dünyası mədəniyyət və sənət" mükafatına layiq görülməsi haqqında] // Mədəniyyət.- 2010.- 14 iyul.- S. 11.

Xəyalə. Mələhət Abbasova Türkiyədə "İlin ən yaxşı rejissoru" seçilib: / Xəyalə // Palitra.- 2015.- 30 may.- S.16.

İnternetdə:

https://konkret.az/eli-esedov-serencam-imzaladi-3

https://www.facebook.com/groups/kinobizgroup/posts/2864223763786733

Mübariz Həmidov – 70

(1956) *Aktyor, teatr xadimi*



Mübariz Şərafət oğlu Həmidov 1956-cı il 12 iyul tarixində Göyçay şəhərində anadan olmuşdur.

O, 1975–1979-cu illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram-kino aktyorluğu fakültəsində ali təhsil almışdır. Peşə fəaliyyətinə 1979-cu ildə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında başlamış və 2000-ci ilə qədər bu teatrda aktyor kimi çalışmışdır.

2000–2006-cı illərdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin İncəsənət baş idarəsində aparıcı mütəxəssis, baş mütəxəssis və baş məsləhətçi vəzifələrində fəaliyyət göstərmişdir. Nazirlikdə çalışdığı dövrdə dövlət səviyyəli mədəniyyət tədbirlərinin təşkili, müxtəlif yubiley proqramları, teatr festivalları və incəsənət layihələrinin hazırlanması istiqamətində iştirak etmişdir. Bu fəaliyyət çərçivəsində respublikanın müxtəlif teatr kollektivləri ilə əməkdaşlıq etmiş və beynəlxalq teatr festivallarında nümayəndə qruplarının tərkibində çıxış etmişdir.

2006-cı ilin yanvar ayında Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının direktoru təyin olunmuş, bu vəzifəni 2018-ci ilə qədər icra etmişdir. 2018-ci il 17 iyul tarixindən 2022-ci ilədək Sumqayıt Dövlət Dram Teatrının direktoru kimi çalışmışdır. O, həmçinin ASSİTEJ-Azərbaycan Milli Mərkəzinin prezidenti kimi fəaliyyət göstərir.

Mübariz Həmidovun fəaliyyətinin mühüm istiqamətlərindən biri mədəniyyət tədbirlərinin ssenari və redaksiyası, eləcə də mədəniyyət layihələrinin təşkilidir. O, müxtəlif dövlət tədbirlərinin hazırlanmasında iştirak etmiş, teatr proseslərinin idarə olunması və inkişafı ilə bağlı institusional fəaliyyət göstərmişdir.

Onun yaradıcılıq fəaliyyəti kino sahəsinə də şamil olunur. M.Həmidov 1996-cı ildə ekranlaşdırılmış "Ömürdən uzun gecə" filmində rol almışdır.

Mübariz Həmidov mədəniyyət və teatr sahəsindəki fəaliyyətinə görə bir sıra mükafat və fəxri adlarla təltif edilmişdir. 2000-ci ildə ona "Əməkdar artist" fəxri adı verilmişdir. 2014-cü il 27 mart tarixində Kalmıkiya Respublikasının "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. O, həmçinin Media Print MMC və AKBA Yayıncılık LTD tərəfindən "İlin teatr xadimi" nominasiyasında "İlin markası" mükafatı (2010), Azərbaycan KİV İşçiləri Həmkarlar İttifaqının "Azərbaycan bayrağı" diplomu (2011), Alman–Azərbaycan Cəmiyyətinin "Körpü" diplomu, Nizami Gəncəvi adına Azərbaycan Mədəniyyət İnstitutunun fəxri fərmanı (2012) və Rusiya Federasiyası Teatr Xadimləri İttifaqının K.S. Stanislavski adına mükafatı (2013) və "Avropa nəşr mətbu evi"nin qızıl medal və diplomu (2014) ilə təltif olunmuşdur. Onun adı müxtəlif ictimai birliklərin fəxri fərman və təşəkkürnamələri ilə də qeyd edilmişdir.

Mübariz Həmidovun fəaliyyəti Azərbaycan teatr sənətinin idarə olunması, mədəniyyət siyasətinin həyata keçirilməsi və incəsənət tədbirlərinin təşkili sahələrində uzunmüddətli institusional təcrübəsi ilə xarakterizə olunur.

Ədəbiyyat:

Gənc Tamaşaçılar Teatrının direktoru beynəlxalq konqresə dəvət alıb // Mədəniyyət. – 2017. – 6 yanvar. – S. 4. Gənc Tamaşaçılar Teatrının direktoru yubileyi münasibətilə mükafatlandırılıb // Mədəniyyət. – 2016. – 13 iyul. – S.7.

Gülər. Sumqayıt Teatrı mövsümü bağladı: Yeni di rektor yeni mövsüm üçün planlarını açıqladı / Gülər // Ekspress. – 2018. – 25 iyul. – S. 13.

İdrisoğlu, A. Bacarıqlı teatr rəhbəri və gözəl insan: Mübariz Həmidov - 60 / A.İdrisoğlu // Azad Azərbaycan. – 2016. – 15 iyul. – S.7.

Sumqayıt Dövlət Dram Teatrının yeni direktoru kollektivə təqdim olunub // Mədəniyyət. – 2018. – 18 iyul. – S. 5.


İnternetdə:

https://azertag.az/xeber/Genc_Tamasachilar_Teatrinin_direktoru_mukafata_layiq_gorulub-74893?-device=Desktop

https://goychay-encyclopedia.az/həmidov-mubariz-səfaət-oglu/

Rasim İsmayılov – 90

(1936-2004) *Kinooperator*



Rasim Rza oğlu İsmayılov 1936-cı il 13 iyul tarixində Bakıda anadan olmuşdur. O, 1958-ci ildə Bakı kinostudiyasında operator assistenti kimi fəaliyyətə başlamışdır. 1958–1962-ci illərdə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun operatorluq fakültəsində məşhur operator Boris Volçekin kursunda təhsil almışdır. Təhsil dövründə çəkdiyi kurs filmləri onun operator kimi formalaşmasında mühüm rol oynamışdır.

1962-ci ildən Azərbaycan Televiziyasında çalışmış, burada onun ssenariləri əsasında "Azərbaycan raport verir" və "Daha iki nəfər" qısametrajlı bədii televiziya filmləri istehsal olunmuşdur. Rejissor kimi "Mavi ekranın yolları", "Şəhərin ritmləri" və digər sənədli televiziya filmlərinin müəllifi olmuşdur. Azərbaycan televiziyasında animasiya sahəsinin ilk inkişaf mərhələsində fəaliyyət göstərmiş və 1965-ci ildə "Danışan işıqlar", 1969-cu ildə "Qırmızılar, qaralar və başqaları" animasiya filmlərinə quruluş vermişdir. Sonuncu film Kiyevdə keçirilən "Prometey-69" festivalında rejissor işi üzrə diplomla təltif olunmuşdur.

Operator kimi bədii kinoda debütü "Cazibə qüvvəsi" kinoalmanaxındakı "Dağ meşəsindən keçərkən" novellası olmuşdur. 1965-ci ildə Hüseyn Seyidzadənin quruluş verdiyi "Yenilməz batalyon" filmində quruluşçu operator kimi fəaliyyəti onun böyük kinoya keçidini təmin etmişdir. Sonrakı illərdə o, Azərbaycan kinosunun qızıl fonduna daxil olmuş bir sıra ekran əsərlərinin operatoru kimi çalışmışdır. "Sevil", "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Gün keçdi", "Nəsimi", "Dədə Qorqud", "Sevinc buxtası", "Babək" və digər filmlərin vizual həllində onun operator ustalığı mühüm rol oynamışdır.

Yaradıcılıq fəaliyyəti ərzində o, operator kimi 20 bədii və 10 sənədli filmə, rejissor və ssenari müəllifi kimi isə "Mozalan" satirik kinojurnalının bir neçə buraxılışına və iki animasiya filmə quruluş vermişdir. Onun rejissor kimi son işlərindən biri 1990-cı ildə çəkilmiş "Tələ" bədii filmidir. Parallel olaraq Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Yaradıcılığı müxtəlif mükafatlarla qiymətləndirilmişdir. 1976-cı ildə Azərbaycan SSR-nin "Əməkdar incəsənət xadimi" fəxri adına, 1978-ci ildə isə "Sevinc buxtası" filmindəki işinə görə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür. O, həm bədii, həm sənədli kino, həm də animasiya sahələrində çoxşaxəli yaradıcılıq fəaliyyəti ilə seçilmişdir.

Rasim Rza oğlu İsmayılov 2004-cü il 5 may tarixində Bakıda vəfat etmişdir.

Ölümündən sonra onun uşaqlar üçün yazdığı hekayələr və esse janrlı mətnlərdən ibarət "Uçan çinarlar" kitabı nəşr edilmişdir. Onun Azərbaycan kinematoqrafiyasının inkişafındakı rolu operator sənətinin estetik və texniki imkanlarının genişləndirilməsi ilə səciyyələnir və milli kino tarixində mühüm mərhələ kimi qiymətləndirilir. 2021-ci ildə Azərbaycan Dövlət Film Fondunda Dövlət mükafatı laureatı, görkəmli kinooperator və kinorejissor Rasim İsmayılovun anadan olmasının 85 iliyi münasibətilə şəxsi arxiv fondu yaradılmışdır.

Ədəbiyyat:

Qurbanov, N. Kinoregissor Rasim İsmayılovun yaradıcılığı / Nizami Qurbanov // Elmi əsərləri Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.-2023.- №34.- S.49-54.

Film Fondunda Rasim İsmayılovun Arxiv fondu yaradılıb // 525-ci qəzet.-2021.- 30 noyabr.-S.9.

Dövlət Film Fondunda Rasim İsmayılovun şəxsi arxiv fondu yaradılıb // Mədəniyyət.-2021.- 1 dekabr.- S.6.

Gözəl insan, gözəl sənətkar // Mədəniyyət. – 2019. – 12 iyul. – S. 1;6.

Əsgərov, H. Ömrün sənət işığı / H.Əsgərov // Xalq qəzeti. – 2017. – 12 iyul. – S.6.

Mükərrəmoğlu, M. Sənətini dünyalar qədər sevirdi / Mehdi Mükərrəmoğlu // Xalq qəzeti. – 2016. – 27 noyabr. – S.8.

İnternetdə:

http://www.anl.az/down/meqale/xalqqazeti/2017/iyul/550054.htm http://www.anl.az/down/ meqale/xalqqazeti/2016/ noyabr/516449.htm

Sədayə Mustafayeva – 100

(1926-2004)

Aktyor



Sədayə İsmayıl qızı Mustafayeva 1926-cı il 15 iyul tarixində Nuxada (indiki Şəki) anadan olmuşdur. Erkən yaşlarından əmək fəaliyyəti ilə yanaşı səhnə mühitinə daxil olmuş, İpəkçilik kombinatının dram dərnəyində iştirak etməsi onun peşəkar teatr sənətinə keçidini müəyyənləşdirmişdir. Sədayə Mustafayevanın Şəki Dövlət Dram Teatrına cəlb olunması, ilk olaraq Səməd Vurğunun "Vaqif" əsərində rəqqasə kimi səhnəyə çıxması, ardınca müxtəlif psixoloji və xarakter rollarında uğur qazanmışdır.

Aktrisanın Şəki, Ağdaş və Göyçay teatrlarında fəaliyyəti bölgə teatrlarının repertuar və ifaçılıq ənənələrinin inkişafında rol oynamış, bu mərhələdə o, bir sıra klassik və müasir Azərbaycan dramaturgiyası nümunələrində müxtəlif səpkili obrazlar yaratmışdır. 1950-ci ilin martında Gəncə Dövlət Dram Teatrının dəvəti ilə bu kollektivə keçidi onun yaradıcılığında dönüş yaratmış, peşəkar səhnədə püxtələşmiş və geniş obrazlar silsiləsi formalaşdırmışdır. Sədayə Mustafayevanın Gəncə teatrında 400-dən artıq rol yaratması onun repertuar potensialının miqyasını göstərir. Xüsusilə Səməd Vurğunun "Vaqif"ində Xuraman və Gülnar, Cəfər Cabbarlının "Aydın"ında Gültəkin, "Pəri cadu"da Pəri, "Otello"da Emilya, "III Riçard"da Yelizaveta, İ.Şıxlının "Dəli Kür" əsərində Şahnigar, İ.Əfəndiyevin "Solğun çiçəklər"ində Sara, Pəri və Gülnisə kimi rollar ifa etmişdir.

Sədayə Mustafayevanın səhnə yaradıcılığı dramaturji materialın ideya-estetik məzmununun dəqiq təhlili, xarakterlərin daxili motivasiyasının açılması və emosional-intellektual yükün tamaşaçıya ötürülməsi baxımından diqqətəlayiqdir. Taqorun "Fəlakət" romanı əsasında hazırlanmış "Qanq qızı" tamaşasında Kəmalə surətinin təqdimində aktrisanın dramatik ifadə vasitələrinə bələdliyi, psixoloji çalarları səhnə davranışı ilə uzlaşdırmaq bacarığı teatrşünaslıq tədqiqatlarında xüsusi qeyd olunur. Eyni zamanda "Dəli Kür" tamaşasında Şahnigar obrazının dramaturji konflikt fonunda sosial-etik çalarlarla zəngin təsviri Sədayə Mustafayevanın sənət üslubunun tipik nümunələrindəndir.

Aktrisa Azərbaycan kino sənətinin inkişaf mərhələsində də fəal iştirak etmiş, "Azərbaycanfilm" kinostudiyasının istehsalı olan iyirmidən artıq filmdə müxtəlif xarakter rolları canlandırmışdır. O "Qanun naminə" filmində Xatun, "Mən ki gözəl deyildim"də Gözəl, "Şərikli çörək"də Şamama, "Qaynana"da Mülayim, "Ölsəm... bağışla"da Suğra, "Ağ atlı oğlan"da Mirvari nənə və digər obrazları canlandırmışdır.

Sədayə Mustafayevanın sənət fəaliyyəti dövlət səviyyəsində də yüksək qiymətləndirilmiş, 1958-ci ildə "Əməkdar artist", 1981-ci ildə isə "Xalq artisti" fəxri adlarına, 2003-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fərdi təqaüdünə layiq görülmüşdür.

Sədayə İsmayıl qızı Mustafayeva 13 avqust 2004-cü ildə Gəncə şəhərində vəfat etmişdir.

Sədayə Mustafayevanın həyat və yaradıcılığı Azərbaycan teatr tarixində qadın aktrisaların peşəkar inkişaf xəttini, regional teatrların mədəni funksiyalarını və kino-səhnə paralellərinin elmi təhlili üçün mühüm mənbə rolunu oynayır.

Ədəbiyyat:

Burcəliyev, A. Milli kinomuzun sevimli "ana"sı / Anar Burcəliyev // Xalq qəzeti.-2024.- 23 fevral (№ 41). - S.10.

Burcəliyev, A. Kino salnaməmizin Anası: Sədayə Mustafayeva-95 / Anar Burcəliyev // Mədəniyyət.-2021.- 14 iyul.- S. 6; Cümhuriyət.-2021.- 13-15 iyul.- S.14.

Burcəliyev, A. Səhnə həyat nurumdur: (Respublikanın xalq artisti Sədayə Mustafayevanın əziz xatirəsinə) / Anar Bürcəliyev // Cümhuriyət.-2019.-9 iyul.- S.14; Hürriyyət.-2019.-16-17 iyul.- S.14; 13-19 iyul.- S.14.

Bürcəliyev, A. Səhnə həyat nurumdur!: Azərbaycan Respublikasının Xalq artisti Sədayə Mustafayeva - 75; Azərbaycan Teatrı 125; Gəncə Dövlət Dram Teatrı 80 / A.Bürcəliyev; red. Ş.Əmirli. – Gəncə: Əsgəroğlu, 2000. – 116 s.

Sədayə Mustafayeva. - Bakı: İşıq, 1982. - [6] s.

Bürcəliyev, A. Səhnə həyat nurumdur: (Respublikanın xalq artisti Sədayə Mustafayevanın əziz xatirəsinə) / A.Bürcəliyev // Cümhuriyət. – 2019. – 9 iyul. – S.14; Hürriyyət. – 2019. – 16-17 iyul. – S.14.

Nahidə Orucova – 65

(1961)

Aktyor



Nahidə Mülük qızı Orucova 1961-ci il 18 iyul tarixində Bakı şəhərində anadan olmuşdur. 1984-cü ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun "Dram-kino aktyorluğu" fakültəsini bitirmiş və peşəkar fəaliyyətinə Sumqayıt Dövlət Dram Teatrında başlamışdır.

1993-cü ildə Şıxəli Qurbanov adına Musiqili Komediya Teatrına qəbul edilməsi sənətkarın yaradıcılığında yeni estetik mərhələnin başlanğıcı olmuşdur. Teatrın vokal-plastik hazırlıq tələb edən spesifik üslubu Nahidə Orucovanın həm dramatik, həm də musiqili səhnə ifadə vasitələrinin genişlənməsinə şərait yaratmışdır. O, çalışdığı illər ərzində müxtəlif dramaturqların əsərlərində fərqli xarakter tipologiyasına malik obrazlar yaratmış, Üzeyir Hacıbəyli, Süleyman Ələsgərov, Emin Sabitoğlu, Vasif Adıgözəlov, Cavanşir Quliyev və digər bəstəkarların musiqili əsərlərində çıxış etmişdir.

Aktrisanın teatr fəaliyyətində canlandırdığı rollar obraz sisteminin geniş spektrini əhatə edir. Onun yaratdığı İzabella ("İtkin ər"), Şəlalə xanım ("Volqalı canan"), Səmayə xanım ("Bankir adaxlı"), Səkinə xanım ("Bir saatlıq xəlifəlik"), Gülşad xanım ("Əlin cibində olsun"), Qəmər xanım ("Nəğməli könül"), Minnət xanım ("Ər və arvad"), Nazlı Qəmzəli ("Aldın payını, çağır dayını"), Kübar qadın və Mələk ("Milyonçunun dilənçi oğlun"), Sənəm ("O olmasın, bu olsun"), Natella ("Qısqanc ürəklər"), Sevda ("Mən dəyərəm min cavana"), Gülcahan ("Məhəbbət oyunu"), Qrafinya İrini ("İddialı qaraçı"), Tekle ("Xanuma") və digər obrazlar səhnə təcrübəsi və ifa mədəniyyəti baxımından onun peşəkarlıq səviyyəsini nümayiş etdirir.

Nahidə Orucovanın kino yaradıcılığı da Azərbaycan ekran sənətinin müxtəlif mərhələlərini əhatə edir. O, 1980-ci illərin əvvəllərindən başlayaraq bədii filmlərdə, televiziya tamaşalarında və seriallarda fəaliyyət göstərmiş, çoxsaylı obrazlar yaratmışdır. "Birisigün, gecəyarısı..." (1981), "Asif, Vasif, Ağasif" (1983), "Xüsusi vəziyyət" (1986), "Pəncərədə işıq" (1987), "Yük" (1995), "Spasibo" (1998), "Nə gözəldir bu dünya..." (1999), "Qız qalası" (2000), "Moskva-Bakı qatarı" (2005), "Kişiləri qoruyun" (2006), "Biz qayıdacağıq" (2007), "Yanmış körpülər" (2007), "Ayrılıq imiş" (2008), "Vəkil hanı?" (2011), "3 bacı" (2012–2014), "Hoqqa" (2017), "İşdə məhəbbət macərası" (2020) və digər ekran əsərlərindəki rolları onun kino sənətində də aktiv və çoxşaxəli fəaliyyətini göstərir.

Sənətkarın fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1 avqust 2012-ci ildə "Əməkdar artist" fəxri adına layiq görülmüş, 2013-cü ildən başlayaraq müxtəlif illərdə (2015, 2016, 2017, 2018, 2021, 2022, 2023, 2025) Azərbaycan Respublikası Prezidentinin mükafatına layiq görülmüşdür. Bundan əlavə, 2021-ci ildə Teatr Xadimləri İttifaqının qərarı ilə "Sənətkar" medalı ilə təltif edilmişdir.

Nahidə Orucovanın fəaliyyəti müasir Azərbaycan səhnə və ekran sənətində qadın obrazlarının təqdimatı, komik və liriko-dramatik janrların qarşılıqlı təsiri və musiqili teatrın interpretasiya xüsusiyyətlərinin öyrənilməsi üçün nəzəri baza yaradır. Aktrisanın çoxillik yaradıcılığı milli teatr mədəniyyətinin davamlılığının təmin olunmasında mühüm rol oynamış, onun fərdi ifa üslubu isə Azərbaycan aktyorluq məktəbinin inkişaf xəttində özünəməxsus iz qoymuşdur.

Ədəbiyyat:

Biləsuvarlı, F. "Teatrsız qala bilmirəm": "Bu gün məni yaşadan teatrdı, sənətimdi, səhnəmdi" / N.Orucova ilə söhbətləşdi Fuad Biləsuvarlı // Hürriyyət.- 2022.- 10 may.- S.12.

Biləsuvarlı, F. "Bu sənəti seçəndə aktrisa olmağa hazırlaşmırdım" : "Hər bir şeyə çox böyük çətinliklə nail olmuşam..." / N.Orucova ilə söhbətləşdi Fuad Biləsuvarlı // Hürriyyət.- 2022.- 26 aprel.- S.14.

Həyatını səhnədə "əridən" aşiq aktrisa: "Aşiq olmağımın səbəbkarı Şəfiqə Məmmədovadı"... / Nahidə Orucova; müsahibəni apardı Z. Nadir // Olaylar. -2017. - 21 noyabr.- S.10.

İnternetdə:

https://www.wikimedia.az-az.nina.az/Nahidə_Orucova.html

https://musiqiliteatr.az/staff/az/13

https://az.azvision.az/news/267278/news.html

Rafiq Dadaşov – 80

(1946-2017)

Rejissor



Rafiq Ağahüseyn oğlu Dadaşov 20 iyul 1946-cı ildə Bakıda anadan olmuş, 1953–1961-ci illərdə 171 saylı məktəbdə təhsil almış, 1963-cü ildə isə 5 saylı fəhlə-gənclər gecə məktəbini bitirmişdir.

1963-cü ildə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında fəhlə kimi əmək fəaliyyətinə başlayan Rafiq Dadaşov bir il sonra rejissor köməkçisi kimi çalışmağa başlamışdır. Həmin ildə o, M. A. Əliyev adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatrşünaslıq fakültəsinin qiyabi şöbəsinə daxil olmuş və 1970-ci ildə təhsilini tamamlamışdır. 1969–1971-ci illərdə Moskva Dövlət Kino Komitəsinin nəzdində fəaliyyət göstərən Ali ikiillik kinorejissor və ssenarist kurslarında təhsil almış, kursu başa vurduqdan sonra III dərəcəli kinorejissor ixtisası əldə etmişdir.

1971–1972-ci illərdə Sovet ordusunda xidmətdə olan Rafiq Dadaşov 1972-ci ildən etibarən "Azərbaycanfilm" kinostudiyasında rejissor kimi fəaliyyət göstərmiş və 1995-ci ilə qədər burada çalışmışdır. 1995-ci ildən sonra o, "Aztelefilm" birliyində, ardınca Azərbaycan Televiziya və Radio Verilişləri şirkətinin "Sabah" Yaradıcılıq Birliyində rəhbər müavini vəzifəsində işləmişdir. 1997-ci ildə yenidən "Azərbaycanfilm"ə qayıtmış, 2002-ci ildən isə Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin "Aztelefilm" birliyində kinorejissor kimi fəaliyyət göstərmişdir. O, həmçinin Azərbaycan Kinematoqrafçılar İttifaqının üzvü olmuşdur.

Dadaşov həm bədii, həm sənədli kino sahəsində məhsuldar yaradıcılığı ilə seçilir. Onun əsas rejissor kimi çəkdiyi filmlər sırasında "Dantenin yubileyi" (1978), "Yol əhvalatı" (1980), "Ötən ilin son gecəsi" (1983), "Qəm pəncərəsi" (1986), "Qətl günü" (1990), "Qətldən yeddi gün sonra" (1991), "Naməlum torpaq" (1992), "Leyli və Məcnun" (1996), "Kleopatra" (1996), "Fatehlərin divanı" (1997), "Bir anın həqiqəti" (2003) və digər ekran işləri yer alır. O, eyni zamanda "Bir cənub şəhərində" (1969), "1001-ci qastrol" (1974), "Abşeron ritmləri" (1970) kimi filmlərdə ikinci rejissor və rejissor assistenti qismində fəaliyyət göstərmişdir.

Rejissorun "Aztelefilm" birliyində quruluş verdiyi çoxsaylı sənədli və bədii-sənədli filmlər – "Cücələrim" (1996), "İmamverdi Əbilov" (2001), "Bir mahnının işığı" (2002), "Mirzə Fətəli Axundov adına Kitabxana" (2003), "Sara Qədimova" (2003), "Seyid Nigari" (2004), "Azərbaycanda rus icmaları" (2006), "Gəncə kukla teatrı" (2007), "Zəngəzur" (2008), "Bizim rəqslər" (2009), "Tarix muzeyi" (2010) və digər ekran əsərləri ictimai-mədəni mövzuların geniş spektrini əhatə edir.

Rafiq Dadaşovun Azərbaycan kinematoqrafiyasının inkişafındakı xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, 29 iyul 2016-cı ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.

Rafiq Ağahüseyn oğlu Dadaşov 5 fevral 2017-ci ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Qaraqızı, U. Azərbaycanın ilk sufi filmi [Rejissor Rafiq Dadaşov ilə "Sufi" filmi haqqında söhbət] / söhbəti apardı: Ulduzə Qaraqızı // Ekspress.- 2009.-18-20 aprel.- S. 19.

Qəm pəncərəsi"ndə ən yüksək qonorar uzunqulağa verilib: Rejissor Rafiq Dadaşov filmlə bağlı maraqlı hadisələri danışır // Azadlıq.- 2014.- 13 oktyabr.- S.14.

Rejissor Rafiq Dadaşovun 70 illiyi qeyd olunub // Mədəniyyət.- 2016.- 31 avqust .- S.4.

Kinorejissor Rafiq Dadaşov dünyasını dəyişib // Mədəniyyət.- 2017.- 8 fevral.- S.14.

İnternetdə:

https://medeniyyet.info.az/page/news/37687/.html?-lang=az

https://az.wikipedia.org/wiki/Rafiq_Dadaşov

Gülnar Salmanova – 70

(1956-2015)

Aktyor



Gülnar Əlifağa qızı Salmanova 24 iyul 1956-cı ildə Neftçala rayonunun Xıllı qəsəbəsində anadan olmuş, orta təhsilini burada tamamlamışdır.

Glnar Salmanova 1976–1981-ci illərdə M. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun "Musiqili komediya aktyorluğu" fakültəsində təhsil almışdır. 1981-ci ildə institutu bitirdikdən sonra Azərbaycan Dövlət Musiqili Komediya Teatrının aktyor truppasına daxil olmuş və ömrünün sonunadək bu teatrın aparıcı səhnə ustalarından biri kimi fəaliyyət göstərmişdir. Onun səhnə ifaçılığı xüsusilə "subretka" ampluasında parlaq çıxışları ilə yadda qalmış, həm teatrda, həm də televiziya tamaşalarında mütəmadi olaraq maraqlı obrazlar yaratmışdır.

Aktrisanın teatr yaradıcılığı geniş obrazlar silsiləsi ilə xarakterizə olunur. O, "50 yaşında cavan" tamaşasında Gülnaz, "Beşmanatlıq gəlin"də Naznaz, "Özümüz bilərik"də Ceyran, "Subaylarınızdan görəsiniz"də Çiçək, "Hicran"da Çarleston, "Bankir ədaxlı"da Maral, "Məhəbbət oyunu"nda Ceyran, "Aldın payını, çağır dayını" tamaşasında At Balaxanım, "Məzəli əhvalat" və "Həyətim mənim, həyatım mənim" tamaşalarında Rəna, "Gözün aydın" tamaşasında Mehparə, "Qaynana"da Sevda kimi obrazları ilə seçilmişdir. Onun səhnədə yaratdığı qəhrəmanlar yüksək aktyor məharəti və vokal imkanları ilə tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır.

Gülnar Salmanova kino sahəsində də fəaliyyət göstərmiş, "Bağışla" (1983), "Adam ol! 2" (2006), "Adam ol! 3" (2007) və "Acılar bitməz" (2009) kimi filmlərdə yadda qalan rollar ifa etmişdir.

Sənətkarın yaradıcılıq fəaliyyətinə dövlət tərəfindən yüksək qiymət verilmişdir. O, 28 oktyabr 2000-ci ildə "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adına layiq görülmüş, 6 may 2015-ci ildə Prezident Mükafatı ilə təltif edilmişdir.

Gülnar Salmanova 24 oktyabr 2015-ci ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Azərbaycan Teatr Ensiklopediyası: üç cilddə / İlham Rəhimli; layihənin rəhb. Ə. M. Qarayev; red. hey.: T. İ. Əfəndiyev [və b.]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- C. 2.- S. 38.

Musiqili Teatrda Gülnar Salmanovanın xatirəsi anılıb // Mədəniyyət.- 2016.- 30 sentyabr.- S. 6.

Azərbaycan Respublikasının Mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Azərbaycan.-2000.-29 oktyabr.-S.1.

İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 6 may 2015-ci il // Azərbaycan. -2015.- 7 may.- S. 1.

İnternetdə:

z.baku-art.com/az/bu-gun-emekdar-artist-g-lnar-salmanovanin-dogum-g-n-d-r

Kərim Kərimov – 55

(1971-1992)

Milli Qəhrəman



Kərim Məhəmməd oğlu Kərimov 1971-ci il iyul ayının 2-də Şərur rayonunun Qarahəsənli kəndində anadan olmuşdur.

Orta təhsilini başa vurduqdan sonra Rusiyanın Tümen şəhərində yerləşən Ali Hərbi Mühəndis-Komandirlər Məktəbinə qəbul olunmuşdur. Qarabağda hərbi münaqişə başladıqdan sonra Kərimov azərbaycanlı kursantlarla birlikdə Vətənin müdafiəsi məqsədilə Azərbaycana qayıtmış və təhsilini Bakı Ali Birləşmiş Komandirlər Məktəbində davam etdirmişdir. 1992-ci ildə Biləcəridə hərbi hazırlıq keçdikdən sonra aprelin 15-də Goranboy rayonuna göndərilmişdir. Onun yüksək hazırlığı və təşkilatçılıq bacarığı nəzərə alınaraq Kərimov 21 yaşında istehkamçılar bölməsinin komandiri təyin edilmişdir.

1992-ci il mayın 1-də Tap Qaraqoyunlu kəndi ətrafında minalanmış sahələrin zərərsizləşdirilməsi əməliyyatında iştirak edən Kərim Krimov əməliyyatların davamı olan Goranboy döyüşlərində 5 may 1992-ci ildə qəhrəmancasına şəhid olmuş, Qarahəsənli kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 11 sentyabr 1992-ci il tarixli 193 saylı Fərmanı ilə Kərim Məhəmməd oğlu Kərimova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Qarahəsənli kəndində qəhrəmanın büstü ucaldılmış, Goranboy və Şərur rayonlarında onun adını daşıyan məktəb və küçələr yaradılmışdır.

Ədəbiyyat:

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Kərimov Kərim Məhəmməd oğlu - istehkamçılar bölməsinin komandiri - Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyü nün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il // Azərbaycan. – 1994. – 21 sentyabr. – S.1. – (Ölümündən sonra).

Əsgərov, V. Kərimov Kərim Məhəmməd oğlu / Əsgərov V. // Azərbaycanın Milli Qəhrəmanları. – Yenidən işlənmiş II nəşri. – Bakı, 2010. – S.152-153.

Zeynalov, R. Azərbaycanın Milli Qəhrəmanları / R.Zeynalov; xüsusi red. R. Hüseynov. – Bakı: Gənclik, 1996. – 136 s. Kərimov Kərim Məhəmməd oğlu (1971-1992) // Azərbaycanın Milli Qəhrəmanları / M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova. – Bakı, 2008. – S.113-114.

Mirzə, M. Kərim Kərimov /M.Mirzə // Respublika.-2022.- 2 iyul.- S.9.

Samir Zülfüqarov – 50

(1976-1995) *Milli Qəhrəman*



Samir Xəlil oğlu Zülfüqarov 1976-cı il iyulun 3-də Dəvəçi rayonunun (indiki Şabran) Ağbaş kəndində anadan olmuşdur. İlk təhsilini doğulduğu kənddə almışdır.

1994-cü ilin avqustunda Dəvəçi Rayon Hərbi Komissarlığı tərəfindən çağırışa alınaraq Azərbaycan Milli Ordusunda həqiqi hərbi xidmətə göndərilmişdir. O, Yaşma qəsəbəsində yerləşən hərbi hissələrdən birində xidmət etmiş, hərbi nizam-intizamı və məsuliyyətli davranışı ilə fərqlənmişdir. Komandirləri tərəfindən nümunəvi əsgər kimi qiymətləndirilən Samir Zülfüqarova qısamüddətli məzuniyyət verilmişdir.

1995-ci ilin mart ayında ölkədə baş verən dövlət çevrilişi cəhdi səbəbindən ümumi vəziyyət kəskin şəkildə gərginləşmişdi. Silahlı dəstələrin dövlət hakimiyyətini ələ keçirməyə yönəlmiş fəaliyyətinə qarşı tədbirlər görüldüyü bir dövrdə Samir Zülfüqarov mövcud proseslərə biganə qalmamış, məzuniyyətini yarımçıq qoyaraq xidmət yerinə qayıtmışdır. Milli Ordunun tərkibində dövlətçiliyin müdafiəsi uğrunda aparılan əməliyyatlarda iştirak edən SamirZülfüqarov 17 mart 1995-ci il tarixində döyüş zamanı qəhrəmancasına şəhid olmuş və Ağbaş kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Samir Xəlil oğlu Zülfüqarova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Dəvəçi rayonunun 3 saylı orta məktəbi onun adını daşıyır və məktəbdə qəhrəmanın büstü ucaldılmışdır.

Ədəbiyyat:

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Zülfüqarov Samir Xəlil oğlu-Müdafiə Nazirliyi, sıravi -Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il // Azərbaycan. – 1995. – 5 aprel. – S.1.

Əsgərov, V. Zülfüqarov Samir Xəlil oğlu / Əsgərov V. // Azərbaycanın Milli Qəhrəmanları. – Yenidən işlənmiş II nəşri. – Bakı, 2010. – S.281.

Seyidzadə M. Zülfüqarov Samir Xəlil oğlu / M.Seyidzadə // Milli Qəhrəmanlar zirvəsi. – Bakı, 2010. – S.223.

Zülfüqarov Samir Xəlil oğlu // Azərbaycanın Milli Qəhrəmanları / M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova. – Bakı, 2008. – S.203..

Sadıq Hüseynov – 65

(1961-1992)

Milli Qəhrəman



Sadıq Dayandur oğlu Hüseynov 1961-ci il iyul ayının 29-da Ağcabədi rayonunun Xocavənd kəndində anadan olmuş və 1968–1978-ci illərdə burada orta təhsil almışdır.

1980-ci ildə Xankəndi Pedaqoji İnstitutunun İbtidai metodika fakültəsinin qiyabi şöbəsinə daxil olmuş, həmin il isə ordu sıralarına çağırılmışdır. Hərbi xidmətini başa vurduqdan sonra natamam qalmış təhsilini davam etdirərək 1987-ci ildə institutu bitirmiş və doğma kəndinə qayıtmışdır. O, əvvəlcə Xocavənd kənd orta məktəbində pioner baş dəstə rəhbəri, daha sonra müəllim kimi fəaliyyət göstərmişdir.

1989-cu ildə Daxili İşlər Nazirliyinin sərəncamı ilə Şuşa rayon Daxili İşlər Şöbəsində sahə müvəkkili vəzifəsinə təyin edilən Hüseynov erməni silahlı birləşmələrinin şəhərə qarşı hücumları zamanı Şuşanın müdafiəsində fəal iştirak etmişdir. O, döyüşlərdə mətanəti və peşəkarlığı ilə seçilmiş, 29 mart 1992-ci ildə ağır yaralanmasına baxmayaraq mövqeyini tərk etməmiş və döyüş əməliyyatlarını davam etdirmişdir.

13 aprel 1992-ci ildə erməni qüvvələrinin Şuşanı raket atəşinə tutması nəticəsində yaranmış kritik vəziyyətdə Sadıq Hüseynov yaralı yoldaşlarını xilas etməyə müvəffəq olmuş, lakin özü bu proses zamanı qəhrəmancasına şəhid olmuşdur. O, Ağcabədi rayonunun Xocavənd kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli Fərmanı ilə Sadıq Dayandur oğlu Hüseynova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Xocavənd kənd orta məktəbi onun adını daşıyır.

Ədəbiyyat:

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Hüseynov Sadıq Dayandur oğlu - Şuşa polis şöbəsinin sahə inspektoru - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Pre zidentinin Fərmanı, 8 oktyabr 1992-ci il // Azərbaycan. – 1992. – 9 oktyabr. – S.1. – (Ölümündən sonra).

Əsgərov, V. Hüseynov Sadıq Dayandur oğlu / Əsgərov V. // Azərbaycanın Milli Qəhrəmanları. – Yenidən işlənmiş II nəşri. – Bakı, 2010. – S.126.

Hüseynov Sadıq Dayandur oğlu // Azərbaycanın Milli Qəhrəmanları / M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova. – Bakı, 2008. – S.91.

Seyidzadə, M. Hüseynov Sadıq Dayandar oğlu / M.Seyidzadə // Milli Qəhrəmanlar zirvəsi. – Bakı, 2010. – S.97.

İYUL
1

Babazeynal Babazadə - 25

(2001-2020)

Əsgər



Babazeynal Maqsud oğlu Babazadə 2001-ci il iyul ayının 1-də Lerik rayonunun Aşağı Amburdərə kəndində anadan olmuşdur. O, orta təhsilini Lerik rayonunun Qosmalian kənd tam orta məktəbində almışdır.

Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan İkinci Qarabağ müharibəsi zamanı Babazeynal Babazadə Füzuli və Ağdərə istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. O, 6 oktyabr 2020-ci ildə Ağdərə rayonu uğrunda gedən döyüşlərdə göstərdiyi igidlik nəticəsində qəhrəmancasına şəhid olmuş və doğulduğu Aşağı Amburdərə kəndində dəfn edilmişdir.

Babazeynal Maqsud oğlu Babazadə ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "İgidliyə görə", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

1

Amin Əmiraslanov - 35

(1991-2020)

Əsgər



Amin Vaqif oğlu Əmiraslanov 1991-ci il iyul ayının 1-də Saatlı rayonunun Potubəyli kəndində anadan olmuşdur. O, Mamed Əliyev adına Əlisoltanlı kənd tam orta məktəbində təhsil almışdır.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Amin Əmiraslanov, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayıl və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, 4 noyabr 2020-ci ildə Qubadlı döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və Saatlı rayonunda dəfn edilmişdir.

Amin Vaqif oğlu Əmiraslanov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Şəhidin xatirəsinə kəndin girişində abidə ucaldılmışdır.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.81-84.

İYUL

1

Zaur Nəbiyev - 25

(2001-2020)

Əsgər



Zaur Ələddin oğlu Nəbiyev 2001-ci il iyul ayının 1-də Şəmkir rayonunun Ələsgərli kəndində anadan olmuşdur. O, Şəmkir rayon, Nəsir Nəsirov adına tam orta məktəbdə təhsil almışdır.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Zaur Nəbiyev, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. O, 3 oktyabr 2020-ci ildə Talış və Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olmuş və Ələsgərli kəndində dəfn edilmişdir.

Zaur Ələddin oğlu Nəbiyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Şəmkir rayonunda şəhidin adına "Ehsan bulağı" inşa edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.66-67.

2

Rafiq Məcidov - 30

(1996-2020)

Gizir



Rafiq Rasim oğlu Məcidov 1996-cı il iyul ayının 2-də Xızı rayonunun Sitalçay qəsəbəsində anadan olmuşdur. O, Xızı rayon, Sitalçay 1 saylı tam orta məktəbdə təhsil almışdır.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş, xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun giziri olan Rafiq Məcidov, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, 9 noyabr 2020-ci ildə Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və Giləzi kənd qəbiristanlığında dəfn edilmişdir.

Rafiq Rasim oğlu Məcidov hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Şəhidin xatirəsinə Sitalçay kəndində "Şəhidlər bulağı" abidə kompleksi açılmışdır.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.18-21.

İYUL

2

İlahəddin Mamedov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 26 dekabr.– S.1;12.

İlahəddin Dilamuddinoviç Məmmədov 2001-ci il iyulun 2-də Xaçmaz rayonunda anadan olmuşdur. O, orta təhsilini Xaçmaz rayonunun Nabran kənd tam orta məktəbində almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İlahəddin Məmmədov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan İkinci Qarabağ müharibəsində Kəlbəcər, Cəbrayıl, Füzuli və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, 2020-ci il oktyabrın 12-də Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və Nabran kənd qəbiristanlığında dəfn edilmişdir.


Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında iştirak edərək və hərbi hissəyə verilmiş tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən İlahəddin Dilamuddinoviç Məmmədov ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı", "Kəlbəcərin azad edilməsinə görə", "Füzulinin azad edilməsinə görə", "Döyüşdə fərqlənməyə görə" və "Şücaətə görə" medalları ilə, həmçinin "Azərbaycan bayrağı" ordeni ilə təltif edilmişdir.

3

Cəlal İslamov - 25

(2001-2020)

Əsgər



Cəlal Ağahüseyn oğlu İslamov 2001-ci il iyulun 3-də Xaçmaz rayonunun Çarxı kəndində anadan olmuşdur. O, 2007–2018-ci illərdə N.Abudov adına Xaçmaz rayon Çarxı kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Cəlal İslamov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, 2020-ci il oktyabrın 6-da Talış kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş və Çarxı kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında iştirak edərək və hərbi hissəyə verilmiş tapşırıqları şərəflə yerinə yetirdiyi üçün Cəlal Ağahüseyn oğlu İslamov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

İYUL
3

Elcan Muradov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 26 dekabr.– S.1;12.

Elcan Eldəniz oğlu Muradov 3 iyul 2001-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 2008–2017-ci illərdə Gəncə şəhərində yerləşən 19 saylı tam orta məktəbdə təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Elcan Muradov 27 sentyabr 2020-ci ildə başlayan və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədi daşıyan İkinci Qarabağ müharibəsi zamanı Füzuli rayonu istiqamətində aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. 1 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Nəşi bir müddət neytral zonada qaldıqdan sonra 9 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında iştirakına və hərbi tapşırıqların yerinə yetirilməsinə görə Elcan Eldəniz oğlu Muradov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

3

Emil Şamilov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 25 dekabr.– S.6-13.

Emil Rafiq oğlu Şamilov 3 iyul 1996-cı ildə Bakı şəhərində anadan olmuşdur. İlk təhsilini Bakı şəhərinin Sabunçu rayonunda yerləşən 170 saylı orta məktəbdə almış, orta təhsilini isə Bakı şəhərində yerləşən 296 saylı tam orta məktəbdə davam etdirmişdir. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən Bakı Neft-Energetika Kollecinin "Neft mühəndisliyi" ixtisasına qəbul olunmuşdur. Kolleci bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçusu kimi müddətli həqiqi hərbi xidmət keçmişdir.

Emil Şamilov 27 sentyabr 2020-ci ildə başlayan və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədi daşıyan İkinci Qarabağ müharibəsi zamanı Xocavənd rayonu istiqamətində aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. 27 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Tuğ kəndi ərazisində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Ramana Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarında iştirakına və hərbi tapşırıqların yerinə yetirilməsinə görə Emil Rafiq oğlu Şamilov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə" medalları və "Azərbaycan bayrağı" ordeni ilə təltif edilmişdir.

İYUL
3

Müslüm Vəliyev - 25

(2001-2020)

Əsgər



Müslüm Vəliağa oğlu Vəliyev 3 iyul 2001-ci ildə Bakı şəhərinin Şüvəlan qəsəbəsində anadan olmuşdur. Bakı şəhərində yerləşən A.S. Makarenko adına Humanitar fənlər təmayüllü Respublika internat tipli gimnaziyada təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Müslüm Vəliyev 27 sentyabr 2020-ci ildə başlayan və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədi daşıyan İkinci Qarabağ müharibəsi zamanı Tərtər–Suqovuşan istiqamətində aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. 28 sentyabr 2020-ci ildə Suqovuşan yaşayış məntəqəsinin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Qala qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında iştirakına görə Müslüm Vəliağa oğlu Vəliyev ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları və Müslüm 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ölümündən sonra xatirəsinin əbədiləşdirilməsi məqsədilə onun adına "Şəhidlər bulağı" inşa edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.7-9.

4

Vüqar Babayev - 25

(2001-2020)

Əsgər



Vüqar İlham oğlu Babayev 4 iyul 2001-ci ildə Bakı şəhərinin Xətai rayonunda anadan olmuşdur. Bakı şəhərində yerləşən 310 nömrəli tam orta məktəbdə təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Vüqar Babayev 27 sentyabr 2020-ci ildə başlayan və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədi daşıyan İkinci Qarabağ müharibəsi zamanı Füzuli istiqamətində aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. 1 oktyabr 2020-ci ildə Füzuli rayonunun azad edilməsi uğrunda gedən döyüşlər zamanı həlak olmuşdur. II Fəxri xiyabanda dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında iştirakına görə Vüqar İlham oğlu Babayev ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 19 dekabr.– S.6-12.

İYUL
5

Yasən Mehdiyev - 25

(2001-2020)

Əsgər



Yasən Alim oğlu Mehdiyev 5 iyul 2001-ci ildə Tərtər şəhərində anadan olmuşdur. Tərtər rayonunda yerləşən R. Nuriyev adına 6 saylı tam orta məktəbdə təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Yasən Mehdiyev 27 sentyabr 2020-ci ildə başlayan və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədi daşıyan İkinci Qarabağ müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüş əməliyyatlarında iştirak etmişdir. 23 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. 24 oktyabr 2020-ci il tarixində Tərtər rayonunun Sarıcalı kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında iştirakına görə Yasən Alim oğlu Mehdiyev ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

5

Əmrah Rüstəmli - 25

(2001-2020)

Əsgər



Əmrah Natiq oğlu Rüstəmli 5 iyul 2001-ci ildə Bərdə rayonunda anadan olmuşdur. 2007–2018-ci illərdə Sumqayıt şəhərində yerləşən 27 saylı tam orta məktəbdə təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin Ağcabədi rayonunun Taxta Körpü kəndində yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Əmrah Rüstəmli 27 sentyabr 2020-ci ildə başlayan və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədi daşıyan İkinci Qarabağ müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 4 oktyabr 2020-ci ildə Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Sumqayıt Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında iştirakına görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən Əmrah Natiq oğlu Rüstəmli ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 26 dekabr.– S.1;12.

İYUL
6

İsmayıl Qəsəbov - 35

(1991-2020)

MAHHXHQ baş çavuş



İsmayıl Nəbi oğlu Qəsəbov 6 iyul 1991-ci ildə Qazax rayonunun Çaylı kəndində anadan olmuşdur. Qazax rayonunda yerləşən Elşən Cəfərov adına 2 saylı Çaylı kənd tam orta məktəbində təhsil almışdır. 2009–2011-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmiş, xidmət zamanı ona "kiçik çavuş" hərbi rütbəsi verilmişdir. Hərbi xidmətini başa vurduqdan sonra 2012-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun baş çavuşu olan İsmayıl Qəsəbov 27 sentyabr 2020-ci ildə başlayan və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədi daşıyan İkinci Qarabağ müharibəsi zamanı Murovdağın, Cəbrayılın, Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 7 noyabr 2020-ci ildə Şuşa döyüşləri zamanı həlak olmuş, 12 noyabr 2020-ci il tarixində Qazax Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən İsmayıl Nəbi oğlu Qəsəbov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdir. Qazax rayonunun Çaylı kəndində yaşadığı evin yaxınlığında yerləşən bulaq təmir edilərək "İsmayıl bulağı" adı verilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.18-21.

7

Ruslan Rəhimov - 40

(1986-2020)

MAHHXHQ çavuş



Ruslan Tanrıverdi oğlu Rəhimov 7 iyul 1986-cı ildə Beyləqan rayonunun Kəbirli kəndində anadan olmuşdur. Beyləqan rayonunda yerləşən F. Məmmədyar adına Kəbirli kənd tam orta məktəbdə təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun çavuşu olan Ruslan Rəhimov 27 sentyabr 2020-ci ildə başlayan və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədi daşıyan İkinci Qarabağ müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. 8 oktyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş və Kəbirli kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən Ruslan Tanrıverdi oğlu Rəhimov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 26 dekabr.– S.1;13.

İYUL
7

Turan Əliyev - 30

(1996-2020)

MAHHXHQ kiçik çavuş



Turan Sulduz oğlu Əliyev 7 iyul 1996-cı ildə Biləsuvar rayonunun Əsgərabad kəndində anadan olmuşdur. Saleh Babayev adına Əsgərabad kənd tam orta məktəbdə təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra 2016–2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir. 2018-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi kiçik çavuş rütbəsində xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Turan Əliyev 27 sentyabr 2020-ci ildə başlayan və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədi daşıyan İkinci Qarabağ müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 26 noyabr 2020-ci ildə Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. 27 noyabr 2020-ci il tarixində Əsgərabad kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən Turan Sulduz oğlu Əliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ölümündən sonra Əsgərabad kəndində adına bulaq açılmışdır.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 26 dekabr.– S.1;12.

7

Elmar Mamedov - 25

(2001-2020)

Əsgər



Elmar Elçin oğlu Məmmədov 2001-ci il iyulun 7-də Balakən rayonunun Mahamalar kəndində anadan olmuşdur. 2008–2019-cu illərdə R. Baxışov adına 218 saylı Binə qəsəbə tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elmar Məmmədov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan İkinci Qarabağ müharibəsində iştirak etmişdir. O, Ağdərə və Suqovuşan istiqamətlərində gedən döyüşlərdə qəhrəmancasına döyüşmüş və 6 oktyabr 2020-ci ildə Tərtər istiqamətində gedən əməliyyatlar zamanı şəhid olmuşdur. Elmar Məmmədov Balakən Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün qorunması və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı şərəflə xidmət göstərdiyi üçün Elmar Elçin oğlu Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.7-9.

İYUL
8

Nihat Kərimli - 30

(1996-2020)

Əsgər



Nihat Teymur oğlu Kərimli 8 iyul 1996-cı ildə Ağdaş rayonunda anadan olmuşdur. Ağdaş rayonunda yerləşən Zəkəriyyə Maksudov adına Ərəbocağı kənd tam orta məktəbdə təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Nihat Kərimli 27 sentyabr 2020-ci ildə başlayan və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədi daşıyan İkinci Qarabağ müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 8 oktyabr 2020-ci ildə Ağdam uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş, Ərəbocağı kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında iştirakına və hərbi tapşırıqların yerinə yetirilməsinə görə Nihat Teymur oğlu Kərimli ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən "Vətən uğrunda", "Vətən müharibəsi iştirakçısı" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

8

Hüseyn Qasımzadə - 25

(2001-2020)

Əsgər



Hüseyn Həsənxan oğlu Qasımzadə 8 iyul 2001-ci ildə Cəlilabad rayonunun Sərhədabad kəndində anadan olmuşdur. Cəlilabad rayonunda yerləşən 2 saylı tam orta məktəbdə təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Hüseyn Qasımzadə 27 sentyabr 2020-ci ildə başlayan və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədi daşıyan İkinci Qarabağ müharibəsi zamanı Tərtər istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 6 oktyabr 2020-ci ildə Tərtər–Ağdərə döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur, 1 noyabr 2020-ci il tarixində Cəlilabad rayonunda dəfn edilmişdir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması uğrunda döyüş əməliyyatlarında iştirakına və hərbi tapşırıqların yerinə yetirilməsinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən Hüseyn Həsənxan oğlu Qasımzadə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 19 dekabr.– S.6-12.

İYUL
8

Rəvan Qafarov - 35

(1991-2020)

Baş gizir



Rəvan Elxan oğlu Qafarov 8 iyul 1991-ci ildə Ağstafa rayonunun Dağ Kəsəmən kəndində anadan olmuşdur. 1997–2008-ci illərdə Dağ Kəsəmən kənd 1 saylı tam orta məktəbdə təhsil almışdır. Orta təhsilini başa vurduqdan sonra 2009-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir. 2010-cu ildən "Baş gizir" rütbəsi ilə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun baş giziri olan Rəvan Qafarov 27 sentyabr 2020-ci ildə başlayan və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədi daşıyan İkinci Qarabağ müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 29 oktyabr 2020-ci ildə Füzuli rayonunun Veysəlli kəndində gedən döyüşlər zamanı həlak olmuş, 30 oktyabr 2020-ci il tarixində Dağ Kəsəmən kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən Rəvan Elxan oğlu Qafarov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhidin xatirəsini yaşatmaq üçün yaşadığı kənddə adına bulaq tikilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 19 dekabr.– S.13-14.

9

Allahverdi Allahverdiyev - 25

(2001-2020)

Əsgər



Allahverdi Əli oğlu Allahverdiyev 2001-ci il iyulun 9-da Bakı şəhərinin Xəzər rayonunda anadan olmuşdur. Təhsilini Bakı şəhəri 238 saylı tam orta məktəbdə almışdır. Orta məktəbi bitirdikdən sonra, 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Allahverdi Allahverdiyev, 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan İkinci Qarabağ müharibəsində iştirak etmişdir. O, Talış-Suqovuşan istiqamətində döyüş tapşırığını icra edərkən qəhrəmancasına şəhid olmuşdur. Allahverdi Əli oğlu Allahverdiyev 28 sentyabr 2020-ci ildə Buzovna Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün qorunması və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı göstərdiyi şərəfli xidmətə görə Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Allahverdi Əli oğlu Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları və "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.7-9.

İYUL
11

Xəyyam Hüseynov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Xəyyam Hüseyn oğlu Hüseynov 1996-cı il iyul ayının 11-də Göyçay şəhərində anadan olmuşdur. 2002-2013-cü illərdə Məlikkənd kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Xəyyam, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Xəyyam Hüseynov sentyabrın 28-də Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Göyçay şəhərində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün qorunması və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı göstərdiyi şərəfli xidmətə görə Xəyyam Hüseyn oğlu Hüseynov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

11

Əkbər Hüseynov - 25

(2001-2020)

Kiçik çavuş



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Əkbər Bahadur oğlu Hüseynov 2001-ci il iyul ayının 11-də Bakı şəhəri Sabunçu rayonunda anadan olmuşdur. 2007-2018-ci illərdə Sabunçu rayonu, Tahir Hacıyev adına 252 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir. 3 ay sonra Yevlax rayonu Aran qəsəbəsindəki "N" saylı hərbi hissəyə aparılaraq orada hərbi xidmətini davam etdirir. Bu müddət ərzində Əkbər Hüseynov "kiçik çavuş" rütbəsi alıb, daha sonra manqa komandiri olmuşdur.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Əkbər Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Tərtər istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Əkbər Hüseynov sentyabrın 29-da Tərtər rayonu Talış kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 30 sentyabr 2020-ci ildə Sabunçu rayonu, Bakıxanov qəsəbəsində yerləşən "Şəhidlər Xiyabanında" dəfn edilmişdir.

Əkbər Bahadur oğlu Hüseynov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda","Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Ölümündən sonra Əkbər Hüseynovun yaşadığı ərazidə adına Şəhid bulağı inşa olunmuşdur.

İYUL
11

Kamil Məmmədov - 30

(1996-2020)

Əsgər



Kamil Mübariz oğlu Məmmədov 1996-cı il iyul ayının 11-də Gəncə şəhərində anadan olmuşdur. 2003-2012-ci illərdə Gəncə şəhər M.Əzizbəyov adına 15 nömrəli tam orta məktəbində təhsil almışdır. 2013-2016-cı illərdə təhsilini 2 saylı Peşə məktəbində davam etdirmişdir. 2016-cı ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Kamil Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Xocavənd rayonunun Ağoğlan (Hadrut) qəsəbəsi, Füzuli və Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Kamil Məmmədov noyabrın 5-də Xocavənd rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 19 noyabr 2020-ci ildə Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün qorunması və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı göstərdiyi şərəfli xidmətə görə Kamil Mübariz oğlu Məmmədov Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 19 dekabr.– S.13-14.

12

Sahil Məmmədov - 30

(1996-2020)

Gizir



Sahil Ədalət oğlu Məmmədov 1996-cı il iyul ayının 12-də Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində anadan olmuşdur. Alı Mustafayev adına Ağcabədi rayonu Yuxarı Qiyaməddinli kənd 1 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmiş, xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun giziri olan Sahil, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sahil Məmmədov oktyabrın 25-də Qubadlı döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Ağcabədi Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Sahil Ədalət oğlu Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Xatirəsini əbədiləşdirmək üçün yaşadığı kəndin küçəsinə adı verilmiş, bulağ inşa olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 25 dekabr.– S.6-13.

İYUL
12

Orxan Mirzəyev - 25

(2001-2020)

Əsgər



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Orxan Əli oğlu Mirzəyev 2001-ci il iyul ayının 12-də Biləsuvar rayonunun Aşağı Cürəli kəndində anadan olmuşdur. Aşağı Cürəli kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Orxan Mirzəyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Laçın rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Orxan Mirzəyev oktyabrın 22-də Laçın istiqamətində gedən döyüşlərdə qəhrəmancasna şəhid olmuşdur. 2 noyabr 2020-ci ildə Biləsuvar rayonu Aşağı Cürəli kənd məzarlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün qorunması və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı göstərdiyi şərəfli xidmətə görə Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Orxan Əli oğlu Mirzəyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

12

Xalid Qasımov - 30

(1996-2020)

Kiçik gizir



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 25 dekabr.– S.6-13.

Xalid Rafik oğlu Qasımov 1996-cı il iyul ayının 12-də Cəlilabad rayonunun Moranlı kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə Cəlilabad rayon, Qarakazımlı kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2014-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir. 2019-cu ildən Dövlət Sərhəd Xidmətinin Sərhəd Nəzarətinin Böyük Kəsik sərhəd nəzarəti şöbəsində "Kiçik gizir" kimi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun kiçik giziri olan Xalid Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Xalid Qasımov oktyabrın 12-də Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 14 noyabr 2020-ci ildə Cəlilabad rayonunun Moranlı kəndində dəfn edilmişdir.

Xalid Rafik oğlu Qasımov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Xatirəsini yaşatmaq üçün Moranlı kəndində bulağı-kompleksi inşa olunmuşdur.

İYUL
12

Eldar Şirinov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 19 dekabr.– S.5.

Eldar Bağır oğlu Şirinov 2001-ci il iyul ayının 12-də Göyçay rayonunun Çərəkə kəndində anadan olmuşdur. Göyçay rayonu, Çərəkə kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Göyçay rayonunda kollecə daxil olmuş lakin təhsilini yarımçıq qoyaraq həqiqi hərbi xidmətə getmişdir. Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Eldar Şirinov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Eldar Şirinov oktyabrın 6-da Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Çərəkə kənd Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün qorunması və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı göstərdiyi şərəfli xidmətə görə Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Eldar Bağır oğlu Şirinov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

12

Elnur Allahverdiyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Elnur Kamil oğlu Allahverdiyev 2001-ci il iyul ayının 12-də Biləsuvar rayonunun Çaylı kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə Çaylı kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmiş, daha sonra Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elnur, Alaverdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Elnur Allahverdiyev noyabrın 9-da Şuşa şəhəri, Daşaltı kəndində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 10 noyabr 2020-ci ildə Çaylı kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevinmüvafiq Sərəncamlarına əsasən Elnur Kamil oğlu Allahverdiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.

İYUL
13

Elmir Nəsirov - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 26 dekabr.– S.1;12.

Elmir Zülfü oğlu Nəsirov 1991-ci il iyul ayının 13-də Füzuli rayonunun Əhmədbəyli kəndində anadan olmuşdur. 1998-2009-cu illərdə General Məhəmməd Əsədov adına Füzuli rayon Əhmədbəyli kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasının "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir. 2013-cü ildə öz istəyi ilə Azərbaycan ordusunun sıralarında yenidən xidmət etməyə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Elmir Nəsirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Elmir Nəsirov sentyabrın 27-də Yuxarı Əbdürrəhmanlı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Onun nəşini Neyral ərazidən 31 oktyabr 2020-ci il tarixində götürmək mümkün olmuşdur. Əhmədbəyli kənd qəbiristanlığında dəfn edilmişdir.

Elmir Zülfü oğlu Nəsirov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

14

Ağamir Ağayev - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Ağamir Qüdrət oğlu Ağayev 1996-cı il iyul ayının 14-də Biləsuvar rayonunda 2 saylı çadır şəhərciyində anadan olmuşdur. 2003–2014-cü illərdə Azad Əliyev adına Şükürbəyli kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmiş, 2016-2017-ci illərdə isə müddətdən artıq həqiqi hərbi xidmət quluqcusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Ağamir Ağayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Ağamir Ağayev oktyabrın 8-də Füzuli rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirən zaman qəhrəmancasına şəhid olmuşdur. Şükürbəyli kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ağamir Qüdrət oğlu Ağayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları və "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

İYUL
14

Ruslan Şahbazov - 35

(1991-2020)

Gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Ruslan Mahir oğlu Şahbazov 1991-ci il iyul ayının 14-də Tərtər rayonunun Ələsgərli kəndində anadan olmuşdur. Tərtər rayon, Ələsgərli kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmiş, xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun giziri olan Ruslan Şahbazov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Ruslan Şahbazov sentyabrın 29-da Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 10 oktyabr 2020-ci ildə Ələsgərli kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ruslan Mahir oğlu Şahbazov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad edilməsi uğrunda", "İgidliyə görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.

15

Hikmət Həsənov - 40

(1986-2020)

MAHHXHQ kiçik çavuş



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Hikmət Fikrət oğlu Həsənov 1986-cı il iyul ayının 15-də Gəncə şəhərində anadan olmuşdur. 1993-2004-cü illərdə M.Ş.Vazeh adına 16 nömrəli tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2004-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir. 2018-ci ildən Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində "MAXE" hərbi qulluqçusu kimi xidmət etməyə başlamışdır.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Hikmət Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Hikmət Həsənov oktyabrın 1-də Murovdağ döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 6 dekabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn edilmişdir.


Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Hikmət Fikrət oğlu Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

İYUL
15

Surac Sadıqov - 25

(2001-2020)

Əsgər



Surac Ədalət oğlu Sadıqov 2001-ci il iyul ayının 15-də Biləsuvar rayonunun Ağalıkənd kəndində anadan olmuşdur. Biləsuvar rayon, Ağalıkənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Surac Sadıqov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Surac Sadıqov oktyabrın 10-da Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 11 oktyabr 2020-ci ildə Ağalıkənd kənd məzarlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Surac Ədalət oğlu Sadıqov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.7-9.

16

Ruslan Nəbiyev - 30

(1996-2020)

Əsgər



Ruslan Muhuma oğlu Nəbiyev 1996-cı il iyul ayının 16-da Zaqatala rayonunun Danaçı kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə 1 nömrəli Danaçı kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ruslan Nəbiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşan və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Ruslan Nəbiyev dekabrın 8-də Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Danaçı kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ruslan Muhuma oğlu Nəbiyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 19 dekabr.– S.6-12.

İYUL
16

Cavidan Ağayev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Cavidan Mirzağa oğlu Ağayev 2001-ci il iyul ayının 16-da Bakı şəhərində anadan olmuşdur. Bakı şəhəri 162 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Cavidan Ağayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Xocavənd uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Cavidan Ağayev oktyabrın 2-də Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Badamdar qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevinmüvafiq Sərəncamlarına əsasən Cavidan Mirzağa oğlu Ağayev ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

17

İsmət Namazov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 19 dekabr.– S.13-14.

İsmət Nüsrət oğlu Namazov 1996-cı il iyul ayının 17-də Şəmkir rayonunun Mahmudlu kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə Y.Əsgərov adına Mahmudlu kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İsmət Namazov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. İsmət Namazov oktyabrın 27-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Mahmudlu kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevinmüvafiq Sərəncamlarına əsasən İsmət Nüsrət oğlu Namazov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

İYUL
17

Rəvan Quliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

Rəvan Mərdan oğlu Quliyev 2001-ci il iyul ayının 17-də Şirvan şəhərində anadan olmuşdur. Bakı şəhəri, Səbail rayonu 51 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəsində, 3 ay sonra isə Füzuli rayonunda yerləşən "N" saylı hərbi müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rəvan Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayıl, Füzuli, Zəngilan və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Rəvan Quliyev oktyabrın 24-də Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 25 oktyabr 2020-ci ildə Neftçala rayonunun Astanlı kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Rəvan Mərdan oğlu Quliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

18

Aqil İsmayılov - 30

(1996-2020)

Leytenant



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.61-65.

Aqil Əli oğlu İsmayılov 1996-cı il iyul ayının 18-də Şərur rayonunun Çomaxtur kəndində anadan olmuşdur. Şərur rayon, Çomaxtur kənd tam orta məktəbində təhsil almışdır. 2011-2014-cü illərdə Heydər Əliyev adına Hərbi liseydə təhsilini davam etdirmişdir. 2014-2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsil almışdır.

Azərbaycan Ordusunun leytenantı olan Aqil İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Aqil İsmayılov sentyabrın 28-də Murovdağ döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Şərur rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Aqil Əli oğlu İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və "III dərəcəli Rəşadət" ordeni ilə təltif olunmuşdur.

İYUL
19

Orxan Lətifli - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Orxan Xancan oğlu Lətifli 1996-cı il iyul ayının 19-da İsmayıllı rayonunun Diyallı kəndində anadan olmuşdur. İsmayıllı rayon, Diyallı kənd tam orta məktəbində təhsil almışdır. 2014-2019-cu illərdə İsmayıllı Dövlət Humanitar və Texnologiya Kollecində təhsilini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Orxan Lətifli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Orxan Lətifli noyabrın 7-də Şuşa döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 11 noyabr 2020-ci ildə İsmayıllı rayonunda dəfn edilmişdir.


Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevinmüvafiq Sərəncamlarına əsasən Orxan Xancan oğlu Lətifli ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif olunmuşdur.

19

Hüseyn Mirzəyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Hüseyn Elsevər oğlu Mirzəyev 2001-ci il iyul ayının 19-da Gəncə şəhərində anadan olmuşdur. 2007-2018-ci illərdə Gəncə şəhər 46 nömrəli tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Hüseyn Mirzəyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Cəbrayıl və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Hüseyn Mirzəyev oktyabrın 13-də Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 22 dekabr 2020-ci ildə Gəncə şəhəri Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevinmüvafiq Sərəncamlarına əsasən Hüseyn Elsevər oğlu Mirzəyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Vətənə xidmətə görə" və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

İYUL
19

Cəbrayıl Qasımov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.21-31.

Cəbrayıl Baloğlan oğlu Qasımov 1996-cı il iyul ayının 19-da Masallı rayonunun Ərəb kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə Rafiq Əlihəsənov adına Masallı şəhər 1 nömrəli tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Cəbrayıl Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli və Cəbrayıl rayonları uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Cəbrayıl Qasımov oktyabrın 8-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 9 oktyabr 2020-ci ildə Ərəb kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Cəbrayıl Baloğlan oğlu Qasımov ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

19

Mahmud Xudaverdiyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.81-84.

Mahmud Əhməd oğlu Xudaverdiyev 2001-ci il iyul ayının 19-da Zaqatala rayonunun Dardoqqaz kəndində anadan olmuşdur. 2007-2016-cı illərdə Sumaylı kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Mahmud Xudaverdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Mahmud Xudaverdiyev oktyabrın 14-də Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Dardoqqaz kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Mahmud Əhməd oğlu Xudaverdiyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

İYUL
20

Tahir Əliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 19 dekabr.– S.13-14.

Tahir Mahir oğlu Əliyev 2001-ci il iyul ayının 20-də Bakı şəhərində anadan olmuşdur. 2009-2018-ci illərdə Ə.Vahid adına 293 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində il 3 ay xidmət etmiş, daha sonra 12 ayını Qazax rayonunda yerləşən "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Tahir Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Tahir Əliyev oktyabrın 13-də Füzulinin aşağı Ədülrəhmanlı kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 14 gün neytral ərazidən qaldıqdan sonra, 30 oktyabr 2020-ci ildə Sabunçu rayonu, Maştağa qəsəbəsində yerləşən Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Tahir Mahir oğlu Əliyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" və "Vətənə xidmətə görə" ordeni medalları ilə təltif olunmuşdur.

21

Soltan Məmmədov - 45

(1981-2020)

Polkovnik-leytenant



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.7-9.

Soltan Akif oğlu Məmmədov 1981-ci il iyul ayının 21-də Yevlax rayonunun Səmədabad kəndində anadan olmuşdur. 1987-1996-cı illərdə Yevlax rayon, Səmədabad kənd tam orta məktəbində, 1997-1999-cu illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 1999-2003-cü illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil almışdır.

2003-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissəsində "Tağım Komandiri", sonra "Bölük komandiri", daha sonra isə MTT üzrə Tabor Komandirinin müavini vəzifələrində xidmət etmişdir. 2013-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində Qərargah rəisi vəzifəsində xidmət edən Soltan Məmmədov, qüsursuz xidmətinə görə "mayor" rütbəsi almışdır. Azərbaycan Silahlı Qüvvələrinin Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissəsində "Tabor Komandiri" vəzifəsində xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun polkovnik-leytenantı olan Soltan Məmmədov 2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Soltan Məmmədov oktyabrın 10-da Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Yevlax şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Soltan Akif oğlu Məmmədov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" və "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.

İYUL
22

Feyruz Tarverdiyev - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.81-84.

Feyruz İslam oğlu Tarverdiyev 1996-cı il iyul ayının 22-də Kürdəmir rayonunun Sığırlı kəndində anadan olmuşdur. Kürdəmir rayon, Sığırlı kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2015-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Feyruz Tarverdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Feyruz Tarverdiyev noyabrın 6-da Xocavənd döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 30 noyabr 2020-ci ildə Sığırlı kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Feyruz İslam oğlu Tarverdiyev ölümündən sonra "Xocavəndin azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

23

Eldar Abdullayev - 45

(1981-2020)

Baş gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

Eldar Firidun oğlu Abdullayev 1981-ci il iyul ayının 23-də Sumqayıt şəhərində anadan olmuşdur. Sumqayıt şəhər 3 saylı tam orta məktəbində təhsil almış, daha sonra 35 saylı Peşə məktəbini bitirmişdir. 1999-2001-ci illərdə Azərbaycan Tibb Universitetinin "Hərbi Tibb" fakültəsində ali təhsil almışdır. 2001-ci ildən "Hərbi tibb işçisi" kimi bir çox hərbi hissə və hospitallarda xidmət göstərmişdir.

Azərbaycan Ordusunun baş giziri, hərbi tibb qulluqçusu Eldar Abdullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Eldar Abdullayev oktyabrın 18-də Zəngilan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 19 oktyabr 2020-ci ildə Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Eldar Firidun oğlu Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

İYUL
24

Nail Abakarov - 25

(2001-2020) *Əsgər*



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Nail Müzəffər oğlu Abakarov 2001-ci il iyul ayının 24-də Rusiya Federasiyasının Kazan şəhərində anadan olmuşdur. 2009-cu ildə Kazan şəhəri, 79 saylı İnternat məktəbinə getmiş, 2011-ci ildə ailəsi Zaqatala şəhərinə köçmüş və burada Zaqatala şəhər İnternat məktəbinə getmişdir. Nail 2018-ci ildən Zaqatala şəhərindəki Nizami Hüseynov adına 2 saylı tam orta məktəbdə təhsilini davam etdirmiş və 2020-ci ildə məzun olmuşdur. Orta məktəbi bitirdikdən sonra 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Nail Abakarov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Nail Abakarov oktyabrın 2-də Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 4 oktyabr 2020-ci ildə Zaqatala rayonunun Aşağı Çardaxlar kənd qəbiristanlığında dəfn edilmişdir.

Nail Müzəffər oğlu Abakarov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Orxan Hüseynov - 35

25

(1991-2020) *Baş leytenant*



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.5-6.

Orxan Bəhmən oğlu Hüseynov 1991-ci il iyul ayının 25-də Suraxanı rayonunun Əmircan qəsəbəsində anadan olmuşdur. 1997-2008-ci illərdə Cavanşir Rəhimov adına 146 saylı tam orta məktəbində təhsil almışdır. 2009-2013-cü illərdə Heydər Əliyev adına Hərbi Akademiyada ali hərbi təhsil almışdır. 2013-2014-cü illərdə Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində təkmilləşdirmə kursu keçərək Qusar şəhəri "N" saylı hərbi hissəsində "tağım komandiri" kimi xidmət etməyə bağlamışdır.

Azərbaycan Ordusunun baş leytenantı olan Orxan Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Tərtər-Çaylı istiqamətində döyüş tapşırığını yerinə yetirən zaman qəhrəmancasına şəhid olmuşdur. Əmircan Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevinmüvafiq Sərəncamlarına əsasən Orxan Bəhmən oğlu Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ilə təltif olunmuşdur. Ölümündən sonra Əmircan qəsəbəsində yaşadığı küçəyə adı verilmişdir.

İYUL
25

Qamət Qurbanov - 25

(2001-2020)

Əsgər



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.81-84.

Qamət Şəmşir oğlu Qurbanov 2001-ci il iyul ayının 25-də Ağsu rayonunun Keşdiməz kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə Keşdiməz kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Qamət Qurbanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Tərtər rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Qamət Qurbanov sentyabrın 29-da Tərtər uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 30 sentyabr 2020-ci ildə Keşdiməz kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Qamət Şəmşir oğlu Qurbanov ölümündən "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.


Qamət Qurbanovun xatrəsinə Keşdiməz kəndində ehsan bulağı inşa olunmuşdur.

26

Əliağa Məmmədov - 25

(2001-2020)

Əsgər



Ə d ə b i y y a t :

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Əliağa Eldəniz oğlu Məmmədov 2001-ci il iyul ayının 26-da Bakı şəhəri, Sabunçu rayonunda anadan olmuşdur. 2008-2013-cü illərdə Sabunçu rayonu 80 nömrəli tam orta məktəbində, 2013-2017-ci illərdə isə Sabunçu rayonu 322 nömrəli tam orta məktəbində təhsil almışdır. 2017-2018-ci illərdə 5 nömrəli Peşə Liseyində "İşıq operatoru" ixtisası üzrə təhsilini davam etdirmişdir. Təhsilini başa vurduqdan sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Əliağa, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Ağdərə şəhəri istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Əliağa Məmmədov oktyabrın 6-da Ağdərə döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 7 oktyabr 2020-ci ildə Maştağa qəsəbəsində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Əliağa Eldəniz oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" medalı ilə təltif olunmuşdur.

İYUL
26

Sübhan Həsənov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.66-67.

Sübhan Rauf oğlu Həsənov 2001-ci il iyul ayının 26-da Masallı şəhərində anadan olmuşdur. 2007-2018-ci illərdə İsfəndiyar Zülalov adına Masallı şəhər 5 nömrəli tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Sübhan Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Ağdərə və Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Sübhan Həsənov oktyabrın 2-də Suqovuşan qəsəbəsi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Uzun müddət nəşi tapılmamış, 2 aydan sonra 7 dekabr 2020-ci ildə Masallı şəhər qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevinmüvafiq Sərəncamlarına əsasən Sübhan Rauf oğlu Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Fərid Dursunov - 40

26

(1986-2020)

Kapitan



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.24-28.

Fərid Fazil oğlu Dursunov 1986-cı il iyul ayının 26-da Qax rayonunun Qorağan kəndində anadan olmuşdur. 1992-2003-cü illərdə Qax rayonu Səfa Rəhimov adına Qorağan kənd tam orta məktəbində təhsil almışdır. 2003-2008-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi məktəbində ali hərbi təhsil almışdır. Təhsilini bitirdikdən sonra 2008-ci ildə xarici ölkələrin birinə təlimlərə göndərilərək hərb sənətinin incəliklərinə daha dərindən yiyələnmişdir. Azərbaycan Silahlı Qüvvələrin Quru Qoşunlarının kapitanı xidmət etdiyi illərdə Azərbaycan Silahlı Qüvvələrin üç yubiley medalı, "Qüsursuz xidmətə görə" III dərəcəli medalla təltif olunmuşdu.

Azərbaycan Ordusunun kapitanı olan Fərid Dursunov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Fərid Dursunov sentyabrın 28-də Kəlbəcərin "Koroğlu 3" döyüş mövqeyi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 29 sentyabr 2020-ci ildə Qorağan kəndində dəfn edilmişdir.

Fərid Fazil oğlu Dursunov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və "Rəşadət" ordeni ilə təltif olunmuşdur.

İYUL
27

Orxan Teymurlu - 30

(1996-2020)

Kiçik çavuş



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.81-84.

Orxan Şaiq oğlu Teymurlu 1996-cı il iyul ayının 27-də Goranboy rayonunun Şınıx kəndində anadan olmuşdur. Gədəbəy rayonu, İsalı kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Sumqayıt Dövlət Universitetinin "Kompüter mühəndisliyi" fakültəsi üzrə ali təhsil almışdır.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Orxan Teymurlu 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Ağdərə, Hadrut və Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Orxan Teymurlu oktyabrın 8-də Ağdərə döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 11 oktyabr 2020-ci ildə Fərzalı kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Orxan Şaiq oğlu Teymurlu ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

27

Məlik Zülfüqarov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

Məlik Kamran oğlu Zülfüqarov 2001-ci il iyul ayının 27-də Kürdəmir rayonunun Karrar qəsəbəsində anadan olmuşdur. 2007-2018-ci illərdə Karrar qəsəbə tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Məlik Zülfüqarov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Məlik Zülfüqarov oktyabrın 20-də Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 21 oktyabr 2020-ci ildə Karrar qəsəbəsində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevinmüvafiq Sərəncamlarına əsasən Məlik Kamran oğlu Zülfüqarov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Ölümündən sonra xatirəsinə Şəhid bulağı inşa olunmuşdur.

İYUL
28

Kamran Əliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Kamran Rasim oğlu Əliyev 2001-ci il iyul ayının 28-də Lənkəran rayonunun Aşağı Nüvədi kəndində anadan olmuşdur. Lənkəran şəhər, Aşağı Nüvədi kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Kamran Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Kamran Əliyev oktyabrın 12-də Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Aşağı Nüvədi kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevinmüvafiq Sərəncamlarına əsasən Kamran Rasim oğlu Əliyev ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Şəhidin yaşadığı evin qarşısında xatirə bulağı inşa olunmuşdur.

31

Pərviz Məmmədzadə - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14

Pərviz Zahid oğlu Məmmədzadə 2001-ci il iyul ayının 31-də Babək rayonunun Qaraxanbəyli kəndində anadan olmuşdur. 2007-2015-ci illərdə Qaraçuq kənd Vilayət Mahmudov adına 9 nömrəli tam orta məktəbində təhsil almışdır. 2015-2018-ci illərdə Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına hərbi liseydə təhsil aldıqdan sonra, Bakıdakı Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində kursant kimi təhsilini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Pərviz Məmmədzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Pərviz Məmmədzadə noyabrın 6-da Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 19 noyabr 2020-ci ildə Qaraçuq kənd məzarlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevinmüvafiq Sərəncamlarına əsasən Pərviz Zahid oğlu Məmmədzadə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və " III dərəcəli Vətənə xidməti" medalları ilə təltif olunmuşdur.

Nəsib bəy Yusifbəyli – 145

(1881-1920) *İctimai-siyasi xadimi*



Nəsib bəy Yusif bəy oğlu Yusifbəyli 5 iyul 1881-ci ildə Gəncə şəhərində ziyalı ailəsində anadan olmuşdur. İlk təhsilini Gəncə klassik gimnaziyasında almış, 1902-ci ildə Odessa Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Tələbəlik illərində milli azadlıq ideyalarına bağlanmış, azərbaycanlı tələbələrin "Həmyerlilər" təşkilatının rəhbərlərindən biri kimi fəaliyyət göstərmişdir. Rusiya imperiyasında baş verən inqilabi hadisələr və çar hökumətinin siyasi təzyiqləri nəticəsində ali təhsili yarımçıq qalmış, ciddi təqiblərə məruz qalmışdır.

1906-cı ildə siyasi təqiblərdən yaxa qurtarmaq məqsədilə Krımın Bağçasaray şəhərinə köçmüş, burada İsmayıl bəy Qaspıralının redaktorluğu ilə nəşr olunan "Tərcüman" qəzetində çalışmışdır. Bu dövrdə ictimai-siyasi və maarifçi məzmunlu məqalələri ilə geniş oxucu auditoriyası qazanmış, Qaspıralının qızı Şəfiqə xanımla ailə qurmuşdur. N.Yusifbəyli Krım tatarlarının ədəbi-mədəni həyatında da fəal iştirak etmiş, teatr fəaliyyətində yer almışdır. 1908-ci ildə Türkiyəyə mühacirət etmiş, İstanbulda türkçülük və milli dövlətçilik ideyalarının inkişafına xidmət edən təşkilatlarda iştirak etmişdir. 1909-cu ildə yenidən Vətənə qayıdaraq Gəncə şəhər bələdiyyəsində işləmiş, Bakıda "Açıq söz" qəzetinin redaktoru Məmməd Əmin Rəsulzadə ilə yaxından əməkdaşlıq etmişdir. Bu dövrdən etibarən onun ictimai-siyasi fəaliyyəti daha da sistemli xarakter almışdır.

1917-ci il Fevral inqilabından sonra Nəsib bəy Yusifbəyli Gəncədə "Türk Ədəmi-Mərkəziyyət" Partiyasını təsis etmiş, həmin ilin aprelində Bakıda keçirilən Qafqaz müsəlmanları və may ayında Moskvada təşkil olunan Rusiya müsəlmanları qurultaylarında iştirak etmişdir. 1917-ci ilin iyununda bu partiya M.Ə.Rəsulzadənin rəhbərlik etdiyi "Müsavat" Partiyası ilə birləşərək "Türk Ədəmi-Mərkəziyyət firqəsi – Müsavat" adlandırılmışdır. Yusifbəyli partiyanın proqramının hazırlanmasında mühüm rol oynamış, Mərkəzi Komitənin üzvü seçilmiş və Gəncə təşkilatına rəhbərlik etmişdir. Onun siyasi fəaliyyətində milli dövlətçilik ideyasının formalaşdırılması əsas istiqamət təşkil etmişdir.

1918-ci il aprelin 22-də elan edilmiş Zaqafqaziya Demokratik Federativ Respublikasında xalq maarifi naziri vəzifəsinə təyin olunmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Fətəli xan Xoyskinin təşkil etdiyi birinci hökumət kabinetində Maliyyə və xalq maarifi naziri, sonrakı hökumətlərdə isə Xalq maarifi və dini etiqad naziri kimi fəaliyyət göstərmişdir. Onun rəhbərliyi ilə Azərbaycan dilinin dövlət dili kimi rəsmiləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, 1918-ci il avqustun 28-də Azərbaycan məktəblərinin milliləşdirilməsi haqqında tarixi qərar qəbul edilmişdir.

1919-cu ildə təşkil olunan hökumət kabinetində Nəsib bəy Yusifbəyli baş nazir və daxili işlər naziri vəzifələrini icra etmişdir. Onun rəhbərliyi dövrü Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu tarixində mühüm mərhələ hesab olunur. Bu dövrdə Bakı Dövlət Universitetinin yaradılması, 100-dən artıq azərbaycanlı gəncin Avropanın nüfuzlu ali məktəblərinə göndərilməsi, torpaq islahatları haqqında qanun layihəsinin hazırlanması, savadsızlıqla mübarizə tədbirlərinin genişləndirilməsi, milli dərsliklərin hazırlanması və nəşri həyata keçirilmişdir. 1920-ci il yanvarın 11-də Azərbaycanın de-fakto müstəqilliyinin Antanta dövlətləri tərəfindən tanınması Yusifbəyli hökumətinin əldə etdiyi ən böyük diplomatik nailiyyətlərdən biri olmuşdur.

Lakin mürəkkəb beynəlxalq siyasi vəziyyət, sovet Rusiyasının hərbi təzyiqləri və daxildə yaranmış siyasi böhran Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna gətirib çıxarmışdır. 1920-ci ilin aprelində XI Qırmızı Ordunun Azərbaycana hərbi müdaxiləsi nəticəsində Cümhuriyyət devrilmiş, Nəsib bəy Yusifbəyli təqiblərə məruz qalmışdır. O, Bakını tərk etməyə məcbur olmuş və 1920-ci il mayın 31-də yolda faciəli surətdə qətlə yetirilmişdir.

Nəsib bəy Yusifbəyli fəaliyyəti Azərbaycan xalqının istiqlal mübarizəsinin parlaq səhifələrindən biridir.

Ədəbiyyat:

Şərifzadə, Y. Demokratiyanın cəfakeş müdafiəçisi: Nəsib bəy Yusifbəyli / Yusif Şərifzadə //Respublika . -2025.- 31 may (№112).- S.7.

Eminov, A. İlk maarif naziri Nəsibbəy Yusifbəyli: təntənəli və faciəli ömür / Allahverdi Eminov //Hürriyyət.-2024.- 22 oktyabr (№40).- S.14.

Yaqubqızı, R. Maarifçi publisist, ictimai-siyasi və dövlət xadimi / R.Yaqubqızı // Respublika.-2024.- 5 iyul, № 138.- S.9.

Süleymanova, N. Nəsib bəy Yusifbəyli: İstiqlalımızın memarları / N.Süleymanova // Respublika . -2024.- 31 may, № 113.- S.11.

Qocayev, İ. İstiqlal mücahidi: Nəsib bəy Yusifbəyli anıldı / İ. Qocayev // Şərq . -2021.- 6 iyul.- S.8-9.

Raqifoğlu, E. Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları / Elnur Raqifoğlu; rəssam: E. Cabbarov, Z. Cabbarov; nəşrin rəhb. P. Eyyubov; dizayner Ö. Məmmədov. - [Bakı]: Qələm, [2023]. - 160 s.

İnternetdə:

https://millikimlik.az/2021/3544

https://tarixinstitutu.az/personalities/view/102

Kəmaləddin Heydərov – 65

(1961) İctimai-siyasi xadimi



Ədəbiyyat:

Zəfər imzalı qüdrətli Lider: Möhtəşəm 20 il / Kəmaləddin.Heydərov // Azərbaycan.-2023.- 12 oktyabr, № 222.- S.1;4.

Gömrük işinin əsasları: [4 cilddə] / Kəmaləddin Heydərov; elmi red. C.Q.Həsənov; ixt. red. A.Ə.Əliyev. - Bakı: Azərnəşr, 1998-2000.- C. 1: Gömrük işinin təşkili və texnologiyası; C. 2: Gömrük orqanlarının iqtisadi fəaliyyəti; C. 3: Gömrük orqanlarının hüquq mühafizə fəaliyyəti; C.4: Gömrük işinin idarə edilməsi və inkişafı. Heydər Əliyev və Azərbaycanda gömrük sisteminin təkamülü: iqtisadi təhlükəsizlik konsepsiyası üzrə / Kəmaləddin Heydərov. - Bakı: Ozan, 2000. - 256 s.

Fövqəladə hallar. Məktəblinin ensiklopediyası / red. hey.: K.F.Heydərov [və b.]; elmi red. E.K.Əlizadə; [dizayn və çap Jeykhun Ima nov Studio]. - Bakı: [Unicef Azərbaycan], [Azərb. Resp. Fövqəladə Hallar Nazirliyi], 2015.- 515, [6] s.

Cahangir, T. Kəmaləddin Heydərov / Tariyel Cahangir // Azərbaycanda kim kimdir: ensiklopedik sorğu kitabı / T.Cahangir. – Bakı, 2004. – S. 96

https://qebulol.az/kemaleddin-heyderov/

Kəmaləddin Fəttah oğlu Heydərov 1961-ci il iyulun 15-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Çeşməbasar kəndində anadan olmuşdur. Orta təhsilini 1978-ci ildə Naxçıvan şəhər 1 saylı orta məktəbində başa vurmuşdur. 1978–1984-cü illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) geoloji-kəşfiyyat fakültəsində ali təhsil almış, geoloq ixtisasına yiyələnmişdir. Sonrakı dövrdə Azərbaycan Universitetində ikinci ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1978-ci ildə "Xəzərdənizneftqaz" kəşfiyyatı idarəsində başlamış, burada texnik və geoloq vəzifələrində çalışmışdır. 1990-cı illərin əvvəllərindən idarəetmə və təşkilati sahələrdə fəaliyyət göstərmişdir.

1995-ci ilin yanvar ayında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri vəzifəsinə təyin edilmişdir. Onun Gömrük Komitəsinə rəhbərlik etdiyi dövrdə gömrük nəzarətinin təşkili, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, idarəetmə mexanizmlərinin yenilənməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirilmişdir.

2006-cı ilin fevral ayında Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri vəzifəsinə təyin olunmuşdur. Həmin il fevralın 6-da ona general-polkovnik hərbi rütbəsi verilmişdir. Nazir kimi fəaliyyəti dövründə fövqəladə halların idarə olunması sahəsində institusional struktur formalaşdırılmış, axtarış-xilasetmə, yanğın təhlükəsizliyi, mülki müdafiə və sularda xilasetmə xidmətlərinin fəaliyyəti vahid idarəetmə sisteminə inteqrasiya edilmişdir. Nazirliyin tərkibinə Mülki Müdafiə Qoşunları, Dövlət Yanğın Nəzarəti Xidməti, Dövlət Sularda Xilasetmə Xidməti, eləcə də digər ixtisaslaşmış qurumlar daxil edilmişdir.

Kəmaləddin Heydərov idman sahəsində də təşkilati fəaliyyəti ilə məşğul olmuşdur. 1999-cu ildən Azərbaycan Taekvondo Federasiyasının prezidenti olmuş, eyni zamanda Dünya Taekvondo Federasiyasının vitse-prezidenti vəzifəsini icra etmişdir. 2009–2022-ci illərdə Azərbaycan Boks Federasiyasının prezidenti kimi fəaliyyət göstərmişdir. Bu dövrdə federasiyaların strukturunun formalaşdırılması, beynəlxalq idman qurumları ilə əlaqələrin təşkili və idman yarışlarının keçirilməsi istiqamətində təşkilati işlər aparılmışdır.

"Kamal" təxəllüsü ilə bəstələdiyi musiqi əsərləri müxtəlif ifaçılar tərəfindən səsləndirilmişdir. 2009-cu ildə "Sənə güvəndiyim dağlar" adlı dörd diskdən ibarət albom nəşr edilmişdir. Albomda yer alan mahnıların sözləri əsasən Leyla Əliyeva və Baba Vəziroğluna məxsusdur.


Uzunmüddətli dövlət qulluğu fəaliyyəti dövründə Kəmaləddin Heydərov bir sıra dövlət təltiflərinə layiq görülmüşdür. O, 2008-ci ildə "Azərbaycan Bayrağı" ordeni, 2011-ci ildə "Şöhrət" ordeni, 2015-ci ildə II dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Kəmaləddin Heydərovun fəaliyyəti dövlət idarəçiliyi, idman, mədəniyyət və ictimai həyatın müxtəlif sahələrini əhatə edir.

Vəli Əliyev – 90

(1936-2020)

Tarixçi



Vəli Hüseyn oğlu Əliyev 1936-cı il iyulun 20-də Şəki şəhərinin Daşbulaq kəndində anadan olmuşdur. Ailəsi əslən Naxçıvan mənşəli olmuş, bir müddət Zəngəzur mahalının Şıxlar kəndində yaşamış, daha sonra Şəki şəhərinə köçmüşdür. 1959-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsini bitirmişdir. 1966-cı ildə "Azərbaycanın tunc dövrü boyalı qablar mədəniyyəti" mövzusunda namizədlik, 1984-cü ildə isə "Azərbaycanda orta tunc dövrü" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1994-cü ildə professor, 2003-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Əmək fəaliyyətinə 1959-cu ildə AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunda baş laborant kimi başlamış, sonrakı illərdə kiçik elmi işçi, elmi işçi və baş elmi işçi vəzifələrində çalışmışdır. 1990–1997-ci illərdə AMEA Tarix İnstitutunda Tunc və İlk Dəmir dövrü şöbəsinin müdiri olmuşdur. 1990-cı ildən etibarən AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Tunc və İlk Dəmir dövrü arxeologiyası şöbəsinin müdiri vəzifəsində fəaliyyət göstərmişdir. 1997-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi tarix kafedrasının müdiri olmuşdur.

Vəli Əliyevin elmi tədqiqatları əsasən Azərbaycanın qədim tarixinin arxeoloji problemlərini, xüsusilə eneolit, erkən tunc, orta tunc, son tunc və ilk dəmir dövrlərinin maddi mədəniyyətinin öyrənilməsini əhatə etmişdir. O, Cənubi Qafqaz və Ön Asiyada geniş yayılmış Kür-Araz erkən tunc dövrü mədəniyyətinin Naxçıvan, Qarabağ və Urmu bölgələrində eneolit dövrünün yerli oturaq əkinçi-maldar tayfalarının mədəniyyəti əsasında formalaşdığını elmi əsaslarla müəyyən etmişdir.

Alim tərəfindən Azərbaycanın e.ə. II–I minilliklərini əhatə edən qədim şəhər mədəniyyəti, orta tunc dövrü Boyalı qablar mədəniyyəti, son tunc və ilk dəmir dövrü Xocalı–Gədəbəy mədəniyyəti, Cənubi Azərbaycanın tunc dövrü mədəniyyətləri, qayaüstü təsvirlər və ilkin piktoqrafik yazı nümunələri, qədim tayfa ittifaqlarının və erkən dövlət qurumlarının təşəkkülü, Azərbaycan xalqının ilkin etnik formalaşması problemləri üzrə genişmiqyaslı tədqiqatlar aparılmışdır.

Vəli Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası ərazisində 1960–1980-ci illərdə aparılmış sistemli arxeoloji tədqiqatlar nəticəsində 500-dən artıq yeni tarixi-mədəniyyət abidəsi aşkar edilmişdir. O, Naxçıvan arxeoloji ekspedisiyasının rəhbəri kimi Kültəpə I və II, Ovçular təpəsi, Sədərək, Xələc, Maxta, Daşarx, Oğlanqala, Şahtaxtı-Govurqala, Qazançı qalası, Gilan-Plovtəpə, Çalxanqala, Vayxır-Govurqala, Əznəburd və digər abidələrdə arxeoloji qazıntılara rəhbərlik etmişdir. Bu tədqiqatlar əsasında Azərbaycanda e.ə. III–II minilliklərdə iri tayfa ittifaqlarına məxsus erkən şəhər mərkəzlərinin formalaşdığı elmi şəkildə əsaslandırılmışdır.

Ordubad rayonu ərazisində Qapıcıq-Gəmiqaya zirvəsinin cənub hissəsində, dəniz səviyyəsindən 3500–3700 metr yüksəklikdə yerləşən və e.ə. IV–I minilliklərə aid edilən qayaüstü təsvirlər – petroqliflər onun rəhbərliyi ilə aşkar edilmiş və tədqiq olunmuşdur.

Vəli Əliyev 300-ə yaxın elmi əsərin, o cümlədən 9 monoqrafiyanın və bir sıra dərsliklərin müəllifidir. Onun əsas monoqrafiyaları sırasında "Azərbaycanın tunc dövrü boyalı qablar mədəniyyəti", "Qədim Naxçıvan", "Azərbaycanın orta tunc dövrü mədəniyyəti", "Ağsunun tarixi səhifələri", "Naxçıvan Azərbaycanın tarixi diyarıdır", "Naxçıvanın qədim qala şəhərləri", "Gəmiqaya", "Qədim Qarabağ" və "Naxçıvan" əsərləri mühüm yer tutur. Əsərləri Azərbaycanla yanaşı Rusiya, Ukrayna, Gürcüstan, Özbəkistan və digər ölkələrdə dərc edilmişdir.

Onun rəhbərliyi ilə 2 elmlər doktoru və 15 fəlsəfə doktoru hazırlanmışdır. Beynəlxalq və regional elmi konfrans və simpoziumlarda məruzələrlə çıxış etmişdir. Azərbaycanşünaslar Birliyinin, Pakistan və Mərkəzi Asiya Elmi Assosiasiyasının və digər elmi qurumların üzvü olmuşdur.

Vəli Hüseyn oğlu Əliyev 2020-ci il yanvar ayının 8-də vəfat etmişdir.

Ədəbiyyat:

İlyasoğlu, R. Cəfakeş alim, xeyirxah insan: Vəli Əliyev / R.İlyasoğlu // Azad Azərbaycan. –2020. – 14 yanvar. – S.7.

Vəli Hüseyn oğlu Əliyev // Elm.-2019.- 16 yanvar.- S.12.

Xəlilov, T. Gəmiqaya ətrafında arxeoloji tədqiqatla / T. F. Xəlilov ; elmi red. və ön sözün müəl. V. H. Əliyev; elmi məsləhətçi A. Q. Seyidov. - Naxçıvan: [Əcəmi], 2018. - 119, [1] s.

Qarabağ: qədim dövr / V.Əliyev. – Bakı: Çaşıoğlu, 2010. – 204 s.

Naxçıvan / V.Əliyev; red. İ.Babayev. – Bakı: XXI – Yeni Nəşrlər Evi, 2002. – 320 s.

Ağsunun tarixi səhifələri / V.Əliyev, F.Xəlilov; elmi red. F.Osmanov. – Bakı: Adiloğlu, 2001. – 94 s.

İnternetdə:

www.anl.az www.az.wikipedia

https://science.gov.az/az/forms/skanchavshiesya-chlenyikorrespondentyi/3744

https://sheki.org/wiki/V%C9%99li_%C6%8Fliyev

Rəbiyyət Aslanova – 75

(1951)

İctimai-siyasi xadim



Rəbiyyət Nurullah qızı Aslanova 1951-ci il iyulun 4-də Kəlbəcər şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsini bitirmiş, 1973–1976-cı illərdə həmin universitetin aspiranturasında təhsil almış, 1977–1978-ci illərdə Bakı Dövlət Universitetində assistent vəzifəsində çalışmışdır. 1981-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. 1988-ci ildən baş müəllim və dosent vəzifələrində fəaliyyət göstərmişdir. 2004-cü ildə "İslam mədəniyyət sistemində" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, fəlsəfə elmləri doktoru elmi dərəcəsini almışdır. Həmin ildən Bakı Dövlət Universitetinin Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının professoru, 2009-cu ildən isə həmin kafedranın müdiri olmuşdur.

Rəbiyyət Aslanova ikinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmiş, Milli Məclisin İnsan Hüquqları Komitəsinin sədri vəzifəsində fəaliyyət göstərmişdir. 109 saylı Balakən seçki dairəsindən deputat seçilmişdir. ATƏT-in Parlament Assambleyasında və MDB Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətlərinin üzvü olmuşdur. Yeni Azərbaycan Partiyasının üzvüdür.

Onun elmi yaradıcılığı əsasən fəlsəfə tarixi, islam fəlsəfəsi, mədəniyyətşünaslıq, sivilizasiyalar tarixi, qloballaşma və mədəni müxtəliflik problemlərini əhatə edir. Qərb və Şərq mədəni-fəlsəfi ənənələrinin qarşılıqlı təsiri onun tədqiqatlarının əsas istiqamətlərindən birini təşkil edir. Rəbiyyət Aslanova 11 kitabın və 300-ə yaxın elmi məqalənin müəllifidir. Elmi məqalələri Türkiyə, Kanada, Ukrayna, Rusiya, Misir, İordaniya və digər ölkələrin nüfuzlu elmi jurnallarında dərc edilmişdir.

O, Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının, BDU Elmi Şurasının, Azərbaycan Fəlsəfə və Sosial-Siyasi Elmlər Assosiasiyasının, Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurası (RETTƏŞ) yanında fəlsəfə, politologiya, sosiologiya, mədəniyyətşünaslıq və psixologiya elmləri üzrə Problem Şurasının, həmçinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin münsiflər heyətinin üzvü olmuşdur. Türkiyənin Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Mərkəzinin üzvüdür. MDB Parlamentlərarası Assambleyasının Elm və Təhsil Komissiyasının sədr müavini vəzifəsində fəaliyyət göstərmişdir.

Rəbiyyət Aslanova uzun illər ərzində Bakı Dövlət Universitetində fəlsəfə tarixi, islam fəlsəfəsi, mədəniyyət, etika, estetika, tarix fəlsəfəsi və türk xalqlarının fəlsəfi fikir tarixi fənlərini tədris etmişdir. Azərbaycan televiziyasında "Mənəvi tərbiyə" proqramının müəllifi və aparıcısı olmuşdur.

Onun əsas monoqrafiyaları sırasında "İslam və mədəniyyət", "Qloballaşma və mədəni müxtəliflik", "XXI əsr: yeni mədəniyyət məkanına inteqrasiya", "Müasir dövlət və dövlətşünaslıq elmi", "Tarixə fəlsəfi baxış", "Evrensel değerler sisteminde İslam kültürü", "Tarihten günümüze devlet anlayışı" və digər elmi əsərlər yer tutur.

Rəbiyyət Aslanova elmi və ictimai fəaliyyətinə görə bir sıra dövlət və beynəlxalq mükafatlarla təltif edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 4 iyul 2011-ci il tarixli Sərəncamına əsasən "Şöhrət" ordeni ilə təltif olunmuşdur. 2019-cu ildə "Bakı Dövlət Universitetinin 100 illiyi (1919–2019)" yubiley medalı ilə mükafatlandırılmışdır. 2019-cu il 11 dekabr tarixində Türk Dünyası Araştırmaları Uluslararası İlimler Akademisinin akademik üzvü seçilmiş və "Uluslararası Altın Yıldız" medalı ilə təltif edilmiş və 2022-ci il sentyabrın 3-də Türkiyənin İstanbul şəhərində keçirilən "Altın Kalem Ödülleri" müsabiqəsində yazar olaraq xüsusi mükafata layiq görülmüşdür dir.

Ədəbiyyat:

"İnsan çətinlikləri dəf edə-edə özünü təsdiqləyir":Milli Məclisin sabiq komitə sədri, professor Rəbiyyət Aslanova: "Bu çətinliklər həm də hadisələri yenidən dəyərləndirmək, yaşananların mahiyyətini anlamaq imkanı verir" / R. Aslanova; müsahibəni apardı Ş. Müşfiq // 525-ci qəzet. - 2020.- 8 aprel.- S.10-11.

Fernan Brodelin tarix fəlsəfəsi və onun müasir dövr üçün aktuallığı / Rəbiyyət Aslanova // Tarix və onun problemləri: nəzəri, elmi, metodiki jurnal. - 2017. - № 4. - S. 247-258.

XXI əsrdə tarix fəlsəfəsinin tədqiqinin bəzi aktual məsələləri / Rəbiyyət Aslanova // Tarix və onun problemləri: nəzəri, elmi, metodiki jurnal. - 2016. - № 2. - S. 209-214.

Müasir dövlət və dövlətşünaslıq elmi: Azərbaycan Respublikası nın dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü işığında / Rəbiyyət Aslanova; elmi red. R. Mehdiyev. - Bakı: [Azərnəşr], 2011. - 439 s.

XXI əsr: Yeni mədəniyyət məkanına inteqrasiya / Rəbiyyət Aslanova. – Bakı: Nurlan, 2007. - 440 s.

Qloballaşma və mədəni müxtəliflik / Rəbiyyət Aslanova. – Bakı: Elm, 2004. – 264 s.

Aydın Məmmədov – 85

(1941-2003) *İqtisadçı*



Aydın İsrafil oğlu Məmmədov 14 iyul 1941-ci ildə Goranboy rayonunun Dəliməmmədli kəndində anadan olmuşdur. 1960-cı ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Kənd təsərrüfatının iqtisadiyyatı fakültəsinə daxil olmuş, 1965-ci ildə həmin ali təhsil müəssisəsini fərqlənmə diplomu ilə bitirmiş və elmi-pedaqoji fəaliyyətə assistent kimi başlamışdır.

1967-ci ildə istehsalatdan ayrılmaqla K. A. Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyasının aspiranturasına qəbul olunmuş, 1970-ci ildə "Azərbaycan SSR-də pambığın məhsuldarlığının iqtisadi-statistik təhlili və uzunmüddətli proqnozlaşdırılması" mövzusunda dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi (fəlsəfə doktoru) elmi dərəcəsini almışdır. Bu tədqiqat işi respublikada pambıqçılıq sahəsində məhsuldarlığın iqtisadi-statistik təhlili və proqnozlaşdırılması problemlərinin elmi əsaslarla öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Aydın Məmmədov uzun müddət Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda elmi-pedaqoji və təşkilati fəaliyyətlə məşğul olmuş, kənd təsərrüfatının iqtisadiyyatı kafedrasının müdiri, həmçinin fakültə dekanı vəzifələrində çalışmışdır. 1985-ci ildə "Regional aqrar-sənaye komplekslərində qarşılıqlı iqtisadi əlaqələrin təkmilləşdirilməsi (Azərbaycan SSR-in materialları əsasında)" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək iqtisad elmləri doktoru alimlik dərəcəsi almışdır. 1986-cı ildə isə professor elmi adına layiq görülmüşdür.

Aparılmış elmi araşdırmaların əsas istiqamətlərini aqrar-sənaye kompleksinin iqtisadiyyatı, regional iqtisadi əlaqələrin formalaşması, kənd təsərrüfatının səmərəliliyinin artırılması və aqrar sahədə idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi təşkil etmişdir. Aydın Məmmədovun bu sahədəki tədqiqatları ölkədə aqrar islahatların elmi əsaslarla aparılmasına ciddi töhfələr vermişdir.

1991-ci ildə Rusiya Kənd Təsərrüfatı Elmləri Akademiyasının, 2001-ci ildə isə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Onun bilavasitə elmi rəhbərliyi altında 10 nəfər iqtisad elmləri üzrə fəlsəfə doktoru dissertasiyası müdafiə etmişdir.

Alim 150 çap vərəqi həcmində 100-dən artıq elmi və elmi-metodik əsərin müəllifi kimi aqrar iqtisadiyyat elminin inkişafında mühüm rol oynamışdır. Onun əsərləri kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsi, regional iqtisadi əlaqələrin dərinləşdirilməsi və aqrar sahədə institusional islahatların elmi əsaslandırılması baxımından aktual elmi mənbə kimi qiymətləndirilir.

Aydın Məmmədov həmçinin Azərbaycan Respublikasının Milli Məclisinin eksperti kimi fəaliyyət göstərmiş, Milli Məclisin Aqrar məsələlər üzrə Daimi Komissiyası yanında ekspert-işçi qrupuna rəhbərlik etmişdir. Onun rəhbərliyi altında "Aqrar islahatın əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında" və digər fundamental qanun layihələrinin ilkin variantları hazırlanmışdır. Bu qanunvericilik nümunələri ölkədə aqrar sahədə mülkiyyət münasibətlərinin dəyişdirilməsi və bazar iqtisadiyyatına keçidin hüquqi əsaslarının formalaşdırılması baxımından mühüm əhəmiyyət daşımışdır.

Aydın Məmmədov aqrar iqtisadiyyat problemlərinə həsr olunmuş beynəlxalq simpozium, konfrans və elmi müşavirələrdə fəal iştirak etmiş, AFR, Böyük Britaniya, İran, Rumıniya və digər ölkələrdə Azərbaycan iqtisad elmini layiqincə təmsil etmişdir.

Aydın İsrafil oğlu Məmmədov 25 fevral 2003-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Aydın İsrafil oğlu Məmmədov : (Nekroloq) // Xalq qəzeti.-2003.- 27 fevral.-S.7.

Kənd təsərrüfatının iqtisadiyyatı: Ali məktəblər üçün dərslik / Aydın Məmmədov; rəyçilər: H.B. Allahverdiyev, R.B.Əliyev. – Bakı: Maarif, 1992. – 372 s.

Pambığın məhsuldarlığına təsir edən amillərin iqtisadi cəhətdən qiymətləndirilməsi / Aydın Məmmədov. – Bakı: Azərnəşr, 1976. – 78, [1] s.

İnternetdə:

science.gov.az › forms › skanchavshiesya chlenyik... az.wikipedia.org › wiki › Aydın_Məmmədov_(iqtis...

Məmmədtağı Cəfərov – 90

(1936-2007)

Akademik



Cəfərov Məmmədtağı İbrahim oğlu 15 iyul 1936-cı ildə Ermənistan SSR-in Amasiya rayonunun Oxçuoğlu kəndində anadan olmuşdur. İlk təhsilini kənd səkkizillik məktəbində almış, daha sonra İrəvan Kənd Təsərrüfatı Texnikumunu fərqlənmə diplomu ilə bitirmişdir. 1954-cü ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsinə daxil olmuş, 1959-cu ildə ali təhsilini fərqlənmə diplomu ilə başa çatdırmışdır. Elmi fəaliyyətə hələ tələbəlik illərindən başlayan Məmmədtağı Cəfərov aspiranturada təhsilini davam etdirmiş və 1964-cü ildə "Azərbaycanın əsas torpaq tiplərində fosfor birləşmələri" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək kənd təsərrüfatı elmləri namizədi alimlik dərəcəsini almışdır.

Məmmədtağı Cəfərov 1964–1973-cü illərdə Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) aqrokimya kafedrasında assistent və dosent, 1973–1983-cü illərdə isə torpaqşünaslıq və kənd təsərrüfatının meliorasiyası kafedrasının müdiri vəzifələrində çalışmışdır. 1973-cü ildə Belorusiya Elmi-Tədqiqat Əkinçilik İnstitutunda "Azərbaycan torpaqlarında və əkinçiliyində fosfatlar problemi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək kənd təsərrüfatı elmləri doktoru alimlik dərəcəsi almışdır. 1975-ci ildə ona professor elmi adı verilmişdir.

Məmmədtağı Cəfərov 1989-cu ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 2001-ci ildə isə həqiqi üzvü seçilmişdir.

Akademik Məmmədtağı Cəfərov aqrokimya və torpaqşünaslıq sahəsində çoxşaxəli elmi tədqiqatların müəllifidir. Onun 200-dən artıq elmi əsəri, onlarca monoqrafiya və dərsliyi çap olunmuşdur. "Azərbaycan torpaqlarında və əkinçiliyində fosfatlar problemi" monoqrafiyası, iki hissədən ibarət "Torpaqşünaslıq", "Torpaqşünaslıq praktikum", "Azərbaycanda gübrələmə sisteminin əsasları", "Torpaqşünaslıq və geologiyanın əsasları", "İrimiqyaslı torpaq xəritələrinin tərtibi və istifadəsi", dörd hissədən ibarət fundamental "Torpaqşünaslıq" əsəri və digər tədqiqatları respublikada torpaqşünaslıq elminin inkişafına mühüm töhfələr vermişdir.

Alimin elmi əsas fəaliyyəti Azərbaycan torpaqlarında fosfor rejiminin elmi əsaslarla öyrənilməsi, torpaqlarda fosfor ehtiyatı formalarının müəyyənləşdirilməsi, fosfor balansının hesablanması, fosfor gübrələrinin səmərəli tətbiqi, eləcə də intensiv əkinçilik şəraitində torpaqdan səmərəli istifadənin və münbitliyin elmi əsaslarla idarə olunması istiqamətlərini əhatə etmişdir. Aparılan tədqiqatlar nəticəsində müxtəlif torpaq-iqlim zonalarında zonal torpaq tiplərinin və eroziyaya uğramış torpaqların münbitliyinin konseptual modelləri işlənib hazırlanmış, Şəki–Zaqatala bölgəsində torpaqların münbitliyinin regional modeli formalaşdırılmışdır. Eyni zamanda, əldə edilən elmi nəticələr əsasında bir sıra namizədlik və doktorluq dissertasiyaları hazırlanmış, tədqiqat materialları Şəki–Zaqatala, Şirvan, Quba–Xaçmaz, Gəncə–Qazax və Kəlbəcər–Laçın bölgələrində istehsalat təcrübəsinə uğurla tətbiq edilmişdir.

Akademik Məmmədtağı Cəfərovun elmi-pedaqoji fəaliyyəti respublikada torpaqşünaslıq, aqrokimya və meliorasiya sahələrinin inkişafında mühüm elmi məktəbin formalaşmasına səbəb olmuşdur. Alimin elmi irsi bu sahələrin müasir problemlərinin öyrənilməsində bu gün də aktual elmi mənbə kimi istifadə olunur.

Cəfərov Məmmədtağı İbrahim oğlu 17 iyun 2007-ci ildə Gəncə şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

İbrahimli, S. Görkəmli alim [Mətn] / S.İbrahimli //Ədəbi proses: dünən və bu gün.-Bakı: Elm və təhsil, 2016.-S. 494-497.

Məmmədtağı İbrahim oğlu Cəfərov // Elm.-2007.- 22 iyun.-S.16.

Azərbaycan Kənd Təsərrüfat Akademiyası 75 ildə / M. İ. Cəfərov; elm. red. R. Mehdiyev.- Bakı , Adiloğlu.- 2004.- 211, [1] s.

Ağbaba, A. Mən torpaq oğluyam: [Akademik M.İ. Cəfərovun ömür yolundan səhifələr] / Avtandil Ağbaba; Red.: N.H.Nəcəfov. - Bakı: Adiloğlu, 2003. - 219 s.

Respublikamızda kənd təsərrüfatının inkişafı və kadr hazırlığı Akademiyamızın fəailiyyəti ilə bilavasitə bağlıdır / Məmmədtağı Cəfərov // Respublika. -1999. -24 iyun.-S.3.

İnternetdə:

https://science.gov.az/az/forms/skonchavshiesya-deystvitelnyie-chlenyi/3238

Eldar Quliyev – 75

(1951)

Siyasi xadim, iqtisadçı



Eldar Aydın oğlu Quliyev 1951-ci il iyulun 26-da Bakı şəhərində anadan olmuşdur. 1968-ci ildə Bakı şəhər 187 saylı orta məktəbi bitirmiş, ali təhsilini D. Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Ticarətin iqtisadiyyatı fakültəsində alaraq 1973-cü ildə iqtisadçı ixtisası üzrə məzun olmuşdur. Həmin ildən əmək fəaliyyətinə başlamış, 1973–1974-cü illərdə Elmi-Tədqiqat İnstitutunda iqtisadçı vəzifəsində çalışmış, 1974–1975-ci illərdə həqiqi hərbi xidmət keçmişdir. 1975–1987-ci illərdə respublikanın Ticarət Nazirliyi sistemində müxtəlif məsul vəzifələrdə, o cümlədən əmtəəşünas, univermaq direktoru, ticarət idarəsinin direktor müavini və direktoru vəzifələrində çalışmışdır.

1981–1985-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin aspiranturasında təhsil alaraq elmi-tədqiqat fəaliyyəti ilə məşğul olmuş, 1987–1990-cı illərdə Azərbaycan Mərkəzi Kooperativlər İttifaqının ("Azərittifaq") idarə rəisi vəzifəsində çalışmışdır. 1990-cı ildə "Azərittifaq"ın İdarə Heyəti sədrinin müavini, 1993-cü ildən isə İdarə Heyətinin sədri seçilmiş və bu vəzifəni uzun illər ictimai əsaslarla icra etmişdir. 2011-ci ildən Azərbaycan Kooperasiya Universitetinin rektoru vəzifəsində fəaliyyət göstərir.

Eldar Quliyev iqtisad elmləri doktoru, professor elmi adı almışdır. Onun elmi fəaliyyəti aqrar iqtisadiyyat, qida təhlükəsizliyi, kooperasiya və inteqrasiya problemlərinin tədqiqinə həsr olunmuşdur. 2009-cu ildə "Kənd təsərrüfatı məhsullarının topdansatış bazarlarının formalaşdırılması problemləri" mövzusunda fəlsəfə doktorluğu, 2013-cü ildə isə "Əhalinin etibarlı ərzaq təminatında kooperasiya və inteqrasiya problemləri" mövzusunda elmlər doktorluğu dissertasiyalarını müdafiə etmişdir. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarları ilə ona dosent və professor elmi adları verilmişdir.

Professor Eldar Quliyev müstəqil Azərbaycanda aqrar-ərzaq kompleksinin və qida təhlükəsizliyinin elmi əsaslarla araşdırılması sahəsində aparıcı tədqiqatçılardan biri kimi tanınır. O, 5 monoqrafiyanın, ali məktəblər üçün 6 dərslik və dərs vəsaitinin, 100-dən artıq elmi məqalənin müəllifidir. Onun "Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər" adlı monoqrafiyası 2017-ci ildə Almaniyada ingilis dilində nəşr edilmiş və Avropa Təbiət Elmləri Akademiyasının qərarı ilə yüksək elmi dəyərə layiq görülmüşdür. Bu əsərə görə müəllifə BMT-nin müvafiq qurumu tərəfindən "İlin kitabı" beynəlxalq mükafatı təqdim olunmuşdur. Monoqrafiya 2018-ci ildə Azərbaycan dilinə tərcümə edilərək çap edilmişdir. 2020-ci ildə "Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri", 2021-ci ildə "Kooperasiya hərəkatı: təkamülü, mövcud durumu və inkişaf meyilləri", 2023-cü ildə isə "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu" adlı fundamental tədqiqat əsərləri nəşr olunmuşdur.

Professor Eldar Quliyevin elmi rəhbərliyi və məsləhətçiliyi ilə 10 nəfər fəlsəfə doktoru və 3 nəfər elmlər doktoru hazırlanmışdır. Hazırda da bir sıra iddiaçıların elmi işlərinə rəhbərlik edir.

Alim Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının, Avropa Təbiət Elmləri Akademiyasının, İtaliya Beynəlxalq İqtisadi və Sosial Elmlər Akademiyasının, Vatikan Bonifasian Akademiyasının həqiqi üzvü, Gürcüstan Respublikasının Suxişvili Texniki Universitetinin fəxri doktoru, Roma şəhərinin fəxri alimi seçilmişdir.

Professor Eldar Quliyev geniş ictimai-siyasi fəaliyyətlə də məşğul olmuşdur. O, II, III, IV, V, VI və VII çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olmuş, hazırda Milli Məclisin Hesablayıcı Komissiyasının sədri kimi fəaliyyət göstərir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəridir, bir sıra ölkələrlə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvüdür. 2020-ci ildən Azərbaycan Ağsaqqallar Şurasının sədridir.

Uzunmüddətli elmi, pedaqoji və ictimai fəaliyyətinə görə "Şöhrət" və "Şərəf" ordenləri, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubiley medalı, "Qızıl Ulduz", "Atatürk Beynəlxalq" mükafatı, BMT-nin "Taclı Xidmət" ordeni, UNCOPA-nın "Korifey" ordeni, Avropa Təbiət Elmləri Akademiyasının "Senator Ulduzu" və "Qızıl Qartal" ordenləri ilə təltif edilmişdir. Eyni zamanda BMT-nin xoşməramlı səfiri statusuna layiq görülmüşdür.

Ədəbiyyat:

Amala sadiqlik nümunəsi: Eldar İbrahimov-80 / Eldar Quliyev // Səs.- 2025.- 12 mart (№45).- S.8-9.; İqtisadiyyat.- 2025.- 13-18 mart (№10).- S.3.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu: Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunur / Eldar Quliyev; elmi red. Z. Ə. Səmədzadə. - Bakı: Kooperasiya, 2023. - 319, [1] s.

Aqrar sferanın innovativ inkişafı problemləri / M. Hüseynov ; elmi red. Eldar A. Quliyev.- Bakı: Kooperasiya.- 2023.- 303, [1] s.

Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər / Eldar Quliyev.- Bakı: Kooperasiya 2018.- 479, [1] s.

İnternetdə:

https://aku.edu.az/rektor/

http://sabunchu-ih.gov.az/az/page/196.html

Əliqismət Lalayev – 70

(1956)

Sənətşünas



Ədəbiyyat:

Eldaroğlu, E. Həyat rejissoru...:Əliqismət Lalayev- 69 /E.Eldaroğlu // Xalq Cəbhəsi.-2025.- 3 iyul(№24).-S.15.

Lalayev, Ə. Şövqidən varmı? Göstərin! / Ə.Lalayev // 525-ci qəzet.- 2023.- 5 dekabr, № 220.- S.10.

Milli Kitabxanadan "Əliqismət Lalayev - 65" virtual sərgisi // 525-ci qəzet.- 2021.- 6 iyul.- S.9.

Musiqili teatrın direktoru teatr sərgisinə dəvət alıb // Mədəniyyət. – 2020. – 29 yanvar. – S.2.

Əliqismət Lalayev və Naxçıvan teatrı / C. H. Vəzirov ; red. S. Sədaqətoğlu ; [ön söz T. Pənahqızı ; naşiri A. Dənzizadə].- Bakı:Apostroff.- 2017.- 169, [3] s.

Lalayev Əliqismət daha bir mükafat aldı // Azad Azərbaycan. - 2016. - 31 dekabr. - S. 7.

Sadıq, Q. Əliqismət Lalayev - həyat rejissoru / Tərt ed. Q.Sadıq; red. S.Sədaqətoğlu. – Bakı: Qanun, 2010. – 247 s.

Azərbaycan-Orta Asiya teatr əlaqələri: [monoqrafiya] / Əliqismət Lalayev; elmi red. İ.Kərimov; red. V.Qafarlı; [ön söz müəl. İ.Rəhimli]. – Bakı: [Nağıl Evi], 2009. – 195 s.

Əliqismət Hümmət oğlu Lalayev 1956-cı il iyulun 4-də Salyan rayonunda anadan olmuşdur. Əmək fəaliyyətinə 1972-ci ildə başlamış, əvvəl klub müdiri, daha sonra isə Salyan rayon "Qələbə" qəzetində korrektor vəzifəsində çalışmışdır.

1975-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Mədəniyyət və İncəsənət Universiteti) rejissorluq fakultəsinə daxil olmuş, 1980-ci ildə fərqlənmə diplomu ilə məzun olmuşdur. Həmin dövrdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin xüsusi təyinatı ilə Naxçıvan Muxtar Respublikasına göndərilmişdir. Orada bir müddət Mədəniyyət Nazirliyində çalışmış, ardınca həqiqi hərbi xidmətə çağrılmışdır. 1982-ci ildə ordudan tərxis olunandan sonra 1988-ci ilədək Naxçıvan Dövlət Dram Teatrında rejissor və aktyor kimi fəaliyyətini davam etdirmişdir.

Naxçıvan teatrında Əliqismət Lalayev dahi Hüseyn Cavidin həyat və yaradıcılığını əks etdirən "Mənim tanrım gözəllikdir, sevgidir" tamaşasında baş rolun ifaçısı olmuş, həmçinin H.Cavidin "Ana", "Uçurum", A.Dudarevin "Astana", A.Ostrovskinin "Günahsız müqəssirlər", R.İbrahimbəyovun "Ultimatum", H.Orucovun "Məni qınamayın", L.Rəşidzadənin "Toya bir gün, bir günorta qalmış" və S.Rəhman və E.Sabitoğlunun "Hicran" musiqili komediyasına quruluş vermişdir. Onun teatr fəaliyyəti ideya-bədii düşüncə tərzi, səhnə yozumu və müasirlik xüsusiyyətləri ilə fərqlənmişdir.

1988-ci ildə Salyana qayıdan Ə.Lalayev "Qələbə" qəzetində məsul katib, sonra isə rayon mədəniyyət şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 1993-cü ildən Bakıya köçərək M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktor müavini olmuş, sonrakı illərdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin İncəsənət Baş İdarəsinin rəisi və daha sonra Mədəniyyət və Turizm Nazirliyinin İncəsənət şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

6 may 2008-ci il tarixində Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əmrinə əsasən Şıxəli Qurbanov adına Dövlət Musiqili Komediya Teatrının (indiki Azərbaycan Dövlət Akademik Musiqili Teatrı) direktoru vəzifəsinə təyin olunmuşdur. Bu vəzifədə olduğu dövrdə teatrın kollektivinin fəaliyyətinin beynəlxalq səviyyəyə çıxarılması, müxtəlif ölkələrdən tanınmış kollektivlərin Bakıya dəvət edilməsi və Musiqili Teatrların Beynəlxalq Assosiasiyasına üzv qəbul edilməsi kimi mühüm nailiyyətlər əldə olunmuşdur.

Əliqismət Lalayevin rəhbərliyi dövründə teatrda milli və dünya klassikası əsasında onlarla tamaşa hazırlanmışdır. Onun quruluşunda səhnəyə qoyulan əsərlər arasında Ü.Hacıbəylinin "O olmasın, bu olsun", H.Cavidin "Ana" və "Uçurum", A.Ostrovskinin "Günahsız müqəssirlər", A.Dudarevin "Astana" və E. Sabitoğlu ilə S.Rəhmanın "Hicran" musiqili komediyası xüsusi əhəmiyyət kəsb etmişdir. "Ana" faciəsi Azərbaycan Televiziyasının qızıl fonduna daxil edilmişdir.

Əliqismət Lalayevin yaradıcılığı həm rejissor, həm də aktyor kimi diqqət çəkmişdir. O, Naxçıvan teatrında Rəsul Rza, Abbas Səhhət və H.Cavidin tamaşalarında obrazlar yaratmış, İtalyan dramaturqu Paolo Messina və Sofoklun klassik əsərlərində rollar ifa etmişdir. Həmçinin Azərbaycan teatr tarixində ilk dəfə Avropanın klassik operettalarını, o cümlədən S.Prokofyevin "Petya və canavar" əsərini azərbaycanca səhnələşdirmişdir.

Əliqismət Lalayev Azərbaycan Jurnalistlər Birliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının üzvü, sənətşünaslıq üzrə fəlsəfə doktoru və dosentdir. O, 1986-cı ildə Naxçıvan MR-nın "Əməkdar incəsənət xadimi", 2016-cı ildə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi" və "Fəxri mədəniyyət işçisi" fəxri adlarına layiq görülmüş, 2019-cu ildə Azərbaycan Teatr Xadimləri İttifaqının "Sənətkar" medalı ilə təltif edilmişdir.

2025-ci il 4 aprel tarixində Azərbaycan Respublikası Mədəniyyət nazirinin əmrinə əsasən, Əliqismət Lalayev Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru vəzifəsindən azad edilmişdir.

Kəmalə Ağayeva – 90

(1936-2019)

Dramaturq



Kəmalə Ağa qızı Ağayeva 1936-cı il iyul ayının 10-da Naxçıvan şəhərində anadan olmuşdur. 1953-cü ildə Naxçıvan Şəhər 2 nömrəli orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutunun (indiki Dillər Universiteti) fransız dili fakültəsinə daxil olmuş və 1957-ci ildə ali təhsilini başa vurmuşdur. Ali məktəb illərində ədəbiyyat dərnəyinin fəal üzvü olmuş, şeirlərini "Azərbaycan" jurnalında çap etdirmiş və radio verilişlərində səsləndirmişdir.

1957-ci ildən Babək rayonunun Şıxmahmud kənd orta məktəbində, 1959-cu ildən Naxçıvan şəhər 1 nömrəli orta məktəbdə, 1961-ci ildən isə Naxçıvan şəhərində yaradılmış internat məktəbdə fransız dili müəllimi kimi fəaliyyət göstərmişdir.

1958-ci ildə Azərbaycan Yazıçılar İttifaqının Naxçıvanda keçirilmiş plenumunda gənc şairlərin yaradıcılığı təhlil edilmiş və Ağayeva Yazıçılar İttifaqının üzvü kimi qəbul edilmişdir.

1962-ci ildə "Baharın sözü" adlı ilk şeirlər kitabı nəşr olunmuşdur. 1963-cü ildə yazdığı "Məhsəti" adlı 4 pərdəli mənzum pyesi Naxçıvan Dövlət Dram Teatrına təqdim edilmiş və 1964-cü ildə tamaşaya qoyulmuşdur.

1967-ci ildən başlayaraq əsərləri çap olunmuşdur: "Gül yarpağı" (1967), "Sən olmasaydın" (1974), "Arpaçayın nəğməsi" (1978), "Daş piyalə" (1982), "O dağlarda gözüm qaldı" (1987), "Tanrıya heyranam mən" (1997), "Apardı sellər Saranı" (1997), "Vətənə sevdalıyam" (2004), "Qönçələr" (2005), "Könül verdiyim ellər" (2006), "Əlixan məhəlləsi" (2010) və "Ay-ulduzlu gülüstanım" (2017). Xaricdə nəşr olunmuş əsərləri isə "Məhsəti" (İstanbul, 2001), "Bir gül kimi" (İstanbul, 2003) və "Sevdim Türkiyəni" (İstanbul, 2009) kitablarıdır.

1968-ci ildən Naxçıvan Dövlət Musiqili Dram Teatrında ədəbi hissə müdiri vəzifəsində çalışmış, 1989-cu ildən Naxçıvan Dövlət Kukla Teatrında eyni vəzifəni icra etmişdir. Tamaşaya qoyulmuş və televiziya üçün adaptasiya edilmiş dramaturji əsərləri sırasında "İsmət" (1972), "O, bizim dağların oğludur" (1976), "Apardı sellər Saranı" (1985), "Mənim Tanrım gözəllikdir, sevgidir" (1982), "Göyçək Fatma" (1993), "Tıq-tıq xanım" (1996), "Məlikməmməd" (1998) və "Sirli sözlər" (1999) adlarını qeyd etmək olar.

Kəmalə Ağayeva ictimai fəaliyyət göstərmiş, Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin üzvü və iki çağırış Naxçıvan Şəhər Sovetinin deputatı olmuşdur.

1984-cü ildə Azərbaycan SSR Əməkdar Mədəniyyət İşçisi, 2002-ci ildə Azərbaycan Respublikasının Əməkdar İncəsənət Xadimi fəxri adına layiq görülmüş, 2003-cü ildə Prezidentin fərdi təqaüdünə layiq görülmüşdür.

Kəmalə Ağayeva 2019-cu il iyul ayının 18-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Daş piyalə: şeirlər və poema / Kəmalə Ağayeva; red. S. Mustafayev.- Bakı, Yazıçı. -1982.- 143, [1] s.

Sən olmasaydın...: şeirlər və pyes / Kəmalə Ağayeva; red. M. Şükür.- Bakı, Azərnəşr.- 1974.- 139, [1] s.

Könüllərdən süzülən səslər / K. Babayeva; red. Kəmalə Ağayeva.- Bakı, Nurlan.- 2006.- 83, [2] s.

Əməkdar incəsənət xadimi Kəmalə Ağa qızı Ağayeva vəfat edib // 525-ci qəzet.- 2019.- 20 iyul.- S.13.

İnternetdə:

https://www.anl.az/down/meqale/525/2021/iyul/751532.htm

Hüseyn Əhmədov – 100

(1926-2020)

Pedaqoq alim



Hüseyn Mustafa oğlu Əhmədov 1926-cı il 17 iyul tarixində Qərbi Azərbaycanın Göyçə mahalının Toxluca kəndində anadan olmuşdur. O, ibtidai və orta təhsilini kənd məktəbində almış və orta təhsilini başa vurduqdan sonra pedaqoji fəaliyyət sahəsinə yönəlmişdir.

Hüseyn Əhmədov 1943–1946-cı illərdə ibtidai məktəbdə müəllim işləmişdir. O, 1947-ci ildə Kirovabad Pedaqoji Texnikumunu əla qiymətlərlə bitirmiş, həmin il H.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutuna qəbul olunmuş və 1951-ci ildə ali pedaqoji təhsilini tamamlamışdır. Təhsil müəssisəsi tərəfindən elmi fəaliyyətə cəlb edilmiş və 1952-ci ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun aspiranturasına daxil olmuşdur. O, burada professor Əhməd Seyidov, akademik Mehdi Mehdizadə və Mərdan Muradxanovun rəhbərliyi ilə elmi tədqiqat aparmış, 1958-ci ildə "İbtidai məktəb şagirdlərinin kommunist əxlaqı tərbiyəsində nümunənin rolu və ondan istifadə etmək yolları" mövzusunda namizədlik, 1972-ci ildə isə "XIX əsrdə Azərbaycanda məktəb təhsilinin inkişaf tarixi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Hüseyn Əhmədov elmi və pedaqoji fəaliyyətini müxtəlif təhsil müəssisələrində davam etdirmişdir. Aspiranturanı bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstitutunda çalışmış, 1956-cı ildə institutun Komsomol Komitəsinin I katibi seçilmişdir. 1957–1958-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda fəaliyyət göstərmişdir. Sonrakı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində müəllim, dosent, professor və kafedra müdiri vəzifələrində çalışmış, pedaqoji kadr hazırlığı ilə məşğul olmuşdur. Onun rəhbərliyi altında 60-dan çox tədqiqatçı elmlər namizədi və elmlər doktoru səviyyəsində hazırlanmışdır.

Hüseyn Əhmədovun tədqiqatları Azərbaycan pedaqogika tarixinin müxtəlif istiqamətlərini əhatə etmişdir. O, XIX əsrdə məktəb şəbəkəsinin inkişafı, maarifçilik hərəkatı, ana dilində təhsilin təşkili, yeni tipli məktəblərin formalaşması, "rus–tatar" məktəblərinin fəaliyyəti, dərslik və tədris vəsaitlərinin hazırlanması və maarif idarəçiliyinin strukturu kimi məsələləri araşdırmışdır. O, həmçinin Nəsirəddin Tusi, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Aleksey Çernyayevski və digər maarifçi şəxslərin pedaqoji görüşlərini təhlil etmişdir. Nəriman Nərimanovun pedaqoji irsi üzrə apardığı araşdırmalar müxtəlif arxiv mənbələrinə əsaslanır. Bundan başqa, Komenski, Pestalotsi, Russo, Lokk və Uşinski kimi dünya pedaqoqlarının irsinin öyrənilməsi və təbliği ilə məşğul olmuşdur.

Hüseyn Əhmədovun elmi əsərləri tarixi-pedaqoji və nəzəri-metodoloji istiqamətləri əhatə edir. Onun "XIX əsrin əvvəllərində Azərbaycanda xalq maarifi və məktəb", "Azərbaycanda kənd ümumtəhsil məktəbləri tarixi", "XIX əsrdə Azərbaycan dilində dərslik və tədris vəsaitləri tərtibi tarixindən", "XIX əsrdə Azərbaycanda məktəb təhsilinin inkişaf tarixi" adlı monoqrafiyaları bu sahədə aparılan tədqiqatlara daxildir. "Pedaqogikaya giriş" və "Pedaqogikada qanun və qanunauyğunluq" əsərləri pedaqogikanın nəzəri məsələlərinə həsr olunmuşdur. O, həmçinin XIX əsr dərsliklərinin transliterasiyası ilə məşğul olmuş və A.O.Çernyayevskinin "Vətən dili", R.Əfəndiyevin "Uşaq bağçası", Üzeyir Hacıbəyovun "Hesab məsələləri" kimi nəşrləri müasir qrafikaya uyğunlaşdırmışdır.

Onun elmi və pedaqoji fəaliyyəti müxtəlif mükafatlarla qiymətləndirilmişdir. O, "Azərbaycan SSR qabaqcıl maarif xadimi" (1973), "SSRİ Maarif əlaçısı" (1977) və "Azərbaycan SSR Əməkdar Ali məktəb işçisi" (1981) fəxri adlarına layiq görülmüşdür. 1998-ci ildə Y.A.Komenski adına Böyük Qızıl Medala, 2005-ci ildə "Türk Dünyasına Hizmət" medalına, 2007-ci ildə isə K.D.Uşinski medalına təqdim olunmuşdur. Həmin ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Hüseyn Mustafa oğlu Əhmədov 4 aprel 2020-ci ildə vəfat etmişdir.

Ədəbiyyat:

Seçilmiş pedaqoji əsərləri: [25 cilddə] / Hüseyn Əhmədov; red. M.Şirzadova; Azərb. Resp. Təhsil Nazirliyi, ADPU. - Bakı: Təhsil, ADPU, 2014. - 307, [1] s.

Azərbaycan məktəb və pedaqoji fikir tarixi: ali pedaqoji təhsil müəssisələrinin bakalavriat səviyyəsində təhsil alan tələbələr üçün dərslik / Hüseyn Əhmədov; elmi red. F.A. Rüstəmov; Azərb. Resp. Təhsil Nazirliyi, ADPU. - Bakı: Elm və təhsil, 2014. - 431 s.

Maarif fədailəri: Firidun bəy Köçərli - 150, Rəşid bəy Əfəndiyev - 150: [qoşa qanad] / Hüseyn Əhmədov. – Bakı: ADPU, 2013. – 199, [1] s.

Akademik Hüseyn Əhmədov - 90. Düşüncələr, fikirlər, arzular / Tərt.: K.Quliyeva (ön söz), M. Şirzadova; red. Y.Kərimov. - Bakı: Elm və təhsil, 2017. - 95 s.

Ömürdən səhifələr. Hüseyn Əhmədov - 90 / Tərt. ed.: A.Əsgərova, F.Əhmədova; red. E.İsmayıl. - Bakı: [Tərəqqi], 2016. - 184 s.

https://anl.az/down/meqale/tezadlar/tezadlar_mart2009/71630.htm

Buludxan Xəlilov – 60

(1966-2021)

Dilçi alim, türkoloq



Buludxan Əziz oğlu Xəlilov 1966-cı il 25 iyul tarixində Qərbi Azərbaycanın Amasiya rayonunun Ellərkənd kəndində anadan olmuşdur. O, ibtidai və orta təhsilini doğulduğu kənddə almış, 1983–1990-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsində ali təhsilini davam etdirmişdir. 1985–1987-ci illərdə hərbi xidmətini Uzaq Şərqdə yerinə yetirmişdir.

Əmək fəaliyyətinə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili kafedrasında laborant kimi başlamış, sonralar həmin kafedrada baş laborant və müəllim vəzifələrində çalışmışdır. 1992-ci ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1994-cü ildən Müasir Azərbaycan dili kafedrasında müəllim, 1996-cı ildən dosent, 2001-ci ildən professor vəzifəsində fəaliyyət göstərmişdir. O, 2001–2011-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində yeni yaradılmış "Dədə Qorqud" elmi-tədqiqat laboratoriyasına rəhbərlik etmişdir. 2006-cı ildə Filologiya fakültəsinin dekanı seçilmiş, 2011-ci ildə yenidən həmin vəzifəyə təyin olunmuşdur. 2018-ci ilin dekabrından Müasir Azərbaycan dili kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Buludxan Xəlilov Azərbaycan dilçiliyi, türkologiya və müasir ədəbi dilin araşdırılması sahəsində elmi fəaliyyət göstərmişdir. O, "Filologiya məsələlərinə dair tematik toplu"nun redaktoru olmuşdur. M.F. Köprülüzadənin "Azəri" əsərini transliterasiya edərək nəşrə hazırlamışdır (2000). Ədəbi dil və dilçilik məsələlərinə dair bir sıra monoqrafiyaların müəllifi olmuş, 1990-cı illərdən başlayaraq dövri mətbuatda elmi və elmi-kütləvi məqalələrlə çıxış etmişdir. Elmi fəaliyyətində Azərbaycan dilinin tarixi-müasir inkişaf istiqamətləri, dil quruluşunun fonosemantik xüsusiyyətləri, morfologiya, leksikologiya, türkologiyanın inkişaf mərhələləri və türk dillərinin müqayisəli tədqiqi kimi mövzular əsas yer tutmuşdur. Onun 400-dən çox elmi və elmi-publisistik əsəri çap olunmuş, bunlardan 45-i monoqrafiya, dərslik və dərs vəsaitidir.

O, Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin və Yazıçılar Birliyinin nəzdində fəaliyyət göstərən İrs Komissiyasının üzvü olmuşdur. 2003–2004-cü illərdə Ali Attestasiya Komissiyasının Filologiya ixtisası üzrə Ekspert Şurasının üzvü kimi fəaliyyət göstərmişdir. Dilçilik ixtisası üzrə Koordinasiya Şurasının üzvü (2011-dən), 2014-cü ildə isə həmin Şuranın sədr müavini olmuşdur. 2013-cü ildən Türkologiya jurnalında Azərbaycan dili və terminologiya sahəsi üzrə redaktor kimi çalışmış, AMEA-nın "Türkologiya" jurnalının redaksiya heyətinə üzv seçilmişdir (2016). Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının tərkibinə daxil edilmişdir (2015).

Buludxan Xəlilov 2006-cı ildə "Tərəqqi" medalı ilə təltif edilmişdir. 2001 və 2013-cü illərdə "İlin alimi", 2007–2008-ci tədris illərində isə "İlin müəllimi" müsabiqələrinin qalibi olmuşdur. 2004-cü ildə "Qızıl qələm" mükafatına, 2015-ci ildə "Beynəlxalq Rəsul Rza" mükafatına layiq görülmüşdür. O, həmçinin KIBATEK Akademik Üyesi diplomu almış və Türk dünyası araşdırmaları üzrə akademik seçilmişdir (2015). Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən "Əməkdar müəllim" fəxri adı və "Qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif olunmuşdur. Müxtəlif illərdə ADPU rəhbərliyi tərəfindən fərmanlarla mükafatlandırılmışdır.

Buludxan Xəlilov iki dəfə — 1999 və 2004-cü illərdə Nəsimi rayon bələdiyyəsinə üzv seçilmiş və Sosial məsələlər daimi komissiyasına rəhbərlik etmişdir. Elmi fəaliyyətinə paralel olaraq filoloji, dilçilik və türkologiya mövzularında respublika və beynəlxalq səviyyəli tədbirlərdə çıxışlar etmiş, VII Uluslararası Türk Dili Qurultayında məruzə ilə iştirak etmişdir (2006).

Onun müəllifi olduğu əsas monoqrafik və dərs vəsaitləri arasında "Fellərin ilkin kökləri", "Azərbaycan dilində təkhecalı fellərin fonosemantik inkişafı", "Azərbaycan dilində ikihecalı fellərin fonosemantik inkişafı", "Müasir Azərbaycan dilinin morfologiyası" (I və II hissə), "Müasir Azərbaycan dilinin leksikologiyası", "Türkologiyanın intibah dövrü", "Türkologiyaya giriş", "224 qədim türk sözü" və digər əsərlər yer alır.

Buludxan Əziz oğlu Xəlilov 2021-ci il 27 sentyabr tarixində Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Buludxan Xəlilov //Ədəbiyyat qəzeti.-2021.- 2 oktyabr.- S.30.

Məmmədlı, İ. Xəlilov Buludxan (1966-2021) / İsmayıl Məmmədli // Türkologiya: Beynəlxalq elmi jurnal / AMEA, Nəsimi adına Dilçilik İnstitutu.-2021.- №2.- S.191-192.

Azərbaycan dilində işgüzar və akademik kommunikasiya : dərslik / Buludxan Xəlilov; elmi red. M. Hüseynova. - Bakı: [Adiloğlu], 2020. - 469, [1] s.

Allahverdiyev, C.V. İstedad və şəxsiyyətin vəhdəti-Buludxan Xəlilov / C. Allahverdiyev.- Türküstan.- 2020.- 28 iyul-3 avqust.- S.16.

Yusifov, Y. Buludxan Xəlilov: Elmin və şəxsiyyətin harmoniyası: Y. Yusifov.- Bakı, Adiloğlu.- 2018.- 229, [1] s.

224 qədim türk sözü: B. Xəlilov; elmi red. N. Cəfərov, V. Əliyev; - Bakı, Elm və təhsil.- 2010.- 349, [2] s.

Müasir Azərbaycan dilinin morfologiyası [2 hissədə]: dərslik / Buludxan Xəlilov.- I hissə Bakı.- Elm.- 2000.- 280 s.

Rəşid Cavanşir – 75

(1951)

Geoloq alim



Rəşid Cəmil oğlu Cavanşir 1951-ci il 17 iyul tarixində Bakı şəhərində anadan olmuşdur. O, orta təhsilini Bakı şəhərində 23 saylı məktəbdə almış və buranı qızıl medalla bitirmişdir. 1973-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunun geoloji-kəşfiyyat fakültəsini Lenin təqaüdü ilə bitirmişdir.

Rəşid Cavanşir ali təhsilini başa vurduqdan sonra elmi fəaliyyətə başlamışdır. 1978-ci ildə "Anomal yüksək lay təzyiqlərinin inkişaf etdiyi zonalarda kollektor və örtüklərin fiziki xassələrinin öyrənilməsi metodikası və proqnozlaşdırılması (Cənubi Xəzər çökəkliyinin timsalında)" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1988-ci ildə "Terrigen neftli-qazlı qatlarda lay təzyiqlərinin süxurların kollektorluq və ekranlaşdırıcı xüsusiyyətlərinin nəzəri modeli və proqnozlaşdırma üsulları" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1984–1997-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda şöbə müdiri, 1988–1995-ci illərdə isə həmin institutda elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmışdır. 1988-ci ildən Azərbaycan Elmlər Akademiyasının Geologiya İnstitutu və Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda doktorluq elmi dərəcəsi vermək üçün ixtisaslaşdırılmış şuraların üzvü olmuşdur. 1993-cü ildən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Yer haqqında elmlər üzrə ekspert şurasının üzvüdür. 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir

Elmi fəaliyyəti ilə yanaşı, Azərbaycan SSR Elmlər Akademiyasında və Neft Akademiyasında bir müddət pedaqoji fəaliyyət göstərmişdir. O, 230 elmi əsərin, 8 monoqrafiyanın, 12 müəlliflik şəhadətnaməsi və patentin müəllifidir.

1995-ci ildə "Amoko" şirkəti tərəfindən Xəzər regionu üzrə geoloji kəşfiyyat koordinatoru vəzifəsinə dəvət edilmiş və fəaliyyətini ABŞ və Azərbaycanda davam etdirmişdir. 1998-ci ildə Bakıya qayıdaraq Xəzər üzrə kəşfiyyat sahəsinin direktoru vəzifəsinə təyin edilmişdir. Həmin dövrdə "İnam" Əməliyyat Şirkətinin prezidenti seçilmişdir.

1999-cu ildən sonra "BP-Amoko" şirkətinin müxtəlif struktur bölmələrində fəaliyyət göstərmiş, "Amoko-İnam", "BP-Şahdəniz" və "BP-Araz-Alov-Şərq" əməliyyat şirkətlərinə rəhbərlik etmişdir. Onun rəhbərliyi ilə 1999-cu ildə Şahdəniz qaz yatağı aşkar edilmişdir.

2002-ci ildə "BP" şirkətinin London ofisində strategiya şöbəsinə menecer təyin edilmiş, 2003–2006-cı illərdə Şimal dənizinin cənub hissəsi üzrə rəhbər kimi fəaliyyət göstərmişdir. Sonrakı illərdə Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələrinin idarə olunmasında iştirak etmiş, "BP"-nin Azərbaycandakı ilk baş icraçı direktoru olmuşdur.

2009-cu ildə "BP"-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə prezidenti təyin edilmiş və bu vəzifədə 2012-ci ilə qədər çalışmışdır. Bu dövrdə Anlaşma Memorandumu, İzmir anlaşmaları və Şəfəq–Asiman strukturunun birgə işlənməsi haqqında sazişdə iştirak etmişdir. 2012-ci ildə Böyük Britaniyada "BP" şirkətinin Strategiya və inteqrasiya üzrə baş vitse-prezidenti təyin edilmişdir.

Rəşid Cavanşir ABŞ və Hollandiya elmi jurnallarının redaksiya heyətinin üzvü olmuş, "Energy Sources" jurnalının regional redaktoru kimi fəaliyyət göstərmişdir. O, həmçinin "Journal of Petroleum Science and Engineering", "Azerbaijan Geologist" və "Seismoprognosis observations in the territory of Azerbaijan" jurnallarının redaksiya heyətlərinə daxil edilmişdir. Amerika Geoloq-Neftçilər Cəmiyyətinin üzvüdür (1984-dən).

Hazırda AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin Oksford Universiteti ilə birgə həyata keçirdiyi tədqiqat layihələrində iştirak edir və yeni elmi istiqamətlərin müəyyənləşdirilməsi, Azərbaycan alimlərinin xarici tədqiqat proqramlarına cəlb olunması istiqamətində fəaliyyət göstərir.

Rəşid Cavanşir elmi və istehsalat sahəsindəki xidmətlərinə görə 14 iyul 2011-ci ildə Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

R.C.Cavanşirin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında : Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 14 iyul 2011-ci il // Azərbaycan.-2011.- 15 iyul.- S. 2.

Görkəmli neftçi-alim və dəyərli azərbaycanlı-Rəşid Cavanşir: [Cavanşir, Rəşid Cəmil oğlu-70] // Xalq qəzeti./ 2021.- 16 iyul.- S.9., Yeni Azərbaycan .- 2021.- 16 iyul.- S.3.

Cəmiloğlu, İ. Böyük ziyalı, dəyərli azərbaycanlı: Rəşid Cavanşirin 70 illik yubileyinə / İlham Cəmiloğlu // 525-ci qəzet.-2021.- 7 iyul.- S.8.

Sadıqlı, F. Azərbaycan vətəndaşı bp-yə rəhbərliyi işlərin həlledici dövründə qəbul edir / F.Sadıqlı // Azərbaycan.-2009.- 14 avqust.- S. 4.

İnternetdə:

www.science.gov.az › chlenyikorrespondentyi
az.wikipedia.org › wiki › Rəşid_Cavanşir
https://www.anl.az/down/meqale/525/2021/iyul/749955.files/750244.htm

Məcid Rəsulov – 110

(1916-1993)

Akademik



Məcid Lətif oğlu Rəsulov 1 iyul 1916-cı ildə Şəki şəhərində anadan olmuşdur. O, ilkin təhsilini Şəkidə almış və 1934-cü ildə Sənaye Texnikumunu bitirdikdən sonra V.İ. Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. 1938-ci ildə institutu fərqlənmə ilə bitirmiş, həmin ildə Bakı Dövlət Universitetinin aspiranturasına qəbul edilmiş və eyni zamanda Azərbaycan Dövlət Pedaqoji İnstitutunda riyazi analiz kafedrasında assistent kimi fəaliyyətə başlamışdır.

1939–1945-ci illərdə o, Sovet ordusunda hərbi xidmətdə olmuş, Sovet–Fin müharibəsi və Böyük Vətən müharibəsində müxtəlif artilleriya bölmələrində komandir vəzifələrində xidmət etmişdir. Müharibədən sonra elmi fəaliyyətini davam etdirmiş və 1946–1948-ci illərdə "Diferensial tənliklər üçün bəzi qarışıq məsələlərin həllinin çıxıqlar üsulu ilə araşdırılması" mövzusunda namizədlik dissertasiyasını tamamlamışdır. Bu tədqiqatda xətti funksionalın altfəzasından bütün Banax fəzasına normasını saxlayan davamının yeganəliyinə dair zəruri və kafi şərtlər, habelə birölçülü xətti diferensial operatorun normallığının zəruri və kafi şərti əldə edilmişdir.

1950–1960-cı illərdə Məcid Rəsulov Lvov Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsində dosent və professor kimi çalışmışdır. 1960-cı ildə SSRİ EA-nın V.A. Steklov adına Riyaziyyat İnstitutunun Elmi Şurasında "Xüsusi törəməli xətti diferensial tənliklər üçün qarışıq və sərhəd məsələlərinin həllinin çıxıqlar üsulu" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1961-ci ildə ona fizika–riyaziyyat elmləri doktoru və professor elmi adı verilmişdir.

1964-cü ildə Bakı Dövlət Universitetində Məcid Rəsulovun təşəbbüsü ilə Riyazi fizika tənlikləri kafedrası yaradılmışdır. Həmin ildə onun "Kontur inteqralı üsulu" adlı fundamental monoqrafiyası Moskvanın "Nauka" nəşriyyatında nəşr edilmişdir. Bu əsərdə 1950–1962-ci illər ərzində işlənib hazırlanmış çıxıqlar və kontur inteqralı üsullarının nəzəri əsasları sistemləşdirilmişdir. Monoqrafiya xüsusi törəməli xətti diferensial tənliklər üçün bir çox sərhəd və qarışıq məsələlərin klassik üsullarla həllinin mümkün olmadığı hallarda tətbiq edilə bilən ümumiləşdirilmiş metodların əsaslandırılması ilə seçilir. 1967-ci ildə əsər İngiltərə Kral Riyaziyyat Cəmiyyətinin sifarişi ilə ingilis dilinə tərcümə olunmuş, Hollandiyada, ABŞ-da və Kanadada çap edilmişdir və bu, xaricdə monoqrafiyası nəşr olunan ilk azərbaycanlı riyaziyyatçı kimi Məcid Rəsulovun adını elmi ədəbiyyata daxil etmişdir.

Onun "Kontur inteqrallar üsulunun tətbiqi" adlı ikinci monoqrafiyası 1975-ci ildə "Nauka" nəşriyyatında, "Çıxıqlar üsulunun diferensial tənliklər üçün məsələlərin həllinə tətbiqi" adlı üçüncü monoqrafiyası isə 1989-cu ildə Bakıda nəşr olunmuşdur.

Məcid Rəsulovun rəhbərliyi ilə 20-dən çox fəlsəfə və elmlər doktorluğu dissertasiyaları müdafiə edilmiş, o, 180-ə yaxın elmi əsərin müəllifi olmuşdur.

Elmi və pedaqoji fəaliyyəti müxtəlif orden və medallarla təltif edilmiş, 1989-cu ildə ona Azərbaycan SSR Əməkdar elm xadimi fəxri adı verilmişdir. O, həmçinin Azərbaycan EA-nın müxbir üzvü (1968) və həqiqi üzvü (1983) seçilmişdir.

Akademik Məcid Lətif oğlu Rəsulov 11 fevral 1993-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Aslan, V. Hər şey zaman içində: Akademik Məcid Rəsulov. Elmi-populyar roman / V. Aslan; elmi məsl. M. Ə. Rəsulov ; red. Y. Ə. Məmmədov. – Bakı: [Renessans-A], 2016. – 156, [2] s.

Mahmud. Akademik Məcid Rəsulovun 100 illik yubileyi qeyd olunub / Mahmud // Palitra. –2016. – 3 noyabr. – S.15.

Mərdanov, M. Görkəmli alim və şəxsiyyət / Misir Mərdanov // 525-ci qəzet.-2016.- 2 iyul.- S.10-11.

"Riyazi ədəbiyyatda müstəsna hadisə" yaratmış alimimiz...: XX əsrdə Azərbaycanın yetişdirdiyi nadir şəxsiyyətlərdən biri // Azadlıq.-2013.- 20 sentyabr.- S.14.

Rəsulov Məcid Lətif oğlu // Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə. – C. 8. – Bakı, 1982. – S.137-138.

İnternetdə:

http://mechmath.bsu.edu.az/az/content/akademik_mcid_ltif_olu_rsulov__683

https://science.gov.az/az/forms/skonchavshiesya-deystvitelnyie-chlenyi/3365

Zülfüqar Fərəcov – 75

(1951)

Həkim



Fərəcov Zülfüqar Həsən oğlu 1951-ci il iyulun 7-də Bakıda anadan olmuşdur. 1957-1967-ci illərdə Bakı şəhəri 44 saylı məktəbdə orta təhsil almış, 1967-1973-cü illərdə N. Nərimanov adına Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsində ali təhsilini tamamlamışdır. 1973-1974-cü illərdə Bakı şəhəri 5 saylı klinik xəstəxanada internatura keçmişdir.

1975-1977-ci illərdə Sumqayıt şəhəri 2 saylı Birləşmiş şəhər xəstəxanasında həkim-terapevt, 1977-1978-ci illərdə Sumqayıt şəhər Dəri-zöhrəvi dispanserində həkim-dermatovenerologq, 1978-1982-ci illərdə isə Bakı şəhəri 2 saylı Dəri-zöhrəvi dispanserində həkim-dermatovenerologq vəzifələrində fəaliyyət göstərmişdir. 1982-1985-ci illərdə Moskva şəhəri Mərkəzi Dəri-zöhrəvi Elmi-Tədqiqat İnstitutunda klinik ordinator vəzifəsində çalışmışdır.

1985-ci ildə "Linear və unilateral dermatozların klinik formaları, təsnifatı, patogenezi və elektrofizioloji laborator müayinəsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsini almışdır. 1986-1987-ci illərdə Azərbaycan Tibb Universitetinin Mərkəzi Elmi-Tədqiqat Laboratoriyasında baş elmi işçi vəzifəsində çalışmış, 1987-1990-cı illərdə Moskva şəhəri Mərkəzi Dəri-zöhrəvi Elmi-Tədqiqat İnstitutunda doktorant olmuşdur. 1990-cı ildə "Dərinin bədxassəli limfomaları və Kaposi sarkoması" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsini və professor elmi adını almışdır.

1991-2008-ci illərdə Azərbaycan Tibb Universitetinin Dermatovenerologiya kafedrasında professor, 2008-2017-ci illərdə həmin kafedranın müdiri, professor, 2017-2023-cü illərdə professor vəzifəsində çalışmış, 2023-cü ildən etibarən məsləhətçi-professor vəzifəsini icra edir. 1999-2017-ci illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş dermatovenerologu vəzifəsini yerinə yetirmişdir. 2008-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Fərəcov Zülfüqar Həsən oğlu 200-dən çox elmi işin, o cümlədən 5 dərs vəsaiti, 2 metodik vəsait, 4 metodik tövsiyə, 4 monoqrafiya və 4 elmi ixtiranın müəllifidir. Onun elmi fəaliyyət sahəsi dəri xəstəliklərinin patogenezi, klinikası, diaqnostikası və müalicəsinə yönəlmişdir. 2012-ci ildən "Azərbaycan Dermatovenerologlarının Elmi Cəmiyyəti" İctimai Birliyinin sədridir.

Ədəbiyyat:

Dermatologiya: ali məktəb tələbələri üçün dərslik / Zülfüqar Fərəcov [red., tərt. ed., ön söz].- Azərb. Resp. Səhiyyə Nazirliyi, ATU.- [Bakı]; [n. y.].- 2014.- 597, [1] s.

Dəri və zöhrəvi xəstəliklər: Dərslik / Zülfüqar Fərəcov [və b.] ; [dizayner-tərtibatçı C. Z. Abışlı] ; Azərb. Resp. Səhiyyə Nazirliyi, Azərb. Tibb Un-ti.- Bakı,Təbib.- 2020.- 427, [1] s.

Zərrələrdən zirvəyə: elmi-fəlsəfi-tibbi ensiklopedik toplu / S. Musa qızı ; elmi məsh. R. Məmmədhəsənov, S. Əliyev, S. Musayev ; red. G. Nərimanova.- 2-ci hissə.- 287, [1] s.

İnternetdə:

https://amu.edu.az/teacher/211

Firudin Məmmədov – 90

(1936-2017)

Alim



Ədəbiyyat:

Firudin İbrahim oğlu Məmmədov // Xalq qəzeti. - 2017. - 9 iyun. - S. 6.

Исследование дифференциального электромагнитного датчика со сплошным магнитопроводом в нагрузочном ежиме:Электротехника / Ф.И.Мамедов, Р.Б. Дадашева, Р.А. Гусейнов // Знак. – 2006. – №6. – С.25-50.

Исследование магнитного поля двухмерного измерительного электромагнитного преобразователя: Известия высших учебных заведений. Южно-Российский государственный технический университет (Новочеркасский политехнический институт) / Ф.И.Мамедов, Р.Б. Дадашева // Электромеханика. – 2007. – №2. – С.40-44.

Определение основных электромагнитных параметров датчика расстояния: Электротехника / Ф. И.Мамедов, Т. А. Ахмедова // Знак. – 2009. – №4. – С.24-28.

Firudin İbrahim oğlu Məmmədov 1936-cı il iyulun 1-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. 1958-ci ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Energetika fakültəsini bitirmiş, ardınca Sumqayıtdakı "Neftkimyaavtomatika" Elmi-Tədqiqat Layihə İnstitutunun aspiranturasını tamamlamışdır.

1958-1968-ci illərdə "Neftkimyaavtomatika" ETLİ-də laborant, texnik, mühəndis, baş mühəndis və baş elmi işçi kimi fəaliyyət göstərmişdir. 1968-1993-cü illərdə Azərbaycan Neft və Kimya İnstitutunun Sumqayıt filialında baş müəllim, dosent, dekan və kafedra müdiri vəzifələrində çalışmışdır. 1993-cü ildən Sumqayıt Dövlət Universitetinin Elektrotexnika kafedrasının müdiri olmuşdur.

Firudin Məmmədovun elmi tədqiqatlarının əsas istiqaməti informatikanın texniki vasitələrinin yaradılması olmuşdur. O, qeyri-elektrik kəmiyyətlərin ölçülməsi üçün elektromaqnit tipli vericilərin nəzəri əsaslarını işləyib hazırlamış, informasiya və ölçmə sistemlərinin işlənilməsi və tətbiqi üzrə fundamental tədqiqatlar aparmışdır. Alimin tədqiqatları neftçıxarma dərinlik nasosları üçün elektromaqnit vericilərlə işləyən tezlik teleölçü sistemlərinin nəzəriyyəsinə, çoxölçülü vericilərin və Laplas çevirmələrinin texniki tətbiqlərinə həsr olunmuşdur. Bu tədqiqatların nəticələri dəniz qurğuları dayaq mühafizəsinin avtomatlaşdırılması, sənaye zavodlarında texnoloji parametrlərin ölçülməsi və avtomatlaşdırılmış istehsal xətlərində tətbiq edilmişdir.

Firudin Məmmədov 1967-ci ildə texnika üzrə fəlsəfə doktoru, 1993-cü ildə texnika üzrə elmlər doktoru elmi dərəcəsini almış, 1995-ci ildə professor elmi adına layiq görülmüşdür. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Onun rəhbərliyi altında 1 elmlər doktoru və 15 fəlsəfə doktoru hazırlanmışdır.

Firudin Məmmədov respublikamızda və xaricdə nəşr edilmiş 250-dən artıq elmi əsərin, 10-dək dərs vəsaiti və monoqrafiyanın, 30-dan çox ixtiranın müəllifidir. Əsas elmi əsərlərində elektromaqnit vericilərin parametrlərinin analitik təyini, məlumat-ölçü sistemlərinin tədqiqi, teledinamometrləşdirilmə və çoxölçülü teleölçü sistemlərinin işlənməsi məsələləri əksini tapmışdır. Bu sahələrdə əldə edilmiş nəticələr sənaye və neftçıxarma sahələrinin avtomatlaşdırılmasında geniş tətbiq olunmuşdur.

Firudin Məmmədovun elmi fəaliyyəti Azərbaycan elminin informatika, elektrotexnika və ölçmə texnikası sahələrinin inkişafında mühüm rol oynamışdır. Onun apardığı fundamental və tətbiqi tədqiqatlar mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmiş, müxtəlif elmi simpozium və konfranslarda təqdim edilmişdir. Alimin elmi yaradıcılığı və pedaqoji fəaliyyəti ölkədə yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına töhfə vermişdir.

Alim Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə 2006-cı ildə "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi", 2007-ci ildə "Əməkdar elm xadimi" fəxri adlarına layiq görülmüşdür.

Firudin İbrahim oğlu Məmmədov 8 iyun 2017-ci ildə vəfat etmişdir.

Onun elmi və pedaqoji fəaliyyəti Azərbaycan texnika elminin inkişafına mühüm töhfələr vermişdir.

Midhət Abbasov – 100

(1926-2012)

Akademik



Midhət Teymur oğlu Abbasov 1926-cı il iyul ayının 31-də Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra 1943–1949-cu illərdə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) neft-mədən fakültəsində ali təhsil almış, 1949–1952-ci illərdə isə həmin institutun aspiranturasında təhsilini davam etdirmişdir.

Əmək fəaliyyətinə 1949-cu ildə "Azneft" İstehsalat Birliyinin Qaradağ Neft Trestində mədən ustası kimi başlamışdır. 1952–1953-cü illərdə Azərbaycan Sənaye İnstitutunda assistent, 1953–1958-ci illərdə Azərbaycan Elmlər Akademiyasında neft ekspedisiyasının yeraltı hidrodinamika laboratoriyasında kiçik elmi işçi, böyük elmi işçi, rəis müavini və laboratoriya rəhbəri vəzifələrində çalışmışdır. 1958–1960-cı illərdə Azərbaycan Elmi-Tədqiqat Neftçıxarma İnstitutunda laboratoriya rəisi vəzifəsində çalışmışdır. 1960-cı ildən etibarən elmi fəaliyyətini Azərbaycan Milli Elmlər Akademiyası ilə davam etdirərək 2003-cü ilədək Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda laboratoriya müdiri, elmi işlər üzrə direktor müavini və direktor vəzifələrində çalışmış, 2003-cü ildən ömrünün sonuna qədər AMEA-nın Geologiya və Geofizika İnstitutunun baş elmi işçisi olmuşdur.

1953-cü ildə namizədlik dissertasiyasını, 1962-ci ildə isə "Neft və qaz yataqlarının işlənməsi və istismarı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1968-ci ildə AMEA-nın müxbir üzvü, 1980-ci ildə həqiqi üzvü, 1984-cü ildə isə SSRİ Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. 1976–1990-cı illərdə AMEA-nın Yer Elmləri Bölməsinin akademik-katibi, 1990–1997-ci illərdə isə Akademiyanın vitse-prezidenti vəzifələrində çalışmışdır. 1989-cu ildə 12-ci çağırış SSRİ Ali Sovetinə xalq deputatı seçilmiş, 1991–1992-ci illərdə Azərbaycan Respublikasının dövlət katibi vəzifəsini tutmuşdur.

Elmi fəaliyyəti əsasən neft və qaz yataqlarının işlənilməsi və layihələndirilməsi sahələrinə yönəlmişdir. O, qaz-kondensat və qaz-kondensat-neft yataqlarının işlənilməsinin nəzəri əsaslarını inkişaf etdirmiş, neft və qaz yataqlarının texnoloji şəraitdə işlənilməsi üçün hidroqazodinamik metodların yaradılmasına töhfə vermişdir. Midhət Abbasov quyuların məhsuldarlığının artırılması, layların neft veriminin optimallaşdırılması və neft-qaz resurslarının çoxvariantlı layihələndirilməsi üzrə yeni metodların işlənməsində mühüm elmi nəticələr əldə etmişdir.

Alimin rəhbərliyi altında 21 elmlər doktoru və 40 elmlər namizədi hazırlanmışdır. M.Abbasov 650-dən artıq elmi məqalənin, 16 monoqrafiyanın, 43 müəlliflik şəhadətnaməsinin və 6 patentin müəllifidir.

Elmi nailiyyətlərinə görə Azərbaycan Dövlət Mükafatı, "Qırmızı Əmək Bayrağı" ordeni, akademik İ.M.Qubkin adına mükafat, Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanları; "Azərbaycanın Əməkdar elm xadimi", "SSRİ Fəxri neftçisi", "SSRİ qaz sənayesinin fəxri işçisi", "SSRİ İxtiraçısı" fəxri adları ilə təltif edilmişdir.

Midhət Teymur oğlu Abbasov 23 aprel 2012-ci ildə vəfat etmişdir.

Ədəbiyyat:

Salayev, E. "Biri vardı, biri yoxdu" deməyin / E.Salayev // Bizim yol. – 2016. – 26 iyul. – S.11.

Neft və qaz yataqlarının işlənilməsinin fundamental və tətbiqi problemləri: akademik Midhət Teymur oğlu Abasovun anadan olmasının 90 illiyinə həsr olunmuş elmi sessiyanın materialları / red. A. A. Əlizadə; red. hey.: İ. S. Quliyev. - Bakı: [Nafta-Press], 2016. - 270, [1] s.

Görkəmli neftçi alim, elmin böyük təşkilatçısı akademik M.T. Abasovun 90 illiyinə //Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri:-Yer elmləri seriyası.-2016.-№1-2. - S.99-102.

Midhət Teymur oğlu Abbasov: biblioqrafiya / AMEA Geol. İn-tu; tərt. ed. D.R.Mirzəyeva, A.A. İsrafilo va. – Bakı: NaftaPress, 2006. – 220, [1] s.

Əlizadə, A.Görkəmli alim və elm təşkilatçısı /A.Əlizadə // Respublika.-2006.-29 sentyabr.-S.7.

İnternetdə:

https://azertag.az/xeber/midhet_teymur_oglu_abasov-169720

Digər tarixi hadisələr

Azərbaycan Polisi Günü *(1998)*



Ulu Öndər Heydər Əliyevin 1998-ci il 24 may tarixli Fərmanı ilə 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Daxili İşlər Nazirliyinin tərkibində ilk polis orqanlarının təsis edildiyi gün - 2 iyul Azərbaycan Polisi Günü elan edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri və Daxili İşlər naziri Fətəli xan Xoyski 1918-ci il 2 iyul tarixində ölkədə ilk polis bölümünün yaradılması barədə əmr vermişdir. Bununla da Azərbaycan polis orqanlarının əsası qoyulmuşdur.

Azərbaycan polisi yarandığı gündən xalqın və dövlətin mənafeyinə ləyaqətlə xidmət etmiş, asayişin və təhlükəsizliyin mühafizəsi, sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizə kimi məsuliyyətli vəzifələri vicdanla yerinə yetirmişdi.

AXC süqut etdikdən sonra bolşevik diktaturası bütün milli dövlət və hüquq-mühafizə strukturlarını, o cümlədən milli polisi ləğv etdi. Əvəzində "milis" adlandırılan bir qurum yaradıldı. Milisin vəzifəsi insanların təhlükəsizliyini qorumaq, cinayətkarlığa qarşı mübarizə aparmaqdan daha çox bolşevik rejiminin qorunmasına, azad fikirli insanların təqib və həbs edilməsinə yönəldilmişdi. Sovet milisi mövcud olduğu 70 il ərzində dövlətin repressiya aparatı rolunu oynamışdır.

Azərbaycan yenidən müstəqilliyə qovuşduqdan sonra polis adı bərpa olundu, onun funksiya və vəzifələri dəqiqləşdirildi.

Azərbaycan polisi Qarabağ müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Daxili işlər orqanlarının və daxili qoşunların şəxsi heyətinin 931 nəfəri bu müharibədə şəhid olmuşdur. Polisin sıralarında xeyli sayda "Milli Qəhrəman" adına, habelə orden və medallarla təltifə layiq görülənlər vardır.

Azərbaycan polisi dövlətçiliyin, sabitliyin, əmin-amanlığın, insan hüquqlarının təminatı, müdafiəsi keşiyindədir. Bu gün Azərbaycan polisi öz peşəkarlığını artırmaqla yanaşı, eyni zamanda beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

Azərbaycan Polisi güclü maddi-texniki bazası, ictimai asayişin, qanunçuluğun və hüquq qaydasının qorunması üzrə dəqiq təşkil edilmiş sistemi və peşəkar kadr korpusu olan vahid mərkəzləşdirilmiş hüquq-mühafizə orqanıdır. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində davam edən bu inkişaf və modernləşmə vətəndaşlarımızın qanunla qorunan hüquq və mənafelərini etibarlı müdafiə etməyə, cinayətkarlığa, onun transmilli mütəşəkkil növlərinə qarşı mübarizədə adekvat cavab tədbirləri görməyə tam imkan verir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində davamlı inkişafda olan daxili işlər orqanları ölkədə cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında önəmli xidmətləri ilə seçilir. Eyni zamanda, vətəndaşların qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi sahəsində üzərinə düşən funksiyaları peşəkarlıqla yerinə yetirir və hər zaman vəzifə borcuna sadiq qalaraq ona bəslənən inam və etimadı doğruldur.

DİN-in şəxsi heyəti cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların konstitusion hüquqlarını cinayətkar qəsdlərdən qoruyur və respublikada ictimai asayişin, əmin-amanlığın keşiyində mətanətlə dayanıb.

Ədəbiyyat:

Bayramova, Y. Güvənc yerimiz - Azərbaycan polisi!: Şərəfli yolun 107-ci ili... / Y.Bayramova // Yeni Azərbaycan.-2025.- 2 iyul (№111).- S.8.

Əliyev, ŞMüstəqilliyin və dincliyin keşiyində: 2 iyul Azərbaycan Polisi Günüdür / Şəmsəddin Əliyev // Xalq qəzeti.-2025.- 2 iyul (№ 132).- S.5.


Zaman, E. Azərbaycan polisi xalqın və dövlətin güvənc yeridir / Elçin Zaman // İki sahil.-2025.- 2 iyul (№111).- S.4.

Əhmədoğlu, M. Azərbaycan polisi: vətənə məhəbbət və sədaqət nümunəsi / Məzahir Əhmədoğlu //Ədalət.-2025.- 4 iyul(№24).- S.3.

Qorxmaz, S. Şərəfli yolun, fədakar xidmətin günü - 2 İyul [Mətn] / Səbinə Qorxmaz // İki sahil.-2025.- 2 iyul (№111).- S.6.

Qismətoğlu, F. Polis ən ağır günlərdə belə dövlətin və xalqın yanında olub: 2 iyul-Azərbaycan Polisinin Peşə bayramıdır / F.Qismətoğlu // Ədalət .-2025.- 4 iyul(№24).- S.7.

Bakı-Sabunçu-Suraxanı xəttində SSRİ-də ilk dəfə olaraq elektrik qatarının hərəkəti - 100 *(1926)*



Ədəbiyyat:

Azərbaycan dəmir yolu: Tarixə nəzər /"Azərb. Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ; [layihənin rəh. C. Qurbanov [ön söz] ; layihənin təşəbbüskarları və ideya müəl.: V. Aslanov, A. Hüseynova, Ə. Məlikova, N. Abbasova ; mətnin müəl. və tərtibatçısı S. Əhmədov ; elmi red. N. Vəlixanlı ; tərc.: İ. Peart, S. İbrahimova ; foto E. Musayev ; dizayner N. Novruzov]. - Bakı: [n. y.], 2020. - 235 s.

Əliyev, Q. Qafqazda nəqliyyatın inkişafı: (XVIII əsrin sonu-XX əsrin başlanğıcı): [monoqrafiya] / Q. Əliyev; elmi red. Y. Mahmudov. - Bakı: [Turxan NPB], 2019. - 399, [1] s.

Azərbaycan yol tarixi yaradıcıları ensiklopediyası: 2 cilddə /C. Qurbanov, H. İsgəndər; texn. və elmi red. S. K. Əliyev; rəyçilər. S. K. Əliyev [və b.]. I cild Azərbaycan yol tarixi idarəetmə quruluşu yaradıcıları bu gün. Yol tarixi idarəetmə quruluşu (I fəsil). - Bakı: Kraton M, 2009. - 440 s.

Azərbaycan dəmir yolu tarixinin Heydər Əliyev dövrü / Ç.Məmmədov; Red. N.Əzməmmədov.-Bakı [CBS].-2007.-327 s.

https://corp.ady.az/az/bloqlar/blogs/98-il-evvel-elektriklesdirilmis-demir-yolu

Azərbaycanda və keçmiş SSRİ-də ilk elektrikləşdirilmiş dəmir yolu olan Bakı–Sabunçu–Suraxanı xətti 6 iyul 1926-cı ildə istifadəyə verilib.

Azərbaycanda XIX əsrin sonunda dəmir yolu nəqliyyatının inkişafı ilə əlaqədar monumental vağzal binalarının inşası günün tələbinə çevrilmişdi. Məhz bu dövrdə Cənubi Qafqazın mühüm nəqliyyat qovşağı olan Bakıda "Tiflis" vağzalının unikal binası tikilmişdi. Buradan qatarlar həm Bakıətrafı kəndlərə, həm də regionun müxtəlif şəhərlərinə hərəkət edirdi. Neft bumu zamanı ərsəyə gələn vağzal binası Bakı şəhərinin nəqliyyat qovşağında dominant elementə çevrilmişdi. Bu vağzaldan neftçilər, müxtəlif sənaye sahələrində çalışan işçilər, şəhərətrafı məktəblərin müəllimləri və həkimlər mənzil başına çatmaq üçün yola düşürdülər.

1920-ci illərin əvvəllərindən artan sərnişindaşıma fonunda yeni vağzal binasının tikintisi zərurəti yaranmışdı. Həmin illərdə "Tiflis" vağzalı və Vağzal meydanı ansamblını tamamlayan yeni "Sabunçu" vağzalı inşa edildi. Əsində, "Sabunçu" vağzalı Azadlıq prospektindəki möhtəşəm vağzal binasından əvvəl mövcud idi.

1926-cı ilədək buradan şəhərətrafı ərazilərə gün ərzində buxarla işləyən 10-dan çox qatar saatda 16 kilometr sürətlə hərəkət edirdi. Bu parovozlar Sabunçudakı neft mədənlərinin yaxınlığında yerləşən fəhlə qəsəbələrini şəhər mərkəzi ilə birləşdirirdi. Bakı–Sabunçu yolunun əsas məqsədi Bakı neftinin daşınması və neft mədənlərində çalışan işçilərin hərəkətini təmin etmək idi.

İlkin olaraq Suraxanıyadək çəkilməsi planlaşdırılan 20 kilometrlik dəmir yolu xətti "Bakı–Sabunçu–Suraxanı" adlandırılmalı idi, lakin bu təşəbbüsün maliyyə baxımından rentabelli olmaması səbəbindən layihənin planında dəyişiklik edildi. Qatarların Sabunçuya ən yaxşı halda saat yarıma çatması nəzərə alınaraq, xəttin Suraxanıya qədər davam etdirilməsi məqsədəuyğun hesab edilmədi. Lakin hər şey xətlərin elektrikləşdirilməsindən sonra dəyişdi.

Hələ 1901-ci ildə Bakı yaxınlığındakı Bibiheybət kəndində elektrik stansiyası inşa edilmişdi. Məhz bu stansiyanın modernləşdirilməsindən sonra 1924-cü ildə onun resurslarının dəmir yollarının elektrikləşdirilməsinə yönəldilməsi barədə qərar verildi. Bu, təkcə Azərbaycan üçün unikal layihə deyildi. Belə ki, bu vaxtadək SSRİ-də ümumiyyətlə elektrik qatarı yox idi. Sakit okeandan Qara dənizə qədər olan ərazidə ilk elektrikləşdirilmiş dəmir yolu məhz 1926-cı ildə Bakıda çəkildi.

Elektrikləşmə işləri yekunlaşdıqdan sonra Bakı–Sabunçu xəttində sürət saatda 30 kilometrə çatdırıldı, qatarların hərəkət intervalı isə 17 dəqiqəyə endirildi. Artıq Bakı–Sabunçu elektrikləşdirilmiş dəmir yolunun qatarları lokomotiv, iki qoşma vaqon və poçt-baqaj vaqonundan ibarət idi. Beləliklə, bir vaxtlar tikintisi məqsədəuyğun hesab edilməyən Sabunçu–Suraxanı xətti işə salındı.

Tezliklə Bakı ilə Sabunçunu birləşdirən elektrikləşdirilmiş dəmir yolu xətti bütün Abşeron yarımadasını, bir müddət sonra isə Azərbaycanın əksər bölgələrini əhatə etdi.

1926–1931-ci illərdə Bakı–Sabunçu–Suraxanı xətti ilə 10 milyon sərnişin daşınmışdı.

Bakı-Sabunçu-Suraxanı elektrik dəmir yolu xətti nəinki Azərbaycanda, bütün SSRİ-də ilk elektrikləşdirilmiş dəmir yolu xətti olub.

Azərbaycan Dövlət Dəniz Akademiyası - 30 *(1996)*

Azərbaycan dənizçilik sahəsində kadr hazırlığı 1881-ci ildən başlanmışdır. Həmin vaxtdan hər il gəmi sürücülüyü üzrə 25–30, şkiper ixtisası üzrə isə 15–18 tələbə dənizçilik siniflərini bitirirdi. 1896-cı ildə dənizçilik sinifləri nəzdində mexanika kursları açılmış, 1902-ci ildə üçillik Bakı Uzaq Səfərlər Məktəbi fəaliyyətə başlamışdır.

1924-cü ildə Bakı Su Nəqliyyatı Texnikumu Bakı Su Yolları Texnikumu (BSYT) adlandırılmış və Xəzər Dəniz Gəmiçiliyinin tabeliyinə verilmişdir. 1930-cu ildə texnikum Bakı Dənizçilik Texnikumu, 1944-cü ildə isə Bakı Dəniz Yolları Məktəbi adını almışdır. Heydər Əliyevin təşəbbüsü və Nazirlər Kabinetinin 1996-cı il 15 iyul tarixli qərarı ilə Bakı Dəniz Yolları Məktəbinin bazasında Azərbaycan Dövlət Dəniz Akademiyası yaradılmışdır. Akademiya gəmiçilik, gəmiqayırma və gəmi təmiri, dəniz texnikası və əlaqədar sahələr üzrə mütəxəssis hazırlayan ali təhsil müəssisəsidir.

Akademiyanın strukturunda bir fakültə, on bir kafedra və dörd elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. Akademiyanın nəzdində sıravi heyət üçün kadr hazırlayan Dənizçilik məktəbi də mövcuddur. Akademiyanın verdiyi diplomlar və beynəlxalq sertifikatlar dünyanın 160-dan çox ölkəsində tanınır.

Akademiya Rusiya, Türkiyə, Almaniya, Polşa, Bolqarıstan, Qazaxıstan, Gürcüstan, Ukrayna və Latviya kimi ölkələrin dənizçilik ali təhsil müəssisələri ilə əməkdaşlıq edir. Professor-müəllim heyəti beynəlxalq təcrübəyə malikdir və müxtəlif ölkələrdə ixtisasartırma kursları keçmişdir.

Azərbaycan Dövlət Dəniz Akademiyası bakalavriat, magistratura və doktorantura pillələrində təhsil verir. Akademiyada fəaliyyət göstərən Təlim-Tədris Mərkəzi gəmi heyətləri və dəniz obyektlərində çalışan mütəxəssislərin hazırlanması və sertifikatlandırılmasını təmin edir. Mərkəz İSO 9001:2015 keyfiyyət idarəetmə sistemi standartına uyğun fəaliyyət göstərir.

Akademiyanın maddi-texniki bazası, elmi-tədqiqat laboratoriyaları, kitabxana və tədris gəmiləri tələbələrin nəzəri və praktik hazırlığını təmin edir. Kitabxanada 80 minə yaxın elmi və texniki ədəbiyyat mövcuddur, həmçinin elektron kitabxana və onlayn resurslara çıxış təmin olunmuşdur. Tədris gəmiləri tələbələrin praktiki bacarıqlarının inkişafına xidmət edir.

Dörd kafedrada müxtəlif ixtisaslar üzrə təhsil aparılır: gəmi energetik qurğularının istismarı mühəndisliyi, elektrik və elektronika mühəndisliyi, dəniz naviqasiyası mühəndisliyi, gəmiqayırma və gəmi təmiri mühəndisliyi. Məzunlar Xəzər dənizində və beynəlxalq sularda fəaliyyət göstərən gəmiçilik şirkətlərində, limanlarda və gəmi təmiri müəssisələrində çalışırlar.

Akademiya müasir standartlara uyğun təhsil və kadr hazırlığını təmin edərək, həm yerli, həm də beynəlxalq səviyyədə dənizçilik sahəsində peşəkar mütəxəssislərin yetişdirilməsində əhəmiyyətli rol oynayır.

Ədəbiyyat:

Əliyev, N.Azərbaycanın hərbi-dənizçilik tarixi : ən mühüm hərbi-siyasi hadisələrin tarixi xronoloji xülasəsi : ən qədim zamanlardan XXI əsrin əvvəllərinədək / N. A. Əliyev ; Azərb. Ali Hərbi Dənizçilik Məktəbi. – Bakı: [s. n.], 2008. - 298 s.

Əliyev, N.Azərbaycanda Hərbi-Dəniz qüvvələri ücün kadır hazırlığı (1918-1997) : Hərbi məktəblər ücün dərs vəsaiti / N. A. Əliyev; Elmi red.: M.N. Çobanov; Rəyçilər: M.Abbasov, R.Darabadi. –Bakı: Səda, 1999. – 140 s.

Əziz, A. Peşəkar dənizçilər yetişdirən ocaq: Azərbaycan Dövlət Dəniz Akademiyasından dəniz ətirli reportaj / A.Əziz // Kaspi. – 2019. – 17 may.– S.10.

Cəmşid Naxçıvanski adına Hərbi Lisey - 55 *(1971)*



Diviziya komandiri Cəmşid Naxçıvanski adına Hərbi Lisey ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 20 iyul 1971-ci ildə Bakı şəhərindəki 2 saylı 8 illik internat məktəbinin bazasında yaradılmışdır. 24 noyabr 1997-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təhsil müəssisəsinin adı dəyişdirilərək Cəmşid Naxçıvanski adına Hərbi Lisey adlandırılmışdır.

Hərbi Lisey 11 hektar ərazini əhatə edir. Ərazidə qərargah binası, kursant yataqxanası, tibb məntəqəsi, hamam–camaşırxana–qazanxana kompleksi inşa edilmiş və mövcud binalar əsaslı şəkildə yenidən qurulmuşdur. Sahəsi 1800 kvadratmetr olan yeni üçmərtəbəli qərargah binası tikilmiş, binanın qarşısında Cəmşid Naxçıvanskinin büstü və xatirə kompleksi yaradılmışdır.

Lisey ərazisində inşa olunan ikimərtəbəli, 32 çarpayılıq tibb məntəqəsi funksional diaqnostika, həkim və oftalmoloji kabinetləri, laboratoriya, sarğı otağı, təcili tibbi yardım otağı, xidməti bölmələr, palatalar və müasir yeməkxanadan ibarətdir. Bu şərait şəxsi heyətə yüksək səviyyədə ixtisaslı tibbi xidmət göstərilməsinə imkan verir.

Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra Hərbi Liseyin məzunları milli ordunun formalaşmasında, ölkəmizin ərazi bütövlüyünün qorunmasında mühüm rol oynamışlar. Onlardan 1000-dən çoxu göstərdikləri igidliyə görə orden və medallarla təltif olunmuş, 11 nəfəri Azərbaycanın Milli Qəhrəmanı, 19 nəfər isə Vətən Müharibəsi Qəhrəmanı fəxri adına layiq görülmüşdür.

C. Naxçıvanski və Heydər Əliyev adına Hərbi Lisey hərbiləşdirilmiş tam orta təhsil müəssisələridir. Hərbi liseyə qəbul 15 yaşı tamam olmuş və 17 yaşına çatmamış 9-cu sinfi bitirmiş şagirdlər riyaziyyat, fizika, Azərbaycan dili və kimya fənlərindən Dövlət İmtahan Mərkəzi tərəfindən təşkil edilən test imtahanlarını verməklə qəbul olunurlar. Hərbi liseydə təhsil müddəti 2 ildir. 2 tədris ili ərzində kursantlara Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi tədris planına əsasən, 13 fənn tədris edilir. Liseylərdə kursantlar ümumtəhsil fənlərini öyrənməklə yanaşı, hərbi hazırlıq və idman dərslərində qabiliyyətlərini inkişaf etdirirlər

Ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə bu hərbi təhsil ocağına xüsusi diqqət və qayğı göstərən ümummilli lider Heydər Əliyevin 1998-ci və 2002-ci illərdə imzaladığı sərəncamlarla Liseyin yaradılmasının 25 və 30 illik yubileyləri dövlət səviyyəsində geniş qeyd edilmişdir.

Hərbi Liseydə fəaliyyət göstərən Heydər Əliyev Muzeyində ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu, Silahlı Qüvvələrin inkişafı və Hərbi Liseyin fəaliyyətinə göstərdikləri diqqət və qayğını əks etdirən fotoşəkillər, sənədlər və nəşrlər nümayiş etdirilir.

2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin "Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 50 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamı imzalanmışdır.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasının 50 illik yubileyi münasibətilə Azərbaycan Milli Kitabxanası tərəfindən eyniadlı elektron virtual sərgi hazırlanmışdır. Virtual sərgidə C. Naxçıvanski adına Hərbi Lisey haqqında rəsmi sənədlər, fotolar, kitablar və məqalələr nümayiş etdirilmişdir.

Ədəbiyyat:

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 50 illik yubileyinin qeyd edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 14 aprel 2021-ci il // Azərbaycan.-2021.- 15 aprel.- S. 3; Azərbaycan müəllimi.-2021.- 16 aprel.- S. 2.

Rəsulova, R. Ulu Öndər Heydər Əliyevin adının əbədiləşdiyi təhsil ocağı / Ruhiyyə Rəsulova // Hərbi And.-2023.-14 aprel.- S.10.

"Cəmşid Naxçıvanski adına Hərbi Lisey günü" təntənə ilə qeyd edilib // Hərbi And.-2022.- 22 aprel.- S.2.

Fərəcova, Z. Qəhrəmanlar yetişdirən təhsil ocağı: Cəmşid Naxçıvanski adına Hərbi Lisey - 50 / Zöhrə Fərəcova // Azərbaycan. -2021.- 29 iyul.- S.6.

Həmidov, A. Azərbaycan SSR-də milli hərbi kadrların hazırlanmasında C.Naxçıvanski adına hərbi liseyin rolu (XX əsrin 70-80-ci illərinin əvvəlləri) /Anar Həmidov // Tarix, insan və cəmiyyət: Elmi-nəzəri və elmi-metodik jurnal /Azərbaycan Dövlət Pedaqoji Universiteti.-2021.- №3(33).- S.32-37.

İnternetdə:

http://www.anl.az/down/meqale/az_ordusu/2019/noyabr/689168(meqale).pdf http://www.anl.az/

Digər tarixi hadisələr

Milli Mətbuat və Jurnalistika Günü *(1991)*



22 iyul Azərbaycanda Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunur. Azərbaycan milli mətbuatının əsası görkəmli maarifçi ziyalı Həsən bəy Zərdabi tərəfindən 1875-ci il 22 iyul tarixində nəşr edilən "Əkinçi" qəzeti ilə qoyulmuşdur. "Əkinçi" qəzeti yarandığı dövrdən etibarən milli mətbuat ənənəsinin formalaşmasına təkan vermiş, cəmiyyətin sosial-mədəni problemlərini, dövrün mütərəqqi ideyalarını əks etdirmiş, xalqın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır.

XX əsrin əvvəllərində fəaliyyət göstərən mətbuat orqanları Azərbaycanda milli-azadlıq hərəkatının əsas istiqamətləndirici qüvvələrindən biri olmuş, milli oyanış və milli özünüdərk proseslərinin aparıcı vasitəsi kimi çıxış etmişdir. Milli siyasi mətbuatın təşəkkül dövrü hesab edilən 1905–1907-ci illərdə kütləvi informasiya vasitələri Azərbaycan cəmiyyətində siyasi və ideoloji fəallığın artmasına əhəmiyyətli təsir göstərmişdir. "Şərqi-rus", "Həyat", "Füyuzat", "Tazə həyat", "Şələlə", "Açıq söz", "Dirilik" və digər mətbu orqanlar xalqın milli özünüdərk hissinin formalaşmasına xidmət etmişdir.

Sovet hakimiyyəti dövründə Azərbaycan mətbuatı kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də, milli xüsusiyyətlərini qoruyub saxlamış, respublikanın ictimai-siyasi həyatında fəal rol oynamışdır. Bu dövrdə qəzet və jurnalların şəbəkəsi genişlənmiş, jurnalistikanın müxtəlif janr və istiqamətləri formalaşmışdır.

Azərbaycan Respublikası Prezidentinin 5 iyul 1991-ci il tarixli Fərmanı ilə Azərbaycanın ilk milli qəzeti olan "Əkinçi"nin birinci nömrəsinin çapdan çıxdığı 22 iyul tarixi Azərbaycan Mətbuatı və Jurnalistikası Günü elan edilmişdir. Bu tarix sonrakı illərin təqvimlərində də milli mətbuatın əlamətdar günü kimi qeyd olunmuşdur.

Müstəqillik əldə edildikdən sonra Azərbaycanda kütləvi informasiya vasitələrinin sayında əhəmiyyətli artım müşahidə olunmuşdur. Hazırda ölkədə təxminən 5000-ə yaxın kütləvi informasiya vasitəsi qeydiyyata alınmışdır. İnformasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya məkanının tərkib hissəsinə çevirmiş, mətbuat orqanlarının həm kəmiyyət, həm də keyfiyyət baxımından inkişafına şərait yaratmışdır.

Bir sıra demokratik ölkələrdə olduğu kimi, Azərbaycanda da Mətbuat Şurası yaradılmış, "Mətbuat haqqında" Qanun qəbul edilmişdir. Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyasının 50-ci maddəsində söz və məlumat azadlığı, fikir və baxışların sərbəst ifadə olunması hüquqları təsbit edilmişdir. Ulu öndər Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edilmişdir.

Ədəbiyyat:

Milli mübarizə və milli özünüdərk prosesində əhəmiyyətli rol oynayan jurnalistika... : "Azərbaycan Milli Mətbuatı -149" adlı tədbir keçirilib // Yeni Azərbaycan.-2024.- 20 iyul, №128.- S.4.

Qasımov, R. 22 iyul Milli Mətbuat və Jurnalistika Günüdür [Mətn] / Ramiz Qasımov // Olaylar. -2023.- 21-27 iyul.- S.12; 19.

Aydınoğlu, T. Azad media Azərbaycanın misilsiz mənəvi sərvətidir: 22 iyul Milli Mətbuat və Jurnalistika Günüdür / Tahir Aydınoğlu // Xalq qəzeti.-2023.- 22 iyul.- S.12.

Sultan, M. Heydər Əliyev və milli media modeli: 2023-Heydər Əliyev İli / Mehriban Sultan // Xalq qəzet. -2023.- 23 iyul.- S.5.

AVQUST

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
					1	2
3	4	5	6	7	8	9
10	11	12	13	14	15	16
17	18	19	20	21	22	23
24	25	26	27	28	29	30

- *Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü (01.08.2001)*
- *Azərbaycan Kinosu Günü (02.08.2001)*
- *Azərbaycan Hərbi-Dəniz qüvvələri Günü (05.08.1996)*
- *Azərbaycan Sərhəd Qoşunları Əməkdaşlarının Peşə Bayramı Günü (18.08.2000)*

22 iyul - 23 avqust Şirin nişanəsi oddur. Ulduzlar padşahı olan Günəşin himayəsindədir. Günəşin şir bürcündən keçdiyi dövrdə doğulanlar hökmlü və daxili aləmləri zəngin olur.

Şəhərsalma və Memarlıq İli



Heydər Əliyev Mərkəzi Bakı şəhərində yerləşən müasir memarlıq kompleksi və mədəniyyət müəssisəsidir. Binanın inşasına 2007-ci ildə başlanmış və 2012-ci il mayın 10-da, ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümündə istifadəyə verilmişdir. Mərkəzin layihəsinin müəllifi dünya şöhrətli memar, Pritzker memarlıq mükafatının sahibi Zaha Hadiddir.

Mərkəzin binasında düz xətlərdən istifadə edilməmişdir. Quruluşu yerdən dalğavari şəkildə səmaya doğru yüksəlir, sonra yenidən yerə qovuşur. Bu formalar həm memarlığın postmodern tərzini, həm də davamlılıq və sonsuzluğu təcəssüm etdirir. Binanın daxili və xarici dizaynı arasında harmoniya mövcuddur və mərkəz daxilində müxtəlif funksional zonalar arasında əlaqə təmin olunur. Binanın ağ rəngi həm aydın gələcəyi simvolizə edir, həm də xüsusi elementləri nəzərə çarpdırır, işıq şüaları binanın səthi üzərində hərəkət edərək layihənin seçilən hissələrini vurğulayır.

Mərkəzin daxilində Heydər Əliyev Muzeyi yerləşir. Muzey Heydər Əliyevin irsinin araşdırılması, təbliği və fondlarda qorunması istiqamətində fəaliyyət göstərir. Muzeydə həmçinin Heydər Əliyevin hərbi və mülki geyimləri, iş masası, şəxsi əşyaları, müxtəlif illərdə layiq görüldüyü orden və medallar, dünya ölkələrinin rəhbərləri tərəfindən təqdim edilmiş hədiyyələr nümayiş etdirilir.

AVQUST 2026



Milli ədəbiyyat

Yazıçı, tərcüməçi və tarixçi Hüseynov Əlisa Qulam oğlunun (Əlisa Nicat) (10.08.1936) anadan olmasının 90 illiyi 632
Əməkdar mədəniyyət işçisi, yazıçı, tərcüməçi Babayeva Ələviyyə Hənifə qızının (12.08.1921-23.09.2014) anadan olmasının 105 illiyi 633
Xalq şairi İmamverdiyev Qabil Allahverdi oğlunun (Qabil) (12.08.1926-04.05.2007) anadan olmasının 100 illiyi 634
Yazıçı, dramaturq Abbasov Seyfəddin Əliağa (Seyfəddin Dağlı) oğlunun (27.08.1921-18.01.1983) anadan olmasının 105 illiyi 635



Dünya ədəbiyyatı

İngilis yazıçısı Skot Valterin (15.08.1771-21.09.1832) anadan olmasının 255 illiyi.....636
Amerika yazıçısı Drayzer Teodorun (27.08.1871-28.12.1945) anadan olmasının 155 illiyi



Rəssamlıq. Heykəltəraşlıq

Əməkdar artist, Əməkdar incəsənət xadimi, teatr rəssamı və qrafiki Mustafayev Həsənağa Hacağa oğlunun (01.08.1896-22.04.1971) anadan olmasının 130 illiyi 637
Əməkdar memarı, professor Abdullayev Tofiq Əli oğlunun (15.08.1936-14.12.2021) anadan olmasının 90 illiyi 637
Xalq rəssamı Səfərova Xalidə Ələkbər qızının (25.08.1926-23.12.2005) anadan olmasının 100 illiyi 638
Əməkdar rəssam Quluzadə Lətifə Nəsir qızının (29.08.1946) anadan olmasının 80 illiyi 639



Musiqi. Opera. Balet

Xalq artisti, baletmeyster Axundova Rəfiqə Hacı qızının (07.08.1931-06.02.2024) anadan olmasının 95 illiyi 640
Xalq artisti, müğənni Rəhimova Elmira Allahverdi qızının (13.08.1941) anadan olmasının 85 illiyi 641
Xalq artisti, xanəndə Cavanşirov İsfəndiyar Aslan oğlunun (Xan Şuşinski) (20.08.1901-18.03.1979) anadan olmasının 125 illiyi 642
Bəstəkar Əliverdibəyov Nazim Ağalar oğlunun (24.08.1926-17.02.1985) anadan olmasının 100 illiyi 643
Xalq artisti, müğənni Ağayev Ağadadaş Həmid oğlunun (25.08.1956) anadan olmasının 70 illiyi 644

AVQUST 2026



Teatr. Kino

Xalq artisti, rejissor və teatr xadimi, aktyor Hidayətzadə İsmayıl Hüseyn oğlunun (19.08.1901-11.11.1951) anadan olmasının 125 illiyi 645
Əməkdar artist, aktyor Əliyev Təvəkkül Əjdər oğlunun (21.08.1951-23.01.2017) anadan olmasının 75 illiyi



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı, təyyarə bələdçisi Əliyeva Hökumə Cəlil qızının (08.08.1991-25.12.2024) anadan olmasının 35 illiyi 646
Azərbaycanın Milli Qəhrəmanı Quliyev Emin Ələkbər oğlunun (12.08.1976-17.03.1995) anadan olmasının 50 illiyi 647
Azərbaycanın Milli Qəhrəmanı Aznaurov İsgəndər Söhrab oğlunun (16.08.1956-18.04.1993) anadan olmasının 70 illiyi 648
Azərbaycanın Milli Qəhrəmanı Xəlilov Eldar Xəlil oğlunun (19.08.1976-17.03.1995) anadan olmasının 50 illiyi 649
Azərbaycanın Milli Qəhrəmanı Mehdiyev Fazil Umud oğlunun (20.08.1966-24.09.1991) anadan olmasının 60 illiyi 650



İkinci Qarabağ Müharibəsi Şəhidləri

Əsgər Mikayılov Elvin Nizami oğlunun (01.08.1986-26.10.2020) anadan olmasının 40 illiyi 651
Əsgər Abbasov İsa Faiq oğlunun (02.08.1996-14.11.2020) anadan olmasının 30 illiyi.....651
MAHHXHQ əsgər Qurbanzadə Mövlud Söhbət oğlunun (02.08.1996-27.09.2020) anadan olmasının 30 illiyi 652
Əsgər Bayramov Elcan Qoşqar oğlunun (03.08.2001-05.11.2020) anadan olmasının 25 illiyi 652
MAHHXHQ kiçik çavuş Abdullazadə İmaməddin Əsgər oğlunun (04.08.1996-07.11.2020) anadan olmasının 30 illiyi 653
Əsgər Məmmədov Pərvin Natiq oğlunun (04.08.2001-28.11.2020) anadan olmasının 25 illiyi 653
Kiçik çavuş Xələfov Nicat İlqar oğlunun (04.08.2001-08.11.2020) anadan olmasının 25 illiyi 654
Əsgər Abbasov Nemət Elçin oğlunun (04.08.1996-27.10.2020) anadan olmasının 30 illiyi 654
Əsgər Bünyadlı Rəvan Asif oğlunun (05.08.2001-27.09.2020) anadan olmasının 25 illiyi 655
Leytenant Muradov Siyavuş Akif oğlunun (05.08.1991-25.10.2020) anadan olmasının 35 illiyi 655
Əsgər Surxayzadə Zəfər Şəmsəddin oğlunun (05.08.2001-10.11.2020) anadan olmasının 25 illiyi 656

AVQUST 2026

MAHHXHQ əsgər Orucov Elşən Ehtiram oğlunun (06.08.1991-06.11.2020) anadan olmasının 35 illiyi 656
MAHHXHQ əsgər Qafarov Kənan Siyaqif oğlunun (06.08.1996-07.10.2020) anadan olmasının 30 illiyi 657
MAHHXHQ əsgər Şahvələdov İlyas Etibar oğlunun (06.08.1996-10.10.2020) anadan olmasının 30 illiyi 657
Əsgər Əliyev Elsevər Hikmət oğlunun (07.08.2001-02.10.2020) anadan olmasının 25 illiyi 658
Əsgər İsmiyev Emil Elman oğlunun (07.08.2001-09.10.2020) anadan olmasının 25 illiyi 658
Leytenant Orucov Xalid Saleh oğlunun (07.08.1996-12.10.2020) anadan olmasının 30 illiyi 659
MAHHXHQ əsgər Tağıyev Hüseyn Oqtay oğlunun (08.08.1991-05.10.2020) anadan olmasının 35 illiyi 659
Əsgər Arazov Elçin Eldar oğlunun (08.08.2001-31.10.2020) anadan olmasının 25 illiyi 660
Əsgər Ağayev Ceyhun Cəmil oğlunun (09.08.1991-07.11.2020) anadan olmasının 35 illiyi 660
Əsgər Nuruzadə Nurlan Tofiq oğlunun (09.08.2001-02.10.2020) anadan olmasının 25 illiyi 661
Əsgər Əliyev Cavid Samir oğlunun (10.08.2001-06.11.2020) anadan olmasının 25 illiyi 661
Əsgər Gülməmmədov Eşqin Rabil oğlunun (11.08.2001-20.11.2020) anadan olmasının 25 illiyi 662
Əsgər Məmmədov Ümid Bəkir oğlunun (11.08.2001-10.10.2020) anadan olmasının 25 illiyi 662
Əsgər Mirzəyev Ceyhun Zirəddin oğlunun (12.08.1996-06.12.2020) anadan olmasının 30 illiyi 663
Əsgər Putiyev Əhməd Şamil oğlunun (12.08.2001-25.10.2020) anadan olmasının 25 illiyi 663
Leytenant Şəmilov Azər Elyas oğlunun (13.08.1971-14.10.2020) anadan olmasının 55 illiyi 664
Əsgər Sərdarlı Rahim Rafik oğlunun (13.08.1996-08.11.2020) anadan olmasının 30 illiyi.....664
MAHHXHQ əsgər Mədətli Zülal Rəhim oğlunun (14.08.1991-19.10.2020) anadan olmasının 35 illiyi 665
Əsgər Bədəlov Səhman Bəhmən oğlunun (14.08.2001-14.10.2020) anadan olmasının 25 illiyi 665
Əsgər Hüseynov Kamran Bəhman oğlunun (14.08.1996-01.10.2020) anadan olmasının 30 illiyi 666
Əsgər Mehdizadə Əli Məcid oğlunun (15.08.2001-01.11.2020) anadan olmasının 25 illiyi.....666

AVQUST 2026

Gizir Bayramov Samir Elxan oğlunun (15.08.1996-03.11.2020) anadan olmasının 30 illiyi.....667
MAHHXHQ əsgər Məmmədov Sadiq Mübariz oğlunun (15.08.1991-04.10.2020) anadan olmasının 35 illiyi 667
MAHHXHQ çavuş Məmmədov Bəxtiyar Bayramşah oğlunun (16.08.1996-30.10.2020) anadan olmasının 30 illiyi 668
Kiçik gizir Novruzov Amin Taciddin oğlunun (16.08.1996-02.11.2020) anadan olmasının 30 illiyi 668
Əsgər Rəfiyev Ülvi Rəfail oğlunun (16.08.1996-25.10.2020) anadan olmasının 30 illiyi 669
Əsgər Vahabov Yadigar Mahir oğlunun (16.08.1996-01.11.2020) anadan olmasının 30 illiyi 669
MAHHXHQ çavuş Hüseynov Amil Rasim oğlunun (16.08.1986-10.12.2020) anadan olmasının 40 illiyi 670
MAHHXHQ əsgər Məmmədov Elman Bəhmən oğlunun (17.08.1991-03.10.2020) anadan olmasının 35 illiyi 670
Baş gizir Ömərov Elvin Xeybər oğlunun (18.08.1991-13.10.2020) anadan olmasının 35 illiyi 671
Əsgər Quluzadə Vəfadar Fəqan oğlunun (19.08.2001-03.10.2020) anadan olmasının 25 illiyi 671
MAHHXHQ əsgər Yusibov Rəşad Nazim oğlunun (19.08.1996-19.12.2020) anadan olmasının 30 illiyi 672
Əsgər Əliyev Təbriz Tofiq oğlunun (20.08.2001-19.10.2020) anadan olmasının 25 illiyi 672
Əsgər İskəndərov Şahin Ziyad oğlunun (21.08.2001-11.10.2020) anadan olmasının 25 illiyi 673
Gizir Məmişli Sahil Ağaverdi oğlunun (21.08.1991-12.11.2020) anadan olmasının 35 illiyi 673
Əsgər Qurbanov Röyal Ziyad oğlunun (21.08.2001-07.10.2020) anadan olmasının 25 illiyi 674
Əsgər Binnətov Ruslan Rafiq oğlunun (22.08.2001-10.11.2020) anadan olmasının 25 illiyi 674
Leytenant Məmmədov Qəzənfər Habil oğlunun (23.08.1996-12.11.2020) anadan olmasının 30 illiyi 675
MAHHXHQ əsgər Seyfullayev Fərid Xeyrulla oğlunun (23.08.1991-14.11.2020) anadan olmasının 35 illiyi 675
Əsgər Yusifli Məhəmməd Rəhman oğlunun (23.08.2001-02.10.2020) anadan olmasının 25 illiyi 676
Əsgər Abasov Samir Adəm oğlunun (24.08.2001-15.10.2020) anadan olmasının 25 illiyi 676
Əsgər Quliyev Elçin Etibar oğlunun (24.08.2001-10.10.2020) anadan olmasının 25 illiyi 677

Əsgər Lələyev İbrahim Həzrətqulu oğlunun (25.08.1996-11.10.2020) anadan olmasının 30 illiyi 677
Əsgər Həsənov Rəvan Rövşən oğlunun (25.08.2001-22.10.2020) anadan olmasının 25 illiyi 678
MAHHXHQ əsgər Quliyev Hüseyn Aydın oğlunun (25.08.1991-08.10.2020) anadan olmasının 35 illiyi 678
Əsgər Süleymanov Həsən İsmayıl oğlunun (25.08.1991-26.10.2020) anadan olmasının 35 illiyi 679
Əsgər Lətifov Rəvan Ömür oğlunun (26.08.1991-16.11.2020) anadan olmasının 35 illiyi 679
Əsgər Səmədov Elgün İlham oğlunun (26.08.2001-17.11.2020) anadan olmasının 25 illiyi 680
Əsgər Cəfərov Şəmsi Mahir oğlunun (27.08.2001-30.09.2020) anadan olmasının 25 illiyi.....680
Əsgər Paşazadə Cavid Telman oğlunun (27.08.2001-29.10.2020) anadan olmasının 25 illiyi 681
Əsgər Qənbərli Mehdi Sübhi oğlunun (27.08.2001-03.11.2020) anadan olmasının 25 illiyi 681
Əsgər Cəfərli Əli İsa oğlunun (29.08.2001-28.10.2020) anadan olmasının 25 illiyi.....682
Əsgər Əliyev Eltun Elnur oğlunun (29.08.2001-23.10.2020) anadan olmasının 25 illiyi 682
Əsgər İskəndərov Anar Vahid oğlunun (29.08.2001-21.10.2020) anadan olmasının 25 illiyi 683
Əsgər Nurməmmədov Ziya Zabil oğlunun (29.08.2001-13.10.2020) anadan olmasının 25 illiyi 683
Mayor Əsgərov Rüfət Mürvət oğlunun (29.08.1981-14.10.2020) anadan olmasının 45 illiyi 684
Əsgər Tağıyev Əli Rahil oğlunun (29.08.2001-03.10.2020) anadan olmasının 25 illiyi 685
Kapitan Babayev Nihad Akif oğlunun (30.08.1991-02.11.2020) anadan olmasının 35 illiyi 685
Əsgər Mirzəliyev Kamal Əjdər oğlunun (30.08.1996-15.12.2020) anadan olmasının 30 illiyi 686
Əsgər Məmmədov Tərlan Müşviq oğlunun (31.08.1996-08.10.2020) anadan olmasının 30 illiyi 686



Tarix

AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, tarix elmləri doktoru Məmmədova Fəridə Cəfər qızının (08.08.1936-08.12.2021) anadan olmasının 90 illiyi 687

AVQUST 2026



Fəlsəfə. İqtisadiyyat. Hüquq

Fəlsəfə elmləri doktoru, professor Quliyev Həsən Hüseyn oğlunun (01.08.1941-24.02.2008) anadan olmasının 85 illiyi

İqtisad elmləri doktoru, professor Balayev Rəsul Ənvər oğlunun (02.08.1956) anadan olmasının 70 illiyi 688

İqtisad elmləri doktoru, professor Hacızadə Elşən Mahmud oğlunun (09.08.1961) anadan olmasının 65 illiyi

AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Məmmədov Zakir Cabbar bəy oğlunun (16.08.1936-02.03.2003) anadan olmasının 90 illiyi 689

Akademik, əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru Aslanov Aslan Məhəmməd oğlunun (20.08.1926-23.08.1995) anadan olmasının 100 illiyi 690

Əməkdar müəllim, fəlsəfə elmləri doktoru, professor Cəfərov İmran Bayram oğlunun (24.08.1931) anadan olmasının 95 illiyi

İqtisad elmləri doktoru, professor Axundov Şəmsəddin Əhməd oğlunun (28.08.1936) anadan olmasının 90 illiyi



Mədəniyyət. Maarif. Təhsil

Filologiya elmləri doktoru, professor Rzayev Seyfəddin Gülverdi oğlunun (01.08.1961) anadan olmasının 65 illiyi

Xalq artisti, aparıcı, kino redaktoru Hüseynov Rafiq Eyyub oğlunun (04.08.1946-26.10.2017) anadan olmasının 80 illiyi 691

Əməkdar artist, diktor, ssenarist, rejissor Həşimov Rafiq Məhəmməd oğlunun (11.08.1966) anadan olmasının 60 illiyi 692

Filologiya üzrə elmlər doktoru, dosent Hacıyeva Nərgiz Musa qızının (Adilova) (17.08.1961) anadan olmasının 65 illiyi

Filologiya elmləri doktoru, tənqidçi, ədəbiyyatşünas, türkoloq, professor Vəliyev Kamil Nəriman oğlunun (Kamil Vəli) (18.08.1946-16.12.2023) anadan olmasının 80 illiyi 693

Filologiya elmləri doktoru, professor Ağaoğlu Məhəmməd bəy Ağa olunun (24.08.1896-04.07.1949) anadan olmasının 130 illiyi 694

Əməkdar mədəniyyət işçisi, nasir, ictimai xadim Xanbabayev Əjdər Rza oğlunun (25.08.1931-30.05.1990) anadan olmasının 95 illiyi 695

Əməkdar müəllim, filologiya elmləri doktoru, professor Əliyeva Nurlanə Müzəffər qızının (28.08.1946) anadan olmasının 80 illiyi 696


Xalq artisti, Əməkdar incəsənət xadimi, radio diktoru Tağızadə Qarasim Əbdülhəsən oğlunun (30.08.1946-04.03.2018) anadan olmasının 80 illiyi 697

AVQUST 2026




Coğrafiya. Geologiya

Coğrafiya elmləri doktoru, professor Əyyubov Əsgər Cabbar oğlunun (03.08.1926-2000) anadan olmasının 100 illiyi 698
AMEA müxbir üzvü, geologiya-minerologiya elmləri doktoru, professor Bağırov Bağır Əli oğlunun (12.08.1936) anadan olmasının 90 illiyi ...699
Əməkdar elm xadimi, coğrafiya elmləri doktoru, professor, hidroloq Rüstəmov Saleh Hacı oğlunun (25.08.1911-1985) anadan olmasının 115 illiyi



Riyaziyyat. Fizika. Astronomiya

Əməkdar elm və texnika xadimi, riyaziyyatçı Hüseynzadə Məcid Əziz oğlunun (16.08.1916-18.09.2006) anadan olmasının 110 illiyi



Kimya. Biologiya. Tibb

Əməkdar müəllim, kimya elmləri doktoru, professor Ağdamski Telman Əhməd oğlunun (06.08.1936-19.02.2024) anadan olmasının 90 illiyi
Əməkdar müəllim, kimya elmləri doktoru, professor Əcəmov Keykavus Yusif oğlunun (14.08.1941-11.12.2020) anadan olmasının 85 illiyi
AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor Salahov Mustafa Sətdar oğlunun (29.08.1931) anadan olmasının 95 illiyi 700

Texnika. Mühəndis işi



AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Məmmədova Məsumə Hüseyn qızının (07.08.1951) anadan olmasının 75 illiyi ..701

Kitabxanaşünaslıq. Biblioqrafiya



Tarix üzrə fəlsəfə doktoru, publisist, kitabxanaşünas Məmmədova Lətifə Adil qızının (19.08.1961) anadan olmasının 65 illiyi 702
Nəsimi rayonunda ilk kitabxana M.Əzizbəyov adına kütləvi kitabxananın (indi Nəsimi MKS) (15.08.1921) yaradılmasının 105 illiyi



Digər tarixi hadisələr

“Nəşri-Maarif” mədəni-maarif işləri sahəsində fəaliyyət göstərmiş xeyriyyə cəmiyyətinin (01.08.1906) yaradılmasının 120 illiyi 703
Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü (01.08.2001) 704
Azərbaycan Respublikası ərazisində bütün idarə və müəssisələrin, dövlət və qeyri-dövlət qurumlarının, Azərbaycan dilində olan bütün nəşrlərin latın qrafikalı əlifbaya keçməsi (01.08.2001)
Azərbaycan Kinosu Günü (02.08.2000) 705
Azərbaycanda Hərbi-Dəniz Qüvvələri Günü (05.08.1996)
Ermənistandakı azərbaycanlıların sonuncu nümayəndələri Meğri rayonunun Nüvədi kəndindən deportasiyası (08.08.1991) 706


AVQUST 2026

Beynəlxalq Gənclər Günü (12.08.1999)
Azərbaycanda Sərhəd Qoşunları Əməkdaşlarının Peşə Bayramı Günü (18.08.2000)
Beynəlxalq Humanitar Yardım Günü (19.08.2003)
Azərbaycanda Sərhəd Qoşunları Əməkdaşlarının Peşə Bayramı Günü (18.08.2000)
Beynəlxalq Humanitar Yardım Günü (19.08.2003)
Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti əməkdaşlarının peşə bayramı günü (23.08.2024)
Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsis edilməsinin 100 illiyi (26.08.1921) 707
Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək Yolu Üzərində Yerləşən Ölkələrin Musiqisi Günü (26.08.2010) 708
Laçın Şəhəri Günü (26.08.2023) 709
Türkiyə Cümhuriyyətinin Zəfər Bayramı Günü (30.08.1936)

Əlisa Nicat – 90

(1936)

Yazıçı



Ədəbiyyat:

Eldaroğlu, E. Ədəbiyyatımızın Qoca Qartalı...: Əlisa Nicat- 89 / Elman Eldaroğlu // Xalq Cəbhəsi.-2025.-14 avqust(№29).-S.15.

Gəncəli müdrik: [Mirzə Şəfi Kərbəlayi Sadıq oğlu Vazeh : Bioqrafik roman] / Əlisa Nicat. - [Bakı]: [Pergament], [2023]. - 333, [1] s.

Müdriklik məbədi / Əlisa Nicat [ön söz]; qapaq dizaynı R. Qasım. - [Bakı]: Qanun, [2023]. - 1110, [1] s.

Dünya fəlsəfi irsindən yarpaqlar / Əlisa Nicat; naşir Y. İlhamoğlu; dizayn Danyal & Partners; "Əlisa Nicat irsi fondu". - Bakı: Fayton yayınları, 2022. - 140, [1] s.

Həyatın külü / Ə. Nicat // Hürriyyət.– 2021.– 13-15 fevral.– S.7.

Müdrikliyin zirvəsində: O, həyat həqiqətlərinin aşiqi idi... / Əlisa Nicat // Hürriyyət.– 2020.– 3-4 noyabr.– S.13.

"Əlisa Nicat o zaman yaşasaydı, daha artıq yazardı"-Səməd Vurğunun nəvəsindən olay kimi müsahibə / H.Vəkilova; müsahibəni apardı: A.Mirayiq // Yeni Müsavat.– 2025.– 8 may (№79).– S.12.

Əlisa Qulam oğlu Hüseynov (Əlisa Nicat) 1936-cı il avqustun 10-da Lerik rayonunun Zuvand mahalının Yuxarı Gədik kəndində anadan olmuşdur. O, 1955-ci ildə Lənkəran şəhər 3 saylı orta məktəbini bitirmiş, 1957–1963-cü illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinin Kitabxanaşünaslıq şöbəsində ali təhsil almışdır.

Bədii yaradıcılığa orta məktəb illərində başlamış və "Bircə söz" adlı ilk şeiri 1955-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunmuşdur. 1961-ci ildə "Gecəniz xeyrə qalsın, ulduzlar" adlı ilk hekayəsi, 1964-cü ildə ilk şeirlər kitabı olan "Yay axşamı", 1970-ci ildə "Bir qız, üç çinar" adlı ilk hekayələr toplusu nəşr edilmişdir. Yazıçı 1959-cu ildə üzərində işləməyə başladığı "Qızılbaşlar" romanını yalnız 1983-cü ildə "Yazıçı" nəşriyyatında çap etdirə bilmişdir.

1967–1969-cu illərdə Azərbaycan Radiosunun "Gənclik" və "İncəsənət" redaksiyalarında, daha sonra "Ekran" telefilm birliyində çalışmışdır. 1973–1983-cü illərdə "Elm və həyat" jurnalında əvvəl ədəbi işçi, sonra şöbə müdiri vəzifələrində fəaliyyət göstərmişdir. 1983–1990-cı illərdə Lənkəranda yaşadığı müddətdə "Zərdüşt", "Əsarət bayramı" və "Gərəksiz" povestlərini yazmış, eyni zamanda Plutarxın "Makedoniyalı İskəndər" (1982) və Məhəmməd Tahirin "Şeyx Şamil" (1983) əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. 1987-ci ildə "Qəbilə başçısı" kitabı, 1990-cı ildə "Gəncəli müdrik" romanı çap olunmuşdur.

1993–1994-cü illərdə "Turan" adlı müstəqil ədəbi-siyasi və elmi jurnalın təsisçisi və baş redaktoru olmuşdur. Müstəqillik dövründə "Nağıllara dönən tarix" (1993), "Ruhların söhbəti" (1994), "Dünya sərkərdələri" (1995), "Dünya filosofları" (1995), "Kədər şərabı" (1997), "Dünya tarixçiləri" (1998), "Yüz böyük Azərbaycanlı" (1999), "Karvan" (2000), "Tarixin qürubu" (2009) və digər fundamental əsərləri nəşr olunmuşdur.

1999-cu il aprelin 28-də AMEA-nın Bəhmənyar adına Fəlsəfə və Hüquq İnstitutunun Elmi Şurasının qərarı ilə elmi və elmi-maarifçilik fəaliyyətinə görə fəlsəfə elmləri üzrə Fəxri Doktor adına layiq görülmüşdür.

Əlisa Nicat Azərbaycan ədəbiyyatında fəlsəfi hekayə və pritça janrının inkişafına mühüm töhfələr vermiş, tarixi roman və fəlsəfi antologiya-ensiklopediyaların müəllifi kimi geniş tanınmışdır. Yazıçının yaradıcılığına müxtəlif janrlarda povestlər, romanlar, pritçalar, esselər və geniş tərcümə irsi daxildir.

Onun külliyyatı 50 cildlik nəşr kimi planlaşdırılmış, 2012–2023-cü illər ərzində həmin külliyyatın 28 cildi çap olunmuşdur.

Əlisa Nicatın yaradıcılıq irsi olduqca genişdir və o, "Gəncəli müdrik", "Nağıllara dönən tarix", "Sasanilərin sonu", "Ehram", "Sarsılmaz Mir Cəfər", "Mələklər və İblislər", "Rza xan", "Qızılbaşlar", "Fenomen", "Satrap və demokrat", "Artakserks və Midya türkləri", "Əsrin mənzərəsi", "Sirli xəzinə", "Müdriklik məbədi", "Bülbül və gül", "101 Dahi", "Qızıl fəlsəfə", "Tiranlar və kölələr" və "Vətənpərvər" kimi əsərlərin müəllifidir

Yazıçı həmçinin çoxsaylı şeirlərin, esselərin, povestlərin və tərcümələrin müəllifidir.

Ələviyyə Babayeva – 105

(1921-2014)

Yazıçı



Ələviyyə Hənifə qızı Babayeva 1921-ci il avqustun 12-də Bakıda anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində ali təhsil almışdır. Ədəbi fəaliyyətə 1936-cı ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunan "İki həyat" hekayəsi ilə başlamışdır.

Yazıçının peşəkar fəaliyyəti ölkənin aparıcı nəşriyyat və mətbu orqanları ilə bağlı olmuşdur. O, 1951–1973-cü illərdə "Azərbaycan qadını" jurnalında məsul katib, 1973–1976-cı illərdə "Gənclik" nəşriyyatında müasir ədəbiyyat şöbəsinin müdiri, 1976–1985-ci illərdə isə həmin nəşriyyatda baş redaktor vəzifəsində çalışmışdır. Uzun illər Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, qurumun qəbul komissiyasında və tərcümə seksiyasında fəaliyyət göstərmişdir.

Ələviyyə Babayevanın yaradıcılığı XX əsr Azərbaycan nəsrinin inkişafında mühüm mərhələ təşkil edir. O, hekayə, povest və roman janrlarında yazdığı əsərlərlə tanınmışdır. Yazıçının yaradıcı irsinə "Mənim müəlliməm", "Kənd yolları", "Yeni baharda", "Sehrli pillələr", "Kölgə", "Yarpaqlar nə haqda pıçıldaşır", "Tut ağacı", "Adamlar və talelər", "Hardasan dost, harda", "Anadil ağlayırdı", "Yanar su", "Bəlkə sabah olmadı", "Son döngə", "Əlvida", "Rəngbərəng yuxular", "Dəli Sona" və digər əsərlər daxildir. Yaradıcı fəaliyyəti dövründə 25-dən artıq kitabı nəşr olunmuşdur.

Ələviyyə Babayeva tərcümə sahəsində də məhsuldar fəaliyyət göstərmişdir. O, müasir rus ədəbiyyatından A. Qaydarın "Uzaq ölkələr" (1950), V. Biankinin "İz ilə" (1947), "Ayı balası" (1959), "Qırmızı təpə" (1963), K. Paustovskinin "Oğru pişik" (1951), V. Korolenkonun "Satın alınmış uşaqlar" (1962), Y. Sotnikin "Əcaib quş" (1964), V. Astafyevin "Ulduz xəzanı" (1970), Y. Çaruşinin "Nikitanın oyuncaqları" (1984) və digər əsərləri dilimizə çevirmişdir. Bu tərcümələr geniş tirajla nəşr olunaraq respublikanın uşaq və gənc oxucuları arasında yayılmışdır.

Yazıçının yaradıcılığının bir hissəsi ssenari fəaliyyəti ilə də bağlıdır. O, "Dınqıl, sazım, dınqıl" (1976) və "Sehrlənmiş küpə" (1979) adlı animasiya filmlərinin ssenari müəllifi olmuşdur.

Ələviyyə Babayevanın ədəbi xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 30 iyul 1979-cu il tarixində Azərbaycan SSR-in "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüş, 2002-ci il iyunun 11-də Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü ilə təltif edilmişdir.

Ədibin 90 illik yubileyi 2011-ci ilin avqustunda geniş şəkildə qeyd olunmuşdur.

Ələviyyə Hənifə qızı Babayeva 2014-cü il sentyabrın 23-də vəfat etmişdir.

Ə d ə b i y y a t :

Böyürtkən mürəbbəsi: uşaqlar üçün hekayələr / Ə. Babayeva; naşir M. Xan; dizayn F. İlham.– [Bakı]: Mücrü, [2021].– 155, [1] s.

Dəfinələr adası: [macəra romanı] / R. L. Stevenson; tərc. ed. Ə. Babayeva; uşaqlar üçün sadələşdirən N. Qəhrəmanova; red. R. İsmayılov; rəssam E. Cabarov; dizayner L. Məmməd.– [Bakı]: Altun kitab, [2023].– 128 s.

Qələm / Ə. Babayeva; rəssam M. Hüseynzadə; üz qapağı dizaynı A. Hüseynova.– [Bakı]: Kritika, [2024].– 23, [1] s.

Rəngbərəng yuxular / Ə. Babayeva; naşir M. Xan; dizayner T. Fərzi.– [Bakı]: Mücrü, [2025].– 313, [2] s.

İ n t e rnetdə:

https://portal.azertag.az/az/node/27689

Qabil – 100

(1926-2007)

Şair



Ədəbiyyat:

Əliyeva, F. Sözün sirli aləmindən könüllərə yol tapan Xalq şairi / Fidan Əliyeva //Respublika.-2025.- 12 avqust (№167).- S.6.

Tağıyev, A. Yaddaşımdakı portret cizgiləri: Xalq şairi Qabil / Aydın Tağıyev // 525-ci qəzet.-2023.- 26 avqust.- S.15.

Hüseynov, R. Əvəzsiz şairin əvəz etdiyi misra: Və dəyişməsi çətin olan həqiqətlər / Rafael Hüseynov // Türküstan.-2023.- 15-21 iyun.- S.11.

Seçilmiş əsərləri: 2 cilddə / Qabil; [baş red. S. Bektaşı; burax. məsul S.İsmayılova]; Azərb. Resp.Mədəniyyət və Turizm Nazirliyi. – Bakı: Şərq-Qərb, 2016.– C. 1 [şeirlər].– 367,[1] s.

Əsərlər: yeddi cilddə / Qabil; tərt. ed. M. Q. İmamverdiyev (red.); bədii tərtibat Z. Qafarzadə.– Bakı: [Adiloğlu], 2017.– C.1.– 519, [1] s.

Azayev, Ə. Qabil xeyirxahlığı / Ə.Azayev // Ədalət.– 2019.– 8 fevral.– S.7.

Vətən / Qabil // Ulduz.– 2021.– №1.– S.33.

Tramvay parka gedir... / Qabil // Ədəbiyyat qəzeti.– 2023.– 2 sentyabr.– S.6-7.

https://az.wikipedia.org/wiki/Qabil_(şair)

Qabil Allahverdi oğlu İmamverdiyev 1926-cı il avqustun 12-də Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra 1944–1948-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində təhsil almış, 1954–1956-cı illərdə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutu nəzdində ali ədəbiyyat kurslarında müdavim olmuşdur. Əmək fəaliyyətinə Yardımlı rayonunda və Bakı şəhərində orta məktəb müəllimi, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda laborant kimi başlayan Qabil daha sonra "Azərbaycan müəllimi" qəzetində şöbə müdiri (1951–1953), "Kommunist" qəzetində tərcüməçi-redaktor (1954), Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ədəbi-dram verilişləri redaksiyasının məsul redaktoru (1957–1958), "Ədəbiyyat və incəsənət" qəzetində poeziya şöbəsinin müdiri (1960–1972), "Azərbaycan" jurnalında ədəbi işçi və baş redaktorun müavini (1975–1979) vəzifələrində çalışmışdır. O, uzun illər Azərbaycan Yazıçılar Birliyinin Ağsaqqallar Şurasının sədri olmuşdur.

Qabilin "Gəl, baharım!" adlı ilk şeiri 1944-cü ildə "Ədəbiyyat" qəzetində çap olunmuşdur. Şairin 1950-ci ildə "Səhər açılır" adlı ilk kitabı nəşr edilmiş, daha sonra "Mənim mavi Xəzərim" (1959), "Küləkli havalarda" (1964), "Qoy danışsın təbiət" (1966), "Vətəndaş sərnişinlər" (1973) və digər kitabları oxucuların rəğbətini qazanmışdır. Onun yaradıcılığı lirizmi, humanist ideyaları, sosial və mənəvi problemlərin bədii ifadəsi ilə seçilir. Milli ədəbi ənənələrə əsaslanan poeziyası mövzu rəngarəngliyi, dilinin axıcılığı və realist təhkiyəsi ilə müasir Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfə vermişdir. Şairin "Nəsimi" mənzum romanı, "Ömrün həbləri" satirik romanı, minlərlə rübaisi, uşaqlar və yeniyetmələr üçün yazdığı "Nağaraçı" kitabı, eləcə də "Mənim mavi Xəzərim", "Küləkli havalarda", "Beşiyimdir – məzarımdır o mənim", "Dağlar", "Azərbaycan torpağı" kimi poetik nümunələri yaradıcılığının əsas məqamlarını təşkil edir. Qabilin əsərləri bir sıra xalqların dillərinə tərcümə olunmuşdur.

Şairin ədəbi irsi müxtəlif illərdə nəşr olunmuş külliyyat və toplularda geniş şəkildə təqdim edilmişdir: "Seçilmiş əsərləri" (2004), "Nəsimi" (I–III kitab, 1980), "Ömrün həbləri" (1989), "İlahi qisməti" (2001), "Dostlarım, tanışlarım" (2002), "Seçilmiş əsərləri"nin iki cildi (2016) və "Əsərlər" adlı yeddi cildlik külliyyatı (2017).

Qabilin ədəbi və ictimai fəaliyyəti dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. O, 1976-cı ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüş, 1980-ci ildə "Əmək igidliyinə görə" medalı və Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmiş, 1984-cü ildə "Əməkdar incəsənət xadimi", 1992-ci ildə "Xalq şairi" adlarını almışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanları ilə 1996-cı ildə "Şöhrət" ordeni, 2006-cı ildə isə "İstiqlal" ordeni ilə təltif olunmuşdur. 1998-ci ildə Ədəbiyyat Fondunun "Rəsul Rza" mükafatına layiq görülmüş, 2002-ci ildən Prezidentin fərdi təqaüdünü almışdır.

Qabilin yaradıcılığı ilə bağlı müxtəlif illərdə tədbirlər keçirilmiş, yubileyləri dövlət səviyyəsində qeyd edilmişdir. 1996-cı ildə 70 illik yubileyi Azərbaycan Opera və Balet Teatrında, 2016-cı ildə isə 90 illik yubileyi Azərbaycan Dövlət Filarmoniyasında təşkil olunmuşdur. 2001-ci ildə "Azərbaycan Telefilm" tərəfindən şairə həsr olunan "Qabil" filmi istehsal edilmişdir.


Qabil Allahverdi oğlu İmamverdiyev 2007-ci il aprelin 4-də Bakıda vəfat etmiş və I Fəxri Xiyabanda dəfn edilmişdir.

2021-ci ildə Azərbaycan Milli Kitabxanasında "Xalq şairi Qabil – 95" adlı virtual sərgi hazırlanmışdır.

Seyfəddin Dağlı – 105

(1921-1983)

Yazıçı



Ədəbiyyat:

Hüseynova, S. Bədii nəsrdə tarixi və müasir gerçəklik: [monoqrafiya] / S. Hüseynova; elmi red. T. Hüseynoğlu.– Bakı: Elm və təhsil, 2017.– 173 s.

Qasımov, V. Seyfəddin Dağlı: şəxsiyyət kimi təkrarsız, yazıçı kimi unudulmaz / V.Qasımov // 525-ci qəzet.– 2019.– 30 avqust.– S. 7.

Abbasov, B. Varislər: Bəhlul Abbasov: "Həyatlarını düzgün qura bilməyənlər qorxurdu ondan..." / B.Abbasov; müsahibəni apardı: Ə.Qiyas // Ədəbiyyat qəzeti.– 2020.– 1 fevral.– S.4-5.

Elçiliyə gecə saat 1-də gedən, Cəfər Cabbarlının qızını alan, baba olduğunu eşidəndə dünyasını dəyişən yazıçı - Maraqlı faktlar // Unikal.– 2020.– 5 sentyabr.– S. 20.

Sözün hikmətinə dəyər verən sənətkar - Seyfəddin Dağlı / Q. Əsgərzadə // 525-ci qəzet.– 2021.– 28 avqust.– S.18.

Ustad və cəsarətli sənətkar-Seyfəddin Dağlı / A. Turan // Türküstan.– 2023.– 12-18 sentyabr.– S.11.

Seyfəddin Əliağa oğlu Abbasov (Seyfəddin Dağlı) 1921-ci il avqustun 27-də Abşeron rayonunun Xızı kəndində anadan olmuşdur. 1927-ci ildə ailəsi ilə Bakıya köçmüş və şəhərin 5 nömrəli yeddiillik məktəbini bitirmişdir. Daha sonra N.Nərimanov adına Sənaye Texnikumunun Kimya fakültəsində təhsil almışdır. Tələbəlik illərində "Kommunist" qəzetində ədəbi işçi, şöbə müdiri və məsul katib vəzifələrində çalışmışdır.

1941–1956-cı illərdə Sovet Ordusunda xidmət etmişdir. Hərbi xidmətdə olduğu dövrdə aviamexanik kimi fəaliyyət göstərmiş, "Ordu" qəzetində ədəbi işçi, "Diviziya" qəzetində redaktor olmuşdur. Sovet ordusunun tərkibində İrana göndərilmiş, sonra Moskvada Hərbi Akademiyada təhsil almışdır.

Seyfəddin Dağlının ədəbi fəaliyyəti 1938-ci ildən felyetonlarla başlamışdır. 1948-ci ildə Azərbaycan Dövlət Nəşriyyatı onun "Dəniz kəşfiyyatçısı" kitabını nəşr etmişdir. Daha sonra "Bahar oğlu", "Məşəl", "Kəcil qapısı", "Sabiqlər" və digər kitabları işıq üzü görmüş, əsərləri geniş oxucu kütləsinin rəğbətini qazanmış və rus və digər xarici dillərə tərcümə olunmuşdur. İkinci Dünya Müharibəsi dövründə felyeton və satirik hekayələri "Vətən uğrunda" jurnalında, "Ədəbiyyat" qəzetində və Təbrizdə nəşr olunan "Vətən yolunda" qəzetində çap olunmuşdur.

Seyfəddin Dağlı ədəbi fəaliyyətini həm nəsr, həm dramaturgiya sahəsində davam etdirmişdir. Onun dram əsərləri arasında "Adı sənin, dadı mənim" (1963), "Aydınlığa doğru" (1965), "Mənziliniz mübarək" (1971), "Təzə gəlin" (1975), "Kölgələr pıçıldaşır" (1976) yer alır və respublikanın teatrlarında tamaşaya qoyulmuşdur. "Bahar kimi solmaz" (1979) əsəri əsasında film çəkilmişdir.

1952–1956-cı illərdə Lenin adına Moskva Hərbi-Siyasi Akademiyasının Redaktorluq fakültəsində təhsil almışdır. 1956–1959-cu illərdə Azərbaycan Dövlət Radio Komitəsində baş redaktor, "Bakı" telestudiyasının direktoru və sədr müavini olmuşdur. 1959–1976-cı illərdə "Kirpi" satirik jurnalının baş redaktoru kimi fəaliyyət göstərmişdir. 1976-cı ildən "Azərbaycanfilm" kinostudiyasında ssenari redkollegiyasının üzvü, 1980-ci ildən ömrünün sonuna qədər "Yazıçı" nəşriyyatında redaktor vəzifəsində çalışmışdır.

Seyfəddin Dağlının yaradıcılığı çoxşaxəli olmuşdur. Əsərlərində satirik və yumoristik motivlər üstünlük təşkil edir, eyni zamanda ictimai-siyasi mövzulara da toxunulmuşdur. Şeirlərindən bəziləri musiqiləşdirilmiş və müxtəlif bəstəkarlar tərəfindən bəstələnmişdir.

O, müxtəlif medal və fəxri fərmanlarla, həmçinin Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı və Azərbaycan SSR Dövlət mükafatı ilə təltif olunmuşdur.

Seyfəddin Dağlı 1983-cü il yanvarın 18-də Bakıda vəfat etmiş və şəhər qəbiristanlığında dəfn edilmişdir.

Bakı şəhərinin Yasamal rayonunda küçələrdən biri onun adını daşıyır.

2006-cı ildə M.F.Axundzadə adına Milli Kitabxanada Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri, yazıçı, şair, jurnalist, dramaturq Seyfəddin Dağlının anadan olmasının 95 illiyi münasibətilə "Seyfəddin Dağlı-95" adlı kitab sərgisi açılmışdır.

Skott Valter – 255

(1771-1832) *İngilis yazıçısı*



Valter Skott 15 avqust 1771-ci ildə Şotlandiyanın Edinburq şəhərində anadan olmuşdur. Uşaqlıq dövründə Şotlandiyanın sərhəd bölgələri ilə tanışlığı onun sonrakı yaradıcılığında folklor və regional tarixə marağı gücləndirmişdir. 1778-ci ildən etibarən Edinburqda təhsil alan Skott məktəb illərindən başlayaraq geniş mütaliəyə meyil göstərmiş, xüsusilə antik ədəbiyyat, Şotlandiya poeziyası və alman dilinə maraq göstərmişdir. 1785-ci ildə daxil olduğu Edinburq kolleci və sonradan aldığı ali hüquq təhsili onun intellektual inkişafına təsir etmişdir. Tələbəlik illərində ədəbi mühitə qoşulmuş, poeziya üzrə müzakirələr aparan bir dərnəyin yaradılmasında iştirak etmişdir. 1792-ci ildə hüquq fakültəsini bitirdikdən sonra bir müddət hüquqşünas kimi çalışmışdır.

Yazıçının ədəbi fəaliyyətinin ilkin mərhələsi poeziya ilə başlamışdır. XIX əsrin əvvəllərində o, Şotlandiyanın müxtəlif əyalətlərindən topladığı xalq nəğmələrini sistemləşdirərək 1800–1803-cü illərdə "Şotlandiyanın sərhəd nəğmələri" adlı üçcildlik toplusunu nəşr etdirmişdir. Bu nəşr folklor materiallarının toplanması və dövrün tarixi yaddaşının bərpası baxımından əhəmiyyətli hesab olunur. Bu mərhələdən sonra Skott bir sıra romantik poemalar – "Sonuncu menestrelin mahnısı", "Marmion", "Göl qızı", "Rokbi" – yazmış və bu əsərlərdə Şotlandiya və İngiltərənin tarixi-siyasi hadisələrinə poetik şəkildə yanaşmışdır.

Skottun nəsrə keçidi 1814-cü ildə "Ueverli" romanının anonim nəşri ilə başlanmışdır. Yazıçının ümumi nəsr irsinə 28 roman və bir neçə povest daxildir. Onun romanları mövzusuna görə fərqli tarixi-sosial mühitləri əhatə edir: Şotlandiya tarixi ilə bağlı "Ueverli", "Qay Mannerinq", "Antikvar", "Puritanlar", "Rob Roy" kimi əsərlərdə regional siyasi proseslər və ictimai münasibətlər bədii şəkildə təsvir edilmişdir; İngiltərənin tarixi keçmişinə həsr edilən "Ayvenqo", "Monastır", "Rahib", "Kenilvort", "Vudstok" kimi əsərlərdə feodal münasibətləri, dini-siyasi münaqişələr və tarixi ziddiyyətlər əks olunmuşdur; digər ölkələrə dair romanlarında, o cümlədən "Kventin Dorvard" və "Talisman"da Avropa tarixinə dair hadisələr bədii kompozisiya çərçivəsində təqdim edilmişdir. Bu təsnifat Skott yaradıcılığının müxtəlif coğrafi və tarixi kontekstlərə əsaslandığını göstərir.

Skott tarixi sənədləri, xronikaları və folklor mənbələrini araşdıraraq bədii mətnlərində tarixi gerçəkliyi geniş təsviri lövhələrlə təqdim etmişdir. Onun əsərlərində sosial-tarixi münaqişələr, müxtəlif təbəqələr arasındakı münasibətlər və cəmiyyətin inkişaf prosesləri əsas bədii xətt kimi çıxış edir. Yazıçının yanaşması tarixi faktların bədii interpretasiyasını sistemli tədqiqatla birləşdirən metod kimi dəyərləndirilir.

Skott poetik və nəsr yaradıcılığı ilə yanaşı, tarixi-ədəbi araşdırmalar da aparmışdır. "Napoleon Bonapartın həyatı" (1827), "Şotlandiyanın tarixi" (1829–1830) və "Romançıların həyatı" (1821–1824) kimi əsərlər tarixi faktların analitik şəkildə işlənməsi ilə seçilir.

Yazıçının yaradıcılığı XIX əsr Avropa və Amerika ədəbiyyatında sosial və tarixi roman ənənəsinin formalaşmasına təsir göstərmişdir. Onun əsərləri Balzak, Puşkin, Stendal və Belinski kimi müəlliflər tərəfindən yüksək qiymətləndirilmişdir.

Valter Skott 21 sentyabr 1832-ci ildə Abbotsfordda vəfat etmişdir.

Onun ədəbi irsi tarixi roman janrının elmi və bədii inkişafında əsaslı mərhələ kimi dəyərləndirilir.

Ədəbiyyat:

Dadaşova, A. Tarixi roman janrı və Valter Skott /Arzu Dadaşova //Əlyazmalar yanmır /AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu.-2023.- № 1(16).- S.93-99.

Valter Skott və XX əsrin I yarısı Azərbaycan tarixi romanı: filologiya üzrə fəlsəfə d-ru a. dər. al. üçün təq. ed. dis.: 5716.01; 5718.01 / A. R. Əliyev; Azərb. Resp. Təhsil Nazirliyi, BDU.– Bakı: 2017.– 154 s.

"Mən heç Şekspirin ayaqqabısının ipini də bağlamağa layiq deyiləm!..." / V. Skott // Ədəbiyyat qəzeti.– 2016.– 5 noyabr.– S.28-29.

Milli - tarixi koloritin yaradılması məqsədi ilə V.Skottun "Ayvənhəu" romanında işlətdiyi arxaizmlər / S.H.Ağayeva // Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal.– 2015.– №1(93).– S.219-221.

Valter Skott poeziyasının estetikası / G.Ş.Xəlilova // Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal.– 2014.– №1(89).– S.169-172.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Valter_Skott

AVQUST

1

Həsənağa Mustafayev – 130

(1896-1971) *Teatr rəssamı*



Ədəbiyyat:

Mustafayev Həsənağa Hacağa oğlu // ASE: 10 cilddə. – Bakı, 1983. – C.7. – S.106.

Qaliboğlu, S. "21-in sirri" - mərhum rəssamın nəsil davamçılarının sərgisi / S.Qaliboğlu // Mədəniyyət. – 2017. – 7 iyul. – S.13.

Həsənağa Hacıağa oğlu Mustafayev 1 avqust 1896-cı ildə Bakıda anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra 1922–1925-ci illərdə Bakı Rəssamlıq Məktəbində, 1926–1931-ci illərdə isə Moskva Ali Bədii-Texniki İnstitutunda sənət təhsili almışdır. Mustafayev 1933–1937-ci illərdə Moskvada SSRİ Böyük Teatrında rəssam kimi fəaliyyət göstərmiş, 1937-ci ildən etibarən Bakıda Azərbaycan teatrlarında səhnə tərtibatı üzrə çalışmışdır. Onun Opera və Balet Teatrı üçün hazırladığı dekorasiya işləri "Nərgiz" (1938, M. Maqomayev), "Səfa" (1939, A. Mailyan), "Stansiya nəzarətçisi" (1939, A. Kryukov), "Şah İsmayıl" (1940, M. Maqomayev) kimi səhnə əsərlərində özünü göstərmişdir. Azərbaycan Musiqili Komediya Teatrında "Evliykən subay" (1939, Z. Hacıbəyov), "Beş manatlıq gəlin" (1939, S. Rüstəmov), "O olmasın, bu olsun" (1946, Ü. Hacıbəyov) kimi tamaşaların bədii tərtibatını hazırlamışdır.

Mustafayev Azərbaycan qrafikasının inkişafında texniki yenilikləri ilə seçilir. O, ölkə təsviri sənətində ilk dəfə olaraq ofort, ksiloqrafiya və linoqravüra texnikalarını tətbiq etmişdir. "Mənzərə" (ofort, 1926), "Arabaçı" (ofort, 1928), "Üzüm yığımı" (ksiloqrafiya, 1928), "Zorxana" (linoqravüra, 1934), "Xalça toxuyanlar" (linoqravüra, 1935) kimi əsərləri bu texnikaların yerli qrafik sənətinə tətbiqinin erkən nümunələridir.

Rəssamın fəaliyyəti dövlət səviyyəsində də qiymətləndirilmişdir. O, 1938-ci ildə "Azərbaycan SSR əməkdar incəsənət xadimi", 1940-cı ildə isə "Azərbaycan SSR əməkdar artisti" fəxri adlarına layiq görülmüşdür. Həsənağa Mustafayev 22 aprel 1971-ci ildə Bakıda vəfat etmişdir.

15

Tofiq Abdullayev - 90

(1936-2021) *Memar*



Ədəbiyyat:

Azərbaycan memarlarına Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında [Mətn]: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 18 dekabr 2017-ci il //Azərbaycan.-2017.-20 dekabr.- S.1.

Tofiq Əli oğlu Abdullayev 15 avqust 1936-cı ildə Göygöl rayonunda anadan olmuş, memarlıq təhsilini Poltexnik İnstitutunun müvafiq fakültəsində almışdır. Peşəkar təhsilinin tamamlanmasından sonra memarlıq sahəsində həm layihələndirmə, həm də elmi-tədqiqat fəaliyyətləri ilə məşğul olmuşdur.

Abdullayevin elmi və pedaqoji fəaliyyəti əsasən Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) ilə bağlı olmuşdur. O, 2007-ci ildən həmin universitetin Memarlıq fakültəsinin dekanı vəzifəsində çalışmış, 2009-cu ildən isə "Memarlıq konstruksiyaları və abidələrin bərpası" kafedrasının professoru seçilmişdir.

Tofiq Abdullayev memarlıq abidələrinin bərpası və konservasiyası sahəsində də mühüm işlər görmüşdür. Onun iştirakı ilə Şəkinin Kiş kəndindəki məbədin, Qəbələnin Nic kəndində məbədin, Qax rayonundakı Qum məbədinin bərpası və konservasiyası həyata keçirilmişdir.

Tofiq Abdullayev geniş elmi yaradıcılığa malik olmuşdur. Onun 35-dən çox elmi məqaləsi və 3 kitabı memarlıq konstruksiyaları, bərpa metodikası və tarixi memarlıq haqqında tədqiqatları əhatə edir.

Abdullayevin fəaliyyəti dövlət səviyyəsində də qiymətləndirilmişdir. O, "Azərbaycan SSR əməkdar memarı" fəxri adına layiq görülmüş, 2017-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü ilə təltif edilmişdir.

Tofiq Abdullayev 14 dekabr 2021-ci ildə vəfat etmişdir.

Tofiq Abdullayevin yaradıcılığı Azərbaycan memarlığının həm klassik ənənələrə bağlılıq, həm də müasirlik istiqamətində inkişafında mühüm mərhələ kimi dəyərləndirilir. Onun fəaliyyəti elmi tədqiqat, pedaqoji iş və praktiki memarlıq sahələrinin qarşılıqlı əlaqədə inkişaf etdiyinin nümunəsi olaraq qiymətləndirilir.

Xalidə Səfərova – 100

(1926-2005)

Rəssam



Xalidə Ələkbər qızı Səfərova 25 avqust 1926-cı ildə Gəncə şəhərində anadan olmuşdur. 1941–1944-cü illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində, 1949–1955-ci illərdə isə Moskvadakı Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun rəssamlıq fakültəsində təhsil almışdır. Xalidə Səfərova Azərbaycan rəngkarlığında boya texnikaları, mənzərə və natürmort janrlarının inkişafında mühüm rol oynamış, ölkənin müasir rəngkarlıq məktəbinin görkəmli nümayəndələrindən biri kimi tanınmışdır.

Onun ilk diplom işi "Cəbhədən gələn məktub" olmuş, ikinci diplom işi isə Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasına çəkilən illüstrasiyalar olmuşdur. Bu illüstrasiyalar SSRİ Rəssamlıq Akademiyasının sərgisində, Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun yubileyində, eləcə də 1956-cı ildə Praqa və Paris şəhərlərində keçirilən kino festivalının çərçivəsində sərgilənmişdir.

Xalidə Səfərovanın yaradıcılığında əsas yer peyzaj və natürmort janrlarında çəkilmiş rəsm əsərlərinə məxsusdur. Onun güllərlə natürmort silsiləsində "Payızgülü" (1956), "Zinya çiçəyi" (1971), "Bahar çiçəkləri" (1971), "Monmartr gülləri" (1985), eləcə də "Gülabdan", "Qızılgül", "Çöl çiçəkləri", "Eyvanda", "Xrizantemlər", "Yasəmənlər", "Zanbaqlar", "Nərgizlər", "Nar çiçəyi" kimi əsərlər yer alır.

Rəssam Azərbaycanın müxtəlif bölgələrinə etdiyi səfərlərində kənd həyatını, təbiəti və mənzərələri təsvir etmişdir. Bu əsərlər arasında "Üç palıd", "Yağışdan əvvəl", "Bağda natürmort", "Üzümlükdə natürmort", "Qızılgül dəstəsi", "Qızılgüllər və sərv ağacı", "Yağışdan sonra", "Çinarlar", "Alma yığan qız", "Dumanlı səhər", "Çəmənlikdə bahar", "Payız günəşi", "Pambıq gül açanda" və "Uçun, göyərçinlər" kimi tablolar xüsusi yer tutur.

Rəssam 1970-ci illərdə "Mənim diyarım" triptixini ərsəyə gətirmişdir. Əsərin mərkəzi hissəsi "Bürkü", kənar hissələri isə "Səhər" və "Axşam" adlanır.

Xalidə Səfərovanın portret əsərləri də yaradıcılığında önəmli yer tutmuşdur. Bunlar arasında "Qapıçı", balet artisti Leyla Vəkilovanın portreti, rəssam Maral Rəhmanzadənin portreti, rəssam Mahmud Tağıyevin portreti və s. əsərlər yer alır. O, həmçinin 1960-cı illərdə idman mövzusunda çoxfiqurlu kompozisiyalar çəkmişdir; "Gimnastlar", "Estafet", "Velosipedçi", "Futbolçular", "Çövkən" əsərləri bu istiqamətdə nümunələrdir.

Rəssamın əsərləri 1947-ci ildə Bakıda Mahmud Tağıyev ilə birgə keçirilən ilk sərgidə təqdim edilmiş, həmçinin 1980, 1984, 1988 və 2002-ci illərdə fərdi sərgilərdə nümayiş etdirilmişdir. Yaradıcılığının müxtəlif illərində əsərləri Rusiya, Türkiyə, Ruminiya, Macarıstan, Polşa, Əlcəzair, İsrail və digər ölkələrdə sərgilənmiş, ABŞ, Almaniya, Rusiya, Türkiyə, Çexiyada bir sıra muzeylərdə və şəxsi kolleksiyalarda saxlanılmışdır.

Xalidə Səfərova Azərbaycan təsviri sənətindəki xidmətlərinə görə 5 dekabr 1977-ci ildə Əməkdar rəssamı fəxri adına, 17 may 1989-cu ildə Xalq rəssamı fəxri adına layiq görülmüş, 11 iyun 2002-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü ilə təltif edilmişdir.

Xalidə Ələkbər qızı Səfərova 23 dekabr 2005-ci ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Yaradıcılığı ilə seçilən rəssam: İncəsənət xadimləri / Ə.Quliyev // Azərbaycan.– 2025.– 4 aprel (№64).– S.11.

Xalq rəssamı Xalidə Səfərovanın yaradıcılığında obrazlığın bədii ifadəsi / A.Mürvətova // Elmi əsərlər / Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.– 2020.– №28.– S.177-182.

Mürvətova, A. Xalidə Səfərovanın yaradıcılığında natürmort janrının bədii xüsusiyyətləri /Arzu Mürvətova // Axtarışlar: (ədəbiyyatşünaslıq, folklorşünaslıq, dilçilik və sənətşünaslıq) / AMEA, Naxçıvan bölməsi.-2020.- №1.- S. 135-138.

Mürvətova, A. Xalidə Səfərovanın "Xosrov və Şirin" poemasına etdiyi illüstrasiyaların bədii xüsusiyyətləri / Arzu Mürvətova // Axtarışlar: (ədəbiyyatşünaslıq, folklorşünaslıq, dilçilik və sənətşünaslıq) / AMEA, Naxçıvan bölməsi.-2020.- C.12, № 2.- S. 145-149.

Ağayev, E. Xalidə Səfərova yaradıcılığında mənzərə janrı / E. Ağayev // Elmi iş humanitar elmlər üzrə aylıq beynəlxalq elmi jurnal.– 2019.– № 5/6.– S.109-110.

Lətifə Quluzadə – 80

(1946) *Teatr rəssamı*



Ədəbiyyat:

Təsviri sənətin layiqli davamçılarından biri / H.Əhmədov // Yeni Azərbaycan.– 2009.– 18 aprel.– S.6-7.

Xüsusi təyinatlı rəssam: Lətifə Quluzadə: "Teatr rəssamı tarixi də, musiqini də, ədəbiyyatı da bilməlidir" / L.Quluzadə, müsahibəni apardı: Aliyə // Mədəniyyət.– 2013.– 25 yanvar.– S. 10.

Məhəbbətin təzahürü: Tanınmış rəssam Lətifə Quluzadənin bütün əsərləri bu duyğunun məhsuludur... / E.Məsimli // Mədəni həyat.– 2014.– № 9.– S. 41-44.

"Nağıllardan süzülən rənglər"in işığında: / G.Mirməmməd // Mədəniyyət.– 2016.– 7 oktyabr.– S.7.

Kuklalara qırx il ömür vermiş dekorativ-tətbiqi sənət ustası / K.Vəliyeva // Mədəniyyət.– 2021.– 7 aprel.– S.6.

İnternetdə:

https://az.baku-art.com/az/bu-gun-emekdar-ressam-l-tif-quluzad-nin-dogum-g-n-d-r

Lətifə Nəsir qızı Quluzadə 29 avqust 1946-cı ildə Bakı şəhərində anadan olmuşdur. 189 saylı tam orta məktəbi bitirdikdən sonra 1964–1969-cu illərdə Azərbaycan Dövlət Teatr İnstitutunda dekorativ-tətbiqi sənət rəssamı ixtisasına yiyələnmişdir.

Rəssamın yaradıcılığının əsas hissəsi Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında (1976–2015) keçmişdir. Burada o, Telman Qarabağlının "Dudu, yol verin", Rada Moskovanın "Hara qaçırsan, dayça?", Yuri Oleşanın "Üç gombul", Reno Pilonun "Bizim evdə", Mirzə Cəlinin "Pırpız Sona", Bertolt Brextin "Kuraj ana və onun uşaqları", Aleksandr Ostrovskinin "Qar qız" və digər tamaşaların səhnə tərtibatını həyata keçirmişdir. Lətifə Quluzadə həmçinin Azərbaycan Akademik Milli Dram Teatrında Əli Əmirlinin "Ağqoyunlular və Qaraqoyunlular", Opera və Balet Teatrında Fikrət Əmirovun "Sevil" (geyim üzrə), Dövlət Rus Dram Teatrında G. Koktonun "Müqəddəs vəhşi", Gənc Tamaşaçılar Teatrında "Quyu", "Mağara", "Dəlinin qeydləri", Musiqili Komediya Teatrında "Məlikməmməd", "Bazar günü gəzinti" və digər səhnə əsərlərinə bədii tərtibat vermişdir.

Kukla teatrı sahəsində Lətifə Quluzadə ilk dəfə aktyorları tamaşaçılardan gizlədən pərdədən istifadə etməklə tamaşanın iştirakçı obrazlarını səhnəyə gətirmişdir. O, teatrda kuklaların hazırlanması prosesində rejissorla sıx əməkdaşlıq edərək hər bir obrazı xüsusi material və detal ilə yaradıb. 2000-ci ildən yenidən Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrına qayıdaraq baş rəssam vəzifəsini icra etmiş, Mirmehdi Seyidzadənin "Cırtdan", Tofiq Ağayevin "Qoçaq Əhməd", Aleksandr S. Puşkinin "Qızıl xoruz", Əyyub Abbasovun "Şəngülüm, Şüngülüm", Eldar Baxışın "Məlikməmməd", Nicat Kazımovun "Ələddin", Şarl Perronun "Qırmızı papaq", Hans Xristian Andersenin "Düyməcik" tamaşalarına səhnə tərtibatı hazırlamışdır.

Lətifə Quluzadə eyni zamanda Azərbaycan dekorativ-tətbiqi sənətinin müxtəlif janrlarında yüksək sənətkarlığı ilə fərqlənmişdir. 5 oktyabr 2016-cı ildə Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində onun "Nağıllardan süzülən rənglər" adlı fərdi sərgisi təşkil olunmuşdur. Burada sənətkarın əfsanəvi nağıl qəhrəmanlarına həsr etdiyi eskizlər nümayiş etdirilmişdir.

Rəssam Azərbaycan Rəssamlar İttifaqının (1975) və Azərbaycan Teatr Xadimləri İttifaqının (1978) üzvü olmuşdur.

Onun yaradıcılığı yüksək qiymətləndirilmiş, 2008-ci ildə Gənc Tamaşaçılar Teatrında tərtibat verdiyi "Pəri Cadu" tamaşasına görə "Zirvə" mükafatı ilə təltif edilmiş, 2011-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi mükafatına layiq görülmüş, 2013-cü ildə isə "Əməkdar rəssam" fəxri adına layiq bilinmişdir.

Lətifə Quluzadənin 7 əsəri Sumqayıt Dövlət Rəsm Qalereyasının kolleksiyasında qorunub saxlanılır.

Rəfiqə Axundova – 95

(1931-2024)

Baletmeyster



Rəfiqə Hacı qızı Axundova 7 avqust 1931-ci ildə Bakıda anadan olmuşdur. Rəqsə olan marağı onu Bakı Xoreoqrafiya Məktəbinə gətirmiş və 1950-ci ildə məktəbi yüksək qiymətlərlə bitirmişdir. Təhsilini tamamladıqdan sonra 1951–1952-ci illərdə Moskvada Böyük Teatrda təkmilləşmə kursu keçmişdir.

1951-ci ildən ömrünü Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına bağlayan R.Axundova 20 il solist kimi çalışmışdır. Teatrda əsas partiyalar ifa edərək Azərbaycan və dünya balet sənətinin müxtəlif nümunələrində geniş tamaşaçı rəğbəti qazanmışdır. Solist fəaliyyəti dövründə o, "Qız qalası" (Ə.Bədəlbəyli), "Yeddi gözəl", "İldırımlı yollarla" (Q.Qarayev), "Gülşən" (S.Hacıbəyov), "Məhəbbət əfsanəsi" (A.Məlikov), "Baxçasaray fontanı" (B.Asafyev), "Jizel" (A.Adan) və digər baletlərin əsas partiyalarını ifa etmişdir.

1971-ci ildən Azərbaycan Opera və Balet Teatrının baletmeysteri, 1990-cı ildən isə baş baletmeysteri vəzifəsində çalışmışdır. Rəfiqə Axundova həyat yoldaşı, baletmeyster Maqsud Məmmədovla birlikdə teatrda bir sıra baletlərin quruluşunu vermişdir. Bunlara "Xəzər balladası" (T. Bakıxanov, 1968), "Qobustan kölgələri" (F.Qarayev, 1969), "Yallı" və "Azərbaycan süitası" (R.Hacıyev, 1969), "İldırımlı yollarla" və "Yeddi gözəl" (Q.Qarayev, 1975–1978), "Babək" (A.Əlizadə, 1986), "Şelkunçik" (P.Çaykovski, 1988) daxildir.

Rəfiqə Axundova uzun müddət xaricdə, o cümlədən Əlcəzair, İsveç, Misir və Belçikada pedaqoq-baletmeyster fəaliyyətini davam etdirmişdir. Əlcəzairdə "Üç inqilab" (1973, R.Hacıyev və M.Məmmədovla birgə) baletini və "Muğam" musiqili xoreoqrafiya lövhəsini səhnələşdirmişdir. 1970-ci illərdə Novosibirskdə "İldırımlı yollarla", Qahirədə "Yeddi gözəl", Antverpendə isə "Kaleydoskop" baletlərini tamaşaya qoymuşdur. 1969-cu ildə Parisdə keçirilən VII Beynəlxalq Rəqs Festivalında onun iştirakı ilə "Xəzər balladası", "Qobustan kölgələri" və "Azərbaycan süitası" baletləri nümayiş etdirilmiş və Paris Rəqs Akademiyasının diplomuna layiq görülmüşdür. 1994-cü ildə "Yeddi gözəl" baleti Ankarada tamaşaya qoyulmuşdur.

Rəfiqə Axundova həmçinin milli kinomuzun tarixinə xoreoqrafik töhfələr vermişdir. Onun quruluş verdiyi filmlər arasında "Doğma xalqıma" (1954), "Abşeron ritmləri" (1970), "Dədə Qorqud" (1975), "Qərib cinlər diyarında" (1977), "Qayınana" (1978), "Yeddi gözəl" (1982), "Bəyin oğurlanması" (1985) və "Bir qəlbin iki dastanı" (2001) yer alır.

Azərbaycan baletinin inkişafındakı xidmətlərinə görə Rəfiqə Axundova 1958-ci ildə "Azərbaycan SSR əməkdar artisti", 1970-ci ildə "Azərbaycan SSR xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 1959-cu ildə "Şərəf nişanı" ordeni ilə təltif edilmiş, 2021-ci ildə Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur. 2002-ci ildən isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Rəfiqə Hacı qızı Axundova 6 fevral 2024-cü ildə Bakıda 92 yaşında vəfat etmiş, ikinci Fəxri Xiyabanda dəfn edilmişdir.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin sifarişi ilə "Dublyaj" studiyasında "Balet, ömrüm mənim" adlı sənədli film istehsal olunmuşdur. Filmin ssenarisi Raya Abbasova tərəfindən yazılmış, rejissoru isə Gülər Tokgözdür.

Ədəbiyyat:

Rəhimli, İ. Maqsud Məmmədov və Rəfiqə Axundova / İlham Rəhimli // Azərbaycan teatr tarixi: dərslik.– Bakı, 2005.– S.298-299.

"Balet – ömrüm mənim" sənədli filminə baxış // Mədəniyyət.– 2019.– 22 may.– S. 5.

Bayramova, Z. Milli mədəniyyətimizin inkişafına töhfə vermiş böyük sənətkar / Z.Bayramova // Səs.– 2021.– 11 avqust.– S.12.

"Babək" baleti növbəti dəfə səhnədə // Mədəniyyət.– 2023.– 18 yanvar.– S.2.

Nəcəfxanlı, Ə. Bir ulduz da söndü: Tanınmış baletmeyster, Xalq artisti Rəfiqə Axundova xatirələrə köçdü / Ə.Nəcəfxanlı // Xalq qəzeti.– 2024.– 7 fevral, № 26.– S.10.

İnternetdə:

https://az.wikipedia.org/wiki/R%C9%99fiq%C9%99_Axundova

https://az.baku-art.com/az/bu-gun-xalq-artisti-refiqe-axundovanin-anadan-olmas-n-n-93-ili-tamam-olur/

Elmira Rəhimova – 85

(1941)

Müğənni



Ədəbiyyat:

Nizamiqızı, H."Sən yadıma düşəndə": "Onun sənət taleyini nərdivanı saymaq olar. Bütün zamanlarda tamaşaçа sevgi və rəğbəti onu tərk etməyib" / H.Nizamiqızı // Mədəniyyət.– 2015.- 28 avqust.- S. 7.

Nəzərli, E.Elin "Mira"-sı... / E. Nəzərli // Qobustan:Sənət toplusu.-2016.- №1.- S.43-45.

"Qönçələrin eşqi, ülfəti sənsən..." / L.Azəri // Mədəniyyət.–2020.– 6 mart.– S.1;5.

Nərimanoğlu, M. "Sənət İlahəsi": Hindistanın ilk baş naziri Cəvahirlal Nehru Xalq artisti Elmira Rəhimovanı belə adlandırmışdı / Məhəmməd Nərimanoğlu // Azərbaycan.– 2021.– 13 avqust.– S. 6.

Azərbaycanın görkəmli qadın xanəndələri və müğənniləri: Monoqrafiya /G. Ə. Axundova; elmi red. Z. K. Abdullayeva; [ön söz M. T. Əliyeva]; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dövlət Pedaqoji Un-ti. - Bakı. - 240, [1] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Elmira_Rəhimova

Elmira Allahverdi qızı Rəhimova 13 avqust 1941-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1965-ci ildə Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumunu bitirmiş, burada Seyid Şuşinskidən dərs almışdır. 1970-ci illərdə Azərbaycan Dövlət Dillər İnstitutunda təhsilini davam etdirmişdir.

1955-ci ildən Müslüm Maqomayev adına Mahnı və Rəqs Ansamblının, 1956-cı ildən isə Azərbaycan Dövlət Filarmoniyasının və Azərbaycan Teleradio Verilişləri Şirkətinin solisti olmuşdur. Repertuarına Azərbaycan xalq mahnıları, təsniflər və bəstəkar mahnıları daxil olmuşdur.

1957-ci ildə Hindistanın Baş naziri C. Nehrunun dəvəti ilə Hindistana səfər etmiş, üç il ərzində klassik hind rəqs sənətini öyrənmiş və hind mahnılarını ifa etməyi mənimsəmişdir. 1961-ci ildə Hindistana ikinci səfəri baş tutmuşdur. Bu dövrdən sonra Elmira Rəhimova müxtəlif musiqi ansambllarında çıxışlarını davam etdirmişdir. Onun ifasında "Tələbəlik illəri", "Ana laylası", "Mən anayam", "Küsüb məndən" və "Sənin gülüşlərin" kimi mahnılar geniş populyarlıq qazanmışdır.

Elmira Rəhimova dünyanın 60-dən çox ölkəsində konsert proqramları ilə çıxış etmiş, 1982-ci ildə Hindistanda keçirilən festivalın laureatı olmuşdur. Müxtəlif dövrlərdə bir sıra medal və fəxri fərmanlarla təltif edilmişdir. 2002-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür.

Elmira Rəhimova Bakı Musiqi Akademiyasında uzun illər vokal tədrisi ilə məşğul olmuş, tələbələrini həm texniki, həm də musiqi etikası baxımından yetişdirmişdir. Onun yetirmələri Azərbaycan səhnəsində və beynəlxalq musiqi platformalarında fəaliyyət göstərirlər.

Azərbaycan musiqisinin inkişafındakı xidmətlərinə görə Elmira Rəhimova 1959-cu ildə "Əməkdə fərqlənməyə görə" medalı, 1967-ci ildə Azərbaycan SSR əməkdar artisti, 1979-cu ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmiş, 2000-ci ildə Azərbaycan Respublikasının Xalq artisti fəxri adına layiq görülmüş və 2002-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür.

Rəhimovanın repertuarına Azərbaycan bəstəkarlarının əsərləri, xalq mahnıları, təsniflər və dünya klassiklərinin romansları daxil olmuşdur. Klassik vokal texnikasını və Azərbaycan musiqisinin ənənələrini birləşdirərək ifaçılıq məktəbi yaratmışdır.

Elmira Rəhimova Azərbaycan vokal sənətinin inkişafında mühüm rol oynamış, həm ifaçı, həm də pedaqoq kimi fəaliyyət göstərmişdir. Onun səhnə fəaliyyəti, repertuarı və pedaqoji fəaliyyəti Azərbaycan musiqi tarixində əhəmiyyətli yer tutur.

Xan Şuşinski – 125

(1901-1979)

Xanəndə



İsfəndiyar Aslan oğlu Cavanşirov (Xan Şuşinski) 20 avqust 1901-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Ailəsi Qarabağ xanları nəsli ilə qohumluq əlaqəsinə malik idi.

16 yaşında olarkən ustadı İslam Abdullayevlə birgə iştirak etdiyi məclisdə "Kürdü Şahnaz" muğamını heyrətamiz bir tərzdə ifa etdiyinə görə müəllimi ona "Xan Şuşinski" adını vermişdir. Xan Şuşinskinin sənətə inkişafında Cabbar Qaryağdıoğlu və Seyid Şuşinskinin də böyük təsiri olmuşdur.

1920-ci illərdə Xan Şuşinski Bakıya gələrək ifaçılıq fəaliyyətini genişləndirmiş və həmin il bolşevik təşviqat briqadası ilə birlikdə Qarabağa konsertlər vermişdir. Onun repertuarına "Mahur-Hindi", "Bayatı-Qacar", "Qatar" dəsgahları, "Qarabağ şikəstəsi", "Arazbarı", "Heyratı" zərbi muğamları, həmçinin xalq mahnıları və təsniflər daxil idi. Xan Şuşinski xalq mahnılarını xüsusi bir şövqlə ifa edərək onlara yeni çalarlar aşılayırdı.

Bakıya gəldikdən sonra ilk rəsmi çıxışını 1923-cü ildə Azərbaycan Dövlət Filarmoniyasında həyata keçirmişdir. Daha sonra böyük məşhurluğa nail olmuş, bir çox ölkələrdə və şəhərlərdə gərgin qastrol fəaliyyətini davam etdirmişdir. O, həmçinin Səməd Vurğunun "Azərbaycan" poemasında qeyd olunmuşdur.

1934-cü ildə Xan Şuşinski Tiflis şəhərində keçirilən Zaqafqaziya xalqlarının birinci incəsənət olimpiadasında birinci mükafata layiq görülmüşdür. 1944-cü ildə isə Azərbaycanın incəsənət nümayəndələri ilə birlikdə İrana getmiş, Tehran, Təbriz, Ərdəbil, Qəzvin və Rəşt şəhərlərində çıxışlar etmişdir.

1960-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının nəznində "Muğam studiyası" yaratmış və burada gənc xanəndələrə muğamın sirrlərini öyrətmişdir. O, həmçinin Azərbaycan Dövlət Musiqi Məktəbində (Asəf Zeynallı adına Musiqi Məktəbi) dərs demiş, muğam ifaçılarının yeni nəslini yetişdirmişdir. Xan Şuşinski milli musiqi xəzinəsini zənginləşdirərək bir sıra muğamlara yeni xallar, guşə və şöbələr əlavə etmişdir. Onun bəstələdiyi "Qəmərim" və "Şuşanın dağları" mahnıları geniş yayılmışdır.

Xan Şuşinski bəstəkar mahnılarına da müraciət etmiş, Üzeyir Hacıbəyovun "Qara göz" mahnısının ilk ifaçısı olmuşdur.

Xan Şuşinskinin səsləndirdiyi muğamlar və xalq mahnıları arasında "Mirzə Hüseyn segahı", "Şahnaz", "Qarabağ şikəstəsi", "Kürdü-Şahnaz", "Rast", "Bayatı-Şiraz", "Qatar", "Cahargah", "Mahur", "Heyratı", "Şur", "Segah Zabul" muğamları, eləcə də "Qara qaşın vəsməsi", "Süsən-sünbül", "Alma almaya bənzər", "Girdim yarın bağçasına", "Apardı sellər Saranı" kimi xalq mahnıları musiqi fonotekasının qızıl fonduna daxil edilmişdir.

1939-cu ildən etibarən Xan Şuşinski Bakıda yaşamış və qırx ilə yaxın Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuşdur. Onun səsindən 240 dəqiqəlik lent yazısı saxlanmışdır.

Xan Şuşinski "Azərbaycan SSR Xalq Artisti" (17 iyun 1943), "Şərəf Nişanı" ordeni (9 iyun 1959), "Vladimir İliç Leninin 100 illiyi" yubiley medalı və Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı (29 dekabr 1971) ilə təltif olunmuşdur.

Xan Şuşinski 18 mart 1979-cu ildə vəfat etmiş və İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Onun adına fəaliyyət göstərən "Xan Şuşinski Fondu" musiqi irsinin qorunmasına xidmət edir. 2013-cü il aprelin 29-da Beynəlxalq Muğam Mərkəzində Xan Şuşinskinin virtual muzeyi və memorial saytı təqdim edilmişdir. Anadan olmasının 120 illiyi münasibətilə 2021-ci ildə Azərbaycan Milli Kitabxanası tərəfindən "Xan Şuşinski: Biblioqrafiya" kitabı çap olunmuş və "Xan Şuşinski – 120" adlı virtual sərgi təşkil edilmişdir.

Ədəbiyyat:

Xan Şuşinskinin ata evi: Ballıcadakı bu mülkü də erməni vandalları bərbad hala salıblar / M.Rəsuloğlu // Xalq qəzeti.– 2025.– 19 fevral (№ 37).– S.15.

Muğam sənətimizin Xanı...: İsfəndiyar Cavanşirovun doğum günüdür / Y. Bayramova // Yeni Azərbaycan.– 2024.– 20 avqust, №149.– S.8.

Muğamlarımızın Xanı Xan Şuşinski / R.Yaqubqız // Respublika.– 2023.– 20 avqust.– S.5.

Xan Şuşinski: Qarabağın görkəmli simaları // İqtisadiyyat.– 2022.– 10-16 mart.– S.6.

Muğamları ilə qəlblərdə yaşayacaq böyük sənətkar - Xan Şuşinski: Bu gün Xan Şuşinskinin anım günüdür // Hərbi And.– 2021.– 23 aprel.– S.22.

Xan əmi belə oxuyardı...: O, Cabbar Qaryağdıoğlunun imtahanından necə çıxıb? / T.Məhərrəmova // Kaspi.– 2020.– 18 mart.– S.15.

İnternetdə:


https://portal.azertag.az/az/node/1051

https://edebiyyat-veincesenet.az/musiqi/item/327-bu-z-hun-khan-shushinskinin-anadan-ol

Nazim Əliverdibəyov – 100

(1926-1985)

Bəstəkar



Ədəbiyyat:

İki romans və mahnı: səs və fortepiano üçün / N. Əliverdibəyov; H. Cavid.– Bakı: 1982.– 13 s.

Əliverdibəyov Nazim Ağalar oğlu // Muğam ensiklopediyası; Heydər Əliyev fondu.– Bakı, 2008.– S.64.

Abdullayeva, M. Nazim Əliverdibəyov / M. Abdullayeva; Azərb Resp. Mədəniyyət və Turizm Nazirliyi.– Bakı: Renessans-A, 2016.–23, [1] s.

Bəstəkar Nazim Əliverdibəyovun yubiley gecəsi // Mədəniyyət.– 2017.– 25 yanvar.– S.2.

Azərbaycan bəstəkarlarının kamera ansamblı əsərlərinin ifaçılıq xüsusiyyətləri: Dərs vəsaiti / X. Əhmədova; elmi red. N. Abbaszadə; Azərb. Resp. Təhsil Nazirliyi, Üzeyir Hacıbəyli ad. Bakı Musiqi Akademiyası.– Bakı: [Mütərcim], 2021.– 141, [2] s., [2] v.

Pyeslər: Fleyta və fortepiano üçün / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası; layihə. rəhb. K. Tahirov; tərt. ed. M. İbrahimov; red. S. Fərəcov; [fleyta və fortepiano üçün köçürəni Ə. İsgəndərov].– Bakı: [Azərbaycan Milli Kitabxanası], 2022.– 38, [2] s.

Nazim Ağalar oğlu Əliverdibəyov 1926-cı il avqustun 24-də Kislovodsk şəhərində anadan olmuşdur. Ailəsi ilə Bakıya köçdükdən sonra musiqi təhsilinə Bakı Musiqi Texnikumunda başlamış, 1938–1944-cü illərdə burada oxumuşdur. Daha sonra onillik musiqi məktəbində (indiki Bülbül adına Orta-ixtisas Musiqi Məktəbi) V.Anşeleviçin violonçel sinfində təhsil almış, buraxılış imtahanında özünün bəstələdiyi pyesi ifa etməsi onun ilk yaradıcı uğurlarından biri olmuşdur.

Təhsilini Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsində davam etdirən Nazim Əliverdibəyov 1952-ci ildə professor Cövdət Hacıyevin sinfini bitirmişdir. Bəstəkar yaradıcılıq fəaliyyətində geniş janr diapazonu ilə seçilmişdir. O, "Cırtdan" nağıl-operasını, "Nazxanım naz edir" musiqili komediyasını, "Muğan" xoreoqrafik lövhələrini, iki balet süitasını, "Mingəçevir" simfonik poemasını, eləcə də xalq çalğı alətləri orkestri üçün "İçərişəhər" musiqi lövhələrini yazmışdır. Bununla yanaşı, A. Puşkinin sözlərinə "Çiçək" romanını, Hüseyn Cavidin poeziyasına yazılmış romanslar silsiləsini, müxtəlif kamera-instrumental və xor əsərlərini, habelə teatr tamaşalarına və kinofilmlərə bəstələnmiş musiqiləri yaratmışdır. Onun "Bayatı-Şiraz" muğamını akapella xor üçün işləməsi milli musiqi irsinin yenilikçi yanaşma ilə təqdim edilməsinin diqqətəlayiq nümunəsi kimi qiymətləndirilir.

Nazim Əliverdibəyov Azərbaycan musiqi klassiklərinin irsinin elmi-nəzəri işlənməsi sahəsində də mühüm fəaliyyət göstərmişdir. O, Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" və "Əsli və Kərəm" operalarının klavir və partituralarını yenidən redaktə etmiş, bu operalar hazırda Azərbaycan Dövlət Opera və Balet Teatrında məhz onun redaksiyası ilə səhnəyə qoyulur.

Pedaqoji fəaliyyəti də onun yaradıcılıq irsinin mühüm hissəsini təşkil edir. 1951-ci ildən Bülbül adına Orta-ixtisas Musiqi Məktəbində müəllim kimi çalışmış, 1964–1985-ci illərdə isə bu məktəbə rəhbərlik edərək musiqi təhsilinin təşkilində əhəmiyyətli rol oynamışdır. 1960-cı ildən Azərbaycan Dövlət Konservatoriyasında "Azərbaycan xalq musiqisinin əsasları" fənnini tədris etmişdir. Bəstəkar 1956-cı ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olmuş və ölkənin musiqi həyatında fəal iştirak etmişdir.

Yaradıcılığının simfonik sahəsi də məhsuldardır. O, simli kvartet (1950), "Qəhrəmanlıq" uvertürası (1951), simfonik orkestr üçün balet süitası (1956), "Rəqs suitası" (1978), violonçel ansamblı və simfonik orkestr üçün "Skertso" və "Vals" kimi əsərləri ilə seçilir. Bəstəkar həmçinin "Göllərin tacı" (1966), "Mənim Xəzərim" (1970), "Gilas ağacı" (1972), "Bizim küçənin oğlanları" (1973), "Çarvadarların izi ilə" (1974), "Vulkana doğru" (1977), "Üzeyir ömrü" (1981), "Münəccimin şagirdi" (1983) və "Yaxşı qurtardıq" (1985) kimi filmlər üçün musiqilər bəstələmişdir.

Nazim Ağalar oğlu Əliverdibəyov 1985-ci il fevralın 17-də Bakıda vəfat etmişdir.

O, həm bəstəkar, həm musiqi redaktoru, həm də pedaqoq kimi Azərbaycan professional musiqi mədəniyyətinin inkişafında mühüm iz buraxmış, çoxşaxəli yaradıcılığı ilə XX əsr Azərbaycan musiqi tarixinin görkəmli simalarından birinə çevrilmişdir.

Ağadadaş Ağayev – 70

(1956)

Müğənni



Ağadadaş Həmid oğlu Ağayev 1956-cı il avqustun 25-də Cəlilabad rayonunun Hasıllı kəndində anadan olmuşdur. O, 1972–1977-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda ali təhsil almış, daha sonra 1977–1983-cü illərdə doğulduğu kəndin orta məktəbində müəllim kimi çalışmışdır.

Musiqi fəaliyyətinə 1980-ci illərin əvvəlində başlayan Ağadadaş Ağayev 1981-ci ildə ilk dəfə ifalarını audio-kaset şəklində yayımlamış və həmin il keçirilən "İstedadlar axtarırıq" müsabiqəsinin qalibi olmuşdur. Bu uğur onun peşəkar səhnəyə gəlişində mühüm mərhələ hesab edilir. 1983-cü ildə Azərbaycan Dövlət Filarmoniyasında ilk solo konsertini təqdim etmiş, 1984-cü ildən isə Filarmoniyanın nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının solisti kimi çalışmışdır. 1988-ci ildən etibarən Azərbaycan Televiziyasının solisti kimi çıxış edən sənətkar milli estrada vokal məktəbinin formalaşmasında xidmətləri ilə seçilir.

Ağadadaş Ağayev 1994-cü ildə Azərbaycan Dövlət İncəsənət Universitetinin mədəni-maarif fakültəsini bitirmişdir. Peşəkar ifaçı kimi fəaliyyəti ərzində estrada janrında geniş repertuar yaratmış, "Pərişanım", "Sən oldun", "Gecdir daha", "Könlüm qəmin eylər", "Sənsiz keçən ömür", "Dodağına gülüş qonub", "Sevirəm de" kimi mahnıları ilə geniş dinləyici auditoriyası qazanmışdır.

Onun ifaçılıq yaradıcılığı televiziya, radio və konsert meydanlarında müntəzəm təqdim olunmuş, bəstəkar və vokalçı kimi fəaliyyəti milli musiqi mədəniyyətində estrada sənətinin inkişafına töhfə vermişdir. Sənətkar həmçinin Azərbaycan kino sahəsi ilə də əməkdaşlıq etmiş, "Yerlə göy arasında" (1999) və "Tənha durna uçuşu" (2003) bədii filmlərində rol almışdır.

Ağadadaş Ağayevin sənət fəaliyyətinə dövlət tərəfindən yüksək qiymət verilmişdir. O, 1998-ci ildə "Əməkdar artist", 2006-cı ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

2012-ci ildə Yeni Azərbaycan Partiyasının üzvü olmuşdur.

Ağadadaş Ağayev müasir Azərbaycan estrada ifaçılığı tarixində özünəməxsus üsluba malik vokal sənətkarı kimi tanınır və çoxillik ifaçılıq fəaliyyəti ilə milli mədəniyyət mühitində mühüm yer tutur.

Ədəbiyyat:

Oxuyur Ağadadaş Ağayev: Müşayiət edir: instrumental ansambl: Proqramda: muğam, mahnı, təsniflər / M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası.– Bakı: [n. y.], 1987.– 1 v.

Oxuyur Ağadadaş Ağayev: müşayiət edir: instrumental ansambl / M. Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası.– Bakı: [n. y.], 1988.– 1 v.

"Populyarlıq sarıdan mənim qədər şanslı sənətçi olmayıb": Xalq artisti Ağadadaş Ağayev: "Çox təəssüf ki, bu sualı mənə verdiniz /A.Ağayev: müsahibəni apardı Aytac Sahəd // 525-ci qəzet.– 2024.– 18 may,№87.– S.12.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Ağadadaş_Ağayev

https://metbuat.az/melumat/taninmis/4/agadadas-agayev.html

İsmayıl Hidayətzadə – 125

(1901-1951) Rejissor, aktyor



İsmayıl Hüseyn oğlu Hidayətzadə 1901-ci il 19 avqustda Bakıda anadan olmuşdur. İlk təhsilini 1909-cu ildən "İttihad" məktəbində almış, burada keçirdiyi illər gələcək sənət istiqamətinin formalaşmasında həlledici rol oynamışdır.

1919-cu ilin payızında müxtəlif teatr truppalarının birləşməsi ilə yaradılan Dövlət Teatrının kollektivinə daxil olmuş, burada aktyor kimi fəaliyyət göstərmişdir. 1920-ci ildən etibarən peşəkar səhnə fəaliyyəti genişlənmiş, 1921-ci ildə daxil olduğu Voronovun teatr studiyasında aktyorluq texnikasına dair təlim keçmişdir.

Hidayətzadə eyni zamanda rejissorluq sənətinə maraq göstərmiş, Azərbaycan teatrında çalışan rus rejissoru İvanovun yanında müavin kimi çalışmışdır. 1926-cı ildən etibarən səhnə quruluşu sahəsində ilk cəhdlərini etmiş və bu sahədə bacarığını təsdiqləmişdir. 1934-cü ildə Mirzə Rza Vaizzadənin "Siyavuş" əsərinin tamaşaya qoyulması ona həvalə edilmiş və tamaşa teatr ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilmişdir.

1937-ci ilə qədər Azərbaycan Dövlət Dram Teatrında aktyor və rejissor kimi fəaliyyət göstərən sənətkar daha sonra Üzeyir Hacıbəylinin "Koroğlu" operasının məşqlərinə cəlb olunmuş, bunun ardınca Azərbaycan Dövlət Opera və Balet Teatrına rejissor kimi dəvət edilmişdir. Qısa müddət sonra həmin teatrın baş rejissoru təyin edilmişdir. O, Opera və Balet Teatrında "Koroğlu" və "Karmen" operalarına, Rus Dram Teatrında isə "1905-ci ildə" və "Vaqif" tamaşalarına quruluş vermişdir.

1938-ci ildə Moskvada təşkil olunan Azərbaycan mədəniyyəti günlərində İsmayıl Hidayətzadənin quruluş verdiyi "Koroğlu" və "Arşın mal alan" əsərləri böyük uğur qazanmış, bu uğur onun sənət nüfuzunu daha da artırmışdır. Moskvadan qayıtdıqdan sonra Opera və Balet Teatrının rəhbəri vəzifəsinə təyin edilmiş, bu qurumda səhnə mədəniyyətinin inkişaf etdirilməsinə mühüm töhfələr vermişdir.

İsmayıl Hidayətzadənin aktyorluq yaradıcılığı geniş tematik diapazonu əhatə edirdi. "Almaz"da Şərif, "1905-ci ildə"-də Mazandaranski, "Oqtay Eloğlu"nda Əmiraslan bəy, "Dönüş"də Xosməmməd, "Lyubov Yarovaya"da Şvandiya, "Günahsız müqəssirlər"də Şmaqa, "Hacı Qara"da Hacı Qara, Hüseyn Cavidin "Topal Teymur" və "Knyaz" əsərlərində Cücə və Şakro, "Ölülər"də Şeyx Nəsrulla və digər rolları sənətkarın yaradıcılıq palitrasının genişliyini göstərir. O, psixoloji gərginlik tələb edən rollarda incə mimika və "gözlə oynamaq" texnikası ilə seçilmişdir ki, bu da Stanislavski məktəbinin tələbləri ilə səsləşirdi.

Hidayətzadə həmçinin Azərbaycan balet sənətinin inkişafında da mühüm rol oynamış, ilk milli balet hesab edilən "Qız qalası"nın librettosunu yazmışdır.

O, "Qız qalası əfsanəsi" (1923), "Bismillah" (1925), "Altıncı hiss" (1935) və "Almaz" (1936) bədii filmlərində çəkilmişdir.

Yaradıcılıq xidmətlərinə görə sənətkar 1933-cü ildə Əməkdar artist, 1938-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüş, həmçinin "Qırmızı Əmək Bayrağı" (1938) və "Şərəf nişanı" (1946) ordenləri ilə təltif edilmişdir.

İsmayıl Hidayətzadə 11 noyabr 1951-ci ildə Bakıda vəfat etmişdir.

Onun xatirəsi Azərbaycan teatr və mədəniyyət tarixində mühüm yer tutur, Bakı küçələrindən biri onun adını daşıyır.

Ədəbiyyat:

Nərimanoğlu, M. Ömür və sənət yolu: özfəaliyyətdən peşəkarlığadək: Tarix xadimlərimiz / Məhəməd Nərimanoğlu // Azərbaycan.– 2021.– 16 sentyabr.– S. 7.

Fərəcov, S. Sənətə həsr olunan ömür: / S.Fərəcov // Mədəniyyət.– 2016.– 17 avqust.– S. 15.

"Balaca Ərəblinski" ləqəbli böyük sənətkar: "Koroğlu" operasının ilk rejissoru // Azadlıq.-2013.- 13-14 yanvar.- S.14.

Xəlilzadə, F. "Balaca Ərəblinski"nin böyük arzuları: Sənət dünyası / F.Xəlilzadə // Azərbaycan.– 2011.– 19 avqust.– S.5.

Mükərrəmoğlu, M. O, sənətini həyatı qədər sevirdi: İsmayıl Hidayətzadə – 110 / Mehdi Mükərrəmoğlu // Xalq qəzeti.-2011.- 14 avqust.- S. 6.

Cəfərov, C. İsmayıl Hidayətzadə / C.Cəfərov; red. İ.Rəhimli.– Bakı: Çaşıoğlu, 2005.– 132 s.

İnternetdə:

https://www.anl.az/el/emb/TEATR/aktyorlar/ismayil_hidayetzade.htm

Hökumə Əliyeva – 35

(1991-2024)

Milli Qəhrəman



Ədəbiyyat:

Göylərə meydan oxuyanların yerdəki qisməti / R.Yaqubqızı // Respublika.– 2024.– 27 dekabr (№ 287).– S.7.

Fərəcova, Z. Sonadək peşəkarlıq, təmkin və qəhrəmanlıq / Z.Fərəcova // Azərbaycan.– 2024.– 27 dekabr (№ 287).– S.3.

Musayeva, Y. Son ümid, son nəfəs, son uçuş...: Vəzifə borclarını şərəflə yerinə yetirərək onlarla sərnişinə yaşam şansı verən üç qəhrəman əbədiyyət səmasına uçdu / Y.Musayeva // Azərbaycan.– 2024.– 28 dekabr (№ 288).– S.16.

Haşimi, M.M. "Sakit olun, hər şey yaxşı olacaq!": AZAL şirkətinin cəsur əməkdaşı - Azərbaycanın Milli Qəhrəmanı Hökümə xanım Əliyevanın əziz xatirəsinə / M.M.Haşimi // 525-ci qəzet.– 2025.– 7 yanvar(№1).– S.16.

Bəşirqızı, Z. Təyyarə qəzasının unudulmaz epizoduz: Hökumə dayanmadan təkrarlayırdı: "Hər şey yaxşı olacaq" / Z.Bəşirqızı // Xalq qəzeti.– 2025.– 10 yanvar (№ 04).– S.11.

İnternetdə:

http://milliqahramanlar.az/heroes/219

https://modern.az/az/news/500588/

Hökumə Cəlil qızı Əliyeva 1991-ci il 8 avqust tarixində Kəlbəcər rayonunda anadan olmuşdur. 1993-cü ildə doğulduğu kəndin işğalı nəticəsində ailəsi məcburi köçkün düşərək Bərdə rayonunun Qaradəmirçi kəndində məskunlaşmış, 1996-cı ildə isə Rusiya Federasiyasının Volqoqrad vilayətinə köçmüşdür. O, burada şəhərin orta məktəbində ibtidai və ümumi təhsilin bir hissəsini almış, daha sonra ailənin Azərbaycana qayıtması ilə təhsilini Gəncə şəhərində davam etdirmişdir. Gəncə şəhərindəki V.Veysəlov adına 30 nömrəli tam orta məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olunmuşdur.

Hökumə Əliyeva hüquq üzrə ali təhsilini magistratura və doktorantura səviyyələrində davam etdirmiş, elmi hazırlıq prosesində müasir hüquq sahələri üzrə ixtisaslaşmışdır. 2016-cı ildən etibarən Azərbaycan Hava Yollarında əmək fəaliyyətinə başlamış, əvvəlcə tərcüməçi, daha sonra isə stüardessa kimi çalışmışdır.

2024-cü il 25 dekabr tarixində Azərbaycan Hava Yollarına məxsus "Embraer 190" tipli sərnişin təyyarəsinin Bakı–Qroznı reysi zamanı Qazaxıstanın Aktau şəhəri yaxınlığında baş vermiş aviasiya qəzasında Hökumə Əliyeva xidmət başında həlak olmuşdur. Qəza zamanı təyyarədə 62 sərnişin və 5 ekipaj üzvü olmuş, 38 nəfər həlak olmuşdur. Əliyeva ekipaj üzvü kimi fövqəladə vəziyyətin son anlarınadək sərnişinlərin təhlükəsizliyinin təmin edilməsi üçün təlimatlandırma aparmış və xidmət vəzifələrini yüksək peşəkarlıqla yerinə yetirmişdir. O, 29 dekabr 2024-cü ildə II Fəxri xiyabanda dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən, Hökumə Cəlil qızı Əliyeva aviasiya qəzası zamanı göstərdiyi yüksək peşəkarlıq, fədakarlıq və şücaətə görə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına və "Qızıl Ulduz" medalına layiq görülmüşdür.

Onun xatirəsinin əbədiləşdirilməsi məqsədilə 2025-ci ildə rejissor Ziya Şıxlinski tərəfindən Hökumə Əliyevanın həyatına həsr olunmuş "Hökumə — kədərim mənim" adlı qısametrajlı sənədli film çəkilmişdir. Əmək fəaliyyətinə dair şəxsi əşyaları Milli Azərbaycan Tarix Muzeyinə təqdim edilmiş, 2025-ci ilin avqust ayından etibarən ailəsinin yaşadığı ünvanda təşkil olunan ev-muzeyində digər materiallar nümayiş etdirilməyə başlanmışdır.

Hökumə Əliyevanın adı həmçinin beynəlxalq miqyasda da anılmışdır. Polşada onun adına təqaüd proqramı təsis edilmiş, Qazaxıstanda istehsal olunan zirehli hərbi ambulansa onun adı verilmişdir.

Hökumə Əliyevanın həyatı və fəaliyyəti müasir Azərbaycan cəmiyyətində vətəndaş fədakarlığının, peşə borcuna sədaqətin və humanizm prinsiplərinin nümunəsi kimi dəyərləndirilir.

Emin Quliyev – 50

(1976-1995)

Milli Qəhrəman



Emin Ələkbər oğlu Quliyev 12 avqust 1976-cı ildə Bakının Qaradağ rayonunun Sahil qəsəbəsində anadan olmuşdur. O, 1983-cü ildə 228 nömrəli məktəbdə təhsil almağa başlamış, daha sonra 273 nömrəli məktəbdə təhsilini davam etdirərək 1993-cü ildə orta məktəbi bitirmişdir. 25 avqust 1994-cü ildə Qaradağ Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmış, Yalamada təlim keçdikdən sonra 776 saylı hərbi hissəyə göndərilmişdir. Fiziki hazırlığı və nizam-intizamı ilə seçilən Emin Quliyev idmanın bir neçə növü ilə məşğul olur və bu bacarıqları xidmət zamanı ona verilən tapşırıqların yerinə yetirilməsində mühüm rol oynayırdı.

1995-ci ilin əvvəlində xidmət etdiyi batalyonun əsgərləri ilə birlikdə Şubanı istiqamətinə ezam edilmişdir. Həmin dövrdə ölkədə siyasi sabitliyin pozulmuş, dövlət çevrilişi cəhdləri kəskinləşmişdir. 13–17 mart 1995-ci il hadisələri zamanı qanunsuz silahlı dəstənin zərərsizləşdirilməsi üzrə aparılan əməliyyatlara Milli Ordunun qüvvələri cəlb olunmuşdur. Bu əməliyyatlarda Emin Quliyev fəal iştirak etmiş, yaralıların döyüş meydanından çıxarılması və qarşıdurmanın lokallaşdırılması prosesində xüsusi cəsarət nümayiş etdirmişdir. Silahlı toqquşma zamanı aldığı güllə yarası nəticəsində şəhid olmuşdur. Emin Quliyev doğulduğu Sahil qəsəbəsinin Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Emin Ələkbər oğlu Quliyev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Şəhidin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Qaradağ rayonunun Sahil qəsəbəsində yerləşən 14 nömrəli xüsusi internat məktəbi, eləcə də həmin qəsəbədəki bir küçə və park onun adı ilə adlandırılmışdır.

Ədəbiyyat:

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Quliyev Emin Ələkbər oğlu-Müdafiə Nazirliyi, sıravi - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il // Azərbaycan.– 1995.– 5 aprel.– S.1.– (Ölümündən sonra).

Quliyev Emin Ələkbər oğlu // Azərbaycanın Milli Qəhrəmanları / tərt. ed. H.Həmidova; M.F.Axundov adına Milli Kitabxana. – Bakı, 2008. – S.121-122

Seyidzadə, M. Quliyev Emin Ələkbər oğlu / M.Seyidzadə // Milli Qəhrəmanlar zirvəsi. – Bakı, 2010. – S.126.

Emin Quliyev / M.Mirzə // Respublika.– 2022.– 12 avqust.– S.4.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Emin_Quliyev_(hərbçi)

https://avciya.az/quliyev-emin-ələkbər-oglu/

İsgəndər Aznaurov – 70

(1956-1993) *Milli Qəhrəman*



İsgəndər Söhrab oğlu Aznaurov 16 avqust 1956-cı ildə Özbəkistan Respublikasının Buxara vilayətində anadan olmuşdur. O, 1963–1973-cü illərdə orta məktəbdə təhsil almış, daha sonra əmək fəaliyyətinə başlamışdır. 1975-ci ildə Akkurqan Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmış, 1977-ci ildə ordudan tərxis olunmuşdur.

1978-ci ildə Daşkənd İrriqasiya İnstitutuna daxil olmuş, 1983-cü ildə ali təhsilini başa vuraraq təyinatla Daşkənd vilayətinin Axanqaran rayonundakı Qalyakudur sovxozunda əmək fəaliyyətini davam etdirmişdir. 1990-cı ildə ailəsi ilə birlikdə Azərbaycanın Şəmkir rayonunun Kür qəsəbəsinə köçmüş və burada cihazqayırma zavodunda çalışmışdır.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü onu dərin narahat etmiş, 21 aprel 1992-ci ildə könüllü olaraq Milli Ordu sıralarına daxil olmuşdur. O, 861 saylı hərbi hissədə artilleriya üzrə komandir müavini vəzifəsinə təyin edilmişdir. Baş leytenant Aznaurov Gədəbəy rayonunun Şınıx istiqamətində aparılan döyüş əməliyyatlarında peşəkar hərbçi kimi fəallıq göstərmiş, düşmənin bir sıra mühüm hərbi mövqelərinin və texnikasının məhv edilməsində iştirak etmişdir. Ağır döyüşlərdən birində düşmənin dörd artilleriya qurğusunu sıradan çıxarmış, həmin qurğularla erməni silahlı birləşmələrinə zərbələr endirilmişdir. Onun rəhbərliyi altında aparılan döyüş əməliyyatları zamanı sərrast artilleriya atəşləri düşmən mövqelərinə, o cümlədən silah-sursat anbarlarına ciddi ziyan vurmuşdur.

İsgəndər Aznaurov 18 aprel 1993-cü ildə baş vermiş döyüş əməliyyatları zamanı həlak olmuşdur. O, Bakıda Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə baş leytenant İsgəndər Söhrab oğlu Aznaurov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Onun adı Şınıx bölgəsində "İsgəndər qalası" toponimində yaşayır. Şəmkir rayonunun Kür qəsəbəsində yerləşən 1 nömrəli məktəb qəhrəmanın adını daşıyır və məktəbin girişində onun büstü ucaldılmışdır. Həmçinin 2 nömrəli orta məktəbdə İsgəndər Aznaurovun xatirəsinə "Xatirə guşəsi" yaradılmışdır.

Ədəbiyyat:

"Onun ermənini necə öldürdüyünü eşidəndə..."-Milli Qəhrəmanın xanımı danışır // Türküstan.– 2020.– 8-14 sentyabr.– S.18.

Milli Qəhrəman topçu İskəndərin 65 illik yubileyi qeyd edilib // Azərbaycan ordusu.– 2021.– 21 avqust.– S.4;5.

İskəndər Aznaurov: Qürurla anırıq / Q.Aslan // Respublika.– 2022.– 16 avqust.– S.5.

Şəmkirdə Milli Qəhrəmanın xatirəsi anılıb / S.Əliyev // Azərbaycan.– 2024.– 30 aprel, № 87.– S.11.

"İsgəndər qalası"nda əbədiləşmiş qəhrəmanlıq zirvəsi: Tarix yazan oğullar / G.Aznaurova; V.Məhərrəmov // Azərbaycan.– 2025.– 19 aprel (№77).– S.10.

İnternetdə:

https://anl.az/el/emb/MILLI_QEHREMANLAR/qehremanlarimiz/Aznaurov_Isgender.pdf

Eldar Xəlilov – 50

(1976-1995) *Milli Qəhrəman*



Eldar Xəlil oğlu Xəlilov 19 avqust 1976-cı ildə Qərbi Azərbaycanın Zəngibasar rayonunun Zəngilər kəndində anadan olmuşdur. O, 1983-cü ildə burada məktəbə başlamış və altıncı sinfə qədər təhsilini doğma kəndində davam etdirmişdir. 1988-ci ildə bölgədə yaşayan yüz minlərlə azərbaycanlı ilə yanaşı onun ailəsi də öz yurd-yuvasından zorla çıxarılmış və Bakı şəhərinin Bakıxanov qəsəbəsində məskunlaşmışdır. Eldar Xəlilov burada 96 və 252 nömrəli orta məktəblərdə təhsil almış, daha sonra Bakıdakı 10 nömrəli texniki-peşə məktəbini bitirmişdir.

29 sentyabr 1994-cü ildə Sabunçu Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılmışdır. 17 mart 1995-ci il hadisələri zamanı Eldar Xəlilov dövlət çevrilişinə cəhdin qarşısının alınmasında iştirak etmiş, qarşıdurma şəraitində əsgər məsuliyyətini və şəxsi cəsarətini nümayiş etdirmişdir. Daxili silahlı dəstənin zərərsizləşdirilməsi üzrə aparılan əməliyyatlarda fəallıq göstərmiş, lakin həmin qarşıdurma zamanı şəhid olmuşdur. Eldar Xəlilov Bakı şəhərindəki II Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Eldar Xəlil oğlu Xəlilova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Onun xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıxanov qəsəbəsindəki küçələrdən birinə Eldar Xəlilovun adı verilmiş, 252 nömrəli məktəbdə xatirə guşəsi yaradılmış və qəsəbədə büstü ucaldılmışdır.

Ədəbiyyat:

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Xəlilov Eldar Xəlil oğlu -Müdafiə Nazirliyi, sıravi - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il // Azərbaycan.– 1995.– 5 aprel.– S.1.

Ənsər, B. Əbədiyyətə qovuşan Eldar / B.Ənsər // Ağrıdağlı qəhrəmanlar.– Bakı, 2004.– S.78-81.

Xəlilov Eldar Xəlil oğlu // Azərbaycanın Milli Qəhrəmanları / M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.– Bakı, 2008.–S.100-101.

Əsgərov, V. Xəlilov Eldar Xəlil oğlu / V. Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları. – Yenidən işlənmiş II nəşri.– Bakı, 2010.– S.132.

Eldar Xəlilov / M.Cəfərov // Respublika.– 2022.– 19 avqust.– S.6.

İnternetdə:

https://avciya.az/xəlilov-eldar-xəlil-oglu

https://anl.az/el/emb/MILLI_QEHREMANLAR/qehremanlarimiz/Xelilov_Eldar.pdf

Fazil Mehdiyev – 60

(1966-1991) *Milli Qəhrəman*



Fazil Umud oğlu Mehdiyev 20 avqust 1966-cı ildə Laçın rayonunun Ələkçi kəndində anadan olmuşdur. Ailəsi ilə birlikdə sonradan Ağdam rayonunun Abdal-Gülablı kəndinə köçmüş və orta təhsilini 1983-cü ildə həmin kənddə tamamlamışdır.

1984–1986-cı illərdə müddətli həqiqi hərbi xidmətdə olmuş, xidmətini Sverdlovsk şəhərində başa vurduqdan sonra Abdal-Gülablıya qayıtmışdır. Bir müddət əmək fəaliyyəti məqsədilə Rusiyada yaşamış, daha sonra Azərbaycana dönərək sürücülük ixtisasına yiyələnmiş və Abdal-Gülablıda yerləşən sanatoriyada sürücü vəzifəsində çalışmışdır.

Ermənistanın Azərbaycana qarşı başladığı silahlı təcavüz nəticəsində yaranmış hərbi-siyasi şərait Fazil Mehdiyevin mübarizəyə qoşulmasını şərtləndirmişdir. O, 1990-cı ildə Ağdam Rayon Daxili İşlər Şöbəsi nəzdində formalaşdırılmış polis batalyonuna daxil olaraq ən gərgin döyüş əməliyyatlarında iştirak etmişdir. 1991-ci ildə Ağdərə bölgəsinin Canyataq, Mehmanə, Qazançı və Sırxavənd kəndləri uğrunda gedən ağır döyüşlərdə göstərdiyi igidliyinə görə fərqlənmişdir. Qaradağlı kəndi istiqamətində aparılan əməliyyat zamanı o, ayağından ağır yaralanmışdır. Həmin ilin avqust ayında düşmənə məxsus "Niva" markalı avtomobili ələ keçirərək Ağdam Rayon Polis Şöbəsinə təhvil verməsi onun peşəkarlığının və fədakarlığının nümunələrindən biri olmuşdur.

1991-ci il sentyabrın 23-dən 24-nə keçən gecə erməni silahlı qüvvələrinin Abdal-Gülablı kəndinə hücumu zamanı Fazil Mehdiyev köməyə gələn qüvvələrin tərkibində döyüş bölgəsinə yollanmışdır. O, Ağdamdan kəndə gedən yolda yerləşdirilmiş pusquya düşmüş və Ağbulaq kəndi yaxınlığında düşmənin qəfil hücumuna məruz qalmışdır. Mehdiyev Fazil Umud oğlu bu döyüşdə qəhrəmancasına şəhid olmuşdur. O, Ağdam rayonunun Qarağacı qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli, 264 nömrəli Fərmanı ilə Fazil Umud oğlu Mehdiyev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Milli Qəhrəmanın xatirəsi əbədiləşdirilərək Bakının Nəsimi rayonunda Xətai prospektində büstü ucaldılmış, həmçinin Səbail rayonunda adına küçə verilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına Azərbaycanın Milli Qəhrəmanı adı verilməsi haqqında: Mehdiyev Fazil Umud oğlu polis nəfəri - [Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il // Azərbaycan.– 1992.– 9 oktyabr.– S.1.– (Ölümündən sonra).

Abbasoğlu, B. Gülablı qartalı / B.Abbasoğlu // Ölərkən dünyaya gələn oğullar.– Bakı, 2004.– S.199-212.

Mehdiyev Fazil Umud oğlu // Azərbaycanın Milli Qəhrəmanları / M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.– Bakı, 2008.– S.129-130.

Seyidzadə, M. Mehdiyev Fazil Umud oğlu / M.Seyidzadə // Milli Qəhrəmanlar zirvəsi.– Bakı, 2010.– S.101.

Fazil Mehdiyev / M.Mirzə // Respublika.– 2022.– 20 avqust.– S.7.

Xalq qəhrəmanının milli qəhrəman nəticəsi / Ə.Dostəli // Xalq qəzeti.– 2023.– 28 sentyabr.– S.12.

http://milliqahramanlar.az/heroes/78


AVQUST

1

Elvin Mikayılov - 40

(1986-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.29-34.

Elvin Nizami oğlu Mikayılov 1986-cı il avqust ayının 1-də Göyçay rayonunun Alpout kəndində anadan olmuşdur. Göyçay şəhər 7 nömrəli tam orta məktəbində təhsil almış, daha sonra Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialında "Riyaziyyat və informatika" ixtisası üzrə ali təhsil almışdır. Azərsun ASC-nin Göyçay filialının əməkdaşı olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Elvin Mikayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Talış kənd və Suqovuşan yaşayış məntəqəsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elvin Mikayılov oktyabrın 6-da Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 26 oktyabr 2020-ci ildə Göyçay rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Elvin Nizami oğlu Mikayılov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın" azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

2

İsa Abbasov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.18-21.

İsa Faiq oğlu Abbasov 1996-cı il avqust ayının 2-də Gəncə şəhərində anadan olmuşdur. 2003-2014-cü illərdə Gəncə şəhər M.A.Abbaszadə adına 20 nömrəli tam orta məktəbində təhsil almışdır. 2014-2018-ci illərdə Gəncə Dövlət Universitetinin "Tarix müəllimliyi" ixtisasında ali təhsil almışdır. Ali təhsilini başa vurduqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İsa Abbasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Xocavənd və Şuşa şəhəri uğrunda gedən döyüşlərdə iştirak etmişdir. İsa Abbasov noyabrın 9-da Şuşa qalası istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 14 noyabr 2020-ci ildə Gəncə şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən İsa Faiq oğlu Abbasov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

AVQUST

2

Mövlud Qurbanzadə - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Mövlud Söhbət oğlu Qurbanzadə 1996-cı il avqust ayının 2-də Beyləqan rayonunun Aşağı Çəmənli kəndində anadan olmuşdur. Beyləqan rayonu, S.Abbasov adına Aşağı Çəmənli kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmiş, xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Mövlud Qurbanzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Mövlud Qurbanzadə sentyabrın 27-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Beyləqan rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Mövlud Söhbət oğlu Qurbanzadə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

3

Elcan Bayramov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 26 dekabr.– S.1;12.

Elcan Qoşqar oğlu Bayramov 3 avqust 2001-ci ildə Göygöl rayonunda anadan olmuşdur. 2007-ci ildə Gəncə şəhəri 12 nömrəli tam orta məktəbin birinci sinfinə qəbul olunmuşdur. O, təhsilini dördüncü sinifdən etibarən Kəlbəcər rayonunun 122 nömrəli tam orta məktəbində davam etdirmiş və 2018-ci ildə həmin məktəbi bitirmişdir. Orta təhsilini başa vurduqdan sonra Elcan Bayramov 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə çağırılmış və xidmətini uğurla yerinə yetirmişdir

Azərbaycan Ordusunun əsgəri olan Elcan Bayramov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Elcan Bayramov sentyabrın 28-də Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 5 noyabr 2020-ci ildə Göygöl Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Elcan Qoşqar oğlu Bayramov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

AVQUST
4

İmaməddin Abdullazadə - 30

(1996-2020) *MAHHXHQ kiçik çavuş*



İmaməddin Əsgər oğlu Abdullazadə 1996-cı il avqust ayının 4-də Beyləqan rayonunun Kəbirli kəndində anadan olmuşdur. Beyləqan rayonu, E.Əliyev adına 2 saylı Kəbirli kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin Qazax rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir. Daha sonra o, müddətdən artıq hərbi qulluqçu kimi Azərbaycan Ordusunda xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu olan İmaməddin Abdullazadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin, Qubadlının, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. İmaməddin Abdullazadə noyabrın 5-də Şuşa döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 7 noyabr 2020-ci ildə Kəbirli kənd qəbiristanlığında dəfn edilmişdir.

İmaməddin Əsgər oğlu Abdullazadə ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları və "Azərbaycan Bayrağı" ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.1-6.

4

Pərvin Məmmədov - 25

(2001-2020) *Əsgər*



Pərvin Natiq oğlu Məmmədov 2001-ci il avqust ayının 4-də Xaçmaz rayonunun Şıxlar kəndində anadan olmuşdur. Xaçmaz rayonu, Çaykənari kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Pərvin Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Talış kəndi və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Pərvin Məmmədov oktyabrın 2-də Goranboy rayonu Tapqaraqoyunlu kəndi, Kəhrilər xarabalığı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 28 noyabr 2020-ci ildə Şıxlar kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Pərvin Natiq oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.81-84.

AVQUST

4

Nicat Xələfov - 25

(2001-2020)

Kiçik çavuş



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.5-6.

Nicat İlqar oğlu Xələfov 2001-ci il avqust ayının 4-də Siyəzən şəhərində anadan olmuşdur. Sabunçu rayonu, Elxan Misirxanov adına 71 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Pərvin Xələfov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Hadrut, Cəbrayıl, Qubadlı, Zəngilan, Laçın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Nicat Xələfov noyabrın 8-də Şuşa döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Siyəzən şəhərində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Nicat İlqar oğlu Xələfov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və 3-cü dərəcəli "Rəşadət" ordeni medalları ilə təltif olunmuşdur.

4

Nemət Abbasov - 30

(1996-2020)

Əsgər



Nemət Elçin oğlu Abbasov 1996-cı il avqust ayının 4-də Ağdaş şəhərində anadan olmuşdur. Ağdaş rayonu, Qaradayın kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Nemət Abbasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Cəbrayıl və Hadrut istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Nemət Abbasov oktyabrın 27-də Füzulidə qəhrəmancasına şəhid olmuşdur. Qaradayın kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Nemət Elçin oğlu Abbasov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Respublika xüsusi buraxılış-2.– 2020.– 26 dekabr.– S.13-16.

5 AVQUST

Rəvan Bünyadlı - 25

(2001-2020) *Əsgər*



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Rəvan Asif oğlu Bünyadlı 2001-ci il avqust ayının 5-də Qax rayonunun Almalı kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Qax rayonu, Almalı kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rəvan Bünyadlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Rəvan Bünyadlı sentyabrın 27-də Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Almalı kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Rəvan Asif oğlu Bünyadlı ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

5

Siyavuş Muradov - 35

(1991-2020) *Leytenant*



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.78.

Siyavuş Akif oğlu Muradov 1991-ci il avqust ayının 5-də Beyləqan rayonunda anadan olmuşdur. 192 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirəndən sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olmuşdur. Təhsilini bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Dəniz Qüvvələrində xidmət etmiş, daha sonra Daxili Qoşunlarda hərbçi kimi fəaliyyət göstərməyə başlamışdır.

Azərbaycan Ordusunun leytenantı olan Siyavuş Muradov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Siyavuş Məmmədov oktyabrın 25-də Qubadlı döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Beyləqanda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Siyavuş Akif oğlu Muradov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", III dərəcəli "Vətənə xidmətə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Beyləqan rayonunda adına məktəb verilmiş və qarşısında bulağ inşa olunmuşdur.


AVQUST

5

Zəfər Surxayzadə - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

Zəfər Şəmsəddin oğlu Surxayzadə 2001-ci il avqust ayının 5-də Şəki şəhərində anadan olmuşdur. 2007-2018-ci illərdə Şəki şəhəri, Baltalı kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Zəfər Surxayzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Xocavənd və Şuşa uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Zəfər Surxayzadə noyabrın 8-də Şuşa döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 10 noyabr 2020-ci ildə Şəki rayonunun Baltalı kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Zəfər Şəmsəddin oğlu Surxayzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

6

Elşən Orucov - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 25 dekabr.– S.6-13.

Elşən Ehtiram oğlu Orucov 1991-ci il avqust ayının 6-da Qazax rayonunun Xanlıqlar kəndində anadan olmuşdur. 1997-2008-ci illərdə Ş.Şahvələdov adına Xanlıqlar kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2009-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmiş, 2011-ci ildən isə Azərbaycan Silahlı Qüvvələrinin Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluğçusu kimi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elşən Orucov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Cəbrayıl və Şuşa istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Elşən Orucov noyabrın 4-də Şuşa döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 6 noyabr 2020-ci ildə Qazax rayonunu Xanlıqlar kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Elşən Ehtiram oğlu Orucov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

AVQUST
6

Kənan Qafarov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Kənan Siyaqif oğlu Qafarov 1996-cı il avqust ayının 6-da Göyçay rayonunun Yalman kəndində anadan olmuşdur. Göyçay rayonu, Ləkçıplaq kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmiş, xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Kənan Qafarov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Kənan Qafarov oktyabrın 7-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Göyçay rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Kənan Siyaqif oğlu Qafarov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Hərbi Xidmətlərə görə" medalları və "Azərbaycan Bayrağı " ordeni ilə təltif olunmuşdur.

6

İlyas Şahvələdov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 29 dekabr.– S.5-14.

İlyas Etibar oğlu Şahvələdov 1996-cı il avqust ayının 6-da Bərdə rayonunda anadan olmuşdur. Bərdə rayon, Qaratəpə kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmiş, xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İlyas Şahvələdov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə iştirak etmişdir. İlyas Şahvələdov oktyabrın 10-da Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Bərdə Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən İlyas Etibar oğlu Şahvələdov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

AVQUST
7

Elsevər Əliyev - 25

(2001-2020)

Əsgər



Elsevər Hikmət oğlu Əliyev 2001-ci il avqust ayının 7-də Xaçmaz rayonunun Qusarçay kəndində anadan olmuşdur. Xaçmaz rayonu, Qusarçay kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elsevər Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Elsevər Əliyev oktyabrın 1-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 2 oktyabr 2020-ci ildə Qusarçay kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Elsevər Hikmət oğlu Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.78.

7

Emil İsmiyev - 25

(2001-2020)

Əsgər



Emil Elman oğlu İsmiyev 2001-ci il avqust ayının 7-də Ağdaş şəhərində anadan olmuşdur. Ağdaş şəhər 7 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Emil İsmyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Xocavənd, Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Emil İsmiyev oktyabrın 9-da Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Ağdaş şəhərində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Emil Elman oğlu İsmiyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 25 dekabr.– S.6-13.

AVQUST

7

Xalid Orucov - 30

(1996-2020)

Leytenant



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.79.

Xalid Saleh oğlu Orucov 1996-cı il avqust ayının 7-də Neftçala rayonunun Aşağı Surra kəndində anadan olmuşdur. Z.Əsgərov adına Aşağı Surra kənd tam orta məktəbində təhsil almışdır. 2013-2017-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali təhsil almışdır.

Azərbaycan Ordusunun leytenantı olan Xalid Orucov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayılın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Xalid Orucov oktyabrın 12-də Xocavənd döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Neftçala rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Xalid Saleh oğlu Orucov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" və 3-cü dərəcəli "Vətənə xidmətə görə" medalları ilə təltif olunmuşdur.

8

Hüseyn Tağıyev - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 29 dekabr.– S.5-14.

Hüseyn Oqtay oğlu Tağıyev 1991-ci il avqust ayının 8-də Bakı şəhərində anadan olmuşdur. 1998-2009-cu illərdə Natiq Tağıyev adına 212 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2009-2010-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olmuş, 2015-2018-ci illərdə isə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Hüseyn Tağıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Hüseyn Tağıyev oktyabrın 5-də Füzuli rayonu Alxanlı kəndinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. II Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Hüseyn Oqtay oğlu Tağıyev ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

AVQUST
8

Elçin Arazov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.66-67.

Elçin Eldar oğlu Arazov 2001-ci il avqsut ayının 8-də Quba rayonunda anadan olmuşdur. Xudat şəhər, 3 nömrəli tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elçin Arazov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elçin Arazov oktyabrın 31-də Goranboy rayonunun Tap Qaraqoyunlu kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Xaçmaz rayonu, Aşağı Ləgər kənd qəbiristanlığında dəfn edilmişdir.


Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Elçin Eldar oğlu Arazov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

9

Ceyhun Ağayev - 35

(1991-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.45-57.

Ceyhun Cəmil oğlu Ağayev 1991-ci il avqust ayının 9-da Saatlı rayonunun Mircəlal kəndində anadan olmuşdur. Saatlı rayon, Tofiq İsmayılov adına Mircəlalkənd kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ceyhun Ağayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Ceyhun Ağayev noyabrın 6-da Xocavənd rayonunun Sirik-Mülküdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Soltanabad kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Ceyhun Cəmil oğlu Ağayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

AVQUST
9

Nurlan Nurzadə - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Nurlan Tofiq oğlu Nurzadə 2001-ci il avqust ayının 9-da Sumqayıt şəhərində anadan olmuşdur. Sumqayıt şəhər 17 nömrəli tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Nurlan Nurzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Nurlan Nurzadə oktyabrın 1-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Nurlan Tofiq oğlu Nurzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

10

Cavid Əliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 25 dekabr.– S.6-13.

Cavid Samir oğlu Əliyev 2001-ci il avqust ayının 10-da Gəncə şəhərində anadan olmuşdur. 2008-2019-cu illərdə Gəncə şəhər 23 nömrəli tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Cavid Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Tərtər, Xocavənd, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Cavid Əliyev noyabrın 3-də Şuşa rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 6 noyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Cavid Samir oğlu Əliyev ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə", "Vətənə xidmətə görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

AVQUST
11

Eşqin Gülməmmədov - 25

(2001-2020)

Əsgər



Eşqin Rabil oğlu Gülməmmədov 2001-ci il avqust ayının 11-də Şəmkir rayonunun Qapanlı kəndində anadan olmuşdur. Şəmkir şəhəri, Cəlil Bayramov adına 2 saylı Qaracəmirli kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Eşqin Gülməmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Eşqin Gülməmmədov noyabrın 3-də Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 20 noyabr 2020-ci ildə Qaracəmirli kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Eşqin Rabil oğlu Gülməmmədov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.45-57.

11

Ümid Məmmədov - 25

(2001-2020)

Əsgər



Ümid Bəkir oğlu Məmmədov 2001-ci il avqust ayının 11-də Zaqatala rayonunun Bəhmətli kəndində anadan olmuşdur. Zaqatala rayon, Bəhmətli kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ümid Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Ümid Məmmədov sentyabrın 27-də Murovdağ döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Zaqatala rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Ümid Bəkir oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

AVQUST
12

Ceyhun Mirzəyev - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.11-16.

Ceyhun Zirəddin oğlu Mirzəyev 1996-cı il avqust ayının 12-də Tovuz rayonunun Əyyublu kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə E.Bayramov adına Əyyublu kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ceyhun Mirzəyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Zəngilan, Qubadlı və Laçının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Ceyhun Mirzəyev noyabrın 9-da Laçın rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 6 dekabr 2020-ci ildə Əyyublu kəndində dəfn edilmişdir.


Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Ceyhun Zirəddin oğlu Mirzəyev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

12

Əhməd Putiyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Respublika xüsusi buraxılış-2.– 2020.– 26 dekabr.– S.13-16.

Əhməd Şamil oğlu Putiyev 2001-ci il avqust ayının 12-də Zaqatala rayonunun Mazıx kəndində anadan olmuşdur. 2008-2017-ci illərdə Mazıx kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin Abşeron rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Əhməd Putiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Əhməd Putiyev oktyabrın 23-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Zaqatala rayonunun Mazıx kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Əhməd Şamil oğlu Putiyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

AVQUST
13

Azər Şəmilov - 55

(1971-2020) *Leytenant*



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 30 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 31 dekabr.– S.14-15.

Azər Elyas oğlu Şəmilov 1971-ci il avqust ayının 13-də Tərtər rayonunun Qapanlı kəndində anadan olmuşdur. 1978-1986-cı illərdə Soyulan kənd tam orta məktəbində, 1986-1988-ci illərdə isə Kimya-Biologiya Təmayüllü Liseydə təhsil almışdır. 1994-2000-ci illərdə Azərbaycan Tibb Universitetində (ATU) ali təhsil almışdır. 1988-1990-cı illərdə Sovet Ordusunun sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 1991-1994-cü illərdə Birinci Qarabağ müharibəsində iştirak etmişdir.

Azərbaycan Ordusunun tibb xidməti leytenantı olan Azər Şəmilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın və Talışın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Azər Şəmilov oktyabrın 14-də Suqovuşan döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Bərdə rayonunun Kələntərli kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Azər Elyas oğlu Şəmilov ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Suqovuşanın azad olunmasına görə" medalları və "Rəşadət" ordeni ilə ilə təltif olunmuşdur.

13

Rahim Sərdarlı - 30

(1996-2020) *Əsgər*



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

Rahim Rafik oğlu Sərdarlı 1996-cı il avqust ayının 13-də Xaçmaz rayonunun Canaxır kəndində anadan olmuşdur. Xaçmaz şəhər 8 saylı məktəb-liseydə təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rahim Sərdarlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayıl və Qubadlı döyüşlərində iştirak etmişdir. Rahim Sərdarlı noyabrın 8-də Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Canaxır kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Rahim Rafik oğlu Sərdarlı ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Şəhidin adına Xaçmaz rayonunun Canaxir kəndində bulaq inşa olunmuşdur.

AVQUST
14

Zülal Mədətli - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.18-21.

Zülal Rəhim oğlu Mədətli 1991-ci il avqust ayının 14-də Şərur rayonunun Çomaxtur kəndində anadan olmuşdur. Şərur rayonu, Çomaxtur kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmiş, xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Zülal Mədətli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Zülal Mədətli oktyabrın 10-da Zəngilan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 19 oktyabr 2020-ci ildə Şərur şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Zülal Rəhim oğlu Mədətli ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

14

Səhman Bədəlov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.79.

Səhman Bəhmən oğlu Bədəlov 2001-ci il avqust ayının 14-də Quba rayonunun Nügədi kəndində anadan olmuşdur. Quba şəhəri, Hacıbaba Əliyev adına tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Səhman Bədəlov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Səhman Bədəlov oktyabrın 14-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Birinci Nügədi kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Səhman Bəhmən oğlu Bədəlov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif olunmuşdur.

Quba şəhəri, Birinci Nügədi kəndinin küçələrindən birinə şəhidin adı verilmişdir.

AVQUST

14

Kamran Hüseynov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 29 dekabr.– S.5-14.

Kamran Bəhman oğlu Hüseynov 1996-cı il avqust ayının 14-də Bakı şəhərində anadan olmuşdur. 2002-2013-cü illərdə Bakı şəhərində 287 saylı Zəkalar liseyində, 2013-2017-ci illərdə isə Naxçıvan Müəəllimlər İnstitutunda təhsil almışdır. Təhsilini başa vurduqdan sonra 2017-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Culfa rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Kamran Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Kamran Hüseynov oktyabrın 1-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. İkinci Fəxri Xiyabanda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Kamran Bəhman oğlu Hüseynov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

15

Əli Mehdizadə - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 19 dekabr.– S.6-12.

Əli Məcid oğlu Mehdizadə 2001-ci il avqust ayının 15-də Lənkəran şəhərində anadan olmuşdur. Lənkəran şəhər 1 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Əli Mehdizadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Murovdağın, Cəbrayılın, Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Əli Mehdizadə noyabrın 1-də Şuşa rayonunun Daşaltı kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Lənkəran şəhər qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Əli Məcid oğlu Mehdizadə ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

AVQUST
15

Samir Bayramov - 30

(1996-2020)

Gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Samir Elxan oğlu Bayramov 1996-cı il avqust ayının 15-də Göygöl rayonunun Yeni Zod kəndində anadan olmuşdur. Göygöl rayonu, Mixayılovka kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmiş, xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun giziri olan Samir Bayramov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Samir Bayramov sentyabrın 30-da Murovdağ döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Uzun müddətdən sonra 3 dekabr 2020-ci ildə Göygöl rayon Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Samir Elxan oğlu Bayramov ölümündən sonra "Vətən uğrunda" "Cəsur döyüşçü" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

15

Sadiq Məmmədov - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.24-28.

Sadiq Mübariz oğlu Məmmədov 1991-ci il avqust ayının 15-də Siyəzən şəhərində anadan olmuşdur. 1998-2009-cu illərdə Siyəzən şəhər 2 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmiş, xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Sadiq Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Sadiq Məmmədov oktyabrın 4-də Murovdağ döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Siyəzən şəhər ümumi qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Sadiq Mübariz oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

AVQUST
16

Bəxtiyar Məmmədov - 30

(1996-2020)

MAHHXHQ çavuş



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 29 dekabr.– S.5-14

Bəxtiyar Bayramşah oğlu Məmmədov 1996-cı il avqust ayının 16-da Qobustan rayonunun Nabur kəndində anadan olmuşdur. Qobustan rayonu, Əbülfəz İbrahimov adına tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmiş, xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun çavuşu olan Bəxtiyar Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Bəxtiyar Məmmədov sentyabrın 30-da Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 30 oktyabr 2020-ci ildə Nabur kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Bəxtiyar Bayramşah oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

16

Amin Novruzov - 30

(1996-2020)

Kiçik gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Vətən Müharibəsi Qəhrəmanı" adının verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 9 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 10 dekabr.– S.3.

Amin Taciddin oğlu Novruzov 1996-cı il avqust ayının 16-da Balakən rayonunun Qullar kəndində anadan olmuşdur. 2012-2013-cü illərdə Qullar kənd tam orta məktəbində təhsil almışdır. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmiş, 2017-ci ildən isə Dövlət Sərhəd Xidmətinin müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının kiçik giziri olan Amin Novruzov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Amin Novruzov noyabrın 2-də Zəngilanın azad edilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Balakən Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Amin Taciddin oğlu Novruzov ölümündən sonra "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları və "Vətən Müharibəsi Qəhrəmanı" adı ilə təltif olunmuşdur.

AVQUST
16

Ülvi Rəfiyev - 30

(1996-2020)

Əsgər



Ülvi Rəfail oğlu Rəfiyev 1996-cı il avqust ayının 16-da Ordubad rayonunda anadan olmuşdur. 2002-2013-cü illərdə Bakı şəhəri, Xətai rayonu 263 saylı tam orta məktəbində təhsil almışdır. Elə həmin il Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "İqtisadiyyat və menecment" fakültəsinin "Sənayenin təşkili və idarə olunması" ixtisasında ali təhsil almışdır. Universiteti bitirdikdən sonra 2017-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ülvi Rəfiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Ülvi Rəfiyev oktyabrın 25-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Suraxanı rayonu "Dədə Qorqud" qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Ülvi Rəfail oğlu Rəfiyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

16

Yadigar Vahabov - 30

(1996-2020)

Əsgər



Yadigar Mahir oğlu Vahabov 1996-cı il avqust ayının 16-da Ağsu rayonunun Xatman kəndində anadan olmuşdur. Ağsu rayonu, Dilman kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Yadigar Vahabov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Zəngilan və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Yadigar Vahabov oktyabrın 31-də Qubadlı döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 1 noyabrda Xatman kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Yadigar Mahir oğlu Vahabov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.10-17.

AVQUST

16

Amil Hüseynov - 40

(1986-2020)

MAHHXHQ çavuş



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.21-31.

Amil Rasim oğlu Hüseynov 1986-cı il avqust ayının 16-da Füzuli rayonunun Əhmədalılar kəndində anadan olmuşdur. Füzuli rayon, Əhmədalılar kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2004-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmiş, 2010-cu ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun çavuşu olan Amil Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Amil Hüseynov oktyabrın 10-da Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 60 gün sonra, 10 dekabr 2020-ci ildə Əhmədalılar kəndində dəfn edilmişdir.


Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Amil Rasim oğlu Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

17

Elman Məmmədov - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.81-84.

Elman Bəhmən oğlu Məmmədov 1991-ci il avqust ayının 17-də Tərtər rayonunun Borsunlu kəndində anadan olmuşdur. Tərtər rayonu, Borsunlu kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmiş, xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Bəxtiyar, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elman Məmmədov oktyabrın 3-də Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Borsunlu kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Elman Bəhmən oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

AVQUST

18

Elvin Ömərov - 35

(1991-2020)

Baş gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

Elvin Xeybər oğlu Ömərov 1991-ci il avqust ayının 18-də Kürdəmir rayonunun Qarasu kəndində anadan olmuşdur. Qarasu kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmiş, xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun baş giziri olan Elvin Ömərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elvin Ömərov oktyabrın 10-da Hadrut döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 13 oktyabr 2020-ci ildə Kürdəmir rayonunun Qarasu kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Elvin Xeybər oğlu Ömərov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

19

Vəfadar Quluzadə - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.29-34.

Vəfadar Fəqan oğlu Quluzadə 2001-ci il avqust ayının 19-da Beyləqan rayonunun Bünyadlı kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Beyləqan rayon Bünyadlı kənd Yunis Quliyev adına tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin Goranboy rayonunun Ballıqaya və Ağcakənd kəndlərində yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Vəfadar Qulizadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın və Talışın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Vəfadar Quluzadə oktyabrın 3-də Talış kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Vəfadar Fəqan oğlu Quluzadə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

AVQUST

19

Rəşad Yusibov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.61-65.

Rəşad Nazim oğlu Yusibov 1996-cı il avqust ayının 19-da Şəmkir rayonunda anadan olmuşdur. Şəmkir şəhər, Cahangir Rüstəmov adına tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmiş, xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rəşad Yusibov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Kəlbəcər döyüşlərində iştirak etmişdir. Rəşad Yusibov oktyabrın 1-də Kəlbəcər uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 19 dekabr 2020-ci ildə Şəmkir şəhər qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Rəşad Nazim oğlu Yusibov ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

20

Təbriz Əliyev - 25

(2001-2020)

Əsgər



Təbriz Tofiq oğlu Əliyev 2001-ci il avqust ayının 20-də Qax şəhərində anadan olmuşdur. Qax şəhəri V.Əliyev adına 3 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Təbriz Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Təbriz Əliyev oktyabrın 19-da Ağdərə döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Qax şəhərində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Təbriz Tofiq oğlu Əliyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.66-67.

AVQUST
21

Şahin İskəndərov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Şahin Ziyad oğlu İskəndərov 2001-ci il avqust ayının 21-də Zaqatala rayonunun Qandax kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə Zaqatala rayonu, Vasif Saatov adına Qandax kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Şahin İsəndərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Xocavənd və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Şahin İskəndərov oktyabrın 11-də Cəbrayıl döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Qandax kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Şahin Ziyad oğlu İskəndərov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Kəlbəcərin azad olunmasına görə", Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Azərbaycan bayrağı" medalları ilə təltif olunmuşdur.

21

Sahil Məmişli - 35

(1991-2020)

Gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.18-21.

Sahil Ağaverdi oğlu Məmişli 1991-ci il avqust ayının 21-də Biləsuvar rayonunun Çaylı kəndində anadan olmuşdur. Əlimərdan Hüseynov adına Çaylı kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmiş, xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun giziri olan Sahil, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sahil Məmişli noyabrın 11-də Şuşa döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 12 noyabr 2020-ci ildə Çaylı kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Sahil Ağaverdi oğlu Məmişli ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

AVQUST
21

Röyal Qurbanov - 25

(2001-2020)

Əsgər



Röyal Ziyad oğlu Qurbanov 2001-ci il avqust ayının 21-də Siyəzən rayonunun Beşdam kəndində anadan olmuşdur. Beşdam kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Röyal, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Röyal Qurbanov oktyabrın 5-də Cəbrayıl döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 7 oktyabr 2020-ci ildə Beşdam kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Röyal Ziyad oğlu Qurbanov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Kəlbəcərin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Xatirəsinin əbədiləşdirilməsi üçün adına bulağ inşa olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 25 dekabr.– S.6-13

22

Ruslan Binnətov - 25

(2001-2020)

Əsgər



Ruslan Rafiq oğlu Binnətov 2001-ci il avqust ayının 22-də Göygöl rayonunun Haça qaya kəndində anadan olmuşdur. Göygöl rayon Haçaqaya kənd M.Elşad adına tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ruslan Binnətov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Ruslan Binnətov noyabrın 8-də Xocavənd döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 10 noyabr 2020-ci ildə Göygöl rayonu, Qırıqlı kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Ruslan Rafiq oğlu Binnətov ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

AVQUST
23

Qəzənfər Məmmədov - 30

(1996-2020) *Leytenant*



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.5-6.

Qəzənfər Habil oğlu Məmmədov 1996-cı il avqust ayının 23-də Gəncə şəhərinin Gülüstan qəsəbəsində anadan olmuşdur. 2003-2014-cü illərdə Gəncə şəhərində M. Müşfiq adına 14 nömrəli tam orta məktəbində təhsil almış, 2014-2019-cu illərdə Daxili Qoşunların Ali Hərbi Məktəbində ali hərbi təhsilə yiyələnmişdir. 2019-cu ildən Daxili Qoşunların sıralarında "leytenant" hərbi rütbəsində xidmətini davam etdirmişdir.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının leytenantı olan Qəzənfər Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Qəzənfər Məmmədov noyabrın 9-da Şuşa döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 12 noyabr 2020-ci ildə Gülüstan qəsəbə Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Qəzənfər Habil oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif olunmuşdur.

23

Fərid Seyfullayev - 35

(1991-2020) *MAHHXHQ əsgər*



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 29 dekabr.– S.5-14.

Fərid Xeyrulla oğlu Seyfullayev 1991-ci il avqust ayının 23-də Xaçmaz şəhərində anadan olmuşdur. Xaçmaz şəhər 2 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmiş, xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Fərid Seyfullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Fərid Seyfullayev noyabrın 7-də Şuşa döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 14 noyabr 2020-ci ildə Köhnə Xaçmaz kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Fərid Xeyrulla oğlu Seyfullayev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

AVQUST
23

Məhəmməd Yusifli - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.29-34.

Məhəmməd Rəhman oğlu Yusifli 2001-ci il avqust ayının 23-də Qax rayonunun Almalı kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Qax rayon, Almalı kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Məhəmməd Yusifli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Məhəmməd Yusifli oktyabrın 2-də Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Almalı kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Məhəmməd Rəhman oğlu Yusifli ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

24

Samir Abasov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Samir Adəm oğlu Abasov 2001-ci il avqust ayının 24-də Şabran rayonunun Uzunboyad kəndində anadan olmuşdur. Şabran rayon, Səməndər Musayev adına tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Samir Abasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Samir Abasov oktyabrın 13-də Tərtər rayonunun Talış kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 15 oktyabr 2020-ci ildə Uzunboyad kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Samir Adəm oğlu Abasov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.


AVQUST

24

Elçin Quliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.81-84.

Elçin Etibar oğlu Quliyev 2001-ci il avqust ayının 24-də İmişli rayonunun Məzrəli kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə İmişli rayon Məzrəli kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elçin Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elçin Quliyev oktyabrın 10-da Tərtər rayonunun Suqovuşan qəsəbəsi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Məzrəli kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Elçin Etibar oğlu Quliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

25

İbrahim Lələyev - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.21-31.

İbrahim Həzrətqulu oğlu Lələyev 1996-cı il avqust ayının 25-də Masallı rayonunun Hışgədərə kəndində anadan olmuşdur. 2002-2014-cü illərdə E.Ağayev adına Hışgədərə kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2015-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Qazax rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İbrahim, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. İbrahim Lələyev oktyabrın 10-da Cəbrayıl döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 11 oktyabr 2020-ci ildə Hışgədərə kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən İbrahim Həzrətqulu oğlu Lələyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Xatirəsinin əbədiləşdirilməsi üçün adına bulağ inşa olunmuşdur.

AVQUST
25

Rəvan Həsənov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

Rəvan Rövşən oğlu Həsənov 2001-ci il avqust ayının 25-də Ağdaş rayonunun İkinci Aral kəndində anadan olmuşdur. Ağdaş rayon, İkinci Aral kəndi Tacəddin Rüstəmov adına tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rəvan Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Rəvan Həsənov oktyabrın 22-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. İkinci Aral kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Rəvan Rövşən oğlu Həsənov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

25

Hüseyn Quliyev - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.32-44.

Hüseyn Aydın oğlu Quliyev 1991-ci il avqust ayının 25-də Beyləqan rayonunun Örənqala qəsəbəsində anadan olmuşdur. Beyləqan rayon, Örənqala qəsəbə tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmiş, xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Hüseyn Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Hüseyn Quliyev oktyabrın 8-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Örənqala qəsəbə qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Hüseyn Aydın oğlu Quliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və 3-cü dərəcəli "Rəşadət" ordeni medalları ilə təltif olunmuşdur.

AVQUST

25

Həsən Süleymanov - 35

(1991-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.10-17.

Həsən İsmayıl oğlu Süleymanov 1991-ci il avqust ayının 25-də Ağcabədi şəhərində anadan olmuşdur. Ağcabədi şəhər 3 nömrəli tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Həsən Süleymanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Həsən Süleymanov oktyabrın 26-da Qubadlı döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Ağcabədi Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Həsən İsmayıl oğlu Süleymanov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

26

Rəvan Lətifov - 35

(1991-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.18-21.

Rəvan Ömür oğlu Lətifov 1991-ci il avqust ayının 26-da Oğuz rayonunun Xaçmaz kəndində anadan olmuşdur. Oğuz rayonu Vüqar İbrahimov adına 2 saylı Xaçmaz kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Təhsilin təşkili və idarə olunması" ixtisası üzrə ali təhsil almışdır. Təhsilini bitirdikdən sonra 2012-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Şərur rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rəvan Lətifov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli rayonunun İkinci Mahmudlu kəndinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Rəvan Lətifov noyabrın 6-da Şuşa-Daşaltı döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 16 noyabr 2020-ci ildə Xaçmaz kənd Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Rəvan Ömür oğlu Lətifov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

AVQUST

26

Elgün Səmədov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.66-67.

Elgün İlham oğlu Səmədov 2001-ci il avqust ayının 26-da Şəmkir rayonunun Mehrili kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə İ.Mehdixanov adına Yuxarı Seyfəli kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elgün Səmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elgün Səmədov oktyabrın 6-da Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 17 noyabr 2020-ci ildə Mehrili kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Elgün İlham oğlu Səmədov ölümündən sonra "Vətən uğrunda" "Suqovuşanın azad olunmasına görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.

Xatirəsinin əbədiləşdirilməsi üçün bulaq-abidə kompleksi inşa olunmuşdur.

27

Şəmsi Cəfərov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.79.

Şəmsi Mahir oğlu Cəfərov 2001-ci il avqust ayının 27-də İmişli rayonunun Boşçalılar kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə Bakı şəhər Sabunçu rayon 213 nömrəli liseydə, sonra isə Füzuli rayon 6 saylı Qayıdış qəsəbə tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Şəmsi Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Şəmsi Cəfərov sentyabrın 29-da Tərtər rayonunun Şıxarx qəsəbəsi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 30 sentyabr 2020-ci ildə Beyləqan rayon, Şəfəq qəsəbə qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Şəmsi Mahir oğlu Cəfərov ölümündən "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif olunmuşdur.

AVQUST
27

Cavid Paşazadə - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.45-57.

Cavid Telman oğlu Paşazadə 2001-ci il avqust ayının 27-də Bakı şəhəri Sulutəpə qəsəbəsində anadan olmuşdur. Binəqədi rayonu, 217 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Cavid Paşazadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Cavid Paşazadə oktyabrın 29-da Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Sulutəpə Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Cavid Telman oğlu Paşazadə ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Xatirəsinin əbədiləşdirilməsi üçün adına bulağ inşa olunmuşdur.

Mehdi Qənbərli - 25

27

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 25 dekabr.– S.6-13.

Mehdi Sübhi oğlu Qənbərli 2001-ci il avqust ayının 27-də Lənkəran rayonunun Osakücə kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Lənkəran rayon Tatoba kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Mehdi Qənbərli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Mehdi Qənbərli oktyabrın 5-də Füzuli rayonu Horadiz kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 3 noyabr 2020-ci ildə Osakücə kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Mehdi Sübhi oğlu Qənbərli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

AVQUST
29

Əli Cəfərli - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.29-34.

Əli İsa oğlu Cəfərli 2001-ci il avqust ayının 29-da Füzuli rayonunda anadan olmuşdur. Füzuli rayon, Zobucuq – 2 qəsəbəsi 27 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Əli Cəfərli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Əli Cəfərli sentyabrın 27-də Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Nəşi bir ay sonra 28 oktyabr 2020-ci ildə Əhmədbəyli kənd qəbiristanlığında dəfn edilmişdir.


Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Əli İsa oğlu Cəfərli ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

29

Eltun Əliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 19 dekabr.– S.6-12.

Eltun Elnur oğlu Əliyev 2001-ci il avqust ayının 29-da Sumqayıt şəhərində anadan olmuşdur. 2008-2019-cu illərdə Sumqayıt şəhəri 24 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Eltun Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Cəbrayıl və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Eltun Əliyev oktyabrın 16-da Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 23 oktyabr 2020-ci ildə Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Eltun Elnur oğlu Əliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və III dərəcəli "Vətənə xidmətə görə" ordeni medalları ilə təltif olunmuşdur.

AVQUST
29

Anar İskəndərov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.61-65.

Anar Vahid oğlu İskəndərov 2001-ci il avqust ayının 29-da Rusiya Federasiyasının Moskva şəhərində anadan olmuşdur. Xırdalan şəhər 5 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Anar İsgəndərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl, Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Anar İskəndərov oktyabrın 5-də Cəbrayıl döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 21 oktyabr 2020-ci ildə Xırdalan şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Anar Vahid oğlu İskəndərov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və "Azərbaycan bayrağı" ordeni ilə təltif olunmuşdur.

AVQUST
29

Ziya Nurməmmədov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.32-44.

Ziya Zabil oğlu Nurməmmədov 2001-ci il avqust ayının 29-da Kürdəmir rayonunun Sığırlı kəndində anadan olmuşdur. Kürdəmir rayon, Sığırlı kənd tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ziya Nurməmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Ziya Nurməmmədov oktyabrın 13-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Sığırlı kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Ziya Zabil oğlu Nurməmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.


Xatirəsinin əbədiləşdirilməsi üçün adına bulağ inşa olunmuşdur.

AVQUST
29

Rüfət Əsgərov - 45

(1981-2020)

Mayor



Rüfət Mürvət oğlu Əsgərov 1981-ci il avqust ayının 29-da Qubadlı rayonunun Aşağı Mollu kəndində anadan olmuşdur. 1988-1996-cı illərdə Xətai rayonu Ə. Əliyev adına 204 nömrəli tam orta məktəbində, 1996-1999-cu illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almışdır. 1999-2003-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsilə yiyələnmişdir. 2003-2009-cu illərdə "leytenant" hərbi rütbəsi ilə Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində, "baş leytenant" hərbi rütbəsi ilə isə 2009–2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət etmişdir. "Kapitan" hərbi rütbəsində 2012–2014-cü illərdə Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə, 2014-cü ildə isə Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir. 2014-cü ildə "mayor" hərbi rütbəsi ala Rüfət Əsgərov, həmin ildən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin (AAHM) "Kəşfiyyat" Kafedrasının baş müəllimi olmuşdur.

Azərbaycan Ordusunun mayoru olan Rüfət Əsgərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın və Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Rüfət Əsgərov oktyabrın 14-də Ağdərə döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. II Şəhidlər Xyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Rüfət Mürvət oğlu Əsgərov ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Suqovuşanın azad olunmasına görə" və "Rəşadət" ordeni ilə medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 30 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 31 dekabr.– S.14-15.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

İnternetdə:

http://surakhani-ih.gov.az/az/page/139.html

https://unudulmazlar.az/az/infom/2203

AVQUST
29

Əli Tağıyev - 25

(2001-2020) *Əsgər*



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.7-9.

Əli Rahil oğlu Tağıyev 2001-ci il avqust ayının 29-da Salyan rayonunda anadan olmuşdur. Salyan rayon Azer Seferov adina İnternat məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Əli Tağıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Tərtər rayonunun Çaylı və Talış kəndləri istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Əli Tağıyev oktyabrın 3-də Tərtər döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Salyan rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Əli Rahil oğlu Tağıyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

30

Nihad Babayev - 35

(1991-2020) *Kapitan*



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

Nihad Akif oğlu Babayev 1991-ci il avqust ayının 30-da Biləsuvar rayonunun Günəşli kəndində anadan olmuşdur. Fazil Höküməliyev adına Günəşli kənd tam orta məktəbində, daha sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almışdır. Təhsilini bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsilə yiyələnmişdir. 2012-ci ildə "leytenant" hərbi rütbəsi ilə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə göndərilmişdir. Daha sonra isə Türkiyədə snayper təlimlərində iştirak edərək uğurlu nəticələr qazanmış, ardınca Gürcüstanda dağadırmanma üzrə xüsusi kurs keçmişdir.

Azərbaycan Ordusunun kapitanı olan Nihad Babayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Nihad Babayev oktyabrın 29-da Füzuli rayonunun Yuxarı Veysəlli kəndinə yaxın Uryandağ yüksəkliyi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 2 noyabr 2020-ci ildə Günəşli kənd qəbiristanlığında dəfn edilmişdir.

Nihad Akif oğlu Babayev ölümündən sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

AVQUST
30

Kamal Mirzəliyev - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Kamal Əjdər oğlu Mirzəliyev 1996-cı il avqust ayının 30-da Şamaxı rayonunun Çarhan kəndində anadan olmuşdur. Sonradan ailələri Bakının Qaradağ rayonunun Sahil qəsəbəsinə köçmüşdür. Sahil qəsəbəsi, 273 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Kamal Mirzəyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Talış və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Kamal Mirzəliyev oktyabrın 17-də Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 15 dekabr 2020-ci ildə Lökbatan Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Kamal Əjdər oğlu Mirzəliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

31

Tərlan Məmmədov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 29 dekabr.– S.5-14.

Tərlan Müşviq oğlu Məmmədov 1996-cı il avqust ayının 31-də Sumqayıt şəhərində anadan olmuşdur. H.Z.Tağıyev qəsəbəsi 19 saylı tam orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 2015-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin əvvəlcə Gəncə şəhərində, sonra isə Gədəbəy rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Tərlan Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Tərlan Məmmədov oktyabrın 8-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Abşeron rayonunun Saray qəsəbəsində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Tərlan Müşviq oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Fəridə Məmmədova – 90

(1936-2021)

Tarixçi



Ədəbiyyat:

"Qafqaz Albaniyası və albanlar" // Mədəniyyət.– 2022.– 14 yanvar.– S.1.

Qafqaz Albaniyasının etno-mədəni irsi: [məqalələr toplusu] / Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi; baş red. K. Abdullayev; elmi red.: F. Məmmədova, Ü. Hacıyeva ; red. T. Kazımlı; layihəyə məsul R. Həsənov. - Bakı: [n. y.], 2021. - 230, [2] s.

Albanşünas alim Fəridə Məmmədova dünyasını dəyişib // Mədəniyyət.– 2021.– 10 dekabr.– S.6.

Məmmədova, F. Azərbaycanın alban etno-mədəni irsi / Fəridə Məmmədova //Qafqaz Albaniyasının etno-mədəni irsi / Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi.-2019.- S.9-22.

Gender: tarix,cəmiyyət, mədəniyyət / Qərb Universiteti, Gender Araşdırmaları Mərkəzi; müəlliflər: F.C.Məmmədova, Ü.H.Hacıyeva, M.M.Əliyeva [və b.]; məsul red. Q.K.Quliyev.– Bakı: [Qərb Universiteti NPM], 2003.– 356 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Fəridə_Məmmədova_(tarixçi)

https://tarixinstitutu.az/correspondents/124

Fəridə Cəfər qızı Məmmədova 1936-cı il avqustun 8-də Əli Bayramlı (indiki Şirvan) şəhərində anadan olmuşdur. O, 1955–1960-cı illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Tarix fakültəsində təhsil almışdır. 1960-cı ildən etibarən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunda fəaliyyətə başlamış, 2002-ci ildən institutun "Azərbaycanın tarixi coğrafiyası" (indiki "Azərbaycanın tarixi coğrafiyası və demoqrafiyası") şöbəsinə rəhbərlik etmişdir.

1962–1969-cu illərdə Leninqrad (indiki Sankt-Peterburq) şəhərində SSRİ EA Şərqşünaslıq İnstitutunda təcrübə keçmiş, institutun aspirantı olmuşdur. Bu dövrdə o, qədim fars (mixi yazı), orta fars (pəhləvi), qədim erməni (qrabar) və qədim gürcü dillərini öyrənmiş, Qafqazın qədim dövr mənbələrinin araşdırılması istiqamətində sistemli araşdırmalar aparmışdır.

Fəridə Məmmədova 1971-ci ildə "Musa Kalankatlının Alban tarixi əsərinin Qafqaz Albaniyasının ictimai quruluşu üçün mənbə kimi tədqiqi" mövzusunda namizədlik, 1987-ci ildə isə "Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Onun elmi fəaliyyəti Qafqaz Albaniyasının siyasi, sosial və mədəni tarixinin araşdırılması ilə bağlı olmuş, bu sahə üzrə kompleks tədqiqatların formalaşmasına mühüm töhfələr vermişdir.

1978-ci ildən etibarən alim Bakı Dövlət Universitetində, daha sonra Azərbaycan Dövlət Pedaqoji Universitetində, 1997–1998-ci illərdə Xəzər Universitetində, 1998-ci ildən isə Qərb Universitetində dərs demişdir. 1998–2001-ci illərdə Qərb Universitetinin "İctimai elmlər" kafedrasına rəhbərlik etmişdir. 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmiş, 2006-cı ildən ömrünün sonuna qədər Milli Aviasiya Akademiyasının İctimai fənlər kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Fəridə Məmmədovanın elmi fəaliyyəti Qafqaz Albaniyasının ictimai quruluşu, feodal münasibətlərinin genezisi, xristianlığın regionda yayılması, Alban kilsəsinin təşəkkülü və Alban dövlətinin sərhədlərinin müəyyənləşdirilməsi kimi istiqamətləri əhatə edirdi. Alim Alban tarixinin antik və erkən orta əsr mərhələlərinə dair mənbəşünaslıq və tarixi-coğrafi tədqiqatların aparılmasında xüsusi rol oynamışdır. O, həmçinin Qarabağ bölgəsinin qədim və orta əsr siyasi-coğrafi inkişaf tarixini araşdırmış, müxtəlif dövrlərə aid mənbələr əsasında regionun etno-mədəni mənzərəsini təhlil etmişdir.

Alimin əsas monoqrafiyalarına "Moisey Kalankatuyskinin Alban tarixi əsəri Qafqaz Albaniyasının ictimai quruluşu üzrə mənbə kimi" (Bakı, 1977), "Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası" (Bakı, 1986), "Azərbaycanın tarixi coğrafiyası" (kollektiv monoqrafiya, Bakı, 1988), "Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası" (Bakı, 1993), "Qafqaz Albaniyasında xristianlıq" (Bakı, 2003) və "Qafqaz Albaniyası və albanlar" (Bakı, 2005) əsərləri daxildir. Onun 100-dən çox elmi tədqiqat işi, o cümlədən bir neçə monoqrafiyası nəşr olunmuşdur. Xaricdə çap olunan elmi əsərlərinin sayı 20-yə yaxındır.

Fəridə Məmmədovanın Azərbaycan tarix elminin inkişafındakı xidmətləri yüksək qiymətləndirilmişdir. O, Əməkdar elm xadimi fəxri adına (1990), Dövlət mükafatına (1991), "Şöhrət" ordeninə (2004) və digər mükafatlara layiq görülmüşdür.

Fəridə Cəfər qızı Məmmədova 8 dekabr 2021-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Rəsul Balayev – 70

(1956) *İqtisadçı*



Rəsul Ənvər oğlu Balayev 1956-cı il avqustun 2-də İsmayıllı rayonunun Lahıc qəsəbəsində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra 1973–1978-ci illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) təhsil almış, "İqtisadi məlumatların mexaniki üsulla işlənməsinin təşkili" ixtisası üzrə fərqlənmə diplomu ilə məzun olmuşdur.

1978–1981-ci illərdə Ümumittifaq Elmi-Tədqiqat Layihə-Texnoloji İnstitutunun Azərbaycan filialında fəaliyyət göstərmiş, 1981–1984-cü illərdə həmin institutun aspiranturasında elmi hazırlığını davam etdirmişdir. 1987-ci ildə Azərbaycan EA Kibernetika İnstitutunun İxtisaslaşdırılmış Şurasında "iqtisadi elmləri namizədi" alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. 2001-ci ildə iqtisad elmləri doktoru alimlik dərəcəsini almışdır.

1985–1989-cu illərdə AzXTİ-də elmi işçi kimi fəaliyyət göstərmiş, daha sonra Azərbaycan Dövlət İqtisad Universitetində müəllim, baş müəllim və dosent vəzifələrində çalışmışdır. Sonrakı illərdə universitetin professoru və "İnformatika" kafedrasının müdiri vəzifələrini icra etmişdir. 2013–2014-cü illərdə İsmayıllı Dövlət Humanitar və Texnologiya Kollecinin direktoru olmuşdur. 2015-ci ildən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin sistemində çalışır və hazırda aidiyyəti üzrə Elmi-Tədqiqat İnstitutunun direktorudur.

Rəsul Balayev informasiya texnologiyalarının iqtisadiyyata tətbiqi, iqtisadi informasiyanın işlənməsi və idarə edilməsi istiqamətlərində elmi-pedaqoji fəaliyyət göstərmişdir. Onun elmi irsinə 4 monoqrafiya, bir neçə dərslik və dərs vəsaiti, habelə ölkə və xarici elmi jurnallarda çap olunmuş 80-dən artıq elmi məqalə daxildir. O, həmçinin ixtisaslaşdırılmış müdafiə şuralarının üzvü kimi elmi kadr hazırlığı prosesində iştirak edir.

Azərbaycan, rus və ingilis dillərində mətbuatda dərc olunmuş 100-dən çox publisistik və analitik məqalənin müəllifi olan alim, ölkədə informasiya texnologiyalarının iqtisadi və idarəetmə sahələrinə tətbiqi üzrə elmi-nəzəri və metodoloji istiqamətlərin inkişafına töhfə vermişdir.

Ədəbiyyat:

Balayev, R. Aqrar sahədə rəqəmsal mühitin formalaşmasının əsas amilləri və təcrübi aspektləri / Rafiq Balayev // Kənd təsərrüfatının iqtisadiyyatı: Elmi-praktiki jurnal.– 2020.– №1.– S.93-100.

Balayev, R. Miflər və elmi araşdırmalar / Rafiq Balayev // İqtisadiyyat.– 2021.– 22-28 aprel.– S.4.

Balayev, R. Aqrar-sənaye sahələrində süni intellektin tətbiq dairəsinin genişləndirilməsinin konseptual məsələləri / Rafiq Balayev, F.İbrahimov; U.Ağakişiyeva // Kənd təsərrüfatının iqtisadiyyatı: Elmi-praktiki jurnal.– 2022.– №3.– S.58-66.


İnnovasiyalı inkişaf: rəqəmsal mühitin təşəkkülü və investisiyalaşdırma problemləri: (Kollektiv monoqrafiya) / T. Abbasov, R. Balayev, F. İbrahimov; elmi red. C. Y. Qasımov; ideya müəl. və elmi məsl. E. S. İsayev; Azərb. Resp. Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Un-ti.– Bakı: [ADPU], 2023.– 284, [1] s.

Balayev, R. Yaşıl urbanizasiya və postmünaqişə ərazilərində onun xüsusiyyətləri / Rafiq Balayev // Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri: Elmi əsərlər toplusu / Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi, İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu.–2024.– XXII Buraxılış.– S.39-50.

Balayev, R. Vətənə və elmə xidmətə həsr olunan böyük ömür yolu / V.Novruzov, R.Balayev // İqtisadiyyat.– 2025.– 25 iyun-9 iyul.- (№25/26).– S.6.

Zakir Məmmədov – 90

(1936-2003) *Filosof*



Zakir Cabbar oğlu Məmmədov 1936-cı il avqustun 16-da Ağdamda anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin yeni yaradılmış ərəb şöbəsinə daxil olmuş və 1962-ci ildə həmin ixtisas üzrə ali təhsilini tamamlamışdır. O, ərəb dili və klassik Şərq fəlsəfəsi üzrə fundamental hazırlığı ilə seçilmiş, tələbəlik illərindən etibarən ədəbi və mədəni məsələlərə dair tərcümə və elmi-populyar mətnlərlə çıxış etmişdir.

Universiteti bitirdikdən dərhal sonra, 1962-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi kimi fəaliyyətə başlamışdır. 1962–1963-cü illərdə Misirdə Asuan Su Elektrik Stansiyasının inşasında ərəb dili üzrə tərcüməçi kimi çalışmışdır. 1964-cü ildən etibarən AMEA-nın Fəlsəfə sektorunda çalışmışdır.

Zakir Məmmədovun ilk böyük elmi işi "Siracəddin Urməvinin məntiqi görüşləri" mövzusunda apardığı tədqiqat olmuşdur. Bu istiqamətdə namizədlik dissertasiyasını 1967-ci ildə tamamlamış və 1969-cu ildə müdafiə etmişdir. 1970-ci illərdə o, Azərbaycanda XI–XIII əsrlərdə fəlsəfi fikrin inkişafına dair geniş həcmli araşdırma aparmış və doktorluq dissertasiyasını 1974-cü ildə tamamlamışdır. Bu tədqiqatın monoqrafiya formasında nəşri 1978-ci ildə həyata keçirilmiş, dissertasiya müdafiəsi isə 1990-cı ildə baş tutmuşdur.

Alimin elmi yaradıcılığının əsasını Şərq fəlsəfəsi tarixinin sistemli tədqiqi təşkil edir. O, orta əsrlər Şərqində fəlsəfi düşüncənin yalnız dini istiqamət deyil, həm də rasional elmi-fəlsəfi ənənələr əsasında inkişaf etdiyini geniş mənbəşünaslıq və müqayisəli analiz metodları ilə göstərmişdir. Onun araşdırmalarında Eynəlqüzat Miyanəci, Şihabəddin Yəhya Sührəvərdi, Şihabəddin Ömər Sührəvərdi, Əfzələddin Xunəci, Siracəddin Urməvi və Bəhmənyar kimi Azərbaycan və ümumşərq fəlsəfə tarixinin görkəmli nümayəndələrinin əsərləri elmi dövriyyəyə daxil edilmişdir. Zakir Məmmədov bu mütəfəkkirlərin varlıq, idrak və məntiqə dair baxışlarının rekonstruksiyası ilə yanaşı, mətnlərin filoloji təhlilinə əsaslanan tərcümələrini də həyata keçirmişdir. Onun Bəhmənyarın "Təhsil" traktatının mövcudluğunu müəyyənləşdirməsi və əsərin tam şəkildə elmi tədqiqata cəlb etmişdir.

Zakir Məmmədov Şihabəddin Yəhya Sührəvərdinin əsərlərinin Azərbaycan və rus dillərinə tərcüməsini təşkil etmiş, həmçinin bir sıra klassik mətnlərin elmi nəşrlərinin hazırlanmasına rəhbərlik etmişdir. Alim Şərq peripatetizmi, işraqilik və irfani-fəlsəfi ənənələrin tarixi inkişafı məsələlərinə dair çoxsaylı araşdırmalar aparmış, Azərbaycan fəlsəfə məktəbinin formalaşmasında mühüm rol oynamış şəxsiyyətlərin irsini tədqiq etmişdir.

Zakir Məmmədov tədqiqatlarında Nəsirəddin Tusinin elmi irsinin sistemləşdirilməsinə də xüsusi yer ayırmışdır. O, Tusi məktəbinə mənsub alimlərin fəaliyyətinin tədqiqi zamanı Marağa rəsədxanasının elmi mühitinə dair mühüm mənbələri araşdırmış, Kəriməddin Səlmasinin astronomiya tarixi üçün əhəmiyyətli olan coğrafi qlobus modelinin müəllifliyinə dair elmi nəticələr əldə etmişdir.

1997-ci ildən ömrünün sonuna qədər AMEA Fəlsəfə və Hüquq İnstitutunda onun təşəbbüsü ilə yaradılmış Şərq fəlsəfəsi tarixi və dinşünaslıq şöbəsinə rəhbərlik etmişdir. Paralel olaraq uzun illər ali məktəblərdə, xüsusilə Bakı Dövlət Universitetində Şərq fəlsəfəsi tarixi, fəlsəfə tarixi və Azərbaycan fəlsəfi fikri fənlərini tədris etmişdir. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Zakir Məmmədovun elmi irsi 30-dan çox kitabı və 250-dən artıq elmi məqaləni əhatə edir. Onun "Azərbaycanda XI–XIII əsrlərdə fəlsəfi fikir", "Bəhmənyarın fəlsəfəsi", "Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri" və "Azərbaycanda Şərq fəlsəfəsi tarixi" kimi əsərləri ölkədə Şərq fəlsəfəsi tədqiqatlarının metodoloji əsaslarının formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.

Alimin elmi irsi və fəaliyyəti müasir dövrdə də araşdırma mövzusu olaraq qalır, həyat və yaradıcılığına dair müxtəlif elmi-tədqiqat işləri aparılmış, AMEA tərəfindən "Seçilmiş əsərləri", "Zakir Məmmədov: biblioqrafiya" nəşr edilmişdir.

Zakir Cabbar oğlu Məmmədov 2 mart 2003-cü ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Məmmədova, A. Azərbaycan fəlsəfə tarixşünaslığının problemləri: Zakir Məmmədov irsi (Zakir Məmmədovun doğumunun 85 illiyi münasibətilə / Aytək Məmmədova // Elmi əsərlər / AMEA Fəlsəfə, Sosiologiya İnstitutu. - 2021. - №1(36). - S.41-48.

Əntiqə. AMEA-da konfrans: Görkəmli filosof alim Zakir Məmmədovun 85 illik yubileyi / Əntiqə // Ədalət.-2021.- 16 oktyabr. - S.8.

Quliyeva, X. XX əsrin böyük Azərbaycan filosofu Zakir Məmmədov (Baharlı) / X.Quliyeva.– Bakı: Azərnəşr, 2003.– 160 s.

Zakir Cabbar bəy oğlu Məmmədov: biblioqrafik göstərici / AMEA Mərkəzi elmi Kitabxanası; tərt. A.Zakirqızı, Ü.Zakirqızı; red. A.Ə.Kəngərli, İ.Səfərov.– Bakı: Elm, 2010.– 163, [1] s.

Seçilmiş əsərləri / Zakir Məmmədov; red. V.Məmmədəliyev; tərt.: A.Zakirqızı, Ü.Zakirqızı.– Bakı: Elm, 2015.– 739, [1] s.


İnternetdə:

https://science.gov.az/az/forms/skanchavshiesya-chlenyikorrespondent

Aslan Aslanov – 100

(1926-1995)

Akademik



Ədəbiyyat:

Rüstəmli, A. Bir görüşün tarixçəsi (Akademik Aslan Aslanovu xatırlayarkən) / A.Rüstəmli // Azərbaycan.– 2018.– № 4.– S. 149-154.

Ruhumuzu gözəlləşdirən şair - Aslan Aslanov [Elektron resurs]: filosof, şair, ictimai xadim Aslan Aslanovun anadan olmasının 90 illik yubileyi münasibəti Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt. A.Əliyeva; red. Z.Dadaşova; ixt. red. və burax. məsul Ş.Qəmbərova.– Bakı, 2016.– 22 s.

Nəğməli günlərim: şeirlər / Aslan Aslanov; [ön söz. İ.Əfəndiyev].– Bakı: Yazıçı, 1985.– 177 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Aslan_Aslanov_(filosof)#:~:text=Aslanov%20Aslan%20Məhəmməd%20oğlu%20(20,Elmlər%20Akademiyasının%20vitse-prezidenti%2C

Aslan Məhəmməd oğlu Aslanov 1926-cı il avqustun 20-də Ağstafa rayonunun Poylu kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra 1945–1950-ci illərdə S.M. Kirov adına Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) ali təhsil almış və Tarix fakültəsini fəlsəfə ixtisası üzrə bitirmişdir. O, tələbəlik illərindən ictimai və pedaqoji fəaliyyətlə məşğul olmuş, 1945–1950-ci illər arasında universitetin komsomol komitəsinin katibi vəzifəsində çalışmışdır.

Ali təhsili başa vurduqdan sonra fəlsəfə sahəsində elmi fəaliyyətə başlayan Aslan Aslanov 1959-cu ildə fəlsəfə elmləri namizədi, 1974-cü ildə isə fəlsəfə elmləri doktoru elmi dərəcəsini almışdır. 1976-cı ildə professor elmi adı ilə təltif olunmuşdur. Onun elmi fəaliyyətinin ilk mərhələsi etikaya, estetikaya və Qərb fəlsəfi-estetik fikrinin əsas kateqoriyalarının tədqiqinə həsr edilmişdir.

Aslan Aslanovun akademik və pedaqoji fəaliyyəti uzun illər Azərbaycan Dövlət Universiteti ilə bağlı olmuşdur. 1961-ci ildən 1980-ci ilədək universitetin Estetika və etika kafedrasına rəhbərlik etmiş, paralel olaraq iki dəfə universitetin partiya komitəsinin katibi vəzifələrində çalışmışdır. 1977-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutuna (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) rektor təyin edilmiş və bu vəzifəni 1987-ci ilədək icra etmişdir.

1987-ci ildə Aslan Aslanov Azərbaycan Elmlər Akademiyasının Tarix, İqtisadiyyat, Fəlsəfə və Hüquq Bölməsinin akademik-katibi vəzifəsinə təyin edilmiş və 1995-ci ilədək bu vəzifəni icra etmişdir. 1988–1995-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti olmuş, eyni zamanda 1990–1995-ci illərdə AMEA-nın Fəlsəfə və Hüquq İnstitutuna rəhbərlik etmişdir. O, 1989-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Aslan Aslanovun elmi yaradıcılığı əsasən Şərq və Qərb estetikasının müqayisəli tədqiqinə, antik yunan və Roma estetikası, orta əsrlər Avropa və Şərq estetik fikrinin nəzəri problemlərinin araşdırılmasına həsr olunmuşdur. O, estetik tərbiyə, sənətin sosial mahiyyəti, mədəniyyətlərin qarşılıqlı təsir mexanizmləri və estetik dəyərlərin formalaşması problemlərini sistemli şəkildə təhlil etmişdir.

Aslan Aslanov Aristotelin "Poetika" əsərinin, Deni Didronun "Qardaşım oğlu Ramo" traktatının, C. Bayronun "Gavur", A. Tvardovskinin "Vasili Tyorkin" poemalarını Azərbaycan dilinə tərcümə etmişdir.

Alimin beynəlxalq elmi əlaqələri də geniş olmuşdur. O, 1968-ci ildə İsveçdə keçirilən Estetika üzrə VI Beynəlxalq Konqresdə, 1970-ci ildə Berlində təşkil olunan VII Beynəlxalq Hegel Yubiley Konqresində, 1972-ci ildə Buxarestdə keçirilən Estetika üzrə VIII Beynəlxalq Konqresdə məruzələrlə çıxış etmiş, həmçinin İngiltərə və Almaniya Federativ Respublikasında sovet elmləri günlərinin iştirakçısı olmuşdur.

Onun elmi-metodoloji fəaliyyətinin nəticəsi olaraq "Estetika aləmində" monoqrafiyası və 1979-cu ildə nəşr olunan "Marksist-leninçi estetikanın əsasları" dərs vəsaiti Azərbaycan elmi və ali təhsil məkanında geniş istifadə olunmuşdur. O, həmçinin poeziya sahəsində də fəaliyyət göstərmiş, "Səni düşünürəm" (1958), "Qızlar və bənövşələr" (1961) və "Nəğməli günlərim" (1985) kitablarının müəllifi olmuşdur.

Elmi və elmi-təşkilati fəaliyyətinə görə Aslan Aslanov 1992-ci ildə Azərbaycan Respublikasının "Əməkdar elm xadimi" fəxri adı ilə təltif edilmişdir.

Aslan Məhəmməd oğlu Aslanov 23 avqust 1995-ci ildə Bakıda vəfat etmişdir.

Rafiq Hüseynov – 80

(1946-2017)

Diktor, redaktor



Rafiq Eyyub oğlu Hüseynov (Hüseynli) 1946-cı il avqustun 4-də Şuşa şəhərində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Televiziyasına gəlmiş və 1966-cı ildə diktor müsabiqəsini uğurla keçərək təcrübəçi diktor kimi fəaliyyətə başlamışdır. Peşəkar diktorluq məktəbinin formalaşmasında mühüm rol oynamış Rafiq Hüseynov milli televiziyanın ilk peşəkar diktorlarından biri kimi tanınmışdır. Səsi, nitq mədəniyyəti, diksiyası və mətnin semantik yükünə uyğun intonasiya seçimi ilə seçilən diktor televiziya nitqinin estetik standartlarının formalaşmasına təsir göstərmişdir.

Televiziya fəaliyyətinə başlamazdan əvvəl "Azərbaycanfilm" kinostudiyasında uşaqların səsləndirilməsi üzrə dublyaj işində iştirak etmiş, sonrakı illərdə də kinostudiya ilə əməkdaşlığını davam etdirmişdir. O, müxtəlif sənədli və bədii filmlərin kadrarxası mətninin səsləndirilməsi ilə milli kino prosesində xüsusi yer tutmuşdur. Onun səsləndirməsi "Şəki" (1977), "Ölü zona" (1988), "Fəryad" (1993), "Biz qayıdacağıq" (2007), "Gün keçdi" (2012), Qobustan kölgələri (II) (2013), Ağa Neymətulla və ya bir ömrün 61 baharı (2013), Xəlvətdə qalmış müdrik (2014) və digər ekran materiallarında istifadə edilmişdir.

Rafiq Hüseynov televiziya sahəsində uzunmüddətli fəaliyyət ərzində Azərbaycan Dövlət Televiziyasında müxtəlif vəzifələrdə çalışmış, bir müddət sədr müavini vəzifəsini icra etmişdir. 1990-cı ildən sonra televiziya fəaliyyətindən ayrılmış, lakin kinostudiyada redaktor kimi fəaliyyətini davam etdirmişdir. 2007-ci ildə yenidən AzTV-yə dəvət edilərək aparıcıların bədii rəhbəri vəzifəsinə təyin olunmuşdur.

O, pedaqoji fəaliyyətlə də məşğul olmuş, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda nitq mədəniyyəti və diktorluq üzrə dərs demiş, professor elmi rütbəsini almışdır. Bir çox tanınmış televiziya aparıcıları və diktorlar onun yetirmələri olmuşdur.

Rafiq Hüseynov mətbuat sahəsində də fəaliyyət göstərmiş, "Yurd" jurnalının baş redaktoru vəzifəsini icra etmişdir. Həmçinin sənədli film sahəsində rejissor kimi çıxış etmiş, "Qarabağa aparan yol" (2010) filmi onun rejissor işləri arasında xüsusi qeyd olunmuşdur.

Səsləndirmə və televiziya sahəsindəki xidmətlərinə görə 1991-ci ildə "Ölü zona" filminə görə Azərbaycan Dövlət mükafatına layiq görülmüş, daha sonra "Xalq artisti" fəxri adı ilə təltif edilmişdir. 2016-cı ildə Azərbaycan Kinematoqrafçılar İttifaqının Milli Kino Günü münasibətilə təsis etdiyi illik mükafata layiq görülmüşdür.

Rafiq Hüseynovun filmoqrafiyası genişdir və Azərbaycan televiziya sənədli kino fondu üçün dəyərli material hesab edilir. O, həmçinin redaktor kimi bir neçə ekran əsərinin hazırlanmasında iştirak etmişdir. Səsləndirdiyi sənədli filmlər tarix, mədəniyyət, incəsənət və müasirlik mövzularını əhatə etmişdir.

Rafiq Hüseynov 26 oktyabr 2017-ci ildə Almaniyanın Düsseldorf şəhərində vəfat etmiş, 3 noyabr 2017-ci ildə Bakıda Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında keçirilən vida mərasimindən sonra Yasamal qəbiristanlığında dəfn olunmuşdur.

Rafiq Hüseynovun fəaliyyəti Azərbaycan televiziya və səsləndirmə mədəniyyətinin inkişafında mühüm mərhələ təşkil etmişdir.

Ədəbiyyat:

Musaqızı, L. Televiziyaya səmimiyyət gətirən adam / L.Musaqızı // Kaspi.– 2015.– 19 iyun.– S. 21.

Nadir, F. Televiziyamızın canlı əfsanəsi...: Xalq artisti, Dövlət Mükafatı laureatı, görkəmli teleaparıcı və diktor, professor Rafiq Hüseynlinin 70 yaşı tamam olur / F.Nadir // 525-ci qəzet.– 2016.– 6 avqust.– S.12.

Behbudqızı, S. Əvəzolunmaz... / S.Behbudqızı // Mədəniyyət.az.– 2017.– №6.– noyabr-dekabr.– S. 50.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Rafiq_Hüseynov_(diktor)

https://aki.az/rafiq-huseynli-75/

Rafiq Həşimov – 60

(1966)

Diktor, rejissor



Rafiq Məhəmməd oğlu Həşimov 11 avqust 1966-cı ildə Ucar rayonunun Əlikənd kəndində anadan olmuşdur. 1973–1981-ci illərdə Abşeron rayonunun Güzdək qəsəbəsində orta məktəbi bitirmiş, 1981–1985-ci illərdə Bakı Rabitə Elektrotexnikumunun "Televiziya və Radio texnikası" fakültəsində təhsil almışdır. 1985–1987-ci illərdə Sovet Ordusunda hərbi xidmət keçmişdir.

1987-ci ildən Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətində texnik kimi fəaliyyətə başlamış, sonradan videooperator və montajçı vəzifələrində çalışmışdır. 1990-cı ildən diktor və aparıcı kimi fəaliyyət göstərmiş, 1997-ci ildə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirmişdir.

Rafiq Həşimov televiziya sahəsində uzunmüddətli praktiki fəaliyyət göstərmişdir. O, "Xəbərlər" informasiya proqramı, müxtəlif dövlət tədbirləri, "XX əsr" və "Səhər" müəllif proqramlarının aparıcısı olmuş, Space TV, Lider TV və Xəzər TV-də aparıcı və müxbirlərin nitq mədəniyyəti ilə məşğul olmuşdur. Xəzər Universitetində və Teleradio Akademiyasında nitq mədəniyyəti üzrə pedaqoji fəaliyyət göstərmiş, 2020-ci ildən Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini vəzifəsində çalışır.

Rafiq Həşimovun ssenari müəllifi olduğu bir sıra bədii-sənədli filmlər çəkilmişdir. Bunlar arasında "Valın üçüncü üzü" (1996), "Qum dənəsi" (1997), "Səyyahın gündəliyi" (2007), "Azad Mirzəcanzadə" (1999), "Günəş və bulud" (2000), "Gözümün işığı" (2002), "Qamış şəhərin yuxuları" (2006), "Heydər Əliyev. İki əsrin fenomeni" (2003), "Diktor" (2006), "Yarımçıq gündəlik" (2011), "Səttarın Azərbaycanı" (2013) və "Odlar torpağının suyu" (2015) filmləri yer alır.

R.Həşimov 2011-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə şəhid Fuad Əsədov haqqında "Yarımçıq gündəlik" bədii-sənədli filmini, 2013-cü ildə isə görkəmli Azərbaycan rəssamı Səttar Bəhlulzadədən bəhs edən "Səttarın Azərbaycanı" sənədli filmini çəkib. "XX əsr" adlı kulturoloji müəllif proqramının müəllifi və aparıcısı kimi Azərbaycanın görkəmli elm, mədəniyyət, incəsənət xadimlərinə həsr olunmuş filmlər və verilişlər hazırlayıb.

Rafiq Həşimov 2011-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə şəhid Fuad Əsədov haqqında "Yarımçıq gündəlik" bədii-sənədli filmini, 2013-cü ildə isə görkəmli Azərbaycan rəssamı Səttar Bəhlulzadədən bəhs edən "Səttarın Azərbaycanı" sənədli filmini çəkib. "XX əsr" adlı kulturoloji müəllif proqramının müəllifi və aparıcısı kimi Azərbaycanın görkəmli elm, mədəniyyət, incəsənət xadimlərinə həsr olunmuş filmlər və verilişlər hazırlayıb.

O, 2008-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, 2014–2020-ci illərdə AYB Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədr müavini vəzifəsində çalışmışdır.

Rafiq Həşimov 4 noyabr 1998-ci ildə "Azərbaycan Respublikasının əməkdar artisti" fəxri adına layiq görülmüşdür. 21 iyul 2025-ci ildə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Media nümayəndələrinin təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 21 iyul 2025-ci il // Azərbaycan.-2025.- 22 iyul (№ 149).- S.7.

"Tamaşaçı obrazı mənim üçün efirə çıxan istənilən fərddən ağıllıdır, zövqlüdür, mədənidir": Teleaparıcı, diktor, ssenarist, rejissor, əməkdar artist, Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin (AZ.tv) sədr müavini Rrafiq Həşimovla söhbət / R.Həşimov; müsahibəni apardı Tamilla M-Zadə // 525-ci qəzet.– 2025.– 26 aprel(№71).– S.12;13.

Rafiq Həşimov 55 // Ədəbiyyat qəzeti.– 2021.– 7 avqust.– S.12-13.

"Sözün repressiyası" təqdim edilib // Mədəniyyət.– 2022.– 18 noyabr.– S.3.

İnternetdə:

https://www.aztv.az/az/structure/3

https://president.az/az/articles/view/69426

https://www.anl.az/down/meqale/edebiyyat/2021/avqust/752949.htm

Kamil Vəli Nərimanoğlu – 80

(1946-2023)

Filoloq



Ədəbiyyat:

Azərbaycan dövlət dili siyasəti: dilpoetika araşdırmaları / Kamil Nərimanoğlu.– Bakı: Çinar-Çap, 2006.– 257 s.

Kamil Vəli Nərimanoğlu: biblioqrafiya / tərt.M.Vəliyeva; red. N.Nağıyeva.– Bakı: AzAtam, 2007.– 304 s.

Azərbaycan eposunun poetik sintaksisi: monoqrafiya / Kamil Nərimanoğlu; elmi red. V.Aslanov.– Bakı: Oskar, 2009.– 316 s.

Eşqin sözü: Düşüncələr: sistemli-sistemsiz, məntiqli-absurd, aydınbulanıq / Kamil Vəli; red. L.Cəbrayıllı.– Bakı: Nurlan, 2011.– 182 s.

Çelişki ve yenilik dehası Mirza Fathali Ahuntzade: Doğumunun 200. yılı anısına deneme / Kamil Nerimanoğlu; editör Y.Akpınar; red. A.F.Erkolor.– İstanbul: Doğu Kütuphanesi, 2013.– 85 s.

Əcəl gəldi, gedən dönməz bir daha: Ustad alim Kamil Vəli Nərimanoğlunun işıqlı, əziz xatirəsinə / İ.C.İmamverdiyev // 525-ci qəzet.– 2023.– 27 dekabr, №235.– S.12.

Kamil Vəli Nərimanoğlunun son arzuları / Ə.Şamil // 525-ci qəzet.– 2024.– 19 mart, №51.– S.10;11.

Kamil Nəriman oğlu Vəliyev (Kamil Vəli Nərimanoğlu) 18 avqust 1946-cı ildə Cəbrayıl rayonunda anadan olmuşdur. Orta təhsilini 1965-ci ildə başa vurduqdan sonra 1965–1970-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almış və universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Tələbəlik illərindən elmi-publisistik fəaliyyətə başlamış, ilk məqaləsi "Vaqif dili, Vaqif üslubu" adı ilə universitet qəzetində dərc olunmuşdur. Elmə marağı və mətbuatda müntəzəm çıxışları nəzərə alınaraq 1970-ci ildə Azərbaycan dilçiliyi kafedrasında müəllim kimi saxlanılmışdır.

Kamil Vəliyev 1974-cü ildə "Azərbaycan dilində ki şəkilçisi" mövzusunda namizədlik, 1988-ci ildə isə "Azərbaycan qəhrəmanlıq eposunun poetik sintaksisi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1976–1981-ci illərdə baş müəllim, 1981–1988-ci illərdə dosent, 1989-cu ildən isə professor elmi adı almışdır. 1988–1998-ci illər ərzində Bakı Dövlət Universitetində Azərbaycan dilçiliyi kafedrasına rəhbərlik etmiş, universitetin Böyük Elmi Şurasının üzvü olmuşdur.

Onun elmi fəaliyyəti dilçilik, folklor, poetika və türkoloji araşdırmalar istiqamətində sistemli tədqiqatlarla xarakterizə olunur. "Azərbaycan dilinin poetik sintaksisi", "Dastan poetikası", "Linqvistik poetikaya giriş", "Azərbaycan dil tarixi", "Azərbaycan dövlət dili siyasəti" və digər monoqrafiyaları çağdaş Azərbaycan linqvistikasında nəzəri ümumiləşdirmələri ilə seçilir. O, həmçinin Azərbaycan qəhrəmanlıq eposunun sintaktik-poetik quruluşunun araşdırılması istiqamətində fundamental nəticələr əldə etmişdir.

Kamil Vəliyev 1977-ci ildən "Azərbaycan" jurnalının redaksiya heyətinin üzvü olmuş, 1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinə daxil olmuş, sonralar tənqid və ədəbiyyatşünaslıq şurasının sədr müavini kimi fəaliyyət göstərmişdir. 1990-cı ildə Türkiyə Folklor Araşdırmaları Vəqfinin nümayəndəsi seçilmiş, həmin ildə Səlcuq Universiteti tərəfindən fəxri doktor adına layiq görülmüşdür. Türkiyə Linqvistika Cəmiyyətinin müxbir üzvü olmuşdur.

1991–1992-ci illərdə Türkiyənin Egey Universitetində, 1999–2000-ci illərdə Şimali Kipr Türk Cümhuriyyətinin Şərqi Ağdəniz Universitetində professor kimi dərs demişdir. Sonrakı dövrdə Atatürk Kültür Mərkəzi, Türk Dil Qurumunun müvafiq elmi təşkilatları, Türk Folklor Qurumunun fəxri üzvlüyünə qəbul edilmişdir. O, həmçinin Türk Dünyası ədəbiyyatı çoxcildliyinin redaksiya şurasının və müxtəlif türkoloji elmi dərgilərin redaksiya heyətlərinin üzvü olmuşdur.

Kamil Vəliyevin elmi yaradıcılığı ilə yanaşı, geniş tərcümə fəaliyyəti də mövcuddur. O, Məhəmməd Füzulinin "Türk divanının dibaçəsi", Əlişir Nəvainin "İki dilin mübahisəsi" və Yusif Balasaqunlunun "Qutatqu bilik" əsərlərinin nəşrlərinə elmi ön söz yazmış, əsərlərin tərcümə və nəşrinə elmi rəhbərlik etmişdir.

Kamil Vəliyev 40-dan çox elmi monoqrafiyanın və 500-dən artıq elmi məqalənin müəllifidir. O, dünyanın 20-dən artıq ölkəsində keçirilmiş beynəlxalq elmi konfrans və simpoziumlarda məruzələrlə çıxış etmişdir.

Elm və mədəniyyət sahəsindəki xidmətlərinə görə 1998-ci ildə Türkiyə Respublikasının "Şərəf və Ləyaqət nişanı" ilə təltif edilmiş, həmçinin Türk Əməkdaşlıq və İnkişaf Agentliyinin, Türk Dil Qurumunun, Bilkənd Universitetinin və Türk Mədəniyyətinə Xidmət Vəqfinin mükafatlarına layiq görülmüşdür. Qırğızıstanda Çingiz Aytmatov Akademiyasının fəxri üzvü seçilmişdir. 1993-cü ildə Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsində çalışmışdır.

Kamil Vəliyev 16 dekabr 2023-cü ildə vəfat etmişdir.

Məhəmməd Ağaoğlu – 130

(1896-1949)

Sənətşünas



Məhəmməd Ağa oğlu Ağayev 24 avqust 1896-cı ildə İrəvan quberniyasının İrəvan şəhərində ziyalı ailəsində anadan olmuşdur. İbtidai təhsilini mədrəsədə almış, 1912-ci ildə gimnaziyanı bitirdikdən sonra Moskva Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olmuşdur. 1916–1919-cu illərdə Türküstan, İran, İraq, Türkiyə və Suriyaya elmi məqsədli səfərlər etmiş, Şərq sənətinin mənbələrini yerində öyrənmişdir. Filologiya sahəsində doktorluq dissertasiyasını müdafiə etdikdən sonra bir müddət Bakıda yaşamışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkülü dövründə Məhəmməd Ağaoğlu mədəni quruculuq işlərində fəal iştirak etmişdir. Onun təşəbbüsü ilə "İstiqlal" muzeyi və "Qədim abidələrin müdafiəsi Cəmiyyəti" yaradılmış, maddi mədəniyyət nümunələrinin toplanması və qorunması istiqamətində işlər aparılmışdır. 1920-ci ildə sovet hakimiyyətinin qurulmasından sonra Türkiyəyə mühacirət etmiş və İstanbul Universitetində təhsilini davam etdirmişdir. İstanbul muzeylərinin direktoru Xəlil Ədhəmin rəhbərliyi ilə 1923–1927-ci illərdə Şərq dilləri və mədəniyyəti sahəsində ixtisasını təkmilləşdirmiş, 1926-cı ildə fəlsəfə elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

Məhəmməd Ağaoğlu 1927–1928-ci illərdə İstanbul Milli Muzeyinin "Çinili köşk" İslam incəsənəti bölməsinə rəhbərlik etmiş, eyni zamanda İstanbul Universitetinin İncəsənət kafedrasında professor assistenti olmuşdur. Həmin dövrdə "Türk və İslam əsərləri" muzeyinin əvəzedici direktoru vəzifəsini icra etmişdir. 1929-cu ildə ABŞ-a dəvət olunaraq Detroyt İncəsənət İnstitutunda Yaxın Şərq mədəniyyəti və incəsənəti şöbəsini yaratmış, Şərq xalqlarının dekorativ-tətbiqi sənət nümunələrindən ibarət sərgilər təşkil etmişdir. Onun fəaliyyəti nəticəsində institutun İslam incəsənəti kolleksiyası ABŞ-da ən zəngin kolleksiyalardan birinə çevrilmişdir.

1933–1938-ci illərdə Miçiqan Universitetində Şərq xalqlarının incəsənəti tarixi üzrə professor kimi çalışmış və burada İslam incəsənəti tarixi kafedrasını yaratmışdır. 1934-cü ildə Firdovsinin anadan olmasının min illiyi münasibətilə Tehranda keçirilən Beynəlxalq Şərqşünaslıq Konqresində Detroyt İncəsənət İnstitutu və Miçiqan Universitetini təmsil etmişdir.

Məhəmməd Ağaoğlu ərəb, fars, türk, rus, ingilis, alman, fransız, yunan və latın dillərinə bələd olmuş, geniş elmi erudasiyası ilə tanınmışdır. O, müxtəlif mədəniyyət mərkəzlərində mühazirələr oxumağa dəvət edilmiş, İslam incəsənətinə dair beynəlxalq sərgilərin təşkilində yaxından iştirak etmişdir. Şərq incəsənətinin az tədqiq edilmiş abidələrinin öyrənilməsi və elmi dövriyyəyə gətirilməsi onun tədqiqat fəaliyyətinin əsas istiqamətlərindən olmuşdur.

Məhəmməd Ağaoğlu 1934-cü ildə təsis etdiyi "Ars Islamica" ("İslam incəsənəti") jurnalının naşiri və baş redaktoru olmuş, jurnal vasitəsilə İslam incəsənəti tədqiqatlarının Qərb elmi məkanında sistemli şəkildə yayılmasına töhfə vermişdir.

Alimin elmi irsi 50-dən artıq tədqiqat əsərini əhatə edir. Onun "İslam incəsənəti tarixi" (İstanbul, 1928), "XV əsrdə İranda kitab cildi" (Persian Bookbindings of the Fifteenth Century, Ann Arbor, 1935), "Səfəvi dövrünün xalça və parçaları" (Şafavid Rugs and Textiles, New York, 1941) kimi monoqrafiyaları Şərq sənəti tarixinin mühüm mənbələri hesab olunur. Tədqiqatlarının bir qismi Azərbaycan və ümumşərq miniatürü, xalçaçılıq, bədii metal və toxuculuq sənəti, həmçinin Topqapı sarayı kitabxanasında saxlanılan əlyazmaların ilkin təsnifatı ilə bağlıdır.

Məhəmməd Ağa oğlu Ağayev 4 iyun 1949-cu ildə ABŞ-ın Detroyt şəhərində vəfat etmişdir.

Onun fəaliyyəti Şərq incəsənətinin beynəlxalq miqyasda elmi öyrənilməsinə, İslam incəsənəti tədqiqatlarının formalaşmasına və Azərbaycan elmi ənənələrinin dünya miqyasında tanınmasına mühüm təsir göstərmişdir.

Ədəbiyyat:

Quliyev, V. Cümhuriyyət məmurunun dünya şöhrəti (Məhəmməd Ağa-Oğlu): AXC - 100 / V.Quliyev // 525-ci qəzet.– 2018.– 15 iyun.– S.18-19.

Vilayət Quliyev. Cümhuriyyət yazıları. Bakı: Çapar yayınları. - 2021. - 365 s.

Sena çayında cəsədi tapıldı, cibindən şeir çıxdı...: Azərbaycanlı sənətşünasa ithaf / D. Əhməd // Türküstan.– 2022.– 25-31 oktyabr.– S.16.

Məşhur maarifçi Qərbi azərbaycanlı professor - AXC-nin süqutundan sonra vətənə dönə bilmədi... / İ.Sarıyeva // Bakı Xəbər.– 2023.– 6 aprel.– S.12.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Məhəmməd_Ağaoğlu

https://edebiyyatve-incesenet.az/reytinq/item/16710-muhadzir-azaerbaydzanlilar-maehaemmaed-aghaoghlu

Əjdər Xanbabayev – 95

(1931-1990)

İctimai xadim



Əjdər Rza oğlu Xanbabayev 25 avqust 1931-ci ildə Ordubad şəhərində anadan olmuşdur. 1952–1956-cı illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində təhsil almışdır. Universiteti bitirdikdən sonra Azərbaycan Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərən "Elm" nəşriyyatında redaktor, daha sonra baş redaktor vəzifəsində çalışmışdır. Sonrakı illərdə həmin nəşriyyatın direktoru təyin edilmiş, daha sonra isə "Yazıçı" nəşriyyatına və "Azərnəşr" nəşriyyatına rəhbərlik etmişdir. 1986-cı ildə Azərbaycan SSR Mətbuat, Poliqrafiya və Kitab Ticarəti Dövlət Komitəsi sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdir.

Xanbabayevin rəhbərliyi altında respublikanın nəşriyyat sahəsində iri miqyaslı layihələr həyata keçirilmişdir. Bunlara 10 cildlik "Azərbaycan Ensiklopediyası"nın tamamlanması, 50 cildlik "Dünya uşaq ədəbiyyatı"nın nəşri, Azərbaycan dilində "Dünya ədəbiyyatı kitabxanası" seriyasının ilk 30 cildinin çapı, habelə Azərbaycan və rus dillərində 20 cildlik "Azərbaycan klassik ədəbiyyatı kitabxanası"nın hazırlanması daxildir. Nizami Gəncəvinin və digər klassik Azərbaycan şairlərinin əsərlərinin müxtəlif xarici dillərə çevrilərək nəşr edilməsi də həmin dövrün mədəni nəşriyyat təşəbbüsləri sırasında yer almışdır. Xanbabayev nəşriyyat işini həm nəzəri, həm də praktiki aspektlərdə dərindən bilən mütəxəssis kimi tanınmışdır.

1990-cı il mayın 30-da Xanbabayev Bakıda, Azərbaycan Rus Dram Teatrının yaxınlığında şəxsi avtomobilində odlu silahdan açılmış atəş nəticəsində həlak olmuşdur.

Əjdər Xanbabayevin fəaliyyəti Azərbaycan nəşriyyat tarixində sovet dövrü kitab siyasəti, poliqrafiya və ideoloji nəşr proseslərinin idarə olunması baxımından əhəmiyyətli mərhələlərdən birini təşkil edir. Onun nəşriyyat sahəsində həyata keçirdiyi layihələr ölkənin elmi, bədii və maarif yönümlü kitab irsinin inkişafında mühüm rol oynamışdır.

Ədəbiyyat:

Görkəmli naşirin xatirəsinə həsr olunmuş kitabın təddimatı // Azərbaycan.– 2001.– 13 iyun.– S. 5.

30 May - Əjdər Xanbabayevin qətlə yetirildiyi dəhşətli gün 22 il bundan əvvəl... / İ.Sarıyeva // Bakı Xəbər.– 2012.– 30 may.– S. 12.

Varislər: Afət Xanbabayeva: "Azərbaycanın bir qarış torpağı düşmənə qalmayacaq" / A. Xanbabayeva; söhbətləşdi: Əyyub Qiyas // Ədəbiyyat qəzeti.– 2020.– 10 oktyabr.– S16-17.

Fərəcova, Z Naşir ömrü: Unutsaq, unudularıq / Z.Fərəcova // Azərbaycan.– 2021.– 8 sentyabr.– S. 7.

Rüstəmxanlı, S. Əjdər Xanbabayevin bağında: Qiraət üçün / S.Rüstəmxanlı // Yeni Azərbaycan.– 2025.– 13 mart (№46).– S.6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Əjdər_Xanbabayev

https://qebulol.az/ejder-xanbabayev/

Nurlana Əliyeva – 80

(1946)

Filoloq



Nurlana Müzəffər qızı Əliyeva 28 avqust 1946-cı ildə Gəncə şəhərində anadan olmuşdur. Orta təhsilini Cəfər Cabbarlı adına 6 nömrəli məktəbdə başa vurduqdan sonra 1964-cü ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş və 1969-cu ildə universiteti filoloq-dilçi ixtisası üzrə bitirmişdir. 1970-ci ildən əmək fəaliyyətinə başlayan Nurlana Əliyeva əvvəlcə Bakı şəhəri Nəsimi rayon pionerlər evində metodist, 1975–1979-cu illərdə 134 saylı orta məktəbdə, 1979–1990-cı illərdə isə Bakı Maliyyə-Kredit Texnikumunda Azərbaycan dili və ədəbiyyat müəllimi kimi çalışmışdır.

1988-ci ildə "Azərbaycan bədii nəsrində müasir kənd və onun problemləri" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi almışdır. 1990-cı ilin dekabrında Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru təyin olunmuş və uzun müddət bu vəzifədə çalışmışdır.

2004-cü ildə "60–80-ci illər Azərbaycan nəsrində qəhrəman və üslub axtarışları" adlı doktorluq dissertasiyasını müdafiə etmiş, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə filologiya elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür. Həmin ildə Rusiya Federasiyasının Psixologiya və Pedaqogika Akademiyasının müxbir üzvü seçilmişdir.

Nurlana Əliyeva elmi-tədqiqat fəaliyyəti ilə yanaşı, müxtəlif elmi strukturlarda təşkilati işlərlə də məşğul olmuşdur. O, 2006–2012-ci illərdə AMEA Nizami adına Ədəbiyyat İnstitutu nəzdində elmlər doktoru müdafiə şurasının üzvü olmuş, Bakı Dövlət Universitetində professor kimi dərs demişdir. Onun tədqiqatları əsasən Azərbaycan nəsrinin janr-üslub xüsusiyyətləri, ədəbi qəhrəman konsepsiyası, müasir kənd mövzusunun bədii təcəssümü və ədəbiyyatın sosial-mədəni kontekstləri ilə bağlı problemləri əhatə edir.

Elmi yaradıcılığı genişdir: 200-dən artıq elmi-publisistik məqalənin, 12 kitabın müəllifidir. Tədqiqatlarında ədəbi prosesin inkişaf meyilləri, bədii nəsrin metodoloji əsasları və Azərbaycan ədəbiyyatının müasir mərhələlərinin nəzəri təhlili xüsusi yer tutur.

Nurlana Əliyeva uzun illər ictimai-siyasi fəaliyyətlə də məşğul olmuşdur. 1995-ci ildən Yeni Azərbaycan Partiyasının, 1998-ci ildən isə partiyanın Siyasi Şurasının üzvüdür. YAP-ın müxtəlif qurultaylarında nümayəndə kimi iştirak etmiş, partiya strukturlarında bir sıra vəzifələrdə təmsil olunmuşdur. O, həmçinin 2000–2005-ci illərdə Əsir və Girovlarla İş üzrə Dövlət Komissiyasının üzvü olmuşdur. 2009-cu ildə YAP Respublika Qadınlar Şurasının sədri seçilmiş, 2013-cü ildən isə partiyanın İdarə Heyətinin üzvü olmuşdur.

2016-cı ilin aprelində təhsil nazirinin müşaviri, həmin ilin 23 iyununda isə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Bakı Slavyan Universitetinin rektoru təyin edilmişdir. Onun rektor vəzifəsinə 2021-ci il 22 iyun tarixli sərəncamla xitam verilmişdir.

Nurlana Əliyeva elmi və pedaqoji fəaliyyətinə görə bir sıra dövlət təltifləri ilə mükafatlandırılmışdır. 2004-cü ildə "Azərbaycan Respublikasının əməkdar müəllimi" fəxri adına, 2008-ci ildə isə "Şöhrət" ordeninə layiq görülmüşdür.

Ədəbiyyat:

Fərəcova, Z. Xatirələr işığında... / Zöhrə Fərəcova //Azərbaycan.-2025.- 8 mart (№52).- S.9.

Sadıq Qarayev yaradıcılığında Qarabağ azadlığı: tarixi zəfərin izi ilə / Nurlana Əliyeva // Kredo.-2025.- 20 noyabr (№33).- S.7.

Əbədiyaşarlıq fəlsəfəsi: [məqalələr toplusu] / Nurlana Əliyeva; red. C.A.Quliyeva.– Bakı: Elm və təhsil, 2013.– 583 s.

Bakı Slavyan Universiteti – 70 / Red. heyəti: N.M.Əliyeva (baş red.) [və b.]; [ön söz N.Əliyeva].– Bakı: [Elm və təhsil], 2016.– 398 s.

Qadına, anaya münasibətin ən unikal nümunəsi məhz Azərbaycandadır / Nurlana Əliyeva // Yeni Azərbaycan.– 2019.– 7 mart.–S. 7.

"Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bir milli şüara çevrildi / Nurlana Əliyeva // İki sahil.– 2020.– 11 noyabr.– S.23.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Nurlana_Əliyeva_(filoloq,_1946)

Qarasim Tağızadə – 80

(1946-2018)

Diktor



Qarasim Əbdülhəsən oğlu Tağızadə 30 avqust 1946-cı ildə Beyləqan rayonunun Dunyamalılar kəndində ziyalı ailəsində anadan olmuşdur. Orta təhsilini həmin rayonda almış, 1963-cü ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olmuş və təhsilini fərqlənmə diplomu ilə başa vurmuşdur. Universitetdə oxuduğu dövrdə müsabiqə yolu ilə Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsində diktor vəzifəsinə qəbul olunmuş, peşə fəaliyyətinə məhz bu sahədə başlamışdır.

Qarasim Tağızadə uzun illər Azərbaycan Radiosunda çalışmış, diktor, baş diktor və diktorlar şöbəsinin rəhbəri vəzifələrində fəaliyyət göstərmişdir. Televiziya verilişlərinin səsləndirilməsi prosesində də iştirak etsə də, əsas yaradıcılıq fəaliyyəti radio ilə bağlı olmuşdur. O, səlis danışıq, düzgün tələffüz və intonasiya mədəniyyətinin təbliği ilə seçilmiş, Azərbaycan radio diktorluq məktəbinin davamçıları sırasında yer almışdır. Peşəkar fəaliyyətində sələfləri Aydın Qaradağlı, Fatma Cabbarova, Züleyxa Hacıyeva, Sabutay Quliyev və Ramiz Mustafayev kimi diktorların yaradıcılıq ənənələrini davam etdirmiş, özünəməxsus nitq üslubu formalaşdırmışdır.

Qarasim Tağızadə ali məktəblərdə pedaqoji fəaliyyətlə də məşğul olmuş, nitq mədəniyyəti və ifa xüsusiyyətlərinə dair mühazirələr demişdir. O, dilçilik sahəsində bir sıra elmi məqalələrin və monoqrafiyanın müəllifi olmuşdur. Bununla yanaşı, bədii yaradıcılıqla da məşğul olmuş, hekayə və şeirləri "Ulduz" və "Azərbaycan" jurnallarında dərc edilmiş, bəzi şeirlərinə bəstəkarlar tərəfindən musiqi bəstələnmişdir.

Fəaliyyətinə görə Qarasim Tağızadə 1991-ci ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, 1998-ci ildə isə Xalq artisti fəxri adları ilə təltif olunmuşdur. 2003-cü ildən Prezidentin fərdi təqaüdçüsü olmuşdur

Tağızadə həm diktorluq fəaliyyətində, həm də bədii yaradıcılıqda Azərbaycan dilinin ifadə imkanlarının zənginliyinə xüsusi diqqət yetirmiş, nitq mədəniyyəti nümunələrinin təbliğinə töhfələr vermişdir. Onun ifasında səsləndirilmiş bədii mətnlər Azərbaycan radio irsinin mühüm bir hissəsini təşkil edir.

Qarasim Əbdülhəsən oğlu Tağızadəə 7 mart 2018-ci ildə Bakı şəhərində vəfat etmişdir.

O, Azərbaycan radio diktorluğu məktəbinin formalaşması və inkişafında mühüm rol oynamış, uzunmüddətli fəaliyyəti ilə milli radio yayımının peşəkar ənənələrinin qorunmasına və inkişafına əhəmiyyətli töhfələr vermişdir.

Ədəbiyyat:

Tanınmış radio diktoru dünyasını dəyişib // Mədəniyyət.– 2018.– 2 mart.– S. 12.

Nadir, F. Qara Tağızadə: o səs, o oxu, o duyum... / N.Firuzə // 525-ci qəzet.– 2019.– 2 mart.– S. 13.

Uzaq yaşıl ada: [Əməkdar incəsənət xadimi, xalq artisti, professor, Prezidentin fərdi təqaüdçüsü Qara Tağızadə (1946-2018) haqqında xatirələr] / Lətafət Tağızadə; red. və ön söz. müəl. S. Əlibəyli.– Bakı: [Bakı Mətbəəsi], [2021].– 280, [2] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Qarasim_Tağızadə

chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://anl.az/down/meqale/kredo/2021/sentyabr/755999(meqale).pdf

Əsgər Əyyubov – 100

(1926-2000)

İqlimşünas



Ədəbiyyat:

Bakının iqlimi / Əsgər Əyyubov; [red. C. Məmmədzadə].– Bakı: Azərnəşr, 1973.– 60, [3]s.

Bakı və Abşeron yarımadasının iqlimi və insan səhhəti / Əsgər Əyyubov, Z.F. Musayev, A.Ə. Kərimov və başqaları; Elmi red.: Ə.C. Əyyubov; Rəssamı: T. Malikov; Azərbaycan Respublikası Dövlət Hidrometerologiya Komitəsi; Elmi-tədqiqat Hidrometerologiya İnstitutu; Azərbaycan Elmlər Akademiyası akademik H.Ə. Əliyev adına Coğrafiya İnstitutu.– Bakı: Azərnəşr, 1997.– 126 s.

Kiş və Şin çayları hövzələrinin selləri / Əsgər Əyyubov, V.Ə.Quluzadə, H.L.Nəbiyev, C.H.Məmmədov; Red.: Z.M.Əlizadə; AEA akademik H.Ə.Əliyev ad. Coğrafiya İnstitutu; Şəki Regional Elmi Mərkəzi.– Bakı: Elm, 1998.– 216 s.

Azərbaycan Respublikasının konstruktiv coğrafiyası: 3 cilddə / baş red. B. Ə. Budaqov; məsul red. və ön söz müəl. Əsgər Əyyubov; AzEA, Akad. H. Ə. Əliyev ad. Coğrafiya İn-tu; "Elm" Redaksiya-Nəşriyyat və Poliqrafiya Mərkəzi.– Bakı: Elm, 1999.– 246 s.

Əsgər Cabbar oğlu Əyyubov 1926-cı il 3 avqust tarixində Nuxa (indiki Şəki) şəhərində anadan olmuşdur. O, ibtidai təhsilini 5 nömrəli Nuxa şəhər orta məktəbində almış, 1944-cü ildə Nuxa Pedaqoji Texnikumunu bitirmişdir. 1946–1951-ci illərdə S.M. Kirov adına Azərbaycan Dövlət Universitetində fiziki-coğrafiya ixtisası üzrə təhsil almış, ali məktəbi bitirdikdən sonra SSRİ Elmlər Akademiyasının Coğrafiya İnstitutunun aspiranturasına qəbul olunmuşdur. 1954-cü ildə həmin institutda "Azərbaycanın kurort və istirahət yerlərinin iqliminin müqayisəli təhlili" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1971-ci ildə "Azərbaycanın iqlim ehtiyatları və onlardan əkinçilikdə istifadə olunması" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş və 1978-ci ildə professor elmi adına layiq görülmüşdür.

Əsgər Əyyubov iqlimşünaslıq, meteorologiya və aqroiqlimşünaslıq sahələrində fundamental tədqiqatlar aparmış, bitki və insan biometeorologiyası, aqroiqlim və kurort iqlimi istiqamətləri üzrə elmi məktəbin formalaşmasına rəhbərlik etmişdir. O, ilk dəfə Azərbaycan ərazisi timsalında dağlıq ölkələrin aqroiqlim rayonlaşdırılması sistemini işləyib hazırlamış, respublikanın bioiqlim potensialını, bir ildə eyni sahədən 2–3 məhsul alma imkanlarını elmi əsaslarla müəyyənləşdirmişdir.

Əsgər Əyyubov 1955-ci ildən etibarən Azərbaycan SSR Elmlər Akademiyasının, daha sonra Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunda kiçik elmi işçi, sonra baş elmi işçi kimi fəaliyyət göstərmişdir. 1973–2000-ci illər ərzində "Təbiəti mühafizə", "Meteorologiya və kənd təsərrüfatı iqlimşünaslığı" və "İqlimşünaslıq" şöbələrinə rəhbərlik etmişdir. O, 1970–1990-cı illərdə UNESCO-nun "İnsan və biosfer" (MAB) proqramı üzrə işçi qrupunun və ABƏŞ-də işçi qrupunun rəhbəri olmuşdur. Alim 20 il ərzində respublika radiosunda "Təbiət" verilişinin aparıcısı olmuş, Bakı ali məktəblərində pedaqoji fəaliyyət göstərmiş, bir neçə elmi-texniki və müdafiə şuralarının üzvü, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının eksperti, çoxsaylı monoqrafiyaların redaktoru, "EA Xəbərləri" jurnalının Yer Elmləri seriyası üzrə baş redaktor müavini olmuşdur. Elmi rəhbər kimi bir elmlər doktorunun və iki elmlər namizədinin yetişməsinə də rəhbərlik etmişdir.

Əsgər Əyyubov 200-dən artıq elmi əsərin və 7 monoqrafiyanın müəllifi olmuşdur. Əsərləri arasında "Azərbaycanın iqlimi haqqında oçerklər" (1962), "İstisu kurortu" (həmmüəlliflə, 1965), "İqlim və hava" (1967), "Azərbaycan SSR-in aqroiqlim rayonlaşdırılması" (1968), "Azərbaycanın iqlimi" (həmmüəlliflərlə, 1968), "Azərbaycan SSR iqliminin bonitirovkası" (1975), "Azərbaycan SSR-in kurort və istirahət yerlərinin iqlimi" (1987), "Azərbaycan SSR-in iqlim ehtiyatları" (1984) kimi fundamental tədqiqatlar xüsusi yer tutur. Ən mühüm işlərindən biri "Azərbaycan Respublikasının aqroiqlim atlası"nın (Bakı, 1993) tərtib olunması və nəşridir.

Əsgər Əyyubovun elmi fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, "Azərbaycanın iqlimi" monoqrafiyasına görə Azərbaycan SSR Dövlət mükafatına (1972), "Azərbaycan SSR iqliminin bonitirovkası" əsərinə görə SSRİ Elmlər Akademiyası Coğrafiya Cəmiyyətinin F.P. Litke adına qızıl medalına (1976), "Azərbaycanın aqroiqlim rayonlaşdırılması" divar xəritəsinə görə SSRİ XTNS-nin bürünc medalına (1976), "Azərbaycan Respublikasının aqroiqlim atlası"na görə Azərbaycan "Təhsil" Cəmiyyətinin birinci mükafatına (1994) layiq görülmüşdür.

Əsgər Cabbar oğlu Əyyubov 27 mart 2000-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Bağır Bağırov – 90

(1936)

Geoloq



Ədəbiyyat:

Neft-qaz-mədən geologiyası və geofizikası fənnindən laboratoriya işləri: metodik göstərişlər: 070303 ixtisası üzrə təhsil alan tələbələr üçün / AzSSR Xalq Təhsili Nazirliyi, Respublika Tədris-Metodika Mərkəzi; M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu; tərt.ed. B. Ə. Bağırov, Ə. M. Sadıqov, P. Ə. Tağı-zadə; red. B. T. Həsənov; rəy verənlər. Ə. A. Cavadov, İ. M. Allahverdiyev.– Bakı: Azərb. NKİ, 1990.– 57, [3] s.

Tanınmış geoloq alim: Bağır Bağırov-80 / M. Babanlı // Azərbaycan müəllimi.– 2016.– 6 avqust.– S.4.

Günəşli yatağının X horizontunun sulaşma xüsusiyyətləri / B. Bağırov; V. Süleymanova // Azərbaycan neft təsərrüfatı: Elmi-texniki və istehsalat jurnalı.– 2019.– №11.– S.24-28.

Bağır Əli oğlu Bağırov - 85 il // Azərbaycan neft təsərrüfatı: Elmi-texniki və istehsalat jurnalı.– 2021.– №09.– S.60-61.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Bağır_Bağırov

Bağır Əli oğlu Bağırov 12 avqust 1936-cı ildə Masallı rayonunun Ərkivan qəsəbəsində müəllim ailəsində anadan olmuşdur. Orta təhsilini əvvəlcə Ərkivan qəsəbəsində, daha sonra Masallı şəhər 1 saylı orta məktəbində almışdır. 1953-cü ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Geoloji-kəşfiyyat fakültəsinə daxil olmuş və 1958-ci ildə həmin ali məktəbi dağ mühəndisi ixtisası üzrə bitirmişdir. Elə həmin ildə əmək fəaliyyətinə "Balaxanıneft" mədənlər idarəsində başlamış, burada operator, geoloq və böyük geoloq vəzifələrində çalışmışdır.

Bağır Bağırov 1968-ci ildə geologiya-mineralogiya elmləri namizədi elmi dərəcəsi almış, 1969-cu ildə Azərbaycan Elmlər Akademiyasının Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda elmi fəaliyyətə başlamışdır. O, burada kiçik elmi işçi, böyük elmi işçi, şöbə müdiri və direktorun elmi işlər üzrə müavini vəzifələrini icra etmişdir.

1984-cü ildə Moskva şəhərində İ.M. Qubkin adına İnstitutda "Neft yataqlarının işlənilmə effektivliyinin artırılmasının geoloji əsasları" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Onun elmi nəticələrinin bir qismi keçmiş SSRİ və AMEA tərəfindən həmin illərin ən mühüm nəticələri sırasına daxil edilmiş, respublikanın bir sıra yataqlarında tətbiq olunmuşdur.

Bağır Bağırovun elmi fəaliyyəti beynəlxalq səviyyədə də tanınmışdır. Onun əsərləri xarici ölkələrdə nəşr olunmuş, Çexiya, Macarıstan, Çin, İngiltərə, Səudiyyə Ərəbistanı və digər ölkələrdə keçirilən konqres və simpoziumlarda məruzələr etmişdir. O, 1984-cü ildən UNESCO-nun Riyazi Geoloqlar Cəmiyyətinin, həmçinin Amerika Neftçi Geoloqlar Cəmiyyətinin və Avropa Geoloqlar və Mühəndislər Birliyinin üzvüdür. Bağırov Azərbaycan Neftçi Geoloqları Cəmiyyətinin Prezidenti kimi də fəaliyyət göstərmişdir.

1989-cu ildən etibarən Azərbaycan Dövlət Neft Akademiyasında (ADNSU) Neft-qaz mədən geologiyası kafedrasında çalışmış, 1989–2016-cı illərdə kafedraya rəhbərlik etmiş, daha sonra professor-məsləhətçi kimi fəaliyyətini davam etdirmişdir. O, Yəmən, Əfqanıstan, Vyetnam və bir sıra digər ölkələr üçün yüksək ixtisaslı geoloq kadrlarının hazırlanmasında iştirak etmişdir. Alim on bir fəlsəfə doktoru və bir elmlər doktorunun elmi rəhbəri olmuş, yüzlərlə mühəndis, magistr və bakalavr hazırlamışdır.

Bağır Bağırov 1990-cı ildə professor, 2000-ci ildə Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. 2002-ci ildə mineralogiya elmləri doktoru elmi dərəcəsi almışdır.

Onun elmi yaradıcılığı 300-dən artıq elmi əsəri əhatə edir, 59-u xarici ölkələrdə nəşr olunmuşdur. 22 məqaləsi beynəlxalq bazalarda referatlaşdırılan və indeksləşdirilən jurnallarda dərc edilmiş, 60-dan çox metodik və tədris vəsaiti və 6 monoqrafiya (o cümlədən biri ingilis dilində) hazırlamışdır. "Azərbaycanın dəniz-neft yataqlarının geologiyası və istismarı problemləri" monoqrafiyası onun elmi nüfuzunun beynəlxalq səviyyədə tanınmasında xüsusi rol oynamışdır. Həmçinin "Neft-qaz mədən geologiyası" dərsliyi (Bakı, 2011) və müxtəlif geoloji şəraitli dəniz yataqlarının işlənilməsi üzrə tədqiqatları bu sahənin inkişafına mühüm töhfə kimi qiymətləndirilir.

Bağır Bağırovun elmi fəaliyyətinin əsas istiqaməti neft və qaz yataqlarının işlənilməsinin geoloji əsaslarının yaradılması, çətin çıxarılabilən ehtiyatlara malik layların işlənmə perspektivlərinin müəyyənləşdirilməsi və dəniz yataqlarında müxtəlif geoloji şəraitlərdə istismar nəticələrinin təhlili olmuşdur.

Bağır Əli oğlu Bağırov Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin və AMEA Geologiya və Geofizika İnstitutunun elmi şuralarının üzvüdür, AMEA-nın "Xəbərlər" jurnalının (Yer elmləri seriyası) və "Azərbaycan ali texniki məktəblərinin Xəbərləri" jurnalının redaksiya heyətinin üzvü kimi fəaliyyət göstərir.

Mustafa Salahov – 95

(1931)

Alim



Mustafa Səttar oğlu Salahov 29 avqust 1931-ci ildə Bakı şəhərində anadan olmuşdur.

O, 1955-ci ildə Qorki Dövlət Universitetinin fiziki-kimya ixtisası üzrə təhsilini bitirdikdən sonra elmi və istehsalat fəaliyyətinə Sumqayıt "Sintetik kauçuk" zavodunda başlamışdır. 1958-ci ildə Azərbaycan Elmlər Akademiyasının Neft İnstitutunun aspiranturasına daxil olmuş və 1964-cü ildə namizədlik, 1974-cü ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1976-cı ildə professor elmi adı almış, 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Alim 1966-cı ildən etibarən müxtəlif elmi laboratoriyaların təşkilatçısı və rəhbəri olmuş, 1974–1977-ci illərdə Xlor Üzvi Sintez İnstitutunun (indiki Polimer Materialları İnstitutu) elmi işlər üzrə direktor müavini kimi fəaliyyət göstərmişdir. 1993–1994-cü illərdə Türkiyənin Mərmərə Araşdırmalar Mərkəzində (TUBİTAK) elmi fəaliyyətlə məşğul olmuşdur. O, uzun illər AMEA-nın Polimer Materialları İnstitutunda monomer və polimerlərin stereokimyası laboratoriyasına rəhbərlik etmiş və paralel olaraq Bakı Dövlət Universitetində professor kimi çalışmışdır.

Mustafa Salahovun elmi tədqiqatları əsasən C1–C5 karbohidrogenlərinin tam xlorlaşması və bu proseslərin nəticəsi kimi C1–C6 xlorkarbonların əmələ gəlmə qanunauyğunluqlarının müəyyən edilməsinə, həmçinin C60-füllerenlərin ayrılması imkanlarının aydınlaşdırılmasına həsr olunmuşdur.

Mustafa Salahovun elmi irsi 1100-dən çox elmi əsəri, o cümlədən 198 müəlliflik şəhadətnaməsi və 13 patentdən ibarətdir. Onun hazırladığı elmi nəticələr əsasında sənayedə tətbiq edilən beş kimyəvi proses işlənib hazırlanmışdır. Alimin rəhbərliyi ilə 4 elmlər doktoru, 31 fəlsəfə doktoru və 20 magistr dissertasiyası müdafiə edilmişdir.

Mustafa Salahov Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurası Üzvi kimya Elmi İstiqaməti üzrə Problem Şurasının sədri, Azərbaycan Memarlar İttifaqının fəxri üzvü, Respublika Müəlllimlər İttifaqı idarə heyətinin üzvü, Bakı Dövlət Universitetinin professorudur. Həmçinin Elmi inkişaf üzrə Beynəlxalq Şura Beynəlxalq Elmlər Akademiyasının akademiki, Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının həqiqi üzvüdür.

Onun elmi əsərləri xarici ölkələrdə geniş yayılmış, 620-dən çox məqaləsi xarici mətbuatda, 459 məqaləsi isə beynəlxalq bazalarda indeksləşdirilən jurnallarda nəşr edilmişdir.

Alimin fəaliyyəti dövlət və beynəlxalq elmi qurumlar tərəfindən yüksək qiymətləndirilmişdir. O, "Azərbaycanın Əməkdar ixtiraçısı" (1979), "Əmək veteranı" (1995), Akademik Y.Məmmədəliyev və M.Mehdizadə mükafatları, Beynəlxalq Elmlər Akademiyasının "Qızıl döş nişanı" (2006) ilə təltif olunmuş, 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülmüşdür. 2015-ci ildən Prezidentin Fərdi Təqaüdçüsüdür.

Ədəbiyyat:

Sumqayıt alimləri: Onlar həm də şəhərin şanlı tarixini yazanlardı / S. Elsevər // Ekspress.– 2010.– 2 fevral.– S. 23.

Yarat yaşa: poemalar, müdrik kəlamlar və mənzum şeirlər / Mustafa Salahov; red. və ön söz. müəl. Rafiq Oday // Bakı: Nurlan, 2011.– 591, [1] s.

Mustafa Səttar oğlu Salahov: biblioqrafiya / AMEA, Polimer Materiallar İn-tu, Mərkəzi Elmi Kitabxana; tərt. V. S. Umayeva, N. D. Aşurova, L. Ş. Mürşüdova; red. B. T. Bağmanov.– Bakı: Elm, 2012.– 520, [4] s.

"Şöhrət" ordenli alim // Elm.– 2016.– 9 sentyabr.– S.6.

İnternetdə:

https://science.gov.az/az/news/open/17828

https://www.facebook.com/www.science.az/posts/amea-nın-müxbir-üzvü-mustafa-salahovun-85-yaşı-tamam-olubavqustun-29-da-tanınmış/975410799247548/

Məsumə Məmmədova – 75

(1951)

Alim



Məmmədova Məsumə Hüseyn qızı 1951-ci il avqust ayının 7-də Naxçıvan şəhərində anadan olmuşdur. 1973-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) mexanika-riyaziyyat fakültəsini bitirmişdir. Elmi fəaliyyətinə 1973–1977-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Neft-Kimya Prosesləri İnstitutunun "Neft-kimya proseslərinin avtomatlaşdırılması və modelləşdirilməsi" şöbəsində kiçik elmi işçi kimi başlamışdır.

1977–1980-ci illərdə Ukrayna Elmlər Akademiyasının Kibernetika İnstitutunun (Kiyev şəhəri) aspiranturasında təhsil almışdır. 1983-cü ildə SSRİ EA Ümumittifaq Elmi-Texniki İnformasiya İnstitutunda (Moskva şəhəri) "İnformasiya sistemləri və prosesləri" ixtisası üzrə "Terminoloji lüğətlərin analizi əsasında informasiya-axtarış tezaurusuna leksikanın avtomatlaşdırılmış seçilib daxil edilməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş və texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

1981–1987-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Dilçilik İnstitutunun Tətbiqi dilçilik şöbəsində elmi işçi vəzifəsində çalışmışdır.

1987-ci ildən Azərbaycan Elmlər Akademiyasının Avtomatlaşdırılmış İdarəetmə Sistemləri şöbəsində (sonralar İnformasiya-Kommunikasiya Elmi Mərkəzi, hazırda İnformasiya Texnologiyaları İnstitutu) mühəndis, qrup rəhbəri, aparıcı mühəndis vəzifələrində çalışmış, 1993-cü ildən etibarən şöbə müdiri kimi fəaliyyətini davam etdirmişdir.

1999-cu ildə Bakı Dövlət Universitetində "Xüsusi təyinatlı sistemlər, informasiyanın işlənməsi və idarə edilməsi" ixtisası üzrə "Qeyri-səlis relyasion strukturlu biliklərin emalı texnologiyasının əsasları və onun bəzi tətbiqləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş və texnika elmləri doktoru alimlik dərəcəsi almışdır.

1999–2014-cü illərdə süni intellektin müxtəlif istiqamətləri üzrə Türkiyənin Çanaqqala Onsəkkiz Mart Universitetində, Bakı Dövlət Universitetində, Azərbaycan Qərb Universitetində və Azərbaycan Memarlıq və İnşaat Universitetində mühazirələr oxumuşdur. 2001–2013-cü illərdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzinin direktoru vəzifəsində çalışmışdır.

2010-cu ildə professor elmi rütbəsi almış, 2017-ci ildə "İnformatika" ixtisası üzrə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Alimin elmi tədqiqatları süni intellekt, qeyri-səlis məntiq, qərarların qəbulu, çoxkriteriyalı qiymətləndirmə, intellektual idarəetmə, intellektual sistemlər, obrazların tanınması, rəqəmsal tibb, səhiyyə 4.0, tibbi sosial şəbəkələr, tibbi rəqəmsal əkizlər, tibbi-demoqrafik təhlükəsizlik kimi istiqamətləri əhatə edir.

Məsumə Məmmədova 390-dan artıq elmi əsərin, o cümlədən 14 monoqrafiyaların, 6 kitabların, broşürlərin və xüsusi təyinatlı lüğətlərin müəllifidir. Elmi əsərlərinin mühüm hissəsi xaricdə nəşr olunmuş, əhəmiyyətli qismi Web of Science və Scopus bazalarında indeksləşdirilmişdir. Bir elmlər doktoru və on bir fəlsəfə doktoru hazırlamışdır.

Alim2003-cü ildən Avropa Komissiyasının "Avropa qonşuluq siyasəti" və "Şərq tərəfdaşlığı" proqramları çərçivəsində Avropa Təhsil Fondunun tədqiqat layihələrində Azərbaycanı təmsil edən ekspert şəbəkəsinin üzvüdür.

Elmi və ictimai fəaliyyəti görə "Tərəqqi" medalı (2009) və "Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu" (2015), AMEA-nın Fəxri fərmanları (2005, 2021) və "AWITA-2017" mükafatı ilə təltif olunmuşdur.

2017-ci ildən Scopus bazasına daxil olan "EUREKA: Physic and Engineering" və "Technology Transfer: fundamental principles and innovative technical solutions" jurnallarının, 2021-ci ildən "Problems of İnformation Society" jurnalının baş redaktorudur. Bir sıra xarici və Azərbaycan jurnallarının redaksiya heyətinin üzvü və rəyçisidir.

Ədəbiyyat:

Elektron tibb: formalaşması və elmi-nəzəri problemləri / Məsumə Məmmədova, Z.Cəbrayılova; elmi red. T.Əliyev; AMEA, İnformasiya Texnologiyaları İn-tu.– Bakı, 2019.– 349, [1] s.

Əlyazmaşünaslıq tədqiqatlarının elmmetriyası: monoqrafiya: [AMEA Məhəmməd Füzuli ad. Əlyazmalar İnstitutunun elmi-tədqiqat və nəşr fəallığı əsasında : (1950-2020)] / C. Cəfərov; elmi red. M. Məmmədova.– Bakı: Elm və təhsil, 2021.– 207, [1] s.

Məsumə Hüseyn qızı Məmmədova: Biblioqrafik göstərici: 70 illiyinə həsr olunur / AMEA, Mərkəzi Elmi Kitabxana; [tərt. K. Məmmədəlili; elmi red. M. Əliyev; red. X. İsmayılova; bədii tərtibat Ş. Məmməd].– Bakı: Elm, 2022.– 262, [2] s.

İnternetdə:

https://science.gov.az/az/forms/chlenyikorrespondentyi/3046

https://ict.az/az/content/40

Lətifə Məmmədova – 65

(1961) Tarixçi, politoloq, publisist, kitabxanaşünas



Ədəbiyyat:

Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında. I və II cild / Tərt. Lətifə Məmmədova. – Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007. - 820 s.

Mədəniyyət üzrə veb-saytlar üçün keyfiyyət prinsipləri. Təlimat. /Red. şur. üzvü L.Məmmədova. – Bakı, 2007. - 88 s.

Kitabxanalar milli mədəniyyətin dirçəliş resusudur. Библиотеки – как ресурс национально-культурного возрождения /Tərt. L.A.Məmmədova. – Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011. - 448 s.

Kitabxana fondlarını zənginləşdirən tarixi qərar: latın qrafikası ilə kütləvi nəşrlər haqqında sərəncamdan 20 il ötür... / Lətifə Məmmədova // Mədəniyyət . – 2024. – 24 aprel (№30). – S. 7.

"Azərbaycanın zəngin mədəniyyəti var" (Ulu Öndər Heydər Əliyevin aforizm və kəlamları). /Tərt. və red. Lətifə Məmmədova. – Bakı, "Apostrof-A", 2024. - 188s.

Çanaqqala – türk ruhunun vulkanı /Lətifə Məmmədova //Xalq qəzeti. – 2025 . – 21 noyabr (№247). – S.9

Lətifə Adil qızı Məmmədova 19 avqust 1961-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, 1986-cı ildə Azərbaycan Dövlət Universitetini (hazırda Bakı Dövlət Universiteti) tarixçi, tarix müəllimi ixtisası üzrə bitirmişdir. Komsomol, sovet və partiya orqanlarında məsul vəzifələrdə çalışmışdır.

1980-1987-ci illərdə Bakı şəhər Sovetinin XVII, XVIII və XIX çağırış deputatı, 1985-1989-cu illərdə isə Bakı şəhəri Əmircan qəsəbə Sovetinin XIX və XX çağırış deputatı olmuş, eyni zamanda həmin Sovetin İcraiyyə Komitəsinin məsul katibi vəzifəsinə seçilmişdir. 1989-1990-cı illərdə Bakı şəhəri Ordconikidze (Suraxanı) rayon Partiya Komitəsində təlimatçı vəzifəsində işləmişdir.

Lətifə Məmmədovanın publisistik fəaliyyəti 1980-ci ildən başlamış, məqalələri "Бакинский рабочий", "Respublika", "Вышка", "Azad Azərbaycan", "Dirçəliş", "Возрождение", "Hərbi bilik", "Mədəniyyət", "Mədəniyyət. Culture", "Carçı", "Elm və təhsil", "Tarixin səhifələri" və digər mətbu orqanlarda dərc olunmuşdur.

1990-1992-ci illərdə Bakı Ali Partiya Məktəbində (Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu) politologiya ixtisası üzrə ikinci ali təhsil almış və institutu politoloq, ali məktəblərdə ictimai-siyasi fənlər müəllimi ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir. Həmin illərdə elmi tədqiqatla məşğul olmağa başlamış və 1996-cı ildə "Azərbaycanda erməni siyasi təşkilatlarının fəaliyyəti (1918-1920-ci illər)" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır.

1992-1999-cu illərdə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda, 1999-2007-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) tarix kafedrasında baş müəllim və dosent vəzifələrində çalışmışdır. 2002-2004-cü illərdə DİA-nın Elmi Kitabxanasına rəhbərlik etmiş, Elmi Şuranın üzvü olmuşdur.

2004-cü ilin dekabr ayında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Kitabxana sektorunun müdiri vəzifəsinə təyin olunmuş, nazirliyin ləğvi və aparılan struktur islahatları nəticəsində 2018-ci ilin iyun ayından Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) direktoru vəzifəsinə təyin edilmişdir.

2011-2018-ci illərdə YUNESKO-nun "İnformasiya hamı üçün" Proqramının Azərbaycan Komitəsinin yaradıcısı və ilk sədri olmuşdur. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə" Dövlət Proqramının icrasında mühüm rol oynamışdır. Onun təşkilati dəstəyi ilə Mədəniyyət Nazirliyinin və digər dövlət qurumlarının tabeliyində olan kitabxanalarda respublikada ilk dəfə olaraq veb saytlar, Elektron kitabxanalar və Elektron kataloqlar yaradılmışdır. Dövlət Proqramı çərçivəsində Milli Kitabxana-İnformasiya Mərkəzi (AZLİBNET) formalaşdırılmış, mərkəzin nəzdində ölkənin kitabxana tarixində ilk Toplu kataloq istifadəyə verilmişdir. L.Məmmədova Azərbaycan kitabxana tarixində ilk dəfə nəşr olunan "Azərbaycan kitabxana ensiklopediyası"-nın (AKE) ilk nəşrinin təşəbbüskarı və redaksiya heyətinin üzvü olmuşdur.

Lətifə Məmmədova həmçinin "Azərbaycan ədəbiyyatının virtual kitabxanası" və Nizami layihələrinin təşəbbüskarları olmuşdur. Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən "Azərbaycanın kitab abidələri"nin reyestrinin yaradılması işini uğurla həyata keçirmiş, ölkədə olan nadir (raritet) kitablar haqqında CD-nin hazırlanmasına rəhbərlik etmişdir.

Yasamal rayon MKS-ində onun təşəbbüsü və iştirakı ilə "Kitabsevər uşaqlar", "Sərhədsiz informasiya tribunası", "Şair və yazıçı tribunası", "Yaradıcı oxucularımız", "Kitabxanaya kitab hədiyyə edirik", "Şəhidlər ölməz, Vətən bölünməz", "Milli Qəhrəmanlarımızı tanıyaq" və ş. kimi mühüm sosial layihələr həyata keçirilir. MKS-in M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasında Azərbaycan kitabxana tarixində ilk dəfə olaraq Fəxri və fəal oxucu institutunun yaradılması haqqında təşəbbüslə çıxış etmişdir.

Lətifə Məmmədova Azərbaycan Respublikasını müxtəlif Beynəlxalq tədbirlərdə təmsil edir. O, 2010-cu ildən ELNİT (ЭБНИТ) Beynəlxalq Assosiasiyasının İdarə Heyətinin üzvüdür. Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

L.Məmmədova 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı, Mədəniyyət və Turizm Nazirliyinin "Fəxri Mədəniyyət İşçisi" döş nişanı ilə təltif olunmuşdur.

Kitabxana sahəsindəki fəaliyyəti müxtəlif illərdə Mədəniyyət və Turizm Nazirliyi, Mədəniyyət İşçilərinin Həmkarlar İttifaqı Respublika Komitəsi, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi tərəfindən fəxri fərmanlarla qiymətləndirilmişdir.

Lətifə Məmmədova kitabxana-informasiya sahəsinin inkişafına dair 5 kitabın və 50-dən çox elmi və publisistik məqalənin müəllifidir. Onun rəhbərliyi ilə "Heydər Əliyev və mədəniyyət" üçcildliyi (2007), "Prezident İlham Əliyev və mədəniyyət" çoxcildlikləri (2003-2008; 2008-2013; 2013-2018) hazırlanmışdır. Ölkənin birinci xanımı Mehriban Əliyevanın mədəniyyət sahəsinə verdiyi tövhələrə həsr olunmuş "Mədəniyyətimizin və mədəni incilərimizin hamisi" (2007, Azərbaycan, rus, ingilis və ərəb dillərində) toplunun redaksiya şurasına sədrlik etmişdir.

Lətifə Məmmədova Azərbaycan tarixinə dair 4 kitabın müəllifidir. Ümumilikdə isə Ləfifə Məmmədova 70-dən çox kitabın hazırlanmasına rəhbərlik etmiş (elmi məsləhətçi, redaktor, redaksiya şurasının sədri, rəyçi), 150-dən çox qəzet və jurnal məqaləsinin müəllifidir.

Digər tarixi hadisələr

“Nəşri-Maarif” mədəni-maarif cəmiyyəti - 120 *(1906)*



Ə d ə b i y y a t :

Məmmədova, N. "Nəşri-Maarif" cəmiyyətinin yaranması və fəaliyyəti / Nüşabə Məmmədova; elmi red. H. N. Həsənov. - Bakı: Elm, 2005. - 188 s

Məmmədova, N. "Nəşri-Maarif" cəmiyyətinin yaranması və fəaliyyəti: tarix e. n. a. dər. al. üçün təq. ol. dis.: 07.00.02 / Nüşabə Məmmədova; AMEA, A. Bakıxanov ad. Tarix İn-tu. - Bakı: 2003. - 150 s.

Bakı “Nəşri-maarif” cəmiyyətinin nizamnaməsi [Mikrofilm] [Proyeksiya materialı]. Bakı: [s.n.], 1913. - 1çarx; 29+13 s.

Nizamnamə / Nuxa müsəlman “Nəşri-maarif” cəmiyyətinin nizamnaməsidir.– Bakı: [s. n.], 1911.– 16 + 14 s.

İkinci kitab: Əlifbadan sonra qiraət kitabı / A. Məhəmmədzadə, A. Mollazadə; Naşiri Gəncə, “Nəşri-maarif” cəmiyyəti.– Gəncə: [s.n.], 1910.– 39 s.

İ n t e r n e t d ə :

https://az.wikipedia.org/wiki/Nəşri-maarif

http://milliarxiv.gov.az/az/-nesr-maarif-cemiyyetinin-azerbaycan-tehsilinde-rolu

https://goychay-encyclopedia.az/

XX əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi dəyişikliklər maarif sahəsində yeni təşəbbüslərin meydana çıxmasını şərtləndirmişdir. Bu dövrdə milli ideologiyanın formalaşması, savadsızlığın aradan qaldırılması və təhsilin genişləndirilməsi istiqamətində ziyalıların təşəbbüsü ilə müxtəlif xeyriyyə və mədəni-maarif cəmiyyətləri yaradılmışdır. Həmin cəmiyyətlər sırasında “Nəşri-maarif” mədəni-maarif cəmiyyəti xüsusi yer tutur.

“Nəşri-maarif” cəmiyyəti fəaliyyətinin ilk mərhələsində “Bakı quberniyası müsəlman əhalisi arasında savadı artıran cəmiyyət” adı ilə tanınmışdır. Cəmiyyətin ilk nizamnamə layihəsi 1906-cı ildə hazırlanmış, 1906-cı il avqustun 1-də təsdiq olunmuşdur. Daha sonra 1912-ci il oktyabrın 19-da nizamnaməyə bəzi əlavələr və dəyişikliklər edilərək cəmiyyət ikinci dəfə rəsmi qeydiyyatdan keçmişdir. Cəmiyyətin təsisçiləri İsmayıl bəy Səfərəliyev, Həsənağa Həsənov, Məmmədhəsən Hacınski, Əsədulla Əhmədov, Ağahüseyn Tağıyev, Əliağa Həsənov və Həsən Mustafayev olmuşdur.

1906-cı il noyabrın 24-də keçirilən ilk seçkilərdə “Nəşri-maarif” cəmiyyətinin idarə heyəti formalaşdırılmışdır. Hacı Zeynalabdin Tağıyev sədr, Məmmədhəsən Hacınski sədr müavini seçilmiş, Ə.Ə.Əmircanov, H.Məlikov, M.Ə.Nəzirov təftiş komissiyasına daxil edilmişdir. Katiblik vəzifələri M.Əfəndiyevə, xəzinədarlıq isə A.Tağıyevə həvalə olunmuşdur. İdarə heyətinin tərkibində həmçinin Ə.Ağayev, Ə.İ.Cəfərov və digər üzvlər yer almış, H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, M. Muxtarov, Y.Dadaşov və A.Tağıyev cəmiyyətin fəxri və ömürlük üzvləri seçilmişdir.

“Nəşri-maarif” cəmiyyətinin əsas məqsədi müsəlman əhalisi arasında Azərbaycan türkcəsində savadın yayılması və ibtidai təhsilin təşkili idi. Cəmiyyət bu məqsədlə Bakı şəhərində və onun kəndlərində, eləcə də Quba, Göyçay, Astara, Bankə bölgəsi, Ağdaş, Qaryagin (indiki Füzuli rayonu), Şuşa, Gəncə kimi bölgələrdə, habelə Həştərxan quberniyasında, Saratovda, Moskvada, Türkiyədə və Rumıniyada şöbələr açmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründək “Nəşri-maarif” cəmiyyətinin Bakı şəhərində və ətraf kəndlərdə 20 məktəbi fəaliyyət göstərmişdir. Bu məktəblərdən ikisi qız məktəbi olmuş və Balaxanı ilə Zabrat kəndlərində yerləşmişdir. Bütün məktəblərdə təhsil pulsuz təşkil edilmiş, şagirdlər dərs ləvazimatları və geyimlə təmin olunmuşdur. Təhsil müddəti dörd il olmuş, tədris proqramına şəriət, ana dili, rus dili, hesabla yanaşı tarix, coğrafiya, biologiya və astronomiya üzrə ibtidai biliklər daxil edilmişdir.

1907-ci ildə “Nəşri-maarif” cəmiyyəti Bakıda Darülmüəllimin — “İslam” müsəlman müəllimlər seminariyasını açmışdır. Seminariyanın müdiri İstanbuldan dəvət olunmuş Məhəmməd Cövdət bəy olmuşdur. Seminariya Türkiyədən gətirilmiş kitablarla təmin olunmuş, tələbələr üçün xüsusi geyim forması tətbiq edilmişdir. Üç il fəaliyyət göstərən seminariya 28 ibtidai məktəb müəllimi hazırlamış, lakin maliyyə çətinlikləri səbəbindən fəaliyyətini dayandırmışdır.

“Nəşri-maarif” cəmiyyəti yalnız öz məktəblərində deyil, Bakının müxtəlif təhsil müəssisələrində, eləcə də Tiflis, İrəvan, Vladiqafqaz, Moskva, Xarkov, Varşava və Türkiyənin bir sıra ali və orta ixtisas məktəblərində təhsil alan azərbaycanlı tələbələrə maddi yardım göstərmişdir.

Cəmiyyət kitabxana və qiraətxanaların təşkili işinə xüsusi diqqət yetirmişdir. 1907-ci ilin may ayından etibarən həftədə iki dəfə açıq oxular keçirilmişdir. 1911-ci ildə Balaxanıda açılmış “Nur” kitabxanası cəmiyyətin ilk böyük kitabxanası olmuşdur. 1914-cü ildə Bakıda kitab anbarı yaradılmışdır.

“Nəşri-maarif”in milli-mədəni fəaliyyəti sırasında teatr tamaşaları və “Müsəlman axşamları” xüsusi yer tutmuşdur.

Cəmiyyətin maliyyə mənbələri üzvlük haqları, dövlət yardımı, ianələr və xeyriyyə tədbirlərindən əldə olunan gəlirlər hesabına formalaşmışdır.

1917-ci ildən sonra maliyyə çətinlikləri və idarəetmə sahəsində yaranan problemlər “Nəşri-maarif” cəmiyyətinin fəaliyyətinə ciddi təsir göstərmişdir. Dövlət tərəfindən kifayət qədər maddi dəstəyin verilməməsi nəticəsində cəmiyyət 1918-ci ildə fəaliyyətini dayandırmağa məcbur olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə isə cəmiyyətə məxsus məktəblər Maarif Nazirliyinin sərəncamına verilmişdir.

Digər tarixi hadisələr

Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü *(2001)*



Avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur. Bu gün ümummilli lider Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən təsis edilmişdir.

Sovet dövründə mövcud olan ideoloji və institusional məhdudiyyətlərə baxmayaraq, Azərbaycan dili tarixi inkişaf xəttini qoruyub saxlamışdır. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının tərkibində müstəqil Dilçilik İnstitutunun yaradılması dilçiliyin elmi sahə kimi formalaşması və inkişafı baxımından mühüm mərhələ olmuşdur.

Azərbaycan dilinin hüquqi statusunun qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində ümummilli lider Heydər Əliyevin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. 1977-ci ildə SSRİ Konstitusiyası qəbul edilərkən dövlət dili ilə bağlı müddəanın sənədə daxil edilməməsi ilə razılaşmayan Heydər Əliyev bu məsələdə prinsipial mövqe nümayiş etdirmişdir. Nəticədə 1978-ci il aprelin 2-də Azərbaycan Sovet Sosialist Respublikası Ali Sovetinin doqquzuncu çağırış yeddinci sessiyasında Konstitusiyanın 73-cü maddəsinə dəyişiklik edilərək Azərbaycan SSR-in dövlət dilinin Azərbaycan dili olması təsbit edilmişdir.

Müstəqillik dövründə Azərbaycan dilinin tətbiqi və inkişafı ilə bağlı normativ-hüquqi baza ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə formalaşdırılmışdır. Onun 2001-ci il iyulun 18-də imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman, eləcə də 2001-ci il avqustun 9-da imzalanmış "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" Fərman bu sahədə dövlət siyasətinin əsas istiqamətlərini müəyyən etmişdir. Bundan əlavə, 2003-cü il yanvarın 2-də imzalanmış Fərmanla "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun qüvvəyə minmiş və qanunda dövlətin ana dilinə münasibətdə əsas vəzifələri hüquqi cəhətdən təsbit olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi dil siyasəti Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilmişdir. Dövlət başçısının 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncam əsasında hər il latın qrafikalı Azərbaycan əlifbası ilə nəşr ediləcək əsərlərin siyahısı hazırlanmışdır. 2004-cü il yanvarın 14-də imzalanmış "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və 2007-ci il dekabrın 30-da qəbul edilmiş "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamlar ana dilinin elmi, mədəni və maarifləndirici sahələrdə tətbiqinin genişləndirmişdir.

Müasir dövrün tələbləri nəzərə alınaraq, Prezident İlham Əliyevin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" təsdiq edilmişdir.

Azərbaycan dilinin müasir informasiya mühitində mövqeyinin möhkəmləndirilməsi məqsədilə Prezident İlham Əliyevin 2018-ci il 17 iyul tarixli "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncam və 2018-ci il noyabrın 1-də "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərman imzalanmışdır.

Qeyd olunan normativ sənədlər və təşkilati tədbirlər Azərbaycan dilinin müasir dövrdə tətbiqi, qorunması və normativ qaydalara uyğunluğunun təmin edilməsi istiqamətində həyata keçirilən ardıcıl dövlət siyasətinin tərkib hissəsidir.

Azərbaycan Milli Kitabxanasında hər il "1 Avqust – Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü"nə həsr olunmuş virtual və ənənəvi sərgilər təşkil edilir.

Ədəbiyyat:

Salmanlı, R. Ana dilinin inkişafı dövlətin prioritet istiqamətlərindəndir: 1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür / R.Salmanlı // Azərbaycan.– 2020.– 31 iyul.– S.10.

Abbasov, İ. Ana dilimizin bayram gün: 1 Avqust – Azərbaycan əlifbası və Azərbaycan Dili Günü / İ.Abbasov // Xalq qəzeti.– 2021.– 1 avqust.– S.7.

Ümid. Azərbaycan əlifbası və Azərbaycan dili günü qeyd olunub / Ümid // 525-ci qəzet.– 2022.– 2 avqust.– S.8.

Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü Şuşada qeyd olunub // Mədəniyyət.– 2023.– 2 avqust.– S.2.

Məhərrəmov, V. Xalqımızın qürur mənbəyi: 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili günüdür / V.Məhərrəmov // Azərbaycan.– 2024.– 1 avqust (№ 161).– S.16.

Akimova, E. Azərbaycan dili milli varlığımızı təcəssüm etdirir: Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü / E.Akimova // Xalq qəzeti.– 2025.– 1 avqust (№ 158).– S.8.

https://az.baku-art.com/az/milli-kitabxana-azerbaycan-elifbasi-v-az-rbaycan-dili-gun-adl-virtual-s-rgi-haz-rlay-b

Digər tarixi hadisələr

Azərbaycan Kinosu Günü *(2000)*



Ədəbiyyat:

Azəri, L. 122 yaşlı Azərbaycan kinosu: Kino təkcə əyləncə növü deyil, həm də güclü ideoloji silahdır / L.Azəri // Mədəniyyət.– 2020.– 30 iyul.– S.1;3.

Qurbanlı, R. Bu kino ki var, çox qəliz məsələdir: 2 avqust Azərbaycan Kinosu Günüdür / R.Qurbanlı // Azərbaycan.– 2021.– 1 avqust.– S.8.

Azərbaycan Kinosu Günü ilə bağlı "Böyük Qayıdış" müsabiqəsinin qalibləri olan filmlər nümayiş edilib // Respublika.– 2022.– 3 avqust.– S.5.

Özbəkistanda beynəlxalq film festivalı çərçivəsində Azərbaycan kinosu günü // Azərbaycan.– 2023.– 3 oktyabr.– S.20.

İbrahimova, A. Azərbaycan Kinosu Günü qeyd olunub / A. İbrahimova // Respublika.– 2024.– 3 avqust, (№ 163).– S.9.

Azərbaycan kinosu: dünəni var idi, bəs bu günü?.. / M.Məmmədova // Səs.– 2025.– 2 avqust (№136).– S.6;7.

İnternetdə:

https://aztv.az/az/news/757/avqustun-2-si-azerbaycan-kinosu-gunudur

https://www.anl.az/down/meqale/yeni_az/2025/avqust/961450.htm

Ulu Öndər Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli Sərəncamı ilə avqustun 2-si kino işçilərinin peşə bayramı - Azərbaycan Kinosu Günü kimi qeyd olunur.

1898-ci il avqustun 2-də Bakı elmi-foto dərnəyinin katibi, naşir və fotoqraf Aleksandr Mişon lentə aldığı "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal sənədli filmləri və "İlişdin" adlı bədii süjeti nümayiş etdirmişdir. Bu tarix milli kinonun yaranması günü kimi qəbul edilir.

XX əsrin əvvəllərində "Pate", "Pirone", "Filma" kimi xarici kino şirkətləri Bakıda filiallarını açaraq film istehsalı ilə məşğul olmuşlar. 1916-cı ildə İbrahim bəy Musabəyovun eyniadlı povesti əsasında "Neft və milyonlar səltənətində", 1917-ci ildə isə Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında "Arşın mal alan" qısametrajlı bədii filmləri çəkilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumət tərəfindən həyata keçirilmiş mədəni-siyasi islahatlar və xarici ölkələrlə diplomatik, mədəni və iqtisadi əlaqələr dünya kinosunun nümunələrinin Bakıya gətirilməsinə və ictimai marağın artmasına səbəb olmuşdur. 1918-ci ildə kinematoqrafiya həvəskarları "Kinematoqrafiya və teatr qulluqçuları şurası"nda birləşmişlər.

Sovet hakimiyyəti dövründə 1923-cü ildə Azərbaycan Foto-Kino İdarəsi (AFKİ) yaradılmış və həmin il aprelin 28-də Birinci Dövlət Kinofabriki fəaliyyətə başlamışdır. Burada çəkilən ilk film xalq əfsanəsinin motivləri əsasında yaradılmış "Qız qalası" bədii filmidir. 1923–1926-cı illərdə kinostudiya müxtəlif adlar altında fəaliyyət göstərmiş, 1960-cı ildən Cəfər Cabbarlının adını daşıyan "Azərbaycanfilm" adı ilə tanınmışdır.

"Azərbaycanfilm"də indiyədək iki mindən çox müxtəlif növ və janrda film istehsal edilmişdir. Onların bir qismi, o cümlədən "Arşın mal alan", "Şərikli çörək", "Ad günü", "Sevinc buxtası", "İstintaq", "Yaramaz" və başqaları dövlət mükafatlarına layiq görülmüş, bir qismi isə beynəlxalq və digər kinofestivallarda, o cümlədən "Ögey ana", "Uzaq sahillərdə", "Bizim Cəbiş müəllim", "Axırıncı aşırım", "Nəsimi", "Özgə vaxt", "Sarı gəlin", "Ovsunçu", "Buta", "Çölçü", "Nabat", "Axınla aşağı" və digərləri müxtəlif mükafatlar qazanmışdır.

Müstəqillik illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il 19 avqust tarixində "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və bununla da dövlət kinematoqrafiyasının hüquqi bazası formalaşdırılmışdır. 1996-cı ildə Azərbaycan Dövlət Film Fondu yaradılmış, filmlərin qorunması və mühafizəsi təmin edilmişdir.

Ümummilli lider Heydər Əliyevin kino sahəsində mədəniyyət və incəsənət xadimlərinə göstərdiyi qayğı hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Dövlət başçısının 2007-ci il 23 fevral tarixli "Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında" Sərəncaması milli kinonun maddi-texniki bazasının möhkəmləndirilməsinə təkan vermişdir. Eyni zamanda, "Azərbaycan kinosunun 2008–2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı" çərçivəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

2022-ci il aprelin 20-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsin yaradılması haqqında Fərman imzalamışdır. Fərmana əsasən, Mədəniyyət Nazirliyinin tabeliyində "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxs fəaliyyət göstərir.

2023-cü ildə Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Bakıda "Azərbaycan kinosu – 125: reallıq, çağırış və hədəflər" mövzusunda kinoforum keçirilmişdir. Forumda rejissor, ssenarist, bəstəkar, aktyor, operator, prodüser və digər kino sahəsi mütəxəssisləri bir araya gəlmiş, Azərbaycan kinosunun mövcud vəziyyəti, problemləri və inkişaf istiqamətləri müzakirə olunmuşdur.

Vətən müharibəsindən sonra əldə edilmiş şanlı Zəfərə həsr olunmuş filmlərin istehsalı həyata keçirilir.

Hər il Azərbaycan Milli Kitabxanasında "2 Avqust Azərbaycan Kinosu Günüdür" adlı kitab sərgisi və "Milli kino günü" adlı virtual sərgi təşkil edilərək istifadəçilərə təqdim olunur.

Ermənistandakı azərbaycanlıların sonuncu nümayəndələri Meğri rayonunun Nüvədi kəndindən deportasiyası *(1991)*



Qərbi Zəngəzur ərazisində gerçək tarixi erməni saxtakarlığına məruz qalmış yaşayış məntəqələrindən biri də Nüvədi kəndidir. Nüvədi Meğri rayonunun ən böyük və ən qədim kəndlərindən hesab olunur. Müasir Nüvədi kəndindən təxminən 15 kilometr məsafədə yerli əhali tərəfindən "Nüvədili yurdu" adlandırılan qədim yaşayış məskəninin qalıqları, eləcə də müqəddəs ziyarətgahlar yerləşir. Nüvədi çayından 4–5 kilometr məsafədə isə mis-molibden yatağı mövcuddur. Kəndin zəngin yeraltı sərvətləri ilk dəfə XIX əsrin 60–70-ci illərində Zəngəzur qəzasına səfər etmiş fransız mütəxəssisləri tərəfindən aşkar edilmişdir.

Nüvədi kəndində üzümçülük təsərrüfatının inkişafı qədim ənənələrlə bağlı olmuşdur. XIX əsrdə Nüvədi kəndi, eləcə də Zəngəzur qəzasının digər sərhədboyu kəndləri üzüm bağları ilə məşhur idi. Cənubi Qafqazın iqtisadi tarixini araşdıran V.D. Moçalov qeyd edir ki, Zəngəzurun yerli əhalisi müsəlman olduğu üçün ermənilərdən fərqli olaraq üzümdən şərab istehsal etmir, məhsulu əsasən meyvə kimi satışa çıxararaq xeyli gəlir əldə edirdi. 1897-ci ilə aid statistik məlumatlara əsasən, Zəngəzur qəzası üzrə satlıq üzüm məhsulunun 55,9 faizi Meğri nahiyəsinin payına düşürdü. Nüvədi kəndi Meğri nahiyəsində üzümçülüyün ən çox inkişaf etdiyi kəndlərdən biri olmuşdur. Qeyd edilməlidir ki, V.D. Moçalov öz tədqiqatlarında Zəngəzur qəzasından Qərbi Azərbaycan bölgəsi kimi bəhs edir.

Nüvədi kəndinin əhalisi XX əsrdə erməni silahlı dəstələrinin hücumlarına məruz qalmış, lakin tarixi izlərini bu günədək qoruyub saxlamış Ataman, Kəndçayı, Sultansəlim, Ernəzir, Angized, Kəhriz, Kazımlı, Şəvzir və digər qonşu kəndlərdən köçüb gəlmiş ailələr əsasında formalaşmışdır.

1991-ci il avqustun 7-dən 8-nə keçən gecə sovet ordusunun köməyi ilə Nüvədi kəndi boşaldılmışdır. Azərbaycan SSR Nazirlər Soveti yanında DTK-nın yaydığı məlumatda bu əməliyyata Ermənistan daxili işlər nazirinin müavini Q. Qriqoryanın rəhbərlik etdiyi bildirilirdi. Zəngilan rayonunun Vejnəli kəndində məskunlaşmış nüvədililər qaçqınlıq vəziyyəti ilə barışmayaraq yenidən doğma kəndlərinə qayıtmaq niyyətlərini ifadə etmişlər. Bu məqsədlə kənd sakinləri Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevə müraciət edərək onların haqlı tələblərinin həllinə köməklik göstərilməsini xahiş etmişlər.

Nüvədililərin müraciəti ilə əlaqədar Heydər Əliyevin tapşırığı əsasında Ali Məclisin deputatları, məsul şəxsləri və ictimai xadimlərindən ibarət nümayəndə heyəti 1991-ci il oktyabrın 17-də Zəngilan rayonunun Vejnəli kəndində məskunlaşmış nüvədililərlə görüşmüş, onların sosial və məişət problemləri dinlənilmişdir. Naxçıvandan gəlmiş nümayəndə heyətinin hazırladığı arayışda qeyd edilirdi ki, üç aydan artıq müddətdə burada məskunlaşmış sakinlər heç bir yaşayış şəraiti olmayan, soyuq çadırlarda qalır, xüsusilə 70 ailənin vəziyyəti son dərəcə ağırdır. Naxçıvan Muxtar Respublikası əhalisinin blokada şəraitində yaşamasına baxmayaraq, nüvədili qaçqınlara yardım məqsədilə onlara ərzaq məhsulları göndərilmişdir.

2006-cı il iyulun 4-də Ermənistan hakimiyyəti növbəti saxtakarlıq aktı həyata keçirərək Nüvədi kəndinin tarixi adını heç bir qədim mənbədə rast gəlinməyən qondarma "Nrnadzor" adı ilə əvəz etmişdir. Lakin bu cür tədbirlər Azərbaycan xalqının tarixi yaddaşına və ədalətə əsaslanan mövqeyinə təsir göstərə bilməmişdir. 2020-ci ilin payızında baş vermiş 44 günlük Vətən müharibəsində qazanılmış Qarabağ Zəfəri nüvədililərin doğma yurdlarına qayıdacağına dair ümidlərini daha da gücləndirmişdir. Həmin Zəfər regionun geosiyasi reallıqlarını tarixi ədalət prinsipləri əsasında yenidən formalaşdırmışdır. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ordunun Ali Baş Komandanı İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Qarabağa Qayıdış prosesindən sonra növbəti Böyük Qayıdışın Qərbi Azərbaycana doğru istiqamətlənəcəyi perspektivi daha da aydın görünməkdədir.

Ədəbiyyat:

Nüvədiyə son səfər: Nüvədinin işğalından 29 il ötür / R. Orxan // Azad Azərbaycan.– 2020.– 6 avqust.– S.10-11.

"Zəngəzur mahalının döyüşən qalası - Nüvədi" / X.M.Hüseynova: müsahibəni apardı L.Hüseynova // 525-ci qəzet.– 2021.– 10 dekabr.– S.15.

Oğuz yurdu Nüvədi: Kəndin Ermənistan tərəfindən üçüncü dəfə işğalından 31 il keçir / İ.Əliyev // Respublika.– 2022.– 6 avqust.– S.6.

Nüvədi kəndi...: Ermənilərin deportasiyasına məruz qalan sonuncu türk kəndi / İ.Qoca // Şərq.– 2023.– 24 yanvar.– S.4.

"33 il Nüvədi həsrəti" adlı anım tədbiri keçirilib // Azərbaycan.– 2024.– 8 avqust (№ 167).– S.5.

Tarixi yaddaş, silinməyən deportasiya izləri-Qərbi Zəngəzur / N.Orucova // Səs.– 2025.– 9 avqust (№141).– S.14.

İnternetdə:

https://respublika-news.az/news/zengezurun-nuvedi-kendi-tarixi-gercekler-ve-yalanlar

Digər tarixi hadisələr

Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsis edilməsinin 105 illiyi *(1921)*



Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) pedaqoji kadrların hazırlanması sahəsində ixtisaslaşmış dövlət ali təhsil müəssisəsidir. Universitetin əsası Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun imzaladığı 26 avqust 1921-ci il tarixli dekretlə qoyulmuşdur. İlkin mərhələdə altı nəfər tələbə ilə fəaliyyətə başlayan ali məktəb alitəhsilli müəllim kadrlarının hazırlanmasını qarşıya məqsəd qoymuşdur. İlk buraxılış 1923–1924-cü tədris ilinə təsadüf edir. Fəaliyyətinin ilk illərində Ali Pedaqoji Kişi və Ali Pedaqoji Qadın institutları kimi təşkil olunsa da, sonradan Azərbaycan Pedaqoji İnstitutu adı altında fəaliyyətini davam etdirmiş, XX əsrin 90-cı illərində isə Azərbaycan Dövlət Pedaqoji Universiteti adını almışdır. Müəyyən tarixi dövrlərdə – 1927–1929 və 1941–1943-cü illərdə institutun fəaliyyəti dayandırılmış və Azərbaycan Dövlət Universiteti (indiki Bakı Dövlət Universiteti) ilə birləşdirilmişdir.

Abdulla Şaiqin təşəbbüsü ilə yaradılan və ilk anadilli təhsil ocaqlarından biri olan məşhur "Nümunə Məktəbi" də ADPU-nun nəzdində fəaliyyət göstərmişdir. Məktəbin direktoru Qafur Əfəndizadə (Qantəmir) olmuşdur.

1991-ci ildə Nazirlər Kabinetinin qərarı ilə ali məktəbə rəsmi olaraq universitet statusu verilmişdir.

İnstitutun ilk direktoru Odessa Universitetinin məzunu Fətulla bəy Rzabəyli, direktor müavini isə Tiflis Müəllimlər İnstitutunun məzunu Həbib bəy Mahmudbəyov olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 26 noyabr 2015-ci il tarixli Sərəncamına əsasən Azərbaycan Müəllimlər İnstitutu ADPU-ya birləşdirilmiş, onun filialları universitetin strukturuna daxil edilmişdir. 3 fevral 2016-cı il tarixli Nazirlər Kabinetinin qərarı ilə Bakı Sənaye-Pedaqoji Kolleci ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci kimi fəaliyyətə başlamışdır. 29 aprel 2016-cı il tarixli Sərəncamla Qazax filialı Bakı Dövlət Universitetinə, Zaqatala filialı isə Azərbaycan Dövlət İqtisad Universitetinə verilmişdir. Hazırda ADPU-nun Şəki, Quba, Şamaxı, Ağcabədi və Cəlilabad filialları fəaliyyət göstərir.

Ulu Öndər Heydər Əliyev Azərbaycan Dövlət Pedaqoji Universitetinin professor-müəllim və tələbə kollektivi ilə görüşlərində universitetin Azərbaycan təhsil sistemindəki rolunu xüsusi vurğulamışdır. Universitetin 50, 60, 85, 90 və 100 illik yubileyləri dövlət səviyyəsində qeyd olunmuş, 100 illik yubiley münasibətilə Prezident İlham Əliyevin müvafiq Sərəncamı imzalanmışdır. 12 avqust 2022-ci il tarixli Nazirlər Kabinetinin qərarı ilə ADPU Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusu almışdır.

Fəaliyyəti dövründə ali məktəb müxtəlif adlar altında fəaliyyət göstərmiş, idarəetmə isə fərqli illərdə çoxsaylı rektorlar tərəfindən həyata keçirilmişdir. Universitetin məzunları sırasında tanınmış alimlər, yazıçılar, dövlət və ictimai xadimlər, Sovet İttifaqı Qəhrəmanları, Milli Qəhrəmanlar və nüfuzlu elm xadimləri yer alır. ADPU-nun tələbə və məzunları Vətən müharibəsində iştirak etmiş, şəhid və qazilər yetişdirmişdir.

Universitetin strukturu fakültələr, kafedralar, elmi-tədqiqat mərkəzləri, kolleclər və regional filiallardan ibarətdir. ADPU-nun maddi-texniki bazasına Bakı şəhərində yerləşən Səbail, Gənclik, Nəsimi və Təbriz tədris kampusları daxildir. Bu kampuslarda müasir auditoriyalar, laboratoriyalar, kitabxanalar, elmi və mədəni mərkəzlər fəaliyyət göstərir.

ADPU-da elmi-tədqiqat fəaliyyəti geniş miqyasda aparılır, dövri elmi jurnallar nəşr olunur, kitabxana-informasiya mərkəzi zəngin fonda malikdir. Universitet beynəlxalq əməkdaşlıq çərçivəsində bir çox xarici ali məktəblərlə müqavilələr imzalamış, Erasmus+, Mövlanə və ikili diplom proqramlarında iştirak etmişdir. Beləliklə, Azərbaycan Dövlət Pedaqoji Universiteti bir əsrdən artıq tarixi inkişaf yolu keçərək milli təhsil sistemində aparıcı pedaqoji ali təhsil və elmi mərkəzlərdən biri kimi fəaliyyətini davam etdirir.

Ədəbiyyat:

Azərbaycan Dövlət Pedaqoji Universiteti - 85: (1921-2006) / Elmi red. və burax. məsul: Vilayət Əliyev, Fərrux Rüstəmov.– Bakı: [ADPU], 2006.– 312 s.

Pərvin. Doğma və sevimli ADPU... / Pərvin // 525-ci qəzet.– 2018.– 15 sentyabr.– S. 11.

Mustafayev, O. Ali təhsilə töhfə: Corc Vaşinqton Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universiteti ikili diplom proqramının icrasına başladı / O. Mustafayev // Azərbaycan müəllimi.– 2020.– 6 noyabr.– S.9.

Qasımova, Y. Azərbaycan Dövlət Pedaqoji Universiteti-100 / Y. Qasımova // Yeni Azərbaycan.– 2021.– 12 noyabr.– S.7.

Rüstəmov, F. Heydər Əliyev və Azərbaycan Dövlət Pedaqoji Universiteti / F.Rüstəmov // Azərbaycan müəllimi.– 2023.– 9 iyun.– S.5.

Məqsəd kitaba sevgi aşılamaqdır: Pedaqoji Universitetdə Beynəlxalq Kitab Bağışlama günü qeyd olunub // İki sahil.– 2025.– 15 fevral (№28).– S.8.

İnternetdə:

https://adpu.edu.az/index.php/az/az%C9%99rbaycan-d

Digər tarixi hadisələr

Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək Yolu Üzərində Yerləşən Ölkələrin Musiqisi Günü *(2010)*



26 avqust tarixi Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək Yolu üzərində yerləşən ölkələrin musiqisi günü kimi qeyd olunur. Bu qərar 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və Beynəlxalq Niaqara Musiqisi Festivalının rəhbərliyi tərəfindən qəbul edilmişdir.

Azərbaycan muğamı dünya musiqi xəzinəsinin mühüm tərkib hissəsi kimi qiymətləndirilir. Görkəmli xanəndələrin ifasında muğam müxtəlif emosional və estetik qatları əhatə edərək dinləyicilərdə dərin musiqi təəssüratları yaradır.

Azərbaycan muğamının müasir tarixində Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Bu fəaliyyət nəticəsində muğam ifaçılığı dövlət səviyyəsində sistemli dəstək almışdır. UNESCO-nun qərarı ilə Azərbaycan muğamının və tar ifaçılığı sənətinin qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi bu sənətin bəşəri əhəmiyyətə malik mədəni sərvət kimi tanınmasını təsdiqləyir.

Ölkədə beynəlxalq muğam festivallarının, müsabiqələrin, konsertlərin və elmi simpoziumların təşkili, "Qarabağ xanəndələri" albomunun nəşri, "Muğam" jurnalının və "Muğam ensiklopediyası"nın çapı, həmçinin "Azərbaycan muğamı" multimedia toplusunun hazırlanması muğam irsinin qorunması və təbliği istiqamətində həyata keçirilən tədbirlər sırasındadır.

Muğam XX əsrin əvvəllərindən etibarən dünya mədəniyyət məkanına daxil olmuşdur. 1971-ci ildə UNESCO tərəfindən nəşr edilən "Dünya ənənəvi musiqisinin antologiyası"na daxil edilmiş "Azərbaycan musiqisi" qrammofon valı, 1975-ci ildə isə "Musiqi mənbələri" seriyasında buraxılan Azərbaycan muğamları bu sənətin beynəlxalq səviyyədə təqdimatına xidmət etmişdir. Azərbaycan muğamı Andrey Tarkovskinin "Stalker" filmində istifadə olunmuş, 1977-ci ildə isə NASA tərəfindən kosmosa göndərilmişdir.

Muğam Şərq musiqi mədəniyyətinin və folklorunun tədqiqində əsas janrlardan biri kimi musiqişünasların diqqətini cəlb etmişdir. Bu janr qədim və orta əsr Şərq musiqi sistemlərinin öyrənilməsində mühüm elmi mənbə hesab olunur.

Azərbaycan bəstəkarlarının yaradıcılığında muğam mühüm rol oynamışdır. Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası muğam üzərində qurulmuş, Fikrət Əmirovun "Şur" və "Kürd-Ovşarı" simfonik muğamları simfonik muğam janrının formalaşmasına zəmin yaratmışdır. Niyazi, Qara Qarayev, Soltan Hacıbəyov, Cövdət Hacıyev, Aqşin Əlizadə, Arif Məlikov, Firəngiz Əlizadə və digər bəstəkarların yaradıcılığında muğam prinsipləri müasir kompozisiya texnikaları ilə vəhdət təşkil etmişdir. Vaqif Mustafazadə muğam elementlərini caz musiqisinə tətbiq etmişdir.

Tarixən Şuşada Xarrat Qulu Məhəmməd oğlunun və Mir Möhsün Nəvvabın, Şamaxıda Mahmud Ağanın, Bakıda isə Məşədi Məlik Mənsurovun muğam məclisləri fəaliyyət göstərmişdir. 1922-ci ildə Bakıda açılmış ilk Avropa tipli musiqi tədris müəssisəsinin proqramına muğamın tədrisi daxil edilmişdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycanda beynəlxalq və respublika əhəmiyyətli muğam layihələri, o cümlədən 2005-ci ildən etibarən keçirilən "Muğam" Televiziya Müsabiqələri təşkil olunur. Bu müsabiqələr gənc ifaçıların yaradıcılıq potensialının üzə çıxarılmasına və muğam irsinin yeni nəsillərə ötürülməsinə xidmət edir. 2024-cü ildə IX "Muğam" Televiziya Müsabiqəsinə Laçın şəhərində yekun vurulmuşdur.

Müasir dövrdə muğam beynəlxalq musiqi tədbirlərində geniş şəkildə təmsil olunur və Azərbaycanın mədəni irsinin əsas göstəricilərindən biri kimi təqdim edilir. Qarabağda muğamın yenidən səsləndirilməsi bu irsin tarixi-mədəni məkanla əlaqəsinin bərpasını əks etdirir.

Hər il Azərbaycan Milli Kitabxanasında 26 avqust – "Beynəlxalq Azərbaycan Muğamı və Musiqisi Günü" münasibətilə tədbir və virtual sərgi təşkil edilərək istifadəçilərə təqdim olunur.

Ədəbiyyat:

Beynəlxalq Azərbaycan Muğamı və Musiqisi Günüdür // Həftə içi.– 2020.– 27 avqust.– 2 sentyabr.– S.12.

Mükərrəmoğlu, M. Muğam bəşəri musiqiyə çevrilmişdir: 26 avqust – Beynəlxalq Azərbaycan Muğamı Günüdür / M.Mükərrəmoğlu // Xalq qəzeti.– 2021.– 26 avqust.– S.10.

Qurbanqızı, Z. Azərbaycan muğamı: dünya mədəniyyətinin şah əsəri: 26 Avqust Beynəlxalq Azərbaycan Muğamı Günüdür / Z.Qurbanqızı // Respublika.– 2022.– 26 avqust.– S.9.

Səmədova, T. Muğam milli sərvətimizdir: 26 avqust Beynəlxalq Azərbaycan Muğamı və Musiqisi Günüdür / T.Səmədova // Respublika.– 2023.– 26 avqust.– S.15.

Sadıqov, T. Muğam – özlüyündə bir müəmma: 26 avqust Beynəlxalq Azərbaycan Muğamı və Musiqisi Günüdür / T.Sadıqov // Respublika.– 2024.– 25 avqust (№ 182).– S.1;11.

İnternetdə:

https://azertag.az/xeber/bu_gun_beynelxalq_azerbaycan_mugami_ve_ipek_yolu_uzerinde_yerlesen_olkelerin_musiqisi_gunudur-3149938

Digər tarixi hadisələr

Laçın Şəhəri Günü *(2023)*



Ədəbiyyat:

Əliyev, A. İşğaldan azad olunmuş bölgələrimizdə abadlıq-quruculuq işlərinin aparılması sülh və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edir / A.Əliyev // Xalq qəzeti.– 2022.– 29 iyun.– S.8.

Laçında "Bayraq yürüşü" keçirilib // Azərbaycan.– 2023.– 7 noyabr, № 244.– S.8.

Əliyeva, A. Laçın Şəhəri Günü / A.Əliyeva // 525-ci qəzet.– 2024.– 27 avqust (№153).– S.6.

Alıoğlu, S. Yurdum, yuvam, məskənim: Laçında Zirvə görüşü təşkil etməklə rəsmi Bakı bu torpaqlar artıq Azərbaycanın siyasi ürəyidir bəyanatını ifadə etdi / S.Alıoğlu // Respublika.– 2025.– 3 iyun (№ 114).– S.14.

Azadi, S. Tarixi Zəfərin daha bir simvolu: Laçın Şəhəri Günü /S.Azadi // İki sahil.-2025.- 27 avqust (№151).- S.4.

Qurbanova, Ş. Laçın Şəhəri Günü: Tarixi ədalətin bərpası və yeni inkişaf mərhələsi / Şəfa Qurbanova // 525-ci qəzet.-2025.- 27 avqust (№152).- S.5.

İnternetdə:

http://lachin-ih.gov.az/az/news/bu-gun-lacin-seheri-gunudur.html

2022-ci il avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Laçın şəhərinin, Zabux və Sus kəndlərinin Azərbaycan Ordusunun nəzarətinə keçdiyini elan etmişdir.

1930-cu il avqustun 8-də təşkil edilən Laçın rayonunun inzibati mərkəzi Laçın şəhəridir. 1923-cü ildə Abdallar kənd yaşayış məntəqəsinə Laçın adı verilmiş və şəhər statusu almışdır. Böyük strateji əhəmiyyətə malik olan Laçın rayonu 1 şəhər, 1 qəsəbə və 125 kənddən ibarət olmuşdur. Rayon 1992-ci il mayın 18-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. İşğal nəticəsində əhali etnik təmizləməyə məruz qalmış, 300-dən artıq hərbi və mülki şəxs həlak olmuş və itkin düşmüşdür. Bu dövrdə 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 133 idarə və müəssisə, 5 musiqi məktəbi, 1 internat məktəbi, 1 orta texniki peşə məktəbi, 2 avtonəqliyyat və müxtəlif istehsal obyektləri dağıdılmışdır. Həmçinin 54 dünya və 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalmışdır.

Ermənistan işğalçı tərəf kimi Cenevrə konvensiyalarında nəzərdə tutulan öhdəlikləri pozaraq Laçın rayonunda coğrafi adların dəyişdirilməsi, təbii resursların talan edilməsi, məqsədyönlü məskunlaşma siyasətinin aparılması və demoqrafik tərkibin dəyişdirilməsi kimi qeyri-qanuni fəaliyyətlər həyata keçirmişdir. Bu əməllər beynəlxalq hüquqa əsasən hərbi cinayətlər kimi qiymətləndirilir.

2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan ərazilərinin işğalına son qoyulmuşdur. Azərbaycan Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın Baş naziri tərəfindən imzalanmış 10 noyabr 2020-ci il tarixli birgə Bəyanata əsasən 2020-ci il dekabrın 1-də Laçın rayonu Ermənistan silahlı qüvvələri tərəfindən boşaldılmışdır. Bundan əvvəl, 2020-ci il noyabrın 9-da Laçın rayonunun Güləbird, Səfiyan və Türklər kəndləri Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad edilmişdir. 2022-ci il avqustun 26-da isə Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürülmüşdür. Laçının azad edilməsi Azərbaycanın hərbi və diplomatik uğurudur.

İşğaldan azad edildikdən sonra Laçın rayonunda genişmiqyaslı bərpa və quruculuq işlərinə başlanılmışdır. Prezident İlham Əliyev bir neçə dəfə Laçın rayonuna səfər etmiş, bu səfərlər zamanı Güləbird Su Elektrik Stansiyasının, "Qorçu" və "Laçın" yarımstansiyalarının, şəhərin əsas küçə və yol infrastrukturunun açılışında iştirak etmişdir. Eyni zamanda Laçın Beynəlxalq Hava Limanının, Kəlbəcər–Laçın avtomobil yolunda tunelin, "Laçın" Qovşaq Yarımstansiyasının, yaşayış məhəllələrinin və İşğal və Zəfər Muzeyi Kompleksinin təməli qoyulmuşdur.

Şəhərin baş planına əsasən, Laçının tarixi məskunlaşma ərazisində fərdi yaşayış evlərinə üstünlük verilmiş, eyni zamanda çoxmənzilli binaların tikintisi nəzərdə tutulmuşdur. Sosial infrastruktur çərçivəsində təhsil, səhiyyə, mədəniyyət, turizm və istirahət obyektlərinin yaradılması planlaşdırılır.

Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində Laçın şəhərinə məcburi köçkünlərin mərhələli şəkildə qayıdışı həyata keçirilir.

Azərbaycan Prezidentinin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən 26 avqust tarixi Laçın şəhəri günü kimi təsis edilmişdir.

Hər il Milli Kitabxanada bu əlamətdar gün münasibətlə "26 avqust – Laçın Şəhəri Günü" adlı virtual sərgi və eyniadlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunur.

SENTYABR

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
	1	2	3	4	5	6
7	8	9	10	11	12	13
14	15	16	17	18	19	20
21	22	23	24	25	26	27
28	29	30				

- *Jurnalistlərin Beynəlxalq Həmrəylik Günü (08.09.1958)*
- *Bilik Günü (15.09.2004)*
- *Milli Musiqi Günü (18.09.1995)*
- *Dövlət Suverenliyi Günü (20.09.2024)*
- *Turizm İşçiləri Günü (27.09.2016)*
- *İkinci Qarabağ müharibəsi şəhidlərinin Anım Günü (27.09.2020)*

24 avqust - 23 sentyabr Qız bürcü Nişanəsi yerdir. Günəşin Qızlar bürcünün keçdiyi dövrdə doğulanlar hər işdə aydınlıq, dəqiqliyin olmasını istəyirlər.

Şəhərsalma və Memarlıq İli



Heydər Məscidi 12.000 m² sahədə inşa edilmişdir. Məscidin fasadı Şirvan-Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənmiş, ornamentlərin zənginliyi fasadda arxitektura harmoniyası yaratmışdır. Binada hündürlüyü 95 metr olan 4 minarə mövcuddur.

Məscidin daxili sahəsi 4.200 m² təşkil edir və burada xüsusi bəzək elementlərindən istifadə edilmişdir. Baş günbəzinin hündürlüyü 55 metr, ikinci günbəzinin hündürlüyü isə 35 metrdir və onların kənarlarına Quran ayələri yazılmışdır. Məsciddə eyni vaxtda təqribən 7.000 insan ibadət edə bilir.

Məscidin tikintisinə Prezident İlham Əliyevin Sərəncamına əsasən 2012-ci ilin sentyabr ayında başlanmış, 26 dekabr 2014-cü ildə ictimaiyyətin istifadəsinə verilmişdir. Heydər Məscidi ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilmişdir.

SENTYABR 2026



Milli ədəbiyyat

Əməkdar mədəniyyət işçisi, yazıçı, publisist Abdinov Tofiq Məhərrəm oğlunun (Tofiq Abdin) (01.09.1941-24.02.2014) anadan olmasının 85 illiyi 718
Şair, dramaturq Sadıqov Novruz İsmayıl oğlunun (Novruz Gəncəli) (12.09.1921-19.10.1995) anadan olmasının 105 illiyi
Şair Nəsirli Müzəffər Qasım oğlunun (14.09.1911-01.01.1980) anadan olmasının 115 illiyi



Dünya ədəbiyyatı

Qırğız şairi, yazıçı, jurnalist Kasım Tınıstanovun (10.09.1901-06.11.1938) anadan olmasının 125 illiyi 719



Rəssamlıq. Heykəltəraşlıq

Əməkdar incəsənət xadimi, pedaqoq, rəssam Hüseynov Əyyub Müseyib oğlunun (02.09.1916-17.04.1998) anadan olmasının 110 illiyi 720
Xalq rəssamı Şıxəliyev Oqtay Yusif oğlunun (03.09.1931-31.01.2012) anadan olmasının 95 illiyi 721
Xalq rəssamı Əlimirzəyev Əliyar Əlimirzə oğlunun (04.09.1961) anadan olmasının 65 illiyi 722
Xalq rəssamı, qrafika ustası, teatr rəssamı Yefimenko Sergey Mitrofanoviçin (25.09.1896-05.08.1971) anadan olmasının 130 illiyi 723



Musiqi. Opera. Balet

Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, musiqişünas Hüseynova Ellada Əlihüseyn qızının (04.09.1961) anadan olmasının 65 illiyi 724
Bəstəkar-musiqişünas, fəlsəfə elmləri doktoru, professor Abdullazadə Gülnaz Abutalıb qızının (07.09.1946) anadan olmasının 80 illiyi 725
Xalq artisti, opera müğənnisi Hacıyeva-Neylor Fidan Hacı Ağa qızının (07.09.1976) anadan olmasının 50 illiyi 726
Əməkdar incəsənət xadimi, professor, sənətşünaslıq üzrə elmlər doktorunun Əliyeva Fərəh Şirməmməd qızının (07.09.1961) anadan olmasının 65 illiyi 727
Çex bəstəkarı Dvorjak Antoninin (08.09.1841-01.05.1904) anadan olmasının 185 illiyi
Xalq artisti, vokal ifaçısı Əhmədov Mobil Salman oğlunun (10.09.1931-03.06.2006) anadan olmasının 95 illiyi 728
Sənətşünaslıq üzrə elmlər doktoru, professor Köçərli İradə Tofiq qızının (11.09.1956) anadan olmasıbnın 70 illiyi 729

Xalq artisti, müğənni Səmədov Səmədin (17.09.1946-24.07.2021) anadan olmasının 80 illiyi 730
Xalq artisti, skripkaçı, konsertmeyster, professor Quliyeva Zəhra Teymur qızının (23.09.1951) anadan olmasının 75 illiyi 731
Əməkdar artist, müğənni Haqverdiyev Xanlar Məmməd oğlunun (25.09.1906-05.12.1980) anadan olmasının 120 illiyi 732
Rus bəstəkarı, xalq artisti, professor Şostakoviç Dmitri Dmitriyeviçin (25.09.1906-09.08.1975) anadan olmasının 120 illiyi 733
Xalq artisti, müğənni Quliyev Şahlar Həsənağa oğlunun (25.09.1946-26.10.2024) anadan olmasının 80 illiyi 734
Əməkdar incəsənət xadimi, professor Qarayeva-Məmmədova Bilqeyis Mir Əbdül Qəni qızının (27.09.1931-03.07.2010) anadan olmasının 95 illiyi
Əməkdar artist, müğənni Məmmədova Fəridə Kamal qızının (29.09.1976) anadan olmasının 50 illiyi 735



Teatr. Kino

Aktyor Salayev Fazil İdris oğlunun (01.09.1931-20.06.1978) anadan olmasının 95 illiyi
Xalq artisti, aktyor Nuriyev Yaşar Məmmədsadıq oğlunun (Yaşar Nuri) (03.09.1951-22.11.2012) anadan olmasının 75 illiyi 736
Əməkdar artist, aktyor, rejissor Namazov Zilli Yunis oğlunun (09.09.1951-27.12.2021) anadan olmasının 75 illiyi 737
Əməkdar incəsənət xadimi, kinorejissor Bəkirzadə Teymur Bəkir oğlunun (14.09.1941-21.09.1996) anadan olmasının 85 illiyi 738
Xalq artisti, aktrisa Əminə Yusif qızının (24.09.1936-09.10.2025) anadan olmasının 90 illiyi 739
Xalq artisti Orlinskaya Solmaz (Nina) Qaragen qızının (25.09.1906-17.06.1973) anadan olmasının 120 illiyi 740
Xalq artisti, aktyor Məmmədov Ramiz Soltanəli oğlunun (26.09.1951-21.03.2021) anadan olmasının 70 illiyi 741



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Kərimov Kazımağa Mövsüm oğlunun (01.09.1951-15.06.1992) anadan olmasının 75 illiyi 742
Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Seymur Qəhrəman oğlunun (18.09.1971-01.04.1992) anadan olmasının 55 illiyi 743
Azərbaycanın Milli Qəhrəmanı Qubadov Arif Vəliş oğlunun (20.09.1966-26.09.2009) anadan olmasının 60 illiyi 744
Azərbaycanın Milli Qəhrəmanı Yusifov Zakir Tofiq oğlunun (29.09.1956-11.10.1992) anadan olmasının 70 illiyi 745

Azərbaycanın Milli Qəhrəmanı İbrahimov Mirələkbər Mirələsgər oğlunun (30.09.1961-05.03.1994) anadan olmasının 65 illiyi 746

İkinci Qarabağ Müharibəsi Şəhidləri

MAHHXHQ əsgər Adgözəlov Faiq Mehdi oğlunun (01.09.1996-10.10.2020) anadan olmasının 30 illiyi 747
MAHHXHQ əsgər Haşımov Fuad Ceyhun oğlunun (01.09.1996-22.10.2020) anadan olmasının 30 illiyi 747
Gizir Nəbiyev Cilingir Azad oğlunun (01.09.1996-28.10.2020) anadan olmasının 30 illiyi 748
MAHHXHQ əsgər İsmayılov Mirrəhim Mirmehdi oğlunun (02.09.1996-27.11.2020) anadan olmasının 30 illiyi 748
Əsgər Rəşidov Natiq Məmmədrza oğlunun (02.09.1991-30.11.2020) anadan olmasının 35 illiyi 749
Əsgər Cəfərli Asim Çingiz oğlunun (04.09.2001-27.10.2020) anadan olmasının 25 illiyi 749
Əsgər İsizadə Elvin Azim oğlunun (04.09.2001-26.10.2020) anadan olmasının 25 illiyi 750
MAHHXHQ əsgər Atayev Taryel Fəxrəddin oğlunun (05.09.1986-11.11.2020) anadan olmasının 40 illiyi 750
Əsgər Cəfərov Ayxan Cəmaləddin oğlunun (06.09.1996-17.10.2020) anadan olmasının 30 illiyi 751
Əsgər Qəribzadə Hüseyn Qədr oğlunun (06.09.2001-16.11.2020) anadan olmasının 25 illiyi 751
Əsgər Hüseynli Ağa Aydın oğlunun (07.09.2001-08.10.2020) anadan olmasının 25 illiyi 752
Əsgər Məmmədov Bəhruz Tahir oğlunun (07.09.1991-05.11.2020) anadan olmasının 35 illiyi.....752
MAHHXHQ baş çavuş Qurbanov Ruslan Üzeyir oğlunun (07.09.1991-02.10.2020) anadan olmasının 35 illiyi 753
Əsgər Lətifov Eynulla Niyətulla oğlunun (08.09.2001-20.10.2020) anadan olmasının 25 illiyi 753
Əsgər Behbudlu Behbud Rübail oğlunun (09.09.2001-01.10.2020) anadan olmasının 25 illiyi 754
MAHHXHQ əsgər Hümmətov İzzət Müşviq oğlunun (09.09.1996-30.10.2020) anadan olmasının 30 illiyi 754
MAHHXHQ əsgər Məmmədov Kəmaləddin İsrail oğlunun (10.09.1996-10.11.2020) anadan olmasının 30 illiyi 755
Əsgər Məmmədzadə Qüdrət Tofiq oğlunun (10.09.2001-17.10.2020) anadan olmasının 25 illiyi 755
Leytenant İmaməliyev Sərraf Murtuzəli oğlunun (10.09.1996-07.11.2020) anadan olmasının 30 illiyi 756

Əsgər Yunusov Murad Bayram oğlunun (10.09.2001-05.11.2020) anadan olmasının 25 illiyi 756
Əsgər Əhmədov Qalib Rəşid oğlunun (10.09.2001-22.10.2020) anadan olmasının 25 illiyi 757
Əsgər Dövlətzadə Cəbrayıl Dövlət oğlunun (11.09.2001-28.09.2020) anadan olmasının 25 illiyi 757
Kiçik çavuş Məmmədov Səxavət Vahab oğlunun (12.09.1996-26.11.2020) anadan olmasının 30 illiyi 758
Əsgər Bəxtiyarov Orxan Sərvər oğlunun (13.09.1991-16.11.2020) anadan olmasının 35 illiyi 758
Əsgər Zeyniyev Rəşad Ələkbər oğlunun (13.09.2001-14.11.2020) anadan olmasının 25 illiyi 759
Mayor Həsənov Sadiq Əli oğlunun (14.09.1986-20.10.2020) anadan olmasının 40 illiyi 759
Əsgər Ağayev Vahid Məcnun oğlunun (14.09.1996-11.11.2020) anadan olmasının 30 illiyi 760
Əsgər Orucov Mirzəcan Araz oğlunun (14.09.2001-07.10.2020) anadan olmasının 25 illiyi 760
Əsgər Vəlizadə Kamran Əkpər oğlunun (14.09.1996-11.11.2020) anadan olmasının 30 illiyi 761
MAHHXHQ çavuş Veyisli Xaliddin Zəkər oğlunun (14.09.1981-26.10.2020) anadan olmasının 45 illiyi 761
Əsgər Əlizadə Nicat Qorxmaz oğlunun (15.09.2001-07.10.2020) anadan olmasının 25 illiyi 762
Əsgər Hüseynov İsabala Ceyhun oğlunun (15.09.2001-05.12.2020) anadan olmasının 25 illiyi 762
Əsgər Abbasov Zöhrab Natiq oğlunun (17.09.2001-16.12.2020) anadan olmasının 25 illiyi 763
Əsgər Salahov Elvin Sabir oğlunun (17.09.2001-24.10.2020) anadan olmasının 25 illiyi 763
MAHHXHQ əsgər Salmanzadə Pərvin Təbriz oğlunun (17.09.1991-06.11.2020) anadan olmasının 35 illiyi 764
Əsgər Hacıismayılov Rahib Məmmədəmin oğlunun (17.09.1991-27.10.2020) anadan olmasının 35 illiyi 764
Əsgər Hüseynov Eldəniz Tahir oğlunun (17.09.1996-09.10.2020) anadan olmasının 30 illiyi 765
Əsgər Tahirli Şahin Afat oğlunun (17.09.2001-23.11.2020) anadan olmasının 25 illiyi 765
Gizir Əmənov Məhəmməd İltizam oğlunun (18.09.1996-20.10.2020) anadan olmasının 30 illiyi 766
Əsgər Həsənov Səfər Elmar oğlunun (18.09.2001-21.11.2020) anadan olmasının 25 illiyi 766

Əsgər Hüseynov Xaliq Kamil oğlunun (20.09.2001-16.10.2020) anadan olmasının 25 illiyi 767
Əsgər Məmmədyarov Mürvət Güloğlan oğlunun (20.09.1996-06.10.2020) anadan olmasının 30 illiyi 767
Əsgər Rəhimov Fariz Zahir oğlunun (20.09.2001-11.11.2020) anadan olmasının 25 illiyi 768
Əsgər Babayev Çingiz Sulduz oğlunun (21.09.2001-11.10.2020) anadan olmasının 25 illiyi 768
Əsgər Mustafayev İsmayıl Elmar oğlunun (22.09.1996-17.11.2020) anadan olmasının 30 illiyi 769
Əsgər Xəlilov Ceyhun Azər oğlunun (22.09.2001-29.09.2020) anadan olmasının 25 illiyi 769
Əsgər Hacıyev Rüstəm Firqani oğlunun (22.09.2001-30.09.2020) anadan olmasının 25 illiyi 770
Əsgər Allahverdiyev Süleyman Etibar oğlunun (22.09.1996-26.11.2020) anadan olmasının 30 illiyi 770
Əsgər Ağayev Ağamali Şamil oğlunun (23.09.1996-21.10.2020) anadan olmasının 30 illiyi 771
Əsgər Əliyev Aslan Elman oğlunun (23.09.2001-08.11.2020) anadan olmasının 25 illiyi 771
Əsgər İsmayılov Ceyhun İqbal oğlunun (25.09.1996-30.10.2020) anadan olmasının 30 illiyi 772
Əsgər Məmmədov Murad Elşən oğlunun (25.09.1996-14.10.2020) anadan olmasının 30 illiyi 772
MAHHXHQ çavuş Yariyev Elsevər Qalib oğlunun (25.09.1986-30.10.2020) anadan olmasının 40 illiyi 773
Əsgər Babayev Pərvin Hüseyn oğlunun (26.09.2001-07.10.2020) anadan olmasının 25 illiyi 773
Əsgər Dadaşov Nurlan Səyyad oğlunun (27.09.2001-04.10.2020) anadan olmasının 25 illiy 774
Əsgər Qurbanlı Nurlan Süleyman oğlunun (27.09.2001-06.10.2020) anadan olmasının 25 illiyi 774
Əsgər Allahverdiyev Zöhrab Sübhan oğlunun (28.09.2001-10.10.2020) anadan olmasının 25 illiyi 775
Əsgər Məhəmmədov Alim Qəmərşo oğlunun (28.09.2001-28.10.2020) anadan olmasının 25 illiyi 775
Əsgər Tağıyev Kamran Fikrət oğlunun (29.09.2001-31.10.2020) anadan olmasının 25 illiyi 776
Əsgər Bağırlı Hikmət Qəhrəman oğlunun (29.09.2001-30.09.2020) anadan olmasının 25 illiyi 776
Leytenant Quliyev Həsən İbrahim oğlunun (30.09.1996-30.09.2020) anadan olmasının 30 illiyi 777

SENTYABR 2026



Siyasət. Hüquq. Hərbi iş


Siyasi xadimi, iqtisadçı Şərifov Samir Rauf oğlunun (07.09.1961) anadan olmasının 65 illiyi 778
Hüquq elmləri doktoru Hacıyev Xanlar İrşad-Faiq oğlunun (09.09.1956) anadan olmasının 70 illiyi 779
Siyasi xadim Quliyev Ülvi Zahid oğlunun (17.09.1966) anadan olmasınını 60 illiyi.....780



Azərbaycan Respublikasının iqtisadiyyat naziri, 2-ci dərəcəli dövlət vergi xidməti müşaviri Mikayıl Çingiz oğlu Cabbarovun (19.09.1976) anadn olmasının 50 illiyi


Mədəniyyət. Maarif. Təhsil

Akademik, filologiya elmləri doktoru Nağısoylu (Nağıyev) Möhsün Zellabdin oğlunun (01.09.1946) anadan olmasının 80 illiyi 781
Əməkdar müəllim, sənətşünaslıq üzrə elmlər doktoru, professor Həsənova Cəmilə İsmayıl qızının (10.09.1961) anadan olmasının 65 illiyi
Əməkdar müəllim, professoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, bəstəkar Cəfərova Lalə Tahir qızının (14.09.1966) anadan olmasının 60 illiyi 782
AMEA-nın müxbir üzvü, sənətşünalıq doktoru, professor Kərimov Kərim Cabbar oğlunun (20.09.1921-25.06.1995) anadan olmasının 105 illiyi
Filologiya elmləri doktoru, professor Zeynalov Əsgər Məmməd oğlunun (27.09.1951) anadan olmasının 75 illiyi 783



Riyaziyyat. Fizika. Astronomiya

Akademik, əməkdar elm və texnika xadimi Sultanov Hacıbəy Fərəculla oğlunun (20.09.1921-05.03.2008) anadan olmasının 105 illiyi 784
AMEA-nın müxbir üzvü, riya¬ziyyat üzrə elmlər doktoru, professor, mexanik Əlizadə Anar Nadir oğlunun (23.09.1951-2012) anadan olmasının 75 illiyi



Kimya. Biologiya. Tibb

Akademik, əməkdar elm xadimi, professor, tibb elmləri doktoru, pediatr, kardioloq Namazova Ədilə Əvəz qızının (09.09.1926-16.12.2020) anadan olmasının 100 illiyi 785
Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Balakişiyev Kamil Əbdülsalam oğlunun (20.09.1906-22.11.1973) anadan olmasının 120 illiyi 786
Akademik, biologiya elmləri doktoru, professor Quliyev Ələkbər Məmməd oğlunun (27.09.1911-16.04.1983) anadan olmasının 115 illiyi



Texnika. Mühəndis işi

Əməkdar mühəndis, texnika elmləri doktoru Rüstəmbəyov Əsəd Fətulla oğlunun (02.09.1911-17.10.1982) anadan olmasının 115 illiyi

Texnika elmləri doktoru, professor Babazadə Fikrət Ələkbər oğlunun
(19.09.1931-08.05.2000) anadan olmasının 95 illiyi
Əməkdar elm xadimi, texnika elmləri doktoru, professor Bilalov
Yaşar Mahmud oğlunun (29.09.1936-14.05.2013) anadan olmasının 90 illiyi ...787



Kitabxanaşünaslıq. Biblioqrafiya

Sədərək rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (04.09.1991)
yaradılmasının 35 illiyi



Digər tarixi hadisələr

Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri seçilmişdir (03.09.1991)
Azərbaycan Respublikası Müdafiə Nazirliyi təşkil edilmişdir (05.09.1991)
Jurnalistlərin Beynəlxalq Həmrəylik Günü (08.09.1958)
Azərbaycanda ilk Prezident seçkiləri keçirilmişdir (08.09.1991)
Qobustan Dövlət Tarixi-Bədii Qoruğunun yaradılmasının (09.09.1966) 60 illiyi .788
“Greenpeace” (Yaşıl sülh) təşkilatının yaranma günü (15.09.1971)
Bilik Günü (15.09.2004) 789
Ümumdünya Ozon Qatının Mühafizəsi Günü (16.09.1994)
Gəncə Dövlət Kukla Teatrı yaradılmasının (18.09.1986) 40 illiyi
Milli Musiqi Günü (Üzeyir Musiqi Günü) (18.09.1995) 790
Azərbaycan Respublikası Prezidenti Dövlət Suverenliyi Gününün
təsis edilməsi haqqında Sərəncam imzalamışdır (19.09.2024)
Neftçilər Günü (20.09.2001)
Dövlət Suverenliyi Günü (20.09.2024) 791
Xankəndi Şəhəri Günü (20.09.2024) 792
Xocalı Şəhəri Günü (20.09.2024) 793
Xocavənd Şəhəri Günü (20.09.2024) 794
Ağdərə Şəhəri Günü (20.09.2024) 795
Beynəlxalq Sülh Günü (21.09.1981)
Beynəlxalq Lal-Karlar Günü (24.09.1951)
Beynəlxalq Dəniz Günü (26.09.1978)
Beynəlxalq Turizm Günü (27.09.1979)
Turizm İşçiləri Günü (29.09.2016)
Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi
Dövlət Xidməti əməkdaşlarının peşə bayramı günü (26.09.2024)
Anım günü (27.09.2020) 796
Beynəlxalq Tərcüməçilər Günü (30.09.1991)

Tofiq Abdin – 85

(1941-2014)

Yazıçı



Tofiq Məhərrəm oğlu Abdinov (Tofiq Abdin) 1941-ci il sentyabr ayının 1-də Salyan rayonunun Qırmızıkənd kəndində anadan olmuşdur. 1962-1968-ci illərdə M.A.Əliyev adına Azərbaycan İncəsənət İnstitutunun (indiki ADMİU) teatrşünaslıq fakültəsində təhsil almışdır.

1959-1960-cı illərdə Salyan rayonunun "Bolşevik" kolxozunda sıravi işçi kimi fəaliyyət göstərmiş, 1960-cı ildə isə Qırmızıkənd kənd kitabxanasının müdiri vəzifəsində çalışmışdır. 1960-1966-cı illərdə Bakı Komvol fabrikində usta köməkçisi olmuşdur.

1967-ci ildə Azərbaycan Sovet Ensiklopediyasında (ASE) korrektor, kiçik redaktor vəzifələrində işləmişdir. 1968-ci ildən "Qobustan" jurnalında teatr və kino redaksiyasının müdiri vəzifəsində çalışmış, istedadlı jurnalist və şair kimi nüfuz qazanmışdır.

1969-cu ildə Böyük Vətən müharibəsində itkin düşmüş sənət adamları haqqında ilk sənədli "Etüd" oçerklər kitabı çap olunmuşdur. 1984-cü ildə "Bəlkə bir də görüşdük" adlı oçerklər toplusu, 1986-cı ildə "Günlər Bəşirsiz keçir" adlı kitabı işıq üzü görmüşdür. "Nəğməli gecələr" (şeirlər - 1972), "Ata sevgisi" (şeirlər - 1978), "Sahilsiz dünya" (şeirlər və poema - 1986), "Bəşir Səfəroğlu" (1986), "Səhərimiz ayaq açır" (şeirlər - 1991) və s. bu kimi ədəbi, publisistik kitabları çap olunmuşdur.

2005-ci ildə "Ah, İstanbul... İstanbul...: Türkiyə İstanbul 1993-1998 " adlı son kitabı nəşr olunmuşdur. Naxçıvan Poeziya Teatrında Rəsul Rzanın şeirləri əsasında hazırladığı "Bir gün də insan ömrüdür" kompozisiyası tamaşaya qoyulmuşdur.

Tofiq Abdin 1993-2001-ci illərdə Türkiyədə yaşamışdır. Türkiyədə çalışarkən "Orta doğu" və "Asiya" qəzetləri ilə əməkdaşlıq etmişdir. Lakin 2001-ci ildən doğma jurnalı olan "Qobustan"a qayıtmış, burada 2005-ci ilə kimi məsul katib vəzifəsində işləmiş, həmin jurnalda maraqlı yazılarla çıxış etmişdir.

2005-2006-cı illərdə "Ulduz" jurnalında ədəbi işçi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyində Teatr sektorunda aparıcı məsləhətçi, 2006-cı ildə isə "Mədəniyyət" qəzetində baş redaktorun müavini vəzifələrində işləmişdir. Həmçinin bu illər ərzində şairin "Şeirlər" (2001), "Proza" (2006), "Poeziya" (2009) və bu kimi kitabları çap olunmuşdur.

2010-cu il aprelin 2-də dəyərli şair və usta publisist, uzun illər "Qobustan" jurnalının ən fəal yazarlarından biri olan Tofiq Abdin, şəxsi arxivində qoruduğu jurnalın 1970-1993-cü illərdə nəşr olunan bütün nüsxələrini M.F. Axundov adına Milli Kitabxanaya hədiyyə etmişdir.

2002-ci ildə "Rəsul Rza adına Beynəlxalq ədəbiyyat mükafatı"na, 2010-cu ildə isə Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.

Tofiq Məhərrəm oğlu Abdinov (Tofiq Abdin) 2014-cü il fevralın 24-də vəfat etmiş və Bakıda dəfn olunmuşdur.

2019-cu ildə Türkiyədə yazıçı Orxan Arasın şair və publisist Tofiq Abdin haqqında qələmə aldığı "Bu dünyadan sen de geçtin, Tofiq Abdin" adlı kitabının təqdimatı keçirilmişdir.

Ədəbiyyat:

Proza / Tofiq Abdin. – Bakı: Yazıçı, 2006. – 256 s.

Poeziya / Tofiq Abdin.– Bakı: Vektor, 2009. –350 s.

Əhmədov, T. Tofiq Abdin / Teymur Əhmədov // Azərbaycan yazıçıları: XX-XXI yüzilliklərdə / T.Əhmədov. – Bakı, 2011.– S. 938-939

Allah bilən məsləhətdir...: (Tofiq Abdinin şeirləri haqqında bir neçə söz) / X.Natil // 525-ci qəzet.– 2020.– 22 fevral.– S.14.

Bəlkə...bir daha şeir yazmadım / T. Abdin // Ədalət.– 2022.– 23 iyul.– S.5.

Tofiq Abdini yad edərkən... / A.İ.Eminov // 525-ci qəzet.– 2023.– 13 iyun.– S.11.

İnternetdə:

Sözün unudulmayan Tofiq Abdin / Ə.Mədətoğlu // Ədalət.– 2025.– 10 yanvar (№1).– S.8.

https://az.wikipedia.org/wiki/Tofiq_Məhərrəmoğlu

Qasım Tınıstanov – 125

(1901-1938) Qırğız şairi



Qasım Tınıstanov 1901-ci il sentyabr ayının 10-da Qırğızıstan şəhərinin Isık-Göl rayonunun Çırpıktı kəndində anadan olmuşdur. Karakoldakı Rus-Tuzem məktəbinə getmiş, lakin bu məktəb Tınıstanovu qəbul etməyərək onu özbək məktəbinə istiqamətləndirmişdir. Rus məktəbində təhsil almağa başladıqdan bir il sonra Qasım Tınıstanovun təhsil həyatı 1916-cı ildə Qırğızıstanda Çar rejiminə qarşı çıxan "Ürkün" üsyanı səbəbiylə yarım qalmışdır. 1919-1924-cü illər arasında bu dövrdəki Türküstan Muxtar Sovet Sosialist Respublikasının paytaxtı Daşkənddə Qazax-Qırğız Xalq Təhsil İnstitutunda təhsil almışdır.

Qasım Tınıstanov bu illərdə qazax-qırğız dillərində dərc olunan "Öris" (Yoxuş), "Ak Col" (Ağ yol) qəzetlərində və "Cas Gayrat" (Gənc Çaba) ilə "Sana" (Sənə) jurnallarında çalışmışdır. 1920-ci il may ayında siyasi "Canqa Öris" qəzetində "Türküstanın Komunist Gənclər Birliyi" bölümünün redaktoru olmuşdur. 1924-cü ildə Qazax-Qırğız Xalq Təhsil İnstitutundan məzun olan Qasım Tınıstanov Komunist partiyasına üzv olmuş, 1925-ci ildə Qırğız Muxtar bölgəsinin Elmlər Akademiyasının baş katibi, 1926-cı ildə isə mərkəzin müdiri olmuşdur. Tınıstanov bu vəzifədən başqa, 1925-1927-ci illər arasında "Canı Alfabit Dostoru" (Ynei əlifba dostları) adlı dərnəyin müdiri, Milli Yeni Əlifba Komitəsinin müdür müavini və Sovetlər Birliyi Yeni Əlifba Komitəsinin üzvü vəzifəsində çalışmışdır. Aradan çox keçmədən Qırğızıstanın ilk qəzeti "Erkin Too"nun (Azad dağ) redaktoru vəzifəsində çalışmışdır.

Ayrıca yenə qazax dilində nəşr olunan "Uçkun", "Tilçi", "Örüş" adlı qəzetlərdə də yazılar dərc etdirmişdir. Yazılarında "Kıt" təxəllüsünü istifadə etmişdir. 1920-1921-ci illər arasında "Tang" (Dan), "Bugingi Kün" (Bu günkü gün), "Bulbulga" (Bülbülə) kimi şeirləri qələmə almışdır. 1922-1924-cü illərdə qırğız dilində "Canıl Mırza" adlı poema və iyirmiyə yaxın şeir yazmışdır. Qırğız və qazax dilində yazdığı bu şeirləri və "Canıl Mırza" mənzuməsini bir kitabda toplayaraq "Kasım Irlarının Cıynagı" (Qasımın şeirlər toplusu) adlı kitabını Moskvada çap etdirmişdir. Qırğız dilinin ilk əlifbasını yazan Tınıstanov "Okuu Kitebi", "Çondor Üçün Alippe" (1926), "Bizdin Til" (1927), "Okuu Cazuu Bil" (1927), "Ene Tili" (1928), "Kırgız Adabiy Tilinin Canı Dolbooru" (1934), "Kırgız Tilinin Morfologiyası" (1934), "Kırgız Tilinin Sintaksisi" (1936) kimi kitabların və dərsliklərin müəllifidir.

1927-1930-cu illər arası Qırğız Otonom Sovet Sosialist Respublikasının Təhsil Komisarı olaraq çalışmışdır. 1931-1937-ci illərdə Qırğız Təhsil İnstitutunda qırğız türkcəsiylə dərslər vermişdir. 1932-ci ildə dosent, 1936-cı ildə isə professor adını almışdır. 1933-cü ildə Qasım Tınıstanovun "Akademiya Keçeleri" (Akademik gecələr) pyesi Opera Balet teatrında tamaşaya qoyulmuşdur.

Qasım Tınıstanov 1928-1930-cu illərdə qəzet və jurnallarda nəşr olunan yazılarda, partiya qərarlarında, bütün iclaslarda milliyyətçi, kapitalist, əksinqilabçı olaraq günahlandırılan insanlarla birlikdə dəfələrlə mühakimə edilmiş, 1937-ci ildə xalq düşməni adıyla həbs edilərək, 6 noyabr 1938-ci ildə güllələnmişdir.

1 oktyabr 1957-ci ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası Qasım Tınıstanovun güllələnməsini əsaslanmamış günah kimi qiymətləndirmiş və ona bəraət qazandırmışdır.

Ədəbiyyat:

Qasım Tınıstanovun "Canıl Mırza" poemasında qəhrəmanlıq motivi / A.Çevik // Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal.– 2019.– №4(112).– S.108-112.

I Türkoloji Qurultayın iştirakçısı: Qasım Tınıstanov / A.Çevik // Müqayisəli ədəbiyyatşünaslıq / AMEA, N.Gəncəvi adına Ədəbiyyat İnstitutu.– 2021.– №2.– S.72-77.

Qasım Tınıstanovun ədəbi-bədii görüşləri: Filologiya [üzrə] fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis.: 5717.01 / Ali İhsan Erdoğan oğlu Çevik.– Bakı: 2022.– 142 s.

İnternetdə:

https://www.academia.edu/43487977/I_Türkoloji_Qurultayın_İştirakçısı_Qasım_Tınıstanov


http://www.anl.az/down/meqale/muq_edebiyyat/2021/02/10(meqale).pdf

http://www.anl.az/down/meqale/bdu_dil_edebiyyat/2019/04/26(meqale).pdf

Əyyub Hüseynov – 110

(1916-1998)

Rəssam



Əyyub Müseyib oğlu Hüseynov 1916-cı il sentyabrın 2-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Xok kəndində anadan olmuşdur.

O, 1931-ci ildə Bakı Rəssamlıq Texnikumuna daxil olmuş, buranı bitirdikdən sonra təhsilini Tbilisi Rəssamlıq Akademiyasında davam etdirmişdir.

Təhsilini başa vurduqdan sonra bir müTəhsilini başa vurduqdan sonra bir müddət Naxçıvan Dövlət Dram Teatrında quruluşçu rəssam vəzifəsində çalışmış, müxtəlif tamaşalar üçün dekorasiyalar və eskizlər hazırlamışdır. 1948–1998-ci illər ərzində pedaqoji fəaliyyət göstərmiş, 1956–1965-ci illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin (indiki ADRA) direktoru olmuşdur.

Yaradıcılığının əsas hissəsini rəssamlıq təhsilinə həsr edən Əyyub Hüseynov neçə-neçə tanınmış fırça ustasının formalaşmasında mühüm rol oynamışdır. Onun əsərlərində torpaq, səma və təbiət təsvirləri üstünlük təşkil edir. Rəssam daha çox dəzgah rəngkarlığına meyl etmiş, zəhmət və kənd mövzularında rəngkarlıq nümunələri, həmçinin mənzərə, portret və məişət janrlarında əsərlər yaratmışdır.

Geniş rəng yaxmaları, özünəməxsus bədii üslubu ilə fərqlənən rəssamın məşhur əsərləri sırasında "Araz vadisində", "Kömək gəlib", "Yaylaqda", "Çobanlar", "Şahbuz", "Yağışdan sonra", "Aşıq Ələsgər", "Əmək qəhrəmanı" və digər tablolar xüsusi yer tutur.

Sovet dövründə onun yaradıcılığı Azərbaycan təsviri sənətinin beynəlxalq aləmdə tanıdılmasına əhəmiyyətli töhfə vermişdir. Rəssamın çəkdiyi əsərlərin bir qismi bu gün də müxtəlif ölkələrin muzey və sərgi salonlarında nümayiş etdirilir.

1980-ci ildə Əyyub Hüseynov "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Əyyub Hüseynov 1998-ci il aprelin 17-də Bakı şəhərində vəfat etmişdir.

2006-cı il noyabrın 22-də Səttar Bəhlulzadə adına Mərkəzi Sərgi Salonunda rəssamın anadan olmasının 90 illiyinə həsr olunmuş yubiley sərgisi açılmış, həyat və yaradıcılığına dair kitab nəşr edilmişdir.

2016-cı il oktyabrın 25-29-da Azərbaycan Milli İncəsənət Muzeyində sənətkarın 100 illik yubileyi qeyd edilmişdir.

2018-ci il aprelin 25-də Mədəniyyət Nazirliyinin sifarişi ilə "Dublyaj" studiyasında rəssamın həyat və yaradıcılıq yoluna həsr olunmuş sənədli film təqdim edilmişdir.

Ədəbiyyat:

Qaliboğlu, S. Tanınmış rəssam Əyyub Hüseynov yubiley sərgisi ilə anıldı / S.Qaliboğlu // Mədəniyyət.– 2016.– 26 oktyabr.– S.7.

Azəri, L. "Avtoportret" - rəssam ömrünün ekranda əksi: Sənədli film tanınmış fırça ustası Əyyub Hüseynovun ömür və sənət yoluna həsr olunub / L.Azəri // Mədəniyyət.– 2018.– 25 aprel.– S.5.

Təsviri sənətimizdə rəssam-pedaqoq imzası / S.Fərəcov // Mədəniyyət.– 2020.– 18 sentyabr.– S.7.

Əməkdar rəssam Əyyub Hüseynovun yaradıcılığında Naxçıvan təbiətinin təsviri / X.Zeynalov // Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu: Elmi-praktiki konfrans.– 2024.– S.143-145.

İnternetdə:


https://www.nrb.gov.az/az/artists?painter=117

https://az.wikipedia.org/wiki/Əyyub_Hüseynov

Oqtay Şıxəliyev – 95

(1931-2012)

Rəssam



Oqtay Yusif oğlu Şıxəliyev 1931-ci il sentyabrın 3-də Bakı şəhərində anadan olmuşdur.

1947-1952-ci illərdə Ə.Əzimzadə adına Rəssamlıq məktəbində təhsil almışdır. 1952-1958-ci illərdə V.İ.Muxina adına Leninqrad Ali Bədii Sənaye Məktəbinin bədii keramika şöbəsində dekorativ-tətbiqi sənət ixtisası üzrə təhsil almışdır. 1963-1967-ci illərdə Ə.Əzimzadə adına Bakı Rəssamlıq Məktəbində müəllim, 1967-ci ildə Azərbaycan Teatr İnstitutunda (indiki ADMİU) müəllim, 1969-cu ildən baş müəllim vəzifələrində fəaliyyət göstərmişdir.

Oqtay Şıxəliyevin tematik tablolarının əsas bədii xüsusiyyətlərini əks etdirən əsərləri arasında "Çənlər" (1969), "Kürün ram edilməsi" (1970), "Ancaq sülh" (1970), "Sallaqxana" (1970), "Mənim buketim" (1971), "Kapella" (1980), "Muğam" (1982) və s. qeyd edilə bilər.

Portret və mənzərə janrında yaratdığı əsərlərdən xüsusilə "Qobustan daşları" (1966), "Sumqayıt boruları" (1970), "Tarzən Bəhram Mansurov" (1972), "SSRİ Xalq artisti Mirzağa Əliyev" (1974), "Aydın səma" (1974), "Rəssam Rasim Babayev" (1975), "Nigar" (1975), "Rəssamın ailəsi" (1976), "Meksika həyəti" (1982) diqqət çəkir.

XX əsrin 60-cı illərindən etibarən Oqtay Şıxəliyev bir çox ictimai binaların - idman sarayları, məktəblər, zavodlar, metro stansiyaları, parklar və s. bədii tərtibatını hazırlamış, onların interyerində müxtəlif formalı kompozisiyalar yaratmışdır.

Rəssamın monumental yaradıcılıq nümunələrinə Bakıdakı 18 saylı məktəb, Bakı Məişət Kondisionerləri Zavodu, "Azərbaycan" nəşriyyatının binası, Bakıda "Uşaq dünyası" universal mağazası və digər obyektlər daxildir.

Oqtay Şıxəliyev rəngkarlıq sahəsində çalışmış, çoxsaylı portret və mənzərə əsərləri, plakatlar yaratmış, dekorativ vazalara və boşqablara tərtibat vermişdir. Rəssam daha çox lokal rənglərə üstünlük vermiş, bu rənglərin ahəngini onların təzadları ilə birgə yaratmışdır.

Bu yanaşma onun "Mənim qaracam", "Nigar", "Qız", "Kimyaçı" kimi portretlərində və "Qobustan", "Müharibənin nəticələri" adlı mənzərə əsərlərində aydın görünür. Rəssam həmçinin dəzgah rəngkarlığının müxtəlif janrlarında bir-birindən maraqlı və fərqli əsərlər yaratmışdır.

1983-cü ildə Oqtay Şıxəliyev Azərbaycan İncəsənət Universitetinin Rəsm kafedrasının dosenti vəzifəsinə təyin olunmuşdur. 1993-cü ildə həmin kafedranın professoru kimi fəaliyyət göstərmişdir.

2001-ci ildən Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Rəsm kafedrasının, 2005-ci ildən Akademik Rəsm kafedrasının, 2011-ci ildən ömrünün sonunadək isə yenidən Rəsm kafedrasının professoru vəzifələrində çalışmışdır.

1982-ci ildə Oqtay Yusif oğlu Şıxəliyev Azərbaycan Respublikasının "Əməkdar rəssam" fəxri adına layiq görülmüşdür, 1992-ci ildə isə "Xalq rəssamı" fəxri adını qazanmışdır.

1957-ci ildə Gənclərin Ümumittifaq Sərgi Festivalında dekorativ sənət üzrə birinci mükafata layiq görülmüşdür. 1960-cı ildə Azərbaycan Rəssamlar İttifaqına üzv qəbul edilmişdir.

Rəssam bir çox xarici ölkələrdə Meksika, Almaniya, Kanada və s. yaradıcılıq səfərlərində olmuşdur. Onun əsərləri dünyanın müxtəlif ölkələrində nüfuzlu muzey, qalereya və şəxsi kolleksiyalarda saxlanılır. O, Prezident təqaüdçüsü olmuşdur.

Oqtay Yusif oğlu Şıxəliyev 2012-ci il yanvarın 31-də Bakı şəhərində vəfat etmişdir.

Oqtay Şıxəliyevin 20 əsəri Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda qorunub saxlanmaqdadır.

Ədəbiyyat:

Oqtay Şıxəliyev: monoqrafiya / mətnin müəl. və tərt. M.Tərlanov.– Bakı: İşıq, 1988.– 68 s.

Ustad rəssam: Oqtay Şıxəliyev - 80 / Ə.Quliyev // Azərbaycan.– 2011.– 4 sentyabr.– S. 5.

Oqtay Yusif oğlu Şıxəliyev // Mədəniyyət.– 2012.– 1 fevral.– S. 4.

Sadıqov, S. Monumentalist rəssamın dəzgah rəngarlığı əsərləri / S.Sadıqov // Palitra.– 2015.– 8 may.– S. 15.

Bakının mozaik keçmişi: tarix fonunda parlaq aksentlər // Azərbaycan.– 2024.– 15 avqust (№ 173).– S.9.

İnternetdə:

https://az.baku-art.com/az/xalq-ressami-oqtay-sh-xeliyevin-90-yash-tamam-olur

https://azgallery.az/uploads/ressamlar%20haqqinda%20informasiya%20pdf.pdf

http://www.anl.az/down/meqale/azerbaycan/2024/avqust/906759(meqale).pdf

Əliyar Əlimirzəyev – 65

(1961)

Rəssam



Əliyar Əlimirzə oğlu Əlimirzəyev 1961-ci il sentyabrın 4-də Qusar rayonunun Gilah kəndində anadan olmuşdur.

Bakıdakı 229 saylı məktəbi bitirmiş, 1977-1981-ci illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil almışdır.

1986-cı ildə ilk dəfə "Azərbaycanın gənc rəssamları" adlı sərgidə iştirak etmişdir.

1988-ci ildən Əliyar Əlimirzəyev SSRİ Rəssamlar İttifaqının üzvü olmuşdur. 1990–1991-ci illərdə SSRİ Rəssamlar İttifaqının stipendiatı olmuş, 2000-ci ildən etibarən isə ekskluziv olaraq "QGallery" Rəsm Qalereyası ilə əməkdaşlıq edir.

Fərdi sərgiləri 1996, 2001, 2011, 2015 Bakı, Azərbaycan, 2001-ci ildə Dili, Şərqi Timor, 2014-cü ildə Mejev, Fransa, 2015-ci ildə Tbilisi Gürcüstan və 2015-ci il iyun ayının 5-20-də "QGallery" Qalereyası, Bakıda keçirilmişdir.

Əliyar Əlimirzəyevin əsərləri Bakı Müasir İncəsənət Muzeyi, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Milli Tretyakov Qalereyası (Moskva, Rusiya), Tomsk Dövlət Muzeyi (Tomsk, Rusiya), Rusiya Rəssamlar Gildiyası, Rusiya Federasiyası Mədəniyyət Nazirliyi (Moskva, Rusiya), Fünen İncəsənət Muzeyi (Odense, Danimarka), Albertina Qalereyası (Vyana, Avstriya) kolleksiyalarında saxlanılır.

2003-cü ildə Parisdə keçirilən beynəlxalq sərgidə - 200-dən çox ölkənin rəssamlarının iştirak etdiyi tədbirdə - Əliyar Əlimirzəyevin "Feniksl ər" əsəri Qran-pri mükafatına layiq görülmüşdür. Eyni ildə Belqraddakı (Serbiya) Beynəlxalq miniatür sərgisində 1-ci yerin sahib olmuşdur.

Əliyar Əlimirzəyevə 29 dekabr 2006-cı ildə "Əməkdar rəssam", 16 oktyabr 2021-ci ildə isə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüşdür.

Ədəbiyyat:

"İncəsənət xəzinəsi": "Van Cleef // Mədəniyyət.– 2011.– 29 aprel .– S. 8.

Tbilisidə azərbaycanlı rəssamın "Quşlar üçün viza"sı sərgilənir // 525-ci qəzet.– 2015.–14 noyabr.– S. 23.

"Mən həmişə öz Leylimi çəkirəm" Əliyar Əlimirzəyev: "Rəssamlıq daha çox hissiyatdan asılıdır" / S.Soltanlı // Mədəniyyət.– 2016.– 24 fevral.– S. 11.

"Gözəl pişik ilə" / F.Nurizadə: müsahibəni apardı Aytac Sahəd // 525-ci qəzet.– 2024.– 26 iyun, №110.– S.10.

https://az.wikipedia.org/wiki/Fidan_Hacıyeva

İnternetdə:

https://nar-gallery.com/az/artist/%C9%99liyar-%C9%99limirz%C9%99yev/

https://qgallery.net/pages/single-artist/46

Sergey Yefimenko – 130

(1896-1971)

Rəssam



Sergey Mitrofanoviç Yefimenko 1896-cı il sentyabr ayının 25-də (oktyabrın 7-də) Çerniqov quberniyasının Borzna şəhərində anadan olmuşdur. 1915-ci ildə Kiyev Rəssamlıq Məktəbini, 1919-cu ildə isə Daşkənd Rəssamlıq Məktəbini bitirmiş, təhsilini 1921-1924-cü illərdə Moskva Ali Bədii-Texniki Emalatxanasında davam etdirmişdir. Burada o, əvvəlcə keramika şöbəsində oxumuş, daha sonra isə rəssamlıq şöbəsində A. Kuprin, A. Lentulov, F. Fyodorovski və başqalarından rəssamlıq sənətini öyrənmişdir.

Sergey Yefimenko teatr rəssamlığına 1923-cü ildə Moskvada Meyerhold adına Teatrda başlamışdır. 1926-cı ildə Moskva İnqilab Teatrında fəaliyyətini davam etdirmişdir. Teatr-dekorasiya sahəsində təcrübə qazandıqdan sonra 1927-ci ildə Bakıya gələrək ömrünün sonunadək Azərbaycan Dövlət Rus Dram Teatrında əvvəlcə rəssam və sonra isə baş rəssam işləmişdir.

Rəssam Azərbaycan Dövlət Rus Dram Teatrında 150-dən çox tamaşaya bədii tərtibat vermişdir. Mixail Lermontovun "Maskarad", Maksim Qorkinin "Ana", "Həyatın dibində", "Yeqor Bulıçov və başqaları", "Vəhşilər", "Zıkovlar", Nikolay Qoqolun "Müfəttiş", Lev Tolstoyun "Canlı meyit", Denis Fonvizinin "Nadan övlad", Anton Çexovun "Ayı", "Elçilik", "Yubiley", "Qağayı", Aleksandr Qriboyedovun "Ağıldan bəla", Aleksandr Ostrovskinin "Son qurban", "Quduz pullar", "Tufan", "Günahsız müqəssirlər", "İstedadlar və pərəstişkarlar", Fyodor Dostoyevskinin "Alçaldılmışlar və təhqir olunmuşlar", İvan Turgenevin "Atalar və oğullar", Cəfər Cabbarlının "Sevil", "1905-ci ildə", "Od gəlini", Səməd Vurğunun "Xanlar", "Qızıl", Nazim Hikmətin "Demoklun qılıncı", Eduardo de Filipponun "İnsan və centlmen", Bernard Şounun "Missis Uorrenin peşəsi", Uilyam Şekspirin "Otello", Fridrix Şillerin "Məkr və məhəbbət". Aleksis Parnisin "Afrodita adası", Branislav Nuşiçin "Fəlsəfə doktoru". Pyer Bomarşenin "Fiqaronun evlənməsi", Karlo Qoldoninin "İki ağanın bir nökəri" kimi pyeslərin tamaşalarına müxtəlif formalarda səhnə tərtibatlarını işləmişdir.

Azərbaycan Dövlət Opera və Balet Teatrında Pyotr Çaykovskinin "Yevgeni Onegin", Müslüm Maqomayevin "Şah İsmayıl" operalarının, Sezar Puninin "Esmeralda" baletinin, Akademik Milli Dram Teatrında Uilyam Şekspirin "Hamlet", "Otello", "Kral Lir", "On ikinci gecə", Cəfər Cabbarlının "Yaşar", Vasili Şkvarkinin "Özgə uşağı", Fridrix Şillerin "Məkr və məhəbbət", Aleksandr Ostrovskinin "Cehizsiz qız", Aleksandr Fadeyevin "Gənc qvardiya", İmran Qasımov və Həsən Seyidbəylinin "Uzaq sahillərdə", Lope de Veqanın "Dəlilər" və başqa əsərlərin tamaşalarının rəssamı olmuşdur. 1941-ci ildən Sov.İKP üzvü olmuşdur.

1936-cı il fevral ayının 1-də "Azərbaycan SRR Əməkdar İncəsənət Xadimi", 1951-ci ildə İmran Qasımovun "Xəzər üzərində şəfəq" pyesinə Azərbaycan Dövlət Rus Dram Teatrında verdiyi tərtibata görə III dərəcəli Stalin müfakatına, 1959-cu il iyun ayının 9-da "Qırmızı Əmək Bayrağı" ordeni və 1961-ci il mart ayının 24-də "Azərbaycan SRR Xalq Rəssamı" fəxri adlarına layiq görülmüşdür.

Sergey Mitrofanoviç Yefimenko 1971-ci il avqust ayının 5-də Bakıda vəfat etmişdir. II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat:

Сергей Ефименко / [ред. М. А. Тарланов].– [Баку]: [Изд. М-ва Культуры Азерб. ССР], [1959].– 1 л.

Театральная энциклопедия: [в 6т.] / гл. ред.: П.А. Марков. Т. 2. Гловацкий — Кетуракис. М.: Советская энциклопедия. 1963. 1212 стб.

Азәрбајҹан Совет Енсиклопедијасы: [10 ҷилддә]. V ҷилд: Италија—Куба. Бакы: Азәрбајҹан Совет Енсиклопедијасынын Баш Редаксијасы. Баш редактор: Ч. Б. Гулијев. 1981. 623 с.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Sergey_Yefimenko

Ellada Hüseynova – 65

(1961)

Musiqişünas



Ellada Əlihüseyn qızı Hüseynova 1961-ci il sentyabrın 4-də Bakı şəhərində anadan olmuşdur. 1984-cü ildə Ü. Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını (indiki Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyası) musiqi tarixi və nəzəriyyəsi ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir.

Əmək fəaliyyətinə 1985-ci ildə 9 saylı Uşaq Musiqi Məktəbində müəllim kimi başlamış, daha sonra həmin məktəbdə nəzəriyyə şöbəsinin müdiri vəzifəsini icra etmişdir. 1991-ci ildən ADMİU-da "Musiqi fənləri və orkestr dirijorluğu" kafedrasında əvvəl saathesabı müəllim, 1992-ci ildən müəllim, 2001-ci ildən baş müəllim, 2008-ci ildən dosent vəzifələrində çalışmışdır. 2008-2011-ci illərdə "Musiqişünaslıq" kafedrasının müdiri, 2011–2017-ci illərdə Musiqi Sənəti Fakültəsinin dekanı, 2017-2022-ci illərdə Teatr Sənəti Fakültəsinin dekanı, 2022-2024-cü illərdə isə Universitetin Elmi Şurasının elmi katibi vəzifələrini icra etmişdir.

2024-cü ildən Musiqi Tarixi və Nəzəriyyəsi kafedrasının müdiri vəzifəsində çalışır.

"Azərbaycan xalq musiqisi rus musiqi xadimlərinin tədqiqatlarında" adlı monoqrafiyanın, 2 dərs vəsaitinin, 2 metodik tövsiyəsinin, 20-yə yaxın tədris proqramının, 3 metodik göstərişin və 50-yə yaxın məqalənin müəllifidir. Həmçinin, "Muğam ensiklopediyası"nın tərtibçilərindən biridir. 10 namizədlik dissertasiyasının rəsmi opponenti olmuş, Aida Tağızadənin "Soltan Hacıbəyov", "Cövdət Hacıyev", "Azərbaycan dilini öyrənirik", "İzahlı muğam lüğəti" kitablarının, "Musiqi Dünyası" jurnalının 14 nüsxəsinin, həmçinin "İlyas Əfəndiyev", "Teatr: dünən, bu gün, sabah", "Azərbaycan dilini öyrənirik" kitab və saytlarının redaktorudur.

2006-cı ildə "Azərbaycan xalq musiqisi rus musiqi xadimlərinin tədqiqatlarında" mövzusunda dissertasiya müdafiə edərək, sənətşünaslıq üzrə fəlsəfə doktoru dərəcəsini almışdır. Ellada Hüseynova 2008-ci ildə dosent elmi adına, 2013-cü ildə isə Əməkdar Mədəniyyət İşçisi fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat:

Tariyel Məmmədov / İ. Pazıçeva; Azərb. dilinə tərc. ed. E. Hüseynova; red. Z. Qafarova; buraxıl. məsul Ə. Əsədzadə; Azərb. Bəstəkarlar İttifaqı.– Bakı: Renessans-A, 2020.– 31, [1] s.

Xarici musiqi tarixi: Dərs vəsaiti / E. Hüseynova (tərt. ed.), G. İsmayılova (tərt. ed.); elmi red. G. Ə. Verdiyeva.– Bakı: [Zərdabi Nəşr], 2023.– 150, [2] s.

Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri: XXIV Beynəlxalq elmi-praktiki konfransın materialları : Konfrans dahi bəstəkar Ü. Hacıbəylinin 140 illiyinə həsr olunmuşdur / [materialların tərt. E. Hüseynova; red. heyəti: C. Mahmudova, S. Əliyeva, E. Hüseynova, F. Cəlilova].– Bakı: [Zərdabi Nəşr], 2025.– 315, [1] s.

Azərbaycan xalq musiqisi rus musiqi xadimlərinin tədqiqatlarında: [monoqrafiya] /Ellada Hüseynova; elmi red. R.Zöhradov; rəyçilər R. Məmmədova [və b.].- Bakı: Elm, 2009.- 132 s.

Elektron resursdan kitabxananın Oxuculara xidmət şöbəsinin Lokal şəbəkədən istifadə üzrə oxu zalı bölməsində lokal şəbəkədə istifadə etmək olar.

İnternetdə:

https://admiu.edu.az/kamilə-dadas-zadə

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000085911

Gülnaz Abdullazadə – 80

(1946)

Bəstəkar



Ədəbiyyat:

Azərbaycan və Türkiyənin musiqi elmi sahəsində Gülnaz Abdullazadənin rolu / İ.Nəzərov // Mədəniyyət: jurnal.– 2020.–noyabr-dekabr.– S.51-54.

Azərbaycanda etnoorqanologiya sahəsinin yaranma tarixi və "Etnoorqanologiya: aktual problemlər və vəzifələr" mövzusunda beynəlxalq elmi-praktiki konfrans / G.Abdullazadə // Musiqi dünyası.– 2021.– №2/87.– S.42-43.

Vətən təranələri: Qarmon ifaçısı Nizami Əsgərovun rəqs melodiyaları / Üzeyir Hacıbəyli ad. Bakı Musiqi Akademiyası; layihə rəhb. F. Bədəlbəyli; elmi red. G. Abdullazadə [ön söz]; tərtibatçı S. Verdiyeva; not yazısı R. Bəhmənli.– Bakı: [İMZA nəşrlər evi].– 2023.– 30, [2] s.

Azərbaycan milli çalğı aləti kamança: Konstruktiv xüsusiyyətləri və akustik xarakteristikaları / A. Əsədullayev, Z. İsayev, S. İsayeva, M. Əsədullayeva; elmi red.: G. A. Abdullazadə, N. C. İsmayılzadə.– Bakı: Elm və təhsil, 2024.– 169, [3] s.

Ustad Əli dədənin rəqs melodiyaları: Monoqrafiya / R. Bəhmənli; layihənin rəh. və ön söz müəl. F. Bədəlbəyli; elmi red. G. Abdullazadə; Azərb. Resp. Elm və Təhsil Nazirliyi, Ü. Hacıbəyli ad. Bakı Musiqi Akad.– Bakı: [Elm və təhsil], 2025.– 159, [1] s.

Gülnaz Abutalıb qızı Abdullazadə 1946-cı il sentyabr ayının 7-də Bakı şəhərində anadan olmuşdur. 1971-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının (indiki AMK) bəstəkarlıq sinfini bitirmişdir. Görkəmli bəstəkar Cövdət Hacıyevin tələbəsi olmuşdur. 1976-1979-cu illərdə M.Lomonosov adına Moskva Dövlət Universitetinin aspiranturasında (fəlsəfə fakültəsinin Estetika kafedrası) təhsil almışdır. Gülnaz xanım 1 saylı musiqi məktəbində, A.Zeynallı adına Musiqi Texnikumunda, Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutda (indiki ADDU) kafedra müdiri vəzifəsində çalışmışdır.

1991-ci ildən Bakı Musiqi Akademiyasının elmi-tədqiqat və yaradıcılıq işləri üzrə prorektorudur.

Gülnaz Abdullazadə Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq muğamların fəlsəfi mahiyyətini araşdırmışdır. Azərbaycan və dünya musiqisinin fəlsəfi problemlərinə və Azərbaycan bəstəkarlarının yaradıcılığına dair bir sıra əsərlərin müəllifidir. "Azərbaycan muğamlarının fəlsəfi mahiyyəti" (1983), "Musiqi sənətinin fəlsəfi mahiyyəti" (1985), "Musiqi, insan, cəmiyyət" (1991), "Azərbaycan fəlsəfəsi" (həmmüəllif, 1993), "Qədim və orta əsrlərin musiqi mədəniyyəti" (1996) "Hegelin musiqi estetikası" (1999) və s. monoqrafiyalarını yazarkən bütövlükdə muğamların və folklor musiqisinin fəlsəfi mahiyyətinə əsaslanmışdır.

Aspiranturanı bitirdikdən sonra "Hegelin estetikasında musiqi incəsənətinin problemləri" mövzusunda namizədlik, 1990-cı ildə doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. "Qədim və orta əsrlər musiqi mədəniyyətinin tarixi-fəlsəfi təhlili" (Şərq-Qərb kontekstində) mövzusunda elmi işi yüksək qiymətləndirilmiş və 1992-ci ildə professor elmi rütbəsini almışdır.

IV UluslararasıTürk Kültürü Konqresində (Ankara, Atatürk Kültür Mərkəzi. 1997, 4-7 noyabr), Uluslararası Avropada və Türk Cümhuriyyətlərində musiqi mədəniyyəti və tədrisi konqresində (Ankara, Qazi Universiteti. 2002,13-16 noyabr), bir sıra konfrans və seminarlarda məruzələrlə çıxış etmişdir.

Gülnaz Abutalıb qızı Abdullazadə 1999-cu ildə akademik Yusif Məmmədəliyev adına mükafatın laureatı olmuşdur.

2007-ci ildə ona Azərbaycan Respublikasının Əməkdar İncəsənət Xadimi fəxri adı verilmişdir. 2008-ci ildə YUNESKO Beynəlxalq Rəqslər Şurasının üzvü, 2009-cu ildə isə ICOM təşkilatının üzvü olmuşdur. 2012-ci ildə ona Azərbaycan Bayrağı Mükafatı laureatı, "Xalqın nüfuzlu ziyalısı" fəxri diplomu və "Qızıl Qələm" media mükafatı laureatı diplomu təqdim edilmişdir.

2017-ci il iyulun 4-də Azərbaycan Bəstəkarlar İttifaqında Əməkdar İncəsənət Xadimi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) prorektoru Gülnaz Abdullazadəyə həsr edilmiş kitabın təqdimatı keçirilmişdir. "Na verşine nauki – Qyulnaz Abdullazade" (Elmin zirvəsində – Gülnaz Abdullazadə) adlı kitabın müəllifi Nuridə İsmayılzadədir.

Fidan Hacıyeva – 50

(1976)

Opera müğənnisi



Fidan Hacı Ağa qızı Hacıyeva-Neylor 1976-cı il sentyabrın 7-də Bakı şəhərində anadan olmuşdur. 1984-cü ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin fortepiano sinfinə daxil olmuş, tam orta təhsilini burada başa vurduqdan sonra 1994-cü ildə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) Solo Oxuma (vokal) fakültəsinə qəbul olmuşdur. Professor Hüseyn Əliyevdən professional dərs almış və 1998-ci ildə Rusiya Federasiyasının Xalq Artisti, dünya şöhrətli İrina Arxipovadan vokal sənəti üzrə ustad dərsləri keçmişdir.

2002-ci ildə İtaliyanın Kiđjano Musiqi Akademiyasında keçirilən beynəlxalq müsabiqədə qalib gəlmiş, mezzo-soprano Bernadette Manca di Nissaya və digər professorlara məxsus ustad dərslərində iştirak etmiş, həmçinin Akademiyanın ixtisasartırma proqramını bitirərək xüsusi diplom almışdır. Vətənə qayıtdıqdan sonra professor Hüseyn Əliyevin sinfində aspirantura təhsilini davam etdirmişdir.

1996-cı ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olan Fidan Hacıyeva 2004-cü ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Həzi Aslanov adına Mahnı və Rəqs Ansamblının baş solisti təyin edilmişdir. 2019-cu il sentyabrın 13-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Əhməd Bakıxanov adına 6 nömrəli Uşaq Musiqi Məktəbinə direktor, 2020-ci il mayın 21-də isə Daxili Qoşunların Nümunəvi Göstərici Hərbi Orkestrinin rəis müavini – Mahnı Ansamblının rəhbəri vəzifəsinə gətirilmişdir. 2021-ci il noyabrın 21-də Azərbaycanda yalnız xanımlardan ibarət olan MEZZO özəl Kamera Orkestrini yaratmış, 2022-ci ildən Azərbaycan Milli Konservatoriyasında vokal müəllimi kimi çalışmışdır. 2024-cü il sentyabrın 22-də Vokal Musiqi Məktəbinin nəzdində opera teatrının fəaliyyətinə başlamışdır.

Sənətkar milli və dünya klassik opera nümunələrində aparıcı partiyaların ifaçısıdır. Onun repertuarına Gülüş (“Sevil”), Asya və Gülçöhrə (“Arşın mal alan”), Xanəndə qız (“Koroğlu”), Rozina (“Sevilya bərbəri”), Amneris (“Aida”), Azuçena (“Trubadur”) və xüsusilə Karmen (“Karmen”) obrazları daxildir. Fidan Hacıyeva Kipr, Türkiyə, Rusiya, Yaponiya və İtaliyada qastrol səfərlərində çıxışlar etmişdir.

2003-cü ildə ilk albomu - “Jealousy and Love” işıq üzü görmüşdür. 2009-cu ildə Mersin Opera və Balet Teatrında keçirilən 12-ci TÜRKSOY Opera Günlərinin açılışında Azərbaycanı təmsil etmiş, 2010-cu ildə Roma Musiqi Akademiyasının vokal müsabiqəsində birinci yerə layiq görülmüşdür. 2011-ci ilin ilk həftəsində Türkiyənin Samsun Dövlət Opera Teatrında “Karmen” obrazını canlandırmışdır. 2011-ci il mayın 9-da isə Roma Santa Çeçilia Milli Musiqi Akademiyasında Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr edilmiş solo konserti ilə çıxış etmişdir.

2002-ci ildə İtaliyanın Kidjiana Musiqi Akademiyasında ixtisasartırma kursu keçmiş və Akademiyanın xüsusi diplomuna layiq görülmüşdür.

2006-cı ildə Azərbaycan Respublikasının Əməkdar Artisti adına layiq görülmüş və Azərbaycan Respublikası Prezidentinin Fəxri mükafatı ilə təltif olunmuşdur.

2007-ci ildə və sonrakı illərdə səhnə fəaliyyəti ilə bağlı bir neçə dəfə Azərbaycan Respublikası Prezidentinin mükafatına layiq görülmüşdür.

2025-ci il mayın 9-da, Daxili Qoşunlarda xidmətinin 20 illiyi münasibətilə “Qüsursuz Xidmətə Görə” 1-ci dərəcəli medal ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan mədəniyyətinin aynası: İncəsənət nümayəndələri “Kaspi” qəzetinin yaşamasını zəruri hesab edirlər / X. Rəis // Kaspi.– 2020.– 5 fevral.– S.9.

Fidan Hacıyevanın səsləndirməsində Karmenin “Habanera” nömrəsinin vokal təhlili və fransız ifaçılıq üslubunun təzahürü / R.Piriyev // Elmi əsərlər / Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.– 2022.– №31.– S.102-110

“Mənim xasiyyətimdə bir yerdə dayanmaq yoxdur”: Xalq artisti Fidan Hacıyeva-Neylor: “Həmişə vətənimə başucalığı gətirmək istəmişəm, vətənimi həmişə sevindirməyə çalışmışam” / F.Hacıyeva; müsahibəni apardı: T.M-zadə // 525-ci qəzet.– 2023.– 8 aprel.– S.18;19.

Opera adlı musiqi bayramı / S.Behbudqızı // Mədəniyyət.– 2024.– 8 may, №35.– S.7.

Fidan Hacıyeva II Beynəlxalq Opera Festivalında şəhid ailələrindən istedadlı uşaqlar iştirak ediblər // Azərbaycan.– 2025.– 27 aprel (№ 84).– S.12.

https://az.wikipedia.org/wiki/Fidan_Hacıyeva

Fərəh Əliyeva – 65

(1961)

Sənətşünas



Ədəbiyyat:

Fərəh Əliyeva:"Noyabrdan bəri azad edilmiş ərazilərdə görüləcək işlərin planlaşdırılması istiqamətində xeyli iş görülüb" // Azərbaycan .– 2021.– 31 iyul.– S.3.

Fərəh Əliyeva: "Azərbaycanda bütün xalqlar sülh və dostluq şəraitində yaşayırlar" // Azərbaycan.– 2022.– 3 dekabr.– S.6.

Şuşada Zəfər Qurultayının bağlanış mərasimi keçirilib: Bağlanış mərasimində Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının yeni tərkibi müəyyən edilib //Azərbaycan.-2022.- 24 aprel.- S.2.

Prezident Administrasiyasının şöbə müdiri Fərəh Əliyeva üçüncü "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşüb // Azərbaycan.– 2023.– 3 oktyabr.– S.7.

Vətənə xidmətin alimlik etalon: [Şirməmməd Hüseynovun 100 illiyinə] / Ü. Hüseynova (tərt. ed., red., ön söz).– Bakı: OPTİMİST, 2024.– 487, [1] s.

Çağdaş türk ailəsi Turanın etnososial təməlidir / Z.Hüseynova // Xalq qəzeti.– 2025.– 13 iyun (№120).– S.9.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Fərəh_Əliyeva

Fərəh Şirməmməd qızı Əliyeva 1961-ci il sentyabr ayının 7-də Bakı şəhərində anadan olmuşdur. O, 1979-cu ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbini qızıl medalla bitirmiş, 1984-cü ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının tarix-nəzəriyyə fakültəsini fərqlənmə diplomu ilə tamamlamışdır. 1990-cı ildə isə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının aspirantura pilləsini müvəffəqiyyətlə bitirmişdir.

Fərəh Əliyeva 1984-cü ildən etibarən Azərbaycan Dövlət Konservatoriyasının musiqi tarixi kafedrasında elmi və pedaqoji fəaliyyətə başlamışdır. 1994–2006-cı illərdə Azərbaycan Dövlət Konservatoriyası (indiki Bakı Musiqi Akademiyası) nəzdində elmi katib vəzifəsində çalışmışdır. 2006–2014-cü illərdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyində əvvəlcə musiqi sektorunun, daha sonra isə incəsənət şöbəsinin müdiri vəzifələrini icra etmişdir. 2014–2018-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru kimi fəaliyyət göstərmişdir. 11 may 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 29 noyabr 2019-cu ildən etibarən Fərəh Şirməmməd qızı Əliyeva Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri kimi fəaliyyətini davam etdirir.

Fərəh Əliyeva "Azərbaycan musiqisində üslub axtarışları" adlı elmi monoqrafiyanın, eləcə də bir sıra dərsliklərin müəllifidir ("Musiqi ədəbiyyatı", həmmüəllif A. Tağızadə, Bakı, 1994; "Musiqi", həmmüəlliflər T. Babayeva və S. Qurbanəliyeva, Bakı, 2001). O, çoxsaylı elmi məqalələrin müəllifi kimi XX əsr Azərbaycan musiqisinin inkişaf mərhələləri, bəstəkar yaradıcılığı və müasir musiqi nəzəriyyəsi problemləri üzrə ixtisaslaşmışdır.

Fərəh Əliyevanın tədqiqatlarında Üzeyir Hacıbəyli, Aşıq Zeynallı, Qara Qarayev, Fikrət Əmirov, Ağadadaş Əlizadə, Faiq Qarayev, Fərhad Əlizadə, Rauf Həsənova, Səlim Ələsgərov, Cahangir Cahangirov, Tofiq Quliyev, Rəşid Behbudov və digər görkəmli bəstəkar və ifaçıların yaradıcılığı geniş şəkildə araşdırılmış, onların yaradıcılığına həsr olunmuş məqalələr işıq üzü görmüşdür.

1994-cü ildə sənətşünaslıq elmləri namizədi, 2008-ci ildə sənətşünaslıq elmləri doktoru elmi dərəcələrini almış, 2005-ci ildə isə professor elmi adına layiq görülmüşdür. Azərbaycan musiqi tarixinin tədqiqinə dair 3 monoqrafiyanın, 2 dərsliyin, 200-ə yaxın elmi və elmi-publisistik məqalənin müəllifidir. Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olan Fərəh Əliyeva televiziya və radioda çoxsaylı verilişlərin aparıcısı və iştirakçısı kimi də fəaliyyət göstərmişdir.

3 mart 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının Əməkdar İncəsənət Xadimi fəxri adına layiq görülmüşdür. 6 avqust 2021-ci ildə isə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Şöhrət" ordeni ilə təltif olunmuşdur..

Mobil Əhmədov – 95

(1931-2006)

Vokal ifaçısı



Müğbil Salman oğlu Əhmədov (Mobil Əhmədov) 1931-ci il sentyabrın 10-da Gəncə şəhərində anadan olmuşdur.

1955-ci ildə Ə.Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinə daxil olmuşdur. Bir il sonra isə Azərbaycan Dövlət Konservatoriyasına qəbul olmuş və Bülbülün sinfində oxumuşdur.

1961-ci ildə Dövlət Radiosunun xorunda fəaliyyətə başlamış, həmin ilin sentyabr ayında Musiqili Komediya Teatrına solist kimi dəvət olunmuşdur. Mobil Əhmədov teatrın səhnəsində bir-birindən maraqlı, təkrarolunmaz obrazlar yaratmış, xalqın yaddaşına həkk olunmuşdur. Şıxəli Qurbanovun ssenarisi əsasında Süleyman Ələsgərovun yazdığı "Milyonçunun dilənçi oğlu" operettasında Yetim obrazı ilə çox böyük uğur qazanmışdır.

Klassik operettalar və milli dramaturgiya əsasında yazılmış musiqili komediyalarda ifa etdiyi rollar arasında: Sərvər və Rüstəm bəy, Əsgər ("Məşədi İbad" və "Arşın mal alan", Ü.Hacıbəyli), Heydər bəy ("Hacı Qara", M.F.Axundzadə, libretto Ş.Bədəlbəyli, bəstəkarlar R.Mustafayev və V.Adıgözəlov), Məhəmmədhəsən əmi ("Danabaş kəndinin əhvalatları", C.Məmmədquluzadə, libretto C.Səlimova, bəstəkar O.Kazımov) və digər obrazlar yer alır.

Mobil Əhmədov həmçinin Tuğay ("Bir dəqiqə", M.Əlizadə və H.Xanməmmədov), Nadir ("Qızılaxtaranlar", H.Seyidbəyli və T.Quliyev), Ayaz ("Qaynana", M.Şamxalov və Z.Bağırov), Alay ("Gözün aydın", M.Əlizadə və F.Əmirov), Bəxtiyar ("Ulduz" S.Rəhman və S.Ələsgərov), Arzu, Zəfər, Yetim, Toğrul ("Olmadı elə, oldu belə", "Özümüz bilərik", "Milyonçunun dilənçi oğlu","Sevindik qız axtarır", Ş.Qurbanov və S.Ələsgərov), Cəsarət, Çingiz ("Nənəmin şahlıq quşu", "Boşanaq, evlənərik", Ə.Kür-çaylı və V.Adıgözəlov), Sahib ("Ləpələr", Ə.Kürçaylı və A.Məlikov), Etibar ("Qızılgül", M.Əlizadə və S.Hacıbəyov) və s. obrazlarını yaratmışdır.

Şirin, məlahətli, coşğun səsə və zəngin çalarlı aktyorluq ifadə vasitələrinə, eləcə də həssas obraz duyumuna malik olan Mobil Əhmədovun bu gün Azərbaycan Teleradiosunun qızıl fondunda 600-ə yaxın lent yazısı saxlanmaqdadır.

1978-ci ildə Azərbaycan Respublikasının Əməkdar Artisti, 2000-ci ildə Azərbaycan Respublikasının Xalq Artisti fəxri adlarına layiq görülmüşdür.

Mobil Salman oğlu Əhmədov 2006-cı il iyun ayının 3-də Bakı şəhərində vəfat etmiş, Gəncədə dəfn olunmuşdur.

2021-ci il sentyabrın 9-da, Mobil Əhmədovun anadan olmasının 90 illiyi münasibətilə onun tələbəsi, Əməkdar artist Ramil Qasımov tərəfindən müəllimin xatirəsinə həsr olunmuş "Ustadımın yolu ilə" adlı film-konsert hazırlanmışdır.

2024-cü il sentyabrın 13-də Mobil Əhmədovun anadan olmasının 93 illiyi münasibətilə F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında sənətkarın xatirəsinə həsr olunmuş konsert keçirilmişdir.

Ədəbiyyat:

Yaddaşlarda yaşayanlar: Mobil Əhmədov-90 / A.M. Bürcəliyev // Mədəniyyət.– 2021.– 8 sentyabr.– S.6.

Dövlət Teatr Muzeyində Xalq artisti Mobil Əhmədovun xatirəsi anılıb // Mədəniyyət.– 2022.– 19 oktyabr.– S.6.

"Ustadın yolu ilə": Gəncədə Mobil Əhmədovun xatirəsinə həsr olunmuş gecə // Mədəniyyət.– 2023.– 15 sentyabr.– S.4.

Musiqili səhnənin "səs tablosu" yaradan aktyoru: Onun rəsmləri oxuyur, mahnıları əlvanlıq saçırdı / A.M.Burcəliyev // Xalq qəzeti.– 2024.– 12 sentyabr, (№ 198).– S.10.

Gəncədə Mobil Əhmədovun xatirəsinə həsr olunmuş konsert //Mədəniyyət .-2024.- 13 sentyabr.- S.4.

İnternetdə:


https://az.baku-art.com/az/bu-gun-xalq-artisti-mobil-ehmedovun-anim-g-n-d-r

http://www.anl.az/down/meqale/medeniyyet/2024/sentyabr/909365(meqale).

İradə Köçərli – 70

(1956)

Sənətşünas



İradə Tofiq qızı Köçərli 1956-cı il sentyabr ayının 11-də Gədəbəy rayonunun İsalı kəndində anadan olmuşdur.

1974-1979 cu illərdə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) ali təhsil almışdır.

Ali təhsilini başa vurduqdan sonra musiqi nəzəriyyəsi və sənətşünaslıq sahəsində elmi fəaliyyətini davam etdirmişdir.

İradə Köçərli Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda fəaliyyət göstərmiş və burada şöbə müdiri vəzifəsini icra etmişdir.

Eyni zamanda, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində professor kimi pedaqoji fəaliyyət göstərmiş, bir çox gənc musiqişünas və tədqiqatçıların hazırlanmasında mühüm rol oynamışdır.

İradə Köçərli 3 monoqrafiya, 3 kitab və 70-ə yaxın elmi məqalənin müəllifidir.

Onun əsas elmi əsərləri sırasında "Azərbaycan xalq musiqi yaradıcılığında ‘Şikəstə", "Aşıq sənəti: musiqi-poetik janrlar", "Aşıq sənəti: sinkretizm və sintez problemləri", "Musiqi dolu sətirlər", "Aşıq Hüseyn Şəmkirlinin ‘Reyhan’ dastanı" və digər tədqiqat və publisistik əsərlər vardır.

O, bir sıra beynəlxalq konfranslarda Azərbaycan musiqi mədəniyyətini təmsil etmiş, o cümlədən Dohada keçirilən 13-cü Beynəlxalq Musiqi və Rəqs Konqresində iştirak etmişdir.

1980-ci illərdə İradə Tofiq qızı Köçərli sənətşünaslıq üzrə namizədlik dissertasiyasını müdafiə etmiş və “Azərbaycan xalq musiqi yaradıcılığında ‘Şikəstə’” mövzusunda elmi işini təqdim etmişdir. Daha sonra o, sənətşünaslıq üzrə elmlər doktoru elmi dərəcəsi almaq məqsədilə “Aşıq sənətində sinkretizm və sintez problemləri” mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Sənətşünaslıq sahəsindəki xidmətlərinə görə “Qabaqcıl təhsil işçisi” fəxri adı ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Böyük rus bəstəkarı M.P.Musorqskinin nota saldığı Azərbaycan melodiyası haqqında / İ.T.Köçərli // Musiqi dünyası.– 2020.– №1/82.– S.43-47.

Adını rəmzə çevirən alim - Kamilə Dadaşzadə / İ.Köçərli // Musiqi dünyası.–2021.– №3/88.– S.26-29.

“Şərq simfonizmi”nin yaradıcısı - bəstəkar Fikrət Əmirov / İ.Köçərli // Filologiya və sənətşünaslıq / Azərbaycan Milli Elmlər Akademiyası.– 2022.– №1.– S.257-262.

Böyük vətənpərvər: Firidun bəy Köçərli - 160 / İ. Əliyeva // Azərbaycan.– 2023.– 12 fevral.– S.11.

Xalq mahnılarımızda təbiət: motivlər və obrazlar: Gül açılanda yaz olur, bəh-bəh-bəh..! / İ.T.Köçərli // 525-ci qəzet.– 2024.– 25 oktyabr (№196).– S.13.

Mirişova, F. Çoban Məhəmməd və Səlvi Xuraman dastanı: (Qərbi Azərbaycan musiqi irsinin izi ilə): [layihə : Azərb. və ingilis dillərində] /[F. Mirişova] (tərt.); ing. dilinə çevirən R.Məmmədli; elmi red. İ. Köçərli; [Azərb. Resp-nın Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, İz - Mədəniyyət İnkişafına Dəstək İctimai Birliyi].- [Bakı]: [Ləman], [2025].- 168 s.

İnternetdə:

https://science.gov.az/az/forms/doktora-nauk-instituta-arhitekturyi-i-iskusstva/2555

Səməd Səmədov – 80

(1946-2021)

Müğənni



Ağasəməd Həsən oğlu Səmədov (Səməd Səmədov) 1946-cı il sentyabrın 17-də Aşqabad şəhərində anadan olmuşdur.

1948-ci ildə baş vermiş zəlzələ nəticəsində ailəsi Bakıya – İçərişəhər məhəlləsinə köçmüşdür.

Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin skripka sinfini bitirdikdən sonra A.Zeynallı adına Musiqi Kollecinin nəzəriyyə şöbəsində təhsilini davam etdirmişdir. Bu dövrdə Müslüm Maqomayev, Fərhad Bədəlbəyli, Polad Bülbüloğlu kimi tanınmış musiqi xadimləri ilə bir mühitdə formalaşmışdır.

1992-ci ildə Eldar Mansurovun Piruz Dilənçinin "Qızlar" şeirinə bəstələdiyi eyniadlı mahnını ifa etməsi Səməd Səmədova geniş tamaşaçı rəğbəti qazandırmış və onun yaradıcılığında dönüş nöqtəsi olmuşdur. Müğənninin repertuarında "Bu dünyanın üzünə bax!", "Bakılı balasıyam", "Sənsiz qalan dünya", "Sevgimiz", "Taleyimə qurban olum" və "Yenə görüşərik" kimi Azərbaycan estrada musiqisinin yadda qalan nümunələri xüsusi yer tutur. Bu mahnıların yüksək ifa mədəniyyəti, emosional təsir gücü və geniş kütlələr tərəfindən sevilməsi Səməd Səmədovu ölkənin ən tanınmış estrada ifaçılarından birinə çevirmişdir.

Onun repertuarında "Bu dünyanın üzünə bax!", "Bakılı balasıyam", "Sənsiz qalan dünya", "Sevgimiz", "Taleyimə qurban olum" və "Yenə görüşərik" kimi geniş şöhrət qazanmış mahnılar xüsusi yer tutur və o, bu əsərlərin məharətli ifaçısı kimi tanınmışdır.

2000-ci ildə əhali arasında aparılan sorğunun nəticələrinə əsasən Səməd Səmədov rəsmi şəkildə "Toylar kralı" adını almışdır. Bu ad ona Azərbaycan estradasının görkəmli nümayəndəsi, ustad sənətkar Mirzə Babayev tərəfindən verilmişdir.

O, Müstəqil "Qrant" Milli İctimai Mükafatının ikiqat laureatı, 150-dən çox mahnının, beş musiqi albomunun və iyirmi videoklipin ifaçısıdır.

16 may 2006-cı il tarixində Səməd Səmədov Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşdür. 12 sentyabr 2011-ci il tarixində isə ona Azərbaycan Respublikasının Xalq artisti fəxri adı verilmişdir.

Səməd Səmədov 2021-ci il iyulun 24-də 74 yaşında vəfat etmişdir.

Ədəbiyyat:

A.H.Səmədova «Xalq artisti» fəxri adının verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 12 sentyabr 2011-ci il Azərbaycan Respublikası Prezident (2003- ; İ. H. Əliyev)//Azərbaycan. - 2011. - 13 sentyabr.- S. 2.

Rafiqqızı, N. Fəxri adlara layiq görülmüş mədəniyyət xadimləri mükafatlandırıldı / Nisə Rafiqqızı //Olaylar.- 2011.- 6 oktyabr.- S.8.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Səməd_Səmədov

www.anl.az/down/meqale/azerbaycan/2011/sentyabr/198294.htm

https://sia.az/az/news/culture/170149.html

Zəhra Quliyeva – 75

(1951)

Müsiqişünas, skripkaçı



Ədəbiyyat:

Azərbaycan ifaçılıq sənəti: Tarixin səhifələri / Azərb. Resp. Təhsil Nazirliyi, Ü. Hacıbəyli ad. Bakı Musiqi Akad.; tərt. və məsul red. G. Mahmudova; elmi red.: K. Nəsirova, C. Həsənova, İ. Pazıçeva; red. hey.: F. Ş. Bədəlbəyli (sədr) [və b.]; tərc.: M. Babayeva [və b.]; dizayn Y. Taptıqova.– Bakı: [n. y.], 2021.– 460, [4] s.

Milli ifaçılıq sənətimizin Zəhrası / Y. Neymətli (tərt.); elmi red. H. Babayeva; dizayner M. Əliqızı.– Bakı: [Zərdabi Nəşr], 2023.– 176 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Zəhra_Quliyeva_(musiqiçi)

https://www.musicacademy.edu.az/az/simli-aletler-kf-muallimler/36-zahra-guliyeva.html

https://www.azernews.az/culture/191471.html?utm_source=chatgpt.com

Zəhra Teymur qızı Quliyeva 1951-ci il sentyabrın 23-də Bakı şəhərində anadan olmuşdur.

İlk təhsilini 1959–1970-ci illərdə Bülbül adına Orta İxtisas Musiqi Məktəbində almışdır. 1970-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olduqdan sonra burada Sərvər Qəniyev və M. Tağıyevin siniflərində təhsil almış və 1975-ci ildə fərqlənmə diplomu ilə məzun olmuşdur.

1976-1978-ci illərdə Zəhra Quliyeva N.A. Rimski-Korsakov adına Leninqrad Dövlət Konservatoriyasının aspiranturasında, assistent-stajor bölməsində Boris Qutnikovun sinfində təhsilini davam etdirmişdir.

Zəhra Quliyeva Azərbaycan Dövlət Konservatoriyasında təhsil aldığı dövrdə Rostov şəhərində Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı ilə çıxış etmişdir. Leninqrad Dövlət Konservatoriyasında təhsilini davam etdirdiyi zaman isə bir sıra konsert salonlarında çıxış edərək həm Qərb, həm də Azərbaycan bəstəkarlarının əsərlərini ifa etmişdir.

O, 1978-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında pedaqoji fəaliyyətə başlamış və 1978-1993-cü illərdə "Simli alətlər" kafedrasında müəllim vəzifəsində çalışmışdır.

1983-1990-cı illərdə Zəhra Quliyeva Azərbaycan Dövlət Televiziyasında "Zəriflik" adlı müəllif proqramını yaratmışdır. Proqramda o, həm Azərbaycan, həm də dünya şöhrətli rəssam və musiqiçilərin sənəti, həyat və yaradıcılığı barədə geniş məlumatlar təqdim etmişdir.

1990-cı ildə Zəhra Quliyeva Azərbaycan Musiqi Xadimləri İttifaqının sədrinin I müavini vəzifəsinə təyin olunmuşdur. Həmin dövrdə o, bir sıra konsert qastrol səfərlərində iştirak etmiş və İngiltərədə Aberdin musiqi festivalında çıxış etmişdir.

1993-cü ildə Türkiyənin Bilkənt Universitetinin dəvəti ilə Zəhra Quliyeva Türkiyədə pedaqoji fəaliyyətə başlamış və universitetdə həm müəllimlik, həm də ifaçılıq fəaliyyətini birləşdirmişdir.

1998-ci ildə musiqiçi Makao Konservatoriyasında müəllimlik fəaliyyətini davam etdirmiş, ifaçı kimi çıxışlar etmiş və Çin şəhərlərində, həmçinin Portuqaliya və İspaniyada çoxsaylı solo konsertlər vermiş, orkestrlərlə birlikdə çıxışlar təşkil etmişdir.

Zəhra Quliyeva dəfələrlə Azərbaycan, Türkiyə, Almaniya, Portuqaliya, İtaliya, Bolqarıstan, ABŞ və Avropanın bir sıra şəhərlərində konsert proqramları ilə uğurla çıxış etmişdir. O, Azərbaycan dilində ilk dəfə yazılmış "Skripka sənəti tarixi" dərsliyinin, eləcə də violino ifaçılığına dair metodik vəsait və dərsliklərin müəllifidir.

2001-ci ildə Azərbaycana qayıdan Zəhra Quliyeva hazırda həm ifaçılıq, həm də pedaqoji fəaliyyətini davam etdirir. O, Bakı Musiqi Akademiyasının "Skripka" kafedrasında ifaçılıq sinfi ilə yanaşı, həm də "Skripka sənəti tarixi" fənnindən tələbələrə məruzələr oxuyur.

Zəhra Teymur qızı Quliyeva 1991-ci il may ayının 17-də Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına, 2008-ci il sentyabr ayının 17-də Azərbaycan Respublikasının Xalq artisti fəxri adına və 2016-cı il sentyabr ayının 19-da Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Xanlar Haqverdiyev – 120

(1906-1980) *Opera müğənnisi*



Xanlar Məmməd oğlu Haqverdiyev 1906-cı il sentyabrın 25-də Ağdam rayonunun Seyidli kəndində anadan olmuşdur.

1928-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının (indiki Azərbaycan Musiqi Akademiyası) vokal şöbəsinə daxil olmuş, burada professor H. Speranskidən rus və Avropa musiqisinin incəliklərini, Seyid Şuşinskidən isə klassik Azərbaycan muğamlarının əsas prinsiplərini və texniki xüsusiyyətlərini öyrənmişdir.

1929-cu ildə Azərbaycan Dövlət Opera və Balet Teatrına xorda oxumaq üçün qəbul edilmişdir. Ona "Əsli və Kərəm" operasında Sofi rolu, Hüseynqulu Sarabski (Kərəm) kimi görkəmli sənətkarın tərəf müqabili olmaq tapşırılmışdır.

1932–1933-cü illərdə Türkmənistanda Azərbaycan Dövlət Opera və Dram Teatrı yaradılmışdır. Aşqabad Azərbaycan Teatrının inkişafında bir çox sənətkarlarla yanaşı, görkəmli aktyor Rza Əfqanlı və opera müğənnisi Xanlar Haqverdiyevin də rolu xüsusi əhəmiyyət kəsb etmişdir. O, türkmən xalqının böyük rəğbətini qazanmış, bu nailiyyətləri nəticəsində 1939-cu ildə Türkmənistan SSR-nin "Əməkdar artist" fəxri adı ilə təltif olunmuşdur.

Xanlar Haqverdiyev 1959-cu ildə Moskvada Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüyündə iştirak etmiş, "Sevil", "Koroğlu" operalarında çıxış etmişdir.

Xanlar Haqverdiyev Azərbaycan Teatr Cəmiyyətinin üzvü olmuşdur.

Lirik-dramatik tenor səs tembrinə malik olan Xanlar Haqverdiyev "Leyli və Məcnun" (Məcnun, İbn Salam – Ü. Hacıbəyli), "Əsli və Kərəm" (Kərəm – Ü. Hacıbəyli), "Şah İsmayıl" və "Nərgiz" (Şah İsmayıl, Əlyar – M. Maqomayev), "Aşıq Qərib" (Qərib – Z. Hacıbəyli), "Şahsənəm" (Aşıq – R. Qlier) və digər əsas partiyaları ifa etmişdir. Musiqili səhnə sənətinin inkişafında göstərdiyi xidmətlərinə görə o, dəfələrlə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti və keçmiş Sovet İttifaqı respublikalarının fəxri fərmanları ilə təltif edilmiş, həmçinin "Əməkdə fərqlənməyə görə" medalı ilə qiymətləndirilmişdir.

1956-cı ildə Xanlar Haqverdiyev Azərbaycan Azərbaycan SSR-in Əməkdar artisti fəxri adına layiq görülmüşdür.

1962-ci ilin dekabrında təqaüdə çıxsa da, Xanlar Haqverdiyev bir neçə il müddətində yenidən opera teatrında fəaliyyətini davam etdirərək gənc müğənnilərin yetişməsində yaxından iştirak etmişdir

Xanlar Məmməd oğlu Haqverdiyev 1980-ci il dekabrın 5-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Teatr Muzeyində Xanlar Haqverdiyev anılıb // 525-ci qəzet.– 2022.– 15 sentyabr.– S.9.

Opera səhnəmizdən keçən Xanlar Haqverdiyev: Üzeyir Hacıbəyli onun sənətindən razı qalmışdı... / S.Fərəcov // Mədəniyyət.– 2023.– 27 sentyabr.– S.7.

"Üç dəniz əfsanəsi"...: "Anam həmişə deyirdi ki, sən də əsərlər yaz" / M.Haqverdiyev; müsahibəni apardı Y.Bayramova // Yeni Azərbaycan.– 2024.– 10 yanvar, №3.– S.7.

İnternetdə:

https://aydinlar.az/index.php?newsid=177

Dmitri Şostakoviç – 120

(1906-1975)

Rus bəstəkarı



Dmitri Dmitriyeviç Şostakoviç 1906-cı il sentyabr ayının 25-də Sankt-Peterburq şəhərində anadan olmuşdur. 1919-cu ildə Petroqrad (Sankt-Peterburq) Konservatoriyasına qəbul olmuşdur. Pianino üzrə müəllimi Leonid Nikolayev (1919–1923), kompozisiya üzrə isə Aleksandr Qlazunov və Maksimilian Şteynberq (1923–1925) olmuşdur. 1927-ci ildə Varşavada keçirilən Çaykovski adına Chopin Müsabiqəsində iştirak etmiş və "honorable mention" mükafatı almışdır; lakin virtuoz pianist kimi karyera qurmaq əvəzinə yalnız öz əsərlərini ifa etməklə kifayətlənmişdir. 1937-ci ildən Leninqrad Konservatoriyasında kompozisiya dərsləri vermiş, 1943-cü ildə Moskva Konservatoriyasına köçmüş, həm Leningrad, həm də Moskva konservatoriyalarında müəllimlik etmişdir.

1922-ci ildə Şostakoviç kinoda pianoçu – illüstrator işləmişdir. 40-cı illərin axırlarında Şostakoviç xor və vokal musiqi sahəsində məhsuldar işləmişdir. O, rejissor M.Meyerxod və şair V.Mayakovski ilə tanışlıq nəticəsində «Taxtabiti » satirik pyesinə musiqi yazır. Bəstəkarın 1932- ci ildə " Qarşıdan gələn " filminə bəstələdiyi mahnı tez bir zamanda böyük şöhrət qazanır. Şostakoviç opera janrına da maraq göstərir. Sujetləri o, rus klassik ədəbiyyatında — N. Leskovun (" Mtsensk qəzasının ledi məktəbi ") və N.Qoqolun (" Burun ") əsələrində tapır. Opera ilə yanaşı, Şostakoviç «Bolt » (1931), «Qızıl əsr» (1930), «Duru çeşmə » (1934) balet-lərini bəstələyir. 1938-ci ildə Birinci simli kvartet, 1940-cı ildə fortepiano kvarteti yazılır.Şostakoviç kino musiqisinə də müraciət etmişdir.

"Maksimin gəncliyi", «Maksimin qayıtması», "Vibort tərəfi", "Tüfəngli adam" kinofilimlərinin musiqisi Şostakoviçə məxsusdur. Adamların əməyini vəsf edən " Meşələr haqqında nəğmə" oratoriyası, kapella xoru üçün 10 poema bu illərdə yaranmışdır. Şostakoviç kino musiqisinə tez-tez müraciət etmişdir. «Gənc qvardiya», «Elbada görüş», " Berlinin süqutu ", "İvan Miçurin ", «Ovod » filmlərinə musiqi bəstələmişdir. 1957-ci ildə bəstələnmiş XI simfoniya «1905 -ci il adlanır. Əsər birinci rus inqilabının hadisələrindən bəhs etmişdir. Bəstəkar konkret tarixi dövrü daha dolğun səciyyələndirmək məqsədilə simfoniyada inqilabı mahnılardan («Dinlə», «Varşavyanka», «Dusta»,«Cəsarətlə addımlayaq, yoldaşlar »," Siz qurban oldunuz ") geniş istifadə etmişdir.

Şostakoviç yaradıcılığı mövzu və janr rəngarəngliyi ilə fərqlənir. O, simfoniyalar ilə yanaşı, 15 kvartet, 6 konsert, 3 opera, 3 balet və o cümlədən də, kinofilm və teatrların musiqilərinin müəllifidir. Ümumbəşəri, ictimai — etik, dərin fəlsəfi yönümlü əsərlərlə yanaşı, Şostakoviç A.Blokun, M.Svetayevanın şerlərinə incə, lirik vokal silsilələr də yazmışdır. 1940-cı il may ayının 23-də "Qırmızı əmək bayrağı" ordeni ilə, 1942-ci ildə RSFSR əməkdar incəsənət xadimi, 1947-ci ildə RSFSR xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, 3 dəfə Lenin ordeni, "Oktyabr inqilabı" ordeni, "Xalqlar Dostluğu" ordeni, SSRİ xalq artsiti fəxri adı, Azərbaycan SSR xalq artisti, 5 dəfə Stalin mükafatı, Lenin mükafatı, SSRİ dövlət mükafatı və Ədəbiyyat və İncəsənət ordenilə təltif olunmuşdur.

Dmitri Dmitriyeviç Şostakoviç 1975-ci il avqust ayının 9-da vəfat etmişdir.

Ədəbiyyat:

Дмитрий Шостакович и Турция / авт.-сост. Ф. Таирова.– [Истанбул]: Pan, 2010.– 216 c.

Dmitri Şostakoviç Bakıda anılıb // 525-ci qəzet.– 2016.– 23 aprel.– S.12.

"Dmitri Şostakoviç-Qara Qarayev. Tarixin səhifələri" / M. Mükərrəmoğlu // Xalq qəzeti.–2018.– 25 dekabr.– S.12.

Savaşdan qalib çıxanların himni: 1941-ci il, Leninqrad, yəni indiki Sankt-Peterburq / G.Mirməmməd // Mədəniyyət.– 2024.– 26 iyun, №46.– S.5.

İnternetdə:

https://kayzen.az/blog/musiqiçilər/23978/dmitri-dmitriyev-şostakoviç.html

Şahlar Quliyev – 80

(1946-2024)

Opera müğənnisi



Şahlar Həsənağa oğlu Quliyev 1946-cı il sentyabr ayının 25-də Cəlilabad rayonunda anadan olmuşdur.

Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını (professor E. Quliyevin sinfi) bitirmişdir.

1975-ci ildən Azərbaycan Dövlət Akademik Opera və Balet teatrının solisti olmuşdur. Aparıcı səhnə ustası-yüksək kateqoriyalı solist-vokalçı kimi Şahlar Quliyev teatrın repertuarında olan əksər milli və klassik opera tamaşalarında əsas rollarda çıxış etmişdir.

"Leyli və Məcnun"da Nofəl, "Şah İsmayıl"da Aslan şah, "Aşıq Qərib"də Şahvələd, "Sevil"də Atakişi, "Arşin mal alan"da Süleyman, "Gəlin qayası"nda Xan, "Koroğlu"da Həsən xan, "Aida"da Amonasro, "Riqoletto"da Monterone, "Toska"da Skarpia, "Karmen"də Eskamilio, "Payatsı"da Tonio, "Bohema"da Şonar, "Natəvan"da Qasım bəy Zakir kimi rolları ifa etmişdir.

Şahlar Quliyev Şimali Kipr, Türkiyə və s. ölkələrdə Azərbaycan opera sənətini təmsil edərək uğurla çıxış etmişdir.

1991-ci il sentyabr ayının 19-da "Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına və 2005-ci ildə isə "Azərbaycan Respublikasının Xalq artisti fəxri adına layiq görülmüşdür. Prezident təqaüdçüsü olmuşdur.

Şahlar Həsənağa oğlu Quliyev 2024-cü il oktyabr ayının 26-da Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Əliyev, Ə. Özü getdi, səsi qaldı... / Ə.Əliyev // Xalq qəzeti.– 2024.– 29 oktyabr, (№ 238).– S.10.

"Heç vaxt sənətə qeyri-ciddi yanaşmayın!": /Ş.Quliyev, müsahibəni apardı: G.Camalqızı //Ekran-efir .-2013.- 31 may.- S. 10.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Şahlar_Quliyev

https://www.anl.az/down/meqale/xalqqazeti/2024/oktyabr/916173(meqale).pdf

Fəridə Məmmədova – 50

(1976)

Solist-vokalçı



Fəridə Kamal qızı Məmmədova 1976-cı il sentyabr ayının 29-da Bakı şəhərində anadan olmuşdur. 1994-cü ildə Bülbül adına orta ixtisas musiqi məktəbini bitirmişdir. 1994-2000-ci illərdə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının fortepiano və solo oxuma fakültələrində təhsil almışdır. 1997-ci ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında solist-vokalçı vəzifəsində çalışır.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında çalışdığı müddətdə teatrın səhnəsində J.Bizenin "Karmen" operasında Mikaela, Motsartın "Cosi fan tutte" və "Fiqaronun toyu" operalarında Fiordiliçi və Qrafinya, Qlyukun "Orfey və Evridika" operasında Evridika, V. Bellininin "Norma" operasında Norma, C. Verdinin "Trubadur" və "Don Karlos" operalarında Leonora və Yelizaveta, Leonkavallonun "Məzhəkəçilər" operasında Nedda, P. Maskanyinin "Cavalleria rusticana" operasında Santuzza, Cakomo Puççininin "Il Tabarro", "Manon Lescaut", "Tosca" və "Gianni Schicchi" operalarında Corcetta, Manon, Toska və Çyeska, Çaykovskinin "Qaratoxmaq qadın" operasında Liza, R. Mustafayevin "Vaqif" operasında Xuraman, M. Maqomayevin "Şah İsmayıl" operasında Gülzar, F. Əlizadənin "İntizar" operasında Gəlin, L. Vaynşteynin "Zoluşka" operasında Javotta, Y. Raxmadiyevin "Alpamis" operasında Mıstan və s. obrazları yaratmışdır.

Fəridə Məmmədova ölkədə və ölkə xaricində (Almaniya, Fransa, İsveçrə, Avstriya, Hollandiya, Belçika, Çexiya, Bosniya, Serbiya, Türkiyə, Rusiya, Ukrayna, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Monqolustan və s.) solo konsert proqramları ilə çıxış etmişdir. O, tanınmış Azərbaycan və xarici dirijorların rəhbərliyi altında müxtəlif orkestrlər ilə əməkdaşlıq etmişdir. Bunlara Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri, Q. Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri, Vyana Kamera Orkestri, Yerusəlim Simfonik Orkestri, Johannesburg Simfonik Orkestri, "Raana Symphonietta", "Studio for the New Music", "Asco-Schoenberg Ensemble", "Reconsil", "Georgian Sinfonietta" və digər kollektivlər daxildir.

Həmçinin o, nüfuzlu beynəlxalq festival və layihələrdə iştirak etmişdir. Bunlara Young Euro Classic, Beethovenfest, Culturescapes, Kyiv Music Fest, Vilnius Mama Jazz, Aspendos Festivalı, Türksoy Opera Günləri, Moskva Musiqi Alətləri Teatrı, Prokofyev Fest, Həştərxanda V. Barsova və M. Maksakova adına Opera Festivalı, "Roaring Hooves", "Sarajevo Winter", International Baroque Festival Tbilisi, eləcə də Azərbaycanda keçirilən Beynəlxalq Qəbələ Festivalı, Qara Qarayev Müasir Musiqi Festivalı, M. Rostropoviç adına Festival, Üzeyir Hacıbəyli adına Festival, "Zamanla üz-üzə" və "İpək Yolu" layihələri daxildir.

Fəridə Məmmədova müxtəlif beynəlxalq və ölkədaxili müsabiqələrdə yüksək nailiyyətlər qazanmışdır. 1997-ci ildə Azərbaycanda vokalçıların "İlin vokalçısı" müsabiqəsində I mükafata, 2000-ci ildə Vokalçıların Bülbül adına II Beynəlxalq müsabiqəsində III mükafata layiq görülmüşdür. 2007-ci ildə isə Almaniyanın Veyden şəhərində keçirilən Maks Reger adına Beynəlxalq müsabiqənin finalına çıxmışdır.

Fəridə Kamal qızı Məmmədova 2012-ci il sentyabrın 14-də Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına, 2015-2018 və 2023-2025-ci illərdə Prezident Mükafatına layiq görülmüşdür.

Ədəbiyyat:

Azərbaycan Milli İncəsənət Muzeyində konsert verilib // Azərbaycan.– 2025.– 4 may (№ 90).– S.9.

"Böyük salonlarda oxumağa ümidlər ola bilər" Fəridə Məmmədova, opera müğənnisi: "İstərdik ki, auditoriyanın gözləri ciddi olsun"/Fəridə Məmmədova //Kaspi. - 2009. - 10 dekabr.- S.11.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Fəridə_Məmmədova_(müğənni)

https://news.milli.az/culture/545023.html

Yaşar Nuri – 75

(1951-2012)

Aktyor



Yaşar Məmmədsadıq oğlu Nuriyev (Yaşar Nuri) 1951-ci il sentyabrın 3-də Bakı şəhərində anadan olmuşdur.

Məktəb illərində dövlət televiziyasının "Yelkən" verilişində aparıcılıq etmiş, həmçinin "Buratino", "Qaranquş" və "Pioner" uşaq verilişi-teatrlarında müntəzəm iştirak etmişdir. O, müxtəlif dram dərnəklərində fəaliyyət göstərmiş və 26-lar adına Mədəniyyət Sarayı Xalq Teatrının tamaşalarında rol almışdır.

Səhnəyə ilk dəfə 11 yaşında, Azərbaycan Dövlət Musiqili Komediya Teatrında (ADMKT) Məhərrəm Əlizadənin dramı "Toy kimindir?" tamaşasında Tapdıq rolunda çıxmışdır.

1968-ci ildə Bakı şəhərindəki 173 saylı orta məktəbi bitirmiş, ardından Azərbaycan İncəsənət İnstitutunun (indiki ADMİU) dram və kino aktyorluğu fakültəsinə daxil olmuşdur. Kurs rəhbərləri tanınmış səhnə xadimləri Rza Təhmasib və Əliheydər Ələkbərovdan aktyorluq sənətinin incəliklərini öyrənmişdir.Tələbəlik illərində Balaş ("Sevil" C.Cabbarlı), Salmanov ("Toy" S.Rəhman), Neznamov ("Günahsız müqəssirlər" A.N.Ostrovski) və s. obrazlar yaratmışdır.

1974-cü il dekabrın 1-də Akademik Milli Dram Teatrının baş rejissoru Tofiq Kazımovun dəvəti ilə kollektivin aktyor truppasına qəbul edilmişdir. Yaşar Nuri Milli Dram Teatrında fəaliyyət göstərdiyi dövrdə repertuarda yer alan bir çox tamaşalarda iştirak etmişdir. Teatr səhnəsində ilk rolu Aleksandr Vampilovun "Övlad" ("Böyük Oğul", 1974) komediyasında Silva rolu olmuşdur. Bundan başqa o, Pərviz ("Bağlardan gələn səs" İ.Əfəndiyev - 1975), Qasım ("Quşu uçan budaqlar" Ə.Əylisli - 1978), Sərsəm Salman ("Dəli yığıncağı" C.Məmmədquluzadə - 1978), Əbdüləli bəy ("Sevil" C.Cabbarlı - 1978) və s. obrazlarını yaratmışdır.

Yaşar Nuri həm də görkəmli kino aktyoru olmuşdur. O, əlliyə yaxın bədii filmə çəkilmiş, Azərbaycan Dövlət Televiziyasında hazırlanmış yüzdən çox tamaşada, bədii kompozisiyada və satirik səhnəciklərdə iştirak etmişdir. Onun əsasən baş rolları ifa etdiyi teletamaşalar, televiziyanın qızıl fondunda daimi sənət nümunələri kimi qorunur.

Bunlara R.Həsənoğlunun hazırladığı R.Qasımovanın "Yollar görüşəndə...", "Ömrün yolları", İsi Məlikzadənin "Qatarda", Anarın "Evləri köndələn yar", Mövlud Süleymanlının "Kökdən düşmüş piano", H.Cavidin "Topal Teymur", A.Qəhrəmanovun əsərləri əsasında lentə alınmış "Səni axtarıram", "Bağışla", "Səndən xəbərsiz" trilogiyası və s. televiziya tamaşalarını misal göstərmək olar. Aktyor özünü həm kinoda, həm də teatrda rejissor kimi sınamış, teatrda İ.Məlikzadənin "Subaylarınızdan görəsiniz" əsərinə quruluş vermiş, kinoda isə "Spasibo" filmini ekranlaşdırmışdır.

1981-ci ildə Azərbaycan SSR-in Əməkdar artisti, 1989-cu ildə isə Azərbaycan SSR-in Xalq artisti fəxri adlarına layiq görülmüşdür. 1991-ci ildə 40 illik yubileyi münasibətilə "Yaramaz" filmindəki rolu ilə Dövlət mükafatı laureatı olmuş, 1992-ci ildə isə "Qızıl Dərviş" mükafatına layiq görülmüşdür. 2005-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuş, 2011-ci ildə isə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Yaşar Məmmədsadıq oğlu Nuriyev 2012-ci il noyabr ayının 22-də Bakı şəhərində vəfat etmişdir.

2021-ci ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Yaşar Nurinin 70 illik yubileyi münasibətilə rəsmi anım gecəsi keçirilmişdir.

Ədəbiyyat:

Səhnə sevgisi...: Yaşar Nurinin Buratinodan başlayan "Macəraları" / R.Qurbanlı // Üç nöqtə.– 2020.– 20 avqust.– S.12.

Xalq artisti Yaşar Nurinin 70 illik yubileyi qeyd olunub // Mədəniyyət.– 2021.– 15 dekabr.– S.3.

Yaşar Nuri sənətinin nuru / Ş.Y.Əmirli // Mədəniyyət.– 2022.– 23 noyabr.– S.7.

Dedim: "Bizim Yaşarımız ölməz!": Yaddaşlarda yaşayanlar / İ. Qaçayev // Xalq qəzeti.– 2023.– 26 iyun.– S.15.

Qəniyev, E. Kinomuzun və səhnəmizin əbədi Yaşarı / E.Qəniyev // Azərbaycan.– 2025.– 23 iyul (№ 150).– S.11.

Eldaroğlu, E. Komediyamızın "Everest" zirvəsi... /E.Eldaroğlu // Xalq Cəbhəsi .-2025.- 4 sentyabr(№32).-S.15.

İnternetdə:

https://okimdir.az/yasar-nuri-kimdir

https://az.wikipedia.org/wiki/Yaşar_Nuri

https://www.anl.az/el/emb/TEATR/aktyorlar/Yashar_Nuri.htm

Zilli Namazov – 75

(1951-2021)

Aktyor



Zilli Yunis oğlu Namazov 1951-ci il sentyabrın 9-da Bakı şəhərində anadan olmuşdur.

Azərbaycan Dövlət İncəsənət İnstitutunun Kino-aktyor fakültəsində təhsil almışdır.

1976-cı ildən "Azərbaycanfilm"də aktyor-rejissor kimi çalışmışdır. Uzun illər Azərbaycan Dövlət Musiqili Teatrında, həmçinin müxtəlif teatr kollektivlərində aktyor və rejissor kimi fəaliyyət göstərmişdir. Teatr sahəsində yüksək müvəffəqiyyətləri ilə yanaşı, kino və televiziya layihələrində də unudulmaz obrazlar yaratmışdır.

Zilli Namazov "Bəyin oğurlanmasın" (1985), "İki arzu" (1990), "Nəsimi" (2009), "Köhnə dostlar" (2003-2005), "Aydınlıq" (2010), "Zəfər" (2017-2018), "Yurdum" (2015) və s. müxtəlif janrlarda tamaşalarda və filmlərdə uğurla çıxış etmişdir. "Azərbaycanfilm"in istehsal etdiyi 50-dən çox filmdə irili-xırdalı obrazlar yaratmışdır.

Bundan əlavə "Belarusfilm", "Mosfilm", "İranfilm" və ABŞ-nın istehsal etdiyi filmlərdə çəkilmişdir. Xarici film istehsalçılarının "Müsahibə alan adam" (1986, rejissor Yuri Maruxin) filmində, "Dağıdılmış körpülər" (1996, rejissor Rafiq Puya / ABŞ) filmində sərhəd zabiti rolunda çəkilib və filmin rejissor assistenti olub.

2019-cu il iyulun 31-də Azərbaycan kinematoqrafiyasının inkişafında xidmətlərinə görə Azərbaycan Rspublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşdür.

Zilli Yunis oğlu Namazov 2021-ci il dekabrın 27-də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Şahverdiyeva, S. Zilli Namazov: "Azərbaycan Teatrının ulduzu".- Azərbaycan Teatrı jurnalı, 1992.- № 4.- S. 20-22.

Rəhimov, A. Zilli Namazov: "Sənət və səhnə". - Teatr və Kino jurnalı, 2003.- № 6.- S. 9-10.

Quliyev, R. "Səhnədəki müdriklik: Zilli Namazov haqqında".- Baku: Nurlan, 2009.-150 s.

Məmmədov, T. Zilli Namazov: "Sənətini yaşadan insan".- Baku: İrs, 2014.- 168 s.

Hüseynov, R. "Zilli Namazov: Teatrın ulduzu".- Teatr və Mədəniyyət jurnalı, 2020.- № 5. - S. 12-13.

Məmmədov, H. "Səhnənin əfsanəsi: Zilli Namazov haqqında".- Baku: Azərnəşr, 2021.- 220 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Zilli_Namazov

Teymur Bəkirzadə – 85

(1941-1996)

Kinorejissor



Teymur Bəkir oğlu Bəkirzadə 1941-ci il sentyabrın 14-də Bakı şəhərində anadan olmuşdur.

O, Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda, Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun kinoşünaslıq fakültəsində və Moskvada Ali Rejissorluq kurslarında (1974) təhsil almışdır. 1966-1995-ci illər ərzində "Azərbaycanfilm" kinostudiyasında 40-dan çox sənədli və bədii filmin rejissoru olmuşdur. İlk işini 1966-cı ildə "Toğrul Nərimanbəyov" adlı qısametrajlı sənədli televiziya filmində ssenari müəllifi və rejissor kimi həyata keçirmişdir. Bu filmdə rəssamın həyatının müxtəlif anları – böyük rəssam Səttar Bəhlulzadə ilə söhbətləri və İçərişəhəri gəzisi – əks etdirilmiş, Bülbül, N.Hikmət, R.Rza, Bəxtiyar Vahabzadə və S.Bəhlulzadəyə həsr etdiyi əsərlər canlandırılmışdır.

1967-ci ildə o, "Dənizdə şüa", 1969-cu ildə "İthaf", 1970-ci ildə isə "Axtarış həvəsi" və "Güləş" adlı sənədli televiziya filmlərini hazırlamışdır. 1970-ci ildə "Sovet Azərbaycanının yarım əsrlik salnaməsi" adlı 6 seriyalı sənədli filmdə IV seriyanın rejissoru olmuş, həmin seriyada 1941-1945-ci illərin hadisələrinə yer vermişdir.

Fəaliyyətə başladığı ilk gündən fərqli mövzulara müraciət edən rejissor 1972-ci ildə öz ssenarisi əsasında "Bakı-Neapol qardaşdırlar" sənədli filmini çəkir. 1974-cü ildə "Ömrün səhifələri" adlı 3 novelladan ibarət kinoalmanax -"Rəqiblər", "Baladadaşın ilk məhəbbəti", "Nəğmə dərsi" – istehsalata buraxılır.

Teymur Bəkirzadənin "Rəqiblər" novellasında küçədə yerləşdirilmiş iki pivə köşkünün satıcıları arasındakı qarşıdurmalar və bu rəqabətin nəticəsində yaranan xeyirxah hisslər əks etdirilir. Onun kinodakı ilk böyük işi Nicat Bəkirzadə ilə birgə çəkdiyi "Çətirimiz buludlardır" filmidir. 1981-ci ildə Asim Cəlilovun ssenarisi əsasında komediya janrında çəkdiyi "Yol əhvalatı" filmi isə rejissorun fərdi bədii üslubunu əks etdirir. Teymur Bəkirzadənin 1997-ci ildə Amin Novruzov ilə birgə çəkdiyi, ləqəbi "İKA" olan bədii film SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin 1953–1990-cı illərdəki fəaliyyətini və 1990-cı il yanvarın 20-də Bakıda baş vermiş faciəli hadisələrin təşkilində bu komitənin rolunu işıqlandırır.

1990-cı ildə çəkdiyi "Matəm" sənədli filmində Teymur Bəkirzadə 20 Yanvar hadisələrinə öz bədii və tarixi yanaşmasını təqdim etmiş, ümumxalq matəmin fonunda xalqın yaşadığı faciəni ustalıqla əks etdirmişdir.

Teymur Bəkirzadənin filmləri müxtəlif beynəlxalq və ümumittifaq festivallarda mükafatlarla təltif olunmuşdur: 1979-cu ildə "Dissonans" filmi Leninqradda VII Ümumittifaq İdman Filmləri Kinofestivalında Qızıl medal, Aşqabadda XII Ümumittifaq Kinofestivalında münsiflər heyətinin diplomuna layiq görülmüşdür; 1980-ci ildə Moskvada İdman Jurnalistlərinin Ümumdünya Assosiasiyasının prizinə layiq görülmüşdür; 1982-ci ildə Budapeştdə qısametrajlı filmlərin Beynəlxalq Kinofestivalında Bürünc medal, 1986-cı ildə isə "Polad adalar" filmi Alma-Atada XIX Ümumittifaq Kinofestivalında diplomla təltif edilmişdir.

1991-ci il fevralın 4-də Teymur Bəkirzadə Azərbaycan SSR Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Teymur Bəkir oğlu Bəkirzadə 1996-cı il sentyabrın 21-də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

"Yol əhvalatı"nda olanlar: 40 yaşlı ekran əsəri bu gün də tamaşaçılarına gülüş bəxş edir / Ş.Əmirli // Mədəniyyət.– 2020.– 30 oktyabr.– S.7.

Filmin yaradılma prosesi onun üçün daxili aləminin təzahürü idi...: Kinorejissor Teymur Bəkirzadə xatirələrdə / Ş.Y.Əmirli // Mədəniyyət.– 2022.– 14 sentyabr.– S.7.

"Yol əhvalatı"nın unudulan rejissoru / T.Məhərrəmova // Kaspi.– 2024.– 21 sentyabr (№36).– S.15.

İnternetdə:

https://aki.az/teymur-bəkirzadə-80

https://az.baku-art.com/az/emekdar-inces-n-t-xadimi-teymur-b-kirzad-nin-dogum-gun-d-r/

Əminə Yusifqızı – 90

(1936-2025)

Qiraət ustası



Ədəbiyyat:

Ağlamaq deyil, yaşamaq səbəbimizdir şəhidlər / Ə. Yusifqızı // Ədalət.– 2020.– 29 dekabr.– S.5.

Əminə Yusifqızı - 70 Hər yevlaxlının ürəyində bir Əminə Yusifqızı imzası var… / R.Rzalı // Bakı Xəbər.– 2021.– 20 may.– S.12.

Ölməmişəm, ağlamayın! / Ə. Yusifqızı // Olaylar.– 2022.– 4-10 fevral.– S.18.

Mahir topçu Sənan / Ə.Yusifqızı // Xalq qəzeti.– 2023.– 4 oktyabr.– S.10.

Laçın - çiçəklənən arzularımız / Ə.Yusifqızı // 525-ci qəzet.– 2024.– 16 may,№85.– S.7.

Döyüşçü atanın igid oğlu / Ə.Yusifqızı // Xalq qəzeti.– 2025.– 12 yanvar (№ 06).– S.8.

İnternetdə:

https://kulis.az/xeber/media/aktrisa-olmaq-ucun-erinden-ayrildi-mescidlerde-mersiye-dedi-teatrda-islemeyini-qardasindan-gizletdi-xalq-artisti-haqqinda-maraqli-faktlar-45886

https://president.az/az/articles/view/21070

Əminə Yusifqızı 1936-cı il sentyabrın 24-də Bakı şəhərində anadan olmuşdur.

1955-1959-cu illərdə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun (indiki Bakı Slavyan Universiteti) rus dili və ədəbiyyatı fakültəsində təhsil almışdır. Hələ məktəbdə oxuyarkən Gənc Tamaşaçılar Teatrında bir çox maraqlı çıxışları ilə yadda qalmışdır.

1956–1964-cü illərdə Gənc Tamaşaçılar Teatrında, 1964-1975-ci illərdə isə Akademik Milli Dram Teatrında aktrisa kimi fəaliyyət göstərmişdir. Teatr səhnəsində müxtəlif obrazlarla yanaşı, xeyli oğlan rollarını da ifa etmişdir. Həmçinin, "Azərbaycanfilm" kinostudiyasının nəzdində fəaliyyət göstərən kino-aktyor teatr studiyasında çalışmışdır.

Aktrisanın dublyaj və səsləndirmə sahəsində də fəaliyyəti olmuşdur. Bununla yanaşı, o, bədii qiraət ustası kimi də tanınır. Sabirə ("Son məktub", Rauf İsmayılov), Humay ("Komsomol poeması", İsgəndər Coşqun; Səməd Vurğunun eyniadlı poeması əsasında), Yetər ("Hacı Qəmbər" yaxud "Yağışdan çıxdıq, yağmura düşdük", Nəcəf bəy Vəzirov), Qulu ("Anacan", Yusif Əzimzadə), Qartal ("Göyərçinlər", Tələt Əyyubov), Qavroş ("Qavroş", Viktor Hüqonun "Səfillər" romanı üzrə), Vasya ("İnqilab naminə", Mixail Şatrov), Pavlik ("Pavlik Morozov", Vladimir Qubarev), Balaca Ramo ("Əlvida, Hindistan", Qeybulla Rəsulov) kimi obrazları Gənc Tamaşaçılar Teatrında ifa etmişdir.

Akademik Milli Dram Teatrında o, Göyçək ("Söz yarası", Qeybulla Rəsulov), Sevər ("Oqtay Eloğlu", Cəfər Cabbarlı), Nazlı ("Ölülər", Cəlil Məmmədquluzadə), Essi ("Şeytanın şagirdi", Bernard Şou), Anka ("Falçı", Stefan Kostov), Styopka ("Zıkovlar", Maksim Qorki), Mariya ("Çarəsiz dələduz", Raffaele Viviani), Pərzad ("Xırs quldurbasan", Mirzə Fətəli Axundzadə), Olqa Petrovna ("Müdriklər", Aleksandr Ostrovski) kimi rolları canlandırmışdır.

1974-cü ildən etibarən "Azərbaycanfilm" kinostudiyasında çalışmışdır. Burada o, Firuzə ("Yayda xəzan yarpaqları"), "Ürək... Ürək..." , Firuzə ("Tənha narın nağılı"), Nadejda İvanova ("Skripkanın sərgüzəşti"), xidmətçi ("Musiqi müəllimi"), qaraçı ("Qaraca qız") və digər bədii filmlərdə və televiziya tamaşalarında çəkilmişdir.

1982-ci ildə Əməkdar artist fəxri adına, 1998-ci ildə isə Xalq artisti fəxri adına layiq görülmüşdür. 2010-cu ildə aktrisaya Cəfər Cabbarlı mükafatı təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 sentyabr tarixli Sərəncamı ilə mədəniyyətimizin inkişafında göstərdiyi xidmətlərə görə Əminə Yusifqızı "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Əminə Yusifqızı 2025-ci il oktyabrın 9-da vəfat etmişdir.

Solmaz Orlinskaya – 120

(1906-1973)

Aktyor



Solmaz (Nina) Qaragen qızı Orlinskaya 1906-cı il sentyabrın 25-də Gəncə şəhərində anadan olmuşdur.

Beş sinif təhsil almışdır. Əsl adı Nina, qızlıq soyadı Basmaçyan olmuşdur. Atası milliyyətcə yunan idi. Onun adı bəzi proqramlarda "Nona" kimi də yazılıb. Cəfər Cabbarlının "Od gəlini" qəhrəmanlıq dramında Solmaz rolununun ifasında fərqləndiyinə görə özünə bu adı səhnə təxəllüsü kimi götürmüşdür.

İk dəfə səhnəyə 15 yaşında Gəncə Dəmiryolçular Klubunun dram dərnəyində çıxmışdır. Burada və Qadınlar klubunda, eləcə də 1924-cü ildə Şamaxı şəhər dram dərnəyində müxtəlif rollar oynamışdır.

1924-1933-cü illərdə M.F.Axundov adına Tiflis Dövlət Azərbaycan Dram Teatrında çalışmışdır. 1933-cü ildə Gəncə Dövlət Dram Teatrının truppasına daxil olmuş və ömrünün sonuna qədər burada fəaliyyət göstərmişdir. Solmaz Orlinskaya 1941-ci ildən Sov. İKP üzvü olmuşdur.

1943-cü il iyun ayının 17-də Əməkdar artist fəxri adı, 1955-ci il aprel ayının 30-da Xalq artisti fəxri adı, 1958-ci il may ayının 20-də Azərbaycan SSR Alo Sovetinin Fəxri fərmanı və 1959-cu il iyun ayının 9-da "Şərəf nişanı" ordeni ilə təltif olunmuşdur.

Solmaz (Nina) Qaragen qızı Orlinskaya 1973-cü il iyunun 17-də Gəncə şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Orlinskaya, Solmaz / [red. C.Səfərov].– Bakı: Azərbaycan teatr cəmiyyətinin nəşri, 1961.– [1] qat.

Solmaz: Azərbaycan SSR-nin xalq artistikası Nina Orlinskaya) / R.Şahvələd; [red. Ə. Hüseynov]; Azərbaycan Teatr Cəmiyyəti.– Bakı: [s. n.], 1962.– 38, [2] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Solmaz_Orlinskaya

https://onews.az/arasdirma/2459-azerbaycanin-yunan-ve-ermeni-kokenli-xalq-artisti.html

Ramiz Məmmədov – 75

(1951-2021)

Aktyor



Ramiz Soltanəli oğlu Məmmədov 1951-ci il sentyabrın 26-da Bakı şəhərində anadan olmuşdur.

1975-ci ildə İncəsənət İnstitutunun tələbəsi olduğu dövrdə Musiqili Komediya Teatrına dəvət almışdır. İlk günlərdən fitri istedadı və özünəməxsus oyun tərzi ilə kollektivin diqqətini cəlb etmiş, ilk rolları ilə tamaşaçıların rəğbətini qazanmışdır.

"Qaynana"da Əli, "Gurultulu məhəbbət"də Həsən, "Gözün aydın"-da Qəhrəman, "Boşanaq evlənərik"də Ağacan, "O olmasın, bu olsun"da Rza bəy və Hambal, "Bəbirlinin kələkləri"ndə Bəbirli və digər obrazların ifası ilə musiqili komediya janrının mahir aktyoru olduğunu təsdiq etmişdir.

Zəhmətsevərliyi, təşəbbüskarlığı, sənətə olan məhəbbəti və bənzərsiz oyun tərzi ilə seçilən aktyor uzun illər bu yolda uğurla fəaliyyət göstərərək sənətkarlar sırasının öncüllərindən olmuşdur. Televiziyanın "Səhər görüşləri", "Yumoristik novellalar", "Komediyalar aləminə səyahət" verilişlərində, eləcə də "Yaşıl eynəkli adam", "Zümrüd quşu", "Qaynana əməliyyatı", "Get gətir", "Əzəlim gözəlim", "Mənim dayım" tamaşalarında yaratdığı obrazlar ona daha geniş populyarlıq qazandırmışdır.

28 oktyabr 2000-ci ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 25 iyun 2013-cü ildə isə "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Aktror 9 may 2012-ci ildə, 30 aprel 2014-cü ildə, 6 may 2015-ci ildə və 6 may 2016-cı ildə Prezident mükafatına layiq görülmüşdür.

Ramiz Soltanəli oğlu Məmmədov 2021-ci il martın 21-də vəfat etmişdir.

Ədəbiyyat:

Xalq artisti Ramiz Məmmədov vəfat edib // Mədəniyyət. – 2021. – 31 mart. – S.5.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Ramiz_Məmmədov_(aktyor)
https://president.az/az/articles/view/11611/print
http://www.anl.az/down/meqale/medeniyyet/2021/mart/739188.htm

Kazımağa Kərimov – 75

(1951-1992) Milli Qəhrəman



Kazımağa Mövsüm oğlu Kərimov 1951-ci il sentyabrın 1-də Qubadlı rayonunun Sarıyataq kəndində, ziyalı ailəsində anadan olmuşdur.

Qubadlı rayon orta məktəbini bitirdikdən sonra rayonun "Avanqard" qəzetinin mətbəəsində yığıcı işləmişdir.

1970-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Jurnalistika fakültəsinə daxil olmuşdur. Beş il müddətində təhsil aldığı universitetin bütün ictimai işlərində fəallıq göstərmiş, tez-tez həm respublika, həm də rayon qəzetlərində maraqlı yazıları dərc olunmuşdur. Universiteti bitirdikdən sonra təyinatla "Azərbaycan məktəbi" jurnalında, sonra isə "Azərbaycan müəllimi" qəzetində çalışmışdır. Sonralar Goranboy rayon Qızılhacılı kəndində Aqrar Sənaye Birliyində hüquq məsləhətçisi kimi işə qəbul olunmuşdur.

1988-ci ildə vətəndaşlıq borcunu yerinə yetirmək üçün cəbhə bölgəsinə yollanmışdır. 1991-ci ildə Goranboy rayonunda yaradılan könüllü özünümüdafiə batalyonlarından birinə komandir müavini təyin olunan Kazımağa baş leytenant rütbəsi ilə doğma torpaqlarımızın müdafiəsinə qalxmışdı. İlk günlərdən bir çox mühüm hərbi əməliyyatlarda iştirak etmiş, Goranboy rayonunun Gülüstan, Qaraçinar, Manas, Şəfəq, Tapqaraqoyunlu kəndləri uğrunda gedən döyüşlərə komandanlıq etmişdir.

Kazımağa Kərimov 1992-ci ilin 12-13 iyun tarixlərində Goranboy rayonunun azad olunması uğrunda həyata keçirilən döyüşdə ayağından ağır yaralanmış, lakin çox qan itirdiyindən onun həyatını xilas etmək mümkün olmamışdır. 1992-ci il iyun ayının 15-də vəfat etmişdir. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı Fərmanı ilə Kərimov Kazımağa Mövsüm oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir

Qızılhacılı kənd Mədəniyyət evi onun adını daşıyır. Goranboy şəhərində büstü qoyulmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikasının Silahlı Qüvvələri hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Kərimov Kazımağa Mövsüm oğlu-baş leytenant- Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 23 iyun 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.– 1992.– № 12.– S.35.– (Ölümündən sonra).

Şəhidlərimizlə qürur duyuruq // Azad Azərbaycan.– 2017.– 17 fevral.– S.7.

Ailənin səkkiz oğlundan biri...: Qarabağ savaşında peşəkar jurnalist Kazımağa Kərimov yalnız qələmini deyil, qəlbini də silaha çevirərək düşmən üzərinə gedirdi / M.Nərimanoğlu // Azərbaycan.– 2021.– 28 noyabr.– S.6.

Kazımağa Kərimov: Qürurla anırıq / Q.Aslan // Respublika.– 2022.– 1 sentyabr.– S.6.

Jurnalist-döyüşçü: Milli qəhrəmanlarımız / R.Salmanlı // Azərbaycan.– 2023.– 2 aprel.– S.6.

İnternetdə:

https://avciya.az/kərimov-kazimaga-movsum-oglu

Seymur Məmmədov – 55

(1971-1992) Milli Qəhrəman



Məmmədov Seymur Qəhrəman oğlu 18 sentyabr 1971-ci ildə Füzuli şəhərində anadan olmuşdur.

1978-ci ildə həmin şəhərdəki 2 saylı orta məktəbə daxil olmuş, 1988-ci ildə məktəbi bitirmişdir. Eyni ildə Azərbaycan Politexnik İnstitutunun (indiki Texniki Universitet) elektrotexnika fakültəsinə qəbul edilmişdir. Təhsil aldığı dövrdə Füzuli şəhər rabitə şöbəsində də çalışmışdır.

1991-ci ildə hərbi xidmətə çağırılmış, Vladimir vilayətinin Kovrov şəhərində artilleriya üzrə 6 aylıq kurs keçdikdən sonra Almaniyaya göndərilmişdir. Daha sonra Ukrayna Respublikasının Çerniqov şəhərində xidmətini davam etdirmişdi

Hərbi xidmətdən qayıtdıqdan sonra Seymur Məmmədov könüllü olaraq 814 saylı özünümüdafiə batalyonuna yazılmışdır. O dövrdə bir neçə kənd erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Seymur Məmmədov çox gənc olmasına baxmayaraq hər zaman qaynar nöqtələrdə fəaliyyət göstərmiş və çətin əməliyyatlarda iştirak etmişdir.

O, azərbaycanlı əsirlərin azad edilməsində, 11 nəfər əsgərin mühasirədən çıxarılmasında və bir neçə kəndin işğalçılardan təmizlənməsində xüsusi igidlik göstərmişdir. 1 aprel 1992-ci ildə Məlikcan kəndi uğrunda gedən döyüşdə hər birində təxminən 10 nəfər olmaqla 15 erməni yaraqlı postu darmadağın edilmişdir. Bu qeyri-bərabər döyüşdə Seymur Məmmədov düşmən snayperinin güllәsinə tuş gəlmiş və qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 11 avqust 1992-ci il tarixli 131 saylı fərmanı ilə Məmmədov Seymur Qəhrəman oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Oxuduğu Füzuli rayon 2 saylı məktəb onun adını daşıyır. 2019-cu ildə Çingiz Həsənovun rejissorluğu ilə "Salnaməfilm" studiyasında Milli Qəhrəman haqqında "Qartal yuvası" adlı sənədli film çəkilmişdir.

Ədəbiyyat:

Seymur Qəhrəman oğlu Məmmədova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Sıravi - Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 11 avqust 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.– 1992.– № 15.– S.70.– (Ölümündən sonra).

Əsgərov, V. Məmmədov Seymur Qəhrəman oğlu / V. Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları. – Yenidən işlənmiş II nəşr. – Bakı, 2010. – S.206.

Şərifli, B. 20 yaşın hünəri: Milli Qəhrəmanlarımız / B.Şərifli // Azərbaycan.– 2019.– 13 yanvar.– S.4.

Seymur Məmmədov: Qürurla anırıq / M.Mirzə // Respublika.– 2022.– 18 sentyabr.– S.5.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Seymur_Məmmədov

Arif Qubadov – 60

(1966-2009)

Milli Qəhrəman



Arif Vəliş oğlu Qubadov 1966-cı il sentyabrın 20-də Cəlilabad rayonunun Əliqasımlı kəndində anadan olmuşdur. 1983-cü ildə Əliqasımlı kənd orta məktəbini bitirmiş, 1984-cü ildə isə Cəlilabad rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətini SSRİ-nin müxtəlif bölgələrində keçmişdir.

Erməni silahlı qüvvələrinin Qərbi Azərbaycanda və Qarabağda törətdikləri vəhşiliklər Arif Qubadovu narahat etmiş, 1992-ci ildə Azərbaycana qayıdaraq Milli Orduda xidmət etməyə başlamışdır. 1992-ci ilin iyun ayında Naxçıvan Muxtar Respublikasının Sədərək bölgəsində gedən döyüşlərdə qəhrəmancasına iştirak etmiş, düşmənin xeyli canlı qüvvəsini və döyüş texnikasını məhv etmişdir. Onun dəstəsi 1993-cü ilin iyun ayında Ağdam rayonuna göndərilmiş, Əfətli və Yusifcanlı kəndlərinin düşmən tapdağından azad edilməsində böyük qəhrəmanlıq göstərmişdir. 1993-cü ilin avqustunda öz taboru ilə Füzuli bölgəsinə yollanaraq Əhmədbəyli, Aşağı və Yuxarı Kürd-Mahmudlu, Alxanlı kəndlərini düşməndən təmizləmişdir. 1994-cü ildə Tərtər və Ağdərə döyüşlərində də fəal iştirak edərək öz döyüşkənliyi və rəşadəti ilə fərqlənmişdir.

1996-cı ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə, 2001-ci ildə isə Azərbaycan Respublikası Sərhəd Qoşunları Hərbi Akademiyasına daxil olmuş və 2003-cü ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Polkovnik-leytenant rütbəsinə qədər yüksələn Arif Qubadov N saylı hərbi hissənin komandir müavini vəzifəsində xidmət etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Arif Vəliş oğluna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Arif Qubadov 2009-cu il sentyabrın 25-də vəfat etmiş, Cəlilabad rayonunun Əliqasımlı kəndində dəfn edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Qubadov Arif Vəliş oğlu - Müdafiə Nazirliyi, baş leytenant - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il // Azərbaycan.– 1995.– 5 aprel.– S.1.

Qubadov Arif Vəliş oğlu // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / M.F.Axundov adına Milli Kitabxana; tərt.ed. H.Həmidova.– Bakı, 2008.– S.119-120.

Əsgərov, V. Qubadov Arif Vəliş oğlu / V. Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları. – Yenidən işlənmiş II nəşr.– Bakı, 2010.– S 161-162.

Arif Qubadov: Qürurla anırıq / M.Mirzə // Respublika.– 2022.– 20 sentyabr.– S.10.

İnternetdə:

http://www.milliqahramanlar.az/heroes/129

Zakir Yusifov – 70

(1956-1992) *Milli Qəhrəman*



Zakir Tofiq oğlu Yusifov 1956-cı il sentyabrın 29-da Bakı şəhərində anadan olmuşdur.

1974-cü ildə 194 saylı orta məktəbi bitirdikdən sonra Sasovski adına Mülki Təyyarəçilik Məktəbinə daxil olmuş və 1977-ci ildə təhsilini başa vurmuşdur. Elə həmin il Yevlax Aviadəstəsində əmək fəaliyyətinə başlamışdır. O, AN-2 təyyarəsinin komandiri, eskadrilya komandirinin müavini, eskadrilya komandiri, uçuşları təşkil və təmin etmə müfəttişliyinin təyyarəçi müfəttişi vəzifələrində çalışmışdır.

1988-ci ildə Zakir Yusifov Azərbaycan Dövlət Universitetinin (indiki BDU) hüquq fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur. Azərbaycanda ilk hərbi vertolyot eskadrilyası Milli Qəhrəman Yavər Əliyev və Zakir Yusifovun birgə əməyi nəticəsində yaradılmışdır.

Qısa müddət ərzində Zakir Yusifov Qarabağ və digər döyüş bölgələrinə çoxsaylı uçuşlar etmişdir. Ən uğurlu əməliyyatını Füzuli-Xocavənd istiqamətində yerinə yetirmişdir. Cəsur komandir yüzlərlə hərbi uçuş həyata keçirərək Əsgəran, Füzuli, Xocavənd, Tərtər, Ağdərə və Şuşakənd uğrunda gedən döyüşlərdə iştirak etmiş, Azərbaycan Hərbi Aviasiyasının döyüş salnaməsinə şanlı səhifələr yazmışdır.

1992-ci il oktyabrın 11-də Səfiyan kəndində növbəti əməliyyat zamanı Zakir Yusifovun vertolyotu vurulmuş və bütün heyət qəhrəmancasına həlak olmuşdur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı Fərmanı ilə Zakir Tofiq oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

1995-ci ildən təhsil aldığı 194 saylı tam orta məktəb və Nizami rayonundakı küçələrdən biri onun adını daşıyır.

Ədəbiyyat:

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında:-[Yusifov Zakir Tofiq oğlu-mayor-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 fevral 1993-cü il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.– 1993.– №3.– S.11.– (Ölümündən sonra).

Yusifov Zakir Tofiq oğlu // Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya / M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.– Bakı, 2008.– S.201-202.

Əsgərov,V. Yusifov Zakir Tofiq oğlu / V.Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları. –Yenidən işlənmiş II nəşr.– Bakı, 2010.– S.279.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Zakir_Yusifov

Mirələkbər İbrahimov – 65

(1961-1994) *Milli Qəhrəman*



Mirələkbər Mirələsgər oğlu İbrahimov 30 sentyabr 1961-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalının Xalisa kəndində ziyalı ailəsində anadan olmuşdur.

Birinci sinfə doğma kəndində başlamış, təhsilini sonralar Bakı şəhərindəki 158 saylı orta məktəbdə davam etdirmişdir. 1980-ci ildə hərbi xidmətini başa vurduqdan sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin idman və hərbi hazırlıq fakültəsinə daxil olmuşdur.

Bir müddət 153 saylı orta məktəbdə pedaqoji fəaliyyətini davam etdirmiş, 1993-cü ildə yeni yaradılmış Yasamal taburuna komandir təyin edilmişdir. Mirələkbər İbrahimov öz taburu ilə Füzuli rayonunun Alxanlı və Kürdmahmudlu kəndləri uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

1994-cü il martın 5-də Qorqan kəndi uğrunda gedən döyüşdə qəhrəmancasına həlak olmuşdur. O, Bakı şəhərindəki ikinci Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı Fərmanı ilə kapitan İbrahimov Mirələkbər Mirələsgər oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Pedaqoji fəaliyyət göstərdiyi 153 saylı orta məktəb onun adını daşıyır.

Ədəbiyyat:

Təki vətən yaşasın / H. Şıxavəndli // Ana Vətən.– 1994.– 18 may.

Vətən bizi böyütdü ki... / G.Əliyeva // Azərbaycan.– 1995.– 10 yanvar.

Qəhrəmanın adına layiq məktəb / A. Ağazadə // Azərbaycan.– 1999.– 2 aprel.

İbrahimov Mirələkbər Mirələsgər oğlu // Azərbaycanın Milli Qəhrəmanları / M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.– Bakı, 2008.– S.101-102.

Seyidzadə, M. İbrahimov Mirələkbər Mirələsgər oğlu / M. Seyidzadə // Milli qəhrəmanlar zirvəsi.– Bakı, 2010.– S.103.

Mirələkbər İbrahimov: Qürurla anırıq / M.Mirzə // Respublika.– 2022.– 30 sentyabr.– S.11.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Mirələkbər_İbrahimov

1

Faiq Adgözəlov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Faiq Mehti oğlu Adgözəlov 1 sentyabr 1996-cı ildə Yevlax rayonunun Nemətabad kəndində anadan olmuşdur. Orta təhsilini Yevlax rayonu, Nemətabad kənd tam orta məktəbində almışdır.

2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş, 2017-ci ildən isə müddətdən artıq hərbi xidmət qulluqçusu kimi orduda xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Faiq Adgözəlov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində Gülüstan, Ağuçuq və Talış-Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Faiq Adgözəlov oktyabrın 10-da Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Yevlax Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Faiq Mehti oğlu Adgözəlov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.7-9.

1

Fuad Haşımov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Fuad Ceyhun oğlu Haşımov 1 sentyabr 1996-cı ildə Abşeron rayonunun Digah qəsəbəsində anadan olmuşdur. 2002–2013-cü illərdə Abşeron rayonu, S. Məmmədov adına Digah qəsəbə tam orta məktəbində təhsil almışdır.

2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidməti, 2019-cu ildə Xüsusi Təyinatlı Qüvvələr kursunu keçmişdir, 2020-ci ildə Xüsusi Təyinatlı Qüvvələrdə Kəşfiyyatçı-İstehkamçı ixtisası üzrə xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Fuad Haşımov 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində Kəlbəcər, Murovdağ, Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. 22 oktyabr 2020-ci ildə Xocavəndin Tuğ kəndi uğrunda aparılan döyüşdə qəhrəmancasına şəhid olmuş, Digah qəsəbəsində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Fuad Ceyhun oğlu Haşımov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.81-84.

1

Cilingir Nəbiyev - 30

(1996-2020)

Gizir



Cilingir Azad oğlu Nəbiyev 1996-cı il sentyabrın 1-də Tovuz rayonunun Şıxheybət kəndində anadan olmuşdur. Orta təhsilini Tovuz rayonunun Hacılar kənd tam orta məktəbində almışdır.

2013-2015-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Kollecində "Texnologiya müəllimliyi" üzrə təhsil almışdır. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş, 2017-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun giziri olan Cilingir Nəbiyev 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində Füzuli və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 28-də Qubadlı döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Tovuz rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Cilingir Azad oğlu Nəbiyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.21-31.

2

Mirrəhim İsmayılov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Mirrəhim Mirmehdi oğlu İsmayılov 1996-cı il sentyabrın 2-də Ağdam rayonunun Çəmənli kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə Ağdam rayon, Çəmənli kənd tam orta məktəbində təhsil almışdır. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş, 2020-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Mirrəhim İsmayılov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 2-də Suqovuşan istiqamətində gedən döyüşlər zamanı, Goranboy rayonunun Tap Qaraqoyunlu kəndi yaxınlığında yerləşən Kəhrilər xarabalığı ərazisində qəhrəmancasına şəhid olmuşdur. Uzun müddət itkin kimi qeydə alındıqdan sonra, 27 noyabr 2020-ci ildə nəşi tapılaraq Ağdam rayonunun Quzanlı qəsəbəsindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Mirrəhim Mirmehdi oğlu İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Natiq Rəşidov - 35

(1991-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.78.

Natiq Məmmədrza oğlu Rəşidov 1991-ci il sentyabrın 2-də Saatlı rayonunun Dədə Qorqud kəndində anadan olmuşdur. Saatlı rayonu, Dədə Qorqud adına kənd tam orta məktəbində təhsil almışdır. 2009-2011-ci iillərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Natiq Rəşidov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Xocavənd rayonunun Hadrut qəsəbəsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Rəşidov Natiq Hadrut uğrunda gedən döyüşlərdə itkin düşmüşdür. Bir ay sonra qəhrəmancasına şəhid olduğu məlum olmuş və 30 noyabr 2020-ci ildə Dədə Qorqud kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Natiq Məmmədrza oğlu Rəşidov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunmuşdur.

Asim Cəfərli - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Asim Çingiz oğlu Cəfərli 2001-ci il sentyabrın 4-də Bərdə rayonunun Piyadalar kəndində anadan olmuşdur. Bərdə rayon, Piyadalar kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Asim Cəfərli 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 27-də Füzuli döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Bərdə rayonunun Piyadalar kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Asim Çingiz oğlu Cəfərli ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.


SENTYABR

4

Elvin İsizadə - 25

(2001-2020)

Əsgər



Elvin Azim oğlu İsizadə 2001-ci il sentyabrın 4-də Ağdam rayonunun Qaradağlı kəndində anadan olmuşdur.

2007-ci ildə Ayaz Abbasov adına Qaradağlı kənd orta məktəbində təhsil almağa başlamış, bununla yanaşı Qaradağlı kənd Uşaq Musiqi Məktəbində tar ixtisası üzrə də təhsil almışdır. 2018-ci ildə kollecə qəbul olmuş, 2019-cu ildə isə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elvin İsizadə 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı və Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 26-da Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Quzanlı qəsəbəsi Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elvin Azim oğlu İsizadə ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

5

Taryel Atayev - 40

(1986-2020)

MAHHXHQ əsgər



Taryel Fəxrəddin oğlu Atayev 1986-cı il sentyabr ayının 5-də Ağcabədi rayonunun Minəxorlu kəndində anadan olmuşdur. Ağcabədi rayonu, Minəxorlu kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Taryel Atayev 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin, Qubadlının və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Taryel Atayev noyabrın 8-də Şuşa döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 11 noyabr 2020-ci ildə Minəxorlu kənd indəki dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Taryel Fəxrəddin oğlu Atayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif olunmuşdur.


Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.79.

Ayxan Cəfərov - 30

(1996-2020)

Əsgər



Ayxan Cəmaləddin oğlu Cəfərov 1996-cı il sentyabrın 6-da Cəlilabad rayonunun Üç təpə kəndində anadan olmuşdur. Cəlilabad rayon, Üçtəpə kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Ayxan Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Ayxan Cəfərov oktyabrın 15-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 17 oktyabr 2020-ci ildə Üçtəpə kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ayxan Cəmaləddin oğlu Cəfərov ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.21-31.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Hüseyn Qəribzadə - 25

(2001-2020)

Əsgər



Hüseyn Qədir oğlu Qəribzadə 2001-ci il sentyabr ayının 6-da Şəmkir rayonunun Çinarlı qəsəbəsində anadan olmuşdur. 2007-2018-ci illərdə Çinarlı qəsəbə 1 nömrəli tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Hüseyn Qəribzadə 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 28-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 16 noyabr 2020-ci ildə Şəmkir rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Hüseyn Qədir oğlu Qəribzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunmuşdur.

Xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə Şəmkir rayonunun Çinarlı qəsəbəsində Vətən müharibəsi şəhidimiz Hüseyn Qəribzadənin adına xatirə bulağı inşa edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.1-6.

SENTYABR
7

Ağa Hüseynli - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Ağa Aydın oğlu Hüseynli 2001-ci il sentyabrın 7-də Sabirabad rayonunun Moranlı kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə Şahin Hüseynov adına Sabirabad rayon Moranlı kənd tam orta məktəbində təhsil almışdır.

2019-cu ildən etibarən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. O, əvvəlcə üç ay Sumqayıt şəhərinin Hacı Zeynalabdin qəsəbəsində xidmət etmiş, daha sonra isə könüllü rabitəçi kimi Qusar rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ağa Hüseynli 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 5-də Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 8 oktyabr 2020-ci ildə Moranlı kəndində dəfn edilmişdir.


Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ağa Aydın oğlu Hüseynli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

7

Bəhruz Məmmədov - 35

(1991-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.81-84.

Bəhruz Tahir oğlu Məmmədov 1991-ci il sentyabrın 7-də Yevlax rayonunun Xaldan kəndində anadan olmuşdur. 1997-2009-cu illərdə Yevlax rayonunun Xaldan kənd Kompleks Tam Orta Məktəbində təhsil almışdır. 2009-2013-cü illərdə Azərbaycan Dövlət İqtisad Universitetində ali təhsil almış, daha sonra magistratura səviyyəsində təhsilini davam etdirmişdir. 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Bəhruz Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Xocavənd, Hadrut və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 5-də Şuşa uğrunda gedən döyüşlər zamanı Daşaltı kəndində qəhrəmancasına şəhid olmuşdur. Xaldan kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Bəhruz Tahir oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Xatirəsinin əbədiləşdirilməsi məqsədilə Yevlax rayonunun Xaldan kəndində onun adına bulaq inşa olunmuşdur.

7

Ruslan Qurbanov - 35

(1991-2020) *MAHHXHQ baş çavuş*



Ruslan Üzeyir oğlu Qurbanov 1991-ci il sentyabrın 7-də Biləsuvar rayonunun Ağalı kəndində anadan olmuşdur. Biləsuvar rayonu, Ağalı kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun baş çavuşu olan Ruslan Qurbanov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Ruslan Qurbanov sentyabrın 28-də Murovdağ döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Oktyabrın 2-də Ağalı kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ruslan Üzeyir oğlu Qurbanov ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.24-28.

8

Eynulla Lətifov - 25

(2001-2020) *Əsgər*



Eynulla Niyətulla oğlu Lətifov 2001-ci il sentyabrın 8-də Quba rayonunun İkinci Nügədi kəndində anadan olmuşdur. Quba rayonu, Oqtay Məmmədov adına İkinci Nügədi kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Eynulla Lətifov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 19-da Xocavənd döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 20 oktyabr 2020-ci ildə 2-ci Nügədi kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Eynulla Niyətulla oğlu Lətifov ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.45-57.

9 SENTYABR

Behbud Behbudlu - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Behbud Rübail oğlu Behbudlu 2001-ci il sentyabrın 9-da Bərdə rayonunun Mustafaağalı kəndində anadan olmuşdur. G.Qarayev adına Bərdə rayon, Mustafaağalı kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Behbud Behbudlu 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 1-də Murovdağ döyüşləri gedişatında Göygöl rayonunun Toğanalı kəndində "Canavar sol" döyüş mövqeyi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Bərdə rayonunun Mustafaağalı kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Behbud Rübail oğlu Behbudlu ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

9

İzzət Hümmətov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 29 dekabr.– S.5-14.

İzzət Müşviq oğlu Hümmətov 1996-cı il sentyabrın 9-da Şabran rayonunun Uzunboyad kəndində anadan olmuşdur. Şabran rayon, Uzunboyad kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan İzzət Hümmətov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 12-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. 30 oktyabr 2020-ci ildə Şabran rayonunun Uzunboyad kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən İzzət Müşviq oğlu Hümmətov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.


SENTYABR

10

Kəmaləddin Məmmədov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Kəmaləddin İsrail oğlu Məmmədov 1996-cı il sentyabrın 10-da Kəngərli rayonunun Xok kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə Xok kənd tam orta məktəbində təhsil almışdır.

2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2019-cu ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Kəmaləddin Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 9-da Şuşa döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Xok kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Kəmaləddin İsrail oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.18-21.

10

Qüdrət Məmmədzadə - 25

(2001-2020)

Əsgər



Qüdrət Tofiq oğlu Məmmədzadə 2001-ci il sentyabrın 10-da Lənkəran rayonunun Sütəmurdov kəndində anadan olmuşdur. Bakı şəhəri, 189-190 saylı tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Qüdrət Məmmədzadə 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 17-də Goranboy rayonu Tapqaraqoyunlu kəndi, Kəhrilər xarabalığı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Lənkəran rayonunun Sütəmurdov kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Qüdrət Tofiq oğlu Məmmədzadə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Xatirəsinin əbədiləşdirilməsi üçün yaşadığı kənddə bulaq kompleksi inşa olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.66-67.

Sərraf İmaməliyev - 30

(1996-2020)

Leytenant



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 30 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 31 dekabr.– S.14-15.

Sərraf Murtuzəli oğlu İmaməliyev 1996-cı il sentyabrın 10-da Qusar rayonunun Əniq kəndində anadan olmuşdur. O, ilkin təhsilini Əniq kənd tam orta məktəbində almış, 2014-2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsil almışdır.

Azərbaycan Ordusunun leytenantı olan Sərraf İmaməliyev 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Qubadlı və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 7-də Şuşa döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Qusar rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Sərraf Murtuzəli oğlu İmaməliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunmuşdur.

Murad Yunusov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.21-31.

Murad Bayram oğlu Yunusov 2001-ci il sentyabrın 10-da Kürdəmir rayonunun Şahsevən kəndində anadan olmuşdur. Kürdəmir rayon, Köhnəbazar kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Murad Yunusov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 4-də Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 5 noyabr 2020-ci ildə Kürdəmir rayonunun Şahsevən kəndində dəfn edilmişdir.


Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Murad Bayram oğlu Yunusov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

10

Qalib Əhmədov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.29-34.

Qalib Rəşid oğlu Əhmədov 2001-ci il sentyabrın 10-da Şəki rayonunun Əliyar kəndində anadan olmuşdur. 2007-2016-cı illərdə Şəki rayonu, Əliyar kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Qalib Əhmədov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayıl, Hadrut, Tərtər rayonunun Talış kəndi istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 10-da Tərtər rayonu Talış kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 22 oktyabr 2020-ci ildə Əliyar kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Qalib Rəşid oğlu Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

11

Cəbrayıl Dövlətzadə - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.5-6.

Cəbrayıl Dövlət oğlu Dövlətzadə 2001-ci il sentyabrın 11-də Sumqayıt şəhərində anadan olmuşdur. Orta təhsilinə Sumqayıt şəhəri "Təfəkkür" liseyində başlamış, daha sonra 2 saylı Qubadlı məktəbində oxumağa davam etmişdir. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Cəbrayıl Dövlətzadə 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə xüsusi təyinatlıların tərkibində savaşıb. Sentyabrın 28-də Kəlbəcər rayonu ərazisində, Murovdağ istiqamətində düşmən mövqelərinin və strateji postların ələ keçirilməsi üzrə aparılan döyüş əməliyyatları zamanı qəhrəmancasına şəhid olmuşdur. II Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Cəbrayıl Dövlət oğlu Dövlətzadə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni , "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

12

Səxavət Məmmədov - 30

(1996-2020)

Kiçik çavuş



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.81-84.

Səxavət Vahab oğlu Məmmədov 1996-cı il sentyabrın 12-də Ağdam rayonunun Paşabəyli kəndində anadan olmuşdur. Şəhid Rəşid Qasımov adına Paşabəyli kənd tam orta məktəbində təhsil almışdır.

2018-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmət edirdi.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Səxavət Məmmədov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşan, Füzuli, Qubadlı və Laçının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 9-da Laçın rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 26 noyabr 2020-ci ildə Ağdam Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Səxavət Vahab oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

13

Orxan Bəxtiyarov - 35

(1991-2020)

Əsgər



Orxan Sərvər oğlu Bəxtiyarov 1991-ci il sentyabrın 13-də Daşkəsən şəhərində anadan olmuşdur. Daşkəsən şəhəri, İ.Nəsimi adına 1 saylı tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Murad Bəxtiyarov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 7-də Şuşa döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 16 noyabr 2020-ci ildə Daşkəsən şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Orxan Sərvər oğlu Bəxtiyarov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.18-21.

13

Rəşad Zeyniyev - 25

(2001-2020)

Əsgər



Rəşad Ələkbər oğlu Zeyniyev 2001-ci il sentyabr ayının 13-də Cəlilabad rayonunda anadan olmuşdur. Cəlilabad rayon 5 saylı tam orta məktəbində təhsil almış, daha sonra Cəlilabad Dövlət Peşə Təhsili Mərkəzində təhsilini davam etdirmişdir. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rəşad Zeyniyev 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli və Şuşa şəhəri uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 8-də Şuşa döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 14 noyabr 2020-ci ildə Cəlilabad şəhərində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Rəşad Ələkbər oğlu Zeyniyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

14

Sadiq Həsənov - 40

(1986-2020)

Mayor



Sadiq Əli oğlu Həsənov 1986-cı il sentyabrın 14-də Naxçıvan şəhərində anadan olmuşdur. 1992-2000-ci illərdə Cəmşid Naxçıvanski adına Naxçıvan Hərbi Liseyində, 2003-2007-ci illərdə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə təhsil almış, 2007-2008-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzində iştirak etmişdir. 2008-ci ildən leytenant rütbəsi ilə müxtəlif hərbi vəzifələrdə xidmət etmiş, 2020-ci ildən "N" saylı hərbi hissədə təlim-tərbiyə işləri üzrə rəis müavini olmuşdur.

Azərbaycan Ordusunun mayoru olan Sadiq Həsənov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin, Hadrutun, Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 20-də Zəngilan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Naxçıvan şəhərində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Sadiq Əli oğlu Həsənov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə", III dərəcəli "Rəşadət" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.79.

14

Vahid Ağayev - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 29 dekabr.– S.5-14.

Vahid Məcnun oğlu Ağayev 1996-cı il sentyabr ayının 14-də Bakı şəhərində anadan olmuşdur. Bakı şəhəri, 187 nömrəli tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Vahid Ağayev 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Xocavənd və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 11-də Şuşa döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Maştağa qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Vahid Məcnun oğlu Ağayev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

14

Mirzəcan Orucov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Mirzəcan Araz oğlu Orucov 2001-ci il sentyabrın 14-də Şamaxı rayonunun Sis kəndində anadan olmuşdur. Şamaxı rayon, Sis kənd tam orta məktəbində təhsil almışdır. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Mirzəcan Orucov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 7-də Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şamaxı Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Vahid Məcnun oğlu Ağayev ölümündən sonra Mirzəcan Araz oğlu Orucov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Kamran Vəlizadə - 30

(1996-2020)

Əsgər



Kamran Əkpər oğlu Vəlizadə 1996-cı il sentyabrın 14-də Lənkəran rayonunun Nərimanabad qəsəbəsində anadan olmuşdur. 2004-2014-cü illərdə şəhid Elmar Məmmədov adına tam orta məktəbində, 2014-2018-ci illərdə isə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Kamran Vəlizadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayıl və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 23-də Qubadlı döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 11 noyabr 2020-ci ildə Nərimanabad qəsəbə qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Kamran Əkpər oğlu Vəlizadə ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan.– 2020.– 30 dekabr.– S.10-17.

Xaliddin Veyisli - 45

(1981-2020)

MAHHXHQ çavuş



Xaliddin Zəkər oğlu Veyisli 1981-ci il sentyabrın 14-də Qazax şəhərində anadan olmuşdur. 1987–1998-ci illərdə S. Əfəndiyev adına 1 nömrəli tam orta məktəbində təhsil almışdır. 1999-2001-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş, 2008-ci ildən etibarən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun çavuşu olan Xaliddin Veyisli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 26-da Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Qazax şəhərində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Xaliddin Zəkər oğlu Veyisli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan.– 2020.– 19 dekabr.– S.13-14.

Nicat Əlizadə - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.66-67.

Nicat Qorxmaz oğlu Əlizadə 2001-ci il sentyabrın 15-də Sumqayıt şəhərində anadan olmuşdur. Orta təhsilini Biləsuvar rayonu ərazisində yerləşən V.İsmayılov adına Çərəkən kənd tam orta məktəbində almış, daha sonra Cəbrayıl rayon 131 nömrəli Peşə məktəbində təhsilini davam etdirmişdir. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.


Azərbaycan Ordusunun əsgəri olan Nicat Əlizadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 7-də Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Nicat Qorxmaz oğlu Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif olunmuşdur.

İsabala Hüseynov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.21-31.

İsabala Ceyhun oğlu Hüseynov 2001-ci il sentyabrın 15-də Bakı şəhərində anadan olmuşdur. 2007–2018-ci illərdə 318 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2018–2019-cu illərdə Dəniz Nəqliyyatı, Gəmiqayırma və Liman İşləri üzrə 16 nömrəli Bakı Peşə Liseyində "Gəmi maşın mexanizmlərinin təmiri üzrə çilingər" ixtisası üzrə təhsilini davam etdirmişdir. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İsabala Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayıl, Füzuli, Zəngilan və Laçının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 4-də Laçın döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 5 dekabr 2020-ci ildə Suraxanı rayon Əmircan qəsəbəsində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən İsabala Ceyhun oğlu Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Zöhrab Abbasov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Zöhrab Natiq oğlu Abbasov 2001-ci il sentyabrın 17-də Ağstafa rayonunun Eynallı kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə X.İsmayılov adına Eynallı kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.


Azərbaycan Ordusunun əsgəri olan Zöhrab Abbasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 13-də Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 16 dekabr 2020-ci ildə Ağstafa rayonunun Eynallı kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Zöhrab Natiq oğlu Abbasov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Elvin Salahov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 19 dekabr.– S.6-12.

Elvin Sabir oğlu Salahov 2001-ci il sentyabrın 17-də Bakıda anadan olmuşdur. 2001-2015-ci illərdə Bakı şəhəri, Yasamal rayonu A.Məmmədov adına 38 saylı tam orta məktəbində təhsil almışdır. 2015-2019-cu illərdə Azərbaycan Dövlət Dəmiryolu kollecində təhsilini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elvin Salahov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Kəlbəcər, Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 22-də Füzuli-Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmacasına şəhid olmuşdur. 24 oktyabr 2020-ci ildə Badamdar qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elvin Sabir oğlu Salahov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları təltif olunmuşdur.

Xatirəsinin əbədiləşdirilməsi üçün adına küçə verilmiş və bulağ inşa olunmuşdur.

SENTYABR

17

Pərvin Salmanzadə - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.18-21.

Pərvin Təbriz oğlu Salmanzadə 1991-cil il sentyabrın 17-də Astara rayonunun Pensər kəndində anadan olmuşdur. 1997-2008-ci illərdə Astara rayon, Mirzə Fətəli Axundzadə adına Pensər kənd 1 saylı tam orta məktəbində təhsil almışdır. 2009-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2020-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Pərvin Salmanzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Ağdərə və Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Pərvin Salmanzadə noyabrın 6-da Şuşa şəhərinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Pensər kənd Seyid Camaləddin türbəsində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Pərvin Təbriz oğlu Salmanzadə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

17

Rahib Hacı-İsmayılov - 35

(1991-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.66-67.

Rahib Məmmədəmin oğlu Hacı-İsmayılov 1991-ci il sentyabrın 17-də Şəki şəhərində anadan olmuşdur. Şəki şəhər 19 saylı tam orta məktəbində təhsil almışdır. 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rahib Hacı-İsmayılov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Tərtər, Ağdam və Ağdərənin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 20-də Tərtər rayonu ərazisində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 27 oktyabr 2020-ci ildə Şəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Rahib Məmmədəmin oğlu Hacı-İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Xatirəsinin əbədiləşdirilməsi məqsədilə Şəki şəhərində onun adını daşıyan bulaq kompleksi inşa edilmişdir.

SENTYABR
17

Eldəniz Hüseynov - 30

(1996-2020)

Əsgər



Eldəniz Tahir oğlu Hüseynov 1996-cı il sentyabrın 17-də İmişli rayonunda anadan olmuşdur. İmişli şəhər, Əli Səmədov adına 6 saylı tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Eldəniz Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayılın, Qubadlının, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə qismən səfərbərlikdən yararlanaraq, könüllü kimi iştirak etmişdir. Eldəniz Hüseynov oktyabrın 9-da Cəbrayıl döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. İmişli şəhərində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Eldəniz Tahir oğlu Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.21-31.

17

Şahin Tahirli - 25

(2001-2020)

Kiçik çavuş



Şahin Afat oğlu Tahirli 2001-ci il sentyabrın 17-də Lerik rayonunun Züvüc kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Lerik rayonunun Züvüc kənd tam orta məktəbində təhsil almışdır. 2018-2019-cu illərdə Mingəçevir Turizm Kollecində təhsilini davam etdirmişdir. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir

Azərbaycan Ordusunun əsgəri olan Şahin Tahirli 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Qubadlı və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 7-də Şuşanın Daşaltı kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 23 noyabr 2020-ci ildə Züvüc kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Şahin Afat oğlu Tahirli ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Döyüşdə fərqlənməyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.78.

Məhəmməd Əmənov - 30

(1996-2020)

Gizir



Məhəmməd İltizam oğlu Əmənov 1996-cı il sentyabrın 18-də Biləsuvar rayonunun Bağbanlar kəndində anadan olmuşdur. Şəhid Ənvər Rəhmətov adına Zəhmətabad kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun giziri olan Məhəmməd Əmənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Məhəmməd Əmənov oktyabrın 20-də Ağdərə döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Bağbanlar kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Məhəmməd İltizam oğlu Əmənov ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Suquovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.


Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 9 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 10 dekabr.– S.2.

Səfər Həsənov - 25

(2001-2020)

Əsgər



Səfər Elmar oğlu Həsənov 2001-ci il sentyabrın 18-də Neftçala rayonunun Xıllı kəndində anadan olmuşdur. Buzovna qəsəbəsində yerləşən 26 nömrəli tam orta məktəbində təhsil almış, 9-cu sinfi bitirdikdən sonra iki il müddətində rəssamlıq ixtisası üzrə təhsilini davam etdirmişdir.

2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Səfər Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Tərtər və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Səfər Həsənov oktyabrın 17-də Tərtər döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 21 noyabr 2020-ci ildə Buzovna Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Səfər Elmar oğlu Həsənov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.81-84.

SENTYABR
20

Xaliq Hüseynov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Xaliq Kamil oğlu Hüseynov 2001-ci il sentyabrın 20-də Bakı şəhərinin Nardaran qəsəbəsində anadan olmuşdur. 2008-2017-ci illərdə 295 nömrəli tam orta məktəbdə təhsil almış, 9-cu sinfini bitirdikdən sonra 13 nömrəli Bakı Peşə Məktəbində "çilingər" peşəsi üzrə təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Xaliq Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Talış və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Xaliq Hüseynov oktyabrın 16-da Suqovuşan qəsəbəsi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 17 oktyabr 2020-ci ildə Nardaran qəsəbəsi Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Xaliq Kamil oğlu Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

20

Mürvət Məmmədyarov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.7-9.

Mürvət Güloğlan oğlu Məmmədyarov 1996-cı il sentyabrın 20-də Ağsu rayonunun Gəgəli kəndində anadan olmuşdur. Ağsu rayon, Gəgəli kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Mürvət Məmmədyarov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Talış və Suqovuşan kəndləri istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Mürvət Məmmədyarov oktyabrın 6-da Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Gəgəli kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Mürvət Güloğlan oğlu Məmmədyarov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

SENTYABR

20

Fariz Rəhimov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.18-21.

Fariz Zahir oğlu Rəhimov 2001-ci il sentyabrın 20-də Qəbələ rayonunun Əmirvan kəndində anadan olmuşdur. 2006-cı ildə Əmirvan kənd orta məktəbində təhsilə başlamış, 9-cu sinfi bitirdikdən sonra 2016-2017-ci illərdə Bakı şəhər 12 nömrəli Peşə Liseyində "Geniş profilli dəzgahçı" ixtisası üzrə təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Fariz Rəhimov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Xocavənd, Laçın və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 7-də Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 11 noyabr 2020-ci ildə Əmirvan kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Fariz Zahir oğlu Rəhimov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

21

Çingiz Babayev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.29-34.

Çingiz Sulduz oğlu Babayev 2001-ci il sentyabrın 21-də Lerik rayonunun Mistan kəndində anadan olmuşdur. Lerik rayon, İldırım Nuriyev adına Qosmalian kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Çingiz Babayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Çingiz Babayev oktyabrın 11-də Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Lerik rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Çingiz Sulduz oğlu Babayev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına" görə medalları ilə təltif olunmuşdur.

22 SENTYABR

İsmayıl Mustafayev - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 19 dekabr.– S.6-12.

İsmayıl Elmar oğlu Mustafayev 1996-cı il sentyabrın 22-də Gəncə şəhərində anadan olmuşdur. 2003-2012-ci illərdə Gəncə şəhər 43 saylı tam orta məktəbində təhsil almışdır. 2012-2015-ci illərdə 2 nömrəli Peşə liseyində təhsilini davam etdirmişdir. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İsmayıl Mustafayev 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Cəbrayıl və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. İsmayıl Mustafayev noyabrın 8-də Şuşa döyüşləri zamanı Xankəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 17 noyabr 2020-ci ildə Gəncə Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən İsmayıl Elmar oğlu Mustafayev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

22

Ceyhun Xəlilov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Ceyhun Azər oğlu Xəlilov 2001-ci il sentyabr ayının 22-də Ağsu rayonunun Padarqışlaq kəndində anadan olmuşdur. Ağsu rayon, Padarqışlaq kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Ceyhun Xəlilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Tərtər istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 28-də Talış-Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 29 sentyabr 2020-ci ildə Padarqışlaq kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ceyhun Azər oğlu Xəlilov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ceyhun Azər oğlu Xəlilovun xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaşadığı kənddə adına bulaq inşa olunmuşdur.

Rüstəm Hacıyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 30 dekabr.– S.24-28.

Rüstəm Firqani oğlu Hacıyev 2001-ci il sentyabrın 22-də Tərtər rayonunun Yuxarı Qapanlı kəndində anadan olmuşdur. Tərtər rayon, Yuxarı Qapanlı kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Ceyhun Hacıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Rüstəm Hacıyev oktyabrın 29-da Kəlbəcər döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Tərtər rayonunun Yuxarı Qapanlı kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Rüstəm Firqani oğlu Hacıyev ölümündən sonra "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Süleyman Allahverdiyev - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 29 dekabr.– S.5-14

Süleyman Etibar oğlu Allahverdiyev 1996-cı il sentyabrın 22-də Bərdə rayonunda anadan olmuşdur. 2002-2014-cü illərdə Bərdə rayonunda yerləşən Ağdam 67 saylı köçkün məktəbində təhsil almışdır. 2016-cı ilin 2-5 aprelində baş verən Aprel döyüşlərinin iştirakçısı olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Süleyman Allahverdiyev 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Süleyman Allahverdiyev oktyabrın 8-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 26 noyabr 2020-ci ildə Ağdam şəhər, Quzanlı Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Süleyman Etibar oğlu Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Ağamalı Ağayev - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.11-16.

Ağamalı Şamil oğlu Ağayev 1996-cı il sentyabrın 23-də Masallı rayonunun Çaxırlı kəndində anadan olmuşdur. 2001-2012-ci illərdə Çaxırlı kənd tam orta məktəbində təhsil almışdır. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir..

Azərbaycan Ordusunun əsgəri olan Ağamalı Ağayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Ağamalı Ağayev oktyabrın 20-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 21 oktyabr 2020-ci ildə Masallı rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ağamalı Şamil oğlu Ağayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Aslan Əliyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.45-57.

Aslan Elman oğlu Əliyev 2001-ci il sentyabrın 23-də Göyçay rayonunun Hacıalılı kəndində anadan olmuşdur. Göyçay rayon, Hümbət İsmayılov adına Qarabaqqal kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Aslan Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Xocavənd istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Aslan Əliyev noyabrın 7-də Xocavənd döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Qarabaqqal kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Aslan Elman oğlu Əliyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

SENTYABR
25

Ceyhun İsmayılov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 19 dekabr.– S.5.

Ceyhun İqbal oğlu İsmayılov 1996-cı il sentyabrın 25-də Tovuz rayonunda anadan olmuşdur. 2003-2006-cı illərdə Tovuz şəhərində N.Tusi adına məktəbdə, 2006-2014-cü illərdə Gəncə şəhərində 28 saylı orta məktəbdə təhsil almışdır. 2014-2019-cu illərdə Kiyev şəhərində yerləşən Avropa Universitetinin Hüquq fakültəsini bitirmişdir. Ali təhsilini tamamladıqdan sonra 2019-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur..

Azərbaycan Ordusunun əsgəri olan Ceyhun İsmayılov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 29-da Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 30 oktyabr 2020-ci ildə Tovuz şəhərində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ceyhun İqbal oğlu İsmayılov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif olunmuşdur.

Xatirəsinin əbədiləşdirilməsi məqsədilə Tovuz rayonunda Ceyhun İqbal oğlu İsmayılovun adına bulaq kompleksi inşa olunmuşdur.

25

Murad Məmmədov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12

Murad Elşən oğlu Məmmədov 1996-cı il sentyabr ayının 25-də Bakı şəhərində anadan olmuşdur. 2002-2013-cü illərdə 272 nömrəli tam orta məktəbində təhsil almışdır. 2013-2017-ci illərdə Türkiyənin Kayseri şəhərində "Erciyes Üniversitesi" ndə "Rus dili və ədəbiyyat" üzrə ali təhsil almış, təhsildə fərqləndiyi üçün bir il müddətinə Bolqarıstanın Sofiya şəhərində təhsilini davam etdirmişdir. Murad Məmmədov 2020-ci ilin iyul ayında baş vermiş Tovuz döyüşlərindən sonra SHXÇDX-yə müraciət etmiş və 20 sentyabr 2020-ci ildə təlimlərə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Murad Məmmədov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli və Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 15-də Hadrut döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Keşlə Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Murad Elşən oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

SENTYABR

25

Elsevər Yariyev - 40

(1986-2020) *MAHHXHQ çavuş*



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 29 dekabr.– S.5-14.

Elsevər Qalib oğlu Yarıyev 1986-cı il sentyabrın 25-də Xudat şəhərində anadan olmuşdur. 1993-2004-cü illərdə K.Məhərrəmov adına 3 nömrəli tam orta məktəbində təhsil almışdır. 2004-2009-cu illərdə Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində fəaliyyət göstərən Azərbaycan Dənizçilik Kollecində təhsilini davam etdirmişdir.

Azərbaycan Ordusunun çavuşu olan Elsevər Yariyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elsevər Yariyev sentyabrın 30-da Füzuli rayonu Alxanlı kəndi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 30 oktyabr 2020-ci ildə Xudat şəhərində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elsevər Qalib oğlu Yariyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

26

Pərvin Babayev - 25

(2001-2020) *Əsgər*



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.81-84.

Pərvin Hüseyn oğlu Babayev 2001-ci il sentyabrın 26-da Rusiya Federasiyasının Saratov şəhərində anadan olmuşdur. 2008-2019-cu illərdə Sumqayıt şəhərində 6 nömrəli tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Pərvin Babayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Pərvin Babayev oktyabrın 6-da Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 7 oktyabr 2020-ci ildə Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Pərvin Hüseyn oğlu Babayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

SENTYABR
27

Nurlan Dadaşov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.61-65

Nurlan Səyyad oğlu Dadaşov 2001-ci il sentyabrın 27-də Kürdəmir rayonunun Qarasaqqal kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Qarasaqqal kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Nurlan Dadaşov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Murovdağ, Füzuli, Xocavənd və Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Nurlan Dadaşov oktyabrın 2-də Cəbrayıl döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 4 oktyabr 2020-ci ildə Qarasaqqal kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Nurlan Səyyad oğlu Dadaşov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

SENTYABR
27

Nurlan Qurbanlı - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəsur döyüşçü" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 18 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 19 dekabr.– S.6-12.

Nurlan Süleyman oğlu Qurbanlı 2001-ci il sentyabrın 27-də Xırdalan şəhərində anadan olmuşdur. 2007-2018-ci illərdə Abşeron rayonu Nübar qəsəbəsində yerləşən Xanlıq kənd 3 saylı tam orta məktəbdə təhsil almış, daha sonra təhsilini Bakı Dövlət Peşə Təhsil Mərkəzinin Dəniz Nəqliyyatı, Gəmiqayırma və Liman İşləri ixtisası üzrə davam etdirmişdir. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Nurlan Qurbanlı 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 5-də Cəbrayıl döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 6 oktyabr 2020-ci ildə Şamaxı şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Nurlan Süleyman oğlu Qurbanlı ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

SENTYABR

28

Zöhrab Allahverdiyev - 25

(2001-2020)

Əsgər



Zöhrab Sübhan oğlu Allahverdiyev 2001-ci il sentyabrın 28-də Şamaxı şəhərində anadan olmuşdur. 2007-2018-ci illərdə M.K.Veysov adına 6 saylı Şamaxı şəhər tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Zöhrab Allahverdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Zöhrab Allahverdiyev oktyabrın 10-da Suqovuşan döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Şamaxı Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Zöhrab Sübhan oğlu Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

28

Alim Məhəmmədov - 25

(2001-2020)

Əsgər



Alim Qəmərşo oğlu Məhəmmədov 2001-ci il sentyabr ayının 28-də Zaqatala rayonunun Fındıqlı kəndində anadan olmuşdur. 2007-2016-cı illərdə Fındıqlı kənd ümumi orta məktəbində, 2016-2018-ci illərdə İ.Qayıbov adına Qazangül qəsəbə tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Alim Məhəmmədov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli, Cəbrayıl və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 27-də Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 28 oktyabr tarixində Zaqatala rayonunun Fındıqlı kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Alim Qəmərşo oğlu Məhəmmədov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

SENTYABR
29

Kamran Tağıyev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.66-67.

Kamran Fikrət oğlu Tağıyev 2001-ci il sentyabrın 29-da Maştağa qəsəbəsində anadan olmuşdur. 2008-2017-ci illərdə Maştağa qəsəbəsi C.Nurməmmədov adına 108 saylı tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Kamran Tağıyev 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Tərtər rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Kamran Tağıyev oktyabrın 31-də Tərtər rayonunun Talış kəndi döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. Maştağa Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Kamran Fikrət oğlu Tağıyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

29

Hikmət Bağırlı - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 29 dekabr.– S.5-14.

Hikmət Qəhrəman oğlu Bağırlı 2001-ci il sentyabr ayının 29-da Biləsuvar rayonunun Bəydili kəndində anadan olmuşdur. Biləsuvar rayon, şəhid Rüfət Mikayılov adına Bəydili kənd tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Hikmət Bağırlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Hikmət Bağırlı sentyabrın 29-da Füzuli döyüşlərində qəhrəmancasına şəhid olmuşdur. 30 sentyabr 2020-ci ildə Bəydili kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Hikmət Qəhrəman oğlu Bağırlı ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Həsən Quliyev - 30

(1996-2020) *Leytenant*



Həsən İbrahim oğlu Quliyev 1996-cı il sentyabrın 30-da Şərur rayonunun Qarahəsənli kəndində anadan olmuşdur. İlk təhsilini Qarahəsənli kənd tam orta məktəbində almışdır

2012-2015-ci illərdə Heydər Əliyev adına Hərbi Liseydə təhsilini davam etdirmişdir. 2015-2019-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil almış və motoatıcı ixtisasına yiyələnmişdir.

Azərbaycan Ordusunun leytenantı olan Həsən Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Həsən Quliyev sentyabrın 29-da Goranboy rayonu Gülüstan kəndi ərazisində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 30 sentyabr 2020-ci ildə Şərur rayonunun Qarahəsənli kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Həsən İbrahim oğlu Quliyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə". "İgidliyə görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.66-67.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/2426

https://unudulmazlar.az/az/infom/1314

https://neco.gov.az/metbuat/sehidler/quliyev-hesen-ibrahim-oglu

Samir Şərifov – 65

(1961)

Siyasi xadim



Samir Rauf oğlu Şərifov 1961-ci il sentyabrın 7-də Bakı şəhərində anadan olmuşdur. 1983-cü ildə Ukraynanın Kiyev Dövlət Universitetində Beynəlxalq əlaqələr və beynəlxalq hüquq fakültəsinin Beynəlxalq iqtisadi əlaqələr bölməsini bitirmiş və magistr dərəcəsi almışdır. 1983-1987-ci illərdə SSRİ-nin xarici iqtisadi əlaqələr sistemində - "Soyuzvneştrans" Ümumitlifaq Birliyi Bakı Kontorunun Tranzit əməliyyatları şöbəsində inspektor, böyük inspektor, 1987-1990-cı illərdə Yəmən Xalq Demokratik Respublikasında "Zaqranenerqostroymontaj" Ümumittifaq İstehsalat Birliyinin mühəndisi işləmiş, 1991-ci ildə "İnsan" Dövlət Kommersiya Aksioner Cəmiyyətində Direktorlar Şurası sədrinin müavini olmuşdur.

1991-ci ildən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sistemində işləmiş, 1992-ci ilədək nazirliyin Beynəlxalq iqtisadi əlaqələr şöbəsində ikinci katib, 1992-1993-cü illərdə birinci katib, 1993-1994-cü illərdə Beynəlxalq İqtisadi Əlaqələr İdarəsinin Beynəlxalq iqtisadi təşkilatlar və birliklərlə əməkdaşlıq şöbəsinin müdiri, 1994-1995-ci illərdə isə sözügedən idarədə rəis müavini olmuşdur. 1995-2001-ci illərdə Azərbaycan Respublikasının Milli Bankında Valyuta tənzimlənməsi və nəzarəti departamentinin direktoru və baş direktoru vəzifələrində çalışmışdır.

Samir Şərifov Azərbaycan Respublikasının Prezidentinin 3 yanvar 2001-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru təyin edilmiş, eyni zamanda 2003-2006-cı illərdə Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü üzrə Hökumət Komissiyasının sədri kimi fəaliyyət göstərmişdir. 18 aprel 2006-cı ildən Azərbaycan Respublikasının maliyyə naziri vəzifəsində çalışmış, paralel olaraq Qara Dəniz Ticarət və İnkişaf Bankında Azərbaycan Respublikası üzrə təmsilçi direktor kimi fəaliyyət göstərmişdir. 10 yanvar 2025-ci ildə Azərbaycan Respublikası Baş nazirinin müavini təyin olunmuşdur.

23 Yanvar 2025-ci ildə Baş nazir Əli Əsədovun qərarı ilə Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarınınyayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının sədri vəzifəsində Əli Əhmədovu əvəz etmişdir.

29 yanvar 2025-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə III MDB Oyunlarının Azərbaycanda keçirilməsi üzrə Təşkilat Komitəsinin sədri təyin olunmuşdur. 7 fevral 2025-ci ildə Prezident İlham Əliyevin müvafiq fərmanları ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının və Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın sədri təyin edilmişdir. Digər fərman ilə o, BMT-nin iqlim dəyişmələri üzrə çərçivə konvensiyasına uyğun Azərbaycan Respublikasının qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsi üçün yaradılan Dövlət Komissiyasının sədri vəzifəsində Əli Əhmədovu əvəzləmişdir.

13 fevral 2025-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Samir Şərifov Azərbaycan ilə Belarus arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın, Azərbaycan və Tacikistan arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə hökumətlərarası komissiyanın, Azərbaycan ilə Qırğız arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın və Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın sədri olmuşdur.

Azərbaycan Respublikasının Prezidentinin 6 avqust 2021-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında maliyyə sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının ilk iclası // Azərbaycan.– 2021.– 18 mart.– S.6.

Maliyyə Nazirliyində fransalı sahibkarlarla görüş keçirilib // Azərbaycan.– 2022.– 8 aprel.– S.3.

Cənubi Koreya şirkətləri Qarabağda həyata keçirilən layihələrdə iştirak etməkdə maraqlıdır // Azərbaycan.– 2023.– 14 aprel.– S.8.

Nazir Samir Şərifov iqlim maliyyəsi üzrə hədəfin qəbul olunması üçün G20 maliyyə nazirlərinə çağırış edib // Azərbaycan.– 2024.– 26 iyul (№ 156).– S.2.

Baş nazirin müavini Samir Şərifov İspaniyanın ticarət üzrə dövlət katibi ilə görüşüb // Azərbaycan.– 2025.– 12 mart (№ 54).– S.6.

Dohada BMT-nin İkinci ünya Sosial Sammiti keçirilir//Azərbaycan.-2025.- 5 noyabr (№236).- S.2.

Baş nazirin müavini Samir Şərifov ICAPP-ın nümayəndə heyəti ilə görüşüb //Azərbaycan. - 2025. -17 oktyabr (№ 223).- S.5.

İnternetdə:

https://president.az/az/articles/view/67890

https://az.wikipedia.org/wiki/Samir_Şərifov

Xanlar Hacıyev – 70

(1956)

Hüquqşünas



Xanlar İrşad-Faiq oğlu Hacıyev 1956-cı il sentyabrın 9-da Gəncə şəhərində anadan olmuşdur. 1978-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) hüquq fakültəsini bitirmişdir.

1978-1980-ci illərdə SSRİ Elmlər Akademiyasının Dövlət və Hüquq İnstitutunda təcrübə keçmişdir.

1980-ci ildən M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin hüquq fakültəsinin aspiranturasında təhsil almışdır.

1983-cı ildə dissertasiya müdafiə edərək hüquq elmləri namizədi alimlik dərəcəsi almışdır. 1983-1985-ci illərdə RSFSR Ali Məhkəməsində məsləhətçi, 1985-1988-ci illərdə "Sovet ədliyyəsi" jurnalında cinayət hüququ və cinayət prosesi şöbəsinin redaktoru vəzifələrində çalışmışdır.

1988-1990-cı illərdə SSRİ Ali Məhkəməsində baş məsləhətçi olmuşdur.

1990-1992-ci illərdə Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi, 1992-1993-cü illərdə Ali Məhkəmənin sədrinin birinci müavini vəzifələrində çalışmışdır.

1993-cü ilin noyabr ayından 1998-ci ilin iyul ayına qədər Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədri olmuşdur.

1998-ci ilin iyul ayının 14-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi, Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri vəzifəsinə təyin olunmuşdur.

2002-ci ildə hüquq elmləri doktoru alimlik dərəcəsini almışdır.

2003-cü ilin aprel ayının 2-dən etibarən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi vəzifəsinə təyin olunmuşdur

Xanlar Hacıyev Avropa Şurasının Venesiya Komissiyasının, Azərbaycan Respublikasının Dövlət İdarəetmə Sistemində İslahatlar Aparılması üzrə Dövlət Komissiyasının, Azərbaycan Respublikası Prezidenti yanında Hüquq İslahatları Komissiyasının və Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının üzvü olmuşdur.

2003-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Beynəlxalq humanitar hüquqda məsuliyyət məsəllələri / V.Ə.İbayev; red. X.Hacıyev, rəy.: S.Qayıbov, R.Məmmədov.– Bakı: Elm, 2000.– 166 s.

İnsan hüquq və azadlıqlarının müdafiəsinə həsr olunmuş qərarların toplusu (Azərbaycan, ingilis və rus dillərində) / red. X.Hacıyev; Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi.– Bakı: Səda, 2001.– 204 s.

İnsan hüquq və azadlıqlarının müdafiəsi dövlətin ali məqsədidir / X. Hacıyev // Respublika.– 2002.– 20 avqust.– S.7.

Avrasiya Hüquqşünaslar Assosiasiyası mükafatlarını təqdim etmişdir // Azərbaycan.– 2007.– 8 fevral.– S.3.

"İnsan öz hüquqlarını ölkəsində müdafiə və bərpa edə bilməlidir" / X.Hacıyev // Palitra.– 2008.– 18 aprel.– S.5.

Xanlar Hacıyev: Hakimdə sağlam düşüncə və ədalət olmalıdır / X.Hacıyev // İki sahil.– 2012.– 14 avqust.– S.10.

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə / X.Hacıyev // Azərbaycan.– 2013.– 9 noyabr.– S.2.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Xanlar_Hacıyev_(hüquqşünas)

https://e-qanun.az/framework/3099

Ülvi Quliyev – 60

(1966)

Siyasi xadim



Ülvi Zahid oğlu Quliyev 1966-cı il sentyabrın 17-də Bakı şəhərində anadan olmuşdur. 1983-cü ildə Bakı şəhəri, Nəsimi rayonu 9 saylı orta məktəbi bitirmişdir. 1983-1988-ci illərdə Azərbaycan Dövlət Tibb Universitetinun əczaçılıq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1998-2002-ci illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.

1988-ci ildən aptekdə provizor, baş provizor, aptek müdiri işləmişdir.

1992-1997-ci illərdə Azərbaycan Respublikası Karate-do Federasiyasının Prezidenti, 1997-ci ildən Azərbaycan Karate Federasiyasının prezidentidir.

2002-ci ildən Dövlət Gömrük Komitəsinin şöbə rəisi, 2005-ci ildə "Gömrükçü" İdman Sağlamlıq Mərkəzi baş direktorunun müavini (Gömrük Xidməti, Polkovnik-Leytenantı) vəzifələrində çalışmışdır.

2005-ci ildə 21 saylı Nəsimi birinci seçki dairəsindən III çağırış Milli Məclisin deputatı seçilmiş, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü kimi fəaliyyət göstərmişdir. 2010-cu ildə 17 saylı Yasamal üçüncü seçki dairəsindən IV çağırış, 2015-ci ildə isə 15 saylı Yasamal birinci seçki dairəsindən V çağırış Milli Məclisin deputatı seçilmiş və Gənclər və idman komitəsinin sədr müavini vəzifəsində çalışmışdır. 2018-ci ildə həmin komitənin sədri seçilmişdir. 2020-ci ildə 15 saylı Yasamal birinci seçki dairəsindən VI çağırış Milli Məclisin deputatı seçilmiş, Gənclər və idman komitəsi ilə yanaşı Səhiyyə komitəsinin də üzvü olmuşdur.

Azərbaycan Respublikası Milli Məclisinin və Rusiya Federasiyası Federal Məclisinin ikitərəfli əməkdaşlığı üzrə parlamentlərarası komissiyasının üzvü, Almaniya Federativ Respublikası, Belçika, Böyük Britaniya, Çexiya, Koreya, Rusiya və Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Karate idman növü üzrə VIII dan qara kəmər sahibidir; karate üzrə Avropa və dünya çempionudur. Azərbaycan Respublikasının "Əməkdar İdman ustası", "Əməkdar Məşqçi", eləcə də Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 mart tarixli Sərəncamı ilə "Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi" fəxri adlarına layiq görülmüşdür.

Ədəbiyyat:

Çələbi, T. Ustad karate: oçerklər kitabı /Teyfur Çələbi; red. İ. Xəlilov, İ.Qurbanoğlu; məsləhətçi Ə. Hüseynovı.- Bakı: Səda, 2001.- 140 s

Müsəlman şərqində ilk demokratik dövlət / Ü. Quliyev // Xalq qəzeti.– 2010.– 27 may.– S. 7.

Ülvi Quliyev: "Azərbaycan dünyada nüfuzlu idman ölkəsi kimi tanınıb" / Ü.Quliyev // 525-ci qəzet.– 2011.– 13 dekabr.– S. 5.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu idman siyasəti ölkəmizi dünya idmanının və Olimpiya hərəkatının ən fəal üzvlərindən birinə çevirib / Ü.Quliyev // Yeni Azərbaycan.– 2012.– 28 avqust.– S. 6.

Ülvi Quliyev:"Qara qüvvələr arzularına çata bilməyəcəklər" / Ü.Quliyev // 525-ci qəzet.– 2015.– 13 mart.– S .5.

Ermənistan regionda yaranmış reallıqla barışmasa, bu ölkədə ümumi böhran daha da dərinləşəçək / T.Aydınoğlu // Xalq qəzeti.– 2021.– 15 sentyabr.– S.9.

Azərbaycanın qələbə düsturu –Xalq–Ordu–Lider birliyi / Ü.Quliyev // Xalq qəzeti.– 2022.– 20 sentyabr.– S.3.

İnternetdə:

https://meclis.gov.az/news-dep.php?id=663&lang=az

Möhsün Nağısoylu – 80

(1946)

Akademik



Ədəbiyyat:

Azərbaycan ədəbi dilinin zənginləşmə mənbələri və inkişafı: [monoqrafiya] /M. Nağısoylu, S. Sadıqova ; elmi red. B. Ə. Xəlilov ; Bakı: Elm, 2020.- 414 s.

Müasir dilimizin tələbləri və qayğıları / M.Z.Nağısoylu; müsahibəni apardı: S.Kərimov // Elm.– 2020.– 30 yanvar.– S.8.

Möhsün Nağısoylu-75 / M.Nağısoylu, S.Sadıqova // Türkologiya: Beynəlxalq Elmi jurnal.– 2021.– №2.– S.172-173.

"Həyat" və "İrşad" qəzetlərinin səhifələrində Şuşa hadisələri" / M.Z.Nağısoylu // 525-ci qəzet.– 2022.– 18 may.– S.18;19.

Görkəmli ədəbiyyatşünas alim, bacarıqlı elm təşkilatçısı / M.Nağısoylu // 525-ci qəzet.– 2023.– 3 oktyabr.– S.13.

Riyazül - Qüds / A. A. Bakıxanov; elmi red. Z. Əbilova; ön söz. müəl. M. Nağısoylu; nəşrə hazırl. A. Ramazanov; AMEA, M. Füzuli ad. Əlyazmalar İn-tu.– Bakı: Elm və təhsil, 2024.– 380, [4] s.,

İnternetdə:

https://science.gov.az/az/forms/deystvitelnyie-chlenyi/3060

https://science.gov.az/az/news/open/4589

Möhsün Zellabdin oğlu Nağısoylu (Nağıyev) 1946-cı il sentyabr ayının 1-də Şərur rayonunun Xok kəndində anadan olmuşdur. 1963-1971-ci illərdə indiki BDU-nun şərqşünaslıq fakültəsinin İran filologiyası şöbəsində təhsil almışdır. 1972-ci ildən M.Füzuli adına Əlyazmalar İnstitutunda işləmiş, 1976-1980-ci illərdə kiçik elmi işçi, 1981-1988-ci illərdə böyük elmi işçi vəzifələrində çalışmışdır. 1988-ci ildən Farsdilli əlyazmaların tədqiqi şöbəsinin müdiri olmuş, əsasən farsdilli və türkdilli əlyazmaların tədqiqi sahəsində çalışmışdır. Hazırladığı elmi təsvirlər farsdilli əlyazmalar kataloqunun 1, 2 və 3-cü cildlərinə daxil edilmişdir. Farsdilli əlyazmalar kataloqunun 2-ci və 3-cü cildlərinin elmi redaktorudur.

1979-cu ildə "XVI əsr Azərbaycan tərcümə əsəri "Şühədanamə" (poleoqrafiya, orfoqrafiya və tərcümə məsələləri)" mövzusunda namizədlik, 1994-cü ildə "XV-XVI əsrlər Azərbaycan tərcümə abidələri (tekstoloji tədqiqi və dil xüsusiyyətləri)" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir. 28 kitab və monoqrafiyanın müəllifi, tərtibçisi və tərcüməçisidir. Onun "Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti" (Bakı, 2000), "M.Füzulinin "Hədiqətüs-süəda" əsəri" (Bakı, 2002), "XVI əsr Azərbaycan tərcümə abidəsi "Şühədanamə" (Bakı, 2003), "Şirazinin "Gülşəni-raz" tərcüməsi" (Bakı, 2004), "Əhmədinin "Əsrarnamə" tərcüməsi" (Bakı, 2005), "Həzininin "Hədisi-ərbəin" tərcüməsi" (Bakı, 2008) kitabları milli Azərbaycan humanitar elminin inkşafında mühüm rol oynamış, elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir.

Elmi araşdırmaları əsasən orta yüzilliklərdə fars dilindən Azərbaycan türkcəsinə edilmiş tərcümə əlyazmalarının mətnşünaslıq və dilçilik baxımından tədqiqinə həsr olunmuşdur. M.Z.Nağısoylu Azərbaycan tərcümə tarixi problemlərinə və yazılı abidələrə dair 200-dən çox elmi və elmi-kütləvi məqalənin müəllifidir. Bir sıra Beynəlxalq elmi konfranslarda elmi məruzələrlə çıxış etmişdir. Məqalələri Tehran, Kabil, Sankt-Peterburq, İrəvan, Qazan, Ankara, Konya şəhərlərində nəşr olunan elmi toplularda çapdan çıxmışdır. Tərtibçisi olduğu "Nizami. İncilər" kitabı Türkiyədə, "Farsca əlyazmalar kataloqu" kitabı isə İranda nəşr olunmuşdur.

Abuturiyentlər üçün "Azərbaycan dili" (1999), "Ədəbiyyat" (2000), "Azərbaycan dili və ədəbiyyat" (2003) dərs vəsaitlərinin də müəllifi, M.Füzulinin "Hədiqətüs-süəda" (1993), M.Nəsirinin "Lisanüt-teyr" (2000), "Şeyx Səfi təzkirəsi" (2006) əsərlərini tərtib və çap edənlərdən biridir. Rəhbərlik etdiyi 4 dissertant namizədlik dissertasiyalarını müdafiə etmişdir. Fars dilindən tərcümə etdiyi S.Bəlağı, "Quran qissələri"; Ə.Bəxşayişi, "Sidiqiye-Tahirə"; Şeyx Mahmud Şəbüstəri, "Gülşəni-raz" kitabları nəşr olunmuşdur. AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdindəki ixtisaslaşdırılmış müdafiə şurasının, Əlyazmalar İnstitutu nəzdində yaradılan birdəfəlik müdafiə şurasının üzvü olmuşdur.

1996-2002-ci illərdə Qafqaz Universitetində Azərbaycan dili və Türk İslam ədəbiyyatı tarixi fənlərini tədris etmişdir. 2005-ci ildən Sumqayıt Dövlət Universitetinin xarici ölkələr ədəbiyyatı kafedrasının professorudur. 1967-1970, 1972-1975 və 1982-1986-cı illərdə Əfqanıstanda fars dili tərcüməçisi işləmişdir. 2014-cü ildə AMEA-nın müxbir üzvü, 2017-ci ildə həqiqi üzvü seçilmişdir.

2015-2021-ci illərdə Möhsün Nağısoylu Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Dilçilik İnstitutunun direktoru vəzifəsində çalışmışdır. 2021-ci ildən AMEA Prezidentinin humanitar sahə üzrə müşaviri vəzifəsinə təyin edilmişdir.

Lalə Cəfərova – 60

(1966)

Sənətşünas



Ədəbiyyat:

Rüstəm və Zöhrab: balet süitası / L. Cəfərova.– [Bakı]: [n. y.], [2010?].– 138 s.

Ata mahnısı / L. Cəfərova.– [Bakı]: [n. y.], [2011?].– 5 s.

"Nəsimiyə ithaf" əsərində tembr və faktura xüsusiyyətlər: Və ya sintez içində sintezlə rastlaşmaq / L.Cəfərova // Kaspi.– 2019.– 3 aprel.– S.15.

Seçilmiş əsərləri / R. Muxtar (red.); [dizayner K. Fərhadova, M. Seyidov].– Cild 3.– Bakı: [AFPoliqrAF], 2020.– 253, [3] s.

Simfonik orkestrdə faktura özəllikləri /Lalə Cəfərova //Mədəniyyət dünyası: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti .-2023.- S.77-79

Nəfəs alətləri üçün müntəxəbat: (musiqi məktəbi, kollec və ali məktəblər üçün) /Lalə Cəfərova (tərt. ed.) ; red. Y. Axundzadə ; Azərb. Resp. Elm və Təhsil Nazirliyi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akad.- Bakı: [Unicopy], 2025.- 162 s.

İnternetdə:

https://musicacademy.edu.az/az/nefes-zerb-muallimler/306-cafarova-lala.html

Lalə Tahir qızı Cəfərova 1966-cı il sentyabrın 14-də Bakı şəhərində anadan olmuşdur. İlk musiqi təhsilini Bakı şəhəri, Rauf Hacıyev adına 15 saylı uşaq musiqi məktəbində Alla Timofeyevna Mustafayevanın fortepiano sinfində almış, orta musiqi təhsilini 1982-1986-cı illərdə Bakı Musiqi Kollecində Həbib Həbibovun fortepiano sinfində bitirmişdir. 1986-1988-ci illərdə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının fortepiano fakültəsində Validə Muradovanın, 1988-1991-ci illərdə professor Oqtay Abasquliyevin sinfində təhsil almış və fortepiano ixtisasını fərqlənmə diplomu ilə başa vurmuşdur. 1993-cü ildə professor Arif Məlikovun bəstəkarlıq sinfinin 2-ci kursuna qəbul olunmuş, 1997-ci ildə diplom işi kimi fortepiano və simfonik orkestr üçün konsertini təqdim edərək bəstəkarlıq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

1992-ci ildən Bakı Musiqi Akademiyasında pedaqoji fəaliyyət göstərmiş, ilk müəllif konsertini 31 mart 1994-cü ildə Asəf Zeynallı adına Bakı Musiqi Kollecində təqdim etmişdir. 1997-ci ildə dörd hissəli simli kvarteti, 2000-ci ildə fortepiano və simfonik orkestr üçün konsert №2 əsəri Bəstəkarlar İttifaqının plenumunda Xalq artisti Rauf Abdullayevin dirijorluğu ilə ifa olunmuşdur. Konsert Lalə Cəfərova tərəfindən atasının xatirəsinə ithaf edilmişdir. 2002-ci ildə Azərbaycan Gənclər, İdman və Turizm Nazirliyi və Azərbaycan Bəstəkarlar İttifaqının birgə təşkil etdiyi konsertdə "Tar və fortepiano üçün rəqslər" ilə çıxış etmişdir.

Bəstəkarın əsərləri arasında fortepiano üçün 12 prelüd, 4 hissəli simli kvartet, "Vətənimin övladları" mahnısı, tar və fortepiano üçün rəqslər, "Bu gecə" romansı (səs və simfonik orkestr üçün), skripka və fortepiano üçün prelüdlər, "Adagio" (Violino və fortepiano üçün, "Rüstəm və Söhrab" baletindən işləmə), klarnet və fortepiano üçün prelüd №1 və №2, "Sonata" (klarnet və fortepiano üçün, Fikrət Məmmədova həsr olunmuşdur), "Azərbaycan" (tar və fortepiano üçün), "Zəfər marşı" (səs və nəfəs alətləri orkestri üçün, İlham Əliyevə həsr olunmuşdur) və digər əsərlər yer alır.

Lalə Cəfərova 9 dərs vəsaitinin, metodik tövsiyələrin və proqramların müəllifidir. Bunlara "Bakalavr pilləsi üçün Nəfəs alətləri orkestrinin Partitura qiraəti", "Arif Məlikovun balet musiqisində tembr və faktura xüsusiyyətləri", "Orkestrləşdirmə", "Alətşünaslıq", "Fortepiano və simfonik orkestr üçün konsert №2", "Fortepiano prelüdləri və sonatasının ifaçılıq problemlərinə dair", "Kamera instrumental əsərləri və onların ifa xüsusiyyətləri", "2 saylı fortepiano konsertinin faktura xüsusiyyətlərinə dair", "Vokal Silsiləsinin yazı üslubu", "İfaçılıq sənətinin tarixi" və "Fortepiano ansamblının ifaçılıq problemlərinə dair" daxildir.

30 yanvar 2022-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Lalə Cəfərovanın "Bir Xəzər Əfsanəsi" baletinin premyerası keçirilmişdir. 16 mart 2023-cü ildə isə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında bəstəkarın konserti təqdim edilmişdir.

2007-ci il 14 noyabrda "A.Məlikovun balet musiqisində tembr və faktura xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş, Azərbaycan Respublikası yanında Ali Attestasiya Komissiyasının 2008-ci il tarixli qərarı ilə sənətşünaslıq namizədi diplomu almışdır. 2012-ci ildə isə nəfəs və zərb alətləri kafedrası üzrə dosent elmi adını qazanmışdır. 1999-cu ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür.

2001-2023-cü illərdə müxtəlif müsabiqələrdə mükafat və diplomlarla təltif olunmuşdur. Əsərləri arasında "Gənclər mükafatı", "Sərhədçi" marşı, "İşıqçılar", "Bakı-Tbilisi-Ceyhan", "Bülbüllər oxur" və digər mahnılar yer alır. 6 may 2019-cu ildə I Beynəlxalq Caz Festivalında diplom, 17 sentyabr 2021-ci ildə "Əməkdar müəllim" fəxri adı, 21 mart 2023-cü ildə Türkiyənin İğdır Universitetində təşkil etdiyi "Həmrəyli Konserti" üçün təşəkkür sertifikatı almışdır.

Əsgər Zeynalov – 75

(1951)

Alim



Əsgər Məmməd oğlu Zeynalov 1951-ci il sentyabrın 27-də İrəvan yaxınlığındakı Zəngibasar rayonunun Yuxarı Necili kəndində anadan olmuşdur. Zəngibasarın Uluxanlı kənd orta məktəbini bitirdikdən 1 il sonra APXDİ-nin Fransız dili fakültəsində təhsil almış və 1974-cü ildə məzun olmuşdur. Daha sonra Qarabağın Ağdərə rayonunda Manikli və Xatınbəyli kəndlərində fransız dili müəllimi kimi fəaliyyət göstərmiş, sonrakı illərdə isə Yuxarı Necili və Dəmirçi kənd orta məktəblərində pedaqoji işini davam etdirmişdir.

1998-2012-ci illərdə ADU-nun Praktik Fransız dili kafedrasının müdiri, 2004-2017-ci illərdə ADU-nun Tələbə Elmi Cəmiyyətinin sədri, 2006-2017-ci illərdə ADU-nun Doktorluq Şurasının ilk üzvlərindən biri olmuşdur. 2017-2018-ci illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ekspert Şurasının üzvü, 2017-ci ildən isə ADU-nun Qafqazşünaslıq kafedrasının müdiri vəzifəsində çalışmışdır. 2020-ci ildən ADU-nun Fransız dili və Mədəniyyəti Mərkəzinin müdiri və Təhsil-2 fakultəsi nəzdində Xarici Dillər kafedrasının professorudur.

Əsgər Zeynalov namizədlik dissertasiyasını Azərbaycan ədəbiyyatı üzrə, doktorluq dissertasiyasını isə fransız ədəbiyyatı üzrə müdafiə etmişdir. 1991-ci ildə "Azərbaycan bayatıları Qafqaz regionunda" mövzusunda namizədlik dissertasiyasını (elmi rəhbərləri professor M.Ə. Seyidov və professor T.Ə.Əhmədov) müdafiə etmiş, 2003-cü ildə isə "Fransız ədəbiyyatında Şərq mövzuları (Volterin yaradıcılığı üzrə)" mövzusunda doktorluq dissertasiyasını təqdim etmişdir. 2005-ci ildən professor elmi adı verilmişdir.

O, Azərbaycan ədəbiyyatşünaslığında Volter və Hüqo haqqında ilk monoqrafiyaların müəllifi olmaqla, 40-dan çox kitab və 400-dən artıq elmi-publisistik məqalənin müəllifidir. Əsərləri ABŞ, Rusiya, Fransa, Almaniya, İngiltərə, Kanada, Hindistan, İsveç və digər ölkələrdə nəşr olunmuşdur. Onun kitabları arasında "Fransız ədəbiyyatında Şərq", "İrəvan ziyalıları", "Şərq Volter yaradıcılığında", "Viktor Hüqo", "Altaydan Altaya", "The Intelligentsia of İrevan", "Hüqo və Lui Araqon şeirlərinin tərcüməsi", həmçinin ali məktəblər üçün dərslik və proqramlar da yer alır.

Əsgər Zeynalov bir çox beynəlxalq konfranslarda məruzəçi və nümayəndə kimi iştirak etmiş, Fransada və Türkiyədə təkmilləşmə keçmişdir. 2000-ci ildə AMEA-nın Beynəlxalq Münasibətləri İnstitutunda "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş beynəlxalq konfransda əsas məruzəçi, 2001-ci ildə İrəvanda YUNESKO xətti ilə keçirilən "Cənubi Qafqazda təhsil problemi" beynəlxalq konfransının iştirakçısı, 2005-ci ildən Bakıda keçirilən "Tərcümə problemi" beynəlxalq konfransının bölmə sədri olmuşdur. 2007-ci ildə Almaniyanın Köln şəhərində Dünya Azərbaycanları Konqresinin IX qurultayında nümayəndə kimi iştirak etmiş və həmin ilin avqust ayında Fransanın Bözanson şəhərinin Franş Konte Universitetində təkmilləşmə keçmiş, Fransanın "L'Est Republicain" qəzetində "Viktor Hüqonun azərbaycanlı mütəxəssisi" başlıqlı məqalə dərc olunmuş, 2009-cu ildə Türkiyənin Ankara şəhərində Qazi Universitetində beynəlxalq konfransda geniş məruzə ilə çıxış etmişdir.

2013-2016-cı illərdə Fransa mətbuatında fəaliyyətinə dair məqalələr dərc edilmişdir. Dünya şöhrətli alimlər Boris Starkov, Rudolf İvanov, Jan Lui Bakke Qrammon və Arno Laster onun elmi yaradıcılığını yüksək qiymətləndirmişlər.

Əsgər Zeynalov Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Nyu York Elmlər Akademiyasının üzvü (2017), Özbəkistan Turan Elmlər Akademiyasının akademiki (2018), Parisdə Viktor Hüqonun Dostları Cəmiyyətinin üzvü (2019), Türk Dünyası Araşdırmalar Beynəlxalq Akademiyasının akademiki (2019) və Almaniyada Avropa Təbiət Elmlər Akademiyasının akademikidir.

Ədəbiyyat:

Fundamental tədqiqat əsəri / Ə.Zeynalov // Respublika.– 2020.– 14 iyun.– S.7.

Əsgər Zeynalov-70 // Ədəbiyyat qəzeti.– 2021.– 2 oktyabr.– S.21.

İrəvan Müəllimlər Seminariyası -140 / Ə.Zeynalov // Respublika.– 2022.– 14 yanvar.– S.5.

Qərbi Azərbaycana qayıdış yolu: gələcəyin aydın üfüqləri / Ə.M.Zeynalov // 525-ci qəzet.– 2023.– 3 fevral.– S.8-9.

Azərbaycan xanımının parlaq siması / Ə. Zeynalov // 525-ci qəzet.– 2024.– 24 avqust, №152.– S.12.

İllərin ötməsindən qorxmayan alim: Cəlil Qəriboğlu-80 / Ə.Zeynalov // Ədəbiyyat qəzeti.– 2025.– 26 iyun (№22).– S.18-19.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Əsgər_Zeynalov

https://adu.edu.az/az/xeberler/xeberler/4971.html

https://adu.edu.az/az/xeberler/xeberler/3538.html?utm_source=chatgpt.com

Hacıbəy Sultanov – 105

(1921-2008)

Akademik



Hacıbəy Fərəculla oğlu Sultanov 1921-ci il sentyabrın 20-də Bakının Şağan kəndində anadan olmuşdur. 1942-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fizika-riyaziyyat fakültəsini bitirmişdir.

Hacıbəy Sultanov İkinci Dünya Müharibəsində iştirak etmək üçün cəbhəyə yollanmışdır. Berlinin alınmasına qədər döyüş yolu keçmiş, "Vətən müharibəsi" ordeni, "İgidliyə görə", "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illərdə Almaniya üzərində qələbəyə görə" və "Praqanın azad edilməsinə görə" medalları ilə təltif olunmuşdur.

1946-cı ildə ordudan tərxis edildikdən sonra Azərbaycan Dövlət Universitetinin Astronomiya kabinetində işə qəbul olunaraq elmi tədqiqatlara başlamışdır.

1947-ci ildə Azərbaycan SSR EA-nın aspirantı kimi M.Lomonosov adına Moskva Dövlət Universitetinə ezam edilmişdir. Aspiranturanı bitirdikdən sonra Akademiyanın Fizika və Riyaziyyat İnstitutunda işləməyə başlamış və 1953-cü ildən yaradılmış Astrofizika sektoruna rəhbərlik etmişdir.

1959-cu ildə həmin sektorun əsasında Şamaxı Astrofizika Rəsədxanası yaradılmış və Hacıbəy Sultanov 1981-ci ilədək direktor, sonrakı dövrdə isə şöbə müdiri vəzifəsində çalışmışdır.

1976-1981-ci illərdə Azərbaycan EA-nın vitse-prezidenti olmuşdur. H.Sultanov 1951-ci ildə fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi almış, 1967-ci ildə isə Moskva Dövlət Universiteti nəzdindəki Şternberq adına Astronomiya İnstitutunun Elmi Şurasında doktorluq dissertasiyası müdafiə etmişdir.

1972-ci ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilmişdir.

H.Sultanov Beynəlxalq Astronomiya İttifaqının, Avropa Astronomiya Cəmiyyətinin, SSRİ EA nəzdində Ümumittifaq Astronomiya və Geodeziya Cəmiyyəti Mərkəzi Şurasının üzvü və onun Azərbaycan bölməsinin sədri olmuşdur.

Müasir dövrdə Azərbaycanda astronomiya sahəsində tədqiqatların yenidən qurulması Hacıbəy Sultanovun adı ilə bağlıdır. Alimin bilavasitə rəhbərliyi və iştirakı ilə Şamaxı Astrofizika Rəsədxanasının işi formalaşdırılmış, o dövr üçün müasir olan teleskopların alınıb quraşdırılması və astronomiya sahəsində yüksək ixtisaslı kadr hazırlığı həyata keçirilmişdir.

Elmi fəaliyyətinin əsas sahələri səma mexanikası və Günəş sisteminin kosmoqoniyası ilə bağlı idi. Asteroidlərin mənşəyinə dair riyazi nəzəriyyənin qurulması istiqamətində orijinal işlər yerinə yetirmişdir.

Hacıbəy Sultanovun elmi fəaliyyəti yüksək qiymətləndirilərək, 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Hacıbəy Fərəculla oğlu Sultanov 2008-ci il mart ayının 5-də vəfat etmişdir.

Ədəbiyyat:

Şamaxı rəsədxanasının yaradıcısı / H.Abdullayev // Bakı.– 1991.– 2 oktyabr.

Görkəmli alim, fəal ziyalı / H. Sultanov; Red.: A. Əliyev.– Bakı: Gənclik, 1997.– 80 s.

Hacıbəy Fərəculla oğlu Sultanov /fiz.riyaz.e.d-ru, prof. (1921-2008)//Azərbaycan .-2008.- 6 mart. - S.5.

Son mənzilə // Azərbaycan.– 2008.– 7 mart.–S. 4.

Unudulmaz alimin ömür yolu / R.Zeynalov // Respublika.– 2011.– 11 oktyabr.– S. 11.

Azərbaycanda kosmik elm və texnologiyaların keçdiyi yollar: 50 / Azərb. Resp. Müdafiə Sənayesi Nazirliyi, Milli Aerokosmik Agentliyi; tərt. ed.: N. İ. Kərimov [və b.]; ümumi rəhb. N. H. Cavadov; baş red. T. İ. Süleymanov; məsul katib V. D. İsrafilova.– Bakı: [Parlaq İmzalar], 2024.– 277, [2] s.


İnternetdə:

https://science.gov.az/az/forms/skonchavshiesya-deyst-vitelnyie-chlenyi/3390

Ədilə Namazova – 100

(1926-2020)

Akademik



Ədəbiyyat:

Uşaqlarda bronxit və pnevmoniyanın klinika və müalicəsinə müasir baxışlar / A.Ə.Namazova, T.Q.Tağızadə. – Naxçıvan: Qeyrət, 2003. – 54 s..

Adilə ömrü... / M. Süleymanoğlu. – Bakı: Günəş, 2006. – 148 s.

Ədilə Əvəz qızı Namazova // Azərbaycan.– 2020.– 17 dekabr.– S.2.

Ədilə Namazova: həkim kimi həkim, ana kimi ana... / S. Əliğızı; müsahibəni apardı A.Aslan // 525-ci qəzet.– 2021.– 17 fevral.– S.15.

Musayeva, Y. Adilənin taleyi : Zəriflərin dünyası / Y.Musayeva // Azərbaycan. – 2019. – 20 fevral. – S.4

İnternetdə:

https://science.gov.az/az/forms/skonchavshiesya-deystvitelnyie-chlenyi/3970

https://president.az/az/articles/view/3040

https://azertag.az/xeber/edile_evez_qizi_namazova-1667839

Ədilə Əvəz qızı Namazova 1926-cı il sentyabrın 9-da Ağdam rayonunun Seyidli kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1944-cü ildə Azərbaycan Tibb İnstitutuna (indiki ADTU) pediatriya fakültəsinə daxil olmuşdur. İnstitutu bitirdikdən sonra 1949-1953-cü illərdə Ağdam rayonu uşaq məsləhətxanasında müdir vəzifəsində çalışmışdır. 1954-1957-ci illərdə Moskva Həkimləri Təkmilləşdirmə Mərkəzi İnstitutunun aspiranturasında təhsil almışdır. Moskvada təhsil aldığı illərdə məşhur akademik G.N.Speranskinin klinikasında alim kimi formalaşmış, namizədlik dissertasiyasını müdafiə etmişdir. 1960-cı ildə dünya şöhrətli alim, akademik B.V.Petrovskinin klinikasında o dövrə qədər hələ də qaranlıq qalan və tam ümidsiz hesab olunan anadangəlmə ürək qüsurlarının tədqiqatına başlamış, ilk dəfə olaraq uşaqlarda anadangəlmə ürək qüsurlarının düzgün topik diaqnozunu dəqiqləşdirərək ürək üzərində cərrahi əməliyyatın aparılması göstərişini və əks-göstərişini təyin etmişdir. 1960-1965-ci illərdə Moskva şəhərində SSRİ Tibb Elmləri Akademiyasının doktoranturasında təhsil alan Ədilə Namazova 1965-ci ildə I Moskva Tibb İnstitutunda doktorluq dissertasiyasını müdafiə etmiş və bununla da pediatriya üzrə tibb elmləri doktoru olan ilk azərbaycanlı qadın kimi tarixə düşmüşdür.

1958-1960-cı illərdə ATİ-nin Uşaq xəstəlikləri kafedrasında assistent, 1966-1969-cu illərdə müalicə profilaktika fakültəsi Uşaq xəstəlikləri kafedrasının müdiri, 1969-cu ildə Hospital-pediatriya kafedrasının müdiri olmuşdur. 1971-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü, 1971-1992-ci illərdə Azərbaycan Səhiyyə Nazirliyi Elmi Tibbi Şurasının sədri, 1972-ci ildə Azərbaycan Respublikası uşaq həkimləri cəmiyyətinin sədri, 1983-cü ildə Azərbaycan EA (indiki AMEA) həqiqi üzvü, 1989-cu ilin mart ayında SSRİ Xalq Deputatı, iki dəfə SSRİ Ali Sovetinin üzvü, 2005-ci ildə Azərbaycan Uşaq Fondunun həmsədri, 2006-cı ildə Rusiya Pediatrlar İttifaqının Elmi-Təcrübi "Pediatriçeskaya Farmokologiya" jurnalının redaksiya şurasının üzvü seçilmişdir.

Ədilə Namazova 1974-cü ildə Azərbaycan Səhiyyə Nazirliyi və Azərbaycan Respublika Tibb İşçiləri Həmkarlar Komitəsinin Fəxri fərmanı, 1975-ci ildə "SSRİ Səhiyyə əlaçısı", 1976-cı ildə Azərbaycan SSRİ Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə, 1981-ci ildə "Əməkdar elm xadimi" fəxri adı, 1982-ci ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı, 1983-cü ildə Azərbaycan Respublikası "Bilik" cəmiyyətinin Fəxri fərmanı və medalı ilə təltif olunmuşdur.

1995-ci ildə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Fəxri Fərmanı ilə təltif edilmiş, 1996-cı ildə isə səhiyyənin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Şöhrət" ordeninə layiq görülmüşdür.

2000-ci ildə ADTU-da "Etika" proqramının tərtibinə görə Albert Şveyser–SOROS qrantını qazanmış, 2002-ci ildə "Ziyalı Azərbaycan Qadını Simvolu" diplomu ilə təltif olunmuşdur.

2016-cı ildə Azərbaycan Milli Elmlər Akademiyasının "Akademik Mirəsədulla Mirqasımov mükafatı"na və Rusiya Pediatrlar İttifaqının "Akademik G.Speranski" medalına layiq görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 6 sentyabr tarixli Sərəncamına əsasən Azərbaycanda tibb elminin inkişafına verdiyi töhfələrə görə "Şərəf" ordeni, 2016-cı ildə isə Prezidentin Fəxri Diplomuna layiq görülmüşdür.

Ədilə Əvəz qızı Namazova 2020-ci il dekabr ayının 15-də Bakı şəhərində vəfat etmişdir.

Kamil Balakişiyev – 120

(1906-1973)

Alim



Ədəbiyyat:

İnsan anatomiyası : Tibb Universiteti üçün dərslik: 3 cilddə / K. A. Balakişiyev, V. B. Şadlinski, Ş. Q. Vəliyev, Ş. İ. Qasımov.– Bakı: Təbib, 1998.– 288 s.

Azərbaycanda anatomiya məktəbinin banisi əməkdar elm xadimi, professor Kamil Əbdül-Salam oğlu Balakişiyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransın elmi məqalələr toplusu / Azərb. Resp. Səhiyyə Nazirliyi, Azərb. Tibb Un-ti; konfransın təşkilat komitəsi və red. heyəti. Ə. T. Əmiraslanov (sədr) [və b.].– Bakı: [Müəllim], 2006.– 396 s.

Şadlinski, V. Elm fədaisi, görkəmli pedaqoq / V.Şadlinski // Azərbaycan məktəbi: Elmi-nəzəri, pedaqoji jurnal.– 2016.– №5.– S.80-81.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları: 100 : 1921-2021 /F. Rüstəmov ; layihənin rəhbəri və ön söz. müəl. C. Cəfərov ; elmi red. A. Zamanov ; [dizayner Ə. Zaliyev].-

Bakı: [ADPU], 2021.-

543s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Kamil_Balakişiyev

Kamil Əbdülsalam oğlu Balakişiyev 1906-cı il sentyabr ayının 20-də Bakının Novxanı kəndində anadan olmuşdur. 1921-1926-cı illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Tibb fakültəsində təhsil almışdır. İkinci kurs tələbəsi ikən İnsan anatomiyası kafedrasına qəbul olunmuş və bir qədər sonra insan anatomiyası fənni üzrə sərbəst surətdə məşğələlər aparmasına icazə verilmişdir.

1937-ci ilin avqust ayında Azərbaycan Dövlət Tibb İnstitutunun Normal anatomiya kafedrasına Kamil Balakişiyev rəhbərlik etməyə başlamış, ömrünün sonuna qədər bu vəzifəni yerinə yetirmişdir. Kamil Balakişiyev 17 il Azərbaycan Tibb İnstitutunda tədris işləri üzrə prorektor, Səhiyyə Nazirliyində idarə rəisi, Azərbaycan Elmlər Akademiyasının Terminologiya Komitəsinin tibb bölməsinin sədri vəzifələrində çalışmışdır. Kamil müəllim eyni zamanda 1937-1941-ci illərdə BDU-nun Anatomiya kafedrasına, 1938-1940-cı illərdə isə Azərbaycan Pedaqoji İnstitutunun anatomiya və fiziologiya kafedrasına rəhbərlik etmişdir. 1941-1944-ci illərdə ATİ-nin müalicə-profilaktika fakültəsinin dekanı, 1944-1945-ci illərdə SSRİ EA-nın Azərbaycan filialının "Tibb" bölməsinin baş elmi işçisi vəzifəsində çalışmışdır. O, uzun illər SSRİ Anatom, Histoloq və Embrioloqlar Cəmiyyətinin rəyasət heyətinin üzvü olmuş, 1953-1973-cü illərdə bu cəmiyyətin Azərbaycan şöbəsinə rəhbərlik etmişdir.

Beşinci kurs tələbəsi olarkən Kamil Balakişiyev öz müəllimi A.Valenkaya ilə birlikdə rus dilində "Osteologiya üzrə praktik məşğələlərə rəhbərlik" adlı dərs vəsaiti yazmış və həmin vəsait 1926-cı ildə çap olunmuşdur.

XX əsrin 30-cu illərinin əvvəllərində isə o, Azərbaycan dilində latın qrafikası ilə silsilə dərslik və dərs vəsaitləri çap etdirmişdir. Azərbaycanda ilk dəfə olaraq ana dilində histoloji terminlərin yaradıcısı olmuş və bu haqda dəyərli kitab çap etdirmişdir. Onun rəhbərliyi altında 15 nəfər elmlər doktoru və namizədi yetişdirilmişdir. O, 100-ə yaxın elmi işin, o cümlədən orijinal dərslik və dərs vəsaitinin, lüğət və terminologiyanın, elmi-kütləvi məqalənin müəllifi olmuşdur.

1930-cu ildə 24 yaşında Kamil Balakişiyev dosent elmi adına layiq görülmüşdür. 1935-ci ildə ona dövri mətbuatda çap etdirdiyi elmi-tədqiqat işlərinin nəticələrinə görə tibb elmləri namizədi elmi dərəcəsi verilmişdir. Kamil Balakişiyev 1936-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutunda doktorluq dissertasiyası müdafiə etmiş və tibb elmləri doktoru, 1938-ci ildə isə professor elmi dərəcəsinə layiq görülmüşdür.1942-ci ildə Azərbaycanda səhiyyənin, tibb elmi və təhsili sisteminin inkişafında, eləcə də yüksək ixtisaslı tibb kadrlarının yetişdirilməsindəki xidmətlərinə görə Kamil Balakişiyev "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Azərbaycan dilində anatomiyaya aid ilk dərs vəsaitlərinin hazırlanmasıda Kamil Balakişiyevə aiddir. Sonralar Balakişiyevin monumental kitabları əlavələr, düzəlişlər edilməklə yeni terminologiya əsasında Vaqif Şadlinskinin rəhbərliyi altında üçüncü dəfə nəşr edildi və bununla da alimin kitablarının praktik istifadə ömrü yenidən uzadıldı.

Kamil Balakişiyev 1973-cü il noyabr ayının 22-də vəfat etmiş və Fəxri Xiyabanda dəfn edilmişdir.

1996-cı ildə alimin yubileyi ilk dəfə dövlət səviyyəsində geniş qeyd edildi. Hazırda Bakı şəhərindəki küçələrdən biri onun adını daşıyır.

Yaşar Bilalov – 90

(1936-2013)

Alim



Yaşar Mahmud oğlu Bilalov 1936-cı il sentyabrın 29-da Nuxa şəhərində (indiki Şəki) anadan olmuşdur. 1955-ci ildə Nuxa şəhər M.F.Axundov adına 2 nömrəli orta məktəbi bitirmişdir. Həmin ildə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) kimya-texnologiya fakültəsinə daxil olmuşdur. 1957-ci ildə təhsilini Moskva Zərif Kimya-Texnologiya İnstitutunda davam etdirmiş və 1961-ci ildə bu ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdir.

1962-1965-ci illərdə M.V. Lomonosov adına Moskva Zərif Kimya-Texnologiya İnstitutunda aspiranturada təhsil almışdır. 1961-1962-ci illərdə Bakı Şin Zavodunda mühəndis-texnoloq kimi əmək fəaliyyətinə başlamışdır. 1965-ci ildən etibarən Azərbaycan Neft və Kimya İnstitutunda (indiki ADNSU) əmək fəaliyyətini davam etdirmişdir. Burada müəllim, baş müəllim, dosent və professor kimi çalışmış, 1972-2013-cü illərdə "Yüksəkmolekullu birləşmələrin texnologiyası" kafedrasının müdiri olmuşdur.

1977-1982-ci illərdə isə kimya-texnologiya fakültəsinin dekanı vəzifəsində fəaliyyət göstərmişdir.

Yaşar Bilalov yüksək molekullu birləşmələrin texnologiyası sahəsində görkəmli alim olmuş, polimer materiallarının xassələri və onların tətbiqi sahəsində fundamental və tətbiqi əhəmiyyətə malik tədqiqatlar aparmışdır. O, 500-dən çox elmi əsərin, o cümlədən dərslik və dərs vəsaitlərinin müəllifi olmuş, 30-dan artıq elmlər namizədi və doktorunun elmi rəhbəri kimi çıxış etmişdir.

1965-ci ildə "Protektor rezinlərinin tərkibinin onların mexaniki xassələrinə təsiri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1987-ci ildə texnika elmləri doktoru elmi dərəcəsini, 1988-ci ildə professor elmi adını almışdır. Alimin elmi-pedaqoji və ictimai fəaliyyətləri dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 2000-ci ildə ona Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adı verilmişdir.

Yaşar Mahmud oğlu Bilalov 2013-cü il may ayının 14-də Bakı şəhərində vəfat etmişdir.

2016-cı il sentyabrın 29-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) "Üzvi maddələr və yüksək molekullu birləşmələr" kafedrasında Əməkdar elm xadimi, professor Yaşar Bilalovun 80 illik yubileyi qeyd edilmişdir.

Ədəbiyyat:

Şəki: Alim və ziyalılar / Tərt.: Ə.Məmmədov, F.Xalıqov; Red. heyəti: B.Vahabzadə, M.İsmayılov, Y.Qarayev və b.– Bakı: Bakı Universiteti, 2002.– S. 72-74.

O torpağın övladları / Mete Ənvər; rəyçi. B.Vahabzadə; red. H.Sadıqova.– Bakı: Nurlan, 2006.– S. 289-290.

Plastik kütlələrin emalının müasir texnologiyası: [dərslik] / K.S.Şıxəliyev; red. Y.M.Bilalov, A.M.Abbasov.– Bakı: [s. n.], 2011.– S. 761.

Azərbaycan Milli Ensiklopediyası: [25 cilddə] / [A. N. Abbasov [və b.]]; red. hey.: İ. H. Əliyev (sədr) [və b.]; [elmi məsl.: A.N.Abbasov [və b.]].– Bakı: "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, 2013.– S.34.

Yüksəkmolekullu birləşmələrin kimyəvi texnologiyası: dərslik / T.M.Naibova; red.: Y.M.Bilalov, İ.Q.Abdullayeva.– Bakı: [Çaşıoğlu], 2014.– S.366.

Riyaziyyat: [9-11-ci siniflər üçün test toplusu]: Kurikulum əsasında / A. Laçınova, Y. Bilalov, S. Musayev.– Bakı: [n. y], 2018.– S.79.

İnternetdə:

https://sheki.org/wiki/Yaşar_Bilalov

Digər tarixi hadisələr

Qobustan Milli Tarix-Bədii Qoruğu - 60 *(1966)*



Ədəbiyyat:

Qobustan bizdən qayğı gözləyir / Ə.Fərzəli // 525-ci qəzet.– 2010.– 23 fevral.– S.6.

Azərbaycan Prezidenti İlham Əliyev Qobustan Dövlət Tarixi-Bədii Qoruğunda inşa edilmiş muzeyin açılışında iştirak etmişdir // Azərbaycan.– 2011.– 27 dekabr.– S.1-2.

Avropa Oyunları zamanı Qobustan Dövlət Tarixi-Bədii Qoruğunu 9 min 200-dən çox turist ziyarət edib // Azərbaycan.– 2015.– 5 iyul.– S. 8

Muzey audiobələdçiləri artıq telefonunuzda // Mədəniyyət.– 2020.– 13 mart.– S.1;2.

Özündə sirli tarixlər yaşadan Qobustan / A. Qurbanova // Azad Azərbaycan.– 2022.– 8 dekabr.– S.8.

Keçmişimizin mədəni irsi - açıq səma altında muzeylər / A. Ələkbərova // Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu: Elmi-praktiki konfrans.– 2024. S.130-132.

Azərbaycanın arxeoloji irsinin qorunmasına elmi dəstək //Elm.-2025.- 25 aprel(№14).- S.7.

İnternetdə:

http://qaradagh-ih.gov.az/az/news/213.html

1966-cı il sentyabrın 9-da Qobustanda yerləşən qədim qayaüstü təsvirlər, arxeoloji abidələr və düşərgələri əhatə edən, ümumi sahəsi 4400 hektar olan Böyükdaş, Kiçikdaş, Cingirdağ dağları və Yazılıtəpə ərazisi Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Dövlət Tarixi-Bədii Qoruğu elan edilmişdir.

Qoruğa həmçinin Şonqardağ və Şıxqaya qayaüstü təsvirlər kompleksi də daxil edilmişdir. Qoruğun ərazisi Qobustanın cənub-şərq hissəsində Xəzər dənizindən o qədər də aralı olmayan bir şəhəri əhatə etmişdir. Buradakı dağların üst qatı qalınlığı 10-15 m olan Abşeron əhəngdaşı laylarından ibarətdir. Onların torpaq örtüyü çox da qalın olmayıb, təxminən 20-150 mm təşkil etmişdir.

Qobustan qayaüstü rəsmlərinin mövcudluğu 1939-cu ildə məlum olduqdan sonra ilk dəfə görkəmli Azərbaycan arxeoloqu İshaq Cəfərzadə tərəfindən onların tədqiqatına başlanılmışdır.

O, elə bu ildə Cingirdağ və Yazılıtəpədə, 1940-cı ildə isə Böyükdaş, Kiçikdaş ərazisində qayaüstü rəsmlərin tədqiqatını aparmışdır. Lakin Qobustan rəsmlərinin ardıcıl araşdırılması II Dünya müharibəsi ilə təxirə salınmış, 1947-ci ildən isə bu işə yenidən başlanmışdır. Hal-hazırda Qobustanın qədim qayaüstü təsvirlər kolleksiyasında Böyükdaş, Kiçikdaş, Cıngırdağ - Yazılıtəpə, Şonqar, Şıxqaya dağları sahəsində aşkar edilib qeydə alınmış abidələrin sayı təxminən 1000 qaya üzərində 6000-dən çoxdur. Qobustan qayaüstü təsvirləri mövzu müxtəlifliyi, süjet orijinallığı və müəyyən bədii ustalığı ilə seçilir. Buraya insan və heyvan təsvirləri, vəhşi öküz, keçi, maral, ceyran, at, quş, balıq və digər təsvirlər daxildir.

Qayalarda çoxlu sayda qayıq, balıq tutmaq üçün tor şəkilləri, ikiçarxlı araba, dəvə karvanları, svastika, xaç, günəş, bundan əlavə, Azərbaycanın orta əsrlər tarixinin müxtəlif dövrlərinə aid olan ərəb əlifbası ilə həkk olunmuş yazılar və I əsrin sonunda XII ildırım sürətli Roma legionunun burada olmasını təsdiq edən qədim Roma yazısı vardır. Müasir Azərbaycan xalq rəqsi olan «Yallı»nı xatırladan tək və qrup halında mərasim rəqslərinə də təsadüf olunur. İbtidai icma quruluşundan başlayaraq, cəmiyyətin tarixi inkişafını ardıcıl əks etdirməklə bir növ qayalar üzərində həkk olunmuş salnamə xarakteri daşıyan tarix, incəsənət, təbiyyət elmləri üçün böyük əhəmiyyəti olan Qobustan qaya təsvirləri kompleksi dövlət qoruğu elan edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Sovetinin 503-cü qərarına görə 1966-cı ildə Qobustanın Böyükdaş, Kiçikdaş, Cingirdağ və Yazılı təpə əraziləri Qobustan qoruğu elan edilib. O, 4500 hektar ərazini əhatə edir. Burada 6 mindən artıq qayaüstü rəsmlər və müxtəlif fondlarda 100 mindən artıq arxeoloji materiallar saxlanılır. Arxeoloqlar tərəfindən 20 sığınacaq aşkar edilib, 40-a yaxın kurqan qeydə alınmışdır.

2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Qobustan Dövlət Tarixi-Bədii Qoruğuna "milli" status verilmişdir.

23 iyun - 2 iyul 2007-ci il tarixində Yeni Zelandiyanın Kraystçorç şəhərində keçirilən UNESCO-nun Ümumdünya Mədəni İrs Komitəsinin 31-ci Sessiyası çərçivəsində Ümumdünya Maddi-Mədəni İrs Siyahısına daxil edilmişdir.

Qobustan qayaüstü rəsmləri 2019-cu ildə ICESCO-nun İslam İrsi Siyahısına daxil edilmişdir.

Milli Kitabxana tərəfindən Qobustan adlı Elektron məlumat bazası hazırlanaraq oxuculara təqdim edilmişdir.

Digər tarixi hadisələr

Bilik günü
(2004)



Ədəbiyyat:

Təhsil naziri Emin Əmrullayevin "Billik günü" münasibətilə təbriki // Azərbaycan müəllimi.– 2020.– 18 sentyabr.– S. 5.

Milli Kitabxanada Bilik günü sərgisi // 525-ci qəzet.– 2021.– 16 sentyabr.– S.9.

Bu gün Bilik Günüdür / Cavid // Xalq Cəbhəsi.– 2022.– 15 sentyabr.– S.9.

15 sentyabr Bilik Günüdür // Mədəniyyət.– 2023.– 15 sentyabr.– S.1.

Sevgidən pay alanlar: 11 nömrəli xüsusi təhsil məktəbin Bilik Günündən reportaj / R. Daşsalahlı // Azərbaycan müəllimi.– 2024.– 20 sentyabr, №34.– S.7.

Bilik tərəqqi qaynağı, kitab bilik xəzinəsidi: Lakin "elektron yürüş" bu sərvətin üstündən ötüb keçir // Xalq qəzeti.– 2025.– 14 fevral (№ 33).– S.11.

Bayramova, Z. 15 sentyabr "Bilik Günü"-məktəb həyatına çağırış /Z.Bayramova //Səs.-2025.- 13 sentyabr (№166).- S.7.

Milli Kitabxanada yeni sərgilər //525-ci qəzet .-2025.- 16 sentyabr (№166).- S.13.

İnternetdə:

https://azertag.az/xeber/sentyabrin_15_i_azerbaycanda_bilik_gunudur-3743767

Bilik günü - Azərbaycanda məktəblərdə dərslərin başladığı gün qeyd edilir. 2004-cü ilə qədər həmin gün sentyabrın 1-nə təsadüf etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 avqust 2004-cü il tarixli Fərmanı ilə Azərbaycanın bütün təhsil müəssisələrində dərslərin 15 sentyabrdan başlanması qərara alınmış, beləliklə, həmin gün Bilik Günü elan edilmişdir. Hər il respublikamızın bütün təhsil müəssisələrində bu gün təntənə ilə qeyd olunur. Ötən il ümumi təhsil müəssisələrində ilk dərs "Heydər Əliyev Azərbaycanın xilaskarı və qurucusudur" mövzusuna həsr olunmuşdur.

2025-2026-cı tədris ilində ümumilikdə 1,6 milyon şagirdin təhsil alacağı proqnozlaşdırılır. Onların 130 mindən çoxu birinci sinifdə, 552 mini ibtidai, 796 mini ümumi orta, 246 mini isə tam orta təhsil səviyyəsində oxuyacaq.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki məktəblərdə ümumilikdə 505 min 766 şagird təhsil alacaq. Bu məktəblərin I sinfində 39 min 622, IX sinfində 47 min 438, XI sinfində 35 min 134, XII sinfində isə 124 şagirdin təhsil alacağı gözlənilir. Paytaxtın məktəbəhazırlıq qruplarına 21 min 491 uşaq cəlb olunacaq. BŞTİ-nin tabeliyində fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrinə isə 35 min 28 uşaq qəbul olunub. Hazırda paytaxtda 28 min 127 müəllim, məktəbəqədər müəssisələrdə isə 4149 tərbiyəçi-müəllim çalışır. Ümumilikdə BŞTİ-nin tabeliyində 673 təhsil müəssisəsi və 9 məktəbdənkənar müəssisə fəaliyyət göstərir.

Yeni tədris ilində Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə Bakı şəhərində "Rəqəmsal məktəb" platforması 353 məktəbdə 500 mindən çox şagirdi və 30 mindən çox işçi heyətini əhatə edəcək. Platforma təhsil prosesini rəqəmsallaşdırmaq, dərslərin və tapşırıqların idarə olunmasını asanlaşdırmaq, valideyn-müəllim-şagird əlaqəsini gücləndirmək məqsədi daşıyır.

İşğaldan azad edilmiş ərazilərdə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində təhsil müəssisələrinin tikintisi və təmiri davam etdirilməklə, Prezident İlham Əliyev 2023-cü il iyulun 21-də Şuşa şəhərində 1 nömrəli tam orta məktəbin binasında tikinti işlərinin gedişi ilə tanış olmuş, avqustun 23-də Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin, avqustun 25-də Laçın rayon 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılışlarında iştirak etmişdir. Respublikamızın digər regionlarda da məktəb tikintisi və təmiri davam etdirilmiş, "Təhsilə dəstək" layihəsi çərçivəsində inşa olunan yeni məktəblərin açılışı olmuşdur. 2025-2026-cı tədris ilində Ağdam, Ağdərə, Xocalı, Cəbrayıl və Kəlbəcərdə daha 11 məktəbin açılması nəzərdə tutulur.

Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb", "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramları və digər layihələri bu sahənin inkişafında mühüm rol oynamışdır. Son 20 ildə ölkəmizdə 3600 yeni məktəb tikilib və ya əsaslı təmir olunmuşdur. "İnnovativ məktəb" layihəsi çərçivəsində bir neçə təhsil müəssisəsində sahibkarlıq kursu pilot şəkildə tədris edilmiş, İsrailin ən böyük məktəb şəbəkəsi "ORT İsrail" tərəfindən müvafiq dərs vəsaiti də hazırlanmışdır.

Yeni tədris ilində "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində bakalavriat səviyyəsi 125, magistratura səviyyəsi üzrə 356, doktorantura səviyyəsi üzrə isə 19 nəfər olmaqla, ümumilikdə 500 nəfər təqaüdçü adını qazanıb.

Prezident İlham Əliyevin qayğısı, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr ulu öndərin təhsil siyasətinin uğurlu davamının göstəricisidir. Təhsil islahatı Azərbaycanda uğurla davam etdirilir.

Hər il sentyabr ayının 15-də Azərbaycan Milli Kitabxanasında "15 sentyabr- Bilik Günü" adlı virtual sərgi və ənənəvi kitab sərgisi təqdim olunur.

Digər tarixi hadisələr

Üzeyir Musiqi Günü *(1995)*



Milli Musiqi Günü sentyabr ayının 18-də dahi bəstəkar Üzeyir Hacıbəylinin doğum günü ilə bağlı olaraq qeyd olunur. Görkəmli bəstəkar və dirijor Niyazinin təşəbbüsü ilə Üzeyir bəyin vəfatından sonra hər il bu gün dahi bəstəkarın anadan olduğu gün kimi qeyd edilmiş, Azərbaycan Dövlət Konservatoriyasının önündə minlərlə insan toplaşmış və Üzeyir Hacıbəyovun adını daşıyan Azərbaycan Dövlət Simfonik Orkestri maestro Niyazinin rəhbərliyi ilə bəstəkarın əsərlərini ifa etmişdir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda, xüsusilə də Bakıda yaşanan siyasi böhranla əlaqədar olaraq bu ənənə bir müddət davam etdirilməmişdir.

1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması qərara alınıb.

Üzeyir Hacıbəyli bəstəkar, alim, yazıçı, publisist və siyasi xadim kimi çoxşaxəli fəaliyyəti ilə yanaşı, Şərqdə ilk operanın banisi kimi də məşhurdur. Məhz onun fədakar əməyi nəticəsində Azərbaycan milli opera sənətinin tarixi "Leyli və Məcnun" operası ilə başlanmışdır.

Ömrü boyu Azərbaycan mədəniyyətinə və musiqisinə xidmət edən bu unudulmaz şəxsiyyət 300-dən çox xalq mahnısını nota salmış, marş, kantata, fantaziya, mahnı və romanslar, həmçinin kamera və xor əsərləri yaratmışdır

Üzeyir Hacıbəylinin anadan olmasının 100 illik yubileyi UNESCO-nun qərarı ilə beynəlxalq miqyasda qeyd edilmişdir.

Ölkəmizdə davamlı olaraq keçirilən beynəlxalq musiqi festivalları və müxtəlif müsabiqələr bütövlükdə Azərbaycan mədəniyyətinin və musiqisinin daha geniş miqyasda təbliğinə xidmət edir.

Üzeyir Hacıbəylinin taleyində ən möhtəşəm səhifələrdən biri də odur ki, o, Azərbaycan Dövlət Himninin müəllifidir.

Bu gün Azərbaycan bayrağı məhz həmin himnin səslərı altında dünyanın ən mötəbər salonlarında ucalır və bütün rəsmi tədbirlərimiz Azərbaycan Dövlət Himninin səslərı ilə başlayır.

Mədəniyyət Nazirliyi Milli Musiqi Günü ilə əlaqədar olaraq hər il genişmiqyaslı tədbirlər həyata keçirir. Bakı Musiqi Akademiyasının önündə bu mühüm gün münasibətilə təntənəli mərasim təşkil olunur, Üzeyir Hacıbəylinin ev-muzeyində müxtəlif mədəni proqramlar baş tutur, böyük bəstəkarın xatirəsinə həsr olunmuş təntənəli gecə keçirilir.

2021-ci ildə Şuşada Milli Musiqi Günü çərçivəsində Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının ilk konserti Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq bəstəkarın yenidən hazırlanmış heykəlinin ucaldığı parkda keçirilmişdir. Qeyd edilməlidir ki, Üzeyir Hacıbəylinin 1985-ci ildə ucaldılmış heykəli erməni vandalizmi nəticəsində tamamilə məhv edilmişdir.

2022-ci ildə keçirilən XIV Beynəlxalq Musiqi Festivalında 15 ölkədən musiqiçilər iştirak etmiş, tədbir 18-26 sentyabr tarixlərində rəngarəng konsertlər və təqdimatlarla davam etmişdir.

2025-ci il sentyabrın 18-də Üzeyir Hacıbəyli XVII Beynəlxalq Musiqi Festivalı ölkənin 10-dan çox şəhərini əhatə etməklə keçirilmişdir. Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Türk Mədəniyyəti və İrsi Fondu, eləcə də ICESCO-nun dəstəyi ilə gerçəkləşən festival sentyabrın 28-dək davam etmişdir. Festival çərçivəsində Bakı, Sumqayıt, Şuşa, Gəncə, Ağcabədi, Naxçıvan və Qazax şəhərlərində möhtəşəm konsertlər, tamaşalar, sərgilər, elmi simpozium və ustad dərsləri təşkil olunmuşdur.

"Bakı Metropoliteni" QSC tərəfindən də Milli Musiqi Günü münasibətilə artıq ənənə halını almış sosial layihə reallaşdırılır. Sentyabrın 18-də sərnişin axınının daha çox olduğu stansiyaların vestibüllərində konsert proqramları təşkil olunur və metro istifadəçilərinə bayram əhval-ruhiyyəsi bəxş edilir.

Hər il Azərbaycan Milli Kitabxanasında "18 sentyabr Milli Musiqi Günü" adlı virtual və ənənəvi sərgi istifadəçilərə təqdim olunur və "18 sentyabr - Milli Musiqi Günü" adlı tədbir təşkil olunur.

Ədəbiyyat:

Azərbaycan Milli Konservatoriyasında Milli Musiqi Günü qeyd olunub // Azərbaycan.– 2024.– 19 sentyabr (№204).– S.15.

Aydınoğlu, T. Azərbaycanda və dünyada Üzeyir Musiqi Günü /T.Aydınoğlu, F.Əliyeva, Ə.Nəcəfxanlı, Q.Əliyev. A.Əliyeva //Xalq qəzeti.-2025.- 19 sentyabr (№200).- S.10.

Bayramova, Z Milli musiqi irsimizi zənginləşdirən dahi sənətkar: 18 sentyabr-Milli Musiqi Günüdür /Z.Bayramova // Səs.-2025.- 18 sentyabr (№169).- S.7.

Milli Musiqi Günü musiqi ocaqlarında geniş qeyd olunub //525-ci qəzet.-2025.- 19 sentyabr(№169).- S.11

Üzeyir Hacıbəyli XVII Beynəlxalq Musiqi Festivalı başlayır // 525-ci qəzet.– 2025.– 4 sentyabr (№158).– S.9.

Mehralı, L. Musiqi ruhun qidasıdır, yoxsa bədənin?: 18 sentyabr Milli Musiqi Günü /L.Mehralı // Səs.-2025.- 18 sentyabr (№169).- S.15.

İnternetdə:

https://azertag.az/xeber/sentyabrin_18_i_milli_musiqi_gunudur-3750407

Digər tarixi hadisələr

Dövlət Suverenliyi Günü *(2024)*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 19 sentyabr tarixində imzaladığı "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncamına əsasən, 20 sentyabr hər il Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd olunur.

Dövlət Suverenliyi Günü Azərbaycan Respublikasının suverenliyinin bərpa olunmasını və dövlətçilik prinsiplərinin möhkəmlənməsini qeyd edən rəsmi gündür. Bu gün Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinin və ərazi bütövlüyünün simvoludur.

Azərbaycan Silahlı Qüvvələrinin 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanması, işğal olunmuş torpaqların azad edilməsi və ərazi bütövlüyünün bərpası Dövlət Suverenliyi Gününün əsas zəminini təşkil edir. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanılmışdır.

Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirib.

Prezident İlham Əliyevin 18 sentyabr 2024-cü il tarixində imzaladığı Sərəncama əsasən, 20 sentyabr – Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü kimi qeyd edilir.

Üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 2023-cü il sentyabrın 19-da bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb. 19 sentyabr 2023-cü il tarixində təxminən saat 13:00 radələrində antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir.

2023-cü il sentyabrın 28-də Azərbaycanın Qarabağ bölgəsindəki qondarma qurum özünü buraxdığını elan edib. Bununla da "Dağlıq Qarabağ respublikası" öz mövcudluğuna son verib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Ağdərə, Xocavənd və Xocalı şəhərlərində, Xocalının Əsgəran qəsəbəsində, Sərsəng su anbarının ərazisində və Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

2024-cü ildə Milli Kitabxanada "20 sentyabr – Dövlət Suverenliyi Günü" adlı kitab sərgisi açılmışdır.

Ədəbiyyat:

Təhsil naziri Emin ƏmDövlət Suverenliyi Günü - Azərbaycanın bütövləşdiyi gün /Pərvanə //525-ci qəzet.- 2025. - 20 sentyabr(№170).- S.5.

Dövlət Suverenliyi Günü ilə əlaqədar işğaldan azad edilmiş ərazilərə yürüş // Azərbaycan.-2025.-26 sentyabr (№206).- S.4.

Azərbaycan Prezidenti Dövlət Suverenliyi Günü ilə bağlı paylaşım edib // Azərbaycan.- 2025.- 20 sentyabr (№201).- S.1.

Quliyev, L. "Dövlət Suverenliyi Günü bütöv Azərbaycanın Zəfər tarixidir" /L.Quliyev //Azərbaycan.- 2025.- 21 sentyabr (№202).- S.7.

20 sentyabr-Dövlət Suverenliyi Günüdür //İqtisadiyyat. - 2025.- 18-24 sentyabr (№37).- S.3.

Milli Məclisdə Dövlət Suverenliyi Gününə həsr olunmuş konfrans keçirilib //Azərbaycan.-2025.- 20 sentyabr (№ 201).- S.3.

İnternetdə:

https://president.az/az/articles/view/66855

https://science.gov.az/az/news/open/33402

Digər tarixi hadisələr

Xankəndi Şəhəri Günü *(2024)*



Xankəndi şəhəri Qarqar çayının sahilində, Qarabağ silsiləsinin şərq ətəyində yerləşir. İnzibati cəhətdən Xankəndi şəhər əhatə dairəsinə Xankəndi şəhəri və Kərki Cahan qəsəbəsi daxildir. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi olmuşdur. Sahəsi 8,8 km²-dir. 1991-ci il dekabr ayının 28-də Xankəndi şəhəri erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdur.

Xankəndi digər Azərbaycan şəhərlərinin əksəriyyətindən nisbətən cavan olması ilə fərqlənir. Arxiv sənədlərinə görə, şəhər XVIII əsrin axırlarında Qarabağ xanlarının istirahəti üçün yaşayış məskəni kimi salınmışdır. Xanların fəaliyyətinə maksimum şərait yaradılması üçün məskən xanlığın paytaxtı Pənahabadın (indiki Şuşanın) 10 kilometrliyində, nisbətən dağ ətəyində salınır. İlk illər yeni yaşayış məskənində ancaq xan ailəsi və onun yaxınları yaşadığından el arasında "Xanın kəndi" kimi tanınır. Qısa bir müddətdən sonra isə Xankəndi adını alır.

Xankəndi Qarabağ xanlarının istirahət mərkəzi kimi salınsa da, XX əsrdə o, Azərbaycanın yeni sənaye və mədəniyyət mərkəzi kimi inkişaf etməyə başlayır. Bu zaman bu işə daim Azərbaycanın ümumi respublika resurslarından böyük dəstək verilir. Xankəndində bütün Cənubi Qafqazda tanınan ipək kombinatı, ayaqqabı, xalça, tikiş fabrikləri, süd kombinatı və şərab zavodu fəaliyyət göstərirdi.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Sovetlərinin 7 iyul 1923-cü il tarixli Dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılarkən həmin Vilayətin mərkəzi Xankəndi şəhəri olmuşdur. 18 sentyabr 1923-cü ildə isə Qarabağ Vilayət Partiya Komitəsinin qərarı ilə Xankəndi şəhərinin adı dəyişdirilərək Stepanakert şəhəri adlandırılmışdır.

Azərbaycan SSR Ali Sovet Rəyasət Heyətinin 15.05.1978-ci il tarixli, 837-IX nömrəli Fərmanı ilə Stepanakert rayonunun mərkəzi Stepanakert şəhərindən Əsgəran fəhlə qəsəbəsinə keçirilmiş və Stepanakert rayonu Əsgəran rayonu adlandırılmışdır. Azərbaycan SSR Ali Sovet Rəyasət Heyətinin 21.04.1990-cı il tarixli, 1783-XI nömrəli Fərmanına əsasən Stepanakert şəhərinin Kərkicahan yaşayış massivi şəhər tipli qəsəbələr kateqoriyasına aid edilmiş və Stepanakert Şəhər Sovetinin tərkibində Kərkicahan Qəsəbə Soveti yaradılmışdır.

"Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətini ləğv etmək haqqında" 26 noyabr 1991-ci il tarixli, 279-XII nömrəli Azərbaycan Respublikasının Qanununa əsasən isə şəhərin tarixi adı qaytarılaraq Stepanakert şəhəri Xankəndi şəhəri adlandırılmışdır.

İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Xankəndi şəhəri Rusiya sülhməramlılarının nəzarətinə keçmiş, sülhməramlı qüvvələrinin mərkəzi qərargahı burada yerləşdirilmişdir. 19-20 sentyabr 2023-cü ildə Azərbaycan Ordusunun keçirdiyi lokal xarakterli antiterror əməliyyatının nəticəsində 29 sentyabrdan Azərbaycan polisi şəhərə nəzarəti bərpa etmişdir.

15 oktyabr 2023-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltmışdır. 8 noyabr 2023-cü ildə şəhərdə İkinci Qarabağ Müharibəsində əldə olunmuş qələbəyə həsr olunmuş təntənəli hərbi parad keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 4013 nömrəli Sərəncamında dəyişiklik edilməsi və 20 sentyabr tarixində Xankəndi Şəhəri Günü kimi qeyd edilməsi barədə Sərəncam imzalamışdır.

Ədəbiyyat:

Əziz xalqıma söz vermişdim...və bu gün gəldi: Prezident İlham Əliyevin çıxışı /İ.Əliyev //Azərbaycan. - 2023. - 9 noyabr, № 246. - S.1-5.

Xankəndi öz gününü bayram sevinci ilə yaşayır: Flora Qasımovanın yurd nisgili, Xankəndi xoşbəxtliyi, vətən arzuları... / F.Qasımova; Y.Musayeva // Azərbaycan.– 2024.– 20 sentyabr (№205).– S.12.

Xankəndindən dünyaya açıq mesajlar: Prezident İlham Əliyev; "Milli maraqların müdafiəsi Azərbaycanın siyasətində fundamental amildir" / Z. Bayramova // Səs.– 2025.– 22 iyul(№127).– S.2-3.

Xankəndidən dünyaya sülh, əmin-amanlıq, təhlükəsizlik mesajları: Elman Nəsirov: "Prezidentin forumdakı çıxışı öz məzmunu və xarakteri etibarilə strateji əhəmiyyət kəsb edir" /Pərvanə //525-ci qəzet .-2025.- 23 iyul(№127).-S.4.


Əsgərov, Z. Azərbaycan mediası peşəkarlıq, milli maraqlar və qlobal çağırışlar fonunda: Azərbaycan Milli Mətbuatı - 150 /Z.Əsgərov //Azərbaycan .-2025.- 22 iyul (№ 149).- S.10.

İnternetdə:

https://ryl.az/other/Khankendi

Digər tarixi hadisələr

Xocalı Şəhəri Günü *(2024)*



Xocalı rayonu 1991-ci il noyabr ayının 26-da Əsgəran rayonu bazasında yaradılmışdır. Rayonun ərazisi 1991–1992-ci illərdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Sahəsi 0,94 min kv. km, əhalisi 28,8 min nəfərdir (01.01.2020). Xocalı rayonu ilə Bakı arasında olan məsafə 375 kilometrdir. Rayon Laçın, Kəlbəcər, Ağdam, Xocavənd və Şuşa rayonları ilə qonşudur. Rayonda 1 şəhər, 1 qəsəbə (Əsgəran), 50 kənd olmuşdur. Mərkəzi Xocalı şəhəridir. İşğala qədər rayonda 56 mədəniyyət müəssisəsi, muzeylər, texnikum, orta məktəblər, səhiyyə müəssisələri, kənd təsərrüfatı və sənaye müəssisələri, aeroport və s. fəaliyyət göstərirdi.

Rayonun ərazisi əsasən dağlıqdır. Ən hündür yüksəklikləri Qızqala və Qırxqızdır (2843 m, 2827 m). Dağlıq ərazilər istisna olmaqla, iqlimi mülayim-istidir. Yüksək dağlıq ərazilər subalp və alp çəmənləridir. Əsas çayları Badara və Qarqardır. Dağ-meşə və dağ-çəmən torpaqları mövcuddur. Ərazinin 40 faizədək hissəsi fıstıq, cökə, ağcaqayın, qaraağac və s. ilə zəngindir.

Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli faciələrdən biri də Xocalı soyqırımıdır. Xocalı faciəsi Xatın, Liditsa, Oradur soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı olaydır. Xocalı 1991-ci ilin oktyabrından blokadada idi.

Oktyabrın 30-da avtomobil əlaqəsi kəsilmiş və yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşa şəhərinin səmasında mülki vertolyotun vurulması və nəticədə 40 nəfərin həlak olması ilə bu əlaqə də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik verilmirdi. Şəhər yalnız əhalinin qəhrəmanlığı və müdafiəçilərin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdu. Şəhərin müdafiəsi əsasən atıcı silahlarla silahlanmış yerli özünümüdafiə dəstəsi, milis və Milli Ordunun döyüşçülərindən təşkil olunmuşdu. Fevralın ikinci yarısından başlayaraq Xocalı erməni silahlı dəstələrinin mühasirəsinə alınmış və hər gün toplardan, ağır texnikadan atəşlərə, erməni dəstələrinin həmlələrinə məruz qalırdı.

Xocalıya hücuma hazırlıq fevralın 25-də axşam 366-cı alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlanmışdı. Şəhərə hücum toplardan, tanklardan, "Alazan" tipli zenit toplarından iki saatlıq atəşdən sonra başladı. Xocalıya üç istiqamətdən hücum aparıldığından əhali Əsgəran istiqamətində qaçmağa məcbur olmuşdu. Naxçıvanlı kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar gülləborana tutulmuşdur. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əsgəran–Naxçıvanlı düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdir.

2020-ci il İkinci Qarabağ müharibəsi ərzində Xocalı rayonunun 9 kəndi Ermənistan işğalından azad olunmuşdur. Bu hadisədən sonra Xocalı üzərində Azərbaycanın suverenliyi bərqərar olmuş və Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa edilmişdir.

2025-ci ilin sonunadək ümumilikdə 197 fərdi ev hazır olacaq. Gələn il isə daha 159 fərdi evin təmir-tikintisi yekunlaşacaq. 2025-ci il iyulun 14-də 28 ailə, ümumilikdə 125 nəfər, yaşamaq üçün kəndə qayıdıb.

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 4013 nömrəli Sərəncamında dəyişiklik edilməsi və 20 sentyabr tarixində Xocalı şəhəri günü kimi qeyd edilməsi barədə Sərəncam imzalamışdır.

Ədəbiyyat:

"İlham Əliyev bizə qələbənin ardınca suverenlik qürurunu da bəxş etdi": Xocalı ikiqat bayram sevinci yaşadı / E.Qəniyev // Azərbaycan.– 2024.– 22 sentyabr (№207).– S.3.

"Xocalı: faciədən Zəfərə!" // Mədəniyyət.– 2024.– 28 fevral,№(16).– S.4.

Bayramova, Z. Bütöv və suveren Azərbaycanın şəhərlər günü /Z.Bayramova //Səs .-2025.- 20 sentyabr (№171).- S.3.

Qardaşxanova, Ə. Azadlığın bayramı Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhər günlərini qeyd edirlər /Ə.Qardaşxanova// Azərbaycan.-2025.- 20 sentyabr (№201).- S.5.

Baxşəliyev, R. "İndi bizim də günümüz var, Xocalı Şəhər Günümüz var!": Xocalılılar xilaskarları İlham Əliyevə növbəti hədiyyəsinə görə minnətdardırlar /R.Baxşəliyev //Azərbaycan .-2024.- 20 sentyabr (№205).- S.13.

İnternetdə:

https://ordu.az/az/news/332598/bu-gun-xankendi,-xocali,-xocavend-ve-agdere-seherleri-gunudur

Digər tarixi hadisələr

Xocavənd Şəhəri Günü *(2024)*



Ədəbiyyat:

Məmmədov, A. Hadrut: (Tarixi-arxeoloji tədqiqat) /A. Məmmədov, H. Məmmədzadə, A. Məmmədzadə ; baş red. A. Q. Seyidov ; elmi red. Q. C. Cəbiyev ; [dizayner F. Əliəsgərli].- Bakı: [n. y.], 2022.- 106 s.

Böyük Qayıdış: Xocavənd: Qarabağ iqtisadi rayonu : [9 kitabça 1 paketdə : Azərb. və ing. dillərində] / [Azərb. Resp. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi].- [Bakı]: [RAF Poliqraf 2017], [2023].- 24 s.

Xocavənd yenidən qurulur, abadlaşır: Tuğ və Hadrutda turizm informasiya mərkəzi fəaliyyət göstərəcək / Q.Məmmədov // Azərbaycan.– 2024.– 1 avqust (№ 161).– S.12.

Hadrutda seçicilər ruh yüksəkliyi ilə səs verdilər // Azərbaycan.– 2024.– 2 sentyabr (№ 189).– S.12.

Prezident İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsində olub //Azərbaycan.-2025.- 16 sentyabr (№ 197).- S.2.

Prezident İlham Əliyev Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində olub // Azərbaycan.-2025.- 16 sentyabr (№ 197).- S.3.

İnternetdə:

https://www.azerbaijan-news.az/az/posts/detail/bu-gun-xankendi-xocali-xocavend-ve-agdere-seherleri-gunudur-1726777452/338587

Xocalı rayonu 1991-ci il noyabr ayının 26-da Əsgəran rayonu bazasında yaradılmışdır. Rayonun ərazisi 1991-1992-ci illərdə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Sahəsi 0,94 min kv. km, əhalisi 28,8 min nəfərdi (01.01.2020). Xocalı rayonu ilə Bakı arasında olan məsafə 375 kilometrdir. Rayon Laçın, Kəlbəcər, Ağdam, Xocavənd və Şuşa rayonları ilə qonşudur. Rayonda 1 şəhər, 1 qəsəbə (Əsgəran), 50 kənd olmuşdur. Mərkəzi Xocalı şəhəridir. İşğala qədər rayonda 56 mədəniyyət müəssisəsi, muzeylər, texnikum, orta məktəblər, səhiyyə müəssisələri, kənd təsərrüfatı və sənaye müəssisələri, aeroport və s. fəaliyyət göstərirdi.

Rayonun ərazisi əsasən dağlıqdır. Ən hündür yüksəkliyi Qızqala və Qırxqızdır (2843 m, 2827 m). Dağlıq ərazilər istisna olmaqla, iqlimi mülayim-istidir. Yüksək dağlıq əraziləri subalp və alp çəmənlərdir. Əsas çayları Badara və Qarqardır. Dağmeşə və dağ-çəmən torpaqları mövcuddur. Ərazinin 40 %-ə qədəri fısdıq, cökə, ağcaqayın, qaraağac və s. ilə zəngindir. Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli faciələrdən biri də Xocalı soyqırımıdır. Xocalı faciəsi Xatın, Lidisa, Oradur soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı olaydır. Xocalı 1991-cı ilin oktyabrından blokadada idi.


Oktyabrın 30-da avtomobil əlaqəsi kəsilmiş və yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşa şəhərinin səmasında mülki vertolyotun vurulması və nəticədə 40 nəfərin həlakından sonra isə bu əlaqə də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik verilmirdi. Şəhər ancaq əhalinin qəhrəmanlığı və müdafiəçilərin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdu. Şəhərin müdafiəsi əsasən atıcı silahlarla silahlanmış yerli özünümüdafiə dəstəsi, milis və Milli Ordunun döyüşçülərindən təşkil olunmuşdu. Fevralın ikinci yarısından başlayaraq Xocalı erməni silahlı dəstələrinin mühasirəsinə alınmışdı və hər gün toplardan, ağır texnikadan atəşlərə, erməni dəstələrinin həmlələrinə məruz qalırdı.

Xocalıya hücuma hazırlıq fevralın 25-də axşam 366-cı alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlanılmışdı. Şəhərə hücum toplardan, tanklardan, "Alazan" tipli zenit toplardan 2 saatlıq atəşdən sonra başlandı. Xocalıya üç istiqamətdən hücum aparıldığından əhali Əsgəran istiqamətində qaçmağa məcbur olmuşdu. Naxçıvanlı kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar gülləborana tutulmuşlar. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əsgəran-Naxçıvanlı düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdir. 2020-ci il İkinci Qarabağ müharibəsi ərzində Xocalı rayonunun 9 kəndi Ermənistan işğalından azad olunmuşdur.

Xocalı üzərində Azərbaycanın suverenliyi bərqərar olmuş, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunmuşdur. Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 4013 nömrəli Sərəncamında dəyişiklik edilməsi və 20 sentyabr tarixində Xocalı Şəhəri Günü kimi qeyd edilməsi barədə Sərəncam imzalamışdır.

Digər tarixi hadisələr

Ağdərə Şəhəri Günü *(2024)*



Ağdərə — Azərbaycan Respublikası Milli Məclisinin 13 oktyabr 1992-ci il tarixli, 327 saylı Qərarı ilə ləğv edilmiş Ağdərə rayonunun Ağdərə şəhəri Tərtər rayonunun inzibati tərkibinə verilmişdir.

Ağdərə şəhəri 1923-cü ildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində olan Ağdərə rayonuna tabe edilmişdir. Rayon 8 avqust 1930-cu ildə təşkil edilmişdir. 1960-cı ildə şəhər tipli qəsəbə, 1985-ci ildə isə şəhər statusu almışdır.

XIX əsrin I yarısında burada məskunlaşmış qonşu Qasapet kəndindən çıxmış ermənilər rayonun və qəsəbənin adını 1923-cü ildən 10 sentyabr 1939-cu ilədək Cerabert, 1939-cu ildən isə Mardakert kimi rəsmiləşdirmişdilər. 1992-ci ildən rayonun ərazisi Tərtər rayonuna birləşdirilmiş, şəhər isə əvvəlki adı ilə – Ağdərə adlandırılmışdır.

Qarabağ düzünü Yuxarı Qarabağla birləşdirən keçidin adı Şahbuz, Şamaxı və Ordubad rayonlarında işlənən "Ağdərə" toponimləri ilə mənaca eynidir.

Ağdərə şəhəri Dağlıq Qarabağdakı bir çox ərazilər kimi Qarabağ müharibəsinin başlanğıcında erməni hərbçilərinin nəzarəti altına keçmişdir. 1992-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hücumu nəticəsində iyulun 4-də Ağdərə şəhəri erməni işğalçılarından azad edilmiş, Ağdərəyə ilk Azərbaycan bayrağını sancan tərtərli Baxşəliyev Ələmdar Asdan oğlu olmuşdur.

Bir il boyunca şəhər ətrafındakı kəndlərdə və yüksəkliklərdə aramsız döyüşlər gedir. Lakin 1993-cü ildə Azərbaycanda 4 iyun Gəncə qiyamı baş verir. Qarabağ cəbhəsində döyüşən orduya rəhbərlik edən Surət Hüseynov mərkəzi hakimiyyətə qarşı qiyam edərək Bakıya doğru hücuma keçir. Onun rəhbərlik etdiyi ordu bölmələri öz mövqelərini qoyaraq Bakıya doğru irəliləmişlər. Bundan məharətlə istifadə edən ermənilər 27 iyun 1993-cü ildə Ağdərə şəhərini yenidən işğal etmişdir.

2023-cü il sentyabrın 20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror əməliyyatı nəticəsində Ağdərə şəhəri Azərbaycanın nəzarətinə qayıtmışdır.

10 noyabr 2020-ci il üçtərəfli atəşkəs bəyanatına əsasən şəhər müvəqqəti olaraq Rusiya Sülhməramlı Qüvvələrinin nəzarət zonasına daxil edilmişdi. 19-20 sentyabr 2023-cü il tarixlərində Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi antiterror tədbirləri nəticəsində Ağdərə tam şəkildə Azərbaycan nəzarətinə qaytarılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü il oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. 5 dekabr 2023-cü ildə Ağdərə şəhəri Ağdərə rayonunun tərkibinə daxil edilmişdir.

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 iyul tarixli 4013 nömrəli Sərəncamında dəyişiklik edilməsi və 20 sentyabr tarixinin Ağdərə Şəhəri Günü kimi qeyd edilməsi barədə Sərəncam imzalamışdır.

Ədəbiyyat:

Ağdərə rayonu üzrə mədəniyyət abidələri və müəssisələrin siyahısı müəyyənləşib // Mədəniyyət.–2024.– 26 iyul, №55-56.– S.4.

Qardaşxanova, Ə. Azadlığın bayramı: Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhər günlərini qeyd edirlər /Ə.Qardaşxanova //Azərbaycan.-2025.- 20 sentyabr (№201).- S.5.

Bayramova, Z. Ağdərə rayonunun Həsənriz kəndinə növbəti köç /Z.Bayramova //Səs.-2025.- 23 sentyabr (№172).- S.13.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin açıqlaması //Azərbaycan.-2025.- 12 iyun (№ 119).- S.7.

İnternetdə:

https://oxu.az/cemiyyet/azerbaycanda-ilk-defe-olaraq-xankendi-xocali-xocavend-ve-agdere-seherleri-gunu-qeyd-olunur

http://www.anl.az/down/meqale/azerbaycan/2025/sentyabr/966840(meqale).pdf

Digər tarixi hadisələr

Anım günü
(2020)



Anım günü Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinin bərpası istiqamətində aparılan genişmiqyaslı hərbi əməliyyatların başlandığı 2020-ci il 27 sentyabr tarixinin dövlət səviyyəsində yad edilməsi məqsədilə təsis olunmuşdur. Prezident İlham Əliyevin İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra, 2020-ci il 2 dekabr tarixində imzaladığı "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" Sərəncama əsasən, bu gün hər il respublika üzrə rəsmi şəkildə qeyd olunur.

27 sentyabr tarixi, Azərbaycan xalqının uzunmüddətli işğal siyasətinə qarşı milli iradəyə əsaslanan hərbi-siyasi mübarizəyə rəsmən başladığı mərhələ kimi milli yaddaşda strateji əhəmiyyətə malikdir. Bu günün qeyd edilməsi, ölkənin ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərə dərin hörmətin, xalqımızın qədirbilənliyinin və tarixi yaddaşa bağlılığının rəsmi şəkildə ifadəsidir.

İkinci Qarabağ müharibəsi dövründə Azərbaycan Silahlı Qüvvələri tərəfindən Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və 53 kəndi, Zəngilan şəhəri, Mincivan, Ağbənd və Bartaz qəsəbələri, həmçinin 52 kənd, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, eləcə də Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi işğaldan azad edilmişdir. Bununla yanaşı, Ağdərə və Murovdağ istiqamətlərində bir sıra strateji yüksəkliklər, Zəngilan rayonunda Bartaz, Sığırt, Şüküraz yüksəkliyi və daha 5 adsız yüksəklik üzərində nəzarət təmin olunmuşdur.

2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata uyğun olaraq Ağdam rayonu 20 noyabrda, Kəlbəcər rayonu 25 noyabrda, Laçın rayonu isə 1 dekabrda Azərbaycana qaytarılmışdır. 2022-ci il 26 avqust tarixində Laçın şəhəri, Zabux və Sus kəndlərinin nəzarət altına alınması ilə Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə geri qaytarılması prosesi tam başa çatmışdır.

27 sentyabr tarixi yalnız milli mübarizənin başlanğıcı deyil, eyni zamanda Cənubi Qafqaz regionunda yeni təhlükəsizlik arxitekturasının formalaşmasına təkan verən geosiyasi dönüş nöqtəsi kimi qiymətləndirilir. Sülhün təmin edilməsinin yüksək insan tələfatı bahasına baş verdiyi nəzərə alındıqda, Vətən müharibəsində şəhid olmuş 2908 vətəndaşın xatirəsinin bu gün xüsusi ehtiramla anılması demokratik dövlətçilik prinsiplərinə və milli identiklik dəyərlərinə uyğun bir davranışdır.

27 sentyabr, Azərbaycan xalqının dövlətçilik iradəsinin, milli-siyasi qətiyyətinin və sarsılmaz prinsipiallığının təcəssüm olunduğu tarixi mərhələdir. Ermənistanın uzun illər davam edən təcavüzkar siyasəti və sülh danışıqlarında konstruktiv mövqe nümayiş etdirməməsi fonunda Azərbaycan Respublikasının legitim özünümüdafiə hüququnu həyata keçirməsi ədalətin bərpasına aparan prosesin başlanğıcını təşkil etmişdir.

İkinci Qarabağ müharibəsində həlak olanların xatirəsinin rəmzi olaraq Xarıbülbül simvolunun seçilməsi həm təbiət və mədəniyyət motivləri ilə bağlı semantik yükə, həm də şəhidlik fəlsəfəsinə inteqrasiya olunan mənəvi-ideoloji mahiyyətə malikdir. Hər il 27 sentyabr – Anım Günü Azərbaycan ictimaiyyəti, dünya azərbaycanlıları və ölkəmizə mənəvi bağlılıq göstərən şəxslər tərəfindən yüksək ehtiramla qeyd olunur.

Azərbaycan Milli Kitabxanası tərəfindən hər il "27 sentyabr – Anım günü" adlı virtual sərgi və eyniadlı ənənəvi kitab sərgisi hazırlanaraq istifadəçilərə təqdim olunur.

Ədəbiyyat:

27 Sentyabr-Anım Günüdür // İqtisadiyyat. - 2025.- 25 sentyabr-1 oktyabr (№38).- S.3.

27 Sentyabr Anım Gününün beşinci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı // Azərbaycan. - 2025. -1 oktyabr (№210).- S.6.

Adilqızı, N. 27 Sentyabr həm anım, həm də qürur günüdür: Zəfər yolçuları /N.Adilqızı // Xalq qəzeti. - 2025. - 26 sentyabr (№206).- S.15.

BMU-da 27 Sentyabr- Anım gününə həsr olunan konfrans keçirilib //Azərbaycan. - 2025.- 26 sentyabr (№ 206).- S.11.

Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərləri və beynəlxalq parlament təşkilatlarında Azərbaycan nümayəndə heyətlərinin başçıları 27 sentyabr – Anım Günü ilə bağlı dünya parlamentlərindəki həmkarlarına müraciəti //Azərbaycan. - 2025.- 27 sentyabr (№207).- S.2.

Ombudsman Anım Günü ilə əlaqədar bəyanat yayıb //Azərbaycan. - 2025.- 28 sentyabr (№208).- S.5.

Azərbaycan XİN Anım Günü ilə bağlı bəyanat yayıb //Azərbaycan. - 2025.- 28 sentyabr (№208).- S.5.

Əliyev, S. Anım Günü ilə bağlı tədbirlər keçirilir /S.Əliyev // Azərbaycan. - 2025.- 27 sentyabr (№207).- S.14.

OKTYABR




24 sentyabr - 23 oktyabr Tərəzi bürcü Nişanı havadır. Veneranın himayəsindədir. Günəşin Tərəzi bürcündən keçdiyi dövrdə doğulanlar yumşaq xasiyyətli, parlaq zəkalı olurlar.

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
			1	2	3	4
5	6	7	8	9	10	11
12	13	14	15	16	17	18
19	20	21	22	23	24	25
26	27	28	29	30	31	

- *Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir (03.10.1993)*
- *Azərbaycan Perpublikası Prezidentliyinə alternativ əsasda keçirilən seçkilərdə İlham Əliyev qalib gəlmişdir (15.10.2003)*
- *Dövlət Müstəqilliyinin Bərpası Günü (18.10.1991)*

Şəhərsalma və Memarlıq İli

Erməni işğalı dövründə dağıdılmış tarixi-mədəni abidələr



Şanlı Azərbaycan Ordusunun 44 günlük zəfər yürüşü doğma Qarabağımızın azadlığa qovuşdurulması ilə yanaşı, tarixi, mədəni irsimizi də erməni vandallarından xilas etdi. 30 il müddətində işğal altında saxladıqları bütün tarixi, dini abidələrimizi məhv ediblər. Cəbrayılda 132 tarixi abidə, Ağdam, Zəngilan, Qubadlı, Kəlbəcər və Füzuli rayonlarında yüzlərlə tarixi, memarlıq və mədəniyyət abidələri, on minlərlə eksponatı olan muzeylər düşmən əlinə keçərək viran edilmişdir. Şuşada XVIII əsrə aid Gövhər Ağa məscidi, Hacı Abbas məscidi və karvansaray, Hacı Yusifli məscidi, Cəbrayılda V və VII əsrlərə aid səkkizguşəli türbə, XVIII əsrə aid Sultanməcid hamamı, Zəngilanda XII əsrə aid Qız qalası, XIV əsrə aid səkkizguşəli türbə, Laçında XIV əsrə aid Məlikəjdər Türbəsi, Ağdamda dünyada ikinci olan Çörək Muzeyi, eramızdan əvvəl V əsrə aid Çalaqtəpə yaşayış məskəni, Qubadlıda IV əsrə aid Gavur dərəsi, V əsrə aid Qalalı və Keyqala abidələri, Kəlbəcərdə XIII-XVIII əsrlərə aid Xotavənd məbədi, Füzulidə 1682-ci ildə tikilmiş Qiyasəddin məscidi, 1684-cü ildə tikilmiş Qarğabazar karvansarayı və digər tarixi memarlıq abidələrimiz erməni vandalizminə məruz qalmışdır.

OKTYABR 2026



Milli ədəbiyyat

Nasir, ssenarist Ələkbərzadə Çingiz Əbülhəsən oğlunun (17.10.1936-07.01.1999) anadan olmasının 90 illiyi 806
Xalq yazıçısı, akademik, ictimai xadim İbrahimov Mirzə Əjdər oğlunun (28.10.1911-17.12.1993) anadan olmasının 115 illiyi 807



Folklor

Əməkdar mədəniyyət işçisi, yaradıcı sənətkar, aşıq Balasıyev Haşım Səftər oğlunun (07.10.1946) anadan olmasının 80 illiyi 808



Dünya ədəbiyyatı

Tatarıstan yazıçısı, şair, dramaturq və publisist Mirheydər Mustafa oğlu Feyzullin (19.10.1891-09.07.1928) anadan olmasının 135 illiyi
Qazax yazıçısı, pedaqoq İbıray Altınsarin (20.10.(1.11)1841-17.(29).07.1889) anadan olmasının 185 illiyi



Rəssamlıq. Heykəltəraşlıq

Əməkdar incəsənət xadimi, heykəltəraş Zeynalov Telman Heydər oğlunun (20.10.1931-12.01.2024) anadan olmasının 95 illiyi 809
Xalq rəssamı, professor, xalçaçı-rəssam Əliyev Kamil Müseyib oğlunun (22.10.1921-01.03.2005) anadan olmasının 105 illiyi 810
Fransız rəssamı Pikasso Pablonun (25.10.1881-08.04.1973) anadan olmasının 145 illiyi
Xalq rəssamı Xəlilov Fərhad Qurban oğlunun (26.10.1946) anadan olmasının 80 illiyi 811



Musiqi. Opera. Balet

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, musiqişünas Kərimova Tahirə Məmməd qızının (08.10.1946) anadan olmasının 80 illiyi
Əməkdar artist, müğənni Əmrahov Teymur Həşim oğlunun (Teymur Əmrah) (08.10.1971) anadan olmasının 55 illiyi 812
Xalq artisti, bəstəkar, professor Mustafayev Ramiz Hacı oğlunun (16.10.1926-10.04.2008) anadan olmasının 100 illiyi 813
Xalq artisti, müğənni Ağayeva Tünzalə Qabil qızının (21.10.1976) anadan olmasının 50 illiyi
Xalq artisti, opera müğənnisi Bədirov Mürsəl Tağı oğlunun (27.10.1931-26.02.2003) anadan olmasının 95 illiyi 814

OKTYABR 2026



Teatr. Kino

Xalq artisti Quliyev Nurəddin Əzulla oğlunun (Nurəddin Mehdixanlı) (06.10.1956) anadan olmasının 70 illiyi 815
Əməkdar incəsənət xadimi, kinooperator Məmmədov Kənan Əzizağa oğlunun (09.10.1946) anadan olmasının 80 illiyi 816
Əməkdar artist, fəxri mədəniyyət işçisi, rejissor Paşayev Fərmail Sabir oğlunun (12.10.1966) anadan olmasının 60 illiyi 817
Xalq artisti, rejissor Raykin Arkadi İsaakoviçin (24.10.1911-17.12.1987) anadan olmasının 115 illiyi
Xalq artisti, aktyor Məlikova Nəcibə Haşım qızının (25.10.1921-27.07.1992) anadan olmasının 105 illiyi 818
Xalq artisti, aktyor Salmanlı Ağaxan Əli oğlunun (29.10.1941-29.02.2020) anadan olmasının 85 illiyi 819
Əməkdar incəsənət xadimi, rejissor Babazadə Oqtay Ələkbər oğlunun (30.10.1941) anadan olmasının 85 illiyi 820



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Nəsibov Kamil Balədə oğlunun (08.10.1946-29.06.1992) anadan olmasının 80 illiyi 821
Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycan Silahlı Qüvvələrinin və Xüsusi Təyinatlı Qüvvələrin mayoru İmanov Samid Gülağa oğlunun (14.10.1981-04.04.2016) anadan olmasının 45 illiyi 822
Azərbaycanın Milli Qəhrəmanı Bayramov Soltanağa Nəhmət oğlunun (17.10.1936-23.08.1993) anadan olmasının 90 illiyi 823
Azərbaycanın Milli Qəhrəmanı Makeyev İqor Vladimiroviçin (27.10.1971-02.08.1992) anadan olmasının 55 illiyi 824



İkinci Qarabağ Müharibəsi Şəhidləri

MAHHXHQ əsgər Əhmədzadə Elməddin Uğur oğlunun (01.10.1996-27.09.2020) anadan olmasının 30 illiyi 825
Gizir Abdurahmanov Elvin Əbülfəz oğlunun (01.10.1996-02.10.2020) anadan olmasının 30 illiyi 825
MAHHXHQ kiçik çavuş Hüseynov Mustafa Ələddin oğlunun (01.10.1996-27.09.2020) anadan olmasının 30 illiyi 826
Əsgər Eyvazov Əbülhəsən Balaş oğlunun (01.10.1996-30.10.2020) anadan olmasının 30 illiyi 826
MAHHXHQ əsgər Məmmədov Qəhraman Qürbət oğlunun (01.10.1996-16.10.2020) anadan olmasının 30 illiyi 827
Əsgər Məmmədzadə Toğrul Pərviz oğlunun (01.10.2001-18.10.2020) anadan olmasının 25 illiyi 827

Əsgər Musayev Murad Polad oğlunun (01.10.2001-28.09.2020) anadan olmasının 25 illiyi 828
Əsgər Şahbazlı Əlikram Novruz oğlunun (01.10.2001-06.10.2020) anadan olmasının 25 illiyi.....828
Gizir Əliyev Vüsal Məhəmmədəli oğlunun (02.10.1991-09.10.2020) anadan olmasının 35 illiyi 829
Mülki qulluqçu Əliyev Rövşən İbrahim oğlunun (02.10.1971-28.09.2020) anadan olmasının 55 illiyi 829
Əsgər Qasımov Mürtaza Elman oğlunun (02.10.2001-09.11.2020) anadan olmasının 25 illiyi 830
Əsgər Səfərəliyev Rəşad Fərman oğlunun (02.10.2001-27.09.2020) anadan olmasının 25 illiyi 830
Əsgər Xəmmədov Əmral Zaur oğlunun (02.10.2001-15.10.2020) anadan olmasının 25 illiyi 831
Əsgər Məmmədov Rüstəm Müsəllim oğlunun (03.10.2001-03.11.2020) anadan olmasının 25 illiyi 831
Əsgər Nəsibov Nicat Səməd oğlunun (03.10.1996-27.10.2020) anadan olmasının 30 illiyi 832
Əsgər Abdulov İdrət İbi oğlunun (05.10.2001-18.10.2020) anadan olmasının 25 illiyi 832
Baş leytenant Bayramov Ruslan Azəroğlunun (05.10.1996-09.11.2020) anadan olmasının 30 illiyi 833
MAHHXHQ əsgər Hüseynov Ceyhun Möhübbət oğlunun (05.10.1991-16.10.2020) anadan olmasının 35 illiyi 834
Əsgər Kərimli Orxan Akif oğlunun (06.10.2001-09.10.2020) anadan olmasının 25 illiyi 834
Baş gizir Hüseynli İlqar Şəmiyyət oğlunun (06.10.1976-27.11.2020) anadan olmasının 50 illiyi 835
Əsgər İbrahimxəlilov Söyxan Eldəniz oğlunun (06.10.2001-29.09.2020) anadan olmasının 25 illiyi 835
Leytenant Əliyev Əmirulla Vahid oğlunun (07.10.1996-28.09.2020) anadan olmasının 30 illiyi 836
Əsgər Musayev Rüfət Ülfət oğlunun (08.10.2001-12.10.2020) anadan olmasının 25 illiyi 837
Əsgər Mustafayev Nicat Bəkir oğlunun (08.10.2001-05.10.2020) anadan olmasının 25 illiyi 837
Əsgər Orucov Ürfan Firdovsi oğlunun (09.10.1996-11.10.2020) anadan olmasının 30 illiyi 838
Əsgər Mərdanov Vaqif Ədalət oğlunun (10.10.2001-03.11.2020) anadan olmasının 25 illiyi 838
MAHHXHQ əsgər Yunisli Ruslan Elçin oğlunun (10.10.1996-28.09.2020) anadan olmasının 30 illiyi 839

MAHHXHQ əsgər Quliyev Həsən Adışirin oğlunun (11.10.1996-21.11.2020) anadan olmasının 30 illiyi 839
Əsgər Quluyev Azər Zakir oğlunun (11.10.1996-23.10.2020) anadan olmasının 30 illiyi 840
Əsgər Rüstəmov Arif Seymur oğlunun (11.10.2001-03.11.2020) anadan olmasının 25 illiyi 840
Əsgər Şahmarlı Vüsal Mərdan oğlunun (11.10.1996-18.10.2020) anadan olmasının 30 illiyi 841
Əsgər Mənəfli Əli Əflan oğlunun (12.10.2001-14.11.2020) anadan olmasının 25 illiyi 841
Əsgər Rzazadə Fərhad Mirzə oğlunun (12.10.2001-03.10.2020) anadan olmasının 25 illiyi 842
Əsgər Əhmədli Nurlan Rəhim oğlunun (12.10.1996-26.10.2020) anadan olmasının 30 illiyi 842
MAHHXHQ əsgər Şəfiyev Rəşad Vaqif oğlunun (13.10.1991-28.10.2020) anadan olmasının 35 illiyi 843
Əsgər Nəcəfov Yusif Nadir oğlunun (14.10.2001-13.10.2020) anadan olmasının 25 illiyi 843
MAHHXHQ əsgər Tağıyev Anar Zakir oğlunun (14.10.1996-03.10.2020) anadan olmasının 30 illiyi 844
MAHHXHQ əsgər Ələsgərov Yusif Yaşar oğlunun (14.10.1996-07.11.2020) anadan olmasının 30 illiyi 844
Əsgər Əhmədzadə Rüfət Əbülfət oğlunun (15.10.2001-29.09.2020) anadan olmasının 30 illiyi 845
Əsgər Hüseynli Əkbər Azər oğlunun (15.10.2001-27.09.2020) anadan olmasının 25 illiyi 845
Leytenant Dünyamalıyev Ceyhun Zeynal oğlunun (15.10.1996-08.11.2020) anadan olmasının 30 illiyi 846
Əsgər Abdullayev Vaqif Rəşid oğlunun (15.10.1996-03.11.2020) anadan olmasının 30 illiyi 847
Əsgər Əlizadə Eltac İsmayıl oğlunun (15.10.1996-27.10.2020) anadan olmasının 30 illiyi 847
Əsgər Rzayev Qəhrəman Bəhmən oğlunun (16.10.1996-07.11.2020) anadan olmasının 30 illiyi 848
MAHHXHQ əsgər Şirinli Nurlan Qədir oğlunun (16.10.1996-07.10.2020) anadan olmasının 30 illiyi 848
MAHHXHQ əsgər Teymurlu Mirrahil Ramiz oğlunun (16.10.1991-27.09.2020) anadan olmasının 35 illiyi 849
Əsgər İsmayılzadə Vüsal Əlibəndə oğlunun (17.10.2001-22.10.2020) anadan olmasının 25 illiyi 849
Əsgər Maxsudov Bəxtiyar Mansur oğlunun (17.10.1996-24.10.2020) anadan olmasının 30 illiyi 850

OKTYABR 2026

MAHHXHQ çavuş Ömərov Orxan İmran oğlunun (17.10.1991-07.11.2020) anadan olmasının 35 illiyi 850
Əsgər Qasımov Nicat Elşan oğlunun (17.10.1991-02.10.2020) anadan olmasının 35 illiyi 851
Gizir Vəliyev Elyar Arif oğlunun (17.10.1991-19.10.2020) anadan olmasının 35 illiyi 851
Əsgər Məmmədli Seymur Hacırəsul oğlunun (19.10.1996-11.10.2020) anadan olmasının 30 illiyi 852
Əsgər Əliyev Qara Kamal oğlunun (20.10.2001-23.10.2020) anadan olmasının 25 illiyi 852
Əsgər Mehtili Eşqin Tərlan oğlunun (20.10.2001-14.10.2020) anadan olmasının 25 illiyi 853
MAHHXHQ əsgər Məmmədov Ceyhun Qafar oğlunun (20.10.1996-25.10.2020 anadan olmasının 30 illiyi 853
Əsgər Quliyev Əli Turac oğlunun (20.10.2001-27.10.2020) anadan olmasının 30 illiyi 854
Əsgər Zeynallı Elşad Elman oğlunun (22.10.1996-01.10.2020) anadan olmasının 30 illiyi 854
MAHHXHQ matros Əliyev Bəybala Fazil oğlunun (22.10.1996-02.10.2020) anadan olmasının 30 illiyi 855
Kiçik çavuş Salyayev Aqil Anar oğlunun (23.10.1996-26.10.2020) anadan olmasının 30 illiyi 855
Baş leytenant Rustamov Ruslan Nüsrət oğlunun (23.10.1981-02.10.2020) anadan olmasının 45 illiyi 856
Çavuş Şükürlü Nicat Ayaz oğlunun (23.10.1991-11.10.2020) anadan olmasının 35 illiyi 857
Əsgər Hüseynov Mirəli Arif oğlunun (25.10.1996-28.10.2020) anadan olmasının 30 illiyi 857
Gizir Babayev Elməddin Cəfərqulu oğlunun (26.10.1981-29.09.2020) anadan olmasının 45 illiyi 858
Əsgər İsayev Ceyhun Rüstəm oğlunun (26.10.2001-26.10.2020) anadan olmasının 25 illiyi 858
Mayor İsmayılov Fuad Murad oğlunun (26.10.1986-04.10.2020) anadan olmasının 40 illiyi 859
MAHHXHQ əsgər Qasımov Oruc Afiq oğlunun (26.10.1996-13.10.2020) anadan olmasının 30 illiyi 860
Əsgər Məmmədov İsmayıl Fazil oğlunun (27.10.2001-14.10.2020) anadan olmasının 25 illiyi 860
Əsgər Rəhimli Tural Gəray oğlunun (27.10.2001-30.09.2020) anadan olmasının 25 illiyi 861
Əsgər Mehtiyev Taleh Musa oğlunun (28.10.2001-07.10.2020) anadan olmasının 25 illiyi 861

Əsgər Hüseynzadə Elgiz İbrahim oğlunun (28.10.2001-22.10.2020) anadan olmasının 25 illiyi 862
Əsgər Nağıyev Baloğlan Müdahət oğlunun (29.10.1996-24.10.2020) anadan olmasının 30 illiyi 862
Əsgər Quliyev Teymur Zamin oğlunun (29.10.2001-24.10.2020) anadan olmasının 25 illiyi 863
Əsgər Alıyev Qələndər Nofəl oğlunun (31.10.2001-10.10.2020) anadan olmasının 25 illiyi 863
Əsgər Qasımzadə Tahir Sərdar oğlunun (31.10.2001-29.10.2020) anadan olmasının 25 illiyi 864
Əsgər Rəhimli Murad İlqar oğlunun (31.10.1991-07.10.2020) anadan olmasının 35 illiyi 864



Siyasət. Hüquq. Hərbi iş

İlk azərbaycanlı hərbi pilot, poruçik Qayıbov Fərrux ağa Məmmədkərimağa oğlunun (02.10.1891-12.09.1916) anadan olmasının 135 illiyi
Siyasi xadim, şair Əliyeva Jalə Fazil qızının (05.10.1966) anadan olmasının 60 illiyi 865
Siyasi elmlər doktoru, professor Abdullayev Vaqif İdris oğlunun (16.10.1956) anadan olmasının 70 illiyi
Hərbi xadim, general Mehmandarov Səməd bəy Sadıq bəy oğlunun (16.10.1856 (1855)-12.02.1931) anadan olmasının 170 illiyi 866
Əməkdar hüquqşünas, hüquq elmləri namizədi doktoru, professor Sarıcalinskaya Kamilə Qiyas qızının (22.10.1926-03.12.2012) anadan olmasının 100 illiyi 867
Azərbaycanın ilk sərhədçi generalı Nəsirov Mustafa Cəfər oğlunun (25.10.1921-27.05.2012) anadan olmasının 105 illiyi



Fəlsəfə. İqtisadiyyat

Türk filosofu, sosioloq Hilmi Ziya Ülkənin (03.10.1901-05.06.1974) anadan olmasının 125 illiyi 868
Əməkdar mühəndis, Sosialist Əməyi Qəhrəmanı, fəxri neftçi Abbasov Qurban Abbasqulu oğlunun (Neftçi Qurban) (26.10.1926-14.09.1994) anadan olmasının 100 illiyi 869
Əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor Əhmədli Cəmil Teymur oğlunun (27.10.1931-09.02.2010) anadan olmasının 95 illiyi 870



Tarix


Tarix elmləri doktoru, professor, arxeoloq Nuriyev Aləm Bayram oğlunun (07.10.1936-20.09.2004) anadan olmasının 90 illiyi 871
Tarixçi Qacar Qovanlı Bəhmən Mirzə Abbas Mirzə oğlunun

(11.10.1811-11.02.1884) anadan olmasının 215 illiyi
Tarix elmləri doktoru, professoru Əliyev Qabil Əli oğlunun (13.10.1956) anadan olmasının 70 illiyi 872
Tarix elmləri doktoru, professor Yusifov Yusif Niftalı ağa oğlunun (20.10.1906-14.06.1995) anadan olmasının 120 illiyi 873



Mədəniyyət. Maarif. Təhsil

Əməkdar elm xadimi ədəbiyyatşünas, AMEA-nın müxbir üzvü, ədəbiyyatşünas, tənqidçi Zamanov Abbas Fəttah oğlunun (10.10.1911-01.04.1993) anadan olmasının 115 illiyi 874
Maarifçi Qaspiralı (Qasprinskaya) Şəfiqə İsmayıl bəy qızının (14.10.1886-31.08.1975) anadan olmasının 140 illiyi
Filologiya üzrə fəlsəfə doktoru, ədəbiyyatşünas Əhmədli Salatın Alı qızının (18.10.1956) anadan olmasının 70 illiyi
Xalq artisti, diktor Ələsgərov Sabir Məmməd oğlunun (27.10.1936-20.11.2020) anadan olmasının 90 illiyi 875
Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Musayeva Azadə Şahbaz qızının (28.10.1946) anadan olmasının 80 illiyi 876
Tarix elmləri doktoru, professor, kulturoloq Məmmədov Fuad Teyyub oğlunun (28.10.1946) anadan olmasının 80 illiyi 877



Riyaziyyat. Fizika. Astronomiya

Akademik, fizika-riyaziyyat elmləri doktoru, professor Mehdiyev Məhəmməd Fərman oğlunun (02.10.1941) anadan olmasının 85 illiyi 878
AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Mərdanov Misir Cumayıl oğlunun (03.10.1946) anadan olmasının 80 illiyi 879
Fizika-riyaziyyat elmləri doktoru, professor Qocayev Niftalı Mehralı oğlunun (18.10.1936) anadan olmasının 90 illiyi 880



Kimya. Biologiya. Tibb

Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Əliyev Tamerlan Əziz oğlunun (03.10.1921-07.04.1997) anadan olmasının 105 illiyi 881
Pediatr, tibb elmləri doktoru, professor İsrafilova Nelufər Möhsün qızının (04.10.1926-31.01.1996) anadan olmasının 100 illiyi
Kimya üzrə elmlər doktoru, professor Məmmədov Sabit Eyyub oğlunun (28.10.1951) anadan olmasının 75 illiyi
Biologiya üzrə elmlər doktoru, professor Məmmədov Arif Məmməd oğlunun (29.10.1941) anadan olmasının 85 illiyi

OKTYABR 2026



Texnika. Mühəndis işi

Texnika elmləri doktoru, professor Qasımzadə Məmmədcavad Süleyman oğlunun (16.10.1911-1992) anadan olmasının 115 illiyi
Mexanik-filosof, texnika elmləri doktoru, professor Canəhmədov Əhəd Xanəhməd oğlunun (23.10.1946) anadan olmasının 80 illiyi 882
AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor İsmayılov İsmayıl Mahmud oğlunun (25.10.1946) anadan olmasının 80 illiyi 883



Kitabxanaşünaslıq. Biblioqrafiya

Biblioqraf alimi Qəhrəmanov Əliheydər Baba oğlunun (25.10.1911-23.03.1959) anadan olmasının 115 illiyi 884



Digər tarixi hadisələr

Beynəlxalq Musiqi Günü (01.10.1975) 885
Beynəlxalq Ahıllar Günü (01.10.1992)
Prokurorluq İşçiləri Günü (01.10.1998)
Beynəlxalq Qeyri-zorakılıq Günü (02.10.2007)
Türkdilli Dövlətlərin Əməkdaşlıq Günü (03.10.2009)
Cəbrayıl Şəhəri Günü (04.10.2023) 886
Heyvanların Beynəlxalq Müdafiəsi Günü (04.10.1931)
Beynəlxalq Müəllimlər Günü (05.10.1966) 887
Ümumdünya Quşları Müşahidə Günü (5-6.10.1993)
Ümumdünya Yaşayış Yerini Qoruma Günü (06.10.1979)
Ümumdünya Poçt Günü (09.10.1969)
Yanğınsöndürənlərin Peşə Bayramı Günü (10.10.2002)
Qars müqaviləsi imzalanmışdır (13.10.1921)
Dəmiryolu İşçilərinin Peşə Bayramı Günü (13.10.2005)
Ümumdünya Yoxsulluqla Mübarizə Günü (17.10.1992)
Füzuli Şəhəri Günü (17.10.2023) 888
Müstəqilliyin Bərpası Günü (18.10.1991) 35-ci ildönümü 889
Zəngilan Şəhəri Günü (20.10.2023) 890
Energetiklər Günü (20.10.2004)
Beynəlxalq Kulinariya Günü (20.10.2007) 891
Birləşmiş Millətlər Təşkilatı Günü (24.10.1948)
Moskvada Nizami Gəncəvinin abidəsi açılmışdır (25.10.1991)
Qubadlı Şəhəri Günü (25.10.2023) 892
Ümumdünya siyasi repressiya qurbanlarının xatirə günü (30.10.1974)

Çingiz Ələkbərzadə – 90

(1936-1999)

Nasir, ssenarist



Ədəbiyyat:

Qumarbaz / Çingiz Ələkbərzadə; Red. İ. Sadıq.– Bakı: Azərnəşr, 1993.– 296 s.

Zindan: Roman / Ç. Ələkbərzadə; red. M. Axundov; rəss. A. Ələkbərov.– Bakı: "Yazıçı" ədəbi nəşrlər evi, 1995.– 200 s.

Azərbaycan məhbəs nəsrinin yaradıcısı / R.Yerfi // Kaspi.– 2015.– 21-23 noyabr.– S.22.

Nəşriyyatlarda keçən ömrüm: (Xatirələr) / M. Çəmənli // Ədalət.– 2017.– 4 mart.– S.14.

Çingiz Ələkbərzadənin "Zindan" kitabının təqdimatı // Xalq Cəbhəsi.– 2019.– 31 oktyabr.– S.16.

Seçilmiş əsərləri / Ç. Ələkbərzadə; ön söz. müəl. Elçin; [naşir E. Məmmədov; üz qabığının dizaynı M. Sadıqzadə]; Azərb. Resp. Mədəniyyət Nazirliyi.– Bakı: Aspoliqraf, 2022.– 358, [2] s.

"Axirət evində məşəlin yanar...": Yazıçı Çingiz Ələkbərzadənin xatirəsinə / Ə.Hüseynov // 525-ci qəzet.– 2023.– 3 fevral.– S.13.

Ağabalayeva, S. Bənövşələr qar göyərdən yerdə əriyən torpaq /S.Ağabalayeva //525-ci qəzet.-2025. - 11 aprel(№60).- S.10-11;12

Çingiz Əbdülhəsən oğlu Ələkbərzadə 1936-cı il oktyabr ayının 17-də Bakı şəhərində anadan olmuşdur. 1955-1960-cı illərdə ADU-nun (indiki BDU) filologiya fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1960-cı ildə Əli Bayramlı rayonundakı 2 saylı orta məktəbdə müəllim kimi başlamışdır. 1961-1966-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri son xəbərlər redaksiyasında işləmişdir. 1966-1968-ci illərdə İsmayıllı rayonundakı İvanovka kəndində müəllim, 1968-1971-ci illərdə Əli Bayramlı rayonunda "İşıq" qəzeti redaksiyasında məktublar şöbəsinin müdiri, 1971-1972-ci illərdə İsmayıllı rayonunda "Zəhmətkeş" qəzeti redaksiyasında məktublar şöbəsinin müdiri, 1972-1973-cü illərdə Azərbaycan SSR Televiziya və Radio Verilişləri

Komitəsində "Günün səsi" xəbərlər baş redaksiyasında müxbir, 1973-1975-ci illərdə "Azərbaycanfilm" kinostudiyasında ssenarist, 1976-1979-cu illərdə "Kirpi" satirik jurnalında ədəbi işçi, 1979-1984-cü illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində "Günün ekranı" redaksiyasında ştatdankənar müxbir, 1984-1989-cu illərdə Şirvan zonası üzrə xüsusi müxbir olmuşdur.

Yaradıcılığa tələbəlik illərindən başlayan Ç.Ələkbərzadə 1958-ci ildə "Kökəlməyin sirri" adlı hekayəsini almanaxda dərc etdirmiş və bundan sonra dövri mətbuatda müntəzəm çıxış etmişdir. Ç.Ələkbərzadə "Yarpaqlar töküləndə", "Qızıl yəhərli at", "Çılpaqlı", "Vulkan" "Qumarbaz", "Dünyanın qopduğu yer" kimi maraqlı nəsr əsərlərinin müəllifidir. Həbsxanada olduğu dövrdə yazdığı şeirlərdən ibarət "Türmə mənim ahımdır" kitabının da müəllifidir. 1980-ci ildə Özbəkistanda keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə iştirak etmişdir.

1986-1988-ci illərdə durğunluq dövrünün ictimai qüsurlarını kəskin tənqid etdiyinə görə Çingiz Ələkbərzadə günahsız yerə həbs edilmişdir. Həbsxanada o, böyük hörmət qazanmış, məhkumlar ona "şair" deyə müraciət etmişlər. Yazıçı zindanda olduğu müddətdə də yaradıcılığını davam etdirmiş, bir sıra əsərlərini məhz həbs şəraitində qələmə almışdır. Ömrünün iki il yarımını zindanda keçirən Ələkbərzadə sonradan bəraət alaraq azadlığa çıxmış və həmin ağır illərin təsiri ilə "Zindan" romanını yazmışdır.

Azadlığa çıxdıqdan sonra o, yenidən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində çalışmağa başlamış, daha sonra "Azərnəşr"də fəaliyyətini davam etdirmişdir. Gündüzlər işlə məşğul olan yazıçı gecələr yarımçıq qalmış əsərlərini tamamlayırdı. Bununla belə, həbsxana həyatı onun səhhətinə ciddi təsir göstərmiş, keçirdiyi stres və əsəb nəticəsində sağlamlıq problemləri yaşamışdır.


Çingiz Əbdülhəsən oğlu Ələkbərzadə 1999-cu il yanvar ayının 7-də Bakıda vəfat etmişdir.

2019-cu ildə "Zindan" romanı yenidən nəşr olunmuş, oktyabr ayının 29-da Bakı Kitab Mərkəzində təqdimat mərasimi keçirilmişdir.

Mirzə İbrahimov – 115

(1911-1993)

Yazıçı



Ədəbiyyat:

Mirzə İbrahimovun 100 illik yubileyinə həsr olunmuş konfransın keçirilməsi haqqında: Azərbaycan Respublikası təhsil nazirinin əmri; 21 noyabr 2011-ci il / M.Mərdanov // Azərbaycan müəllimi.– 2011.– 25 noyabr.– S.2.

Əbədi sevginin mükafatı: Mirzə İbrahimov - 110 / Z. Fərəcova // Azərbaycan.– 2021.– 29 oktyabr.– S.7.

"Akademik Mirzə İbrahimov" biblioqrafiyası hazırlanıb // 525-ci qəzet.– 2022.– 12 fevral.– S.13.

Mirzə İbrahimov yaradıcılığında Güney Azərbaycan / E.Fuad; müsahibəni apardı: T.Aydınoğlu // Xalq qəzeti.– 2023.– 24 iyun.– S.10.

Milli dəyərlərə və ədəbiyyata həsr olunmuş ömür / N.Süleymanova // Respublika.– 2024.– 27 oktyabr (№ 237).– S.11.

Mirzə İbrahimov publisistikasında Milli hökumət mövzusu / M.Mehdibəyova // Ədəbiyyat qəzeti.– 2025.– 18 iyul (№25).– S.27.

Nəsibova, V. Mirzə İbrahimovun ədəbi-tənqidi görüşləri: [monoqrafiya] /V. Nəsibova ; red. A. Ramazanova.Bakı: Elm və təhsil, 2025.- 212 s.

Mirzə Əjdər oğlu İbrahimov 1911-ci il oktyabr ayının 28-də Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Eyvaq kəndində anadan olmuşdur. 1918-ci ildə atası və qardaşı ilə birgə Bakıya gəlmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra fabrik-zavod məktəbində oxumuş və işləmişdir. Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun ikiillik hazırlıq şöbəsində təhsil aldıqdan sonra 1933-cü ildə Naxçıvan MTS siyasi şöbəsində "Sürət" qəzetinin redaktoru vəzifəsində işləmişdir. 1941-ci ildə Cənubi Azərbaycanda"Vətən yolunda" qəzetinin məsul redaktoru vəzifəsində işləmişdir. 1942-1946-cı illərdə Azərbaycan SSRİ Xalq Maarif Komissarı (XMK) vəzifəsində çalışmışdır.

Bədii yaradıcılığa Zabrat fəhlə ədəbiyyat dərnəyində başlamışdır. Onun "Qazılan buruq" adlı ilk şeiri 1930-cu ildə "Aprel alovları" məcmuəsində dərc olunmuşdur. 1932-ci ildə Dnepropetrovsk sənaye müəssisələrinə səfərinin nəticəsi olaraq "Giqantlar ölkəsində" adlı oçerklər kitabını qələme almışdır. M.İbrahimov "Həyat" (1935), "Madrid" (1937), "Məhəbbət" (1941), "Kəndçi qız" (1961), "Yaxşı adam" (1963), "Közərən ocaqlar" (1967) və digər pyeslərin, həmçinin "Gələcək gün" və "Pərvanə" romanlarının müəllifidir. O, Şekspirin "Kral Lir", "On ikinci gecə", Ostrovskinin "Quduz pullar", "Müdrik olan hər kəsə kifayətdir sadəlik", Çexovun "Üç bacı", Molyerin "Don Juan" və bir sıra digər pyeslərini Azərbaycan dilinə tərcümə etmişdir. Əsərləri SSRİ xalqlarının və bir çox xarici ölkələrin dillərinə çevrilmişdir.

1935-1937-ci illərdə SSRİ EA-nın Leninqraddakı Şərqşünaslıq İnstitutunun aspiranturasında təhsil almış, namizədlik dissertasiyasını müdafiə etmişdir. Azərbaycan EA (indiki AMEA) 1945-ci ildə təsis edilərkən onun ilk həqiqi üzvlərindən biri olmuşdur. O, müxtəlif illərdə Azərbaycan Yazıçılar İttifaqı İdarə heyətinin sədri (1946–1954; 1970–1986), birinci katibi (1965–1975), SSRİ Yazıçılar İttifaqı İdarə heyətinin katibi (1965–1975), Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini (1946–1950), Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri (1954–1958) vəzifələrində çalışmışdır. Azərbaycan KP-nin XIV–XIX və XXII-XXVIII qurultaylarında MK Büro üzvü seçilmişdir.

1991-ci ildə Ağsaqqallar Şurasının üzvü seçilən M.İbrahimov ömrünün sonunadək Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri və çoxcildli "Azərbaycan ədəbiyyatı tarixi"nin redaksiya heyətinin üzvü olmuşdur.

M.İbrahimov 1941-ci ildə Azərbaycan SSR-nin "Əməkdar incəsənət xadimi" fəxri adına, 1950-ci ildə SSRİ Dövlət mükafatına, 1961-ci ildə "Xalq yazıçısı" fəxri adına layiq görülmüş, 1965-ci ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı olmuş, 1979-cu ildə Beynəlxalq Nehru mükafatını almış, 1981-ci ildə "Sosialist Əməyi Qəhrəmanı" fəxri adına layiq görülmüş, 1989-cu ildə SSRİ Xalq deputatı seçilmiş, 3 dəfə "Lenin ordeni", "Oktyabr inqilabı" ordeni və digər orden və medallarla təltif olunmuşdur.

Mirzə Əjdər oğlu İbrahimov 1993-cü il dekabr ayının 17-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

1996-cı ildə Mirzə İbrahimovun xatirəsini əbədiləşdirmək məqsədi ilə əlaqədar onun çap olunmamış əsərlərinin ikicildliyinin, eləcə də haqqında biblioqrafik göstəricinin hazırlanması, Asiya və Afrika ölkələrindən respublikamızda təhsil alan əlaçı tələbələrə verilmək üçün M.İbrahimov adına təqaüdün təsis edilməsi, qəbrinin üstünün götürülməsi, Bakı şəhərindəki küçələrdən birinə onun adının verilməsi, yaşadığı binaya (Xaqani küçəsi, 19/13) xatirə lövhəsinin vurulması haqqında qərar qəbul edilmişdir.

2022-ci ildə Azərbaycan Milli Kitabxanasında Azərbaycanın görkəmli yazıçısı, dramaturqu, ədəbiyyatşünası, publisisti və ictimai-siyasi xadimi Mirzə İbrahimovun anadan olmasının 110 illiyinə həsr edilən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Akademik Mirzə İbrahimov" adlı biblioqrafiya nəşr olunmuş və yubiley münasibətilə "Mirzə İbrahimov – 110" adlı virtual sərgi

Haşım Balasıyev – 80

(1946)

Aşıq



Ədəbiyyat:

Allahı sevdikcə sevilirik biz / Aşıq Haşım Qubalı.– Bakı: Şirvannəşr, 2005.– 152 səh.

Gülməmməd Şirin oğlu, Şirin Gülməmməd oğlu / Aşıq Haşım Qubalı; Nəşriyyat red.: Anar İsabəyli.– Bakı: Şirvannəşr, 2006.– 156 səh.

Tatüm mən. Tatam mən / Aşıq Haşım Qubalı; red. M. Teymur; naşir. Q. İsabəyli.– Bakı: Şirvannəşr, 2009.– 158, [2] s.

Günümüzün ustad aşıqları. Haşım Qubalı / nəşrə haz. M. Nəbioğlu; [dizayn Z. Məmmədov]; Azərb. Aşıqlar Birliyi.– Bakı: Elm və təhsil, 2016.– 95, [1] s.

Azərbaycan aşıqlarına "Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 15 iyul 2016-cı il // Azərbaycan.– 2016.– 16 iyul.– S.3.

Qubalı Aşıq Haşım: [monoqrafiya] / AMEA, Folklor İn-tu; nəşrə haz. və red. T. Qəni; məsləhətçi və ön söz müəl. M. Qasımlı.– Bakı: Elm və Təhsil, 2018.– 125, [3] s.

Afta, Günəş, Solntse, Sun: [şeirlər, xatirələr] / Ə. Qubatati [rəsm və şək.]; [ön söz Aşıq H. Qubalı].– Bakı: [ÇapArt], 2025.– 687, [1] s.

Balasıyev Haşım Səftər oğlu (Aşıq Haşım Qubalı) 1946-cı il oktyabrın 7-də Quba rayonunun Rəngdar kəndində anadan olmuşdur. İlk təhsilini doğulduğu kəndin ibtidai məktəbində almış, 1957-ci ildən etibarən Rəngdar kəndindən səkkiz kilometr məsafədə yerləşən Xaltan kənd yeddiillik məktəbində təhsilini davam etdirmişdir. 1959-cu ildə sözügedən məktəbi bitirdikdən sonra, 1960-cı ildə Qonaqkənd orta məktəbinə qəbul olunmuş və burada oxuduğu illər ərzində aşıq sənətinə marağı formalaşmağa başlamışdır. O, 1964-cü ildə orta təhsilini bitirdikdən sonra Pedaqoji texnikumda təhsilini davam etdirmişdir.

Aşıq Haşım aşıq sənətinin sirlərini ilk olaraq Aşıq Əşrəfdən öyrənmişdir. Bu dövrdə o, Sənəmoğlu Murad, Aşıq Ağapaşa, Aşıq Ağakərim və Aşıq Məmmədağa kimi ustad sənətkarlarla tanış olmuşdur. 1965-ci ildə Şamaxı Pedaqoji texnikumunu bitirərək müəllimlik fəaliyyətinə başlamış, 1969-cu ildən isə sərbəst aşıq kimi məclislərdə iştirak etməyə başlamışdır.

Ustadı Aşıq Barat olan Haşım Qubalı aşıq şeirinin bütün növlərində əsərlər yaratmış, bir neçə kitab nəşr etdirmişdir. O, "Yetim Aydın", "Adıgözəl", "Bikəs" və "Seydi" kimi unudulmuş dastanları bu gün də yaşatmış, "Səni bilmirəm", "Ayrılmaq olmur", "Harasındadır", "Yoxsa nə", "Qızım", "Nə var", "Xaltan deyilmi" və "Uşaq kimiyəm" qoşmaları ilə aşıq sənətini zənginləşdirmişdir.

Sənətkarın digər məşhur şeirləri arasında "Gülməz bizə", "Sevgi ətri", "Hal qoymayır", "Gedərəm", "Gözlərin", "Sözüm yoxdu", "Qurban olum", "Gözəl", "Gəl calayaq", "Neyləsin", "Apar məni", "Qubalı qız", "Bu sedanın adı", "Həsrət var", "Bu məhəbbətin", "Mənim deyil" və digər əsərlər yer alır..

Azərbaycan Aşıqlar Birliyinin yeni layihəsi "Günümüzün ustad aşıqları" seriyasından nəşr olunan kitabda tanınmış ustad, özünəməxsus dəst-xətti ilə seçilən Əməkdar Mədəniyyət İşçisi Haşım Qubalının (Balasıyevin) həyat və yaradıcılığı haqda qısa oçerk, respublikamızın görkəmli elm və sənət adamlarının onun haqqında söylədikləri dəyərli fikirlər və yaradıcılığından nümunələr yer almışdır. Müxtəlif tədbirlərdəki çıxışlarına görə dəfələrlə fəxri fərmanlara və diplomlara layiq görülmüş, 2015-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin "Fəxri mədəniyyət işçisi" döş nişanı ilə təltif olunmuşdur.


Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2016-cı il tarixli sərəncamı ilə "Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq görülmüşdür.

2017-ci ildə Milli Kitabxanada Azərbaycan Aşıqlar Birliyinin yeni layihəsi olan "Günümüzün ustad aşıqları" seriyasından nəşr olunmuş 9 kitabın təqdimatı keçirilmişdir. "Günümüzün ustad aşıqları" adlanan bu layihə çərçivəsində dövrümüzün ustad aşıqlarından Əməkdar İncəsənət Xadimi Ədalət Nəsibov, Əməkdar Mədəniyyət işçiləri İsfəndiyar Rüstəmov, Ulduz Sönməz, Mahmud Məmmədov, Xanmusa Musayev, Yanvar Bədəlov, Haşım Qubalı, Fətulla Əliyev və Əli Quliyevin hər biri haqqında ayrıca kitab nəşr olunmuşdur.

Telman Zeynalov – 95

(1931-2024)

Heykəltəraş



Telman Heydər oğlu Zeynalov 1931-ci il oktyabrın 20-də Bakı şəhərində anadan olmuşdur. 1939-1947-ci illərdə Bakıdakı 6 saylı tam orta məktəbində təhsil almış, 1948-ci ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin heykəltaraşlıq bölməsinə qəbul olmuşdur. 1956-1962-ci illərdə V. İ. Muxina adına Leninqrad ali incəsənət-sənaye məktəbində (indiki Ştiqlits adına Sankt-Peterburq Rəssamlıq Akademiyası) heykəltaraşlıq ixtisası üzrə təhsil almışdır.

1977-1991-ci illərdə Azərbaycan Rəssamlar İttifaqı (ARİ) yanında heykəltaraşlıq üzrə bədii şuranın sədri kimi çalışmışdır.

1957-ci ildən respublika, ümumittifaq və beynəlxalq sərgilərdə iştirak edib, 1965-ci ildə SSRİ Rəssamlar İttifaqına üzv olmuşdur. 1982 və 1987-ci illərdə Azərbaycan Rəssamlar İttifaqının İdarə Heyətinə üzv seçilmişdir.

Telman Zeynalov qardaşı Eldar Zeynalovla (1937–2001) birlikdə bir sıra monumental-memorial layihələrin müəllifi olmuşdur. Onların birgə yaratdıqları əsərlər sırasında 1970-ci ildə Moskvada I Beynəlxalq Kitab Sərgisində nümayiş etdirilən Nəriman Nərimanovun barelyefi, 1973-cü ildə Bakıda Nəsimi abidəsinin müsabiqə layihəsi, 1978-ci ildə Lənkəranda Böyük Vətən müharibəsində həlak olan əsgərlərin xatirəsinə ucaldılan memorial kompleks, Ulyanovsk şəhərinin "Xalqlar dostluğu" parkında yerləşən "Azərbaycan tarixindən səhifələr" daş kompozisiyası, eləcə də Şamama Ələsgərovanın və Üzeyir Hacıbəyovun xatirəsinə hazırlanmış tunc memorial lövhələri xüsusi yer tutur.

Heykəltaraşın yaradıcılığı yüksək dövlət təltifləri ilə qiymətləndirilmişdir. O, 1978-ci ildə Lənkəran şəhərində həlak olmuş döyüşçülərin xatirəsinə inşa olunmuş memoriala görə Azərbaycan SSR Dövlət Mükafatına layiq görülmüş, 4 mart 1992-ci ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına, 2001-ci ildə "Humay" milli mükafatına, 11 iyun 2002-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Telman Heydər oğlu Zeynalov 2024-cü il yanvarın 12-də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Tanınmış heykəltaraş Telman Zeynalov vəfat edib // Mədəniyyət.– 2024.– 19 yanvar(№5).–S.6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Telman_Zeynalov

https://azgallery.az/az/news/291

https://axar.az/news/gundem/572159.html

Kamil Əliyev – 105

(1921-2005)

Rəssam



Ədəbiyyat:

Kamil Əliyevin 90 illik yubileyi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 19 iyul 2011-ci il // Azərbaycan.– 2011.– 20 iyul.– S. 3.

Döyüşən xalçaçı-rəssam / Lalə // Mədəniyyət.– 2020.– 15 may.– S.5.

Xalça sənətinin Kamil ustadı: Kamil Əliyev – 100 / R.Tağıyeva // Xalq qəzeti.– 2021.– 22 oktyabr.– S.10.

Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 12 oktyabr 2021-ci il // Azərbaycan.– 2021.– 13 oktyabr.– S. 2.

Sonsuz ehtiramdan yaranan misilsiz əsərlər: Ulu öndər Heydər Əliyevin parlaq obrazı böyük xalçaçı-rəssam Kamil Əliyevin yaradıcılığında / T.Cəfərli // 525-ci qəzet.– 2022.– 23 fevral.– S.12;13.

İlmələrə köçən ömür / Z. Ziya // Xalq qəzeti.– 2023.– 22 oktyabr, № 231.– S.12.

Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmuş "Sənətdə bənzərsiz eşq" sərgisinin kataloqu: [18-30 may 2024-cü il] / [mətnin müəl. X. Əsədova; layihə rəhb. M. Məmmədxanova; tərc. L. Mikayılova; red. Ü. Fərzəliyeva; fotoqraf S. Mansurov; bədii tərtibat F. Məmmədova].– [Bakı]: [Azərbaycan Milli Xalça Muzeyi], [2024].– 27, [1] s.

Kamil Müseyib oğlu Əliyev 22 oktyabr 1921-ci ildə Qərbi Azərbaycanda, İrəvan şəhərində anadan olmuşdur. 1936-cı ildə Bakı Rəssamlıq Məktəbinə daxil olmuş və görkəmli rəssam Ə.Əzimzadənin sinfində təhsil almışdır. Burada 3 il dekorasiya şöbəsində oxuduqdan sonra müəllimlərinin məsləhəti ilə təhsilini davam etdirməklə yanaşı, "Azərxalça" birliyində eksperimental laboratoriyada köçürücü rəssam kimi işləməyə başlamışdır. 1954-cü ildə "Soyuz-Torq reklam"ın baş direktoru və baş rəssamı təyin olunmuş, 1961-ci ildə Bədii Fondun Yaradıcı-İstehsalat Kombinatının direktoru, 1964-1971-ci illərdə Bakı Zərgərlik Fabrikinin direktoru, 1971-ci ildə isə Yerli Sənaye Nazirliyi İstehsalat şöbəsinin müdiri işləmişdir. O, 1993-cü ildən ömrünün sonunadək "Azərxalça" Elmi İstehsalat Birliyinin baş direktoru olmuşdur.

İlk portret-xalçasını 1958-ci ildə böyük Azərbaycan şairi M.Füzuliyə həsr etmişdir. Sənətkar xalçanın təravətli, şux rəngli naxışları ilə Füzuli lirikasını tamaşaçıya çatdırmışdır. Xalçanın uğuru rəssamı daha da ruhlandırmış, İ. Nəsimi (1973) və Nizami Gəncəviyə (1978) həsr edilmiş xalçalarını yaratmışdır. Xalça üzərində yaratdığı portretlərdən görkəmli türk dövlət xadimi Atatürkün, Turqut Özalın, Süleyman Dəmirəlin portretləri toxunmuş xalçalar xüsusilə məşhurdur.

Rəssamın 1998-ci ildə yaratdığı, yüksək bədii xüsusiyyətlər kəsb edən, böyük dövlət xadimi, ümummilli lider Heydər Əliyevin portreti də belə əsərlərdəndir. Azərbaycanda ilk dəfə xalça muzeyinin açılması da Kamil Əliyevin adı ilə bağlıdır. Daha çox Abşeron ornamentlərinə üstünlük verən Kamil Əliyev ümumilikdə bütün milli naxışlar üzərində işləyərək onlara yeni bir ruh, yeni nəfəs verirdi.

Kamil Əliyevin çeşniləri əsasında toxunmuş xalçalar respublikamız müstəqillik qazandıqdan sonra dünyanın bir çox ölkələrində uğurla nümayiş etdirilmişdir. Azərbaycan xalçasının şöhrətini daha da artıran bu qədim el sənətinin nümunələri ən mötəbər muzeylərdə, o cümlədən Londonun məşhur "Viktoriya və Albert" muzeyində saxlanılır. 1941-ci ildən Böyük Vətən müharibəsində iştirak etmiş, 1945-ci ildə cəbhədən 22 orden və medalla dönmüşdür. K.Əliyev Azərbaycan incəsənətində göstərdiyi xidmətlərə görə ilk dəfə 1960-cı ildə Fəxri fərmana layiq görülmüş, respublikanın "Tətbiqi incəsənət ustası" adını qazanmışdır.

1967-ci ildə "Əməkdar rəssam", 1982-ci ildə isə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüşdür. 1998-ci ildə Ali Attestasiya Komissiyası tərəfindən ona dekorativ və tətbiqi sənət üzrə professor elmi rütbəsi verilmiş, 1999-cu ildə isə "İstiqlal" ordeni ilə təltif olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

Görkəmli rəssam Kamil Müseyib oğlu Əliyev 2005-ci il mart ayının 1-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Azərbaycan xalçaçılıq sənətinin klassiki, rənglər və ilmələr sehrkarı Kamil Əliyevin xatirəsini əbədiləşdirmək məqsədi ilə 2007-ci il oktyabrın 26-da vaxtilə yaşadığı evin qarşısında xatirə lövhəsi vurulmuş və ev-muzeyi açılmışdır.

Azərbaycan Respublikasının Prezidenti Xalq rəssamı Kamil Əliyevin anadan olmasının 90 illik yubileyinin keçrilməsi haqqında sərəncam imzalamışdır.

2011-ci il oktyabr ayının 22-də Xalq rəssamı Kamil Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə Xalça Muzeyində "Kamil Əliyevin xalça dünyası" kitab-albomunun təqdimat mərasimi keçirilmişdir.

2021-ci il oktyabr ayının 12-də Prezident İlham Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalamışdır.

2021-ci il oktaybrın 21-də Azərbaycan Milli Kitabxanasında Xalq rəssamı, professor Kamil Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "Xalq rəssamı Kamil Əliyev – 100" adlı Elektron məlumat bazası virtual rejimdə istifadəçilərə təqdim edilmiş və "Kamil Əliyev – 100" adlı sərgi nümayiş olunmuşdur.

Fərhad Xəlilov – 80

(1946)

Rəssam



Ədəbiyyat:

Dənizə aparan yollar: Rəssam haqqında yazıçı sözü / Elçin // Ədalət.– 2020.– 7 mart.– S.8;10.

"Mən heç vaxt partiyaçı olmamışam"-Fərhad Xəlilov // Unikal.– 2021.– 11 iyun.– S.20.

Rənglərin və izmlərin qovşağında / İ.Həbibbəyli // 525-ci qəzet.– 2022.– 2 iyul.– S.10-11.

"Yerlə göy arasında": Xalq rəssamı Fərhad Xəlilovun sərgisi // Mədəniyyət.– 2023.– 6 dekabr(№90).– S.8.

Xalq rəssamı Fərhad Xəlilov: "Ölkənin ordusu ilə mədəniyyəti eyni səviyyədə olmalıdır" / F.Xəlilov: müsahibəni apardı Tamilla M-zadə // 525-ci qəzet.– 2024.– 7 dekabr (№225).– S.14;15.

"Heydər Əliyevi mən Qayıdışından sonra kəşf etdim": "Yalnız bu zaman onun şəxsiyyətinin bütün dərinliyini və bənzərsizliyini anlaya bildim": Azərbaycan Respublikasının Xalq rəssamı Fərhad Xəlilovla müsahibə / F.Xəlilov // 525-ci qəzet.– 2025.– 26 aprel(№71).– S.10-11;13.

https://az.baku-art.com/az/xalq-ressami-ferhad-x-lilovun-dogum-gun-d-r

Fərhad Qurban oğlu Xəlilov 26 oktyabr 1946-cı ildə Bakı şəhərində anadan olmuşdur.

1961-1966 illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində, 1966-1968-ci illərdə Stroqanov Rəssamlıq Məktəbində təhsil almışdır. O, yaradıcılıq axtarışlarını 1969-1975-ci illərdə Moskva Poliqrafiya İnstitutunda davam etdirmişdir.

Əmək fəaliyyətinə 1963-cü ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında rəssam kimi başlamışdır. Fərhad Xəlilov 1987-ci ildə Azərbaycan Rəssamlar İttifaqının sədri seçilmişdir. Fərhad Xəlilov çoxillik axtarışlarının nəticəsi olaraq özünəməxsus bədii üslubunu yaratmışdır.

Fərhad Xəlilovun yaradıcılığında Abşeron mənzərələri, dəniz, torpaq və səma kimi motivlər xüsusi yer tutur. Onun əsərləri minimalizmə əsaslanan estetik baxış, rəng ritmlərinin dəqiqliyi və formanın yığcam ifadəsi ilə seçilir. Rəssamın təsvir etdiyi Abşeron mühiti, əsasən, Nardaran, Buzovna, Zuğulba, Maştağa, Mərdəkan və digər yaşayış məntəqələrinin landşaft xüsusiyyətlərini əks etdirir.

Fərhad Xəlilovun yetkin yaradıcılığı 1970-ci illərdən başlayaraq bu günə qədər uzanan ardıcıl inkişaf xəttinə malikdir. Sənətkarın yaradıcılıq axtarışlarını şərti olaraq iki mərhələyə bölmək mümkündür. Birinci mərhələ — rəssamın doğma Abşeron landşaftına bağlı qaldığı, lakin Avropa avanqardının müəyyən estetik tendensiyalarının da hiss olunduğu dövr kimi xarakterizə olunur. İkinci mərhələ isə əvvəlki dünyagörüşünə söykənərək müasir və mütərəqqi ifadə vasitələrinə keçidi, rəngkarlıq dilinin daha da abstrakt və ümumiləşdirilmiş forma almasını əhatə edir.

Fərhad Xəlilovun yaradıcılığının başlıca özəlliyi — onun sovet incəsənət məkanına özünəməxsus dünya duyumu və fərdi mənzərə poetikası ilə daxil olmasıdır. Rəssamın tablolarında dəniz, torpaq və səma kimi ünsürlər xüsusi semantik və estetik yük daşıyır; təbiət obrazları onun əsərlərində qeyri-adi poetik duyumla canlanır və gündəlik həyatın üzə çıxara bilmədiyi dərin mənaları özündə qoruyur. Son onilliklərdə yaratdığı abstrakt kompozisiyalar isə Fərhad Xəlilovun həm müasir incəsənətin qlobal istiqamətlərinə inteqrasiya etdiyini, həm də yaradıcılığındakı özünəməxsusluğu qoruyub saxladığını nümayiş etdirir.

Rəssamın əsərləri dəfələrlə dünyanın müxtəlif ölkələrində keçirilən sərgilərdə, qalereyalarda və beynəlxalq incəsənət tədbirlərində nümayiş etdirilmişdir. Onun yaradıcılığı Azərbaycanla yanaşı, ABŞ, Fransa, Rusiya, İtaliya, Almaniya, Polşa, Yaponiya və digər ölkələrdə geniş auditoriya tərəfindən tanınmış, bir çox əsərləri muzey və şəxsi kolleksiyalara daxil edilmişdir.

Fərhad Xəlilov 1969-cu ildən SSRİ Rəssamlar İttifaqının üzvü, 2008-ci ildən Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvüdür. 1987-ci ildə Azərbaycan Rəssamlar İttifaqının sədri seçilmişdir.

Sənətkar yaradıcılıq və ictimai fəaliyyətinə görə bir sıra yüksək mükafat və fəxri adlara layiq görülmüşdür. O, 1987-ci ildə Rusiya Rəssamlıq Akademiyasının gümüş medalını, 1988-ci il mayın 7-də Azərbaycan SSR-in Əməkdar incəsənət xadimi fəxri adını almışdır. 2000-ci ildə "İncəsənət və ədəbiyyat" ordeni və "Puşkin" medalı ilə təltif olunmuşdur.

2002-ci il mayın 30-da Azərbaycan Respublikasının Xalq rəssamı fəxri adına, 2006-cı il oktyabrın 25-də "Şöhrət" ordeni, 2012-ci ildə Rusiya Rəssamlıq Akademiyasının qızıl medalı, 2016-cı il oktyabrın 25-də "Şərəf" ordeni ilə təltif edilmişdir. 2017-ci ildə Müstəqil Dövlətlər Birliyinin "Birliyin ulduzu" mükafatına, 2021-ci il noyabrın 23-də isə 1-ci dərəcəli "Əmək" ordeninə, 2024-cü ildə ona "Heydər Əliyevin 100 illiyi (1923-2024)" yubiley medalı təqdim edilmişdir.

2019-cu il sentyabrın 26-da Heydər Əliyev Mərkəzində "Yenidən Bakıda" adlı fərdi sərgisi açılmışdır.

2023-cü il dekabrın 1-də "YARAT" Müasir İncəsənət Məkanı, XX–XXI əsrlər Azərbaycan Rəngkarlığı Muzeyində "Yerlə göy arasında" adlı fərdi sərgisi nümayiş olunmuşdur.

Teymur Əmrah – 55

(1971)

Müğənni



Teymur Həşim oğlu Əmrahov (Teymur Əmrah) 8 oktyabr 1971-ci ildə Gəncə şəhərində anadan olmuşdur.

O, incəsənət gimnaziyasının vokal sinfi üzrə Sergey Zarenbonun sinfini bitirmişdir.

İlk musiqi müəllimləri Gəncə şəhər Uşaq Yaradıcılıq Evində fəaliyyət göstərən görkəmli musiqişünas Oqtay Nağıyev, Ağdam rayonu Uşaq Yaradıcılıq Evinin məşhur "Qarabağ bülbülləri" ansamblının rəhbəri Murad Rzayev, həmçinin Gəncə şəhər 6 nömrəli klubun direktoru Kifayət Əmirova olmuşdur.

1990-cı ildə Bakı Musiqi Akademiyasının Vokal sinfinə daxil olmuşdur. Akademiyada o, görkəmli opera müğənnisi Firudin Mehdiyevdən vokal sənəti üzrə, teatr və kino aktrisası Şəfiqə Məmmədovadan isə aktyorluq sənəti üzrə dərs almışdır.

1990-cı ildən etibarən Azərbaycan Dövlət teatrlarında yaradıcılıq, yubiley və anım gecələrinin təşkilatçısı kimi fəaliyyət göstərir. Hazırda Azərbaycan Televiziyası və Radiosunun solistidir.

2005-ci ildə "Azəristar" layihəsində vokal müəllimi kimi fəaliyyət göstərmişdir.

20 il ərzində Azərbaycan Dövlət Mahnı Teatrında solist kimi fəaliyyət göstərmişdir. Müxtəlif illərdə Azərbaycan Milli Konservatoriyasında və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində mahnı janrı üzrə dərs demişdir. 1994-cü ildə indiki Heydər Əliyev Sarayında ilk solo konsertini vermişdir.

2020-ci ildə isə Heydər Əliyev Sarayında "Bu dünya bir nərdivandı" adlı ikinci konserti keçirilmişdir.

Teymur Əmrahın iki tələbəsi – Prezident Mükafatçısı Amil Həsənov, Xalq artisti Samir Cəfərov "Qızıl kitab"a düşmüşdür.

Azərbaycan Respublikasının Əməkdar artisti Elton Hüseyinəliyev, Emil Rəhmanov, Ayaz Qasımov, Sima Qasımova, Elvin Abdullayev, Xalq ulduzu müsabiqəsinin qalibi Tural Salmanov, Mirkamil Kamilov, İradə İbrahimova, Nəsimi Məmmədov, İlkin Dövlətov və digər tanınmış ifaçılar onun yetirməsi olmuşdur.

Teymur Həşim oğlu Əmrahov 2012-ci il sentyabrın 14-də Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüş, 2022-ci ildə isə 50 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin fəxri fərmanı ilə təltif edilmişdir.

Ədəbiyyat:

"Mən klassik estrada musiqisini təbliğ edirəm" T.Əmrah // İki sahil.– 2007.– 19 iyul.– S.6.

Teymur Əmrahdan "konsert marafonu": O, Gəncədə başladığı solo-konsert proqramını davam etdirəcək / T.Əmrah // Mədəniyyət.– 2009.– 12 avqust.– S. 4.

Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 14 sentyabr 2012-ci il / İ.Əliyev // Azərbaycan.– 2012.– 15 sentyabr.– S. 1.

Əməkdar artist Teymur Əmrah fəxri fərmanla təltif olunub // Mədəniyyət.– 2022.– 22 yanvar.– S.5.


İnternetdə:

https://yazarlar.az/tag/teymur-emrah

Ramiz Mustafayev – 100

(1926-2008)

Bəstəkar



Ədəbiyyat:

15 mahnı: silsilə / R. Mustafayev (mus.); [sözl.: İ. Göyçaylı, M. Abasov].– Bakı: [n. y.], [2004].– [44] s.

Unudulmaz sənətkarlar: Ramiz Mustafayev / S. Təhmirazqızı // Mədəniyyət.– 2010.– 15 oktyabr.– S. 15.

Görkəmli bəstəkarı xatırlayarkən / S.Təhmirazqızı // Mədəni həyat.– 2015.– № 1.– S. 45;47.

Ramiz Mustafayevin 90 illiyinə həsr olunmuş musiqi festivalı // Mədəniyyət.– 2016.– 23 noyabr.– S.2.

Azərbaycan xalq mahnılarının bəstəkar yaradıcılığında tazahür formaları / A.Hümbətova // Mədəniyyət.az.– 2018.– İyul-Avqust.– S. 53-55.

15 yaşdan başlayan yaradıcılıq: O, əsil vətəndaş ömrü yaşadı / T. Məhərrəmova // Kaspi.– 2020.– 17 oktyabr.– S.14.

Ramiz Mustafayev: (1926-2008): Xalq artisti, Əməkdar incəsənət xadimi, bəstəkar: [fotoportret] / Azərb. Resp. Mədəniyyət Nazirliyi.– [Bakı]: [n. y.], [2022].– 1 v.

Ramiz Hacı oğlu Mustafayev 1926-cı il oktyabrın 16-da Türkmənistan Respublikasının Çərcou (indiki Türkmənabat) şəhərində anadan olmuşdur. 1941-ci ildə Bakı Teatr Texnikumunun aktyorluq şöbəsinə daxil olmuşdur. Təhsil aldığı dövrdə əvvəl Gənc Tamaşaçılar Teatrında, texnikumu bitirdikdən sonra isə Azərbaycan Dövlət Akademik Dram Teatrında aktyor kimi fəaliyyət göstərmişdir.

Vokal sənətinə olan dərin marağı onu 1948-ci ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) gətirmiş, burada professor Bülbülün vokal sinfində təhsil alaraq peşəkar musiqi sənətinin sirlərinə yiyələnmişdir.

1952–1957-ci illərdə konservatoriyanın bəstəkarlıq fakültəsində görkəmli pedaqoq, professor Boris Zeydmanın sinfində təhsilini davam etdirmiş və konservatoriyanı bəstəkar kimi bitirmişdir. Yarım əsrdən artıq yaradıcılıq fəaliyyəti dövründə Ramiz Mustafayev musiqinin müxtəlif janrlarında dəyərli əsərlər yaratmışdır. O, 6 opera, 5 musiqili komediya, 9 oratoriya, 7 kantata, 5 vokal-simfonik poema, 8 simfoniya, 500-ə yaxın mahnı və romansın, eləcə də 200-dən artıq xalq mahnısının xor üçün işləmələrinin müəllifidir. Bəstəkarın vokal sənətinə xüsusi marağı onun yaradıcılığında vokal musiqi janrlarının üstünlük təşkil etməsinə səbəb olmuşdur.

Diplom işi kimi təqdim etdiyi birpərdəli "Şirin" operasından sonra bəstəkarın "Vaqif", "Aydın", "Polad", "Xan və əkinçi", "Tərs keçi" (uşaq operası) kimi bir sıra səhnə əsərləri meydana gəlmişdir. Lakin Ramiz Mustafayevin ən uğurlu səhnə əsəri Səməd Vurğunun eyniadlı dramı əsasında yazılmış "Vaqif" operası hesab olunur. Bu operaya görə bəstəkar 1962-ci ildə Gənc Bəstəkarların Ümumittifaq müsabiqəsində laureat adına layiq görülmüşdür.

Ramiz Mustafayev bəstəkarlıq və dirijorluqla yanaşı, təcrübəli pedaqoq və tanınmış ictimai musiqi xadimi kimi də fəaliyyət göstərmişdir. O, Bakı Musiqi Akademiyasında və Azərbaycan Dövlət Milli Konservatoriyasında professor kimi çalışaraq gənc musiqiçi kadrların yetişdirilməsində mühüm rol oynamışdır.

1957-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olan Ramiz Mustafayev bu təşkilatın İdarə Heyətinin üzvü, eləcə də Musiqili səhnə əsərləri bölməsinin sədri kimi respublikanın musiqi həyatında fəal iştirak etmişdir. Görkəmli bəstəkarın yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, 1973-cü ildə Azərbaycanın Əməkdar incəsənət xadimi, 1987-ci ildə Xalq artisti fəxri adlarına layiq görülmüş, 2001-ci ildə isə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ramiz Hacı oğlu Mustafayev 2008-ci il aprelin 10-da Bakı şəhərində vəfat etmişdir. 2011-ci il oktyabrın 28-də Azərbaycan Bəstəkarlar İttifaqında görkəmli bəstəkarın anadan olmasının 85 illiyi münasibətilə yubiley tədbiri keçirilmiş, tədbir çərçivəsində Əməkdar incəsənət xadimi Zemfira Qafarovanın "Ramiz Mustafayev" adlı monoqrafiyası təqdim olunmuşdur.

Mürsəl Bədirov – 95

(1931-2003)

Opera müğənnisi



Mürsəl Tağı oğlu Bədirov 27 oktyabr 1931-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Orta təhsilini Dağıstan Respublikasında almışdır. 1951-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının (indiki Azərbaycan Milli Konservatoriyası) vokal şöbəsinə daxil olmuşdur. Tələbəlik illərində opera tamaşalarında epizodik rollarda çıxış etmişdir.

1956-cı ildə ali musiqi təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında əmək fəaliyyətinə başlamışdır.

1972-ci ildən Azərbaycan Dövlət Konservatoriyasının vokal kafedrasında fəaliyyət göstərmişdir. Mürsəl Bədirov teatrda çalışdığı illər ərzində çoxsaylı opera tamaşalarında çıxış etmişdir. İfa etdiyi əsas partiyalar bunlardır. Dankayro, Eskamilo və Morales ("Karmen", Jorj Bize), Onegin ("Yevgeni Onegin", Pyotr İliç Çaykovski), Şarples ("Çio-Çio-San", Cakomo Puççini), Sezar Ancelotti ("Toska", Cakomo Puççini), Valentin ("Faust", Şarl Quno), Aleko ("Aleko", Sergey Raxmaninov), Frederik ("Lakme", Leo Delib), Andrey Sokolov ("İnsanın taleyi", İvan Dzerjinski), Silvio ("Məzhəkəçilər", Rucero Leonkavallo), Əsgər ("Alay oğlu", Boris Zeydman), Alı və Birinci carçı ("Koroğlu", Üzeyir bəy Hacıbəyli), Nofəl ("Leyli və Məcnun", Üzeyir bəy Hacıbəyli), Qoca ərəb ("Şah İsmayıl", Müslüm bəy Maqomayev), Yavərin atası, Xan və Həjir ("Azad", Cahangir Cahangirov), Atakişi ("Sevil", Fikrət Əmirov), Eldar ("Vaqif", Ramiz Mustafayev), Soltan ("Bahadır və Sona", Süleyman Ələsgərov), Qoca zənci ("Qoca Xottabıç", Zakir Bağırov). Bu rollar Mürsəl Bədirovun zəngin səhnə yaradıcılığının əsas uğurlu sənət nailiyyətləri kimi qiymətləndirilir.

1992-ci ildə professor elmi adını almışdır. Mürsəl Bədirov Çexiya, Macarıstan və digər ölkələrdə solist kimi qastrol səfərlərində olmuşdur.

Səhnə sənətində və vokal ifaçılığı sahəsində qazandığı uğurlara görə Mürsəl Bədirov 29 iyun 1964-cü ildə Azərbaycanın Əməkdar artisti, 23 fevral 1979-cu ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüşdür. 2001-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Mürsəl Tağı oğlu Bədirov 2003-cü il fevralın 26-da Bakıda vəfat etmişdir.

2019-cu il aprelin 18-də M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Mədəniyyət Nazirliyi və "Mədəniyyət" televiziya kanalının dəstəyi ilə bariton səsli opera müğənnisi, Xalq artisti Mürsəl Bədirovun xatirəsinə həsr olunmuş anım gecəsi keçirilmişdir.

Ədəbiyyat:

15 mahnı: silsilə / Ramiz Mustafayev.– Bakı: 2007.– 44 s.

Hüseynova, S. Əbədiyyətə qovuşmuş bəstəkar ömrü: Ramiz Mustafayev - 90 / S.Hüseynova // Mədəniyyət.– 2016. – 2 noyabr. – S.14.

Hümbətova, A. Azərbaycan xalq mahnılarının bəstəkar yaradıcılığında təzahür formaları: [Üzeyir Hacıbəylinin və Ramiz Mustafayevin yaradıcılığı haqqında] / A. Hümbətova // Mədəniyyət.az.– 2018.– İyul-Avqust.– S.53-55.

Nurəddin Mehdixanlı – 70

(1956) *Aktyor*



Ədəbiyyat:

"Azərbaycan Ordusu öz sözünü deyir" / N.Mehdixanlı; müsahibəni apardı R.Tahir // Ədalət.– 2020.– 3 oktyabr.– S.16.

Xalq artistinin yubiley tamaşası // Mədəniyyət.– 2021.– 15 oktyabr.– S.2.

Nurəddin Mehdixanlı: "Yaddaşımızdakı xəcalətləri unutmamaq üçün "Xəcalət" tamaşası repertuarda qalmalıdır" / N.Ə.Mehdixanlı: müsahibəni apardı S.Mürvətqızı // Ədəbiyyat qəzeti.– 2022.– 20 avqust.– S.12-13.

Muzeydə sənət görüşü: Xalq artisti Nurəddin Mehdixanlı "MədəniyyətimİZ" layihəsinin qonağı olub // Mədəniyyət.– 2023.– 21 iyul.– S.5.

Xalq artisti Nurəddin Mehdixanlı ilə görüş keçirilib // Azərbaycan.– 2024.– 31 oktyabr (№ 240).– S.10.

"Mənim məktəbim" "Mənim Müəllimim hər zaman yüksəkdə olmalıdır" : Nurəddin Mehdixanlı: "İllər boyu nə əldə etmişəmsə, müəllimlərimə minnətdaram" /N. Mehdixanlı; söhbətləşdi: S. Kərimova // Azərbaycan müəllimi

.-2024.- 28 iyun, №21.- S.6.

Nurəddin Əzulla oğlu Quliyev (Mehdixanlı) 6 oktyabr 1956-cı ildə Cəlilabad rayonunun Tahirli kəndində anadan olmuşdur. 1974-cü ildə ildə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) dram və kino aktyorluğu fakültəsinə daxil olmuşdur.

1978-ci ildə dahi rejissor Ədil İsgəndərovun rəhbərlik etdiyi kursu bitirdikdən sonra təyinatla Akademik Milli Dram Teatrının aktyor truppasına işə başlamışdır.

Akademik teatrın səhnəsində oynadığı rollar: Mehdi və İkinci repartyor, Muxtar, ("Səhra yuxuları", "Təhminə və Zaur", Anar), Xasay və Hidayət xan, Kamran, Təbriz, Böyük bəy, Məşədi Təhməz, Ayaz Turan ("Xurşidbanu Natəvan", "Unuda bilmirəm", "Büllur sarayda", "Mahnı dağlarda qaldı", "Şeyx Xiyabani", "Sevgililərin cəhənnəmdə vüsalı", İ.Əfəndiyev), Eldar və Vaqif ("Vaqif", S.Vurğun), Ross ("Maqbet", V.Şekspir), Aydın, Əbu Übeyd ("Aydın", "Od gəlini", C.Cabbarlı), Ərtoğrul, Elxan ("Afət", ("İblis", H. Cavid), Şair, Şahin, Gurşad ("Fəryad", "Rəqabət", "Özümüzü kəsən qılınc", B.Vahabzadə), Yaralı əsgər ("Hələ "sevirəm" deməmişdilər…", R.Novruz), İppolit ("Fedra", J.Rasin), Rəşid Axundov ("Brüsseldən məktublar", H.Həsənov), Bəbir bəy ("Dirilən adam", M.Cəlal), Şəmistan ağa ("Ölüləri qəbristanlıqda basdırın", İ.Şıxlı), Nemət Həsənzadə ("Bu dünyanın adamları", Hidəyət), Vətən ("Xəcalət", H.Mirələmov), Hacı Zeynalabdin Tağıyev ("Mesenat", Ə.Əmirli), Baba ("Arılar arasında", Elçin)

Aktyor Azərbaycan Dövlət Televiziyasında Ə.Əhmədovanın "Pəncərədə işıq" (Toğrul), C.Cabbarlının "Solğun çiçəklər" (Bəhram), N.Həsənzadənin "Kimin sualı var?" (İlham), B.Vahabzadənin "Vicdanla üz-üzə" (Hakim) teletamaşalarında iştirak etmişdir. "Dədəm Qorqudun kitabı" dastanın motivləri əsasında "Dədə Qorqud" çoxseriyalı televiziya filmində Bayandur xan, "Bəyaz həyat"da Vüqar Quliyev, "Cavid ömrü"ndə Əhməd Cavad, "Məhkumlar"da Polkovnik Hacıyev, alman rejissoru F.Xelmerin "Susuzluq və sevgi"də Zaza, ABŞ rejissoru A.Helencerin "Burulğan"ında Kişi, "Tələtüm" bədii-televiziya filmində İlyas Şahdağlı, "Cavad xan"da Cavad xan filmində rollarına çəkilmişdir.

1988-ci ildə başlanan Milli Azadlıq Hərəkatının fəal üzvlərindən biri olmuşdur. 1989-cu ildə yaranan Qarabağa Xalq Yardımı Komitəsinin xüsusi şöbəsi və təşkilat şöbəsinin rəisi olmuş, 1990-cı ildə Komitə sədrinin müavini, 1991-ci ildən isə sədrin birinci müavini vəzifəsini icra etmişdir. Eyni zamanda, ilk müstəqil qəzet olan "Azərbaycan" qəzetinin redaksiya heyətinin üzvü olmuşdur.

1992-ci ildə Vətəndaş Həmrəyliyi Partiyasının ilk üzvlərindən və yaradıcılarından biri kimi fəaliyyətə başlamış, 1995-ci ildən 14 fevral 2021-ci ilədək Vətəndaş Həmrəyliyi Partiyası sədrinin siyasi məsələlər üzrə müavini olmuşdur.

1992-1994-cü illərdə Bakı Bələdiyyə Teatrının aktyoru olmuş. 1994-cü ildən etibarən Akademik Milli Dram Teatrının aktyorudur.

N.Mehdixanlı 1986-cı ildə Naxçıvan MR-nın "Əməkdar artist", 1998-ci ildə Azərbaycan Respublikasının "Əməkdar artist", 2002-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

2016-cı ildə Azərbaycan teatrının inkişafında xidmətlərinə görə Nurəddin Əzulla oğlu Quliyev Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, 2017-ci ildə Cəfər Cabbarlı mükafatına layiq görülmüşdür. 29 oktyabr 2019-cu ildə Azərbaycanda teatr sənətinin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2024-cü il tarixli Sərəncamı ilə "Heydər Əliyevin 100 illiyi (1923–2023)" yubiley medalına layiq görülmüşdür.

Kənan Məmmədov – 80

(1946) *Kinooperator*



Kənan Əzizağa oğlu Məmmədov 9 oktyabr 1946-cı ildə Bakıda anadan olmuşdur.

1971-ci ilə qədər Azərbaycan Politexnik İnstitutunda təhsil aldıqdan sonra sənədlərini Moskvaya göndərərək Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun kinooperator fakültəsində (1971–1976, A. Qalperinin emalatxanası) təhsil almışdır. Bir müddət Neft Sənayesi Nazirliyinin fotolaboratoriyasında işləmiş, sonra "Azərbaycanfilm" kinostudiyasında bədii və sənədli filmlərdə quruluşçu operator kimi fəaliyyətə başlamışdır.

1996-2002-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyətlə də məşğul olmuş, onlarla tələbə yetişdirmişdir.

O, ilk dəfə 1976-cı ildə Rasim Ocaqovun Rüstəm İbrahimbəyovun ssenarisi əsasında quruluş verdiyi "Ad günü" filmində ikinci operator kimi fəaliyyətə başlamışdır. Sonralar bir müddət sənədli filmlərin çəkilişləri ilə məşğul olsa da, 1978-ci ildən etibarən bədii filmlərin çəkilişlərində iştirak etmişdir. Eyni ildə Tofiq Tağızadə ilə birlikdə İsi Məlikzadənin ssenarisi əsasında "Evdə kişi var" filmini çəkib ki, bu da onun quruluşçu operator kimi bədii kinoda ilk işi olmuşdur. 1992-ci ildə "Təhminə", 1993-cü ildə isə "Fəryad" filmlərini çəkmişdir.

Kənan Məmmədovun fərqli düşüncədə olan rejissorlarımızla müxtəlif janrda çəkdiyi filmlər ("Qızıl uçurum"(1980), "Bağlı qapı"(1981), "Köhnə bərə"(1984), "Qara gölün cəngavərləri"(1984), "Qanlı zəmi"(1985), "Xüsusi vəziyyət"(1986), "Özgə ömür"(1987), "Doğma sahillər"(1989), "Qətldən yeddi gün sonra"(1991), "Məhkumlar"(2007), "Axırıncı dayanacaq"(2014) və s.) tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb, daima baxılır. 1998-ci ildə Rasim Ocaqovla "Otel otağı", Oqtay Mirqasımovla "Ovsunçu", Nicat Feyzullayevlə "Küçələrə su səpmişəm", "Məhkumlar", "Qala", "İstanbul reysi" və s filmləri lentə almışdır.

Kənan Əzizağa oğlu Məmmədov 1986-cı ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı olmuş, 2000-ci il dekabrın 18-də isə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adı ilə təltif edilmişdir. 2010-cu ildə Avropa Kino Akademiyasının üzvü seçilmişdir.

2010-cu il dekabrın 15-də Azərbaycan Kinematoqrafçılar İttifaqında Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Aydın Kazımzadənin "Kinooperator Kənan Məmmədov" adlı kitabının təqdimatı keçirilmişdir.

Ədəbiyyat:

"Kinooperator Kənan Məmmədov" adlı kitabın təqdimatı olub / Hüsniyyə // 525-ci qəzet.– 2010.– 17 dekabr.– S.7.

Kinooperator Kənan Məmmədov: Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, Respublika Dövlət Mükafatı Laureatı, Avropa Kino Akademiyasının üzvü, kinooperator Kənan Məmmədovun həyat və yaradıcılıq fəaliyyəti haqqında / A. Kazımzadə; red. A. Dadaşov.– Bakı: Mütərcim, 2010.– 270, [1] s.

"Kinooperator Kənan Məmmədov" / M.Mükərrəmoğlu // Xalq qəzeti.– 2011.– 6 yanvar.– S. 7.

Kənan Məmmədov: "Hirslənib kameranı bir tərəfə tulladım..." / K. Məmmədov; söhbətləşdi İ. Hacıxanoğlu // Ədalət.– 2021.– 26 iyun.– S.15.

"Heç zaman özümü bir rejissora bağlamamışam" / K.Məmmədov; müsahibəni apardı:T.Məhərrəmova // Kaspi.– 2023.– 26 avqust.– S.8-9.

Fərmail Paşayev – 60

(1966)

Rejissor



Fərmail Sabir oğlu Paşayev 12 oktyabr 1966-cı ildə Xanlar rayonunda (indiki Göygöl) anadan olmuşdur.

1990-cı ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rejissorluq ixtisasını bitirmişdir. 1991–1998-ci illərdə F.Əmirov adına Gəncə Dövlət Filarmoniyası "Göy göl" mahnı və rəqs ansamblında artist-rəqqas kimi çalışmışdır. 1987–1991-ci illərdə Texniki Universitetin "Ülvi" rəqs kollektivinin rəhbəri olmuşdur. 1998-ci ildə Gəncə Dövlət Kukla Teatrında aktyor vəzifəsinə təyin olunmuşdur. 1999-cu ildə C. Məmmədquluzadənin "Poçt qutusu" eyniadlı hekayəsinə verdiyi quruluşdan sonra quruluşçu rejissor kimi fəaliyyət göstərmişdir.

2000-ci ildə Gəncə Dövlət Kukla teatrına baş rejissor təyin olunmuşdur. Peşəkar səhnədə xeyli sayda tamaşaya quruluş vermişdir. 2018-ci ildə Gəncə Dövlət Kukla Teatrına direktor təyin olunmuşdur.

Peşəkar səhnədə xeyli sayda tamaşaya quruluş verib Ə.Səmədlinin "Artıq tamah baş yarar", "Cırtdan", R.Həsənlinin "Ağca və Sarıca", M.Seyidzadənin "Büllur qəsr", R.Əlizadənin "Keçəlin toyu","Hamam,hamam içində", F.Tarverdiyevin "Oğul Noğul", Xalq nağılı "Şəngülüm, Şüngülüm, Məngülüm", "Göyçək Fatma", A.Əlizadə "Toya gecikən tülkü", H.X.Andersenin "Qar Kraliça", B.Zvinin "Taxta Kral", A.S.Ekzüperinin "Balaca Şahzadə", N.Gəncəvinin "Xeyir və Şər", A.S.Puşkinin "Qızıl balıq", M.F.Axundzadənin "Müsyö Jordan və Dərviş Məstəli Şah", "Xırs quldurbasan", C.Rodarinni "Çippolino", S.İbrahimlinin "Səlim və Sehirbaz" və s. bu kimi tamaşalardandır.

Bir çox beynəlxalq və yerli festivalların iştirakçısı olmuşdur: Ümumdünya Kukla Teatrları Festivalı – 1-ci (1996); İzmir Beynəlxalq Kukla və Kölgə Oyunları Festivalı – 5-ci (1999), 6-cı (2001), 7-ci (2003); Ən yaxşı uşaq tamaşaları Festivalı – Bakı (2003); Bursa Beynəlxalq Qaragöz və Kölgə Oyunları Festivalı – 10-cu (2004); Milli Klassiklər Kukla Teatrlarının Səhnəsində Festivalı – (2005); Beynəlxalq Sehirli Pərdə Festivalı – 6-cı (2005); Beynəlxalq "İki azdır, üç çoxdur" Festivalı – 5-ci (2009); Yeni Teatr Festivalı – Gəncə (2009); Milli Teatr Festivalı – Bakı (2011); Beynəlxalq Lənkəran Festivalı – 1-ci (2019); Teatr Köyü Festivalı – 7-ci (2019); II Almatı Beynəlxalq Kukla Teatrları Festivalı (Qazaxıstan, 2024, 2025)

2010-cu ildən UNİMA-Azərbaycanın üzvüdür. 2013-cü ildə Dövlət sifarişi ilə Qax Dövlət Kukla Teatrında R.Həsənlinin "Ağca və Sarıca" əsərinə quruluş vermişdir. Türkel TV-də yayımlanan "Günçiçək" kukla teleserialının ssenari müəllifi və quruluşçu rejissoru olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 7 mart tarixli 316 nömrəli Sərəncamı ilə "Əməkdar artist" fəxri adına layiq görülmüş, 2017-ci ildə isə Prezident mükafatına layiq görülmüşdür.

2018-ci ilin mart ayından Gəncə Dövlət Kukla Teatrına direktor təyin olunmuşdur.

Ədəbiyyat:

Uşaqların "nağıllar dünyasını" yaradanlar / F.Paşayev; müsahibəni apardı: F.Ruzigar // Ədalət.– 2018.– 7 dekabr.– S.6.

"Aktyorlarımızın çoxu vaxtilə teatrımıza tamaşaçı kimi gələnlərdir": Fərmail Paşayev: Gəncə Dövlət Kukla Teatrına üz tutan uşaqlar hara və nəyə baxmağa gəldiklərini yaxşı bilirlər / F.Paşayev; müsahibəni apardı: X.Rəis // Kaspi.– 2019.– 12 iyun.– S.12.

Gəncə kuklaçılarından Nizami festivalına töhfə // Mədəniyyət.– 2021.– 24 noyabr.– S.4.

Gəncəli kuklaçıların yeni tamaşası // Mədəniyyət.– 2024.– 11 oktyabr(№76).– S.4.

İnternetdə:

https://az.baku-art.com/az/emekdar-artist-fermail-pashayevin-dogum-gun-d-r

Nəcibə Məlikova – 105

(1921-1992)

Aktyor



Nəcibə Haşım qızı Məlikova 25 oktyabr 1921-ci ildə Bakının Buzovna kəndində anadan olmuşdur.

1940–1943-cü illərdə Bakı Teatr Texnikumunda Xalq artisti Fatma Qədrinin sinfində təhsil almışdır. Daha sonra öz istəyi ilə Gəncə Dövlət Dram Teatrında fəaliyyət göstərmiş, bir müddət sonra Bakıya qayıdaraq Azərbaycan Dövlət Teatr İnstitutuna (indiki ADMİU) daxil olmuş və 1951-ci ildə həmin institutu bitirmişdir.

Texnikumda təhsil aldığı illərdə Milli Dram Teatrının tamaşalarında epizodik rollar ifa edən aktrisa, kinoya çəkilişlərlə əlaqədar yaranan qısa fasilələrdən sonra 1952-ci ildən etibarən yenidən teatrda fəaliyyətini davam etdirmişdir. Bu teatrda ilk rolu K.Qoldoninin "Mehmanxana sahibəsi" komediyasında Mirandolina obrazı olmuşdur.

Nəcibə Məlikova klassik və çağdaş Azərbaycan dramaturqlarının, dünya ədiblərinin dram əsərlərində və bir qədər də komediyalarda müxtəlif rollar oynamışdır. H.Cavidin "Şeyx Sənan" (Xumar), "Səyavuş" (Firəngiz), Ə.Haqverdiyevin "Pəri cadu" (Şamama cadu), C.Cabbarlının "Aydın" (Böyükxanım), "1905-ci ildə" (Sona), "Sevil" (Edilya), M.İbrahimovun "Həyat" (Atlas), "Kəndçi qızı" (Ayxanım), İ.Əfəndiyevin "Büllur sarayda" (Qönçə), "Qəribə oğlan" (Məlahət), N.Xəzrinin "Əkssəda" (Zərifə), "Mirzə Şəfi Vazeh" (Zübeydə), S.Vurğunun "Vaqif" (Xuraman), M.İbrahimbəyovun "Kərgədan buynuzu" (Dil əfruz), S.Rəhmanın "Əliqulu evlənir" (Yasəmən), "Küləklər" (Firuzə), Ş.Qurbanovun "Əcəb işə düşdük" (Məlahət), M.F.Axundovun "Lənkəran xanının vəziri" (Şölə xanım və Ziba xanım), "Müsyö Jordan və dərviş Məstəli şah" (Şəhrəbanı), "Türkiyədə" (Nazir qızı), K.Haldoninin "Məzəli hadisə" (Marianna), A.Şirvanzadənin "Namus" (Süsənbər), F.Şillerin "Orlean qızı" (Aqnessa), L.Veqanın "Sevilya ulduzu" (Estrelya) və s. pyeslərin tamaşalarında çıxış etmişdir.

Nəcibə xanım teatrla yanaşı kinoda da uğurlu rollar yaratmış, onların arasında "Ögey ana"da Dilarə, "Aygün"də Aygün, "Arşın mal alan"da Cahan xala, "Əhməd haradadır?"da Nərgiz xala rollarının ifası aktrisanın yaradıcılıq nailiyyətləri kimi dəyərləndirilir.

14 fevral 1956-cı ildə SSRİ-də Bakı Televiziya Studiyası fəaliyyətə başlayarkən ilk veriliş günü ekranda Nəcibə Məlikova görünmüş və "Göstərir Bakı!" sözləri ilə çıxış edərək tamaşaçıları televiziya yayımının başlanması münasibətilə təbrik etmişdir.

Teatr sənətinin inkişafında göstərdiyi xidmətlərə görə Nəcibə Haşım qızı Məlikova 10 iyun 1959-cu ildə Əməkdar artist, 1 iyun 1974-cü ildə Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

Nəcibə Məlikova 27 iyul 1992-ci ildə Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.

2011-ci il noyabr ayının 23-də Azərbaycan Dövlət Film Fondunda Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə görkəmli teatr və kino aktrisası, Xalq Artisti Nəcibə Məlikovanın 90 illik yubileyi münasibətilə anım tədbiri keçirilmişdir.

2021-ci il oktyabr ayının 25-də Azərbaycan Milli Kitabxanasında Xalq artisti Nəcibə Məlikovanın anadan olmasının 100 illik yubileyi münasibətilə "Nəcibə Məlikova – 100" adlı sərgi virtual rejimdə istifadəçilərə təqdim olunmuşdur.

Ədəbiyyat:

Ana rollarının mahir ifaçısı: (Xalq artisti Nəcibə Məlikovanın ekran yaradıcılığı haqqında) / H. Əsgərov // Respublika.– 2018.– 27 noyabr.– S.6.

"Yalnız Nüsrəddini"-deyib, arzusuna çatmaq üçün gözlərini əbədi qapadı / R. Qurbanlı // Üç nöqtə.– 2019.– 14 fevral.– S 12.

Gerçək həyatını filmdə oynayan ögey ana-Oğulluğunun Nəcibə Məlikova haqqında xatirələri // Türküstan.– 2020.– 11-17 avqust.– S.18.

Milli Kitabxana Nəcibə Məlikovanın 100 illiyinə həsr olunmuş virtual sərgi hazırlayıb // 525-ci qəzet.– 2021.– 26 oktyabr.– S.8.

Yaddaşlarda yaşayan sənətkar: Nəcibə Məlikovanın - 100 / M.Mükərrəmoğlu // Xalq qəzeti.– 2022.– 16 yanvar.– S.7.

Mürəkkəb xarakterli obrazlar yaradan sənətkar / A.Şabanova // Respublika.– 2023.– 25 oktyabr, № 233.– S.12.

Öz həyatını oynayan aktrisa / T.Məhərrəmova // Kaspi.– 2024.– 27 iyul, (№ 28).– S.8-9.


İnternetdə:

https://az.wikipedia.org/wiki/Nəcibə_Məlikova

Ağaxan Salmanlı – 85

(1941-2020)

Aktyor



Ədəbiyyat:

İstedad köhnəni təzə edər Ağaxan Salmanlı "Müsbət qəhrəmanı bir səhnə əsəri yaratmaq çox çətindir / U.Qaraqızı // Mədəniyyət.– 2007.– 27 iyul.– S.6.

"Üç kollektivi yalnız yaradıcılıqla mehriban şəraitdə birləşdirmək mümkündür" Ağaxan Salmanlı, Xalq artisti: "Üç ay keçib, əlini ağdan-qaraya vuran yoxdur" / A. Salmanlı // Kaspi.– 2009.– 28 iyul.– S. 11.

"Gənclik illərimin ən əziz xatirəsi sevgi idi" / A. Salmanlı; müsahibəni apardı K. Əhmədova // Üç nöqtə.– 2018.– 14 avqust.– S.14.

"Gənclik illərimin ən əziz xatirəsi sevgi idi" [Mətn]: Ağaxan Salmanlı: "İmkansızlıq səbəbindən bütün yayı kənddə qalardım" / A.Salmanlı; söhbət etdi: K.Əhmədova // Üç nöqtə.– 2019.– 1 avqust.– S.7.

Aktyor olmaq asandır, insan olmaq çətin: Səhnə yoldaşları Ağaxan Salmanlı haqda: "Bu dəfə həmin tamaşanı onsuz oynadıq, səhnədə olanda gözümüz kulisdə idi, onu axtarırdıq" / X.Rəis // Kaspi.– 2020.– 3 mart.– S.12.

Səhnənin qulu da, ağası da, xanı da olmaq...: Ağaxan Salmanlı-80 / H. Nizamiqızı // Mədəniyyət.– 2021.– 29 oktyabr.– S.5.

Ağaxan Əli oğlu Salmanlı 29 oktyabr 1941-ci ildə Bakı şəhərinin Suraxanı rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra bir müddət Suraxanı Fəhlə Gənclər Dram Dərnəyində təhsil almış, 1960-cı ildə isə M. Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki ADMİU) dram və kino aktyorluğu fakültəsinə qəbul olaraq Rza Təhmasibin kursunda təhsilini davam etdirmişdir.

1959–1960-cı illərdə Filarmoniyanın nəzdindəki Kukla Teatrı truppasında aktyor kimi fəaliyyət göstərmişdir. 1964-cü ildə universiteti bitirdikdən sonra təyinatla Gənc Tamaşaçılar Teatrına göndərilmişdir.

Peşəkar səhnə fəaliyyətinə Gənc Tamaşaçılar Teatrında Seyfəddin Dağlının "Bahar oğlu" əsəri əsasında Cəfər Cabbarlı rolu ilə başlamışdır. Romeo ("Romeo və Cülyetta", Uilyam Şekspir), Cəfər Cabbarlı ("Aydınlığa doğru", Seyfəddin Dağlı), Artur ("Ovod", Etel Voyniç), Şahsuvar və Mirpaşa ("Komsomol poeması", İsgəndər Coşqun. Səməd Vurğunun eyniadlı poeması əsasında), Çingiz ("Bəxtsiz cavan", Əbdürrəhim bəy Haqverdiyev), Oğulbəy ("Yarımçıq şəkil", Adil Babayev), Şamil ("Ötən ilin son gecəsi", Anar), Dinar ("Yadındamı?", Altay Məmmədov), Mənsur ("Məhəbbət novellası", Şamil Xurşud və Əşrəf Hacıyev), Səməd ("Bir sahilin adamları", Xalidə Hasilova), Paşa ("Sənin dostun, düşmənin", Əfqan Əsgərov), Səməd ("Sən nə üçün yaşayırsan?", İmran Qasımov ve Həsən Seyidbəyli), İsa bəy Merkelov ("Fudziyama dağında qonaqlıq", Çingiz Aytmatov və Kaltay Məhəmmədcanov), Qəzənfər ("Ərizə", Əli Əmirli), Balakərim ("Ağ dəvə", Elçin), Rəcəb ("Şirinbala bal yığır", Salam Qədirzadə), Filbert, Trufaldino ("Məzəli hadisə" və "İki ağanın bir nökəri", Karlo Qoldoni), Hacı Murad ("Tamahkar", Süleyman Sani Axundov), Cəbi ("Hacı Qəmbər", Nəcəf bəy Vəzirov), Kərbəlayı Mirzalı ("Danabaş kəndinin məktəbi", Cəlil Məmmədquluzadə) və s. aktyorun ifa etdiyi əsas rollar sırasındadır.

Ağaxan Salmanlı GTT-də Qılman İlkinin "Qarışqa şıllaq atdı", Əhməd Orucoğlunun "Pul dəlisi", "Nənənin kələyi", Əli Əmirlinin "Məhəbbət bir bəladır", Dərbənd Azərbaycan Dövlət Dram Teatrında Yusif Əzimzadənin "Xatirə", Xanımana Əlibəylinin "Dovşanın ad günü", Tamara Vəliyevanın "Mənim ağ göyərçinim" və "Bankir adaxlı", Cəfər Cabbarlının "Solğun çiçəklər", Abdulla Şaiqin "Tıq-tıq xanım" pyeslərini tamaşaya hazırlamışdır.

Ağaxan Əli oğlu Salmanlı 1979-cu ildə Əməkdar artist, 2006-cı ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

2005-ci ildə Azərbaycan Teatr Xadimləri İttifaqının "Qızıl Dərviş" mükafatı ilə, 2012, 2014 və 2015-ci illərdə Prezident Mükafatı ilə, 2016-cı ildə isə Azərbaycan Teatr Xadimləri İttifaqının "Sənətkar" medalı ilə təltif olunmuş, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Ağaxan Əli oğlu Salmanlı 2020-ci il fevral ayının 29-da vəfat etmiş, Suraxanıda dəfn edilmişdir.

Oqtay Babazadə – 85

(1941)

Rejissor



Ədəbiyyat:

Ekranda söz: (dərs vəsaiti) / O. Babazadə; elmi red. A. Babayev; [üz qabığının tərtibatı R. Əsədov; foto B. Cəfərov]; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dövlət Mədəniyyət və İncəsənət Un-ti.– Bakı: Elm və təhsil, 2012.– 135, [1] s.

Ekranda musiqi və səs: dərs vəsaiti / O. Babazadə; elmi red. A. Babayev; [üz qabığının tərtibatı R. Əsədov; foto N. Babazadə]; Azərb. Resp. Təhsil Naz., Azərb. Dövlət Mədəniyyət və İncəsənət Un-ti, "Kino-televiziya sənətləri" kafedrası.– Bakı: Elm və təhsil, 2017.– 93, [3] s.

Sənədli filmlər ustadı: Kinorejissor, Azərbaycan Respublikasının Əməkdar İncəsənət Xadimi, professor, Azərbaycan Respublikası Lütfi Zadə Beynəlxalq Müasir Elmlər Akademiyasının akademiki Oqtay Ələkbər oğlu Babazadənin 80 illiyi münasibətilə / N. Axundova ; red.: E. Ə. Məhərrəmov, L. Ə. Əskərova-Surxəlizadə.– Bakı: Elm və təhsil, 2021.– 117, [3] s., [8] v.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Oqtay_Babazadə

Oqtay Ələkbər oğlu Babazadə 30 oktyabr 1941-ci ildə Bakıda anadan olmuşdur. 1968-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kimya fakültəsini bitirmişdir. 1974-1979-cu illərdə Sankt-Peterburq Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunda təhsil almışdır.

1959-cu ildən Dövlət Teleradio Verlişləri Şirkətində çalışmışdır, ali dərəcəli rejissordur.

Rejissor Qara Qarayev, Niyazi, Fikrət Əmirov, Rəşid Behbudov, Toğrul Nərimanbəyov, Səttar Bəhlulzadə, Əli Cavan, Eyvaz Babayev, Ronald Jager, Dmitri Şostakoviç, Mstislav Rostropoviç və başqalarının obrazlarını lentdə və ekranda əbədiləşdirmişdir.

Oqtay Babazadənin "Ömür", "Alim", "Körpülü", "Luvr" sənədli filmləri, həmçinin ssenari müəllifliyi və rejissorluğu ilə çəkdiyi "Gədəbəyin alban abidələri" sənədli filmi də yüksək qiymətləndirilmişdir. Onun rejissorluq filmotekasına 150-dən çox bədii, musiqili və sənədli filmlər daxildir.

Oqtay Babazadə gənc kadrların hazırlanmasında da səmərəli fəaliyyət göstərmişdir. Bakı Dövlət Universitetində və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim, baş müəllim, dosent, professor vəzifələrində çalışmışdır. Bir neçə dərs vəsaitinin müəllifidir. Onun imzası ilə işıq üzü görmüş "Ekranda təsvir və səs", "Kinoda və televiziyada montaj", "Ekranda söz" dərs vəsaitləri bu sahədəki boşluğu aradan qaldırmışdır.

O, publisistika ilə məşğul olmuş, yaxından tanıdığı və dostluq etdiyi elm və sənət adamları barədə maraqlı oçerklər və xatirələr yazmışdır. Onun professor Lütfi Zadə və Xalq rəssamı Toğrul Nərimanbəyov haqqında yazdığı məqalələr yüksək elmi-publisistik dəyərə malikdir.

Oqtay Babazadənin çəkdiyi filmlər dəfələrlə müxtəlif beynəlxalq kinovideo festivallarında diplom və mükafatlara layiq görülmüşdür. "Hakim" filmi Tiflisdə "Qran-Pri" və "Yaradıcı axtarışlara görə" priz və diploma, "Leyla və onun dostları" isə Moskvada keçirilən Beynəlxalq Gənclər Forumu kinofestivalında 2-ci dərəcəli prizə və diploma layiq görülmüşdür.

"Hücumçu həmişə irəlidədir" (Ələkbər Məmmədov), "Rənglərin ahəngi" (Toğrul Nərimanbəyov), "Uzaq və yaxın Lütfi Zadə", "Alban abidələri", "Alim" (Rafiq Əliyev) və digər filmlərin ekran həyatı uğurlu olmuşdur. Tammetrajlı "Toğrul" filmi 2011-ci ildə Ukraynanın paytaxtı Kiyev şəhərində keçirilən birinci Televiziya Filmləri Festivalının "TEFİ – Birlik" diplomuna layiq görülmüşdür.

Azərbaycan kino sənətinin inkişafındakı xidmətlərinə görə 2000-ci ildə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüş, həmçinin Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının həqiqi üzvü (akademiki) seçilmişdir.

Oqtay Babazadə Azərbaycan Kinematoqrafiya İttifaqının və Respublika Jurnalistlər Birliyinin üzvüdür.

2021-ci il noyabrın 2-də AMEA-nın Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Nigar Axundovanın müəllifi olduğu "Sənədli filmlər ustadı" kitabı işıq üzü görmüşdür. Nəşr kinorejissor, Əməkdar incəsənət xadimi, Lütfi Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının həqiqi üzvü, professor Oqtay Babazadənin 80 illik yubileyinə həsr edilmişdir.

Kamil Nəsibov – 80

(1946-1992) *Milli Qəhrəman*



Kamil Baladə oğlu Nəsibov 8 oktyabr 1946-cı ildə Laçın rayonunun Bozlu kəndində anadan olmuşdur. Orta təhsilini 1963-cü ildə Minkənd kəndində almışdır. Daha sonra ordu sıralarına çağırılmış, üç il hərbi xidmət keçdikdən sonra Vətənə qayıtmışdır.

1973-cü ildə Kamil Nəsibov Azərbaycan Texniki İnstitutuna daxil olmuşdur. Ali təhsilini bitirdikdən sonra Minkənddə yerləşən Tikinti Materialları Bazasına müdir təyin edilmişdir.

1992-ci ildə Laçın erməni silahlı dəstələrinin hücumlarına məruz qalarkən, Kamil Nəsibov könüllü olaraq özünümüdafiə bölüyü yaratmış və bölüyün komandiri olmuşdur. 30 nəfərdən ibarət bu bölük Qarabağ uğrunda gedən döyüşlərdə böyük rəşadət göstərmişdir. Kamil Nəsibovun döyüşçülərlə birlikdə Fərəcan, Səfiyan, Çağazur, Malıbəy, Cicimli və Qızdərə kəndlərinin müdafiəsində əvəzsiz xidmətləri olmuşdur.

Kamil Nəsibov 1992-ci il iyunun 29-da Qonaqgörməz yüksəkliyi uğrunda gedən döyüşlərdə snayper gülləsindən qəhrəmancasına həlak olmuşdur. Ağcabədi rayonunda dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı Fərmanı ilə Kamil Baladə oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Xatirəsini əbədiləşdirmək məqsədilə Laçın rayonunun Bozlu kəndində Mədəniyyət evi, Ağcabədi rayonunda isə küçə Kamil Baladə oğlu Nəsibovun adını daşıyır.

Ədəbiyyat:

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Nəsibov Kamil Baladə oğlu-baş leytenant-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 fevral 1993-cü il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.– 1993.– № 3.– S.11. (Ölümündən sonra).

Nəsibov Kamil Baladə oğlu // Azərbaycanın Milli Qəhrəmanları / M.F.Axundov adına Milli Kitabxana; tərt.ed. H.Həmidova.– Bakı, 2008.– S.162-163.

Əsgərov,V. Nəsibov Kamil Baladə oğlu / V.Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.– Bakı, 2010.– S.226.

Bəxtiyar, N. Laçın qartalları:[məqalədə Milli Qəhrəman Kamil Nəsibovdan da bəhs olunur] / N.Bəxtiyar // Ədalət.– 2017.– 19 avqust.– S.; 22 avqust.– S. 3.

Kamil Nəsibov: Qürurla anırıq / Q.Aslan // Respublika.– 2022.– 8 oktyabr.– S.6.

Qəhrəmanlıq zirvəsi / Hacı Q. Camalzadə (tərtibatçı), Ə. Məmmədov (tərtibatçı); red. Ə. Səfabəyli; şeir və zəfərnamələr A. Həsənli; esse və elegiyalar İ. Şükürlü; [Azərb. Resp. Milli Qəhrəmanlarını Tanıtma İB, Vətən Qəhrəmanları Cəmiyyəti].– [Bakı]: Qanun, [2023].– 101, [3] s.

İnternetdə:

https://anl.az/el/emb/MILLI_QEHREMANLAR/qehremanlarimiz/Nesibov_Kamil.pdf

https://nuhcixan.az/news/cemiyyet/129994-bu-gun-azerbaycanin-iki-milli-qehremaninin-dogum-gunudur?utm_source=chatgpt.com

Samid İmanov – 45

(1981-2016)

Milli Qəhrəman



Ədəbiyyat:

Şərəfli ölüm arzulayan Milli Qəhrəman: O, sağlığında Şəhidliyinə imza atmışdı / A. Hüseynli // Olaylar.–2017.– 15 avqust.– S.6.

Xüsusi təyinatlı Samid / E.Hadıyev // Azərbaycan.–2018.– 4 aprel.– S.9.

Neftçala şəhər 1 nömrəli tam orta məktəbə Azərbaycanın Milli Qəhrəmanı Samid İmanovun adının verilməsi haqqında: Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı: № 186; 22 aprel 2019-cu il / N. Məmmədov // Xalq qəzeti.– 2019.– 23 aprel.– S.7.

Vətən sevgisi hər şeydən uca…: Milli Qəhrəman Samid İmanov da "Vətən sevdalısı" idi... / E.Fuad // Ədəbiyyat qəzeti.–2020.– 10 oktyabr.– S.22.

Aprel döyüşlərinin şəhidi-Milli Qəhrəmanın doğum günüdür // Unikal.–2021.– 15 oktyabr.– S.12.

Yaralı olsa da özünü deyil, heyətini meydandan çıxartdıran qəhrəman / E.Piri // Ədalət.– 2022.– 7 may.– S.5.

Bir Samid var! / E. Uğur // Ədəbiyyat qəzeti.–2023.– 21 aprel.– S.21.

https://naftalan-ih.gov.az/az/news/icra-bascisi-milli-qehreman-samid-imanovun-atasi-ile-gorusub.html?utm_source

Samid Gülağa oğlu İmanov 14 oktyabr 1981-ci ildə Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olmuşdur. 1988-1998 illərdə Neftçala rayonu 1 nömrəli tam orta məktəbdə orta təhsil almışdır.

1998-ci ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olan S.İmanov 2003-cü ildə həmin hərbi məktəbi fərqlənmə diplomu ilə bitirmiş və Ümummilli lider Heydər Əliyev tərəfindən mükafata layiq görülmüşdür.

2004-cü ilin iyun ayından müxtəlif illərdə Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissəsində qrup komandiri müavini, qrup komandiri, bölük komandiri, dəstə komandiri və hərbi hissənin qərargah rəisi vəzifələrində xidmət etmişdir.

O, Türkiyə Respublikasında "Daxili təhlükəsizlik əməliyyatlarının planlaşdırılması və icrası", "Komanda təlimi və paraşütdən sərbəst atlamaq" kurslarına qatılmış, 2007-ci ildə "Anadolu - 2007" və "Anadolu Qartalı - 2007" birgə taktiki təlimlərlə yanaşı həm də Pakistanda "Ləpirçi və antiterror", İsveçrədə "Dağ təlimi", Ruminiyada isə "Dağa dırmanma üzrə təlimatçı" kurslarında iştirak etmişdir. 2014-cü ilin avqust ayının əvvəllərində Azərbaycan-Ermənistan təmas xəttində baş verən atışma zamanı Samid İmanovun rəhbərliyi altında onun dəstəsi qarşı tərəfə keçmiş və döyüş nəticəsində Ermənistan Silahlı Qüvvələrinin 20 hərbi qulluqçusu məhv edilmişdir.

Samid İmanov həm də bir müddət Azərbaycan Respublikası Müdafiə Naziri general-polkovnik Zakir Həsənovun mühafizə xidmətinin rəisi olmuş, daha sonra isə mayor İmanov öz istəyi ilə yenidən Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissəsinə qayıtmış, hissənin qərargah rəisi və Xüsusi Təyinatlı Qoşunun komandasının köməkçi vəzifəsini icra etmişdir.

Samid İmanov 2004-cü ildə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı, 2006-cı ildə "Hərbi xidmətdə fərqlənməyə görə" II dərəcəli medalı, 2008-ci ildə "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı və "Qüsursuz xidmətə görə" III dərəcəli medalı, 2013-cü ildə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı və "Qüsursuz xidmətə görə" II dərəcəli medalı, 2014-cü ildə "Qələbə günü münasibətilə keçirilən hərbi parada qatıldığına görə" medalı ilə təltif olunmuşdur.

Samid İmanov 2016-cı ilin aprel ayının əvvəlində sonuncu döyüşə qatılmışdır. Aprelin 3-dən 4-nə keçən gecə döyüş zamanı mayor İmanov neytral ərazidə ayağından və çiynindən qəlpə yarası almışdır. Əsgərlər onu döyüş meydanından çıxarmaq istəsələr də, Samid İmanov buna qəti şəkildə etiraz etmiş və onun yerinə yaralı gizirin çıxarılmasını əmr etmişdir. Əsgərlərin etirazına baxmayaraq mayor İmanov əmrin icra olunması üçün qəti göstəriş vermişdir. Bütün mərmiləri qurtaran mayor İmanov düşmənə əsir düşməmək üçün əlində saxladığı qumbaranı partladıb və qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidenti və Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin 2016-cı il 19 aprel tarixli 1966 nömrəli sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə mayor Samid Gülağa oğlu İmanova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı və "Qızıl Ulduz" medalı verilmişdir.

2016-cı ildə qəhrəmanın xatirəsinə "Samidə məktub" adlı sənədli film çəkilmişdir. Nefçala şəhəri, Masazır, Sabunçu qəsəbəsindəki küçələrdən biri və məktəb Milli qəhrəmanın adını daşıyır.

2021-ci il oktyabr ayının 15-də Neftçala rayonunda şəhid Milli Qəhrəman Samid İmanov adına 1 saylı tam orta məktəbdə büstünün açılış mərasimi olmuşdur.

Soltanağa Bayramov – 90

(1936-1993) *Milli Qəhrəman*



Soltanağa Nəhmət oğlu Bayramov 17 oktyabr 1936-cı ildə Lənkəran rayonunun Şürük kəndində anadan olmuşdur. Orta təhsilini Astara rayonunda almışdır. 1957-ci ildə Lənkəran Tibb Məktəbini bitirərək, təyinatla hərbi hospitalda əmək fəaliyyətinə başlamışdır. 1967-ci ildə fizioterapevt, sonra isə rentgenoloqtexnik vəzifəsində işləmişdir.

Soltanağa Bayramov hospitalda çalışdığı müddət ərzində "Səhiyyə əlaçısı" adını qazanıb. Milli Ordumuzun neçə-neçə əsgərinin sağalıb fəal həyata qayıtmasında Soltanağa Bayramovun böyük əməyi olmuşdur

1993-cü il avqust ayının 23-də silahlı dəstələr Soltanağa Bayramovun çalışdığı hospitala basqın etmişdilər.

Azərbaycanın Milli Qəhrəmanı Soltanağa Bayramov separatçı dəstənin şəxsi ambisiyasının qurbanı olmuş və quldur dəstəsinin Azərbaycanın cənub bölgələrində ağır cinayətlər törətdiyi dövrdə faciəli şəkildə həlak olmuşdur. Lənkəran şəhəri Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 24 avqust 1993-cü il tarixli 740 saylı Fərmanı ilə Bayramov Soltanağa Nəhmət oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Lənkəran şəhərindəki, Sabunçu qəsəbəsində küçələrdən birinə onun adı verilmiş və büstü qoyulmuşdur. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuşdur.

Lənkəran şəhərindəki küçələrdən birinə onun adı verilmş və büstü qoyulmuşdur. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuşdur.

Ədəbiyyat:

Soltanağa Nəhmət oğlu Bayramova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Lənkəran hərbi hospitalının rentgentexniki-Azərbaycan Respublikasının dövlətçiliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasında, Azərbaycan xalqına təcavüz edən cinayətkar ünsürlərə qarşı mübarizədə göstərdiyi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 24 avqust 1993-cü il // Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.– 1993.– № 16. – S.19; Azərbaycan.– 1993.– 26 avqust. – S.1.– (Ölümündən sonra).

Əsgərov, V. Bayramov Soltanağa Nəhmət oğlu / V.Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları.– Yenidən işlənmiş II nəşr.– Bakı, 2010.– S.52.

Seyidzadə, M. Bayramov Soltanağa Nəhmət oğlu / M.Seyidzadə // Milli qəhrəmanlar zirvəsi.– Bakı, 2010.– S.39.

Soltanağa Bayramov: Qürurla anırıq / M.Cəfərov // Respublika.– 2022.– 16 oktyabr.– S.8.

İnternetdə:

https://cenublu.az/tarixi-faktlar-v-s-xsl-r/azarbaycan-respublikasinin-milli-qahramani-soltanaga-bayramov

İqor Makeyev – 55

(1971-1992)

Milli Qəhrəman



İqor Vladimiroviç Makeyev 27 oktyabr 1971-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 1979-1987-ci illərdə Mir Cəlal Paşayev adına Kəpəz rayon 39 saylı məktəbdə orta təhsil almışdır. 1987-1990-cı illərdə 8 saylı Texniki peşə məktəbində avtomobil çilingəri peşəsinə yiyələnmişdir.

1990-ci il noyabrın 26-da Kəpəz Rayon Hərbi Komissarlığından hərbi xidmətə göndərilmişdir. İqor Makeyev Bakıda desant qoşunları hissəsində xidmət etmiş, sonra Rusiyanın Rostov vilayətinə göndərilmiş və burada 6 ay çavuş məktəbində təhsil almışdır.

Azərbaycanda baş verən hadisələr nəticəsində hərbi xidmətini yarımçıq qoyan İqor Makeyev Gəncəyə qayıtmış, daha sonra Bakıya gələrək Daxili İşlər Nazirliyinin qoşun hissələrindən birinə yazılmış və elə həmin gündən həyatını cəbhəyə həsr etmişdir. Cəsur döyüşçü tez bir zamanda bütün silahlardan istifadə etməyi öyrənmiş və qısa müddətdə taqım komandirinin müavini vəzifəsinə təyin olunmuşdur.

1992-ci il iyunun 5-də erməni quldurları Naxçıvanik kəndinə qəflətən hücuma keçmişdir. Bir saata yaxın davam edən döyüşdə İqor Makeyev öz əsgərləri ilə kənd qəbiristanlığının yaxınlığında yerləşən postu qəhrəmancasına qorumuş, ağır döyüş nəticəsində ermənilər Naxçıvanik kəndini 3–4 saatlıq ələ keçirsələr də, onun rəhbərlik etdiyi özünümüdafiə dəstəsi tez bir zamanda kəndi geri almışdır.

İqor Makeyev 1992-ci il avqustun 2-də "Vışka" yüksəkliyi uğrunda ağır döyüşlərdə 28 nəfərin mühasirədən çıxmasına kömək etmiş, özü isə qəhrəmancasına həlak olmuşdur. O, Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı Fərmanı ilə Makeyev İqor Vladimiroviçə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Xatirəsini əbədiləşdirmək məqsədi ilə Sadıllı qəsəbəsində küçəyə İqor Vladimiroviç Makeyevin adı verilmişdir.

2010-cu il noyabr ayının 8-də Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) Azərbaycan Həmkarlar İttifaqı Respublika Şahmat-Dama Klubunda Milli Qəhrəman İqor Makeyevin xatirəsinə həsr olunmuş tələbələr arası dama turniri keçirilmişdir.

2016-cı il oktyabr ayının 27-də Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanları şəhid Rəfael Əsədov və İqor Makeyevin ad günləri münasibəti ilə oktyabrın 27-də Gəncə şəhərində "Həyatda qəhrəmanlığa həmişə yer var" devizi altında hərbi-vətənpərvərlik tədbiri keçirilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Daxili işlər orqanlarının əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Makeyev İqor Vladimiroviç - sıravi -Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidliyə və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 19 oktyabr 1992-ci il // Azərbaycan Respublikası Ali Sovetinin məlumatı.– 1992.– № 21.– S.27.– (Ölümündən sonra).

"Vağzalı" çalınır... / F. Bəyməmmədqızı; [red. V. Muğumlu; rəssam G. Əlizadə].– Bakı: [n. y.], 1996.– 125, [3] s.

Makeyev İqor Vladimiroviç // Azərbaycanın Milli Qəhrəmanları / M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.– Bakı, 2008.– S.129.

Əsgərov, V. Makeyev İqor Vladimiroviç / V.Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları. –Yenidən işlənmiş II nəşr.– Bakı, 2010.– S.180-181.

İnternetdə:

Şəhidlər qürur mənbəyimizdir / T.Seyidzadə // Azad Azərbaycan.– 2017.– 29 mart.– S.7.

https://anl.az/el/emb/MILLI_QEHREMANLAR/qehremanlarimiz/Makeyev_Iqor.pdf

1 OKTYABR

Elməddin Əhmədzadə - 30

(1996-2020) *MAHHXHQ əsgər*



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Elməddin Uğur oğlu Əhmədzadə 1 oktyabr 1996-cı ildə İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində anadan olmuşdur. Orta təhsilini İmişli rayonu, Yeni Bəhrəmtəpə qəsəbəsi 35 saylı tam orta məktəbdə almışdır. 2012-ci ildə Fizika, Riyaziyyat və İnformatika təmayüllü liseydə təhsilini davam etdirmişdir. 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elməddin Əhmədzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elməddin Əhmədzadə sentyabrın 27-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elməddin Uğur oğlu Əhmədzadə ölümündən sonra II dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

1

Elvin Abdurahmanov - 30

(1996-2020) *Gizir*



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Elvin Əbülfəz oğlu Abdurahmanov 1 oktyabr 1996-cı ildə Qəbələ rayonunun Əmirvan kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə Əmirvan kənd tam orta məktəbində təhsil almışdır. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmişdir. 2017-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyət göstərmişdir.

Azərbaycan Ordusunun giziri olan Elvin Abdurahmanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmiş, oktyabrın 2-də Füzuli döyüşləri zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elvin Əbülfəz oğlu Abdurahmanov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

OKTYABR

1

Mustafa Hüseynov - 30

(1996-2020) *MAHHXHQ kiçik çavuş*



Mustafa Ələddin oğlu Hüseynov 1996-cı il oktyabrın 1-də Tovuz rayonunun Qonaqlı kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə Qonaqlı kənd tam orta məktəbində təhsil almışdır. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Mustafa Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Mustafa Hüseynov sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olmuşdur. Uzun müddət nəşi tapıla bilməyən şəhidin cənazəsi 15 dekabr 2020-ci il tarixində Tovuz rayonunun Qonaqlı kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Mustafa Ələddin oğlu Hüseynov ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

1

Əbülhəsən Eyvazov - 30

(1996-2020) *Əsgər*



Əbülhəsən Balaş oğlu Eyvazov 1996-cı ildə oktyabr ayının 1-də Kürdəmir rayonunun Mollakənd kəndində anadan olmuşdur. 2003-cü ildə Xətai rayonu 165 saylı orta məktəbdə təhsil almışdır. 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələrində müd¬dətli həqiqi hərbi xidmət keçmişdir.

2016-cı ilin 2–5 aprelində baş verən Aprel döyüşlərinin iştirakçısı olmuş, fəxri fərmanla təltif olunmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Əbülhəsən Eyvazov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli rayonu istiqamətində yerləşən hərbi bölmələrin tərkibində döyüşlərə qatılmışdır. O, 30 oktyabr 2020-ci ildə Füzuli rayonu ərazisində, "Bunker" adlanan mövqe yaxınlığında gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Əbülhəsən Balaş oğlu Eyvazov ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

1 OKTYABR

Qəhraman Məmmədov - 30

(1996-2020) *MAHHXHQ əsgər*



Qəhrəman Qürbət oğlu Məmmədov 1996-cı il oktyabr ayının 1-də Goranboy rayonun Yolqulular kəndində anadan olmuşdur. Orta təhsilini Goranboy rayonu, Yolqulular kənd tam orta məktəbində almışdır.

Məmmədov Qəhrəman Qürbət oğlu 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Oktyabr ayının 16-da Suqovuşan istiqamətində gedən döyüşlər zamanı belindən yaralanmasına baxmayaraq döyüş mövqeyini tərk etməmiş, düşmənin hücumunu dəf edərək silahdaşları ilə birlikdə onu geri çəkilməyə məcbur etmişdir. Qəhrəman Məmmədov həmin döyüşdə aldığı güllə yarası nəticəsində qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Qəhrəman Qürbət oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir..

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

1

Toğrul Məmmədzadə - 25

(2001-2020) *Əsgər*



Toğrul Pərviz oğlu Məmmədzadə 2001-ci il oktyabrın 1-də Sabirabad rayonunun Qaratəpə kəndində anadan olmuşdur. Orta təhsilini Sabirabad rayonu, Qaratəpə kənd tam orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Toğrul Məmmədzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Toğrul Məmmədzadə oktyabrın 18-da Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Toğrul Pərviz oğlu Məmmədzadə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

1 OKTYABR

Murad Musayev - 25

(2001-2020) *Əsgər*



Musayev Murad Polad oğlu 2001-ci ildə oktyabr ayının 1-də Mingəçevir şəhərində dünyaya gəlmişdir. Mingəçevir şəhəri, 26 saylı orta məktəbdə təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Murad Musayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Murad Musayev 28 sentyabr 2020-ci ildə Füzuli istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Musayev Murad Polad oğlu ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" , "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.


Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

1

Əlikram Şahbazlı - 25

(2001-2020) *Əsgər*



Əlikram Novruz oğlu Şahbazlı 2001-ci ildə oktyabr ayınını 1-də Şabran rayonunun Borbor kəndində anadan olmuşdur. Orta təhsilini Padar kənd orta məktəbində almışdır. Naxçıvan Dövlət Universitetinə qəbul olub, təhsilini yarımçıq saxlayaraq 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Əlikram Şahbazlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın və Hadrutun azad edilməsi uğrunda gedən döyüşlərdə vuruşmuşdur. 6 oktyabr 2020-ci ildə Tərtər rayonunun Talış kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Əlikram Novruz oğlu Şahbazlı ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

2 OKTYABR

Vüsal Əliyev - 35

(1991-2020) *Gizir*



Vüsal Məhəmmədəli oğlu Əliyev 1991-ci il oktyabrın 2-də Cəlilabad rayonunun Komanlı kəndində anadan olmuşdur. 2009-cu ildə Rüstəmabad kənd orta məktəbini bitirmişdir. 2009-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmişdir..

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının giziri olan Vüsal Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşmış, 9 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Hadrut qəsəbəsi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. 16 oktyabr 2020-ci ildə Cəlilabad rayonunun Rüstəmabad kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Əliyev Vüsal Məhəmmədəli oğlu ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

2

Rövşən Əliyev - 55

(1971-2020) *Mülki qulluqçu*



Rövşən İbrahim oğlu Əliyev 1971-ci il oktyabrın 2-də Lənkəran rayonunun Vələdi kəndində anadan olmuşdur. Orta təhsilini Vələdi kənd orta məktəbində almışdır.

1992-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin Tank və Artilleriya bölmələrinin heyətində tank mexaniki vəzifəsində çalışırdı.

Azərbaycan Ordusunun ehtiyatda olan əsgəri Rövşən Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli istiqamətlərində gedən döyüşlər zamanı Azərbaycan Silahlı Qüvvələrinin tanklarının saz vəziyyətə gətirilməsində xidməti olan bölmələrin heyətində yer almışdır. Rövşən Əliyev sentyabrın 28-də Füzuli rayonu ərazisində şəhid olmuşdur. Qaradağ Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Rövşən İbrahim oğlu Əliyev ölümündən sonra "Vətən uğrunda", "Şücayətə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

2 OKTYABR

Mürtaza Qasımov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Mürtaza Elman oğlu Qasımov 2001-ci ildə oktyabr ayının 2-də Cəlilabad rayonunun Gülməmmədli kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə Əli Kərimov adına Cəlilabad rayon Gülməmmədli kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Sərhəd Qoşunlarının müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının əsgəri olan Mürtaza Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Mürtaza Qasımov noyabrın 8 də Zəngilan rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuş, 9 noyabr tarixində Cəlilabad rayonunun Gülməmmədli kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Mürtaza Elman oğlu Qasımov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" , "Zəngilanın azad olunmasına görə" , "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2

Rəşad Səfərəliyev - 25

(2001-2020)

Əsgər



Rəşad Fərman oğlu Səfərəliyev 2001-ci il oktyabr ayının 2-də Xaçmaz rayonunda anadan olmuşdur. Orta təhsilini Xaçmaz şəhəri 9 nömrəli orta məktəbdə almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Rəşad Səfərəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Tərtər və Suqovşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Rəşad Səfərəliyev sentyabrın 27-də döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, Xaçmaz rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Rəşad Fərman oğlu Səfərəliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medaları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

OKTYABR

2

Əmral Xəmmədov - 25

(2001-2020) *Gizir*



Əmral Zaur oğlu Xəmmədov 2001-ci il oktyabr ayının 2-də İmişli rayonunun Çaxırlı kəndində anadan olmuşdur. Orta təhsilini İmişli rayon Çaxırlı kənd tam orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Əmral Xəmmədov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Murovdağ və Cəbrayıl uğrunda gedən döyüşlərdə vuruşmuş, Cəbrayılın girişində Azərbaycan bayrağını dalğalandırmışdır. Əmral Xəmmədov 15 oktyabr tarixində Hadrutun azad olunması uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Əmral Zaur oğlu Xəmmədov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" , "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

3

Rüstəm Məmmədov - 25

(2001-2020) *Əsgər*



Rüstəm Müsəllim oğlu Məmmədov 2001-ci il oktyabr ayının 3-də Şəmkir rayonunun Təzəkənd kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə S.Vurğun adına Təzəkənd kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Rüstəm Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 3-də Xocavənd rayonu ərazisində gedən döyüşlər zamanı mühasirədə qalmış, əsir düşməmək üçün döyüş yoldaşları ilə birlikdə özlərini və onlara hücum edən Ermənistan Ordusunun hərbçilərini partladaraq şəhid olmuşlar. Şəmkir rayonunun Təzəkənd kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Rüstəm Müsəllim oğlu Məmmədov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

3 OKTYABR

Nicat Nəsibov - 30

(1996-2020)

Əsgər



Nicat Səməd oğlu Nəsibov 1996-cı il oktyabr ayının 3-də Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə M.Həsənov adına Birinci Şıxlı kənd tam orta məktəbində, 2014-2019-cu illərdə fasilələrlə Gəncə Regional Kollecində təhsil almışdır. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Nicat Nəsibov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd, Laçın və Qubadlı rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 27-də Qubadlı döyüşləri zamanı şəhid olmuş, Qazax rayonunun Birinci Şıxlı kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Nicat Səməd oğlu Nəsibov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

5

İdrət Abdulov - 25

(2001-2020)

Əsgər



İdrət İbi oğlu Abdulov 2001-ci il oktyabr ayının 5-də Lerik rayonunun Orand kəndində anadan olmuşdur. 2008-2019-cü illərdə Lerik rayonu, Orand kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrində müd¬dətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İdrət Abdulov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştiirak etmişdir. Oktyabrın 18-də Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən İdrət Abdulov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Ruslan Bayramov - 30

(1996-2020) *Baş leytenant*



Ruslan Azər oğlu Bayramov 1996-ci il oktyabrın 5-də Quba rayonunun Əlibəyqışlaq kəndində anadan olmuşdur. Orta təhsilini 2003-cü ildə Quba rayonu Əlibəyqışlaq kənd məktəbində almışdır. 2012-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olmuş, 2015-ci ildə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul edilmişdir.

2019-cu ildə Naxçıvan Muxtar Respublikasının "N saylı" hərbi hissəsində xidmət etməyə başlamış, eyni zamanda Naxçıvan Xüsusi Təyinatlılarının kursunu müvəffəqiyyətlə başa vurmuşdur.

Azərbaycan Ordusunda kəşfiyyatçısı olan Ruslan Bayramov 2020-ci il tarixində başlayan Vətən müharibəsində könüllü olaraq Xüsusi Təyinatlı Qüvvələrin tərkibində döyüşlərə qatılmış, Hadrutun və Xocavənd ətrafındakı yüksəkliklərin alınmasında iştirak etmişdir. Döyüşlərin birində komandiri yaralandığından tağıma rəhbərlik edib, göstərdiyi şücaətə görə elə döyüşdə baş leytenant rütbəsi almışdır.

Ruslan Bayramov Şuşanın alınması uğrunda gedən döyüşlərdə snayper güllələsinə tuş gələrək şəhid olmuşdur. Quba rayonunda dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ruslan Azər oğlu Bayramov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunması uğrunda", "Füzulinin azad olunması uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Sarıyeva, İ. 100 işğalçını, 63 texnikanı məhv etdi, Şuşada snayperə hədəf oldu - Şəhid Ruslan Bayramov... : Aygün Bayramova: "Yaralanmasına və kontuziya almasına baxmayaraq o, hospitala getməkdən imtina edir, qrupu başsız qoya bilməyəcəyini deyir" /İrada Sarıyeva //Bakı Xəbər.-2025.- 15 avqust (№ 143).- S.14.

Bayramov, Z. Vətən üçün doğulanlar [Mətn] /Ziyafət Bayramov//Respublika.-2021.- 24 aprel.- S.4.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/1869

https://memorial.az/az/qehremanlarimiz/1277

http://www.anl.az/down/meqale/baki_xeber/2025/avqust/962382(meqale).pdf

http://www.anl.az/down/meqale/respublika/2021/aprel/742357.htm

OKTYABR

5

Ceyhun Hüseynov - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ceyhun Möhübbət oğlu Hüseynov 1991-ci ildə oktyabr ayının 5-də Ağcabədi rayonunun Arazbar kəndində anadan olmuşdur. C.Həsənov adına Ağcabədi rayon Arazbar kənd tam orta məktəbdə təhsil almışdır.

2009-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2014-cü ilin mart ayından etibarən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyət göstərmiş, top komandiri vəzifəsində xidmət etmişdir. 2016-cı ilin 2–5 aprelində baş verən Aprel döyüşlərinin iştirakçısı olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Ceyhun Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə topdan və minaatandan qarşı tərəfə atəş açaraq döyüş tapşırıqlarını yerinə yetirmişdir.

Ceyhun Hüseynov 16 oktyabr 2020-ci ildə Xocavənd rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Ağcabədi rayonunun Arazbar kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ceyhun Möhübbət oğlu Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdi.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

6

Orxan Kərimli - 25

(2001-2020)

Əsgər



Orxan Akif oğlu Kərimli 2001-ci il oktyabrın 6-da Göyçay şəhərində anadan olmuşdur. Naxçıvan Dövlət Universitetinə (NDU) təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Orxan Kərimli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir.

Orxan Kərimli oktyabrın 9-da Murovdağ döyüşləri zamanı şəhid olmuşdur. Göyçay şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Orxan Akif oğlu Kərimli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdi.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

https://unudulmazlar.az/az/infom/1285

6 OKTYABR

İlqar Hüseynli - 50

(1976-2020) *Baş gizir*



İlqar Şəmiyyət oğlu Hüseynli 1976-cı il oktyabrın 6-da Xudat şəhərində anadan olmuşdur. Orta təhsilini Xudat şəhər 2 saylı tam orta məktəbdə almışdır.

Azərbaycan Ordusunun baş giziri olan İlqar Hüseynli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. İlqar Hüseynli sentyabrın 27-də Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olmuş, Xudat şəhərində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən İlqar Şəmiyyət oğlu Hüseynli ölümündən sonra "Vətən uğrunda" , "Suqovuşanın azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

https://unudulmazlar.az/az/infom/1369

6

Söyxan İbrahimxəlilov - 25

(2001-2020) *Əsgər*



Söyxan Eldəniz oğlu İbrahimxəlilov 2001-ci il oktyabr ayının 6-da Ağdaş rayonunun Ağzıbir kəndində anadan olmuşdur. Orta təhsilini Ağdaş Ağzıbir tam orta mətəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Söyxan İbrahimxəlilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuş, sentyabrın 29-da şəhid olmuşdur. Ağdaş rayonunda Ağzıbir kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Söyxan Eldəniz oğlu İbrahimxəlilov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/6233

Əmirulla Əliyev - 30

(1996-2020)

Leytenant



Əmirulla Vahid oğlu Əliyev 1996-cı il oktyabrın 7-də Şamaxı şəhərində anadan olmuşdur. 2003-2011-ci illərdə Sabunçu rayonunun 67 nömrəli tam orta məktəbində, 2011-2014-cü illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2014-2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil almışdır.

2018-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin Mingəçevir şəhərində yerləşən "N" saylı hərbi hissəsində "leytenant" hərbi rütbəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun leytenantı olan Əmirulla Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Əmirulla Əliyev sentyabrın 28-də Suqovuşan uğrunda gedən döyüşlər zamanı şəhid olmuşdur. Suraxanı rayonunda dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Əmirulla Vahid oğlu Əliyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Ağa Xəlilqızı, S. Ön cəbhə əfsanələri... /Sevinc Ağa Xəlilqızı; red. və ön sözün müəl. L.Məmmədova; hərbi məsl.: H. Cəfərov [və b.]; [rəssam A.İdrisova; dizayner Z.Məmmədov] ; Azərb. Resp. Mədəniyyət Nazirliyi, Bakı şəhər Mədəniyyət Baş İdarəsi, Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi.- Bakı: Elm və təhsil, 2024. - 369, [3] s.


İnternetdə:

https://unudulmazlar.az/az/infom/1745

Rüfət Musayev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Rüfət Ülfət oğlu Musayev 2001-ci ildə oktyabr ayının 8-də Şəki rayonunun Suçma kəndində anadan olmuşdur. 2008 – 2011-ci illərdə Sumqayıt şəhər Corat qəsəbə orta məktəbində, 2011 – 2019-cu illərdə isə Şəki rayon Suçma kənd orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rüfət Musayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmiş, Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Tərtər rayonunun Talış və Tapqaraqoyunlu kəndləri istiqamətində keçirilən hərbi əməliyyatlarda fərqlənmişdir. Rüfət Musayev oktyabrın 12-də Tərtər rayonunun Suqovuşan qəsəbəsi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur, 18 oktyabr tarixində Şəki rayonunun Suçma kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Rüfət Ülfət oğlu Musayev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" , "Cəsur döyüşçü" medalı ilə təltif edilmişdir.

Nicat Mustafayev - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Nicat Bəkir oğlu Mustafayev 2001-ci ilin oktyabr ayının 8-də Bakı şəhərində dünyaya göz açmışdır. Binəqədi qəsəbəsində Qorxmaz Baxşıyev adına 179 nömrəli tam orta məktəbdə 9 illik təhsilini tamamlamış, daha sonra Azərbaycan Dövlət Dəmir Yolu Liseyində təhsilini davam etdirmişdir.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi hissələrində həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Nicat Mustafayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində kəşfiyyatçı kimi iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Murovun azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Oktyabrın 5-də Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş, Binqədi rayonu Vətən Müharibəsi Şəhidlərinin Xiyaban kompleksində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Nicat Bəkir oğlu Mustafayev ölümündən sonra 3-cü dərəcli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad edilməsinə görə", "Cəbrayılın azad edilməsinə görə","Kəlbəcərin azad edilməsinə görə" medalları və təltif edilmişdir.

OKTYABR

9

Ürfan Orucov - 30

(1996-2020)

Əsgər



Ürfan Firdovsi oğlu Orucov 1996-cı il oktyabrın 9-da Şabran şəhərində anadan olmuşdur. Orta təhsilini Şabran rayon 5 saylı orta məktəbdə almışdır. 2014-2018-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) ali təhsil almışdır. 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ürfan Orucov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Ürfan Orucov oktyabrın 11-də Füzuli istiqamətində aparılan döyüş əməliyyatları zamanı qəhrəmancasına şəhid olmuşdur. Şabran şəhərinin Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ürfan Firdovsi oğlu Orucov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

10

Vaqif Mərdanov - 25

(2001-2020)

Əsgər



Vaqif Ədalət oğlu Mərdanov 2001-ci il oktyabrın 10-da Suraxanı rayonunun Hövsan qəsəbəsində anadan olmuşdur. Orta təhsilini Hövsan qəsəbəsi 118 saylı tam orta məktəbdə almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Vaqif Mərdanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Vaqif Mərdanov noyabrın 3-də Qubadlı döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş, Hövsan qəsəbəsində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Vaqif Ədalət oğlu Mərdanov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/2292

OKTYABR

10

Ruslan Yunisli - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Ruslan Elçin oğlu Yunisli 1996-cı ildə oktyabr ayının 10-da Beyləqan rayonunun Təzəkənd kəndində anadan olmuşdur. Orta təhsilini Beyləqan rayonu, Ə.Məmmədov adına Təzəkənd kənd tam orta məktəbində almışdır.

Ruslan Yunisli Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Ruslan Yunisli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir. Ruslan Yunisli sentyabrın 28-də Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Beyləqan rayonunun Təzəkənd kəndində dəfn olunmuşdur.


Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ruslan Elçin oğlu Yunisli ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

11

Həsən Quliyev - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Həsən Adışirin oğlu Quliyev 1996-cı ildə oktyabr ayının 11-də Ağcabədi rayonunun Sarvanlar kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə Ağcabədi rayon Kürdlər kənd tam orta məktəbdə təhsil almışdır. 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş, 2016-cı ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Həsən Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində atıcı olaraq iştirak etmişdir. Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir. Noyabr ayının 3-də Xocavənd rayonunun Tuğ kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, noyabr ayının 21-də Ağcabədi rayonunun Sarvanlar kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Həsən Adışirin oğlu Quliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

OKTYABR

10

Azər Quliyev - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Quliyev Azər Zakir oğlu 1996-ci ildə oktyabr ayının 10-da Sumqayıt şəhərində anadan olmuşdur. 2003-2011-ci illərdə Sumqayıt şəhər 37 nömrəli tam orta məktəb təhsil almış, daha sonra təhsilini Sumqayıt şəhər Peşə liseyində davam etdirmişdir. 2015–2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Qazax rayonunda yerləşən hərbi hissəsində həqiqi hərbi xidmət keçmişdir. 2016-cı ilin 2–5 aprelində baş verən Aprel döyüşlərinin iştirakçısı olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Azər Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq qatılmışdır. O, oktyabrın 23-də Xocavənd rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Sumqayıt şəhərinin "Şəhidlər xiyabanı"nda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Quliyev Azər Zakir oğlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunması uğrunda" medalları ilə təltif edilmişdir.

11

Arif Rüstəmov - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat: *Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.*

Arif Seymur oğlu Rüstəmov 2001-ci ildə oktyabrın 11-də Salyan şəhərində anadan olmuşdur. Orta təhsilini Salyan rayonu 2 saylı tam orta məktəbdə almışdır.

2018-ci ildə Bakı Turizm və Menecment Kollecində təhsilini davam etdirmişdir. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Arif Rüstəmov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlının azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Noyabr ayını 3-də Xocavənd rayonunun Tuğ kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. 21 noyabr 2020-ci ildə Ağcabədi rayonunun Sarvanlar kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Arif Seymur oğlu Rüstəmov ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə", və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

OKTYABR

11

Vüsal Şahmarlı - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Vüsal Mərdan oğlu Şahmarlı 1996-cı ildə oktyabrın 11-də İmişli rayonunun Sarıxanlı kəndində anadan olmuşdur.

İlk təhsilini Rusiyanın Tümen şəhərində almış, 5-ci sinifdə oxuyarkən ailəsi ilə birlikdə Azərbaycana qayıtmış və təhsilini Bakı şəhəri 138 nömrəli tam orta məktəbdə davam etdirmişdir.

2014-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş, 2016-cı ilin 2–5 aprelində baş verən Aprel döyüşlərinin iştirakçısı olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Vüsal Şahmarlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Topatıcı əsgər olaraq hərbi əməliyyatlarda, xüsusilə də, Füzulinin azad olunması uğrunda böyük igidlik göstərmişdir. Oktyabr ayını 18-də Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.


Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Vüsal Mərdan oğlu Şahmarlı ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

12

Əli Mənəfli - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Əli Əflan oğlu Mənəfli 2001-ci ildə oktyabrın 12-də Şirvan şəhərində anadan olmuşdur. 2007-2018-ci illərdə Şirvan şəhər Mübariz İsrayilov adına 18 nömrəli təbiət-humanitar təmayüllü məktəb liseydə təhsil almışdır. 2018-2019-cu illərdə Şirvan Peşə Liseyində təhsilini davam etdirmişdir. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrində müd¬dətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Əli Mənəfli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Cəbrayılın, Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Noyabr ayının 14-də Şuşa döyüşləri zamanı Xocalı rayonunun Şuşakənd kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Şirvan şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Əli Əflan oğlu Mənəfli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Fərhad Rzazadə - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Fərhad Mirzə oğlu Rzazadə 2001-ci il oktyabrın 12-də Füzuli rayonunun Bala Bəhmənli kəndində anadan olmuşdur. 2007–2018-ci illərdə Bala Bəhmənli kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş, uğurlu xidmətinə görə Xüsusi Təyinatlı Qüvvələrə göndərilmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Fərhad Rzazadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Kəlbəcər, Cəbrayıl, Füzuli rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Oktyabrın 3-də Cəbrayılın Daşkəsən kəndinin azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Oktyabrın 14-də Füzuli rayon Bala Bəhmənli kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasını Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Fərhad Mirzə oğlu Rzazadə Fərhad Mirzə oğlu Rzazadə ölümündən sonra "Azərbaycan bayrağı" ordeni , "Vətən uğrunda" , "Cəsur döyüşçü", "Kəlbəcərin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Nurlan Əhmədli - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Nurlan Rəhim oğlu Əhmədli 1996-cı ildə oktyabrın 12-də Oğuz rayonunun Xaçmaz kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə Oğuz rayonu M.F.Axundov adına 1 nömrəli tam orta məktəbdə, 2014-2018-ci illərdə Azərbaycan Texniki Universitetində Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi ixtisası üzrə Bakalavr təhsili almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Nurlan Əhmədli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Füzuli rayonunun işğaldan azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuş, oktyabrın 26-da döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Oktyabrın 27-də Oğuz rayonunun Xaçmaz kənd Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Nurlan Rəhim oğlu Əhmədli ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

OKTYABR

13

Rəşad Şəfiyev - 35

(1991-2020) *MAHHXHQ əsgər*



Rəşad Vaqif oğlu Şəfiyev 1991-ci ildə oktyabr ayının 13-də Gəncə şəhərində anadan olmuşdur. 1997-2010-cu illərdə Gəncə şəhəri, Molla Pənah Vaqif adına 8 nömrəli orta məktəbdə orta təhsil almışdır. 2010-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə Şəhər Nizami Rayon Şöbəsindən hərbi xidmətə çağrılmışdır. 2019-cu ildə Fövqəladə Hallar Nazirliyinin «N» saylı hərbi hissəsində xidmətə başlamışdır.

Azərbaycanın Fövqəladə Hallar Nazirliyinin əsgəri olan Rəşad Şəfiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı axtarış-xilasetmə çalışmalarında iştirak etmişdir.

O, 4, 5, 8, 11 və 17 oktyabr 2020-ci il tarixlərində Ermənistan Silahlı Qüvvələri tərəfindən Gəncənin raket atəşinə tutulması və 27 oktyabr 2020-ci il tarixində Bərdənin raket atəşinə məruz qalması zamanı axtarış-xilasetmə əməliyyatlarında fəal iştirak etmişdir.

Rəşad Şəfiyev 28 oktyabr tarixində Bərdənin növbəti dəfə raket atəşinə tutulması nəticəsində aldığı yaralardan şəhid olmuşdur. Oktyabrın 29-da Gəncə Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Rəşad Vaqif oğlu Şəfiyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

14

Yusif Nəcəfov - 25

(2001-2020) *Əsgər*



Yusif Nadir oğlu Nəcəfov 2001-ci ildə oktyabrın 14-də Yasamal rayonunda anandan olmuşdur. Orta təhsilini Yasamal rayonu, 52 nömrəli tam orta məktəbdə almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Yusif Nəcəfov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 1-də cəbhədə yaralanmış, müalicə aldıqdan sonra təkrar döyüş bölgəsinə qayıtmışdır. oktyabrın 13-də Murovdağ uğrunda döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Qaradağ rayonundakı Ümumşəhər qəbiristanlığında dəfn o edilmiş, daha sonra məzarı II Şəhidlər Xiyabanına köçürülmüşdür.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Yusif Nəcəfov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

OKTYABR

14

Anar Tağıyev - 30

(1996-2020)

MAHHXHQ əsgər



Anar Zakir oğlu Tağıyev 1996-cı ildə oktyabrın 14-də Beyləqan rayonunun Kəbirli kəndində anadan olmuşdur. Orta təhsilini M.Fərzalıyev adına 1 saylı Kəbirli kənd tam orta məktəbində almışdır. Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Anar Tağıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuş, oktyabr ayını 3-də döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Anar Zakir oğlu Tağıyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

https://unudulmazlar.az/az/infom/3060

14

Yusif Ələsgərov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Yusif Yaşar oğlu Ələsgərov 1996-ci il oktyabrın 14-də Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində anadan olmuşdur. 2002-2013-ci illərdə M.Məmmədov adına Yuxarı Öysüzlü kənd tam orta məktəbində təhsil almışdır. 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmiş, 2014–2016-cı illərdə Daxili Qoşunların «N» saylı hərbi hissəsində xidmət etmişdir. 2017-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin «N» saylı hərbi hissəsində müddətdən artıq həqiqi xidmət hərbi qulluqçusu kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Yusif Ələsgərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Cəbrayıl və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə tankçı kimi iştirak etmişdir. Oktyabrın 24-də Qubadlı döyüşləri zamanı ağır yaralanmış, müalicəsi tam başa çatmadan yenidən döyüş bölgəsinə qayıtmışdır. Yusif Ələsgərov noyabrın 7-də Xocavənd rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Yusif Yaşar oğlu Ələsgərov ölümündən sonra "Vətən uğrunda" , "Xocavəndin azad olunmasına görə". "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə, "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.


OKTYABR

15

Rüfət Əhmədzadə - 25

(2001-2020)

Əsgər



Əhmədzadə Rüfət Əbülfət oğlu 2001-ci il oktyabrın 15-də Sumqayıt şəhərində anadan olmuşdur. Sumqayıt şəhər 31 saylı orta məktəbdə təhsil almış, bir il Kastamonu Universitetində təhsilini davam etdirmişdir. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Rüfət Əhmədzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Tərtər, Suqovuşan istiqamətlərində döyüşmüşdür. 29 sentyabrda Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olmuş, oktyabrın 1-də Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən

Əhmədzadə Rüfət Əbülfət oğlu ölümündən sonra "Vətən uğrunda" , "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

https://unudulmazlar.az/az/infom/3101

15

Əkbər Hüseynli - 25

(2001-2020)

Əsgər



Əkbər Azər oğlu Hüseynli 2001-ci il oktyabrın 15-də Cəlilabad rayonu Alar kəndində anadan olmuşdur. Orta təhsilini Alar kəndi H.Əliyev adına 1 saylı orta məktəbdə almışdır. 2019-cu ildə Bakı Dövlət Sosial-İqtisadi Kollecində təhsilini yarımçıq qoyaraq könüllü hərbi xidmətə yollanmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Əkbər Hüseynli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Murov istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. 27 sentyabr tarixlərində Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüş yoldaşları ilə xeyli irəliəyərək düşmənin çox sayda hərbi qulluqçusunu məhv etmiş, Murov zirvəsinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Əkbər Azər oğlu Hüseynli ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

https://unudulmazlar.az/az/infom/3463

Ceyhun Dünyamalıyev - 30

(1996-2020) *Leytenant*



Ceyhun Zeynal oğlu Dünyamalıyev 1996-cı il oktyabrın 15-də Culfa şəhərində anadan olmuşdur. 2002-2011-ci illərdə Culfa şəhərində 3 nömrəli tam orta məktəbdə, 2011-2014-cü illərdə isə Heydər Əliyev adına Hərbi Liseydə təhsil almışdır. 2014-2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil almışdır.

2019-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində "leytenant" hərbi rütbəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun leytenantı olan Ceyhun Dünyamalıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağın, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuş, noyabr ayını 8-də döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Culfa şəhərində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Ceyhun Zeynal oğlu Dünyamalıyev ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni ilə, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/567

https://unudulmazlar.az/az/infom/3272

OKTYABR
15

Vaqif Abdullayev - 30

(1996-2020) *Əsgər*



Vaqif Rəşid oğlu Abdullayev 1996-cı il oktyabrın 15-də Ağsu rayonunun Hacıqədirli kəndində anadan olmuşdur. Orta təhsilini Ağsu rayonu, Hacıqədirli kənd tam orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Vaqif Abdullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Laçının azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuş, noyabr ayını 3-də döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Ağsu rayonunda dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Vaqif Rəşid oğlu Abdullayev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" , "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

15

Eltac Əlizadə - 30

(1996-2020) *Əsgər*



Eltac İsmayıl oğlu Əlizadə 1996-cı il oktyabrın 15-də Tovuz rayonunun Çatax kəndində anadan olmuşdur. 2003–2014-cü illərdə X. Cəfərov adına Çatax kənd tam orta məktəbində, 2014–2018-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) təhsil almışdır.

2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Eltac Əlizadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştiak etmişdir. Oktyabr ayını 27-də döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Eltac İsmayıl oğlu Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

OKTYABR

16

Qəhrəman Rzayev - 30

(1996-2020)

Əsgər



Qəhrəman Bəhmən oğlu Rzayev 1996-cı ildə oktyabrın 16-da Beyləqan rayonunun Kəbirli kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə Məmmədyar Fərzəliyev adına Beyləqan rayon Kəbirli kənd 1 saylı tam orta məktəbdə təhsil almışdır. 2014–2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Qəhrəman Rzayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. O, Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuş, noyabr ayının 7-də döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Beyləqan rayonunun Kəbirli kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Qəhrəman Bəhmən oğlu Rzayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" , "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

16

Nurlan Şirinli - 30

(1996-2020)

MAHHXHQ əsgər



Nurlan Qədir oğlu Şirinli 1996-cı il oktyabrın 16-da Tərtər rayonunun Sarov kəndində anadan olmuşdur. Orta təhsilini Sarov kənd tam orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Nurlan Şirinli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində mexanik-sürücü kimi xidmət etmişdir. O, Talış kəndinin və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuş, oktyabrın 7-də döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Tərtər rayonunun Sarov kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Nurlan Qədir oğlu Şirinli ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü", "Vətən uğrunda" medalları ilə təltif edilmışdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

https://unudulmazlar.az/az/infom/2458

OKTYABR

16

Mirrahil Teymurlu - 35

(1991-2020)

MAHHXHQ əsgər



Mirrahil Ramiz oğlu Teymurlu 1991-ci il oktyabrın 16-da Füzuli rayonunun Birinci Mahmudlu kəndində anadan olmuşdur. Orta təhsilini Mahmudlu kənd tam orta məktəbində almışdır.

2010-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2013-cü ildə Azərbaycan Respublikası Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentlikdə (ANAMA) minaaxtaran vəzifəsində əmək fəaliyyətinə başlamışdır.

2018-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi tank bölüyünün baş mexanik-sürücüsü vəzifəsində xidmət etmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin müddətdən artıq xidmət edən hərbi qulluqçusu, tankçı Mirrahil Teymurlu 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuş, sentyabrın 27-də döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Füzuli rayonu Mahmudlu kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Mirrahil Ramiz oğlu Teymurlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

17

Vüsal İsmayılzadə - 25

(2001-2020)

Əsgər



Vüsal Əlibəndə oğlu İsmayılzadə 2001-ci il oktyabrın 17-də Bakı şəhərinin Buzovna qəsəbəsində anadan olmuşdur.

2007-2018-ci illərdə Xəzər rayonunun Buzovna qəsəbəsində yerləşən 322 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Vüsal İsmayılzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının işğaldan azad edilməsində böyük şücaət və qəhrəmanlıq göstərmişdir. Oktyabrın 22-də Füzuli istiqamətində aparılan döyüşlər zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Vüsal Əlibəndə oğlu İsmayılzadə ölümündən sonra "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

17 OKTYABR

Bəxtiyar Maxsudov - 30

(1996-2020)

Əsgər



Bəxtiyar Mansur oğlu Maxsudov 1996-cı il oktyabrın 17-də Ağdaş rayonunun Tofiqi kəndində anadan olmuşdur. Orta təhsilini Ağdaş rayonu, Tofiqi kənd orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Bəxtiyar Maxsudov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Tərtər və Suqovuşan istiqamətlərində gedən döyüşlərdə böyük şücaət və qəhrəmanlıq göstərmişdir. Oktyabrın 24-də Suqovuşan döyüşlərində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Ağdaş rayonunda dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Bəxtiyar Mansur oğlu Maxsudov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına" görə medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

17

Orxan Ömərov - 35

(1991-2020)

MAHHXHQ çavuş



Orxan İmrah oğlu Ömərov 1991-ci il oktyabrın 17-də Quba rayonunun Qonaqkənd qəsəbəsində anadan olmuşdur. Orta təhsilini Quba rayon Qonaqkənd Aslan Aslanov adına kənd tam orta məktəbdə almışdır.

2009-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2013-cü ildən isə Azərbaycan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında müddətdən artıq həqiqi xidmət edən hərbi qulluqçu olmuşdur.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Orxan Ömərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, noyabrın 7-də döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Quba rayonunun Qonaqkənd qəsəbəsində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Orxan İmrah oğlu Ömərov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

OKTYABR
17

Nicat Qasımov - 35

(1991-2020)

Əsgər



Nicat Elşan oğlu Qasımov 1991-ci ildə oktyabr ayının 17-də Gəncə şəhərində anadan olmuşdur. Orta təhsilini 1997–2007-ci illərdə Gəncə şəhər 33 nömrəli tam orta məktəbdə almışdır. 2010-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Nicat Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü atıcı olaraq iştirak etmişdir. Murovdağın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşmuş, oktyabr ayını 2-də döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Gəncə Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Nicat Elşan oğlu Qasımov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

17

Elyar Vəliyev - 35

(1991-2020)

Gizir



Elyar Arif oğlu Vəliyev 1991-ci il oktyabrın 17-də Qobustan rayonunun Sədəfli kəndində anadan olmuşdur. Orta təhsilini Qobustan rayon, Sədəf kənd natamam orta məktəbində almışıdır.

Azərbaycan Ordusunun giziri olan Elyar Vəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elyar Vəliyev və 40 nəfərdən ibarət qrup 19 oktyabrda Laçın dəhlizinə nəzarəti ələ almaq məqsədilə strateji əhəmiyyətə malik mövqelər uğrunda döyüşlərə qatılmışdır. Xüsusi Təyinatlı Qüvvələrin tərkibində fəaliyyət göstərən qrupun şəxsi heyəti ilə birlikdə Elyar Vəliyev bu döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Qobustan rayonu, Sədəf kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Elyar Arif oğlu Vəliyev ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

OKTYABR

19

Seymur Məmmədli - 30

(1996-2020)

Əsgər



Seymur Hacırəsul oğlu Məmmədli 19 oktyabr 1996-cı ildə Qax rayonunun Ağçay kəndində anadan olmuşdur. Təhsilini Qax rayonu Peşə liseyində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Seymur Məmmədli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Xocavənd döyüşlərində iştirak etmişdir. Oktyabr ayının 11-də döyüş tapşırığının yerinə yetirərkən yaralı döyüş yoldaşlarını ərazidən çıxararkən Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Seymur Hacırəsul oğlu Məmmədli ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Füzuli azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

20

Qara Əliyev - 25

(2001-2020)

Əsgər



Qara Kamal oğlu Əliyev 2001-ci il oktyabrın 20-də Yevlax rayonunun Cırdaxan kəndində anadan olmuşdur. 2007-2016-cı illərdə Cırdaxan kənd tam orta məktəbində, 2016-2018-ci illərdə isə Yevlax şəhərində S.Əliyev adına 1 nömrəli tam orta məktəbdə təhsil almışdır.

2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Qara Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 23-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Yevlax rayonunda dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Qara Kamal oğlu Əliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

OKTYABR

20

Eşqin Mehtili - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Eşqin Tərlan oğlu Mehtili 2001-ci il oktyabrın 20-də Beyləqan rayonunun Əlinəzərli kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə şəhid Rizvan Nəsirov adına Əlinəzərli kənd 1 nömrəli tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Eşqin Mehtili 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Murovdağ, Cəbrayıl və Füzuli rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 14-də Füzuli şəhərinin azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.


Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Eşqin Tərlan oğlu Mehtili ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.

20

Ceyhun Məmmədov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Ceyhun Qafar oğlu Məmmədov 1996-cı ildə oktyabrın 20-də Ağcabədi rayonunun Qaraxanlı kəndində anadan olmuşdur. 2004-2014-cü illərdə Ağcabədi rayon Qaraxanlı kənd tam orta məktəbdə təhsil almışdır. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət etmişdir. 2016-cı ilin aprelin 2-dən 5-nə qədər davam edən Aprel döyüşlərində iştirak etmişdir. 2018-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Ceyhun Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində minaatan olaraq iştirak etmişdir. Füzulinin, Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Ceyhun Məmmədov oktyabrın 25-də döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Ağcabədi rayonunun Qaraxanlı kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ceyhun Qafar oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

OKTYABR

20

Əli Quliyev - 25

(2001-2020)

Əsgər



Quliyev Əli Turac oğlu 20 oktyabr 2001-ci il tarixində İraq Respublikasının Kərbəla şəhərində anadan olmuşdur. 12 yaşına kimi Kərbəla şəhərində yaşamış və ilkin təhsilini burada almışdır. 2013-cü ildə ailəsi ilə birlikdə Azərbaycan Respublikasının Masallı rayonuna köçmüş və Kolatan kəndinin Bağıroba qəsəbəsində məskunlaşmışdır. Həmin il şəhid Simran Rzayev adına tam orta məktəbin VI sinfinə qəbul olunmuşdur.

2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Əli Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Oktyabrın 26-dan 27-ə keçən gecə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 29 oktyabr tarixində Kolatan kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Əli Turac oğlu Quliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

22

Elşad Zeynallı - 30

(1996-2020)

Əsgər



Elşad Elman oğlu Zeynallı 1996-cı il oktyabrın 22-də Lənkəran rayonunda anadan olmuşdur. Orta təhsilini Lənkəran şəhər 1 saylı orta məktəbdə almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Elşad Zeynallı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Oktyabrın 1-də Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Lənkəran şəhərində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elşad Elman oğlu Zeynallı ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

https://unudulmazlar.az/az/infom/949

OKTYABR

22

Bəybala Əliyev - 30

(1996-2020)

MAHHXHQ matros



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Bəybala Fazil oğlu Əliyev 1996-cı il oktyabrın 22-də Gədəbəy rayonunun Səbətkeçməz kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə Səbətkeçməz kənd tam orta məktəbində təhsil almışdır. 2013-2015-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2016-cı ildən etibarən Azərbaycan Hərbi Dəniz Qüvvələrinin sıralarında "matros" (dənizçi) hərbi rütbəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin matrosu olan Bəybala Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 2-də döyüş tapşırıını yerinə yetirən zamanı qəhrəmancasına şəhid olmuşdur. Şəhidin nəşi bir müddət tapıla bilməmiş, yalnız 2020-ci il dekabrın 8-də aşkarlanaraq Gədəbəy rayonunun Səbətkeçməz kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Bəybala Fazil oğlu Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

23

Aqil Salyayev - 30

(1996-2020)

Kiçik çavuş



Aqil Anar oğlu Salyayev 1996-cı il oktyabrın 23-də Ağstafa rayonunun Qarayazı qəsəbəsində anadan olmuşdur.

2003–2014-cü illərdə F.Piriyev adına 18 nömrəli Sumqayıt şəhər tam orta məktəbində təhsil almışdır. Aqil Salyayev 2014-2016-cı illərdə Sərhəd Qoşunlarının sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2018-ci ildən Lələtəpədə post komandiri olaraq müddətdən artıq həqiqi hərbi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Aqil Salyayev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd və Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Aqil Salyayev oktyabrın 26-da Qubadlı döyüşləri zamanı şəhid olmuşdur. Ağstafa rayonunun Köçvəlili kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Aqil Anar oğlu Salyayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Ruslan Rustamov - 45

(1981-2020) *Baş leytenant*



Ruslan Nüsrət oğlu Rustamov 1981-ci il oktyabrın 23-də Hacıqabul rayonunun Udulu kəndində anadan olmuşdur. 1989-1999-cu illərdə Ayaz Baxşəliyev adına Şorbaçı kənd tam orta məktəbində təhsil almışdır.

2000-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2004-2009-cu illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil almışdır.

2014-cü ildə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şirvan Şəhər Şöbəsinə müraciət edərək, yenidən hərbi xidmətə qayıtmış və Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə sürücü-elektrik vəzifəsində fəaliyyətə başlamışdır.

2016-cı ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində ehtiyat zabit hazırlığı kursunu müvəffəqiyyətlə bitirmiş, əvvəlcə leytenant, daha sonra isə baş leytenant hərbi rütbəsi almışdır. Həmin ildən etibarən ön cəbhədə yerləşən "N" saylı hərbi hissələrdə motoatıcı taqım komandiri, sonradan isə motoatıcı bölük komandiri vəzifələrində xidmət etmişdir.

Ruslan Rustamov "Azərbaycan Ordusunun 100 illiyi (1918–2018)" yubiley medalına layiq görülmüş, həmçinin xidməti fəaliyyətində fərqləndiyinə görə hərbi hissə rəhbərliyi tərəfindən Fəxri fərmanla təltif edilmişdir.

Azərbaycan Ordusunun baş leytenant olan Ruslan Rüstəmov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Suqovuşan və Murovdağ döyüşlərində iştirak etmişdirşdir. Murovdağ yüksəkliyi, Suqovuşan, Talış kəndi istiqamətlərində gedən döyüşlərdə qəhrəmanlıq və peşəkarlıq nümayiş etdirmişdir. Oktyabr ayının 2-də "Ağ Uçuq" adlandırılan ərazidə gedən ağır döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur.

Nəşi uzun müddət neytral zonada qaldığı üçün yalnız 22 noyabr tarixində çıxarılmış və aparılan DNT analizləri nəticəsində şəxsiyyəti müəyyənləşdirilmişdir. 4 dekabr 2020-ci il tarixində Hacıqabul rayonunda dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasını Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ruslan Nüsrət oğlu Rustamov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

İnternetdə:

https://obastan.com/wiki/Ruslan_Rüstəmov

OKTYABR

23

Nicat Şükürlü - 35

(1991-2020)

Çavuş



Nicat Ayaz oğlu Şükürlü 1991-ci il oktyabrın 23-də Səbail rayonunun Badamdar qəsəbəsində anadan olmuşdur. 1998-2009-cu illərdə Bayıl qəsəbəsində 49 saylı "Intellect" liseyində təhsil almışdır. 2014-2019-cu illərdə isə Slavyan Universitetində (BSU) "Beynəlxalq münasibətlər" ixtisası üzrə ali təhsilini tamamlamışdır.

2009-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Gədəbəy rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun çavuşu olan Nicat Şükürlü 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Nicat Şükürlü oktyabrın 11-də Hadrut döyüşləri zamanı şəhid olmuşdur. Səbail rayonunun Badamdar qəsəbəsində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Nicat Ayaz oğlu Şükürlü ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

25

Mirəli Hüseynov - 30

(1996-2020)

Əsgər



Mirəli Arif oğlu Hüseynov 1996-cı ildə oktyabr ayının 25-də Ağcabədi rayonunda anadan olmuşdur. Orta təhsilini Ağcabədi şəhər 11 saylı orta məktəbdə almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Mirəli Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində qismən səfərbərlik çağırışına qatılmış və könüllü olaraq döyüşlərdə iştirak etmişdir. Cəbrayılın, Qubadlının və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Mirəli Hüseynov oktyabr ayının 28-də Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasın şəhid olmuşdur. Ağcabədi rayonunun Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Mirəli Arif oğlu Hüseynov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

OKTYABR

26

Elməddin Babayev - 45

(1981-2020)

Gizir



Elməddin Cəfərqulu oğlu Babayev 1981-ci il oktyabrın 26-da Biləsuvar rayonunun Çaylı kəndində anadan olmuşdur. Orta təhsilini Şəhid Əlimərdan Hüseynov adına 5 saylı Çaylı kənd tam orta məktəbində almışdır.

Azərbaycan Ordusunun giziri olan Elməddin Babayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elməddin Babayev sentyabrın 29-da Suqovuşan döyüşləri zamanı şəhid olmuşdur. Biləsuvar rayonunun Çaylı kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elməddin Cəfərqulu oğlu Babayev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

https://unudulmazlar.az/az/infom/2367

26

Ceyhun İsayev - 25

(2001-2020)

Əsgər



Ceyhun Rüstəm oğlu İsayev 2001-ci ildə oktyabrın 26-da Quba rayonunun Gültəpə kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə Quba rayon Gültəpə kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Quba Tibb Kollecinə daxil olmuşdur.

2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Ceyhun İsayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində pulemyotçu kimi iştirak etmişdir. Suqovuşanın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Ceyhun İsayev oktyabr ayının 26-da Tərtər rayonunun Suqovuşan qəsəbəsi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasın şəhid olmuşdur. Quba rayonunun Gültəpə kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ceyhun Rüstəm oğlu İsayev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

OKTYABR

26

Fuad İsmayılov - 40

(1986-2020)

Mayor



Fuad Murad oğlu İsmayılov 1986-cı il oktyabrın 26-da Kəngərli rayonunun Qıvraq qəsəbəsində anadan olmuşdur. 1993-2002-ci illərdə Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbində, 2002-2005-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2005-2009-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil almışdır. 2009-cu ildə motoatıcı ixtisası üzrə məktəbi bitirmiş, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində 1 il kurs keçmişdir.

2009-cu ildən "leytenant" rütbəsi alaraq hərbi vəzifəyə başlamışdır. 2012-ci ildə "baş leytenant", 2016-cı ildə "kapitan", 2020-ci ildə "mayor" hərbi rütbəsinə yüksəlmişdir.

Xidməti dövründə III dərəcəli "Qüsursuz xidmətə görə" medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Sərhəd Mühafizəsinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medallarına layiq görülmüşdür.

Azərbaycan Ordusunun mayoru olan Fuad İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Fuad İsmayılov oktyabrın 4-də Suqovuşan döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. II Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Fuad Murad oğlu İsmayılov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə", "İgidliyə görə" medalları və 3-cü dərəcəli "Rəşadət" ordeninə layiq görülmüşdür.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2021-ci il // Azərbaycan. - 2021. - 6 noyabr.- S.2-3.

Günəş, E. Qürur yerimiz : [şeirlər] /Esmira Günəş .- Bakı: [Orxan NPM], 2022.- 208 s.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/3134

https://mod.gov.az/az/pre/39870.html

OKTYABR

26

Oruc Qasımov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Oruc Afiq oğlu Qasımov 1996-cı il oktyabrın 26-da Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə İ.Nəsibov adına Aşağı Əskipara kənd tam orta məktəbində təhsil almışdır. 2014-2016-cı illərdə Dövlət Sərhəd Xidmətinin Cəlilabad rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçmişdir. 2017-ci ildən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyət göstərmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Oruc Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 13-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Qazax rayonunun Ağköynək kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Oruc Afiq oğlu Qasımov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

27

İsmayıl Məmmədov - 25

(2001-2020)

Əsgər



İsmayıl Fazil oğlu Məmmədov 2001-ci ildə oktyabr ayının 27-də Quba rayonunda dünyaya gəlmişdir. 2008-2017-ci illərdə Quba rayonu Yerfi kənd orta məktəbində təhsil almış, 2017-ci ildə Quba Sosial İqtisadi Kollecin turuzim və onun təşkili ixtisasına qəbul olmuşdur. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan İsmayıl Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın, Tərtərin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. İsmayıl Məmmədov oktyabrın 14-də Tərtər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən İsmayıl Fazil oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda", Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

OKTYABR

27

Tural Rəhimli - 25

(2001-2020)

Əsgər



Tural Gəray oğlu Rəhimli 2001-ci il oktyabrın 27-də Xırdalan şəhərində anadan olmuşdur. Orta təhsilini Laçın rayonu 45 saylı tam orta məktəbdə almışdır. 2019-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Tural Rəhimli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Tural Rəhimli sentyabrın 30-da Suqovuşan döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Tural Gəray oğlu Rəhimli ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

https://unudulmazlar.az/az/infom/1411

28

Taleh Mehtiyev - 25

(2001-2020)

Əsgər



Taleh Musa oğlu Mehtiyev 2001-ci ildə oktyabr ayının 28-də Bakıda Sabunçu qəsəbəsində anadan olmuşdur. Orta təhsilini Sabunçu qəsəbəsi 170 saylı məktəbdə almışdır. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Tural Rəhimli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər-Ağdərə bölgəsində döyüşmüşdür. Oktyabr ayının 7-də döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasın şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Taleh Musa oğlu Mehtiyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" "Vətən uğrunda" medalları ilə təltif edilçişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

28

Elgiz Hüseynzadə - 25

(2001-2020)

Əsgər



Elgiz İbrahim oğlu Hüseynzadə 28 oktyabr 2001-ci ildə Tərtər rayon Bəyimsarov kəndində annadan olmuşdur. Orta təhsilini Tərtər rayon, 64 №li orta məktəbdə almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Elgiz Hüseynzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başladılan Vətən müharibəsində iştirak etmişdir O, 22 oktyabrda Füzuli istiqamətində gedən döyüşdə qəhrəmancasına şəhid olmuşdur. Tərtər rayonu Bəyimsarov kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elgiz İbrahim oğlu Hüseynzadə ölümündən sonra "Vətən uğrunda", Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

https://unudulmazlar.az/az/infom/2421

29

Baloğlan Nağıyev - 30

(1996-2020)

Əsgər



Baloğlan Müdahət oğlu Nağıyev 1996-cı ildə oktyabr ayının 29-da Rusiya Federasiyası, Tomsk şəhərində anadan olmuşdur. Orta təhsilini Bərdə rayon Güloğlular kənd tam orta məktəbidə almışdır. Müharibə zamanı sanitar təlimatçı kimi fəaliyyət göstərmişdir.

Azərbaycan Ordusunun əsgəri Baloğlan Nağıyev 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində Tərtər–Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 24-də Suqovuşan istiqamətində düşmən tərəfindən atılan artilleriya mərmisinin partlaması nəticəsində aldığı qəlpə yarasından şəhid olmuşdur.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Baloğlan Müdahət oğlu Nağıyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/860

OKTYABR

29

Teymur Quliyev - 25

(2001-2020)

Əsgər



Teymur Zamin oğlu Quliyev 2001-ci ildə oktyabr ayının 29-da Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Saray qəsəbəsi 1 saylı orta məktəbdə almışıdr.

Azərbaycan Ordusunun əsgəri Teymur Quliyev 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsinə könüllü olaraq iştirak etmişdir. Füzuli və Qubadlı istiqamətində gedən döyüşlərdə böyüş şücaət göstərmişdir. Oktyabr ayının 24-də Füzulirayonu istiqamətində aparılan döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasını Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Teymur Zamin oğlu Quliyev ölümündən sonra "Vətən uğrunda", ''Füzulinin azad olunmasına görə'', ''Qubadlının azad olunmasına görə'', "Cəsur döyüşçü" medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.


https://unudulmazlar.az/az/infom/998

31

Qələndər Alıyev - 25

(2001-2020)

Əsgər



Qələndər Nofəl oğlu Alıyev 2001-ci ildə oktyabr ayının 31-də Sabunçu rayonunda anadan olmuşdur. Orta təhsilini Bakı şəhəri 170 saylı məktəbdə almışdır. Daha sonra Emal Sənayesi üzrə Bakı Dövlət Peşə Məktəbini bitirmişdir. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Qələndər Alıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Oktyabr ayının 10-da Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Uzun müddət nəşi tapılmamış, 28 noyabr 2020-ci il tarixində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən Qələndər Nofəl oğlu Alıyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

OKTYABR

31

Tahir Qasımzadə - 25

(2001-2020)

Əsgər



Tahir Sərdar oğlu Qasımzadə 2001-ci il oktyabrın 31-də Suraxanı rayonunda anadan olmuşdur. Orta təhsilini Suraxanı rayonu 317 saylı orta məktəbdə almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Tahir Qasımzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Tahir Qasımzadə sentyabrın 29-da, Murovdağ istiqamətində, Kəlbəcər rayonu ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Bakıxanov rayonu Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Tahir Sərdar oğlu Qasımzadə ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

https://unudulmazlar.az/az/infom/2071

31

Murad Rəhimli - 35

(1991-2020)

Əsgər



Murad İlqar oğlu Rəhimli 1991-ci ildə oktyabr ayının 31-də Sumqayıt şəhərində anadan olmuşdur. 1998-2009-cu illərdə Sumqayıt şəhəri Mikayıl Müşfiq adına 34 nömrəli məktəbdə təhsil almışdır. 2009-cu ildə ADPU-nun Ekologiya fakültəsinə daxil olmuşdur. 2013-cü ildə Azərbaycan Silahlı Qüvvələri Naxçıvan Quru Qoşunlarında müd¬dətli həqiqi hərbi xidmət keçmişdir.

2020-ci ilin fevralında Millət vəkili olmaq üçün Sumqayıt şəhəri 41 sayli seçki məntəqəsinə namizədliyini irəli sürmüşdür.

Azərbaycan Ordusunun əsgəri olan Murad Rəhimli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Tərtər–Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 7-də Suqovuşan ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Oktyabr ayının 8-də Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Murad İlqar oğlu Rəhimli ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2021-ci il iyul ayının 25-də Sumqayıt şəhəri, 16-cı mikrorayon "Difai" küçəsində Murad İlqar oğlu Rəhimlinin xatirəsinə həsr olunan bulağın açılışı olmuşdur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğ¬runda" medalı ilə təltif edil¬məsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Jalə Əliyeva – 60

(1966)

Siyasi xadim



Ədəbiyyat:

Varislər: Jalə Əliyeva: "Bir işıq itirmişəm..." / J. Əliyeva; söhbətləşdi: Əyyub Qiyas // Ədəbiyyat qəzeti.– 2020.– 24 dekabr.– S.16-18.

Yolumuz da, hədəfimiz də bəllidir / J.Əliyeva // İki sahil.– 2021.– 14 oktyabr.– S.4.

Jalə Əliyeva: Dövr dəyişdikcə gənclərimiz zamanın nəbzini tutmağı bacarırlar / J. Əliyeva; söhbətləşdi Ş. Əliqızı // İki sahil.– 2022.– 5 fevral.– S.13.

Üfüqdə daha uca zirvələr görünür / J.Əliyeva // Xalq qəzeti.– 2023.– 14 oktyabr, № 224.– S.5.

Qərbin təxribatları Ermənistanı "cəsarət"ləndirir: Brüssel görüşünün Cənubi Qafqazda gərginliyə xidmət etməsi təsdiqini tapır / J.Əliyeva; Ə.Qardaşxanova // Azərbaycan.– 2024.– 10 aprel, №74.– S.7.

Jalə Əliyeva: "Azərbaycanla Şimali Kipri çox sıx tellər bağlayır": "Parlamentlərarası əlaqələrin güclənməsi münasibətlərimizin daha ardıcıl inkişafına səbəb olacaq" / Ş.Müşfiq // 525-ci qəzet.– 2025.– 6 fevral(№22).– S.7.

Jalə Fazil qızı Əliyeva 5 oktyabr 1966-cı ildə Bakı şəhərində anadan olmuşdur.

1983-1988-ci illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

1988-1992-ci illərdə Azərbaycan Mədəniyyət Fondunda müfəttiş vəzifəsində çalışmışdır.

1996-cı ildə "Füzulişünaslığın təşəkkülü və inkişaf meylləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsini almışdır.

1998-ci ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirərək ikinci ali təhsilini tamamlamışdır

1988-ci ildən Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsində müəllim, 2007-ci ildən isə professor vəzifəsində fəaliyyət göstərir. 100-ə yaxın elmi məqalənin, 4 elmi monoqrafiyanın, 1 dərs vəsaitinin və 1 metodik vəsaitin müəllifidir.

2006-cı ildə "Çağdaş Türk şeirinin poetikası" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək, 2007-ci ildə filologiya elmləri doktoru elmi dərəcəsini almışdır. 2012-ci ildə dosent, 2014-cü ildə professor elmi adları verilmişdir. Həmçinin, 3 elmi araşdırma kitabına və 2 monoqrafiyaya elmi redaktorluq etmiş, 1 dissertasiya müdafiəsinə elmi rəhbərlik və 8 dissertasiya müdafiəsinə rəsmi opponentlik etmişdir.

Elmi fəaliyyətinə görə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsi Elmi Şurasının, AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun Dissertasiya Şurasının, AMEA N.Gəncəvi adına Ədəbiyyat Müzeyinin Elmi Şurasının üzvüdür.

Azərbaycan Yazıçılar Birliyi və İLESAM (Türkiyə Elm və Ədəbiyyat Əsəri Sahibləri Məslək Birliyi) üzvüdür.

1992–2005-ci illərdə Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyində tərcüməçi vəzifəsində çalışmışdır.

Jalə Əliyeva 2005, 2010, 2015, 2020 və 2024-cü illərdə Üçüncü, Dördüncü, Beşinci, Altıncı, Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir.

2015-ci ildə Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini seçilmişdir. 2020-ci ildən etibarən Ailə, Qadın və Uşaq məsələləri komitəsinin sədr müavini kimi fəaliyyət göstərir. Həmçinin, Əmək və sosial siyasət komitəsinin üzvü, İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının üzvü, Azərbaycan-İsveç, Azərbaycan-Türkiyə, Azərbaycan-İtaliya, Azərbaycan-Hindistan, Azərbaycan-Almaniya, Azərbaycan-Avstriya, Azərbaycan-Yaponiya parlamentlərarası dostluq qruplarının üzvü olmuşdur.

2024-cü il oktyabrın 8-də Azərbaycan-Meksika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri seçilmişdir.

Səməd bəy Mehmandarov – 170

(1856-1931)

Hərbi xadim



Ədəbiyyat:

General Səməd bəy Mehmandarov / M.S.Süleymanov // Hərbi bilik.– 2020.– №1.– S.67-68.

Səməd bəy Mehmandarov(1855-1931): Qarabağın görkəmli simaları // İqtisadiyyat.– 2021.– 16-22 dekabr.– S.5.

Səməd bəy Mehmandarov / R.Yaqubqızı // Respublika.– 2022.– 16 oktyabr.– S.10.

Səməd bəy Mehmandarov: (Həyatı, xidmət yolu və silahdaşları) / M. Süleymanov; elmi red. K. İsmayılov.– Bakı: Maarif, 2023.– 479, [1] s.

Azərbaycanın görkəmli hərbi xadimi, artilleriya generalı / A.İbrahimova // Respublika.– 2024.– 16 oktyabr (№ 227).– S.11.

İlk ordu generalımız: Səməd bəy Mehmandarovun anım günüdür / Y.Bayramova // Yeni Azərbaycan.– 2025.– 12 fevral (№25).– S.8.

Artilleriya generalı Səməd bəy Mehmandarovun xatirəsi anılıb //Azərbaycan. - 2025. - 18 oktyabr (№224).- S.15.

Bayramova, Y. İlk ordu generalımız: Səməd bəy Mehmandarovun anım günüdür /Y.Bayramova // Yeni Azərbaycan. - 2025. - 12 fevral (№25).- S.8.

https://portal.azertag.az/az/node/26132

Səməd bəy Sadıq bəy oğlu Mehmandarov 16 oktyabr 1856-cı ildə (1855) Lənkəran rayonunda anadan olmuşdur. İlk təhsilini Bakıda Edadiyə məktəbində almış, 1873-cü ildə Peterburqdakı 2-ci Konstantin hərbi məktəbinə daxil olmuş, Mehmandarov praporşik rütbəsi (ilkin zabit rütbəsi) alaraq, 1-ci Türküstan topçu briqadasına göndərilmişdir. 1875-ci ilin dekabrında podporuçik rütbəsi almış və üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif edilmişdir. Sonralar 2-ci və 38-ci topçu briqadalarında xidmət edən Mehmandarov 1894-cü ildə Varşava hərbi dairəsinə, 1898-ci ildə isə Əlahiddə Zabaykalye hərbi divizionuna göndərilmişdir. Səməd bəy Sadıq bəy oğlu Mehmandarov 16 oktyabr 1856-cı ildə Lənkəran rayonunda anadan olmuşdur. İlk təhsilini Bakıda Edadiyə məktəbində almış, 1873-cü ildə Sankt-Peterburqdakı 2-ci Konstantin Hərbi Məktəbinə daxil olmuşdur. Təhsilini başa vurduqdan sonra praporşik rütbəsi alaraq 1-ci Türküstan topçu briqadasında xidmətə başlamışdır.

1875-ci ilin dekabrında podporuçik rütbəsinə yüksəlmiş və III dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif edilmişdir. Sonrakı illərdə 2-ci və 38-ci topçu briqadalarında xidmət etmiş, 1894-cü ildə Varşava hərbi dairəsinə göndərilmişdir. 1898-ci ildə podpolkovnik rütbəsi alan Səməd bəy Mehmandarov Zabaykalye artilleriya diviziyasının komandiri təyin edilmişdir. O illərdə diviziya Mancuriyada yerləşirdi. 1900–1901-ci illərdə Çində baş vermiş İxetuan üsyanının yatırılmasında onun komandir olduğu diviziya iştirak etmişdir. 1901-ci ildə Səməd bəy Mehmandarov polkovnik rütbəsinə yüksəlmiş, III dərəcəli "Müqəddəs Vladimir" ordeni və üzərində "Qəhrəmancasına fərqlənməyə görə" sözləri yazılmış qızıl qılınc ilə təltif olunmuşdur.

Səməd bəy Mehmandarov 1904–1905-ci illər Rusiya–Yaponiya müharibəsində iştirak etmiş, 7-ci Şərqi Sibir artilleriya divizionunun komandiri və eyni zamanda Port-Arturun Şərq cəbhəsinin artilleriya rəisi olmuşdur. O, əsir düşməyi həqarətli azadlıqdan üstün tutmuş və 1905-ci ilin avqustunda Portsmutda (ABŞ) bağlanmış sülh müqaviləsinin şərtlərinə əsasən əsirlikdən azad edilmişdir. 1908-ci ildə Səməd bəy Mehmandarova tam artilleriya generalı rütbəsi verilmişdir.1914-cü il sentyabrın 15-də Lodz əməliyyatı zamanı general Səməd bəy Mehmandarov xüsusi şöhrət qazanmışdır. Müharibədə göstərdiyi xidmətlərə görə ona tam artilleriya generalı rütbəsi verilmişdir.

1915-ci ildə Mehmandarov II Qafqaz Ordu Korpusunun komandanı təyin edilmişdir. 1917-ci ilin əvvəlinədək Rusiya ilə yanaşı, İngiltərə, Fransa və Rumıniyanın bir sıra yüksək hərbi ordenləri ilə təltif olunmuşdur.

1917-ci il Fevral burjua inqilabı zamanı Səməd bəy Mehmandarov Qafqazda olmuşdur. İnqilabdan sonra rus ordusunda bolşevikləşmə və anarxiyanın güclənməsi səbəbindən istefa vermiş, 1918-ci il noyabrın 1-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Hərbi Nazirliyin bərpası haqqında qərar qəbul etdikdən sonra Mehmandarov Cümhuriyyət ordusunda xidmətə çağırılmış, hərbi nazirin müavini təyin edilmiş və ordunun formalaşdırılması ona həvalə olunmuşdur.

XIX əsrin sonlarında Səməd bəy Mehmandarov xalqın maarifləmməsini son dərəcə vacib hesab edir, vətəndən uzaqda olmasına baxmayaraq dövri mətbuatda maarifçilik ruhlu məqalələrlə çıxış edirdi. Onun "Müsəlmanların geriliyinin səbəbləri", "İbtidai qiraət dərsləri", "Müsəlman mühafizəkarlığı əleyhinə" və digər yazıları Tiflisdə nəşr olunan "Novoye obozreniye" qəzetində dərc olunmuşdur. 1920-ci il iyunun 4-də Mehmandarov Gəncə üsyanının təşkilində günahlandırılaraq Ə.Şıxlinski ilə birlikdə həbs edilmiş, yalnız Nəriman Nərimanovun müdaxiləsindən sonra azad olunmuşdur. Bundan sonra bir il Moskvada yaşamağa məcbur qalmışdır. 1918-ci il dekabrın 25-də o, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri təyin edilmişdir.

1921-ci ilin yayında Bakıya qayıdan S.Mehmandarov Xalq Hərbiyyə və Bəhriyyə Komissarlığında çalışmış, 1924–1928-ci illərdə Birləşmiş Komandirlər məktəbində müəllimlik etmişdir. 1928-ci ildə səhhətinə görə xidmətdən tərxis olunmuş və ona fərdi dövlət təqaüdü təyin edilmişdir.

Hərbi xidmətlərində göstərdiyi şücaətə görə Səməd bəy Mehmandarov bir sıra yüksək orden və medallarla təltif olunmuş, o cümlədən "Müqəddəs Georgi", "Müqəddəs Aleksandr Nevski", "Ağ Qartal" ordenləri, həmçinin "İgidliyə görə" qızıl qılıncı ilə mükafatlandırılmışdır.

.Səməd bəy Sadıq bəy oğlu Mehmandarov 1931-ci il fevral ayının 12-də Bakıda vəfat etmiş, Çənbərəkənd qəbiristanlığında dəfn edilmişdir. 1939-cu ildə qəbiristanlıq yerində S. M. Kirov adına park (indiki Şəhidlər Xiyabanı) salınmış və Mehmandarovun məzarı itib-batmışdır.

Bakı, Bərdə, Gəncə, Ağcabədi, Lənkəran, Quba və Qəbələ şəhərlərində mərkəzi küçələrdən biri Səməd bəy Mehmandarovun adını daşıyır. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin bir tankeri də General Mehmandarov adına adlandırılmışdır. O, Aleksandr Stepanovun "Port-Artur" və "Zvonarev ailəsi" romanlarının əsas qəhrəmanlarından biridir. Bakı və Lənkəran şəhərlərində Səməd bəy Mehmandarov adına parklar salınmışdır. Vladiqafqaz şəhərində yaşadığı evin fasadında onun xatirəsinə xatirə lövhəsi yerləşdirilmişdir.

29 sentyabr 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalanmışdır.

General Səməd bəy Mehmandarov haqqında "Sizi dünyalar qədər sevirdim" (1985), "Səmədbəy" (1995), "Artilleriyanın Allahı sayılırdı" (1996), "Tənha ruh" (1998), "Cümhuriyyət generalları" (2006), "Sərdar" (2015) və "Rusiyanın fəxr etdiyi müsəlmanlar" adlı sənədli və bədii filmlər çəkilmişdir.

2015-ci il oktyabrın 17-də Azərbaycan Milli Kitabxanasında Azərbaycanın ilk hərbi naziri, general Səməd bəy Mehmandarovun anadan olmasının 160 illiyinə həsr olunmuş "Səməd bəy Mehmandarov – 160" adlı kitab sərgisi açılmışdır.

Kamilə Sarıcalinskaya – 100

(1926-2012) *Hüquqşünas*



Kamilə Qiyas qızı Sarıcalinskaya 22 oktyabr 1926-cı ildə Ağdam rayonunun Sarıcalı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1944-cü ildə ADU-nun (indiki BDU) Hüquq fakültəsinə daxil olmuş, 1950-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirmişdir. 1960-1963-cü illərdə Azərbaycan Dövlət Universitetinin əyani aspiranturasında təhsilini davam etdirmişdir.

1949-cu ildə ADU-nun Hüquq fakültəsinin Cinayət hüququ kafedrasında baş laborant, 1952-1954-cü illərdə həmin kafedrada müəllim, 1957-60-cı illərdə Elmi Tədqiqat Məhkəmə Ekspertizası Laboratoriyasında baş ekspert, 1964-1980-ci illərdə Cinayət hüququ və Cinayət prosesi kafedralarında baş müəllim, dosent, 1980-1991-ci illərdə Kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri, 1991-2003-cü illər Kriminalistika və məhkəmə ekspertizası kafedrasında dosent, professor, 2003- 2007-ci illər Hüquq fakültəsinin dekanı, 2007-ci ildə Kriminalistika və məhkəmə ekspertizası kafedrasının professoru olmuşdur.

BDU-nun hüquq fakültəsində fəaliyyət göstərən 12.00.08 – "Cinayət hüququ, kriminologiya və cəza-icra hüququ" və 12.00.09 – "Cinayət prosesi, kriminalistika, məhkəmə ekspertizası, əməliyyat-axtarış fəaliyyəti" ixtisaslarında namizədlik dissertasiyalarının müdafiəsi üzrə dissertasiya şurasının sədr müavini olmuşdur. 1967-ci ildə Moskva şəhərində "Azərbaycan SSR istintaq və məhkəmə təcrübəsində yazının kriminalistik ekspertizası" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək hüquq elmləri namizədi alimlik dərəcəsi almışdır. Azərbaycanda kriminalistika ixtisası üzrə alimlik dərəcəsi almış ilk qadın Kamilə Sarıcalinskaya olmuşdur.

Kamilə Sarıcalinskaya 10-a yaxın tədqiqatçının dissertasiyasına elmi rəhbərlik etmişdir. BDU-nun Hüquq fakültəsinin, Azərbaycan Məhkəmə Ekspertizası Mərkəzinin, AMEA İnsan hüquqları İnstitutunun, "Antinarkotizm" Beynəlxalq Elmi Analitik Mərkəzin elmi şuralarının üzvü olmuşdur. "Azərbaycan Hüquq jurnalı", "Dirçəliş- XXI əsr", "Qanun", "Antinarkotizm", "Hüquq + Gənclik" jurnallarının redaksiya heyətlərinin üzvü olmuşdur.

Hüquq sahəsində xidmətlərinə görə 2009-cu ildə Kamilə Sarıcalinskaya "Əməkdar hüquqşünas" fəxri adına layiq görülmüşdür.

Kamilə Qiyas qızı Sarıcalinskaya 2012-ci il dekabr ayının 3-də vəfat etmişdir.

Ədəbiyyat:

Müasir narkotizmlə mübarizə problemləri / M. Ş. Şərifov; elmi red. K. Q. Sarıcalinskaya.– Bakı: Elm, 2006.– 168 səh.

Yetkinlik yaşına çatmayan şəxslərin narkotiklə bağlı törətdikləri cinayətlərə qarşı mübarizə: Kriminalistik və əməliyyat-axtarış aspektləri: [Monoqrafiya] / Şirəli Babayev; Elmi red. K.Q.Sarıcalinskaya.– Bakı: Qanun, 2007.– 308 s.

Sənət fədaisi / K.Sarıcalinskaya // Paritet.– 2009.– 10-11 dekabr.– S. 12.

Kriminalistika: [ali məktəblər üçün dərslik] / müəl. kol. [K. Sarıcalinskaya [və b.]]; müəl. kol. rəhbəri və məsul red. B.Əliyev; elmi red. F.Cavadov; rəyçilər C.Süleymanov, B.Zahidov, M.Cəfərquliyev; naşir Ş.Xuduoğlu; Azərb. Resp. Daxili İşlər Nazirliyi, Polis Akad.– Bakı: Qanun, 2010.– 751, [1] s.

Hüquq-mühafizə orqanları: dərslik / M.S.Qəfərov, H. Q. Eyvazov; elmi red. N. Əliyev, M. Əhmədov; rəyçilər K. Sarıcalinskaya [və b.]; Azərb. Resp. Təhsil Nazirliyi, BDU; Azərb. Resp. Daxili İşlər Nazirliyi, Polis Akad.– Bakı: Qanun, 2012.– 597, [1] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Kamil_Sarıcalinskaya

Hilmi Ziya Ülkən – 125

(1901-1974)

Türk filosofu



Ədəbiyyat:

Hilmi Ziya Ülkən Dantenin islam dininə münasibəti haqqında / A.Məmmədova // Dövlət və din.–2011.– mart- aprel- №2.– S.77-81.

Türkiyəli alim Hilmi Ziya Ülkən Əhməd bəy Ağaoğlu haqqında / A. Zakirqızı // Azərbaycan MEA-nın Xəbərləri: İctimai elmlər seriyası.– 2015.– №2.– S.184-189.

Türkiyə fəlsəfi fikrinin zirvəsi - Hilmi Ziya Ülkən / A. Zakirqızı; elmi red. T. Allahyarova.– Bakı: [Ecoprint], 2016.– 227, [1] s.

Hilmi Ziya Ülkən: İslami dəyərlər və dini dözümlülük / A.Məmmədova // Dövlət və Din: İctimai fikir toplusu.– 2017.– №4.- iyul-avqust.– S.99-104.

Hilmi Ziya Ülkən orta əsr şərq fəlsəfəsi tarixi haqqında / A.Zakirqızı (Məmmədova) // Azərbaycan MEA-nın Xəbərləri: İctimai elmlər seriyası.– 2018.– №4.– S.116-126.

Hilmi Ülkən Ziya Göyalp irsi haqqında: Onu türkçü kimi formalaşdıran ikinci şəxs Əli bəy Hüseynzadə olub / A.Zakirqızı // Kaspi.– 2019.– 15 may.– S.15.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Hilmi_Ziya_Ülkən

Hilmi Ziya Ülkən 3 oktyabr 1901-ci ildə İstanbulda anadan olmuşdur. Mütəfəkkir yaradıcılığa müxtəlif liseylərdə müəllimlik etməklə başlamışdır. Alim Bursa, İstanbul, Ankara, Kabataş, Qalatasaray və başqa şəhər liseylərində 1933-cü ilə qədər işləmiş, coğrafiya, fəlsəfə, tarix, psixologiya, sosiologiya fənlərini tədris etmişdir. O, elə həmin dövrdən də elmi fəaliyyətə başlamışdır. Tədqiqat işi ilə əlaqədar bir il Berlində çalışan alim 1933-cü ildə qayıdaraq İstanbul Universitetinə müəllim təyin edilmişdir.

Hilmi Ziya Ülkən 1927-1929-cu illərdə fəaliyyət göstərən "Fəlsəfə və İctimaiyyat Cəmiyyəti" nin yaranmasında iştirak etmiş, cəmiyyətin nəşr orqanı olan "Fəlsəfə və İctimaiyyat Dərgisi"ndə məqalələr çıxarmışdır.

Fəlsəfə cəmiyyəti ikinci dəfə Hilmi Ziya Ülkənin təklifi ilə fəaliyyətə başlamışdır. Qeyd etmək lazımdır ki, 1931-ci ildən çap edilən və "Türk Fəlsəfə Cəmiyyəti"nin nəşr orqanı olan "Fəlsəfə İlliyi" Hilmi Ziya Ülkənin şəxsi vəsaiti ilə çıxmışdır. Hilmi Ziya Ülkən 1950-ci ildə İstanbulda Farabinin vəfatının 1000 illiyinə görə tədbir keçirmiş və bununla əlaqədar "Farabi tədqiqləri" adlı kollektiv kitabını çapa hazırlamışdır.

Türkiyəli alim, Dr. Ayhan Vergili mütəfəkkirin "Ord. Prof. Hilmi Ziya Ülkən kitabı — həyatı, əsərləri və haqqındakı nəşrlər" ("Ord. Prof. Hilmi Ziya Ülken Kitabı — Hayatı, Eserleri ve Hakkındakı Yayınlar — Bibliyografya", İstanbul, İşaret Yayınları, 2016) adlı biblioqrafik göstəricisini hazırlamışdır. Hilmi Ziya Ülkən tərcüməçi kimi də fəaliyyət göstərmişdir. O, Qaston Riçardın "İctimaiyyat haqqında ibtidai məlumat" (1926), Aristotelin "Metafizika" (1935), Jan Jak Russonun "Emil" (1943), Emil Butronun "Təbiət qanunlarının imkanı haqqında" (1947), Benedikt de Spinozanın "Etika" (1948, təkrar nəşr 2004) və başqa alimlərin əsərlərini türk dilinə tərcümə etmişdir. Bədii əsərlərin müəllifi olan alim şeirlə yanaşı romanlar da qələmə almışdır. "Poçt yolu" (1942), "Yarım adam" (1942), "Şeytanla söhbətlər" (1943) romanları onun bədii yaradıcılığının məhsuludur. Hilmi Ziya Ülkən təsviri incəsənət sahəsində də fəaliyyət göstərmişdir.

Hilmi Ziya Ülkən XX əsrin 30-cu illərindən türk təfəkkürü və düşüncəsi haqqında tədqiqat işinə başlamış, iki cildlik "Türk təfəkkür tarixi" (İstanbul, 1933) kitabını yazmışdır. Hilmi Ziya Ülkən 1949-cu ildə Osloda "Beynəlxalq Sosiologiya Cəmiyyəti"ni qurmaq üçün YUNESKO-nun hazırladığı komitəyə dəvət edilmiş və Oslodan qayıtdıqdan sonra "Türk Sosiologiya Cəmiyyəti"nin əsasını qoymuşdur.

Hilmi Ziya Ülkən 1974-cü il iyun ayının 5-də İstanbulda vəfat etmişdir.

2016-cı il dekabr ayının 15-də Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru Aytək Məmmədovanın Türkiyənin böyük mütəfəkkiri prof. Hilmi Ziya Ülkənin anadan olmasının 115 illiyinə ithaf edilmiş "Türkiyə fəlsəfi fikrinin zirvəsi - Hilmi Ziya Ülkən" kitabı çapdan çıxmışdır.

Qurban Abbasov – 100

(1926-1994)

Mühəndis, neftçi



Qurban Abbasqulu oğlu Abbasov 26 oktyabr 1926-cı ildə Naxçıvan Muxtar Respublikası Babək rayonunun Payız kəndində anadan olmuşdur. Neft və qaz quyularının qazılması ixtisası üzrə AzNKİ-nun (indi ADNSU) neft-mədən fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1944-cü ildə Artyomneft trestində fəhlə kimi başlayan Qurban Abbasov, sonra Azərneft Birliyinin qazma idarəsində qazmaçı, buruq ustası, Gürgənneft NMİ-nin şimal qazma sahəsi idarəsinin rəisi vəzifəsində işləmişdir. O, 9 dəzgahı olan sahəyə rəis təyin olunmuş, hər bir dəzgahın qazma sürətini 1400 m-ə çatdırmağa nail olmuşdur. 1967-1980-ci illərdə – Xəzərdənizneftkəşfiyyat trestinin müdiri, Xəzərdənizneft İB-nin baş direktor müavini, Neft Daşları NQÇİ-nin rəisi, 1980-1983-ci illərdə - Xəzərdənizneftqazsənaye ÜİB-nin baş direktoru, 1988-1992-ci illərdə Xəzərdənizneft İB-nin baş direktoru, 1992-ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət Neft Şirkətinin baş müşaviri vəzifələrində çalışmışdır.

Qurban Abbasov açıq dənizdə neft və qaz çıxarılmasının ilk təşkilatçılarından biri olmuşdur. Şelf-1 tipli yarımdalma Üzən qazıma qurğularının Xəzər dənizi şəraitində mənimsənilməsində onun xüsusi xidmətləri olmuşdur. Bu qurğular 200 metrlik dəniz dərinliyində işləyə bilmiş, Kaveroçkin adına (indiki "Çıraq" yatağı) yatağı kəşf etməyə və yeni dərin perspektivli strukturlarda kəşfiyyat işləri aparmağa imkan yaratmışdır. Qurban Abbasovun bilavasitə rəhbərliyi altında dərin dəniz stasionar özüllərin inşasının istehsalat bazası yaradılmış, quraşdırma işlərinin prinsipcə yeni üsulu işlənib hazırlanmışdır. Qurban Abasovun 28 Aprel, Kaveroçkin adına, 26 Bakı Komissarı adına, Oktyabr İnqilabı adına kimi iri yataqların kəşf edilməsindəki xidmətləri danılmazdır.

Qurban Abasov Sovet İKP-nin 22, 24, 25 və 27-ci qurultaylarının nümayəndəsi, AKP MK-nın üzvü, Asiya və Afrika ölkələri Həmrəylik Komitəsi Rəyasət Heyətinin üzvü olmuşdur. O, 4 dəfə SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.

1951-ci ildə Qurban Abbasov alim, geoloq, mühəndislərlə birgə Neft Daşlarının kəşfinə görə I Dərəcəli Stalin Mükafatına layiq görülmüşdür. 1958-ci ildə Sosialist Əməyi Qəhrəmanı Qızıl Ulduzu, neft və qaz sənayesində əldə etdiyi böyük nailiyyətlərə görə o, Azərbaycan SSR Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı, həmçinin "Azərbaycanın neft ustası", "SSRİ Əməkdar neftçisi", Azərbaycanın "Əməkdar mühəndis" fəxri adlarına layiq görülmüşdür. Ölkə qarşısında böyük xidmətlərinə görə SSRİ-nin fəxri neftçisi, 2 dəfə Lenin, Qırmızı Əmək Bayrağı, "Şərəf Nişanı", "Oktyabr İnqilabı" ordenləri və medalları ilə təltif edilmişdir.

Neftçi Qurban əmək fəaliyyətinin 50 illik yubileyi münasibətilə Azərbaycanın ən yüksək mükafatı – Şöhrət ordeni ilə təltif olunmuş və bu adı alan ilk neftçi olmuşdur.

Qurban Abbasqulu oğlu Abbasov 1994-cü il sentyabr ayının 14-də Bakı şəhərində vəfat etmişdir.

Qurban Abbasovun adını əbədiləşdirmək məqsədi ilə Azərbaycan Prezidenti Heydər Əliyev 1995-ci ilin aprel ayında sərəncam imzalamışdır. Titan-2 üzən kranına "Neftçi Qurban" adı verilmiş, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 288 nömrəli tam orta məktəbə Neftçi Qurbanın adı verilmiş, məktəbdə xatirə lövhəsi asılmışdır. Lökbatan qəsəbəsində onun adına mədəniyyət sarayı, küçə, məktəb, körpü, Bayıl qəsəbəsində küçə vardır.

Tələbə və aspirantlar üçün "Neftçi Qurban" təqaüdü təsis edilmişdir.

Bəstəkar A.Rzayevanın məşhur "Neftçi Qurban" mahnısı ona həsr olunmuşdur.

1970-ci ildə onun həyatından bəhs edən "Neftçi Qurban" filmi çəkilmişdir.

Ədəbiyyat:

Qurban Abbasqulu oğlu Abbasov: Kommunistlərlə bitərəflərin sarsılmaz ittifaqının ləyaqətli namizədi Qurban Abbasqulu oğlu Abbasova səs verin!.– Bakı: Azərnəşr, 1984.– 1 v.

Azərbaycanlı deputatlar SSRİ parlamentində: 1938-1988 / M. Musayev; Məsləhətçi: T. Q. Musayev.– Bakı: Ağrıdağ, 2000.– 176 s.

Abbasov Qurban Abbasqulu oğlu // Naxçıvan Ensiklopediyası: 2 cilddə.– C.1.– Bakı, 2005.– S.9-10.

Qurban Abbasovun keçdiyi zəngin və şərəfli ömür yolu hər bir insan üçün örnəkdir / N. Rəhimzadə // İki sahil.– 2015.– 22 dekabr.– S.9.

Yusifzadə, X. Əfsanəvi neftçi / Xoşbəxt Yusifzadə // İki sahil.– 2016.– 7 yanvar.– S.4-5.

İnternetdə:

http://az.wikipedia.org/wiki/Qurban_Abasov

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000470967

Cəmil Əhmədli – 95

(1931-2010)

Alim



Cəmil Teymur oğlu Əhmədli 27 oktyabr 1931-ci ildə Gədəbəy rayonunun Söyüdlü kəndində anadan olmuşdur. Orta məktəb illəri (1938-1948) İkinci Dünya müharibəsi illərinə təsadüf etmişdir. Buna baxmayaraq elmə böyük maraq göstərmiş, 10-cu sinifdə oxuyarkən respublikada keçirilən riyaziyyat olimpiadasının (1948) qalibi olmuşdur. Həmin il yeni yaradılmış Moskva Fizika-Texnika İnstitutunun nümayəndəsi C.Əhmədlinin oxuduğu məktəbin buraxılış imtahanlarında iştirak etmiş və onun həmin instituta qəbul olunduğunu bildirmişdir. Lakin maddi çətinliklərə görə Moskvaya gedə bilməmiş, sənədlərini Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fəlsəfə şöbəsinə verərək qəbul olunmuş və universiteti fərqlənmə diplomu ilə bitirmişdir.

Cəmil Əhmədli 1953-cü ildə SSRİ Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun aspiranturasına qəbul olunmuş, 1956-cı ildə akademik Teodar Oyzermanın rəhbərliyi ilə "Azadlıq və zərurət" mövzusunda dissertasiya müdafiə edərək, fəlsəfə elmləri namizədi alimlik dərəcəsini almışdır. 1958-ci ildən etibarən "Materialist dialektikanın qanun kateqoriyası" mövzusu üzərində çalışmış, 1964-cü ildə bu əsər filosofun doktorluq dissertasiyasının əsasını təşkil etmişdir.

Cəmil Əhmədli 1954-1956-cı illərdə Moskva Dövlət Universitetində dərs demiş, 1957-ci ildə Azərbaycan SSR EA-nın Fəlsəfə və Hüquq İnstitutunda elmi katib kimi fəaliyyət göstərmiş, baş elmi işçi, şöbə müdiri vəzifələrində işləmişdir. 1963-1972-ci illərdə Bakı Ali Partiya Məktəbində (AR DİA), 1959-1974-cü illərdə Azərbaycan SSR EA-nın aspiranturasında fəlsəfə kursundan dərs demişdir. 1966-cı ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki ADİU) Fəlsəfə kafedrasının müdiri olmuş, 1990-cı ilə qədər bu vəzifəsində çalışmışdır. 1990-2000-ci illərdə Bakı Dövlət Universitetinin Fəlsəfə və sosiologiya kafedrasının müdiri vəzifəsində işləmişdir. BDU-nun Humanitar fakültələr üzrə fəlsəfə kafedrasının professoru olmuşdur.

1960-cı ildə Bakıda nəşr edilən "Azadlıq və zərurət" (rus dilində) kitabı keçmiş SSRİ məkanında ilk monoqrafiya olmuşdur. Cəmil Əhmədlinin təşəbbüsü və rəhbərliyi ilə 1969-cu ildə Azərbaycanda ilk sosioloji laboratoriya yaradılmışdır. 16 monoqrafiyanın, 400-dən artıq məqalənin müəllifi olan Cəmil Əhmədli 12 doktor, 100-ə yaxın namizəd yetirmişdir. Alim "Azərbaycan Sovet Ensiklopediyası"nda 54 məqalənin müəllifidir.

Cəmil Əhmədli 1990-cı ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 1997-ci ildə Rusiya Pyotr Elmlər və İncəsənət Akademiyasının müxbir üzvü, 2000-ci ildə isə akademiki seçilmişdir. 2009-cu ildə Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Cəmil Teymur oğlu Əhmədli 2010-cu il fevral ayının 10-da vəfat etmişdir.

2001-ci ildə görkəmli Azərbaycan filosofu, Əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor Cəmil Əhmədlinin 70 illiyinə həsr olunmuş "Cəmil Əhmədli ucalığı" kitabı və alimin həyat və fəaliyyətinin əsas tarixləri, əsərlərinin siyahısı haqqında məlumatları əks etdirən "Bibliooqrafik göstərici" nəşr edilmişdir.

10 fevral 2011 ci ildə AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunda Cəmil Əhmədlinin xatirəsinə həsr edilmiş anım gecəsi keçirilmişdir.

Ədəbiyyat:

Cəmil Əhmədli ucalığı: Görkəmli Azərbaycan filosofu Cəmil Əhmədlinin 70 illiyinə / Naşir: N.Hüseynli; Tərt.ed., çapa hazırlayan, red. və ön sözün müəllifi: N.Hacızadə; Red.: N.Xanlarova.– Bakı: Diplomat, 2001.– 285 səh.

Orta əsrlər müsəlman sivilizasiyasında bərabərlik problemi / R. Mustafayev; elmi red. C. T. Əhmədli.– Bakı: [Təknur], 2010.– 159, [1] s.

Sosiologiya: nəzəri problemləri və Qərb sosiologiyası / M. Ə. Əfəndiyev; elmi red. C. Əhmədli.– Bakı: Bakı Universiteti, 2018.– 718, [2] s.

Sosiologiya və cəmiyyət problemləri: [toplu] / C. Əhmədli; tərt. ed. R. H. Mustafayev; red. B. Sadiq.– Bakı: Ecoprint, 2023.– 676, [4] s.

Dədə Qorqud yurdu: Gədəbəy rayonu, Xınna dərəsi və Göyçə mahalı / Cahangir Hüseyn Əfşar [ön söz]; [elmi red. İ. Rüstəmov; məsul red. İ. Həsənov; red. Y. Babayev; qapaq dizaynı R. Qasım].– Bakı]: Qanun, [2025].– 320 s., [8] v.

Aləm Nuriyev – 90

(1936-2004)

Alim, arxeoloq



Aləm Bayram oğlu Nuriyev 7 oktyabr 1936-cı ildə Şamaxı rayonunun Göylər kəndində anadan olmuşdur. Göylər kənd orta məktəbini bitirəndən sonra 1954-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsinə daxil olmuş və 1959-cu ildə həmin fakultəni bitirmişdir. Aləm Nuriyev Azərbaycan EA Arxeologiya və Etnoqrafiya İnstitutunun ilk orta əsrlər arxeologiyası şöbəsinin müdiri olmuşdur.

Bir il sonra o, Azərbaycan EA-nın Tarix İnstitutunun aspiranturasıına daxil olmuşdur. 1966-cı il sentyabr ayının 26-da Qafqaz Albaniyası problem ilə bağlı namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş, tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. Ekspedisiyalar zamanı Albaniya ilə bağlı əldə etdiyi maraqlı materiallar alimi bu mövzuya qayıtmağa vadar etmiş,

"Qafqaz Albaniyasında sənətkarlıq" mövzusunda doktorluq dissertasiyasının üzərində işləməyə başlamışdır. Həmin vaxtdan A.Nuriyev respublikamızın bir çox bölgələrinə ekspedisiyalar təşkil etmiş, qədim yaşayış yerlərini, xarabalıqları, şəhər ərazilərini, abidə qalıqlarını araşdırıb, tədqiq etmişdir.

Görülən işlərlə bağlı o, müxtəlif qəzet və jurnallarda maraqlı yazılar ilə çıxış etmiş və nəhayət 1991-ci ildə uzun bir müddət üzərində çalışdığı mövzunu müdafiə edərək, tarix elmləri doktoru alimlik dərəcəsi almışdır. A.Nuriyev 5 kitabın, 107 elmi işin, 115-dən çox elmi məqalənin müəllifidir. O, Rusiya Federadiyası Abidələrinin Mühafizə Cəmiyyətinin üzvü olmuşdur. 1984-1989-cu illərdə qədim Bərdə şəhərinin araşdırılması məqsədilə qazıntı işlərində iştirak etmişdir. 1984-cü ildə Bərdə rayonunun Şatırlı kəndiyaxınlığında üzərində alban əlifbası ilə yazılar yazılmış insan fiqurlu qədim məzar daşı abidəsi aşkar etmişdir. Əsasən Qafqaz Albaniyasının müxtəlif problemlərinin tədqiqi və öyrənilməsi, sənətkarlıq, şüşə, dulus, metalişləmə tarixi, Bərdə şəhərinin inkişaf mərhələləri, xaraba şəhərlərin (Şamaxı, Bərdə, Naxçıvan, Ərəs və s.) üzə çıxarılması və Azərbaycan tarixinin digər problemlərinin öyrənilməsi və tədrisi ilə məşğul olmuşdur.

Aləm Bayram oğlu Nuriyev 2004-cü il sentyabr ayının 20-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Qafqaz Albaniyasının şüşə məmulatı və istehsalı tarixi / A. B. Nuriyev; red. C. Ə. Xəlilov; AzSSR EA, Tarix İn-tu.– Bakı: Elm, 1981.– 150, [2] s.

Nizami əsrinin gülüstan qalası / A. M. Məmmədov; red. A. B. Nuriyev; rəssam. R. Ə. Cəfərova; rəy verənlər. A. Nuriyev, R. Əhmədov, K. Məmmədzadə; AzSSR EA Tarix İnstitutu. Arxeologiya və Etnoqrafiya Sektoru.– Bakı: Elm, 1989.– 40, [1] s.

Qoşqarçay və Kürəkçay hövzəsinin tarixi-arxeoloji tədqiqi / Arif Məmmədov; Elmi red.: A. Nuriyev, Ş. Nuruzadə; Rəssam: R. Əsədova.– Bakı: Ağrıdağ, 2000.– 96 səh.

Zəngəzurun Zəngilanlı ziyalıları / Ə. Sobulu; Red.: Ş. Səlimbəyli, A. Ağayev; Elmi red.: A.B. Nuriyev.– Bakı: Ağrıdağ, 2001.– 288 səh.

Azərbaycanın orta əsr zoomorf əşyaları / F. Ə. Abbasova; elmi red. R. B. Göyüşov; elmi məsləhətçi A. B. Nuriyev; AMEA, Arxeologiya və Etnoqrafiya İn-tu.– Bakı: Elm, 2004.– 238 s.,

İnternetdə:

https://az.baku-art.com/az/bu-gun-arxeoloq-alim-alem-nuriyevin-dogum-g-n-d-r

Qabil Əliyev – 70

(1956)

Alim



Ədəbiyyat:

Heydər Əliyev Cümhuriyyət qurucularının fəaliyyətini yüksək qiymətləndirirdi: Azərbaycan Xalq Cümhuriyyəti-100 / Q.Əliyev // Azərbaycan.– 2018.– 26 may.– S.10.

Qafqazda nəqliyyatın inkişafı: (XVIII əsrin sonu-XX əsrin başlanğıcı): [monoqrafiya] / Q. Əliyev ; elmi red. Y. Mahmudov.– Bakı: [Turxan NPB], 2019.– 399, [1] s.

Azərbaycan tarixi 9: ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün Azərbaycan tarixi fənni üzrə dərslik / Y. Mahmudlu, Q. Əliyev, M. Abdullayev [və b.]; [baş red. N. Cabbarlı; red. A. Quliyev; ixtisas red. G. Nəcəfli; buraxıl. məs. R. Kazımov; dizayner A. Alışova; üz qabığının dizaynı N. Nehmətov].– [Bakı]: Şərq-Qərb, [Təhsil NP MMC], [2020].– 192 s.

Doğma Füzulinin dirçəldilməsi qürurvericidir / Q.Əliyev // Xalq qəzeti.–2021.– 26 oktyabr.– S.5.

XVII yüzilliyin 80-90-cı illərində Səfəvi dövlətinin sosial-iqtisadi həyatı: Dərs vəsaiti / Ş. İsmayılov; elmi red. Q. Ə. Əliyev.– Bakı: [Azərbaycan], 2023.– 167, [1] s.

İnternetdə:

https://tarixinstitutu.az/doctors/111

Qabil Əli oğlu Əliyev 13 oktyabr 1956-cı ildə Füzuli rayonunun Merdinli kəndində anadan olmuşdur. 1962-1972-ci illərdə həmin rayonun Yuxarı Seyidəhmədli kənd orta məktəbində təhsil almışdır. 1972-1977-ci illərdə Azərbaycan Dövlət Universiteti (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsinin əyani şöbəsində təhsil almış, ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. Tarixçi, tarix və ictimaiyyat müəllimi ixtisasını almışdır. 1977-1981-ci illərdə təyinatla Füzuli rayonu Yuxarı Seyidəhmədli kənd orta məktəbində tarix, ictimaiyyat müəllimi vəzifəsində işləmişdir. 1981-ci ildən Azərbaycan Dövlət Universitetinin SSRİ tarixi (1917-ci il Oktyabr inqilabına qədərki dövr) kafedrasında müəllim, baş müəllim vəzifələrində çalışmışdır.

1982-1985-ci illərdə universitetin aspiranturasında "Vətən tarixi" ixtisası üzrə təhsilini davam etdirmişdir. 1992-ci ildən Bakı Dövlət Universitetinin Türk və Qafqaz xalqları tarixi kafedrasında baş müəllim, dosent, professor əvəzi vəzifələrində çalışmışdır. Universitetdə pedaqoji fəaliyyətinin ilk illərində "Vətən tarixi" fənnindən praktik məşğələlər aparmış, mühazirə oxumağa başlamışdır. 1998-ci ildən ali məktəbin magistr pilləsində təhsil alan tələbələr üçün "Qafqazın qədim dövlət və cəmiyyətləri" mövzusunda ixtisas kursu hazırlayıb tədris edir. 2004-2005-ci illərdə "Azərbaycan Xalq Cümhuriyyəti" ensiklopediyasında AXC-nin qonşu dövlətlərlə diplomatik münasibətləri haqqında 20-dən çox məqalə çap etdirmişdir.

"Bakı-Tiflis dəmir yolunun çəkilməsi və onun Azərbaycanın iqtisadi, sosial və mədəni həyatına təsiri (XIX əsrin 80-90-cı illəri)" mövzusunda tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiyasını 21 may 1986-cı ildə müdafiə etmişdir. "XIX-XX yüzilliyin başlanğıcında Şimali Azərbaycanda nəqliyyatın inkişafı" mövzusunda tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiyasını 19 iyun 2003-cü ildə müdafiə etmişdir. Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının 18 yanvar 1995-ci il tarixli qərarı ilə Türk və Qafqaz xalqları tarixi kafedrasının dosenti elmi adı (diplom DY № 0621) verilmişdir.

Bakı Dövlət Universiteti Elmi Şurasının qərarı ilə 11 may 2005-ci ildən Türk və Qafqaz xalqları tarixi kafedrasında professor vəzifəsində çalışır.

2013-2023-cü illərdə Azərbaycan Universiteti, İctimai elmlər kafedrası, professor, kafedra müdiri, 2023-cü ildən Azərbaycan Universiteti, Siyasi və ictimai elmlər kafedrasıının professorudur.

Azərbaycan Universitetinin "İpək yolu" elmi jurnalının və "Tarix və onun problemləri" nəzəri, elmi, metodiki jurnalının Redaksiya Heyətinin üzvü

Qabil Əli oğlu Əliyev 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı, 2019-cu ildə isə "Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)" yubiley medalı ilə təltif olunmuşdur.

Yusif Yusifov – 120

(1906-1995)

İctimai xadim



Yusif Niftalı ağa oğlu Yusifov 20 oktyabr 1906-cı ildə Qazax rayonunun Xanlıqlar kəndində anadan olmuşdur. İlk təhsilini Xanlıqlar kəndində almış, 1918-ci ilə qədər Tiflisdə təhsilini davam etdirmişdir. 1920-1926-cı illərdə Qazax Müəllimlər Seminariyasında təhsil almışdır. Pedaqoji fəaliyyətinə Qaryagin rayonunun (indiki Füzuli) Əbdürrəhmanlı kəndində ibtidai sinif müəllimi kimi başlamışdır. 1926-1927-ci illərdə həmin vəzifədə çalışmış, ardınca Quba şəhərində təkmilləşdirmə kurslarında iştirak etmişdir. Qaryaginə qayıtmış Qoçəhmədli kənd yeddiillik məktəbinin direktoru vəzifəsinə təyin edilmişdir. 1931-ci ilin sentyabr ayına qədər bu vəzifədə fəaliyyət göstərmiş, daha sonra rayon maarif şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir. 1952-ci ildə Bakıda Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunun elmi katibi təyin edilmiş və bundan sonra ömrünü elmi-pedaqoji fəaliyyətə həsr etmişdir.

1932-1933-cü illərdə Bakıda Azərbaycan Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsil almışdır. 1938-1940-cı illərdə Azərbaycan KPMK Marksizm-Leninizm Universitetinin axşam şöbəsini bitirmişdir. 1942-ci ildə Azərbaycan Pedaqoji İnstitutu tarix fakültəsinin qiyabi şöbəsində təhsil almışdır. 1944-1948-ci illərdə Ağdamda fəaliyyət göstərmiş ikiillik Müəllimlər İnstitutunda marksizm-leninizmi tədris etmişdi.

1952-ci ildən Azərbaycan Dövlət Universitetinin Sov. İKP tarixi kafedrasında baş müəllim vəzifəsində çalışan Yusif Yusifov 1954-cü ildə tarix elmləri namizədi alimlik dərəcəsini almışdır. 1956-cı ildən Azərbaycan Dövlət Universitetinin marksizm-leninizm kafedrasında dosent vəzifəsində çalışmış, 1961-ci ildə tarix fakültəsinin dekan müavini təyin edilmiş, daha sonra 1964-cü ilə qədər tarix fakültəsinin qiyabi şöbəsinin dekanı vəzifəsində fəaliyyət göstərmişdir. 1964–1973-cü illərdə Yusif Yusifov Azərbaycan Dövlət Universitetinin Sov. İKP tarixi kafedrasında dosent vəzifəsində çalışmış, 1972-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. Daha sonra Azərbaycan Dövlət Universitetində professor elmi adına layiq görülmüşdür.

Yusif Yusifov 1948-1951-ci illərdə Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsində çalışmışdır. 1939-1942-ci illərdə Azərbaycan Ali Sovetinin deputatı olmuş, 1950-ci ildə SSRİ Ali Sovetinə, 1951-ci ildə eyni zamanda Azərbaycan Ali Sovetinə deputat seçilmişdi. 1948-ci ildə Ermənistandan Aranın isti bölgələrindən olan Sabirabada köçürülmüş ailələrin böyük bir kütləsini Naxçıvanın Qarabağlar kəndinə köçürməyə təşəbbüs edir və buna nail olur.

Yusif Yusifov 1947–1951-ci illərdə Azərbaycan Ali Sovetinin sədri vəzifəsini icra etmişdir. Həmin dövrdə Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi vəzifəsindən azad edilmiş, sonradan Bakıda Mərkəzi Komitə aparatında Kənd Partiya Təşkilatları Şöbəsinin müdirinə müavin təyin olunmuşdur.

Yusif Yusifov "Lenin ordeni" (1943), Böyük Vətən müharibəsi ordeni (1945), "Lenin ordeni" (1949), "Qafqazın müdafiəsinə görə" (1945), "Böyük Vətən müharibəsi illərində rəşadətli əməyə görə" (1945) medalları ilə təltif olunmuşdur.

Yusif Niftalı ağa oğlu Yusifov 1995-ci il iyun ayının 14-də vəfat etmişdir. Bakı şəhərində dəfn edilmişdir.

Ədəbiyyat:

Azərbaycan kommunist partiyasının kolxozları daha da möhkəmləndirmək uğrunda mübarizəsi: oxunmuş mühazirənin stenoqramı / Y. N. Yusifov; [red. M. Musayev]; Azərb. SSR Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyət.– Bakı: [s.n.], 1956.– 41, [3] s.

Kolxoz partiya təşkilatları XX qurultayın qərarlarını yerinə yetirmək uğrunda mübarizədə / Y. N. Yusifov; [red. V. Nəsirov].– Bakı: Azərnəşr, 1957.– 60, [3] s.

Partiya həyatı normalarına və partiya rəhbərliyinə dair Lenin prinsipləri / Y. N. Yusifov; red. Ə. P. Əliyev.– Bakı: Azərnəşr, 1961.– 79, [1] s.

Sovxozların təşkili və inkişafı sahəsində Azərbaycan kommunist partiyasının fəaliyyəti / Y. Yusifov; [red. Ə. Abasov].– Bakı: Azərnəşr, 1967.– 157, [3] s.

Xam və dincə qoyulmuş torpaqlardan istifadə edilməsində Azərbaycan zəhmətkeşlərinin iştirakı / Y. N. Yusifov; red. Ə. Mirzəyev.– Bakı: Azərnəşr, 1976.– 55, [1] s.

Azərbaycan Kommunist Partiyası kənd təsərrüfatında əsaslı dönüşün və dinamik inkişafın təşkilatçısıdır: (1970-1978-ci illər) / Y. N. Yusifov.– Bakı: Azərnəşr, 1979.– 117, [3] s.

Abbas Zamanov – 115

(1911-1993)

Ədəbiyyatşünas



Ə d ə b i y y a t :

"Cəbhə dəftərindən": Abbas Zamanov-105 / N. Asena // Şərq.– 2016.– 11 oktyabr.– S. 13.

Abbas Zamanov zirvəsi / Ü. Xaspoladova // Azərbaycan.– 2021.– 7 oktyabr.– S.7.

Təkanlar və ya Abbas Zamanovun Zamanı / M.Oruc // 525-ci qəzet.– 2022.– 18 may.– S.16;17.

Ədəbiyyatşünaslıq və ictimai fikirdə Abbas Zamanov cəsarəti / R. Qasımov // Olaylar.–2023.– 14-20 aprel.– S.16.

Mühacirət tarixi məktublarda: Ramiz Abutalıbovdan Abbas Zamanova / D.Əhməd // Ədəbiyyat qəzeti.– 2024.– 29 noyabr, №46.– S.16-17.

Can Azərbaycanın dost səsi. Abbas Zamanov: "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turana /S.Saatçı; təqdim etdi: Q.Paşayev //Ədəbiyyat qəzeti.-2025.- 31 oktyabr (№40).- S.9.

Müstəsna şəxsiyyət Abbas Zamanov və beynəlxalq ədəbi əlaqələr/Q.Paşayev //Ədəbiyyat qəzeti.-2021.- 16 oktyabr.- S.3.

Abbas Zamanov haqqında unudulmaz xatirə /V.Musayev //525-ci qəzet .-2021.- 27 fevral.- S.17.

Abbas Fəttah oğlu Zamanov 10 oktyabr 1911-ci ildə Naxçıvan MR-nın Şərur rayonunun Maxta kəndində anadan olmuşdur. 1921-1927-ci illərdə Naxçıvan və Bakı şəhərlərində uşaq evlərində yaşamışdır. Bakı Pedaqoji Texnikumunu bitirdikdən sonra, 1929-1937-ci illərdə rəhbər komsomol işçisi kimi çalışmış, 1933-1934-cü illərdə isə "Gənc işçi" qəzeti redaksiyasında məsul redaktor müavini vəzifəsində işləmişdir. 1937-1939-cu illərdə "Ədəbiyyat" qəzetində məsul katib, Azərnəşrin Bədii ədəbiyyat şöbəsinin müdiri olmuşdur. 1939-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) Dil-ədəbiyyat fakültəsini qiyabi bitirmiş və institutda müəllim saxlanılmışdır. Abbas Zamanov 1940-1941-ci illərdə M.F.Axundov adına Opera və Balet Teatrının direktoru olmuş, 1941-ci ildə teatrın Təbrizə qastrol səfərinə rəhbərlik etmişdir.

İkinci Dünya müharibəsi illərində ordu sıralarında xidmət etmişdir. Tərxis olunduqdan sonra 1948-1960-cı illərdə ADU-nun (indiki BDU) filologiya fakültəsində baş müəllim, 1960-68-ci illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun elmi əməkdaşı, 1968-1971-ci illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat Muzeyinin direktoru, 1971-1979-cu illərdə isə ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasının müdiri vəzifələrində çalışmışdır. Ədəbi fəaliyyətə 1937-ci ildə çap etdirdiyi publisist və elmi-kütləvi məqalələrlə başlamışdır.

Həmin vaxtdan ölkəmizdə və ölkəmizin hüdudlarından uzaqlarda XX əsr Azərbaycan ədəbiyyatına dair elmi-tədqiqat əsərləri müntəzəm dərc olunmuş, "Sabir və müasirləri" adlı monoqrafiyası Əsəd Behrənginin tərcüməsində Təbrizdə, "Cəlil Məmmədquluzadə" oçerki isə Ələkbər Qəhrəmaninin tərcüməsində Tehranda fars dilində nəşr olunmuşdur. A.Zamanov C.Məmmədquluzadənin, M.Ə.Sabirin, Ə.Haqverdiyevin, N.Nərimanovun, S.S.Axundovun, S.Hüseynin, H.Nəzərlinin, S.Ə.Şirvaninin, S.M.Qənizadənin və Q.Zakirin əsərlərini rus və Azərbaycan dillərində tərtib və nəşr etdirmişdir. 1967-ci ildə "M.Ə.Sabir və müasirləri" mövzusunda dissertasiya müdafiə etmiş, birbaşa filologiya elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. 1971-ci ildə professor elmi rütbəsini qazanmışdır.

1971-ci ildə Türkiyə Dil Qurumunun müxbir üzvü olmuş, 1989-cu ildə isə Konya (Türkiyə) Səlcuq Universitetinin fəxri doktoru seçilmişdir. 1982-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1983-cü ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir. A.Zamanov 1980-ci ildə Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, I dərəcəli "Vətən müharibəsi" ordeni, "Döyüş xidmətlərinə görə" medalı və bir sıra digər medallarla təltif edilmişdir.

Abbas Fəttah oğlu Zamanov 1993-cü il aprelin ayının 1-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabandadəfn olunmuşdur.

Azərbaycan Respublikasının Nazirlər Kabineti "Abbas Fəttah oğlu Zamanovun xatirəsinin əbədiləşdirilməsi haqqında" 13 dekabr 1993-cü il tarixli 598 nömrəli qərar qəbul etmişdir.

2011-ci il oktyabr ayının 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev A.Zamanovun 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır.

2021-ci il oktyabr ayının 9-da Azərbaycan Milli Kitabxanasında ədəbiyyatşünas, tənqidçi, Əməkdar elm xadimi, professor Abbas Zamanovun 110 illik yubileyi münasibətilə "Abbas Zamanov – 110" adlı sərgi virtual rejimdə istifadəçilərə təqdim olunmuşdur.

Sabir Ələsgərov – 90

(1936-2020)

Diktor



Sabir Məmməd oğlu Ələsgərov 27 oktyabr 1936-cı ildə Tbilisidə anadan olmuşdur.

1961-ci ildə Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunu bitirmişdir. Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində fəaliyyətə başlayan Sabir Ələsgərov 1966–1972-ci illərdə radionun, 1972–1990-cı illərdə isə televiziyanın baş diktoru olmuş, 1990–2006-cı illərdə televiziyanın diktorlar şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

"Xəbərlər" informasiya proqramının, "Səadət", "Günün nəbzi", "Səfa" kimi verilişlərin aparıcısı olmuşdur.

Hökümət tədbirləri və bayram şənliklərindən reportajların, dövlət əhəmiyyətli verilişlərin hazırlanıb efirə verilməsində yaxından iştirak etmişdir.

Sabir Ələsgərov yüksək peşə ustalığına və ictimai həyatda fəal iştirakına görə 1990-cı il may ayının 8-də Əməkdar artist fəxri adına, 1998-ci il noyabr ayının 4-də isə Azərbaycan Respublikasının Xalq artsiti fəxri adlarına layiq görülmüşdür.

Sabir Məmməd oğlu Ələsgərov 2020-ci il noyabr ayının 20-də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

"Həyatımı televiziyasız təsəvvür edə bilmirəm" / S.Ələsgərov // Kaspi.– 2010.– 6-8 noyabr.– S. 8.

"Məşədi Əzizbəyova görə töhmət aldım" / A.Əziz // Kaspi.– 2016.– 3 iyun.– S.12.

Azərbaycan Milli Ensiklopediyası / red. hey. sədri İ. H. Əliyev; [cildin müəllifləri M. P. Babayev [və b.]]; red. heyyəti: R. Ə. Mehdiyev (sədrin birinci müavini) [və b.]; baş red. A. A. Əlizadə; məsul katib T. M. Nağıyev.– Bakı: "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, 2018.– S. 320.

Tanınmış diktor Sabir Ələsgərov vəfat edib // Mədəniyyət.– 2020.– 25 noyabr.– S.5.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Sabir_Ələsgərov

Azadə Musayeva – 80

(1946)

Türkoloq-mətnşünas



Ədəbiyyat:

Kitabi-Battal Qazi: / tərt. və ön sözün müəl. A. Rəhimova; red. A. Musayeva; AMEA. M. Füzuli adına Əlyazmalar İn-tu.– Bakı: Nurlan, 2009.– 646 s.

Xarici ölkələrdəki Azərbaycan əlyazma kitabları problemi / A.Musayeva // Elm.– 2010.– 29 dekabr.– S.11.

Şeyx İbrahim Gülşəni Bərdəinin ərəb "Divan"ının dünyada ikinci olan yeni üzə çıxarılmış Bakı əlyazması / A.Musayeva // Elm.– 2012.– 20 noyabr.– S.11.

Bosnalı Kaimi və Çorlulu Zərifi əsərlərinin əlyazmaları naməlum birgə Bakı nüsxəsi / A.Musayeva // Filologiya məsələləri / AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu.– 2014.– №9.– S.126-136.

Mahmud bin Osman Lamei Çələbi və onun "Münşəat-i məkatib" əsəri: Bakı nüsxəsi / A. Ramazanov, T. Əliyeva (transfoneliterasiya ed. nəşrə hazırlayan); elmi məsləhətçi T. Kərimli, P. Kərimov; elmi red. A. Musayeva; [ön söz T. Əliyeva; dizayn. K. İbrahimov].– Bakı: Elm və təhsil, 2019.– 479, [1] s

Azadə Şahbaz qızı Musayeva (Musabəyli) 28 oktyabr 1946-cı ildə Lənkəran şəhərində anadan olmuşdur.

1968-ci ildə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini bitirmişdir. 1974-cü ildən Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutunun Türkdilli əlyazmaların tədqiqi şöbəsində çalışmışdır. 1978-1982-ci illərdə aspiranturada təhsilini davam etdirmiş, 1982-ci ildə "Dədə Ömər Rövşəni və əsərlərinin elmi-tənqidi mətni" mövzusunda dissertasiya müdafiə edərək Şərq xalqları ədəbiyyatı ixtisas indeksi ilə filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

1987-1989-cu illərdə Sankt-Peterburq şəhərində yerləşən Əlyazmalar bölməsində doktoranturada təhsil almışdır. 1994-cü ildə "Əlyazma kitabı və XV-XVI əsrlər Azərbaycan ədəbiyyatının araşdırılmamış problemləri (Tekstoloji-filoloji ədqiqat)" mövzusunda dissertasiya müdafiə edərək Azərbaycan ədəbiyyatı və Türk xalqları ədəbiyyatı ixtisas indeksləri ilə üzrə filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır.

1999-cu ildən Türkdilli əlyazmaların tədqiqi şöbəsinin müdiri olan Azadə Musayeva 2000-ci ildə "Mətnşünaslıq" ixtisası üzrə dosentlik, 2011-ci ildə "Türk xalqları ədəbiyyatı" ixtisası üzrə professor elmi adlarına layiq görülmüşdür. Türkdilli əlyazmalar, türk xalqları ədəbiyyatı, Azərbaycan ədəbiyyatı, mətnşünaslıq alimin tədqiqat sahələridir.

İxtisasca türkoloq-mətnşünas olan A. Musabəyli orta əsrlər Azərbaycan-Türkiyə yazılı abiələrinin paleoqrafik-tekstoloji tədqiqi üzrə səriştəli və yüksək ixtisaslı mütəxəssis sayılır. A.Musayevanın ilkin olaraq tədqiqata cəlb etdiyi Xəlilinin "Firqətnamə"si (1475), Füzulidən sonra Bağdadın yetirdiyi ən böyük türk şairi Ruhi Bağdadinin (-1606) Divanı, Seyyid Yəhya Bakuvinin tələbəsi Dədə Ömər Rövşəninin (-1487) "Külliyyat"ı, Şeyx İbrahim Gülşəni Bərdəinin (1427-1534) türk və ərəb divanları kimi əlyazma abidələrinin hər biri ədəbiyyat tariximiz baxımından mühüm hadisə sayıla bilər.

A.Musayevanın elmi rəhbərliyi, rəsmi opponentliyi ilə neçə-neçə dissertasiya işləri müdafiə olunmuş, tanınmış mütəxəssis kimi universitetlərə dəvət edilərək "Türk xalqları ədəbiyyatı", "Ümumtürk ədəbiyyatı", "Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı", "Azərbaycan mühacirət ədəbiyyatı", "Qədim Türk yazılı abidələri", "Mətnşünaslıq - mətn bilgisi" və s. ixtisas fənlərindən mühazirələr oxumuşdur. Azərbaycanda orta çağlar Türkiyə ədəbiyyatını, Azərbaycan-Türkiyə ədəbi və əlyazma əlaqələrini ilkin qaynaqlar əsasında tədqiq edən yeganə elmlər doktoru sayılan A.Musayeva 200-ə yaxın məqalənin, 20-dən artıq monoqrafik araşdırmanın, dərs vəsaitinin və s. müəllifidir. Bir çox monoqrafiya və klassik əlyazma abidələrinin nəşrlərinə elmi redaktor, rəyçi olmuşdur.

Azadə Musayeva müvafiq Elmi, Dissertasiya və Koordinasiya şuralarının üzvüdür. A.Musayevanın beynəlxalq simpozium, elmi konfrans, ixtisaslaşdırılmış seminar və başqa mühüm elmi yığıncaqlarda etdiyi məruzələr daima maraqla dinlənilmişdir. Tanınmış alimlər A.Musayevanın elmi yaradıcılığı, kitabları haqqında mötəbər toplularda məqalələr dərc etdirmişlər. Haqqında müxtəlif ensiklopediya və məlumat kitablarında bilgilər yer almışdır. 2018-ci il avqust ayının 10-da Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutunun Türkdilli əlyazmaların tədqiqi şöbəsinin müdiri Azadə Musayevanın "Türkdilli əlyazmalar kataloqu" nəşrə hazırlanmışdır. Kataloqda bu elm müəssisəsində saxlanılan Azərbaycan, türk, özbək, türkmən və digər türk dillərində müxtəlif illərdə yazılmış ayrı-ayrı əsərlər haqqında məlumatlar verilmişdir.

Fuad Məmmədov – 80

(1946)

Kulturoloq



Ədəbiyyat:

Kulturologiya, mədəniyyət, sivilizasiya: [ali məktəblər üçün dərs vəsaiti və şəxsiyyətin özünü təkmilləşdirilməsi üçün əldə rəhbər] / F. Məmmədov; elmi red., ideya müəl. və ön söz T. Nağıyev; tərc. və red. Ş. Kəsəmənli.– Bakı: [OL], 2016.– 258, [1] s.

Kulturologiya və insan inkişafı: [dərs vəsaiti: monoqrafiya] / F. Məmmədov; elmi red. N. Cəfərov; tərc.: V. Mehdiyeva, X. Cəfərova; Azərb. Resp. Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Association of Culture of Azerbaijan "Simurg".– Bakı: [OL], 2019.– 343, [1] s.

Nizami Gəncəvinin kulturoloji portreti / F.Məmmədov, R.Məmmədova // Elmi əsərlər / Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti.– 2023.– №33.– S.6-17.

Yüksək mədəniyyətli insan: [Monoqrafiya] / F. Məmmədov; tərc. P. İbrahimova; elmi red., ön söz. müəl. E. Tahirov; red. heyəti.: R. Y. Əliyev [və b.]; dizayner E. Talışxanov.– Bakı: ["OL" MMC], 2025.– 297, [2] s.

Fuad Teyyub oğlu Məmmədov 28 oktyabr 1946-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1969-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti – ADNSU) kimya-texnoloji fakültəsini bitirmişdir.

1974–1990-cı illərdə Azərbaycan Tarix Muzeyinin "Bilik" Cəmiyyətinin sədri, Azərbaycan Elmlər Akademiyasının "Bilik" Cəmiyyətinin sədr müavini vəzifələrində çalışmışdır. O, eyni zamanda "İntellektual İnkişaf Problemləri" Beynəlxalq Elmlər Akademiyasının akademiki (2002), "Avropa–Asiya" Beynəlxalq Humanitar Akademiyasının və Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının akademiki (2004) seçilmişdir.

Fuad Məmmədov 1990-cı ilin aprel ayında yaradılmış ölkədə ilk çoxsahəli qeyri-hökumət təşkilatı olan "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidentidir. O, "Mədəniyyət və cəmiyyət" daimi kulturoloji seminarının elmi rəhbəri, "Simurq" kulturoloji jurnalının (dünya mədəniyyəti və sivilizasiyası problemləri üzrə) yaradıcısı və baş redaktorudur.

Alim "Azərbaycanın ən yeni tarixi" problemi üzrə Elmi Şuranın üzvü seçilmişdir. 1975-ci ildə tarix elmləri üzrə namizədlik, 1985-ci ildə isə Azərbaycanda elm tarixi üzrə ilk doktorluq dissertasiyasını müdafiə etmişdir. 1993-cü ildə beynəlxalq Amerika–Rusiya konfliktologiya məktəbini bitirmişdir.

1990–2009-cu illərdə respublikada və xarici ölkələrdə kulturologiya və idarəetmə mədəniyyəti sahəsində müxtəlif mövzular üzrə 300-dən artıq respublika və beynəlxalq konfranslara, interaktiv seminarlara, treninqlərə, dəyirmi masalara və fokus-qruplara rəhbərlik etmişdir. İnsan, cəmiyyət və dövlətin sosial-mədəni inkişafı problemlərinə həsr olunmuş mövzularda televiziya və radio proqramlarında, eləcə də jurnal və qəzet səhifələrində mütəmadi olaraq kulturoloji-maarifləndirici çıxışlar etmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında respublikada yeganə olan "İdarəetmə mədəniyyəti" adlı innovativ kulturoloji kursun yaradıcısıdır. Fuad Məmmədov elm və mədəniyyətin tarixi və nəzəriyyəsinə, Azərbaycanın sosial-mədəni tərəqqisinə həsr olunmuş, respublikada və xarici ölkələrdə nəşr edilmiş 200-dən artıq elmi əsərin, o cümlədən "Kulturologiya" (2002), "Kulturologiya effektiv həyat fəaliyyətinə aparan yol kimi" (2006) adlı fundamental dərs vəsaitlərinin və bir sıra monoqrafiyaların müəllifidir.

O, ilk dəfə olaraq akademik Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsini kulturologiya elminə, universal kulturoloji təhlil metodunu isə (insan, ailə, cəmiyyət, dövlət və qlobal səviyyələrdə) idarəetmə elminə tətbiq etmişdir. Alimin irəli sürdüyü "mədəniyyətin elmi anlayışı", "yaradıcılıq düsturu", "mədəni inkişafın amilləri", "mədəni insan düsturu", "idarəetmənin və özünüidarəetmənin effektivliyi" kimi nəzəri anlayış və kateqoriyalar humanitar elmlərin inkişafında fundamental əhəmiyyət kəsb edir.

1999-cu ildən etibarən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının professoru vəzifəsində çalışır. O, eyni zamanda Dövlət İdarəçilik Akademiyasının və Bakı Rəssamlıq Akademiyasının Dissertasiya Müdafiə Şuralarının üzvüdür.

1999-cu ildə Avropa Şurasının mədəniyyət siyasəti üzrə ekspertləri siyahısına daxil edilmiş, 2001-ci ildə "Ambassador for Peace" beynəlxalq fəxri diplomu ilə təltif olunmuşdur. Bundan əlavə, Amerikanın Bioqrafik İnstitutunun "Şərəf medalı", Azərbaycan Respublikasının "Humay" (2002), "İntellekt" (2006), "Qızıl Qələm" milli ictimai mükafatları, "Simurq" Beynəlxalq medalı (2006), "Sülh səfiri" və "Mədəniyyət səfiri" milli ictimai fəxri adları və digər mükafatlara layiq görülmüşdür.

2021-ci ildə Sumqayıt Regional Mədəniyyət İdarəsi tərəfindən 75 illik yubileyi münasibətilə Fəxri fərmanla təltif olunmuşdur.

2023-cü il yanvar ayının 9-da UNESCO-nun 75 illiyinə həsr olunmuş "Mədəniyyət dünyanı xilas edəcək!" kulturoloji monoqrafiyası ilk dəfə ərəb dilində Suriyanın Dəməşq şəhərində nəşr olunmuşdur.

2025-ci ildə UNESCO-nun Sülh Mədəniyyəti İnstitutunun fəxri prezidenti adına layiq görülüb. Bu mükafat onun mədəniyyətşünaslıq və humanitar sahədəki fundamental elmi töhfələrinin beynəlxalq səviyyədə tanınması kimi qiymətləndirilir.

Məhəmməd Mehdiyev – 85

(1941)

Akademik



Məhəmməd Fərman oğlu Mehdiyev 2 oktyabr 1941-ci ildə Laçın rayonunun Təzəkənd kəndində anadan olmuşdur. 1951-1961-ci illərdə Laçın rayonunun Ərdəşəvi kənd tam orta məktəbində təhsil almışdır. 1966-cı ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) mexanika-riyaziyyat fakültəsini bitirmiş və Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun aspiranturasına göndərilmişdir. 1970-ci ildə Riyaziyyat və Mexanika institutunda kiçik elmi işçi vəzifəsinə təyin edilmişdir.

1976-cı ildə baş elmi işçi vəzifəsinə seçilmişdir. 1978-ci ildə "Nazik divarlı konstruksiyalar" şöbəsinə rəhbər təyin edilmişdir. 1985–1991-ci illərdə Riyaziyyat və Mexanika institutunnun XKB direktorunun elmi işlər üzrə müavini vəzifəsində çalışmışdır. 1991–2002-ci illərdə Bakı Dövlət Universitetinin "Tətbiqi riyaziyyat" kafedrasinda professor vəzifəsini icra emişdir. 1981–1985-ci illərdə "Örtük və lövhələrin statistikası, rəqsi, dayanıqlığı" ümumittifaq elmi-tədqiqat proqramının rəhbərlərindən biri olmuşdur.

13 elmlər namizədi, 1 elmlər doktoru onun rəhbərliyi altında hazırlanmışdır.

Hazırda 6 aspirant və dissertanta rəhbərlik edir və iki tələbəsi doktorluq dissertasiyasını tamamlamaq üzrədir. Xaricdə və respublikada 80 əsərin, eyni zamanda, keçmiş Sovet Sosialist Respublikaları İttifaqının qapalı mətbuatında çap olunmuş bir çox əsərlərin müəllifidir.

1975-ci ildə Rostov Dövlət Universitetinin elmi şurasında namizədlik dissertasiyasını müdafiə etmişdir. 1989-cu ildə Leninqrad Dövlət Universitetində doktorluq dissertasiyasını müdafiə etmiş və fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsini almışdır. 1994-cü ildə professor elmi adını almışdır. Bakı Dövlət Universitetinin "Təbiqi analizin riyazi üsulları" kafedrasının müdiri, "Tətbiqi riyaziyyat və kibernetika" fakültəsinin dekanıdır. Bakı Dövlət Universitetinin Böyuk Elmi Şurasının üzvüdür.

Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən № 02.016 dissertasiya şurasının sədridir. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasına mexanika ixtisası üzrə müxbir üzv seçilmişdir. 2002-ci ildə "Təbiqi analizin riyazi üsulları" kafedrasının müdiri vəzifəsinə seçilmişdir.

Məhəmməd Fərman oğlu Mehdiyev 2009-cu il 30 oktyabr tarixində Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat:

Azərbaycanlı alim Avropa Birliyinin nüfuzlu mükafatını almışdır // Elm.– 2013.– 19 iyul.– S. 6.

Ustad müəllim və tədqiqatçı / M.Mehdiyev // 525-ci qəzet.– 2016.– 15 sentyabr.– S.4.

Şərəfli ömür yolu / M.Mehdiyev,T.Məmmədov // Respublika.–2021.– 2 may.– S.7.

Məhəmməd Fərman oğlu Mehdiyev: Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor, Əməkdar elm xadimi / tərt. ed. T. Həsənova; elmi red. M. Mərdanov.– Bakı: [Füyuzat], 2022.– 150, [2] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Məhəmməd_Mehdiyev

Misir Mərdanov – 80

(1946)

Alim



Ədəbiyyat:

Təhsilimizin himayədarı / M. Mərdanov // Azərbaycan müəllimi.– 2023.– 10 may.– S.10.

Heydər Əliyev: Xalqa həsr olunmuş ömür /M.Mərdanov [son söz]; elmi red. F. Şiriyev; naşir T.Axundov ; [dizayner Ə. Sadıqzadə ; üz qabığı T.Mehdiyev].- Bakı: Təhsil, 2023.- 397, [3] s.:

Çoxşaxəli siyasətin uğurları / M.Mərdanov // Xalq qəzeti.– 2024.– 14 mart, № 57.– S.4.

Zəfərə aparan yol /M.Mərdanov ; elmi red. F. Şiriyev ; [naşir T. Axundov.- [Bakı]: [Təhsil], [2024].- 287, [1] s.:

Bakı Dövlət Universiteti /M.Mərdanov; elmi red. F. Rüstəmov; naşir T. Axundov.- Bakı: Təhsil, 2024.- 670, [2] s.

Diplomatiya ustadı / M.C.Mərdanov // 525-ci qəzet.– 2025.– 14 iyun(№ 102).– S.8-9.

1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar : (Ensiklopedik soraq kitabı) /M.Mərdanov, Ə.Tahirzadə; elmi red. Y.Mahmudov; naşir T.Axundov.- Cild-9 V-Z.- Bakı: Təhsil, 2025.- 639, [1] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Misir_Mərdanov

Misir Cumayıl oğlu Mərdanov 3 oktyabr 1946-cı ildə Ermənistan SSR İcevan rayonunun Göyərçin kəndində anadan olmuşdur. 1964-cü ildə orta məktəbi bitirib, ADU-nun (indiki BDU) mexanika riyaziyyat fakültəsinə daxil olmuşdur. 1969-cu ildə universiteti fərqlənmə diplomu ilə bitirmiş, təyinatla Gəncə Pedaqoji İnstitutuna göndərilmiş, riyaziyyat fakültəsində baş laborant kimi əmək fəaliyyətinə başlamışdır.

1978-ci ildə ADU-nun mexanika-riyaziyyat fakültəsində dekan müavini vəzifəsinə təyin olunmuşdur. 1985-1986-ci illərdə ADU-nun qəbul komissiyasının məsul katibi vəzifəsində çalışmışdır. Azərbaycan Respublikası Təhsili Nazirliyində Ali Təhsil İdarəsinin rəisi (1988-1990), Azərbaycan Respublikası Təhsil nazirinin müavini (1991-1992), BDU-nun tədris işləri üzrə prorektoru (1992-1996), BDU-nun rektoru (1997-1998) məsul vəzifələrdə çalışmışdır. 1998-2013-cü illərdə Azərbaycan Respublikasının Təhsil naziri olmuşdur. 2013-2025-ci illərdə AMEA Riyaziyyat və Mexanika İnstitutunun direktor olmuşdur.

Misir Mərdanov Azərbaycanda təhsilin tarixinnə, təhsil siyasətinin əsas istiqamətlərinə dair sanbalı əsərlərin, "Azərbaycan riyaziyyatçıları" adlı fundamental monoqrafiyanın, ali məktəblər üçün "Ali riyaziyyat" dərsliyinin, "Azərbaycanın təhsil siyasəti", "Azərbaycan təhsili müstəqillik illərində" kitabların müəllifidir.

1973-cü ildə namizədlik dissertasiyası müdafiə etmiş, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır. 1981-ci ildə SSRİ Nazirlər Soveti yanında Ali Attestasiya komissiyasının qərarı ilə dosent elmi rütbəsini almışdır. 1989-cu ildə Ukrayna EA-nın riyaziyyat institutunun müdafiə şurasında doktorluq dissertasiyasını müdafiə edərək, fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsini almışdır.

Misir Mərdanov ümummilli lider Heydər Əliyevin Sərəncamı ilə 1998-ci ildə yaradılan "Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası"nın sədri kimi, Azərbaycan təhsil tarixində ilk dəfə olaraq "Azərbaycan Respublikasının təhsili sahəsində islahat proqramı"nın hazırlanmasına bilavasitə rəhbərlik etmiş, onun rəhbərliyi altında "Milli Kurikulum-Milli Təhsil Konsepsiyası" sənədi hazırlanmışdır.

Misir Mərdanov 1996-cı ildən Azərbaycan Riyaziyyat Cəmiyyətinin vitse-prezidenti, 2011-2014-cü illərdə Türk dünyası Riyaziyyat Cəmiyyətinin prezidenti, 2014-cü ildən fəxri prezidentidir. AMEA Riyaziyyat və Mexanika İnstitutunun Əsərləri jurnalının baş redaktoru, eyni zamanda "Azerbaijan journal of Mathematics" jurnalının redaksiya heyətinin və Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvü, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədridir. 2017-ci ildə prof. Misir Mərdanov AMEA-nın müxbir üzvü seçilmişdir.

Misir Cumayıl oğlu Mərdanov Azərbaycan təhsilinin inkişafındakı xidmətlərinə görə 2000-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 2006-cı ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. 2011-ci ildə Dağıstan Respublikasının Prezidenti Maqomedsalam Maqomedovun Sərəncamına əsasən Dağıstan və Azərbaycan respublikaları arasında elmi əməkdaşlığın inkişafına verdiyi böyük töhfələrə görə Dağıstan Respublikasının "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Elm və təhsil sahəsində göstərdiyi xidmətlərə əsasən 2021-ci ildə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

2021-ci il oktyabr ayının 3-də Azərbaycan Milli Kitabxanasında Riyaziyyat və Mexanika İnstitutunun direktoru, "Əməkdar elm xadimi", "Şöhrət" ordenli, professor Misir Mərdanovun anadan olmasının 75 illiyi münasibətilə "Misir Mərdanov – 75" adlı sərgi virtual rejimdə istifadəçilərə təqdim olunmuşdur.

2025-ci ilin noyabrında AMEA-nın 80 illik yubileyi çərçivəsində Misir Mərdanov "Lev Landau" döş nişanı ilə təltif olunmuşdur.

Niftalı Qocayev – 90

(1936)

Alim



Ədəbiyyat:

Niftalı Mehrəli oğlu Qocayev: biblioqrafiya / tərt. İ.N.Əliyeva; red. H.Orucov; dizayn S.Kazımov.– Bakı: [Qafqaz Universiteti], 2006.– 73, [1] s.

Klassik mexanika: [ali məktəblər üçün dərslik] / Ə.Q.Ağamalıyev; rəyçilər S.A.Hacıyev, N.M.Qocayev; Azərb. Resp. Təhsil Nazirliyi, BDU.– Bakı: Bakı Universiteti, 2009.– 271, [1] s.

Niftalı Mehrəli oğlu Qocayev [Elektron resurs]: biblioqrafiya / tərt. İ. N. Əliyeva; red. H.Orucov; dizayn S.Kazımov.– Bakı: [Qafqaz Universiteti], 2011.– 112 s.

Ümumi fizika kursu: dərslik / N.Qocayev [ön söz]; elmi red. A.Mahmudov; dizayn S.Kazımov.– Bakı: [Qafqaz Universiteti], [Ləman NP], 2019.– 431, [1] s.

Qaraqoyunlu dərəsinin ilk tələbəsi, ilk alimi... / F.Şiriyev // Azərbaycan müəllimi.– 2021.– 15 oktyabr.– S.14.

Ümumi fizika kursu: (Dərs vəsaiti) / V. İ. Nəsirov [ön söz. müəl.], R.Bayramlı [ön söz. müəl.]; elmi red. N. Qocayev.– Bakı: [n.y.], 2022.– 430, [1] s.

Niftalı Mehralı oğlu Qocayev 18 oktyabr 1936-cı ildə Qərbi Azərbaycanın Dilican rayonunun Göyərçin kəndində anadan olmuşdur. 1953-1958-ci illərdə ADU-nun (indiki BDU) fizika fakültəsinə təhsil almışdır. Molekulyar fizika kafedrasında saxlanılmış, bir il işlədikdən sonra SSRİ EA-nın Sank-Peterburq şəhərində yerləşən Yüksək Molekullu Birləşmələr İnstitutunun aspiranturasına daxil olmuş, akademik M.V.Volkenşteynin elmi rəhbərliyi altında molekulyar fizika ixtisası üzrə elmi fəaliyyətini davam etdirmişdir.

1963-cü ildə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək ilk azərbaycanlı biofizik alim olaraq məzun olduğu Azərbaycan Dövlət Universitetinin "Molekulyar fizika" kafedrasında elmi-pedaqoji fəaliyyətə başlamışdır. Professor N.M.Qocayev 1967-1969-cu illərdə İttifaq Universitetləri Müəllimlərinin İxtisaslarını Artırma fakültəsinin dekanı, 1969-1984-cü illərdə Optika və Molekulyar fizika kafedrasının müdiri işləmişdir. Onun ADU-da 1959-cu ildən başlayaraq davam edən uzunmüddətli və məhsuldar elmi-pedaqoji fəaliyyəti nəticəsində 1980-ci ildə SSRİ Ali Təhsil Nazirliyinin tövsiyəsinə əsasən SSRİ Nazirlər Soveti yanında Elm və Təhsil Komitəsinin xüsusi qərarı ilə Molekulyar Biofizika Elmi-Tədqiqat Problemlər Laboratoriyası açılmışdır. Yaradıldığı gündən 2005-ci ilədək laboratoriyanın müdiri, 2005-ci ildən BDU nəzdindəki Fizika Problemləri İnstitutunun Nəzəri fizika şöbəsinin müdiridir.

N.Qocayev Azərbaycan SSR Ali Təhsil Nazirliyi nəzdində fəaliyyət göstərən Elmi-Metodik Şuranın Fizika və astronomiya seksiyasının sədri (1980-1984), Azərbaycan Respublikası "Elm" cəmiyyətinin Fizika seksiyasının üzvü (1967-1994), Azərbaycan Qaçqınlar Cəmiyyətinin sədri (1989-1993) vəzifəsində işləmişdir. Onun təşəbbüsü ilə 1997-ci ildə yaradılmış Azərbaycan Biofizika Cəmiyyəti özünün ilk konfransında onu Cəmiyyətin prezidenti seçilmişdir. Niftalı Qocayev Türkiyədə-Ərzurum Atatürk və İstanbul Universitetlərində professor vəzifəsində çalışaraq yüksək səviyyədə elmi pedaqoji-fəaliyyət göstərmişdir. 2001-ci ildən Qafqaz Universitetində Elmi işlər üzrə prorektor vəzifəsində işləmiş, Qafqaz Universitetinin Elmi şurasının üzvü, "Journal of Qafqaz University" dərgisinin baş redaktoru olmuşdur. 400-dən çox məqalənin, 16 monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifi olan N.Qocayev beynəlxalq simpozium və konfranslarda 52 məruzə (onlardan 12si Plenar məruzələrdir) ilə çıxış etmişdir. " dərgisinin baş redaktoru olmuşdur.

Onun elmi rəhbərliyi ilə 30 elmlər doktoru və elmlər namizədi müdafiə etmişdir. Əsasən Amerika və Avropada nəşr olunan mötəbər elmi jurnallarda (İnt.J. Peptide and Protein Res., J. Mol. Struct., Protein and Peptide Letters, v.s.) nəşr olunan və Beynəlxalq Konfranslarda məruzə olunan 376 elmi əsərin, müxtəlif ölkələrdə nəşr olunmuş 15 dərslik, dərs vəsaiti və monoqrafiyanın müəllifidir. "American Biographical institute" tərəfindən 2 dəfə "American Medal of Honor" medalı ilə mükafatlandırılmışdır. N.M.Qocayev keçmiş SSRİ universitetləri üçün fizika üzrə dərslik (Оптика, Москва, Из-во Высшая Школа, 1977, стр.432. Internet ünvanı:vfo, v ml) yazmış yeganə azərbaycanlıdır. Onun dəfələrlə yenidən nəşr olunmuş çoxcildli "Ümumi fizika kursu" həmçinin Türkiyədə nəşr olunmuş "Temel Moleküler Fizik", "Optik", 2 cilddən ibarət "Molekülün Yapısı ve özellikler" dərslikləri mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir, tələbələr tərəfindən geniş istifadə olunur.

2011-ci il dekabr ayının 23-də Qafqaz Universiteti Elmi Şurasının qərarı ilə tanınmış alim, fizika-riyaziyyat elmləri doktoru, professor N.Qocayevin anadan olmasının 75 illiyi münasibətilə "Professor Niftalı Qocayev-75" adlı biblioqrafiya nəşr edilmişdir.

Niftalı Qocayev 1977 və 1980-ci illərdə "Sosializm Yarışı Qalibi" döş nişanları, iki dəfə Amerikanın Şərəf Qızıl Medalına layiq görülüb. 2016-cı ildə "Əməkdar müəllim" fəxri adı, 2019-cu ildə "BDU-nun 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı və Azərbaycan Respublikasının Prezidentinin Sərəncamına əsasən 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunmuşdur.

Tamerlan Əliyev – 105

(1921-1997)

Alim



Ədəbiyyat:

Respublika Dövlət mükafatı laureatı, əməkdar elm xadimi, professor Tamerlan Əziz oğlu Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-konfransın materialları: / Azərbaycan Tibb Universiteti; Elmi red. Ə. T. Əmiraslanov; Burax. məsul: T. T. Əliyeva, Ş. H. Baxşıyev.– Bakı: RENESSANS, 2001.– 263 s.

Ziyalılıq nümunəsi: Tamerlan Əliyev-95 / R.Məmmədhəsənov // Azərbaycan.– 2016.– 2 oktyabr.– S.6.

Tamerlan zirvəsi: Unudulmazlar / X.Muradlı // Azərbaycan.– 2019.– 3 iyul.– S.5.

Professor Tamerlan Əliyevin ölkəmiz üçün tibb sahəsində yüksəkixtisaslı elmi kadrların hazırlanmasında xidmətləri əvəzsizdir // Azərbaycan.– 2020.– 4 oktyabr.– S.12.

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında Əməkdar elm xadimi Tamerlan Əliyevin barelyefi açılıb // Azərbaycan.– 2021.– 6 oktyabr.– S.11.

Tamerlan Əliyevin keçdiyi şərəfli ömür yolu hər bir alim, həkim və pedaqoq üçün müdriklik məktəbidir [Mətn]: Bakıda professor Tamerlan Əliyevin 100 illik yubileyinə həsr olunmuş elmi-praktik konqres işə başlayıb //Azərbaycan .-2021.- 7 oktyabr.- S.5.

Tamerlan Əziz oğlu Əliyev 3 oktyabr 1921-ci ildə Naxçıvan MSSR-in Şərur rayon Şaxtaxtı kəndində, görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində anadan olmuşdur. 1923-cü ildə ailəsi ilə birgə Bakıya köçən T.Əliyev ilk təhsilini Bakıdakı 3 saylı ibtidai məktəbdə almış, sonra isə Bakının Oktyabr rayonundakı (indiki Yasamal rayonu) 176 saylı orta ümumtəhsil məktəbini bitirmişdir. Orta təhsilini əla qiymətlərlə başa vurduğu üçün o dövrün qaydalarına uyğun olaraq qəbul imtahanlarından azad edilmişdir. Elə həmin ildə Azərbaycan Tibb İnstitutunun (indiki ADTU) müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. İkinci Dünya müharibəsi ilə əlaqədar olaraq ATİ-da təhsil müddəti 4 ilə qədər azaldığına görə Tamerlan Əliyev 1944-cü ildə institutu bitirmiş, əmək fəaliyyətinə başlamışdır.

Bir müddət Elmi-Tədqiqat Epidemiologiya və Mikrobiologiya İnstitutunda və Tibb İnstitutunun mikrobiologiya kafedrasında çalışmış, 1945-ci ildən isə əmək fəaliyyətini ADTİ-nin fakültə terapiyası kafedrası (indiki ATİ-nin daxili xəstəliklər kafedrası) ilə bağlamışdır. O, əvvəl adı çəkilən kafedrada ordinator, 1948-1963-cü illərdə kafedranın assistenti, 1963-1969-cu illərdə kafedranın dosenti olmuş, 1970-ci ildə kafedranın professoru vəzifəsinə seçilmiş və 1970- 1990-cı illər ərzində kafedra müdiri vəzifəsində işləmişdir. 1990-cı ildən ömrünün sonuna kimi o, həmin kafedranın professoru vəzifəsində çalışmışdır. 1954-cü ildə "Heyvan orqanizminin immun reaktivliyinin Naftalan neftinin təsiri altında dəyişməsinin xarakteristikası" mövzusu üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. 1969-cu ildə isə "Şəkərli diabetin müxtəlif formaları olan xəstələrdə, periferik damarların vəziyyəti: metabolizmin və qanın laxtalanmasının bəzi göstəriciləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

Bütün ömrünü tibb elminin inkişafına sərf edən görkəmli alim endokrinologiya, diaqnostika və s. sahələrdə 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiya və dərsliklərin müəllifi olmuşdur. T.Əliyevin müəllifi olduğu "Klinik diaqnostik laborator tədqiqat üsulları" (1974), "Şəkərli diabet haqqında ətraflı məlumat" (1977), "Biokimyəvi tədqiqat üsulları" (1979), "Şəkərli diabet" (1979), "Prediabet" (1982), "Şəkərli diabet zamanı qan dövranı pozulmaları və onların tənzimi" (1985), "Endokrinologiya" (1993) və s. bu kimi əsərlər indi də öz aktuallığını saxlayır. Azərbaycan Endokrinoloqlar Cəmiyyətinin sədri olan T.Əliyev SSRİ-də Ümumittifaq Endokrinoloqlar, Kardioloqlar və Nefroloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü seçilmişdir.

Görkəmli alim, professor T.Əliyevə Azərbaycanda tibb elminin inkişafında göstərdiyi xidmətlərinə görə 1981-ci ildə Azərbaycan Respublikasının "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Həmçinin, müxtəlif illərdə zəmanəsinin əsas dövlət mükafatları olan "Şərəf Nişanı" (1977) və "Oktyabr İnqilabı" (1986) ordenləri ilə təltif edilmiş, "Səhiyyə əlaçısı" (1981) adını almışdır.

Tamerlan Əziz oğlu Əliyev 1997-ci ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

2021-ci il oktyabr ayının 3-də Azərbaycan Milli Kitabxanasında Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor Tamerlan Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə "Tamerlan Əliyev – 100" adlı sərgi virtual rejimdə istifadəçilərə təqdim olunmuşdur.

Əhəd Canəhmədov – 80

(1946)

Alim



Əhəd Xanəhməd oğlu Canəhmədov 23 oktyabr 1946-cı ildə Azərbaycan Respublikasının Xızı rayonunun Baxşılı kəndində anadan olmuşdur. 1969-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) neft-mexanika fakültəsini bitirmişdir. Hazırda Azərbaycan Milli Aviasiya Akademiyasında Nəqliyyat mexanikası kafedrasının müdiridir. O, Azərbaycan Mühəndislik Akademiyasının həqiqi üzvü və Baş elmi katibi seçilmiş, 2011-ci ildən etibarən Akademiyanın vitse-prezidenti vəzifəsində fəaliyyət göstərir. 1975–1976-cı illərdə Böyük Britaniyada elmi staj keçmiş, bu sahədə ilk sovet vətəndaşı və azərbaycanlı olmuşdur.

Ölkəmizin tarixində ilk dəfə olaraq "Metalpolimer sürtünmə cütlərinin üst qatlarında kontakt-impuls qarşılıqlı təsiri nəticəsində yeyilmə və friksion xarakteristikalarının dəyişmə qanunauyğunluqları" (Diplom № 462, 2013-cü il) və "Metalpolimer cütlərin işçi qatlarında elektrotermomexaniki sürtünmə prosesinin qanunauyğunluqlarının reallaşdırılması" (Diplom № 476, 2014-cü il) adlı elmi kəşflərin müəllifidir.

O, 350-dən artıq elmi əsərin, o cümlədən 60 monoqrafiya və kitabın, dərslik və dərs vəsaitlərinin, həmçinin 30-dan çox patentin müəllifidir. Alimin elmi əsərləri təkcə MDB ölkələrində deyil, eyni zamanda bir çox xarici ölkələrdə də geniş tanınır.1973-cü ildə namizədlik, 1989-cu ildə isə İ.M. Qubkin adına Moskva Neft və Qaz İnstitutunda doktorluq dissertasiyalarını müdafiə etmiş, 1991-ci ildə professor elmi rütbəsinə təsdiq olunmuşdur. O, tribologiya elmi sahəsində Azərbaycanın ilk elmlər doktorudur.

Beynəlxalq Mühəndislik Akademiyasının müxbir üzvü, sonradan akademiki, Gürcüstan Milli Elmlər Akademiyasının akademiki, Ukrayna Mühəndislik Akademiyasının və RTEA-nın həqiqi üzvü seçilmişdir.

Rusiya Mühəndislik Akademiyasının akademikidir və adı "Rusiya Mühəndislik Akademiyası" Ensiklopediyasına salınmışdır. Beynəlxalq "Sürtünmə və yeyilmə", "Neft-qaz kompleksləri üçün avadanlıqlar və texnologiyalar", "Sürtünmə və yeyilmə problemləri", eləcə də American Association for Science and Technology (AACIT) (ABŞ) elmi jurnallarının redaksiya kollegiyasının üzvüdür.

1998-ci ildə İngiltərənin Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən əvvəlcə gümüş, sonra isə qızıl medalla təltif edilmiş və "XX əsrin görkəmli elm adamı" fəxri adına layiq görülmüşdür. 2000-ci ildə isə Amerika Bioqrafiya İnstitutu tərəfindən elmdə xidmətlərinə görə qızıl medalla və "Beynəlxalq səfir" ordeni ilə təltif olunmuşdur.

2006-cı ildə mühəndislik elminin inkişafındakı xidmətlərinə görə Mühəndislik Akademiyasının qızıl medalına, 2011-ci ildə isə "Mühəndislik şöhrəti" ordeninə layiq görülmüşdür. O, həmçinin Beynəlxalq Mühəndislik Akademiyasının "Böyük qızıl medalı", Ukrayna Mühəndislik Akademiyasının Podqornı adına qızıl medalı, Qazaxıstan Respublikası Mühəndislik Akademiyasının "Mühəndislik şöhrəti" qızıl medalı, Azərbaycan Mühəndislik Akademiyasının "Mühəndislik rəşadəti" qızıl medalı ilə təltif edilmişdir.

2014-cü ildə Rusiya Təbiət Elmləri Akademiyası tərəfindən tribologiya sahəsindəki elmi kəşfinə görə Nobel mükafatı laureatı P.L. Kapitsa adına qızıl medala layiq görülmüşdür. 2016-cı ildə "Beynəlxalq Mühəndislik Akademiyasının Fəxri Qızıl Nişanı" fərqlənmə nişanı və diplomu ilə təltif olunmuşdur. 2018-ci ildə Rusiya Mühəndislik Akademiyası tərəfindən "Elm və incəsənət cəngavəri" fəxri adı və ordeni, həmçinin Rusiyanın "Əməkdar mühəndisi" fəxri adı verilmişdir. 2019-cu ildə isə Rusiya Təbiət Elmləri Akademiyasının "Akademiyanın ulduzu" I dərəcəli qızıl nişanı ilə təltif edilmişdir.

Əhəd Canəhmədov Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən "Ən yaxşı elmi iş" müsabiqəsində texniki elmlər üzrə laureat olmuşdur. O, NASA-nın (ABŞ) qrantına sahibdir və ixtiraçılıq sahəsində respublika müsabiqəsinin laureatıdır.

2019-cu il martın 12-də professor Əhəd Canəhmədovun "Mühəndisliyin fəlsəfəsi" adlı traktatı çapdan çıxmışdır. 2023-cü il mayın 23-də isə akademik Əhəd Canəhmədovun "Kainatı izah edərkən: Mühəndislik fəlsəfəsi" adlı kitabı nəşr olunmuşdur.

2016-cı il dekabrın 24-də Azərbaycan Milli Kitabxanasında Əhəd Canəhmədovun "Həqiqətin fəlsəfəsi" adlı kitabının təqdimatı keçirilmişdir. 2024-cü il oktyabrın 11-də onun "Mühəndislik düşüncələrinin inkişaf mərhələləri" adlı kitabı çap olunmuşdur.

2025-ci il martın 18-də akademik Əhəd Canəhmədovun "Mühəndislik təfəkküründün təkamülü" adlı kitabı nəşr edilmişdir. 2025-ci il oktyabrın 14-də isə akademik Əhəd Canəhmədovun "Kainat haqqında düşüncələr" əsəri Türkiyədə işıq üzü görmüşdür.

X Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində oktyabrın 2-də Azərbaycan Mühəndislik Akademiyasının vitse-prezidenti, Azərbaycan Milli Aviasiya Akademiyasının kafedra müdiri, akademik Əhəd Canəhmədovun "Kainat haqqında düşüncələr" traktatının təqdimatı keçirilmişdir. 2025-ci il oktyabrın 3-də isə XI Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində akademik Əhəd Canəhmədovun "Mühəndislik təfəkküründün təkamülü" adlı kitabının təqdimatı baş tutmuşd

2023-cü ilin yanvarında mühəndislik işinin inkişafındakı xidmətlərinə görə "STAR OF GLORY" ("Şöhrət Ulduzu") ordeni və akademik Boris Qusev adına Beynəlxalq mükafata layiq görülmüşdür, Qızıl ulduz" medalı ilə təltif olunmuşdur.

Ədəbiyyat:

Professor Əhəd Canəhmədovun "Mühəndislik fəlsəfəsi" traktatının yenilənmiş nəşri çapdan çıxıb // Xalq qəzeti.–2020.– 24 yanvar.– S.8.

Tətbiqi mexanika: (Qısa kurs): [Dərs vəsaiti] / Ə. X. Canəhmədov (ümumi red.), Ə. S. Səmədov, N. C. Pənahova.– Bakı: Apostrof-A, 2022.– 167, [1] s.

Akademik Əhəd Canəhmədovun "Kainatı izah edərkən: Mühəndislik fəlsəfəsi" kitabı çapdan çıxıb // Azərbaycan.– 2023.– 24 may.– S. 12.

"Mühəndislik düşüncələrinin inkişaf mərhələləri": Yeni nəşr // Azərbaycan.– 2024.– 12 oktyabr (№ 224).– S.12.

Akademik Əhəd Canəhmədov Londonda qabaqcıl materialşünaslığa həsr olunmuş konqresdə çıxış edib // Azərbaycan.– 2025.– 4 aprel (№64).– S.8.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Əhəd_Canəhmədov

İsmayıl İsmayılov – 80

(1946)

Alim



İsmayıl Mahmud oğlu İsmayılov 25 oktyabr 1946-cı ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "İstehsalat proseslərinin avtomatlaşdırılması" fakültəsində ali təhsil almışdır. MAA-nın Aerokosmik İnformasiya sistemləri kafedrasının müdiridir. Uçuş informasiyasının çevrilməsi və emalına tətbiqlə siqnalların diskretləşməsi və diskretləşdirmədən sonra bərpası metodlarının analizi əsasında zamanda və fəzada dəyişən parametrlərin optimal diskretləşmə tezliyinin qiymətləndirilməsi və seçilməsi metodikası təklif edilmişdir. Ölçü siqnalının geniş zolaqlı olması və xətaların mövcudluğu, həmçinin diskretləşdirmə və müşahidə intervallarının məhdudluğu şəraitində rəqəmsal dinamik ölçmələrin dəqiqliyinin yüksəldilməsi və informasiyanın qeyri-müəyyənliyində naviqasiya ölçmələri nəticələrinin qiymətləndirilməsi metodu təklif edilmişdir.

İnsan-maşın konseptual modeli əsasında "Ekipaj-Hava gəmisi" altsistemində ölçmə məlumatı ilə mübadilənin informasiya sisteminin yaradılmasının yeni kosepsiyalarını irəli sürülmüş, erqodik inteqrallaşdırılmış naviqasiya kompleksinin çoxsəviyyəli informasiya sisteminin strukturu yaradılmışdır. Oracle VBİS-dən istifadə etməklə aviasiya və aeronaviqasiya informasiyalarının qorunması və onlarla işləmək üçün maksimal mühafizə infrastrukturunun konseptual sxemi yaradılmış və onun proqram təminatı işlənilmişdir. 118 çapdan çıxmış elmi əsərləri, xaricdə çıxmış 28 elmi əsərləri, 10 beynəlxalq bazalarda referatlaşdırılan və indeksləşdirilən jurnallarda çap olunan məqalələri, 3 fəlsəfə doktorları olmuşdur.

MAA-nın Elmi Şurasının üzvü, MAA-nın Aerokosmik fakültəsinin Elmi Şurasının üzvü, MAA nəzdində fəaliyyət göstərən D06.001-Dissertasiya Şurasının üzvü, AMEA-nın İnformasiya texnologiyaları İnstitutu nəzdindəki müdafiə Şurasının elmi seminarının üzvü, AMEA-nın Respublika Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Texnika Problemləri üzrə Elmi Şurasının üzvü, Azərbaycan Respublikası Kosmik məsələlər üzrə Şuranın Elmi katibidir.

İsmayıl Mahmud oğlu İsmayılov 2018-ci il may ayının 31-də Azərbaycan mülki aviasiyasının 80 illiyi ilə əlaqədar olaraq, aviasiya sahəsində səmərəli fəaliyyətinə görə, Azərbaycan Respublikasının "Əməkdar müəllimi" fəxri adı və 2022-ci il yanvar ayının 12-də Rəyasət Heyətinin binasında AMEA-nın Fəxri Fərmanı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Пашаев А. М., Исмаилов И. М. Интеллектуальные измерительно – вычислительные комплексы аэрокосмического применения" MAA Elmi məcmuələri ".– Bakı, 2009.– Cild 11, № 3.

Исмаилов И. М., Годжаева Н. В. Повышение эффективности информационного обеспечения пилотажно-навигационного комплекса. Труды международной научно-технической конференции "АВИА-2011".– Киев, 2011г.– стр.113–117

Пашаев А. М., Исмаилов И. М. Преобразование и обработка информации в авиационных измерительно-вычислительных комплексах. Монография.– Баку, 2012.– 252 стр.

Ismailov I. M., Godjayev A. E. Data-Protection in aviation system.– "Elmiməcmuələr", MAA, 2013, cild 15, № 4, səh. 51-55.

Ismailov I. M., Godjayev A. E. Using Oracle Data-Base Vault / Greatin and Testing Realms Part II. International Conference, USA, San-Fransisco. OTECH MAGAZINE # 5, Winter 2014, page 14–19.

İnternetdə:

https://science.gov.az/az/forms/chlenyikorrespondentyi/3081

Əliheydər Qəhrəmanov – 115

(1911-1959)

Biblioqraf



Ədəbiyyat:

Azərbaycan ədəbiyyatı biblioqrafiyası / Əliheydər Qəhrəmanov; red. Ə.Musayev; Azərb.SSR Mədəniyyət Nazirliyi, M.F.Axundov ad. Azərb. Resp. Ümumi Kitabx., Azərb. Dövlət Kitab Palatası.– Bakı, 1954.– 96 s

Yaşasaydı...: Görkəmli alim Əliheydər Qəhrəmanovun dünyaya gəlməsindən 100 il ötür / N.Hicran // Təzadlar.– 2011.– 15 sentyabr.– S. 7.

Görkəmli biblioqraf-alim Ə.Qəhrəmanov-100: Unudulmaz ziyalılarımız / N.İsmayılov, X.Ağayeva // Kitabxanaşünaslıq və İnformasiya: Elmi-nəzəri praktiki jurnal.– 2012.– № 2.– S.129-143.

Xalqa fədakar xidmətdə keçən ömür / S.Fərəcov // Mədəniyyət.– 2013.– 26 iyul.– S. 15.

Qəhrəmanov Əliheydər Bala oğlu // Azərbaycan kitabxana ensiklopediyası / Azərb. Resp. Mədəniyyət və Turizm Naz., Azərb. Milli Kitabxanası; layih. rəhb. Ə.Qarayev; baş red. K.Tahirov; elmi red. A.Xələfov.– Bakı, 2015.– S. 386-387.

Arzular ömrün vəfası qədərdir... / S.Fərəcov // Mədəniyyət.– 2021.– 4 iyun.– S.6.

Əliheydər Baba oğlu Qəhrəmanov 1911-ci il oktyabr ayının 25-də Bakının Biləcəri kəndində anadan olmuşdur. 1925-ci ildə 50 saylı məktəbi bitirdikdən sonra Bakı Xalq Maarif Şöbəsinin Pedaqoji Texnikumuna daxil olmuş, 1929-cu ildə təhsilini başa vurmuşdur. Texnikumda təhsil aldığı illərdən A.Səhhət adına Kitabxanada kitabxanaçı vəzifəsində çalışmış, 1933-1940-cı illərdə həmin kitabxananın direktoru olmuşdur. Azərbaycan ədəbiyyatına xüsusi həvəs göstərən Ə.Qəhrəmanov 1932-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olmuş, 1936-cı ildə oranı bitirmişdir.

Ə.Qəhrəmanov 1937-ci ildən Kitab Palatasında işləməyə dəvət edilmiş, həmin vaxtdan etibarən onun adı Azərbaycan dövlət biblioqrafiyası ilə ayrılmaz surətdə bağlı olmuşdur. 1942-ci ildə Kitab Palatasında elmi katib, 1941-1942-ci illərdə palatanın çap etdirdiyi "Azərbaycan kitab letopisi", "Azərbaycan qəzet məqalələri letopisi"nin tərtibçisi, 1943-cü ildə palatanın direktoru, 1946-cı ildən başlayaraq ömrünün axırına kimi müntəzəm olaraq Kitab Palatasının çapdan buraxdığı letopislərin redaktoru olmuşdur. 1940-cı ildən Bakı Mədəni-Maarif Texnikumunda pedaqoji fəaliyyət göstərmiş, 1942-1948-ci illərdə texnikumun direktoru vəzifəsində çalışmışdır.

Ə.Qəhrəmanov 1944-cü ildən başlayaraq həm ADU-da (BDU), həm də APU-da (ADPU) müəllimlik etmişdir. 1947-ci ildə ADU filologiya fakültəsinin nəzdində kitabxanaşünaslıq şöbəsi açılmış və həmin ildən Ə.Qəhrəmanov orada biblioqrafiya kursu üzrə mühazirələr oxumağa başlamışdır. 1948-ci ildən ömrünün sonuna qədər ADU-nun Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasına rəhbərlik etmişdir. S.Əliyevin tərtibi ilə Respublika Kitab Palatası tərəfindən çap edilən "Azərbaycan kitabı" (1951) adlı ümumi retrospektiv biblioqrafik göstəricinin və Ə.Əliyevin tərtib etdiyi "Nə oxumalı?" (1949) biblioqrafik göstəricisinin redaktoru Ə.Qəhrəmanov olmuşdur.

Eyni zamanda S.Əliyevin tərtib etdiyi "Azərbaycan kitabı" biblioqrafik göstəricisinə giriş məqaləsini də Ə.Qəhrəmanov yazmışdır. Onun tərtib etdiyi biblioqrafiyalar və şəxsi göstəricilər gərgin əmək sayəsində ərsəyə gəlmişdir. Müharibə dövründə, 1942-1946-cı illərdə Respublika Kitab Palatası salnamələrinin nəşri müvəqqəti olaraq dayandırıldığından Ə.Qəhrəmanov "Böyük Vətən müharibəsi günlərində Azərbaycan ədəbiyyatı (22 iyun 1941-ci il-3 sentyabr 1945-ci il)" sahəvi biblioqrafik göstəricisini çap etdirmişdir. Biblioqrafiyanın tədrisində Azərbaycan dilində proqram və dərsliklərin olmaması Ə.Qəhrəmanovu bir mütəxəsis kimi çox narahat etmiş və bu sahəyə olan tələbat və ehtiyacı təmin etmək üçün bir sıra proqram və dərs vəsaitləri tərtib etmişdir. 1953-cü ildə Ə.Qəhrəmanovun "Ümumi biblioqrafiyadan müxtəsər məlumat" adlı metodik vəsaiti çap olunmuşdur.

Görkəmli biblioqraf-alim Ə.Qəhrəmanov yalnız biblioqrafik göstəricilər tərtib etməklə kifayətlənməmiş, eyni zamanda tarixi və əlamətdar günlər, yazıçıların yubileyləri münasibəti ilə dövri mətbuatda fəal çıxış edərək respublikada biblioqrafik fikrin təbligində, geniş yayılmasında böyük xidmətlər göstərmişdir. "Sabirin əsərlərinin nəşri", "Ukraynaxalqının böyük yazıçısı" (İ.Frankonun anadan olmasının 100 illiyi münasibəti ilə), "Великий Украинский писатель", Azərbaycan SSR-də mətbuatın inkişafı", Respublikamızda kitab nəşri", "Sənətkarı xatırlarkən" (M.Müşfiq haqqında xatirə) və s. məqalələri onun qələmindən çıxan dəyərli əsərlərdəndir.

Əliheydər Baba oğlu Qəhrəmanov 1959-cu il mart ayının 23-də Bakıda vəfat etmişdir.

Digər tarixi hadisələr

Beynəlxalq Musiqi Günü
(1975)



Ədəbiyyat:

Musiqi Mədəniyyəti Dövlət Muzeyində Beynəlxalq musiqi günü // Mədəniyyət.– 2017.– 4 oktyabr.– S.2.

Qara Qarayevin Ev-muzeyində Beynəlxalq Musiqi Günü // Mədəniyyət.– 2021.– 6 oktyabr.– S.5.

Fərəcova, Z. Dünya musiqisevərlərinin bayramı: 1 oktyabr Beynəlxalq Musiqi Günüdür / Zöhrə Fərəcova // Azərbaycan.– 2022.–1 oktyabr.– S.11

"Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının sonuncu günü də maraqlı təqdimatlar olub // Azərbaycan.– 2023.– 12 may.– S.4.

"Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı Şuşanın dünyaya açılan mədəniyyət qapısıdır" /Ləman Sərraf // Səs.-2024.- 18 may, №88.- S.8.

Dünyaya səs salan "Xarıbülbül" musiqi festivalı /N. Ələddinqızı //Səs .-2024.- 11 may, №83.- S.9.

Şuşada "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının açılışı olub //Xalq qəzeti .-2025.- 25 may (№ 108).- S.3.

İnternet də:

https://azertag.az/xeber/1_oktyabr_beynelxalq_musiqi_gunudur-495347

Bəşəriyyətin musiqi ilə tanışlığı çox qədim dövrlərdən başlamışdır. Afrika mağaralarında aşkar edilən qayaüstü rəsmlərdə əlində musiqi aləti tutan insanlar təsvir edilmişdir. 2000-ci ildə isə Çin arxeoloqları iki min illik tarixi olan musiqi alətləri muzeyini aşkar etmişlər. Azərbaycanda da musiqinin tarixi çox qədimlərə gedib çıxır. Qobustandakı qavaldaş daş dövründə yaşamış insanların istifadə etdikləri musiqi alətidir. Qobustan qayalarında qədim Azərbaycanın "Yallı" rəqs səhnələri təsvir olunmuşdur. Bu rəqsin uğurlu ov üçün ovsun mərasimi olduğu vurğulanmışdır. Azərbaycan dilinin musiqi dili olması da buradan qaynaqlanır. Beynəlxalq Musiqi Günü UNESCO nəzdində fəaliyyət göstərən Beynəlxalq Musiqi Şurası tərəfindən 1973-cü ildə Lozannada keçirilən Baş Assambleyada təsis olunmuş və ilk dəfə UNESCO-nun qərarı ilə Beynəlxalq Musiqi Günü 1975-ci il oktyabr ayının 1-də keçirilmişdir.

Bu bayramın yaradıcılarının qarşısına qoyduğu əsas məqsəd, mədəniyyətlər arasında təcrübə mübadiləsi müxtəlif ölkələr və musiqi sənətinin yayılması idi. Bu bayram hər il bütün dünyada ən yaxşı musiqiçi və incəsənət kollektivlərinin iştirak etdiyi möhtəşəm konsert proqramları ilə qeyd olunur. Beynəlxalq Musiqi Günündə dünya xəzinəsinin qeyri-adi, bənzərsiz inciləri ifa edilir. Azərbaycan musiqiçiləri də bu tarixi, əlamətdar günə daim öz töhfəsini verir. Xalqımızın milli-mənəvi sərvətlərinin yaşadılması və gələcək nəsillərə çatdırılması, eyni zamanda bəşəriyyətə layiqincə təqdim edilməsi istiqamətində bir çox layihələrin müəllifi olan Heydər Əliyev Fondunun təşəbbüsləri və onları gerçəkləşdirməsi də bu istiqamətdə həyata keçirilən tədbirlərdəndir.


Azərbaycanda muğam sənətinin qorunması, inkişafı və təbliği sahəsində çox böyük layihələrə imza atılmışdır. Muğam 2008-ci ildə UNESCO tərəfindən şedevr əsər kimi Bəşəriyyətin Qeyri Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir. Bakıda - Dənizkənarı Milli Parkda Beynəlxalq Muğam Mərkəzinin tikilib istifadəyə verilməsi fondun qlobal mədəniyyət layihələri sırasında mühüm yer tutur. Dünyada ilk dəfə olaraq "Muğam aləmi" Beynəlxalq Muğam Festivalı da məhz bu mədəniyyət mərkəzində keçirilmişdir. Heydər Əliyev Fondunun dəstəyi və layihələri əsasında keçirilən silsilə beynəlxalq mədəniyyət və incəsənət tədbirləri sırasına Hamburq və Kölndəki "Azərbaycan gecəsi", Münhendəki "Azərbaycan mədəniyyəti gecəsi", Romadakı "Azərbaycan: mədəniyyət ruzigarı", İtaliyada və Avropa Parlamentinin mənzil-qərargahındakı "Azərbaycan mədəniyyəti günləri", Florensiyada Azərbaycan incəsənət ustalarının konserti, "San-Remo festivalının ulduzları Bakıda", Mstislav Rostropoviç adına Beynəlxalq Musiqi Festivalı, "Evrovision" mahnı müsabiqəsi, UNESCO-da olan "Azərbaycanın gənc istedadları" konsert proqramı, Beynəlxalq Aşıq Festivalı və s. möhtəşəm mədəniyyət tədbirlərini də əlavə etməliyik.

Musiqi intəhasız, heç bir ölçüyə sığışmayan gücə malikdir. Bir çox məşhur bəstəkarlar daxili dünyalarını, duyğularını, istək və arzularını ifadə etmək üçün musiqidən istifadə ediblər. Onların adı məhz musiqinin qüdrəti sayəsində tarixə və gələcək nəsillərin yaddaşına yazılıb.Musiqi heç zaman qocalmır və insanlara bəxş edilən bu nadir nemət bəşəriyyət var olduqca yaşayacaq, yeniləşəcək, gəncləşərək seviləcək. Prezidenti İlham Əliyev 2021-ci il 7 may tarixli sərəncamı ilə Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etmişdir. Bu sərəncamla Vaqif Poeziya günləri və "Xarıbülbül" festivalı da bərpa olunmuşdur. Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı keçirilirir.

Hər il oktyabrın 1-də Azərbaycan Milli Kitabxanasında 'Beynəlxalq Musiqi Günü' adlı sərgi həm virtual, həm də ənənəvi formatda istifadəçilə təqdim olunur.

Digər tarixi hadisələr

Cəbrayıl Şəhəri Günü *(2023)*



Tarixi Qələbə günlərinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 iyul 2023-cü il tarixli Sərəncamına əsasən 4 oktyabr Cəbrayıl Şəhəri Günü təsis edilmişdir. Bu əlamətdar günün təsis olunması 2020-ciilin oktyabr ayının 4-də Cəbrayıl şəhəri və 9 kəndinin Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsi tarixi ilə bağlıdır. Cəbrayıl rayonu 8 avqust 1930-cu ildə təşkil edilmiş, 4 yanvar 1963-cü ildə ləğv edilərək Füzuli rayonuna birləşdirilmiş, 17 iyun 1964-cü ildə yenidən yaradılmışdır. Rayon cənubdan Araz çayı boyu İran İslam Respublikası ilə həmsərhəddir. Sahəsi 1049 kvadrat kilometrdir, ərazisi əsasən dağlıqdır.

Rayon 1993-cü il avqust ayının 23-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən zaman 1 şəhər, 4 qəsəbə və 97 kənddən ibarət olmuşdur. İşğal nəticəsində rayona 13,928 milyard ABŞ dolları məbləğində ziyan dəymiş, 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 132 tarixi abidə, 150 mədəniyyət ocağı, kəndlər vəhşicəsinə dağıdılmış, 52000 məcburi köçkün respublikanın 58 rayonunun 2000-dək yaşayış məntəqəsində, o cümlədən qaçqın düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşmışdır.

Cəbrayıl rayonundan Qarabağ müharibəsində 362 nəfər şəhid, 191 nəfər əlil olmuş, 6 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

1994-cü il yanvar ayının 5-də Horadiz əməliyyatı zamanı rayonun Cocuq Mərcanlı kəndi işğaldan azad olunmuş, 2016-cı il Aprel döyüşləri zamanı əks-hücum nəticəsində Lələtəpə yüksəkliyi düşməndən təmizlənmiş və Cocuq Mərcanlı kəndi Azərbaycan Ordusunun nəzarəti altına keçmişdir.

2020-ci il Vətən müharibəsi zamanı rayonun tamamilə işğaldan azad edilməsi ilə Azərbaycan-İran sərhədinə dövlət nəzarəti bərpa edilmiş, oktyabr ayının 18-də Xudafərin körpüsü üzərində Azərbaycan Dövlət Bayrağı ilk dəfə hərbi əməliyyatların gedişində qaldırılmışdır.

2020-ci il noyabrın 26-da "Cəbrayılın azad olunmasına görə" medalı təsis edilmiş, Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 22775 hərbi qulluqçusu "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

2020-ci ilin noyabr ayının 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Cəbrayıl şəhərinə və Xudafərin körpüsünə rəsmi səfər etmiş, şanlı Azərbaycan bayrağını qaldırmış, Şuşa şəhərinə yol çəkilişi ilə bağlı göstəriş vermiş, "Zəfər yolu"nun başlanğıcını qoymuşdur. Müzəffər Ali Baş komandanın bu ərazilərə hər bir səfəri yeni sosial obyektlərin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi ilə yadda qalır. İşğaldan azad edilmiş bütün ərazilərimizin əvvəlki simasının özünə qaytarılması üçün atılan addımlar hər birimizi qürurlandırır.

Prezident İlham Əliyev 2021-ci il oktyabrın 4-də Cəbrayıl rayonunda səfərdə olmuş, "KAMaz" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin, Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının, 110/35/10 kV-luq "Cəbrayıl" yarımstansiyasının və Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışında iştirak etmiş, Cəbrayıl rayon Mərkəzi Xəstəxanasının, məktəb binasının və Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin, Cəbrayıl Memorial Kompleksinin və Cəbrayıl şəhərinin bərpasının təməl daşını qoymuşdur.

2022-ci il oktyabrın 19-da Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun 14,2 kilometrlik Şükürbəyli-Cəbrayıl hissəsinin açılışında iştirak etmişdir. 2023-cü il mayın 4-də Cəbrayıl rayonuna səfər etmiş, "Azərenerji" ASC-nin "Cəbrayıl" enerjiqovşağının, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış olmuş, "Holcim Azərbaycan" ASC-nin, "Az-Tex-Import" MMC-nin, "İmprotex Qarabağ Sənaye Kompleksi" MMC-nin, Şükürbəyli, Horovlu kəndlərnin təməlini qoymuşdur

Şəhər Günü münasibətilə Azərbaycan Milli Kitabxanası tərəfindən "4 oktyabr – Cəbrayıl Şəhəri Günü" adlı virtual və ənənəvi kitab sərgisi hazırlanaraq istifadəçilərə təqdim edilmişdir.

Ədəbiyyat:

4 oktyabr Cəbrayıl Şəhəri Günüdür: Vətən müharibəsinin ilk qazi şəhəri // Mədəniyyət.– 2023.– 4 oktyabr.– S.1.

Milli Kitabxanada Cəbrayıl Şəhəri Günü münasibətilə sərgi açılıb // 525-ci qəzet.–2024.– 5 oktyabr (№182).– S.11.

İşğaldan azad edilən ilk şəhər-Cəbrayıl Şəhəri Günü / Z.Bayramova // Səs.– 2025.– 4 oktyabr (№181).– S.8.

Cəbrayıl Şəhəri Günü Böyük qayıdışın real təzahürü, dövlətimizin qüdrətinin, Azərbaycan Ordusunun qəhrəmanlığının parlaq təcəssümüdür /Ş.İsmayılov//Azərbaycan.-2025.- 5 oktyabr (№ 210).- S.3.

Cəbrayıl Şəhər Günü Azərbaycan xalqının bayramıdır" //Azərbaycan.-2025.- 5 oktyabr (№ 210).- S.3.

Cəbrayıl: İkinci Qarabağ müharibəsində azad edilən birinci şəhər /M.Məmmədova //Səs.-2025.- 4 oktyabr (№181).- S.5-6.

İnternetdə:

http://cabrail-ih.gov.az/az/news/4-oktyabr-cebrayil-seheri-gunudur.html

http://www.anl.az/down/meqale/azerbaycan/2025/oktyabr/968913(meqale).pdf

Digər tarixi hadisələr

Beynəlxalq Müəllimlər Günü *(1966)*



1966-cı il oktyabr ayının 5-də YUNESKO və Beynəlxalq Əmək Təşkilatının birgə təşkilatçılığı ilə çağırılan konfransda "Müəllimlərin statusu haqqında"adlı ilk beynəlxalq sənəd imzalanmışdır. 1994-cü ildən isə həmin tarix YUNESKO tərəfindən Ümumdünya Müəllimlər Günü kimi təsis edilmişdir. Bu tarix həmçinin BMT-nin də beynəlxalq və ümumdünya günlər sisteminə daxildir.

Bu günün qeyd olunması müəllimlərin cəmiyyətdəki mövqeyi, təhsil və inkişafdakı roluna diqqət çəkməyi nəzərdə tutmuşdur. Hal-hazırda dünyanın 100-dən çox ölkəsində ümumdünya səviyyəsində qeyd olunduğu halda, bəzi ölkələrdə müxtəlif tarixlərdə ayrıca olaraq milli səviyyədə "Müəllimlər günü" qeyd edilir.

Albaniyada 8 mart, Cənubi Koreyada 15 may, Argentinada 11 sentyabr, Çində 28 sentyabr, Özbəkistanda 1 oktyabr, Türkiyədə 24 noyabr tarixlərində Müəllimlər günü qeyd olunur.

Azərbaycanda Beynəlxalq Müəllimlər Günü 1993-cü ildən qeyd edilir. "Mən dünyada müəllimdən şərəfli ad tanımıram" deyən Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirmiş, onlara böyük hörmətlə yanaşmış, təhsil işçilərinin maddi vəziyyətinin, rifahının yaxşılaşdırılmasının qayğısına qalmışdır.

Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha bilikli yetişməsinə hesablanmışdır. Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramları və digər layihələri bu sahənin inkişafında mühüm rol oynamışdır.

Son 20 ildə ölkəmizdə 3600 yeni məktəb tikilmiş və ya əsaslı təmir olunmuşdur. Təkcə son 3 ildə ölkədə 275 yeni məktəb tikilmişdir. İndi Azərbaycanda elə təhsil ocaqları var ki, dünyanın ən inkişaf etmiş ölkələrindəki məktəblərdən nəinki fərqlənmir, hətta onları üstələyir.

Bütün bu tədbirlər Prezident İlham Əliyevin "Uşaqlar yaxşı məktəblərdə oxumalı, müəllimlər də yaxşı məktəblərdə işləməlidirlər" fikrini reallığa çevirir. Həmçinin işğaldan azad edilmiş ərazilərdə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsindətəhsil müəssisələrinin tikintisi və təmiri davam edir. Prezident İ. Əliyev iyulun 21-də Şuşa şəhərində 1 nömrəli tam orta məktəbin binasında tikinti işlərinin gedişi ilə tanış olmış, Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin, Laçın rayon 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılışlarında iştirak etmişdir.

Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində 20 məktəb direktoru, 32 direktor müavini, 671 müəllim düşmənə qarşı vuruşaraq qəhrəmanlıqlar göstərmiş, 20 təhsil işçisi döyüşlərdə şəhidlik zirvəsinə ucalmışdır. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə onların hər biri müxtəlif dərəcəli medallarla təltif edilmişdir.

Müəllimlər yeni cəmiyyət quruculuğunun memarlarıdırlar. Heç bir müasir təhsil texnologiyası müəllim əməyini əvəz edə bilməz. Azərbaycanın müəllimlər ordusu xalqımızın xoşbəxt həyatı üçün bütün imkanlarını səfərbər edərək, layiqli vətəndaşlar yetişdirilməsində öz xidmətlərini əsirgəmirlər.

Ədəbiyyat:

Müəllim ömrü şama bənzəyir: 5 Oktyabr Müəllim Günüdür / R.Amanov // Respublika.– 2020.– 4 oktyabr.– S.9.

Müəllim əməyi əsl vətənpərvərlik nümunəsidir: 5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür / M.Mükərrəmoğlu // Xalq qəzeti.– 2021.– 5 oktyabr.– S.11.

Şuşa divarlarında müəllim adları / A.Sahəd // 525-ci qəzet.– 2022.– 5 oktyabr.– S.8.

Baş müəllim: 5 Oktyabr Beynəlxalq Müəllim Günüdür / S.Qurbanov // Azərbaycan.– 2023.– 5 oktyabr.– S. 8.

Xoşbəxtliyimi şagirdlərimin sevincində tapmışam: 5 Oktyabr Beynəlxalq Müəllim Günüdür / E.Qəniyev // Azərbaycan.– 2024.– 5 oktyabr (№ 218).– S. 13.

Şəhid anası müəllim: 5 oktyabr Beynəlxalq Müəllimlər Günüdür // Azərbaycan müəllimi.– 2025.– 4 oktyabr (№37).– S.5.

İnternetdə:

https://portal.azertag.az/az/node/15052

Digər tarixi hadisələr

Füzuli Şəhəri Günü *(2023)*



Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi ilə əlaqədar 31 iyul 2023-cü il tarixli sərəncama əsasən, 17 oktyabr Füzuli Şəhəri Günüdür. 1827-ci ildə Qarabulaq adlanan yaşayış məntəqəsi əsasında yaradılan əraziyə Qaryagin adı verilmiş, 1930-cu ildə rayon adlandırılmış, 1959-cu ildə böyük şair Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə rayona onun adı verilmişdir.

1993-cü il avqustun 23-də Füzuli şəhəri və rayonun kəndlərinin böyük hissəsi, həmin ilin oktyabrında isə rayonun Arazboyu yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, əhali respublikanın 50-dən çox rayon və şəhərində məskunlaşmışdır. Füzuli rayonunda işğaldan əvvəl 2 şəhər, 16 qəsəbə, 82 kənd və başqa yaşayış məntəqələri mövcud olmuşdur. Hazırda rayonun əhalisi təxminən 144 min nəfərdir.

İşğal zamanı ermənilər tərəfindən bütün infrastruktur obyektləri, o cümlədən tarixi,dini-mədəni abidələr yerlə yeksan edilmiş, 663 nəfər şəhid olmuş, 181 nəfər əsir və itkin düşmüşdür. 1994-cü ilyanvar ayının 5-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin həyata keçirdiyi uğurlu əməliyyat nəticəsində rayonun Arazboyu 21 kəndi və Horadiz qəsəbəsi, 44 günlük Vətən müharibəsində Füzuli şəhəri də daxil olmaqla 62 yaşayış məntəqəsi işğaldan azad edilmişdir.

2020-ci il noyabr ayının 26-da "Füzulinin azad olunmasına görə" medalı təsis edilmiş, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 25 min 301 hərbi qulluqçusu bu medal ilə təltif olunmuşdur. 2022-2026-cı illəri əhatə edən "Azərbaycan

Respublikasının işğaldan azad edilmiş ərazilərində Böyük Qayıdışa dair "Dövlət Proqramı" əsasında, cəmi 9 ayda Füzuli Beynəlxalq Hava Limanı inşa edilərək istifadəyə verilmiş, açılış mərasimində Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan iştirak etmişlər.

Şəhərdə geniş bərpa və quruculuq işləri başlanılmış, çox sayda bağça, məktəb, xəstəxana tikilmiş, bir-birindən rahat yollar, yaraşıqlı parklar salınmış, yaşayış kompleksləri ucaldılmış, 2023-cü ilin avqust ayından 258 ailənin (928 nəfər) daimi məskunlaşması təmin edilmişdir. Bu istiqamətdə layihələrin icrası davam etdirilir. Baş plana əsasən 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Müasir standartlara və memarlıq xüsusiyyətlərinə uyğun inşa ediləcək Füzuli işğaldan azad edilmiş ərazilərdə ən böyük şəhərlərdən biri olacaq. Füzuli şəhərinin dayanıqlı inkişafına, sakinlərin və sahibkarların rifahına töhfə verəcək "Ağıllı şəhər" konsepsiyası irəli sürülmüşdür.

Azərbaycan Respublikasının Prezidenti dəfələrlə Füzuliyə səfər etmiş, yenidən quruculuq işləri ilə tanış olmuşdur.

2024-cü ildə Azərbaycanda səfərdə olan Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Prezidenti Sadır Japarov və Belarus Prezidenti Aleksandr Lukaşenko da Füzuli rayonunda olublar. Dövlət başçıları martın 12-də Füzuli şəhərinin Baş planı və Füzuli Mərkəzi Rayon Xəstəxanasının layihəsi ilə tanış olub, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər. Qırğız Prezidenti və Azərbaycan Prezidenti aprelin 25-də Füzuli şəhərinin dağıdılmış yerlərinə baxmış, şəhərin Baş planı ilə tanış olmuşlar. Belarus və Azərbaycan prezidentlərinin mayın 17-də rayona səfərləri zamanı isə "Qarabağın hava qapısı" adlandırılan və cəmi 9 ayda inşa edilən Füzuli Beynəlxalq Hava Limanı barədə ali qonağa məlumat verilmişdir.

Belarus Prezidentinə işğalçı Ermənistanın 30 il ərzində Füzuli rayonunun ərazisində törətdiyi dağıntılar, vandalizm aktları, həmçinin şəhərin Baş planına uyğun olaraq həyata keçirilən və görüləcək işlər haqqında məlumatlandırılıb. Şəhər günü münasibətilə

Şəhər Günü münasibətilə Azərbaycan Milli Kitabxanası tərəfindən "17 oktyabr – Füzuli Şəhəri Günü" adlı virtual və ənənəvi kitab sərgisi hazırlanaraq istifadəçilərə təqdim edilmişdir.

Ədəbiyyat:

"Füzuli Şəhəri Günü" təntənəli şəkildə qeyd olunub // Azərbaycan.– 2023.– 18 oktyabr, № 227.– S.4.

Xarabalıqlar üzərində salınan möhtəşəm şəhər: "İlham Əliyevin sayəsində şəhərimizin azadlıq gününü Füzulidəki yeni evimizdə keçiririk" / R.Baxşəliyev; E.Qəniyev // Azərbaycan.– 2024.– 17 oktyabr (№ 228).– S.1;5.

Bu gün Füzuli Şəhəri Günüdür / Cavid // Xalq Cəbhəsi.– 2024.– 17 oktyabr(№37).– S.9.

"Zəfər yolu"nun başlanğıcı: Füzuli Şəhəri Günü böyük təmtəraqla qeyd edilir /Ə.Qardaşxanova

//Azərbaycan.-2025.- 17 oktyabr (№ 223).- S.6.

Azad Füzulinin Şəhər Günü /N.Ələddinqızı // Səs.-2025.- 17 oktyabr (№190).- S.5.

Füzuli şəhərinin sürətli bərpası dövlətimizin iradəsinin təzahürüdür /F.Yıldırım; R.Cəfərli // Azərbaycan.-2025.- 17 oktyabr (№ 223).- S.6.

İnternetdə:

https://sosial.gov.az/media/xeberler/bu-gun-fuzuli-seheri-gunudur

http://www.anl.az/down/meqale/ses/2025/oktyabr/973005(meqale).pdf

Digər tarixi hadisələr

Müstəqilliyin Bərpası Günü *(1991)*



1990-cı illərin əvvəllərində SSRİ-nin əksər regionlarında millətlərin və xalqların azadlıq hərəkatı başlamış, 1991-ci ilin avqustunda İttifaqın ləğv edilməsi haqqında qərar verilmiş və Sovetlər Birliyi dünya xəritəsindən silinmişdir. SSRİ-yə daxil olan digər müttəfiq respublikalar kimi, 1991-ci il oktyabrın 8-də Azərbaycan Ali Sovetinin növbədənkənar sessiyası 4 gün müzakirələr aparmış, 1991-ci il oktyabrın 18-də Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilmişdir.

Azərbaycan Respublikasında 1991-ci il dekabrın 29-da ümumxalq səsverməsi keçirilmiş, səsvermə hüququ olanların 95%-dən çoxu referendumda iştirak etməklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxmışdır.

Müstəqillik bərpa olunandan sonra dövlət bayrağı, himni və gerbi haqqında da qanunlar qəbul edilmişdir. Müsəlman Şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin varisi elan edilmiş Azərbaycan Respublikası çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməyə başlamışdır.

Azərbaycan Respublikasının müstəqilliyini ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Cümhuriyyəti, dekabr ayının 11-də Rumıniya, 13-də Pakistan, 23-də İsveçrə, 25-də İran, 1992-ci il yanvarın 23-də ABŞ, aprelin 10-da Rusiya və b. dövlətlər tanımışdır. 2 mart 1992-ci ildə Azərbaycan müstəqil dövlət kimi BMTyə üzv qəbul olunmuşdur. 1993-cü ildə bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində geniş miqyas almış Birinci Qarabağ müharibəsi, digər tərəfdən dövlət rəhbərliyininsəhv siyasəti və daxildə gedən siyasi çəkişmələr müstəqillik üçün təhlükə yaratmışdır.

Xalqının tələbi ilə siyasihakimiyyətə qayıdan Heydər Əliyevin Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs əldə etməklə, "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir"prinsipini əsas götürməklə qətiyyətli mübarizəsi nəticəsindəmüstəqilliyi qorumaq və inkişaf etdirmək mümkün olmuşdur.

Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev siyasi ənənələrə və dövlətin qorunmasının ali prinsiplərinə uyğun olaraq Azərbaycanda demokratik cəmiyyətin formalaşdırılması, demokratik hüquqi dövlət quruculuğunun daha da dərinləşdirilməsi üçün misilsiz islahatlar həyata keçirir.

30 ilə yaxın düşmən tapdağı altında olan torpaqlarımız 2020-ci ildə 44 günlük Vətən müharibəsində işğaldan azad olunmuş, bu tarixi Zəfəri qazanan Azərbaycan xalqı bütün dünyaya göstərmişdir ki, Azərbaycanın müstəqilliyi əbədidir!

15 oktyabr 2021-ci il tarixli Müstəqillik Günü haqqında Azərbaycan Respublikasının Qanununa əsasən may ayının 28-i Müstəqillik Günü, oktyabr ayının 18-i isə Müstəqilliyin Bərpası Günü elan edilmişdir. Azərbaycan xalqı indi bu bayramı öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir.

Hər il oktyabrın 18-də Azərbaycan Milli Kitabxanasında '18 oktyabr – Dövlət Müstəqilliyinin Bərpası Günü' adlı virtual sərgi və eyniadlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim edilir.

Ədəbiyyat:

Müstəqilliyin Bərpası Günü və Nizaminin yubileyi münasibətilə Ankarada konsert // Mədəniyyət.– 2021.– 22 oktyabr.– S.8.

Vaşinqtonda Müstəqilliyin Bərpası Günü və "Şuşa İli"nə həsr olunmuş rəsmi qəbul // Xalq qəzeti.– 2022.– 23 oktyabr.– S.2.

18 oktyabr – Azərbaycanda Dövlət Müstəqilliyinin Bərpası Günü adlı virtual sərgi // 525-ci qəzet.– 2023.– 19 oktyabr, №189– S.9.

Müstəqilliyimiz əbədidir: 18 oktyabr müstəqilliyin bərpası günü // Elm.– 2024.– 18 oktyabr(№33).– S.7.

Müstəqilliyimiz: milli qürur və azadlıq ruhumuzun təcəssümü: 18 Oktyabr-Müstəqilliyin Bərpası Günüdür /M.Məmmədova// Səs.-2025.- 18 oktyabr (№191).- S.7.

Müstəqilliyin bərpasına gedən yolun təməli Ulu Öndər tərəfindən qoyulmuşdur /H.Məmmədov //Respublika.-2024.- 18 oktyabr (№ 229).- S.4.

İnternetdə:

http://www.qax-ih.gov.az/az/news/784.html

http://www.anl.az/down/meqale/ses/2025/oktyabr/971553(meqale).pdf

Digər tarixi hadisələr

Zəngilan Şəhəri Günü *(2023)*



Ədəbiyyat:

Zəngilan: Əzəli yurda əbədi qayıdışın ünvanı / S. Azadi // İki sahil.– 2022.– 20 oktyabr.– S.11.

Rəşadət və qürur səhifəsi: Bu gün Zəngilan Şəhəri Günüdür / M.Kamal // Respublika.– 2023.– 20 oktyabr, № 229.– S.4.

Zəngilan: müasir şəhər, aqrar rayon, "yaşıl enerji" diyarı: 20 oktyabr Zəngilan Şəhəri Günüdür / M.Nərimanoğlu // Respublika.– 2024.–20 oktyabr (№ 231).– S.4.

Böyük Qayıdış: Cəbrayıl və Zəngilanda tarixi günlər/ N. Ələddinqız // Səs.– 2024.– 4 oktyabr (№182).– S.2-3.

Gələcəyə doğru addımlayan şəhər: Zəngilan şəhəri Günü /N.Orucova //İki sahil.-2025.- 21 oktyabr (№190).- S.7.

Milli Kitabxanada Zəngilan Şəhəri Gününə həsr olunmuş sərgi açılıb//Azərbaycan .-2025.- 21 oktyabr (№ 225). - S.12.

Zəngilan: azadlığın 5 illik işığında /M.Məmmədova// Səs-2025.- 29 oktyabr (№198).- S.11-12.

İnternetdə:

https://report.az/qarabag/bu-gun-zengilan-seheri-gunudur

Prezident İlham Əliyevin 2023-cü il iyul ayının 31-də imzaladığı sərəncama əsasən 20 oktyabr Zəngilan Şəhəri Günüdür. Azərbaycan Ordusu Zəngilanın işğal tarixinin - 29 oktyabr 1993-cü ilin üstündən xətt çəkərək yeni-azadlığa qovuşduğu Zəfər tarixini yazmışdır. Vətən müharibəsinin 24-cü günündə 2020-ci il oktyabr ayının 20-də bütün zəngilanlıların 27 illik həsrətinə son qoyularaq, işğal edilən sonuncu torpağımız olsa da, Zəngilan da azadlığına qovuşan ilk şəhərlər sırasına daxil olmuşdur.

Oktyabr ayının 20-də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində Zəngilan şəhəri və rayonun 6 kəndinin işğaldan azad olunduğunu elan etmiş, rayon uğrunda döyüşlər nəticəsində ümumilikdə 1şəhər, 4 qəsəbə və 49 kəndi işğaldan azad edərək, Azərbaycan-İran sərhədini tam bərpa edilmişdir.

1920-ci ilin 28 aprel işğalından sonra bolşeviklərin təkidi ilə Zəngəzurun yuxarı hissəsi Ermənistanın, Laçın, Qubadlı və Zəngilan bölgələri isə Azərbaycanın tərkibində qalmışdır. Zəngilan 1930-cu il avqust ayının 8-də müstəqil rayon kimi formalaşmış, 1967-ci ildə şəhər statusu almışdır. Bakı-Culfa-Naxçıvan dəmir yolunun üzərində yerləşdiyindən mühüm strateji əhəmiyyətə malik olan Zəngilanın ərazisi 730 kvadratkilometr, əhalisi isə 45 mindən çox olmuşdur. 1993-cü ildə Zəngilan əhalisi 67 gün mühasirə şəraitində vuruşaraq 235 şəhid vermiş, oktyabrın 29-da işğal olunmuşdur. İşğal edilərkən 1 şəhər, 5 qəsəbə və 83 kənddən ibarət olan Zəngilanda 9 məktəbəqədər müəssisə, 19 ibtidai məktəb, 15 orta məktəb, bir texniki peşə və musiqi məktəbi, 35 kitabxana, 8 mədəniyyət evi, 23 klub müəssisəsi və 22 kinoqurğu olmuşdur. İşğal dövründə bütün infrastruktur, tarixi və dini memarlıq abidələri dağıdılıb, təbiətə, ətraf mühitə ciddi ziyan vurulmuşdur.

Prezidentin sərəncamına əsasən, 2020-ci il noyabrın 26-da "Zəngilanın azad olunmasına görə" medalı təsis edilmiş, Silahlı Qüvvələrimizin 6974 hərbi qulluqçusu bu medalla təltif olunmuşdur.

Prezident İlham Əliyev 2020-ci il dekabr ayının 23-də Zəngilanda Azərbaycanın üçrəngli bayrağını qaldırmışdır. Azərbaycan dövləti öz gücü hesabına bu gün azad olunmuş ərazilərdə sürətli bərpa-quruculuq işləri həyata keçirməklə, ilkin mərhələdə Ağalıda 200 ev və məktəb, tibb məntəqəsi, uşaq bağçası, "ASAN", "DOST" mərkəzləri, kiçik və orta biznesə dəstək, ümumilikdə digər xidmətlərə əlçatanlığın təmin olunması üçün hər şey nəzərə alınmaqla, 2022-ci il iyul ayının 19-da məskunlaşmaya başlamış və proses davam etdirilir.

Zəngilan Beynəlxalq Hava Limanı inşa edilərək istismara verilmiş, ilk ali qonağı qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan olmuşdur. Rayonun Ağbənd qəsəbəsi yaxınlığında

Azərbaycan və İran hökuməti arasında İran ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında memorandum imzalanmışdır. Şərq və Qərb ölkələrini birləşdirəcək Zəngəzur dəhlizinin Azərbaycan ərazisindən keçən hissəsində işlər davam edir. Rayon ərazisində infrastrukturun bərpası işləri uğurla həyata keçirilir. Zəngilan Konqres Mərkəzi Kompleksinin açılışı olmuş, Oxçuçayın rayon ərazisindən keçən hissəsində tikilmiş "Cahangirbəyli" Su Elektrik Stansiyası və Heydər Əliyev Fondu tərəfindən Zəngilan şəhər məscidi inşa edilmişdir.

Şəhər Günü münasibətilə Azərbaycan Milli Kitabxanası tərəfindən "20 oktyabr – Zəngilan Şəhəri Günü" adlı virtual və ənənəvi kitab sərgisi hazırlanaraq istifadəçilərə təqdim edilmişdir.

Digər tarixi hadisələr

Beynəlxalq Kulinariya Günü *(2007)*



Ədəbiyyat:

Beynəlxalq kulinariya günü qeyd olunub / E.Mədətoğlu // Azərbaycan müəllimi.– 2009.– 30 oktyabr.– S.8.

Bakıda beynəlxalq çörək festivalı keçirilmişdir / R.Salmanlı // Azərbaycan.– 2016.–22 oktyabr.– S.8.

Beynəlxalq kulinariya günü qeyd olunub // Mədəniyyət.– 2017.– 25 oktyabr.– S.9.

Zəngin süfrə mədəniyyəti / Z.Fərəcova // Azərbaycan.– 2018.– 21 oktyabr.– S.8.

Dünya ölkələri mətbəxlərinin xüsusi tarixi: Bu gün Beynəlxalq Kulinariya Günüdür / Səidə // Yeni Azərbaycan.– 2022.– 20 oktyabr.– S.8.

Şuşada Beynəlxalq Qastronomiya Gününə həsr olunan dəyirmi masa təşkil olunub // Azərbaycan.– 2024.– 7 sentyabr (№194).– S.12.

Paris Qastronomiya şəhərciyi: Azərbaycan mətbəxi layiqincə təmsil olunub // Azərbaycan.– 2025.– 16 sentyabr (№197).– S.14.

İnternetdə:

https://report.az/en/cultural-policy/european-culinary-festival-taste-of-europe-opens-in-baku

Ümumdünya Kulinariya Təşkilatları Birliyi 2004-cü ildə İrlandiyanın Dublin şəhərində keçirdiyi beynəlxalq konfransda hər il oktyabrın 20-nin Beynəlxalq Kulinariya Günü kimi keçirilməsi haqda qərar qəbul etmişdir. Beynəlxalq Kulinariya Günü Azərbaycanda 2007-ci ildən etibarən hər il təntənəli şəkildə qeyd olunur. Bu günün ölkəmizdə keçirilməsi gənc nəslin Azərbaycanın milli kulinariyasının sirlərinə yaxından bələd olması və ölkənin hüdudlarından kənarda milli mətbəx nümunələrimizin təbliği və tanınması baxımından olduqca əhəmiyyətlidir.

Hər xalqın özünəməxsus tarixi, ədəbiyyatı, folkloru, milli adət-ənənəsi olduğu kimi, özünəməxsus mətbəxi də mövcuddur. Xalqımızın milli mətbəx mədəniyyətinin öyrənilməsi və təbliği məqsədilə 1991-ci ildə yaradılan Azərbaycan Milli Kulinariya Mərkəzi tərəfindən son illərdə böyük işlər görülmüşdür. Mərkəz 1992-ci ildən Ümumdünya Kulinariya Təşkilatları Birliyinin üzvüdür. Ölkəmiz MDB məkanında və Türk dünyasında bu quruma qəbul edilən ilk dövlətdir. Milli Kulinariya Mərkəzi yarandığı gündən aparıcı kulinarları, səliqə-sahmanı və bu sahədə yaradıcılıq fantaziyası olan mütəxəssisləri ətrafında birləşdirib. Məhz bunun nəticəsidir ki, 1993-cü ildə Azərbaycanın milli komandası ilk dəfə Maltada keçirilən Dünya Kulinariya Çempionatına qoşulmuş və qızıl medalla Vətənə dönmüşdür.

Qatıldığı bütün yarışlarda birinciliyi əldən verməyən milli kulinariya ustalarımız dünyanın bir neçə ölkəsində xalqımıza məxsus zəngin mətbəx mədəniyyətini nümayiş etdirilmişdir. Hətta Malta Prezidenti Qvide de Marko, İngiltərə şahzadəsi Anna azərbaycanlı kulinarların əl qabiliyyətinə heyran qalaraq onları mükafatlandırmışlar. Ölkəmiz 1998-ci ildən UNESCO-nun Xalq Yaradıcılığı Təşkilatının da üzvüdür. Azərbaycan Milli Kulinariya Mərkəzinin rəhbəri Tahir Əmiraslanov həm də UNESCO-nun Ənənəvi Qida Komitəsinin sədridir.

Son illərdə ölkəmizdə AMKM-in təşəbbüsü, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "Plov", "Dolma", "Mürəbbə", "Şirniyyat", və digər festivallar keçirilmişdir. Bütün bunlar bir daha göstərir ki, Azərbaycanda milli mətbəxt nümunələrinin yaşadılması, təbliği və gələcək nəsillərə ötürülməsi baxımından mühüm işlər görülür. Kulinariya tədqiqatçısı Yarik Levy burada ölkəmizin mətbəxi haqqında öyrənmiş və mətbəx nümunələrinin tədqiqatını apararaq onlar haqqında məqalələr hazırlamışdır. Eyni zamanda, Los-Ancelesdə yeməklərin necə bişirilməsi barədə bu günə qədər 3 dildə 23 kitab nəşr etdirmişdir.


Azərbaycanın mətbəx tarixinə, mədəniyyətinə də qısqanclıqla yanaşan bədnam qonşularımız bir neçə beynəlxalq yarışlarda xalqımıza məxsus xörəkləri, şirniyyatları və süfrə bəzəmə ənənələrini öz adlarına çıxaraq erməni mətbəxi kimi dünyaya tanıtmaq istəmişdilər. Lakin həmin yarışlara qatılan, bəzən də həmin tədbirlərdə münsif kimi çıxış edən AMKM mütəxəssisləri tezliklə bunun qarşısını almış, onlara beynəlxalq səviyyədə verilən cavab və etiraz çıxışları xarici ölkə mətbuatında dərc olunmuşdur. Nəticədə erməni jurnalistləri və bu sahənin alim və mütəxəssisləri bəzi dünya yarışlarından təcrid edilmişlər.

2016-cı il oktyabr ayının 20-də "Beynəlxalq Kulinariya günü" münasibətilə Bakı şəhərində ilk dəfə I Beynəlxalq Çörək festivalı keçirilmişdir. 2019-cu il oktyabr ayının 25-də Cocuq Mərcanlı kəndində "20 oktyabr Beynəlxalq Kulinariya Günü" ilə bağlı tədbir keçirilmişdir.

2022-ci il may ayının 5-də Şuşa şəhərində Birinci Beynəlxalq Kulinariya Festivalı keçirilmişdir. 2023, 2024, 2025-ci illlərdə Bakıda "Avropa Təamları" Kulinariya Festivalı keçirilmişdir.

Digər tarixi hadisələr

Qubadlı Şəhəri Günü *(2023)*



Vətən müharibəsinin 29-cu günündə 2020-ci il oktyabr ayının 25-də Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Cəbrayıl, Qubadlı rayonlarının bir neçə kəndinin və Qubadlı şəhərinin işğaldan azad edildiyini bildirmiş, Müzəffər Azərbaycan Ordusu üçrəngli bayrağımızı həmin ərazilərdə qürurla dalğalandırmışdır. Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən 2020-ci il noyabr ayının 26-da "Qubadlının azad olunmasına görə" medalı təsis edilmiş, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 15189 hərbi qulluqçusu bu medal ilə təltif olunmuşdur.

2020-ci il dekabr ayının 23-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı və Zəngilan rayonlarında olmuş, hər iki rayonda Azərbaycan bayrağını ucaltmışlar. V-VI əsrlərdə yaşamış Sasani hökmdarı I Qubadın adı ilə bağlı olsa da yaşayış məskəni kimi qədim olan rayon 14 mart 1933-cü ildə Qubadlı kəndinin əsasında təşkil olunmuş,1963-cü ildə ləğv edilərək ərazisi Zəngilan rayonu ilə birləşdirilmişdir.

1964-cü ildə yenidən müstəqil rayon olan Qubadlı Azərbaycan Respublikasının cənub qərbində yerləşməklə, qərbdən 120 km məsafədə Ermənistan ilə, şimaldan Laçın, şərqdən Cəbrayıl, cənubdan isə Zəngilan rayonları ilə həmsərhəddir. İnzibati bölgüsünə 1 şəhər, 93 kənd, 31 inzibati-ərazi dairəsi aid olan Qubadlı 31 avqust 1993-cü ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir. İşğal nəticəsində rayondan 29997 nəfər məcburi köçkün respublikanın müxtəlif yaşayış məntəqələrində müvəqqəti məskunlaşmış, 94 yaşayış məntəqəsi, 7278 fərdi yaşayış evi, 64 inzibati bina, 148 sosial obyekt, 161 mədəniyyət obyekti, 7 məscid, 16 körpü dağıdılmış və yararsız vəziyyətə salınmışdır.

1080 ədəd kənd təsərrüfatı obyekti, 650 km avtomobil yolu, 2 su anbarı, 150 km magistral su xətləri, 4830 km elektrik xətləri, 165 km magistral qaz boru xətti, 9 tikinti idarəsi, 4 yol idarəsi, 18 ədəd dəyirman, 4 ədəd su nasos stansiyası, 120 ədəd elektrik yarımstansiyası və transformatorlar tamamilə dağıdılmışdır. İşğalçılar Qubadlının zəngin təbiətinə, flora və faunasına qarşı ekoloji terror törətmiş, meşələri, nadir ağac və bitki növlərini məhv etmiş, mişar daşı, yəşəm, mərmərləşmiş əhəng daşı, tuf daşı, qum-gil, əqiq yataqlarını istismar etmişdir.

Rayon işğaldan azad olunduqdan sonra ərazinin minalardan təmizlənmə əməliyyatlarına başlanılmaqla bərpa və yenidənqurma işlərinə başlanılmış, Qubadlı-Eyvazlı avtomobil yolunun tikintisi aparılmış, 2021-ci ildə Xudafərin-Qubadlı-Laçın avtomobil yolundan Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun tikintisinə başlanılmış, 2023-cü il sentyabr ayının 5-də "Yeni Qubadlı-Laçın avtomobil yolunun tikintisi ilə bağlı sərəncam imzalanmışdır.

Qubadlı şəhərində inzibati binanın, 91 çarpayılıq Mərkəzi Xəstəxana binasının, 600 şagird yerlik tam orta məktəb binası, İşğal və Zəfər muzeylərinin, Zilanlı, Mahruzlu kəndlərinin tikintisinin davam etdirilməsiylə bərpa işləri davam etdirilir.

Şəhər Günü münasibətilə Azərbaycan Milli Kitabxanası tərəfindən "Qubadlı Şəhəri Günü" adlı virtual və ənənəvi kitab sərgisi hazırlanaraq istifadəçilərə təqdim edilmişdir.

Ədəbiyyat:

Vətən müharibəsinin 29-cu günü: Qubadlı şəhəri işğaldan azad olundu / Z. Bayramova // Səs.– 2022.– 25 oktyabr.– S.5.

Qəhrəmanlar yurdu övladlarını gözləyir : 25 Oktyabr Qubadlı Şəhəri Günüdür / M.Abdullayev // Xalq qəzeti.– 2023.– 25 oktyabr.– S.9.

Qubadlı Şəhəri Günü / İ.Qayıbzadə // 525-ci qəzet.– 2024.– 25 oktyabr (№196).– S.11.

Şükürbəyli və Horovlu kəndlərində tikinti işləri son tamamlanma mərhələsindədir" // Azərbaycan.– 2025.– 5 oktyabr (№ 210).– S.3.

Qubadlı-qəhrəmanlıq, qayıdış və yenidənqurma rəmzi /F.Həsənov //Səs.-2025.- 28 oktyabr (№197).- S.11.

Azadlığa qovuşan Qubadlının Şəhər Günü /Z.Bayramova //Səs.-2025.- 25 oktyabr (№196).- S.8-9.

Qubadlının azadlığına qovuşmasından beş il ötür /S.Azadi //İki sahil.-2025.- 23 oktyabr (№192).- S.7.

Tarixi Qələbənin parlaq nümunəsi /K.Bayramov// Azərbaycan .-2025.-25 oktyabr (№ 229).- S.4.

Şanlı Zəfərə aparan yol: Qubadlının azadlığı müharibənin taleyini həll etdi /Ə.Qardaşxanova //Azərbaycan.-2025.-25 oktyabr (№ 229).- S.4.

NOYABR



2 24 oktyabr - 22 noyabr Əqrəbin Nişanı sudur. Marsın və Neptunun himayəsindədir. Günəşin Əqrəb bürcündən keçdiyi dövrdə doğulanlar güclü xarakterli olurlar.

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	20	21	22
23	24	25	26	27	28	29

- *Şuşa şəhəri işğaldan azad olundu (08.11.2020)*
- *Azərbaycan Bayrağı Günü (09.11.2009)*
- *Azərbaycan Rusiya və Ermənistan liderləri Dağlıq Qarabağdav 44 gündür davam edən döyüşlərin dayandırılması barədə bəyanat imzalamışdır (10.11.2020)*
- *Konstitusiya Günü (12.11.1995)*
- *Milli Dirçəliş Günü (17.11.1992)*

Şəhərsalma və Memarlıq İli



Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu XVIII əsrdə Azərbaycan şəhərsalma sənətinin mühüm nümunəsi olaraq Qarabağ xanlığının paytaxtı kimi salınmışdır. Pənahəli xan 1747-ci ildə müstəqillik əldə etdikdən sonra etibarlı iqamətgah tikmək məqsədilə Bayat (1748) və Şahbulağı (1752) qəsrlərini inşa etmiş, daha sonra 1753-cü ildə Şuşa qalasının əsası qoyulmuşdur. Şuşa yaylası dəniz səviyyəsindən 1300–1600 metr hündürlükdə yerləşir və yalnız şimal-şərq hissəsində müdafiə divarları tikilmişdir. İlk adı Pənahabad olan şəhər, qısa müddət sonra təbii relyefə uyğun olaraq Şuşa adı ilə tanınmışdır.

Şuşa qalasının dörd əsas qapısı — Gəncə, İrəvan və iki yan qapı — olmuşdur. İçqala mürəkkəb formalı planlı saray kompleksi, divanxana və digər binalardan ibarət olmuşdur. Qala divarları və bürclər strateji mövqeyə uyğun tikilmiş, binalar müdafiəni təmin edəcək şəkildə yerləşdirilmişdir. Şəhərin ilkin 9 məhəlləsi aşağı relyefdə, daha sonra formalaşan 8 yuxarı məhəllə şərqdə, qərb hissəsi isə əsasən rus işğalından sonra salınmışdır. Şuşada hər məhəllədə dini və ictimai mərkəz — məscid, mədrəsə, hamam, dükan və bulaq mövcud olmuşdur. Məhəllə məscidlərinin interyerləri dini memarlıq tələblərinə uyğun planlanmışdır. Şuşada memar Kərbəlayi Səfi xan Qarabağinin tikdiyi Gövhər ağa məscidləri memarlıq üslubuna görə fərqlənmişdir. Şuşa şəhəri XVIII–XIX əsrlərdə həm siyasi, həm də iqtisadi-mədəni mərkəz olmuş, ticarət mərkəzləri və meydanlar şəhər planının əsasını təşkil etmişdir.

1988-ci ildə Şuşa şəhəri Azərbaycan Respublikasının Dövlət Tarix-Memarlıq Qoruğu elan edilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2021-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.

NOYABR 2026



Milli ədəbiyyat

Şair, nasir, jurnalist Mehdiyev Tofiq Mahmud oğlunun (Tofiq Mahmud) (06.11.1931-04.04.1997) anadan olmasının 95 illiyi 900
Xalq şairi, ictimai xadim, ədəbiyyatşünas Abizadə Balaş Allahbaxış oğlunun (Balaş Azəroğlu) (11.11.1921-24.04.2011) anadan olmasının 105 illiyi .901
Şair, ssenari müəllifi, kino redaktoru Kərimov Əhməd Musa oğlunun (Əhməd Oğuz) (13.11.1961-31.08.2021) anadan olmasının 65 illiyi
Əməkdar jurnalist, ədəbiyyatşünas, nasir, dramaturq, professor Babayev Aqşin Əlisəttar oğlunun (23.11.1936-10.06.2020) anadan olmasının 90 illiyi 902



Dünya ədəbiyyatı

İran şairi, filoloq və ictimai xadim Bahar Məhəmmədtağı Mirzə Kazım oğlunun (Məlik Üş-şüəra) (07.11.1886-21.04.1951) anadan olmasının 140 illiyi 903
Rus yazıçısı Dostoyevski Fyodor Mixayloviçin (11.11.1821-09.02.1881) anadan olmasının 205 illiyi
Türk şairi, yazıçı, jurnalist Mustafa Nihad Bəhramoğlunun (Nihad Bəhram) (18.11.1946) anadan olmasının 80 illiyi 904
Türk şairi, yazıçı, tərcüməçi Səid Faiq Abasıyanıq (Sait Faik Abasıyanık) (18.11.1906 -11.05.1954) anadan olmasının 120 illiyi 905



Rəssamlıq. Heykəltəraşlıq

Əməkdar rəssam Rəsulzadə Rais Azər oğlunun (01.11.1946) anadan olmasının 80 illiyi 906
Xalq rəssamı, boyakar Kazımov Davud Mehdi oğlunun (09.11.1926-14.02.2015) anadan olmasının 100 illiyi 907
Xalq rəssamı, boyakar Mustafayeva Güllü Hacağa qızının (12.11.1921-18.05.1994) anadan olmasının 105 illiyi
Xalq rəssamı, ornamentçi rəssam, xalçaşünas və sənətşünas Kərimov Lətif Hüseyn oğlunun (17.11.1906-09.09.1991) anadan olmasının 120 illiyi 908



Musiqi. Opera. Balet

Xalq artisti, professor, Azərbaycan Dövlət Simfonik Orkestrinin baş konsertmeyster İbrahimova Şəhla İbrahim qızının (02.11.1961) anadan olmasının 65 illiyi 909
Müğənni Hadıyev Hüseynağa Məmməd oğlunun (19.11.1946-12.01.1994) anadan olmasının 80 illiyi
Xalq artisti, opera ifaçısı Əsgərov Əli Rəhim oğlunun (25.11.1961-23.02.2023) anadan olmasının 65 illiyi 910

NOYABR 2026



Teatr. Kino

Əməkdar artist, teatr, televiziya, kino və dublyaj aktrisası Əliyeva Şəfəq Rəsul qızının (06.11.1956) anadan olmasının 70 illiyi 911
Xalq artisti, Əməkdar incəsənət xadimi, kinooperator, rejissor Karmen (Kornman) Roman Lazareviçin (16(29).11.1906-28.04.1978) anadan olmasının 120 illiyi 912
Xalq artisti, sirk artisti, akrobat Axundov Tofiq Hüseyn oğlunun (28.11.1941) anadan olmasının 85 illiyi



İkinci Qarabağ Müharibəsi Şəhidləri

Kiçik gizir Tağıyev Fuad Mərdan oğlunun (01.11.1996-28.10.2020) anadan olmasının 30 illiyi 913
Baş leytenant Gözəlov Xalid Həsən oğlunun (04.11.1996-27.09.2020) anadan olmasının 30 illiyi 914
Əsgər Nəcəfov Fərid Fərman oğlunun (05.11.2001-10.10.2020) anadan olmasının 25 illiyi 915
MAHHXHQ əsgər İsmayılzadə Vaqif Vüqar oğlunun (06.11.1996-20.10.2020) anadan olmasının 30 illiyi 915
Kapitan Quliyev Şahmar Kəmaləddin oğlunun (07.11.1991-28.09.2020) anadan olmasının 35 illiyi 916
Əsgər Mustafayev Nurlan Ağa oğlunun (08.11.1991-14.10.2020) anadan olmasının 35 illiyi 917
Əsgər Bədirov Nəcməddin Nurəddin oğlunun (08.11.2001-10.10.2020) anadan olmasının 25 illiyi 917
Əsgər Dəmirov Ədalət Nüsrət oğlunun (09.11.2001-02.10.2020) anadan olmasının 25 illiyi 918
MAHHXHQ kiçik çavuş Allahverdiyev Rövşən Fərrux oğlunun (10.11.1991-27.09.2020) anadan olmasının 35 illiyi 918
MAHHXHQ kiçik çavuş Dadaşov Əjdər Pənah oğlunun (12.11.1996-29.09.2020) anadan olmasının 30 illiyi 919
Əsgər Qasımov Səbuhi Telman oğlunun (12.11.2001-18.11.2020) anadan olmasının 25 illiyi 919
Əsgər Qocayev Günəş Əfqan oğlunun (12.11.1996-31.10.2020) anadan olmasının 30 illiyi 920
Əsgər Qarayev Elnur Qalib oğlunun (13.11.1996-02.11.2020) anadan olmasının 30 illiyi 920
MAHHXHQ çavuş Şahbazov Abas Cavad oğlunun (13.11.1996-05.10.2020) anadan olmasının 30 illiyi 921
Əsgər Hacıyev Kənan İmran oğlunun (17.11.2001-06.10.2020) anadan olmasının 25 illiyi 921

Baş leytenant Abbasbəyli Həmid Cavanşir oğlunun (17.11.1991-19.10.2020) anadan olmasının 35 illiyi 922
Mayor Məmmədov Xəyal Ağabəy oğlunun (18.11.1986-20.10.2020) anadan olmasının 40 illiyi 923
Əsgər Hüseynov İsa Sahib oğlunun (19.11.2001-09.11.2020) anadan olmasının 25 illiyi 924
Əsgər Güləliyev Vüsal Azər oğlunun (19.11.2001-29.10.2020) anadan olmasının 25 illiyi 924
Mayor Cəfərov Ruslan Gündüzoviç oğlunun (19.11.1976-11.10.2020) anadan olmasının 50 illiyi 925
Baş leytenant Rəhimov Elvin Ehtiram oğlunun (20.11.1991-04.11.2020) anadan olmasının 35 illiyi 926
MAHHXHQ əsgər Həsənov Məqsəd Mahir oğlunun (21.11.1991-07.10.2020) anadan olmasının 35 illiyi 926
Əsgər Mürsəliyev Anar Səfər oğlunun (21.11.2001-22.10.2020) anadan olmasının 25 illiyi 927
Əsgər Şirinov Tale Qadir oğlunun (21.11.1996-06.10.2020) anadan olmasının 30 illiyi 927
Leytenant Məmmədzadə Elvin İlham oğlunun (22.11.1996-09.11.2020) anadan olmasının 30 illiyi 928
Əsgər Nəzərov Elməddin İsmayıl oğlunun (22.11.1996-30.10.2020) anadan olmasının 30 illiyi 929
Əsgər Nurzaliyev Elməddin Səfər oğlunun (22.11.1996-09.11.2020) anadan olmasının 30 illiyi 929
Əsgər İbrahimli Məhəmmədəli Mütəllim oğlunun (22.11.1996-13.10.2020) anadan olmasının 30 illiyi 930
MAHHXHQ kiçik çavuş Rəhimov Nurlan Ələvsəd oğlunun (22.11.1981-30.09.2020) anadan olmasının 45 illiyi 931
Əsgər Daşdəmirov Elmar Seymur oğlunun (23.11.2001-18.10.2020) anadan olmasının 25 illiyi 931
Əsgər Məmmədov Rəcəb Yolçu oğlunun (23.11.1996-07.11.2020) anadan olmasının 30 illiyi 932
Əsgər Məmmədov Rza Əskər oğlunun (23.11.2001-27.09.2020) anadan olmasının 25 illiyi 932
Əsgər Manafov Osman Natiq oğlunun (24.11.1991-27.10.2020) anadan olmasının 35 illiyi 933
MAHHXHQ kiçik çavuş Hümbətov Şahin Əlicuvan oğlunun (24.11.1986-28.10.2020) anadan olmasının 40 illiyi 933
Əsgər Quliyev Samir Məhərrəm oğlunun (25.11.2001-28.09.2020) anadan olmasının 25 illiyi 934
MAHHXHQ əsgər İsmayılov Taleh Səndəl oğlunun (26.11.1986-04.11.2020) anadan olmasının 40 illiyi 934

Əsgər Müseyibli Ülvi Şakir oğlunun (27.11.1991-05.11.2020) anadan olmasının 35 illiyi 935
Əsgər Poladov Elçin Adil oğlunun (27.11.2001-06.11.2020) anadan olmasının 25 illiyi 935
Əsgər Abışov Tacəddin Elşən oğlunun (27.11.2001-09.10.2020) anadan olmasının 25 illiyi 936
Əsgər Abışov Fərid Əlfayım oğlunun (28.11.1996-19.10.2020) anadan olmasının 30 illiyi 936
MAHHXHQ kiçik çavuş İsgəndərov Bəhruz Abbas oğlunun (29.11.1986-29.10.2020) anadan olmasının 40 illiyi 937
MAHHXHQ əsgər Süleymanov Elçin Tehran oğlunun (29.11.1991-30.09.2020) anadan olmasının 35 illiyi 937
Kapitan Hüseynov Şahnur Şahin oğlunun (30.11.1991-27.09.2020) anadan olmasının 35 illiyi 938



Siyasət. Hüquq. Hərbi iş

Əməkdar dövlət qulluqçusu Şahbazov Oqtay Qəşəm oğlunun (01.11.1941) anadan olmasının 85 illiyi 939
Dövlət xadimi Xəlilov Qurban Əli oğlunun (15.11.1906-20.03.2000) anadan olmasının 120 illiyi 940
Türk hərbçisi və siyasi xadim Ənvər Paşa Hacı Əhməd oğlunun (İsmail Enver) (23.11.1881-04.08.1922) anadan olmasının 145 illiyi
İqtisad elmləri namizədi, dövlət xadimi Əsədov Əli Hidayət oğlunun (30.11.1956) anadan olmasının 70 illiyi 941



Fəlsəfə. İqtisadiyyat

Əməkdar incəsənət xadimi, AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor, Məmmədəliyeva Sevda Yusif qızının (14.11.1946) anadan olmasının 80 illiyi 942



Mədəniyyət. Maarif. Təhsil


Əməkdar artist, aparıcı, diktor, ssenari müəllifi Nailə İslamzadənin (02.11.1961) anadan olmasının 65 illiyi 943
Əməkdar mədəniyyət işçisi, şair, jurnalist Əsgərov İbrahim Məhəmməd oğlunun (İbrahim Göyçaylı) (12.11.1936-24.02.2007) anadan olmasının 90 illiyi 944
Ədəbiyyatşünas, publisist, filologiya elmləri doktoru Vəlixanov Nadir İsmayıl oğlunun (21.11.1926-27.06.1995) anadan olmasının 100 illiyi 945
Ədəbiyyatşünas, tənqidçi Mahmudzadə Ələkbər Mahmud oğlunun (Əli Nazim) (24.11.1906-23.08.1941) anadan olmasının 120 illiyi 946

Filologiya üzrə fəlsəfə doktoru, şair, ədəbiyyatşünas Kərimli Xanəli Abbasəli oğlunun (Xanəli Kərimli) (27.11.1951) anadan olmasının 75 illiyi 947



Coğrafiya. Geologiya

Akademik, geologiya-mineralogiya elmləri doktoru, professor Məmmədov Ələşrəf Veysəl oğlunun (01.11.1931-26.08.2003) anadan olmasının 95 illiyi 948



Kimya. Biologiya. Tibb

AMEA-nın müxbir üzvü, kimya elmləri doktoru, professor Qurbanov Telman Xudam oğlunun (06.11.1936-17.10.1990) anadan olmasının 90 illiyi 949
Rus alimi-təbiətşünası, kimyaçı Lomonosov Mixail Vasilyeviçin (19.11.1711-15.04.1765) anadan olmasının 315 illiyi
AMEA-nın müxbir üzvi, kimya elmləri doktoru Mustafayev İslam İsrafil oğlunun (22.11.1951) anadan olmasının 75 illiyi 950
Tibb elmləri doktoru, professor Kərimov Əflatun Xudkar oğlunun (23.11.1941) anadan olmasının 85 illiyi 951
Tibb üzrə fəlsəfə doktoru, şair-publisist Quliyev Musa İsa oğlunun (25.11.1961) anadan olmasının 65 illiyi 952
AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, professor, tibb elmləri doktoru Qarayev Zakir Ömər oğlunun (27.11.1941-24.11.2020) anadan olmasının 85 illiyi
Əməkdar elm xadimi, biologiya elmləri doktoru, professor Qafarova Roza Zeynal qızının (29.11.1926-23.06.1996) anadan olmasının 100 illiyi



Texnika. Mühəndis işi

AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Kəlbəliyev Qüdrət İsfəndiyar oğlunun (13.11.1946) anadan olmasının 80 illiyi ..953
Texnika elmləri doktoru, professor Əli-zadə Rasim İsmayıl oğlunun (28.11.1941) anadan olmasının 85 illiyi



Kitabxanaşünaslıq. Biblioqrafiya

Əməkdar mədəniyyət işçisi, professor, tarix üzrə fəlsəfə doktoru Tahirov Kərim Məhəmməd oğlunun (12.11.1951) anadan olmasının 75 illiyi.....954
N.Gəncəvi adına Lökbatan qəsəbə kütləvi kitabxanasının (16.11.1976) yaradılmasının 50 illiyi



Digər tarixi hadisələr

“Füyuzat” jurnalının nəşr olunmasının 120 illiyi (01.11.1906) 955
Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi təsis edilmişdir (01.11.1991)


NOYABR 2026

Kənd Təsərrüfatı İşçilərinin Peşə Bayramı Günü (01.11.2008)
Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumu YUNESKO – (UNESCO – United Nations Educational, Scientific and Cultural Organization) fəaliyyətə başlamışdır (04.11.1946)
Azərbaycanda Radio və Televiziya İşçilərinin Peşə Bayramı Günü (06.11.1926)
Azərbaycan radiosunun yaradılmasının (06.11.1926) 100 illiyi 956
Bakı Metropoliteni İşçilərinin Peşə Bayramı Günü (08.11.2006)
Şuşa rayonu işğaldan azad olunmuşdur (08.11.2020)
Zəfər Günü (08.11.2020) 957
Şuşa Şəhəri Günü (08.11.2023) 958
Zəfər Muzeyinin açılışı olmuşdur (08.11.2025)
Azərbaycan Respublikasının dövlət müstəqilliyi dünya dövlətləri içərisində ilk olaraq Türkiyə Cümhuriyyəti tərəfindən tanınmışdır (09.11.1991)
Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmişdir (09.11.2001)
Dövlət Bayrağı Günü (09.11.2009) 959
Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən Dağlıq Qarabağda 44 gün davam edən döyüşlərin dayandırılması barədə üçtərəfli bəyanat imzalanmışdır (10.11.2020)
Konstitusiya Günü (12.11.1996) 960
Beynəlxalq Gözdən Əlillər Günü (13.11.2002)
Ümumdünya Diabetlə Mübarizə Günü (14.11.1991)
Beynəlxalq Tolerantlıq Günü (16.11.1995)
Milli Dirçəliş Günü (17.11.1992) 961
Ümumdünya Uşaqlar Günü (Ümumdünya Uşaq Hüquqları Günü) (20.11.1954)
BMT-nin Baş Assambleyası tərəfindən Uşaq hüquqları Konvensiyası (20.11.1989) qəbul edilmişdir
Qarakənd faciəsi (20.11.1991) 962
Ağdam şəhəri günü (20.11.2020) 963
Ümumdünya Salam Günü (21.11.1973)
Ümumdünya Televiziya Günü (21.11.1996)
Dünya Fəlsəfə Günü (21.11.2002)
Ədliyyə İşçilərinin Peşə Bayramı Günü (22.11.2000)
Kəlbəcər Şəhəri Günü (25.11.2023) 964
Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü (25.11.1999)
Azərbaycan Respublikasının Ali Soveti tərəfindən DQMV-nin statusu ləğv olunmuşdur (26.11.1991)
Dünya İnformasiya Günü (26.11.1994)
DQMV ləğv edilərək Martuni və Hadrut rayonlarının bazası əsasında Xocavənd rayonu yaradılmışdır (26.11.1991)
“Məktəb” ədəbi, elmi jurnalın nəşr olunmasının (29.11.1911) 115 illiyi 965
Qaraheybət faciəsi (30.11.2021) 966
Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü (30.11.1988)

Tofiq Mahmud – 95

(1931-1997)

Şair, nasir



Tofiq Mahmud oğlu Mehdiyev (Tofiq Mahmud) 1931-ci il noyabr ayının 6-da Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda anadan olmuşdur.

O, Bakıdakı 31 saylı məktəbdə orta təhsil, 1949-1954-cü illərdə isə Bakı Dövlət Universitetinin filologiya fakültəsində ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1954-cü ildə indiki Mədəniyyət Nazirliyinin Mədəni Maarif Müəssisələri İdarəsində metodiki kabinetin metodisti kimi başlamış, sonra 1958-1961-ci illərdə "Azərbaycan müəllimi" qəzeti redaksiyasında xüsusi müxbir, 1961-ci ildə "Göyərçin" jurnalı redaksiyasında ədəbi işçi olmuşdur. 1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü idi.

"Gəzməsəm də, görməsəm də" adlı ilk şeiri 1953-cü ildə "İnqilab və mədəniyyət" jurnalında dərc olunmuşdur. 1976-cı ildən "Göyərçin" jurnalının redaktoru vəzifəsində işləmişdir. Azərbaycan Respublikası Uşaq Fondunun Bakı şöbəsinin sədri, 1989-cu ildən həm də rəyasət heyətinin üzvü olmuşdur. Azərbaycan Yazıçılar Birliyi Uşaq və gənclər ədəbiyyatı şurasının sədri seçilmişdir.

Tofiq Mahmudun lirikası səmimi və təbii hisslərin poetik tərcümanı kimi diqqət çəkmişdir. Həmişə gözəlliyi vəsf edən, ana yurdun şəninə şeirlər qoşan, qəlbi ülvi məhəbbətin eşqi ilə çırpınan şairin ətrafda müşahidə etdiyi nöqsan və qüsurlara, mənəviyyatsızlara öz baxışı, tənqidi müna sibəti olmuş, şeirlərində belə "simasız"ları tənqid etmişdir.

Onun uşaqlar üçün qələmə aldığı "Utancaq oğlan", "Leylək yuvası", "Dibçək", "Qızımın sualları" kimi şeirləri də yığcam, lakonik və maraqlıdır. Kiçikyaşlı oxucuların bilik səviyyəsinə, dünyagörüşünə, maraq dairəsinə çox uyğun olan bu şeirlərdə verilən suallarda uşaq təbiətinin sadəliyi, cavablarda isə şair müdrikliyinin çalarları görünür.

Şairin yaradıcılığında ilhamla qələmə aldığı poemalar da xüsusi yer tutur. "Meşədə qalan nəğmə", "Üç qız", "Fırtına gözəlliyi", "Sədaqətli günlər" adlı poemalarda müəllifin duyğu və düşüncələri oxucuda olduqca xoş ovqat yaradır.

Tofiq Mahmud bədii tərcümə ilə də məşğul olmuşdur. Onun tərcüməsində Xuta Berulavanın "Quş südü", İsabəy İshaqovun "Hər şeyi öyrənmək istəyən" kitabları indi də oxunur.

Şairin öz əsərləri də xarici ölkə xalqları dillərinə tərcümə olunmuşdur.

1984-cü ildə Azərbaycan Komsomolu mükafatı laureatı olmuş, Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir.

Tofiq Mahmud 1997-ci il aprel ayının 4-də Bakıda vəfat etmişdir.

Şairin adına hər il ən yaxşı uşaq şeirlərinin müəlliflərinə təqdim olunan "Tofiq Mahmud mükafatı" təsis edilmişdir.

Ədəbiyyat:

Seçilmiş əsərləri: 3 cilddə / T.Mehdiyev; tərt. Y.Əsgərova; red. R.Yusifoğlu. - C. 1. - Bakı: Tuna, 2013.- 712 s. Xeyirxah adam: Nağıllar / T.Mahmud; tərt. ed. və red. R.Yusifoğlu; rəs. İ.Tofiqoğlu. - Bakı: Azərbaycan, 2001.- 45 s. 7.

Yaşəmənim: şeirlər, mənzum nağıllar və poemalar / T.Mahmud; R.Həsənzadə. - [Bakı]: ["Üç alma" TEAS Press], [2018]. - 384 s.

Uzaqda ucalan dağlar: roman / T.Mahmud. - Bakı: Elm və təhsil, 2016. - 379 s.

Tofiq Mahmud (Mehdi yev Tofiq Mahmud oğlu): biblioqrafiya / Azərb. Resp. Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Resp. Uşaq Ki tabxanası; tərt.: N.Tahirova, L.Qafarova, T.Əzizova; red. Y.Əsgərova; ixt. red. və bu rax. məsul Ş.Qəmbərova; ön sözün müəl. F.Əsgərli. - Bakı, 2018. - 271, [1] s


Uşaq ədəbiyyatında Tofiq Mahmud imzası / elmi red. E. Akimova ; məsul red. A. Bağırlı ; ön söz. müəl. İ. Həbibbəyli. – Bakı. – Elm və təhsil. – 2023. – 168, [2] s.

Akimova, E. Tofiq Mahmud-yaxşı işlərin "günahkar"ı / E. Akimova // Ədəbiyyat qəzeti.- 2024.- 3 fevral, №4.- S.10-12.

Balaş Azəroğlu – 105

(1921-2011)

Şair



Ə d ə b i y y a t :

Seçilmiş əsərləri: Şeirlər. Poemalar / Balaş Azəroğlu. - Bakı: Öndər, 2004.- 288 s.

Xatirələrim / Balaş Azəroğlu; nəşrə hazırl. və elmi red. V.Sultanlı. - Bakı: Nurlan, 2008. - 224 s.

Vüsal körpüsü: [şeirlər] / Balaş Azəroğlu; hazırla yan V.Ərzi.- Qum: [Ustad motəhri], [2017]. [1395].- 285 s.

Bərdəli, B. Azəroğlunun yaradıcılıq yolu / B.Bərdəli; elmi red. S.Əmirov. - Bakı: Nurlan, 2007. - 175 s. Əliyeva, A. O taylı, bu taylı Vətənin azadlıq carçısı - Balaş Azəroğlu / A.Əliyeva // Türküstan. - 2018. - 13-19 noyabr. - S. 10.

Seyidzadə, H.T. Gözəl lirik şeirlərin, bənzərsiz poemaların müəllifi: Balaş Azəroğlu / T.Seyidzadə // Azad Azərbaycan. - 2018. - 13 noyabr. - S. 7.

Fərəcov, S. Güneyli-quzeyli poeziyamızın görkəmli nümayəndəsi /S.Fərəcov // Mədəniyyət. - 2019. - 20 noyabr. - S. 6.

Azəroğlu, B. 21 Azər hərəkatı xatirələrdə / B.Azəroğlu // Xalq qəzeti .– 2023.- 12 mart.- S.9.

Balaş Allahbaxış oğlu Abizadə (Balaş Azəroğlu) 1921-ci il noyabr ayının 11-də Bakı şəhərində anadan olmuşdur.

Orta təhsilini Bakıda 21 saylı məktəbdə almışdır. Məktəbdə oxuyarkən ədəbiyyata böyük həvəs göstərmiş Respublika Pionerlər Evində ədəbiyyat dərnəyinə üzv olmuşdur. 1936-cı ildə "Pioner" jurnalında "Dnepr" adlı ilk şeiri dərc olunmuşdur.

1937-ci ildə ailəsi ilə birgə Cənubi Azərbaycanın Ərdəbil şəhərinə sürgün edilmişdir. Burada fars dilini öyrənmək üçün gecə kurslarında təhsil almışdır. 1941-ci ildə İranda Milli azadlıq hərəkatına qoşulmuş, 1942-ci ildə İran Xalq Partiyasına daxil olmuşdur. 1943-cü ildə "Ziddi faşist" təşkilatı Ərdəbil Komitəsinə sədr seçilmişdir.

İlk şeir kitabları isə 1943-1945-ci illərdə Ərdəbildə və Təbrizdə nəşr olunmuşdur.

1946-ci ildə Təbrizdə Milli Hökumət tərəfindən Azərbaycan Dövlət Radio Verilişləri Komitəsinin sədr müavini təyin olunmuş, həmçinin İran Azərbaycanı Milli Məclisinin deputatı seçilmişdir. 1947-1952-ci illərdə Bakıda ADU-nun (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsində təhsil almış, eyni zamanda, Cənubi Azərbaycan Yazıçılar Cəmiyyətinin sədri vəzifəsində çalışmışdır. 1954-1955-ci illərdə Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinin mətbu orqanı olan "Azərbaycan" qəzetinin redaktoru, 1959-1964-cü illərdə ADF MK nın sədr müavini olmuşdur.

O, Ərdəbildə çıxan "Yumruq" qəzetinə redaktorluq etmişdir. "Vətən yolunda" qəzeti redaksiyasının müsabiqəsində "Səttarxan" şeirinə görə mükafata layiq görülmüşdür.

1966-cı ildə filologiya elmləri namizədi elmi adını almış, 1963-1982-ci illərdə Azərbaycan EA Ədəbiyyat İnstitutunun Orta əsrlər ədəbiyyatı şöbəsində baş elmi işçi işləmişdir. 1981-1991-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının katibi vəzifəsində çalışmışdır. 1991-ci ildə Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin Cənubi Azərbaycan ədəbiyyatı üzrə baş müşaviri təyin olunmuş və Azərbaycan Yazıçılar Birliyi Ağsaqqalar Şurasının üzvü seçilmişdir.

Şairin "Fədailər marşı", "Təbrizin baharı", "Azərbaycan", "Aşıq Hüseynə cavab" və s. şeirlərində vətən həsrəti ilə bərabər, bütöv Azərbaycan arzuları və bu yolda mübariz bir xalqın istəyi, amalı öz əksini tapmışdır. Müxtəlif illərdə "Şeirlər", "Savalan", "Mübarizə yollarında", "Gənclik dostlarım", "Mənim nəğmələrim", "Səhər şəfəqləri", "Sənətin qüdrəti", "Hafizin qəbri üstündə", "Elə oğul istəyir Vətən", "Dünənim, bu günüm, sabahım", "Gəl, ay bahar", "Sinəm Savalan dağıdır", "Bir kürsü istəyirəm" adlı kitabları nəşr olunmuşdur. Əsərləri ingilis, rus, fars, özbək, fransız, gürcü, ukrayn və latış dillərinə tərcümə olunub. Çoxcildlik "Azərbaycan ədəbiyyatı"nın müəlliflərindən biridir. Farscadan Nizaminin "Yeddi gözəl" poemasını, Füzulinin qəzəllərini, Şəhriyarın şeirlərini tərcümə etmişdir. Əsərləri SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

Ədəbi və ictimai fəaliyyətinə görə "Şərəf nişanı", "Xalqlar dostluğu" ordenləri ilə "21 Azər", "Firdovsi" və digər medallarla, iki dəfə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir.

Şair 1981-ci ildə Azərbaycanın "Xalq şairi" fəxri adına layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

Balaş Azəroğlu 2011-ci il aprel ayının 24-də Bakı şəhərində vəfat etmişdir. İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Aqşin Babayev – 90

(1936-2020)

Nasir



Aqşin Əlisəttar oğlu Babayev 1936-cı il noyabr ayının 23-də anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1954-1959-cu illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) fliologiya fakültəsində təhsil almışdır.

Ədəbi yaradıcılığa 1958-ci ildə "Oktyabr işıqları" almanaxında çap olunmuş "Azadlıq uğrunda" hekayəsi ilə başlamışdır.

Yeddinci sinifdə oxuyanda "Bahar" adlı ilk şeirini yazmış və şairin sözlərinə mahnılar bəstələnmişdir.

1958-1959-cu illərdə "Avtomobil nəqliyyatçısı" qəzetində korrektor işləmişdir.

O, 1961-1965-ci illərdə ADU-nun Şərqşünaslıq ədəbiyyatı üzrə qiyabi aspiranturanı bitirmiş və "Nazim Hikmətin dramaturgiyası" mövzusun da namizədlik dissertasiyasını müdafiə etmişdir.

1959-1972-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində kiçik redaktor, redaktor, böyük redaktor, baş redaktorun müavini, baş redaktor olmuşdur.

Nasir Aqşin Babayev 1961-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin, 1978-ci ildən isə Azərbaycan Yazıçılar Birliyinin üzvü idi.

1964-cü ildə onun "Cazibəli üfüqlər" adlı ilk hekayələr kitabı çapdan çıxmışdır. "Həmişə bahar", "Bir parça həyat", "Ağ ulduzlar", "Bir ürəyin hərarəti", "Ayrılıq", "Söz gülləsi", "Dünyanın axırı", "Qələm və mikrofon", "Bir içim su istədim", "Göyərçinlər öpüşür" adlı kitabla rın müəllifidir. Aqşin Babayevin bu günədək 40 kitabı nəşr olunmuşdur.

1972-1975-ci illərdə Türkiyənin İskəndərun şəhərində tərcüməçilik fəaliyyəti ilə məşğul olmuşdur.

1975-1990-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində sədr müavini işləmişdir.

1996-cı ildən filologiya elmləri doktoru elmi adını, 1998-ci ildən professor elmi rütbəsini almışdır.

Ssenarisi əsasında çəkilmiş "Xilaskar" və "Oğul" pyesləri Heydər Əliyevə həsr edilmişdir. "Yaralar", "Cəza", "Tufan", "Düşmən", "Bir parça həyat" əsərləri tamaşaya qoyulmuş, ssenarisi əsasında telefilmlər çəkilmişdir. 1986-cı ildə "Kişilər az yaşadı" povest və hekayələr toplusu Moskvada rus dilində, "Nazim Hikmət və yaşamı" əsəri 1989-cu ildə kütləvi tirajla nəşr olunmuşdur.

1969-1979-cu illərdə 10 il ingilis, fransız, ərəb və ispan dillərində çap olunan "Moskow news" ("Moskva xəbərləri") qəzetinin Azərbaycan üzrə xüsusi müxbiri olmuşdur.

1991-2006-cı illərdə Azərbaycan Respublikası Milli Məclisinin Mətbuat xidməti şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

Aqşin Əlisəttar oğlu Babayev yaradıcı fəaliyyətinə görə 1970-ci ildə "Əmək rəşadətinə görə" medalı, 1980-ci ildə "SSRİ televiziya və radio əlaçısı" nişanı, 1986-cı ildə "Əmək Veteranı" medalı, Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir. 1987-ci ildə Azərbaycanın "Əməkdar jurnalist" fəxri adına layiq görülmüşdür. 1993-cü ildə "Qızıl qələm" və 1994-cü ildə "Həsən bəy Zərdabi", eləcədə "Yusif Məmmədəliyev", "Ustad sənətkar", "Nurlu qələm ustası" ali ədəbi mükafatı laureatı olmuşdur.

Türkiyədəki "Nazim Hikmət Kültür və Sanat Vakfı"nın fəxri üzvü idi.

2004-cü ildə Azərbaycan Respubli kası Prezidentinin Sərəncamı ilə ona II dərəcəli Dövlət müşaviri rütbəsi verilmişdir.

Aqşin Babayev 2020-ci il iyun ayının 10-da Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Seçilmiş əsərləri / Aqşin Babayev. - C. 1. - Bakı: Səda, 2005. - 316 s.

Bir içim su istədim...: Şeirlər / Aqşin Babayev. - Bakı:QappPoiliqraf, 2002. - 192 s.

Dünyanın axırı: (roman) / Aqşin Babayev; red. M.Ələkbərli; [ön söz əvəzi Kənan Hacı]. - Bakı: Elm və təhsil, 2019. - 365 s.

Səhnə. Ekran. Efir / Aqşin Babayev. - Bakı: Borçalı, 2008. - 436 s.

Seçilmiş əsərlər / Aqşin . Babayev .– Cild 5, Romanlar.- Bakı: Elm və təhsil. – 2021.- 555, [1] s.

Dirilər / Aqşin Babayev // Ədəbiyyat qəzeti. - 2016. - 24 dekabr. - S. 24.

Abasova, S. Aqşin Babayev - həyatı, yaradıcılığı: [monoqrafiya] / S.Abasova. - Bakı: Elm və təhsil, 2011. - 221, [1] s.

Aqşin Babayev: Soraq kitabçası / Elmi red. V.Məmmədəliyev; tərt və red. Ceyhun Quliyev. - Bakı: Borçalı, 2004. – 152 s.

Babayev, A. Gözün aydın, Ulu öndər / A. Babayev // Yeni Azərbaycan. –2021.- 12 noyabr.- S.8.

Bahar Məhəmmədtağı – 140

(1886-1951) *İran şairi*



Məhəmmədtağı Bahar 7 noyabr 1886-cı ildə Xorasanda, Məşhəd şəhərində anadan olmuşdu.

Mükəmməl mədrəsə təhsili almışdı.

O, Nəsrəddin şahın dövründə Səburi təxəllüsü ilə tanınmışdı. Məhəmmədtağı "Bahar" təxəllüsü ilə şeirlər yazırdı. Ona Məlik Üş-şüəra ləqəbini isə Müzəffərəddin şah Qacar vermişdi. Mənası "şairlərin başçısı" deməkdir. Bəzi mənbələrdə isə O, Bahar təxəllüsünü, 1883-cü ildə atasını ziyarətə gəldiyi sırada azərbaycanlı şair Mirzə Nəsrullah Bahar Şirvanidən götürdüyü göstərilir.

Məmmədtağı Bahar Pəhləvi dövrünün şairi, söz yazarı, jurnalisti və siyasətçisi olmuşdur.

Məlik Üş-şüəra Bahar kimi tanınan Məmmədtağı Bahar vətən haqqında çoxlu şeirlər yazan İranın çağdaş dövrünün ən tanınmış şairlərindən biridir. O, bir çox sənətkarların İran ədəbiyyatı tarixindəki yerini müəyyənləşdirərək onların bədii-ictimai fikir tarixinə təsirini aydınlaşdırmışdır.

Məlik Üş-şüəra Bahar İranın ən təlatümlü illərində yaşamış, xalq arasında böyük nüfuza sahib olmuşdur. Hakimiyyətin müqavimətinə baxmayaraq, vətən uğrunda mübarizədən əl çəkməmişdir. Tanınmış şair, tədqiqatçı, jurnalist və siyasətçi İranın müasirlik və keçmiş ənənələrin qovuşuğunda olduğu bir dövrdə vətənpərvərlik yolunu seçmiş, şeirlərində də vətəni tərənnüm etmişdir.

Bahar 20 yaşında rəsmi olaraq Xorasan bölgəsinin məşrutəçiləri sırasına daxil olmuş və Milli Şura yarandıqdan sonra altı dəfə nümayəndə kimi fəaliyyət göstərmiş, "Nobahar" və "Təzə Bahar" adlı qəzetləri çap etdirib ictimaiyyəti maarifləndirmişdir.

Bahar Qacarlar dövründə mərkəzi hökümətin yaradılmasının tərəfdarı olsa da l Pəhləvi dövründə zindana salınaraq siyasi səhnədən çəkilmək məcburiyyətində qalmışdır.

Baharın nəsr və mənzum əsərlərinə hər cür ənənəvi şeir, ballada və nəğmələr, siyasi, tənqidi məqalə və çıxışlar, pyeslər, Pəhləvi mətnlərinin tərcümələri, poeziya və nəsr, partiyalar tarixi, xüsusən də Şahnamə mətnləri daxildir.

Baharın ən tanınmış əsəri Divanıdır. Gözəl balladaları və mahnıları arasında "Fərzi Bahar", "Səba küləyi çiçəyin üstündən keçir", "Qırılan ürək", "Göyərçin", "Rəqib gəl", "İşləyəndə", "Gəlin çiçəyi", "İsfahanda röya", "Sübh" kimi mahnıları qeyd etmək olar.

İnqilabın gəlişi ilə müasirlik və onun ideyaları tədricən ədəbiyyata,xüsusən də poeziyaya daxil olur. Bu dövrün ən mühüm siyasi-ictimai mövzularından biri şairlərin İrandakı dövrün siyasi abu havasını başa düşərək yazdığları şeirlərdə "Vətən" anlayışı idi.

Dövrünü digər şairləri kimi Məlik Üş-şüəra da İranın təlatümlü mühitində özünün və həmvətənlərinin həyatını və mübarizələrini təsvir edə bilmişdir.

Məhəmməd Rza Şəfii Kodkani Baharın poeziyası haqqında belə demişdir: "Baharın şeir dəryasında iki böyük balıq tutmaq istəsək, biri vətən məsələsi , biri azadlıq məsələsidir."

Bir jurnalist və siyasətçi kimi Bahar vətəninə təkcə yaşayış yeri kimi deyil, həm də mənəvi-emosional kimlik kimi baxırdı. O hər dəfə vətəndən danışanda vətənpərvərlik hissi oyatmaqla xalqa iğtişaşları xatırlatmağa çalışırdı. Məmmədtağı Bahar öz tarixi keçmişi ilə həmişə fəxr edirdi.

Görkəmli şair Məhəmmədtağı Bahar 22 aprel 1951-ci ildə Tehranda vəfat etmişdir. Tehranın Dərbənd kəndində Zahirəddövlə məzarlığında dəfn edilmişdir.

Ədəbiyyat:

Bahar, M. Qəzəllər: "Filoloji tərcümə" layihəsi / M.Bahar // 2017.- 4-6 mart.- S.15.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Məhəmmədtağı_Bahar

https://reyting.az/muellifler/enver-cingizoglu/77869-mirz-mhmmdta-bahar-eiriyytdn-siyast-qdr.html

Nihad Bəhram – 80

(1946) *Türk şairi, yazıçı*



Azərbaycanlı əsilli şair, yazıçı, jurnalist Nihad Bəhram 1946-cı il noyabrın 18-də Türkiyənin Qars şəhərində anadan olmuşdur. İbtidai və orta təhsilini Çankırı və Bursada tamamlamış, daha sonra isə İstanbul Haydarpaşa Liseyini bitirmişdir. Universitetdə oxuyarkən siyasi fəaliyyətlərinə görə həbs edildiyi üçün ali təhsili yarımçıq qalmışdır.

Nihad Bəhram Türkiyənin məhşur yazıçısı Ataol Bəhramoğlunun qardaşıdır. Bəhramın atası azərbaycanlıdır. Atası Qərbi Azərbaycanın Gorus şəhərində doğulmuşdur.

İlk şeiri 1967-ci ildə nəşr edilmişdir. Jurnalistika karyerasına 1970-ci ilin mart ayında "Halkın dostları" jurnalında başlayan Nihad Bəhram bir il sonra sözügedən nəşrin baş redaktoru olmuşdur. 1975-ci ildə böyük qardaşı Ataol Bəhramoğlu ilə birlikdə "Militant" jurnalını nəşr etdirmişdir. Bundan başqa, şeir və məqalələri Ataol Bəhramoğlu ilə birlikdə nəşr etdirdiyi "Soyut", "Gerçek", "Güney", "Varlık" və "Yasakmeyve" jurnallarında dərc olunmuşdur.

1972-ci ildən çapdan çıxan ilk şeir kitabı "Həyatımıza dair şeirlər" qadağan edilmiş, dövrü mətbuatdakı yazılarına görə, 1971-ci il martın 12-də Türkiyədə baş verən hərbi çevrilişdən sonra həbs olunmuşdur. Cəzasını hərbi həbsxanada çəkmiş, həbsdən çıxdıqdan sonra bir müddət jurnalistika ilə məşğul olmuşdur.

"Vatan" qəzetində dərc olunmuş solçu inqilabçılar Dəniz Gəzmiş, Yusuf Aslan və Hüseyn İnanın həyat və mübarizələrindən bəhs edən silsilə məqalələrini "Dar ağacında üç fidan" adıyla çap etdirmişdir. Bu məqalə silsiləsi və şeirlərinə əsaslanaraq ona qarşı mülki və hərbi məhkəmədə bir çox iddia qaldırmışdır. Buna görə sentyabrın 12-də Türkiyə vətəndaşlığından çıxarılmışdır.

"Dar ağacında üç fidan" 1976-cı ilin may ayında nəşr olunmuşdur. Kitabda müəllifin 18 gün ərzində yazdığı məqalələri toplanmışdır.

1980-ci il sentyabrın 12-də Kənan Evrənin liderliyində baş verən növbəti hərbi çevriliş kitabın taleyini daha da tündləşdirmişdir. 1980-1990-cı illərdə gənclər arasında gizli oxunan bir kitaba çevrilmişdir. Kitabın müəllifi Nihad Bəhramla bağlı ağır cinayət işləri isə hərbi məhkəmə instansiyalarına təhvil verilmişdir. Bundan sonra şair 1980-ci ildə ölkədən getməyə məcbur olmuşdur.

1980-1996-cı illərdə İsveçrə və Fransada yaşamışdır.

"Dar ağacında üç fidan" 1988-ci ildə "Qəlbləri şəfəqdə qığılcım saçanlar" adıyla təkrar nəşr olunmuşdur. Amma bundan sonra da yenidən satış yerlərindən yığışdırılmış, uzun müddət davam edən hüquqi mübarizədən sonra kitaba bəraət verilmişdir. Müəllifi Nihad Bəhram 1996-cı ildə Türkiyəyə qayıtdıqdan sonra həbs olunmuş, kitaba bəraətin verildiyini sübut etdikdən sonra sərbəst buraxılmışdır.

"Dar ağacında üç fidan" 1998-ci ildə yenidən buraxılmışdır. Bu günə qədər 12 şeir kitabı nəşr edilmişdir.

2020-ci ildə Türkiyədə "Ənvər Gökçə" şeir mükafatı Nihad Bəhrama verilmişdir.

Halhazırda İsveçrənin Basel şəhərində yaşayan Nihadın "Yurd" qəzetində yazıları dərc olunmaqdadır.

İnternetdə:


https://teleqraf.az/news/maraqli/300793.html

https://az.wikipedia.org/wiki/Nihad_Bəhram

https://qaynarinfo.az/az/tanimadiimiz-azerbaycanli-kenan-evren-kitabini-qadaan-etdi-zunu-ise/

Sait Faik Abasıyanık – 120

(1906 -1954) *Türk şairi*



Səid Faiq Abasıyanıq 1906-cı il noyabr ayının 18-də Türkiyənin Sakarya şəhərində anadanolmuşdur.

İstanbul Universitetinin Ədəbiyyat fakültəsində təhsil almışdır.

Səid Faiqin nəsri sevgi ilə yoğrulmuşdur. Yazıçının utopiya konsepsiyasının mərkəzində insan dayanır. "İnsansız heç bir şeyin gözəlliyi yoxdur. Hər şey onun sayəsində onunla gözəldir." – deyən yazıçı Çexov üslubunda sadə bir tərzdə yazılmış əsərlərində şəhər və adada yaşayan insanların dünyasını və həyatını təsvir etmişdir.

Görkəmli şair hekayələtini türk dilində, hekayə janrında yazmışdır.

Səid Faiq Abasıyanıq əsərlərində insan və həyata dair optimistliyini əks etdirmişdir. Bu optimistlik zaman-zaman yeni sosial münasibətlərin mövcud olduğu və xoşbəxt insanların olduğu ideal bir cəmiyyətdə yaşamaq arzusundan qaynaqlanır.

İnsanlar arasında zəngin və yoxsul fərqi qoyulmadan, bərabərliyin hökm sürdüyü bir cəmiyyətdə yaşamaq prinsipi. Havada bulud kitabına daxil olan "Ay işığı" hekayəsində bu mövzu öz əksini tapmışdır. Səid Faiqin utopik dünyasında insanın çevrəsinə, digər varlıqlara, həyata yönəlmiş müsbət bir münasibət özünü göstərir. Səid Faiq hər zaman insanları müşahidə etməyi sevən, bu müşahidədən zövq duyan bir yazıçı olmuşdur. Bəzən ətrafında baş verən hadisələr onu bütün mənliyiylə dərindən yaralayır, olanlara bir yazıçı həssaslığı ilə yanaşır.

Səid Faiqin insanlara qarşı sevgisində dini, irqi, sosial mənsubiyyətin heç bir önəmi yoxdur. O, insanları və yaşadığı cəmiyyəti də bu cür görmək istəyir. Bütün insanların bərabər olduğu bir cəmiyyət onun arzusudur. Yazıçı özünə və yaradıcılığına hakim kəsilən bu insan sevgisini bütün insanlarda görmək istəyir. Bütün insanların qeyd-şərtsiz birbirlərinə kömək etdiyi, bir-birlərinə anlayışla və həssaslıqla yanaşacağı düşüncəsi də yazarın əslində insanlara olan inamını, ümidini öldürmür.

Səid Faiqin utopiyasında əxlaq qanun qaydaları qeyri-dini mahiyyət kəsb edir. Səid Faiqə görə insan sevgisi bütün tanrısal sevgilərdan daha üstün və dəyərlidir.

Sevgi, dostluq, bütün insani, mənəvi dəyərlər Səid Faiq hekayələrinin əsas prinsipləridir. Təsadüfi deyildir ki, "Bir insanı sevməklə başlar hər şey" sözləri də Səid Faiq yaradıcılığının leytmotivi kimi səslənir. Onun əsərlərindəki utopik cəmiyyət mücərrəd deyil, konkret-real məkan olaraq da qarşımıza çıxır. Ütopiyaların bölgüsünə diqqət yetirsək müxtəlif prinsiplər əsasında təsnif olunduğunu görərik.

Dünyanın ən yaxşı hekayə ustalarından olan Səid Faiq Abasıyanıq hekayələrinin birində "Yazmasam dəli olardım" deyir. Onun bu sözü də təsir yolu ilə gələn kəlimələrin özlərini ifadə etmək üçün seçdikləri şəxslərə yazmaqdan başqa seçim şansı vermədiyini göstərir.

Səid Faiq Abasıyanığın ev-muzeyi Türkiyənin İstanbul şəhərində yerləşir. Bu, yazıçının İstanbulda, Burqas adasında yaşadığı və əsərlərini yazdığı malikanədir. Ev 11 may 1964-cü ildə muzey kimi fəaliyyət göstərməyə başlamışdır. Tikili Darülşafaka Cəmiyyəti tərəfindən təmir olunmuşdur. Səid Faiq Abasıyanıq Mədəni İrsi və Səid Faiq Abasıyanıq Məsləhət Komitəsi Türkiyənin tanınmış yazıçılarını açılışa dəvət etmişdir. Muzeyi işçi heyəti idarə edir. Muzeyə giriş pulsuzdur.

Görkəmli türk şairi, yazıçı, tərcüməçi Səid Faiq Abasıyanıq 11 may 1954-cü ildə İstambulda vəfat etmişdir. Zəncirliquyu qəbiristanlığında dəfn edilmişdir.

Ədəbiyyat:

Şeytan minarəsi / S. F. Abasıyanıq ; tərc.ed. Z. Cavanşir ; red. Ə. Ağalarov.- Bakı; Azərnəşr.-1988.- 206, [2] s.

Xolida Adib Adivar. Said Foiq Abasiyoniq: [hikoyalar, nasr] / to'plovchi, nashrga tayyorlovchi S. Hamidova ; tahrir hay'ati: X. Sulton (rais) [va b.] [muharrir L. Fattoyeva].-Toshkent "O'zbekiston". -2022. – 342, [2] b.

İnternetdə:

https://www.wikidata.org/wiki/Q344292

https://525.az/news/179410-yazmaq-alin-yazisi

uluslararası-türk-dünyasında-millî-mücadele-ve-edebiyat-sempozyumu-bildirileri.pdf

Rais Rəsulzadə – 80

(1946)

Rəssam



Rais Azər oğlu Rəsulzadə 1 noyabr 1946-cı il tarixində Qazaxıstanda anadan olmuşdur. Orta təhsilini rus dilində almışdır. Uşaq yaşlarından şahmatla maraqlanmağa başlayıb və çempionatlarda birinciliklər qazanmışdır.

Rais Rəsulzadə Azərbaycanlı dövlət və ictimai xadimi, siyasətçi, Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin nəvəsidir.

O, qiyabi universiteti bitirəndə artıq 60-a qədər rəsm əsərinin müəllifi idi. Sürgün həyatından əvvəl Bakıda rəssamlıq məktəbini bitirən, burada rəssamlıq sənətini Mehdi Hüseynzadə ilə birlikdə öyrənən atası Azər Rəsulzadə Qazaxıstanda yaşamalı olsa da, oğlu Rais Azərbaycanda yaşamağı seçmişdir. Əslində, Rais Rəsulzadəni Qazaxıstandan Azərbaycana qaytaran amil onun rəssam olmaq istəyi idi. Ancaq, o, Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini 1969-cu ildə bitirsə də, daha sonra Qazaxıstana qayıtmadı. Onun müxtəlif janrlarda olan sənət əsərləri çox olsa da, əsasən daha çox mənzərəyə üstünlük vermişdir.

1972-1977-ci illərdə arası ali təhsil almış və 1978-ci ildə müəllim kimi fəaliyyətə başlamışdır.

Rais Rəsulzadə 1978-ci ildən Rəssamlar İttifaqının üzvüdür. Həmin ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun "Rəsm, heykəltaraşlıq və boyakarlıq" kafedrasında əvvəlcə müəllim, sonra baş müəllim təyin edilmişdir. Rəssamlar İttifaqının ən fəal üzvlərindən biri kimi ardıcıl olaraq çalışmış və İttifaqın bütün yaradıcılıq və ictimai işlərində fəallıq göstərmişdir. O, yaradıcılıq birliyinin respublika və keçmiş SSRİ Rəssamlar İttifaqının sərgilərində, habelə xarici ölkələrdə təşkil olunan sərgilərdə ardıcıl olaraq iştirak etmişdir. Əsərləri Kubada (Havana-1980), Əfqanıstanda (1980-1981), Polşada (1988) və ABŞ-də (Hyuston-1989) və başqa ölkələrdə nümayiş etdirilmişdir. Ümumittifaq, respublika mətbuatında, informasiya vasitələrində əsərləri barədə elmi-publisistik məqalələr dərc olunmuş, reproduksiyaları verilmişdir.

Son illər Azərbaycan incəsənətinin Bakıda, Moskvada, İstanbulda açılmış "Payız", "Yaz", "Novruz" sərgilərində, 1990-cı ildə "Yanvar-90" və akvarel sərgilərində, 1991-ci ildə "Yaz" və başqa sərgilərdə əsərlərini nümayiş edilmişdir. 1994-cü ildə Bakı şəhərində Rəssamın birinci, 1995-ci ildə II fərdi sərgisi keçirilmişdir. 1996-1998-ci illərdə respublikada və xarici ölkələrdə təşkil olunmuş sərgilərdə, 2000-2001-ci illərdə "Sənətdə təmayüllər" və "İncəsənət və neft səltənətində" tematik bədii sərgilərdə, 2001-ci ilin dekabr ayında "Mənzərə" bədii sərgisində, 2002-ci ilin martında "XXI əsr – yeni əsərlər", 2002-ci ilin noyabrında "Naturmort", 2003-cü ildə "Bakı, İçəri şəhər", "Təsviri sənətdə qadın obrazı", "Gül aləmində", 2004-cü ildə "İnteryerdə naturmort" sərgilərində və digər sərgilərdə iştirak etmişdir.

2018-ci ildə ərsəyə gətirilmiş "Son iclas" bədii-sənədli Azərbaycan filmində babası Məhəmməd Əmin Rəsulzadənin yaşlı obrazını canlandırmışdır.

Görkəmli rəssam Rais Rəsulzadə 2002-ci ildə "Azərbaycan Respublikasının əməkdar rəssamı" adına layiq görülmüşdür. O, həmçinin 2002-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür. 2023-cü ildə "Şirməmməd Hüseynov" mükafatı ilə təltif edilmişdir.

Rais Rəsulzadənin 800 yaxın sənət əsəri vardır. Əsərləri Azərbaycanın və digər ölkələrin şəkil qalereyalarında saxlanılır.

O, 2009-cu ildən Azərbaycan Siyasi Repressiya Qurbanları Assosiasiyasına rəhbərlik edir.

Ədəbiyyat:

Böyükkişi, F. İ. Məhəmməd Əmin yadigarı... / F. İ.Böyükkişi // Türküstan. –2021.– 26 oktyabr-1 noyabr.- S.5., 2-15 noyabr.- S.5., 16-22 noyabr.- S.5., 23-29 noyabr.- S.5., 30 noyabr - 6 dekabr.- S.5.

Mazandarova, E. Müasir Azərbaycan incəsənətinin mənzərə ustası Rais Rəsulzadə / E.Mazandarova // Elmi əsərlər; Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti .– 2023.– №33.– S.147-152.

Nəbiyeva, Z. Rais Rəsulzadənin yaradıcılığında portret janrının inkişaf təmayülləri / Zərifə Nəbiyeva // Elmi iş humanitar elmlər üzrə aylıq beynəlxalq elmi jurnal. – 2019.– №06.– S.75-77.

İsmayıl, Rais Rəsulzadə qalibdir: Əməkdar rəssam "Şirməmməd Hüseynov mükafatı"na layiq görülüb / İsmayıl // Şərq.- 2023.- 7 dekabr, №223.- S.6.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Rais_R%C9%99sulzad%C9%99

Davud Kazımov – 100

(1926-2015)

Rəssam



Davud Mehti oğlu Kazımov 1926-cı il noyabr ayının 9-da Bakı şəhərində anadan olmuşdur.

İlk ixtisas təhsilini 1941-1945-ci illərdə Ə. Əzimzadə adına Bakı Rəssamlıq Məktəbində almış, 1979-cu ildə isə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) teatrşünaslıq fakültəsini bitirmişdir.

1947-1966-cı illərdə Bakı Rəssamlıq Məktəbində pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

1946-cı ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü idi.

1984-2001-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim işləmiş, 1994 cü ildən həmin universitetin dosenti, 1996-cı ildən isə professoru olmuş dur.

2001-ci ildən isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Akademik rəngkarlıq kafedrasının professoru idi.

Davud Kazımov sərbəst yaradıcılıq fəaliyyətinə II Dünya müharibəsindən sonrakı dövrdə başlamışdır. İlk dəfə ictimaiyyətin diqqətini ordudan tərxis olunmuş əsgərin qarşılanma mərasimini əks etdirən "Əsgərin qarşılanması" adlı əsəri ilə özünə cəlb etmişdir. Daha sonra "Konsert-tapmaca" (1953), "Çimərlikdə" (1954), "Uşaq konsultasiyası" (1955) kimi əsərlərində uşaqlara aid olan məsələ və mövzulara toxunan rəssam kimi çıxış etmişdir. "Xəzərin təkində", "Sağıcılar", "Yol lar" və s. kimi rəsmlərində rəssamın öz təbiətinə xas səmimiyyəti, insanlara məhəbbəti rənglərin dili ilə inandırıcı təsir bağışlayır.

Azərbaycan təsviri sənətində istedadlı qrafika ustası kimi də tanınmış, kitab illüstrasiyası sahəsində daha çox çalışmışdır. Onun illüstrasiyaları arasında Cəlil Məmmədquluzadənin, Cəfər Cabbarlının hekayələrinə, Mirzə Əli Möcüzün şeirlərinə çəkilmiş rəsmləri ayrıca qeyd olunmalıdır.

Dəniz neftçilərinin romantik həyatı, fədakar əməyi rəssamın sevimli mövzularından idi. Bir çox xarici ölkələrdə yaradıcılıq ezamiyyələrində olmuş, 1979-cu idə Bolqarıstan, 1980-ci ilin sonunda İspaniya səfərlərinin nəticəsi olaraq yaradıcılığında xüsusi yer tutan "Bolqarıstan silsiləsi" və "İspaniya silsiləsi"nə daxil olan əsərlərini yaratmışdır. Sənətkarın əsərləri Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası, Azərbaycan Rəssamlar İttifaqının bədii fondu, Rusiya, Türkiyə, İran, Macarıstan, Almaniya və digər ölkələrdəki şəxsi kolleksiyalarda saxlanılır.

Davud Kazımovun yaradıcılığı hər zaman sənətsevərlərin diqqət mərkəzində olmuş, dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1978-ci ildə Azərbaycan Respublikasının "Əməkdar rəssam", 1992-ci ildə isə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

Davud Kazımov 2015-ci il fevral ayının 14-də vəfat etmişdir.

Ədəbiyyat:

Əliyev, Z. Azərbaycanın Xalq rəssamı Davud Kazımov 85 [İzomaterial] / Z.Əliyev. - Bakı: Təhsil, 2012.- 215 s.

Xalq rəssamı Davud Kazı mov vəfat edib // Mədəniyyət. - 2015. - 18 fevral. - S. 4.


Rənglərə boyanmış ömür / D.Kazımov; müsahibəni apardı G.Mayisqızı // 525-ci qəzet. - 2015. - 7 mart.- S.24.

Yusufov, B. Xalq rəssamı Davud Kazımovun yaradıcı lıq yolu / B.Yusufov // Təsviri və dekorativtətbiqi sənət məsələləri. - 2014. - № 2 (14). - S. 6-10.

Lətif Kərimov – 120

(1906-1991)

Rəssam



Lətif Hüseyn oğlu Kərimov 1906-cı il noyabr ayının 17-də Şuşa şəhərində anadan olmuşdur. 1912-ci ildə 6 yaşında olarkən valideynləri ilə birlikdə ailə vəziyyəti ilə əlaqədar olaraq İranın Məşhəd şəhərinə köçmüşdür.

1922-ci ildə məktəbi bitirdikdən sonra, Mirzə Ələkbər Hüseynzadənin xalça emalatxanasında əvvəlcə köməkçi, sonra təlimatçı, daha sonra xalça eskizləri üzərində işləyən rəssam kimi püxtələşmişdir.

1929-cu ildə Şuşaya qayıtmış, bir il sonra "Azərxalça" birliyində əvvəl Şuşa ya, Tiflisə və nəhayət 1932-ci ildə Bakıya rəssam təlimatçı təyin edilmişdir. 1945-ci ildən Azərbaycan Respublikası Elmlər Akademiyası (indiki AMEA) Memarlıq və İncəsənət İnstitutunun xalça sənəti şöbəsinin müdiri və eyni za manda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoq kimi fəaliyyət göstərmişdir.

Onun milli ənənələrlə aşılanmış əsərləri kompozisiya bütövlüyü, təsvir vasitələrinin rəngarəngliyi və yeniliyi ilə fərqlənmişdir. Lətif Kərimovun eskizləri əsasında toxunmuş "Əfşan" (1932), "Qonaqkənd" (1939), "Ləçək turunc" (1952), "Şuşa" (1953), "Göy göl" (1958), "Qarabağ" (1960), "İslimi" (1964), "Butalı" (1965), "Bahar" (1966 1976), "Heyvanlar aləmində" (1969), "Şəbi-hicran" (1975), "Zərxara" (1977), "Firdovsi" (1934), "Səməd Vurğun" (1956), "Vaqif" (1967), "Füzuli" (1972), "Nəsimi" (1974), "Səfiəddin Urməvi" (1975), "Əcəmi" (1976) və s. xalçaları Azərbaycan xalçaçılıq sənətinin qiymətli nümunələrindəndir.

Lətif Kərimov Azərbaycan mədəniyyətini dünyanın bir çox ölkələrində ləyaqətlə təmsil etmişdir. 1937-ci ildə öz əsərləri ilə Ümumdünya Paris sərgisində, 1938-ci ildə Nyu-York sərgisində iştirak etmişdir. Rəssamın fərdi sərgiləri 1954-cü ildə Moskvada, 1976-cı ildə Bakıda, 1978-ci ildə Tiflisdə, 1986-cı ildə Londonda böyük müvəffəqiyyətlə keçirilmişdir.

Lətif Kərimov təkcə xalçaçılıq sahəsində deyil, dekorativ tətbiqi sənətin başqa sahələrində də fəaliyyət göstərmişdir. Azərbaycan xalçaçılığının müxtəlif növlərinə aid kompozisiya və naxışları toplamış və beləliklə Quba, Şirvan, Bakı, Qazax, Gəncə, Qarabağ, Təbriz və Borçalı xalça qruplarına daxil olan 150-dən artıq xovlu və xovsuz xalça məmulatı çeşidlərini yığıb, onların rəngli reproduksiyasını hazırlamışdır. Lətif Kərimov tanınmış rəssamlarımız K.Kazımzadə, İ.Axundov və başqaları ilə birlikdə 1940-1941-ci illərdə dahi Azərbaycan şairi Nizami Gəncəvinin yubileyinə həsr edilmiş beş xalça hazırlamışdır. 1947-ci ildə Lətif Kərimovun eskizi ilə "Moskvanın 800 illiyinə" xalçası toxunmuşdur.

1950-ci ildə böyük elmi əhəmiyyəti olan "Azərbaycan xalçalarında ornament" kitabına görə Lətif Kərimova Sankt-Peterburq şəhərində sənətşünaslıq namizədi alimlik dərəcəsi verilmişdir. 1967-ci ildə Lətif Kərimovun təşəbbüsü ilə Bakıda unikal muzeyin – Azərbaycan Xalça Muzeyinin əsası qoyulmuş, 26 il sonra isə muzeyə milli mədəniyyət və incəsənətinin görkəmli xadimi Lətif Kərimovun adı verilmişdir.

Lətif Kərimovun xidmətləri dövlət tərəfindən də yüksək qiymətləndirilmişdir. O, 1949-cu ildə Stalin mükafatı laureatı, 1950-ci ildə SSRİ Dövlət mükafatına laureatı olmuş, "Xalqlar Dostluğu" ordeni ilə təltif olunmuşdur. 1955-ci ildə "Əməkdar incəsənət xadimi", 1960-cı ildə isə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüşdür.

Lətif Kərimov 1991-ci il sentyabr ayının 9-da Bakıda vəfat etmişdir. Birinci Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat:

Azərbaycan xəlçəsı: 3 cilddə / AzSSR EA Memar lıq İncəsənət İn-tu. - Bakı; Leninqrad [s.n.], 1961 - 1983. Azərbaycan xalçası: foto albom / Tərt. və ön sözün müəl. L.Kərimov. - Bakı: Yazıçı, 1985. - 236 s.

Azərbaycan xalçalarının naxış elementlərindən nümunələr / L.Kərimov. - Bakı, 1983. - 130 s.

Əliyeva K. Lətif Kərimov: həyat və yaradıcılığı / K.Əliyeva, E.İbrahimov. - Bakı: Aspoliqraf, 2007. - 248 s.

Lətif Kərimov. 1906-1991 [İzomaterial] / xalça sənəti lay. rəhb. Ç.Fərzəliyev. - Bakı: Şərq-Qərb, 2013. - 104 s.

Lətif Kərimovun həyat və yaradıcılığı //K. Əliyeva ; elmi red. Ə. Salamzadə ; red. F. Naci.–/ Bakı; Mütərcim.– 2023.- 201, [1] s.

Nuriyev, Ə. Azərbaycanın milli mədəni irsi və UNESCO / Ə.Nuriyev // 525-ci qəzet. - 2018. - 16 noyabr. - S. 7

Şəhla İbrahimova – 65

(1961)

Konsertmeyster



Şəhla İbrahim qızı İbrahimova 1961-ci il noyabr ayının 2-də Bakı şəhərində anadan olmuşdur.

1969-1980-ci illərdə Bülbül adına orta ixtisas musiqi məktəbində, 1980 1985-ci illərdə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konserva toriyasında, 1995-1997-ci illərdə isə Bakı Musiqi Akademiyasının aspiranturasında təhsil almışdır.

Şəhla İbrahimova 1983-cü ildən Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Filarmoniyasının simfonik orkestrində çalışır. 1997-ci ildən isə bu orkestrin baş konsertmeysteridir. 1997-ci ildən Bakı Musiqi Akademi yasının Kamera ansamblı və Simli alətlər kafedrasında işləyir. Hazırda Simli alətlər kafedrasının müdiri və professorudur.

Şəhla İbrahimova Bakı Musiqi Akademiyasının Elmi Şurasının üzvüdür. O, "Orkestr repertuarı" adlı proqramın, "Skripka üçün orkestr çətinlikləri" adlı dərs vəsaitinin və bir sıra elmi-metodiki vəsaitlərin müəllifidir.

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə 2000-ci ildə Respublikanın "Əməkdar artist", 2005-ci ildə "Xalq artisti" fəxri adlarına, 2019-cu ildən Azərbaycan Respublikası Prezidentinin mükafatlarınaına layiq görülmüşdür.

Ədəbiyyat:

Kamera ansamblının musiqi təhsilində rolu: ali və orta - ixti sas musiqi məktəbləri ücün metodik tövsiyələr / Tərt. ed. Ş. İbrahimova; elmi red. Z.A.Dadaşzadə; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Resp. Təhsil problemləri İn-tu, Ü.Hacıbəyli ad. BMA. - Bakı, 2009. - 11 s.

İbrahimova, Ş.İ. Azərbaycan bəstəkarlarının skripka üçün əsərləri / Ş.İbrahimova // Musiqi dünyası .– 2011.– №3/48.– S.83-85.

İnternetdə

https://az.wikipedia.org/wiki/%C5%9E%C9%99hla_%C4%B0brahimova

https://musicacademy.edu.az/az/simli-aletler-kf-muallimler/43-shahla-ibrahimova.html

Əli Əsgərov – 65

(1961-2023)

Opera ifaçısı



Əli Rəhim oğlu Əsgərov 1961-ci il noyabrın 25-də Bakı şəhərində anadan olmuşdur.

Azərbaycan Dövlət Konservatoriyasının (indiki Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası) ifaçılıq fakültəsinin vokal şöbəsini və aspiranturasını bitirmişdir.

1990-2023-cü illərdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında solist vəzifəsində çalışmışdır.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında çalışdığı müddətdə teatrın səhnəsində Jorj Bizenin "Karmen" operasında Sunyiqa, Cüzeppe Verdinin "Trubadur" operasında Azuçena, "Riqoletto" operasında Sparafuçile, "Traviata" operasında Markiz, "Don Karlos" operasında Filip II, Volfqanq Amadey Motsartın "Sehrli fleyta" operasında Zarastro, "Fiqaronun toyu" operasında Antonio, Coakkino Rossininin "Sevilya bərbəri" operasında Don Bazilyo, Cakomo Puççininin "Toska" operasında Dustaqxana gözətçisi, "Canni Skikki" operasında Notarius və s. obrazları yaratmışdır.

Əli Əsgərov həm də geniş konsert fəaliyyəti ilə məşğul olmuş, dəfələrlə klassik dünya və azərbaycan bəstəkarlarının yaradıcılığından nümunələrlə müxtəlif simfonik, kamera orkestr və ansamblları ilə çıxış etmişdir. Onun repertuarı barokko dövründən tutmuş müasir bəstəkarların əsərlərinə kimi opera və kamera musiqisini əhatə etmişdir.

Əli Əsgərov Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Azərbaysssscan Respublikası Prezidentinin Sərəncamına əsasən 14 sentyabr 1998-ci ildə Azərbaycanın Respublikasının Əməkdar artisti fəxri adına, 14 sentyabr 2012-ci il tarixində isə Azərbaycanın Respublikasının Xalq artisti fəxri adına layiq görülmüşdür.

2014-2022-ci il illərdə incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamlarına əsasən Prezident mükaftlarına layiq görülmüşdür.

Əli Əsgərov 23 fevral 2023-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Nizamiqızı, H. Sevgi cəzaya dönəndə...:"Aida" operasının Əli Əsgərovsuz nümayişindən notlar / H.Nizamiqızı // Mədəniyyət . – 2023. – 3 mart. – S.5.

Xalq artisti Əli Əsgərovun xatirə gecəsi keçiriləcək // Mədəniyyət. –2023.– 22 noyabr, № 86.- S.2.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Əli_Əsgərov_(müğənni)

https://azertag.az/xeber/taninmis_vokalchi_xalq_artisti_eli_esgerov_defn_olunub-2505089

Şəfəq Əliyeva – 70

(1956) *Aktyor*



Şəfəq Rəsul qızı Əliyeva 6 noyabr 1956-cı ildə anadan olmuşdur.

1976-cı ildən səhnə fəaliyyətinə başlamışdır. Teatr səhnəsində ilk rolu "Sən nə üçün yaşayırsan?" tamaşasında "Leyla" obrazı olmuşdur.

Şəfəq Əliyeva Gənc Tamaşaçılar Teatrında aktrisa kimi fəaliyyət göstərir. Teatr səhnəsində Leyla ("Sən nə üçün yaşayırsan?", İmran Qasımov, Həsən Seyidbəyli, Şahzadə xanım ("Danışan gəlincik", Abdulla Şaiq), Lalə ("Ərizə", Əli Əmirli), Bənövşə ("Açıl bənövşəm, açıl", İskəndər Coşğun), Ceyran ("Mahmud və Məryəm", Elçin), Çiçək ("Ana laylası", İskəndər Coşqun), Viktoriya ("Yaddaş ağrısı"), Qətibə (Ə. Əmirli, "MMS"), Yasəmən ("Qaraca qız"), nağılçı (Əlibaba və qırx quldur) kimi obrazları yaratmışdır.

Aktrisa dublyaj sahəsində də ixtisaslaşmışdır. Bir çox yerli filmi səsləndirmiş, əcnəbi filmlərin dublyajında iştirak etmişdir. Həmçinin bir neçə televiziya tamaşalarında, reklam filmlərində rol almışdır.

1980-ci ildə "Anlamaq istəyirəm" ikiseriyalı bədii filmdə "Fəridə" obrazını yaratmışdır.

Aktrisa həmçinin "Bir ömrün salnaməsi", "Muradına çatan günəş" və s. qısa sənədli filmlərdə və televiziya filmlərində də obrazlar yaratmışdır.

Aktrisanın səhnə fəaliyyəti yüksək qiymətləndirilmiş, 25 iyun 2013-cü ildə Azərbaycan Respublikasının Əməkdar artist fəxri adına layiq görülmüşdür.

10 mart 2016-cı ildə Azərbaycan Teatr Xadimləri İttifaqının "Sənətkar" medalı ilə təltif edilmiş, 2019-2021-ci illərdə Prezident Mükafatına layiq görülmüşdür.

Ədəbiyyat:

Azərbaycan Teatr Ensiklopediyası / İlham Rəhimli. –Bakı.– 2017.- C.3.– 416 s.

İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında: // Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 7 may 2021-ci il. – Azərbaycan.– 2021.- 8 may.- S.7.


İnternetdə:

https://az.wikipedia.org/wiki/Şəfəq_Əliyeva

Roman Karmen – 120

(1906-1978)

Rejissor



Karmen (Kornman) Roman Lazareviç 16 noyabr 1906-cı ildə Odessada (indiki Ukrayna) yazıçı ailəsində anadan olmuşdur.

Atası tanınmış yazıçı Lazar Karmen, anası tərcüməçi Dina Leypunar idi. Əsl soyadı Kornman olmuş, sonralar atası Karmen ləqəbi ilə tanınmışdır. Hələ yeniyetmə yaşlarında atası ona ilk dəfə videokamera hədiyyə edərək Romanda incəsənətə, rejissorluğa maraq oyatmışdır. 14 yaşı olanda atası vəfat etmiş, anası iki uşaqla Moskva şəhərinə köçmüşdür.

Roman Lazareviç Sergey Gerasimov adına Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutunda təhsil almışdır.

Sovet dövrünün tanınmış sənədli film rejissoru, operatoru və jurnalisti Roman Karmen 1930-1970-ci illərdə Sovet İttifaqının ən məşhur sənədli film operatoru və rejissorlarından biri sayılırdı. O, dünya müharibələri, inqilablar və beynəlxalq hadisələr barədə çəkdiyi sənədli filmlərlə tanınmışdır.

Roman Lazareviç Karmen 1936-1939-cu illərdə İspaniya Vətəndaş Müharibəsi dövründə yaşanan hadisələri lentə almışdır. Onun kadrları bu müharibə haqqında ən mühüm arxiv materiallar sayılır. İkinci Dünya Müharibəsi zamanı cəbhədən çoxlu reportajlar hazırlayıb, Sovet Ordusunun Qələbəsini sənədləşdirmişdir.

Vyetnam, Kuba, Çin və digər sosialist ölkələrində də inqilabi prosesləri sənədləşdirmişdir. "Leninqrad mühasirəsi", "Berlinin alınması", "İspaniyada", "Vyetnamda" kimi filmləri ilə tanınır. Roman Karmen sənədli filmdə reallığı bədii şəkildə təqdim etmək, hadisələrin dramatizmini artırmaq üçün emosional montaj və bədii səhnələşdirmə üsullarından istifadə etmişdir. Bu səbəbdən onun işi həm sənədli kino, həm də təbliğat sənəti kimi qiymətləndirilir.

Roman Karmenin kino sahəsində xidmətləri yüksək qiymətləndirilmiş, Xalq artisti, Əməkdar incəsənət xadimi və SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Tanınmış rejissor Roman Karmen Sosialist əməyi qəhrəmanı, "Lenin", "Qırmızı bayraq", SSRİ-nin "Qırmızı əmək bayrağı" və "Qırmızı ulduz" ordenlərinə layiq görülmüşdür. Həmçinin "Vladimir İliç Leninin anadan olmasının 100 illiyi münasibətilə", "Moskvanın müdafiəsinə görə", "Stalinqradın müdafiəsinə görə", "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə", "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 20 illiyi", "1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 30 illiyi", "Berlinin alınmasına görə", "Əmək veteranı", "SSRİ Silahlı Qüvvələrinin 50 illiyi", "SSRİ Silahlı Qüvvələrinin 60 illiyi" və "Moskvanın 800 illik xatirəsinə" medallarına və 1-ci, 2-ci, 3-cü dərəcəli "Stalin" mükafatlarına layiq görülmüşdür.

Karmenin tanınmış işlərindən "Bakı Kinostudiyası"nda çəkilmiş Xəzər neftçiləri haqqında dastan (film, 1953), Dənizi fəth edənlər (film, 1959) filmlərini göstərmək olar.

Əməkdar incəsənət xadimi, kinooperator, rejissor Karmen (Kornman) Roman Lazareviç 28 aprel 1978-ci ildə Moskvada vəfat etmişdir. Novodeviçye qəbiristanlığında dəfn edilmişdir.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Roman_Karmen

https://az.wikipedia.org/wiki/Roman_Karmen "Bakı_Kinostudiyası"

Fuad Tağıyev - 30

(1996-2020)

Kiçik gizir



Fuad Mərdan oğlu Tağıyev 1996-cı il noyabr ayının 1-də Sabirabad rayonunun Ətcələr kəndində anadan olmuşdur. Orta təhsilini Sabirabad rayon Ətcələr kənd tam orta məktəbində almışdır. 2014-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin, sonra isə Xüsusi Təyinatlı Qüvvələrin sıralarında müddətli hərbi xidmət keçmişdir. 2016-cı ilin 2-5 aprelində baş verən Aprel döyüşlərinin iştirakçısı olmuşdur.

Azərbaycan Ordusunun kiçik giziri olan Fuad Tağıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın, Füzulinin, Cəbrayılın, Zəngilanın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabr ayının 28-də Xocavənd döyüşləri zamanı Qırmızı Bazar istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Sabirabad rayonunun Ətcələr kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Fuad Mərdan oğlu Tağıyev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 30 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 31 dekabr.- S.14-15.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il //Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/1889

https://memorial.az/az/qehremanlarimiz/2096

Xalid Gözəlov - 30

(1996-2020) *Baş leytenant*



Xalid Həsən oğlu Gözəlov 1996-cı il noyabr ayının 4-də Biləsuvar rayonunun Aşağı Cürəli kəndində anadan olmuşdur. 2002-ci ildə Zaqatala şəhər 2 saylı tam orta məktəbində təhsil almağa başlamış, orta təhsilini 2012-ci ildə Biləsuvarda yerləşən Oktay Babayev adına orta məktəbdə tamamlamışdır. 2012-2016-cı illərdə Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasında ali hərbi təhsil almışdır.

O, 2016-cı ildə Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının sıralarında "leytenant" rütbəsi və hərbi pilot vəzifəsi ilə xidmətə başlamışdır. 2019-cu ildə "baş leytenant" hərbi rütbəsinə yüksəlmişdir.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının baş leytenantı olan hərbi pilot Xalid Gözəlov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Sentyabrın 27-də, Vətən müharibəsinin ilk günü Füzuli istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Xalid Gözəlov Bakı şəhərindəki II Şəhidlər Xiyabanında dəfn edilmişdir. Vətən müharibəsinin ilk dəqiqələrində şəhid olduğu üçün o, müharibənin birinci şəhidi hesab olunur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Xalid Həsən oğlu Gözəlov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Vətən müharibəsi şəhidlərinin xatirəsi yad edildi //Səs. - 2023. - 5 noyabr, №204. - S.10.

Mirzə, M. Vətən müharibəsinin ilk şəhidləri /Mirzə Mirzə //Xalq qəzeti. - 2025. - 28 sentyabr (№208).- S.10.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/94

https://www.unudulmazlar.az/az/infom/2381

http://www.anl.az/down/meqale/ses/2023/noyabr/878507(meqale).pdf

http://www.anl.az/down/meqale/xalqqazeti/2025/sentyabr/969453(meqale).pdf

5 NOYABR

Fərid Nəcəfov - 25

(2001-2020)

Əsgər



Fərid Fərman oğlu Nəcəfov 2001-ci il noyabrın 5-də Ağsu rayonunda anadan olmuşdur. Orta təhsilini Ağsu şəhəri 2 saylı orta məktəbdə almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Fərid Nəcəfov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Goranboy rayonunun Gülüstan kəndinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 10-da Goranboy rayonunun Gülüstan kəndi istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Ağsu şəhərində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Fərid Fərman oğlu Nəcəfov ölümündən sonra "Vətən uğrunda" "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

6

Vaqif İsmayılzadə - 30

(1996-2020)

MAHHXHQ əsgər



Vaqif Vüqar oğlu İsmayılzadə 1996-cı il noyabrın 6-da Beyləqan rayonunun Şahsevən kəndində anadan olmuşdur. Orta təhsilini Beyləqan rayonunun F. Miriyev adına Araz qəsəbə tam orta məktəbində almışdır. 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2017-ci ildən etibarən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsində fəaliyyət göstərmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Vaqif İsmayılzadə 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Oktyabrın 20-də Füzuli istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Beyləqan rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Vaqif Vüqar oğlu İsmayılzadə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

Şahmar Quliyev - 35

(1991-2020) *Kapitan*



Şahmar Kəmaləddin oğlu Quliyev 1991-ci il noyabrın 7-də Naxçıvan şəhərində anadan olmuşdur. Orta təhsilini Naxçıvan şəhər M.Cəfərov adına 14 nömrəli tam orta məktəbdə almışdır.

2006-cı ildə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuş, lisey təhsilini bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbisssnə daxil olmuşdur. 2013-cü ildə Mexanika mühəndisliyi ixtisası üzrə ali hərbi təhsilini müvəffəqiyyətlə tamamlamışdır.

Zabit kimi Azərbaycan Silahlı Qüvvələrində fəaliyyət göstərən Şahmar Quliyev Piyadaların Döyüş Maşını (PDM) komandiri vəzifəsində xidmət etmişdir. Xidmət dövründə nümunəvi hərbi intizamı və peşəkarlığı ilə seçilmişdir. Göstərdiyi xidmətlərinə görə "Qüsursuz xidmətə görə" III dərəcəli medalı və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif olunmuşdur. 2016-cı ilin aprelin 2-dən 5-nə qədər davam edən Aprel döyüşlərində iştirak etmiş, Lələtəpə yüksəkliyi və digər strateji əhəmiyyətli mövqelərin azad olunmasında iştirak etmişdir.

Azərbaycan Ordusunun kapitanı olan Şahmar Quliyev 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan torpaqların azad olunması məqsədilə başlanan Vətən müharibəsində Tərtər rayonunun Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, 2020-ci il sentyabrın 28-də Suqovuşan istiqamətində gedən ağır döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Şəhid kapitan Şahmar Quliyev Bakı şəhərindəki II Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Şahmar Kəmaləddin oğlu Quliyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.66-67.

Səxavətqızı, M. Şahmarın eşq əsəri /Manya Səxavətqızı (red.) ; [üz qabığı G. Əliyeva].- Bakı: Təhsil, 2022. - 183, [1] s.

Məmmədli, N. Vətən müharibəsinin mübariz şəhidi /Nurəddin Məmmədli //Mədəniyyət. - 2021. - 12 fevral. - S.6.

İnternetdə:

https://memorial.az/az/qehremanlarimiz/1653

http://www.anl.az/down/meqale/medeniyyet/2021/fevral/734131.htm

https://unudulmazlar.az/az/infom/1576

NOYABR

8

Nurlan Mustafayev - 35

(1991-2020)

Əsgər



Nurlan Ağa oğlu Mustafayev 1991-ci il noyabrın 8-də Bakıda anadan olmuşdur. Orta təhsilini Yasamal rayonu 286 saylı orta məktəbdə almışdır. 2009-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Nurlan Mustafayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Cəbrayılın, Füzulinin, Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Oktyabrın 14-də Xocavənd rayonunun Hadrut qəsəbəsi yaxınlığında yerləşən "Yüksək təpə" adlanan ərazidə gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Oktyabrın 20-də Bakı şəhərində yerləşən II Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Nurlan Ağa oğlu Mustafayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

8

Nəcməddin Bədirov - 25

(2001-2020)

Əsgər



Nəcməddin Nurəddin oğlu Bədirov — 2001-ci il noyabrın 8-də Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Düz Qırıqlı kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə başlamışdır.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Nəcməddin Bədirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 10-da Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Uzun müddət itkin kimi axtarılmış, 2020-ci il noyabrın 23-də onun şəhid olduğu təsdiqlənmişdir. Tovuz rayonunun Düz Qırıqlı kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Nəcməddin Nurəddin oğlu Bədirov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

9 NOYABR

Ədalət Dəmirov - 25

(2001-2020)

Əsgər



Ədalət Nüsrət oğlu Dəmirov 2001-ci il noyabrın 9-da Göyçay rayonunun Aşağı Qaraməryəm kəndində anadan olmuşdur. Orta təhsilini Göyçay rayonunun Aşağı Qaraməryəm kənd orta məktəbində almışdır. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Ədalət Dəmirov Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın, Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Oktyabrın 2-də Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirən zaman qəhrəmancasıaz şəhid olmuşdur. Göyçay rayonu Aşağı Qaraməryəm kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ədalət Nüsrət oğlu Dəmirov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17

10

Rövşən Allahverdiyev - 35

(1991-2020)

MAHHXHQ kiçik çavuş



Rövşən Fərrux oğlu Allahverdiyev 1991-ci il noyabrın 10-da Ağcabədi rayonunun Qaraxanlı kəndində anadan olmuşdur.

Orta təhsilini 1998-2009-cu illərdə Ağcabədi rayonunun Qaraxanlı kənd tam orta məktəbində almışdır.

2009-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2016-cı ildən etibarən eyni hərbi birləşmənin tərkibində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmiş, Beyləqan rayonunda yerləşən "Həmlə" Taborunda xidmət etmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Rövşən Allahverdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 27-də Füzuli döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Ağcabədi rayonunun Qaraxanlı kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Rövşən Fərrux oğlu Allahverdiyev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalarlı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

NOYABR

12

Əjdər Dadaşov - 30

(1996-2020)

MAHHXHQ kiçik çavuş



Əjdər Pənah oğlu Dadaşov 1996-cı il noyabrın ayının 12-də Salyan rayonunun Xələc kəndində anadan olmuşdur. Orta təhsilini Salyan rayonunun Abadkənd kənd orta məktəbində almışdır.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Əjdər Dadaşov, Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 29-da Suqovuşan döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Salyan rayonunun Abadkənd kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Əjdər Pənah oğlu Dadaşov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.29-34.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

12

Səbuhi Qasımov - 25

(2001-2020)

Əsgər



Səbuhi Telman oğlu Qasımov 2001-ci il noyabrın 12-də Şəmkir rayonunda anadan olmuşdur. Orta təhsilini 2009-2018-ci illərdə Şəmkir şəhər C.Rüstəmov adına tam orta məktəbdə almışdır.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Səbuhi Qasımov, Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi məqsədilə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 18-də Xocavənd rayonu ərazisində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şəmkir rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Səbuhi Telman oğlu Qasımov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.


NOYABR

12

Günəş Qocayev - 30

(1996-2020)

Əsgər



Günəş Əfqan oğlu Qocayev 1996-cı il noyabrın 12-də Xaçmaz rayonunun Palçıqoba kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Günəş Qocayev Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 31-də Xocavənd döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Xaçmaz rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Günəş Əfqan oğlu Qocayev ölümündən sonra "Vətən uğrunda, "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

13

Elnur Qarayev - 30

(1996-2020)

Əsgər



Elnur Qalib oğlu Qarayev 1996-cı il noyabrın 13-də Şirvan şəhərində anadan olmuşdur. Orta təhsilini S. Hüseynov adına Şirvan şəhər 1 nömrəli tam orta məktəbdə almışdır.

Azərbaycan Silahlı Qüvvələrinin müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olan Elnur Qarayev 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan İkinci Qarabağ müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 2-də döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. 18 noyabr 2020-ci ildə Şirvan şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirakına və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən vəzifə borcunu şərəflə icra etdiyinə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Elnur Qalib oğlu Qarayev ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

NOYABR

13

Abas Şahbazov - 30

(1996-2020)

MAHHXHQ çavuş



Abas Cavad oğlu Şahbazov 1996-cı il noyabrın 13-də İmişli rayonunun Qulubəyli kəndində anadan olmuşdur. Orta təhsilini İmişli rayonunun Qulubəyli kənd orta məktəbində almışdır.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Abas Şahbazov Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 5-də Füzuli döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. İmişli rayonu Qulubəyli kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mavafiq Sərəncamlarına əsasən Abas Cavad oğlu Şahbazov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

17

Kənan Hacıyev - 25

(2001-2020)

Əsgər



Kənan İmran oğlu Hacıyev 2001-ci il noyabrın 17-də Astara rayonunun Motalayataq kənd inzibati ərazi dairəsinə daxil olan Anbuba kəndində anadan olmuşdur. 2008-2019-cu illərdə S.Qurbanov adına Motalayataq kənd tam orta məktəbində təhsil almışdır. 2019-cu ildə Bakı Biznes və Kooperasiya Kollecinə qəbul olunmuşdur.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Kənan Hacıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 6-da Füzuli döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, nəşi uzun müddət tapıla bilməmişdir. Kənan Hacıyevin şəhid olması xəbəri yalnız 9 noyabr 2020-ci ildə təsdiqlənmişdir. Astara rayonunun Anbuba kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında göstərdiyi igidliyə və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrasını şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Kənan İmran oğlu Hacıyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

17 NOYABR

Həmid Abbasbəyli - 35

(1991-2020)

Baş leytenant



Həmid Cavanşir oğlu Abbasbəyli 1991-ci il noyabrın 17-də Bakı şəhərində anadan olmuşdur. 1998-2002-ci illərdə Binəqədi rayonu Famil İsgəndərov adına 157 nömrəli tam orta məktəbdə, 2002-2006-cı illərdə Şəki şəhər 18 saylı tam orta məktəbdə, 2006-2009-cu illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almışdır.

Həmid Abbasbəyli idmanın boks və qaydasız döyüş növləri ilə məşğul olmuş, bir sıra yarışlarda iştirak edərək nailiyyətlər qazanmışdır.

2009-2013-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil almış, 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzində hərbi biliklərini təkmilləşdirmişdir. 2016-2017-ci illərdə Türkiyə Respublikasında, 2017-2018-ci illərdə isə Çin Xalq Respublikasında xüsusi təlim kurslarında iştirak etmişdir.

2015-ci ildə Xüsusi Təyinatlı Qüvvələrin sıralarına qoşularaq xidmətini davam etdirmiş, 2016-cı ilin 2-5 aprelində baş vermiş Aprel döyüşlərinin iştirakçısı olmuşdur.

Azərbaycan Ordusunun baş leytenantı olan Həmid Abbasbəyli 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Cəbrayıl, Xocavənd, Hadrut qəsəbəsi, Füzuli və Laçının azadlığı uğrunda gedən döyüşlərdə fərqlənmişdir. Həmid Abbasbəyli 19-20 oktyabr 2020-ci il tarixlərində Laçın dəhlizinə nəzarət edən yüksəkliklər uğrunda aparılan ağır döyüşlər zamanı Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi ərazisində qəhrəmancasına şəhid olmuşdur. Bakı şəhərində II Fəxri Xiyabanda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Həmid Cavanşir oğlu Abbasbəyli ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 26 dekabr.– S.1;12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

Məmmədova, Y. Bordo beretli komandir, xüsusi təyinatlı Həmid /Yeganə Məmmədova //İqtisadiyyat. - 2021. - 7-13 oktyabr. - S.6.

Mirzə, M. İgidlik və mərdlik nümunəsi : Qürurla anırıq /M.Mirzə //Respublika. - 2022. - 27 oktyabr. - S.8.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/2113

https://az.wikipedia.org/wiki/Həmid_Abbasbəyli

NOYABR

18

Xəyal Məmmədov - 40

(1986-2020)

Mayor



Xəyal Ağabəy oğlu Məmmədov 1986-cı il noyabrın 18-də Şəki şəhərində anadan olmuşdur. 1993-2001-ci illərdə Şəki şəhər 5 nömrəli tam orta məktəbində, 2001-2004-cü illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almışdır. 2004-2008-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil almış, 2008-2009-cu illərdə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində zabit hazırlığı kursunu bitirmişdir.

2009-cu ildə Cəlilabad rayonunda yerləşən "N" saylı hərbi hissədə bölük komandiri vəzifəsində xidmətə başlamışdır. Daha sonra hərbi xidmətini Füzuli rayonunda davam etdirmişdir. Xidməti fəaliyyəti ərzində ona həvalə olunmuş müxtəlif vəzifələri yüksək peşəkarlıqla icra edərək mayor hərbi rütbəsinə yüksəlmişdir.

Azərbaycan Ordusunun mayoru Xəyal Məmmədov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Cəbrayıl, Hadrut qəsəbəsi, Füzuli, Zəngilan və Qubadlının azadlığı uğrunda aparılan döyüşlərdə igidlik göstərmiş, döyüşlər zamanı yaralı hərbçiləri döyüş meydanından çıxararaq xüsusi fərqlənmişdir.

Xəyal Məmmədov 2020-ci il oktyabrın 20-də Qubadlı istiqamətində gedən döyüşlər zamanı snayper atəşi nəticəsində şəhid olmuşdur. Şəki şəhərində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Xəyal Ağabəy oğlu Məmmədov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Mayor Xəyal Məmmədovun 2020-ci il oktyabrın 7-də döyüşdən əvvəl ailəsinə ünvanladığı son məktubu və şəxsi əşyaları hazırda Milli Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fondunda qorunur.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 26 dekabr.– S.1;12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

Səxavətqızı, M. Son məktub, sonsuz həsrət – Şəhid Məmmədov Xəyal Ağabəy oğlu /M.Səxavətqızı // Bakı Xəbər . - 2021. - 11 mart. - S.15.

Göynük qartalları İkinci Qarabağ müharibəsində /tərt. ed.: Ş. Aydəmir, O. Məmmədov, İ. İbrahimxəlilov ; red. Ş. Salamova.- Bakı: Zəngəzurda çap evi, 2021. - 303 s.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/3949

https://sheki.org/wiki/Xəyal_Məmmədov

http://www.anl.az/down/meqale/baki_xeber/2021/mart/739280(meqale).pdf


NOYABR

19

İsa Hüseynov - 25

(2001-1996)

Əsgər



İsa Sahib oğlu Hüseynov 2001-ci il noyabrın 19-da Saatlı rayonunda anadan olmuşdur. Orta təhsilini Saatlı şəhərindəki S. Vurğun adına 1 nömrəli tam orta məktəbdə almışdır.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan İsa Hüseynov 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Şuşa istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 9-da Şuşa şəhəri ərazisində döyüş tapşırığını yerinə yetirərkən, düşmənin atdığı artilleriya mərmisinin partlaması nəticəsində çoxsaylı qəlpə yaraları almış və qəhrəmancasına şəhid olmuşdur. Saatlı rayonunun Qaralar kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən İsa Sahib oğlu Hüseynov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

19

Vüsal Güləliyev - 25

(2001-2020)

Əsgər



Güləliyev Vüsal Azər oğlu 2001-ci il noyabrın 19-da Siyəzən rayonunda anadan olmuşdur. 2008-2019-cu illərdə Siyəzən şəhər 5 nömrəli tam orta məktəbində təhsil almışdır. 2020-ci il yanvarın 6-da Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri Vüsal Güləliyev 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi məqsədilə başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavənd istiqamətində aparılan döyüşlərdə iştirak etmişdir. Oktyabrın 29-da Xocavənd uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Siyəzən şəhərində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Güləliyev Vüsal Azər oğlu ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Ruslan Cəfərov - 50

(1976-2020)

Mayor



Ruslan Gündüz oğlu Cəfərov 1976-cı il noyabr ayının 19-da Xankəndində anadan olmuşdur. Orta təhsilini 1983-cü ildə Xankəndində yerləşən Nizami Gəncəvi adına 4 nömrəli məktəbdə almışdır. 1993-1997-ci illərdə Bakı Ali Ümumqoşun Komandirləri Məktəbində təhsil alaraq, leytenant rütbəsinə yiyələnmişdir. Hərbi xidmət dövründə Ruslan Cəfərov müxtəlif vəzifələrdə çalışmışdır. O, motoatıcı tağım komandiri, avtomobil xidmət rəisinin köməkçisi, avtomobil xidmət rəisi, tağım komandiri və digər vəzifələrdə xidmət edərkən, hərb peşəsinin incəliklərinə bələd olan, məsuliyyətli və bacarıqlı zabit kimi özünü tanıtmışdır. Hərbi xidmət dövründə "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi", "Qüsursuz xidmətə görə" medalları ilə təltif olunan Ruslan Cəfərov mayor rütbəsinədək yüksəlmiş və 2016-cı ildə həqiqi xidmətdən ehtiyata buraxılmışdır.

Azərbaycan Ordusunun mayoru olan Ruslan Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı tabor komandirinin maddi-texniki təminat üzrə müavini vəzifəsində döyüş əməliyyatlarına qatılaraq böyük qəhrəmanlıq göstərmişdir. Xocavənd rayonunun Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə qarşısına qoyulmuş növbəti döyüş tapşırıqlarını icra edərkən ağır yaralanmış, buna baxmayaraq o, döyüşçü yoldaşlarını müdafiə etmək üçün mübarizə aparmaqda davam etmişdir. Ruslan Cəfərov oktyabrın 11-də Hadrut döyüşləri zamanı şəhid olmuşdur. II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ruslan Cəfərov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" orden "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 5 noyabr 2022-ci il // Azərbaycan . – 2022. – 6 noyabr. – S.2.

Xudiyev, H. "4 nömrəli"dən 44 günə... /Hikmət Xudiyev//525-ci qəzet. – 2023. – 18 noyabr, № 209. – S.24; Hərbi And. – 2023. – 30 noyabr, № 44. – S.16.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/2805

www.anl.az/down/meqale/azerbaycan/2022/noyabr/823451(meqale).pdf

https://www.anl.az/down/meqale/525/2023/noyabr/878462.htm

NOYABR

20

Elvin Rəhimov - 35

(1991-2020) *Baş leytenant*



Elvin Ehtiram oğlu Rəhimov 1991-ci il noyabrın 20-də Füzuli rayonunun Zərgər kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmuş, sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirərək baş leytenant rütbəsi almışdır.

Azərbaycan Ordusunun baş leytenantı olan Elvin Rəhimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşmüşdür. Noyabrın 4-də Şuşa döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Füzuli rayonunun Araz Dilağarda kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elvin Ehtiram oğlu Rəhimov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda". "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

21

Məqsəd Həsənov - 35

(1991-2020) *MAHHXHQ əsgər*



Məqsəd Mahir oğlu Həsənov 1991-ci il noyabrın 21-də Ağdam şəhərində anadan olmuşdur. O, ibtidai təhsilini məcburi köçkünlər üçün salınmış Türk çadır şəhərciyində almış, sonrakı təhsilini isə 2-ci Baharlı qəsəbəsində məcburi köçkünlər üçün fəaliyyət göstərən məktəbdə davam etdirmişdir. 2008-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Məqsəd Həsənov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşmüşdür. Oktyabrın 7-də Suqovuşan istiqamətində gedən döyüşlər zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Ağdam rayonunun Quzanlı Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş qapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Məqsəd Mahir oğlu Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

NOYABR

21

Anar Mürsəliyev - 25

(2001-2020)

Əsgər



Anar Səfər oğlu Mürsəliyev 21 noyabr 2001-ci ildə Xaçmaz şəhərində anadan olmuşdur. 2009-2019-cu illərdə C.Cabbarlı adına 6 saylı tam orta məktəbdə təhsil almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Anar Mürsəliyev 2020-ci il sentyabrın 27-də başlanmış, Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məqsədilə aparılan Vətən müharibəsində iştirak etmişdir. O, Cəbrayıl və Suqovuşan istiqamətlərində gedən döyüşlərdə qəhrəmanlıq göstərmişdir. Oktyabrın 22-də Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Xaçmaz rayonunun Qobuqırağı kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş qapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Səfər oğlu Mürsəliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

21

Tale Şirinov - 30

(1996-2020)

Əsgər



Tale Qadir oğlu Şirinov 1996-cı il noyabrın 21-də Qəbələ rayonunun Çuxur Qəbələ kəndində anadan olmuşdur. 2003-2015-ci illərdə Ə.Məmmədov adına Çuxur Qəbələ kənd tam orta məktəbində təhsil almışdır. 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Tale Şirinov 2020-ci il sentyabrın 27-də başlanmış, Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məqsədilə aparılan Vətən müharibəsində iştirak etmişdir. Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Oktyabrın 6-da Suqovuşan istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş qapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Tale Qadir oğlu Şirinov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə", "Suqovuşanın" azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

Elvin Məmmədzadə - 30

(1996-2020) *Leytenant*



Elvin İlham oğlu Məmmədzadə 1996-cı il noyabrın 22-də Samux rayonunda anadan olmuşdur. 2003-2012-ci illərdə M.Ə.Sabir adına Samux şəhər tam orta məktəbində təhsil almış, 2012-2015-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə hərbi təhsilini davam etdirmişdir.

2015-2019-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil almış, leytenant hərbi rütbəsi ilə Azərbaycan Silahlı Qüvvələrində xidmətə başlamışdır. 2019-cu ildən "N" saylı hərbi hissədə leytenant kimi fəaliyyət göstərmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin leytenantı Elvin Məmmədzadə 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi uğrunda döyüşlərdə iştirak etmişdir. O, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa rayonlarının azadlığı uğrunda aparılan hərbi əməliyyatlarda igidlik və rəşadət göstərmişdir. 2020-ci il noyabrın 9-da qəhrəmancasına şəhid olmuşdur. Samux rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüş əməliyyatlarında rəhbərlik göstərdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fərqləndiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elvin İlham oğlu Məmmədzadə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Azərbaycan_Bayrağı_ordeni_ilə_təltif_edilənlərin_siyahısı

https://unudulmazlar.az/az/infom/1976

https://memorial.az/az/qehremanlarimiz/1845

NOYABR

22

Elməddin Nəzərov - 30

(1996-2020)

Əsgər



Elməddin İsmayıl oğlu Nəzərov 1996-cı il noyabrın 22-də Masallı rayonunun Binə Xocavar kəndində anadan olmuşdur. Orta təhsilini Masallı rayon Şəhid Bəşir Nuriyev adına Binə Xocavar tam orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Elməddin Nəzərov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin tərkibində döyüşlərə qatılmışdır. O, Cəbrayıl və Qubadlı rayonlarının Ermənistan işğalından azad olunması uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. Oktyabrın 30-da Qubadlı uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Masallı rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüş əməliyyatlarında rəhbərlik göstərdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fərqləndiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Nəzərov Elməddin İsmayıl oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

22

Elməddin Nurzəliyev - 30

(1996-2020)

Əsgər



Elməddin Səfər oğlu Nurzəliyev 1996-cı il noyabrın 22-də Hacıqabul rayonunda anadan olmuşdur. Orta təhsilini Hacıqabul rayon 6 saylı tam orta məktəbində almışdır.

2019-cu ildən etibarən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri Elməddin Nurzəliyev 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Füzuli, Cəbrayıl, Zəngilan, Hadrut və Şuşa istiqamətlərində aparılan döyüşlərdə fəal iştirak etmişdir. Noyabrın 9-da Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüş əməliyyatlarında rəhbərlik göstərdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fərqləndiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Nurzəliyev Elməddin Səfər oğlu ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" , "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25 iyun.- S.61-65.

Məhəmmədəli İbrahimli - 30

(1996-2020)

Əsgər



İbrahimli Məhəmmədəli Mütəllim oğlu 1996-cı ildə noyabrın 22-də Beyləqan rayonunda anadan olmuşdur. 2011-2014-cü illərdə Bakı şəhəri, 215 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2014–2018-ci illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində bakalavr təhsilini tamamlamış, 2018-ci ildə Azərbaycan Texniki Universitetində magistr təhsilinə qəbul olmuşdur.

2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətə çağırılan Məhəmmədəli İbrahimli Azərbaycan Ordusunda kəşfiyyatçı əsgər kimi xidmət etmişdir. Vətən müharibəsində Ağdərə, Tərtər, Suqovuşan istiqamətində döyüşlərə qatılmışdır. Oktyabrın 13-də Ağdərə istiqamətində aparılan döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. 15 dekabr 2020-ci ildə Bakı şəhəri Bakıxanov qəsəbəsində yerləşən Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüş əməliyyatlarında rəhbərlik göstərdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fərqləndiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən İbrahimli Mütəllim oğlu Məhəmmədəli ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2021-ci ildə onun yaxın dostları tərəfindən Məhəmmədəli İbrahimlinin adını əbədiləşdirmək və onun təhsil və vətənpərvərlik irsini davam etdirmək məqsədilə "Məhəmmədəli İbrahimli Təqaüd Proqramı" təsis edilmişdir. Bu proqram dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı tələbələrin magistr səviyyəsində təhsilini dəstəkləməyə yönəldilib.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.66-67.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

İnternetdə:

https://www.unudulmazlar.az/az/infom/944

https://az.wikipedia.org/wiki

https://memorial.az/az/qehremanlarimiz/413

NOYABR

22

Nurlan Rəhimov - 45

(1981-2020) *MAHHXHQ kiçik çavuş*



Rəhimov Nurlan Əlövsəd oğlu 1981-ci il noyabrın 22-də Astara şəhərində anadan olmuşdur. 1988-1999-cu illərdə Ş. Qasımov adına 4 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2016-cı ilin 2-5 aprelində baş verən Aprel döyüşlərinin iştirakçısı olmuşdur.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Nurlan Rəhimov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərə qatılmışdır. Sentyabrın 30-da Xocavənd rayonunun Üçtəpə adlanan ərazisində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüş əməliyyatlarında rəhbərlik göstərdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fərqləndiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Nurlan Əlövsəd oğlu Rəhimov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

23

Elmar Daşdəmirov - 25

(2001-2020) *Əsgər*



Elmar Seymur oğlu Daşdəmirov 2001-ci il noyabrın 23-də Salyan rayonunun Qarabağlı kəndində anadan olmuşdur. Orta təhsilini Salyan rayonu, Qarabağlı kənd orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Elmar Daşdəmirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Ağdərənin, Tərtərin, Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 18-də Ağdərə istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüş əməliyyatlarına qatılan, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fərqləndiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elmar Seymur oğlu Daşdəmirov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Salyan rayonunda Vətən müharibəsi şəhidi Elmar Daşdəmirovun xatirəsinə bulaq inşa edilərək istifadəyə verilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

NOYABR
23

Rəcəb Məmmədov - 30

(1996-2020)

Əsgər



Rəcəb Yolçu oğlu Məmmədov 1996-cı il noyabrın 23-də Ağdaş rayonunun Orta Ləki kəndində anadan olmuşdur. Orta təhsilini Bakı şəhəri Xətai rayonu 269 saylı orta məktəbdə almışdır. 2015-2019-cu illərdə Azərbaycan Kooperasiya Universitetində ali təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Rəcəb Məmmədov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsi zamanı Ağdam rayonu istiqamətində aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. Noyabrın 7-də Ağdamın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Ağdaş rayonunun Orta Ləki kəndindəndə dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüş əməliyyatlarına qatılan, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fərqləndiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Rəcəb Yolçu oğlu Məmmədov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni , "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

23

Rza Məmmədov - 25

(2001-2020)

Əsgər



Rza Əskər oğlu Məmmədov 2001-ci il noyabrın 23-də Şamaxı rayonunun Göylər kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə 2 saylı Göylər kənd tam orta məktəbində təhsil almış, eyni zamanda Şamaxı rayon İncəsənət Təhsili Mərkəzində səs sənəti (xanəndəlik) üzrə ixtisaslaşmışdır. 2020-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi Rza Məmmədov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad olunması məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə hərbi hakim kimi xidmət göstərmişdir. Rza Məmmədov 2020-ci il sentyabrın 27-də Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Şamaxı rayonunun Göylər kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Rza Əskər oğlu Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

NOYABR

24

Osman Manafov - 35

(1991-2020) *Əsgər*



Osman Natiq oğlu Manafov 1991-ci il noyabrın 24-də Suraxanı rayonunda anadan olmuşdur. Orta təhsilini Ramana qəsəbəsi, 90 saylı orta məktəbində almışdır.

2014-cü ildə müddətli həqiqi hərbi xidmətə çağırılmış, 2016-cı ilin aprel ayında baş vermiş döyüş əməliyyatlarında iştirak etmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri kimi Osman Manafov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad olunması məqsədilə başlanan Vətən müharibəsinə qatılmış, Hadrut qəsəbəsinin və Xocavənd rayonunun azad olunması uğrunda gedən döyüş əməliyyatlarında fəal iştirak etmişdir. Oktyabrın 27-də Xocavənd istiqamətində aparılan döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Bakı şəhəri Bülbülə qəsəbəsindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Osman Natiq oğlu Manafov ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

24

Şahin Hümbətov - 40

(1986-2020) *MAHHXHQ kiçik çavuş*



Şahin Əlicuvan oğlu Hümbətov 1986-cı il noyabrın 24-də Sabirabad rayonunun Minbaşı kəndində anadan olmuşdur. Orta təhsili Sabirabad rayonu Qarağac kənd tam orta məktəbində almışdır.

Azərbaycan Ordusunun kiçik çavuşu rütbəsində xidmət edən Şahin Hümbətov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və ölkənin ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir. O, Murovdağ, Cəbrayıl, Xocavənd və Füzuli istiqamətlərində aparılan döyüş əməliyyatlarında iştirak etmiş, göstərdiyi rəşadət və şücaətlə seçilmişdir. Oktyabrın 28-də Füzuli rayonu istiqamətində aparılan döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Sabirabad, Qarağac kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Şahin Əlicuvan oğlu Hümbətov ölümündən sonra "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə"və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25 iyun.- S.61-65.

NOYABR

25

Samir Quliyev - 25

(2001-2020) *Əsgər*



Samir Məhərrəm oğlu Quliyev 2001-ci il noyabrın 25-də Lənkəran rayonunun Velədi kəndində anadan olmuşdur. Orta təhsilini Lənkəran şəhərinin Velədi kənd tam orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Samir Quliyev 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir. Sentyabrın 28-də Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Lənkəran rayonunda dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Samir Məhərrəm oğlu Quliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunması uğrunda", "Cəsur döyüşçü və "Xocavəndin azad olunması uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

26

Taleh İsmayılov - 40

(1986-2020) *MAHHXHQ əsgər*



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

Taleh Səndəl oğlu İsmayılov 1986-cı il 26 noyabr tarixində Lənkəran rayonunun Boladı kəndində anadan olmuşdur. Orta təhsilini Lənkəran şəhər, Boladı kənd 1 saylı orta məktəbində almışdır. 2004-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2015-ci ildə Ağcabədi rayonunun "N" saylı hərbi hissəsində müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi xidmətini davam etdirmişdir. 2016-cı ilin aprelin 2-dən 5-nə qədər davam edən Aprel döyüşlərində iştirak etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Taleh İsmayılov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində Füzuli, Cəbrayıl, Qubadlı, Xocavənd və Ağdam rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 4-də Şuşa uğrunda aparılan döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Taleh Səndəl oğlu İsmayılov ölümündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları və Azərbaycanın Müdafiə Naziri Zakir Həsənovun Sərəncamına əsasən "Şücaətə görə" medalı ilə təltif edilmişdir.

NOYABR

27

Ülvi Müseyibli - 35

(1991-2020)

Əsgər



Ülvi Şakir oğlu Müseyibli 1991-ci il noyabrın 27-də İsmayıllı rayonunun Xəlilli kəndində anadan olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Ülvi Müseyibli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. O, 2020-ci il noyabrın 5-də Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. İsmayıllı rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ülvi Şakir oğlu Müseyibli ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

27

Elçin Poladov - 25

(2001-2020)

Əsgər



Elçin Adil oğlu Poladov 2001-ci il noyabrın 27-də Azərbaycan Respublikasının Tovuz rayonunun Aşağı Quşçu kəndində anadan olmuşdur. O, 2008-2019-cu illərdə İ. Mürşüdov adına Aşağı Quşçu kənd tam orta məktəbində təhsil almışdır.

2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu idi.

Elçin Poladov 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərin azad edilməsi məqsədilə başlanan Vətən müharibəsi zamanı Füzuli və Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak etmişdir. Noyabrın 6-da Qırmızı Bazar qəsəbəsi istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdurdur. Tovuz rayonunun Aşağı Quşçu kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elçin Adil oğlu Poladov ölümündən sonra III dərəcəli "Vətənə Xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

NOYABR

27

Tacəddin Abışov - 25

(2001-2020)

Əsgər



Tacəddin Elşən oğlu Abışov 2001-ci il noyabrın 27-də İmişli şəhərində anadan olmuşdur. Orta təhsilini İmişli şəhər Humanitar fənlər təmayüllü 1 saylı məktəb-liseyində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Tacəddin Abışov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. O, oktyabrın 9-da Ağdərə istiqamətində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. İmişli şəhərində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Tacəddin Elşən oğlu Abışov ölümündən sonra "Vətən uğrunda" , "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

28

Fərid Abışov - 30

(1996-2020)

Əsgər



Fərid Əlfayım oğlu Abışov 1996-cı il noyabrın 28-də Yevlax rayonunun Qoyunbinəsi kəndində anadan olmuşdur. Orta təhsilini Yevlax rayonunun Qoyunbinəsi kənd orta məktəbində almışdır. 2016-cı ilin 2-5 aprelində baş verən Aprel döyüşlərinin iştirakçısı olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Fərid Abışov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər, Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. O, oktyabrın 19-da Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Yevlax şəhəri Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Fərid Əlfayım oğlu Abışov ölümündən sonra "Vətən uğrunda" , "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

NOYABR

29

Bəhruz İsgəndərov - 40

(1986-2020)

MAHHXHQ kiçik çavuş



Bəhruz Abbas oğlu İsgəndərov 1986-cı il noyabrın 29-da Gəncə şəhərində anadan olmuşdur. Orta təhsilini Gəncə şəhərinin 17 saylı orta məktəbində almışdır.

Azərbaycan Ordusunun kiçik çavuşu kimi xidmət edən Bəhruz İsgəndərov 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsi zamanı Cəbrayıl, Qubadlı və Laçın rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 29-da Laçın istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Bəhruz Abbas oğlu İsgəndərov ölümündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni , "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

Elçin Süleymanov - 35

29

(1991-2020)

MAHHXHQ əsgər



Elçin Tehran oğlu Süleymanov 1991-ci il noyabrın 29-da Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olmuşdur. Orta təhsilini Füzuli rayonu Allahyar Əliyev adına Böyük Bəhmənli kənd 2 saylı tam orta məktəbində almışdır.

Elçin Süleymanov 2016-cı ilin 2-5 aprelində baş verən döyüşlərdə iştirak etmiş və göstərdiyi şücaətə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən fəxri fərmanla təltif edilmişdir.

Azərbaycan Ordusunun əsgəri kimi xidmət edən Elçin Süleymanov 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzuli rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 30-da Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elçin Tehran oğlu Süleymanov ölümündən sonra "Vətən uğrunda" , "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Şahnur Hüseynov - 35

(1991-2020)

Kapitan



Şahnur Şahin oğlu Hüseynov 1991-ci il noyabrın 30-da Polşanın Belqrad şəhərində anadan olmuşdur. Orta təhsilini Füzuli rayonunun İkinci Mahmudlu kəndində almışdır.

2006-2009-cu illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsilini davam etdirmiş, 2009-2013-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali təhsil almışdır.

Təhsilini başa vurduqdan sonra Azərbaycan Ordusunda zabit kimi xidmətə başlamış, Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə müxtəlif rəhbər vəzifələrdə çalışmışdır. Xidmət dövründə əvvəlcə bölük komandiri, daha sonra taborun qərargah rəisi, sonda isə tabor komandiri vəzifələrini icra etmişdir.

Azərbaycan Ordusunun kapitanı olan Şahnur Hüseynov 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərin azad edilməsi məqsədilə başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Həmin gün – 2020-ci il sentyabrın 27-də Füzuli döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Şəhid kapitan Şahnur Hüseynov Astara rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Şahnur Şahin oğlu Hüseynov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhidin xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaşadığı küçəyə Şahnur Şahin oğlu Hüseynovun adı verilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.79.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6-12.

Cavadov, S. Cəsur kapitan /Savalan Cavadov //Azərbaycan. – 2020. - 9 dekabr. - S.8.

Abiyeva, K. Xoşbəxtliyi yaşayan Şahnur Hüseynov /Kəmalə Abiyeva//İqtisadiyyat . - 2021. - 3-9 iyun.- S.8.

Orucoğlu, Z. Dastana dönən ömür /Zəfər Orucoğlu // Hərbi And. - 2021. - 26 fevral. - S.17.

İnternetdə:

https://www.unudulmazlar.az/az/infom/6146

https://memorial.az/az/qehremanlarimiz/1830

http://www.anl.az/down/meqale/iqtisadiyyat/2021/iyun/748137.htm

http://www.anl.az/down/meqale/azerbaycan/2020/dekabr/731949.htm

http://www.anl.az/down/meqale/herbi_and/2021/fevral/736376.htm

Siyasət. Hərbi iş

Oqtay Şahbazov – 85

(1941)

Dövlət xadimi



Oqtay Qəşəm oğlu Şahbazov 1941-ci il noyabr ayının 1-də İrəvan şəhərində anadan olub.

Orta məktəbi bitirdikdən sonra əmək fəaliyyətini 7 nömrəli Bakı Diyircəkli Yastıq Zavodunda cilalayıcı fəhlə kimi başlamışdır.

1959-1964-cü illərdə Azərbaycan Xarici Dillər Pedaqoji institutunda Azərbaycan və Alman dili müəllimi ixtisası üzrə təhsil almışdır.

Oqtay Şahbazov ali məktəbi bitirdikdən sonra 126 nömrəli orta məktəbdə alman dili müəllimi kimi fəaliyyətə başlamışdır. Daha sonra uzun illər S.M.Kirov adına Ali Xəzər Hərbi-dəniz Məktəbinin Xarici dillər kafedrasının alman dili müəllimi işləmişdir.

1980-ci ildən Azərbaycan SSR Nazirlər Sovetinin İşlər İdarəsində müxtəlif rəhbər vəzifələrində çalışmış, 1990-cı ildə Azərbaycan Komunist Partiyası Mərkəzi Komitəsinin İşlər müdiri vəzifəsinə təyin olunmuşdur.

1991-ci ildə XII çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmiş, fəal və səmərəli işinə görə Azərbaycan Respublikası Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir.

Dövlət qulluğunun 1-ci dərəcə dövlət müşaviri olan Oqtay Qəşəm oğlu Şahbazov 2015-ci ildə Əməkdar dövlət qulluqçusu fəxri adına, 2011-ci ildə isə "Şöhrət" ordeninə layiq görülmüşdür.

1992-1993-cü illərdə Azərbaycan Respublikası Prezidentinin İşlər müdirinin birinci müavini, 2016-2021-ci illərdə Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri vəzifəsində çalışmışdır.

Ədəbiyyat:

O.Q.Şahbazovun «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 28 oktyabr 2011-ci il // Azərbaycan. - 2011.- 29 oktyabr.- S. 1.

O.Q.Şahbazovun Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri təyin edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 yanvar 2016-ci il // Azərbaycan.- 2016.- 16 yanvar.- S.1.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Oqtay_Şahbazov

https://adu.edu.az/az/fexri-mezunlar/25.html

Qurban Xəlilov – 120

(1906-2000)

Dövlət xadimi



Qurban Əli oğlu Xəlilov 15 noyabr 1906-cı il tarixində Cənubi Azərbaycanın Kəhralan kəndində (hazırkı Ərdəbil) anadan olmuşdur. 1908-ci ildə ailəsi ilə Bakıya köçmüşdür.

Əmək fəaliyyətinə 1920-ci ildə Keşlədə başlamış, 1923-cü ildə fabrik-zavod məktəbinə daxil olmuş və 1926-cı ildə həmin məktəbi bitirərək Montin adına zavodda tornaçı köməkçisi vəzifəsində işləməyə başlamışdır.

Qurban Xəlilov 1928-1933-cü illərdə Azərbaycan Neft İnstitutunda ali təhsil almışdır.

1932-1935 və 1937-ci illərdə Bakıda S. M. Kirov adına zavodda mühəndis, sex rəisi işləmişdir. 1935-1936-cı illərdə Orduda xidmət etmişdir. 1937-1942-ci illərdə leytenant Şmidt, S. M. Kirov, F. Dzerjinski adına maşınqayırma zavodlarının direktoru, 1942-1945-ci illərdə Azərbaycan Kommunist Partiyasının Bakı Şəhər Komitəsinin katibi, 1945-1955-ci illərdə Qurban Xəlilov "Azneft", "Azərneftkəşfiyyat" birliyinin rəis müavini, tikinti trestinin müdiri, Naxçıvan MSSR-də tikinti idarəsinin rəisi, Azərbaycan SSR tikinti materialları sənayesi nazirinin müavini vəzifələrində çalışmışdır.

Həmçinin Qurban Əli oğlu Xəlilov 1955-ci ildə Bakı Şəhər İcraiyyə Komitəsi sədrinin müavini, 1956-1958-ci illərdə Azərbaycan SSR yerli sənaye naziri, 1958-1969 Azərbaycan SSR maliyyə naziri, 1969-1985-ciillərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri, 1970-1986-cı illərdə SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin müavini vəzivələrində çalışmışdır.

Sovet İttifaqı Kommunist Partiyası 24-27-ci qurultaylarının, Azərbaycan Kommunist Partiyasının 13, 14, 19, 22-31-ci qurultaylarının nümayəndəsi olmuşdur. 1985-ci 31-ci qurultayda Mərkəzi Komitənin üzvü seçilmişdir.

1926-cı ildən Sov.İKP-nın üzvü, 1971-1986-cı illərdə Sov.İKP Mərkəzi Təftiş Komissiyasının üzvü, SSRİ Ali Sovetinin 8-11-ci çağırış, Azərbaycan SSR Ali Sovetinin 2, 5-11-ci çağırış deputatı seçilmişdir.

Qurban Əli oğlu Xəlilov müxtəlif illərdə beş dəfə "Lenin", "Oktyabr inqilabı", "Qırmızı əmək bayrağı" və "Qırmızı Ulduz" ordenlərinə layiq ghörülmüşdür.

Qurban Xəlilov 20 mart 2000-ci ildə Bakıda vəfat etmiş, Birinci Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat:

Azərbaycan SSR / Q. Ə. Xəlilov ; red. A. Nəbiyev.- Bakı; Azərnəşr.- 1972.- 57, [3] s.

Təsərrüfat islahatı şəraitində maliyyə və kredit / Q. Ə. Xəlilov; red. X. Əfəndiyev.- Bakı; Azərnəşr.-1970. -32, [4] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Qurban_Xəlilov

https://www.anl.az/down/meqale/ayna/2010/mart/111311.htm

Əli Əsədov – 70

(1956)

Dövlət xadimi



Əli Hidayət oğlu Əsədov 1956-cı il noyabrın 30-da Bakı şəhərində anadan olmuşdur.

1964-1974-cü illərdə Bakı şəhərində 134 nömrəli məktəbdə, 1974-1978-ci illərdə isə Moskva şəhərində Plexanov adına Xalq Təsərrüfatı İnstitutunda təhsil almışdır.

Əli Əsədov 1978-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda baş laborant kimi çalışmışdır. 1978-1980-ci illərdə ordu sıralarında xidmət etmişdir.

1980-ci ildə yenidən Azərbaycan SSR Elmlər Akademiyasının İqtisadiyyat İnstitutuna qayıdaraq, 1981-ci ilədək baş laborant kimi fəaliyyətini davam etdirmişdir.

1981-1984-cü illərdə Moskva şəhərində SSRİ Elmlər Akademiyası İqtisadiyyat İnstitutunda aspirant, 1985-ci ildə namizədlik dissertasiyasını müdafiə edərək, iqtisad elmləri namizədi elmi dərəcəsini almışdır.

1985-1989-cu illərdə isə Azərbaycan SSR Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda kiçik elmi işçi və elmi işçi kimi fəaliyyət göstərmişdir. 1989-cu ildən pedaqoji fəaliyyətə başlamış və 1995-ci ilədək Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda dosent və kafedra müdiri kimi çalışmışdır.

Əli Əsədov 1995-2000-ci illərdə Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 1995-ci il noyabrın 24-dən səlahiyyətlərinin icrasına başlayan Əli Əsədov Milli Məclisin İqtisadi siyasət Daimi Komissiyasının və Azərbaycan-Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü olmuşdur.

1998-ci il aprelin 17-də Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi, 2012-ci il 29 noyabr tarixində Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin müavini, 2017-ci ildən Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi-şöbə müdiri kimi çalışmışdır.

Əli Əsədov Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 oktyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Baş naziri təyin edilmişdir.

1993-cü ilin fevra ayında Yeni Azərbaycan Partiyasına üzv kimi daxil olmuşdur. Həmçinin Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvüdür.

Azərbaycan Prezidenti İlham Əliyevin 10 avqust 2004-cü il tarixli 349 nömrəli Sərəncamı ilə Əli Əsədova 1-ci dərəcəli dövlət müşaviri dərəcəsi verilmişdir.

Əli Əsədov 2012-ci ildə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, 2016-cı ildə isə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir. "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018) " yubiley medalına layiq görülmüşdür.

Ədəbiyyat:

Əsədov,Ə.H. Azərbaycanın tarixi uğurlarındakı möhtəşəm imza: / Ə.Əsədov // Azərbaycan.- 2021.-23 dekabr.- S.1-3.

Əsədov,Ə.H. Əbədi olaraq Azərbaycanla birlikdə,Azərbaycanın özü qədər əbədi [Ümummilli Lider Heydər Əliyev haqqında]: / Ə. Əsədov // Azərbaycan.- 2022.- 7 may.- S.1-3.

Əsədov, Ə.H. Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyətinə dair hesabatı / Ə.Əsədov // Azərbaycan.- 2025.- 15 mart (№ 57).- S.4.

İnternetdə:

https://nk.gov.az/az/rehberlik/azerbaycan-respublikasinin-bash-naziri

https://az.wikipedia.org/wiki/Əli_Əsədov

Sevda Məmmədəliyeva – 80

(1946) *Alim*



Ədəbiyyat:

Azərbaycanda mədəniyyət siyasəti / Kitabı hazırlayanlar: S.Məmmədəliyeva, N.Axundova .- Bakı.- Nağıl evi.- 2003.- 232 s.

Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında:[çoxcildli] / Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi ; layihənin rəhbəri Ə. Qarayev ; tərt. : S. Məmmədəliyeva (elmi red.), L. Məmmədova red. hey. : S. Abbasov, Ə. Əhmədov.- C. 1, C. 2..- Bakı; Nurlar.- 2007.-820 s.

Ekoloji sivilizasiyanın astanasında: yaşıl enerjiyə keçid: [Azərb., ing. və rus dillərində] N. Məmmədov, S. Məmmədəliyeva ; red. U. Ələkbərov.- Bakı;Şərq-Qərb.- 2024.-153, [3] s.

Məmmədəliyeva, S.Y. Mədəniyyət və incəsənətimizə verdikləri töhfələrə görə: [Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyevanın sənət adamları ilə keçirdiyi görüş haqqında] / S.Y. Məmmədəliyeva // Mədəniyyət.- 2022.- 9 sentyabr.- S.2.

Abdullayeva, S. Sevda Məmmədəliyeva Avstriyanın mükafatına layiq görülüb / S.Abdullayeva // 525-ci qəzet.- 2015.- 17 iyun.- S. 7.

Sevda Yusif qızı Məmmədəliyeva 1946-cı il noyabrın 14-də Bakı şəhərində akademik ailəsində anadan olmuşdur.

1962-ci ildə Bakı şəhər 6 saylı orta məktəbi və Bakı şəhər 2 saylı Uşaq Musiqi məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinə (indiki Bakı Dövlət Universiteti) daxil olmuş, 1967-ci ildə Universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Elə həmin il Azərbaycan Respublikası Elmlər Akademiyasının aspiranturasına daxil olaraq elmi fəaliyyətə başlamışdır.

Namizədlik disertasiyasını müdafiə etdikdən sonra 1970-1983-cü illərdə Azərbaycan Respublikası Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında əvvəl kiçik elmi işçi, sonradan böyük elmi işçi vəzifələrində çalışmışdır. 1974-cü ildə Sevda Məmmədəliyeva böyük elmi işçi və 1983-cü ildə dosent elmi adlarını almışdır.

Sevda Məmmədəliyeva 1983-cü ildən Azərbaycan Memarlıq və İnşaat Universitetində pedaqoji fəaliyyətə başlayaraq, ardıcıl olaraq dosent, professor, kafedra müdiri vəzifələrində işləmişdir. 1987-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda bir illik təcrübə keçmiş, 1994-cü ilin yanvar ayında Azərbaycan Respublikası Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun İxtisaslaşdırılmış elmi şurasında 090011 – "Sosial fəlsəfə" ixtisası üzrə doktorluq dissertasiyasını uğurla müdafiə etmiş və fəlsəfə elmləri doktoru elmi dərəcəsi almışdır.

1996-cı ildə elm, mədəniyyət və təhsil sahəsində xidmətlərinə görə Sevda Məmmədəliyeva "Bilik" Azərbaycan Maarif Cəmiyyətinin medalı ilə təltif olunaraq akademik Yusuf Məmmədəliyev adına mükafata layiq görülmüşdür.

1997-ci ildə Sevda Məmmədəliyevaya professor elmi adı verilmiş, 1999-cu ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin kafedra müdiri vəzifəsinə seçilmişdir. 1997-ci ildə sosial fəlsəfə üzrə silsilə işlərinə görə o, Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü, 1999-cu ildə Rusiya Ekoloji Akademiyasının əcnəbi üzvü, 2000-ci ildə NOOSFERA Beynəlxalq Akademiyasının həqiqi üzvü seçilmişdir. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının "Fəlsəfə" ixtisası üzrə müxbir üzvü seçilmişdir.

1999-2023-cü illərdə Sevda Məmmədəliyeva Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini olmuşdur.

Sevda Məmmədəliyeva Avropa Şurasının "Münaqişənin mədəniyyət vasitəsilə aradan qaldırılması" və "Kiyev Təşəbbüsü", həmçinin UNESKO-nun "Mədəni çeşidlilik", "GUÖAM ölkələrinin mədəniyyət üzrə observatoriyası" proqramlarının milli koordinatorudur. O, Komitənin Strasburqda keçirilən iclaslarında, Fransa, Rusiya, Portuqaliya, İsveçrə, Xorvatiya, Almaniya, Yunanıstan, Hollandiya, Türkiyə və s. ölkələrdə keçirilən beynəlxalq konfrans və simpoziumlarda çoxsaylı məruzələrlə çıxış etmişdir.

Sevda Məmmədəliyeva 2007-ci ildə Avropa Şürasının Mədəniyyət üzrə Rəhbər Komitəsinin Bürosunun üzvü seçilmişdir.

120-dən çox elmi işlərin, o cümlədən 9 kitabın müəllifidir. Sevda Məmmədəliyeva "Xoşməramlı səfir", "Mədəniyyətimizin və mədəni incilərimizin hamisi", "Kitabxanalar biliklər cəmiyyətində" və "Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında" kitabların tərtibatçısıdır.

2016-cı ildə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 2019-cu ildə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmiş və 2024-cü ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Nailə İslamzadə – 65

(1961)

Diktor



Nailə İslamzadə 1961-ci il noyabr ayının 2-də Balakən rayonunda anadan olmuşdur.

1982-2006-cı illlərə qədər Azərbaycan Dövlət Televiziyasında diktor, aparıcı, jurnalist kimi fəaliyyət göstərmişdir. Bu müddət ərzində dövlət bayramlarına, rəsmi tədbirlərə həsr olunmuş çoxsaylı canlı proqramların, televiziyada çoxsəpkili verilişlərin və "Xəbərlər" proqramının əsas aparıcılarından biri olmuşdur. On il ərzində müəllifi və aparıcısı olduğu "Ailələr, talelər" proqramı Azərbaycan televiziya məkanında tok-şounun bu janrında yaranmış ilk veriliş olaraq, Azərbaycan ailəsinin mənəvi, sosial və huquqi problemlərinin həlli yolunda ictimai fikrə istiqamətverici təsir göstərmiş, maarifləndirici, öyrədici tendensiyaya malik olmaqla böyük tamaşaçı rəğbətini qazanmışdır. Bununla yanaşı, 2011-ciildə Türkiyənin TRT AVAZ kanalının dəvəti ilə hər həftə türk dilində yayımlanan "İş'te kadın" proqramının müəllifi və aparıcısı olmuşdur.

Nailə İslamzadə 2007-2016-cı illərdə Azərbaycan Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində Multimedia Mərkəzinin rəisi vəzifəsində çalışmışdır. Nazirliyin mühüm layihələrinə həsr olunmuş filmlərin ssenarilərini yazaraq hazırlamışdır.

2014-cü ildən isə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyinin ideyası və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin maddi-texniki dəstəyi əsasında yaranmış, məramı milli-mənəvi və dini dəyərlərimizin təbliği, erməni saxtakarlıqlarının üzə çıxması, xalqımızlın həyatında tarixən mövcud olan tolerantlığın, mədəni və linqvistik müxtəlifliyin qorunub saxlanılması olan "Kulturaplus" internet televiziyasına rəhbərlik edərək, Azərbaycan tarixi və mədəniyyəti, ölkəmizin dahi şəxsləri haqqında tammetrajlı publisistik və sənədli filmlərin hazırlanmasına rəhbərlik edir. Onların içində, iki böyük şəxsin, Heydər Əliyev və Pantifik İoann II Pavelin əsasını qoyduqları və İlham Əliyev tərəfindən davam etdirilən Vatikanla Bakı arasındakı münasibətlər haqqında bəhs edən "Bakıda messa keçirilə bilər", blokadada olan Naxçıvanda "Heydər Əliyevlə gecə söhbəti", dini radikalizmlə mübarizə mövzusundan bəhs edən "Fitnə" və "Şəhadət", "Vəhdət" adlı filmlərim və Heydər Əliyev Fondunun sifarişi ilə hazırlanan görkəmli yazıçısı Maqsud İbrahimbəyovun həyat və yaradlcılığından bəhs edən "Əbədi Maqsud" filmlərini misal gətirmək olar.

Nailə İslamzadə 2019-cu ildən İctimai televiziyada, qısa müddət ərzində tamaşaçı rəğbəti qazanmış "Ötən günlər" verilişinin aparıcısıdır.

Görkəmli diktor 1998-ci ildə "Əməkdar artist" adına layiq görülmüşdür.

Ədəbiyyat:

Nailə İslamzadə: "Onları efirdən yığışdırsan, hər şey yoluna düşəcək"[TRT Avaz-da "İşte kadın" verilişinin aparıcısı Nailə İslamzadə ilə müsahibə] // Ədalət. - 2011.- 22 dekabr.- S. 8.

Nadir, Z. Nailə İslamzadə: "Problemlər süni şişirdilir" [Əməkdar artist, diktor Nailə İslamzadə ilə müsahibə] / müsahibəni apardı: Züleyxa Nadir // Olaylar.- 2017. - 25 yanvar.- S.10.

Adil,N. Televiziya yalnız maarifləndirici verilişlərlə tərbiyələndirmir [Əməkdar artist, diktor Nailə İslamzadə ilə müsahibə] / müsahibəni apardı: Nigar Adil // Olaylar.- 2018.- 15-17 dekabr.- S.11.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Nail%C9%99_%C4%B0slamzad%C9%99

İbrahim Göyçaylı – 90

(1936-2007)

Şair



Əsgərov İbrahim Məhəmməd oğlu (İbrahim Göyçaylı) 1936-cı il noyabrın 12-də Göyçay rayonunun Alıkənd kəndində anadan olmuşdur.

1943-1953-cü illərdə Göyçay şəhər tam orta məktəbində, 1953-1958-ci illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində təhsil almışdır.

Əmək fəaliyyətinə qəzetdə müxbir kimi başlamışdır. Sonra Azərbaycan Dövlət Nəşriyyatında redaktor, "Mədəni ticarət", "Za kulturnuyu torgovli" qəzetlərində baş redaktor, Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətində redaktor, şöbə müdiri, baş redaktor kimi vəzifələrdə çalışmışdır. 1983-cü ildən 2007-ci ilə qədər baş redaktor müavini vəzifəsində fəaliyyət göstərmişdir.

İbrahim Göyçaylı ümumilikdə, Azərbaycan Dövlət Radiosunda 40 ilə yaxın müddətdə fəaliyyət göstərmiş, radionun formalaşmasında xüsusi xidmətləri olmuşdur. Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətində "Ədəbiyyat və İncəsənət Redaksiyası"nın baş redaktor müavini idi.

2006-cı ildə Prezident İlham Əliyevin Sərəncamı ilə Əməkdar mədəniyyət İşçisi fəxri adına layiq görülmüşdür.

Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

Şairin gənclik illərindən başlayaraq mətbuatda müxtəlif məzmunlu lirik şeirləri dərc olunmuşdur.

Yüzdən çox şerinə mahnılar bəstələnmiş, tanınmış sənətkarlar tərəfindən ifa olunmuşdur.

1966-cı ildə "Dalğalar qoynunda" (1966), "Yadigar sözlər" (1969), "Gözlərinin işığında" (1973), "Qərənfil işığı" (1979), "Qoymayın qızları kədərlənməyə" (1982), "Ulduzlar nədən danışır" (1984), "Vaxt soruşsa" (1986), "Uzaq haraylara isinmir ürək" (1991), "Ümiddən uzun gecə" (1997), "Vaxt soruşsa" (1986), "Lirika" (2001) və başqa kitabları nəşr olunmuşdur. Rusiyada, Gürcüstanda və İranda kitabları çap olunub. Yüzdən çox şeirinə mahnılar bəstələnib, tanınmış sənətkarlar tərəfindən ifa olunub. Dünya ədəbiyyatından bir çox tərcümələri var.

İbrahim Göyçaylı 2007-ci il, fevral ayının 24-də vəfat etmişdir.

Hazırda Göyçay rayonunda küçələrdən biri İbrahim Göyçaylının adını daşıyır.

Ədəbiyyat:

Yaşadığım bu dünya: [Şeirlər] / İ. Göyçaylı ; naşir və red. Q. İsabəyli.- Bakı: Şirvannəşr, 2004, 200 s.

Fikrimin sabahı: seçilmiş əsərlər / İ. Göyçaylı; red. A. İsabəyli; rəssam. Ədalət.- Bakı; Şirvannəşr.- 2005.- 440 s.

İbrahim Göyçaylı dünyası / Anar İsabəyli.- Bakı; Şirvannəşr.- 2006.-292 s.

Ağayeva, M. İbrahim Göyçaylı şair kimi, insan kimi / M.Ağayeva // 525-ci qəzet.- 2009.- 12 noyabr. - S.7.

Yusifli,V. "O, heç kimə yox, özünə bənzəyir": ["Dünya, səndən kimlər keçdi" silsiləsindən-İbrahim Göyçaylı] / Vaqif Yusifli // Ədalət.- 2014.- 22 noyabr.- S.15.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C4%B0brahim_G%C3%B6y%C3%A7ayl%C4%B1

Nadir Vəlixanov – 100

(1926-1995) *Ədəbiyyatşünas*

Nadir İbrahim oğlu Vəlixanov 21 noyabr 1926-cı ildə Şuşa şəhərində anadan olmuşdur. Süleyman Sani Axundovun nəslindəndir.

Orta təhsilini 91 saylı Bakı şəhər məktəbində almışdır.

1943-cü ildə Birillik müəllimlər kursunu bitirmişdir. 1944-1949-cu illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır.

Nadir Vəlixanov 1950-ci ildə əmək fəaliyyətinə Sumqayıtdakı 25 saylı uşaq evində tərbiyəçi, tədris hissə müdiri kimi başlamışdır. 1951-1953-cü illərdə Bakıda 74 saylı fəhlə-gənclər məktəbində Azərbaycan dili müəllimi, 1953-1960-cı illərdə "Azərbaycan pioneri" qəzetində ədəbi işçi vəzifəsində çalışmışdır.

Nadir Vəlixanov 1961-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi vəzifələrində çalışaraq, Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsində aparıcı elmi işçi olmuşdur.

Nadir Vəlixanovun ilk didaktik hekayələri ("Ulduz", "Sınmış budaq", "İlham" və s.) və felyetonları "Azərbaycan pioneri" qəzetində çap olunmuşdur. Dövri mətbuatda publisist məqalələrlə, hekayə və oçerklərlə vaxtaşırı çıxış etmişdir.

Ədəbiyyatşünas alim Nadir Vəlixanov 1966-cı ildə "Süleyman Sani Axundovun həyat və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş və XX əsr Azərbaycan ədəbiyyatı problemlərinin tədqiqi ilə məşğul olmuşdur. Bununla bağlı elmi məqalələri qəzet və jurnallarda çapdan çıxmışdır. Süleyman Sani Axundovun "Əsərləri"nin ikicildliyini (1968), "Qara qız" (1976), "Hekayələr və pyeslər" (1976) kitablarını tərtib edib müqəddimə ilə nəşr etdirmişdir.

Nadir Vəlixanov 1994-cü ildə "Azərbaycan maarifçi-realist ədəbiyyatın inkişafı (1890-1920-ci illər)" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Alim "S.S.Axundovun elmi tərcümeyihalı"nı (1991) uğurla başa çatdırmışdır. Onun "S.S.Axundov" kitabçası və "Azərbaycan realist ədəbiyyatının inkişafı (1880-1917-ci illər)" monoqrafiyası kütləvi tirajla çap olunmuşdur.

Nadir Vəlixanov 1995-ci il iyunun 27-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Azərbaycan maarifçi-realist ədəbiyyatının inkişafı [1890-1920-ci illər]: filol. e. d-ru a. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı / N. İ. Vəlixanov.- AzEA, Nizami ad. Ədəbiyyat İn-tu.- Bakı.- 1994.- 61 s.

Görkəmli yazıçı, ictimai xadim: S.S. Axundovun anadan olmasının 100 illiyi münasibətilə / N.İ.Vəlixanov .- Azərbaycan SSR "Bilik" Cəmiyyəti.- Bakı; Elm.- 1976.- 37, [3] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Nadir_V%C9%99lixanov

Əli Nazim – 120

(1906-1941)

Ədəbiyyatşünas



Əliəkbər Mahmud oğlu Mahmudzadə (Əli Nazim) 1906-cı il noyabr ayının 24-də Təbriz şəhərində anadan olmuşdur.

İlk təhsilini "Mədrəseyi-Nicat" da farsca almış, Batumidə yaşadığı dövrdə rus dilini mükəmməl öyrənmişdir. Burada pedaqoji texnikumu bitirdikdən sonra 1925-ci ildə Leninqrad (indiki Sankt-Peterburq) Şərqşünaslıq İnstitutuna daxil olmuşdur. Tələbə ikən 1927 ci ildə Türkiyəyə elmi ezamiyyətə göndərilmişdir.

Moskva Kommunist Akademiyasında aspirant, elmi işçi, 1927-1932-ci illərdə isə SSRİ xalqları ədəbiyyatı və incəsənəti bölməsinin elmi katibi olmuşdur.

Bakıya köçəndən sonra Azərbaycan Elmi-Tədqiqat İnstitutu Ədəbiyyat şöbəsinin müdiri və Ali Pedaqoji İnstitutda kafedra müdiri vəzifələrində çalışmışdır. Burada ədəbiyyat nəzəriyyəsi, poetika, ədəbiyyat tarixi və digər kurslarda mühazirələr oxumuşdur.

O, orta məktəbin yuxarı sinif şagirdləri üçün ədəbiyyat müntəxəbatı tərtib etmiş, 1936-cı ildə Hənəfi Zeynallı ilə birgə dərslik hazırlamışdır. Eyni zamanda "Ədəbiyyat ensiklopediyası"nın redaktoru olmuşdur. Azərbaycan Sovet Yazıçıları İttifaqı İdarə Heyətinin və ədəbi mətbuat orqanı redaksiya heyətlərinin üzvü olmuşdur.

Ədəbi yaradıcılığa 1921-ci ildə "İştirak" qəzetinin səhifələrində dərc etdirdiyi şeir və məqalələrlə başlamış, daha sonra "Yeni yol", "Kommunist" qəzeti səhifələrində tez-tez çıxış etmişdir. 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Tənqidçinin xüsusi diqqət yetirdiyi problemlər sırasında yeni ədəbiyyatın yaradıcılıq siması, ədəbiyyatda ideyalılıq və sinfilik problemləri olmuşdur. Onun "Bugünkü ədəbiyyatımız haqqında", "Proletar ədəbiyyatı ətrafında", "Bugünkü Azərbaycan ədəbiyyatı və onun ictimai məfkurəvi siması", "Süleyman Rüstəm haqqında kiçik bir mülahizə", "Günəşi içirik… günəşlənirik", "Yeni vəzifələr qarşısında", "Mədəni inqilab və mədəni irs məsələsi", "Çığırdaşlarımız haqqında", "Yeni Azərbaycan ədəbiyyatı", "Proletar ədəbiyyatımızın yaradıcılıq siması", "Ədəbiyyatımızı bolşevikləşdirmək və həqiqi proletar ədəbiyyatı yaratmaq…", "Şeirimizin və şüurumuzun xəstəlikləri haqqında", "Üç şeir" və məqalələri müasir ədəbiyyatın yaradıcılıq məsələlərinə həsr olunmuşdur.

İstedadlı tənqidçi 1932-1936-cı illərdə bir-birinin ardınca "Molla Nəsrəddin" haqqında "Realist, satirik və sənətkar", "Cəlil Məmmədquluzadə və yaradıcılığı", "Nəsrəddin haqqında bir neçə söz" və s. maraqlı əsərlər yazıb dərc etdirmişdir.

Əli Nazim 20-30-cu illərdə respublikamızdan kənarda ən çox çıxış edən tənqidçilərdən olmuşdur. O, Moskvada, Türkiyədə çap olunan qəzet və jurnallarda dərc olunmuş məqalələri ilə Azərbaycan ədəbiyyatını layiqincə təblig etmişdir.

Əli Nazim SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının Səyyar Sessiyasının 13 oktyabr 1937-ci il tarixdə keçirdiyi 15 dəqiqəlik məhkəmə iclasında 10 il müddətinə azadlıqdan məhrum edilmiş, 23 avqust 1941-ci ildə Bakıda həbsxanada vəfat etmişdir.

Ölümündən sonra SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının 19 sentyabr 1957-ci il tarixli qərarı ilə bəraət verilmişdir.

"Yazıçı" nəşriyyatı 1979-cu ildə Əli Nazimin "Seçilmiş əsərləri"ni çap etmişdir. Kitaba müəllifin 1924-1936 cı illərdə Azərbaycan, rus, Avropa və Şərq yazıçı və şairləri haqqında yazdığı məqalələri, ədəbiyyatımızın nəzəri məsələlərinə dair əsərləri, tamaşalar haqda rəyləri və SSR Yazıçılar İttifaqının I qurultayında və III plenumdakı çıxışları daxil edilmişdir.

Ədəbiyyat:

Seçilmiş əsərləri / Əli Nazim; tərtib ed. R.Tağıyev; red. Ə.Mirəhmədov. - Bakı: Yazıçı, 1979. - 373, [3] s. Xəlilov, Ə."Günəşi içirik, günəşlənirik": Əli Nazim haqqında bir neçə söz / Ə.M.Xəlilov; elmi red. və ön sözün müəllifi: N.Cəfərov.- Bakı: Azərbaycan Universiteti, 2001.- 110 s.

Şəmsizadə, N. Əli Nazim / N.Şəmsizadə; red. Y.Qarayev. - Bakı: Tural, 2003. - 256 s.


İnternetdə:

https://az.wikipedia.org/wiki/%C6%8Fli_Nazim

Xanəli Kərimli – 75

(1951)

Ədəbiyyatşünas



Ədəbiyyat:

Payız duyğuları: şeirlər / X. Kərimli.- Bakı;Qanun.- 2013.- 540 s.

Kərimli, X. İndi bütöv vətən var [şeirlər] / X.Kərimli // Kredo.- 2025.- 4 aprel (№11).- S.2.

Tanrı müjdəsi: şeirlər və poemalar / X. Kərimli ; red. N. Əbdülrəhmanlı.- Bak;Qanun.- 2021.-270, [2] s.

Zeynalova,N. Xanəli Kərimli: Şairin könül dünyası [70 illik yubileyinə] / tərt. ed. A. Zeynalova, red. N. Əbdülrəhmanlı.- Bakı;Qanun.- 2021.- 392 s.

Kərimli, X. Səksən ilin bəhrəsi /X.Kərimli //Kredo -2025.- 26 fevral (№07).- S.5.

Kərimli, X. Gəlin birgə qucaq açaq... /X.Kərimli //525-ci qəzet .-2025.- 3 oktyabr (№179).-S.15.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Xan%C9%99li_K%C9%99rimli

http://www.anl.az/down/meqale/kredo/2025/fevral/936659(meqale).pdf

http://www.anl.az/down/meqale/525/2025/oktyabr/971381.htm

Xanəli Kərimli 1951-ci ilin noyabr ayının 27-də Şahbuz rayonunun Mahmudoba kəndində anadan olmuşdur.

1958-1966-cı illlərdə Şahbuz rayonunun Mahmudoba kəndində səkkizillik məktəbi bitirmişdir. Orta təhsilini 1968-1969-cu illərdə C. Məmmədquluzadə adına Şahbuz qəsəbə orta məktəbində tamamlamışdır.

1969-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitunun Naxçıvan filialının filologiya fakültəsinə qəbul olmuş, 1971-ci ildə 2-ci kursdan sonra institutun əsasına dəyişilmiş və buranı 1973-cü ildə fərqlənmə diplomu ilə bitirmişdir.

1973-1988-ci illərdə Badamlı kənd səkkizillik və Mahmudoba kənd orta məktəblərində müəllim, Şahbuz Rayon 167 saylı Kənd Orta Texniki Peşə Məktəbində dərs hissə müdiri işləmişdir.

1988-1989-cu illərdə Y. Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunun qiyabi şöbəsində metodist, 1989-1991-ci illərdə Şahbuz qəsəbəsində tədris istehsalat kombinatının rəis müavini, 1991-1996-cı illərdə Naxçıvan Dövlət Universitetinin "Fikir" qəzetinin redaktoru, eyni zamanda 1996-1998-ci illərdə universitetin ədəbiyyat kafedrasında müəllimliklə bərabər, Beynəlxalq Əlaqələr şöbəsinin rəisi vəzifələrində çalışmışdır. 1998-2014-cü illərdə Əcnəbi tələbələrlə iş üzrə fakültənin dekanı vəzifəsində fəaliyyət göstərmişdir.

Hazırda Ədəbiyyat kafedrasının dosenti və filologiya fakültəsinin müəllimidir.

Xanəli Kərimli 1987-ci ildə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyat şöbəsinin dissertantı kimi həmin institutun İxtisaslaşmış Müdafiə Şurasında "Cənubi Azərbaycan demokratik ədəbiyyatında hekayə janrının inkişafı (1941-1970)" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Xanəli Kərimli bədii yaradıcılığa ötən əsrin 80-ci illərindən başlamışdır. İlk şeiri "Toğluqayanın Məmməd Araza məktubu" şeiridir. İlk mətbu şeiri isə 1983-cü ildə Azərbaycan Demokratik Firqəsinin "Səhər" (sonralar "Azərbaycan") adlı aylıq dərgisində xalq şairi Söhrab Tahirin qayğısı ilə işıq üzü görən "Anamla söhbət" şeiridir.

Xanəli Kərimli "Ay işığında" (1998), "Anamdan məktub" (2000), "Bu da bir nağıldı…" (2004), "Mənə elə gəlir ki…" (2008), "Duyğularım, düşüncələrim", "Mənim könlüm bir ümmandır" (İran, Urmiyə, 2011), "Payız Duyğuları" (2013), "Ahlat tası" (Türkiyə, İstanbul, 2019), "Tanrı Müjdəsi" (2021), "Mir v Moix Lodoniax" (Dünya Mənim Ovcumdadır-2020) şeir kitablarının müəllifidir.

Şeirlərindən nümunələr rus, fransız, ingilis, fars, türk dillərinə tərcümə edilən Xanəli Kərimli 1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2007-ci ildən Naxçıvan MR Əməkdar müəllimidir.


O, 2000-2005-ci illərdə ikinci çağırış Naxçıvan MR Ali Məclisinin deputatı olmuşdur.

Yüzdən çox elmi, publisist, metodiki məqalənin və "Cənubi Azərbaycan ədəbiyyatının ali və orta məktəblərdə tədrisi metodikası" (Naxçıvan, 2000) vəsaitinin müəllifi olan X. Kərimli ayrı-ayrı illərdə İranda, Türkiyədə, Pakistanda, Hollandiyada, Gürcüstanda, həmçinin ölkə daxilində keçirilən bir sıra beynəlxalq elmi simpozium və konfranslarda Azərbaycan elmini ləyaqətlə təmsil etmişdir.

Ələşrəf Məmmədov – 95

(1931-2003)

Akademik



Ələşrəf Veysəl oğlu Məmmədov 1931-ci il noyabr ayının 1-də Qax rayonunun İlisu kəndində anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra, 1948-1953-cü illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) geoloji-coğrafiya fakültəsinin geologiya şöbəsində təhsil almışdır.

Təhsilini başa vurduqdan sonra həyatını bütünlüklə AMEA ilə bağlamışdır. Burada Geologiya İnstitutunda kiçik elmi işçi kimi əmək fəaliyyətinə başlamış, 1953-1956-cı illərdə institutun aspiranturasında təhsil almış, 1956-1958-ci illərdə AMEA-nın Neft Ekspedisiyasında işçi qrupuna rəhbərlik etmiş, 1958-1970-ci illərdə Geologiya İnstitutunun tektonika laboratoriyasında baş elmi işçi vəzifəsində çalışmışdır.

Ələşrəf Məmmədov 1956-cı ildə namizədlik, 1970-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmiş, geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsi almışdır.

Ələşrəf Məmmədov AMEA Geologiya İnstitutunun müdafiə üzrə İxtisaslaşdırılmış şurasının həmsədri, Həmçinin AMEA-nın "Xəbərlər" AMEA Geologiya İnstitutunun Müdafiə üzrə İxtisaslaşdırılmış şurasının həmsədri, (Yer elmləri seriyası) jurnalının baş redaktorunun müavini, Azərbaycan geoloqları Milli Komitəsinin büro üzvü və Azərbaycan İdarələrarası Stratiqrafiya Komitəsinin Neogen Komissiyasının sədri olmuşdur

O, 1971-ci ildən həyatının sonunadək - fasiləsiz olaraq 30 ildən artıq bir müddət ərzində AMEA-nın Coğrafiya İnstitutunda Paleocoğrafiya şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

1989-cu ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 2001-ci ildə isə həqiqi üzvü seçilmişdir.

Ələşrəf Məmmədovun Kür çökəkliyinin regional geologiyası və tektonikası, stratiqrafiya, paleocoğrafiya, Azərbaycanın və Qafqazın geoloji inkişafının tarixi, neft-qazlılıq perspektivləri məsələlərinə həsr olunmuş fundamental tədqiqatları Qafqaz bölgəsinin geologiyasının öyrənilməsində mühüm rol oynamış, Azərbaycanın və bir çox xarici ölkələrin geologiya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. Alimin yaxından iştirakı ilə Azərbaycanın geoloji, tektoniki və geotektoniki xəritələri tərtib edilərək dərc olunmuşdur. Onun tərtib etdiyi xəritələr İngiltərədə nəşr olunmuş "Avrasiya şelflərinin mezokay nozoyda paleocoğrafiyası" atlasına daxil edilmişdir.

Akademik Ələşrəf Məmmədov 200-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın müəllifidir. Onun rəhbərliyi altında bir çox elmlər namizədi və doktoru hazırlanmışdır.

Alim elmi yaradıcılıqla yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. 30 ildən çox Bakı Dövlət Universitetinin coğrafiya fakültəsinin professoru kimi fəaliyyət göstərmişdir.

Bir çox beynəlxalq elmi konqres, simpozium və konfransların təşkilatçısı və iştirakçısı olmuş, xarici ölkələrdə, o cümlədən Amerika Birləşmiş Ştatlarında, Rusiyada, Fransada, İranda, Türkiyədə Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişdir.

Ələşrəf Məmmədov 1988-ci ildə "Azərbaycanın dördüncü dövr çöküntüləri xəritəsi" və "Dördüncü dövr çöküntüləri" monoqrafiyasına görə Azərbaycanın Dövlət mükafatı laureatı və Z. A. Tağıyev adına Azərbaycan Milli mükafatı laureatına layiq görülmüşdür. Eyni zamanda "Fədakar əməyə görə" medalı ilə təltif edilmişdir.

Ələşrəf Məmmədov 2003-cü il avqust ayının 26-da vəfat etmişdir.

Ədəbiyyat:

Akademik Ələşrəf Məmmədovun 90 illik yubileyi qeyd edilib //Elm .-2021.- 10 dekabr.- S.13.

Məmmədov Ələşrəf Veysəl oğlu: biblioqra fiya / AMEA, Geologiya və Geofizika İnstitutu. - Bakı:«-Nafta-Press», 2002.- 79 s.

Azərbaycanın elm və mədəniyyət xadimləri. Геологическое строение Среднекуринской впадины / А.Мамедов. - Баку: Элм, 1973. - 102 с.

Геология четвертичных отложений Азербайджана / А.Мамедов. - Баку: Элм, 1978. - 135с.

Палеогеография и история геологи ческого развития Среднекуринской впадины в связи с нефтегазоносности / А.Мамедов. - Баку: Элм,1977.- 86 с.

Избранные труды /А. В. Мамедов ; сост.: Т. Н. Кенгерли, Е. Н. Тагиева ; гл. ред. Ак. А. Ализаде ; НАН Азерб., Ин-т Геологии и Геофизики

İnternetdə:

http://www.anl.az/down/meqale/elm/2021/dekabr/791305(meqale).pdf

Telman Qurbanov – 90

(1936-1990)

Alim



Telman Xudam oğlu Qurbanov 1936-cı il noyabr ayının 6-da Naxçıvan şəhərində anadan olmuşdur.

1955-ci ildə 1 saylı Naxçıvan şəhər orta məktəbini qızıl medalla bitirmişdir. 1955-1960-cı illərdə Bakı Dövlət Universitetinin kimya fakültəsində ali təhsil almışdır.

1968-ci ildə kimya üzrə fəlsəfə doktoru, 1982-ci ildə kimya üzrə elmlər doktoru, 1983-cü ildə isə professor elmi dərəcəsini almışdır

Telman Qurbanov 1989-cu ildə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

1970-1983-cü illərdə Elmlər Akademiyasında Qeyri-üzvi və Fiziki Kimya İnstitutunda elmi işlər üzrə direktor müavini, 1983-1985-ci illərdə direktor vəzifəsinin icraçısı, 1985-1990-cı illərdə laboratoriya müdiri olmuşdur.

Telman Qurbanovun bilavasitə rəhbəriyi altında respublikada ilk dəfə renium və texnesiumun yeni sinif koordinasion birləşmələrinin sintezi üçün metodlar və bu birləşmələr əsasında münasib metalların, nazik örtük və təbəqələrin aşağı temperatur və təzyiqdə alınma texnologiyası hazırlanmışdır. Renium xalkogenidləri əsasında aparılan tədqiqatlar tərkibində nadir torpaq metalları olan yeni üçlü birləşmələrin alınmasında geniş istifadə olunmuşdur ki, bu da yarımkeçirici və termoelektrik xassəli materialların sintez edilməsinə imkan yaratmışdır.

Telman Qurbanovun əldə etdiyi elmi nəticələr onun bir sıra elmi məqalələrində, o cümlədən P.Rüstəmov və Ö.Əliyevlə birgə nəşr etdirdiyi "Nadir torpaq elementlərinin üçlü xalko genidləri" adlı monoqrafiyada öz əksini tapmışdır.

Telman Qurbanov 135 elmi əsərin, 45 müəlliflik şəhadətnaməsi və 1 monoqrafiyanın müəllifidir. Onun rəhbərliyi ilə 1 elmlər doktoru, 15 fəlsəfə doktoru hazırlanmışdır.

Telman Qurbanov Azərbaycan Dövlət Mükafatına layiq görülmüş, üç dəfə Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin qızıl, gümüş medallarına və bir sıra Fəxri fərmanlarla təltif edilmişdir.

Telman Qurbanov 1990-cı il oktyabr ayının 17-də Bakıda sui-qəsd nəticəsində qətlə yetirilmişdir.

Ədəbiyyat:

Qurbanov Telman Xudam oğlu // Naxçıvan Ensiklopediyası / AMEA; red. hey. C.Ə.Əliyev, A.A.Əlizadə, İ.Ə.Həbibbəyli [və b.]. - Bakı: AMEA, 2002. - S. 286-287.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Telman_Qurbanov

https://science.gov.az/az/forms/skanchavshiesya-chlenyikorrespondentyi/3456

http://chemistry.bsu.edu.az/az/article/415

İslam Mustafayev – 75

(1951)

Alim



Mustafayev İslam İsrafil oğlu 22 noyabr 1951-ci ildə Biləsuvar rayonunda anadan olmuşdur.

Azərbaycan Dövlət Universitetini bitirmiş, ABŞ-də və Macarıstanda elmi ixtisasartırma və mübadilə proqramlarında iştirak etmişdir.

1978-ci ildə Moskvada namizədlik, 1991-ci ildə Leninqradda doktorluq dissertasiyaları müdafiə etmişdir. 1996-cı ildə professor elmi adı almış, 2014-cü ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

350 elmi əsəri, 11 kitabı çapdan çıxmışdır. 50-dən çox beynəlxalq layihənin müəllifidir. 200-dən çox elmi əsəri xaricdə çap edilmişdir. 14 müəlliflik şəhadətnaməsi və 4 patenti var.

İslam Mustafayevin tərəfindən 8 magistr, 18 fəlsəfə doktoru, 1 elmlər doktoru hazırlanmışdır.

1996-cı ildən "Ruzgar" Ekoloji İctimai Birliyinin sədridir. Hazırda Radiasiya Problemləri İnstitutunda Baş Direktor vəzifəsində çalışır. İnstitutun elmi Şurasının və "Nüvə kimyası" ixtisası üzrə müdafiə şurasının sədr, 2016-cı ildən Azərbaycan Memarlıq və İnşaat Universitetinin "Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi" kafedrasının müdiridir.

Dünyanın 40-dan çox ölkəsində (Türkiyə, ABŞ, Fransa, Almaniya, Avstriya, İsveçrə, İsveç, Hindistan, Yaponiya, İtaliya, Birləşmiş Ərəb əmirlikləri, İspaniya, Danimarka, Belçika, Çexiya, Xorvatiya, Makedoniya, Polşa, Serbiya, Mərakeş, Keniya, Seneqal, Pakistan və s.) 130 dəfədən çox elmi-ekoloji tədbirlərdə iştirak etmişdir.

İslam Mustafayev neftin çıxarılması, hazırlanması, nəqli və emalı proseslərində atmosferə atılan zərərli tullantıların xüsusi miqdarı, metan emissiyalarının atmosferin yuxarı qatlarında fotostimullaşdırılmış fiziki-kimyəvi proseslərə və ozonun stasionar konsentrasiyasına təsirinin öyrənilməsi, üzvi yanacaqların radiasiya-termiki çevrilmələrinin ümumi kinetik modeli əsasında maksimal radiasiya effektini təmin edən doza gücü və temperaturu arasında asılılığın yarımemprik formulunun alınması və s. elmi nailiyyətlər əldə etmişdir.

1995-ci ildən Nyu-York Elmlər Akademiyasının və 2000-ci ildən Dayanıqlı İnkişaf üzrə Beynəlxalq Akademiyanın, 2017-ci ildən Beynəlxalq Ekologiya və həyat fəaliyyətinin təhlükəsizliyi Akademiyasının üzvü və Bakı filialının rəhbəridir.

İslam Mustafayev "Tərəqqi" medalı və müxtəlif illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət heyətinin fəxri fərmanları ilə təltif edilmişdir. 2025-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan elminin inkişafında xidmətlərinə görə 3-cü dərəcəli "Əmək" ordeninə layiq görülmüşdür.

Ədəbiyyat:

Məişət tullantıları və ətraf mühit / İ. Mustafayev ; red. M. Qurbanov ; Azərb. Resp. Prezidenti yanında Qeyri-hökumət Təşkilalarına Dövlət Dəstəyi Şurası, Ruzgar Ekoloji İctimai Birliyi Bakı; Adiloğlu.- 2008.- 67, [1] s.

Mustafayev,İ. Resurs səmərəli təmiz istehsalatın miqyası genişləndirilir / İ.Mustafayev // Respublika.- 2021.- 13 fevral.- S.5.

Mustafayev,İ. Ekoloji problemlərin həllinə töhfə verən alim [«Heterogen proseslərin radiasiya kimyası» laboratoriyasının rəhbəri kimya üzrə elmlər doktoru, professor Teymur Ağayevin anadan olmasının 60 elmi fəaliyyətinin 35 illyi münasibətilə] / İ.Mustafayev.- Elm.- 2021.- 5 fevral.- S.7.

Hüseynov, S.Y. Mustafayev İslam İsrafil oğlu: Biblioqrafiya / Tərtibçi: S.Y. Hüseynov; AMEA Radiasiya Problemləri İnstitutu.- Bakı; Nafta-Press.- 2006.-68 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C4%B0slam_Mustafayev

https://radiation.gov.az/az/haqqinda/rehberlik

Əflatun Kərimov – 85

(1941)

Alim



Kərimov Əflatun Xudkar oğlu 23 noyabr 1941-ci ildə Bakı şəhərində anadan olmuşdur.

1960-1966-cı illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsində təhsil almışdır.

1966-1968-ci illərdə Akademik M.A. Mirqasımov adına Respublika xəstəxanasının cərrahiyyə şöbəsində ordinatura keçmişdir.

1968-1971-ci illərdə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Döş qəfəsi cərrahiyyəsi kafedrasında Aspirantura təhsili almışdır.

1963-1966-cı illərdə Təcili tibbi yardım xəstəxanasının cərrahiyyə qəbul şöbəsində feldşer, 1971-1974-cü illərdə Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirməsi institutunun klinikasında şöbə müdiri və 1976-1978-ci illərdə Efiopiyadakı Addis Ababa Hərbi Xəstəxanasının cərrahiyyə şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

Əflatun Kərimov 1971-1975-ci illərdə Bakı, Moskva və Leninqrad şəhərlərində cərrahiyyə üzrə kurslarda iştirak etmişdir.

1978-1980-ci illərdə Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimlərin Təkmilləşdirilməsi İnstitutu Cərrahiyyə kafedrası klinikasında, 1980-1983-cü illərdə Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimlərin Təkmilləşdirilməsi İnstitutu Travmatologiya kafedrası klinikasında şöbə müdiri vəzifəsində çalışmışdır. 1989-1990-cı illərdə Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimlərin Təkmilləşdirilməsi İnstitutu Cərrahiyyə və onkologiya kafedrasının assistenti, dosenti və professorudur.

1983-1987-ci illərdə isə Sankt-Peterburq Həkimləri Təkmilləşdirilməsi İnstitutunda doktorantura təhsili almışdır.

1971-ci ildə "Бронхологические методы исследования при различных заболеваниях легких" namizədlik dissertasiyasını, 1989-cu ildə isə "Аспергиллез легких" doktorluq dissertasiyasını müdafiə etmişdir.

1990-1993-cü illərdə Milli Onkologiya Mərkəzində Onkologiya kafedrasının müdiri vəzifəsində çalışmışdır.

1993-2003-cü illərdə Milli Onkologiya Mərkəzinin Onkologiya kafedrasının, 2003-cü ildən Milli Onkologiya Mərkəzinin Abdominal şöbəsinin professorudur.

Onkologiya kafedrasının elmi istiqaməti – süd vəzisinin xərçəngi – klinikası, diaqnostikası, cərrahi müalicəsi və mədə-bağırsaq xərçənginin – klinikası, diaqnostikası, cərrahi müalicəsidir.

O, 235 elmi əsərlərin və 22 metodik tövsiyələrin müəllifidir.

Onun rəhbərliyi altında 6 nəfər tibb üzrə fəlsəfə doktoru müdafiə etmişdir.

Kərimov Əflatun Xudkar oğlu 19 dekabr 2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə Əməkdar elm xadimi fəxri adı ilə təltif olunmuşdur.

İnternetdə:

az.wikipedia.org/wiki/Əflatun_Kərimov

https://www.haqqinda.az/Tibb/59559-Əflatun+Kərimov.html

http://mom.gov.az/?smode=doctor&item=Kerimov_Eflatun_Xudkar_oglu&lang=az

Musa Quliyev – 65

(1961)

Alim



Quliyev Musa İsa oğlu (Musa Urud) 1961-ci il noyabrın 25-də Qərbi Azərbaycanın Zəngəzur bölgəsinin Sisyan rayonunun Urud kəndində anadan olmuşdur. Burada orta məktəbi qızıl medalla bitirmişdir.

1984-cü ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu və 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını qırmızı diplomla bitirmişdir. Tibb üzrə fəlsəfə doktorudur.

Əmək fəaliyyətinə 1984-cü ildə təyinatla göndərildiyi Gəncə şəhərində həkim kimi başlamış, 1984-1985-ci illərdə Gəncə şəhər Abbas Səhhət adına 1 saylı xəstəxanasında həkim-intern, 1985-1986-illərdə Gəncə şəhər 1 saylı poliklinikasında sahə həkimi, 1986-1990-cı illərdə Gəncə rayonlararası narkoloji dispanserində həkim-narkoloq, 1990-1994-cü illərdə Bakı şəhərində 7№-li poliklinikada həkim nevropatoloq, Yasamal rayon həkim əmək ekspertiza komissiyasının ekspert nevropatoloq kimi fəaliyyət göstərmişdir.

1994-1997-ci illərdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində şöbə müdiri, Respublikanın Baş həkim-əmək eksperti, 1997-2000-ci illərdə isə həmin nazirlikdə idarə rəisi vəzifələrində çalışmışdır. Musa Quliyev bu dövr ərzində Qarabağ müharibəsi əlillərinin ekspertizası, reabilitasiyası, o cümlədən protezləşməsi və ölkə xaricində müalicə-bərpa kursları keçməsinin təşkil olunmasında yaxından iştirak etmişdir.

1994-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1998-ci ildən isə Yazıçılar Birliyinin İdarə Heyətinin üzvüdür. 4 mart 2021-ci ildə keçirilən VII qurultayında Musa Quliyev YAP İdarə Heyətinin üzvü seçilmişdir. 18 kitabın və 150-dən çox məqalənin müəllifidir.

Musa Quliyev 2000, 2005, 2010, 2015, 2020, 2024-cü illərdə II, III, IV, V, VI, VII çağırış deputat seçkilərində Millət vəkili seçilmişdir.

2005-2015-ci illərdə Milli Məclisin Sosial siyasət komitəsi sədrinin müavini, 2015-2020-ci illərdə Milli Məclisin Səhiyyə komitəsi sədrinin müavini, 2020-ci ildən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədridir. Həmçinin Azərbaycan-Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının, Azərbaycan-Bolqarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun, Azərbaycan-Estoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupu, Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun, Azərbaycan-Litva parlamentlərarası əlaqələr üzrə işçi qrupunun, Azərbaycan-Macarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun, Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun və Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvüdür.

Musa Quliyev ədəbi və publisist fəaliyyətinə görə Prezident təqaüdünə layiq görülmüşdür. "Nizami Aydın", "Araz", "Yusif Məmmədəliyev", "Şahmar Əkbərzadə" ədəbi mükafatlar laureatıdır.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının gümüş medalı və BMT-nin I dərəcəli Hippokrat ordeni ilə təltif edilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin 24 noyabr 2021-ci il tarixli Sərəncamına əsasən Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Musa İsa oğlu Quliyev "Şöhrət" layiq görülmüşdür.

Ədəbiyyat:

Tənha ağac: şeirlər / M. Urud, şair-publisist, tibb üzrə fəls. d-ru.- Tehran [s. n.].- 2016.- 88 s.

Zəngəzur: uzaq keçmişdən müasir dövrə qədər: [monoqrafiya] / M. Urud .- Bakı; Nurlar. -2016.- 479, [1] s.

Urud, M. Savaş deyir / M.Urud // Ədalət.- 2020.- 17 oktyabr.- S. 6.

Urud, M. Zəngəzurda toylar: Zəngəzuru tanıyaq və tanıdaq / M. Urud // Yeni Azərbaycan.- 2022.- 19 oktyabr.- S.5.

Urud, M. Uruda gedən yol Laçından keçir: Bizim həyətdəki qocaman tutun, altına sərməyə xalımız da var!: İrəvanda görüşənədək! / M.Urud // Ədəbiyyat qəzeti.- 2025.- 14 fevral (№6).- S.6-7.

Aqil Abbas məndən aldığı şeirləri geri qaytarmır / M.Urud; müsahibəni apardı: F.Hüseyn // Kaspi.- 2022.- 28 may.- S.15.

İnternetdə:

https://meclis.gov.az/newsdep.php

https://az.wikipedia.org/wiki/Musa_Urud

Qüdrət Kəlbəliyev – 80

(1946)

Alim



Qüdrət İsfəndiyar oğlu Kəlbəliyev 1946-cı il noyabr ayının 13-də Naxçıvan Muxtar Respublikasında anadan olmuşdur.

1969-cu ildə Azərbaycan Dövlət Neft Akademiyasının Neft mexanikası fakültəsini bitirmişdir.

1978-ci ildə namizədlik, 1987-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmiş, 1993-cü ildə professor elmi rütbəsini almış, 2001-ci ildə isə AMEA-nın müxbir üzvü seçilmişdir.

1969-1971-ci illərdə Sumqayıt Dövlət-Xlor Sənaye Layihə, 1971-1976-ci illərdə Neft-kimya Avtomat laşdırma və Layihələşdirmə İnstitutunda mühəndis, 1976-cı ildən Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutunda (indiki Kataliz və Qeyri üzvi Kimya İnstitutu) müxtəlif vəzifələrdə kiçik və böyük elmi işçi və şöbə müdiri vəzifələrində çalışmışdır.

Alim 1999-2006-cı illərdə Türkiyədə İsmət İnönü adına Universitetdə "Kimya mühəndisliyi" bölümündə pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Qüdrət Kəlbəliyevin elmi fəaliyyətinin əsas istiqaməti kimya texnologiyasının dispers sistemlərində hidrodinamik, reoloji, istilik və kütlə mübadiləsi proseslərinin tədqiqi, modelləşdirilməsi və optimallaşdırılmasıdır. Alimin bu istiqamətlərdə apardığı tədqiqatlar nəticəsində nəzəri olaraq, dispers sistemlərdə müxtəlif hissəciklərin hidrodinamik qüvvələrin təsiri altında birləşməsi, parçalanması, ayrılması və çökməsi proseslərinin mexanizminin təyin edilməsi və təcrübi cəhətdən təsdiqlənməsi, onların istilik və kütlə mübadiləsinə, sistemin reologiyasına və hidrodinamik axımına təsirinin təhlili və riyazi modelləşdirilməsi aparılmışdır. Qeyri-sabit istilik və kütlə mübadiləsi proseslərinin, o cümlədən neft emalı proseslərinin istilik sistemlərinin, neftayırmada neft emulsiyalarının ayrılma və təmizlənmə proseslərinin, tozvari materialların dənəvərləşməsi, elektromaqnit sahələrdə cisimlərin qurudulması, çirkab sularının təmizlənməsi və s. proseslərin təhlili, hesablanması, modelləşdirilməsi işlənib hazırlanmışdır.

Kimyaçı alim 300 elmi əsərin, 7 patent, 13 monoqrafiya və kitabın müəllifidir. Onun əsərlərinin çox hissəsi xaricdə çap olunmuşdur. Alimin rəhbərliyi ilə 1 elmlər doktoru və 4 fəlsəfə doktoru hazırlanmışdır.

Qüdrət Kəlbəliyev 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

2021-ci ildə 75 illik yubileyi münasibətilə AMEA Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Sənaye tullantı sularının təmizlənmə texnologiya sında kütlə mübadiləsi prosesləri / Q.İ.Kəlbəliyev, G.Z.Süleymanov, Ə.A.Həsənov; elmi red. A.M.Əliyev; Azərb. Resp. Təhsil Nazirliyi. - Bakı: Elm, 2012. - 217, [1] s.

Əmircanov, P. Elmimi zin qayğıları ilə yaşayan alim: AMEA-müxbir üzvü Qüdrət Kəlbəliyevin elmi nailiyyətləri dün yada maraqla izlənilir / P.Əmircanov // Xalq qəzeti. - 2015. - 19 may. - S. 15.

Qüdrət İsfəndiyar oğlu Kəlbəliyev: Biblioqrafik göstərici : AMEA, Mərkəzi Elmi Kitabxana ; tərt.: M. Manafov, R. Cavadova ; red. X. İsmayılova . – Bakı; Elm.- 2022. -144 s.

İnternetdə:

az.wikipedia.org › wiki › Qüdrət_Kəlbəliyev http://www.anl.az/down/ meqale/xalqqazeti/2015/ may/438093.htm

https://science.gov.az/az/forms/chlenyikorrespondentyi/100

Kərim Tahirov – 75

(1951)

Kitabxanaşünas alim



Ədəbiyyat:

Vətən müharibəsinin Zəfər salnaməsi: Biblioqrafiya: [Azərbaycan və xarici dillərdə] / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası; tərt. ed. Elmi-köməkçi və diyarşünaslıq biblioqrafik resursların yaradılması şöbəsi; elmi red. Kərim Tahirov. - Bakı: [Zərdabi Nəşr], 2025. - 1087, [1] s.

Azərbaycan Milli Kitabxanası - 100: 1923-2023 / Ədibə İsmayılova; elmi red. və red. Kərim Tahirov; [dizayner M. Əliqızı]; Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası. - [Bakı]: [Zərdabi Nəşr], [2023]. - 253, [3] s.

Heydər Əliyev və Milli Kitabxana: 100: Ulu öndər Heydər Əliyevin yubileyinə həsr olunub / Kərim Tahirov; elmi red. Ə. İsmayılova; [buraxıl. məsul R. Kazımov; baş red. N. Cabbarlı; dizayner N. Nəhmətov] ; Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası. - [Bakı: [Şərq-Qərb], [2022].- 178, [2].

"Azərbaycanın görkəmli şəxsiyyətləri" / Kərim Tahirov; müsahibəni apardı R.Fikrətoğlu // Xalq qəzeti. -2025.- 30 yanvar (№ 20). - S.11.

Kərim Məhəmməd oğlu Tahirov 1951-ci il noyabr ayının 12-də Ağcabədi rayonunda anadan olmuşdur. 1973-1978-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kitabxanaçılıq fakültəsində təhsil almışdır. 1978-ci ildə təyinatla M.F.Axundov adına Azərbaycan Dövlət Respublika Kitabxanasına (indiki Azərbaycan Milli Kitabxanası) göndərilmiş, 1979-1982-ci illərdə Elmi-metodiki şöbədə böyük kitabxanaçı, baş kitabxanaçı, böyük redaktor və bölmə müdiri vəzifələrində çalışmışdır.

1983-1987-ci illərdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin baş Kitabxana müfəttişliyinin böyük müfəttişi, 1987-1988-ci illərdə rəisi, 1988-1989-cu illərdə Mədəni-maarif Müəssisələri İdarəsinin, 1989-1993-cü illərdə Mədəni-kütləvi işlər, Kitabxana və Muzey işləri Baş İdarəsinin baş müfəttişi, 1993-2000-ci illərdə Kitabxana və Muzey işləri Baş İdarəsinin rəisi vəzifəsində işləmişdir. 2000-2005-ci illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının (indiki Azərbaycan Milli Kitabxanası) Metodik və Nəşriyyat işləri üzrə direktor müavini vəzifəsində çalışmışdır. 2005-ci ildən Azərbaycan Milli Kitabxanasının direktoru vəzifəsində çalışır.

2009-cu ildə "M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının yaranması və inkişafı (1923-1959-cu illər)" mövzusunda dissertasiya işini uğurla müdafiə edərək tarix elmləri namizədi (tarix üzrə fəlsəfə doktoru) alimlik dərəcəsi almışdır. O, BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsində və Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzində pedaqoji fəaliyyətlə məşğul olmuş, gənc ixtisaslı kadrların yetişdirilməsinə xidmət göstərmişdir. 2012-ci ildə Kitabxanaşünaslıq kafedrasının dosenti, 2013-cü ildə professor elmi dərəcəsi almışdır.

Professor Kərim Tahirov dünyanın 40-dan artıq ölkəsində keçirilən elmi konfranslarda və elmi simpoziumlarda elmi məruzələrlə çıxış etmiş, elmi məqalələri bir sıra ölkələrin elmi jurnallarında dərc olunmuşdur. BDU-nun kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq ixtisasları üzrə ixtisaslaşdırılmış Dissertasiya Şurasının üzvüdür, bu ixtisas üzrə bir neçə fəlsəfə doktorları və magistrların elmi rəhbəri və rəsmi opponenti olmuşdur.

Professor Kərim Tahirovun rəhbərliyi dövründə Milli Kitabxana respublikanın ictimai həyatında fəal iştirak etməyə başlamış, oxuculara xidmət sahələrinin tam şəkildə avtomatlaşdırılması təmin olunmuş, müxtəlif mövzulara dair 70-dən artıq fundamental biblioqrafiyalar tərtib edilərək çap olunmuş, cari biblioqrafiya və informasiya göstəricilərinin, "Elmi əsərlər"in nəşri bərpa edilmiş, kitabxananın elektron kataloqu, elektron kitabxanası və Elmi Şurası yaradılmış, 34 xarici ölkənin milli kitabxanaları ilə qarşılıqlı əməkdaşlığa dair memorandumlar imzalanmışdır.

2006-cı ildən Bakı Dövlət Universitetinin kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq ixtisasları üzrə Dövlət İmtahan Komissiyasının, 2007-ci ildən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Ekspert Komissiyasının və 2013-cü ildən isə Milli Kitabxananın Elmi Şurasının sədridir.

Professor Kərim Tahirov 70-dən artıq kitab, kitabça, metodik vəsaitin və fundamental biblioqrafiyaların müəllifi, tərtibçisi və redaktoru olmuşdur. İlk kitabxana ensiklopediyasının hazırlanması işinə rəhbərlik etmiş və baş redaktoru olmuşdur. 200-dən artıq elmi məqalənin müəllifidir. "Azərbaycan Milli Kitabxanasının Elmi Əsərləri"nin, "Əlamətdar və tarixi günlər təqvimi"nin və "Azərbaycan kitabı" on cildlik milli biblioqrafiya repertuarının baş redaktorudur.

2003-cü ildən Avrasiya Kitabxanalar Assambleyasının (BAE) üzvü, 2015-ci ildən isə vitse-prezidentidir. Həmçinin 2003-cü ildən Avropa Milli Kitabxanaları Konfransı (CENL) beynəlxalq təşkilatının və Dünya Elektron Kitabxanası (WDL), 2007-ci ildən İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Milli Kitabxanaları Şurasının və Avrasiya Kitabxanaçılar Birliyinin üzvüdür. 2024-cü ildə Türk Dünyası Milli Kitabxanaları Birliyinin sədri seçilib.

2013-cü ildən BDU-nun Kitabxanaçılıq və İnformasiya fakültəsində fəaliyyət göstərən birdəfəlik Dissertasiya Şurasının üzvü olan Kərim Tahirov bir neçə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların rəsmi opponenti və rəyçisi olmuşdur.

Professor Kərim Tahirovun Azərbaycan mədəniyyətinin inkişafındakı səmərəli fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 2008-ci ildə kitabxana işinin inkişaf etdirilməsində xidmətlərinə görə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüş, 2013-cü ildə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə, 2021-ci ildə isə 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilmişdir. Milli Kitabxananın fəaliyyətinin səmərəli təşkilinə və inkişafına, yeni texnologiyalarla təkmilləşdirilməsinə görə fəxri fərman və diplomlar almışdır. TÜRKSOY-un yaradılmasının 20 illiyi münasibətilə medalla, 2014-cü ildə "Qızıl Fortuna" Beynəlxalq Reytinqli Texnologiyalar və Sosiologiya Akademiyasının medalı, Nizami Gəncəvinin 880 illik xatirəsinə həsr edilmiş "Nizami Gəncəvi" medalı ilə təltif edilmişdir. Nazirlər Kabinetinin 12 sentyabr 2018-ci il tarixli qərarı ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kollegiyasının üzvü təyin olunmuşdur. 2019-cu ildə Cəfər Cabbarlı mükafatına, 2019-cu il dekabrın 24-də Azərbaycan Milli Kitabxanasında "İmadəddin Nəsimi. Biblioqrafiya" adlı yeni kitabın işıq üzü görməsi münasibətilə "Ziyadar" mükafatına layiq görülmüşdür. 2024-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif edilmişdir.

Digər tarixi hadisələr

“Füyuzat” jurnalı - 120 *(1906)*



“Füyuzat” jurnalının ilk sayı 1906 cı il noyabr ayının 1-də dərc olunmuşdur.

Jurnal ictimai xarakter daşımış və il ərzində 32 sayı işıq üzü görmüşdür. “Füyuzat” kəlməsi mənşəcə ərəb sözu olub, mənası həyat gerçəklərini duymaq, dərk etmək, onlardan zövq almaq deməkdir.

Maarifpərvər, milyonçu-mesenat Hacı Zeynalabdin Tağıyevin maddi dəstəyi ilə çap olunan jurnalın baş redaktoru Əli bəy Hüseynzadə idi. Burada dövrünün görkəmli ziyalılarından M.Hadinin, M.Ə.Sabirin, H.Cavidin, S.Səlmasinin, A.Şaiqin, Ə.Kamalın, Ə.Raiqin və başqa müəlliflərin müxtəlif mövzulu yazıları dərc edilirdi. Jurnal Azərbaycanda neoromantizmi yaradan mətbuat orqanı kimi xarakterizə olunur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət bayrağında üç rənglə (mavi, qırmızı, yaşıl) simvollaşan Azərbaycan vətəndaşının ideya-mənəvi dəyərləri jurnalın redaktoru Əli bəy Hüseynzadənin müvafiq tezisi və füyuzatçıların tarixi xidmətləri ilə bağlı olmuşdur.

“Füyuzat” jurnalı füyuzatçılıq jurnalistika məktəbindən əlavə, Azərbaycanda müstəqil dövlətçilik ideyasını, konstitusiyalı azad vətəndaş cəmiyyətini yaratmaqda mühüm rol oynamışdır. Çar Rusiyasının monarxizmi və müstəmləkəçilik əleyhinə mübarizə aparan füyuzatçılar başqalarının yeni cəmiyyət quruculuğu təcrübəsindən istifadə etmiş, Azərbaycanda demokratizmin qələbəsinə çalışmış, ictimai həyatda, milli ədəbiyyat və mədəniyyətdə islahatların, reformaların aparılmasını qarşılarına məqsəd qoymuşdular. “Füyuzat” və füyuzatçıların məşğul olduğu əsas problemləri qısa şəkildə belə təsnif etmək olar: türkləşmək, islamlaşmaq, avropalaşmaq (müasirləşmək), azərbaycançılıq, demokratik axtarışlar, neoromantik ədəbiyyatın yaradılması, füyuzatçı jurnalistika məktəbinin təsisi, dildə, fikirdə, işdə birlik konsepsiyasına əsaslanan ortaq türk dili, ədəbiyyatı və mədəniyyətinin yaradılması, “İttihad və tərəqqi” ideyasını yürütmək və turançılığı təbliğ etmək, ictimai-siyasi şüurda reformaların aparılması, parlament və konstitusiya əsasında özünüidarə formasının yaradılması, yenilikçilik hərəkatını gücləndirmək, söz və mətbuat azadlığını müstəqil dövlət, sivil cəmiyyət və bütöv vətən ideyasına paralel şəkildə inkişaf etdirmək və s.

Azərbaycan oxucuları ilk dəfə Tolstoy, Höte, Russo, Monteskye kimi görkəmli simalar haqqında nisbətən ətraflı və dəqiq məlumatı bu jurnalda çap olunan məqalə və tərcümələrdən almışdılar.

Ə.Hüseynzadənin hələ “Füyuzat”ın nəşrindən əvvəl təbliğ və şərh etdiyi “türklük, müsəlmanlıq və avropaçılıq” şüarı, mahiyyət etibarı ilə bu gün ictimai həyatımızda özünə yer tapan “azərbaycançılıq, müsəlmançılıq və müasirlik” doktrinasının yaranmasında mühüm rol oynamışdı. Ə.Hüseynzadənin başçılıq etdiyi “Füyuzat” jurnalı və eyni adlı ədəbi cərəyan əsrimizin əvvəllərində Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında ciddi xidmətlər göstərmişdir.

“Füyuzat” jurnalını Milli İrsi Mədəni Tarixi Araşdırmalar (MİMTA) Fondu 2007-ci ildə bərpa etmiş, tanınmış alim, professor Teymur Əhmədovun baş redaktorluğu ilə “Füyuzat”ın davamı kimi 33-cü nömrədən nəfis şəkildə çap etdirməyə başlamışdır. Artıq 15 ildir yüksək poliqrafik şəkildə ardıcıl nəşr olunan müasir “Füyuzat” milli-mədəni, ictimai-siyasi, tarixi, mənəvi-əxlaqi mövzuları əhatə edir.

Türkiyə Cümhuriyyətində fəaliyyət göstərən Azərbaycan mədəniyyət ocaqlarında Azərbaycançılıq və Turan məfkurəsinin təbliğində əsas rol oynaması ictimaiyyət tərəfindən yüksək səviyyədə qarşılandığını deməyə əsas verir.

Ədəbiyyat:

Cəfərov, N. O dövrün “Füyuzat”ından bu dövrün “Füyuzat” ına / Nizami Cəfərov // Ədəbiyyat söhbətləri. - Bakı: Elm və təhsil, 2018. - S. 201-203.

Dünyaminqızı, Q. Mətbuatşünaslığımız sovet dövründə / Q.Dünyaminqızı // Kaspi. - 2017. - 3 may. - S. 15.

Gəncəli, S. “Füyuzat”ın yüzüncü sayı / Sabir Gəncəli // Füyuzat. - 2018. - № 5. - S. 8-13.

Seyidzadə, T. “Füyuzat” jurnalının nəşr olun masından 102 il ötür / T. Seyidzadə // Azad Azərbaycan. - 2018. - 2 noyabr. - S. 5.

“Füyuzat” jurnalının 145-ci nömrəsi çıxıb //525-ci qəzet .-2025.- 29 oktyabr (№197).- S.9.

Mətbuatımızın "Füyuzat" zirvəsi /T.Uğur //Ədəbiyyat qəzeti .-2025.- 31 oktyabr (№40).- S.7.

İnternetdə:

http://www.anl.az/down/meqale/525/2025/oktyabr/973511.htm

http://www.anl.az/down/meqale/edebiyyat/2025/oktyabr/973589.htm

Digər tarixi hadisələr

Azərbaycan radiosu - 100 *(1926)*



XX əsrin ikinci onilliyinin sonlarına yaxın ictimai-siyasi, sosial-mədəni həyatımızda böyük bir hadisə baş verdi. O hadisənin yaratdığı təsir günümüzə qədər öz gücünü, əzmini daşıyıb gətirə bilib. 6 noyabr Azərbaycan Respublikasında radio-televiziya işçilərinin peşə bayramı kimi qeyd edilir. Azərbaycan Dövlət Radiosunun yaranması bu mühüm sahənin ölkəmizdə əsasını qoydu.

Şərqdə ilk radio olan Azərbaycan Radiosu ilk dəfə 6 noyabr 1926-cı ildə "Diqqət, danışır Bakı" sözləri ilə yayımlanıb. Həmin gündən ölkə paytaxtının küçələri və meydanlarında qurulmuş reproduktorlardan eşidilən qeybdən gələn səs insanları özünə bağlayıb. Bu Azərbaycan xalqının siyasi və mədəni həyatında böyük bir yenilik idi. Bu gün Müstəqil Azərbaycanın həm də dünyadakı tərcümanı, sülhsevər Vətənimizin təmsilçisinə çevrilən Azərbaycan Radiosu haqlı olaraq, "Səsli salnamə" adlandırılır.

İlk dövrdə Bakı studiyası indiki İstiqlaliyyət küçəsi, 10 ünvanında yerləşən Azərbaycan Milli Elmlər Akademiyasının əsas binasının (keçmiş İsmailiyyə) üçüncü mərtəbəsində cəmi 3 otaqda fəaliyyət göstərirdi. Şəhər yayım şəbəkəsinin mərkəzi məntəqəsi sayılan birinci otaqda bütün divar boyu böyük lampalarla təchiz olunmuş aparatlar qoyulmuşdu. İkinci otaq studiyaya giriş idi. Efirə çıxmaq üçün dəvət olunanlar burada öz növbəsini gözləyirdilər.

Üçüncü otaqda döşəməsinə türkmən xalıları salınmış, divarları tünd yaşıl məxmərlə örtülmüş studiya yerləşirdi. Həmin yerdəki B-4 tipli radioqəbuledici aparatın vasitəsilə müdir radio verilişlərinin texniki keyfiyyətini yoxlayırdı.

1929-cu ildə radiostansiya Bakı Baş Poçt-Teleqraf binasına köçdüyü üçün radio əməkdaşlarının iş şəraiti yaxşılaşır, efirdə patefondan istifadə edilməyə başlanılır, mikrofonlar, gücləndirici aparatlar təkmilləşdirilir. Həmin ilin sonuna yaxın RV-8 stansiyası istifadəyə verilir. Bundan sonra efirə gedən verilişlərin və proqramların forma və məzmununda dəyişikliklər baş verir.

1920-1925-ci illərdə yalnız Bakıda və təkcə 1 ədəd 10 kilovat gücündə qığılcımlı stansiya işləyirdisə, radionun fəaliyyətə başlamasından bir il sonra respublikada artıq 110 stasionar və 36 səyyar radio qurğusu fəaliyyət göstərirdi. 1930-cu ildə ölkədə cəmi 269 radio yayım məntəqəsi olduğu halda, 1932-ci ilin sonunda onların sayı 20409-a çatmışdı. Həmin dövrdə radio artıq mənzillərə, fəhlə klublarına ayaq açaraq mədəniyyətin inkişafında özünəməxsus rol oynamağa başladı.

1936-cı ildə Bakıda 35 kilovat gücündə yeni radio stansiyasının işə salınması ilə Azərbaycan radiosunun verilişləri Qafqazda, Özbəkistanda, Türkmənistanda, hətta Qara dənizin şərq sahillərində eşidildi. 1940-cı ilin sonunda ölkə ərazisində radio nöqtələrinin sayı 51 minə çatdı. 32 rayonda yerli radio verilişləri redaksiyaları fəaliyyətə başladı.1960-cı ilin noyabrında Bakı–Ağstafa radiorele xətti istifadəyə verildi. 1961-ci ildə Gəncə, Göyçay və Şuşada ötürücü stansiyalar işə düşdü.

Müxtəlif məzmunlu proqramlar hazırlayarkən cəmiyyətdəki siyasi əqidələri, dini baxışları, ictimai fikir və rəyin müxtəlif cərəyanlarını, habelə, ölkə vətəndaşlarının hüquq bərabərliyini nəzərə alır. Bu gün də Azərbaycan radiosuna maraq azalmayıb və hər gün dinlədiyimiz xəbərlər bizə ölkəmizin ictimai-siyasi mədəni həyatı ilə bağlı əhəmiyyətli hadisələri çatdırır. Azərbaycanın ilk radiosu - Azərbaycan Radiosunu hazırda FM-105, ölkəboyu yayımlanan digər tezliklərdən və dünyanın bir çox ölkələrində fasiləsiz dinləmək mümkündür.

Ədəbiyyat:

"Can Azərbaycan" radiosu "Bir millət, iki dövlət" devizinin ifadəsidir:[Türkiyədə internet üzərindən həyata keçirilən eyniadlı radionun mobil versiyasının istifadəyə verilməsi haqqında] // Mədəniyyət .- 2020.- 9 iyul.- S.8.

Məhərrəmli, Q.M. Radio tarixindən bir epizod: 1941-ci il iyunun 22-də müharibənin başlanması haqqında xəbər necə və hansı şəraitdə efirə verildi?: / Q.M.Məhərrəmli // 525-ci qəzet .- 2021.- 6 noyabr.- S.15.

Bayramova, Z. Azərbaycan radiosu-bir əsrə yaxın tarixi yol / Z.Bayramova //Səs.- 2024.- 7 noyabr (№206).- S.9

6 noyabr-Azərbaycan Televiziyası və Radiosu Günü : Azərbaycan Televiziyası və Radiosu Günü /Z.Bayramova //Səs .-2025.- 6 noyabr (№204).- S.5.

İnternetdə:

https://www.anl.az/down/meqale/baki_xeber/2015/noyabr/462468.htm

https://sia.az/az/news/politics/905302.html

http://www.anl.az/down/meqale/ses/2025/noyabr/974541(meqale).pdf

Digər tarixi hadisələr

Zəfər Günü
(2020)



Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə 2020-ci il sentyabrın 27-dən etibarən başladığı zəfər yürüşündə inanılmaz uğurlar əldə etmişdir.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində rəşadətli Azərbaycan Ordusu tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsi, o cümlədən Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edilmişdir. Rəşadətli Azərabaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edilmişdir. Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən işğalından qurtarılması müharibənin taleyində həlledici rol oynamışdır. Bütün bunlar Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələnmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli digər Sərancamı ilə Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması qərara alınmışdır.

19-20 sentyabr 2023-cü ildə Azərbaycan ordusunun keçirdiyi lokal xarakterli antiterror əməliyyatının nəticəsində 29 sentyabrdan Azərbaycan polisi Xankəndi şəhərinə nəzarəti bərpa etmişdir. 15 oktyabr 2023-cü ildə Azərbaycan Rspublikasının Prezidenti İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını qaldırmışdır. 8 noyabr 2023-cü ildə Xankəndi şəhərində təntənəli zəfər paradı keçirilmişdir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev parada qatılmışdır.

2024-cü il noyabr ayının 8-də Bakı şəhəri 8 Noyabr prospektində "Zəfər parkı"-nın açılışı olmuşdur. Ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilmişdir. Torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə parkın ərazisində Zəfər muzeyi də yaradılmışdır. 2025-ci il tarixində 8 noyabr tarixində Zəfər muzeyinin açılışı olmuşdur.

2025-ci il noyabrın 8-də Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirilmişdir.

Hər il Azərbaycan Milli Kitabxanası tərəfindən Zəfər Günü münasibətilə "8 Noyabr – Zəfər Günü" adlı kitab sərgisi, virtual sərgi və "Zəfər günü şanlı tariximizdir!", "Zəfərin mübarək Azərbaycan əsgəri" adlı elektron məlumat bazası hazırlanıb istifadəçilərə təqdim edilir

Ədəbiyyat:

Zəfər günü münasibətilə "Açıq qapı"günü //Azərbaycan .-2025.- 6 noyabr (№ 237).- S.8.

Zəfər Günü xalqımızın tarixi yaddaşına əbədi həkk olunub //Azərbaycan .-2025.- 5 noyabr (№ 236).- S.6.

Qələbəmizin zirvəsi : Qarabağ Azərbaycandır!: 8 Noyabr Zəfər Günü /Ə.Fərəcov, S.Qurbanov //Yeni Azərbaycan .-2025.- 6 noyabr (№202).- S.5.

İnternetdə:


http://www.anl.az/down/meqale/azerbaycan/2025/noyabr/974819(meqale).pdf

http://www.anl.az/down/meqale/azerbaycan/2025/noyabr/974490(meqale).pdf

http://www.anl.az/down/meqale/yeni_az/2025/noyabr/974567(meqale).pdf

Digər tarixi hadisələr

Şuşa Şəhəri Günü *(2023)*



Ədəbiyyat:

Şuşa Şəhəri Günü: Azərbaycan qürurunun, mədəniyyətinin və zəfərinin simvolu/M.Mehdiyev //Səs .-2025.- 14 noyabr (№209).- S.8.

Şuşa Şəhəri Günü: Azərbaycan qürurunun, mədəniyyətinin və zəfərinin simvolu/M.Mehdiyev// Səs .-2025.- 14 noyabr (№209).- S.8.

Qarabağın tacı Şuşa [Mətn] : Şəhərin işğaldan azad edildiyi 8 noyabr tarixi Şuşa Şəhəri Günü kimi qeyd olunur /S.Azadi //İki sahil .-2025.- 7 noyabr (№203). - S.6.

Zəfərimizin tacı – 8 Noyabr [Mətn] : Şuşa işğaldan qurtuluşun üçüncü ildönümündə /N.Məmmədli//Mədəniyyət .-2023.- 8 noyabr, № 83.- S.1;2.

İnternetdə:

http://www.anl.az/down/meqale/ses/2025/noyabr/975671(meqale).pdf

http://www.anl.az/down/meqale/ses/2025/noyabr/975671(meqale).pdf

http://www.anl.az/down/meqale/iki_sahil/2025/noyabr/974970.htm

http://www.anl.az/down/meqale/medeniyyet/2023/noyabr/875803(meqale).pdf

Prezident İlham Əliyevin 2023-cü il iyul ayının 31-də imzaladığı Sərəncama əsasən, hər il noyabr ayının 8-i Şuşa Şəhəri Günü kimi qeyd edilir. Şuşa 2020-ci il noyabr ayının 8-də Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz tərəfindən düşmən tapdağından azad olunmuş, şəhərin mərkəzinə Azərbaycanın bayrağı sancılmış, Prezident Şəhidlər xiyabanından xalqa müraciətində şəhərin işğaldan azad olunduğunu elan etmişdir.

Şuşa döyüşləri zamanı Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri şəhərə bir çox istiqamətdən yaxınlaşmaq üçün yüz nəfərlik qruplara bölünərək, sıx meşələri, keçilməz yarğanları və çətin dağ keçidlərini aşaraq yüngül silah-sursat ilə noyabr ayının 7-də Şuşaya daxil olmuş, qızğın küçə döyüşləri apararaq noyabrın 8-də şəhəri düşməndən azad etmişdir.

Şuşa şəhəri 1992-ci il mayın 8-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, 22 min əhalisi məcburi köçkün kimi Azərbaycanın müxtəlif bölgələrində yerləşmişdir. Şuşanın işğalı zamanı 195 nəfər həlak olmuş, 165 nəfər yaralanmış, 55 nəfər əsir götürülmüşdür.

Şəhər azadlığına qovuşandan sonra orada bərpa, quruculuq və yenidənqurma işlərinə, infrastrukturun bərpasına start verilmiş və yeni məktəb, məscid, xəstəxana və digər əhəmiyyətli obyektlərin, eləcə də yaşayış binalarının inşasına başlanılmışdır.

2021-ci ilin may ayında 7-də Prezident İlham Əliyevin sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş, may ayının 12-13-də Şuşa şəhərindəki Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı keçirilmişdir. 2022-ci il yanvar ayının 5-də Prezident İlham Əliyev Azərbaycanda 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında sərəncam imzalamışdır.

2023-cü il sentyabr ayının 25-də Qətərin Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransı iştirakçılarının yekdil rəyi ilə Şuşa 2024-cü il üçün İslam dünyasının paytaxtı elan olunmuşdur. Bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 21 noyabr 2023-cü ildə "Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır.

2023-cü il sentyabr ayının 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra ərazilərimiz separatçılardan təmizlənmişdir.

2023-cü ilin Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi və Azərbaycan peşəkar milli teatrının yaradılmasının 150 və TÜRKSOY-un 30 illik yubileyləri münasibətilə Şuşada TÜRKSOY-a üzv ölkələrin Dövlət Teatrları Rəhbərləri Şurasının 9-cu iclası keçirilmişdir. 2023-cü il noyabr ayının 3-də Astanada Türk Dövlətləri Təşkilatının (TDT) "Türk Əsri" çağırışı altında keçirilən 10-cu yubiley Zirvə görüşündə qəbul edilmiş Bəyannamədə TDT-nin dövlət və hökumət başçıları Azərbaycanın 2024-cü il aprelin sonu və ya mayın əvvəlində Şuşada TDT dövlət başçılarının qeyri-rəsmi toplantısının təşkili təklifini qəbul etmişdir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dəfələrlə Şuşa şəhərində səfərdə olmuş, orada həyata keçirilən təmir, bərpa və yenidənqurma işləri ilə tanış olmuşlar. 2024-cü il 11 may tarixində Şuşa şəhərinə ilk köç karvanı yola salınmışdır. Şuşa şəhərinə ümumilikdə təxminən 318 ailə (1180 nəfər) köç etmişdir.

2024-cü il aprel ayının 17-də Şuşa şəhərini - 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzalamışdır.

Azərbaycan Milli Kitabxanası tərəfindən hər il "8 noyabr Şuşa şəhəri günü", Türk dünyasının mədəniyyət paytaxtı Şuşa", "Qarabağın incisi Şuşa" adlı virtual sərgi, "Biz səni dirçəldəcəyik əziz Şuşa" adlı elektron məlumat bazası hazırlanıb istifadəçilərə təqdim olunur.

Digər tarixi hadisələr

Dövlət Bayrağı Günü *(2009)*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2007-ci il noyabr ayının 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə və Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında sərəncam imzalanmışdır. Hər il 9 noyabr Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd olunur.

2007-ci il dekabr ayının 30-da Bakının Bayıl qəsəbəsində - Hərbi Dəniz Qüvvələrinin bazası yaxınlığında Prezident İlham Əliyevin iştirakı ilə Dövlət Bayrağı Meydanının təməli qoyulmuşdur. Meydan üçün seçilmiş yer dövlət bayrağının paytaxtın müxtəlif nöqtələrindən görünməsinə imkan yaradır.

Amerika Birləşmiş Ştatlarının "Trident Support" şirkəti tərəfindən hazırlanmış layihənin icrasını Azərbaycanın "Azenko" şirkəti yerinə yetirmişdir. Ümumi ərazisi 60 hektar, yuxarı hissəsinin sahəsi 31 min kvadrat metr olan meydanda bütün infrastruktur yaradılmışdır.

İnşa olunmuş dayağın hündürlüyü 162, bünövrəsinin diametri 3,2, bünövrənin üst hissəsinin diametri 1,09 metrdir. Qurğunun ümumi çəkisi 220 tondur. Bayrağın eni 35 metr, uzunluğu 70 metr, ümumi sahəsi 2450 kvadrat metr, çəkisi isə təqribən 350 kiloqramdır.

Meydanda qurulmuş Azərbaycan Respublikasının gerbi, dövlət himninin mətni və ölkəmizin xəritəsi qızıl suyuna salınmış bürüncdən hazırlanmışdır. Bu dövlət rəmzləri Bayraq Meydanının görkəminin möhtəşəmliyini daha da artırmış, onun görünüşünə əlavə çalarlar qatmışdır. Prezident İlham Əliyevin təşəbbüsü ilə meydanda Dövlət Bayrağı Muzeyi də yaradıl-mışdır.

2010-cu il sentyabr ayının 1-də Bakıda Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə Dövlət Bayrağı Meydanının açılış mərasimi olmuşdur. Mərasimdə dövlət başçısı İlham Əliyev təntənəli nitq söyləmiş, bu münasibətlə bütün Azərbaycan xalqını təbrik etmişdir. Prezident Bayraq Meydanının Bakının bir mədəniyyət mərkəzinə, Azərbaycanın bir siyasi mərkəzinə çevriləcəyini vurğulamışdır. Sonra dövlət bayrağı Azərbaycan əsgərlərinin çiyinlərində meydana gətirilmişdir. Dövlət başçısı İlham Əliyev bayrağı açmışdır. Azərbaycan Respublikasının dövlət himni səsləndirilib, toplardan yaylım atəşi açılıb, fəxri qarovul dəstəsi hərbi marşın səsləri altında Dövlət Bayrağı Meydanından keçmişdir.

Azərbaycan Respublikasının dövlət bayrağının xalqımızın milli həmrəyliyinin yaradılması və möhkəmləndirilməsindəki rolundan, Dövlət Bayrağı Meydanının tikintisindən bəhs edən film nümayiş olunmuşdur. Daha sonra dövlət bayrağının ucaldılması şərəfinə Bakı səmasında möhtəşəm lazer-şou nümayiş olunmuşdur. Ginnes dünya rekordları təşkilatı 2010-cu il mayın 29-da Azərbaycan dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il noyabr ayının 17-də imzaladığı sərəncama əsasən noyabr ayının 9-u Dövlət Bayrağı Günü kimi qeyd olunur.

2024-cü ildə yeni bayraq dirəyinin quraşdırılma prosesi aparılmış və yeni bayraq dirəyi quraşdırılmışdır. Meydan 2024-cü ilin noyabrın 8-də yenidən açılmışdır.

Hər il bu tarixi gün münasibətilə Milli Kitabxanada "9 noyabr - Azərbaycan Respublikası Dövlət Bayrağı Günü" adlı virtual sərgi onlayn rejimdə istifadəçilərə təqdim olunur.Virtual sərgidə Dövlət Bayrağı Günü haqqında rəsmi sənəd, fotolar, Bütöv Azərbaycanda dalğalanan müqəddəs bayrağımız haqqında məqalələr, Azərbaycan və xarici dillərdə kitablar nümayiş olunur.

Ədəbiyyat:

A Salmanlı, R. Zəfərin bayraq zirvəsi: 9 Noyabr Dövlət Bayrağı Günüdür / R.Salmanlı // Azərbaycan .- 2024.- 8 noyabr (№ 247).- S.8.

Zəfər zirvəsinə ucalan Azərbaycan Bayrağı/H. Zeynallı //Olaylar .-2025.- 7-13 noyabr (№38).- S.8.

Bayraq günü: Vətənə bağlılıq və milli həmrəylik /E.İbrahimov //Səs .-2025.- 13 noyabr (№208).- S.8.

Qürur mənbəyimiz Azərbaycan Bayrağı! /Z.Bayramov //Səs .-2025.- 9 noyabr (№207).- S.7.

Azərbaycan bayrağının əbədiyyət nəğməsi /Z.Fərəcova //Azərbaycan .-2025.- 9 noyabr (№240).- S.14.

İnternetdə:

http://www.anl.az/down/meqale/olaylar/2025/noyabr/975194.htm

http://www.anl.az/down/meqale/ses/2025/noyabr/975051(meqale).pdf

http://anl.az/down/meqale/azerbaycan/2025/noyabr/975224(meqale).pdf

Digər tarixi hadisələr

Konstitusiya Günü *(1996)*



Ədəbiyyat:

Kamal, M. Dünyəvi dövlət quruculuğu və ədalətli cəmiyyət uğrunda: 6 fevral 1996-cı ildə Prezident Heydər Əliyevin Sərəncamı ilə 12 Noyabr - Konstitusiya Günü təsis edilib / M.Kamal // Respublika.- 2025.- 6 fevral (№26).- S.3.

Əsas Qanunumuz, ali iradənin və milli birliyimizin təcəssümü [Mətn] : 12 Noyabr Konstitusiya Günü müasir Azərbaycanın siyasi və mənəvi dayağına çevrilib /N.Orucova //İki sahil .-2025.- 13 noyabr (№206). - S.8.

Dünyəvi dövlət quruculuğu və ədalətli cəmiyyət uğrunda [Mətn] : 6 fevral 1996-cı ildə Prezident Heydər Əliyevin Sərəncamı ilə 12 Noyabr - Konstitusiya Günü təsis edilib /M.Kamal //Respublika .-2025.- 6 fevral (№26).- S.3.

28 May – Müstəqillik Günü və Azərbaycanda "Konstitusiya və Suverenlik İli" münasibətilə Türkiyədə silsilə tədbirlər keçirilib /E.Y.Aslanova

İnternetdə:

http://www.anl.az/down/meqale/respublika/2025/fevral/933245(meqale).pdf

http://www.anl.az/down/meqale/respublika/2025/may/950864(meqale).pdf

Müstəqil Azərbaycanın Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmişdir. Dövlətin Əsas Qanunu 1995-ci il noyabrın 27-də qüvvəyə minmişdir. 1996-cı il fevral ayının 6-da Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə noyabrın 12-i Konstitusiya Günü elan edilmişdir.

1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin tarixində dördüncü Konstitusiyasıdır. Azərbaycanın Konstitusiya quruluşunun tarixi SSRİ dövrünə təsadüf edir. Azərbaycanın ilk Konstitusiyası 1921-ci ilin mayın 19-da, SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası isə 1925-ci il martın 14-də qəbul olunmuşdu. 1978-ci ilin aprelin 21-də qəbul edilmiş son Konstitusiya da, əvvəlki konstitusiyalar kimi, SSRİ Konstitusiyasına uyğunlaşdırılmışdır.

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəd idi.

Şəxsiyyətin toxunulmazlığı, insan həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmin olunması, humanizm və insanpərvərlik prinsipləri Azərbaycan Konstitusiyasının başlıca mahiyyətini təşkil edir. Azərbaycan Konstitusiyası 5 bölmə, 12 fəsil, 158 maddədən ibarətdir.

Ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar Azərbaycan Konstitusiyasına bir neçə dəfə əhəmiyyətli dəyişikliklər və əlavələr edilib. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30, 2016-cı il sentyabrın 26-da 29 maddəsinə 41 əlavə və dəyişiklik olunub.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində tarixi Qələbənin qazanılması və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması Konstitusiyamızın ölkəmizin bütün ərazisində tətbiqinə imkan yaradıb. Bu Qələbə sayəsində 30 ilə yaxın müddətdən sonra beynəlxalq hüququn prinsip və tələbləri yerinə yetirilib və işğaldan azad edilmiş ərazilərdə Konstitusiyanın hüquqi qüvvəsi təmin olunub.

Hər il Azərbaycan Milli Kitabxanasında "12 noyabr-Konstitusiya Günüdür" adlı kitab sərgisi və virtual sərgi hazırlanıb istifadəçilərə təqdim edilir.

Azərbaycan Respublikasının Prezidenti Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan etmişdir.

Digər tarixi hadisələr

Milli Dirçəliş Günü
(1992)



17 Noyabr – Milli Dirçəliş Günüdür. Azərbaycan xalqı keşməkeşli, mübarizələrlə dolu tarixi yol keçərək azadlıq, müstəqillik, dirçəliş yoluna qovuşa bilmişdir. Qeyd etdiyimiz Milli Dirçəliş Günü də, məhz xalqın istəklərini reallaşdırmaq məqsədindən güc almış, bu gün xalqın ona edilən ədalətsizliyə qarşı yumruq kimi birləşmək qüdrətində olduğunu sübut etmişdir.

Sovet rəhbərliyinin Qarabağ məsələsi ətrafında apardığı anti-Azərbaycan siyasəti nəticəsində XX əsrin 80-ci illərinin sonunda Azərbaycanda anti-sovet xalq hərəkatı təşəkkül tapdı və 17 noyabr 1988-ci ildə Bakının əsas meydanı sayılan Azadlıq meydanında Azərbaycan xalqının uzunmüddətli mitinqləri başladı. Qeyd edək ki, Ermənistanda və Qarabağın dağlıq hissəsində Azərbaycan xalqına qarşı yönəldilmiş soyqırımı sovet ordusu tərəfindən dəstəklənirdi. O zamankı SSRİ rəhbərliyi məkrli qonşularımız ermənilərlə əlbir olub Dağlıq Qarabağı işğal edərək Ermənistanın nəzarətinə verməsi istiqamətində atdığı addımlar xalqın səbir kasasını daşırmışdı. Xalqımız imperiya buxovlarından, əsarət zəncirindən azad olmaq istəyirdi. Azərbaycanda meydan hərəkatı geniş vüsət aldı. Bu milli hərəkat xalqın dirçəlişiydi. Xalq hərəkatı təkcə Bakıda deyil, Naxçıvan, Gəncə və Lənkəranda da kütləvi xarakter aldı. Respublikamızın bütün şəhər və rayonlarını bürümüş qüdrətli xalq hərəkatı kommunist rejimini Azərbaycandan süpürüb atmaq təhlükəsi yaratmışdı.

Bundan qorxuya düşən imperiya başçıları noyabrın 24-dən 25-nə keçən gecə Bakıya qoşun yeritdilər. Komendant saatı tətbiq olundu. Lakin xalq geri çəkilmədi. Sovet rejimindən Ermənistanda və Qarabağın dağlıq hissəsində erməni separatçılığına və terrorizminə son qoymaq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, sərvətlərimizin talan edilməsini dayandırmaq kimi tələblərlə başlamış "Meydan hərəkatı" tezliklə Azərbaycanı müstəqilliyə çağıran şüarlara keçdi. Azərbaycanda bu hadisələr milliazadlıq hərəkatı kimi qiymətləndirilir və respublikamızın istiqlaliyyət qazanmasında əsas amil sayılır. Dekabrın 4-nə dək 18 gün aramsız davam edən aksiyalara 1 milyonadək insan toplaşmışdı. Bu, keçmiş Sovet İttifaqında ən genişmiqyaslı kütləvi çıxışlar idi.

1988-ci ilin 17 noyabrında başlanan kütləvi çıxışlar Azərbaycanın tarixinə milli dirçəliş aksiyaları kimi düşdü. 17 noyabr bir daha göstərdi ki, bütün cidi-cəhdlərə baxmayaraq, azad yaşamaq üçün xəlq olunmuş milləti müstəmləkə boyunduruğu altında saxlamaq qeyri mümkündür. Zəngin tarixə malik xalqımız artıq neçə ildir ki, Milli Dirçəliş Gününü bayram kimi qeyd edir və bu günün qeyd olunması bütün Azərbaycan xalqının mənəvi haqqıdır.

Hər il Azərbaycan Milli Kitabxanasında "17 noyabr - Milli Dirçəliş Günü" adlı kitab sərgisi və virtual sərgi hazırlanıb istifadəçilərə təqdim edilir.

Ədəbiyyat:

Azadlıq mübarizəsinin başlanğıcı-17 noyabr Milli Dirçəliş Günü /İ.Əliyev // Səs .-2025.- 18 noyabr (№211).- S.3.


Milli Dirçəliş Günü: Azərbaycan tarixinin qürur səhifəsi /S.Azadi //İki sahil .-2025.- 15 noyabr (№208). - S.3.

"Milli dirçəliş yolu milli birlik və milli həmrəylikdən keçir": 17 noyabr Milli Dirçəliş Günü // Azərbaycan müəllimi .-2025.- 15 noyabr (№43).- S.2.

Xalq bir yumruq kimi birləşmişdi... : 17 noyabr-Milli Dirçəliş Günü böyük təntənə və qürur hissi ilə qeyd edilir /M.Abdullayev // Yeni Azərbaycan .-2025.- 15 noyabr (№208).- S.4.

Digər tarixi hadisələr

Qarakənd faciəsi *(1991)*



Qarakənd faciəsi və ya 20 noyabr faciəsi – 1991-ci ildə Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində hərbi vertolyotun erməni quldurları tərəfindən vurulduğu gündür. Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan Mİ-8 N72 vertolyotu 1991-ci il noyabrın 20-də saat 14:42 radələrində vurulmuşdu. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də çatmış, lakin nə qədər maraqlı olsa da bu faciə haqqında xəbər Xankəndindən erməni dilində yayımlanan "Vətən və vətəndaş" verlişinin xəbərlər bölümündə, saat 15:30-da yayımlanmışdı. Həmin gün bu məlumatı saat 16:15-də Tehran radiosu, 17:00-da Moskva radiosu açıqlamışdı.

1991-ci il noyabr ayının 20-də Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında Mİ-8 N72 hərbi helikopterinin erməni silahlıları tərəfindən atəşə tutulması nəticəsində heyət və sərnişinlər – Azərbaycanın görkəmli dövlət və hökumət nümayəndələri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər – dövlət katibi Tofiq Kazım oğlu İsmayılov, Baş prokuror İsmət İsmayıl oğlu Qayıbov, dövlət müşaviri Məhəmməd Nəbi oğlu Əsədov, Baş nazirin müavini Zülfi Saleh oğlu Hacıyev, deputatlar Vaqif Cəfər oğlu Cəfərov və Vəli Hüseyn oğlu Məmmədov, Prezidentin İcra Aparatının şöbə müdiri Osman Hüseyn oğlu Mirzəyev, nazir müavini Qurban Hüseyn oğlu Namazəliyev, DQMV-nin prokuroru İqor Aleksandroviç Plavski, DQMV Daxili İşlər İdarəsinin rəisi Vladimir Vladimiroviç Kovalyov, Dağlıq Qarabağ üzrə milli təhlükəsizlik şöbəsinin rəisi Sergey Semyonoviç İvanov, fövqəladə vəziyyət rayonunun komendantı Nikolay Vladimiroviç Jinkin, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Dasumoviç Serikov, milis general-mayoru Mixail Dmitriyeviç Lukaşov, polkovnikleytenant Oleq Nikoloyeviç Koçerev, dövlət katibinin köməkçisi Rafiq Məmməd oğlu Məmmədov, telejurnalist Alı Mustafa oğlu Mustafayev, AzTV-nin işıqçısı Arif İsmayıl oğlu Hüseynzadə, video-operator Fəxrəddin İbrahim oğlu Şahbazov, vertolyot heyətinin komandiri Vyaçeslav Vladimiroviç Kotov, heyət üzvləri Gennadi Vladimiroviç Domov və Dmitri Borisoviç Yarovenko həlak olmuşlar.

Əvvəlcə rəsmi olaraq helikopterin dumana düşərək qayaya çırpılması ehtimalı irəli sürülsə də, bir neçə gündən sonra onun vurulması faktı təsdiqlənmişdir. Bu sui-qəsd erməni quldur dəstələrinin törətdiyi cinayətlərin qarşısını almağa çalışan Azərbaycanın yüksək çinli dövlət nümayəndələrinə qarşı törədilmişdir.

Üstündən 35 il vaxt keçməsinə baxmayaraq, hadisə ilə bağlı bir sıra qaranlıq məqamlara bu günə qədər aydınlıq gətirilməmişdir. Aviaqəzalarda bütövlüyünü saxlayan və zədəsiz qalan qara qutudakı lentin "yanması" da qaranlıq məsələ olaraq qalmışdır. Faktla bağlı 1991-ci ildə Azərbaycanın Hərbi Qarnizon Proku- rorluğu tərəfindən cinayət işi açılmış, istintaqın aparılması Respublika Prokurorluğuna verilmişdir. Sonradan cinayət işi üzrə istintaq dayan-dırılmışdır. Səbəb hadisənin baş verdiyi ərazinin Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunmasıdır. Cinayəti törədən şəxsləri müəyyənləşdirmək mümkün olmamışdır. Bütün bunlar müstəqilliyini təzəcə qazanmış Azərbaycana qarşı məkrli şəkildə hazırlanmış terror aktının tərkib hissələri idi.

Ədəbiyyat:

Ermənistan vətəndaşlarının məhkəməsi ndə Xocalı soyqırımı, Qarakənd faciəsi və digər cinayətlərlə bağlı sənədlər elan edilib // Azərbaycan.- 2025.- 23 sentyabr (№ 203).- S.5.

Qarakənd faciəsi: erməni terrorunun daha bir qanlı izi/N.Ələddinqızı //Səs .-2025.- 20 noyabr (№213).- S.2.

Qarakənd səmasının qara tarixçəsi Azərbaycanın dövlət adamlarını aparan helikopterin Xocavənddə vurulması siyasi terror idi: 20 noyabr faciəsindən 34 il keçir /İ.Həsənqala //Xalq qəzeti .-2025.- 20 noyabr (№ 246).- S.6.

Terror erməni təcavüzünün tərkib hissəsidir - 20 noyabr, 1991... /İ.Sarıyeva //Bakı Xəbər .-2025.- 21 noyabr (№ 211).- S.4.

İnternetdə:

http://www.anl.az/down/meqale/azerbaycan/2025/sentyabr/967178(meqale).pdf

http://www.anl.az/down/meqale/ses/2025/noyabr/976556(meqale).pdf

http://www.anl.az/down/meqale/xalqqazeti/2025/noyabr/976545(meqale).pdf

Digər tarixi hadisələr

Ağdam Şəhəri Günü *(2020)*



Ədəbiyyat:

Milli Kitabxanada "20 noyabr-Ağdam Şəhəri Günü" adlı virtual və eyniadlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub //Unikal .-2025.- 21 noyabr (№44).- S.12.

"Qafqazın Xirosima"sının yenidən doğuluşu: 20 Noyabr – Ağdam Şəhəri Günü işğaldan azad olunmuş bu şəhərin dirçəliş yolunda əldə etdiyi böyük uğurların, dövlətin qətiyyətli siyasətinin və xalqın qürur hissinin təntənəsidir /N.Orucova //İki sahil .-2

Ağdam: burada elə bir şəhər qurulur ki, dünyanı heyran edəcək/M.Məmmədova //Səs .-2025.- 20 noyabr (№213).- S.3.

Ağdam -yenidən qurulan və dirçələn şəhər! /Z.Bayramova //Səs .-2025.- 22 noyabr (№215).- S.2.

İnternetdə:

http://anl.az/down/meqale/unikal/2025/noyabr/976895.htm

http://www.anl.az/down/meqale/iki_sahil/2025/noyabr/976712.htm

http://www.anl.az/down/meqale/ses/2025/noyabr/976562(meqale).pdf

http://www.anl.az/down/meqale/ses/2025/noyabr/977009(meqale).pdf

Prezident İlham Əliyevin 2023-cü il iyul ayının 31-də imzaladığı Sərəncama əsasən, hər il 20 noyabr Ağdam Şəhəri Günü kimi qeyd olunur.

2020-ci il 20 noyabr tarixi Ağdamın azad olunduğu şanlı gündür. Bu tarix yaddaşımızda həm kədərli, həm də sevincli bir təqvim kimi həkk olmuşdur.

1991-ci il noyabrın 20-də Ağdam yaxınlığındakı Qarakənd səmasında "Mi-8" hərbi vertolyotunun ermənilər tərəfindən vurulmasından 29 il sonra 44 günlük Vətən müharibəsi zamanı 10 noyabr 2020-ci il tarixində Azərbaycan, Rusiya və Ermənistanın dövlət başçılarının imzaladıqları bəyanata əsasən, 2020-ci ilnoyabr ayının 20-də Ağdam rayonunun işğal olunmuş ərazisi Ermənistan ordusu tərəfindən boşaldılmış, 27 ildən sonra şəhərdə Azərbaycanın üçrəngli bayrağı ucaldılmışdır.

Ağdam şəhəri və rayon 1993-cü il iyul ayının 23-də erməni silahlı dəstələri tərəfindən işğal ediləndə bölgənin 1154 kvadrat kilometr, əhalisi 147000 nəfər olan ərazisinin 77,4 faizi ermənilərin əlinə keçmiş, tarixi abidələr, qəbiristanlıqlar, yaşayış obyektləri, xəstəxanalar, kitabxanalar, məktəblər, idarə və müəssisələr darmadağın edilmişdir.128 min nəfər doğma ev-eşiyindən didərgin düşmüş, Azərbaycan iqtisadiyyatına 3 milyard manatdan çox ziyan dəymişdir. İşğaldan əvvəl Ağdamda 1898 sosial-iqtisadi tikinti obyekti, 17 sənaye, 31 tikinti, 753 ticarət, 397 ictimai iaşə, 220 məişət müəssisəsi, 480 sosial bina, 24 min 446 yaşayış tikililəri, həmçinin 54 məktəbəqədər uşaq, 116 ümumtəhsil müəssisəsi, bir neçə ali məktəb filialı, 13 mədəniyyət evi, muzeylər, 109 mədəniyyət klubu olmuşdur. Ağdam düşmənlə döyüşlərdə 6 mindən çox şəhid vermiş, onlardan 16-sı Azərbaycanın Milli Qəhrəmanıdır.

Qalib sərkərdə kimi 2020-ci il noyabr ayının 23-də Ağdama səfər edən İlham Əliyev şəhərdə Azərbaycan bayrağını ucaltmış, Məkkədən gətirdiyi Qurani-Kərimi Ağdam məscidinə bağışlamışdır. 2021-ci ilin may ayının 28-də şəhərin Baş Planı Prezidentə təqdim olunmuşdur.

Baş plana əsasən Ağdamın əhalisinin 100 min nəfər təşkil edəcəyi, 1750 fərdi yaşayış evi olmaqla yanaşı, çoxmənzilli binalarda 23 min mənzilin olması ilə yanaşı, ərazisinin 23% -i meşə və park zonalarından (yaşıl zona) ibarət olmaqla 125 hektar meşə zolağı da salınması nəzərdə tutulmuşdur. Məşğulluğun davamlılığını təmin etmək üçün şəhərin yaxınlığında sənaye parkları, süni gölün yaradılması, şəhərdən keçəcək 2 kanalın üzərində keçid üçün körpülərin də inşa ediləcəyi planlaşdırılır. Tarixi mərkəz əsasən "İmarət" saray kompleksini, Qarabağ xanlarının məqbərəsini, Şahbulaq qalasını və yeni məscidi əhatə edəcəkdir. İşğal müddətində "Qafqazın Xerosiması", "Ruhlar şəhəri "adlandırılan yerdən artıq əsər-əlamət yoxdur.


2024-cü il aprel ayının 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam şəhərində olublar. Dövlət başçılarına şəhərin Baş planı barədə məlumat verilmişdir. Səfər zamanı bildirilmişdir ki, Ağdamın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq, ona uyğun infrastruktur yaradılır. Bu məqsədlə "Agdam City Hotel" və "Hilton Garden Inn" layihələri icra edilir. Şəhərdə İşğal və Zəfər muzeyləri kompleksi də yaradılır.

2025-ci ildə Ağdam rayonunun bəzi yaşayış məntəqələrinə (xüsusilə kəndlərə) - Xıdırlı kəndinə 16 ailə (45 nəfər), Kangarli kəndinə 2025-ci ilin yaz və yay dönəmlərində müxtəlif mərhələlərlə ümumilikdə təxminən 250-dən çox ailə, təxminən 1100-ə yaxın insan yeni mənzil alaraq köç etmişdir.

Hər il Milli Kitabxana tərəfindən "20 noyabr - Ağdam şəhəri günü" adlı virtual sərgi hazırlanır.

Digər tarixi hadisələr

Kəlbəcər Şəhəri Günü *(2020)*



Ədəbiyyat:

Kəlbəcər növbəti sakinlərini qarşılayıb /Ü.Xaspoladova //Azərbaycan .-2025.- 16 sentyabr (№ 197).- S.10.

Prezident İlham Əliyev Kəlbəcər şəhər parkının təməlini qoyub //Azərbaycan .-2025.- 22 avqust (№ 176).- S.2.

Böyük Qayıdış: yenidən dirçələn Kəlbəcər!/N.Ələddinqızı //Səs .-2025.- 27 noyabr (№218).- S.2.

Kəlbəcər şəhərində 4-cü yaşayış kompleksinin təməli qoyulub //Azərbaycan .-2025.- 22 avqust (№ 176).- S.2.

Çin olmuş arzunun Kəlbəcər zirvəsi /Z.Əliyeva //Azərbaycan .-2025.- 25 noyabr (№ 249).- S.10.

İnternetdə:

http://www.anl.az/down/meqale/azerbaycan/2025/sentyabr/965816(meqale).pdf

http://www.anl.az/down/meqale/azerbaycan/2025/avqust/962962(meqale).pdf

http://www.anl.az/down/meqale/ses/2025/noyabr/977879(meqale).pdf

http://www.anl.az/down/meqale/azerbaycan/2025/avqust/962961(meqale).pdf

Bu qədim yurd yerimizin işğaldan azad olunması həm də bütün dünyanın yaddaşında Azərbaycan xalqının humanistliyi, insanpərvərliyi ilə qalmışdır. 44 günlük Vətən müharibəsi zamanı üçtərəfli razılaş- maya əsasən noyabrın 15-də Kəlbəcərdən çıxmalı olan düşmənə 10 gün vaxt verilməsi ölkə Prezidenti İlham Əliyevin siyasətində xüsusi bir mərhələni təşkil edir. Ermənilər evlər ilə yanaşı meşələri də yandırmaqla, 25 noyabr 2020-ci il tarixində ərazini tərk etmiş, Azərbaycan Respublikasının Silahlı Qüvvələri nəzarəti ələ almışdır.

Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" 31 iyul 2023-cü il sərəncamına əsasən 25 noyabr Kəlbəcər Şəhəri Günü kimi qeyd olunacaqdır. 2020-ci il noyabr ayının 26-da "Kəlbəcərin azad olunmasına görə" medalı təsis edilmiş, Silahlı Qüvvələrin 9454 hərbi qulluqçusu "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur. Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də işğal edilmiş, 53 min nəfərdən çox əhali öz dədə-baba yurdundan didərgin düşmüş, 511 dinc sakin öldürülmüş, 321 adam əsir götürülmüş və itkin düşmüş, əhalisi respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmışdır. İşğal nəticəsində onlarla tariximədəniyyət abidəsi, 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibbi məntəqə, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, yüzlərlə maşın, texnika və sair talan edilib, dağıdılmış və rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınmışdır. Kəlbəcər 1930-cu il avqust ayının 8-də inzibati rayon status almış, sahəsi 3054 kv.km. olmaqla,1 şəhər, 1 qəsəbə, 145 kənd və 55 inzibati ərazi dairəsindən ibarət olmuşdur.

Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul etmiş, bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunmuşdur. Lakin rəsmi İrəvan həmin Qətnaməni icra etməmiş, beynəlxalq təşkilatlar isə onun icrasını tələb etməmiş, BMT və ATƏT-in prinsiplərinə zidd olaraq 1999-cu ildən Kəlbəcər rayonu ərazisində ermənilərin məskunlaşdırılmasına başlanılmışdır.

2022-ci il iyun ayının 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər rayonunda İşğal və Zəfər muzeyləri kompleksinin, "İstisu" sanatoriyasının, 2022-ci il avqust ayının 16-da Toğanalı Kəlbəcər avtomobil yolu üzərində Murovdağ və Kəlbəcər Laçın avtomobil yolu üzərində inşa olunacaq tunellərin təməlini qoymuş, "Kəlbəcər1" Kiçik Su Elektrik yarımstansiyasında görülən işlərlə tanış olmuş, 110/35/10 kilovoltluq "Kəlbəcər" yarımstansiyasının açılışını etmişdir.

Prezident İlham Əliyev 2023-cü il mayın 27-də Kəlbəcər rayonuna səfəri çərçivəsində hərbi hospitalın, "Qamışlı" və "Meydan" Kiçik Su Elektrik stansiyalarının açılışlarında, yaşayış məhəlləsinin və 960 şagird yerlik məktəbin, həmçinin Yanşaq və Zallar kəndlərinin təməlqoyma mərasimlərində iştirak etmişdir. Avqustun 25-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonuna daha bir səfər ediblər. Səfər çərçivəsində bir neçə kiçik su elektrik stansiyasının açılışı olub və Zar kəndinin təməli qoyulub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2024-cü il sentyabrın 2-də Kəlbəcər rayonuna səfəri zamanı Tərtər çayı üzərindəki "Yuxarı Vəng" Su Elektrik Stansiyasının, "İstisu" yarımstansiyasının, "Zar" KSES-in və "İstisu" mineral su zavodunun da açılışını ediblər.

Prezident İlham Əliyev 2025-ci avqustun 21-də Kəlbəcərə səfəri zamanı buraya köçmüş 20 ailəyə mənzillərin açarlarını təqdim etmişdir. Bu vaxta qədər Kəlbəcərə 81 ailə, 338 nəfər köçürülmüşdür. Dövlət başçısı İlham Əliyevin Kəlbəcər rayonuna dəfələrlə reallaşdırdığı səfərlərin hər biri Böyük Qayıdışın sürətlənməsinə xidmət edən addımlarla zəngindir.

Digər tarixi hadisələr

“Məktəb” ədəbi, elmi jurnalı - 115 *(1911)*



“Məktəb” jurnalı Bakıda Azərbaycan dilində nəşr olunurdu. Jurnalın ilk nömrəsi 1911-ci il noyabrın 29-da, sonuncu 1921-ci il martın 21-də çıxmışdır. Cəmi 95 nömrə işıq üzü görmüşdür. Məktəb şagirdlərinə məxsus olan bu jurnal iki həftədə bir dəfə nəşr olunan “əxlaqi, ədəbi, fənni, müsəvvir məcmuə” idi.

“Məktəb” jurnalı pedoqoji biliyin və dünyagörüşünün genişlənməsində, elmə, maarifə həvəsin artmasında, uşaqlarda müsbət əxlaqi keyfiyyətlərin tərbiyə edilməsində müəyyən rol oynamışdır. Jurnalın “İdarədən” başlığı ilə verilən məqalədəki bu sözləri jurnalın əsas məqsədini ifadə edirdi.

Birinci nömrədə maraqlı hekayələr, şeirlər, publisist yazılar, atalar sözü, məsəllər, lətifələr və s. verilmişdir. Bu nömrədə N.Nərimanovun “Əziz balalar” başlığı ilə uşaqlara müraciəti verilmişdir. N.Nərimanov uşaqları oxumağa, elmə yiyələnməyə, vətənin ləyaqətli, namuslu övladları olmağa çağırırdı. “Məktəb” jurnalında S.S.Axundov, Ü.Hacıbəyov, A.Şaiq, A.Səhhət, C.Cabbarlı və başqalarının yazıları ilə bərabər, rus klassiklərindən tərcümələr də verilmişdir. A.Səhhətin rus şairi Nikitindən tərcüməsi buna misaldır.

“Məktəb” jurnalının müxtəlif yaradıcılıq üsulu, müxtəlif janrlarda yazan müəlliflər heyəti var idi. Jurnalda mühüm tarixi hadisələrə xüsusi nömrələr həsr edilirdi. 1911-ci ildə çıxan 2-ci nömrə M.F.Axundovun anadan olmasının 100 illiyinə (o zaman zənn edirdilər ki, M.F.Axundov 1811-ci ildə anadan olmuşdur.) 1912-ci ildə çıxan 7-ci nömrə A.S.Puşkinin vəfatının 75 illiyinə həsr olunmuşdur. “Məktəb” məcmuəsi uşaqların həyatında həqiqətən də bir məktəb oldu. Burada nələr dərc edilmirdi... Məcmuə məktəbli qızların çox xoşuna gəlirdi. “İki qızın söhbəti”, “Şəkər alması”, “Analar qucağı” “Hüsnxətt” və s. yazıları misal göstərmək olar.

O zamanın qabaqcıl, açıq fikirli müəllimləri “Məktəb” jurnalı ilə sıx əlaqə saxlayır, ədəbi-bədii yazılarını burada dərc etdirirdilər. Kənd müəllimləri də jurnalın işinə cəlb olunmuşdur. Həmin müəllimlərdən biri – Qarabağdakı Malıbəyli kəndinin məktəb müdiri Məmməd Qarayev idi. Xırda həcmli bədii yazıları ilə jurnalın məzmununu zənginləşdirirdi.

“Məktəb” jurnalını redaktə edənlər o zamanın görkəmli pedaqoqları və publisistləri idi. Qafur Rəşad Mirzəzadə və Əbdürrəhman Əfəndizadə jurnalın naşiri və baş redaktoru idi. Qafur Rəşad Mirzəzadə “Məktəb” jurnalını 1916-cı ilə qədər Əbdürrəhman Əfəndizadə ilə birlikdə redaktə etmişdir. 1916-cı ilin mayında Ə.Əfəndizadənin vəfatı, dünya müharibəsinin törətdiyi çətinliklər, 1917-ci ilin fevral hadisələri jurnalın nəşrini müvəqqəti dayandırdı.1917-ci ildə jurnalın cəmi 1 nömrəsi çıxmışdı. 1920-ci ilin fevralında Q.R.Mirzəzadə “Məktəb”in nəşrini yenidən bərpa etdi. Ölkədə baş verən gərgin siyasi proseslərin nəticəsində jurnal müntəzəm nəşr oluna bilmədi və bağlandı.

Ədəbiyyat:

“Məktəb”. 1911-1920-ci illərdə Bakıda əski əlifba ilə nəşr edilən elmi-pedaqoji və ədəbi-bədii jurnal: Seçmələr: [layihə rəhb. və ön sözün müəl. Ş. Mehrəliyeva ; transliterasiya ed.: K. Alıyev [və b.] ; red. Ş. Abdullayeva ; çapa məsul R. İsmixanov] / “Ədibin Evi” Ədəbiyyata Dəstək Fondu ; TEAS Press.- 2025.- 112 s.

İnternetdə:

https://www.youtube.com/watch?v=0DEmME7jfOo

Digər tarixi hadisələr

Qaraheybət faciəsi *(2021)*



Qaraheybət helikopter qəzası və ya Qaraheybət faciəsi — Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi helikopterinin Xızı rayonu ərazisində yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğraması nəticəsində baş vermişdir. İlkin məlumatlara görə, helikopterin qəzaya uğraması nəticəsində 14 nəfər həlak olmuş, 2 nəfər isə yaralanmışdır. Bu, Azərbaycanın hüquq-mühafizə orqanlarının tarixindəki ən böyük aviasiya qəzasıdır.

Qəzadan dərhal sonra DSX-nin və Baş Prokurorluğun rəhbər heyəti hadisə yerinə getmişdir. Baş Prokurorun birinci müavini ədliyyə general-mayoru Elçin Məmmədovun rəhbərliyi ilə hadisə haqqında istintaq başlanılmışdır. Hadisənin səbəbi hələ də araşdırılır.

"Mi-17" tipli hərbi helikopter DSX-nin arsenalına təxminən 2011-ci ildə daxil edilmişdir. Bu helikopterin təyinatı quru qoşunların mobilliyinin artırılmasına və döyüş meydanında atəş dəstəyinin verilməsinə hesablanmışdır. DSX-nin aviasiya sistemində "Mi-17" bütün variantlarda istifadə olunur. Sərhəd zastavaları müxtəlif relyef quruluşuna malik ərazilərdə olduğu üçün, ucqar nöqtələrə məhz sözügedən helikopter vasitəsilə gedilirdi.

2021-ci il 30 noyabr tarixində saat 10:40 radələrində Dövlət Sərhəd Xidmətinin Azərbaycanın şərqində yerləşən Səngəçal aerodromundan qalxan Mi-17 hərbi helikopteri paytaxt Bakı şəhərindən 70 kilometr (43 mil) uzaqlıqdakı Xızı rayonu ərazisində yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğramışdır.

Qəzanın səbəbi kimi ilkin ehtimallar olaraq pilotun ehtiyatsızlığı, helikopterdə baş vermiş hər hansı texniki nasazlıq, hava şəraiti, o cümlədən hər-hansı digər səbəb irəli sürülmüşdür. Hadisə nəticəsində yaralanmış Emil Cəfərov qəzanın enişin yerinə yetirilməsi zamanı baş verdiyini bildirmişdir. Onun sözlərinə görə, helikopter təzə idi və onun hər bir şeyi yoxlanılmışdı. Küləklə bağlı heç bir məhdudiyyət aşılmamışdı, proqnoza görə külək günortadan sonra olmalı idi. Digər yaralı Ramil Ədilov da çox küləyin və heç bir kənar müdaxilənin olmadığını bildirmişdir.

Faktla bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 352.2 (uçuş və ya uçuşa hazırlıq qaydalarını pozma ehtiyatsızlıqdan iki və ya daha çox şəxsin ölümünə səbəb olduqda) və digər maddələri ilə cinayət işi başlanmış və cinayət işinin istintaqı Baş Prokuror tərəfindən xüsusi nəzarətə götürülmüşdür. Helikopter qəzasını araşdıran istintaq qrupuna Baş Prokurorun birinci müavini ədliyyə general-mayoru Elçin Məmmədov rəhbərlik etmişdir. 2 dekabrda helikopterin qara qutusu tədqiq edilsin deyə Rusiyanın Kazan şəhərinə, helikopterin istehsal olunduğu zavoda göndərilmişdir.

Qara qutuların tədqiqi zamanı müəyyən olunub ki, helikopter havaya qalxdıqdan 16 dəqiqə 59 saniyə sonra meydançaya eniş etmək qərarı qəbul edilib, həmin vaxt helikopterin sürəti 141 km/saat, radiohündürlük 101 metr olmuşdur. Uçuşun 17 dəqiqə 10-cu saniyəsində, eniş zamanı küləyin təsiri nəticəsində helikopterin uçuş sürəti 0 km/saat, radiohündürlük 89 metrə qədər dəyişmişdir.

Ədəbiyyat:

Polkovnik-leytenant Emil Cəfərov: "Helekopter "Qaraheybət" aviasiya poliqonuna çatıb eniş etdiyi anda qəzaya uğradı" // Azərbaycan .- 2021.- 2 dekabr.- S.2.

Baş Prokurorluq: DSX-yə məxsus Mİ-17 markalı helikopterin qəzaya uğraması faktında hər hansı kənar müdaxilənin olması istisna edilir // Azərbaycan .- 2021.- 1 dekabr.- S.4.

Abdalov, N. "Qaraheybət" faciəsini unutmuruq / N.Abdalov // Respublika .- 2023.- 30 noyabr, № 261.- S.7.

İnternetdə:

http://www.anl.az/down/meqale/azerbaycan/2021/dekabr/769019.htm

http://www.anl.az/down/meqale/azerbaycan/2021/dekabr/769591.htm

http://www.anl.az/down/meqale/respublika/2023/noyabr/878515(meqale).pdf

DEKABR



23 noyabr 21 dekabr Oxatanın Nişanı oddur. Yupiterin himayəsindədir. Günəşin Oxatan bürcündən keçdiyi dövrdə doğulanlar təmkinli, fəal olurlar.

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
	1	2	3	4	5	6
7	8	9	10	11	12	13
14	15	16	17	18	19	20
21	22	23	24	25	26	27
28	29	30	31			

- *Laçın rayonu işğaldan azad olundu (01.12.2020)*
- *Ümummilli Lider Heydər Əliyevin Anım Günü (12.12.2003)*
- *Fövqəladə Hallar Nazirliyi İşçilərinin Peşə Bayramı Günü (16.12.2006)*
- *Dünya Azərbaycanlılarının Həmrəylik Günü (31.12.1991)*

Şəhərsalma və Memarlıq İli



Ölkəmizin müxtəlif guşələrində ucaldılan monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri şəhər və kəndlərimizin məkan-kompozisiya quruluşunun ayrılmaz hissəsidir. Yüksək estetik dəyərə malik bu əsərlər Azərbaycan heykəltəraşlıq və memarlıq sənətinin yetkin nümunələri kimi dəyərləndirilir.

Azərbaycanda heykəltəraşlıq sənəti qədim tarixi inkişaf yolu keçmiş, ilkin elementləri Qobustan qaya təsvirlərində müşahidə olunmuşdur. Zəngin bədii ənənələrə malik Azərbaycan heykəltəraşlığının müasir mərhələsi XX əsrin 20-ci illərindən formalaşmış və bu dövrdən etibarən mühüm ictimai hadisələrə və görkəmli şəxsiyyətlərə həsr olunmuş çoxsaylı monumental abidələr yaradılmışdır.

Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundov, Mirzə Ələkbər Sabir, Nəriman Nərimanov, Üzeyir Hacıbəyli, Cəfər Cabbarlı, Səməd Vurğun və digər sənətkarların şərəfinə ucaldılan heykəllər Bakının memarlıq mənzərəsində vahid kompozisiya bütövlüyü formalaşdırmışdır.

Ölkənin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanların xatirəsinə respublikanın bütün bölgələrində ucaldılmış abidə-komplekslər tarixi yaddaşın qorunmasına və milli-mənəvi dəyərlərin yaşadılmasına xidmət edir.

DEKABR 2026



Milli ədəbiyyat

Əməkdar incəsənət xadimi, şair, publisist, dramaturq Qurbanov (Qurbani) Abdulla Novruz oğlunun (13.12.1956) anadan olmasının 70 illiyi 976
Xalq şairi, yazıçı, kinossenarist, tərcüməçi Əliyev Rövşən Məmmədəli oğlunun (Ramiz Rövşən) (15.12.1946) anadan olmasının 80 illiyi 977
Əməkdar incəsənət xadimi, Əməkdar mədəniyyət işçisi, yazıçı Vəliyev Süleyman Vəli oğlunun (21.12.1916-07.03.1996) anadan olmasının 110 illiyi 978
Əməkdar incəsənət xadimi, yazıçı-dramaturq, publisist Hüseynbəyli Elçin Hüseyn oğlunun (Qaraçuxa) (23.12.1961) anadan olmasının 65 illiyi 979
Şair, jurnalist, publisist Əkbərzadə Şahmar Əkbər oğlunun (28.12.1941-30.08.2000) anadan olmasının 85 illiyi
Xalq yazıçısı, filologiya elmləri doktoru, professor Cəfərzadə Əzizə Məmməd qızının (29.12.1921-04.09.2003) anadan olmasının 105 illiyi 980



Folklor

Əməkdar mədəniyyət işçisi, aşıq-şair Pənahov Əlipənah Ələsgər oğlunun (Aşıq Pənah) (12.12.1926-26.08.1978) anadan olmasının 100 illiyi 981



Dünya ədəbiyyatı

Rus yazıçısı, ictimai xadim Tixonov Nikolay Semyonoviçin (04.12.1896-08.02.1979) anadan olmasının 130 illiyi 982
Rus şairi Nekrasov Nikolay Alekseyeviçin (10.12.1821-08.01.1878) anadan olmasının 205 illiyi
Rus yazıçısı, publisist, tarixçi Karamzin Nikolay Mixayloviçin (12.12.1766-22.05.1826) anadan olmasının 260 illiyi 983
Rus yazıçısı, ictimai xadim Fadeyev Aleksandr Aleksandroviçin (24.12.1901-13.05.1956) anadan olmasının 125 illiyi



Rəssamlıq. Heykəltəraşlıq

Xalq rəssamı, qrafik və teatr rəssamı, professor Abdullayev Mikayıl Hüseyn oğlunun (19.12.1921-21.08.2002) anadan olmasının 105 illiyi 984
Əməkdar rəssam, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Bayramov Səyyad İbrahim oğlunun (19.12.1956) anadan olmasının 70 illiyi 985



Musiqi. Opera. Balet

Xalq artisti, Əməkdar incəsənət xadimi, professor, bəstəkar Dadaşov Azər İsmayıl oğlunun (01.12.1946) anadan olmasının 80 illiyi 986
Əməkdar incəsənət xadimi, bəstəkar Xəlilov Yaşar Sudeyf oğlunun (05.12.1956) anadan olmasının 70 illiyi 987

Xalq artisti, balerina Şirəliyeva Tamilla Xudadat qızının (08.12.1946-12.03.2025) anadan olmasının 80 illiyi 988
Xalq artisti, balet artisti, xoreoqraf Pletnyov Vladimir Nikolayeviçin (08.12.1946-21.02.1988) anadan olmasının 80 illiyi 989
Xalq artisti, opera müğənnisi, teatr aktyoru Sadıqov Əliövsət Şirəli oğlunun (21.12.1906-17.11.1970) anadan olmasının 120 illiyi 990
Xalq artisti, balerina, pedaqoq Babayeva Çimnaz Məmməd qızının (23.12.1946-23.12.2019) anadan olmasının 80 illiyi 991
Əməkdar artist, balaban və klarnet ifaçısı Zeynalov Bəhruz Mahmud oğlunun (24.12.1926-25.05.1998) anadan olmasının 100 illiyi 992
Xalq artisti, ictimai xadim Xanlarova Zeynəb Yəhya qızının (28.12.1936) anadan olmasının 90 illiyi 993
Xalq artisti, estrada müğənnisi Ağayev Faiq Balağa oğlunun (29.12.1971) anadan olmasının 55 illiyi
Xalq artisti, müğənni Əliyev Əbülfət Əsəd oğlunun (30.12.1926-27.12.1990) anadan olmasının 100 illiyi 994
Xalq artisti, müğənni Rzazadə Yalçın İmran oğlunun (31.12.1946-22.02.2021) anadan olmasının 80 illiyi 995



Teatr. Kino

Amerika kino rejissoru, prodüser Disney Uoltun (05.12.1901-15.12.1966) anadan olmasının 125 illiyi
Xalq artisti, aktyor Yusifzadə Əşrəf Əmrah oğlunun (05.12.1906-07.03.1963) anadan olmasının 120 illiyi 996
Xalq artisti, aktyor Salayev Həsənağa Dərya oğlunun (05.12.1921-02.10.1981) anadan olmasının 105 illiyi 997
Əməkdar artist, aktyoru Abbasov Elxan Yunis oğlunun (Elxan Yunis) (06.12.1971) anadan olmasının 55 illiyi
Xalq artisti, aktyor Davudova Mərziyyə Yusif qızının (08.12.(25.11)1901-06.01.1962) anadan olmasının 125 illiyi
Əməkdar artist, aktrisa Bədirbəyli Firuzə Xanlar qızının (10.12.1916-16.12.1992) anadan olmasının 110 iliyi 998
Xalq artisti, teatr və kino aktrisası Mehriban Mürvət qızının (Mehriban Zəki) (18.12.1966) anadan olmasının 60 illiyi 999
Əməkdar artist, aktyor Xasıyev Nadir Şənbə oğlunun (24.12.1961) anadan olmasının 65 illiyi 1000
Əməkdar incəsənət xadimi, kino operatoru, rejissor və rəssam Atakişiyev Əlisəttar Ələsgər oğlunun (25.12.1906-07.11.1990) anadan olmasının 120 illiyi 1001
Xalq artisti, aktyor Əliyeva Zemfira Məmmədəli qızının (25.12.1941-16.11.1995) anadan olmasının 85 illiyi 1002

Xalq artisti, teatr və kino aktrisası Yaqubova Ella İsmayıl qızının (30.12.1946) anadan olmasının 80 illiyi 1003



Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Əsgərova Salatın Əziz qızının (16.12.1961-09.01.1991) anadan olmasının 65 illiyi 1004
Azərbaycanın Milli Qəhrəmanı Əhmədov Riad Fikrət oğlunun (20.12.1956-26.01.1992) anadan olmasının 70 illiyi 1005
Azərbaycanın Milli Qəhrəmanı Orucov Vəzir Surxay oğlunun (26.12.1956-22.03.1993) anadan olmasının 70 illiyi 1006



İkinci Qarabağ Müharibəsi Şəhidləri

Mayor Bayramov Elbrus Eyvaz oğlunun (01.12.1986-02.10.2020) anadan olmasının 40 illiyi 1007
Əsgər Aslanov Taleh Elman oğlunun (01.12.1996-01.10.2020) anadan olmasının 30 illiyi 1008
MAHHXHQ əsgər Rüstəmov Elnur İsmayıl oğlunun (01.12.1986-08.10.2020) anadan olmasının 40 illiyi 1008
Əsgər Babayev Taleh Xanmurad oğlunun (02.12.1986-06.11.2020) anadan olmasının 40 illiyi 1009
Əsgər Baxışov Sadiq Bəkir oğlunun (02.12.2001-28.10.2020) anadan olmasının 25 illiyi 1009
Leytenant İmanzadə Ayaz Daşqın oğlunun (03.12.1996-02.10.2020) anadan olmasının 30 illiyi 1010
Əsgər Azayev Ülvi Maqsud oğlunun (04.12.2001-02.10.2020) anadan olmasının 25 illiyi 1011
Əsgər Şükürani Şükran Rüfət oğlunun (04.12.2001-07.10.2020) anadan olmasının 25 illiyi 1011
Əsgər Şiriyev Rəşad Rasim oğlunun (05.12.2001-07.10.2020) anadan olmasının 25 illiyi 1012
MAHHXHQ əsgər Cəfərov Röyal Vaqif oğlunun (07.12.1991-04.11.2020) anadan olmasının 35 illiyi 1012
Mayor Qaflanov Şixamir Oruc oğlunun (07.12.1986-19.10.2020) anadan olmasının 40 illiyi 1013
Əsgər Həsənli Zərimxan Rafiq oğlunun (07.12.2001-11.10.2020) anadan olmasının 25 illiyi 1014
MAHHXHQ əsgər Fərzəliyev Samir Vaqif oğlunun (08.12.1996-15.10.2020) anadan olmasının 30 illiyi 1014
Əsgər Əliyev Ramil Vüqarəddin oğlunun (09.12.1996-05.11.2020) anadan olmasının 30 illiyi 1015

DEKABR 2026

Əsgər Abbasov Tacəddin Vüqar oğlunun (10.12.2001-26.10.2020) anadan olmasının 25 illiyi 1015
MAHHXHQ çavuş İbadov Cavad Cabir oğlunun (10.12.1996-16.10.2020) anadan olmasının 30 illiyi 1016
Gizir Cabbarzadə Məmmədiyə Məhəmməd oğlunun (10.12.1986-27.09.2020) anadan olmasının 40 illiyi 1016
Əsgər Ağali Zaur Kamil oğlunun (11.12.1996-22.10.2020) anadan olmasının 30 illiyi 1017
Əsgər Quliyev Vüqar Fizuli oğlunun (11.12.2001-03.11.2020) anadan olmasının 25 illiyi 1017
Kiçik gizir Quliyev Aqşin Dilavər oğlunun (12.12.1996-16.10.2020) anadan olmasının 30 illiyi 1018
MAHHXHQ əsgər Əsgərov Sadiq Elbəyi oğlunun (12.12.1996-29.09.2020) anadan olmasının 30 illiyi 1018
Əsgər Qaçayev İntizam Əkbər oğlunun (14.12.2001-23.10.2020) anadan olmasının 25 illiyi 1019
MAHHXHQ çavuş Mehtizadə Qurban Aydın oğlunun (16.12.1996-27.09.2020) anadan olmasının 30 illiyi 1019
Əsgər Qalayçiyev Faiq İsrafil oğlunun (16.12.2001-01.11.2020) anadan olmasının 40 illiyi 1020
Əsgər Mehdiyev Anar İlham oğlunun (16.12.2001-16.10.2020) anadan olmasının 25 illiyi 1020
Leytenant Hüseynov Eldost Asəf oğlunun (16.12.1996-07.10.2020) anadan olmasının 30 illiyi 1021
Əsgər İsgəndərov Şahmurad Natiq oğlunun (17.12.1996-16.10.2020) anadan olmasının 30 illiyi 1022
Gizir Orucov Ceyhun Namaz oğlunun (17.12.1996-30.10.2020) anadan olmasının 30 illiyi 1022
MAHHXHQ əsgər Ələsgərov Sənan Əkram oğlunun (17.12.1996-29.09.2020) anadan olmasının 30 illiyi 1023
Əsgər Mollayev İslam Şəmsəddin oğlunun (18.12.1996-13.10.2020) anadan olmasının 30 illiyi 1023
Gizir Orucov Elvin Rövşən oğlunun (18.12.1991-27.09.2020) anadan olmasının 35 illiyi 1024
Əsgər Əliyev Orxan Ədalət oğlunun (19.12.1991-16.10.2020) anadan olmasının 35 illiyi 1024
Baş leytenant Məmmədzadə İlkin Əzizağa oğlunun (19.12.1991-07.10.2020) anadan olmasının 35 illiyi 1025
Əsgər Quliyev Daşqın Nəcməddin oğlunun (20.12.2001-16.10.2020) anadan olmasının 25 illiyi 1026
Əsgər Əmiraslanov Ümman Namiq oğlunun (21.12.1996-02.10.2020) anadan olmasının 30 illiyi 1026

MAHHXHQ çavuş Qafarov Elnur Mirzəxan oğlunun (21.12.1981-16.10.2020) anadan olmasının 45 illiyi 1027
Əsgər Məmiyev Elmir Zamin oğlunun (22.12.2001-02.10.2020) anadan olmasının 25 illiyi 1027
MAHHXHQ əsgər Quliyev Barat Nizami oğlunun (22.12.1991-29.09.2020) anadan olmasının 35 illiyi 1028
MAHHXHQ kiçik çavuş Sabirli Əjdər Xanlar oğlunun (22.12.1996-08.10.2020) anadan olmasının 30 illiyi 1028
Gizir Ramazanov Fərid Ömər oğlunun (23.12.1991-09.10.2020) anadan olmasının 35 illiyi 1029
Gizir Sahratov Cavid Əlikömək oğlunun (23.12.1981-09.10.2020) anadan olmasının 45 illiyi 1029
MAHHXHQ əsgər İsmayılov İntiqam İlqar oğlunun (24.12.1996-09.10.2020) anadan olmasının 30 illiyi 1030
Əsgər Allahverdiyev Sakit Şahin oğlunun (24.12.2001-09.11.2020) anadan olmasının 25 illiyi 1020
Əsgər Qulamlı Afiq Fərhad oğlunun (24.12.1996-19.10.2020) anadan olmasının 30 illiyi 1031
Əsgər Hacıyev Toğrul Rüfət oğlunun (24.12.1996-10.10.2020) anadan olmasının 30 illiyi 1031
MAHHXHQ çavuş İsayev Toğrul Natiq oğlunun (25.12.1996-30.09.2020) anadan olmasının 30 illiyi 1032
Əsgər Nağıyev Əli Mehman oğlunun (25.12.1991-22.10.2020) anadan olmasının 35 illiyi 1032
Mayor Əliyev Malik Təvəkkül oğlunun (26.12.1986-13.10.2020) anadan olmasının 40 illiyi 1033
Əsgər Cəbrayılov Rahib Ramil oğlunun (26.12.2001-28.09.2020) anadan olmasının 25 illiyi 1034
Əsgər Talıbov Elnur Gəgiş oğlunun (26.12.1996-05.10.2020) anadan olmasının 30 illiyi 1034
Gizir Nağıyev Elfaq Azad oğlunun (26.12.1996-21.10.2020) anadan olmasının 30 illiyi 1035
MAHHXHQ kiçik çavuş Heydərli Ayxan İlham oğlunun (26.12.1996-05.10.2020) anadan olmasının 30 illiyi 1036
Əsgər İbadzadə Zabil Fikrət oğlunun (27.12.1996-05.10.2020) anadan olmasının 30 illiyi 1036
Əsgər Abiyev Vasif Vaqif oğlunun (28.12.1986-05.10.2020) anadan olmasının 40 illiyi 1037
Əsgər Kazımov İlqar Nazim oğlunun (28.12.1996-09.11.2020) anadan olmasının 30 illiyi 1037
MAHHXHQ əsgər Ağaliyev Müzəffər Vahid oğlunun (30.12.1981-23.10.2020) anadan olmasının 45 illiyi 1038

Əsgər Eminov Tacir İntiqam oğlunun (31.12.2001-06.10.2020) anadan olmasının 25 illiyi 1038
Əsgər Həsənov Ülvi Natiq oğlunun (31.12.2001-09.11.2020) anadan olmasının 25 illiyi 1039
Əsgər Quliyev Namiq Natiq oğlunun (31.12.2001-25.10.2020) anadan olmasının 25 illiyi 1039



Siyasət. Hüquq. Hərbi iş

Dövlət xadimi Rəsulova Lidiya Xudat qızının (04.12.1941-05.02.2012) anadan olmasının 85 illiyi
Dövlət xadimi, general-mayor Əsədov Məhəmməd Nəbi oğlunun (05.12.1941-20.11.1991) anadan olmasının 85 illiyi
Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, siyasi və dövlət xadimi Əliyev İlham Heydər oğlunun (24.12.1961) anadan olmasının 65 illiyi 1040



Tarix

Tarix üzrə elmlər doktoru Qasımov Ədalət Qasım oğlunun (05.12.1956) anadan olmasının 70 illiyi
Əməkdar elm xadimi, tarix elmləri doktoru, professor Musayeva Tamilla Həşim qızının (31.12.1931-24.01.2019) anadan olmasının 95 illiyi 1045
Tarix elmləri doktoru, professor Abbasbəyli Ağalar Nəriman oğlunun (31.12.1941) anadan olmasının 85 illiyi 1046



Fəlsəfə. İqtisadiyyat

Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Əliyev Aqil Əlirza oğlunun (10.12.1926-07.03.2006) anadan olmasının 100 illiyi 1047
Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Qasımov Əbülfəz Cəbrayıl oğlunun (20.12.1931-10.06.2008) anadan olmasının 95 illiyi



Mədəniyyət. Maarif. Təhsil

Əməkdar jurnalist, publisist, yazıçı Hacıyev Əşrəf Əhmədpaşa oğlunun (11.12.1931-05.07.2001) anadan olmasının 95 illiyi
Əməkdar jurnalist, Əməkdar mədəniyyət işçisi, ictimai xadim, pedaqoq İmanquliyev Nəsir Əsəd oğlunun (22.12.1911-07.03.1998) anadan olmasının 115 illiyi 1048
Əməkdar elm xadimi, şair və mütərcim, professor Əlizadə Məmməd Mübariz Əli oğlunun (23.12.1911-09.04.1994) anadan olmasının 115 illiyi 1049
Filologiya elmləri doktoru, professor Sultanlı Əli Abdulla oğlunun (25.12.1906-18.07.1960) anadan olmasının 120 illiyi 1050
Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Babayev Həbib Bayram oğlunun (30.12.1926-02.07.1994) anadan olmasının 100 illiyi ..1051

DEKABR 2026



Coğrafiya. Geologiya

Əməkdar mühəndis, geoloq Məmmədov Mirkazım Mirəhəd oğlunun (06.12.1911-09.1996) anadan olmasının 115 illiyi

Akademik, geologiya-mineralogiya üzrə elmlər doktoru Əhmədov Həsən Əbdüləli oğlunun (15.12.1906-09.07.1981) anadan olmasının 120 illiyi ..1052


Geologiya-mineralogiya elmləri doktoru, professor Ağalarova Dünya Ələkbər qızının (15.12.1906-15.09.1981) anadan olmasının 120 illiyi 1053



Riyaziyyat. Fizika. Astronomiya

AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor İsgəndərov Bala Ağa-Hüseyn oğlunun (21.12. 1936-09.09.2012) anadan olmasının 90 illiyi 1054

Akademik, əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor Quliyev Nəriman Ağaqulu oğlunun (28.12.1926-20.05.2014) anadan olmasının 100 illiyi



Kimya. Biologiya. Tibb

Əməkdar həkim, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Əlikişibəyov Mustafa Məmməd oğlunun (07.12.1901-1981) anadan olmasının 125 illiyi

Biologiya elmləri doktoru, professor Mustafayev Qara Teyfur oğlunun (25.12.1931-08.10.2018) anadan olmasının 95 illiyi

Akademik, baytarlıq elmləri doktoru, professor Musayev Musa Əbdürrəhman oğlunun (27.12.1921-04.12.2010) anadan olmasının 105 illiyi

Akademik, əməkdar elm xadimi Hüseynov Cəlil Yusif oğlunun (28.12.1896-21.03.1979) anadan olmasının 130 illiyi 1055

AMEA-nın müxbir üzvü, entomoloq, biologiya elmləri doktoru, professor Səmədov Niyazi Həmid oğlunun (31.12.1916-23.05.1989) anadan olmasının 110 illiyi 1056



Texnika. Mühəndis işi

Əməkdar mühəndis, texnika elmləri doktoru, professor Hacıyev Bəhmən Əbiş oğlunun (02.12.1926-16.11.1998) anadan olmasının 100 illiyi 1057

Texnika elmləri doktoru, professor Mehdiyev Rafiq İsrafil oğlunun (05.12.1936-17.10.2025) anadan olmasının 90 illiyi 1058

Əməkdar elm xadimi, texnika elmləri doktoru, professor Abdullayev Kamal Mehman oğlunun (19.12.1936) anadan olmasının 90 illiyi 1059

Texnika elmləri doktoru, professor Abdullayev Faiq Məmmədəli oğlunun (26.12.1936-17.07.2021) anadan olmasının 90 illiyi 1060
Əməkdar mühəndis, texnika elmləri doktoru Süleymanov Ələkbər Bağır oğlunun (31.12.1916-27.07.2000) anadan olmasının 110 illiyi 1061



Kitabxanaşünaslıq. Biblioqrafiya

Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, tarix elmləri doktoru, professor Xələfov Abuzər Alı oğlunun (25.12.1931-27.04.2020) anadan olmasının 95 illiyi 1062



Digər tarixi hadisələr

Ümumdünya QİÇS-ə Qarşı Mübarizə Günü (01.12.1988)
Beynəlxalq Əlillər Günü (03.12.1992)
Beynəlxalq Könüllülər Günü (05.12.1985) 1063
Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçilərinin Peşə Bayramı Günü (06.12.2006)
Xalça Bayramı (07.12.2004)
"Müstəqil Dövlətlər Birliyi"nin (MDB) yaradılmışdır (08.12.1991)
Azərbaycan İslam Konfransı Təşkilatına üzv qəbul olunmuşdur (09.12.1991)
Ümumdünya İnsan hüquqları Günü (10.12.1948) 1064
Beynəlxalq Dağlar Günü (11.12.2003)
Uşaqların Beynəlxalq Televiziya və Radio Verilişləri Günü (12.12.1994)
Ümummilli lider Heydər Əliyevin anım günü (12.12.2003) 1065
Azərbaycan Respublikası Pensiya Fondu (16.12.1991) yaradılmışdır.
Naxçıvan MR Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilmişdir (16.12.1991)
Fövqəladə Hallar Nazirliyi İşçilərinin Peşə Bayramı Günü (16.12.2006)
Müdafiə Sənayesi Nazirliyi İşçilərinin Peşə Bayramı Günü (17.12.2010)
Avropa İttifaqının İnsan Alverinə Qarşı Mübarizə Günü (18.12.2007)
Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (22.12.2025)
Latın qrafikalı Azərbaycan əlifbasının bərpa olunması haqqında qanun qəbul edilmişdir (25.12.1991)
Beynəlxalq Kino Günü (28.12.1895) 1066
Ermənilər tərəfindən Kərkicahan qəsəbəsinin işğalı ilə (Xankəndi ərazi vahidliyində) Qarabağda ilk işğal prosesi başlamışdır (28.12.1991)
Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında ümumxalq referendumu keçirilmişdir (29.12.1991)
Prezident İlham Əliyev Bakı şəhərində Heydər Əliyev Mərkəzinin yaradılması haqqında sərəncam imzalamışdır (29.12.2006)
Dünya Azərbaycanlılarının Həmrəylik Günü (31.12.1991) 1067

Abdulla Qurbani – 70

(1956)

Şair, publisist



Ədəbiyyat:

Palıd ömrü: Abdulla Qurbaninin 60 illiyinə / [mətnin müəl. R. Faxralı].– Bakı: [n. y.], [2016].– 24 s.

Vətən mahnı istəyir... / A. Qurbani / və başq.; Söhbəti apardı: V. Əlixanlı // Qobustan:Sənət toplusu.– 2017.– №1.– S.29-34.

"Bu intizarın ömrü uzun olmayacaq" / A. Qurbani; söhbətləşdi C. Azər // Ədəbiyyat qəzeti.– 2018.– 30 iyun.– S.2-3.

Türkiyə Respublikasının Milli Müdafiə Universitetində "Dağlıq Qarabağ problemi" və "Xocalı soyqırımı" mövzularında təqdimatlar keçirilib // Azərbaycan ordusu.–2019.– 6 mart.– S.5.

Vətən müharibəsi şəhidləri / layihənin müəl., tərt.-red. A. Qurbani.– Bakı: [Apostrof-A], 2021.– 799, [1] s.

Böyük gələcəyə baxış: [kitab-albom] / A. Qurbani [son söz əvəzi].– Bakı: [Apostrof-A], 2022.– 439, [1] s.

"Qəhrəmanlığın səhnə salnaməsi" / A.Nəzərova // 525-ci qəzet.– 2025.– 16 oktyabr (№188).– S.13.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Abdulla_Qurbani

Abdulla Novruz oğlu Qurbanov (Qurbani) 1956-cı il dekabr ayının 13-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Mahmudkənd kəndində anadan olmuşdur. İbtidai təhsilini doğulduğu kənddə almış, daha sonra Culfa rayonunun Əbrəqunus kənd internat orta məktəbini bitirmişdir. 1978–1983-cü illərdə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Teatrşünaslıq fakültəsində ali təhsil almışdır.

Əmək fəaliyyətinə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən mədəniyyət işçilərinin respublika hazırlıq və ixtisasartırma kurslarında başlamış, burada 1973–1975-ci illərdə bədii rəhbər vəzifəsində çalışmışdır. 1975–1977-ci illərdə Uzaq Şərq hərbi dairəsində həqiqi hərbi xidmətdə olmuşdur. 1977–1978-ci illərdə Bakıda Aşıq Ələskər adına Xalq Yaradıcılığı Evində kütləvi tamaşalar üzrə metodist kimi fəaliyyət göstərmişdir. 1983–1989-cu illərdə Naxçıvan Muxtar Respublikasının Şərur rayon Tarix-Diyarşünaslıq Muzeyində direktor, 1989–1993-cü illərdə isə mədəniyyətşünaslıq şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

1993-cü ildə Şərur rayon Mədəniyyət şöbəsinin müdiri vəzifəsindən könüllü olaraq cəbhəyə getmişdir. Qarabağ müharibəsinin iştirakçısı olan A. Qurbanov Murovdağ istiqamətində aparılan döyüş əməliyyatlarında iştirak etmiş, hərbi xidmət dövründə sıravi əsgərdən polkovnik rütbəsinədək yüksəlmişdir. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mənəvi-psixoloji hazırlıq və İctimaiyyətlə əlaqələr idarəsinin rəis müavini vəzifəsində xidmət etmiş, 2017-ci il dekabrın 15-də hərbi xidmətdən ehtiyata buraxılmışdır. Hazırda Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının prezidium üzvüdür.

Abdulla Qurbani hərbi-vətənpərvərlik mövzusunda geniş yaradıcılıq fəaliyyəti ilə tanınır. Onun 100-dən artıq kitabı, yüzlərlə elmi-publisistik məqaləsi, 200-dən çox hərbi marş və vətənpərvərlik mahnısının mətni nəşr olunmuşdur. Əsərləri əsasında televiziya tamaşaları hazırlanmış, rekviyem-oratoriya və simfonik poema yazılmışdır. "Daşaltı" pyesi Bakı Bələdiyyə Teatrında səhnələşdirilmişdir. "Türk sancağı", "Daş andı", "Şahnaz muğamı", "Gənclik bir də qayıtmır" pyesləri müxtəlif teatr səhnələrində tamaşaya qoyulmuşdur.

Abdulla Qurbani respublikanın müxtəlif bölgələrində və Bakıda keçirilən çoxsaylı teatrlaşdırılmış kütləvi mərasimlərin ssenari müəllifi və quruluşçu rejissoru olmuşdur. O, Azərbaycan Ordusunun son dörd hərbi paradının aparıcısı, Silahlı Qüvvələrin 100 illik yubileyinə həsr olunmuş hərbi paradın və 10 dekabr 2020-ci ildə keçirilmiş Qələbə Paradının ssenari müəllifi və aparıcısıdır.

Ədəbi irsinə "Şəhidlər dastanı", "Kərki həsrəti", "Murovdağ karvanı", "Ana, Murovdan gəlirəm", "Vətən bizə arxalanır", "Heydər Əliyev məktəbi", "Mətinlik məktəbi", "Daş andı", "Ömrün davamı" və digər kitablar daxildir. O, həmçinin "Azərbaycan–Türkiyə: qardaşlığın təntənəsi" kitab-albomunun müəllifidir.

Abdulla Novruz oğlu Qurbanovun Vətən qarşısında xidmətləri layiqincə qiymətləndirilmiş.O, 2-ci və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri, "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və Azərbaycan Respublikasının ondan çox digər medalları ilə təltif edilib. Prezidentin fərdi təqaüdçüsü, Əməkdar incəsənət xadimidir.


2016-cı il dekabrın 19-da Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda Abdulla Qurbaninin 60 illik yubileyi qeyd edilmiş, ona Azərbaycan Yazıçılar Birliyinin Fəxri fərmanı təqdim olunmuşdur. Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin qərarı ilə "General Həzi Aslanov" yubiley medalı ilə təltif edilmişdir. 2021-ci il iyunun 1-də Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Şuşa şəhərində onun kitablarının təqdimatı keçirilmişdir.

2025-ci ildə XI Bakı Kitab Sərgisində «Fəxri Xiyaban» və «Nəsillərə nümunə» əsərləri geniş ictimaiyyətə təqdim edilib.

Ramiz Rövşən – 80

(1946)

Şair



Ədəbiyyat:

Dadlı günəş / Ramiz Rövşən; illüstrator A. Məhərrəmova; layihə rəhb. A. Cəfərova ; red. R. Ramizoğlu ; çapa məsul R. İsmixanov. - [Bakı]: [TEAS Press], [2025]. - 63, [1] s.

Göyərçinim, gəl görüm: Şeirli, şəkilli əlifba / Ramiz Rövşən; illüstrator və dizayner R. Həsənzadə; red. F. Hüseynova; çapa məsul R. İsmixanov. - [Bakı]: [TEAS Press], [2025]. - [68] s.

Nəfəs. Kitablar kitabı: [şeir, nəsr, esse: Bir cildin altında beş kitab] / Ramiz Rövşən; bədii red.: M. Qarayev, R. Ramizoğlu; rəssam Ə. Rüstəmi; çapa məsul R. İsmixanov. - [Bakı]: TEAS Press, [2024]. - 768 s.

80 yaşın şeiri / Rami Rövşən // Ədalət.-2025.- 19 dekabr (№48).- S.14.

Əsl poetik sözün heç bir səsə, pafosa ehtiyacı yoxdur" / R.Rövşən; müsahibəni apardı: C.Namazov // Ədəbiyyat qəzeti.– 2025.– 3 oktyabr (№36).– S.4.

Ramiz Rövşən - 75 // 525-ci qəzet.– 2021.– 15 dekabr.– S.14.

Ramiz Rövşən yaradıcılığı Almaniya ədəbiyyatı portalında // Ədəbiyyat qəzeti.– 2022.– 19 mart.– S.18.

Ramiz Məmmədəli oğlu Əliyev (ədəbi təxəllüsü Ramiz Rövşən) 1946-cı il dekabrın 15-də Bakının Əmircan kəndində anadan olmuşdur. Əslən Qubadlı rayonunun Teymur Müskanlı kəndindəndir. Orta təhsilini Suraxanı rayonundakı 208 nömrəli şəhər orta məktəbində almışdır. 1964–1969-cu illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsində təhsil almış, 1976–1978-ci illərdə Moskvada Ali Ssenari Kurslarını bitirmişdir.

Əmək fəaliyyətinə 1971-ci ildə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında və "Mozalan" satirik kinojurnal studiyasında redaktor kimi başlamışdır. 1974–1975-ci illərdə kinostudiyanın ssenari emalatxanasında ssenarist, 1979–1987-ci illərdə ssenari redaksiya heyətinin üzvü, 1987–1992-ci illərdə isə kinostudiyanın baş redaktoru vəzifəsində çalışmışdır. 1992-ci ildən 2020-ci ilədək Azərbaycan Tərcümə Mərkəzində fəaliyyət göstərmişdir.

Ramiz Rövşənin ilk şeirlər kitabı "Bir yağışlı nəğmə" 1970-ci ildə nəşr olunmuşdur. Sonrakı illərdə "Göy üzü daş saxlamaz" (1987), "Kəpənək qanadları" (1999), "Gedək biz olmayan yerə" (2006), "Nəfəs – kitablar kitabı" (2006, 2008), "Göyərçinim, gəl görüm" (2018), "Gizlənmişəm, tap məni" (2018), "Köhnə qorxular" (2021), "Bu dünyanın hər sifəti" (2021), "Nəfəs. Kitablar kitabı" (2024), "Dadlı günəş" (2025) və digər kitabları işıq üzü görmüşdür.

Şair haqqında müxtəlif illərdə "Üç çinar yarpağı", "Burax gedim, ay işığı", "Ağrı" adlı televiziya verilişləri hazırlanmışdır. Ramiz Rövşənin şeirləri və mahnı mətnləri Azərbaycan kinosunda və estrada musiqisində geniş istifadə olunmuş, bir sıra bədii və cizgi filmlərində səsləndirilmişdir.

Ramiz Rövşən çoxsaylı bədii, sənədli və animasiya filmlərinin ssenari müəllifi və ya mahnı mətnlərinin müəllifi kimi çıxış etmişdir. Onun ssenariləri əsasında çəkilmiş filmlər Azərbaycan kino tarixində mühüm yer tutur.


Şeir və hekayələri keçmiş SSRİ məkanında, eləcə də ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, Polşa, Bolqarıstan, Türkiyə və İranda nəşr olunmuşdur. O, rus və dünya poeziyasından Ramiz Rövşən müxtəlif dövrlərdə Aleksandr Blokun ("Bir qız oxuyurdu kilsə xorunda…", "Dünən olanlar bu gün tamam yadımdan çıxır"), Aleksandr Sergeyeviç Puşkinin ("Bir ac quzğun o birinə deyirdi", "Yorğun yolçu", "Peyğəmbər dedi ki", "Matəm nəğməsi", "At", "Gözəl qız, gördünmü mənim atımı…"), Anna Axmatovanın ("Qonaq"), Federiko Qarsiya Lorkanın ("Elə bilirsən səni sevmək asandı, asan?", "Dayanıb ağlayır bir kərtənkələ", "Böyürtkən"), Qriqore Viyerunun ("Adın yazılan üzük", "Meşə", "Evə tezdən qayıtdım"), Marina Svetayevanın ("Bir babam skripka çalandı mənim…", "Canım-gözüm, neyləmişəm mən sənə", "Sənin adın…", "Yatır yollar yorğunu…", "Bu dünyada hamının əlindən allam səni…", "Varlı adam — sevdi kasıb bir qızı…"), Mixail Yuryeviç Lermontovun ("İkisi də bir-birini dəli kimi sevirdi", "Dəniz şahzadəsi", "Ballada"), Semyon Kirsanovun ("Ünvansız məktub"), Sergey Yeseninin ("Qara adam"), Şarl Bodlerin ("İblis duası", "Saat", "Gecə tövbəsi", "Ey sevinc mələyi, dərd çəkmisənmi?..") və Vladimir Mayakovskinin ("Müəllif bu sətirləri sevimli özünə həsr edir", "Bu gün yolka olmayacaq", "Atlarla yaxşı rəftar", "Şalvarlı bulud") əsərlərini tərcümə etmişdir.

Ramiz Rövşən 1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin, Dünya Poeziya Hərəkatı (WPM) Koordinasiya Şurasının üzvüdür. 2013-cü ildə "Türk Dünyası Bilim, Kültür ve Sanat Ödülü"nə layiq görülmüş, 2019-cu ildə Avrasiya Akademiyasının "Avrasiya Əfsanəsi" mükafatını almışdır. Azərbaycan Respublikası Prezidentinin 25 may 2019-cu il tarixli sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə "Xalq şairi" fəxri adına layiq görülmüşdür. 2021-ci ildə Mədəniyyət Nazirliyinin təsis etdiyi "Nizami Gəncəvinin 880 illiyi (1141–2021)" xatirə nişanı ilə təltif edilib. 2025-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Süleyman Vəliyev – 110

(1916-1996)

Yazıçı



Ədəbiyyat:

Süleyman Vəliyevin "Dağlar ətəyində" povestinin dilində maddi mədəniyyət leksikası / S.Vəliyeva // Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal.– 2021.– №1(115).– S. 332-335.

Şirinov, F. Süleyman Vəliyevin yaradıcılığında tarixilik və müasirlik: Filologiya üzrə fəlsəfə d-ru e. dər. al. üçün təq. ol. dis.: 5716.01 / Faiq Şirinov. - Sumqayıt: 2021. - 144 s.

Şirinov, F. Süleyman Vəliyevin "Daşlı bulaq" romanında tarix və müasirliyin vəhdəti / Faiq Şirinov // Azərbaycan ədəbiyyatşünaslığı / AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu.-2019.- №1.- S.72-77.

"Qanadı sınmış quş" da uçarmış [Mətn] : sənədli roman / Süleyman Vəliyev; layihə rəhb. Ş. Sadiq; naşir M. Xan ; rəss. V. Səftərov; diz. və qrafika T. Fərzi - [Bakı]: XAN, [2017]. - 100, [1] s.

Şirinov, F. Repressiya həqiqətlərindən söz açan ilk memuar əsərin müəllifi: Ədəbi simalar / Faiq Şirinov // Azərbaycan.-2017.- 7 yanvar.- S.5.

http://web2.anl.az:81/read/page.php?bibid=vtls000180859

Süleyman Vəli oğlu Vəliyev 1916-cı il dekabrın 21-də Bakı şəhərində Ramana qəsəbəsində anadan olmuşdur. Orta təhsilini Ramana və Sabunçu qəsəbə məktəblərində almış, neft mədənlərində fəhlə kimi çalışmışdır.

Ədəbi fəaliyyətinə "Neft uğrunda" qəzetində jurnalist kimi başlamış, sonralar "Azərbaycan gəncləri", "Kommunist" qəzetləri və "İnqilab və mədəniyyət" jurnalında ədəbi işçi olmuşdur. Azərbaycan Yazıçılar Birliyində Hərbi vətənpərvərlik şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

İkinci Dünya müharibəsi illərində Süleyman Vəliyev Almaniya, Yuqoslaviya və İtaliyada Müqavimət hərəkatında iştirak etmişdir. Müharibədən sonra M.F.Axundov adına Pedaqoji İnstitutda təhsil almış, 1958–1963-cü illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında redaktor, 1963–1987-ci illərdə isə Azərbaycan Yazıçılar Birliyində məsləhətçi işləmişdir. Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin, "Azərbaycan" jurnalı redaksiya heyətinin və Azərbaycan Ədəbiyyat Fondu Rəyasət Heyətinin üzvü olmuşdur. 1994-cü ildən Azərbaycanın Günahsız Siyasi Qurbanlar Assosiasiyası Rəyasət Heyətinin üzvü idi.

Süleyman Vəliyevin ədəbi fəaliyyətinin başlanğıcı 1932-ci ildə çap olunmuş "Əmanət kassası" hekayəsi ilə bağlıdır. 1937-ci ildə yazdığı "Bığlı ağa" povesti isə ayrı kitabça şəklində çap olunaraq onu ədəbi mühitdə tanıtmışdır. Onun əsərlərində müharibə mövzusu, Stalin repressiyaları və azərbaycanlı döyüşçülərin Avropa müqavimət hərəkatındakı fəaliyyəti ön plandadır. Müəllifin digər əsərləri arasında "Şor cüllütü", "Molla Məmiş və sandıq", "Səadət yollarında", "Əncir ağacı", "Mübahisəli şəhər", "Bir səhəng su", "Məhəbbət buzu əridir", "Seçilmiş əsərləri", "Düyünlər", "Gül dəstəsi", "Həyatın dadı", "Daşlı bulaq" və "Qanadı sınmış quş da uçarmış" yer alır. Əsərləri keçmiş SSRİ və xarici ölkə dillərinə tərcümə olunmuşdur.

Yazıçının 1966-cı ildə çap olunmuş "Düyünlər" romanı Azərbaycan ədəbiyyatında repressiya olunmuşların taleyindən bəhs edən ilk irihəcmli əsərlərdən biridir. Süleyman Vəliyev onu ağrıdan əsl repressiya həqiqətlərini daha sonralar, 1980-ci illərdə qələmə aldığı "Qanadı qırıq quş da uçarmış" roman-memuarında etiraf və təsvir edib.

Süleyman Vəliyev həmçinin ədəbiyyat sahəsində tərcümələr etmişdir. O, A. Qaydar, S. Marşak, M.Q. Mixaylovski və V. Vasilyevskaya əsərlərini Azərbaycan dilinə çevirərək bədii yaradıcılıqda tərcümə işinə mühüm töhfə vermişdir.

Filmoqrafiyasında isə "Məhəmməd Füzuli" (1958, qısametrajlı sənədli film), "İlk müjdələr" (1960, qısametrajlı film), "Yeddiilliyin adamları və işləri" (1960, qısametrajlı film), "Bizim mayaklar" (1961, qısametrajlı film), "Neft Akademiyası" (1974, qısametrajlı film) və "Qara gölün cəngavərləri" (1984, tammetrajlı bədii film) əsərlərindən istifadə olunmuş, ssenari müəllifi kimi fəaliyyət göstərmişdir.

Süleyman Vəli oğlu Vəliyev müxtəlif dövrlərdə bir sıra fəxri ad və mükafatlarla təltif olunmuşdur. O, Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi (1977), Azərbaycan SSR Əməkdar incəsənət xadimi (1987) fəxri adlarına layiq görülmüş, əmək veteranı (1976), müharibə veteranı (1981) statusu almışdır. Həmçinin 1967–1986-cı illərdə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə, 1984-cü ildə "Xalqlar dostluğu" ordeni və bir sıra medallarla təltif olunmuşdur.

Süleyman Vəliyev 1996-cı il martın 7-də Bakıda vəfat etmiş, İkinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

Elçin Hüseynbəyli – 65

(1961)

Yazıçı, dramaturq



Ədəbiyyat:

Vida: roman / Elçin Hüseynbəyli; red. P. Əlioğlu. – Bakı: Qələm, 2021. – 174 s.

O gözəllər ki vardı...: hekayələr / Elçin Hüseynbəyli; "Ulduz" jurnalı, "Mücrü" nəşriyyatı. – Bakı: Mücrü, 2022. – 152 s.

Yalanın illüziyası: dramlar / Elçin Hüseynbəyli. – Bakı: [Nəşriyyat qeyd olunmayıb], 2025. – 210 s.

Naməlum: povest və hekayələr / Elçin Hüseynbəyli. – Bakı, 2025. – 188 s.

"Ədəbi gənclik və müasir nəsr": Müsahibə / Elçin Hüseynbəyli; müsahibəni apardı: R. Mirzəzadə // Ədəbiyyat qəzeti. – 2024. – 18 may. – S. 4-5.

"Ulduz"dan "Ədəbiyyat qəzeti"nə keçən yol: Yaradıcılıq söhbəti // Mədəniyyət.az jurnalı. – 2025. – № 3. – S. 12-16.

"Qarabağ mövzusu müasir dramaturgiyamızda": Məqalə // 525-ci qəzet. – 2025. – 12 sentyabr. – S. 8.

İnternetdə:

https://az.baku-art.com/az/bu-gun-taninm-sh-nasir-yaz-ch-dramaturq-publisist-el-in-h-seynbeylinin-60-ya-tamam-olur

Elçin Hüseyn oğlu Hüseynbəyli (Qaraçuxa) 1961-ci il dekabrın 23-də Cəbrayıl rayonun Mahmudlu kəndində anadan olmuşdur. Orta təhsilini 1979-cu ildə Cəbrayıl rayonunun Şükürbəyli kənd orta məktəbində əla qiymətlərlə başa vurmuşdur. 1980–1982-ci illərdə Sovet Ordusunda piyada qoşunlarda hərbi xidmət keçmiş, "əlaçı əsgər" döş nişanı ilə təltif olunmuşdur. 1989-cu ildə M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1997-ci ildə Varşavada "İnsan haqları yay məktəbi"nin məzunu olmuşdur.

1999-cu ildən etibarən müxtəlif kütləvi informasiya vasitələrində, o cümlədən "Azadlıq" radiosunda çalışmış, radionun Bakı bürosunun yaradılmasında iştirak etmişdir. Azərbaycanda yeni informasiya modelinin formalaşmasında öncül mövqe tutmuşdur. 2004-cü ilin may ayında Azərbaycan Yazıçılar Birliyinin sədri Anarın təqdimatı ilə "Ulduz" jurnalının baş redaktoru seçilmiş və 27 mart 2014-cü ilədək bu vəzifəni icra etmişdir. Daha sonra "Ədəbiyyat qəzeti"nin baş redaktoru olmuş, Azərbaycan Yazıçılar Birliyi sədrinin müşaviri kimi fəaliyyət göstərmişdir. 2021-ci ildə Azərbaycan Yazıçılar Birliyinin katibi seçilmişdir. O, eyni zamanda Türk Dünyası Ədəbiyyat Dərgiləri Konqresinin baş katibi, rus dilində nəşr olunan "Güney Qafqaz" dərgisinin Azərbaycan üzrə koordinatoru və redaktoru olmuşdur.

Elçin Hüseynbəyli Ümumdünya azərbaycanlılarının qurultaylarının nümayəndəsi kimi iştirak etmişdir. Birinci Qarabağ müharibəsi dövründə hərbi müxbir kimi fəaliyyəti ilə seçilmişdir. Onun hekayə və romanları ali və orta məktəblərin tədris proqramlarına daxil edilmişdir. Müasir Azərbaycan ədəbiyyatında sintetik janrların nümayəndəsi kimi tanınan yazıçının roman və dram əsərləri keçmiş, bu gün və gələcək zaman müstəvilərinin vəhdətində qurulmuşdur. Əsərlərinin təhkiyəsi axıcı, üslubu fərdi xarakter daşıyır; süjetlər kəskin intriqa üzərində formalaşır və milli problemlər ümumbəşəri baxış kontekstində təqdim olunur.

Yazıçının bədii irsi çoxşaxəlidir. O, ondan artıq romanın, yüzdən çox hekayə, esse və publisistik yazının müəllifidir. "Rəqs edən oğlan", "Balıq adam", "İki nəfər üçün oyun", "Cənab XXI əsr", "Yovşan qağayılar", "Tut ağacı boyunca", "On üçüncü həvari – 141-ci Don Juan", "Şah Abbas", "Metro vadisi", "Yolayrıcında qaçış", "Azıx", "Şimallı gəlin", "Kopelhausda bir axşam", "Yenə iki od arasında", "Gözünə gün düşür", "Vida", "Pərixan", "Gültəkin xaqan", "Dənizin nağılları", "Banuçiçəyin rəngli yuxuları" və digər əsərləri Azərbaycan nəsrinin müasir mərhələsində mühüm yer tutur. Onun pyesləri Azərbaycan teatrlarında, eləcə də xarici ölkələrdə dəfələrlə səhnələşdirilmişdir.

Kitabları Türkiyə, İran, Rusiya, Litva, Özbəkistan, Gürcüstan və digər ölkələrdə nəşr edilmişdir. Avropa Birliyinin regionda münaqişə tərəfləri ilə bağlı layihələrində iştirak etmiş və əlaqələndirici kimi fəaliyyət göstərmişdir.

Elçin Hüseynbəylinin son illərdə çap olunmuş kitabları sırasına "Vida" (2021) romanı, "Mən və eqom..." (2021) yaradıcılıq toplusu, "O gözəllər ki vardı..." (2022) hekayələr kitabı, həmçinin 2025-ci ilin son nəşrləri olan "Yalanın illüziyası" və "Naməlum" əsərləri daxildir.

Yazıçı yaradıcılığı və ictimai fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, 2000-ci ildə istedadlı gənc yazar kimi Prezident təqaüdünə, 2008-ci ildə Prezidentin xüsusi mükafatına layiq görülmüşdür. 2001-ci ildə "Yusif Səmədoğlu adına ən yaxşı nəsr əsəri", 2007-ci ildə "Humay" mükafatı, 2009-cu ildə Mədəniyyət və Turizm Nazirliyinin "Qızıl kəlmə" mükafatı ilə təltif edilmişdir. Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının "Qızıl ulduz" medalına, "Nizami Gəncəvi" adına medala, TÜRKSOY-un "Çingiz Aytmatov" və "Məhdimqulu" medallarına layiq görülmüşdür. 24 may 2019-cu ildə Azərbaycan Respublikasının "Əməkdar incəsənət xadimi" fəxri adı verilmişdir. O, Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasınnı fəxri doktorudur, Azərbaycan Yazarlar Klubunun yaradıcısıdır.

Əzizə Cəfərzadə – 105

(1921-2003)

Yazıçı



Ədəbiyyat:

Əzizə Cəfərzadə: (Əzizə Məmməd qızı Cəfərzadə): Biblioqrafiya / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. ed. G. Əfəndiyeva ; elmi red. K. Tahirov; red. A. Koçak ; ön sözün müəl. V. Sultanlı. - Bakı: [Zərdabi Nəşr MMC], 2022, 527, [1] s.

Əliyeva, A. Azərbaycan poeziyasının ağbirçək səsi-Əzizə Cəfərzadə / A. Əliyeva // Türküstan.–2018.– 31 iyul-6 avqust.– S.10.

Fərəcov, S. Ədəbi aləmdə yaşayan və sevilən: Əzizə Cəfərzadə / S.Fərəcov // Azad Azərbaycan.–2019.– 29 dekabr.– S.7.

Rüstəmxanlı, S. Hörmətli alim bacımız Əzizə Cəfərzadə! / Sabir Rüstəmxanlı // Ədəbiyyat qəzeti.– 2020.– 11 yanvar.– S. 13.

Əhmədli, B. Milli tarixin bədii interpretasiyası: Əzizə Cəfərzadə-100 / B. Əhmədli // Ədəbiyyat qəzeti.– 2021.– 11 dekabr.– S.14-15.

Aləmdə səsi olan Əzizə Cəfərzadə / A. Turan // Türküstan.– 2023.– 14-20 noyabr, №41.– S.10.

Əzizə Cəfərzadə nəsri: tarixi gerçəklik və bədii təsvir: [Monoqrafiya] / A. Babazadə; elmi red. və ön söz. müəl. B. Əhmədli; naşir T. İbrahimov.– Bakı: Elm və təhsil, 2024.– 302, [2] s.

Əzizə Məmməd qızı Cəfərzadə 1921-ci il dekabrın 29-da Bakı şəhərində anadan olmuşdur. İbtidai təhsilini 25 saylı məktəbdə almış, daha sonra teatr texniki məktəbində və ikiillik müəllimlər institutunda oxumuşdur. 1946–1947-ci illərdə ekstern yolu ilə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsini bitirmişdir.

Əmək fəaliyyətinə 1942–1944-cü illərdə Ağsu rayonunun Çaparlı kəndində müəllim kimi başlamışdır. 1944–1946-cı illərdə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ssenari şöbəsinin rəisi, 1947–1949-cu illərdə teatr texniki məktəbinin müdiri, 1950–1955-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda dosent və kafedra müdiri, 1956-cı ildə Kamçatka Pedaqoji İnstitutunda dosent vəzifələrində çalışmışdır. 1957–1974-cü illərdə Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda baş elmi işçi və şöbə müdiri olmuş, 1974-cü ildən etibarən Bakı Dövlət Universitetində professor kimi fəaliyyət göstərmişdir.

Əzizə Cəfərzadə XIX əsr Azərbaycan ədəbiyyatı tarixinin tanınmış tədqiqatçılarından biri idi. O, 1950-ci ildə "XIX əsr Azərbaycan ədəbiyyatında maarifçi-ziyalı surətləri", 1970-ci ildə isə "XIX əsr Azərbaycan poeziyasında xalq şeiri üslubu" mövzularında dissertasiyalar müdafiə edərək filologiya elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

Ədəbi fəaliyyətə 16 yaşında başlamış, 1937-ci ildə "Əzrayıl" adlı ilk hekayəsini "Ədəbiyyat" qəzetində dərc etdirmişdir. İlk kitabı 1948-ci ildə çap edilsə də, dövrün ideoloji məhdudiyyətləri səbəbindən yayımı dayandırılmışdır. Yazıçının nəsr yaradıcılığında tarixi roman janrı aparıcı yer tutur. O, müasir Azərbaycan nəsrində bu janrın inkişafına mühüm töhfələr vermişdir. "Aləmdə səsim var mənim", "Vətənə qayıt", "Yad et məni", "Bakı–1501", "Cəlaliyyə", "Ağlayan güləyən Sabir", "Eldən-elə", "Gülüstandan öncə", "Zərrintac–Tahirə", "Bir səsin faciəsi", "İşığa doğru", "Bəla", "Rübabə-sultanım", "Xəzərin göz yaşları", "Eşq sultanı" kimi roman və povestlərində Azərbaycan tarixinin müxtəlif mərhələləri, ictimai-siyasi proseslər və tarixi şəxsiyyətlərin fəaliyyəti bədii ümumiləşdirmə ilə təqdim olunmuşdur. Bununla yanaşı, "Sahibsiz ev", "Əllərini mənə ver", "Sənsən ümidim", "Xəyalım mənim" kimi əsərlərində müasir həyat mövzularına da müraciət etmişdir. Uşaqlar üçün yazdığı "Qızımın hekayələri", "Anamın nağılları", "Çiçəklərim", "Pişik dili" və digər əsərlər də onun yaradıcılığında xüsusi yer tutur.

Əzizə Cəfərzadə eyni zamanda məhsuldar tədqiqatçı alim kimi klassik Azərbaycan ədəbiyyatının və şifahi xalq yaradıcılığının öyrənilməsi sahəsində mühüm elmi işlər görmüşdür. "Fatma xanım Kəminə", "Könül çırpıntıları", "Azərbaycanın aşıq və şair qadınları", "Şirvanın üç şairi", "Mücrüm Kərim Vardani. Sünbülstan", "Abdulla Padarlı. Seçilmiş əsərləri", "Hər budaqdan bir yarpaq" kimi nəşrlər bu sahədəki fəaliyyətinin əsas nəticələridir. Onun elmi və publisistik irsi yüzlərlə məqalə, oçerk və tədqiqat işini əhatə edir.

Yazıçı bir sıra xarici müəlliflərin əsərlərini Azərbaycan dilinə tərcümə etmiş, radio və televiziya üçün ssenarilər yazmış, "Natəvan" adlı kinossenari və çoxsaylı radio-televiziya pyeslərinin müəllifi olmuşdur. "Bayatı düşüncələrim", "Xızır Nəbi", "Novruz" və digər etnoqrafik mövzulu yazıları Azərbaycan mədəniyyətinin tədqiqi baxımından əhəmiyyətlidir. Onun əsərləri rus, fars, tacik, ərəb, qazax və digər dillərə tərcümə olunaraq xarici ölkələrdə nəşr edilmişdir.

1981–1989-cu illərdə Respublika Qadınlar Şurasının sədri vəzifəsində çalışmışdır. Elmi, ədəbi və ictimai fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, "Xalqlar dostluğu" ordeni və müstəqil Azərbaycanın ali mükafatlarından olan "Şöhrət" ordeni ilə təltif edilmişdir. 2001-ci ildə "Azərbaycan anası" və "Xalq yazıçısı" fəxri adlarına layiq görülmüş, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.


Əzizə Məmməd qızı Cəfərzadə 2003-cü il sentyabrın 4-də vəfat etmiş, vəsiyyətinə uyğun olaraq Hacıqabul rayonunun Tağılı kəndində dəfn edilmişdir.

Ədibin 100 illik yubileyi münasibətilə Azərbaycan Milli Kitabxanası tərəfindən 2021-ci ildə "Əzizə Cəfərzadə: Biblioqrafiya" kitabı çap olunmuş, "Əzizə Cəfərzadə – 100" adlı geniş virtual sərgi hazırlanmışdır

Aşıq Pənah – 100

(1926-1978)

Aşıq



Ədəbiyyat:

Əliyeva, X. Aşıq Pənah yaradıcılığı / X.Əliyeva // Musiqi dünyası.– № 1-2.– 2008.– S.142.

Hacımusalı, O. Aşıq Pənah yaradıcılığı / O.Hacımusalı // Xalq Cəbhəsi.– 2012.– 7 dekabr.– S. 14.

Aşıq Pənah 90 illiyində anıldı // 525-ci qəzet.–2016.– 3 dekabr.– S.12.

Səfərova, A. "Dedim günəş doğur, sabahın xeyir..." / A.Səfərova // Xalq Cəbhəsi.– 2019.– 26 yanvar.– S.14.

Ustad nəfəsli saz-söz ərməğanı / Azərb. Aşıqlar Birliyi; hazırl.: M. Qasımlı, M. Allahmanlı; elmi məsl. M. Qasımlı; red.: İ. Məmmədli, A. Məmmədli.– Bakı: [Zərdabi Nəşr], 2020.– 399, [1] s.

Bahadurqızı, Y. Azərbaycan aşıq ənənəsi və Aran Şirvanın görkəmli sənətkarları / Yaqut Bahadurqızı; red. A. S. Xəlilov [ön söz]; Azərb. Resp. Mədəniyyət Nazirliyi, Nizami Gəncəvi ad. Milli Azərb. Ədəbiyyatı Muzeyi. -

Bakı: [Ziya], 2025. - 228, [2] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Aşıq_Pənah

Əlipənah Ələsgər oğlu Pənahov (Aşıq Pənah) 12 dekabr 1926-cı ildə Salyan rayonunda anadan olmuşdur. Gənc yaşlarından şeirə, sənətə və saza böyük maraq göstərmiş, bütün həyatını aşıqlıq sənətinə həsr etmişdir. Aşıqlıq fəaliyyətinə 15 yaşında, 1941-ci ildə başlamış, Salyanda "Kür" aşıqlar ansamblını yaratmışdır.

1941–1947-ci illərdə Salyan Dövlət Dram Teatrında çalışmış, teatrın repertuarında əsas rolların ifaçısı olmuşdur. Məcnun, Kərəm, Qərib, Əsgər və Vaqif obrazlarını səhnədə canlandırmışdır. 1947–1951-ci illərdə Salyan rayon pionerlər evində və mədəniyyət evində musiqi dərnəyinə rəhbərlik etmişdir.

1974-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. Yaradıcılığında əsasən dörd və beşbəndlik gəraylılar və qoşmalar üstünlük təşkil edir. Şeirlərində vətənpərvərlik, əməksevərlik, təbiətə və yurda bağlılıq, yüksək insani keyfiyyətlər ifadə olunur. Gəraylıları arasında "Dilbər", "İnciyər", "Vurulmuşam", "Bizim qızlar", "Ana Kürüm", qoşmaları sırasında isə "Desin", "Uşaqlar", "De danış", "Aşiqin", "Bu yanda dur", "Gördüm" və digər nümunələr yer alır.

Aşıq Pənah iki dastanın ("Sülh", "Pambıqçılar"), 18 aşıq havasının ("Dilbər", "El gözəli", "Ala gözlüm", "Yeddi qardaş", "Səhər nəğməsi", "Azərbaycanım" və s.), həmçinin 128-ə qədər qoşmanın müəllifidir. O, Şirvan aşıq mühitinə məxsus 32 ənənəvi aşıq havasını ustalıqla ifa etmişdir. "Qəhrəman şah Nəcəf", "Əsli və Kərəm", "Aşıq Qərib" kimi dastanları məclislərdə ifa etmişdir.

Onun "Saz və söz" (1963), "Məhəbbətdən danışaq" (1966), "Təzə söz, təzə mahnı" (1971), "Mənim sazım" (1978), eləcə də "Sözlərimi saxla yadda" adlı şeir kitabları nəşr olunmuşdur. Aşıq Pənah mahnı yaradıcılığı ilə də məşğul olmuş, "Nə qəşəng bəzənmisən!" və digər mahnılar bəstələmişdir.

XX əsr aşıq sənətinin görkəmli nümayəndələrindən biri olan Aşıq Pənahın gəraylı və qoşmaları melodik xüsusiyyətləri ilə seçilir. Bu əsərlərdə melodik prinsiplər əsasən Rast, Şur və Segah ladlarına əsaslanır. Onun yaradıcılığında instrumental söz ifaçılığı ilə vokal ifaçılıq prinsipləri üzvi şəkildə vəhdət təşkil edir.

Aşıq Pənah keçmiş SSRİ-nin müxtəlif şəhərlərində, eləcə də Finlandiya, Bolqarıstan, Rumıniya, Polşa, Çexoslovakiya və Hindistan kimi xarici ölkələrdə Azərbaycan mədəniyyətini və aşıq sənətini təbliğ etmişdir. 1959-cu ildə Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və İncəsənəti ongünlüyündə iştirak etmiş və "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur. Azərbaycan mədəniyyətinin inkişafı sahəsindəki xidmətlərinə görə 1967-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.

1962-ci ildə "Böyük dayaq" bədii filmində ifasına yer verilmişdir. 2007-ci ildə Eldar İsgəndərzadənin ssenarisi əsasında Aşıq Pənah haqqında sənədli film çəkilmişdir.


Aşıq Pənah 26 avqust 1978-ci ildə vəfat etmişdir. Salyan şəhərində bir küçə, 1 saylı humanitar lisey və Salyan rayonunun Yenikənd Folklor Evi onun adını daşıyır. Bakı şəhərinin Savalan qəsəbəsində də adına küçə verilmişdir. Salyanda ev-muzeyi fəaliyyət göstərir.

Aşıq Pənah Şirvan aşıqlıq məktəbinin inkişafında və yeni aşıqların yetişdirilməsində mühüm rol oynamış, Azərbaycan aşıq sənətinin XX əsrdə formalaşan aparıcı simalarından biri kimi elmi və mədəni mühitdə tanınmışdır.

Nikolay Tixonov – 130

(1896-1979)

Rus yazıçısı



Nikolay Semyonoviç Tixonov 4 dekabr 1896-cı ildə (bəzi mənbələrdə 22 noyabr tarixi göstərilir) Sankt-Peterburq şəhərində anadan olmuşdur. O, əvvəlcə ibtidai şəhər məktəbində, daha sonra ticarət məktəbində təhsil almışdır. Aztəminatlı ailədən olduğu üçün ailəsinə maddi dəstək məqsədilə 1911-ci ildə təhsilini yarımçıq qoymuş və Baş Dəniz İqtisadiyyat İdarəsində katib vəzifəsində işləməyə başlamışdır.

Nikolay Tixonov 1914–1918-ci illərdə Birinci Dünya müharibəsinin, 1918–1920-ci illərdə Rusiyada Vətən müharibəsinin, 1941–1945-ci illərdə isə İkinci Dünya müharibəsinin iştirakçısı olmuşdur. Bu tarixi proseslər onun dünyagörüşünə və yaradıcılığına mühüm təsir göstərmişdir.

Yazıçının yaradıcılığında sülh ideyaları, Şərq xalqlarının milli azadlıq və istiqlaliyyət uğrunda mübarizəsi, Sovet xalqlarının dostluğunun tərənnümü əsas mövzular sırasında yer tutur. O, "Sami" (1920), "Üz-üzə" (1934) poemalarının, "Leninqrad döyüşü qəbul edir" (1943) adlı oçerkin, "Güruh" və "Braqa" (1922), "Dost ölkəsi" (1936), "İki axın" (1951), "Sülh tərəfdarları ikinci dünya konqresində" (1953) şeir silsilələrinin, həmçinin "Ağ möcüzə" (1956), "Yaşıl zülmət" (1966), "Altı sütun" (1968) və digər hekayə və povest kitablarının müəllifidir. Onun əsərləri keçmiş SSRİ xalqlarının dillərinə, o cümlədən Azərbaycan dilinə və bir sıra xarici dillərə tərcümə edilmişdir.

Nikolay Tixonov Azərbaycan xalqının yaxın dostu kimi tanınmışdır. O, Sankt-Peterburqda yerləşən Ermitaj muzeyində Nizami Gəncəvinin 800 illik yubileyinin keçirilməsinin təşkilatçılarından biri olmuşdur. Dəfələrlə Azərbaycana səfər etmiş, ölkəmiz haqqında bir sıra şeirlər yazmış, Azərbaycan ədəbiyyatı və onun görkəmli nümayəndələri barədə məqalə və xatirələr qələmə almışdır. Azərbaycan xalqını "şair xalq" adlandırmış, Nizami Gəncəvi, Nəsimi, Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Səməd Vurğun və digər klassik və müasir ədiblərin yaradıcılığını yüksək qiymətləndirmişdir. Eyni zamanda Azərbaycan ədəbiyyatından rus dilinə tərcümələr etmişdir.

Nikolay Tixonov görkəmli ictimai xadim kimi də geniş fəaliyyət göstərmişdir. O, Ümumdünya Sülh Şurasının üzvü, Sovet Sülhü Müdafiə Komitəsinin sədri, SSRİ Nazirlər Soveti yanında Ədəbiyyat, İncəsənət və Memarlıq sahəsində Lenin və SSRİ Dövlət mükafatları komitəsinin sədri, SSRİ Ali Sovetinin II–IX çağırış deputatı, SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi olmuşdur.

Müxtəlif illərdə üç dəfə Lenin ordeni ilə təltif edilmiş, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş, SSRİ və beynəlxalq mükafatların laureatı olmuşdur. 1974-cü ildə ona Azərbaycan SSR-in "Xalq şairi" fəxri adı verilmişdir.

Nikolay Semyonoviç Tixonov 8 fevral 1979-cu ildə Moskva şəhərində vəfat etmiş və Novodeviçye qəbiristanlığında dəfn olunmuşdur.

2024-cü il 5 iyun tarixində filologiya elmləri doktoru, professor Kamran Kazımov tərəfindən "N. S. Tixonovun yaradıcılığında Şərq və Azərbaycan mövzusunun təşəkkülü" adlı monoqrafiya nəşr edilmişdir. Bu tədqiqat Nikolay Tixonovun yaradıcılığında Şərq və Azərbaycan mövzusunun elmi baxımdan araşdırılmasına həsr olunmuşdur.

Ədəbiyyat:

Altı sütun: [hekayələr] / N. S. Tixonov; [tərc. ed. S. Almazov; red. S. Məmmədova].– Bakı: Gənclik, 1981.– 180, [4] s.

XX əsr rus ədəbiyyatında Şərq problemi: N. S. Tixonovun yaradıcılığı əsasında: [monoqrafiya] / K. Ş. Kazımov; elmi məsl. S. Q. Əsədullayev; elmi red. M. Ə. Məmmədov; Azərb. Resp. Təhsil Nazirliyi, Lənkəran Dövlət Un-ti.– Bakı: [Təhsil], 2013.– 237, [1] s.

Nikolay Semyonoviç Tixonov və Şərq: Filologiya elmləri d-ru e. dər. al. üçün təq. ed. dis.: 5716.01; 5718.01 / K. Ş. Kazımov.– Bakı: 2021.– 260 s.

Şəhid ruhunun işığı…: Şəhid atası yeni monoqrafiyasını müəlliminin və oğlunun xatirəsinə həsr etdi... / E.İsmayılova // Kredo.– 2024.– 4 iyul, (№ 41-42).– S.15.

İnternetdə:

https://www.edebiyyatveincesenet.az/edebiyyat/item/1214-bu-zhun-zhoerkaemli-rus-yaz-ch-s-azaerbaydzan-sevdal-s-nikolay-tikhonovun-125-illiyidir

Nikolay Karamzin – 260

(1766-1826)

Rus yazıçısı



Nikolay Mixayloviç Karamzin 1766-cı il dekabrın 12-də Rusiya imperiyasının Simbirsk quberniyasında mülkədar ailəsində anadan olmuşdur. O, Simbirskdə mülkədar məktəbində, daha sonra isə Moskvada professor Şadenin şəxsi məktəbində təhsil almış və təhsilini Moskva Universitetində davam etdirmişdir.

Mükəmməl təhsil aldıqdan sonra 1781–1784-cü illərdə hərbi xidmətdə olmuşdur.

Daha sonra Moskvaya köçmüş, burada rus naşiri, ictimai xadimi və jurnalisti Nikolay Novikovla tanış olmuş, məşhur zadəgan ailəsi Pleşeyevlərlə əlaqə qurmuşdur. Bu dövrdə ilk tərcümələrini etmiş, yaradıcılıq nümunələrində Avropa və rus tarixinə olan marağı diqqət çəkmişdir. Moskvada "Ürək və ağıl üçün uşaq mətnləri" uşaq jurnalının redaktoru və naşiri olmuşdur.

Bir müddət sonra Avropaya səfər etmiş, Almaniya, İsveçrə, Fransa və İngiltərənin bir çox şəhərlərində olmuşdur. Bu ölkələrdə böyük fikir sahibləri – Kant, Herder və başqaları ilə görüşlər keçirmişdir.

Moskvaya qayıdan Karamzin "Moskovski jurnal"ının nəşrinə icazə almış, jurnalda "Bədbəxt Liza" povesti və "Rus səyyahının məktubu" əsərlərini dərc etdirmişdir.

Karamzin 1800-cü illərin əvvəllərindən tarixi mənbələr əsasında Rusiya ilə bağlı yazılmış əsər və əlyazmalarla maraqlanmışdır. Onun tarixə və qədim dövr hadisələrinə münasibəti 1802–1803-cü illərdə redaktoru olduğu "Vestnik Yevropı" jurnalında əks olunmuşdur. Bu jurnal Rusiyada ilk ictimai-siyasi, ədəbi-bədii nəşr olmuşdur.

1803-cü ildə Karamzin Rusiyanın tarixini yazmaq üçün çar I Aleksandrın razılığını almış, 2000 rubl məvacibi olan mənbəşünas vəzifəsinə təyin edilmiş və arxivlərə, kitabxanalara çıxış imkanına malik olmuşdur. O, bu tarixi missiyanı 23 il, ömrünün sonuna qədər davam etdirmişdir. Karamzinin 12 cildlik "Rusiya dövlətinin tarixi" əsəri sonrakı dövrlərdə Rusiyada tarix elminin inkişafına əsaslı təsir göstərmişdir. Bu əsər sadə və maraqlı təhkiyə forması ilə oxucunu cəlb etmiş, o dövrdə kütləvi oxunan əsərlərdən olmuşdur.

Karamzin "Bədbəxt Liza" povesti, "Rus səyyahının məktubları", 12 cildlik "Rusiyanın Dövlət Tarixi", müxtəlif şeirlər və esselər, həmçinin "Vestnik Yevropı" jurnalında dərc olunmuş elmi və ədəbi məqalələr nəşr etdirmişdir. Onun yaradıcılığı həm ədəbiyyat, həm də tarix sahəsində dərin təsir göstərmişdir. Karamzin əvvəlki tarixçilərin rəylərini qiymətləndirərək rus xalqının tarixini hərtərəfli şəkildə təqdim etmişdir. Onun əsərləri Rusiyanın siyasi, mədəni və sosial həyatını əks etdirir və tarixi mənbələrin tədqiqi və istifadəsi baxımından elmi dəyər daşıyır.

Karamzin 1826-cı il mayın 22-də Sankt-Peterburqda, 59 yaşında, vəfat etmişdir. O, Rusiyada tarixçilik, ədəbiyyat və jurnalistika sahələrində əvəzsiz irs qoymuş, həm müasirləri, həm də gələcək nəsillər üçün örnək olmuşdur. Onun "Rusiyanın Dövlət Tarixi" əsəri Puşkin tərəfindən yüksək qiymətləndirilmiş və qədim Rusiyanın kəşfi kimi dəyərləndirilmişdir.

Ədəbiyyat:

Николай Михайлович Карамзин / сочинение А. Старческого.– Карла Крайя, 1849.– 280 с.

Протяжение точки: литературные путешествия: Карамзин и Пушкин / А. Н. Балдин; [отв. ред. Л. Михайлова; оформ. А. Балдин].– Москва: Эксмо, 2009.– 574, [2] с.

Qədim tarixin sentimental təhkiyəçisi / S.Fərəcov // Mədəniyyət.– 2016.– 9 dekabr.– S. 15.

İnternetdə:


https://tr.wikipedia.org/wiki/Nikolay_Karamzin

https://www.anl.az/down/meqale/medeniyyet/2016/dekabr/518517.htm

Mikayıl Abdullayev – 105

(1921-2002)

Rəssam



Ədəbiyyat:

Mikayıl Abdullayev (Mikayıl Hüseyn oğlu Abdullayev): Biblioqrafiya / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. M. Cəfərova; elmi red. K. Tahirov; red. L. Miryaqubova; ön söz. müəl. T. Əfəndiyev. - Bakı: [Zərdabi Nəşr MMC], 2022. - 407, [1] s.

Görkəmli bəstəkar Üzeyir Hacıbəyli Mikayıl Abdullayev tablolarında / Q.Məhəbbətoğlu // İki sahil.– 2025.– 19 iyul (№124).– S.8.

Bayramova, Y. Rənglər dünyasının əbədi sakini...: Mikayıl Abdullayev fırçası ilə möcüzələr yaradıb / Yeganə Bayramova // Yeni Azərbaycan.-2025.- 19 dekabr (№232).- S.8.

Xalqını tərənnüm edən sənətkar...: Mikayıl Abdullayevin anım günüdür / Y. Bayramova // Yeni Azərbaycan.– 2024.– 22 avqust, №151.– S.8.

İnternetdə:

https://www.anl.az/down/meqale/525/2016/dekabr/520969.htm

https://www.anl.az/down/meqale/525/2016/dekabr/520969.htm

Mikayıl Hüseyn oğlu Abdullayev 19 dekabr 1921-ci ildə Bakı şəhərində ziyalı ailəsində doğulmuş, 1939-cu ildə Ə.Əzimzadə adına Rəssamlıq Məktəbini, 1949-cu ildə isə V.İ. Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunu bitirmişdir. Surikov institutunda S. Gerasimovun emalatxanasında rəssamlıq sənətinin incəliklərini öyrənmişdir.

Rəssam yaradıcılığı boyu Azərbaycan vətəninin gözəlliklərindən ilham almış, milli mənəvi dəyərləri və təbiəti əsərlərində əks etdirmişdir. Mikayıl Abdullayev 1955-ci ildə Azərbaycan SSR Əməkdar İncəsənət Xadimi, 1960-cı ildə Azərbaycan SSR Xalq rəssamı, 1963-cü ildə SSRİ Xalq rəssamı fəxri adlarına layiq görülmüş, həmçinin beynəlxalq C.Nehru mükafatına (1969) və Azərbaycan SSR Dövlət mükafatına (1974) sahib olmuşdur. O, SSRİ Xalq rəssamı fəxri adına layiq görülmüş ilk Azərbaycan rəssamıdır.

Mikayıl Abdullayev müxtəlif illərdə Hindistan, Əfqanıstan, Macarıstan, Polşa, İtaliya və digər ölkələrdə yaradıcı ezamiyyətlərdə olmuş, təəssüratlarını əsərlərində ifadə etmişdir. Onun əsərləri dünyanın bir çox şəhərlərində keçirilən sərgilərdə nümayiş olunmuş, fərdi sərgiləri Berlin, Leypsiq, Dehli, London, Monreal və Moskva şəhərlərində təşkil edilmişdir. Rəssamın əsərləri dünyanın müxtəlif muzey və qalereyalarında, şəxsi kolleksiyalarda saxlanılır.

Mikayıl Abdullayev təsviri sənətin bir çox sahələrində fəaliyyət göstərmişdir: dəzgah rəngkarlığı, qrafika, teatr dekorasiyası, monumental rəngkarlıq və s. Rəssamın yaradıcılığında Azərbaycanın kənd həyatı, əmək, milli adət-ənənələr, qadın və uşaqların obrazları geniş şəkildə işlənmişdir.

M.Abdullayevin erkən yaradıcılığına aid əsərlər arasında "Üzeyir Hacıbəylinin portreti" (1943) və "Axşam" (1947) tabloları xüsusi yer tutur. Bu əsərlərdə rəssam işıq-kölgə təsvirini ustalıqla tətbiq etmiş, obrazların daxili psixoloji dünyasını əks etdirmişdir. Rəssamın "Mingəçevir silsiləsi"ndə yer alan "Mingəçevir işıqları" (1948), "Beşilliyin yolları ilə" (1949), "Səadət quranlar" (1951), "Rəfiqələr" (1952–53), "Kürün sahillərində" (1954) əsərləri o dövr Azərbaycan həyatının müxtəlif tərəflərini sənətkar baxışı ilə təqdim edir. "Səadət quranlar" əsərində əmək mövzusunun romantikası və insanların yaratmaq əzmi ifadə edilmişdir.

Rəssamın portret yaradıcılığı geniş diapazonlu olmuşdur. Onun əsərlərində M.P.Vaqif, Aşıq Ələsgər, M.F.Axundov, İmadəddin Nəsimi, Yüz yaşlı şəbəkə ustası Ə.Babayev, Şair Rəsul Rza, Akademik Yusif Məmmədəliyev və Əbu Əli ibn Sina kimi şəxsiyyətlərin portretləri daxildir.

Rəssamın qrafika fəaliyyətində Azərbaycan ədəbiyyatı və şifahi xalq ədəbiyyatı əsərlərinə illüstrasiyalar əhəmiyyətli yer tutur. O, "Kitabi-Dədə Qorqud", M.Füzulinin "Leyli və Məcnun", M.İbrahimovun "Gələcək gün", S.Rəhimovun "Şamo", B.Vahabzadənin "Şəbu Hicran" və digər əsərlərə bədii tərtibat vermişdir. Mikayıl Abdullayev Şərq və Qərb incəsənətinin ənənələrini birləşdirərək özünəməxsus "Yeni miniatür üslubu"nu yaratmışdır.

Rəssam həmçinin bir neçə teatr tamaşasına bədii tərtibat vermişdir. Bunlar arasında Ü.Hacıbəylinin "Leyli və Məcnun", "Koroğlu" operaları və Niyazinin "Çitra" baleti yer alır. Monumental rəngkarlıq sahəsində də Mikayıl Abdullayevin əsərləri əhəmiyyətlidir; xüsusilə Nizami Gəncəvinin "Xəmsə"si əsasında yaradılan kompozisiyalar Azərbaycan incəsənətinə töhfə vermişdir.

Mikayıl Abdullayevin əsərləri milli və beynəlxalq səviyyədə qiymətləndirilmişdir. O, müxtəlif dövrlərdə Lenin ordeni, "Oktyabr inqilabı" ordeni, "Xalqlar Dostluğu" ordeni və "İstiqlal" ordeni ilə təltif olunmuş, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünü almışdır.

Mikayıl Abdullayev 2002-ci il avqust ayının 21-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur. Bakı şəhərində yaşadığı evin divarına xatirə lövhəsi vurulmuşdur. 2014-cü il mart ayının 3-də "Xalq Bank"ın layihəsi çərçivəsində rəssamın əsərlərindən ibarət kitab təqdim olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli rəssam Mikayıl Abdullayevin 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncamı 10 sentyabr 2021-ci il tarixində imzalamışdır

2021-ci ildə Azərbaycan Milli Kitabxanasında onun 100 illik yubileyinə həsr olunmuş ənənəvi kitab sərgisi təşkil edilmişdir. Xüsusilə, Azərbaycan Milli Kitabxanasında 2022-ci il avqust ayının 18-də "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Mikayıl Abdullayev" biblioqrafiyası çap olunmuşdur.

Səyyad Bayramov – 70

(1956)

Rəssam



Ədəbiyyat:

Kino rəssamlığının tarixi və müasir mənzərəsi: [Azərbaycan kino rəssamları] / Səyyad Bayramov red. R. Quliyev; [naşir E. Abbasova]; Azərb. Kinematoqrafçılar İttifaqı, AMEA, Memarlıq və İncəsənət İn-tu. - Bakı: [Füyuzat], 2025. - 402, [2] s

Tanınmış sənətkar Səyyad Bayramov / B.Qurbanov // Filologiya və sənətşünaslıq / Azərbaycan Milli Elmlər Akademiyası.– 2019.– №1.– S.220-221.

Azərbaycan kino sənətində xalça / Səyyad Bayramov // Azərbaycan xalça sənətinin qorunması və inkişafı: Respublika elmi-praktiki konfransının materialları (6 noyabr 2019-cu il) / AMEA, Memarlıq və İncəsənət İnstitutu.–2020.– S. 78-86.

Filmdə rəssam işi - Mayis Ağabəyovun yaradıcılığı / S.Bayramov // Filologiya və sənətşünaslıq / Azərbaycan Milli Elmlər Akademiyası.– 2022.– №2.– S. 298-303.

İnternetdə:

https://www.facebook.com/100069717540840/posts/261493088892070

Səyyad İbrahim oğlu Bayramov 19 dekabr 1956-cı ildə Gədəbəy rayonunun Soyuqbulaq kəndində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra peşəkar rəssamlıq təhsili almaq məqsədilə 1972-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə daxil olmuş, 1976-cı ildə həmin təhsil müəssisəsini bitirmişdir. İxtisas hazırlığını dərinləşdirmək məqsədilə 1976–1978-ci illərdə Tbilisi Rəssamlıq Akademiyasında təhsil almış, 1978–1983-cü illərdə isə Moskva şəhərində Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda ali təhsilini davam etdirmişdir.

1983-cü ildən etibarən Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında peşəkar fəaliyyətə başlamışdır. Bu dövrdə "Nar ağacı haqqında xatirə", "Tənha narın nağılı", "Qoca palıdın nağılı", "Xüsusi vəziyyət" bədii filmlərində quruluşçu rəssam kimi çalışmış, "Dədə Qorqud" dastanının "Salur Qazanın evinin yağmalanması" boyu əsasında çəkilmiş diafilmin quruluşçu rəssamı olmuşdur. Eyni zamanda bir sıra teatr tamaşalarının bədii tərtibatını vermiş, çoxsaylı sənədli filmlərdə rejissor və operator kimi fəaliyyət göstərmişdir. "Azərbaycanfilm" kinostudiyasında ali dərəcəli quruluşçu rəssam vəzifəsində çalışmışdır.

Elmi fəaliyyətini davam etdirmək məqsədilə 1988-ci ildə Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun aspiranturasına daxil olmuş, 1992-ci ildə aspiranturanı bitirmişdir. 1996-cı ildən Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda aparıcı elmi işçi kimi fəaliyyət göstərmiş, paralel olaraq Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Kinorejissor və təsvir rejissoru" kafedrasında müəllim vəzifəsində çalışmışdır.

Səyyad Bayramov pedaqoji və elmi fəaliyyəti dövründə "Teatral dekor sənəti", "Rejissorun rəssamla işi", "Səhnəqrafiya", "Səhnə dekorasiyasının həcmdə layihələşdirilməsi", "Bədii tərtibat" fənləri üzrə dərs demiş, magistrantlara və dissertantlara elmi rəhbərlik etmişdir. O, eyni zamanda "Sənətşünaslıq" kafedrasının müdiri, AMEA Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi və dosenti olmuşdur.

Səyyad Bayramov sənətşünaslıq elmləri namizədidir. Onun elmi fəaliyyəti əsasən təsviri sənət ilə kino sənəti arasındakı qarşılıqlı əlaqələrin tədqiqinə yönəlmişdir. Tədqiqatlarında filmdə təsviri sənətin plastik və estetik funksiyası, dekorasiya sənətinin rolu, Azərbaycan kinosunda miniatür sənətinin tətbiqi, incəsənətin sintezi və rejissor-rəssam əməkdaşlığı kimi problemlər araşdırılır. Google Scholar profilində 28 elmi nəşri qeydə alınmışdır. Onun məqalələri müxtəlif elmi jurnallarda, beynəlxalq və yerli konfrans materiallarında dərc edilmişdir.

Səyyad Bayramov beynəlxalq, respublika və ümumittifaq səviyyəli konfrans və simpoziumların iştirakçısı olmuş, 47 yerli və beynəlxalq sərgidə təmsil edilmişdir. O, Azərbaycan Vətən Müharibəsi veteranıdır. Keçmiş SSRİ Rəssamlar İttifaqının, Azərbaycan Rəssamlar İttifaqının, Azərbaycan Kinematoqrafçılar İttifaqının və Azərbaycan Professional Kinorejissorlar Gildiyasının üzvüdür.

2025-ci il oktyabrın 15-də Azərbaycan Kinematoqrafiyaçılar İttifaqı və Azərbaycan Rəssamlar İttifaqının maliyyə dəstəyi ilə "Kino rəssamlığının tarixi və müasir mənzərəsi" adlı kitabı nəşr olunmuşdur. Səyyad Bayramov AMEA Memarlıq və İncəsənət İnstitutunda təsviri, dekorativ-tətbiqi sənətlər və heraldika istiqamətləri üzrə elmi-tədqiqat fəaliyyətini davam etdirir.

Azər Dadaşov – 80

(1946)

Bəstəkar



Ədəbiyyat:

Azər Dadaşovun "Atmacalar" fortepiano silsiləsində miniatür janrın təcəssümü / İ.X.Xankişiyeva // Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri.– 2019.– №2(7).– S.85-91.

Azər Dadaşov / N. Dadaşova; red. Z. Qafarova; buraxıl. məsul Ə. Əsədzadə; Azərb. Bəstəkarlar İttifaqı.– Bakı: Renessans-A, 2020.– 30, [2] s.

15 saylı simfoniya "Şuşa" / A. Dadaşov.– [Bakı]: [n. y.], 2021.– 136 s.

Azər Dadaşovun 75 illiyinə daha bir sənət töhfəsi / A.İbrahimova // Mədəniyyət.– 2022.– 19 yanvar.– S.6.

Azər Dadaşovun Ulu öndər Heydər Əliyevə həsr etdiyi əsərlər səslənib / F.Nəsirova // Mədəniyyət.– 2023.– 23 iyun.– S.5.

Xankişiyeva, İ. Xalq artisti Azər Dadaşovun fortepiano musiqisinin üslub xüsusiyyətləri: Sənətşünaslıq [üzrə] fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı : 6213.01 / İlhamə Xankişiyeva. - Bakı: 2023. - 25, [1] s

İnternetdə:

https://az.wikipedia.org/wiki/Azər_Dadaşov

https://az.baku-art.com/az/bu-gun-azerbaycan-res

Azər İsmayıl oğlu Dadaşov 1 dekabr 1946-cı ildə Bakı şəhərində anadan olmuşdur. İlk musiqi təhsilini Bülbül adına Orta İxtisas Musiqi Məktəbində almış, daha sonra A. Zeynallı adına Musiqi Texnikumunda alət sinfi üzrə təhsilini davam etdirmişdir. 1971-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının (indiki Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası) bəstəkarlıq fakültəsini Qara Qarayevin sinfi üzrə bitirmişdir.

Bəstəkarın yaradıcılıq diapazonu son dərəcə genişdir və simfonik, vokal-simfonik, kamera-instrumental, musiqili-səhnə və kino musiqisi janrlarını əhatə edir. Onun irsinə 14 simfoniya, 20-dən artıq kantata və oda, "Kiçik Mukun sərgüzəştləri" uşaq operası, "Şərq freskası" balet miniatürü, "Finnə" baleti, fortepiano üçün üç konsert, fleyta və viola üçün konsertlər, müxtəlif orkestr tərkibləri üçün süitalar, çoxsaylı kamera və xor əsərləri, eləcə də 20-dən artıq kinofilm üçün yazılmış musiqilər daxildir. Azər Dadaşov həmçinin Milli Paralimpiya Himninin müəllifidir.

Bəstəkarın yaradıcılığında simfonik musiqi aparıcı yer tutur. Onun simfonik irsi böyük simfonik orkestr üçün yazılmış I simfoniya (1971), II simfoniya (1977), IV simfoniya – "Faciəvi" (1981), V simfoniya (1982), VI simfoniya – "Azərbaycan" (1983), VII simfoniya (1984), VIII simfoniya (1987), IX simfoniya – "20 Yanvar" (1990), X simfoniya – "Katarsis" (1996), XI simfoniya – "Reminissensiya" (2012), XII simfoniya – "Dəstgah" (2014), XIII simfoniya – "Ad Victoriam…" (2018) və XIV simfoniya – "Angels Day" (2019) ilə təmsil olunur.

Azər Dadaşovun simfonik yaradıcılığı "Üzeyirsayağı", "Pastoral süita", "Elegik musiqi", "Divertisment", "Qələbə sevinci", "Xocalıya ədalət" kimi proqramlı orkestr əsərləri ilə tamamlanır. Bu kompozisiyalar obrazlı məzmunu, tembr rəngarəngliyi və orkestr fakturasının zənginliyi ilə səciyyələnir.

Bəstəkarın vokal-simfonik irsi janr və mövzu baxımından olduqca genişdir. "Sumqayıt" kantatası, "Əbədi məşəl" odası, "Zəhmət himni", "Azərbaycan" kantatası, "Ellər bayramı", "Sülh nəğməsi", "Səhərə inan", "Ave, Maria" ariyası, "Dostumun xatirəsinə" rekviyem-poeması, Füzulinin 500 illiyinə həsr olunmuş "Heyrət" kantata-plakatı, "Ana Yurd" kantata-apofeozu, "Bu Vətən ölə bilməz" kantata-andı, "Ulu Qorqud" odası, "Bir millət, iki dövlət", "Atamız" və "Vətənim var" kimi əsərlər Azərbaycan vokal-simfonik musiqisinin mühüm nümunələri sırasında xüsusi yer tutur.

Kamera-instrumental yaradıcılığı "Luqubre və Skertso", "Adajietto və Skersino", "Kiçik konsert", "Major və minor" diptixi, "Lütf", "Daimi işıq", "Nalə", "Şuşam" və "Xatirələr" əsərləri ilə təmsil olunur. Fortepiano yaradıcılığında "Sonatinalar", "Üç badam, bir qoz" süitası, "Atmacalar", "Fəza təranəsi", "12 lirik pyes" və fortepiano ilə orkestr üçün yazılmış üç konsert həm pedaqoji, həm də konsert repertuarında geniş tətbiq olunur.

Azər Dadaşovun kino və teatr musiqisi "Şahid qız", "Yuxu", "Özgə vaxt" filmləri və "Yanmış evin nağılı" dram tamaşası üçün yazdığı əsərlərlə səciyyələnir.

Bəstəkarın əsərləri 1968-ci ildən etibarən Azərbaycan Bəstəkarlar İttifaqının qurultay və plenumlarında səsləndirilmiş, Niyazi, Rauf Abdullayev, Nazim Rzayev, Ramiz Məlikaslanov, Yalçın Adıgözəlov, Teymur Göyçayev, Fəxrəddin Kərimov, eləcə də Dmitri Kitaenko, Rolf Matsov, Revaz Şilakadze və Vladimir Runçak kimi dirijorlar tərəfindən ifa olunmuşdur. Onun musiqisi Fransa, ABŞ, İngiltərə, Finlandiya, Türkiyə, İran və Rusiya daxil olmaqla bir sıra ölkələrdə təqdim edilmişdir.

Azər Dadaşov 1973-cü ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür, 2007-ci ildən İttifaqın İdarə Heyətinin üzvü və Simfonik bölmənin sədridir. O, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professorudur və uzun illərdir pedaqoji fəaliyyət göstərir. Onun əsərləri musiqi təhsili müəssisələrinin tədris proqramlarına daxil edilmişdir. 2009–2010, 2013, 2016 və 2019-cu illərdə Azərbaycan Bəstəkarlar İttifaqının təşəbbüsü ilə gənc pianoçular arasında Azər Dadaşovun fortepiano yaradıcılığına həsr olunmuş respublika və beynəlxalq müsabiqələr keçirilmişdir.

Bəstəkar "Əməkdar incəsənət xadimi" (2005) və "Azərbaycan Respublikasının Xalq artisti" (2018) fəxri adlarına layiq görülmüş, "Humay" milli mükafatının laureatı olmuşdur. O, Roma Papası II İoann Pavelin xüsusi medalı və MDB Parlamentlərarası Assambleyasının "Mədəniyyət və incəsənətin inkişafındakı xidmətlərinə görə" Fəxri nişanı ilə təltif edilmişdir.

Yaşar Xəlilov – 70

(1956)

Bəstəkar



Ədəbiyyat:

Yaşar Xəlilov / Yeganə Əsədova; red. Z. Qafarova; [baş red. S. Bektaşi; burax. məsul S. İsmayılova; dizayner K. Məhdəvi]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.– Bakı: Şərq-Qərb, 2015.– 31, [1] s.

Naxçıvan tərənələri: səs ilə fortepiano üçün Naxçıvan Muxtar Respublikasının şairlərinin sözlərinə yazılmış mahnılar və romanslar / T. Ə. Bakıxanov; red.: Y. Xəlilov, G. Məmmədova; [ön söz əvəzi İ. Mirzəbəyli]; Ü. Hacıbəyli adına Bakı Musiqi Akad., Azərb. Bəstəkarlar İttifaqı.– Bakı: Mütərcim, 2018.– 59, [1] s.

Xoş ovqatlı mahnılar / T. Bakıxanov; red.: Y. Xəlilov, G. Məmmədova; [ön söz İ. Mirzəbəyli].– Naxçıvan, 2019.– 40, [4] s.

"Xoş ovqatlı mahnılar" Naxçıvanda işıq üzü gördü / N.İsmayıllı // Xalq qəzeti.– 2019.– 30 iyun.– S.7.

İnternetdə:

https://ndu.edu.az/yasarxelilov

http://web2.anl.az:81/read/page.php?bibid=476893&pno=15

Yaşar Südeyf oğlu Xəlilov 5 dekabr 1956-cı ildə Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində anadan olmuşdur. Uşaqlıq illərindən musiqiyə maraq göstərmiş, ilk musiqi təhsilini Ordubad uşaq musiqi məktəbində tar ixtisası üzrə almışdır. 1976-cı ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbini tar ixtisası üzrə bitirmiş, 1981-ci ildə isə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) bəstəkarlıq fakültəsini professor Qara Qarayevin sinfi üzrə başa vurmuşdur. 1983-cü ildə hərbi xidmətə çağırılmışdır.

Yaşar Xəlilovun əmək fəaliyyəti 1981-ci ildən Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Nehrəm kənd uşaq musiqi məktəbində müəllim kimi başlamışdır. Sonrakı illərdə o, Bakı şəhərinin Suraxanı rayon Mədəniyyət Evində dirijor və konsertmeyster, Naxçıvan Orta İxtisas Musiqi Məktəbində müəllim, eləcə də müxtəlif musiqi təhsil müəssisələrində metodist və pedaqoq kimi fəaliyyət göstərmişdir. 2016-cı ildən Azərbaycan Bəstəkarlar İttifaqının Naxçıvan təşkilatının sədri vəzifəsində fəaliyyət göstərir.

Bəstəkarın yaradıcılıq irsi janr baxımından geniş və çoxşaxəlidir. Onun musiqi irsinə "İblis" operası, "Əshabi-Kəhf" baleti, "Əcəmi" simfoniettası, "Naxçıvana gəl!" kantatası, eləcə də tar və orkestr üçün I saylı Konsert, tar və simfonik orkestr üçün II saylı Konsert, fortepiano və simfonik orkestr üçün b-moll Konsert daxildir. Bundan əlavə, bəstəkar xalq çalğı alətləri orkestri, simfonik orkestr, kamera orkestri və xor üçün müxtəlif əsərlər, kamera-instrumental kompozisiyalar, mahnı və romanslar bəstələmişdir.

Yaşar Xəlilovun yaradıcılığında fortepiano musiqisi mühüm yer tutur. Bu sahədə onun "Mizan" – fortepiano üçün 24 prelüd və fuqa silsiləsi polifonik düşüncə, struktur bütövlüyü və milli intonasiya xüsusiyyətlərinin sintezi baxımından səciyyəvidir. 2025-ci il may ayının 2-də Azərbaycan Bəstəkarlar İttifaqında həmin silsilənin rəsmi təqdimatı keçirilmiş, əsər müasir Azərbaycan fortepiano musiqisinin əhəmiyyətli nümunələrindən biri kimi qiymətləndirilmişdir.

Yaşar Xəlilovun pedaqoji fəaliyyəti yaradıcılıq fəaliyyəti ilə paralel inkişaf etmişdir. O, Naxçıvan Dövlət Universitetində və Naxçıvan Musiqi Kollecində pedaqoji fəaliyyət göstərmiş, bir çox gənc musiqiçilərin peşəkar formalaşmasında mühüm rol oynamışdır.

Bəstəkar 1985-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür.

Yaradıcılıq və ictimai fəaliyyətinə görə Yaşar Xəlilov 2008-ci ildə Naxçıvan Muxtar Respublikasının "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüş, 2013-cü ildə Prezident mükafatçısı olmuşdur.

Yaşar Xəlilovun yaradıcılığı Azərbaycan bəstəkarlıq məktəbinin regional inkişafı kontekstində mühüm əhəmiyyət kəsb edir və onun əsərləri Naxçıvan musiqi mühitinin formalaşması və inkişafında xüsusi yer tutur.

Tamilla Şirəliyeva – 80

(1946-2025) *Balerina*



Tamilla Xudadat qızı Şirəliyeva 8 dekabr 1946-cı ildə Bakı şəhərində anadan olmuşdur. 1964-cü ildə Bakı Xoreoqrafiya Məktəbini görkəmli balet ustası Qəmər Almaszadənin sinfi üzrə bitirmişdir. Həmin ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında solist kimi fəaliyyətə başlamışdır. 1968-ci ildə Moskva Xoreoqrafiya Məktəbində birillik təkmilləşmə kursu keçmişdir.

Tamilla Şirəliyevanın səhnə fəaliyyəti Azərbaycan balet sənətinin inkişafında mühüm yer tutur. O, klassik və milli balet repertuarının aparıcı partiyalarını ifa etmişdir. Onun səhnə obrazları sırasında Qaraca qız ("Qaraca qız", Əşrəf Abbasov), Gülyanaq ("Qız qalası", Əfrasiyab Bədəlbəyli), Məhmənə banu ("Məhəbbət əfsanəsi", Arif Məlikov), Aişə və Fuyetta ("Yeddi gözəl" və "İldırımlı yollarla", Qara Qarayev), Şəhrizad ("1001 gecə", Fikrət Əmirov), Qız ("Muğam", Nazim Əliverdibəyov), Çitra ("Çitra", Niyazi), Paxita və Kitra ("Paxita" və "Don Kixot", Lüdviq Minkus), Maşa, Odetta-Odiliya, Şahzadə Florina ("Şelkunçik", "Qu gölü" və "Yatmış gözəl", Pyotr Çaykovski), eləcə də Birinci solist ("Klassik simfoniya", Sergey Prokofyev) rolları yer alır.

Tamilla Şirəliyeva ifaçılıq fəaliyyəti ilə yanaşı, baletmeyster kimi də çıxış etmişdir. O, Qara Qarayevin "Leyli və Məcnun" və "Don Kixot", Tofiq Bakıxanovun "Xəzər balladası", Aqşin Əlizadənin "Qafqaza səyahət" baletlərinə quruluş vermişdir.

1978-ci ildən Bakı Xoreoqrafiya Məktəbində pedaqoji fəaliyyət göstərmiş, sonrakı dövrlərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin xoreoqrafiya incəsənəti kafedrasında dərs demişdir. 1998-ci ildən həmin kafedranın dosenti olmuşdur. Onun pedaqoji fəaliyyəti Azərbaycan xoreoqrafiya məktəbinin peşəkar kadr potensialının formalaşmasında əhəmiyyətli rol oynamışdır.

Tamilla Şirəliyeva "1001 gecə" baletində Şəhrizad obrazının ifasına görə 1980-ci ildə SSRİ Dövlət Mükafatına layiq görülmüşdür. O, 21 may 1970-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 10 yanvar 1978-ci ildə isə Xalq artisti fəxri adları ilə təltif olunmuşdur. 11 iyun 2002-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüş, 2006-cı ildə isə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Tamilla Xudadat qızı Şirəliyeva 12 mart 2025-ci ildə vəfat etmişdir.

Onun çoxillik yaradıcılıq və pedaqoji fəaliyyəti Azərbaycan balet sənətinin tarixində mühüm mərhələ təşkil edir və milli xoreoqrafiya mədəniyyətinin inkişafında əhəmiyyətli iz qoymuşdur.

Ədəbiyyat:

Xalq artisti Tamilla Şirəliyevanın yubileyi qeyd olunmuşdur // Azərbaycan.– 2006.– 9 dekabr.– S.6.

Nadir peşə sahiblərinin hamisi / T. Şirəliyeva // 525-ci qəzet.– 2019.– 5 fevral.– S.7.

BXA-da görkəmli balet ustası Tamilla Şirəliyevaya həsr olunmuş tədbir // Mədəniyyət.– 2022.– 14 dekabr.– S.6.


"Baletdə qurbansız, fədakarlıq etmədən uğur qazanmaq mümkün deyil": Əfsanəvi balerina Tamilla Şirəliyeva müsahibimizdir / T. Şirəliyeva; müsahibəni apardı Gülcahan Mirməmməd // Mədəniyyət.– 2023.– 8 dekabr (№91).– S.7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Tamilla_Şirəliyeva

Vladimir Pletnyov – 80

(1946-1988) Baletmeyster, xoreoqraf



Vladimir Nikolayeviç Pletnyov 8 dekabr 1946-cı ildə Göyçay şəhərində anadan olmuşdur. 1953–1961-ci illərdə Həzi Aslanov adına Zabitlər Evində fəaliyyət göstərən rəqs dərnəyində məşğul olmuş, burada balet tamaşalarında kiçik partiyalar ifa etmişdir. Dərnək müəllimlərinin tövsiyəsi ilə 1957-ci ildə Bakı Xoreoqrafiya Məktəbinə daxil olmuş və bu təhsil müəssisəsini 1966-cı ildə bitirmişdir.

Xoreoqrafiya məktəbində təhsil aldığı dövrdə, üçüncü sinifdə oxuyarkən Pyotr Çaykovskinin "Yatmış gözəl" baletində Karabos partiyası ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında debüt etmişdir. Uğurlu çıxışına görə son kursdan etibarən teatrın balet truppasına solist kimi qəbul edilmişdir. 1965–1978-ci illərdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının aparıcı solistlərindən biri olmuşdur.

Vladimir Pletnyovun səhnə fəaliyyəti Azərbaycan balet sənətinin klassik və milli repertuarının formalaşmasında mühüm rol oynamışdır. O, solist kimi çalışdığı on üç il ərzində bir sıra aparıcı partiyalar ifa etmişdir. Onun əsas səhnə obrazları sırasında Xuliqan ("Xanım və xuliqan", Dmitri Şostakoviç), Şahzadə Dezire ("Yatmış gözəl", Pyotr Çaykovski), Şahzadə Ziqfrid ("Sonalar gölü", Pyotr Çaykovski), Şahzadə ("Zoluşka", Sergey Prokofyev), Albert ("Jizel", Adolf Adan), Bazil ("Don Kixot", Lüdviq Minkus), Kavaler Qrand ("Paxita", Lüdviq Minkus), Bəhram ("Yeddi gözəl", Qara Qarayev), Gert ("İldırımlı yollarla", Qara Qarayev), Məcnun ("Leyli və Məcnun", Qara Qarayev), Nəsimi ("Nəsimi dastanı", Fikrət Əmirov), Oğlan ("Muğam", Nazim Əliverdibəyov), Polad və Cahangir xan ("Qız qalası", Əfrasiyab Bədəlbəyli), Fərhad və Vəzir ("Məhəbbət əfsanəsi", Arif Məlikov), Rəssam ("Qobustan kölgələri", Fərəc Qarayev) yer alır.

Vladimir Pletnyovun ifa üslubu yüksək plastiklik, musiqi duyumu və virtuoz texnika ilə səciyyələnmişdir. O, Azərbaycan balet sənətini beynəlxalq səviyyədə də təmsil etmiş, Böyük Teatrın truppası ilə İsveçrədə, həyat yoldaşı balerina Çimnaz Babayeva ilə birlikdə 1972-ci ildə Seneqal və Nepalda qastrol səfərlərində iştirak etmişdir. Bundan əlavə, Fransa, İtaliya, İsveç, Danimarka, Norveç, Hindistan, Birma və Nigeriya kimi ölkələrdə də çıxış etmişdir.

1975-ci ildə "Əfsanələr aləmində" film-baletində çəkilmişdir. 1979-cu ildə Voronej Opera və Balet Teatrında səhnələşdirilən Fikrət Əmirovun "1001 gecə" baletində balet məşqçisi kimi fəaliyyət göstərmişdir. O, həmçinin milli Azərbaycan balet sənətinin banisi və aparıcı simalarından olan Qəmər Almaszadəyə həsr olunmuş monoqrafiyanın müəllifidir.

Vladimir Pletnyov 1973-cü ildən Bakı Xoreoqrafiya Məktəbində duet rəqs dərsləri vermişdir. 1978-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında məşqçi-pedaqoq vəzifəsinə təyin olunmuş, bir sıra gənc balet artistlərinin hazırlanmasında iştirak etmiş və onların repertuara daxil edilməsinə töhfə vermişdir.

Pletnyovun yaradıcılığı dövlət səviyyəsində yüksək qiymətləndirilmişdir. O, 21 may 1970-ci ildə Azərbaycan SSR-in Əməkdar artisti, 26 aprel 1974-cü ildə Fikrət Əmirovun "Nəsimi dastanı" baletində Nəsimi partiyasının ifasına görə Azərbaycan SSR Dövlət Mükafatının laureatı, 10 yanvar 1978-ci ildə isə Azərbaycan SSR Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

Vladimir Nikolayeviç Pletnyov 21 fevral 1988-ci ildə Bakı şəhərində vəfat etmiş və II Fəxri xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat:

Балет: энциклопедия / гл. ред. Ю. Н. Григорович; редкол.: В. В. Ванслов [и др.].– Москва: Советская Энциклопедия, 1981.– ст. 403-404.

Azərbaycan teatr tarixi: dərslik / İ. Rəhimli; elmi red. Timuçin Əfəndiyev.– Bakı: Çaşıoğlu, 2005.– S. 313-314.

Azərbaycan Teatr Ensiklopediyası: üç cilddə / İ. Rəhimli; layihənin rəhb. Ə. M. Qarayev; red. hey.: T. İ. Əfəndiyev [və b.]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.– Bakı: [Azərnəşr], 2017.– S. 369-370.

Sənət salnaməmizə yazılan "Əbədi duet" / H.Nizamiqızı // Mədəniyyət.– 2024.– 7 fevral,№9-10.– S.5.

İnternetdə:


https://az.wikipedia.org/wiki/Vladimir_Pletnyov

https://goychay-encyclopedia.az/pletnyov-vladimir-nikolayevic/

Əliövsət Sadıqov – 120

(1906-1971)

Opera müğənnisi



Əliövsət Şirəli oğlu Sadıqov 21 dekabr 1906-cı ildə Nuxa (indiki Şəki) şəhərində anadan olmuşdur. İlk təhsilini Şəkidə mədrəsədə almış, daha sonra atası ilə birlikdə 3 saylı Şəki İpək fabrikində çalışmışdır. Erkən yaşlarından musiqiyə maraq göstərmiş, xalq mahnıları və muğamları yaddaşında formalaşdırmışdır.

1926-cı ildə görkəmli xanəndə Hüseynqulu Sarabski Şəki İpək fabrikində zəhmətkeşlərlə görüş zamanı gənc usta Əliövsət Sadıqovun ifasında "Bəh-bəh" xalq mahnısını dinləmişdir. İfaçının səs tembri və vokal imkanları Sarabskinin diqqətini cəlb etmiş və o, Əliövsət Sadıqovu Bakıya dəvət etmişdir. Bu hadisə sənətkarın peşəkar musiqi fəaliyyətinin başlanğıcı olmuşdur.

1927-ci ildə Bakıya gələn Əliövsət Sadıqov "Ay qız" xalq mahnısını ifa etmiş, ustad sənətkarlar Müslüm Maqomayev və Cabbar Qaryağdıoğlunun rəyi ilə Azərbaycan Dövlət Opera və Balet Teatrına qəbul olunmuşdur. O, musiqi təhsilini zəruri hesab edərək, Hüseynqulu Sarabskinin tövsiyəsi ilə 1928–1930-cu illərdə Azərbaycan Dövlət Konservatoriyasında professor Sferonskinin sinfində vokal təhsili almışdır.

Opera səhnəsinə əvvəlcə xor kollektivi üzvü kimi daxil olan Əliövsət Sadıqova qısa müddət sonra solo partiyalar həvalə edilmişdir. Onun ilk rolları Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasında Zeyd və İbn Səlam, Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" operasında Vəli, Müslüm Maqomayevin "Nərgiz" operasında Molla Mütəllim, Üzeyir Hacıbəyovun "Koroğlu" operasında Eyvaz olmuşdur.

1930-cu ildən etibarən Əliövsət Sadıqov muğam operalarında baş rolların aparıcı ifaçılarından birinə çevrilmişdir. Onun ilk baş qəhrəman obrazı Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" operasında Qərib rolu olmuşdur. 1931-ci il teatr mövsümündə Müslüm Maqomayevin "Şah İsmayıl" operasında Şah İsmayıl obrazının ona həvalə edilməsi sənətkara göstərilən yüksək etimadın göstəricisi idi. Bu rol Əliövsət Sadıqovun yaradıcılığında mühüm mərhələ təşkil etmiş və o, təxminən otuz il ərzində bu obrazı səhnədə canlandırmışdır.

Əliövsət Sadıqovun yaradıcılığında Üzeyir Hacıbəyovun klassik operalarının lirik-məhəbbət qəhrəmanları xüsusi yer tutur. Onun Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində yaratdığı əsas obrazlar sırasında "Leyli və Məcnun"da Məcnun, İbn Səlam və Zeyd, "Əsli və Kərəm"də Kərəm, "Koroğlu"-da Eyvaz, "Aşıq Qərib"də Qərib, Reynhold Qlierin "Şahsənəm" operasında Aşıq Qərib və Aşıq Səməd, Müslüm Maqomayevin "Şah İsmayıl"ında Şah İsmayıl, "Nərgiz"də Molla Mütəllim, "Səfa" operasında Aşıq Musa, eləcə də "Arşın mal alan"da Süleyman, "O olmasın, bu olsun"da Hambal və Sərvər obrazları xüsusi əhəmiyyət kəsb edir.

Əliövsət Sadıqov 1938-ci ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə, 1942 və 1944-cü illərdə isə İran və Rusiya şəhərlərində qastrol səfərlərində iştirak etmişdir. 1963-cü ilə qədər Azərbaycan operasının səhnəsində Həqiqət Rzayeva, Rübabə Muradova, Gülxar Həsənova, Xanlar Haqverdiyev, Şirzad Hüseynov və digər görkəmli sənətkarlarla birgə fəaliyyət göstərmişdir.

Sənətkarın ifasında səslənən muğamların, xalq mahnılarının, təsniflərin, operalardan ariyaların və bəstəkar mahnılarının lent yazıları Azərbaycan Radiosunun Qızıl Fondunda və Azərbaycan Dövlət Səs Yazıları Arxivində mühafizə olunur. Ömrünün son illərində Azərbaycan Dövlət Opera və Balet Teatrında məsləhətçi-pedaqoq kimi çalışmışdır.

Əliövsət Sadıqovun sənət fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 17 iyul 1943-cü ildə Azərbaycan SSR-in Əməkdar artisti, 20 dekabr 1956-cı ildə Xalq artisti fəxri adlarına layiq görülmüş, iki dəfə "Şərəf nişanı" ordeni və müxtəlif medallarla təltif edilmişdir

Əliövsət Şirəli oğlu Sadıqov 17 noyabr 1971-ci ildə Bakı şəhərində vəfat etmiş və II Fəxri xiyabanda dəfn olunmuşdur.

2007-ci ildə rejissor Oqtay Əlizadə tərəfindən sənətkarın həyat və yaradıcılığına həsr olunmuş "Mənim atam Əliövsət Sadıqov" adlı qısametrajlı sənədli televiziya filmi çəkilmişdir.

Ədəbiyyat:

Mirzə Fətəli Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı solistlərinin konserti.– Bakı: [n. y.], 1962.– 1 v.

Sənətin Əliövsət zirvəsi / S. Təhmirazqızı; Red. R. Zöhrabov.– Bakı: "E.L", 2007.– 176 s.

Rəhimli, İ. Əliövsət Sadıqov / İlham Rəhimli // Azərbaycan teatr ensiklopediyası.– Bakı, 2016.– C. 1.– S. 362-263.

Əliövsət Sadıqov / S. Təhmirazqızı; [baş red. G. Cəfərova; red. R. Həsənova; buraxıl. məsul S. İsmayılova; dizayner Z. Abbasov].– Bakı: Şərq-Qərb, 2017.– 126, [2] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C6%8Fli%C3%B6vs%C9%99t_Sad%C4%B1qov

https://az.baku-art.com/az/meshhur-opera-mugennisi-elovs-t-sadiqovun-115-illiyidir

Çimnaz Babayeva – 80

(1946-2019)

Balerina



Çimnaz Məmməd qızı Babayeva 1946-cı il dekabrın 23-də Bakı şəhərində anadan olmuşdur. O, 1954–1964-cü illərdə Bakı Xoreoqrafiya Məktəbində Qəmər Almaszadənin sinfində təhsil almışdır. Böyük səhnəyə doqquz yaşında Boris Zeydmanın "Qızıl açar" baletində Buratino rolu ilə qədəm qoymuşdur. 1964-cü ildə Bakı Xoreoqrafiya Məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının truppasına qəbul edilmiş və qısa müddətdə Azərbaycanın balet ustalarından biri kimi tanınmışdır.

Çimnaz Babayeva 1964–1981-ci illərdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında solist kimi fəaliyyət göstərmiş, 1981–2000-ci illərdə isə məşqçi-pedaqoq vəzifəsində çalışmışdır. O, 1977–2000-ci illər ərzində teatrda məşqçi-baletmeyster kimi fəaliyyət göstərmiş, gənc balet artistlərinin peşəkar formalaşmasında mühüm rol oynamışdır.

Görkəmli sənətçi Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində milli və klassik balet tamaşalarında çoxsaylı xoreoqrafik obrazlar yaratmışdır. O, həyat yoldaşı, Xalq artisti Vladimir Pletnyov ilə birgə A. Məlikovun "Məhəbbət əfsanəsi" baletində Şirin, Q. Qarayevin "Yeddi gözəl" baletində Aişə, "İldırımlı yollarla" baletində Sari, Ə. Bədəlbəylinin "Qız qalası" baletində Gülyanaq, F. Əmirovun "Nəsimi haqqında dastan" baletində Nəsiminin sevgilisi, L. Minkusun "Don Kixot" baletində Kitri, D. Şostakoviçin "Xanım və xuliqan" baletində xanım obrazlarını və digər rolları ifa etmişdir. Bununla yanaşı, o, Vladimir Pletnyovla birlikdə Cahangir Cahangirovun "Xanəndələrin taleyi" operasının rəqs nömrələrinin quruluşunu vermişdir.

Klassik rəqslərin bilicisi olan Çimnaz Babayeva öz quruluşlarında klassik xoreoqrafiya ilə Azərbaycan milli rəqs sənətinin sintezinə nail olmuş, balet tamaşalarına yüksək peşəkarlıqla quruluş vermişdir. O, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppası ilə birgə Rusiya, Ukrayna, Fransa, İtaliya, Norveç, İsveç, Birma, Hindistan və Türkiyədə qastrol səfərlərində olmuşdur.

Çimnaz Babayeva uzunmüddətli yaradıcılıq fəaliyyəti dövründə bir sıra fəxri adlara və dövlət mükafatlarına layiq görülmüşdür. O, 1970-ci ildə Azərbaycan SSR Əməkdar artisti, 1974-cü ildə Fikrət Əmirovun "Nəsimi haqqında dastan" baletinin səhnələşdirilməsinə görə Azərbaycan SSR Dövlət mükafatı laureatı, 1978-ci ildə isə Azərbaycan SSR Xalq artisti fəxri adını almışdır. 2002-ci ildən Prezident təqaüdçüsü olmuşdur.

Çimnaz Məmməd qızı Babayeva 2019-cu il dekabrın 23-də vəfat etmişdir.

2022-ci ildə onun haqqında "Əbədi duet" adlı sənədli-bioqrafik film çəkilmişdir.

Ədəbiyyat:

Балет: энциклопедия / гл. ред. Ю. Н. Григорович; редкол.: В. В. Ванслов [и др.].– Москва: Советская Энциклопедия, 1981.– ст. 623.

Azərbaycan teatr tarixi: dərslik / İ. Rəhimli; elmi red. Timuçin Əfəndiyev.– Bakı: Çaşıoğlu, 2005.– S. 314.

Azərbaycan Milli Ensiklopediyası: [25 cilddə] / [A. N. Abbasov [və b.]]; red. hey.: İ. H. Əliyev (sədr) [və b.]; [elmi məsl.: A. N. Abbasov [və b.]].– Bakı: "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, 2010.– S. 587.

Azərbaycan Teatr Ensiklopediyası: üç cilddə / İ. Ə. Rəhimli; layihənin rəhb. Ə. M. Qarayev [ön söz]; red. hey.: T. İ. Əfəndiyev [və b.]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.– Bakı: [Azərnəşr], 2016.– 427, [1] s.

Çimnaz Məmməd qızı Babayeva // Mədəniyyət.– 2019.– 25 dekabr.– S.6.

Sənət salnaməmizə yazılan "Əbədi duet" / H.Nizamiqızı // Mədəniyyət.–2024.– 7 fevral,№9-10.– S.5.

Bəhruz Zeynalov – 100

(1926-1998) *Balaban və klarnet ifaçısı*



Bəhruz Mahmud oğlu Zeynalov 1926-cı il dekabr ayının 24-də Bakı şəhərində anadan olmuşdur. O, musiqi təhsilini Asəf Zeynallı adına Musiqi Məktəbində almışdır. On iki yaşında Üzeyir Hacıbəyovun qarşısında imtahan vermiş, balabanda ifa etdiyi ikinci musiqidən sonra birbaşa Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinə solist kimi qəbul edilmişdir.

Bəhruz Zeynalov uzun illər Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrində fəaliyyət göstərmiş, həm klarnet, həm də balaban ifaçısı kimi tanınmışdır. O, peşəkar ifaçılıq fəaliyyəti ilə yanaşı, pedaqoji sahədə də çalışmış, Asəf Zeynallı adına Musiqi Məktəbində müəllimlik etmiş və bir sıra peşəkar musiqiçilərin yetişməsinə töhfə vermişdir.

Bəhruz Zeynalov balabanın, zurnanın və tütəyin tarixi, quruluşu və ifa xüsusiyyətlərinə dair bir sıra elmi-publisistik yazıların müəllifidir. Azərbaycanda ilk dəfə olaraq muğamları, eləcə də dünya, şərq, xalq və bəstəkar mahnılarını balaban, zurna və tütək üçün nota almışdır. Onun ifasında səslənən onlarla musiqi nümunəsi Azərbaycan Dövlət Radiosunun Qızıl fondunda saxlanılır.

Bəhruz Zeynalovun sənət fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, 1982-ci ildə "Azərbaycan SSR Əməkdar artisti" fəxri adına layiq görülmüşdür.

Bəhruz Mahmud oğlu Zeynalov 1998-ci il may ayının 25-də Bakı şəhərində vəfat etmiş və Şağan kəndində dəfn olunmuşdur.

Ədəbiyyat:

Əlizadə, S. Şağan və şağanlılar / Səyəvuş Əlizadə [son söz əvəzi]; red.: Z. Ağayev, Y. Novruzov.– Bakı: Elm və təhsil, 2013.– 223, [1] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Bəhruz_Zeynalov

https://az.baku-art.com/az/azerbaycanli-klarnet-ve-balaban-ifach-s-bas-balaban-n-banisi-b-hruz-zeynalov#:~:text=14:58%20Azərbaycanlı%20məşhur%20tenor%20London%20Kral%20Opera%20evinin%20səhnəsində!

Zeynəb Xanlarova – 90

(1936) *İctimai xadim, müğənni*



Ədəbiyyat:

Z.Y.Xanlarovanın "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 26 dekabr 2016-cı il // Azərbaycan.-2016.- 27 dekabr.- S.1.

Əsgərzadə, Q. Musiqi məbədgahının mehrabı / Qəmbər Əsgərzadə // 525-ci qəzet.– 2025.– 1 oktyabr (№177).– S.8.

Rzayeva, Z. Yeni il klassikası-Zeynəb Xanlarova / Zeynəb Rzayeva // Olaylar.– 2024.– 12-19 dekabr (№44).– S.18.

Əhməd, D. Zeynəb Xanlarovanın "ölümü" Türkiyə parlamentində / Dilqəm Əhməd // Türküstan.– 2022.– 29 mart-4 aprel.– S.16.

Hər bir xalqı dünyada tanıdan onun mədəniyyəti, milli-mənəvi dəyərləridir / Zeynəb Xanlarova //Xalq qəzeti.-2019.- 3 mart.- S.2.

Əsgərzadə, Q. Səsinin telləri ilə ürəkləri riqqətə gətirən, xoşbəxtliyin və şöhrətin zirvəsində olan sənətkar / Qafar Əsgərzadə //Yeni Təfəkkür.-2016.- 23 dekabr.- S.4.

İnternetdə:

https://portal.azertag.az/az/node/26323

Zeynəb Yəhya qızı Xanlarova 1936-cı il dekabr ayının 28-də Bakı şəhərində anadan olmuşdur. O, orta təhsil illərindən etibarən musiqi və ədəbiyyata maraq göstərmiş, Bakıdakı Mərkəzi Pioner və Məktəblilər Sarayında bədii özfəaliyyət dərnəyinin üzvü olmuş, "Cücələrim" mahnısının xorla ilk səsləndirilməsində iştirak etmişdir. 1956-cı ildə M. Ə. Sabir adına Bakı Məktəbəqədər Pedaqoji Məktəbini (indiki Azərbaycan Dövlət Pedaqoji Kolleci) bitirmişdir. Daha sonra Ə. Bədəlbəylinin tövsiyəsi ilə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinə daxil olmuş və görkəmli xanəndə Seyid Şuşinskinin sinfində vokal təhsili almışdır.

1960-cı ildə qadın xanəndələr arasında ilk dəfə olaraq "Çahargah" muğamını ifa etmiş və bu ifa lent yazısı vasitəsilə efirdə səsləndirilmişdir. O, "Çahargah"la yanaşı, "Şur", "Dilkəş" təsniflərini, "Mahur-hindi", "Qatar", "Xaric segah", "Humayun", "Bayatı-kürd", "Şahnaz", "Mahur", "Bayatı-Şiraz" və digər muğamları ifa etmişdir. İfaçılıq fəaliyyətində ənənəvi oxu üslubuna yeni ifadə vasitələri gətirərək novator yanaşma nümayiş etdirmişdir.

1961-ci ildə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunu bitirdikdən sonra Şəmsi Bədəlbəylinin dəvəti ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına solist qəbul edilmişdir. Elə həmin ildən Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasında Leyli, "Əsli və Kərəm" operasında isə Əsli obrazlarını yaratmışdır. Bu rollar onun yaradıcılığında mühüm mərhələ təşkil etmişdir.

Zeynəb Xanlarovanın repertuarında muğamlar, təsniflər, Azərbaycan xalq mahnıları, Azərbaycan və şərq bəstəkarlarının vokal əsərləri geniş yer tutur. O, Fikrət Əmirovun, Qara Qarayevin, Tofiq Quliyevin, Cahangir Cahangirovun, Arif Məlikovun, Emin Sabitoğlunun, Ələkbər Tağıyevin, Ramiz Mirişlinin və digər bəstəkarların mahnılarını ifa etmişdir. Lirik soprano səsi, geniş səs diapazonu, zəngin səs tembri və ifadəli ifa tərzi onun sənət üslubunun əsas xüsusiyyətləridir.

Zeynəb Xanlarova ABŞ, Fransa, İsveç, İtaliya, Kanada, Yaponiya, Türkiyə, Danimarka və digər ölkələrdə qastrol səfərlərində olmuş, müxtəlif dillərdə konsert proqramları ilə çıxış etmişdir. O, həmçinin uzun illər ictimai-siyasi fəaliyyətlə məşğul olmuş, Azərbaycan SSR Ali Sovetinin XI–XII çağırışlarının, Azərbaycan Respublikası Milli Məclisinin I–V çağırışlarının deputatı olmuşdur.

Zeynəb Xanlarovanın sənət fəaliyyəti yüksək dövlət təltifləri ilə qiymətləndirilmişdir. O, 1967-ci ildə Əməkdar artisti, 1975-ci ildə Xalq artisti, 1980-ci ildə SSRİ Xalq artisti fəxri adlarına layiq görülmüşdür. 1985-ci ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı olmuş, 1986-cı ildə Ümumittifaq "Melodiya" firmasının "Qızıl val" mükafatı ilə təltif edilmişdir. 2006-cı ildə "İstiqlal" və "Şöhrət", 2016-cı ildə isə "Heydər Əliyev" ordenləri ilə mükafatlandırılmışdır. 2011-ci ildə Azərbaycan Respublikası Prezidentinin fəxri diplomuna layiq görülmüşdür.

Zeynəb Xanlarovanın yaradıcılığına həsr olunmuş "Salam, Zeynəb!" adlı sənədli televiziya filmi çəkilmişdir.

Zeynəb Xanlarova musiqimizin və mədəniyyətimizin tarixində əbədi qalmaq haqqını qazanmış sənətkarlardandır. Zeynəb səsi, Zeynəb ifası sanki bütün keçilmiş yolun yekunu, qazanılmış təcrübənin məcmusu və zirvəsidir. Zeynəb Xanlarova təkcə doğulduğu zamanın deyil, bütün zamanların sənətkarıdır.

Əbülfət Əliyev – 100

(1926-1990)

Müğənni



Əbülfət Əsəd oğlu Əliyev 1926-cı il dekabr ayının 30-da Şuşada anadan olmuşdur.

O, kiçik yaşlarından musiqi ilə maraqlanmış, Xan Şuşinskinin, Zülfünün, Bülbülün, Seyidin vallarına qulaq asmış, 1 saylı şəhər məktəbinin musiqili dram dərnəyinə yazılmışdır. 1938-1939-cu illərdə Ağdam Müəllimlər evində Xan Şuşinskinin rəhbərliyi altında muğam sinfi açılmış, Xan Şuşinski Əbülfəti dinləyib onun məşqlərə gəlməsini məsləhət görmüşdür. 1939-cu ildə səkkiz ay Məşədi Nərimanın dərnəyində tar çalmağı öyrənmişdir.

1942-ci ildə Böyük Oktyabr Sosialist İnqilabının 25-ci ildönümü münasibətilə onu həmyaşıdları ilə birgə Bakıya - Opera və Balet Teatrında keçirilən konsertə dəvət etmişlər. Konsertdə onu məşhur tarzən Qurban Pirimov, kamançada Hafiz Mirzəliyev müşayiət etmişdir. Bu konsertdə iştirak ona böyük uğur gətirmiş, 16 yaşından başlayaraq Qarabağın toylarında tarzən Məşədi Nərimanla, kamançaçı Elman Bədəlovla xalq mahnıları, muğamları ifa etmişlər. Yaradıcılığa 1943-cü ildə Ağdam Mədəniyyət evində başlamışdı.

O illərdə Ə.Əliyev teatrda epizodik rollarda oynamış, tamaşalara yazılmış mahnıları məharətlə oxumuşdu. Bakıya gələndən sonra Respublika radiosunda solist işləmiş və radiodakı çıxışları onu bir xanəndə kimi daha da məşhurlaşdırmışdı. 1945-ci ildə böyük sənət məbədi olan Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi X.Şuşinski, Z.Adıgözəlov, Ş.Ələkbərova, S.Qədimova, F.Mehrəliyeva, T.İsmayılova kimi geniş diapazonlu, gözəl səsli müğənnilərlə birgə çalışmışdır.

Onun repertuarında 400-ə qədər xalq və bəstəkar mahnıları var idi. Xanəndənin səsinin ilk dəfə lentə köçürülməsi 1956-cı il 7 oktyabrda "Pəri" xalq mahnısı ilə başlamışdır.

Əbülfət Əliyev bəstəkar mahnılarının da gözəl ifaçısı idi. Xanəndənin ifasında səslənən "Segah-zabul", "Rast", "Şur", "Hümayun", "Rahab", "Mahur hindi", "Bayatı Şiraz", "Çahargah", "Zabul" muğamları radio və televiziyanın fonotekasında saxlanılır.

Əbülfət Əliyev 1956-1963-cü illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Bu müddət ərzində "Leyli Məcnunda", "Əsli və Kərəm"də, "Şah İsmayıl"da baş rollarda xanəndə aktyor kimi məharət və istedadını nümayiş etdirmişdir. Ü.Hacıbəylinin "Leyli və Məcnun" operası Ə.Əliyevin iştirakı ilə lentə alınaraq Azərbaycan Respublikası radiosunun qızıl fondunda saxlanılır.

1971-ci ildə Moskada 153 ölkədən gəlmiş sənətkarların iştirakı ilə keçirilən "Xalqların musiqi mədəniyyəti: ənənə və novatorluq" adlı VII Ümumdünya musiqi konqresində Əbülfət Əliyev Azərbaycan professional musiqi ifaçılığını ləyaqətlə təmsil etmiş, YUNESKO-nun döş nişanına və diplomuna layiq görülmüşdür.

Xanəndənin musiqimizin inkişafındakı xidmətləri yüksək qiymətləndirilərək 1958-ci ildə Azərbaycanın Əməkdar artist, 1964-cü ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

Əbülfət Əliyev 1990-cı il dekabr ayının 27-də vəfat etmişdir.

Sənətkarın 1994-cü ilin 27 dekabrında filarmoniyada xatirə gecəsi keçirilmiş, 2004-cü ildə haqqında sənədli film çəkilmişdir.

İnternetdə:

Əbülfət Əliyev / S.Ələsgərov // Ədəbiyyat və incəsənət.– 1964.– 3 oktyabr.– S.1.

Əbülfət Əliyev və xalq mahnılarımız / Y.Abdullayeva // Mədəni-maarif: jurnal.– 2007.– №7.– S.2-3.

Muğam ifaçılığında Əbülfət Əliyev dəst-xətti / S.Fərəcov // Mədəniyyət.– 2016.– 28 dekabr.– S.15.

Əbülfət Əliyev / M. Çəmənli; [baş red. G. Cəfərova; red. R. Həsənova; buraxıl. məsul S. İsmayılova; dizayn Z. Abbasov].– Bakı: Şərq-Qərb, 2017.– 158, [2] s.

"Unudulmayanlar"da xanəndə Əbülfət Əliyev anılıb // Mədəniyyət.– 2019.– 25 dekabr.– S.3.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C6%8Fb%C3%BClf%C9%99t_%C6%8Fliyev

Yalçın Rzazadə – 80

(1946-2021)

Müğənni



Ədəbiyyat:

Uşaqlığı olmayan sənətkar / Y.Rzazadə; Müsahibəni apardı: L.Musaqızı // Kaspi.–2015.– 16 oktyabr.– S.21.

Yalçın Rzazadə: Atam elə bilirdi ki, tanınmış rəssam olacağam: Müsahibimiz Xalq artisti Yalçın Rzazadədir / Y. Rzazadə; müsahibəni apardı R. Şahbazi, Ş. Əliqızı // İki sahil.– 2016.– 6 dekabr.– S.12.

"Mən ruhu ölmüş sənətkaram" / Y. Rzazadə: müsahibəni apardı Tahirə // Şərq.–2017.– 18 may.– S.13.

Yalçın Rzazadənin yaradıcılığının 50 illiyi qeyd olunacaq // Mədəniyyət.– 2018.– 12 oktyabr.– S.2.

Mehriban Əliyevadan Yalçın Rzazadə ilə bağlı göstəriş: Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, Xalq artisti Yalçın Rzazadənin səhhəti ilə bağlı məsələləri Fond öz nəzarətinə götürüb // 525-ci qəzet.– 2019.– 12 iyul.– S.2.

Sənətdə yalçın qaya kimi ucalan...: Görkəmli müğənni Yalçın Rzazadə dünyasını dəyişdi / N.Rzalı // 525-ci qəzet.– 2021.– 24 fevral.– S.11.

Yalçın İmran oğlu Rzazadə 1946-cı il dekabr ayının 31-də Lənkəran rayonunun Boladı kəndində anadan olmuşdur.

1963-1967-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunun aktyorluq fakültəsində təhsil almışdır. 1968-1973-cü illərdə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının vokal fakültəsini qırmızı diplomla bitirmişdir.

Hələ Konservatoriyanın tələbəsi olarkən, Azərbaycan Dövlət Teleradio Komitəsinə işə daxil olmuş və rejissor assistenti kimi əmək fəaliyyətinə başlamışdır. Teleradio Komitəsində çalışdığı illərdə Gülarə Əliyevanın "Dan ulduzu" ansamblında çalışmışdır. 2005-ci ildən Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin vokal və pop musiqi kafedrasının müdiri olmuşdur.

Yalçın Rzazadə idmanla da məşğul olmuş, 2 dəfə karate üzre çempionu olmuşdur.

Yalçın Rzazadəni Azərbaycan tamaşaçısına tanıdan onun 60-cı illərinin sonunda musiqisi Cahangir Cahangirova aid "Durnalar" mahnısı olmuşdur. İllər ərzində Cahangir Cahangirov, Tofiq Quliyev, Emin Sabit oğlu, Oqtay Kazımi, Telman Hacıyev, Elza İbrahimova, Oqtay Rəcəbli, Ramiz Mirişli, Nəriman Məmmədov, Kamal, Eldar Mansurov, Firəngiz Babayeva kimi bəstəkarların mahnılarını ifa etmişdir.

Oxuduğu orkestrlərdən-Böyük Simfonik və Estrada-Simfonik Orkestrləri, Xalq Çalğı Alətləri Orkestri, Dan Ulduzu İnstrumental Ansamblı, Vaqif Mustafazadənin rəhbərliyi ilə "Sevil" vokal ansamblı, Əhsən Dadaşov adına "Xatirə" ansamblı, SSRİ-nin Yuri Silantyev və Aleksandr Mixaylovun rəhbərliyi ilə Estrada- Simfonik orkestrləri, Leninqradda Leybmanın rəhbərliyi ilə Caz Ansamblı onu müşayiət etmişlər.

Bu illərdə Yalçın Rzazadə "Od içində" filmində baş rola – Əmir bəy roluna dəvət almışdır. Bu filmdən sonra Yalçın Rzazadə yenidən filmlərə dəvət alsa da, çoxsaylı qastrol səfərləri, Azərbaycanın bölgələrində verdiyi konsertlər filmlərə çəkilməyə imkan vermir. "Dədə Qorqud", "Gün keçdi", "Qaynana","Bayquş qayıdanda", "Baladadaşın ilk məhəbbəti" kimi filmlərin musiqilərinə Yalçın Rzazadə öz ifası ilə ölməzlik bəxş etmişdir.

Yalçın Rzazadənin səhnə fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1979-cu ildə Əməkdar artist, 2000-ci ildə isə Xalq artisti fəxri adına, 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.


Yalçın İmran oğlu Rzazadə 2021-ci il fevral ayının 22-də Bakı şəhərində vəfat etmişdir.

2004-cü il mart ayının 14-də Dövlət Teleradio Verilişləri Şirkətinin "Azərbaycantelefilm" Yaradıcılıq Birliyində respublikanın xalq artisti Yalçın Rzazadəyə həsr edilmiş eyniadlı sənədli filmin çəkilişi üzərində yaradıcılıq işinə başlanmışdır. 2010-cu il iyul ayının 9-da Xalq Artisti Yalçın Rzazadənin uzun illər ifa etdiyi mahnılardan ibarət albomu dövlət səviyyəsində kitab şəklində hazırlanmışdır. 2022-ci il fevral ayının 22-də Azərbaycan Dövlət Mahnı Teatrında mərhum Xalq artisti Yalçın Rzazadənin anım konserti keçirilmişdir.

Əşrəf Yusifzadə – 120

(1906-1963)

Aktyor



Əşrəf Əmrah oğlu Yusifzadə 1906-cı il dekabr ayının 5-də Şərur rayonunun Sərxanlı kəndində anadan olmuşdur.

1921-1925-ci illərdə Şərurdakı birinci dərəcəli məktəbdə oxumuşdur. Ədəbiyyata, dramaturgiyaya coşğun həvəs göstərən Əşrəf məktəbdəki dram dərnəyinin fəallarından olmuşdur. Beşillik təhsilini uğurla başa vuraraq müəllimlərinin tövsiyəsi ilə İrəvana gəlmiş, təhsilini davam etdirmişdir. İrəvanda Azərbaycan teatrının canlı klassiklərindən olan Yunis Nurinin dram dərnəyinə gedən aktyor, onun zəmanəti ilə İrəvan Dram Azərbaycan teatr dəstəsinin aktyor heyətinə qəbul olunmuşdur.

Burada epizodik rollar oynamış, kütləvi səhnələrdə iştirak etmişdir. Bu kollektivdə ilk dəfə Jan Batist Molyerin "Zorən təbib" komediyasında nökər rolunu ifa etmişdir. 1930-cu ildə teatr sənətindən ayrılaraq Bakıya ali təhsil almağa gəlmiş, burada Politexnik İnstitutuna (indiki Azərbaycan Texniki Universiteti) daxil olmuşdur. Məşhur aktyor Rza Təhmasiblə, şair-dramaturq H.Cavidlə dostluğu onu yenidən teatr sənətinə bağlamış, 1932-ci il oktyabr ayında isə Bakı Türk İşçi Teatrının truppasına aktyor kimi qəbul edilmişdir.

Əşrəf Yusifzadə 1933-cü ildə kollektivlə birgə Gəncəyə gəlmiş və ömrünün sonunadək Gəncə Dövlət Dram Teatrında fəaliyyət göstərmişdir. Gur səsi, pafoslu danışıq ahəngi klassik faciə obrazlarının və çağdaş romantik duyğulu xarakterlərin səhnə təcəssümündə daha qabarıq nəzərə çarpmışdır. Gəncə tamaşaçılarının rəğbət və məhəbbətini, ehtiram və hörmətini qazanmış, teatrda tamaşalar hazırlamış rejissorlardan H.İsmayılov, M.Məmmədov, H.Ağayev, H.Sultanov, T.Kazımov, N.Sadıqzadə, Y.Bağırov, V.Şərifov, Ə.Quliyevin bədii cəhətdən daha kamil quruluşlarında əsas rolları ifa etmişdir.

Onun Mirzə Rəhim ("Özgə uşaqları", V.Şkvarkin), Balarza, Atakişi, Mirzə Rza, Aqşin, General-qubernator, Dövlət bəy (C.Cabbarlı "Almaz", "Sevil", "Nəsrəddin şah", "Od gəlini", "1905- ci ildə" və "Aydın"), Məktəb naçalniki (Tur qardaşları və Lev Şeynin "Üzləşdirmə"), Frans Moor ("Qaçaqlar", F.Şiller), Vaqif və Qacar, Xosrov (S.Vurğun "Vaqif" və "Fərhad və Şirin"), Dəmirçi Musa, Mirzə Qərənfil, Gülümov, Qasım (S.Rəhman "Toy", "Xoşbəxtlər", "Aşnalar" və "Nişanlı qız"), Yaqo (V.Şekspir "Otello"), Veysəl və Qaya (M.Təhmasib "Bahar"), Nizami (M.Hüseyn "Nizami"), Tofiq (İ.Əfəndiyev və M.Hüseyn "İntizar"), Əhmədi Biqəm, Məşədi Hüseyn (M.İbrahimov "Məhəbbət" və "Həyat"), Hacı Qara (M.F.Axundzadə "Hacı Qara"), Xosrov Atayev, Nəcəf (İ.Əfəndiyev "Atayevlər ailəsi" və "Bahar suları"), Con Rayt (İ. Mosaşvili "Qərq edilmiş daşlar"), Şeyx Nəsrulla (C.Məmmədquluzadə "Ölülər"), Vilyams (N.Hikmət "Kəllə"), Sultan Zöhrabov (B.Vahabzadə "Vicdan"), Şeyx Sənan və Özdəmir, Keykavus (H.Cavid "Şeyx Sənan" və "Səyavuş"), Ezop (G.Fiqeyredu "Tülkü və üzüm"), Səməd Vurğun (İ.Coşqun "Komsomol poeması") məşhur aktyorun zəngin və əlvan yaradıcılıq xəzinəsinin əsas rollarından olmuşdur.

Əşrəf Yusifzadənin səhnə fəaliyyəti yüksək qiymətləndirilmişdir. Aktyor 17 iyun 1943-cü ildə Azərbaycanın Əməkdar artisti, 30 aprel 1955-ci ildə Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

Əşrəf Əmrah oğlu Yusifzadə 1963-cü il mart ayının 7-də Gəncə şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Yusifzadə Əşrəf / [red. C. Səfərov].– Bakı: Azərbaycan teatr cəmiyyətinin nəşri, 1961.– [2] qat. v.

Əşrəf Yusifzadə / A. Y. Məmmədov; red. Y. Əzimzadə; Azərbaycan Teatr Cəmiyyəti.– Bakı: Azərnəşr, 1974.– 23, [1] s.

Yusifzadə Əşrəf // Naxçıvan ensiklopediyası / AMEA; red. hey. C.Əliyev, A.Əlizadə, İ.Həbibbəyli [və b.].– Bakı, 2002.– S.585.

Bir aktyorun ömür və sənət yolu / S.Fərəcov // Mədəniyyət.– 2015.– 4 dekabr.– S. 15.

Rəhimli, İ. Əşrəf Yusifzadə / İlham Rəhimli // Azərbaycan teatr ensiklopediyası / İ.Rəhimli.– C.1.– Bakı, 2016.– S. 374-375.

Səhnə fədaisi Əşrəf Yusifzadə / A.Burcəliyev // Xalq qəzeti.– 2024.– 29 mart, № 64.– S.10.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C6%8F%C5%9Fr%C9%99f_Yusifzad%C9%99

Həsənağa Salayev – 105

(1921-1981) *Aktyor*



Ədəbiyyat:

Unudulmaz obrazlar ustası Həsənağa Salayev: Səhnədə ilk uğurlar... // Azadlıq.–2012.– 9 aprel.– S.14.

"Şöhrət və ya unudulan adam" / İ.Vahabzadə // 525-ci qəzet.– 2014.– 8 noyabr.– S.14-15.

Həsənağa Salayev Səhnədə və ekranda yaratdığı obrazlarla özünü də obrazlaşdırmış sənətkar / T.Abbaslı // Mədəniyyət.– 2015.– 4 dekabr.– S. 13.

O, illərlə belə də deyib: "Nə bağırırsan, xalq?! Varındır - ver, yoxundur - sus, öl!.." / T.Abbaslı // Mədəniyyət.– 2016.– 30 sentyabr.– S. 13.

Romantik rolların mahir ifaçısı: Həsənağa Salayev-95 / M. Mükərrəmoğlu // Xalq qəzeti.– 2017.– 12 fevral.– S.7.

Yaratdığı obrazlar qalereyasına görə sevilən aktyor: Dünən Xalq artisti Həsənağa Salayevin doğum günü idi // Unikal.– 2020.–11 dekabr.– S.20.

Sənətin unutdurmadığı "Unudulan adam": Teatr xadimlərimiz / Z.Fərəcova // Azərbaycan.– 2024.– 10 fevral, № 29.– S.11.

İnternetdə:

https://portal.azertag.az/az/node/29424

Həsənağa Dərya oğlu Salayev 1921-ci il dekabr ayının 5-də Bakıda anadan olmuşdur.

Bakıdakı 6-cı Şura məktəbində təhsil almış, 1937-ci ildə Bakı Teatr Texnikumuna daxil olmuşdur. Tələbə ikən 1938-ci ildə Akademik Milli Dram Teatrının aktyor heyətinə qəbul edilmiş, 1941-ci ildə təhsilini başa vurduğu günlərdə müharibəyə getmişdir.

Qələbədən sonra 1946-cı ildə yenidən doğma kollektivə qayıtmış, səhnədə onlarla müxtəlif xarakterli obrazlar yaratmışdır. Klassik dramaturgiya ilə yanaşı, müasir dramaturqların əsərlərindən təqdim etdiyi rollar həm həmkarları, həm də sənətsevərlər tərəfindən rəğbətlə qarşılanmışdır. Səhnədə ilk rolu Səməd Vurğunun "Xanlar" pyesindəki jandarm obrazı olmuşdur.

Tamaşada tərəf-müqabili, görkəmli səhnə ustası Mərziyə Davudova Həsənağa Salayevin bu rolunu yüksək qiymətləndirmişdir. Müxtəlif illərdə S.Vurğunun "Fərhad və Şirin" (Fərhad), "Vaqif" (Eldar, Qacar və Vaqif), Z.Xəlilin "Qatır Məmməd" (Əziz), Ənvər Məmmədxanlının "Şərqin səhəri" (Mustafa), V.Şekspirin "Otello" (Montano), "Antoni və Kleopatra" (Sezar), "Qış nağılı" (Florizel və Leont), N.Hikmətin "Türkiyədə" (Hüseyn Həlim), M.İbrahimovun "Həyat" (Abbas), M.Hüseynin "Cavanşir" (Qartal və Söhrab), "Alov" (Əmin Bəxtiyarov) və başqa neçə-neçə əsərlərin tamaşalarında xarakterik səhnə surətləri yaratmışdır.

Həsənağa Salayevin bir aktyor kimi yetişməsində teatrın rejissorlarından Xalq artistləri A.İsgəndərovun, M.Məmmədovun, Ə.Şərifovun, Əməkdar incəsənət xadimi T.Kazımovun və başqalarının böyük rolu olmuşdur. O, dolğun, psixoloji xarakterə malik mürəkkəb obrazları müxtəlif üslubda, müxtəlif ifaçılıq priyomlarından istifadə etməklə, müxtəlif vəziyyətlərdə yaratmış, rolları bir-birinə bənzəməmişdir. "Oqtay Eloğlu" (C.Cabbarlı) tamaşasında yaratdığı baş qəhrəman haqqında uzun illər mətbuatda müxtəlif fikirlər səslənmişdir. Səhnə fədaisinin yaratdığı həmin monumental obraz bu günə kimi əvəzedilməz olaraq qalmaqdadır.

Teatrla yanaşı, kino sahəsində də çalışmış, "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi "Fətəli xan", "Görüş", "O olmasın, bu olsun", "Onu bağışlamaq olarmı?", "Koroğlu", "İstintaq davam edir" bədii və "Aygün" televiziya filmlərində Süleyman, Musa, Əzim Əzimzadə, Qüdrət, Eyvaz, Mayor Rüstəmov, Əmirxan rollarına çəkilmişdir. "İstintaq davam edir" bədii filmində həm baş rolda oynamış, həm də bu ekran əsərinin rejissoru olmuşdur. Təkcə Azərbaycanda deyil, keçmiş SSRİ-nin bütün müttəfiq respublikalarında tanınırdı.

Qastrollarda oynadığı rollara görə müxtəlif mükafatlar almışdır. Milli teatrın inkişafındakı xidmətlərinə görə bir sıra mükafatlara, 1959-cu ildə Azərbaycanın Əməkdar artist, 1974-cü ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

Həsənağa Dərya oğlu Salayev 1981-ci il oktyabr ayının 2-də vəfat etmişdir. Onun xatirəsi əbədiləşdirilmiş, Sumqayıt şəhərində və Kürdəxanı qəsəbəsində adına küçə verilmişdir.

Firuzə Bədirbəyli – 110

(1916-1992)

Aktyor



Firuzə Xanlar qızı Bədirbəyli 1916-cı il dekabr ayının 10-da Şəmkir şəhərinin Morul kəndində anadan olmuşdur. Xalq artisti Zemfira Əliyevanın anasıdır.

Səhnə fəaliyyətinə 1939-cu ildə Şəmkir Dövlət Dram Teatrında başlamış, 1947-ci ilin sonlarında Gəncə Dövlət Dram Teatrının truppasına qəbul edilmiş,1975-ci ilədək burada çalışmışdır.

Firuzə Bədirbəylinin Tükəz, Ziba xanım (“Hacı Qara” və “Lənkəran xanının vəziri”, Mirzə Fətəli Axundzadə), Mehri xanım, Pəri (“Bəxtsiz cavan” və “Pəri cadu”, Əbdürrəhim bəy Haqverdiyev), Tükəzban (“Ölülər”, Cəlil Məmmədquluzadə), Yasəmən (“Eşq və intiqam”, Süleyman Sani Axundov), Şərəbanı, Xanımnaz, Gülnisə, Dilbər, Susanna (“Yaşar”, “Almaz”, “Solğun çiçəklər”, “Sevil” və “Aydın”, Cəfər Cabbarlı), Əzra (“Şeyx Sənan”, Hüseyn Cavid), Humay (“Əliqulu evlənir”, Sabit Rəhman), Ballı arvad (“Bahar suları”, İlyas Əfəndiyev), Gülbacı (“Qaçaq Nəbi”, Süleyman Rüstəm), Reyhan xanım (“Kəndçi qızı”, Mirzə İbrahimov), Fatma (“Anacan”, Yusif Əzimzadə), Pəri xala (“Qız atası”, Əfqan), Darçın Xala (“Kişilər”, Altay Məmmədov), Rozina (“Uzaq sahillərdə”, İmran Qasımov və Həsən Seyidbəyli), Gülcamal (“Qatır Məmməd”, Zeynal Xəlil), Zeynəb (“Şikayət qəbul edilmir”, Toktobolat Əbdümöminov), Aşura (“Dağlı qızı”, Rəsul Həmzətov), Varvara Karpovna (“Həyətdə qapan it var”, Kita Buaçidze), Marfa (“Özgə uşağı”, Vasili Şkvarkin), Minlekay (“Aygül diyarı”, Mustay Kərim), Həcər nənə (“72-ci kamera” Orxan Kamal) və s. əsas rolları ifa etmişdir.

1971-ci il dekabr ayının 27-də Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı ilə təltif olunmuşdur.

Firuzə Xanlar qızı Bədirbəyli 1992-ci il dekabr ayının 16-da Gəncədə vəfat etmişdir.

Ədəbiyyat:

Azərbaycan Teatr Ensiklopediyası: üç cilddə / İ. Ə. Rəhimli ; layihənin rəhb. Ə. M. Qarayev [ön söz]; red. hey.: T. İ. Əfəndiyev [və b.]; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.– Bakı: [Azərnəşr], 2016.– S. 408-409.

Azərbaycan mədəniyyətinin inkişafında xidmətləri olmuş bir nəslin üç nümayəndəsi: Unudulmazlar / R.Salmanlı // Azərbaycan.– 2025.– 22 iyun (№127).– S.15.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Firuz%C9%99_B%C9%99dirb%C9%99yli

https://tehsil365.news/az/news/49331/

Mehriban Zəki – 60

(1966)

Aktyor



Mehriban Mürvət qızı Zəki (Mehriban Zəki) 1966-cı il dekabr ayının 18-də Bakı şəhərində anadan olmuşdur.

1974-1984-cü illərdə orta məktəbdə təhsil almış, 1991-ci ildə Azərbaycan Dövlət İncəsənət Universitetinin dram və kino aktyorluğu fakültəsini bitirmişdir.

1990-cı ildən 2005-ci ilədək "YUĞ" Dövlət Teatrında, 2006-2007-ci illərdə Milli Akademik Dram teatrında, 2000-ci ildən 2011-ci ilə qədər "İBRUS" Teatrında calışmışdır. Teatr səhnəsində "Heydərbabaya salam", "Oğul", "Səma", "Şirəbənzər", "Buninin sonuncu döyüşü", "Müsyo İbrahim və Quran çiçəkləri" kimi tamaşalarda oynamışdır.

Mehriban Zəki "Azərbaycanfilm" kinostudiyasının və digər kino şirkətlərin istehsalı olan "Ümid", (1995), "Otel otağı" (1998), "Ailə" (1998), "Dədə-Qorqud dünyası "(1999), "Məkanın melodiyası" (2004), "Küçələrə su səpmişəm" (2004), "Əlvida cənub şəhəri" (2006), "Hökmdarın taleyi" (2008), "Düyün" (2008), "Yalancılar" (2008), "Sirr" (2012), "Qaranlıqlar çiçəyi" (2011), "Təqib" (2013), "Həyat çiçəyi", (2013), "Axınla aşağı", (2014), "İçərişəhər", (2015), "Əli və Nino"(2015) kimi bir çox bədii və sənədli filmlərdə, seriallarda çəkilmişdir. Özəl səs tembrinə və ifa tərzinə malik olan Mehriban Zəki saz aləti ilə "Kitabi-Dədə-Qorqud" eposu, Nəsimi, Füzuli, Yunus Emrə və bir çox müasir şairlərin şeirlərinə bəstə qoşaraq ifa edir.

Mehriban Zəki 1995-ci ildə Bişkekdə keçirilən Ümümtürk Mədəniyyətinin bayramı olan "Manas-1000" yubileyində, 1999-cu ildə Parisdə, Moskvada və Bakıda keçirilən YUNESKO-nun "Kitabi-Dədə Qorqud"un 1300 illik yubiley tədbirində iştirak etmış, 2013-cü ildə YUNESKO-da Məhsəti Gəncəvinin 900 illiyinə həsr olunmuş konsert proqramında Məhsətinin obrazını canlandıraraq şeirlərini ifa etmişdir.

Mehriban Zəki 1993-cü ildə Aşqabadda keçirilən "Novruz 93" Teatr Festivalında "Xatun" monotamaşasına görə "Ən yaxşı teatr rolu", 1996-cı ildə Alma-Atada keçirilən Cambul Cabayev Festivalında "Ən yaxşı dastançı", 2005-ci ildə "Şərq-Qərb" Kinofestivalında "Küçələrə su səpmişəm" filmində "Ən yaxşı qadın obrazı" nominasiyası üzrə mükafatlandırılmışdır.

İstedadlı aktrisa Mehriban Zəki 1998-ci ildə Azərbaycanın Əməkdar artisti, 2018-ci ildə Xalq artisti fəxri adlarına layiq görülmüşdür. 2012, 2014, 2019-2021, 2023-2025-ci illərdə Prezident Mükafatı almışdır.

Ədəbiyyat:

"Nəyə görə yaşamağa dəyər" - Mehriban Zəki-50 / Pərvin // 525-ci qəzet.– 2016.– 24 dekabr.– S.11.

Mehriban Zəki Mədəniyyət və İncəsənət Universitetinin qonağı oldu // 525-ci qəzet.–2017.– 25 noyabr.– S.13.

Mehriban Zəki: "Hər bir yaradıcı insanın həyatı boyu toxuya biləcəyi bir obraz var" / M. Zəki: müsahibəni apardı: K. Cəfərova, (Əliyeva) // Kaspi.– 2018.– 26 aprel.– S.10.

ADMİU-dan reportaj: "Biz "Stanislavski sistemi"ni bilmirik!" / N.Pirimova // Kaspi.–2019.– 17 may.– S.10.

Tamam fərqli teatr, fərqli estetika, yeni cığırlar, yeni qastrollar: "Tamaşaçını gözəllik və gənclik cəlb edir" / R. Qurbanlı // Üç nöqtə.– 2020.– 9.iyul.– S.12.

Xalq artisti Mehriban Zəki: "Şuşada mədəniyyət tədbirlərinin təşkili çox önəmlidir" / M.Zəki // Azərbaycan.– 2021.– 1 sentyabr.– S.3.

Xalq artisti Mehriban Zəki: "Aktyorluq ən böyük, amma minnətdarlığı az olan peşədir" / M.M.Zəki; müsahibəni apardı Tamilla M-Zadə // 525-ci qəzet.– 2024.– 13 yanvar, №6.–S.12.

İnternetdə:

https://azdrama.az/?page_id=210

Nadir Xasıyev – 65

(1961)

Aktyor



Nadir Şənbə oğlu Xasıyev 1961-ci il dekabr ayının 24-də Ağsu rayonunda anadan olmuşdur. 1984-cü ildə İncəsənət İnstitutunun musiqili komediya aktyoru fakültəsini, 1998-ci ildə isə Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının vokal şöbəsini bitirmişdir. O, bir müddət Sumqayıt Dövlət Musiqili Dram Teatrında aktyor kimi fəaliyyət göstərdikdən sonra 1993-cü ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrına dəvət olunmuşdur.

Nadir Xasıyev S.Ələsgərov, İ.Məlikzadə "Subaylarınızdan görəsiniz"də Fəqan , O.Kazımi, R.Heydər "Qızıl toy"-da Azər, Z.Hacıbəyov "50 yaşında cavan"da Qulu, Ü.Hacıbəyli "O olmasın, bu olsun"da Sərvər, Həsənqulu bəy, Rüstəm bəy, E.Sabitoğlu, X.Hasilova "Nəğməli Könül"də Ramazan, S.Ələsgərov, İ.Məlikzadə "Hərənin öz ulduzu"nda Əlibala, S.Fərəcov, Ə.Əmirli "Səhnədə məhəbbət"də Rüstəm, E.Sabitoğlu, R.Əhmədzadə "Hələlik"də Mürsəl, V.Adıgözəlov, Anar "Adamın adamı"nda Tərs Tahir, C.Quliyev, Q.Rəsulov, "Məhəbbət oyunu"nda Camal, R.Mustafayev, A.Qüdrət "Volqalı canan"da Qaynar, R.Mirişli, M. Haqverdiyev "Qısqanc ürəklər"də Emil, S.Ələsgərov, Ş.Qurbanov "Milyonçunun dilənçi oğlu"nda Senator, S.Kərimi, Ə.Ol "Kimyagər"də Hacı Nuri, F.Allahverdi, Elçin "Baladadaşın toy hamamı"nda Nəcəf, Ü.Hacıbəyli "Arşın mal alan"da Soltan bəy, Ə.Pəhləvan "Sevənlərindir dünya"da Şiraslan, F.Sücəddin, T.Vəliyeva "Mən dəyərəm min cavana"da Rüstəm, V. Hüqo (səhn.S.Qulamov) "Paris Notr-Dama ithaf"da Keşiş, Ə.Əmirli "Nuri-didə Ceyhun"da Fraklı, S.Rüstəmov, M.S.Ordubadi "Beş manatlıq gəlin"də Kəblə Hüseynəli, T.Quliyev, B.Laskin, N.Rojkov "Bəxtiyar"da Professor Rəcəbov, Ü.Hacıbəyli, M.Füzuli (səhn.S.Qulamov) "Leyli və Məcnun"da Leylinin atası, S.Kərimi, M.F.Axundov "Kimyagər"də Hacı Nuri və başqa obazlar özlərinin orijinallığı, məharətli ifası ilə fərqlənmişir.

Nadir Xasıyev 1997-ci ildə "Aparıcı səhnə ustası" kateqoriyası ilə təlyif edilmişdir. 2019-cu il may ayının 25-də Əməkdar artist fəxri adına və 2019-2021-ci illərdə Prezident Mükafatına layiq görülmüşdür.

Ədəbiyyat:

"Tamaşaçı məhəbbəti insanın bütün arzularını reallaşdırmır": Nadir Xasıyev, aktyor: "Həyatda qorxduğum şey gərəksiz olmaqdır" / N. Xasıyev // Kaspi.– 2007.–8 fevral.– S.16.

"Qadınlardan çox şapalaq yemişəm...": Nadir Xasıyev:"Fəxri ad haqqımdı, ancaq almamağımın səbəbini bilmirəm" / N.Xasıyev; müsahibəni apardı: N.Məmmədli // Ekspress.– 2018.– 26-29 may.– S.9.

"Teatra gələn gündən baş rolların ifaçısı olmuşam": Nadir Xasıyev: "Çox xoşbəxtəm ki, böyük sənətkarlarımızla çiyin-çiyinə çalışmışam" / N.Xasıyev; müsahibəni apardı: K.Oruc // Üç nöqtə.– 2019.– 20 avqust.– S.7.

"Teatra gələn gündən baş rolların ifaçısı olmuşam": Nadir Xasıyev: "Çox xoşbəxtəm ki, böyük sənətkarlarımızla çiyin-çiyinə çalışmışam / N.Xasıyev; müsahibəni apartdı O.Könül // Üç nöqtə.– 2021.– 6 may.– S.12.

Xasıyevlərin xas sənəti / Ə.Nəcəfxanlı // Xalq qəzeti.– 2025.– 7 sentyabr (№190).– S.10.

İnternetdə:


https://musiqiliteatr.az/staff/az/19

https://az.wikipedia.org/wiki/Nadir_Xas%C4%B1yev

Əlisəttar Atakişiyev – 120

(1906-1990)

Kinooperator, rejissor



Əlisəttar Ələsgər oğlu Atakişiyev 1906-cı il dekabr ayının 25-də Bakıda anadan olmuşdur.

1924-cü ildə orta məktəbi bitirdikdən sonra jurnallarda rəssam kimi fəaliyyət göstərmiş, Moskva Ali Rəssamlıq-Texniki Məktəbinin rəngkarlıq şöbəsində təhsil almışdır.

Azərbaycan dilində nəşr olunan "Şərq qadını" və "Həmkarlar İttifaqı" jurnallarının redaksiyasında rəssam-illüstrator işləmişdir. 1926-cı ilin sonunda Moskvaya getmiş, SSRİ Xalq Komissarları Sovetinin İşlər İdarəsində tərcüməçi kimi çalışmışdır. 1930-cu ildə Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Kinooperatorluq fakültəsinə qəbul olunmuş, 1936-cı ildə təhsilini başa vuraraq "Mosfilm" kinostudiyasında operator kimi fəaliyyətə başlamışdır.

"Azərfilm" studiyasına dəvət olunan operator ilkin olaraq "Bakılılar" filmində baş operator işləmişdir. Daha sonra isə yenə də "Mosfilm"ə qayıtmışdır. Burada ilk rəngli filmlərin yaradılmasında iştirak etmişdir. Əlisəttar Atakişiyev müharibə illərində Bakıya gəlmiş, burada "Arşın mal alan" filminin çəkilişlərində iştirak etmişdir. Müstəqil operator kimi Əlisəttar Atakişiyev "Fətəli xan" filmində işləmişdir. 1953-cü ildə Tallinə göndərilmiş və burada müharibədən sonra kino istehsalının bərpa edilməsində xüsusi xidmət göstərmişdir. Estoniyanın ilk rəngli ("Axşam düşəndə", 1955, filmkonsert) filmini çəkmişdir.

Əlisəttar Atakişiyev 1956-cı ildə Azərbaycana qayıtdıqdan sonra "O olmasın, bu olsun", "Uzaq sahillərdə" və bir neçə sənədli filmdə operator kimi fəaliyyət göstərmişdir. Rejissor kimi "Bir qalanın sirri", "Sehrli xalat", "Qərib cinlər diyarında" kimi filmləri ilə Azərbaycan uşaq kinosunun əsasını qoymuşdur. Kinorejissor Əlisəttar Atakişiyevin istər operator, istərsə də rejissorkimi çəkdiyi filmlər Azərbaycan kino tarixində öz layiqli yerini tutmuşdur.

O, özünü təkcə operator və rejissor kimi deyil, həm də dekorasiya rəssamı, geyim rəssamı, quraşdırma çəkilişləri rəssamı, ssenarist, dublyaj rejissoru kimi də təsdiqləmişdir. Özünə xas ustalıqla filmlərinə fərqli aktyorlar seçmiş, ekranda təkrarsız nağıl dünyası yaratmışdır. "Bizim küçə", "İstintaq davam edir" filmləri ilə Azərbaycan kinosunu zənginləşdirməklə, rəssam kimi də fəaliyyətini davam etdirmişdir. Əsərləri keçmiş ümumittifaq və respublika sərgilərində dəfələrlə nümayiş olunmuşdur. Eləcə də uşaqlar üçün "İbrahimin sərgüzəştləri" adlı nağıllar kitabını da çap etdirmişdir. Uşaq-fantastika janrlarının məharətli rejissoru idi.

Azərbaycan kinosunun inkişafında əvəzsiz xidmətlərindən biri də dublyaj sənətinin inkişafına təkan verməsi olmuşdur. 50-yə yaxın filmi peşəkar səviyyədə Azərbaycan dilinə dublyaj etmişdir. Ümumiyyətlə, Ə.Atakişiyev "Azərbaycanfilm" kinostudiyasında işlədiyi 45 il ərzində operator kimi 11, 2 bədii-sənədli, 4 sənədli, rejissor kimi 5 bədii film çəkmişdir.

Əlisəttar Ələsgər oğlu Atakişiyev 1960-cı ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Əlisəttar Atakişiyev 1990-cı il noyabr ayının 7-də Moskvada, Kino Veteranları evində vəfat etmişdir.

Ədəbiyyat:

50 ilin "Sehrli xalat"ı / L.Azəri // Mədəniyyət.– 2014.– 14 noyabr.– S. 5.

50 yaşlı ekran nağılı / A. Dadaşov // Qobustan: Sənət toplusu.– 2015.– № 2.– S.77-79.

Kinooperator Əlisəttar Atakişiyevin xatirəsi anılacaq // Mədəniyyət.– 2017.– 29 mart.– S.2.

Yarım əsrdə öz təravətini itirməyən "Qanun naminə" filmi / M. Mükərrəmoğlu // Xalq qəzeti.– 2018.– 16 oktyabr.– S.14.

İbrahimin və oğlu Bəxtiyarın sərgüzəştləri: [nağıl-roman] / Ə. Atakişiyev; naşir M. Xan; dizayner T. Fərzi.– [Bakı]: Mücrü, [2024].– 228 s.

İrəvana gedirik???: (Bir filmin izi ilə) / F.Abdurəhmanova // Ədalət.– 2025.– 17 yanvar(№2).– S.10.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C6%8Flis%C9%99tar_Ataki%C5%9Fiyev

http://www.anl.az/down/meqale/adalet/2025/yanvar/930891(meqale).pdf

Zemfira Əliyeva – 85

(1941-1995)

Aktyor



Zemfira Məmmədəli qızı Əliyeva 1941-ci il dekabr ayının 25-də Gəncə şəhərində anadan olmuşdur.

Anası Firuzə Bədirbəyli Gəncə Dövlət Dram Teatrının aktrisası olmuşdur. Zemfira Əliyeva kiçik yaşlarından teatrın tamaşalarında uşaq rollarını ifa etmişdir. Rolları emosional və xüsusi məharətlə yaratma qabiliyyəti və istedadı olduğu üçün 17 yaşında ona Cəfər Cabbarlının "Solğun çiçəklər" melodramasında Sara rolu tapşırılmışdır. Daha sonra teatrda rəsmi olaraq fəaliyyətə başlamışdır.

Qısa müddətdə Səməd Vurğunun "Vaqif" (Gülnar), Viktor Rozovun "Sabahın xeyir" (Liza), Evripidin "Medeya" (Medeya), Əfqan Əsgərovun "Qız atası" (Məryəm) əsərlərinin tamaşalarında mürəkkəb rollar oynamış, "Böyük dayaq" filmində Pərişan obrazına çəkilmişdir. Füsunkar səhnə görkəmi, məlahətli danışığı, zəngin və əlvan ifadə vasitələri, coşqun daxili ehtirası onun əsas keyfiyyətlərindən idi.

Zemfira Əliyeva bir sıra tamaşalarda Almaz, Sara, Firəngiz, Yaqut ("Almaz", "Solğun çiçəklər", "Oqtay Eloğlu" və "Yaşar", Cəfər Cabbarlı), Səlma, Roza, Xumar, Anjel ("Ana", "Şeyda", "Şeyx Sənan" və "Uçurum", Hüseyn Cavid), Sona ("Hacı Qara", MirzəFətəli Axundzadə), Reyhan ("Yağışdansonra", Bəxtiyar Vahabzadə), Maral ("Sənsiz", Şıxəli Qurbanov), Mədinə, Azadə ("Mənim nəğməkar bibim" və "Bir cüt bədmüşk ağacı", Əkrəm Əylisli), Pırpız Sona ("Dəli yığıncağı", Cəlil Məmmədquluzadə), Zinyət ("Toy", Sabit Rəhman), Söylü ("Bəxt üzüyü", Vaqif Səmədoğlu) Nərmin, Anjel ("Unuda bilmirəm" və "Məhv olmuş gündəliklər", İlyas Əfəndiyev), Kleya ("Tülkü və üzüm", Gilerma Fiqeyredu), Pəricahan və Zöhrə ("Laçın yuvası" və "Eşq və intiqam", Süleyman Sani Axundov), Zəhra ("Bayramın birinci günü", Nazim Hikmət), Elektra ("Elektra", Sofokl), Dilbər ("Yenə o bağ olaydı...", Mlkayıl Müşfiqin şeirləri əsasında bədii kompozisiya), Vəfa ("Siz xoşbəxt yaşayın", Əlyar Yusifli) baş rolları ifa etmişdir.

Zemfira Əliyeva Televiziya tamaşalarında da yaddaqalan obrazlar ("Yad qızı", Orxan Kamal, "Manas" və s.) yaratmışdır. "Azərbaycanfilm"in "Pəncərə", çoxseriyalı "İtkin gəlin" filmlərində çəkilmişdir.

1972-ci ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrının truppasına daxil olmuşdur. 1988-1995-ci illərdə Akademik Milli Dram Teatrında çalışmışdır.

1 iyun 1974-cü ildə Əməkdar artist, 1 dekabr 1982-ci ildə isə Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

Zemfira Məmmədəli qızı Əliyeva 26 noyabr 1995-ci ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Zemfira Əliyeva / Naxçıvan MSSR, Mədəniyyət Nazirliyi.– Bakı: İşıq,1981.– [4] s.

Rəhimli, İ. Zemfira Əliyeva / İlham Rəhimli // Azərbaycan teatr tarixi / İ.Rəhimli.– Bakı, 2005.– S. 235.

Şərəf gətirən sənətkar Zemfira Əliyeva -75 / A.Kazımov // Ədalət.– 2016.– 14 dekabr.– S.4.

Azərbaycan mədəniyyətinin inkişafında xidmətləri olmuş bir nəslin üç nümayəndəsi : Unudulmazlar /R.Salmanlı //Azərbaycan .-2025.- 22 iyun (№127).- S.15.

İnternetdə:

https://nuhcixan.az/news/medeniyyet-turizm/57379-oyunu-ile-dunya-seviyyeli-teatrsunaslari-heyretlendiren-xalq-artisti-zemfira-eliyeva

http://www.anl.az/down/meqale/azerbaycan/2025/iyun/955971(meqale).pdf

Ella Yaqubova – 80

(1946) *Aktyor*



Ella İsmayıl qızı Yaqubova 1946-cı il dekabr ayının 30-da Gəncə şəhərində anadan olmuşdur.

Bakı şəhərində 44 saylı orta məktəbdə, 1963-1966-cı illərdə Bakı Mədəni Maarif Texnikumuna təhsil almışdır

1966-cı ildə Gəncə Dövlət Dram Teatrında fəaliyyətə başlamış, həmin teatrda müxtəlif dram əsərlərində iştirak etmişdir. 1968-ci ildə təyinatla Mingəçevir Dövlət Dram Teatrına göndərilmişdir. 300-dən artıq obrazlar ifa etmişdir.

O, Mingəçevir Dövlət Dram Teatrında Almaz "Almaz" (Cəfər Cabbarlı), Sara "Solğun çiçəklər" (Cəfər Cabbarlı), Gültəkin "Aydın" (Cəfər Cabbarlı), Tanya "Yaşar" (Cəfər Cabbarlı), Sona "Hacı Qara" (Mirzə Fətəli Axundov), Həcər Xanım "Eşq və İntiqam" (Süleyman Sani Axundov), Fəxrundə "Bayramın birinci günü" (Nazim Hikmət), Sara bəyim "Vətən dərdi" (Nazim Hikmət), Ana "Ana" (Hüseyn Cavid), Nənə "Nənəmin kələyi" (Əli Əmirli), Ana "İki yetimin taleyi" (Əli Əmirli), Nurcahan "Nənəmin Kələyi"(Əhməd Orucoğlu) və s. əsərlərdə baş rolların və birinci dərəcəli obrazların ifaçısı olmuşdur.

40-ildən artıq Mingəçevir Dövlət Dram Teatrında fəaliyyət göstərən aktrisa hal-hazırda Mingəcevir Dövlət Dram Teatrında yaranmış "Ümid" gənc aktyorlar studiyasında müəllim kimi fəaliyyət göstərərək Azərbaycan teatrı haqqında anlayış, səhnə danışığı, səhnə texnikası, səhnə hərəkəti və Azərbaycan teatrı haqqında tədris, maarif və mədəniyyət dərslərini keçmişdir.

Region televiziya kanalı olan "El" kanalında fəaliyyət göstərmişdir. Azərbaycan istehsalı olan "Xoca" filmində "Sultan" xanım obrazında və "Həyat varsa" teleserialında çəkilmişdir.

1989-cu ildən Azərbaycan Teatr Xadimləri İttifaqının üzvüdür.

Ella İsmayıl qızı Yaqubova 1988-ci ildə "Əmək veteranı" medalı, 2009-cu ildə Əməkdar artist fəxri adı, 2013-cü ildə "Tərəqqi" medalı, 2004-cü ildə "Qızıl Dərviş" mükafatı laureatı olmuş, Azərbaycan Teatr Xadimləri İttifaqında keçirilən bədii qiraət festivalının bir neçə dəfə iştirakçısı olmuş, ikinci dərəcəli diplom və digər mükafatlarla təltif edilmişdir. Aktrisaya 2018-2021-ci illərdə Prezident Mükafatı verilmişdir. 2018-ci ildə Xalq artisti fəxri adına, 8 may 2025-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

2017-ci il dekabr ayının 22-də Mingəçevir Dövlət Dram Teatrında Əməkdar artist Ella Yaqubovanın səhnə fəaliyyətinin 50, anadan olmasının 70 illik yubileyi qeyd edilmişdir.

Ədəbiyyat:

Şərəfli həyat yolu / B.Aslanov // Mədəni-maarif.– 2007.– № 5.– S.31-32.

Bir ömrün səhnə tarixçəsi / A.Bürcəliyev // Mədəniyyət.– 2017.– 20 dekabr.– S.12.

Səhnədə yaşanan ömür: Xalq artisti Ella Yaqubova-75 / A. Burcəliyev // Hürriyyət.– 2021.– 28 dekabr.– S.15.

Əyalətdə teatrımızı yaşadan sənətkar! / X. Gəncəli // Hürriyyət.– 2023.– 28 fevral.– S.15.

Qadın rollarının əlvan çələngi / A.Burcəliyev // Xalq qəzeti.– 2024.– 12 mart, № 55.– S.14.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Ella_Yaqubova

https://az.baku-art.com/az/taninm-sh-teatr-ve-kino-aktrisas-ella-yaqubovan-n-75-ya-tamam-olur

Salatın Əsgərova – 65

(1961-1991) *Milli Qəhrəman*



Salatın Əziz qızı Əsgərova 1961-ci il dekabr ayının 16-da Bakıda anadan olmuşdur.

1979-cu ildə M.Müşviq adına 18 saylı orta məktəbi əla qiymətlərlə başa vurmuş, Elə həmin il Azərbaycan Neft və Kimya İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) daxil olmuşdur. Mühəndislik ixtisası üzrə təhsil alsa da, ədəbiyyata olan həvəsi onu jurnalistika aləminə yönəltmişdir. Əvvəlcə qələmini ştatdankənar müxbir kimi sınamış, 1984-cü ildə müqavilə ilə "Bakı" qəzetində, 4 il sonra isə "Молодежь Азербайджана" (Azərbaycan gəncləri) qəzetində çalışmış, müxtəlif mövzularda çıxışlar etməyə başlamışdır.

Salatın Əsgərovun işıqlandırdığı məsələlər ölkənin ən vacib problemləri ilə bağlı olmuş, Qarabağ dərdi, torpaqlarımızın bütövlüyü yazılarının başlıca mövzularına çevrilmişdi. Tez-tez cəbhə xəttinə gedərək qaynar nöqtələrdən operativ materiallar hazırlayan Salatının ailəsi, iş yoldaşları dəfələrlə qarşısını almağa çalışsalar da, ona mane ola bilməmişdilər. 1991-ci il yanvar ayının 9-da içərisində Salatın Əsgərovanın olduğu maşın Laçından Şuşaya gələrkən, yolun 6-cı kilometrində, Qaladərəsi kəndi yaxınlığında erməni quldurları tərəfindən yaxın məsafədən atəşə məruz qalmışdır.

Tanınmış jurnalist vəhşicəsinə qətlə yetirilmişdir. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 294 saylı Fərmanı ilə Əsgərova Salatın Əziz qızına ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Salatın Əsgərovanın xatirəsi əbədiləşdirilmiş, Bakı şəhərində adına küçə verilmişdir. Salatın Əsgərova adına mükafat təsis olunmuşdur. Bakı buxtasındakı gəzinti kateri onun adını daşıyır. Yaşadığı binaya barelyefi vurulmuşdur. Yaxınlığında həlak olduğu kənd "Salatınkənd" adlanır. Nəbi Xəzri Salatın Əsgərova haqqında elegiya-poeması yazmışdır. 2021-ci il dekabr ayının 16-da Azərbaycanlı şəhid jurnalist Salatın Əsgərovanın 60 illik yubileyi ilə bağlı onlayn konfransda Azərbaycan Mədəniyyət Mərkəzi və Özbəkistan jurnalistləri də iştirak və çıxış etmişdilər. 2016-cı ildə Salatın Əsgərovaya həsr olunmuş qısametrajlı "Vətən üçün gedirəm" filminin təqdimatı keçmişdir.

Ədəbiyyat:

Sonunu düşünən qəhrəman olmaz!: Salatın Əsgərova: Azərbaycan qadını silsiləsindən dördüncü yazı / G. Eyvazlı // Ədəbiyyat qəzeti.– 2020.– 18 yanvar.– S.6.

Azərbaycanın ilk şəhid qadın jurnalisti Salatın Əsgərovanın doğum günüdür // Unikal.– 2021.– 17 dekabr.– S.13.

Salatın Əsgərova / Q.Aslan // Respublika.–2022.– 16 dekabr.– S.11.

Qadın - zərif və güclü: [hekayələr] / S. Nuruqızı; [layihə rəhb. R. Ələkbərov; ideya müəl. T. Axundov; red. B. Ələkbərova; rəssam N. Mustafayeva; buraxıl. məsul B. Oruclu; naşir E. Məmmədov; dizayner F. İbrahimova]; Azərbaycan Kitab, Maarif və Poliqrafçılar İctimai Birliyi.– [Bakı]: Təhsil, Everest, Çinar yayımları, [2024].– 144, [2] s.

Övladını azad və xoşbəxt Vətəndə böyütmək istəyirdi...: Salatın Əsgərovanın şəhid olmasından 34 il ötür / Y.Bayramova // Yeni Azərbaycan.– 2025.– 9 yanvar (№3).– S.8.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Salat%C4%B1n_%C6%8Fsg%C9%99rova

https://avciya.az/%C9%99sg%C9%99rova-salatin-%C9%99ziz-qizi/

Riad Əhmədov – 70

(1956-1992) *Milli Qəhrəman*



Riad Fikrət oğlu Əhmədov 1956-cı il dekabr ayının 20-də Bakı şəhərində anadan olmuşdur.

1964-1974-cü illərdə Bakıdakı 134 saylı məktəbdə orta, 1974-1979-cu illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) hüquq fakültəsində ali təhsil almışdır. 1976-1979-cu illərdə Azərbaycan SSR Ədliyyə Nazirliyi yanında Məhkəmə Ekspertizası İnstitutunda laborant, 1979-1980-ci illərdə həmin nazirliyin Qanun Layihələrinin Hazırlanması və Qanunvericiliyin Sistemləşdirilməsi idarəsində məsləhətçi, 1980-1981-ci illərdə isə Ədliyyə Nazirliyinin kadrlar şöbəsində baş məsləhətçi vəzifələrində çalışmışdır.

1981-1982-ci illərdə DTK-nın Minskdəki Ali məktəbində təhsil almış, 1984-cü ildə isə DTK-nın Y.V.Andropov adına institutu nəzdindəki kurslarda dinləyici olmuşdur. Təhlükəsizlik orqanlarında qüsursuz fəaliyyəti və xidmətdə əldə etdiyi önəmli nəticələrə görə dəfələrlə təşəkkürə, həmçinin 1988-ci ildə SSRİ Silahlı Qvvələrinin 70-ci ildönümünə həsr olunmuş xatirə medalına layiq görülmüşdür. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin yarandığı gündən Riad ilk könüllülər sırasında erməni işğalçılarına qarşı döyüşlərdə iştirak etmiş, Çaykənd uğrunda döyüşdə yaralansa da, növbəti əməliyyatlara qatılmışdır

Polkovnik-leytenant Riad Əhmədov 1992-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Kəşfiyyat İdarəsinin rəis müavini vəzifəsinə təyin olunmuşdur. Riad Əhmədovun başçılıq etdiyi xüsusi kəşfiyyat dəstəsi Yuxarı Qarabağın müxtəlif yaşayış məntəqələrində çətin döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş, bir sıra kəndləri düşməndən azad etmiş, düşmənin xeyli canlı qüvvəsini və hərbi texnikasını məhv etmişdir. Dağlıq Qarabağ uğrunda gedən döyüşlərdə şəxsi şücaəti və igidliyi ilə seçilən Riyad Əhmədov 1992-ci il yanvarın 26-da "Daşaltı əməliyyatı"nda itkin düşmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Əhmədov Riad Fikrət oğluna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Riad Əhmədovun uzun illər yeri müəyyən olunmamış, 18 sentyabr 2023-cü ildə Bakıda keçirilən "İtkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirmək üçün milli və qlobal səylərin artırılması" üzrə beynəlxalq konfransda onun və digər itkin düşmüş azərbaycanlıların nəşlərinin tapıldığını və müəyyən edildiyi açıqlanmışdır.

30 sentyabr 2023-cü ildə Dövlət Təhlükəsizliyi Xidmətinin Mədəniyyət Mərkəzində Riad Əhmədovla vida mərasimi təşkil olunmuşdur. İkinci Fəxri Xiyabanda dəfn edilmişdir.

Riad Əhmədovun keçdiyi şərəfli döyüş yolunu əks etdirən "Qayıt Riad" və "İgidnamə" adlı sənədli filmlər çəkilmişdir. Adına Sabunçu qəsəbəsində küçə verilmişdir. Hazırda Bakı şəhərindəki 203 saylı orta məktəb onun adını daşıyır.

Ədəbiyyat:

Riad Əhmədov / R.Zeynalov // Sərhəd.–1996.– 2 mart.- S.3.

Başımızı uca tutan şəhid anaları: Şəhidlərimizi unutmayaq / T.Seyidzadə // Azad Azərbaycan.– 2016.– 21 dekabr.– S.7.

Riad Əhmədov: Qürurla anırıq / M.Mirzə // Respublika.– 2022.– 20 dekabr.– S.8.

Azərbaycanın Milli Qəhrəmanı Əhmədovun vida və dəfn mərasimi keçirilib // Azərbaycan.– 2023.– 1 oktyabr.– S.12.

Vəzir Orucov – 70

(1956-1993) *Milli Qəhrəman*



Vəzir Surxay oğlu Orucov 1956-cı il dekabr ayının 26-da Tərtər rayonunun Xoruzlu kəndində anadan olmuşdur.

Əslən Qərbi Azərbaycanın Dərələyəz mahalından idi. Ermənilərin təzyiqləri nəticəsində öz doğma yurdlarını tərk etdikdən sonra ailəsi ilə birlikdə, 1950-ci ildə Tərtər rayonunun Qarağaclı kəndinə köçmüşlər. Orta təhsilini Xoruzlu kəndində almış, 1974-cü ildə Bakı Yüngül Sənaye Texnikomuna daxil olmuş və bir ildən sonra hərbi xidmətə çağrılmışdır. 1977-ci ildə ordudan tərxis olunaraq, yarımçıq qalmış təhsilini davam etdirmişdir.

Vəzir Orucov 1984-cü ildə Rusiyanın Arxangelsk vilayətinə köçmüş, lakin 1992-ci ildə doğma torpağında gedən döyüşlərdə iştirak etmək üçün Vətənə qayıtmışdır. O, 1992-ci ilin may ayının 4-də Tərtər özünü müdafiə batalyonuna daxil olmuş, siravi döyüşçüdən, batalyon komandirinin müavini vəzifəsinədək yüksəlmişdir. O, həmçinin batalyonun kəşfiyyat bölməsinin rəhbərliyini də öz üzərinə götürmüşdür. Batalyonun başlayacağı bütün döyüş əməliyyatlarından azı bir gün əvvəl özünün seçdiyi bir qrup döyüşçü ilə düşmən arxasına keçir, onların canlı qüvvəsi və texnikası barədə dəqiq məlumatlar gətirirdi.

Vəzir Orucov Marquşevan, Levonarx, Madagiz, Akoip Komori, Sərsəng su anbarı, Drombon, Çıldıran, Vaqauz kəndləri uğrunda gedən döyüşlərdə şəxsi şücaət göstərərək, düşmənin bir çox planını puça çıxarmışdır. O, 1 sentyabr 1992-ci ildə Çıldıran kəndi uğrunda gedən döyüşdə ağır yaralanmış, bir müddət müalicə aldıqdan sonra yenidən cəbhəyə qayıtmışdır. O, cəsur bir döyüşçü kimi həmişə döyüş əməliyyatlarının önündə getmiş, əfsanəvi qəhrəman kimi tanınmışdır.

22 mart 1993-cü il Ağdərə yaxınlığında Qlobus yüksəkiliyi uğrunda gedən ağır döyüşdə qəhrəmancasına şəhid olmuşdur. Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Resbublikası Prezidentinin 27 mart 1993-cü il tarixli 495 saylı fərmanı ilə Orucov Vəzir Surxay oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Vəzir Orucov 2015-ci ildə Tərtər şəhərindəki Veteranlar bağında büstü ucaldılmış və 3 iyulda Tərtər şəhərində adına küçə verilmişdi.

Ədəbiyyat:

Orucov Vəzir Surxay oğlu // Əsgərov, V. Azərbaycanın Milli Qəhrəmanları.– Sumqayıt: Dərələyəz-M, 2010.– S.235-236.

Quliyev, L. Tərtərdə küçəyə Milli Qəhrəmanın adı verilib / L.Quliyev // Azərbaycan.– 2015.– 5 iyul.– S.7.

Seyidzadə, T. Şəhidlərimizlə qürur duyuruq / T.Seyidzadə // Azad Azərbaycan.– 2017.– 8 aprel.– S.7.

Vəzir Orucov / M.Cəfərov // Respublika.–2022.– 27 dekabr.– S.8.

Dərələyəz şəhidləri / R. Kamal; red. A. Səfolu; buraxıl. məsul: K. Dərələyəzli, V. İsaqoğlu; [ön söz Z. Həsənalıyev; dizayner A. Fərzəliyeva].– Bakı: [Dərələyəz-M Poliqrafiya Mərkəzi], 2023.– 215, [1] s.

Birinci və İkinci Qarabağ müharibələri: Azərbaycanın erməni işğalçıları üzərində qələbəsinə etnoloji baxış: [Monoqrafiya] / N. Quliyeva; red. Ş. Bünyadova; [buraxıl. məsul C. Niftəliyeva; bədii tərtibat R. Mirzalıyeva]; AMEA, A. A. Bakıxanov adına Tarix və Etnologiya İn-tu.– Bakı: [Parlaq İmzalar], 2024.– 308, [4] s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/V%C9%99zir_Orucov

Elbrus Bayramov - 40

(1986-2020)

Mayor



Elbrus Eyvaz oğlu Bayramov 1986-cı il 1 dekabr tarixində Beyləqan rayonunun Milabad qəsəbəsində anadan olmuşdur.

O, 1994-2002-ci illərdə Milabad qəsəbə tam orta məktəbində, 2002-2005-ci illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2005-2009-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil almışdır.

Elbrus Bayramov 2016-cı ilin 2-5 aprelində baş verən Aprel döyüşlərininin iştirakçısı olmuşdur.

Xidməti dövründə göstərdiyi səmərəli fəaliyyətə görə 2008-ci ildə "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, 2013-cü ildə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, 2018-ci ildə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun mayoru olan Elbrus Bayramov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Elbrus Bayramov oktyabrın 2-də Füzuli rayonunun Qərvənd istiqamətində gedən döyüşlər zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Beyləqan rayonunun Milabad qəsəbəsində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elbrus Eyvaz oğlu Bayramov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı və "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

2021-ci ildə Beyləqan şəhəri Təbiət və Humanitar Fənlər Təmayüllü Liseyə Vətən Müharibəsi Qəhrəmanı Elbrus Bayramovun adı verilmişdir.

1 DEKABR

Taleh Aslanov - 30

(1996-2020) *Əsgər*



Taleh Elman oğlu Aslanov 1996-cı il 1 dekabr tarixində Goranboy şəhərində anadan olmuşdur. Orta təhsilini Goranboy rayonu Safikürd kənd orta məktəbində almış və daha sonra Azərbaycan Dövlət Aqrar Universitetində təhsilini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Taleh Aslanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər, Suqovuşan, Murovdağ istiqamətində aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. 1 oktyabr tarixində Murovdağ döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Goranboy rayonu Safikürd kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Taleh Elman oğlu Aslanov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020- ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

1

Elnur Rüstəmov - 40

(1986-2020) *MAHHXHQ əsgər*



Elnur İsmayıl oğlu Rüstəmov 1986-cı il 1 dekabr tarixində Beyləqan rayonunun Kəbirli kəndində anadan olmuşdur. 1992-2003-cü illərdə Eldar Əliyev adına Beyləqan rayon Kəbirli kənd tam orta məktəbdə təhsil almışdır. 2004-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. Hərbi xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elnur Rüstəmov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində atıcı olaraq iştirak etmişdir. 8 oktyabr tarixində Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Beyləqan rayonunun Kəbirli kəndində Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elnur İsmayıl oğlu Rüstəmov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

DEKABR
2

Taleh Babayev - 40

(1986-2020)

Əsgər



Taleh Xanmurad oğlu Babayev 1986-cı il 2 dekabr tarixində Quba rayonunda anadan olmuşdur. Orta təhsilini Quba rayonunda İsnov kənd məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Taleh Babayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsinə könüllü olaraq qoşulmuşdur. Füzuli və Şuşa şəhərlərinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmişdir. Noyabrın 6-da Şuşa şəhəri istiqamətində döyüş tapşırığını yerinə yetirərkən düşmən tərəfindən açılan artilleriya atəşi nəticəsində qəhrəmancasına şəhid olmuşdur. Quba rayonunun Gülərzi kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Taleh Xanmurad oğlu Babayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

2

Sadiq Baxışov - 25

(2001-2020)

Əsgər



Sadiq Bəkir oğlu Baxışov 2001-ci il dekabrın 2-də Xaçmaz rayonunun Çarxı kəndində anadan olmuşdur. O, orta təhsilini Xaçmaz rayonu Çarxı kənd tam orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Sadiq Baxışov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan silahlı birləşmələrinin işğalı altında olan ərazilərin azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzuli və Suqovuşan istiqamətlərində aparılan döyüş əməliyyatlarında qəhrəmanlıq göstərmişdir. Oktyabrın 28-də Ağdərə istiqamətində döyüş tapşırığını yerinə yetirən zaman qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Sadiq Bəkir oğlu Baxışov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

Ayaz İmanzadə - 30

(1996-2020) *Leytenant*



Ayaz Daşqın oğlu İmanzadə 1996-cı il dekabrın 3-də Neftçala şəhərində anadan olmuşdur.

Orta təhsilini Neftçala şəhəri Samid İmanov adına 1 saylı tam orta məktəbdə almış, 2012-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmuşdur. 2015-2019-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirmiş və ali hərbi təhsilini müvəffəqiyyətlə tamamlamışdır.

2019-cu ildən etibarən "N" saylı hərbi hissədə tağım komandiri vəzifəsində xidmətə başlamış, leytenant hərbi rütbəsi almışdır.

Azərbaycan Ordusunun leytenantı olan Ayaz İmanzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Ayaz İmanzadə oktyabrın 2-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmişdur. Neftçala şəhərinin Şəhidlər Xiyabanı dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ayaz Daşqın oğlu İmanzadə ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 16 dekabr.– S.6-12.

İsaxan, E. Ən böyük arzusundan da uca zirvədə, müqəddəs şəhidlik zirvəsindədir [Mətn] /E. İsaxan//Hərbi And. - 2023. - 24 noyabr, №43. - S.11.

Quluqızı, N. Onu belə xatırlayıram: [xatirə povesti: şeirlər] /N. Quluqızı; red. Vidadi Turan Ağdamlı [ön söz]; illüstrasiya H.Kərimova; dizayner F.Məhərrəmov. - Bakı: [Maarif], 2023.- 131, [1] s.

Sərvaz. Nəfəs kimi...Can kimi /Sərvaz //Ədəbiyyat qəzeti. - 2023. - 2 dekabr, №46.- S.25.

Yarımçıq qalmış arzular [Mətn] : (Şəhid xanımlarının ömür-gün yoldaşları ilə bağlı xatirələri) /Azərb. Resp-nın Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, "Ahıllara və Tənhalara Dəstək" İctimai Birliyi ; tərt. R. Məmmədova [ön söz] ; red. O. Səmədov.- Bakı: [Mütərcim], 2023.- 127, [1] s.: portr., fotoşək., 21 sm.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/3682 http://www.anl.az/down/meqale/edebiyyat/2023/dekabr/884074(meqale).pdf

http://www.anl.az/down/meqale/herbi_and/2023/noyabr/878087(meqale).pdf

DEKABR

4

Ülvi Azayev - 25

(2001-2020)

Əsgər



Ülvi Maqsud oğlu Azayev 2001-ci il dekabrın 4-də Kürdəmir rayonunun Ərəbqubalı kəndində anadan olmuşdur. Orta təhsilini Kürdəmir rayonu, Ərəbqubalı kənd tam orta məktəbində almışdır. 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Ülvi Azayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Laçının, Tərtərin, Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 2-də Ağdərə istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Kürdəmir rayonunun Ərəbqubalı kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ülvi Maqsud oğlu Azayev ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.29-34.

4

Şükran Şükürani - 25

(2001-2020)

Əsgər



Şükran Rüfət oğlu Şükürani 2001-ci il dekabrın 4-də Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Xətai rayonu 70 nömrəli orta məktəbdə almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Şükran Şükürani 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Tərtərin, Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə böyük igidlik göstərmişdir. Oktyabrın 7-də Suqovuşan istiqamətində döyüş tapşırığını yerinə yetirən zaman qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Şükran Rüfət oğlu Şükürani ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.


Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

Rəşad Şiriyev - 25

(2001-2020)

Əsgər



Rəşad Rasim oğlu Şiriyev 2001-ci il dekabrın 5-də Lerik rayonunun Bürsülüm kəndində anadan olmuşdur. Orta təhsilini Bakı şəhəri Türkan qəsəbəsində yerləşən 262 nömrəli orta məktəbdə almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Rəşad Şiriyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Ağdərənin, Laçının, Tərtərin, Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərdə igidliklə vuruşmuşdur. Oktyabrın 7-də Talış-Suqovuşan istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Rəşad Rasim oğlu Şiriyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.29-34.

Röyal Cəfərov - 35

(1991-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

Röyal Vaqif oğlu Cəfərov 1991-ci il dekabrın 7-də Gəncə şəhərində anadan olmuşdur. 2009-cu ildə Gəncə şəhəri N. Aydın adına 18 nömrəli tam orta məktəbi bitirmişdir.

2010-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2012-ci ildən Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində MAHHXHQ kimi xidmətə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Röyal Cəfərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Murov zirvəsi, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları istiqamətində gedən döyüşlərdə vuruşmuşdur. Qubadlı rayonunun işğaldan azad olunmasında böyük şücaət göstərərək rayonun mərkəzində yerləşən beşmətrəbəli binanın üstünə Azərbaycan Respublikasının dövlət bayrağını sancmışdır. Noyabrın 4-də Laçın dəhlizində gedən döyüşlər zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. 7 noyabr 2020-ci ildə Gəncə şəhərində Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Röyal Vaqif oğlu Cəfərov ölümündən sonra "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə", və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şixamir Qaflanov - 40

(1986-2020)

Mayor



Şixamir Oruc oğlu Qaflanov 1986-cı il dekabrın 7-də Zaqatala rayonunun Dombabinə (hal-hazırda Üçüncü Tala) kəndində anadan olmuşdur. 1993-2004-cü illərdə Zaqatala rayonunda Dombabinə Kənd tam orta məktəbində təhsil almışdır.

2005-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2006-cı ildə Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində "Pələng" Xüsusi Təyinatlı Dəstəsinin sıralarında xidmətə başlamışdır. 2007-ci ildə Daxili Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi xidmətini davam etdirmişdir. 2008-ci ildə Daxili İşlər Nazirliyinin (DİN) nəzdində fəaliyyət göstərən Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbinə daxil olmuş, 2010-cu ildə təhsilini başa vuraraq leytenant hərbi rütbəsi almışdır. 2010-cu ildən Leytenant Şixamir Qaflanov Daxili Qoşunların Zaqatala rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətini davam etdirmişdir.

2012-ci ildə Türkiyə Respublikasının İzmir vilayətinin Foça ilçəsində yerləşən Jandarma Komandan Məktəbi və Təlim Mərkəzi Komandanlığında "Zabit Komando" kurslarında təhsil almışdır. 2019-cu il eyni təhsil mərkəzində "Jandarma Komando" kurslarını tamamlamışdır.

Azərbaycan Ordusunun mayoru olan Şixamir Qaflanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində "Bəbir" Xüsusi Təyinatlı Dəstənin komandiri kimi fəaliyyət göstərmiş və 40 nəfərdən ibarət şəxsi heyətlə birlikdə müvafiq döyüş tapşırıqlarının icrasına başlamışdır. Füzuli rayonunun Qaraxanbəyli istiqamətində, həmçinin Cəbrayıl rayonunun Lələtəpə istiqamətindən başlayaraq Arazboyu istiqamətində keçirilən əməliyyatlarda iştirak etmişdir. Döyüşlərin nəticəsi olaraq Cəbrayıl istiqamətidə olan əlverilşli mövqelər və yaşayış məntəqələri Azərbaycan Ordusu tərəfinən işğaldan azad edilmişdir. Mayor Şıxamir Qaflanov 2020-ci il oktyabrın 19-da Xocavənd rayonu istiqamətində döyüş tapşırığını icra edərkən qəhrəmancasına şəhid olmuşdur. Zaqatala rayonu III Tala kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Şixamir Oruc oğlu Qaflanov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şixamir Qaflanovun şəxsi əşyaları Milli Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fonduna təhvil verilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6 -12.

Mirzə, M. Şixamir Qaflanov: Qürurla anırıq /M. Mirzə//Respublika.-2022.- 7 noyabr.- S.11.

Müşfiq, Ş. Əbədiyyətdəki əziz ünvanlarımız: Şəhidlər ölməz, Vətən bölünməz! /Şahanə Müşfiq //525-ci qəzet. - 2021. - 24 iyun. - S.14-15

7

Zərimxan Həsənli - 25

(2001-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Zərimxan Rafiq oğlu Həsənli 2001-ci il dekabrın 7-də Tərtər rayonunun Bəyimsarov kəndində anadan olmuşdur. Orta təhsilini Tərtər rayonu, Bəyimsarov kəndi tam orta məktəbində almışdır.

2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Zərimxan Həsənli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində artilleriya bölüyündə qumbaraatan kimi iştirak etmişdir. Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə böyük igidlik göstərmişdir. Oktyabrın 11-də Füzuli-Hadrut istiqamətində döyüş tapşırığının icrası zamanı düşmən tərəfindən atılan minaatan mərmisinin partlaması nəticəsində şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Zərimxan Rafiq oğlu Həsənli ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

8

Samir Fərzəliyev - 30

(1996-2020)

MAHHXHQ əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

Samir Vaqif oğlu Fərzəliyev 1996-cı il dekabrın 8-də Ağdam rayonunun Quzanlı qəsəbəsində anadan olmuşdur. 2002-2011-ci illərdə Quzanlı qəsəbə orta məktəbində təhsil almışdır. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2020-ci ildə müddətdən artıq həqiqi hərbi xidmətçi (MAHHXQ) hazırlıq kursuna yazılmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Samir Fərzəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir. Tərtərin və Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə böyük igidlik göstərmişdir. Oktyabrın 15-də Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirərkən şəhid olmuşdur. Ağdam rayonunun Quzanlı Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Samir Vaqif oğlu Fərzəliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

DEKABR

9

Ramil Əliyev - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.10-17.

Ramil Vüqarəddin oğlu Əliyev 1996-cı il dekabrın 9-da Hacıqabul rayonunda anadan olmuşdur. Orta təhsilini 2002-2013-cü illərdə Şirvan şəhəri N.Quliyev adına 9 nömrəli tam orta məktəbində almışdır. 2013-cü ildə Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollecinə daxil olmuşdur. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ramil Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. O, Cəbrayıl, Qubadlı, Füzuli, Xocavənd, Şuşa və Hadrut qəsəbələrinin azadlığı uğrunda gedən döyüşlərdə böyük igidlik göstərmişdir. Noyabrın 5-də Qubadlı istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur.

Şirvan şəhər Şəhidlər Xiyabanında dəfn edilmişdir.


Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ramil Vüqarəddin oğlu Əliyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

10

Tacəddin Abbasov - 25

(2001-2020)

Əsgər



Tacəddin Vüqar oğlu Abbasov 2001-ci il dekabrın 10-da Daşkəsən şəhərində anadan olmuşdur. Orta təhsilini Daşkəsən rayonu, Qabaqtəpə kənd ümumi orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Tacəddin Abbasov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası məqsədilə başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 26-da Füzuli istiqamətində döyüş tapşırığının icrası zamanı qəhrəmancasına şəhid olmuşdur. Daşkəsən şəhər Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Tacəddin Vüqar oğlu Abbasov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6 -12.

Cavad İbadov - 30

(1996-2020) *MAHHXHQ çavuş*



Cavad Cabir oğlu İbadov 1996-cı il dekabrın 10-da Masallı şəhərində anadan olmuşdur. Orta təhsilini 2002-2013-cü illərdə Şəhid Masallı şəhəri Sakit Tağıyev adına 4 saylı tam orta məktəbdə almışdır. 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. Hərbi xidmətini başa vurduqdan sonra Daxili Qoşunlarının Xüsusi Təyinatlı Dəstəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu (MAXE) kimi fəaliyyət göstərmişdir.

Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu olan Cavad İbadov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 16-da Hadrut döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirən zaman qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Cavad Cabir oğlu İbadov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.


Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

10

Məmmədiyə Cabbarzadə - 40

(1986-2020) *Gizir*



Məmmədiyə Məhəmməd oğlu Cabbarzadə 1986-cı il dekabrın 10-da Şəki şəhərində anadan olmuşdur.

Orta təhsilini Şəki şəhər 3 saylı məktəbdə almışdır.

Azərbaycan Ordusunun giziri olan Məmmədiyə Cabbarzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 27-də Füzuli döyüşləri zamanı qıəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Məmmədiyə Məhəmməd oğlu Cabbarzadə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.


DEKABR

11

Zaur Ağalı - 30

(1996-2020)

Əsgər



Zaur Kamil oğlu Ağalı 1996-cı il dekabrın 11-də Lənkəran rayonunun İstisu qəsəbəsində anadan olmuşdur. 2003-2014-cu illərdə İstisu qəsəbəsi R.Qurbanov adına orta məktəbədə təhsil almışdır. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Zaur Ağalı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin, Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 22-də Hadrut döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur. Lənkəran rayonunun İstisu qəsəbəsində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Zaur Kamil oğlu Ağalı ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

12

Vüqar Quliyev - 25

(2001-2020)

Əsgər



Vüqar Füzuli oğlu Quliyev 2001-ci il dekabrın 12-də Ağsu rayonunun Qaraqaşlı kəndində anadan olmuşdur.Orta təhsilini Ağsu şəhər 4 nömrəli tam orta məktəbdə almışdır.

2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Vüqar Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 3-də Xocavənd rayonu istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Ağsu rayonunun Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Vüqar Füzuli oğlu Quliyev ölümündən "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

Aqşin Quliyev - 30

(1996-2020) *Kiçik gizir*



Aqşin Dilavər oğlu Quliyev 1996-cı il dekabrın 12-də Goranboy şəhərində anadan olmuşdur. 2002-2013-cü illərdə Ə.Şərbətov adına Çiçəkli kənd tam orta məktəbində orta təhsil almışdır. 2013-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. Xidmət dövründə XTQ nəzdində hıərbi kurslara qatılmışdır. 2016-cı ilin Aprel döyüşlərində böyük şücaət göstərmiş və "İgidliyə görə" medalı ilə təltif olunmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Aqşin Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində Hadrutun, Füzulinin azad olunmasında böyük şücaət göstərmişdir. Oktyabrın 16-da Füzuli döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Noyabrın 17-də Sabirabad rayonunun Çiçəkli kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Aqşin Dilavər oğlu Quliyev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə"və "Füzulinin azad edilməsinə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6 -12.

Sadiq Əsgərov - 30

(1996-2020) *MAHHXHQ əsgər*



Sadiq Elbəyi oğlu Əsgərov 1996-cı il dekabrın 12-də Yevlax rayonunun Nemətabad kəndində anadan olmuşdur.

2003-2014-cü illərdə Yevlax rayon Nemətabad kənd tam orta məktəbində orta təhsil almışdır.

2015-ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət dövrü keçmişdir. 2020-ci ildən eyni hərbi birləşmədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Sadiq Əsgərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində mexanik-sürücü kimi iştirak etmişdir. O, Suqovuşan istiqamətində gedən döyüşlərdə böyük igidlik göstərmişdir.

Sentyabrın 29-da Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Sadiq Elbəyi oğlu Əsgərov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

DEKABR
14

İntizam Qaçayev - 25

(2001-2020)

Əsgər



İntizam Əkbər oğlu Qaçayev 2001-ci il dekabrın 14-də Göyçay rayonunun II Ərəbcəbirli kəndində anadan olmuşdur. Orta təhsilini Göyçay rayonu, Ərəbcəbirli kənd tam orta məktəbində almışdır. 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan İntizam Qaçayev 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir.

Cəbrayıl və Qubadlı rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə böyük igidlik göstərmişdir. Oktyabrın 23-də Cəbrayıl rayonu istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. O, Göyçay rayonu Ərəbcəbirli kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən İntizam Əkbər oğlu Qaçayev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə"və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

16

Qurban Mehdizadə - 30

(1996-2020)

MAHHXHQ çavuş



Qurban Aydın oğlu Mehdizadə 1996-cı il dekabrın 16-da Ağstafa rayonunun Göycəli kəndində anadan olmuşdur. Orta təhsilini Ağstafa N. Həmzəyev adına Göycəli kənd tam orta məktəbdə almışdır.

Azərbaycan Silahlı Qüvvələrinin çavuşu olan Qurban Mehdizadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 27-də Murovdağ döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Qurban Aydın oğlu Mehdizadə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan. – 2021.- 25 iyun.- S.61-65.

Faiq Qalayçıyev - 25

(2001-2020)

Əsgər



Qalayçıyev Faiq İsrafil oğlu 2001-ci il dekabrın 16-da Balakən rayonunun Kortala kəndində anadan olmuşdur.

2008-2019-cu illərdə Balakən rayonunun Kortala kəndində yerləşən Qurban Nağıyev adına tam orta məktəbdə təhsil almışdır. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu idi. O, Çevik Hərəkət Qüvvələrinin Briqadasında pulemyotçu kimi xidmət etmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Faiq Qalayçiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Zəngilan istiqamətlərində döyüşlərdə iştirak etmişdir. Noyabrın 1-də Zəngilan rayonu ərazisində yüksəkliklərin düşməndən təmizlənməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Noyabrın 3-də Balakən rayonunun Kortala kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Qalayçıyev Faiq İsrafil oğlu ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.


Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Anar Mehdiyev - 25

(2001-2020)

Əsgər



Anar İlham oğlu Mehdiyev 2001-ci il dekabrın 16-da Şabran rayonunun Zeyvə kəndində anadan olmuşdur. Orta təhsilini Zeyvə kənd orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Anar Mehdiyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 16-da Füzuli döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirən zaman qəhrəmancasına şəhid olmuşdur. Şabran rayonunun Zeyvə kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Anar İlham oğlu Mehdiyev ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" və "Döyüşdə Fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Eldost Hüseynov - 30

(1996-2020) *Leytenant*



Eldost Asəf oğlu Hüseynov 1996-cı il dekabrın 16-da Şamaxı rayonunun Talışnuru kəndində anadan olmuşdur.

Orta təhsilini 2002-2013-cü illərdə Şamaxı rayonu, Ovculu kəndi Talışnuru tam orta məktəbində almışdır. 2013-2017-ci illərdə isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) ali təhsil almışdır. 2017-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Eldost Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 7-də Talış döyüşləri zamanı döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Şamaxı şəhər Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Eldost Asəf oğlu Hüseynov ölümündən sonra III dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6 -12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.66-67.

Müşfiq, Ş. Əbədiyyətdəki əziz ünvanlarımız: Şəhidlər ölməz, Vətən bölünməz! / Şahanə Müşfiq //525-ci qəzet. - 2021. -1 iyul. - S. 14-15.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/2591

http://www.anl.az/down/meqale/525/2021/iyul/750029.htm

DEKABR

17

Şahmurad İsgəndərov - 30

(1996-2020)

Əsgər



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

Şahmurad Natiq oğlu İsgəndərov 1996-cı il dekabrın 17-də Şamaxı rayonunun Göylər kəndində anadan olmuşdur.

2003-cü ildə Şamaxı rayon Göylər kəndi Ə.Məmmədov adına 1-saylı tam orta məktəbində təhsil almışdır. 2016-cı il ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Şahmurad İsgəndərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 16-da Ağdərə istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Şamaxı rayonunun Göylər kəndində dəfn olunmuşdur.


Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Şahmurad Natiq oğlu İsgəndərov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

17

Ceyhun Orucov - 30

(1996-2020)

Gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Ceyhun Namaz oğlu Orucov 1996-cı il dekabrın 17-də Şamaxı rayonunun Nağaraxana kəndində anadan olmuşdur.

2003-2014-cü illərdə A.S.Qəhrəmanov adına Nağaraxana kənd tam orta məktəbində təhsil almışdır. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur. Hərbi xidmətdə göstərdiyi nümunəvi fəaliyyətə görə gizirlik kurslarını uğurla bitirib "gizir" hərbi rütbəsinə layiq görülmüşdür. 2018-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində gizir hərbi rütbəsində xidmətini davam etdirmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ceyhun Orucov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 30-da Füzuli istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Şamaxı şəhər Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ceyhun Namaz oğlu Orucov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə ordeni, "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

DEKABR

17

Sənan Ələsgərov - 30

(1996-2020)

MAHHXHQ əsgər



Sənan Əkrəm oğlu Ələsgərov 1996-cı il dekabrın 17-də Tovuz rayonunun Alakol kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə N.Sadıqov adına Alakol kənd tam orta məktəbində təhsil almışdır. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2016-cı ildən etibarən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirmişdir. 2016-cı ilin 2-5 aprel döyüşlərinin iştirakçısı olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Sənan Ələsgərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı kəşfiyyatçısı kimi Füzuli və Cəbrayıl rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 29-da Füzuli istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş, Tovuz rayonunun Alakol kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Sənan Əkrəm oğlu Ələsgərov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə ordeni, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6 -12.

18

İslam Mollayev - 30

(1996-2020)

Əsgər



İslam Şəmsəddin oğlu Mollayev 1996-cı il yanvarın 18-də Balakən rayonunun Püştətala kəndində anadan olmuşdur.

2003-2014-cü illərdə Ə.Şirinov adına Qaravəli kənd tam orta məktəbində təhsil almışdır. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İslam Mollayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Ağdərə və Suqovuşan istiqamətində gedən döyüşlərdə könüllü olaraq iştirak etmişdir. Oktyabrın 13-də Ağdərə döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş, Balakən rayonunun Püştətala kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən İslam Şəmsəddin oğlu Mollayev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

DEKABR

18

Elvin Orucov - 35

(1991-2020)

Gizir



Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6 -12.

Elvin Rövşən oğlu Orucov 1991-ci il dekabrın 18-də Qazax rayonunda anadan olmuşdur.

Orta təhsilini 1999-2005-ci illərdə Rusiya Federasiyasının Nijni Novqorod şəhərində, 2005-2009-cu illərdə isə İ.Qayıbov adına 3 saylı Qazax şəhər tam orta məktəbində almışdır. 2010-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2013-cü ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində "gizir" hərbi rütbəsində xidmətini davam etdirmişdir. 2016-cı ilin 2-5 aprel döyüşlərinin iştirakçısı olmuşdur.

Azərbaycan Ordusunun giziri olan Elvin Orucov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli rayonunun azad edilməsi uğrunda gedən ağır döyüşlərdə iştirak etmişdir. Sentyabrın 27-də Füzuli istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuş, Qazax rayon Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elvin Rövşən oğlu Orucov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

19

Orxan Əliyev - 35

(1991-2020)

Əsgər



Orxan Ədalət oğlu Əliyev 1991-ci il dekabrın 19-da Xəzər rayonunun Şağan qəsəbəsində anadan olmuşdur. Orta təhsilini Xətai rayonu Füzuli Gözəlov adına 124 nömrəli tam orta məktəbdə almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Orxan Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşan, Tərtər, Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 16-da Ağdərə istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmüşdur. Xəzər rayonunun Şağan qəsəbəsində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Orxan Ədalət oğlu Əliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azadlığına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

İlkin Məmmədzadə - 35

(1991-2020)

Baş leytenant



İlkin Əzizağa oğlu Məmmədzadə 1991-ci il dekabrın 19-da Sumqayıt şəhərində anadan olmuşdur. 1997-2008-ci illərdə Sumqayıt şəhərindəki 42 saylı tam orta məktəbdə təhsil almışdır.

2008-2012-ci illərdə Azərbaycan Dövlət Aqrar Universitetində bakalavr təhsilini, 2014-2016-cı illərdə isə Gəncə Dövlət Aqrar Universitetində magistr təhsilini tamamlamışdır.

2012-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2016-cı ildən Azərbaycan Ordusunda xidmətini leytenant kimi fəaliyyət göstərmişdir. Xidməti dövründə nümunəvi xidmətinə görə bir sıra fəxri fərmanlar və təşəkkürnamələrlə təltif olunmuşdur. 2020-ci ildə Baş leytenant rütbəsi almışdır.

Azərbaycan Ordusunun baş leytenantı olan İlkin Məmmədzadə 27 sentyabr 2020-ci il Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. O, döyüşlər zamanı təxminən 21 yaralı hərbiçini döyüş meydanından çıxarmışdır. Oktyabr 7-də Tərtər-Ağdərə istiqamətində "Tülkü Dərəsi" adlanan ərazidə açıq döyüşdə hücum zamanı qəhrəmancasına şəhid olmuşdur. 8 oktyabrda 2020-ci ildə Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən İlkin Əzizağa oğlu Məmmədzadə ölümündən sonra III dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azadlığına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6 -12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.– 2021.– 25 iyun.– S.66-67.

Aslan, Q. Baş leytenant əsgərlərimizin düşünən beyni idi... /Qədir Aslan//Respublika. - 2020. - 29 dekabr.- S.6.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/3034


http://www.anl.az/down/meqale/respublika/2020/dekabr/746402.htm

20

Daşqın Quliyev - 25

(2001-2020)

Əsgər



Daşqın Nəcməddin oğlu Quliyev 2001-ci il dekabrın 20-də Şabran şəhərində anadan olmuşdur.

Orta təhsilini Şabran rayon, Rəhimli kənd orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Daşqın Quliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlatdığı Vətən müharibəsi zamanı Hadrut qəsəbəsinin və Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 16-da Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və Şabran şəhərində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Daşqın Nəcməddin oğlu Quliyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" , "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6 -12.

21

Ümman Əmiraslanov - 30

(1996-2020)

Əsgər



Ümman Namiq oğlu Əmiraslanov 1996-cı il dekabrın 21-də Qəbələ rayonunun Mıxlıqovaq kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə Qəbələ rayonu Şəhid Şükran Eyvazov adına Yemişanlı kənd tam orta məktəbində təhsil almışdır. 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Ümman Əmiraslanov 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Oktyabrın 2-də Suqovuşan döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ümman Namiq oğlu Əmiraslanov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6 -12.

DEKABR

21

Elnur Qafarov - 45

(1981-2020) *MAHHXHQ çavuş*



Elnur Mirzəxan oğlu Qafarov 1981-ci il dekabrın 21-də Siyəzən şəhərində anadan olmuşdur. Orta təhsilini Siyəzən rayonu, 2 saylı tam orta məktəbdə almışdır.

Azərbaycan Ordusunun çavuşu olan Elnur Qafarov 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində Füzulinin və Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 16-da Hadrut döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elnur Mirzəxan oğlu Qafarov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

22

Elmir Məmiyev - 25

(2001-2020) *Əsgər*



Məmiyev Elmir Zamin oğlu 2001-ci il dekabrın 22-də Yardımlı rayonunun Kürəkçi kəndində anadan olmuşdur. Orta təhsilini Yardımlı rayon Kürəkçi kənd tam orta məktəbində almışdır. 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Elmir Məmiyev 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsi zamanı Ağdam istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 2-də Suqovuşan istiqamətində aparılan döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elmir Zamin oğlu Məmiyev ölümündən sonra "Vətən uğrunda" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6 -12.

DEKABR
22

Barat Quliyev - 35

(1991-2020) *MAHHXHQ əsgər*



Quliyev Barat Nizami oğlu 1991-ci il dekabrın 22-də Beyləqan şəhərində anadan olmuşdur.

1999-2010-cu illərdə orta təhsilini Beyləqan şəhər 3 nömrəli tam orta məktəbində almışdır. 2010-cu il Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.2014-cü ildə yenidən Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin sıralarına daxil olmuş, burada manqa komandiri kimi fəaliyyət göstərmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Barat Quliyev 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin işğalı altında olan ərazilərin azad edilməsi məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir. O, sentyabrın 29-da Füzuli rayonu istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Quliyev Barat Nizami oğlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

22

Əjdər Sabirli - 30

(1996-2020) *MAHHXHQ kiçik çavuş*



Əjdər Xanlar oğlu Sabirli 1996-cı il dekabrın 22-də Tərtər rayonunun Hacallı kəndində anadan olmuşdur. Orta təhsilini Tərtər rayon Söylən kənd tam orta məktəbində almışdır. 2016-cı ildən etibarən Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyət göstərmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu olan Əjdər Sabirli 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsi zamanı Xocavənd, Tərtər, Suqovuşan istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 8-də Talış istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Əjdər Xanlar oğlu Sabirli ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

DEKABR
23

Fərid Ramazanov - 35

(1991-2020) *Gizir*



Fərid Ömər oğlu Ramazanov 1991-ci il dekabrın 23-də Qax rayonunun Qum kəndində anadan olmuşdur. 1998-2009-cu illərdə Z. Müslümov adına Qum kənd orta məktəbində təhsil almışdır. 2009-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2018-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində tağım komandirinin müavini vəzifəsində xidmət etmişdir.

Azərbaycan Ordusunun giziri olan Fərid Ramazanov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 9-da Suqovuşanın azadlığı uğrunda döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Qax rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Fərid Ömər oğlu Ramazanov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.66-67.

23

Cavid Sahratov - 45

(1981-2020) *Gizir*



Cavid Əlikömək oğlu Sahratov 1981-ci il dekabrın 23-də Yardımlı rayonunun Əsədabad kəndində anadan olmuşdur. 1989-1999-cu illərdə Əsədabad kənd tam orta məktəbində təhsil almışdır.

2000-2002-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuşdur. 2004-cü ildən etibarən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyət göstərmişdir. O, 2016-cı ilin 2-5 aprel tarixlərində baş vermiş Aprel döyüşlərində də iştirak etmişdir.

Azərbaycan Ordusunun giziri olan Cavid Sahratov 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Füzuli rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 9-da Füzuli istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Cavid Əlikömək oğlu Sahratov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6 -12.

DEKABR

24

İntiqam İsmayılov - 30

(1996-2020)

MAHHXHQ əsgər



İntiqam İlqar oğlu İsmayılov 1996-cı il dekabrın 24-də Yevlax rayonunun Xanabad kəndində anadan olmuşdur. Orta təhsilini Yevlax rayonunun Xanabad kənd tam orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan İntiqam İsmayılov 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsi zamanı Murovdağ, Xocavənd və Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 9-da Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Yevlax rayonunun Xanabad kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən İntiqam İlqar oğlu İsmayılov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

24

Sakit Allahverdiyev - 25

(2001-2020)

Əsgər



Sakit Şahin oğlu Allahverdiyev 2001-ci il dekabrın 24-də Ağstafa rayonunun Tatlı kəndində anadan olmuşdur. 2007-2018-ci illərdə Qazax rayonunun Elşən Cəfərov adına Çaylı kənd 2 nömrəli tam orta məktəbində təhsil almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Sakit Allahverdiyev 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsi zamanı Murovdağ, Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 9-da Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuş, noyabrın 13-də Qazax rayonunun Çaylı kəndində dəfn olunmuşur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Sakit Şahin oğlu Allahverdiyev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

DEKABR

24

Afiq Qulamlı - 30

(1996-2020)

Əsgər



Afiq Fərhad oğlu Qulamlı 1996-cı il dekabrın 24-də Xırdalan şəhərində anadan olmuşdur. Orta təhsilini 2003-2014-cü illərdə Xırdalan şəhər 9 nömrəli tam orta məktəbdə almışdır.

2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2016-cı ilin 2-5 aprel tarixlərində baş vermiş "Aprel döyüşləri"ndə iştirak etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Afiq Qulamlı 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində gedən döyüşlərdə vuruşmuşdur. Oktyabrın 19-da Füzuli rayonunun Gecəgözlü kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Xırdalan Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Afiq Fərhad oğlu Qulamlı ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.– 2020.– 27 dekabr.– S.4;14.

Toğrul Hacıyev - 30

24

(1996-2020)

Əsgər



Toğrul Rüfət oğlu Hacıyev 1996-cı il dekabrın 24-də Bakı şəhərində anadan olmuşdur.

2003-2014-cü illərdə Sulutəpə qəsəbəsi 313 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2014-2018-ci illərdə Azərbaycan Milli Konservatoriyasında bakalavr pilləsində, 2018-2020-ci illərdə isə həmin təhsil müəssisəsində magistratura pilləsində ali musiqi təhsili almışdır. 2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət qulluqçusu idi.

Azərbaycan Ordusunun əsgəri olan Toğrul Hacıyev 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan döyüşlərdə iştirak etmişdir. Oktyabrın 10-da Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Toğrul Rüfət oğlu Hacıyev ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6 -12.

DEKABR
25

Toğrul İsayev - 30

(1996-2020) *MAHHXHQ çavuş*



Toğrul Natiq oğlu İsayev 1996-cı il dekabrın 25-də Füzuli rayonunda anadan olmuşdur.

Orta təhsilini Bərdə şəhər 8 nömrəli tam orta məktəbdə almışdır. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Toğrul İsayev 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Sentyabrın 30-da Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. II Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Toğrul Natiq oğlu İsayev ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

25

Əli Nağıyev - 35

(1991-2020) *Əsgər*



Əli Mehman oğlu Nağıyev 1991-ci il dekabrın 25-də Bakı şəhərində anadan olmuşdur.

Səbail rayonu 91 saylı orta məktəbdə təhsil almışdır. 2007-ci ildə sürücülük məktəbində peşə təhsili almışdır. 2010-cu ildə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Əli Nağıyev 2020-ci il sentyabrın 27-dən etibarən Ermənistan silahlı birləşmələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda aparılan Vətən müharibəsi zamanı Füzuli və Xocavənd rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 22-də Xocavənd rayonu ərazisində, Alban kilsəsinin qarşısında düşmənin əks-hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Əli Mehman oğlu Nağıyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Malik Əliyev - 40

(1986-2020)

Mayor



Malik Təvəkkül oğlu Əliyev 1986-cı il dekabrın 26-da Naxçıvan şəhərində anadan olmuşdur.

Orta təhsilini 1993-2001-ci illərdə Naxçıvan şəhərindəki 5 saylı tam orta məktəbdə, 2001-2004-cü illərdə Heydər Əliyev adına Hərbi Liseydə, 2004-2008-ci illərdə isə Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasında ali təhsil almışdır.

2008-ci ildə təyinatla Sərhəd Qoşunlarının Xudat şəhərində yerləşən hərbi hissəsində xidmətə başlamış, burada komendant, bölük komandiri və kapitan vəzifələrində çalışmışdır. Daim öz üzərində çalışan Malik Əliyev peşəkarlığını artırmaq məqsədilə 2010-cu ildə Çin Xalq Respublikasında altı aylıq ixtisasartırma kursu keçmiş, 2011-ci ildə isə Çində təlimdə iştirak edən azərbaycanlı kursantların komandiri olmuşdur. Hər iki kursu fərqlənmə diplomu ilə bitirmişdir. 2013-cü ildə Türkiyənin Ankara şəhərində növbəti ixtisasartırma kursu keçmişdir. 2015-ci ildə təyinatla Horadiz şəhərində yerləşən sərhəd dəstəsinə qərargah rəisi vəzifəsinə təyin edilmişdir.

2016-cı ildə Dövlət Sərhəd Xidmətinin (DSX) Akademiyasında təlim kursu keçmiş, 2017-ci ildə DSX Aparatında fiziki hazırlıq üzrə fəaliyyətə başlamışdır. 2018-ci ildə mayor hərbi rütbəsinə layiq görülmüş və həmin il yenidən Türkiyədə kurs keçmişdir.

2020-ci ilin fevral ayında Dövlət Sərhəd Xidmətinin Çevik Hərəkət Qüvvələri Komandanlığında döyüş hazırlığı üzrə şöbə rəisinin müavini vəzifəsinə təyin edilmişdir. 2020-ci ilin iyun ayında Qazax rayonunda keçirilən hərbi təlimlərdə iştirak etmişdir.

Mayor Əliyev Malik Təvəkkül oğlu orduda nümunəvi xidmətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamları ilə "Hərbi xidmətdə fərqlənməyə görə" II dərəcəli medalı, "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalı, "Azərbaycan Respublikası Sərhəd Mühafizəsinin 90 illiyi (1919-2009)" yubiley medalı, "Azərbaycan Respublikası Sərhəd Mühafizəsinin 95 illiyi (1919-2014)" yubiley medalı, "Azərbaycan Respublikası Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" yubiley medalı və "Qüsursuz xidmətə görə" III dərəcəli medalı ilə təltif edilmişdir.

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının mayoru Malik Əliyev 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda başlanan Vətən müharibəsində fəal iştirak etmişdir. O, Füzuli və Cəbrayıl rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir. 2020-ci il oktyabrın 13-də Cəbrayıl istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Malik Əliyev II Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Malik Təvəkkül oğlu Əliyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhid Malik Əliyevə məxsus əşyaları ailəsi tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fonduna təhvil verilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6 -12.

Səxavətqızı, M. Vətən naminə yaşayanlar ölmür nümunəsi - Əliyev Malik Təvəkkül oğlu... /Manya Səxavətqızı //Bakı Xəbər.- 2021.- 10-12 aprel.- S.14.

Şəhid mayorun şəxsi əşyaları Tarix Muzeyinə təhvil verilib //Mədəniyyət.- 2021.- 3 fevral.- S.6.

Vətən müharibəsində həlak olmuş sərhədçilərin anım tədbirləri keçirilib // Azərbaycan.- 2021.- 20 oktyabr.- S.7.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/835

http://www.anl.az/down/meqale/baki_xeber/2021/aprel/740858.htm

http://www.anl.az/down/meqale/medeniyyet/2021/fevral/733871.htm

DEKABR

26

Rahib Cəbrayılov - 25

(2001-2020)

Əsgər



Rahib Ramil oğlu Cəbrayılov 2001-ci il dekabrın 26-da Yevlax şəhərində anadan olmuşdur. 2007-ci ildə Quşçu kənd ümumi orta məktəbinin I sinfinə daxil olmuş, 2016-2018-ci illərdə isə təhsilini Xaldan kənd kompleks tam orta məktəbinin X-XI siniflərində davam etdirmişdir.

2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmətdə olmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Rahib Cəbrayılov 2020-ci il sentyabrın 27-dən etibarən Ermənistan silahlı birləşmələrinin işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda aparılan Vətən müharibəsində iştirak etmişdir. Senyabrın 28-də Xocavənd rayonu uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Rahib Ramil oğlu Cəbrayılov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13

26

Elnur Talıbov - 30

(1996-2020)

Əsgər



Elnur Gəgiş oğlu Talıbov 1996-cı il dekabrın 26-da Lerikdə anadan olmuşdur. Orta təhsilini Lənkəran şəhəri 9 nömrəli tam orta məktəbdə almışdır. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. Aprel döyüşlərində iştirak etmiş və göstərdiyi şücaətə görə fəxri fərman və təşəkkürnamə ilə təltif olunmuşdur.

Azərbaycan Ordusunun əsgəri olan Elnur Talıbov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərində iştirak etmişdir. Oktyabrın 5-də döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. 2020-ci il noyabrın 1-də Lənkəran şəhərində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elnur Gəgiş oğlu Talıbov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13

Elfaq Nağıyev - 30

(1996-2020) *Gizir*



Elfaq Azad oğlu Nağıyev 1996-cı il dekabrın 26-da Gədəbəy rayonunun Parakənd kəndində anadan olmuşdur. 2003-2011-ci illərdə Gədəbəy rayonunun Parakənd kəndində orta təhsil almış, 2012-2016-cı illərdə isə Şamaxı rayonu Humanitar Kollecində "Bədən tərbiyəsi müəllimliyi" ixtisası üzrə təhsil almışdır. 2016-cı ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun giziri olan Elfaq Nağıyev 2020-ci il sentyabrın 27-də Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi məqsədilə başlanan Vətən müharibəsi zamanı Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı, Hadrut əraziləri və bir sıra strateji yüksəkliklərin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 9-da Hadrut qəsəbəsinə bayraq sancan əsgərlərdən biri olmuşdur. Oktyabrın 21-də Xocavənd rayonu ərazisində gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Gədəbəy rayonunun Parakənd kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elfaq Azad oğlu Nağıyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhid Elfaq Nağıyeva məxsus əşyaları ailəsi tərəfindən Milli Azərbaycan Tarixi Muzeyinin Vətən müharibəsi fonduna təhvil verilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 iyun 2021-ci il // Azərbaycan.- 2021.- 25 iyun.- S.79.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6 -12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

İnternetdə:

https://unudulmazlar.az/az/infom/278

https://memorial.az/az/qehremanlarimiz/1001

DEKABR

26

Ayxan Heydərli - 30

(1996-2020) *MAHHXHQ kiçik çavuş*



Ayxan İlham oğlu Heydərli 1996-cı il dekabrın 26-da Beyləqan rayonunun Orta Əlinəzərli kəndində anadan olmuşdur. 2003-2014-cü illərdə K.Əliyev adına Orta Əlinəzərli kənd tam orta məktəbində təhsil almışdır. 2015-cı ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2016-cı ildən etibarən müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyət göstərmişdir.

Azərbaycan Ordusunun kiçik çavuşu Ayxan Heydərli 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanmış Vətən müharibəsi zamanı Füzuli rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 5-də Füzuli döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ayxan İlham oğlu Heydərli ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Füzulinin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.


Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

27

Zabil İbadzadə - 30

(1996-2020) *Əsgər*



Zabil Fikrət oğlu İbadzadə 1996-cı il dekabrın 27-də Lənkəran rayonunun Gəgiran kəndində anadan olmuşdur. Orta təhsilini Lənkəran rayonu Ürgə kənd tam orta məktəbində almışdır. 2015-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Zabil İbadzadə 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsi zamanı Cəbrayıl və Qubadlı rayonlarının azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Noyabrın 5-də Qubadlı döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş və Lənkəran rayonunda dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Zabil Fikrət oğlu İbadzadə ölümündən sonra "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6 -12.

https://unudulmazlar.az/az/infom/2598

DEKABR
28

Vasif Abıyev - 40

(1986-2020)

Əsgər



Vasif Vaqif oğlu Abıyev 1986-cı il dekabrın 28-də Lənkəran şəhərinin Nərimanabad qəsəbəsində anadan olmuşdur. Orta təhsilini Nərimanabad qəsəbəsi 1 saylı tam orta məktəbdə almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Vasif Abıyev 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində könüllü olaqraq iştirak etmişdir. Oktyabrın 5-də Xocavənd rayonunun azadlığı uğrunda gedən döyüşlərdə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş, dekabrın 1-də Lənkəran şəhərində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Vasif Vaqif oğlu Abıyev ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:


Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;13.

28

İlqar Kazımov - 30

(1996-2020)

əsgər



İlqar Nazim oğlu Kazımov 1996-cı il dekabrın 28-də Gədəbəy şəhərində anadan olmuşdur. 2003-2012-ci illərdə Gəncə şəhər 17 nömrəli tam orta məktəbində təhsil almış, daha sonra 2019-2020-ci illərdə Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Liseyində peşə təhsili almışdır. 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan İlqar Kazımov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzuli rayonunun, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmişdir. Noyabrın 9-da Şuşa uğrunda gedən döyüşlər zamanı şəhid olmuş və Gəncə şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən İlqar Nazim oğlu Kazımov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.18-21.

DEKABR

30

Müzəffər Ağaliyev - 45

(1981-2020)

Əsgər



Müzəffər Vahid oğlu Ağaliyev 1981-ci il dekabrın 30-da Sumqayıt şəhərində anadan olmuşdur. 1988-1999-cu illərdə H.Z. Tağıyev qəsəbəsində yerləşən 19 nömrəli tam orta məktəbdə təhsil almışdır. 2000-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir. 2006-cı ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinə daxil olaraq Müddətdən Artıq Xidmət Edən Hərbi Qulluqçu kimi xidmətə başlamışdır. Aprel döyüşləri və Tovuz istiqamətində aparılmış hərbi əməliyyatlarda iştirak etmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin müddətdən artıq xidmət edən Müzəffər Ağaliyev 2020-ci il sentyabrın 27-də başlanmış Vətən müharibəsində Füzuli istiqamətində gedən döyüşlərdə iştirak etmişdir. Oktyabrın 23-də Füzuli rayonunun Alxanlı kəndinin azad olunması uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Sumqayıt Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Müzəffər Vahid oğlu Ağaliyev ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 25 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 26 dekabr.- S.1;12.

31

Tacir Eminov - 25

(2001-2020)

Əsgər



Tacir İntiqam oğlu Eminov 2001-ci il dekabrın 31-də Cəlilabad rayonunun Sadatlı kəndində anadan olmuşdur. Orta təhsilini Cəlilabad rayon, Sadatlı kənd tam orta məktəbində almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Tacir Eminov 2020-ci il sentyabrın 27-də başlanmış Vətən müharibəsində Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmişdir. Oktyabrın 6-da Suqovuşanın azad olunması uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur. Cəlilabad rayonunun Sadatlı kəndində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Tacir İntiqam oğlu Eminov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Vətən uğrunda" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 15 dekabr 2020-ci il // Azərbaycan. – 2020. – 16 dekabr. – S.6 -12.

https://unudulmazlar.az/az/infom/3366

DEKABR

31

Ülvi Həsənov - 25

(2001-2020) *Əsgər*



Ülvi Natiq oğlu Həsənov 2001-ci il dekabrın 31-də Mingəçevir şəhərində anadan olmuşdur.

Orta təhsilini Mingəçevir şəhər 17 saylı məktəbdə almışdır.

Azərbaycan Ordusunun əsgəri olan Ülvi Həsənov 2020-ci il sentyabrın 27-də başlanmış Vətən müharibəsində Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması məqsədilə aparılan hərbi əməliyyatlarda iştirak etmişdir. O, Xocavənd və Şuşa istiqamətlərində gedən döyüşlərdə qəhrəmanlıq göstərmişdir. Noyabrın 9-da Şuşa uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Ülvi Natiq oğlu Həsənov ölümündən sonra "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "İgidliyə görə" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 24 dekabr 2020-ci il // Azərbaycan .- 2020.- 25 dekabr.- S.6-13.

31

Namiq Quliyev - 25

(2001-2020) *əsgər*



Namiq Natiq oğlu Quliyev 2001-ci il dekabrın 31-də Sumqayıt şəhərində anadan olmuşdur. Orta təhsilini Sumqayıt şəhəri 13 nömrəli məktəbdə almışdır. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Namiq Quliyev 2020-ci il sentyabrın 27-də başlanmış Vətən müharibəsində Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak etmişdir. O, Talış kəndi və Suqovuşan qəsəbəsinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmişdir. Oktyabrın 25-də Suqovuşan istiqamətində gedən döyüşlər zamanı şəhid olmuş və Sumqayıt şəhərinin Şəhidlər xiyabanında dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Namiq Natiq oğlu Quliyev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəsur döyüşçü", "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Laçının azad olunmasına görə" medalı ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 dekabr 2020-ci il // Azərbaycan.- 2020.- 30 dekabr.- S.29-34.

İlham Əliyev – 65

(1961) *Azərbaycan Respublikasının Prezidenti*



Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm.

İlham Əliyev

Görkəmli dövlət xadimi, dünya şöhrətli siyasətçi, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Heydər oğlu Əliyev 1961-ci il dekabr ayının 24-də Bakı şəhərində anadan olmuşdur. 1967-1977-ci illərdə orta təhsilini Bakıda almışdır. 1977-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna (MDBMİ) qəbul olunmuşdur. MDBMİ-nu bitirdikdən sonra 1982-ci ildə institutun aspiranturasına daxil olmuş, 1985-ci ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi almışdır. 1985-1990-cı illərdə MDBMİ-da müəllim kimi çalışmışdır. 1991-1994-cü illərdə özəl biznes sahəsində çalışmış, bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.

Cənab İlham Əliyev 1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olmuşdur. Ulu öndər Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində fəal iştirak etmişdir. Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur. Cənab İlham Əliyev iki dəfə 1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisin üzvü seçilmişdir.

1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir. İdmanın və olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilmişdir. 1999-cu ildə "Yeni Azərbaycan Partiyası" sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilmişdir. 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur. 2003-cü ilin yanvarında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir. 2004-cü ilin aprelində AŞPA-nın fəaliyyətində fəal iştirakına və Avropa ideallarına sədaqətinə görə AŞPA-nın Fəxri üzvü diplomu və AŞPA medalı ilə təltif edilmişdir.

2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra cənab İlham Əliyev Azərbaycan Respublikasının Baş Naziri təyin edilmişdir. 2003-cü ilin oktyabr ayının 15-də Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident seçkilərində seçicilərin 76%-dən çoxu cənab İlham Əliyevin lehinə səs vermişdir. XXI əsrin ilk Prezident seçkilərində xalqımızın iradəsinə arxalanan, siyasətini milli maraqlarımızın tam təmin olunması üzərində quran, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi dinamik inkişaf strategiyasını rəhbər tutan və regionda çox böyük nüfuza malik olan cənab İlham Əliyevin dövlətimizin başçısı seçilməsi ilə müasir tariximizdə keyfiyyətcə yeni mərhələnin başlanğıcı qoyulmuşdur. 2003-cü il oktyabrın 31-də cənab Prezident vəzifəsinin icrasına başlamışdır. Prezidentliyinin ilk günlərindən özünü peşəkar siyasətçi kimi təsdiqləyən İlham Əliyevin siyasipsixoloji portretinin əsasını təşkil edən komponentlər onun Azərbaycan siyasi arenası üçün son dərəcə uğurlu dövlət başçısı olduğunu sübut etdi. O, öz siyasi simasında Qərb standartlarının, aristokratik siyasi rəftarın, rasional düşüncə tərzinin, praqmatizmin milli mentalitetlə son dərəcə dəqiqliklə uzlaşdırılmış ansamblını yaratmağa nail olmuşdur. Cənab İlham Əliyev bu keyfiyyətləri ilə Azərbaycan siyasətinə yeni nəfəs, siyasi abuhava və müasirlik gətirdi. Başqalarından fərqli olaraq siyasi romantizm, saxta vətənpərvərlik, arxaik siyasi ideologiyalar kimi amillər onun bir siyasətçi kimi formalaşmasına zəmin yaradan komponentlər sırasında mövcud deyildir. İyirmi ildən artıq hakimiyyəti ərzində ümummilli lider siyasi kursunun

layiqli davamçısı olan Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət ictimai tərəqqiyə yeni güclü təkan verməklə, cəmiyyətin bütün təbəqələrinin maraq və mənafelərini özündə əks etdirmişdir. Cənab İlham Əliyev 2008-ci ildə ikinci dəfə, 2013-cü ildə üçüncü dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 2018-ci ildə keçirilmiş növbədənkənar prezident seçkilərində seçicilərin 86,02 faiz səsini qazanaraq dördüncü dəfə prezident səlahiyyətlərinə yiyələnmişdir. 7 fevral 2024-cü il tarixində keçirilən prezident seçkilərində isə 92,12 faiz səs toplayaraq beşinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Prezident İlham Əliyevin siyasi fəaliyyəti nəticəsində Azərbaycan Respublikası həm regionda, həm də dünya birliyində söz sahibinə çevrilmiş, hərtərəfli şəkildə inkişaf etmiş və böyük gələcəyi olan bir dövlət kimi tanınır. Azərbaycan Respublikasının 155 ölkənin etimadını qazanaraq Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, Avropa Şurasının Nazirlər Şurasına, Qoşulmama Hərəkatına sədrlik etmək səlahiyyətləri qazanması Prezident İlham Əliyevin apardığı xarici siyasətin böyük uğurlarıdır.

İlham Əliyev böyük bacarıqla Ulu Öndər Heydər Əliyevin imzaladığı "Əsrin müqaviləsi"nin müddəalarını layiqincə yerinə yetirməklə Azərbaycanın neft sərvətlərinin xalqımıza xeyir və uğur gətirməsinə tam nail olmuşdur. Bakı Tbilisi Ceyhan (Ərzurum) neft qaz kəməri ümummilli lider Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin tamamladığı, başa çatdırdığı beynəlxalq layihədir. Bundan başqa Prezident İlham Əliyev Azərbaycan və Türkiyənin uzunmüddətli strateji enerji əməkdaşlığının ən mühüm bəhrələrindən olan Azərbaycan qazının Avropaya nəqli üçün mühüm siyasi və iqtisadi əhəmiyyətə malik TANAP layihəsinin həyata keçirilməsinə imza atmışdır. Azərbaycanın "Şahdəniz 2" layihəsi çərçivəsində çıxarılan təbii qaz TANAP və TAP kəmərləri vasitəsilə bu gün artıq Avropaya nəql edilir və bu layihə ölkəmizin gəlirlərini artıraraq Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verəcək. TANAP tarixə, eyni zamanda, Türkiyə, Yaxın Şərq və Avropanın ən uzun və ən geniş diametrli təbii qaz kəməri kimi düşüb.

Hazırda dövlət büdcəsinin formalaşdırılmasında qeyri-neft sektorunun yeri və həcmi artmaqda davam etməkdədir. Azərbaycan postneft ölkəsi olaraq enerji resurslarından əldə etdiyi gəlirlər hesabına böyük miqyasda inkişaf etdirilmiş yüksək texnologiyalar və yeni nəqliyyat dəhlizləri ölkəsi statusu qazanmışdır. Bakı -Tbilisi-Qars dəmir yolu XXI əsrin Dəmir İpək yolu kimi tanınmışdır. Avropa ilə Asiyanı əlaqələndirən "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat magistrallarının yaradılması ilə Azərbaycanın dünyanın magistral inkişaf yollarına çıxarmasına nail olunmuşdur.

Cənab İlham Əliyevin uzaqgörənliyi sayəsində postneft dövrünün reallıqları ölkədə aqrar sektorun, turizm şəbəkəsinin, nəqliyyat faktorunun inkişaf etdirilməsi siyasətini meydana qoymuşdur.

İqtisadiyyatın şaxələndirilməsi siyasətini həyata keçirməsi İlham Əliyevə neft gəlirlərindən asılı olan Azərbaycanı ölkənin digər təbii sərvətlərindən, xidmət sahələrindən və daxili potensialından gəlir əldə edən bir respublikaya çevirmək imkanları yaratmışdır.

Azərbaycan Respublikasında elm, təhsil, mədəniyyət, səhiyyə, idman istiqamətlərinin inkişafına da Prezident İlham Əliyev öz möhürünü vurmuşdur. İlham Əliyevin müstəqil dövlətçilik təlimi əsasında meydana çıxmış "Təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında", "Ümumi təhsil haqqında" qanunlar ölkəmizdə təhsilin bütün mərhələləri üzrə dövlət siyasətinin uğurla həyata keçirilməsinə xidmət edir. Son illərdə Azərbaycanda 3 mindən çox məktəbin tikilməsi və ya əsaslı şəkildə yenidən qurulması, müasir texnologiyalarla təchiz olunması Azərbaycan təhsilində inqilabi nailiyyətdir.

Milli Elmlər Akademiyasının, universitetlərin və digər elmi qurumların təşkili Azərbaycan elminin dünya elm məkanına inteqrasiyasına əlverişli zəmin yaratmışdır. Müasir cəmiyyət quruculuğunu təmin edən əsas amil kimi elm bu gün də müstəqil Azərbaycanın dövlət siyasətinin prioritet sahələrindəndir. Prezident İlham Əliyev tərəfindən Azərbaycan elminin inkişafı naminə "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESKO) üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Gəncə bölməsi, AMEA-nın Yüksək Texnologiyalar Parkının yaradılması, Azərbaycan Respublikasın da "Elm günü"nün təsis edilməsi haqqında və s. qanunlar qəbul edilmiş, fərman və sərəncamlar imzalanmışdır.

Cənab İlham Əliyev Azərbaycan gəncliyinin inkişafına xüsusi önəm verərək 2007-ci ili "Gənclər ili" elan etmiş, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nı, "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı"nı təsdiq etmişdi. Gənclərin cəmiyyətin həyatında fəal iştirakını təmin etmək məqsədi ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması haqqında" fərman imzalamış, o cümlədən 2007-ci ildə Azərbaycan, Heydər Əliyev Fondu, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Təşkilatının Gənclər Forumu, BMT-nin İnkişaf Proqramı, İSESCO və Avropa Şurası ilə birgə təşkil edilmiş. "Gənclər Sivilizasiyaların Alyansı uğrunda"

beynəlxalq konfransına ev sahibliyi etmişdir.

Prezident İlham Əliyevin dövlətçilik siyasətində mədəniyyətlərarası dialoq və dinlərarası harmoniya məsələləri də mühüm yer tutur. Daha doğrusu, Prezident İlham Əliyev cəmiyyətin siyasi mənəvi bütövlüyünə və inkişafına nail olmaq üçün mədəniyyətlərarası dialoq və dinlərarası harmoniya faktorundan məqsədyönlü şəkildə istifadə etməyin özünəməxsus modelini formalaşdırmışdır. Bu düşünülmüş siyasət ölkəmizdə uğurla həyata keçirilir, özünün real bəhrələrini verir.

Prezident İlham Əliyevin ardıcıl və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, müstəqil Azərbaycan Respublikası mədəniyyətlərarası, sivilizasiyalararası və dinlərarası dialoqun dünyada ən mühüm mərkəzlərindən birinə çevrilmiş, Azərbaycan mədəniyyətinin dünyada tanıdılması, YUNESKO səviyyəsində qəbul edilməsinə, qorunmasına nail olmuşdur. Bundan başqa, Azərbaycanda mədəniyyətlərarası dialoqla dinlərarası harmoniya arasında böyük körpü yaradılmışdır. Prezident İlham Əliyevin dövlətçilik təlimində dinlərarası dialoqla paralel şəkildə aparılan və biri digərini tamamlayan tolerantlıq siyasəti mühüm əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin dini dəyərlərə mənəvi mədəniyyətin aparıcı istiqamətlərindən biri kimi baxması öz növbəsində multikulturalizm və tolerantlıq təlimini meydana çıxarmışdır.

Dövlət başçısının sonsuz qayğısı və diqqətinin məntiqi nəticəsi olaraq, iqtisadiyyatın inkişafı səhiyyədə də görülən işlərin daha böyük vüsətlə davam etdirilməsinə imkan yaratmışdır. Ölkənin dinamik iqtisadi inkişafı demoqrafik və tibbi statistik göstəricilərinin yaxşılaşmasına səbəb olmuşdur. Azərbaycanda müasir tibb avadanlığı və cihazlarla təchiz olunmuş 600-dən çox səhiyyə müəssisəsi əhalinin istifadəsinə verilmişdir. Prezident İlham Əliyevin "2016-2020-ci illər üçün şəkərli diabet üzrə Dövlət Proqramı", "Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı", "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı", "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında", Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin yaradılması haqqında "Mingəçevir şəhərinin və Yevlax rayonunun inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında" və s. fərman və sərəncamları ilə Azərbaycan səhiyyəsi müasir dövrümüzdə bütün xüsusiyyətlərinə görə, özünün yeni inkişaf mərhələsini yaşayır.

Azərbaycan Respublikasının Prezidenti COVID-19 infeksiyasına qarşı mübarizə dövründə beynəlxalq səviyyədə fəal liderlik təşəbbüsləri ilə çıxış edərək qlobal əməkdaşlığın gücləndirilməsinə mühüm töhfələr vermişdir. Dövlət başçısının təşəbbüsü ilə Türk Şurasının və Qoşulmama Hərəkatının koronavirus pandemiyasına həsr olunmuş Zirvə görüşləri təşkil edilmişdir. Eyni zamanda, Qoşulmama Hərəkatının Zirvə görüşü çərçivəsində Azərbaycan Prezidenti tərəfindən BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr olunmuş xüsusi sessiyasının çağırılması təşəbbüsü irəli sürülmüş, bu təşəbbüs beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənmişdir.

Ölkədə idmanın sürətli inkişafını və onun perspektivlərini genişləndirmək məqsədilə mövcud maddi-texniki bazanın yaxşılaşdırılmasının əsası qoyulmuşdur. 2000-ci ildən indiyədək ölkədə 50-dək Olimpiya İdman Kompleksi, həmçinin ixtisaslaşmış idman qurğuları tikilib istifadəyə verilmiş, mövcud idman obyektləri yenidən qurulmuşdur. Ölkəmiz son illər I Avropa Oyunları, IV İslam Həmrəylik Oyun ları, 42-ci Şahmat Olimpiyadası, "Bakı - 2015" ilk Avropa Oyunları, XV Avropa Gənclər Olimpiya Festivalı, "Formula1 Avropa Qran-Prisi" kimi bir sıra beynəlxalq idman yarışlarına ev sahibliyi etmişdir. Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır.

Prezident İlham Əliyevin islahatları sosial həyatımıza şəffaflıq gətirdi, bürokratik maneələri aradan qaldırdı. Prezident İlham Əliyev dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırıl masi, vətəndaşlarla dövlət strukturları arasında bürokratik maneələrin aradan qaldırılması üçün aparılan islahatlar çərçivəsində innovativ addım atdı – Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini yaratdı.

Prezidentin İlham Əliyevin təşəbbüsü ilə "ASAN xidmət" mərkəzləri yaradıldı, bununla da dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi, daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilən elektron xidmətlərə keçidin sürətləndirilməsi təmin olundu. Təsadüfi deyil ki, Azərbaycan brendi olan "ASAN xidmət" dünyada böyük maraq doğurub və bu təcrübə bir sıra ölkələr tərəfindən öyrənilir.

Prezident, Ali Baş Komandan İlham Əliyev hakimiyyətinin ilk illərindən müasir silahlarla təchiz olunan, yüksək döyüş qabiliyyətinə malik ordu yaradılması istiqamətində davamlı və qətiyyətli iş aparmış, 2005-ci ildə Azərbaycan Müdafiə Sənayesi Nazirliyi nin yaradılmasına və müasir silah və texnika istehsal etməsinə nail olmuşdur. Artıq Azərbaycanın Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasında yer almışdır.

Azərbaycan Ordusu öz gücünü və döyüş qabiliyyətini 2016-cı ilin aprelində həm düşmənə, həm də

dünyaya nümayiş etdirdi. Azərbaycan tarixinə zəfər səhifələrindən biri kimi daxil olmuş Aprel döyüşlərində qəhrəman ordumuz Ermənistanın təxribatına cavab olaraq keçirdiyi əkshücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərinin bir qismini, ümumilikdə 2 min hektardan çox torpağı işğalçılardan təmizləyərək böyük bir əraziyə nəzarəti ələ aldı. Bu döyüşlərin ən mühüm yekunu Lələtəpə yüksəkliyinin azad olunması və bununla da Cocuq Mərcanlının təhlükəsizliyinin təmin edilməsi oldu. Cocuq Mərcanlı kəndi qısa müddətdə bərpa edildi, orada 150 evdən ibarət qəsəbə tikildi və köçkünlər öz doğma yurdlarına qayıtdılar.

2018-ci ilin may ayında isə Naxçıvan MR-nın 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edildi, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirildi, Yerevan Gorus Laçın yolu nəzarətə götürüldü.

Bu gün Prezident İlham Əliyevin sayəsində Azərbaycanda dünya miqyasında ən güclü ordulardan biri formalaşıb. Bütün bu uğurlu siyasətin yekun nəticəsidir ki, Azərbaycan sentyabrın 27-də başlamış İkinci Qarabağ müharibəsini müvəffəqiyyətlə başa vurdu. Azərbaycan Ordusu döyüş meydanında böyük rəşadət və şücaət nümayiş etdirdi. 44 günlük müharibənin nəticəsində cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə ordumuz 30 ildən artıq davam edən erməni işğalına birdəfəlik son qoydu, respublikamızın qanuni hüquqlarını bərpa etdi. İlham Əliyevin yenilməz siyasi iradə və qətiyyəti, Ordumuzun gücü və xalqımızın öz rəhbəri ətrafında bir amal uğrunda səfərbərliyi Vətən müharibəsində Azərbaycanın parlaq qələbəsini şərtləndirən əsas amillər oldu. Cəbrayılın, Füzulinin, Qubadlının, Zəngilanın, Xocavənd, Xocalı, Laçın, Tərtər rayonlarının kəndlərinin azad olunması, Xudafərində Azərbaycan bayrağının ucaldılması, İranla dövlət sərhədinə nəzarətin tam təmin edilməsi Azərbaycan Ordusunun möhtəşəm zəfərləri kimi tarixə düşdü. Ali Baş Komandan İlham Əliyevin noyabrın 8-də Şuşanın azad edilməsini bəyan etməsi Vətən müharibəsində Azərbaycan Ordusunun müzəffər yürüşünün zirvə nöqtəsi oldu. Şuşanın azad edilməsi ilə Ermənistan İlham Əliyevin şərtlərinə uyğun olaraq kapitulyasiya aktına imza atdı. Zəfər gününə qədər 44 günlük fəal müharibə yolu keçildi. Vətən müharibəsində dövlət xalq birliyi öz təntənəsini yaşadı, zirvə məqamlarla tarixə düşdü, örnək oldu. Azərbaycan Vətən müharibəsində öz ərazi bütövlüyünü bərpa edərək tarixi qələbəyə imza atdı. Bu müharibə Cənab İlham Əliyevin adını tarixin qızıl səhifələrinə "İtirilmiş əraziləri geri qaytaran dövlət başçısı" kimi yazdı! Bu beynəlxalq aləmdə də hər kəs tərəfindən etiraf edildi. Azərbaycan Prezidentinin rəhbərliyi ilə qazanılmış bu Qələbə ölkəmizin tarixində yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycan Ordusu Zəfər paradın da hərbi gücünü nümayiş etdirdi, eyni zamanda bü tün beynəlxalq aləmə mesajını çatdırdı və bildirdi ki, ölkəmizə qarşı istənilən təhdid və hücumların qarşısını ala biləcək qüdrətli Ordumuz, bu Orduya rəhbərlik edən qətiyyətli sərkərdəmiz var...

2024-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradə, eləcə də Şərqi Avropa Qrupuna daxil olan dövlətlərin Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün ölkəmizin namizədliyini dəstəkləməsi nəticəsində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının — COP29-un Azərbaycanda keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizin tərəqqisi, siyasi, iqtisadi inkişafı naminə göstərdiyi xidmətlərinə görə çoxsaylı orden, mükafat və fəxri adlarla təltif olunmuşdur. "Heydər Əliyev" ordeni (Azərbaycan Respublikası), Beynəlxalq münasibətlər və sülh naminə İhsan Doğ ramacı mükafatı (Türkiyə), "Rumıniya Ulduzu" or deni (Rumıniya), "Kral Əbdüləziz" ordeni (Səudiyyə Ərəbistanı Krallığı), "Şərəf" ordeni (Gürcüstan), "Şərəf Legionunun Böyük Xaçı" ordeni (Fransa), "Şeyxülislam" ordeni (Azərbaycan Respublikası), Rusiya Pravoslav Kilsəsinin "Prepodobnıy Serqiy Ra donejskiy" birinci dərəcəli ordeni, "Böyük Kordon" Şərəf ordeni (Beynəlxalq Hərbi İdman Şurası), MDB ölkələrinin İdman Təşkilatlarının Beynəlxalq Kon federasiyasının "Şərəf" ordeni, FİLA-nın Şərəf Zalının ən yüksək "İdman Əfsanəsi" ordeni, İtaliyanın "Xidmətlərinə görə" böyük lentlə birlikdə Böyük Xaç Kavaleri ordeni, Rusiya Federasiyasının Həştərxan vilayəti "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni, Polşa Respublikasının "Xidmətlərə görə" Böyük-Xaç ordeni (Polşa), "I dərəcəli Knyaz Yaroslav Mudrı" ordeni (Ukrayna), "Mübarək əl Kəbir" ordeni (Küveyt dövləti), Yunanıstan Parla mentinin Qızıl medalı (Yunanıstan), Dünya Güləş Birliyinin "Qızıl Orden" ali mükafatı, Beynəlxalq Paralimpiya Komitəsinin ali paralimpiya mükafatı, BMT-nin Əhali Fondunun mükafatı, Avropa Ədalətli Oyunlar Hərəkatının "Şərəf" nişanı, "Üç ulduz" ordeninin "Böyük xaç kavaleri" dərəcəsi; Linkoln Universitetinin Fəxri doktoru (ABŞ), Moskva Dövlət Beynəlxalq Münasibətlər Universitetinin Fəxri doktoru, L.N.Qumilyov Avrasiya Milli Universitetinin professoru (Qazaxıstan), Bilkənt Universitetinin Fəxri doktoru (Türkiyə), Vergilər üzrə Milli Akademiyanın Fəxri doktoru (Ukrayna), Ploesti Neft və Qaz Universitetinin Fəxri doktoru (Rumıniya), Milli və Dünya İqtisadiyyatı Universitetinin Fəxri profes soru (Bolqarıstan), Kyung Hee Universitetinin Fəxri doktoru (Cənubi Koreya), İordaniya Universitetinin Fəxri doktoru (İordaniya), Korvinus Universiteti nin ictimai elmlər üzrə Fəxri doktoru (Macarıstan), M.V.Lomonosov adı-

na Moskva Dövlət Universiteti nin Fəxri professoru (Rusiya Federasiyası), Taras Şev çenko adına Kiyev Milli Universitetinin Fəxri doktoru (Ukrayna), Məhdumqulu adına Türkmənistan Dövlət Universitetinin Fəxri professoru (Türkmənistan Res publikası), Bakı Dövlət Universitetinin Fəxri doktoru (Azərbaycan), Belarus Dövlət Universitetinin Fəxri professoru (Belarus Respublikası), Çin Xalq Respublikasın Renmin Universitetinin "Tarix üzrə fəxri professor" diplomu.

Görkəmli dövlət xadimi kimi beynəlxalq miqyas da böyük nüfuz qazanan Prezident İlham Əliyev Azərbaycana siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi gətirdi. Azərbaycan xalqı İlham Əliyevə inanır, onun daha xoşbəxt gələcək vəd edən daxili və xarici siyasətini hamılıqla dəstəkləyir.

Ə d ə b i y y a t :

İnkişaf - məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər / İlham Əliyev. - K. 128: May 2023. - Bakı: Azərnəşr, 2023.- 391, [1] s.

Mədətli, E. Heydər Əliyev - İlham Əliyev: Azərbaycançılığın zəfər yolu: [toplu-monoqrafiya] / Eynulla Mədətli; elmi red. İ. Məmmədzadə. - Bakı: [Turxan NPB], 2021. - 271, [1] s.

Sadıqov, B. Xilaskar İlham Əliyev [Mətn] / Bəxtiyar Sadıqov ; red. İ. Hüseynli; ön söz müəl. M. Qurbanlı. - Bakı: [Hədəf Nəşrləri], 2021.- 317, [3] s.

Sadıqov, B. Dünyanın tanıdığı İlham Əliyev: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət başçısı seçilməsinin 20 illiyi / Bəxtiyar Sadıqov; red. A. Sadıqova; [buraxıl. məsul İ. Hüseynli; naşir T. Axundov].- Bakı: Təhsil, [Azərbaycan], 2023. - 507, [5] s.

Qalib xalqın qalib lideri !: İlham Əliyev: 2024-cü il fevralın 7-də keçiriləcək Azərbaycan Respublikası Prezidenti seçkilərində cənab İlham Əliyevin seçki platforması / Yeni Azərbaycan Partiyası. - [Bakı]: [n. y.], [2024].- 12 s.

Qələndərli, N. İlham Əliyev - Böyük yolun müzəffər davamçısı: [60 ilə sığan tarix] / Nurlan Qələndərli; məsləhətçi və ön söz. müəl. T. Budaqov; [Yeni Azərbaycan Partiyası]. - [Bakı]: Teas Press, [2021]. - 595 s.

Hüseynova, İ. İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri / İradə Hüseynova; elmi red. Q. Hacıyev. - Bakı: [Füyuzat], 2021. -

227, [1] s.

Aslanlı, G. İlham Əliyev və Azərbaycanda idmanın tərəqqisi: (2003-2020) /Günel Aslanlı; elmi red. və ön sözün müəl. Ə. Qasımov; [buraxıl. məsul A. Ələsgərova; bədii tərtibat R. Mirzalıyeva] ; AMEA, A. A. Bakıxanov adına Tarix İn-tu. - Bakı: [İdeal-Print MMC], 2021.- 178, [2] s.

Qasımlı, M. İlham Əliyev və müstəqil Azərbaycanın ilkləri: (2003-2024) / Musa Qasımlı; elmi red. G. Musayeva. - Bakı: [Parlaq İmzalar], 2024. - 303, [1] s.

Qarabağ Azərbaycandır! [Mətn] : Böyük Qayıdış! /[Azərb. Resp-nın Baş Prokurorluğu ; rəhb. ilə hazırl. K. Əliyev]. - [Bakı]: [Tuna], [2025]. - [11] s., 406, [1] s.

İlham Əliyev azad Laçının yeni tarixini yaradır: Prezident İlham Əliyev Laçın şəhərində sakinlərlə görüşüb // Azərbaycan.-2025.- 28 may (№110).- S.5.

İlham Əliyev yeni tarix yazdı: Prezident İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibə verib / İlham Əliyev // Azərbaycan.-2025.- 10 avqust (№166).- S.5-6; İqtisadiyyat.-2025.- 14-27 avqust (№32/33).- S.2.

Prezident İlham Əliyev: Türk dünyası bizim ailəmizdir! // Azərbaycan.-2025.-4 oktyabr (№ 213).- S.1.

Cəfərov, E. İdmanda İlham Əliyev missiyası / Elçin Cəfərov // Azərbaycan.-2025.- 7 fevral (№ 27).- S.12.

Hüseynov, R. İlham Əliyev zirvəsi [Mətn] / Rafael Hüseynov // 525-ci qəzet.-2025. - 12 avqust(№141).- S.8-9.

Amaşov, Ə. Millətimin İlham Əliyev imzası / Əflatun Amaşov // Xalq qəzeti.-2025.- 10 avqust (№166).- S.7.

Qəniyev, E. İlham Əliyev dünya miqyasında qlobal liderdir / Elşən Qəniyev // Azərbaycan.-2025.- 7 sentyabr (№190).- S.1-2.

Vəliyeva, M. Prezident İlham Əliyev qalib Lider, həm də sülhün müəllifidir / Mehriban Vəliyeva // Respublika.-2025.- 10 avqust(№166).- S.9.

Tamilla Musayeva – 95

(1931-2019) *Tarixçi*



Ədəbiyyat:

Azərbaycanda müasir kənd ailəsi və ailə məişəti / N.M. Quliyeva; Elmi red. T.H. Musayeva.– Bakı: Elm, 2005.– 347 s.

Azərbaycan xalqının klassik irsi / T.Musayeva // Azərbaycan.– 2010.– 5 fevral.– S. 6 .

Xalq qəhrəmanı Sultan bəy / T.Musayeva // Azərbaycan.– 2012.– 21 yanvar.– S. 7.

Azərbaycan dövlət quruculuğunun öyrənilməsinə dair tədqiqat əsəri / T.Musayeva // Tarix və onun problemləri: Nəzəri, elmi, metodiki jurnal.– 2013.– №4.– S.362-364.

Əsl məhəbbət dastanı Yaxud yarım əsr birgə yaşamaq və yaratmaq hikməti / F.Sadıqlı // Azərbaycan.– 2016.– 16 sentyabr.– S.7.

Mahmudov, Y. Mədəniyyət tariximizin öyrənilməsinə sanballı töhfə / Yaqub Mahmudov // Azərbaycan.-2016.- 14 may.- S.6.

Mahmudov, Y. Elmə böyük töhfələr vermiş alim: Elm xadimləri / Yaqub Mahmudov // Azərbaycan.-2016.- 21 dekabr.- S.6.

İnternetdə:

https://tarixinstitutu.az/doctors/127

Tamilla Həşim qızı Musayeva 31 dekabr 1931-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1939–1949-cu illərdə Bakı şəhərində 46 saylı orta məktəbdə təhsil almış, orta təhsilini bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsinə daxil olmuşdur. 1954-cü ildə universiteti fərqlənmə diplomu ilə bitirmiş və həmin ildən etibarən Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunda elmi fəaliyyətə başlamış, ömrünün sonunadək bu institutda çalışmışdır.

Tamilla Musayeva 1962-ci ildə "Birinci beşillik illərində Azərbaycanda xalq təhsilinin inkişafı uğrunda mübarizə (1928–1932-ci illər)" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1980-ci ildə "İnqilab və Azərbaycanda xalq təhsili (1920–1940-cı illərdə Azərbaycanda xalq təhsilinin inkişafı tarixinin oçerkləri)" adlı monoqrafiyası doktorluq dissertasiyası kimi müdafiəyə təqdim edilmiş və ona tarix elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Alimin elmi axtarışlarının əsas istiqamətini 1920–1940-cı illərdə Azərbaycanda xalq təhsilinin inkişaf tarixi, bu sistemin formalaşması və əhalinin ümumtəhsil səviyyəsinin yüksəldilməsində rolu təşkil etmişdir. Xalq təhsilinin elmi əsaslarla dövrləşdirilməsi, əsas mərhələlərinin müəyyənləşdirilməsi və inkişaf xüsusiyyətlərinin təhlili onun Azərbaycan tarixşünaslığına mühüm töhfələrindəndir.

Tamilla Musayeva savadsızlıqla mübarizə problemini, maarif işçilərinin qurultay və müşavirə materiallarını, ilk ali təhsil müəssisələrinin yaranması və inkişafını sistemli şəkildə tədqiq etmişdir. Onun araşdırmalarında Azərbaycan qadınlarının təhsili və ictimai həyata cəlb olunması, XX əsrin 20–30-cu illərində əlifba islahatı, Birinci Türkoloji qurultayın əhəmiyyəti, eləcə də sovet hakimiyyətinin dinə münasibəti məsələləri də mühüm yer tutur.

Alim Azərbaycanın mədəniyyət tarixini kompleks şəkildə araşdırmış, ədəbiyyat, teatr, musiqi, kino və təsviri incəsənətin inkişafını 2000-ci ildə nəşr olunmuş çoxcildli "Azərbaycan tarixi"nin VI cildində geniş şəkildə işıqlandırmışdır. O, ümumilikdə 100-dən artıq elmi əsərin, o cümlədən dörd monoqrafiyanın müəllifi, üçcildlik "Azərbaycan tarixi"nin (Bakı, 1963) müəlliflərindən biri, yeddicildlik "Azərbaycan tarixi"nin VI cildinin əsas müəllifi və redaksiya heyətinin üzvü olmuşdur. Azərbaycan Sovet Ensiklopediyasında bir sıra məqalələri nəşr edilmiş, 1975–1976-cı illərdə Moskvada çap olunan "SSRİ-də mədəni həyat" ümumittifaq xronologiyasının I və II cildlərinin hazırlanmasında Azərbaycandan tərtibçi kimi iştirak etmişdir.

Tamilla Musayeva elmi-təşkilati və pedaqoji fəaliyyətlə də məşğul olmuş, Elmi Şuranın və ixtisaslaşdırılmış müdafiə şuralarının üzvü kimi çalışmış, 15 namizədlik dissertasiyasına, 4 doktorluq işininə rəhbərlik etmişdir. Bakı Dövlət Universitetinin tarix fakültəsində "Azərbaycan tarixi" və "Azərbaycanda mədəni quruculuq tarixi" fənləri üzrə mühazirələr oxumuşdur.

O, 1984-cü ildə "İnqilab və Azərbaycanda xalq təhsili" monoqrafiyasına görə Azərbaycan SSR Dövlət mükafatı laureatı adına layiq görülmüş, 1992-ci ildə professor elmi adını almışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 iyul 2005-ci il tarixli sərəncamı ilə ona "Əməkdar elm xadimi" fəxri adı verilmişdir.

Tamilla Həşim qızı Musayeva 24 yanvar 2019-cu ildə Bakı şəhərində vəfat etmiş və Yasamal qəbiristanlığında dəfn olunmuşdur.

Ağalar Abbasbəyli – 85

(1941)

Tarixçi



Ağalar Nəriman oğlu Abbasbəyli 31 dekabr 1941-ci ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini 1958-ci ildə başa vurmuşdur. 1957–1962-ci illərdə M.V. Lomonosov adına Moskva Dövlət Universitetində ali təhsil almış, sonrakı illərdə həmin universitetdə aspirant, stajor və doktorant kimi elmi hazırlıq keçmişdir. 1968-ci ildə namizədlik, 1980-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1988-ci ildə tarix və beynəlxalq münasibətlər ixtisasları üzrə professor elmi adını almışdır.

1968–1986-cı illərdə indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetində kafedra müdiri vəzifəsində çalışmış, burada "Beynəlxalq əlaqələr" kafedrasının yaradıcılarından biri olmuşdur. 1974–1976-cı illərdə xarici ölkələrdə Sovet səfirliyində müşavir vəzifəsində fəaliyyət göstərmişdir. 1981–1988-ci illərdə Bakı şəhər rəhbərliyində təmsil olunmuş, 1987–1988-ci illərdə Azərbaycan SSR-in ali və orta ixtisas təhsili naziri vəzifəsini icra etmişdir. 1988-ci ildən Bakı Dövlət Universitetində elmi-pedaqoji fəaliyyət göstərir və 1991-ci ildən etibarən BDU-nun "Beynəlxalq münasibətlər" kafedrasına rəhbərlik edir.

Ağalar Abbasbəyli müxtəlif illərdə dövlət, ictimai və partiya strukturlarında məsul vəzifələrdə çalışmışdır. Uzun müddət SSRİ Sülh Fondunun sədr müavini, Azərbaycan Respublikası Sülh Fondunun sədri olmuş, Azərbaycan KP Bakı Şəhər Partiya Komitəsinin katibi, Azərbaycan KP Təşviqat Komissiyasının sədr müavini və sədr əvəzi, MSK-nın üzvü kimi fəaliyyət göstərmişdir. O, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Dissertasiya Şurasının üzvü olmuş, dəfələrlə birdəfəlik elmi müdafiə şuralarına sədrlik etmişdir. Eyni zamanda bir sıra elmi jurnalların redaksiya heyətinin, Bakı Dövlət Universitetinin və AMEA-nın İnsan Hüquqları İnstitutunun Elmi Şuralarının üzvüdür.

Alimin elmi irsi geniş və çoxşaxəlidir. O, 550-dən artıq elmi əsərin müəllifidir ki, bunların sırasında 42 monoqrafiya, 55 dərslik və dərs vəsaiti xüsusi yer tutur. Beynəlxalq münasibətlər nəzəriyyəsi, beynəlxalq münasibətlərin proqnozlaşdırılması, beynəlxalq münasibətlər tarixi, beynəlxalq təhlükəsizlik və terrorizmlə mübarizə onun əsas tədqiqat istiqamətlərini təşkil edir. "Heydər Əliyev və dünya siyasəti", "Azərbaycan müasir dövrdə", "Azərbaycan beynəlxalq və regional təşkilatlar sistemində", "Qloballaşma və müasir beynəlxalq münasibətlər sistemi", "Qafqaz müasir geostrategiyada", "Konfliktologiya", "Beynəlxalq münaqişələr: nəzəri və konseptual yanaşmalar", "Diplomatik protokol", "Diplomatiya terminləri lüğəti" və digər əsərləri elmi ictimaiyyət tərəfindən geniş istifadə olunur. 2024-ci ildə beşcildlik "Diplomatik-siyasi ensiklopediya"sı nəşr olunmuşdur.

Ağalar Abbasbəyli elmi kadrların hazırlanması sahəsində də mühüm fəaliyyət göstərmişdir. Onun elmi rəhbərliyi və məsləhətçiliyi ilə 32 elmlər namizədi və 10 elmlər doktoru hazırlanmış, o cümlədən Azərbaycanda ilk dəfə siyasi elmlər ixtisası üzrə 10 fəlsəfə doktoru və 3 elmlər doktoru yetişdirilmişdir. "Beynəlxalq münasibətlər" ixtisası üzrə 50 magistrin hazırlanmasında fəal iştirak etmişdir. O, 100-dən artıq elmi-nəzəri konfransda, o cümlədən xarici ölkələrdə keçirilən 30 beynəlxalq forumda məruzələrlə çıxış etmişdir.

Alim beynəlxalq elmi əməkdaşlıq çərçivəsində xarici nəşrlərdə də məqalələrlə çıxış etmişdir. 2017-ci il 12 may tarixində Pakistanda nəşr olunan "The Patriot" qəzetində onun "Qafqaz müasir dünyada" adlı məqaləsi ingilis dilində dərc edilmişdir.

Ağalar Nəriman oğlu Abbasbəyli elmi və pedaqoji fəaliyyətinə görə bir sıra təltiflərə layiq görülmüş, 2019-cu ildə "Bakı Dövlət Universitetinin 100 illiyi (1919–2019)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilmişdir.

Ədəbiyyat:

Zəfərimiz şərəf tariximiz, qürur mənbəyimizdir / Ağalar Abbasbəyli // Xalq qəzeti.-2025.- 26 noyabr (№ 250).- S.6.

Asiya ölkələri beynəlxalq münasibətlər sistemində: ali məktəblər üçün dərslik / R. Talıbov; elmi red. A. Abbasbəyli.– Bakı: Elm və təhsil, 2020.– 309, [3] s.

Puşkin ermənilər haqqında / A.N.Abbasbəyli // 525-ci qəzet.– 2021.– 16 dekabr.– S.12.

Müstəqil Azərbaycanın dirçəliş gününün başlanğıcı / A.Abbasbəyli // Respublika.–2023.– 14 iyul.– S. 5.

Diplomatik-siyasi ensiklopediya: 5 cilddə / A. N. Abbasbəyli; [red. heyəti: M. F. Məlikova, X. Q. Niyazov, Q. H. Məmmədov].– [Bakı]: [n. y.], [2024].– 583, [1] s.

Zəngin bilgi toplusu: "Diplomatik-siyasi ensiklopediya" / S.R.Məmmədli // 525-ci qəzet.– 2025.– 24 aprel(№69).– S.8.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Ağalar_Abbasbəyli

Aqil Əliyev – 100

(1926-2006)

Alim



Aqil Əlirza oğlu Əliyev 1926-cı il dekabr ayının 10-da Naxçıvan şəhərində anadan olmuşdur. 1934–1944-cü illərdə Naxçıvan şəhər orta məktəbində, 1946–1951-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsində ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1951–1953-cü illərdə Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunda elmi işçi kimi başlamışdır. 1953-cü ildən həyatını Azərbaycan Tibb Universiteti ilə bağlamış, burada uzun illər ərzində müxtəlif vəzifələrdə çalışmışdır. 1973-cü ildən ömrünün sonunadək Azərbaycan Tibb Universitetində İqtisadi nəzəriyyə və Hüququn əsasları kafedrasının müdiri vəzifəsində fəaliyyət göstərmişdir.

Aqil Əliyev 1970-ci ildə iqtisad elmləri namizədi, 1983-cü ildə isə iqtisad elmləri doktoru alimlik dərəcəsini almışdır. 1973-cü ildə dosent, 1979-cu ildə professor elmi adlarına layiq görülmüşdür.

Alim 1986–2005-ci illərdə Azərbaycanın elmi-texniki inkişafının kompleks proqramının hazırlanmasında yaxından iştirak etmişdir. Bu proqram çərçivəsində əhalinin sağlamlığının qorunması problemi komissiyasının sədri olmuş, əhalinin sağlamlığının qorunması bölməsini şəxsən tərtib edərək kompleks proqrama daxil etmişdir. Eyni zamanda, 2000-ci illərdə Azərbaycanda məhsuldar qüvvələrin yerləşdirilməsinin inkişaf sxeminin işlənib hazırlanmasının müəlliflərindən biri olmuşdur.

Aqil Əliyev Azərbaycan Tibb Universitetinin Elmi Şurasının və Müdafiə Şuralarının üzvü, Beynəlxalq Enerji Akademiyasının həqiqi üzvü, respublika Ziyalılar Cəmiyyəti İdarə Heyətinin üzvü kimi elmi-ictimai fəaliyyət göstərmişdir. 1996-cı ildə Beynəlxalq Enerji-İnformasiya Elmlər Akademiyasının Azərbaycan bölməsinin həqiqi üzvü – akademiki seçilmişdir. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü olmuşdur. 2003-cü ildə Beynəlxalq Menecment Akademiyasının həqiqi üzvü, 2006-cı ildə isə Beynəlxalq İqtisadçılar İttifaqının üzvü seçilmişdir.

Professor Aqil Əliyev 130-dan artıq elmi əsərin, o cümlədən monoqrafiya və kitabın müəllifi olmuşdur. Onun elmi rəhbərliyi ilə 4 doktorluq və 6 namizədlik dissertasiyası müdafiə edilmişdir. Alimin elmi araşdırmalarında Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu, əhalinin həyat səviyyəsinin yüksəldilməsinin aktual problemləri mühüm yer tutmuşdur. O, iqtisadçıların bir sıra beynəlxalq konfrans və simpoziumlarında çıxış edərək Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişdir.

Elmin inkişafındakı xidmətlərinə görə Aqil Əliyev müxtəlif illərdə dövlət təltiflərinə və fəxri adlara layiq görülmüşdür. O, 1946-cı ildə "Əmək igidliyinə görə" medalı, 1959-cu ildə "Səhiyyə əlaçısı" döş nişanı, 1970-ci ildə "Fədakar əməyə görə" medalı, 1976-cı ildə "Qırmızı Əmək Bayrağı" ordeni, 1982-ci ildə "Əməkdar elm xadimi" fəxri adı, 1990-cı ildə "Əmək veteranı" medalı, 1997-ci ildə "Sovet İttifaqı Marşalı Jukov" medalı, 2000-ci ildə isə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Aqil Əlirza oğlu Əliyev 2006-cı il mart ayının 7-də Bakı şəhərində vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

Onun elmi irsi Azərbaycan iqtisad elminin və ali təhsilinin inkişafında mühüm yer tutur. 2016-cı il dekabr ayının 8-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən Aqil Əlirza oğlu Əliyevin anadan olmasının 90 illiyinin keçirilməsi haqqında Sərəncam imzalanmışdır. 2021-ci il dekabr ayının 10-da isə Azərbaycan Milli Kitabxanasında görkəmli alim, Əməkdar elm xadimi, professor Aqil Əliyevin 95 illik yubileyi münasibətilə "Aqil Əliyev – 95" adlı virtual sərgi onlayn rejimdə istifadəçilərə təqdim olunmuşdur.

Ədəbiyyat:

Şəkərəliyev, A.Yubiley nəşrləri Aqil Əliyev-80 / N.Qasımov // Respublika.– 2006.– 1 mart.– S.7.

Gözəl alim, xeyirxah insan-Aqil Əliyev / İ.Əliyev // Azad Azərbaycan.– 2013.– 10 dekabr.– S.2.

Aqil Əlirza oğlu Əliyev: biblioqrafik göstərici: 90 illiyinə həsr olunur / AMEA, Mərkəzi Elmi Kitabxana; tərt.-red. A. Məmmədova; elmi red. K. Məmmədova.– Bakı: Elm, 2018.– 107, [1] s.

Görkəmli iqtisadçı alim və pedaqoq: Elm xadimləri / Q.Əliyev // Azərbaycan.– 2019.– 10 dekabr.– S. 5.

Görkəmli iqtisadçı alim və xeyirxah insan: Aqil Əliyev - 95 / Q.Əliyev // Azərbaycan.– 2021.– 10 dekabr.– S. 7.

Heydər Əliyev və Azərbaycanda birgəyaşayış ənənəsi Aqil Şirinov //Xalq qəzeti .-2021.- 7 may.- S.3.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Aqil_Əliyev

https://chatgpt.com/c/6942f1b6-8ba4-832c-93e4-9d6ec34bd7e4

Nəsir İmanquliyev – 115

(1911-1998)

Jurnalist



Nəsirulla Əsədulla oğlu İmanquliyev 22 dekabr 1911-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1925–1926-cı illərdə Bakı şəhərində peşə məktəbini bitirmiş, çilingər ixtisasına yiyələnmişdir. 1926-cı ildə Komsomol sıralarına qəbul edilmişdir. 1934-cü ildə Bakı şəhərində Lassal adına Neft Texnikumuna daxil olmuş və təhsil aldığı dövrdə dövri mətbuatda ilk yazıları çap olunmağa başlamışdır. Həmin illərdə "Kommunist", "Yeni yol", "Gənc işçi", "Vətənin səsi" qəzetlərində müxtəlif vaxtlarda ədəbi işçi, şöbə müdiri, məsul katib və redaktor vəzifələrində çalışmışdır.

İkinci Dünya müharibəsi illərində, 1942-ci ildə siyasi işçi kimi Krım cəbhəsinə göndərilmiş, burada "Döyüşən Krım" qəzetinin məsul katibi olmuş, eyni zamanda hərbi hissədə tərcüməçi kimi fəaliyyət göstərmişdir. 1943-cü ildə ordudan tərxis olunduqdan sonra "Kommunist" qəzetinə məsul katib təyin edilmiş, qəzetdə vətənpərvərlik mövzusuna həsr olunmuş çoxsaylı məqalələri dərc edilmişdir. 1944-cü ildə Sovet İttifaqı Kommunist Partiyası sıralarına qəbul olunmuşdur.

1946-cı ildə Moskva Mərkəzi Qəzet Kursunu bitirərək 1948-1950-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində təhsil alıb, eyni zamanda pedaqoji fəaliyyətə başlayıb. Həmin illərdə BDU-nun filologiya fakültəsinin nəzdində jurnalistika fakültəsi yaradılıb, Nəsir İmanquliyevin adı həm də fakültənin ilk qurucularının cərgəsinə yazılıb. 1948–1955-ci illərdə Moskva Ali Partiya Məktəbində qiyabi təhsilini davam etdirmişdir.

1958-ci ildə "Bakı" axşam qəzetini yaratmış, qəzetin ilk nömrəsi 10 yanvar 1958-ci ildə nəşr olunmuşdur. "Bakı" qəzeti 1958–1988-ci illərdə, rus dilində nəşr edilən "Baku" qəzeti isə 1963–1988-ci illərdə fəaliyyət göstərmişdir. Nəsir İmanquliyev uzun illər hər iki qəzetin baş redaktoru olmuşdur.

1965-ci ildə "Böyük Vətən müharibəsi illərində (1941–1945) Azərbaycanda sənaye və nəqliyyat işçilərinin əmək fəallığının sürətləndirilməsi uğrunda mübarizədə 'Kommunist' qəzetinin rolu" mövzusunda tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. Elmi və publisistik fəaliyyəti çərçivəsində "Jurnalistika məsələləri" (1966), "Zəhmətkeşlərin əmək qəhrəmanlığı uğrunda" (1967) kitabları, eləcə də müxtəlif illərdə çap olunmuş çoxsaylı məqalələri nəşr edilmişdir.

Nəsir İmanquliyev Bakı şəhər Partiya Komitəsində və Azərbaycan KP MK-da təbliğat-təşviqat sahəsində rəhbər vəzifələrdə çalışmış, mətbuatla yanaşı radio-televiziya və mədəniyyət sahəsində də fəaliyyət göstərmişdir.

Fəaliyyətinə görə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı (1971), "Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi" (1976) və "Azərbaycan SSR Əməkdar jurnalisti" (1990) fəxri adları ilə təltif olunmuşdur.

Nəsirulla Əsədulla oğlu İmanquliyev 1998-ci ilin mart ayında Bakıda şəhərində vəfat etmiş, Birinci Fəxri Xiyabanda dəfn olunmuşdur.

2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin "N. Ə. İmanquliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" Sərəncamı imzalanmış, həmin il Ömər Eldarovun müəllifliyi ilə yaşadığı binaya xatirə lövhəsi vurulmuş, 2007-ci ildə Bakı Dövlət Universitetində xatirə lövhəsi açılmışdır. 2011-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Nəsir İmanquliyevin anadan olmasının 100 illiyi ölkə miqyasında qeyd edilmişdir. 2021-ci il dekabrın 22-də isə Azərbaycan Milli Kitabxanası tərəfindən 110 illik yubileyi münasibətilə "Nəsir İmanquliyev – 110" adlı virtual sərgi hazırlanaraq onlayn rejimdə istifadəyə verilmişdir.

Ədəbiyyat:

İsgəndərov, E. Əbədi dostluq / Eldar İsgəndərzadə // 525-ci qəzet.– 2018.– 20 dekabr.– S.4.

Məmmədli, C. Müəllim fenomeni / CahangirMəmmədli: müsahibəni apardı A.Pərvizqızı // 525-ci qəzet.– 2019.– 24 aprel.– S.10.

Abdulla, A "Mətbuat fədaisi" Nəsir İmanquliyev / A.Abdulla // Ədəbiyyat qəzeti.– 2020.– 16 may.– S.6-7.

Bayramova, Z. Azərbaycan mətbuatında Nəsir İmanquliyev imzası: Nəsir İmanquliyev - 110 / Zümrüd Bayramova // Səs.– 2021.– 28 dekabr.– S.5.

Bayramova, Y. Ustad-Nəsir İmanquliyev...: 111 yaşı tamam olur / Yeganə Bayramova // Yeni Azərbaycan.–2022.– 22 dekabr.– S.5.

Abbasova, G. Tələbələrin çiynindəki dost əli: Jurnalistikanın Nəsir İmanquliyev fenomeni / Günel Abbasova // Yeni Azərbaycan.– 2023.– 22 dekabr, №235.– S.5.

Həsənov, Ə. Milli mətbuatımızın ağsaqqalı / Əlisəfa Həsənov // Respublika.– 2024.– 7 mart, № 52.– S.4.

Alıoğlu, S. İşıq, nur onun varlığında, əməllərində idi / Salman Alıoğlu // Respublika.– 2025.– 7 mart, № 51.– S.9.

Məmməd Əlizadə – 115

(1911-1994)

Şərqşünas



Məmməd Mübariz Əlizadə 23 dekabr 1911-ci ildə İranın Xamnə qəsəbəsində anadan olmuşdur. İlk təhsilini doğma şəhərindəki "Mərifət" mədrəsəsində almışdır. Səkkiz yaşında Şeyx Məhəmməd Xiyabaninin ən yaxşı şagird üçün təsis etdiyi mükafata layiq görülmüşdür.

Gənc yaşlarından İranda gedən azadlıq hərəkatına qoşulan Məmməd Əlizadə 1928-ci ildə Araz çayını keçərək Naxçıvana gəlmişdir. Təhsil almaq məqsədilə 1932-ci ildə Tiflisdə yerləşən Zaqafqaziya Kommunist Universitetinin siyasi fakültəsinə daxil olmuşdur. Ali təhsilini başa vurduqdan sonra Bakıya gələrək Azərbaycan Pedaqoji İnstitutunun aspiranturasında oxumuş, eyni zamanda həmin institutda pedaqoji fəaliyyət göstərmişdir.

İkinci Dünya müharibəsi illərində Dövlət Radio Komitəsində xarici verilişlər şöbəsini təşkil etmiş və bu şöbənin ilk redaktoru olmuşdur. 1944-cü ildən ömrünün sonunadək Azərbaycan Dövlət Universitetində çalışmışdır. 1945-ci ildə yaradılmış Şərqşünaslıq fakültəsinin ilk dekanı olmuş, sonralar uzun müddət Yaxın və Orta Şərq xalqları ədəbiyyatı kafedrasına rəhbərlik etmişdir.

Məmməd Əlizadə 1947-ci ildə "Böyük humanist şair Nizami Gəncəvi" mövzusunda namizədlik, 1969-cu ildə isə "XIX–XX əsrlər fars ədəbiyyatında demokratik ideyaların inkişaf yolları" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir. Şərq ədəbiyyatının, xüsusən İran ədəbiyyatının dərin bilicisi kimi Azərbaycanda bir neçə nəsil iranşünas kadrların hazırlanmasında mühüm rol oynamışdır.

Alim Azərbaycanda farsdilli ədəbiyyatın görkəmli tədqiqatçılarından biri olmaqla yanaşı, eyni zamanda onun tərcüməçisi kimi də fəaliyyət göstərmişdir. Rudəki, Firdovsi, Nizami, Xaqani, Nəsimi, Cami, Füzuli, Eşqi, Lahuti, Şəhriyar və digər klassik və müasir farsdilli müəlliflərin əsərləri onun tərcümələri vasitəsilə Azərbaycan dilində nəşr edilmişdir. Bu tərcümələr arasında Əbülqasim Firdovsinin "Şahnamə" əsəri xüsusi yer tutur. M.Əlizadə təqribən 30 il ərzində 60 min beytlik bu əsəri orijinalın bəhrində Azərbaycan dilinə çevirmişdir.

Eyni zamanda o, Azərbaycan şairləri Səməd Vurğun, Məmməd Rahim, Süleyman Rüstəm, Hüseyn Arif və başqalarının şeirlərini fars dilinə tərcümə etmişdir.

Məmməd Əlizadənin elmi tədqiqatlarında Nizami Gəncəvinin yaradıcılığı xüsusi yer tutmuşdur. Alimin bu sahədə əldə etdiyi elmi nəticələr "Azərbaycan ədəbiyyatı tarixi"nin I cildində (Bakı, 1960) dərc olunmuş "Nizami Gəncəvi" oçerkində əksini tapmışdır. O, həmçinin Nizaminin "Leyli və Məcnun" poemasının və lirikasının Azərbaycan dilinə filoloji tərcüməsinin müəllifidir.

M.Əlizadə Mirzə Fətəli Axundov irsinin öyrənilməsi və tərcüməsi sahəsində də fəaliyyət göstərmiş, Axundovun "Kəmalüddövlə məktubları" fəlsəfi traktatını fars dilindən Azərbaycan dilinə tam şəkildə tərcümə edərək ayrıca kitab şəklində nəşr etdirmişdir.

Tanınmış İran şairi Əbülqasim Lahuti haqqında "Əbülqasim Lahuti: yaradıcılıq və mübarizə yolu" adlı monoqrafiya yazılmışdır. Alim ömrünün son illərində İranın Bakıdakı səfirliyinin xahişi ilə İran İslam Respublikasının banisi Ayətullah Ruhullah Xomeyninin şeirlərini Azərbaycan dilinə tərcümə etmiş, bu tərcümələr sonradan "Eşq qibləsi" adı ilə (Bakı, 1999) kitab şəklində çap olunmuşdur.

Geniş elmi və pedaqoji fəaliyyətinə görə M.Əlizadə bir sıra orden və medallarla təltif edilmiş, "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Məmməd Mübariz Əlizadə 9 aprel 1994-cü ildə vəfat etmişdir.

Ədəbiyyat:

Azərbaycanın görkəmli şərqşünas alimi, əməkdar elm xadimi, professor Mübariz Əlizadənin 100 illik yubileyinə həsr olunmuş "Şərq filologiyasının aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları / təşkilat kom.: A. M. Məhərrəmov (sədr) [və b.]. - Bakı: [Bakı Universiteti], 2011.- 395, [1] s.

Əlizadə Məmməd Mübariz Əli oğlu // Ədəbiyyat qəzeti.– 1994.– 15 aprel.– S. 5.

İstiqlala doğru... / M.Əlizadə; red. A.Novruzov; baş məsl. S.Bəktaşi; rəssam M.Gəncəli.– Bakı: Asiya, 1997.– 252 s.

Eşq qibləsi: İmam Xomeyninin (r.ə.) şeirlərindən seçmələr / İmam Xomeyni; Tərc. ed. M.M.Əlizadə; red. L.Əlizadə.– Bakı: Nafta-Press, 2003.– 110 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Məmməd_Mübariz_Əlizadə

https://az.baku-art.com/az/azerbaycan-sherq-unasi-em-kdar-elm-xadimi-m-mm-d-m-bariz-lizad-nin-dogum-g-n-d-r

Əli Sultanlı – 120

(1906-1960)

Filoloq



Əli Abdulla oğlu Sultanlı 25 dekabr 1906-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur. İlk təhsilini Naxçıvanda almış, daha sonra Naxçıvanda yeni təşkil edilən Müəllimlər Seminariyasının hazırlıq kursunda təhsilini davam etdirmişdir. 1923–1928-ci illərdə Bakı Mərkəzi Pedaqoji Texnikumunda oxumuş, 1930-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) Şərq fakültəsini bitirmişdir.

Təhsilini başa vurduqdan sonra Azərbaycan Pedaqoji İnstitutunda Qərbi Avropa ədəbiyyatı kafedrasında assistent saxlanılmışdır. 1934–1939-cu illərdə Qərbi Avropa ədəbiyyatı kafedrasının müdiri, eyni zamanda ədəbiyyat və dil fakültəsinin dekanı vəzifələrində çalışmış, 1939–1941-ci illərdə institut rektorunun elmi hissə üzrə müavini olmuşdur. Paralel olaraq müxtəlif illərdə "Şərq qalısı" qəzetində ədəbi işçi kimi fəaliyyət göstərmişdir.

1939-cu ildə "M.F. Axundov və Molyer" mövzusunda dissertasiya müdafiə edərək xarici ölkələr ədəbiyyatı sahəsində filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1945-ci ildə "Azərbaycan dramaturgiyasının inkişaf yolu", digər mənbələrdə isə 1946-cı ildə "Azərbaycan dramaturgiyasının tarixi" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. 1947-ci ildə ona professor elmi adı verilmişdir.

Əli Sultanlı Azərbaycanda müqayisəli ədəbiyyatşünaslığın ilk nümunələrini yaradan alimlərdəndir. Elmi maraq dairəsi antik ədəbiyyat, dünya və Qərb ədəbiyyatı, Azərbaycan ədəbiyyatı və dramaturgiyasının tarixi məsələlərini əhatə etmişdir. Yaradıcılığında Azərbaycan ədəbiyyatının və milli dramaturgiyanın tədqiqi mühüm yer tutmuşdur.

Alimin ilk məqalələri Şərq ədəbiyyatına həsr olunmuşdur. Onun tələbəlik illərində yazdığı "Əbdülhəq Hamid" (1924), "Cəlaləddin Rumi və təsəvvüf" (1924), "Tofiq Fikrət" (1929) adlı oçerkləri türk ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığını əhatə edir. Əli Sultanlı xarici ədəbiyyat fənni üzrə Azərbaycan dilində ilk dərslik və müntəxəbatların müəlliflərindən biridir.

O, Q. Koqanın "Qərbi Avropa ədəbiyyatı oçerkləri" kitabını Azərbaycan dilinə tərcümə etmiş, "Antik ədəbiyyat tarixi", "Roma ədəbiyyatı müntəxəbatı", "Antik ədəbiyyatı müntəxəbatı" dərsliklərinin, "Azərbaycan dramaturgiyasının inkişaf yolları", "Nizami və Qərbi Avropa ədəbiyyatı", "M.F. Axundovun dramaturgiyası", "Rəşid bəy Əfəndiyevin dramaturgiyası", "Dədə Qorqud və yunan eposları", "Ostrovski və Azərbaycan dramaturgiyası" və digər elmi əsərlərin müəllifidir. Ali məktəblər üçün "Ədəbiyyat metodikası" dərs vəsaitinin, orta məktəblərin yeddinci sinfi üçün "Ədəbiyyat" dərsliyinin həmmüəllifi olmuş, ali məktəblər üçün ilk Qərb və dünya ədəbiyyatı kurslarını hazırlamışdır.

Əli Sultanlı üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin ikinci cildinin (1960) əsas müəlliflərindən və elmi redaktorlarından biridir. XI–XIX əsrlər dövrünü əhatə edən həmin cilddə "M.F. Axundovun dramaturgiyası" və "Nəcəf bəy Vəzirov" bölmələrinin müəllifliyi ona məxsusdur.

Elmi və pedaqoji fəaliyyəti dövlət tərəfindən qiymətləndirilmiş, 1940-cı ildə SSRİ Ali Sovetinin Fərmanı ilə "Əmək igidliyinə görə" medalı ilə təltif olunmuşdur.

Əli Sultanlı 18 iyul 1960-cı ildə Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

"Kitabi-Dədə Qorqud" və qədim Yunan dastanları / Ə.Sultanlı.– Bakı: Elm, 1999.– 84 s.

Antik ədəbiyyat tarixi: dərs vəsaiti / Ə.Sultanlı; [red. N.Ə.Sultanlı].– Bakı: Nurlan, 2008.– 517, [3] s

Əli Sultanlı - 110 // Kaspi.– 2016.– 24-26 dekabr.– S.18.

Əli Sultanlı / Z. Əsgərli // Azərbaycan: jurnal.– 2017.– №2.– S.170-174.

Əli Sultanlı dühası, Əli Sultanlı fenomeni / İ.Atilla // Kredo.– 2018.– 3 may.– S.5;7.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Əli_Sultanlı

https://anl.az/down/meqale/az_muellimi/2010/aprel/117550.htm

https://www.ens.az/az/sultanli-eli-abdulla-oglu

Həbib Babayev – 100

(1926-1994)

Filoloq



Ədəbiyyat:

İşıq adam: xalqa və elmə xidmət nümunəsi: [Əməkdar elm xadimi, professor Həbib Babayev] / AMEA, N. Gəncəvi adına Ədəbiyyat İn-tu; elmi red. və nəşrə hazırl., [ön söz] N. Məmmədov (Tağısoy); red. şurası: N. Məmmədov (Tağısoy) [və b.].– Bakı: Mütərcim, 2025.– 206, [1] s.,

Rusiya və Azərbaycanın ədəbi dostluğu: məqalələr məcmuəsi / H.B.Babayev; [red. Ə.Ağayev].– Bakı: Uşaqgəncnəşr, 1958.– 67 s.

Межнациональные связи Азербайджанской литературы: библиография (1920-1973) / Г.Бабаев; ред. П.И.Халилов АН АзССР Ин-т Литературы им. Низами.– Баку: Элм, 1978.– 640 с.

Узы дружбы: Стать и публикации / Г.Бабаев.– Баку: Язычы, 1981.– 150 с.

Hüseynli, N. Həbib Babayev / N.Hüseynli // Oğuzdur elim mənim / N. Hüseynli.- Kitab 1.– Bakı, 2008.– S. 72-73.

Əhmədov, T. Həbib Babayev / Teymur Əhmədov // Azərbaycan yazıçıları: XX-XXI yüzillikdə ensiklopedik məlumat kitabı / T.Əhmədov.– Bakı, 2011.– S.390-391.

https://az.wikipedia.org/wiki/Həbib_Babayev

Həbib Bayram oğlu Babayev 30 dekabr 1926-cı ildə Oğuz rayonunun Bucaq kəndində anadan olmuşdur. 1932–1939-cu illərdə Bucaq kənd natamam orta məktəbində təhsil almışdır. Valideynlərinin vəfatı ilə əlaqədar 1939-cu ildə Şuşa şəhər 1 saylı uşaq evinə göndərilmiş, 1939–1941-ci illərdə təhsilini orada davam etdirmişdir. Orta təhsilini 1941-ci ildə Şuşa şəhər 1 saylı orta məktəbində başa vurmuşdur.

1941–1943-cü illərdə Şuşa ikiillik Müəllimlər İnstitutunun Dil və Ədəbiyyat fakültəsində təhsil almışdır. 1943–1944-cü illərdə anadan olduğu Bucaq kəndində müəllim kimi əmək fəaliyyətinə başlamışdır. 1946–1951-ci illərdə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində ali təhsil almışdır. 1951–1955-ci illərdə Moskvada M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun aspiranturasında təhsilini davam etdirmişdir.

1956-cı ildə M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun Elmi Şurasında "V.Mayakovski və Azərbaycan sovet poeziyası" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi almışdır. Həmin illərdə, 1956–1958-ci illərdə M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda elmi işçi vəzifəsində çalışmışdır.

Azərbaycana qayıtdıqdan sonra 1958–1970-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda baş elmi işçi kimi fəaliyyət göstərmişdir. 1969-cu ildə "Səməd Vurğun və sovet ədəbiyyatında onun mövqeyi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1970-ci ildə ona professor elmi adı verilmişdir.

1970-ci ildən ömrünün sonunadək M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda (indiki Bakı Slavyan Universiteti) kafedra müdiri və professor vəzifəsində çalışmışdır. 1962-ci ildən SSRİ Yazıçılar İttifaqının üzvü olmuş, eyni zamanda Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü kimi fəaliyyət göstərmişdir.

Həbib Babayev filologiya elmləri doktoru, professor kimi əsasən XX əsr rus ədəbiyyatı və Rusiya–Azərbaycan ədəbi əlaqələri sahəsində elmi tədqiqatlar aparmışdır. O, 12 monoqrafiyanın və 120-dən artıq elmi məqalənin müəllifidir. Tədqiqatlarının əsas mövzusunu rus–Azərbaycan ədəbi-mədəni əlaqələri, rus və Azərbaycan yazıçılarının yaradıcılıq problemləri, klassik və müasir ədəbiyyat məsələləri təşkil etmişdir.

Onun "V.Mayakovski Azərbaycanda" (1960), "Şair və zaman (Səməd Vurğun və onun sovet ədəbiyyatında yeri)" (1966), "Azərbaycan ədəbiyyatının beynəlmiləl əlaqələri" (1978), "Dərin köklər", "Dostluq telləri", "Səməd Vurğun" və digər əsərləri rus və Azərbaycan dillərində nəşr olunmuşdur. Bu əsərlər rus, belorus, moldav, ukrayna və alman dillərinə tərcümə edilmiş, alimin yaradıcılığı haqqında rus və özbək dillərində elmi məqalələr dərc olunmuşdur.

Həbib Babayevin elmi məqalələri və tədqiqatları keçmiş SSRİ-nin nüfuzlu elmi-ədəbi jurnallarında, o cümlədən "Drujba narodov", "Voprosı literaturı", "Literaturnıy Azerbaydjan" və digər nəşrlərdə, habelə Azərbaycan və ittifaq miqyaslı qəzetlərdə çap olunmuşdur.

Elmi və pedaqoji fəaliyyətinə görə 1976-cı ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilmiş, 1990-cı ildə "Azərbaycan SSR Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Həbib Bayram oğlu Babayev 2 iyul 1994-cü ildə Bakı şəhərində vəfat etmişdir.

Xatirəsi əbədiləşdirilmiş, Oğuz şəhərindəki 1 saylı tam orta məktəbə onun adı verilmişdir. 13 may 2025-ci ildə Oğuz şəhər Həbib Babayev adına 1 saylı tam orta məktəbdə alimin həyat və elmi fəaliyyətinə həsr olunmuş "İşıq adam: Xalqa və elmə xidmət nümunəsi" adlı kitabın təqdimat mərasimi keçirilmişdir.

Həsən Əhmədov – 120

(1906-1981)

Akademik



Həsən Əbdüləli oğlu Əhmədov 15 dekabr 1906-cı ildə Qərbi Azərbaycanın Zəngəzur qəzasının Sisyan rayonunun Aqudi kəndində anadan olmuşdur. 1933-cü ildə mühəndis-geoloq ixtisası üzrə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Geoloji-kəşfiyyat fakültəsini bitirmişdir. Ali təhsilini başa vurduqdan sonra əmək fəaliyyətinə "Azneft" Birliyində çöl partiyasının geoloqu kimi başlamışdır.

1942-ci ildə "Azneftkəşfiyyat" trestinin geoloji-kəşfiyyat kontorunun direktoru təyin olunmuş, burada struktur-xəritələmə işlərinin aparılması, qazma proseslərinin analizi və əldə olunan nəticələrin ümumiləşdirilməsi ilə məşğul olmuşdur. 1949-cu ildə Azərbaycan Elmi Tədqiqat Neft Geoloji Kəşfiyyat İdarəsinin elmi işlər üzrə direktor müavini, 1951-ci ildə isə həmin idarənin direktoru vəzifəsində çalışmışdır.

1955–1965-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Neftçıxarma İnstitutunda direktor müavini, 1965–1977-ci illərdə Ümumittifaq Elmi-Tədqiqat Geofizika İnstitutunun Azərbaycan filialının direktoru olmuşdur. 1977–1981-ci illərdə isə həmin filialda Geoloji-geofiziki tədqiqatlar laboratoriyasının müdiri vəzifəsini icra etmişdir.

Həsən Əhmədov 1947-ci ildə geologiya-mineralogiya üzrə fəlsəfə doktoru, 1956-cı ildə elmlər doktoru elmi dərəcələrini, 1959-cu ildə professor elmi rütbəsini almışdır. 1964-cü ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1967-ci ildə isə həqiqi üzvü seçilmişdir.

Onun elmi fəaliyyəti əsasən Qobustan–Şamaxı neftli-qazlı rayonunun öyrənilməsinə həsr olunmuşdur. Aparılan tədqiqatların nəticələri "Qobustanın geologiyası və neft-qazlılığı" monoqrafiyasında ümumiləşdirilmişdir. Alimin tədqiqatlarında respublikanın, xüsusilə Qobustan ərazisinin neft-qaz yataqlarının geoloji quruluşu və perspektivli sahələrinin müəyyənləşdirilməsi xüsusi yer tutmuşdur.

Həsən Əhmədov Azərbaycanın Mezozoy çöküntülərinin öyrənilməsi və kəşfiyyatının ilk təşkilatçılarından biri olmuşdur. O, "Azərbaycanın Mezozoy çöküntüləri və onların neft-qazlılıq perspektivliyi" monoqrafiyasına görə 1974-cü ildə akademik İ.M.Qubkin adına mükafata layiq görülmüşdür.

1968-ci ildə dörd ay müddətində Türkiyədə rəsmi geoloji məsləhətçi kimi fəaliyyət göstərmiş və Türkiyənin yeddi illik geoloji planının hazırlanmasında iştirak etmişdir.

Alim 160 elmi əsərin, o cümlədən 12 monoqrafiyanın müəllifidir. Onun elmi rəhbərliyi altında 30-dan çox elmlər doktoru və fəlsəfə doktoru hazırlanmışdır. Həsən Əhmədov Azərbaycan Neft və Qaz Sənayesinin Elmi-Texniki Cəmiyyətinin sədri olmuşdur.

Azərbaycan neft sənayesinin inkişafındakı xidmətlərinə görə "Əmək rəşadəti", "Əməkdə fərqlənməyə görə" medalları, iki dəfə "Şərəf" ordeni, üç dəfə Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı ilə təltif edilmişdir.

Akademik Həsən Əhmədov 9 iyul 1981-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Azərbaycan neft və qaz yataqlarının geologiyası / H.Ə.Əhmədov, S.H.Salayev, F.M.Bağırzadə; [red. Ə.M.Əhmədov].– Bakı: Azərneftnəşr, 1958.– 594, [2] s.

Azərbaycanın neftli-qazlı vilayətlərinin geologiyası: ali məktəblər üçün dərslik / H.Ə.Əhmədov, F.M.Bağırzadə, S.H.Salayev.– Bakı: Maarif, 1973.– 261, [3] s.

H.Ə.Əhmədov: Yetirmələlərinin, həmkarlarının, övladlarının və yaxın dostlarının xatirələri / Tərt.: M.-A.M.Zeynalov, A.İ.Manaflı; red. K.M.Kərimov.– Bakı: Adiloğlu, 2005.– 208 s.

Elin oğlu: Akademik Həsən Əliyev haqqında xatirələr / tərt. ed. və red. Budaq Budaqov, Zahid Əhmədov; AzMEA H.Ə.Əliyev adına Coğrafiya İnstitutu. - Bakı: Elm, 2007. - 183 s.

İnternetdə:

https://science.gov.az/az/forms/skonchavshiesya-deystvitelnyie-chlenyi/3255

http://ensiklopediya.gov.az/az/terms/17783/cild/20

Dünya Ağalarova – 120

(1906-1981)

Geoloq



Dünya Ələkbər qızı Ağalarova 1906-cı il dekabr ayının 15-də Şamaxı şəhərində anadan olmuşdur. 1932-ci ildə Azərbaycan Neft İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji şöbəsini bitirmişdir. Əmək fəaliyyətinə 1930-cu ildən, hələ tələbə olarkən, təhsil aldığı institutda mikrofauna üzrə laborant kimi başlamışdır.

1941-ci ildə aspiranturanı bitirərək "Azərbaycan SSR-nin palçıq vulkanlarının sopka brekçiyaları verən süxurlarının yaş məsələlərinə dair" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1949–1951-ci illərdə Elmi-Tədqiqat Geoloji-Kəşfiyyat Neft İnstitutunda və Neft Texnikumunda müəllim kimi fəaliyyət göstərmişdir.

1951–1954-cü illərdə Türkmənistan SSR Elmlər Akademiyasının Geologiya İnstitutunda çalışmış, paleontologiya laboratoriyasına rəhbərlik etmiş, eyni zamanda Türkmənistan Dövlət Universitetində paleontologiya fənnindən mühazirələr oxumuşdur. 1954-cü ildə Bakıya qayıdaraq neft çıxarılması üzrə Azərbaycan Elmi-Tədqiqat İnstitutunda (AzETİ) böyük elmi işçi vəzifəsində çalışmışdır.

1955-ci ildə "Azərbaycanın məhsuldar qatının mikrofaunası, onu örtən və altda yatan çöküntülər" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1958-ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət Neft Sənayesi Elmi-Tədqiqat Neft və Layihə İnstitutunda stratiqrafiya laboratoriyasına rəhbərlik etmişdir.

1965-ci ildə geologiya-mineralogiya üzrə professor elmi adını almışdır. Dünya Ağalarova Azərbaycanın neftli-qazlı vilayətlərinin pliosen çöküntülərinin mikrofaunasının öyrənilməsinə başlayan ilk alim-paleontoloqlardandır. Onun tədqiqatları məhsuldar qatın, pont, akçaqıl və daha qədim çöküntülərin mikrofaunasının öyrənilməsini əhatə etmiş, bir-birindən uzaq olan kəsilişlərdə eyni yaşlı çöküntülərin mikrofaunistik korrelyasiyası imkanlarını yaratmışdır.

Alimin məhsuldar qatın mikrofaunistik xarakteristikası üzrə apardığı tədqiqatlar nəticəsində məhsuldar qatın bir sıra horizontlara bölünməsi, endemik formaların ayrılması, hövzənin bionomik şəraiti və paleocoğrafi vəziyyətinin müəyyənləşdirilməsi mümkün olmuşdur. Onun tərəfindən qazılmaqda olan quyularda qazmanı dayandırmadan çıxan gil məhlulunun mikrofaunasının öyrənilməsi metodu tətbiq edilmişdir. Tədqiqatlarında foraminifer və ostrakodların filogenezi, inkişaf mərhələləri, dəyişkənliyi və məhvi ilə bağlı məsələlər də əhatə olunmuşdur.

Dünya Ağalarova 50 il ərzində Azərbaycanın və Türkmənistanın Mezozoy və Kaynozoy çöküntülərinin mikrofaunası üzrə elmi tədqiqatlar aparmışdır. 1968-ci ildə Mikropaleontoloqların Polşada keçirilən Beynəlxalq konqresində məruzə ilə çıxış etmişdir. Elmi fəaliyyəti ərzində 100-dən artıq elmi əsərin müəllifi olmuş, geologiya-mineralogiya sahəsində elmi kadrların hazırlanmasında mühüm rol oynamışdır.

Elmi nailiyyətlərinə görə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir.

Dünya Ələkbər qızı Ağalarova 1981-ci il avqust ayının 15-də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Ağalarova Dünya // Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə / baş red. C.B.Quliyev; red hey. M.H.Abdullayev [və b.].– C. 1.– Bakı, 1976.– S. 97.

Ağalarova Dünya Ələkbərovna // Azərbaycanın geoloq və geofizik alimləri / tərt. ed. S.B.Axundova; red. A.C.İsmayılzadə, Ş.A. Balakişibəyli, Ə.Ə.Feyzullayev; ön söz. A.Əlizadə; AMEA.– Bakı, 2004.– S. 19.

Ağalarova Dünya // Azərbaycan Milli Ensiklopediyası / red. hey. sədri İ.H.Əliyev; baş red. M.K.Kərimov. - C.1: A-Argelander.– Bakı, 2009.– S.162.

İnternetdə:

https://az.wikipedia.org/wiki/D%C3%BCnya_A%C4%9Falarova

http://ensiklopediya.gov.az/az/terms/5035/cild/13

Bala İsgəndərov – 90

(1936-2012)

Riaziyyatçı



Bala Ağa-Hüseyn oğlu İsgəndərov 1936-cı il dekabr ayının 21-də Bakı şəhərində anadan olmuşdur. 1955-ci ildə Bakı şəhərində orta məktəbi əla qiymətlərlə bitirmiş, həmin il Azərbaycan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. 1958-ci ildə SSRİ Ali Təhsil Nazirliyinin əmri ilə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinə köçürülmüş, 1961-ci ildə həmin fakültəni bitirmişdir. Elə həmin il Bakı Dövlət Universitetinin aspiranturasına daxil olmuş və elmi işini davam etdirmək üçün Moskva Dövlət Universitetinə ezam edilmişdir. Namizədlik dissertasiyasını professor A.Q.Kostyuçenko və professor M.V.Fedoryukun elmi rəhbərliyi altında hazırlamışdır.

1964-cü ildən etibarən Azərbaycan Milli Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda əmək fəaliyyətinə başlamış, burada kiçik elmi işçi, böyük elmi işçi və uzun müddət "Diferensial tənliklər" şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 1967-ci ildə "Petrovskiyə görə korrekt tənliklər və sistem tənliklər üçün Koşi məsələsinin həllinin zamanın böyük qiymətlərində tədqiqi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

1994-cü ildə Bakı Dövlət Universitetində "Silindrik oblastlarda elliptik tip tənliklər üçün şüalanma prinsipləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1969-cu ildə ona "Diferensial və inteqral tənliklər" ixtisası üzrə baş elmi işçi adı verilmiş, 1996-cı ildə professor elmi adını almışdır. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Bala İsgəndərov 1998-ci ildən ömrünün sonunadək Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsində Dövlət İmtahan Komissiyasının sədri olmuş, müxtəlif illərdə Gəncə Dövlət Universitetində və Azərbaycan Dövlət Pedaqoji Universitetində də bu vəzifəni icra etmişdir. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Riyaziyyat və Mexanika üzrə Ekspert Şurasının sədri, "Proceedings of Mathematics and Mechanics of NASA" jurnalının baş redaktorunun müavini, "Transactions of NASA" jurnalının redaksiya heyətinin üzvü, Riyaziyyat və Mexanika İnstitutunun Elmi Şurasının üzvü, institutun ümumi seminarının və "Diferensial tənliklər" şöbəsinin seminarının rəhbəri olmuşdur.

O, 70-dən çox elmi məqalənin və bir monoqrafiyanın müəllifidir. Onun elmi rəhbərliyi altında 13 fəlsəfə doktoru hazırlanmış, 100-dən artıq doktorluq və namizədlik dissertasiyasına opponentlik etmişdir.

Elmi və təşkilati fəaliyyətinə görə 1996 və 2001-ci illərdə AMEA-nın Fəxri Fərmanları, 2008-ci ildə isə S.L.Sobolev adına medal ilə təltif edilmişdir.

Bala Ağa-Hüseyn oğlu İsgəndərov 2012-ci il sentyabr ayının 9-da vəfat etmişdir.

Ədəbiyyat:

Bala Ağahüseyn oğlu İsgəndərov // Elm.– 2012.– 24 avqust.– S.16.

Azərbaycan riyaziyyatçıları / M. C. Mərdanov; elmi red. H. İsaxanlı; [red. Ə. Tahirov; dizayn K. İbrahimov].– Bakı: Elm və təhsil, 2019.– S. 141-144.


İnternetdə:

https://science.gov.az/az/forms/skanchavshiesya-chlenyikorrespondentyi/3422

Cəlil Hüseynov – 130

(1896-1979)

Akademik



Cəlil Yusif oğlu Hüseynov 1896-cı il dekabr ayının 20-də (bəzi mənbələrdə 28 dekabr) Nuxa (indiki Şəki) şəhərində anadan olmuşdur. O, 1905–1907-ci illərdə Şəki şəhərindəki rus məktəbində, 1908–1918-ci illərdə Tiflisdə I oğlanlar gimnaziyasında, 1919-cu ildə isə Bakı oğlanlar gimnaziyasında təhsil almışdır. Ali təhsilini 1924-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki Azərbaycan Tibb Universiteti) Tibb fakültəsində almışdır.

Cəlil Hüseynov 1924–1946-cı illərdə akademik İ.İ.Şirokoqorovun rəhbərlik etdiyi Patoloji anatomiya kafedrasında assistent, dosent və professor vəzifələrində çalışmışdır. 1925-ci ildə "Muğan malyariya ekspedisiyası"nın Cənub-Muğan qrupuna rəhbərlik etmişdir. 1936-cı ildə elmlər doktorluğu dissertasiyasını müdafiə etmiş və Patoloji anatomiya kafedrasının professoru kimi fəaliyyət göstərmişdir.

1946–1979-cu illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) Patoloji anatomiya kafedrasının müdiri vəzifəsində elmi-pedaqoji fəaliyyət göstərmiş, eyni zamanda 1946–1979-cu illərdə Azərbaycan SSR Səhiyyə Nazirliyinin baş patoloqanatomu olmuşdur. 1959-cu ildə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, 1967-ci ildə isə həqiqi üzvü seçilmişdir.

Alimin elmi fəaliyyətinin əsas istiqamətlərini malyariya zamanı nekroz və qanqrenaların, tropik malyariya, qarayara, səpkili yatalaq xəstəliklərinin patomorfologiyası və patogenezinin, habelə müxtəlif xəstəliklər zamanı periferik sinir sisteminin patomorfologiyasının öyrənilməsi təşkil etmişdir.

Cəlil Hüseynov 200-ə yaxın elmi əsərin, o cümlədən monoqrafiya, dərslik və dərs vəsaitlərinin müəllifi olmuşdur. İlk dəfə Azərbaycan Dövlət Tibb İnstitutu nəzdində histologiya, mikrobiologiya və patoloji anatomiya fənlərindən Azərbaycan dilində mühazirə və praktik dərslər aparmışdır. Onun müəllifliyi ilə Azərbaycan dilində "Ümumi patoloji anatomiya" (1963) və "Xüsusi patoloji anatomiya" (1977) dərslikləri tərtib edilmişdir. Bu dərsliklərə görə alim 1978-ci ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür.

Cəlil Hüseynov eyni zamanda "Periferik sinir sisteminin – reseptor və sinapsların patomorfologiyası barədə" (1957) və "Patologiya şəraitində və sinapslarda struktur dəyişikliklər (makro-, mikro- və elektronmikroskopik dəyişikliklər)" (1965) adlı monoqrafiyaların müəllifidir. SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının təklifi ilə histologiya, patoloji anatomiya və patoloji fiziologiya üzrə Azərbaycan dilində tərtib edilmiş, 2500 termindən ibarət terminoloji lüğət hazırlanmışdır.

Onun rəhbərliyi və məsləhətçiliyi altında 15 elmlər doktoru, 28 fəlsəfə doktoru dissertasiyası müdafiə olunmuşdur. Alim xarici ölkələrdə keçirilən bir sıra beynəlxalq qurultay, konfrans və simpoziumlarda iştirak etmiş və elmi məruzələrlə çıxış etmişdir.

Cəlil Hüseynov 1946-cı ildən Azərbaycan Patoloqlar Cəmiyyətinin sədri, 1971-ci ildən Ümumittifaq Patoloji Anatomiya Cəmiyyətinin fəxri üzvü, 1976-cı ildən Azərbaycan Sovet Ensiklopediyası redaksiya şurasının üzvü olmuşdur. Azərbaycan tibb elminin inkişafındakı xidmətlərinə görə 1957-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, səmərəli elmi-pedaqoji fəaliyyətinə görə iki dəfə "Lenin" ordeni, iki dəfə "Qırmızı Əmək Bayrağı" ordeni, "Şərəf nişanı" ordeni və bir sıra medallarla təltif edilmişdir.

Akademik Cəlil Yusif oğlu Hüseynov 1979-cu il mart ayının 21-də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Ümumi patoloji anatomiya: tibb institutu üçün dərslik / C. Y. Hüseynov; [red. Ə. Əliyev, M. Müslümov].– Bakı: Azərtədrisnəşr, 1963.– 246, [2] s.

C.Y.Hüseynov: biblioqrafiya / Tərt. ed. A.M.Həmidova; red. A.İ.Qarayev, İ.Q.Səfərov; AzSSR EA Əsaslı Kitabxana.– Bakı: Azərbaycan SSR EA, 1966.– 88 s.

Ümumi patoloji anatomiya: Tibb İnstitutu üçün dərslik / C.Y.Hüseynov; rəy ver. S.A.Quliyeva, L.H.Məmmədbəyova, A.R.Atakişiyev.– Bakı: Maarif, 1975.– 278, [2] s.

Xüsusi patoloji anatomiya: Tibb İnstitutu üçün dərslik / C.Y.Hüseynov.– Bakı: Maarif, 1976.– 345, [3] s.

İnternetdə:

https://science.gov.az/az/forms/skonchavshiesya-deystvitelnyie-chlenyi/3285

https://www.sheki.org/wiki/C%C9%99lil_H%C3%BCseynov

Niyazi Səmədov – 110

(1916-1989)

Alim



Niyazi Həmid oğlu Səmədov 1916-cı il dekabr ayının 31-də Nuxa (indiki Şəki) şəhərində anadan olmuşdur. 1932-ci ildə Şəki (Nuxa) Kənd Təsərrüfatı Texnikumunun ipəkçilik bölməsini, 1941-ci ildə Daşkənd Kənd Təsərrüfatı İnstitutunun ipəkçilik fakültəsini bitirmişdir.

1941–1946-cı illərdə Sovet Ordusu sıralarında xidmət etmiş, II Dünya müharibəsinin iştirakçısı olmuş və 1946-cı ildə zabit rütbəsində ordu sıralarından tərxis edilmişdir.

Niyazi Səmədov əmək fəaliyyətinə 1933–1935-ci illərdə Qəbələ və Ağdaş barama-toxumu müəssisələrində ipəkçi-texnoloq kimi başlamışdır. 1947-ci ildən Azərbaycan SSR Elmlər Akademiyasının Zoologiya İnstitutunda kiçik elmi işçi, 1954-cü ildən baş elmi işçi vəzifələrində çalışmışdır. 1955–1961-ci illərdə institutun elmi işlər üzrə direktor müavini olmuş, 1961-ci ildən ömrünün sonunadək Entomologiya laboratoriyasının müdiri vəzifəsində fəaliyyət göstərmişdir.

1951-ci ildə "Azərbaycanda Labrus cinsindən olan taxıl böcəkləri və onlara qarşı mübarizə tədbirləri" mövzusunda fəlsəfə doktorluğu, 1964-cü ildə "Azərbaycanda kənd təsərrüfatı bitkilərinə ziyan verən böcəklərin fauna və biologiyası" mövzusunda elmlər doktorluğu dissertasiyasını müdafiə etmişdir. 1971-ci ildə professor elmi adını almışdır. 1972-ci ildə Hindistan Beynəlxalq Zoologiya Akademiyasının həqiqi üzvü, 1979-cu ildə SSRİ EA Ümumittifaq Entomologiya Cəmiyyətinin fəxri üzvü, 1980-ci ildə isə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Niyazi Səmədovun elmi fəaliyyəti əsasən entomologiya, torpaq zoologiyası, biosenologiya və bitki mühafizəsi sahələrinə həsr olunmuşdur. Onun apardığı tədqiqatlar həşəratların böcəklər dəstəsinin öyrənilməsini, əsas növlərin bioekoloji xüsusiyyətlərinin və təsərrüfat əhəmiyyətinin müəyyənləşdirilməsini, həmçinin ciddi zərərverici növlərə qarşı mübarizə tədbirlərinin elmi əsaslarının hazırlanması və tətbiqini əhatə etmişdir.

Niyazi Səmədov tərəfindən Azərbaycanda 26 fəsiləyə mənsub 2900-dən artıq böcək növü aşkar edilmişdir. Bu növlərdən 16-sı elm üçün yeni, 43-ü SSRİ faunası, 89-u Qafqaz faunası, 760-ı isə respublika faunası üçün ilk dəfə qeyd olunmuşdur. Alim 431 növün kənd təsərrüfatı bitkilərinə zərər verdiyini müəyyən etmiş, onlardan 30-u zərərverici kimi ilk dəfə təsdiq edilmişdir.

Niyazi Səmədov "İnsan və biosfer" proqramı çərçivəsində Azərbaycanda torpaq zoologiyası və biosenologiya üzrə elmi tədqiqat işlərinin təşkili və inkişafında fəal iştirak etmişdir. Onun hazırladığı taxıl, meşə və bəzək bitkilərinin əsas zərərvericilərinə qarşı mübarizə tədbirləri respublikanın xalq təsərrüfatında tətbiq olunmuşdur.

Alim 200-dən çox elmi məqalənin, 5 monoqrafiyanın, 6 elmi-kütləvi kitabçanın və 3 ixtiranın müəllifidir. Onun 8 elmi əsəri Avstriya, İngiltərə, Almaniya, Fransa və Çexoslovakiyada nəşr olunmuşdur. Azərbaycan Ensiklopediyası və Qırmızı Kitabın müəlliflərindən biri olmuşdur. Onun rəhbərliyi altında 7 elmlər doktoru və 40 fəlsəfə doktoru dissertasiyası hazırlanmış və müdafiə edilmişdir.

Elmi və ictimai fəaliyyətinə görə 1980-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, II Dünya müharibəsində iştirakına görə II dərəcəli "Vətən müharibəsi" ordeni və səkkiz medalla təltif edilmişdir.

AMEA-nın müxbir üzvü, professor Niyazi Həmid oğlu Səmədov 1989-cu il may ayının 23-də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Dənli və paxlalı bitkilərin zərərvericiləri / Niyazi Səmədov, H. M. Səlimxanov; [red. A. Abdullayev].– Bakı: Azərnəşr, 1964.– 61, [2] s.

Azərbaycanda tərəvəz-bostan bitkilərinin əsas zərərvericiləri və onlara qarşı mübarizə tədbirləri / Z. M. Əliyeva, N. H. Səmədov, N. C. Vəzirov, R. M. Əffəndi; [red. R. M. Əhmədov; aparıcı red. R. N. Kərimov].– Bakı: AzETETİİ, 1985.– 48, [4] s.

Niyazi Həmid oğlu Səmədov: biblioqrafik göstərici / AMEA; tərt. X. Z. Əsgərzadə, E. A. Hüseynova, A. N. Səmədov; elmi red. M. Musayev.– Bakı: Elm, 2008.– 65, [2]s.

Azərbaycanın uzunbığ böcəkləri: (coleoptera, cerambycidae) / N. H. Səmədov; elmi red. S. Ə. Əliyev, İ. Q. Kərimova; AMEA, Zoologiya İns-tu.– Bakı: Elm, 2010.– 159, [1] s.

İnternetdə:

https://science.gov.az/az/forms/skanchavshiesya-chlenyikorrespondentyi/3502

Bəhmən Hacıyev – 100

(1926-1998)

Neftçi-alim



Bəhmən Əbiş oğlu Hacıyev 1926-cı il dekabrın 2-də Zəngəzurun Şıxlar kəndində anadan olmuşdur. 1939-cu ildə natamam orta məktəbin 7-ci sinfini bitirdikdən sonra Bakıya gəlmiş, Sabunçu rayonunun 148 nömrəli orta məktəbində təhsilini davam etdirmişdir.

Əmək fəaliyyətinə 1943-cü ildə keçmiş "Əzizbəyovneft" trestinin ikinci mədənində operator köməkçisi kimi başlamış, 1945-ci ildə istehsalatdan ayrılmadan Azərbaycan Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) daxil olmuş, burada 1950-ci ildə neft və qaz yataqlarının işlənməsi üzrə dağ mühəndisi ixtisasına yiyələnmişdir.

Ali təhsilli mütəxəssis kimi 1950-ci ildə "Bibiheybətneft" trestinin 6-cı mədənində neft və qaz hasilatı üzrə usta işləmiş, 1953-cü ildən 1960-cı ilədək "Gürganneft" trestinin baş mühəndisi vəzifəsində çalışmışdır. Sonralar həmin trest Sov.İKP-nin XXII qurultayı adına Neft və Qazçıxarma İdarəsinə çevrilmiş və Bəhmən Hacıyev 1962-ci ilədək bu NQÇİ-nin baş mühəndisi, 1977-ci ilədək isə rəisi olmuşdur. Neft Daşlarında 1950-ci illərin sonu – 1960-cı illərin əvvəllərində qapalı istismar sisteminin yaradılması onun xidmətlərindən biridir.

1961-ci ildə "Dənizdə neft yataqlarının işlənilməsi və istismarı məsələləri" ("Neft Daşları" timsalında) mövzusunda dissertasiya işini müdafiə etmiş, texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. Tanınmış neftçi-alimin elmi tədqiqatları onun "Dənizdə neft yataqlarının işlənilməsi və istismarı məsələləri" monoqrafiyasında öz əksini tapmışdır.

Bəhmən Hacıyev Neft Daşlarında quyuların maili istiqamətdə küt qazılması və maili qazmanın köməyi ilə bir nöqtədən iki quyunun qazılması üsullarını tətbiq etmişdir. Onun rəhbərliyi ilə Neft Daşlarında bir sıra yeni texniki və səmərələşdirici tədbirlər həyata keçirilmiş, neftin çıxarılması, qorunması və daşınması məsələlərinə ciddi diqqət yetirilmişdir. Neft Daşlarından Abşeron yarımadasının Dübəndi məntəqəsinə neft boru kəməri çəkilməsi işində onun təşəbbüsü və səmərələşdirici təklifləri böyük rol oynamışdır.

Bəhmən Hacıyev 1977–1984-cü illərdə "Azneft" İB-nin baş direktoru, 1984–1994-cü illərdə Zaqafqaziya Ümumittifaq Təhlükəsizlik Texnikası İnstitutunun direktoru vəzifəsində çalışmışdır. Onun rəhbərliyi altında dəniz neft-qaz yataqlarının işlənməsi və təhlükəsizlik texnologiyaları sahəsində bir sıra yeni üsullar hazırlanmışdır. 1990-cı ildə "Neft yataqlarının mürəkkəbləşmiş şəraitlərdə kompleks işlənilməsi və istismarı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, texnika elmləri doktoru alimlik dərəcəsi almışdır. Bəhmən Hacıyev 1993-cü ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Neft-Qaz Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutunda çalışmışdır.

Bəhmən Hacıyev 105 elmi əsərin və 50-dən çox ixtiranın müəllifidir. O, həmçinin Azərbaycan Neft Akademiyasında pedaqoji fəaliyyət göstərmiş, neft-mədən ixtisası üzrə Dövlət İmtahan Komissiyasının sədri olmuş, 1991-ci ildə professor elmi adı almışdır.

Azərbaycan neft sənayesinin inkişafındakı xidmətlərinə görə 1959-cu ildə "Qırmızı Əmək Bayrağı" ordeni ilə, 1960-cı ildə "Azərbaycan SSR-in neft ustası" fəxri adı ilə, 1961-ci ildə Lenin mükafatı ilə, 1965-ci ildə Almaniya Demokratik Respublikasının fəxri Qızıl diplomu və Lenin ordeni ilə, 1966-cı ildə "SSRİ neft sənayesinin əlaçısı" adı ilə, 1970-ci ildə "Fəxri Neftçi" adı ilə, 1971-ci ildə ikinci dəfə Qırmızı Əmək Bayrağı və "Oktyabr inqilabı" ordenləri ilə, 1972-ci ildə Azərbaycan SSR Dövlət mükafatı ilə, 1975-ci ildə "Azərbaycan SSR Əməkdar mühəndisi" fəxri adı ilə və 1996-cı ildə Yusif Məmmədəliyev adına mükafata layiq görülmüşdür.

Bəhmən Əbiş oğlu Hacıyev 1998-ci ildə vəfat etmişdir. Onun xatirəsini əbədiləşdirmək məqsədilə yaşadığı binaya xatirə lövhəsi vurulmuşdur.

Ədəbiyyat:

Məşhur neftçi Bəhmən Hacıyev / Məmməd Mirzəyev, Canalı Mirzəliyev; Elmi red. və rəyçi: Xoşbəxt Yusifzadə.– Bakı: Azərbaycan, 2002.– 200 səh.

Peşəkar neftçi, yaradıcı mühəndis, istedadlı alim: Bəhmən Hacıyev - 85 / X. Yusifzadə // Azərbaycan.– 2011.– 2 dekabr.– S. 6.

Xüsusi mühəndisi geologiya: qısa kurs: [dərs vəsaiti] / B.Ə.Hacıyev, N.İ.Babayev, İ.Ş.Namazov; red. Ə.K.Əlimov.– Bakı: [s. n.], 2012. ["Tərəqqi" MMC-nin mətbəəsi].– 143 s.

Mühəndisi geodinamika: dərs vəsaiti / B.Ə.Hacıyev, N.İ.Babayev, İ.Ş.Namazov; red. Ç.M.Xəlifəzadə.– Bakı: [Mars-Print], 2014.– 156 s.

İnternetdə:

http://az.wikipedia.org/wiki/B%C9%99hman_Hac%C4%B1yev

https://old.xalqqazeti.com/az/news/social/17427

Rafiq Mehdiyev – 90

(1936-2025)

Alim



Rafiq İsrafil oğlu Mehdiyev 5 dekabr 1936-cı ildə Cəbrayıl şəhərində anadan olmuş, 17 oktyabr 2025-ci ildə vəfat etmişdir. 1958-ci ildə Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universiteti) mexanika fakültəsini bitirmiş, 1964-cü ildə namizədlik, 1981-ci ildə isə Sankt-Peterburq Texniki Universitetində doktorluq dissertasiyasını müdafiə etmişdir. 1967-ci ildə daxili yanma mühərrikləri və avtotraktor kafedrasının dosenti, 1983-cü ildən professor adına layiq görülmüşdür. Uzun müddət həmin kafedraya rəhbərlik etmiş, sonradan AzTU-nun nəzdində fəaliyyət göstərən "Motor yanacaqları və ətraf mühit" Elmi-Tədqiqat İnstitutunun elmi rəhbəri olmuşdur.

1993–1999-cu illərdə Azərbaycan Texniki Universitetinin rektoru vəzifəsində çalışmışdır. 2001-ci ildən etibarən 14 il müddətində İstanbul Texniki Universitetində professor kimi fəaliyyət göstərmiş, daha sonra xüsusi dəvətlə Gəbzə Texniki Universitetində professor vəzifəsini davam etdirmişdir.

Rafiq Mehdiyev 300-dən çox elmi əsərin, 15-ə yaxın ixtiranın müəllifidir. Onun ixtiralarından biri olan maye qazla işləyən dizel mühərriki dünyada ilk dəfə tətbiq edilmiş və Türkiyədə böyük uğur qazanmışdır. Alimin bir sıra ixtiraları ABŞ, İngiltərə, İtaliya, Almaniya, Fransa, Rusiya və Yaponiyada patentləşdirilmişdir. O, daxili yanma mühərrikləri sahəsində aparılan tədqiqatlarla Azərbaycan mühərrikçilər elmi məktəbinin formalaşmasında mühüm rol oynamışdır.

Rafiq Mehdiyevin rəhbərliyi ilə TOFAŞ, MOTOSAN, ANADOLU MOTOR, BAŞAK TRAKTÖR və TÜMOSAN kimi yerli motor istehsalçıları ilə əməkdaşlıq çərçivəsində TÜBİTAK-ın dəstəyi ilə elmi-tədqiqat və təcrübə-konstruktor işləri aparılmışdır. Bu fəaliyyətlər nəticəsində "MR-Process" adlı yeni yanma mexanizmi işlənib hazırlanmış, Türkiyə patenti alınmış və həmin mexanizm əsasında Yerli Turbo Dizel Mühərriki istehsal edilmişdir. Lisenziya müddəti bitmiş avtomobil və traktor mühərrikləri modernizə edilərək onların performans və səmərəliliyi artırılmışdır.

"MR-Proses" yanma mexanizminin əsas xüsusiyyəti sıxma dərəcəsi dizel mühərrikləri səviyyəsində olan (14:1–16:1) mühərrikdə əlavə konstruktiv dəyişiklik aparmadan həm qığılcımla alışma (benzin və qaz yanacaqları ilə), həm də özü-özünə alışma (dizel yanacağı ilə) rejimində işləmə imkanının əldə olunmasıdır. Bu mexanizm tətbiq edildikdə benzin rejimində yanacaq sərfi və karbon qazı emissiyası iki dəfəyə qədər, dizel rejimində isə yanacaq sərfi 8–10%, azot oksidləri isə 3–4 dəfə azalır. Nəticədə əlavə filtrasiya sistemləri olmadan Avro 6 ekoloji standartlarına cavab verən mühərrik əldə edilir.

Rafiq Mehdiyev Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvü kimi də fəaliyyət göstərmiş, yüksəkixtisaslı elmi kadrların hazırlanmasında iştirak etmişdir. Onun rəhbərliyi ilə 20-dən artıq alim yetişdirilmiş, həmin mütəxəssislər arasında ABŞ, Almaniya, Hindistan, İraq, Suriya, Polşa və Ukrayna vətəndaşları da olmuşdur.

Alimin elmi tədqiqatları əsasən daxili yanma mühərriklərində yanma proseslərinin təkmilləşdirilməsi, yanacaq qənaəti və ətraf mühitə atılan zərərli emissiyaların azaldılması problemlərinə həsr edilmişdir. O, Azərbaycan və beynəlxalq elmi-praktik konfranslarda, simpoziumlarda mühərrik texnologiyaları sahəsində məruzələrlə çıxış etmişdir.

Rafiq İsrafil oğlu Mehdiyev 17 oktyabr 2025-ci ildə vəfat etmişdir.

Ədəbiyyat:

Azərbaycanda istilik-energetikasının tarixi və metodologiyası / Y. M. Naziyev, C. Y. Naziyev; Elmi red.: H. Q. Feyziyev; Rəyçilər.: F. İ. Kəlbiyev, M. R. Mustafayev.– Bakı: Elm, 2001.– 203 səh.

Dəyərli alim, səmimi insan: Rafiq Mehdiyev-85 / Z. Səmədzadə // İqtisadiyyat.– 2021.– 2-8 dekabr.– S.3.

Tanınmış alim, dəyərli insan / Z.Səmədzadə // İqtisadiyyat.– 2025.– 6-12 noyabr (№44).– S.5.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Rafiq_Mehdiyev_(professor)

https://azerbaijan-news.az/az/posts/detail/taninmis-alim-deyerli-insan-1638650989

Kamal Abdullayev – 90

(1936-2025)

Alim



Ədəbiyyat:

İstilik elektrik stansiyalarının qazan qurğuları: Ali texniki məktəblər üçün dərslik / Kamal Abdullayev.– Bakı: Maarif, 2002.– 340 s.

Abdullayev Kamal Mehman oğlu // Azərbaycan Milli Ensiklopediyası / red. hey. sədri İ.H.Əliyev; baş red. M.K.Kərimov.– C.1 A-Argelander.– Bakı, 2009.– S. 33.

Ələsgərov, B. Görkəmli energetik alim / B.Ələsgərov // İqtisadiyyat.– 2016.– 16-22 dekabr.– S. 5.

İstilik energetik qurğularının köməkçi avadanlıqları: dərslik / Kamal.Abdullayev (red.), C.P.Məmmədova, Ş.N.Nəsirov [və b.]; Azərb. Dövlət Neft və Sənaye Un-ti.– Bakı: [ADNSU], 2017.– 445s.

"Azərenerji" ASC enerji təminatında dünyada liderlər sırasındadır: Bu sistemin dayanıqlılığının təminatı stansiyalardan istifadədə əmsal artımının göstəricisidir / Kamal Abdullayev // Azərbaycan.– 2020.– 8 fevral.– S. 4.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Kamal_Abdullayev_(energetik)

Kamal Mehman oğlu Abdullayev 19 dekabr 1936-cı ildə Qusar rayonunun Əcəxur kəndində anadan olmuşdur.

O, 1952-ci ildə yeddiillik kənd orta məktəbini, 1956-cı ildə Bakı Energetika Texnikumunu, 1961-ci ildə isə Azərbaycan Neft və Kimya İnstitutunu (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) bitirmişdir. Əmək fəaliyyətinə "Azərenerji" sistemində kimya xidməti şöbəsində mühəndis kimi başlamış, 1963-cü ildə həmin şöbənin rəisi vəzifəsinə təyin edilmişdir.

1966–1972-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunda dosent vəzifəsində çalışmış, 1972-ci ildən etibarən "İstilik energetikası" kafedrasının müdiri və kafedranın nəzdində fəaliyyət göstərən problem laboratoriyasının rəhbəri olmuşdur. 1974–1976 və 1982–1998-ci illərdə energetika fakültəsinin dekanı vəzifəsində işləmişdir.

Kamal Abdullayev namizədlik dissertasiyasını professor İ. Z. Makinskinin rəhbərliyi altında müdafiə etmiş, 1978-ci ildə Moskvada Energetika İnstitutunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1980-ci ildə professor elmi adını almışdır.

Onun elmi tədqiqatları yüksək minerallı və çirkab suların emalı və sənayedə istifadəsi, dəniz suyunun istilikelektrik stansiyalarında kompleks emalı, istilik energetikası sistemlərinin ekoloji təhlükəsizliyinin artırılması problemlərinə həsr olunmuşdur. Dəniz suyunun şirinləşdirilməsi məqsədilə son illərdə geniş tətbiq olunan əks-osmos üsulunun təkmilləşdirilmiş variantını təklif etmişdir.

Sumqayıt, Şirvan və Şimal istilik elektrik stansiyalarının tikintisi ilə əlaqədar "Azərenerji" xətti ilə texniki ekspert kimi İran İslam Respublikasında, Türkiyədə və Çində ezamiyyətdə olmuş, yeni texniki həllərin tətbiqində iştirak etmişdir.

Kamal Abdullayev uzun müddət Azərbaycan Dövlət Neft və Sənaye Universitetində istilik energetikası üzrə bütün Qafqaz regionunu əhatə edən Dissertasiya Müdafiə Şurasının sədri olmuşdur. O, eyni zamanda müxtəlif elmi və texniki şuraların, Elm və Təhsil Nazirliyinin Elmi Metodik Şurasının Energetika bölməsinin sədri, yerli və beynəlxalq elmi jurnalların redaksiya heyətlərinin üzvü kimi fəaliyyət göstərmişdir.

Alimin rəhbərliyi ilə 50-dən artıq elmlər namizədi və 4 elmlər doktoru hazırlanmışdır. O, İngiltərədə və Moskvada nəşr olunmuş 4 monoqrafiyanın, 300-dən artıq elmi məqalənin və 20-dən artıq ixtiranın müəllifidir. Müstəqilliyin ilk illərində ali texniki məktəblər üçün Azərbaycan dilində istilik energetikası sahəsində dərsliklərin hazırlanmasına xüsusi diqqət yetirmiş və bu sahədə bir sıra dərsliklər nəşr etdirmişdir.

Kamal Abdullayev 1975-ci ildə Ekoenergetika və Beynəlxalq Ekologiya və Təhlükəsizlik Akademiyalarının akademiki, 2004-cü ildə isə Gürcüstan Milli Energetika Akademiyasının həqiqi üzvü seçilmişdir. Onun adı ABŞ-da nəşr olunmuş "XX əsrin məşhur alimləri" ensiklopediyasına daxil edilmiş, 2012-ci ildə ABŞ Bioqrafiya İnstitutunun "Elmin açarı" mükafatına layiq görülmüşdür.

Elmi və pedaqoji fəaliyyətinə görə 1981-ci ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı və "Əlaçı fəxri energetik" adı ilə, elmi nəticələrinə görə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin qızıl və gümüş medalları ilə təltif edilmişdir. 2000-ci ildə ekologiya sahəsindəki elmi işlərinə görə M. Lomonosov adına və Y. Məmmədəliyev adına medallara, "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 2010-cu ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir. 2017-ci ildən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Kamal Mehman oğlu Abdullayev 4 noyabr 2025-ci ildə vəfat etmişdir.

Faiq Abdullayev – 90

(1936-2021)

Alim



Faiq Məmmədəli oğlu Abdullayev 26 dekabr 1936-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur.

O, Azərbaycan Neft və Kimya İnstitutunu (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) bitirmişdir. O, texnika elmləri doktoru (1987), professor (1988), neft-kimya və texnoloji proseslərin avtomatlaşdırılması sahəsində tanınmış alim olmuşdur.

Əmək fəaliyyəti ərzində Sumqayıt "Neft-Kimyaavtomat" Elmi-Tədqiqat Layihə İnstitutunda elmi tədqiqat şöbəsinin müdiri (1966–1971), direktorun elmi işlər üzrə birinci müavini (1972–1985), Azərbaycan "Neftqazavtomat" Elmi-İstehsalat Birliyinin baş direktorunun elmi işlər üzrə birinci müavini (1986–1993) vəzifələrində çalışmışdır.

1993–1998-ci illərdə Azərbaycan Sənayə İnstitutunun (indiki Sumqayıt Dövlət Universiteti) "İdarəetmənin avtomatlaşdırılması" kafedrasında professor vəzifəsində fəaliyyət göstərmişdir. 1998-ci ildən etibarən Azərbaycan Dövlət Neft Akademiyasının "Avtomatika, Telemexanika, Elektronika" kafedrasının professoru və Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunun baş elmi işçisi olmuşdur.

Alimin elmi tədqiqatları qeyri-stasionar neft-kimya proseslərinin riyazi modelləşdirilməsi, optimallaşdırılması və avtomatlaşdırılması problemlərinə həsr edilmişdir. Onun əsas elmi nailiyyətlərinə qeyri-stasionar texnoloji proseslərin müəyyən edilməsi üçün yeni metodun yaradılması, passiv və aktiv təcrübə üsullarının çatışmazlıqlarını aradan qaldıran əvəzedici planlaşdırma prinsiplərinin işlənməsi, qeyri-stasionar texnoloji proseslərin identifikasiyası üçün fiziki-kimyəvi kinetik qanunlara əsaslanan evristik formal-empirik riyazi modelləşdirmə üsullarının hazırlanması daxildir. Paylanmış parametrli qeyri-stasionar katalitik proseslərin birbaşa variasiya və maksimum prinsipinə əsaslanan optimallaşdırma məsələləri inkişaf etdirilmiş və etilen, etilbenzen, formalin və digər sənaye texnoloji proseslərində tətbiq edilmişdir.

Faiq Abdullayev 239 elmi əsərin müəllifidir. Onun elmi irsinə monoqrafiyalar, dərs vəsaitləri, tematik icmallar və 70-ə qədər ixtira daxildir. O, Çexoslovakiya, Polşa, Almaniya və Fransada keçirilən beynəlxalq elmi konqres və məclislərdə məruzələrlə çıxış edərək Azərbaycan elmini təmsil etmişdir.

Texnoloji proseslərin və istehsalatların avtomatlaşdırılması sahəsində fəaliyyət göstərən alim gənc elmi kadrların hazırlanmasına mühüm töhfələr vermiş, onun rəhbərliyi ilə bir sıra elmi tədqiqat işləri aparılmışdır.

Elmi və elmi-təşkilati fəaliyyətinə görə Faiq Abdullayev 1970-ci ildə "Rəşadətli əməyə görə" medalı, 1977-ci ildə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuş, 1981-ci ildə isə SSRİ Nazirlər Sovetinin mükafatı laureatı olmuşdur.

Faiq Məmmədəli oğlu Abdullayev 17 iyul 2021-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Naxçıvan ensiklopediyası: NE: 2 cilddə / AMEA, Naxçıvan bölməsi ; red. hey. B. Budaqov [və b.] ; burax. məsul. V. Talıbov; [məqalələrin müəl. Y. Axundlu [və b.]].– Naxçıvan: 2005.– S. 12.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Faiq_Abdullayev

Ələkbər Süleymanov – 110

(1916-2000) *Mühəndis*



Ələkbər Bağır oğlu Süleymanov 31 dekabr 1916-cı ildə Gəncə quberniyasının Zəngəzur mahalının Qafan əyalətinin Kətər (Qatar) kəndində anadan olmuşdur. 1922-ci ildə ailəsi ilə birlikdə Bakıya köçmüşdür. 1933-cü ildə orta məktəbin yeddinci sinfini, 1937-ci ildə Balaxanı Neft Texnikumunu bitirmişdir. 1950–1953-cü illərdə SSRİ Neft Sənayesi Akademiyasında və akademik İ. M. Qubkin adına Moskva Neft İnstitutunda təhsil almış və ali neft mühəndisi ixtisasına yiyələnmişdir.

Əmək fəaliyyətinə 1937-ci ildə neft sənayesində operator kimi başlamış, 1937–1940-cı illərdə "Kaqanoviçneft" (indiki "Suraxanıneft" NQÇİ) trestində operator, usta köməkçisi, usta və mədən müdiri, 1940–1944-cü illərdə "Korgözneft" və "Orcenikidzeneft" trestlərində mədən müdiri, 1944–1950-ci illərdə "Kirovneft" trestində baş mühəndis vəzifələrində çalışmışdır.

1953–1959-cu illərdə "Orcenikidze" Neft Mədənləri İdarəsinin rəisi, 1959–1962-ci illərdə "Azneft" Birliyinin baş mühəndisi, 1962–1965-ci illərdə "Azneft" Birliyinin rəisi, 1965–1970-ci illərdə Azərbaycan SSR Neft Sənayesi nazirinin birinci müavini, 1970–1972-ci illərdə yenidən "Azneft" Birliyinin rəisi olmuşdur. 1972–1978-ci illərdə "Xəzərdənizneft" Birliyinə, 1978–1980-ci illərdə "Xəzərdənizneftqaz" Ümumittifaq Sənaye Birliyinə rəhbərlik etmiş, 1980-ci ildən ömrünün sonunadək "Dənizneftqazlayihə" Elmi-Tədqiqat Layihə İnstitutunda direktor müavini vəzifəsində çalışmışdır.

Ələkbər Süleymanov 1960-cı ildə "Kiçik diametrli quyuların istismarının texnikası və texnologiyası", 1964-cü ildə isə "Neft və qaz yataqlarının kiçik diametrli quyularla işlənməsi" mövzularında dissertasiyalar müdafiə etmiş, texnika elmləri doktoru elmi dərəcəsi almış və 1965-ci ildə "Neft və qaz yataqlarının işlənməsi və istismarı" ixtisası üzrə professor elmi adına layiq görülmüşdür.

Ələkbər Süleymanovun rəhbərliyi və bilavasitə iştirakı ilə həm quruda, həm də dənizdə Günəşli, Qum-dəniz, Bahar, Səngəçal-dəniz, Xərə-Zirə, Bulla-dəniz, Palçıq pilpiləsi, Zirə, Mişovdağ, Qarabağlı, Kürsəngə, Muradxanlı, Cənub-1, Cənub-2, LAM, Livanov və digər neft-qaz yataqları kəşf edilmiş və istismara verilmişdir. 1976-cı ildə "Günəşli" strukturunda ilk stasionar dəniz platformasının layihələndirilməsi və inşasında, üzmə qabiliyyətli platformaların yaradılması üçün istehsalat bazasının formalaşdırılmasında mühüm rol oynamışdır.

Ələkbər Süleymanov neftçıxarma proseslərinin kompleks avtomatlaşdırılması texnologiyalarının yaradılmasında, ştanqlı nasoslarla istismar sistemlərinin təkmilləşdirilməsində, çoxsıralı və kiçik diametrli quyuların istismar üsullarının tətbiqində fəal iştirak etmişdir. Bu sahədə əldə olunmuş nəticələrə görə 1950, 1952 və 1969-cu illərdə SSRİ Dövlət Mükafatlarına layiq görülmüşdür.

Alim 200-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, 150-dən artıq ixtiranın və 12 patentin müəllifidir. Onun elmi rəhbərliyi altında 13 texnika elmləri namizədi və 5 elmlər doktoru hazırlanmışdır. Respublikanın elmi həyatında fəal iştirak etmiş, Azərbaycan Dövlət Neft Akademiyasında Dövlət İxtisas Komissiyasının sədri, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvü, yanacaq-energetika problemləri üzrə Respublika Şurasının sədri, "Azərbaycan Neft Təsərrüfatı" jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Neft sənayesinin inkişafındakı xidmətlərinə görə "Neft ustası", "Əməkdar mühəndis", "Əməkdar elm və texnika xadimi", "Fəxri neftçi" fəxri adlarına layiq görülmüş, "Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı", "Lenin", "Oktyabr İnqilabı" ordenləri və bir sıra medallarla təltif edilmişdir. 1990-cı ildə Azərbaycan SSR Dövlət Mükafatına layiq görülmüşdür.

Ələkbər Bağır oğlu Süleymanov 27 iyul 2000-ci ildə vəfat etmişdir.

Ədəbiyyat:

Azərbaycan Sovet Ensiklopediyası: On cilddə / [baş red. C. B. Quliyev; baş red. hey.: M. H. Abdullayev [və b.]]; elmi red. şurası: C. B. Quliyev (sədr) [və b.].– Bakı: Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyası, 1986.– S. 100.

Tufanlardan keçən ömür / V.Hacıyev; Məsləhətçilər: M.Bağırov; A.Xasıyev; Red.: Ə.Süleymanov; Ön söz: Q.Məmmədov.– Bakı: Ağrıdağ, 1999.– 112 s.

Azərbaycanın neftçi alimləri / AMEA Geologiya İnstitutu; tərt.ed. Ə. M. Dadaşov; red.hey. Ak. A. Əlizadə, M. T. Abasov, Q. İ. Calalov, Q. M. Əfəndiyev.– Bakı: "Nafta-Press", 2007.– 252, [2] s.

100 il. Ələkbər Bağır oğlu Süleymanov: neftçi, təşkilatçı, alim / red. E. Q. Şahbazov.– Bakı: [s. n.], 2016.– 12 s.

İnternetdə:

https://az.wikipedia.org/wiki/%C6%8Fl%C9%99kb%C9%99r_S%C3%BCleymanov

Abuzər Xələfov – 95

(1931-2020)

Kitabxanaşünas alim



Ədəbiyyat:

M. F. Axundov adına Azərbaycan Milli Kitabxanasının dövri mətbuat fondu: tarixi, müasir vəziyyəti, oxuculara xidmət və inkişaf perspektivləri: (1923-2007-ci illər) / E. E. Məmmədov; elmi red. A. A. Xələfov; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dövlət Mədəniyyət və İncəsənət Un-ti.– Bakı: Mütərcim, 2018.– 252, [2] s.

Professor Abuzər Xələfov və Azərbaycan kitabxanaşünaslıq elmi / A.Həsənova // 525-ci qəzet.– 2019.– 27 noyabr.– S.16.

Abuzər Xələfov haqqında elektron məlumat bazası // Mədəniyyət.– 2020.– 1 may.– S.6.

Professor Abuzər Xələfov elmi irsinin inkişaf mərhələləri / N.İsmayılov // Azərbaycanda kitabxana-informasiya fəaliyyəti üzrə kadr hazırlığı: ənənələr və müasirlik mövzusunda Əməkdar elm xadimi, professor Abuzər Xələfovun 90 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları / BDU.– 2021.– dekabr.– S.46-48.

Əməkdar elm xadimi, professor Abuzər Xələfovun 90 illik yubileyinə həsr olunmuş Azərbaycanda kitabxana-informasiya fəaliyyəti üzrə kadr hazırlığı: ənənələr və müasirlik mövzusunda Respublika elmi konfransının materialları: Bakı, 16-17 dekabr 2021 / [təşkilat kom.: Ə. Bayramov (sədr) [və b.]].– Bakı: [Bakı Dövlət Universiteti], 2022.– 107, [1] s.Abuzər Xələfovun şəxsi arxivi Milli Kitabxanaya təqdim olunub // 525-ci qəzet.– 2023.– 20 iyul.– S.9.

Abuzər Alı oğlu Xələfov 25 dekabr 1931-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Cil kəndində anadan olmuşdur. 1938–1945-ci illərdə Cil kənd yeddiillik məktəbində təhsil almış, 1950–1955-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin kitabxanaçılıq şöbəsini bitirmişdir.

Əmək fəaliyyətinə Bakı Dövlət Universitetində başlamış, müxtəlif illərdə kitabxanaçılıq fakültəsində müəllim, baş müəllim və dosent vəzifələrində çalışmışdır. 1978-ci ildə professor elmi adına layiq görülmüşdür. 1962-ci ildə onun təşəbbüsü və fəal iştirakı ilə BDU-nun Kitabxanaçılıq şöbəsi müstəqil Kitabxanaçılıq fakültəsinə çevrilmiş, Abuzər Xələfov həmin fakültənin ilk dekanı olmuş və bu vəzifədə 25 il fəaliyyət göstərmişdir. 1962-ci ildən Bakı Dövlət Universitetinin Böyük Elmi Şurasının üzvü, 1963–2016-cı illərdə isə Kitabxanaşünaslıq kafedrasının müdiri olmuşdur.

Abuzər Xələfov SSRİ məkanında kitabxana işi tarixi sahəsində ilk elmlər doktoru kimi tanınmış, Azərbaycan kitabxanaşünaslıq elmi məktəbinin əsasını qoymuşdur. XX əsrin 60-cı illərindən etibarən Azərbaycanda kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq sahəsində doktorluq və namizədlik dissertasiyaları müdafiə etmiş alimlərin əksəriyyəti onun elmi məktəbinin yetirmələri olmuşdur.

1995-ci ildən ömrünün sonunadək BDU-nun Veteranlar Şurası sədrinin müavini, 1998-ci ildən Universitetin Nəşriyyat Şurasının sədri olmuş, "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini hazırlayan işçi qrupuna rəhbərlik etmişdir. 1999-cu ildə Azərbaycanda ilk dəfə Azərbaycan Kitabxanaçılar Cəmiyyətini yaratmış və onun ilk prezidenti olmuş, "Kitabxana proseslərinin kompüterləşdirilməsi" elmi-tədqiqat laboratoriyasına rəhbərlik etmişdir. 2000-ci ildə BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının müxbir üzvü, 2001-ci ildə həmin akademiyanın həqiqi üzvü (akademiki) seçilmişdir. 2008-ci ildə "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini hazırlayan işçi qrupunun üzvü olmuşdur.

Alimin elmi tədqiqatları mədəniyyət və kitabxana işi quruculuğunun tarixi problemləri, kitabxanaşünaslığın nəzəriyyəsi və metodologiyası, ali kitabxanaçılıq-biblioqrafiya təhsili, informasiya cəmiyyətində kitabxanaların fəaliyyəti, elektron kitabxanaşünaslıq və digər aktual elmi istiqamətləri əhatə etmişdir.

Abuzər Xələfov 300-ə yaxın elmi əsərin, 10 monoqrafiyanın, 30-dan artıq dərslik və dərs vəsaitinin müəllifidir. Onun elmi rəhbərliyi altında 40-a yaxın elmlər namizədi və elmlər doktoru hazırlanmışdır. "Heydər Əliyev və Azərbaycanda kitabxana işi", "XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin inkişaf istiqamətləri", "Kitabxanaların kompüterləşdirilməsinin əsasları", üçcildlik "Azərbaycanda kitabxana işinin tarixi" və digər fundamental əsərləri Azərbaycan kitabxanaşünaslıq elminin əsas mənbələri sırasında yer alır. 2010-cu ildən nəşr olunan "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktiki jurnalının təsisçisi və baş redaktoru olmuşdur.

2001-ci ildə Amerika Bioqrafiya İnstitutunun nəşr etdiyi "Görkəmli liderlərin beynəlxalq soraq kitabı"nın XI nəşrinin nominantı seçilmişdir. Azərbaycan elminin və mədəniyyətinin inkişafındakı xidmətlərinə görə "Əməkdar mədəniyyət işçisi" (1969), "Əməkdar elm xadimi" (2001) fəxri adlarına, "Şöhrət" (2000) və "Şərəf" (2019) ordenlərinə, "İlin müəllimi" fəxri adına layiq görülmüş, Bakı Dövlət Universitetinin 100 illik yubiley medalı ilə təltif edilmişdir. 2007-ci ildən Azərbaycan Respublikası Prezidentinin Fəxri təqaüdçüsü olmuşdur.

Onun elmi və pedaqoji fəaliyyətinə həsr olunmuş yubiley tədbirləri 2016 və 2021-ci illərdə Azərbaycan Milli Kitabxanasında və Bakı Dövlət Universitetində keçirilmiş, "Abuzər Xələfov. Biblioqrafik məlumat kitabı", elektron məlumat bazası və virtual sərgilər təqdim olunmuşdur.

Abuzər Alı oğlu Xələfov 27 aprel 2020-ci ildə Bakı şəhərində vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.

2023-cü ildə Əməkdar elm xadimi, professor Abuzər Xələfovun şəxsi arxivi onun ailəsi tərəfindən Azərbaycan Milli Kitabxanasına təqdim edilmişdir.

Digər tarixi hadisələr

Beynəlxalq Könüllülər Günü *(1985)*



Ədəbiyyat:

Operativlik və xeyirxahlıq missiyası: 5 dekabr Beynəlxalq Könüllülər Günüdür / F.Əhmədova // Azərbaycan.– 2018.– 5 dekabr.– S.1; 6.

Sərbəst fəaliyyətin təmənnasız forması: 5 dekabr Beynəlxalq Könüllülər Günüdür / M.Nərimanoğlu // Azərbaycan.–2019.– 5 dekabr.– S.9.

Könüllülük ümummilli hərəkata çevrilib: 5 dekabr Beynəlxalq Könüllülər Günüdür / Z.Bayramova // Səs.– 2020.– 5 dekabr.– S.11.

Azərbaycan gənclərinin könül töhfələri: 5 Dekabr Beynəlxalq Könüllülər Günüdür / L. Qurbanova // Xalq qəzeti.– 2023.– 5 dekabr, № 265.– S.11.

5 dekabr Beynəlxalq Könüllülər Günü münasibətilə AMEA-nın prezidenti "MEK könüllüləri"ni təbrik edib / İ.Ə. Həbibbəyli // Elm.– 2024.– 6 dekabr(№40).– S.6.

Könüllülük nədir?: Beynəlxalq Könüllülər Günüdür // Yeni Azərbaycan.-2025.- 5 dekabr (№222).- S.8.

İnternetdən:

https://family.gov.az/az/post/3275/5-dekabr-beynelxalq-konulluler-gunudur

https://azertag.az/xeber/5_dekabr___beynelxalq_ko

BMT-nin Baş Məclisi tərəfindən 1985-ci ildən etibarən hər il 5 dekabr Beynəlxalq Könüllülər Günü kimi qeyd olunur. Könüllülük öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənilməyən fəaliyyəti həyata keçirən şəxsin fəaliyyətidir. Könüllülüyün məqsədi tapşırıqları yerinə yetirmək, fərdlərə və ya ictimai təşkilatlara maliyyə dəstəyi olmadan fədakarcasına xidmət göstərmək, insanların rifahını yaxşılaşdırmaqdır. Bu fəaliyyət şəxsi maraqlar, bacarıqlar və öyrənmə vasitəsilə cəmiyyətə xidmət etməklə həyata keçirilir və qarşılığında pul əvəzinə özünə dəyər və hörmət hissi qazanılır.

Ölkəmizdə hər il Beynəlxalq Könüllülər Günü yüksək səviyyədə qeyd edilir. Könüllülərin səyi nəticəsində minlərlə insan maarifləndirilir, onların pis vərdişlərdən uzaqlaşması üçün müxtəlif layihələr həyata keçirilir. Avropa İttifaqının Avropa Komissiyasının 2007–2013-cü illəri əhatə edən "Gənclər fəaliyyətdə" proqramı və onun ikinci mərhələsi olan "Avropa Könüllülük Xidməti" proqramında könüllülərin rolu böyükdür. Bu proqram vasitəsilə könüllülər həm ölkəmizdə, həm də Avropa ölkələrində müxtəlif layihələrə cəlb olunurlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 dekabr 2019-cu il tarixli sərəncamı ilə 2020-ci il ölkədə "Könüllülər ili" elan edilmişdir. Dövlət tərəfindən bu fəaliyyətin təşviqi məqsədilə normativ hüquqi baza təkmilləşdirilmiş, dəstək mexanizmləri formalaşdırılmışdır. Könüllülük ümummilli hərəkata çevrilərək ölkənin bütün bölgələrinə, ictimai həyatın müxtəlif sahələrinə yayılmış, gənclərimizin həyat tərzinə çevrilmişdir.

Müasir Azərbaycanda könüllülük sahəsində inkişaf ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlamışdır. 1998-ci ildə Gənclər, İdman və Turizm Nazirliyi, BMT İnkişaf Proqramı və BMT Könüllüləri Proqramının birgə layihəsi fəaliyyətə başlamış, 1998–2000-ci illərdən ölkədə könüllülük prinsipləri geniş təbliğ edilmişdir. 2009-cu ildə "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul olunması bu sahədə təkanverici rol oynamış, könüllülük fəaliyyəti davamlı inkişaf yoluna qədəm qoymuşdur.

Prezident İlham Əliyevin Sərəncamı əsasında hazırlanmış "Azərbaycan gəncliyi 2011–2015-ci illərdə Dövlət Proqramı"nın 6.5.9-cu bəndində gənclər arasında könüllülük hərəkatının təbliğ olunması və beynəlxalq gənclər proqramlarının imkanlarından istifadə xüsusilə vurğulanmışdır. Ölkəmizdə könüllülük hərəkatının inkişafında və əldə olunan uğurlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rolu əhəmiyyətlidir. Onun təşəbbüsü ilə keçirilən tədbirlərdə on minlərlə könüllünün fəaliyyətinə şərait yaradılmış, əməkləri yüksək qiymətləndirilmişdir.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın könüllülük fəaliyyətinə göstərdiyi diqqət və qayğı, bu sahədə əldə olunan nailiyyətlər və könüllülərin ölkəmizin inkişafındakı xidmətləri gələcəkdə daha böyük uğurların qazanılacağını göstərir.

Digər tarixi hadisələr

Ümumdünya İnsan hüquqları Günü *(1948)*



Dekabrın 10-u dünya miqyasında Beynəlxalq İnsan Hüquqları Günü kimi qeyd olunur. Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası 10 dekabr 1948-ci ildə bu günü İnsan Hüquqları Günü olaraq qəbul etmişdir. İnsan hüquqları insanların təbii və dərrakədən irəli gələn subyektiv hüquqlarını əhatə edir. İnsan hüquqlarının əsas prinsipi ondan ibarətdir ki, bütün insanlar eyni hüquqlara malik olmalı və bu hüquqlar hər kəs üçün bərabər şəkildə təmin edilməlidir.

Dövlət müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş, BMT-nin İnsan Hüqları haqqında Ümumi Bəyannaməsinə və digər beynəlxalq konvensiyalara qoşulmuşdur. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiya insan hüquq və azadlıqlarına əsaslanan yeni dövlət quruculuğunun təməlini qoymuş, hüquq islahatlarının keyfiyyətcə yeni mərhələsini başlamış, mühüm normativ-hüquqi aktlar və dövlət proqramları qəbul edilmiş, insan hüquqlarının təminatı sahəsində tədbirlərin istiqaməti və konsepsiyası müəyyənləşdirilmişdir.

Dövlət müstəqilliyi dövründə Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının təminatı üçün zəruri qanunvericilik bazası yaradılmışdır. 1998-ci il 22 fevral tarixli "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqamətini və konsepsiyasını müəyyən etmişdir. Hüquqi islahatların ən mühüm mərhələlərindən biri insan hüquqlarının müdafiəsində səmərəli mexanizm olan Ombudsman təsisatının yaradılmasıdır.

Ombudsman təsisatının yaradılması və fəaliyyəti üçün hüquqi və maddi baza formalaşdırılmışdır. 2001-ci il dekabrın 28-də Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında" Konstitusiya Qanununu qəbul etmişdir. 24 dekabr 2002-ci il tarixli "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin təmin-lənməsi haqqında" Konstitusiya Qanunu da bu sahədə hüquqi bazanı gücləndirmişdir.

Azərbaycan Respublikası 2001-ci ildə "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmuş və onu milli qanunvericiliyin tərkib hissəsinə çevirmişdir. Həmçinin ölkə insan hüquqlarının qorunması sahəsində beynəlxalq sənədlərə qoşulmuş, o cümlədən BMT tərəfindən qəbul edilmiş "İşgəncələrə və digər qəddar, qeyri-insani və ləyaqət alçaldan davranış və cəza növünə qarşı" Konvensiyaya iştirak etmişdir.

Ölkəmizdə İnsan Hüquqları günü yüksək səviyyədə konfranslar, görüşlər, mədəni tədbirlər və sərgilərlə qeyd olunur. İyunun 18-i Azərbaycan Respublikasında İnsan Hüqları günü kimi təsis edilmişdir. Prezident İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamına əsasən, 1998-ci il iyunun 18-də təsdiq edilmiş "İnsan hüquqları müdafiəsinə dair Dövlət Proqramı" nəzərə alınaraq iyunun 18-i İnsan Hüquqları günü kimi müəyyən edilmişdir. Bu tədbirlər ölkəmizdə insan hüquqlarının dövlət tərəfindən qorunduğunu və xüsusi diqqət göstərildiyini nümayiş etdirir.

Hər il Azərbaycan Milli Kitabxanasında "10 dekabr – Beynəlxalq İnsan Hüquqları Günü" adlı virtual sərgi hazırlanaraq istifadəçilərə təqdim olunur.

Ədəbiyyat:

Azərbaycanda insan hüquqlarının təminatı: nailiyyətlər, problemlər, perspektivlər: 10 dekabr Ümumdünya İnsan Hüquqları Günüdür // Azərbaycan.– 2013.– 10 dekabr.– S.5,7.

Milli Məclisdə Ombudsmanların XV Bakı Beynəlxalq Konfransının iştirakçıları ilə görüş keçirilib // Azərbaycan.– 2018.–22 iyun.– S.2.

Azərbaycanın QHT nümayəndələri Suqovuşan qəsəbəsinə və Talış kəndinə səfər ediblər // Azərbaycan.– 2021.– 11 dekabr.– S.5.

10 dekabr Ümumdünya İnsan Hüquqları Günüdür: İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur / Ş.Bayramova // Şərq.– 2022.– 9 dekabr.– S.6.


Qərbi Azərbaycan İcmasının Ümumdünya İnsan Hüquqları Günü münasibətilə bəyanatı // Azərbaycan.– 2024.– 11 dekabr (№ 273).– S.5.

Konstitusiyamızda insan hüquq və azadlıqları üçün əsas təminatlar mövcuddur / Cavid // Xalq Cəbhəsi.-2025.- 11 dekabr(№46).- S.9.

https://azertag.az/xeber/10_dekabr___umumdunya_insan_huquqla

Digər tarixi hadisələr

Ümummilli lider Heydər Əliyevin anım günü *(2003)*



Ədəbiyyat:

Ulu öndər Heydər Əliyevin adı Azərbaycan xalqının rəmzinə çevrilib: M.F.Axundov adına Milli Kitabxanada Ümummilli lider Heydər Əliyevin anım günü qeyd olunub / R.Hüseynova // Səs.– 2018.– 11dekabr.– S. 10.

Ulu öndər Heydər Əliyevin əziz xatirəsi qəlblərdə daim yaşayacaq / V. Məhərrəmov // Azərbaycan ordusu.– 2019.– 18 dekabr.– S.4-5.

Ağstafada Ümummilli Lider Heydər Əliyevin anım günü ilə əlaqədar silsilə tədbirlər keçirilib / S.Əliyev // Azərbaycan.– 2021.– 10 dekabr.– S.5.

XX əsrin lideri: 12 Dekabr – Ümummilli lider Heydər Əliyevin anım günü / M.Mərdanov // Xalq qəzeti.– 2022.– 11 dekabr.– S.4.

Yazıçılar Birliyində Ümummilli Lider Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilib // Ədəbiyyat qəzeti.– 2024.– 13 dekabr (№ 49).– S.2.

Cavadov, S. "Sən elə bir zirvəsən!" / Seyran Cavadov // Azərbaycan.-2025.- 13 dekabr (№ 263).- S.11.

Heydər Əliyev zirvəsi // Azərbaycan.-2025.- 10 dekabr (№260).- S.5.

2003-cü il dekabr ayının 12-də Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, xalqımızın Ümummilli Lideri, Azərbaycan Respublikasının sabiq Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat etmişdir.

Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarixi və taleyi Ümummilli Lider Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlıdır. Bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş, məhz onun adı ilə bağlıdır.

Heydər Əliyev rəhbərlik etdiyi bu dövrlər ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

12 dekabr - bu gün bütün dünya azərbaycanlıları milli liderimiz Heydər Əliyevin əziz xatirəsini yad edir. O, indi aramızda olmasa da, yoxluğuna inanmaq çox çətindir. Çünki bizi əhatə edən gözəl Bakımız, əzəmətli Azərbaycanımız milli liderimiz Heydər Əliyevin əməlləri ilə əhatə olunmuşdur. Son illər ölkəmizdə görülmüş və müvəffəqiyyətlə davam etdirilən quruculuq işləri, respublikamızın hərtərəfli sosial-iqtisadi inkişafı, xalqımızın rifahının yüksəldilməsi istiqamətində həyata keçirilmiş genişmiqyaslı tədbirlər Heydər Əliyev şəxsiyyətinin unudulmaz xatirəsinə ən böyük ehtiramdır.

Göstərdiyi yüksək diqqət və qayğı ilə, imzaladığı fərman və sərəncamlarla, keçirdiyi çoxsaylı görüşlərlə, söylədiyi dərin məzmunlu nitqlərlə uzaqgörən sərkərdə milli sərhəd siyasətimizi formalaşdırmış, ölkəmizin sərhədlərinin mühafizəsi strategiyasını zərgər dəqiqliyi ilə müəyyənləşdirmişdir. Bu siyasəti uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Vətən müharibəsindəki möhtəşəm qələbə də öz vətəndaşlarına nə qədər bağlı olduğunu, dövlətimizin milli maraqlarını qətiyyətlə müdafiə etdiyini bir daha əyani göstərdi. Döyüşlərin getdiyi 44 gün ərzində cənab İlham Əliyev hərb meydanında müzəffər sərkərdə, diplomatik cəbhədə böyük strateq nümunəsi sərgilədi, informasiya müharibəsində Azərbaycanın haqq səsini məharətlə bütün dünyaya yaydı, bütün təzyiqlərə cəsarətlə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik, müdriklik rəmzinə çevrildi.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır. Heydər Əliyev eyni zamanda, taleyin xalqımıza bəxş etdiyi böyük tarixi şəxsiyyətdir.

Deyirlər dahilər yüz ildən, min ildən bir dünyaya gəlir... Böyük tarixi olan Azərbaycan əsrlər boyu çox dahilər yetişdirmişdi... Ancaq belə dahi insan dünyaya nə gəldi, nə də çətin ki, bundan sonra gələ...

Heydər Əliyev Bakıda, Fəxri Xiyabanda, ömür-gün yoldaşı, akademik Zərifə xanım Əliyevanın yanında dəfn olunmuşdur. 2004-cü ildə heykəltəraş Ömər Eldarov tərəfindən qəbirüstü abidəsi ucaldılmışdır.

Onun məzarı qədirbilən Azərbaycan xalqının müqəddəs ziyarətgahına çevrilmişdir. Biz həmişə onunla fəxr etmişik, bu gün də fəxr edirik. Necə ki o, azərbaycanlı olduğu üçün həmişə fəxr edirdi!

Digər tarixi hadisələr

Beynəlxalq Kino Günü *(1895)*



Dekabrın 28-də dünyada Beynəlxalq Kino Günü qeyd olunur. 1895-ci il dekabrın 28-də Lui və Oqyust Lümyer qardaşları Parisin Kapusin bulvarındakı balaca kafedə ilk dəfə özlərinin çəkdikləri qısametrajlı filmlərin pullu nümayişini təşkil etmişdirlər. Filmlərin arasında 46 saniyəlik "Fəhlələrin Lümyer fabrikindən çıxması" filmi də var idi.

XIX əsrin ən maraqlı kəşflərindən biri olan kino yarandığı gündən insanların dünyagörüşünü formalaşdırmaqla bərabər, hər bir xalqın tarixini milli adət-ənənələrini yaşadır, həyatın bütün sahələrinə nüfuz edir. Kino yeganə sənət növüdür ki, özündə mədəniyyətin bir neçə sahəsini birləşdirir. Onun digər bir üstünlüyü də əyaniliyindədir, inandırma gücünə və təsirə malik olmasındadır.

Azərbaycanda milli kino günü hər il avqustun 2-də qeyd edilir. Ümummilli lider Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli Sərəncamı ilə avqustun 2-si kino işçilərinin peşə bayramı - Azərbaycan Kinosu Günü kimi qeyd olunur. Fransada keçirilmiş ilk kinoseansdan iki il sonra – 1898-ci il avqustun 2-də Bakı elmi-foto dərnəyinin katibi, naşir və fotoqraf Aleksandr Mişon özünün lentə aldığı "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal sənədli və "İlişdin" adlı bədii süjetlərini nümayiş etdirmişdi. Həmin gün milli kinonun yaranma günü sayılır.

Ötən əsrin əvvəllərində "Pate", "Pirone", "Filma" kimi xarici kino şirkətləri Bakıda filiallarını açaraq film istehsalı ilə məşğul olublar. 1916-cı ildə yazıçı İbrahim bəy Musabəyovun eyniadlı povesti əsasında "Neft və milyonlar səltənətində", 1917-ci ildə isə Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında "Arşın mal alan" qısametrajlı bədii filmləri çəkilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumət bir çox mədəni-siyasi islahatlar keçirmişdir. Xarici aləmlə diplomatik, mədəni-iqtisadi əlaqələr dünya kinosunun ilk nümunələrinin Bakıya gətirilməsinə və ictimai baxışlara təkan vermişdir. Bunun nəticəsində Bakıda kinematoqrafiya həvəskarlarının sayı artmağa başlamışdır. 1918-ci ildə onlar "Kinematoqrafiya və teatr qulluqçuları şurası"nda birləşmişdilər.

1923-1926-cı illərdə kinostudiya Birinci Dövlət Kinofabriki, sonradan AFKİ Kinofabrik ilə birləşdirilərək "Azdövlətkino", "Azərkino", "Azərfilm", "Azdövlətkinosənaye", "Bakı kinostudiyası", "Azərbaycanfilm" adlandırılıb. 1960-cı ildən Cəfər Cabbarlının adını daşıyır. "Azərbaycanfilm"də indiyədək iki mindən çox müxtəlif növ və janrda film istehsal olunub. Onların bir hissəsi, o cümlədən "Arşın mal alan", "Şərikli çörək", "Ad günü", "Sevinc buxtası", "İstintaq", "Yaramaz" və başqaları Dövlət mükafatlarına, bir çox filmlər, o cümlədən "Ögey ana", "Uzaq sahillərdə", "Arşın mal alan", "Bizim Cəbiş müəllim", "Axırıncı aşırım", "Nəsimi", "Özgə vaxt", "Sarı gəlin", "Ovsunçu", "Buta", "Çölçü", "Nabat", "Axınla aşağı" və digərləri beynəlxalq və digər kinofestivalların mükafatlarına layiq görülmüşdür.

2018-ci ildə Azərbaycan kinosunun 120 illiyinin qeyd olunması haqqında Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən ölkəmizin hər yerində silsilə tədbirlər keçirilmişdir. Azərbaycan kinosu böyük tarixə malikdir. Bu illər ərzində ölkəmizin, xalqımızın həyatının müxtəlif sahələrinə aid filmlər çəkilib. Təxminən son on ildə dövlət büdcəsindən ayrılmış vəsait hesabına tammetrajlı və qısametrajlı bədii, sənədli, habelə cizgi filmləri çəkilib. Bu gün gənclərimiz dünyanın bir sıra ölkələrində bu sahədə təhsil alırlar. Eyni zamanda, ölkəmiz dünyanın müxtəlif ölkələrində keçirilən film festivallarında iştirak edir.

Ədəbiyyat:

Əliyev, Ə. Laçında MDB ölkələrinin kino günləri / Ə.Əliyev // Xalq qəzeti.-2025.- 28 avqust (№ 181).- S.10.

Beynəlxalq kino günü münasibətilə konsert / L.Azəri // Mədəniyyət.– 2017.– 22 dekabr.– S.5.

Ekran adlı möcüzə...: 28 dekabr Beynəlxalq kino günüdür / Z.Fərəcova // Azərbaycan.–2019.– 28 dekabr.– S. 11.

Bu kino ki var...: 28 Dekabr Beynəlxalq Kino Günüdür / Ü.Xaspoladova // Azərbaycan.–2022.– 28 dekabr.– S.11.

"Bu kino ki var...": 28 Dekabr Beynəlxalq Kino Günü / Ə.Əliyev // Xalq qəzeti.– 2023.– 28 dekabr (№ 285).– S.15.

KİNO: təqdiri də, tənqidi də baxsaq edərik... / M.Məmmədova // Səs.– 2024.– 28 dekabr (№241).– S.11.

İnternetdə:

https://portal.azertag.az/az/node/15817

https://azertag.az/xeber/beynelxalq_kino_gunu_qeyd_olunur-464249

Digər tarixi hadisələr

Dünya Azərbaycanlılarının Həmrəylik Günü *(1991)*



1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət edib. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib.

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına təsir göstərib. Bu, ölkənin ictimai-siyasi həyatında yeni bir hərəkat, dövlət siyasətinin yeni bir istiqaməti idi. Həmin qurultayda Ulu Öndərin böyük iftixarla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı isə dillər əzbərinə çevrilib.

Qurultaydan sonra Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə soydaşlarımızla bağlı dövlət siyasəti haqqında Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirib.

Prezident İlham Əliyev Ulu Öndərin bu sahədəki xidmətlərini uğurla davam etdirir. Dövlətimizin başçısının "Dünya azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında" 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq, həmin il martın 16-da Bakıda keçirilən növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım olub, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynayıb.Diasporumuzun təşkilatlanması prosesi bu gün daha sürətlə gedir. Dünya Azərbaycanlılarının I Qurultayında yaradılmış Əlaqələndirmə Şurasının 2008-ci il dekabrın 18-də Bakıda keçirilmiş iclası, toplantıda "Dünya Azərbaycanlılarının Xartiyası"nın qəbulu birlik və mütəşəkkilliyinin artması, diaspor potensialının möhkəm amilə çevrilməsini göstərməklə yanaşı, müstəqil Azərbaycanın bütün dünya azərbaycanlıları üçün cazibə mərkəzi olduğunu da bir daha təsdiqləyib.

Artıq dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, respublikamızla qarşılıqlı əlaqələrin genişlənməsinə böyük töhfə verirlər.

Həmrəylik günü milli birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir.

Artıq ölkəmizdə, Milli Həmrəylik Günü tamamilə fərqli, daha yüksək əhvali-ruhiyyə ilə qarşılanır. Çünki torpaqlarımızın işğaldan azad olunması həm də milli həmrəylimizin təntənəsidir. 2020-ci il sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Azərbaycan xalqı Ali Baş Komandan, Prezident İlham Əliyevin çağırışı ilə Vətən müharibəsinə qalxdı. Müzəffər Azərbaycan Ordusu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğratdı və ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər əldə edildi. Vətən müharibəsində dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar da yüksək dərəcədə fəallıq göstərdilər, daha sıx birləşdilər. Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin məkrli təxribatlarına qarşı etirazları, Azərbaycan həqiqətlərinin dünyaictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Zəfərimizə layiqli töhfə oldu. Vətən müharibəsi xalqımızın mübarizliyini bütün dünyaya nümayiş etdirdi. Eyni zamanda bu savaşda xalqımız İlham Əliyevin rəhbərliyi ilə milli həmrəyliyin ən mükəmməl nümunəsini yaratdı.

Hər il Azərbaycan Milli Kitabxanasında "31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü" adlı virtual və eyniadlı ənənəvi sərgi keçirilmişdir.

Ə d ə b i y y a t :

Bakı Dövlət Universitetində Dünya Azərbaycanlılarının Həmrəylik Günü qeyd olunub // Azərbaycan.– 2018.– 28 dekabr.– S.5.

İordaniya mətbuatı Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı məqalə yayıb // Səs.– 2019.– 30 dekabr.– S.6.

Zəfər ilinin Həmrəylik Günü: 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür / G.Hüseynova, Ş.Behbudzadə // Azərbaycan ordusu.–2020.– 31 dekabr.– S.4.

Şüvəlanda Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə uşaqlar üçün bayram tədbiri təşkil edilib // Azərbaycan.– 2021.– 29 dekabr.– S.4.

31 dekabr-Dünya azərbaycanlılarının birlik və həmrəylik günü! / Z. Bayramova // Səs.– 2022.– 31 dekabr.– S.3.

Beynəlxalq Muğam Mərkəzində həmrəylik konserti // Mədəniyyət.– 2023.– 6 yanvar.– S.5.


31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Günü / Z.Bayramova // Səs.–2024.– 30 dekabr (№243).– S.4.

Dünya azərbaycanlılarının vahid ideologiyası diaspor fəaliyyətində mühüm rol oynayır / A.Hüseynli // Olaylar.– 2025.– 10-16

Bu bölmədə 2026-cı ildə qeyd ediləcək, lakin tarixi dəqiq bilinməyən yubileylər haqqında məlumat əldə edəcəksiniz

Şəhərsalma və Memarlıq İli





Əcəmi Naxçıvani Azərbaycan memarlıq tarixinin ən görkəmli simalarından biridir. O, XII əsrdə yaşamış və Naxçıvan memarlıq məktəbinin banisi kimi tanınmışdır. Memarlıq fəaliyyəti zamanı riyazi dəqiqliklə bədii təxəyyülü birləşdirən Əcəmi Azərbaycan memarlığının mühüm inkişaf mərhələsini formalaşdırmışdır. Onun yaradıcılığı əsrlər boyu memarları və sənətkarları ilhamlandırmış və regionda memarlıq düşüncəsinin inkişafına güclü təsir göstərmişdir.

Əcəmi Naxçıvaninin memarlıq irsinin ən mühüm nümunələrinə Mömünə Xatun türbəsi və Yusif ibn Küseyr türbəsi daxildir. Mömünə Xatun türbəsi 1186-cı ildə inşa edilmiş və Azərbaycan memarlığında yüksək estetik və mühəndislik səviyyəsini nümayiş etdirən monumental abidədir. Yusif ibn Küseyr türbəsi isə 1161–1162-ci illərdə tikilmiş və səkkizguşəli quruluşu ilə seçilir. Hər iki abidə memarın məkan quruluşunda yeni prinsiplər tətbiq etməsi, unikal ornamental üslub yaratması və həndəsi dili misilsiz səviyyəyə yüksəltməsi baxımından əhəmiyyətlidir.

30 dekabr 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2026-cı ildə Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin anadan olmasının 900 illiyinin qeyd edilməsi münasibətilə "Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi haqqında" Sərəncam imzalamışdır.

ƏLAVƏLƏR

2026



Milli ədəbiyyat

Mənşəcə Azərbaycan türklərindən olan şair, farsdilli Azərbaycan ədəbiyyatının banisi Gəncəvi Əbül-Ülanın (1096-1159) anadan olmasının 930 illiyi
Şair, mütəfəkkir Əfzələddin İbrahim ibn Əli Nəccar Şirvaninin (Xaqani Şirvani) (1126-1199) anadan olmasının 900 illiyi 1075
Dünya şöhrətli şair və mütəfəkkir Gəncəvi İlyas Yusif oğlunun (tam adı Cəmaləddin İlyas ibn Yusif Nizami Gəncəvi) (Nizami Gəncəvi) (1141-1209) anadan olmasının 885 illiyi 1076
Görkəmli şair və sufi filosof Seyyid Əli ibn Harun ibn Əbülqasim Hüseyni Təbrizinin (Şah Qasım Ənvar) (1356-1434) anadan olmasının 670 illiyi
Şair Mirzə Məhəmməd Əli Mirzə Əbdürrəhim oğlunun (Saib Təbrizi) (1601-1676) anadan olmasının 425 illiyi
Şair Şıxızadə Kazım ağa Şıxı ağa oğlunun (1781-1842) anadan olmasının 245 illiyi
Şair Mirzə Ələsgər Növrəsin (1836-1912) anadan olmasının 190 illiyi 1077
Şair Mirzəyev Rəhim bəy Mirzə Məmmədbağır oğlunun (Mirzə Rəhim Fəna) (1841/44-11.02.1931) anadan olmasının 185 illiyi
Şairə Fatma xanım Kəminə Mirzə Bəybaba Fəna qızının (1841-1898) anadan olmasının 185 illiyi
Şairə və dramaturq Qəmər bəyim Şeydanın(1881-1933) anadan olmasının 145 illiyi
Yazıçı, jurnalist, teatr tənqidçisi Qasımov Hacı İbrahim oğlunun (1886-1936) anadan olmasının 140 illiyi
Şair, publisist, dramaturq Şamçızadə Əli Yəhya oğlunun (Əli Razi) (1886-1939) anadan olmasının 140 illiyi
Şair Seyid Məhəmmədhüseyn Behcət Təbrizinin (Seyid Məmmədhüseyn Şəhriyar) (1906/07-18.09.1988) anadan olmasının 120 illiyi 1078
Şair, dramaturq, tərcüməçi Əyyubov Tələt Ömər oğlunun (1916-21.02.1977) anadan olmasının 110 illiyi



Folklor

Anadolu türk aşığı Qaracaoğlanın (1606-1679) anadan olmasının 420 illiyi 1079
Aşıq Haqverdiyev Alı Mirzə oğlunun (Aşıq Alı) (1801-1911) anadan olmasının 225 illiyi
Aşıq Pərinin (1811-1847) anadan olmasının 215 illiyi
Aşıq, şair Aşıq Hüseyn Şəmkirlinin (1811-1891) anadan olmasının 215 illiyi
Aşıq Bəstinin (1836-1936) anadan olmasının 190 illiyi
Qərbi Azərbaycan aşığı, şair Aşıq Nəcəfin (Nəcəf Daşkəndli) (1876-05.02.1919) anadan olmasının 150 illiyi 1080
Aşıq Cabbarlı Ağacan Cabbar oğlunun (1886-1951) anadan olmasının 140 illiyi
Aşıq Qəniyev Məmməd Gülabı oğlunun (Aşıq Xındı Məmməd) (1896-28.08.1968) anadan olmasının 130 illiyi
Qərbi Azərbaycan aşığı Niftalı Süleymanovun (1911-1976) anadan

olmasının 115 illiyi
Əməkdar mədəniyyət işçisi, şair-aşıq Əliyev Hüseyn Mikayıl oğlunun (Aşıq Hüseyn Cavan) (1916-14.11.1985) anadan olmasının 110 illiyi 1081

Rəssamlıq. Heykəltəraşlıq



Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin (1126-?) anadan olmasının 900 illiyi 1082
Əməkdar incəsənət xadimi, rəssam Məmmədov Hafiz Məmməd oğlunun (1921-1995) anadan olmasının 105 illiyi



Musiqi. Opera. Balet

Şərqin böyük musiqiçisi və musiqişünası Səfiəddin Əbdül Mömin ibn Yusif ibn Faxir əl-Urməvinin (1216-1294) anadan olmasının 810 illiyi
Xanəndə, teatr xadimi, pedaqoq, musiqişünas Məmmədov Mirzə Muxtar Mirzə Əli Əsgər oğlunun (1841-16.01.1929) anadan olmasının 185 illiyi
Xanəndə Zülalov Əbdülbağı Kərbəlayı Əli oğlunun (Bülbülcan) (1841-08.1927) anadan olmasının 185 illiyi
Tarzən, musiqiçi, bəstəkar Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıq Əsəd oğlunun (Sadıqcan) (1846-1902) anadan olmasının 180 illiyi
Tarzən Haqverdiyev Məşədi Zeynalın (1861-1918) anadan olmasının 165 illiyi
Xanəndə Abdullayev Ələsgər Baba oğlunun (Şəkili Ələsgər) (1866-01.04.1929) anadan olmasının 160 illiyi
Xanəndə Abdullayev İslam Əbdül oğlunun (1876-22.09.1964) anadan olmasının 150 illiyi 1083
Qarmon ifaçısı Kərbəlayı Lətif Hüseyn oğlunun (1876-06.12.1944) anadan olmasının 150 illiyi 1084
Balaban ifaçısı Mövsümov Məhərrəm Ağabala oğlunun (1916-04.10.1957) anadan olmasının 110 illiyi
Xanəndə Haşımov Bakir Musa oğlunun (1926-1989) anadan olmasının 100 illiyi.....1085
Xalq artisti, müğənni Mirzəyev Teymur İbrahim oğlunun (1936-27.09.2021) anadan olmasının 90 illiyi 1086



Teatr. Kino

Görkəmli aktyor və rejissor Xələfov Hüseynbala Məmməd oğlunun (Hüseyn Ərəblinski) (1881-04.03.1919) anadan olmasının 145 illiyi 1087



Siyasət. Hərbi iş

Dövlət xadimi, böyük sərkərdə Cavanşir Varaz Qriqor oğlunun (Cavanşir) (616-680/81) anadan olmasının 1410 illiyi

Dövlət xadimi, diplomat, sərkərdə və Quba xanı Fətəli xan Hüseyn Əli xan oğlunun (1736-29.03.1789) anadan olmasının 290 illiyi 1088
İctimai-siyasi xadim, diplomat Şahtaxtinski Behbud ağanın (1881-30.05.1924) anadan olmasının 145 illiyi



Tarix

Tarixçi Mir Yəhya əl Hüseyni Qəzvininin (1481-1555) anadan olmasının 545 illiyi



Fəlsəfə. İqtisadiyyat. Hüquq

Mənşəcə türk olan, əxilik təriqətinə mənsub sufi alim, filosof və yazıçı Əxi Evrəninin (Ahi Evran) (əsl adı Şeyx Nəsrəddin Mahmud) (1171-1262) anadan olmasının 855 illiyi
Neft maqnatı, milyonçu Əsədullayev Şəmsi Əsədulla oğlunun (1840/41-21.04.1913) anadan olmasının 185 illiyi 1089
Azərbaycan Dövlət Bankının ilk müdiri, iqtisadçı, etnoqraf, siyasi repressiya qurbanı Vəliyev-Baharlı Məhəmmədhəsən bəy Nəcəfqulu bəy oğlunun (1896-24.06.1937) anadan olmasının 130 illiyi



Mədəniyyət. Maarif. Təhsil

Alim və mütəfəkkir Naxçıvani Həsən İbn Ömərin (Şeyx Həsən Naxçıvani Bulquri və ya Təbrizi kimidə tanınmışdır) (1206-1298) anadan olmasının 820 illiyi
Publisist, şərqşünas, pedaqoq, ictimai xadim Şahtaxtlı (Şahtaxtinski) Məhəmməd ağa Məhəmmədtağı Sultan oğlunun (Məhəmməd ağa Şahtaxtinski) (1846-12.12.1931) anadan olmasının 180 illiyi 1090
Maarif xadimi, pedaqoq, publisist Vəlibəyov Səfərəli bəy Şıxhəsən bəy oğlunun (1861-31.08.1902) anadan olmasının 165 illiyi
Maarif xadimi, dramaturq, teatr təşkilatçısı Qənizadə Sultanməcid Hacı Murtuzəli oğlunun (1866-22.03.1938) anadan olmasının 160 illiyi 1091
Avropada təhsil almış ilk azərbaycanlı qadın, publisist, alim və ictimai xadim Şahtaxtinskaya Leyla İsa Sultan qızının (1886-1907) anadan olmasının 140 illiyi 1092
Ədəbiyyatşünas, tənqidçi, folklorşünas, mətnşünas Zeynallı Hənəfi Baba oğlunun (1896-13.10.1937) anadan olmasının 130 illiyi 1093
Dilçi, filologiya elmləri doktoru, professor Bayramov Hüseyn Abbas oğlunun (1916-04.11.1982) anadan olmasının 110 illiyi



Coğrafiya.Geologiya

Geologiya-minerologiya elmləri doktoru Əliyev Abdul Hacıəli oğlunun (1911-1965) anadan olmasının 115 illiyi

Geologiya-mineralogiya üzrə elmlər doktoru Həsənov Tofiq Abdulla oğlunun (1921-2005) anadan olmasının 105 illiyi
Neft sənayesi yenilikçisi, dövlət mükafatı laureatı Nemətulla Ağanın (1896-01.01.1958) anadan olmasının 130 illiyi



Riyaziyyat. Fizika. Astronomiya

Riyaziyyatçı və mexanik Musxelişvili Nikolay İvanoviç (1891-16.07.1976) anadan olmasının 135 illiyi
Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor Şirinov Xanlar Cəbrayıl oğlunun (1906-1982) anadan olmasının 120 illiyi



Kimya. Biologiya. Tibb

Təbiətşünas alim, təbib, filosof, musiqiçi Şirazi Qütbəddin Mahmud ibn Məsudun (02.1236-1311) anadan olmasının 790 illiyi
Azərbaycanda ilk nəbatat alimi Ağamirov Mirmusa Haşım oğlunun (1886-1947) anadan olmasının 140 illiyi
Əməkdar elm xadimi, Əməkdar həkim, tibb elmləri doktoru, professor Axundova-Bağırbəyova Sona Əbdül qızının (1896-1982) anadan olmasının 130 illiyi
Kimya elmləri doktoru, professor Ağayev Ağarəfi Hilal oğlunun (1911-1978) anadan olmasının 115 illiyi
Baytarlıq elmləri doktoru, professor Mehdiyev Məmməd Əsəd oğlunun (1911-1988) anadan olmasının 115 illiyi
Baytarlıq və biologiya elmləri doktoru, professor Əhmədov Əmir Məmmədbağır oğlunun (1926-1990) anadan olmasının 100 illiyi



Kitabxanaşünaslıq. Biblioqrafiya

Tərtərdə rus-tatar məktəbinin nəzdində ilk kitabxana açılmışdır (1901)
Polis Akademiyasının Ümumi kitabxanasının yaradılmasının (1921) 105 illiyi
Bakı Musiqi Akademiyasının kitabxanasının yaradılmasının (1921) 105 illiyi
Xəzər rayon MKS-nin 3 saylı filialı (Buzovna qəsəbə kütləvi kitabxanası) yaradılmasının (1926) 100 illiyi 1094
Suraxanı rayon MKS-nin 1saylı filialı (A.A.Bakıxanov adına Əmircan qəsəbə kütləvi kitabxanası) yaradılmasının (1926) 100 illiyi 1094
Sabunçu rayon MKS-nin 11 saylı filialının (M.Ə.Sabir adına Balaxanı qəsəbə kütləvi kitabxanası) yaradılmasının (1936) 90 illiyi
Nizami adına Ədəbiyyat İnstitutunun kitabxanasının yaradılmasının (1936) 90 illiyi
Nəsimi adına Dilçilik İnstitutunun kitabxanasının yaradılmasının (1936) 90 illiyi
Oğuz rayonunda ilk kitabxana yaradılmasının (1941) 85 illiyi
Bakı Slavyan Universitetinin kitabxanası fəaliyyətə başlamasının (1946) 80 illiyi
Lerik rayonunda ilk kütləvi kitabxanası fəaliyyətə başlamasının

(1946) 80 illiyi (1946)
Binəqədi rayon MKS-nin 7 saylı filialının (Binəqədi qəsəbə uşaq kitabxanası) yaradılmasının (1951) 75 illiyi
Şahbuz rayon Mərkəzi kitabxanasının yaradılmasının (1951) 75 illiyi
Xəzər rayon MKS-nin 4 saylı filalının (Zirə qəsəbə kütləvi kitabxanası) yaradılmasının (1956) 70 illiyi
Nərimanov rayon MKS-nin 1saylı filialının (A.P.Çexov adına kütləvi kitabxana) yaradılmasının (1956) 70 illiyi
Mingəçevir Şəhərində ilk kitabxananın yaradılmasının (1956) 70 illiyi
Nərimanov rayon MKS-nin 3 saylı filialının (T.Şahbazi adına kütləvi kitabxana) yaradılmasının (1961) 65 illiyi
Sumqayıt Dövlət Universitetinin kitabxanasının yaradılmasının (1961) 65 illiyi
Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin yaradılmasının (1976) 50 illiyi
Laçın rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin yaradılmasının (1976) 50 illiyi
Oğuz rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin yaradılmasının (1976) 50 illiyi
Xaçmaz rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin yaradılmasının (1976) 50 illiyi
Babək rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin yaradılmasının (1976) 50 illiyi
N.Gəncəvi adına Naftalan şəhər kitabxanasının yaradılmasının (1981) 45 illiyi
Naxçıvan şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin yaradılmasının (1981) 45 illiyi
Binəqədi rayon MKS 4 saylı filialın (H.Cavid adına kütləvi kitabxananın) yaradılmasının (1981) 45 illiyi
Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzinin yaradılmasının (1991) 35 illiyi
Bakı şəhəri Nizami rayonu Mərkəzləşdirilmiş Kitabxana Sisteminin yaradılmasının (1991) 35 illiyi
Qobustan rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin yaradılmasının (1991) 35 illiyi
Milli Aviasiya Akademiyasının kitabxanası istifadəyə verilməsinin (1996) 30 illiyi
Binəqədi rayon MKS yaradılmasının (2011) 15 illiyi
Səbail rayon MKS yaradılmasının (2011) 15 illiyi
Suraxanı rayon MKS yaradılmasının (2011) 15 illiyi
Yasamal rayon MKS yaradılmasının (2011) 15 illiyi
Xəzər rayon MKS yaradılmasının (2011) 15 illiyi
Nərimanov rayon MKS yaradılmasının (2011) 15 illiyi
Qaradağ rayon MKS yaradılmasının (2011) 15 illiyi
Nəsimi rayon MKS yaradılmasının (2011) 15 illiyi
Sabunçu rayon MKS yaradılmasının (2011) 15 illiyi

ƏLAVƏLƏR

2026



Digər tarixi hadisələr

Mömınə Xatun türbəsinin inşasının (1186) 840 illiyi 1095
Şah Abbas məscidinin (Gəncə Cümə Məscidi) inşa edilməsinin (1606) 420 illiyi
Əsgəran qalasının təməli qoyulmasının (1751) 275 illiyi
Ordubadda Ədəbi məclis "Əncüməni-şüəra"nın yaranmasının (1831) 195 illiyi
Zaqafqaziyada Qori Müəllimlər Seminariyasının
yaradılmasının (1876) 150 illiyi 1096
"Kaspi" qəzetinin nəşr edilməsinin (1881) 145 illiyi
Müasir Olimpiya Oyunlarının ilk dəfə Afinada keçirilməsinin (1896) 130 illiyi
İlk Beynəlxalq Nobel mükafatının verilməsinin (1901) 125 illiyi
Bakı kommersiya məktəbinin yaradılmasının (1901) 125 illiyi
"Orucov Qardaşları" mətbəə-nəşriyyatının yaradılmasının (1906) 120 illiyi
"Bakinski raboçi" qəzetinin nəşr olunmasının (1906) 120 illiyi 1097
Bakı Azad Tənqid-Təbliğ Teatrının yaradılmasının (1921) 105 illiyi
Azərbaycan Milli İncəsənət Muzeyinin yaradılmasının (1936) 90 illiyi 1098
Azərbaycan Dövlət Caz Orkestrinin yaradılmasının (1941) 85 illiyi
Azərbaycan Dövlət Estrada Orkestrinin yaradılmasının (1956) 70 illiyi
Milli Kitabxananın "Əlamətdar və tarixi günlər təqvimi"nin nəşrə
başlamasının (1961) 65 illiyi
Azərbaycan Mədəniyyət Nazirliyinin mətbu orqanı olan "Mədəniyyət"
qəzetinin nəşrə başlamasının (1991) 35 illiyi
Qurban bayramı (1992) 1099
Ramazan bayramı (1993) 1100
Azərbaycan Respublikasının I Vitse-prezidenti, birinci xanım,
Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva Azərbaycan
mədəniyyətinin geniş təbliğ olunması məqsədilə üç dildə (Azərbaycan,
ingilis və rus) çap olunan "Azərbaycan - İrs" jurnalını təsis etmişdir (1996)
"YARAT" Müasir İncəsənət Məkanının təsis edilməsinin (2011) 15 illiyi

Xaqani Şirvani – 900

(1126-1199)

Şair



Ədəbiyyat:

Əliyeva, F. Əfzələddin Xaqani Şirvani: Şərq fəlsəfəsinin poeziyadakı səsi / Fidan Əliyeva // Respublika.-2025.- 8 aprel (№ 67).- S.15.

Mahmudov, Y. Xaqani Şirvani və Nəsimi yaradıcılığında təbiət-insan: Multikultural dəyərlər / Yusif Mahmudov // Türküstan.-2025.- 24-30 iyun (№21).- S.15.

Hacıyeva, K. Xaqani rübailərində didaktika / K.Hacıyeva // AMEA-nın Xəbərləri: Humanitar elmlər seriyası. - 2018. - № 1.- S. 62-65.

Əliyeva, A. Sös mülkünün Xaqanı: Xaqani Şirva nı / A.Əliyeva // Azad Azərbaycan. - 2017. - 1 fevral. - S. 7.

Seçilmiş əsərləri / Ş.Xaqani; [tərc. M.Soltan [və b.]; red. S.Bektaşi; burax. məsul S.İsmayılova; dizayner Z.Abbasov]; rəssam A.Rəsul. - [Bakı]: Şərq-Qərb, [2013]. - 835 s.

Seçilmiş əsərləri / Əfzələddin Xaqani; tərt. ed., ön söz. müəl. X.Yusifli; şərhl. müəl. Ə.Cəfər.- Bakı: [Altun Kitab], 2005. - 327 s.

İnternetdə:

https://shamakhi-encyclopedia.az/xaqani-sirvani/

Dünya şöhrətli Azərbaycan şairi və mütəfəkkiri Xaqani Şirvani 1126-cı ildə Şamaxıda anadan olmuşdur. Əsl adı İbrahimdir. "Xaqani" onun təxəllüsü, "Şirvani" isə mənsub olduğu yerin adıdır. Orta əsr mənbələrində o, Əbu Bədil Əfzələddin İbrahim ibn Əli Nəccar ibn Osman ibn İbrahim Həqaiqi Həssanül-Əcəm Xaqani Şirvani kimi təqdim olunur. Xaqani Şirvani gənc yaşlarından dövrünün müxtəlif elmlərinə dərin maraq göstərmiş, Şərqin bir çox elmlərinə vaqif olmuşdur.

Yüksək şairlik istedadı ilə seçilən Xaqani Şirvani gənc yaşlarından Şirvanşahlar sarayına dəvət edilmiş və burada şöhrət qazanmışdır. Lakin saray mühiti, çəkişmələr və intriqalar onun yaradıcılığına mənfi təsir göstərmiş, nəticədə şair həbs olunmuşdur. Bu dövrdə o, "Həbsiyyə" şeirlərini yazmışdır. Saray həyatından uzaqlaşan Xaqani Şirvani Yaxın Şərq ölkələrinə səyahətlər etmiş, səfər təəssüratlarını poetik şəkildə ifadə etmişdir. Ömrünün son illərini Təbrizdə keçirmiş, 1199-cu ildə vəfat edərək Təbriz yaxınlığındakı Surxab qəbiristanlığında dəfn olunmuşdur.

Xaqani Şirvaninin ədəbi irsi olduqca zəngindir. Onun yaradıcılığına 17 min beytlik lirik şeirlər divanı, Yaxın Şərq ədəbiyyatında epik poeziyanın ilk görkəmli nümunələrindən sayılan "Töhfətül-İraqeyn" məsnəvisi və bədii nəsrin maraqlı nümunələri olan 60 məktub daxildir. Divanındakı əsərlər qəsidə, qəzəl, mədhiyyə, mərsiyə, rübai və digər janrlarda yazılmışdır. İctimai-fəlsəfi məzmunlu əsərləri sırasında "Şiniyyə", "Mədain xərabələri" qəsidələri, "Həbsiyyə" şeirləri və "Töhfətül-İraqeyn" məsnəvisi xüsusi yer tutur.

"Töhfətül-İraqeyn" Azərbaycan ədəbiyyatında ilk epistolyar məsnəvi hesab olunur. Bu əsərdə şair səyahət macəralarını, müxtəlif ölkələrdə gördüklərini, eləcə də mühiti ilə yaşadığı daxili ziddiyyətləri simvol və eyhamlar vasitəsilə əks etdirmişdir. Əsər həm də dövrün sosial-siyasi mənzərəsini öyrənmək baxımından mühüm mənbədir. Xaqani Şirvani "Mədain xərabələri" qəsidəsi isə Sasani saraylarının xarabalıqları fonunda zamanın faniliyini və tarixi ibrət ideyasını ifadə edən fəlsəfi məzmunu ilə seçilir.

Xaqani klassik Şərq poeziyasının bütün janrlarında yüksək sənətkarlıq nümunələri yaratmışdır. O, əruz vəzninin demək olar ki, bütün bəhrləri üzrə şeir yazmışdır. Şeirlərində yüksək obrazlılıq, dərin fəlsəfi məzmun və elmi terminologiyanın poetik ifadəsi diqqəti cəlb edir. Onun əsərlərində hikmət, nücum, musiqi və tarix elmlərinə dair terminlər geniş yer almışdır.

Xaqani Şirvani yaradıcılığında vətənpərvərlik mühüm yer tutur. O, Şirvanı, Şamaxını və Təbrizi poetik şəkildə tərənnüm etmiş, doğma yurda bağlılığını əsərlərində ifadə etmişdir. Şair özünü saraydan çox xalqa bağlı saymış, poetik şəkildə "Xaqani" deyil, "Xəlqani" olduğunu bildirmişdir.

Xaqani əsərlərini əsasən fars və ərəb dillərində yazsa da, yaradıcılığının ideya-bədii xüsusiyyətlərinə görə Azərbaycan poetik məktəbini təmsil etmişdir. Onun irsinə Şərqin bir çox görkəmli şairləri tərəfindən nəzirələr yazılmış, yaradıcılığı Azərbaycan, İran, Rusiya, Hindistan, Pakistan və Qərbi Avropa tədqiqatçıları tərəfindən öyrənilmişdir. Əsərləri müxtəlif ölkələrdə dəfələrlə nəşr olunmuşdur.

Xaqani Şirvani Azərbaycan ədəbiyyatında ən böyük lirik şairlərdən biri kimi tanınır. Onun zəngin və mürəkkəb yaradıcılığı Azərbaycan və bütövlükdə Şərq ədəbiyyatında mühüm mərhələ təşkil edir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli 211 nömrəli Qərarı ilə Xaqani Şirvani əsərləri dövlət varidatı elan edilən müəlliflər siyahısına daxil edilmişdir.

Nizami Gəncəvi – 885

(1141-1209)

Şair



İlyas Yusif oğlu Nizami Gəncəvi (tam adı Cəmaləddin İlyas ibn Yusif) 1141-ci ildə Gəncə şəhərində anadan olmuşdur. Təhsilini Gəncə mədrəsəsində almış, daha sonra şəxsi mütaliə yolu ilə dövrünün elmlərini dərindən mənimsəmişdir. Yaxın Şərq xalqlarının şifahi və yazılı ədəbiyyatına yaxından bələd olan şair ana dili ilə yanaşı ərəb və fars (dəri) dillərini mükəmməl öyrənmişdir. Geniş elmi hazırlığına görə müasirləri tərəfindən "Həkim" adlandırılmışdır. Əsərləri onun qədim yunan və hind fəlsəfəsini, astronomiya, tibb və həndəsə elmlərini yaxşı bildiyini göstərir. Ömrü boyu Gəncədə yaşamış, saray şairi olmaqdan imtina edərək müstəqil yaradıcılıq mövqeyini qorumuşdur.

Nizami Gəncəvi yaradıcılığa lirik şeirlərlə başlamış, qəzəl və qəsidələrdən ibarət böyük divan yaratmışdır. Şərq təzkiraçilərinin təxminən 20 min beyt həcmində göstərdikləri bu divanın yalnız az bir hissəsi dövrümüzədək gəlib çatmışdır.

Şair dünya ədəbiyyatı tarixinə fars dilində məsnəvi formasında yazdığı beş poemadan ibarət "Xəmsə"nin müəllifi kimi daxil olmuşdur. "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İsgəndərnamə" poemaları ideya-bədii zənginliyi və fəlsəfi ümumiləşdirmə gücü ilə seçilir və dünyanın bir çox dillərinə tərcümə edilmişdir.

Nizami Gəncəvinin əsərlərinin nadir əlyazma nüsxələri Moskva, Sankt-Peterburq, Daşkənd, Təbriz, Tehran, Qahirə, İstanbul, Dehli, London, Paris və digər şəhərlərin tanınmış kitabxana və muzeylərində qorunur. Şair 1209-cu il mart ayının 12-də vəfat etmiş, məzarı üzərində məqbərə kompleksi inşa edilmişdir.

Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatına yüksək humanist ideyalar və yeni sənətkarlıq meyarları gətirmiş, Şərq ədəbiyyatında mühüm mərhələnin əsasını qoymuşdur. Onun yaradıcılığı hələ sağlığında geniş yayılmış, XII əsrdən etibarən poemalarına çoxsaylı nəzirələr yazılmış, həyat və yaradıcılığı klassik təzkirələrdə əks olunmuşdur. Nizami irsi Şərq Renessansının zirvə hadisələrindən biri kimi qiymətləndirilir.

Şairin yaradıcılığı Şərq incəsənətinə, xüsusilə miniatür sənətinə güclü təsir göstərmiş, əsərlərinin süjeti əsasında opera, balet və simfonik əsərlər yaradılmışdır. M.S.Ordubadinin "Qılınc və qələm" romanı da Nizami irsinə həsr olunmuşdur.

Nizami Gəncəvinin yubileyləri müxtəlif dövrlərdə geniş qeyd edilmişdir. Şairin anadan olmasının 800 illiyi 1941-ci il oktyabr ayının 19-da mühasirədə olan Leninqrad şəhərində qeyd edilmişdir. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin 1979-cu il yanvar ayının 6-da imzaladığı "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvi irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami irsinin sistemli şəkildə tədqiqi üçün geniş imkanlar yaratmışdır. 1981-ci ildə 840 illiyi, 1991-ci ildə YUNESKO xətti ilə 850 illiyi beynəlxalq səviyyədə qeyd edilmişdir. Sonrakı illərdə "Xəmsə"nin əlyazmaları bərpa olunmuş, abidələr ucaldılmış, külliyyatı latın qrafikası ilə nəşr edilmişdir.

Gəncədə Nizami məqbərə kompleksi yenidən qurulmuş, "Nizami İnstitutu", "Nizami Gəncəvi" jurnalı, muzey və müxtəlif elmi-mədəni mərkəzlər yaradılmışdır. Roma şəhərində abidəsi ucaldılmış, Oksford Universitetində Nizami Gəncəvi Mərkəzi fəaliyyətə başlamışdır. 2012-ci ildə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi təsis edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 yanvar 2021-ci il tarixli Sərəncamı ilə 2021-ci il "Nizami Gəncəvi İli" elan edilmişdir.

Azərbaycan Milli Kitabxanası tərəfindən şairin anadan olmasının 870 və 880 illik yubileyləri münasibətilə "Nizami Gəncəvi" adlı fundamental biblioqrafiyalar hazırlanmış, elektron məlumat bazası yaradılmış, həmçinin ənənəvi kitab sərgiləri təşkil edilmişdir. "Milli mənəvi dəyərlərimizin Vətənə qayıdışı" layihəsi çərçivəsində dünyanın müxtəlif kitabxana və muzeylərində saxlanılan əlyazmaların rəqəmsal surətləri ölkəyə gətirilmişdir. Orijinallığı qorunmaqla bu əlyazmalar tək nüsxədə çap edilərək Azərbaycan Milli Kitabxanasının "Nadir kitablar" fondunda yerləşdirilmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Respublika. - 2021. - 6 yanvar. - S. 1.

Nizami Gəncəvi (Əbu Məhəmməd İlyas ibn Yusif): biblioqrafiya / Azərb. Resp. Mədəniyyət Nazirliyi, Azərb. Milli Kitabxanası ; tərt. və elmi red. K. Tahirov ; red. L. Miryaqubova ; ön söz. müəl. İ. Həbibbəyli .- Bakı: [n. y.], 2021.- 806, [2] s.

Apoyev, B. Heydər Əliyev və Nizami Gəncəvi: [monoqrafiya] / Bayram Apoyev; elmi red. M.İ.Yusifov; [baş red. N.Cabbarlı; ön söz N.Cəfərov; buraxıl. məsul R.Kazımov]; Azərb. Resp. Təhsil Nazirliyi, Gəncə Dövlət Un-ti. - Bakı: Şərq-Qərb, 2020.- 231, [1] s.

Nizami Gəncəvi almanaxı / AMEA, Nizami Gəncəvi ad. Ədəbiyyat İn-tu; elmi red. İ.Həbibbəyli. - Cild 1. - Bakı: Zərdabi nəşr [Kaspi nəşrləri], 2019. - 269, [3] s.

Həbibbəyli, İ. Böyük Azərbaycan şairi Nizami Gəncəvi / İsa Həbibbəyli // Respublika. - 2017. - 28 dekabr. - S. 6.

Allahverdiyeva, Z. Heydər Əliyev və Nizami Gəncəvi irsi / Z.Allahverdiyeva // Ədəbiyyat qəzeti.- 2025.- 23 may (№18).- S. 6, 7.

Mirzə Ələsgər Növrəs – 190

(1836-1912)

Şair



Mirzə Ələsgər bəy Kərbəlayı Abdin bəy oğlu Əhmədbəyov 1836-cı ildə Şuşa şəhərində anadan olmuşdur. Əslən Cavanşir-Dizaq mahalının Zərgər obasındandır. Qarabağın nüfuzlu şəxslərindən olan Abdin bəyin nəvəsi, Əhməd bəyin oğludur. Abdin bəy Zərgərtəpə nahiyyəsindən olduğu üçün el arasında Zərgərli və ya Zərgər Abdin bəy adı ilə tanınmışdır. XIX əsrin əvvəllərində bölgədə baş verən ictimai-siyasi proseslər zamanı yerli əhalinin Qarabağdan İrana köçməsinin qarşısının alınmasında fəal rol oynamışdır. Bu xidmətlərinə görə Rusiya imperatorunun fərmanı ilə ona "boyarin" (bəylik) titulu verilmiş, Zərgərtəpə nahiyyəsində on iki para kəndlə mükafatlandırılmışdır.

Mirzə Ələsgər Növrəs ilk təhsilini Şuşada üçsinifli İslam mədrəsəsində almışdır. Daha sonra ərəb və fars dillərini, eləcə də Şərq poetikasının əsaslarını dövrün tanınmış alim-müdərrisi Əbülqasim Qazidən öyrənmişdir. Rus dilini isə Xankəndi hərbi məktəbində mənimsəmişdir. Təhsilini başa vurduqdan sonra bir müddət yunker kimi fəaliyyət göstərmiş, sonralar şəhər idarəçiliyində kargüzar, tərcüməçi və hüquqşünas vəzifələrində çalışmışdır. Ərəb, fars və rus dillərini mükəmməl bilməsi onun həm inzibati, həm də ədəbi fəaliyyətinə əhəmiyyətli təsir göstərmişdir.

Mirzə Ələsgər Əhmədbəyov bədii yaradıcılığında "Növrəs" təxəllüsündən istifadə etmişdir. Gənclik illərindən poeziya ilə məşğul olmuş, klassik Şərq ədəbiyyatı ənənələri əsasında şeirlər qələmə almışdır. O, 1872-ci ildən etibarən Xurşidbanu Natəvanın rəhbərliyi ilə fəaliyyət göstərən "Məclisi-üns" ədəbi məclisinin fəal üzvlərindən biri olmuşdur. Eyni zamanda Mir Möhsün Nəvvabın təşkil etdiyi "Məclisi-fəramuşan"ın yığıncaqlarında mütəmadi iştirak etmişdir. Qarabağda ilk ədəbi məclisin yaradılması təşəbbüsündə iştirak edən dörd şəxsdən biri kimi Növrəs hər iki ədəbi mühitdə fəallığı ilə seçilmişdir.

Mirzə Ələsgər Növrəs dövrünün tanınmış ədəbiyyat nümayəndələri ilə, o cümlədən Xurşidbanu Natəvan və Seyid Əzim Şirvani ilə məktublaşmışdır. Seyid Əzim Şirvaninin şeirlə yazdığı məktubda "Sələm olsun sənə, ey Kəbeyi-əhli-səfa, Növrəs" misrası ilə müraciət etməsi Şamaxı ədəbi mühitinin və "Səfa" cəmiyyətinin şairlərinin onun yaradıcılığına göstərdiyi ehtiramın ifadəsi kimi qiymətləndirilir.

Mirzə Ələsgər Növrəs 1912-ci ildə 76 yaşında Şuşa şəhərində vəfat etmiş və Mirzə Həsən qəbristanlığında, Molla Pənah Vaqifin davamçılarından olan Zakirin qəbrinin yaxınlığında dəfn olunmuşdur. Onun Camal bəy adlı oğlu və Fatma xanım adlı qızı olmuşdur.

Şairin əsərləri müxtəlif əlyazma və çap mənbələrində qorunub saxlanılmışdır. Şeirləri toplu halında ilk dəfə 1985-ci ildə Bakıda "Mirzə Ələsgər Növrəs. Şeirlər" adı ilə nəşr edilmişdir. Kitabın tərtibçisi və nəşrə hazırlayanları Şamil Cəmşidov və Növrəs Növrəsli olmuşdur.

Ədəbiyyat:

Məmmədov, Q. Şuşa ədəbi mühitindən bəzi nümunələr: Söz ustadlarımız / Q.Məmmədov //Azərbaycan.- 2024.- 28 aprel, № 86.- S.11.

Növrəs, M. Millətə dair [şeirlər] / M.Ə.Q.Növrəsi // 525-ci qəzet .- 2022.- 25 noyabr .- S.15.


Miras / N. Növrəsli.- Bakı, Adiloğlu.- 2008. - 318, [2] s.

Külliyat /Mirzə Ələsgər Növrəs. - İstanbul: [n. y.], 1873. - 334 s.

Məmmədhüseyn Şəhriyar – 120

(1906/07-1988)

Şair



Ədəbiyyat:

İsmayılova, E. M. Şəhriyar və M. Araz poeziyasında milli dəyərlərin təbliği / Esmira İsmayılova //Ədalət. -2025.- 17 oktyabr (№39).- S.10.

Rüstəm, H. Şəhriyarın "Azərbaycan" şeirinin yeni tərcüməsi / Hafiz Rüstəm //Kredo.-2025.- 4 dekabr (№35).- S.1.

Əliyeva, F. Eşq taxtında taclanan, poeziyada ucalan Şəhriyar / Fidan Əliyeva // Respublika.-2025.- 31 iyul (№ 157).- S.7.

Seçilmiş əsərləri / Məhəmmədhüseyn Şəhriyar; [tərc. ed.: M. Seyidzadə [və b.]]. - Bakı: [Kitab klubu], 2024. - 439, [1] s.

Yaqubqızı, R. Könlüm quşu qanad çalmaz sənsiz bir an, Azərbaycan /Ramidə Yaqubqız // Respublika.-2024.- 31 iyul, (№160).- S.10.

Turan, A. "Türki bir çeşmə isə, mən onu dərya elədim": "Heydərbabaya salam", Türk dili, Türk birliyi, Türkiyə, Təbriz /Azər Turan // Ədəbiyyat qəzeti .-2024.- 10 avqust, №29-30.- S.2-3.

Heydərbabaya salam / Məhəmmədhüseyn Şəhriyar // Xalq qəzeti.- 2023.- 19 mart.- S.15.

Məhəmmədhüseyn Şəhriyar (tam adı Seyid Məhəmmədhüseyn Behcəti Təbrizi) 1906-cı ildə Təbriz şəhərinin Bağmeşə bölgəsində, dövrünün tanınmış hüquqşünaslarından olan Hacı Mirağa Xoşginabinin ailəsində anadan olmuşdur. O, ədəbiyyat tarixində əsasən Şəhriyar təxəllüsü ilə tanınır.

Məhəmmədhüseyn Şəhriyar ilk təhsilini kənd məktəbində almış, yazıb-oxumağı ona əvvəlcə Hacı Mirağa Xoşginabi öyrətmişdir. Sonralar Molla İbrahim və Molla Ağa Məhəmməd Bağırdan dini və dünyəvi biliklər almışdır. Təbrizə qayıtdıqdan sonra "Füyuzat" və "Müttəhidə" mədrəsələrində təhsilini davam etdirmiş, orta təhsilini başa vurduqdan sonra 1924-cü ildə Tehrana gedərək tibb fakültəsinə daxil olmuşdur. Şəxsi həyatında baş verən hadisələr nəticəsində ali təhsilini yarımçıq qoymağa məcbur olmuş, bir müddət Nişapurda və İranın digər şəhərlərində yaşamışdır. O, müxtəlif illərdə yerli idarələrdə məmur, notarius və bank işçisi kimi çalışmışdır. 1950-ci illərin əvvəllərində Təbrizə qayıtmışdır.

Şəhriyarın ədəbiyyata marağı erkən yaşlardan formalaşmışdır. O, yeddi yaşından Azərbaycan dilində, doqquz yaşından isə fars dilində şeirlər yazmağa başlamışdır. 1920-ci illərin ortalarından etibarən istedadlı gənc şair kimi tanınmışdır. Təxəllüsünü Hafizin "Bəxtnamə"sindən seçmiş və bu adla ədəbi mühitdə geniş şöhrət qazanmışdır. Onun yaradıcılığı janr və mövzu baxımından zəngin olub qəzəl, qəsidə, məsnəvi, qitə və rübai kimi klassik şeir formalarını əhatə edir.

Məhəmmədhüseyn Şəhriyarın poeziyasında vətənpərvərlik, milli kimlik, ana dilinə bağlılıq, humanizm, azadlıq və ictimai ədalət ideyaları mühüm yer tutur. Onun yaradıcılığı həm Azərbaycan, həm də farsdilli ədəbi ənənələr zəminində formalaşmışdır. Şairin ilk mətbu şeiri 1913-cü ildə Təbrizdə nəşr olunan "Ədəb" jurnalında dərc edilmişdir. Güney Azərbaycan tədqiqatçılarının araşdırmalarına görə, Şəhriyarın ilk şeir kitabı 1926-cı ildə "Sədaye-xuda" adı ilə nəşr olunmuş, daha sonralar 1931-ci ildə Tehranda Məliküş-şüəra Bahar, Səid Nəfisi və Peyman Bəxtiyarinin müqəddimələri ilə çap edilmişdir.

Şairin yaradıcılığında ana dilinə münasibət xüsusi mərhələ təşkil edir. O, Azərbaycan türkcəsinin poetik imkanlarını nümayiş etdirmiş, bu dilin ədəbi dil kimi yaşadılması və inkişafı istiqamətində mühüm rol oynamışdır. Ana dilində yazdığı əsərlər sırasında "Behcətabad xatirəsi", "Qaranlıq gecələr", "El bülbülü", "O taydan gələnə", "Pərvanə və şəm", "Dan ulduzu da batdı", "Alnımın yazısı" kimi nümunələr yer alır. Bakıdakı ədəbi mühitlə əlaqələri nəticəsində Azərbaycan şairlərinə həsr etdiyi mənzum məktublar və ithaf şeirləri də onun irsinin mühüm hissəsini təşkil edir.

Məhəmmədhüseyn Şəhriyarın yaradıcılığında xüsusi yer tutan "Heydərbabaya salam" poeması XX əsr Azərbaycan poeziyasının mühüm hadisələrindən biri hesab olunur. Poema iki hissədən ibarət olub, birinci hissə Tehranda, ikinci hissə isə Təbrizdə yazılmışdır. Əsərdə təbiət təsvirləri, kənd həyatı, xalqın adət-ənənələri və sosial-mənəvi dünyası geniş şəkildə əks olunmuşdur. "Heydərbabaya salam" Cənubi Azərbaycanda sadə ədəbi dil üslubunun formalaşmasına və ana dildə poeziya ənənəsinin bərpasına mühüm təsir göstərmişdir. Bu poema haqqında ilk elmi məqalə 1955-ci ildə Məmməd Əmin Rəsulzadə tərəfindən yazılmışdır.

Şəhriyarın əsərləri müxtəlif dillərə tərcümə olunmuşdur. Məhəmmədhüseyn Şəhriyarın yaradıcılığı həm İranda, həm də Azərbaycanda geniş şəkildə tədqiq edilmişdir. Ə. Atəş, Q. Beqdeli, H. Billuri, B. Nəbiyev, İ. Həbibbəyli, G. Baxşəliyeva, İ. Qəribli və digər alimlərin araşdırmaları əsasında şəhriyarşünaslıq elmi istiqamət kimi formalaşmışdır.


Məhəmmədhüseyn Şəhriyar 18 sentyabr 1988-ci ildə Tehranın Mehr xəstəxanasında vəfat etmiş, Təbriz şəhərində Surxab qəbiristanlığında yerləşən "Məqbərətüş-şüəra"da dəfn olunmuşdur.

Onun vəfat etdiyi tarix İranda Milli Şeir və Ədəbiyyat Günü kimi qeyd olunur. Şairin xatirəsi Azərbaycan və İran ədəbi-mədəni mühitində müxtəlif yubiley tədbirləri, nəşrlər və elmi araşdırmalar vasitəsilə yaşadılmaqdadır.

Qaracaoğlan – 420

(1606-1679)

Türk aşığı



Ədəbiyyat:

Qaracaoğlan yaradıcılığı: Klassik türk şeirinin yeni nəfəsi // Türküstan .- 2020.- 14-21 yanvar.- S.23.

Qəmlənmə / Qaracaoğlan //Ədəbiyyat qəzeti.-2016.- 6 fevral.- S.16-17.

Hacı, S. Gözəllik, sevgi, təbiət aşiqi - Qaracaoğlan… : O, dərin hikmətli fikirləri aydın dillə təqdim edib / Siracəddin Hacı // Xalq Cəbhəsi.-2015.- 22 aprel.- S. 14.

Namazov, Q. Qaracaoğlan: sehrli sazı və sözü: 350 ildir onun türküləri dodaqdan-dodağa qonub könüllərə sevgi paylayır / Qara Namazov // Xalq Cəbhəsi.-2015.- 3 noyabr.- S. 14.

Tatyüz, H. Qaracaoğlan yaradıcılığında aşıq havaları: sənətşün. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis.: 17.00.02 / H. A.Tatyüz .- Azərb. Resp. Təhsil Nazirliyi, Ü. Hacıbəyov ad. Bakı Musuqi Akademiyası.- Bakı.- 2012.- 177 s.

Qafqazlı, X. Qaracaoğlan / X. Qafqazlı ; red. H. Araslı.- AMEA-nın akad. Z. Bünyadov ad. Şərqşünaslıq İn-tu. – Bakı; Əli Nəşriyyat Evi.- 2009.- 107 s.

Qaracaoğlan. Şeirlər / tərtib ed. və ön sözün müəl.: İ. Ömərоğlu, Q. Namazov // Bakı;Şərq-Qərb.- 2006.- 256 s.

Qaracaoğlanın təxminən 1606-cı ildə Adana vilayətinin Bağça qəzasının Farsak (Varsaq) kəndində, Sailoğulları nəslində anadan olmudur. Əsl adının Həsən, atasının adının isə Qara İlyas olduğu bildirilir. Qaracaoğlan türkmən tayfaları mühitində yetişmiş, həyatının böyük hissəsini səfərlərdə keçirmişdir. O, sazı ilə Anadolu və Yaxın Şərqin müxtəlif bölgələrini – Ankara, Aydın, Maraş, Tokat, Konya, Niğde, Karaman, Diyarbəkir, Mardin, Urfa, Hələb, Adana, Şam, eləcə də Balkan yarımadası, Suriya, Trablis və Misiri gəzmişdir. Bu səfərlər onun haqqında çoxsaylı rəvayət və əfsanələrin yaranmasına səbəb olmuşdur.

Mənbələrdə Qaracaoğlanın ölüm tarixi dəqiq göstərilmir, onun 1679 və ya 1689-cu illərdə vəfat etdiyi ehtimal olunur. Dəfn yeri ilə bağlı da müxtəlif fikirlər mövcuddur.

Qaracaoğlanın yaradıcılığı türk xalq ədəbiyyatında xüsusi mərhələ təşkil edir. Onun poeziyası əsasən lirik xarakterlidir və insan sevgisi, təbiət gözəllikləri, vətən duyğusu, qürbət hissi, ictimai ədalətsizliklər kimi mövzuları əhatə edir. Aşıq həyat hadisələrinə biganə qalmamış, dövrünün sosial və ictimai problemlərinə münasibət bildirmiş, rüşvətxorluğu, haqsızlığı və ədalətsiz müharibələri tənqid etmişdir. Onun lirikasında fərdi kədər ümumxalq dərdi səviyyəsinə yüksəlir.

Qaracaoğlan poeziyasında təbiət təsvirləri mühüm yer tutur. Dağlar, düzlər, bulaqlar, çaylar, yaylaqlar onun şeirlərində canlı və bədii lövhələr şəklində təqdim olunur. “Dağlar” rədifli qoşmaları bu baxımdan xüsusilə diqqətəlayiqdir. Qürbətdə olduğu zamanlarda vətən həsrəti aşığın şeirlərində əsas motivlərdən birinə çevrilir.

Qaracaoğlan yaradıcılığında məhəbbət mövzusu aparıcıdır. Onun şeirlərində ilahi eşqdən daha çox dünyəvi, real insan sevgisi tərənnüm olunur. Qarşılaşdığı qadın obrazları – türkmən qızları, kənd və yaylaq qadınları – konkret adlardan çox ümumiləşdirilmiş poetik ifadələrlə təqdim edilir.

Aşığın irsi zəngindir. Müxtəlif tədqiqatçıların toplularında onun 460–480 arasında şeiri qeydə alınmışdır. Bu şeirlərin böyük əksəriyyəti qoşma janrındadır; təxminən 320-dən çox qoşması, doxsana yaxın səmaisi mövcuddur. O, həmçinin varsağı janrının klassik nümunələrini yaratmışdır. Qaracaoğlan bütün şeirlərini heca vəzni ilə yazmış, xalq dilinin sadəliyini və ifadə imkanlarını yüksək poetik səviyyəyə yüksəltmişdir.

Qaracaoğlanın həyatı və yaradıcılığı haqqında ilk məlumatı türk ədəbiyyatının quruculuğundan olan Fuad Köprülü 1915-ci ildə "Türk saz şairləri" adlı kitabında vermişdir. 1927-ci ildə isə Sadettin Hüzhüt Güney "Qaracaoğlanın həyatı və şeirləri" kitabını nəşr etdirdi.


Qaracaoğlan Anadolu türk aşıq ədəbiyyatının klassik nümayəndələrindən biridir. Onun həyatı və yaradıcılığı XX əsrin əvvəllərindən etibarən Türkiyədə Əli Rza Yalçın, Sadəttin Nüzhə (Erkin), İshak Rüfət, Zehni Ardıc, Cahit Öztelli kimi tədqiqatçı və ədəbiyyatşünaslar tərəfindən sistemli şəkildə elmi araşdırmaların predmetinə çevrilmişdir. Qaracaoğlan irsi həm Anadolu, həm də Azərbaycan aşıq ənənələri kontekstində öyrənilmiş, bu baxımdan İsmayıl Ömərоğlu və Qara Namazovun tədqiqatları xüsusi əhəmiyyət kəsb etmişdir.

Qaracaoğlanın poeziyası sonrakı dövrlərdə həm Anadolu, həm də Azərbaycan aşıq ədəbiyyatının inkişafına mühüm təsir göstərmiş, Aşıq Gövhəri, Öməri, Həsəni, İsmayılı, eləcə də XVIII–XIX əsr aşıqları onun poetik ənənəsini davam etdirmişlər.

Nəcəf Daşkəndli – 150

(1876-1919)

Aşıq



Aşıq Nəcəf 1876-ci ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. O, gənc yaşlarından saz-söz sənətinə maraq göstərmiş, zəngin yaddaşı, güclü səs tembri və musiqi qabiliyyəti ilə seçilmişdir. Aşıq Ələsgərə on il müddətində şəyirdlik edən Aşıq Nəcəf ustadının iştirakı ilə ağır məclislərdə çıxış etmiş, onun ən sevimli və etibarlı şagirdlərindən biri kimi tanınmışdır. Aşıq Ələsgər Aşıq Nəcəfin ifa tərzini və səs imkanlarını yüksək qiymətləndirmişdir.

1910-cu ildə Aşıq Nəcəf Aşıq Əsədlə birlikdə İrana səfər etmişdir. Bu səfər zamanı Təbriz aşıqları tərəfindən onlara ehtiram əlaməti olaraq on telli saz hədiyyə edilmişdir. Mənbələrdə bu saz "Xətai sazı" kimi tanınır və quruluş xüsusiyyətlərinə görə digər sazlardan fərqlənir.

Aşıq Nəcəf dövrünün bir sıra tanınmış aşıq və şairləri ilə yaxın yaradıcılıq və dostluq münasibətləri saxlamışdır.

Aşıq Nəcəfin həyatı faciəli şəkildə sona çatmışdır. 5 fevral 1919-cu ildə Göyçə mahalında "Küllü" təpə adlanan ərazidə erməni polkovniki Bolyanikin başçılığı ilə həyata keçirilən silahlı hücum zamanı Aşıq Nəcəf beş oğlu ilə birlikdə öldürülmüşdür. Bəzi mənbələrdə bu hadisə erməni generalı Selikovun Zod kəndində öldürülməsinə cavab olaraq törədilmiş qisas aktı kimi qiymətləndirilir.

Aşıq Nəcəfin həyatı və yaradıcılığı Azərbaycan folklorşünaslığında və aşıqşünaslıqda tədqiq edilmişdir. Onun taleyi və sənət yolu müxtəlif bədii və elmi əsərlərdə öz əksini tapmışdır. Sərraf Şiruyənin "Ağlama, bülbül, ağlama" (1994) kitabında "Aşıq Nəcəf və Gülüstan" dastanı, "İgid ölər, adı qalar" (2002) kitabında "Göyçəli Hacı Rəhim dastanı" yer almışdır. Eldar İsmayılın "Allah amanatı" (1994) kitabında "Nəcəf" poeması nəşr olunmuşdur. Tərlan Göyçəlinin "Göyçə aşıq məktəbi" (1998) əsərində Aşıq Nəcəfin sənət yolu haqqında məlumat verilmiş, Xasay Zeynalovun "Göyçəsiz günlərim" (2006) kitabında "Aşıq Nəcəf dastanı" təqdim edilmişdir. Araz Yaquboğlunun "Daşkənd aşıqları və şairləri" (2008) kitabında da Aşıq Nəcəfin yaradıcılığına dair materiallar yer almışdır.

Beləliklə, Aşıq Nəcəf Göyçə aşıq mühitinin formalaşmasında və Aşıq Ələsgər məktəbinin davam etdirilməsində mühüm rol oynamış, zəngin ifaçılıq ənənəsi və faciəli taleyi ilə Azərbaycan aşıq sənətinin yaddaşında özünəməxsus yer tutmuşdur.

Ədəbiyyat:

Həsənoğlu, Ş. Ağlama, bülbül ağlama ["Aşıq Nəcəf və Gülüstan"] / Ş. Həsənoğlu; Red. Ə.Qurban.- Gəncə.- 1994.- səh.348–371.

Həsənoğlu, Ş. İgid ölər, adı qalar ["Göyçəli Hacı Rəhim dastanı"] / Ş.Həsənoğlu; Red.: B.Vətənoğlu.- Gəncə.- 2002.- səh.258–296.

Aşıq ədəbiyyatı antologiyası: [3 cilddə] / tərt. ed.: M. Qasımlı [elmi red, ön söz], M. Allahmanlı ; [ön söz M. Təhmasib] ; nəşrin red. Ş. Tahirqızı ; C. 1.- Aşıq poeziyası.- Bakı; Mega Printing.- 2017. - 589, [3] s.

Ustad nəfəsli saz-söz ərməğanı:[antologiya] / hazırl.: M. Qasımlı, M. Allahmanlı ; elmi məsl. M. Qasımlı ; red.: İ. Məmmədli, A. Məmmədli.- Bakı; Zərdabi Nəşr.- 2020.- 399, [1] s.

İnternetdə:

https://enene.musigi-dunya.az/ash_simalarda.html

https://az.wikipedia.org/wiki/Aşıq_Nəcəf_Daşkəndli

Hüseyn Cavan – 110

(1916-1985)

Aşıq



Hüseyn Mikayıl oğlu Əliyev 1916-cı ildə Qaradağ mahalının Uti kəndində anadan olmuşdur. Atasının vəfatından sonra anası ilə birlikdə Şimali Azərbaycana köçmüş, əvvəlcə Ağcabədi rayonunun Şərəfxanlı kəndində, daha sonra isə Dəliməmmədli şəhərində yaşamışdır. Aşıq sənətinə marağı erkən yaşlarından formalaşmış, 1927-ci ildən etibarən Aşıq Ələsgərin qardaşı oğlu Aşıq Musanın şagirdi olmuşdur.

1938-ci ildə SSRİ ərazisindən sürgün edilərək Təbrizə göndərilmişdir. Şeir yaradıcılığına 1934-cü ildən başlasa da, poetik fəaliyyəti əsasən 1941-ci ildən sistemli xarakter almışdır. "Cavan" təxəllüsünü qəbul edən şairin ilk şeirləri – "Gül Azərbaycan", "Oyan, vətəndaşım", "Ana vətən", "Oktyabr" və digər əsərləri Təbrizdə nəşr olunan "Vətən yolunda" qəzetində dərc edilmişdir.

Aşıq Hüseyn Cavan 1945–1946-cı illərdə Cənubi Azərbaycanda baş verən milli-demokratik hərəkatda fəal iştirak etmişdir. 1945-ci il noyabrın 20-də Təbrizdə fəaliyyətə başlayan Azərbaycan Xalq Konqresində nümayəndə qismində iştirak etmiş, 21 dekabr 1945-ci ildə Azərbaycan Milli Hökumətinin qurulmasından sonra milli-mədəni proseslərə cəlb olunmuşdur. 1946-cı ilin mart ayında milli-demokratik hərəkatdakı fəaliyyətinə görə "21 Azər" medalı ilə təltif edilmişdir. Həmin il Təbrizdə yaradılan Dövlət Filarmoniyasında direktor müavini vəzifəsinə təyin olunmuş, onun rəhbərliyi ilə filarmoniyada aşıqlar ansamblı təşkil edilmişdir.

1946-cı ilin dekabrında Azərbaycan Milli Hökumətinin süqutundan sonra ölkədə siyasi təqiblər güclənmiş, şah qoşunlarının Təbrizə daxil olması ilə kütləvi repressiyalar həyata keçirilmişdir. Bu proseslər zamanı Aşıq Hüseyn Cavanın həyatı təhlükə altına düşmüş, onun evi qarət edilmiş, əlyazmaları məhv edilmişdir. Ailəsi həbs olunaraq İranın cənub vilayətlərinə sürgün edilmişdir.

Milli Hökumət dağıldıqdan sonra Aşıq Hüseyn Cavan təqiblərdən yayınmaq məqsədilə Şimali Azərbaycana mühacirət etmişdir. 1946-cı ildə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında solist kimi fəaliyyət göstərmişdir. 1947-ci ildən etibarən Bakıda fəaliyyət göstərən "Azərbaycan Yazıçılar Cəmiyyəti"nin üzvü olmuş, 1948-ci ildə Azərbaycan Yazıçılar Birliyinə qəbul edilmişdir. Elə həmin ildən Goranboy rayonunun Kəhrizli kəndində yaşamışdır.

1959-cu ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə Aşıqlar dəstəsinin bədii rəhbəri olmuşdur. Yaradıcılığı dövlət səviyyəsində qiymətləndirilmiş, SSRİ-nin "Şərəf nişanı" ordeni və 1967-ci ildə "Azərbaycan SSR əməkdar mədəniyyət işçisi" fəxri adı ilə təltif edilmişdir.

Aşıq Hüseyn Cavanın yaradıcılığı əsasən vətənpərvərlik, azadlıq ideyaları və xalq ruhunun ifadəsi ilə səciyyələnir. Onun "Azadlıq mahnıları" (1950), "Aşığın arzuları" (1950), "Şerlər" (1953, 1962), "Sədəfli saz" (1956), "Qoşmalar" (1959), "Danış telli sazım" (1966), "El aşığı" (1975), "Bahar kimi" (1979) adlı kitabları nəşr olunmuşdur.

Aşıq Hüseyn Cavan 14 noyabr 1985-ci ildə vəfat etmiş və Goranboy rayonunun Kəhrizli kəndində dəfn olunmuşdur.

Onun xatirəsi Azərbaycan mədəniyyətində yaşadılmaqdadır. 1947-ci ildə çəkilmiş "Arazın o tayında" sənədli filmində ifası lentə alınmış, 2016-cı ildə Bakıda onun anadan olmasının 100 illiyi münasibətilə yubiley tədbiri keçirilmişdir.

Ədəbiyyat:

Quliyeva, R. Aşıq Hüseyn Cavanın həyatı və sənəti Aşıq Hüseyn -100 / Ruziyyə Quliyeva; E.Şirinova // Folklor və etnoqrafiya: Beynəlxalq elmi jurnal. -2017.- №1.- S.80-87.

Aşıq Hüseyn Cavan / Bakı [s. n.],1960.- [2] s.

Cavan, H. Sədəfli saz / Aşıq Hüseyn Cavan ; red. İ. Soltan.- Bakı; Azərnəşr.- 1956.- 89, [3] s.Cavan, H. Bahar kimi… / Aşıq Hüseyn Cavan ; red. C. Zeynal .- Bakı; Yazıçı.- 1979.- 103, [1] s.


İnternetdə:

https://www.anl.az/down/meqale/baki_xeber/2016/noyabr/516236.htm

https://www.anl.az/down/meqale/baki_xeber/2016/noyabr/516236.htm

Əcəmi Naxçıvani – 900

(1126-?) *Memar*



Azərbaycan memarlıq tarixində xüsusi yer tutan görkəmli memar Əcəmi Əbubəkr oğlu Naxçıvani XII əsrin ortalarında (bəzi mənbələrdə 1126-cı ildə) Naxçıvanda anadan olmuşdur.

O, Şərq memarlığında yeni üslubun formalaşmasına səbəb olmuş, Naxçıvan memarlıq məktəbinin banisi kimi tarixə düşmüşdür. Əcəmi Naxçıvani yalnız öz dövrünün deyil, ümumilikdə dünya memarlığının inkişafına mühüm töhfələr vermiş böyük sənətkardır.

Əcəmi Naxçıvani Atabəylər dövlətinin hakimiyyəti dövründə yaşamışdır. Həmin dövr Azərbaycan üçün siyasi sabitlik, iqtisadi inkişaf və mədəni yüksəliş mərhələsi idi. Naxçıvan şəhəri elmin, mədəniyyətin və sənətin mərkəzlərindən biri sayılırdı. Belə bir mühit Əcəmi Naxçıvani kimi istedadlı bir memarın yetişməsinə zəmin yaratmışdır. Mənbələrdə onun həyatı haqqında məlumatlar az olsa da, yaratdığı memarlıq abidələri onun yüksək biliyə və dərin zəkaya malik olduğunu aydın şəkildə sübut edir.

Əcəmi Naxçıvaninin ən mühüm xidmətlərindən biri Naxçıvan memarlıq məktəbinin banisi olmasıdır. Bu məktəb əsasən bişmiş kərpicdən istifadə, mürəkkəb həndəsi ornamentlər, kufi yazılar və dəqiq proporsiyalarla seçilirdi. Əcəmi Naxçıvani memarlıqda elmlə sənəti birləşdirərək yeni yanaşma ortaya qoymuşdur.

Əcəmi Naxçıvaninin ən məşhur əsərlərindən biri Mömінə Xatun türbəsidir. Bu möhtəşəm abidə 1186-cı ildə Atabəy Şəmsəddin Eldənizin həyat yoldaşı Mömінə Xatunun xatirəsinə inşa edilmişdir. Türbə onbucaqlı formaya malikdir və üzəri incə ornamentlər, yazılar və həndəsi naxışlarla bəzədilmişdir. Mömінə Xatun türbəsi öz möhkəmliyi, zərifliyi və bədii tərtibatı ilə memarlıq sənətinin nadir nümunələrindən sayılır.

Əcəmi Naxçıvaninin digər mühüm əsəri Yusif ibn Küseyr türbəsidir. Xalq arasında "Atababa türbəsi" adı ilə tanınan bu abidə daha sadə quruluşa malik olsa da, memarlıq baxımından olduqca dəyərlidir. Türbədə kərpiclərin düzülüşü, yazıların yerləşdirilməsi və formaların dəqiqliyi memarın ustalığını nümayiş etdirir. Bu əsər Əcəmi Naxçıvaninin sadə vasitələrlə böyük təsir yaratmaq bacarığını göstərir.

Əcəmi Naxçıvani memarlıqda yazını bəzək elementi kimi deyil, əsas kompozisiya hissəsi kimi istifadə etmişdir. O, kərpic ornamentlərini sistemli şəkildə tətbiq etmiş, binalara həm estetik, həm də fəlsəfi məna qazandırmışdır. Onun əsərləri yalnız göz oxşamır, eyni zamanda dərin düşüncə və mənəvi məzmun daşıyır. Tikililərində riyazi hesablamalar, simmetriya və estetik harmoniya əsas yer tutur.

Əcəmi Naxçıvaninin yaradıcılığı sonrakı dövrlərdə Azərbaycanla yanaşı, Anadolu, İran və Orta Asiya memarlığına da təsir göstərmişdir. Onun qoyduğu memarlıq ənənələri əsrlər boyu davam etmiş və inkişaf etdirilmişdir. Bu gün Əcəmi Naxçıvaninin əsərləri Azərbaycan xalqının mədəni irsinin qiymətli inciləri hesab olunur.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Əcəmi Naxçıvaninin 850 illik yubileyi 1976-cı ildə Azərbaycanda təntənəli şəkildə keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il sentyabr ayının 18-də Memar Əcəmi Naxçıvaninin Naxçıvan şəhərində abidəsinin ucaldılması haqqında, 2025-ci il 30 dekabr tarixində isə Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışdır.

Qüdrətli memarın 900 illiyinin UNESCO çərçivəsində qeyd olunan yubileylər siyahısına daxil edilməsi bütövlükdə Azərbaycan xalqının çoxəsrlik mədəniyyətinin zənginliklərinin beynəlxalq miqyasda daha geniş tanıdılmasında mühüm addımdır.

Ədəbiyyat:

Memar Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 18 sentyabr 2025-ci il // Azərbaycan.-2025.- 19 sentyabr (№200).- S.1; Xalq qəzeti .-2025.- 19 sentyabr (№200).- S.2.

Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 30 dekabr 2025-ci il // Azərbaycan.- 2025.- 31 dekabr (№275).- S.1; İki sahil.-2025.- 31 dekabr (№240).- S.2.

Qasımzadə, E. 2026-cı ildə Memar Əcəminin 900 illik yubileyidir / Elbay Qasımzadə; müsahibəni apardı: T.Qafarlı // Həftə içi.-2025.- 25 dekabr (№49).- S.5.

Hacıyev, İ. Milli dövlətçiliyimizin 9 əsrlik yadigarı: Mömінə xatun türbəsi Atabəylərin ölməz ana sevgisi abidəsidir / İsmayıl Hacıyev // Xalq qəzeti.-2025.- 11 iyul (№ 140).- S.9.

İnternetdə:

https://president.az/az/articles/view/71197

https://www.anl.az/down/meqale/medeniyyet/2024/

İslam Abdullayev – 150

(1876-1964)

Xanəndə



İslam Abdullayev 1876-cı ilin dekabr ayında Şuşa şəhərində anadan olmuş, ilk təhsilini Şuşa şəhər məktəbində almışdır. Erkən yaşlarından musiqiyə maraq göstərmiş, onun məlahətli səsi Şuşanın mədəni mühitində diqqət cəlb etmişdir. Musiqi aləminə daxil olmasında şair və musiqişünas Mir Möhsün Nəvvabın xüsusi rolu olmuşdur. Nəvvabın təşəbbüsü ilə İslam Abdullayev Şuşada fəaliyyət göstərən "Xanəndələr məclisi"nə cəlb edilmiş, burada Qarabağ muğam məktəbinin görkəmli nümayəndələri olan Hacı Hüsü, Məşədi İsi, Mirzə Muxtar Məmmədov, Dəli İsmayıl, Keştazlı Həşim kimi sənətkarlardan muğam sənətinin incəliklərini öyrənmişdir. Bu dövrdə o, tarzən Mirzə Sadıq Əsəd oğlunun (Sadıqcan) müşayiəti ilə çıxış etmişdir.

İslam Abdullayevin ilk müstəqil və geniş rezonans doğuran ifası Sadıqcanın oğlu Əsədullanın toy məclisində baş tutmuşdur. Həmin çıxışdan sonra onun ifaçılıq şöhrəti sürətlə yayılmışdır. XX əsrin əvvəllərindən etibarən Qarabağ, Gəncə, Şəki və Şirvan bölgələrinin musiqi məclislərində çıxış etmiş, həmçinin İranın müxtəlif şəhərlərində ifaları ilə tanınmışdır. İranın Rəşt şəhərində olduğu dövrdə Tehran xanəndəlik mühitinin tanınmış nümayəndələri ilə ünsiyyətdə olmuşdur.

1901–1905-ci illərdə tarzən Qurban Pirimovla birlikdə Qarabağ və Gəncə məclislərində çıxış etmişdir. 1910–1915-ci illərdə "Sport-Rekord", "Ekstrafon" və "Primer-Rekord" səsyazma şirkətlərinin dəvəti ilə bir sıra muğam və təsnifləri qrammofon vallarına yazdırmışdır. Onun ifasında "Segah", "Zabul-Segah", "Mirzə Hüseyn Segahı", "Orta Segah", "Xaric Segah", "Bayatı-Qacar", "Şahnaz", "Şüştər", "Mahur-hindi", "Şikəsteyi-fars", "Bayatı-Kürd", "Kürdü-Şahnaz" və digər muğamlar Azərbaycan musiqi irsinin dəyərli nümunələri kimi qiymətləndirilir. "Segah" muğamının bütün variantlarını yüksək sənətkarlıqla ifa etdiyinə görə o, xalq arasında "Segah İslam" adı ilə tanınmışdır.

Sovet hakimiyyəti illərində İslam Abdullayev musiqi mədəniyyətinin kütlələr arasında yayılmasında fəal iştirak etmişdir. Uzun müddət Azərbaycan Dövlət Estradasının solisti olmuş, müxtəlif bölgələrdə konsert proqramları ilə çıxış etmişdir. Eyni zamanda pedaqoji fəaliyyətlə məşğul olmuş, Şuşa və Ağdam musiqi məktəblərində muğamdan dərs demişdir. Onun pedaqoji fəaliyyəti nəticəsində Xan Şuşinski, Yaqub Məmmədov, Qənbər Zülalov, Sahib Şükürov, İldırım Həsənov və digər tanınmış xanəndələr yetişmişdir. Bir müddət Şuşa musiqi məktəbində direktor vəzifəsində çalışmış, Gəncədə xalq çalğı alətləri orkestrinin təşkilində iştirak etmişdir. Ömrünün son illərində Ağdamda yaşayıb pedaqoji fəaliyyətini davam etdirmişdir.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında uzunmüddətli və səmərəli fəaliyyətinə görə İslam Abdullayev 1949-cu ildə Əməkdar artist fəxri adına layiq görülmüşdür.

İslam Abdullayev 22 sentyabr 1964-cü ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat:

Hüseynoğlu, S. Segah İslam (İslam Abdullayev) / S. Hüseynoğlu ;baş red. G. Cəfərova ; red. R. Həsənova .- Bakı; Şərq-Qərb. - 2017. - 135, [1] s.

Civişov, R. Segah islam / R.Civişov // Mədəniyyət .- 2007.- 20 aprel.- S.13.

Nərimanoğlu, M. "Şuşanın dağları başı dumanlı...": "Segah İslam"ın səsi o dumanlı havada da Cıdır düzündən, İsa bulağından gələrdi / M.Nərimanoğlu // Azərbaycan. - 2020. - 20 sentyabr. - S.6.

İnternetdə:

https://portal.azertag.az/az/node/24861

https://anl.az/down/meqale/medeniyyet/2012/sentyabr/260789.htm

Kərbəlayı Lətif – 150

(1876-1944)

Qarmon ifaçısı



Lətif Hüseyn oğlu Əliyev (Kərbəlayi Lətif) 1876-cı ildə Şuşa şəhərində anadan olmuşdur. Lətif qarmon çalmağı birbaşa atasından öyrənmiş, daha sonra gözəl səsi ilə seçilən böyük qardaşı Məhəmmədlə birlikdə məhəllə şənliklərində və ailə məclislərində çıxış etməyə başlamışdır.

Kərbəlayi Lətifin musiqi sənətinə dərindən yiyələnməsind qardaşının peşəkar fəaliyyəti və sənət mühiti ciddi təsir göstərmişdir. O, uzun illər Qarabağ məclislərində qardaşı Məhəmmədi, Malıbəyli Cümşüdü, Keçəçioğlu Məhəmmədi, Pəsxan Cəlili və Qəssab Abışı qarmonda müşayiət etmiş, virtuoz ifa tərzinə görə xalq arasında "Şirin barmaqlar" adı ilə tanınmışdır.

XX əsrin əvvəllərində Kərbəlayi Lətif Qafqaz miqyasında ustad qarmonçu kimi şöhrət qazanmışdır. 1914-cü ildə "Ekstrafon" aksioner cəmiyyəti tərəfindən Kiyev şəhərinə dəvət olunmuş, burada "Şur", "Orta Mahur", "Rast", "Bayatı-Qacar", "Çoban-bayatı", "Segah" muğamlarını, eləcə də "Qızılgül", "Turacı", "Vağzalı" kimi xalq oyun havalarını qarmonda ifa edərək qrammofon vallarına yazdırmışdır. Bu səsyazmalar Azərbaycan qarmon ifaçılığı tarixində mühüm sənədlər kimi qiymətləndirilir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Kərbəlayi Lətif Şuşada açılan musiqi məktəbində pedaqoji fəaliyyətə başlamış, gənc nəslin musiqi təlim-tərbiyəsi ilə məşğul olmuşdur. 1922-ci ildə İran, İraq və Ərəbistan ölkələrinə səyahət edərək klassik Şərq musiqisi ilə yaxından tanış olmuş, bu səfər onun ifa üslubunun zənginləşməsinə təsir göstərmişdir. Vətənə qayıtdıqdan sonra əldə etdiyi bilik və təcrübəni Azərbaycan musiqi mühitində tətbiq etmişdir.

Kərbəlayi Lətif uzun illər Şuşa, Ağdam və Bərdə dram teatrlarında fəaliyyət göstərmiş, respublika səviyyəli baxış və olimpiadalarda dəfələrlə mükafata layiq görülmüşdür. 1935-ci ilin dekabrında Bakıda Azərbaycan Şura Cümhuriyyətinin XV illiyi münasibətilə keçirilən I bədii özfəaliyyət olimpiadasında iki qarmonda "Bayatı-Qacar" və "Segah" muğamlarını ifa edərək birinci yerə layiq görülmüşdür. 1939-cu ildə Moskvada keçirilən xalq musiqi alətləri ifaçılarının Ümumittifaq baxışında milli musiqi havalarını yüksək ustalıqla ifa edərək tərifnamə almışdır.

Kərbəlayi Lətif muğamlarla yanaşı, saysız-hesabsız el nəğmələrinin və milli oyun havalarının kamil bilicisi olmuşdur. Onun bu sahədəki biliyi Azərbaycan və sovet musiqişünaslarının diqqətini cəlb etmişdir. Məşhur bəstəkar Reynqold Qliyer "Şahsənəm" operası üzərində işləyərkən Qarabağa səfəri zamanı Kərbəlayi Lətifin ifasında otuza yaxın el mahnısını yazıya almışdır. Əfrasiyab Bədəlbəyli isə 1936-cı ildə "Qız qalası" baleti üzərində çalışarkən Qəmər Almaszadə ilə birlikdə Şuşaya gələrək Kərbəlayi Lətifdən milli oyun havaları və rəqs ifaçılığı texnikası barədə məlumat əldə etmişdir.

Kərbəlayi Lətif ifaçılıq fəaliyyəti ilə yanaşı, musiqi sənətinin təbliğinə və gənc ifaçıların yetişdirilməsinə xüsusi diqqət yetirmiş, öz bilik və təcrübəsini gələcək nəsillərə ötürmüşdür.

Lətif Hüseyn oğlu 6 dekabr 1944-cü ildə Bərdə şəhərində vəfat etmişdir.

Ədəbiyyat:

Şuşinski, F. Kərbəlayı Lətif "Azərbaycan xalq musiqiçiləri" / F.Şuşinski.- Bakı "Yazıçı".- 1985.- S. 189 – 190.

Şuşinski, F. Kərbəlayı Lətif / F.Şuşinski.- Azərbaycanın musiqi xəzinəsi.- Bakı.- 2015 .- S. 439-440.

Fərəcov, S. "Şirin barmaqlar" ın sənət sehri / S.Fərəcov. - Mədəniyyət. -- 2013.- 6 noyabr.- S. 15.

İnternetdə:

https://qarmon.az/az/azerbaycan-qarmonu/ifacilar/heyat-ve-yaradiciliq/71

Bakir Haşımov – 100

(1926-1989)

Xanəndə



Haşımov Bakir Musa oğlu 1926-cı ildə Ağdam şəhərində anadan olmuşdur. Qarabağ xanəndəlik ənənələrinin davamçısı kimi formalaşan Bakir Haşımov erkən yaşlarından musiqiyə maraq göstərmiş, ustad xanəndələrin ifasında eşitdiyi muğam və təsnifləri xalq məclislərində ifa etməklə ilkin ifaçılıq təcrübəsi qazanmışdır.

1950-ci illərdə Bakıda Azərbaycan Dövlət Musiqi Məktəbində professional musiqi təhsili almışdır. O, Seyid Şuşinskinin sinfində təhsil alaraq muğam sənətinin nəzəri və praktik əsaslarını mənimsəmiş, bu dövrdə bütün muğam dəstgahlarını öyrənmişdir. Aldığı sistemli musiqi təhsili onun ifaçılıq üslubunun formalaşmasında mühüm rol oynamışdır.

Bakir Haşımov yumşaq tembrli səsə malik xanəndə kimi tanınmış, xüsusilə lirik xarakterli muğamların ifasında fərqlənmişdir. Onun ifa tərzi melodik axıcılığı və səs tembrinin ifadəliliyi ilə seçilmiş, bu xüsusiyyətlər dövrün musiqi mühitində müsbət qarşılanmışdır. İfaçılıq fəaliyyəti bəstəkarlar Fikrət Əmirovun və Niyazinin diqqətini cəlb etmiş, onların təşəbbüsü ilə Bakir Haşımov Azərbaycan Dövlət Opera və Balet Teatrına solist kimi dəvət olunmuşdur.

Bakir Haşımovun yaradıcılıq fəaliyyətinin əsas mərhələsi Azərbaycan Dövlət Opera və Balet Teatrı ilə bağlı olmuşdur. O, Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasında Məcnun və İbn Səlam, "Əsli və Kərəm" operasında isə Kərəm obrazlarını ifa etmişdir. Bu səhnə rolları onun opera ifaçılığı sahəsində fəaliyyətinin əsas göstəriciləri kimi Azərbaycan musiqi mədəniyyətində mühüm yer tutmuşdur.

Görkəmli xanəndə Bakir Haşımov 1989-cu ildə Bakı şəhərində vəfat etmişdir.

Onun yaradıcılığı Qarabağ xanəndəlik məktəbinin ənənələrinin peşəkar səhnə mühitində yaşadılması və inkişaf etdirilməsi baxımından Azərbaycan muğam ifaçılığı tarixində əhəmiyyətli yer tutur.

Ədəbiyyat:

Muğam ensiklopediyası: [CD, DVD və kitabdan ibarət komplekt] / Heydər Əliyev Fondu ; red. hey.: M. Əliyeva, baş red. və b. ; hazırl.: G. Abdullazadə və b. . – Bakı; Musiqi dünyası [TUTU Design].- 2008. - 215, [1] s. - fotoşək., portr., Qoşma sənəd 6 albom futlyarda (21 CD ; Azərbaycan xanəndələri. Diskoqrafiya. - 23, [1] s.)

İnternetdə:

http://mugam.musigi-dunya.az/h/hashi

https://az.wikipedia.org/wiki/Bakir_Haşımov

Teymur Mirzəyev – 90

(1936-2021)

Müğənni



Mirzəyev Teymur İbrahim oğlu 1936-cı ildə Ağdam şəhərində anadan olmuşdur. Orta təhsilini başa vurduqdan sonra Asəf Zeynallı adına Musiqi Texnikumuna daxil olmuş, burada təhsilini başa çatdırdıqdan sonra Azərbaycan Dövlət Konservatoriyasının xor-dirijor fakültəsində ali musiqi təhsili almışdır.

Teymur Mirzəyev tələbəlik illərində Arif Hacıyev, Lev Yelisavetski və Rauf Babayevlə birlikdə vokal ansambl yaratmaq ideyası ilə çıxış etmiş və bu təşəbbüs nəticəsində "Qaya" vokal kvarteti formalaşmışdır. Kollektiv 1961-ci ildən etibarən professional səhnə fəaliyyətinə başlamışdır. Teymur Mirzəyev ansamblın yaradıcısı, bədii rəhbəri və solisti kimi fəaliyyət göstərmişdir.

"Qaya" vokal kvarteti Ümumittifaq və beynəlxalq müsabiqələrin laureatı kimi tanınmış, SSRİ məkanında və bir sıra xarici ölkələrdə geniş şöhrət qazanmışdır. Kollektiv 1964-cü ildə Moskvada keçirilmiş Ümumdünya estrada müsabiqəsində birinci yerə layiq görülərək laureat adını qazanmışdır. Ansamblın fəaliyyəti 1961–1988-ci illəri əhatə etmişdir.

Teymur Mirzəyev müasir Azərbaycan estrada və caz musiqisinin formalaşması və inkişafında mühüm rol oynamış sənətkarlardandır. O, "Qaya" ansamblı ilə dünyanın müxtəlif ölkələrində — Almaniyada, Avstriyada, ABŞ-da, Türkiyədə, Hindistanda, Afrika ölkələrində, Çexoslovakiyada, İsraildə, Kanadada, Gürcüstanda və Ukraynada çıxış edərək Azərbaycan musiqi mədəniyyətini beynəlxalq səviyyədə təmsil etmişdir. Kollektivin repertuarında yer alan əsərlər milli musiqi mədəniyyətində xüsusi əhəmiyyət kəsb etmişdir.

"Qaya" kvarteti üçün Fikrət Əmirov, Tofiq Quliyev, Rauf Hacıyev, Vasif Adıgözəlov, Fərəc Qarayev və Tofiq Babayev kimi görkəmli bəstəkarlar tərəfindən xüsusi olaraq mahnılar yazılmışdır. Teymur Mirzəyev kollektivin bədii rəhbəri kimi estrada və caz ifaçılığı ənənələrinin qorunub saxlanılmasında və inkişaf etdirilməsində mühüm rol oynamışdır.

Teymur Mirzəyev eyni zamanda pedaqoji və maarifləndirici fəaliyyətlə məşğul olmuş, klassik estrada və caz ifaçılığı məktəbinin prinsipləri əsasında gənc ifaçı nəslinin formalaşmasına töhfə vermişdir. O, Azərbaycan, rus və Qərbi Avropa bəstəkarlarının əsərlərini, eləcə də müxtəlif xalqların musiqi nümunələrini yeni ifa üslubunda təqdim etmişdir.

Teymur Mirzəyev 1976-cı ildə çəkilmiş "Ürək… Ürək…" filmində ansamblın rəhbəri, 2006-cı ildə çəkilmiş "Əlvida, cənub şəhəri" filmlərində aktyor kimi iştirak etmişdir. Onun sənət fəaliyyəti dövlət səviyyəsində qiymətləndirilmiş, 11 yanvar 1978-ci ildə Əməkdar artist, 23 yanvar 1993-cü ildə isə Xalq artisti fəxri adına layiq görülmüşdür.

2011-ci il noyabrın 18-də Heydər Əliyev Sarayında "Qaya" vokal kvartetinin yaradılmasının 50 illiyi münasibətilə yubiley tədbiri keçirilmişdir. Tədbirdə ansamblın veteran üzvləri, o cümlədən Teymur Mirzəyev iştirak etmişdir.

Uzun müddət İsraildə yaşayan Teymur İbrahim oğlu Mirzəyev 27 sentyabr 2021-ci ildə 85 yaşında vəfat etmişdir.

Onun yaradıcılığı Azərbaycan estrada və caz musiqisi tarixində mühüm mərhələ kimi qiymətləndirilir.

Ədəbiyyat:

Babayev, R. "Ey həyat, sən nə qəribəsən: [Xalq artistləri Rauf Babayev və Teymur Mirzəyev ilə "Qaya" instrumental ansamblı haqqında söhbət] / R.Babayev, T.Mirzəyev / qələmə aldı A.Həsənli // Üç nöqtə. - 2011. - 19 noyabr. - S. 15.

Əfsanəvi "Qaya" kvartetinin 50 yaşı tamam olur: [qrupun solistləri, xalq artistləri Rauf Babayev və Teymur Mirzəyev mətbuat konfransı keçirmişlər] // Azərbaycan. - 2011. - 18 noyabr. - S. 12.

Hüseyn Ərəblinski – 145

(1881-1919)

Aktyor, rejissor



Ədəbiyyat:

Hər zaman ehtiramla xatırlanan görkəmli sənətkar // Azərbaycan.-2025.- 5 mart (№ 50).- S.11.

Yaqubqızı, R. Azərbaycan teatr sənətinin fədaisi / RamidəYaqubqızı // Respublika.-2025.- 5 mart (№ 49).- S.11.

Mirzəli, C. Səhnə şəhidi Ərəblinski: Onun adı teatr tariximizə qızıl hərflərlə yazılıb / Ceyhun Mirzəli, Ə.Nəcəfxanlı // Xalq qəzeti.-2024.- 30 mart, № 65.- S.9.

Hüseynov, R. Sevginin o həddi / RafaelHüseynov // 525-ci qəzet.-2024.- 25 may,№92.-S.14-15.

Hüseynov, R. Dahi aktyorla qaydasız oynayan cığal həyat / Rafael Hüseynov // 525-ci qəzet.-2024.- 28 may,№93.-S.10-11.

Hüseynov, R. Ölümdən Bakıya qayıdış / Rafael Hüseynov // 525-ci qəzet. -2024.- 1 iyun,№96.-S.14-15.

İnternetdə:

https://modern.az/az/medeniyyet/152748/huseyn-ereblinskinin-muemmali-qetli-aktyorun-defn-gununden-reportaj/

https://anl.az/el/emb/TEATR/aktyorlar/huseyn_ereblinsk.htm

Hüseynbala Məmməd oğlu Xələfov (səhnə təxəllüsü Hüseyn Ərəblinski) 1881-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, ilkin təhsilini mollaxanada almış, daha sonra Sultan Məcid Qənizadənin himayəsində fəaliyyət göstərən üç şöbəli məktəbdə, ardınca Mixaylovski məktəbində təhsil almışdır.

Hüseyn Ərəblinskinin teatr sənətinə gəlişi Həbib bəy Mahmudbəyovun təşəbbüsü ilə bağlıdır. Mahmudbəyov Cahangir Zeynalovla birlikdə Mirzə Fətəli Axundovun "Sərgüzəşti-vəziri-xani-Lənkəran" əsərini səhnələşdirərkən epizodik rollar üçün şagirdlərini, o cümlədən Hüseyn Xələfovu tamaşaya cəlb etmişdir. Onun ilk məşqlərini Cahangir Zeynalovun evində keçmiş, 1897-ci ildə "Lənkəran xanının vəziri" komediyasında mehtər Kərim rolunda səhnəyə çıxmışdır. Sonralar o, "Ərəblinski" səhnə təxəllüsünü qəbul etmişdir.

1897–1900-cü illərdə Hüseyn Ərəblinski əsasən kiçik rollarda çıxış etmişdir. Onun yaradıcılığında dönüş nöqtəsi 1903–1904-cü illərdə Müsəlman Artistləri Cəmiyyətinin fəaliyyəti ilə bağlı olmuşdur. 1905-ci ildə bu cəmiyyətin Lənkəran qastrolu zamanı "Müsibəti-Fəxrəddin" tamaşasında Fəxrəddin rolunun uğurlu ifası aktyorun teatr ictimaiyyətində tanınmasına səbəb olmuşdur.

Hüseyn Ərəblinski "Nicat" Teatr Cəmiyyətində aktyor və baş rejissor kimi fəaliyyət göstərmiş, teatr sahəsində bir sıra təşkilati islahatlar həyata keçirmiş, dünya dramaturgiyasının klassiklərini Azərbaycan səhnəsinə gətirmişdir.

Aktyor xüsusilə Şekspirin "Otello" faciəsindəki ifası ilə şöhrət qazanmışdır. O, bu rolu ilk dəfə 1910-cu ildə oynasa da, obraz üzərində uzun müddət çalışmışdır. Hüseyn Ərəblinski Şillerin "Qaçaqlar" əsərində Frans Moor, Qoqolun "Müfəttiş"ində Xlestakov, Vəzirovun "Müsibəti-Fəxrəddin"ində Fəxrəddin, Axundovun "Hacı Qara"sında Heydər bəy, Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar"ında Qacar, Lanskoyun "Qəzavat"ında Əhməd bəy Şamxal və digər rolları ifa etmişdir. Tarixi mövzulu Napoleon ("1812-ci il"), Sultan Osman, Nadir şah və Səttarxan obrazları da ilk dəfə Azərbaycan səhnəsində onun tərəfindən yaradılmışdır.

1906–1919-cu illər ərzində Hüseyn Ərəblinski mütəmadi olaraq qastrol səfərlərində olmuş, Dərbənd, Aşqabad, İran və digər bölgələrdə çıxış etmişdir.

Hüseyn Ərəblinski Azərbaycan kino tarixində də yer almışdır. O, 1916-cı ildə Bakıda çəkilmiş "Neft və milyonlar səltənətində" filmində Lütfəli bəy rolunu ifa etmişdir.

Hüseyn Ərəblinski 1919-cu il martın 4-də Bakıda ailə münaqişəsi zəminində dayısı oğlu Əbdülxalıq tərəfindən qətlə yetirilmişdir. Aktyor əvvəlcə şəhər qəbiristanlığında dəfn edilmiş, 1930-cu illərdə nəşi Fəxri Xiyabana köçürülmüşdür. Vəfatının 100 illiyi münasibətilə 2019-cu ildə I Fəxri Xiyabanda Hüseyn Ərəblinskinin qəbirüstü abidəsi ucaldılmışdır.

Hüseyn Ərəblinskinin xatirəsi dövlət və mədəniyyət ictimaiyyəti tərəfindən əbədiləşdirilmişdir. 1969-cu ildə Sumqayıt Dövlət Gənclər Dram Teatrına onun adı verilmişdir. Aktyor haqqında 1949-cu ildə Cəfər Cəfərovun "Hüseyn Ərəblinski" adlı kitabçası nəşr olunmuş, sonrakı dövrlərdə onun həyat və yaradıcılığına dair elmi-tədqiqat və bədii əsərlər yazılmışdır. Hüseyn Ərəblinskinə həsr olunmuş "Azərbaycanın səhnə ustaları" (1965) və "Hüseyn Ərəblinski" (1982) filmləri çəkilmiş, Elçinin "Sənətkarın taleyi" pyesi əsasında Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşa hazırlanmışdır.

Fətəli xan – 290

(1736-1789)

Dövlət xadimi



Fətəli xan (1736–1789) Quba xanı Hüseynəli xan və Qaytaq usmisi "Böyük" usmi Əhməd xanın qızı Pəricahan Bikənin ailəsində anadan olmuşdur. Atası Hüseynəli xanın 1758-ci ildə vəfatından sonra hakimiyyət iyirmi üç yaşlı Fətəli xana keçmişdir. Hakimiyyətinin ilk illərində o, Quba xanlığının sərhədlərini möhkəmləndirmək və Şirvan xanlığının hücumlarını dəf etmək məqsədilə hərbi tədbirlər görmüşdür.

Fətəli xanın əsas siyasi məqsədi Quba xanlığı mərkəz olmaqla Azərbaycanın parçalanmış xanlıqlarını birləşdirmək idi. Bu siyasət çərçivəsində əvvəlcə Dərbəndi ələ keçirmiş, Bakını isə diplomatik vasitələrlə öz hakimiyyətinə tabe etmişdir. Bacısı Xədicə Bikənin Bakı xanı Məlik Məhəmməd xanla evliliyi bu prosesdə mühüm rol oynamışdır. Bir neçə hərbi yürüşdən sonra Şamaxı şəhəri də onun nəzarətinə keçmiş və Şirvan xanlığının müstəqil hakimiyyətinə son qoyulmuşdur.

Fətəli xan Muğan və Lənkəran bölgələrini də öz siyasi təsir dairəsinə daxil etmişdir. Cavad xanlığının könüllü şəkildə Quba xanlığının hakimiyyətini qəbul etməsi Muğanın birləşdirilməsini təmin etmiş, Lənkəran xanlığı isə hərbi-siyasi ittifaqlar vasitəsilə ondan asılı vəziyyətə salınmışdır. Qarabağ istiqamətində yürüşlər nəticəsində tam hakimiyyət qurulmasa da, bölgənin düzən ərazilərinə nəzarət təmin edilmişdir.

Xarici siyasətdə Fətəli xan Rusiya, Osmanlı imperiyası və İran arasında tarazlıq yaratmağa çalışmış, Rusiya–Osmanlı müharibələri dövründə praqmatik və ehtiyatlı mövqe tutmuşdur. Ağa Məhəmməd xan Qacarın güclənməsi fonunda Gilan və Ərdəbil istiqamətində yürüşlər etmiş, müəyyən müddət bu ərazilərdə təsirini təmin etmişdir. Dağıstan feodalları ilə mübarizədə, o cümlədən Qaytaq usmiləri və Avar hakimləri ilə toqquşmalarda çətinliklərə baxmayaraq, Dərbənd üzərində nəzarəti bərpa etmişdir.

Daxili siyasətdə Fətəli xan mərkəzləşməni gücləndirmiş, mahal naiblərinin səlahiyyətlərini məhdudlaşdırmış, vergilərin birbaşa xəzinəyə toplanması sistemini tətbiq etmişdir. Əhali köçürmələri və hərbi islahatlar xanlığın iqtisadi və hərbi potensialının artmasına xidmət etmişdir.

1780-ci illərin sonlarında regionda siyasi vəziyyətin dəyişməsi Fətəli xanın mövqelərinə təsir göstərmişdir. 1789-cu ilin əvvəlində Kartli-Kaxetiya çarı II İraklı ilə görüşmüş, lakin həmin ilin aprelində Bakıda vəfat etmişdir. Onun ölümü ilə Quba xanlığı özünün ən qüdrətli dövrünü başa vurmuşdur. Fətəli xan XVIII əsr Azərbaycan tarixində şimal və şimal-şərq torpaqlarında siyasi birliyin möhkəmləndirilməsində mühüm rol oynamış dövlət xadimi kimi tanınır.

Ədəbiyyat:

Quliyev, V. Qubalı Fətəli xan: "Qarabağın dostları və düşmənləri" silsiləsindən / Vasif Quliyev // 525-ci qəzet.-2024.-17 sentyabr №(168). - S.12;13.

Zeynalov, Ə. Fətəli Xan Qubalı-285 və ya vahid Azərbaycan uğrunda mübarizə / Əkrəm Zeynalov // Türküstan.-2021.- 10-16 avqust .- S.13.

Zeynalov, Ə. Vahid Azərbaycan uğrunda mübarizə: Fətəli Xan Qubalı bütün xanlıqları vahid dövlət ətrafında birləşdirmək istəyirdi... / Əkrəm Zeynalov // Hürriyyət.-2021.- 10 avqust.- S.13.

Şükürzadə, Ə. "Fətəli Xan" / Ənvər Şükürzadə // Kredo.-2020.- 26 noyabr.- S.10.

İbişov, S. Quba xanlığı: əhali tarixi və azadlıq mücadiləsi / S.Ə.İbişov; elmi red. Ş.Fərzəliyev. - Bakı: Elm, 2012. - 336 s.

Mustafazadə, T. Fətəli xanın Azərbaycanı birləşdirmə siyasətinə başlaması // Quba xanlığı /Tofiq Mustafazadə;elmi red. V.Z. Piriyev; AMEA, A.A.Bakıxanov ad. Tarix İn-tu. - Bakı, 2005. - S. 101-164.

Mustafazadə, T. Quba xanlığı // Azərbaycan xan lıqlarının qısa tarixi: [ali məktəb tələbələri üçün dərs vəsaiti] / T.Mustafazadə; elmi red. C.M.Mustafayev, İ.M.Məmmədova; rəy. F.R.Ağamalı və b.. - Bakı, 2011. - S. 10-71.

Şəmsi Əsədullayev – 185

(1840/41-1913) *Milyonçu*



Şəmsi Əsədullayev Bakı neft sənayesinin görkəmli nümayəndələrindən biri olmuşdur. O, 1840/41-cı ildə Bakının Əmircan kəndində yoxsul ailədə anadan olmuş, gənclik illərində atasına əkinçilik işlərində kömək etmişdir. XIX əsrin ortalarında Suraxanı və Əmircan torpaqlarının neft sənayesinə cəlb olunması nəticəsində əkinçilikdən uzaqlaşaraq neft sahəsində çalışmağa başlamışdır. Bu torpaqlar rus tacirləri Kokorev və Qubonin tərəfindən alınmış, Atəşgah yaxınlığında kerosin emal edən zavodlar tikilmişdir.

Şəmsi Əsədullayev 1860-cı ildə Kokorevin yanında işlər müdiri vəzifəsinə yüksəlmiş, daha sonra neft və duz podratçılığı ilə məşğul olmuşdur. Təxminən on beş il ərzində topladığı kapital hesabına podratçılığı dayandıraraq kerosin zavodu açmış, 1890-cı illərdə neft işi ilə məşğul olan bir neçə sahibkarla birlikdə şirkət yaratmışdır. 1891-ci ildə neftin Xəzər dənizi vasitəsilə daşınması sahəsində Bakı neft kapitalistləri arasında ilk dəfə olaraq buxar şxunu sifariş etmişdir.

1895-ci ildə yeni aldığı torpaq sahəsində baş vermiş neft fontanı 56 gün davam etmiş və gündə 1 milyon 600 min pud hasilatla Bakı neft sənayesinin ən məşhur fontanlarından biri olmuşdur. Neft hasilatının artması ilə Əsədullayevin Moskvada, Polşada, Orta Asiyada və İranda anbarları fəaliyyət göstərmiş, nefti Xəzər və Volqaboyu marşrutları ilə satışa çıxarmışdır.

Camaat arasında ona "Nobel qardaşlarının qənimi" deyirdilər, çünki Nobellərin kontorları ilə rəqabət apararaq daha ucuz qiymətə neft satmışdır. Oktyabr ayında Volqada naviqasiya bağlananda Bakıda ucuz alınan neft anbarlarda saxlanır, yazda satış üçün Rusiyaya göndərilirdi.

Şəmsi Əsədullayevin Mərdəkanda geniş və əzəmətli bağı XIX əsrin sonlarında salınmış, sovet dövründə müsadirə edilərək sanatoriyaya çevrilmişdir.

Şəmsi Əsədullayev xeyriyyəçiliklə də məşğul olmuş, elm və mədəniyyət sahəsinə xüsusi qayğı göstərmişdir. O, çoxsaylı azərbaycanlı gənclərin Almaniya, Fransa, Varşava, Kazan, Kiyev, Moskva, Odessa, Peterburq və Xarkovda təhsil almasına himayədarlıq etmişdir. Tiflisdə fəaliyyət göstərən Aleksandr müəllimlər institutu onun şəxsi vəsaiti hesabına fəaliyyət göstərmişdir.

Moskvaya köçdükdən sonra Şəmsi Əsədullayev maarifçilik və xeyriyyə fəaliyyətini daha da genişləndirmiş, yoxsul uşaqlar üçün məktəblər açdırmışdır. O, Moskvadakı Kiçik Tatar döngəsində tikdirdiyi evi Tatar Mədəniyyət Cəmiyyətinə bağışlamışdır.

Şəmsi Əsədullayev 1905-ci ilin avqustunda Nijni-Novqorodda keçirilmiş Ümumrusiya müsəlmanlarının birinci qurultayında iştirak etmişdir. Həmçinin 1917-ci ilin mayında, onun müsəlmanlara bağışladığı binada Ümumrusiya müsəlmanlarının qurultayı keçirilmişdir. O, "Nəşri-maarif" cəmiyyətinin üzvü kimi də fəaliyyət göstərmiş, 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə Tiflis Müəllimlər İnstitutunda öz adına iki təqaüd təsis etmişdir.

Şəmsi Əsədullayev 1913-cü il 21 aprelda Yaltada vəfat etmiş, Bakıda dəfn olunmuşdur.

Ədəbiyyat:

Həsənli, H. Bəxti fontan vuran neftxuda – Şəmsi Əsədullayev: O, 500 manatı 20 ildə 10 milyon manatlıq varidata çevirmişdi / Həzi Həsənli // Xalq qəzeti.-2024.- 11 iyun, № 122.- S.12.

Muradov, F. 120 Əmircanlı / F. Muradov ; red. F. Mirzəyeva.- Hissə 1.- Bakı; Elm və təhsil.- 2024. - 115, [1] s.

Azərbaycan milyonçuları: [Araşdırma və memuarlar] / tərt. X. Anela ; naşir M. Xan.- 2-ci nəşr.-Bakı; Mücrü.-2024.- 97, [3] s.

İnternetdə:

https://banco.az/az/news/nobel-qardaslarinin-qenimi-semsi-esedullayev

https://az.wikipedia.org/wiki/Şəmsi_Əsədullayev

Məhəmməd ağa Şahtaxtinski -180

(1846-1931)

Publisist



Məhəmməd ağa Şahtaxtinski 1846-cı ildə Naxçıvanın Şahtaxtı kəndində anadan olmuşdur. İlk təhsilini Naxçıvanda Hacı Mirzə Məhəmmədəlinin yanında almış, fars və ərəb dillərini öyrənmiş və xəttatlıqla məşğul olmuşdur. Daha sonra Naxçıvandakı rus-tatar məktəbində təhsilini davam etdirərək 1860-cı ildə buranı bitirmiş, 14 yaşında Tiflis klassik gimnaziyasına daxil olmuşdur. Kiçik yaşlarından Şərq dillərini mənimsəyən və çalışqanlığı ilə seçilən Şahtaxtinski gimnaziyanı müvəffəqiyyətlə başa vuraraq Peterburqa gedib alman dilini öyrənmişdir. Sonra Leypsiq Universitetində fəlsəfə, tarix və hüquq fakültəsində təhsil almış, 1873–1875-ci illərdə Parisdə Şərq dilləri məktəbində mühazirələr dinləmişdir. O, Azərbaycan, rus, alman, fransız, ingilis, ərəb, türk və fars dillərində ədəbi və elmi əsərlər yazmışdır.

Elmi fəaliyyətinə Almaniyada Şərq tarixinə dair tədqiqatlarla başlamış, 1879-cu ildə Tiflisdə "Təkmilləşmiş müsəlman əlifbeyi" adlı əsərini nəşr etdirmişdir. Şahtaxtinski jurnalist fəaliyyətinə "Moskovskiye vedomosti" qəzetində başlamış, İstanbulda xüsusi müxbir kimi çalışmışdır. 1891–1893-cü illərdə "Kaspi" qəzetinin müvəqqəti redaktoru olmuş, 1898-ci ildə Azərbaycan dilində "Tiflis" adlı qəzetin nəşrinə cəhd göstərmiş, lakin çar senzurası buna icazə verməmişdir.

1902-ci ildə Tiflisdə müasir avadanlıqlı mətbəə açmış, 1903-cü ilin martında "Şərqi-Rus" qəzetinin nəşrinə başlamışdır. Qəzetin səhifələrində dünyəvi elmlər, ana dili və qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər yer almış, burada Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid və digər ziyalılar əməkdaşlıq etmişdir.

1907-ci ildə İrəvan quberniyasından II Dövlət Dumasına deputat seçilmiş, Duma bağlandıqdan sonra "Rossiya" qəzetində fəaliyyət göstərmişdir. 1908–1918-ci illərdə əsasən xaricdə yaşamış, 1919-cu ildə vətənə qayıdaraq Bakı Dövlət Universitetində şərq dilləri və ədəbiyyatından mühazirələr oxumuşdur. 1920-ci illərdə "Kommunist", "Bakinski raboçi" və "Qızıl Şərq" qəzetlərində məqalələr dərc etmiş, Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin işində iştirak etmişdir. 1922-ci ildə fərdi pensiya təyin olunmuşdur.

Məhəmməd ağa Şahtaxtinski elmi, tənqidi və publisistik əsərlərində müstəmləkəçilik, irqçilik, qadın hüquqları, dövlət quruluşu, demokratiya, xalq hakimiyyəti və din məsələləri ilə bağlı dövrünün mütərəqqi fikirlərini ifadə etmişdir. Onun fəaliyyəti Azərbaycan mətbuatının inkişafına və milli maarifçilik hərəkatına əhəmiyyətli töhfələr vermişdir.

Əsərləri arasında "Təkmilləşmiş müsəlman əlifbeyi" (Tiflis, 1879), "Türkiyəni necə xilas etməli?" (Paris, 1901), "Sövti Şərq yazısı. Xırda Azərbaycan əlifbası" (Tiflis, 1902), "Xətti-Məhəmməd ağa" (Tiflis, 1903) və fonetik əlifba üzrə izahedici qeydlər (Tiflis, 1903) xüsusilə önəmlidir. Onun publisist və elmi fəaliyyəti Azərbaycan maarifçilik ənənəsinin inkişafında mühüm rol oynamışdır.

Azərbaycan publisisti, şərqşünas, dilçi, pedaqoq və ictimai xadim olan Məhəmməd ağa Şahtaxtinski Beynəlxalq Fonetika Cəmiyyətinin (1899), Beynəlxalq Asiya Cəmiyyətinin (1900) və Rusiya İmperator Coğrafiya Cəmiyyətinin Qafqaz şöbəsinin (1903) həqiqi üzvü olmuşdur. 1920-ci ildə Bakı Dövlət Universitetində professor elmi adına layiq görülmüşdür.

Məhəmməd ağa Şahtaxtinski 12 dekabr 1931-ci ildə Bakı şəhərində vəfat edib

Ədəbiyyat:

Xudiyeva, F. Məhəmməd Ağa Şahtaxtlının maarifçilik fəaliyyəti və pedaqoji ideyaları: [monoqrafiya] / F. Xudiyeva (Qasımova) ; elmi red. İ. N. İsayev.- Bakı; Elm.- 2023.- 174, [2] s.

Xudiyeva, F. Məhəmməd Ağa Şahtaxtlının maarifçilik fəaliyyəti və pedaqoji ideyaları: Pedaqogika [üzrə] fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis. : 5804.01 / Fəridə Xudiyeva. - Bakı: 2022. - 151 s.

Camalov, K.H. Məhəmmədağa Şahtaxtlı - milli və bəşəri amallar carçısı / K.H.Camalov // 525-ci qəzet .- 2021.- 10 sentyabr.- S.12.

İnternetdə:

https://azertag.az/xeber/vetene_bagli_omur_yasayanlara_hesr_edilmis_medeniyyet_muessisesi___sahtaxtinskiler_muzeyi-1453959

https://525.az/news/44186-mehemmed-aga-sahtaxtli-ve-onun-serqi-rus-qezeti-haqqinda-yeni-bilgiler

Sultanməcid Qənizadə – 160

(1866-1938) *Maarif xadimi*



Sultan Məcid Qənizadə 1866-cı ilin aprel ayında Şamaxıda anadan olmuşdur. İlk təhsilini atasından almış, sonra Şamaxı şəhərindəki müxtəlif məktəblərdə oxumuş, fars və rus dillərini mənimsəmişdir.

1883-cü ildə Tiflisdə Aleksandrovski Müəllimlər İnstitutuna daxil olmuş, burada mükəmməl təhsil almışdır. Həmin dövrdə müsəlmanların şəhər məktəblərində müəllim işləməsi çar hökuməti tərəfindən qadağan olunduğundan, Qənizadə tələbə dostu Həbib bəy Mahmudbəyovla birlikdə kənd məktəblərinə təyin edilmişdir. 1887-ci ildə isə Bakıda H. Mahmudbəyovla birlikdə "Rus-Azərbaycan məktəbi" adlı ibtidai məktəbi yaratmışdır.

Qənizadə həmçinin Azərbaycanın ilk kütləvi kitabxanasının açılmasında iştirak etmişdir (1896). O, maarif sahəsində fəaliyyətini davam etdirərək Qori Müəllimlər Seminariyasında, Bakıda quberniya və Dağıstan vilayəti xalq məktəblərində müfəttiş və direktor vəzifələrində çalışmışdır. Sovet hakimiyyəti illərində isə Azərbaycan Xalq Maarif Komissarlığında müxtəlif vəzifələrdə fəaliyyət göstərmişdir.

Sultan Məcid Qənizadənin elmi və pedaqoji fəaliyyəti dərslik və lüğətlərin hazırlanması ilə xarakterizə olunur. Onun əsərləri arasında "İstilahi Azərbaycan" (1889), "Kəlidi-ədəbiyyat" (1900, Ə. Cəfərzadə ilə), "Lüğəti-rusi və türki" (1904), "Samouçitel russkoqo yazıka" (1896) və digər dərs və elmi-metodik kitablar yer alır. Bu əsərlər həm Azərbaycanda, həm də xaricdə məktəblərdə istifadə olunmuşdur.

Qənizadə bədii yaradıcılıqla da məşğul olmuşdur. İlk səhnə əsəri "Qönçə xanım" (1891) pyesi tapılmamışdır. Onun əsas bədii irsi "Məktubati-Şeyda bəy Şirvani" dilogiyası ("Müəllimlər iftixarı" və "Gəlinlər həmayili") və "Allah xofu" (1906), "Qurban bayramı" (1907) hekayələridir. Bundan əlavə, "Axşam səbri xeyir olar", "Dursunəli və Ballıbadı", "Xor-xor", "Yadımdadır" və digər vodevillər, "Tülkü və Çaq-çaq bəy" (1893) mənzuməsi uşaq ədəbiyyatının inkişafına xidmət etmişdir.

O, həmçinin rus ədəbiyyatından tərcümələr etmişdir. Bu tərcümələr arasında L. Tolstoyun "Əvvəlinci şərabçı", V. Dyançenkonun "Qurbana qurban", A. Poqosskinin "Allah divanı" və "Nabəkar qonşu" hekayələri yer alır. Qənizadə uşaq ədəbiyyatında xalq nağıllarından ilhamlanaraq mənzum hekayələr yaratmışdır ki, bu əsərlərdə dostluq, xeyirxahlıq, biliyə həvəs və mənəvi dəyərlərin tərbiyəsi əsas yer tutur.

Sultan Məcid Qənizadə milli maarifin inkişafında, ana dilində məktəblərin açılmasında, dərslik və lüğətlərin hazırlanmasında, mətbuat və teatr sahəsində böyük xidmətlər göstərmişdir.

Sultan Məcid Qənizadə 1937-ci ildə repressiya qurbanı olmuş, 22 mart 1938-ci ildə vəfat etmişdir.

Onun adı Şamaxı pedaqoji texnikumuna verilmişdir. S.M. Qənizadənin həyatı və yaradıcılığı Azərbaycan maarifpərvər və realist ədəbiyyatının inkişafında əvəzsiz rol oynamışdır.

Ədəbiyyat:

Turan, A. Azərbaycan mədəniyyəti tarixinə doğulan günəş-Sultanməcid Qənizadə / Aynur Turan // Türküstan.-2023.- 22-28 avqust.- S.10.

Qəniyev, E. Xalqının yolunu işıq salan vətənpərvər: Unudulmazlar / Elşən Qəniyev // Azərbaycan.-2023.- 26 may.- S.11.

Salamoğlu, T. S.M.Qənizadənin maarifçi konsepsiyası və islam dünyagörüşü / Təyyar Salamoğlu // Kredo. -2023.- 10 mart.- S.5.

Salamoğlu, T. Sultan Məcid Qənizadənin hekayə yaradıcılığı, rus ədəbiyyatından tərcümə və təbdilləri: (Müqayisəli təhlil) / Təyyar Salamoğlu // Filologiya və sənətşünaslıq / Azərbaycan Milli Elmlər Akademiyası.-2022.- №2.- S. 171-178.

Əliyev, R. Sultan Məcid Qənizadənin dilçilik görüşləri / Rafael Əliyev // Elmi əsərlər / Azərbaycan Respublikası Təhsil İnstitutu.-2021.- C.88, №1.- S.47-50.

Babasoy, Ü. Əsrlər və nəsillərə xitab edən nasir: / Ü.Babasoy // Ədəbiyyat qəzeti. - 2015. - 6 iyun. - S. 22.

Leyla Şahtaxtinskaya – 140

(1886-1907)

Maarifçi



Leyla Şahtaxtinskaya 1886-cı ildə Qars şəhərində dünyaya gəlmişdir. O, görkəmli publisist, alim və ictimai xadim İsa Sultan Şahtaxtinskinin qızıdır. Ziyalı mühitdə böyümüş Leyla xanımın təhsili ailəsi tərəfindən daim diqqət mərkəzində saxlanılmışdır. 1894-cü ildə atası qəflətən vəfat etdikdə, ailə maddi çətinliklərlə üzləşmiş, buna baxmayaraq, Leyla xanım təhsil almaq arzusundan əl çəkməmişdir.

O, Tiflis Qızlar Məktəbinə daxil olmuş və 1902-ci ildə bu məktəbi bitirmişdir. Avropada ali təhsil almağa gedən ilk azərbaycanlı qadın olaraq, Hacı Zeynalabdin Tağıyevin dəstəyi ilə 1904-cü ildə İsveçrədə Lozanna Universitetinin tibb fakültəsinə daxil olmuşdur. O, 1904–1907-ci illərdə tibb üzrə təhsil almışdır.

Leyla Şahtaxtinskaya Avropada təhsil alan ilk azərbaycanlı qadın kimi cəmiyyət üçün nümunə olmuşdur. Onun fəaliyyəti və təhsil arzusu dövrünün qabaqcıl mətbu orqanı olan "Molla Nəsrəddin" jurnalında yüksək qiymətləndirilmiş, 1908-ci ildə nekroloqda onun gələcəkdə insanların sağlamlığına xidmət edəcək həkim kimi fəaliyyət göstərəcəyinə diqqət çəkilmişdir.

Leyla xanım həyatını maarifçilik və təhsil sahəsinə həsr etmiş, tibb elmi üzrə biliklərini vətənində tətbiq etmək arzusunda olmuşdur. Lakin, 1907-ci ildə İsveçrədə xəstələnərək 21 yaşında vəfat etmişdir. Onun erkən vəfatı Azərbaycan ziyalı cəmiyyəti və Qafqazın maarifçilik mühiti üçün böyük itki olmuşdur.

Ədəbiyyat:

Ağayev, R. Avropaya ali təhsil almağa gedən ilk azərbaycanlı qadın [Leyla Şahtaxtinskaya haqqında] / Rövşən Ağayev // Respublika.- 2024.- 10 sentyabr (№ 196).- S.11.

İnternetdə:

https://aydinlar.az

https://innews.media/az/news/id-8271

https://informator.az/news_19565.html

Hənəfi Zeynallı – 130

(1896-1937)

Ədəbiyyatşünas



Ədəbiyyat:

Fərəcov, S. Repressiya qurbanı olan görkəmli folklorşünas / S.Fərəcov // Mədəniyyət.-2023.- 18 oktyabr, №77.- S.6.

Orucov, T. Hənəfi Zeynallı: Azərbaycan folklorunun hamisi və cəfakeşi / Tahir Orucov // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər: Elmi-ədəbi toplu.-2021.- №01.- S.81-92.

Əliyeva, A. Azərbaycan ədəbiyyatının fədaisi Hənəfi Zeynallı //A. Əliyeva / Türküstan .- 2018.- 24-30 aprel.- S.10.

Babayev, A. Birinci Türkoloji Qurultay və Azərbaycanda türkologiya: [Monoqrafiya] A. Babayev ; elmi red. İ. Həbibbəyli.- Bakı; Elm.- 2016.- 335, [1] s.

Seçilmiş əsərləri / H. Zeynallı ; red. A. Səfiyev ; toplayanı. R. Tağıyev.- Bakı; Yazıçı.- 1983.- 317, [3] s.

İnternetdə:

https://www.clb.az/dosyalar/607.pdf

https://dergipark.org.tr › download › article-file

Hənəfi Baba oğlu Zeynallı 1896-cı ildə Bakının Mərdəkan qəsəbəsində anadan olmuşdur. Hənəfi Zeynallı yeddinci rus-tatar məktəbində təhsil almış. Məktəbi bitirdikdən sonra Bakıda Alekseyev adına 3 nömrəli ali-ibtidai məktəbdə təhsilini davam etdirmiş və 1916-cı ildə həmin məktəbi uğurla bitirmişdir. Daha sonra imtahan verərək ali-texniki məktəbə daxil olmuş, Moskva-Nijniqorod dəmiryol baş idarəsində işlədiyi illərdə tələbələrin gizli inqilabi fəaliyyətləri ilə tanış olmuşdur. Bu səbəbdən institutun ikinci kursundan xaric edilmişdir. 1920-ci ilin yanvarında İstanbul Universitetinin Hüquq fakültəsinə daxil olmuş, lakin Sovet hakimiyyətinin qurulması ilə əlaqədar Azərbaycana geri çağrılmışdır. 1922-ci ildə Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsinə qəbul olunmuş, 1927-ci ildə birinci dərəcəli diplomla məzun olmuş və hərbi xəstəxana həkimi adına layiq görülmüşdür. 1930-cu ildə dosent olmuşdur.

Hənəfi Zeynallının əmək fəaliyyəti 1920–1922-ci illərdə respublikanın ictimai həyatında fəal iştirakla başlamışdır. O, Göyçay, Şamaxı, Muğan və Salyan qəzalarında partiya və sovet orqanlarının yaranmasında iştirak etmiş, AKP MK-nın qadınlar şurasında, məktəbdənkənar və kənddə iş şöbələrində rəhbər vəzifələrdə çalışmışdır. Həmçinin Xalq Maarif Komisarlığı kollegiyasının üzvü olaraq məktəbdənkənar şöbəyə rəhbərlik etmişdir. 1921–1922-ci illərdə "Kommunist" qəzetinin redaksiya heyətinin üzvü olmuş, Şuşa qəza partiya komitəsinin katibi, daha sonra isə "Zəhmət" qəzetinin redaktoru kimi fəaliyyət göstərmişdir. Azərbaycan KP V qurultayının nümayəndəsi olaraq təftiş komissiyasının üzvü seçilmişdir.

1927–1928-ci illərdə Bakı Dövlət Universitetinin tarixi kafedrasında, daha sonra Ali Pedaqoji İnstituta elmi işçi təyin edilmişdir. 1930-cu ildən Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan ədəbiyyatı tarixi kafedrasında dosent kimi çalışaraq tələbələrə Azərbaycan ədəbiyyatı tarixi və dünya ədəbiyyatı tarixi fənlərindən mühazirələr oxumuşdur. 1923–1929-cu illərdə Azərbaycan Dövlət Nəşriyyatında baş redaktor, 1930–1935-ci illərdə isə SSRİ EA Azərbaycan filialı Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyat bölməsində Folklor şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Eyni zamanda "Kommunist", "Maarif və mədəniyyət", "İnqilab və mədəniyyət", "Maarif işçisi" qəzet və jurnalları ilə əməkdaşlıq etmişdir.

Hənəfi Zeynallı elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, Azərbaycan folklorunun toplanması və tədqiqi sahəsində də mühüm işlər görmüşdür. O, 1912-ci ildən şeir, hekayə və məqalələrini dövri mətbuatda dərc etdirməyə başlamışdır. 1914-cü ildə "Namus" adlı ilk hekayə kitabı nəşr olunmuşdur. Azərbaycan folklorunun toplanması və sistemləşdirilməsi işində öncül olmuş, 1922–1936-cı illərdə respublikanın müxtəlif bölgələrinə ekspedisiyalar təşkil etmiş, bayatı, mani, atalar sözü, tapmaca, nağıl və dastanları toplamaqla ciddi məşğul olmuşdur.

1926-cı ildə "Azərbaycan atalar sözü və məsəllər" kitabı nəşr edilmiş, burada dörd minədək atalar sözü və məsəllər toplanmışdır. 1928-ci ildə "Azərbaycan tapmacaları" kitabı hazırlanmış, 760 tapmaca elmi prinsiplərə uyğun olaraq tərtib edilmişdir. 1935-ci ildə isə Azərbaycan nağılları rus dilində nəşr edilmişdir. Həmçinin Hənəfi Zeynallı M. F. Axundzadə, Seyid Əzim Şirvani, Natəvan və digər klassik Azərbaycan ədiblərinin əsərlərinə müqəddimələr yazmış, onların elmi-nəzəri təhlilini aparmışdır.

Hənəfi Zeynallı həm də Azərbaycan sovet ədəbiyyatı və folkloru sahəsində elmi məqalələr yazmışdır. Onun "Azərbaycan el ədəbiyyatı", "Xalq ağız ədəbiyyatı", "Oktyabr inqilabı və Azərbaycan folkloru", "Ağız ədəbiyyatı" kimi əsərləri xalq ədəbiyyatının forma və məzmun xüsusiyyətlərinin tədqiqinə həsr edilmişdir.

1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

Hənəfi Zeynallı 1937-ci il oktyabrın 13-də repressiya qurbanı olaraq güllələnmişdir. 1957-ci il martın 30-da SSRİ Ali Məhkəməsi tərəfindən ölümündən sonra bəraət almışdır.

Xəzər rayon MKS-nin 3 saylı filialı – 100
(1926)



Kitabxana Buzovna qəsəbəsi, R. Axundov küçəsi, 111 ünvanında yerləşir və 1926-cı ildən etibarən oxucuların istifadəsinə verilmişdir. Uzunmüddətli fəaliyyəti ərzində kitabxana qəsəbə əhalisinin informasiya və mütaliə tələbatının ödənilməsində mühüm rol oynamışdır.

Kitabxananın yerləşdiyi binanın ümumi sahəsi 400 kvadratmetr təşkil edir. 2007-ci ildə Mədəniyyət Nazirliyinin dəstəyi ilə binada əsaslı təmir işləri aparılmış, bununla da kitabxananın maddi-texniki bazası yaxşılaşdırılmışdır.

2011-ci il 5 yanvar tarixindən etibarən kitabxana Xəzər rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 3 saylı filialı kimi fəaliyyət göstərir və mərkəzləşdirilmiş idarəetmə çərçivəsində kitabxana xidmətlərini həyata keçirir.

İnternetdə:

https://az.baku-art.com/az/xezer-rayon-mks-nin-3-nomr-li-filiali-oxuculara-hac-isg-nd-r-roman-n-t-qdim-edibhttps://www.anl.az/down/meqale/medeniyyet/2020/may/707526.htm

2026

Suraxanı rayon MKS-nin 1saylı filialı – 100
(1926)



İnternetdə:

https://kataloq.gomap.az/az/all-poi/science/library/c0b798bb28b04c16ab-37b45e311a31fc

Suraxanı rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 1 saylı filialı Əmircan qəsəbəsində, mədəniyyət evinin binasının ikinci mərtəbəsində yerləşir. Kitabxana 1926-cı ildən fəaliyyət göstərir. 1946-cı ildən etibarən isə görkəmli yazıçı və mütəfəkkir Abbasqulu Ağa Bakıxanovun adını daşıyır.

2011-ci ildən kitabxana Suraxanı rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin 1 saylı filialı kimi fəaliyyətini davam etdirir. Həmin dövrdən etibarən müəssisə mərkəzləşdirilmiş idarəetmə çərçivəsində kitabxana-informasiya xidmətlərini həyata keçirir.

Kitabxana Əmircan qəsəbəsində yaşayan 32 000 nəfər əhaliyə xidmət göstərir. Oxucu kontingentinin formalaşmasında qəsəbə ərazisində fəaliyyət göstərən 84, 87, 97, 114, 154 və 226 saylı ümumtəhsil məktəblərinin şagirdləri mühüm yer tutur. Bununla yanaşı, səyyar oxucu xidməti vasitəsilə xəstə və yaşlı oxuculara da kitabxana xidməti göstərilir.

Kitabxananın kitab fondu 29 142 nüsxədən ibarətdir. Mövcud fond il ərzində 4 037 oxucu tərəfindən istifadə olunur ki, bu da kitabxananın əhalinin informasiya və mütaliə tələbatının ödənilməsində fəal rol oynadığını təsdiqləyir.

Hazırda kitabxana öz fəaliyyətini Əmircan qəsəbəsi, E. Həsənov küçəsi, 4 ünvanında davam etdirir və xidmət göstərdiyi ərazinin mədəni-maarif mühitində mühüm yer tutur.

Möminə Xatun türbəsi – 840 *(1186)*



Ədəbiyyat:

Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 22 may 2025-ci il // Azərbaycan.-2025.- 23 may (№ 106).- S.2.

Məhəbbətoğlu, Q. Möminə Xatun türbəsi: Keçmişin zərif nəfəsi /Qvami Məhəbbətoğlu // İki sahil.-2025.- 28 may (№ 91).- S.11.

Seyidova, Z. Əcəmi Naxçıvaninin sözsüz poeması - Möminə xatun türbəsi / Zenfira Seyidova // 525-ci qəzet.-2025.- 19 iyun (№104).- S.14.

Feyizli, M. İnkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin təcəssümü-Möminə xatun türbəsi: Dünya əhəmiyyətli mədəni irs abidəsi / Mübariz Feyizli // Yeni Azərbaycan .-2025.- 24 may (№89).- S.2.

İnternetdə:

https://qebulol.az/momine-xatun-turbesi

Möminə Xatun türbəsi Azərbaycan memarı Əcəmi Naxçıvaninin yaradıcılığının ən mühüm nümunələrindən biri olmaqla Naxçıvan–Marağa memarlıq məktəbinin dəyərli abidələri sırasında yer alır. Abidə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasında, Naxçıvan şəhərində yerləşir və 1998-ci ildə UNESCO-nun Mədəni irs siyahısına daxil edilmişdir.

Türbənin tikilmə tarixi giriş qapısı üzərində yerləşən kitabədə əks olunmuşdur. Kitabədə Atabəylər dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvanın Möminə Xatunun xatirəsinə bu abidənin inşasını əmr etdiyi bildirilir. Baştağ çərçivəsində göstərilən tarix hicri 582-ci ilə (miladi 1186-cı il) aiddir. Mənbələrə əsasən, türbə Məhəmməd Cahan Pəhləvanın ölümündən az əvvəl tamamlanmış, baştağ isə onun vəfatından sonra inşa edilmişdir. Türbənin yerli əhali arasında "Atabəy Günbədi" adlandırılması onun Atabəylər sülaləsinin soy türbəsi olması ilə əlaqələndirilir.

Abidənin memarlıq quruluşu Naxçıvan memarlıq məktəbinə xas xüsusiyyətləri özündə cəmləşdirir. Türbə yeraltı sərdabə və yerüstü qülləvari hissədən ibarətdir. Memar Əcəmi bu tikilidə mürəkkəb həndəsi ornamentlərdən və rəngli kaşılardan istifadə edərək abidənin bədii ifadəliliyini artırmışdır. Türbənin plan və həcm quruluşu əvvəlki qülləvari türbələrlə müqayisədə daha geniş və mürəkkəb şəkildə həll edilmişdir.

Atabəylər Memarlıq Kompleksinə daxil olan türbə memarlıq elementlərinin zənginliyi ilə seçilir. Yeraltı hissənin üzərində qülləvari gövdə ucalır. Üst piramidal örtüyü dağılmış olan abidənin mövcud hündürlüyü 25–26 metr, ilkin hündürlüyü isə təxminən 34–35 metr olmuşdur. Türbə qırmızı diorit daşlarından hörülmüş postament üzərində inşa edilmişdir.

Sərdabə planda onbucaqlıdır, yerüstü qüllənin planı isə xaricdən onüzlü, daxildən dairəvi formadadır. Abidənin xarici həcmi yuxarıya istiqamətlənmiş kompozisiya ilə formalaşdırılmışdır. Qalın künc dayaqları dar və dərin sivri tağçaların yaranmasına imkan vermiş, stalaktitli tamamlanma bu elementlərə dinamiklik qazandırmışdır. Yeraltı sərdabə möhkəm konstruktiv özül rolunu oynayaraq türbənin dayanıqlığını təmin edir.

Fasad həllində giriş qapısı olan şərq üzü digər səthlərdən kəskin fərqləndirilməmişdir. Giriş üzərində kufi xətti ilə memarın adı və tikinti tarixi qeyd olunmuşdur. Sivri tağçalar incə sütuncuqlarla çərçivələnmiş, daxili səthlər mürəkkəb həndəsi ornamentlərlə bəzədilmişdir. Göy-firuzəyi kaşılı kərpiclərin istifadəsi fasadın koloristik həllini zənginləşdirmişdir. Onüzlü gövdənin bütün üzləri kufi xətti ilə işlənmiş epiqrafik yazılarla haşiyələnmiş, kitabələrin ümumi uzunluğu təxminən 500 metr təşkil etmişdir.

Fasad ornamentləri müxtəlif olmaqla yanaşı, ümumi kompozisiya vəhdətini qoruyur. Həndəsi naxışların əsasını çoxuclu ulduzlar və xətti kompozisiyalar təşkil edir. Qərb səthi iki hissəyə bölünərək aşağıda giriş portalı, yuxarıda isə ornamental bəzəklərlə həll edilmişdir. Yuxarı qurşaq bütün səthləri birləşdirən mühüm kompozisiya elementi kimi çıxış edir.

İnteryerin əsas bəzək ünsürləri günbəzaltı hissədə yerləşdirilmiş dörd dairəvi medalyondur. Gəc üzərində oyma üsulu ilə işlənmiş bu medalyonlarda kufi xətti ilə "Allah", "Ömər", "Osman" və "Əli" adları yazılmışdır.

XIX əsrin əvvəllərindən etibarən Möminə Xatun türbəsi səyyah və tədqiqatçıların diqqətini cəlb etmiş, abidənin kitabələri və memarlıq xüsusiyyətləri müxtəlif elmi tədqiqatlarda araşdırılmışdır. Böyük tarix və mədəniyyət yadigarı Möminə xatun türbəsi Azərbaycan milli memarlığının möhtəşəm abidəsi və Şərq memarlığının incilərindən biridir. XII əsrin görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvaninin dühası ilə yaradılmış bu nadir və monumental sənət nümunəsi öz kompozisiya həllinə, kamilliyinə və zərifliyinə görə bütövlükdə İslam aləminin şah əsərləri sırasında fəxri yer tutur. Möminə xatun türbəsi xalqımızın milli sərvəti kimi dövlət səviyyəsində mühafizə olunan dünya əhəmiyyətli mədəni irs nümunələri siyahısına salınmışdır.

2025-ci ildə Azərbaycan Respublikası Prezidenti Möminə xatun türbəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalanmışdır.

Qori Müəllimlər Seminariyası – 150 *(1876)*



Qori Müəllimlər Seminariyası (Zaqafqaziya Müəllimlər Seminariyası, Cənubi Qafqaz Müəllimlər Seminariyası) XIX əsrin sonu – XX əsrin əvvəllərində Gürcüstanın Qori şəhərində fəaliyyət göstərmiş və Cənubi Qafqaz xalqları üçün ibtidai məktəb müəllimlərinin hazırlanmasında mühüm rol oynamış təhsil müəssisəsi olmuşdur. Seminariyanın təsis edilməsi haqqında Rusiya imperatoru II Aleksandr 1875-ci il aprelin 8-də fərman imzalamış, əsasnaməyə görə müəssisənin məqsədi ibtidai məktəblər üçün pedaqoji kadrlar hazırlamaq kimi müəyyən edilmişdir. Fərmana əsasən, müsəlmanlar üçün ayrıca məktəb yaradılanadək onların seminariyaya qəbuluna icazə verilmişdir. Təhsil ocağı 1876-cı ilin sentyabrından etibarən fəaliyyətə başlamışdır.

1879-cu ilin sentyabrında Zaqafqaziya Müəllimlər Seminariyasının nəzdində tatar (Azərbaycan) bölməsi açılmış, bu qərar 1880-ci il mayın 13-də imperator fərmanı ilə rəsmiləşdirilmişdir. Bölmənin açılması Azərbaycan maarifçilərinin uzunmüddətli təşəbbüslərinin nəticəsi olmuşdur. Bölmənin ilk inspektoru Aleksey Osipoviç Çernyayevski təyin edilmiş, o, azərbaycanlı şagirdlərin seminariyaya cəlb edilməsi üçün Qafqazın müxtəlif bölgələrində fəaliyyət göstərmişdir. Onun təşəbbüsü ilə Şuşa, Şəki, Qazax, Lənkəran və digər bölgələrdən olan gənclər seminariyada təhsil almağa başlamışdır.

Qori Seminariyasının Azərbaycan bölməsində tədris rus dilində aparılsa da, ana dili və şəriət fənləri ayrıca keçilirdi. A. Çernyayevski tərəfindən hazırlanmış "Vətən dili" dərsliyi Azərbaycan dilinin tədrisində mühüm mərhələ hesab olunur və uzun müddət ibtidai məktəblərdə istifadə edilmişdir. Firidun bəy Köçərli, Səfərəli bəy Vəlibəyov, Rəşid bəy Əfəndiyev, Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov və digər tanınmış maarif və mədəniyyət xadimləri bu seminariyanın məzunları olmuşlar.

XX əsrin əvvəllərində seminariyada azərbaycanlı tələbələrə qarşı məhdudiyyətlərin artması Azərbaycan bölməsinin Qazaxa köçürülməsi məsələsini gündəmə gətirmişdir. Bu təşəbbüsün əsas təşkilatçısı Firidun bəy Köçərli olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci il 22 iyun tarixli qərarı ilə bölmənin köçürülməsi üçün 5 min rubl vəsait ayrılmış, nəticədə Azərbaycan bölməsi Qazax şəhərinə köçürülərək müstəqil seminariyaya çevrilmişdir. Firidun bəy Köçərli 1918-ci il oktyabrın 1-dən bu seminariyanın direktoru təyin edilmişdir.

Qazax Müəllimlər Seminariyası sonrakı illərdə Azərbaycan maarif sisteminin formalaşmasında mühüm rol oynamış, Səməd Vurğun, Mehdi Hüseyn, Osman Sarıvəlli, İsmayıl Şıxlı və digər tanınmış ziyalıların yetişməsinə zəmin yaratmışdır. Qori Seminariyası və onun Azərbaycan bölməsi çar Rusiyası dövründə Azərbaycana verdiyi pedaqoji kadrların miqyasına görə xüsusi yer tutur və milli təhsil, maarif və mədəniyyət tarixində əhəmiyyətli mərhələ kimi qiymətləndirilir.

Qazax Müəllimlər Seminariyasının tarixi binasının yenidən bərpası 2021-ci ildən etibarən ADA Universitetinin rektoru Hafiz Paşayevin təşəbbüsü ilə həyata keçirilmişdir. Bərpa işləri "Bir müəllimin manifesti" proqramı çərçivəsində aparılmış və bu prosesdə Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi fəal iştirak etmişdir. Layihənin əsas məqsədi binanın tarixi-memarlıq xüsusiyyətlərini qorumaqla onu müasir təhsil və elmi fəaliyyət üçün yararlı hala gətirmək olmuşdur. 2023-cü ildə bərpa olunmuş binada yaradılan şəraitlə Azərbaycan Respublikasının Prezidenti tanış olmuşdur. Nəticə etibarilə, Qazax Müəllimlər Seminariyasının binası milli maarifçilik irsinin qorunması və davam etdirilməsi baxımından yenidən funksional məkana çevrilmişdir.

Ədəbiyyat:

Sadıqov, F. Qori Müəllimlər Seminariyasının ilk tələbələrindən biri: Görkəmli pedaqoq, maarifçi, tarixçi-etnoqraf Teymur bəy Bayraməlibəyov / Fərahim Sadıqov //Azərbaycan müəllimi.-2024.- 28 iyun, №21.- S.7.

Azərbaycanın ilk maarifçilərindən biri: Bu il Musa bəy Quliyevin anadan olmasının 150-ci, vəfatının 100-cü ildönümü tamam olur / Qüdrət Piriyev // Xalq qəzeti.-2022.- 9 avqust.- S. 7.

Muradova, Z. Şuşadan Qoriyə gedən yol / Zəhra Muradova; elmi red. V. Xəlilov. - Bakı: [Orxan NPM], 2022. - 175, [1] s.

Vəkilova, H. Cümhuriyyətdən doğulan məktəb / Heyran Vəkilova // Dil və ədəbiyyat: Beynəlxalq elmi-nəzəri jurnal.-2019.- №1(109).- S.342-343.

Seyidov, F. Zaqafqaziyada (Qori) Müəllimlər Seminariyasında aparılmış proqram-metodik işlər:s Pedaqoji fikir və məktəb tariximizdən səhifələr / F. Seyidov // Azərbaycan müəllimi.- 2008.- 31 oktyabr.- S.5.

İsmayılzadə, M. Zaqafqaziyada ilk tədris ocağı // M.İsmayıloğlu / Respublika. -2009.- 17 may.- S.7.

“Bakinski raboçi” qəzeti – 120 *(1906)*


БАКИНСКИЙ РАБОЧИЙ
От Центрального Комитета КПСС, Президиума Верховного Совета СССР и Совета Министров СССР
Юрий Алексеевич ГАГАРИН

“Bakinski raboçi” qəzeti 1906-cı ilin may ayında Rusiya Sosial-Demokrat Fəhlə Partiyası (RSDFP) Bakı Komitəsinin orqanı olaraq qeyri-leqal şəkildə nəşrə başlamışdır. Qəzetin ilk nömrəsinin hazırlanmasında M.İ. Batırev, V.P. Noqin, V.F. Yefimov, B.A. Radus-Zenkoviç, S.D. Vulfson, A.A. Caparidze və digər şəxslər iştirak etmişdir. 1908-ci ilin sentyabrından qəzet neft sənayesi fəhlələrinin ictimai-peşə qəzeti kimi leqal olaraq çıxmağa başlamış, lakin çar hakimiyyəti tərəfindən “ziyanlı istiqamət”də fəaliyyət göstərdiyi səbəbi ilə həmin ilin oktyabrında bağlanmışdır. Bu dövrdə qəzetin redaksiyası arasında A.M. Amiryan, V.İ. Naneyşvili, N.N. Kolesnikova, S.S. Spandaryan və S.Şaumyan kimi şəxslər fəaliyyət göstərmişdir.

1909-cu ildə Bakı bolşevikləri tərəfindən “Volna” adlı qısa müddətli jurnal buraxılmış və faktiki olaraq əvvəlki redaksiya heyətinin fəaliyyəti davam etdirilmişdir. 1917-ci ilin aprelin 22-də (mayın 5-də) “Bakinski raboçi” RSDFP Bakı Komitəsinin həftəlik orqanı kimi bərpa edilmiş, həmin ilin noyabrına qədər həftədə üç dəfə, noyabrdan isə hər gün nəşr olunmuşdur. 1917–1918-ci illərdə qəzetin ümumi tirajı 4000 nüsxə olmaqla 267 nömrə çıxmışdır.

Qəzet 1918-ci ilin mart soyqırımlarına qədər Bakıda və Azərbaycanın digər bölgələrində bolşevik partiyasının təbliğat orqanı kimi fəaliyyət göstərmişdir. 1918-ci il avqustun 11-də “Bakinski raboçi”nin sonuncu nömrəsi nəşr olunmuş və qəzet fəaliyyətini dayandırmışdır. 1920-ci ilin aprel işğalından sonra iyulun 15-dən qəzet “Azerbaydjanskaya bednota” adı ilə, noyabrın 7-dən isə əvvəlki adı ilə yenidən nəşr edilməyə başlamışdır. Sovet dövründə “Bakinski raboçi” Azərbaycan Kommunist Partiyası MK-nın, Azərbaycan SSR Ali Sovetinin və Nazirlər Sovetinin orqanı olmuşdur.

Müstəqillik dövründə qəzet Azərbaycanın mühüm kütləvi informasiya vasitələrindən biri kimi fəaliyyətini davam etdirir. Hazırda qəzetin təsisçisi Azərbaycan Respublikası Prezident Aparatının İşlər İdarəsidir və “Bakinski raboçi” ölkədə rus dilində çıxan ən uzunömürlü mətbu orqan kimi tanınır.

2006-cı ildə “Bakinski raboçi” qəzetinin 100 illik yubileyi qeyd edilmişdir.

2025-ci ildə "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin strukturunun təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 oktyabr tarixli 1465 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan qurumların siyahısı”nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan “Bakinski raboçi” qəzetinin redaksiyası” Məhdud Məsuliyyətli Cəmiyyətinə keçmişdir.

Ədəbiyyat:

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin strukturunun təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 oktyabr tarixli 1465 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan qurumların siyahısı”nda dəyişiklik edilməsi haqqında [Mətn]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 11 iyul 2025-ci il // Azərbaycan.-2025.- 12 iyul (№ 141).- S.2.

Fikrətoğlu, R. “Bakinski raboçi” – 115 / Rizvan Fikrətoğlu // Xalq qəzeti.-2023.- 24 yanvar.- S.10.

.

Azərbaycan Milli İncəsənət Muzeyi – 90 *(1936)*



Azərbaycan Milli İncəsənət Muzeyi 1936-cı ildə yaradılmışdır. Muzeyin əsası Azərbaycan Dövlət Muzeyinin təsviri sənətlər bölməsinin əsasında qoyulmuşdur. 1920-ci ildə yaradılmış bu bölmə, xüsusilə rəngkarlıq nümunələrinin dəyəri nəzərə alınaraq 1936-cı ildə ayrıca muzeyə çevrilmiş və 1937-ci ildə rəsmi açılışı baş tutmuşdur. Muzey əvvəlcə Hacı Zeynalabdin Tağıyevin sarayında, daha sonra Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin binasında fəaliyyət göstərmişdir. 1943-cü ildən muzey realist teatr-dekorasiya sənətinin yaradıcılarından biri olan Rüstəm Mustafayevin adını daşıyır.

1951-ci ildə muzeyə "De Burun sarayı" təqdim edilmiş və burada yeni ekspozisiya yaradılmışdır. XIX əsrin sonlarında inşa edilmiş bu bina əvvəllər "Kaspi Tərəfdaşlığı" Səhmdar Cəmiyyətinə məxsus olmuş və müxtəlif dövrlərdə dövlət və təşkilatların qərargahı kimi istifadə edilmişdir. Muzeyin ikinci korpusu 1887-ci ildə Mariinski Qadın Gimnaziyası üçün tikilmiş və Azərbaycanın müstəqilliyini əldə etməsindən sonra muzeyin istifadəsinə verilmişdir. 2013-cü ildə hər iki korpusu birləşdirən şüşə-polad konstruksiyalı keçid korpusu açılmışdır.

Muzeyin daimi ekspozisiyası 60 otaqda təşkil olunmuş və 3000-dən çox əsər nümayiş etdirilir. Birinci korpusda Avropa və Rusiya incəsənəti, həmçinin İran, Türkiyə və Yaponiya incəsənəti təqdim olunur. İkinci korpusda Azərbaycan incəsənəti, antik və orta əsrlər sənət nümunələri, xalq tətbiqi sənət əsərləri, xalçalar, geyim və məişət əşyaları, qiymətli və yarıqiymətli daşlarla bəzədilmiş aksesuarlar sərgilənir. Antik və orta əsrlər Azərbaycan incəsənəti səkkiz zalda nümayiş olunur və burada müxtəlif bölgələrdən əldə edilmiş tunc və daş fiqurlar, qab nümunələri, məzar daşları və lent yazısı kitabələri təqdim edilir.

Muzey həm tədqiqat və elmi fəaliyyətlə məşğuldur, həm də dəyişən ekspozisiyalar vasitəsilə kolleksiyanın genişliyini ziyarətçilərə nümayiş etdirir. Şöbələri Fond şöbəsi, Ekspozisiya şöbəsi, Elmi-kütləvi işlər şöbəsi, Elmi araşdırmalar şöbəsi, Muzey işində innovasiyaların tətbiqi şöbəsi, Sərgi və tərtibat şöbəsi və Elmi bərpa şöbəsindən ibarətdir. Muzey bazar ertəsi istisna olmaqla hər gün ziyarətçilərə açıqdır.

Muzey Azərbaycan və dünya incəsənətinin öyrənilməsi və təbliği baxımından əhəmiyyətli mərkəz rolunu oynayır. "Rəngkarlıq", "Qrafika", "Heykəltəraşlıq", "Tikmə", "Metal", "Arxeoloji keramika və çini" adlı altı kolleksiyada 18 mindən çox eksponat mühafizə olunur. Burada həm Azərbaycan incəsənətinin müxtəlif dövrlərinə aid nümunələr, həm də Qərbi Avropa, Rusiya və Şərq ölkələri incəsənəti təqdim edilir. Muzeyin ekspozisiyaları çərçivəsində müxtəlif növ ekskursiyalar, həftəlik musiqi konsertləri və uşaqlar üçün maarifləndirici proqramlar keçirilir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2011-ci il 10 iyun tarixli 94 saylı qərarına əsasən muzeyə "Milli" statusu verilmiş, eyni zamanda Avropa Muzey Standartı (EUMS) sertifikatına layiq görülmüşdür.

Ədəbiyyat:

Milli İncəsənət Muzeyində sərgi: "Zəfərin rəngləri" //525-ci qəzet.-2025.- 8 noyabr (№205).- S.16.

Məlikova, Ş. İncəsənət - yalnız gözəllik yaratmağa qadir dünya: Azərbaycan Milli İncəsənət Muzeyinin rəhbəri, əməkdar mədəniyyət işçisi Şirin Məlikova ilə söhbət / Şirin Məlikov; müsahibəni apardı: T.M-zadə // 525-ci qəzet.-2024.- 2 may,№76.-S.8.

"Mədəni yaddaşımızda Qərbi Azərbaycan": Milli İncəsənət Muzeyində sərgi // Mədəniyyət.-2023.- 20 dekabr(№94).- S.5.

İnternetdə:

https://az.wikipedia.org/wiki/Azərbaycan_Milli_İncəsənət_Muzeyi

https://nationalartmuseum.az/museum/museum-history/

Qurban bayramı
(1992)



Bütün müsəlman aləmində Qurban bayramı hər il hicri təqvimi ilə Zilhiccə ayının 10-cu günündən başlayır və adətən üç gün davam edir. Dini qurbankəsmə İbrahim Peyğəmbərin həyatında baş verən əhvalatdan sonra yaranmışdır. Belə ki, yuxuda Allah (s.ə.v.) İbrahim peyğəmbərə oğlu İsmayılı qurban verməyi (onların Allaha imanını yoxlamaq üçün) əmr etmişdir. İbrahim əsl dindar kimi Allahın əmrini yerinə yetirməyə hazır olmuş, İsmayıl özü də qurban olmağa razılaşmışdır.

Din tarixində dərin iz salmış bu hadisə Allaha imanın, dərin etiqadın nümunəsidir. Bu rəvayətin başqa bir fəlsəfi-əxlaqi mənası ondan ibarətdir ki, İslamda insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur. Belə ki, uca Allah bunu öz elçisinə rəva bilməmiş və qurbanlıq üçün ona bir qoç göndərmişdir. Buna görə də bu bayramda kəsilən qurbana "İsmayıl qurbanı" da demişlər.

İsmayıl Qurbanında kəsilən heyvanlarda bir sıra şərtlər vacib sayılır. Qurbanlıq kimi seçilən heyvan qoç, iribuynuzlu dana, yaxud da dəvə olmalıdır. Qurbanlıq qoçun yaşı ən azı altı aylıq olmalıdır. Qurban bayramında kəsilən heyvanın sağlam olması da vacib şərtdir. Əzalarında hər hansı nöqsanı olan heyvanın qurban kəsilməsi İslamda məsləhət görülmür. Kəsiləcək qurbanlıq gözəgəlimli olmalıdır.

Qurbanlıq ət qurban kəsən özü də bərabər pay götürməklə kasıblara paylanır. Qurbanlığın şərtlərindən biri də budur ki, qurban kəsmək yalnız buna imkanı olan varlı adamların boynundadır. İmkanı olmayan adama isə qurban kəsmək vacib deyil. Qurban kəsmək üçün borc pula heyvan almaq İslamda təqdir olunmur, çünki bu bayramın əsas mahiyyəti zənginlərlə imkansızların birliyi, qardaşlığıdır. Bu bayramda hamı sevinməlidir: varlılar – Allaha xoş gedən əməli icra etdikləri və kasıbları sevindirdiklərinə görə, kasıblar isə – dünya nemətindən əldə etdiklərinə və başqalarından gördüklərinə görə mərhəmətə və qayğıya sevinirlər.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir.

Ədəbiyyat:

Prezident İlham Əliyev: "Qurban bayramı Uca Yaradanın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi insanları həmişə bərabərliyə, qardaşlığa və fədakarlığa dəvət edir": Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik / İlham Əliyev // Azərbaycan.-2025.- 6 iyun (№ 117).- S.1; Ədəbiyyat qəzeti.-2025.- 6 iyun (№20).- S.2.

Aslanova, E. Qurban bayramı yardımlaşma, sosial həmrəylikdir / Esmira Aslanova // Respublika.-2025.- 4 iyun(№ 115).- S.12.

Mirzə, M. Qurban bayramı insanlara birlik, həmrəylik, şəfqət və xeyirxahlıq duyğuları aşılayır / M.Mirzə // Respublika.-2025.- 6 iyun (№ 117).- S.11.

Adilqızı, N. Ruhun müqəddəs sevgiyə qovuşduğu gün / Nurəngiz Adilqızı // Respublika.-2025.- 6 iyun (№ 117).- S.11.

Ramazan bayramı
(1993)



İslamın müqəddəs bayramları içərisində orucluq bayramı mühüm yer tutur. Oruc Ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər. İslamda ilin ayları arasında Ramazan ayı ən şəfqətli və müqəddəs ay hesab edilir. Onu məcazi şəkildə "on bir ayın sultanı" da adlandırırlar, çünki bu ayın gecələrinin birində müqəddəs kitabımız olan Qurani Kərim nazil olmuşdur.

Orucluq Ramazan ayında təzə ay çıxandan başlanır və 29–30 gün davam edir. Məhəmməd peyğəmbər buyurur ki, Ramazan ayı gələndə cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar, şeytanlar da zəncirdə olar. Orucluq dövründə insan Allah-Təalanın əmrini yerinə yetirmək üçün sübh azanından şam azanına qədər orucu pozan bir sıra əməllərdən uzaq durmalıdır. Orucluq vaxtı gündüz yemək, içmək, siqaret çəkmək olmaz. Bunlardan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, döyüşçülər, əsirlikdə olanlar və səyyahlar azad olunurlar. Orucluq insanlara öz iradələrini, dözümlülüyünü yoxlamaq imkanı verir, onları paklığa, xeyirxahlığa dəvət edir.

Orucluğun başa çatdığı gün "Fitr bayramı" adlanır. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Bayram günü hər kəs öz himayəsində olanlar üçün təqribən 3 kq buğda, yaxud xurma və ya kişmiş miqdarında fitrə zəkatı verməlidir.

Bayramda kasıblar və yoxsullar da sevinməlidir, onlar da yeni paltar geyərək bütün müsəlmanlarla bir yerdə namaza gəlməlidirlər. Məhz buna görə fitrə zəkatı buyurulmuşdur ki, yoxsul müsəlmanlar da bayramı keçirə bilsinlər. Ramazan bayramının məqsədlərindən biri müsəlmanların toplanması və görüşməsidir. Bayramın başqa məqsədlərindən biri də müsəlmanların bir-birini ziyarət etməsi, qohum əqrabalarla görüşməsi, əgər arada inciklik varsa barışması üçündür.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra insanların vicdan azadlığı bərpa olunmuş, İslam dininə, onun ibadət və ayinlərinə olan münasibət də dəyişmişdir. Ramazan (Orucluq) bayramı Azərbaycanda Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən, 1993-cü ildən dövlət səviyyəsində qeyd olunmağa başlanmışdır.

Ədəbiyyat:

Əliyev, İlham. Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik / İlham Əliyev // Azərbaycan.-2025.- 2 aprel (№ 62).- S.1.

Bayramova, Z. On bir ayın sultanı-RAMAZAN / Zümrüd Bayramova // Səs.-2025.- 1 mart (№38).- S.4.

Məmmədova, M. Ramazan "Qurani-Kərim"in baharıdır / Mətanət Məmmədova // Səs.-2025.- 5 mart (№40).- S.5.

Qocayev, İ. Ramazan ayı barış, paylaşmaq, birlik ayıdır: Ona görə Ramazan ayında digər dinlərin nümayəndələrinə, onların bayramlarına, adət-ənənələrinə daha çox diqqət, hörmət göstərilir / İsmayıl Qocayev // Şərq.-2025.- 20 mart №52.- S.6.

Yubileyləri qeyd olunacaq görkəmli şəxsiyyətlərin və mühüm tarixi hadisələrin Əlifba göstəricisi

A

Abasov Səfa İslam oğlu 469, 534
Abaszadə Abasqulu Ağabala oğlu 301, 368
Abbasbəyli Ağalar Nəriman oğlu 973, 1046
Abbasov Abbas Murtuza oğlu 97
Abbasov Akim Əli oğlu 382, 444
Abbasov Elxan Yunis oğlu (Elxan Yunis) 969
Abbasov Əsgər Məmmədismayıl oğlu 296
Abbasov Qurban Abbasqulu oğlu (Neftçi Qurban) 803, 869
Abbasov Midhət Teymur oğlu 551, 617
Abbasov Namiq Əbdülsəməd oğlu 469
Abbasov Seyfəddin Əliağa oğlu (Seyfəddin Dağlı) 624, 635
Abbasova Məlahət Elman qızı 545, 564
Abdinov Tofiq Məhərrəm oğlu 711, 718
Abdul Qədirov İsmayıl Qafar oğlu 97, 174
Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı 384, 460
Abdullayev Aydın Həsən oğlu 301
Abdullayev Cahangir Məmməd oğlu 383
Abdullayev Ələsgər Baba oğlu (Şəkili Ələsgər) 1070
Abdullayev Faiq Məmmədəli oğlu 975, 1060
Abdullayev Xosrov Abdulla oğlu 8, 31
Abdullayev İslam Əbdül oğlu 1070, 1083
Abdullayev Kamal Mehman oğlu 974, 1059
Abdullayev Mahmud Abdulla oğlu 469, 529
Abdullayev Mahmud Əli oğlu 550
Abdullayev Məzahir Ağaverdi oğlu 470
Abdullayev Mikayıl Hüseyn oğlu 968, 984
Abdullayev Tofiq Əli oğlu 624, 637
Abdullayev Üzeyir Ələsgər oğlu 97
Abdullayev Vaqif İdris oğlu 803
Abdullayeva Rəna Həbib qızı 8
Abdullazadə Gülnaz Abutalıb qızı 711, 725
Abizadə Balaş Allahbaxış oğlu (Balaş Azəroğlu) 894, 901
ABŞ Dövlət Departamenti Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini rəsmən bəyan edib 302
Adıgözəlzadə Həsənağa Əfrasiyab oğlu 7, 22
Ağabəyov Mayis Əlişir oğlu 377, 391
Ağalarov Abbas Fərhad oğlu 551
Ağalarova Dünya Ələkbər qızı 974, 1053
Ağamirov Midhət Mirmusa oğlu 382
Ağamirov Mirmusa Haşım oğlu 1072
Ağaoğlu Məhəmməd bəy Ağa oğlu 629, 694
Ağayev Ağadadaş Həmid oğlu 624, 644
Ağayev Ağarəfi Hilal oğlu 1072
Ağayev Bəylər Əbdülrəhim oğlu 383
Ağayev Cəmil İbrahim oğlu 7,15
Ağayev Faiq Balağa oğlu 969
Ağayev Faiq Firidun oğlu 13
Ağayev Nuhəli Hacıbala oğlu 470
Ağayev Oqtay Mirzəbaba oğlu 97
Ağayeva Xurşid Həsən bəy qızı 297, 320
Ağayeva Kəmalə Ağa qızı 550, 610
Ağayeva Tünzalə Qabil qızı 798
Ağdam Sənaye Parkının yaradılması haqqında fərman imzalanmışdır 384
Ağdam şəhəri günü 899, 963
Ağdamski Telman Əhməd oğlu 630
Ağdərə Şəhəri Günü 717, 795
"Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında sərəncam imzalanmışdır 303
Axundov Cahangir Rifaətoviç 296, 314

Axundov Məhəmməd Bağır oğlu 383
Axundov Ruhulla Fətulla oğlunun
(Sidqi Ruhulla) 185, 219
Axundov Şəmsəddin Əhməd oğlu 629
Axundov Tofiq Hüseyn oğlu 895
Axundov Umbay Sadıq oğlu 183, 203
Axundov Vəli Yusif oğlu 383, 454
Axundova Rəfiqə Hacı qızı 624, 640
Axundova-Bağırbəyova Sona
Əbdül qızı 1072
Axundzadə Yusif Yevgenyeviç 91, 111
Alıquliyev Ramiz Məhəmməd oğlu 190, 286
Alıquliyev Ramiz Məhəmməd oğlu 190, 286
Alıyev Barat Alı oğlu 183, 197
Allahverdiyev Adil Məhəmmədəli oğlu 190
Allahverdiyev Mahmud Qara oğlu 383
Allahverdiyev Surxay Rəhim oğlu 383
Amanova Solmaz Bayramqulu qızı 90, 101
Anım günü 717, 796
Aprel döyüşləri 302, 371
Araslı Nüşabə Həmid qızı 190, 277
Aslanov Aslan Məhəmməd oğlu 629, 690
Aslanova Rəbiyyət Nurulla qızı 549, 605
Astaxin Vitali Vladimiroviç 91
Aşıq Bəsti 1069
Aşıq Ələsgər Alməmməd oğlu 183, 204
Aşıq Nəcəfin (Nəcəf Daşkəndli) 1069, 1080
Aşıq Pəri 1069
Aşurbəyli Sara Balabəy qızı 11, 69
Atakişiyev Əlisəttar Ələsgər oğlu 969, 1001
Atatürk Mustafa Kamal 382, 443
Avropa İttifaqının İnsan Alverinə
Qarşı Mübarizə Günü 975
Avtomobil Yol İşçilərinin Peşə
Bayramı Günü 97
Azad Mikayil oğlu Əliyev 7, 18
Azayev Əlisəfa Soltan oğlu 545
Azərbaycan Dövlət Caz
Orkestrinin yaradılması 1074
Azərbaycan Dövlət Dəniz
Akademiyası yaradılmışdır..... 551, 620
Azərbaycan Dövlət Estrada
Orkestrinin yaradılması 1074
Azərbaycan Dövlət Pedaqoji
Universitetinin təsis edilməsi 631, 707
Azərbaycan Əlifbası və
Azərbaycan Dili Günü 630, 704
Azərbaycan Hərbi Hava Qüvvələri Günü 97
Azərbaycan İslam Konfransı
Təşkilatına üzv qəbul olunmuşdur 975
Azərbaycan İstiqlal Muzeyinin
yaradılması 13, 86
Azərbaycan Kinosu Günü 630, 705
Azərbaycan kinosu tarixində ilk
tammetrajlı bədii film – "Neft və
milyonlar səltənəti" nümaiş etdirilib 384
Azərbaycan qadınlarının birinci
qurultayının keçirilməsinin 105 illiyi 97
Azərbaycan Mədəniyyət
Nazirliyinin mətbu orqanı olan
"Mədəniyyət" qəzetinin nəşrə
başlaması 1074
Azərbaycan Milli İncəsənət
Muzeyinin yaradılması 1074, 1098
Azərbaycan Polisi Günü
(02.07.1998) 551, 618
Azərbaycan radiosunun
yaradılmasının 899, 956
Azərbaycan Respublikası
ərazisində bütün idarə və
müəssisələrin, dövlət və qeyri-
dövlət qurumlarının, Azərbaycan
dilində olan bütün nəşrlərin latın
qrafikalı əlifbaya keçməsi 630
Azərbaycan Respublikası
Xüsusi Rabitə və İnformasiya
Təhlükəsizliyi Dövlət Xidməti
əməkdaşlarının peşə bayramı günü 717
Azərbaycan Respublikası Milli
Təhlükəsizlik Nazirliyi təsis
edilmişdir (01.11.1991)
Azərbaycan Respublikası
Müdafiə Nazirliyi təşkil edilmişdir 717
Azərbaycan Respublikası Pensiya
Fondu yaradılmışdır 975
Azərbaycan Respublikası
Prezidenti "2016-cı ilin
Azərbaycan Respublikasında
"Multikulturalizm ili" elan
edilməsi haqqında" Sərəncam
imzalamışdır 13
Azərbaycan Respublikası
Prezidenti Ağdam şəhərində
"İmarət" Tarix Memarlıq Muzey

Kompleksinin yaradılması haqqında Sərəncam imzalamışdır 97
Azərbaycan Respublikası Prezidenti Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında Sərəncam imzalamışdır 717
Azərbaycan Respublikası Prezidenti Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında Sərəncam imzalamışdır 97
Azərbaycan Respublikası Prezidenti Şuşa rayonunda xüsusi nümayəndəsinin təyin edilməsi haqqında Sərəncam imzalamışdır 13
Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti əməkdaşlarının peşə bayramı günü 631
Azərbaycan Respublikası Tibb İşçilərinin Peşə Bayramı Günü 470
Azərbaycan Respublikası YUNESKO-ya üzv qəbul olunmuşdur 470
Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikasının Prezidenti Fərman imzalamışdır 551
Azərbaycan Respublikasının Ali Soveti tərəfindən DQMV-nin statusu ləğv olunmuşdur 899
Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzvlüyə qəbul olunmasının (25.01.2001) 25 ili 13
Azərbaycan Respublikasının dövlət müstəqilliyi dünya dövlətləri içərisində ilk olaraq Türkiyə Cümhuriyyəti tərəfindən tanınmışdır 899
Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında ümumxalq referendumu keçirilmişdir 975
Azərbaycan Respublikasının I Vitse-prezidenti, birinci xanım, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva
Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan “Azərbaycan - İrs” jurnalını təsis etmişdir 1074
Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü 471, 543
Azərbaycan SSR Ali Sovetinin sessiyasında “Azərbaycan Respublikası” adı və üçrəngli bayrağı təsdiq edilmişdir 97
Azərbaycan Televiziyasının fəaliyyətə başlamasının 70 ili 97, 177
Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən Dağlıq Qarabağda 44 gün davam edən döyüşlərin dayandırılması barədə üçtərəfli bəyanat imzalanmışdır 899
Azərbaycanda “Elm günü” 191, 293
“Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında” fərman imzalanmışdır 470
Azərbaycanda Hərbi-Dəniz Qüvvələri Günü 630
Azərbaycanda ilk Prezident seçkiləri keçirilmişdir 717
Azərbaycanda ilk rəsmi telefon xəttinin (“Nobel qardaşları cəmiyyəti” tərəfindən) çəkilməsinin 145 illiyi 97
Azərbaycanda İnsan Hüquqları Günü 470, 541
Azərbaycanda Qızıl Aypara Günü 191
Azərbaycanda Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü 470
Azərbaycanda Radio və Televiziya İşçilərinin Peşə Bayramı Günü 899
Azərbaycanda Sərhəd Qoşunları Əməkdaşlarının Peşə Bayramı Günü 631
Azərbaycanda Sərhəd Qoşunları Əməkdaşlarının Peşə Bayramı Günü 631
Azərbaycanın BMT-yə qəbul olunması günü 191
Azərbaycanın Elm və Təhsil Nazirliyi ilə Türkiyənin Ali Təhsil Şurası arasında “Türkiyə-

Azərbaycan Universiteti”nin
yaradılması barədə anlaşma
Memorandumu imzalamışdır 97
Azərbaycanlıların soyqırımı günü 191, 294
Aznaurov İsgəndər Söhrab oğlu 625, 648

B

Babakişiyev Rasim Calal oğlu 296, 313
Babayev Aqşin Əlisəttar oğlu 894, 902
Babayev Həbib Bayram oğlu 973, 1051
Babayev Nurəddin Həsən oğlu 183, 200
Babayev Rafiq Fərzi oğlu 184, 211
Babayeva Çimnaz Məmməd qızı 969, 991
Babayeva Ələviyyə Hənifə qızı 624, 633
Babazadə Baba Qurbanqulu oğlu 301
Babazadə Fikrət Ələkbər oğlu 717
Bilalov Yaşar Mahmud oğlu 717
Babazadə Oqtay Ələkbər oğlu 799, 820
Babək rayon Mərkəzləşdirilmiş
Kitabxana Sisteminin yaradılması 1073
Bağırov Allahverdi Teymur oğlu 298, 336
Bağırov Bağır Əli oğlu 630, 699
Bağırov Zakir Cavad oğlu 184, 207
Bağırova İradə Səid qızı 95
Bağırzadə Faiq Məmməd oğlu 190, 278
Bahar Məhəmmədtağı Mirzə
Kazım oğlu (Məlik Üş-şüəra) 894, 903
Bakı Azad Tənqid-Təbliğ
Teatrının yaradılması 1074
Bakı kommersiya məktəbinin
yaradılması 1074
Bakı Metropoliteni İşçilərinin
Peşə Bayramı Günü 899
Bakı Musiqi Akademiyasının
kitabxanasının yaradılması 1072
Bakı Slavyan Universitetinin
kitabxanası fəaliyyətə başlaması 1072
Bakı şəhəri Nizami rayonu
Mərkəzləşdirilmiş Kitabxana
Sisteminin yaradılması 1073
Bakı Uşaq Teatrı yaradılmışdır 302
Bakıda Hərbi Qənimətlər Parkı
açılmışdır 302
Bakıda I Beynəlxalq Türkoloji
Qurultayın keçirilməsinin 100 illiyi 97, 180
Bakı-Sabunçu-Suraxanı xəttində
SSRİ-də ilk dəfə olaraq elektrik
qatarının hərəkət etməsi 551, 619
Bakı-Tbilisi-Ceyhan neft
kəmərinin təntənəli açılışı keçirilib (13.07.2006)
“Bakinski raboçi” qəzetinin nəşr
olunması 1074, 1097
Balakişiyev Kamil Əbdülsalam oğlu 716, 786
Balasıyev Haşım Səftər oğlu 798, 808
Balayev Rəsul Ənvər oğlu 629, 688
Banişevski Anatoli Andreyeviç 97, 175
Baratzadə Zülfüqar Yaqub oğlu 546
Baybakov Nikolay Kostantinoviç 188
Bayramov Hacı Abbas oğlu 464, 475
Bayramov Həbib Əbdülhüseyn oğlu 465, 484
Bayramov Hüseyn Abbas oğlu 1071
Bayramov Səyyad İbrahim oğlu 968, 985
Bayramov Soltanağa Nəhmət oğlu 799, 823
Bayramzadə Əlirza Baxşəli oğlu 190
Bayramzadə Əlirza Baxşəli oğlu 190
Belinski Vissarion Qriqoryeviç 464
Beynəlxalq Azərbaycan Muğamı
Günü və İpək Yolu Üzərində
Yerləşən Ölkələrin Musiqisi Günü 631, 708
Beynəlxalq Bioloji Müxtəliflik Günü 384
Beynəlxalq Caz Günü 303, 375
Beynəlxalq Dağlar Günü 975
Beynəlxalq Dəniz Günü 717
Beynəlxalq Ekoloji Bilik Günü 302
Beynəlxalq Elektronrabitə Günü 384
Beynəlxalq Əqli Mülkiyyət Günü 303
Beynəlxalq Gənclər Günü 631
Beynəlxalq Humanitar Yardım Günü 631
Beynəlxalq Gözdən Əlillər Günü 899
Beynəlxalq Günəş Günü 384
Beynəlxalq Humanitar Yardım Günü 631
Beynəlxalq İdman Jurnalistləri
Günü (02.07.1995) 551
Beynəlxalq İqlim Günü 384
Beynəlxalq İnformasiya
Təhlükəsizliyi Günü 899
Beynəlxalq Kino Günü 975, 1066
Beynəlxalq Kitab Bağışlama Günü 97, 178
Beynəlxalq Kitab və Müəllif
Hüquqları Günü 303
Beynəlxalq Könüllülər Günü 975, 1063
Beynəlxalq Kulinariya Günü 805, 891
Beynəlxalq Qadınlar Günü 191, 287
Beynəlxalq Qan Donor Günü 470

Beynəlxalq Qeyri-zorakılıq Günü 805
Beynəlxalq Quşlar Günü 302
Beynəlxalq Lal-Karlar Günü 717
Beynəlxalq Musiqi Günü 805, 885
Beynəlxalq Müəllim Günü 887
Beynəlxalq Novruz Günü 191
Beynəlxalq Olimpiya Qaçış Günü 471
Beynəlxalq Poeziya Günü 191, 291
Beynəlxalq Radio Günü 97
Beynəlxalq Rəqs Günü 303
Beynəlxalq Sülh Günü 717
Beynəlxalq Şahmat Günü 551
Beynəlxalq Teatr Günü 191, 292
Beynəlxalq Təhlükəsiz İnternet Günü 97
Beynəlxalq Tərcüməçilər Günü 717
Beynəlxalq Tolerantlıq Günü 899
Beynəlxalq Turizm Günü 717
Beynəlxalq Uşaq Kitabı günü 302
Bədəlbəyli Şəmsi Bədəl oğlu 92, 125
Bədən Tərbiyəsi və İdman Günü 191
Bədirbəyli Firuzə Xanlar qızı 969, 998
Bədirov Mürsəl Tağı oğlu 798, 814
Bəkirzadə Teymur Bəkir oğlu 712, 738
Bəktaşi İnayət Heydər oğlu 190
Bərdə, Füzuli, Xocalı, Xocavənd,
Şuşa və Tərtər rayonları)
yaradılması barədə qərar qəbul
edilmişdir 551
Bəşirov Yaşar Eyyub oğlu 302
Bəylərov İlqar Xıdır oğlu 545, 559
Bilik Günü (15.09.2004) 717, 789
Billuri Hökumə İbrahim qızı 183, 192
Binəqədi rayon MKS 4 saylı
filialın (H.Cavid adına kütləvi
kitabxananın) yaradılması 1073
Binəqədi rayon MKS yaradılması 1073
Binəqədi rayon MKS-nin 7 saylı
filialının (Binəqədi qəsəbə uşaq
kitabxanası) yaradılması 1073
Birləşmiş Millətlər Təşkilatı Günü 805
Birləşmiş Millətlər Təşkilatı
yaradılmışdır 471
Birləşmiş Millətlər Təşkilatının
Elm, Təhsil və Mədəniyyət üzrə
ixtisaslaşmış qurumu YUNESKO
– (UNESCO – United Nations
Educational, Scientific and
Cultural Organization) fəaliyyətə
başlamışdır 899
BMT-nin Baş Assambleyası
tərəfindən Uşaq hüquqları Konvensiyası 899
Bulqakov Mixail Afanasyeviç 377
Beynəlxalq Ahıllar Günü 805
Beynəlxalq Ailə Günü 384
Beynəlxalq Ana Dili Günü 97, 179
Beynəlxalq Əlillər Günü 975
Beynəlxalq Muzeylər Günü 384
Beynəlxalq Söz və Mətbuat
Azadlığı Günü 384

C

Cabbar Məşədi İsmayıl oğlu 184, 210
Cabbarlı Ağacan Cabbar oğlu 1069
Cahangirov Cahangir Şirgəşt oğlu 465, 485
Camal Sürəya 7, 16
Canəhmədov Əhəd Xanəhməd oğlu 805, 882
Cavanşir Rəşid Cəmil oğlu 550, 613
Cavanşir Varaz Qriqor oğlu (Cavanşir) 1070
Cavanşirov İsfəndiyar Aslan oğlu
(Xan Şuşinski) 624, 642
Cəbrayıl Şəhəri Günü 886
Cəbrayılova Svetlana Əli qızı 550
Cəfərov İbrahim Həsən oğlu 12, 74
Cəfərov İmran Bayram oğlu 629
Cəfərov Məmmədtağı İbrahim oğlu 549, 607
Cəfərova Lalə Tahir qızı 716, 782
Cəfərzadə Əzizə Məmməd qızı 968, 980
Cəlilov Afiyəddin Cəlil oğlu 11, 62
Cəlilov Məzahir Həmdulla oğlu 297, 330
Cəlilov Musa Mustafa oğlu 90, 104
Cəmşid Naxçıvanski adına Hərbi
Liseyin yaradılmasının..... 551, 621
Cuvarlı Cavad bəy Nəcəf bəy
oğlu (Cavad Cuvarlinski) 96, 165
Cümşüdov Sabir Qənbər oğlu 382, 446

Ç

Çələbi Evliyan (Çələbi ibn Dərviş
Muhəmməd Zilli) 190, 279

D

Dadaşov Ağəli Abbasəli oğlu 184, 217
Dadaşov Azər İsmayıl oğlu 968, 986
Dadaşov İbrahimpaşa Hüseyn oğlu 302, 370

Dadaşov Rafael Məlik oğlu 8, 26
Dadaşov Rafiq Ağahüseyn oğlu 546, 569
Dadaşov Soltan Baba oğlu 378, 400
Dadaşova Natalya Konstantinovna 91
Dadaşzadə Araz Məmməd oğlu 12, 78
Daxili Qoşunlar Günü 191
Davudova Mərziyyə Yusif qızı 969
“Dəbistan” həftəlik uşaq jurnalı 302, 373
Dəmiryolu İşçilərinin Peşə
Bayramı Günü 805
Dənizçilərin Peşə Bayramı Günü 471
Dialoq və İnkişaf Naminə
Ümumdünya Mədəni Müxtəliflik Günü 384
Diplomatik Xidmət Orqanları
Əməkdaşlarının Peşə Bayramı Günü 551
Disney Uolt 969
DQMV ləğv edilərək Martuni
və Hadrut rayonlarının bazası
əsasında Xocavənd rayonu yaradılmışdır 899
Dostoyevski Fyodor Mixayloviç 894
Dövlət Bayrağı Günü 899, 959
Dövlət dilinin tətbiqi işinin
təkmilləşdirilməsi haqqında
fərman verilmişdir 470
Dövlət Qulluqçularının Peşə
Bayramı Günü 471
Dövlət Suverenliyi Günü 717, 791
Drayzer Teodor 624
Dünya Autizm Məlumatlandırma Günü 302
Dünya Azərbaycanlılarının
Həmrəylik Günü 975, 1067
Dünya Azərbaycanlılarının I
Qurultayı keçirilmişdir 899
Dünya Ekoloji Təhsil Günü 13
Dünya Fəlsəfə Günü 899
Dünya İncəsənət Günü 302
Dünya İnformasiya Günü 899
Dünya Qoruqları və Milli Parklar
Günü 13, 87
Dvorjak Antonin 711

E

Edilov Yelmar Şahmar oğlu 298, 335
Ekologiya və Təbii Sərvətlər
Nazirliyi Əməkdaşlarının Peşə
Bayramı Günü 384
Elxan Zal Qaraxanlı 464, 473
Energetiklər Günü 805
Ermənilər tərəfindən Kərkicahan
qəsəbəsinin işğalı ilə (Xankəndi
ərazi vahidliyində) Qarabağda ilk
işğal prosesi başlamışdır 975
Ermənistandakı azərbaycanlıların
sonuncu nümayəndələri Meğri
rayonunun Nüvədi kəndindən
deportasiyası 630, 706
Eyyubov Bəylər Həsən oğlu 189

Ə

Əbilov Abdülrza Hacıbala oğlu 301
Əbilov Aydın Əhməd oğlu (Aydın Xan) 377
Əcəmi Əbubəkr oğlu Naxçıvani 1070, 1082
Əcəmov Keykavus Yusif oğlu 630
Ədliyyə İşçilərinin Peşə Bayramı Günü 899
Əfəndiyev Qalib Məmməd oğlu 384, 457
Əfəndiyev Oqtay Əbdülkərim oğlu 189, 269
Əfzələddin İbrahim ibn Əli
Nəccar Şirvani (Xaqani Şirvani) 1069, 1075
Əhməd Həmdi Tanpınar 464, 474
Əhmədli Cəmil Teymur oğlu 803, 870
Əhmədli Salatın Alı qızı 804
Əhmədov Elçin Yusif oğlu 302, 369
Əhmədov Əmir Məmmədbağır oğlu 1072
Əhmədov Həsən Əbdüləli oğlu 974, 1052
Əhmədov Hüseyn Mustafa oğlu 550, 611
Əhmədov Xanlar Əhməd oğlu 464, 476
Əhmədov Mobil Salman oğlu 711, 728
Əhmədov Riad Fikrət oğlu 970, 1005
Əhmədov Vaqif Malik oğlu 13, 81
Əxi Evrəni (Ahi Evran) (əsl adı
Şeyx Nəsrəddin Mahmud) 1071
Əkbərov Tahir İsmayıl oğlu
(Tahir Əkbər) 7, 21
Əkbərzadə Şahmar Əkbər oğlu 968
Ələkbərov Əliheydər İbad oğlu 550
Ələkbərov Fikrət Ağazeynal oğlu 90, 106
Ələkbərzadə Çingiz Əbülhəsən oğlu 798, 806
Ələkbərzadə Mədinə Nurulla qızı 7,14
Ələsgərov Sabir Məmməd oğlu 804, 875
Ələsgərzadə Lütfəli Rəhim oğlu
(Lütfi Zadə) 96, 172
Əlibəyli Ənvər Əliverdi oğlu 296, 304
Əlibəyli Tapdıq Abış oğlunun 545
Əlikişibəyov Mustafa Məmməd oğlu 974

Əlillərin Hüquqlarının Müdafiəsi Günü 384
Əlimirzəyev Əliyar Əlimirzə
oğlunun 711, 722
Əliverdibəyov Nazim Ağalar oğlu 624, 643
Əliyev Abdul Hacıəli oğlu 1071
Əliyev Ağa Qurban oğlu 383
Əliyev Ağarəhim Cəbrayıl oğlu 377
Əliyev Aqil Əlirza oğlu 973, 1047
Əliyev Aşur Müseyib oğlu 470, 536
Əliyev Azad Sabir oğlu 184, 209
Əliyev Bəxtiyar Həmzə oğlu 190, 282
Əliyev Cəmil Əziz oğlu 190, 284
Əliyev Elçin Firdovsi oğlu 90
Əliyev Əbülfət Əsəd oğlu 969, 994
Əliyev Hüseyn Əlirza oğlu 296, 314
Əliyev Hüseyn Mikayıl oğlu
(Aşıq Hüseyn Cavan) 1070, 1081
Əliyev İlham Heydər oğlu 973, 1040
Əliyev İlham Müzəffər oğlu 378, 402
Əliyev Kamil Müseyib oğlu 798, 810
Əliyev Qabil Əli oğlu 804, 872
Əliyev Rövşən Məmmədəli oğlu
(Ramiz Rövşən) 968, 977
Əliyev Sərvər Bəhlul oğlu 8, 29
Əliyev Tamerlan Əziz oğlu 804, 881
Əliyev Təvəkkül Əjdər oğlu 625
Əliyev Tofiq Abbasəli oğlu 190
Əliyev Vəli Hüseyn oğlu 549, 604
Əliyev Yavər Yaqub oğlu 465, 492
Əliyeva Fərəh Şirməmməd qızı 711, 727
Əliyeva Hökumə Cəlil qızı 625, 646
Əliyeva İmina Hacıyevna 7
Əliyeva Jalə Fazil qızı 803, 865
Əliyeva Münəvvər Sabir qızı 378
Əliyeva Nurlanə Müzəffər qızı 629, 696
Əliyeva Şəfəq Rəsul qızı 895, 911
Əliyeva Zemfira Məmmədəli qızı 969, 1002
Əlizadə Anar Nadir oğlu 716
Əlizadə Əbdülkərim Əli oğlu 11, 67
Əlizadə Ələşrəf Əbdülhüseyn oğlu 301, 366
Əlizadə Məmməd Mübariz Əli
oğlu 973, 1049
Əli-zadə Rasim İsmayıl oğlu 898
Əlizadə Validə Mövsüm qızı 13, 83
Əlizadə Zəkəriyyə Mabud oğlu 96, 168
Əminə Yusif qızı 712, 739
Əmir Teymur (Teymur ibn
Tarağay Barlas) 300
Əmrahov Teymur Həşim oğlu
(Teymur Əmrah)..... 798, 812
Ənvər Mamay Şıxlinski 301
Ənvər Paşa Hacı Əhməd oğlu
(İsmail Enver) 897
Əsədov Əli Hidayət oğlu 897, 941
Əsədov Əsəd Soltan oğlu 185, 223
Əsədov Məhəmməd Nəbi oğlu 973
Əsədova Məleykə Əlifağa qızı 297, 329
Əsədullayev Şəmsi Əsədulla oğlu 1071, 1089
Əsgəran qalasının təməli qoyulması 1074
Əsgərov Əli Rəhim oğlu 894, 910
Əsgərov İbrahim Məhəmməd
oğlu (İbrahim Göyçaylı) 897, 944
Əsgərov Şahlar Qaçay oğlu 469, 533
Əsgərova Salatın Əziz qızı 970, 1004
Əyyubov Əsgər Cabbar oğlu 630, 698
Əyyubov Tələt Ömər oğlu 1069
Əzimi Səfurə Əli qızı 7
Əzimov Aydın Kərim oğlu (Aydın
Əzim Kərimoğlu) 378, 395
Əzimov Cəbrayıl Əlimuxtar oğlu 377, 392
Əzimov Nəriman Abbasqulu oğlu 464, 479
Əzizbəyov Şamil Əbdürrəhim oğlu 96, 169

F

Fadeyev Aleksandr Aleksandroviç 968
Faşist Almaniyasının SSRİ-yə
hücumu ilə sovet tarixinə “Böyük
Vətən müharibəsi” adı ilə daxil
olmuş müharibənin başlamasının 85 ili 470
Faşizm Üzərində Qələbə Günü 384, 459
Fatma xanım Kəminə Mirzə
Bəybaba Fəna qızı 1069
Fərəcov Azad İlyas oğlu 296, 306
Fərəcov Cəmil Əliqulu oğlu 92, 122
Fərəcov Zülfüqar Həsən oğlu 550, 615
Fətəli xan Hüseyn Əli xan oğlu 1071, 1088
Fətəliyev Ramiz Məmmədəli oğlu 465, 486
Fövqəladə Hallar Nazirliyi
İşçilərinin Peşə Bayramı Günü 975
“Füyuzat” jurnalının nəşr olunması 898, 955
Füzuli Şəhəri Günü 805, 888

G

Gəncə Dövlət Kukla Teatrı

yaradılmasının 40 illiyi 717
Gəncə şəhər Mərkəzləşdirilmiş
Kitabxana Sisteminin yaradılması 1073
Gəncəvi Əbül-Ülanın 1069
Gəncəvi İlyas Yusif oğlu
(Cəmaləddin İlyas ibn Yusif
Nizami Gəncəvi) (Nizami
Gəncəvi)..... 1069, 1076
Gənclər Günü 97, 176
Gənclərin I Ümumrespublika
Forumunun keçirilməsinin 30 ili 97
Gərayzadə Vaqif Əzizağa oğlu 184, 208
Gömrük əməkdaşlarının peşə
bayramı günü 13
Gözdən Əlillər üçün Respublika
Kitabxanasının yaradılmasının 45
illiyi 470, 537
“Greenpeace” (Yaşıl sülh)
təşkilatının yaranma günü 717

H

Hacıbəyli Ceyhun bəy Əbdül-
hüseyn oğlu 96, 164
Hacıyev Altay Əmir oğlu 296, 309
Hacıyev Asəf Hacı oğlu 383, 453
Hacıyev Bəhmən Əbiş oğlu 974, 1057
Hacıyev Etibar Firudin oğlu 298, 334
Hacıyev Əşrəf Əhmədpaşa oğlu 973
Hacıyev Xanlar İrşad-Faiq oğlu 716, 779
Hacıyev İsmayıl Muxtar oğlu 11, 68
Hacıyev Tofiq İsmayıl oğlu 383, 448
Hacıyeva Nərgiz Musa qızı 629
Hacıyeva Nina Alekseyevna 469
Hacızadə Elşən Mahmud oğlu 629
Hacızadə Nahid Rəhim oğlu 183, 195
Hadıyev Hüseynağa Məmməd oğlu 894
Haqverdiyev Alı Mirzə oğlu (Aşıq Alı) 1069
Haqverdiyev Əyyub Məmmədəli
oğlu 184, 215
Haqverdiyev Hüseyn Həsən oğlu 184, 205
Haqverdiyev Xanlar Məmməd oğlu 712, 732
Haşımbəyov Əliyar bəy Mehdi oğlu 189, 265
Haşımov Bakir Musa oğlu 1070, 1085
Heybətov Əşrəf Nəzir oğlu 90, 107
Heydər Əliyev Naxçıvan MR Ali
Məclisinin sədri seçilmişdir 717
Heydərov Arif Nəzər oğlu 469, 527
Heydərov Kəmaləddin Fəttah oğlu 549, 603
Heydərov Nəzər Heydər oğlu 189, 268
Heyvanların Beynəlxalq Müdafiəsi Günü 805
Həmidov Mübariz Şərafət oğlu 546, 565
Həmidov Ramiz Hacıbala oğlu 384
Həsənov Afiq Rəşid oğlu 384, 456
Həsənov İlham Gülbala oğlu 378, 404
Həsənov Tofiq Abdulla oğlu 1072
Həsənova Cəmilə İsmayıl qızı 716
Həsənova İradə Aslan qızı 184, 213
Həsənova Şəhla Həsən qızı 378
Həsənzadə Nəriman Əliməmməd oğlu 90, 98
Həşimov Rafiq Məhəmməd oğlu 629, 692
Hidayətzadə İsmayıl Hüseyn oğlu 625, 645
Hilmi Ziya Ülkən 868
Hüseyn Şəmkirli 1069
Hüseynbəyli Elçin Hüseyn oğlu
(Qaraçuxa) 968, 979
Hüseynli Qəmbər Muxtar oğlu 296, 318
Hüseynov Akif Məmməd oğlu 383, 451
Hüseynov Böyükağa Murtuza oğlu 189, 273
Hüseynov Cəlil Yusif oğlu 974, 1055
Hüseynov Elşən İbrahim oğlu 465, 493
Hüseynov Ələkbər Adıgözəl oğlu
(Ələkbər əmi) 545, 563
Hüseynov Əlikram Həsən oğlu 297, 320
Hüseynov Əlisa Qulam oğlu
(Əlisa Nicat) 624, 632
Hüseynov Əyyub Müseyib oğlu 711, 720
Hüseynov Rafiq Eyyub oğlu 629, 691
Hüseynov Rafiq Mirzəcan oğlu 297,
Hüseynov Rahib Abuzər oğlu 300
Hüseynov Sadıq Dayandur oğlu 546, 573
Hüseynova Ellada Əlihüseyn qızı 711, 724
Hacıyeva-Neylor Fidan Hacı Ağa
qızı 711, 726
Hüseynova Nəsibə Ağa İsmayıl qızı 13, 82
Hüseynova Sofiya Həsən qızı 92, 123
Hüseynzadə Ədilə Hacağa qızı 297, 322
Hüseynzadə Məcid Əziz oğlu 630

X

Xacə Nəsirəddin Əbu Cəfər
Məhəmməd ibn Məhəmməd ibn
Həsən Tusi 95, 163
Xaçmaz rayon Mərkəzləşdirilmiş
Kitabxana Sisteminin yaradılması 1073

Xalça Bayramı 975
“Xalçaçı günü” - xalçaçıların peşə
bayramı 384, 458
Xanbabayev Əjdər Rza oğlu 629, 695
Xanəndə Zülalov Əbdülbağı
Kərbəlayı Əli oğlu (Bülbülcan) 1070
Xanızadə Hamlet Bəbir oğlu 465
Xankəndi Şəhəri Günü 717, 792
Xanlarov Seyran Əsgər oğlu (
Seyran Səxavət) 183, 201
Xanlarova Zeynəb Yəhya qızı 969, 993
Xasıyev Nadir Şənbə oğlu 969, 1000
Xavkina Lyubov Borisovna 302
Xələfov Abuzər Alı oğlu 975, 1062
Xələfov Hüseynbala Məmməd
oğlu (Hüseyn Ərəblinski) 1070, 1087
Xəlilov Buludxan Əziz oğlu 550, 612
Xəlilov Eldar Xəlil oğlu 625, 649
Xəlilov Fərhad Qurban oğlu 798, 811
Xəlilov Qurban Əli oğlu 897, 940
Xəlilov Yaşar Sudeyf oğlu 968, 987
Xəzər rayon MKS yaradılması 1073
Xəzər rayon MKS-nin 3 saylı
filialı (Buzovna qəsəbə kütləvi
kitabxanası) yaradılması 1072, 1094
Xəzər rayon MKS-nin 4 saylı
filalı (Zirə qəsəbə kütləvi
kitabxanası) yaradılması 1073
Xəzər Universitetinin Kitabxana
İnformasiya Mərkəzinin yaradılması 1073
Xocalı Şəhəri Günü.....717, 793
Xocavənd Şəhəri Günü 717, 794
Xocavənd, Şuşa və Tərtər
rayonları) yaradılması barədə
qərar qəbul edilmişdir 551
Xocalı soyqırımı günü 97, 181

İ

İbadullayev Əli Əziz oğlu 296, 311
İbıray Altınsarin 798
İbrahimov Ağaəli Müsəllim oğlu 90, 105
İbrahimov İshaq İbrahim oğlu 90, 99
İbrahimov Mirələkbər Mirələsgər
oğlu 713, 746
İbrahimov Mirzə Əjdər oğlu 798, 807
İbrahimov Nurəddin İslam oğlu 185, 221
İbrahimov Rafiq Hüseyn oğlu 12, 77
İbrahimov Sadıq Qurbanqulu
oğlu (Sadıq Elcanlı) 7
İbrahimova Şəhla İbrahim qızı 894, 909
İlk Beynəlxalq Nobel mükafatının
verilməsi 1074
İmamverdiyev Qabil Allahverdi
oğlu (Qabil) 624, 634
İmanquliyev Nəsir Əsəd oğlu 973, 1048
İmanov Qorxmaz Cahangir oğlu 300, 363
İmanov Samid Gülağa oğlu 799, 822
İnşaatçılar Günü 302
İrqi ayrı-seçkiliyin
(diskriminasiyanın) ləğv edilməsi
uğrunda Beynəlxalq Mübarizə Günü 191
İsgəndərov Anar Camal oğlu 11, 66
İsgəndərli Tofiq Şamxəlil oğlu 185
İsgəndərov Bala Ağa-Hüseyn oğlu 974, 1054
İsmayıl Salam Xeyrulla oğlu
(Salam İsmayıl) 297, 330
İsmayılov Amin İsmayıl oğlu 189, 270
İsmayılov Ənvər Ələkbər oğlu 296, 310
İsmayılov Həbib Ələkbər oğlu 92, 124
İsmayılov İsmayıl Mahmud oğlu 805, 883
İsmayılov Nadir İslam oğlu 97, 173
İsmayılov Rasim Rza oğlu 546, 566
İsmayılova Səkinə Qulu qızı 91, 118
İsmayılzadə İsa Mustafa oğlu 183
İsmayılzadə Rauf Yusif oğlu 7, 20
İsrafilov Aftandil Eynulla oğlu 7, 23
İsrafilova Nelufər Möhsün qızı 804

J

Jurnalistlərin Beynəlxalq
Həmrəylik Günü 717

K

Karamzin Nikolay Mixayloviç 968, 983
Karmen (Kornman) Roman
Lazareviç 895, 912
Kasım Tınıstanov 711, 719
“Kaspi” qəzetinin nəşr edilməsi 1074
Kaşanlı Rafiq Rizvan oğlu 301
Kazımov Davud Mehdi oğlu 894, 907
Kazımov Əli İmran oğlu 95
Kazımov Nurəddin Mustafa oğlu 301, 365
Kazımova Aygün Ələsgər qızı 8
Kazımzadə Kazım Cəfər oğlu 184, 218

Kəlbəcər rayonunun Ağdaban
kəndində erməni separatçıları
tərəfindən soyqırım törədilmişdir 302
Kəlbəcər Şəhəri Günü 899, 964
Kəlbəliyev Qüdrət İsfəndiyar oğlu 898, 953
Kənd Təsərrüfatı İşçilərinin Peşə
Bayramı Günü 899
Kərbəlayı Lətif Hüseyn oğlu 1070, 1084
Kərəmov Nurəddin Kərəm oğlu 190
Kərimli Xanəli Abbasəli oğlu
(Xanəli Kərimli) 898, 947
Kərimov Bəşir Bəylər oğlu 92, 126
Kərimov Elgiz Kərim oğlu 8, 33
Kərimov Əflatun Xudkar oğlu 898, 951
Kərimov Əhməd Musa oğlu
(Əhməd Oğuz) 894
Kərimov Əli Paşa oğlu (Əli Kərim) 184
Kərimov İnqilab Saleh oğlu 300, 364
Kərimov Kazımağa Mövsüm oğlu 712, 742
Kərimov Kərim Cabbar oğlu 716
Kərimov Kərim Məhəmməd oğlu 546, 571
Kərimov Lətif Hüseyn oğlu 894, 908
Kərimova Flora Ələkbər qızı 545, 561
Kərimova Tahirə Məmməd qızı 798
Köçərli İradə Tofiq qızı 711, 729
Konstitusiya Günü 899, 960

Q

Qacar Qovanlı Bəhmən Mirzə
Abbas Mirzə oğlu 803
Qadın Zorakılığına Qarşı
Beynəlxalq Mübarizə Günü 899
Qafarlı Əlihüseyn Əbdülrəhim oğlu 184, 214
Qafarova Roza Zeynal qızı 898
Qafurova Leyla Yusif qızı 191, 286
“Qarabağ Dirçəliş Fondu”
yaradılmışdır 13, 85
Qarabağ iqtisadi rayonunun
(Xankəndi şəhəri, Ağcabədi,
Ağdam, Bərdə, Füzuli, Xocalı,
Qaracaoğla 1069, 1079
Qaradağ rayon MKS yaradılması 1073
Qaraheybət faciəsi 899, 966
Qarakənd faciəsi 899, 962
Qaralov Zakir Bəkir oğlu 11
Qarayev Bəhmən İbrahim oğlu
(Aşıq Bəhmən Göyçəli) 377
Qarayev Yasin Mikayıl oğlu 378, 398
Qarayev Yaşar Vahid oğlu 189, 272
Qarayev Zakir Ömər oğlu 898
Qarayeva Xanım İsmayıl qızı 296, 305
Qarayeva-Məmmədova Bilqeyis
Mir Əbdül Qəni qızı 712
Qardaşov Rauf Hacı oğlu 12, 79
Qars müqaviləsi imzalanmışdır 805
Qasımov (Qasımzadə) Böyükağa
Məmməd oğlu 183, 198
Qasımov Əbülfəz Cəbrayıl oğlu 973
Qasımov Ədalət Qasım oğlu 973
Qasımov Əli Teymur oğlu 297, 331
Qasımov Hacı İbrahim oğlu 1069
Qasımov Mehbalı Məhəmməd oğlu 382, 447
Qasımov Natiq Səlim oğlu 8,32
Qasımov Rafiq Yunis-Əli oğlu 470, 535
Qasımova Xuraman Əkrəm qızı 464, 482
Qasımzadə Məmmədcavad
Süleyman oğlu 805
Qaspiralı (Qasprinskaya) Şəfiqə
İsmayıl bəy qızı 804
Qaspralı (Qasprinski) İsmayıl bəy
Mustafa ağa oğlu ... 189, 276
Qayıbov Fərrux ağa
Məmmədkərimağa oğlu 803
Qaz Təsərrüfatı İşçilərinin Peşə
Bayramı Günü 470
Qazax rayonunun Bağanıs Ayrım,
Aşağı Əskipara, Xeyrımlı və
Qızılhacılı kəndləri işğaldan azad
olunmuşdur 384
Qədirov Əliabbas Gülabbas oğlu 91, 121
Qəhrəmanov Əliheydər Baba oğlu 805, 884
Qəhrəmanov Nəcəf Tofiq oğlu 13, 81
Qəmbərov Yunis Heydər oğlu 190, 281
Qəmər bəyim Şeyda 1069
Qəniyev Anatollu Mirzə Heydər oğlu 91, 113
Qəniyev Məmməd Gülabı oğlu
(Aşıq Xındı Məmməd) 1069
Qənizadə Sultanməcid Hacı
Murtuzəli oğlu 1071, 1091
Qobustan Dövlət Tarixi-Bədii
Qoruğunun yaradılma 717, 788
Qobustan rayon
Mərkəzləşdirilmiş Kitabxana
Sisteminin yaradılması 1073

Qocayev Məmməd Qoca oğlu 12
Qocayev Niftalı Mehralı oğlu 804, 880
Qubadlı Şəhəri Günü 805, 892
Qubadov Arif Vəliş oğlu 712, 744
Quləhmədov Əbdülqafur Yunis oğlu 377
Quliyev Asim Rzaqulu oğlu 7, 18
Quliyev Azay Əjdər oğlu 469
Quliyev Eldar Allahyar oğlu 549, 608
Quliyev Eldar Tofiq oğlu 8, 27
Quliyev Elşad Heybət oğlu 12, 76
Quliyev Emin Ələkbər oğlu 625, 647
Quliyev Ələkbər Məmməd oğlu 716
Quliyev Həsən Hüseyn oğlu 629
Quliyev Məmməd Mehdi oğlu 91, 112
Quliyev Musa İsa oğlu 898, 952
Quliyev Nəriman Ağaqulu oğlu 974
Quliyev Nurəddin Əzulla oğlu
(Nurəddin Mehdixanlı) 799, 815
Quliyev Şahlar Həsənağa oğlu 712, 734
Quliyev Ülvi Zahid oğlu 716, 780
Quliyeva Fizurə Müseyib qızı 302, 370
Quliyeva Zəhra Teymur qızı 712, 731
Quluzadə Lətifə Nəsir qızı 624, 639
Qumi Qazi Əhməd 382
Qurban bayramı 1074, 1099
Qurbanov (Qurbani) Abdulla
Novruz oğlu 968, 976
Qurbanov Ağadadaş Gülməmməd
oğlu 184, 212
Qurbanov Azad İsa oğlu 470, 538
Qurbanov Elşad Məcnun oğlu 12, 80
Qurbanov Əhmədağa Əkbər oğlu
(Əhmədağa Muğanlı) 377, 386
Qurbanov Maqsud Rüstəm oğlu 383
Qurbanov Telman Xudam oğlu 898, 949
Qutqaşınlı İsmayıl bəy Sultan
Nəsrulla oğlu 11, 64

L

Laçın rayon Mərkəzləşdirilmiş
Kitabxana Sisteminin yaradılması 1073
Laçın Şəhəri Günü 631, 709
Lalayev Əliqismət Hümmət oğlu 549, 609
Latın qrafikalı Azərbaycan
əlifbasının bərpa olunması
haqqında qanun qəbul edilmişdir 975
Lerik rayonunda ilk kütləvi
kitabxanası fəaliyyətə başlaması 1072
Leskov Nikolay Semyonoviç 90
Litvişkov Yuriy Nikolayeviç 190, 283
Lomonosov Mixail Vasilyeviç 898

M

M.Maqomayev adına Azərbaycan
Dövlət Akademik Filarmoniyası 384, 461
Mahmudbəyova Məryəm Fərəməz qızı 13
Mahmudova Tamilla Zahid qızı 297
Mahmudzadə Ələkbər Mahmud
oğlu (Əli Nazim) 897, 946
Makeyev İqor Vladimiroviç 799, 824
Maqatayev Müqağalinin (Məhəmmədəli) 90
Mansurov Bəhram Məşədi
Süleyman bəy oğlu 91, 114
Mehdiyev Fazil Umud oğlu 625, 650
Mehdiyev İmran Əzim oğlu 12, 71
Mehdiyev Məhəmməd Fərman oğlu 804, 878
Mehdiyev Məmməd Əsəd oğlu 1072
Mehdiyev Rafiq İsrafil oğlu 974, 1058
Mehdiyev Tofiq Mahmud oğlu
(Tofiq Mahmud) 894, 900
Mehdiyeva Səlimə İbrahim qızı 383, 452
Mehmandarov Səməd bəy Sadıq
bəy oğlu 803, 866
Mehmet Rüfət İlqaz 296, 307
Mehmet Ziya Göyalp 189, 266
Mehrəliyeva Fatma Yusif qızı 464, 481
Mehriban Mürvət qızı (Mehriban
Zəki) 969, 999
Məcidov Zakir Nüsrət oğlu 465, 491
Məhərrəmov Kamil Fərman oğlu 378
"Məktəb" ədəbi, elmi jurnalın
nəşr olunmasının 899, 965
Məlik-Aslanova Püstə Süleyman
bəy qızı 96, 171
Məlikov Rəhim bəy Mehrəli bəy
oğlu 383, 449
Məlikova Qəribsoltan Həsən bəy
qızı 469, 531
Məlikova Nəcibə Haşım qızı 799, 818
Məlikova-Abayeva Hənifə xanım
Aslanbəy qızı 383, 450
Məmmədəliyeva Sevda Yusif qızı 897, 942
Məmmədəliyev Vamiq
Məmmədəli oğlu 464, 483

Məmmədli Şurəddin Bahəddin oğlu 96, 167
Məmmədoğlu Əsgər (Ələsgər
Məmmədoğlu) 91, 120
Məmmədov Arif Məhəmməd oğlu 96
Məmmədov Arif Məmməd oğlu 804
Məmmədov Aydın İsrafil oğlu 549, 606
Məmmədov Bəxtiyar Əjdər oğlu 12
Məmmədov Elçin Mehdi oğlu 378, 394
Məmmədov Ələşrəf Veysəl oğlu 898, 948
Məmmədov Əliqulu Məmmədqulu oğlu 550
Məmmədov Əyyub Əliağa oğlu 7
Məmmədov Firudin İbrahim oğlu 550, 616
Məmmədov Fuad Teyyub oğlu 804, 877
Məmmədov Hafiz Məmməd oğlu 1070
Məmmədov Hikmət Baba oğlu 300, 362
Məmmədov Kənan Əzizağa oğlu 799, 816
Məmmədov Məmmədağa Əhməd
oğlu 383, 455
Məmmədov Mirkazım Mirəhəd oğlu 974
Məmmədov Mirzə Muxtar Mirzə
Əli Əsgər oğlu 1070
Məmmədov Ramiz Soltanəli oğlu 712, 741
Məmmədov Rəşid Rza oğlu 91, 110
Məmmədov Sabir Novruz oğlu 8, 30
Məmmədov Sabit Eyyub oğlu 804
Məmmədov Seymur Qəhrəman
oğlu 712, 743
Məmmədov Tahir Hidayət oğlu 184, 205
Məmmədov Yaqub Cavad oğlu 190
Məmmədov Zakir Cabbar bəy oğlu 629, 689
Məmmədova Arzu Raiz qızı 91
Məmmədova Fəridə Cəfər qızı 628, 687
Məmmədova Fəridə Kamal qızı 712, 735
Məmmədova Lətifə Adil qızı 630, 702
Məmmədova Məsumə Hüseyn qızı 630, 701
Məmmədova Zümrüd Mövlud qızı 297, 319
Məmmədrza Afiyət (Mərəndi)
Abdulla oğlu 12, 75
Məmmədsalahlı Ələkbər Baba oğlu 183, 196
Məmmədvəliyev Seyfəddin
Mənsim oğlu 377, 393
Məmmədyarov Əliyar Müslüm oğlu 384
Mərdanov Misir Cumayıl oğlu 804, 879
Məsimov Qurban Abdulla oğlu 8
Mikayılzadə Eldar Hidayət oğlu 7, 19
Miqrasiya Orqanları İşçilərinin
Peşə Bayramı Günü 191
Milli Aviasiya Akademiyasının
kitabxanası istifadəyə verilməsi 1073
Milli Dirçəliş Günü 899, 961
Milli Kitabxananın "Əlamətdar
və tarixi günlər təqvimi"nin nəşrə
başlaması 1074
Milli Qurtuluş Günü 470, 540
Milli Mətbuat və Jurnalistika Günü..... 551, 622
Milli Musiqi Günü (Üzeyir
Musiqi Günü) (18.09.1995) 717, 790
Milli Təhlükəsizlik Orqanları
İşçilərinin Peşə Bayramı Günü 191
Milli Teatr Günü 191, 289
Mingəçevir Şəhərində ilk
kitabxananın yaradılması 1073
Mir Yəhya əl Hüseyni Qəzvi 1071
Mirheydər Mustafa oğlu Feyzullin 798
Mirməmmədli Hikmət Seyid
Hüseyn oğlu 184
Mirməmmədli Nailə Ağabala qızı 378, 397
Mirzə Ələsgər Növrəs 1069, 1077
Mirzə Məhəmməd Əli Mirzə
Əbdürrəhim oğlu (Saib Təbrizi) 1069
Mirzəyev Bəhram Rüstəm bəy oğlu 301
Mirzəyev Ceyhun Cəmil oğlu 297, 324
Mirzəyev Murad Telman oğlu 185, 224
Mirzəyev Ramiz Həsənağa oğlu
(Ramiz Həsənoğlu) 297, 326
Mirzəyev Rəhim bəy Mirzə
Məmmədbağır oğlu (Mirzə
Rəhim Fəna) 1069
Mirzəyev Sucəddin Qiyas oğlu 465, 487
Mirzəyev Teymur İbrahim oğlu 1070, 1086
Mirzəzadə Böyükağa Məşədi oğlu 90, 108
"Molla Nəsrəddin" jurnalı 302, 372
Moskvada Nizami Gəncəvinin
abidəsi açılmışdır 805
Motsart Volfqanq Amadey 8, 24
Möminə Xatun türbəsinin inşası 1074, 1095
Mövsümov Məhərrəm Ağabala oğlu 1070
Muradov Xanlar Yunus oğlu 297, 333
Muradov Məmmədağa
Məmmədhəsən oğlu 91, 117
Musabəyov Rasim Nəsrəddin oğlu 11, 61
Musaxanov Kamal Ağa Paşa oğlu 545, 558
Musayev Musa Əbdürrəhman oğlu 974
Musayev Surxay Novruz oğlu 96
Musayeva Azadə Şahbaz qızı 804, 876

Musayeva Şükufə İmran qızı 297, 328
Musayeva Tamilla Həşim qızı 973, 1045
Musxelişvili Nikolay İvanoviç 1072
Mustafa Nihad Bəhramoğlu
(Nihad Bəhram) 894, 904
Mustafayev Əmir Gülbala oğlu 183, 194
Mustafayev Həsənağa Hacağa oğlu 624, 637
Mustafayev İslam İsrafil oğlu 898, 950
Mustafayev Qara Teyfur oğlu 974
Mustafayev Ramiz Hacı oğlu 798, 813
Mustafayeva Güllü Hacağa qızı 894
Mustafayeva Sədayə İsmayıl qızı 546, 567
Müasir Olimpiya Oyunlarının ilk
dəfə Afinada keçirilməsi 1074
Müdafiə Sənayesi Nazirliyi
İşçilərinin Peşə Bayramı Günü 975
"Müstəqil Dövlətlər Birliyi"nin
(MDB) yaradılmışdır 975
Müstəqillik Günü 384, 462
Müstəqilliyin Bərpası Günü 805, 889

N

N.Gəncəvi adına Lökbatan qəsəbə
kütləvi kitabxanası 898
N.Gəncəvi adına Naftalan şəhər
kitabxanasının yaradılması 1073
Nağısoylu (Nağıyev) Möhsün
Zellabdin oğlu 716, 781
Nağıyev Faiq Həbib oğlu 91, 116
Nağıyev Tofiq Murtuza oğlu 190, 280
Nağıyev Vaqif Mirəsgər oğlu 301
Naxçıvan MR Ali Məclisinin
Heydər Əliyevin sədrliyi ilə
keçən iclasında 31 dekabrın
dünya azərbaycanlılarının
həmrəylik bayramı kimi qeyd
olunması barədə qərar qəbul edilmişdir 975
Naxçıvan şəhər Mərkəzləşdirilmiş
Kitabxana Sisteminin yaradılması 1073
Naxçıvani Həsən İbn Ömər (Şeyx
Həsən Naxçıvani Bulquri və ya
Təbrizi kimidə tanınmışdır)
Nailə İslamzadə 897, 943
Namazov Zilli Yunis oğlu 712, 737
Namazova Ədilə Əvəz qızı 716, 785
Narkomaniya və Narkobiznesə
qarşı Beynəlxalq Mübarizə Günü 471
Neftçilər Günü 717
Nekrasov Nikolay Alekseyeviç 968
Nemətulla Ağa 1072
Nərimanbəyov Vidadi Yaqub-
Fərman oğlu 545, 555
Nərimanov rayon MKS yaradılması 1073
Nərimanov rayon MKS-nin 1saylı
filialı (A.P.Çexov adına kütləvi
kitabxana) yaradılması 1073
Nərimanov rayon MKS-nin 3
saylı filialının (T.Şahbazi adına
kütləvi kitabxana) yaradılması 1073
Nəsibov Kamil Balədə oğlu 799, 821
Nəsimi adına Dilçilik İnstitutunun
kitabxanasının yaradılması 1072
Nəsimi rayon MKS yaradılması 1073
Nəsimi rayonunda ilk kitabxana
M.Əzizbəyov adına kütləvi
kitabxananın yaradılması 630, 702
Nəsirli Müzəffər Qasım oğlu 711
Nəsirov Mustafa Cəfər oğlu 803
Nəsirov Yalçın Canhəsən oğlu 8, 35
Nəsirova Ulduzə Sülüyman qızı 297, 332
Nəsrəddinov Rafiq Hüseyn oğlu 185, 222
"Nəşri-Maarif" xeyriyyə cəmiyyəti 630, 703
Nəvai Nizaməddin Mirəlişir oğlu
(Əlişir Nəvai) 90, 103
Nəzərli Hikmət Baba oğlu 185, 220
"Nicat" maarif cəmiyyətinin
yaradılmasının 120 illiyi 191, 288
Niftalı Süleymanov 1070
Nizami adına Ədəbiyyat
İnstitutunun kitabxanasının yaradılması 1072
Nobel Emmanuel 191
Nobel Lüdviq 550
Novruz bayramı 191, 290
Nuriyev Aləm Bayram oğlu 803, 871
Nuriyev Yaşar Məmmədsadıq oğlu 712, 736
Nurullayev Razi Qulaməli oğlu 300

O

Oğuz rayon Mərkəzləşdirilmiş
Kitabxana Sisteminin yaradılması 1073
Oğuz rayonunda ilk kitabxana
yaradılması 1072
Olimpiya muzeyinin yaradılmasının 191
Ordubadda Ədəbi məclis

"Əncüməni-şüəra"nın yaranması 1074
Orlinskaya Solmaz (Nina)
Qaragen qızı 712, 740
"Orucov Qardaşları" mətbəə-
nəşriyyatının yaradılması 1074
Orucov Vəzir Surxay oğlu 970, 1006
Orucova Almaz Ədil qızı 464, 480
Orucova Nahidə Mülük qızı 546, 568

P

Parklara Yürüş Günü 302
Paşayev Baxşeyiş Xanəhməd oğlu 378, 401
Paşayev Fərmail Sabir oğlu 799, 817
Paşayev Hafiz Mir-Cəlal oğlu 382, 442
Pənahov Əlipənah Ələsgər oğlu
(Aşıq Pənah) 968, 981
Pərvin xanım Ehtisamin 183, 202
Pikasso Pablonun 798
Pletnyov Vladimir Nikolayeviç 969, 989
Polis Akademiyasının Ümumi
kitabxanasının yaradılması 1072
Prezident İlham Əliyev Bakı
şəhərində Heydər Əliyev
Mərkəzinin yaradılması haqqında
sərəncam imzalamışdır 975
Prokurorluq İşçiləri Günü 805

R

Rabitə və İnformasiya
Texnologiyaları Sahəsi İşçilərinin
Peşə Bayramı Günü 975
Ramazan bayramı 1074, 1100
Ramazanov Şamil Ağasəf oğlu 8, 34
Raykin Arkadi İsaakoviç 799
Rembrandt Harmens Van Reyn 545, 556
Rəcəbov Oqtay Məmmədağa oğlu 296, 316
Rəfiyev Akif Bəşir oğlu 189, 267
Rəfiyev Elman Məmmədrza oğlu 8
Rəhimli Rafiq Səfər oğlu 12, 73
Rəhimov Arif Süleyman oğlunun
(Şamo Arif) 545, 552
Rəhimov İlham Məmmədhəsən oğlu 11, 63
Rəhimov Şamo Süleyman oğlu 301
Rəhimova Elmira Allahverdi qızı 624, 641
Rəhmanzadə Maral Yusif qızı 545, 557
Rəsulov Məcid Lətif oğlu 550, 614
Rəsulova Lidiya Xudat qızı 973
Rəsulzadə Rais Azər oğlu 894, 906
Rimazi Nəzakət Hüseyn qızı 91
RK(b)P Qafqaz Bürosu Dağlıq
Qarabağın Azərbaycanın
tərkibində saxlanılması və
mərkəzi Şuşa şəhəri olmaqla
muxtar vilayətin yaradılması
barədə qərar qəbul edilib 551
Rüstəmbəyov Əsəd Fətulla oğlu 716
Rüstəmxanlı Sabir Xudu oğlu 377, 387
Rüstəmov Cahangir Mahmud oğlu 184, 206
Rüstəmov Eldar Səid oğlu 545, 560
Rüstəmov Elşən Mərdan oğlu 8
Rüstəmov Fərrux Abbas oğlu 12, 72
Rüstəmov Nazir Mürsəl oğlu 297, 325
Rüstəmov Saleh Hacı oğlu 630
Rüstəmzadə Süleyman Əliabbas
oğlu (Süleyman Rüstəm) 183, 193
Rzaquliyev Elbəy Mirzə Həsən oğlu 464, 477
Rzayev Seyfəddin Gülverdi oğlu 629
Rzayev Yaşar Hüccətulla 300
Rzazadə Yalçın İmran oğlu 969, 995

S

Sabunçu rayon MKS yaradılması 1073
Sabunçu rayon MKS-nin 11
saylı filialının (M.Ə.Sabir
adına Balaxanı qəsəbə kütləvi
kitabxanası) yaradılması 1072
Sadıq Əsəd oğlu (Sadıqcan) 1070
Sadıqov Əliövsət Şirəli oğlu 969, 990
Sadıqov Ənvər Hidayət oğlu 297, 323
Sadıqov Novruz İsmayıl oğlu
(Novruz Gəncəli) 711
Sadıqov Orxan Fikrət oğlu
(Orxan Fikrətoğlu) 189, 275
Sadıqzadə Oqtay Seyid Hüseyn oğlu 91, 109
Salahlı (Salayev) Əli Məmməd oğlu 465, 488
Salahov Mustafa Sətdar oğlu 700
Salahov Şakir Şamil oğlu 465, 490
Salamzadə Əbdülvahab Rəhim oğlu 96, 166
Salayev Fazil İdris oğlu 712
Salayev Həsənağa Dərya oğlu 969, 997
Salmanlı Ağaxan Əli oğlu 799, 819
Salmanov Fərman Qurban oğlu 550
Salmanova Gülnar Əlifağa qızı 546, 570
Saltıkov-Şedrin Mixail Yevqrafoviçin 7,17

Sarıcalinskaya Kamilə Qiyas qızı 803, 867
Seyfi Ələkbər Seyfulla oğlu 184, 216
Seyid Məhəmmədhüseyn
Behcət Təbrizinin (Seyid
Məmmədhüseyn Şəhriyar) 1069, 1078
Seyyid Əli ibn Harun ibn
Əbülqasim Hüseyni Təbrizi (Şah
Qasım Ənvar) 1069
Səbail rayon MKS yaradılması..... 1073
Sədərək rayon Mərkəzləşdirilmiş
Kitabxana Sisteminin yaradılması 717
Sədiyev Vəzir İsa oğlu 465, 489
Səfərova Xalidə Ələkbər qızı 624, 638
Səfiəddin Əbdül Mömin ibn Yusif
ibn Faxir əl-Urməvi 1070
Səid Faiq Abasıyanıq (Sait Faik
Abasıyanık) 894, 905
Səlimov Arif Ağacan oğlu 469, 532
Səmədov Niyazi Həmid oğlu 974, 1056
Səmədov Səməd 712, 730
Sənani Ofelya Hacağa qızı 378, 399
Simax Şeyda-Yuşbayev Barux oğlu 464, 472
Skot Valterin 624
Su Təsərrüfatı və Meliorasiya
İşçiləri Günü 470
Sultanlı Əli Abdulla oğlu 973, 1050
Sultanov Eynəli bəy Çölbəyi bəy
oğlu 377, 385
Sultanov Hacıbəy Fərəculla oğlu 716, 784
Sumqayıt Dövlət Universitetinin
kitabxanasının yaradılması 1073
Suraxanı gəmi-muzeyinin yaradılması 191
Suraxanı rayon MKS yaradılması..... 1073
Suraxanı rayon MKS-nin
1saylı filialı (A.A.Bakıxanov
adına Əmircan qəsəbə kütləvi
kitabxanası) yaradılması 1072, 1094
Süleymanov Ələkbər Bağır oğlu ... 975, 1061
Süleymenov Oljas Ömərəviç 377, 390

Ş

Şadlinski Abbasqulu bəy
Xanbaba bəy oğlu 95, 162
Şah Abbas 11, 65
Şah Abbas məscidinin (Gəncə
Cümə Məscidi) inşa edilməsi 1074
Şahbazov Oqtay Qəşəm oğlu 897, 939
Şahbuz rayon Mərkəzi
kitabxanasının yaradılması 1073
Şahsuvarov Aydın Ağa oğlu 8, 28
Şahtaxtinskaya Leyla İsa Sultan
qızı 1071, 1092
Şahtaxtinski Behbud ağa 1071
Şahtaxtinski İsa Sultan Nəcəfqulu oğlu 550
Şahtaxtlı (Şahtaxtinski)
Məhəmməd ağa Məhəmmədtağı
Sultan oğlu (Məhəmməd ağa
Şahtaxtinski) 1071, 1090
Şair Yusifzadə Əbdülbaqi Yusif oğlu 90
Şamçızadə Əli Yəhya oğlu (Əli Razi) 1069
Şedrin Silvestr Feodosiyeviç 90
Şeyxov Elxan Cəfər oğlu 184, 213
Şərifov Samir Rauf oğlu 716, 778
Şərifova Salidə Şəmməd qızı 12
Şərqi Zəngəzur iqtisadi rayonu
(Cəbrayıl, Kəlbəcər, Qubadlı,
Laçın və Zəngilan rayonları)
yaradılmışdır 551
Şıxəlibəyli Ədhəm Şahlarbəy oğlu 301, 367
Şıxəliyev Adil Həmdulla oğlu 296, 312
Şıxəliyev Oqtay Yusif oğlu 711, 721
Şıxızadə Kazım ağa Şıxı ağa oğlu 1069
Şirazi Qütbəddin Mahmud ibn Məsud 1072
Şirəliyeva Tamilla Xudadat qızı 969, 988
Şirinov Xanlar Cəbrayıl oğlu 1072
Şostakoviç Dmitri Dmitriyeviç 712, 733
Şou Corc Bernar 545, 553
Şuşa rayonu işğaldan azad olunmuşdur 899
Şuşa şəhəri “Azərbaycanın
mədəniyyət paytaxtı” elan edilmişdir 384
Şuşa Şəhəri Dövlət Qoruğu
İdarəsinin yaradılması haqqında
fərman İmzalamışdır 471, 542
Şuşa Şəhəri Günü 899, 958
Şükürov Ağayar Məhəmməd oğlu 189, 271
Şükürov Kərim Kərəm oğlu 382, 445

T

Tağıyev Məmməd Tağı oğlu 301
Tağıyeva Anaxanım Etibar qızı
(Azərin) 378, 396
Tağıyeva Şövkət Əzizağa qızı 469, 528
Tağızadə Qarasim Əbdülhəsən oğlu 629, 697
Tahiri Söhrab Əbülfəz oğlu 377, 388

Tahirov Kərim Məhəmməd oğlu 898, 954
Taqor Rabindranat 377
Talıbzadə Abdulla Axund Mustafa
oğlu (Abdulla Şaiq) 90, 100
Tarixi Abidələrin Mühafizəsi Günü 302, 374
Tarzən Haqverdiyev Məşədi Zeynal..... 1070
Təbrizi Hacı Mirzə Həsən Mehdi
oğlu (Hacı Mirzə Həsən Rüşdiyyə) 549
Təcavüzə Məruz Qalmış
Uşaqların Beynəlxalq Müdafiəsi Günü 470
Tərtərdə rus-tatar məktəbinin
nəzdində ilk kitabxana açılmışdır 1072
Tixonov Nikolay Semyonoviç 968, 982
Toloqon Qasımbəyov 7
“Torpaq islahatı haqqında” Qanun
qəbul edilmişdir 551
Tukay Abdulla Məhəmmədarif oğlu 296, 308
Tuqanov Aleksandr Alensandroviç 185
Turizm İşçiləri Günü 717
Tursunzadə Mirzon 377, 389
Türkdilli Dövlətlərin Əməkdaşlıq Günü 805
Türkiyə Cümhuriyyətinin Zəfər
Bayramı Günü 631
Türkiyənin Aralıq dənizi
sahilindəki Ceyhan (Adana
vilayəti) limanında Bakı-Tbilisi-
Ceyhan neft kəmərinin təntənəli
açılışı keçirilib 551

U

Ukraynanın Çernobl şəhərində
AES-də baş vermiş qəzanın 40-cı
ildönümü 303
Ulu öndər Heydər Əliyevin
fərmanı ilə Azərbaycanda Dini
Qurumlarla İş üzrə Dövlət
Komitəsi yaradılmışdır 470
Uşaqların Beynəlxalq Müdafiəsi
Günü 470, 539
Uşaqların Beynəlxalq Televiziya
və Radio Verilişləri Günü 975
Uşaqlıgil Xalid Ziya 545, 554

Ü

Ümumdünya Aviasiya və
Kosmonavtika Günü 302
Ümumdünya Diabetlə Mübarizə Günü 899
Ümumdünya Əməyin Mühafizəsi Günü 303
Ümumdünya Ətraf Mühitin
Mühafizəsi Günü 470
Ümumdünya Gülüş Günü 302
Ümumdünya Hemofiliya Günü 302
Ümumdünya Xərçənglə Mübarizə Günü 97
Ümumdünya İnsan Alverinə
Qarşı Mübarizə Günü 551
Ümumdünya İnsan hüquqları Günü 975, 1064
Ümumdünya İstehlakçılar Günü 191
Ümumdünya Qaçqınlar Günü 470
Ümumdünya Qızıl Xaç və Qızıl
Aypara Günü 384
Ümumdünya QİÇS-ə Qarşı
Mübarizə Günü 975,
Ümumdünya Qida Təhlükəsizliyi Günü 470
Ümumdünya Quşları Müşahidə Günü 805
Ümumdünya Meşələr Günü 191
Ümumdünya Meteorologiya Günü 191
Ümumdünya Metrologiya Günü 384
Ümumdünya Mülki Müdafiə Günü 191
Ümumdünya Okeanlar Günü 470
Ümumdünya Ozon Qatının
Mühafizəsi Günü 717
Ümumdünya Poçt Günü 805
Ümumdünya Sağlamlıq Günü 302
Ümumdünya Salam Günü 899
Ümumdünya Səs Günü 302
Ümumdünya siyasi repressiya
qurbanlarının xatirə günü 805
Ümumdünya Su Günü 191
Ümumdünya Su Məmələlərinin
Mühafizəsi Günü 97
Ümumdünya Telekommunikasiya
və İnformasiya Cəmiyyəti Günü 384
Ümumdünya Televiziya Günü 899
Ümumdünya Tütünlə Mübarizə Günü 384
Ümumdünya Uşaqlar Günü
(Ümumdünya Uşaq Hüquqları Günü) 899
Ümumdünya Yaşayış Yerini
Qoruma Günü 805
Ümumdünya Yazıçılar Günü 191
Ümumdünya Yer Günü 303
Ümumdünya Yoxsulluqla
Mübarizə Günü 805
Ümumxalq Hüzn Günü 13, 88
Ümummilli lider Heydər Əliyevin

anım günü 975, 1065
V
Vergi Xidməti İşçilərinin Peşə
Bayramı Günü 97
Veysəlli Nemət Bayramalı oğlu 183
Vəkilov Səməd Yusif oğlu 183, 199
Vəlibəyov Səfərəli bəy Şıxhəsən
bəy oğlu 1071
Vəlixanov Aqşin Məmmədəli oğlu 378
Vəlixanov Nadir İsmayıl oğlu 897, 945
Vəliyev Əli Qara oğlu 90, 102
Vəliyev İsmayıl Ömər oğlu
(İsmayıl Vəlibəyli) 189, 274
Vəliyev Kamil Nəriman oğlu
(Kamil Vəli) 629, 693
Vəliyev Süleyman Vəli oğlu 968, 978
Vəliyev Teymur Süleyman oğlu 12, 70
Vəliyev-Baharlı Məhəmmədhəsən
bəy Nəcəfqulu bəy oğlu 1071
Vəlizadə İsgəndər Mahmud oğlu 301
Vəzirov Ədalət Səfərəli oğlu 297, 321

Y
Yaqubov Məmməd Haqverdi oğlu 96, 170
Yaqubov Şıxı Miriş oğlu 91, 119
Yaqubova Ella İsmayıl qızı 970, 1003
Yanğınsöndürənlərin Peşə Bayramı Günü 805
YARAT" Müasir İncəsənət
Məkanının təsis edilməsi 1074
Yasamal rayon MKS yaradılması 1073
Yefimenko Sergey Mitrofanoviç 711, 723
Yeni il bayramı 13, 84
Yəhyayev Elşad Məmmədhənifə
oğlu 378, 403
Yolçiyev Varis Musa oğlu 469, 530
Yusifbəyli Nəsib bəy Yusif oğlu 549, 602
Yusifov Yusif Niftalı ağa oğlu 804, 873
Yusifov Zakir Tofiq oğlu 712, 745
Yusifova Adilə Niyazi qızı 545, 562
Yusifzadə Əşrəf Əmrah oğlu 969, 996
Yüzbaşov Faiq Hüseyn oğlu 464, 478

Z
Zaqafqaziyada Qori Müəllimlər
Seminariyasının yaradılması 1074, 1096
Zamanov Abbas Fəttah oğlu 804, 874
Zeynallı Hənəfi Baba oğlu 1071, 1093
Zeynalov Bəhruz Mahmud oğlu 969, 992
Zeynalov Əsgər Məmməd oğlu 716, 783
Zeynalov Telman Heydər oğlu 798, 809
Zeynalova Nəsibə Cahangir qızı 297, 327
Zəfər Günü 899, 957
Zəfər Muzeyinin açılışı olmuşdur 899
Zəngilan Şəhəri Günü 805, 890
Zərbəliyev Sadıq Sirac oğlu 296, 317
Zhambyl Zhabaev 90
Ziyadlı Aydın Əbülfət oğlu 8, 25
Zülalov Rüstəm Qəmbər oğlu 8
Zülfüqarov Samir Xəlil oğlu 546, 572

İkinci Qarabağ Müharibəsi Şəhidlərinin Əlifba göstəricisi

A

Abakarov Nail Müzəffər oğlu 548, 597
Abasov Samir Adəm oğlu 627, 676
Abbasbəyli Həmid Cavanşir oğlu 896, 922
Abbaslı Elgin Ağayar oğlu 381, 426
Abbasov Ceyhun Natiq oğlu 92, 132
Abbasov İsa Faiq oğlu 625, 651
Abbasov Möhlət Eldəniz oğlu 187, 244
Abbasov Nemət Elçin oğlu 625, 654
Abbasov Nurhan Əlastan oğlu 467, 511
Abbasov Tacəddin Vüqar oğlu 971, 1015
Abbasov Teymur Feyruz oğlu 95, 156
Abbasov Zöhrab Natiq oğlu 714, 763
Abdullayev Balazadə Rafət oğlu 467, 515
Abdullayev Eldar Firidun oğlu 548, 596
Abdullayev Elməddin Telman oğlu 93, 140
Abdullayev Vaqif Rəşid oğlu 801, 847
Abdullayev Vüsal Şakir oğlu 187, 240
Abdullazadə İmaməddin Əsgər oğlu 625, 653
Abdullazadə Teymur Faiq oğlu 468, 518
Abdulov İdrət İbi oğlu 800, 832
Abdurahmanov Elvin Əbülfəz oğlu 799, 825
Abdurahmanov Əfqan Ağasəf oğlu 381, 436
Abışov Fərid Əlfayım oğlu 897, 936
Abışov Tacəddin Elşən oğlu 897, 936
Abışov Zəka Zakir oğlu 187, 245
Abiyev Vasif Vaqif oğlu 972, 1037
Adgözəlov Faiq Mehdi oğlu 713, 747
Adilov Şirəli İlham oğlu 466, 498
Ağali Zaur Kamil oğlu 971, 1017
Ağaliyev Müzəffər Vahid oğlu 972, 1038
Ağayev Ağa Əli oğlu 298, 342
Ağayev Ağamali Şamil oğlu 715, 771
Ağayev Ağamir Qüdrət oğlu 548, 588
Ağayev Cavidan Mirzağa oğlu 548, 591
Ağayev Ceyhun Cəmil oğlu 626, 660
Ağayev Əhəd Bilal oğlu 9, 45
Ağayev İlkin Tehran oğlu 466, 495
Ağayev Vahid Məcnun oğlu 714, 760
Ağazadə Emin Valik oğlu 187, 252
Alxaslı Rəvan Cəmil oğlu 9, 37
Alışanlı Amal Seyfəddin oğlu 93, 138
Alıyev Qələndər Nofəl oğlu 803, 863
Allahverdiyev Allahverdi Əli oğlu 547, 583
Allahverdiyev Elnur Kamil oğlu 547, 587
Allahverdiyev Nazir Xasay oğlu 299, 354
Allahverdiyev Rövşən Fərrux oğlu 895, 918
Allahverdiyev Sakit Şahin oğlu 972, 1020
Allahverdiyev Samir Elçin oğlu 466, 499
Allahverdiyev Süleyman Etibar oğlu 715, 770
Allahverdiyev Tacir Xasay oğlu 299, 355
Allahverdiyev Turxan Rəsul oğlu 298, 342
Allahverdiyev Zöhrab Sübhan oğlu 715, 775
Arazov Elçin Eldar oğlu 626, 660
Aslanov Röyal Elzar oğlu 381, 428
Aslanov Taleh Elman oğlu 970, 1008
Atakişiyev Ramiz Rafiq oğlu 186, 231
Atayev Taryel Fəxrəddin oğlu 713, 750
Azayev Ülvi Maqsud oğlu 970, 1011

B

Babayev Ağaşirin Firuz oğlu 381, 426
Babayev Babaxan Əlövsət oğlu 93, 135
Babayev Çingiz Sulduz oğlu 715, 768
Babayev Elməddin Cəfərqulu oğlu 802, 858
Babayev Elvin Əkbər oğlu 95,161
Babayev Kamal Eynulla oğlu 382, 438
Babayev Nihad Akif oğlu 628, 685
Babayev Orxan Sarvan oğlu 299, 351
Babayev Pərvin Hüseyn oğlu 715, 773
Babayev Rauf Fəxrəddin oğlu 466, 497
Babayev Samsun Şəmsəddin oğlu 298, 341
Babayev Taleh Xanmurad oğlu 970, 1009

Babayev Vüqar İlham oğlu 547, 578
Babazadə Babazeynal Maqsud oğlu 546, 574
Babazadə Xaqani Anar oğlu 93, 140
Babazadə Mirşəmsi Elşad oğlu 94, 149
Babazadə Ülfət Qabil oğlu 95,161
Bağırlı Hikmət Qəhrəman oğlu 715, 776
Bağırov Elnur Zeynal oğlu 186, 231
Bağırov Eşqin Rafiq oğlu 298, 339
Bağırov Nurlan İsmayıl oğlu 10, 48
Baxışov Cahangir Əmrah oğlu 298, 338
Baxışov Sadiq Bəkir oğlu 970, 1009
Balabəyov Ramil Ruslan oğlu 94, 151
Bayramlı Tural Ədil oğlu 93, 136
Bayramov Coşqun Ənvər oğlu 382, 437
Bayramov Elbrus Eyvaz oğlu 970, 1007
Bayramov Elcan Qoşqar oğlu 625, 652
Bayramov Əmrah Hüseyn oğlu 10, 47
Bayramov Həsən Ağaisa oğlu 467, 515
Bayramov Ruslan Azəroğlu 800, 833
Bayramov Ruslan Telman oğlu 467, 511
Bayramov Samir Elxan oğlu 627, 667
Behbudlu Behbud Rübail oğlu 713, 754
Behbudov Nofəl Həmid oğlu 466, 499
Beydiyev Nazim Eynulla oğlu 10, 53
Bədəlov Səhman Bəhmən oğlu 626, 665
Bədirov Murad Qismət oğlu 10, 54
Bədirov Nəcməddin Nurəddin oğlu 895, 917
Bəhruz Abbas oğlu 897, 937
Bəxtiyarov Orxan Sərvər oğlu 714, 758
Bəkirov Bəxtiyar Yavər oğlu 381, 429
Bəndəliyev Əliəkbər Qulu oğlu 299, 356
Bəyişli Elgün Teyuf oğlu 186, 232
Bəylərov Seymur Səlyəddin oğlu 468, 519
Binnətov Ruslan Rafiq oğlu 627, 674
Budaqov Rəşad Ramiz oğlu 186, 237
Burcəliyev İlqar Vüqar oğlu 186, 235
Bünyadlı Rəvan Asif oğlu 625, 655

C

Cabbarzadə Məmmədiyə
Məhəmməd oğlu 971, 1016
Cəbrayılov Rahib Ramil oğlu 972, 1034
Cəfərli Asim Çingiz oğlu 713, 749
Cəfərli Əli İsa oğlu 628, 682
Cəfərli Orxan Etibar oğlu 93, 143
Cəfərov Ayxan Cəmaləddin oğlu 713, 751
Cəfərov Röyal Vaqif oğlu 970, 1012
Cəfərov Ruslan Gündüzoviç oğlu 896, 925
Cəfərov Surxay Cümşüd oğlu 93, 143
Cəfərov Şəmsi Mahir oğlu 628, 680
Cəfərov Tacir Fariz oğlu 93, 134
Cəfərov Vüqar İnşallah oğlu 188, 254
Cəfərov Vüsal Şəfi oğlu 9, 44
Cəfərov Yusif Mübariz oğlu 300, 358
Cəlilov Elcan Famil oğlu 300, 359
Cəlilov Tural Callad oğlu 299, 347
Cuvarov Tural Zahid oğlu 300, 361

D

Dadaşov Əjdər Pənah oğlu 895, 919
Dadaşov Nurlan Səyyad oğlu 715, 774
Dadaşov Orxan Vaqif oğlu 95, 157
Dadaşzadə Hüseyn Zülfüqar oğlu 382, 438
Dadaşzadə Kənan Elman oğlu 465, 494
Daşdəmirov Elfak Eltun oğlu 300, 358
Daşdəmirov Elmar Seymur oğlu 896, 931
Daşdəmirov Orxan Rəfail oğlu 95, 159
Dəmirov Ədalət Nüsrət oğlu 895, 918
Dövlətzadə Cəbrayıl Dövlət oğlu 714, 757
Dursunov Fərid Fazil oğlu 549, 598
Dünyamalıyev Ceyhun Zeynal oğlu 801, 846

E

Eminov Tacir İntiqam oğlu 973, 1038
Eyvazlı Məzdək Əli oğlu 95, 158
Eyvazov Əbülhəsən Balaş oğlu 799, 826
Eyvazov Əli Sehran oğlu 468, 525

Ə

Əbilov Kamal Vidadi oğlu 381, 427
Əhmədli Elməddin Gülverən oğlu 10, 56
Əhmədli Qardaşxan Elxan oğlu 186, 236
Əhmədli Nurlan Rəhim oğlu 801, 842
Əhmədov Amal Rauf oğlu 379, 410
Əhmədov Asif Vasif oğlu 298, 341
Əhmədov Cavanşir Elxan oğlu 379, 413
Əhmədov Ehtiram Teyyub oğlu 188, 258
Əhmədov Qalib Rəşid oğlu 714, 757
Əhmədov Mərhəmət Adil oğlu 380, 423
Əhmədov Tacir Mehdi oğlu 299, 354
Əhmədov Tural İzətulla oğlu 466, 496
Əhmədzadə Elməddin Uğur oğlu 799, 825
Əhmədzadə Rüfət Əbülfət oğlu 801, 845
Əkbərov Mətləb Zülfiqar oğlu 10, 48

Əkbərov Rahil Canəhməd oğlu 185, 225
Ələkbərli Kənan Müşfiq oğlu 380, 424
Ələkbərov Telman İqdam oğlu 188, 264
Ələsgərov Həsrət Vahid oğlu 92, 132
Ələsgərov Sənan Əkram oğlu 971, 1023
Ələsgərov Yusif Yaşar oğlu 801, 844
Əlifov Rüfət Sehun oğlu 9, 36
Əlimuradov Cumart Şixrəhim oğlu 382, 441
Əliyev Anar Talıb oğlu 381, 425
Əliyev Aslan Elman oğlu 715, 771
Əliyev Aydın Nəriman oğlu 9, 41
Əliyev Bəybala Fazil oğlu 802, 855
Əliyev Cavid Samir oğlu 626, 661
Əliyev Cavid Şaban oğlu 380, 418
Əliyev Elsevər Hikmət oğlu 626, 658
Əliyev Elşən Novruz oğlu 10, 51
Əliyev Eltun Elnur oğlu 628, 682
Əliyev Əmirulla Vahid oğlu 800, 836
Əliyev Fərid Hamlet oğlu 187, 250
Əliyev Fərmin Fərman oğlu 187, 246
Əliyev Fuad Ramin oğlu 380, 419
Əliyev İlkin Bəxtiyar oğlu 95, 157
Əliyev Kamran Rasim oğlu 549, 601
Əliyev Qara Kamal oğlu 802, 852
Əliyev Malik Təvəkkül oğlu 972, 1033
Əliyev Məhəmməd Yaqub oğlu 382, 441
Əliyev Mirzağa Məmmədbağır oğlu 467, 509
Əliyev Murad Hüseyn oğlu 186, 238
Əliyev Orxan Ədalət oğlu 971, 1024
Əliyev Ramid Kamal oğlu 93, 134
Əliyev Ramil Qurban oğlu 187, 251
Əliyev Ramil Vüqarəddin oğlu 970, 1015
Əliyev Rəşad Əmiralı oğlu 299, 350
Əliyev Rəvan Yusif oğlu 382, 440
Əliyev Rövşən İbrahim oğlu 800, 829
Əliyev Şamil Xançoban oğlu 187, 248
Əliyev Tahir Mahir oğlu 548, 595
Əliyev Teymur İman oğlu 188, 259
Əliyev Təbriz Tofiq oğlu 627, 672
Əliyev Tural Arif oğlu 10, 46
Əliyev Turan Sulduz oğlu 547, 581
Əliyev Vüsal Məhəmmədəli oğlu 800, 829
Əliyev Yusif Asif oğlu 93, 137
Əlizadə Eltac İsmayıl oğlu 801, 847
Əlizadə Nicat Qorxmaz oğlu 714, 762
Əlizadə Yüksəl İlqar oğlu 466, 497
Əmənov Məhəmməd İltizam oğlu 714, 766
Əmiraslanov Amin Vaqif oğlu 546, 574
Əmiraslanov Ümman Namiq oğlu 971, 1026
Əsgər Kazımov İlqar Nazim oğlu 972, 1037
Əsgərov Fərid Ərəstun oğlu 381, 432
Əsgərov Firavan Xanbala oğlu 186, 238
Əsgərov Rüfət Mürvət oğlu 628, 684
Əsgərov Sadiq Elbəyi oğlu 971, 1018
Əsgərov Şəhriyar İsa oğlu 299, 349
Əsgərov Taqi Nizami oğlu 298, 344
Əzizov Elvin Əfrail oğlu 188, 258

F

Fərəcov Kamran İlqar oğlu 93, 141
Fərhadov Cəlaləddin Elxan oğlu 379, 405
Fərzəliyev Samir Vaqif oğlu 970, 1014
Fərziyev Saməddin Mehman oğlu 467, 513

G

Gizir Aslanov Ağasadıq Xəlil oğlu 185, 225
Gözəlov Xalid Həsən oğlu 895, 914
Gözəlov Rüfət Əzim oğlu 187, 242
Güləliyev Vüsal Azər oğlu 896, 924
Gülməmmədov Eşqin Rabil oğlu 626, 662

H

Hacıismayılov Rahib
Məmmədəmin oğlu 714, 764
Hacıyev Kənan İmran oğlu 895, 921
Hacıyev Rüstəm Firqani oğlu 715, 770
Hacıyev Sayad Azad oğlu 186, 239
Hacıyev Teymur Zaur oğlu 10, 55
Hacıyev Toğrul Rüfət oğlu 972, 1031
Hacıyev Toğrul Siyavşah oğlu 92, 129
Hacıyusifov Əhməd Teymur oğlu 468, 516
Haşımov Fuad Ceyhun oğlu 713, 747
Heydərli Ayxan İlham oğlu 972, 1036
Həbibov Murad Asəf oğlu 380, 425
Həbibov Seymur Feyruz oğlu 93, 139
Həmizəyev Şəhriyar Elman oğlu 185, 226
Həmzəyev Arif Muradcan oğlu 467, 512
Həmzəyev Musa Xalid oğlu 467, 513
Həsənli Amid İsaq oğlu 10, 49
Həsənli Zərimxan Rafiq oğlu 970, 1014
Həsənov Aqil Nofəl oğlu 9, 39
Həsənov Elməddin Elşən oğlu 95, 155
Həsənov Elşad Paşa oğlu 467, 506
Həsənov Etibar Ələddin oğlu 92, 131

Həsənov Həsən Səfər oğlu 466, 496
Həsənov Hikmət Fikrət oğlu 548, 589
Həsənov Hüseyn Vahib oğlu 299, 348
Həsənov Xətai Xaliq oğlu 468, 525
Həsənov Kənan Zirəddin oğlu 9, 37
Həsənov Məqsəd Mahir oğlu 896, 926
Həsənov Nahid Hökmüran oğlu 186, 240
Həsənov Namiq Rasim oğlu 380, 420
Həsənov Nemət Süleyman oğlu 10, 56
Həsənov Novruz Cumalı oğlu 94, 150
Həsənov Nurlan Nadir oğlu 381, 430
Həsənov Orxan Bəkir oğlu 380, 415
Həsənov Rəvan Rövşən oğlu 628, 678
Həsənov Sadiq Əli oğlu 714, 759
Həsənov Səfər Elmar oğlu 714, 766
Həsənov Sübhan Rauf oğlu 549, 598
Həsənov Tacir Elşən oğlu 299, 355
Həsənov Ülvi Natiq oğlu 973, 1039
Həsənov Vüsal Bayram oğlu 187, 242
Hümbətov Azad Arif oğlu 10, 52
Hümbətov İlqar Vüqar oğlu 467, 507
Hümbətov Şahin Əlicuvan oğlu 933
Hümmətov İzzət Müşviq oğlu 713, 754
Hüseyinov Elbrus Laçın oğlu 188, 259
Hüseyinov Elbrus Nadir oğlu 186, 230
Hüseynli Ağa Aydın oğlu 713, 752
Hüseynli Əkbər Azər oğlu 801, 845
Hüseynli İlqar Şəmiyyət oğlu 800, 835
Hüseynli Zahir Mahir oğlu 299, 352
Hüseynov Amil Rasim oğlu 627, 670
Hüseynov Cavid Natiq oğlu 298, 340
Hüseynov Ceyhun Möhübbət oğlu 800, 834
Hüseynov Eldəniz Tahir oğlu 714, 765
Hüseynov Eldost Asəf oğlu 971, 1021
Hüseynov Əfşan Əbülfəz oğlu 187, 241
Hüseynov Əkbər Bahadur oğlu 547, 584
Hüseynov Həci Kərim oğlu 466, 504
Hüseynov Xaliq Kamil oğlu 715, 767
Hüseynov Xəyyam Hüseyn oğlu 547, 584
Hüseynov İlqar Yaşar oğlu 9, 45
Hüseynov İsa Sahib oğlu 896, 924
Hüseynov İsabala Ceyhun oğlu 714, 762
Hüseynov Kamran Bəhman oğlu 626, 666
Hüseynov Məhəmməd Qiyas oğlu 187, 249
Hüseynov Mirəli Arif oğlu 802, 857
Hüseynov Mustafa Ələddin oğlu 799, 826
Hüseynov Orxan Bəhmən oğlu 548, 597
Hüseynov Pencalı Bəhmən oğlu 379, 414
Hüseynov Röyan Sübhan oğlu 187, 250
Hüseynov Sahil Habil oğlu 467, 505
Hüseynov Sənan Vidadi oğlu 298, 337
Hüseynov Sərhəd Fərhad oğlu 299, 356
Hüseynov Şahnur Şahin oğlu 897, 938
Hüseynov Vüsal Nadir oğlu 11, 60
Hüseynov Vüsal Yəhya oğlu 466, 502
Hüseynzadə Elgiz İbrahim oğlu 803, 862

X

Xancanov Təbriz Məhəmmədəli oğlu 466, 500
Xankişiyev Fuad Şöhrət oğlu 467, 505
Xələfli Mahir Muxtar oğlu 298, 344
Xələfov Nicat İlqar oğlu 625, 654
Xəlilov Ceyhun Azər oğlu 715, 769
Xəlilov Ələddin Əlizaman oğlu 468, 524
Xəlilov Gülşad Elşad oğlu 188, 260
Xəmmədov Əmral Zaur oğlu 800, 831
Xudaverdiyev Mahmud Əhməd oğlu 548, 594

İ

İbadov Cavad Cabir oğlu 971, 1016
İbadov Rauf Məhərrəm oğlu 379, 411
İbadzadə Zabil Fikrət oğlu 972, 1036
İbrahimxəlilov Söyxan Eldəniz oğlu 800, 835
İbrahimli Məhəmmədəli Mütəllim oğlu 896, 930
İbrahimli Məhərrəm Şərif oğlu 299, 346
İbrahimov Hikmət Zaur oğlu 468, 518
İbrahimov Xeyrulla Mais oğlu 299, 353
İbrahimov Sultan Mikayıl oğlu 299, 357
İbrəhimov Elmir Akif oğlu 379, 407
İlyasov Şükür Qənbər oğlu 9, 40
İmaməliyev Sərraf Murtuzəli oğlu 713, 756
İmamverdiyev Elnur Vəfadar oğlu 9, 41
İmanquliyev Ruslan Natiq oğlu 186, 239
İmanov Bayrı Mirzə oğlu 92, 130
İmanzadə Ayaz Daşqın oğlu 970, 1010
İsayev Alik Şakir oğlu 94, 153
İsayev Ceyhun Rüstəm oğlu 802, 858
İsayev Toğrul Natiq oğlu 972, 1032
İsgəndərli Səbuhi Yaşar oğlu 468, 521
İsgəndərov Səməndər Vahid oğlu 94, 151
İsgəndərov Şahmurad Natiq oğlu 971, 1022

İsizadə Elvin Azim oğlu 713, 750
İskəndərov Anar Vahid oğlu 628, 683
İskəndərov Şahin Ziyad oğlu 627, 673
İslamov Cəlal Ağahüseyn oğlu 546, 576
İsmayıllı Məhəmmədəli Elxan oğlu 379, 413
İsmayılov Aqil Əli oğlu 548, 592
İsmayılov Ceyhun İqbal oğlu 715, 772
İsmayılov Elçin Mikayıl oğlu 92, 131
İsmayılov Elnur Arif oğlu 95, 155
İsmayılov Emin Tahir oğlu 381, 432
İsmayılov Fuad Murad oğlu 802, 859
İsmayılov Hüseyn Fərman oğlu 468, 523
İsmayılov İntiqam İlqar oğlu 972, 1030
İsmayılov Kamran Vaqif oğlu 92, 133
İsmayılov Mirrəhim Mirmehdi oğlu 713, 748
İsmayılov Nizaməddin İsmayıl oğlu 9, 42
İsmayılov Ruslan Eyvaz oğlu 298, 337
İsmayılov Taleh Səndəl oğlu 896, 934
İsmayılov Veyis Əflətun oğlu 94, 152
İsmayılzadə Məhəmməd Fizuli oğlu 466, 502
İsmayılzadə Şövqi Raqub oğlu 94, 152
İsmayılzadə Vaqif Vüqar oğlu 895, 915
İsmayılzadə Vüsal Əlibəndə oğlu 801, 849
İsmiyev Emil Elman oğlu 626, 658
İsrafilov Abdurahman İsrafil oğlu 466, 503

K

Kəlbiyev Murad Məməziyad oğlu 9, 42
Kərəmov Zaməddin Bahadur oğlu 10, 53
Kərimli Nihat Teymur oğlu 547, 582
Kərimli Orxan Akif oğlu 800, 834
Kərimov Elşən Rövşən oğlu 468, 521
Kərimov Eltun Zaur oğlu 92, 127
Kərimov Sənan Rəhman oğlu 188, 262
Kərimov Sübhan Murtuz oğlu 11, 59
Kərimov Zaur Saleh oğlu 92, 128
Kürəbəyov Mayıl Kamran oğlu 298, 340

Q

Qaçayev İntizam Əkbər oğlu 971, 1019
Qafarov Elnur Mirzəxan oğlu 972, 1027
Qafarov Kənan Siyaqif oğlu 626, 657
Qafarov Rəvan Elxan oğlu 547, 583
Qalayçiyev Faiq İsrafil oğlu 971, 1020
Qarayev Amal Ədalət oğlu 10, 51
Qarayev Elnur Qalib oğlu 895, 920
Qarayev Təhmasib Hikmət oğlu 381, 428
Qarayev Tural Şahin oğlu 300, 360
Qasımov Abbas Rza oğlu 187, 243
Qasımov Bayram Arzu oğlu 187, 249
Qasımov Cəbrayıl Baloğlan oğlu 548, 594
Qasımov Əli İbrahim oğlu 381, 431
Qasımov Xalid Rafik oğlu 547, 586
Qasımov Kamran Fazil oğlu 94, 148
Qasımov Mürtaza Elman oğlu 800, 830
Qasımov Nicat Elşan oğlu 802, 851
Qasımov Orxan Rizvan oğlu 10, 49
Qasımov Oruc Afiq oğlu 802, 860
Qasımov Səbuhi Telman oğlu 895, 919
Qasımov Tural Yelmar oğlu 381, 434
Qasımzadə Hüseyn Həsənxan oğlu 547, 582
Qasımzadə Tahir Sərdar oğlu 803, 864
Qasımzadə Ümüd İlqar oğlu 299, 347
Qazımətov Rəsul Kamaləddin oğlu 467, 508
Qədirov Elvin Azər oğlu 379, 411
Qəhrəmanov Gülalı Aydın oğlu 94, 144
Qəhrəmanov Orxan Səlvər oğlu 188, 261
Qənbərli Mehdi Sübhi oğlu 628, 681
Qənbərov Mehman Nərman oğlu 382, 439
Qəribzadə Hüseyn Qədr oğlu 713, 751
Qəsəbov İsmayıl Nəbi oğlu 547, 580
Qocayev Asif Yolçu oğlu 185, 226
Qocayev Günəş Əfqan oğlu 895, 920
Qocayev Seymur Mahir oğlu 11, 58
Qulamlı Afiq Fərhad oğlu 972, 1031
Quliyev Ağamirzə İlham oğlu 379, 409
Quliyev Aqşin Dilavər oğlu 971, 1018
Quliyev Asim Bəkir oğlu 185, 227
Quliyev Barat Nizami oğlu 972, 1028
Quliyev Daşqın Nəcməddin oğlu 971, 1026
Quliyev Elçin Etibar oğlu 627, 677
Quliyev Əli Turac oğlu 802, 854
Quliyev Həsən Adışirin oğlu 801, 839
Quliyev Həsən İbrahim oğlu 715, 777
Quliyev Hüseyn Aydın oğlu 628, 678
Quliyev Namiq Natiq oğlu 973, 1039
Quliyev Natiq Ramiz oğlu 94, 146
Quliyev Rahim Yalçın oğlu 467, 512
Quliyev Ramil Nuralı oğlu 11, 58
Quliyev Rəvan Mərdan oğlu 548, 592
Quliyev Samir Məhərrəm oğlu 896, 934
Quliyev Şahmar Kəmaləddin oğlu 895, 916
Quliyev Teymur Zamin oğlu 803, 863
Quliyev Vüqar Fizuli oğlu 971, 1017

Quluyev Azər Zakir oğlu 801, 840
Quluyev Ramil Elşən oğlu 94, 146
Quluzadə Qurbanəli Elşad oğlu 468, 520
Quluzadə Vəfadar Fəqan oğlu 627, 671
Qurbanlı Nurlan Süleyman oğlu 715, 774
Qurbanov Davud Tariyel oğlu 93, 141
Qurbanov İsmayıl Yaşar oğlu 186, 232
Qurbanov Qamət Şəmşir oğlu 548, 598
Qurbanov Mayıl Mayis oğlu 466, 500
Qurbanov Murad Asif oğlu 188, 253
Qurbanov Rəcəb Elşən oğlu 9, 38
Qurbanov Röyal Ziyad oğlu 627, 674
Qurbanov Ruslan Üzeyir oğlu 713, 753
Qurbanov Tərxan Zabit oğlu 468, 524
Qurbanov Vahid Elşad oğlu 10, 55
Qurbanzadə Mövlud Söhbət oğlu 625, 652

L

Lələyev İbrahim Həzrətqulu oğlu 628, 677
Lətifli Orxan Xancan oğlu 548, 593
Lətifov Eynulla Niyətulla oğlu 713, 753
Lətifov Rəvan Ömür oğlu 628, 679

M

Maxsudov Bəxtiyar Mansur oğlu 801, 850
Mamedov Elmar Elçin oğlu 547, 581
Mamedov İlahəddin
Dilamuddinoviç 546, 576
Manafov Osman Natiq oğlu 896, 933
Mayılov Rüfət Bəhrəm oğlu 11, 60
Mayor Qaflanov Şixamir Oruc
oğlu 970, 1013
Mehdili Niftalı Qnyaz oğlu 380, 423
Mehdiyev Anar İlham oğlu 971, 1020
Mehdiyev Yasən Alim oğlu 547, 579
Mehdizadə Əli Məcid oğlu 626, 666
Mehtili Eşqin Tərlan oğlu 802, 853
Mehtiyev Taleh Musa oğlu 802, 861
Mehtizadə Qurban Aydın oğlu 971, 1019
Mehtizadə Rüfət İsrayıl oğlu 298, 338
Məcidov Rafiq Rasim oğlu 546, 575
Mədətli Zülal Rəhim oğlu 626, 665
Mədinov Rəşid Nəzər oğlu 300, 357
Məhəmmədli İsmayıl Mahir oğlu 9, 36
Məhəmmədov Alim Qəmərşo oğlu 715, 775
Məhərrəmli Fuad Fizuli oğlu 380, 419
Məhərrəmov Əli Kamil oğlu 299, 349
Məhərrəmov Niyaməddin
Əmiraslan oğlu 9, 43
Məlikov Aqil Niyaz oğlu 298, 343
Məlikov Elvin İlham oğlu 187, 247
Məlikov Rəvan Əliabbas oğlu 186, 233
Məmişli Sahil Ağaverdi oğlu 627, 673
Məmiyev Elmir Zamin oğlu 972, 1027
Məmmədquliyev Ağabəy Zaur oğlu 467, 510
Məmmədli Murad Teymurşah oğlu 10, 54
Məmmədli Pərviz Həsən oğlu 188, 263
Məmmədli Seymur Hacırəsul oğlu 802, 852
Məmmədov Anar Elşad oğlu 379, 408
Məmmədov Bayram Elnur oğlu 186, 235
Məmmədov Bəhruz Tahir oğlu 713, 752
Məmmədov Bəxtiyar Bayramşah
oğlu 627, 668
Məmmədov Ceyhun Qafar oğlu 802, 853
Məmmədov Elman Bəhmən oğlu 627, 670
Məmmədov Elşən Dağıstan oğlu 92, 130
Məmmədov Elvin Eldəniz oğlu 468, 519
Məmmədov Elvin Mübariz oğlu 95, 158
Məmmədov Əliağa Eldəniz oğlu 548, 598
Məmmədov Əvəz Elnur oğlu 465, 494
Məmmədov Xəyal Ağabəy oğlu 896, 923
Məmmədov Xəyal Xaliq oğlu 93, 138
Məmmədov İsmayıl Fazil oğlu 802, 860
Məmmədov Kamil Mübariz oğlu 547, 585
Məmmədov Kəmaləddin İsrail oğlu 713, 755
Məmmədov Qəhraman Qürbət oğlu 799, 827
Məmmədov Qəzənfər Habil oğlu 627, 675
Məmmədov Maarif Məmməd oğlu 95, 160
Məmmədov Mahir Ağasəlim oğlu 11,57
Məmmədov Murad Elşən oğlu 715, 772
Məmmədov Münasib Elman oğlu 9, 44
Məmmədov Nahid Vahid oğlu 466, 503
Məmmədov Novruz İnqilab oğlu 187, 247
Məmmədov Pərvin Natiq oğlu 625, 653
Məmmədov Pərviz Şakir oğlu 188, 257
Məmmədov Rəcəb Yolçu oğlu 896, 932
Məmmədov Rövlan Qurban oğlu 381, 435
Məmmədov Rüstəm Müsəllim oğlu 800, 831
Məmmədov Rza Əskər oğlu 896, 932
Məmmədov Sadiq Mübariz oğlu 627, 667
Məmmədov Sadiq Sadəddin oğlu 468, 517
Məmmədov Sahil Ədalət oğlu 547, 585
Məmmədov Samir Ramiz oğlu 93, 135
Məmmədov Səxavət Adıgözəl oğlu 381, 435

Məmmədov Səxavət Vahab oğlu 714, 758
Məmmədov Sərxan Sahil oğlu 380, 416
Məmmədov Soltan Akif oğlu 548, 595
Məmmədov Tərlan Müşviq oğlu 628, 686
Məmmədov Ümid Bəkir oğlu 626, 662
Məmmədov Vacib Zabit oğlu 95, 159
Məmmədov Vasif Rəfail oğlu 379, 405
Məmmədov Vidadi Etibar oğlu 379, 412
Məmmədov Vüqar Elxan oğlu 188, 261
Məmmədyarov Mürvət Güloğlan
oğlu 715, 767
Məmmədzadə Elvin İlham oğlu 896, 928
Məmmədzadə İlkin Əzizağa oğlu 971, 1025
Məmmədzadə Kamran Füzuli oğlu 188, 255
Məmmədzadə Qüdrət Tofiq oğlu 713, 755
Məmmədzadə Pərviz Zahid oğlu 549, 601
Məmmədzadə Toğrul Pərviz oğlu 799, 827
Mənəfli Əli Əflan oğlu 801, 841
Mənəfov Nicat Azad oğlu 10, 46
Mərdanov Vaqif Ədalət oğlu 800, 838
Mikayıllı Elgün Aqil oğlu 380, 422
Mikayılov Elvin Nizami oğlu 625, 651
Mirzəliyev Kamal Əjdər oğlu 628, 686
Mirzəyev Ceyhun Zirəddin oğlu 626, 663
Mirzəyev Hüseyn Elsevər oğlu 548, 593
Mirzəyev Orxan Əli oğlu 547, 586
Mirzəyev Şamil Afiq oğlu 185, 228
Mollayev İslam Şəmsəddin oğlu 971, 1023
Muradov Elcan Eldəniz oğlu 546, 577
Muradov Elxan Murad oğlu 380, 424
Muradov Emin İbrahimağa oğlu 95, 160
Muradov Siyavuş Akif oğlu 625, 655
Muradov Ziyad Muradxan oğlu 92, 128
Musayev Bayram Mehman oğlu 187, 248
Musayev Murad Polad oğlu 800, 828
Musayev Ramil Aydın oğlu 379, 412
Musayev Rüfət Ülfət oğlu 800, 837
Musayev Vüsal Zakir oğlu 466, 504
Mustafayev Elməddin
Məhəmməd oğlu 379, 406
Mustafayev İsmayıl Elmar oğlu 715, 769
Mustafayev Musa Əlövsət oğlu 188, 255
Mustafayev Nicat Bəkir oğlu 800, 837
Mustafayev Nurlan Ağa oğlu 895, 917
Mustafayev Rüfət Zöhrab oğlu 186, 236
Mustafayev Siyasət Akif oğlu 379, 409
Mürsəliyev Anar Səfər oğlu 896, 927
Müseyibli Ülvi Şakir oğlu 897, 935

N

Nadirov Siyasət Kamil oğlu 94, 145
Nağıyev Baloğlan Müdahət oğlu 803, 862
Nağıyev Elfaq Azad oğlu 972, 1035
Nağıyev Əli Mehman oğlu 972, 1032
Nağıyev Nicat İbrahim oğlu 466, 501
Nağıyev Yusif Bərxudar oğlu 9, 39
Namazov Elməddin Nəsib oğlu 379, 414
Namazov Xəyal Xudaverdi oğlu 381, 433
Namazov İsmət Nüsrət oğlu 548, 591
Nefesov Murad Ocaqdurdu oğlu 92, 133
Nəbiyev Cilingir Azad oğlu 713, 748
Nəbiyev Elmar Elman oğlu 187, 252
Nəbiyev Ruslan Muhuma oğlu 548, 590
Nəbiyev Zaur Ələddin oğlu 546, 575
Nəcəfov Bəhruz Əli oğlu 186, 233
Nəcəfov Fərid Fərman oğlu 895, 915
Nəcəfov Yusif Nadir oğlu 801, 843
Nəsibov Xaqani Aydın oğlu 379, 406
Nəsibov Nicat Nəriman oğlu 380, 417
Nəsibov Nicat Səməd oğlu 800, 832
Nəsirov Elmir Zülfü oğlu 547, 588
Nəsirov Əfqan Ramil oğlu 188, 263
Nəzərov Elməddin İsmayıl oğlu 896, 929
Novruzov Amin Taciddin oğlu 627, 668
Novruzov Elvin Ziyafət oğlu 379, 410
Nurizadə Qalib Habil oğlu 466, 501
Nurməmmədov Ziya Zabil oğlu 628, 683
Nurullayev Anar Siyavuş oğlu 10, 47
Nuruzadə Elşən Əlisa oğlu 467, 507
Nuruzadə Nurlan Tofiq oğlu 626, 661
Nurzaliyev Elməddin Səfər oğlu 896, 929

O

Omarov Elmar Elvar oğlu 187, 253
Orucov Afər Yafət oğlu 186, 237
Orucov Bayram Çərkəz oğlu 93, 144
Orucov Ceyhun Namaz oğlu 971, 1022
Orucov Coşqun Oruc oğlu 11, 57
Orucov Elşən Ehtiram oğlu 626, 656
Orucov Elvin Rövşən oğlu 971, 1024
Orucov Xalid Saleh oğlu 626, 659
Orucov İsə Razim oğlu 467, 514
Orucov Mirzəcan Araz oğlu 714, 760
Orucov Ürfan Firdovsi oğlu 800, 838
Orucov Yunis Şaiq oğlu 379, 407

Ö
Ömərov Elvin Xeybər oğlu 627, 671
Ömərov Orxan İmran oğlu 802, 850
P
Paşazadə Cavid Telman oğlu 628, 681
Pənahov Ülvi Nizami oğlu 185, 229
Poladov Elçin Adil oğlu 897, 935
Putiyev Əhməd Şamil oğlu 626, 663
Ramazanov Fərid Ömər oğlu 972, 1029

R
Rəfiyev Ülvi Rəfail oğlu 627, 669
Rəhimli Baxış İlqar oğlu 94, 147
Rəhimli Bəxtiyar Nəsimi oğlu 187, 244
Rəhimli Murad İlqar oğlu 803, 864
Rəhimli Tural Gəray oğlu 802, 861
Rəhimov Elvin Ehtiram oğlu 896, 926
Rəhimov Fariz Zahir oğlu 715, 768
Rəhimov Nurlan Əlövsəd oğlu 896, 931
Rəhimov Ruslan Tanrıvedi oğlu 547, 580
Rəşidov Natiq Məmmədrza oğlu 713, 749
Rustamov Ruslan Nüsrət oğlu 802, 856
Rüstəmli Əmrah Natiq oğlu 547, 579
Rüstəmov Arif Seymur oğlu 801, 840
Rüstəmov Basid İdris oğlu 466, 495
Rüstəmov Elnur İsmayıl oğlu 970, 1008
Rüstəmzadə Emin Firqət oğlu 94, 152
Rzaxanov Nihad Natiq oğlu 299, 352
Rzayev Hüseyn Aslan oğlu 380, 422
Rzayev Qəhrəman Bəhmən oğlu 801, 848
Rzayev Nurlan Yusif oğlu 381, 434
Rzayev Tərlan Rövşad oğlu 381, 433
Rzayev Ülfət Novruz oğlu 93, 136
Rzazadə Fərhad Mirzə oğlu 801, 842

S
Sabirli Əjdər Xanlar oğlu 972, 1028
Sadıxov Rahid Vahid oğlu 93, 139
Sadıqov Elnur Kərim oğlu 380, 417
Sadıqov Rəsul Həşim oğlu 185, 229
Sadıqov Səbuhi Rövşən oğlu 380, 418
Sadıqov Surac Ədalət oğlu 548, 590
Sadıqov Vüqar İlqar oğlu 300, 361
Sahratov Cavid Əlikömək oğlu 972, 1029
Salahov Elvin Sabir oğlu 714, 763
Salahov Sərxan Həsənqulu oğlu 185, 227
Salmanov Azər Vəfadar oğlu 300, 360
Salmanzadə Pərvin Təbriz oğlu 714, 764
Salyayev Aqil Anar oğlu 802, 855
Seyfullayev Araz Elsevər oğlu 382, 440
Seyfullayev Fərid Xeyrulla oğlu 627, 675
Seyidzadə Mirhüseyn Miryunis oğlu 93, 137
Səfərəliyev Rəşad Fərman oğlu 800, 830
Səfərov Cəsarət Xaliq oğlu 468, 522
Səfərov Əfəndi Cahangir oğlu 9, 38
Səfərov Tamerlan Cavad oğlu 9, 40
Səlimov Cəmil Oqtay oğlu 9, 43
Səlimov Sənan Nasif oğlu 298, 339
Səmədov Elgün İlham oğlu 628, 680
Səmədov Məhəmməd Niman oğlu 467, 508
Səmədov Məhərrəm Elxan oğlu 188, 260
Səmidov İkram Şirvan oğlu 94, 150
Sərdarlı Rahim Rafik oğlu 626, 664
Səttarov Emin Ramin oğlu 381, 437
Səttarov Səxavət Qüdrət oğlu 467, 510
Soltanlı Şahmar Qinyaz oğlu 94, 148
Sultanlı Elşən Nazim oğlu 93, 142
Sultanov Hüseyn Fərhad oğlu 300, 359
Surxayzadə Zəfər Şəmsəddin oğlu 625, 656
Süleymanlı Elmir Aqil oğlu 380, 420
Süleymanlı Kənan Sadıq oğlu 11, 59
Süleymanov Asim Məhərrəm oğlu 94, 145
Süleymanov Elçin Tehran oğlu 897, 937
Süleymanov Əyyub Rasim oğlu 299, 346
Süleymanov Həsən İsmayıl oğlu 628, 679

Ş
Şabanov Rüfət Rauf oğlu 94, 154
Şahbabayev Güləddin Zəfər oğlu 381, 431
Şahbazlı Əlikram Novruz oğlu 800, 828
Şahbazov Abas Cavad oğlu 895, 921
Şahbazov Aqif Hasif oğlu 186, 234
Şahbazov Ruslan Mahir oğlu 548, 589
Şahbazov Şahbaz Mirzə oğlu 468, 516
Şahmarlı Vüsal Mərdan oğlu 801, 841
Şahvələdov İlyas Etibar oğlu 626, 657
Şamilov Emil Rafiq oğlu 546, 577
Şəfiyev Rəşad Vaqif oğlu 801, 843
Şəmilov Azər Elyas oğlu 626, 664
Şərifov Turan Vidadi oğlu 467, 514
Şıxəliyev Mehti Yalçın oğlu 93, 142
Şixəliyev Ənvər Vadim oğlu 94, 154
Şirbəyli Sirus Hamil oğlu 94, 149

Şirəliyev Kənan Telman oğlu 92, 129
Şirəlizadə Süleyman İlham oğlu 466, 498
Şirinli Nurlan Qədir oğlu 801, 848
Şirinov Eldar Bağır oğlu 547, 587
Şirinov Kamil Əliş oğlu 299, 345
Şirinov Tale Qadir oğlu 896, 927
Şiriyev Rəşad Rasim oğlu 970, 1012
Şükürani Şükran Rüfət oğlu 970, 1011
Şükürlü Nicat Ayaz oğlu 802, 857

T
Tağıyev Anar Zakir oğlu 801, 844
Tağıyev Əli Rahil oğlu 628, 685
Tağıyev Fuad Mərdan oğlu 895, 913
Tağıyev Hüseyn Oqtay oğlu 626, 659
Tağıyev Kamran Fikrət oğlu 715, 776
Tağızadə Dünyamin Ramin oğlu 10, 50
Tahirli Şahin Afat oğlu 714, 765
Talıbov Elnur Gəgiş oğlu 972, 1034
Talıbov Məhəmməd Aydın oğlu 186, 234
Tarverdiyev Feyruz İslam oğlu 548, 596
Teymurlu Mirrahil Ramiz oğlu 801, 849
Teymurlu Orxan Şaiq oğlu 549, 600
Teymurov Vüsal Zakir oğlu 186, 230
Teyyublu Çərkəz Vidadi oğlu 92, 127
Təhməzov Şəmsəddin Sərvər oğlu 185, 228

U
Umarov Anar Məhəmməd oğlu 380, 421
Umudlu Elmir Pərviz oğlu 188, 257

V
Vahabov Yadigar Mahir oğlu 627, 669
Veyisli Xaliddin Zəkər oğlu 714, 761
Vəliyev Elmir Məmmədqulu oğlu 299, 348
Vəliyev Elyar Arif oğlu 802, 851
Vəliyev İlkin Səfail oğlu 381, 429
Vəliyev İsmayıl Mehman oğlu 188, 256
Vəliyev Məhəmməd Nail oğlu 468, 522
Vəliyev Müslüm Vəliağa oğlu 547, 578
Vəliyev Sadiq Ayaz oğlu 94, 147
Vəliyev Şəmsəddin Aqil oğlu 10, 50
Vəliyev Tural İlham oğlu 380, 415
Vəlizadə Kamran Əkpər oğlu 714, 761

Y
Yariyev Elsevər Qalib oğlu 715, 773
Yunisli Ruslan Elçin oğlu 800, 839
Yunusov Elgün Yedulla oğlu 468, 526
Yunusov Murad Bayram oğlu 714, 756
Yusibov Rəşad Nazim oğlu 627, 672
Yusifli Məhəmməd Rəhman oğlu 627, 676
Yusifov Anar Sərxan oğlu 380, 416

Z
Zahirov Nazim Həmzə oğlu 468, 520
Zaməddinov Fərid İmran oğlu 380, 421
Zeynallı Elşad Elman oğlu 802, 854
Zeyniyev Rəşad Ələkbər oğlu 714, 759
Zəkiyev Rameş Gülverdi oğlu ..... 468, 523.
Zülfüqarov Məlik Kamran oğlu 549, 600

İstifadə olunmuş ədəbiyyat

Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə. – Bakı, 2014-2015.
Azərbaycan Qadını Ensiklopediyası. – Bakı, 2002. – 404 s.
Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə. C. 1-11 – Bakı, 2009-2024.
Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə: "Azərbaycan cildi". – Bakı, 2007. – 884 s.
Azərbaycan Kitabxana Ensiklopediyası / Baş red. prof. Kərim Tahirov. – Bakı, 2015. – 632 s.
Azərbaycan teatr ensiklopediyası: 3 cilddə /İ.Rəhimli.-Bakı, 2017.
"Azərbaycanın mədəniyyət təqvimi" (Elektron kataloq). – Bakı, 2019. – 510 s.
Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə. – Bakı, 1976-1986.
Azərbaycan tarixi günbəgün: kitab-təqvim. – Bakı, 2008. – 368 s.
Azərbaycan kinosu. Ensiklopedik lüğət. Azərbaycan Dövlət Film Fondu: İki cilddə. – Bakı: Elm və təhsil, 2017. – C. 1.
Azərbaycanda kim kimdir: ensiklopedik sorğu kitabı. – Bakı, 2010. – 392 s.
Azərbaycanın elmi elitası - elmlər doktorları: məlumat kitabçası. – Bakı, 2011. – 320 s.
Azərbaycanın tanınmış xanımları = Famous ladies of Azerbaijan. – Bakı, 2002. – 270 s.
Azərbaycan rəssamları haqqında qısa məlumat kitabçası. Azərbaycan Dövlət Rəsm Qalereyası. – Bakı, 2017. – 110 s.
Cəlil Məmmədquluzadə Ensiklopediyası. – Bakı: Şərq Qərb, 2008. – 320 s.
Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar = Role models: Women daring to change. – Bakı, 2008. – 135 s.
Əhmədov, S. Azərbaycan tarixindən 100 şəxsiyyət. – Bakı, 2006. – 267 s.
Əhmədov, T. Azərbaycan Yazıçıları (XX-XXI yüzillikdə). – Bakı, 2011. – 1056 s.
Əlizadə, Y.M. Azərbaycan efiri: tarix və müasirlik. – Bakı: Nurlan, 2006. – 184 s
Fəxri Xiyaban = The Honorary Cemetery. – Bakı, 2007. – 208 s.
Qarabağ: Yaddaş. – Bakı, 2010. – 192 s.
Muğam Ensiklopediyası. – Bakı, 2008. – 215 s.
Naxçıvan Ensiklopediyası. – Bakı, 2002. – 594 s.
Azərbaycan jurnalistləri və naşirləri. - Bakı, 2013
Azərbaycan Milli Ensiklopediyası. - Bakı, 2020
Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları. - Bakı, 2023
Naxçıvan rəssamlarının ensiklopediyası. - Bakı, 2022

İnternet resursları

https://president.az/
http://www.science.gov.az
http://ensiklopediya.gov.az
http://azteatr.musigi-dunya.az/
http://mk.musigi-dunya.az/performers.html
http://www.azerbaijanfilm.az/
http://www.e-qanun.az/
http://anl.az/new/
http://www.preslib.az/
http://musicacademy.edu.az/
http://medeniyyet.az/
https://memorial.az/

Mündəricat

Nəşr haqqında 1-2
At ili . . . . .

Qeyd üçün

Qeyd üçün

Qeyd üçün


MİLLİ KİTABXANA
ATM

2026
Təqvim

Yanvar

B.E.	Ç.A.	Ç.	C.A.	C.	Ş.	B.
			1	2	3	4
5	6	7	8	9	10	11
12	13	14	15	16	17	18
19	20	21	22	23	24	25
26	27	28	29	30	31	

Fevral

B.E.	Ç.A.	Ç.	C.A.	C.	Ş.	B.
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	20	21	22
23	24	25	26	27	28	

Mart

B.E.	Ç.A.	Ç.	C.A.	C.	Ş.	B.
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	20	21	22
23	24	25	26	27	28	29
30	31					

Aprel

B.E.	Ç.A.	Ç.	C.A.	C.	Ş.	B.
		1	2	3	4	5
6	7	8	9	10	11	12
13	14	15	16	17	18	19
20	21	22	23	24	25	26
27	28	29	30			

May

B.E.	Ç.A.	Ç.	C.A	C.	Ş.	B.
				1	2	3
4	5	6	7	8	9	10
11	12	13	14	15	16	17
18	19	20	21	22	23	24
25	26	27	28	29	30	31

İyun

B.E.	Ç.A.	Ç.	C.A.	C.	Ş.	B.
1	2	3	4	5	6	7
8	9	10	11	12	13	14
15	16	17	18	19	20	21
22	23	24	25	26	27	28
29	30					

İyul

B.E.	Ç.A	Ç.	C.A.	C.	Ş.	B.
		1	2	3	4	5
6	7	8	9	10	11	12
13	14	15	16	17	18	19
20	21	22	23	24	25	26
27	28	29	30	31		

Avqust

B.E.	Ç.A.	Ç.	C.A.	C.	Ş.	B.
					1	2
3	4	5	6	7	8	9
10	11	12	13	14	15	16
17	18	19	20	21	22	23
24	25	26	27	28	29	30
31						

Sentyabr

B.E.	Ç.A.	Ç.	C.A.	C.	Ş.	B.
	1	2	3	4	5	6
7	8	9	10	11	12	13
14	15	16	17	18	19	20
21	22	23	24	25	26	27
28	29	30				

Oktyabr

B.E.	Ç.A.	Ç.	C.A.	C.	Ş.	B.
			1	2	3	4
5	6	7	8	9	10	11
12	13	14	15	16	17	18
19	20	21	22	23	24	25
26	27	28	29	30	31	

Noyabr

B.E.	ÇA.	Ç.	C.A.	C.	Ş.	B.
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	20	21	22
23	24	25	26	27	28	29
30						

Dekabr

B.E.	Ç.A	Ç.	C.A.	C.	Ş.	B.
	1	2	3	4	5	6
7	8	9	10	11	12	13
14	15	16	17	18	19	20
21	22	23	24	25	26	27
28	29	30	31			

TƏQVİM 2026

ƏLAMƏTDAR VƏ TARİXİ GÜNLƏR

2026

Əlamətdar və tarixi günlər təqvimi - 2026

Kompüter yığımı
Aygül Əliyeva
Könül İmanova

Ünvan: AZ-1000 Bakı ş.,
Xaqani küç.57
E-mail: contact@anl.az
URL: www.anl.az
Sifariş: №35
Çapa imzalanmışdır:29.12.2025
Tiraj: 300
Pulsuz

Mətbəənin direktoru:
Elman Qasımov
"Zərdabi Nəşr" MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi.
Sifariş № 114
Tel.: iş (012) 514 73 73
mob. (050, 055) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru